



Azərbaycan Milli Elmlər Akademiyası
Nəsimi adına Dilçilik İnstitutu

# AZƏRBAYCAN DİLİNİN DİALEKTOLOJİ LÜĞƏTİ

## A-Z

"ŞƏRQ-QƏRB"
BAKI
2007

Redaktorlar: **A.A.Axundov**
*AMEA-nın müxbir üzvü, filologiya elmləri doktoru, professor*

**Q.Ş.Kazımov**
*filologiya elmləri doktoru, professor*

**S.M.Behbudov**
*filologiya elmləri namizədi*

**ISBN 978-9952-34-091-4**

**494.361703-dc22**
Azərbaycan dili – Dialektlər – Lüğətlər

**Azərbaycan dilinin dialektoloji lüğəti**
Bakı, "Şərq-Qərb", 2007, 568 səh.

Lüğətdə müasir ədəbi dilimizdə işlənməyən və ədəbi dildə işlənsə də, dialekt və şivələrimizdə tamamilə başqa məna (və ya mənalar) bildirən 28 mindən artıq söz və ifadə toplanmışdır.

Dialektoloji lüğət Azərbaycan dili tarixinin, dilimizin tarixi leksikasının və xalqımızın etnoqrafiyasının öyrənilməsində, lüğət ehtiyatının zənginləşməsində, eləcə də türk dillərinin tarixi və etimoloji lüğətlərinin yaradılmasında xüsusi əhəmiyyət kəsb edir.

© "Şərq-Qərb", 2007

## REDAKTORLARDAN

Azərbaycan dili dialekt və şivə materiallarının toplanmasına keçən əsrin 20-ci illərindən başlanmış, Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti nəzdində yazıçı Ə.Haqverdiyevin rəhbərliyi ilə tarix-etnoqrafiya şöbəsinin Azərbaycan ziyalılarını, gənc tədqiqatçıları işə cəlb etməsi nəticəsində zəngin lüğət materialı toplanmışdır. 30 cildlik şivə sözləri lüğətinin çapı planlaşdırılmışdır. Lakin təəssüf ki, "A" və "B" hərflərindən ibarət cəmi iki cild buraxılmışdır. Repressiyalar və Böyük Vətən müharibəsi bütün başqa sahələrdə olduğu kimi, bu sahədə də işlərin ləngiməsinə səbəb olmuşdur. Şivələrin öyrənilməsi işi 40-cı illərin ortalarından genişlənməyə başlamış, 50-ci illərdə daha intensiv şəkildə davam etdirilmiş, 1964-cü ildə bütün hərfləri əhatə edən bircildlik "Azərbaycan dilinin dialektoloji lüğəti" çap olunmuşdur. Lüğət 6.300 sözü əhatə edirdi.

Dialekt və şivələrimizin öyrənilməsi işi 60-70-ci illərdə və sonrakı dövrdə də davam etdirilmiş, təkcə Azərbaycan Respublikası daxilindəki şivələr deyil, İran İslam Respublikası, Ermənistan, Gürcüstan, Dağıstan ərazilərindəki Azərbaycan şivələri də əhatə edilməklə ədəbi dil leksikasından fərqlənən zəngin bir leksik lay üzə çıxarılmışdır. Toplanmış dialekt və şivə leksikası yeni dialektoloji lüğətin hazırlanması zərurətini doğurmuşdur. 1975-ci ildə 20 minə qədər sözü əhatə edən iki cildlik belə bir lüğət tamamlansa da, müxtəlif səbəblərdən uzun müddət çap olunmamış, yalnız 1991-ci ildə Dilçilik İnstitutunun direktoru, prof. A.A.Axundov Türkiyə Respublikası Türk Dil Qurumunun rəhbərliyi ilə danışıqlar apararaq, lüğətin Türkiyədə Türk Dil Qurumu hesabına çap olunması üçün razılıq əldə etmişdir. 1-ci cild 1999, 2-ci cild 2003-cü ildə Ankarada nəşr olunmuşdur. Lüğət akad. M.Ş.Şirəliyev (A hərfi), prof. M.İ.İslamov (Ö, R, F), f.e.d. K.T.Ramazanov (Q, Y, P, C), f.e.n. B.M.Tağıyev (B, V, E, Ə, T, Ş), f.e.n. Ə.Q.Ağayev (Z, İ, O, U, Ü), f.e.n. S.M.Behbudov (K, Ç), f.e.n. N.X.Məmmədov (H), f.e.n. Q.M.Həsənov (D, M), f.e.n. Ə.İ.Əliyev (L, N), f.e.n. Z.Ə.Xasıyev (G, X), f.e.d. T.M.Əhmədov (S) tərəfindən tərtib edilmişdir. Prof. A.H.Vəliyev və f.e.n. B.T.Abdullayev lüğətə geniş rəy yazmış, f.e.d. F.R.Xalıqov lüğətin çapa hazırlanmasına kömək etmiş, f.e.d.M.Musayev Türkiyədə lüğəti yenidən nəzərdən keçirməklə çap prosesində tələb olunan işlərin icrası ilə məşğul olmuşdur.

Əslində, bu lüğət bütün Azərbaycan dialektoloqlarının əməyinin nəticəsi idi.

Hazırda Prezident fərmanı ilə çap olunan bu lüğət ikicildliyin yeniləşdirilmiş nəşridir. Nəsimi adına Dilçilik İnstitutunun Azərbaycan dialektologiyası şöbəsinin əməkdaşları lüğət üzərində yenidən işləmiş və onu təkmilləşdirmişlər. F.e.n. S.Behbudov lüğəti diqqətlə oxuyaraq, sözlərin mənası və lüğətin texniki tərtibi ilə bağlı qüsurları aradan qaldırmışdır. Şöbənin əməkdaşları – filologiya elmləri namizədləri S.Behbudov, Z.Xasıyev, K.Quliyeva, K.İmamquliyeva, G.Binnətova və Ş.Məmmədov tərəfindən lüğətə 2500-ə qədər yeni söz əlavə olunmuş, lüğət Zəngibasar, Şərur, Yardımlı, Təbriz, Qubadlı, Laçın, Kəlbəcər, Balakən, Qax, Zaqatala və başqa şivələrdən toplanmış yeni sözlər hesabına zənginləşdirilmişdir.

Lüğət bu vaxta qədər çap olunmuş dialektoloji lüğətlər içərisində daha təkmil olması və söz ehtiyatının zənginliyi ilə fərqlənir.

* * *

Bu lüğət müxtəlif illərdə (1924–2004) aşağıda adları göstərilən bölgələrdən toplanmış dialekt materialları əsasında tərtib olunmuşdur.

Azərbaycan Respublikası üzrə: Ağcabədi, Ağdam, Ağdaş, Ağdərə, Ağstafa, Ağsu, Astara, Bakı, Balakən, Beyləqan, Bərdə, Biləsuvar, Cəbrayıl, Cəlilabad, Culfa, Daşkəsən, Dəvəçi, Əli Bayramlı, Füzuli, Gədəbəy, Gəncə, Goranboy, Göyçay, Xaçmaz, Xanlar, Xocalı, Xocavənd, Xudat, İmişli, İsmayıllı, Kəlbəcər, Kürdəmir, Qax, Qazax, Qazıməmməd, Qəbələ, Quba, Qubadlı, Qusar, Laçın, Lerik, Lənkəran, Masallı, Mərəzə, Mingəçevir, Naxçıvan, Neftçala, Oğuz, Ordubad, Saatlı, Sabirabad, Salyan, Şahbuz, Şamaxı, Şəki, Şəmkir, Şərur, Şuşa, Tərtər, Tovuz, Ucar, Yardımlı, Yevlax, Zaqatala, Zəngilan, Zərdab.

Ermənistan Respublikası üzrə: Ağbaba, Barana, Basarkeçər, Böyük Qarakilsə, Çənbərək, Əzizbəyov, Hamamlı, Karvansaray, Qafan, Qarakilsə, Meğri, Vedi, İrəvan, Zəngibasar.

Gürcüstan Respublikası üzrə: Axalsxi, Başkeçid, Bolnisi, Borçalı, Qardabani, Loqodexi, Telavi.

Dağıstan Respublikası üzrə (Rusiya Federasiyası): Dərbənd, Tabasaran.

İran İslam Respublikası üzrə: Astara[1], Ərdəbil, Marağa, Təbriz, Zəncan və Cənubi Azərbaycanın digər əraziləri.

## LÜĞƏTİN QURULUŞU VƏ TƏRTİB ÜSULU

1. Lüğətdə baş sözlər əlifba sırası ilə verilir.

2. Dialektoloji lüğət aşağıdakı sözləri əhatə edir:

a) dialekt və şivələrdə işlənən, ədəbi dildə təsadüf olunmayan sözləri; məs.:

**Barmaxça** – nişan üzüyü, qaşsız üzük.

**Çalı** – iri səbət.

**Daracax** – keçid, dağ keçidi və s.

b) fonetik tərkibcə ədəbi dildəki ilə eyni, mənaca ya tam fərqli, ya da əlavə mənası olan sözlər; məs.:

**Qurum** – xəsis.

**Basmax** – hürmək.

**Nəvə** – toya adam çağıran.

**Çalmax** – süpürmək və s.

3. Baş sözdən sonra onun işləndiyi rayonun adı mötərizə içərisində verilir; məs.:

**Zing** (Sabirabad) – ...

**Yelinqat** (Quba) – ...

**Köçəl** (Cəbrayıl) – ... və s.

Əgər baş söz bir neçə rayonda işlənirsə, rayonların adları əlifba sırası ilə verilir; məs.:

**Loda** (Ağdam, Ağdaş, Füzuli, Göyçay, Sabirabad, Salyan, Şuşa) – ...

**Yelkə** (Cəbrayıl, Cəlilabad, İmişli, Kürdəmir, Salyan) – ...

4. Lüğətdə çoxmənalı sözlər aşağıdakı qayda üzrə verilir:

a) çoxmənalı sözün mənaları bir-birindən ərəb rəqəmləri ilə (1, 2, 3...) ayrılır və onların arasında nöqtəli vergül qoyulur.

b) əgər çoxmənalı sözün bütün mənaları bir neçə rayonda eynidirsə, həmin rayonların adları baş sözdən sonra mötərizədə verilir; məs.:

**Nəmi** (Füzuli, Gədəbəy, Qazax, Qubadlı, Şamaxı, Şuşa) - 1. dəyədə ağartı yığılan xüsusi yer; 2. dəyədə qab-qacağın qabağına tutulan pərdə; 3. motal və ya ağartı torbasının altına qoyulan yastı daş – ...

c) əgər çoxmənalı sözün hər hansı bir mənası bir çox rayonda özünü göstərirsə, baş sözdən sonra həmin rayonların adları əlifba sırası ilə sadalanır, hər bir mənanın izahından sonra isə həmin mənanın işləndiyi konkret raoyn və ya rayonların adı mötərizədə qeyd olunur; məs.:

**Barmaxlıx** (Ağdam, Gəncə) – 1. qələmə, ting (Gəncə); 2. yeni salınmış tənək-lik, üzümlük (Ağdam).

**Qacax** (Naxçıvan, Zəngilan) – 1. qarğıdalı qıçası (Naxçıvan); 2. qurumuş pam-bıq qozasının qırıntıları (Zəngilan).

5. Omonimlər ayrılıqda baş söz kimi verilir və onlardan sonra Rum rəqəmləri (I, II, III) qoyulur; məs.:

**Ziyrix’** I ... – iyrənc, çirkin – ...;

**Ziyrix’** II ... – zirək – ...;

**Las** I ... – boş sarınmış keyfiyyətsiz barama – ...;

**Las** II ... – tənbəl... və s.

**Las** III ... – təzə biçilmiş ot topası...

6. sözün fonetik variantları baş söz kimi verilir. Əlifba sırası ilə birinci sözün qarşısında onun mənası izah olunur, sonra gələn sözlər isə birinciyə baxdırılır; məs.:

**Bitirici** – kuryer, idarədə xidmətçi.

**Pitirici** – b a x **bitirici.**

**Ovşala** – şərbət.

**O:şala** (Quba, Salyan, Şamaxı) – b a x **ovşala.**

**Öhşələ** (Bakı) – b a x **ovşala.**

**Qavsara** – ağac qabığından və ya çubuqdan toxunmuş səbət.

**Qovsara** – b a x **qavsara.**

7. Sabit söz birləşmələri, frazeoloji ifadələr, eləcə də köməkçi feillərlə düzələn birləşmələr aşağıdakı şəkildə verilir:

a) əgər tərkibdəki dialekt sözünün müstəqil mənası varsa, həmin söz baş söz kimi götürülür, izah edilir. Bundan sonra romb (◊) işarəsi qoyulur, birləşmə və ya tərkib yazılır, izah edilir; məs.:

**Dadamal** – öyrənmiş, dadanmış, alışmış. ◊ **Dadamal olmax** – öyrəşmək, dadanmaq, alışmaq.

**Hoy** – kömək. ◊ **Hoy eləməx′** – kömək etmək.

**Çaqqal** - kiçik qotman. ◊ **Çaqqala vurmax** – qotmanlamaq, qotman halında yığmaq və s.

b) əgər tərkibdəki dialekt sözünün müstəqil mənası yoxdursa, yenə də o, baş söz kimi götürülür, ondan sonra iki nöqtə (:) qoyulur, tərkib yazılır və izah edilir; məs.:

**Talıt: Talıt eləmax′** – rişxənd etmək, ələ salmaq – ...

**Hüloy: Hüloy döyməx′** – dad çəkmək, haray salmaq – ...

c) mənaların heç biri ilə uyğun gəlməyən ifadələr (idiomlar), həmçinin məcazlaşmış söz birləşmələri axırda abzasdan və kvadrat (□) işarəsindən sonra verilir; məs.:

**Qağala** – kiçik saxsı qab.

□ **Qağala çalmax** – qaqqıldamaq.

8. Baş söz məcazi mənada işlənirsə, izahdan əvvəl *məc.* sözü yazılır; məs.:

**Quzulamax** – ...*məc*. narahat olmaq.

9. Baş sözün mənasının izahında bəzən dialekt sözündən istifadə olunur. Belə halda izahdan sonra mötərizə içərisində b a x sözü yazılır. Baş söz çoxmənalı olduqda isə mötərizədə həmin sözün hansı mənasına baxmaq lazım olduğu göstərilir; məs.:

**Quramalığ** - qurama (b a x **qurama** II) üçün işlədilən parça.

10. Cümlələrdə işlənən sözlərin tələffüz forması çox dəyişilmiş olduqda həmin sözlərin qarşısında bucaq (< >) içərisində onun ədəbi dildəki yazılış forması göstərilir; məs.: *De:x'* <deyirik>, *sizə:ləndə* <sizə gələndə>.

11. Lüğətdə hər bir baş sözə aid, imkan dairəsində, misal-cümlə verilir.

a) əgər baş söz bir rayonda qeydə alınmışsa, misal-cümlədən sonra rayonun adı yazılmır.

b) əgər baş söz bir neçə rayonda qeydə alınmışsa, misal-cümlədən sonra müvafiq rayonun adı mötərizə içərisində yazılır.

c) baş söz çoxmənalıdırsa, imkan dairəsində, onun hər bir mənasına aid misallar verilir.

## FONETİK TRANSKRİPSİYA

Lüğətdə ədəbi dildə olmayan aşağıdakı hərf və diakritik işarələrdən istifadə olunmuşdur:

η – dilarxası burun səsini (sağır nun) göstərir; məs.: maηa, saηa, ataηa, aldıηız, gəldiηiz...

x′ – dilortası sürtünən kar səsdir. Hərfin üstündə qoyulan işarə ( ′ ) isə səsin yumşaq tələffüz edildiyini bildirir; məs.: küləx′, çiçəx′, kiçix′, köpüx′ və s.

: – hərfin sağ tərəfində (yanında) iki nöqtə qoyulur və saitin uzun (davamlı) tələffüz olunduğunu göstərir; məs.: da: (daha), sə:r (səhər), du:r (durur), gö:r (görür), de:r (deyir), işdi:r (işləyir), so:ra (sonra), üşü:r (üşüyür).

˜ – hərfin üstündə qoyulur və saitin burunda tələffüz edildiyini bildirir; məs.: sözuã, əlıã, atıĩ, gözuũ və s.

˜: – saitin həm burunda, həm də uzun tələffüz olunduğunu göstərir; burunlaşmanı bildirən dalğavari ( ˜ ) işarə hərfin üstündə, uzanma işarəsi ( : ) isə hərfin sağ tərəfində (yanında) qoyulur; məs.: mã: (mənə), nəvã: (nəvənə), əlĩ: (əlini), gözũ: (gözünü) və s.

⌒ – iki sözün birlikdə tələffüz edildiyini bildirmək üçün onların üstündə ağzı aşağı yarımdairə işarəsi qoyulur; məs.: on⌒ö:rə <ona görə>, öy⌒e:tdi <evə getdi>.

## AZƏRBAYCAN ƏLİFBASI

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| **A**<br>*a* | **B**<br>*be* | **C**<br>*ce* | **Ç**<br>*çe* | **D**<br>*de* | **E**<br>*e* | **Ə**<br>*ə* | **F**<br>*fe* |
| **G**<br>*ge* | **Ğ**<br>*ğe* | **H**<br>*he* | **X**<br>*xe* | **I**<br>*ı* | **İ**<br>*i* | **J**<br>*je* | **K**<br>*ke, ka* |
| **Q**<br>*qe* | **L**<br>*el* | **M**<br>*em* | **N**<br>*en* | **O**<br>*o* | **Ö**<br>*ö* | **P**<br>*pe* | **R**<br>*er* |
| **S**<br>*se* | **Ş**<br>*şe* | **T**<br>*te* | **U**<br>*u* | **Ü**<br>*ü* | **V**<br>*ve* | **Y**<br>*ye* | **Z**<br>*ze* |

# Aa

**ABA** I (Gədəbəy, Quba, Ordubad, Zəngilan) – ata. – *Bizdə hindi aba çox işdəmiyədü, ata diyəduğ* (Quba); – *Abam taxıl biçiydi* (Zəngilan); – *Abam bi:lləri də kö:nə biniyə aparajax bizi, de:səŋ* (Gədəbəy).

**ABA** II (Cəbrayıl, Qax, Təbriz, Şəmkir) – ana. – *Mən abamı görmağ isti:rəm* (Qax); – *Biz aba di: rux anıya* (Təbriz).

**ABACUR** (Qax) – b a x **abajur** – *Dünən bazardan bir kilo abacur aldım.*

**ABAJUR** (Şəki) – yerkökü, kök. – *Mən abajur çox yiyənəm, Noxiyə gidən olanda aldıram gerex′ gənə birki kilo.*

**ABAL** I (Qax) – key.

**ABAL** II (Salyan) – ağırlıq, yük. – *Öyün bütün abalı Solmazın üsdünə düşür.*

**ABALKEŞ** (Salyan) – zəhmətkeş. – *Dayım elə lap uşaklığınnan abalkeş olıb.*

**ABASBEYİ** (Bakı) – üzüm növü adı. – *Dur bir abasbeyi dər, gəti.*

**ABASBƏYİ** (Quba) – armud növü adı.

**ABATDIDI** (Qax, Qubadlı) – içinə yağ, şor, pendir və başqa ağartı növü qoyulan isti çörək. – *Əhməd bu gün isti çörəkdən abatdıdı qayırıb məni qonax çağırmışdı* (Qubadlı).

**ABAY** I (Şəki) – ləzgi arvadı. – *Bizim eşiyə abaylar gəlmişdi.*

**ABAY** II (Qax) – xala. – *Abay sizdədi?*

**ABAY** III (Çənbərək) – bacı. – *Abay hare:ydir?*

**ABBA** (Ağdam) – umac. – *Dünən Həsəngildə ləzzətdi abba yedim.*

**ABBAŞ** (Salyan) – suçiləyən, susəpən. – *Bağın abbaşı sındı.*

**ABDAL** I (Kürdəmir, Şahbuz) – bilikli, bilici. – *Abdal, yani biləndə adam* (Şahbuz).

**ABDAL** II (Xaçmaz, Salyan) – yetim. – *Səni görüm abdal qalasan* (Xaçmaz).

**ABEŞİK** (Şərur) – meşəbəyi. – *Abeşik meşəni qoruyur.*

**ABXOR** (Salyan) – su içilən qab. – *Abxor keçmiş zamanda saxsıdan olardı, hindiki abxorrar yaxşı qayrılır.*

**ABXUR** (Lənkəran) – b a x **abxor.** – *Abxurda su içeylər.*

**ABIOMUR** (Göyçay) – açıq-sürməyi (rəng).

**ABIR** (Salyan) – *məc.* geyim, paltar. – *Adamı abırına görə tanıyıllar.*

**ACAMANDA** (Salyan) – ac-susuz. – *İndiyəcən acamanda hardeydin?*

**ACARRI** (Şamaxı) – təzə, yuyulmamış. – *Tumanın acarrısını geyməmiş uşağ yandırdı.*

**ACXƏMRƏ** (Göyçay, Lerik, Kürdəmir, Salyan) – xəmir mayası. – *Acxəmrəmiz xarab olub* (Salyan).

**ACI-GUCI: ACI-GUCI VERMƏK** (Salyan) – açıq vermək, hirsləndirmək. – *O:n sözünə fikir verma, sə: acı-gucı verir.*

**ACIQICI** (Cəbrayıl, Zəngilan) – vəzəri.

**ACIQOUĞ** (Salyan) – bitki adı. – *Bizim tərəfdə acıqouğ çoxdu.*

**ACILIĞ** (Bakı) – sıx tikanlı bitki. – *Qara acılığ bağı basıb.*

**ACIŞMAX** I (Böyük Qarakilsə) – acıqlanmaq, hirslənmək. – *Səhvini də:ndə niyə acışırsan?*

**ACIŞMAX** II (Şəki) – göynəmək. – *Yaram yaman acışır.*

**ACITƏPƏ** (Kürdəmir, Mirbəşir, Tovuz, Zəngilan) – vəzəri.

**ACITMA** (Biləsuvar) – fətir.

**ACITMALI** (Göyçay) – xəmiri maya ilə yoğrulmuş çörək.

**A:Cİ** (Şəki) – alça və ya zoğaldan hazırlanmış turşu. – *Bildirki a:cidən hələ də dopunun içində qalıfdı.*

**ACİTMƏ** (Şərur) – b a x **acxəmrə.** – *Acitməsiz xəmir olmaz.*

**ACLUĞ** (Xaçmaz) – hələ yeni məhsul çıxmamış üyüdülən azacıq taxıl. – *Aparub değirmanda bir az acluğ çekduğ.*

**ACNAUR** (Zaqatala) – kolbasa. – *Bu il bolluca acnaur doldurmuşam.*

**ACRA** (Naxçıvan) – maya. – *Biz acra da diyərix′, maya da diyərix′, əmə acra çox diyərix′*

**AÇAR** (Quba) – qıfıl. – *Biz qapıya açar vurarıġ.*

**AÇARDİLİ** (Quba) – açar. – *U gün qapını açammaduğ, açardili sindi qaldi açarda.*

**AÇARRAMAĞ** (Xaçmaz) – qıfıllamaq. – *Qapini açarradum.*

**AÇILSABA** (Yevlax) – sarmaşığa oxşar bitki adı. – *Ö:n qabağında açılsaba əx′dim.*

**AÇMAX** (Şərur) – lavaşı yaymaq.

**AÇKAL** (Tovuz) – fərasətsiz. – *O, açkalın biridi.*

**AD AÇMAX** (Salyan) – ad-san çıxarmaq, hörmət qazanmaq. – *Həsənağa irayonda yaxşı ad açıb.*

**ADAX** (Ağcabədi, Ağdam, Bərdə, Gəncə, Göyçay, Qazax, Şəmkir, Şuşa, Tərtər) – uşağın ilk addımları. ◊ **Adax durmax** (Mingəçevir) – ayaq üstə durmaq, ilk addım atmaq.

**ADAX-ADAX** (Ağdam) – addım-addım, yavaş-yavaş. – *Ay irəhmətdiyin oğlu, birəz yeyin tərpənsənə, adax-adax havağa gedif gələjəx′səŋ.*

**ADAX-ÇEÇƏX′** (Gədəbəy) – uşağın ilk addımları. ◊ **Adax-çeçəx′ eləməx′** – ilk addım atmaq. – *Yenijə adax-çeçey eley nəvəm, a nənəsi.*

**ADAX-ÇİÇƏ** (Füzuli) – bax **adax-çeçəx′.** ◊ **Adax-çiçə açmax** – ilk addım atmaq. – *Afi adax – çiçə açıf.*

**ADAX-ÇÖÇƏ** (Oğuz) – bax **adax-çeçəx′.**

**ADAXCULĞA** (Gədəbəy) – qohum. – *Bılar hissə-hissə yaşıyı:llarmış, soŋra adaxculğa oluf birrəşeflər.*

**ADAXLAMAX** (Daşkəsən, Füzuli) – ilk addım atmaq (uşağa aiddir). – *Ora bax ey, Sadıx adaxlı:r* (Füzuli).

**ADAMCIL** I (Şəmkir) – insan qanına həris olan, vəhşi, adama hücum edən. – *Köpəyoğlu İrəməzanoğlu çox adamcıl adam oluf, nə qədər adam öldürüf.*

**ADAMCIL** II (Şəmkir) – arif, qabil, adamtanıyan. – *O kişi çox adamcıldı, ağzını açan kimi bilir, nə danışajaxsaŋ.*

**ADAMXOR** (Meğri) – bax **adamcıl.**

**ADAR** (Şəki) – evin qabaq hissəsi.

**ADAR-MADAR** (Cəbrayıl) – yeganə, tək, bircə. – *Adar-madar bir qoyunum varıdı, öldü o da.*

**ADDAMA** (Zəngibasar, Naxçıvan) – çaydan, arxdan keçmək üçün düzəldilmiş keçid. – *Addama olmasa, sudan keçməy olmaz* (Naxçıvan).

**ADDAMAC** I (Qazax) – bax **addama.**

**ADDAMAC** II (Ağbaba) – nərdivan.

**ADDAMAĞ** (Xaçmaz) – nişanlamaq, adaxlamaq. – *Uğlumçun qunşimüzün qizin addamışuğ.*

**ADDAMAŞ** I (Gədəbəy, Zəngibasar, Şəmkir, Tovuz) – bax **addama.** – *Sona, aşağıdakı addamaşdan keş* (*Tovuz*).

**ADDAMAŞ** II (Ağdaş, Göyçay, Oğuz, Şəmkir) – tapdanma nəticəsində çəpərdə əmələ gəlmiş keçid. – *Addamaşdan sıçrıyanda ürgənin qarnına mıxca batıf, elə orda canı çıxıf* (Şəmkir).

**ADDANDIRMAX** I (Gəncə) – bax **addamağ.** – *Qasımın qızını üç gündü ki addandırmışıx.*

**ADDANDIRMAX** II (Füzuli) – adlı-sanlı etmək, şöhrət qazandırmaq. – *Kazımı nahax bu qədər addandırıllar, o muna layix döy.*

**A:DI** (Biləsuvar, Qax, Qazax, Şəki, Şəmkir) – bax **a:di.** – *Diyi a:dı menin xabarı yoxdı, Əmir cücəni danğan kimi danğıy* (Qax); – *Söyün kişi bu qalxozda a:dı işdəmöyüf* (Qazax).

**ADILI** (Çənbərək) – heç vaxt.

**ADINA** (Gədəbəy, Gəncə, Qazax, Lənkəran, Salyan, Şəki, Şəmkir, Tovuz, Zəngilan) – 1. cümə axşamı (Gəncə, Qazax, Lənkəran, Şəki, Şəmkir, Zəngilan). – *Böyün adınadı, bazara iki gün qalıy* (Zəngilan); 2. cümə (Gədəbəy, Tovuz). ◊ **Adına ertəsi** (Gədəbəy) – şənbə.

**A:Dİ** (Bakı) – əsla, heç. – *A:di mənim munnan xəbərim yoxdı.*

**ADİY** (Zaqatala) – ana. – *Bizim adiy fermada işdiyir.*

**ADNA** (Gəncə, Qazax, Lənkəran, Salyan, Şəmkir) – bax **adına** 1-ci məna. – *Adna heç, cuma gec, gəldi gənə kor şənbə* (Şəmkir).

**A:DNA** (Qax) – bax **adına** 1-ci məna. – *Gəlsənə, a:dna günü gedax.*

**ADNALIX** (Gəncə) – ölən adam üçün cümə axşamı günləri verilən ehsan. – *Rəhmətdiyin oğlu, saŋa no:luf darıxırsaŋ, bir adnalıx yağı hardan olsa taparam.*

**ADVOY** (Hamamlı) – kərəntinin ağzını nazilmək üçün alət. – *Kərəntinin ağzını advoynan döyürsən yuxalır, sonra bülövnən itilillər.*

**AFADAĞA** (Salyan) – bəhanə. – *Sö:ləsən, mı:da eliyəcəm, o:n lap afadağasın kəsəcəm, görüm nə diyəcəg.*

**AFAMAŞIR** (Salyan) – sanki, elə bil. – *Afamaşır, it uşağı yiyir.*

**AFANAX** (Qax) – yüngül, zəif. – *Hoların qəpi yanılsın, uşax hora gedən qunnan* <*günnən*> *afanağ olup.*

**AFAR** I (Şəki) – qutab. – *Alagöz ma: afar qonaxlığı verəsidi, vermir;* – *Qız afar bişirmişdi, doyunca yimişəm.*

**AFAR** II (Qazax) – qüvvə, güc. – *Qara öküzün afarı qalmeyif, üç addım getməmiş dayaner.*

**AFAT** I (Şəki) – dəcəl, nadinc; diribaş. – *Mə:m oğlum çox afatdı;* – *Afatın biridi, Mamay Mə:mmət, yaxşı tani:rəm.*

**AFAT** II (Qazax) – tufan, çovğun.

☐ **Afatı alınmax** (Çənbərək) – gücdən, qüvvədən düşmək, zəifləmək. – *Afadım alnıf də:n, adı: işdiyəmmirəm.*

**AFƏRDİGƏR** (Bakı) – dolanacaq. – *Afərdigərim pis döyür.*

**AFFAYI** (Şuşa) – nahaq. – *Affayı yerə ağzını ağrıtma.*

**AFSAR** (Cəbrayıl) – b a x **avsar.** – *Dəvə çəkib afsarı qırdı.*

**AĞ** I (Xaçmaz, Salyan, Şəmkir) – alt tumanın və ya şalvarın ortası. – *Gədənin şalvarının ağı cırılıf, mərəkədə biyavır oluf* (Şəmkir).

**AĞ** II (İmişli) – var-dövlət, varidat. – *Adamın ağın, qızılın alıllardı əlinnən.*

**AĞ** III (Qax) – yeməli bitki adı. – *Uşaxlar yezliyə ağ getimağa gediplər.*

**AĞ** IV (Salyan) – süfrə. – *Qızım, ussulun üssünə ağ sal.*

☐ **Ağ əkin** (Salyan) – arpa, buğda əkini. – *Beşdəlidə ağ əkin çox əkilir.* **Ağ salmax** (Kəlbəcər) – inandırmaq. – *Mən ağ saldım, o inanmadı.* **Ağ yel** (Şamaxı) – xəstəlik adı.

**AĞABABA** (Təbriz) – baba. – *Mə:m ağababam hamıdan böyüxʹ iydi.*

**AĞABACI** (Quba) – böyük bacı.

**AĞABAJI** (Basarkeçər) – böyük qardaşın arvadına müraciətlə deyilən söz. – *Ağabajım öydə yoxdu, odune:dif.*

**AĞABİLMƏZ** (İmişli) – bilinməyən, hiss olunmayan. – *Çovannar görürdün ki, cəmdəyin ağabilməz yerinnən kəsif götürürdülər.*

**AĞACAN** (Təbriz) – nənə. – *Mən yayda ağacanımın yanında olurdum.*

**AĞACAYAĞ** (Salyan) – yüngülxasiyyət. – *Sadığ ağacayağ adamdı.*

**AĞACBƏLGƏ** (Bakı) – əlbəyaxa vuruşma.

**AĞACOTU** (Qubadlı) – ağacın haçası arasında bitən mamır.

**AĞADADAŞ** (Təbriz) – böyük qardaş. – *Mə:m ağadadaşım Təbrizdə olurdi.*

**AĞADAYI** (Bakı, Xaçmaz) – üzüm növü adı. – *Ağadayı çux şirin uladı* (Xaçmaz).

**AĞAİNNƏ** (Zəngibasar) – nənə. – *Mən ağainnəmi görməmişəm.*

**AĞAJAYAX** (Xanlar) – gəzəyən. – *Denən, ay süngüsarın oğlu, bu qoja vaxtında az ağajayax olsana.*

**AĞAMƏT** (Ağbaba) – toydan bir neçə gün qabaq qız evinə aparılan yemək şeyləri (un, qoyun, meyvə və s.). – *Böyün ağamət aparıllar.*

**AĞAMİRİ** (Göyçay, Mingəçevir) – üzüm növü adı. – *Bu il ağamiri üzümü çoxdu* (Göyçay).

**AĞAMİRZƏ** (Zəngibasar) – böyük qayın. – *Ağamirzəm məni şə:rə aparmışdı.*

**AĞANAX** (Ağdaş, Göyçay, Kürdəmir, Mingəçevir) – yayda camışların yatdığı bulanıq, palçıqlı gölməçə.

**AĞANƏNƏ** (Ordubad) – nənə; atanın anası. – *Atanın anasına bizlər ağanənə deyərıx.*

**AĞARAN** (Lənkəran) – süd məhsulları. – *Ağaran olmaseydi, uşağlar korruğ çəkərdi.*

**AĞARTDAMAX** (Qazax) – təmizləmək. – *Zoğalı ağartda, mürəbbə pişirəxʹ.*

**AĞARTMAĞ** I (Kürdəmir) – *məc.* açmaq, gizli saxlanmalı bir məsələni açmaq. – *Məsələni ağartma, qoy üstüörtülü qalsın.*

**AĞARTMAĞ** II (Bakı) – bir məsələni həddindən artıq şişirtmək. – *Nöşün bığada ağardırsan işi?*

**AĞARTMAX** (Çənbərək) – üyütmək. – *Beyjə iki dağar arpa ağartdım.*

**AĞAŞDI** (Qazax, Şəmkir) – *məc.* irigövdəli, iriboylu, irisümüklü. – *Maşallah, ağaşdı uşaxdı* (Qazax); – *Ağaşdı heyvan olduğuna görə elə görülür, yoxsa qoja heyvan döy* (Şəmkir).

**AĞAVUŞ** (Dərbənd, Xaçmaz) – ağımtıl. – *Zərlünü qizinü ağavuş parçadan bir künneği var, lap xuşumə gələdü* (Dərbənd).

**AĞBAĞIR** (Ağdam, Bərdə, Şuşa, Tərtər) – qorxaq. – *Əşi, onnan işiŋiz olmasın, o, ağba-*

*ğırın biridi, onu aparsaŋız, yolda özüŋüzə əngəl olar* (Ağdam).

**AĞBAJI** (Gəncə) – dayıarvadı.

**AĞBAŞDI** (Şərur) – aşpaz. – *Şə:rdə yeməyi ağbaşdı bişirir.*

**AĞBUĞUŞ** (Füzuli) – ipəkqurdu xəstəliyinin adı. – *İpəx'qurdu toflanıf şişir, belinnən ağ irin olur, süt kimi tökülür, buna ağbuğuş de:lir.*

**AĞBUYNUZ** (Qazax) – qabığı soyulmuş quru ağac. – *Meşədən xeyli ağbuynuz gətirdim.*

**AĞCABAŞ** (Gədəbəy) – yabanı bitki adı. – *Uşax ge:f düz bir şələ ağcabaş yığıf dünənnəri; Ninə:cə'x'siŋ, buğartana yığıf o ağcabaşdarı?*

**AĞCAĞAN** (Xanlar, Oğuz) – meşə ağacı adı. – *Ağcağan ağacınnan haravanın bə:zi yerrəri düzəlir.*

**AĞCAĞAŞ** (Xanlar) – ağcaqayın. – *Ağcağaş da deyrəx', ağcaqayın da deyrəx'.*

**AĞCAQIZ** (Salyan) – üzüm növü adı. – *Ağcaqızın giləsi çox iri olur.*

**AĞCAQOTAN** (Göyçay) – quş adı.

**AĞCAQURA** (Göyçay) – tezyetişən üzüm.

**AĞCAVAZ** I (Qubadlı) – soyuqdəymə. ◊ **Ağcavaz olmax** (Cəbrayıl) – soyuqlamaq. – *Şaxda:n altda ağcavaz oldux.*

**AĞCAVAZ** II (Şəki) – ağtəhər. – *Eynində ağcavaz çitdən don variydi.*

**AĞCAVAZA** (Qazax) – solğun, rəngi qaçmış. – *Telli uşaxlıxdan elə ağcavaza şeydi.*

**AĞCƏVƏZƏ** (Basarkeçər) – bax **ağcavaz** II. – *Ağcəvəzə olan mal qalır saralır.*

**AĞCOĞAN** (Qazax) – dərman bitkisi adı.

**AĞCOQQAR** (Mingəçevir) – quş adı.

**AĞÇAVƏZƏ** (Daşkəsən) – bax **ağcavaz** I. ◊ **Ağçavəzə olmax** – soyuqlamaq. – *İnəy ağçavəzə olanda çulitirənnən ağzına atanda sağaley.*

**AĞÇƏMRƏ** (Salyan) – xəmir mayası.

**AĞÇÖƏZƏ** (Borçalı) – zəif (heyvan haqqında). – *O inək ağçöəzədi, heç sənə xe:r verməz.*

**AĞDƏN** (Culfa) – arpa-buğda. – *Bu il ağdən yaxşıdı.*

**AĞDİZDİX'** (Oğuz) – kişi alt tumanı. – *Ağdizdiyi yayda geymillər.*

**AĞDÖŞ** (Salyan) – porsuq. – *Bossana ağdöş dadanıb.*

**AĞGÖZ** I (Şamaxı) tənbəl (heyvan haqqında). – *Bı öküz ağgözzi.*

**AĞGÖZ** II (Ağdam) – xəsis. – *Məhiş ağgöz adamdı.*

**AĞGÖZ** III (Salyan) – qeyri-məhsuldar, münbit olmayan. – *Bu yuxarı hissə ağgöz yerdi.*

**AĞGÜZ** (Quba) – 1. yaxşılıq bilməyən; 2. xeyir verməyən; 3. pisxasiyyətli. – *Ağgüz adamnan hiç dusduğ eləmə, unun heç işin bilmağ ulmiyədi.*

**AĞIL** (Balakən, Biləsuvar, Cəbrayıl, Əli Bayramlı, Şəki, Zəngilan) – 1. yayda mal-qara saxlamaq üçün ətrafı hasarlanmış üstü açıq yer (Balakən, Biləsuvar, Cəbrayıl, Zəngilan). – *Ramazan inəx'ləri ağıla salıb darvazanı bərkitdi* (Balakən); – *Bala, malları sal ağıla* (Zəngilan); – *Mən bu ağıla qoyun salmaram* (Cəbrayıl); 2. qışlaqda qoyunlar üçün qamışdan tikilmiş yer (Əli Bayramlı). – *Ağıl çox mö:kəm tikilmişdi, içəri heç külək də keçməzzi;* 3. tövlə (Şəki). – *İneyi ağıla bağli:f qavağına ot töhdü.*

**AĞIN-DAĞIN: AĞIN-DAĞIN ÇIXARMAĞ** (Salyan) – özbaşınalıq etmək, həddini aşmaq. – *Sən də lap ağın-dağın çıxarmısan ha!*

**AĞIRCIL** (Salyan) – tənbəl. – *Sən çox ağırcıl olmusan, iş-zat da görmürsən.*

**AĞIRIXÇI** (Qazax) – camaat yaylağa köçərkən kənddə qalan gözətçi. – *Altmış-yetmiş öyə bir ağırıxçı olardı.*

**AĞIRRAMAX** (Cəbrayıl, Xanlar, Şəmkir) – hörmətlə qəbul etmək (qonağı). – *Məsələn, sən qonax gəleysiŋ, soŋra gedif deysiŋ kin, məni yaxşı ağırradılar* (Xanlar).

**AĞIRRAŞMAX** (Cəbrayıl, Füzuli, Salyan) – xarab olmaq, iylənmək. – *Bı ət ağırraşıf, mını at it yesin* (Cəbrayıl); – *Yayda ət tez ağırraşır* (Füzuli).

**AĞIRRIX** I (Qarakilsə, Qazax) – 1. yaylağa köçərkən kənddə saxlanan ağır şeylər (Qazax); 2. yaylağa köçərkən əvvəlcədən göndərilmiş ev avadanlığı (Qarakilsə).

**AĞIRRIX** II (Meğri) – göz xəstəliyi adı. – *Biz İranda ulanda ağırrığ uşaxların amanın kəseydi.*

**AĞIRRIXÇI** (Qazax) – b a x **ağırıxçı.** – *Dağa köçəndə kətdə beş-altı ağırrıxçı qalardı.*

**AĞIRSƏNGÜL** (Salyan) – təvazökar. – *Şəfiqənin bö:g gəlini çox ağırsəngüldü.*

**AĞIRSIMAX** (Şəmkir) – xarab olmaq, iylənmək. – *Yayın hökmünə bax ki, ət iki sa:dın içində ağırsıyıf.*

**AĞIRTAXTALI** (Gəncə) – vüqarlı. – *Cəfər uşax-muşax tayı döy, çox ağırtaxtalı adamdı.*

**AĞIZ** (Ağdam, Qax, Şəki, Zaqatala, Zərdab) – 1. qaramalın doğandan sonra ilk südü (Şəki, Zaqatala). – *Ağızdan yaxşı maxara oluy* (Zaqatala); 2. yeni doğan qaramalın ilk südündən bişirilən yemək (pendir kimi olur) (Ağdaş, Qax, Şəki, Zərdab). – *Bi qazan ağız bişirmişdim, hamısını payladım* (Şəki).

**AĞIZACISI** (Təbriz) – yas yerində bişirilib paylanan halva. – *Arvaddar qəbir üssinə ağızacısı aparılla.*

**AĞIZAMBUĞUZ** (Tovuz) – b a x **ağzaboğaz.** – *Çualları ağızambuğuz doldurmuşam.*

**AĞIZDANDIMAX** (Basarkeçər, Çənbərək) – yeni doğulmuş heyvana ağız əmizdirmək. – *Heyvan anadan olan günü əmizdirirsəŋ, elə o, ağızdandımaxdı* (Basarkeçər); – *Quzuyu həmi ağızdandıdım, həmi sulux tutdum* (Çənbərək).

**AĞIZDIX** I (Gədəbəy, Tovuz) – yeni doğmuş heyvanın ilk südü.

**AĞIZDIX** II (Füzüli, Cəbrayıl, Oğuz, Şuşa) – qıf. – *Bala, o ağızdığı ma: ver* (Füzuli).

**AĞIZDIX** III (Tovuz) – dolu çuvalın ağzını bağlamaq üçün örtük. – *Bu çuvalların ağızdığı yoxdu, haravıya qoyanda töküləjəx′.*

**AĞIZDIR** (Lənkəran) – xəbərçi. – *Fatma yaman ağızdır arvaddu.*

**AĞIZƏMMƏZ** (Basarkeçər) – könülsüz, yavaş-yavaş yeyən.

**AĞIZGƏLƏSİ** (Zəngibasar) – mübahisə. – *Uşaxlar genə ağızgələsi eliyillər.*

**AĞKƏRDİ** (Gəncə) – şaftalı növü.

**AĞLAX** (Qax) – rahat. – *Bi evlər tix′mişux, ağlax.*

**AĞLAQIYAS** (Çənbərək) – təxmini. – *Xiyarı ağlaqıyas verdim, olu ki, əlli kiloy ola.*

**AĞLAMA** (Şamaxı) – alma növü adı. – *Bağmannar ağlamanun yoxlığınnan şikayət eli:r.*

**AĞLAMAX** (Çənbərək) – nəmlənmək, yaş olmaq. – *Badval ağlıyıf, içəri girmo:lmur.*

**AĞLAY** (Bakı) – tikinti üçün istifadə edilən çox davamlı və möhkəm daş. – *Alatovadan bir ərəbə ağlay getitdir.*

**AĞLOVÇƏ** (Dərbənd) – dəstəli tava. – *Suğani qizartdüm ağlovçədə, sura tükdüm üstünə qartüşkə, ilədüm yəxşi xureg.*

**AĞMAĞAN** (Qax) – xoş gün. ◊ **Ağmağana çıxmax** – xoş günə çıxmaq. – *Hindi həmi ağmağana çıxıp.*

**AĞMAX** (Füzuli) – 1. çıxmaq, qalxmaq. – *Qoyun dağa ağdı;* 2. bir tərəfə əyilmək, qalxmaq (yük haqqında). ◊ **Ağmax olmax** – əyilmək. – *Qoymağınan yük ağmax olsun.*

**AĞMATAN** (Ağdam, Bərdə, Şuşa) – kök və göyçək (qız). – *Səfdər əmioğlu Sadığa ağmatan bir qız alıf ki, heç olara yaraşan deyil* (Ağdam).

**AĞMİR** (Meğri) – zəhər. – *Ögey ana gətirey, südin içinə ağmir saley.*

**AĞNAĞAZ** (Ağdam, Bərdə, Qazax, Şuşa, Tərtər) – ehtiyac üçün üyüdülən azacıq taxıl. ◊ **Ağnağaz eləməx′** – azacıq taxıl üyütmək. – *Uşaxlar ajdı, hələlix′ bir az ağnağaz eləmişəm, dəyirmannığı soŋra qayrajıyıx* (Ağdam); – *Dəyirmanda azca ağnağaz elə, öydə uşaxlar təntiməsin* (Qazax).

**AĞNAĞIZ** I (Basarkeçər) – qısa söhbət. – *Ay aşıx, ağnağızdan doydux, indi nağıla başda.*

**AĞNAĞIZ** II (Qazax, Şuşa, Tovuz) – b a x **ağnağaz.**

**AĞNAX** (Ağdam, Bərdə, Qazax, Şəki, Şuşa) – b a x **ağanax.** – *Bizim heyvannar hamısı bir sahat ağnaxda sərinniyillər* (Bərdə).

**AĞNAMAX** (Qazax, Zəngibasar) – uçub tökülmək. – *Öy ağneyif tökülör* (Qazax).

**AĞNATMAX** (Meğri) – diyirlətmək. – *Quzay yaməşdan uxarta daş ağnatmışam ki, üç utax tikar.*

**AĞNAZ** (Cəbrayıl, Mingəçevir) – b a x **ağnağaz.**

**AĞOUŞ** (Sabirabad) – ağımtıl.

**AĞÖDDƏG** I (İmişli) – qorxaq. – *Yap ağöddəg uşağmış sə:n oğlun.*

**AĞÖDDƏG** II (Beyləqan) – arıq, cansız, zəif.

**AĞÖFGƏ** (Göyçay) – b a x **ağökbə.**

**AĞÖKBƏ** (Kürdəmir) – qorxaq. – *O qədər ağökbədi ki, hər şeydən qorxur.*

**AĞÖTDƏG** (Kürdəmir) – b a x **ağöddəg** I. – *Bı qız yaman ağötdəgdi.*

**AĞRIX** (Qazax) – b a x **ağırrıx** I.

**AĞRIXÇI** (Qazax) – b a x **ağırıxçı.**

**AĞRIŞAĞ** (Salyan) – hədiyyə, sovqat. – *Nənəm ağrışağın vırdı qoltuğuna, getdi qızı öyünə.*

**AĞRUZ** (Əli Bayramlı) – b a x **ağız** 1.

**AĞSAQQAL** (Salyan) – saman yığmaq üçün alət.

**AĞSOĞALAĞI** (Bolnisi) – sarımsaqlı qatıqla ərinmiş yağın qarışığından ibarət yemək.

**AĞSOĞLAX** (Qazax, Şəmkir) – b a x **ağsoğalağı.** – *Konluma yaman ağsoğlax tüşüf* (Şəmkir).

**AĞSOL** (Lənkəran) – kiçik çay balığı adı. – *Dünən çaydan ağsol tutdım.*

**AĞSOULAX** (Qazax, Şəmkir) – b a x **ağsoğalağı.**

**AĞSUL** (Quba) – dodaqların qıraqlarına çıxan yara.

**AĞŞEŞƏ** (Ağcabədi) – üzüm növü adı. – *Yayın orta:yı* (*orta ayı*) *ağşeşə əmələ:lir.*

**AĞTÜHLÜ** (Qazax) – qoyun. – *O vaxt əysini ağtühlünün yağına, keçinin yağına salıf yandırerdılar, işıx olordu.*

**AĞURUX** (Naxçıvan) – b a x **ağırrıx** 1, 2-ci məna. – *Bö:un ağuruğumuz getdi Ayıdərəsi yaylağına.*

**AĞUŞ** (Lənkəran) – ağımtıl. – *Xoşuma gəlmir, ağuz parçadu.*

**AĞUZ** (Qubadlı) – həddən artıq yetişmiş (meyvə). ◊ **Ağuz olmax** – yetişmək, yetişib ötmək. – *Bizim bağda meyvələr lap ağuz olub.*

**AĞÜRƏG** (Salyan, Şamaxı) – qorxaq. – *Qəfər ağürəg adamdu* (Salyan).

**AĞVAT** (Gədəbəy) – ehtiyat. – *İşi ağvatnan tutor bizim arvat.*

**AĞYAL** (Quba) – qoca (adam). – *Ağyal lap əfəlləşib.*

**AĞZABOĞAZ** (Ucar) – ağzınadək, ağızbaağız. – *İsdəkani ağzaboğaz suynan doldurdum.*

**AĞZABUĞUZ** (Kürdəmir) – b a x **ağzaboğaz.**

**AĞZIBİR** I (Kürdəmir, Qazax) – pəyə. – *Qışda malı ağzıbirə salerıx* (Qazax); – *Quzıları ağzıbirə sal* (Kürdəmir).

**AĞZIBİR** II (Salyan) – həbsxana. – *Heş nədən yazığ düşdü ağzıbirə.*

**AĞZIGÖHÇƏXʹ** (Gədəbəy) – *məc.* sirr saxlaya bilməyən. – *Adamsıŋ, adam oğulsuŋ, ağzıgöhçəy adama söz demə hər adamıŋ yanında.*

**AĞZIQATIQLI** (Göyçay) – rəngi başqa, dodağı isə ağ olan (at).

**AĞZIMVAY** (Borçalı, Tovuz) – b a x **ağzıvay.** – *Ağzımvay adam bekara danışar;* – *Ağzımvayın biridi, onnan karvan vuran olmaz* (Tovuz).

**AĞZISUYUX** (Qazax) – sir saxlamayan. – *Mikeyil ağzısuyuğun biridi.*

**AĞZIVAY** (Borçalı) – aciz, əfəl. – *Vəli Əli oğlu elə ağzıvay adamdı ki, gediv özünə bir iş tapammer.*

**AĞZIYALAX** (Çənbərək) – sirr saxlamayan. – *Ağzıyalağ adama sir aşmağ olumu?*

**AĞZIYAVAN** (Cəbrayıl) – sözünün təsiri olmayan, sözü ötməyən, hörmətsiz. – *Birqədirimiz elə ağzıyavandı ki, heç kəs sözünə baxmır.*

**AĞZIYUXARI** (Zərdab) – körpə quzuları saxlamaq üçün qazılmış yer. – *Əmrah, quzuları ağzıyuxarıya qoydunmu?*

**AĞZİHAVALİ** (Quba) – sözükeçən, hörmətli. – *U çux ağzihavali adama uxşiyadu.*

**AH** (Meğri) – qətrə, ən kiçik damla. – *Şişexʹ paçaxlıyannan əmceyinnən ah da çıxmır.*

**AHARRAMMAĞ** (Bakı) – yanmaq. – *Ay səni görüm aharranasan!*

**AHMIR** (Zəngilan) – minnət. – *Sənin ahmırı: heç kim götüməz.*

**AXAR-BAXAR** (Şəmkir) – dağların döşü. – *Kaŋlının göycə axar-baxarı çox gözəl yaylaxdı.*

**AXAR-BAXARRI** (Gəncə) – mənzərəli. – *Üştəpə çox axar-baxarrı yerdi.*

**AXARRAMAX** I (Meğri) – itiləmək. – *Səlman axarradığı dəxʹrə-baltanı kim axarrıyerdi?*

**AXARRAMAX** II (Meğri) – yaş ağacı qurutmaq üçün kökün yanından qabığını hərləmə kəsmək. – *Hüseyin dayinin elə peşəsi ağac axarramağ iydi.*

**AXARRATMAX** (Gəncə) – bir şeyi axar suda yudurtmaq. – *Əti bir də çaya göndərif axarratdım.*

**AXBUR** (Ordubad) – bulaq. – *Bizdə bulağa axbur deyəllər.*

**AXÇA** I (Qazax, Salyan, Şəmkir) – balıqların üzərindəki pərək, pul. – *Bizim çaylardakı balıxların hamısında axça var* (Qazax).

**AXÇA** II (Meğri) – qaratikan kolunun toxumu. – *Qaratikan kolunun axçasınnan yeyecax, davıla dönecax quyinnər.*

**AXÇAÇOVUL** (Salyan) – siçovul. – *Bizim öydə yaman axçaçovul əmələ gəlib.*

**AXÇƏDÜZDEG** (Dərbənd) – siçovul. – *Əlbəggüşdərədə nə çux axçədüzdeg var.*

**AXDA** I (Şəki) – 1. toxumsuz (tut); 2. çərdəyi çıxarılmış (zoğal).

**AXDA** II (Şəki) – seçmə. – *Sümbül seçif alınan toxuma axda toxum diyillər.*

**AXDICAR** (Zəngilan) – başqasına mənsub. – *Yaba axdıcardı, apar ver özünə.*

**AXI** I (Balakən) – meşəlik və ya kolluq yerləri təmizləyərək düzəldilmiş əkin sahəsi. – *Bizim qalxozda altı heqtar yer axıdı.*

**AXI** II (Ordubad) – kirvə. – *Uşax sünnət olunanda oni tutan adama axı deyərıx.*

**AXILYANA** (Gədəbəy) – təxmini. – *Axılyanamı danışe:ysıŋ, yoxsa bile:ysiŋmi əmə lli?*

**AXIR** (Bakı) – içərisi yonulmuş bütöv daş (üzüm şirəsi çıxarmaq üçün). – *Bı üzim iki axırdan artığ olmaz.*

**AXIŞDIRMAX** (Gəncə, Şuşa) – bir yerə yığmaq, toplamaq. – *Çobannar qoyunnarı dəriyə axışdırıflar* (Gəncə).

**AXMAZ** (Qazax, Şəmkir) – gölməçə, axmayan su. – *Heyvannar axmazdan su içer* (Şəmkir).

**AXMİRƏ** (Cəbrayıl) – minnət. – *Bir xeyrin görmədim, elə axmirəsi öldüdü məni.*

**AXMURDAMAĞ** (Dərbənd) – giley-güzar. ◊ **Axmurdamax əlǝmeg** – giley-güzar etmək. – *Cəfər sənnən yaman axmurdamağ ələyədü.*

**AXSAĞOLAX** (Tovuz) – b a x **axsaqulax.**

**AXSAQULAX** (Gədəbəy, Qazax, Tovuz) – sarımsaq, qatıq və yağdan hazırlanmış yemək. – *İşdahdan tüşdüŋ, axsaqulağa tut özüŋü* (Gədəbəy).

**AXSO:LAĞI** (Qazax) – b a x **axsaqulax.** – *Bu gün bir yaxşı axso: lağı yemişəm.*

**AXSO:LAX** (Qazax) – b a x **axsaqulax.** – *Bir az sarımsax əz, a bala, axso: lağ eliyəx′ qağaŋa.*

**AXTACAR** (Bakı) – qohum malına göz dikən.

**AXTACARRIĞ** (Bakı) – qohum malına göz dikmə. ◊ **Axtacarrığ eləmək** – qohum malını mənimsəmək – *Adam özününkünə axtacarrığ eləməz.*

**AXTAÇI** (Bərdə) – heyvanları axtalayan adam. – *Axtaçı Həsən qoyunnarı yaxşı axtalıyır.*

**AXTARAMMAĞ** (Dərbənd) – çevrilmək, qəzaya uğramaq (maşın, traktor və s.). – *Tabasaran yulində sovxozun tiraxturi axtarammişdi.*

**AXTARMA** (Füzuli, Xaçmaz, Qusar) – üzlü pendir. – *Axtarma tutuv* (Füzuli).

**AXTUX** (Naxçıvan) – qəm, qüssə, kədər. ◊ **Axtux çəhməx′** – dərd, qəm çəkmək. – *Axtux çəhməx′dən ürəyimin başı dağılır.*

**AXU** (Balakən) – b a x **axı** I.

**AXUT** (Göyçay) – b a x **ağız** (1-ci məna).

**AJDIX** (Ağdam, Çənbərək, Xanlar, Karvansaray) – yeni məhsuldan təcili üyüdülmüş azacıq taxıl. – *Biyil ajdığı Hazırbecannan gətdix′; – Gederdix′, taxıl biçerdix′ irəli Qazaxda, ajdıx gətirerdiy uşağa* (Karvansaray).

**AJIQIJI** (Ağdam) – vəzəri.

**AJIQOUX** (Xanlar, Qazax) – yabanı bitki adı. – *Ajıqoux xeyirri otdu, heyvan yaxşı ye:r* (Xanlar).

**AJIMAX** (Çənbərək) – təngnəfəs olmaq. – *Altdan uxarı yəldim deyin, ürəyim ajıdı.*

**AJIPƏNCƏR** (Gəncə) – vəzəri. – *Dünən bazardan iki dəstə ajıpəncər aldım.*

**AJITƏRƏ** (Qazax) – sulu yerlərdə bitən yeməli bitki. – *Ajıtərə sulu yerrərdə piter.*

**AJITMA** (Ağdam, Gəncə, Qazax, Şəmkir) – maya, xəmir mayası, acıxəmrə. – *Get dayıngildən ajıtma al gəti, xamır yoğurax* (Şəmkir).

**AJITMALI** (Ağdaş, Ağdərə, Mingəçevir) – 1. mayalı xəmirdən bişirilmiş sac çörəyi (Ağdərə); 2. mayalı xəmir (Mingəçevir).

**AQCAVAZ** (Qax) – acqarına.

**AQÇADUZD** (Quba) – siçovul.

**AQQA** I (Saatlı, Zərdab) – ata. – *Aqqa, doxdur gəlif inəx′lərə iynə vurmağa* (Zərdab).

**AQQA** II (Quba, Saatlı) – yaşlı, nüfuzlu kişilərə edilən müraciət forması. – *Aqqa ağsaqqal kişilərə de:llər.*

**AQUBA** (Qax) – əziyyət, məşəqqət. – *Habı aqubadan qurtaran qunu qoracammı?*

**AL** (Ağcabədi, Ağdam, Bakı, Cəbrayıl, Füzuli, Qazax) – hiylə, yalan. – *Məni al dilə tutma, nə sözün var mərdana deynən* (Ağdam).

**ALA** I (Gədəbəy, Göyçay, Qazax, Tovuz, Yevlax) – alaq. – *Qızdar bostanın alasını çəkif qutardılar* (Tovuz).

**ALA** II (Şəki) – göyərti, tərəvəz. – *Bazara ge:rəm ala almağa.*

**ALA** III (Bakı) – xəstəlik nəticəsində üzdə əmələ gələn ağ ləkə. – *O:n üzgözin ala basıb.*

**ALA** IV (Dərbənd, Xaçmaz) – üstündə toyuqlar oturmaq üçün düzəldilən yer. – *Ala sarayda bir divarda düzəldilədi* (Dərbənd).

☐ **Ala çəx'məx'** (Basarkeçər) – dilə tutub sirr almaq. – *Məmməd məni ala çəkif sirrimi öyrəndi.*

**ALABAĞIR** (Şəmkir) – qorxaq. ◊ **Alabağır olmax** – qorxmaq. – *Uşağ alabağır oldu.*

**ALABAYDAX** I (Bakı, Biləsuvar, Füzuli, Qazax, Quba, Salyan) – pis sifətlə xalq arasında məşhur olan adam. – *Maydan Məhəmməd camahatın arasında köhnənin alabaydağıdı* (Qazax).

**ALABAYDAX** II (Göyçay, Kürdəmir) – rəngbərəng.

**ALABƏHLİ** (Qəbələ, Quba) – albalı. – *Alabəhli çiçəy açıp* (Qəbələ).

**ALABİTDAN** (Salyan) – azca, bir az. – *Çörəx'dən alabitdan yedim gəldim.*

**ALABİTƏ:R** (Kürdəmir) – başdansovdu.

**ALABLOY** (Çənbərək) – tonqal. – *Bizim alabloy çox yekeydi.*

**ALABUĞA** (Cəbrayıl, Zəngilan) – mozalan. – *Heyvanı meşədən çıxardın, alabuğa qırdı* (Zəngilan); – *Dananın belin alabuğa oxxətər yeyib ki, qanıyıf* (Cəbrayıl).

**ALABUTTAN** (Bakı) – səthi, ötəri, möhkəm olmayan, birtəhər. – *O:n öyi alabuttan tikilib.*

**ALACA** I (Gəncə, Şəmkir) – 1. əkin sahəsi içərisində toxum səpilməmiş kiçik yer (Gəncə). – *Pambıxda çox alaca qoyufsan;* 2. suvarılmamış kiçik sahələr (Şəmkir). – *Yasarın biri taxılı suluyanda fikir vermiyif, beş-altı yerdə alaca buraxıf.*

**ALACA** II (Cənubi Azərbaycan) – əldə toxunan şal parça. – *Alacadan bir dəs paltar tihdidim.*

**ALACA** III (Mingəçevir) – kal qarpızın içi.

**ALACADAMAX** (Cənubi Azərbaycan) – quş adı. – *Alacadamax ağaca qondu.*

**ALACALAMMAĞ** (Xaçmaz) – dirçəlmək, canlanmaq. – *Quşun balaları dən yə:nnən sura alacalandı.*

**ALACALAMMAX** (Şəki) – əsəbiləşən və ya utanan vaxt müxtəlif rənglərə düşmək (üz haqqında). – *No:luf, sufatın alacalanıf?*

**ALACALI** I (Şəki) – rəngbərəng. – *Xanımın alacalı tirməsi var.*

**ALACALI** II (Bərdə) – ögey. – *Biz alacalı uşaxlarıx.*

☐ **Alacalı tutmax** (Çənbərək) – fərqləndirmək. – *Öz uşa:ŋı mənim uşa:mnan alacalı tutursaŋ.*

**ALACALLAMMAX** (Qarakilsə) – böyümək, genişlənmək (gözə aid). – *Gözləri elə alacallammışdı ki, heş məni tanıyammadı.*

**ALACANAŞ** (Qax) – yarıcan. – *Habıra verin, uşağı alacanaş eləmiyin.*

**ALACANKEŞ** (Qazax) – yarımçıq, natamam, başdansovma. – *Paltar alacankeşdi.*

**ALACATI** (Zəngilan) – müxtəlif rəngli konfet. – *Dədəm bazardan mənə alacatı aldı.*

**ALACƏNGƏNƏFƏS** (Şahbuz) – təngnəfəs. – *Dəryadan alacəngənəfəs çıxdılar.*

**ALAÇÖHRƏ** (Kəlbəcər) – gilas ağacına oxşar cır meyvəli ağac. – *Alaçöhrə odunnuxdu.*

**ALAÇARPA** (Tabasaran) – alabəzək. – *Çaydan uyannar-hami yannar alaçarpa ulutdu, qardaş.*

**ALA ÇEHMAX** (Zaqatala) – alaq etmək. – *Bir az ala çehmax isdiyirəm.*

**ALAÇOQQUŞ** (Lənkəran) – araqızışdıran. – *Ziba yaman alaçoqquş adamdu.*

**ALAÇULA** (Bakı) – başdansovma, birtəhər. – *Yeri alaçula işdiyib.*

**ALAÇULU** (Kürdəmir) – b a x **alaçula.**

**ALADAĞ** (Qubadlı) – yarıyanıq (çörək və s.). – *Bu çörəyi niyə aladağ pişirirsən?*

**ALADAMĞA** (Xaçmaz) – başdansovdu. – *Əkin yaxşı sulanmıyitdi, aladamğa ulub qalub.*

**ALADAMĞIR** (İsmayıllı, Mingəçevir) – seyrək. – *Bı yer qumsal oldığına görə ot aladamğır bitib* (*İsmayıllı*).

**ALADƏMYİL** (Qazax) – b a x **aladamğır.** – *Taxıl aladəmyil pitif.*

**ALADƏRƏN** (Yevlax) – kətmən. – *Aladərənnən ala dənni:rixʹ.*

**ALADI** (Qax) – qoz çırpmaq üçün çubuq. – *Meşədən yaxşı aladı kəsmişəm.*

**ALADİL** I (Qazax) – hiylə. ◊ **Ala-dilə tutmax** – aldatmaq. – *Üşağı ala-dilə tutuf, qarpızın yaxşısını seçif.*

**ALADİL** II (Salyan) – ikidilli, tez-tez sözünü dəyişən. – *Nəsib aladil adamdu.*

**ALADİRİ** (Qazax) – alaçiy. – *Ət aladiri pişif.*

**ALAFA** (Ağdam, Quba, Şəki, Zaqatala) – 1. zərif ipək parça (Quba, Şəki) – *Alafadan arvatdar partal tikərdilər üzdəriyçün* (Quba); – *Bazardan uşaxlara alafa aldım* (Şəki); 2. baş örtüyü (Ağdam) – *Gəlin gələndə üzünə alafa salallar.*

**ALAFATIN** (Böyük Qarakilsə, Şəmkir) – çox iti (alət).

**ALAGÖTATAN** (Cənubi Azərbaycan) – quş adı. – *Qardaşım bir alagötatan tutdu.*

**ALAGÜLÜY: ALAGÜLÜY OLMAX** (Cəbrayıl) – yorulmaq, ədən düşmək. – *Onnan ötürün bir aydı alagülüy oluram.*

**ALAĞAJ** (Qazax, Şəmkir) – sahələrarası sərhədlərdə kilometr məsafəsini göstərmək üçün basdırılan nişan ağacları. – *Gün qalxmışdı mən alağajdan ötəndə* (Qazax); – *Ötdüyümüz alağajın üstündə qarğa oturmuşdu* (Şəmkir).

**ALAĞAZDAMAX** (Çənbərək) – keyfiyyətsiz işləmək, bir işi yarımçıq, yarıtmaz görmək. – *Xiyarın alasın-ulasın alağazdıyf cijim, yaxşı qayrəmmiyf.*

**ALAĞÇA** (Quba) – alaq təmizləyən alət. – *Alağça bizim çux karımıza gələdü.*

**ALAĞIZ** (Şəmkir) – 1. ikiüzlü. – *Alağız adamnan zəhləm gedər;* 2. xəbərçi.

**ALAĞIZDAMMAX** (Şəmkir) – qəlyanaltı etmək. – *Bir əz alağızdanıŋ, pusa:t bir yaxşı puloy pişirəjəm.*

**ALAĞUZ** (Qazax) – b a x **alağız.** – *Sən nə alağuzsan!*

**ALAĞUZDAMMAX** (Tovuz) – b a x **alağızdammax.** – *Gə bir əz alağuzdanax soŋra.*

**ALAĞUZDUX** (Xanlar) – xəbərçilik. – *Niyə alağuzduğ eleysəŋ.*

**ALAHİ** (Quba, Sabirabad, Şərur) – b a x **alayı.** – *Uşağ burda degil, alahi yerə yullamışam.*

**ALAGEH OLMAX** (Cəbrayıl) – əldən düşmək. – *Gamışı axdarıf tapıncan alagexʹ oldum.*

**ALAHÖ:ÜŞ** (Gədəbəy) – b a x **alahöyüş.** – *Şalvarı qədə: elə alahö: üş qeydirdim.*

**ALAHÖYÜŞ** (Gədəbəy) – yarı quru, yarı yaş, nəm.

**ALAXAY** (Cəbrayıl) – 1. göytəhər; 2. aciztəhər.

**ALAXDAN** (Salyan) – yenidən, təzədən. – *Özü: gözzə, alaxdan xəsdələnərsən.*

**ALAXI** (Kürdəmir) – b a x **alayı.**

**ALAXIRMAN: ALAXIRMAN ELƏMƏXʹ** (Basarkeçər) – sütül buğda qovurmaq. – *A çovan, get bir görüm buğda gəti, alaxırman eliyəxʹ.*

**ALAXOJA** I (Qazax) – b a x **alaqoja.**

**ALAXOJA** II (Şəmkir) – b a x **alaqoca.** – *Ay arvat, tez ol alaxojanı qavqar, yığım haravıya.*

**ALAXOR** (Qazax) – çox meyvə yeyən, meyvəsevən (adam).

**ALAKEÇƏ** (Əli Bayramlı) – alaçıq, çadır. – *Biz yaylaxda olanda böyük bir alakeçədə yaşıyırdığ.*

**ALAKƏR** (Gəncə, Oğuz) – b a x **alakeş.** – *Alakərnən kələmin, lobyanın, soğanın alasını təmizdiyirixʹ* (Oğuz).

**ALAKƏRDƏLƏMƏ** (Qazax) – natamam. – *Abbas alakərdələmə iş görör.*

**ALAQARS** (Mingəçevir, Şəki) – yaxşı bişməmiş, üzü yanmış (çörək).

**ALAQARSAĞ** (Xaçmaz) – b a x **alaqars.** – *Alaqarsağ çüregi u tərəfə quy.*

**ALAQARSAX** (Qazax) – b a x **alaqars.** – *Alaqarsax çörəyi uşaxlara vermə, sancılanallar.*

**ALAQIRAN** (Dərbənd) – kətmən. – *Alaqıran tap, saba alağa kitədük.*

**ALAQOCA** (Zaqatala) – ev avadanlığı.

**ALAQOJA** (Gəncə, Qazax) – heyvan xayası. – *Bu qoyunun alaqojaları böyüxʹdü* (Gəncə); – *Alaqojanın kavavı yaxşı olur* (Qazax).

**ALAQOLEY** (Böyük Qarakilsə) – babat.

**ALAQORA** (Bakı) – dəyməmiş, azca sulanmış üzüm. – *Qalxozçılar alaqoradan yaxşı turşirin bişirədü.*

**ALAQULUX** I (Ağdam, Gəncə, Şuşa, Tərtər) – həşərat adı. – *Məni dünən qoruxda alaqulux daladı* (Gəncə).

**ALAQULUX** II (Ağcabədi, Ağdam, Bərdə, Gəncə, Şuşa) – dəcəl, nadinc. – *Uşaxlar laf alaquluğ oluflar* (Gəncə).

**ALAQURA** (Bakı) – b a x **alaqora.**

**ALAQURŞAX** (Qazax) – qövsi-qüzeh, göy qurşağı. – *Yağış kin yağer, yağış sərpilənnən sonra alaqurşax doğajax.*

**ALAQUŞ** (Şərur) – xəbərçi, sözgəzdirən. – *Alaquş adam hər yerdə oley.*

**ALAQUTI** (Quba) – gicitkən. – *Alaqutı adamun əlin elə gicişdirədü ki.*

**ALALAMAX** (İmişli) – əl çəkməmək. – *Əyə, məni nə alalıyıfsaŋ, əl götürməzsə:ŋ?*

**ALAM** (Zəngibasar) – b a x **alana.**

**ALAMA** (Zaqatala) – dəstək, qulp.

**ALAMANCI** (Yevlax) – qarətçi, oğru. – *Həmayıl alamancıdı.*

**ALAMANCILIX** (Şuşa) – qarətçilik, oğurluq. ◊ **Alamancılığ eləməx′** – *Həmayıl alamancılığ eli:r.*

**ALAMANÇI** I (Füzuli, Qax, Şəki, Tərtər) – acgöz, gözüdoymaz. – *Alamançı hamsını qapıf yidi* (Şəki); – *Mə:n alamançı adamnan aram olmaz* (Füzuli).

**ALAMANÇI** II (Bərdə, Salyan) – sözgəzdirən. – *Məmmədin arvadı alamançı adamdı* (Salyan).

**ALAMANÇILIĞ: ALAMANÇILIĞ ELƏMƏK** (Salyan) – söz gəzdirmək. – *Alamançılığ eləməg pis şeydi.*

**ALAMAYDAN** (Qazax) – aravuran, araqarışdıran. – *Əhməd yaman alamaydandı.*

**ALAMƏTƏRƏZ** (Böyük Qarakilsə) – yarımçıq görülmüş (iş).

**ALANA** (Ordubad) – içərisi şəkər və qozla doldurularaq qurudulmuş şaftalı və ya armud. – *Yolda yemək üçün bir güvrənkə alana aldım.*

**ALANAYI** (Ordubad) – şaftalı növü adı.

**ALANİTMƏG** (Quba) – xəbər vermək. – *A:dil dayima alanitməg üçün getdi.*

**ALANQU** (Lənkəran) – çör-çöp. – *Peçə alanqu at, qızışsın.*

**ALANQUŞ** (Qazax) – hiyləgər. – *Alanquş adamnan xeyir iş çıxmaz.*

**ALANNIX** (Şəmkir) – bir az ılıq. – *Su alannığ olufmu?*

**ALAPAÇA** (Ağdaş) – paçasının arası ağ (at).

**ALAPƏLƏ** (Kürdəmir) – ala-bula.

**ALAPƏLƏX′** (Ağdam, Bərdə, Şuşa, Tərtər) – b a x **alapələ.** – *Səkinənin qızı alapələx′ geyinif toyə:lmişdi* (Ağdam).

**ALAPƏLƏNG** (Kürdəmir) – b a x **alapələ.** – *A Əşrəf, nə alapələng geyipsən?*

**ALAPÖRT** (Qazax) – ala-çiy, yarıbişmiş, yaxşı bişməmiş. – *Ət alapört oldu, gəti, ajımışam.*

**ALAPÖRTÜ** (Bakı, Şamaxı) – b a x **alapört.** – *Xörək alapörtüdi, yeməg olmır* (Şamaxı).

**ALAPUQA** (Kəlbəcər) – xəbərçi, araqarışdıran. – *Alapuqa adam bizim yerdə yoxdu.*

**ALAPÜRÇÜM** (Salyan) – əzmək. – *Maşın əti yaxşı çəkmir, alapürçüm eli:b korruyur.*

**ALAPÜTÜR** (Xaçmaz) – başdansovdu.

**ALASAQQAL** (Qazax) – ağsaqqal, çalsaqqal.

**ALASƏR** (Şəki) – yarımçıq, başdansovdu, yarı-yarımçıq. – *İşi alasər qutarıf gəldux.*

**ALASƏY** (Qazax) – gicbəsər.

**ALAŞA** (Zəngibasar, Şəmkir) – zəif, arıq at. – *Mənim bir alaşam vardı, o da öldü* (Şəmkir).

**ALAT** (Ordubad) – qapı və ya pəncərə çərçivəsi. – *Əbxalıx, pəncərə:n alatun mö:kəm bağla.*

**ALATA** (Oğuz) – b a x **aladı.** – *Vardannılar qoz çırpana alata diyir.*

**ALA-TALA** (Zəngibasar) – ordan-burdan. – *Şaxda ala-tala aparıb əkini.*

**ALATAŞ** (Cəbrayıl) – yorğun, əldəndüşmüş. ◊ **Alataş eləməx′** – yormaq.

**ALATAVA** (Bakı) – saf daş. – *Bağun öyi çin bir ərəbə alatava götginən gəl.*

**ALATƏLƏKƏ** (Lənkəran) – birtəhər. – *Alatələkə yola ver, getsün.*

**ALATƏNGƏŞ** (Şamaxı) – başdansovdu, yarımçıq. – *Sən muni lap alatəngəş eləmisən.*

**ALATI** (Oğuz) – b a x **aladı.**

**ALATORPAĞ** (Bakı) – əhəngli torpaq.

**ALATÖ:R** (Qəbələ) – başdansovdu. – *Hər işi alatö:r görürsən.*

**ALA-ULA** (Qazax, Oğuz) – 1. alaq otu (Qazax). – *Ala-ula basıf pambığı;* 2. göyərti (Oğuz).

**ALAVAŞ** (Cəlilabad) – ətraf. – *Bı alavaşda bircə quyıdı ki, o da bırda.*

**ALAVIŞ** (Meğri) – istilik, hərarət. – *Tafdığəlinin canində bir alavış var ki, adamın əlin yandırey.*

**ALAYI** (Bakı) – başqa, özgə. – *Alayı adamnan işün olmasun.*

**ALAY-VALAY: ALAY-VALAY İLƏMEG** (Xaçmaz) – alt-üst etmək. – *Tərəvəzi mallar yi:b, alay-valay iliyitdi.*

**ALAZ** (Cəlilabad) – solğun. – *Uşağın irəngi yaman alazdu.*

**ALAZDAMAX** I (Cəbrayıl) – 1. alayarımçıq etmək. – *Bı çaydanı sən belə alazdamısan;* 2. korlamaq.

**ALAZDAMAX** II (Basarkeçər) – ütmək. – *Heyvanın başə:ğın alazdadı:ŋ?*

**ALAZDAMMAĞ** (Lənkəran) – yetişmək. – *Yaram gör necə alazdanıb.*

**ALAZIMAX** (Təbriz, Zəngilan) – saralmaq, solmaq. – *Həyif bı çiçəx'lərdən, susuzduxdan alazıyıb* (Zəngilan).

**ALAZZAMAĞ** (Salyan) – bax **alazdamax** I (2-ci məna). – *Kömәgə gələnnər mə:m yerimi tamam alazzadı.*

**ALBƏHLİ** (Quba) – bax **alabəhli.**

**ALBUXARA** (Təbriz) – gavalı.

**ALCAŞMAX** (Çənbərək) – gözü qaralmaq. – *Yeridiyim yerdə gözüm alcaşdı yıxıldım.*

**ALÇAX** (Qazax) – sadə. – *Urusdamın yaxşı xəsyəti var, alçax adamdı.*

**ALÇI: ALÇI DURMAĞ** (Salyan) – üzə durmaq, cavab qaytarmaq. – *Tərbiyəsiz uşağın qaydasıdı alçı durmax.*

**ALDAMAC** (Qəbələ) – bağarası və ya bağ ilə həyət arasında keçid.

**ALDAS** (Qax) – tez, tələsik. – *Xoraqı <xörəyi> aldas yiyip çıxdı.*

**ALDİL** (Cəbrayıl, Şuşa) – hiylə, yalan. – *Aldilnən yazığı aparıf işə salıflar* (Şuşa); – *Aldilnən kişini yoldan çıxartdı* (Cəbrayıl).

**ALEKAR** (Meğri) – kətmən. – *Alağı alekarnan vurulla.*

**ALEYSUN** (Şərur) – görməmiş.

**A:LƏT** (Cəbrayıl, Şəki) – bax **alat.** – *Öyün a:lətdərini salmiyifdilər hələ* (Şəki).

**ALĞAX-CULĞAX** I (Gədəbəy) – qohum.

**ALĞAX-CULĞAX** II (Basarkeçər) – qarmaqarışıq, dolaşıq. ◊ **Alğax-culğax danışmax** – qarışıq, ağlına gələni danışmaq. – *Ə:, nə alğax-culğax danışırsaŋ?*

**ALĞASIMAX** (Cəbrayıl, Zəngilan) – tövşümək, ürəyi döyünmək. – *Həbelə isdi olar, dayan birəz nəfəsimi dərim, ürəyim alğasıyır* (Zəngilan); – *Ürəyim alğasıyır, az qalır ağzımnan çıxa* (Cəbrayıl).

**ALĞAŞ-ULĞAŞ** (Gədəbəy) – qarmaqarışıq, dolaşıq. ◊ **Alğaş-ulğaş eləməx'** – qarmaqarışıq, dolaşıq eləmək. – *Canıŋ sağ olsuŋ, sən pütüncə alğaş-ulğaş ele:fsən, qoyunnarın güzəminnən yaz yuŋunu.*

**ALĞAY-CALĞAY** (Xaçmaz) – qohum-qardaş. – *Bizi məhlə bir-birinə alğaycalğaydı.*

**ALĞAZZAMAX** (İmişli) – ordan-burdan yemək. – *Qoyunu qışda buraxersaŋ, koldankosdan alğazze:r.*

**ALXAN** (Qazax) – köndələn qazılmış xəndək yeri. – *Buzoylar alxandadı.*

**ALXIM** I (Ordubad) – göllənmə, göllənib axma (xırda çay və kanallardakı su haqqında). – *Suyun bir yerə yığılıb axmasına bizzər alxım deyərıx.*

**ALXIM** II (Kəlbəcər) – maili. – *Də:n <dəyənin> yeri alxımdı.*

**ALXIMA** (Çənbərək) – bax **alxım** II. – *Yer alxımdadı deyin su durmur.*

**ALXIT** (Ağdam, Füzuli, Oğuz, Şəki) – ağac nehrə. – *Hər alxıt çaxliyəndə əyrən verillər bizə* (Şəki).

**ALI** (Şərur) – gavalı növü. – *Alını aşağıkı ağaşdan yığ.*

**ALICI** (Qazax, Şəmkir) – qov. – *Alıcıya su dəyif yanmer* (Qazax).

**ALIĞ** (Kürdəmir, Salyan) – at, öküz, kəl və başqa heyvanların belinə çəkilən çul, keçə və s.

**ALIĞLAMAĞ** (Salyan) – çullamaq.

**ALIX** (Qazax, Şuşa) – bax **alığ.** – *Öküzdərin alığını al, pəyyə sal* (Şuşa).

**ALIXLAMAX** (Şuşa) – bax **alığlamağ.** – *Hava soyuxdu, öküzləri alıxlamax lazımdı.*

**ALIM: ALIMINI VERMƏK // ALIMINI ƏTƏYİNƏ BÜKMƏK** (Şərur) – abır vermək, məzəmmət etmək. – *Getdim alımını ətəyinə bük'düm.*

**ALIMÇA** (Qazax) – alça.

**ALINDIRMAMƏY** (Cəlilabad) – özünü bilməməzliyə vurmaq. – *Baxey gennən, o özin saymaməzdigə vırey, özin alındırmey.*

**ALINNIĞ** (Salyan) – alına bağlanan yaylıq, kiçik kəlağayı. – *Keçmişdə arvaddar alınnığ bağlardı; – Fatmada iki dənə alınnığ var.*

**ALISIM** (Meğri) – heyvan soyularkən dəri üstündə qalan nazik ət layı. – *Sən ət doğramaxdan ol, mən dərinin alısımların söyerəm.*

**ALISIN** (Gəncə, İmişli, Qazax) – payızda bitən ot. – *Yazıx Qulu qoyunu alısına saxlıyıf* (Gəncə).

**ALIŞDIMYANDIM** (Bakı, Bərdə, Quba) – qırmızı yerlikli qiymətli ipək parça adı. – *Paltar giyərdig unnan, alışdımyandım diyərdig* (Bakı); – *Alışdımyandımı dö:lətdilər geyərdi* (Bərdə).

**ALIŞI** (Qazax, Şəmkir) – parlaq, cəlbedici, gözəçarpan. – *Alışı tuman vız-vızı, yane:rəm, a dəlləx′ qızı* (Qazax); – *Qədimlərdə alışı parçalar olardı* (Şəmkir).

**ALIŞIX** (Ağdam, Qarakilsə) – ocağın gözünə qoyulan quru çör-çöp, yonqar. – *Odun yaşdı, ojağın gözünə bir az alışıx qoy yansın* (Ağdam).

**ALIŞQA** (Şərur) – kibrit.

**ALIŞQAN** (Naxçıvan, Ordubad, Şərur, Yevlax) – b a x **alışqa.** – *Alışqanı gəti, ojağı yandırım* (Yevlax); – *Alışqannan papruz yandı:rıx, ləmpə yandı:rıx* (Şərur).

**ALIŞMA** (Ağdam, Cəbrayıl, Qazax, Şəmkir, Tovuz) – bir neçə adamın şərikli (qoyun, mal və s.) müəyyən bir şeyi alıb bölüşməsi. – *Səlimin danasını kəsif alışma elədix′* (Qazax); – *Həsənin inəyini alışma elədix′, hər paya 8 kilo düşdü* (Tovuz); – *Galiŋ bir alışma eliyəx′* (Şəmkir).

**ALIŞMAX** (Tovuz) – dəymək. – *Daşı necə atdımsa, düz gediv atın qıyqılısınnan alışdı.*

**ALIŞMALAMAX** (Çənbərək) – şərikli mal alıb kəsmək, bölüşdürmək. – *Əhmədin bir cöngəsi vardı, alışmaladıx.*

**ALIŞMALIX** (Şəmkir) – kəsilmək üçün şərikli alınan (heyvan). – *Dünən alışmalıx bir qoyun almışdıx, andırı canavar çəpərdən aparıf.*

**ALIVALLATMA** (Çənbərək) – 1. alaq otu. – *Güzdüyün alasın çəx′dix′ deyn a:dı içində alıvallatma yoxdu;* 2. zibil. – *Üş put arpa aldıx, elə təmizdi kin, içində alıvallatma yoxdu.*

**ALIZ** I (Cəbrayıl, Meğri) – xəstə. – *Əlex′bər bir alız adamdı, nə işõ: onnan idişirsəŋ* (Meğri).

**ALIZ** II (Ağdam) – könülsüz. – *Əli məni alız qarşıladı.*

**ALIZ** III (Borçalı) – çiy kərpiç.

**ALIZ-ALIZ** (Salyan) – az-az. – *Qoyun xəsdələnib, otu alız-alız ye:r.*

**ALIZDAMAĞ** (Bakı) – qapmaq, qamarlamaq. – *Çöldə qu(r)tdar qoyni alızdadı.*

**ALIZDAMAX** (Meğri) – xəstələnmək. – *Dədəm üş gündü alızdıyıp.*

**ALIZMAX** (Bakı, Şamaxı) – qarmalamaq, tutmaq. – *Gülbala uşağı alızzıyıb* (Şamaxı).

**ALİ** (Naxçıvan) – albuxara. – *Biraz ali gətmişdim.*

**ALQURA** (Böyük Qarakilsə) – hər adi sözdən böyük məna çıxaran.

**ALLANC** (Qazax) – açıq görünən, gözə tez çarpan yer. – *İnəx′lər o allancda otdordular.*

**ALLANCAX** (Şəki) – oyuncaq. – *Uşağa bir allancağ alsana.*

**ALLANMAX** I (Şəki) – baş qarışdırmaq; keçinmək. – *Də: <daha> nağa:rım, üşaxnan allanıram bir tə:r.*

**ALLANMAX** II (Şəki) – qızarmaq (üzə aid).

**ALLAŞMAX** (Zəngibasar) – təqib etmək, çəkişmək. – *Hey allaşır, heş yole:tmir mənnən.*

**ALMA** (Zaqatala) – arabanın hissəsi.

**ALMABAŞI** (Lənkəran) – quş adı. – *Almabaşı ağajda yuva işdəmişdi.*

**ALMACIL** (Qazax) – balasını tanımayan, əmizdirməyən (qoyun). – *Almacıl qoyunun balası ölər.*

**ALMAX** I (Şəmkir) – bitmək, göyərmək, tutmaq. – *On dənə şitil basdırmışdım, hamsı alıf.*

**ALMAX** II (Qazax) – basmaq, tutmaq. – *Büyün it bir dovşan aldı.*

**ALMALIX** (Borçalı) – yanaq. – *Adamda iki almalığ olor.*

**ALMAMAX** (Qazax) – 1. şübhələnmək; 2. öz balasını yaxınına qoymamaq (heyvana aid). – *Bu düyədən almeram dəlidi, doğanda diyəsən almıyajax balasını.*

**ALMANNAMAX** (Gəncə) – biabır etmək, abrını tökmək. – *Böyün Həsəni yaxşıca almannadım.*

**ALMAŞDAMAX** (Ağdam, Gəncə) – yoluşdurmaq. – *Arvatdar bir sa:tda zoğalı almaşdadılar* (Ağdam).

**ALMAZ** (Bərdə) – balasını əmməyə qoymayan (qoyun). – *Bu qoyun almazdı.*

**ALNİYAL** (Qax) – fikri dağınıq.

**ALO:XAR** (İmişli) – acgöz, çoxyeyən. – *Bizin inəg alo:xardı, yem çatdırmağ olmır.*

**ALOŞ** (Şəmkir) – ala-tala, adda-budda olan, qeyri-müntəzəm. – *Yer aloş qalıf.*

**ALPOTUN** (Şəmkir) – acgöz, çoxyeyən. – *Alpotun kimi yi:rsəŋ.*

**ALSINNAMAX** (Zəngibasar) – cana gəlmək, inkişaf etmək. – *Də:sən bamador şitilləri alsınnanır, xarab olmuyacax.*

**ALTDANYUXARI** (Cəlilabad, Salyan) – tavan. – *Bizzə altdanyuxarı alçağ olar, şə:rdə hündür; – Altdanyuxarı taxdadan olır* (Salyan).

**ALTDIĞ** (İmişli) – cəhrənin hissəsi.

**ALTIAÇIX** (Şəki) – talvar. – *Altıaçığın üstündə adam var.*

**ALTIGÜLLÜG** (Salyan) – yer altında yuva tikən göy rəngli quş.

**ALU** (Şərur) – gavalı. – *Gavalıya bizdə alu deyillər.*

**ALUC** (Quba) – alça. – *Git, ağajdan aluc dər.*

**ALUX** (Cəbrayıl) – b a x **alığ.** – *Atın aluğun al, qoy təri soyusun.*

**ALUXLAMAX** (Cəbrayıl, Şəmkir) – b a x **alığlamağ.** – *Əli, atı aluxla, minif gedəjəm başqa yerə* (Cəbrayıl).

**ALUSUN** (Zəngilan) – b a x **alısın.** – *Bə:ndə yaxşı alusun var, heyvannarı apar ora.*

**ALUZI** (Salyan) – qəsdən, acığa. – *Gəlin öydə savaşıb, odi bağa aluzı girmir.*

**ALYAN-CALYAN** (Şəmkir) – boş, mənasız, əhəmiyyətsiz. – *Səməd o qədər alyan-calyan danışdı ki, heç kəs bir şey qammadı.*

**A:MA** (Ağcabədi) – əl ilə ovulmuş tənbəki. – *No:ruz, a:manı maŋa ver, bir qaylan çəkim.*

**A:MAX** (Ağdam) – xatırlamaq.

**AMANAT** (Şahbuz) – qonaq. – *Bı kəndə genə amanat gəlib.*

**AMANƏBƏND** (Bakı, Şərur) – davamsız, möhkəm olmayan. – *Taxtəbənddə çox gezmiyun, amanəbənddu, uçulub elər* (Bakı).

**AMBIL** (Kəlbəcər) – xışa qoşulmuş öküzlərin birinci cütü. – *Ambıl öküzdər gərəx′ qüvvətdi olsun.*

**AMBILA-AMBILA: AMBILA-AMBILA GETMƏX′** (Tovuz) – sağa-sola əyilərək getmək, səndələmək. – *Odur ey, dayım ambıla-ambıla gedir.*

**AMBILMAX** (Çənbərək) – səndələmək. – *Qulu çiynində də lapatqa ambılır; – Dada Murğuz genə ambılır.*

**AMBIR** (Sabirabad, Şəki) – axmaq, gic. – *Ambıra bax gör, sə: un veriblər gətirməmisən* (Sabirabad); – *Hər ambırın sözünə inananda həylə olar də:* (Şəki).

☐ **Ambır götürməg** (Bakı) – bərk çimdikləmək.

**AMBIRÇA** (Meğri) – kiçik dagarcıq. – *Xıcca dağarcığa ambırça diyellə.*

**AMBUR** (Bakı) – kəlbətin. – *Amburı gət, mıxı çıxardım.*

**AMIX** (Meğri) – kənar; girəvə. – *Amıxda dur, indi penir gətirecex′.*

**AMIRRAMAX** (Cəbrayıl) – bir şeyi acgözlüklə qamarlamaq, yığışdırmaq. – *Pəkuza almanı amırradı.*

**AMITQA: AMITQA OLMAĞ** (Kürdəmir) – dadanmaq. – *Canavar bizim sürüyə amıtqa olmışdı.*

**AMMIR** I (Salyan) – acgöz. – *Ammır Əbləsən çox yiyəndi.*

**AMMIR** II (İmişli) – b a x **ambır.** – *Sən nə ammır uşağsan, heç niyə yaramassan.*

**AMNAĞ** (Xaçmaz, Oğuz) – key, anlamaz. – *Cəlil olduğcan amnağ uşaxdı* (Oğuz).

**AN** (Qax) – kandar.

**A:ŋ** I (Daşkəsən, Gədəbəy) – fəqərə. – *Bədəndə işdəy yer a:ŋdı* (Gədəbəy).

**A:ŋ** II (Qazax, Tovuz) – alın. – *Qəfəsini gəlinnər bağlardılar a:ŋnarına* (Qazax).

**ANABİLBİL** (Qarakilsə) – çılpaq, lüt.

**ANADİL** (Qazax) – quş adı. – *Bizim öyün qavağında hər gejə anadil ötör.*

**ANAHADDIX** (Zəngibasar) – xüsusiyyətçilik. – *Anahaddıx vaxdı kim kiməydi.*

**ANAHÜRÜYƏN** (Şəmkir) – çılpaq, lüt. – *Anahürüyən gəzmə, sö:x dəyər.*

**ANAXDAR** (Başkeçid, Borçalı) – açar. – *Qapıyı anaxdarnan qıfilla, gəl* (Borçalı).

**ANAMƏYQURDAVERMƏ** (İmişli) – uşaq oyunu adı. – *Uşağlar anaməyqurdavermə oyneyir, ged sən də oyna.*

**AŊARI** (Gəncə, Qazax, Şəmkir, Tovuz) – o tərəf, o yan, o biri tərəf, kənar. – *Aŋarı dur* (Qazax); – *Bir az aŋarı dur görüm, a bala* (Tovuz).

**AŊARI-BƏRİ** (Gəncə) – *məc.* xırda-xuruş, şey-şüy. – *Bu tükənnən bir az aŋarı-bəri alıf gəlirəm.* ◊ **Anarı-bəri danışmax** – hərzə-hərzə danışmaq. – *Ağzını yığışdır, aŋarı-bəri danışma.*

**ANAŞ** (Xanlar) – hər işdən baş çıxaran, hər biclik və əməl bilən. – *Haşım kimi bu aralarda anaş kişi yoxdu.*

**ANAŞDAQARNA** (Bakı) – acqarına. – *Adə, anaşdaqarna su içmə.*

**ANAYOLU** (Gəncə) – ərə gedən qızın anasına gətirilən hədiyyə. – *O şalı anayolu almışam.*

**ANBIR** (Şəki) – b a x **ambır.**

**ANDIMAX** (Tovuz) – suda üzən vaxt nəfəsi tıncıxmaq, təntimək.

**ANEYİN** (Meğri) – qəribə, əcaib, gülməli. – *Harda aneyin işlər var Ruhılladan çıxey.*

**ANĞA** (Dərbənd) – həm sifəti, həm də xasiyyəti pis (adam). – *Anğa adama yaxşuluğ ələmağ istəmiyədü.*

**ANĞARMAX** (Şərur) – başa düşmək, anlamaq. – *Onun sözdərin anğarmağ olmur.*

**ANĞIR** (Qazax) – o tərəf, o yan, o biri tərəf.

**ANĞIRI** (Balakən, Başkeçid) – b a x **anğır.**

**ANGİLİ** (Zaqatala) – bitki adı. – *Orada yaxşı angili bitib.*

**ANIX** (İsmayıllı) – üstüörtülü. – *Bu iş anıxdı.*

**ANQA** (Zərdab) – huşsuz. – *Əhməd çox anqadı.*

**ANQALI** (Şamaxı) – sərsəri, dəli. – *Adə, sən nə anqalı adamsan?!*

**ANQƏRİB** I (Cəlilabad, Şərur, Salyan) – az qala. – *İşığlar sönəndə anqərib qaley bağrımız çatdıya* (Cəlilabad); – *Əli anqərib qalmışdı ki, tuta, Vəli qaşdı* (Salyan).

**ANQƏRİB** II (Salyan) – tez, tələsik. – *Evə anqərib çatdım.*

**ANQIL** (Lənkəran) – tor toxunan xana. – *Tori anqılda toxi:ruğ.*

**ANQİRKİ** (Şəki) – o birisi, o yankı, o tərəfdəki. – *Anqırki öy Lətifindi.*

**ANQIRTMAX** (Çənbərək) – *məc.* kəsmək. – *Bir heyvərə vələs <ağac adı> anqırdıflar qamışdıda.*

**ANQUT** I (Ağdam, Şuşa) – uzunboğazlı ördəyə oxşar quş. – *Zalım elə bil anqutdu* (Ağdam).

**ANQUT** II (Ağdam, Bakı, Dərbənd, Şamaxı) – acgözlüklə yeyən, hər nə gəldi yeyən. – *Zalım oğlu əlinə keçəni anqut kimi udur* (Ağdam); – *Anqut kimi nə versov udadı* (Dərbənd).

**ANQUT** III (Oğuz) – avam, qanmaz. – *Sən özünü lap anqut yerinə qoymusan.*

☐ **Anqut qalmax** (Şəki) – tək-tənha qalmaq. – *Qonşu:n arvadının uşağı gedənnən so:ra anqut qalıf.* **Anqutu çıxmax** (Çənbərək, Füzuli, Qarakilsə) – həddindən artıq arıqlamaq. – *Gedənin dannanmaxdan anqutu çıxıf* (Füzuli).

**ANQUTBOĞAZ** (Bərdə) – çox arıq, boğazı incəlmiş, uzunboğaz (adam). – *Yazıx anqutboğazın biridi, nə canı var ki?*

**ANNAĞLI** (Bakı) – mərifətli, qanacaqlı. – *Namxuda, bu uşağ nə annağlıdu.*

**ANNAX** (Şəmkir) – qanacaq, mərifət. – *Onda heş annax, mərifət nişanı yoxdu.*

**AŊRI** (Gəncə, Qazax, Şəmkir, Tovuz) – b a x **aŋarı.** – *A çovan, aŋrıya itin qabağına dur, atdılar keşşin* (Şəmkir).

**AŊRI-BƏRİ** (Tovuz) – b a x **aŋarı** – **bəri.** – *Uşaxlara bir az aŋrı-bəri almışam.*

**ANŞIRTMAX** (Zəngibasar) – başa salmaq, anlatmaq.

**ARA** (Cəbrayıl, Zəngibasar) – gah. – *Ara oxuyur, ara da yazır* (Zəngibasar).

**ARAÇAR** (Ordubad) – taxtaya bəzək vurmaq üçün dülgərlikdə işlədilən kiçik rəndə. – *Ussa qəpinin bəzəyin araçarnan düzəldir.*

**ARAĞAŞDAMMAX** (Çənbərək) – işıqlanmaq. – *Ay Hajalı, arağaşdanıf, gə gedəx'.*

**ARAĞNANƏ** (Lənkəran) – nanə cövhəri. – *Arağnanə sancının dərmanıdı.*

**ARAXÇI-SORAXÇI** (Qazax) – yersiz sorğu-sual edən. – *Söylü qarı yaman araxçı-soraxçıdı.*

**ARAL** (Təbriz) – sütun. – *Bi ağaşdan iki-üş aral çıxırdı.*

**ARALIĞ** (Kürdəmir) – boyunbağının ortasına salınan qiymətli bəzək şeyi. – *Bu boyunbağının aralığı çox baha alınıb.*

**ARALIX** I (Qazax, Şəmkir) – hər tərəfi su ilə əhatə olunan quru yer, adacıq. – *Malı aralığa buraxmışıx* (Qazax); – *Aralıxda yaman odun var, gedif gətirməy isdi:rəm* (Şəmkir).

**ARALIX** II (Şəmkir, Zəngibasar) – mərz, iki zəminin, iki evin arası. – *Gedə atı aralıxda otardığı yerdə yedəyinnən qaçırdıf* (Şəmkir); – *Bizim yerin aralığı burdandı* (Zəngibasar).

**ARALIX** III (Çənbərək) – kənddə adamların yığışıb söhbət etdikləri xüsusi yer. – *Camahat yığılıf aralığa.*

**ARAN** (Dərbənd) – tövlə. – *Malları sal arana, qaçar;* – *Hamı heyvannarı salıb aranın qapısın ürt.*

**ARANBASAR** I (Ordubad) – aran, düzənlik. – *Aranbasar yerrərində çeşməni külüngnən çıxarallar.*

**ARANBASAR** II (Meğri) – yaylaqla aran yerlər arasındakı ərazi. – *İndi aranbasarda heyvan saxlamazdar bu issiynən.*

**ARANÇI** (Qazax) – biçin işlərini qurtaranadək yayda aranda qalan adam. – *Arançılar piçinnən soŋra gələllər.*

**ARAN-SARAN** (Bakı, Salyan) – çox az, az-maz, azca, ötəri. – *Bu ö:n tikilmegi aran-saran yadıma gəlir;* – *Aran-saran yadımda qalıv* (Salyan); – *Sona yadıma lap aran-saran gəlir* (Bakı).

**ARAOTU** (Qazax) – yeyilən yabanı bitki adı. – *Afərin, dur get, araotu yığ gəti.*

**ARASI** (Qax) – alət.

**ARASSUYU** (Tovuz) – əkinin yaz suyu. – *Əkinin yaz suyuna arassuyu, qış suyuna şumsuyu deyərix'.*

**ARBA** (Cəbrayıl, İmişli) – bərabər. – *Cıdırda boz atnan sarı at arba gedirdilər* (İmişli); – *İkisi də arba gəldilər* (Cəbrayıl).

**ARDANIŞ** (Çənbərək) – ağac adı. – *Yaman ardanış biter bu dərələrdə.*

**ARDO:** (Salyan) – addım. – *Ardo:i bö:g olan at yegin olar.*

**ARĞAC: ARĞAC KEÇMƏK** (Füzuli, Salyan, Şəki) – təsiri keçmək. – *Bı arğac sənnən keşdi* (Salyan); – *Nağarmısıssa, arğaş sizdən keçitdi* (Şəki); – *Gənə arğaş sənnən keşdi* (Füzuli).

**ARĞALI** I (Culfa, Qazax, Naxçıvan, Ordubad, Zəngilan) – vəhşi qoç. – *Oyçu Mansır bir arğalı vurmuşdu;* – *Arğalı kimi mələdi* (Qazax); – *Arğalı yaman bijdi, onu hələm-hələm vurmağ olmır* (Zəngilan); – *Mən arğalı görmüşəm, irəngi göyümsoy olordu, özü də qəyalarda olordu, buynuzdarı da çox uzun, yaxşı qətiyyətdi olordu* (Qazax).

**ARĞALI** II (Qazax) – yaraşıqlı, gözəxoş (inək). – *Arğalı inəyim var.*

**ARĞAZ** (Qazax, Sabirabad, Şəmkir, Tovuz) – arıq. – *Arğaz adam tərrəməz* (Sabirabad); – *Quru Xalıx arğaz adamdı;* – *İndi ad qoyuflar ona Xalıx, bir az arğazdı da, ad qoyuflar Quru Xalıx* (Qazax); – *Əpkər arğaz adamdı bu kətdə* (Tovuz); – *Arğaz adamdı səni kimi* (Şəmkir).

**ARXA** (Qazax, Şəmkir) – nəsil. – *Beş arxadı biz sırxanadan istifa:də ele:rdix';* – *Yeddi arxa dolanannan bəri görüşüf* (Qazax); – *Onun yeddi arxa dolanına nəhlət, bizim öymüzü yıxdı, əlimizi heçə-puça çıxardı* (Şəmkir).

☐ **Arxa gəlməx'** (Ucar) – qorxu gəlmək, hərbə-zorba gəlmək, hədələmək. – *Mənə arxa gəlmə, sənnən qorxmuram.*

**ARXAJ** I (Füzuli) – arağac. – *Bizim qurd arxajdı.*

**ARXAJ** II (Başkeçid, Borçalı) – ilin isti fəsillərində sürü və naxırların açıq havada yatdığı müəyyən yer.

**ARXANA** (Qax) – pendir suyu.

**ARXANC** (Daşkəsən) – həyətyanı sahə. – *Arxanca qartof əkerix', qardalı əkerix'.*

**ARXAŞ** (Gəncə) – bax **arxaj** II. – *Beyjə heş xəvərimiz olmuyuf, qoyun arxaşdan yellənif, özünü meşiyə verif, çaqqal üş toğlu yaralıyıf.*

**ARXIT** (Füzuli, Oğuz, Şəki) – b a x **alxıt.** – *Arxıdı yu, sora qoy* (Şəki).

**ARXUT** (Füzuli, Oğuz, Şəki) – b a x **alxıt.**

**ARI** (Ağdam, Füzuli, Qazax, Quba, Şahbuz, Şəmkir, Tovuz) – bax **ari.** – *Aydan arıyam, sudan duruyam* (Şahbuz); – *Aydan arı, sudan duru* (Qazax); – *Aydan arı, günnən duru* (Tovuz).

**ARICIL** (Göyçay) – arı saxlamağa həvəskar.

**ARIĞ-ƏNİZƏ** (Ordubad) – arıq, cansız. – *Ə, arığ-ənizə, kəs səsi:*

**ARIQIRAN** (Başkeçid) – quş adı.

**ARILIX** (Şahbuz) – arıxana, arı səbətləri qoyulan yer. – *Səbəti apar qoygunan arılığa.*

**ARIMMAĞ** (İmişli) – təmizlənmək, bəzənmək, yuyunmaq. – *Toy olmamış görürsən, qızlar yuyunuf arınıllar.*

**ARITDAMAĞ** (Quba, Xaçmaz) – təmizləmək. – *Ağacın pöhrələrin arıtdaduğ* (Quba); – *Aş pişirmağa dügi arıtdaduğ* (Xaçmaz).

**ARITDAMAX** (Qazax, Şəki) – b a x **arıtdamağ.** – *Yetim bir çuvux kəsdidi, arıtdadı, xanıma verdi* (Qazax).

**ARİ** (Bakı, Xaçmaz) – təmiz, saf. – *Aydan ari, sudan duri* (Bakı).

**A:RKİ** (Tərtər) – o biri.

**ARMAX** (Şəmkir) – həvəskar, həvəsli. – *Mən işkiyə bir o qədər armax dəyiləm, amba yeri tüşəndə ayax gözdüyərəm.*

**ARMIDAVAT** (Füzuli) – yaz suyu. – *Zəmiyə üş su vırardıx: çilə suyu, armıdavat, bir də dən suyu.*

**ARNA** (Şəki) – ədavət.

**AROY** (Gəncə, Zəngibasar) – paltar yuyulduqdan sonra qalan çirkli su; murdar su. – *Ağız, paltarı yuyuf, aroyu niyə hayata töküsən* (Gəncə).

**ARPA-BUĞDA** I (Tabasaran) – göy qurşağı.

**ARPA-BUĞDA** II (Qazax, Şəmkir) – növbə ilə oğlan və ya qız (doğmaq, olmaq). – *Sona arpa-buğda doğor, nişil oğlan doğdu, biyil də qız doğuf* (Qazax); – *Navatın uşağı həmişə arpa-buğda olur, gəh oğlan, gəh qız doğur* (Şəmkir).

**ARRAMAX** (Gəncə, Qazax, Şəki, Şuşa) – utanmaq, həya etmək, xəcalət çəkmək. – *Xalxdan arraneram, yoxsa bu işə heş boyun qoymaram* (Qazax).

**ARSALA** (Qazax, Şəmkir) – heyvanın budunun aşağı hissəsi. – *Meytixan qoynun arsalasını qanğırdı qırdı* (Qazax); – *O arsalıyı gəti, bir tişimə çekim* (Şəmkir).

**ART** (Göyçay) – arx.

**ARTIMA** I (Ağdam) – balkon, eyvan.

**ARTIMA** II (Ağdam) – uşaq oyunu adı.

**ARTIMA** III (Ağdərə) – balaca pilləkən.

**ARTIMCIL** (Göyçay) – artımlı. – *Darı çox artımcıl əkindi.*

**ARTIRMA** I (Ağdam, Şəki) – b a x **artıma** I.

**ARTIRMA** II (Şəmkir, Yevlax) – b a x **artıma** II.

**ARVANA** (Füzuli) – boz dişi dəvə.

**ARVATDAMMAX** (Cəbrayıl) – *məc.* lovğalanmaq. – *Arvatdamma, a:z, otu yerində.*

**ARZIMAN** (Qazax) – dərd, intizar, nigarançılıq. – *Uşağın arzımannı çəkerəm, gəlif çıxmadı.*

**AS** (Şahbuz) – səs. – *Uzaxdan asın allam.*

**ASALA** (Çənbərək) – b a x **arsala.** – *Qoyunun asalasın fətirə bük'düx', çölö:tüdüx'.*

**ASDA** (Ucar) – xuruş. – *Aşın yanında asda da var.*

**ASDAL** (Meğri) – palıd ağacının gövdəsində əmələ gələn ot. – *Çıxeyəm palıda ki, asdal yığım.*

**ASDAMMAX** (Şəmkir) – asi olmaq. – *Asdamma, a bala, asdamma.*

**ASGÜLÜ** (Lənkəran) – çiçək adı. – *Asgülü susuzduğunnan yandı.*

**ASIX** (Qax) – qaşqabaq.

**ASI-KİFİR** (Yevlax) – günahkar. – *Məni ası-kifir eləmə.*

**ASIRĞA** (Xanlar) – dərman bitkisi adı. – *Asırğanın kökünü qurudullar, döyüllər, qəndə qatıf ye:llər, qurdu tökür.*

**ASKİFİR: ASKİFİR OLMAĞ** (Kürdəmir, Salyan) – yorulmaq. – *Şə:rdə səni axdarmağdan askifir oldım* (Salyan).

**ASMA** I (Cəbrayıl, Qazax, Şəmkir) – saxlamaq üçün dərilib asılan meyvə. – *O asmadan bir nar qopart, yə:x'* (Şəmkir).

**ASMA** II (Şahbuz) – əl-üz dəsmalı asılan yer, asqı. – *Asmada məhraba olar.*

**ASMALI** I (Culfa) – piti. – *Bu gün yaxşı asmalımız var.*

**ASMALI** II (Lənkəran) – qarpız və yemiş asmaq üçün qamışdan toxunmuş bağ.

**ASMALIĞ** (Biləsuvar, Cəbrayıl, Salyan) – içinə qaşıq, çəngəl, bıçaq qoymaq üçün ipdən toxunmuş torba. – *Asmalığdan qaşığ götür* (Biləsuvar); – *Qaşığları asmalığa qoymışam* (Salyan).

**ASRAL** (Şəmkir) – kəndirotu. – *Asraldan kəndirnən yağ əmələ gəlir.*

**ASSI** (Dərbənd) – hirsli, acıqlı (adam). *Bizin Məmmədağa assı adamdı.*

**ASTAM** (Zaqatala) – b a x **astamur.** – *Xamırı astamnan kəliyırıx.*

**ASTAMAT** (Ordubad) – tütün növü adı. – *Astamat yaxşı çəhməli tütündi.*

**ASTAMUR** (Zaqatala) – ərsin. – *Xəmiri astamurnan qazısana.*

**ASTARPAMBI** (Zaqatala) – toyun birinci günü.

**ASÜKÜN** (Zəngibasar) – naşükür. – *Adam bu qədər asükün olmaz.*

**ASVA** (Çənbərək) – ərzaq. – *Asvamız biyil çoxdu.*

**AŞ** I (Gəncə) – dərini və gönü aşılamağa məxsus maddə. – *Dəriləri aşa qoymuşdux.*

**AŞ** II (Basarkeçər) – əriştə. – *A Balle, aş pişiribənə?*

**AŞAFATMA** (Yevlax) – qövsi-qüzeh.

**AŞD** (Salyan) – dinc, sakit. – *Qəfər, aşd otı!*

**AŞDAMAX** (Cəbrayıl, Təbriz) – gönü duzlu suda aşılamaq. – *Göni aşdamışux* (Təbriz).

**AŞDIRIMÇA** (Bakı) – dilli (adam).

**AŞXA** (Zəngilan) – quru otun heyvan yeyəndən sonra qalan qırıntıları. – *Avxırdakı aşxanı tök ə:nə, heyvannara təzə ot qoy.*

**AŞID** (Salyan) – b a x **aşd.** – *Bayram, aşıd qal; – Çingiz, aşıd dur.*

**AŞIĞ** (Ucar) – düymə.

**AŞIĞÇI** (Salyan) – musiqi üçlüyü. – *Aşığçılar olmasa, toy da olmaz.*

**AŞIPİŞİ** (Basarkeçər) – qonaq-qonaq (uşaq oyunu adı). – *Ana, aşıpişi oyunurdux.*

**AŞIRMAX** I (Gəncə, Qazax, Şəmkir) – *məc.* malı və ya pulu dağıtmaq, yersiz xərcləmək. – *Fərasətsiz oğuldu, atasının varyoxunu aşırdı, lüt qaldı* (Gəncə).

**AŞIRMAX** II (Ağbaba) – *məc.* yemək. – *Ə, bu çörəyi aşır.*

**AŞIXLAMAX** (Ağdam) – bəyənmək. – *Məsələn, qızı aşıxlıyıf hə:sin alırıx.*

**AŞIXLI** (Qazax) – heyvan ayağının diz hissəsi. – *Yeməyə aşıxlı yaxşıdı.*

**AŞQAL** (Şəmkir) – arıq, döllüyə yaramayan (qoyun). – *Bu dağda nə ki aşqal qoyunum vardı, hamısını satdım.*

**AŞQALLAMAX** (Çənbərək) – sürünün içindən arıq qoyunları seçmək. – *Çovan sürüyü aşqalladı.*

**AŞQALLAMMAX** (Şəmkir) – xarab olmaq, pozulmaq, yaramaz olmaq (qoyun haqqında). – *A balam, aşqallanıf gedif, onnan saŋa qoyun olmaz, sat, başınnan rədd elə.*

**AŞQARA** (Oğuz) – xuruş, plovun qarası. – *Çığırtmalı aşın aşqarası ayrıdı, qo:rmalı aşınkı ayrı.*

**AŞNABUB** (Bakı) – hop-hop. – *Qaya:n altınnan aşnabub uçatdı.*

**ATAĞACI** (Ağdam, Şəmkir) – 1. dabbağxanada gönün suyunu sıxmaq üçün işlənən ağac alət (Ağdam); 2. damın üzərinə döşənən nazik ağac (Şəmkir). – *Öyün üstünü örtməkçün bir araba atağacı aldım.*

**ATAĞAR** I (Şəki) – ağac adı.

**ATAĞAR** II (Zaqatala) – alçaq ağaclı meşələr.

**ATAĞIZDI** (Çənbərək) – *məc.* sözü keçən, sözü ötən. – *Atağızdı yə:si var Məsiniŋ, saxlasın dayna.*

**ATALAMAX** (Ordubad) – yumaq. – *Əkin vaxdı biz əvvəlcən yeri suynan atalayırıx.*

**ATALIX** (Şəki) – başlıq (keçmişdə qız köçərkən atasının oğlan evindən aldığı pul və ya qızıl). – *Qızın atası diyir bi bu qədər sənnən atalığ alıcam.*

**ATAVÜL** (Zaqatala) – 15-20 dərzdən ibarət taya. – *Bafaları atavülə yığışdırın.*

**ATDAĞAŞ** (Qazax) – uşaq oyunu adı. – *Ə, gəlin bir atdağaş oynıyax.*

**ATDAMMAX** (Şəki, Zəngibasar) – yola düşmək, getmək. – *Pilo-çilonu yidilər, işdilər, so:ra ata minəsidi, atdanasıdı; – Gelin iki günə kimi atdanasıdı; – Toyiydi qızın, savax atdã:r* (Şəki).

**ATDAMPAÇ** (İmişli) – arxın dar yeri. – *Burda yaxşı atdampaç var.*

**ATDANDIRMA** (Şəmkir) – kənd toylarında atlılar ata minən zaman zurna ilə çalınan hava (marş). – *Əyə, Tünü, qonaxlar atdanır, bir atdandırma çal!*

**ATDARDAKİMİNATI** (Tərtər) – uşaq oyunu adı.

**ATDI: ATDI LOBYA** (Ağdam, Şəki) – ağaca və ya kola dırmaşan uzun sarmaşıqlı lobya. – *Atdı lobya saralıf, yığmax lazımdı* (Şəki). ◊ **Atdı yerpənəx′** (Şəki) – şaxa dırmaşan uzun taglı xiyar.

**ATDIBAŞ** (Göyçay) – uşaqların qarğıdan qayırdıqları oyuncaq at. – *Alginan bu qarğını, get özünə atdıbaş qayır, oynagınan.*

**ATDIX** (Şərur) – qırılmış, parçalanmış buğda dənəsi.

**ATDOL** (Kəlbəcər) – bitki adı.

**ATDURUM** (Bakı) – zirək, dəcəl, hər şeyə baş qoşan. – *Qız dögür a, atdurumdu, boşdan tük aparır.*

**ATGÖTÜ** (Basarkeçər) – yabanı bitki adı. – *Ə, siyirquyruğı əvəzinə atgötü yığmısan.*

**ATILAMA** (Gədəbəy, Şəki) – ovduq (su ilə qatığın qarışığından hazırlanmış sərinləşdirici içki). – *Yanğıya qatıq atılaması;* – *Oynü <hər gün> atılama içməsəm, durammaram yayda* (Gədəbəy).

**ATILAMAX** (Qarakilsə, Şəki) – nehrə çalxamaq. – *Qatıx yığılıf qalıtdı, atılanasıdı* (Şəki).

**ATICI** (Qazax) – keçəçi. – *Atıcı qəlif düzəldər.*

**ATICILIX** (Qazax) – keçəçilik. – *Ləzgi Vəli atıcılıxnan dolaner;* – *Bu geder atıcılığ örgəner.*

**ATİTİRƏN** (Borçalı) – quş adı. – *Atitirən də quşdu.*

**ATQAYTARAN** (Qazax) – quşqonmaz, iritikanlı bitki adı. – *Atqaytaran batdığı yer çox yaman ajışer.*

**ATQULAĞI** I (Qazax) – bir bərabərdə, müvazi, qoşa, yanaşı. – *Hələ ki dəli Hasannan Cırıxburun atqulağı gedellər, sonra görəy hası ötəjəy.*

**ATQULAĞI** II (Qarakilsə) – həmyaş, yaşıd. – *Mənnən Mahacir atqulağıyıx.*

**ATQULANÇARI** (Qazax) – qulançar (yeyilən yabanı bitki adı). – *Souxbulax vazqalında basajır gələndə 10 kom atqulançarı satdım.*

**ATQUŞU** (Sabirabad) – göycəqarğa. – *Atquşunun əti öskürəyə dərmandı.*

**ATQUVANİ** (Xaçmaz) – toylarda at çapılan zaman çalınan hava. – *Bunnan qabağa həmşə tuylarda atquvani çaldurub cavannar atdarin hücətə sürətdilər.*

**ATLAMA** (Kəlbəcər, Qazax, Qəbələ) – b a x **atılama.** – *Atlama ürəx′ sərnidən şeydi* (Qazax); – *Gəlinbajı, ürəyim yanır, mənə atlama hazırra* (Qəbələ).

**ATMA** (Kürdəmir, Ordubad) – evin üstünə qoyulan ağac, tir. – *Əvin üsdə atılan ağaca atma deyərıx* (Ordubad).

□ **Atma çay** (Xaçmaz) – şirin çay. – *Bir atma çay ver, içim.*

**ATMACALAMAX** (Çənbərək) – dağıtmaq. – *İfan bir ay döy geydiyi köynəx′, gənə atmacalanıf.*

**ATMƏY** (Cəlilabad) – üyütmək. – *Də:rmana on dağiyəçən fikir verdim, yavaş atey.*

**ATUDAN** (Şərur) – acgöz. – *Onun elə atudan uşağı var ki.*

**ATUF** (Qax) – papiros.

**AULU** (Qax) – çobanların daşla oynadıqları oyun adı.

**AUPAY** (Qax) – çobanların bişirdikləri iri qarğıdalı xingalı. – *Bi də qorıysın çobanlar aupay pişirip, hərəyə dört-beş paylıylar.*

**AVA** I (Hamamlı) – ipdən toxunan gödək geyim. – *Nənəm maŋa ava toxuyur.*

**AVA** II (Çənbərək) – b a x **aba** I.

**A:VA** (Qax) – gicgah. – *Senin a:vasına elə yumrux çallam gözünnən çirə atılar.*

**AVAD** (Göyçay) – quru kol-kos.

**AVADANNIĞ** (Kürdəmir) – məhsuldar yer. – *Nar kolpalarının yeri avadannığdı deyni, biyil yaxşı boy atıblar.*

**AVA-QAVA** (Mingəçevir, Şəki) – forma, görünüş.

**AVAL** I (Qax) – məhəllə.

**AVAL** II (Göyçay, Qazax) – əngəl, bəla, çətinlik. – *Bu comuş aval oldu bizə, ot yemer;* – *Ə, sən də maŋa aval olduŋ* (Qazax); – *Tülkü toyuxlara aval olub* (Göyçay). ◊ **Avala tüşməx′** (Qazax) – çətinliyə düşmək. – *İşim avala tüşüf.*

**AVAR** (Bakı, Gədəbəy, Salyan, Zəngilan) – 1. qamış növü adı (Salyan); 2. quru ot, küləş, çırpı (Bakı, Gədəbəy, Zəngilan). – *Bir əz avar yığın, alav qoyax* (Zəngilan); – *Adə, birez avar kötginən, təndiri otdiyeg* (Bakı); – *Ay İrva:m, avar yığğınan pərdiyə;* – *Ə:, arvat, avarsız da torpaxlanarmı pərdi?* (Gədəbəy)

**AVARÇI** (İmişli) – avara. – *Sə:n oğlun yap avaraçı uşağdı.*

**AVARAKAR** (Ordubad) – işsiz. – *Həsən, niyə avarakar gəzirsən?*

**AVARAQULİ** (Bakı) – boş-boş gəzən, işsiz. – *Əlpaşa avaraqulinin biridü.*

**AVAZIMAĞ** (Bakı, Kürdəmir, Şamaxı) – rəngi qaçmaq, solmaq, soluxmaq.

**AVAZIMAX** I (Gədəbəy, Gəncə, Qazax) – bax **avazımağ.** – *Bir bax, gör irəngi nejə avazıyıfdı* (Gəncə).

**AVAZIMAX** II (Çənbərək) – taxılın biçin vaxtını keçirmək.

**AVC: AVC ELƏMƏXʹ** (Meğri) – inkişaf etmək. – *Yeri peyinniy olduğunna soğan yaxşı avc eliyir.*

**AVDAL** (Gəncə, Şəki, Şəmkir) – axmaq, sərsəri. – *Avdalın biridi, u:n sözünə inamma* (Şəki); – *Özünü itirif, laf avdal kökünə düşüf* (Şəmkir).

**AVDALQAJI** (İmişli) – başdansovdu. – *Avdalqaji işin xeyiri olmaz adama.*

**AVECƏ: AVECƏ OLMAX** (Meğri) – qoşqu heyvanlarını növbə ilə işlətmək. – *Avdıllaynan mən, Şəxsıvarınan da sən avecə ollux.*

**AVXARRAMAX** (Cəbrayıl) – itiləmək. – *Usda baltamızı yaxşı avxarrıyıb.*

**AVIC** (Böyük Qarakilsə) – 400 qramlıq ölçü qabı.

**AVIR** (Gədəbəy) – *məc.* geyim, paltar. – *Bi:l qoyune:dənnən avır qalme:f məndə;* – *Avrımız da olmadı, mərəkə: çıxax irəli əyamlar.*

**AVIRFMALI** (Kəlbəcər) – içli. – *Avırfmalı kömbə bişirdik.*

**AVIRIX** (Cəbrayıl) – əmanət. – *Tərəkəmələr çubuğu avırıx verillər.*

**AVIRRATMAX** (Gəncə) – *məc.* üst-başını düzəltmək, təzə paltar geydirmək. – *Büyün bizim gedəni apardım bazara, avırratdım.*

**AVIRTDAX** (Cəbrayıl, Qarakilsə, Meğri) – kök, dolu (adam). – *Uşax vaxdı Əhməd avırtdağıdı* (Cəbrayıl).

**AVIRTDAXLAMAX** (Qarakilsə) – kökəlmək.

**AVIRTMAC** (Qubadlı) – xörək adı. – *Avırtmaca bizi qonağ elə.*

**AVLAMA** (Füzuli, Cəbrayıl) – məhsulu başdansovdu, ordan-burdan yığma. – *Təzə açmış pambığı avlama yığıllar* (Cəbrayıl).

**AVLAMAX** (Cəbrayıl, Qarakilsə) – məhsulu başdansovdu, ordan-burdan yığmaq. – *Bırdan-ordan avlayın, çıxsın gessin* (Qarakilsə).

**AVMA** (Ağcabədi) – ərinmiş yağla pendirin qarışığı. – *Ay bajı, ma: avma ver.*

**AVRUĞ** (Füzuli) – çay qırağında olan qamışlıq. – *Avruğa getmişdixʹ.*

**AVSAR** (Füzuli) – dəvənin noxtası. – *Dəvənin başına vurulana avsar, atın başına vurulana çılav deərixʹ.*

**AVSARRAMAX** (Füzuli) – dəvəni noxtalamaq. – *Dəvəni avsarradım.*

**AVŞALA** (Qax) – çömçə. – *İrəlilərdə avşala diyərdıx, hindi çömçə.*

**AVŞAR** I (Füzuli) – südü çox olan (qoyun). – *Avşar qoyundu.*

**AVŞAR** II (Qarakilsə) – balaca xəncər. – *O, həmişə özüynən avşar gəzdirərdi.*

**AVŞARRAMAX** (Ağcabədi, Füzuli) – 1. sağmaq (Füzuli). – *Qoyunu avşarradıx;* 2. südün hamısını sağmaq üçün heyvanın yelinini ovuşdurmaq, sıxmaq (Ağcabədi). – *Qoyunun yelininnən tutuv iki əlinnən avşarrasan, südü çox çıxar.*

**AVŞATMAX** (Qax) – qəlbini sındırmaq, qırmaq. – *Menin ürəgini avşatıp.*

**AYAĞALTI** I (Biləsuvar, Kürdəmir, Laçın, Salyan) – pilləkən. – *Ayağaltı qayıtdırmağa taxda almışam* (Biləsuvar).

**AYAĞAŞMA** (Bərdə) – valideynin ərə gedən qızının evinə ilk gedişi. – *Qızı ərə verənnən so:ra ayağaşmıye:dirixʹ.*

**AYAĞÇİ** I (Lənkəran) – qapı-qapı gəzib mal alıb-satan, xırdavatçı, çərçi.

**AYAĞÇİ** II (Lənkəran, Salyan) – 1. xeyirdə və şərdə xidmət edən adam (Lənkəran); 2. kuryer (Salyan). – *Ayağçimiz zirəng adamdu.*

**AYAĞÜSTÜ** (Quba) – məclisdə qonaqlara xidmət edən adam.

**AYAX** (Naxçıvan) – uzaq, kənar. – *Naxçıvan mərkəzdən ayaxdı.*

**AYAXLI** (Qazax) – yuxayayan. – *Ayaxlıda xamır yayıler.*

**AYALĞA** (Bərdə, İmişli, Şəmkir) – ləqəb. – *Onun ayalğası Çəpərdələndi* (Şəmkir); – *Çaqqal Cəfərin ayalğasıdı* (Bərdə).

**AYALMASI** (Oğuz) – cır alma. – *Ha bizim tərəflərin hamısında ayalması olur.*

**AYAMA** (Culfa, Naxçıvan, Ordubad, Şahbuz, Şərur) – ləqəb. – *Bu kənddə hamının ayaması var* (Şərur).

**AYAMAĞ** (Kürdəmir) – axtarmaq, yada salmaq. – *Ötən günüyü ayason yaxşıdı; – Heç bizi ayamırsan.*

**AYANAT** (Culfa, Kürdəmir, Sabirabad, Şərur) – kömək. – *Hökmət mənə ayanat eliyir* (Culfa).

**AYANDA-SAYANDA** (Meğri) – hərdənbir, ayda-ildə. – *Haspulat ayanda-sayanda gəler Əldəriyə, Bakıda oler.*

**AYARPARA** (Qazax) – qadınların yaxaya, boyuna taxdıqları zinət şeyləri.

**AYAR** I (Borçalı) – ürəyiaçıq, gülərüzlü. – *Mənim ayar adama xoşum var.*

**AYAR** II (Cəbrayıl, Oğuz) – tez seçən, müəyyənləşdirən. – *Sə:n gözün ayardı, bı neçə kilov olar?* (Cəbrayıl).

**AYAR** III (Şəki) – məhsuldar. – *Qurda yaxşı baxıllar, doydurullar, onda ayar olur.*

**AYARBAZ** (Bərdə, Qarakilsə) – zarafatcıl. – *Ayarbaz adam adamı güldürər* (Bərdə).

**AYAZDAMMAĞ** (Bakı) – soyuqlaşmaq (hava haqqında). – *Havalar birdən ayazdanıb.*

**AYAZIMAX** I (Ağdam, Borçalı, Qazax, Mingəçevir, Şuşa) – xəstəlikdən ayılmaq. – *Beş aydı yaterdim, naçaxdım, yenijə ayazımışam* (Borçalı).

**AYAZIMAX** II (Cəbrayıl, Zəngibasar) – sakitləşmək, açılmaq (hava haqqında). – *Deyəsən, yağış ayazıdı* (Zəngibasar); – *Hava ayazıyır* (Cəbrayıl).

**AYBA** (Yardımlı) – yeməli yabanı bitki adı.

**AYBABAQORXURAM** (Ağdam) – uşaq oyunu adı.

**AYBOĞAN** (Çənbərək) – ağcaqanada oxşar xırda cücü. – *Qamışdıda gün batcağına ayboğan adamın gözünə dolur.*

**AYDIRMAX** (Kürdəmir) – demək, söyləmək, anlatmaq. – *Anasına aydırdı ki, o qızı isseyir.*

**AYDİTDİ** (Bərdə) – uşaq oyunu adı. – *Uşaxlar ayditdi oynuyur.*

**AYI** (Ağdərə) – oxu arabanın altında (arxa hissədə) saxlamaq üçün işlədilən taxta. – *Qavaxdakına qır* (b a x **qır** III) *de:illər, daldakına ayı.*

□ **Ayı çıxmax** (Cəbrayıl) – iş-işdən keçmək, işi bitmək. – *Arvadın ayı çıxıf, dirilən döyi.*

**AYIBALASI** (Ağdam, Bərdə, Gədəbəy, Kürdəmir, Tovuz) – çiy kərpic. – *Ayıbalasınnan tikilən öyüŋ andır qalsın* (Bərdə).

**AYICACAĞI** (Şəmkir) – yabanı bitki adı. – *Ayıcacağın bizdər yemirəx′.*

**AYIFINDIĞI** (Şuşa) – 1. yabanı ağac adı; 2. həmin ağacın meyvəsi. – *Ayıfındığı qəşəx′ yeməli meyvədi, həmi də yağlıdı, şirindi.*

**AYIL** (Dərbənd) – kəndir, bağ, ip. – *Uşağlar ayılnan odun ayılleyıb gətirdilər.*

**AYILAŞMAX** (Şəmkir) – zorbalaşmaq, iriləşmək. – *Dadaşın kiçiy oğlu nə yaman ayılaşıf, heş tanıyammadım.*

**AY-ILDIZ** (Bərdə, Füzuli) – qiymətli parça adı. – *Mə:m qızıma bir dəs ay-ıldızdan paltar veriŋ* (Füzuli).

**AYILLAMAĞ** (Dərbənd) – şələ bağlamaq. – *Odun ayıllıyıb gətirətdi uşağlar.*

**AYIL-MAYIL** (Qazax) – heyran. ◊ **Ayıl-mayıl olmax** – heyran olmaq. – *Qız elə gözəldi, adam baxanda ayıl-mayıl olor.*

**AYIMMAX** (Göyçay) – dincəlmək.

**AYINDIRMAĞ** (İsmayıllı) – utandırmaq. – *Adə, uşağı ayındırma.*

**AYIN-ŞAYIN** (Meğri, Şərur) – arxayın. – *Ayın-şayın otumuşdux, çörex′ yeyirdix′, əmir Ərşət atdısı töküldü kəndə* (Meğri).

**AYIRTDAMAX** (Qazax, Şəmkir) – b a x **ağartdamax.** – *Bir əz düyü ayırtda, aş pişirəx′* (Şəmkir); – *Ay bala, get bu yerimizin pöhrənini ayırtda;* – *Düyüdə suluf olor, de:rix′ kin, bu düyünün sulufun ayırtda* (Qazax).

**AYIRTMAÇ** (Ağdaş) – pöhrə.

**AYIŞMAX** (Qazax) – artmaq, şiddətlənmək (xəstəlik haqqında). – *Naxoşun xəstəliyi ayışer, ölör;* – *Şiş gün-günnən qalıxsa <qalxsa>, ona ayışmax de:llər.*

**AYQAX** I (Qax) – bələdçi.

**AYQAX** II (Naxçıvan) – təlxək. – *Keçmiş vaxda şahların yanında ayqax olardı;* – *Bu ayqax nə qədər söz deyir, Şa:bbas gəlmir.*

**AYQUL** (Yevlax) – laqeyd.

**AYLAMMAĞ** (Quba) – gəzib-dolanmaq, hərlənmək. – *Gidağ bir az aylanağ gəlağ.*

**AYLIĞA** (Borçalı) – b a x **ayalğa.** – *Bu kətdə aylığası olan çoxdu.*

**AYLIXÇI** (Şəki) – bir ayda 30 əməkgünü alan.

**AYMAĞ** (Füzuli) – söyləmək, demək. – *O mã: söz aydı.*

**AYMALAMAX** (Kürdəmir, Tovuz) – basmarlamaq, boğuşmaq. – *Qoyma, ittər bir-birini aymalıyıf öldürər* (Tovuz).

**AYNA** I (Bakı, Gəncə, Qazax, Şəmkir) – 1. pəncərə (Gəncə). – *Havalar soyuxlaşır, usda tafseydıx aynaları saldırardıx;* 2. şüşə (Bakı, Qazax, Şəmkir).

**AYNA** II (Ağdərə) – əlin içi. – *Əlimin aynasına tikan batıf.*

**AYNAGÜL** (Xanlar, Şəmkir) – pəncərənin şüşə salınan yeri. – *Aynanı aynagülə salıllar, soyux gəlmir* (Şəmkir); – *Aynagülüyə ayna salıllar kın, işıx tüşsün öyə* (Şəmkir).

**AYNAX** (Ağcabədi, Bərdə, İmişli, Şuşa) – məzəli, şən, zarafatcıl. – *Bu kətdə Yəhya aynaxdı* (Ağcabədi); – *Aynax Həsən bizi güldürdü* (Şuşa).

**AYNAXLAŞMAĞ** (İmişli) – şən olmaq, şənlənmək. – *Tay aynaxlaşıf sənin bu oğlun, qavax qaradimməzdi.*

**AYNAMAX** (Oğuz) – artmaq. – *Külfət aynıyıf, hindi hamı işdi:r.*

**AYNID** (Çənbərək) – eybəcər, çirkin. – *Osman aynıd adamdı.*

**AYNIMAX** (Qazax) – sağalmağa başlamaq, yaxşılaşmaq. – *Əmim xəsteydi, indi yuaş-yuaş aynıyer.*

**AYNİMAĞ** (Xaçmaz, Şəki) – inkişaf etmək (bitki haqqında). – *Yazda ağajdar aynimağa başdiyədi* (Xaçmaz); – *Lovyə ehmişıx, heç aynimiyi* (Şəki).

**AYPƏRƏX'** (Qazax) – qızıldan və ya gümüşdən qayrılmış yarımdairə şəkilli qadın bəzəyi, aypara.

**AYRANAŞI** (Ağbaba, Masallı, Zəngibasar) – dovğa. – *Yaxşı ayranaşımız var, qonağ ol* (Masallı).

**AYRANQUŞU** (Kəlbəcər) – qazaoxşar çöl quşu adı. – *Ayranquşu ən çox yerə tüşər.*

**AYRANNI: AYRANNI AŞ** (Lənkəran) – dovğa. – *Fərida, patılı taxçadan ver, ayrannı aş bişirim.*

**AYRANNIX** I (Gəncə, Şəmkir) – itlərə ayran tökmək üçün qazılan çuxur. – *Ay qız, ay qız, ayrannığa ayran töx', itdər ajınnan öldü* (Gəncə).

**AYRANNIX** II (Gəncə, Şəmkir) – qarın, mədə (istehza ilə). – *Ayrannığına no:luf, bu qədər yeməy ola:r?* (Şəmkir).

**AYRANVERMƏZ** (İmişli) – xəsis. – *Mı:n xalası ayranverməz arvadıdı, əliyaçığ dö:rdi.*

**AYRASI** (Şəki) – təəccüb. ◊ **Ayrası qalmax** – məəttəl qalmaq. – *Söynün işinə mən lap ayrası qaldım.*

**AYRAZ** (Mingəçevir) – başqa. – *Sənnən ayraz mən heş kəsi tanımıram.*

**AYRƏNAŞI** (Lerik) – b a x **ayranaşı.**

**AYRI-SAYRI** (Xanlar) – başqa, kənar. – *Bir ayrı-sayrı sözü gətdi, ortalığı qatdı.*

**AYYAR-UYYAR** (Oğuz) – uydurma. – *Ayyar-uyyar danışır.*

**AZA** (Lerik) – çöldə qurumuş mal təzəyi. – *Aza yığmağa gedirəm.*

**AZARGƏZDİRƏN** (Şəmkir) – həmişə xəstə olan. – *Zalım oğlu elə quruyuf, laf azargəzdirənə oxşuyur.*

**AZARNƏK** (Ucar) – yarımxəstə, zəif. – *Azarnək adam ağır işdər görəmməz.*

**AZAYLAMMAX** I (Cəbrayıl, Zəngilan) – öz-özünə deyinmək, şikayətlənmək. – *Genə nə azaylannersaŋ, no:luf sã:* (Zəngilan).

**AZAYLAMMAX** II (Meğri) – tənbəlləşmək, tənbəllik etmək. – *Ta:rının ver günü azaylenerəm Mığrıya getməyə.*

**AZAYLAMMAX** III (Çənbərək) – yuxuda sayıqlamaq. – *Keçəmən Mühəmmət beyje yaman azaylandı.*

**AZBAR** (Dərbənd) – həyət. – *Mən gidəndə uşağlar məkdəbin azbarında oyniyeydilər.*

**AZIX** (Qazax) – yol azuqəsi.

**AZIXDIRMAX** (Ağcabədi) – fikrini yayındırmaq, çaşdırmaq. – *Ə:, məni azıxdırma.*

**AZILAMAX** (Çənbərək) – meyvəni əbəs yerə yığıb yerə tökmək. – *Uşağ almıyı başındaja azılıyıp yerə tökür.*

**AZIMCUR** (Sabirabad) – bir az, bir qədər. – *Azımcur oxıyıb-yazmağ billəm.*

**AZIRINQI** (Şəmkir) – azca. – *Maŋa azırınqı pul lazımdı.*

**AZIRQA-AZIRQA** (Ağcabədi) – az-az, azacıq. – *Bu kətdə hər meyvədən azırqa-azırqa var.*

**AZITMAX** (Şəmkir) – azdırmaq. – *Bizi azıtdı, özü gizdəndi.*

**AZIŞMAX** I (Qax, Şəki) – itmək, yayınmaq. – *Gözdən azışan kimi qorxuya düşüy* (Qax).

**AZIŞMAX** II (Qazax) – kəskinləşmək, şiddətlənmək (xəstəlik haqqında).

**AZİXLƏMƏX′** (Meğri) – acıyıb ötmək (xəmir haqqında). – *Ruqiyə, xamır azixliyir, təndirdə durmeçex′, tez gə.*

**AZİŞMAX** I (Şəki) – azmaq. – *Yolu azişmişdim, zornan tapbişəm sizi.*

**AZİŞMAX** II (Şəki) – huşunu itirmək. – *Hağlı azişifdi, gedə danışığını bilmiyi heç.*

**AZQINTI: AZQINTI DÜŞMƏX′** (Ağdam) – azmaq. – *Keşmişdə olur iki uşax, ollar azqıntı düşür, itir.*

**AZMAN** I (Bakı, Ordubad) – iri, çox böyük, nəhəng. – *Bakidə azman öylər tikilir* (Bakı); – *Atam bir azman keçi aldı* (Ordubad).

**AZMAN** II (Ağdam, Bakı, Beyləqan, Borçalı, Cəbrayıl, Füzuli, Qarakilsə, Ordubad, Şamaxı, Zəngilan) – 1. altıillik "qoyun" (Bakı, Beyləqan, Cəbrayıl, Füzuli, Qarakilsə, Ordubad, Şamaxı); 2. dördillik "qoyun" (Ordubad, Zəngilan); 3. qocalmış qoyun, keçi (Ağdam, Borçalı, Füzuli).

**AZNOUR** (Kəlbəcər) – qarınqulu. – *Möysün çox aznour adamdı, heç nəynən doymur.*

**AZPUÇUX** (Xanlar) – azacıq. – *Oradakılar da hamsı köçüf, azpuçux qalan da gələr, orda qalmaz.*

# Bb

**BABA** (Başkeçid, Təbriz, Füzuli) – ata. – *Babam maŋa kitaf alıf* (Başkeçid); – *Get gör, baban gəldimi öyə?* (Füzuli).

**BABAQULU** I (Gəncə) – boz rəngli mərcan. – *Bajımın babaqululları itif.*

**BABAQULU** II (Gəncə) – ilbiz. – *Əyə, babaqulunu niyə öldürürsəŋ, yazıx döymü?*

**BABAYOĞURT** (Gəncə) – yalançı pəhləvan. – *Sən nə babayoğurt kimi atılıf tüşürsəŋ?*

**BAB: BAB GƏLMƏX'** (Ağdam, Qarakilsə, Şuşa) – 1. üstün gəlmək, qalib gəlmək (Ağdam, Şuşa). – *Sən mã: bab gələmməzsəŋ* (Ağdam); – *Mã: bab gələn hələ anadan olmuyuf* (Şuşa); 3. *məc.* cavab vermək, öhdəsindən gəlmək (Qarakilsə); – *Ona bir bab gəldi ki, nə tə:r.*

**BABILBAS** (İmişli) – şayiə. ◊ **Babılbas aparmağ** (İmişli) – şayiə yaymaq. – *Fatma babılbas aparır, ya:nı şa:ya aparır.*

**BABLİTMƏĞ** (Lerik) – böyütmək.

**BACA** I (Biləsuvar, Təbriz, Yardımlı) – pəncərə. – *Bacanı ört* (Biləsuvar); – *Bacanın üssündə çırax asılmışdı* (Təbriz).

**BACA** II (Culfa) – taxça.

**BACA** III (Balakən) – bacanaq. – *Əsədin bacası Bakıdan gəlip.*

**BACĞUN** (Zaqatala) – şax, ağacın kəsilmiş nazik budaqları. – *Bacğun tök, təndir yaxşı qızarsın.*

**BAD** I (Basarkeçər, Bərdə, Gəncə, Naxçıvan, Şərur, Yevlax, Zəngilan) – 1. təndir qurmaq üçün tərkibinə keçi qılı qatılmış sarı torpaqdan hazırlanan palçıq (Gəncə). – *Badı döyün təndirin qra:nı qayrax;* 2. palçıqdan hazırlanmış təndir hissələri (Bərdə, Basarkeçər) – *Altı-yeddi baddan olur təndir* (Bərdə); – *Baddarı hazırra təndir qoyax* (Basarkeçər).

**BAD** II (Kəlbəcər, Şəki, Ucar) – 1. qazma evlərin ortasında palçıqdan qayrılmış ocaq yeri (Kəlbəcər) – *Bizim evin badı çox dərin tüşüf;* 2. ocağın, kürənin kənarlarına düzülən kərpic (Şəki, Ucar). – *Kürənin badı qızmışdı* (Şəki); – *Bu ocağın badı bir az bö:y olsa yaxşı olardı* (Ucar).

**BAD** III (Ucar) – ağac qabığı.

**BAD** IV (Qazax) – çiy kərpic. – *Bir bad evim var.*

**BAD** V (Meğri) – su arxının kənarları. – *Uxarı su gedip ki, baddar da islanıp.*

**BADA** (Zaqatala) – əmiarvadı, əmidostu. – *Bada, acmışam, bir az yemək ver.*

**BADADİK** (Zəngibasar) – ot adı.

**BADAĞ** (Ucar) – badalaq. ◊ **Badağ qurmağ** – badalaq vurmaq, badalaq gəlmək. – *Bı ko: döylü, adama badağ qurur.*

**BADAĞLAMAĞ** (İmişili) – uzağa qaçmamaq üçün heyvanın iki ayağını bir-birinə bağlamaq. – *Ə:, qoyunu badağlamamısan, quzu əmmeyib?*

**BADAX** I (Xaçmaz, Quba, Qusar) – camış balası. – *Badax gəlmədi* (Quba).

**BADAX** II (Zaqatala) – mis qab.

**BADAX** III (Gəncə, İmişli, Qazax) – uzağa qaçmamaq üçün quşların, heyvanların ayaqlarına bağlanan ip. – *Xoruzun əyağında badax olmasa, uçuf qaçar* (Qazax).

**BADAX** IV (Qazax) – badalaq. ◊ **Badax vurmax** (Kürdəmir, Hamamlı) – badalaq vurmaq, badalaq gəlmək. **Badax qurmax** (Qazax) – 1. mane olmaq; 2. kələk gəlmək. – *Novruzun bağını alıf qutarmışdım, bilmerəm kimsə badax qurdu, qoymadı.*

**BADAX** V (Hamamlı, Kürdəmir) – dayaq. ◊ **Badax vurmax** (Hamamlı) – dayaq vurmaq.

**BADAXLAMAX** (Qazax) – badalaq vurmaq. – *Uzun adamı tez badaxlıyıf yıxmağ olar.*

**BADAL** (Təbriz) – yalançı. – *Badal adamnara hörmət eləmirdilə.*

**BADALĞA** (Gədəbəy) – kələk. ◊ **Badalğa gəlməx'** – kələk gəlmək, aldatmaq. – *Mã: badalğa gələmməssəŋ sən.*

**BADAMAĞ** (Cəbrayıl, Əli Bayramlı, İmişli, Qarakilsə) – b a x **badağlamağ.** – *Qoyunu badıyın, qaçmasın* (İmişli); – *Apar quzını bada, gə bıra* (Qarakilsə); – *Qoyun quzuya süt vermiyəndə onu badıyırığ* (Əli Bayramlı).

**BADAMCAN** (Kəlbəcər) – bağlarda bitən cır ərik. – *Badamcanın çağlası çox acı olur.*

**BADANA** (Qazax) – işsiz, boş. – Badana adam dağaetməz. ◊ **Badana e:rə** (Qazax) – əbəs yerə, boş yerə. – *Badana e:rə burda nə:zersəŋ?*

**BADAR** (Kəlbəcər, Qarakilsə) – kiçik əkin sahəsi. – *Bu badar görəsən kimindi?* (Kəlbəcər)

**BADARBUCAX** I (Bərdə, Mingəçevir) – dağınıq, pərakəndə. – *Evin şeyləri badarbucaxdı* (Bərdə).

**BADARBUCAX** II (Qarakilsə) – yanaşı, bir-birinə yaxın. – *Əx′diyimiz yerrərin hamısı badarbucaxdı.*

**BADDAXLI** (Ağdam, Göyçay) – palçıqlı. – *Ayağı baddaxlı hara girirsən?* (Ağdam).

**BADDAMAC** (Şamaxı) – yaxşı bişirilməmiş. ◊ **Baddamac eləməy** (Şamaxı) – yaxşı bişirməmək. – *Quymağı baddamac elədün, biz yimiyəcöüg.*

**BADĞIR** (Şuşa) – dudkeş.

**BADIC** (Bakı) – uzunboğaz corab.

**BADIQUŞ** (Qax) – eybəcər.

**BADIMAX** (Qazax) – suyun qarşısını kəsmək.

**BADIRĞA** (Çənbərək) – ot biçmək üçün ayrılan sahə. – *Sədir, bizə badırğanı nə vaxt verəçəx′siŋiz?*

**BADIRĞALANMAX** (Çənbərək) – soyumaq, həvəsdən düşmək. – *Nərman işdən badırğalandı, da: <daha> işdiyəmmir həməşəki kimi.*

**BADIRQAYI** (Ağbaba) – vəhşi. – *Elə bil badırqayı böyyüf.*

**BADIŞ** I (Ağdam, Bərdə, Borçalı, Füzuli, Hamamlı, Qazax, Şərur) – başqaları ilə dəyişik düşməmək üçün toyuğun ayağına tikilən əski parçası, nişan. – *Bizim töuxların hamısının əyağına badış tix′mişəm* (Ağdam); – *Töyüğün əyağına çındadan tikillər, olur badış* (Borçalı); – *Badışı töyoğun badına bağlerix′* (Başkeçid); – *Ay qız, fərələrə badış tix′, qonşunun töyuxlarıynan dəyişix′ tüşməsin* (Qazax).

**BADIŞ** II (Qazax) – baldıra geyilən boğazlıq. – *İş adamına badış çox yaxşıdı.*

**BADIŞ** III (Salyan) – nazik corab. – *Badış nazik coraba diyillər.*

**BADIŞ** IV (Hamamlı) – təndirə çörək yaparkən qola geyilən qolçaq. – *Çörəyi yapanda badış gey, əliŋ yanmasın.*

**BADIŞDAMAX** (Borçalı) – başqaları ilə dəyişik düşməmək üçün toyuğun ayağına əski parçası (nişan) tikmək. – *Töyugü badışdıyıllar ki, qonşunkuynan dəyişix′ tüşməsin.*

**BADİ** (Quba) – saxsı nimçə. – *İkimizi bir badi aş doydurmaz.*

**BADİÇƏ** (Oğuz) – mis piyalə. – *A:z, ma: bir badiçə gət, doğrama yi:jəm.*

**BADİRİNC** (Naxçıvan) – gözəl qoxulu göyərti növü.

**BADİY** (Qax) – bacı. – *Badiy, Qullu <Güllü> badiy evdədimi?*

**BADİYAN** (Başkeçid) – nanə.

**BADİYƏ** (Quba, Şəki) – 1. saxsı piyalə (Quba); 2. qulpsuz mis qab, badya. – *İnəx′dən bir badiyə süt sağdim* (Şəki).

**BADKEŞ** I (Gəncə, Qazax, Şuşa, Tərtər) – müalicə məqsədi ilə xəstənin kürəklərinə qoyulan banka, stəkan, küpə. – *Söyuxdəymənin birimci dərmanı badkeşdi* (Gəncə); – *Gejə arvad badkeş salmaseydi kürə:mə, işim xarabıdı* (Tərtər).

**BADKEŞ** II (Şahbuz) – həcəmət, xəstədən qan almaq üçün buynuzdan hazırlanan alət. – *Badkeş qanı zəli kimi sümürür.*

**BADKEŞ** III (Qazax) – divarda daşların və ya kərpiclərin arasına vurulan suvaq. – *Öyə badkeş vurdurajam.*

**BADRİC** (Ordubad) – dərman bitkisi adı. – *Mədədə daş olanda badricin suyun sıxıb, xəsdiyə verillər.*

**BADYANNIX** (Şamaxı) – dustaq üçün evdən aparılan xörək, yeməli şeylər. – *Həsən üçün dünən qazamata badyannıx aparmışdım.*

**BAFA** (Ağdam, Bərdə, Cəbrayıl, Füzuli, Gədəbəy, İmişli, Qarakilsə, Qazax, Quba, Oğuz, Salyan, Şəki, Şəmkir, Tovuz, Zəngilan) – 1. bir neçə çəngədən ibarət biçilmiş taxıl və ya ot bağlaması (Cəbrayıl, Füzuli, Şəmkir, Tovuz). – *Bafaları yığıf dərz bağlerıx* (Şəmkir); – *Dörd bafadan bir dərz olur* (Füzuli); – *Bişdix′cən bafeyi belə qoyurux, yığırıx üçün-beşin bəndəmni:f dərz bağle:rıx* (Tovuz); – *Beş bafa bir dərz əmələ gətirir* (Cəbrayıl); 2. dərz (Şəki).

**BAFARD: BAFARD ELƏMƏX′** (Çənbərək) – dözmək, davam gətirmək. – *Göhcənin qoyunu burda bafard elə mir.*

**BAFDA** (Hamamlı, Qazax) – 1. əlvan parçadan paltara tikilən haşiyə (Qazax); 2. zərli

parça adı (Hamamlı). – *Bafda dingiyə həm gözəllix′ verirdi, həm də onu saxlirdi.*

**BAFYA** (Göyçay) – b a x **bayxa.**

**BAFYALAMAX** (Göyçay) – xırda və seyrək tikişlə tikmək.

**BAĞA** (Basarkeçər, İmişli, Qazax) – atın topuğunda əmələ gələn xəstəlik adı. – *Bağa atın dırnaı:nnan bir az yuxarı, büküx′də olur, dırnaı uzanır tüşir* (Basarkeçər). ◊ **Bağa gətirməx′** (Qazax). **Bağa olmax** (Basarkeçər, İmişli, Qazax). – *At bağaə:tiref qaçammer;* – *Sarı maydan so:radan bağa oldu* (Qazax); – *Bağa olanda atın ə:ğı şişir, onu da doli:lər, yaxşı olur* (Basarkeçər).

**BAĞABURCU** (Çənbərək) – ağacda əmələ gələn mamır. – *Biyil palıd ağacında heyvərə bağaburcu əmələ:lif.*

**BAĞALA** (Şamaxı) – moruq mürəbbəsi. – *Bağala çox daddı olur.*

**BAĞANA** (Şuşa) – papaq tikmək üçün yararlı quzu dərisi. – *Bir bağana almışam laf Buxara dərisinə oxşuyur.*

**BAĞANAX** (Gəncə, Qazax, Şəki, Şuşa, Ucar) – 1. qoşadırnaqlı heyvanlarda iki dırnağın arası; 2. iki barmağın arası; 3. qılçaların bədənə birləşdiyi yer. ◊ **Bağanağını ayırmax** (Qazax, Şuşa) – ayaqlarından tutub iki hissəyə ayırmaq, parçalamaq. – *Yekə-yekə danışma, bağanağını ayıraram* (Qazax); – *Acığımı tutduma, bağana:ŋı ayıraram* (Şuşa).

**BAĞANCAĞ** (Quba) – b a x **bağançanağ.**

**BAĞANÇANAĞ** (Sabirabad) – heyvanın ayaqlarında olan buğum, bənd.

**BAĞARA** I (Bakı) – quyudan su çəkmək üçün qurğu. – *Eşi, at nödü, zad nödü, bir yabım var, onu da bağareyə qoşuram.* – *Xırı sulamağçün bağara gəregdü.*

**BAĞARA** II (Kürdəmir) – sap çarxı. – *Dünən dükannan üş dənə bağara aldım.*

**BAĞATİKANI** (Ağbaba) – yabanı bitki adı.

**BAĞBAŞI** (Bakı) – oğlan evi tərəfindən qız evinə göndərilən bağ novbarı, sovqat, xonça. – *Ağəz, bildü:n?* – *Dünənnəri qo:şmızun qızıyçın bağbaşı gəlib;* – *Xalam qızıyçın bağbaşı gəlib, anam ordoydu, bir də əxşəm gələr.*

**BAĞÇI** (Qazax) – biçilmiş taxılı toplayıb dərz bağlayan adam. – *Piçinçilər çoxdular, bağçı təx′di bağle:f yetirmer.*

**BAĞDAMAŞ** (Qazax) – bardaş. – *Bağdamaş qılçalarımı laf qırdı, munu çıxardan tünbətün olsun!*

**BAĞDANUS** (Gəncə) – cəfəri (göyərti adı). – *Bə:zi pişmişdərə bağdanus töküllər.*

**BAĞDAŞ** (Qazax) – b a x **bağdamaş.** – *Biz bağdaş quruf oturorıx.*

**BAĞDATI** I (Ağdam, Bərdə, Tərtər) – qamış və ya ağacdan tikilən ev. – *Əvvəl bir bağdatı tix′dimişdim özüm, so:ra bu evi tix′dim* (Ağdam).

**BAĞDATI** II (Hamamlı, Qazax) – şərf. – *Toyda kimin atı keşsəydi, ona nəmər bağdatı verillərdi* (Qazax).

**BAĞIR** I (Gəncə, Kürdəmir, Qax, Qazax, Mingəçevir, Şəki, Şəmkir, Şuşa) – qaraciyər. – *Bağır kavavı yaxşı olur* (Şəki); – *Qoyunun bağrınnan yaxşı kavaf yedix′;* – *Lət ürəx′də olsa öldürər, öhvədə olsa öldürər, bağırda olsa öldürməz, zayıf olar* (Qazax).

**BAĞIR** II (Ağdam, Cəlilabad, Füzuli, Kürdəmir, Quba, Şəki) – ürək, qəlb. – *Qorxudan unun bağrı yarıldı* (Quba); – *İsdidən bağrım çatdadı* (Şəki).

**BAĞIRBEYİN** (Ağcabədi, Ağdam, Gəncə, İmişli) – qaraciyər, quyruq və beyindən hazırlanan yemək növü. – *Ay arvad, bir bağırbeyin pişir yeə:x′* (Ağcabədi); – *Bağırbeyin yaxşı şeydi, yeməli şeydi, əziz qonağa pişirəllər onu* (Ağdam); – *Yaxşı bağırbeyin pişirmişdix′ dünən* (Gəncə).

**BAĞIRDAĞ** (Quba, Salyan, Şəki, Zaqatala) – bələkbağı, uşağı beşiyə bağlamaq üçün parçadan hazırlanan enli bağ. – *Bağırdağı gəti, uşağı bağla, yıxılmasın* (Şəki); – *Bağırdağı çox çəkmə, uşax boğular* (Zaqatala); – *Uşağın belinə bağırdağı bərk çək ki, yü:rüx′dən yıxılmasın* (Salyan).

**BAĞIRDƏLƏN** (Basarkeçər, Qazax, Şəmkir) – yabanı bitki adı. – *Zəhrimar bağırdələn arpıya qarışıf xarav eliyif* (Qazax); – *Coravıma bağırdələn doluf* (Şəmkir).

**BAĞIR-ÖFGƏ** (Ağcabədi) – b a x **bağır-öyfə.** – *Bağır-öfgə payız yaxşıdı yemə:.*

**BAĞIR-ÖYFƏ** (Borçalı) – 1. qaraciyər və ağciyər; 2. içalat. – *Bü:n bağır-öyfə almışam bişirməyə.*

**BAĞIŞDAMA** (Bərdə) – valideynlərinin toydan sonra qızına verdiyi hədiyyə. – *Qızıma bir yaxşı qızıl sa:t bağışdama verdim.*

**BAGIYA** (Mingəçevir) – qız evi ilə oğlan evi arasında bağlanan müqavilə, şərt.

**BAĞLAMA** I (Tovuz) – qapı və ya pəncərəni arxa tərəfdən bağlamaq üçün taxta parçası.

**BAĞLAMA** II (Kürdəmir) – 1. balqabaqdan hazırlanan xörək adı. – *Ci:m bağlama bişirmişdi;* 2. qozdan hazırlanan xörək adı.

**BAĞLAMA** III (Culfa) – yastıq. – *Milax kəndində yasdığa de:llər bağlama.*

**BAĞLAMA** IV (Qazax, Şəmkir) – qıfılbənd. – *Saŋa bir bağlama də:rəm, açammazsaŋ* (Qazax).

**BAĞLAMA** V (Hamamlı, Kürdəmir, Qazax, Şəmkir) – içərisində yarıya qədər taxıl olan bağlı çuval. – *Bir bağlama dünən ü:tdüm* (Şəmkir); – *Bir bağlama buğdam var, onu at haravıya* (Qazax).

**BAĞLAMAX** I (Kürdəmir, Qarakilsə, Qazax, Yevlax) – qayırmaq, düzəltmək. – *Əmoğlum yaxcı qəpi, pəncərə bağlıyır* (Qarakilsə); – *Söyün kişi yaxşı araba bağlıyır* (Yevlax).

**BAĞLAMAX** II (Qazax) – deyişmə zamanı rəqibə qalib gəlmək (aşıqlar arasında). – *Üş gün bular deyişdilər, dördümcü günün günortasında Aşıx Söyün ağ keşişin qızını bağladı.*

**BAĞLAMÇA** (Ucar) – boğça. – *Bağlamçada paltar var.*

**BAĞLANC** (Borçalı, Qazax) – oğlanın nişanlısına apardığı hədiyyə. – *Oğlan qıza – nişanlısına bağlanc aparer, qızın anası da oğlana köynəx′ verer;* – *Bağlancanın içində alma, armıt, kişmiş, fındıx, cö:üz, uzunsaqqalı qanfet olor* (Qazax).

**BAĞLANCAX** (Ağcabədi, Kəlbəcər) – b a x **bağlamça.** – *Bağlancaxda tumankköynəx′ olur, aparırıx hamama* (Ağcabədi); – *Ə, bir gör, mənim bağlancağım ordadımı?* (Kəlbəcər).

**BAĞLANÇA** (Göyçay, Mingəçevir) – b a x **bağlamça.**

**BAĞLAŞMA** (Culfa) – şeirlə deyişmə. – *Aşıxların arasında bağlaşma çox olur.*

**BAĞLAŞMAĞ** (Cəlilabad) – şərtləşmək. – *Bı arvadnan bağlaşdım ki, səni sua saleyəm üç dəfə.*

**BAĞLO:UC** (Cəlilabad) – ülgüc. – *Bağlo:ucnan onın başın kəsərdim.*

**BAĞRIBADAŞ** (Ağdam, Gəncə, Qarakilsə, Qazax, Meğri, Tovuz, Zəngilan) – canbir, dilbir dost. – *Ollar bağrıbadaşdılar, biri harya gessə, o biri də gərəx′ gedə* (Gəncə); – *Ə, mənnən bağrıbadaş ha döysəŋ, aŋarı dursaŋa* (Tovuz); – *O sənnən bağrıbadaşdı nədi, hare:dirsən, dalıncax gəler* (Zəngilan).

**BAĞTAMİL** (Bakı) – zərli parça adı.

**BAHALU** (Lerik) – *məc.* hörmətli.

**BAHANQU** (Lənkəran) – tək, tənha, yalqız.

**BAHARBƏND** (Ucar) – ilin yağmurlu vaxtlarında qaramalı salmaq üçün üstüörtülü daldalanacaq. – *Yağışdı, apar malları baharbəndə sal.*

**BAHARBƏT** (Mingəçevir, Ucar) – b a x **baharbənd.**

**BAHARI** (Biləsuvar, Şuşa) – qısa qollu qadın paltarı. – *Baharını bizim yerdə arvatdar ge:ir* (Şuşa); – *Anamın yaxşı baharısı vardı* (Biləsuvar).

**BAXACAĞ** (Əli Bayramlı, Salyan) – yağın hazır olub-olmamasını yoxlamaq üçün nehrənin içinə salınan nazik ağac, çubuq. – *Baxacağı ver görüm yağ olub?;* – *Baxacağı nehriyə salallar, yağın olmasını bilməgə* (Salyan).

**BAXDALAMAĞ** (Bakı) – uduzmaq. – *U, var-yoxun qumarda baxdalayıb.*

**BAXTABAX** (Bakı) – lotereya. – *Gəl gedeg baxtabax oynamağa.*

**BAXYA** (Ağdam, Bərdə, Şuşa) – b a x **bayxa.**

**BAXYALAMAX** (Ağdam, Bərdə, Şuşa) – b a x **bafyalamax.** – *Munu əlində tez baxyala ver ma:* (Ağdam).

**BAJABAJA** (Borçalı) – gənclərin Novruz bayramı ərəfəsində oynadıqları oyun. – *Bajabaja Novruz bayramında olur.*

**BAJAXLI** (Ağdam, Bərdə, Şuşa) – kənarına qulp yapışdırılaraq bəzək kimi işlədilən qızıl pul. – *Zərgər Yunusdan üş dənə bajaxlı aldım* (Şuşa); – *Dədəm mã: bir dənə bajaxlı bağışdadı* (Ağdam).

**BAJAQUŞU** (Hamamlı) – qaranquş. – *Bajaquşu həməşə damda yuva qurur.*

**BAJILIX** I (Ağdam, Bərdə, Şuşa, Tərtər) – 1. ögey bacı (Ağdam, Şuşa, Tərtər). – *Onnan bajılığıx, doğma dö:ülüx′, atadan birix′, anadan ayrı* (Ağdam); 2. rəfiqə (Bərdə). – *Elə*

*adam olur ki, bajılığ olur biri:nən, onun xətirini bayıssınan çox isdi:r.*

**BAJILIX** II (Daşkəsən, Gədəbəy, Xanlar) – gəlinin sağdışı və ya soldışı. – *Qızın bir bajılığı olor, bir də yengəsi* (Daşkəsən).

**BAJQIN** (Qax, Oğuz) – çəpər çəkmək üçün kol və ya çırpı topası. – *Bajqınnan çəpər qayrıllar, on ilə kimi qalır* (Qax).

**BAQALA** (Şəki) – kiçik saxsı qab. – *Bi baqalada qatıx saxladım, qalanın töx'düm nəhriyə.*

**BAQATA** (Basarkeçər) – xəmir mayası.

**BAQQAMA** (Dərbənd) – körpə uşaqlar üçün yumurta və undan hazırlanan xörək.

**BALABİRÇEG** (Bakı) – birçək, bəzək məqsədi ilə qadınların qoyduğu saç.

**BALABUĞUD** (Yardımlı) – tələsik. – *İşi çox oləndə xurəgi də balabuğud bişirey.*

**BALADƏMİR** (Ağdam) – gönün tükünü təmizləmək üçün alət. – *Ay usta, o baladəmiri mənə ver.*

**BALAĞ** I (Ağdam, Biləsuvar, İsmayıllı, Kürdəmir, Lənkəran, Naxçıvan, Tovuz) – camışın körpə balası. – *Balağı pəyyə sal* (Kürdəmir); – *Bizim balağımız boğulub öldü* (Biləsuvar); – *Comuşun balağını kölgüyə bağla* (Tovuz); – *Balağ xəndəyə düşüb boğulub* (Lənkəran).

**BALAĞ** II (Füzuli) – qamışa oxşar bitki adı. – *Gərəx' gedif bir az balağ qıram gətirəm.*

**BALAĞAGİRƏN** (Şamaxı) – fişəng növü.

**BALAX** I (Ağdam, Culfa, Gəncə, Kürdəmir, Qazax) – b a x **balağ** I.

**BALAX** II (Qax, Şəki, Zaqatala) – ot adı. – *Qişə balax yığmasax malmı saxlamax olar?* (Qax); – *Balağı mal yaxşı yiyir;* – *İki arava balax çalıf tapiyə yığmışux* (Şəki).

**BALAXANA** (Cənubi Azərbaycan, Kürdəmir, Naxçıvan, Sabirabad, İrəvan) – 1. evin üstündə əlavə tikilən balkonlu otaq (Cənubi Azərbaycan, Kürdəmir, İrəvan). – *Balaxana yayda sərin olur* (Cənubi Azərbaycan); 2. mətbəx (Naxçıvan). – *Gülnaz xala balaxanadan çıxmır;* 3. evin arxa tərəfində olan kiçik artırma (Sabirabad).

**BALAQANCILA** (Zəngilan) – hay-küy, qarışıqlıq. ◊ **Balaqancıla salmax** (Zəngilan) – hay-küy salmaq, qarışıqlıq salmaq. – *Ə:, bi balaqancıla salma görəx' nə de:illər.*

**BALAMAN: BALAMANDA QANDIRMAX** (Basarkeçər) – işarə ilə başa salmaq, himcimlə başa salmaq. – *Ona balamanda qandırdım kın, bura bizim yer döyül, dur aradan çıxax.*

**BALAMÜRSƏL** (Şamaxı) – qırmızı qabıqlı turş nar. – *Bu il bazara balamürsəl gəlmir.*

**BALASQA** (Qazax) – dördçarxlı araba.

**BALATA** I (Qazax) – dəri aşılamaq üçün kül, kəpək və duzun qarışığından düzəldilən xüsusi məhlul. – *Balata qayır aşdıyax dəriyi;* – *Dəriyi balatıya qoymuşdum, indi götürüf tükünü təmizdiyəjəm.*

**BALATA** II (Tərtər) – xəmir mayası. – *Balatanı ma: gəti, a:z, xamır qatajam.*

**BALATI** (Ağdam, Daşkəsən, Gədəbəy, Gəncə, Qax, Qazax, Mingəçevir, Şəki, Təbriz, Ucar, Yevlax, Zaqatala) – b a x **balata** II. – *Az, balatı qoy xamır yoğurajam* (Qazax); – *Obaşdan balatı aləcəm, çörək pişrəcəm* (Qax); – *Xamıra balatı qatmasaŋ çörə:n içi linc olar* (Daşkəsən); – *Balatı salıyıx xamra, aciyi* (Şəki).

**BALATILIX** (Gəncə) – 1. mayalıq xəmir. – *A Ziveyda, xamırı kündəliyəndə balatılıx götürməmiş olma;* 2. balatı qabı, xəmir mayası saxlanılan qab.

**BALAVQİ** (Şərur) – köməkçi.

**BALBA** I (Oğuz, Şəki, Zaqatala) – yeyilən yabanı bitki adı. – *Orda çoxlu balba bitib* (Zaqatala); – *Çiyim balba dennəmağa gidifdi* (Şəki).

**BALBA** II (Qax, Şəki, Zaqatala) – müxtəlif pencər, göyərti, yağ, düyü və sairədən hazırlanan xörək. – *Balba yaxşı yiməli xörəx'di* (Şəki).

**BALBACAN** (Qax, Zaqatala) – sağdış.

**BALBAĞAN** (Qax, Zaqatala) – sağdış.

**BALBALI** (Qazax, Tovuz) – kola oxşar bitki adı.

**BALBAS** (Ordubad) – iri gövdəli, quyruqlu qoyun cinsi.

**BALBAZ** (Gəncə) – b a x **balbas.** – *Neçə ildi ki, göycəlilərin əyağı kəsilif ta: balvas gətirmillər.*

**BALBIR** (Kürdəmir, Salyan) – torun suya batmaması üçün onun kənarlarına bağlanan taxta parçaları. – *Balbırın çoxı qırıldığına tor suda batdı* (Salyan).

**BALBİ** (Zaqatala) – darı küləşi. – *Balbini tök inəklər yesin.*

**BALBORANI** (Göyçay, Hamamlı, Kürdəmir, Şamaxı) – balqabaq. – *Anam ləzətdi balboranı bişirif, gedəx′, yeəx′* (Hamamlı); – *Anam dünən balboranı bişirmişdi* (Şamaxı).

**BALDAĞ** (Göyçay) – üstü yastı dağ.

**BALDARAŞ** (Ucar) – bardaş. – *Qulço:u uzatma, baldaraş qur otu.*

**BALDARIŞ** (Şəki) – b a x **baldaraş.**

**BALDIRCAN** (Balakən) – pomidor. – *Baldırcanımız qızarıb.*

**BALDUNGÜLÜ** (Qazax) – palto düyməsi. – *Baldona tikilənə baldungülü deyərix′;* – *Baldungülü yekəjə olor.*

**BALEYMİRSƏL** (Kürdəmir) – b a x **balamürsəl.** – *Baleymirsəllər yiməlidü.*

**BALGÖZ** (Qazax) – daş sındırmaq üçün çəkic. – *Daş qırma: gederem, balgözü maŋa ə:ti.*

**BALXI** (Borçalı, Qazax) – 1. tənbəl; 2. maymaq.

**BA:LI** (Balakən, Qax, Şəki) – gilas. – *Məktəbin həyətindəki ba:lı ağacdarı çiçəkləyib;* – *Bizim ba:lımız dəyib* (Balakən); – *Ba:lılarımız gətirmiyitdi biyil* (Şəki). ◊ **Ba:lı gilas** (Qazax) – albalı.

**BALIĞUDAN** (Borçalı, Göyçay, Qazax) – vağ (balıqla qidalanan boğazı uzun quş). – *Balğudan da quşdu, balıx ye:ir* (Borçalı).

**BALIX: BALIX DƏMİRİ** (Qazax) – dördtəkərli arabanın qabaq və dal oxlarının altından bərkidilən uzun dəmir hissə.

**BALIXÇI** (Şuşa) – uşaq oyunu adı. – *Gəlin balıxçı oynuyax.*

**BALIXGÖTÜRƏN** (Kəlbəcər) – vağ (balıqla qidalanan boğazı uzun quş).

**BALIQQA** (Borçalı) – baltikanının meyvəsi. – *Baltikanının meyvəsinə balıqqa de:iler.*

**BALTABIÇAX** (Kürdəmir) – böyük bıçaq, qəmə. – *Baltabıçağı taxçadan ver, bı əti qıçalıyım;* – *Baltabıçağınan yekə şeyləri doğruyurux.*

**BALTABİÇ** (Zaqatala) – cökə ağacının çiçəyi. – *Uşaxlar baltabiç yığmağa gediblər.*

**BALTAQIRAN** (Qazax) – möhkəm ağac növü adı. – *Baltaqıran çox bərk olor.*

**BALTİKANI** (Borçalı) – giləmeyvəli kol adı. – *Baltikanının meyvəsinə balıqqa de:lir.*

**BALVA** I (Şəki) – b a x **balba** I.

**BALVA** II (Gəncə, Şəki) – b a x **balba** II. – *Anam böyün balva pişirmişdi* (Gəncə).

**BALYAR** (Kürdəmir, Ucar) – dəmiryol keçidi. – *Maşın balyardan keçib dayandı* (Ucar).

**BAM** (Təbriz) – borc. – *Orda dö:lət bam veriri.*

**BAMBA** (Gədəbəy) – loğma, iri tikə. – *İşdən yenijə:lmişdim, ağzıma bir bamba əpbəy almamış ça:rdılar ıdarıya.* ◊ **Bamba vurmax** (Şəmkir) – iri loğmalarla, iri tikələrlə yemək. – *Həsən bir elə bamba vurdu kun, yerində heç zad qalmadı.*

**BAMBALAMAX** (Çənbərək, Kürdəmir, Şəmkir) – loğmalamaq, iri tikələrlə yemək, çox götürüb yemək. – *Qaşıx yoxudu, Murtuz qatığı yuxuynan bambaladı* (Çənbərək); – *Bir sini xəngəli uşaxlar bambaladılar, bəyaxdan ötürdülər* (Şəmkir).

**BAMBAZ: BAMBAZ QAYĞANAĞI** (Mingəçevir) – pomidorlu qayğanaq.

**BAMBIĞ** (Lənkəran) – qamış. – *Qıza, Tünzalə, bambığı bəri ver.*

**BAMİYƏ** (Cənubi Azərbaycan) – bibərə bənzər bitki adı. – *Gedə, o bamiyələrə bir az su ver.*

**BAN** I (Astara, Biləsuvar, Cəlilabad, Göyçay, Kürdəmir, Masallı, Salyan) – çardaq. – *Boranılar qalıb öyün banında* (Kürdəmir); – *Banda odun var, onu sal yerə* (Masallı); – *Bana çixeyəm* (Cəlilabad).

**BAN** II (Cəlilabad, Masallı, Salyan, Yardımlı) – 1. arabanın yan taxtaları. – *Odunu yerə boşaltmaq üçün arabanın banını götür* (Yardımlı); 2. arabanın gövdəsi, arabanın təkərləri və boyunduruqdan başqa qalan hissəsi. – *Kolxoz bu il on beş ban bağlatdırıb* (Cəlilabad).

**BAN** III (Salyan) – baca, evin damında açılan nəfəslik. – *Bizim evin banı yoxdi, qayıtdıracam.*

**BANA** (Balakən) – dərz. – *Yaxşı biçinçi gündə yüz bana biçər.*

**BANALAMAX** (Ordubad) – hazırlamaq. – *Sən bı sa:t çörəx′ banala, mən də gəlirəm.*

**BANBAL** (Ordubad) – iri barama. – *Banballarıı ayrı bir yerə topla.*

**BANBAN** (Ordubad) – b a x **banbal.** – *Bizim qalxozza banban barama çox olar.*

**BANDA** I (Xanlar) – yeyilən yabanı bitki adı. – *Bandanı yumşax vaxdı gətirif ye:illər.*

**BANDA** II (Borçalı) – qom (ipə düzülmüş tütün yarpağı və ya saplağından bir-birinə bağlanmış meyvə topası). – *Çardaxdan i:rmi banda tütün asdım.*

**BANDADUŞ** (Cənubi Azərbaycan) – nazik, sivri yarpaqlı ot növü. – *Bandaduş yonçadan yaxşı otdi.*

**BANDAX** (Ağcabədi, Ağdam, Bərdə, Gəncə, Kəlbəcər, Tərtər) – üzüm və s. meyvələri asıb saxlamaq üçün çubuqdan və ya ipdən hazırlanan asqı. – *Gedəndə bir bandax da üzüm yığıf verdim ona* (Ağcabədi); – *Keçən il iyirmi bandax üzüm asmışdım, No:ruz bayramınacan qaldı* (Ağdam); – *Biz biyil yirmi bandax üzüm, on bandax nar asmışdıx* (Gəncə).

**BANISDAN** (Ağsu) – qoyun-quzu saxlamaq üçün üstü örtülü yer, tövlə. – *İndi qoyunnar banısdandadı.*

**BANISSAN** (Ağsu) – b a x **banısdan.**

**BANISTAN** (Bakı, Şamaxı, Zərdab) – b a x **banısdan.** – *Qoyunnar banıstandadı;* – *Axşamdı, hamı evə yığışacax, banıstanın ağzı açıx qalar, ha* (Zərdab).

**BANNAÇI** (Qazax) – bənna. – *Boylu bannaçı gətirer, gümlərin üsdündə yeddi göz otax tix'direr;* – *Bu kənddə bannaçı varmı?*

**BAR** I (Ağsu) – çiy südün üzü. – *Sütün üzü bar tutmuşdu, yı:b yedim.*

**BAR** II (Qazax) – kif. – *Çörəyin üzündə bar var, onu dəsmalnan sil.*

**BAR** III (Ağdam, Bərdə, Meğri, Şuşa) – xəstənin dilində, dodaqlarında əmələ gələn ağ ərp. – *Xə:l, dilõ: çıxart görüm üstündə bar var?* (Meğri).

**BARAHER** (Qarakilsə) – böyük düz yer, böyük sahə. – *Baraherin almasın böyün yığıllar.*

**BARAMA** (Kürdəmir, Qazax, Şəmkir, Tovuz) – çiçəyi yeni düşmüş kiçik xiyar. – *Barameyi turşuya qoysan yeməli olar* (Qazax); – *Yelpənək hələ baramadı, gec böyyər* (Kürdəmir); – *Xiyarın sap balajasına barama deərix'* (Tovuz); – *Tağlarda yaman barama var* (Şəmkir).

**BARAMUM** (Ağdam, Şuşa) – mum. – *Bura baramum qoymuşdum, bilmirəm kim götürüf* (Ağdam).

**BARANTAY** I (Beyləqan, Borçalı) – həmyaş, tay-tuş. – *Mən İmrannan barantayam* (Borçalı); – *Mən sənin barantayın dəyləm* (Beyləqan).

**BARANTAY** II (İmişli) – aciz, avara. – *Barantay adamdı, əlinnən bir iş gəlmir.*

**BARAT** (Salyan) – vurulmuş ziyan üçün alınan xərc. – *Heyvanı bağıma girib, ziyan verib, mən də onnan barat issi:rəm.*

**BARATA** I (Qazax) – mirat (ölmüş adamın paltarı və ya şeyləri). – *Qulamalı yolda ölüf, baratasını gətdilər.*

**BARATA** II (Çənbərək, Qarakilsə, Salyan, Zəngilan) – iz, nişanə. – *Ay çovan, qoynu canavar yeyif, bə niyə baratasın çıxartmırsaŋ* (Çənbərək); – *Quzunu canavar yeseydi, baratası tapılardı* (Zəngilan); – *Canavar yiyən heyvanın baratası qalar* (Salyan); – *Baratanı tapsaydı, aparıp verərdi yə:sinə* (Qarakilsə).

**BARATA** III (Naxçıvan) – palçıq layı. – *Barata kəsdim, vırdım dufara.*

**BARATA** IV (Cəbrayıl) – köhnə, istifadə olunmuş.

**BARATA** V (Cəbrayıl) – b a x **balata** II.

**BARATDAMAĞ** (Kürdəmir) – balıq torunu ov üçün hazırlamaq, qaydaya salmaq. – *Tori baratdeyib balığ tuturux.*

**BARBADAN: BARBADAN ELƏMƏX'** (Zəngilan) – ütmək. – *Qızlar noxuddan barbadan eliyib doyunca yedilər, sonra noxudu yığmağa başdadılar.*

**BARDAĞ** (Kürdəmir) – küpə. – *Bardağa şor yığırıx.*

**BARDALAŞ** (Şəki) – b a x **bağdamaş.**

**BARDAMAŞ** (Ucar) – b a x **bağdamaş.**

**BARDAXBAĞI** (Oğuz) – bardağın qulpu.

**BARI** (Ağstafa, Gəncə, Göyçay, Qazax, Oğuz, Şuşa) – 1. divar (Ağstafa, Oğuz). – *Əhməd, bizim barının başı uçuf, bir gəlif onu düzəlt* (Ağstafa); – *Çox yerrər olur ki, divar diyir, biz barı diyrix'* (Oğuz); 2. hasar. – *Uşaxlar barıdan aşıf armudu yoluflar* (Şuşa); – *Olların barısı alçaxdı, hopbanıf keşməy olar* (Gəncə); – *Barı çəkirix' həyətin döyrəsinə* (Göyçay).

**BA:RI** (Şəki) – b a x **barı** (1-ci məna).

**BARIMBAŞI** (Oğuz) – rəf.

**BARINC** (Oğuz) – alaq otu adı.

**BARINCI** (Qazax) – b a x **barınc.** – *Buzovun qabağına bir az barıncı töx'.*

**BARINCILIĞ** (Ucar) – "barıncı" adlı alaq otunun çox bitdiyi yer. – *Bağa baxmamışıx barıncılıx olup.*

**BARINQULU** (Lənkəran) – sarı rəngli, xoş qoxulu çiçək adı. – *Bacımnan birgə barınqulu əkmişik.*

**BARINMAX** (Ağdam, Bərdə, Qazax, Şuşa, Ucar) – varlanmaq, dövlətlənmək. – *Yaxşı barınıfdı Kərimin uşaxları* (Ağdam); – *Qohumnarımın ujbatınnan barınmışam* (Şuşa); – *Qarayerdə taxıl əkənnər biyil barınıflar* (Qazax); – *Hüseyin kişi bi:l bossannan barındı* (Ucar).

**BARMAX** I (Göyçay, Kürdəmir) – arabanın yanlığına keçirilən şaquli taxta; – *Cağın barmağı tökülüb* (Kürdəmir); – *Yüx' ağır olub, basıb barmağın ikisin qırıb* (Göyçay).

**BARMAX** II (Oğuz) – pəncərə çərçivəsində şüşəni saxlamaq üçün ensiz taxta.

**BARMAXÇA** (Quba) – nişan üzüyü, qaşsız üzük.

**BARMAXÇALIX** I (Borçalı, Yevlax) – nişan üzüyü, qaşsız üzük. – *Barmaxçalıx qaşsız üzüxdü* (Borçalı); – *Barmaxçalıx qızıldan olur* (Yevlax).

**BARMAXÇALIX** II (Borçalı, Qazax, Tovuz) – biçinçilərin barmaqlarına taxdıqları gön barmaqlıq. – *Taxıl piçəndə əlimizə barmaxçalıx ge:rix' kin, orağ əlimizi kəsməsin* (Qazax).

**BARMAXÇIL** I (Bərdə, Gəncə, Sabirabad) – b a x **barmaxça.** – *Nişan aparanda bir dənə də barmaxçıl aparıf taxıllar qızın barma:na* (Bərdə).

**BARMAXÇIL** II (Ağcabədi, Cəbrayıl, Zəngilan) – b a x **barmaxçalıx** II. – *Çin kəsməməx'dən ötrü barmaxçılı ge:rdix' barma:mıza* (Ağcabədi); – *Barmaxçıl olmasa, qılçıx adamın barma:n yə:r* (Zəngilan); – *Saleh Süleymana dörd barmaxçıl tix'di* (Cəbrayıl).

**BARMAXÇILIX** I (Göyçay, Mingəçevir) – b a x **barmaxçalıx** II. – *Biçində barmaxçılıx taxıllar, o da onnan ötürüdü ki, küləş barmağı dağıtmasın* (Göyçay).

**BARMAXÇILIX** II (Bərdə, İmişli) – b a x **barmaxça.** – *Yetər barmaxçılığını barmağınnan çıxartmır ki, itər* (Bərdə).

**BARMAXLIX** (Ağdam, Gəncə) – 1. qələmə, ting (Gəncə). – *Təzə yerdə büyün yüz barmaxlıx salmışam;* 2. yeni salınmış tənəklik (Ağdam). – *Ə, barmaxlığa su buraxıfsanmı?* (Ağdam).

**BARO:UTDAMAX** (Qazax) – nişan almaq. – *Baro:utduyuf bir güllə atdım, o sa:t canavar aşırıldı.*

**BARRAMAX** (Şəmkir) – kiflənmək. – *Çörəyi isdi-isdi yığanda, köx'nələndə barrı:r.*

**BARRAMMAX** (Bərdə) – b a x **barramax.**

**BARRANMAX** I (Qazax, Tovuz) – b a x **barramax.** – *Çörəx' barranıf yeyləsi döyü* (Qazax); – *Çörəyin üstünü isti-isti basırıfsıŋız barranıf* (Tovuz).

**BARRANMAX** II (Ağdam, Bərdə, Şuşa) – xəstəlik nəticəsində ağızda ərp əmələ gəlmək. – *Adamın sö:ux dəyməsi, qızdırması olanda ağzı barranır* (Ağdam).

**BARXANA** I (Çənbərək, Qazax, Şəmkir, Tərtər, Tovuz) – 1. ev şeyləri, avadanlıq (Çənbərək, Qazax, Şəmkir, Tərtər, Tovuz). – *Anam bütün barxaneyi çölə töküf* (Qazax); – *Barxanamız haravadan tüşüv itif, özü də tapamədix'* (Çənbərək); 2. yorğan-döşək, yatacaq (Qazax, Tovuz). – *Barxana çox olsa, qonax üçün yaxşı olar* (Qazax).

**BARXANA** II (Qazax, Şəmkir, Zəngilan) – qıza verilən cehiz. – *Birnə qızdar miner haravanın, birnə də qızın barxanası dolor* (Qazax); – *Bizdər qız köçürəndə ona barxana verərix'* (Zəngilan).

**BARXANA** III (Qarakilsə, Laçın) – boğça, bağlama.

**BARXANA** IV (Meğri) – oğlan tərəfindən qız evinə aparılan meyvə sovqatı. – *Kəlbeliynan Meşəçabrayılın əvinə bir yüx' üzüm, bir yüx' də incir barxana göndərdim.*

**BARIN OLMAX** (Şərur) – çox məhsul götürmək. – *Bu yilləri hammı barın oldu.*

**BARSAX: BARSAX DOLMASI** (Şəki) – bağırsağa doldurulmuş mal içalatı, evdə hazırlanmış kolbasa. – *Malın içini döyüf, bişirif mal bağırsağının içinə doldu:rux, olur barsax dolması.*

**BASACAĞ** (Şamaxı) – araba cağlarının keçdiyi deşikli ağac. – *Ərəbəmün basacağı sınmışdı, təzəsin qayırtdırıb taxdım.*

**BASALAX** (Bərdə, Daşkəsən, Gədəbəy, Gəncə, Xanlar, Mingəçevir, Şəmkir, Tovuz) –

1. nəsil, tayfa (Bərdə, Daşkəsən, Gədəbəy, Gəncə, Xanlar, Şəmkir). – *Bizim basalağımız böüxdü* (Bərdə); – *Burda altı basalax var* (Xanlar); – *Öz basalağına xəbər ver ki, hamı birdən köçək* (Gəncə); – *Hansı basalaxdansıŋız, bajı oğlu* (Gədəbəy); 2. kəndin müəyyən tayfa və ya nəslin yaşadığı ərazisi, sahəsi (Şəmkir, Tovuz). – *Bu basalaxda təx′-təx′ kərpiş ev var* (Şəmkir); – *Bizim basalağa tay basalax olmaz* (Tovuz); – *Mən oa:nkı basalaxdanam* (Şəmkir).

**BASALAXLI** (Oğuz) – xəcalətli. – *Sənnən pul almışam, sə:n yanında basalaxlıyam.*

**BASARAX** (Laçın) – tələsik, təcili. – *Şəmil basarax içəri girdi.*

**BASARAT** (Kürdəmir, Qarakilsə, Şuşa) – qabiliyyət, bacarıq, fərasət. ◊ **Basaratı bağlanmax** (Ağcabədi, Ağdam, Bərdə, Kürdəmir, Qarakilsə, Qazax, Şərur) – özünü itirmək, nitqi tutulmaq; dili-ağzı bağlanmaq. – *Basaratım bağlandı, bir söz deyə bilmədim* (Ağdam); – *Kişinin basaratı bağlanıp* (Kürdəmir); – *Anamın basaratı bağlansa, heş nə də:mməz* (Qarakilsə).

**BASARAY** (Ağsu) – at salmaq üçün hasarlanmış yer. – *Atdarı basaraya saldux.*

**BASDALAMAX** (Ağdam, Bərdə, İmişli, Şuşa) – 1. basmaq (Ağdam, Bərdə). – *Ə:ğımı basdaladı* (Ağdam); – *İtin quyruğun basdalamasan, dönüf səni tutmaz* (Bərdə); 2. tapdalamaq (Şuşa). – *Doqquz ay burda qar basdalayırıx, üç ay kef çəkirix′.*

**BASDIX** (Ordubad, İrəvan, Zəngəzur) – un, doşab və qozdan hazırlanan çərəz. – *Nənəm mənə bir az basdıx vermişdi, əlimnən palçığa düşdi;* – *Anam beş düzüm basdıx hazırradı* (Ordubad).

**BASDIRMA** (Şəki) – paya.

**BASDIRMAX** I (Qazax) – ciftləşdirmək. – *Qara maydanı bir yaxşı ayğıra basdırmışam, balası görəx′ nejə olajax.*

**BASDIRMAX** II (Ucar) – çəkdirmək (foto şəkil). – *Gedəy Ujara, şiklimizi basdırax.*

**BASDIRMƏY** (Cəlilabad) – tikmək (ev). – *O kuməni orda niyə basdıreysən?*

**BASIX** I (Qazax) – çəpərin üzərindən salınmış keçid.

**BASIX** II (Gəncə, Qazax) – iş heyvanlarının belində əmələ gələn yara. – *Qardaş, mənim beli basıx alaşam minilə́si döy* (Qazax); – *Atın beli basıxdı, onu minməx′mi olar* (Gəncə).

**BASILMAX** (Şəki) – hürmək.

**BASIRMA** I (Cəbrayıl) – külə basdırılıb bişirilmiş (yumurta, kartof və s.) – *Basırma yumurta mənim xoşuma gəlir.*

**BASIRMA** II (Oğuz) – b a x **basdırma.** – *Basdırmanı basırıf so:ra köndələn çərvətdən vurullar.*

**BASQI** (Başkeçid) – tayada otu saxlamaq üçün onun üstünə qoyulub bağlanan uzun ağac.

**BASQINCAX** (Qazax) – tapdaq, ayaqaltı. ◊ **Basqıncax eləməx′** – tapdalamaq, ayaqaltı etmək. – *Bizi lap basqıncax eləmişdilər.*

**BASMA** I (Gəncə, Göyçay, Kürdəmir) – qamışdan hörülən həyət qapısı.

**BASMA** II (Ağdam) – yalan, gop. – *Bejə yerə boğazını yırtma, hamı bilir ki, sözləriyin hamısı basmadı.*

**BASMA** III (Çənbərək, Hamamlı, Xanlar, Kürdəmir) – kərmə (mal peyinindən hazırlanan yanacaq). – *Basmanın üsdünü süpür, gələx′ kəsəx′, Ay Səlvi* (Çənbərək); – *Ay uşax, basmanı su töküf əyaxlıyın tovuxlar eşməsin* (Xanlar); – *Basmanı quruduf qutarannan sonra dorğoyuf qalax qayrerıx* (Hamamlı).

**BASMA** IV (Kürdəmir, Mingəçevir) – bir-birinin içinə keçməklə bağlanan düymə.

**BASMA** V (Kürdəmir, Şamaxı) – kömür yandırmaq üçün yığılmış odun qalağı. ◊ **Basma qoymağ** (Kürdəmir, Şamaxı) – kömür hazırlamaq. – *Ollar meşiyə basma qoymağa getdilər* (Şamaxı).

**BASMA** VI (Kürdəmir, Şəmkir) – çay və ya arxdan keçmək üçün şax – budaq və s. düzəldilən keçid körpü. – *Büyün sabaxdan əlləşdix′, Şəmkirdən bir basma basa bilmədix′* (Şəmkir); – *Basmadan o taya adda* (Kürdəmir).

**BASMA** VII (Kürdəmir) – 1. suvat (çaydan su götürmək üçün düzəldilən yer). – *Basmanın üssündə durub su götürüllər;* 2. çaydan su götürülən yerdə əl tutmaq üçün basdırılan uzun ağac. – *Su gəlib suatdan basmanı aparıb.*

**BASMA** VIII (Mingəçevir) – yolayırıcı.

**BASMA** IX (Mingəçevir) – ov yeri, ovlaq.

**BASMA** X (Gəncə) – buxarı və ya peç bacasının qapağı. – *Bizim buxarının basması yoxdu.*

**BASMA** XI (Göyçay) – otun arabadan aşmaması üçün onun üstünə qoyulub bağlanan uzun ağac.

**BASMA** XII (Qazax) – bir yaba ağzı qədər, bir dəstə <kol>. – *Bir basma tikan ver, çəpərin bu uçuğunu qayrax.*

**BASMAÇI** I (Daşkəsən, Gəncə, Oğuz) – yalançı, gopçu. – *Basmaçının biridi, unun çox da sözünə baxma* (Oğuz); – *Basmaçı özünnən basey, qozaley* (Daşkəsən); – *Bax, Meytidən özünü gözdə, yaman basmaçıdı* (Gəncə).

**BASMAÇI** II (Şamaxı) – kömüryandıran, kömürçü. – *Bir dəsdə basmaçı götürüb özdəriçün basma qoyməyə getdilər.*

**BASMAX** I (Kürdəmir) – yalan danışmaq, goplamaq, gopa basmaq. – *Amma nə özünnən basırsan?*

**BASMAX** II (Culfa) – hürmək, hürə-hürə hücum etmək. – *Gecənin bir vaxtında onda baxdım, gördüm itdər basır.*

**BASMAX** III (Qazax) – düzəltmək, istehsal etmək. – *Bu ləzginin peşəsi keçə basmaxdı;* – *Biz özümüz hər il sirkə basırıx.*

**BASMAX** IV (Tovuz) – nəsil, tayfa. – *Bizim basmağın qızları sizdərə getməzdər.*

**BASMAXANA** (Gəncə) – yalan, gop. – *Əhmədin basmaxanasına baxma, mən deyən düzdü.*

**BASMAXANAÇI** (Gəncə) – yalançı, gopçu. – *Sən də yaman basmaxanaçısan ha!*

**BASMAQAFİYƏ** (Ağdam, Şuşa) – başdansovma, səliqəsiz, tələsik. – *Muna bax, mən ölüm, bələ şalvar tikəllər? Basmaqafiyə eliyif atıf o yana.*

**BASMAQƏNƏFEYİ** (Bakı) – b a x **basmaqafiyə.** – *Lap basmaqənəfeyi iş gördün.*

**BASMALIĞ** (Kürdəmir) – arpa əkilən yer, sahə. – *Bı basmalığ biyil xam qalıp.*

**BASMARTDAMAX** (Cəbrayıl) – basmarlamaq, qamarlamaq, kobud şəkildə qucaqlamaq.

**BASMƏ** (Oğuz) – b a x **basma** II. ◊ **Basmə gəlməx′** – 1. yalan danışmaq, gopa basmaq; 2. lovğalanmaq. – *Özgəsinə gəl basmə gəlmə.*

**BASMƏMMƏDİ** (Bakı, Cəbrayıl, Əli Bayramlı, Qazax, Naxçıvan, Mingəçevir, Sabirabad, Salyan, Şəmkir, Şuşa, Yardımlı). – *Adə, işi basməmmədi görmüyün a:* (Bakı); – *Usda, diyəsən basməmmədi işdiyirsən* (Salyan); – *Basməmmədi eləmə, yaxşı hazırragınan* (Cəbrayıl).

**BASNA** (Şəki) – keyfiyyətsiz, aşağı növ barama və ya ipək. – *Basnanı bir tərəfə yığ, qarışmasın.*

**BASNI** (Şəki) – b a x **basna.** – *İki pud basnı almışam.*

**BASSIRMA** (Mingəçevir) – b a x **basdırma.**

**BAŞ** (İmişli) – dəfə, kərə. – *Qoyun neçə baş ottar.*

**BAŞALTI** (Ağcabədi, Ağdam, Bərdə, Gəncə, Salyan) – balış, mütəkkə. – *Quru yerdə yatma, qoy başaltı verim* (Gəncə); – *Alçağ yatan başaltı qoyar* (Bərdə).

**BAŞARAT** (Qax, Qazax) – b a x **basarat.** – *Başaratın olsa, sən də oxuyuf bir adam olardın.* ◊ **Başaratı bağlanmax** (Qax) – b a x **basaratı bağlanmax.** – *Elinnən bi şey gəlmiy, başaratı bağlanıp honun.*

**BAŞBƏZƏYİ** (Gədəbəy) – nişanlı qıza yaxın adamları tərəfindən verilən hədiyyə. – *Başbəzəyinən qayçıkəsmə pulu birədi oley.*

**BAŞCIL** (Cəlilabad) – sərlövhə. – *Xeyrulla mə:lim, diyəsən, başcıl uşağın yadinnən çıxıb.*

**BAŞDARAĞ** (Quba) – şanapipik. – *Bizin yerlərdə başdarağ çux uladu.*

**BAŞDARAĞLI** (Xudat) – şanapipik.

**BAŞDAX** (Bərdə) – əvvəl. – *Uşax başdaxda əlifbeyi örgənir.*

**BAŞDIX** I (Biləsuvar, Borçalı, Gədəbəy, Hamamlı, Şəmkir, Tovuz) – başlıq, toy ərəfəsində qız evinin oğlan evindən aldığı pul, heyvan və s. – *Başdığa nə:tirmişdilər irəsillilər* (Gədəbəy); – *Başdığı oğlan verir qız sahabına* (Biləsuvar); – *Başdığı qızın atası alerdı* (Tovuz); – *Qəhraman qızına beş yüz manat başdıx aldı* (Hamamlı); – *Qıza yaman başdıx veriflər* (Şəmkir).

**BAŞDIX** II (Təbriz) – əldətoxunan yaylıq. – *Bala <kiçik> vəxləri başdıx, əlcəx′ toxumağı örgənirux.*

**BAŞDİ** (Şəki) – köhnə çəki vahidi. – *Üş başdin bir putdu;* – *Bu başdi fındıx verərdıx, bi başdi duz verərdi araf bizə.*

**BAŞƏ:X** (Ağdam, Bərdə, Şəmkir, Şuşa) – b a x **başəyax** II. – *Sən ki bilirsən, mə:dənin*

*xuyunu niye yedin, başə:ğın suyunu yemədiŋ* (Şəmkir).

**BAŞƏYAĞ** (Mingəçevir, Tərtər) – biçin vaxtı tökülən sünbül.

**BAŞƏYAX** I (Borçalı, Qazax) – b a x **başəyağ.** – *Başəyağın taxılı çox təmiz olur* (Qazax).

**BAŞƏYAX** II (Borçalı, Cəbrayıl, Gəncə, Qazax, Tərtər, Tovuz) – kəlləpaça. – *Qoyun başəyağı yeməli olor; – Başəyax pişirmişdix′ dünən* (Qazax); – *Bü:n başəyax pişirin, yiəx′* (Gəncə); – *Yaxşı başəyax bişirmişdik* (Cəbrayıl).

**BAŞĞUL** (Cəlilabad) – ağacın kəsilmiş qol-budağı. – *Ağacın qol-bıdağınə başğul de:yük.*

**BAŞIBAĞLICA** (Ordubad) – kərtənkələ.

**BAŞIBOŞ** (Tovuz) – 1. ərsiz; 2. dul. – *Başıboşsan, yoxsa ərəe:difsən?*

**BAŞIÇÜŞÜNƏ** (Qazax) – b a x **başıtuşuna.** – *Adam başıçüşünə iş görməz, bö:yə-kiçiyə məslahat eliyər.*

**BAŞIDUNUX** (Şəki) – b a x **başıdümüx′.** ◊ **Başıdunux olmaq** (Şəki) – b a x **başıdümüx′ olmax.** – *Ha, sən də başıdunux oluf gedifsən, ta: görünmürsən.*

**BAŞIDÜMÜX′** (Şuşa) – başı qarışıq, məşğul. – *Başıdümüx′dü, elə get, qız səni görməsin, yoxsa ağlıyar.* ◊ **Başıdümüx′ olmax** (Ağdam, Şuşa) – başı qarışıq olmaq, məşğul olmaq. – *Başıdümüx′ olannan bəri biznən işi yoxdu* (Şuşa).

☐ **Başını bezləməx′** (Qazax) – aldatmaq. – *Başını bezliyif pulunu əlinnən alıflar.* **Başını bitdəməx′** (Şəmkir) – öldürmək. – *Qənbərin başını bitde:flər; – Deillər qaraxannılar iki adamın başını bitde:flər.* **Baş aparmax** (Qazax) – qaçmaq (at haqqında). – *Atın qantarğasın bərk tut, baş aparer.*

**BAŞITUŞUNA** (Qarakilsə) – özbaşına. – *Başıtuşuna bırdan çıxıp gedip Bakiyə.*

**BAŞXOZAR** (Başkeçid) – xırmanda əzilmiş sünbül.

**BAŞQIRTDI** (Mingəçevir) – toy günü bəyin başının qırxılması mərasimi.

**BAŞQOV** (Şərur) – arxdan ləklərə su açılan yer.

**BAŞLIĞ** (Şamaxı) – heyvanın başına bağlanan ip.

**BAŞMAXÇIXAN** (Əli Bayramlı) – kandar, astana. – *Çəkmələr başmaxçıxanda qalıb.*

**BAŞPİ** (Quba) – iki öküzün buynuzlarını bir-birinə bağlamaq üçün qayış. – *Quşanda da, işlətəndə də üküzdərün buynuzdarına bağlıyana başpi diyəduğ.*

**BAŞYEYİCİ** (Meğri) – kiçik yaşında ata-anasını itirmiş uşaq.

**BAŞYOLDAŞI** (Kürdəmir, Qazax, Şamaxı, Şəmkir) – həyat yoldaşı, arvad. – *De:r ki, sən hələ ərəe:tmiyifsəŋ, nə bilirsəŋ ki, başyoldaşı şirindi* (Qazax); – *Başyoldaşı oğuldan-qızdan şirindi* (Kürdəmir); – *Ayıv olmasın, bu mənim başyoldaşımdı* (Şəmkir).

**BATARQI** (Borçalı) – qaytarılmasına ümid olmayan borc. – *Paşada min manat batarqı pulum vardı, böün yüz manatını verdi.*

**BATBAT** (Ağcabədi, Ağdam, Bərdə, Xanlar, Kəlbəcər, Şuşa, Ucar) – yabanı bitki adı.

**BATDAX** (Şəki) – palçıqlıq

**BATIX** I (Şəki) – çökək. – *Yerin baş tərəfi batıxdı, aşağısı tihdi.*

**BATIX** II (Qax) – *məc.* bədqədəm. – *Batığın biridi, hara getsə horanı batırıy.*

**BATIRMAX** (Bakı) – əkmək, basdırmaq. – *Hər lodaya seggiz şitil batırdım.*

**BATTAĞ** (Bakı, Cəlilabad, Mingəçevir) – b a x **batdax.** – *Lökbatan tərəf lap battağdu* (Bakı); – *Suyi tökeysüz tey battağ eleysüz* (Cəlilabad).

**BAVA** (Füzuli, Qazax) – b a x **baba.** – *Mən gedeyrəm, bavam qoymor* (Qazax); – *Get gör, bavan gəlifsə, ça:r gəlsin bura* (Füzuli).

**BAVAR: BAVAR ELƏMƏX′** (Füzuli, Qarakilsə, Naxçıvan) – 1. dözmək, davam gətirmək (Qarakilsə, Naxçıvan). – *Qələm ağacı burda bavar eləməz; – Sən bı issiyə bavar eləməzsən* (Naxçıvan); – *O bırda bavar eləmədi* (Qarakilsə); 2. inanmaq (Füzuli). – *Mən sa: bavar elədim.*

☐ **Bava öyü** (Basarkeçər) – toy məclisində oğlanın sağdışı. – *Həsən Kamilə bava öyüdü. – Böyün toy olanda bəyi dəlləyə aparıllar, orda dəllləx′ həm bəyin, həm də bava öyü olan oğlanın üz-başını qırxır, düzəldir.*

**BAVARD: BAVARD ELƏMƏX′** (Zəngibasar) – inkişaf eləmək, əmələ gəlmək. – *Bu qırrarda əkin-tikin bavard eləməz.*

**BAVAT** I (Çənbərək) – topa, dəstə. – *Camahat iki bavat oturmuşdu.*

**BAVAT** II (Çənbərək) – növ. – *Qartopu iki bavat toŋqarradı Varyat.*

**BAY** I (Qazax) – xoşbəxt. ◊ **Bay olmax** (Qazax) – xoşbəxt olmaq. – *Səni görüm balaların bay olsun; – Pis adam bay olmasın.*

**BAY** II (Gəncə) – ərköyün. – *Kərim oğlunu çox bay böyüdür, sora munun zərəlini çəkəjəx'.*

**BAYATILAMAX** (İmişli) – bayatı çağırmaq; bayatı deyib ağlamaq. – *Arvat yazıx canın tafşırınjan bayatıladı.*

**BAYAZZIĞ** (Şamaxı) – boş yer, əkilməmiş yer. – *Sizin bayazzığda bossan olmur.*

**BAYBIRDI** (Meğri) – mal-dövlət qədri bilməyən, mal-dövləti dağıdan. – *Xanəhmət uşağı baybırdı adamdı, olara əmlak tafşırmax olmaz.*

**BAYDA** (Ağdam, Şuşa, Tovuz) – badya. – *Ma: bir bayda qatıx ver* (Şuşa); – *Baydanı gəti inəh sağajam* (Ağdam). ◊ **Bayda balası** (Ağbaba, Borçalı) – kiçik badya; süd sağmaq üçün kiçik mis qab. – *Az, baydabalasın burə:tir* (Borçalı); – *Baydabalasına süt sağerıx* (Başkeçid).

**BAYDALAMAX** (Bərdə, Gəncə, Qazax) – badya ilə ölçmək. – *Əşi, belə də iş olar? Buğdanı baydalıyıf çərçiyə verif* (Bərdə); – *Baydala töx' çuala* (Qazax).

**BAYDARBAJAX** (Gəncə) – 1. uçuq; 2. hər tərəfi açıq. – *Kərimin həyəti laf baydarbajaxdı.*

**BAYDIRMAX** I (Basarkeçər) – 1. gizlətmək. – *Götü munu baydır, görməsinnər;* 2. oğurlamaq. – *Çingiz kitabı baydırdı.*

**BAYDIRMAX** II (Gəncə) – bir şeyi sahibindən icazəsiz başqasına vermək. – *Mənim kotanımı niyə özgəsinə baydırıfsan?*

**BAYI** (Cəbrayıl) – ana.

**BAYIL** (Salyan) – arxac (heyvanların yatdığı yer). – *Bayılda bir sürü qoyun var.*

**BAYIMMAX** (Meğri) – 1. varlanmaq; 2. yarımaq, xoşbəxt olmaq. – *Bir Nozlıdan bayımmışam, bir də Xovardan.*

**BAYINDIRMAX** (Meğri) – varlandırmaq, mənfəətləndirmək. – *İşləyib bizi bayındıracaxsan?*

**BAYIRRIX** (Bakı) – evdən kənarda özünü apara bilmək qabiliyyəti. – *Sənün bayırrığun yoxdi, nöşün evdən çıxırsan?*

**BAYXA** (Biləsuvar) – baxya, xırda sıx tikiş. ◊ **Bayxa vurmax** – xırda sıx tikişlə tikmək. – *Tumanın qırağına bayxa vur.*

**BAYLAMAX** (Başkeçid) – ürəyi keçmək, özündən getmək.

**BAYLANDIRMAX** (Gəncə) – kökəltmək. – *Atdarı laf baylandırıfsan.*

**BAYLAŞMAX** (Gəncə) – kökəlmək. – *Atdarı biyil yazda birki ay xama buraxdıx, yaxşı baylaşmışdılar.*

**BAYLI** (Ucar) – ana. – *Baylı, bir az mənə çörəx' ver; – Baylım qalxozza işdiyir; – Mənim baylım Ucara gedif.*

**BAYRAMÇILIX** (Sabirabad) – bayram münasibətilə adaxlanmış qız evinə göndərilən pay, bayram hədiyyəsi.

**BAYRAMNIX** (Ağdam, Bərdə, Füzuli, Tərtər) – bayram münasibətilə qız evinə göndərilən pay, bayram hədiyyəsi. – *Nişannısına bayramnıx göndərdi Əli* (Bərdə).

**BAYSAĞ** (Basarkeçər) – 1. səliqəsiz; 2. bacarıqsız. – *Baysağ adam işi başa yetirməz.*

**BAYTAL** I (Quba) – ikiyaşar madyan. – *Dişi atdu baytal, üzi də iki yaşında.*

**BAYTAL** II (Çənbərək) – 1. təkbaşına, yalqız; 2. sərbəst. – *Xanım baytal yetif, baytal gəzif.*

**BAYTAX** (Füzuli, Meğri) – açıq. – *Divarı da yoxdu, çəpəri də, baytax bağdı* (Meğri); – *Bizim qapı baytaxdı* (Füzuli).

**BAZARA** (Biləsuvar) – pambıq cərgələri arasında çəkilmiş kiçik arx. – *Bazara çəkirük, so:ra ordan su gedir.*

**BAZBIRITDI** (Şamaxı) – boylu-buxunlu, iribəndli. – *Mənim əmim bazbırıtdı ola-ola çox qorxacağdı.*

**BAZBURUT** (Ağdam, Gəncə, Qazax) – boy-buxun, görkəm. – *Gördüyüŋ iş heş səniŋ bazburutuŋa yaraşmır* (Ağdam); – *Bazburutu çox yaxşıdı onun* (Qazax); – *Elə bazburutunu görəndə adamı vəhmə basır* (Gəncə).

**BAZBURUTDU** (Ağdam, Gəncə, Qazax, Mingəçevir, Tərtər) – b a x **bazbırıtdı.** – *Asdan bazburutdu oğlandı* (Qazax).

**BAZDAŞMAX** (Çənbərək, Gədəbəy) – bəhsləşmək. – *İsmeyil də Nuruynan bazdaşır*

(Çənbərək); – *Nahax tutuşufsuŋ, onnan bazdaşammazsaŋ* (Gədəbəy).

**BAZDIX** (Kürdəmir) – vaxt, zaman.

**BAZI** I (Biləsuvar, Göyçay, İmişli, Kürdəmir, Salyan, Şəmkir) – təpə, dik, hündür yer. – *Bazıya çıx gör heyvannar çö:rmədədimi?* (Kürdəmir); – *Bala, qoyunu bazıya yığ gendən görünsün* (İmişli); – *Heyvan bazıda otduyurdu* (Biləsuvar); – *Bizim öy bazı yerdə tikilib;* – *Yayda Kürün bazı tərəfi sərin olur* (Salyan); – *Bazının üsdünnən baxanda kət görünür* (Şəmkir).

**BAZI** II (Ordubad, Quba, Şamaxı) – xışın kötüyünü boyunduruqla birləşdirən ağac hissə. – *Bazı heşdən boyunduruğa kimin olar* (Ordubad).

**BAZI** III (Gəncə, Oğuz, Ordubad, Şəmkir) – ləklər arasındakı köndələn torpaq mərz. – *Bazını əyaxlama, xarab olar* (Ordubad); – *Tir uzunnama gedir, bazı köndələn* (Oğuz); – *Bazını ləkin arasınnan çəkirix′* (Şəmkir).

**BAZI** IV (Tovuz) – kiçik arx.

**BAZI** V (Qəbələ) – çəltik ləki. ◊ **Bazı kəsməx′** (Qəbələ) – lək düzəltmək, lək hazırlamaq. – *Feyzulla baba bir gündə altmış bazı kəsir.*

**BAZILAMAX** (Oğuz) – 1. ləklər arasında mərz çəkmək; 2. lək hazırlamaq.

**BAZİ** I (Kürdəmir) – düzənlik. – *Bax, heylə bı bazi:nə get Qoçalıya çatana kimi.*

**BAZİ** II (Bakı) – tənək çubuğu. – *Ö:n yanunda olan meynənin bir bazisin kesdim, birin də saxlamişəm ki, dama çıxərdim.*

☐ **Bazi gəlmək** (Quba) – kələk gəlmək, hiylə işlətmək. – *O mə: heç bazi gələ bilə döğü.*

**BAZU** (Zaqatala) – qapının yan taxtaları. – *Bazuları hansı ağacdan düzəltmisən?*

**BA:ZU** (Bakı) – b a x **bazı** I.

**BAZZAS** (Ordubad) – qənim, düşmən. – *Canavar qoyun qisminə bazzasdı.*

**BEBAYA** (Füzuli) – b a x **beva.** – *Çox bevaya adamdı o.*

**BEBƏ** (Bakı) – körpə uşaq, çağa. – *Mən bebə dögürəm ki, məni qorxıdırsan.*

**BECAHA** (Kürdəmir) – əbəs yerə, boş yerə. – *Becaha danışma, bala.*

**BECCƏ-BECCƏ** (Şəki) – tez-tez. – *Ay qız, beccə-beccə gəlsənə!*

**BECƏHAL** (Kürdəmir) – b a x **becaha.** – *Becəhal yerə oturub gözdüyür.*

**BECİD** (Bakı, Mərəzə, Ordubad, Şamaxı) – tez, cəld, tələsik. – *Adə, becid gəl, ayağun altında yumurta qalmayıb ki!* (Bakı); – *Bir az becid gəlin, yoldaşlara çatax* (Ordubad); – *Boyi tösüdi, özü becid gedir* (Mərəzə); – *Becid gəldi, aldı mənnən şeyləri* (Şamaxı).

**BECİD-BECİD** (Bakı, Şamaxı) – tez-tez, sürətlə. – *Becid-becid gəlun ki, qarannığ tüşməmiş çatağ* (Bakı).

**BECİDLEMEG** (Bakı) – sürətləndirmək.

**BECİRD: BECİRD ELƏMƏX′** (Zəngibasar) – becərmək.

**BEÇÇƏ** (Zəngibasar) – balaca, xırda.

**BEÇÇƏDƏNNİX′** (Zəngibasar) – bətn, uşaqlıq.

**BEÇƏ** (Salyan) – arabanın qolu. – *Arabanın beçəsi dəmirdən olır.*

**BEÇƏXOR** (Lənkəran) – qadınların uşaqlığında əmələ gələn xəstəlik adı. ◊ **Beçəxor salmağ** – beçəxor xəstəliyi nəticəsində yarımçıq uşaq salmaq. – *Yazığ arvad üç aydı və:də ötürmişdi, gənə də açıldı, beçəxor saldı.*

**BEÇƏRƏ** I (Ordubad) – kal, yetişməmiş armud. – *Yetişməmiş armuda biz beçərə deyərıx.*

**BEÇƏRƏ** II (Qazax) – yazıq, fağır. – *A beçərə, sənin heş şeydən xəvərin yoxdu.*

**BEDAHA** (Şəmkir) – çox, hədsiz dərəcədə. – *Məle:kə bedaha gözəldi.*

**BEDAHAT** I (İsmayıllı, Kürdəmir, Qazax) – b a x **bedaha.** – *Biyil bedahat taxıl var* (Qazax); – *Əhməd bu gün bedahat iş görib* (İsmayıllı); – *Bu il Muradxanda qo:n bedahatdi* (Kürdəmir).

**BEDAHAT** II (Cəbrayıl) – çətin, əlacsız. – *Bedahat dərdə düşəsiz sizi.*

**BEDANA** (Ağdam, Bərdə, Cəbrayıl, Füzuli, Şuşa) – 1. iri ağ tut (Cəbrayıl). – *Şirinnix′də bedananın yerin heş nə verməz;* 2. toxumsuz tut, üzüm (Ağdam, Bərdə, Füzuli, Şuşa).

**BEDAZA** I (Bərdə, Kürdəmir) – intizamsız. – *O, yaman bedaza adamdı* (Kürdəmir).

**BEDAZA** II (Laçın) – həyasız. – *Onun öhdəsinnən gəlməx′ olmaz, bedazadı.*

**BEDDAH** (Qarakilsə) – b a x **beddam.** – *Cama:t çox iş görür, mənim adım beddahdı elə.*

**BEDDAM** (Bakı, Qazax, Şuşa) – bədnam, rüsvay, biabır. – *Çaqqal var gödən dağıdır, qurdun adı beddamdı* (Qazax). ◊ **Beddam eləməx′** (Şuşa) – rüsvay eləmək. – *Cama:tın içində beddam elədin bizi.*

**BEDƏL** (Bakı) – 1. qarşılıq, əvəz; 2. qiymət. – *Bu qəzetün bedəli ildə altı manatdı.*

**BEDƏNÇƏRƏ** (Bakı) – çirkin, kifir, eybəcər. – *Sən burdakı güzgülərə bax, gör adami necə bedənçərə görsədir; – Bedənçərənün biridü.*

**BEDİD** (Bakı) – küt getmiş çörək. – *Ay qado:i alım, mənim dişdərim var ki, bedid yiyim.*

**BEDLƏKƏR** (Bakı) – 1. çirkin; 2. natəmiz. – *Mən Sonanun gəlinün görməmişdim, yaman bedləkərün biridü.*

**BERNÖ:ÜS** (Bakı) – hər şeyə tamah salan, nəfsi hər şeyi çəkən. – *Nə bednö:üs uşağdu bu, mənnəm kimə oxşiyib.*

**BEDUYUX** (Cəbrayıl) – xəbərsiz.

**BEHBAZAR** (Çənbərək, Kürdəmir, Qazax) – etibar, dəyanət. – *Sənin behbazarın yoxdu, saŋa inanmağ olmaz* (Qazax); – *Məcidə behbazar yoxdu* (Çənbərək).

**BEHBİDİ** (Şuşa) – b a x **beybut.** – *Zarafatdaşanda behbidini soxmuşdu bö:rümə, on gün yatdım.*

**BEHLİ** (Qazax) – behi alınmış. – *Xalxın behli malını harıya satersan?*

**BEHTİN** (Kürdəmir, Mingəçevir) – b a x **beytin.** – *Vahap behtinin biridi, onnan pıl çıxar?* (Kürdəmir)

**BEJAN** (Cəbrayıl) – böyük lək. – *Suyu orta bejana bağla; – Gedim, bağda birki bejan doğruyum.*

**BEJƏ-BEJƏ** (Qazax) – nahaq yerə, boş yerə, faydasız. – *Bejə-bejə danışıf başımı ağrıtma.*

**BEKARA** I (Ağdam, Bərdə, Kəlbəcər, Şuşa) – yararsız, pis. – *Ə:, bekara şeydi, onun nəynə pul verirsən* (Ağdam); – *Həsən bekara adamdı, ona qoşulma* (Kəlbəcər).

**BEKARA** II (Ağcabədi, Ağdam, Bərdə, Şuşa) – bir az, bir qədər. – *Bekara oyana otursaŋ mã: da yer olar* (Ağdam); – *Bir bekara qızdır ver yeəx′, bərk ajımışıx* (Bərdə).

**BEKDANƏ** (Ordubad) – heyva toxumu. – *Boğazım ağrıyır, bekdanə suyi içəcəm.*

**BEKÜNT** (Cəbrayıl) – yöndəmsiz.

**BEKÜT** (Cəbrayıl) – b a x **bekünt.**

**BEQAM** (Gədəbəy) – üzsüz süd. – *Beqamın özü nədi ki, qatığı da nə ola; – Beqamnan yaxşı kəsmix′ olur.*

**BEQURB** (Lerik) – hörmətsiz. – *Xasyətinən özün bequrb eliyib.*

**BELBİ** (Şəki) – çəltik küləşi. – *Belbi sirkəliyif beş put, altı put çəltix′ gətirənnər var.*

**BELÇƏ** (Zəngibasar) – xəkəndaz. – *Belçəni gəti zibili yığ.*

**BELİBAĞLI** (Bərdə, Qazax, Şəmkir) – belində qurşağa bənzər zolaq olan yırtıcı quş. – *Belibağlı meşədə çox olur* (Bərdə); – *Qartal deyif kin, belibağlı olmaseydi, yeddi boyun ulağı kotannı, zincirri göyə qaldırardım* (Qazax); – *Sərçələr belibağlıyı görən kimi hamsı özünü kola verdi* (Şəmkir).

**BELİDONQAR** (Zəngilan) – qozbel. – *Qara belidonqardı anadan gəlmə.*

**BELİQURU** (Oğuz, Şəki) – *məc.* tənbəl.

**BELİQUZDU** (Ağcabəd, Ağdam, Bərdə, Şuşa, Tərtər, Zəngilan) – qozbel. – *Yazıx beliquzdudu dayna, şikəsdi* (Ağdam); – *Beliquzdu adam həməşə büküx′ gedir* (Tərtər).

**BELİTƏX′NƏLİ** (Zəngilan) – qozbel. – *O, uşaxlıxdan həylədi – belitəx′nəlidi.*

**BELKAN** (Şamaxı) – bel. – *Eldar belkannan ağacın dibini boşaldardı.*

**BELKƏLLƏSİ** (Oğuz) – oyun adı.

**BELLƏTMƏK** (Ucar) – göstərmək. – *Mən sənin şəkilu: Həsənə də bellətdim.*

**BELLİK** (Cənubi Azərbaycan) – bir qədər, məlum ölçüdə su. – *Arxda on bellik su var.*

**BELTƏ** (İmişli) – bel. – *Beltəni mana görüm.*

**BELVİ** (Şəki) – b a x **belbi.**

**BERƏ** (İmişli) – qoyunların sağıldığı yer. – *Sürünü berəyə gətirdilər.*

□ **Berə gezdirmeg** (Bakı) – suvarmaq, əkin yerinə su vermək. – *Ədə, lopatgəni götür, bir berə gəzdir.*

**BERÖYİŞ** (Lerik) – çirkin, eybəcər. – *Bu uşağ beröyişin biridü.*

**BERUNNU** (Qazax) – dəli, gicbəsər. – *Öyü yıxılmışın oğlu pütün berunnudu.*

**BERVƏT** (Xanlar) – yaramaz. – *Mən nə bilim bervət məni şərriyir.*

**BEŞ** I (İsmayıllı, Dərbənd, Şamaxı) – çırpı, ağacın nazik budaqları. – *Get, iki şələ beş gətir* (*İsmayıllı*); – *Beş gitidüm meşədən mən də* (Dərbənd).

**BEŞ** II (Tovuz) – uşaq oyunu adı.

**BEŞDAŞ** (Ağdam, Bakı, Bərdə, Kürdəmir, Şamaxı, Şuşa, Zəngilan) – beş xırda daşla oynanılan uşaq oyunu adı. – *Beşdaş oynemegdən bormağımuzun başı yara olıb* (Bakı); – *A qızlar, gəlin gedəx' beşdaş oynuyax* (Bərdə); – *Uşax kimi beşdaş oynuyur yekə kişi* (Şuşa).

**BEŞDƏMƏX'** (Qazax) – kef çəkmək, gəzmək. – *Gözəl beşde:r indi kətdə.*

**BEŞƏNCƏRƏ** (Ağsu) – zarafatcıl, lağlağıçı. – *Nə beşəncərə adamsan elə hamıya gülürsən.*

**BEŞİKKƏRTMƏ** (Bolnisi, Qax, Qazax, Lənkəran, Mingəçevir) – valideynlər tərəfindən körpə uşaqları adaxlama, ad eləmə.

**BEŞƏHLƏT** (Şərur) – yaraşıqsız.

**BEŞYEK ELƏMƏX'** (Şərur) – yerbəyer etmək, səliqə ilə bir yerə yığmaq. – *Hə:tdən yığılan meyvələri beşyek elədix'.*

**BET** (Balakən) – heç olmazsa. – *Sən bet bizə gəl;* – *Bu günlərdə qardaşım bet gəlseydi, nə yaxşı olardı.*

**BETARAF** (Qazax) – xarab. ◊ **Betaraf olmax** (Qazax) – tələf olmaq, xarab olmaq, yararsız hala düşmək. – *Taxıl betaraf oluf, hamısını yeyiv, əyaxleyif comuşdar.*

**BETSƏ** (Zəngibasar) – kimi. – *Gələn betsə pulu verdi, heyvanı aldı.*

**BEVA** (Füzuli) – tənbəl, bacarıqsız. – *Belə beva uşaq olmaz, ay canım.*

**BEVAY** (Əli Bayramlı) – b a x **beva.**

**BEYBƏL** (Salyan) – 1. ağılsız, dəli; 2. avara.

**BEYBUT** (Bakı, Şəki) – qatlanmayan iri bıçaq. – *Beybutu yerə qoy, elini keser* (Şəki); – *Ləzgi Ramazan mənə şirmeyi dəsdə bir beybut bağışdamışdı* (Bakı).

**BEYFARA** (Qazax) – xeyirsiz, boş yerə. – *Taxılları niyə sulame:llar, su beyfara axer.*

**BEYXUD** (Borçalı) – bıçaq.

**BEYİL** (Quba) – bel. – *Beylim bərk ağrıtadu, bilmiyədəm nə ulub.*

**BEYİTDƏŞMƏX'** (Cəbrayıl, Kürdəmir, Şuşa) – deyişmək, mübahisə etmək. – *Mənnən burda oturuf beyitdəşməx'dənsə, gedif yeri qazsana* (Kürdəmir); – *Ə:, az beyitdəş mənnən, dur çıx get evinizə* (Şuşa).

**BEYQAFIL** (Ağdam) – birdən, qəfildən. – *Beyqafil içəri girdi.*

**BEYOSAN: BEYOSAN OLMAX** (Qazax) – xarab olmaq, yararsız hala düşmək. – *Yağınnıx başdadı, taxıl xırmanda beyosan oldu.*

**BEYPUT** (Bolnisi) – b a x **beybut.**

**BEYŞƏR** (Qax, Zaqatala) – avara.

**BEYŞÖLƏT** (Ordubad) – çirkin, yaraşıqsız.

**BEYTAŞ** (Naxçıvan) – yiyəsiz, sahibsiz. – *Bizim kəntdə beytaş ev yoxdu.* ◊ **Beytaşa qalmax** (Qazax, Tovuz) – sahibsiz qalmaq, mirasa qalmaq. – *Min dəfə demişəm bu beytaşa qalmış qapının ağzına qoymuyun* (Qazax); – *Onun paltarı beytaşa qaldı* (Tovuz).

**BEYTİN** (Ağdam, Bərdə, Çənbərək, İmişli, Qazax, Quba, Salyan, Şəki, Şuşa, Yevlax) – 1. işsiz, avara. – *Kişi, beytin dayanma, işə əl ver* (İmişli); – *Ə, niyə beytin gəzirsən?* (Kürdəmir); – *Bizim qalxozda beytin adam yoxdu* (Salyan); 2. boş, istifadəsiz (Quba, Salyan); – *Əhməd üldi, öyi beytin qaldi* (Quba); – *Çavat qarı beytin adamdı, ağzı harya düşse:ydir* (Çənbərək); 3. mənasız (Naxçıvan) – *Sənin bu işin beytin işdi.*

**BEYTİN-BEYTİN** (Şamaxı, Şuşa) – boş-boş, avara-avara. – *Bu arada nə beytin-beytin gəzirsən* (Şamaxı); – *Axşamatan beytin-beytin dolanır, heş bir işdən yapışmır* (Şuşa).

**BEYTİNƏ** (Şərur) – hər, adi. – *Beytinə işə başı: soxma.*

**BEYTÜN** (Bakı) – b a x **beytin** (1-ci məna). – *Qabağ beytün yərdü, burax çıxsun gəzsün heyvannari, u yərdə otdasun.*

**BEYÜZM** (Ağdam, Gəncə, Şuşa) – hörmətsiz, biabır. ◊ **Beyüzm eləməx'** (Gəncə) – hörmətsiz etmək, biabır etmək. – *Durduğu yerdə zalım oğlu özünü beyüzm elədi qoydu ora.* **Beyüzm olmax** (Şuşa) – hörmətsiz olmaq, biabır olmaq. – *Onun yanında da beyüzm oldum.*

**BƏAX** (Gəncə, Qazax) – bir qədər bundan əvvəl, bayaq. – *Bəax səni ça:ırdım, eşitmədin* (Qazax).

**BƏBƏ** (Gəncə, Füzuli, Kürdəmir, Qazax, Masallı, Mingəçevir, Naxçıvan, Oğuz, Şəki) – 1. b a x **bebə.** – *Sən də bebəsən* (Füzuli);

– *Onun bəbəsi yaman göyçəkdi* (Kürdəmir); – *Onun bəbəsi yaman göyçəkdi* (Kürdəmir); – *Gözünüz aydın, eşitdim sizə təzə bir bəbə gəlir* (Oğuz); 2. gəlincik (Gəncə). – *A qızım, ala sã: bir yaxşı bəbə almışam.*

**BƏBƏGÜL** (Quba) – qaranquş.

**BƏBƏX′** (Şəmkir) – boyaqçılıqda işlədilən kül. – *Bazara bir bəbəx′ aparmışdım, bilmirəm, nə cür çəx′dilər, nə kələx′ gədilərsə, əlimi heçə-puça çıxartdılar.*

**BƏBƏNƏK** (Cənubi Azərbaycan) – xırdayarpaqlı yeməli bitki adı. – *O qədə bəbənək yidim ki, ağzım göyniyir.*

**BƏBƏRÇİN** (Qax, Lənkəran, Zaqatala) – qaranquş. – *Yaz oldi, bəbərçinnər gəldi* (Lənkəran).

**BƏCƏ** (İsmayıllı) – moruq. – *Amma kö:lüm nə bəcə issiyir.*

**BƏCƏLİ** (Qax) – lobya.

**BƏCƏRTMAX** (Təbriz) – bəsləmək, becərmək. – *Qoyunu pərvəri bəcərdillə.*

**BƏCİ** (Qazax, Naxçıvan) – pis. – *Qızım, bu bəcidi, yemə!* (Qazax)

**BƏCİD** I (İsmayıllı) – b a x **becid.**

**BƏCİD** II (Naxçıvan) – doğru.

□ **Bəcid olmax** (Qarakilsə) – təkid etmək. – *Mənim bu sirri açmama o çox bəcid oldu.*

**BƏCİX′** (Qarakilsə) – taxılın içindən çıxan zibil. – *Bəciyi toyuxlara tökürüx′.*

**BƏÇ** (Qax) – divara şirə çəkmək üçün istifadə olunan dəri parçası.

**BƏÇİK** (Kəlbəcər) – qıçda və qolda olan oynaq(lar). – *O qədər gəzmişəm ki, bəçiklərim ağrıyır.*

**BƏDAZA** (Kürdəmir) – dələduz. – *Bədaza öylatdansa, qapundakı gəlnin yaxşıdı.*

**BƏDDƏMƏX′** (Gəncə) – əli gətirməmək, uğursuzluğa düçar olmaq. – *Yaman bəddəmişəm, heç işim düz gəlmir.*

**BƏDƏL** I (Qazax) – işdə əvəzsiz kömək. – *Arvatdar xana toxuyanda bədələ gedər bir-birinə;* – *Əmim bizə bədələ gəldi.*

**BƏDƏL** II (Cəbrayıl, Qarakilsə, Quba) – əvəz, tay, bərabər. – *Koroğluya bədəl qəhrəman olmuyuf;* – *U sənə hiç bədəl ulammaz* (Quba); – *Onun bədəlində beşin qaytardılar* (Qarakilsə).

**BƏDƏLİ** (Şuşa) – süni, saxta. – *Tellinin belindəki toqqa bədəli qızıldandı.*

**BƏDƏLLƏŞMƏX′** (Beyləqan, Bərdə) – köməkləşmək, bir-birinə köməyə getmək. – *Gəl bədəlləşəx′* (Bərdə); – *Mən Vaqifnən bədəlləşif evi tix′dim* (Beyləqan).

**BƏDƏNÇƏ** (Ağcabədi, Füzuli, Göyçay, Şuşa, Tərtər, Ucar) – canlıq, qolsuz sırıqlı. – *Cicim mənə bədənçə tikdi* (Ucar); – *Bədənçəni qoja kişilər, qoja arvatdar ge:irdi* (Tərtər); – *Anam özünə bir bədənçə tikdirdi* (Göyçay).

**BƏDƏNÇƏRƏ** (Bakı) – b a x **bedənçərə.** – *Kasıb itinin adın Gümüş qoyan kimi, sən də bu bədənçərənün adın nöşün Adıgözəl qoymusan.*

**BƏDƏRQA** (Qarakilsə) – cavabdeh. – *Mən ona bədərqa dəyləm.*

**BƏDƏV** (Şahbuz) – qaçağan “at”. – *İki bədəv at gətirrəm mən, al qaç.*

**BƏDGÜNNÜX′** (Ağdam) – çətinlik. – *Uşaqlıqda pütün ömürümüz bədgünlüynən keşdi, doyunca yeməx′ də tapbırdıx.*

**BƏDHAL** (Lənkəran) – acıqlı, hirsli, əsəbi. – *Əmir bədhal adamdu, sözünün qabağına söz gətirən kimi haldan çıxır.*

**BƏDXƏRƏX′** (Qazax) – boğaz xəstəliyi, boğazda əmələ gələn şiş. – *Pəri xalanın oğlu bədxərəx′ olmuşdu, tez həkim gətdilər.*

**BƏDİRCİN** (Kürdəmir) – badımcan.

**BƏDİRĞA** (Zəngilan) – b a x **bədərqa.** – *Bı işə mən bədirğa dəyləm.*

**BƏDQAVARA** I (Qazax, Şəmkir) – bədəncə kobud, qaba. – *O çox bədqavaradı, heç paltar ona yaraşmer* (Qazax).

**BƏDQAVARA** II (Qazax, Şəmkir) – davakar. – *Urusdam köhnənin bədqavarasıdı, sən onu yenimi tanıyırsan?* (Qazax).

**BƏDNÖYÜS** (Ağdam, Bərdə, Qazax, Şuşa) – b a x **bednö:üs.** – *Bədnöyüs adamnan mənim xoşum gəlməz* (Ağdam); – *Nuru çox bədnöyüsdü, hər gördüyünə tamah eler* (Qazax); – *Yaman bədnöyüs arvatdı bu Bədir xala* (Şuşa).

**BƏDO** (Ağdam, Quba) – b a x **bədəv.** – *Yaxşı bədo atı var onun* (Ağdam).

**BƏDÖY** I (Tovuz) – hoqqa. – *Özünnən bədöy çıxartma.*

**BƏDÖY** II (Bakı, Göyçay, Qazax, Ordubad) – b a x **bədəv.**

**BƏDRAX: BƏDRAX DÜŞMƏX'** (Oğuz, Şəki) – didərgin düşmək. – *Bizim bir toux bədrax düşüfdü, heç həyətə gəlmir* (Oğuz).

**BƏDSUYUM** (Culfa) – bədnəzər. – *Bədsuyumun gözü o odda yana!*

**BƏDYƏ** (Kürdəmir) – çöl, səhra. – *Bədyənin düzündə savxoz salıblar.*

**BƏDYO:Z** (Qazax) – bədnəzər.

**BƏƏC: BƏƏC OLMAX** (Qax) – dağılmaq.

**BƏGGAH** (Ordubad) – tumanın, şalvarın bağ keçirilən yeri. – *Atam həmişə şalvara bəggah tikərdi.*

**BƏĞBƏQUZİ** (Bakı) – qurbağa.

**BƏĞDATI** (Ordubad) – b a x **bağdatı** I. – *Qəbaxda əvlərimizin çoxi bağdatı olardı.*

**BƏĞƏ** (Quba) – b a x **bəqqə.**

**BƏĞƏLƏ** (İsmayıllı, Quba) – b a x **bəqələ.** – *Bağələ dəyib, gedək yığax* (İsmayıllı).

**BƏHƏM: BƏHƏM ELƏMƏX'** (Mingəçevir) – tamamlamaq, qurtarmaq. – *İşin birini bəhəm elə, sora o birinə keç.*

**BƏHƏMLƏŞMƏX'** (Cəbrayıl) – əlbir olmaq, köməkləşmək. – *Bəhəmləşdıx ikicəyimiz, qutardıx hamısın.*

◻ **Bəhəm olmağ** (Bakı, Şəki) – əmələ gəlmək, baş vermək, meydana çıxmaq. – *Qarnımda bilmirəm nə bəhəm olub ki, gecələr sə:rəcən yata bilmirəm* (Bakı); – *Bu xəsdəlıx məndə bəhəm olannan işdiyə bilmirəm;* – *Qavaxlar bi para adam başmağ giyərdi, so:ra çus, hindi qaluş bəhəm olufdu* (Şəki).

**BƏHƏRXIR** (Bakı) – müvəqqəti bağ kirayəyə götürən adam.

**BƏHİM: BƏHİM OLMAX** (Qax) – qovuşmaq, birləşmək. – *Honun mağa bəhim olan gün dağılsın.*

**BƏHLİ** I (Göyçay, Quba, Qusar, Ucar, Şəki) – b a x **bə:li.** – *Bəhli yetişib* (Quba); – *Biyil bəhli olmadı, quraxlığ oldu* (Şəki); – *Bəhli mürəbbəsi yeyirsənmi?* (Ucar).

**BƏHLİ** II (Zərdab) – albalı. – *Bəhli yavaş-yavaş qızarır.*

**BƏHR** (Qazax) – məkr, kələk. – *Alla: səni şeytanın şərinnən, arvadın bəhrinnən saxlasın.*

**BƏHRƏ** (Bərdə, Borçalı, Culfa, Qazax, Şahbuz, Tovuz) – keçmişdə məhsulun onda biri həcmində alınan vergi. – *On dərzin biri ağanın, doqquzu bizim, buna bəhrə de:ilirdi* (Borçalı); – *Hər nə əx'səx' onun onnan biri bə:indi, ona da bəhrə deirdix'* (Bərdə); – *Bəhrədə otuz pıtdan dört pıt xanındı* (Culfa).

**BƏHRƏDAR** (Şahbuz) – keçmişdə bəhrə yığan adam. – *Bı kətdə bəhrədar olub.*

**BƏHRƏXİR** (Bakı) – b a x **bəhərxır.**

**BƏHSƏNƏ** (Kürdəmir) – balqabaq.

**BƏHSUMAT** (Ordubad) – b a x **bəyismat.** – *Qərdaşım bəzardan bəhsumat almışdı.*

**BƏXƏ** (Quba) – b a x **bəqqə.**

**BƏXİCİ** (Ordubad) – münəccim. – *Zöhrə ulduzun bizzər annamarıx, onu bəxici bilər.*

**BƏXQA** (Quba) – b a x **bəqqə.**

**BƏXRƏM: BƏXRƏM VURMAX** (Meğri) – qurtarmaq, son qoymaq. – *Qırx-əlli ildi oruşnamaza bəxrəm vurmuşux.*

**BƏXŞƏRİ** (Bakı) – başdansovma, ötəri. – *Adə, bu uşağları (uşaq) da gör necə bəxşəri işdi:blər a!..*

**BƏXTƏLƏMEG** (Bakı) – b a x **baxdalamağ.**

**BƏQƏLƏ** (Quba) – böyürtkən. – *Uşağlar bəqələni yığıb yiyədülər.*

**BƏQƏRƏ** (Bakı) – b a x **bağara** I.

**BƏQQƏ** (Quba) – süd sağmaq üçün saxsı qab. – *Qızım, git bəqqəni geti, inəyimizi sağağ.*

**BƏL** (Füzuli) – xırda vaxtı ipəkqurduna verilən ilk yarpaq. – *Əl yarpaına bəl deirix'.*

**BƏLBƏX'CİN** (Gədəbəy) – gəmirici heyvan adı. – *Bəlbəx'cin yekə oloy sıçannan xeylax.*

**BƏLBİ** (Qax) – b a x **belbi.**

**BƏLDİRƏMƏX'** (Çənbərək) – kökəltmək. – *Amandoy Nəsif ölürdü, indi oğarda bəldirif kin.*

**BƏLƏD** (Cəlilabad) – darvaza, həyət qapısı.

**BƏLƏGİR** I (Oğuz) – öz xeyrini güdən.

**BƏLƏGİR** II (Şəki) – tənbəl, özünü işə verməyən. – *Yana dartan kəlin özünə bələgir diyərux;* – *Bələgir adam olmaz bizim qalxozda.*

**BƏLƏGÜM** (Bakı) – b a x **bələkün.**

**BƏLƏKÜN** (Bakı) – sarı çiçəkli yabanı ot.

**BƏLƏMƏX'** (Başkeçid) – aldatmaq.

**BƏLƏN** I (Gəncə, Qarakilsə, Qazax, Şəmkir, Tovuz) – dağ aşırımı. – *Karvan bələni aşdı* (Qazax); – *Deyir: "Ə, sən yoldan çıxma, o bələni çıxıp olları çağrajam"* (Qarakilsə); – *Olar bələni aşdılar* (Şəmkir).

**BƏLƏN** II (Qazax) – pusqu yeri. – *Özünə bir bələn qayrer kin, quş onu görməsin, birdən vursun, ona bələn de:irix'.*

**BƏLƏN** III (Borçalı, Cəbrayıl) – hündür yer, təpə. – *Səsə gələn adamlar bələnə çıxdılar.*

**BƏLƏT** (Cəlilabad) – b a x **bələd.** – *Qıza, bələti bağla, qoyinnər gəleylər qapiyə girməgə.*

**BƏLGƏ** I (Gəncə, Kəlbəcər, Kürdəmir, Oğuz, Ordubad, Şəmkir, Zəngilan) – b a x **bəliyə.** – *Qıza bəlgə aparallar* (Oğuz); – *Bizim kətdə bəlgəsiz qız verməzdər* (Zəngilan); – *Bu axşam Zeynava bəlgə aparajaxlar* (Şəmkir).

**BƏLGƏ** II (Salyan) – bəhanə. ◊ **Bəlgə gətirmək** (Salyan) – bəhanə etmək. – *Yaxşı adam bəlgə gətirməz.*

**BƏLGƏ** III (Bakı) – şaftalı qaxı. – *Ordubatdan gələndə birez bəlgə getirmişdim, mənnəm hasının qəzəbinə gəlib.*

**BƏLGƏ** IV (Ağdam, Bakı, Cəbrayıl, Cəlilabad, Əli Bayramlı, İmişli, Kürdəmir, Salyan, Zəngilan) – vuruşma zamanı müdafiə üçün qola sarınan sarğı. – *Qolumda bəlgə olmaseydi, vuruf sümüyümü sındırmışdı* (Ağdam); – *Dava eliyəndə çuxamızı qolımıza dolayırduğ, oa bəlgə deyərdüğ* (İmişli); – *Bəlgəni qolə doleylər* (Cəlilabad).

**BƏLGƏ** V (Ağdam, Salyan) – əkin sahələrinin sərhədini bildirən nişan. – *Bu yerə bəlgə qoy* (Ağdam); – *Arbatan qolxozuynan bizim qolxozun bəlgəsi fermənin yanındadı* (Salyan).

**BƏLGƏ** VI (Şuşa) – gön aşılamaq üçün narın qabığından və yarpağından hazırlanmış maddə. – *Bəlgə qutardı, gön istaxda qaldı.*

**BƏLGƏ** VII (Zəngilan) – boyaqçılıqda istifadə olunan bitki.

**BƏLGƏ** VIII (Bakı, Salyan) – sənəd, əsas. – *Əlündə bəlgön var ki, belə di:rsən?* (Bakı).

**BƏLGƏ** IX (İmişli, Kürdəmir) – batmaması üçün balıq torunun yan iplərinə bağlanan qamış. – *Torun üst ciyəsinə bəlgə bağlanır* (Kürdəmir); – *Lələ, torun bəlgəsi sınıb, qarğı gətrim düzəldəg* (İmişli).

**BƏLGƏ** X (Masallı) – çox duzlu.

**BƏLGİM** (Kürdəmir) – yeməli yabanı bitki adı. – *Bəlgimnən yap yaxşı do:uğa olur.*

**BƏLİ** (Quba) – b a x **ba:lı.**

**BƏLİM** I (Balakən, Cəbrayıl, Göyçay, Kürdəmir, Qarakilsə, Qazax, Meğri, Mingəçevir, Oğuz, Sabirabad, Salyan, Şəki, Şəmkir, Tovuz) – xırmanda taxıl döyüləndən sonra qalan küləş. – *Yaveynan çö:rürüx', dəni töküler, altında bəlimi yavalıyıf tulluyurux* (Oğuz); – *Bəlim olsa, ot az lazımdı* (Balakən); – *Bəlimi ulax ye:ir, mal ye:ir* (Qazax); – *Tellədim bəlimi qrağa, sora genə altmış dərz saldım xırmana* (Meğri); – *Bəlimi ayrı yığmax lazımdı ki, qışda mallar yesin* (Cəbrayıl); – *Bir çual bəlim gətimişəm* (Şəmkir).

**BƏLİM** II (Cənubi Azərbaycan) – yeyilən göyərti adı. – *Bəlimnən xörək bişirillər.*

**BƏLİYƏ** (Şəki) – oğlan evindən qız evinə aparılan nişan. – *Məhburiyə bəliyə gə:litdi;* – *Hər yerdən gə:llər bəliyə görmağa.*

**BƏLLƏ** I (Lənkəran) – b a x **bəlgə** X. – *Xörəyə bəblə duz tökəllər, bəllə olub ki!..*

**BƏLLƏ** II (Şahbuz) – xırdaqulaqlı qoyun. – *Bir gün sürüdən bəllə yox oldu.*

**BƏLLƏBAN** (Naxçıvan) – kiçik uşaqları qorxutmaq üçün işlənən xəyalı varlıq.

**BƏLLƏMƏK** I (İmişli) – 1. yoluxmaq, baş çəkmək; 2. yoxlamaq. – *Tay gedib bizi bəlləmirsən?;* – *Gedək bəlliyək, görək kim var orda.*

**BƏLLƏMƏK** II (Kürdəmir, Ucar) – nişanlamaq, işarə qoymaq, müəyyənləşdirmək. – *Oyi <onu> çoxdan bəlləmişəm ki, itibbatmasın* (Kürdəmir); – *Mən bossanda qarpızın yerin bəllədim* (Ucar).

**BƏLLƏMƏK** III (Hamamlı) – boş-boş danışmaq.

**BƏLYABAĞI** (Bakı) – balqabaq

**BƏLYƏ** (Borçalı, Gədəbəy, Qazax, Tovuz) – b a x **bəliyə.** – *Əli Əmirqulunun qızına bəlyə apardı* (Borçalı); – *Qızə:lən bəlyə heş xoşumə:lmədi mə:m* (Gədəbəy)

**BƏ:M** (Cəbrayıl) – məgər

**BƏN** (Qazax) – xal. *Əhmədin üzündə bən var.*

**BƏNARAH** (Ordubad) – karniz, ev divarlarının üzərinə düzülən sonuncu çıxıntılı daşlar. – *İskəndər, gə gedax bizim damın bənarahlarını düzəldax.*

**BƏNBƏLƏH** (Qax) – araba oxunun üstündə olan ağac hissə.

**BƏND** I (Şəmkir) – dilin ucuna çıxan kiçik sızaq. – *Dilimə bənd düşüf.*

**BƏND** II (Şəmkir) – qoyun xəstəliyi adı. – *Ay ha! Çovannara tafşır, qoynu Qəhrəmanın qoynuna qatmasın, de:llər oların qoynunda bənd var.*

**BƏNDƏM** I (Ağdam, Başkeçid, Cəbrayıl, Füzuli, Gədəbəy, Qazax, Mingəçevir, Şəki, Şəmkir, Tovuz, Zaqatala, Zəngilan) – dərz və ya bafa bağlamaq üçün kökündən çıxarılmış sünbüllü küləşdən və ya uzun otdan düzəldilən bağ. – *A bala, uzun bəndəm yol, yekə bağlıyax dərzi* (Qazax); – *Bafanı bəndəmnən bağla* (Zaqatala); – *Oğul, oğul, yanındakı bəndəmi burayəti, bağlə:ax bu dərzi* (Gədəbəy); – *Bəndəmnən bağliyrıx bafanı* (Şəki); – *Bəndəmi taxılın özünnən eşirix', qayrerıx* (Tovuz); – *Səkkiz bafanı qourux bəndəmin arasına, bağlıyırığ olur dərz* (Füzuli); – *Bəndəmləri suya sal qurumasın* (Cəbrayıl); – *Birki bəndəm eş, bu dərzdəri bağlıyax* (Şəmkir).

**BƏNDƏM** II (Bakı) – meyvə saplağı.

**BƏNDƏM** III (Çənbərək) – tütün topası. – *Arvatdar tütünü bəndəm eliyiflər.*

**BƏNDƏMƏ** (Bakı, Küdəmir, Quba, Salyan) – b a x **bəndəm** I. – *Gedginən ordan mə: bəndəmə gətginən* (Bakı); – *Otı bəndəməynən bağlallar* (Salyan).

**BƏNDƏMLƏMAX** (Ordubad) – taxıl dərzini bəndəmlə bağlamaq. – *Yağış yağmamış taxılı bəndəmləmax lazımdı.*

**BƏNDƏMLƏMƏX'** (Gəncə) – b a x **bəndəmləmax.**

□ **Bəndəm yerimәx'** (Borçalı) – bənd (b a x 2-ci mәna) xəstəliyi nəticəsində yıxıla-yıxıla yerimək. – *Qoyun laf bəndəm yeriyir.*

**BƏNDƏR-BƏNDƏR** (Ucar) – tikə-tikə, parça-parça. – *Qənşərdə quldurrar kəndimizdən bir neçə adamı bəndər-bəndər doğramışdılar.*

**BƏNDƏRGAH** (Ordubad) – ev divarlarının üzərinə düzülən sonuncu çıxıntılı daşlar. – *Damın bir bəndərgahı pis qurulub.*

**BƏNDƏRGAHLAMAX** (Çənbərək) – bağlamaq, bənd etmək. – *Sijimi haravanın bir yerinə bəndərgahla.*

**BƏNƏX'** (Qazax) – xallı.

**BƏNƏMİYƏ** (Ordubad, Şahbuz) – bazar ertəsi. – *Sabah bənəmiyədi* (Şahbuz).

**BƏNGƏLƏX': BƏNGƏLƏYİ QAÇMAX** (Mingəçevir) – qorxmaq.

**BƏNGİ** I (İsmayıllı) – damın üstünü hamarlamaq üçün alət.

**BƏNGİ** II (İsmayıllı) – verdiyi vədi yerinə yetirməyən adam. – *Həsən bəngi adamdı.*

**BƏNİMƏ** (Bakı) – b a x **bənəmiyə.**

**BƏNÜMƏ** (Bakı) – b a x **bənəmiyə.**

**BƏNZƏK** (Ağcabədi) – bəzgəg (əti yeyilən köçəri quş). – *Bənzəkin əti yeməlidi.*

**BƏRBƏND** (Cəbrayıl) – bənd (axar suyun qarşısını kəsmək üçün düzəldilən maneə). ◊ **Bərbənd qoymax** (Cəbrayıl) – bənd salmaq, çayda və ya arxda suyun qarşısını kəsmək. – *Bərbənd qoymasax, sahiyə su çıxmaz.*

**BƏRBƏŞ** (Qarakilsə) – erkək kəklik. – *Bizdər bərbəş erkəx' kəx'liyə də:rix'.*

**BƏRDEX'** (Meğri) – yüz dərzdən ibarət taxıl tayası. ◊ **Bərdex' vurmax** – dərzlərdən taxıl tayası düzəltmək. – *Dadaşım beçara bərdex' vururdu ki, gəlin kimin.*

**BƏRDƏX'** (Zəngilan) – b a x **bərdex'.** – *İki bərdəx' taxılımız var.* ◊ **Bərdəx' vurmax** – b a x **bərdex' vurmax.** – *Qalxozçular biçilmiş dərzdəri xırmanın qırağında bərdəx' vurdular.*

**BƏRƏ** I (Göyçay) – sahilə yaxın dayaz yer. – *Gəmini bərədən aparıblar.*

**BƏRƏ** II (Lənkəran, Kürdəmir) – bağ və ya bostanların arasından gedən cığır.

**BƏRƏ** III (Bakı, Füzuli, Göyçay, İmişli, Quba, Ucar) – kiçik arx. – *Adə, bəsdü dayi, bərəni bağla, püştəni su apardı* (Bakı); – *Bağa gedən arxa bərə deyirik* (Göyçay); – *Bü:n bərəni qazıb qutardım* (Ucar). ◊ **Bərə gəzdirmeg** (Bakı) – suvarmaq, əkin yerinə su vermək. – *Məmə qurban, bir ho:r bərə gezdir.*

**BƏRƏ** IV (Qarakilsə, Qazax, Şəki, Tovuz) – 1. su arxının keçməsi üçün çəpərin altında düzəldilmiş yer, deşik. – *Su no:rraşifdi, bərədən keşmiyi* (Şəki); 2. arxda ləkə su buraxılan yer; 3. çəpərin keçid yeri (Şəki); 4. qoyunları sağmaq üçün düzəldilən yer, keçid (Qarakilsə, Qazax, Tovuz). – *Qoyun bərədən gəler* (Qazax); – *Qoyunu bərəyə verin, sağırıx* (Qarakilsə).

**BƏRƏ** V (İsmayıllı) – dərin olmayan yara. – *Ağlama, uşağ döysən, balaca bərədi.*

☐ **Bərə vurmağ** (Şamaxı) – mane olmaq. – *Sən işə bərə vurma.*

**BƏRƏÇƏ** (İmişli, Kürdəmir, Salyan) – kiçik arx. – *Bərəçəni aç, su gəlsin* (Kürdəmir).

**BƏRƏÇİ** (Bakı) – suçu; bağ, bostan və s. əkin yerlərinə xırda arxlarla su verən (adam). – *Bərəçini ayda iğirmi manata tutmuşam.*

**BƏRƏFİR** (Füzuli) – kolsuz yer. – *Kolsuz yerə bərəfır de:irix'.*

**BƏRƏLGƏ** (Bərdə, Daşkəsən, Şəmkir) – 1. ovlanacaq heyvanın keçdiyi yer, pusqu, bərə (Bərdə, Daşkəsən). – *Ovu bərəlgədə vurallar* (Bərdə); – *O: ki, bərəlgədən keşdi, onu vurmağ olmaz* (Daşkəsən); 2. meşə və ya dağların arasından keçən dar cığır (Şəmkir). – *Dünən bərəlgənin ağzında üstümüzə üç ceyran çıxdı.*

**BƏRƏMUM** (Bakı) – b a x **baramum.** – *Həkim Həsənə əlində oynatmağa bərəmum vərib.*

**BƏRƏŞ** (Meğri) – şələnin sürüşüb düşməməsi üçün şələ götürən adamın qollarının altından keçirilən ip. – *Ə:z, Xeyrənsə, bərəşdərin boşalmıyi ki?*

**BƏRƏYƏ** I (Zəngilan) – darvaza. – *Muxtar gecə bərəyəni möhkəm bağlıyır.*

**BƏRƏYƏ** II (Laçın) – qayalıq üzərində olan otlu yer.

**BƏRGƏH** I (Borçalı) – düşərgə yeri. – *Gedəx' dar daşın bərgəhində əyləşəx'.*

**BƏRGƏH** II (Hamamlı) – şah sarayı.

**BƏRHAL** (Zəngilan) – qorxulu, ağır. – *Xəsdə:n vəziyəti bərhaldı.*

**BƏRXANA** (Borçalı) – b a x **barxana** I. – *Gəlin bərxaneyi yığışdırax gedəx'.* – *Qızın bərxanasın apardılar.*

**BƏRX'SAFLAX** (Tərtər) – şirin, qırmızımtıl rəngli üzüm növü. – *Bərx'saflax qışatan qalır.*

**BƏRİYAH** (Salyan) – gəmilərin duracaq yeri. – *İsa kişi bəriyahda işdiyirdi;* – *Bırda daşdı bəriyah vardı.*

**BƏRK** (Ağdam, Bakı, Qazax, Ordubad) – xəsis. – *Xalam bir bərkdi ki, gəl görəsən* (Ağdam); – *Muradxan bərk adamdı* (Qazax).

**BƏRKƏTDƏMƏX'** (Çənbərək) – qurtarmaq. – *Qalxoz qoynu qırtdı bərkətdədi, boylum bağa köçüdü.*

**BƏRKİX'** (Cənubi Azərbaycan, Şəmkir) – quraqlıq nəticəsində bərkimiş torpaq. ◊ **Bərkiy olmax** (Şəmkir) – quraqlıq və ya tapdalanmaq nəticəsində bərkimək. – *Yerin içinnən o qədə gedif gəlif ə:xlıyıfdılar, bərkiy oluf, xış batmır.* ◊ **Bərkix' elamax** (Cənubi Azərbaycan) – quraqlıq nəticəsində çatlamaq. – *Balam, bizim xiyarrıx bərkix' eliyibdi.*

**BƏRKİMƏX'** (Tovuz) – tez-tez yerimək, sürətlə yerimək. – *Mən bərkiyiv öyə çatdım.*

**BƏ:RMAX** (Zəngilan) – yetişmək. – *Meyvə yeməli olanda də:rıx ki, bə:rif.*

**BƏRRAX: BƏRRAX TÜŞMƏX'** (Oğuz) – didərgin düşmək.

**BƏRRƏDAY** (Karvansaray) – tənbəl. – *Ə, Qulam kişinin oğlu laf bərrədayın biridi.*

**BƏRT** (Ordubad) – on dərzdən ibarət taya. – *On dərzə bir bərt deyırıx.*

**BƏRTİX'** (Çənbərək) – yara. – *Oycumun içi bərtix'di deyin heş şey tutəmmirəm.*

**BƏRZAN** (Başkeçid, Borçalı, Gədəbəy, Qazax) – yunan. – *Bir bərzan gəlseydi, bağımızı bellərdi* (Borçalı); – *O vaxt bura bir bərzan gəlmişdi, pəhdivanıdı o* (Gədəbəy): – *Desbinə bərzan qızıydı, yaman göyçəyidi* (Qazax).

**BƏRZƏBƏND** (Ordubad) – igid. – *Ağasəf bərzəbənd adamdı.*

**BƏSDƏMƏ** (Qazax) – bəslənmiş heyvan.

**BƏSDƏN** (Salyan) – meyit yuyulan yer. – *Söynün meyitini bəsdənə apardılar.*

**BƏSDƏŞMƏX'** (Ağdam, Şəki, Şəmkir) – 1. çəkişmək, höcətləşmək (Şəmkir). – *Biriniηizinən bəsdəşməx'dən əl çəkin, xeyir götürməzsiηiz;* 2. bəhsə girmək, ötüşmək, yarışmaq (Ağdam, Şəki). – *Alıynan Hüseyin kişinin oğlu bəsdəşdilər, görəx' axırı no:lajax* (Ağdam).

**BƏSDİ** (Lənkəran) – kiçik gil qab. – *Bazardan bir bəsdi yağ aldım.*

**BƏSRƏT** (Cəbrayıl) – biabır, abırsız. ◊ **Bəsrət eləməx'** (Cəbrayıl) – biabır etmək, hörmətsiz etmək. – *Səni bəsrət elərəm.*

**BƏSSİ** (Şamaxı) – b a x **bəsdi.**

**BƏSSÜLKƏT** (Salyan) – səbirsiz. – *Nə bəssülkət uşağsan?!*

**BƏŞİ** (Oğuz) – tez, cəld.

**BƏŞİR: BƏŞİR ELƏMƏX'** (Meğri) – istehsal etmək, emal etmək, becərmək. – *Qulxızın*

*südin bu kətdə bicə Pirim qızı Şapi yəxşi başir elər, u səlqalıdı.*

**BƏT** (Gədəbəy, Şəmkir) – b a x **bənd** I. – *Dilimin üsdən bət çıxer de:inə, içəmmərəm isdi-isdi çayı* (Şəmkir). ◊ **Bət tüşməx′** (Gədəbəy) – dilin üstünə kiçik sızaq çıxmaq. – *Dilimə bət tüşüf, ağrısınnan ırahatdanam-meyram dünənnən.*

**BƏTDAX** (Qax) – b a x **batdax.** – *Bətdağı yayməyin hara olsa!*

**BƏTDƏMƏX′** (Ağdam, Bərdə, Gəncə, Laçın) – 1. rədd etmək (Ağdam, Gəncə); 2. aldadıb satmaq (Ağdam, Gəncə, Laçın). – *Amma qoyunu Əsgərin oğluna nə bətdədix′.* (Gəncə); – *Ə, bətdə birinə canın qutarsın* (Ağdam); 3. dəyərli bir şeyi aldadaraq ucuz qiymətə almaq (Bərdə). – *Öz aramızdı, Əsədin atın yaman bətdədin ha!*

**BƏTİ-BURIT** (Meğri) – qamət, görkəm, boy-buxun. – *Temir bəti-burıtda hanı indi Eırnəzirdə adam?*

**BƏTKEŞ** (Lənkəran) – qan almaq üçün həcəmət. – *Başın ağrıyırsa, bətkeşnən sovrum.*

**BƏYAĞINNAN** (Göyçay) – əvvəllər, keçmişdə. – *Bəyağınnan Qəmərəlı dəftərdə üç yüz öydi, hindi bilmirəm nə qədir qalıpdı.*

**BƏYBAŞI** (Salyan) – kampaniya şəkilli kişi toyu. – *Bəybaşına az adam çağırıllar, özi də seçmə adamları.*

**BƏYƏVAR** (Salyan) – bəlkə. – *Axşam bəyəvar süzə gəldim.*

**BƏYİSMAT** (Ordubad) – kömbə şəklində bişirilmiş çörək. – *Bəyismat qalibdə pişir.*

**BƏYMƏGİZİL** (Salyan) – uşaq oyunu adı. – *Ay uşaxlar, gəlün bəyməgizil oynıyağ.*

**BƏYNİŞAN** (Qazax) – boylu-buxunlu, gözəl. – *Əli bəynişan oğlandı.*

**BƏYSƏNƏ** (Gəncə) – lobya və qovurulmuş soğandan hazırlanan xörək.

**BƏYSUMAT** (Naxçıvan) – b a x **bəyismat.** – *Biz bəysumat allux.*

**BƏYYALLISI** (Ordubad) – toyun sonunda bəyin iştirakı ilə oynanılan yallı.

**BƏZ** (Çənbərək, Gəncə, Qazax) – vəzi. – *Uşağın boğazında bəz var* (Çənbərək); – *Boğazımın vəzdəri ağrıyır* (Gəncə).

**BƏZDƏNMƏX′** (Çənbərək) – vəziləri şişmək. – *Uşağın boğazı bəzdənif, gərəx′ doxdura aparam.*

**BƏZƏLLİ** (Füzuli) – nəsil, tayfa. – *Eyvazdılar bəzəllidi, Məmmədi bəzəllidi, qahım də:illər.*

**BƏZƏR** (Şəmkir) – kətan toxumu.

**BƏZƏRƏX′** (Şəmkir) – kətan toxumu. – *Atam xeyli bəzərəx′ əx′mişdi.*

**BƏZİR** (Başkeçid, Borçalı) – kətan yağı. – *Bəzir gəti, haraveyi yağla* (Borçalı).

**BƏZİRGAN** (Zaqatala) – dəvə karvanının başçısı.

**BƏZMƏT** (Zəngilan) – bilərzik, qolbaq. – *Dədəsi uşağı qolundakı bəzmətdən tanıyır.*

**BIBIŞ** (Salyan) – şanapipik. – *Bıbış gəlib.*

**BIÇQI** (Biləsuvar, Qazax) – mişar. – *Bıçqının dişdəri köhnəldi* (Biləsuvar).

**BIDAMA** I (Salyan) – yandırmaq üçün kəsilmiş ağac budaqları. – *Bıdamadan yarmaca yaxşı yanır.*

**BIDAMA** II (Cəbrayıl) – iri, böyük.

**BIDAMA-BIDAMA** (Cəbrayıl) – iri-iri, böyük-böyük. – *Elə qarğıdalı bitdi ki, bıdama-bıdama.*

**BIDAMAX** (Cəbrayıl, Füzuli) – *məc.* döymək, vurmaq əzişdirmək. – *Ə, bı kəli az bıda, yazıxdı* (Füzuli).

**BIDAMƏY** (Cəlilabad) – b a x **bıdamax.** – *Əvə gələndə səni bıdıyəcəm.*

**BIDARRAMAX** (Yardımlı) – sındırmaq. – *Mallar şivləri bıdarreyıb.*

**BIDIXLAMAX** (İrəvan) – ağacın əlçatmaz yerlərində qalmış son meyvələri dərmək. – *Əyə, İbaş, gəl Hacıbəyin bağınnan alma bıdıxlıyax.*

**BIDIYNAN** (Kürdəmir) – budur. – *Bıdıynan, gəlir dayna.*

**BIĞ** (Bakı) – meynənin cavan zoğlarından çıxan nazik tellər.

**BIĞILDATMAX** (Çənbərək) – qaynatmaq, bişirmək. – *Bir az qartop bığıldadax yə:x′.*

**BIĞIR** (Füzuli, Salyan) – üçyaşar erkək dəvə. – *Üş ildən keçəndə bığır olur.*

**BI:ĞIR** (Şamaxı, Zərdab) – bu dəfə. – *Atam balası, bı:ğır gedəndə bizim uşaxları da özünnən apar;* – *Nədənsə, bı:ğır bizi yada salmadın* (Zərdab); – *Bı:ğır ko:degi* (Şamaxı).

**BIĞIR-BIĞIR** (Füzuli) – yavaş-yavaş. – *Qazanda su bığır-bığır qaynıyır.*

**BIĞLAMA** (Kürdəmir) – balqabaqdan bişirilən xörək adı.

**BIĞLAMAX** (Qazax) – yemək. – *Həsən o ki var bığladı.*

**BIXCA** (Sabirabad) – paltarasan, asılqan. – *Pencəyi bıxcadan as.*

**BIJI** I (Gəncə) – ana (uşaq leksikonunda). – *Ay bıjı, mã: bir az saqqız al.*

**BIJI** II (Borçalı, Qazax) – bacı, bacıcığaz. – *A bıjı, gə gedəx′ meytəvə* (Borçalı); – *A bıjı, dədən öydədimi?* (Qazax).

**BIJI** III (Qazax) – muncuq (uşaq leksikonunda). – *Anam maŋa bıjı alıf.*

**BIQAL** (Şərur) – bu tərəf.

**BIQQADA** (Kürdəmir) – bu qədər. – *Mənə bıqqada əpbək vər.*

**BILANCITMAX** (Zəngilan) – qarışmaq, tutulmaq (hava haqqında) – *Hava bılancıdır, də:sən yağış yağacax.*

**BILBIL** (Borçalı) – ördək balası.

**BILBILA** (Şamaxı) – sərab, ilğım.

**BILBILI** (Qazax) – körpə buzov.

**BILDIR-BILDIR** (Ağsu, Kürdəmir, Qazax, Mingəçevir, Tovuz) – gilə-gilə, damcı-damcı. – *Anası öləndə qız gözlərinnən bıldır-bıldır yaş tökirdi* (Ağsu); – *Elə ağler kın, gözünnən bıldır-bıldır tökör yaşı* (Qazax); – *Gözdərinnən bıldır-bıldır yaş töx′mə* (Tovuz).

**BILI** (Kürdəmir, Salyan) – ördək balası. – *Bırda yeddi bılı var* (Kürdəmir).

**BILIX** (Ağbaba, Ağcabədi, Ağdam, Bərdə, Çənbərək, Daşkəsən, Gədəbəy, Goranboy, Hamamlı, Xanlar, Kəlbəcər, Qarakilsə, Qazax, Laçın, Tovuz, Zərdab) – inəyin yeni doğulmuş balası. – *İnəyimiz bılıx doğuf* (Ağbaba); – *Yenijə doğanda inəyin balasına bılıx deə:rix′* (Daşkəsən); – *Röşən, bılığa birəz su ver* (Tovuz); – *Bılığı ac qoyma:n ha:...* (Gədəbəy); – *İnə:imiz balaca bir bılıx doğuf, elə qəşəx′di ki* (Ağcabədi); – *O bılığı sal to:luya* (Ağdam); – *Bılıx balaca olor buzoydan* (Qazax).

**BIRCDAŞMAĞ** (Şamaxı) – tumurcuqlanmaq. – *Noruzdan sora ağajdar bırcdaşır.*

**BIRHO:Z** (Lənkəran) – b a x **birovuz.**

**BIRI** (İmişli, Kürdəmir) – qarın ağrısı, sancı.

**BIRIN: BIRNI DURMAĞ** (Kürdəmir) – bərk tərləmək nəticəsində çər xəstəliyinə tutulmaq, çərləmək. – *Baytara göstərin, atın bırnı durup.*

**BIRINNAMAĞ** (Kürdəmir) – yola verməmək, incitmək. – *Qaynana həməşə gəlini bırınnıyır.*

**BIRIZ** (Kürdəmir) – tir. – *Məytəbə buraxılan bırızdarı vaxdında alseydux, iramontumuz çoxdan qutarmışdı.*

**BIRQIT** (Kürdəmir) – yarma. – *Bığdanı bırqıt eleyib cücələrə verirük.*

**BIRMA** (Zəngilan) – burulub qurudulmuş ot. – *Bırmıyı işdətməx′ irahat olur.*

**BIRMAC** (İmişli) – çimdik. ◊ **Bırmac götürmək** (İmişli) – çimdikləmək, buraraq çimdikləmək. – *Sənnən bi bırmac götürərəm canun çıxar.*

**BIRZI** (Borçalı, Xanlar) – kobud, zırrama.

**BIRZILIX** (Borçalı, Xanlar) – kobudluq, zırramalıq. – *Ə, bırzılığıŋı get meşədə elə* (Borçalı).

**BISAĞA** (Yardımlı) – qapının ağzı. – *Bısağada görüşməzdər.*

**BISAMAT** (Bakı) – b a x **bisamat.** – *Bısamat gələrəm.*

**BIŞQI** (Cəbrayıl) – b a x **bıçqı.**

**BITXA** (Biləsuvar) – budur, budur ha. – *Töyüğün yumurtası bıtxa.*

**BIYMAĞ** (Kürdəmir, Şamaxı) – donmaq. – *So:ğdan az qala bıymışdım* (Şamaxı).

**BIZAVÇA** (Zəngilan) – yabanı dərman bitkisi adı. – *Bızavçıyı çıxma yarıya qoyarıx.*

**BIZAVLIX** (Zəngilan) – buzov saxlanılan yer. – *Nüsrət bızavları bızavlığa saldı.*

**BIZO:LUĞ** (Kürdəmir) – b a x **bızavlıx.** – *Bızo:luğu qurı saxlamağ lazımdı.*

**BİBBO** (İmişli) – şanapipik, hop-hop. – *Bibbo bəzəkli quşdı, kəkilli quşdı.*

**BİBIĞIM** (Kürdəmir) – bir az, bir dəfə (“qaynamaq” feli ilə işlənir) – *Su bibığım qaynasın, düyünü tök.*

**BİBIRIM** (Salyan) – b a x **bibığım.** – *Ət bibırım qaynıyıb.*

**BİBİ** (Gədəbəy) – əmi və ya dayıarvadı.

**BİBLİXORUZ** (Bakı) – gül adı.

**BİC** (Bakı) – b a x **bij.** – *Əncil ağacının bici çoxalıb.*

**BİCƏ** (Basarkeçər) – pis. – *Bu il taxılımız bicədi.*

**BİCƏ-BİCƏ** (Bakı) – nahaq yerə.

**BİCƏGİ: BİCƏGİ DOĞMAĞ** (Salyan) – ilkinə doğmaq. – *Tükəzban bicəgi doğdı.*

**BİCƏX'** (Qax, Zaqatala) – dördyaşar camış.

**BİCƏLƏ** (Zəngibasar) – arif, çoxbilmiş. – *Yaman bicələ arvatdı bu.*

**BİCƏNƏX'** (Şəki) – hiyləgər. – *Çox bicənəx' gəlindi bizim gəlin.*

**BİCƏŞUM** (Kürdəmir) – payız şumu. ◊ **Bicəşum eləmək** (Kürdəmir) – payız şumu etmək. – *Taxılı biçəşum eliyib əkəndə mənsili az olur.*

☐ **Bicə yerə** (Bakı) – nahaq yerə. – *Bicə yerə gəldim bıra.*

**BİCƏYNƏ** (İmişli, Kürdəmir, Zəngilan) – b a x **bijəyində.** – *Sizin düyã:z bicəynə kələ:lif* (Zəngilan).

**BİCİLO** (Salyan) – bir dəfə. – *Ətin suyu bicilo qaynıyıb.*

**BİCOV** (Şəki) – hiyləgər. – *Qulam lap bicovun biridi.*

**BİCOY** I (Hamamlı) – gödəkboylu, qısaboy. – *Boyu balaca olan adama bicoy deyrix'.*

**BİCOY** II (Hamamlı, Qazax) – aravuran, sözgəzdirən, fitnəkar. – *Məmmət nə bicoy adamdı, aranı qarışdırıf dava salıf.*

**BİCOY** III (Şəmkir) – keçmişdə zadəgan evlərində qulluq etmək üçün saxlanılan uşaq, qulluqçu. – *Bəyə birəz sovqat aparmışdıx, bicoya verdix', apar bu xurçunnarı boşalt gəti, başımıza itoynu gətdi.*

**BİCOYLUX: BİCOYLUX ELƏMƏX'** (Şəmkir) – zadəgan evində uşaq ikən qulluq etmək. – *Qara bəylikdə yeddi il bicoylux eliyif.*

**BİCVƏR** (Kürdəmir) – hiyləgər.

**BİÇƏ** (Bərdə, Şəki) – əmi və ya dayı-arvadı. – *Biçəm bizə gəlif* (Bərdə); – *Biçəm hindi bizdədi* (Şəki).

**BİÇƏNƏ** (Bakı) – yonca. – *Adə, get çöldən qoyunnarçun biçənə yığ.*

**BİÇƏR** (Culfa) – dərzi.

**BİÇƏRƏ** (İmişli) – biçin. – *Qabağ bırda əkərə nə:zirdi, biçərə nə:zirdi.*

**BİÇƏTƏN** (Kürdəmir) – b a x **bir çətən.** – *Biçətən uşağı var Həsənin.*

**BİÇIQQAN** (Biləsuvar) – bir az, bir qədər. – *Biçıqqan su olsaydı içərdim.*

**BİÇİNTİ** (İmişli) – paltar biçilərkən artıq qalan xırda parçalar. – *Paltar kəsərdilər, biçintini verərdilər qızzara, gəlin-gəlin oynamağa.*

**BİÇMƏY** (Cəlilabad) – kəsmək. – *Meşədə nə iri ağac varsa, hamsın biçiblər.*

**BİDANA** (Şəki) – b a x **bedana** (2-ci məna). – *Bidana üzümün varmı?*

**BİDƏK** (Füzuli) – keçmişdə məhsulun onda biri həcmində alınan vergi. – *Ancax o xan da bırdan onnan bir bidək alırdı.*

**BİDİNİMƏ** (Yardımlı) – aramsız, fasiləsiz. – *Yağış bidinimə yağey.*

**BİDİY** (Qax) – xam yer, əkilməmiş sahə. – *Bidiydən şum qayrılır.*

**BİGƏX'** (Cəbrayıl) – anası ölmüş quzu və ya buzov.

**BİGİR** I (Cəbrayıl, Meğri) – birlikdə, bir yerdə. – *Yavığa gə, biğir oturax* (Cəbrayıl).

**BİGİR** II (Bakı) – güc, qüvvə. – *Hələ bil əlimün bigiri yoxdu.* ◊ **Bigir verməg** – kömək etmək, güc vermək. – *Alla sənə bigir vərsin, bəlkə işini tez qutarasan.*

**Bİ:ĞUR** (Kürdəmir) – 1. bir dəfə. – *Bi:ğur məyi, bi:ğur oyu döyirdi;* 2. bu dəfə. – *Bi:ğur sə:n nobatındı.*

**BİJ** (Ağdam, Bərdə, Gəncə, Şuşa) – ağacın dibindən çıxan cavan zoğ. – *Bijdəri kəsməsən, yaxşı yekəlməz* (Ağdam); – *Məmiş, tənəx' bijdərinnən bir az yol, eşşəyin qava:na töx'* (Gəncə).

**BİJƏLTƏX'** I (Gəncə) – nadinc. – *Yaman bijəltəx' uşaxlardı, əllərinnən yoldan keşməy olmur.*

**BİJƏLTƏX'** II (Şuşa) – kələkbaz, bic. – *Çox bijəltəx' gədədi bizim bu Məhi, heş allatmax olmur onu.*

**BİJƏLTƏX'LİX'** (Şuşa) – kələkbazlıq, biclik, hiyləgərlik. – *Bijəltəx'lix'də hamını ötüf keşmisən.*

**BİJƏNDƏR** (Qazax) – kələkbaz, hiyləgər. – *Belə bijəndər adam olmaz.*

**BİJƏNDƏRRİX'** (Gəncə) – kələkbazlıq, biclik, hiyləgərlik. – *Bijəndərrix'də onun qavağına çıxan olmaz.*

**BİJƏNGƏ** (Mingəçevir) – kələkbaz, hiyləgər.

**BİJƏNGƏNƏ** (Ağdam, Bərdə, Şuşa) – b a x **bijəngə.** – *Bir bijəngənədi ki, o, gəl görəsən* (Şuşa).

**BİJƏRTDƏX'** (Borçalı, Qazax) – b a x **bijəltəx'** II. – *Yaman bijərtdəx' uşaxdı* (Borçalı).

**BİJƏYİNDƏ** (Qazax) – doğmaq vaxtı çatmamış, doğum yaşına çatmamış (heyvan). – *Bu düyə bijəyində doğdu, hələ gələn il doğasıydı.*

**BİJƏYİNƏ** (Daşkəsən, Çənbərək, Gədəbəy, Qazax, Mingəçevir, Şəmkir, Tərtər, Ucar) – b a x **bijəyində.** – *Bizim düyə keçən il bijəyinə doğuf* (Daşkəsən); – *Alağız inəx′ bijəyinə buğyə:lmişdi deyin, yekəlmədi, xırça qaldı* (Çənbərək); – *De:sən, bizim gamış bijəyinə doğajax* (Ucar).

**BİJVƏR** (İmişli, Tərtər) – vaxtından əvvəl, faraş doğulmuş quzu və ya çəpiş. – *Mənim bir bijvərim var* (Tərtər).

**BİLDİRÇİNBIDI** (Kürdəmir, Salyan) – armud növu adı. – *Bizdərdə bildirçinbıdı armud çoxdu* (Kürdəmir).

**BİLDİRÇİNBUDU** (Tərtər) – b a x **bildirçinbıdı.**

**BİLƏ** I (Qax, Meğri) – birgə, birlikdə. – *Sənnən bilə cəhənnəmə gidər* (Qax); – *Bir mənzildə qalerdix′, bilə yeyif, bilə də gəzerdix′* (Meğri).

**BİLƏ** II (Meğri) – ovuc. – *Biləsinə un şayi pul baseydin, özi addədeydi səni o taya.*

**BİLƏ** III (Meğri) – öz. – *Şəxsıvar erkeyi çəx′di biləsinə.*

**BİLƏBETDAN** (Borçalı) – quş adı.

**BİLƏCANI** (Ucar) – irigiləli, qara rəngli üzüm növü.

**BİLƏXAYLIĞ** (Yardımlı) – qarışıqlıq. – *Burdə biləxaylığ salmoun.*

**BİLƏNÇİL** (İmişli) – bilən. – *Mən çox sö:bət bilənçil dö:üləm.*

**BİLƏNDƏR** (Göyçay, İsmayıllı, Qazax, Naxçıvan) – bilən, hər şeyi anlayan. – *Kamal biləndər uşağdı* (İsmayıllı); – *Məmmədin oğlu yaman biləndərdi* (Naxçıvan).

**BİLƏNG** (Masallı) – yaba.

**BİLƏRÇİN** (Füzuli, Kürdəmir) – yemiş növü adı. – *Bozdəliynən bilərçin alahı cür yeməlidi* (Kürdəmir); – *Bilərçin bərk olur, irəngi ağ, ya da qırmızı olur* (Füzuli).

**BİLƏRZİX′** I (Tərtər) – köynəyin qoluna tikilən köbə. – *Köynəx′də bilərzix′ olmasa, qolu tez dağılar.*

**BİLƏRZİX′** II (Culfa) – qaşsız üzük. – *Bilərzix′də qaş olmaz, üzüx′də qaş olar;* – *Bilərziyi kişilər taxar, onda qaş olmur.*

**BİLƏSİNCƏ** (Qax) – 1. həddən artıq çoxlu; 2. bacardıqca. – *Biləsincə mağa yüklədi, dannadı.*

**BİLİ** (Lənkəran, Masallı) – ördək. – *Bala, o bililəri küçiyə niyə buraxmısan?* – *Bizim bililər çayda üzir* (Lənkəran).

**BİLİBİTDAN** (Tovuz) – b a x **biləbetdan.**

**BİLİQÜMƏ** (Lənkəran) – quş tutmaq üçün tor. – *Biz bu gün biliqümə quracəyik.*

**BİLİQÜMƏLƏMƏG** (Lənkəran) – torla quş tutmaq. – *Yüz dənə ördəyi birdən biliqümələdim.*

**BİLİNDAR** (Füzuli) – tunel. – *Orda bilindar var.*

**BİLİTÇİ** (İmişli) – bilet satan kassir. – *Bilitçi yerimizi dəgişik salıb.*

**BİLLƏ** I (Ağcabədi, Füzuli, Kürdəmir, Mingəçevir, Salyan, Şuşa) – uşaqlara verilən hər cür şirniyyat, meyvə və sair dadlı şeylər. – *Ay qız, ağlama, gə sã: billə verim* (Ağcabədi); – *Bazardan uşağa billə al* (Kürdəmir); – *Qızım, gə sənə billə verim* (Salyan); – *Uşa:n əlinə billədən-zaddan bir şey ver, qoy başı dümüx′ olsun* (Şuşa).

**BİLLƏ** II (Ucar) – gözün kənarlarında əmələ gələn şiş. – *Əlinin gözündə billə var.*

**BİNEKDAR** (Bakı) – keçmişdə topdansatışla məşğul olan tacir. – *Binekdarun öyi doli olar.*

**BİNEY-BƏRGAH** (Yardımlı) – əvvəl, çoxdan. – *Biney-bərgahdan olər dosdu.*

**BİNƏ** I (Cəbrayıl, Füzuli, Kürdəmir, Salyan, Şamaxı, Şəmkir, Zaqatala) – köçərilərin qış aylarında kənddən kənar heyvan saxladıqları yer, məskən. – *Qoyunnar yayda yeylaxda olıcax, qışda binədə olıcax* (Zaqatala); – *Binəmiz daşdıcadadı* (Füzuli); – *Bı kətdə bi binə var* (Salyan).

**BİNƏ** II (Kürdəmir, Şəki) – çəltik biçini zamanı çöldə düzəldilən müvəqqəti yaşayış yeri. – *Biyil də binəni bildirki binə yerində tix′mişıx* (Şəki).

**BİNƏ** III (Cənubi Azərbaycan) – vələ qoşulan sonuncu cüt heyvan. – *Binəni bərk bağla, açılmasın.*

**BİNƏ** IV (Təbriz) – özül, bünövrə. – *Öyün binəsinə qonşularımız da kömax elədilə.*

**BİNƏCƏ** (Füzuli) – müqavilənamə. – *Əvvəlcə binəcə bağlıyıllar, sora işə başdıyıllar dana.*

**BİNƏKDAR** (Bakı, Şamaxı) – əvvəlki, ilk, əsas. – *Binəkdar yerimiz bıradı.*

**BİNƏKƏ** (Lənkəran) – odun. – *Dünən meşəbəyidən bi maşın binəkə alduğ.*

**BİNƏLƏNMƏK** (Göyçay) – binə salmaq, yurd salmaq.

**BİNƏLİ** I (Borçalı) – doğru, düz. – *Binəli söz oydu ki, Alı dedi.*

**BİNƏLİ** II (Füzuli, Qax) – oturaq. – *Qorqan bizdən yuxarıdı, o da binəlidi, Qaraxanbəyli də binəlidi* (Füzuli).

**BİNƏLİ** III (Ağbaba, Şuşa) – həmişəlik, daimi. – *Bu, binəli işdiyən döyül* (Ağbaba); – *Biryollux binəli köç şəhərə də* (Şuşa).

**BİNƏLİ-BİLGƏLİ** (Göyçay) – varlı.

**BİNƏM** (Qazax, Mingəçevir, Şəmkir) – uyğun, görə. – *Adamın işinə binəm hax verir da* (Mingəçevir); – *Sən də qarnına binəm yi* (Şəmkir); – *Ona binəm qeyraz bəylər paxıllıq elədilər* (Qazax).

**BİNƏSİF** (Qazax) – münasib, uyğun. – *Özünə binəsif hər kəs iş görsə, qalxozda iş qalmaz.*

**BİNİXDƏ** (Yardımlı) – əlüstü. – *Əmin sözə həmməşə binixdə cavab verir.*

**BİNİL** (Meğri) – toyuq-cücənin su içməsi üçün düzəldilmiş çuxur yer. – *Uş gündü bu külfətdən bir adam binilə su töxmey ki, cücələr issin.*

**BİNİST: BİNİST OLMAĞ** (Yardımlı) – yurd salmaq. – *Bulər çoxdan burdə binist olublar.*

**BİPBİLİ** (Kürdəmir) – turac.

**BİRBAĞIR** I (Füzuli, Zəngilan) – 1. eyni vaxtda (Füzuli). – *Bir qaralda, bir vaxtda olma: birbağır de:llər;* 2. eyni qaydada (Zəngilan). – *Qurtdarı birbağır yemləmişəm de:in hamsı birdən barama səriyif.*

**BİRBAĞIR** II (Bərdə, Xanlar) – 1. eynicinsli (Bərdə). – *Bura yığılan mallar birbağır mallardı, olları ayırmax yaramaz;* 2. eynixasiyyətli (Xanlar); 3. həmfikir (Xanlar). – *Bizim Əlişinən qomşu Bahadur çox birbağır oğlandılar.*

**BİRBAĞIRA** (Borçalı, Qazax) – b a x **birbağır** II (3-cü məna). – *Abbasnan Hasan birbağırdı.* (Borçalı).

**BİR: BİR BURUM** (Ağdam, Bakı, Bərdə, Qazax, Şuşa, Tərtər) – bir dəfə, bir qədər, bir az (“qaynamaq” feli ilə işlənir). – *Qoy bir burum qaynasın, sora götü* (Ağdam); – *Bir burum qaynıyannan sora götürüf onu süzürsən* (Şuşa). ◊ **Bir çala** (Qazax) – bir az, bir qədər. – *Mən bir çala dayma oxşo:ram.* **Bir çətən** (Gəncə) – çoxlu, xeyli. – *Çovan oğlunun bir çətən külfəti var.* **Bir çıqqah** (Füzuli) – bir az, bir qədər. – *Bir çıqqah da kəs ver qardaşına.* **Bir çilo** (Şuşa) – bir dəfə, bir yol. – *Bir çilo gəldim, gördüm qapınız bağlıdı.* **Bir çimdixʹ** (Ağdam, Bərdə, Yevlax) – bir az, bir qədər. – *Nənəm de:ir ki, bir çimdixʹ duz versin bizə* (Ağdam); – *Bir çimdixʹ torpax götü üsdünə töxʹ* (Bərdə). **Bir çin** (Bakı) – bir dəfə, bir yol. – *Əvvəl bir çin dannadı, olmadı, sora durdi dögmegə.* **Bir çini** (Biləsuvar) – iki şahı, on qəpik. – *Qardaşıma bir çini pul verdim.* **Bir desberi** (Bakı) – bəzi. – *Bir desberi adamnar bağda payızın axırına qədər qalır.* **Bir dıqqara** (Bakı) – bir az, bir tikə. **Bir dınqa** (Bakı) – bir az, bir tikə. *Bir dınqa çörek yidim.* **Bir dilimə** (Ağdam, Bərdə, Gəncə, Şuşa) – birbaşa, birdəfəyə, birnəfəsə. – *Hamısın bir dilimə içə bilsən, oğulsan* (Ağdam); – *Bir-bir gətirincə, bir dilimə gəti dana* (Bərdə); – *Bax, bir dilimə gedif gələrsən, ha:, gözdüyürəm* (Gəncə). **Bir əmbiz** (İsmayıllı) – çox, xeyli. – *Bizim xırmanda hələ bir əmbiz bığdamız döyülməmiş qalıbdı.* **Bir havır** (Naxçıvan) – bax **bir o:r.** **Bir ho:ur** (Ağdam, Gəncə, Qazax, Şuşa) – bax **bir o:r.** – *Bir ho:ur qoy oturax, başbeynimizi töxʹmə* (Ağdam); – *Bir ho:ur dur, nəfəsimizi dərəxʹ* (Gəncə); – *Ə, bir ho:ur diş dur!* (Şuşa). **Bir kərixʹ** (Qazax) – birdəfəlik. **Bir qırnıx** (Ağdam, Bərdə, Qazax, Şuşa) – bir az, bir qədər. – *Bir qırnıx sabın qalmışdı burda, onu da qarğa apardı* (Ağdam); – *Xalan sã: qurvan, bir qırnıx su ver mã: içim* (Şuşa). **Bir qırtdax** (Gəncə, Xanlar, Şuşa) – bax **bir qırnıx.** – *Bir qırtdax pendir də vermir ki, çörə:mizə yavannıx eliyəxʹ* (Gəncə). **Bir qulax** (Şuşa) – bir parça, bir tikə. – *Təxʹnədən bir qulax mã: çörəxʹ gəti.* **Bir o:r** (Bakı) – bir an, bir müddət. – *Bir o:r gözdə, öyə degim gəlim.* **Bir öynə** (Tovuz) – bir dəfə. **Bir samad** (Bakı) – bir az, bir an, bir dəqiqə. – *Ağəz, bir samad gözdə, gəlirəm.* **Bir səhnət** (Ağbaba) – bir dəfə. **Bir soluğa**

(Qazax) – birdəfəyə, birbaşa. – *Uşaxlıxda bu dağı bir soluğa çıxerdım, indi çıxamme:ram.*

**BİRCƏBACI** (Kürdəmir) – qardaş arvadı. – *Bircəbacım suya gedüp.*

**BİRCƏNƏ** (Qax) – fırfıra. – *İpnən vurup hərrətiylər bircənəni.*

**BİRCİTMƏG** (Yardımlı) – əymək.

**BİRETƏ** (Bakı) – tamamilə, başdan-başa. – *Sə:r sübdən durub gördüm, o qədə qar yağıb ki, hər yeri biretə örtüb.*

**BİRƏBİL** (Sabirabad) – dırmıq. – *Birəbil götürüb yerə gedirəm.*

**BİRƏBİTDƏN** (Qazax) – b a x **biləbetdan.** – *Birəbitdən örgüyə girdi.*

**BİRƏÇİÇƏYİ** (Xanlar) – yabanı bitki adı.

**BİRƏDİ** (Çənbərək, Qazax, Tovuz) – birlikdə, bir yerdə – *Məni də gözdüyün, birədi gedəx′* (Qazax); – *Buyişi birədi görün, qutarsın gessin* (Çənbərək); – *Elə vaxt olordu kin, birədi əkerdix′, elə vaxt olordu kin, ayrı-ayrı əkerdix′* (Tovuz).

**BİRƏDİLƏŞMƏX′** (Qazax) – birləşmək, toplaşmaq. – *Əzəl hər kəndin qolxozu vardı, sora birədiləşdi, bir qolxoz oldu.*

**BİRƏDİR** (Şəmkir) – b a x **birədi.** – *Gözdə, birədir gedəx′.*

**BİRƏDİRRİYƏ** (Tovuz) – birlikdə, şərikli. – *Qavax xüsusi, güjü çatmıyan birədirriyə əkirdi.*

**BİRƏKƏM** (Şəmkir) – birlikdə, bir yerdə. – *Birki gün dayanın, hammız birəkəm gedəx′.*

**BİRƏKƏMNƏMƏX′** (Şəmkir) – cəmləmək, toplamaq, bir yerə yığmaq. – *Malı qomarradıx, birəkəmniyif gözdədix′, gəlif çıxmadın.*

**BİRƏLƏŞMƏX′** (Qarakilsə) – möhkəmlənib qalmaq, məskən salmaq. – *O vaxt orda birələşdim, isti:rdim onnarı da yığım ora.*

**BİRƏLLİ** (Bakı, Göyçay, İmişli, İsmayıllı, Kürdəmir, Salyan, Şamaxı, Zəngilan) – su qabı, su içmək üçün qab. – *Qədəş, birəllini göt gəl* (Bakı); – *Birəlli qabaxlar olardı, indi quruşqa de:rix′* (Zəngilan); – *Birəlliynən bir yağ içən kişilərimiz vardı, indi hanı?* (Kürdəmir).

**BİRƏLLİG** (Bakı) – b a x **birəlli.**

**BİRƏMƏ** (Qazax) – birbaşa, düz. – *Öydən çıxıf birəmə kəndə getdim.*

**BİRƏNTİ** I (Qazax) – b a x **birədi.** – *Üçümüz birənti bu məx′dəvə gəldix′.*

**BİRƏNTİ** II (Qazax) – məcmu, cəm. – *Sürülərin birəntisi om min qoyundu.*

**BİRƏNTİ** III (Qazax) – yolayırıcı, müxtəlif yolların birləşdiyi yer. – *Ha:na gessəx′ birəntidə görüşərix′.*

**BİRƏNTİLƏŞMƏX′** (Qazax) – b a x **birədiləşməx′.** – *Kəndə gedəndə bir-birimizi çağırdıx, birəntiləşdix′.*

**BİRƏTİ** I (Naxçıvan) – b a x **birədi.**

**BİRƏTİ** II (Naxçıvan) – birdəfəlik, biryolluq. – *Mən biləni qalxoz sədri birəti getdi.*

**BİRGEZ** (Lerik) – həyət süpürgəsi. – *Birgezi götür heyəti süpur.*

**BİRHEYDİ** (Yevlax) – uşaq oyunu adı. *Birheydidə beş-altı uşaq oynuya bilir.*

**BİRİNDƏ** (Kürdəmir, Qazax) – bir dəfə, bir vaxt, bir zaman. – *Birində qoyna canavar çüşdü, iki toğlu yaraladı* (Qazax).

**BİRİ TUTMAĞ** (Yardımlı) – sancılanmaq. – *Genə uşağın biri tutub.*

**BİRKAR** (Cəbrayıl) – birlikdə, bir yerdə. – *Niyə ayrılax, birkar işdi:rik də.*

**BİRKƏM** (Şəmkir) – birlikdə, bir yerdə.

**BİRKİR** (Zəngilan) – b a x **birkar.** – *Gedirsən, gə birkir gedax.*

**BİRO:UZ** (Bakı, Gəncə, Şamaxı, Şuşa) – b a x **birovuz.** – *Aşnə, olmiyə popağun biro:uzdu?* (Bakı); – *Mənim biro:uz şeydən zəhləm gedir* (Gəncə).

**BİROVUZ** (Dərbənd) – müvəqqəti istifadə üçün alınmış şey.

**BİRRİX′** (Qazax) – bir manatlıq. – *Ala bu üşdüyü, birriy elə, maŋa ver.*

**BİSARIM** (Meğri) – birdən, qəfildən. – *Getmişdıx ava, heş yerda av tapammadıx, kanda qayıderdıx ki, bisarım gördıx bıdı bir süri keçi Mabır avlağınnan aşdı.*

**BİSDAN: BİSDAN OLMAX** (Ordubad) – yetişib tağdan düşmək. – *Qavın bosdanda yetişib bisdan olub.*

**BİSDƏ** (Ordubad) – bir kiloqram ağırlığında çəki vahidi. – *Bisdə bir kiloya deyərıx;* – *Bisdə çəki daşıdı.*

**BİSDƏN: BİSDƏN OLMAX** (Ordubad) – b a x **bisdan olmax.**

**BİSDİLİ** (Quba) – gödəkboylu. – *Una bisdili diyəndə açığı gələdü;* – *Adamun buyi kiçik ulsa, bizdə una bisdili diyədülər.*

**BİST** (Culfa, Zəngilan) – dəyirmanın üst daşını hərəkətə gətirən dəmir ox. – *Bist də:rman daşının oxudu* (Culfa).

**BİSTAN: BİSTAN OLMAX** (Culfa) – b a x **bisdan olmax.**

**BİSTİNİ: BİSTİNİ VURMAX** (Meğri) – kefi kök olmaq. – *Kefin bistini vurey;* – *Eladı, kefi bistini vurey.*

**BİŞ-BİŞİ** (Qazax) – sünbülə bənzər yabanı ot. – *Biş-bişi kimin irəlliyif.*

**BİŞDÜŞ** (Çənbərək, Şəki) – xörək, yemək. – *Həməşə bişdüşümüz olur;* – *Bişdüş əysiy olmazdı bullarda* (Çənbərək).

**BİŞİ** (Ağsu, Kürdəmir, Lənkəran) – yağ, yumurta, süd və şəkər qarışdırılmış xəmirdən bişirilən çörək. – *Xalamgildən gətirdiyin bişi çox daddıydı.*

**BİŞİGDIRNAĞI** (Bakı) – nərgizgülü.

**BİŞİRT: BİŞİRT ELƏMƏX′** (Şahbuz) – becərmək. – *Xəşəni <yabanı bitki adı> bişirt eliyirix′.*

**BİŞMƏ** I (Quba) – kəlağayı.

**BİŞMƏ** II (Kürdəmir, Zərdab) – axtalanmış keçi və ya qoyun.

**BİŞMƏCƏ** (Qazax, Şəmkir) – istidən büküklərdə və barmağın arasında əmələ gələn yara. – *İstidən ayaxlarım bişməcə olufdu* (Şəmkir).

**BİTBƏBİT** (Kürdəmir, Qazax, Şuşa) – 1. çox diqqətlə (Kürdəmir, Qazax) – *Ay qız, qayçıyı itirmişəm, savaxdan hər yeri bitbəbit axdarmışam, tapammeyram* (Qazax); 2. olduğu kimi, dəqiq surətdə (Şuşa). – *Dediyim sözdərin hamısını ona bitbəbit xəbər verərsən.*

**BİTDƏ-BİTDƏ** I (Şəki) – yavaş-yavaş. – *Sən nə bitdə-bitdə gəlirsən?*

**BİTDƏ-BİTDƏ** II (Çənbərək) – dəqiq surətdə, olduğu kimi. – *Burda nə demişdim, getdi öylərində bitdə-bitdə hamsın xavar verdi.*

**BİTDİGAN** (Saatlı) – b a x **bitdiyan.**

**BİTDİKAN** (Kürdəmir) – b a x **bitdiyan.**

**BİTDİLİ** (Kürdəmir) – ağcaqanad. – *Yaz olanda bitdili adama göz verər, işığ vermədi.*

**BİTDİYAN** (Cəbrayıl) – sərçəyə oxşar kiçik quş. – *Kolda bitdiyan yuası var.*

**BİTDİYƏN** (Göyçay, Lənkəran, Tərtər) – b a x **bitdiyan.** – *Bitdiyən kimi nə bitdiyirsən* (Lənkəran).

**BİTDÜDÜX′** (Laçın, Şuşa) – yabanı ağac növü. – *Darabanın dibində bir bitdüdüx′ ağacı pitif* (Şuşa); – *Bitdüdüx′ ağacının içi boş olur* (Laçın).

**BİTEY** (Zaqatala) – arı pətəyi. – *Boş biteydi, bal yoxdu.*

**BİTİRİCİ** (Tovuz) – kuryer (idarədə kağız paylayan xadim). – *İndi bitiricini göndərrəm, çağrar onu.*

**BİTMƏX′** (Qazax) – bitişmək, sağalmaq. – *Sağ qolum sınmışdı, indi bitif;* – *Görəsən, Qasımın sınan qılçası bitifmi?*

**BİTRAX** (Cəbrayıl) – yabanı bitki adı.

**BİUĞUR** (Kürdəmir) – 1. bir dəfə. – *Biuğur bizə gələndə uşaxları da gəti;* 2. bir az. – *Biuğur diyandı, so:ra getdi.*

**BİVƏ** (Cəbrayıl) – güvə. – *Yun paltarımızı bivə tamam isdahatdan salıbdı.*

**BİVİ** (İmişli) – b a x **bibi.**

**BİYAĞINNAN** (Göyçay) – b a x **bəyağınnan.**

**BİYANA** (Kürdəmir) – yabanı bitki adı.

**BİYƏ** (Gəncə, Tovuz) – əqrəb.

**BİYƏNDƏCƏR** (Bakı) – çirkin, kifir.

**BİYİXMANNIĞ** (Bakı) – avaraçılıq.

**BİYOL** (Cənubi Azərbaycan, Şəki) – bir dəfə. – *Biyol habırdan keçirdim, Həsənə irast gəldim* (Şəki).

**BİYOSAL** (Bakı) – lazımsız, faydasız. – *Nöşün bir belə biyosal işdər görürsən, adam bö:gdən soruşar, so:ra gedər.*

**BİZAYA** (Salyan) – gərəksiz, yararsız. – *Hə:ti süpir, bizaya şeyləri at gessin;* – *Bizzə bizaya adam yoxdu.*

**BİZZƏQ** (Kəlbəcər) – bic, dələduz.

**BİZZƏQ-BİZZƏQ** (Kəlbəcər) – bic-bic, dələduzcasına. – *Bizzəq-bizzəq danışma.*

**BO:A** (Xanlar) – qırmızı rəng almaq üçün işlədilən yabanı bitki adı. – *Bo:anı qazıf gətirillər, əzif qaynadıllar, yaxşı qırmızı irəngi olur, onnan if, paltar bo:yullar.*

**BOBILBAS** (Salyan) – şayiə. ◊ **Bobılbas olmağ** (Salyan) – yayılmaq (xəbər, şayiə haqqında). – *Xanseynün məsələsi kəndə bobılbas olıb.*

**BOBILBASÇI** (İmişli) – şayiə yayan, xəbərçi. – *İnanmeyün hər bobılbasçı adamın sözünə.*

**BOCCA** (Gədəbəy) – yeyilən yabanı bitki adı. – *Gedinnən bir əz bocca yığ gəti.*

**BODUR** (Gədəbəy) – kobud, kələ-kötür. – *Hələ çox bodurdu, sığal irəndəsinə çəkginəŋ birəz.*

**BOĞANAX** (Qarakilsə) – savaş, dava-dalaş. – *Kəndin ə:ğində bir boğanax tüşəndə başında eşitmirix'.*

**BOĞAZALTI** I (Şamaxı, Ucar) – kiçik baş şalı. – *Mə: bir boğazaltı da almırsız* (Ucar); – *Boğazaltımı Suğrabəyim birovuz apardı* (Şamaxı).

**BOĞAZALTI** II (Gəncə, Şuşa) – qadınların boyunlarına taxdıqları qızıl zinət. – *Hürnisənin boğazaltısını dünəncə:z oğurruyuflar* (Gəncə); – *Toyumuzda qaynım ma: bir boğazaltı alıf bağışdamışdı* (Şuşa).

**BOĞAZALTI** III (İmişli, Şuşa, Tovuz) – 1. yüyənin hissəsi, atın boğazının altından keçən qayış (İmişli, Şuşa). – *Boğazaltı atın yüyənində olor; – Atın boğazaltısı qırılıfdı, onu apar tix'dir* (Şuşa); 2. boyunduruğun alt ağacı (Tovuz). – *Gə boğazaltını dəyişəx'.*

**BOĞAZ: BOĞAZ OLMAX** (Füzuli, Salyan) – 1. borclu olmaq (Füzuli) – *İstəmirəm, qardaş, mənim başqasına boğaz olmağa tə:rim yoxdu;* 2. sünbüllənmək, sünbül açmaq həddinə çatmaq (Salyan). – *Əvəl taxıl boğaz olur, sümül açır, yetişir, çalmaynan, ya əlnən biçirüg.*

**BOĞAZÇIL** (Basarkeçər) – qarınqulu. – *Boğazçıl boğazın otaran adamdı, harda yeməx' var, özün verər ora.*

**BOĞAZÇİÇƏYİ** (Kəlbəcər) – yabanı bitki adı. – *Boğazçiçəyi burda çox olur.*

**BOĞAZDAMAX** (Daşkəsən) – boğazından tutub başını kəsmək. – *Pıçaxnan qoyunu boğazdeyrıx.*

**BOĞAZDANACAX** (Borçalı) – xirtdək.

**BOĞAZDAŞMAX** (Füzuli) – sünbüllənmək, sünbül çıxarmaq ərəfəsində olmaq (taxılda). – *Üçüncü alaxda zəmi boğazdaşır, yanı zəmi baş açır, ancax sünbül görünmür.*

**BOĞAZDI** (Borçalı) – uzunboğaz çəkmə. – *Boğazdıyı kişilər geər.*

**BOĞAZDIX** (Zəngilan) – qıf. – *Boğazdığı gəti çıra: nəvit töküm.*

**BOĞAZDÖYÜ** (Qazax) – qıf. – *Bırda boğazdöyü də de:ilir, qıp da de:ilir.*

**BOĞAZQULU** (Borçalı) – acgöz. – *Misir elə adamdı ki, hər şeyə gözün saler, boğazqulu adamdı.*

**BOĞMA** (Hamamlı) – evin üstündə eninə düzülən ağaclar. – *Əvvəl sürməyi atalar, sonra boğmoyu atallar sürmənin üsdən daşın üsdünə.*

**BOĞMALANMAX** (Kürdəmir, Oğuz) – *məc.* yemək. – *Al boğmalaŋ, dur işiŋə get* (Oğuz); – *Al, bircə boğmalan!* (Kürdəmir)

**BOĞMALAŞMAX** (Şəki) – dalaşmaq, əlbəyaxa olmaq. – *O qədə boğmalaşdılar, axırda özdəri yoruluf ayrıldı.*

**BOĞUŞMAX** (Qazax, Şəki) – dalaşmaq. – *Qonşi qonşiynən boğuşdu, qaraçiyə firsant düşdü* (Şəki).

**BOQ** (Qax) – qarğıdan hazırlanan boru. – *Boqnan təndiri üfürüyux.*

**BOQANMAX** (Qax) – qapanmaq, bağlanmaq. – *Umannın ağzı boqanıp.*

**BOQON** (Balakən) – evin küncü. – *Süpürgəni boqona qoymuşam.*

**BOLLAMAX** (Ordubad) – selləmək, bol su buraxmaq.

**BOLNA-SOLNA** (Qazax) – kifayət qədər, doyunca. – *Çöllər yaman otdu, bolna-solna otdor heyvan; – Bu il taxılımız bol oluf, laf bolna-solna işdətmişix'.*

**BOMBA** I (Ağdam, Bərdə, Füzuli, Şuşa, Tərtər) – göyərti və düyüdən hazırlanan sıyıq xörək. – *Yaz vaxdı bomba ləzət verir* (Ağdam); – *Boyana bombası olseydi, nə yeyərdim!* (Bərdə); – *Sö:üx dəyən adam bomba yesə tez sağalar* (Tərtər); – *Əzizə xala bomba bişirif* (Füzuli).

**BOMBA** II (Yevlax, Mingəçevir) – çörək zavodunda bişirilən kömbə çörək. – *Gələndə bir dənə də bomba al gəti, çörə:imiz azdı* (Yevlax).

**BOMBA** III (Ordubad) – iri, yekə. ◊ **Bomba papax** – yekə tüklü şiş papaq. – *Bomba papağı hər kəs qoyar.*

**BOMBALAMAX** (Mingəçevir) – iri tikələrlə, kobud-kobud yemək.

**BOMBI** (Kəlbəcər) – təpə, dikdir. – *Mallar bombıda otdıyır.*

**BOMBU** (Ordubad, Şəki) – b a x **bomba** II. – *Bombu ağ unnan bişəndə yaxşı olur* (Ordubad).

**BOMBULUBAZ** (Xaçmaz) – yüngülxasiyyətli. – *Həsən bombulubaz adamdı.*

**BOMBULUMBOŞ** (Mingəçevir) – lap boş, bomboş.

**BORALAMAX** (Çənbərək) – danlamaq. – *Gecə məni zağar Səmət boraladı; – Yaman boraladım Qulunu bizə:lmədiyinə.*

**BORANI** (Bakı, Gəncə, Ordubad, Şərur) – göyərti və yumurtadan hazırlanan xörək adı. – *Ana, büyün nahara bir yaxşı boranı bişir, ətdən zəhləm gedif* (Gəncə); – *Burda maşın <xırda lobya> yağda qızarılmasına boranı diyərıx* (Ordubad).

**BORANNAMAX** (Qazax) – borana düşmək, soyuqlamaq, soyuqdan donmaq. – *Kallar çöldə qalıf borannıyıfdı.*

**BORAŞUM** (Astara, Cəlilabad, Lənkəran, Masallı, Yardımlı) – bel ilə edilən şum. ◊ **Boraşum vurmax** (Biləsuvar) – bel ilə şumlamaq. – *Mən boraşumu payızda vurdum.* **Boraşum eləməy** (Astara, Cəlilabad, Lənkəran, Masallı) – bel ilə qazmaq, belləmək. – *Bu gün çoxlu boraşum elədim* (Masallı); – *Dava vaxdı quvva yox, traxdır yox, zənənnər boraşum eleydi yeri* (Cəlilabad).

**BORAZANNAMAX** (Naxçıvan) – yersiz danışmaq. – *Əliqulu elə borazannı:r.*

**BORBORİ** (Salyan) – düşünmədən, fikirləşmədən. – *Mələk çox borbori danışan adamdu, nə bö:üg bilir, nə kiçig.*

**BORDAX** (Basarkeçər, Gəncə, Qazax, Şuşa) – kökəldilmiş, bəslənmiş. – *Məmmədin bir bordax qoyunu var* (Basarkeçər); – *Bu gamışdar da bordax heyvanı kimi yağlıdılar* (Şuşa); – *Gədə o qədər kökəlif, elə bil bordax potasıdı* (Qazax). ◊ **Bordağa bağlamax** (Qazax, Şəmkir, Şuşa, Tovuz) – kökəltmək, bəsləmək. – *Bu toğluyu bordağa bağlamışam, sə:ŋ toyuŋa aparajam* (Qazax).

**BORDAXLAMAX** (Çənbərək, Qazax, Tərtər) – kökəltmək, bəsləmək. – *İnə:i qış bordaxlamaseydıx, indi belə südlü olmazdı* (Qazax). – *Həsən kişi inə:ini yaxşı bordaxlıyıf* (Tərtər).

**BORDAMAX** (Basarkeçər, Gədəbəy) – kökəltmək, bəsləmək – *Qoçu gəti ayrıca saxla, borduyajam* (Basarkeçər); – *Onu bordamağına dəyməz, ayrısını bordağınan* (Gədəbəy).

**BORROY** (Laçın) – əlindən iş gəlməyən, bacarıqsız. – *O yaman borroy adamdı.*

**BORUĞ** (Cənubi Azərbaycan) – boyaq almaq üçün işlədilən yabanı bitki adı.

**BOSAĞA** (Masallı) – astana.

**BOŞ** (Şəki) – içərisindən qurdu çıxarılmış barama. – *Boşu yaxına yığın, işdiyəndə hasand olsun; – Qurdu çıxannan sora qalanna boş diyrux.*

**BOŞANAX** (Zəngilan) – asanlıqla yarılan (odun).

**BOŞDAĞ** I (Kürdəmir) – yumşaq, boştəhər. – *Bizim yer boşdağdı, yaxşı əkin olur.*

**BOŞDAĞ** II (İmişli) – sahibsiz, yiyəsiz, boş. – *Bılar gedib bi boşdağ yerdə kənd saldılar.* ◊ **Boşdağa qoymax** (Oğuz) – dincə qoymaq, müəyyən müddət üçün əkməmək. – *Bu il yerimizi boşdağa qoymışıx.*

**BOŞDAX** I (Şuşa) – bax **boşdağ** II. – *Boşdax at bizim qo:uruğa girmişdi, qovdum.*

**BOŞDAX** II (Beyləqan) – işsiz, bikar. – *Niyə aralıxda boşdax gəzirsən?*

**BOŞURUNQU** (Çənbərək, Qazax) – 1. bir azca boş, nisbətən boş (Çənbərək). – *Harava boşurunqu sarınmışdı deyin, ot dağıldı;* 2. yumşaqtəhər (Qazax). – *Yaxşı əkiler, bu yer boşurunqudu.*

**BOVA** (Balakən) – ana. – *Bovam işə gedib.*

**BOYAX** (Cəbrayıl) – bax **bo:a.** – *Boyax həməşə kolların divində çox pitir.*

**BOYANA** (Ağdam, Bərdə, Cəbrayıl, Göyçay, Kürdəmir, Mingəçevir, Şuşa, Tərtər) – bax **biyana.** – *Gör bazarda boyana varmı, al gəti bü:n boyanalı aş pişirəx*′ (Ağdam); – *Uşaxlar gedif bir mişox boyana yığıf gətiriflər* (Bərdə).

**BOYÇİÇƏYİ** (Xanlar) – sarı çiçəkli, xoş ətirli yabanı bitki adı. – *Boyçiçəyinin irəngi düm sarı olur.*

**BOYGƏRDƏNƏ** (Cənubi Azərbaycan) – yeməli bitki növü. – *Uşaxlar çoxlu boygərdənə yığıpla.*

**BOYGÖRMƏ** (Basarkeçər, Naxçıvan) – 1. toydan sonra təzə gəlini görmək mərasimi (Naxçıvan). – *Anam boygörmüyə gedib;* 2. təzə gəlinə toydan sonra verilən hədiyyə (Basarkeçər). – *Hamı qıza boygörmə verməlidi.*

**BOYGÖRMƏSİ** (Daşkəsən, Gədəbəy, Qazax) – bax **boygörmə.** – *Savax boygörməsidi gəlinin* (Qazax); – *Boygörməsi verdim dünən dayımın gəlininə on ma:t* (Gədəbəy); – *Dosdar gəlif boygörməsi vereydilər gəlinə* (Daşkəsən).

**BOYGÖRÜNCƏYİ** (Ağdam, Bərdə, Kürdəmir, Şuşa) – 1. toydan sonra təzə gəlini görmək mərasimi (Bərdə, Kürdəmir); 2. təzə gəlinə toydan sonra verilən hədiyyə (Ağdam, Şuşa). – *Sabah boygörüncəyidi gəlinin, hamı gedəjəxʹ, gə biz də gedəxʹ* (Ağdam); – *Qaynım mã: boyungörüncəyində bir üzüxʹ bağışdamışdı* (Şuşa).

**BOYIMMAX** (Meğri) – b a x **bayımmax.**

**BOYL** (Goranboy, Qazax, Naxçıvan, Tovuz) – 1. sonra; 2. deməli, deyəsən. – *Əvvəlcə əti dorğa, boyl şişə taxıf közün üsdə qoy* (Tovuz).

**BOYLA** (Borçalı) – b a x **boyl.**

**BOYLAM** (Barana, Qazax) – b a x **boyl.** – *Buroyu qutardı, boylam genə götdi oxudu* (Qazax); – *O bizə gəldi, boylam ikisi öyənə getdi* (Barana).

**BOYLAMA** (Borçalı) – b a x **boyl.**

**BOYLAMAX** (Culfa) – görmək, baxmaq. – *Bılar istədilər boyluyalar.*

**BOYLİ** (Qazax) – b a x **boyl.**

**BOYLOM** (Qazax) – b a x **boyl.** – *Boylom bullar gedillər yeylağa, orda Kərəm İsgəndəri görör.*

**BOYLU** I (Ağcabədi, Ağdam, Bərdə, Yardımlı, Şəki) – hamilə. – *Mahmudun qızı də:sən boyludu* (Ağdam); – *Boyludu, bü:nəsaba: doğajaxdı* (Bərdə); – *Gəlin boyludu, ağır iş görə bilmir* (Şəki).

**BOYLU** II (Bolnisi, Gədəbəy, Gəncə, Qazax, Şəmkir, Tovuz, Yevlax) – b a x **boyl.** – *Getdim boylu gördüm kün. Asdan hələ yater* (Qazax); – *Boylu sizə danışaram* (Gədəbəy).

**BOYLUM** (Füzuli, Qarakilsə, Qazax, Naxçıvan, Şərur, Tovuz, Zəngilan) – b a x **boyl.** – *Boylum padşax gəldi qojanın yanna* (Qazax); – *Boylum getdıx çıxdıx əvə* (Zəngilan); – *Boylum gəldıx bıra, ta: qalmadıx orda* (Şərur); – *Nəsir boylum getdi İravana* (Naxçıvan); – *Ziyad əvə getdi, boylum gedib kahada heş kimi görmədi* (Qarakilsə); – *Boylum gedəxʹ bizə* (Füzuli).

**BOYMAYOXUN** (Lənkəran) – uşaq oyunu adı. – *Haram basmasan, boymayoxun oynaram.*

**BOYOL** (Qazax) – b a x **boyl.** – *Boyol orda munu vurdular.*

**BOYOTU** (Xanlar) – xoş ətirli yabanı bitki adı.

**BOYTUR** (Qax) – çardağın üst dirəyi. – *Analıgil buqün boytur durquzuylar.*

**BOYUL** (Qazax, Şəmkir, Tovuz) – b a x **boyl.** – *Kişi apardı, boyul pulu sanadı, verdi ona;* – *Boyul Salah orda qaler, boyul o kəndin adı qaler Salahlı* (Qazax); – *Boyul səni xavar aldı;* – *Boyul onnan sonra düz Kürün qırağına kimi yetdixʹ* (Şəmkir).

**BOYUN** I (Ağdam, Bərdə, Qazax, Şəmkir, Şuşa) – araba və ya kotana qoşulan cüt öküz, kəl. – *Üş boyun qoşmuşdux, gənə yoxuşu çıxa bilmirdixʹ* (Ağdam); – *Yerə baxır, dayna, elə yer olur iki boyun qoşurux kotana, elə yer olur bir* (Bərdə); – *Yer elə bətdi <bərk> ki, dört boyun ulax da kotanı çəkə bilmer* (Şəmkir).

**BOYUN** II (Kürdəmir) – bir cüt öküzlə bir gün ərzində şumlamaq mümkün olan torpaq sahəsi. – *Bi boyun yeri də bizə verməzdilər.*

**BOYUNDURUX** (Ağdam, Gədəbəy, Xanlar) – yaxalıq. – *Urbaşqamın boyunduruğu kirrənif, heş geyməli dö:ül* (Ağdam); – *Köynəyin boyunduruğu dar oluf* (Gədəbəy).

**BOYVABOY** (Qazax) – bərabər, ağzına qədər dolu. – *Haraveyi otnan boyvaboy dolduruf gətirdixʹ, danalara bir həfdə çatar.*

**BOZ** I (Gəncə, İmişli, Yevlax) – dişi qırqovul. – *Quşun xoruzu bəzəkli olar, bozı yox* (İmişli); – *Bü:n bir boz vurdum* (Yevlax); – *Qızılquşnan üş boz aldırdım* (Gəncə).

**BOZ** II (Bərdə, Qarakilsə, Şuşa) – dəri xəstəliyi adı. – *Uşağın başında boz var, onu həkimə körkəzsənə* (Bərdə); – *Uzã: də:sən, boz tüşüf ha* (Qarakilsə); – *Keşmişdə adamın başına boz tüşəndə gətirif üstünə bozbaş kəfi sürtərdilər* (Şuşa).

**BOZ** III (Bakı, Salyan) – həyasız. – *Boz adam utanmaz.* – *Vəli çox boz adamdı* (Bakı).

**BOZ** IV (Xanlar) – naxışsız, saya corab. – *Uşağa boz örrük.*

**BOZAĞAN** (Laçın) – otsuz yer.

**BOZAX** I (Borçalı, Füzuli, Şəmkir, Tovuz) – yerli qoyun cinsi. – *Bozax bizim yerin qoyunlarıdı, yunu seyrəxʹdi* (Tovuz); – *Bu bozax yunudu* (Şəmkir).

**BOZAX** II (Füzuli) – yemiş növü. – *Bozax yeməli yemişdi.*

**BOZAX** III (Ağdam) – quru ot.

**BOZALAPERT** (Qazax) – yöndəmsiz. – *İmamqulunun kiçix' gedəsi illaf bozalapert oğlan oluf.*

**BOZALĞAN** (Ağbaba) – yabanı bitki adı.

**BOZALI** (Daşkəsən) – keçmişdə olan tüfənk növü. – *Bir bozalısı vardı o vaxdar bavamın.*

**BOZARANTI** (Gəncə) – səhər alaqaranlığı. – *Hələ bozarantıdı, göz-gözü görmür.*

**BOZARIŞMAĞ** (Kürdəmir) – dalaşmaq, sözləşmək. – *Boş şeydən ötri bozarışmağ ayıbdı.*

**BOZARMAX** I (Ağdam) – xarablaşmaq, sərtləşmək, pozulmaq (hava haqqında). – *Hava yaman bozarıf, qarramasa yaxşıdı;* – *Hava bozarıf, də:sən, yağış yağajax.*

**BOZARMAX** II (Ağdam, Bərdə, Şuşa, Tərtər) – hirslənmək, əsəbiləşmək, acıqlanmaq. – *Arvad üsdümə elə bozardı ki, qorxudan qaşdım* (Ağdam); – *Ə:, mã: niyə bozarırsaŋ, sã: neynəmişəm?* (Bərdə); – *Na:xca yerə üsdümə bozarma* (Şuşa).

**BOZARTDAXLANMAX** (Gəncə) – boz rəngə çalmaq. – *Bu buzoy yekəldix'cən tükü bozartdaxlanır.*

☐ **Boz ay** (Qazax, Naxçıvan, Şəmkir, Tərtər, Tovuz) – qışın son ayı. – *Boz aydan sonra yazdı* (Qazax); – *Boz ay çox sö:ux olur* (Tərtər); – *Boz ayı keçirsəx' dərdimiz olmaz* (Naxçıvan); – *Boz ay çıxannan sonra bayram olur* (Tovuz).

**BOZBAHAR** (Gədəbəy) – quş adı.

**BOZDAMAC** (Bakı, İsmayıllı, Qazax, Salyan) – sac üzərində bişirilən mayasız çörək. – *Bozdamac, əlim xəmirri, qarnım ac* (Bakı); – *A Şa:nisə xala, bozdamacı bişirib qutardun? Mən də bir-iki dənə bişirəcəm* (İsmayıllı).

**BOZDAMAŞ** (Goranboy) – doğramac. – *Güllü qarı bir boşqaf bozdamaş qayrıf yedi.*

**BOZDAMAX** I (Füzuli, Gəncə, İmişli, Qax, Qarakilsə, Mingəçevir, Şəmkir) – 1. oxşaya-oxşaya ağlamaq (Füzuli, İmişli, Qax, Qarakilsə, Mingəçevir). – *Kişi gəldi başdadı bozdamağa* (İmişli); – *No:luf oa, bozdu:r* (Füzuli); 2. ucadan oxumaq və ya çalmaq (Gəncə, Şəmkir). – *Vəli dayı, bir yaxşı koroğlu* <"*Koroğlu*" *havası*> *bozda görəx'* (Şəmkir).

**BOZDAMAX** II (Çənbərək) – danlamaq. – *Çox bozdadı kişi səni də:n.*

**BOZDAMAX** III (Çənbərək) – qarşılamaq. – *Xidirinən İsə Quluyu dünənnəri yaman bozdadı.*

**BOZDAMAX** IV (Qarakilsə, Naxçıvan) – ötüb keçmək.

**BOZDAMƏY** (Cəlilabad) – b a x **bozdamax** I (1-ci məna). – *O qız nöşün bozdey?*

**BOZDAŞMAX** (Beyləqan) – dalaşmaq, deyişmək, sözləşmək. – *Rəhim mənnən bozdaşdı;* – *Yaman bozdaşdıx o günü dədəmnən.*

**BOZDƏLİ** (Füzuli, Kürdəmir) – yemiş növü. – *Bozdəli sulu yemiş olur, çox yeməli olur, irəngi boz, özü də kövrəx' olur* (Füzuli); – *Cərco qo:nu bozdəliyə şirinnikdə çatmaz* (Kürdəmir).

**BOZE** (Kəlbəcər) – sıyıq xörək. – *Nənə, bir boze bişir.*

**BOZVƏND** (İmişli) – qoyun xəstəliyi adı.

**BOZVURMASI** (Culfa) – qoyun xəstəliyi adı. – *Qoyunu bozvurması tutanda əmcəyi kor olur.*

**BOZYORĞA** (Ağcabədi, İmişli) – quş adı. – *Bozyorğa kəx'lix' boyda olur, şorannıx yerrərdə çox olur* (Ağcabədi); – *Qabağımda bi bozyorğa səkiyirdi* (İmişli).

**BOZZAMAS** (Şəmkir) – b a x **bozdamac.**

**BOZZAMAX** (Şamaxı) – b a x **bozdanmax** II.

**BÖBƏ** (Bakı) – b a x **bebə.** – *Nə yaxçı böbədü bu!* – *Adə, sən lap böbəyimişsən ki.*

**BÖBƏCÜL** (Qax) – b a x **bəbəcül.**

**BÖƏX'** (Qazax) – axar suyun qarşısı kəsilərək əmələ gətirilən gölməçə.

**BÖ:ƏLƏX'** (Ağdam, Bərdə, Gəncə, Qazax, Oğuz, Şəmkir) – mozalan. – *Daneyi bö:ələx' sancıf qaçer* (Qazax); – *Bö:ələx' dağda çox olur, heyvana əziyət verir* (Gəncə); – *Də:n mala bö:ələx' tüşüf* (Şəmkir).

**BÖ:ƏLƏX'LƏMMƏX'** I (Çənbərək, Daşkəsən) – mozalanın sancması nəticəsində o tərəfə-bu tərəfə qaçmaq, şıllaqlamaq. – *Mallar bö:ələx'lənəndə kürnəyə qaçellar* (Daşkəsən); – *Dana bö:ələx'lənəndə qılçası qırıldı* (Çənbərək).

**BÖ:ƏLƏX'LƏMMƏX'** II (Qazax) – qızışmaq, əsəbiləşmək, acıqlanaraq dalaşmaq həddinə çatmaq. – *Ə, nə bö:ələx'lənersən, ayıf döymü saŋa?*

**BÖ:ƏLƏX′LƏNDİRMƏX′** (Qazax) – qızışdırmaq, acıqlandırmaq, əsəbiləşdirmək. – *Məmməd Hasanı bö:ələx′ləndirif Vəliynən dalaşdırdı; – Ə, bö:ələxləndirmə onu, qoy otursun yerində.*

**BÖƏMƏX′** (Gəncə, Qazax, Tovuz) – gölləndirmək məqsədilə axar suyun qarşısını kəsmək. – *Əşi, suyun qavağını böəmə, qoy bəriyəlsin* (Gəncə); – *Gedirəm su:n qavağını böəmə:* (Tovuz).

**BÖHÜDƏ** (Füzuli) – kobud, tərs. – *Mərdan böhüdə adamdı.*

**BÖQ** (Zaqatala) – böv. – *Bura böqlə doludu.*

**BÖLCƏLƏMƏK** (Kürdəmir) – b a x **böltələməx′.** – *Canavar qoyni elə bi sa:tda bölcələdi; – Dananı sabeyi uşaxlar kəsip bölcələdilər.*

**BÖLƏX′** (Kəlbəcər) – körpə oğlan uşağı. – *Böləx′, yanı ha belə balaja oğlan uşağı dana, ona de:rıx.*

**BÖLƏKƏT-BÖLƏKƏT** (Qazax) – bölük-bölük, dəstə-dəstə. – *Mal böləkət-böləkət otdor.*

**BÖLƏKİM** (Bakı) – b a x **bələkün.**

**BÖLMƏ** (Ağbaba, Bolnisi, Borçalı, Cəbrayıl, Gəncə, Qax, Qarakilsə, Qazax, Şəki, Şəmkir, Zaqatala, Zəngilan) – nəlbəki. – *Çayı da bölmədə içerix′* (Qazax); – *Çayı tökerəm bölmüyə soyyur, so:ra da tökerəm istikana, içerəm* (Borçalı); – *Çayı bölmiyə sərdim; – Ayna xanım, çay bölməsini gəti* (Zaqatala); – *Çayı töx′ bölmiyə, so:sun* (Şəki); – *Uşaxlar bölməni sındırdı* (Cəbrayıl).

**BÖLMƏKİ** (Qazax) – nəlbəki.

**BÖLTƏLƏMƏG** (İmişli, Salyan) – kəsmək. – *Piçağnan oynama, əlini böltəliyər* (İmişli); – *Ət kəsəndə piçağ əlimi böltələdi* (Salyan).

**BÖLTƏLƏMƏX′** (Çənbərək) – parçalamaq, hissələrə ayırmaq. – *Qoruxçular malı böltələdi, daxala doldudu; – Beyjə canavar qoynu böltələyif qırıf.*

**BÖLÜŞÜX′** (Tovuz) – suayırıcı.

**BÖ:LÜ** (Balakən) – çovdar. – *Buğdanın içində bö:lü çoxdu.*

**BÖ:MAX** (Şəki) – b a x **böəmаx′.** – *Suyun qava:nı bö:f dirriyə su çıxartdux.*

**BÖRDƏX′** (Şəki) – böyrək.

**BÖRƏ** (Şamaxı) – düşbərə.

**BÖRK** (Xanlar) – araba təkərində dəndənənin keçdiyi qövsşəkilli ağac. – *Bir təkərdə altı börk olur.*

**BÖRTDAMAX** (Qax) – pörtmək, qızarmaq (istidən). – *İsdidən lap habı gecə börtdamişəm.*

**BÖRÜK** (Borçalı) – qoca qadınların kəlağayının altından başlarına qoyduqları bəzəksiz araqçın. – *Börükü qoca arvatdar qoyor, əmə çəhillər qoymaz.*

**BÖŞK: BÖŞK ELƏMƏX′** (Şahbuz) – yalan danışmaq. – *Özünnən də:n adama deyrix′ böşk eləmə.*

**BÖT** (Qazax) – balaca süpürgə.

**BÖTİ** (Qax) – küçük.

**BÖ:ÜRDƏX′** (Oğuz) – b a x **bördəx′.** – *Qoyunda olur bö:ürdəx′.*

**BÖ:ÜŞ: BÖ:ÜŞ ELEMEG** (Bakı) – lovğalanmaq, özünü başqalarından yüksək tutmaq.

**BÖYDƏ** (Gədəbəy) – tiyəsi qatlanmayan iri bıçaq. – *Böydöyü gəti dörğe:m bu əti; – O böydöyü maŋə:ti tö:gun başını kəsem.*

**BÖYƏX′** (Qazax) – b a x **böəx′.** – *Uşaxlar böyəydə çimellər.*

**BÖYƏN** (Meğri) – qoyunun ifraz etdiyi duru, sıyıq nəcis. ◊ **Böyən töx′məx′** (Meğri) – duru, sıyıq nəcis ifraz etmək. – *Qoyunnar oxarta göy yeyillə ki, böyən töküllə.*

**BÖYNƏNƏ** (Lənkəran) – nənə. – *Böynənəm mənə yaxşı nağıl danışardı.*

**BÖYRƏX′Lİ** (Qazax) – *məc.* qoçaq, ürəkli. – *Vəli böyrəx′li adamdı.*

**BÖYÜX′CƏLİX′** (Qarakilsə, Qazax) – böyüklük. ◊ **Böyüx′cəlix′ eləməx′** (Qazax, Qarakilsə) – böyüklük etmək. – *Bu da bir balaja boyunnan maŋa böyüx′çəlix′ ele:r* (Qazax); – *Orada yaman böyüx′çəlix′ eliyirdi* (Qaralkilsə).

**BUANA** (Cəbrayıl) – razyana. – *Buanasız dolma adama ləzət vermir.*

**BUANQILAMAX** (Çənbərək) – təkrar xəstələnmək, əhvalı dəyişmək. – *Hürzat yeŋijə oŋalmışdı, gejə buanqıladı, üş gündü özünsözün bilmir.*

**BUBA** (Balakən) – ana.

**BUDAL** (Cənubi Azərbaycan) – qoçaq, qəhrəman. – *Əhmət çox budaldı.*

**BUDALA** I (Ağbaba) – çılpaq.

**BUDALA** II (Zaqatala) – dəlixasiyyət, ağıldanyüngül. – *Doğurdan da, budala adam ho işi görər.*

**BUDALAMAĞ** (Quba) – doğramaq, parçalamaq. – *Udunnarı budalamağ lazımdı, bu yaşdı, belə yanmaz.*

**BUDAMA** (Qazax) – 1. paya; 2. dəyənək, iri əl ağacı. – *Bir əlində budama, gəlif məni budama;*

**BUDAMA-BUDAMA** (Mingəçevir, Tovuz) – b a x **bıdama-bıdama.** – *Məhləmizdən bu il budama-budama qardalı götdüx'* (Tovuz).

**BUDAMAX** I (Ağdam, Bərdə, Borçalı, Füzuli, Gədəbəy, Gəncə, Hamamlı, Qax, Qazax, Şəki, Şəmkir, Şuşa, Tovuz) – b a x **bıdamax.** – *Ürəyiŋ nə qədə isder Abbas Vəliyi budadı* (Borçalı); – *Qolu ağrıtınca budadı* (Qax); – *Ə:, ay ınsafsız, nə:ŋ budo:ysuŋ onu?* (Gədəbəy); – *Çox danışma ə, duruf səni buduyaram* (Hamamlı); – *Ollar bir-birini budadılar* (Tovuz); – *Acığı tutuf uşağı bir yaxşı budadı* (Şəki); – *Bir dəfə tutuf yaxşıca budasan onu, bir də belə şey eləməz* (Ağdam); – *Laf kefin isdiyən budadım onu, ta: bir də qələt eliyif bura gəlməz* (Şuşa).

**BUDAMAX** II (Qax) – *məc.* parçalayıb yemək, kobud şəkildə yemək, gözünə təpmək. – *Vallah, elə buduyurdu, elə bil, daldan alamançı geliy.*

**BUDOYNAMA** (Qazax) – budur, budur ha.

**BUDRANA** (Qazax) – budur, budur ha. – *Budurana gəler Rasim.*

**BUĞA** (Göyçay) – üç-dörd illik tut ağacı.

**BUĞAÇİÇƏYİ** (Kəlbəcər) – ağ rəngli, hündür yabanı bitki adı. – *Buğaçiçəyini piçirix', gətirrix' mala verrix'.*

**BUĞANAX** I (Qazax) – çayda əmələ gələn burulğan.

**BUĞANAX** II (Çənbərək) – burula-burula əsən külək.

**BUĞARSAX** I (Gədəbəy, Qarakilsə, Qazax) – buğa. – *Qoyma! Qoyma! Buğarsax qırdı qaşdı* (Qazax); – *Buğarsax gəlip alaçığı dağıtdı* (Qarakilsə).

**BUĞARSAX** II (Gədəbəy) – qaramalın buğaya gəldiyi yer. – *Malı buğarsağa sarı haylə:n kimdi?* – *Mal buğarsağae:dif daŋ üzünnən.*

**BUĞARSAX** III (Qazax) – avara, işsizlər dəstəsi. – *Keşmişdə döyrüş Hasanın buğarsağı heş kəsilmerdi.*

**BUĞDAƏLİYƏN** (Hamamlı) – xırda gözlü xəlbir. – *Şadareynan buğdanın saman-çöpün təmizzi:llər, so:ra da buğdaəliyənnən keçirillər.*

**BUĞLAMA** I (Dərbənd) – içərisinə kişmiş və turşu doldurularaq bişirilən balıq. – *Bu gün anam buğlama pişiritdi, kitso <gedirsənsə> kitəğ, yiyağ.*

**BUĞLAMA** II (Qazax) – azacıq su ilə öz buğuna bişirilən bozartma. – *Anam buğlama pişirer.*

**BUĞLAMA** III (Basarkeçər, Borçalı) – soyutma kartof. – *Anam savahnan qonağımıza buğlama pişirəjəx'.*

**BUĞTİKANI** (Bakı) – acı dadlı, tikanlı yabanı bitki adı.

**BUĞUR** I (Borçalı, Füzuli, İmişli, Qazax) – b a x **bığır.** – *Güən buğurda olar, mayada olmaz* (Borçalı); – *Dəvənin buğuru quatdı olar* (Qazax); – *Buğuru gəti, a bala, dəyirmana gedərəm* (İmişli); – *Üç ildən keçəndə buğur olur* (Füzuli).

**BUĞUR** II (Bakı, Qazax) – 1. kök (Bakı); 2. qüvvətli (Qazax). – *Zeynal buğur adamdı.* ◊ **Buğura dönmeg** (Bakı) – kökəlmək. – *Həsən lap buğura dönüb;* – *Varlılar yiyib yatmegdən buğura dönmüşdülər.*

**BUĞYADURAN** (Borçalı, Çənbərək, Qazax) – üçyaşar düyə, buğaya gəlmək vaxtı çatmış düyə. – *Bu düyə buğyadurandı* (Çənbərək).

**BUĞYAƏ:LƏN** (Tovuz) – üçyaşar düyə, buğaya gəlmək vaxtı çatmış düyə. – *Maral inəyin balası indi buğyaə:ləndi.*

**BUXAL** (Zaqatala) – çobanların dəri və başqa şeylər asdığı ağac asqı. – *Torba buxaldan asılıb.*

**BUXARA** (Göyçay) – kəlağayı.

**BUL** (Lənkəran) – balıq ovlamaq üçün ucunda iki və ya üç dişi olan dəmir alət. – *Bulnan çoxlu balıq vurdum;* – *Sitərmirdoy çayna gedəndə özümnən bul aparmışdim, bir dənə çaki vurdum.*

**BULANÇILAMAX** (Qazax, Şəmkir) – vurnuxmaq. – *İnəx' bulançılaner, doğajax də:səŋ;* – *Urusdam savaxdan bəri bulançılıyırdı, axırda qaşdı* (Qazax).

**BULANÇIMAX** I (Çənbərək) – b a x **bulançılamax.** – *İnəx′ dünənnən bulançıyır, amba hələm doğmuyuf, hər gejə lələm baxır.*

**BULANÇIMAX** II (Çənbərək, Mingəçevir) – xəstəlikdən uzun müddət əziyyət çəkmək. – *Hasan düz iki ildi kin, bulançıyır, yaman tənəzirriyif* (Çənbərək).

**BULANDIRIX** (Qarakilsə, Şərur) – bulanıq, çirkli. – *Bizdər bulandırıx su içmənix′;* – *Çay yayda bulandırıx gəlir* (Qarakilsə).

**BULAŞMA** (Mingəçevir) – xəstəlik adı.

**BULBULA** (Şamaxı) – b a x **bılbıla.** – *Gözümə bulbula göründi.*

**BULBULU** (Ağcabədi) – b a x **bılbıla.** – *Bulbulu çox isdi vaxt olur.*

**BULĞUMAX** (Çənbərək) – cummaq. – *Hürzat ordan-burdan bulğuyur, qoynu sağır.*

**BULĞUR** (Ağbaba, Qarakilsə) – yarma.

**BULQAMAX** (İmişli, Meğri) – 1. yoxlamaq (Meğri). – *Niyazgilin əvlərinin yan-yürəsini bulqadım, hamma bir şey bilmadım;* 2. baş çəkmək (İmişli). – *Gedim bir orda bulqanım.*

**BULQAR** (Borçalı) – qar topası, qar yığını. – *Bulqar dağın başında olar hündür-hündür.*

**BULU** (Oğuz) – əsas tiri saxlamaq üçün onun altına qoyulan ağac. – *Baş tirini bulunun üsdünə qoyullar;* – *Baş tirini bulu saxlıyır.*

**BULUX** (Borçalı, Tovuz, Zərdabi) – təzə doğulmuş buzov. – *Üş gündü inəyimiz doğalı, a:ğı səkil bir buluğu var* (Tovuz); – *Bulux həyətdə oynaxlıyır* (Zərdab).

**BULUN** (Başkeçid, Borçalı, Qazax) – kiçik ot tayası. – *Bir tapıldan üş-dört bulun çıxer* (Borçalı).

**BULUNNAMAX** (Başkeçid, Borçalı, Qazax) – kiçik ot tayası düzəltmək. – *Otu biçəx′ bulunnuyax* (Borçalı).

**BUNCUL** (Zaqatala) – qom, topa. – *Bir buncul ba:lı ver.*

**BURACAX** (Şəki) – 1. ağacdan meyvə dərmək üçün ucu haça, uzun ağac. – *Əl çatmiyən yerrərdəki meyvəni buracaxnan buruf saldım;* 2. təndirin odunu qarışdırmaq üçün uzun ağac. – *Buracağı gəti, təndiri qarışdırım.*

**BURAĞAC** (Quba, Şərur) – yükün üstündən çəkilən kəndiri tarımlamaq üçün ilişdirilib burulan ağac və ya dəmir parçası. – *Ay uşaq, udunnar tükülər, burağacnan mökəm elə* (Quba).

**BURAĞANC** (Tovuz) – burğu. – *Burağancı burorsaŋ, deşersəŋ.*

**BURAĞAŞ** (Şəki, Şəmkir) – b a x **burağac.** – *A bala, o şəliyə bir burağaş sal, özün də dalıma qaldır* (Şəmkir).

**BURAXMA** (Şəmkir, Tovuz) – sahibsiz, yiyəsiz, özbaşına. – *Sə:n atın bi:l buraxma oluf* (Tovuz); – *Öyü buraxma qoyub gəlmişəm;* – *Buraxma heyvandı gedif taxıla girif, ta bizi az danla* (Şəmkir).

**BURAL** (Kəlbəcər) – böyük qazan. – *Bural toyda işdənir.*

**BURBUĞ** (Lənkəran, Salyan) – çalğı aləti adı. – *Burbuğ çalındı, gedək* (Salyan).

**BURC** (Meğri, Şəki) – tumurcuq. – *Heyvan ut tapbeyəndə burc yey meşədə* (Meğri); – *Ağaşdar burc açəndə qurdu dirildillər* (Şəki).

**BURCAH** (Zaqatala) – südlü əriştə. – *Burcahın sütü azdı.*

**BURCƏH** (Qax) – b a x **burcah.**

**BURCUTMAX** (Zəngilan) – başdan eləmək, bir bəhanə ilə rədd etmək. – *Bir günnüx′ maşın isdədim, burcutdu, vermədi.*

**BURĞAC** (Tərtər) – b a x **burağanc.** – *Ağajı burğacınan deşirix′.*

**BURĞANC** (Tovuz) – b a x **burağanc.** – *Burğancı burorsan, o da taxtanı deşer.*

**BURĞITDAMAX** (Göyçay) – sarımaq, dolamaq. – *Süməyi düz ağaca burğıtdıyırux.*

**BURĞU** I (Gəncə, Şəmkir) – göyərti dəstəsini və ya bağda tənəkləri bağlamaq üçün işlədilən nazik zoğ. – *Göyü Bakıda burğuynan bağlamıllar* (Gəncə); – *Biyil burğumuz az olduğuna bağın* (*tənəyin*) *yarısını kəndirnən bağladıx* (Şəmkir).

**BURĞU** II (Culfa, Tovuz) – lampanın piltəçəkəni, lampanın işığını artırıb-azaldan hissə. – *Burğuynan bursan lampa yanar da, keçər də* (Culfa).

**BURĞU** III (Meğri) – b a x **burqı.**

**BURĞUÇİ** (Meğri) – biçilmiş otu toplayıb bağlayan adamın köməkçisi.

**BURĞUÇU** (Meğri) – b a x **burğuçi.** – *Mõ: mən deyən bir burğuçu ver, sõ: gündə 400–500 burma burum.*

**BURXAÇ** (Şəmkir) – çayda suyun iti axan yeri. – *Adam bu burxaça tüşsə, çıxa bilməz.*

**BURXANC** (Kəlbəcər) – sarıçiçəkli yabanı bitki adı. – *Burxancın irəngi sarı olor.*

**BURXAŞ** (Çənbərək) – yolun döngəsi. – *Harava burxaşda qırıldı.*

**BURXUSDUX: BURXUSDUĞ ELƏMƏXʹ** (Cəbrayıl) – mane olmaq, imkan verməmək.

**BURQANA** (Oğuz) – quş adı. – *İdbar quşdu çox burqana.*

**BURQI** (Meğri) – biçilmiş otu bağlamaq üçün işlədilən ağac alət. – *Durım burqını gatırım, yavaş-yavaş issi düşməmiş utdan burax.*

**BURMA** I (Şəmkir) – çimdik. – *Burmaların yeri qolumda qalıf.*

**BURMA** II (Ucar) – açar.

**BURMA** III (Meğri) – burulub hazırlanmış ot topası. – *Bizim burduğumuz burmalar dört kilodan əyax dəyi; – Qatıra otuz, eşşəyə on səkkiz burma yüxʹlerəm.*

**BURMA** IV (Bakı) – axtalanmış (qoyun).

**BURMA** V (Cəbrayıl, Şəki, Zaqatala) – 1. zoğlarından bağda tənəkləri və göyərti dəstəsi bağlamaq üçün istifadə edilən söyüdəoxşar ağac (Şəki); 2. burma ağacının nazik zoğları (Cəbrayıl, Şəki, Zaqatala). – *Burmanı eş, odunları bağla* (Zaqatala); – *Tənəxʹ burmasını suda saxliyəllər ki, sınmasın; – Hər ağaşdan burma olmaz, sınmiyənnən olar* (Şəki).

**BURMACA** (Qazax) – at xəstəliyi adı. – *Bu at burmaca oluf; – Burmaca tutan at yeriyəndə beli burulur.*

**BURMAĞ** (Quba) – qıvrım. – *Bənzi papağlar burmağ uladu.*

**BURMAX** (Ordubad) – axtalamaq. – *Dananı burallar, böyyəndə öküz olar.*

**BURMANC** I (Oğuz) – axtalanmış (qoyun). – *Qapıda üç-dört dənə burmanc var, saxlamışam, qonağ-zad gələndə kəsəm.*

**BURMANC** II (Cəbrayıl) – üzüm salxımlarını dərmək üçün qarğıdan düzəldilən alət.

**BURMAŞ** I (Qarakilsə) – b a x **burmanc** I.

**BURMAŞ** II (Bərdə, Qarakilsə) – b a x **bırmac.** ◊ **Burmaş götürməxʹ** (Bərdə) – çimdikləmək. – *Bir burmaş götürdü qolumnan, yeri gömbəxʹgöy göyərif.*

**BURNUCIRIX** (Şəmkir) – qanmaz, anlamaz. – *Ey, ... a burnucırıx, sən nə özüŋü ortalığa atırsaŋ?*

**BURNUYELLİ** (Qazax) – lovğa. – *Nəvi çox burnuyellidi.*

**BUROVUZ** (Naxçıvan) – b a x **birovuz.** – *Gülsüm xala burovuz tuman geyip toya gəlmişdi.*

**BURSA** (Gəncə) – əldə toxunmuş ipək parça. – *Büvümün bursadan köynəyi var.*

**BURSALAX** (Borçalı, Qazax, Tovuz) – boran, çovğun. – *Bursalax qalxdı, tez oluŋ, malı dama dolduruŋ* (Borçalı); – *Savax hava bursalax olajax* (Qazax).

**BURŞDAMAX** (Oğuz, Şəki) – tumurcuqlamaq. – *Yazda ağaşdar burşduyur* (Oğuz); – *Eşdəki halçə burşdi:tdi, büyün-savax çiçehlicaxdı* (Şəki).

**BURU** (Cəbrayıl, Gəncə, Zəngilan) – qarın ağrısı. – *Uşağın burusu var* (Gəncə). ◊ **Buruya düşməxʹ** (Cəbrayıl, Gəncə, Zəngilan) – ishala düşmək, qarın ağrısına düşmək. – *Uşax neçö:ündü ki, buruya düşüb, heş yaxşı olmur* (Zəngilan); – *Həsən buruya düşüf* (Cəbrayıl).

**BURUX** (Füzuli) – axtalanmış. – *Bu qoş buruxdu.*

**BURUXÇU** (Yevlax) – heyvan axtalayan adam. – *Hüseyn yaxşı buruxçudu.*

**BURUNÇARIX** (Çənbərək) – yırtılmış corabın altına əlavə olaraq hörülüb tikilən hissə. – *Corabımın altı düşmüşdü, burunçarığ ördüm tixʹdim.*

**BURUNQANADAN** (Ucar) – yabanı bitki adı. – *Burunqanadanı gamış yaxşı ye:ir.*

**BURUNNAMAX** (Ağcabədi, Ağdam, Bərdə, Füzuli, Şuşa, Tərtər) – yola verməmək, incitmək. – *Gördüm məni burunnuyur, mənciyəz də çıxdım gəldim evimizə* (Ağdam); – *Nənəm başdıyıf gəlini burunnama:, heş bilmirəm axırı nolajax* (Şuşa).

**BURUSUX** I (Zəngilan) – əyri. – *Bu ağaşdan mil olmaz, çox burusuxdu.*

**BURUSUX** II (Cəbrayıl, Zəngilan) – tutqun (hava haqqında). – *Böyün hava yaman burusuxdu* (Zəngilan).

**BURUZ** (Gəncə, Qarakilsə) – ədavət, kin. – *Bilmirəm, o gənə niyə mənnən buruz başdıyıf, mən ona nə qayırmışam ki?* (Gəncə).

**BURUZ-BURUZ** (Qarakilsə) – acıqlı-acıqlı, kinli-kinli. – *Buruz-buruz baxır.*

**BURUZDAMAX** (Gəncə) – yola getməmək, yola verməmək. – *Öyü anam gündə məni buruzduyur.*

**BURUZDAMMAX** (Qazax) – kinli-kinli baxmaq, düşmən kimi baxmaq. ◊ **Buruz gəzməx'** (Qazax) – kin bəsləmək, ədavət bəsləmək. – *İndiyənətən buruz gəzerdilər, diyəsən indi barışıflar.*

□ **Buruz verməx'** (Şəmkir) – süründürmək, get-gələ salmaq. – *Niyə buruz verersəŋ, düzəltmersəŋ, de:nəŋ, düzəltmerəm.*

**BUSAĞA** (Lerik, Masallı) – astana. – *Adam busağadan çıxsa, hər yerə gedə bilər* (Lerik); – *Busağamız tey dağılıb* (Masallı).

**BUSAMAT** (Tərtər) – bu saat.

**BUŞĞAB** (Quba) – nəlbəki. – *Hindi buşğab diyəduğ, qabağ ləmbəki diyərduğ.*

**BUŞXAQ** (Qax, Lerik) – b a x **buşqax.** – *Neyniy sağa, bi buşxağa qısılıp uturuy* (Qax); – *Buşxağın zibilini təmizdə* (Lerik).

**BUŞQAX** (Ağdam, Şuşa) – evin bucağı. – *Oturuf qalıf evin buşqağında* (Ağdam); – *Qalmışam onun-munun buşqağında* (Şuşa).

**BUŞQU** (Cəbrayıl, Naxçıvan, Ordubad) – mişar.

**BUTALAMMAX** (Cəbrayıl, Çənbərək) – daldalanmaq, sığınmaq. – *Yavaş qarı Usuvaja butalanıf* (Çənbərək); – *Bir xaraba dəyirmanın sərənovunun altda butalanır* (Cəbrayıl).

**BUTANA** (Gəncə, Şəmkir) – budur.

**BUVA** (Balakən) b a x **buba.** – *Buvam məni işə buyurub;* – *Axşamkı iclasda buvam da olub.*

**BUYAZDUĞ** (Quba) – b a x **bayazzığ.** – *Bizim kətdən bo yana yer var ha, qabağ buyazduğ idi.*

**BUYĞUR** (Kürdəmir, Qazax, Sabirabad) – bu dəfə. – *Buyğur da gedin, bir harava gətirin, getməzsiniz ta: <daha>* (Qazax).

**BUYXURSU** (Masallı) – bu dəfə. – *Qadoyu alım, buyxursu məni bağışda.*

**BUYLU** (Oğuz) – arabanın təkərinin çıxmaması üçün oxa keçirilən dəmir hissə. – *Buylu düşüf itif, indijə təkər çıxajax.*

**BUYRUXÇU** (Borçalı, Qazax, Tərtər) – kuryer, idarə xidmətçisi. – *Yusif buyruxçudu* (Borçalı); – *Həsən idarədə buyruxçudu* (Qazax); – *Buyruxçu idarada işdiyir* (Tərtər).

**BUYRUXQUL** (Şəki) – verilən tapşırıqları yerinə yetirən köməkçi. – *Bu mə:m buyruxqulumdu;* – *Öydə bi buyruxqulum yoxdu.*

**BUYRUXQULU** (Şəmkir) – b a x **buyruxqul.** – *Buyruxqulu biz sözəbaxan, hər işə gedən adama de:rix'.*

**BUYUXMAĞ** I (Bakı, Şamaxı) – soyuqdan donmaq, üşümək.

**BUYUXMAĞ** II (Çənbərək) – boylanmaq, boylanaraq ətrafa baxmaq. – *Axşam Hajı aralıxda buyruxurdu, də:ŋ səni axdarırdı.*

**BUYURTMA** (Şamaxı) – xüsusi sifarişlə. – *Özümə buyurtma çəkmə tikdirirəm.*

**BUZALU** (Bakı) – palaz növü.

**BUZOBURNİ** (Xaçmaz) – danadişi.

**BUZOYBURNU** (Oğuz) – alma növü. – *Buzoyburnu həblə iri, uzunsünnü olur.*

**BUZOYÇU** (Qazax, Tovuz) – buzov otaran. – *Bala Usuf qolxozun buzoyçusudu* (Tovuz).

**BUZOYLUX** I (Qazax) – inəyin balalığı. – *Buzoyluğun cırılsın belə inəx'.*

**BUZOYLUX** II (Qazax) – b a x **bızavlıx.** – *O otdan birəz apar buzoyluğa tök;* – *Buzoyluğu təmiz saxla.*

**BÜBBİ** (Ordubad) – quş adı.

**BÜCÜX'MƏX'** (Cəbrayıl) – büzüşmək.

**BÜKRƏ** (Kəlbəcər) – sap. – *Tükənnən bir bükrə al.*

**BÜKTƏLƏMƏG** (İmişli) – səliqəsiz bükmək. – *Büktəle:f atırsaŋ orıya, adamda salğa da yaxşı şeydi.*

**BÜLƏTDƏMƏX'** (Hamamlı) – itiləmək. – *Kərəntinin ağzını bülətdə, ta: kəsmir.*

**BÜLÖYLÜ** (Hamamlı) – ağ çiçəkləri olan yabanı dərman bitkisi. – *Xırda heyvanın ə:ğına qurt tüşəndə bülöylüdən əzif üsdə qoyullar;* – *Bülöylüyü dağlardan yığıf gətirif burda satırıx.*

**BÜLÜL** I (Cəbrayıl) – lobyaya oxşayan bitki növü.

**BÜLÜL** II (Masallı) – lampa şüşəsi. – *Bir dənə bülül al.*

**BÜLÜL** III (İsmayıllı) – yumru. – *Bülül yumurta tez sınır.*

**BÜLÜL** IV (Meğri) – taxılın arasında bitən yabanı otun toxumu. – *Büyünkü buğdadan üş qalbır bülül çıxdı.*

**BÜLÜRCÜX'** (Ağbaba, İrəvan) – göy lobya.

**BÜRC: BÜRC OT** (Oğuz) – yabanı bitki adı. – *Bürc ot da heyvan yeyən otdu.*

**BÜRCƏH** (Oğuz) – duru xörək adı.

**BÜRƏBÜTDAN** (Qazax) – b a x **biləbet-dan.**

**BÜRƏÇİÇƏYİ** (Xanlar, Tovuz) – b a x **birəçiçəyi.**

**BÜRGƏZ** (Salyan) – tikanlı kolun budaqlarından hazırlanan süpürgə. – *Bürgəz süm-mili, daşdarı süpürməgçündü.*

**BÜRLƏMMƏXʹ** (Naxçıvan) – bürünmək. – *Burdan durdum, yorğana bürləndim, get-dim.*

**BÜRMƏ** (Mingəçevir, Şəki) – qalın kolluq.

**BÜRMƏLİXʹ** (Şəki, Şəmkir) – b a x **bürmə.** – *Bura yaman bürməlixʹdi, birdən ilan-zad olar* (Şəmkir).

**BÜRÖYLÜ** (Hamamlı) – bənövşəyi rəngli çiçəyi olan yabanı dərman bitkisi. – *Yayda isdidən heyvanın yarasına qurt düşər, o bür-öylüdən əzif yarıya tököllər, qurd ölör.*

**BÜRÜG** (İmişli) – bürüncək. – *Bürügüm vardı, çağardıb bürügü də verdim mına.*

**BÜRÜM** (Saatlı) – ağacın balta ilə kəsilən yeri. – *Bürümü gen götürsən, tez kəsərsən.*

**BÜRÜNCƏXʹ** (Göyçay) – yapıncı. – *Qədim vaxt payız yunundan bürüncəxʹ qayırırdılar.*

**BÜRÜNGƏ** (Kəlbəcər) – çarşab. – *Qavax-lar arvaddarda olurdu bürüngə.*

**BÜRÜŞDƏ** (Bakı) – yaxşı bişirilmiş, bişib qızarmış (çörək). – *Gitdim gördüm yaxçi bü-rüşdə çöreglər pişirib, ikisini vırdım qoltu-ğuma getdim.*

**BÜRÜŞMƏ** (Ordubad) – yundan toxunma kişi paltarı. – *Bürüşməni kişilər qəbax geyərdi.*

**BÜŞMƏ** (Quba) – b a x **bişmə** I. – *Büşmə ipəkdən tuxunadi.*

**BÜTƏRƏM** (Tovuz) – tamam, tamamilə. – *Taxılı bütərəm piçirixʹ.*

**BÜTRƏMCİXʹ** (Tovuz) – tamamilə. – *Biz südü üzün almamazdan bütrəmcixʹ bişirərixʹ.*

**BÜTRÜM** (Salyan) – bütöv. – *Mə: bi dənə bütrüm kağız verin.*

**BÜVÜ** (Başkeçid, İmişli, Qazax, Şəmkir, Tovuz) – əmi və ya dayıarvadı. – *Əminin də, dayının da arvadına büvü deyrixʹ;* – *Mən əmimgilə gedəndə büvüm xamır yoğururdu* (Qazax); – *Mə:n uşağlarım əmisi arvadına büvü de:ir* (Başkeçid).

**BÜYƏ** (Şəmkir) – əqrəb. – *Büyə də ilan kimi zəhərri olor.*

**BÜZMƏ** I (Çənbərək) – bağsız çarıq növü. – *Bu büzməyi havaxdan geyirsin, Oruc?*

**BÜZMƏ** II (Kəlbəcər) – qadın üst paltarı.

**BÜZMƏCƏ** (Lerik) – yeni doğulmuş uşaqlarda olan xəstəlik adı. – *Uşağ büzməcədən öldü;* – *Uşağ büzməcə olanda beş-altı günə ölür.*

# Cc

**CAB** (Şərur) – zirvə.

**CABAL** (Göyçay, Xaçmaz, Qax, Şəki, Zaqatala) – çəkil, cır tut ağacı. – *Baxcədəki cabalların yarpağı çatmi:çaxdı qurda* (Şəki).

**CABALLIX** (Göyçay, Qax, Naxçıvan, Oğuz, Zaqatala) – çəkillik. – *Cəfər ipəx′qurdu üçün caballıxdan yarpax qırdı* (Göyçay).

**CABARA** (Füzuli) – açıq. – *Mən hər sözü cabara deyərəm.*

**CABARİ** (Salyan) – əliaçıq. – *Heybət cabari adamdu.*

**CABBA** (Dərbənd) – kərpic hasara ara-ara qoyulan dirək. – *Cabbanı palut ağacınnan qoysa, lap da yaxşı olar.*

**CABIN** (Ağdam, Gəncə, Göyçay) – barama növü. – *Həcər xala həməşə cabın saxlıyır* (Gəncə).

**CAC** (Quba) – 1. gödəkboylu; 2. arıq. – *Cac adam çux da yisə, cac qaladu.*

**CACER** (Qazax) – b a x **cazeri.** – *Keçmişdə bir caceri vardı hərənin.*

**CACIX** I (Gədəbəy, Xanlar, Qazax, Ordubad, Şəmkir, Tovuz) – b a x **cajıx.** – *Cacıxdan yaxşı doyğa pişer* (Qazax); – *Cacığı turşuya qoyullar, duz tököüllər, ye:llər* (Gədəbəy); – *Cacıx həbələ özəhliyir, soyursan qabığın yi:rsən* (Ordubad).

**CACIX** II (Basarkeçər) – oynaq. – *Ə:ğımın cacığı ağrıyır.*

**CACU** (Dərbənd) – kirpi. – *Cacunun əti yəlpig azari ulan adama dərmandu.*

**CADAY** (Zaqatala) – içinə döyülmüş qoz ləpəsi qoyulmuş çörək. – *Gəl caday yiyək.*

**CAĞ** I (Daşkəsən, Xanlar) – barmaqların ayaq pəncəsi ilə birləşdiyi oynaq. – *Əyağın qatdanan yerinə cağ deyərix′* (Xanlar).

**CAĞ** II (Ağdərə, Laçın, Ordubad, Şahbuz, Zəngilan) – mil <corab toxumaq üçün>. – *Coravı cağnan hörürüx′* (Ağdərə); – *Corab toxumağa beş cağ lazımdı* (Ordubad).

**CAĞ** III (Kürdəmir) – nərdivan. – *Cağı qələməyə daya, bir qo:sara üzüm dər yiək.*

**CAĞALA** (Çənbərək) – kal, yetişməmiş meyvə.

**CAĞALAX** (Ağdaş) – palçıqlı. – *Dəhnənin yolu cağalaxdı.*

**CAĞAN** (Ağdərə, Göyçay, Mingəçevir, Oğuz, Şəki) – yabanı ağac adı. – *Bizdər cağan deirix′, ama yuxarı kətdərdə ulas deillər* (Ağdərə); – *Cağannan qayrılan şey tez sınır* (Şəki).

**CAĞANNIX** (Şəki) – çoxlu cağan bitən yer. – *Cağannıx habıdı burdadı.*

**CAĞARLAMMAX** (Ordubad) – b a x **cağaylammax.**

**CAĞAYLAMMAX** (Ordubad) – cadarlanmaq. – *Basdığa gün dəyəndə cağaylanır.*

**CAĞ-CAĞ: CAĞ-CAĞ OLMAX** (İmişli) – çat-çat olmaq. – *Araba qalıb günün altda, çartdarı <çarxları> cağ-cağ olub.*

**CAĞILDAMAX** (Şəmkir) – coşmaq (çaya aiddir). – *Şəmkir çayı gənə çağıldıyıf gəlir.*

**CAĞILLATMAX** (Ağbaba) – b a x **caqqıldatmax.** – *Gəlin bir qab yağı pilova cağıllatdı.*

**CAĞLA** (Dərbənd) – b a x **cağala.** – *Mən mişmişi yiğmağ istədüm, cağladı.*

**CAH: CAH VERMƏX′** (Cəbrayıl) – divan tutmaq.

**CAHAZDAMAX** (Qazax) – yəhərləmək <dəvəni>. – *Eşşəyi palannallar, dəviyi cahazdallar.*

**CAHILBAŞ** (Gəncə) – gənc <qız, gəlin>. *Bəsdi cahılbaş gəlindi, ona hər nə geysə yaraşır.*

**CAJ** (Ağdam, Ağdaş, Cəbrayıl, Göyçay, Xocavənd, Mingəçevir) – yeməli bitki adı. – *Anam do:ğuya caj töküfdü* (Ağdam); – *Bizim bossanda çoxlu caj bitif* (Cəbrayıl).

**CAJIX** (Çənbərək) – yeməli bitki adı.

**CAQ** (Kürdəmir) – yeyilən yabanı bitki adı.

**CAQA** (Şəki) – fındığın yaşıl qabığı.

**CAQAY** (Qax) – b a x **caqa.**

**CAQQILDATMAX** (Cəbrayıl) – əndərmək <maye haqqında>.

**CALA** (Borçalı, Gəncə, Qazax) – çay sahilində meşə. – *Biyil caladan ancağ-ancağ ikijə xotma ot piçildi* (Qazax); – *Calada vəhşi heyvan az olar* (Borçalı).

**CALAMMAX** (Qazax) – alışmaq, vərdiş etmək. – *Mə:m qardaşım qumara calammaz.*

**CALĞA** I (Balakən, Xanlar, Qazax, Mingəçevir, Oğuz, Şamaxı, Şəki, Zaqatala) – 1. calaq, peyvənd (Qax, Şəki). – *Yaxşi calğa əzgilimiz var* (Şəki); 2. calaq olunmuş tut ağacı. – *Calğa bu yerrərdə çox olur* (Oğuz); – *Qavalax calğaların divindo:lur* <*dibində olur*> (Xanlar); – *Eşiyin qava:ndaki calğadan düz üş tehnə tut çıxır* (Şəki).

**CALĞA** II (Cəbrayıl, Zəngilan) – qarğıdan tikilmiş evlərdə və kümxanalarda dirəklərin üzərinə (hasarına) qoyulan uzun tir. – *Kümün* (b a x II məna) *calğası sındı, altına ayrı dirəxʹ vırdıx* (Zəngilan); – *Cavısdana saf calğa lazımdı* (Cəbrayıl).

**CALĞA** III (Təbriz) – dolça. – *Calğada su içəllə.*

**CALXAX** (Culfa) – b a x **calğa** I. – *Əriy hülüyə calxağ oluf.*

**CALI** (Şəki, Zaqatala) – cağa, laydıra keçirilən barmaqlıq. – *Savınnığı calıdan as* (Şəki).

**CAMA** (Bakı) – sümük çıxıntısı <çox işləməkdən biləkdə əmələ gəlir>. – *Cama biləngdə olur çox işdəməkdən.*

**CAMAX** (Başkeçid, Borçalı, Gəncə, Qazax, Naxçıvan) – qurbağa nəcisi. – *Camax o qədərdi ki, suyu da yaşıl görkəzir* (Gəncə); – *Camax göllərdo:lar* <*göllərdə olar*> *qurvağadan* (Borçalı); – *Camax durax suda çox olar* (Naxçıvan); – *Gölün üzü camax bağlıyıf* (Qazax).

**CAMAM** (Tərtər) – b a x **cama.** – *İşləməkdən əlimdə camam var.*

**CAMATI** (Təbriz) – pəncərənin gözü. – *Qız camatıdan baxırı.*

**CAMXIR** (Füzuli) – köhnə qarğı.

**CAMIŞQIRAN** (Borçalı, Qazax) – yazın ilk üç günü. – *Camışqıranda boran olor, alaçalpo:lor* <*alaçalpov olur*>*, qarnan yağış yağer, camış davam gətirme:r, ölör* (Qazax); – *Camışqıranda mə:m bir malım öldü* (Borçalı).

**CANA** (Ağdaş, Bərdə, Gəncə, Göyçay, İmişli, İsmayıllı, Kürdəmir, Qax, Mingəçevir, Oğuz, Şəki, Zərdab) – pis; yararsız, mənasız. – *Havalar çox cana keçir* (Ağdaş); – *Parpız cana şeydi* (Bərdə); – *Elə cana yazı yazırsan ki, adam oxuya bilmir* (Zərdab); – *Naxoşun halı canadı* (İsmayıllı); – *Cana şeydi, yarıyan şey döyül* (Oğuz); – *O, cana adam dö:l, sən o:n dərdin bilmirsən* (İsmayıllı); – *Sözün var söz danış, cana danışma* (Gəncə); – *Çəkəlməzsən* <*çəkə bilməzsən*>, *dəgirman yap cana işdiyir* (İmişli).

**CANAXLAMAX** (Kəlbəcər) – çatlamaq, yarılmaq (qoza aiddir). – *Təzə vaxdı qozun üsdə gəzəl olur, soŋra o canaxlıyır, ağzı açılır.*

**CANARXALIĞI** (Şuşa) – canlıq.

**CANAVARGƏZDİRƏN** (Hamamlı) – kol adı. – *Canavargəzdirənnən yaxşı dırmıx sapı olur;* – *Uşaxlar canavargəzdirənnən qoyunu qovalı:r.*

**CANAVARSAQQASI** (Ağdaş) – qoz növü. – *Canavarsaqqasınnan bir az gəti sındır, ye:əg.*

**CANCANI** (Ordubad, Şərur) – qardaş arvadı. – *Züleyxa mənim cancanımdı* (Şərur); – *Biz qardaş arvadına cancanı deyərıx* (Ordubad).

**CANCUL** (Başkeçid, Borçalı, Hamamlı) – gavalı növü adı. – *Cancul iyulda yetişer* (Borçalı); – *Canculu mürəbbiyə işlədeyrixʹ, onnan yaxşı mürəbbo:lor* (Hamamlı).

**CANCUR** (Bolnisi, Borçalı, Çənbərək, Qazax) – b a x **cancul.** – *Cancurdan yaxşı mürəbbo:lor* <*mürəbbə olur*> (Borçalı).

**CANDİŞ** (Meğri) – zəhmətkeş, əməksevər. – *Bı Mila:yim kimin candiş adam bırda tapbassan.*

**CANDONU** (Quba) – canlıq.

**CA:NƏMƏXʹ** (Şəki) – kiflənmək. – *Toxumu tökərixʹ elə yerə ki, nəm çəhməsin, ca:nəməsin, göyərməsin.*

**CANƏVİ** (Laçın) – qolsuz, isti köynək.

**CANƏZİRRƏMMƏG** (Şamaxı) – naxoşlamaq.

**CANƏZİRRİG** (Şamaxı) – naxoşluq. – *Canəzirrig adamın canın üzür.*

**CANXIRID: CANXIRID ELƏMƏXʹ** (Qarakilsə) – yaxa qurtarmaq. – *Gördüm mının əlinnən canxırıd eliyəmiyəcəm, əkildim.*

**CANQA** I (Zəngəzur) – kök. – *Hajqurban oğlu Asdan canqa adamdı.*

**CANQA** II (Qax, Şəki) – qoçu. – *Alı kəndin canqasıydı keçmişdə* (Qax).

**CANQALIX** (Qax) – qoçuluq. – *Alının canqalıxda adı çıxmışdı.*

**CANQI** (Daşkəsən) – əkinə yararsız (sahə). – *O yer ki daşdıxdı, əkinə-piçinə yaramey, canqı yerdi.*

**CANNA** (Zaqatala) – bax **cana.** – *Ho canna adamdı.*

**CANNAÇƏX′MƏ** (Ağcabədi, Ağdam, Bərdə, Yevlax) – xörək adı (qaynadılmış süd ilə suyun içinə tökülmüş düyünün həlimi süzüləndən sonra üzərinə yağ əlavə edilir). – *Bizim kişi de:ir; – Mã: tez-tez cannaçəx′mə pişir* (Yevlax).

**CANNIĞ** (İsmayıllı, Salyan, Şamaxı) – sırıqlı. – *Kişiyçün yaydan cannığ hazırramışuğ* (İsmayıllı); – *Qışda cannığ giyəndə adamın canı qızır* (Şamaxı).

**CANNIX** (Kürdəmir, Oğuz, Zəngilan) – bax **cannığ.** – *Qışdı, cannıx gey, so:ğ olar* (Kürdəmir).

**CANSİLƏN** (Cəbrayıl) – qətfə.

**CANTÖVRÜ** (Ordubad) – tələsik.

**CAR** (Ordubad) – qurudulmuş bataqlığın yerində qazılmış arx. – *Qalxoççılar bü:n carda işlədilər.*

**CARCAR** (Culfa, Naxçıvan, Ordubad, Salyan, Şərur, Zəngilan) – dəmir dişli, dəstəli kötük (taxıl döymək üçün). – *Carcar indi işdənmir, o vaxtdar onnan taxıl döyərdilər* (Zəngilan); – *Carcarın dişdəri iri olur* (Ordubad).

**CARCI** (Balakən, Çənbərək, Xanlar, Kəlbəcər, Qarakilsə, Qazax, Tovuz) – evin pərdisinin üstündən döşənən çırpı və ya xırda ağac. – *Carcını öyün üsdə döşeylər* (Kəlbəcər); – *Pə:nin üsdə carcı töx′düm kün, torpaq içəri tökülməsin* (Çənbərək); – *Carcıyı pərdinin üsdünnən qo:arıx* (Xanlar).

**CARCILAMAX** (Balakən, Çənbərək, Hamamlı, Xanlar, Kəlbəcər, Qarakilsə, Qazax, Tovuz) – carcı ilə örtmək. – *Qar yağmamış damın üsdünü carcılamax yaxşıdı* (Çənbərək); – *Əvvəl öyün üsdün pərdiliyirsəŋ, soŋra carcılıyırsaŋ* (Hamamlı); – *Pərdini döşə, tövləni carcılıyax* (Tovuz).

**CARCU** (Kəlbəcər) – bax **carcı.** – *Carcunu pərdinin üsdünnən dama döşü:rüx′.*

**CARCUR** I (Kürdəmir) – qadın şalvarı növü – *Arvadlar carcur giyərdi qabaxlar.*

**CARCUR** II (Balakən) – kiçik.

**CARÇI** (Kürdəmir) – kuryer. – *Carçı kəssovetindo:lur.*

**CAROV** (Dərbənd) – quyruqsuz qoyun. – *Carovu neyçü tutmisən?*

**CARRAMAX** I (Gəncə, Qazax, Mingəçevir, Şamaxı, Şəmkir, Tovuz, Ucar) – yuyandan sonra pak etmək <arxda, çayda>. – *Apar qavları çayda carra* (Qazax); – *Paltarı artda <arxda> carrıyırıx* (Ucar); – *Apar bu iskannarı axar suda carra gəti* (Şamaxı).

**CARRAMAX** II (Gəncə, Qazax) – əndərmək. – *Qız əro:u* (bax **ərov** I) *üsdünə carradı* (Gəncə).

**CARTANBEL** (Sabirabad) – artırma. – *Hacali bi öy tikdirib, ö:ün dalınnan bi yaxşı cartanbel qoydurub, adamın lap həvəsi gəlir.*

**CAVAL** (Qax, Mingəçevir, Şəki, Zaqatala) – bax **cabal.**

**CAVAM: CAVAM YEMƏX′** (Meğri) – öyrəşmək, vərdiş etmək. – *Sizin qolları:z kələntiyə cavam yemiyip.*

**CAVIN** (Ağdaş, Mingəçevir) – bax **cabın.**

**CAVZALI** (Qax) – hirsli, əsəbi. – *Hoynan sələmə bala, cavzalıdı.*

**CAYDIMAX** (Cəbrayıl, Zəngilan) – yolundan çıxmaq. – *Sən gedə-gedə caydırısan ha, özü: yığışdı* (Zəngilan).

**CAYDIRMAX** (Beyləqan) – yayınmaq. – *Bu gün hara caydırmışdın?*

**CAYLAX** (Kürdəmir) – kök, canlı <heyvan>. – *Bizim gamış sizinkinnən caylaxdı.*

**CAYMAĞ** (Lənkəran) – bax **caydımax.** – *Balama, sən gənə caydu:n?*

**CAYMƏĞ** (Lerik) – çaşmaq.

**CAZERİ** (Qazax) – köhnə sistemli tüfəng adı. – *Cazeriyi ağızdan, lülədən dolduruv atallardı.*

**CECƏ** (Zaqatala) – göy soğan. – *Şorbaya cecə töksən, pis olmaz.*

**CECƏX′** (Qazax) – yabanı bitki adı. – *Cecəx′dən çay qoyarıx.*

**CECİK** (Kürdəmir) – bax **cejix′.**

**CEDLİ** (Borçalı) – arıq.

**CEJƏX′** ( Ağdam) – dəni təmizlənmiş qarğıdalı qıçası.

**CEJİX′** (Gəncə) – paça. – *Dünən gedəndə buzun üsdə sürüşdüm, əyağımın biri sağa getdi, biri sola, cejiyim ayrıla qaldı.*

**CEJİK** (Ucar) – dalaşqan.

**CENCƏRƏ** (Cəbrayıl) – hanada arğac keçirilən qalın ip.

**CESPƏR** (Quba) – mərz. – *Bizim cespərin yanında bir qaranquş ülüb.*

**CEŞDƏ** (Şəki) – özbaşına. – *Donuzun balaları heylə ceşdə hərrənir.*

**CEY** (Şahbuz) – tayfa, nəsil.

**CEYBİR: CEYBİR OLMAX** (Xanlar) – əlbir olmaq. – *Muradnan Əli ceybir oluflar.*

**CEYDAM** (Qazax, Gədəbəy) – mitil. – *Ceydamın pütüncə təzələdim yorğanın* (Gədəbəy).

**CEYİX′** (Meğri) – cəhəng. – *Ağzıyın ceyix′lərində xal var.*

**CEYLƏMMƏG** (İmişli) – uzaqlaşmaq. – *Nəyşə <nə üçün> bı cama:tdan ceylənirsən.*

**CEYMAX: CEYMAX ATMAX** (Oğuz) – kök, rişə atmaq. – *Suyu kəsənnən soŋra çəltix′ ceymağ atır, göyərir.*

**CEZVALI** (Qazax) – b a x **cavzalı.** – *Yazığın oğlu cevzaldı.*

**CƏBƏ** I (Cəlilabad) – gödəkboylu. – *Deyüğ biz balacə adama cəbə.*

**CƏBƏ** II (Təbriz) – xurcun. – *Qüdrət cəbəni dalına alıp yola düzəldi.*

**CƏBİN** (Göyçay) – b a x **cabın.** – *Cəbin pilə kimi olur.*

**CƏCİL** (Başkeçid) – ağartı növü.

**CƏC** (Yardımlı) – əfəl, aciz. – *Yaxçı dili var, amba cəcdi.*

**CƏDƏL** (Ağbaba, Xanlar) – b a x **cədəz.**
☐ **Cədəl qoz** (Basarkeçər, Qazax) – qabığı bərk qoz. – *Qoz iki cür olur: kətən qoz, cədəl qoz; kətən qozun qabığı yuxo:lur, cədəl qozun qabığı bərk olur* (Basarkeçər); – *Cədəl qoz yaxşı sınmaz* (Qazax).

**CƏDƏZ** (Ağbaba) – araqarışdıran, aravuran.

**CƏFGAN** (Kəlbəcər) – b a x **çəvkən.** – *Cəfganı qojalar ge:irdi.*

**CƏĞ** (Ordubad) – mala. – *Haxverdi xərmən döyüf sovurur, ambara verir, su suvarır, cəğ vurur.*

**CƏHƏ** (Naxçıvan) – ağız <süd>.

**CƏHƏL** (Yardımlı) – mübahisə. – *Bilmey, amba elə cəhəl eley.*

**CƏJƏX′** I (Şərur) – b a x **cejəx′.** – *Cəjəyi mal-qara yeyir, yandırmax da olar.*

**CƏJƏX′** II (Xocalı) – yonqar.

**CƏJİX′** (Gəncə) – zəif. – *Cəfər çox çəjix′di.*

**CƏLƏ** I (Hamamlı, Qazax, Tovuz) – b a x **cala.** – *Kürün qırağındakı meşiyə biz cələ de:rix′* (Qazax); – *Quzuları cələ: burax, otdasın* (Tovuz).

**CƏLƏ** II (Cəbrayıl, Daşkəsən, Goranboy) – boğaz xəstəliyi adı. – *Uşağın boğazınnan çıxan cələdi* (Daşkəsən); – *Gədənin boğazındakı cələni iki ildi sağaltdırammirəm* (Cəbrayıl).

**CƏLƏB** (Basarkeçər, Əli Bayramlı, İmişli, Kürdəmir, Zaqatala) – arıq, zəif. – *Yazığ yap <lap> cələb adamdi* (Əli Bayramlı); – *Bu nə cələb uşaxdı?!* (Zaqatala)

**CƏLƏF** (Bərdə, Daşkəsən, Gədəbəy, Gəncə, Goranboy, Xanlar, Kəlbəcər, Mingəçevir, Oğuz, Şəmkir, Tovuz, Yevlax) – b a x **cələb.** – *Bu kətdə cələf adam yoxdu* (Bərdə); – *Cələf adamı söyux tez tutar* (Daşkəsən); – *Cələf adamda güc az olar* (Naxçıvan).

**CƏLƏF-CƏLƏF** (Qazax) – dəstə-dəstə, sürü-sürü. – *Malları cələf-cələf eliyiv aparellar.*

**CƏLƏFLİX′** (Gəncə) – 1. arıqlıq; 2. zəiflik. – *Şükürün cələfliyinə baxma, çox cəld adamdı.*

**CƏLƏQIRAN** (Qazax) – tənbəl.

**CƏLƏKƏSƏN** (Meğri) – hiyləgər. – *Cələkəsən adamın cama:t içində hürməti ulmaz.*

**CƏLƏKƏSƏNNİX′** (Qazax) – hiyləgərlik. – *Düz dolan, cələkəsənniy eləmə, heş kəsin də səndə işi olmasın.*

**CƏ:LƏMƏX′** (Balakən) – istəmək. – *Hajı kişi arvadını çux cə:ləmişdi.*

**CƏLİ** (Sabirabad) – tək, yalqız.

**CƏLİDƏ** (Sabirabad) – ev-eşiksiz. – *Əlipənah cəlidə bi adamdi.*

**CƏLKƏŞİX′** (Cəbrayıl) – bitişik, calaşıq. – *Əvlərimiz cəlkəşix′di.*

**CƏMƏ** (Cəbrayıl, İmişli, Ordubad) – yaba ilə bir dəfə götürülə bilən ot topası. – *Mən cəmələrin qurumasını yoxladım* (Ordubad); – *Qüdrət cəmələri bir-birinin üsdünə yığdı* (Cəbrayıl).

**CƏMƏĞ** (Lerik) – yaylıq.

**CƏMƏX′** (Goranboy) – b a x **camax.** – *Cəməx′ göllərdo:lar, axar sularda olmaz.*

**CƏMLƏ** (Zəngilan) – qışın son ayı. – *Qişdən bi ay qalmış cəlmə giriy.*

**CƏ:N** (Cəbrayıl) – bataqlıq bitkisi. – *Gedək cə:n bişməyə.*

**CƏNCƏŞMƏX′** (Tərtər) – bax **cəngləşməg.** – *Səfərnən sözümüz düz gəlmədi, cəncəşdix′.*

**CƏNƏ** I (Borçalı) – qəlsəmə. – *Balığın cənəyi var.*

**CƏNƏ** II (Çənbərək, Şahbuz) – cəmdək. – *Çalağan murdar olan comuşun cə:nəsinə yığılıf* (Çənbərək); – *Canavar yə:n qoyunnarın cə:nəsini çoban tapıb gətirdi* (Şahbuz).

**CƏNƏ-CÜNƏ** (Bakı) – ləyaqətsiz. – *Mən sə:nçün cənə-cünə adam dögürəm.*

**CƏNƏH** (Dərbənd) – dəhliz. – *Cənəh iki utağın arasında uladı.*

**CƏNGLƏŞMƏG** (Biləsuvar) – höcətləşmək.

**CƏNSİMƏX′** (Qazax) – astadan hürmək. – *Muradın itdəri savaxdan cənsiyer.*

**CƏR** I (İmişli) – dəstə, sürü. – *Bir cər qoyun var.*

**CƏR** II (Qax) – iməcilik. – *Bu gün yolların təmizlənməsinə cər olacax.*

**CƏRCƏM** (Mingəçevir) – tamamilə.

**CƏRCİ** I (Ordubad) – bax **carcı.** – *Cərci evin üsdünə tökülən tozu yaxşı saxli:r.*

**CƏRCİ** II (Qax, Şəki, Zaqatala) – lobya və xiyar bitkisinin yanına basdırılan uzun ağac. – *Bu gün xiyarın dibinə cərci sancdım* (Zaqatala); – *Peşəsi dağdan cərci qırıf satmağ olardı* (Şəki).

**CƏRGAVÇI** (Cəbrayıl) – cütçü.

**CƏRGƏ** (Şamaxı) – kotana və ya arabaya qoşulan birinci cüt kəl və ya öküz. – *Kəllər cəkmədi, cərgə gətirməyə adam yolladım.*

**CƏRGƏGÜL** (Bakı) – qadın baş bəzəyi. – *Cərgəgül qızıldan olur, minadan olur, arvadlar başdarına qoyullar.*

**CƏRGÖ:** (Gəncə) – bax **cərgə.** – *Cərgo: qoşmasaydım, araba çıxmazdı;* – *Aşdığ, o birisi kəlləri cərgo: elədix′.*

**CƏRGO:LAMAX** (Ağdam, Gəncə, Şamaxı) – əlavə bir cüt kəl və ya öküz qoşmaq. – *Ağır arabıya artıx kəl cərgo:lamax lazımdı* (Ağdaş).

**CƏRGO:LIX** (Ağdaş) – əlavə cüt kəli, öküzü kotana, arabaya qoşmaq üçün kəndir və ya zəncir. – *Cərgo:lığ əsasən zəncirdən olar.*

**CƏRGOY** (Xanlar) – bax **cərgə.** – *İlaf qavaxkı cərgoy öküzüdü.*

**CƏRİK** (Naxçıvan) – yun adyal.

**CƏRQAB** (Qax) – yundan toxunmuş ayaqqabı.

**CƏRO:** (Masallı) – bax **carov.** – *Bir cəro: qoyun kəsmişüg.*

**CƏSBAR** (Kürdəmir) – yarıq, çatlaq. – *Barı hörəndə çalışırığ ki, cəsbar tüşməsin.*

**CƏSBƏR** (Xaçmaz) – bax **cespər.**

**CƏSVAN** (Qazax, Şəmkir) – igid, cəsur. – *Cəsvan adam Kərəmiydi* (Qazax); – *Cəsvan hər kəsdən çıxmaz, təx′dən bir nəsildən olar* (Şəmkir).

**CƏSVƏR** (Qazax) – dəstə, qrup.

**CƏVCƏ** (Qarakilsə) – cəhəng. – *Cəvcã: sil.*

**CƏVCƏNƏX′** (Gədəbəy) – çənə. – *Bu qədər danışırsan, deyəsən cəvcənəyin bərkdi.*

**CƏVCİ** (Cəbrayıl, Zəngilan) – bax **cəvcə.** – *Canıŋ həqqi, cəvci: cırram* (Zəngilan).

**CƏVƏRAN** (Kəlbəcər) – toxunma səbət. – *Yumurtələri cəvəranə yığ.*

**CƏVƏRƏ** I (Culfa, Meğri, Ordubad, Zəngilan) – bax **cəvəran.** – *Əlimdə cəvərə gedədəm cəviz silhməğə* (Meğri); – *Mükayıl, bir cəvərə miyvə yığ gəti yiyax* (Ordubad); – *Cəvəriyə soğan yığırıx, üzüm yığırıx* (Culfa).

**CƏVƏRƏ** II (Kəlbəcər) – küləşdən düzəldilmiş iynə-sap qutusu. – *Cəvərə:n içinə iynə-sap yığırıx.*

**CƏVƏRƏN** (Zəngilan) – bax **cəvəran.**

**CƏVƏX′** (Hamamlı) – çoxdanışan. – *Cəvəy adam çoxdanışana deyirix′.*

**CƏVƏX′LİX′: CƏVƏX′LİY ELƏMƏX′** (Hamamlı) – uzunçuluq etmək. – *Cəvəx′liy eləmə, başım, beynim getdi.*

**CƏVƏZƏX′** (Ağdərə) – ölçü qabı <ağacdan>. – *Buğda üyüdəndə bir cualdan iki-üç cəvəzəx′ taxıl götürürdülər.*

**CƏVİZ** (Ağcabədi, Cəbrayıl, Culfa, Laçın, Naxçıvan, Ordubad, Şərur, Zəngilan) – qoz. – *Cəviz meşələrdə də çoxdu* (Zəngilan); – *Mənə bir az cəviz ver yeyim;* – *Cəviz bu kətdə çox olur* (Ordubad).

**CƏY-CÜY** I (Qazax) – bacarıqsız. – *Ə:, onnar qoyunmu saxlıya bilər yataxda, hamısı cəy-cüy şeylərdi.*

**CƏY-CÜY** II (Çənbərək) – b a x **carcur** II. – *Biyilki qartop cəy-cüy çıxdı hammısı.*

**CƏYƏNVAYİ: CƏYƏNVAYİ DANIŞMAX** (Əli Bayramlı) – yersiz danışmaq. – *Nə cəyənvayi danışırsan*

**CƏZƏRƏ** (Tovuz) – səhra, düzəngah. – *Keşmişdə irəmənin bu cəzərəsində işməyə su tapılmırdı, indi hər yerdə bir bulax qaynıyır.*

**CƏRZƏ** (Cəbrayıl) – b a x **cəzərə.**

**CIBILDIZ** I (Bakı) – balaca. – *Bu nə cıbıldız uşağdu.*

**CIBILDIZ** II (Kürdəmir, Salyan) – çevik. – *Faxrət çox cıbıldız uşağdı* (Kürdəmir); – *Fatma kimi cıbıldız qız olmaz* (Salyan).

**CIBINDIRIX** (Zəngilan) – çılpaq. – *Get paltarĩ: gey, cıbındırıx gəzmə.*

**CIBITMAX** (Böyük Qarakilsə, Hamamlı) – qaçmaq. – *Ə:, cıbıt, malı qaytar* (Hamamlı).

**CIBRIX** I (Cəbrayıl, İsmayıllı, Oğuz, Ordubad, Qubadlı) – qərzəksiz, qərzəkdən çıxmış (qoz, fındıq, şabalıd). ◊ **Cıbrıxdan çıxmax** (Cəbrayıl) – *məc.* susuzluqdan yanmaq. – *Bağ tamam yanıf cıbrıxdan çıxdı* (Cəbrayıl); **Cıbrıx eləməx′** (Qubadlı) – soyundurmaq. – *Qışda adamı cıbrığ eləsələr, adam donar.* **Cıbrığın soymaq** – qabıqdan çıxarmaq.

**CIBRIX** II (Şahbuz) – yeyilən yabanı bitki adı. – *Cıbrıx çöldə olar.*

**CIBRIXLAMAX** (Oğuz, Zəngilan) – qərzəkdən çıxarmaq <qozu, fındığı, şabalıdı>. – *Şabalıdı cıbrıxla, mən də gəlləm* (Oğuz); – *Cəvizi çıbrıxle:rıx* (Zəngilan).

**CIDIX** (Ağcabədi) – arıq "buzov". – *Cıdıx buzoyun yeməyi qutarıf.*

**CIDIRÇI** (Gəncə) – gəlini müşayiət edən atlı. – *Cıdırçı Səlman gəldi.*

**CIDIRIXÇI** (Qazax) – çapar.

**CIDIRRAMAĞ** (İmişli) – b a x **cıdırramax.** – *At ilxıdan cıdırrandı getdi.*

**CIDIRRAMAX** (Hamamlı) – qaçmaq. – *Vəlini gördüm, elə yaman cıdırrardı ki.*

**CIFRIX** (Bolnisi) – b a x **cıvrıx** II.

**CIĞ** (Biləsuvar, Ucar) – 1. dəstə, topa (Biləsuvar). – *Çöl ördəginin cığı çalada olur* (Biləsuvar); 2. tamamilə, xalis (Ucar). – *Ət cığ yağdı* (Ucar).

**CIĞA** I (Zaqatala) – böyük buynuz.

**CIĞA** II (Qazax) – atın kəkili. – *Cığa atın kəkilidi dana!*

**CIĞALA** (Bərdə) – b a x **cağala.** – *Cığala əriyi duznan yeirik.*

**CIĞALI** (Qazax) – qıvrımsaçlı. – *Anaxanım cığalı gəlindi.*

**CIĞCIĞA** I (Bakı) – cığ <dəniz otu>. – *Cığcığa dərməkçün anam cığcığalığa gedmişdi.*

**CIĞCIĞA** II (Culfa, Gəncə, Şərur) – bəzək şeyləri. – *Cığcığanı dövlətdi boynuna asardı* (Şərur); – *Xalamın gəlininin saçına da cığcığa vurmuşdular* (Gəncə); – *A bala, get bir başdıx cığcığa al gəti* (Gəncə).

**CIĞCIĞA** III (Oğuz) – qozdan hazırlanmış uşaq oyuncağı. – *Çağır bu uşağı, cığcığasını ver, oynasın.*

**CIĞCIĞALIĞ** (Bakı) – cığlıq, dəniz otu çox olan yer. – *Cığcığa dərməkçün anam cığcılığa gedmişdi.*

**CIĞI** (Başkeçid, Borçalı) – birillik keçi. – *Balaja-balaja cığılar otde:r* (Borçalı).

**CIĞIR** (Bolnisi) – vedrəyə oxşayan qulplu qazan.

**CIĞIRT** (Dərbənd) – qaratoyuq. – *Cığırtün ətün yiğmağ uladu.*

**CIĞIT** (Cənubi Azərbaycan) – balaca.

**CIĞLI** (Dərbənd) – b a x **cağala.**

**CIXMIR** (Gədəbəy, Gəncə, Goranboy, Qazax, Tovuz) – b a x **cımxır.** – *Kələpır cıxmır yağnan pişer* (Goranboy); – *Ət çıxmır yağdı* (Gədəbəy).

**CIQQA** (Biləsuvar) – azacıq.

**CIQQAN** (Füzuli, İmişli, Kürdəmir, Şamaxı) – b a x **cıqqa.** – *Çörəyinnən bir cıqqan mənə ver* (İmişli); – *Cıqqan danış da* (Kürdəmir); – *İrəngdən cıqqan mənə də ver* (Füzuli); – *Cıqqan getməmiş yoruldu* (Şamaxı).

**CIQQANA** (Ucar) – pambıq qozasının içində qalan azacıq pambıq. – *Mən bü:n cıqqana artdadım.*

**CIQRI** (Qax) – qoyunun quyruğu.

**CILFIR** I (Əli Bayramlı, Kürdəmir, Şamaxı) – bərk qaçan at. – *Boz at çox cılfir atdı* (Əli Bayramlı); – *Kor at yaman cılfirdı* (Şamaxı).

**CILFIR** II (Naxçıvan) – yersiz danışan. – *Cılfir Səməd gəlir.*

**CILĞA** I (Əli Bayramlı, Şəmkir) – b a x **cilqə.** – *Dağın döşünnən bir cılğa gedir, oreynan çıxarsuz* (Şamaxı).

**CILĞA** II (Əli Bayramlı, Kürdəmir) – tamam, tamamilə, lap. – *O, hələ cılğa uşağdı* (Kürdəmir).

**CILĞALI-BÖÜKLİ** (Sabirabad) – kiçikli-böyüklü. – *Cılğalı-böükli kətdən ellignən getmişdi.*

**CILĞIM** (Quba) – qığılcım. – *Ut yandıranda unnan cılğım səpələndü hər yana.*

**CILXA** (Ağdam, Biləsuvar, Cəbrayıl, Daşkəsən, Əli Bayramlı, Gədəbəy, Gəncə, Hamamlı, İmişli, Kəlbəcər, Kürdəmir, Qazax, Masallı, Sabirabad, Salyan, Şamaxı, Tovuz, Zəngilan) – b a x **cılğa** II. – *Ət cılxa yağdı* (Daşkəsən); – *Qızım, bu cılxa süddü, su qatılmıyıb* (Əli Bayramlı); – *Bı çörək cılxa ağ unnandı* (Kəlbəcər); – *Mənim payım cılxa yağdı* (Salyan).

**CILXI** (Qax, Zərdab) – b a x **cılğa** II. – *Anamın bişirdiyi çörək cılxı ağ unnandı* (Zərdab).

**CILIMBIRLAMAX** (Gəncə) – çılpaq olmaq.

**CILIZ** I (Bakı, İsmayıllı, Kürdəmir, Qazax, Masallı, Ordubad, Tovuz) – arıq. – *Cılız adam quvvasız olar* (Qazax); – *Nə cılız uşağdı* (İsmayıllı); – *Sufayı uşaxdı, hayıf cıqqana cılızdı* (Kürdəmir); – *Ay qız, tay bu giyəvi: az tə:riflə, görmüşəm dayna, bir cılızın biridi* (Ordubad).

**CILIZ** II (Əli Bayramlı) – tək, yalqız. – *Bu işi o cılız görmiyib.*

**CILIZ** III (Ağbaba, Ağdam, Balakən, Basarkeçər, Başkeçid, Bolnisi, Borçalı, Gədəbəy, Gəncə, Goranboy, Hamamlı, Qazax, Şamaxı, Şəki, Tovuz) – b a x **ciliz.** – *Sən cılız ağ elədin* (Ağbaba); – *Vəli danışdıxca cılız hirslənirdi* (Bolnisi); – *Qaragöz, girdəsifət qız cılız qəşəy olur* (Bolnisi); – *Həlimə xalanın qızı cılız gözəldi* (Gədəbəy); – *Gögöyün meşədə cılız çox olur* (Borçalı); – *Cılız ye:n gedirsən, çatmaq olmor saŋa* (Hamamlı); – *Xa:vər cılız bərk gülürdü* (Tovuz); – *Sən də cılız həddiŋi aşma* (Goranboy); – *Bi ət göndəribdi bizə cılız yağdı* (Şəki).

**CILIZ** IV (Balakən, Gəncə, Tovuz) – xüsusilə, ələlxüsus. – *Qolxoççular yaz işlərinə başladı, cılız da havaların yaxşı keçməsi bu işçün şərait yaratdı* (Balakən); – *Cılız təzə öyə keşməx'ləri olara çox köməy elədi* (Gəncə); – *Bizim yerlər çox gözəldi, cılız dağ tərəflər* (Tovuz); – *Bular uzunçudu, cılız da kı bizim bu İlyas* (Tovuz).

**CILĞI** I (Ağdam, Basarkeçər, Başkeçid, Bolnisi, Borçalı, Böyük Qarakilsə, Cəbrayıl, Çənbərək, Daşkəsən, Füzuli, Gədəbəy, Göyçay, Xanlar, İmişli, Qazax, Laçın, Şəmkir, Zəngilan) – tüklü üzü kənarda olan motal. – *Pendiri duzduyullar, cılğıya qoyullar* (Ağdam); – *Anam bir cılğı pendir qayırdı* (Basarkeçər); – *Ə:, sizə bir cılğı göndərdim* (Zəngilan); – *Motalın tüklü üzü içərido:lar <içəridə olur>, əmə cılğının tüx'lü üzü eşiyindədi* (Borçalı).

**CILĞI** II (Ağdaş, Göyçay, İsmayıllı, Mingəçevir, Oğuz, Şəki, Ucar) – b a x **cılğa** II. – *İclasdakılar cılğı mənnən danışdı* (Ağdaş); – *Ay mə:llim, uşaxlar sinfi cılğı palçığ iliyifdilər* (Oğuz); – *Bu buğda unu dö:l, cılğı arpadı* (İsmayıllı); – *Ət cılğı yağdı* (Ucar); – *Cılğı ağ un əpbəyə yaxşı olmur, xingala – zada yaxşıdı* (Şəki).

**CILQIR** (İsmayıllı) – dırmıq. – *Əhməd cılqırnan çoxlu ot yığdı.*

**CILVIR** I (Goranboy) – çöl quşu adı.

**CILVIR** II (Ağbaba, Basarkeçər) – göyərti ilə yarma və ya düyüdən hazırlanan xörək adı. – *Leyla xala cılvır pişirif* (Ağbaba); – *Pencərnən yarmadan pişir cılvır* (Basarkeçər).

**CILVIR** III (Ağbaba) – təmizkar. – *Zakir yaman cılvır adamdı.*

**CIMBAT: CIMBAT OLMAX** (Ağdam, Barana) – yox olmaq. – *Qələm bırdan harya cımbat oldı?* (Ağbaba); – *Puçağım cımbat oldu* (Barana).

**CIMXIR** (Basarkeçər, Başkeçid, Goranboy, Qazax, Şəki, Tovuz, Yevlax, Zaqatala) – xalis, tamam, lap. – *Bir qoyun kəsibənə, çımxır yağ olubana* (Basarkeçər); – *Bu at cımxır bozdu* (Qazax); – *Cımxır süd işsən yuxun gələr, əmbə körəməz yuxu verməz* (Yevlax); – *Xörək cımxır yağdı* (Tovuz).

**CINDIRAĞ** (Kürdəmir) – qarmaq. – *Cındırağnan ucdakı salxımları üz, yaman yeməlidi.*

**CINXIR** (Şəki) – b a x **cımxır.** – *Su cınxır iylə̃:rdi.*

**CINIZ** (Qazax) – b a x **ciliz.** – *Cınız bu məni yandırer.*

**CINQIMAX** (Ucar) – ucadan çağırmaq. – *Əli, sən bərkdən cınqıyırsan.*

**CINQIR** I (Cəlilabad) – qoz. – *Qoz demeylər bizdə, deylər girdəkan, bir də ki cınqır.*

**CINQIR** II (Ağbaba, Başkeçid, Borçalı, Hamamlı, Qazax) – qazança. – *Qoyunun südünü cınqıra sağ;* – *Cınqırdakı qatığı gəti yiyəx′* (Borçalı).

**CINQIŞMA** (Qarakilsə) – acıq. – *Ağalar mə:llimə cınqışmamız tutdu.*

**CIPBAN** (Cəbrayıl) – çox kiçik.

**CIR** (Qarakilsə, Lənkəran) – çürümüş süd.

**CIRADAL** (Oğuz) – xörək adı. – *Cıradal yazda ye:lən şeydi.*

**CIRASIL** (Gədəbəy) – zirək. – *Səniŋ uşaxların cırasıl uşaxlar çıxdı.*

**CIRASIN** (Ordubad) – b a x **cırasıl.** – *Həsən cırasın adamdı.*

**CIRDALA** (Ağdaş, İsmayıllı, Mingəçevir, Şuşa) – b a x **cıradal.** – *Cijim yaxşı cırdala bişirmişdi* (Ağdam).

**CIRDALI** (İsmayıllı) – b a x **cıradal.**

**CIRDANA** (Ağcabədi, Ağdaş, Ucar) – b a x **cıradal.** – *Cijim cırdana pişirmişdi* (Ağdaş); – *Hə, dünən yaxşıca cırdana yedim* (Ağcabədi).

**CIRĞA** (Bakı, Quba) – b a x **cılğa.** – *Cırğeynan getdim düz bosdana* (Bakı); – *Kəntimizə cırğeynan gidəndə yoxun uladı* (Quba).

**CIRĞIN** (Çənbərək) – arıq. – *Cırğın heyvan süddü olmaz.*

**CIRI** (Gədəbəy, Gəncə, Qazax, Tovuz) – bacarıqlı. – *Həsən cırı adamdı* (Qazax); – *Məsim çox cırı uşaxdı, hər nə desən başarer* (Gədəbəy); – *Avdıllanın oğlu özünö:rə cırı döy* (Tovuz).

**CIRIM** (Bərdə) – dilim (ətə aiddir).

**CIRIM-CIRIM: CIRIM-CIRIM KƏSMƏK** (Bərdə) – dilim-dilim kəsmək (əti). – *Əti cırım-cırım kəsirix′, şalampır eli:rix′,*

**CIRIMLAMAX** (Bərdə) – dilimləmək (əti). – *Biz əti cırımlıyıf, şalampur pişiririx′.*

**CIRMIL** (Ağdərə) – dırmıq. – *Yeri cırmılnan təmizde:rix′.*

**CIRNAT** (Ordubad) – ağacın qurumuş budaqları. – *Get cırnatdan yığ gəti, ocağa qoyax yansın.*

**CIRNAZ** (Gəncə) – həqiqəti sevməyən.

**CIRRAN** (Ağdərə, Tərtər) – 1. karusel. – *Cırran elə hərrənir ki, necə də:rman hərrənir həylə* (Ağdərə); 2. karuseldə icra olunan oyun adı. – *Cırranı cahıllar oynuyur;* – *Cırranda iki adam oynuyur* (Tərtər).

**CIRRI** (Qarakilsə) – yağlı (süd).

**CIRRIX** (Göyçay) – xırda ağaclı meşə.

**CIRSIZ** (Qarakilsə) – yağsız (süd).

**CIRT** (Şəki) – tamam, düz. – *Sel cırt ya:rı bölüfdi kəndi.*

**CIRTDAMAĞ** (Biləsuvar) – sağmaq. – *Qoyunnarı bəri sür, cırtdıyım.*

**CIRTDANBUĞA** (Daşkəsən) – çöl quşu adı. – *Cırtdanbuğa quşların hamısınnan balaja oley.*

**CIRTDATMAX** (Qazax) – b a x **cırtdamağ.** – *Qara keçiyi gəti, cırtdadax.*

**CIRTI** I (Bərdə) – içində qurdu ölmüş, tam sarınmamış barama. – *Bi:l cırtı az oldu.*

**CIRTI** II (Ağdaş, Kürdəmir, Ucar) – xörək adı. – *Cırtı yazza yaxşıdı* (Ucar).

**CIRVAQALI** (Çənbərək) – uşaqlı. – *Döşü cırvaqalı dağa həncəri gedim?*

**CIRVIT** (Gədəbəy) – əkin sahəsinin qırağı. – *Cırvıta nə:kifsiŋ, a Mahmut?*

**CITICCA** (Basarkeçər) – ardıc. – *Təhməz haravanın üsdünə cıtıçça quyubana.*

**CITQIN** (Oğuz) – qəlpə. – *Daşın cıtqınların bir tərəfə yığdım.*

**CIVIĞ** (Yardımlı) – sözsaxlamayan, ağzıboş. – *Qardaşı çox cıvığdu, ağzında söz saxlamey.*

**CIVRAX** (Çənbərək, Qazax, Şəmkir) – qıvraq. – *Arazalı çox cıvrağ adamdı* (Çənbərək); – *Söyünün oğlu elə cıvrax uşaxdı kın, gözdən qıl qırpır* (Şəmkir).

**CIVRIX** I (Meğri, Mingəçevir, Zaqatala) – b a x **cıbrıx** I. – *Qiyas dayim bir yüx′ cıvrıx caviz gətdi* (Meğri).

**CIVRIX** II (Başkeçid, Borçalı, Çənbərək, Gədəbəy, Qazax) – cəld. – *Cıvrığ adam yolu ye:in gedər* (Qazax); – *Löyman cıvrıx tərpəndi haravanıŋ dalıncan* (Çənbərək); – *O çox*

*cıvrığ uşaxdı, haryatan desəŋ gedər* (Gədəbəy); – *Hasan cıvrıx yeriyer* (Borçalı).

**CIVRIXLAMMAX** I (Gəncə) – cəldləşmək. – *Tənbəl adama cıvrıxlammax gərəhdi ki, iş görə bilsin.*

**CIVRIXLAMMAX** II (Gəncə) – çılpaq olmaq, soyunmaq. – *Cıvrıxlammasam, üzüf Kürün o tayına kecəmmərəm.*

**CIY: CIY VURMAX** (Qazax) – dimdiyi ilə yumurtanı deşib çıxmaq (cücəyə aiddir). – *Cücə cıy vuruf.*

**CIZ** (Balakən, Kürdəmir, Qazax) – 1. kiçik arx (Qazax); 2. şırım (Kürdəmir, Qax). – *On cız lobya, beş cız qarğıdalı əkmişəm* (Balakən); – *Habı cızdara tütün ekip men* (Qax).

**CIZADOLMA** (Çənbərək) – uşaq oyunu adı.

**CIZAGİRMƏ** (Goranboy, Şuşa, Yevlax) – *uşaq oyunu adı.* – *Cızagirmə də dirədöymə kimidi* (Goranboy); – *Cızagirmədə ya altı, ya səkkiz uşağ oynuyur* (Yevlax).

**CIZAXURD: CIZAXURD ULMAX** (Meğri) – iyrənmək.

**CIZAQURMA** (Hamamlı) – uşaq oyunu adı.

**CIZDIĞİÇİ** (Ağcabədi) – cızdaq ilə sümüklü ətdən hazırlanan xörək adı. – *Ə:, tələse:rsəŋ də:n, saŋa bir cızdığiçi pişirim, ye get.*

**CIZDIX ÇÖRƏK** (Tərtər) – cızdaq çörək.

**CIZƏ:RMƏ** (Basarkeçər) – b a x **cızagirmə.** – *Cızə:rmeyi qavaxlar oynardıx.*

**CIZILLADAN** (Cəlilabad) – uşaq oyuncağı.

**CIZ-KƏMƏR** (Şəmkir) – uşaq oyunu adı.

**CİBƏLƏX'** (Şahbuz, Şərur) – gödəkboylu. – *Atasını da görmüşəm, bir cibələyin biridi* (Şahbuz).

**CİBİCAR** (Oğuz) – uşaq oyunu adı.

**CİCƏ** (Cəlilabad, Lənkəran, Yardımlı) – nənə. – *Cicəmnən dayımgilə gedmişdim* (Yardımlı); – *Ay cicə, bırya gəl* (Cəlilabad).

**CİCİ** (Zərdab, Ordubad) – b a x **cicə.**

**CİCİ-BACİ** (Bakı) – b a x **ciji-bajı** I.

**CİCİL** (Oğuz, Şəki) – itburnu. – *Soyuxdəyməsi olana cicil xeyirdi* (Oğuz); – *Cicil öskürmiyə çox xeyirridi* (Şəki).

**CİCİLİ-CİCİLİ** (Göyçay) – xırda-xırda. – *O, cicili-cicili şeydi.*

**CİCMAY** (Qax) – cır alma. – *Həyətimizdə cicmay ağacı var.*

**CİDOY** (Ağdam, Daşkəsən, Gədəbəy, Goranboy) – atın belində yəhərin əmələ gətirdiyi yara. – *Atın beli cidoy oluf pütüncə* (Goranboy); – Çox *cidoy oluf atın beli, yəhərrəməy olmor* (Gədəbəy).

**CİƏNƏKİ** (Qax) – xeyirsiz.

**CİFDƏ** (Meğri) – boy-buxun. – *Bu qız uğlanın cifdəsin bəyəmmədi.*

**CİFLƏMMƏX'** (Çənbərək) – girmək. – *Sirəfilin uşağı savaxdannan öə ciflənif.*

**CİG** (Qax) – dağ ətəyində otlaq.

**CİGƏ** (Qax) – zirvə.

**CİGİDİ** (Salyan) – çil-çil.

**CİGNƏ: CİGNƏ VIRMƏG** (Cəlilabad) – qışqırmaq. – *Çoban o təpədən cignə vıreydi.*

**CİHLƏŞMƏX'** (Zəngilan) – mübahisə etmək. – *Az cihləşin, çıxın gedin işĩ:za, güjũ:za.*

**CİJİ** (Ağcabədi, Ağdam, Ağdaş, Bolnisi, Borçalı, Daşkəsən, Gədəbəy, Goranboy, Göyçay, Xanlar, İmişli, Karvansaray, Qazax, Mingəçevir, Şəmkir, Tərtər, Tovuz, Ucar, Yevlax) – ana. – *Ciji, bu il necə əməkgünü almısan?* (Ağdaş); – *Ay ciji, maŋa əppeg gəti* (Ağcabədi); – *Haryetsəm* <*hara getsəm*> *çijim yadımnan çıxme:r* (Qazax); – *Ay ciji, buryə:l* <*bura gəl*> (Daşkəsən); – *Mənim cijim məhdəfdə işde:r* (Borçalı); – *Cijim mənə bir bədəncə tikdi* (Ucar); – *Ay bala, get cijiŋi çağır* (Xanlar).

**CİJİ-BAJI** (Tərtər, Ucar) – rəfiqə. – *Söygülüynən Xanım ciji-bajıdı* (Tərtər); – *Mehribannan ciji-bajıdı Zəhra;* – *Ay ciji-bajım, mən nəvilim, olar hər gün bir-biri:nən sözdəşillər!* (Ucar).

**ÇİX'NƏ** (Meğri) – çığırtı. – *Gecənin bir vədəsi biz cix'niyə tökülüf gəldix'.*

**CİQRİĞ** (Dərbənd) – çarx (cəhrədə). – *Kirişə mum sürtəllər ki, ciqriğdən sürüşməsin.*

**CİL** I (Ağcabədi) – lil. – *Arxın içində cil olur.*

**CİL** II (Şərur) – əmici tellər. – *Cil onnan ötründü ki, ağaş yerdə yaşayış eləyir, onnan su alır.* – *Ağacın cili olsa qurumaz.* ◊ **Cil atmax** (Şərur) – kök, rişə atmaq.

**CİLƏDAR** (Yevlax) – xörək adı (yağda qovrulmuş soğan, göyərti və düyüdən hazırlanır). – *Cilədarı sarımsaq-qatıxnan yi:llər.*

**CİLƏX'-CİLƏX'** (Qazax) – b a x **cələf-cələf.** – *Çöllər dolu maldı çiləx'-çiləx'.*

**CİLXOR** (Basarkeçər) – biryaşar at. – *Atın balası bir yaşına addıyanda ona cilxor de:yix'.*

**CİLİF** I (Ordubad) – b a x **qilif** I.

**CİLİF** II (Basarkeçər, Hamamlı) – arabada təkərin oxdan çıxmaması üçün salınan dəmir paz. – *Gözdə, cilif tüşər, təkər çıxar* (Hamamlı).

**CİLİMBİR** (Mingəçevir) – çör-çöplü ot.

**CİLİTMƏX'** (Cəbrayıl, Zəngilan) – yolunu azmaq, yolundan çıxmaq.

**CİLİZ** (Bakı) – lap, tamam, tamamilə. – *Ciliz də pis dögüva:, gənə necə olsa adamın özininkidü.*

**CİLQƏ** (Quba, Xaçmaz) – cığır.

**CİLQİN** (Xaçmaz) – b a x **cilqə.**

**CİLQİR** (Xaçmaz) – b a x **cilqə.**

**CİLLİTMƏK** (Ağbaba) – b a x **lillətməx'.**

**CİLMƏX'** (Ağdam, Çənbərək) – oğurlamaq. – *Bir cüjəmizi cilif Nuru dünənnəri.*

**CİLOY** I (Xanlar) – ixtiyar. – *Sənə ciloy versələr, məni döyərsən.*

**CİLOY** II (Tovuz) – cüt öküz (qoşqu üçün). – *Öküzdər yoruluf, o haravıya bir ciloy verin.*

**CİLVİ** (Başkeçid) – qın.

**CİLVİTMƏX'** (Xanlar) – aradan çıxmaq.

**CİMBİLDƏTMƏX'** (Çənbərək) – oğurlamaq. – *Amanef dünən toğlu yekəlix'də bir xoruzumuzu cimbildəssin?!*

**CİMCİ** (Balakən) – səbət. – *Şə:rdən qonağımıza bir cimci gilas göndərdim.*

**CİMCİMEY** (Qax) – bataqlıq.

**CİMCİMƏ** (Oğuz) – narın <yağış>. – *Gür yağış döylü, cimcimə yağışdı.*

**CİMCİMƏLİ** (Borçalı, Gədəbəy, Gəncə, Hamamlı, Xanlar, Mingəçevir) – xırda naxışlı <parça>. – *Cimciməli parçadan yorğan əmələ:lir* (Gəncə); – *Qəprətivə cimciməli çit gəlif* (Gədəbəy); – *Bü:n bir cimciməli parça aldım* (Borçalı); – *Atam maŋa cimciməli çitdən don aldı* (Hamamlı).

**CİMİZ: CİMİZ OLMAĞ** (İmişli) – ciftləşmək (dəvəyə aiddir). – *Kəlbəz ayda dəvə cimiz olar, doğır bi ilə.*

**CİNCAR** (Balakən, Qax, Şəki, Zaqatala) – gicitkən. – *Anam bu gün cincar xingalı bişirəcək* (Balakən); – *Gəlin, cincar yığma: gedax* (Qax); – *Cincar daliynən yer qavar-qavar olur* (Şəki).

**CİNCİLİMPARÇ** (Şuşa) – gizlənpaç.

**CİNCİN** (Goranboy) – çöl quşu adı.

**CİNCİP** (Zaqatala) – sakit, dinməz. – *Bir söz dimir, cincip durur.*

**CİNƏ** (Qarakilsə) – balaca. – *Cinə balaca deməx'di dayna.*

**CİNGƏNƏ** (Qarakilsə) – əsəbi.

**CİNİX'MƏX'** (Tovuz) – cinlənmək, hirslənmək. – *Dədən cinix'if, öldürəjəx' səni.*

**CİNQOY** (Qazax, Gədəbəy, Hamamlı, Tovuz) – əsəbi. – *Sultan yaman cinqoydu* (Qazax); – *Cinqoy adamı diŋdirdiŋ, duramma:jaxsıŋ qavağında* (Gədəbəy); – *O, yaman cinqoy adamdı* (Hamamlı).

**CİRAT** (Şəki) – böyük arxdan ayrılan qol. – *Bizim cirata da su buraxdılar.*

**Cİ:RCİ:MƏ** (Zaqatala) – turşuma, qıcqırma.

**CİRƏ** (Cəbrayıl, Gədəbəy, Şamaxı) – qənaət. – *Dolanışıxda da cirə lazımdı adama* (Gədəbəy).

**CİRƏ-CİRƏ** (Ağdaş) – az-az, qənaətlə. – *O, çörəyi cirə-cirə yiyir.*

**CİRƏFƏ** (Şəki) – arıq. – *Töyfənin qızı cirəfə bi şeydi.*

**CİRƏK** (Qax) – payız şumu. – *Yamacdakı cirəyi qurtalın.*

**CİRĞALAMAĞ** (Quba) – atmaq. – *Dur buları cirğala bayıra gidsün.*

**CİRGƏ** (Dərbənd, Quba) – b a x **cilqə.** – *Bir cirgənə <cirğə ilə> keçiydim, siçovul məni qurxutdu* (Dərbənd).

**CİRİMCİRİM** (Gədəbəy) – uşaq oyunu adı. – *Ay uşaxlar, gəlin cirimcirim oynə:x.*

**CİRTDƏLƏN** (Zaqatala) – xırda doğranmış əriştə.

**CİSFİR** (Borçalı, Gədəbəy, Qazax) – b a x **cisvir.** – *Sənin də dəfdəriŋ bu cisfir səlqəlidi* (Gədəbəy); – *Bu kətdə hər cisfir meyvə var* (Borçalı).

**CİSVİR** (Borçalı, Qazax) – cür.

**CİV** (Yevlax) – iynə-sap qutusu. – *Civə qaçı, qo:rux, üysüy qo:rux.*

**CİVAR** (Şərur) – 1. söyüdəoxşar ağac adı; 2. söyüdəoxşar ağacın şivləri. – *Civardan səbət toxunar.*

**CİVƏLLƏK** (Gəncə) – cəld.

**CİVƏR** (Şərur) – nəcib.

**CİVİX'** (Cəbrayıl) – çox kiçik.

**CİVİR** I (Cəbrayıl, Cəlilabad, Sabirabad) – bax **civar.** – *Gedeyəm meşədən civir qırməyə* (Cəlilabad).

**CİVİR** II (Basarkeçər) – bax **civər.** – *O, çox civir uşaxdı.*

**CİVİRRİY** (Cəlilabad) – çoxlu *civir* (bax 1-ci məna) bitən yer. – *Bıra civirriydi.*

**CİVİRTDƏX′** (Qazax) – bax **civəllək.**

**CİVMƏĞ** (Lerik) – sürüşmək.

**CİYARÇƏX′MƏ** (Borçalı) – içalat.

**CİYƏCİ** (Masallı) – kisə. – *Ciyəsini unnan doldur.*

**CİYƏNQALA** (Şəki) – soxulcan. – *Ciyənqala yağşdı vax <vaxt> çox olur.*

**CİYƏV** (Şərur, Naxçıvan) – bax **giyəv.**

**CİYƏVAZ** (Kürdəmir, Sabirabad) – kəndirbaz. – *Qabağ toylarda ciyəvazdar oynardı* (Sabirabad).

**CİYİ** (Kürdəmir, Qax, Şəki, Ucar, Zaqatala, Zərdab) – bax **ciyi.** – *Ciyi çoq qocalıb* (Zərdab); – *Ciyi də dolma asıtdı* (Şəki).

**CİYİRTGAN** (Ağdam, Ucar) – gicitkən.

**CİYSİMƏX′** (Qazax) – azca iylənmək. – *Ət ciysiyif.*

**CO:** (Şəki) – alça və ya zoğaldan hazırlanmış tomat. – *Bildirdən qalan co: heylə durur dobunun divində;* – *Sizin co: çox turşdu.*

**COCAXAR: COCAXAR OLMAX** (Qazax) – biabır olmaq. – *El içində cocaxar oldum.*

**CO:CANAQİ** (Bakı) – yabanı bitki adı.

**CO:ĞA** (Daşkəsən, Əli Bayramlı, Gədəbəy, Goranboy, Göyçay, Xanlar, İmişli, Kürdəmir, Qazax, Mingəçevir, Oğuz, Şamaxı) – tayfa, nəsil. – *O co:ğaya qatış get* (Oğuz); – *Həsən Taparğullar co:ğasınnandı* (Daşkəsən); – *Hər co:ğadan bi adam çağırun bıra* (İmişli); – *Çox co:ğalar yaşe:y bu kətdə hindi də* (Gədəbəy); – *Şahverdilər tayfası bir co:ğadı;* – *Bir ata uşağınan əmələ:nə de:llər co:ğa* (Xanlar).

**COĞMALAMAX** (Şəki) – boğmaq. – *Bişix′ cücəni coğmaliyif yidi.*

**COJAXOR** (Ağdam) – davakar.

**COQAL** (Qax) – yun çıxdaşı.

**COQAY** (Qax) – dəni təmizlənmiş qarğıdalı qıçası.

**COLUX** (Ucar) – kal (meyvə). – *Colux heyvanı inəy yaxşı ye:ir.*

**COM** (Əli Bayramlı, İmişli, Kürdəmir, Salyan) – tayfa, nəsil. – *Bizim com kəndin bı tərəfindədi* (İmişli); – *Mən Topalhasannı comunnanam* (Kürdəmir).

**COMA** (Daşkəsən, Gədəbəy, Kəlbəcər, Tovuz) – çubuqdan hörülüb üstü keçə ilə örtülmüş alaçıq. – *Comoyu yaylaxda tikellər* (Daşkəsən); – *Gederix′ çuvuxlardan başbaşa qoyorux, üsdündə də qəlivi salerıx, muna coma de:rix′* (Tovuz).

**COMALAX** I (Gədəbəy) – topal. – *Onuŋ comalax barmaxlarımı xoşunə:ler?*

**COMALAX** II (Ağcabədi) – bir nəsildən olan adamların yaşadığı yer, ərazi. – *Bizim comalağın ağsaqqalı Qədir kişidi;* – *Bizim comalaxda ağsaqqal adamlar çoxdu.*

**COMALAMAĞ** (Yardımlı) – topalamaq. – *Odunnarı bir yerə comala.*

**COMLAŞMAX** (Kürdəmir) – toplaşmaq. – *Hamısı bir yerə comlaşıb.*

**COMUŞQIRAN** (Başkeçid, Borçalı, Qazax) – bax **camışqıran.** – *Comuşqıranda qartof səperix′* (Borçalı).

**CON** (Gədəbəy) – iflic. – *Bədənim elə bil condu.*

**CORALAŞMƏG** (Cəlilabad) – toplaşmaq. – *Adamlar coralaşdi bıra.*

**CORAVALTI** (Gədəbəy) – uşaq oyunu adı. – *Coravaltı belədi: On-oniki corafi cərgə düzüllər, bir adam əlini onun altdə:zdirir <altında gəzdirir>, əlində pul olur.*

**CORMALAŞMAX** (Çənbərək) – bax **coralaşməg.** – *Camahat cormalaşdı, dönən haravıyı qaldıdı.*

**CORTAN** (Borçalı, Goranboy, Naxçıvan, Ordubad, Şərur, Tovuz, Zəngilan) – süzülmüş ayran. – *Ayranı töküllər torbıya, süzülüb olur cortan* (Zəngilan); – *Cortannan qurut qayırıllar* (Ordubad).

**CORTDAN** (Culfa, Naxçıvan, Ordubad, Şərur) – bax **cortan.** – *Ayranı tök torbaya, qoy cortdan olsun* (Culfa).

**COŞDAMMAX** (Zəngilan) – qaynamaq. – *Simavar coşdaner, çaynığı yeyxala gəti dəmlə.*

**COYĞA** (Borçalı, Goranboy, Xanlar, Tərtər, Tovuz) – bax **co:ğa.** – *Hajəhmədxannı bir coyğadı, biz də ayrı coyğa* (Goranboy); – *Əhməd Məhəmməd kişinin coyğasınnandı*

(Borçalı); – *Burda coyğa çoxdu* (Tərtər); – *Bir nəslə bir coyğa de:llər* (Xanlar).

**COZ** I (Salyan) – omba sümüyü (heyvanda).

**COZ** II (Ağcabədi, Bərdə, Tərtər) – fırfıra. – *Coz ağaşdan olur* (Bərdə); – *Cozu məhlədə oynuyallar* (Tərtər).

**COZA** (Hamamlı) – yumru daş (uşaq oyununda). – *Mən cozoyu elə vurdum, on addım getdi.*

**COZSOZ: COZSOZ OYNAMAX** (Ağcabədi) – fırfıra ilə oynamaq. – *Uşaxlar cozsoz oynuyur.*

**CÖCƏK** (Göyçay) – aşığın çuxur üzü.

**CÖCƏQAN** (Bakı) – əqrəb. – *Dünənnəri bağda barmağımı cöcəqan sancdı.*

**CÖCÜ** (Bakı) – b a x **cacu.** – *Uşaxlar iki dənə cöcü tutublar lap yekə.*

**CÖƏCƏ** (Tovuz) – mis piyalə, mis kasa. – *O unnan iki cöəcə bu taxılnan dəyişərsiŋizmi?*

**CÖ:ĞA** (Daşkəsən, Gədəbəy, Xanlar) – b a x **co:ğa.** – *Bu sa:t çox cö:ğalar var: Alılar, Qazaxlı, Donqarrı, Topallı* (Daşkəsən); – *Bu kətdə çox cö:ğalar olur* (Gədəbəy).

**CÖH** (Oğuz) – qoyun südündən hazırlanan ağartı adı. – *Cöh yaxşı yiməli şeydi.*

**CÖHƏR** (Zəngilan) – mürəkkəb. – *Bı şüşüyə bir az cöhər tök.*

**CÖHƏRRİ** (Şəmkir) – güclü.

**CÖJ** (Ağcabədi, Tərtər) – b a x **cöz.**

**CÖJMƏX′** (Mingəçevir) – b a x **cejəx′.**

**CÖLƏMBƏR** (Meğri) – xortdan.

**CÖMÜŞÜX′: CÖMÜŞÜY OTURMAX** (Hamamlı) – çömbəlmək.

**CÖNGƏLƏ: CÖNGƏLƏ QALMAX** (Göyçay) – qıyılmaq (gözə aid).

**CÖNÜK** (Əli Bayramlı) – qovun növü.

**CÖY: CÖY OLMAX** (Borçalı) – qıc olmaq. – *Qıçım cöy oluf.*

**CÖYĞA** (Daşkəsən, Xanlar) – b a x **co:ğa.** – *Biz Oruşdu cöyğasıyıx* (Daşkəsən); – *Seyiddər tayfası bir cöyğadı* (Xanlar).

**CÖYİR-CÖYİR: CÖYİR-CÖYİR GEZMEG** (Bakı) – boş-boş gəzmək.

**CÖYÜZ** (Borçalı, Çənbərək, Daşkəsən, Gədəbəy, Gəncə, Goranboy, Qazax, Tovuz) – b a x **cəviz.** – *İsdəyirəm ki, gedəm bir az cöyüz yığam* (Qazax).

**CÖZ** (Bərdə, Borçalı) – bağırsaq.

**COZDALANMAĞ** (Yardımlı) – qaynamaq. – *Qəfədanı ocağa qoy cözdalansun.*

**CÖ:Z** (Bakı, Bərdə, Daşkəsən, Goranboy, Şəmkir, Tovuz) – b a x **cəviz.** – *Gətdiyim cö:zün çoxu çətənədi* (Daşkəsən); – *Mənim bir cö:z ağacım var* (Tovuz).

**CUANƏK** (Bakı) – dovşan balası.

**CUCAR** (Qarakilsə) – zəmini biçərkən sıraya düzülmüş adamların axırıncısı.

**CUCUQ** (Cənubi Azərbaycan) – b a x **cajıx.**

**CUDAM** (Başkeçid, Borçadı, Qazax) – ağılsız. – *Cudam adam düşünmədən danışar* (Borçalı).

**CULAŞA** (Şəmkir) – qohum. – *Uğuzdarnan Zeynallar bir-birinən culaşadı.*

**CULAZ** I (Şamaxı) – b a x **cılız** I. – *Rahman yaman culazzi.*

**CULAZ** II (Ucar) – yoxsul. – *Burda hindi culaz adam tapammassan.*

**CULAZ** III (Gədəbəy, Kürdəmir, Saatlı, Sabirabad, Şamaxı) – nimdaş. – *Kö:nə vaxdı paltarımız culazdı* (Kürdəmir).

**CUL: CULA SALMAX** (Başkeçid, Borçalı) – əlavə toxum səpmək. – *Bosdanım seyrəx′ pitif, gərəx′ cula salam* (Borçalı).

**CULFAÇI** (Şəki) – yun şal, şalvar, pencək və s. toxuyan. – *Qavaxlar kəntdə yunnan şal toxuyana diyərdilər culfaçı.*

**CULLAB** (Lənkəran) – suda isladılmış quru meyvə.

**CULOY** (Qazax) – b a x **ciloy** II. – *Öküzdəri culoya qoş, harava ağırdı, kallar aparammer.*

**CULU: CULU BARMAĞ** (Biləsuvar) – çeçələ barmaq. – *Ayağımın culu barmağı suluğlıyıbdı.*

**CULUMBAY** (Gədəbəy) – məskənsiz “adam”.

**CULUMPAY** (Qazax) – b a x **culumbay.** – *Yeri-yurdu bəlli olmayan adama culumpay de:rix′.*

**CULUZ′** (Quba) – b a x **cılız** I. – *Uşağ nüş belə culuz ulıb?*

**CULUZ** II (Cəlilabad, Əli Bayramlı, Göyçay) – b a x **culaz** III.

**CULVA** (Şəki) – iki əkin sahəsinin arasından keçən arx. – *Qajdən ayrıf culviyə su salırsan, apa:rsan yerin əyağına sulamağ üçün.*

**CUMAXATAN** (Bakı) – yorğan-döşək üçün divar şkafı. – *Dur yorğan-döşəgi yığ cumaxatana.*

**CUMBAZDAMAĞ** (Quba) – yeyin qaçmaq.

**CUMBU** (Ağdam) – çöl quşu adı.

**CUMBUL** I (Şəki) – qoma <meyvədə>. – *Bi cumbul ba:lını verdi maŋa.*

**CUMBUL** II (Şəki) – damcı. – *Gözünnən cumbul da yeş çıxmadı.*

**CUMBUL-CUMBUL** (Şəki) – damcı-damcı. – *Gözünnən yeş cumbul-cumbul axıf töküldü.*

**CUMBULLAMAX** (Şəki) – qoma-qoma qoparmaq. – *Uşaxlar budaxları cumbulladılar.*

**CUMBUT** (Xanlar) – düşüncə. – *Oğul, cumbutun varsa, yaxşı oxu.*

**CUMCULUĞ** (Cəlilabad) – tamamilə. – *Yağış tökib isladıb bizi, cumculuğ sudı.* ◊ **Cumculuğ olmax** (Cəbrayıl, Şahbuz) – tamamilə islanmaq. – *Yağışda o qədər qaldıx ki, cumculuğ oldux* (Cəbrayıl); – *Dünənnəri kövşənnən gələndə yağışda cumculuğ oldım* (Şahbuz).

**CUMXUR** (Ağdam, Bakı, Cəbrayıl) – 1. cəmi (Ağdam, Bakı); 2. birlikdə (Cəbrayıl). – *Hamısı cumxur işdiyirdilər* (Cəbrayıl).

**CUMLAX** (Qax) – uçurum.

**CUN** (Quba) – tikan.

**CUNUK** (Quba) – tənbəl. – *Qalxozumuzda heç cunuk adam yuxdu.*

**CUR** I (Ağcabədi, Ağdam, Kürdəmir) – çöl quşu adı. – *Cur yeməli quş degil* (Kürdəmir).

**CUR** II (Mingəçevir) – həşərat adı.

**CUR** III (Kürdəmir) – şərik. – *Bosdana İrəsulnan curuğ.*

□ **Curu çıxmax** (Kürdəmir) – halı pozulmaq. – *Qaranın curu çıxıb.*

**CURBAŞ** (Qax) – qıvrımsaç.

**CURCUMUŞ** (Kürdəmir) – hazırcavab. – *Curcumuş öyladın utanğacı olmaz.*

**CURCUR** I (Qəbələ) – şəlalə.

**CURCUR** II (Kəlbəcər) – çöl quşu adı. – *Curcur ağaşdarda yuvalıyır.*

**CURCUR** III (Qax) – duru.

**CURCURAMA** (Beyləqan) – duru. – *Mənim xörəyim curcurama oldu.*

**CURTDAMAX** (Şəki) – cəhd etmək. – *Ha curtdadı ki, məni də apar, aparmadux.*

**CURTDAŞMAX** (Zəngilan) – asta danışmaq. – *Gecə sə:rəcən curtdaşıflar, heş yatmıyıflar.*

**CURUR** (Gədəbəy) – b a x **curup.** – *O curufdan gətirə:ŋ, bir örüxʹ çəkə:ŋ məhliyə.*

**CURUX** (Kürdəmir) – xırda (meyvə). – *Almanın curuxlarını seç, bazarda pula getmir.*

**CURUMBUL** I (Oğuz) – gavalı növü adı. – *Curumbul yiməli döy.*

**CURUMBUL** II (Qax, Oğuz) – 1. paltarsız, lüt. – *Paltarı soyunub curumbul yatırsan* (Oğuz); 2. qabıqsız (qoz, fındıq).

□ **Curumbul olmağ** (Cəlilabad, Lənkəran) – çox islanmaq.

**CURUMBULLAMAX** (Oğuz) – qabıqdan çıxarmaq, ləpələmək (qozu, fındığı). – *Qozu curumbulla.*

**CURUMUD** (Qax) – büzüşmüş. – *Mən curumud armudu yimiyəm.*

**CURUP** (Gədəbəy) – daş növü adı. – *Bu qıraxdakı öylər curupnan tikilif.*

**CUVA** (Qax, Zaqatala) – ensiz uzun ağac və ya əski. – *Cuvaları saxla, lazım olar* (Zaqatala).

**CUYUX** (Gədəbəy, Qazax, Qubadlı) – sıyıq. – *Biz xörəyi cuyux pişirerəxʹ* (Gədəbəy).

**CÜBBƏRƏ** (Çənbərək) – qısaboylu. – *Sıvaxçı Qurvan cübbərə adamdı.*

**CÜCƏ** (Yevlax) – cücü.

**CÜCƏGÖZ** (Ucar) – xırdagöz. – *Bu öy cücəgöz Əhmədin öyüdü.*

**CÜCƏGÖZİ** (Cəlilabad) – b a x **cüjəgözü.** – *Bi cücəgözi köynəg aldım.*

**CÜCƏLƏMƏXʹ** (Tərtər) – cücə çıxarmaq. – *Tö:x cücəli:r.*

**CÜCƏNƏK** (Ağcabədi) – b a x **cürcənə.** – *Cücənə:i yağışda ge:rdilər.*

**CÜCÜXʹLÜ** (Oğuz) – ağac həncamalı (qapı). – *Cücüxʹlü qapı indi to:lalarda var.*

**CÜCÜK** (İmişli, Qax) – b a x **cüjüxʹ** II. *Qoyunu gərək otuŋ cücük vaxdı otarasan* (İmişli).

**CÜCÜLÜ** (Balakən) – sacda bişirilən çörək adı.

**CÜDMƏK** (Zaqatala) – ilmək, düyün.

**CÜƏ** (Şəki) – b a x **coğal.**

**CÜĞ** (Cəlilabad) – göbələyin gövdəsi.

**CÜHƏRRİ** (Qazax) – sağlam. – *Alı kişi cühərri adamdı.*

**CÜHÜR** (Ağdaş, Əli Bayramlı, Kürdəmir, Sabirabad, Salyan, Zərdab) – b a x **cü:r.** – *Cühürdə çoxlu ağac var* (Ağdaş); – *Gəmilər cühürə çəkilib* (Zərdab); – *Öli balığ cühürdə çıxar* (Salyan).

**CÜJƏGÖZÜ** (Ağcabədi) – parça adı. – *Qızım cüjəgözü çiti xoşduyur.*

**CÜJÜ** (Tovuz) – hanada ipləri tənzimləyən ağac. – *Cüjü xanado:lor.*

**CÜJÜX′** I (Goranboy) – yabanı bitki adı.

**CÜJÜX′** II (Ağdaş, Gəncə, Goranboy, Qazax) – körpə xiyar. – *Mə: böyüx′ soğan ver, cüjüyü issəmirəm* (Ağdaş); – *Bu xiyar laf cüjüx′dü* (Goranboy). – *Xiyarın cüjüyünü uşaxlar qoparıflar deyin, nənəm çığırır* (Gəncə).

**CÜJÜX′LƏMƏX′** (Goranboy) – tağda körpə, xırda xiyar əmələ gəlmək.

**CÜLBƏLƏMMƏX′** (Meğri) – özündən çıxmaq. – *Ə:, Qurban, nə cülbələnirsən?!*

**CÜLƏBƏDƏN** (Füzuli) – sinə. – *Onun cüləbədəni söznən doludu.*

**CÜLƏF** (Oğuz) – b a x **cələb.** – *Burda cüləf adam yoxdu.*

**CÜLGƏ** (Cəbrayıl, Xanlar) – b a x **cülyə.** – *Mal-qara cülgədən su içer* (Xanlar); – *Çovan əlini cülgədə yudu* (Cəbrayıl).

**CÜLMƏQAYĞI** (Ağcabədi, Bərdə, Tərtər) – qayğıkeş. – *Cülməqayğı arvadına deyir ki, xörəx′ pişir yeəx′, sıfrada xörək′ ha:zır olan vaxdı bir nəfər gəlir, cülməqayğıya deyir ki, qonşunun ulağı doğufdu, nə quyruğu var, nə də qulağı. Burda cülməqayğı əlin çörəx′dən çəkir deyir: "Bə bu qodux bö:üyəndə palçığa batsa, onu neyə çıxartmağ olar; onun ku quyruğuynan qulağı yoxdu, yiəsi onun harasınnan tuta bilər?"* (Ağcabədi).

**CÜLÜMBÜR** I (Bakı) – pinti.

**CÜLÜMBÜR** II (Çənbərək, Goranboy, Qarakilsə) – b a x **curumbul** II. – *İndi bu kətdə bir cülümbür adam tapbağ olmaz* (Gədəbəy).

**CÜLVƏLƏMMAX** (Şəki) – böyümək, boya-başa çatmaq. – *Mən cülvələnnən so:ra kəl almışux, kəl qoşmışux.*

**CÜLYƏ** (Borçalı, Çənbərək, Gədəbəy, Qazax, Şəmkir, Tovuz) – 1. gölməçə. – *Mal-qara cülyədən su içər* (Gədəbəy); – *Cülyədə su duror, yağışdan sonra mal-qara ordan su içer* (Tovuz); – *Yayda Ceyran çölündəki cülyələrdə su çox olur* (Şəmkir); 2. quyu. – *Mənim bir cülyəm var səkkiz-on arşın, bir suyu var kın bumbuz* (Qazax).

**CÜMBƏCÜŞ** (Lənkəran) – nadinc. – *Bu cümbəcüş beş gün bizdə qalsa, bizi incidər.*

**CÜMBÜT** (Gədəbəy) – cəsarət. – *Çovanın cümbütü varıydı.*

**CÜMCÜMƏ** (Oğuz) – hiylə. – *Bunun işi tamam cümcümədi.*

**CÜMCÜRÜX′** (Meğri) – b a x **cumculuğ.**

**CÜMEDƏ** (Bakı) – bic.

**CÜMLƏQAYĞI** (Bərdə) – b a x **cülməqayğı.**

**CÜMRÜ** (Çənbərək) – təkcə. – *Çovan cümrü getdi.*

**CÜMSAZ** (Ağdam, Cəbrayıl, Füzuli, Zəngilan) – baramaqurdunun ikinci yuxusu. – *Baramaqurdunun ikinci yuxusuna cümsaz deyirix′* (Ağdam); – *Cümsazdan durannan so:ra qurdu yaydıx* (Zəngilan); – *Qurdumuz düz iki günə cümsazı yatıp durdu* (Cəbrayıl).

**CÜMŞAZ** (Bərdə, Kürdəmir) – b a x **cümsaz.** – *Baramaqurdunun ikinci yuxusuna cümşaz di:rix′* (Bərdə).

**CÜNCÜLÜ: CÜNCÜLÜ BARMAĞ** (Ordubad) – çeçələ barmaq. – *Cüncülü barmağım ağrıyır.*

**CÜNCÜLÜT** (Bakı) – yeməli yabanı ot adı.

**CÜNG** (Biləsuvar, Masallı) – künc. – *Öyün cüngündə nə oturmusan?* (Masallı).

**CÜ:R** (İmişli, Salyan) – çayın alçaq çökək sahili. – *Cü:rdə bi turac var* (İmişli); – *Öyimiz cü:rə yoxundu* (Salyan).

**CÜRCƏLƏMƏK** (Qax, Zaqatala) – qovurmaq. – *Habı qarğıdəlini horda cürcələ.*

**CÜRCƏLƏMMƏK** (Qax) – qurcalanmaq, narahat yatmaq. – *Men səbəhin üzünə qədər cürcələndim.*

**CÜRCƏNƏ** (Cəbrayıl, İmişli) – yundan toxunmuş yapıncıya oxşar kişi geyimi. – *Çobannarın cürcənələri olardı* (İmişli); – *Cobannarı yağışdan, qardan saxlıyan elə cürcənədi dana* (Cəbrayıl).

**CÜRCƏNƏK** (Biləsuvar, Kürdəmir, Şamaxı) – b a x **cürcənə.** – *Qabaqqı çovannar üsdünə cürcənək salırdı* (*Biləsuvar*).

**CÜRCÜMAY** (Qax) – az qurumuş “meyvə”.

**CÜRCÜNƏX′** (Şahbuz) – b a x **cürcənə.** – *Cürcünəx′ çobanın çiyninə saldığı keçəyə deyillər.*

**CÜRƏ** (Ağdam, Basarkeçər, Qazax, Şəmkir, Zaqatala) – kiçik saz. – *Zərniyar xanımın sədəfli, qızıl suyuna çəkilmiş bir cürəsi vardı* (Ağdam); – *Cürəni təzə öyrənən çalar* (Basarkeçər); – *Cürə yaxşı danışır* (Zaqatala); – *Saz çalmağı əvvəl cürədə öyrənsən yaxşıdı* (Şəmkir).

**CÜRƏ-CÜRƏ** (Kəlbəcər) – cürbəcür. – *Nəvlim <nə bilim>, cürə-cürə kətdər.*

**CÜRƏFƏ** (Kürdəmir) – b a x **cirəfə.**

**CÜRƏFLİ** (Gəncə) – uzunboylu. – *Mən cürəfli adam görmüşəm, ta: bu yekəlikdə yox′.*

**CÜRƏLƏŞMƏĞ** (Yardımlı) – savaşmaq.

**CÜRƏMİRƏTDƏK** (Yevlax) – bic.

**CÜRƏPƏ** I (Karvansaray) – b a x **cirəfə.** – *Səfər kişi çox cürəpə adamdı.*

**CÜRƏPƏ** II (Laçın, Ucar) – çölördəyi. – *Cürəpə göldə üzür* (Laçın); – *Cürəpə ördəkdən yarım qədər kiçikdi* (Ucar).

**CÜRİMBİL: CÜRİMBİL OLMƏY** (Cəlilabad). – b a x **curumbul olmağ.** – *Yağış çox yağdı, cürimbil olmişəm.*

**CÜRTÜX′** (Qazax) – qısaboylu.

**CÜRÜH** (Naxçıvan) – xırda (meyvə).

**CÜRÜM** I (Çənbərək) – b a x **cırım.** – *Buddan bir cürüm kəsdim.*

**CÜRÜM** II (Yardımlı) – əzab-əziyyət. – *Əlinin cürümü sənin üsdündədi.*

**CÜRÜNBÜL: CÜRÜNBÜL OLMAĞ** (Yardımlı) – islanmaq. – *Yağış yağıb, usdim cürünbül olub.*

**CÜ:RÜMLƏMƏK** (Ucar) – bükmək. – *Yağlı yuxaları cü:rümlüyürük, içinə qohut qoyurux, təndirdə pişiririk, olur şorkökə.*

**CÜŞÜLƏ** (Meğri) – mədə. – *Suzumnan cüşüləm od tutup yanır.*

**CÜT: CÜT YƏTİRMƏX′** (Qazax) – ekiz doğmaq. – *Hasanın inəyi cüt yətirif.*

**CÜRTDƏMAĞ** (Xaçmax, Quba) – itiləmək (mişarı).

**CÜTDƏMƏX′** (Gəncə) – şumlamaq. – *Gedirəm yeri cütdəməyə.*

**CÜTƏLBƏT** (Bərdə) – uşaq oyunu adı.

**CÜTQABAĞI** (Bakı) – b a x **çütqabağı.**

**CÜTQOV** (Ordubad) – bir yerdə olan dörd ulduzun adı. – *Dörd ulduz bir yerdə olur ki, biz ona cütqov deyirıx.*

**CÜTQULAX** (Bərdə) – ikiyarpaqlı olan vaxt pambıq koluna verilən ad.

**CÜVƏ** (Kürdəmir) – xəbərçi. – *Bırda cüvə adam gözüvə dəyməz.*

**CÜVƏLİK** (Kürdəmir) – xəbərçilik.

**CÜVƏR: CÜVƏR ELƏMƏG** (Xaçmaz) – təmizləmək (arxı).

**CÜY** (Oğuz) – qərzəksiz. – *Burda cıbrıx fındığ işdənir, Qumlaxda cüy di:llər.*

**CÜYÜR** (Naxçıvan, Sabirabad, Şərur) – b a x **civar.** – *Cüyür söyüdə oxşar ağacdı, onnan səbəb toxuyullar* (Naxçıvan).

# Çç

**ÇABAR** (Füzuli, Kürdəmir) – nişan, işarə.

**ÇABARLAMAX** (Füzuli, Kürdəmir) – nişan qoymaq, nişan vurmaq. – *Zahra yemişi üsdən çabarrardı, irəngi saralardı, qızarardı* (Füzuli).

**ÇAÇCAX** (Şəki) – b a x **çaxçax.** – *Usta büyün çaçcağı qəyirdi.*

**ÇAÇIMAX** (Gədəbəy) – çeçəmək. – *Çaçımax məni tutuf.*

**ÇADI** (Balakən) – ayıdöşəyi.

**ÇAFCALAMAX** (Çənbərək) – çalışmaq, əlləşmək. – *Qızyetər gənə çafcalıyır kın, tütünü tez əhsin.*

**ÇAĞ** I (İsmayıllı) – əzik (meyvə). – *Çağ almaları bana çıxarmo:n.*

**ÇAĞ** II (Xanlar) – barmaqdakı buğumların arası. – *Üyün arası çağ addaney.*

**ÇAĞA** (Ağdaş, Basarkeçər, İsmayıllı, Şəki) – uşaq. – *Ay çağa, dur bir az odun doğra* (Ağdaş); – *Sona hələ çağadı, ərə gedən vaxdı döyül* (Basarkeçər).

**ÇAĞALA** (Ağdam, Borçalı, Çənbərək, Qazax, Ordubad, İrəvan, Zəngibasar, Zəngilan) – b a x **çaqqala.** – *O çağalanı niyə ye:rsən* (Qazax); – *Çağala zərəlli şeydi, qızdırma kimi şeylər əmələ:ler onnan* (Borçalı); – *Ərix′ nə qədər ki, yetişməyib, una çağala deyərıx* (Ordubad); – *Almanın çağalası ajı dadıyır* (Çənbərək).

**ÇAĞALAX** (Ağcabədi) – çəyirdək.

**ÇAĞALAXLAMAX** (Ağcabədi) – çəyirdəkləmək. – *Alça bir azdan sonra çağalaxlıyajax.*

**ÇAĞALAMAX** (Ağdam) – ağacda xırda meyvələr əmələ gəlmək. – *Meyvəyə balaca vaxdı de:rix′ çağalıyıf.*

**ÇAĞANA** (Balakən, Zaqatala) – musiqi aləti.

**ÇAĞIRIÇÇI** (Qazax, Tərtər) – 1. kuryer. – *Belə də göndərellər onu kin, get filankəsi çağer, ona çağırıççı deyəllər* (Qazax); 2. toya adam çağıran.

**ÇAĞIRIĞ** (Salyan) – toy və ya yas günü. – *Qoyunnar çağırığ güni kəsilərdi.*

**ÇAĞIRMAĞ** (Yardımlı) – (mahnı) oxumaq. – *İş tökülüb qalıb, sən mahnı çağıreysən.*

**ÇAĞIRMAX** I (Şəmkir) – demək, söyləmək. – *Keşmiş sözdü, heş çağırmamışam.*

**ÇAĞIRMAX** II (Dərbənd, Qax, Şəki, Zaqatala) – banlamaq. – *Xoruz çağırıy* (Şəki); – *Xuruz çağırdı* (Dərbənd).

**ÇAĞLAMAX** (Culfa) – pambığın alağını vurmaq.

**ÇAĞLI** (Salyan) – qədər. – *Əgər durub yığson, bağda iki yeşik çağlı üzüm var.*

**ÇAXÇAX** (Balakən, Gədəbəy, Kürdəmir, Qazax, Qax, Zaqatala) – 1. yerə basdırılmış dirəklərə köndələn ağaclar vurmaqla düzəldilən hasar (Zaqatala, Balakən, Kürdəmir); – *Çaxçaxı hündür eləsən mal aşmaz onu* (Kürdəmir); – *Evin ətrafına çaxçax vurdurmuşam* (Balakən); – *Qara at qaşdı getdi, çaxçaxdan aşdı getdi* (Zaqatala); 2. həyətin və ya bağçanın girəcəyində düzəldilən qapı (Borçalı, Kürdəmir, Tovuz, Zaqatala); – *Ay qız, çaxçaxı bağla, bağa heyvan girər* (Tovuz); – *Çaxçax xalxalın qapısıdı* (Borçalı); – *Heyvanı qəhələ sal, çaxçaxı ört* (Kürdəmir).

**ÇAXÇAVER** (Borçalı) – çoxdanışan. – *Çoxdanışan adama çaxçaver de:llər.*

**ÇAXÇİLLƏMƏX′** (Çənbərək) – sahmana salmaq, hazırlamaq. – *Mahmıt pə:ni çaxçillədi hamıdan qavax.*

**ÇAXÇUR** (Bakı, İsmayıllı, Şamaxı) – b a x **carcur** I. – *Uzaq yerə gedəndə arvatdar çaxçur giyillər* (Bakı); – *Palçıxdı, çaxçurumu gəti giyim* (Şamaxı).

**ÇAXFƏRƏNG** (Lənkəran) – çərpələng. – *Uşaxlar bayram güni çoxli çaxfərəng buraxmışdılar.*

**ÇAXMA** (Quba) – armud növü. – *Dünən üç girvənkə çaxma aldım.*

**ÇAXMAX** (Kəlbəcər) – qapaq. – *Damın bajasına taxtadan çaxmax salırıx.*

**ÇAXMIR** I (Meğri) – çox göy (gözə aiddir). – *Qırışmalın gözləri niyə belə bəs çaxmırdı ?*

**ÇAXMIR** II (Meğri) – iri qaratikan. – *Gedey, çuxlu çaxmır yığey gətirey.*

**ÇAXNAX** (Göyçay, Ucar) – gölməçə.

**ÇAXNAXÇI** (Gəncə, Xanlar) – aravuran, araqarışdıran. – *Adamların arasın vırana de:rix′ çaxnaxçı* (Xanlar).

**ÇAXRAX** (Gədəbəy, Gəncə, Xanlar) – daşlı-kəsəkli, qeyri-məhsuldar yer. – *Çinarın kökü çaxraxdadı* (Gəncə); – *Çaxraxdan yaxşı qartof çıxmer* (Gədəbəy).

**ÇAXRAXÇI** (Qazax) – xəbərçi, araqarışdıran. – *Mənnən çaxraçı adam olmaz.*

**ÇAXU** (Balakən) – doğar qoyun. – *İskəndərin beş baş çaxusu var.*

**ÇAK: ÇAK İLƏMAĞ** (Dərbənd) – əzmək, xarab etmək. – *Hayvanı çak iləyib gətimisən.*

**ÇAKU** (Zaqatala) – qoç. – *Çox döyül ki, beş çakum var.*

**ÇAQQAL** (Qəbələ, Oğuz) – kiçik qotman. ◊ **Çaqqala vurmax** – qotmanlamaq, qotman halında yığmaq. – *Nəsir çaldığı otu çaqqala vurdu.*

**ÇAQQALA** (Culfa, Qarakilsə, Naxçıvan, Ordubad, Şərur, Zəngilan) – kal, yetişməmiş (meyvə). – *Ərix' hələ çaqqaladı, dəymi:f* (Zəngilan); – *Əriyi çaqqala yemə, qızdırarsan* (Naxçıvan).

**ÇAQQALARMIDI** (Ağdaş) – cır armud. – *Çaqqalarmıdı çox qalan armıddı.*

**ÇAQQALBAŞI** (Ağcabədi) – çubuqları bir neçə dəfə kəsilmiş hər hansı bir ağacın topuzlaşmış baş hissəsi. – *Çaqqalbaşını ojaxda, puşda yandırırıx.*

**ÇAQQALÇARIĞI** (Xanlar) – uşaqların çeyil (b a x II) otundan barmaqları arasına keçirib toxuduqları kiçik oyuncaq, çarıq. – *Danabuzovu buraxıf çaqqalçarığı örörsüŋüz.*

**ÇAQQALSÜRÜTMƏSİ** (İmişli) – uşaq oyunu adı. – *Oxərtə çaqqalsürütməsi oyneyib, əyağa dura bilmir.*

**ÇAQQANA** (Cəbrayıl) – pambıq qərzəyi. – *Uşaxlar pambux yığanda çoxun çaqqanada qoyur.*

**ÇAQQANAĞ** I (Kürdəmir, Salyan) – b a x **çaqqana.** – *Çaqqanağları təndirə at, çörək yapacam* (Kürdəmir).

**ÇAQQANAĞ** II (Salyan) – balıqqulağı.

**ÇAQQI** I (Meğri, Ordubad) – cib bıçağı. – *Çaqqı polatdan olar* (Ordubad); – *Şəhərdən mã: bir çaqqı alarsan* (Meğri).

**ÇAQQI** II (Cəbrayıl) – soyuq. – *Sizin əvĩ:z çaqqıdı kı.*

**ÇAQQI** III (Zəngibasar) – gödək ağac. – *O çaqqını ma: vernən.*

**ÇAQQILDAX** (Qazax) – qoyunların yununa yapışıb qurumuş qığ. ◊ **Çaqqıldax bağlamax** – qoyunların yununa qığ yapışıb qurumaq. – *Qoyunnarın quyruğu çox çaqqıldax bağlıyıf, təmizdəməy lazımdı.*

**ÇAQQIŞMAX** (Cəlilabad) – yumurta döyüşdürmək. – *Yumırtda qoymırduğ, dəyişirdüy, çaqqışırduğ.*

**ÇAQQIŞMAĞ** (Salyan) – yola getməmək. – *Müdür düz bir aydı mənnən çaqqışır.*

**ÇAQQU** (Dərbənd) – 1. b a x **çaqqı** I. – *Çaqqu balaca ulutdu;* 2. qatlanmayan bıçaq. – *Bir çaqqum var, heç kəsmiyədi.*

**ÇAL** (Xanlar, Qax, Qazax) – dağ döşü, yamac. – *O dağın bəri döşünə çal de:rix'* (Xanlar); – *Büyün Əjdər qoyunu oxarıdakı çalda otarerdı* (Qazax).

**ÇALA** I (Kürdəmir, Şəki) – lək, çəltik ləki. – *Çalaları süynən dolduruf üsdünnən çəltiyi saçıylər;* – *Çalaları donquz dağıtdı* (Şəki); – *Bı çala suvarılmamış qalıp* (Kürdəmir).

**ÇALA** II (Basarkeçər) – biçənək. – *Qoyunu çalıya ötümə.*

**ÇALA** III (Qazax) – tarla düşərgəsi.

**ÇALA** IV (Bakı, Yardımlı, Saatlı, Zəngibasar) – dərə.

**ÇALA** V (Əli Bayramlı) – yer, sahə. – *Bərzəbil çalası çox münbitdi.*

**ÇALA** VI (Ordubad) – təndir.

**ÇALA** VII (Zəngibasar) – doğuşdan əvvəl heyvanın ifraz etdiyi selik.

**ÇALAĞANÇARDAĞI** (Zəngilan) – uşaq oyunu adı. – *Gəlin çalağançardağı oynuyax.*

**ÇALASƏR** (Naxçıvan, Ordubad) – mətbəxdə su saxlamaq üçün quyuya oxşar yer. – *Çalasərin suyuni təzələ* (Ordubad).

**ÇALASI** I (Ağcabədi, Ağdam, Borçalı, Böyük Qarakilsə, Çənbərək, Daşkəsən, Füzuli, Gədəbəy, Goranboy, Xanlar, Kəlbəcər, Qax, Qarakilsə, Qazax, Tovuz, Salyan, Şərur, Zaqatala, Zəngibasar) – qatıq mayası. – *Çalasıyı südə vurollar kın, süd üyüşsün qatığ olsun* (Daşkəsən); – *İsdeysiŋ ora yüz qazan süd qoy, çalası töx'məsəŋ düynədə üyüşməz* (Xanlar); – *Çalası gəti, südü çalax* (Qazax); – *Çalasıynan çalellar qatığı* (Gədəbəy).

**ÇALASI** II (Ağcabədi, Bərdə, Borçalı, Çənbərək, Daşkəsən, Gədəbəy, Gəncə, Sal-

yan, Şərur, Goranboy) – aravuran, araqarışdıran. – *Güllər çalası arvaddı* (Daşkəsən); – *Əli kimi çalası görməmişəm* (Gəncə); – *Əbdüləli çox çalası adamdı* (Borçalı); – *Məsi çalasının biridi* (Çənbərək).

**ÇALATI** (Şəki) – b a x **çalası** I. – *Fatmiyə dinə bi dıqıdı çalatı versin.*

**ÇALAY** (Ordubad) – azacıq böyümüş, yetişməmiş yemiş.

**ÇALCAR** (Şərur) – vəl.

**ÇALÇAMIR** (Gədəbəy) – palçıq. – *Pu sa:t dağe:tməyin ləzəti yoxdu, çalçamırdı yer-yurt.*

**ÇALÇIDAR** (Gədəbəy) – dolaşıq, qarışıq. – *Onda yaman çalçıdardı işdər.*

**ÇALDIRMAX** (Gədəbəy) – üyütdürmək. – *Gediŋnən bir az dən çaldırıŋnan.*

**ÇALƏ** (Lerik) – maya.

**ÇALGEÇİR** (Meğri) – xəbərçi, sözgəzdirən. – *Xanlar çux çalgeçir adamdı.*

**ÇALĞI** I (Balakən, Basarkeçər, Cəbrayıl, Gədəbəy, Yardımlı, Goranboy, İmişli, Qazax, Oğuz, Şəki, Şuşa, Tovuz, Ucar) – b a x **çalqi.** – *Ağacın o putaxlarınnan çalğı qayrerax* (Gədəbəy); – *A qızım, çalğını geti, eşiyi süpürax* (Şəki); – *Bala, çalğıyı götü, malların altın süpür* (Basarkeçər); – *Ə:, o çalğını gəti mə:, tavlanı süpürüm* (Cəbrayıl).

**ÇALĞI** II (Balakən, Sabirabad, Şəki, Zaqatala) – b a x **çalqu** II. – *Çalğıynan biçirıx otu, so:ra qotmana yığırıx* (Şəki); – *Otu çalğıynan çalıllar* (Balakən).

**ÇALĞILAMAX** (Cəbrayıl, Gədəbəy, Şəki, Şuşa) – çalğı ilə süpürmək, təmizləmək. – *Eşiyi çalğılıyıf palazı salıf otu:rux* (Şəki); – *Tez oluŋnan buraları çalğılaŋnan, a Namaz* (Gədəbəy); – *Buranı bir yaxşı-yaxşı çalğıla* (Şuşa).

**ÇALĞI** (Göyçay, Kürdəmir) – b a x **çalqi.**

**ÇALĞU** I (Cəbrayıl, Zəngilan) – b a x **çalqi.** – *Çalğunu gəti, bıraları çal, təmizdə* (Zəngilan); – *Təbriz qarı çalğuynan süpürdü* (Cəbrayıl).

**ÇALĞU** II (Dərbənd) – b a x **çalqu** II. – *Çalğumuz küt ulanda məhtəl qalarüğ.*

**ÇALXAÇI** (Bərdə, Gəncə, Xanlar) – xəbərçi, araqarışdıran. – *Çalxaçı adamnan mə:m zəhləm gedir* (Gəncə).

**ÇALXAMA** (Böyük Qarakilsə, Xanlar) – ovduq.

**ÇALXAR** (Laçın, Meğri, Naxçıvan) – tuluq. – *Çalxarı təmiz saxla* (Laçın); – *Yəxşi çalxar dübir dəisinnən, dana dərisinnən uley* (Meğri).

**ÇALXOR** (Qubadlı) – b a x **çalxar.** – *Keçi dərisinnən yaxşı çalxor olur.*

**ÇALXOY** (Çənbərək, Daşkəsən, Goranboy, Qazax, Tovuz) – böyük, gen. – *Ayaxqabı ayağıma çalxoy olur* (Goranboy); – *Çəx'mə bö:x'dü, əyağıma çalxoy olor* (Qazax).

**ÇALI** I (Dərbənd, Quba) – iri səbət. – *Atam arabamızçün bir taza çalı aldu* (Quba); – *Həsən samanı çalıyə duldurdu* (Dərbənd).

**ÇALI** II (Dərbənd) – yayda mal-qara saxlamaq üçün çəpərlənmiş yer. – *Bu gün çubuğa kitmişdim çalı qayırmağa.*

**ÇA:LI** (Mingəçevir, Dərbənd, Oğuz) – 1. ərzində, müddətində. – *Mən honu un ay ça:lı gözlədim, bir xəbər çıxmadı* (Dərbənd); 2. qədər. – *Burdan Göyçaya Nuxa ça:lı olar* (Oğuz).

**ÇALICI** (Zaqatala) – çalğıçı. – *Yaman çalıcı adamdı.*

**ÇALIĞ** (Salyan) – narahat. – *Famil çalığ yatandı.*

**ÇALIĞLAMAĞ** (İmişli) – çapalamaq, əl-ayağını oynatmaq. – *Uşağı açıblar bələgdən, çalığleyır.*

**ÇALIX** (Bərdə) – otu biçilməmiş yer, kiçik sahə. – *Ordan ma: bir çalıx saxla.*

**ÇALIXLAMAX** (Cəbrayıl, Yardımlı, Zəngilan) – çapalamaq. – *Çalıxladı-çalıxladı, keçindi* (Zəngilan).

**ÇALINMAĞ** (Çənbərək) – görünmək. – *Qaçağ Əhmət sırahaynnarı qapıya çalındı qayıtdı.*

**ÇALITĞAMAĞ** I (Salyan) – o tərəf-bu tərəfə çevrilmək, narahat yatmaq. – *Uşax sə:rəcən çalıtğıyıb.*

**ÇALITĞAMAĞ** II (Salyan) – çalışmaq, cəhd etmək. – *Nağədə çalıtğıyıram, əlim gətimir.*

**ÇALKEÇİR** (Kürdəmir, Mingəçevir) – məhəccər. – *Qoyma, heyvan çalkeçirə sürtünüp qırar* (Kürdəmir).

**ÇALKEÇİRT** (Şahbuz) – qarmaq. – *Çalkeçirt dəmirdən olur.*

**ÇALQAX** (Culfa, Şərur) – arıq (heyvan).

**ÇALQARIŞIX** (Şəmkir) – birlikdə. – *Sən də indi biznən gessəŋ, sava: orya çalqarışıx çatajaxsaŋ.*

**ÇALQAT** (Cəbrayıl, Xanlar) – qarışıq rəngli. – *Qoyunumuz çalqat quzu doğub;* – *Çalqatdı, ağı da var, qarası da* (Cəbrayıl).

**ÇALQI** (Cəbrayıl, Culfa, Meğri, Zəngibasar) – b a x **çalqi.** – *Çalqımızı götügünən tövləni süpür* (Meğri); – *Bi sa:tda on çalqı bağlamışam* (Culfa).

**ÇALQİ** (Şamaxı) – nar, heyva və s. çubuqlarından düzəldilən böyük süpürgə. – *Tö:lədən çalqi yox olub.*

**ÇALQU** I (Qarakilsə, Şahbuz, Şərur, Zəngilan) – 1. b a x **çalqi.** – *Çalquyu götü, həyəti süpür* (Zəngilan); 2. böyük süpürgə düzəltmək üçün istifadə edilən nar, heyva və s. çubuqları. – *Bu gün çalqu qırmağa gedəcəm* (Şahbuz); – *Qırdığım çalquları artdıyıf çalqu bağlıyacam* (Zəngilan).

**ÇALQU** II (Dərbənd) – dəryaz. – *Çalquynan ot çaldım.*

**ÇALQUDUZ** (Oğuz) – araqarışdıran, aravuran. – *Bu nə çalquduz adamdı, dünyanı qarışdırır.*

**ÇALLAR** (Xanlar) – dağın kol-kosu olan aşağı hissəsi. – *Yazbaşı çallarda tuvulğular yaxşı göyərir.*

**ÇALMA** I (Füzuli, Kəlbəcər) – suqabı. – *Çalmeynan su içirix′;* – *Çalmeynan tayqulp bir şeydi* (Kəlbəcər).

**ÇALMA** II (Ağdam, Xocalı) – dəryaz. – *Otu çalmeynan çalırıx* (Ağdam).

**ÇALMA** III (Qazax) – xəşil. – *Çalma çalın, yə:x′.*

**ÇALMA** IV (Ağdaş) – nar, heyva və s. çubuqlarından düzəldilən böyük süpürgə.

**ÇALMA** V (Ağdaş, Füzuli, Gədəbəy, Goranboy, Qazax, Quba, Ordubad, Şəki) – baş yaylığı. – *Keşmişdə arvatdar çalma bağliyərdi başına* (Şəki); – *Çalmeynan yaman arası sazdı nənəmin* (Gədəbəy).

**ÇALMAX** I (Basarkeçər, Cəbrayıl, Göyçay, Mingəçevir, Şəki, Zəngilan) – süpürmək. – *Çalğunu götü həyəti çal* (Zəngilan); – *Diyirəm tuğu götür, bir o yən-bu yəni çal* (Şəki).

**ÇALMAX** II (Cəbrayıl, İsmayıllı) – oğurlamaq, xəlvəti götürmək. – *Əli pıça:mı nətə:r çaldısa, xabarım olmadı* (Cəbrayıl).

**ÇALMAX** III (Ağdam, Böyük Qarakilsə, Cəbrayıl, Salyan, Gədəbəy) – mayalamaq (südü). – *Qaynar çalma:ŋ südü, turş olor onda qatıx* (Gədəbəy); – *A:z, o südü çal, uşaxlar sə:r qatığ isdiyəjəx′lər* (Ağdam).

**ÇALMAX** IV (Cəbrayıl, Çənbərək) – döymək, vurmaq. – *Əhmət oğlun yaman çaldı büyünnəri* (Çənbərək).

**ÇALMAX** V (Salyan) – oxşamaq, bənzəmək. – *Parça satırdılar, rəngi biyaz <bir az> qırmızıya çalırdı.*

**ÇALMAX** VI (Salyan) – eşitmək, xəbər tutmaq. – *Qulağım çalıb, diyəsən uşağlar balığ tutmağa gediflər.*

**ÇALMALAMAX** (Quba) – çalma ilə bağlamaq, örtmək. – *Arvad, başuvi çalmala.*

**ÇALO:UŞ** (Tərtər) – çalov.

**ÇALPA** (Gədəbəy) – budaq. – *Ağacın çalpaları doludu meğveynan.*

**ÇALPAÇOVUŞ** (Bakı) – xəbərçi. – *Zə:rə lap çalpaçovuş arvaddu.*

**ÇALPƏRƏ** (Meğri) – qırma. – *Gilizə çalpərə doldurmuşam, atanda çanavarın əhədin kəsəcex′.*

**ÇALPOV** (Zəngilan) – suyun iti axan yeri, qıjov. – *Çalpova düşəsən, çay səni axıdar.*

**ÇALPOY** (Tovuz) – qarlı-yağışlı külək. – *Çalpoy gözümüzü aşmağa qoymurdu.*

**ÇALVADAR** I (İsmayıllı, Şamaxı) – kirayə ilə yük daşıyan adam. – *Çalvadar həmişə ac olar* (Şamaxı); – *O, çalvadardı, bir təhər öz külfətin saxlıyır* (İsmayıllı).

**ÇALVADAR** II (Şəki) – yarıtmaz (adam). – *Hunnan xeyir gözdəmə, çalvadar adamdı.*

**ÇALVADAR** III (Oğuz) – xörək adı. – *Çalvadar habı kələm dolması kimi şeydi.*

**ÇAMAX** (Şahbuz) – b a x **kamax.** – *Çamaxnan əliyirix′, so:ra da bi yol xəlbirnən təmizdiyirix′.*

**ÇAMÇAX** (Quba) – çəllək. – *Nö:üt getirən yərdə çamçaxımız sındı.*

**ÇAMXIR** I (Qazax) – kifir, eybəcər. – *Nə gözəlliyi var ki, çamxırın biridi.*

**ÇAMXIR** II (Gədəbəy, Tovuz) – b a x **çamır.** – *Camış çamxıra girif* (Gədəbəy).

**ÇAMXUR** (Zaqatala) – gözü titəli. – *Çamxur Hasan gəlcaxdı.*

**ÇAMIR** (Goranboy, Qazax, Şahbuz, Şəmkir, Tovuz, Yevlax) – palçıq. – *Su çamır kimi gəler, çay qoymağ olmaz* (Tovuz); – *İnəx′lər çamırın içindədi* (Qazax); – *Getdim gördüm at batıb çamıra, çıxa bilmir* (Şahbuz).

**ÇAMRA** (Ağdaş) – lilli, bulanıq. –*Kürün suyu çamradı.*

**ÇA:N** (Şəki) – vaxt, zaman. – *İrğal ələ, diliŋnan kağız ver, görüm nə ça:nə gəliysan.*

**ÇANAX** (Ağdam, Gədəbəy, Gəncə, Xanlar, Laçın, Naxçıvan, Şəki, Yevlax, Zəngilan) – 1. saxsı kasa (Naxçıvan); 2. ölçü qabı (Ağdam, Gəncə). – *Taxılı çanağınan ülçürəx′* (Xanlar); – *Çanax aşağdan olur* (Ağdam). 3. ölçü vahidi (Şərur, Zəngilan). – *Bir çanax on girvənkədi* (Zəngilan); – *Maŋa bir çanax taxıl ver* (Gəncə); – *Bir çanax üş put un girvənkədi* (Şəki).

**ÇANAXYARAN** (Şəmkir) – yabanı bitki adı. – *Çanaxyaran hər yerdə bitir.*

**ÇANDAQ** (Zaqatala) – bitki adı.

**ÇANDI** (Ağcabədi, Yevlax) – məfrəşi bağlamaq üçün yundan toxunmuş ip. – *Çandıynan fərməş çatırıx.*

**ÇAPA** (Gədəbəy, Kəlbəcər) – kətmən. – *Çapeynan qartopun, qardalının alasını vuroylar;* – *Qartofun divini çapeynan doldur* (Gədəbəy).

**ÇAPACAĞ** (Göyçay, Salyan, İmişli, Şamaxı) – ətçapan, ət doğrayan alət. – *Qəssab əti çapacağınan çapdı* (Şamaxı); – *Az, çapacağı gəti, əti doğrıyım* (İmişli).

**ÇAPACAX** (Ağdam, Goranboy, Qazax, Mingəçevir, Şəki, Şəmkir, Tovuz, Zaqatala) – b a x **çapacağ.** – *Çapacağınan öydə arvad ət döyür* (Goranboy); – *Çapacax qəssəflərdə olur* (Şəki); – *O çapacağı ma: ver, əti doğruyum* (Ağdam).

**ÇAPAĞ** (Biləsuvar) – içərisində qənd doğranan taxta tabaq, xürsusi qurğu.

**ÇAPAL** I (Cəlilabad, Əli Bayramlı, Kürdəmir, Sabirabad) – 1. ocaq qalamaq üçün qazılıb düzəldilmiş yer (Cəlilabad, Kürdəmir). – *Qapıdan çapal qazıruğ, qazanı o:un üssünə qoyup xörək bişirrük* (Kürdəmir); – *Yeri qazzuğ belə çapal kimi* (Cəlilabad); 2. çiyid islatmaq üçün qazılmış yer (Əli Bayramlı, Sabirabad).

**ÇAPAL** II (Ucar) – çatlamış (nar). – *Çapal nar tez çürüyər.*

**ÇAPAL** III (Salyan) – bir az, bir qədər. – *Bir çapal xaşil yemişəm sə:r.*

**ÇAPALAMAX** (Gədəbəy) – kətmənləmək, kətmənlə alaq vurmaq. – *Zavah duruŋ gediŋ, yarımçıx qoyduŋŋuz yeri çapale:ŋ.*

**ÇAPAN: ÇAPAN ÇALMAX** (Ağcabədi, Ağdam, Bərdə) – əl çalmaq. – *Özünnənbəy oynuyanda çapan çalırıx* (Bərdə).

**ÇAPARTMA** (Ağdam) – sacda bişirilən çörək.

**ÇAPBA** (Sabirabad) – yarıtmaz (adam). – *Oya iş tapışırma, o ki çapbadı.*

**ÇAPĞI** (Dərbənd) – ət doğrayan alət. – *Xatın, çapğını gəti, əti döğrəyim.*

**ÇAPIĞ** (Salyan) – zirək, diribaş. – *Zalım oğlu, çox çapığ gedədi.*

**ÇAPIĞOTU** (Ağdam, Tovuz) – dərman bitkisi adı. – *Çapığotu yara dərmanıdı* (Ağdam).

**ÇAPILMAX** (Qax, Şəki, Zaqatala) – qaçmaq, yüyürmək. – *Hodu, qoyunun dalıncax çapılan hodu* (Qax); – *Çapılıf una çatdım;* – *Çapıl gör no:ldu uşağa* (Şəki); – *Dərvəzəni döyəndə arvat erkey kimi çapılıp gəldi* (Zaqatala).

**ÇAPIŞ: ÇAPIŞ ÇALMAX** (Bərdə) – əl çalmaq. – *Baxçada çapış çalırıx, oxuyurux.*

**ÇAPIT** (Ağbaba, Böyük Qarakilsə, Şərur) – cındır, əsgi. – *O çapıtı ver mə:* (Şərur).

**ÇAPITMA** I (Ağcabədi) – mayasız xəmirdən bişirilən çörək. – *Çapıtma ya <nə> acıxamralı olur, ya da <nə də> yuxa.*

**ÇAPITMA** II (Zəngilan) – qalın. – *Axşamnan südü bişirif yekə teşdərdə sərərdik, sə:r duruf görərdin kin, üzü çapıtma qaymaxdı.*

**ÇAPITMAX** (Ağcabədi) – oğurlamaq, xəlvəti götürmək. – *Əli mənim eynə:mi çapıdıb apardı.*

**ÇAPO:UL** (Gədəbəy, Qazax, Şuşa) – qarətçi, çapqınçı. – *Xınna dərəsində çapo:ullar qavağımızı kəserdi* (Gədəbəy); – *İndi çapo:ul yoxdu* (Qazax).

**ÇAPO:ULÇU** (Laçın) – qarətçi, çapqınçı.

**ÇAPPA** (Salyan) – qalın. – *Qo:şum arağı çappa isganda içir.*

**ÇAPPAĞ** (Tabasaran) – yorğa yeriş (atda). – *Atda yaxşi çappağ da uladu.*

**ÇARA** (Cəbrayıl, Qarakilsə, Qazax, Mingəçevir, Zəngəzur) – heyvanların doğuşdan əvvəl ifraz etdikləri maye. – *İnəhdə çara görəndə bil ki, onın doğmax vaxdı yaxınnaşıf* (Zəngəzur). ◊ **Çara töhməxʹ** – doğuşdan əvvəl maye ifraz etmək (doğan heyvanlara aiddir) (Cəbrayıl). – *İnəyimiz dünən yaman çara tökürdü.*

**ÇARX: ÇARX DÖYMƏXʹ** (Qazax) – *məc.* dəfələrlə, dönə-dönə gedib gəlmək. – *Axşamatan Hajı dərəsinə çarx dö:rəm malın dalınjan.*

**ÇARXLAMAX** (Ağdam, Cəbrayıl, Gəncə, Mingəçevir) – itilərəmk. – *Qəməltini ver, çarxlamağa aparajam* (Gəncə); – *Pıçağı çarxlamışam, indi qılış kimi kəsir* (Cəbrayıl). ☐ **Çarx vırməy** (Cəlilabad) – dolanmaq, gəzmək. – *Biz dünyanı çarx vıraco:uğ.*

**ÇARIXFƏLƏNGİ** (Ağdam) – uşaq oyunu adı.

**ÇA:RMAX** I (Şəki) – b a x **çağırmax** II. – *Xoruz ça:rır.* – *To:ğ ça:randa ũ: kəsəllər.*

**ÇA:RMAX** II (Qax) – demək. – *Honu biz qala olan sirt ça:riyıx.*

**ÇARPALAMMAX** (Yevlax) – çalxalanmaq. – *Süd çarpalansa, qavdan tökülər.*

**ÇARPANA** I (Çənbərək, Qazax) – qəlpə, daş qırıntısı. – *Bənna çarpana işdədi ki, daşın arasına qoysun* (Çənbərək).

**ÇARPANA** II (Gəncə) – dənəvər (barıt). – *İndi çarpana barıt tapılmır.*

**ÇARPANA** III (Çənbərək) – ağacın tikanlı hissəsi, tikanlı. – *Şümşüdün əlini çarpana dağıdıf.*

**ÇARPANAX** (Bərdə, Qarakilsə, Şuşa, Tərtər) – b a x **çarpana** I. – *Top atılanda çarpanax adama dəyif yaralıyır, ya da öldürür* (Şuşa); – *O çarpanaxlardan yığ gəti bıra* (Qarakilsə).

**ÇARPAŞUĞ** (Xaçmaz, Quba) – dolaşıq, qarışıq. – *İşim çux çarpaşuxdu* (Quba).

**ÇARPAZ** I (Ağdaş, Gədəbəy) – arxalıq və ya qadın kəmərinin qarmağı. – *Arxalığımın çarpazı tüşüf* (Gədəbəy); – *Bu kəmərin çarpazı yaxşıdı* (Ağdaş).

**ÇARPAZ** II (Zaqatala) – cəftə.

**ÇARSI** (Naxçıvan) – b a x **karsı.**

**ÇARTAMBUL** (Zaqatala) – kiçik talvar. – *Çartambulu düzəltdim.*

**ÇARTAŞMAX** (Daşkəsən) – çatlamaq. – *Uşax vaxdı məj tutanda qolu burxuluf, sümüxʹləri çartaşıf.*

**ÇARTDAMA** (Şamaxı) – islanmağa qoyulmuş buğda. – *Çartdama qayır, savah hədik bişirək.*

**ÇAŞ** (Cəlilabad, Gəncə, Yardımlı, İrəvan) – 1. çəpgöz (Gəncə, İrəvan). – *Lap çaş adam kimi baxırsan* (İrəvan); 2. tərs (Cəlilabad). – *Yamanca çaş adamdı bı* (Cəlilabad).

**ÇAŞAL** (Əli Bayramlı) – çanaq sümüyü. – *Onun çaşalı yaman yekədi.*

**ÇAŞIR** (Ağcabədi, Ağdam, Çənbərək, Gədəbəy, Kəlbəcər, Ordubad, Şəmkir, Zəngilan) – yabanı bitki adı. – *Çaşır yeməli otdu, onu şovrıya da atıllar* (Zəngilan); – *Çaşır dağlarda çox olur* (Ordubad); – *Çaşır ye:ler* (Gədəbəy).

**ÇATAX** (Şəki) – b a x **çatal** I. – *Ho çatağ almanı maŋa versaŋa.*

**ÇATAL** I (Ağdam, Axalsxi, Bərdə, Cəbrayıl, Gəncə, İmişli, Kürdəmir, Zəngilan) – 1. bir-birinə bitişik (Ağdam, Zəngilan). – *Çarpanaxnan o çatal cəvizi vır düşsün yerə* (Zəngilan); – *Bağdan beş dənə çatal ŋar qırdım* (Ağdam); 2. qoşa (Bərdə). – *Bizim kətdə çatal addar çoxdu* (Bərdə); 3. ikibaşlı (Axalsxi, Kürdəmir). – *Çatal sözdən bir nəticə çıxmaz* (Axalsxi).

**ÇATAL** II (Əli Bayramlı, Kürdəmir) – büzdüm. – *Çatalım bərk ağrıyır* (Əli Bayramlı).

**ÇATAL** III (Mingəçevir) – şiddətli. – *Laf çatal ayazdı ha.*

**ÇATAL** IV (Ağdam) – iki qurdun birlikdə sarıdığı çıxar barama.

**ÇATALLIX** (Bərdə) – haçalıq. – *Çatallıx ən çox qoz ağacındo:lur.*

**ÇATAŞMAĞ** (İmişli) – birləşmək, qovuşmaq. – *İki bazı gəlib orda çataşıb.*

**ÇATDAĞAN** (Oğuz) – yabanı ağac adı. – *Uşaxlar çatdağannan oyuncax qayrıllar.*

**ÇATDAQUŞ** (Zəngilan) – saqqız ağacının meyvəsi. – *Bizim çox çatdaquşumuz var.*

**ÇATDALAX** (Qazax) – dalaq xəstəliyi. – *Uşaxda görörsən kin, çatdalax olor.*

**ÇATIĞ: ÇATIĞI ÇATMAX** (Basarkeçər) – odunu, təzəyi baş-başa, uc-uca qoymaq. – *Təndirə kərmələri çatığı çat ki, yaxşı yansın.*

**ÇATIX: ÇATIX ALMAX** (Ağcabədi) – azacıq dincəlmək, istirahət etmək, yorğunluğunu almaq. – *Yasdı yolda atdan düşüf bir əz çatığ aldıx, sora getdix.* ◊ **Çatıx vermək** (Kürdəmir) – ipi çal-çarpaz bağlamaq və ya keçirmək. – *Sənəyə çatıx ver ki, ağırrığ az düşsün.*

**ÇATILAMAX** (Cəbrayıl) – çatı ilə bağlamaq. – *Bızavı çatıla pambığa girməsin.*

**ÇATQAQ** (Dərbənd) – kotana qoşulan əlavə heyvanların boyunduruğunu əvvəlki heyvanların boyunduruğuna birləşdirən taxta parçası. – *Çatqaq kutanda cütnən cütü birləşdirməkçindi, üstünə adam da utureydi.*

**ÇATMA** I (İmişli, Yevlax) – ip. – *Çatmeyi ver, çualları çatım* (Yevlax).

**ÇATMA** II (Cəbrayıl, Çənbərək, Gədəbəy, İmişli, Şahbuz, Tovuz, Zəngilan) – baş-başa bağlanmış üç ağacdan ibarət qurğu. – *Qızım, çatmanı gəti, tuluğu asım çaxla* (Zəngilan); – *Çatmadan nehrə aserdıx* (Gədəbəy); – *Kücü ağacın çatmıya keçi, bir əz hana toxuyum* (Cəbrayıl); – *Çatmada nehrə çaxlıyırıx* (Şahbuz).

**ÇATMA** III (Zaqatala) – ov tələsi.

**ÇATMAĞ** (Salyan, Yardımlı) – b a x **çatmax** I.

**ÇATMAX** I (Basarkeçər, Çənbərək) – yandırmaq, qalamaq. – *Ojağı çatmışam, qazanı gəti* (Çənbərək).

**ÇATMAX** II (İmişli, Yevlax, Zəngibasar) – 1. yükləmək; 2. bağlamaq. – *Çatmeyi ver çualları çatım* (Yevlax).

**ÇATMAKEÇƏN** (Gəncə, Xanlar) – qoyun budunun uc hissəsində qarmaq keçirilən yer. – *Qoyunu kəsif çatmakeçənnən asıf soyullar* (Gəncə).

**ÇAVIMAX** (Cəbrayıl, Meğri, Zəngilan) – 1. çalışmaq, əlləşmək (Meğri). – *Canəli çavı:r onnan ötrü ki, bir bölüx′ külfəti var;* 2. qaçmaq. – *Qoyunnar çavıyıf gedif, tapammirəm* (Zəngilan); 3. vurnuxmaq (Cəbrayıl, Zəngilan). – *Nə ora-bıra çavıyırsan* (Cəbrayıl).

**ÇAVUŞ** (Zaqatala) – bayquş.

**ÇAYAN** (Böyük Qarakilsə, Goranboy, Qazax, Ordubad, Salyan, Yevlax) – əqrəb. – *Həsəni çayan çaldı* (Ordubad); – *Çayan adamı vuror* (Qazax); – *Çayan göyülün tüşmanıdı* (Böyük Qarakilsə).

**ÇAYDAÇAPAN** (İsmayıllı, Oğuz) – quş adı. – *Çaydaçapan kimi çox tullanub düşmə* (İsmayıllı).

**ÇAYIL** (Şəki) – su çıxan yerdə əmələ gələn kiçik göl. – *Çayıl var qışdağın ayağında, horda çimillər.*

**ÇAYLAMAX** (Gədəbəy, Mingəçevir, Yardımlı) – çay içmək. – *Ay Həsən, gəl bir çayla* (Gədəbəy); – *Gəlsənə, gedəx′ bir çaylıyax* (Tərtər).

**ÇAYNAX-ÇOYNAX** (Qazax) – sınıq-sökük. – *Çaynax-çoynax bir haraveydı, onun da oxu qırıldı.*

**ÇAYOTU** (Ağdam, Qazax, Oğuz) – 1. çay dəmləmək üçün istifadə edilən ətirli ot (Ağdam, Oğuz); 2. quru çay (Qazax, Zaqatala). – *Bu çaynikə çayotu salmeyıfsaŋmı, heç irəngi çıxmeyıf?* (Qazax)

**ÇAYRIZ** (Ağdam, Bakı, Salyan) – b a x **çayriz.** – *Çayrız sındı, çay dağıldı* (Bakı).

**ÇAYRİZ** (Lənkəran, Salyan, Şamaxı) – çay qabı. – *Çayrizə çay tök* (Lənkəran); – *O çayı tök çayrizə* (Şamaxı).

**ÇEÇİN: ÇEÇİN GƏLMƏX′** (Cəbrayıl) – qəribə gəlmək, təəccüblü görünmək. – *Sizə çeçin gəlir?*

**ÇED** (Qarakilsə) – dincə qoyulmuş yer.

**ÇEX′DİRMƏ** (Oğuz) – qabaq, düyü və qoz ləpəsindən hazırlanan xörək adı. – *Qavağı soyuf tökürəm suya, bişənnən so:ra düyünü tökürəm, üzünnən bir boşqaf həlimini alıram, qoyuram dəmə, bu olur çex′dirmə.*

**ÇEKİL** (Şəki) – cır tut ağacı. – *Qalan çekillərin hamısını qırsan, üş günnüx′ yarpağ olar.*

**ÇELTƏ** (Meğri) – bir qədər, azacıq. – *Əzəllər bir çeltə nəfdən ötrü şorta-şorta Ordubada gedərdıx.*

**ÇENGƏ** (Şəki) – dəstə. – *Axşamdı, hələ bi çəngə də ot bişməmişəm mallara.*

**ÇENGƏL** (Şəki, Zaqatala) – paltarasan. – *Paltınımı hordan, çengəldən asıf keşdim içəri* (Şəki).

**ÇENGİ** (Şəki) – həyasız. – *Ho çengini hardan taniyisən?*

**ÇER** (Cəbrayıl, Ordubad, Qarakilsə, Lerik, Salyan, Şərur) – çəp. – *Gözü çer olanda əyri görür* (Şərur).

**ÇERİ** ( Göyçay) – b a x **çer.**

**ÇERTMAX** (Şəki) – cücərmək. – *Sudan çıxannan sora toxumu ta: ki gözdü:rüx′ o çertir, çertənnən sora aparıf səpirix′.*

**ÇERTMƏ** (Şəki) – quş tutmaq üçün at tükündən düzəldilmiş cələ. – *Qışda çertmə qururdu ağaşdərin altında uşaxlar, quş tutüydülər.*

**ÇEŞ** I (Ordubad) – xışla yumşaldılmış (torpaq). – *Qalxoççılar həmməşə taxılı çeş torpağa səpillər.*

**ÇEŞ** II (Qax) – milçək sürfəsi.

**ÇEŞAL** (Dərbənd) – kisə. – *Üç çeşal buğda apardım dəğirmana.*

**ÇEŞDƏX′** (Basarkeçər) – səhər sağına.

**ÇEŞO** (Meğri) – sürünün səhər tezdən 2 saat müddətində otladığı vaxt, dövr.

**ÇEŞİ** (Zaqatala) – çəpgöz. – *Çeşi Məryəm bayax havurdeydı.*

**ÇEŞMƏ** I (İmişli, Lənkəran) – 1. göz (evə aiddir). – *Bı il iki çeşmə öy tikmişuğ;* 2. göz (balıq torunda). – *Torun çeşməsi dağılıb, iplik gəti düzəldəg.*

**ÇEŞMƏ** II (Ordubad) – evin üstünə qoyulan tirlər arasındakı məsafə.

**ÇEŞMEX′** (Meğri) – burunun üstü. – *Qoyunin çeşmeyinnən qan aldi dayim.*

**ÇEŞNİ** (Gədəbəy, Qazax, Lerik, Yardımlı, Sabirabad, Şamaxı, Şəmkir, Şuşa) – 1. şəkil, surət (Qazax, Sabirabad, Şəmkir). – *Qızın çeşnisi oyın yadında qalmadı* (Sabirabad); 2. naxış (Qazax, Şamaxı, Şuşa). – *Bu gəvənin çeşnisi yaxşıdı* (Qazax); 3. nümunə (Gədəbəy, Şamaxı, Şuşa). – *Üş-dört xana çeşnisi var bizdə* (Gədəbəy); – *Bu xalının çeşnisin Gəncədən gətiriflər* (Şuşa); – *Bizzə Nabur xəlçələrinin çeşnisi var* (Şamaxı).

**ÇEŞT** (Cəbrayıl, Böyük Qarakilsə, Qarakilsə, Qazax, Mingəçevir) – günorta. – *Gün çeşdə qalxıf* (Qazax); – *Laf çeşt olanda işə gə:rsən da:* (Mingəçevir); – *Gün çeşd yerinə qalxmışdı* (Cəbrayıl).

**ÇEYİL** I (Borçalı, Kəlbəcər, Qazax, Qəbələ, Mingəçevir, Şahbuz, Şəki) – 1. bataqlıq (Borçalı, Kəlbəcər, Qazax, Qəbələ). – *Ora çeyildi, oraynan getmə* (Kəlbəcər); 2. b a x **çayıl** (Şəki). – *Elə çeyil var ki, çox dərin olur* (Şəki).

**ÇEYİL** II (Daşkəsən, Gədəbəy) – bataqlıqda bitən ot. – *Mal çeyili yiməz əməli* (Gədəbəy); – *Çeyil deyrix′ dana, a bala, batdaxlıxda pitənə* (Daşkəsən).

**ÇEYİLLİX′** (Başkeçid, Borçalı, Çənbərək, Gəncə, Goranboy, Tovuz) – çoxlu çeyil (b a x II) bitən yer. – *Həməşə su qaynıyan yer çeyilliy olar* (Borçalı); – *Buralar çeyillix′di, keşməy olmur, adamın ə:ğı lilə batır* (Tovuz).

**ÇEYNƏMƏ** (Dərbənd) – hədik.

**ÇEYNƏTÜKÜR** (Oğuz) – çoxdanışan, çərənçi. ◊ **Çeynətükürrüy iləmağ** – çox danışmaq, çərənçilik etmək. – *Əli, çeynətükürrüy iləmə, əl çək.*

**ÇEYRİ** (Əli Bayramlı) – çəpgöz.

**ÇEYSİMMƏG** (Biləsuvar) – lovğalanmaq. – *Adam varrı olanda çox çeysimməz.*

**ÇEZİLMƏX′** (Qazax) – özünü çəkmək. – *Çezilməx′ yaxşı döy.*

**ÇEZVƏR** (Oğuz) – xətkeş.

**ÇƏÇİX′** I (Naxçıvan, İrəvan) – 1. qızıl boyunbağı (Naxçıvan). – *Çəçiyi olan çəçiy aparı* (Naxçıvan); 2. qadınların topuqlarına bağladıqları muncuq. – *Sara çəçix′ bağlayıb* (İrəvan).

**ÇƏÇİX′** II (Basarkeçər, Çənbərək, Qazax, Şərur, Şəmkir) – 1. atın qabaq ayaqları (Qazax, Şəmkir). – *At dal a:xları üsdə qalxıf çəçiynən vurdu* (Şəmkir); 2. toyuğun dırnağı (Basarkeçər). – *Toyuğun çəçiyi qırılıf.* ◊ **Çəçix′ atmax** (Şəmkir) – qabaq ayaqları ilə vurmaq, təpikləmək. – *At dal a:xları üsdə qalxıf çəçiynnən vurur, ona de:rix′ çəçiy atır.* **Çəçiyə qalxmax** (Qazax, Borçalı) – şahə qalxmax. – *At çəçiyə qalxdı, az qaldı məni yıxsın* (Borçalı).

**ÇƏÇİX′LƏMƏX′** (Qazax) – təpikləmək, qabaq ayaqları ilə vurmaq. – *Qoyma, at uşağı çəçix′lər.*

**ÇƏÇİL** (İmişli, Qazax, İrəvan) – dələmə. – *Çəçil çox şirin olor* (Qazax).

**ÇƏDƏNƏ** (İrəvan, Zəngibasar) – xırda, balaca (göz). – *Çədənə göz uşaxdı* (İrəvan).

**ÇƏFƏR** (Naxçıvan) – su süzmək üçün daş. – *O su süzülən daş çəfər adlanır.*

**ÇƏFGƏN** (Ucar) – miçətkən. – *Yayda bütün öylərdə cəfgən qurullar.*

**ÇƏHLƏXʹ** (Çənbərək) – köhnə ayaqqabı. – *Çəhləyi əyğıma:lıf eşiyə çıxdım.*

**ÇƏHLƏMAX** (Ordubad) – sıxmaq. – *Tutu çəhliyib suyun çıxart.*

**ÇƏHLİM** I (Çənbərək, Daşkəsən, Gəncə, İmişli, Qarakilsə, Qazax, Meğri, Ordubad, Şəmkir, Tovuz, Yevlax, Zəngilan) – 1. yol, cığır (İmişli, Qazax, Meğri, Tovuz). – *Qoyunu çəhliminən çəxʹ, a bala, şehə salma* (Qazax); – *Bu çəhliminən gedəcaxsan, qavağa: bir bulax çıxecax* (Meğri); – *Qoyunu çəhlimnən aparerdıx örüşə* (İmişli); 2. iz, ləpir (Daşkəsən, Gədəbəy, Gəncə, Zəngilan). – *Avçılar ayının çəhliminə düşüf mağarasına kimi getdilər* (Zəngilan); – *Canavarı çəhlimiynən gedif tafdıx dərədə;* – *İt qoyunu çəhlimiynən tapıf* (Gədəbəy); – *Taxılın qırağında mal çəhlimi var* (Gəncə); – *Malların çəhlimin tapdım* (Ordubad).

**ÇƏHLİMNƏMƏXʹ** (Şəmkir) – izləmək, izinə düşmək. – *Çəhlimnədim, gördüm heyvan gedif girif bağa.*

**ÇƏHMƏ** (Ağdam, Borçalı, Culfa, Goranboy, Karvansaray, Tərtər, Tovuz, İrəvan, Zəngilan) – b a x **çəkmə.** – *Çəhmə şovradan çox bərk olor* (Borçalı); – *Büyün Vəligildə çəhmə yidixʹ* (İrəvan); – *Yarma çəxʹdim qardalıdan kirkirədə, çəhmə bişidim* (Karvansaray).

**ÇƏHMƏCƏ** (Şərur) – xörək adı.

**ÇƏKAŞIX** (Gəncə, Goranboy) – bahalı dəridən və məxmərdən tikilmiş qolsuz və yaxasız qadın paltarı. – *Çəkaşığı qoja arvatdar ge:nərdi* (Goranboy); – *Çəkaşığın tikişi söküldü* (Gəncə).

**ÇƏKÇƏKİ** (Gəncə, Şamaxı, Tovuz) – quş adı. – *Çəkçəki balaca quşdu* (Şamaxı).

**ÇƏKƏCƏK** (İmişli, Kürdəmir) – tapqır. – *Çəkəcəğin bərk çək atın* (İmişli).

**ÇƏKƏCƏXʹ** I (Şahbuz) – təndirin ağzına qoyulan taxta qapaq. – *Çəkəcəyi gəti, qoyax təndirin ağzına.*

**ÇƏKƏCƏXʹ** II (Şahbuz) – cınaq. – *Çəkəcəxʹ toyuxda olur, mərc eləyillər onnan.*

**ÇƏKƏCƏXʹ** III (Qarakilsə, Şahbuz) – gəvən bitkisi yığmaq üçün işlədilən alət. – *Çəkəcəynən bir yük gəvən yığdım* (Şahbuz).

**ÇƏKƏCƏXʹ** IV (Basarkeçər, Yardımlı) – dəstək (qapıda). – *Qapının çəkəcəyi çıxıf* (Basarkeçər).

**ÇƏKƏLƏXʹ** (Çənbərək, Qazax, Tovuz, Zəngibasar) – b a x **çəkələt.**

**ÇƏKƏLƏT** (Gədəbəy, Qazax, Tovuz) – yüngül ev ayaqqabısı. – *A bala, çəkələtdəri maŋə:ti, eşiyə çıxejam* (Gədəbəy).

**ÇƏKƏR** (Kürdəmir, Şamaxı) – qorxu. – *Heş kimnən çəkərim yoxdu.*

**ÇƏKƏRƏXʹ** (Gəncə, Naxçıvan) – az-az. – *Çəkərəxʹ yi, tez-tez yi* (Gəncə).

**ÇƏKİ** (Basarkeçər, Borçalı, Goranboy, İmişli, İrəvan) – tapqır. – *Çəki olmasa yəhər aşar, atın belində durmaz* (Goranboy); – *Ə:, atın çəkisin bərkit* (Borçalı); – *Gəlin atın çəkilərin boşatdı* (İmişli).

**ÇƏKİFDÖYMƏ** (Şuşa) – uşaq oyunu adı.

**ÇƏKİŞGƏN** (Ağcabədi) – cınaq (toyuqda). – *Çəkişgəni mərşdəşillər, so:ra qırıllar;* – *Çəkişgəni çəkdin, yadda gərəxʹ saxlıyasan.*

**ÇƏKİŞMƏ** (Şuşa) – uşaq oyunu adı.

**ÇƏKİŞMƏG** (Cəlilabad, Salyan) – mərcləşmək, mərc gəlmək. – *Üç gün qabağ arvadnan kişi çəkişmişdilər* (Cəlilabad).

**ÇƏKİŞMƏXʹ** (Cəbrayıl, Şəki) – b a x **çəkişməg.** – *Bir qonaxlıxdan çəkişmişixʹ, kim uduzdu verəcəxʹ* (Cəbrayıl).

**ÇƏKİŞOTU** (Ucar) – dərman bitkisi adı. – *Çəkişotu yarpağını yaranın üssünə qoyurux, yaranın çirkin çıxardır.*

**ÇƏKMƏ** (Gəncə, Naxçıvan, Ordubad, İrəvan) – xörək adı.

**ÇƏKMƏÇÜ** (Ağcabədi) – gönü döyüb hamarlamaq üçün alət. – *Çəkməçünü vurursaŋ gönə, gönün qırışın açır.*

**ÇƏKMƏDUZ** (Şərur) – çəkməçi. – *Çəkməduz çəhmə tikər.*

**ÇƏKMƏG** I (Cəlilabad) – çağırmaq. – *Yolda Sədəfi çox çəkdüg, eşitmədi ki, eşitmədi.*

**ÇƏKMƏG** II (Cəlilabad, Yardımlı) – üyütmək. – *Aparun də:rmana dəni çəkün* (Cəlilabad).

**ÇƏKUZANDI** I (Goranboy) – quşatan, quş vurmaq üçün rezindən düzəldilən alət. – *Uşaxlar çəkuzandıynan quş vurullar.*

**ÇƏKUZANDI** II (Şamaxı) – ətdə olan qığırdağaoxşar damar. – *Çəkuzandını kəs at bişigə.*

**ÇƏKUZAT** (Tərtər) – quşatan. – *Uşaxlar çəkuzatnan quş vurdular.*

**ÇƏQƏLƏM** (Zaqatala) – çiyələk.

**ÇƏL** (Ordubad) – tənəyin budağı. – *Mevin çəlin əyərıx, bağlarıx.*

**ÇƏLÇÖ:ÜR: ÇƏLÇÖ:ÜR ELƏMƏXʹ** (Basarkeçər) – ölçüb-biçmək, götür-qoy etmək. – *Çox çəlçö:ür elədim bir şey çıxmadı.* ◊ **Çəlçö:ürə salmax** (Basarkeçər) – süründürmək, get-gələ salmaq. – *Məni niyə çəlçö:ürə salmısan?*

**ÇƏLƏ** (Bakı) – ərəbdovşanı. – *Bu gün bir dənə çələ tutdım.*

**ÇƏLƏB** (Əli Bayramlı, Quba) – arıq, zəif.

**ÇƏLƏCOŞ** (Hamamlı) – b a x **kələcöş** I. – *A:z, dur bir çələçoş qayır yeəxʹ.*

**ÇƏLƏMBİR** (Ağdam, Cəlilabad) – istiot. – *Mən həyətdən çoxli çələmbir dərdim* (Cəlilabad).

**ÇƏLƏMİR** (Dərbənd) – yeməli yabanı bitki adı. – *Səfər əmi çələmir dərmağa qayələrə kititdü.*

**ÇƏLİXʹ** (Meğri) – əkilmək üçün kəsilmiş tənək çubuğu. – *Bizim qalxuz bu yil üş yüz min çəlixʹ satdı.*

**ÇƏLİQA** (Meğri) – arıq, zəif. – *Çəliqa qışdarã: yaraşır enni tumən geyməxʹ.*

**ÇƏLİMƏXʹ** (Cəbrayıl) – hananın ərişlərini hamarlamaq, nizama salmaq.

**ÇƏLİMSİZ** (Şəki) – pis, xoşagəlməyən. – *Yaman çəlimsiz üşaxları var.*

**ÇƏLLƏXʹ** (Yevlax) – güclü, qüvvətli. – *Xanlar çəlləy adamdı.*

**ÇƏLLƏŞMAX** (Balakən) – çalışmaq, işləmək.

**ÇƏLLƏŞMƏXʹ** (Gəncə) – b a x **çəlləşmax.** – *Savahdan bəri bağda çəlləşirəm.*

**ÇƏLO** (Zərdab) – ölçü qabı. – *Nəcəf üç çəlo şahad aldı.*

**ÇƏLP** (Tovuz) – avar. – *Çəlpnən gəmiyi basıllar.*

**ÇƏLTARİ** (Şamaxı) – dərvişlərin başlarına qoyduqları toxunma papaq. – *Bu çəltari tünd qaradu.*

**ÇƏLVƏR** (Çənbərək) – ocaq daşı. – *Qazanı çəlvərin üsdə qoy.*

**ÇƏM** I (Tovuz) – vaxt. – *Gejənin bu çəmində burda nə:zirsən?*

**ÇƏM** II (Cəlilabad, Salyan, Yardımlı) – imkan. – *Mən padşahın qızın saraya gedəndə görmişəm, çəmim yoxdı oni almağa* (Cəlilabad).

**ÇƏM** III (Ağcabədi) – suyun üzərində həlməşik şəklində olan qurbağa sürfəsi. – *Çəm göy olur ot irəngində.*

**ÇƏM** IV (Qazax, Yardımlı, Tovuz) – girəvə, fürsət. – *Bələ çəm ələ tüşməz, get işiŋi gör qutar* (Tovuz).

**ÇƏM** V (Salyan) – xoşa gəlməyən, ürəyə yatmayan. – *Çəmimi tutmayan paltarı giyəmmərəm.*

**ÇƏM** VI (Yardımlı) – üsul, qayda. – *Hər şehün (şeyin) öz çəmi var.*

**ÇƏMBƏRBAZ** (Qax) – həyasız.

**ÇƏMBƏRƏ** I (Balakən, Basarkeçər, Göyçay, Oğuz, Şəki, Zaqatala) – arabanın və ya xışın qolunu boyunduruğa birləşdirən qayış və ya zəncir. – *Arabanın çəmbərəsi qırıldı; – Qayışdan da olurdu çəmbərə, cır tənəxʹdən də olurdu* (Şəki); – *Çəmbərə boyunduruğa keçirilir* (Oğuz); – *Çəmbərni yağladınmı?* (Göyçay).

**ÇƏMBƏRƏ** II (Borçalı, Gədəbəy) – motalın ağzına dairəvi şəkildə tikilən çubuq. – *Çəmbərəsiz eymə oloymu, ay qız?* (Gədəbəy); – *Çəmbərə eymənin ağzını açıx saxlıyer* (Borçalı).

**ÇƏMBƏRƏ** III (Bakı, Şamaxı) – təzək. – *Çəmbərə yekə təzəkdi* (Şamaxı); – *Çəmbərəyə ot vurdun?* (Bakı)

**ÇƏMBƏRƏ** IV (Gədəbəy, Tovuz) – araba təkərinin qövs şəklində olan ağac hissələri. – *Təkərin çəmbərəsi palıddan qayrıler* (Gədəbəy).

**ÇƏMBƏRƏ** V (Zaqatala) – dəhrənin sapına keçirilən dəmir halqa.

**ÇƏMBƏRƏK** (Şamaxı) – xəstəlik adı. – *Çəmbərək soyuxdan əmələ gəlir.*

**ÇƏMBƏRQUYRUX** (Gəncə, Goranboy, Qazax) – zəhərli böcək. – *Uşağın əyağını çəmbərquyrux tişdeyif* (Qazax).

**ÇƏMBƏRRƏNMƏK** (Gəncə) – xoruzlanmaq, şeşələnmək. – *Elə də çəmbərrəndi ki, diyəsən nədi.*

**ÇƏMÇİ** I (Zaqatala) – səbət. – *Bir çəmçi üzüm gəti.*

**ÇƏMÇİ** II (Naxçıvan) – alaqdərən. – *O çəmçini mə: ver, alağ eli:rəm.*

**ÇƏMƏN** (Borçalı, Gəncə, Gədəbəy, Qax, Tovuz) – yabanı bitki adı. – *Biz çəməni xörə: tökürüx′* (Borçalı); – *Çəmənin yaxşı iyisi var* (Tovuz); – *Dağdan çəmən yığ gəti* (Gəncə).

**ÇƏMƏNGÜL** (Cəlilabad) – təzək. – *Çəməngüli çuala yığallar.*

**ÇƏMƏYOX** (Borçalı) – pəncərə şüşəsində əmələ gələn tər. – *Eşix′ soyuğ olor, içəridə isdi olor, onda üşşədə çəməyoğ olor.*

**ÇƏMXƏMLİ** (Qazax) – nazlı. – *Mallar çıxer örüşə, Quzu ənər əmişə. O çəmxəmli dilbərim. Bir gəleydi görüşə.*

**ÇƏMİRƏ** (Şəki) – duman, çən. – *Bir də gördün çəmirə basdı yarım dəyqada hər yeri.*

**ÇƏMLƏMƏK** (Salyan) – ustalıqla yanaşmaq, ələ almağa çalışmaq. – *Çəmli:b topa bi təpiy vırdım, qapıdan keşdi.*

**ÇƏMRƏ** (Qax) – b a x **çəmirə.** – *Çəmrədən biddənə dağ qorınmıy.*

**ÇƏN** (Cəbrayıl, Şamaxı) – b a x **çəm** III. – *Nohurun suyun çən basıb* (Şamaxı); – *Gölün üzü teyxə qurbağa çənidi* (Cəbrayıl).

**ÇƏNALTI** (Cəbrayıl, Çənbərək, Şəmkir) – boyunduruğun alt hissəsi. – *Öküz çənaltıyı qırdı, harava döşdə qaldı* (Çənbərək); – *Boyunduruğun çənaltısı sındı* (Şəmkir).

**ÇƏNBƏRBUYNUZ** (Şəki) – buynuzu qabağa əyilmiş (heyvan). – *Çənbərbuynuz kəli satdım.*

**ÇƏNBƏRƏ** I (Balakən, Şəki) – b a x **çəmbərə** I. – *Bizim arabanın çənbərəsi təzədi* (Balakən).

**ÇƏNBƏRƏ** II (Hamamlı, Qazax, Zaqatala) – b a x **çəmbərə** II. – *Tejənin çənbərəsin yuxarı tut, qatığı orya tököm* (Hamamlı); – *Çənbərə təjənə lazımdı* (Qazax).

**ÇƏNBƏRQUYRUX** (Gəncə) – b a x **çəmbərquyrux.** – *Daşın altında çənbərquyrux var;* – *Çənbərquyrux vuran yerə tez duzdu qatıx sürt.*

**ÇƏNÇƏNƏ** (Çənbərək, Qarakilsə) – duman. – *Çənçənə hər yeri basıf, göz-gözü görmür* (Çənbərək).

**ÇƏNÇƏRMƏ** (Qazax) – duman. – *Çənçərmə genə hər yanı bürüdü.*

**ÇƏNDƏLƏŞMƏX′** (Bərdə) – sözləşmək, dalaşmaq. – *Cəmil mənim uşağımnan çəndələşif.*

**ÇƏNDƏN** (Qazax) – vacib. – *Sənin gəlməyin çox çəndən döyü.* ◊ **Çəndən olmax** (Gədəbəy) – babatlaşmaq, babat olmaq. – *Oxarta yaxşı olmasa da, dünənnən çəndən oluf bir əz.*

**ÇƏNDÜN** (Yardımlı) – o qədər. – *Çəndün fikir vermə onə.*

**ÇƏNƏ** (Kəlbəcər) – taxılın dəyirman daşının boğazına tökülməsini tənzim edən qab. – *Dən çənədən tökülür də:rmənin boğazına.*

**ÇƏNƏ-BAZAR: ÇƏNƏ-BAZAR ELƏMƏX′** (Qazax) – mübahisə etmək. – *Çox çənə-bazar eləmə, bəsdi.*

**ÇƏNƏBAZLUĞ: ÇƏNƏBAZLUĞ ELƏMAĞ** (Quba) – uzunçuluq etmək, çox danışmaq. – *Nə çənəbazluğ eliyəsən?*

**ÇƏNƏÇÜRÜX′** (Cəbrayıl, Füzuli) – çoxdanışan, zəhlətökən. – *Səlim çox çənəçürüy adamdı* (Cəbrayıl).

**ÇƏNG** I (Ordubad) – lobya bitkisinin ağaca sarılan nazik hissəsi. – *Lobyanın atdığı çəng nəzix′ tel kimin olur.*

**ÇƏNG** II (Bakı) – dırmıq. – *Çəngi bəri ver, yer çəngliyəcəgəm.*

**ÇƏNGƏ** (Quba) – ovuc içi qədər, ovuca yerləşən qədər. – *Bə:lidən bir çəngə götürüb apardım.*

**ÇƏNGƏL** I (Goranboy, Qazax, Şəki, İrəvan) – b a x **çəngəl.** – *Paltunu çəngəldən asıf keşdıx içəri* (Şəki); – *Paltarını çəngəldən as* (İrəvan).

**ÇƏNGƏL** II (Xanlar) – qoyun itinin boğazına keçirilən dişli dairəvi dəmir. – *Çəngəl dəmirdən olur, ujlarına da bir əz polat qoyulur.*

**ÇƏNGƏL** III (Bakı, Daşkəsən, Şuşa) – 1. qarmaq (Bakı, Şuşa) . – *Çəngəli gəti, quyudan vedrəni çıxardım* (Şuşa); – *Çəngəldə ətin olsun, müştəri özü gələr* (Bakı); 2. tilov (Daşkəsən). – *Balığı çəngəlnən tutuylar.*

**ÇƏNGİ** (Gədəbəy, Gəncə, Qazax, Qax, Kürdəmir, Şuşa, Zaqatala) – b a x **çengi.** – *O, çənginin biridi, ona qoşulmasan yaxşıdı* (Şuşa); – *Çəngiynən üz-üzə durmax yaxşı döy* (Gəncə); – *Xanım çəngidi* (Zaqatala).

**ÇƏNGLƏMƏG** (Bakı) – dırmıqlamaq. – *Çəngi bəri ver, yer çəngliyəcegəm.*

☐ **Çəng olmax** (Bakı, Qafan, Ordubad) – qıc olmaq. – *Əlim cəng olup* (Qafan); – *Qara atımızın əl-ayağı cəng olub* (Bakı).

**ÇƏNNƏMƏX′** (Gəncə) – soyuqdəymə nəticəsində xəstələnmək (heyvana aiddir). – *Mənim kəlim çənniyif.*

**ÇƏNNƏN** (Cəbrayıl, Qarakilsə) – birdən-ikidən, hərdənbir. – *Çənnən biz həylə şeylərin həvəskarı dəylix′.*

**ÇƏP** I (Şəki) – mis səhəng, güyüm. – *Çəpdən havra bir az su tök.*

**ÇƏP** II (İmişli, Lənkəran, Mingəçevir, Salyan) – b a x **çəlp.** – *Nadir yaxşı çəp çəkir* (Salyan); – *Cavansan, çəpi sən al çək* (İmişli).

**ÇƏP** III (Bakı) – xallı. – *Bu gögərçin çəpdi.*

**ÇƏPÇİLƏMƏK** (Zaqatala) – azacıq məşğul olmaq, qurdalanmaq. – *Çox işdəməsəm də çəpçiliyip gəldim.*

**ÇƏPÇÜDAR: ÇƏPÇÜDAR ELƏMƏG** (Cəlilabad) – çidarlamaq. – *Ati çəpçüdar elə, bırax kö:şəndə yesün.*

**ÇƏPƏL** (Qax, Zaqatala) – 1. pinti, natəmiz; 2. pis, xoşagəlməz.

**ÇƏPƏLƏX′** (Gəncə, Goranboy) – b a x **çəkələt.**

**ÇƏPƏLLIX** (Zaqatala) – pintilik. – *Çəpəllıxdan əl çək.*

**ÇƏPƏRƏ** I (Bərdə, Mingəçevir, Zərdab) – balıq tutmaq üçün əl toru. – *Bir çəpərədə dörd xaşam balığı tutdum* (Zərdab); – *Çəpərəni gət gedəx′ balıx tutax* (Bərdə).

**ÇƏPƏRƏ** II (Cəbrayıl, Yardımlı, Qarakilsə) – toyuğun qabırğa hissəsi. – *Çəpərəni özün ye, mə: ayrı ət ver* (Cəbrayıl).

**ÇƏPƏRƏ** III (Ağdam, Qubadlı, Salyan) – tövlədə qoyun-quzu və ya buzov üçün düzəldilmiş yer. – *Çəpərəni qoyun-quzudan ötürün hörüllər* (Ağdam); – *Danaları sal çəpəriyə* (Salyan).

**ÇƏPƏRƏ** IV (Çənbərək) – çubuqdan hörülmüş qapı. – *Çəpəriyi küzün ağzına qoy ki, quzu çıxmasın.*

**ÇƏPƏRƏ** V (Ağcabədi) – tavana döşənən qamış tərəcə. – *Çəpərəni əvin üsdünə hörüllər.*

**ÇƏPƏRƏ** VI (Şahbuz, Şərur) – təndirə çörək yapmaq üçün taxta (Şahbuz).

**ÇƏPƏRƏ** VII (Qarakilsə) – çubuqdan hörülmüş ev əşyası. – *Çörəyi çəpərənin üsdə sula.*

**ÇƏPGƏN** (Bərdə, Cəbrayıl, Gəncə, Qarakilsə, Oğuz, Şamaxı, Tərtər, Yevlax) – b a x **çəvkən.** – *Çəpgən qano:zdan tikilirdi* (Oğuz); – *Nənəm çəpgən tix′dirif* (Gəncə); – *Çəpgəni tərəkəmələr geərdi* (Tərtər).

**ÇƏPİ** (Yardımlı) – çığ.

**ÇƏPİX′** (Cəbrayıl, Goranboy, Qazax) – çevik, cəld, diribaş. – *Lətif çox çəpiy adamdı* (Goranboy).

**ÇƏPİŞDİX′** (Gəncə, Qazax) – 10-15 qoyundan ibarət sürü. – *Bu kişinin üç çəpişdix′ qoyunu var* (Qazax).

**ÇƏPİŞLİG** (Ağsu) – b a x **çəpişdix′.** – *Beş çəpişlig qoyunum var.*

**ÇƏPKEŞ** (Kürdəmir, Salyan) – avarçəkən. – *Çəpkeş lötkəni çəpnən sürür* (Salyan).

**ÇƏPLƏMƏG** (Yardımlı) – vurmaq, vurub gözünün altını qaraltmaq. – *Səni elə çəpliyərəm, özua gələmməssən.*

**ÇƏPLƏMƏK** (Lənkəran, Salyan) – avar çəkmək.

**ÇƏR** (İmişli) – çarx, təkər. – *Arabanın çəri sınıb.*

**ÇƏRBƏND** I (Şamaxı) – möhkəm saxlamaq məqsədilə arabir divarın arasına qoyulan ağac və ya taxta. – *Çərbənd divarı bərk saxlar.*

**ÇƏRBƏND** II (Tabasaran) – yükü saxlamaq üçün arabanın yan hissələrinə keçirilən əlavə ağaclar. – *Piçan <ot> çux uldi ərəbədə, çərbənd sindi.*

**ÇƏRBƏNT** (Dərbənd) – b a x **çərbənd** II. – *Çərbənt arabada dərz gətirməgə quyuladu.*

**ÇƏRBƏT** (Füzuli) – hasar. – *Çərbət çəkiflər Xannarın qəbrinin ətrafına.*

**ÇƏRÇƏRİ** (Şəki) – bitki adı. – *Bağda çərçəri çoxdu.*

**ÇƏRÇİ** (Şərur) – xırdavatçı.

**ÇƏRƏ** I (Qax) – qoyunun son balası.

**ÇƏRƏ** II (Salyan) – doğuşdan əvvəl heyvanın ifraz etdiyi selik.

**ÇƏRƏGDAR** (Cəlilabad) – icarəçi. – *Çərəginə əkənnərə çərəgdar deydilər.*

**ÇƏRƏGİNƏ** (Cəlilabad) – icarə ilə. – *Adam vardı öz cütiynən, eləsi də vardı çərəginə əkərdi.*

**ÇƏRƏX′** (Culfa, Zəngilan) – 4 kq-lıq çəki daşı. – *A bala, çərəyi gəti, unu çəkim verim* (Culfa); – *Bir kəviz dörd çərəx′di* (Zəngilan).

**ÇƏRƏKAN** (Zəngilan) – turpəng (bitki).

**ÇƏRƏKƏ** I (Biləsuvar, Böyük Qarakilsə, Cəlilabad, Ordubad, Yardımlı, Zəngilan) – təsbeh. – *Çərəkə qocada da olar, cavannarda da* (Ordubad); – *Çərəkə, yani ki təsbi uzın oley, xırda-xırda mıncuğ oley* (Cəlilabad); – *Çərəkəni əldə çö:ürüllər* (Biləsuvar).

**ÇƏRƏKƏ** II (Şəki) – bağlama, top. – *Çərəkə bağlı:f satardılar ipəyi.*

**ÇƏPƏKƏ** III (Şəki) – kiçik, xırda odun parçası. – *Puçə yariyən odun yoxdu, savağ ertə də bir-iki dənə çərəkə qopardıf puş qalamışam.*

**ÇƏRƏKİ** (Quba) – payız armudu. – *Çərəki yetişmiyib.*

**ÇƏRƏLTMƏ** (İmişli, Şəmkir) – qoyun xəstəliyi adı. – *Çərəltmə otdan əmələ:lir* (Şəmkir).

**ÇƏRƏN** (Borçalı, Goranboy, Ucar, Zəngilan) – yabanı bitki adı. – *Çərənnən qurd şaxlıyırıx* (Zəngilan); – *Çərəni gamış yaxşı ye:ir* (Ucar).

**ÇƏRƏNGÜLƏ** (Göyçay, İsmayıllı, Kürdəmir, Sabirabad) – çərçivə. – *Damın çərəngüləsi xarabdı* (İsmayıllı).

**ÇƏRƏNGÜŞ** (Qazax) – şana. – *Çərəngüşnən soyrordux samanı.*

**ÇƏRƏÜŞ** (Göyçay) – üstündə üzüm əzmək üçün qarğıdan toxunmuş tərəcə. – *Bizzər üzümi çərəüşdə əzərik.*

**ÇƏRƏZ** (Meğri, Ordubad) – 1. üzüm emal olunan yer (Meğri). – *Payız ayləri çərəzlər bir sa:t bekar ylmey* (Meğri); 2. bağbanın koması. – *Bağman çərəzdə yatıb* (Ordubad).

**ÇƏRGOV** (Şamaxı) – kotana və ya arabaya qoşulan öküzlərin birinci cütü. – *Çərgov ən qabaqkı öküzzərdi;* – *Bizim çərgovda gücdi kəllər qoşulur.*

**ÇƏRGÖY** (Gədəbəy, Xanlar) – b a x **çərgov.** – *Çərgöy öküzdəri yaman yoruluf;* – *Öküz haraveyi çəx′mə:ndə çərgöy qoşoylar* (Gədəbəy); – *Çərgöyləri aşgınan, bir əz otdasınnar* (Xanlar).

**ÇƏRGÜL** (Kürdəmir, Lerik, Şamaxı, Şəki) – 1. dördkünc (Kürdəmir, Şamaxı). – *Bu öy çərgüldü* (Şamaxı); 2. üçkünc, üçbucaq şəklində (Şəki). – *Ağı, çiti çərgül kesif bağlardıx başimizə, qasınqa-zad hindi çıxıfdı* (Şəki).

**ÇƏRHAYA** (Beyləqan, Qazax, Laçın, Yevlax) – hayasız. – *Qonşumuzun arvadı çox çərhayadı* (Beyləqan); – *Sona kimi çərhaya yer üzündə olmaz* (Laçın).

**ÇƏRHƏLQƏ** (Cəbrayıl) – cilovun atın ağzına keçirilən dəmir hissəsi. – *Yüənin çərhəlqəsi yoxdu.*

**ÇƏRİ** (Qax) – uşaq. – *Bi dəstə çəri tokulup öyniylə.*

**ÇƏRK** (Cənubi Azərbaycan) – çubuqdan hörülmüş aşsüzən. – *Çərkin çubuxları sınıb, aş süzmax olmur.*

**ÇƏRMƏKİ** (Göyçay, Lənkəran, Şamaxı, Şuşa) – gönü döyüb hamarlayan bürünc alət. – *Çərməkini itirmişəm, bilmirəm gönü nejə döyüm* (Şuşa); – *Çərməkini yavaş vur, sınar* (Lənkəran).

**ÇƏRÖ:ÜZ** I (Ağdam) – b a x **çərəüş.** – *Bu il üzüm əzməyə bir yaxşı çərö:üz qayırdım.*

**ÇƏRÖ:ÜZ** II (Ağcabədi, Mingəçevir) – cəfəri. – *Çərö:üzü doğaya, dolmuya tökürüx′* (Ağcabədi).

**ÇƏRRƏNGUŞ** (Qazax) – b a x **çərəngüş.** – *Çərrənguşun qanadı qırıldı.*

**ÇƏRT** (Ağdam, Şuşa) – ləpəsi çətin çıxan (qoz). – *Bu qozdar çərtdi, yeməy olmur* (Şuşa); – *Aldığım qozun hamısı çərtdi, içi çıxmır* (Ağdam).

**ÇƏRTDƏ** (Cəbrayıl, Qarakilsə) – dikbaş. – *O, çərtdənin biridi, söz götüməz* (Cəbrayıl).

**ÇƏRTDƏMƏX′** (Laçın) – hirslənmək, hövsələdən çıxmaq. – *Salmanın sözü Məmişin xoşuna gəlmədi, birdən çərtdədi.*

**ÇƏRTDƏNƏK** (Kürdəmir, Salyan) – çinadan. – *To:uğun çərtdənəyinnən şüşə çıxdı* (Kürdəmir).

**ÇƏRTƏMBEL** (Gədəbəy) – əsəbi. – *İrəsimin gədəsi yamanca çərtəmbelmiş.*

**ÇƏRTMAX** (Şəki) – b a x **çertmax.** – *Sudan çıxannan sora toxum ta ki, gözdü:rux çərtir, çərtənnən sora səpirux.*

**ÇƏRTMƏ** I (Çənbərək) – dayaq. – *Alma əmzim-əmzimdi, altdan çərtmə vurulmasa sınajax.*

**ÇƏRTMƏ** II (Laçın) – b a x **çertmə.** – *Mənim çərtməmə bir sərçə düşüb.*

**ÇƏRTMƏG** I (Cəlilabad, Yardımlı) – itiləmək. – *Bağlo:ci <ülgücü> çərtəndə daşdan ot parrardı* (Cəlilabad).

**ÇƏRTMƏG** II (Salyan, Yardımlı) – deşmək, qan almaq. – *Çıvanı çərtmə, vaxdında özi deşiləcəg* (Salyan); – *Uşəğ qızməli* <*qızdırmalı*> *olanda çərteylər* (Yardımlı).

**ÇƏRTMƏX′** I (Cəbrayıl, Şuşa) – yonmaq. – *Pıçağı ver mə:, bı qırandaşı çərtim* (Cəbrayıl).

**ÇƏRTMƏX′** II (Cəbrayıl, Şəki) – b a x **çertmax.** – *Soğan indi-indi çərtir hələm* (Cəbrayıl).

**ÇƏRVƏND** I (Şəki) – arabanın yan hissələrindəki köndələn uzun ağaclar. – *Calılar taxılan hissədi çərvənd aravada.*

**ÇƏRVƏND** II (Basarkeçər) – damın bacasının ağzına qoyulan çərçivə. – *Bajanın çərvəndi çürüyüf.*

**ÇƏRVƏND** III (Tovuz) – bağın kiçik qapısı. – *Ay Hamaya, çərvəndi bağla, qoyun orya keşməsin.*

**ÇƏRVƏT** (Ucar) – b a x **çərvənd** III. – *İstiyirəm u çərvəti sökəm.*

**ÇƏRVƏTDƏMƏX′** (Ağdam) – ağacdan ağıl düzəltmək. – *Buranı malçün çərvətdəməy lazımdı.*

**ÇƏŞBƏND** (Quba) – zirək, cəld. – *U ki cuvan adamlar var, hamısı çəşbənd adamlardu.*

**ÇƏSPƏR** (Quba) – qonşu yerləri bir-birindən ayıran nişan, mərz. – *Bizin yərlərimizin çəspəri ülmiyədü.*

**ÇƏT** (Şahbuz, Şərur, Zəngibasar) – taxılın içində olan zibil. – *Aldığım dənin çəti çoxdu* (Şahbuz).

**ÇƏTDANQUŞ** (Ordubad) – ot adı. – *Bir şələ çətdanquş topla.*

**ÇƏTƏGİZ** I (Cənubi Azərbaycan) – ağac xəstəliyi. – *Bı il çətəgiz bizim ağacı xarab elədi.*

**ÇƏTƏGİZ** II (Cənubi Azərbaycan) – bitki adı. – *Bi qucağ çətəgiz yığdım.*

**ÇƏTƏMƏ** (Balakən) – bostanda, tarlada şax-budaqdan düzəldilmiş yer. – *Bostanda çətəmə qurmuşam, gecələr orda yatıram.*

**ÇƏTƏN** I (Cəbrayıl, Füzuli, Göyçay, Xanlar, Ucar, Zəngilan) – nazik qarğıdan hörülmüş aşsüzən. – *Çətəni balaca-balaca qarğudan toxerıx* (Zəngilan); – *Aşı çətənnən süzüllər* (Göyçay); – *Çətəni bəri gəti, aşı süzüm* (Füzuli); – *Mən çətən toxudum* (Cəbrayıl); – *Düyünü çətənin üsdünə tökdüm* (Ucar).

**ÇƏTƏN** II (Naxçıvan) – çöldə quzuları saxlamaq üçün qarğı ilə hörülmüş yer. – *Quzuları qat çətənə.*

**ÇƏTƏN** III (Cəbrayıl, Qazax, Şərur) – xeyli. – *Onun bir çətən külfəti var* (Qazax).

**ÇƏTƏN** IV (Axalsxi) – çubuqdan hörülmüş qarğıdalı anbarı. – *Çətəndə taxıl var.*

**ÇƏTƏN** V (Başkeçid, Tovuz) – qarğı. – *Dammızın üsdünə hələ çətən düşəməmişəm* (Tovuz).

**ÇƏTƏN** VI (Şərur) – saman daşımaq üçün arabanın yan tərəflərinə qoyulan qarğıdan toxunmuş tərəcə.

**ÇƏTƏNƏ** I (Ağdaş, Daşkəsən, Gəncə, Qazax, Mingəçevir, Şəki, Tərtər, Tovuz) – ləpəsi çətin çıxan (qoz). – *Gətdiyin cöyüzün çoxu çətəneydi* (Daşkəsən); – *Çətənə qozun ləpəsi çıxmır* (Gəncə); – *Bu qozun hamısı çətəneymiş, döyməynən qırılmer* (Qazax).

**ÇƏTƏNƏ** II (Şərur) – darıyabənzər toxum. – *Çətənəni Xıdıraxırda* (Xıdır Nəbi) *qavırrıx.*

**ÇƏTƏNNƏMƏK** (İrəvan) – arabanın dörd tərəfini palazla örtmək, tutmaq. – *Harabanı çətənnə, gedif saman gətirək.*

**ÇƏTMƏ** (Oğuz) – b a x **çertmə.** – *Çətmiyə yiməx′ qoyur uşaxlar bağda, quş gəlif yə:ndə ya dimdiyinnən, ya da ayaxlarınan düşür hora.*

**ÇƏVİRCƏX′** (Zəngilan) – çörək çevirmək üçün işlədilən nazik çubuq. – *Çəvircəyi uzat mã: çörəyi çəvirim.*

**ÇƏVİRMƏ** (Quba) – kiçik bağça. – *Çəvirmiyə mal girmişdi.*

**ÇƏVKƏN** (Cəbrayıl) – qolsuz qadın paltarı. – *Zümrüdə bazardan bir çəvkən al gəti.*

**ÇƏVLİK** (Cənubi Azərbaycan) – tuluğun ağzına taxılan ağac. – *Çəvlik tuluğun ağzını saxlıyır.*

**ÇƏVRƏKÜÇ** (Kürdəmir) – oxlov. – *Bajım çəvrəküşnən yuxa çevirirdi.*

**ÇƏYİL** (Ağbaba) – çəpər, hasar. – *Bu çəyil Əhmədindi.*

**ÇƏYLƏMƏĞ** (Yardımlı) – qarışdırmaq. – *Palçığı çəyliyəndə yaxşı oley.*

**ÇIĞ** I (Biləsuvar, Göyçay, İsmayıllı, Ucar) – 1. qarğı aşsüzən (Biləsuvar, Göyçay). – *Çığ qarğıdan qayrılır* (Biləsuvar); 2. səbət toxumaq üçün uzununa 4 və ya 8 bərabər hissəyə bölünmüş qarğı (Göyçay, Ucar). – *Çəvərə*

*toxumağçun Əli çığ düzəldir* (Ucar); 3. xırda qarğı, qamış (İsmayıllı). – *Ay uşağlar, bir az çığ gətirün* (İsmayıllı).

**ÇIĞ** II (Qazax) – tamam. – *Sünbül çığ dəndi.*

**ÇIĞI-BIĞI** (Ucar) – uşaq oyunu adı. – *Çığı-bığıda dörd-beş uşağ olur.*

**ÇIĞLAMAX** (Ağdaş, Ucar) – qarğını uzununa 4 və ya 8 bərabər hissəyə bölmək. – *Əli qarğı çığlıyır* (Ucar).

**ÇIĞNAMAX** (Gəncə, Goranboy, Qazax, Şəmkir, Tovuz, Zaqatala) – tapdalamaq, ayaqlamaq. – *Sarı toprax gətirif içinə bir az keçi qılı da qatıf çığnıyıllar, soŋra təndir qayrıllar* (Goranboy); – *Taxılı təmiz çığnayıflar* (Gəncə); – *Keçəni, yunu palaza püküf çığnı:llar* (Qazax).

**ÇIX** (Culfa) – təndirə çörək yapmaq üçün söyüd çubuqlarından toxunmuş alət. – *Şiv yığmışam, çıx toxuyacam.*

**ÇIXACAĞ** (Salyan, Yardımlı) – b a x **çıxacax** II.

**ÇIXACAX** I (Basarkeçər) – pilləkən. – *Uşağı qoyma, çıxacaxdan yıxılar.*

**ÇIXACAX** II (Ağdaş, Cəbrayıl) – hadisə. – *Sə:n başında bir çıxacağ olmalıdı* (Cəbrayıl).

**ÇIXACAX** III (Zəngibasar) – evin kandarında ayaqqabı çıxardılan yer.

**ÇIXÇÖYÜR** (Çənbərək) – sınıq-salxaq. – *Çıxçöyür harava qoşuf gedəmmərəm kin, xəsərrətçiliy ola.*

**ÇIXDAŞ** I (Bərdə) – nimdaş, köhnə. – *Bir çıxdaş qazan ver maŋa, aparım işdədim.*

**ÇIXDAŞ** II (Ağcabədi) – yunun darana bilməyən keyfiyyətsiz hissəsi. – *Çıxdaş yorqana da qoyulur.*

**ÇIXMAYARA** (Naxçıvan, Şahbuz) – sızanaq. – *Çıxmayara elə tez çıxır, tez də sönür* (Naxçıvan); – *Bu elə tex çıxır, tez sönür, onunçün çıxmayara de:llər* (Şahbuz).

**ÇIXMAZ** (Hamamlı) – yersiz, düşünülməmiş. – *Nə çıxmaz söz danışersaŋ, adamın əti tökülər.*

**ÇIQQA** I (Gəncə) – çələng. – *Bəsdi sənə çəx'diyim zəhmət, başıma çıqqa qoymuyajaxsaŋ ha.*

**ÇIQQA** II (Lənkəran) – pipik. – *Çıqqası uzun xoruzum var.*

**ÇIQQILI** (Ağbaba, Culfa, Goranboy, Mingəçevir) – kiçik, xırda. – *Quzu yap çıqqılıdı* (Culfa); – *Bir çıqqılı işdən ötrü savaşmağ olmaz* (Ağbaba).

**ÇIQQIRIX** (Cəbrayıl, Gədəbəy) – səs. – *Uşax sə:rdən oynuyur, heş çıqqırığı da çıxmır* (Cəbrayıl).

**ÇIQQIŞ** (Ordubad) – xırda odun. – *Biz hırda oduna çıqqış deyərıx.*

**ÇILAR** (Hamamlı) – b a x **kilar.** – *Çıların haçarı arvaddadı.*

**ÇILDIR** (Borçalı) – çayın su çıxmayan qurumuş yeri, hissəsi. – *Haraveynan sudan keçərsən, çıldırda saxlamağ olar.*

**ÇILDIRRAMAX** (Şərur) – b a x **çıldırratmax.**

**ÇILDIRRATMAX** (Cəbrayıl) – sıçratmaq. – *Suyu çıldırratdı, üsdüm bılandı.*

**ÇILXA** (Lənkəran, Yardımlı, Tovuz) – tamam, tamamilə. – *Ət çılxa yağdı.* (Tovuz)

**ÇILXIÇAPAR** (Zaqatala) – yarasa. – *Çılxıçapar uçdu.*

**ÇILXO** (Bakı) – b a x **çılxa.**

**ÇILIMPIRRIX** (Şəmkir) – kolluq. – *Bura çox çılımpırrıxdı, yeriməy olmur.*

**ÇILPAXLIX** (Culfa, Qazax, Şərur) – paltar. – *Qışda adama çılpaxlıx lazımdı* (Şərur); – *Çılpaxlıx alajam uşaxlara* (Qazax).

**ÇILTAN** (Zaqatala) – ağacdələn. – *Çıltan səsidir.*

**ÇIMÇIX** (Kəlbəcər) – çöl quşu adı. – *Çımçıx dağ yerrərində çox olur.*

**ÇIMXIR** (Goranboy, Tovuz) – xalis. – *Zəhrənin donu çımxır ipəx'di* (Tovuz).

**ÇINIX** (Lerik, Yardımlı) – xəsis. – *Çınıxun biridü, heç nəyə qıymey* (Yardımlı).

**ÇINQI** I (Ağcabədi, Gədəbəy, Şəmkir, Tovuz, Zəngibasar) – qığılcım. – *A:z, ayna <o yana> dur, çınqı üsdã: düşər yanarsan* (Ağcabədi); – *Ay oğul, qoyma:ŋ çınqı düşdü tayya* (Gədəbəy).

**ÇINQI** II (Gədəbəy) – nadinc. – *Əlinin uşağı bir çınqıdı, qəl qörəsiŋ.*

**ÇINQIL** (İsmayıllı, Quba) – itburnu meyvəsi. – *Çınqıl dərmana yaxşıdı* (Quba).

**ÇINQIR** I (Ağbaba) – vedrə. – *Çınqırın qulpu qırıldı.*

**ÇINQIR** II (Masallı) – b a x **çınqı** I.

**ÇINQU** (Cəlilabad) – b a x **çınqı** I. – *Ocağ qaleydüg, çınqu çıxeydu gəl görəsən.*

**ÇINTIR** (Zəngibasar) – yavan, yağsız. – *Bu ət tamam çıntırdı.*

**ÇIPALIX** (Laçın) – yüngüllük. – *Öz aramızdı, onda çıpalıx var.*

**ÇIPAR** (Qarakilsə) – xal-xal. – *İnəyin, öküzün xal-xal olanına çıpar deyillər.*

**ÇIPRINMƏG** (Yardımlı) – cəld tərpənmək. – *Çıprın bu amanatı çatdır gə.*

**ÇIPXILIX** (Qax) – xırda ağaclı sıx meşə.

**ÇIPIRTI** (İmişli, Kürdəmir) – çırpı. – *Çıpırtı yığ ocağı alışdır* (İmişli).

**ÇIPIRTMAX** (Ağbaba, Cəbrayıl, Qarakilsə, Laçın, Zəngilan) – b a x **çapıtmax.** – *Qəpiyə gələn sa:t dəhriyi çıpıtdı* (Zəngilan); – *Yanımnan muşduğumu nətə:r çıpıtdısa, heş bilmədim* (Qarakilsə); – *Qonşunun otunnan bir əz çıpıtdım* (Cəbrayıl).

**ÇIRA** (Qazax, Şəmkir, İrəvan) – qara çıraq. – *Əvvəl çıra olur, sora ləmpəydi, indi tay bu işıxlar oluf* (Şəmkir). – *Çıranın piltəsi qurtuluf, bir piltə eş* (İrəvan).

**ÇIRABOĞAZI** (Gəncə) – qıf.

**ÇIRAXBAN** (Şahbuz, Zaqatala) – b a x **çırabban.** – *Çırax çıraxbanın üsdündədi* (Şahbuz); – *Çırağı gəti, qoy çıraxbana* (Zaqatala).

**ÇIRAMAX** (İmişli) – salmaq. – *Gördüm ki, yox, quzunu ağıla çırame:flar.*

**ÇIRAPA** (Göyçay) – çıraq qoyulan yer, çıraqaltı. – *Çıranı çırapanın üssə qoy.*

**ÇIRÇIR** I (Qəbələ) – çıraq. – *Bajı, çırçırı yandır seyvana qoy, qonaxlar gəlillər.*

**ÇIRÇIR** II (Qazax) – şəlalə.

**ÇIRÇIRT** (İmişli) – quş adı. – *Bir çırçırt yuası var orda.*

**ÇIRX** (Balakən) – bədənin qurşaqdan yuxarı hissəsi. – *Qardaşın çırxı ennidi.*

**ÇIRIXDIRMAX** (Naxçıvan) – karıxdırmaq, çaşdırmaq. – *Niyə çırıxdırırsan, qoymursan diyim.*

**ÇIRINTILIX** (Qazax, Oğuz, Tovuz) – 1. arıq. – *Bu il heyvannarın hamısı çırıntılıxdı* (Tovuz); – *Mən çırıntılıx ətə pul vermərəm* (Oğuz); 2. yağsız. – *Bu ət çox çırıntılıxdı;* – *Bu daneyin əti yaxşı olmaz, çırıntılığ olajax* (Qazax).

**ÇIRNA** I (Mingəçevir, Zərdab) – əkin üçün yararlı olmayan (yer). – *Bu yer çox çırna yerdi* (Zərdab).

**ÇIRNA** II (Ağcabədi) – çör-çöp. – *Sahədə çırna dənne:rəm.*

**ÇIRNA** III (Ağsu) – kol.

**ÇIRNALIX** (Ağsu) – kolluq. – *Arxın bırası yaman çırnalıxdı.*

**ÇIRNO:UX** (Çənbərək, Hamamlı) – şırnaq. – *Çırno:uxdan qazanı suynan doldudum* (Çənbərək).

**ÇIRPACAX** (Ordubad) – b a x **çırpaquc.** – *Çırpacağı aparım, yun çırpım gətirim.*

**ÇIRPAĞAC** I (Cəbrayıl) – meyvə çırpmaq üçün uzun ağac. – *Bayram çırpağacnan qoz çırpırdı.*

**ÇIRPAĞAC** II (Tərtər) – b a x **çırpaquc.** – *Çırpağacnan yun çırpırıx.*

**ÇIRPAQUC** (Salyan) – yun çubuğu. – *Çırpaquc heyva ağacınnan olur.*

**ÇIRPANAX** (Meğri, Zəngilan) – b a x **çırpağac.** – *Çəvizi çırpanağnan çırperıx* (Zəngilan).

**ÇIRRI** (Qazax) – 1. kök, yağlı. – *Yox, arıx döylü, çırrı heyvandı;* 2. *məc.* varlı, dövlətli. – *Meyti kişi çırrıdı, istəsə yaxşı toy eliyə bilər oğluna.*

**ÇIRT** (Cəbrayıl) – bərk (tütün). – *Seydəli kişi çırt təmbəki becərir.*

**ÇIRTDAX** I (Göyçay) – qığılcım. – *Ocaxdan çırtdax çıxır.*

**ÇIRTDAX** II (Ağdam) – günəbaxan tumu.

**ÇIRTDAMAĞ** I (Salyan, Yardımlı) – sıçramaq, kənara tökülmək. – *Biyaz <bir az> kanarda durun, su üssüzə çırtdıyar* (Salyan); – *İsdi sacun üsdünə noxudi tökəndə çırtdey* (Yardımlı).

**ÇIRTDAMAĞ** II (Salyan) – dözə bilməmək. – *Uşağ çətinniy görmüyüf, hər işə çırtdıyır.*

**ÇIRTDIĞ** I (Cənubi Azərbaycan) – itdirsəyi. – *Gözümə çırtdığ çıxıb.*

**ÇIRTDIĞ** II (Cənubi Azərbaycan) – bitki adı. – *Çırtdığı toxumu göy olanda yeyillər.*

**ÇIRTIM** (İsmayıllı) – lovğa. – *Əcəb çırtım qızın var.*

**ÇIRTMAĞ** (Salyan) – xırda-xırda doğramaq. – *Şorun üsdünə bi az soğan çırtson daddı olar.*

**ÇIRTMAX** I (Zəngibasar) – yonmaq. – *Ağadzın udzunu çırtmasan, yaxdzı oturmaz.*

**ÇIRTMAX** II (Şərur) – cücərmək. – *Toxum hələ təzə-təzə çırtır.*

**ÇITDAX** (Kürdəmir, Şəki) – b a x **çırtdax** I. – *Piləyəndə otu çıtdax vərir* (Kürdəmir).

**ÇITIX** I (Barana, Qazax) – xırda doğranmış odun. – *Çıtıxnan ojax qalerıx* (Qazax).

**ÇITIX** II (Gəncə) – çırtma. – *Qarpızı çıtığıynan vuruf seçir.*

**ÇITIZMAX** (İsmayıllı, Mingəçevir, Şəki) – andırmaq, xatırlatmaq. – *Mən o əhvalatı anama çıtızdım* (İsmayıllı).

**ÇITQA** (Lənkəran) – sızanaq. – *Sənin üzüvi çıtqa basıb ki.*

**ÇITQI** (Tovuz) – samovar üçün xırda doğranmış odun parçası. – *Gülüyə de, sımavara bir-iki çıtqı tullasın.*

**ÇITMIX** (Şərur) – çırtma, çırtıq. – *Mən çıtmıx çalıyam.*

**ÇITRAX** (Xanlar, Qazax) – bol, çox, həddindən artıq. – *Alma çıtrax gətirif* (Xanlar).

**ÇIZĞIRMAĞ** (Yardımlı) – fəvvarə vurmaq. – *Oyənnən turbə partdeyıb, su çızğırey.*

**ÇİBƏRDƏK** (Ağbaba) – zəif, gücsüz.

**ÇİBİN** I (Lerik, Yardımlı) – milçək.

**ÇİBİN** II (Masallı, Yardımlı) – bal arısı. – *Üç yeşik çibin saxlıram* (Masallı).

**ÇİÇƏ** I (Kəlbəcər, Kürdəmir, Mingəçevir, Salyan) – təzə. – *Qıza çiçə paltar tikdilər* (Kəlbəcər).

**ÇİÇƏ** II (Şərur) – əmi və ya dayıarvadı.

**ÇİÇƏ** III (Yardımlı) – gözəl, qəşəng. – *Neynəg, sən çiçə ol, mən xıxə* (kifir, eybəcər).

**ÇİÇƏX′** (Hamamlı) – qoyun xəstəliyi adı. – *Çiçəx′ azarı qoyunu yaman qırır.*

**ÇİÇƏX′SUYU** (Gəncə, Xanlar, Şahbuz) – taxıla verilən ikinci və ya üçüncü su. – *Taxılın ikinci suyuna diyərix′ çiçəx′suyu* (Şahbuz).

**ÇİÇƏLƏ** (Lənkəran) – yağsız (ət).

**ÇİDARRI: ÇİDARRI OLMAX** (Gəncə, Xanlar) – *məc.* məşğul olmaq, başı işə qarışmaq. – *Orda çidarrı olmasam, siznən çox danışardım* (Xanlar).

**ÇİG** I (Dərbənd, Tabasaran) – b a x **çiy** II. – *Saba-saba bağçeyə girmağ ulməyədu çigdən* (Dərbənd).

**ÇİG** II (Dərbənd) – b a x **çiy** IV. – *Dolmiyə qatığa gəlmişdi, qatığ yoxudu çiğ vərdim. – Qeymağin dibinnən çıxana çiğ diyədig.*

**ÇİG** III (Dərbənd, Tabasaran) – çiskin, narın yağış.

**ÇİGİRTGƏ** (Ordubad) – kitrə. – *Mənə ağacdan çigirtgə qopar ver.*

**ÇİGLƏMAĞ** (Dərbənd) – çiskinləmək. – *Bayir çigliyədü.*

**ÇİGYƏN** (Quba) – yeralması.

**ÇİĞRİĞ** (Quba) – dırmıq.

**ÇİX′LİX′** (Şəki) – örtük, çexol.

**ÇİKİLƏ** (Başkeçid, Borçalı) – baş yaylığı. – *Çikilənin uzunu iki arşın, eni üş çərəx′ olor, arvaddar başdarına bağle:llar* (Borçalı).

**ÇİL** (Ağdam, Kəlbəcər, Oğuz, Zaqatala) – vəhşi qaz. – *Çil talalarda olur, hər sa:t insana yaxın gəlmir* (Oğuz).

**ÇİLÇİRƏ** (Şəki) – çıraq. – *Ağ demirdən qə:rilər demirçilər çilçirəni.*

**ÇİLƏ** I (Salyan) – çeçələ barmaq.

**ÇİLƏ** II (Salyan) – doğuşdan sonrakı qırxgünlük müddət (qadına aid).

**ÇİLƏDAĞ** (Ağdam, Bərdə, Tabasaran, Zəngilan) – dərman bitkisi adı. – *Çilədağı sınığa qoyullar* (Zəngilan); – *Çilədağı yəl ulan adam pişirib u yəl ulan yerinə buğin vərədü* (Tabasaran).

**ÇİLƏDƏNDİX′** (Cəbrayıl, Zəngilan) – çinədan. – *Toyuğun çilədəndi: teyxa daşdı* (Zəngilan).

**ÇİLƏDİ** (Bakı, Kürdəmir) – uşaq oyunu adı. – *Çilədi oynamaxdan ə:qqabını dağıtdın* (Kürdəmir).

**ÇİLƏX′** (Borçalı) – nəsil. – *Məhəmməd bizim çiləx′dəndi.*

**ÇİLƏKƏN** (Cəbrayıl, Çənbərək, Qazax, Oğuz, Tovuz, Zəngilan) – axar suyun qabağına yığılan çör-çöp, zir-zibil. – *Arxın çiləkənin təmizdə, su yaxşı gessin* (Zəngilan); – *Su qajdarını çiləkənnən təmizdəsən itgi olmaz* (Tovuz).

**ÇİLƏKƏNNƏMƏX′** (Cəbrayıl, Qazax, Tovuz) – çör-çöplə dolmaq, zibillənib tutulmaq (su arxlarına aiddir). – *Oğul, su kəsildi, yəqin qaj (arx) çiləkənniyif* (Tovuz); – *Suyun qavağı çiləkənneyir, arxdan daşer* (Qazax).

**ÇİLƏMƏK** (Şamaxı) – tumurcuqlanmaq. – *Ağajdar çileyib.*

**ÇİLƏSƏR** (Gədəbəy) – işlədilmiş suyun evdən çölə axması üçün düzəldilmiş kiçik arx, şırım. – *Çiləsəri təmizdə:ŋ kin, su axıf gessin öydən.*

**ÇİLİXʹ** I (Daşkəsən) – yəhərin altından altın belinə qoyulan keçə, tərlik. – *Çiliyi atın belinə qoyollar yəhəri basmasın.*

**ÇİLİXʹ** II (Çənbərək) – evin tavanındakı tirlərin üstünə düzülən gödək ağaclar. – *Bir burusdan kəsdim üş çilixʹ çıxdı.*

**ÇİLİXʹBURNU** (Füzuli, Goranboy, İmişli, Laçın, Şəmkir, Şuşa) – yabanı bitki adı. – *Çilixʹburnu qaro:tdan yararrıdı* (Şəmkir); – *Quzunu orıya apar, çilixʹburnu var, otdasın* (İmişli).

**ÇİLİNG** I (Quba, Şamaxı) – calaq, qələm. – *Biyil yüzətən tə:k çiliyim qurudu* (Şamaxı). ◊ **Çiling vurmağ** (Quba) – calamaq, calaq vurmaq. – *U ağaca ki çiling vurarduğ, unda gec düşədü bəhərə.*

**ÇİLİNG** II (Zaqatala) – nağara çubuğu. – *Nağarıya çiling kəsir.*

**ÇİLİS** (Lənkəran, Meğri, Salyan) – xəsis. – *Yaxşı adam çilis olmaz* (Salyan); – *Gör Fəhrat necə çilisdi ki, nənəsinə bir payı da qıymır versin* (Meğri).

**ÇİLLƏKƏN** (Gəncə, Xanlar) – selin gətirdiyi iri kötük və ya ağac. – *Selin gətirdiyi yekə ağaca çilləkən deyrixʹ* (Xanlar).

**ÇİLLİTMƏG** (Yardımlı) – oğurlamaq. – *Bi yerə şeh* (*şey*) *qoymalü dögü, u sa:t çillideylər.*

**ÇİLMƏÇİLİXʹ** (Yevlax) – çilingağac (oyun adı). – *Uşaxlar qapıda çilməçiliy oynu:llar.*

**ÇİLOSSƏN** (İsmayıllı, Şamaxı) – aşsüzən.

**ÇİLO:UT** (İmişli) – çalağan. – *Çilo:ut cücə aparır.*

**ÇİLPƏXʹ** I (Cəbrayıl) – parça qırığı. – *O çilpəxʹlərdən bir-ikisin gəti mə:.*

**ÇİLPƏXʹ** II (Cəbrayıl) – qaymağın üzündəki nazik təbəqə, qat.

**ÇİM** I (Ağcabədi, Bakı, Daşkəsən, Goranboy, Xanlar, Kürdəmir, Qazax) – tamam, tamamilə. – *Ət çox yağlı olanda de:rixʹ çim yağdı* (Goranboy); – *Xüreg lap çim yağdu* (Bakı); – *Ət çim yağdı* (Daşkəsən).

**ÇİM** II (Salyan) – dəfə, kərə. – *Yayda gündə bi çin yatıram.*

**ÇİMÇƏLƏŞMƏXʹ** (Ağbaba, Şərur) – ürpəşmək. – *Qorxudan ətim çimçələşir* (Ağbaba).

**ÇİMÇƏMMƏXʹ** (Şuşa) – iyrənmək. – *Adam hər şeydən çimçəmməz.*

**ÇİMÇİNMƏK** (Ağsu, Kürdəmir) – b a x **çimçəmməxʹ.** – *Xörəkdən tük çıxdı, yap çimçindim* (Kürdəmir).

**ÇİMƏSİL** (İsmayıllı) – itburnu. – *Çiməsildə vitamin çox olur.*

**ÇİMİLDƏŞMƏXʹ** (Tovuz) – ürpəşmək. – *Qorxumnan bədənim çimildəşdi.*

**ÇİMİLLƏŞMƏXʹ** (Ağbaba) – qaynamağa az qalmaq, qaynama ərəfəsinə çatmaq. – *Çay çimildəşir.*

**ÇİMİR** (Gədəbəy, İsmayıllı, Kürdəmir, Qazax, Meğri, Salyan, Şamaxı, Şəki, Şəmkir, Tovuz) – mürgü. – *Gözümə tezəcə çimir getmişdi, gəlif ça:rdılar* (Şəki); – *Bu gecə mürçexʹ qoymuyup gözümüzə çimir gessin* (Meğri); – *Be:cə gözümə çimir də getmi:b* (İsmayıllı). ◊ **Çimir almax** (Qazax, Tovuz) – yuxuya getmək, azacıq yatmaq. **Çimir vurmağ** (Göyçay) – b a x **çimir almax. Çimir eləməxʹ** (Gədəbəy, Şəmkir) – b a x **çimir almax.** – *Heş çimir almamışdım, gəlif qaldırdılar* (Tovuz); – *Yenişkənə çimir eleydim kin, qapı döyüldü* (Gədəbəy).

**ÇİMLƏMƏG** (Salyan) – belləmək, şumlamaq. – *Bossanın yerini payızza çimləmişəm.*

**ÇİMPİZ** (Zaqatala) – kotanın ağzına yığılan çör-çöp.

**ÇİN** I (Ağcabədi, Ağdaş, Bakı, Bərdə, Cəbrayıl, Göyçay, Lənkəran, Tərtər, Zərdab) – düz, doğru. – *Yuxum çin çıxdı* (Cəbrayıl); – *Nənəmin yuxusu çin oldu* (Zərdab).

**ÇİN** II (Kəlbəcər) – qoyunun dizi ilə topuğu arasındakı sümük. – *Qoyunun budundakı sümüyə orta sümüxʹ deyrıx, onnan aşağı topuğunacan olan sümüyə çin deyrıx.*

**ÇİN** III (Cəlilabad, Yardımlı) – sıra, cərgə. – *Evin duvarınnan qaley bi çin.* ◊ **Çin qurmax** (Zəngilan) – sıra ilə bir-birinin üstünə yığmaq. – *Əli gətdiyi odunnarı qapidə çin quruf.*

**ÇİN** IV (Bərdə, Cəbrayıl) – xalça, gəbə üçün əyrilmiş ip. – *Çin teyxa yunnan olur* (Bərdə). ◊ **Çin çəkməxʹ** (Cəbrayıl) – xalça, gəbə üçün ip əyirmək. – *Nabat xala yaxşı çin çəkir.* **Çin vırmax** (Cəbrayıl) – xalçaya, coraba naxış vurmaq. – *Zibeydə coraba yaxşı çin vırır.*

**ÇİN** V (Yardımlı) – oraq. – *Kətdə zəmini çinnən də biçeylər.*

**ÇİN** VI (Yardımlı) – dəfə, kərə. – *Bi çin gəlmişəm hələ, genə də gedəcəm.*

**ÇİNCƏR** (Balakən) – gicitkən.

**ÇİNÇİRA** (Şəki) – b a x **çilçirə.** – *Çinçira: əldə-əyaxda, damda yandırarıx.*

**ÇİNÇOVAT** (Ağdərə) – xəbərçi. – *Çinçovat adam çox pis adamdı.*

**ÇİNƏ** (Cəlilabad) – döyülmüş taxılın içərisində qalan sünbül qırıntıları. – *Bığdanın çinəsin ayırun.*

**ÇİNƏÇİ** (Ağcabədi, Bərdə, Salyan) – muzd ilə iş görən. – *Çinəçi kənardan gəlif muzdnan pambıx yığardı* (Ağcabədi).

**ÇİNƏÇİLİĞ** (Salyan) – dilənçilik. – *Elə adam var çinəçiliğ eliyir.*

**ÇİNƏM-ÇİNƏM: ÇİNƏM-ÇİNƏM ELƏMƏX′** (Ağcabədi) – fikirləşmək, götür-qoy etmək. – *Bular çinəm-çinəm elədilər.*

**ÇİNGİR** (Lənkəran) – çöl quşu.

**ÇİNİ** I (Şərur) – büzməli. – *Çini tuman hələ indi də var.*

**ÇİNİ** II (Gədəbəy, Kəlbəcər) – nəlbəki. – *İstəkani çiniyə qoyollar* (Gədəbəy).

**ÇİNİ** III (Daşkəsən) – ilmək. ◊ **Çini çalmax** – ilmək vurmaq.

**ÇİNNƏMƏG** (Yardımlı) – üst-üstə yığmaq. – *Odunnəri bi yerə çinnə.*

**ÇİNRİX′** (Çənbərək) – quru. – *Çinrix′ yığılan ot xarav olmaz.*

**ÇİNTAL** (Göyçay, Xudat, Oğuz, Tərtər, Ucar) – ağacdələn. – *Çintal dındağıynan ağacı deşir* (Oğuz); – *Çintal göycə qarğa kimidi* (Ucar); – *Çintalın peşəsi ağacı deşməx′di* (Tərtər).

**ÇİNTALDAN** (Cəbrayıl) – təzədən, yenidən. – *Əli mə:llim yoxlamanı çintaldan başladı.*

**ÇİPƏ** (Yardımlı) – kol-kos. – *Bi az çipə yığ, ot <od> qəliyəg.*

**ÇİPİTDİG** (Yardımlı) – kol-kosluq. – *Malları çipitdiyə ötirmişəm.*

**ÇİPLƏMAX** (Dərbənd) – yığmaq, toplamaq. – *Xanayeki kələmluğdan çipləyib atdular.*

**ÇİR** (Dərbənd) – hasar. – *Məhəmmədalı təzə çir tikdiritdi.*

**ÇİRABBAN** (Şəki) – üstünə çıraq qoyulan üçayaqlı dəmir alət. – *Saciyax kimi üş qışlı demirdən olurdu çirabban.*

**ÇİRÇİRƏ** (Qax) – qığılcım. – *Bi şillə vurdu, qözümnən çirçirə qopdu.*

**ÇİRHLİX′** (Mingəçevir, Oğuz) – döşəkağı. – *Çirhlix′ çox yaxşı şeydi* (Oğuz).

**ÇİRİX′** (Gədəbəy, Xanlar) – b a x **çilix′** I. – *Atım oxxartana tərrəmişdi kin, çim su olmuşdu çirix′* (Gədəbəy); – *Çiriyi atın belinə qoyullar kı, kiri getsün* (Xanlar).

**ÇİRİŞ** I (Ağdam, Cəbrayıl, Gədəbəy, Mingəçevir, Ordubad, Zəngilan) – yeməli bitki adı. – *Çirişin yaxşı xitəbi olur* (Cəbrayıl); – *Cirişi doğruyuf fətirin arasına qoyurux, soŋra sajda kətə pişirerix′* (Gədəbəy).

**ÇİRİŞ** II (Zəngilan) – yağ qabı (6-8 kqlıq). – *Çirişin dibində bir əz yağ var, onu gəti atax bişmişə.*

**ÇİRİŞ** III (Şuşa) – qoyun bağırsağından hazırlanan ip. – *Onun peşəsi çiriş qayrıf satmaxdı.*

**ÇİRİŞÇİ** (Şuşa) – qoyun bağırsağından ip düzəldən adam. – *Çirişçi Məhərrəmin bir dingili qızı var.*

**ÇİRKİMMƏG** (Cəlilabad) – iyrənmək. – *Əvvəl o qabda yeydim, o qabdən çirkindim.*

**ÇİRPİŞMAX** (Şəki) – dalaşmaq. – *Usuf arvadnan çirpişif getdi.*

**ÇİRSENG** (Zaqatala) – çiskin. – *Çirseng yağış yağırdı, anam inək sağırdı.*

**ÇİRTMƏ** (Oğuz) – baş yaylığı. – *Çirtməni arvatdar başına bağlıyar.*

**ÇİSAN** (Dərbənd) – çiskin.

**ÇİSANNAMAĞ** (Dərbənd) – çiskinləmək.

**ÇİSBƏND** (Füzuli) – torba. – *Onu götdü qoydu çisbəndinə.*

**ÇİSƏX′** (Çənbərək, Oğuz, Şəmkir, Tovuz) – narın yağış. – *Yazbaşı çox olur çisəx′* (Şəmkir); – *Sə:rdən çisəx′ gəlir* (Basarkeçər).

**ÇİSƏX′LƏMƏX′** (Çənbərək) – narın yağış yağmaq. – *Savaxdannan çisəx′liyir.*

**ÇİSƏNGİ** (Ağdam) – çisək, narın yağış. – *Bu çisəngi laf məni təngə:tirif.*

**ÇİŞDİX′** (Xanlar) – yun darağının ağzına keçirilən taxta. – *Min dəfə demişəm ki, darağı çişdix′siz qoymuyun.*

**ÇİŞİ** (Şahbuz) – balı çıxarılmış şan. – *Çişi əridillər mum olur.*

**ÇİTAR** (Oğuz) – yabanı ağac adı. – *Əlli il horda dursa ya hündürrəşir, ya bö:mür çitar, mənfə:ssiz ağaşdı.*

**ÇI:TDİ** (Şərur) – pambıq. – *Mən çi:tdi yığmaxda qalxoza kömək eli:rəm.*

**ÇİTƏXʹ** I (Gədəbəy) – naxış, bəzək. – *Dəsmələ elə çitəxʹ vurmuşum kun, gəl görəsən.*

**ÇİTƏXʹ** II (Ağcabədi) – evin tavanına döşəmək üçün qamışdan hörülmüş tərəcə. – *Çitəi əvin üsdünə hörüllər.*

**ÇİTƏMƏK** (Salyan, Yardımlı) – b a x **çitəməxʹ** I.

**ÇİTƏLƏMƏXʹ** (Oğuz) – tələsik, başdansovma tikmək. – *Ala bu köynəyi çitələ maŋa ver.*

**ÇİTƏMƏ** (Ağcabədi, Cəbrayıl) – qarğıdan hörülmüş çəpər. – *Çitəmiyə paltar sərmişixʹ* (Ağcabədi).

**ÇİTƏMƏXʹ** I (Basarkeçər, Cəbrayıl, Füzuli, Mingəçevir, Şəmkir) – 1. qarğıdan hasar hörmək (Cəbrayıl, Füzuli). – *Salman yaxşı çitəmə çitiyir* (Cəbrayıl); 2. başdansovma tikmək (Basarkeçər). – *Yaylığımın qırağın çitə ver.*

**ÇİTƏMƏXʹ** II (Gədəbəy) – naxış vurmaq, bəzəmək. – *Dəsməlin qırağın çite:rsəŋ də:n gənə.*

**ÇİTƏŞMƏXʹ** (Beyləqan) – höcətləşmək. – *Çitəşməxʹ mənasız işdi;* – *Bir xeyli çitəşdilər, amma dalaşmadılar.*

**ÇİTMƏ** (Ağdam, Mingəçevir, Oğuz) – b a x **çirtmə.** – *Başu: çitməsini bağla* (Oğuz).

**ÇİTRAX** (Basarkeçər) – çox, bol. – *Ağaş bu il çitrax gətirif.*

**ÇİVİ** (Culfa) – xışın bir hissəsi. – *Çivi xışda qılıçın qabağına deyirixʹ.*

**ÇİVZƏ** (Bərdə, Cəbrayıl, Culfa, Şərur, Qarakilsə, Tərtər, Zəngilan) – sızanaq. – *Boynuma çivzə çıxıp, yaman incidir* (Zəngilan); – *Bizdə çivzə yara adıdı* (Ordubad); – *Qoluma çivzə çıxıf* (Bərdə).

**ÇİY** I (Şəki) – nəm, yaş. – *Çiy olanda tay bağlı:llər tütünü, çiy olanda ovulmur.*

**ÇİY** II (Şəki, Tabasaran) – şeh. – *Gecələr çiy uladu* (Tabasaran).

**ÇİY** III (Şəki) – *məc.* – kobud, yersiz. – *Mən hunnan hələ çiy söz eşitməmişəm.*

**ÇİY** IV (Dərbənd) – üzü yığılmış, üzsüz süd.

**ÇİYƏ** I (Cəbrayıl, Zəngilan) – maşınla emal olunan yağ. – *Çiyədən xoşum gəlir* (Cəbrayıl).

**ÇİYƏ** II (Ağdam, Bərdə, Cəbrayıl, Yevlax, Zəngilan) – çiy südün qaymağı, üzü. – *Çiyə yeyirsĩ:zsa gətirim* (Zəngilan); – *Çiy südün üzü çiyədi* (Bərdə).

**ÇİYƏ** III (Göyçay, Qafan, Salyan) – kəndir.

**ÇİYƏ** IV (Yardımlı) – pambıq çiyidi. – *Çiyə heyvanı kökəldey.*

**ÇİYƏMƏ** (Tovuz) – küpə yığılıb saxlanılan qaymaq. – *Anama denən mənə yeylaxdan bir az çiyəmə göndərsin.*

**ÇİYİD** I (Balakən, Hamamlı) – meyvə çəyirdəyi. – *Hələ alçanın çiyidi bərkimiyif* (Hamamlı); – *Bu il çoxlu şəftəli çiyidi toplamışam* (Balakən).

**ÇİYİD** II (Göyçay) – şüyüd. – *Bizim bağda çiyid çoxdu.*

**ÇİYİD** III (Cəbrayıl) – kal, yetişməmiş (qarpız). – *Qarpız hələm çiyiddi, yeməli deyil.*

**ÇİYİNDİRİXʹ** I (Ağcabədi, Bərdə, Şuşa, Tərtər, Yevlax) – davamlı olmaq üçün köynəyin çiyninə tikilən əlavə parça. – *Çiyindirixʹ köynəi möykəm saxlıyır* (Ağcabədi).

**ÇİYİNDİRİXʹ** II (Ağcabədi, Bərdə, Şuşa, Tərtər, Yevlax) – çiyində aparılan ağac, budaq. – *Bağdan çiyindirixʹ kəsirdim* (Bərdə).

**ÇİYİNDİRMƏ** (Goranboy) – çiyində aparılan ağac, budaq. – *Meşədən bir çiyindirmə:tidim.*

**ÇİYİNNƏMƏ** (Qazax) – çiyində gətirilən odun. – *Meşədən hərəmiz gündə bir çiyinnəmə gətirerdixʹ.*

**ÇİYİRTDEXʹ** (Balakən) – çəyirtkə.

**ÇİYLƏMƏ** (Çənbərək) – üzlü pendir. – *Cijim bir motal çiyləmə qayrıf.*

**ÇİYSİMƏXʹ** (Çənbərək) – kiflənmək, xarab olmaq. – *Əpbəyi isdi-isdi bir yerə yığdım deyn çiysidi.*

**ÇİYSİMMƏXʹ** (Şəmkir, Zəngilan) – iyrənmək. – *Çiysimmişəm da: ətdən yə:mmərəm* (Şəmkir); – *O qədir yemisən ki, çiysimmisən dana* (Zəngilan).

**ÇOANTAR** (Füzuli) – köçəri. – *Ollar binəlidi, çoantar döyü.*

**ÇOBAL** (Qax, Zaqatala) – xörək adı. – *Anam bizə çobal bişirdi* (Zaqatala).

**ÇOBANALLADAN** (Cəbrayıl, Yardımlı) – bax **çobanyalladan.**

**ÇOBANAŞI** (Oğuz) – xörək adı. – *Çobanaşını yaxşı qoyun əti, içalat olanda bişirillər.*

**ÇOBANBOYU** (Qazax) – dərman bitkisi adı.

**ÇOBANÇÖRƏYİ** (İrəvan) – zəhmət haqqı olaraq çobanlara verilən çörək. – *Ay uşax, çobançörəyimi gətirin.*

**ÇOBANYALLADAN** (Başkeçid, Borçalı) – quş adı. – *Çobanyalladan balaca quşdu* (Borçalı).

**ÇOBANYARMASI** (Şahbuz, Şərur) – yazda yağan dolu. – *Əvə gələndə yolda bizi çobanyarması tutdu, cumculuğ elədi qoydu orda* (Şahbuz).

**ÇOD** (Culfa) – bərk, möhkəm. – *Çod daş yaxşıdı.*

**ÇODİ** (Tabasaran) – qutab.

**ÇOĞCARA** (Zaqatala) – yemək adı.

**ÇOĞDA** (Cəlilabad) – nazik ip.

**ÇOXNAX** (Gəncə, Mingəçevir, Zaqatala) – canavar sürüsü. – *Çöldə çoxnağa ras gəldim;* – *Sürüyə gecə çoxnax gəlmişdi* (Gəncə).

**ÇOQQUŞMAX** (Zəngilan) – toqquşmaq. – *Qaçanda əliynən çoqquşdux.*

**ÇOLAQQA** (Lənkəran) – çala-çuxur. – *Burdan keçmə, çolaqqıya düşərsən.*

**ÇOLĞALA** (Sabirabad) – çeçələ (barmaq). – *Əlimdə çolğala barmağıma dolama çıxıb.*

**ÇOLPAN** (Xanlar) – təpəlik, kiçik dağlıq. – *Çolpan bir az xurda dağlıx yerdi dana;* – *Bir az xurdalı yerə çolpan deyrix'.*

**ÇOLPUMAX** I (Ağdaş) – axsamaq. – *Səmədin kəli çolpuyur.*

**ÇOLPUMAX** II (Çənbərək, Mingəçevir) – ora-bura qaçmaq, tələsik iş görmək.

**ÇOLPUTMAX** (Ağcabədi, Ağdam) – 1. əldən salmaq. – *Məni oğlumun dərdi çolpuduf* (Ağdam); 2. karıxdırmaq. – *Bu kişi məni çolputdu* (Ağcabədi).

**ÇO:MAX** (Şəki) – pozulmaq, sapmaq. – *İş ço:masın, ço:du qutaldı, sora çətindi.*

**ÇOMPUZ** (Zaqatala) – çoban çomağı.

**ÇOMUR** (Cəlilabad) – bulanıq.

**ÇONA** (Kürdəmir, Salyan) – qovun, qarpız, xiyar toxumu əkmək üçün qazılmış yer, kiçik çala. – *Çona qazıruğ, iki hissə torpaq, bi hissə peyin qarışdırruğ bir-bi:nə* (Salyan).

**ÇONÇOR** (Balakən) – gölməçə.

**ÇOPUX** (Oğuz, Zaqatala) – yunun darana bilməyən keyfiyyətsiz hissəsi. – *Yastığın için çopuxnan doldur* (Zaqatala).

**ÇOPUZ** (Qax, Şəki, Zaqatala) – keçədən tikilmiş geyim növü. – *Yapıncı uzun olur, çopuz bir az qısa* (Qax); – *Çopuzum öydə qalıtdı.* – *Keçədən tihdirif giyərdilər çopuzu* (Şəki); – *Çobanın çopuzu qəlindi* (Zaqatala).

**ÇOR** (Cəbrayıl, Şərur) – üzüm tənəklərinə, meyvə ağaclarına düşən xəstəlik. – *Bı yil üzümümüzü çor təmiz puç elədi* (Cəbrayıl).

**ÇORÇOR** (Balakən) – dəyirman suyunun kənara axıdılması üçün düzəldilən yer.

**ÇORNA** (Salyan) – bəhanə. – *Görəssən, genə bı çorna tapacağ.*

**ÇORPUMAX** (Şəki) – çaşmaq, karıxmaq. – *Laf çorpumişəm, bilminəm heç hansı işi tutum.*

**ÇORT** I (Gəncə, Şəmkir) – şortlaq (at). – *Çort atı mimməx' yaxşı döy* (Gəncə); – *Çort at minməyə əl verməz* (Şəmkir).

**ÇORT** II (Salyan) – fikir; qəm, qüssə. – *Çort çəkməgnən iş düzəlmir.*

**ÇORT** III (Salyan) – kef, əhval. – *Heç çortu: pozma, hər şey yaxşı olar.*

**ÇORTAN** (İrəvan) – 1. qatıq qarışdırılmış şor. – *Bu qava bir az çortan qoy;* 2. süzülmüş ayran (Şərur).

**ÇORTDAĞAN** (Gəncə) – narahat yerişli, yorğa olmayan, adamı atıb-tutan (at). – *Sizin at çortdağandı.*

**ÇORTDURMAX** (Balakən) – qovmaq. – *Yazığı hora kimi çortdurup.*

**ÇOŞA** I (Zəngilan) – qarğıdalı cecəsi. – *Bı çoşaları yolun içinə töx'mü:n.*

**ÇOŞA** II (Şərur) – çərəz, hər hansı bir yeməli şey. – *Əvdə bir çoşa yoxdu ağzıma qoyum.*

**ÇOTA** (Çənbərək, Qazax) – təpə. – *Do:şanı qoyladım, çotada gizdəndi* (Çənbərək); – *Qoyunu çotuya ver* (Qazax).

**ÇOTMAL** (Gədəbəy) – əyri. – *Çotmal ağaşdan taxta olmaz.*

**ÇOTURRU** (Xanlar) – kələ-kötür. – *Gərməşö:n üzü çoturru olur.*

**ÇO:UMAĞ** (Dərbənd) – bax **ço:max.** – *Gəti muni sürt kirişə çiğirğdən ço:umasun.*

**ÇO:UŞ** (Kürdəmir) – başçı. – *Qaçaxların ço:uşu de:llər Mehdi olup.*

**ÇOVUT** (Zaqatala) – quru çay. – *Çovutnan çey dəmliylə.*

**ÇOYĞA** (Daşkəsən, Goranboy) – tayfa, nəsil. – *Bizim kətdə iki çoyğa oluf* (Daşkəsən); – *Kətdə xeylax çoyğa var* (Goranboy).

**ÇOYNAX** (Qazax) – çolaq, şikəst. – *Bu kişi çoynaxdı.*

**ÇÖCƏ** (Ağdaş, Qəbələ, Oğuz) – b a x **çöycə.** – *Bir çöcə qaymağ aldım* (Qəbələ); – *Çöcəmiz çox paslıyıf* (Ağdaş); – *Sütü çöcəyə töküb bacıma verdim* (Oğuz).

**ÇÖÇÜY** (Qax) – qardaş. – *Çöçüy, gəl morux yığmağa gidax.*

**ÇÖÇƏ** I (Ordubad, Şərur) – şirin çörək növü. – *Bayram olanda çöçə yapırıx* (Ordubad).

**ÇÖÇƏ** II (Şəki) – pəncə. – *İt çöçələrini pəncərəyə qoyuf öyə baxırdı.*

**ÇÖÇƏLƏMƏXʹ** (Gədəbəy) – kiçik addımlarla yerimək. – *Nə çöçələrsəŋ, belin-zadın sınme:f ki?*

**ÇÖÇÜN** (Meğri) – bacarıqsız, yarıtmaz. – *Xacca çöçün arvatdı.*

□ **Çöçün gəlməxʹ** (Ağcabədi, Cəbrayıl, Kürdəmir, Laçın, Mingəçevir, Lerik, Salyan, Yardımlı, Şamaxı) – b a x **çeçin gəlməxʹ.** – *Bu iş mə: çöçün gəlir* (Ağcabədi); – *Sana çöçün gəlməsin* (Laçın); – *Mə:m hər işim sə: çöçün gəlir* (Cəbrayıl); – *Mə:m cuğabım sə: çöçün gəlir?* (Şamaxı).

**ÇÖDİ** (Dərbənd) – b a x **çodi.**

**ÇÖFLƏMƏ** (Basarkeçər) – toyuq xəstəliyi adı. – *Tö:xlərə çöfləmə azarı tüşüf.*

**ÇÖFLƏMƏXʹ** (Qazax) – otlamaq. – *A bala, malları yellə çöfləsin.*

**ÇÖGƏCƏ** (Qax) – b a x **çöycə.**

**ÇÖXʹSƏXʹ** (Daşkəsən) – çökək. – *Hop çöxʹsəy oloy, orya ağajı keçireylər, da çıxası olmoy.*

**ÇÖXʹSÜTMƏXʹ** (Gədəbəy) – hədə-qorxu gəlmək, qısma-boğmaya salmaq. – *Nə çöxʹsüdüfsüŋ, ə: uşağı, götü göröm burdan.*

**ÇÖJ** (Bərdə, Tərtər) – fırfıra. – *Çöjün uzu nəziy olur* (Bərdə).

**ÇÖKƏCİMƏXʹ** (Qax) – büdrəmək. – *Ha burda onun ayağı çökəciyər.*

**ÇÖKƏNƏXʹ** (Zaqatala) – çökək.

**ÇÖKÜR** I (Gədəbəy) – biçilmiş ot və ya taxılın yerdə qalan gövdə hissəsi. – *Əyğımı atan kimi bir çökür düz barmağımın arasın yardı.*

**ÇÖKÜR** II (İmişli) – kol-kos yarası. – *Quzunun ə:ğında çökür var.*

**ÇÖKÜRRƏNMƏXʹ** (İmişli) – kol-kosdan yaralanmaq. – *Qoyunun ə:ğı çökürrənif.*

**ÇÖLÇİ** (Göyçay) – çöl işləri ilə məşğul olan şəxs.

**ÇÖLMƏ** (Culfa) – xörək bişirilən saxsı qab. – *Çölmədə ət bişirəllər.*

**ÇÖLMƏG** (Cəlilabad, Salyan) – 1. b a x **çölmə;** 2. dibçək.

**ÇÖLMƏXʹ** (Gədəbəy, Naxçıvan, Şərur, Ordubad) – b a x **çölmə.** – *Çölməxʹləri yü, piti qoyuram indi* (Gədəbəy); – *Çölməxʹdə biz qartop bişirərıx* (Ordubad).

**ÇÖLMƏY** (Göyçay, Lənkəran, Masallı) – b a x **çölmə.** – *Nənəm çölməydə xörəy pişirmişdi;* – *Çölməy düşdü yerə tikə-tikə oldu* (Lənkəran).

**ÇÖMÇƏ** (Salyan) – dəfə. – *Sən onnan da yüz çömçə ötəsən* (yaxşısan).

**ÇÖMÇƏQURUTMAZ** (Ağdam) – payızın son ayı.

**ÇÖMƏLƏN** (Çənbərək) – toyuq xəstəliyi adı. – *Ballının töyğünü çömələn qırdı.*

**ÇÖNÇƏ: ÇÖNÇƏ OLMAX** (Füzuli) – kiflənməmək, kif atmamaq. – *Xamra vurulan lavaş yaxşıdı, çönçə olur, bir ay qalır.*

**ÇÖNDƏRMƏG** (Cəlilabad) – çevirmək, döndərmək. – *Üzin çöndərdi oğlı İbrahimə tərəf.*

**ÇÖPBAŞI** (Ağcabədi) – inqilabdan əvvəl heyvanların otlaqda otlamasına görə alınan vergi. – *Çöpbaşı, yəni heyvanın otduyur düzdə, qoyuna bir abbası, qara mala on şahı ver.*

**ÇÖPİXʹ** (Şəki) – yorğan-döşəyin içərisində işlənib xarab olmuş yun. – *İki döşşeyə təzə yün lazımdı, içindəki çöpixʹdi, ha didif düzəldiyəm bi şey çıxmiyi.*

**ÇÖPÜXʹ** I (Ağdam, Basarkeçər, Gədəbəy, Xocavənd, Qazax, Zaqatala) – 1. b a x **çöpixʹ** (Ağdam, Xocavənd). – *Çömpüxʹdən bir şey olmur* (Ağdam); 2. yun daranarkən darağın dişlərində qalan yararsız hissə (Basarkeçər, Qazax, Zaqatala, Gədəbəy). – *Çöpüxʹdən örülən coraf govud olor* (Gədəbəy).

**ÇÖPÜXʹ** II (Goranboy) – möhkəm, davamlı. – *Bozax qoyun çöpüxʹdü, tavanalıdı.*

**ÇÖRƏGQATIĞI** (Salyan) – ətsiz bişirilmiş borş.

**ÇÖRƏX′LƏMƏX′** (Cəbrayıl, Gədəbəy) – çörək vermək, yedirmək. – *Qonaxları çayle:f, çörəx′le:f yola saldım* (Gədəbəy).

**ÇÖRMƏ** (Kürdəmir) – düzənlik, çöl. – *Qoyunnar çörmədə otduyur.*

**ÇÖSKÜ** (Qarakilsə, Şahbuz) – yurd, müvəqqəti düşərgə. – *Gəlmələr Vəngda yalaçıx çöskü salıblar* (Şahbuz); – *Bir çöskü saldı bırda* (Qarakilsə).

**ÇÖYCƏ** (Qəbələ, Oğuz, Şəki, Zaqatala) – mis piyalə, kasa. – *Qonşudan bi çöycə un alıf yuxa salmışam* (Şəki); – *Bir çöycə bozbaş yi:f gəlirəm* (Oğuz); – *Çöycəni ma: gəti, Məhbubə* (Qəbələ); – *Sən götdün üç çöycə. Mən götüdüm beç çöycə* (Zaqatala).

**ÇÖYCƏLƏŞMAX** (Şəki) – qıvrılmaq, yumrulanmaq. – *Arxın başində bi dənə qızıl ilan çöycələşif yatmişdi.*

**ÇÖYƏN** (Şəki) – arabanın hissəsi. – *Oxa taxılan hissiyə diyillər çöyən.*

**ÇÖYSÜ** (Basarkeçər, Çənbərək, Hamamlı) – alaçığın orta dirəyi. – *Çırıyı dəyənin çöysüsünnən as* (Hamamlı); – *Bizim alaçığın çöysüyü palıtdandı* (Basarkeçər).

**ÇÖYSÜMƏX′** (Çənbərək) – daraşmaq. – *Qoyun sürüsü biçənə: çöysümüşdü.*

**ÇÖZ** (Çənbərək, İmişli) – bağırsaq. – *Qoyunun çözün siniyə yığdım* (Çənbərək); – *Çözzən gəti, tök ocağa bişsün* (İmişli).

**ÇÖZDƏMƏG** (Yardımlı) – b a x **çözdəməx′.** – *Sapı çözdəməginən.*

**ÇÖZDƏMƏX′** (Ağdam, Borçalı, Cəbrayıl, Culfa, Çənbərək, Xanlar, Meğri, Şahbuz) – açmaq, uzatmaq. – *Bağırsağı çözdəllər, ipi çözdəllər* (Xanlar); – *A:z, o baramanı niyə helə çözdüyüb korruyursan* (Cəbrayıl); – *Bağırsağı çözdə, mən də gələrəm* (Borçalı); – *Xacca corabın ipin çözder* (Meğri).

**ÇÖZƏLƏMƏG** (Cəlilabad, Sabirabad) – açmaq. – *Bu kəndiri çözəliyə-çözəliyə dalımcan gələrsən* (Sabirabad).

**ÇÖZƏLƏMƏX′** (Gədəbəy, Gəncə, Şərur) – b a x **çözələməg.** – *İpi çözələmə hayıfdı* (Gəncə); – *Niyə çözəleysiŋ, a:z, sapı?* (Gədəbəy).

**ÇÖZƏRƏX′** (Ağdam) – çürük. – *Elə qoz var çözərəy olur, yeməli olmur.*

**ÇÖZÜMƏX′** (Çənbərək) – ərimək. – *Qar çözüyür güneylərdə.*

**ÇUALLAMAX** (Xanlar) – çuvala yığmaq, doldurmaq. – *Şadarə:tireydix′, şadaradan da çıxeydi taxıl, sonra bir yerə tığleydıx, soŋra çualleydıx.*

**ÇUBUĞALTI** (Şamaxı, İrəvan) – külqabı. – *Çubuğaltını ver* (Şamaxı); – *O çubuğaltını bəri gəti* (İrəvan).

**ÇUDU** (Quba) – b a x **çodi.**

**ÇUGUN** (Quba) – samovarın altına qoyulan qab. – *Get bayirdan çugunu gətir.*

**ÇUĞUL** I (Ağcabədi, Basarkeçər, Borçalı, Böyük Qarakilsə, Daşkəsən, Gədəbəy, Gəncə, Goranboy, Göyçay, Kəlbəcər, Xanlar, Qazax, Salyan, Şuşa, Tərtər, Tovuz) – xəbərçi, araqarışdıran. – *Bizdə çuğul adam yoxdu* (Tovuz); – *Çuğula alağuz adam deyrəx′* (Daşkəsən); – *Qurvan yaman çuğul adamdı* (Gədəbəy); – *O çox çuğul adamdı* (Şuşa); – *Çuğul adam munun sözün ona de:r, onun sözün muna de:r* (Xanlar).

**ÇUĞUL** II (Basarkeçər, Göyçay, Oğuz, Salyan, Tovuz) – divarın düzlüyünü yoxlamaq üçün işlədilən alət. – *Duharın küncünü çuğulnan bir ölç, gör əyriliyi varmı?* (Tovuz); – *Ə:, çuğulu ver, difarı yoxluyum* (Basarkeçər).

**ÇUĞULÇU** (Şəmkir) – xəbərçi.

**ÇUĞULÇULUX** (Tovuz) – xəbərçilik. – *Çuğulçuluğ eləmə, yekə oğlansan.*

**ÇUĞULLAMAX** (Basarkeçər) – (b a x II məna) çuğulla divarın əyriliyini ölçmək, müəyyənləşdirmək. – *Bax, bırda çuğul çuğulladı.*

**ÇUXUR** (Bakı) – emallanmış kiçik və dərin qab.

**ÇUQQU** (Qəbələ) qadın yaylığı. – *Lalazar xala məclisdə çuqqusuz oturmuşdu.*

**ÇUL: ÇUL DÜŞMƏX′** (Cəbrayıl, Mingəçevir, Salyan, Oğuz) – yorulub əldən düşmək, taqətdən düşmək. – *O qədir işdəmişəm ki, yap çul düşmüşəm* (Cəbrayıl); – *Gidif çul düşəllər öyə* (Oğuz).

**ÇULĞALAMAX** (Şəki) – bürümək, basdırmaq. – *Qodüşdə qatıx çalıf üsdün çulğalamışam.*

**ÇULĞU** (Gəncə, Qazax, Şamaxı) – b a x **çulqu.** – *Haravanın çulğusu çıxıf* (Gəncə); – *Çulğu olmasa, təkər çıxar* (Qazax); – *Əyə, yavaş sür, çulğu çıxdı* (Şamaxı).

**ÇULĞUDUZ** (Qazax) – qanmaz. – *Çulğuduzun biridi, nə qaner.*

**ÇULQU** (Daşkəsən, Goranboy, Şəmkir) – təkərin çıxmaması üçün oxun ucuna keçirilən dəmir. – *Qoyma çulqu düşdü, indijə təkər çıxar* (Goranboy); – *Çulqunu oxun başına keçirəllər* (Daşkəsən).

**ÇULLAMAĞ** (Salyan) – dağıtmaq, sağa-sola xərcləmək. – *Pılın gərəg qədrin biləsən, hara gəldi çullamıyasan.*

**ÇULLAMAX** (Çənbərək) – sıx səpmək. – *Taxılı oxarta çulluyuflar kın, içində yeriməy olmur.*

**ÇUM** (Tovuz) – kökündən çıxarılmış alaq otları. – *Məhəllədəki çumları qıraxlara çıxardın.*

**ÇUMAÇƏ** (Dərbənd) – b a x **çumarça.** – *Nöüt getirmegə kitəndə yolda çumaçəmizin biri sinmişdi.*

**ÇUMARÇA** (Tabasaran) – samı. – *Bir buyunduruğda dörd çumarça ulur, bir də kücəğaci.*

**ÇUMBUZ** I (Başkeçid, Borçalı) – çim. – *Mən çumbuznan suyun qavağını kəsdim* (Borçalı).

**ÇUMBUZ** II (Gəncə, Xanlar) – b a x **çopuz.** – *Çumbuz da yapıncı kimi olur, əmbə balaca qolu olur* (Gəncə); – *Yağışda çovan altdan çumbuzu geyinir, üsdən də yapıncı* (Xanlar).

**ÇUMPUZ** (Qazax, Şəmkir, Tovuz) – 1. b a x **çumbuz** I. – *Çumpuz kəsin buzoyun damının üsdünə döşüyəx′* (Qazax); 2. kəsək. – *Toxuyu götü, o çumpuzdarı əz* (Şəmkir).

**ÇUR** (Zəngibasar) – borc. – *Beş aşıx da çur verdim, genə də uduzdu.*

**ÇUŞ** (Qazax) – yuxu. – *Çuş dəyişiriy olar.*

**ÇUŞBALAN** (Xanlar) – aşsüzən. – *Çuşbalan irəllər də:rdix′.*

**ÇUŞ OLMAX** (Qazax) – rast gəlmək, tuş olmaq. – *Yolda maŋa çuş oldu.*

**ÇUTQU** (Dərbənd, Quba, Mingəçevir, Şamaxı) – b a x **çuqqu.** – *Qart xatın təzə çutqusun bağladı* (Dərbənd); – *Anam başına çutqu bağlamışdı* (Şamaxı).

**ÇUVALDIZ** (Meğri) – böyük iynə, qıyıq. – *Taxmişam, üde: çuvaldız cəcimin üsdündədi.*

**ÇUVUQQU** (Şəki) – qoz və ya tut çırpmaq üçün ağac. – *Tutu tepiynən də çırparıx, çuvuqquynən də.*

**ÇUYUX** (Basarkeçər) – sıyıq. – *Xamır çuyuxdu, kündə təndirdə durmur.*

**ÇUCEY** (Zaqatala) – b a x **çöçüy.** – *Çuceyin əsgərdən kağızı gəlibdi.*

**ÇÜ** (İmişli, Salyan) – paz, çüy. – *Baltanın başına çü vır, çıxar dəgər uşağa* (İmişli).

☐ **Çü qoymağ** – ara qarışdırmaq, ara vurmaq. – *Sən çü qoymason, olar savaşmaz.*

**ÇÜDİ** (Dərbənd, Tabasaran) – b a x **çodi.** – *Müslümət ananın pişirən çüdiləri çux ləzətdü uladı* (Dərbənd); – *Çüdi ətdən də bişirilədü* (Tabasaran).

**ÇÜLƏ** (Lənkəran, Lerik, Yardımlı) – çöp. – *Bi dənə çülə ver, dişimi qurtdalayım* (Lənkəran).

**ÇÜLPƏK** (Göyçay) – süzgəc. – *Ayranı çülpəkdən keçir.*

**ÇÜMÜRÜX′** (Çənbərək, Gədəbəy, Qazax, Tovuz) – çürüdülmüş ayran, süd. – *Çümürüyü torvuya töx′* (Çənbərək); – *Asya bacı, köməy elə, bu çümürüx′ qazanın yerə qoyum* (Gədəbəy).

**ÇÜPƏ** (Cəlilabad) – çör-çöp. – *Qıza, ged çüpə gəti tökim təndürə.*

**ÇÜRMÜX′** (Zaqatala) – b a x **çümürüx′.**

**ÇÜŞMƏ** (Qazax) – azmış, itkin düşmüş (heyvan). – *Bu at çüşmədi, dörd aydı gəlif bizim ilxıya qarışıf, yə:si çıxmer.*

**ÇÜTQABAĞI** (Bakı) – b a x **cütqabağı.** – *Qabağlar arvaddar çütqabağı qoyardı.*

**ÇÜTRƏM** (Gədəbəy) – cüt, qoşa, birlikdə. – *İki çovan yolda çütrəm gedər;* – *Qızılözən xımırçəx′nən çütrəm olor.*

**ÇÜV** (Ağdərə) – təkərin oxdan çıxmaması üçün oxun ucuna keçirilən dəmir.

**ÇÜY** I (Gəncə, Şəki, Zaqatala) – b a x **çü.** – *O kötüyü çüynən yarmağ olar* (Zaqatala); – *Çüy olmasa, bu odun yarılmaz* (Gəncə); *Odunu çüynən yar* (Şəki).

**ÇÜY** II (Zaqatala) – göyərib qalxmış soğanın ucu. – *Ləkdən çüy yığdı.*

**ÇÜYÜ** (Daşkəsən) – boyunduruğun ortasına keçirilən iki ağac. – *Çüyü ağaşdan oloy;* – *Çüyüyü boyunduruğa vuroyrux kun, kağan ortadan qaşmasın.*

**ÇÜYÜDBAŞI** (Ağdam, Cəbrayıl) – şüyüd. – *Qızım, get çüyüdbaşı yığ, dolmuya tökəx′* (Cəbrayıl).

**ÇÜYÜT** (Qax, Qazax) – b a x **çiyid** II. – *Çüyüt olmuyan doyğa pis dader* (Qazax).

**ÇÜYÜTKƏ** (Qazax) – təkərin oxdan çıxmaması üçün oxun ucuna keçirilən dəmir.

# Dd

**DABA** (Qax, Zaqatala) – barsız.

**DABALAĞ** (Quba) – badalaq. ◊ **Dabalağ vurmağ** – badalaq vurmaq. – *Güləşəndə bizdə bir-birinə dabalağ vurardılar.*

☐ **Dabalağ gəlməg** (Quba) – kələk gəlmək, aldatmaq. – *Mən uşağ degiləm, mənə dabalağ gəlmə.*

**DABAN** I (Qarakilsə, Qazax) – dəyirman daşının işini nizamlayan dəmir hissə. – *Dabanı bərkit, daş düşər* (Qazax); – *Də:rmanın dabanın yendir, unu yaxşı üyüssün* (Qafan).

**DABAN** II (Şamaxı) – tütün bitkisinin kökə yaxın yarpaqları. – *Tənbəkinin dabani çəkməyə çox yüngüldü.*

**DABAN** III (Kürdəmir) – həncama əvəzində qapını çərçivəyə birləşdirən oxcuqlar (qapı bu oxcuqlar üzərində fırlanır). – *Qapı dabanınnan çıxdı.*

**DABAN** IV (Qax) – sinə. – *Əbdal kimi dabanını niyə açirsin?*

**DABANA** (Culfa, Qarakilsə, Şahbuz) – b a x **daban** III. – *Qapı dabanadan çıxıp* (Qarakilsə); – *Dabana qapını saxlıyır* (Culfa).

**DABANDI: DABANDIYA DÜŞMAX** (Zaqatala) – mövsümi işdən ixtisara düşmək; payızda arana köçəndən sonra işdən (çobanlıqdan) azad edilmək. – *Səlim əmi dabandıya düşdü.*

**DABANNAMAX** I (Qəbələ) – şabalıdı dabanla basaraq qərzəkdən çıxarmaq. – *Uşaxlar cecə dabannamağa gedillər.*

**DABANNAMAX** II (Zəngibasar) – çatmaq. – *Çapığ olmasan, səni dabannıyaram.*

**DABANNI** (Şuşa) – cürətli, ürəkli. – *Mö:kəm dabannı adam çoxdu burda.*

**DABANYARPAĞI** (Salyan) – tənəyin dib hissəsində əmələ gələn yarpaq. – *Tənəgdə yaman daban yarpağı var.*

**DABDABAY** I (Qax) – siçovul.

**DABDABAY** II (Qax) – balacaboy (adam).

**DABIRMA** (Şamaxı) – tez, tez-tez, cəld, sürətlə. – *Dabırma gessön, çatarsan.*

**DABİ** (Sabirabad) – sırıqlı.

**DABJO** (Zaqatala) – papiros. – *Dabjo aldım.*

**DABLI** (Qax, Zaqatala) – qıf.

**DABRAĞ** (Quba) – çuval. – *Əhmədin gəlini un dabrağ gətimişdi.*

**DABRIMA** (Kürdəmir) – b a x **dabırma.** – *Dabrıma gedib yoldaşua çat.*

**DABRIMAĞ** (Əli Bayramlı, İmişli, Kürdəmir, Qazax, Saatlı, Sabirabad, Salyan, Şamaxı) – tez-tez yerimək. – *Adə, dabrı də* (Saatlı); – *Dabrı, dahı gözdəməyə vax yoxdu* (Sabirabad); – *Bi də gördim, Həsən elə dabrıyır ki, az qalıb məni keçə* (Salyan); – *Adə, niyə dabrıyırsan, bir az usul ged* (Şamaxı); – *Sən dabrı, mən sə: çatacam* (Kürdəmir); – *Dabrı, yubamma, vax keçer* (Qazax); – *Bi az dabrı, bəlkə çatdun* (İmişli).

**DABRIMƏY** (Cəlilabad) – b a x **dabrımağ.**

**DADAX** I (Şəki) – ayaq. – *Qoyunun dadaxlarını bir asmışdıx, başini bir.*

**DADAX** II (Gəncə) – uşağın ilk addımı, ilk yerişi.

**DADAXLI** (Şəki) – ayaqlı. – *Dadaxlı sandıx varıydı bizdə.*

**DADAMAL** (Ağcabədi, Cəbrayıl, Çənbərək, Hamamlı, Xanlar, Qazax) – öyrəşmiş, dadanmış, alışmış. – *Dadamal qoyun südü içdi* (Ağcabədi); – *Pişik ətə dadamaldu* (Cəbrayıl); – *Toğlu dadamaldı deyn çox kökəlif* (Çənbərək); – *Bizim Göyərçin inəx′ yaman dadamaldı* (Hamamlı). ◊ **Dadamal olmax** (Gəncə, Xanlar) – öyrəşmək, alışmaq, dadanmaq. – *Danamız dadamal olub* (Gəncə); – *Çovannar quyruğ asdarına dadamal oloy yaman* (Xanlar).

**DADAMCIL** (Çənbərək) – öyrəşmiş, dadanmış, alışmış. – *Bizim inəx′ arxaca dadamcıldı, çöldə durmur, qaçıf gəlir.*

**DADAPİSDİX′** (Gəncə, Qazax, Şəmkir) – əziyyət, çətinlik. – *Bir dadapisdix′nən düzəltdim, yola saldım, getdi* (Şəmkir).

**DADARDOYMAZ** (Şəki) – az, yarımçıq. – *Yidi, amma dadardoymaz, doymadı.*

**DADAŞ** (Ağdam, Göyçay, Qusar, Lənkəran, Ordubad, Şamaxı, Yardımlı, Zəngilan) – 1. ata (Zəngilan). – *Bizdə dədə də de:rix′, dadaş da de:rix′,* 2. böyük qardaş (Ordubad); 3. dayı (Yardımlı).

**DADDAMAĞ** (Salyan) – çağırmaq, haraylamaq. – *Ədə, sə:rdən anon səni daddıyır, nöş cavab vermirsən?*

**DADDIĞ** (Qafan) – yağda qızardılmış soğan; yağ-soğan. – *Xörəyə daddığ tök.*

**DADGÜL** (Daşkəsən) – ağac adı.

**DADI** (Cənubi Azərbaycan) – kürəkən. – *Abbas Əhmədin dadısıdı.*

**DADIX** (Şəki) – bax **dadax** I. – *Dört dadıxları olannara diyillər kürsü.*

**DADIXMAX** (Ordubad) – bax **dadımax.** – *Qatıx dadıxıfdı.*

**DADIMAX** (Göyçay, Mingəçevir) – xarab olmaq, pis dad vermək.

**DADIMDUZUM** (Bakı) – bir az, bir tikə. – *Bir qarpuzdan həreyə dadımduzum əncağ çatar.*

**DADIMSIMMAĞ** (Salyan) – dadına baxmaq. – *Bir qaşıx bı xörəgdən dadımsın görəg duzu necədi?*

**DADIŞMAX** (Qazax) – bərk-boşluğunu bilmək üçün yumurtaları dişə vurub yoxlamaq. – *Dadışmasam döyüşdürmərəm.*

**DADMƏNİTUTDULAR** (Lənkəran) – erkək turac. – *Dadmənitutdular oxumağa başdıyıb.*

**DA:ƏT** (Meğri) – iri, böyük, uca.

**DAFT** (Quba) – dəf, kiçik qaval. – *Üydən mənim daftımı gəti.*

**DAĞAL** I (Ordubad) – gözə düşən çöp. – *Gözümə dağal düşüb.*

**DAĞAL** II (Ağdaş, Borçalı, Cəlilabad, Füzuli, Kürdəmir, Qazax, Mingəçevir, Sabirabad, Salyan, Tovuz) – 1. oyunun gedişində ümumi qaydanı pozan, cığal (Kürdəmir, Salyan); 2. davakar (Borçalı, Qazax). – *Dağal adam oyına şuluğlığ salar* (Salyan); – *Alı yaman dağaldı* (Kürdəmir); – *Oynıyanda adam dağal olmaz* (Füzuli); – *Dağal adam insannan yole:tmer* (Borçalı); – *O yaman dağal adamdı* (Qazax).

**DAĞAL** III (Laçın, Ordubad) – inadkar, sözə baxmayan. – *O, dağal adamdı* (Laçın).

**DAĞAL** IV (Kəlbəcər, Kürdəmir, Qazax) – lovğa, ədabaz. – *Dağal adam yaxşı adam döy* (Qazax).

**DAĞAL** V (Təbriz) – həyətin, bağın kənarına nazik ağaclardan çəkilən çəpər. – *Bağın qıra:nnan dağal çəkirux.*

**DAĞALLIĞ** I (Füzuli, Gəncə, Qazax, Şəmkir) – cığallıq. – *Dağallığ yaxşı şey də:l* (Gəncə); – *Onun dağallığına baxma, söz qanan adamdı* (Şəmkir). ◊ **Dağallığ eləməy** (Salyan, Şəmkir) – oyunun qaydasını pozmaq, cığallıq etmək. – *Oyunda dağallığ etməzdər* (Füzuli); – *Adə, sə: min dəfə demişəm, oyında dağallığ eləmə;* – *A gədə, dağallığ eləmə, dinç otur* (Salyan).

**DAĞALLIĞ** II (Şəmkir) – lovğalıq. – *Ona yaxın getmə, dağallığınnan bilmer nağayırsın.*

**DAĞAN** (Göyçay, Kürdəmir, Ucar) – dolaşa (quş adı). – *Ta: <daha> dağan az-az görünür* (Kürdəmir); – *Dağda dağannar, Bir-birini boğannar, Oğlan doğannar, Bu balama qurban* (Göyçay).

**DAĞANAĞ** I (Salyan) – qupquru. – *Çörəg dağanağ olub, diş batmır.*

**DAĞANAĞ** II (Salyan) – çuqun qab.

**DAĞANAX** (Təbriz) – əl hanasının bir hissəsi. – *Bizim hananın dağanağı əmməgildədi.*

**DAĞAR** I (Ağdam, Cəbrayıl, Kəlbəcər, Kürdəmir, Quba, Oğuz, Salyan, Şamaxı) – bax **daqar** I. – *Dur dağarı bura gəti* (Şamaxı); – *Dağarı sua qoyqınan yımşalsın* (Salyan); – *Dağarda taxıl saxlıyıllar* (Oğuz); – *Bir dağar un gətidim* (Ağdam); – *Əli, o dağarı də:rmənə apar* (Kəlbəcər).

**DAĞAR** II (Bakı, Əli Bayramlı, Sabirabad, Salyan, Şamaxı, Şəmkir) – bax **dağal** IV. – *Əli çox dağar adamdi, bazarda iras gəldi, salamımı almadı* (Şamaxı); – *Ə, nə dağarsan, otu çörək yi də* (Bakı); – *Sən dağar adamsan, sənnən acığım gəlir* (Salyan). ◊ **Dağar-dağar danışmağ** (Şamaxı) – lovğa-lovğa danışmaq. – *Nə dağar-dağar danışırsan.*

**DAĞAR** III ( Tovuz) – bax **dağal** II. – *O, dağarın biridi.*

**DAĞAR** IV (Göyçay) – yekəqarın.

**DAĞARCIXLAMMAX** (Çənbərək) – lovğalanmaq. – *Ay dıdı Şəmşi, nə dağarcıxlanırsaŋ?*

**DAĞAVAR** (Bərdə, Borçalı, Qazax) – 1. dağlıq (Borçalı, Qazax); 2. dağətəyi (Bərdə). – *Dağavar yerdə meyvə, üzüm yaxşı olar;* – *Bura dağavar yerdi, dağ çoxdu* (Borçalı); – *Kəhlik dağavar yerdə çox olur* (Bərdə); – *Dağavar kətdərin də ayrıja dili var* (Qazax).

**DAĞBƏSƏR** (Bakı) – dağüstü. – *O kətdər dağbəsər kətdərdi; – Dağbəsər kətdər sərin olur.*

**DAĞÇI** (Qazax) – yay mövsümündə dağda yaşayan adam. – *Dağçılar gəldilər.*

**DAĞDAĞA** (Tabasaran) – çaxçax (dəyirmanda).

**DAĞDAĞAN** (Meğri, Zəngibasar) – gözə – nəzərə gəlməmək üçün uşağın və ya heyvanın boynundan asılan bəzəkli kiçik dağdağan ağacı. – *Eynulla dayısi Şövqiyə bir dağdağan qəyırdı* (Meğri).

**DAĞI** (Dərbənd, Tabasaran) – 1. daha. – *İki qərəm <kərə> gəldi, dağı qəlmədi* (Tabasaran); 2. başqa. – *Nöyrüzdən dağı heç kim gəlmiyitdi* (Dərbənd).

**DAĞIDICI** (Şuşa) – poçtalyon. – *Rəsul poşda dağıdıcı qoyulufdu.*

**DAĞINIX** (Qazax) – biçilmiş, lakin yığılmamış ot, taxıl və s. – *Hələ çöldə dağınığınız çoxdumu?*

**DAĞISI** (Dərbənd) – başqası. – *Dosdarından biri ayı olutdu, biri canavar olutdu, bir dağısı da tülkü olutdu.*

**DAĞLAMAX** I (Qax) – əritmək.

**DAĞLAMAX** II (İmişli) – yayı yaylaqda, dağ yerində keçirmək. – *Yayı dağladıx, endixʹ aşağa.*

**DAĞLO:** (İmişli) – damğa vurmaq üçün alət.

**DAĞMADİL** (Ağdam) – b a x **dağvadil.** – *Gülpəri ərinnən dağmadildi.*

**DAĞNUS** (Salyan) – pul, var-dövlət. – *Sənin bədxərcliyinə heç dağnus da çatmaz.*

**DAĞTO:ĞI** (Şəki) – kəklik.

**DAĞVADİL** (Çənbərək) – narazı, incik. – *O maŋa Hassannan dağvadil danışdı.*

**DAHAR** I (Bakı, Cəbrayıl, Zəngilan) – təpə. – *Daharın döşündə yaxşı ot var* (Zəngilan); – *Qoyunnar daharın döşündə otduyur* (Cəbrayıl); – *Bi dənə yaşıllığ yoxdu a, hara baxırsan dahardu* (Bakı).

**DAHAR** II (İmişli, Kürdəmir) – südlü darı aşı. – *Dahara yağ tökəndə daddi olur* (Kürdəmir).

**DAHARDUZ** (Lənkəran) – döyülmüş nanə ilə duzun qarşığı.

**DAHARRIĞ** (Bakı) – təpəlik. – *Bu daharrığda çoxli vocdər var.*

**DAXAL** I (Bərdə, Çənbərək, Qafan, Qax, Mingəçevir, Şəki, Şuşa, Zaqatala) – divarları qamışdan hörülüb suvanmış daxma. – *Sizin daxal su buraxırmı?* (Zaqatala); – *Daxal üstü taxta, yar; Al kəmərimi saxla, yar; Yarım gedif səfərə; Ala unu saxla, yar* (Şəki); – *Daxala dən sərmişəm, sərçələr dənnəməsin* (Qax); – *İndi biz təzə evlərdə yaşı:yrıx, daxal keşmişdəydi* (Bərdə); – *Daş əv daxaldan yaxşıdı* (Qafan).

**DAXAL** II (Ağdaş, Göyçay) – qonaq otağı. – *Bizim daxalmız böyükdü.*

**DAXALÇA** (Goranboy) – qamışdan düzəldilmiş kiçik daxma. – *Gətir çuvalı, daxalçıya qoyax.*

**DAXLAŞMAX** (Çənbərək) – kəlləşmək, kəllə-kəlləyə gəlmək (heyvanlarda). – *Qoşdar yaman daxlaşdı, ikisi də ləms oldu, yerinnən qalxəmmir.*

**DAITDAMAX** (Ordubad) – pusquda durub ovun yerini öyrənmək. – *Ə, səs salma, sap yavaş-yavaş daıtda, man bu yannan galeyram.*

**DAQAR** I (Şəki) – qoyun və ya keçi dərisindən hazırlanmış torba, kisə. – *Epbeyi daqara dolduruf getdi.*

**DAQAR** II (Şəki) – acı istiot. – *Daqarı xöreyə töküllər; – Sirkiyə daqar da tökərıx.*

**DAQAR** III (Şəki) – qısaboy. – *Daqar bizdərdə halçaxboy adama diyərıx.*

**DAQQA** I (Gəncə, Kürdəmir, Qax, Qazax, Oğuz, Şəki, Şəmkir, Tovuz) – 1. neft, mazut və suqabı (Kürdəmir, Qazax, Şəmkir, Tovuz). – *Kimdə mazıt qoymağa daqqa var?* (Qazax); – *Get daqqamızı nöyütnən doldur gə* (Tovuz); – *Daqqada mal-qarıya su verillər* (Kürdəmir); 2. buğda, arpa saxlamaq üçün taxtadan, ağacdan hazırlanmış qab, çəllək (Gəncə, Qax, Şəki). – *Buğdanı daqqıya tök ki, salamat olsun* (Gəncə); – *Daqqada naxarta buğda olar?* (Şəki); – *Daqqaya ne olsa qoyuylar* (Qax); 3. taxılölçən qab (Kürdəmir, Oğuz, Şəki). – *Daqqeynan keşmişdə taxıl ölçərdixʹ* (Oğuz); – *Bir daqqa tutur on üç girvənkə bi çetver;* – *Uş daqqa bir putdı* (Şəki); – *Bi daqqa arpam qalıp* (Kürdəmir).

**DAQQA** II (Mingəçevir, Şəki) – qaragül dərisindən papaq. – *Mən havı daqqanı tihdirən üç ildən artıxdı* (Şəki).

**DAQQA** III (Bərdə, Hamamlı, Qazax, Yevlax) – lovğa, ədabaz. – *Nə hörməti olajax daqqa adamın?* (Bərdə); – *Həsən yaman daqqa adamdı* (Hamamlı).

**DAQQAÇA** (Ucar) – emallı, balaca dərin boşqab. – *Daqqaçada uşağa xörək veririk.*

**DAQQALIX** (Hamamlı) – lovğalıq, ədabazlıq. ◊ **Daqqalıx eləməxʹ** – lovğalanmaq, ədabazlıq etmək. – *Daqqalığ eləmə.*

**DAQQAR: DAQQAR DURMAX** (Qazax) – möhkəm durmaq; sözündən dönməmək, güzəştə getməmək. – *Elə daqqar duruf sözünün üsdündə.*

**DAQQAY** (Dərbənd) – küçük. – *Munu mənim daqqaylarıma vər.*

**DALA** (Kürdəmir, Lənkəran, Sabirabad, Salyan) – qamışın bir növü. – *Daladan zəmmil toxınır, həsir toxınır, bi də öy üssi bassırılır* (Salyan).

**DALAB** (Qarakilsə) – ciftləşmə həvəsi, cəhdi (atlarda). ◊ **Dalaba gəlməxʹ** – ciftləşmək.

**DALADASMALATMA** (Bərdə) – uşaq oyunu adı. – *Qızdar məhlədə daladasmalatma oynuyur.*

**DALAF** (Çənbərək, Qazax, Şəmkir, Şuşa) – b a x **dalab.** ◊ **Dalafa gəlməxʹ** (Qazax) – b a x **dalaba gəlməxʹ.** – *Ta: maydannarın dalafə:lən vaxtıdı.* **Dalafa qaçmax** (Şəmkir) – ciftləşmək üçün ayğır dalınca düşmək. – *Boz qulan üş gündü itif, tapə:lmirəm, də:sən, dalafa qaçıf.*

**DALAFDAMAX** (Şəmkir, Şuşa) – ciftləşmə vaxtı çatmaq, ciftləşmə həvəsinə düşmək. – *Maydan dalafdadı, ayğıra qoşmağ lazımdı* (Şuşa); – *Boz maydan dalafdadı* (Şəmkir).

**DALAX** I (Qarakilsə, Şuşa) – yazda arıların düzəltdiyi təzə şan. – *Dalax balı çox yeməli olur* (Şuşa); – *Bir beləcə dalax kəsdim, o da qupquruydu* (Qarakilsə).

**DALAX** II (Meğri) – yelləncək. – *Cahılla dalax asılla ki, üssünnə <yellənsinlər>.*

**DALAMIRT** (Qazax, Şərur) – 1. gəlir, qazanc (Qazax). – *Yay ayları dalamırt aylarıdı;* 2. məhsul yığımı (Şərur). – *Ay Sönqulu kişi, dalamırt vaxdı gəlif çatıfdı.* ◊ **Dalamırt eləməxʹ** (Gədəbəy, Mingəçevir) 1. azca yemək, yüngülvari nahar etmək (Mingəçevir). – *Yaman ajımışam, gəlsənə gedəxʹ bizdə dalamırt eliyəxʹ;* 2. azca yığmaq, toplamaq (məhsulu) (Gədəbəy). – *Sən də:n əlli yığammədiŋ, elə dalamırt elədiŋ.*

**DALAMIRTDAMAX** (Çənbərək) – yığmaq, toplamaq (məhsulu). – *Bir az qartop dalamırtdamışam, aparıf satajam.*

**DALAMIRTDANAX** (Çənbərək) – azca yemək, yüngülvari nahar etmək. – *Savax tezdənnən dalamırtdandım deyin büyün ajmadım.*

**DALAMURD ELƏMƏG** (Yardımlı) – korlamaq, zay eləmək. – *Yemeysən yemə, day dalamurd eləmə.*

**DALAN** (Kürdəmir, Meğri, Şuşa) – 1. darvaza (Şuşa). – *Dalan belə kiçiy evə yaraşmaz;* 2. koma, daxma (Meğri). – *Burda heç olmasa dalan tixʹdirin.*

**DALANÇA** (Cəbrayıl, Meğri) – koma. – *Yeddi adam gəldi, burda dalança tixʹdi biyolum* (Meğri).

**DALAY** (Bakı) – mübahisə. – *Dalayımız tüşmişdi onnan.*

□ **Dalay vermək** (Şamaxı) – aldatmaq, azdırmaq.

**DALAZDAMAX** (Meğri) – bir işi səliqəsiz, başdansovdu yerinə yetirmək. – *Dəlley Əhmət başı dalazdıyan kimin, sən də biçəneyi dalazdıyırsan.*

**DALBASAR** (Ağdam) – pəncərə sürgüsü.

**DALBIMMAX** (Qarakilsə, Şamaxı) – könülsüz yemək. – *Ə, niyə dalbınırsan, əmməllibaşdı ye dayna* (Qarakilsə).

**DALDA** I (Bakı, Kürdəmir, Oğuz) – gizli, məxfi yer. – *Pılım daldadadı* (Bakı).

**DALDA** II (Bakı, Füzüli, Göyçay, Kürdəmir, Qax, Mingəçevir) – külək, yağış, gün tutmayan yer. – *Heyvannarı çek, daldada saxlaginən* (Bakı); – *Yeydə daldada uturanda isdi güc eləmiy* (Qax); – *Daldada düzəliv işdi:rik* (Füzuli).

**DALDA** III (Balakən) – eyvan. – *Daldanın yuxarı başında böyük bir usdol açılmışdı.*

**DALDA-DAMA** (Bakı) – xəlvət, gizli. – *Dalda-damada cürbəcür işdər görirsən, heş kəsin xəbəri yox.*

**DALDALAMMAX** (Füzuli) – arxalanmaq. – *Adam adama daldalammasa, nə:lazım?*

**DALDALIĞ** (Füzuli) – külək, yağış tutmayan yer. – *Özünə daldalığ qa:rıv, oturuv içində.*

**DALDAY** (Çənbərək) – b a x **dalda** II. – *Malçının bağı daldaydadı, onö:rə da meyvəni küləx′ töx′mür.*

**DALDEY** I (Barana, Qazax) – b a x **dalda** I. – *Uşaxlar putaxların arasında daldey yer axtarırdı* (Barana).

**DALDEY** II (Gəncə, Qazax, Şəmkir) – b a x **dalda** II. – *Ağacın altında daldey vardı* (Qazax); – *Ojağı daldeyda qala* (Gəncə); – *Bu yağış bizim əhdimizi kəsəjəx′; o qa:lığda daldey olar* (Şəmkir).

**DALEH** (Ordubad) – boşqab.

**DALƏNGƏVAZ** (Quba) – yöndəmsiz. – *Unun bir daləngəvaz uğli var.*

**DALIĞ** (Cənubi Azərbaycan) – dalğın. – *Əhmədi çox dalığ gördüm.*

**DALIQARA** (Tərtər) – qara reyhan.

**DALISÜRƏ** (Masallı, Salyan) – ardınca, dalınca. – *Məmmədin dalısürə biz getdük* (Salyan); – *Ayrısının dalısürə danışmo:uz* (Masallı).

**DALLAMA** I (Şuşa) – quşun ən gec uçan balası. – *Sənin bu qızıl quşun dallamadı.*

**DALLAMA** II (Salyan) – çılpaq, lüt. – *Hər ikisin dallama öydən çıxartdım.*

**DALLAMAĞ** (İmişli) – budamaq, ağacın budaqlarını kəsmək. – *Bı ağajdarı da dalla.*

**DALLIĞ** (Salyan) – müavin, köməkçi. – *Sədrin dallığı sözümüzü diməyə imkan vermədi.*

**DALLIĞÇI** (Salyan) – müdafiəçi. – *Ona batmağ olmaz, dallığçısı çoxdu.*

**DALMAMMAĞ** (Salyan) – yalmanmaq. – *Pişig dalmanır, diyəsən qonağımız gələcəg.*

**DALMANMAX** (İmişli) – b a x **dalbımmax.** – *Qoynu buraxın, koldan-kosdan dalmansın.*

**DALMINMAX** I (Füzuli) – b a x **dalbımmax.** – *Heyvanı qoy dalmınsın.*

**DALMINMAX** II (Çənbərək) – 1. əziyyət çəkmək. – *Əlim çatmır, ünün yetmir, bir həfdədi dalmınıram;* 2. yorulmaq. – *Bu sərəniyi təx′cə yığmışam, onçun dalmınmışam.*

**DALON** (Gəncə) – çardaq, talvar.

**DALVA** (Ordubad) – b a x **davla.** – *Dalvanı görür, kəx′lix′ yaxın gəlir.*

**DALVIMMAX** (Kəlbəcər) – b a x **dalbımmax.** – *Vərvəvər dalvınır.*

**DALYAR** (Gəncə) – plov üçün iri və dərin saxsı qab; dövrə. – *Dalyar sındı.*

**DAM** I (Kürdəmir, Quba, Ordubad) – tavan. – *Evin damı qutarmıyıb* (Ordubad).

**DAM** II (Gəncə, Göyçay, Karvansaray, Kürdəmir, Qazax, Sabirabad, Salyan, Şəki, Şəmkir, Şuşa, Tərtər) – tövlə. – *Cücələr damın küncünə yığışmışdı* (Salyan); – *Bahar, malları dama sal, ot tök* (Şəki); – *Heyvannarı dama doldırdım* (Şuşa); – *Qoyunnarı dama salmışam* (Karvansaray).

**DAM** III (Borçalı, Cəbrayıl, Gədəbəy, İmişli, Kürdəmir, Qazax) – 1. qazma (Borçalı). – *Keşmişdə qışda kətdilər damda olardı;* 2. hər cür tikili, bina (Cəbrayıl, İmişli, Kürdəmir). – *Dam deyərük daş əvə, kərpic əvə* (İmişli); – *Toy damı tix′məx′ çox çətindi* (Cəbrayıl); – *Bizdə bişir-düşüri damda eliyəllər* (Kürdəmir).

**DAMAD** (Quba) – kürəkən. – *Cəfərin damadı naxuşdu.*

**DAMAĞ: DAMAĞ ELƏMƏG** (İsmayıllı) – dincəlmək, istirahət etmək. – *Lap yoruldum, gə bir az damağ eliyək.*

**DAMAĞLI** (Salyan) – gözəl, yaraşıqlı. – *Mətləbin kiçik qızı çox damağlı uşaxdı.*

**DAMAXLI** (Qarakilsə) – kefi kök; – kefli. – *Heş belə şey olmamışdı, gördüm gədə damaxlı gəlip evə, ta: üsdün vırmadım.*

**DAMAXOŞ** (Qazax, Tovuz) – kefsiz. – *Vəzir, gözümə damaxoş də:rsən* (Qazax); – *Niyə damaxoş durmusaŋ* (Tovuz).

**DAMAR** (Göyçay) – bitki kökü.

**DAMARATMA** (İmişli) – özbaşına qanaxma.

**DAMARVIRMAĞ** (Salyan) – çürümək, yaxşı üyüşməmək. – *Qatığı damar vırıb, su: çıxıb üzünə.*

**DAMAZDIX** (Cəbrayıl, Füzuli, İmişli, Kürdəmir, Mingəçevir, Tərtər) – qatıq mayası. – *Damazdığı at, üstün basdır, qatığ olacax* (Kürdəmir); – *Damazdığı atıllar pişmiş südün içinə, qatığ olur* (Tərtər).

**DAMAZZIĞ** (Göyçay, İmişli) – b a x **damazdıx.** – *Arvad qatıx çalanda damazzığı az salmışdı, ona görə qatığı yaxşı tutmamışdı* (Göyçay).

**DAMBA** (Salyan) – balıq saxlamaq üçün düzəldilən hovuz. – *Dambada çoxlu balığ var.*

**DAMBADUZ** (Ağdaş, Şəki) – küsəyən, dəymədüşər. – *Almırad dambaduzun biridi* (Ağdaş); – *Dambaduz tex inciyən adama diyillər* (Şəki).

**DAMBAX** (Başkeçid) – tənbəl.

**DAMBAT** (Ağbaba, Bərdə, Goranboy, Hamamlı, İmişli, Kürdəmir, Qazax, Oğuz, Tovuz) – lovğa, ədabaz. – *Əli yaman dambat uşaxdı* (Ağbaba); – *Dambat adam adama salam verməz forsunnan* (Tovuz); – *Dambat adamın hörməti olmaz* (Bərdə); – *O çox dambat adamdı* (İmişli).

**DAMBATDAMMAĞ** (Başkeçid, Borçalı, Gədəbəy, Hamamlı, İmişli, Tovuz) – lovğalanmaq, ədabazlıq eləmək, özünü başqalarından yüksək tutmaq. – *Ruziyə elə dambatdaner ki, elə bil atasın, anasın tanıyan yoxdu* (Tovuz); – *Nə dambatdanersaŋ, a bala, görmüyüfsənmi nənəŋi, bavaŋı?* (Gədəbəy); – *Ə, nə dambatdanersan?* (Borçalı); – *Bilmirəm no:luf bizim bu Alıya, yaman dambatdanır* (Hamamlı).

**DAMBATDIX** (Hamamlı, Qazax) – lovğalıq, ədəbazlıq. – *Dambatdığınnan heş kəsi bə:mmer Osman* (Qazax); – *Dambatdığınnan başınnan papağı tüşsə, əyilif yerdən götürməz* (Hamamlı).

**DAMBIĞ** (Şamaxı) – yanında qızardılmış toyuq olan plov. – *Bu geciyə dambığ bişir.*

**DAMBIL** (Astara, Borçalı, Hamamlı, Qazax, Qusar, Lənkəran) – gavalı növü adı. – *Dambıl nə turş olmor, nə şirin olmor, turşməzə olor* (Borçalı); – *Dambıl yə:nin tişi qamaşar* (Qazax); – *Bizim baxçamızda çoxlu dambıl ağaşdarı var* (Hamamlı).

**DAMBUL** (Bakı, Qazax) – b a x **dambıl.** – *Ağacdarda dambul ağacı kimi bə:r verən ağac tapılmaz* (Bakı); – *Bazardan dambul al* (Qazax).

**DAMÇA** (Quba) – quş tutmaq üçün tor. – *Əhməd damçeynən altı ürdeg tutdi.*

**DAMDAM** (Gəncə, Mingəçevir, Oğuz) – bəkməz bişirmək üçün xüsusi torpaq qatılıb süzülmüş üzüm suyu. – *Bağa kefe:tmişdix′, kavavın yanında damdamın ayrı ləzzəti varıydı;* – *Damdam çox şirin olur* (Gəncə); – *Damdamnan bəhməz düzəldirix′* (Oğuz).

**DAMDAR** (Təbriz) – mal saxlayan adam, maldar. – *Damdarrar dəvədən ötür şə:rə gəlillə.*

**DAMDAŞI** (Ordubad) – damın üstünə tökülən torpağı bərkitmək üçün daş (alət). – *Damdaşı dolandırram bərk olsun.*

**DAMDIRA** (Borçalı, Böyük Qarakilsə) – 1. nağara (Böyük Qarakilsə); 2. dəf (Borçalı). – *Damdıreyi toyda çalellar.*

**DAMDÖƏN** (Zəngilan) – damın üstünə tökülən torpağı bərkitmək üçün ağac alət. – *O damdöəni gəti ma:, çıxıram əvin üsdün döəm.*

**DAMDURA** (Qazax) – b a x **damdıra.** – *Damdurasız toy olmaz.*

**DAMƏNDƏ** (Salyan) – həsrət. – *O yerrərə indi daməndə qalmışıx.*

**DAMFA** (İmişli) – daş-kəsək.

**DAMFALI** (İmişli) – daşlı-kəsəkli. – *Yollar keçmişdə yaman damfalıydı.*

**DAMI** (Şuşa) – b a x **da:mi.**

**DA:Mİ** (Ağsu, Göyçay, Quba, Sabirabad, Şamaxı) – cəhənnəm. – *Bizim yerrər hərdən hələ isdi uladu ki, lap da:mi kimi* (Quba); – *Da:mi kimi od tökülür, issidi* (Göyçay).

**DAMMAT** (Bolnisi, Borçalı, Gədəbəy) – b a x **dambat.** – *Dammat adam heç sözə baxmaz* (Bolnisi); – *Qondare:nirəm ki, dammat yeriyim* (Borçalı); – *Dammat adam görəndə gözüm ağrıyer mə:m* (Gədəbəy).

**DAMMILI** (Salyan) – b a x **dambıl.** – *Arbatanda dammılı çox olır;* – *Dammılının tamı xoş olır.*

**DAMNANÇIXMA** (Kəlbəcər, Qazax, Şamaxı, Tovuz) – 1. inəyin birillik balası (Qazax, Tovuz); 2. camışın ikiillik balası (Kəlbəcər); – *Damnançıxma çöldə otduyur;* 3. inəyin ikiillik erkək balası (Şamaxı); – *Bir damnançıxma aldım;* 4. buğaya gələn üçillik inək (Qazax).

**DANA** (Ağcabədi, Goranboy, Karvansaray, Şəmkir, Tərtər, Tovuz) – b a x **dayna.** – *Get burdan dana* (Ağcabədi); – *Mən də onu de:rəm dana* (Goranboy); – *Ayə, niyə boynunö:türmürsən, elədi dana* (Tovuz); – *Evətən onu qoyladım dana* (Karvansaray).

**DANABAŞ** I (Şuşa) – danadişi. – *Əkində danabaş tapılıb, bütün əkini korradı.*

**DANABAŞ** II (Ağdam) – *məc.* küt, sarsaq.

**DANABOYUN: DANABOYUN ELƏMƏK** (Füzuli) – birisinin boynunu güclə əymək, qanırmaq (güləş zamanı). – *Tutuf səni danaboyun elərəm.*

**DANABURNİ** (Şamaxı, Şərur) – danadişi. – *Danaburni zəhərri olur* (Şamaxı).

**DANAÇA** I (Ağdaş, Göyçay, Zərdab) – nərə balığının bir növü. – *Danaça mırıdan bö:g olur* (Ağdaş); – *Ürüsdəm dayı bir danaça tutdu, güjnən gəmiyə qoydu* (Zərdab).

**DANAÇA** II (Cəbrayıl, Qafan) – 1. camışın birillik dişi balası (Qafan). – *Bizim gamışın danaçası vırağandı;* 2. camışın ikiillik dişi balası (Cəbrayıl). – *Danaçıya yaxşı miyğat olsan, o biri il doğar.*

**DANAXOR** I (Sabirabad) – balıq toru. – *Danaxornan balığ tuturuğ.*

**DANAXOR** II (Kürdəmir) – balıq tutmaq üçün xüsusi düzəldilmiş yer. – *Təzə danaxor düzəltmişəm, tora yaman balığ çıxır.*

**DANAXOR** III (Ucar) – müftəxor, tüfeyli. – *Həsənin oğlu danaxor uşaxdı.*

**DANAQIRAN** I (Ağcabədi, Basarkeçər, Borçalı, Cəbrayıl, Füzuli, Göyçay, Qazax, Zaqatala) – novruzgülü. – *Bahar oldu, danaqıran gül açdı* (Qazax); – *Danaqıran əvvəl çıxan çiçəx'di* (Borçalı); – *Bizim çalada çoxlu danaqıran bitif* (Basarkeçər); – *Görürsənmi danaqırannar açılıb* (Zaqatala); – *Buyil danaqıran çox bitib* (Göyçay).

**DANAQIRAN** II (Göyçay) – yazın ilk üç günü. – *Danaqıranda hava şaqqoloy <şaxta> olur bə:zən.*

**DANAQOAN** (Bakı) – aşıq-aşıq oyununda aşığı sonuncu vuran oyunçu.

**DANALIĞ** (Gədəbəy, Qazax) – dana saxlanılan yer. – *Danalığı təmizdə* (Qazax); – *Gejənin nə vaxdıydısa bilme:rəm, onuyördüm kün, çatıltı qofdu danalıxda* (Göyçay).

**DAŋ: DAŋ ATMAX** (Qazax) – Novruz bayramı qabağı son çərşənbə axşamında səhərə qədər yatmamaq, oyaq qalıb şənlik etmək. – *Beyjə biz öyimizdə daŋ atajeyıx.*

**DANAVAR** (Quba) – sovuruq.

**DANBALAN** (Ordubad) – qoyun xayası. – *Qoyunnarın danbalanın çıxardanda kökələr.*

**DANBIR** (Qazax) – tiyəsi qatlanmayan bıçaq.

□ **Daŋ demax** (Ordubad) – meydan oxumaq. – *Göreysan neca daŋ de:y, heş kasdan qorxmey.* ◊ **Daŋ gəlməx'** (Borçalı, Kürdəmir, Qazax, Şəmkir) – təəccüblənmək. – *Bu iş maŋa daŋ gəler* (Borçalı); – *Bakıda maŋa dedilər "sava:n xe:r", maŋa daŋ gəldi, çünkü bizim yerdə "sava:n xe:r" yoxdu* (Qazax); – *Görmüyüfllər dana, yazıxlara daŋ gəler* (Şəmkir).

**DANDEZ** (Qazax) – daz. – *Sən lap dandez adamsan.*

**DANDIR: DANDIRA DƏYMƏK** (Qarakilsə) – xətrinə dəymək, qəlbə toxunmaq. – *Mən nə dedim sənin dandıra: dəydi.*

**DANGİ** (Xudat) – hədik.

**DANĞALAX** (Şuşa) – kobud, tərbiyəsiz. – *Səniŋ bu oğluŋ çox danğalaxdı.*

**DANĞIR** (Mingəçevir, Oğuz) – 1. bax **danqır;** 2. ot bitməyən yer.

**DANQA** I (Hamamlı, Oğuz) – mal aşığı. – *Danqa mal aşığına deyərix', qoç aşığına saqqa* (Hamamlı).

**DANQA** II (Naxçıvan, Şərur) – 1. böyük-böyük danışan, lovğa (Şərur). – *Nə danqa adamdı a.* ◊ **Danqa-danqa danışmax** – yekə-yekə danışmaq. – *Nə danqa-danqa danışırsan?;* 2. sözə baxmayan, dikbaş, söz qaytaran (Naxçıvan). – *İsanın oğlu No:ruz çox danqadı.*

**DANQAR** (Çənbərək) – böyük vanna. – *Uşağı çimizdirməx' isdi:rəm, danqarı yəti burya.*

**DANQARTAĞ** (Çənbərək) – arıq. – *Danqartağ düyədən alışmalamaxnan ət çıxmaz.* ◊ **Danqartağı çıxmax** – arıqlamaq. – *Niyə belə danqartağıŋ çıxıf, çörəx' yemirsəŋ?*

**DANQAZ** (Astara, İmişli, Kürdəmir, Masallı, Ordubad, Salyan) – loğva, ədabaz, dikbaş. – *Ə, sən nə danqaz adamsan?* (İmişli); – *Adam danqaz danışmaz* (Salyan); – *Bizim Məhərrəm o qə:r danqazdı ki, söz de:rsən, eşitmir* (Ordubad); – *Kərim qabağ çox danqaz uşağıdı, hindi saytallaşıb* (Salyan).

**DANQAZDIĞ** (Masallı, Ordubad, Salyan) – dikbaşlıq, lovğalıq, ədabazlıq. ◊ **Danqazdığ eləməg** – dikbaşlıq etmək. – *Axıllı ol, danqazdığ eləmə* (Masallı); – *Adə, danqazdığ eləmə, eyibdi* (Salyan).

**DANQAZDIX** (Ağdam, Füzuli, Qazax, Zəngilan) – əkinin su çıxmayan hissəsi. – *Danqazdı:n pambı: açılıf* (Zəngilan).

**DANQI** (Zəngilan) – 1. boşboğaz, çox danışan; 2. boş-boşuna, səbəbsiz hürən. – *Bı nə danqı itdi, ə:!*

**DANQIL** (Lənkəran) – yüngülxasiyyətli.

**DANQIR** (Ağbaba, Cəlilabad, Kürdəmir) – daz. – *Uşağ elə danqırdı ki...* (Ağbaba); – *Başımın tüki tökiley, danqır oleyəm* (Cəlilabad).

**DANQIŞ** (Qafan) – b a x **danqır.**

**DANMADİL** (Çənbərək) – b a x **dağvadil.** – *Hümbət mənnən danmadil danışdı.*

**DANNA** I (Bakı, Göyçay, Meğri, Mingəçevir) – sabah. – *Mə:m sizə gəlməyim danıya qaldı* (Bakı); – *Büyin qızın döymeyan, danna dizin döyecax* (Meğri).

**DANNA** II (Qax) – ehsan. – *Danna yimağa getmişdin?*

**DANNARI** (Göyçay) – sabah.

**DANSIĞ: DANSIĞI ÇIXMAX** (Şuşa) – sırtılmaq, üzü bərk olmaq. – *O qədər söz eşidif, dansığı çıxıf.*

**DAŋSIMAĞ** (Zəngilan) – danlamaq. – *Bu uşa: az daŋsıginən.*

**DANSITMAX** (Gədəbəy, Qazax) – sözünü geri götürmək.

**DANT** (Meğri) – iri, böyük, uca. – *Nəcafəlinin bir dant çinarı variydi.*

**DANTORİ** (Şamaxı) – səhər alaqaranlığı. – *Dantori məyi durğuz.*

**DANZAL** (Zaqatala) – kobud. – *O, danzalın biridi.*

**DAPALAMAX** (Qax) – qapazlamaq, başa döymək.

**DAPANDI** (Qax) – çobanların payız şənliyi. – *Qoyunu payız görməyə qoanda çobannar dapandı eliylər.*

**DAPBA** (Gədəbəy) – parç. – *Dapbıynan bir su veriŋnən yaneyrım.*

**DAPTANAY** (Qax) – siçovul.

**DAR** I (Kürdəmir) – səbirsiz, kəmhövsələ. – *Adam gərəy dar olmasın, səbirri olsun.*

**DAR** II (Kürdəmir) – xəsis. – *O, yaman dar adamdı, pıl xərcləməynən arası yoxdu.*

**DARABA** I (Ordubad) – taxıl saxlanılan iri qutu, yeşik. – *Darabani təmizdə, indi buğda gətirəcəklər;* – *Daraba təxdədən qəyrilir.*

**DARABA** II (Qafan, Zəngilan) – 1. məhəccər, sürahı. – *Əvi tix'dimişəm, bircə qaldı daraba vırdırmağı* (Zəngilan); 2. taxta hasar.

**DARABAZ** (Zəngilan) – b a x **daraba** II.

**DARABİZON** (Ordubad) – iki kisə (qalın sarı rəngli parçadan). – *Darabizonda yun var.*

**DARACAX** (Gədəbəy, Gəncə, Şamaxı, Şəmkir) – keçid, dağ keçidi. – *Daracaxdan keçəndə at büdrədi, məni yerə vurdu* (Şəmkir); – *Oxarı çıxarıx, bir daracağa baxarsaŋız* (Gədəbəy).

**DARAĞ** I (Qubadlı) – bal şanı. – *İki darağ bal aldım, bir gündə yi:b qutarduğ.*

**DARAĞ** II (Göyçay, Qubadlı) – arabanın cağı. – *Bizim arabanın darağı yekədi* (Göyçay).

**DARAĞAN** (Göyçay) – erkək nərə balığı. – *Darağanı bişirdim.*

**DARAĞBAŞ** (Dərbənd) – şanapipik. – *Teregdə darağbaş var.*

**DARAĞİTİRƏN** (İmişli) – avam, key. – *Bi darağitirən arvadım var, pıl tanımır, verdigin bilmir.*

**DARAĞLAMAĞ** (Salyan) – çiçəkləmək, çiçək açmaq. – *Pammığ darağlıyıb.*

**DARAĞUN** (Kürdəmir) – b a x **darağan.** – *Darağun Kürdə bı yil yap azdı;* – *Darağun qəcbinnən yağlı olur.*

**DARAHƏNGİ** (Borçalı) – güləş zamanı ifa olunan hava (motiv). – *Ay usda, bir darahəngi çal.*

**DARAX** I (Daşkəsən) – kotanın hissəsi. – *Kotan əkəndə daşa keçdi, darax sındı, hop taxdadan aralandı.*

**DARAX** II (Şuşa) – bəzi quşların başında yelpincə oxşar kəkil. – *Şanapipiyin darağı to:uzunkuna oxşuyur.*

**DARAX** III (Kürdəmir, Şuşa) – qəlsəmə. – *Balığın darağı qaralsa, zəhərri olar* (Şuşa).

**DARAX** IV (Kürdəmir, Şuşa) – əl və ayaqlarda pəncə sümükləri. – *Bu sümüklər əl dəyil, əyax daraxlarıdı* (Kürdəmir).

**DARAX** V (Biləsuvar, Füzuli, Kürdəmir, Qazax, Mingəçevir, Salyan) – açmamış pambıq çiçəyi.

**DARAXLAMMAX** (Çənbərək) – cərgə ilə bitmək. – *Qarğıdalı daraxlanıf.*

**DARAXLIX** (Kəlbəcər) – heyvanlarda çanaq sümüyü. – *Daraxlıx beldən aşago:lor.*

**DARAQQAYI** (Lənkəran) – bacarıqsız, əlindən iş gəlməyən.

**DARAQQUN** I (Cəlilabad) – şanapipik.

**DARAQQUN** II (Salyan) – durna balığı. – *Daraqqunun kababı yaxşı olur.*

**DARALMAX** I (Mingəçevir, Ordubad) – xəsislik etmək. – *Əhməd pul xərcləməyə daralır.*

**DARALMAX** II (Şəki) – kəmhövsələ olmaq, narahat olmaq.

**DARAMA** (Yardımlı) – tarım. – *İpi darama elə ki, yaxşı olsun.*

**DARAMAX** I (Bakı, Çənbərək, Kürdəmir, Mingəçevir) – *məc.* dalınca danışmaq. – *Bilmirəm mə:m nəyim artıxdı, mə:m nəyimi darıyıllar* (Kürdəmir); – *Parax Mühərnən Ziyaddın öcəşif, haryessə <hara getsə> bir-birin darıyır* (Çənbərək).

**DARAMAX** II (Gəncə, Tovuz) – budamaq, ağacın budaqlarını kəsib seyrəltmək. – *Ağaşdarı daramağe:dəndə ma: da xavar eliyin, baravar gedəxʹ* (Gəncə); – *O ağajı dara kın, bir əz bö:sün* (Tovuz).

**DARAMAX** III (Karvansaray) – qoyunları otlamağa çıxarmaq. – *Gün yayılanda dare:rım qoynu.*

**DARAMAX** IV (Tərtər) – toplamaq, topa yığmaq. – *Ay uşağ, aŋarı darıyın taxılı, yer açılsın.*

**DARAMAT** (Qax) – evdə olan yemək şeyləri.

**DARAMIRT: DARAMIRT ELƏMƏK** (İmişli) – gizilin götürmək. – *Çovannar ətdən-sütdən daramırt eleyirdilər.*

**DARAMIŞ** (Kürdəmir) – qazanc axtaran, şəxsi mənafeyini güdən. – *Omar yaman daramış adamdı.*

**DARAMIT: DARAMIT VIRMAX** (Füzuli) – sığal vermək. – *Özünə nə daramıt vırırsan.*

**DARANHAYI** (Füzuli) – 1. səs-küy; 2. qaçaqaç. – *Kəndə yaman daranhayı düşüb.*

**DARANQI** I (Gəncə, Şəki, Tovuz) – qələmə ağacı. – *Daranqı ağacı yumuşax olar* (Şəki); – *Daranqıyı ildə bir dəfə daramasan böyüməz;* – *Elə adını ildə bir dəfə darandığı üçün daranqı qoyuflar dana;* – *Bu:zun <bu uzun> ağaşdara qələmə də de:rixʹ, daranqı da* (Tovuz).

**DARANQI** II (Qazax) – ağacın kəsilmiş quru budaqları. – *O daranqıdan bir əz gəti, ojağı qalıyax.*

**DARANMAX** (Çənbərək, Gədəbəy) – 1. çıxmaq (Gədəbəy). – *Mə:sim, yaman isdilixʹdi, eşiyə daranıŋ görəxʹ;* – *Daramme:f kın mal hələ damnan?;* 2. səpələnmək (Çənbərək). – *Qoyun döşə darandı.*

**DARARMAĞ** (Salyan) – rast gəlmək, rastlaşmaq. – *Yüz gün gedərsən yurda, bir gün dararsan qurda.*

**DARAVA** (Ağcabədi, Borçalı) – b a x **daraba** II. – *Hasar daşnan hörülür, darava taxdaynan qayrılır* (Borçalı).

**DARAYI** (Mingəçevir) – kobud, lakin sıx toxunmuş ipək parça.

**DARBANA** (Dərbənd) – çardağa çıxmaq üçün otağın içərisində düzəldilmiş nərdivan, pilləkən. – *Mən darbanadan dama çıxdım.*

**DARBIŞMAĞ** (Əli Bayramlı) – sürətlə getmək, yüyürmək, qaçmaq.

**DAREYİ** (Bakı, Qazax) – b a x **darayı.** – *Dareyidən çarşoy almışam, arvat bə:nmer* (Qazax).

**DARĞA** (Qazax, Tovuz) – suyabaxan, cuvar. – *Darğa gələr, su alıb yoncoyu sularam* (Qazax); – *Hər kətdə bir darğa olordu* (Tovuz).

**DARĞAN** (Dərbənd) – qışın son on günü. – *Darğanda yağmasa, xarmanda yağar.*

**DARHADAR** (Bərdə, Şamaxı) – səs-küy, çığır-bağır. – *Genə nə darhadardı?* (Şamaxı). ◊ **Darhadara salmax** – *məc.* səs-küyə salmaq, car çəkmək. – *Əjdər yoldaşının sirrin darhadara saldı* (Şamaxı); – *Bu işi darhadara salma görəxʹ no:lur* (Bərdə).

**DARIMAĞ** (Bakı, Şamaxı) – b a x **daramax** I. – *Yazığı darımağdan puça çıxardıblar* (Bakı).

**DARIMAX** I (Laçın) – yoluxmaq (xəstəlik). – *Mala azar darıyıf.*

**DARIMAX** II (Şəki) – b a x **daramax** I.

**DARIŋQI** (Qazax) – azca dar.

**DARIŋQILAŞMAX** (Qazax, Tovuz) – azca yığılmaq, daralmaq. – *Donum yü:lənnən soŋra darıŋqılaşıf* (Qazax).

**DARIŞ** (Xanlar) – çətin, ağır. – *Camahatın işi çox darışdı qavaxlar.*

**DARIŞMAĞ** (Balakən, Qax) – bax **darişmax.** – *Səhər işə gedəndə yoldaşım Eldar darışdı, xeyli sö:bət etdik* (Balakən); – *Ho mağa darışmaseydi, qayıdıp gediydim* (Qax).

**DARİÇİ** (Yardımlı) – qeybətçi. – *O çox dariçi adəmdü.*

**DARİMƏĞ** (Lerik) – rastlaşmaq, rast gəlmək.

**DARİŞMAX** (Şəki) – rastlaşmaq, rast gəlmək. – *Çox gidəllər, az gidəllər, yolda bir çovana darişəllər; – Yolda So:dağül darişdi, qəyitdim.*

**DARQ** (Qax) – toxac, torpaq və ya palçığı döyüb bərkidən alət.

**DARQURSAX** (Basarkeçər, Borçalı, Gədəbəy, Gəncə, Kürdəmir, Qazax, Mingəçevir, Şəki) – səbirsiz, kəmhövsələ. – *Darqursax adam ajıxlı olor* (Borçalı); – *Alçarağ adam darqursax olur* (Qazax); – *Əmir darqursağın biridi, mən ona heş zad deyəlmərəm* (Gəncə); – *Darqursax adamın nə salıqası, nə təmizkarrığı?* (Gədəbəy).

**DARQURSAXLIX** (Gəncə, Şəmkir) – səbirsizlik, kəmhövsələlik. – *Ay Murtuz, bu darqursaxlığnan sən heş bir iş görə:lməssən* (Şəmkir).

**DARMINMAX** (İmişli) – bax **dalbımmax.**

**DAROSAR** (Gəncə) – pəncərənin tağı. – *Dayımın öyi darosara qədər tikilif qaldırılıf, bir aya qurtarar.*

**DARRAMAX** (Gədəbəy) – bax **daramax** II. – *Göəli ağacına çınar kölgə saler de:in darradım putaxlarını dünənnəri.*

**DARRAMANC** (Gədəbəy) – yemək üçün duzla ovulmuş gicitkən. – *Oğul, yeri bir əz darramanc gəti.*

**DARRAMAŞ** (Gədəbəy) – bax **darramanc.**

**DARTI** I (Quba, Mingəçevir, Oğuz) – kərki (dülgərlik aləti). – *Usta Səfər dartıynən ərəbə uxi düzəltədi* (Quba).

**DARTI** II (İmişli) – yer hanasının hissələrindən birinin adı. – *Dartıynan çəkəllərdi, qılıcnan toxıyallardı.*

**DARTICI** (Şuşa) – qapançı. – *Bu tayı dartıcıya ver, çəksin.*

**DARTMADAMAĞ** (Salyan) – lovğa. – *Şa:sənəm çox dartmadamağdı.*

**DARTMAĞ** (Lənkəran) – üyütmək. – *Boğdanı daşda dartarduğ.*

**DARVA** (Karvansaray) – evdə olan yemək şeyləri. – *Darvıyı kirala yığıv arvat.*

**DARVAZA** (Cəbrayıl) – açıq. – *Qapı darvazadı, qaç, ört, gə.*

**DASDANA** (Culfa, Ordubad) – təndir çörəyi. – *Anam mənim üçün dasdana bişirmişdi* (Ordubad); – *Dasdana girdə olur, çörəkdir yeməyə* (Culfa).

**DASDAR** I (Qax) – gəlin üçün baş örtüyü. – *Yengələr hindi dasdar salmağa gedəcaxlar.*

**DASDAR** II (Astara, Cəlilabad, Dərbənd, Quba, Lənkəran, Ordubad) – kirkirə, əl dəyirmanı. – *Dasdar sınmışdı* (Quba); – *Dasdarnan buğdanı yarma eləllər* (Ordubad); – *Dasdarda çəkeydüg biğdəni, indi çəkeyük də:rmandə* (Cəlilabad).

**DASMALDASMAL** (Bərdə) – uşaq oyunu adı. – *Uşaxlar baxçada dasmaldasmal oynuyur.*

**DASSAR** (Cəlilabad) – bax **dasdar** II.

**DASTAĞLAMAĞ** (Quba) – meyvə ağaclarına dayaq vurmaq. – *Sabah gidüb bağdaki ağacları dastağlıyaduğ.*

**DASTAR** I (Qax) – bax **dasdar** I.

**DASTAR** II (Culfa, Füzuli, Ordubad) – bax **dasdar** II. – *Dastari qonşıdan al, gətir* (Ordubad).

**DA:Ş** (Cənubi Azərbaycan) – bax **dadaş** I (2-ci məna).

**DAŞAGETMƏ** (İrəvan) – aşıqla oynanılan oyun adı. – *Daşagetmə yaxşı oyundı.*

**DAŞAXOR** (Meğri) – daşlı, çınqıllı. – *Yəğli dərə daşaxor yerdi.*

**DAŞALI** (Ağdam) – bərk gavalı növü. – *Daşalı da bir yeməli şeydimi yeyirsən?*

**DAŞDAĞ** (İmişli) – daşlıq (yer). – *Daşdağda qoyunun ə:ğı yara götürər.*

**DAŞDAMAX** I (Hamamlı, Şuşa) – taxılı (dəni) xırda daşlardan təmizləmək. – *Buğdanı daşdıyın, dəyirmana göndərəx'* (Şuşa); – *Büyün taxıl daşdamağa gedəjəm; – Qoy bu taxılı Höysənnən daşdıyım, soŋra gedərix'* (Hamamlı).

**DAŞDAMAX** II (Qarakilsə) – toplamaq, taxılı bir yerə yığmaq. – *Xərməndə taxılı daşdıyırdım, o gəldi.*

**DAŞDAMAX** III (Gəncə) – suyun istiqamətini dəyişmək üçün qarşısını daşla kəsmək. – *Bizim qajı kimsə daşdıyıf.*

**DAŞDAMAX** IV (Gəncə) – vəlin (alət) düşmüş daşlarının yerinə daş qoymaq. – *Vəlləri daşdamax lazımdı.*

**DAŞDANMAX** (Çənbərək, Qazax) – köçmək, daşınmaq. – *Çovannar daşdanıf gəler dağdan* (Qazax); – *Harya daşdanır bu qızdar* (Çənbərək).

**DAŞGİR** (Basarkeçər, Qarakilsə, Qazax, Şahbuz) – b a x **daşqır** I. – *Daşgir şadaradan kiçix'di, xəlvirdən böyüx'dü, ona buğda şadarası da de:llər* (Basarkeçər); – *Taxılı daşgirdən keçirrıx* (Şahbuz); – *Biz buğdamızı daşgirə çəkdix'*; – *Daşgirnən soyrordux arpeyi* (Qazax).

**DAŞGÜN** (Salyan) – xəta. – *Sənin başında bi daşgün var.*

**DAŞXINASI** (Gəncə) – qaya mamırı. – *Daşxınası da xına kimi əli boyuyur.*

**DAŞIX** (Şərur) – daşınma. – *Daşıx bizdə yaxşıdı;* – *Qalxozda taxıl daşığı başdandı, özüm də daşıxdan gə:rəm.*

**DAŞIXÇI** (Zəngilan) – taxıl, pambıq və s. daşıyan (adam). – *Daşıxçı azdı.*

**DAŞINIX** (Qazax, Şəmkir) – daşınma. – *Taxıllar çoxdan piçilif, hələ daşınıx da başdıyıf* (Şəmkir).

**DAŞIRQAMAX** I (Cəbrayıl, Qazax) – daşlıqda çox yerimək nəticəsində axsamaq. – *Neçə yündü yol gəlir, tay at daşırqıyıf* (Cəbrayıl).

**DAŞIRQAMAX** II (Borçalı) – bərkimək. – *Fır kin süysünnən qalxer, orda da daşırqıyıf qaler.*

**DAŞKƏLƏZ** (Qazax) – iri qaya kərtənkələsi.

**DAŞKƏLƏZİ** (Culfa) – kərtənkələ.

**DAŞQIR** I (Basarkeçər, Qazax) – irigözlü xəlbir.

**DAŞQIR** II (Çənbərək) – taxılda olan xırda daş qırıntısı. – *Taxıl xeylax daşqırıymış.*

**DAŞQURA** (Şəki) – palçıqsız hörülmüş daş hasar. – *Havı daşdardan daşqura qurcax.*

**DAŞLAMAX** (Ordubad) – b a x **daşdamax** I. – *Başã: dönim, gal bu buğdanı daşleyib qurtarax.*

**DAŞMA** (Bakı) – həlimi süzülməmiş aş (plov).

**DAŞNAĞ** (Quba) – suyu bol, güclü, coşqun (bulaq). – *Bu bulağ çox daşnağdu.*

**DAŞSALDI** (Naxçıvan, Ordubad) – keçmişdə qutuya daş salma üsulu ilə keçirilən seçki. – *Keşmişdə daşsaldıya varrılar gedərdilər* (Naxçıvan).

**DAŞTÜLƏK** (Lənkəran) – əhliləşdirilməsi çətin olan alıcı quş, qırğı. – *Büyün məzərədə ovun qızğın vəxtində daştüləyim uçub getdi.*

**DAVAXANA** I (Göyçay) – aptek.

**DAVAXANA** II (Gəncə, Şəmkir) – dabbağxana. – *Püşdə dönüf, davaxananın suyu kəsilif* (Gəncə).

**DAVAXXANA** (Qazax) – b a x **davaxana** II.

**DAVALLAX** I (Çənbərək) – diribaş, cəld. – *Alosman çox davallax kişidi.*

**DAVALLAX** II (Təbriz) – davakar. – *Oruş davallax kişidi.*

**DAVAN** I (Mingəçevir, Şəki) – araba təkərində şin geydirilən qövsvari ağac hissə. – *Arava:n davanı sınıtdı* (Şəki); – *Hər davana iki diş düşür* (Mingəçevir).

**DAVAN** II (Basarkeçər, Başkeçid, Qazax, Tovuz) – b a x **daban** I. – *Hasan dayı, də:rmanın davannı endir, unu umşağ üyüssün* (Qazax); – *Də:rmanın davanın qaldır iri eləsin, endir yumşax üyütsün* (Başkeçid).

**DAVAN** III (Mingəçevir, Şəki) – b a x **daban** II. ◊ **Davan yarpağı** (Çənbərək, Füzuli, Oğuz) – 1. tütün bitkisinin ilk yarpağı (Oğuz, Çənbərək). – *Dünən öz sahəmin davan yarpağını yığmışam* (Çənbərək); 2. barama-qurduna verilən ilk xırda yarpaq (Füzuli). – *Mürüncüyə əvvəlcə davan yarpağı verrix'.*

**DAVANA** I (Kəlbəcər) – astana. – *A:qqavımı davanada çıxartmışam.*

**DAVANA** II (Basarkeçər, Gəncə) – b a x **daban** III. – *Qapı davanadan çıxdı* (Gəncə); – *Qapının davanası çıxıf* (Basarkeçər)

**DAVANDÖNDƏRMƏZDƏN** (Çənbərək) – müntəzəm, fasiləsiz. – *Davandöndərməzdən qoyna getmişəm, çovannığ eləmişəm.*

**DAVANHAQQI** (Çənbərək, Şəmkir) – çobana verilən əməkhaqqı. – *Davanhaqqımı alseydim, mən də siznən gedərdim* (Şəmkir); – *Davandöndərməzdən qoyna getmişəm, indi də davanhaqqımı kəsir* (Çənbərək).

**DAVAR** (Təbriz) – qoyun. – *Bizim davarrarı qoymırdıla orda otdası <otlasın>.*

**DAVARCIĞ** (Ordubad) – b a x **davarçın.** – *Davarcığ onaltı kilo un tutur.*

**DAVARÇIN** (Ağbaba) – dağarcıq, torba.

**DAVDAV** (Qax, Zaqatala) – yumşaq və uzuntüklü dovşan.

**DAVEL** (Şəki) – baramaaçan sex. – *Daşdəmir oğlu:n davalində işdəmişəm mən.*

**DAVIRMAX** (Cəbrayıl) – diqqətlə baxmaq. – *Nə davırmısan sıçan görmüş pişix′ kimi.*

**DAVLA** (Cəbrayıl, Meğri) – kəklik və turacı aldadıb ovlamaq üçün ovçuların istifadə etdikləri əlvan rəngli parçalardan qurama çətir, bürüncək. – *Quşdar davlıya yaxşı gəlir* (Cəbrayıl); – *Seyfulla davla aparıp qureydı, göreydin kə′xlix′ gətdi budu* (Meğri).

**DAVLAX** (Gədəbəy, Qazax) – ucaboy və enlikürək. – *Birdən davlax bir oğlan qavağıma çıxdı* (Qazax); – *Davlax oğlandı harajan desən Fərman* (Gədəbəy).

**DAVRIXMAX** (Yevlax) – 1. boylanmaq; heyrətlə ətrafa baxmaq; 2. özünü itirmək. – *Ə:, az davrıxsana!*

**DAVRIMAX** (Beyləqan) – b a x **dabrımağ.** – *Sən hara davrıyırdın?*

**DAVULBAZ** (Qax) – nağaraçı. – *Yaxşı toy elədilər, bi davulbaz da varıydı.*

**DAVULMAĞ** (Quba) – donmaq. – *Bayirda qab quyma, davular.*

**DAVUŞ** (Şuşa) – ayaq səsi. – *Kərimin uzaxdan davuşu bəlli olur, çünkü yeriyəndə ə:xların sürüyür.*

**DAY** I (Ağdam, Qax, Ordubad, Şəki) – 1. birillik at balası (Şəki); – *Bir illığ olanda day diyərıx atın balasına;* 2. üçyaşar at balası (Ağdam, Ordubad). – *Dayı xırda-xırda örgədəllər, qərəm mimmək olmaz* (Ordubad).

**DAY** II (Salyan) – daha. – *Day sə: heş bir sözüm yoxdu.*

**DAYANACAX** I (Şahbuz) – b a x **dayanajax.**

**DAYANACAX** II (Gədəbəy, Gəncə) – arabada təkəri oxdan çıxmağa qoymayan və laydırı saxlayan ağac hissə. – *Bizim aravanın dayanacağı möykəmdi, qorxusu yoxdu* (Gəncə).

**DAYANAJAX** (Şuşa) – əl ağacı, əsa. – *Gejə dayanajax olmasa, yol gedə:lmərəm.*

**DAYANDOLDURUM** (Bakı, Biləsuvar, Şamaxı) – köhnə tüfəng növü; sümbə ilə doldurulan ov tüfəngi. – *Əmimin dayandoldurumun görmüşdüm* (Biləsuvar).

**DAYANIXLI** (Şuşa) – davamlı, tab gətirən, səbirli. – *Çox dayanıxlı adam gördüm səni.*

**DAYANQAN** (Şuşa) – davamlı, tab gətirən. – *Cabbar dayanqan adamdı.*

**DAYDOLUĞ** (Füzuli) – yararsız. – *Bir neçəsi daydoluğiydi, üş-dördü də şilxor.*

☐ **Day durmax** (Gəncə, Qarakilsə) – ayaq üstə durmaq (uşağa aiddir).

**DAYICANI** (Naxçıvan, Ordubad, Şahbuz) – dayıarvadı. – *Dayının arvadı dayıcanı olur* (Naxçıvan).

**DAYIDOSTU** (Bakı, Kürdəmir, Oğuz) – dayıarvadı. –*Dayıdostu boranı pişirip* (Kürdəmir).

**DAYILIX** (Şuşa) – ögey dayı. – *Dayılığımnan Turşsuya gəzməyə getmişdix′.*

**DAYIN-DÜYÜN** (Qazax) – qeyri-ciddi, düşüncəsiz. – *Alı dayın-düyün adam döyü, danışmaz elə sözü.*

**DAYQUL** (Qazax) – yabı. – *Əzizim, qaşda tala; Şəmşəvat, Qaşqa tala; Bəy isde:r dayqul verə; Aşıq isder qaşq⁀a:t ala.*

**DAYLAĞ** I (Ağdam, Başkeçid, Gədəbəy, Qazax, Laçın, Tovuz) – birillik at balası. – *Bu daylağ alapaçanın nəslinnəndi* (Tovuz).

**DAYLAĞ** II (Füzuli, Şamaxı) – dəvə balası. – *Daylağı o:sarra* (Şamaxı); – *Dəvə balası iki yaşında olur daylağ* (Füzuli).

**DAYLAĞ** III (Sabirabad) – cəld, çevik. – *Hüseyn daylağ adamdı.*

**DAYLAXLAMAX** I (Çənbərək) – qaçmaq. – *Kazım daylaxladı getdi.*

**DAYLAXLAMAX** II (Çənbərək) – tamam yığmaq (bitkini, məhsulu). – *Quroy düşür deyin tütünü daylaxlıyıllar.*

**DAYNA** (Ağcabədi, Goranboy, Qazax, Qubadlı) – da, də (ədat). – *Dur gedəx′ dayna* (Qubadlı); – *Gət görüm dayna* (Ağcabədi); – *Mən öz sözümü dedim dayna* (Goranboy).

**DAYVURAN** (Şəki) – dəvədabanı. – *Bizim bağda dayvuran bititdi.*

**DAZAL-DAZAL** (Salyan) – böyük-böyük, yekə-yekə. – *Qabağlar dazal-dazal kişilər də çilngağac oynıyırdılar.*

**DAZALAX** (Ordubad) – fırfıra. – *Mənim dazalağım sındı; – Mən dazalağıma qırmızı irəxʹ çəxʹmişəm.*

**DAZANNIX: DAZANNIX ELƏMƏXʹ** (Oğuz) – uzun zaman söhbət etmək.

**DAZAY** (Qəbələ) – gec başa düşən, key.

**DAZGAL** (Oğuz) – uzun, yaraşıqsız (adam). – *Dazgal bir kişi küçeylə gedirdi.*

**DAZILAMAĞ** (Borçalı, Gədəbəy, Qazax, Salyan, Şəmkir) – sürətlə getmək; qaçmaq (quşa aiddir). – *Səməd elə dazılıyırdı ki, elə bil turanc gedirdi* (Salyan); – *Qurvağalı taladan bəriyələrdim, bir⁀dö:rdüm bir çil dazıle:r yernən* (Gədəbəy); – *Qaz dazıladı, tutammadım* (Borçalı).

**DAZIMAX** (Göyçay, Kürdəmir, Mingəçevir, Zəngilan) – b a x **dazılamaq.** – *Turaş balası ə:nə-bə:nə dazıyır* (Zəngilan).

**DE:CİLİK** (Mingəçevir) – xəbərçilik.

**DEÇİ** (Qax, Zaqatala) – 1. kiçik, alçaqboylu (Qax); 2. arıq (Zaqatala). – *Deçi inək gəlir.*

**DEDİXʹ** (Oğuz) – danışıq. – *Habu dedixʹdən nə çıxar?*

**DE:XʹLİ** (Qazax) – b a x **deyixʹli.** – *Məlahət Asdanın de:xʹlisidi.*

**DEQAN** (Oğuz) – tənzif.

**DELE** (Zaqatala) – xörək adı. – *Bu gün dele bişirirəm.*

**DEMAT** (Ordubad, Şərur) – dəmyə, su çıxmayan, susuz (yer). – *Aza kəndin yerinin çoxu dematdı* (Ordubad).

**DEMİ** I (Ağdam, Şərur, Zəngilan) – qəlyan. – *Dosduma bir yaxşı demi bağışdadım* (Ağdam); – *Çəxʹdığımıza demi də de:rıx, qəlyan da de:rıx* (Zəngilan).

**DEMİ** II (Culfa, Füzuli, Qarakilsə, Naxçıvan, Ordubad, Zəngilan) – dəmyə, su çıxmayan, susuz (yer). – *Bıra demi yerdi, su: yoxdi* (Naxçıvan); – *Demidə arpa əkillər, buğda əkillər* (Ordubad); – *Bizim yerimiz demidi* (Culfa); – *Biz taxılı demidə əkərıx* (Zəngilan).

**DEMİSDANNIX** (Füzuli) – dəmyə. – *Bıra demisdannığiydi.*

**DEMO** (Şərur) – b a x **demi** II.

**DENGƏNƏ** (Dərbənd) – 1. boşqab; 2. saxsı kasa. – *Xeyrə dengənədən böyüg olur.*

**DENGİ** (Şəki) – silindr şəkilli səbət. – *Əvdirə:m bizə bi dengi üzüm göndərmişdi.*

**DERET** (Qazax) – 1. dəfə, kərə; 2. növbə.

**DERMƏ** (Çənbərək) – naxış. – *Bu xurcuna niyə dermə vurmuyufsaŋ.*

**DERMƏLİ** (Çənbərək) – naxışlı. – *Anam bir dermәli kilim toxuyuf ku, gə görəsən.*

**DERNAUC** (Dərbənd) – dırmıq.

**DESBİRİ** (Bakı) – kimi, təki. – *Mən də, bacı, sən desbiri saxlı:cegəm.*

**DEŞDAVAR** (Salyan) – qərb küləyi. – *Deşdavar gümbatannan əsər; – Deşdavar güjdi küləkdi.*

**DEŞDEBOKUL** (Bakı) – çanaqlı bağa. – *Deşdebokullar dayi bağda üzüm qoymiyib, hamısını yi:b.*

**DEŞDƏXʹ: DEŞDƏXʹ VURMAX** (Gəncə, Şəki) – bişməmişdən qabaq çörəyin üzünü çöplə və ya başqa bir şeylə deşmək. – *Çörəyə deşdəxʹ vur, köpüf küt getməsin* (Gəncə).

**DEŞDƏXʹLƏMƏXʹ** (Gəncə, Mingəçevir) – çörəyin üzünü çöplə və ya başqa bir şeylə deşmək. – *A:z, əlini beliŋə qoyuf niyə bekar durufsaŋ, deşdəxʹləsəŋə* (Gəncə).

**DEŞDƏVAR** (Lənkəran) – b a x **deşdavar.** – *Bu gün deşdəvar əsir.*

**DEŞT: DEŞT ELƏMƏXʹ** (Cəbrayıl) – öhdəsindən gəlmək. – *Sənsən ki, o işnən deşt eliyirsən.*

**DEVƏCƏR: DEVƏCƏR OLMAX** (Meğri) – təngə gəlmək. – *Xamməmədin əlinnən devəcər oldum.*

**DEYƏ** (Şəki) – 1. daxma; 2. talvar. – *Deyəni biz bağda tikərux, çox vax horda da yatarux.*

**DEYXILLI** (Kürdəmir) – gəlmə (adam). – *Bizin kəndin çoxi deyxıllıdı.*

**DEYİXʹLİ** (Qazax) – nişanlı.

**DEYİJİLİXʹ: DEYİJİLİXʹ ELƏMƏXʹ** (İmişli) – şikayətlənmək. – *Gedif dünən sədridən deyijilixʹ ele:f.*

**DEYİN** I (Basarkeçər, Bərdə, Qazax) – borc. – *Bu mənim boynumda deyindi* (Bərdə); – *Mənim ona deyinim yoxdu* (Qazax); – *Bir deyin də qoydun mə:m boynuma* (Basarkeçər).

**DEYİN** II (Bərdə, Tovuz) – günah, təqsir. – *Deyinim, babalım boynuna olsun, əyər gəlməsən* (Bərdə).

**DEYİN** III (Çənbərək) – arzu, dilək. – *Deyinim var, o baş tutsa, qonaxlıx verəjəm.*

**DEYİN** IV (Kəlbəcər, Kürdəmir) – deyə. – *Hər bazar günü bazara adam çox yığışır deyin, mən Şükürnən orda görüşdüm* (Kəlbəcər); – *Sən gəlməmişdin deyin, anam sakit olmurdu* (Kürdəmir).

**DEYİNTİ** (Gəncə) – narazılıq, inciklik. – *Qulunun qaşqabağı yernən gedir, də:sən deyintisi var.*

**DEYİSDANNIX** (Füzuli) – insan yaşamayan yer, səhra. – *Bu uşağı apardılar, deyisdannıxda dedilər, hayıf uşaxdı, gəlin bunu öldürmüyəx'.*

**DEYİŞMƏX'** (Gəncə) – höcətləşmək, mübahisə etmək. – *Nə çox deyişirsiŋiz? Bilmirəm, nəyŋiz ortax düşüfdü.*

**DEYRƏ** (Culfa) – dar qadın tumanı. – *Deyrəni cavan arvatdar geyər.*

**DƏ:** (Ağdam, Ağcabədi, Borçalı, Tovuz) – dəyə, alaçıq. – *Bizim də: o görükən təpənin başındakıdı* (Tovuz); – *Qarım də:nin yannarına çəkilir* (Ağcabədi).

**DƏBBƏ** I (Ağdam, Borçalı, Qazax, Yevlax) – lovğa. – *Dəbbə adam papağını dik qo:r* (Borçalı); – *O, dəbbə adamdı* (Yevlax); – *Başqasın bə:nmiyənə dəbbə adam de:rix'* (Ağdam).

**DƏBBƏ** II (Füzuli, Qazax) – sözündən qaçan, şərti pozan. – *Əli dəbbədi, onnan söydamız tutmaz* (Füzuli).

**DƏBBƏ** III (Hamamlı) – inadkar, höcət. – *Alı çox dəbbə adamdı, dediyinnən dönməz.*

**DƏBBƏ** IV (Ağdam) – barıtqabı.

**DƏBBƏDAĞARJIX** (İmişli) – lovğa. – *Dəbbədağarjıx adamdı o heş kimi bə:mmer.*

**DƏBBƏKAR** (Quba) – sözündən qaçan. – *Mə:n dəbbəkar adamnan hiç aram yuxdi.*

**DƏBBƏLƏMƏX'** (Beyləqan, Çənbərək, Göyçay, Kürdəmir, Qazax, Qarakilsə, Masallı, Ucar) – sözündən qaçmaq. – *Sən mənə bir quzu verməliydin, nə üçün dəbbəliyirsən?* (Beyləqan); – *Alıp getmişəm, indi başdıyıp dəbbələməyə* (Qarakilsə); – *A bacoğlu, niyə dəbbəliyirsən?* (Qazax); – *Demişdi inəyi saŋa satajam, sonra dəbbələdi* (Çənbərək).

**DƏBBƏLİX'** (Culfa) – biclik, hiyləgərlik.

**DƏBƏLLAYI** (Bakı) – ağılsız. ◊ **Dəbəllayı-dəbəllayı danışmağ** – ağılsız, düşüncəsiz danışmaq. – *Sən gənə də başdamısan dəbəllayı-dəbəllayı danışmağa.* – *Bilmirəm ki, sə: no:lıb.*

**DƏBƏRƏ** (Göyçay) – kəsək. – *Bu dəbərələri məhlədən təmizdiyün.*

**DƏBRƏ** (Şərur) – ot bağlaması. – *Bizdərdə beş malı qışdan min dəbrə otnan ancax çıxarmağ olur.*

**DƏBRƏDİRİX': DƏBRƏDİRİX' ELƏMƏX'** (Culfa) – mal-qara üçün ot ehtiyatı görmək. – *Qışa bir dəbrədiriy eləmisən?*

**DƏBRƏX'** (Oğuz) – kisə, kiçik çuval.

**DƏ:CƏK: DƏ:CƏK QALMAĞ** (Kürdəmir) – təəccüb qalmaq. – *Bı işə lap də:cək qalmışam.*

**DƏDİX'** (Şəki) – b a x **dadax** I. – *Yekə qoyunun dədix'lərinnən tutuf, götürüf boynünə atdı.*

**DƏF** I (Şuşa) – təndirə lavaş yapmaq üçün işlədilən alət.

**DƏF** II (Kəlbəcər) – koma. – *Almaların hamısı Taharın dəfinə yığıldı.*

**DƏFƏ** (Təbriz) – xalçaçılıqda işlədilən dəmir alət. – *Dəfə dəmirdən olurı.*

**DƏFİ:DƏ** (Salyan) – tez, cəld. – *Oturan kimi qız dəfi:də qabağımıza xörekləri düzzi;* – *Söz didim, dəfi:də cavab verdi.*

**DƏFİN** (Çənbərək) – o saat, o dəqiqə, tezcə. – *Xurda dağe:tdi, dəfin dəjə qayıtdı.*

**DƏFİT** (Yardımlı) – cəld, tez. – *Dəfit getginən.*

**DƏĞDƏĞƏÇİ** (Göyçay) – narahat, təlaşlı. – *Doğrusu, sən çox dəğdəğəçisən.*

**DƏĞİ** (Dərbənd) – b a x **dağı** (1-ci məna). – *Dəği səniynən işim yoxdu.*

**DƏĞİNTİ** I (Gədəbəy) – xəstəlik. – *Dəğinti dəğif mallara, də:səŋ qənə.*

**DƏĞİNTİ** II (Salyan) – incik, xoşa gəlməyən.

**DƏĞİNTULU** (Lerik) – b a x **dəginti** II. – *Mən onə bi dəğintulu söz deməedim.*

**DƏĞİŞMƏX'** (Meğri) – seyrək otu olan yerdə otlamaq. – *Şişeyi ötürüp yamaşda dəğişir.*

**DƏH** (Çənbərək) – növbə (suvarmada).

**DƏHDAYI** (Mingəçevir, Ucar, İrəvan) – kiçik kasa.

**DƏHDÜLÜ** (Borçalı, Çənbərək) – ağıldanyüngül. – *Dəhdülü adam avaro:lar* (Borçalı); – *Dəhdülü adamnan aram olmaz* (Çənbərək).

**DƏHƏ** (Göyçay, Mingəçevir) – əkin sahəsi.

**DƏHƏTDƏMƏG** (Cəlilabad, Kürdəmir, Lənkəran) – ölçüb-biçmək, götür-qoy etmək, yoxlamaq. – *Adam gərək əvvəl dəhətdəsin, so:ra işə başdasın; – Dəhətdəmədən öylənmək eydi* (Kürdəmir); – *Sənə inandığım vəfalı dilbər, Məgər aşna sözün yada diyəllər. Dəhətdəllər sözün əvvəl axirin, Aparallar bir ustada diyəllər* (Lənkəran).

**DƏHLİZ** (Çənbərək) – 1. xanada ox keçirilən dəlik. – *Xananın dəhlizi dardı, şapalag sığmır;* 2. dirəyin haçası. – *Kərəni qaldır qoyax dirəyin dəhlizinə.*

**DƏHMƏRDƏ** (Bakı, Əli Bayramlı, Lənkəran, Sabirabad) – iri, dərin boşqab. – *Dəhmərdədə hərdən xörək də yeyillər* (Əli Bayramlı).

**DƏHMƏRRƏMƏXʹ** (Cəbrayıl, Meğri, Zəngibasar) – qovmaq, yerişini sürətləndirmək; tələsdirmək. – *Malı dəhmərrə əkinə tüşməsin* (Zəngibasar); – *Dəhmərri;n axşamacan işi qutarın* (Cəbrayıl).

**DƏHNƏ** (Cəlilabad, Təbriz, Tovuz, Zəngilan) – yüyən. – *Atın dəhnəsin almeydilər, dəhnəli-zaddi qaçeydi* (Cəlilabad); – *Dəhnəni keçir atın ağzına* (Zəngilan); – *Dəhnə o gejə atın ağzında qalmışdı* (Təbriz).

**DƏHNƏLƏMƏG** (İmişli) – atı yüyənləmək. – *Atı dəhnələdi, çəkdi qapıya.*

**DƏHRƏBURNU** (Bərdə) – parça növü.

**DƏHRƏDABAN** (Salyan) – görkəmsiz, nataraz. – *O, dəhrədaban adamdı çox.*

**DƏHYEK** (Qazax) – vergi adı (keçmişdə).

**DƏXİL** (Zəngibasar) – piştaxta. – *Bir dənə dəxil ver ma:, bamadorrarı orda satım.*

**DƏJ** I (Qarakilsə, Ucar) – nişan. – *Əmbizə dəj qoydum ki, pozan olmasın* (Ucar); – *Bıllara dəj vıraciyıx, qalacax xirməndə* (Qarakilsə).

**DƏJ** II (Ucar) – dəst. – *Mənim qablarım hamısı burda dəjdi.*

**DƏJDƏMƏXʹ** I (Ucar) – nişanlamaq. – *Mən öydən çıxanda kitablarımı dəjdədim ki, uşaxlar dəyəndə bilim.*

**DƏJDƏMƏXʹ** II (Zəngilan) – vələ daş düzmək. – *Vəli çərəxʹ dəjdiyəsən çi, taxılı yaxşı döyə.*

**DƏJDƏMƏXʹ** III ( Qazax) – yığmaq, dəstələmək. – *Pulu dəjdeyif qoydu civinə.*

**DƏLAZAR** (Tovuz) – xəstəlik adı. – *Dəlazar başdan tutor, həkim yetirməsə, öldürər.*

**DƏL: DƏL VURMEG** (Bakı) – gəzmək. – *Belədən-belə dəl vurur, belədən-belə.*

**DƏLƏ** I (Cəlilabad) – 1. qaçaq; 2. oğru. – *Qaçağə, oğriyə qədimdə dələ diyəllərdi.*

**DƏLƏ** II (Qax) – əriştə. – *İçinə ət də doğrıp pişirmişəm dələni.*

**DƏLƏ** III (İmişli) – pis. – *Dələ adam cinni olar.*

**DƏLƏCİ** (Cəbrayıl) – acgöz. – *O nə dələcidi.*

**DƏLƏCİY** (Qax, Zaqatala) – b a x **dələncık.**

**DƏLƏF** (Mingəçevir, Ucar) – b a x **dalab.** ◊ **Dələfə gəlməy** (Mingəçevir) – b a x **dalaba gəlməxʹ.** – *At dələfə gəlir.*

**DƏLƏGEY** (Bakı, İmişli, Şamaxı) – pinti. – *Əğez, Gülboci belə dələgeydü ki, bi dənə öy-eşigi var ki, it günündə; – Səlmi bilirsən nə dələgeydü, bir ignə sanca bilmir* (Bakı).

**DƏLƏMƏ** (Təbriz) – tapdanma nəticəsində hasarda, çəpərdə salınmış keçid, yol. – *Öyümüzdən bağa dələmə var.*

**DƏLƏ:N** (Ağdərə, Daşkəsən, Tərtər) – b a x **dələyən.** – *Dələ:n ağacı dimdiyinən dəlir* (Daşkəsən).

**DƏLƏNCİK** (Qax) – oxlov. – *Dələnciknən xamır yayılar.*

**DƏLƏNDAVAZ** (Salyan) – iri, nəhəng. – *Mırad dələndavaz adamdı.*

**DƏLƏNGAVAZ** I (Cəbrayıl, Füzuli, Xocavənd, Kürdəmir, Quba, Lənkəran, Mingəçevir, Sabirabad, Ucar) – b a x **dələndavaz.** – *Una hələ uşağluğdan dələngavaz adı quyublar* (Quba); – *Əhməd çox dələngavaz adamdı; – Ambarda dələngavaz odunnar çoxdu* (Ucar); – *Dələngavaz adamnan aram yoxdu* (Lənkəran).

**DƏLƏNGAVAZ** II (Cəbrayıl, Kürdəmir) – hərdəmxəyal. – *Xəlil dələngavazın biridi, onnan iş başaran olmaz* (Kürdəmir).

**DƏLƏNGAVAZ** III (Şəki) – taybatay. – *Qapı dələngavaz açıldı.*

**DƏLƏNGƏZ** (Şamaxı) – 1. iri, nəhəng; 2. kobud.

**DƏLƏYƏN** (Ağdam) – ağacdələn.

**DƏLGƏR** (Təbriz) – tıxac. – *Su turbadakı dəlgəri aparıb.*

**DƏLXAX** (Ağdam) – dəlisov. – *Dəlxax vaxdıymış o vədə onun.*

**DƏLİBANDA** (Ağbaba) – bitki adı.

**DƏLİBƏNGİ** (Oğuz) – bitki adı. – *Dəlibənginin kökün yeyən dəli olar.*

**DƏLİCƏ** (Ağdam, Füzuli, İmişli) – b a x **dəlijə.**

**DƏLİCİ:R** (Zəngilan) – meşə sağsağanı. – *Dəlici:r də elə qəcəliyə oxşi:r.*

**DƏLİJƏ** (İmişli) – qoyun xəstəliyinin adı. – *Dəlijə qoyunun çarası kəsməx'di.*

**DƏLLƏ** (Yevlax) – bıçaq.

**DƏLLƏX'** (Qazax) – soba borusunu bayıra çıxarmaq üçün pəncərə və ya divarda açılan dəlik. – *Durboyu dəlləx'dən çıxardanda əlim his oldu.*

**DƏLLƏY** (Xanlar) – bic, hiyləgər.

**DƏLMƏ** I (Ağdam, Ağcabədi, Xocavənd, İmişli, Kürdəmir) – quzu saxlanılan yer. – *Quzuları dəlmiyə saldım* (Ağcabədi); – *Körpə quzuya yer altdan dəlmə düzəlderix'* (İmişli); – *Ə:, Sa:bır, quzi dəlmədədü?* (Kürdəmir); – *Mə:m quzumun dəlməsi yaman pisəlif* (Xocavənd).

**DƏLMƏ** II (Şamaxı, Tovuz) – 1. soba borusunu bayıra çıxarmaq üçün pəncərə və ya divarda açılan dəlik; 2. su keçmək üçün çəpərin altında açılan dəlik.

**DƏLMƏ** III (Quba) – tapdalanma nəticəsində hasar, çəpər üzərində açılmış keçid. – *Bağa dəlmədən gir.*

**DƏLMƏX'** (Şəmkir) – dəlik, deşik. – *O sıçan dəlməyinin ağzına bir tələ qoy.*

**DƏLMƏX'LƏMƏX'** (Borçalı) – çörəyin üzərini deşərək naxış vurmaq. – *Xamırı isdikannan bururux, əlnən dəlməx'li:rix'.*

**DƏLMƏKCƏ** (Gəncə) – iki həyət arasında açılmış kiçik qapı. – *A Güllər, dəlməkçədən keş, bərə:l <bəri gəl>, mə:m tikməmə köməy elə.*

**DƏLYAR** (Daşkəsən, Gəncə) – böyük boşqab. – *Evimizdə iki dəlyarımız var* (Gəncə).

**DƏM** I (Naxçıvan) – divarda olan dəlik-deşik. – *Bu öydə nə çox dəm var.*

**DƏM** II (Biləsuvar, Əli Bayramlı) – alət.

**DƏM** III (Füzuli) – nəm.

**DƏ:MAĞ** (Quba) – danmaq. – *Mən bu süzi də:dimmi?*

**DƏMALAN** (Dərbənd) – aşsüzən. – *Dəmalan da diyərig, aşsüzən də.*

**DƏMBƏ** (Ucar) – kəltən; şumda olan kəsək; əzilməmiş yumru torpaq. – *Qalxozçular iri dəmbələri əzillər.*

**DƏMBƏLƏQARIN** (Cəlilabad) – qarınqulu.

**DƏMBƏLƏMDÜZ** (Naxçıvan) – dümdüz. – *Yerimiz dəmbələmdüzdi.*

**DƏMBƏR** (Qazax) – lovğa, təkəbbürlü. – *Dəmbər Əhmət bir az dambat gəzerdi, o:nçun dəmbər Əhmət de:llər.*

**DƏMBƏRÇƏ** (Qarakilsə) – hündür. – *Bir dəmbərçə ev tikin;* – *Onun cibi dəmbərçədi.*

**DƏMBƏRÇƏX'** I (Qazax, Şəmkir) – hirsli, əsəbi. – *Bu nə dəmbərçəy uşaxdı, adamın üzünə qayıdır* (Şəmkir).

**DƏMBƏRÇƏX'** II (Gədəbəy, İmişli) – lovğa. – *Bizim quzuları otaran bir dəmbərçəyin biridi kin, tapbassan ona tay* (Gədəbəy).

**DƏMBƏRÇƏX'LƏNMƏX'** (Çənbərək, İmişli) – lovğalanmaq, yekə-yekə danışmaq. – *Ə:, nə dəmbərçəx'lənersəŋ, az özünü dart* (İmişli); – *Üsdümə nə: dəmbərçəx'lənirsəŋ, maŋa güjün çatar?* (Çənbərək).

**DƏMBƏRƏ** (Göyçay) – b a x **dəmbə.**

**DƏMBƏZİMƏX'** (Çənbərək, Gədəbəy, Şamaxı) – büdrəmək. – *Hənəx'-hənəx' gələrdim cığırnan, qəfil dəmbəzimədimi at* (Gədəbəy); – *Dəmbəzidim, yıxıldım* (Çənbərək); – *Başım maşına dəydi, dəmbəzidim yıxıldım* (Şamaxı).

**DƏMBİLDƏMƏX'** (Çənbərək) – yanmaq, alovlanmaq. – *Ojax dəmbildiyr.*

**DƏMÇİ** (Şahbuz) – züyçü, çalğıçıya züy tutan. – *Dəmçi laf yoruluf.*

**DƏMDƏMƏ** (Borçalı) – hərdəmxəyal. – *Dəmdəmə adam odur ki, bir xəyalda olmor.*

☐ **Dəmə düşmək** (Kürdəmir) – küyə düşmək. – *Yoldaşlarının dəminə düşüb bı da gedib.*

**DƏMGAL** (Şəki) – ağac növü. – *Dəmgal cəncəx'li ağaşdı.*

**DƏMGƏLGÖZ** (Qazax) – bədnəzər. – *Qavağıma dəmgəlgöz çıxmaseydi, işim yaxşı olardı.*

**DƏMGİL** (Borçalı, Çənbərək, Qazax, Şəmkir) – seyrək, tək-tək, orda-burda. – *Toxumu siçan ye:f, taxıl dəmgil bitif* (Borçalı); – *Üzündə dəmgil çili var* (Qazax); – *Qartof dəmgil bitif deyn yer qarala qalıf* (Çənbərək).

**DƏMĞƏL** (Gədəbəy) – bədnəzər.

**DƏMXUD: DƏMXUD QALMAX** (Ağdam) – ehtiyac içərisində qalmaq. – *Günüz qəndçay almadım deyin, bu axşam laf dəmxud qaldıx.*

**DƏMİRDIRNAX** (Çənbərək) – 1. diribaş, əldən iti (adam); 2. sağlam, möhkəm. – *Xuraman xalanın gəlini yaman dəmirdırnax gəlindi.*

**DƏMİRİ** (Ağdam) – üzüm növü.

**DƏMİRQARA** (Ağdam, Bərdə, Borçalı, Tovuz) – dəmirağac. – *Dəmirqaradan harava qayırmağ olor* (Borçalı).

**DƏMİROTU** (Oğuz) – dərman bitkisi adı.

**DƏMKƏR** (Cəbrayıl) – vaxt. – *Adam hər dəmkərdə hər işi görməz.*

**DƏMQUN** (Təbriz) – dəm çəkmək üçün plov qazanının ağzına qoyulan toxunma dəsmal. – *Dəmqun qoyalla qazanın ağzına kı dəm çəx'sin.*

**DƏMLƏMƏX'** (Kürdəmir) – *məc.* qızışdırmaq, salışdırmaq, fitləmək. – *Səni dəmliyib başdan çıxarıblar.*

**DƏMRAH** (Cəlilabad) – 1. həyət; 2. ev. – *Axşəmnən dan yerinə sada düşincən oğlunun dəmrahına girə:lmədi.*

**DƏMŞALAX** I (Ağcabədi, Bakı, Mingəçevir, Ordubad, Şamaxı, Ucar) – yüngülxasiyyət. – *Mən səi heç belə bilmirdim, lap dəmşalağın birsənmiş* (Ucar); – *Dəmşalax yüngül adama deyərıx* (Ordubad).

**DƏMŞALAX** II (Bakı, Füzuli, Göyçay, Şamaxı, Şəki, Yevlax) – pinti, səliqəsiz. – *Heş belə dəmşalax gəlin görməmişəm* (Şamaxı); – *O çox dəmşalax adamdı* (Yevlax); – *Ava-qavasınnan bilərsən ki, havı dəmşalaxdı* (Şəki).

**DƏMYƏ** (Bakı) – həlimi süzülməmiş plov.

**DƏMYƏL** (Gədəbəy) – b a x **dəmğəl.** – *Dəmyəl adamın gözünnən dəysin elə azar.*

**DƏNAB** (Ordubad) – dən suyu, taxıl dən tutmağa başlarkən verilən su. – *Nədir əxşam taxıla dənab verdi.*

**DƏNCƏX'** (Ağbaba) – b a x **dəndəx'.** – *To:uğun dəncəyi arpeynan doludu.*

**DƏNÇİ** (İmişli) – dəyirmanda dən üyüdən adam. – *Dağirmanda dənçi çoxudu, çəkə:lmədim dəni.*

**DƏND** I (Meğri) – iri, bazburudlu (adam). – *Hani indi u dənd cavannar.*

**DƏND** II (Culfa, Ordubad) – xışın kötük hissəsi. – *Gedirəm kəfşənə dənddix' kəsim gətirim, hiş qayirmaxdan ötri* (Ordubad).

**DƏNDAN** (Mingəçevir) – dəyirmanın dən tökülən hissəsi.

**DƏNDƏ** (Bakı, Göyçay, Mingəçevir) – araba təkərinin şini ilə topunu birləşdirən barmaqlıqlar.

**DƏNDƏX'** (Borçalı) – çinədan. – *Dəndəx' toyğun döşündo:lor, ora dən yığıler.*

**DƏNDƏNƏ** I (Kürdəmir, Şəki) – 1. b a x **dəndə** (Şəki); 2. nərdivanın pillələri (Kürdəmir). – *Ayağu: düz bas dəndəniyə, yıxılarsan;* – *Təkərin dəndənəsi sınmışdı.*

**DƏNDƏNƏ** II (Qax) – ağılsız. – *Dəndənə olmasa, əlindəkin paylamaz.*

**DƏNDƏNƏ** III (Ucar) – böyük mis kasa. – *Dəndənədən qatığı tök, ver mənə.*

**DƏNDƏNƏ** IV (Hamamlı) – səhəngin oturacağı. – *Buy, sənəx' əlimnən düşdü, dəndənəsi sındı.*

**DƏN: DƏNƏ DÜŞMƏX'** (Çənbərək, Qazax) – arpanı çox yeməkdən xəstələnmək (heyvanlarda, quşlarda). – *Qoyun o xərtənə arpa ye:f kin dənə tüşüf, ölüf* (Çənbərək).

**DƏNDİX'** I (Zəngilan) – toxum (yemiş, qarpız və s.-də). – *Bir həylə dəndix' salmışdım, biri də bitmeyib.*

**DƏNDİX'** II (Qazax) – b a x **dəndəx'.** – *To:ğün dəndiyinnən balaja-balaja daşdar çıxdı.*

**DƏNDİR** (Meğri) – kef. ◊ **Dəndirinə dəyməx'** – xətrinə dəymək, qəlbinə toxunmaq. – *Düz söz deyəndə də dəndiro: dəyir.*

**DƏNƏ** I (Lənkəran) – günəbaxan tumu. – *Qo:rulmuş dənə çıtdıyısa:n?*

**DƏNƏ** II (Salyan) – da, də. – *Gedəy dənə, kimi gözziyirsən.*

**DƏNƏ** III (Salyan) – tilov. – *Kiçig qarmağa dənə di:llər.*

**DƏNƏB** (Ordubad) – b a x **dənab.**

**DƏNƏBİR** (Qazax) – seyrək, tək-tək. – *Göyçəx' qızdı, əmbə dənəbir çili var üzündə.*

**DƏŊƏTDƏMƏX′** (Ağcabədi, Qazax, Tovuz) – diqqətlə baxmaq, gözünü zilləmək.

**DƏNƏVAR** (Bakı, Salyan, Şəki) – buğdanı samandan ayırmaq üçün sovurma. – *Dənəvar külək vaxdı olar* (Salyan). ◊ **Dənəvar olmax** (Şəki) – sovrulmaq, samandan ayrılmaq, təmizlənmək.

**DƏNƏVƏ** (Yardımlı) – hədik. – *Qışda dənəvə yaxşı oley.*

**DƏNƏVƏR** I (Mingəçevir, Şəki) – bax **dənəvar.** – *Xırmanda taxılı döyüf kürəx′nən alıf atıllar ki, tozu, samanı təmizdənsin, buna diyillər dənəvər* (Şəki).

**DƏNƏVƏR** II (Kürdəmir) – dənəli, dəndən olan. – *Buğda, düyü dənəvər məhsuldi.*

**DƏNG** (Cəlilabad) – ağıl. – *Baş qoşmo:na* <*qoşma ona*>*, dəngi əsgigdü.*

**DƏNGAH** (Meğri) – heyvan sağılan yer. – *Otammellər, qoyunu dəngahda qovalellər elə-belə.*

**DƏNGƏ** (Ağdam, Göyçay, Sabirabad, Ucar) – tayfa, nəsil. – *Bizim kətdə beş dəngə var;* – *Bırda var Süleymannı dəngəsi, Hajabbasdı dəngəsi, Qışdağarxı dəngəsi;* – *Mən beşşərik dəngəsində oluram* (Ucar); – *Bizim kətdə var biri Hacabdılla dəngəsi, so:ra Hacmıssaflı dəngəsi, so:ra da Dəlməməddi dəngəsi* (Göyçay); – *Gərək on iki dəngə ola kətdə* (Ağdam).

**DƏNGƏNƏ** (Xaçmaz, Dərbənd, Kürdəmir, Qubadlı, Qusar, Lənkəran, Şamaxı) – piyalə. – *Dəngənədə süt var, gəti, atun içsün* (Lənkəran); – *Süfrənün üsdündə dəngənələr bomboş idi* (Qubadlı); – *Dəngənəni uşağ sındırdı* (Xudat).

**DƏNGƏTDƏMƏX′** (Şəki) – qulaq asmaq, dinləmək. – *Darvazada əmalli dəngətdədim.*

**DƏNGİ** (Qax, Oğuz) – bax **dengi.** – *Üzümü dəngiyə yığmışam, gəl dəngini götür, apar boşalt* (Oğuz).

**DƏNGİDUVAL** (Ağcabədi) – yersiz mübahisə edən. – *Bu, dəngiduval adamdı.*

**DƏNGİL-DÜNGÜL** I (Bakı, Qarakilsə, Quba, Sabirabad) – bax **dəngiz-düngüz.** – *Əkinin içində dəngil-düngül alağ var* (Bakı); – *Yaxşı yağış ülmiyəndə taxıl dəngil-düngül bitədü* (Quba); – *Ağaşdarda meyvə bıyıl dəngil-düngüldü, görmürsən?* (Qarakilsə).

**DƏNGİL-DÜNGÜL** II (Bakı) – çala-çuxur. – *Adə, bu həyətin yeri nə yaman dəngil-düngüldü, heç gəzməg olmur ki.*

**DƏNGİLTƏX′** (Tovuz) – quru. – *Çörəx′ lap dəngiltəydi, yeməy olmur.*

**DƏNGİZ-DÜNGÜZ** (Cəbrayıl, Zəngilan) – seyrək, tək-tək, orada-burada. – *Cəvizdər dəngiz-düngüz gətirifdi* (Cəbrayıl).

**DƏNGÜDÜVAN: DƏNGÜDÜVAN ELƏMƏX′** (Zəngibasar) – dağıtmaq, tar-mar etmək. – *Hər şeyimizi dəngüdüvan elədilər.*

**DƏNGÜL** (Cəlilabad, Lənkəran) – bax **danqıl.** – *Çox dəngül adammışsan* (Lənkəran); – *Zibeydə yaman dəngül qızzı* (Cəlilabad).

**DƏNGÜLLÜY** (Lənkəran) – yüngüllük, arsızlıq. – *Gəl sən dəngüllüyünnən əl çək.*

**DƏNGÜŞ** (Yardımlı) – yüngülxasiyyət. – *Dəngüş adamnan səy adam yolə gedey.*

**DƏŊLİ** (Daşkəsən, Gədəbəy) – qədər; kimi. – *İki o qaş dəŋli olor* (Daşkəsən); – *Burdan Şınığa nə dəŋli olar görən?* (Gədəbəy)

**DƏNNƏMƏ** (Borçalı) – başaq, biçin zamanı yerə tökülən sünbül. – *Ay uşax, gedin, tökülən dənnəmeyi yığıf gətiriŋ.*

**DƏNNƏMƏX′** (Ağcabədi, Başkeçid, Borçalı, Şəmkir, Şuşa, Ucar) – yığmaq, dərmək. – *Buğdanı dənne:rix′;* – *Ağaşdan tut dənne:rəm* (Ağcabədi); – *Əriyin hamsını dənniyiv aparır* (Şəmkir). – *Hayvanı ağaşdan dənnəmişik* (Ucar); – *Mən barama dənni:rəm* (Şuşa).

**DƏNNİG** (Salyan) – çinədan. – *To:ğun dənnigi boşdu.*

**DƏNO** (Naxçıvan, İrəvan) – bax **dənab.** – *Buğdaların dəno vaxdıdı, ay bir su olaydı, dəno:nu verəydik* (İrəvan); – *Dəno verərdıx yetişəndə ki, dən bağlasın belə* (Naxçıvan).

**DƏNO:LAMA** (Göyçay) – plov həlimi. – *Anam mənə dəno:lama verdi.*

**DƏNSİZ** (Meğri, Ucar) – ağıldankəm; yüngülxasiyyət. – *Dənsiz adam məclisdə yoldaşdarın utandırar* (Ucar); – *Tuğutda Anıxdan dənsiz adam yoxdu* (Meğri).

☐ **Dən suyu** (Tovuz) – taxıl dən bağlamağa başlarkən verilən su. – *Bir də yazda döndərmə dən suyu vurordux;* – *Dən suyunnan soŋra da özgə mə:sil əkərdix′.*

**DƏNZƏMƏG** (Lerik, Yardımlı) – qızarıb-bozarmaq, pərt olmaq. – *Neşin dənzeysən* (Yardımlı).

**DƏŊZƏRMƏX′** I (Çənbərək) – tərləmək. – *Kosa Məhərrəm atıl-batıl olmuşdu, yenijə dəŋzərif.*

**DƏŊZƏRMƏX′** II (Cəbrayıl, Salyan, Zəngilan) – 1. yetişmək (Cəbrayıl). – *Almuxarılar indi-indi dəŋzərir;* 2. cücərmək (Zəngilan). – *Soğanı çoxdan səpbişik, hələ indi-indi dəŋzərir.*

**DƏŊZƏRMƏX′** III (Zəngilan) – 1. qulaq asmaq; eşitmək; 2. fikir vermək. – *Sə:rdən onu ça:rıllar, heş gör dəŋzərir?*

**DƏPBÜLÜM** (Şəki) – yüngülxasiyyət. – *Pis olduğuna dəpbülüm Məmməd diyillər.*

**DƏRAMƏTDİ** (Gəncə) – gəlirli, xeyirli. – *Ağır otu, batman gəl! Munnan savay dəramətdi iş harda tapajasan.*

**DƏRBƏ** (Culfa, Gəncə) – alaf, yem. – *Dərbəmiz az olanda qapımızın heyvanın tutuf satardıx* (Gəncə); – *Qışa dərbə hazırrıx eləmisə:n?* (Culfa).

**DƏRBƏÇƏ** (Kürdəmir, Lənkəran) – darvazada olan kiçik qapı.

**DƏRBƏND: DƏRBƏND OLMAX** (Cəbrayıl, Zəngibasar) – fikir vermək, əhəmiyyət vermək. – *Əşi, dərbənd olma, qoynan nə desə desin* (Zəngibasar); – *O:n sözünə dərbənd olma, avaranın biridi* (Cəbrayıl).

**DƏRCAH** (Zəngilan) – b a x **dərya** II.

**DƏRDƏCƏR** (Bakı, Qazax) – 1. dərdli (Bakı). – *Əybi kim elər-əybəcər, soğanı kim yeyər-dərdəcər;* 2. xəstə (Qazax). – *Dərdini çəx′məxdən dərdəcər olmuşam.*

**DƏRƏ** (Quba) – bahalı paltarlıq parça (keçmişdə). – *Suna xanum dərədən paltar tikmişdi.*

**DƏRƏDÖYMƏ** (Oğuz) – uşaq oyunu adı.

**DƏRƏĞ** (Lənkəran) – dırmıq. – *Yeri dərəğnən dərəğli:ruğ.*

**DƏRƏĞLƏMƏK** (Lənkəran) – dırmıqlamaq.

**DƏRƏQOL** (Şərur) – əkin sahəsi.

**DƏRƏMƏTDİ** (Şəmkir) – b a x **dəramətdi.**

**DƏRƏMUM** (Quba) – mum. – *Dərəmumdan uşağlar it düzəltdi.*

**DƏRƏNDAVAZ** (Salyan) – b a x **dələndavaz.** – *Mırad dərəndavaz adamdu.*

**DƏRƏNGAVAZ** (Şəki) – b a x **dələngavaz** III.

**DƏRGƏ** (Kürdəmir) – çay üzərində ağacdan düzəlmiş keçid (körpü). – *Dərgədan qoyun-quzu keçmir, ama adam keçir.*

**DƏRGÜL** (Naxçıvan, Təbriz) – itburnu. – *Dərgüli yığıp gətirip dəmli:p içillə* (Təbriz).

**DƏRİNKƏ** (Lerik, Salyan, Yardımlı) – qab, cam. – *Çuğun dərinkədə biyaz <bir az> yeməg saxləmişdi* (Lerik); – *Dərinkə dərin qaba deylər* (Yardımlı).

**DƏRKAL** (Quba) – 1. çubuqdan hörülmüş həyət qapısı; 2. iki bağ arasındakı çəpərdən keçid yeri. – *Bizim bağın dərkalınnan keçəndə uşağ yıxıldı;* – *Dərkaldan keçmağ çux hasandu, ham da yoxun uladu.*

**DƏRMANGAH** (Təbriz) – əczaxana, aptek. – *Neçə kətdərdə dərmangah yox iydi.*

**DƏRMƏ** (Gədəbəy, Qazax, Şəmkir) – 1. naxışlı (çul) (Şəmkir). – *Varrılar atdarına dərmə çul vurallardı;* 2. birüzlü toxunmuş (cecim, xurcun) (Gədəbəy). – *Ciyimin <anamın> sağlığında toxunuf o dərmə xurcunnan cejim.*

**DƏRMƏK** (Qax) – silmək.

**DƏRMƏRLƏMƏK** (Kürdəmir) – qalamaq, yandırmaq (ocağı, peçi).

**DƏRRƏNMƏY** (Xanlar) – incimək, narazı olmaq. – *Mənnən dərrənməynən, onnan mə:m xavarım yoxdu.*

**DƏRRİX′** (Ağdam, Cəbrayıl, Füzuli, Qazax) – tərlik, atın belinə yəhərin altından qoyulan keçə.

**DƏRRO** (Lənkəran) – qəflətən, birdən. – *Dərro qapı açıldı.*

**DƏRSQORS** (Çənbərək) – məsləhət.

**DƏRSQORSDAMAX′** (Çənbərək) – məsləhət eləmək, məsləhətləşmək. – *Camahat dərsqorsdadı dağa getməx′dən ötrün.*

**DƏRVƏÇƏ** (Şəki) – b a x **dərbəçə.** – *Hayindi tez ol, dərvəçəni bağla.*

**DƏRYA** I (Qafan) – qırçınlı qadın tumanı. – *Nənə, mənə də dərya tik.*

**DƏRYA** II (Zəngilan) – çəki vahidi. – *Səkkiz dəryan bir dinəvişdi.*

**DƏRZƏLAC** (Quba) – ot və ya taxılın arabadan tökülməməsi üçün onun üstündən uzadılan, yaxud yanlarından sancılan ağaclar. – *Bu gün arabamız üçün dərzəlacımız yoxdı.*

**DƏRZƏNBAL** (Quba) – uzun yaba, tayaya ot qaldırmaq üçün istifadə olunan yaba. – *Dərzənbalı həyətdən gəti.*

**DƏSBƏCƏ** (Cəlilabad, Qax) – tələsik. – *Dəsbəcə iş qoranda <görəndə> yelə olar* (Qax); – *Dəsbəcə gəldilər, apardılar* (Cəlilabad).

**DƏSDANA** (Şahbuz) – b a x **dasdana.** – *Bazardan bir-iki dəsdana al;* – *Dəsdana girdə olur, çörəkdi.*

**DƏSDƏR** (Çənbərək, Ordubad) – b a x **dasdar** II. – *Məleykə, dəsdəri ma: versəŋə* (Çənbərək).

**DƏSDİR** (Çənbərək, Şəmkir) – qayda ilə, üsulla. – *Bu dəsdir beş dəfə gəldi, bir söz deməदim* (Şəmkir).

**DƏSDİRİ** (Cəlilabad, Qazax) – b a x **dəsdir.** – *Sən də həmin dəsdiri iş görörsən* (Qazax).

**DƏSFAHA** (Çənbərək, Qazax) – dərhal, o saat.

**DƏSGİLLƏMAX** I (Meğri) – qorxmaq. – *Məmiş itdən dəsgilley.*

**DƏSGİLLƏMAX** II (Meğri) – alayarımçıq təmizləmək. – *Bicə zunbuz çəltiyim var, dəsgilleyim, gəlim.*

**DƏSGİRƏ** I (Bakı, Kürdəmir, Ordubad) – toxunma səbət, zənbil. – *Rəhilə, o dəsgirəni bağa gedəndə özünçün apararsan* (Bakı); – *Gilası dəsgirəyə yığdım* (Ordubad).

**DƏSGİRƏ** II (Təbriz) – dəstək. – *Qapının dəsgirəsin çıxarmışdıla.*

**DƏSMAL** (Şamaxı) – bostanda su arxı. – *Bir-iki dəsmal qaz, su gətirəg.*

**DƏSMALOYNU** (Ağcabədi) – uşaq oyunu adı. – *Dəsmaloynun xırda uşaxlar oynıyır.*

**DƏSPƏÇƏ** (Yardımlı) – əlüstü, dərhal. – *Söz dedin, dəspəçə cavab verey.*

**DƏSSİRİ** (Kürdəmir, Mingəçevir, Salyan) – b a x **dəsdir.** – *Bu da Həsən dəssiri ağzın əgə-əgə danışır* (Salyan); – *Sə: dəssiri mən də sudan qorxuram* (Kürdəmir); – *Sən də o:n dəssiri darqursağ olma* (Mingəçevir).

**DƏSSO:C** (Göyçay) – toxunma səbət.

**DƏSTANA** (Culfa, Naxçıvan, Zəngilan) – b a x **dasdana.**

☐ **Dəstana qoymax** (Ağdam) – dilə-dişə salmaq. – *Bizi yaman dəstana qoydun, hər yerdə sözümüzü danşıllar.*

**DƏSTBAŞ** (Təbriz) – bilərzik. – *Gəlnimə verdiyim dəstbaş nənəmnən qalmışdı.*

**DƏSTƏÇİN** (Oğuz) – zədələnmədən yığılmış (meyvə). – *Dəstəçin alma çox qalır.*

**DƏSTƏNƏ** (Bakı) – qolbaq, bilərzik. – *Gezmegə gedəndə dəstənəmi taxdim.*

**DƏSTƏR** (Culfa, Naxçıvan) – b a x **dasdar** II.

**DƏSTOVUC** (Salyan) – uydurma. – *Gündə bir dəstovuc düzəldirsən özünnən.*

**DƏSVA:** (Qazax) – dərhal.

**DƏSVAHA** (Çənbərək, Kürdəmir, Qazax) – b a x **dəsva:** – *Murtuz dəsvaha dağe:tdi yəldi* (Çənbərək).

**DƏSVƏÇƏ** (Oğuz) – hövsələsiz. – *Ə, dəsvəçə olma, səbirri olginən.*

**DƏSVƏSA:T** (Çənbərək, Gədəbəy) – dərhal. – *Sizdən öyələntək dəsvəsa:t idara: <idarəyə> çağırdılar məni* (Gədəbəy).

**DƏŞDİVAN** (Ordubad) – bağ qarovulçusu. – *Bizim bı yerdə bağ qaro:lçusuna dəşdivan diyərıx.*

**DƏŞNƏ** (Ordubad) – balaca xəncər. – *Mən bı dəşnə: əsgərrıxdan gətimişəm.*

**DƏŞTƏBƏKÜL** (Bakı) – tısbağa.

**DƏ:T** (Oğuz) – pusqu.

**DƏ:TDƏMƏXʹ** (Mingəçevir, Oğuz) – pusmaq.

**DƏTDÜLÜM** (Qax) – b a x **dəpbülüm.**

**DƏV** I (Çənbərək) – əyri. – *Kilimin ağzı dəv oldu;* – *Dermə dəv oldu deyn difarda çirkin durur.*

**DƏV** II (Quba) – böyə. – *Balaşı dəv sacmışdu.*

**DƏV** III (Qazax) – iri, bədəncə kobud (adam).

**DƏVDƏNMƏXʹ** (Qazax) – kor kimi yerimək (qaranlıqda). – *Kor kimi dəvdənmə, yeyin yeri.*

**DƏVDİNMƏXʹ** (Çənbərək) – b a x **dəvdənməxʹ.** – *Beyjə iŋirixʹ yerə çöxʹmüşdü, dəvdindim savağatana;* – *Alosman ay qarannıx gejədə dəvdinif, hakı yəlif öə çıxıf.*

**DƏVƏDAVANI** (Füzuli, Kürdəmir) – qovun növü. – *Dəvədavanı yumru, hərrəmə yemişdi* (Füzuli).

**DƏVƏDAYLAĞI** (Yevlax) – uzun (adam).

**DƏVƏDƏLLƏYİ** I (Cənubi Azərbaycan, Zəngibasar) – arıq uzun (adam).

**DƏVƏDƏLLƏYİ** II (Zəngibasar) – böyük, nəhəng. – *Nə yaman dəvədəlləyidi bu?*

**DƏVƏDİŞİ** (Culfa, Naxçıvan) – iridənəli buğda. – *Bı il qalxozdar bütün dəvədişi əkiblər* (Naxçıvan).

**DƏVƏGÖZÜ** (Qarakilsə) – qara şüşəyəbənzər daş.

**DƏVƏQULAĞ** (Biləsuvar) – iri süpürgə.

**DƏVƏQULAĞI** (Basarkeçər) – bitki adı. – *Dəvəqulağında şirə çox olur, bal çox olur.*

**DƏVƏLƏMƏXʹ** (Tovuz) – iri addımlarla yerimək.

**DƏVƏLLAĞI** (Qarakilsə) – oğru. – *Gədə dəvəllağı bir dəsmal götürdü.*

**DƏVƏLLAYI** (Salyan) – səfeh, ağıldankəm. – *Harda dəvəllayı var, gərəg mənə ras gələ.*

**DƏVƏLÖYÜZ** (Goranboy) – pərtənəgöz.

**DƏVƏRCƏXʹLƏNMƏXʹ** (İmişli, Kürdəmir) – qurcalanmaq. – *Bi yerdə oturammırsan, nə dəvərcəxʹlənirsən?* (Kürdəmir); – *Bir az dəvərcəxʹləndi, so:ra yatdı* (İmişli).

**DƏVƏRƏ** (Kürdəmir) – b a x **dəbərə.** – *Dəvərəni götürüp qaxaram başua.*

**DƏVƏRƏGÖZ** (Ucar) – b a x **dəvəlöyüz.** – *Dəvərəgöz Sərxan məni ləngitdi, ua <ona> görə geçikdim.*

**DƏVÖ:ZÜ** I (Ağdam, Ağcabədi, Cəbrayıl, Gəncə, Kürdəmir) – irigiləli qara üzüm növü. – *Dəvö:zü yeməli də:il* (Ağcabədi); – *Həsən, aşağı ləkdən bir az dəvö:zü dər, gəti* (Gəncə); – *Dəvö:zünnən təbrizi şirəlidi* (Kürdəmir).

**DƏVÖ:ZÜ** II (Ağcabədi, Basarkeçər) – b a x **dəvəgözü.** – *Bu şüşüyü dəvö:züynən kəsmişəm* (Basarkeçər); – *Dəvö:zü əzirsən, qara bağırı pişirirsən, dəvö:zün tozuna batırıf ye:rsən, gözü açır* (Ağcabədi).

**DƏVRİ** (Cəbrayıl) – qazan qapağı.

**DƏVYƏ** (Gədəbəy) – ağıldankəm. – *Dəvyə adamnan na:xıl <nə ağıl> umoysuŋ sən;* – *Qoşulmaŋnan ona, səni rüsvay elə:r el içində, oğul, dəvyədi yaman.*

**DƏYDALI** (Salyan) – tələsik. – *Hələ dünən süzdə dəydalı çörək yiyənəm.*

**DƏYƏ** (Ağcabədi, Göyçay, İmişli, Mingəçevir, Ordubad, Ucar, Şamaxı, Şəki) – 1. b a x **deyə** (Şamaxı, Şəki). – *İşdi:rux, yorulanda da gedif dəyədə otu:rux* (Şəki); 2. tövlə (Ağcabədi, Göyçay, İmişli, Mingəçevir, Ordubad, Ucar). – *Mallarımız qışda dəyədə yatır* (Ucar).

☐ **Dəyə pulu** (Qazax) – keçmişdə köçərilərin dağda odun yandırmaq üçün ödədikləri vergi, odun vergisi.

**DƏYİNMƏXʹ** (Gəncə, Mingəçevir, Zəngibasar) – incimək. – *Aşna, də:sən dünənki sözdən bir az dəyinifsən, onçun belə santuruŋu sallıyıfsan* (Gəncə).

**DƏYİNTİ** I (İmişli, Kürdəmir) – b a x **deyinti.** – *Mənnən nə dəyintin var, de maŋa* (İmişli).

**DƏYİNTİ** II (Gədəbəy) – b a x **dəğinti.**

**DƏYİRDƏK** (Naxçıvan) – çəyirdək. – *Bi var gilas dəyirdəsi, bi də var şaftalı dəyirdəyi.*

**DƏZGƏ** (Quba) – pusqu. – *Bənzən üşdörd sa:t dəzgədə oturub güzdiyəsən, bir dənə də quş keçmiyədü.*

**DIBBER** (Qazax) – gödək boy.

**DIBIQ** (Bakı) – balaca.

**DIBIR** (Ağdam, Basarkeçər, Başkeçid, Cəbrayıl, Gəncə, İsmayıllı, Kürdəmir, Mingəçevir, Naxçıvan) – 1. ikiillik erkək keçi (Kürdəmir); 2. axtalanmış keçi (Basarkeçər, İsmayıllı, Naxçıvan, Mingəçevir). – *Gəti o dıbırı kəsək, yaxşı əti var* (Cəbrayıl); – *Mə:m dıbrım yeməlidi* (İsmayıllı); 3. sürünün qabağında gedən erkək keçi (Gəncə).

**DIBIRÇƏLLƏK** (Salyan) – gödək kök adam. – *Dıbırçəllək adam bərk qaçammaz.*

**DIBRIXMAX** (Cəbrayıl) – qaçmaq.

**DIDAX** (Kürdəmir) – balacaboy. – *Nərman həylə çox dıdaxdu.*

**DIĞARAX** (Gədəbəy) – 1. girdə, dəyirmi şey. – *Mən su çarxı düzəltməyə iki dığarax gətimişəm;* 2. sap makarası. – *Ay qağa, maŋa da bir dığarax qayır.*

**DIĞIR** I (Hamamlı) – sap (makarada). – *Gələndə bazardan beş-on dənə dığır al gəti.*

**DIĞIR** II (Basarkeçər) – gödəkboy (adam). – *Dığır Alı özünnən çıxmışdı gənə.*

**DIĞIR-DIĞIR** (Kürdəmir) – nahamar. – *Gümbata kağızının üssü dığır-dığırdı.*

**DIĞIŞ** (Ucar) – lovğa. – *Dığış adamnan heş kimin xoşu gəlməz*

**DIĞLANMEG** (Bakı) – 1. təngə gəlmək; 2. vərəmləmək.

**DIĞLATMAĞ** (Lənkəran) – təngə gətirmək. – *Ürəyüvün başı dağ azarı gətirsün, sən məni lap dığlatdun ki.*

**DIĞRAN** (Sabirabad, Salyan) – gödəkboy (adam). – *Bı kətdə dığran adam yoxdi* (Sabirabad); – *Dığran adam çox şey bilər* (Salyan).

**DIXA** (Qax) – boyunbağı. – *Baqudan köçək dıxalar getirip qardaşı.*

**DIQI** (Borçalı, Çənbərək) – keçi balası.

**DIQILI** (Şəki) – b a x **dıqqılı** (1-ci məna). – *Bi dıqılı boyu var, dam dolusu toyu var.*

**DIQIŞ** (Gədəbəy) – b a x **dıqı.**

**DIQQAN** (Ağdaş, İmişli, Kürdəmir) – bir qədər, bir az. – *O qarpızdan dıqqan da ver mən yi:m* (İmişli); – *Mənə dıqqan duz gəti* (Ağdaş).

**DIQQANA** (Mingəçevir) – b a x **dıqqan.**

**DIQQAT** (Cəbrayıl) – eyib. – *Bir yerində dıqqatı yoxdu.*

**DIQQƏCƏR** (Ordubad) – vərəm.

**DIQQI** (Culfa, Ordubad) – b a x **diqqi.**

**DIQQILI** (Füzuli, Kürdəmir, Qazax, Laçın, Mingəçevir, Ordubad, Şəki, Zəngilan) – 1. balaca. – *Dıqqılı uşağ kimi ağlama* (Laçın); – *Məyi dıqqılı vaxtı veriflər ərə* (Füzuli); – *Mən əvdən biy dıqqılı qıra gətiydim* (Ordubad); – *Baxırsan, dıqqılı boyu var, amma özü çox biləndi* (Şəki); 2. azca, bir az, bir qədər.

**DIQQILINCA** (Şəmkir) – b a x **dıqqılı** (2-ci məna).

**DIQQIŞ** (Cəbrayıl) – azca, bir az. – *Zəmini kimsə elə otarıb ki, heç dıqqış da qalmıyıb.*

**DILĞER** (Goranboy) – uzunqılça.

**DILIMBIR** (Ağbaba) – çılpaq, lüt. – *Oğlan dılımbırdı, çölə çıxə:lməz.*

**DIMBILI** (İmişli, Ordubad) – 1. kiçik, xırda (Ordubad); 2. az, azca (İmişli) – *Bi dımbılı alma gəti mə:.*

**DIMBILIJA** (Qazax) – b a x **dımbılı** (2-ci məna). – *Maŋa dımbılıja çayotu ver.*

**DIMBIR** (Ağsu) – yumru, girdə. – *Dımbır yumru şeyə deyərük.*

**DIMBIRI** (Ağsu) – təpə. – *Qoyunnar dımbırı:n üsdə çıxıb.*

**DIMBIZ** (Cəbrayıl) – yumruq.

**DIMBIZDAMAX** (Cəbrayıl, Zəngilan) – yumruqlamaq, yumruqla vurmaq. – *İndi səni dımbızdejam* (Cəbrayıl).

**DIMI: DIMISI BATMAX** (Kəlbəcər) – ılıqlanmaq, azca isinmək. – *Suyun dımısı batıf.*

**DIMIĞ** (Salyan) – fikir, xəyal. ◊ **Dımığa getməg** – fikrə getmək, xəyala dalmaq. – *Ay nənə, nə çox dımığa gedirsən?*

**DIMIX** I (Ağcabədi, Cəbrayıl, Şərur) – çox qısaboylu (adam). – *Dımıx Məhərrəm gəldi* (Şərur); – *Bu dımıx Kərimin oğludu* (Cəbrayıl).

**DIMIX** II (Cəbrayıl, Culfa, Füzuli) – kiçikquyruqlu (qoyun). – *Dımıx qoyun, yanı quyruğu az olan qoyun* (Füzuli); – *Qara qoyun dımıxdı* (Cəbrayıl).

**DIMIX** III (Tovuz) – baltanın ağzı, kəsən tərəfi. – *Baltanın dımığını daşa vurma.*

**DIMIXLI** (Xanlar) – baməzə. – *Sən də dımıxlı adamsan, işin ortasında dəsgah başdi:rsan.*

**DIMIRCIXLANMAX** (Ağbaba) – lovğalanmaq; təkəbbürlük, dikbaşlıq etmək. – *Özözünə dımırcıxlanma.*

**DIMIRIX** (Culfa, Ordubad) – dırmıq. – *Bizdə dımırıx olmur* (Culfa).

**DIMIŞMAX** (Meğri) – soyuqdan büzüşmək. – *Buzovlar soyuxdan dımışılla.*

**DIMIZIX** (Beyləqan) – sıyıq, duru. – *Qatığ dımızıx olmuşdu.*

**DINCIXMAX** (Borçalı, Çənbərək, Qazax, Mingəçevir) – darıxmaq, narahat olmaq. – *Mən dıncıxeram* (Borçalı); – *Sən niyə dıncıxersaŋ?* (Qazax); – *Buryəldim deyn Əzvər yaman dıncıxır* (Çənbərək).

**DINÇILI** (Hamamlı, Tovuz) – az. – *O əlindəkinnən dınçılı maŋa ver* (Tovuz).

**DINÇILICA** (Tovuz) – bir balaca, bir az.

**DINDI** (Salyan) – xörək adı. – *Uşağ dındı yiyir.*

**DINĞA** (Meğri) – hündür (qaya). – *Bəhram bəy çıxey dınğa daşə, qayidey amısı qızın tüteyinan çağırey.*

**DINITDAMAX** (Culfa) – zilləmək (gözlərini). – *Gör necə də gözdərin dınıtdıyıb şovul-şovul baxır.*

**DINIĞ** (Salyan) – yetim. – *Həsənin dınığı day bezzirib bizi.*

**DINIĞÇA** (Salyan) – yetimçə. – *Bı dınığça yoldan əl çəkmir.*

**DINQAX** (Tovuz) – bir az, azca.

**DINQAJIX** (Tovuz) – bir az, azca. – *Bu axşamlığa dınqajıx nöyüt ver, çırıyı yandırım, qarannıxdayıx.*

**DINQI** (Cəbrayıl) – vanna.

**DINQILI** (Cəbrayıl, Qarakilsə, Qazax, Naxçıvan, Şuşa, Tovuz) – b a x **dıqqılı** I. – *Dınqılı qardaşın adı Baxtıcamaliydi* (Naxçıvan); – *Bizim dınqılı gədə məytəvə getmir hələ* (Tovuz).

**DINQILINCA** (Gədəbəy) – kiçik, balaca. – *Sədəfin qızı dınqılınca şeydi, elə bil bu heç onun balası döy.*

**DINQIR** I (Kürdəmir, Mingəçevir) – b a x **danqır.** – *Odey, Miri teyxa dınqırdı* (Kürdəmir).

**DINQIR** II (Mingəçevir) – arıq, sısqa.

**DINQIR** III (Qazax) – qaval.

**DINQIRASÜZƏN** (Qazax) – yüngülxasiyyət.

**DINQIRVURAN** (Qazax) – qavalçalan. – *Gedif oğlu dınqırvuran oluf.*

**DINNAJIX** (Çənbərək, Gədəbəy, Goranboy, Qazax, Şəmkir) – lap azca, azca. – *Dınnajıx mã: su ver* (Goranboy); – *Dınnajıx yağ gəti ərit xəngəldən ötrü* (Gədəbəy); – *Nə qardaşsaŋ ə:, o toxumnan dınnajıx maŋa verrmədiŋ* (Şəmkir); – *Mə:m qavıma dınnajıx xörəx′ qoy* (Çənbərək).

**DINT** (Meğri) – kəsər alətlərinin ağzı (dəryaz, oraq, dəhrə və s.).

**DIR** I (Cəlilabad, Lənkəran, Masallı) – 1. aralı (Lənkəran). – *Ağa, qapını bikgə dır qoy;* 2. ara (Cəlilabad). – *Bi dənə saman gəley qapının dırınnan düşey içəri.*

**DIR** II ( Salyan) – pis; ağır. – *İndi xəsdənin vəziyyəti dırdı.*

**DIRA** (Borçalı) – uşaq oyunu adı.

**DIRADÖYMƏ** (Borçalı) – b a x **dərədöymə.**

**DIRATIXA** (Zəngibasar) – doyunca, doyana qədər. – *Uşax dıratıxa yedi getdi.*

**DIRB** (Zəngibasar) – güc, qüvvə. – *Mən sə:n dırbının qava:nda da:na <dayana> bilmərəm.*

**DIRBIZ** (Kürdəmir, Salyan) – 1. iri üyüdülmüş undan bişirilmiş çörək (Salyan); 2. cod, kobud (Kürdəmir). – *Keçi qəzili dırbız olur.*

**DIRÇIMAX** (Gədəbəy) – qaçmaq. – *Dırçı, çatamməjaxsaŋ, tez olgunan göröm.*

**DIRDA** (Borçalı, Hamamlı) – 1. dağın döşü (Hamamlı). – *Dağın dırdasında müəl yer var, mal ki, doydu, o müəl yerində yatışıf dincəlir;* 2. ayağın üstündəki dik yer (Borçalı). – *Ayağımın dırdası ağrıyer.*

**DIRDABEL** (Borçalı) – qozbel. – *Qojalanda adam dırdabel olor.*

**DIRDALAMMAX** (Borçalı) – qozbelləşmək. – *Qarının beli dırdalanıf.*

**DIRDALI** (Böyük Qarakilsə) – qozbel.

**DIRDEX′** (Meğri) – böyük. – *Dırdex′ gədəsən, gedip qoşulmusan xıcca-mıccıya.*

**DIRDI** (Qazax) – sözünün yerini bilməyən, yersiz danışan.

**DIRDINGİ** (Qazax) – dəyənək. – *Kişi dəli oluf, dırdıngini götürüf tüşüf heyvanın canına.*

**DIRDIŞDAMAX** (Çənbərək) – sıxışdırmaq, sıxışdırıb çıxarmaq. – *Alosman arvadın dırdışdadı çıxartdı.*

**DIRGAN** (Basarkeçər, Hamamlı) – b a x **diryan.** – *Otu dırgannan götürrüx′* (Basarkeçər); – *Dırgannan taya yığırıx, otu maşına yüx′lüyürüx′;* – *Dırganı əlinə al, küləşi ver yığax* (Hamamlı).

**DIRGANÇI** (Hamamlı) – b a x **dirgançı.** – *Dırgançı dırgannan otu tayya verir.*

**DIRGEL** (Hamamlı) – vaxtından tez doğan qoyun. – *Qoyun payızda doğur, yaza çıxır, ona dırgel de:rix′.* – *Dırgel faraş doğandı.*

**DIRIĞIN** (Kürdəmir) – velosiped. – *Dırığın sürməydən uşağ dərsdən təzikib.*

**DIRQENCƏ** (Tərtər) – arıq.

☐ **Dır qoymağ** (Salyan) – qızışdırmaq, aranı vurmaq. – *Sən dır qoymason, heş kəs savaşmaz.*

**DIRMADIRIŞ** (Çənbərək) – ev-eşik; dolanacaq. – *Məxsət özünə yaxıcca dırmadırış qayrıf.*

**DIRNAVUC** (Quba) – dırmıq. – *A qız, xırmannan dırnavuci gətir.*

**DIRNEX′: DIRNEYİ DAĞILMAX** (Naxçıvan) – evi dağılmaq (qarğış). – *Səni görim dırneyin dağılsın, ə mərdimazar.*

**DIRNEL** (Qazax) – arıq, yöndəmsiz.

**DIRNOVUC** (Dərbənd, Tabasaran) – b a x **dırnavuc.** – *Yığıban dırnovucnan luqut düzəldeydig* (Dərbənd).

**DIRTAŞA** (Xanlar) – ölüvay, yararsız. – *Öyün uşsun, dırtaşa atı bizə satan.*

**DIŞARMAĞ** (İmişli) – b a x **dişərmax.** – *Day ot yavaş-yavaş dışarır.*

**DIŞARTI** (İmişli) – b a x **dişərti.** – *Çöli gəzdim, bi tikə dışartı tapbadım.*

**DIŞQARI** (Basarkeçər) – b a x **dişğarı.**

**DI:T** (Meğri) – b a x **dınt.** – *Bu qazmada dı:t yuxdı, bunnan yer qazmax ulmaz.*

**DITDAX-DITDAX** (Göyçay) – xırda-xırda. – *Gənal kitil-kitil, dıtdax-dıtdax olur, indi döymə verrıx.*

**DI:TDAMAX** (Zəngilan) – boylanmaq. – *İlan başın çıxardıf maŋa sarı dı:tdıyırdı.*

**DITDILI** (Ağdam, Cəbrayıl, Oğuz) – b a x **ditdili** II.

**DITMIXLAMAX** (Qarakilsə) – az-az qazmaq. – *Düsərinən dıtmıxlan, mən də gəlirəm.*

**DITDAX** (Mingəçevir) – 1. balaca; 2. az, azca.

**DI:TTAMAX** (Qarakilsə) – b a x **dıŋıtdamax.** – *Nə qədər dı:ttadımsa, heş nə görə:lmədim.*

**DIVILDAMAX** (Qazax) – cəld, tez getmək. – *Dərdiŋ alem, quzularımızı dıvılda get qaytar.*

**DIVIR** I (Ağdam, Ağdaş, Basarkeçər, Bolnisi, Gədəbəy, Gəncə, Qazax, Mingəçevir, Şəmkir, Tovuz) – dıbır. – *Keçi balası bir ildən keçənnən soŋra olor dıvır* (Qazax); – *Dıvır sürünün qava:nde:dir <qabağında gedir>* (Basarkeçər); – *Bı dıvıra mərgi dəysin* (Ağdam).

**DIVIR** II (Şəmkir) – təpə.

☐ **Dıvır-dıvır dıvıldamax** (Qazax) – xırda addımlarla tez-tez getmək. – *Niyarın qızı üş-dört aydı əyax açıf, indi da: dıvır-dıvır dıvılder.*

**DIVIRIX: DIVIRIX YERİMƏXʹ** (Hamamlı) – xırda addımlarla tez-tez yerimək. – *O yaman dıvırıx yeri:r;* – *Həsrəti gördüm, yaman dıvırıx gedirdi.*

**DIVIS** (Ağdərə) – qısaboy. – *Qulu boydan çox kiçiy olduğuna ona dıvıs Qulu deirixʹ.*

**DIYDIX** (Ağbaba, Bolnisi, Çənbərək, Şuşa, Tovuz) – sadəlövh, hər deyilənə inanan. – *Nə dıydıx adamsan, hər şeyə inanırsan* (Ağbaba); – *Abbasın oğlu çox dıydıx adamdı* (Tovuz); – *Sona dıydıx arvatdı, heş kimin arası yoxdu onnan* (Çənbərək).

**DIYIR** (Ucar) – oyuncaq adı. – *A bala, dərsüvi də oxu, dıyır da sür.*

**DIZAL** (Kürdəmir) – böyük, yekə. – *Dızal oğlansan, özüvi yaxşı apar.*

**DIZDANMAX** (Basarkeçər, Borçalı) – qaçmaq. – *Hə, nejə dızdandı* (Borçalı).

**DIZIDAYLAX** (Zəngilan) – çılpaq. – *Yay ki gəldi, bı uşaxlar dızıldaylax gəzəcaxlar.*

**DIZIX** (Ağdam, Beyləqan, Füzuli, Kəlbəcər, Tərtər) – 1. yekəpər (Füzuli). – *Ərəstun elə dızıxdı ki, qapıdan keçəmmir;* 2. qorxmaz, cəsarətli (Kəlbəcər); 3. qorxaq (Ağdam, Beyləqan). – *Bu nə dızıx adamdı* (Beyləqan).

**DIZIXMAX** (Cəbrayıl, Cəlilabad, Füzuli, Kürdəmir, Masallı, Oğuz, Şamaxı, Tovuz, Zaqatala, Zəngilan) – qaçmaq. – *Uşaxlar onu görcəy dızıxdı* (Şamaxı); – *Sən gələn kimi o dızıxdı* (Oğuz); – *Heç dala baxmadı da, dızıxıb getdi* (Zaqatala); – *Ça:ran kimi elə dızıxdı ki* (Zəngilan); – *Gör nə dızıxır* (Füzuli); – *Gördi gəleyəm, dızıxdı* (Cəlilabad).

**DIZILAMAX** I (Çənbərək) – oynatmaq. – *Qüçüyü dızılama, dişi qırılı ha!*

**DIZILAMAX** II (Çənbərək) – sahənin otunu ordan-burdan çalmaq, biçmək. – *Yavılnın çökəyin dızılıyıf gedif Nuru.*

**DIZIRIX** (Füzuli) – b a x **dızqırıx.** – *Bu gün yaman dızırıx qopmuşdu.*

**DIZQAX** (Şəmkir) – qorxaq. – *Ə:, nə dızqağ adamsaŋ, işdən də adam qorxarmı?*

**DIZQIRIX** (Kürdəmir) – külək, tufan, çovğun. – *Qışda dızqırıxdan baş açammadılar.*

**DIZLAMAX** (Meğri) – atmaq, tullamaq. – *Ver, qulım <qolım> getdıxçan dızleyim, gessin düssün dərənin dibinə.*

**DIZMAN** I (Ağbaba, Ordubad, Tərtər, Ucar) – yekə, böyük, iri. – *Bu dızman qızlar oxuyan döyül* (Ağbaba); – *Onnan güləşmə, o, dızman adamdı* (Ucar).

**DIZMAN** II (Çənbərək, Füzuli, Şərur) – 5-7 yaşında erkək qoyun. – *Hasanalı bazara bir dızman apardı satmağa* (Çənbərək); – *Azmannan addıyanda olur dızman* (Füzuli); – *Altı yaşlı qoyuna dızman diyəllər* (Şərur).

**DIZMIRIXLI** (Qarakilsə) – 1. bəzəkdüzəkli; 2. təmtəraqlı.

**DIZMIRRIĞ** (İmişli) – qolugüclülük. – *Dızmırrığ eləmə, get mal nobatına.* ◊ **Dız-**

**mırrığ gəlməx′** – qolugüclülük etmək. – *Mə: nə dızmırrığ gəlirsən, bəssi day.*

**DIZZIŞ** (Mingəçevir) – qaraçıraq.

**DİBAX** (Ordubad) – mövsümün sonunda yığılan yemiş.

**DİBCİK** (Lənkəran) – qazanaltı. – *Dibciyi qoy qazanın altinə.*

**DİBÇİL** (Əli Bayramlı) – qoşulan öküzlərin kotan tərəfdən birinci cütü.

**DİBÇÖVİRƏN** (İrəvan) – tənəkə qabların qırağını qatlamaq üçün istifadə olunan alət. – *Ədə, get Kərimgildən dibçövirəni al gəti.*

**DİBƏLƏG** (Lerik) – çoxbilmiş. – *Kiçik olmağına baxma, yaman dibələg uşağdu.*

**DİBƏX′** (Ağbaba, Basarkeçər, Cəbrayıl, Füzuli, Göyçay, Kürdəmir, Ordubad, Şahbuz, Zaqatala) – b a x **dibəy.** – *Qız, bı bibarı apar dibəx′də döy gəti* (Ordubad). – *Apar bı çəltiyi dibəx′də döy gəti* (Cəbrayıl). – *Düyüni, bığdanı dibəx′də qabığın alıp pişirrik* (Kürdəmir); – *Dibəx′ kiloyarım, iki kiloy taxıl apara bilər* (Basarkeçər); – *Dibəx′də duz döyüllər* (Şahbuz).

**DİBƏY** (Naxçıvan) – 1. duz, yarma, çəltik və s. döymək üçün içi oyulmuş daş və ya kötük; 2. həvəngdəstə. – *Ay Fatma, dibəyinizi ver, bir az duz döyüm.*

**DİBLƏMƏG** (Lənkəran) – plovun yanmaması üçün qazanın altını palçıqla suvamaq, şirələmək. – *Qari çölməyi dibli:r.*

**DİDAR** (Şamaxı) – imkan. – *Didarım yoxdu.*

**DİDAVAN** (Qafan) – ilk cücə, yumurtadan birinci çıxan cücə. – *Sarı toyuğun altda on iki yumurta qoymuşdum, didavanı göründü, beyjə hamısı çıxar.*

**DİDDƏMƏK** (Kürdəmir) – deşmək.

**DİDDİ** (Kəlbəcər) – ağcaqanad. – *Zalım oğlunun diddisi yatmağa qoymur.*

**DİD: DİD VIRMAĞ** (Kürdəmir, Qəbələ) – 1. cücərmək (Kürdəmir). – *Arpa yenicə did vırıb;* 2. deşmək (Qəbələ). – *Cücə yumurtıya did vırıp.*

**DİDDİLİ** (Ağdam, Bakı, Bərdə, Kürdəmir, Laçın, Oğuz) – b a x **diddi.** – *Kür qırağında diddili çox olur* (Bərdə).

**DİDEY** (Zaqatala) – böyük qardaşa müraciətlə deyilən söz.

**DİDƏ** (Quba) – ana. – *Didə, çüreg vər mənə.*

**DİDƏBAN** (Şamaxı) – tüfəngin nişangahı. – *Bu tüfəngin didəbanı çox balacadı.*

**DİDİNTİ** (Qazax) – yun qırıntısı, qalığı. – *Bu yun nə: lazımdı, hamsı didintidi.*

**DİDİY** (Zaqatala) – ata. – *Mənim didiyim şofir işdiyir.*

**DİDMƏ** (Zəngilan) – yumrulanıb qurudulmuş mal nəcisi. – *Didmə sajın altda yaxşı yanır.*

**DİDVƏ** (Yardımlı) – otun ucu. – *Quzi didvə yey.*

**DİFA: DİFA ELƏMAX** (Təbriz) – çıxış etmək. – *Quli qalxdı difa elədi.*

**DİFDİX′** (Qazax, Tovuz) – saç. – *Duruf difdiyiŋi yolaram, çox danışdırma məni* (Qazax); – *Gəlif sənin o difdix′ləriŋi yolujam, ay yazıx* (Tovuz).

**DİFDİRİNGİ** (Lənkəran) – yüngülxasiyyət.

**DİGƏ** (Şamaxı) – yaylaq. – *Ya digəsində olar, ya qışdağında.*

**DİGİ** (Qax) – b a x **diki.**

**DİGİRD** (Şamaxı) – arabanın qolu. – *Arabanın digirdi sınıb.*

**DİĞ** (Quba) – qoyun qığı. – *Cəfər diğdən gübrə çıxartdi.*

**DİĞDİĞƏ** (Cəbrayıl) – puç, içi boş (qoz). – *Diğdiğə qozın ləpəsi olmaz.*

**DİĞLƏMMƏG** (Quba) – bərk kədərlənmək.

**DİX′** (Göyçay, Mingəçevir) – b a x **ding.**

**DİX′XİRƏTDƏX′** (Çənbərək) – pisxasiyyət (adam). – *Dix′xirətdəx′ adam heş yanda camahatnan yole:tməz.*

**DİX′XİRTDƏX′LİX′** (Çənbərək) – pisxasiyyətlilik. – *Qaranıŋ başına hər iş gəldi dix′xirtdəx′liyinin üstünnən.*

**DİJMİR** (Meğri, Ordubad) – nadinc, şuluq. – *Səlimin bir dijmir uşağı var* (Meğri); – *Yaman dijmir uşaxdı o* (Ordubad).

**DİKCƏ** (Salyan) – təndirin yanında xəmir tabağı qoyulan dik yer. – *Dikcə təndirin yanındo:lar;* – *Dikcə:n üsdünə biz xəmir tabağın qoyaruğ.*

**DİKİ** (Zaqatala) – motal. – *Əli bu gün diki almışdı.*

**DİKİCİQ** (Zaqatala) – b a x **diki.** – *Dadaş dağdan mə:mçün bir dikiciq gətirmişdi.*

**DİQASİN** (Lənkəran) – çayda balıq tutmaq üçün tor. – *Diqasini çək, balıx tüşür;* – *Diqasini iki nəfər çəkər.*

**DİQİR** (Qax) – qalmaqal, səs-küy. – *Kiri hələ, diqir eləmə.*

**DİQQİ** (Naxçıvan, Ordubad) – vərəm xəstəliyi. – *Diqqi pis xəstəlıxdı* (Ordubad).

**DİLAB** (Bakı, Ordubad, Şamaxı) – taxça. – *Mücri dilabdadi* (Şamaxı).

**DİLAF** (Gəncə, Oğuz, Şuşa) – b a x **dilab.** – *Tez ol, dilafdan bir az mürəbbə çıxart gəti, qonağın qavağına qoy* (Gəncə); – *Dilafa qab da yığıllar, yorğan-döşəx′ də* (Şuşa); – *Dilaf həblə bir lampa boyda olur* (Oğuz).

**DİLAL** (Gədəbəy) – xingal. – *Dilalı qaşıxnan ye:irix′.*

**DİLANQA** (Şəki) – meşədə ağaca vurulan nişan. – *Meşədə ağacı piçətdiyirdi hökumət, huna dilanqa diyirdilər.*

**DİLAV** (Qax) – b a x **dilab.**

**DİLAVASAR** (Qax) – çatlamamaq üçün divarın ortasına qoyulan ağac.

**DİLBAŞ** (Culfa, İmişli, Şamaxı, Zəngilan) – 1. qaramalın dilində əmələ gələn şiş (İmişli, Culfa, Şamaxı); 2. dildə səpgi, qızartı (Zəngilan). – *Üş-dörd gündü dilim dilbaş olup.*

**DİLBAZ** (Salyan) – dilli-dilavər. – *Bı qız çox dilbaz qızdu;* – *Dilbaz adam zirəy olar.*

**DİLBƏND** (Qax) – tərcüməçi.

**DİLBƏSTƏ** (Təbriz) – vurğun. – *Mən indi də nəvələrimə dilbəstəyəm.*

**DİLCIRAN** (Qazax) – yemiş növü. – *Dilcıran şirin olor.*

**DİLÇİ** (Qax) – aravuran.

**DİLDALIYAN** (Basarkeçər) – sarmaşığa oxşar bitki. – *Dildalıyanı hələ-bələ yemillər, ama onnan dən çıxır küncüt kimi.*

**DİLƏDÖYMƏ** (Zəngilan) – uşaq oyunu adı.

**DİLƏMAĞ** (Dərbənd) – nişanlamaq, nişan taxmaq. – *Əli unun qızini uğluna dilədi.* – *Qız diləmişüg uğlumuzçün.*

**DİLƏMAX** (Qax, Şəki) – nişanlamaq. – *Qızı gələndə burda dilədim getdi* (Şəki); – *Bu gecə qızı diləmağa gələcaxlar* (Qax).

**DİLƏNKƏ** (Cəlilabad) – meşənin qırılmaq üçün ayrılmış sahəsi. – *Ağac qıranda dilənkədən qıreylər, yoxsa abeşig tutey.*

**DİLXIRTMA** (Şamaxı) – 1. soyuqlama nəticəsində qaramalın dilində əmələ gələn şiş; 2. dildə səpgi, qızartı.

**DİLXO** (Göyçay) – taxça.

**DİLİÇIQQAX** (Gəncə) – pəltək. – *Diliçıqqax Urusdamın oğlu indi gör nə fiğan qayrır.*

**DİLİDUZDU** (Şəmkir) – aravuran. – *Banı çox diliduzdu arvatdı.*

**DİLİĞARACA** (Çənbərək) – malın ağzında olan xəstəlik. – *İnəyimiz diliğaraca olmuşdu, dədəm ülgüşnən qazıdı, yerinə duz basdı.*

**DİLİT** (Şəki, Tovuz) – dəfə, kərə. – *Partal çox çix′lənəndə aşmağ olmur, iki dilit, üş dilit yüyüsən, gənə ağarmiyi* (Şəki); – *Üş dilit bizdən pul alıllardı Hiqalay vaxdı* (Tovuz).

**DİLLƏMƏK** I (Zaqatala) – qeybət etmək, birinin dalınca danışmaq. – *Ağaya dillədilər.*

**DİLLƏMƏK** II (Salyan) – donmaq, üşümək. – *So:ğdan əl-ayağum da dillənir.*

**DİLLİYARA** (Qazax) – yara adı.

**DİLMƏZLUM** (Çənbərək) – uşaq oyunu adı. – *Uşaxlar dilməzlum oynuyullar.*

**DİLO** (Bərdə, Gədəbəy, Göyçay, İsmayıllı, Kürdəmir, Oğuz, Şamaxı, Tərtər) – b a x **dilab.** – *Tez ol, qızım, tayqulpu diloya qoy* (İsmayıllı); – *Qab-qacağu diloa qo:rux* (Kürdəmir); – *Dilodan yükü gəti, yer düzəlt* (Oğuz); – *Qab-qacax yığar diloya bizim arvatdar* (Gədəbəy); – *Diloa hər şey qo:yrux* (Tərtər).

**DİLO:ÇA** (Kürdəmir, Ucar) – balaca taxça. – *Yəhərcəmi dilo:çadadı* (Ucar).

**DİLO:SAR** (Şəki) – çardağın kənarlarındakı açıq yer. – *Çardağa to:x dilo:sardan girmişdi.*

**DİLOV** (Ağdaş, Zaqatala) – b a x **dilab.**

**DİLVEN** (Qax) – dilavər. – *Baysı menin dilvendi.*

**DİM** (Qax) – ilik.

**DİMİZ** (Ağdam, Şəmkir) – sakit. – *Ə:, dimiz dur* (Şəmkir); – *Həmid kişi dimiz adamdı* (Ağdam).

**DİMMƏVER** (Tovuz) – vergi adı (köhnə).

**DİMRİX′** (Gədəbəy, Qazax) – 1. iri (duz və s.) (Qazax). – *Duzu yaxşı döymöyüfsəŋ, dimrix′di;* 2. kök (Gədəbəy). – *Bu əmliy o birinnən dimrix′di də:sən.*

**DİMRİX′LƏNMƏX′** (Çənbərək, Tovuz) – 1. böyümək; 2. kökəlmək.

**DİMRİY** (Qazax) – diribaş.

**DİNAB** (Bakı, Şamaxı) – xörək bişirmək üçün qaynadılan su. – *Nəcibə, dinab çox şordu* (Bakı). ◊ **Dinab qoymağ** – xörək bişirmək üçün su qaynatmaq. – *Aşçun dinab qoy, uşağlar pısa:tda gələllər, tez ol;* – *Əğiz, ged əxşəmə bir az dinab qoy ki, xörəg bişirəg* (Bakı).

**DİNAXOR** (Saatlı) – balıq tutmaq üçün düzəldilmiş yer.

**DİNAQUR** (Qax) – kiçik ocaq.

**DİNCƏX′SİZ** (Ağbaba) – hövsələsiz. – *Nə dincəx′siz adamsaŋ ə:, bir qoysaŋa görəx′ no:lur bu işin axırı.*

**DİNDƏLƏMƏX′** (Qazax) – dimdikləmək. – *Saxsağan comuşun başına tüşör dindəler.*

**DİNDİLİM** (Qax) – cincilim.

**DİN: DİNİ ÇIXMAX** (Cəbrayıl) – azca soyumaq.

**DİNDO** (Yardımlı) – külüng. – *Gedib dindo çaley.*

**DİŋƏTDƏMƏX′** (Çənbərək) – b a x **dənətdəməx′**. – *İçəri gəlsəŋə, niyə çöldə diŋət-di:rsəŋ.*

**DİNƏVİŞ** (Füzuli, Ordubad, Tərtər, Zəngilan) – ölçü vahidi (Gəncə) – *Bi dinəviş iki:rvəngə yarımdı* (Ordubad); – *Dörd dinəviş buğda bir çanaxdı* (Tərtər).

**DİNG** (Cəbrayıl, Lənkəran, Mingəçevir, Oğuz, Şəki, Zaqatala) – çəltik döyən qurğu. – *Dingin dişləri tökülüb deyin çəltik döyəmmir* (Cəbrayıl); – *Su dingi olur, ayax dingi olur* (Oğuz); – *Düyümüz qurtalıtdı, çəltiy aparasiyux dingə* (Şəki); – *Bu, su dingində dögülüb, alahı şeydü* (Lənkəran).

**DİNGƏ** I (Cəbrayıl, Cənubi Azərbaycan, Şamaxı) – 1. hündür yer, təpə (Cəbrayıl, Cənubi Azərbaycan). – *Dingədə çoban qoyun otarırdı* (Cəbrayıl); – *Öyin qabağı dingədi* (Cənubi Azərbaycan); 2. camaatın söhbət üçün toplaşdığı yer (Şamaxı). – *Dingədə gör kimlər var?*

**DİNGƏ** II (Çənbərək, Gəncə, Qazax, Şəmkir) – 1. kiçik qoz ağacı (Gəncə, Qazax). – *Qalxozun zəmisinin qırağındakı kollıxda bir dingə var* (Gəncə); 2. kötük, kəsilmiş ağacın kötüyü (Çənbərək, Şəmkir). – *Meşəbəyi dingələrin hamısına möhür vuruf* (Şəmkir); – *Aşağıkı butağı dingədən kəs, quruyuf* (Çənbərək).

**DİNGƏ** III (Borçalı, Gəncə, Hamamlı, Kürdəmir, Qazax, Ordubad, Saatlı, Şamaxı) – 1. başa bağlanan bəzək geyimi (Gəncə, Qazax, Ordubad, Şamaxı). – *Başımın dingəsi açılıb* (Şamaxı); – *Bu gəlinin dingəsi də var* (Ordubad); 2. çələng (Borçalı, Hamamlı, Kürdəmir, Qazax). – *Dingə də:rmi saxnax kimi olur* (Hamamlı); – *Dingəni qadınlar başdarına yumru qo:rdular, sancax taxırdılar belə* (Qazax); – *Dingiyi qojalar qoymaz, cəhəllər qoyar* (Borçalı).

**DİNGƏDAMAĞ** (Oğuz) – 1. kobud; 2. deyingən; 3. küsəyən, tezinciyən. – *Qonşum olduxca dingədamağ adamdı.*

**DİNGƏXANA** (Quba) – camaatın söhbət üçün toplaşdığı yer.

**DİNGƏLƏN** (Qazax) – canlı varlıq. – *Hamı köçüf, yurtdarda bir dingələn yoxdu.*

**DİNGƏLMƏX′** (Qazax) – dayanmaq. – *Çox gözümün öyünnən uçorsaŋ, gəlif bir qavağımda da dingəldiŋ.*

**DİNGƏNƏ** (Qarakilsə) – çəltikdöyən qurğu.

**DİNGİ** (İrəvan) – ting. – *Əyə. Əli, bizə beş dənə armıt dingisi ver.*

**DİNGİLİMFUŞ** (Ucar) – bir yerdə qərar tutmayan, səbirsiz. – *Dingilimfuş Mısdafa elə indicə burdeydi.*

**DİNGİLİNFIS** (Kürdəmir) – yelbeyin. – *Yaman dingilinfis adammış bı Quli.*

**DİNGİLİPUSO** (Salyan) – uşaq oyunu adı. – *Uşağ dingilipuso oynıyır.*

**DİNGİRİŞ** (Qazax, Şəmkir, Tovuz) – yüngülxasiyyət. – *Dingiriş olma, qoy gəlsinlər özdəri aparsınlar* (Şəmkir).

**DİNGİŞDİX′** (Çənbərək) – yüngülxasiyyətlilik. – *Az danış, dingişdiy eləmə.*

**DİNİZ** (Ağdam, Şəmkir) – b a x **dimiz.** – *Məhəmməd kişi diniz adamdı* (Şəmkir); – *Ə:, diniz dur* (Ağdam).

**DİNQƏ** (Qax) – dağın zirvəsi.

**DİNQULUŞ** (Tərtər) – 1. uşaq oyunu adı; 2. uşaq oyununda istifadə olunan qurğu.

**DİŋMƏX′** (Gədəbəy, Qazax) – ara vermək, kəsmək. – *Yel diŋdi* (Qazax); – *Yağış diŋdisə, dura:ŋ, tüşə:ŋ yola* (Gədəbəy).

**DİNNİX′** (Qazax) – nəsil. – *Bu yerrərin hamsı Suanverdi xanın dinniyi oluf.*

**DİNO** (Bakı) – b a x **dinab.**

**DİNŞƏMAX** (Şəki) – qulaq asmaq.

**DİŊŞƏMƏX′** (Bərdə, Cəbrayıl, Kürdəmir, Qax, Qazax, Tovuz) – b a x **dinşəmax.** – *Qapı:n dalınnan diŋşəyör <dinşə gör> bizdən qıyvat qırıllarmı?* (Tovuz); – *Qapının dalınnan diŋşədim, çox şey eşitdim* (Bərdə); – *Diŋşə, qör sağa nə deyiyəm* (Qax).

**DİŊŞİMƏX′** (Çənbərək) – b a x **dinşəmax.** – *Yasarnan İllaz gap eliyəndə diŋşidim, bizdən danışırdılar.*

**DİPDİX′** (Xanlar) – mahmız. – *Dipdix′ xoruzun dırnağının geri dalındo:lor.*

**DİRƏ** (Qazax, Mingəçevir) – qayış (dirədöymə oyununda istifadə olunur).

**DİRƏCƏN** (Ordubad) – cır arı, çöl arısı.

**DİRƏDÖYMƏ** (Ağcabədi, Ağdaş, Qazax, Tovuz, Yevlax) – b a x **dərədöymə.** – *Dirədöymədə səkkiz uşağ oynuyur* (Yevlax); – *Dirədöymədə toqqaynan vurullar qurşaxdan aşağı* (Ağcabədi).

**DİRƏM-DİRƏM** (Naxçıvan) – 1. az-az; 2. xırda-xırda. – *Dirəm-dirəm qar gəlir.*

**DİRƏMƏ** (Mingəçevir) – basa-basa doldurulmuş.

**DİRƏŞMAX** (Şəki) – təkid etmək. – *Mã: dirəşitdi ki, gərəx′ bizə gedəsən.*

**DİRƏŞMƏX′** I (Qafan) – üzünə durmaq. – *Firiddin Mıxdarın üzünə dirəşdi ki, kitabı sən oğurlamısan.*

**DİRƏŞMƏX′** II (Çənbərək) – çətinliklə ayağa qalxmaq, ayaq üstə durmaq (təzə doğulmuş heyvan haqqında). – *Buzoy dirəşdi, böylə anasın əmdi.*

**DİRET-DİRET** (Gədəbəy) – hissə-hissə. – *Diret-diret yola salıp kın camahatı, inciyən olmasın bizdən.*

**DİRƏX′LƏMƏX′** (Çənbərək) – müdafiə etmək. – *Misgar səni yamanca dirəx′lədi.*

**DİRƏVƏNGİ** (Başkeçid) – arabanın hissəsi.

**DİRGANÇI** (Basarkeçər) – tayaya yaba ilə ot verən adam.

**DİRGƏNƏ** (Qax, Zaqatala) – pendir yumrusu, parçası. – *Anam mənə dirgənə verdi* (Qax).

**DİRHANA** (Qax, Zaqatala) – ağac nehrənin, çəlləyin yanlarına çəkilən dəmir. – *Dirhanaları yaxşı sal, nehrə axmasın* (Zaqatala).

**DİRIĞ** (Dərbənd) – çarıq. – *Dirığı qomuş <camış> gönünnən tikeydilər.*

**DİRİ** (Bakı, Gəncə, Kürdəmir, Şəmkir) – yaxşı bişməmiş. – *Aşın düyüsü diri oluf, qonaxların yanında biyavır olajıyıx* (Gəncə); – *Diri düyüyü qavağına qoyufdu, ala aşdi yi* (Şəmkir).

**DİRİK** (Laçın) – çevik, qoçaq. – *Bizim kətdə dirik lap uzun bir adam vardi.*

**DİRİNGƏ** (Bakı, Ordubad) – oyun havası. – *Nadir diringəni muğamatdan yaxçi çalır* (Ordubad).

**DİRİNGİ** I (Ağdam, İsmayıllı) – 1. b a x **diringə** (İsmayıllı). – *Diringi çalsalar bəlkəm sümüyümə düşdü oynadım;* 2. çalğı (Ağdam).

**DİRİNGİ** II (Salyan) – kiçik toy. – *Diringiyə az adam çağırmışdılar.*

**DİRİT** I (Şəki, Tovuz) – b a x **dilit.**

**DİRİT** II (Zəngilan) – hissə, parça. – *Bağın ya:nda iki dirit yer bellämişəm.*

**DİRİT** III (Çənbərək) – növbə. – *Bü:n qoyna getməx′ sənin diritindi.*

**DİRİMİRMAĞ** (Quba) – dırmıqlamaq. – *Abdulməcid bağı dirmirədi.*

**DİRMİY** (Kürdəmir) – b a x **dimrix′** (1-ci məna).

**DİRNAVUC** (Quba) – dırmıq. – *Dirnavuci gəti.*

**DİRRİG** I (Bakı, Şamaxı) – ev əşyaları. – *Öymizə dirrig lazımdı* (Şamaxı).

**DİRRİG** II (Salyan) – cehiz. – *Gəlin köçən qıza çoxlu dirrig verillər.*

**DİRRİX′** (Gəncə, Şəmkir) – yaşayış, dolanacaq. – *A balam, yayın bu istisində bu nə gündü, nə dirrix′di sən çəkirsəŋ* (Gəncə).

**DİRSƏG** (Quba) – hörgüc (dəvədə). – *Dəvənün dirsəglərinün arasında uturmağ çux irahat uladu.*

**DİRSƏLMƏX′** (Gədəbəy) – çox geyilmək nəticəsində nazilmək, köhnəlmək, köhnəlib yırtılmaq (paltara aid). – *Şalvarın dizi dirsəlif, təzəsin alam gərəx′.*

**DİRSİLMƏX′** (İmişli) – azalmaq. – *Çualda un bir az dirsilib.*

**DİRYAN** (Basarkeçər) – üçdişli yaba. – *Diryanı ver, otu haravıya yüx′lü:m.*

**DİRZƏLƏMƏX′** (Gəncə) – yaxşılaşmaq, əmələ gəlmək (xəstəlikdən sonra). – *İsitmədən soŋra yenijə dirzələməyə başdamışdı;* – *Yenijə dirzəli:rsəŋ, özüŋü soyğa verme.*

**DİSGİNMAX** (Şəki) – iyrənmək. – *Hər şeydən disginmax yaxşı döyli.*

**Dİ:Ş** (Gədəbəy) – b a x **diyiş.** – *Di:ş adamnan zəhləm gedey mə:m.*

**DİŞDƏLƏKSİZ** (Yevlax) – nadinc. – *Malahat dişdələksiz uşaxdı.*

**DİŞDİ** (Cəbrayıl, Zəngilan) – arabanın qolu, dişlə.

**DİŞDİMİZ** (Qazax, Mingəçevir) – dinc, sakit.

**Dİ:ŞDİY** (Tovuz) – yüngülxasiyyətlilik. – *Ə:, bu di:şdiyiŋnən əl çəx′səŋə.*

**DİŞƏ** I (Kürdəmir, Meğri, Salyan) – cücərti. – *Taxıl dişə verdi* (Salyan).

**DİŞƏ** II (Kürdəmir) – qamış növü.

**DİŞƏ** III (Ağdam) – doğranmamış (yarpaq). – *Qurda ikimincidə dişə yarpax verrix′.*

**DİŞƏ** IV (Füzuli) – daşyonan alət.

**DİŞƏG** (İmişli) – dəyirman daşındakı girinti-çıxıntı, dişlər. – *Dəyirman daşında dişəg olır dəni əzməgə.*

**DİŞƏMAX** (Şəki) – dişli kəsici alətləri (mişar, oraq və s.) itiləmək. – *Urağın ağzı dişənəsidi.*

**Dİ:ŞƏMAX** (Şəki) – b a x **dinşəmax.** – *Di:şə, gör nə diyir.*

**DİŞƏMƏX′** (Cəbrayıl, Füzuli, Gəncə) – dişini dəyişmək. – *Uşax dişini dişədi, yeddi yaş tamamdu* (Gəncə); – *Mısdafa kişi dişini dişiyif* (Cəbrayıl).

**DİŞƏRƏNMAĞ** (Quba) – cücərmək. – *Mart ayına ağajdar başdiyədü dişərənmağa.*

**DİŞƏRMAX** (Şəki) – cücərmək. – *Toxumu süyə saliyıx, dişəriy, sora saçiyıx.*

**DİŞƏRMƏG** (Kürdəmir, Qafan, Sabirabad, Salyan, Şərur) – b a x **dişərmax.** – *Bizim bağda ot dişəribdi* (Qafan); – *Taxıl payızda dişərər* (Salyan); – *Çayır yerdən dişərir* (Kürdəmir).

**DİŞƏRTİ** (Qafan) – cücərti. – *Kəvşənin dişərtisi var.*

**DİŞĞARI** (Ağdam) – bayır, çöl. – *Otur evdə dişğarıya çıxma, so:xdu.* ◊ **Dişğarı iş tutmağ** – el adətindən kənara çıxmaq. – *Dişğarı iş tutmax da siz törəmiyə qalıf dayna.*

**DİŞXARCI** (Ağcabədi) – oğlan evi tərəfindən qız evinə göndərilən ərzaq (qoyun, un, qənd-çay və s.). – *Oğlanın atası qızın atasına dişxarcı verir.*

**DİŞQURDDUYAN** (Zəngilan) – bitki adı. – *Zəmini dişqurdduyan ağzınö:türüf.*

**DİTDAQ** (Kürdəmir, Ucar, Zərdab) – bir az. – *Ana, o yağdan ditdaq əppəyimin üsdünə qoy* (Zərdab); – *Ditdaq duz ver mə:* (Kürdəmir); – *O duzdan ditdaq bıra tök* (Ucar).

**DİTDİLİ** I (Basarkeçər) – yüngülxasiyyət. – *Nə ditdili adamsaŋ sən.*

**DİTDİLİ** II (Ağcabədi, Ağdam, Cəbrayıl, Göyçay, Xocavənd, Kürdəmir, Mingəçevir, Oğuz, Sabirabad) – ağcaqanad. – *Bi:l ditdili azdı* (Ağdam).

**DİTDİM** (Bərdə) – b a x **ditdili** II. – *Kür qırağında ditdim çox olur.*

**DİVAXDI** (Ordubad) – mövsümün sonunda yığılan yemiş.

**DİVEX′** (Oğuz) – b a x **dibəy.**

**DİVƏX′** (Gəncə, Qazax, Şəki, Şəmkir, Tərtər) – b a x **dibəy.** – *Gəti, divəx′də bir əz çəltix′ döyəx′* (Şəmkir); – *Divəx′də duz dö:üllər* (Tərtər); – *Duzu, düyyü divəx′də döyəllər* (Qazax); – *Divəx′də hər şey döymağ olur* (Şəki).

☐ **Divəx′ vurmax** (Qazax) – yelləncəkdə ayaqları dizdən büküb-açmaqla sürəti artırmaq.

**DİVİN** (Kürdəmir, Sabirabad) – yun paltar.

**DİYANDOLDURUM** (Bakı) – b a x **dayandoldurum.**

**DİYDİŞ** (Qazax) – yüngülxasiyyət. – *Məhərrəm də adamdımı, diydişin biridi.*

**DİYİR** I (Cəbrayıl, Mingəçevir) – 1. təkər (Cəbrayıl). – *Arabanın diyiri çıxıf;* 2. fırfıra (Mingəçevir).

**DİYİR** II (Göyçay) – mütəkkə.

**DİYİRRƏK** (Mingəçevir) – fırfıra.

**DİYİŞ** (Çənbərək, Gədəbəy, Qazax, Tovuz) – yüngülxasiyyət. – *Diyiş adamda nə:zir qanacax, mərifət* (Gədəbəy). ◊ **Diyiş-diyiş danışmax** (Çənbərək) – mənasız danışmaq. – *Diyiş-diyiş danışma, başım ağrı:r* (Çənbərək); – *Diyiş-diyiş danışır, gülməx′ də bulara bir peşo:luf* <*peşə olub*> (Tovuz).

**DİYLƏ** (Kürdəmir) – xörək adı. – *Diylə pişir yesin, xəsdə:n eyni açılsın.*

**DİYNƏVİÇ** (Qafan) – köhnə ölçü vahidi (bir kiloqram tutan mis cam). – *Qulu bu gün bir diynəviç buğda aldı.*

**DİYSİNCƏM: DİYSİNCƏM ELƏMƏXʹ** (Qazax) – iyrəndirmək. – *Bu ətin iysi saf diysincəm elədi bizi.*

**DİYSİNMƏXʹ** (Basarkeçər, Borçalı, Gəncə, Hamamlı, Qazax, Mingəçevir, Şuşa, Ucar) – iyrənmək. – *Ay uşağ, o xörəydən mən diysindim* (Borçalı); – *Yanğır adam hamını diysindirir* (Qazax); – *Uşağ xörəxʹdən diysinif, yemir* (Gəncə); – *Adam diysinsə, yiyəmməz* (Şuşa); – *Nə olsa diysinirsən, yemirsən* (Ucar); – *Mən ətdən yaman diysinmişəm* (Hamamlı).

**DİZALTI** (Hamamlı) – evlənərkən qızın ata-anasına oğlan tərəfindən verilən pul və ya mal. – *Gərəxʹ maŋa dizaltı verəsən ki, qızımı oğluna verəm.*

**DİZDIXʹ** (Bakı, Cəbrayıl, Füzuli, Hamamlı, Qax, Qazax, Lənkəran, Şəki, Tərtər) – 1. qadın alt və üst tumanı (Bakı, Qax, Tərtər, Füzuli). – *Özümə dizdiy aldım* (Füzuli); 2. kişi alt tumanı (Lənkəran, Hamamlı, Şəki). – *Gümüşü atlasdan dizdıxʹ tikif giyərdim* (Şəki); – *Qıza, qələyə gedisən, pul verim mə: bi dizdıxʹ çit al* (Lənkəran); – *Əşi, dizdiyim yırtılıb, ma: bir dizdıxʹ al* (Hamamlı).

**DİZDÖŞƏYİ** (Ordubad) – döşəkçə.

**DİZİLİLƏMƏK** (Zaqatala) – bir şeyi ovucda sıxmaq. – *Qovuti dizililəmək lazımdı.*

**DİZLİ** (Qax) – ovuc.

**DİZMAN** (Ordubad) – altıyaşar, altıillik keçi. – *Dayımgilin dizmanını gecə qurt dağıdıp.*

**DİZMARI** (Ağdam, Ordubad) – qurudulmuş üzüm, kişmiş. – *Bazardan qayıdanda uşaxlara bir az dizmarı al gəti* (Ağdam).

**DİZZİY** (Cəlilabad, Göyçay, Kürdəmir, Qax, Mingəçevir) – b a x **dizdixʹ.** – *Dizziydən ötri səkkiz arşin çit almışam* (Qax).

**DOAX** (Bolnisi, Qazax, Tovuz) – 1. xəmir yaymaq üçün xüsusi dairəvi taxta; 2. qabın ağzını örtmək üçün dairəvi taxta qapaq.

**DOBBU** (Ağdam) – çolaq.

**DOBI** (Göyçay) – küpəoxşar balaca saxsı qab.

**DOBİ** (Sabirabad) – sırıqlı.

**DOBLƏ** (Bakı) – baca. – *Çörəy yapıllar, dobllədən tüssi gəlir.*

**DOBU** I (Qax, Şəki) – b a x **dobı.** – *Dobu:n içində accənə qatıx var* (Şəki).

**DOBU** II (Sabirabad) – b a x **dobi.**

**DODAXBİRRƏMƏXʹ** (Çənbərək) – ağzına kimi doldurmaq. – *Parxacı bulamıynan dodaxbirrədim;* – *Çualı taxılnan dodaxbirrəmə, bağlammaz ağzı ha:.*

**DODAXLAMA** (Gəncə) – ağızbaağız, ağzına kimi dolu. – *Sarı camışın sərnişnən dodaxlama südü olur.*

**DOD: DOD ELƏMƏK** (Mingəçevir) – qoçaqlıq eləmək.

**DODI: DODI VERMƏK** (Bakı) – yalan sözlərlə (vədlərlə) başından eləmək.

**DODMOD** (Bakı) – birsayaq, birtəhər. – *Günnərimizi dodmodnan vurrux başa.*

**DO: DO: GƏLMƏXʹ** (Ağdam, Kürdəmir, Mingəçevir) – qalib gəlmək. – *Cəbi Səfərə do: gələr* (Ağdam); – *Biz olara həmişə do: gəlmişük* (Kürdəmir). ◊ **Do: düşmeg** (Bakı, Salyan) – fürsət düşmək, imkan düşmək. – *Sə: də do: tüşdi* (Salyan); – *Əlüvə do: düşüb?* (Bakı).

**DODU** I (Ağdam) – avara.

**DODU** II (Ağdaş) – əmiarvadı.

**DODURĞAYI** (Laçın) – etibarsız. – *O, dodurğayı adamdı.*

**DOĞANAX** I (Şəki) – tütün düzülmüş iplərin keçirildiyi ağac qarmaq.

**DOĞANAX** II (Gəncə) – dərini yumşaltmaq üçün istifadə olunan tiyəli haça alət. – *Papaxçılar üçün doğanax gərəhli şeydi.*

**DOĞANAXLAMAX** (Gəncə) – doğanaqla dərini yumşaltmaq. – *Dəri doğanaxlammasa yumşalmaz;* – *Diyan, dəriləri doğanaxlıyıf gəlirəm.*

**DOĞANAXLIX** (Cəbrayıl, Gəncə) – doğanaq düzəltmək üçün yararlı ağac. – *Meşiye:dəndə bir-ki dənə doğanaxlıx ağaj kəs gəti* (Gəncə); – *Mə: bir doğanaxlıx lazımdı* (Cəbrayıl).

**DOĞDI-BİTDİ** (Şamaxı) – əzəldən. – *Qado:yalım, doğdı-bitdi bırda olanıx.*

**DOĞMAX** (Dərbənd, Şərur, Tərtər) – yumurtlamaq. – *To:ux doğdu* (Tərtər); – *Toyuğ doğanda yaman qaqanax çəkir* (Şərur); – *Tovuğ yumurta doğdi* (Dərbənd).

**DOĞRAMA** (Qazax) – oyuq.

**DOĞRUMDAŞ** (Sabirabad) – çaydaşı. – *Adil doğrumdaşnan pencərini sındırdı.*

**DOĞUZDUX** (Cəbrayıl) – su dəyirmanında pərlərin yerləşdiyi yer. – *A bala, keş belə, düşərsən doğuzduğa, pər vırar, baş-gözü: dağıdar.*

**DOQQAR** (Gədəbəy) – inadkar. – *Nə doqqar adamdı Qulu.*

**DOQQAZ** I (Qafan, Oğuz) – çəpər.

**DOQQAZ** II (Borçalı, Gəncə, Gədəbəy, Göyçay, Qazax, Qax, Şəki, Tovuz, Ucar) – kənd küçəsi, əsas yoldan məhəllələrə ayrılan yol. – *Aravanı doqqaza çəkdim* (Ucar); – *Bizim doqqaza diyillər Qolxoz küçəsi* (Şəki); – *Ne incinesin, doqqaza çıxsana* (Qax); – *Camahat doqqazda səni gözdüyür, sən də öydə laqqırtı vurursaŋ* (Gəncə); – *Doqqaz yoldan ayrıler* (Gədəbəy).

**DOQQAZ** III (Bərdə, Bolnisi, Gədəbəy, Göyçay, Qazax, Kəlbəcər, Kürdəmir, Salyan, Tərtər, Tovuz) – küçə qapısı, həyət qapısı. – *Doqqaz niyə bağlıdı, tez ol ged aç, indi bu sa:t mallar gələsidi* (Bərdə); – *Doqqaz iki deşikli ağacdı, basırıllar yerə, deşiyinə köndələn pərdi keçirdillər* (Kürdəmir); – *Doqqaz qayırıb, üç qoşa keçirərdilər* (Göyçay).

**DOQQUZDON** I (İmişli) – yara adı. – *Uşağ vaxtı qıçıma doqquzdon çıxıb, o:n yeridi bı.*

**DOQQUZDON** II (Göyçay, Laçın) – iynəyarpaqlı, kolaoxşar ağac adı. – *Dayımgil meşədən bir araba doqquzdon gətiriblər* (Göyçay).

**DOQUŞ** (Şəki) – balaca saxsı qab. – *Duluzdan bir doquş aldım.*

**DOL** I (Bakı, Cənubi Azərbaycan, Culfa, Gəncə, Qarakilsə, Ordubad, Salyan, Şamaxı) – ağac, taxta və ya mal gönündən hazırlanmış qab (vedrə, tuluq). – *Dol cırıldı, daş, çınqıl kişinin başına töküldü* (Bakı); – *Dol çox ağır gəlir, bıllar çəhdilər, gördülər quyu işıxlaşır* (Qarakilsə); – *Bizim dol deşilipdi, su saxlamırı* (Cənubi Azərbaycan).

**DOL** II (Zəngibasar) – sintetik örtük.

**DO:LA** (Gəncə, Mingəçevir) – kəklik tutmaq üçün tələ. – *O:çular do:laynan kəklik o:luyullar* (Gəncə).

**DOLAB** (Kürdəmir, Şuşa) – 1. hiyləgər, bic. – *Əlirza yaman dolabdı* (Kürdəmir); 2. hiylə, fırıldaq, biclik. – *Əhməd dolabdan başqa bir iş bilmir* (Şuşa).

**DOLAF** (Ağdam, Qazax) – hiylə, fırıldaq. ◊ **Dolaf gəlməx′** (Ağdam) – aldatmaq, fırıldaq işlətmək. – *Maŋa dolaf gəlməx′ isdiyirdi, yaxşı başa tüşdüm* (Ağdam).

□ **Dolafa düşməx′** (Qazax) – qarışığa düşmək.

**DOLAFÇI** (Ağdam) – hiyləgər, fırıldaqçı. – *Temir dolafçının biridi, onnan dost olmasaŋ yaxşıdı.*

**DOLAĞ** (Cənubi Azərbaycan) – qaramal salınan yerin qapısına qoyulan ağac. – *Dolağı bağladım mal-qara çıxmasun.*

**DOLAĞAC** (İmişli) – yer hanasında ip dolanan (sarınan) ağac. – *İpi dolağaca sarıyırduğ yer hanasında.*

**DOLAX** (Qazax) – b a x **dolaf.**

**DOLAM** (Şamaxı) – toxuculuqda uzunluq ölçüsü (təxminən 8 metr). – *Mənim ipim on səkkiz dolam çıxdı.*

**DOLAMA** (Cəbrayıl, Zəngibasar) – yara adı. – *Barmağıma dolama çıxıb* (Cəbrayıl).

**DOLAMAC** I (Cənubi Azərbaycan) – beşik. – *Uşax dolamacda yatdı.*

**DOLAMAC** II (Təbriz) – yelləncək. – *Qızım yıxılannan so:ra ərim dolamacı qırıb atdı.*

**DOLAMAÇARX** (Bakı, Lənkəran) – 1. gəminin lövbərini çəkən çarx (Lənkəran). – *Dolamaçarxı işdət, lö:bəri yığağ gedəy də;* 2. quyudan dol ilə su çəkmək üçün istifadə olunan qurğu (Bakı). – *Bizim binə quyuları çox dərin olur, ona görə dolamaçarxnan suvi çekirük, yoxsa bağara can rahati şeydü ki.*

**DOLAMAŞ** (Tovuz) – dolambac, əyri-üyrü (yol). – *Yala gərəx′ dolamaş yollarnan çıxasaŋ, onda hasand olur.*

**DOLAMBAŞ** (Şuşa) – b a x **dolamaş.** – *Bəkidə İçərişə:rin küçələri elə dolambaşdı ki, orda adam azır.*

**DOLAN** (Şəmkir) – keşik itləri üçün düzəldilmiş yer. – *İtdəri dolana çağır.*

**DOLAŞDIMAX** (Çənbərək) – hörmək, toxumaq. – *Ayna dünənnən bəri coraf dolaşdırır.*

**DOLAŞIX: DOLAŞIX DARAĞI** (Gəncə) – iridişli daraq. – *Çərçi elə yaxşı dolaşıx daraxları gətirif ki.*

**DOLAV** (Kəlbəcər) – b a x **dolab** (1-ci mənə). – *Dolav adama pul vermırıx.*

**DOLÇA** (Ağcabədi, Ağdam, Bakı, Barana, Bolnisi, Borçalı, Hamamlı, Xanlar, Qazax, Şəmkir, Tovuz) – ağac və ya misdən hazırlanmış birqulplu suqabı. – *Dolça quluflu olor su içmə:* (Borçalı); – *Ay qız, mã: bir dolça su ver, içim* (Ağcabədi); – *Dolça köhnəlif deyə suyu çox pis dader* (Xanlar); – *Bir dolça su ver içim* (Hamamlı); – *Dolçuyu doldur ver* (Barana).

**DOLDURĞAYİ** (Böyük Qarakilsə) – namünasib. – *Elə doldurğayi iş tutur ki, adamın zəhləsi gedir.*

**DOLDURMA** (Ağcabədi) – naxışlı tikmə. – *Doldurmada çoxlu irəng olur.*

**DOLĞA** (Gədəbəy) – təkərin topunda ox keçən dəyirmi dəmir. – *Dolğa olmasa, top üzülər.*

**DOLİ** (Balakən) – dəyirmanda üyütmək üçün taxıl tökülən təknə.

**DOLLAB** (Dərbənd) – b a x **dolab.**

**DOLUĞ** (Füzuli) – mədən. – *Duzun doluğu kəndimizin yanındadı.*

**DOMARA** (Ağbaba, Bolnisi, Borçalı, Füzuli) – 1. gödək, boyu qısa adam (Ağbaba, Bolnisi). – *Domara adamın xəsyəti dar olar* (Bolnisi); 2. qozbel (Borçalı, Füzuli). – *Domara Bəşiri görmədin?* (Füzuli).

**DOMBABEL** (Qazax) – qozbel.

**DOMBAX** (Gədəbəy) – təpə. – *Malı dombağa sarı yellə:ŋ bir əzdən.*

**DOMBUL** (Kürdəmir) – b a x **dambıl.**

**DOMDOMU** (Füzuli) – qara qarğa. – *Domdomunun əti ye:ilər, ala qarğanınkı ye:ilməz.*

**DOMİY** (Zaqatala) – corabın yırtıq yerini yamamaq və ya hörmək üçün işlədilən sap, ip. – *Corabımı domiynən yama.*

**DOMMAX** (Zəngibasar) – cummaq. – *Suya domdu, xeylam qaldı suyun altda.*

**DOMRUX** I (Bərdə, Mingəçevir, Oğuz, Zəngilan) – qaçmaması üçün inək və ya camışın ayağına bağlanan kiçik ağac. – *Gamış tay qaçəlmir, əyağına domrux vırmışam* (Zəngilan); – *İnə:in əyağına domrux vur ki, qaşmasın* (Bərdə); – *İnəyin ayağına domrux bağlasan örüşdən qaçmaz* (Oğuz).

**DOMRUX** II (Füzuli) – döyənək. – *Qavaxlar ə:ğımız domrux olmuşdu piyada getməx'dən.*

**DOMRUXLAMAX** (Bərdə) – qaçmaması üçün inək və ya camışın ayağına ağac bağlamaq. – *İnəy örüşdə dayammır, onu domruxlamax lazımdı.*

**DOMUJAÇIĞ** (Lənkəran) – çaydan balıq tutmaq üçün əl toru. – *Çaya su çox gəldiyinə domujaçığ cırılıb.*

**DOMUŞMAX** (Hamamlı) – incimək. – *Sənnən yaman domuşmuşam.*

**DONBALAN** I (Ağdaş) – yeralması.

**DONBALAN** II (Mingəçevir) – saxsı nehrə.

**DONBUZ** (Mingəçevir) – b a x **dımbız.**

**DONCA** (Salyan) – balıq tutmaq üçün dairəvi tor. – *Donca çox böyükdü.*

**DONÇAR** (Şuşa) – kobud.

**DOŋDABEL** (Qazax) – b a x **donqabel.** – *Doŋdabel adam tösmərəy olar.*

**DONQABEL** (Kürdəmir, Ucar) – qozbel. – *Donqabel Məmməd öy tikir* (Ucar).

**DOŋQAR** (Borçalı, Hamamlı, Qazax, Tərtər, Tovuz) – 1. əyri, əyilmiş (Borçalı, Hamamlı, Qazax, Tovuz). – *Uşağın beli doŋqardı* (Hamamlı); – *Doŋqar adam yavaş-yavaş gedər yolu* (Borçalı); 2. qozbel (Tərtər). – *Bizim dildə adamın belində olan xuza doŋqar de:illər.*

**DONQARBEL** (Qazax) – b a x **donqabel.**

**DONQARRAMMAX** (Hamamlı) – beli əyilmək, qozbel olmaq. – *Gədənin beli donqarranıf.*

**DONQUMAX** (Meğri) – oturmaq (itə aiddir), şoqqumaq. – *İt donquyup dəngahda.*

**DONNAMAX** I (Ucar) – axar suyun qarşısını kəsmək, bağlamaq. – *Get suyu donna, tez qayıt gə bıra.*

**DONNAMAX** II (Ucar) – dişə qızıl və ya metal qapaq salmaq. – *Həkim mənim dişdərimi donnadı.*

**DONNUX** I (Ağdam, Cəbrayıl, Füzuli, Kürdəmir, Qazax, Ordubad, Salyan, Şəmkir) – maaş, əməkhaqqı. – *Donnuğuŋ nə qədərdi?* (Şəmkir).

**DONNUX** II (Masallı) – dəyirmanda taxıl tökülən yer, təknə.

**DOŋRA** (Şuşa) – başda tüklərin dibində olan kəpək. – *Çoxdan yumamışam, başımda doŋra əmələ gəlif.* ◊ **Doŋra bağlamax** – başda tüklərin dibində kəpək əmələ gəlmək.

**DOŋSUMAX** (Ağdam) – kədərlənmək, dərd çəkmək. – *Bir belə də doŋsumağ olmaz.*

**DONUX** (Mingəçevir) – key.

**DOŋUZDUX** (Ağdam, Basarkeçər, Qazax, Tovuz) – b a x **doğuzdux.** – *O bijin biridi, noyuŋ başınnan salsaŋ, doŋuzduxdan diri çıxar* (Qazax).

**DONUZQILICI** (Xanlar) – yabanı bitki adı (yarpağı qılınca oxşayır).

**DOPBA** (Gədəbəy) – suqabı. – *Bir dopba su gətirginən içim.*

**DOPI** (Göyçay) – b a x **dobı.** – *Anam dopıda qatıq çalıpdı.*

**DOPU** I (Ağdaş, Qazax, Qəbələ, İsmayıllı, Oğuz, Şəki, Tərtər, Ucar, Zaqatala) – b a x **dobı.** – *Bir dopu bəhməzimiz var* (Qəbələ); – *Bir dopu qatıx vermişəm dünən qonşuya* (Oğuz); – *Arvad, inəyin yağınnan bir əz o dopuya yığarsan* (İsmayıllı); – *Dopuya yağ da tökürüx, bal da* (Zaqatala).

**DOPU** II (Xanlar) – qısaboy, gödəkboy. – *Bu kətdə bir dopu adam var.*

**DOR** I (Qax) – döşəkçə.

**DOR** II (Göyçay, Kürdəmir) – dudkeş. – *Bizim dorumuz sınıbdı* (Göyçay).

**DORBA** (Ordubad) – ikiillik camış balası. – *Camışın ikiillik balasına dorba deyərıx.*

**DORMUZ** (Gədəbəy) – ağacın buğumu. – *Dormuzlardan görüney kin, yüzdən oxarı olar bu ağacın yaşı.*

**DO:RUX** (Oğuz) – tütünün ən yaxşı baş yarpağı.

**DO:RUXMAĞ** (Salyan) – döyükmək. – *Kor adam kimi nə do:ruxursan.*

**DORVAT** (Gəncə) – şirin çayda isladılmış çörəyi ağa bükərək düzəldilmiş əmzik (çörək təmiz ağa bükülür ki, uşaq onu dişləyə bilməsin, əmsin). – *A:z, uşağın zəhri yarılmadımı, bir balaja dorvat qayrıf, ağzına versəŋ no:lar ki?*

**DOSDU** (Tovuz) – əmi və ya dayıarvadı.

**DOSDUCAN** (Qazax, Mingəçevir, Şəki) – yemiş növü. – *Dosducan çox şirin olur, özü də bir əz gec yetişir* (Şəki); – *Dosducan belə qayım yemiş olor, qışa qaler* (Qazax).

**DOSMAN** (Salyan) – zənbil. – *Xalam dolu dosmannan bazardan gəlirdi.*

**DOSTUCAN** (Zaqatala) – b a x **dosducan.**

**DO:ŞANAĞACI** (Gədəbəy) – meşə ağacı adı. – *Do:şanağacınnan süpürgə-zad qayrellər.*

**DO:ŞANÇARIĞI** (Şuşa) – bağayarpağı. – *Do:şançarığın qaynadıllar, yarıya yapışdırıllar, onu deşir, sağaldır.*

**DO:ŞANDİLİ** (Salyan) – tülkü ovunda tülkünü aldatmaq üçün istifadə olunan səsli alət, sümsü. – *Do:şandili olmasa tülki allammaz.*

**DO:ŞANKEÇƏN** (Ağcabədi) – hündürdaban, dikdaban ayaqqabı. – *Do:şankeçəni arvaddar, gəlinnər geəllər.*

**DO:ŞANQULAĞI** (Füzuli) – yabanı bitki adı.

**DO:ŞANOTU** (Şuşa) – yabanı bitki adı.

**DO:ŞANTƏPƏL** (İmişli) – alnında qaşqası olan (at).

**DO:ŞANTOPUĞU** (Xanlar, Tovuz) – yabanı bitki adı.

**DO:ŞANYUVADA** (Şuşa) – uşaq oyunu adı.

**DOTA** (Qax) – əlağacı.

**DO:UZATI** (İmişli) – may böcəyi.

**DO:UZDÖGDİ** (İmişli) – uşaq oyunu adı.

**DO:UZOTU** (İmişli, Kürdəmir) – alaq otu adı. – *Do:uzotınnan yığ, inəgə verəg* (Kürdəmir).

**DO:UZZUX** (Göyçay) – b a x **doğuzdux.**

**DOVRİŞ** (Qax, Zaqatala) – ağılsız.

**DO:YAĞI** (Salyan) – quyruq yağı. – *Pılo: do:yağıynan bişirdim.*

**DOYDAX** I (Mingəçevir, Şuşa) – ağılsız, ağıldan yüngül, sarsaq. – *Mən sənin kimi doydax adam görməmişəm* (Şuşa).

**DOYDAX** II (Cəbrayıl, Çənbərək, Lənkəran) – 1. arıq. – *Bir doydax inəyiŋ var, hər gün onu otarırsaŋ* (Çənbərək); 2. uzun (boyca).

**DOY: DOY GƏLMƏX′** (Gəncə, Karvansaray, Qazax, Şəmkir, Tovuz) – b a x **do: gəlməx′.** – *Balaxanımı gördüŋmü kişiyə necə doy gəldi?* (Tovuz).

**DOYLA** (Lənkəran) – heykəl.

**DOZAY** (Qax, Oğuz, Şəki, Şuşa) – b a x **dazay.** – *Məmət kimi dozay uşax heç hağlına gəlməsin* (Şəki); – *Bu dozayın biridi, işin olmasın* (Şuşa).

**DOZAYLIX** (Şəki) – *məc.* 1. acizlik; 2. keylik. – *Sənin bu dozaylığın məni laf cana gətiritdi.*

**DO:ZQILI** (Oğuz) – topa bitən yarpaqsız bitki. – *Do:zqılı yazda bitir, heş bir şeyə yaramaz.*

**DÖDƏ** (Ordubad) – yaxşı yanmamış, tüstülü (kömür). – *Bu kömür tamam dödədi.*

**DÖDÜ: DÖDÜ BAĞIRSAX** (Gəncə, Qazax) – yoğun bağırsaq. – *Əmi, içalatı bura gəti, dödü bağırsax ma: lazımdı* (Gəncə).

**DÖƏCƏRRƏNDİRMƏK** (Şamaxı) – təəccübləndirmək, heyrətləndirmək. – *Alı bu işiylə Qurbanı döəcərrəndirdi.*

**DÖƏCƏRRƏNMƏK** (Şamaxı) – təəccüblənmək, çaşıb qalmaq, heyrətlənmək. – *Bu işə yaman döəcərrənmişəm.*

**DÖƏLƏXʹ** I (Qazax) – dələduz. – *Hasan kişinin oğlu Alı döələxʹ adamdı.*

**DÖƏLƏXʹ** II (Ağdam, Borçalı, Qazax) – yetişməmiş xırda qovun, qarpız. – *Qarpızdar hələ döələxʹdi, yetişmeyif* (Qazax).

**DÖƏLƏXʹLİXʹ** (Qazax) – dələduzluq. – *Döələxʹlixʹ pis şeydi.*

**DÖƏLƏXʹVAZ** (Qazax) – dələduzluq edən. – *Alı yaman döələxʹvazdı, heş diş durmor.*

**DÖGƏC** (Şamaxı) – döymə, yeni istehsal olunmuş kəlağayıları sonuncu dəfə yuyarkən döymə. – *Dögəcdən çıxmamış iş parıldamaz.* ◊ **Dögəc ağı** – kəlağayıları döyərkən bükülən ağ, bez. – *Dögəc ağın gəti, buları döyəy.* **Dögəc daşı** – üzərində kəlağayı döyülən yastı daş. – *Bizim, dögəc daşımız yoxdi.*

**DÖĞMƏC** (İmişli) – b a x **döğmənc.** – *Yaxşı döğməc yedüg hindi.*

**DÖĞMƏNC** (Gədəbəy) – yağa doğranmış isti çörək, yağ doğramacı. – *Döğməncnən çox armağım mən uşaxlıxdan.*

**DÖĞMƏŞ** (Gədəbəy) – b a x **doğmənc.**

**DÖĞRƏ** (Gədəbəy) – mis dövrə, dərin mis boşqab. – *Cijim mə:m xaşıl payımı döğrə: çəqey peydər.*

**DÖHRƏ** (Ordubad) – bürkü. – *Böyün yaman döhrədi.*

**DÖ:KMƏK** (Cəbrayıl, Gəncə, Qazax, Qarakilsə, Qax, Naxçıvan) – 1. təəccüblənmək, mat qalmaq (Qarakilsə, Naxçıvan). – *Mən dö:kdüm kin, bı nə deməkdi* (Naxçıvan); – *Dö:kdim, qaldım məhətdəl* (Qarakilsə); 2. boylanmaq (Gəncə). – *Qapıdan dö:kdü, getdi.*

**DÖL** I (Gəncə, Göyçay, Şəki) – cins, nəsil. – *Bizim kə:r at Allahyargilin atdarının dölünnəndi.*

**DÖL** II (Ordubad) – dəyirmanın dən tökülən təknəsi.

**DÖLBAŞ** (Zəngibasar) – baş tərəf, öndə. – *Hətəm keçif dölbaşda oturuf.*

**DÖLBAŞI** (Çənbərək) – faraş doğulmuş quzu. – *Sürüdə dölbaşı çoxdu.*

**DÖLBURNU** (Ağcabədi) – b a x **dölbaşı.** – *Hüseynxanun qızıl kərə qoyunu dölburnu doğdu.*

**DÖLCƏXʹ** (Şərur) – döl götürülən yer.

**DÖ:LƏTQUŞU** (Ağdərə) – kərkincək (quş).

**DÖLLƏXʹ** I (Qarakilsə, İmişli) – 1. qoyunu doğuzduran adam (Qarakilsə); – *Bıdı görürsən döllərxʹlər gəldi;* 2. yeni doğmuş qoyun (İmişli). – *A bala, dölləxʹ yataxda yoxdu, nejo:luf?*

**DÖLLƏXʹ** II (Ağdam) – təzə yeməyə başlayan quzu sürüsü.

**DÖLLÜXʹ** (Şərur) – kiçikboy, qısaboy.

**DÖLMƏ** (Gəncə) – 1. balaca, dar küçə; 2. dalan. – *Bu dölmənin divindəki qapı bizimdi.*

**DÖMƏLƏMMƏXʹ** (Cəbrayıl) – bir işi könülsüz və ya yavaş-yavaş görmək. – *Tez ol ye, nə dömələnirsən.*

**DÖNBƏ** (Zaqatala) – dayaq. – *Dönbəni arabanın qolları altına qoy, öküzdəri arabadan açıb burax.*

**DÖNDƏRMƏ** I (İmişli) – aşıq-aşıq oyunu.

**DÖNDƏRMƏ** II (Salyan) – süd, qatıq saxlanan qablar üçün ağacdan düzəldilmiş qapaq. – *Döndərməni taşdin ağzına qoy.*

**DÖNDƏRMƏ** III (Çənbərək, Qazax) – sağılandan sonra inəyin döşündə qalan süd. – *İnə:n döndərməsin sağır deyn Nannı, buzoy cınıs döy.*

**DÖNDƏRMƏ** IV (Qazax) – dən tutandan sonra taxıla verilən su. – *Bir də yazda taxıla döndərmə suyu vurordux;* – *Taxılın döndərmə suyu gej vuruldu, yandı.*

**DÖNƏ** (Qafan, Mingəçevir) – dəfə. – *Bir dönə mən oduna gedəndə, bir dönə də sən get* (Qafan).

**DÖNƏXʹ** (Naxçıvan) – döngə. – *Bizim öymiz dönəxʹdədi.*

**DÖNƏLGƏ** I (Bərdə, Kürdəmir, Şuşa) – döngə. – *Balakişi, quzuları dönəlgədən keçirt* (Şuşa); – *Dönəlgədə kəsdilər onun qabağın* (Kürdəmir).

**DÖNƏLGƏ** II (Bərdə, Şəmkir, Şuşa) – b a x **dönəlyə.** ◊ **Dönəlgəsi dönməx′** – bəxti yatmaq. – *Onun dönəlgəsi dönüf* (Bərdə); – *Bayram kişinin dönəlgəsi dönüf, ildə bir qohumu ölor* (Şəmkir).

**DÖNƏLYƏ** (Gədəbəy, Qazax) – bəxt, tale. – *Adamın dönəlyəsi dönəndə dönor* (Qazax); – *Adamın dönəlyəsi kin döndü, yarımaz dünyədə işi* (Gədəbəy).

**DÖNƏYƏ** (Qafan) – bostanda su dönən yer. – *Su dönəyədən gəlmir.*

**DÖNGƏ** (Oğuz) – arı pətəkləri saxlanılan yerin ətrafına çəkilmiş çəpər.

**DÖNGƏLƏMƏK** (Şamaxı, Şəki) – sözündən qaçmaq, sözünü dəyişdirmək. – *Demisən, demisən, dayi niyə sözüvi döngəliyirsən?* (Şamaxı); – *Əvvəlcə söz vermişdi, sora döngələdi* (Şəki).

**DÖNÜM** (Qafan) – dəfə. – *Gələn dönüm sizə bir yük odın gətirəcəyəm.*

**DÖNÜMLÜK** (Qafan) – dəfəlik. – *Bir dönümlük ancağ unumız qalıbdı.*

**DÖNÜŞ** (Gədəbəy, Şəki) – b a x **dönüm.** – *Bu dönüş yalançıyam yanında* (Gədəbəy); – *Bu dönüş o öydə otudu, mən getdim;* – *Bu dönüş Qurbanı yolladılar* (Şəki).

**DÖ:R** (Borçalı, Gədəbəy, Xocavənd, Qazax, Ordubad) – 1. otağın yuxarı başı (Borçalı, Gədəbəy, Qazax). – *Dö:rə keç* (Qazax); 2. toyda gəlinin oturması üçün yer (Ordubad). – *Gəlinin dö:rini hazırrayın;* 3. evin arxa tərəfi (Xocavənd). – *İti dö:rə bağlamışam.*

**DÖRDƏ:X** (Kəlbəcər, Tərtər) – b a x **dördəyağ.** – *Xamır dördə:xda yaylır* (Kəlbəcər).

**DÖRDƏLƏMƏ** (Gədəbəy) – dördayaq çapma. – *Yol kun düz oldu, sürərəm atı dördələmə, ləzət verer maŋa.*

**DÖRDƏM** I (Qazax, Meğri, Salyan, Tovuz) – b a x **dördələmə.** – *At dördəm qaçdı* (Salyan); – *Bu at dördəm geder* (Qazax); – *Burdan orya dördəm get* (Tovuz); – *Atdar dördəm qaşdılar, yalın o tərəfinə aşdılar* (Meğri).

**DÖRDƏM** II (Tovuz) – dördqat (əyirmək) (sapa aiddir). – *Mən dördəm əyirmişəm sapı.*

**DÖRDƏMƏ** (Bakı, Cəbrayıl, Gədəbəy, Qazax, Salyan, Tovuz) – b a x **dördələmə.** – *Mə:m atım dördəmə qaçır* (Bakı); – *At dördəmə qaçseydi, tez çatardım ora* (Salyan); – *At var ki, yuaş-yuaş geder, at var ki, ye:in geder, at var ki, dördəmə geder, at var ki, yorğa geder* (Tovuz).

**DÖRDƏYAĞ** (Ağdam, Ağdərə, Bakı, Cəbrayıl, Göyçay, Salyan, Tərtər) – yuxayayan. – *Dördəyağın üsdündə yuxa salallar* (Tərtər); – *Dördəyağ uzunşüllə də olur, də:rmi də olur* (Ağdam).

**DÖR: DÖR DURMAX** (Qəbələ) – ayaq üstə durmaq (uşağa aid). – *Bu uşax dör durmax bilir.*

**DÖRDÖŞƏX′** (Şuşa) – döşənəcək.

**DÖRDÖŞƏYİ** (Oğuz) – döşəkçə. – *Dördöşəyini də yunnan qayrıllar.*

**DÖRDÖŞŞƏYİ** (Şəki) – b a x **dördöşəyi.**

**DÖ:RƏ** (Gəncə, Şəki) – b a x **döyrə** (3-cü mə:na). – *Bi qav aş tutan dö:rəmi to:x salıf sındırdı* (Şəki).

☐ **Dö:rə çıxmax** (Borçalı, Qazax) – otağın yuxarı başına keçmək. – *Ay uşax, dö:rə çıxma* (Borçalı).

**DÖ:RRÜ** (Şəki, Zəngibasar) – çoxlu. – *Bi-yil qolxozun dö:rrü taxılı var;* – *Ortaxlı götürəndə dö:rrü baramamız olur, özüm tək götürəndə gənə batır, az olur* (Şəki).

**DÖRTDƏMƏ** (Qazax, Tovuz) – b a x **dördələmə.** – *Alının atı dörtdəmə geder* (Qazax).

**DÖRTGÜL** (Qazax, Qarakilsə) – dördbucaq. – *Üz taxtası yox, dörtgül taxta alajam* (Qazax); – *Həbelə dörtgül xoruzdu dəsmallar olardı, ollarda aparardıx çörəyi* (Qarakilsə).

**DÖRYASDIĞI** (İsmayıllı) – böyük balış. – *Bu döryasdığı həddinnən artıq bö:ydü.*

**DÖŞBAĞI** (Naxçıvan, Şamaxı, Şuşa) – atın döşündən keçirilən yəhərbağı. – *At yoxışı çıxanda döşbağı gücə düşür* (Şamaxı).

**DÖŞDƏMƏG** (Salyan) – cəld, tələsik yemək. – *Bir dəğada xörəgi döşdədi getdi.*

**DÖŞDƏŞMƏG** (Salyan, Yardımlı) – savaşmaq. – *Dünən qonşular döşdəşirdi* (Salyan).

**DÖŞDİX′** (Şəki) – altdan geyilən qolsuz isti paltar. – *Döşdix′ sinəni so:xdan qoriyir.*

**DÖŞƏKİ** (Balakən) – araba döşəməsinin altına düzülən ağac.

**DÖŞƏMƏ** I (Şəmkir) – çarıq və ya çustun altına qoyulan yamaq. – *Çarığın altı yırtılıf, döşəmə qoymax lazımdı.*

**DÖŞƏMƏ** II (Borçalı, Laçın, Lənkəran, Mingəçevir, Salyan, Şəki) – 1. ev və ya tövlənin tirlərinin üstünə döşənən şax çubuq (Borçalı, Laçın, Salyan). – *Öyin döşəməsin atdılar* (Salyan); – *Döşəmə qırmışam, sabah gətirəcəm, tovlanın üsdünə döşüyək* (Laçın); – *Döşəmeyi damın üsdünə qoyurux* (Borçalı); 2. b a x **döşəki** (Lənkəran). – *Vəli, araba:n döşəməsi xarab olub, onu təzələ.*

**DÖŞƏMEG** (Bakı) – təsdiq və razılıq bildirmək üçün əlini başqasının əlinə vurmaq. – *Mən ölüm, döşə gəlsün!..*

**DÖŞƏMƏÇƏHMƏ** (Zəngibasar) – ətli düyü xörəyi.

**DÖŞƏMƏK** (Bakı, Gəncə, Şamaxı) – *məc.* doyunca yemək. – *Heş belə tüşərinə tüşməzdi, döşə, bala, döşə, bir də belə aşı sən heş arda görmüyəjəsən* (Gəncə).

**DÖŞƏMMEG** (Bakı) – *məc.* acgözlüklə yeməyə soxulmaq. – *Ada, ac qurt kimi nə döşəmmisən aşun canına?*

**DÖŞÜDOLU** (Qubadlı, Şuşa) – 1. igid, qoçaq (Qubadlı). – *Səməd döşüdolu oğuldu;* 2. dərdli (Şuşa). – *Yazıx döşüdoludu, amba dinə:lmir.*

**DÖŞÜRMƏX′** I (Başkeçid, Borçalı, Gədəbəy, Qazax, Şəmkir, Tovuz) – 1. b a x **döyşürməx′.** – *Gə, bir-ki fartux da pambığ döşürəx′, qoy çox olsun;* – *Anası nə töküfsə, qız da onu döşürüf* (Şəmkir); – *Bir az yığıntı döşürmüşüm, nəhrə çalxa:cam zavahları* (Gədəbəy); – *Meyveyi dərəndə yerə tökülənnəri döşürərix′* (Borçalı); 2. dənləmək. – *To:x yerdən cücü-mücü döşürör* (Tovuz).

**DÖŞÜRMƏX′** II (Xanlar) – acgözlüklə yemək. – *Gör nə döşüröy, no:luf dana?*

**DÖŞÜRÜMMƏX′** (Qazax) – həvəssiz otlamaq.

**DÖ:ÜRƏ** (Ağdam, Mingəçevir) – b a x **döyrə** (2-ci məna).

**DÖYDÜNMƏX′** (Çənbərək) – b a x **dəvdənməx′.** – *Tez gəl, nə döydünürsəŋ?*

**DÖYMƏ** I (Tovuz) – məşəl. – *Döymə yandırıllarmış keşmişdə;* – *Ya qarağac, ya gərəx′ şam ağacı olsun, onu baltıynan döüf yumşaldıllarmış, soŋra onu yağa basıllarmış, yandırıllarmış, ışığında oturullarmış, muna de:illər döymə.*

**DÖYMƏ** II (Zəngilan) – döyülmüş armud qaxı. – *Ay qız, mənə döymə döy.*

**DÖYMƏ** III (Cəbrayıl) – süddə bişirilmiş buğda yarması sıyığı. – *Mən döyməni çox xoşduyuram.*

**DÖYMƏC** I (Ağdam, Qarakilsə, Qubadlı, İrəvan) – b a x **döğmənc.**

**DÖYMƏC** II (Oğuz, Şəki) – meyvəni (alça, zoğal, alma, gavalı və s.) döyüb əzərək hazırlanmış yemək. – *Döyməc yay vaxdı adamı sərinnədir* (Şəki); – *Zoğal döyməcinə pörtkən <böyürtkən> qatıllar, alçadan olana da ireyhan qatıllar* (Oğuz).

**DÖYMƏDÖŞƏMƏ** (Bakı) – içinə döyülmüş ət qoyulmuş plov. – *Yerün mə:lim, bu gün xalamgildə döymədöşəmə yemişəm.*

**DÖYMƏX′** (Zəngilan) – alaq eləmək. – *Hər kişdə öz yerin döysün qəyissin.*

**DÖYMƏQİYMƏ** (Şamaxı) – döyülmüş ət, noxud və kişmişdən hazırlanmış yemək. – *Döyməqiymə çox ləzətdi olur.*

**DÖYMƏNC** I (Gədəbəy, Qazax) – b a x **döğmənc.** – *Uşaxlara döymənc verdim* (Qazax); – *Döyməncі yaman söyör <sevir> uşaxlar* (Gədəbəy).

**DÖYMƏNC** II (Qazax) – döyülmüş şəkərlə qozun qarışığı. – *Pəri mənə döymənc döyür.*

**DÖYMƏŞ** I (Gədəbəy, Gəncə, Şuşa) – b a x **döğmənc.** – *Ana, maŋa döyməş ver* (Gəncə).

**DÖYMƏŞ** II (Mingəçevir) – b a x **döyməc** II.

**DÖYRAN** (Şəki, Şəmkir) – toyda pul yığma. ◊ **Döyran yığmax** (Basarkeçər, Mingəçevir, Oğuz, Şəki) – toyda pul yığmaq. – *Aşıx söybətin yarsında döyran yığmağa başdadı* (Basarkeçər); – *Toy eliyicix′di, döyran yığıcıxdı* (Oğuz). **Döyran keçirməx′** (Şəmkir) – toyda pul yığmaq. – *Aşıxlar dünən döyran keçirdilər.*

**DÖYRƏ** (Gəncə, Şəki, Tovuz) – 1. b a x **döğrə** (Tovuz). – *Döyroyü gəti, qartof pişirəx′;* 2. dairəvi mis məcməyi (Gəncə); 3. iri saxsı boşqab, dövrə (Şəki).

**DÖYŞƏX′** (Qazax) – arabanın döşəməsi.

**DÖYŞÜRMƏX′** (Çənbərək) – yığmaq, toplamaq. – *Bir az qartop döyşürdüm uradan.*

**DÖYÜNÇİÇƏYİ** (Qazax) – sarı çiçəkli yabanı dərman otu. – *Üstü örtülü yarıya döyünçiçəyi yaxşı olar.*

**DUAĞALDI** (Ağcabədi) – qız ərə gedəndən bir gün sonra düzəldilən gəlingörmə

mərasimi. – *Duağaldıya qızın yengəsi, anası, bayısı, qohumları gedər.*

**DUAX** (Bolnisi, Borçalı, Çənbərək, Qazax, Tərtər, Tovuz) – b a x **doax.** – *Duaxda xamralı yayırıx* (Tərtər); – *Kündöyü duaxda yasdılıyıf saja yafdılar* (Borçalı).

**DUAXQAPBA** (Basarkeçər, Cəbrayıl, Zəngilan) – qız ərə gedəndən bir neçə gün sonra düzəldilən gəlingörmə mərasimi. – *Uşaxlar qızın duaxqapbasına gedir* (Zəngilan); – *Gulara duaxqapbıya bizi də çağırmışdı* (Cəbrayıl); – *Toy qutarıf, duaxqapbasına gəlif çatıfsan* (Basarkeçər).

**DUBALAĞ** (Quba) – kələk, hiylə. – *Mən hər şeyi bilədəm, mənə dubalağ gəlməginən.*

**DUBUR** (Quba) – qısaboy (adam).

**DUÇ** (Qax) – dəstə. – *Bazara gediysin, mağa da bi duç ala alıp geti.*

**DUDALAMAĞ** (Bakı) – yalan danışmaq. – *Gənə nə dudalıyırsan?*

**DUDURĞAYI** (Meğri) – qudurğan, azğın. – *Tağı xan kimin dudurğayı adam nə olup, nə olecek.*

**DUĞA** (Quba) – dovğa. – *Əhməd duğadan içib xəstə ulmişdi.*

**DUQQAZ** (Quba, Zaqatala) – b a x **doqqaz** III.

**DUQQU** (Mingəçevir) – suqabı.

**DUQUY** (Qax) – yalan. – *Bircə qoraydın <görəydin> neçə duquy di:riydi.*

**DULA** (Başkeçid, Borçalı, Gədəbəy, Hamamlı, Qazax, Tovuz) – b a x **dilab.** – *Dula qoymax pis olmaz örüx' ördürəndə* (Gədəbəy); – *Apar istəkanı duloya qoy* (Başkeçid); – *Pıçağı dulaya qoydum* (Borçalı); – *Ay usda, divarda bir dula qoy* (Tovuz); – *Duluya xırda qablar qoyular, çıra qoyular* (Hamamlı).

**DULAĞARTI** (Quba) – biçinçilərin qollarına sarıdıqları dolaq. – *Mənim dulağartılarım üydə qalıb.*

**DULĞU** (Gədəbəy, Xanlar, Qazax) – b a x **dolğa.**

**DULQU** (Qazax, Çənbərək, Tovuz) – b a x **dolğa.** – *Təkərin dulquların sal, top yeyilməsin* (Tovuz).

**DULUNQ** (Qax) – üskük. – *Menin pis xəsyət var, dulunq olmasa tikə bilməs.*

**DUMBA** I (Şəki) – qısaboy. – *Dumba kişiydi irəhmətdıx Usuf.*

**DUMBA** II (Şəki) – təpə. – *Taxdalı dərəsi havı dumba:n dalıdı.*

**DUMBAK** (Zaqatala) – kötük (odun). – *Dumbakı doğra.*

**DUMBUL** (Bakı, Şamaxı) – nağara.

**DUMBUZ** (Basarkeçər, Bolnisi, Borçalı, Füzuli, Gədəbəy, Göyçay, İmişli, Qazax, Şəmkir, Tovuz, Ucar) – b a x **dımbız.** *Ağzımın üsdünnən bir dumbuz vurdu* (Qazax); – *Dumbuznan buyurmazdar uşağı, uşağınkı dildi* (Gədəbəy); – *Dədəm qulağımın divinə bir dumbuz vurdu, hələ də başım gijildi:r* (Şəmkir); – *Dumbuznan vırdı belimə* (Füzuli); – *Cınağıma elə dumbuz vurdular ki, yerə sərildim* (Göyçay); – *Nuru yoldaşına bir dumbuz vurdı* (Ucar).

**DUMBUZDAMAĞ** (Füzuli) – yumruqlamaq. – *Dumbuzda, bəlkə oyana.*

**DUMDUMA** (Dərbənd) – sap çarxı, makara.

**DUMMUR** (Biləsuvar) – yumruq.

**DUMUX** (Ordubad) – 1. gec başa düşən; 2. xəbərdar. – *O bu işdən dumux dəyildi.*

**DUNUX** (Bərdə, Borçalı, Çənbərək, Gədəbəy, Gəncə, Qazax, Ordubad) – b a x **dumux** (1-ci məna). – *Həcərin oğlu dunuğ adamdı* (Bərdə); – *Yaman dunuğ adamsan* (Qazax); – *Dunuğun biridi, nə dinər, nə danışar, kif-kirimiççə oturuf mat-mat baxar* (Gəncə); – *Nə:ŋ belə dunuğ üşəyiŋiz var sizin* (Gədəbəy); – *Dunuğ adam heş zad başa düşmer də* (Borçalı); – *Dunuğ adam malbaş olu* (Çənbərək).

**DURADOĞMA** (Qax) – b a x **dərədöymə.** – *Duradoğmanı kəmərnən oyniylər.*

**DURADURDA** (Cəbrayıl, Salyan) – indi, hal-hazırda. – *Duradurda başıma bir iş gəldi* (Salyan).

**DURAX** (Tovuz) – sarılıq xəstəliyi (heyvanlarda).

**DURALĞA** (Kəlbəcər) – düşərgə. – *Bıra duralğadı.*

**DURATUTMAZ** (Şəki) – əsassız, yerliyersiz. – *Duratutmaz danışma.*

**DURMA** (Şamaxı) – durğun, axmaz. – *Su:mız durmadı.*

**DURMƏ:LDİDƏN** (Qazax) – qəfildən, gözlənilmədən. – *Durmə:ldidən şilleynən vurdu gədeyi.*

**DURSUM** (Qax) – bağlama. – *Anasının oğadar xırda dursumları var.*

**DURUĞ: DURUĞ DANIŞMAX** (Lənkəran) – yerli-yersiz danışmaq. – *Belə duruğ danışır ki.*

**DURULAMAĞ** (Cəlilabad, Çənbərək) – taxılı sovuraraq təmizləmək. – *Yeldə taxılı duruladı Əkbər* (Çənbərək); – *Əlimiznən savrığı atarduğ, bığdanı durulardığ* (Cəlilabad).

**DURUM** (Bakı) – quyu dibinə çökmüş palçıq.

**DURZAN** (Dərbənd) – sürü. – *Bir durzan qoyunim var indi.*

**DUSƏR** (Kəlbəcər) – külüng.

**DUŞBALAN** (Xanlar) – aşsüzən. – *Duşbalan oluf bizdə, indi də işdənir.*

**DUVAX** I ( Ağdam, Cəbrayıl, Naxçıvan) – b a x **doax.** – *Duvağı bəri qoy, kündəni yasdılıyım* (Ağdam); – *Usduya bir duvax qayıtdırın canı:z qutarsın* (Cəbrayıl).

**DUVAX** II (Oğuz, Şəki) – qız ərə gedəndən bir neçə gün sonra düzəldilən gəlingörmə mərasimi.

**DUY** (Oğuz, Şəki) – key. – *Elə duy adamdı ki, on dəfə di:rsən, gənə də başa düşmür* (Şəki).

**DUYAX** (Bolnisi) – b a x **doax.**

**DUYDUX** (Oğuz, Təbriz) – 1. hülqum. – *Qurt qoyunun duyduğunnan tutur, parçalayır, so:ra yi:r* (Oğuz); 2. nəfəs borusu. – *Xoruzun duyduğun uşaxlar çalıllar; – Heyvan duyduxdan nəfəs alır* (Oğuz); – *Heyvanın duyduğun çıxardıb əlində gəzdirirdi* (Təbriz).

**DUZDAX** I (Bakı, Gədəbəy, Qazax, Qarakilsə) – heyvanlara duz verilən yer. – *Hər axşam mal-qara duzdağa:ley örüşdən* (Gədəbəy); – *Yoldaşıma dedim, ə:, sən bı duzu gəti duzdaxda verəx′ qoyuna* (Qarakilsə).

**DUZDAX** (Zəngibasar) – tələ. – *Duzdax təliyə de:rix′ biz.*

**DUZDUX** (Qax) – duz torbası.

**DUZ: DUZ GÜNÜ** (Göyçay, Kürdəmir, Zəngilan) – bazar ertəsi. – *Duz günü işə başdıyrux* (Kürdəmir); – *Böyün duzdu, sə:r təx′di* (Zəngilan).

☐ **Duz qoymağ** (Saatlı) – hirsləndirmək.

**DÜ** (Quba) – hə (düzdür mənasında). – *Bu yil Susaya gedədü? – Dü.*

**DÜB** (Naxçıvan) – 1. tərs, inadkar. – *Ay qərdaş, bizim bı qonşu çox düb adamdi;* 2. qanmaz.

**DÜBAXDİ** (Ordubad) – bostanda ikinci dəfə əmələ gələn xırda yemiş. – *Qavın tağı bı il yaman dübaxdi töküb.*

**DÜBBÜ** (Meğri) – b a x **düb.** – *Əhməd bir dübbü adamdı, zəhləm unnan gedey.*

**DÜBƏLƏX′** (Zəngibasar) – kal qovun.

**DÜBƏX′** (Ağdam, Culfa, Naxçıvan) – b a x **dibəy.** – *Daşi surax eliyib, dübək düzəldırıx* (Culfa).

**DÜBƏNDİ** (İrəvan) – ayaqqabı növü.

**DÜBURĞUN** (Dərbənd) – qışın son on günü. – *Düburğun gəldikdə utlar gügərər.*

**DÜBÜL** (Şəki) – qısaquyruq, quyruğukəsik. – *Dübül to:ğun murtası var.*

**DÜBÜLÜŞ** (Naxçıvan) – əxlaqsız, tərbiyəsiz. – *Əsəd çox dübülüşdü.*

**DÜBÜR** (Cəbrayıl, Culfa, Qarakilsə, Ordubad) – b a x **dıbır** (1-ci məna). – *Dübürün əti yaxçı olar* (Culfa).

**DÜCƏLƏMƏX′** (Basarkeçər) – aralanmaq, ayrılmaq. – *Onu dö:riyə alıf sö:bət eli:rdix′, soŋra düçələndix′, o da getdi.*

**DÜDÜLƏMƏX′** (Zəngibasar) – öyrətmək, dadandırmaq.

**DÜDƏMƏ** I (Ağdam) – xoruz cinsi.

**DÜDƏMƏ** II (Zəngibasar) – səfeh, gic.

**DÜDÜG** (Kürdəmir, Qarakilsə, Şamaxı) – yalan, hiylə. – *Düdügə uydum ki, bu günə tüşdüm.* ◊ **Düdüx′ vermax** (Şəki) – yalan danışmaq, aldatmaq.

**DÜDÜX′** (Ağdaş, Gəncə, Kürdəmir, Mingəçevir, Şəki) – 1. beşikdən körpənin sidiyini axıtmaq üçün qarğı (Ağdam, Gəncə, Şəki). – *Balaçıya bir düdüy aldım* (Gəncə); 2. nehrənin deşiyinə taxılan kiçik qarğı (Ağdam, Kürdəmir, Mingəçevir, Şəki). – *Düdüyü bas nehrə:n ağzına, çalxala* (Kürdəmir); – *Düdüx′ çox uzundu; – Nehrənin düdüyünü üstünə tax* (Ağdam); – *Düdüyü döyürux, yağ gələndə biliyıx ki, olufdu* (Şəki).

**DÜDÜX′Çİ** (Naxçıvan) – 1. yalançı; 2. fırıldaqçı. – *Həsən kimi düdüx′çi adam olmaz.*

**DÜDÜX′LƏMƏX′** (Qafan, Şəki) – sıyıq nəcis salmaq. – *Bizim inəx′ düdüx′li:b özün bılı:b; – Öküzü qoyma düdüx′ləsin xirmənə* (Qafan).

**DÜƏLDİ** (Şəmkir) – dava, savaş, qalmaqal. – *Ay Əsgər, genə nə düəldi salıfsan?*

**DÜƏLƏX′** (Qazax, Zəngilan) – balaca qarpız, yemiş. – *Bir düələx′ kəsmişdim, qan kimi çıxdı* (Zəngilan).

**DÜGDİ** (Dərbənd) – baltanın arxa hissəsi, küp.

**DÜGƏLEGBAZ** I (Bakı) – davakar. – *O, dügəlegbazdu canım, oniynən iş görmeg olmaz.*

**DÜGƏLEGBAZ** II (Quba) – 1. çoxbilən, hər şeydən xəbərdar; 2. kələkbaz.

**DÜGÜNNƏMƏ** (Ağsu) – bağlama (aşıq sənətində). – *Yap iki min dügünnəmə diyərəm.*

**DÜX′ÇƏ** (Basarkeçər, Cəbrayıl, Qazax, Oğuz, Şəmkir, Tovuz, Zəngilan) – b a x **dügçə** I. – *Düx′çədən sonra umağ olor, umaxdan sonra kələf olor* (Tovuz); – *O düx′çüyü maŋə:ti püx′dərem* (Şəmkir); – *Bir kilov yunnan beş-altı düx′çə çıxdı* (Zəngilan); – *İki düx′çəni bir yerdə qoyub yanaşı yumaxlıyıllar, so:ra tezədən onu büx′dərillər, ya:nı eşillər* (Oğuz).

**DÜX′ÇƏX′LƏMƏX′** I (Çənbərək) – yığmaq, toplamaq. – *Zinyat genə ətəyinə yun düx′çəx′li:f.*

**DÜX′ÇƏX′LƏMƏX′** II (Çənbərək) – hamilə olmaq. – *Balağızın doqquz uşağı var, genəjə düx′çəx′li:f.*

**DÜKCƏ** I (Şamaxı) – cəhrənin iyinə sarınmış ip.

**DÜKCƏ** II (Salyan) – təndirin yanında kündə yayılan yer. – *Dükcədə biz xamırı yayruğ.*

**DÜLOY** (Bərdə) – b a x **dilab.** – *Öyü tikəndə düloy da qoy.*

**DÜLÜX′** (Oğuz, Şəki) – künc. – *Torva:n dülüyündə bir az un qalıfdı* (Şəki); – *Torvanın dülüyünü təmizdə* (Oğuz).

**DÜLÜMCEX′** (Şəki) – künc, guşə. – *Goruz bi qutalacax dülümcex′dədi.*

**DÜLÜMƏK** (Cəbrayıl) – həyasızlıq etmək.

**DÜLÜS** I (Gədəbəy) – aftafa. – *Dülüsə su töküŋən, uşax a:ğın yusun.*

**DÜLÜS** II (Əzizbəyov) – aravuran.

**DÜM** (Oğuz) – həmişə, daima. – *Düm deyir ki, oxumağa gedəcəyəm.*

**DÜMA:RƏ** (Oğuz) – ipəkqarışıq parçadan hazırlanmış böyük yaylıq.

**DÜMAY** (Qax) – çim.

**DÜMBEX′** (Meğri) – *məc.* – mədə, qarın. – *Dümbeyin tutdıxcə bu gilasdan tıx.*

**DÜMBƏ** (Mingəçevir, Yevlax) – lümə. – *O dümbə to:uğu qoyla burdan* (Yevlax).

**DÜMBƏX′** I (Cəbrayıl, Mingəçevir, Oğuz, Şəki) – b a x **dümbə.** – *Dümbəx′dən zəhləm gedir, onu genə vermisiz mə:* (Cəbrayıl); – *Arvat toyuğun quyruğun yoluf, dümbəx′ qalıfdı* (Oğuz).

**DÜMBƏX′** II (Tovuz) – arasına yavanlıq qoyulmuş çörək.

**DÜMBƏX′** III (Hamamlı) – toy.

**DÜMBƏLƏMMƏK** (Kürdəmir) – yaltaqlanmaq. – *Ə, onun qabağında nə dümbələnirsən.*

**DÜMBƏRƏ** (Kürdəmir) – düyünçə, bağlama. – *Bu dümbərələr nədi yığmısan bura.*

**DÜMBÜL** I (Ucar) – təpəcik. – *Ay uşax, çıx dümbülə, gör mal gəlirmi?*

**DÜMBÜL** II (Ağsu, Kürdəmir) – bel. – *Anası uşağın mindirib dümbülünə.*

**DÜMBÜL** III (Mingəçevir) – qısaquyruq (heyvan).

**DÜMBÜZ** I (Oğuz) – ipək parçadan qadın yaylığı. – *Bə:zisi ho dümbüzü bağlıyır.*

**DÜMBÜZ** II (Zəngibasar) – yumruq. – *Ona bir dümbüz vurdum.*

**DÜMDÜ** (Qazax) – işlənmiş, köhnə süpürgə.

**DÜMDÜMƏ** (Şamaxı) – kəlağayı toxunan dəzgahın hissəsi. – *Dümdüməm gərək təzalana.*

**DÜMƏ** (Şəki) – 1. boğaz; 2. boyun. – *Ha dümməsin uzatdı, çatmadı düyüyə, ayaği bağliydi xoruzun.*

**DÜMƏLƏMMƏX′** (Cəbrayıl, Qafan, Mingəçevir, Şəki, Zəngilan) – asta-asta iş görmək, qurdalanmaq, vaxt keçirmək. – *İşdən gələnnən so:ra axşəməcən eşdə, ləhlərin içində dümələniyəm* (Şəki); – *Orda nə dümələnirsən, get heyvannarı gəti* (Zəngilan); – *Malları ötür, bayırda dümələnsin* (Qafan).

**DÜMƏN** (Qax) – b a x **dümə.** – *Düməni nəzilip, şey yiyə bilmiy.*

**DÜMƏSİNCƏ** (Lənkəran) – quş adı. – *Daşnan bir dümməsincə vurdum.*

**DÜMƏŞİRƏ** (Lənkəran) – gilabı. – *Cahan başını düməşirəylə yuyur.*

**DÜMLƏMƏXʹ** (Cəbrayıl, Meğri, Zəngilan) – birnəfəsə içmək. – *Bi istəkan südü dümlədin, indi çörəyi yavan yeginən* (Zəngilan).

**DÜMSÜXʹLƏMƏXʹ** (Zəngibasar) – dürtmələmək. – *Dümsüxʹlə, qoy oyansın.*

**DÜMÜXʹ** (Ağdam) – hər işlə maraqlanan, hər işə qarışan.

☐ **Dümüy eləməxʹ** (Naxçıvan) – baş qarışdırmaq, məşğul etmək. – *Mən yasdan gəlincə bu uşağı dümüy elə.* **Dümüy olmax** (Cəbrayıl) – fikir vermək.

**DÜNBƏXʹ** (Gəncə, Şəki) – b a x **dümbül** III. – *Ho dünbül at hamıdan bərk qaçır* (Şəki); – *Bizim dünbül camışın südü çox yağlıdı* (Oğuz).

**DÜNƏY** (Daşkəsən, Gədəbəy) – günün isti vaxtında malın toplaşdığı sərin yer. – *Orda mal dünəyə yığıleydi* (Daşkəsən); – *Malı dünəydən yellə çaya sarı* (Gədəbəy).

**DÜNG** (Zaqatala) – kötük. – *Ayağım düngə ilişdi, yıxıldım.*

**DÜNGƏ** (Şamaxı) – qaramalın bel sütununda olan tük zolağı. – *Bu inəyin düngəsi balacadi.*

**DÜNGƏLƏMƏK** (Zaqatala) – b a x **döngələmək.** – *Əli sözünü düngəlɘdi.*

**DÜNGÜR** (Bolnisi) – quda.

**DÜNGÜZ** (Zəngibasar) – ağıldankəm.

**DÜNYA** (Şəki) – kiçik ipək bağlaması. – *Dünya saf, təmiz ipəxʹdən olur.*

**DÜPBƏL** (Şəki) – qoz ağacının zoğundan düzəldilən oyuncaq (zoğun içinin özəyi çıxarılır və içinə kağız qoyulub atılır).

**DÜPƏNDÜZ** (Qazax) – dümdüz.

**DÜRCƏXʹ** (Qazax) – xəncər qınının üstündə olan xırda çıxıntılar. – *Dürcəyi çox olan xəncər xoşə:ləndi.*

**DÜRDÜGÜN** (Şamaxı) – 1. xırda parça qırıntıları; 2. pal-paltar. – *Dürdügünü bura gəti.*

**DÜRƏ** I (Şuşa) – təbil çubuğu. – *Bu çox yaxşı dürədi.*

**DÜRƏ** II (Şuşa) – 1. qırmanc, qamçı. – *Ata bir dürə çəkdim, sıçradı;* 2. b a x **dirə.** – *Qurşağını aç, dürə qayırax.* ◊ **Dürə tutmax** – divan tutmaq. – *Sənə bir dürə tutaram ki...*

**DÜRƏDÖYMƏ** (Borçalı) – b a x **dərədöymə.**

**DÜRƏDÜRMƏ** (Oğuz) – b a x **dərədöymə.** – *Dürədürmə oynıyıv, bu günə salıv özünü.*

**DÜRƏXʹ** (Qazax) – tənbəl.

**DÜRGƏ** (Şamaxı) – kəlağayı topu, topası. – *Dədəm bir dürgə mal satdı.*

**DÜRGƏLƏMƏK** (İmişli, Lerik, Şamaxı, Ucar) – toplamaq, dəstələmək, bükmək. – *Kəlağayını dürgələməy çox hasatdı* (Şamaxı); – *Yuxaları dürgələdim, bükdüm dəsmala* (Ucar); – *Bı gün yunı dürgəliyəcəm, qalacağ* (İmişli).

**DÜRGƏLƏMMİŞ** (Şamaxı) – bükülmüş, dəstələnmiş, toplanmış. – *Adə, ged öydən o dürgələmmiş kəlağayını gəti, gəl.*

**DÜRİYƏ** (Ağdam, Naxçıvan) – kişi üçün ikiüzlü, naxışlı gecə papağı. – *Ay qız, düriyəni gəti.*

**DÜRMEXʹ** (Şəki) – bağlama, boğca. – *Qoltuğunda bi dürmexʹ şeynən getdi.*

**DÜRMƏXʹ** (Cəbrayıl, Çənbərək, Gəncə, Qazax, Mingəçevir, Naxçıvan, Oğuz, Şəmkir, Şərur) – arasına yağ və ya pendir qoyulmuş çörək, yuxa. – *Əpbəyin arasında yağ olsa, pendir olsa, ona dürməxʹ de:rixʹ* (Qazax); – *Ana, o dürməxʹdən birini də maŋa ver* (Şəmkir); – *Ə:, dürməyi yaxşı tut dana, içinin yağı tökülər* (Cəbrayıl); – *Arvatdan dürməy alıb yedim* (Şərur); – *Mənə bir pənir dürməyi ver* (Naxçıvan); – *İkijə dürməxʹ ye:f Qara bü:n, ajdımı görən* (Çənbərək).

**DÜRMƏXʹLƏMƏXʹ** (Gəncə, Naxçıvan) – dürmək düzəltmək. – *Əcəb təzə pənirdi, bir-iki tikə dürməxʹlə* (Naxçıvan).

**DÜRMƏK** (İmişli) – bağlamaq, düyünləmək. – *Mı:y bırdan dür, açılmasun.*

**DÜRMƏLƏMƏXʹ** (İmişli, Oğuz, Şəki) – bükmək, qatlamaq. – *Otu dürmələ doldur buxariyə, küləxʹ girməsin;* – *Kağızı dürmələ götü;* – *Arvad gərəxʹ tezzən balağın dürməliyə, inəyin sağa* (İmişli).

**DÜRRƏXʹ** I (Qarakilsə, Naxçıvan) – b a x **dürəxʹ.** – *İtī:z də:sən dürrəxʹdi* (Qarakilsə); – *Dürrəxʹ Alqulu də:llər ona* (Naxçıvan).

**DÜRRƏXʹ** II (Naxçıvan) – arıq.

**DÜRRÜ** (Tovuz) – məhsuldar, bol məhsullu. – *Hələlixʹdə bizim bağdan dürrü bağ yoxdu.*

**DÜRYƏ** (Ordubad) – baş örtüyü. – *Bizdə başa örtülən şeyə düryə deyillər.*

**DÜSƏR** (Ağdam, Ağdaş, Qarakilsə, Laçın) – külüng. – *Qulu, o düsəri burə:ti* (Ağdam).

**DÜSƏRİ** (Bakı) – hər iki tərəfi iti mismar, mıx. – *Çöregçilərçün iki dana teknə qayrəcegdüg, düşəriçün uşağ göndərdim, tapbadı.*

**DÜŞ** (Zaqatala) – yuxu, röya. – *Axşam bir yaxşı düş gördüm.*

**DÜŞBALAN** (Gəncə, Oğuz) – bax **duşbalan.** – *Aşı kəpgirnən qazannan alıb düşbalana tökürüx′* (Oğuz).

**DÜŞBƏRƏXUR** (Bakı) – qulplu uzun dərin qab (sulu xörək üçün). – *Düşbərəxuri tez ol gəti, qonağlar acınnan qırıldı.*

**DÜŞDÜK** (Göyçay) – yüngülxasiyyət.

**DÜŞƏLGƏ** (Şəki) – hədiyyə.

**DÜŞƏR** (Qazax) – əməkgününə düşən pay. – *Bıldır mənim düşərim çoxuydu.*

**DÜŞGÜNNƏMƏX′** (Naxçıvan) – 1. zəifləmək, əldən düşmək, qocalıb əldən düşmək. – *Yatalax yazığı yaman düşgünnədi;* 2. yoxsullaşmaq, kasıblamaq. – *O cürə fərəsətsiz oğul ki sənin var, onnan da betər düşgünnər.*

**DÜŞİX′** (Şəki) – pinti, səliqəsiz. – *Düşiy adam hər yerdə bilinər.*

**DÜŞMƏ** (Ağdaş) – azmış, sahibsiz (heyvan). – *Bizdə bir düşmə kəl var.*

**DÜŞMƏL** (Göyçay) – aşpaz.

**DÜŞÜH** (Naxçıvan) – vaxtı tamam olmamış, yarımcaq salınan uşaq. – *Leylanın uşağı da düşühdü.*

**DÜŞÜK** (Cəbrayıl, Kürdəmir, Mingəçevir, Ucar) – yersiz söz danışan, yüngülxasiyyət. – *Adam gərək düşük olmasın* (Kürdəmir); – *Əkbər düşüy uşaxdı* (Ucar); – *Onnan ağıl umursan, düşükdü dana* (Cəbrayıl).

**DÜŞÜNÜŞMAX** (Şəki) – uyğun gəlmək, yaramaq. – *Məsəl, diyirəm, habı haçar ho qufula düşünüşür.*

**DÜTDÜLÜM** (Zaqatala) – bax **dəpbülüm.** – *O adam nə dütdülümdü?*

**DÜTDÜLÜMLÜK** (Zaqatala) – yüngülxasiyyətlilik. – *Mən o adamın dütdülümlüyün görürəm.*

**DÜVƏLƏX′** (Naxçıvan) – əyri xiyar.

**DÜY** (Oğuz) – bax **duy.** – *Düysən, heş bir şey başa düşmürsən.*

**DÜYDÜ I** (Ağcabədi, Bolnisi) – 1. baltanın küpü (Ağcabədi). – *Odun yaranda pazı balta:n düydüsüynən vururux;* 2. çəkic (Bolnisi).

**DÜYDÜ II** (Bərdə) – fəqərə sütunu. – *Düydünə bir ağaş vurram, yıxılarsan.*

**DÜYDÜ III** (Çənbərək) – yaylıq, çalma. – *Başına bir düydü bağlıyıfsan, heş bilmirsən həncəri yaraşır.*

**DÜYMƏ I** (İrəvan) – cəftə keçirilən halqa. – *Ay usta, bizim sandığa bir düymə çal.*

**DÜYMƏ II** (Bərdə) – başı yumru mıx. – *Bazara gedirsən, bir az düymə al.*

**DÜYMƏKEÇƏN** (Qazax) – ilmək. – *Köynəyin düyməkeçəni xırdo:lar.*

**DÜYMƏNC** (Basarkeçər) – bax **döğmənc.** – *Savahnan düymənc yeəndə adam gej ajır.*

**DÜYÜD** (Ordubad) – üzəri tor kimi nöqtəli baş yaylığı. – *Şəmil Fatmıya bir düyüd aldı.*

**DÜZA** (Qafan) – sapa düzülmüş qoz ləpəsi. – *Mənim iki düzam var.*

**DÜZBİRİMƏ** (Meğri) – birbaşa, düz. – *Atdar geder otder, düzbirimə qayıder, gəler tövliyə.*

**DÜZDƏMƏX′** (Şəmkir) – əkinləri ayaqlayıb tələf etmək, korlamaq. – *Ziyankarın yurdu küllü-küf olsun, bi:l bosdanımı düzdədi, məni borşdu saldı.*

**DÜZDƏMMƏX′** (Qazax) – qırılmaq, tələf olmaq, məhv olmaq. – *Səni görüm düzdənəsəŋ.*

**DÜZƏĞİ** (Göyçay) – gəlin ilk dəfə ata evinə qonaq gedərkən valideynləri tərəfindən verilən hədiyyə.

**DÜZƏN** (Başkeçid, Borçalı) – zərərsiz (adam). – *Səlimxan düzən adamdı* (Borçalı).

**DÜZƏNGİ** (Tovuz) – açıq yer, düzəngah, çöl. – *Düzəngidə taxıl yaxşı pitir.*

**DÜZƏTAYI** (Tərtər) – düzünə, düz. – *Əhmət düzətayı adamdi;* – *Əhbər düzətayı danışır.*

**DÜZMƏ** (Quba) – sapa düzülmüş qax. – *Qısa düzmə hazırra.*

**DÜZƏNQULİ** (Ağdam, Bakı, Şamaxı) – düz, açıq. – *Nə eşidifsı:z, düznəquli deyin* (Ağdam).

# Ee

**ECƏŞMƏX′** (Qarakilsə) – b a x **ejəşməx′.**

**ECGAHAN** (Bakı) – b a x **ejga:n.**

**ECİR** (Zəngilan) – əzab, əziyyət. – *Allax ecirĩ: artısın.*

**EDİLƏMƏX′** (Basarkeçər) – deyinmək.

**EDİNLƏŞMƏX′** (Cəbrayıl, Zəngilan) – sözləşmək, deyişmək. – *Sə:rdən bəri nə ediləşirsĩ:z, tay qutarmıyassĩ:z?* (Cəbrayıl).

**EĞDİRMƏX′** (Gədəbəy) – b a x **evdirməx′.**

**EĞİNTİ** (Gədəbəy) – heyvanın öz balası üçün döşündə qısıb saxladığı süd. – *A:z, o eğinti: mağə:ti, qatem südə pişrem.*

**EĞMƏ** (Gədəbəy) – tuluq. – *Eğmədəqi şor na xarta olu, ay arvad.*

**EĞMƏMMƏX′** (Gədəbəy) – qorxmaq, ehtiyat etmək. – *Nədən eğməneysiŋ, oğul, heş zad yoxdu orda.*

**EHNAZ: EHNAZ OLMAX** (Salyan) – nasazlamaq. – *Əliyağa, diyəsən, ehnaz olub.*

**EHRAM** (Oğuz) – şərf.

**E:İNTİ** (Qazax) – b a x **eğinti.** – *Dünənnəri maral inəyin e:intisini işdim, gözdərimə işıx gəldi.*

**EJƏŞMƏX′** (Ağdam, Şuşa) – mübahisə etmək. – *Niyə ejəşirsiŋiz, ə:, ta: bəs döymü?* (Ağdam); – *Axşamatan peşəsi mənnən ejəşməx′di, ayrı işi-zadı yoxdu gədənin* (Şuşa).

**EJGAHAN** (Gədəbəy, Qazax) – b a x **ejgan.** – *Ejgahan olanda deyeydiŋ, munu maŋa dana!* – *Ejgahan vaxdı gəl* (Qazax); – *Mən saŋa ejgahan vaxt hardan tapem kın, qutarasaŋ onu* (Gədəbəy).

**EJGAHANNIĞ** (İsmayıllı) – b a x **ejga:nnıx.**

**EJGAHANNIX** (Gədəbəy) – b a x **ejga:nnıx.** ◊ **Ejgahannığa çıxmaq** – asudəliyə çıxmaq. – *Elə ki, ejgahannığa çıxdı, işim düzəldi;* – *Sən ejgahannıxdan dəm vuroysuŋ, nə:zey məndə vax.*

**EJGAN** (Oğuz) – işsiz, boş, bikar.

**EJGA:N** (Gədəbəy, Qax, Mingəçevir, Şəki) – b a x **ejgan.** – *Ejga:n adamsan, get gəti* (Qax); – *Bir ejga:n vaxtdə:lərsiŋ, gaflaşarıx, indi incimə:nən çöle:dirəm* (Gədəbəy); – *Həblə ejga:n oturax? İşdəmax lazımdı* (Şəki).

**EJGA:NNIX** (Gədəbəy, Şəki) – asudəlik, işsizlik, bikarçılıq. – *Ejga:nnıxda hər işi iras tutmağ olar* (Gədəbəy); – *Ejga:nnıxdı hələ ki* (Şəki).

**EJGƏHİN** (Zaqatala) – b a x **ejga:n.**

**EJİLƏMƏX′** (Borçalı) – b a x **ediləməx′.** – *Bu xartan çox ejiliyif baş-beynimi töx′mə.*

**EJİR** (Gədəbəy, Qazax) – dərd, qəm, kədər. – *Heç işdahım yoxdu, elə munu da canımın ejirinnən yi:rəm* (Qazax); – *Ejiriŋnen ölöyrüm, yatammeyrım zavahtannan, elə hey tasalaneyrım* (Gədəbəy).

**EJLİTMƏX′** (Çənbərək) – sakitləşdirmək. – *Bu çağıyı ejlit, əŋər-çiŋər yoxkan sənəyi doldurum;* – *Ana, uşağı ejlit, suyeydim gəlim.*

**EKƏS** (Salyan) – yaşlı. – *Asyə:n qızı öyün işdərin ekəs arvaddar kimi aparır.*

**EKİZTAYI** (Ağcabədi, Tərtər) – əkiz doğulmuş uşaqlardan hər biri. – *Xuduş ekiztaydı* (Ağcabədi).

**ELAT** (Ağdam) – köçəri.

**ELÇAR** (Zaqatala) – heyva mürəbbəsi. – *Ləzətdi elçar döyülmü?*

**ELÇARİ** (Ağsu) – hamısı. – *Bizim kəndin elçari belə danışır.*

**ELÇİPİLOV** (Lənkəran) – toydan bir neçə gün sonra oğlan evindən qız evinə göndərilən plov.

**ELƏNÇİG** (Bakı, İmişli, Kürdəmir) – elə. – *Elənçig işə qol qoymağ olmaz* (Kürdəmir); – *Elənçig adamnan yoldaş olma* (İmişli).

**ELƏT** (Bakı) – b a x **elat.**

**ELİX′** (Zəngibasar) – yaxşılıq. – *Eybi yoxdu, eli: itirən bəlasın bulacaxdı.*

**ELKÖŞDÜ** (Ağdərə) – uşaq oyunu adı.

**ELLƏMƏX′** (Qazax) – qaldırmaq.

**ELLİG** (Cəlilabad, Göyçay) – b a x **elliy.** – *Də:nə yaxın saçax ellig qaralır* (Göyçay).

**ELLİGHARAY** (Sabirabad) – hamı, hamı birdən, böyükdən kiçiyə qədər.

**ELLİK** I (Salyan) – bütünlüklə, tamamilə. – *Bağımızın elligin yığasan, on eşig <yeşik> üzüm olmaz.*

**ELLİK** II (Salyan) – el. – *Onı elligə, cama:tdığa qurban elədim.*

**ELLİY** (Kürdəmir) – hamı, hamısı. – *Uşaxlar elliyi çayın qırağına yığılıblar;* – *Uşağın elliyi dərsi bilir.*

**ELMDAR** (Cəlilabad, İmişli) – bilikli. – *Mirzə Qulamalı çox elmdardı* (İmişli).

**ELTİ** (Ağdam, Ağdaş, Ağdərə, Borçalı, Dəvəçi, Goranboy, Göyçay, İmişli, Kürdəmir, Quba, Qax, Qazax, Mingəçevir, Tərtər, Şəki, Ucar) – iki qardaşın arvadları. – *İki qardaş evlənəndə olların arvatdarı bir-birinin eltisi olur* (Ağdam). – *Yaxşı elti bajı kimi olor* (Borçalı); – *Axşam eltimgilə toya getmişdim* (Qazax); – *Qəcəm də diyərux, elti də* (Qax); – *Züleyxanın eltisi yaman xoşxasiyyətdi* (Göyçay); – *Eltisi gəlif, umküsü eləmiycax hindi?* (Şəki).

**E:MALÇI** (Culfa, Zəngilan) – süddən müxtəlif ağartı növləri hazırlayan qadın. – *E:malçı fermədə işdəyən qadına də:rıx* (Zəngilan).

**EMİL** (Lerik) – həlim, xoşxasiyyət.

**EMİN** (Salyan) – b a x **emil.** – *Mahirin bir oğlu var, çox emin uşağdı.*

**EMİNNİGÖZÜ** (Ucar) – yarpaqları turp yarpağına oxşayan yeməli, yabanı bitki adı. – *Eminnigözü do:ğaya tökürük.*

**EN** (Qazax, Meğri) – qaramalın qulağına vurulan damğa. – *Malın qulağına en vurallar kin, tapılsın* (Qazax) – *Bayrış ə:m <əmim> deyirdi ki, keçinin qulağında en var* (Meğri).

**ENCƏ** (Lerik) – gəvən adlanan tikanlı yabanı bitkini yerdən çəkib çıxarmaq üçün ağac alət. – *Encəsiz gəvən çəkmək olmaz.*

**ENDİRMƏXʹ** (Qazax) – hörmət etmək, saymaq. – *Sən ha vax məni endirersəŋ?*

**E:NİNƏ** (Zəngibasar) – vecinə. – *Nəqqa:r de:rəm, heş mu:n e:ninə də də:l.*

**ENNƏNMƏK** (Kürdəmir) – lovğalanmaq. – *Bizim bı Abbas yaman ennənir, balam.*

**ENNİQULAX** (Cəbrayıl) – enliyarpaqlı yeməli yabanı bitki adı. – *Enniqulaxdan yaxşı dovğa bişirməxʹ olar.*

**ENNİYARPAX** (Şəmkir) – iri damcılı yağış. – *Enniyarpağa tüşən adamın bircə yeri də quru qalmır, isdanır hər yeri.*

**EPBEXʹ** (Şəki) – çörək. – *Bi dəfiyə üç epbexʹ yiyən vaxdım olufdu.*

**EPEY** (Zəngibasar) – çox, xeyli. – *İcilasa epey adam gəlmişdi.*

**ER** (Ağdam, Bərdə, Şuşa, Tərtər) – tez, tezdən. – *Bir az er gəlseydin, tapardın onu* (Ağdam); – *Er dur ku, vaxdında çatasan* (Bərdə).

**ERAĞAŞ** (Cəbrayıl) – faraş. – *Taxıl erağaşdı, bir həfdiyə bişməy olar.*

**ERAXA** (Lənkəran) – key, gic.

**ERƏVANƏPPƏYİ** (Basarkeçər) – vəzəriyə bənzər bitki adı. – *Qızım, get bir az erəvanəppəyi yığ gəti, ayranaşı pişirəxʹ.*

**ERGƏC** (Salyan) – b a x **erkəc.**

**ERKƏÇ** (Culfa, Kürdəmir, Qarakilsə, Qazax, Ordubad, Tovuz) – sürünün qabağını çəkən yaşlı erkək keçi. – *Erkəçi sür qaba:, sürünün qaba:ın çəxʹsin* (Ordubad).

**ERKƏŞ** (Culfa, Ağdam, Ordubad) – b a x **erkəc.** – *Ə:, niyə vuruf o erkəşin buynuzun qırmısan?* (Ağdam).

**ERTİ** (Tovuz) – b a x **elti.** – *Xacca mənim ertimdi.*

**ERVƏTİ** (Qazax) – səliqəsiz, başdansovdu. – *Ervəti iş görörsəŋ, beləmi bəliyellər çağayı? İndidən açılıf tökülör.*

**ERYAN** (Ağdərə) – uzun.

**ERYATI** (Çənbərək) – xarab, yararsız. – *Eryatı həjet olmasa yaxşıdı.*

**ERYƏTİ** I (Ağdam, Bərdə, Şuşa) – müvəqqəti. – *Elə eryəti qoymuşam ora, indi götürəjəm* (Ağdam); – *Mən burda eryəti adamam, sabah çıxıf gedəjəm* (Bərdə).

**ERYƏTİ** II (Ağdam, Bərdə, Gədəbəy, Şuşa) – b a x **ervəti.** – *Eryəti iş görməynən mənim aram yoxdu* (Ağdam); – *İş tutanda eryəti tutma:nan, ürəxʹdən tut* (Gədəbəy).

□ **Eryəti gəlməxʹ** (Şərur) – qəribə görünmək. – *Kənardan baxana eryəti gə:r.*

**EŞGAR** (Zəngilan) – şübhəsiz. – *Eşgar, bını Həsənalı eliyif.*

**EŞİXʹ** (Böyük Qarakilsə, Çənbərək, Naxçıvan, Oğuz, Tovuz, Zaqatala) – həyət. – *Gedirixʹ qonşunun eşiyində bir isdikən çay içirixʹ* (Oğuz); – *Ə:, o daneyi itələ sal eşiyə* (Çənbərək); – *Eşixʹdə bir sö:üx var kı, gəl görəsən* (Tovuz).

**EŞİNMƏXʹ** (İmişli) – lovğalanmaq. – *Eşinmə, a bala, bəlkə mən səni dö:ərəm.*

**EŞMAX** (Qax) – qazmaq. – *Yolun qırağını eşip qobı salıllar, sel gələndə hordan əxsin <axsın>.*

**EŞMƏ** I (Cəlilabad) – bulaq. – *Su gəzeymişdər, göreylər bi eşmə var, içeylər su.*

**EŞMƏ** II (Salyan) – suyun altında üzmənin bir növü. – *Uşağlığda əvvəlcə üzməçiliyi öyrəndim, so:ra eşməni.*

**EŞMƏX′** (Kəlbəcər) – qolsuz, bəzəkli qadın geyimi adı. – *Qızyetər xalanın eşməyi çox qəşəx′di.*

**EŞŞƏX′** I (Ordubad) – b a x **eşix′.**

**EŞŞƏX′** II (Basarkeçər, Qazax) – kotanın bir hissəsi. – *Kotanın ucu eşşəx′dən çıxanda yaxşı əhməz yeri* (Qazax).

**EŞŞƏX′** III (Gədəbəy, Göyçay, Şuşa, Tovuz) – qarğıdalı cecəsi. – *Qarğıdalı kin yeyley, sonra eşşəyi qaley* (Gədəbəy); – *Bu eşşəx′ləru uzağa atammazdın, buraları zibilədin?* (Göyçay); – *Qarğudalını ye:if, eşşəyin da qoyuf burda* (Şuşa).

**EŞŞƏX′** IV (Ağdam, Çənbərək, Ordubad, Şuşa, Zəngilan) – əlçatmaz yerdə işləmək üçün bənnaların, rəngsazların istifadə etdiyi taxtadan hazırlanmış qurğu. – *Eşşəx′ olmasa difarın üsdün hörə bilmərəm* (Ağdam); – *Hündür eşşəx′ gəti, isgələ başdıyax* (Çənbərək); – *Usda, gəlsənə eşşəyi birəz o tərəfə çəkəx′* (Şuşa); – *Qabaxca eşşəx′ düzəldəx′, so:ra işə başdıyax* (Zəngilan).

☐ **Eşşəx sütdüyanı** (Mingəçevir) – yabanı bitki adı.

**EŞŞƏYOTU** (Şuşa) – yabanı bitki adı. – *Eşşəyotu de:illər kin, eşşəx′ onu çox yeər.*

**ETEBELE** (Bakı) – təəccüblü. – *Munun işi lap etebeledü, a!*

**EVDAX** (Cəbrayıl) – dolu, bol. – *Biyil ağacımız almıynan evdaxdı.*

**EVDİMƏX′** (Cəbrayıl) – sağımdan qabaq heyvanın əmcəklərini sığallamaq və ya buzova azacıq əmdirmək.

**EVDİRMƏX′** (Qarakilsə) – 1. dənləmək. – *Toyuxlar dəni bir-bir evdirir;* 2. seçib yığmaq. – *Nənəxanım kəfşəndə başax evdirir.*

**EY** (Borçalı, Kürdəmir, Qazax) – yaxşı. – *Mənim kefim eydi* (Qazax); – *Bu ki yap eydi* (Kürdəmir); – *Sizdən ey olmasın, Məhəmməd mənim yaxın dosdumdu* (Borçalı); – *Sənin işin saf ey oldu* (Qazax).

**EYCAHAN** (Əli Bayramlı, Kürdəmir, Sabirabad, Salyan) – işsiz, boş, bikar, asudə. – *İskan eycahansa, birin ver* (Sabirabad); – *Eycahan gəzir* (Kürdəmir).

**EYCAHAN-EYCAHAN** (Kürdəmir) – boş-boş, işsiz – *Eycahan-eycahan gəzif dolanmaxdan nə çıxar.*

**EYDƏŞ-ÜYDƏŞ** (Şəki) – əyri-üyrü. – *Eydəş-üydəş şeyləri hardan aldıŋ?*

**EYDİRMƏX′** (Ağcabədi, Ağdam, Borçalı, Göyçay, Kürdəmir, Qazax, Mingəçevir, Şəmkir, Zəngilan) – b a x **evdiməx′.** – *Qoyunun məmələrini eydirəsəŋ gərəx′, o da xoşallana, südünü verə* (Ağcabədi); – *İnəyin döşünü eydirməsəŋ, südünü verməz* (Borçalı); – *İnəyin balasın bırax, eydirsin, gəlim sağım* (Zəngilan).

**EYGİLİX′** (Cəbrayıl, Meğri) – azadlıq, asudəlik, sakitlik. – *Yeri, bir eygilix′də:lərsəŋ* (Cəbrayıl). ◊ **Eygiliyə çıxmax** (Meğri) – azadlığa çıxmaq, asudəliyə çıxmaq. – *Biz bolşevix′ gələnnən so:ra eygiliyə çıxdıx.*

**EYHANA** (Meğri, Zəngilan) – bəlkə. – *Eyhana getdim tapayilmədim, onda nejo:lsun?* (Zəngilan); – *Eyhana, işdi dəy, man galammaram, unda bizim uşaxlari də keçi yaylağa* (Meğri).

**EYHANƏ** (Lənkəran) – b a x **eyhana.**

**EYİN-ŞAYIN** (Zəngibasar) – açıq-aşkar. – *Eyin-şayın məni yallatdı* (*aldatdı*).

**EYİNTİ** (Gədəbəy) – b a x **eğinti.** – *Eyinti buzoydan, kalçadan salınan südə de:irix′.*

**EYLƏ** (Cəlilabad) – o qədər. – *Eylə üzimi hardan tapeysən*

**EYLƏTMAX** (Şəki) – saxlamaq, gecikdirmək.

**EYLİ** (Salyan) – başqa, qeyri. – *Eyli vaxt olseydi, gə:də <yenə də> dimməzzim.*

**EYMANA-EYMANA** (Qax) – fikirləşə-fikirləşə.

**EYMƏ** (Ağcabədi, Basarkeçər, Borçalı, Gədəbəy, Goranboy, Kürdəmir, Qazax, Mingəçevir, Ucar, Zərdab) – b a x **eğmə.** – *Eymənin şoru qufquro:lor, əmə motalınkı yox* (Gədəbəy); – *Eymədə qatıx saxlanır* (Ağcabədi); – *Ağartıyı eyməyə yığırıx yaxşı qalır* (Basarkeçər); – *Eymə, ya tejən bir sözdü* (Qazax); – *A kişi, birəz eymədən pendir gəti* (Goranboy); – *Şoru eyməyə yığajam* (Ucar).

**EYMƏLƏMMƏX′** (Kürdəmir, Cəbrayıl) – genişlənmək, genəlmək. – *Ayaqqabı eymələnib, ayağımda durmur* (Kürdəmir).

**EYMƏMMƏX′** (Ağbaba, Borçalı, Cəbrayıl, Gədəbəy, Qazax, Mingəçevir, Oğuz, Tovuz) – qorxmaq, ehtiyat etmək. – *Adam qarannıxda eymənər* (Qazax); – *Eyməmməx′ oğula yaraşan iş döy heç* (Gədəbəy); – *Tək adam evdə eymənir* (Ağbaba); – *Yaman qarıdı, heş kəsdən eymənmer Güllü* (Qazax); – *Beyjə gəlerdim məytəf tərəfdən, əmmə yaman eyməndim* (Borçalı); – *Elə qarannıxdı kın, adam eşiyə çığmağa eymənir* (Tovuz).

**EYMƏOTU** (Qax) – şüyüd.

**EYNƏ** (Füzuli) – 1. dəfə; 2. vaxt.

**EYNİHUT** (Salyan) – eynilə. – *Eynihut atasına oxşıyir.*

**EYNİMƏX′** I (Ağdam, Laçın, Şuşa) – b a x **aynımax.** – *Nənəm çox pisidi, indi yavaş-yavaş eyniyir* (Ağdam); – *Yaram indi eyniyir hələ, də:sən yaxşı olur* (Laçın).

**EYNİMƏX′** II (Çənbərək, Meğri, Oğuz) – böyümək, boy atmaq, inkişaf etmək. – *Qartof yenijə eyniyif* (Çənbərək); – *Ernəzirdə qoymulla ki, gilas ağaşdarı eynisin, qırılla, koruyulla* (Meğri).

**EYZAN** I (Füzuli, Mingəçevir, Zərdab) – həmişə, daima. – *Bu işi eyzan sən görürsən* (Füzuli); – *Çətin işə eyzan məni buyurursan* (Zərdab).

**EYZAN** II (Ağdam, Bərdə, Cəlilabad, Gədəbəy, Xocavənd, Kürdəmir, Qazax, Salyan) – tamamilə, bütünlüklə, başdan-başa. – *Bıra eyzan güllüx′dü* (Qazax); – *Eyzan dədəsinoxşo:r <dədəsinə oxşayır> o gədə* (Gədəbəy); – *Eyzan gül-çiçəkdi bizim bağlar* (Kürdəmir).

**EYZƏN** I (Bakı) – b a x **eyzan** I.

**EYZƏN** II (Astara, Bakı, Lənkəran) – b a x **eyzan** II. – *Hara baxırsan eyzən ağajdığdu* (Bakı).

# Əə

**Ə:AXLI** (Gədəbəy, Xanlar) – b a x **ayaxlı.** – *Ə:axlıyı ma:yəti <mənə gətir> ordan, yayem bu kündələri* (Gədəbəy).

**Ə:ALĞA** (Gədəbəy) – b a x **ayalğa.** – *Uşağa ə:alğa qoyma:ŋ, peşman olarsıŋız sonralar.*

**ƏBCƏMƏX′** (Şərur) – toxumu qabıqdan çıxarmaq.

**ƏBDAL** (Qax) – qanacaqsız, qanmaz. – *Allah vuran əbdaldı, xayrını, zaralını bilmiy.*

**ƏBƏ** I (Lənkəran) – b a x **aba** II.

**ƏBƏ** II (Zəngilan) – b a x **aba** I.

**ƏBƏ** III (Böyük Qarakilsə) – nənə.

**ƏBƏ** IV (Meğri, Yardımlı) – çilingağac oyununda yerdə qazılan kiçik çuxur, oyunun başlandığı mərkəz. – *Çilix′ azcə qalmişdi düşsin əbəyə, ancax yan getdi* (Meğri).

**ƏBƏ** V (Yardımlı) – yuva.

**ƏBƏÇİ** (Cəlilabad, Lerik, Yardımlı, İmişli, Sabirabad, Zəngilan) – mama, mamaça. – *Əbəçi oley beysavad, doxdır olanda deyeylər mama* (Cəlilabad).

**ƏBƏDİMƏG** I (Göyçay, Kürdəmir, Salyan) – arxası üstə yıxılmaq. – *Mal əbədiyib, oqqədər çırpınıb ki, bağrı çatdıyıb* (Salyan).

**ƏBƏDİMƏG** II (Biləsuvar) – ölmək. – *Bir yekə çöngəmiz əbədiyib.*

**ƏBƏDİMƏX′** (Zəngibasar) – b a x **əbədiməg** I.

**ƏBƏNQƏŞ** (Ordubad) – namussuz, biqeyrət, həyasız. – *Ədə, sən nə əbənqəş adamsan, mən sə: umud oldum.*

**ƏBLAĞ** (Lənkəran) – ala-bula (at). – *Bi əblağ atı var onun.*

**ƏBLƏBİÇ** (Qax) – soxulcan.

**ƏBLƏĞ** (Lənkəran) – b a x **əblağ.**

**ƏBLƏSÖ:ÜN** (Lənkəran) – sevincək, sevinə-sevinə.

**ƏBRƏ** (Qax) – arba, içərisində müəyyən bir şey olan qabın boş çəkisi.

**ƏBRƏŞ** (Cəbrayıl, Salyan, Yardımlı, Kürdəmir, Şəki) – təpəl, başında ağ xalı olan (heyvan). – *Bi sarı əbrəş qoyunum var* (Kürdəmir); – *Əbrəş qoyunumuz iki gündü itib* (Cəbrayıl); – *Əbrəş qoyun tayın görüm; qumral qoyun tayın görüm; Həblə-həblə sayırdıx* (Şəki).

**ƏBRƏVAN** (Salyan) – tənzif. – *Qadınnarın başında əbrəvan vardı.*

**ƏBRİMÜŞ** (Şəki) – qovaq ağacının bir növü.

**ƏBRİŞİM** (Ağdaş, Kürdəmir, Göyçay) – b a x **əbrimüş.** – *Bizim tərəflərdə əbrişim çox olur* (Kürdəmir).

**ƏBRU:S** (Cəlilabad) – geyim. – *Mənüm əbru:sum yoxdi, mənə bir dəs paltar ver.*

**ƏBRUŞUM** (Mingəçevir) – b a x **əbrimüş.**

**ƏBŞƏLƏ** (Bakı) – şərbət. – *Uşağı göndərün əbşələ paylamağa.*

**ƏBÜR** (Yardımlı) – allergiya. – *Üzi tamam əbur olub.*

**ƏCAZ** I (Naxçıvan) – əcaib.

**ƏCAZ** II (Qarakilsə) – kələkbaz, bic.

**ƏCCƏ** I (Salyan) – key (adam).

**ƏCCƏ** II (Yardımlı) – yumurtadan təzə çıxmış cücə və ya sərçə balası.

**ƏCCƏBALA** I (Bakı) – körpə.

**ƏCCƏBALA** II (Salyan) – çılpaq, lüt. – *Uşağı qoyma bı so:ğda əccəbala hə:tdə oynuya.*

**ƏCCƏMƏÇƏK** (Sabirabad) – çılpaq, lüt.

**ƏCƏBSƏNDƏL** (Gəncə, Mingəçevir) – badımcan, kartof və pamidordan hazırlanan xörək növü.

**ƏCƏLƏ-CÜCƏLƏ** (Meğri) – birdən, qəflətən. – *Gördüx′ bir əlix′ əcələ-cücələ gəlir bizə tərəf.*

**ƏCƏMİ** (Basarkeçər) – çarıq növü.

**ƏCGAHAN** (Cəlilabad) – b a x **ejga:n.** – *Əcgahan gəzmə.*

**ƏCİNNƏ** (Salyan) – körpə, kiçik uşaq. – *Gəlin əcinnələrin atıb üə <evə> toya gedib.*

**ƏCİX′** (Basarkeçər) – zəif. – *Qomral qoyunun balası çox əcix′di.*

**ƏCİŞ-MƏCİŞ** (Mingəçevir) – bic, kələkbaz.

**ƏCRAN** (Ordubad) – damın kənarları. – *Ev damının əcrannarın düzəltdim.*

**ƏÇƏÇƏ** (Ağbaba) – ağıldankəm.

**ƏÇƏÇİ** (Ağbaba) – b a x **əçəçə.**

**ƏDƏ** (Qax) – ana.

**ƏDƏLİ-DƏDƏLİ** (Salyan, Yardımlı) – b a x **ədəli-düdəli.**

**ƏDƏLİ-DÜDƏLİ** (Ağdam, Bərdə, Şuşa) – əməlli-başlı, hər şeyi öz qaydasında olan. – *Ömründə sənin bir ədəli-düdəli iş gördü:ŋü görməmişəm* (Ağdam); – *Ə:, ədəli-düdəli toy elə apar eviŋə, qoy elin adəti nejədi heylə olsun* (Şuşa).

**ƏDİLLİBƏNDƏ** (Salyan) – heç vaxt, qətiyyən. – *Nənəm əynimə ədilli bəndə qırmızı paltar geyməzdi.*

**ƏDİLİ-DÜDÜLÜ** (Qazax) – b a x **ədəli-düdəli.** – *Yaxşı toy elədi ədili-düdülü.*

**ƏDLAP** (Gədəbəy) – nişanə, əlamət. – *Də:siŋ, nənəmin qırçılığı xörə:in dadını azaldıf xeylax, görmöysünmü, yağ ədlapı yoxdu, aşqarcığazdı eləjə.*

**ƏDNƏ** (Bakı) – yaxşılıq edib sonradan başa qaxan.

**ƏFCİ** I (Basarkeçər, Borçalı, Gədəbəy, Hamamlı, Xocavənd, Qazax, Tovuz) – 1. qadın işinə qarışan kişi (Basarkeçər). – *Qadınnarın işinə qarışan kişiyə əfci de:rix'*; 2. xırdaçı, çürükçü (Borçalı, Gədəbəy, Qazax). – *Əfci yaramaz sözdər danışer, bekara sözdər danışer* (Borçalı); – *Yaman əfcisən ha* (Qazax); – *Nəbi yaman əfci kişidi;* – *İrəşit yaman əfcidi, hər şeyə qarışar öydə* (Gədəbəy).

**ƏFCİ** II (Mingəçevir) – xəbərçi, sözgəzdirən.

**ƏFCİ-ƏFCİ: ƏFCİ-ƏFCİ DANIŞMAX** (Çənbərək, Gədəbəy, Qazax) – boş-boş, mənasız danışmaq. – *Əfci-əfci danışer* (Qazax); – *Sarıxa həmməşə aralıxlarda əfci-əfci danışar* (Çənbərək). – *Əfci-əfci danışma, yaxşı danış* (Gədəbəy).

**ƏFƏNƏSALMA** (Gədəbəy) – uşaq oyunu adı. – *Əfənəsalma çiliyağaş kimidi.*

**ƏFƏRDƏ** (Ağbaba, Basarkeçər, Cəbrayıl) – güc, qüvvə, taqət. – *Öküzün əfərdəsi qalmıyıf ki, kotanı çəkə* (Basarkeçər). ◊ **Əfərdəsi kəsilmək** (Ağbaba) – taqətdən, gücdən düşmək. – *Səni gözdəməx'dən əfərdəm kəsilif.*

**ƏFGƏLƏMƏX'** (Şərur) – ovxalamaq.

**ƏFİL-ƏFİL: ƏFİL-ƏFİL ƏSMƏK** (Oğuz, Salyan) – tir-tir əsmək. – *Soyuqdan əfil-əfil əsirdim* (Oğuz).

**ƏFRİMƏX'** I (Çənbərək) – islanmaq. – *Bü:n daldaylığ olmadı deyin, yağışdan əfridix'.*

**ƏFRİMƏX'** II (Gədəbəy) – köhnəlib cırılmaq dərəcəsinə gəlmək, süzülmək. – *Əfri:f da: bu köynəx', bir də yüsəŋiz çıralajax eləjə.*

**ƏFRUZ** (Salyan) – hiyləgər. – *Əfruz adama qoşulson, başın bəla çəkər.*

**ƏFSƏMƏX'** (Qafan, Qarakilsə, Zəngilan) – hövsəmək. – *Götü bı bığdanı əfsə, qoy tükü-zadı gessin* (Qarakilsə).

**ƏFSİTMAX** (Meğri) – *məc.* qorxmaq. – *Hı dusdım, deyasan axı itdən əfsideysan?*

**ƏFŞƏLƏ** (Bakı) – b a x **əbşələ.**

**ƏGƏM** (Quba, Salyan, Yardımlı) – əgər. – *Əgəm axşama qeyitməsəm, şə:rdə qalacağam.*

**ƏGƏR** I (Salyan) – xəstəlik. – *Allah heç kəsi əgərə salmasın.*

**ƏGƏR** II (Salyan) – əskik. – *Gəlin köçən qızımın çox şeyləri əgərdi.*

**ƏGƏR-CİYƏR** (Çənbərək) – canlı məxluq, ins-cins. – *Dana dərəsinin yalına çıxmışdım, bir əgər-ciyər görmədim.*

**ƏGİRDƏG** (Salyan, Lerik, Yardımlı) – b a x **əydəx'.** – *Əgirdəgi qışda yiyillər* (Salyan).

**ƏGRİBEL** (Lənkəran) – kətmən.

**Ə:ĞALTİ** (Yardımlı) – pilləkən.

**Ə:ĞAŞDI** (Ağsu) – ayaqaçdı (ərə getmiş qızın toyundan sonra ilk dəfə atası evinə qonaq gəlməsi). – *Atası qızın aparmışdı ə:ğaşdıya.*

**ƏĞİ** (Meğri) – mağara, kaha. – *Bi yol mən qeyitdim əğiyə.*

**ƏGİRDƏYİŞ ELƏMƏG** (Lerik, Yardımlı) – dəyişmək. – *Dədəm ildə bir inəg əgirdəyiş eley* (Yardımlı).

**ƏGRƏMƏN** (Ordubad) – b a x **əqrəmən.** – *Yadımnan çıxıb əgrəmən tix'məmişəm tumanın ətəyinə;* – *Demişdim əgrəmən qoy tumanın ətəyinə, niyə qoymadın?*

**ƏHDAŞ** (Mingəçevir, Şəki) – alət. – *Əmi əhdaşdarı da özüynən apardı* (Şəki).

**ƏHDƏC** (Oğuz) – b a x **əhdaş.**

**ƏHDƏŞ** (Şəki) – b a x **əhdaş.**

**ƏHƏD: ƏHƏDİN KƏSMƏX'** (Şərur) – döymək, döyüb əldən salmaq. – *Qardaşdarım okki var əhədin kəsdi.*

**ƏHLƏNMƏX'** (Çənbərək) – qocalmaq. – *Dındılı Alı da əhlənif deyin uşağa əl verəmmir.*

**ƏHLİYƏT** (Meğri) – 1. himayə; 2. yardım.

**ƏHLİYƏTDİXʹ** (Meğri) – kömək, yardım. ◊ **Əhliyətdixʹ eləmax** – yardım etmək. – *Hökümət qocalara karrı əhliyətdixʹ eler.*

**ƏHNƏZDƏMƏXʹ** (Yevlax) – zəifləmək. – *Salman çox əhnəzdiyif.*

**ƏHNƏZDƏŞMƏY** (Cəlilabad) – b a x **əhnəzdəməxʹ.** – *Canım əhnəzdəşib.*

**ƏHRAM** (Quba) – qətfə.

**ƏHRAMİ** (Lənkəran) – b a x **əhram.**

**ƏHTƏC** (Oğuz) – b a x **əhdaş.**

**Ə:XLI** (Basarkeçər, Tovuz) – b a x **ayaxlı.**

**ƏXʹSİ** (Qarakilsə) – əsgi, köhnə parça.

**ƏXTİLAT** (Quba) – söhbət. – *Əxşamlar yığıladuğ bir yerə, əxtilat əliyəduğ.*

**ƏJDİM** (Qarakilsə, Salyan, Lənkəran) – çox duzlu, çox şor. – *Yimək olmır ki, əjdimdi* (Lənkəran); – *Çörəgi əjdim eləmisən ki* (Salyan).

**ƏJGEYİN** (Şəki) – işsiz, boş, asudə.

**ƏJNƏ** (Qarakilsə) – var-dövlət. – *Nə əjnələri vardı, yəhər bitəv qızıldı.*

**ƏJVƏL** (Ağcabədi, Ucar) – aciz, bacarıqsız. – *Hümbət əjvəl adamdı* (Ağcabədi); – *Əjvəl adam öy tikəmməz;* – *Əjvəl adam çox işdiyəmməz* (Ucar).

**ƏKABİR** (Bakı) – yaşlı.

**ƏKƏBÜKƏ** (Çənbərək) – böyük, yaşlı. – *Ballı qarı əkəbükə arvatdı, gənə də alaçatılığ eliyir.*

**ƏKƏC** (Bakı) – yaşlı, çoxbilmiş. – *Lap əkəc arvada oxşi:r.*

**ƏKƏC-ƏKƏC: ƏKƏC-ƏKƏC DANIŞMAĞ** (Lənkəran) – böyük-böyük, (lovğa-lovğa) danışmaq. – *Munun ağzın yumsana, gör nə əkəc-əkəc danışır.*

**ƏKƏLİXʹ** (Qazax, Salyan, Yardımlı) – böyüklük, ağsaqqallıq. ◊ **Əkəliy eləməxʹ** – böyüklük etmək, ağsaqqallıq etmək. – *Buna bax, bu balaja boyunnan əkəliy ele:r maŋa* (Qazax).

**ƏKƏMEMƏÇİ** (Bakı) – yabanı bitki adı.

**ƏKƏNƏCƏK** (Culfa) – əkin sahəsi, əkin yeri.

**ƏKƏNƏXʹ** (Qazax, Yardımlı) – əkin sahəsi, əkin yeri.

**ƏKƏPÜKƏ** (Qazax) – b a x **əkəbükə.** – *Əkəpükə arvassaŋ, ayıf döymü, niyə danışersaŋ elə sözü?*

**ƏKƏRAH** (Kürdəmir, Salyan) – əkin sahəsi, əkin üçün yararlı. – *Əkərah yerrəri güdürük, korlamıruğ* (Kürdəmir).

**ƏKƏRƏ** (Göyçay, İmişli, Oğuz, Tovuz) – b a x **əkərah.** – *Əkərə yerim azdı mə:n* (İmişli); – *Elə o əkərə yerdə işderəm;* – *O əkərə yeri bizim qalxoza versələr, yaxşı olar* (Tovuz).

**ƏKƏRRİ** I (Qarakilsə) – rahat əkilən yumşaq torpaqlı əkin sahəsi. – *Əkərri yer olanda bir çüt üş çüt yarım əkirdi.*

**ƏKƏRRİ** II (Şamaxı) – xəstə, zəif heyvan. – *Biyil əkərriləri qışdağa göndərdim.*

**ƏKƏŞDƏNMƏXʹ** (Zəngilan) – lovğalanmaq, özünü yaşlı adam kimi aparmaq. – *Səni afat aparsın, nə əkəşdənirsən.*

**ƏKMƏCIDIL** (Salyan) – uşaq oyunu adı. – *Əkməcıdılı bö:üg uşağlar oynü:r.*

**ƏKMƏXʹ** (Cəbrayıl) – basdırmaq. – *Qabaxcan tavlanın xırçəxʹlərin əkin.*

**ƏQƏLLƏM** (Şərur) – b a x **əqəllən.** – *Əqəlləm ışıx yansaydı, bir əz yazardım.*

**ƏQƏLLƏN** (Culfa) – heç olmazsa, barı. – *Kəvşənə getmişdin işdəməyə, əqəllən bir çöp qıraydın, qoyaydıx oçağa.*

**ƏQRƏMƏN** (Ordubad) – tumanın ətəyində olan haşiyə. – *Ay qız, tuma:n ətəyinə əqrəmən tik.*

**ƏL** I (Ucar) – təndir düzəltmək üçün dairəvi gil hissə. – *Beş-altı əl qoysan, təndir baş olar.*

**ƏL** II (Bakı, Salyan, Şamaxı, Şuşa) – tərəf. – *Oların öyləri sağ əldədi* (Şamaxı); – *Düz get, sora sol ələ dön, elə dönən kimi olların darvazasın görəjəxʹsən* (Şuşa).

**ƏL** III (Ağdam, Bakı, Bərdə, Salyan, Şuşa, Tərtər) – dəfə. – *İki əl mən getmişəm, bir əl də sən get, no:lar* (Ağdam); – *Paltarı hələ bir əl yumuşam* (Bakı); – *Bu əl mən gətirim, gələn əl sən* (Bərdə).

**ƏLAH-SALAH** (Cəbrayıl) – boş, bikar, işsiz, avara. – *Bü:yün uşaxlar əlah-salah qaldılar.*

**ƏLAMƏT** I (Qax, Yardımlı) – təəccüblü. – *Ne diyim, helə əlamət işlər olarmı?* (Qax).

**ƏLAMƏT** II (Salyan) – yaxşı, qəribə. – *Bu əlamət çitdi;* – *Sən yap əlamət adamsan.*

**ƏLARDAN** (Ağdaş, Füzuli) – 1. əl-üz dəsmalı; 2. qazan və s. tutmaq üçün dəsmal.

**ƏLBƏHƏ** (Zəngilan) – o saat, o dəqiqə. – *Ya:nda söz demişəm, əlbəhə cedif xəbər verif.*

**ƏLBƏHƏL** (Cəbrayıl, Yardımlı) – b a x **əlbəhə.**

**ƏLBƏHƏM** (Şərur, Şahbuz) – b a x **əlbəhə.** – *Əlbəhəm qəddimi əydi* (Şahbuz).

**ƏLBƏNDƏ** (Füzuli) – uşaq oyunu adı. – *Əlbəndə oynərdilər, iki adam tutar, o biriləri vırardı.*

**ƏLBƏSÖ:ÜN** (Cəlilabad, Kürdəmir, Salyan, Ucar) – acgöz, tamahkar. – *Babaş çox əlbəsö:ün uşaxdı; – Əlbəsö:ün adamın hürməti olmaz* (Salyan); – *Əlbəsö:ün Əhmət gənə əlbəsö:ünnüy eliyir* (Ucar).

**ƏLBƏSÖ:ÜN-ƏLBƏSÖ:ÜN** (Şamaxı) – acgözcəsinə, tamahkarcasına. – *Çörəyi əlbəsö:ün-əlbəsö:ün yeməzzər.*

**ƏLBƏSÖ:ÜNNÜY** (Ucar) – acgözlük, tamahkarlıq. ◊ **Əlbəsö:ünnüy eləməy** – acgözlük etmək, tamahkarlıq etmək. – *Az əlbəsö:ünnüy elə, ayıbdı.*

**ƏLBEŞİX′** (Gədəbəy) – meşəbəyi.

**ƏLBİLƏSƏN** (Çənbərək) – görəsən. – *Əlbiləsən, o kimin maşınıdı.*

**ƏLBİR** (Bərdə, Ucar) – su içmək üçün qab. – *Əlbirdə su ver içim* (Bərdə); – *Əlbiri qaleylətdim; – Əlbiri suynan doldur, ver içim* (Ucar).

**ƏLBOŞİ** (İmişli) – uşaq oyunu adı.

**ƏLCƏ** (Yardımlı) – tikə, loğma. – *Bi əlcə çörəy ver mənə.*

**ƏLCƏ-ƏLCƏ** (Yardımlı) – b a x **əlçə-əlçə.**

**ƏLCƏX′** (Çənbərək, Basarkeçər, Naxçıvan, Ordubad, Tovuz) – b a x **əlcək** I. – *Kərəntinin əlcəyi qırılıf, gərəx′ təzəsin düzəldim* (Basarkeçər); – *Kərəntinin əlcəyi boz söyütdən yaxşı olar* (Çənbərək); – *Əlcəx′ qapıda olar tutmağa* (Naxçıvan); – *Xış əlcəx′siz olmaz, əlçəx′dən tutub əkillər* (Ordubad).

**ƏLCƏX′** II (Füzuli, Zəngilan) – bir dəstə biçilmiş taxıl; bir əl tutumu taxıl. – *Bir bafa üç əlcəx′ olur* (Zəngilan); – *Üç əlcəx′ qoyurux bir-birinin üsdünə bir bafa olur* (Füzuli).

**ƏLCƏX′** III (Qazax) – taxıl biçərkən oraqla əli kəsməmək üçün sol əlin barmaqlarına taxılan taxta barmaqlıq.

**ƏLCƏX′** IV (Ağcabədi, Ağdam, Çənbərək) – əl boyda daranmış yun. – *Qavaxcan əlcəx′ eli:llər, əlcəyi əyririx′, yumşaxlıyırıx, onu bux′dəririx′, axırda dizimizdə kələf eli:rix′* (Ağdam); – *Əyriləsi yunum vardı, əlcəx′ eləmişdim, dünənnəri burxutdadım* (Çənbərək).

**ƏLCƏX′** V (Qazax) – b a x **əlcək.**

**ƏLCƏX′LƏMƏX′** I (Çənbərək) – lopa-lopa qar yağmaq. – *Gejə əlcəx′liyir, sava:catan bir metr qar yağır.*

**ƏLCƏX′LƏMƏX′** II (Füzuli) – yunu darayıb əlçim düzəltmək. – *Yunu əlcəx′lədim, qutardım.*

**ƏLCƏX′Lİ** (Gədəbəy) – qədim geyim adı. – *Əlcəx′liyi darayıdan tikeydilər.*

**ƏLCƏG** (Göyçay, Salyan, Yardımlı, İmişli, İsmayıllı, Kürdəmir, Masallı) – dəstə, dəstək. – *Xışun əlcəgi xarap olup* (Kürdəmir); – *Qapının əlcəginnən asılan tütgəçi bıra gət* (İsmayıllı); – *Qapıvızun əlcəgi də yoxdu* (Masallı).

**ƏLCƏK** (Zaqatala) – arxalıq və ya çuxanın qolunun arxa tərəfindən sallanan artıq hissə, parça.

**ƏLCƏLƏMƏG** (İmişli, Yardımlı) – parçalamaq, tikə-tikə etmək. – *Çörəgi əlcələyib tökürsüz yerə* (İmişli).

**ƏLÇƏ-ƏLÇƏ** (Göyçay, Lənkəran, Mingəçevir, Salyan) – parça-parça. – *Səni görüm, əlçə-əlçə qan qusasan!* (Salyan).

**ƏLÇİM** I (Cəlilabad, Füzuli, Göyçay, Kürdəmir, Qarakilsə, Lənkəran, Masallı, Oğuz, Salyan, Yardımlı, Ucar) – əl boyda təmiz daranmış yun. – *Bir əlçim yun qırx-əlli qram gələr* (Ucar); – *Əlçim düzəldir yığır üst-üsdə, so:ra bir-bir əyrir* (Oğuz); – *Əlçim əl boyda yuna di:lir* (Salyan).

**ƏLÇİM** II (Salyan) – ovuc. – *Mə: bi əlçim duz versənə.*

☐ **Əl damı** (Gədəbəy, Goranboy) – 1. mətbəx; 2. artıq şeyləri yığmaq üçün evin yanında tikilən kiçik dam. – *Əl damıne:t* <*damına get*>, *bir şey hazırra yimə:* (Gədəbəy). **Əl daşı** (İmişli) – əl dəyirmanı, kirkirə.

**ƏLDAŞİ** (Dərbənd) – əldəyirmanı. – *Əldaşi hodı horda.*

**ƏLDƏMƏN** (Meğri, Salyan) – anası ölmüş körpə quzu. – *Əldəmən quzunu kəlin qoyuna da əmişdirginən, dalaxlansın* (Meğri).

**ƏLƏ** (İsmayıllı) – hin. – *Ələnin qapısını bağla.*

**ƏLƏF** (Qubadlı) – quru ot, saman. – *Heyvanın ələfi qutarıb.*

□ **Ələf savını** (Ağdam) – əl-üz sabunu. – *Paltarı paltar savınıynan yu:llar, ələf savınıynan əl yu:llar.*

**ƏLƏFSIN-BILAFSIN** (Cəbrayıl) – qarışıq, hər nə gəldi. – *Ələfsın-bılafsın o qədər yeyif ki səhərdən.*

**ƏLƏHSALAH: ƏLƏHSALAH QALMAĞ** (Salyan) – narahat olmaq. – *İşığ yanmıyanda adam lap ələhsalah qalır.*

**ƏLƏX′LƏMAX** (Şəki) – diqqətlə axtarmaq. – *Bazarın hər yerini ələx′lədim, yaxşı buğda gözümə dəymədi.*

**ƏLƏLİX′: ƏLƏLİX′ ELƏMƏX′** (Meğri) – çaşmaq, çaşıb qalmaq. – *İrəşit, ələlix′ eləmə.*

**ƏLƏM** I (Salyan) – kəşkül. – *Ələm dəbrişdə olardı.*

**ƏLƏM** II (Göyçay) – üst dodağın ortasındakı çökək yer.

**ƏLƏMXOR** (İmişli) – acgöz, çoxyeyən (heyvan).

**ƏLƏMXORTDADİ** (Cəlilabad) – gəlincik. – *Uşəğçün ələmxortdadi düzəldiyəm.*

**ƏLƏNGƏ** I (Ağdam, Gəncə, Şəki, Şuşa, Zəngilan) – ətsiz iri sümük. – *Bı nəta:r ətdi, teyxa ələngədi* (Zəngilan); – *Bu ətin nəyini pişirim, başdan-əyağa hamısı ələngədi* (Şuşa).

**ƏLƏNGƏ** II (Ağdam, Böyük Qarakilsə, Cəbrayıl, Çənbərək, Füzuli, Salyan, Hamamlı, Qazax) – arıq. – *Bu inəx′ lap ələngədi* (Qazax); – *Öküz ələngə oluf* (Böyük Qarakilsə); – *Bu öküz ələngə şeydi, haravıya qoşmağ olurmu?* (Çənbərək).

**ƏLƏNGƏ** III (Quba) – iri ağac parçası. – *Sənə elə bir ələngə çəkərəm ki, əyağa durammassan.*

**ƏLƏ:RDƏN** (Ağcabədi) – b a x **əlardan.** – *Ələ:rdənnən isdi şeyləri ojaxdan götürürüx′.*

**ƏLƏSİDOLAĞ** (Ordubad) – göy qurşağı.

**ƏLƏSSÖVİYƏ** (Cəbrayıl) – veyil, avara. – *Vəli ələssöviyə adamdı.*

**ƏLƏŞƏN-KÜLƏŞƏN** (İmişli) – birtəhər, güc-bəla ilə. – *Düşdüx′ qarannığa, ələşənküləşən özümüzü öyə çatdırmışıx.*

**ƏLƏVƏNGİ** (Biləsuvar) – yalan. – *Sən ələvəngi danışırsan.*

**ƏL-ƏYAX: ƏL-ƏYAĞA GƏLMƏX′** (Başkeçid) – hər hansı bir işi cəld yerinə yetirmək.

**ƏLƏYƏSİ** (Ordubad) – b a x **ələyəz.**

**ƏLƏYƏZ** (Qarakilsə, Şərur) – kəvərəoxşar yeməli yabanı bitki adı. – *Ələyəzi yazda yığırıx* (Qarakilsə).

**ƏLƏ:Z** (Çənbərək, Qarakilsə, Şahbuz) – b a x **ələyəz.** – *Bü:n ələ:z isdisi bişirmişəm* (Çənbərək); – *Ələ:zimiz çoxdu, aparmışdım satmağa* (Qarakilsə); – *Ələ:zi aşa salarıx* (Şahbuz).

**ƏLƏZİ** (Cənubi Azərbaycan) – b a x **ələyəz.**

**ƏLGİ** (Başkeçid) – əl iyi (ip və ya sap əyirmək üçün alət).

**Ə:LĞA** (Qazax) – b a x **ayalğa.** – *Ə:lğası odu elə onun.*

**ƏLHƏM: ƏLHƏM QALMAĞ** (Salyan) – karıxmaq, özünü itirmək. – *Hərif lap əlhəm qalıb, danışdığın bilmir.*

**ƏLHO:UD** (Ağcabədi) – xörək adı.

**ƏLİƏLCƏYLİ** (Salyan) – əzrayıl. – *Sizi görüm içü:zə əliəlcəyli girsün, bircəcigüz zə sağ qalmasun.*

**ƏLİFLİ** (Salyan) – qız toyu. – *Keçmişdə qız toyuna əlifli də:rdilər.*

**ƏLİĞINA** (Salyan) – səliqəsiz. – *Mırad, nöşün əliğına gəzirsən?*

**ƏLİYUXA** (Ağdam, Oğuz, Şuşa) – kasıb, yoxsul. – *Birki <bir-iki> aydı əliyuxadı onun* (Ağdam); – *Əliyuxa adamın nəyi olajax ki, sən də onnan nə alasan* (Şuşa).

**ƏLQAF** (Çənbərək) – əlavə gəlir. – *Hərdən bir əlqafi da olur.*

**ƏLQAR** (Cəlilabad, Yardımlı, Göyçay, Mingəçevir, Ucar) – tez, tələsik, əlüstü. ◊ **Əlqar eləməy** (Cəlilabad, Mingəçevir, Ucar) – müəyyən bir işi tələsik yerinə yetirmək. – *Tez ol, biyaz <bir az> əlqar elə, tələsiyəm, gediyəm* (Cəlilabad); – *Ay qız, bir-iki tikə əppəy gəti bıra, əlqar eləyəy* (Ucar).

**ƏLİQICIĞI** (Culfa) – qol gücü. ◊ **Əlqıcığı göstərməx′** – güc göstərmək. – *Mənə əlqıcığı göstərməy olar?*

**ƏLLƏMƏ** I (Çənbərək, Əzizbəyov, Goranboy, Yardımlı, Göyçay, Kəlbəcər, Qarakilsə, Qazax, Laçın, Mingəçevir, Ordubad, Şuşa, Tovuz) – iri daş parçası. – *Ə:, bu əllə-*

*meyi götürüf başıŋa vurram, çox danışma* (Qazax); – *Sıvaz əlləmeyi elə atdı kın, dananın aynasın xışdadı* (Çənbərək); – *Başıŋa əlləmə düşsün, ay Yasər* (Kəlbəcər).

**ƏLLƏMƏ** II (Xocavənd, Şuşa) – bacarıqlı, zirək. – *Eləsi var əlləmə oluf düzəldir* (Xocavənd); – *Ə:, o, əlləmədi, nə desəŋ eliyər* (Şuşa).

**ƏLLƏMƏ** III (Zəngibasar) – nadinc.

**ƏLLƏMA:X** (Goranboy) – nadinc, şuluq. – *Nə əlləma:x şeydi Mirzənin gədəsi, işi yoxdu dişdiynən.*

**ƏLLƏM-ƏLLƏM** (Zəngibasar) – diqqətlə. – *Hər yanı əlləm-əlləm axdardım, əmə tapammadım.*

**ƏLLƏM-QƏLLƏM** (Şərur) – qatma-qarışıq. – *Əlləm-qəlləm işdərnən mə:m aram yoxdu.*

**ƏLLƏMƏYAX** (Borçalı, Gədəbəy, Qazax, Yevlax) – b a x **əlləma:x.** – *Alpaşanın oğlu yaman əlləməyaxdı* (Borçalı).

**ƏLLƏNİX′** (Qarakilsə) – külü çıxardıb atmaq üçün alət.

**ƏLLƏZUAR** (Kürdəmir) – avar, kürək. – *Əlləzuarsız gəmini Kürün o tayına keçirmək olmaz.*

**ƏLLİBELƏ** (Salyan) – çoxdan. – *Vaxdında inistuta girseydim, əllibelə qutarmışdım.*

**ƏLLİ** (Ağcabədi, Tərtər) – misdən hazırlanmış qulplu suqabı. – *Ay qız, mã: bir əlli su ver* (Ağcabədi).

**ƏLLİCƏ** (Əli Bayramlı, Göyçay) – su içmək üçün qab. – *Su: əllicəynən içillər* (Əli Bayramlı).

**ƏLLİG** I (İmişli, Salyan) – 1. ocaqdan isti qabı götürmək üçün parça, əsgi (İmişli). – *Əlligi mə:, qazanı götürüm;* 2. təndirdən isti çörəyi çıxartmaq üçün qolçaq (Salyan). – *Əllig çörək yapanda lazım olur.*

**ƏLLİG** II (Kürdəmir, Saatlı, Sabirabad, Salyan, Ucar) – b a x **əlli.** – *Əlligdə su gətir mənə* (Sabirabad).

**ƏLLİX′** (Bərdə, Borçalı, Qazax, Gədəbəy, Laçın) – təkbarmaqlı əlcək. – *Əlliyin dörd barmağı bir olur, baş barmağ ayrı olur* (Bərdə); – *Əllix′ yunnan toxunar* (Borçalı); – *Əllix′siz qışda əzməy <gəzmək> olarmı, ə: arvad?* (Gədəbəy).

**ƏLMƏNDƏ** (Şuşa) – uşaq oyunu adı.

**ƏLMƏNQUL** (Bakı) – acgöz.

**ƏLO:GÜLİ: ƏLO:GÜLİ BASMAĞ** (Bakı) – tonqal qalamaq. – *Qayanun altında əlo:güli basdığ.*

**ƏLO:L** (Lənkəran) – ətirli dağ otu adı.

**ƏLÖPBƏ** (Şuşa) – toydan üç gün sonra oğlan evində düzəldilən qonaqlıq. – *Əlöpbədə qızın da adamnarı olur, oğlanın da.*

**ƏLSÜPÜRƏN** (Dərbənd) – əl-üz dəsmalı. – *Əlsüpürəni gəti.*

**ƏLVALLAH** (Barana) – hay-küy, qalmaqal. – *Əlvallahı eşidən kimi hamı ora ü:rdü.* ◊ **Əlvallah qopartmax** – hay-küy salmaq, qalmaqal salmaq. – *Bir əlvallah qoparmışdılar ki, ana-bala, gəl görəsən.* **Əlvallah salmax** – hay-küy salmaq, qalmaqal salmaq.

**ƏLVƏHƏL** (Gədəbəy, Xanlar) – b a x **əlbəhə.** – *Əlvəhəl sədri çağırdı ıdarıya* (Gədəbəy); – *Kağızı əlvəhəl aparıf dayına verərsən* (Xanlar).

**ƏLVƏSA:T** (Gədəbəy) – o saat, həmin saat. – *Əlvəsa:t dağo:lladım qızı.*

**ƏLVİZ** (Xanlar) – uca, hündür, əlçatmaz. – *Evi əlviz yerdə tikməynən, onun suyun nejə gətirəjəx′səŋ.*

**ƏLYARPA:** (Ağdam, Zəngilan) – barama-qurduna əllə yığılıb verilən yarpaq. – *İkinci-üçüncü yuxya kimi qurda əlyarpa: verrix′, so:ra qırma yarpax* (Ağdam).

**ƏLYERİ** (Biləsuvar) – yemək şeyləri saxlanılan otaq.

**ƏLYƏT: ƏLYƏT ELƏMEG** (Bakı) – götür-qoy etmək, qərara gəlmək. – *Əlyət eliyib mənə pul verməyəcəglər.*

**ƏLYÜLÜ** (Zəngilan) – əl iyi (sap və ya ip əyirmək üçün alət). – *İpi əlyülüdə də əyrillər, cəhrədə də.*

**Ə:M** (Cəlilabad, Füzuli, Salyan, Yardımlı, Göyçay) – əgər. – *Ə:m istəsən, mən düzəldərəm* (Göyçay); – *Ə:m gəlsə, götür gə* (Füzuli).

**ƏMBƏRCU** (Salyan) – bostan sulamaq üçün kiçik su şırımı. – *Əmbərcu bossanda olar.*

**ƏMBƏRÇƏ** I (Füzuli) – arxalığa oxşar qolsuz, bəzəkli qadın geyimi.

**ƏMBƏRÇƏ** II (Culfa) – saça, hörüyə bağlanan lent. – *O vaxt əmbərçə də:rdilər.*

**ƏMBƏRƏ** I (İsmayıllı, Salyan) – kiçik, dayaz arx. – *Əmbərəynən su axır bossana*

(Salyan); – *Uşağı qoyma, əmbərəyə düşər* (İsmayıllı).

**ƏMBƏRƏ** II (İmişli, Şamaxı) – dəyirmanın novu.

**ƏMBİS ELƏMƏG** (Lerik) – bir yerə yığmaq.

**ƏMBİZ** (Cəlilabad, İsmayıllı, Kürdəmir, Salyan, Yardımlı, Qazax, Qusar, Mingəçevir, Şuşa) – taxıl topası. – *Bu gecə kimsə əmbizdən oğurlayıb* (Kürdəmir); – *Atdarı əmbizə bıraxeyəm, əmbizdən yeylər* (Cəlilabad); – *Döyülüf bö:üx topa şəkilində yığılmış taxıla əmbiz də de:illər, tığ da* (Şuşa).

**ƏMBİZDİ** (Qazax) – topa şəklində yığılmış. – *Qalxozun əmbizdi tayaları var.*

**ƏMBİZ-ƏMBİZ** (Borçalı, Gədəbəy, Xanlar, Qazax, Tovuz) – 1. topa-topa (Tovuz); 2. salxım-salxım (Borçalı, Gədəbəy, Xanlar, Qazax) – *Damnan buz əmbiz-əmbiz sallanıf* (Borçalı); – *Bıldır ağaşdarda meyvə əmbiz-əmbizidi* (Qazax); – *Bi:lləri meyvə əmbiz-əmbiz gətirif* (Xanlar); – *Görörsəŋmi gılas nə tə:r duror əmbiz-əmbiz ağaşda* (Gədəbəy).

**ƏMCANI** (Culfa, Şərur, Naxçıvan, Ordubad) – b a x **əmicanı.** – *Əminin arvadı əmcanı olur* (Naxçıvan); – *Mənim əmcanımın adı Səkinədi* (Culfa).

**ƏMDƏRMƏX′** (Füzuli, Qarakilsə, Laçın, Zəngilan) – tökmək, aşırıb tökmək. – *Südü sağıb verdim ki, aparsın əvə, diricə əmdərdi yerə* (Zəngilan); – *Suyu yerə əmdərdi* (Laçın); – *Südü heyləcə əmdərdi yerə* (Qarakilsə).

**ƏMDOSSU** (Mingəçevir, Salyan) – əmiarvadı.

**ƏMƏ** I (Qax, Oğuz, Şəki, Zaqatala) – bibi. – *Mən əməmgilə gedirəm* (Qax); – *Əməm gəlmişdi dünən* (Şəki).

**ƏMƏ** II (Böyük Qarakilsə) – amma.

**ƏMƏXALƏ** (Dərbənd) – qohum-qardaş, qohum-əqrəba. – *Zidyanə kitmağ istəyədəm əməxaləmi gürmağə.*

**ƏMƏK** (Şərur) – əməkgünü. – *Əli əmi, heç bir əməkdən-zaddan qazandun?*

**ƏMƏKMAÇI** (Əli Bayramlı) – yeməli yabanı bitki adı.

**ƏMƏL** (Qazax) – cadu. ◊ **Əməl eləməx′** (Qazax, Şəki) – cadu etmək. – *Diyillər elə əməl eli:y ki, gəl görəsən* (Qazax).

**ƏMƏLLƏNDİRMƏX′** (Xanlar, Yardımlı) – kökəlmək, əmələ gəlmək. – *Mallarım bir az əmlləşif* (Xanlar).

**ƏMƏNCİ-KÖMƏNCİ** (Cəbrayıl) – əmə-köməci.

**ƏMƏNİYYƏ** (Şəki) – var-dövlət. – *Əşrəvə atasınnan bö:y əmənniyə qalıtdı.*

**ƏMƏSALAX** (Salyan, Şəki) – ləvazimat, ev avadanlığı. – *Əməsalağı çıxardıf, boş öyə odu vuruf yandırdı* (Şəki).

**ƏMƏSİ** (Qax) – b a x **əmə** I. – *Əməsinin qada oxumağa gedəsidi, honnan göz-qulax ol sen.*

**ƏMƏSSAH** (Qarakilsə, Şuşa) – alət. – *Kərim, əməssahı gəti gedək, bizim qəpi örtülmür, bir ona bax* (Qarakilsə).

**ƏMƏŞMƏK** (Cəbrayıl) – daraşmaq, cummaq. – *Əməşdilər otun canna quzular.*

**ƏMƏYÇANİ** (Masallı) – yöndəmsiz.

**ƏMƏZƏG** (Salyan) – b a x **əməzəx′.**

**ƏMƏZƏX′** (Qazax, Şuşa) – aciz, əfəl, fərsiz. – *Tahar əməzəx′di, bi toğluyu da boğazdıyammer* (Qazax); – *Əməzəx′ adam iş başarmaz* (Şuşa).

**ƏMƏZİG** (Lerik) – b a x **əməzəx′.**

**ƏMƏZİX′** (Şəki) – b a x **əməzəx′.** – *Yunus əməzix′ adamdı.*

**ƏMGƏNDİMƏX′** (Zəngilan) – incitmək, əziyyət vermək. – *İllaf qıyamat qofsa da o, canın əmgəndiməz.*

**ƏMİ** (Qazax, Yevlax) – ata.

**ƏMİCANI** (Quba, Naxçıvan) – əmiarvadı. – *Əminin arvadı əmicanı olur* (Naxçıvan).

**ƏMİDOSTU** (Bakı, Kürdəmir) – b a x **əmdossu.** – *Əmidostu qeyqanax pişirir, gedəy yə:gün* (Kürdəmir).

**ƏMİN** (Göyçay) – sakit.

**ƏMİN-SƏMİNLİK** (Göyçay) – sakitlik.

**ƏMİPƏRƏSDİX′** (Füzuli) – qohumbazlıq. – *Əmipərəsdix′ ortadan götürülsə, yaxşı olar.*

**ƏMİRİ** (Bakı, Salyan, Masallı) – çox yaxşı, çox gözəl, misilsiz. – *Bidanə əmiri parça almışam* (Bakı).

**ƏMİRQAN** (Balakən) – tənzif. – *Paltarların üsdünnən əmirqan pərdə asılmışdı.*

**ƏMİŞ-QATIŞ** (Ucar) – bir yerdə, birlikdə. – *Urusdamın üç oğlu, külfəti əmiş-qatış yaşıyır.*

**ƏMİŞ-QƏMİŞ** (Ağcabədi) – çox yaxın. – *Məhəmmədəliynən Miriş əmiş-qəmişdilər.*

**Ə:MLƏRİ** (Kürdəmir) – əgər. – *Ə:mləri bı işdən bi xata çıxmasa, xoşbaxlıxdı.*

**ƏMLİX′LƏNMƏX′** (Füzuli) – əmmək. – *Quzular əmlix′lənirdi, ayırdıx.*

**ƏMMAL** (Salyan) – arşınmalı, parça. – *Hindi əmmal yap çoxdu;* – *Qıpçağ bədənimizi ölçərdi dərzi, əmmalı kəsərdi, tikərdi bizə, giyərdük.*

**ƏMMƏ** (Naxçıvan) – bax **əmə** I.

**ƏMMƏLƏ** (Füzuli) – üsul. – *Hər şeyin bi əmmələsi olu.*

**ƏMMƏRƏ** (Neftçala, Salyan) – ləklərin arasındakı kiçik, ensiz su arxı. – *Əmmərəni aç, tağlara su gessin* (Salyan); – *Əmmərə suynan dolıb* (Neftçala).

**ƏMMƏRƏÇU** (Salyan) – göyərti əkmək üçün ayrılmış sahə.

**ƏMMƏŞ** (Gədəbəy) – yetim (quzu). – *Siz canıŋız, o əmməş quzu: yətriŋ, bu qara qoyunu əmsin birəz;* – *Əmməş quzu kimi nə tüşüfsəŋ ora-bura?*

**ƏMMİZ** (Əli Bayramlı, Salyan) – b a x **əmbiz.** – *Biz sə:r tezdən əmmizi savıracayıx* (Əli Bayramlı); – *Qapançı əmmizi nişannadı* (Salyan).

**ƏMRAC** (Bakı) – həvəskar.

**ƏMRAZİYƏ ÇATMAĞ** (Yardımlı) – b a x **əmraziyə gəlmək.**

**ƏMRAZ: ƏMRAZİYA GƏLMƏK** (Bakı, Kürdəmir, Salyan) – 1. boya-başa çatmaq (Bakı). – *Ağəz, bu şağ <uşaq> lap böyüyüb əmraziya gəlib ki;* 2. yetişmək (Salyan). – *Hər me:və öz vaxtında əmraziya gəlir.*

**ƏMRƏŞMƏG** (Salyan) – həvəslənmək. – *Ortancıl gədəm maşın sürməyə yaman əmrəşir.*

**ƏMSİZ** (Sabirabad) – qabiliyyətsiz, bacarıqsız. – *Bı kənddə Əhməd əmsizdi.*

**ƏNBƏRÇƏ** (Füzuli) – b a x **əmbərçə** I. – *Ənbərçã:n altınnan sataşdı gözüm; sinən ağdı Savalanda qar kimi.*

**ƏNBƏRƏ** (Quba) – kiçik şəlalə. – *Bu yoxunluğda bir güzəl əmbərə var.*

**ƏNBİZ** (Naxçıvan) – b a x **əmbiz.** – *Ənbizdə əlli ton taxıl var.*

**ƏNC: ƏNC ELƏMƏG** (Yardımlı) – yaymaq, tökmək. – *Buğdəni gətirib evinən bi ənc eliyiblər.*

**ƏNCƏLƏŞDİRMƏK** (Salyan) – döymək, əzişdirmək. – *Uşağı az əncələşdirsənəm!*

**ƏNCƏMƏ** I (Tovuz) – xırda mıx.

**ƏNCƏMƏ** II (Şəki) – çərçivə.

**ƏNCƏR** (Şəki) – üz, sifət.

□ **Əncəri itməx′** (Şəki) – yox olmaq, ölmək, başı batmaq. – *Əncərin issin sənin.*

**ƏNCƏRRİ** (Şəki) – gözəl, yaraşıqlı.

**ƏNCƏRSİZ** (Şəki) – çirkin, kifir, yaraşıqsız. – *Hasanın qızı çox əncərsizdi.*

**ƏNCİG-ÜNCÜG** (Salyan) – əzik-üzük. – *Maşın yeşigləri atıb-tutmuşdu, üzümlər əncig-üncüg olmuşdu.*

**ƏNCİVƏNC** (Salyan) – dağınıq, alt-üst. ◊ **Əncivənc eləməg** (Salyan) – dağıtmaq, alt-üst etmək. – *Gənə bı paltarı kim əncivənc eliyib.* **Əncivənc olmağ** (Salyan) – dağılmaq, alt-üst olmaq, səliqəsiz hala düşmək. – *Öy-eşik əncivənc olub, baş çıxarmağ olmur.*

**ƏNCUMA** (Sabirabad) – yetim, kimsəsiz.

**ƏNDƏ** (Şamaxı) – alçaq. – *O, əndə iş tutmü:b.*

**ƏNDƏX′** (Qazax) – düz, hamar olmayan, enişli-yoxuşlu.

**ƏNDƏRĞƏLİB: ƏNDƏRĞƏLİB OLMAĞ** (Bakı) – qarşı-qarşıya gəlmək, üz-üzə gəlmək, rast gəlmək. – *Axır ki, əndərğəlib oldız, day arxayınnaşun;* – *Nə yaxçı əndərğəlib oldılar, yoxsa bir-birini görməzdilər.*

**ƏNDƏRMƏG** (Yardımlı) – tökmək, atmaq. – *Suyi ağacın dibinə əndərginən.*

**ƏNDƏSİZ** (Meğri) – yüngülxasiyyət. – *Nüyədidə Nəbidən əndəsiz adam kimdi ki?*

**ƏNDİ′XMƏX′** (Çənbərək, Gədəbəy, Qazax) – qorxmaq, diksinmək, səksənmək. – *Məmmədi suya basdım əndix′di* (Qazax); – *Çovan ot yananda əndix′di* (Çənbərək); – *Çimdiyim yerdə üsdümə dınnajıx sö:üx su sıçradı əndix′dim* (Gədəbəy).

**Ə:NDİRİX′** (Xanlar) – yaxalıq. – *Muna ə:ndirix′ de:irix′ biz.*

**ƏNDİRMƏ** (Oğuz) – mal və ya toyuq saxlamaq üçün ağacdan düzəldilən yer, tikinti. – *Əndirmənin üsdə qamış döşü:rüx′.*

**ƏNDİRMƏX′** (Qazax) – bəyənmək. – *Abbas bizi əndirmer.*

**ƏNƏ:T** (Gədəbəy) – yardım, kömək. – *Onnan heç ənə:t qörmədim.*

**ƏNƏCƏR-SÜTƏCƏR** (Salyan) – birinin yaşı tamam olmamış doğulan ikinci uşaq. – *Fatma həməşə ənəcər-sütəcər doğır.*

**ƏNƏF** (Böyük Qarakilsə) – nəfəs.

**ƏNƏHƏT** (Gədəbəy) – b a x **ənə:t.** – *Ənəhət elə:cəxʹsiŋmi olara bu cür.*

**ƏNƏXʹ** (Qazax) – heyvanın qulağına vurulan nişan.

**ƏŋƏMƏXʹ** (Gədəbəy, Qazax) – heyvanın qulağının ucunu kəsib nişanlamaq. – *Malın qulağını əŋəllər kin, qarışıx tüşməsin özgəninkinən* (Gədəbəy).

**ƏNEYİN** (Meğri) – qəribə. – *San na əneyin uşaxsan, a Hasanqulu?*

**ƏNG** (Salyan) – çərənçi, çoxdanışan. – *Şəfiqə çox əngdi, kim çənəsinin altına düşdü, əl çəkən dögür.*

**ƏNGƏ** I (Meğri) – valideyn. – *Bı öz əngəsinin qədrini nə bilir, mənimkini də bilsin.*

**ƏNGƏ** II (İmişli) – lap. – *Atdar əngə yolun kənarında otdıyırdı.*

**ƏNGƏBU** (Quba, Kürdəmir) – yeməli yabanı bitki adı. – *Əngəbunun doğası heş ələ düşməz* (Kürdəmir).

**ƏNGƏCÜLƏ** (Lerik) – cütün hissəsi. – *Əngəcüləsiz cüt olmaz.*

**ƏNGƏLHO:ZƏ** (Kürdəmir) – əngəl, maneə. – *Gecikdirsən işin içinnən bir əngəlho:zə çıxacax.*

**ƏNGƏLO:ZƏ** (Bakı) – bəla, müsibət. – *Heç bilmirsən, başmə nə əngəlo:zə gəlib.*

**ƏNGƏLO:ZƏR** (Salyan) – çətin. – *Bı çox əngəlo:zər işdi; – Əcəb əngəlo:zər işə tüşdüm.*

**ƏNGƏN** (Cəlilabad) – çoxdanışan.

**ƏNGƏNƏXʹ** (Naxçıvan) – xəmir yoğurmaq üçün böyük qab. – *Əngənəxʹdə xəmir qayrıllar.*

**ƏNGƏR** (Qazax) – xəstəlik adı.

**ƏNGƏRMƏK** (Kürdəmir) – duyuq düşmək. – *O elə təzəcə əngərib ki, yoxlama gəlir.*

**ƏNGƏS** (Mingəçevir) – b a x **əngəz.** – *Əngəs yanında gördüm.*

**ƏNGƏZ** (Göyçay, Mingəçevir) – lap. – *Əngəz bizim evin yanındadı olların idarası* (Mingəçevir).

**ƏNGİ** (Salyan) – b a x **əngən.** – *Əngi adam çox danışar, yorulmaz; – Fatma əngi adamdu.*

**ƏNGİL** (Cəlilabad) – köhnə, köhnəlmiş. – *Mənə o şalvarın əngilin vereydilər.*

**ƏNGİLAVA** (Dərbənd) – üzüm mürəbbəsi. – *Əngilava uladu, ağadayı lap yaxşu.*

**ƏNGİLİK** (Qax) – yabanı bitki adı. – *Başa sürtmağa yağ qayrırıx, hona əngilik atırıx.*

**ƏNGİLKƏ** I (Bakı, Kürdəmir, Sabirabad) – böyük qıf.

**ƏNGİLKƏ** II (Kürdəmir) – bidon. – *Arabeynan on-on beş əngilkə süt aparmağ olar.*

**ƏNGİRƏŞ** (Oğuz) – əhəng və kirəcin qarışığından düzəldilən məhlul. – *Barı əngirəşnən hörülür.*

**ƏNGİŞTƏNƏ** (Oğuz) – üzük.

**ƏNGİZDƏMƏK** (Kürdəmir) – döymək, əzişdirmək. – *Adil oğlun yaman əngizdədi.*

**ƏNGÜLDÜGÜN** (Bakı) – dolaşıq, düyün. ◊ **Əngüldügün düşmeg** – dolaşıq düşmək, düyün düşmək. – *Sap əngüldügün düşüb.*

**ƏNHAR** I (Biləsuvar, Füzuli) – böyük.

**ƏNHAR** II (Cəlilabad) – çoxlu.

**ƏNİXʹ** (Bərdə, Çənbərək, Qarakilsə, Qazax, Meğri, Tovuz, Zəngilan) – b a x **ənik** I. – *Əniyi yerində bağla* (Bərdə); – *İtin əniyi it olar* (Qazax); – *Uşaxları qoyma əniyinən öynəsin* (Zəngilan); – *Qancığın altında iki ənixʹ var* (Çənbərək).

**ƏNİK** I (Beyləqan, Kürdəmir) – küçük, it balası. – *Axşamnar əniyi bağla* (Kürdəmir).

**ƏNİK** II (Ucar) – uzaq qohum. – *Bizim əniklərdən Ucarda da var.*

**ƏNKƏ** (Meğri) – valideyn, ata-ana. – *Bı Mısa öz ənkəsinin qədrini nə bilir, mənimkin də bilsin.*

**ƏNOV** I (Culfa, Lənkəran) – dalaq xəstəliyi adı.

**ƏNOV** II (Lənkəran) – xarab olmuş sirkə.

**ƏNÖ:** (Bakı, Salyan, Yardımlı) – b a x **ənov** I. – *Yazığın ənö:i artıb, heç zad yiyəmmir* (Bakı); – *Ənö: şirniynən yaxşı olan şeydü* (Salyan). ◊ **Ənö: bağlamağ** (Bakı) – dalaq xəstəliyinə tutulmaq. – *Turşini az yi, ənö: bağlarsan!*

**ƏŋRƏMƏXʹ** I (Qazax, Tovuz) – 1. kişnəmək (Qazax); 2. səs çıxarmaq (heyvanlarda) (Tovuz). – *Bu buğoyu görüv əŋrədi.*

**ƏŊRƏŞMƏX′** (Daşkəsən) – kişnəmək. – *Atdar oqqərtə ye:if kin, əŋrəşey.*

**ƏNSƏ** I (Qarakilsə) – boyun. – *Əlı: ordan qoyuf basma, uşağın ənsəsi qırılar.*

**ƏNSƏ** II (Qazax) – arxa, dal. – *Üzə bir, ənsiyə iki danışer, kişi ha döyü, ikiüzdünün biridi.*

**ƏŊŞƏŞMƏX′** (Qazax) – tufan nəticəsində alt-üst olmaq, dağılmaq. – *Yağış elə yağer ki, dünyə əŋşəşer.*

**ƏNTƏR** (Şəki) – sırıqlı. – *Əntəri işdə giyirəm.*

**ƏNZİLƏMƏK** (Zaqatala) – evi ənzili adlanan giləmeyvənin suyu ilə rəngləmək. – *Əvi ənziləmək lazımdı.*

**ƏNZİLİ** (Zaqatala) – yabanı giləmeyvə adı.

**ƏPBƏX′** I (Ağdam, Bolnisi, Çənbərək, Gədəbəy, Goranboy, Qarakilsə, Mingəçevir, Şəki, Tovuz, Yevlax) – b a x **epbex′.** – *Birəz əpbəx′ ver, pendirinən ye:im* (Ağdam); – *Əpbəyi vaxtında yiginəŋ kin, quvvadan tüşməsin canın* (Gədəbəy); – *Biz yaxşı bir əpbəx′ yapmışox* (Şəki). ◊ **Əpbəx′ daşı** (Naxçıvan) – üzərində yuxa yayılan taxta. – *Qız əpbəx′ daşın sındırıb.*

**ƏPBƏX′** II (Zəngilan) – aşığın hamar tərəfi. – *Aşı:n çökəx′ tərəfinə cıx′ de:ilər, hammar tərəfinə əpbəx′.*

**ƏPBƏX′DAŞI** (Şərur) – gəcdən düzəldilən yuxayayan.

**ƏPBƏX′YAPAN** (Şərur) – təndirə lavaş yapmaq üçün alət.

**ƏPBƏY** (Oğuz, Şəki, Yardımlı) – b a x **epbex′.** – *Ciyim əpbəy almağa getdi* (Şəki). ◊ **Əpbəy ağartısı** (Oğuz) – çörək yavanlığı, süd məhsulları, ağartı. – *Öydə əpbəy ağartısı olmasa, dolanmax çətin olur.*

**ƏPBƏYAŞI** (Hamamlı) – yağ, soğan və çörəkdən hazırlanan xörək adı. – *Təz bir əpbəyaşı düzət yə:x′, ajınnan ölörüx′.*

**ƏPPEG** (Dərbənd) – b a x **epbex′.** – *Qonşum hacbuğda əppegi istədi, yoxdi, mən arpa əppegi vərdim.*

☐ **Əppeg heyva** (Dərbənd) – yumşaq heyva, heyvanın bir növü. – *Əppeg heyvanı yiğib uşağ.*

**ƏPPƏK** (Ağdaş, Göyçay, Kürdəmir) – b a x **epbex′.** – *Bayaxdan əppək bişirirəm* (Göyçay).

**ƏPPƏY** (Culfa, Naxçıvan) – b a x **epbex′.**

**ƏPRİMƏX′** (Ordubad) – qocalmaq. – *Sən əprimisən, kimə lazımsan.*

**ƏRAĞNANƏ** (Lənkəran) – nanə cövhəri.

**ƏRAV** (Zəngilan) – çay puçalı. – *Əravı yıxala at ə:nə, təzə çay dəmlə.*

**ƏRBEŞİX′** (Tovuz) – meşəbəyi.

**ƏRBƏŞİX′** (Tovuz) – b a x **ərbeşix′.** – *Ərbəşix′ məşəni qoryurdu.*

**ƏRDƏDƏVƏRDƏ** (Bakı) – yöndəmsiz, kobud. – *Lap yekəlib ərdədəvərdə olub.*

**Ə:RDƏX′** (Qarakilsə, Oğuz) – b a x **əydəx′.** – *Nənəm ə:rdəx′ pişirip, gedəx′ bizə* (Qarakilsə).

**Ə:RDƏK** (Füzuli) – b a x **əydəx′.** – *Nənəm ə:rdək bişirif.*

**ƏRDƏM** I (İmişli, Naxçıvan) – hünər, bacarıq. – *İş ərdəm isseyir* (İmişli). ◊ **Ərdəmi gəlmək** (İmişli) – hünəri çatmaq, bacarmaq. – *Bi iş görməgə isdidə adamın ərdəmi gəlmir.*

**ƏRDƏM** II (Qax) – görkəm, boy-buxun. – *Habı boyu batmış, malca ərdəminnən heş utanmıyıf.*

**ƏRDƏMLİ** (Ağdam, Culfa, Füzuli, Mingəçevir, Naxçıvan, Ordubad, Şamaxı, Ucar) – güclü, bacarıqlı, qüvvətli. – *Ərdəmli kişidi o* (Füzuli); – *Qolxozun arabasına qoşulmuş at ərdəmlidi* (Ordubad); – *Mitəllimdi, Ələkbərdi ərdəmlidi* (Culfa); – *Bu yerlərdə ərdəmli adam çox olub* (Şamaxı).

**ƏRDƏMLU** (Yardımlı) – b a x **ərdəmli.** – *Yaman ərdəmlu adamdu o, tayi tək götürey.*

**ƏRDƏMSİZ** (İmişli, Naxçıvan, Şərur) – zəif, gücsüz, bacarıqsız. – *Bizim biriqadirin atı ərdəmsizdi* (Naxçıvan); – *Ərdəmsiz adam deyər: biyişi görmək olmaz* (İmişli).

**ƏRDO:** I (Sabirabad) – yöndəmsiz, qorxunc.

**ƏRDO:** II (Quba, Kürdəmir) – yarma. – *Qoyunnara ərdo: çəkib verrik* (Kürdəmir).

**ƏRDO:** III (Kürdəmir) – ərə getmək vaxtı çatmış, yetişmiş. – *Ərdo: qızdı, ərə getmir.*

**ƏRDO:** IV (Kürdəmir) – iri doğranmış odun parçası. – *Bı ərdo:ları qışda təndirə qaleycam.*

**ƏRDOV** (Qax, Zaqatala) – başqasını qorxutmaq üçün xəyali varlıq, qulyabanı.

**ƏREYİ** (Bakı) – başdansovdu. – *Əreyi iş görmeg sənün peşəndü elə.*

**ƏRƏ** (Lənkəran, Lerik, Yardımlı, Masallı) – mişar.

**ƏRƏC** (Qax) – pul.

**ƏRƏÇİ: ƏRƏÇİ QUŞU** (Cənubi Azərbaycan) – ov etmək üçün istifadə olunan yırtıcı quş. – *Ərəçi quşu çox iti uçar.*

**ƏRƏQƏC** (Bakı) – erkən, faraş. – *Qumsal yerdə məhsili hələ gərəg ərəqəc əkəsən.*

**Ə:RƏMÇƏ** (Göyçay) – b a x **əyrəmçə.**

**ƏRƏMƏ** (Şəmkir) – həddindən artıq kökəlmə.

**ƏRƏMİG** (İmişli, Yardımlı, Salyan) – doğmayan, qısır. – *Bi ərəmig gomişim var, üç ildi məndədi, doğmır; – Bı gəlin ərəmigdi, uşağı olmır* (Salyan).

**ƏRƏMİX′** (Borçalı, Cəbrayıl, İmişli, Qazax, Qarakilsə, Mingəçevir, Şəki, Tovuz, Zəngilan) – b a x **ərəmig.** – *Fatma ərəmix′ arvatdı* (Qazax); – *Bı gamış ərəmix′ çıxdı* (Zəngilan); – *Bu ərəmix′ camış kimindi?* (Tovuz); – *Camış ərəmix′ çıxanda qoşullar unı arabiyə* (Şəki).

**ƏRƏMİX′LƏMƏX′** (Qazax) – doğmaq qabiliyyətini itirmək. – *Bu inəx′ doğmor, üç ildi ərəmix′leyif.*

**ƏRƏMŞİMƏG** (Salyan) – həvəslənmək. – *Həyasız adama üz versön, day da ərəmşiyər.*

**Ə:RƏNGAH** (Ucar) – əgər. – *Xamıra bax, ə:rəngah köpəşiyirsə, kündələ; – Ə:rəngah yağış yağmasa, bü:n yüz kilo pambıx yığaram.*

**ƏRƏNTƏ** (Salyan) – himayə, öhdə. – *Elə bil buları ərəntiyə götümüşəm.*

**ƏRƏNTİ** (Qazax) – uzun müddət.

**ƏRƏSƏT** I (Ağdam, Cəbrayıl, Gəncə, Kürdəmir, Zəngilan) – daha çox, xeyli. – *Buyil ərəsət üzüm var* (Ağdam); – *Keçən il ərəsət meyvə vardı, bıyıl yoxdu* (Zəngilan); – *Bu gün ərəsət iş gördüm* (Kürdəmir); – *Biyil ərəsət buğda var* (Cəbrayıl).

**ƏRƏSƏT** II (Salyan) – qiyamət, qalmaqal. – *Ay qız, bacu:n paltarrarına dəgmə, gələr görər, ərəsət qopar.*

**ƏRƏŞMƏX′** (Mingəçevir) – tamahlanmaq, meyl etmək. – *Uşax süfrəyə ərəşir.*

**ƏRƏVAŞDƏMEG** (Bakı) – seyrəltmək. – *Ağacdər qəblə getirib, sən hindi başdi:rsən ərəvaşdəmegə.*

**ƏRƏVƏNDƏ** (Tərtər) – bir yerdə daimi yaşamağa qərar tutmayan. – *Ərəvəndə adamın yeri-yurdu olmaz.*

**ƏRƏVUC** (Qax) – soxulcan. – *Suyun yanında çox olar ərəvuc.*

**ƏRƏYİ** (Bakı) – müvəqqəti. ◊ **Ərəyi eləməg** – müvəqqəti almaq.

**ƏRƏZƏN** I (Ordubad) – gec. – *Bı il pambıx ərəzən əkilib.* ◊ **Ərəzən düşmək** (Şahbuz) – vaxtından gec yetişmək. – *Pambıx ərəzən düşdü; – Bı il tut ərəzən düşdü.*

**ƏRƏZƏN** II (Culfa) – sonbeşik, axırıncı övlad. – *Ərəzən oğlum qırıx yaşındadı.*

**ƏRƏZƏN** III (Culfa) – vaxtından əvvəl, yarımçıq doğulmuş quzu.

**ƏRGƏN** (Ağdam, Bərdə, Cəbrayıl, Daşkəsən, Kəlbəcər, Qarakilsə, Salyan, Zəngilan) – b a x **əryən.** – *Bəhman ərgən oğlandı* (Bərdə); – *Əli illaf ərgən oluf* (Zəngilan); – *Oğlum ərgəndi, hələ evlənmiyif* (Daşkəsən); – *Bırda oqqədər ərgən oğlannar var ki!* (Salyan); – *Ərgən qızdar kəntdə çoxdu* (Qarakilsə).

**ƏRXƏC** (Qax, Yardımlı) – b a x **arxac.** – *Qoyun hini ərxəcə yığılmalı halətdi* (Qax).

**ƏRXƏNƏ** (Qax) – pendiri saxlamaq üçün hazırlanmış su.

**ƏRİK** (Dərbənd, Quba) – cır alça.

□ **Ərikini əzmək** (Salyan) – naz etmək, nazlanmaq. – *Leyla ərikini əzə-əzə elə danışırdı ki, adamın zəhləsin tökürdü.*

**ƏRİKQUŞU** (Ordubad) – mayböcəyi.

**ƏRİNCƏG** (Yardımlı) – b a x **əringəc.** – *Ərincəg olma, dur işüy işdə.*

**ƏRİNCƏYLİG** (Salyan, Yardımlı) – tənbəllik. – *Ədə, ərincəglig eləmə, dur get işüə* (Salyan).

**ƏRİNCƏX′** (Ağdam, Gədəbəy, Göyçay, Mingəçevir, Ucar) – b a x **əringəc.** – *Ərincəyin biridi o, iş-zad görmür* (Ağdam); – *Ürəyüvə güllə dəysin ərincəx′* (Göyçay).

**ƏRİNGƏC** (Füzuli, İmişli, Kürdəmir, Salyan) – tənbəl. – *Yap əringəc adamsan sən, buyişi nəyşə qutarmırsan?* (İmişli); – *Qulı əringəc adamdu* (Salyan); – *Bı İmran yaman əringəc adamdı* (Füzuli).

**ƏRİNİX′LƏMMƏX′** (Mingəçevir) – ərimək, əriməyə başlamaq. – *Yağ ərinix′lənif.*

**ƏRİŞDƏLİ** (Qazax, Tovuz) – əriştə ilə hazırlanan xörək növü. – *Ərişdəli də xörəx′di, ərişdəli düyüdən, bir də ətdən hazırlaner* (Qazax).

**ƏRİŞDƏMƏG** (Şamaxı) – təmizləmək.

**ƏRİŞMƏX′** (Qazax) – namusuna təcavüz etmək.

**ƏRİTDƏMƏG** (Yardımlı) – təmizləmək. – *Sudan zığ iyisi gələndə bulaği əritdeydüg.*

**ƏRKAN: ƏRKAN KƏSMƏX′** (Meğri) – döymək, incitmək. – *Prisdav bizə karrıca ərkan kəsdi.*

**ƏRKANSIZ** (Beyləqan) – insafsız, rəhmsiz. – *Sən laf ərkansızın birisən.*

**ƏRQOLİ** (Ordubad) – arğalı, vəhşi qoç.

**ƏRMAN: ƏRMAN ÇƏX′MƏX′** (Meğri) – inkişaf etmək, böyümək.

**ƏROV** I (Qarakilsə, Naxçıvan) – paltar yuyulduqdan sonra qalan çirkli sabunlu su. – *Bırdan ərov töküblər, gedip o tingliyi qurudub* (Qarakilsə).

**ƏROV** II (Qazax) – uzağı görməyən.

**ƏROY** (Ağdam, Bərdə, Gədəbəy, Kürdəmir, Şuşa) – b a x **ərov** I. – *Əroyu ağaş divinə töx′mə ziyandı* (Gədəbəy); – *Bu suyu da töx′ əroyun üstə, apar at* (Şuşa). ◊ **Əroyun almax** (Ağdam, Kürdəmir, Şuşa) – paltarı suya çəkmək. – *Qoy birki paltar var əlimdə, əroyun alım, indi gəlirəm* (Ağdam); – *Paltarın əroyun al* (Kürdəmir).

**ƏRP** (Kürdəmir, Salyan, Yardımlı) – kəf. – *Yarma:n üstə çıxan ərpini al* (Kürdəmir).

**ƏRPİMƏX′** (Çənbərək) – çürümək, çürüyüb tökülmək. – *Dananın leşi ərpiyif.*

**Ə:RRİ** (İmişli) – xəstə, arıq (qoyun). – *Üş-dört ə:rri qoyunumuz var burda.*

**ƏRRİX′** (Kəlbəcər) – evlənmək vaxtı çatmış, ər olmaq vaxtı çatmış.

**ƏRSİNBOĞAZ** (Ordubad) – quş adı. – *Ərsinboğazın əti yeməli dəyil, zərərri həşaratı, ilanı ye:ir o.*

**ƏRŞİN** (Basarkeçər, Ordubad, Şəki, Tovuz) – ərsin. – *Tiyanın divini ərşinnən qartdiyif təmizdədilər* (Şəki).

**ƏRŞİNNƏMƏX′** I (Tovuz) – qaçmaq. – *Burdan elə ərşinnərsən ki, gözüm səni yörməz.*

**ƏRŞİNNƏMƏX′** II (Qarakilsə) – boş-boş gəzmək, avaralanmaq. – *Sə:rdən axşama teyin küçələri ərşinniyir.*

**ƏRVAZ** (Quba) – iməcilik, kollektiv kömək.

**ƏRYƏL** (Gədəbəy) – kotana qoşulan birinci cüt öküz.

**ƏRYƏN** (Çənbərək, Gədəbəy, Qazax, Şəki, Tovuz) – 1. evlənmək və ya ərə getmək vaxtı çatmış (Çənbərək, Tovuz); 2. subay (Gədəbəy, Qazax, Şəki). – *Hələ də əryəndi bizim bajı oğlu* (Gədəbəy); – *Əryən oğlan əryən qızdan həyalı olur* (Qazax); – *Üş dənə əryən oğlu var Fatmanın* (Şəki).

**ƏRKƏRİ** (Bakı) – tez yetişən üzüm növü.

**ƏSADAYİ** (Mingəçevir, Oğuz) – un, yağ və şəkərdən hazırlanan quymağa bənzər xörək adı. – *Əsadayi yaxşı yiməx′di, xəsdə halsız olanda onu yaxşı yiyir* (Oğuz).

**ƏSDƏMİ** (Qax) – ərsin. – *Əsdəminən xamır doğrıyıx.*

**ƏSƏRRƏMMƏX′** (Xocavənd) – gicəlmək.

**ƏSGƏRANİ** (Culfa) – üzüm növünün adı.

**ƏSİ** (Qax) – düşmən.

**ƏSİX′MƏX′** (Gədəbəy) – dirçəlmək, ətəqana gəlmək. – *Sırahayün aldığımız quzu əsix′mə:if hələ, gözdə-qulaxdo:lun bir müdət.*

**ƏSİLAĞAC** (Çənbərək) – uşaq oyunu adı. – *Büyünnəri əsilağac oynadıx axşamatana.*

**ƏSİN** (Şərur) – külək, meh. – *Bi əz də əsin əssəydi munu (taxılı) savurup qutarardım.*

**ƏSKEŞ** (Bakı) – arabanın qolu.

**ƏSMAN** (Salyan, Yardımlı) – göy, səma. ◊ **Əsmana çəkməg** – ağrıtmaq, əziyyət vermək. – *Dişimin ağrısı bı gecə məi əsmana çəkdi* (Salyan).

**ƏSMƏŞAL** (Bakı) – yun parça adı.

**ƏSNAF** (Zəngilan) – otaq. – *Özünə yaman əsnaflar tikdirib.*

**ƏSNƏX′** (Meğri, Zəngilan) – axmaq, ağılsız. – *Hilal əsnəx′ kişidi* (Zəngilan); – *Şükürün gədəsi Salman elə xıcca vaxdınnan əsnəx′ gədeydi* (Meğri).

**ƏSRƏG** I (İmişli) – qızışmış, coşmuş (dəvə). – *Əsrəg dəvə adama gələr;* – *Əsrəg dəvə qolun üzdü.*

**ƏSRƏG** II (İmişli) – qızışmış dəvənin ağzına vurulan buruntaq. – *Əsrəgi vurullar dəviyə, adamı yaralamasın.*

**ƏSRƏGLƏMƏG** (İmişli) – qızmış, coşmuş dəvəyə buruntaq vurmaq.

**ƏSRİG** (İmişli) – b a x **əsrəg** I. – *Əsrig dəvə qorxulu olur.*

**ƏSRİX′** (Qazax) – ucaboylu, əndamlı qadın.

**ƏSRÜX′** (Qazax) – sərxoş.

**ƏSSAH** (Ağbaba) – dəqiq, səhih. – *Mən dünənki kimi əssah bilirəm.*

**ƏŞANEX′** (Meğri) – dinc durmayan, sakitlik bilməyən. – *Bu vəzirin bir əşanex′ arvadı uley.*

**ƏŞGƏNƏ** I (Bolnisi) – üskük.

**ƏŞGƏNƏ** II (Oğuz) – üzük.

**Ə:ŞİG** (Salyan) – məsləhət. – *İş görəndə gərəg özünnən bö:gə ə:şig eliyəsən.*

**ƏŞMƏNGİ** I (Zaqatala) – yaltaq.

**ƏŞMƏNGİ** II (Qax) – görməmiş.

**ƏŞMƏNGİ** III (Qax) – qanmaz. – *Diyəni qanası doqul* (*deyil*), *əsmənginin biridi.*

**ƏŞÜŞ** (Cəlilabad, Yardımlı) – təşviş, narahatlıq. ◊ **Əşüşə olmağ** – təşvişə düşmək. – *Siftə camahatin hamisi əşüşdə oldi* (Cəlilabad).

**ƏTBƏHRİ** (Quba) – uşaq xəstəliyi adı.

**ƏTCƏ** (Mərəzə, Mingəçevir) – yumurtadan təzə çıxmış, hələ tüklənməmiş quş balası. – *Sərçənin balası hələ ətcədi* (Mərəzə).

**ƏTƏBƏRƏ** (Bakı) – yaşına uyğun danışmayan, böyük-böyük danışan. – *Bu uşağ çox ətəbərədü.*

**ƏTDİX′** I (Zəngibasar) – ağır tərpənən, iş bacarmayan. – *Onnan heş zad gözdəmə, ətdi:n biridi.*

**ƏTDİX′** II (Cəbrayıl) – ət hazırlığı üçün verilən heyvan. – *Böyün irayona ətdix′ aparacıyıx.*

**ƏTƏRƏT** (Meğri) – nişanə. – *Ət aldım, yağ ətərəti yox idi.*

**ƏTƏX′** (Borçalı) – qadın paltarı adı. – *Səhnə özünə bir ətəx′ tix′di.*

**ƏTƏX′Lİ** (Füzuli) – böyük quyruqlu qoyun. – *Yağı quyruğuna yığan qoyuna ətəx′li de:ərix′.*

**ƏTƏX′LİX′** I (Ağcabədi, Ağdam, Bərdə, Füzuli, Şuşa, Tərtər) – b a x **ətəylig.** – *Qədimdə arvatdar taxırdılar ətəx′liyi* (Ağdam); – *Mənim bir bilərziyimi, bir də ətəx′liyimi dandı, vermədi o* (Şuşa).

**ƏTƏX′LİX′** II (Tovuz) – döşlük, önlük.

**ƏTƏLAĞ** (Böyük Qarakilsə) – tənbəl.

**ƏTƏYLİG** (İmişli) – qadın bəzəyi. – *Günnəgin ətəgində ətəylig olardı gümüşdən.*

**ƏTXƏRCİ** (Şərur) – üzüm növü. – *Ətxərci:n giləlləri aralı olur, topxərcinki sıx.*

**ƏTMƏ** (Sabirabad, Salyan) – aciz.

**ƏTMƏX′** I (Çənbərək) – görünmək. – *Dadaşın niyə ətmirdi bir həfdədi.*

**ƏTMƏX′** II (Cəbrayıl, Füzuli) – 1. cavab qaytarmaq; 2. deyinmək.

**ƏTMƏX′** III (Çənbərək) – atmaq, qalxıbdüşmək. – *Çopanı qoruxçu oxartana vuruf kun, indi boşu ətir.*

**ƏTMƏL** (Kürdəmir, Saatlı) – b a x **ətmə.**

**ƏTMƏLLİG** (Kürdəmir) – acizlik, əfəllik. – *Ətməlliyinnən heç bir iş görmür.*

**ƏTMƏNİ** (Salyan) – b a x **ətmə.** – *Qurbanəli ətməni uşağdı.*

**ƏTMƏTƏN** (Şəmkir) – ətli-canlı, kök, tosqun. – *Ətmətən adam boş olur, yol yeriyəmmir.*

**ƏTOTU** (Ağdam, Ağdərə, Xocavənd, Şuşa) – nanə qoxulu, yeməli yabanı bitki adı. – *Ətotunu bozbaşa tökürüx′* (Şuşa). ◊ **Ətpalçığı** (Cəlilabad) – sarı, gilli torpaq. – *Canuyçın, topacan gedir çarx, ətpalçığıdı.*

**ƏTSİMƏG** (Cəlilabad) – könlü ət istəmək. – *Nə bildüz biz ətsimişüg, ət gətdüz.*

**ƏTTƏBALA** (Kürdəmir) – çılpaq, lüt. – *Bı əttəbala uşaxlara ləlbəydə çay ver.*

**ƏTÜZÜM** (Xocavənd) – üzüm növünün adı.

**ƏVAZİMAX** (Qax) – b a x **avazımağ.**

**ƏVÇİ** (Hamamlı) – arvad işinə qarışan kişi.

**ƏVDİMƏX′** I (Cəbrayıl, Qarakilsə, Meğri, Zəngilan) – b a x **evdirməx′.** – *Bacı, yerə tökülən bığdanı bir-bir əvdi;* – *Niyə buni indiya kimin əvdiyib qurtarmamısan?* (Meğri); – *Yerə tökülən buğdaların hamısın əvdi töx′ bura* (Cəbrayıl); – *Toyuxlar bir-bir əvdiyillər* (Qarakilsə).

**ƏVDİMƏX′** II (Çənbərək) – yemək. – *İki xamralı əvdidi Parax Mühər.*

**ƏVDİMƏK** (Biləsuvar) – b a x **evdirməx′.**

**ƏVƏ** (Borçalı, Kürdəmir) – şiş. – *Mahmıdın çiynində əvə var* (Borçalı); – *Həmidin boğazınnan əvə çıxıb* (Kürdəmir).

**ƏVƏÇİ** (Başkeçid, Borçalı) – b a x **əbəçi.** – *Mə:m əvəçim Fatma xaladı* (Borçalı).

**ƏVƏDƏMƏX′** (İmişli) – b a x **əbədimək** I. – *Beyjə arıx danamız əvədəmişdi, gedif durğuzdux.* ◊ **Əvədəyə düşmək** (Qarakilsə, İmişli) – yıxılıb arxası üstə qalmaq. – *Sarı inək axşam əvədəyə düşmişdü* (Qarakilsə); – *Heyvan əvədiyə düşüb* (İmişli).

**ƏVƏDİMƏG** (Yardımlı) – b a x **əbədimək** II.

**ƏVƏLƏN-GƏVƏLƏN: ƏVƏLƏN-GƏVƏLƏN DANIŞMAĞ** (Salyan, Yardımlı) – boş-boşuna danışmaq, yersiz danışmaq. – *İsmayıl həməşə məclisdə əvələn-gəvələn danışır* (Salyan).

**ƏVƏN: ƏVƏN YERİ** (Tovuz) – bir adamın çox gedib-gəldiyi yer.

**ƏVƏNÇİ** (Qazax, Tovuz) – b a x **əbəçi.** – *Əvənçi uşağı tutor, boylum, kövəyin kəser* (Qazax).

**ƏVƏNDƏ** (Cəbrayıl, Tərtər) – arabanın qolunu boyunduruqla birləşdirən qayış. – *Əvəndə boyunduruğa keçirilir* (Cəbrayıl).

**ƏVƏNDƏNƏ** (Biləsuvar, Kürdəmir) – b a x **əvəndə.** – *Əvəndənəni çıxart, ulağ bir az dincəlsin* (Biləsuvar).

**ƏVƏNKÖMƏNCİ** (Ağcabədi, Ağdam, Bərdə, Şuşa, Tərtər) – b a x **əvənkövənci.** – *Əvənköməncini yığıf kətə pişiririx', bomba pişiririx'* (Ağdam).

**ƏVƏNKÖVƏNCİ** (Gədəbəy, Qazax, Tovuz) – yeyilən yabanı bitki adı. – *Bu yazbaşı heç əvənkövənci pişirməmişim uşaxlara* (Gədəbəy); – *Əvənkövəncinən sıxma pişirif ye:rix'* (Tovuz).

**ƏVƏRƏ** I (Qax) – qışqırıq, səs-küy. – *Əvərə bizdən essiy olmaz.*

**ƏVƏRƏ** II (Culfa) – birillik camış.

**ƏVGƏLƏMƏG** I (Biləsuvar) – ovmaq, masaj etmək. – *Boynumu bir az əvgələ, yaman ağrıyır.*

**ƏVGƏLƏMƏG** II (Biləsuvar) – yüngülvari yumaq. – *Mənim o köynəyimi əvgələ.*

**ƏVGƏNDƏ: ƏVGƏNDƏ DOLANMAX** (Qafan, Qarakilsə) – avara, işsiz, boş-boşuna gəzmək, dolanmaq. – *Orda-bırda əvgəndə dolanırdım* (Qarakilsə).

**ƏVLƏD** (Cəlilabad, Yardımlı, İmişli) – qohum. – *Yavərnən əvlədük;* – *Onın nənəsi sizə əvləd oley dənə* (Cəlilabad).

**ƏVNƏ** I (Cəlilabad, Füzuli, Zəngilan) – dəfə. – *Qurdu gündə üç əvnə yarpaxlerıx* (Zəngilan); – *Bir əvnə yedim* (Füzuli); – *Hər əvnədə yetdi adamın xörəyin ye:ir* (Cəlilabad).

**ƏVNƏ** II (Cəlilabad, Füzuli) – nahar fasiləsi, tənəffüs. – *Qolxozçılar əvniyə gəliblər* (Cəlilabad). ◊ **Əvniyə çıxmax** (Füzuli) – nahar fasiləsinə çıxmaq. – *Cama:t əvniyə çıxır, bu hələ indi gəlir işə.*

**ƏVNƏZ** (İmişli) – zəif.

**ƏVNƏZLƏMƏK** (İmişli) – zəifləmək. – *Uşax yaman əvnəzliyib.*

**ƏYAĞALTI** I (Salyan) – kandar. – *Əsgini əyağaltıya salallar əyağ silmegə.*

**ƏYAĞALTI** II (Salyan) – balaca kətil. – *Əyağaltını gət oturum.*

**ƏYAĞLIĞ** (Biləsuvar, Sabirabad) – pilləkən.

**ƏYAX** (Ağdam, Şuşa, Zəngilan) – dəfə. – *Üç əyax da gətirsəŋ qutarar* (Ağdam); – *Böyün neçə əyax dərz gətirdĩ:z* (Zəngilan); – *İki əyax getdim, ta gedəmmədim, yaman yorulmuşdum* (Şuşa).

**ƏYAXÇI** (Qazax) – idarə xidmətçisi, kuryer. – *İdarada əyaxçı olar;* – *Əyaxçını göndərer ki, gedif onu ça:rsın.*

**ƏYAXLI** (Qazax, Şuşa) – b a x **ayaxlı.** – *Əyaxlı olmasa, yuxanı yaymağ olmaz* (Şuşa).

**ƏYAXLIX** (Borçalı) – kandar, astana. – *Əyaxlıxda durma, keç uxarı.*

**ƏYALĞA-ŞƏYALĞA** (Şuşa) – ləqəb. – *Uşağa əyalğa-şəyalğa qoyma!*

**ƏYAZIMAX** (Qazax) – b a x **ayazımax.** – *Çoxuydu xəsdənin dünən isdiliyi, büyün bir az əyazıyıf.*

**ƏYBƏ** (Cəlilabad) – sarımsaq dadı və qoxusu verən yabanı bitki.

**ƏYDƏX'** (Borçalı, Hamamlı, Qazax) – südlə yoğurulmuş xəmirdən bişirilən şirin yemək növü. – *Xamırı südnən yoğrellər, yağda pişirellər, olor əydəx'* (Borçalı); – *Əydəx' hər bayramda pişirilir, yaxşı daddı şeydi* (Hamamlı).

**ƏYDİ** (Çənbərək, Hamamlı, Qazax, Tovuz) – taxta qaşıq, çömçə və s. hazırlamaq üçün kəsici dəmir alət. – *Əydi çömçə qayıran hajata de:rix'* (Qazax); – *Qaşığın için əydiynən çıxardıllar* (Çənbərək); – *Əydiyi ver maŋa, bir-iki qaşıx qayrajam* (Hamamlı).

**ƏYƏ** (Ordubad) – yiyə, sahib. – *Kələmin əyəsi gedib;* – *Bunun əyəsi kimdi?*

**ƏYLİŞMƏX'** (Qarakilsə) – arası dəymək. – *Onnan əylişmişəm, qıyamata kimi düzəlmənəm.*

**ƏYİNDİRİXʹ** (Yevlax) – köynəyin kürək tərəfinə möhkəmlik üçün tikilən əlavə parça. – *Könə: əyindirixʹ qoyanda dağılmaz.*

**ƏYİRDƏXʹ** (Borçalı, Cəbrayıl, Cəlilabad, Gədəbəy, Göyçay, Xocavənd, Naxçıvan, Şərur, Şuşa, Zəngilan) – b a x **əydəxʹ.** – *Əyirdəxʹ də pis döy, azıx götümə:* (Gədəbəy); – *Xalam əyirdəxʹ pişiref, gedəxʹ, yeəxʹ* (Borçalı); – *Əyirdəyi yağda yaxşı qızart gəti* (Cəbrayıl).

**ƏYİRTMƏXʹ** (Cəbrayıl, Qarakilsə, Zəngilan) – vurmaq. – *Ağajnan birin itə nətə:r əyirtdisə, zingildiyə-zingildiyə qaşdı* (Zəngilan).

**ƏYİŞ** (Ağbaba, Basarkeçər, Çənbərək) – ərşin. – *Əyişi maŋa ver, çörə:i təndirdən çıxardım* (Basarkeçər); – *Tavaxdakı xamrı əyişnən qazıyırıx* (Çənbərək).

**ƏYİŞDƏNƏ** (Oğuz) – üskük. – *Əyişdənəni barmağa taxıb partal tikillər.*

**ƏYİŞDİRMƏXʹ** (Oğuz) – isti suyu soyutmaq və ya soyuq suyu qızdırmaq. – *Hə, bu çayı əyişdir.*

**ƏYİŞ-ÜYÜŞ** (Çənbərək) – əyri-üyrü. – *Kərəntiyi daşa döyməxʹdən ağzı əyiş-üyüş oluf.*

**ƏYKƏMLİ** (Cəbrayıl) – meyilli.

**ƏYLƏMAX** (Balakən) – dayandırmaq, saxlamaq. – *Əylə, mən də minim.*

**ƏYLƏMƏXʹ** (Cəbrayıl, Gəncə, Qazax, Şəmkir, Şərur, Tovuz) – b a x **əyləmax.** – *Avtonu əylə, mən gəlim çatım* (Şərur); – *Qız öküzü əylədi* (Tovuz); – *Arabanı əylə* (Şəmkir).

**ƏYMƏ** I (Ağcabədi) – dəstə, qol (dəryazda). – *Ə:, dəryazımızın əyməsi sınıf.*

**ƏYMƏ** II (Mingəçevir) – beşikdəki qövs şəkilli əyri ağac hissə. – *Əymənin üstə nəzixʹ şey salıllar kı, uşağa milçək dəyməsin.*

**ƏYNƏŞ** (Goranboy) – azmaq.

**ƏYNİMAX** (Culfa) – 1. b a x **aynımax** I; 2. b a x **ayinmağ.** – *Mövə su verırıx ki, əynisin.*

**ƏYRƏMÇƏ** I (Füzuli, Yardımlı, Göyçay, İsmayıllı, Kürdəmir, Salyan) – ensiz qaşlı üzük. – *Hindi də əyrəmçə salıllar* (Salyan); – *Bir əyrəmçəm vardı, verdim qızıma, o da itirib* (Göyçay).

**ƏYRƏMÇƏ** II (Kürdəmir, Şəki, Tovuz, Ucar) – çirkin, xoşagəlməz. – *Bizim hesapdar bir əyrəmçə oğlandı* (Kürdəmir); – *Bi əyrəmçə:n birini alıf qo:itdi öyə, heç adama da oxşamır* (Şəki).

**ƏYRİ** I (Ağdərə, Xocavənd, Tərtər) – əyri qısa boru, dirsək. – *Durbanın başına bir əyri keçirif döndərillər* (Ağdərə).

**ƏYRİ** II (Oğuz) – b a x **əydi.**

**ƏYRİQULAĞ** (Cəlilabad) – əqrəbin bir növü. – *Ağrəb zəhərri oley, ancəğ əyriqulağ da ağrəbdi, özi də yap zəhərri oley, adami vırandə öldürey.*

**ƏYRİMÇƏ** (Şərur) – çirkin; əyri. – *Elə əyrimçə qışdarıva yaraşır.*

**ƏYRİŞMƏXʹ** (Qax) – yaltaqlanmaq.

**ƏYYAR** (Basarkeçər) – bilikli. – *Babayi əmir ən bö:üxʹ əyyardı.*

**ƏZA-CƏZA** (Salyan, Yardımlı) – cəza, qulaqburması. – *Uşağə əza-cəza ver, özün düz aparsün* (Yardımlı).

**ƏZƏ-CƏZƏ** (Salyan) – əzab-əziyyət, zülm. – *Elə axlım kəsənnən əzə-cəzə çəkmişəm.*

**ƏZFAN: ƏZFANA GETMƏXʹ** (Füzuli) – məhv olmaq. – *Yazıx əzfana getdi naxaxca yerə.*

**ƏZGƏN** (Xanlar) – b a x **əzyən.**

**ƏZİK** (Kəlbəcər) – suvaşqanlığı az olan un. – *Unumuz çox əzikdi.*

**ƏZİNMƏK** (Ağdaş) – naz etmək.

**ƏZMAN** (Xocavənd) – beşillik qoyun.

**ƏZMƏ** (Basarkeçər, Gədəbəy, Gəncə, Qazax, Şəmkir, Tovuz) – bülöv daşı, xart daşı. – *Ay qağa, qadan alım, əzməni ver, kərəntini itiliyim* (Basarkeçər); – *Əzmiyə çəkerixʹ, pıçağın ağzı itiləner* (Qazax).

**ƏZRAĞ** (Cəlilabad) – zülmkar. – *Bir adamın kin adama rəhmi gəlmiyəndə əzrağ oley.*

**ƏZVAY** I (Ağdam, Bakı, Gəncə, Göyçay, Kürdəmir) – 1. aciz, iş bacaramayan; 2. tənbəl.

**ƏZVAY** II (Bakı, Kürdəmir, Salyan) – acıdil. – *Bizim bu Ağavərdi çox əzvaydu* (Bakı).

**ƏZVAYİŞ** (Cəbrayıl, Salyan, Füzuli, Meğri) – vəziyyət. – *Gedəcəm əzvayişnən tanış olacem, sora yazacem sizə* (Meğri); – *Oraların əzvayişi nejədi?* (Füzuli).

**ƏZYƏN** (Ağdam) – yabanı, tikanlı bitki növü.

**ƏZZAVARA** (Bakı, Salyan) – aciz. – *Mə:m əzzavara adamnan acığım gəlir* (Bakı).

**ƏZZƏLƏMƏK** (İmişli) – tapdalamaq, əzişdirmək. – *Aldı əyağının altına munu əzzələdi.*

# Ff

**FAHMA** (Salyan) – minnət, danlaq. – *Mən heç dədəmnən fahma götürməmişəm.*

**FAHMALAMMAĞ** (Salyan) – utanmaq, həya etmək. – *Nişannı qız qaynatasınnan, qaynənəsinnən fahmalanar.*

**FAHMALI** (Salyan) – 1. minnətli. – *Başqasının fahmalı surfasının başında oturmağdansa, öz halal çörəgi;* 2. utancaq, həyalı. – *Fahmalı canına canım qurban, ay bala.*

**FAXRA** (Sabirabad) – 1. bilikli, savadlı; 2. ağıllı.

**FAKİN** (Lənkəran) – müxtəlif əşya qoymaq üçün evin arxa hissəsində ona bitişik tikilən otaq, daxma.

**FALAQQA** (Salyan) – cəftə. – *Ya cəfdə, ya falaqqa ikisi də bi şeydi.*

**FALAY** (Oğuz) – aciz, əlindən iş gəlməyən, bacarıqsız. –*Sən nə falay adamsan.*

**FALDA** (Şəki) – nişastadan hazırlanmış horra. – *Faldanı öskürən adam içər.*

**FAL: FAL ÇIXARTMAĞ** (Bakı) – qovun və ya qarpızdan nümunə üçün dilim kəsmək. – *Qarpuzdan bir fal cağart, görəg necədü?*

**FAQQI** (Çənbərək, Karvansaray, Qazax) – bic, hiyləgər, fırıldaqçı. – *Fatma çox faqqı arvatdı* (Qazax); – *Əyri Səmət çox faqqı adamdı* (Çənbərək); – *Bu faqqı gədə hardan iras gəldi ma:* (Karvansaray).

**FAQQILIX** (Qazax, Ordubad) – hiyləgərlik, biclik. – *Faqqılığ eler, ona inanma* (Qazax); – *Ay qız, özü: nə üçün faqqılığa qoyursan* (Ordubad).

**FALIĞ** (Qax) – çolaq. – *Falığ adam kimi elinə ne alsa, salıp sındıriy.*

**FARAĞATDAMAX** (Mingəçevir, Şəki) – rahatlamaq. – *Malları farağatdi:f sora ge:rux işimizə* (Şəki).

**FARAŞDAMMAX** (Qazax, Şəmkir) – böyümək, iriləşmək. – *Altı ay buzoy de:rix′, faraşdananda dana de:rix′* (Qazax); – *Buzov ta: faraşdanıf, bü:nə-sava: otuxar* (Şəmkir).

**FARX** (Meğri) – qadının başında tüklərin sağa və sola ayrıldığı yer, tağ. – *Səkinanın farxı gör na qəşex′di, bibisi!*

**FARIĞ** (Şamaxı) – tağ (saçda).

**FARIŞ** (Salyan) – səhəng. – *Süzün farışu:z bizzədi.*

**FARMAC** (Şərur) – məfrəş. – *Farmacı yunnan toxuyullar, arasına da yorğan-döşək yığıllar.*

**FARMATOR** (Şəki) – ovulmuş quru tütün.

**FARŞ** (Qafan, Quba, Masallı, Sabirabad) – suqabı, güyüm. – *Farşı al git su duldur, gütür* (Quba).

**FASIX** (Çənbərək, Karvansaray) – hiyləgər. – *Ə:r düzünü xavar alırsansa, Noyruzdan fasıx adam yoxdu bu kətdə* (Karvansaray).

**FAŞIN** (İmişli) – suyun qabağını kəsmək üçün bağlanıb hazırlanan budaq, qamış və s. – *Əyə, faşın atun, su dayansun.*

**FARTIĞ** (Salyan) – 1. önlük. – *İş görəndə fartığı gey, üssün-başın təmiz qalsın;* 2. pambıq yığmaq üçün belə bağlanan torba. – *İki fartığ da pammığ töksön xaral dolacağ.*

**FATMA** (Mingəçevir) – şanapipik.

☐ **Fatma nənənin hanası** (Culfa) – qövsiqüzeh.

**FATMAQUŞU** (Gəncə) – şanapipik.

**FAYIĞ** (Bakı) – tay, bərabər. – *Qapımıza gələn helə bizə fayığ adamdu, vəriceyəm qızı.*

**FAYIŞDIX** (Cəbrayıl) – asudəlik, sakitlik. – *Get, fayışdıxda gələrsən.*

**FELBAR** (Bakı, Lerik, Şərur) – 1. çoxbilmiş; 2. hiyləgər.

**FELLƏNMİŞ** (Şəki) – çoxbilmiş. – *Yaman fellənmiş adamsan.*

**FELMAN** I (Ağcabədi) – çoxbilmiş.

**FELMAN** II (Tovuz) – aravuran, araqarışdıran arvad.

**FEYSƏL VERMƏX′** (Meğri) – yardım etmək. – *Sən elə bicəkdə feysəl ver, bu sa:t daşdarın hammısın aşırecem.*

**FƏFƏ** (Borçalı, Goranboy) – 1. bacarıqsız, küt, aciz; 2. sadəlövh. – *Hər sözə allanan adama fəfə deyillər* (Borçalı).

**FƏFİ** (Qazax) – b a x **fəfə.**

**FƏFİX′** (Başkeçid, Daşkəsən, Gədəbəy, Tovuz) – b a x **fəfə.** – *Nə fəfix′ adamsıŋ, saŋa bir iş tafşırdım onu da eləmədiŋ* (Daşkəsən); – *Ə;, sən nə fəfiy adamsan* (Başkeçid); – *Fəfiyin biri fəfix′, niyə boynunnan basıf sinəsinə çöx′mörsəŋ;* – *Fəfiy uşaxdan nə umoysuŋ sən də* (Gədəbəy).

**FƏHƏM** (Meğri) – yaddaş, hafizə, ağıl. – *Çubanda ulan fəhəm heş kimdə ulmaz.*

**FƏHƏMSÜZ** (Quba) – yaddaşsız, hafizəsiz. – *Bunun kimi mən fəhəmsüz adam gürməmişəm.*

**FƏHİM** (Tovuz) – b a x **fəhəm.**

**FƏHİMLİ** (Qusar) – hafizəli.

**FƏHİMSİZ** (Gədəbəy) – b a x **fəhəmsüz.**

**FƏHMLƏMMƏX′** (Çənbərək) – qorxmaq. – *Meşeynən təx′ gəldiyimə yaman fəhmləndim.*

**FƏLƏĞ** (Bakı) – cəftə. – *Qapının fələğni vurdun?*

**FƏLƏZDƏMƏX′** (Gədəbəy, Tovuz) – atmaq, tullamaq. – *Topu uzağa fələzdədim;* – *Sən öl, qolunnan tutuf pusa:t elə fələzdiyəjəm ki, səni eşiyə* (Tovuz).

**FƏLFƏLLƏMƏX′** (Cəbrayıl, Meğri) – qocalmaq, qocalıb əldən düşmək. – *Bala, tay qojalmışam, fəlfəllənmişəm* (Cəbrayıl); – *Xanı dayı, sən də dəy yavaş-yavaş fəlfəlliyirsən* (Meğri).

**FƏLLAX** (Qarakilsə, Şərur) – zarafatcıl. – *O, bir fəllağ adamdı* (Qarakilsə); – *Usup çox fəllağ adamdı* (Şərur).

**FƏLLİ** (Oğuz) – ləpəsi çıxarılıb yerinə qurğuşun doldurulmuş qoz.

**FƏLTƏĞƏN** (Meğri) – yaltaq, ikiüzlü. – *Yüz yol demişəm, fəltəğən adamlarnan oturub durma.*

**FƏ:MƏL-YƏ:MƏL** (Qazax, Mingəçevir) – birtəhər. – *Fə:məl-yə:məl gedif çıxajeyıx* (Qazax).

**FƏNİX′MƏX′** I (Gədəbəy, Qarakilsə, Qazax, Tovuz) – özünü itirmək, karıxmaq. – *Nə:n fənikersiŋ no:luf kun, düzələjəx′ hamısı* (Gədəbəy). – *Fənix′mə, bir şey yoxdu* (Qarakilsə); – *Zeynal çağıranda fənix′dim* (Tovuz).

**FƏNİX′MƏX′** II (Çənbərək, Karvansaray) – yorulmaq. – *Büyün oğarda işdədim, yaman fənix′dim* (Çənbərək).

**FƏR** (Gədəbəy) – cərgə, sıra. – *Neçə fər çıxıfsan <biçibsən> dan üzünnən.*

**FƏRAĞAT** (Qarakilsə) – sakit, dinməz. – *Onun ağzı fərağat durmur, çox danışır, ona gora da başı ağrı çəkir.*

**FƏRAMƏZ** (Quba) – fərsiz, bacarıqsız, qabiliyyətsiz. – *Fəraməz adam üzünə bir gün qazana bilmiyədü.*

**FƏRAŞ: FƏRAŞ VERMƏX′** (Kəlbəcər) – kömək etmək. – *Allah işinizə fəraş versin.*

**FƏRAZA** (Gədəbəy) – sözgəlişi, guya. – *Fəraza, mən səni öyrədəsi, sənde:dif arvadı döyəsi.*

**FƏRƏMƏZ** (Ağdaş, Beyləqan, İsmayıllı, Kürdəmir, Qax, Salyan, Şamaxı, Şəki, Zərdab) – b a x **fəraməz.** – *Əşi, bu lap fərəməzdi, mınnan oxıyan olmaz* (Şamaxı); – *Fərəməzin birisi, dediyim sözü yaman yerinə yetirdin* (Zərdab); – *Bi fərəməz oğlum var, heş yaxşı oxumur* (Şəki); – *Kamil çox fərəməz adamdı* (Beyləqan); – *Fərəməz oğuldansa kor qız yaxşıdı* (Kürdəmir).

**FƏRƏZƏ** I (Ağsu, Qazax, Zərdab) – məsələn, misal üçün. – *Fərəzə, o kət belə deyir, bı kət də alahı cur de:r* (Ağsu); – *Fərəzə, sən deyəsi ki, Sumanın əlinnən iş gəlmir, işi-peşəsi qapı-qapı gəzif qiybət qırmaxdı* (Zərdab); – *Fərəzə, bu işi bilmirsən, girişmə* (Qazax).

**FƏRƏZƏ** II (Ağsu, Əli Bayramlı, Tovuz) – guya, guya ki. – *Özünü elə aparır ki, fərəzə, bütün kitabı əzbərdən bilir* (Əli Bayramlı); – *Fərəzə, sən də adamsan* (Tovuz).

□ **Fərəzə günə çıxmax** (Kürdəmir, Salyan) – xoş günə çıxmaq, xoşbəxt olmaq. – *Uşaxları fərəzən günə çıxıf* (Kürdəmir); – *Sənə qoşulannan fərəzən günə çıxıb* (Salyan).

**FƏRƏZƏN** (Meğri, Salyan, Bakı) – tutaq ki. – *Fərəzən, biz dimmədix′, sizin adamlığı:za nə gəlip* (Meğri).

**FƏRİX′** I (Naxçıvan, Ordubad, Zəngilan) – fərə. – *Fəriyimiz yumurtuya düşüf* (Zəngilan); – *Fərix′ üç aydan so:ra doğar* (Ordubad); – *Fərix′ so:ra toyux olur* (Naxçıvan).

**FƏRİX′** II (Başkeçid, Borçalı, Gədəbəy, Qazax) – bacarıqsız, aciz. – *Ə:, sən nə fərix′ adamsan* (Borçalı); – *Fəriyin biri fərix′, niyə boynunnan basıf sinəsinə çöx′mürsən* (Gədəbəy).

**FƏRİŞDƏ** (Quba) – körpə, uşaq.

**FƏRİŞTƏ** (Quba) – b a x **fərişdə.**

**FƏRMƏŞ** (Şəki, Lerik) – paltar sərilən (qurumaq üçün) yer. – *Partalları fərməşə sərdilər* (Şəki).

**FƏRŞ** I (Naxçıvan, Ordubad, Şərur, Zərdab) – döşəmə. – *Fərş simetdən, torpaxdan, taxdadan olur* (Naxçıvan).

**FƏRŞ** II (Qazax, Zərdab) – tavan.

**FƏRŞ** III (Ağdam, Bərdə, Naxçıvan, Ordubad) – döşəməyə salınan xalça, palaz; böyük palaz. – *Fərşi biz yunnan, irəngli ifdən toxuyurux* (Bərdə); – *Yerə fərş salırıx* (Ordubad).

**FƏRŞ** IV (Zərdab) – tir.

**FƏRŞ** V (Naxçıvan) – dərinlik. – *Əriy ağacı bırda çox yaşamır, yerin fərşinə getmir.*

**FƏRŞ** VI (Bakı) – b a x **farş.** – *Fantaldan qızdar fərşnən çiyinnərində su daşıyıllar.*

**FƏRZ: FƏRZƏ YETMƏX′** (Daşkəsən) – təngə gəlmək. – *Dərd əlinnən daha fərzə yetmişəm.*

**FƏSİG** (Biləsuvar) – kəkliyə bənzər quş adı.

**FƏŞƏRRIX** (Qax) – maneçilik.

**FƏŞMİ** (Goranboy) – əsas, qanun. – *Sənin sözün mã: fəşmi döyül.*

**FƏLLAX** (Şərur) – ayıq. – *Üsup çox fəllax adamdı.*

**FILIX: FILIX QALMAX** (Qazax) – yetim qalmaq. – *Səni göröm filıx qalasan.*

**FINCILIXLAMAX** (Şərur) – qaçmaq.

**FINDIĞÇA** (Bakı) – yeməli bitki adı.

☐ **Fındığça çalmağ** – çırtıq çalmaq, barmaqları bir-birinə sürtməklə səs çıxarmaq.

**FINDIXCA** (Şərur) – səliqə ilə barmaqların başına qoyulan xına.

**FINDIXSALDI** (Qazax, Şəmkir, Tərtər) – səsvermə üsulu (keçmiş zamanda). – *Fındıxsaldıda hansı tərəfin findığı çox çıxseydi, o tərəfin adamı seçilirdi, timsalı kətxuda olurdu* (Şəmkir).

**FINDIL: FINDILINA DƏYMƏX′** (Füzuli) – xatirinə dəymək, qəlbinə toxunmaq.

**FINTIR** (Ağcabədi) – alaq otu adı.

**FIR** (İmişli) – həvəs. – *Bi dəfə firım gəlmişdi, onda da əvdə olmadın.*

**FIRAL** (Tovuz) – dərhal. – *Rasim firal geri qayıtdı.*

**FIRÇIX** (Qazax) – yaltaq.

**FIRHARI** (Salyan) – ərköyün. – *Zahirin balaları firharıdı.*

**FIRIX** (Qax, Zaqatala) – qoz çırpmaq üçün ağac.

**FIRILDAX** (Bərdə, Şuşa) – fırfıra. – *Fırıldağı ağaşdan qayrıllar;* – *Fırıldağı şallaxnan vurullar* (Şuşa).

**FIRILDATMAĞ** I (Bakı) – 1. sürətlə ötüb keçmək. – *Maşını yanımnan fırıldadıb keşdi;* 2. atmaq, tullamaq; – *Sumkasını divanın üstünə fırıldatdı.*

**FIRILDATMAĞ** II (Bakı, Salyan) – tez satmaq. – *Göyərtini beş dağəyə fırıldatdım getdi* (Bakı).

**FIRILLAMAĞ** (Salyan) – 1. əsib coşmaq. – *Gənə fırıllıyırsan, diyəsən, davalığın çatıb;* 2. sürətlə ötüb keçmək; – *Nüşabə fırıllıyıb yanımızdan keçdi.*

**FIRINNIĞ: FIRINNIĞ ELEMEG** (Bakı) – qudurğanlıq etmək. – *Bibelə fırınnığ eləmeginən.*

**FIRIŞ** (Salyan) – qalaq, topa. – *Bazarda yemiş-qarpız fırış vırılıb, alana minnətdi.*

**FIRITDAMAX** (Borçalı, Çənbərək, Qazax, Laçın) – b a x **firitdəməx′.** – *Aşıralı camahatı fırıtdadı dalaşdıdı* (Çənbərək); – *Sənin ağlın olsa fırıtdamağa baxmarsan* (Laçın).

**FIRIT: FIRIT VERMƏX′** (Borçalı, Qazax) – qızışdırmaq. – *Lətif fırıt verir, adamları birbirinə qatır* (Borçalı).

☐ **Fır kəhlix′** (Kəlbəcər) – quş adı. – *Fır kəhlix′ hündüşqa boydadı.*

**FIRMƏLƏ** (Cənubi Azərbaycan) – yeldəyirmanının pəri. – *Fırmələ yerə düşdü.*

**FIRNI** I (Bolnisi, Borçalı, Qazax, Tovuz) – təndir. – *Onu qavaxcan daşnan hörüllər, fırnıyı hörüllər* (Borçalı).

**FIRNI** II (Daşkəsən, Şəmkir, Tovuz) – çörək növü. – *Külfədə firnı da pişer, nəzix′ də;* – *Tafşırmışam firnı pişirsin* (Şəmkir); – *Fırnı kürsüdə bişey* (Daşkəsən).

**FIRRAMA** (Oğuz) – bütöv şəkildə təndirdə bişirilən induşqa və ya qovun. – *Fırrama yiməli şeydi.*

**FIRRAMAX** (Şəmkir) – şişmək.

**FIRRAMMAX** (Borçalı) – b a x **fırramax.** – *Çivan əvvəl firraner, soŋra deşiler.*

**FIRRANQUC** (Salyan) – uşaq oyunu adı. – *Ədə, firranquc oynama, başın gicəllənər.*

**FIRTDAMAX** (Qazax) – b a x **firitdəməx′.** – *Sən də firtdersəŋ kı, uşax biri-birinən boğuşsun.*

**FISILDAN** (Meğri) – balaca, kiçik. – *Bu arxı bareyə Şirindilin u fısıldan uğli cüt quşey.*

**FISILLIX** (Xanlar, Qazax, Tovuz) – b a x **fızıllıx.** – *Üzbaş talası fısıllıxdı, ordan çətin keçməy olar* (Xanlar).

**FISİTMƏG** (Yardımlı) – pıçıltı ilə demək, söyləmək. – *Fısidey, bilmeysən nə dey.*

**FIŞ** (Oğuz) – tamamilə, bütöv. – *İlan fış qabıqdan çıxıb.*

**FIŞQA** (Zəngilan) – fit. – *Fışqa ver qəyitsinnər.*

☐ **Fış vurmax** (Xanlar) – qışqırtmaq. – *İtdərə fış vurun sürünü canavar dağıtmasın.*

**FITDIRİY** (Qax) – fit.

**FIYXIRMAĞ** (Salyan) – fəvvarə vurmaq. – *Bıçaq barmağımı nə tə:r kəssisə, qan fıyxırdı.*

**FIZILLIX** (Ağdam, Göyçay, İmişli, Qazax, Mingəçevir, Şəki, Şuşa, Tovuz, Ucar, Zaqatala) – qalın kolluq. – *Qavax bı yerrər ağaşdıx oluf, fızıllıx oluf* (İmişli); – *Elə fızıllıxlar var, donquza hay disən girməz* (Şəki); – *Fızıllıxda kol çox piter* (Qazax); – *Donquz fızıllığa girdi* (Ucar).

**FIZZAX** (Ağdaş) – fırfıra. – *Fızzax qozdan da olur.*

**FİD: FİD OLMAX** (Borçalı) – qurban olmaq.

**FİĞANNIĞ ELƏMƏG // QOPARMAĞ** (Bakı, Salyan) – qalmaqal salmaq, fəryad qoparmaq. – *Zərxanımın payın saxlamaso:z, gəlib fiğannığ qoparacağ* (Salyan); – *Əşi, sənə nə dedilər fiğannığ eli:rsən?* (Bakı).

**FİKİRRİ** (Qax) – nigaran. – *Bi yaz bizdən fikirri olmamağa ho bəsdi.*

**FİL** I (Salyan) – kələk, hiylə. ◊ **Fil gəlməg** – kələk gəlmək. – *Ədə, mə: fil gəli:sən?*

**FİL** II (Cəbrayıl) – sap sarınan çarx, makara. – *Nənə, sapın fillərin ver mə:, oynadacam.*

**FİL** III (Ağcabədi, Bərdə) – fırfıra. – *Uşaxlar fil oynadıllar.*

**FİLDAR** (Ağbaba) – çoxbilmiş. – *O, yaman fildar adamdı.*

**FİLƏKGÖTÜQAÇ** (Salyan) – oyun adı.

**FİLFİLİ** (Çənbərək) – ağılsız, yüngülxasiyyət. – *Mənim filfili adamnan peydar zəhləm gedi.*

**FİLFORİ** (Bakı) – birdən, qəfildən.

**FİLİTDƏMƏK** (Salyan, Şərur) – qızışdırmaq, aranı qarışdırmaq. – *Gədəni anasınnan ayrılmağçün filitdi:r* (Salyan).

**FİLİNTİ** (Laçın) – qoca, iş qüvvəsini itirmiş. – *O filintidi, yük apara bilməz.*

**FİNDİFURUŞ** (Bakı, Salyan) – ədabaz, lovğa. – *Qo:şunun oğlu yaman fintifuruş uşağdı* (Salyan).

**FIRRAX** (Mingəçevir) – kiçik, xırda qoz.

**FİLMAN** (Bərdə, Qazax) – b a x **felman** I. – *Sən filman adamsan* (Bərdə).

**FİLORİ** (Lənkəran) – tələsik.

**FİLTİX′-FİLTİX′** (Tovuz) – cırıq-cırıq. – *Uşax paltarı filtix′-filtix′ eli:f.*

**FİNDAH** (Cəbrayıl, Qubadlı) – eynilə, tamamilə. – *Pəri findah nənəsinə oxşıyır* (Qubadlı); – *Əli findah dədəsidi* (Cəbrayıl).

**FİNG** (Naxçıvan) – pencəyin qolunun ağzı. – *Pencəyin fingi cırıxdı.*

**FİNİL** (Göyçay) – isti köynək. – *Ay cici, mə: finil almiya:ssan?*

**FİRÇİN** (Xaçmaz, Quba) – yuxayayan, üstündə xəmir yayılan taxta. – *Firçində yuxa, lavaş yayadular* (Quba).

**FİRƏX′** (Qazax) – b a x **firəng** I.

**FİRƏNG** I (Qazax, Tovuz) – qatlanmayan iri bıçaq. – *Ay qız, firəngi götür, bu soğannarı soy, doğra* (Qazax); – *Firəngi maŋa ver* (Tovuz).

**FİRƏNG** II (Şərur) – kibrit.

**FİRƏNGİ** I (Ağbaba, Başkeçid, Bolnisi, Borçalı, Çənbərək, Gədəbəy, Qazax, Tovuz) – b a x **firəng** I. – *Firəngiyi mã: veriŋnən doğro:m çörəyi* (Gədəbəy); – *Firəngiyi gəti, çörəi doğra* (Borçalı).

**FİRƏNGİ** II (Şərur) – b a x **firəng** II. – *Spişqa da deyirix′, firəngi də, alışqan da, kibrit də deyirix′.*

**FİRƏNGİ** III (Salyan) – düyün növü (bağda, ipdə).

**FİRİŞTƏ** (Salyan) – nadinc, dəcəl. – *Allah saxlamış, firiştə uşağdı.*

**FİRİTDƏMƏX′** (Salyan) – qızışdırmaq. – *Altdan-üsdəŋ firitdiyip ötürüp üsdümüzə.*

**FİRQƏNDƏ: FİRQƏNDƏ VƏRMEG** (Bakı) – yeni üzüm tənəyi almaq məqsədi ilə yerə tənək zoğu basdırmaq (zoğ tənəkdən ayrılmır). – *Paizdə bir şani me:nəsini*

*firqəndə eləmişdim, bi:l ələ yaxşı bər vərdi ki, keyfün isdiən kimi.*

**FİRO:N** (Bakı, Salyan) – ərköyün. – *Kamil çox firo:ndu; – Uşağı gərəg firo:n saxlamıyasan* (Bakı).

**FİRRƏK** (Mingəçevir) – b a x **firrax.**

**FİŞDIRIĞ: FİŞDIRIĞI GƏLMEY** (Bakı) – kefi kök olmaq. – *Fişdırığun gəlsün, ay Nadir.*

**FİŞDURUĞ** (Yardımlı) – fit. – *Fişduruğun ölüə nə zərəri var.*

**FİTAT** (Göyçay, Salyan) – xalis, təmiz. – *Fitat yağ yiməli olar, dadlı olar* (Salyan).

**FİTATDAMAX** (Çənbərək, Karvansaray) – qurtarmaq. – *Bir həftədə qoyun qırxıldı, fitatdandı, quzi qırxılajax da: innən belə* (Çənbərək).

**FİTDƏMƏXʹ** (Mingəçevir, Şəki) – b a x **firitdəmək.** – *Ha fitdədi, bir şey çıxmadı* (Şəki).

**FİTDİLİK** (Salyan) – fışqırıq. – *Nağadə fitdilik verdim, eşidənnəri olmadı.*

**FİTİLLƏMƏG** I (Bakı, Yardımlı) – getmək, aradan çıxmaq. – *Helə ki gördi gəlirəm, fitilliyib aradan çıxdi* (Bakı).

**FİTİLLƏMƏG** II (Salyan) – sürətlə getmək. – “*Jiquli*”*mə minib fitillədim şə:rə sarı.*

**FİTƏXʹ** (Cəlilabad) – bağırsaqdan hazırlanmış qamçı. – *Gördüm, Əli fitəxʹnən döyey atı.*

**FİTNƏFİS** (Salyan) – şey, əşya. – *Dünən gəldim, öydə bi dənə fitnəfis tappadım.*

**FORA** (Qazax) – qadın paltarı adı. – *Foruyu tixʹsin, xavar eləsin.*

**FOS** (Gədəbəy) – boş. – *Fosdu içi, üzü elə olduğuna baxmağınan bileyrim mən; – Çox fos yığılıf burya qardalı şaxı.*

**FOT** (Şamaxı) – içi boş, çürük, xarab (qoz). – *Bı qozzarın hamısı fotdı.*

□ **Fota getmək** (Bakı, Salyan) – məhv olmaq. – *Uşağ heç nədən fota getdi* (Salyan).

**FUĞAN** (Salyan) – yonucu dülgər aləti. – *Fuğa:n ağzı ensiz olur.*

**FRƏNG** (Goranboy, Qazax, Tovuz) – b a x **firəng** I.

**FUQAN** (Çənbərək) – iri rəndə. – *Taxdıyı fuqannan sıyırdım.*

**FULLATMAĞ** (Dərbənd) – atmaq, tullamaq. – *Bilmədün, fullat gitsin.*

**FUTİ** (Zaqatala) – b a x **fot.** – *Habu qozdarın hamısı futidi.*

# Gg

**GABAÇ** (Dərbənd) – buynuzsuz (keçi). – *Mənün bir gabaç kəçüm vardi, teregdə bir yarpağ quymeyeydi.*

**GADAY** (Dərbənd) – təzə doğulmuş keçi balası.

**GADREG** (Tabasaran) – taxtabiti. – *Gadreg helesi şeydü ki, adami sabahacan yatmağa qoymeydü.*

**GAF** (Borçalı, Tovuz, Şəmkir) – b a x **gap.** ◊ **Gaf eləməxʹ** – b a x **gap eləməxʹ.** – *Getdixʹ gördüxʹ orda adam yığılıf gaf ele:llər* (Borçalı).

**GAFA** (Yardımlı) – bəlkə, ola bilsin ki. – *Gafa gedib, sənin xəbərün yoxdu.*

**GAFCIL** (Tovuz, Yevlax) – b a x **gapcıl.** – *İsgəndər kişi gafcıl adamdı* (Yevlax); – *Kalvə:li kimi gafcıl adam kəndimizdə tapılmaz* (Tovuz).

**GAĞ** (Basarkeçər) – kiçik otlaq. – *Atam gağe:tdi.*

**GAHAL** (Qazax) – tənbəl.

**GAHGİR** (Yardımlı) – hərdənbir, arabir. – *Gahgir gedey baxey.*

**GAHKİR** (Dərbənd) – bacarıqsız, əfəl.

**GAHLI** (Zaqatala) – qatlı. – *Gahlı arxalıx.*

**GAHVAR** (Masallı) – b a x **gavar.**

**GAL** (Dərbənd) – qoyun cinsinin adı. – *İstəyən kişi Ağul rayununnən üzüçün gal gətirədü.*

**GA:L** (Naxçıvan) – b a x **kal** I. – *Əhməd, sən çox ga:l adamsan ha!*

**GALALİ** (Bakı) – narın kəsilmiş yerində əmələ gələn qaramtıl rəng.

**GALLA** (İmişli) – dəvə sürüsü.

**GALLADAR** I (Cəbrayıl, Qazax) – b a x **kalladar** I.

**GALLADAR** II (Laçın) – işgüzar (adam).

**GALLADAR** III (Qazax) – b a x **kalladar** II.

**GALLAH** I (Bakı, Quba) – başlı-başına. – *Ati gallah bıraxıb, otdi:r* (Bakı).

**GALLAH** II (Çənbərək, Qazax) – b a x **kəllah.** – *Potuyu gallaha qatıf Fərzalı otarır* (Çənbərək).

**GALLAHAN** (Qazax) – üç tərəfi örtülü, bir tərəfi açıq (tikinti).

**GALLAH-GALLAH** I (Quba) – başlı-başına. – *Heyvannar gallah-gallah utdiyədü.*

**GALLAH-GALLAH** II (Quba) – 1. topa-topa, dəstə-dəstə; 2. hissə-hissə.

**GALLAVAR** (Qazax) – nəhəng və kobud (adam).

**GALVAN** ( Qazax) – üç tərəfi örtülü, bir tərəfi açıq (tikinti).

**GAM** (Meğri) – b a x **kəm** IV.

**GAN** (Qax) – üstündə xəmir yoğurulan dəyirmi taxta.

**GANAŞMAX** (Ağdam, Borçalı) – məsləhətləşmək.

**GANC** (Quba) – körpə gicitkən. – *Bizim yerrərdə ganc çux ular.*

**GAP** (Ağcabədi, Ağdam, Füzuli, Qazax, Tovuz) – söhbət. ◊ **Gap eləməxʹ** – söhbət etmək. – *Bir sa:t gap eləsəxʹ bəsimizdi* (Qazax).

**GAPAT** (Masallı) – paltar.

**GAPBAN** (Şərur) – iri və ağır çəkic.

**GAPCIL** (Borçalı) – söhbətcil. – *Oruc əmi gapcıl adamdı.*

**GAPLAŞMAX** (Borçalı) – söhbət etmək. – *İndi biz dağe:dəjeixʹ, gə birəz gaplaşax.*

**GAR** (Xaçmaz, Quba) – b a x **kar** II. – *Gar bozdamac, çüreg pişirmegçündü* (Quba).

**GARBIT** (Culfa, Şərur) – yun palaz.

**GARGUBIT** (Meğri) – kobud. – *Şıxavızlı Lalazar bir gargubıt adam idi, hamma yəxşi duslığı var idi.*

**GARRAF** (Çənbərək, Qazax) – ağac mala. – *Böyüxʹ bir taxdeyi hər iki ujunnan deşif boyundurux yoğunnuğunda ağaşdar keçirerixʹ, ona garraf de:rixʹ, ona ulax qoşuf yer, xırman düzdö:rüxʹ* (Qazax).

**GARRAFLAMAX** (Qazax) – ağac mala ilə şumlanmış yeri hamarlamaq, düzəltmək.

**GARUŞ** (Quba) – yastıdaban qadın ayaqqabısı. – *Hindi garuş giymiyəduğ, ulmiyədü.*

**GÃ:ŞIX** (Cəbrayıl) – məsləhət.

**GÃ:ŞMAX** (Cəbrayıl, Zəngilan) – b a x **gaŋaşmax.** – *İş-işdən keçənnən soŋra gəlif gã:şırsan* (Zəngilan).

**GAV** I (Ağcabədi, Çənbərək, Gədəbəy, Qazax) – uçurum, sıldırım. – *Əli, malıyözdə, gavdan uçurdarsaŋ ha!* (Gədəbəy).

**GAV** II (Basarkeçər, Tərtər) – qaramalı boynundan bağlamaq üçün yarımdairəvi ağac. – *İnəyi gavnan bağla, boğular* (Tərtər).

**GAVAX** (Ordubad) – xışın ucunu əymək üçün alət. – *Hər əkin vaxdı biz xışdarın ucunu gavaxnan əyirix′.*

**GAVANGİR** (Bakı) – üzüm növünün adı.

**GAVAR** (Bakı, Cəlilabad, Quba) – gərək ki, deyəsən. – *Əli, gavar, kəndə gedib* (Bakı); – *Gavar, Mö:lüd kişi şə:rə gidmağa hazırraşadı* (Quba); – *Gavar, onu zirdəss <həbs> elədilər* (Cəlilabad).

**GAVİD** (Borçalı) – balıq növünün adı. – *Gavid balıx qızıl balığınnan yöndü.*

**GAY** (Şərur, Zəngilan) – gic, ağılsız.

**GAZAL** (Göyçay, Qarakilsə) – qozun və ya fındığın yaşıl qabığı. – *Cəvizin gazalı uşaxların ələ:ğin <əl-ayağın> qafqara eliyif;* – *Gazaldan ip də boyyurux* (Qarakilsə).

**GECƏB** (Cəbrayıl, Zəngilan) – enliyarpaqlı yabanı bitki növü. – *Gecəb bişmişi daddı eli:r* (Zəngilan).

**GECƏÇIRAĞI** (Culfa, Ordubad) – gecələr işıq verən, parıldayan böcək. – *Gecəçırağı çəpərdə çox olar* (Ordubad); – *Gecəçırağı gecələr işıx verər* (Culfa).

**GECƏGƏZƏN** (Dərbənd, Xaçmaz, Quba) – yarasa. – *Gecəgəzən əxşamlar uçadu, unun güzi günüz görmiyədü* (Quba); – *Gecəgəzən işiqdən qurxadı* (Dərbənd).

**GECƏ-GÜNDÜZ** (Borçalı) – bax **gejə-gündüz** II.

**GECƏQUŞİ** (Cəlilabad) – yarasa.

**GECƏQUŞU** (Cəbrayıl) – bax **gecəquşi.** – *Bizim pə:mizdə gecəquşu yaman çoxdu.*

**GECİ** (Zaqatala) – bax **keji.** – *Gecini günəşdə quruduram.*

**GED** I (Borçalı) – əlağacı.

**GED** II (Zaqatala) – qoyun və keçinin boğazından sallanan vəzlər.

**GEDAX** (Kəlbəcər) – balaq, camış balası.

**GEDEG** (Quba) – bax **gedax.** – *Gedeg uladu gomşu balası.*

**GEDEX′** (Şəki) – bax **gedax.** – *Sifdə olannan bir illığa kimi gedex′ diyəllər, bö:yəndə kəlçə.*

**GEDƏX′** (Şəki) – bax **gedax.**

**GEDƏLƏŞMƏX′** (Meğri) – mübahisə etmək, sözləşmək. – *Qudurətnən qərdəşi gedəlşirdi.*

**GEDİG** (Bakı) – kəm, əskik, az. – *Bı lap ağıldan gedigdü.*

**GEDİŞMƏX′** (Kəlbəcər, Tovuz) – mübahisə etmək, sözləşmək. – *Bınnan biz maşı:n üsdündə gedişdix′* (Kəlbəcər).

**GEGEY** (Dərbənd) – şin. – *Habular arabanın gegeyləridir.*

**GEHRƏ** (Meğri) – vəlin bir növü. – *Qoy xomar döngəni gehriyə qoşsun örgəssin.*

**GEİŞMAĞ** (Quba) – bax **ganaşmax.** – *Büyüglərnən hər şeyi geişmağ yaxşı şeydü.*

**GEJDƏN** (Gəncə, Qazax, Şəki, Şəmkir, Tovuz) – səhər tezdən. – *Laf gejdən sizə:lejəm* (Qazax); – *Gejdən hamı işə ge:r* (Şəki).

**GEJƏ-GÜNDÜZ** I (Ağcabədi) – uşaq oyunu adı. – *Uşağın biri deir: "Gejə", onda "gündüz"* ("gündüz" adlı uşaq qrupu) qaçır, "gejə" ("gecə" adlı uşaq qrupu) tutur.

**GEJƏ-GÜNDÜZ** II (Şuşa) – ipək parça növü. – *Müşküla gejə-gündüzdən don geif.*

**GEJƏLİX′** (Hamamlı, Qazax) – gejə geyilən qalın tüklü papaq. – *Gejəliyi ver maŋa, qoyajam başıma* (Qazax).

**GEJO:XDU** (Qazax) – gecə vaxtı.

**GELİNBARMAĞI** (Dərbənd) – armud növü. – *Gelinbarmağı büzdə az uladu, uni sumkeynən, turboynən gətirədüg.*

**GELİNQİRQİÇİ** (Dərbənd) – yeməli yabanı bitki adı. – *Uturan yərdə duyincə gəlinqirqiçi yidüg.*

**GELİNSƏRÇƏ** (Qax) – şanapipik.

**GELLAH** (Bakı) – genişlik, açıqlıq.

**GELMACI** (Qax) – gəlinbacı. – *Gelmacı, ay gelmacı, qorığa dana tüşüp, dirrigi yiyəcaxdı.*

**GEŋƏŞİX′Lİ** (Tovuz) – məsləhətli. – *Geŋəşix′li görülən şey noxsansız olur.*

**GEŋƏŞMƏX′** (Tovuz) – bax **gaŋaşmax.** – *Qoy bu məsələyi bir-iki adama geŋəşim, görəx′ nə deyillər.*

**GEŋGƏLAŞ** (Oğuz) – gəndalaş.

**GEŋİMƏX′** (Ağdam, Ağdərə, Borçalı, Gədəbəy, Gəncə, Xocavənd) – uzaqlaşmaq. – *Sən hara geŋiyif gedirsəŋ?* (Xocavənd); – *Qarmax inəx′ geŋiyif, harye:difsə görümmer heş* (Gədəbəy); – *Bəylər bu kəddən geŋidi* (Borçalı).

**GEŋİŞMAX** (Şəki) – bax **gaŋaşmax.** – *Öydə də bi geŋişim, görax nə diyillər.*

**GEŋİTMƏX′** (Tovuz) – 1. uzaqlaşdırmaq. – *O it xeyirriyə ulamır, onu geŋitməx′ lazımdı;*

2. genişləndirmək. – *Mağarı bir bekara geŋitməx′ lazımdı, çama:tı tutmaz.*

**GEŋRİNGİ** (Qazax) – azca gen.

**GER** (Yardımlı) – alaq otu.

**GE:R** (Lənkəran) – qaşqaldaq. – *Atam mənçün ge:r vırıb gətirib.*

**GERÇƏN** (Şərur) – yabanı yağlı bitki növü.

**GEREKÇAĞLU** (Tabasaran) – keyfiyyətli. – *Qurbanü papaği gerekçağlu tikilütdü.*

**GE:Rİ** (Şəki) – başqa, qeyri. – *Sənnən ge:ri bizim kimimiz var.*

**GERMİC** (Cəlilabad, Yardımlı) – isti cənub küləyi. – *İki gündi germic əseydi, isdi germic* (Cəlilabad).

**GEŞ** (Şəki) – qamışlıqda bitən nazik və uzun ot (bafa bağlamaq üçün istifadə olunur). – *Geş qamışın içində bitir;* – *Geşnən bənnəm olur.*

**GEŞGAN** (Mingəçevir) – gicitkən.

**GEŞSİN** (Naxçıvan) – gec. – *Olar kətdə geşsin olullar.*

**GEV** (Culfa) – kürəkən. – *Gev qızımın ərinə di:rəm.*

**GEVAZAN** (Laçın) – kotanı dərinə endirən və yuxarı qaldıran yiv. – *Gevazan qırıldı, iş qaldı.*

**GEYİY: GEYİY OLMAX** (Meğri) – gəzib yorulmaq. – *Gədələ geyiy oldula bı yamaşlarda.*

**GEYMƏ** (Başkeçid, Borçalı, Cəbrayıl, Göyçay, Qazax, Ordubad) – yarımpalto. – *Nədir mağazinnən geymə aldı* (Qazax); – *Mə:m təzə geymən var* (Borçalı).

**GEYVƏT** (Şəmkir) – içərisinə ot və ya saman qoyularaq çul əvəzinə işlədilən naxışlı palaz. – *Geyvət öküzdən ötrüdü, özü də naxışdı.*

**GEZAZDIRAN** (Şəki) – buğaya gəlmə vaxtını bir il ötürən. – *Hö:r vaxdını keçirənə diyərıx gezazdıran.*

**GEZƏ** (Dərbənd) – külüng. – *Mustafa gezeynən daş çixartub əv tikədü.*

**GEZNƏ** (İsmayıllı) – gicitkən. – *Əllərimi geznə daladı.*

**GƏBƏ** (Dərbənd) – ot topası, qotman. – *Çalınmiş uti yığallar gəbələrə.*

**GƏBƏX′LİX′** (Ağcabədi) – köynəyin yaxasına tikilən köbə. – *Gəbəx′lix′ yaxanı qoymur cırılmağa.*

**GƏBƏŞ** (Cəlilabad, Kürdəmir) – enli və sallahqarın. – *Bı gəbəş sarıkürən qoyun kimindü?* (Kürdəmir).

**GƏC** I (Ordubad) – b a x **gəj** I. – *Gəc daşdı, onu torpağın altınnan çıxardıllar, pişirillər.*

**GƏC** II (Naxçıvan) – lavaş yapmaq üçün alət.

**GƏDƏ** (Çənbərək) – alaçıq (dəyə) tikmək üçün istifadə olunan çubuq. – *Gədəsi yetmədi də:nin.*

**GƏDƏX′** (Ağdam, Ağcabədi, Bərdə, Qazax) – b a x **gedax.** – *Gədəx′ camışı əmdi* (Qazax).

**GƏDƏX′LİX′** (Ağcabədi) – balaq saxlanılan yer. – *Gədəyi gədəx′liyə sal.*

**GƏDƏK** (İsmayıllı, Qax, Ucar, Zərdab) – b a x **gedax.** – *Bu il gədəyimiz çox arıx oldu* (Qax).

**GƏDƏQIZ** (Qax) – fərsiz, bacarıqsız.

**GƏDƏY** (Laçın) – b a x **gedax.**

**GƏDİG** (Əli Bayramlı, Salyan) – b a x **gədik.**

**GƏDİK** (Ordubad) – aşırım, dağ keçidi. – *Biz bu gün dağın gədiyinnən aşırdıx.*

**GƏDİR** (Qax) – dağ keçisinin balası.

**GƏFİ** (Yardımlı) – kimi, tək. – *Bunı sənun gəfi eley.*

**GƏGİR** (Cəlilabad, Yardımlı) – kəsilmiş ağacdan qalxan pöhrə. – *Gəgiri gətirib Vaqif, özi də eşşəynən* (Cəlilabad).

**GƏHƏNŞAŞİ** (Quba) – toydan əvvəlki məsləhət məclisi. – *Yığıluban gəhənşaşi uladu, gəhənşaşidə razuluğ vərədülər ki, büyük tuy ulsun, kiçik tuy ulsun.*

**GƏHGİR** (Kürdəmir, Qazax, Oğuz, Tovuz) – b a x **gəkgir.** – *Gəhgir at kimi niyə yeriŋnən tərpənmersəŋ, dur sən də bir iş gör da:* (Qazax).

**GƏİŞİG** (İmişli) – b a x **gã:şıx.** – *Axşam getdim əmimin yanına gəişigə.*

**GƏJ** (Qazax, Şəmkir, Tovuz) – 1. əhəng daşı; 2. əhəng daşından hazırlanan suvaq məhlulu.

**GƏJƏLLİX′** (Qafan) – yamaclıq. – *Mallar gəjəllix′də otdıyır.*

**GƏJMİR** (Qazax) – çox arıq adam. – *Gəjmir uşax yesə kökələr.*

**GƏKGİR** (Hamamlı) – tərs. – *O, gəkgir adamdı.*

**GƏKGİRRİXʹ** (Hamamlı) – tərslik. – *Gəkgirrixʹ eləmə ə:, yekə oğlansaŋ.*

**GƏLBƏRİ** (Ordubad) – xışda, kotanda və s. boyunduruqla qolu birləşdirən zəncir və ya kəndir. – *Kotan sürəndə gəlbərini qırıblar.*

**GƏLDİ** (Oğuz) – gəlir, mədaxil.

**GƏLDİGEDƏR** (Meğri, Ordubad) – şadara. – *Məxʹdəbin gəldigedərin Mirzəgil aparıp torpağ ələsinnər* (Meğri).

**GƏLƏ** (Oğuz) – daşdan tikilmiş qoyun tövləsi.

**GƏLƏNBEÇÇƏ** (Naxçıvan) – gələn kimi. – *Qalxoz sədri gələnbeççə iclas başlandı.*

**GƏLƏNVARIN** (Cəbrayıl) – hanada işlənən ağac alət. – *Bı hananın gələnvarını yaxşı işdiyir.*

**GƏLƏŞMAĞ** (Dərbənd) – toydan əvvəl məsləhətləşmək, məsləhət üçün yığışmaq. – *İmnəti Əhəd patşaha gələşmağçin cama:tı çağırdılar; – Gələşmağdan so:ra gəlin görmağa gitədilər bizdə, so:ra paltar gitədi, unnan so:ra toya hazırraşadılar.*

**GƏLƏZ** (Qax) – b a x **kələz.**

**GƏLGƏL** I (Əli Bayramlı, Göyçay, İsmayıllı, Kürdəmir, Şamaxı) – 1. suqabı (Əli Bayramlı, Göyçay, Kürdəmir, Şamaxı). – *Gəlgəlnən bir suvi aşırdım* (Kürdəmir); 2. kiçik sərnic (İsmayıllı). – *Güllü gəlgəli ver, qoyunu sağım.*

**GƏLGƏL** II (Hamamlı) – kiçik araba. – *Haravanın balacası gəlgəldi, böyüyü seldi;* – *Gəlgəlnən ensiz yollarda yük aparrıx.*

**GƏLGƏL** III (Tərtər) – boyunbağı. – *Gəlgəl qızıldan olur.*

**GƏLGƏL** IV (Lənkəran) – uşaq döşəyi.

**GƏLİN** (Qazax) – cəhrədə iy keçirilən yer.

**GƏLİNALLADAN** (Salyan) – mədəcik (heyvanlarda). – *Zərxanım, apar o gəlinalladanı təmiz yuğınan.*

**GƏLİNANASI** (Goranboy) – yabanı bitki adı. – *Gəlinanası gicitkən kimi olur, ancax dalamır.*

**GƏLİNBARDAĞI** (Bakı, Quba) – şərbət qabı. – *Gəlinbardağıynən qabağ tuyda şərbət paylayardılar* (Quba).

**GƏLİNBARMAĞI** I (Göyçay, Sabirabad, Şamaxı) – yeyilən yabanı bitki adı. – *Gəlinbarmağı yeyirsənmi?* (Sabirabad).

**GƏLİNBARMAĞI** II (Bakı) – üzüm növü adı.

**GƏLİNBOĞAN** (Borçalı, Gədəbəy, Qazax, Şəmkir, Tovuz) – mədəcik (heyvanlarda). – *Gəlinboğanı təmizdiyincə zarə:ldi arvat* (Gədəbəy).

**GƏLİNƏRTDƏMƏZ** (Zərdab) – mədəcik (heyvanlarda). – *Gəlinərtdəməzi təmizdəmək çətindi.*

**GƏLİNSOLTAN** (Ağsu, Mingəçevir) – ərin qohumları tərəfindən gəlinə müraciət zamanı işlədilən söz.

**GƏLİNÜFÜRMƏZ** (Kəlbəcər) – çox quru və tez yanan odun. – *Bu lap gəlinüfürməz odundu.*

**GƏLİNYITDAMAZ** (Mingəçevir) – b a x **gəlinərtdəməz.**

**GƏLİNYÜMƏZ** (Daşkəsən) – mədəcik (hayvanlarda).

**GƏLLAH** (Meğri) – maldar, çoxlu mal, qoyun saxlayan. – *Nüyədidə birinci gəllah Balace:ydi, ikinci İsmayıl.*

**GƏLLAHI** (Bakı) – b a x **gallah** I.

**GƏLLƏDAR** (Culfa, Naxçıvan, Ordubad) – b a x **kalladar** I. – *Bı yerin adamları gəllədar olublar* (Naxçıvan).

**GƏLTİ** (Qax) – palaz.

**GƏLYƏJİN** (Qazax) – gələn kimi. – *Gəlyəjin atı minif getdi.*

**GƏLYLƏŞ** (Bolnisi) – qəbiristanlıq.

**GƏM** I (Borçalı, Böyük Qarakilsə, Çənbərək, Gəncə, Qazax, Naxçıvan, Şərur) – vəl. – *Xırmanda iki gəmi dal-dala qoş, xırman tez olsun* (Çənbərək); – *Küləşi gəmnən döyürüxʹ* (Naxçıvan).

**GƏM** II (Ağdam, Çənbərək, Qarakilsə, Qazax) – yüyən. – *Atın gəmini ağzınnan çıxart otdasın* (Qazax).

**GƏM** III (Quba) – xəlbir. – *Gəmi Fatmadan al gəti.*

**GƏM** IV (Qax) – toyuq hini.

**GƏM** V (Qax) – tövlənin bir küncündə körpə buzov saxlamaq üçün düzəldilən yer.

**GƏ:M** (Qax) – çox balaca və darısqal otaq.

**GƏMƏ** I (İmişli, Kürdəmir, Qəbələ, Oğuz, Salyan, Ucar, Zəngilan) – yarımdərz, dərzin yarısı. – *Gəmədə beş bafa olur* (Salyan).

**GƏMƏ** II (Quba, Cəbrayıl) – topa; taya. – *Uti yığıllar gəmə uladı* (Quba); – *Qabaxkı gəmələrim yaxşı yarpax oldu* (Cəbrayıl).

**GƏMƏLƏMƏG** (İmişli) – bafalardan dərz düzəltmək. – *Bafaları yığallardı gəməliyəllərdi.*

**GƏMGEŞDƏKLİ** (Salyan) – əndamlı, ətli-canlı. – *Sona gəmgeşdəkli adamdı.*

**GƏMGƏ** (Quba) – kənddə yaşlı adamların yığışıb söhbət etdikləri xüsusi yer.

**GƏMİRÇƏX′** (Cəbrayıl) – qığırdaq. – *Ətin gəmirçəyin kəs at.*

**GƏMİRƏ** (Qax) – açıq hava şəraitində qoyun saxlanılan yer, ağıl.

**GƏMİŞMƏX′** (Qazax) – soxulmaq, hücum etmək. – *İt canavara gəlmişdimi, da: onnan soŋra əl çəx′məz, həmməşə basajax.*

**GƏMÖ:ÜX′** (Gədəbəy) – bürkülü. – *Yaman gəmö:üx′ havadı, nəfəs almax olmor əməlli.*

**GƏMRƏ** (Ağdaş, Dərbənd, Mingəçevir) – 1. yandırmaq üçün tapdanıb qurudulmuş mal nəcisi (Ağdaş, Mingəçevir); 2. qoyun, keçi qığı (Dərbənd). – *Gəmrəni yatağdan çıxarmağ lazımdü.*

**GƏMRƏLİ** (Xaçmaz) – peyinli.

**GƏ:N** I (Füzuli) – çöl, səhra. – *Susuz yazılar var ey, ona gə:n de:lir.*

**GƏ:N** II (Bərdə, Borçalı, Qazax) – b a x **gəyən** II. – *Gə:n gejədə odun yarmağ olar* (Bərdə); – *Gejə gə:ndi, nədən qorxursaŋ* (Qazax).

**GƏNC** (Quba) – b a x **ganc.** – *Bizim yerrərdə gənc çux ular.*

**GƏNCƏNƏ** (Borçalı) – divar şkafı. – *Gəncənə tufarın içində olor.*

**GƏNDAL** (Zəngilan) – gəndalaş. – *Bağda gəndal əlinnən tərpəmmə: yer yoxdu.*

**GƏNDƏDAMAĞ** (Lənkəran, Salyan) – gözütox (adam). – *Gəndədamağ adam hər sırfada otırmaz.*

**GƏNDƏDUR** (Bakı) – ipək parça növü.

**GƏNDƏLİYƏN** (Borçalı) – yerə tökülən sünbüllərdən bitən taxıl.

**GƏNDİ** (Qazax, Şəki) – öz. – *Biz gəndi ədətdərimizi yaxşı bilerix′* (Qazax).

**GƏNDİBAŞINA** (Qazax, Şəki) – özbaşına. – *Gəndibaşına iş tutma, bir bilənə gəŋəşginən* (Qazax).

**GƏNDİGƏLƏN** (Borçalı) – b a x **gəndəliyən.** – *O yerdə gəndigələn olor ku, o yer yaxşı piçilmer.*

**GƏNDİ-GƏNDİNƏ** (Qazax) – öz-özünə. – *Məmməd həməşə gəndi-gəndinə danışer.*

**GƏNDİYƏLƏN** (Qazax) – b a x **gəndəliyən.** – *Göyşəndə yaman gəndiyələn pitif.*

**GƏNDOV** (Ordubad) – kanalizasiyaya axan çirkli su. – *Həsənin ayağı gəndova düşdü.*

**GƏNƏ** (Füzuli, Qazax, Şəmkir, Tovuz) – yenə. – *Malımız, qoynumuz gənə yaylaxda qalardı* (Qazax).

**GƏ:NƏX′** (Gədəbəy) – aydın, aylı <gecə>. – *Gə:nəx′ geje:ydi, yola çıxmışdıx dədəmnən.*

**GƏNƏK** (Qusar) – çətin sınan və ləpəsi çətin çıxan qoz.

**GƏNƏŞİG** (Əli Bayramlı) – b a x **gã:şıx.** – *Olar bizə gənəşigə gəldilər.*

**GƏŊƏŞİX′** (Tovuz) – b a x **gã:şıx.**

**GƏŊƏŞİX′Lİ** (Qazax) – b a x **geŋəşix′li.** – *Gəŋəşix′li don geŋ olar.*

**GƏŊƏŞMƏX′** (Gədəbəy, Qazax, Şəmkir, Tovuz) – b a x **gaŋaşmax.**

**GƏNƏŞMƏK** (Ağdam, Bərdə, Borçalı, Füzuli, Qazax, Şəmkir, Tərtər, Yevlax) – b a x **gaŋaşmax.** – *Məyə gənəşmədi* (Füzuli).

**GƏNG** (Dərbənd) – enli, gen. – *U qabağı gəng adamdu.*

**GƏNGİZ** (Xanlar) – lovğa, dikbaş.

**GƏ:NİMƏX′** (Cəbrayıl) – rəngi qaçmaq (adama aiddir).

**GƏ:ŊİMƏX′** (Qazax) – b a x **genimək′.** – *Quşdar soyux tüşəndə gə:ŋiyif gedellər.*

**GƏNİŞMƏG** (Bakı) – b a x **gaŋaşmax.**

**GƏNZİX′** I (Tovuz) – nəfəs borusu. – *Çəçiyəndə gəŋziyinə su sıçradı.*

**GƏNZİX′** II (Şəki) – alının yuxarı hissəsi. – *Uşax yıxılıf, gənziyinnən yarılıtdı.*

**GƏR** I (Göyçay, Şəki, Zəngilan) – iri cır tut ağacı. – *Bı gərin yarpa:n qırsam bəsimdi* (Zəngilan); – *Gər çəkildən iridi* (Göyçay).

**GƏR** II (Ağdam) – cəld, zirək. – *Balaja olduğuna baxma, çox gər adamdı.*

**GƏR** III (Qazax) – kobud, yoğun (səs). – *Mö:sümün elə gər səsi var kın.*

**GƏRBUT** (Culfa) – b a x **garbıt.**

**GƏRDE** (Bakı) – bıçaq növü. – *Ay balam, u gərdeni itilə.*

**GƏRDƏ** (Quba) – xırda saman. – *Usda gərdəni palçuğa qarışdırıbanı öyi suvıyadu.*

**GƏRDƏNƏ** (Ağdam) – sapeşən (alət adı). – *Gərdənəni boynumuza keçirif əlimiznən fırrıya-fırrıya saf eşirix′.*

**GƏRDƏNƏMƏD** (Salyan) – xamut. – *Gərdənəmədin ipin bərk bağlağınan ki, at yaxşı güc eləsin.*

**GƏRDƏNNİG** (Salyan) – boyunbağı növü. – *Gərdənnig arvadçındı.*

**GƏRDİ** (Çənbərək) – umac qırıntıları. – *Halvanın omacının gərdisi təhnədə ğaldı.*

**GƏRƏ** (Qax, Şəki) – b a x **gər** I. – *Gərdəki yarpax yetmicaxdı qurda* (Şəki).

**GƏRƏHMƏZ** (Kürdəmir) – b a x **gərəx′məz.** – *Yaman gərəhməz uşaxdı.*

**GƏRƏX′MƏZ** (Zəngilan) – yaramaz.

**GƏRƏN** I (Füzuli, Qazax) – sıra, cərgə. – *Gərənnən sağırıx* (Füzuli). ◊ **Gərən çüşməx′** (Qazax) – cərgələnmək, sıralanmaq. – *Mal gərən çüşüf geder.*

**GƏRƏN** II (Qazax) – aşırım, dağ keçidi. – *Mal dağın gərənində otdo:r.*

**GƏRƏNƏMƏX′** (Bərdə, Borçalı) – yayılmaq (qoyun-quzuya aiddir). – *Qoyun otdar gərənər, otdadıxca gərənər* (Borçalı).

**GƏRƏNİMƏK** (Cəbrayıl, Ucar) – b a x **gərənəməx′.** – *Qoyun gərəniyib* (Ucar).

**GƏRGƏC** (İmişli) – b a x **gərgəncə.** – *Dərini gətirib ağac gərgəcə çəkirik.*

**GƏRGƏNCƏ** (Ağdam) – dəri qurutmaq üçün alət (çarmıx). ◊ **Gərgəncə verməx′** – dərini qurutmaq üçün tarıma çəkmək.

**GƏRGİ** I (Hamamlı) – arakəsmə (tövlədə). – *İnəx′ gərgiyi qırıfdı.*

**GƏRGİ** II (Çənbərək) – eyvanda və ya balkonda paltar qurutmaq üçün yer. – *Balqonnan gərgi qayırdım.*

**GƏRGİNO** (İsmayıllı) – damın üstünə tökülən torpağı bərkitmək üçün istifadə olunan kötük, alət. – *Yağış bərkitməmiş, a uşağlar, çıxu:z gərginonan damın üssün hamarru:z.*

**GƏRİX′** (Basarkeçər) – qolsuz sırıqlı (qadın üçün).

**GƏRMAN** (Meğri) – boğazda və ya qoltuqda əmələ gələn şiş.

**GƏRMƏ** (Ağdam, Bərdə, Gədəbəy, Kürdəmir, Qazax, Şəmkir, Tərtər, Tovuz, Ucar) – b a x **gəmrə** (1-ci məna). – *Qışa heç odunumuz yoxdu, bir gərmədən başqa* (Tovuz).

**GƏRMƏK** (Cəlilabad, Füzuli, Lənkəran, Ucar) – yemiş növü adı. – *Gərmək çox şirin olur* (Ucar).

**GƏRMƏLMƏX′** (Çənbərək) – yandırmaq üçün tapdanıb qurudulmuş mal nəcisini bellə kəsmək.

**GƏRMƏŞOY** (Oğuz, Şəmkir) – qəhvəyi rəngli, yumşaq qabıqlı ağac növü. – *Gərməşoydan yaxşı əl ağacı olur* (Oğuz).

**GƏRMƏŞÖY** (Borçalı, Qazax) – b a x **gərməşoy.**

**GƏRPƏLİ** (Cəlilabad) – qol-budaqlı. – *O ağac gərpəliydi.*

**GƏRRƏNMƏX′** (Gədəbəy, Qazax, Tovuz) – kobudlaşmaq, yoğunlaşmaq (səsə aiddir). – *So:x dəyif deyni səsi yaman gərrənif* (Tovuz).

**GƏRRƏŞMƏX′** (Qazax, Tovuz) – b a x **gərrənməx′.**

**GƏRRİG** (Sabirabad) – çəkilik, cır tut bağı.

**GƏRZƏK** (Qəbələ) – b a x **gəzzək.**

**GƏ:Sİ** (Bakı) – bəzisi. – *Gə:si belə di:r, gə:si helə.*

**GƏ:ŞİK** (Kürdəmir) – b a x **gã:şıx.**

**GƏ̃:ŞMAX** (Şəki) – b a x **gaŋaşmax.** – *Didi ki, get öydəkilərnən də gə:ş gəl.*

**GƏTİRGƏ** (Salyan) – ağacda əmələ gələn yapışqan. – *Gətirgə ağajda olır.*

**GƏ:V** (Culfa, Şahbuz, Şərur, Zəngilan) – b a x **gev.** – *De:llər ki, Həsənin gə:vi xəsdədi* (Zəngilan); – *O oğlan həm gə:vimdi, həm də əmim oğludi* (Culfa).

**GƏVƏN** (Ağbaba, Kürdəmir, Təbriz, Ordubad) – yabanı bitki adı (yağından dərman kimi istifadə olunur). – *Gəvən yağınnan dərman hazırranır* (Ordubad).

**GƏVƏNNƏŞMƏG** (Salyan) – böyüdükcə qol-budaqları şaxələnərək aşağı əyilmək (ağaca aiddir). – *Bı ağac çox gəvənnəşib.*

**GƏVƏRƏ** (Salyan) – çoxdanışan, boşboğaz. – *Çərkəz gəvərə danışan adamdı.*

**GƏVƏŞ** (Kürdəmir, Naxçıvan, Sabirabad, Tovuz) – b a x **gəbəş.** – *Gəvəş adam tənbəl olar* (Füzuli).

**GƏVƏZ** (Naxçıvan) – çoxdanışan, boşboğaz.

**GƏVƏZƏ** (Ağdaş, Basarkeçər, Borçalı, Böyük Qarakilsə, Gəncə, Kürdəmir, Qazax, Naxçıvan, Salyan) – b a x **gəvəz.** – *Məylisdə*

*çox danışdığı üçün ona gəvəzə və laqqal Həsən də deyərdilər* (Naxçıvan); *– Xəlil gəvəzə adamdı* (Borçalı).

**GƏVƏZƏX′** (Ağdam) – b a x **gəvəz.**

**GƏVGƏZ** I (Cəbrayıl) – çox qoca.

**GƏVGƏZ** II (Zəngilan) – tərəvəz və bostan bitkilərini korlayan ziyanverici qurd. *– Gəvgəz bamadoru da kökünnən kəsir.*

**GƏVİL** (Ağdam, Ağcabədi) – meyvəsi yeyilən yabanı bitki adı. *– Gəvildən şoraba qoyuf yi:llər* (Ağdam); *– Gəvildən yaxşı şoraba olur* (Ağcabədi).

**GƏVREX′** (Meğri) – kövrək. *– Gəvrex′ odundu, baltanı vuran kimin şilix′-şilix′ olecex′.*

**GƏVRƏX′** (Qarakilsə) – b a x **gəvrex′.** *– Gəvrəx′ tez sınar.*

**GƏYAL** (Oğuz) – kəsək. *– Yeri süréndə görürük kü, yer gəyallı oldu, diyirik ki, bir mala qoşax yerin gəyalını əssin <əzsin>.*

**GƏYAN** (Ordubad) – b a x **gəvən.**

**GƏYƏN** I (Biləsuvar, Ordubad) – ikirəng.

**GƏYƏN** II (Qazax) – aylı, aydın (gecə). *– Gəyən gejələrdə yeri əx′məy olar.*

**GƏYƏV** (Cəbrayıl) – kürəkən.

**GƏYİŞMƏG** (Lerik, Yardımlı) – məsləhətləşmək.

**GƏYNİMƏX′** (Ağbaba) – açılmaq. *– Hava yavaş-yavaş gəyniyir.*

**GƏZ** I (Göyçay, Kürdəmir, Mingəçevir, Oğuz, Ucar) – çəpərin tapdanmış, iz düşmüş yeri. *– Çəpərə gəz düşüp* (Kürdəmir); *– Gamış gəzdən keşdi* (Ucar).

**GƏZ** II (Cəbrayıl, Xocavənd) – aşırım. *– Atdı gəzdən aşdı* (Xocavənd).

**GƏZ** III (Cəbrayıl) – hanada oxların yan ağaclarına keçdiyi yer. *– Oxun ucunu gəzə qoydular.*

**GƏZAL** (Ağdaş, Göyçay, Kürdəmir, Ucar) – b a x **gazal.** *– Gəzal çox acı olur* (Ağdaş); *– Gəzalnan keşmişdə yara sağaldırdılar* (Ucar).

**GƏZALIŞ** (Kürdəmir) – sarımtıl. *– Naxoşun rəngi gəzalış olur.*

**GƏZAN** (Ağdam) – gön doğrayan alət. *– Gəzan al, gönü doğra.*

**GƏZDƏX′** (Çənbərək, Qazax) – aşırım, dağ keçidi. *– Gəzdəx′də mal həmməşə müələ yığılır* (Çənbərək).

**GƏZDƏMƏX′** (Ağdam) – vəlin altına daş və dəmir parçaları keçirmək. *– Vəlin altın gəzdiyirdix′, daş doldururdux.*

**GƏZDƏMƏG** (Yardımlı) – nişan vurmaq. *– Əğəci gəzdə aparmasunnər.*

**GƏZDİK** (Yardımlı) – bıçaq.

**GƏZƏ** (Dərbənd) – b a x **gezə.**

**GƏZƏL** (Ağcabədi, Basarkeçər, Borçalı, Füzuli, Gədəbəy, Xocavənd, Qazax, Tovuz) – b a x **gazal.** *– Eymiyi gəzəlnən də boamağ olor* (Gədəbəy); *– Gəzəlnən ip boaner* (Borçalı); *– İp boyamaxdan ötəri gəzəl yığmağa gedirix′* (Basarkeçər).

**GƏZƏN** (Təbriz) – başmaqçılıqda işlədilən alət. *– Gəzən başmaqçılarda olurı.*

**GƏZƏNƏ** (Bakı, Lənkəran, Ordubad) – b a x **geznə.** *– Gəzənə çox dərtdərin mərhəmidi* (Bakı); *– Ot çalarkən gəzənə əlimi dadı* (Ordubad).

**GƏZƏNGİ** (Şəki) – bitki xəstəliyi adı.

**GƏZƏNTƏ** (Cəlilabad) – dilənçi. *– Gəzəntə çoxeydi, gəzəntənin əlinnən qaçeydi adam.*

**GƏZƏRGİ** (Tovuz) – çox gəzən, gəzəyən (adam). *– Şa:bbas gəzərgi adamdı.*

**GƏZGİNTİ** (Gədəbəy) – b a x **gəzəngi.** *– Bu il yarpaxlara gəzginti tüşüf.*

**GƏZİ** (Qazax) – ilk buğayagəlmə vaxtını ötürən mal düyəsi. *– Baha aldıx, ucuz satdıx, yanına da bir gəzi qatdıx.*

**GƏ:ZİK** (Zəngilan) – nəfəs borusu. *– Quyruğun qəpi arasınnan çıxıb deyin gə:ziyin ge:yib.*

**GƏZİM** (Şərur) – gəzməli yer. *– Tiflisin xoş gəzimi var.*

**GƏZMƏ** (Dərbənd) – qarovulçu. *– Mal ekinə, hacıbuğdaya girməsin deyni gəzmə qoyadılar.*

**GƏZİR** (Oğuz) – dağ keçisinin balası.

**GƏZYAZMA** (Basarkeçər, Borçalı, Qazax, Meğri, Şəmkir, Tovuz) – ilk buğayagəlmə vaxtını ötürən mal düyəsi. *– Bü:n bazarda bir yaxşı gəzyazma düyə satıldı* (Basarkeçər); *– Haqqında buğuyəlmiyəndə gəzyazma olur* (Tovuz).

**GƏZZƏK** (Mingəçevir) – çəpərin tapdanmış, iz düşmüş yeri.

**GILDIR** (Qarakilsə) – kök, dolu (adam).

**GILIF** (Çənbərək, Meğri) – baca, deşik. – *Samanı gılıfdan samannığa töx'düx'* (Çənbərək).

**GIRCIN** (Ağdam, Çənbərək, Qazax) – mal otu yedikdən sonra qalan çör-çöp. – *Malın qavağında qalan gırcını bir yerə yığ* (Çənbərək).

**GIRDAMAX** (Çənbərək) – mələmək. – *Qoyun quzusuna gırdıyır.*

**GIRDIN** (Cəbrayıl, Çənbərək, Qazax, Oğuz, Meğri, Tovuz) – b a x **girdim.** – *Bu palıdı duğrasam, utız gırdın çıxar* (Meğri).

**GIRMİŞ** (Meğri) – iri üyüdülmüş (un).

**GIRS** (Oğuz) – b a x **girz.** – *Gırsı bizdə çox pişirillər.*

**GIRTDAMAX** (Çənbərək, Qazax, Tovuz) – böyük ağacları ortasından balta ilə kəsmək. – *Eşdəki vələsi gırtda, peçə doldurum dəmbildəsin* (Çənbərək).

**GIRVIT** (Borçalı) – b a x **gıvrıt.**

**GIVLA** (Meğri) – b a x **givlə.**

**GIVRIT** (Qazax) – kök, dolu (adam). – *Fatma çox gıvrıt qızdı.*

**GİBB** (Şuşa) – günaşırı tutan xəstəlik adı. – *Həsən gibb azarına tüşüf.*

**GİCƏ** (Dərbənd) – gənə. – *Gicələr iki cürə var: birinə diyərüg iri ağ gicə, birinə diyərüg xirdə qarə gicə.*

**GİCƏVAR** (Bakı) – 1. istiqaməti bəlli olmayan külək; 2. burulğan. – *Bı dəfə də:zdə çimməndə gicəvardan gücnən qutardım.*

**GİCGAH** (Dərbənd) – ağılsız, huşsuz. – *Ay üküz uğli üküz, gicgah şeysən ki sən.*

**GİCİTKANANASI** (Şuşa) – tikanı olmayan, dalamayan gicitkən. – *Gicitkananası dalıyan döyü.*

**GİC-KARIĞ: GİC-KARIĞ OLMEG** (Bakı) – çaşıb qalmaq. – *O qədə işim var ki, gic-karığ olmışam.*

**GİCKƏSƏMƏ** (Bakı) – səfeh, ağılsız.

**GİCO:** (Əli Bayramlı, Kürdəmir, Şamaxı) – burulğan. – *Geçmə, gico:du, batarsan* (Şamaxı).

**GİDİ** (Basarkeçər, Laçın, Tovuz) – etibarsız. – *Ay gidi Abbasəli indi olaydı, danışeydı, siz də yazeydıŋız* (Basarkeçər); – *Eh, gidi dünya, çoxlarını uddun* (Tovuz).

**GİDİL** (Qax) – şəkərçörəyi.

**GİƏCƏX'** (Tovuz) – paltar. – *Giəcəyim çoxdu, hamsı da təzə.*

**GİFANDAZ** (Bakı) – toxunma pərdə (pəncərə üçün).

**GİGİMOY** (Dərbənd) – bayquş. – *Gigimoy uliyədi, diyəllər bir xata ular, xeyrə də uliyəni var gigimoynun, zərələ də.*

**GİGİRTDƏMAĞ** (Quba) – ara vurmaq, ara qarışdırmaq. – *Ga:var, gigirtdəmaği u üzünə adət eliyib.*

**GİGO:UN** (Quba) – mozalan.

**GİJƏPƏNİ** (Lerik) – quşəppəyi.

**GİJGƏ** (Lənkəran) – daranmamış, pırtdaşmış saç.

**GİJİMƏK** (Ucar) – nadinclik etmək. – *Əhməd bü:n çox gijiyif.*

**GİJOY** (İmişli) – qıjov, çayın iti axan yeri. – *Gijoyda çimmiyin, batarsu:z.*

**GİLABİ** I (Bakı, Salyan) – paltar və ya baş yumaq üçün istifadə edilən gil.

**GİLABİ** II (Dəvəçi) – gül.

**GİLABZAN** (Ağdaş) – gülabpuş. – *Gilabzan saxsı qabdan olur.*

**GİLABZƏN** (Quba) – b a x **gilabzan.** – *Gilabzəni tuyda, xeyir işdə işdədərduğ.*

**GİLAN** (Quba) – bağlamaq üçün qapının arxasına keçirilən taxta və ya dəmir.

**GİLANDAR** (Xaçmaz, Quba) – haşiyə. – *Bizim xalçənin güzəl gilandarı var.*

**GİLAR** (Hamamlı) – ərzaq anbarı.

**GİLBİT** (Qax) – kösöv.

**GİLDİK** (Cəlilabad) – itburnu.

**GİLDİR** (Sabirabad, Salyan) – gödək kəsilmiş yoğun odun. – *Gildiri yandırıllar qışda* (Salyan).

**GİLDİR-GİLDİR** (Bakı, Gədəbəy, Kürdəmir, Salyan) – gilə-gilə, damcı-damcı. – *Uşağın gözünnən gildir-gildir yaş gəlir* (Salyan).

**GİLƏ** (İsmayıllı) – umu-küsü.

**GİLƏGÜZ** (Salyan) – körpə quzu saxlanılan yer. – *Giləgüzzə quzı saxlallar.*

**GİLƏMƏRZƏ** (Lənkəran) – kəklikotu. – *Xəlil, boğazun ağrıyır, gəl birəz giləmərzə qəynədim iç.*

**GİLƏNŞA** (Bakı) – quş adı.

**GİLƏY** (Lənkəran) – gündüz saat 11-12 radələri. – *Giləy naharına çıxmışuğ.*

**GİLƏZƏK** (İmişli) – daş-kəsək. – *Tarlada giləzəkdən yerimək olmur.*

**GİLƏ-ZUZƏ: GİLƏ-ZUZƏ GETMEG** (Bakı) – zarıldamaq, inildəmək (xəstəlik nəticəsində). – *Ağəz, uşağın buxağına mərcimegcən bir sizağan çıxıb, gecələr sə:rəcən gilə-zuzə gedir.*

**GİLFƏ** (Cəlilabad, Yardımlı) – b a x **givlə.** – *Gilfə təndirdə oley* (Yardımlı).

**GİLGAM** (Qax) – laxtalanmış qan. – *Horda gilgam qan vardı.*

**GİLGİLƏ** (Bakı) – taxta və ya dəmirdən hazırlanan sağanaq şəkilli uşaq oyuncağı. – *Meyti küçədə gilgileynən oyni:r.*

**GİLGO:UZ: GİLGO:UZ GETMEG** (Bakı) – şıltaqlıq edərək torpaqda eşələnmək. – *Uşağa bax a, torpağın içində nə gilgo:uz gedir.*

**GİLHİ** (Balakən) – evin tavanı.

**GİLİF** I (Cəlilabad, Daşkəsən) – çatlaq (daşda). – *Daş gilifinnən yaxşı sınar* (Daşkəsən).

**GİLİF** II (Naxçıvan, Təbriz, Tovuz) – çəpərin, hasarın altından keçən kiçik arx. – *Gilifdən su gəliri* (Təbriz).

**GİLİNƏ** (İsmayıllı) – yunun çıxarı. – *Gilinədən yaxşı döşək olmaz.*

**GİLİNZİR** (Kəlbəcər) – ağac adı. – *Gilinzirdən dülyərlər həjətlərə sap qayrıllar.*

**GİLLAN** (Qarakilsə) – boyca balaca, dolu, kök <adam>.

**GİLLƏ** (Quba) – mal peyini ilə palçığın qarışığından hazırlanan dayaz qab. – *A Həmidə, bu il neçə gillə qeyrəcağsan?*

**GİLLƏTMƏG** (Bakı) – atmaq, tullamaq. – *Uşağlar heyətdə gilgilə gillədir.*

**GİLLƏTMƏX′** (Tovuz) – b a x **gillətməg.** – *O bir tikə nədi kin, aŋrı gillət gessin.*

**GİLLƏTZƏ** (Zaqatala) – kiçik saxsı qab.

**GİLLİG** I (Cəlilabad) – cır qızılgül. – *Gilligin çoxli dənələrin* (*ləçəklərini*) *gətirdim.*

**GİLLİ** II (Yardımlı) – itburnu. – *Gillig dərələrdə çox oley.*

**GİLZİX′** (Çənbərək) – qırıq, parça. – *Suraha bir gilzix′ savın gətdi, paltarı yudu.*

**GİMGƏ** (Ağdam, Qax, Oğuz, Sabirabad, Şəki, Ucar) – b a x **gəmgə.** – *Ədə Yunus, gə habı qardaşı gimgə yerinə apar* (Şəki).

**GİMİRİX′** (Ağcabədi, Bərdə, Cəbrayıl, Şuşa, Tərtər) – iri, narın olmayan. – *Gimirix′ duzu atallar şorva suyuna, xamır suyuna* (Tərtər); – *O duzun gimiri:nnən birəz səf dəriyə* (Cəlilabad).

**GİMİRİX′LƏŞMƏK** (Tərtər) – irilənmək, böyümək. – *Adınanın oğlu gimirix′ləşir.*

**GİMİRİK** (Cəbrayıl) – b a x **kəmrik.** – *Ay gimirik, az qənd ye.*

**GİNGƏ** (Quba) – b a x **gəmgə.**

**GİOZƏN** (Bakı) – yerin otunu təmizləmək üçün ağzı iti alət. – *U giozəni bir mənə versən?*

**GİR** (Ağdam, Bakı, Quba, Lənkəran, Kürdəmir) – güc, qüvvə. – *Qucalmışam, hindi lap girdən düşmüşəm* (Quba); – *Girim olsaydı, birin sənə çəkərdim* (Lənkəran).

**GİRA:M** (Zəngilan) – yaraşıqlı, qəşəng, yaxşı. – *Gira:m heyvanı vırdı mayıf elədi.*

**GİRA:MI** (Bərdə, Cəbrayıl) – b a x **gira:m.** – *Orda gira:mı yağ var* (Bərdə); – *Gira:mı taxdanı yondu töx′di orya* (Cəbrayıl).

**GİRA:Mİ** (Bakı, Cəlilabad, Şamaxı) – b a x **gira:m.** – *Gira:mi qələm itib* (Cəlilabad).

**GİRAN** (Lənkəran) – əskiklik. – *Sənə niyə giran gəlir.*

**GİRAVƏ** (Quba, Şamaxı) – fürsət, imkan.

**GİRBİ** (Qax) – karniz.

**GİRCANA** (Tovuz) – su dəyirmanında istifadə olunan alət.

**GİRCƏNƏ** (Ağdaş, Qax) – b a x **gircana.**

**GİRD** I (Cəlilabad) – büsbütün, tamamilə. – *Gird bisavadıydı keşmişdə hamı.*

**GİRD** II (Lənkəran) – balıq toru toxumaq üçün alət.

**GİRDABANKÖTÜYÜ** (Oğuz) – eni ilə uzunu bərabər kötük. – *Nazlının qızı elə kökdü ki, lap girdabankötüyünə oxşıyır.*

**GİRDABEL** (Daşkəsən) – böyük mişar. – *Girdabelnən yoğun ağaş kəsəllər.*

**GİRDABIL** (Qax, Şəki, Zaqatala) – b a x **girdabel.** – *Girdabılı geti odunu kesax* (Şəki).

**GİRDAMBUL** (Mingəçevir) – b a x **girdabel.**

**GİRDAN** (Oğuz) – böyük mişar. – *Girdannan odun doğruyurux.*

**GİRDƏ** I (Bakı) – böyrək. – *Qoynin girdələri ağri:r.*

**GİRDƏ** II (Quba) – böyük şüşə qab, banka. – *Girdəyə duşab, hər cür şey tükmağ ular.*

**GİRDƏ** III (Cəlilabad) – 400 qramlıq çəki vahidi. – *Bi girdə bığda gətirsən, yarım girdə də vereydün artığ.*

**GİRDƏ** IV (Mingəçevir) – çəltik ləki.

**GİRDƏBİÇ** (Lənkəran) – çölməkdə (saxsı qab) bişirilən balıq.

**GİRDƏBİRİN** (Ordubad) – böyük mişar.

**GİRDƏBURUN** (Meğri, Ordubad) – bax **girdəbirin.**

**GİRDƏKAN** (Bakı, Biləsuvar, Cəlilabad, Kürdəmir, Lənkəran, Masallı, Salyan, Təbriz, Yardımlı, Zərdab) – qoz. – *Biz qoza girdəkan diyoğ* (Yardımlı); – *Girdəkanın qabığın yığıb qəynədirdilə* (Təbriz).

**GİRDƏKƏN** (Masallı, Salyan) – bax **girdəkan.**

**GİRDƏNƏG** (Salyan) – girdə, yumru. – *Gərmək girdənəg yemişdi.*

**GİRDİN** (Bərdə, Bolnisi, Qazax) – bax **girdim.**

**GİRDİM** (Dərbənd, Xaçmaz, Qusar) – mişarla bir boyda kəsilmiş yoğun odun.

**GİRDİN** (Ağdaş, Ağsu, Gədəbəy, Quba, Mingəçevir, Şəmkir) – bax **girdim.** – *Bu girdinnərin birin salırdux ocağa axşamacan yanırdı* (Ağsu); – *Uğul, iki qucağ girdinnərdən təndirə getir* (Quba).

**GİRDO** (Zərdab) – iri saxsı qab. – *Gülsənəm, girdo qalğanı təmizlə.*

**GİRDO:UL** (Salyan) – girdə, yumru. – *Girdo:ul yemiş yaxçı olar.*

**GİRƏ** (Balakən) – təmizlənmiş fındıq anbarı.

**GİRƏCULA** (Bakı) – 1. axmaq, səfeh; 2. veyil.

**GİRƏ: GİRƏ DÜŞMEG** (Bakı) – ağır, çətin vəziyyətə düşmək.

**GİRƏ: GİRƏ QOYMAX** (Kürdəmir) – tovlamaq, dilə tutmaq. – *Adamı girə qoyub işdədir.*

**GİRƏLƏNMƏX′** (Zəngilan) – vurnuxmaq. – *Sarı toyux sə:rdən bırda girələnir.*

**GİRƏNC** (Hamamlı, Tovuz) – əhəng.

**GİRƏV** (Cəbrayıl) – nağd, əldə olan. – *Girəvi qoyuf nisyə dalıncan qaçır.*

**GİRƏVƏ** (Bakı, Kəlbəcər, Kürdəmir, Quba, Şəki) – bax **giravə.** – *Diyəsən sənün əlüvə yaxşı girəvə düşüb* (Bakı); – *Yaxşı girəvə düşütdü, əlã:, nə isdəsən eliyə bilərsən* (Şəki).

**GİRGAL** (Hamamlı) – bax **giryal.** – *Girgalı malın boğazına keçirillər, onu da zincirnən axıra bağlıyıllar.*

**GİRGƏLƏMƏX′** (Zəngilan) – incitmək, gözümçıxdıya salmaq. – *Onnan arvad saxlıyan olmaz, qızı yaman girgəli:r.*

**GİRGİ** (Kürdəmir) – sancı. ◊ **Girgi tutmağ** – sancı tutmaq, sancılanmaq. – *Axşamnan qarnımnan girgi tutıb.*

**GİRGİD** (Qax) – hanada ipləri nizamlayan alət.

**GİRGİNƏ** (Qarakilsə) – arı beçəsi tutmaq üçün balaca səbət.

**GİRGİRƏ** (İmişli, Lənkəran) – bax **kilkilə.**

**GİRİ** (Biləsuvar, Cəlilabad, Əli Bayramlı, Kəlbəcər) – yeddi pud yarımlıq ölçü vahidi.

**GİRİNDƏX′** (Kəlbəcər, Qarakilsə) – bax **girindəy.**

**GİRİNDƏY** (Kəlbəcər, Qarakilsə) – qaramalı boğazından bağlamaq üçün istifadə edilən yarımdairəvi ağac. – *Öküz girindəyi qırıfdı* (Kəlbəcər).

**GİRİNGİ** (Bakı) – sancı. – *Qarnımda yaman giringi var.*

**GİRİŞGƏN** (Qazax) – yabanı bitki adı.

**GİRİZNƏ** (Ağdərə) – çox uca və möhkəm ağac adı. – *Girizna möhkəm ağac olur.*

**GİRMƏ** I (Qazax, Mingəçevir) – çayın keçid yeri.

**GİRMƏ** II (Əli Bayramlı) – kolluq.

**GİRMƏ** III (Kürdəmir, Mingəçevir) – yuyulduqdan sonra qısalmış paltar.

**GİRNƏŞ** (Meğri) – istidən bir yerə toplaşan, sıxlaşan (qoyun sürüsü). – *Seyidəli qoyunu girnəşdə belinnən tanırdı.*

**GİRRƏMƏG** (Yardımlı) – əlindən almaq, qoparmaq.

**GİRRƏMƏX′** (Quba, Kürdəmir, Şəki, Tovuz) – 1. dolandırmaq, yaşatmaq (Kürdəmir, Tovuz, Şəki). – *Ə:m <əmim> məni yaman girriyirdi, heş şeyə möhtəş döydüm* (Tovuz); 2. təngə gətirmək, cana gətirmək (Quba).

**GİRRƏMMƏX′** (İsmayıllı, Qazax, Şəki, Tovuz) – dolanmaq, yaşamaq. – *Hələ ki yaxşı girrənirux, hər şeyimiz var* (Şəki); – *Bir tö:r girrəmməx′ lazımdı* (Qazax).

**GİRS** (Qax, Şəki, Zaqatala) – bax **girz.** – *Bi boşqaf girs yiyif habra gəlmişəm* (Şəki).

**GİRT: GİRT VURMAĞ** (Şamaxı) – hərlənmək, gəzmək. – *Bı gün aləmi girt vurmışam.*

**GİRTMAN** (Basarkeçər) – kərki. – *Girtmannan ə:ağ üssə ağacı yonur.*

**GİRVƏ** I (Çənbərək) – kiçik dərə. – *Zimistan gələndə qarı çox olar; Uçar girvələrə tarı çox olar.*

**GİRVƏ** II (Salyan, Şamaxı, Şəki) – 1. şaxta (Salyan, Şamaxı); 2. çovğun (Şəki). – *So:xda, girvədə bürünüf ge:rdi yapıncıya; – Çöldə yaman girvədi.*

**GİRVƏCİL** (İsmayıllı) – fürsəti əldən verməyən. – *Sən ki onu əvvəldən girvəcil olduğunu yaxşı bilirdin.*

**GİRVİ** (Sabirabad) – suvarma zamanı suyu bölüşdürmək üçün çöpatma, püşkatma.

**GİRVİD** (Şəki) – kömür quyusunun ağzında ütülmüş odun. – *Kömür quyusunun ağzına odun düzüllər, horda quruyur, qaralır, una diyillər girvid; – Girvid elə yanan şeydi ki, bu başinnən bışqanı <kibrit> vursan, o başinnən çıxar, bi dəyqada od tutar.*

**GİRYAL** (Çənbərək) – qaramalı boğazından bağlamaq üçün istifadə edilən yarımdairəvi ağac. – *Səmət büyün qırxbeş giryal qayırıf.*

**GİRZ** (Zaqatala) – xəmir xörəyi növü (iri düşbərə).

**GİTİRGƏ** (Cənubi Azərbaycan) – doğmayan heyvanın əmcəyindən axan maye. – *Sari dəvənin gitirgəsi artub.*

**GİV** (Cəlilabad, Yardımlı, Salyan) – boyunduruq. – *Givnən boyındırığ bi şeydi* (Salyan); – *Giv arabada oley, ökizin boynına keçirdeylər* (Cəlilabad).

**GİVE:İN** (Oğuz) – mozalan.

**GİVEC** (Bakı) – gil qab.

**GİVƏ** (Cəlilabad) – b a x **giv.**

**GİVƏLƏR** (Cəlilabad) – arabaya qoşulan heyvanların ikinci cütü. – *Givələrin gücinə gətdüg arabani, yoxsa çıxmazzi palçuğdan.*

**GİVİXʹ** (Füzuli, Qarakilsə) – kif. – *Givixʹləmmiş çörəyi it də yiməz* (Qarakilsə).

**GİVİŞ** (Şahbuz) – yemişan. – *Pətəxʹ daşda giviş ağacı çoxdu.*

**GİVLƏ** (Meğri) – külbə.

**GİYƏŞMƏG** (Saatlı) – b a x **gaŋaşmax.**

**GİYƏV** (Culfa, Ordubad, Şərur, Zəngilan) – kürəkən. – *Mənim giyəvimin adı Cəbrayıldı* (Culfa).

**GİYO:** (Quba) – b a x **giyəv.**

**GİYOV** (Quba) – b a x **giyəv.**

**GİZAM** (Göyçay) – payızda qırxılan yun.

**GİZDƏNC** (Ağcabədi) – gizlədilib saxlanılan qiymətli şey (qızıl, pul və s.). – *Atamın gizdənci varıydı.*

**GİZDİLİM** (Şuşa) – gizli. – *Oğlan qıza gizdilim yerdən baxır.*

**GİZGƏ** (Füzuli, Yardımlı) – b a x **gijgə.** – *Ajığımı tutdursan, gizgənnən tutuf səni sürüyəjəm* (Füzuli).

**GİZGƏLƏ** (Qax) – qarğıdalı unundan bişirilən xörək növü.

**GİZGİNC** (Füzuli) – gizlənmək üçün yer. – *Ora gizginc yeri oluv.*

**GİZİR** (Culfa) – icraçı. – *Gizir adamları çağırırdı.*

**GOD** (Başkeçid, Borçalı, Çənbərək, Füzuli, Gədəbəy, Qazax, Mingəçevir, Zəngilan) – ağacın içini ovaraq düzəldilmiş böyük həcmli taxıl qabı. – *Taxılı goda doldururux* (Çənbərək); – *İrəli əyyamlar müşoy-zad az tapıleydi, maxlux dəni goda qoyordu* (Gədəbəy).

**GODA** (Basarkeçər) – boyunduruğu arabanın qollarına bağlayan, bərkidən ağac, qayış və ya zəncir. – *Ho:, əylə, boyunduruğun godası tüşüf, qayış öküzün tərəfinə addı:f.*

**GODİREG** (Dərbənd) – taxtabiti. – *Godireg qarannuğda çux gelər.*

**GODMAN** (Qəbələ, Mingəçevir) – kiçik ot tayası. – *Bəşir üç gündə beş-altı godman ot çalmışdı* (Qəbələ).

**GODU** (Borçalı, Zəngilan) – uzunmüddətli yağışın kəsməsi üçün bəzədilib qapı-qapı gəzdirilən güzgü və çömçə (köhnə adətlərdən birinin adı). – *Godu-goduyu gördüyün varmı?* (Zəngilan); – *Hasan dağlarda godu gəzdirerdi, gəzdirəndə belə mahnı oxuyordu* (Borçalı).

**GODUŞ** (Qəbələ, Lənkəran, Oğuz, Salyan) – b a x **qoduş.** – *Bir goduş qatığı yi:b diyir ki, ajam* (Oğuz).

**GOGO:UN** (Bakı) – meyvə qurdu.

**GOMBIL** (Saatlı) – kök (adam).

**GOND** I (Basarkeçər) – evin damında eninə qoyulan ağac. – *Damın gondunun biri əysikdi.*

**GOND** II (Borçalı) – çənbər, perçim, dəmir bənd. – *Gondun bir uju gərənə bağlaner, o biri uju nala.*

**GOP** (Hamamlı) – arabanın qollarını birləşdirən enli taxta. – *Haravada iki gop olur: biri qavax gopu, biri dal gopu.*

**GOPALLI** (Basarkeçər) – kök, dolu (adam). – *Bu yaman gopallı adamdı.*

**GOPBAN** (Şərur) – b a x **gapban.**

**GOPBUŞ** (Ordubad) – iri, kök (adam).

**GORA** (Salyan, Zəngilan) – körpə quzu saxlanılan çəpərlənmiş yer. – *Goraya xirdə quzuları salıllar* (Zəngilan).

**GO:RASANNIĞ** (İmişli) – qəbiristanlıq. – *Bı yer go:rasannığeymış.*

**GORAZA** (Cəbrayıl, Zəngilan) – pis.

**GORDA** (Ağdam, Bakı, Cəbrayıl, Cəlilabad, Kəlbəcər, Qarakilsə, Salyan) – xəncərşəkilli iri bıçaq. – *Vəli gordeynan qoyunun başını kəsdi* (Cəbrayıl).

**GORDAHAT** (Çənbərək) – həddindən çox ağır. – *Gordahat gırdını traxdor çəkəmmədi.*

**GORGOR** (Xaçmaz) – alov. – *Pionerrər elə tonqal qalamışdılar ki, gorgor göyə çatırdı.*

**GORS** (Borçalı, Çənbərək) – şumlanmış sahələrin arasında qalan xam yer. – *Əkin yerinin daşı:n ayırtdı:rıx, gorsa tökürüx′;* – *Gedəx′ gorsun otunu yolax* (Çənbərək).

**GORSA** (Zəngilan) – şırım. – *Gorsa taxıl səpilir.*

**GO:RSANDIX** (Şəki) – b a x **go:rsannığ.** – *Ho gördüğun yer go:rsandıx yeridi.*

**GORVUT** (Çənbərək) – kobud. – *Yavanıŋ sapı gorvutdu.*

**GOSALLAHMINDILI** (Çənbərək) – uşaq oyunu adı. – *Gəliŋ gedəx′ gosallahmındılı oynuyax.*

**GO:SUN** (Quba) – xışın ucuna keçirilən ucu nazik və iti dəmir. – *Məmməd dayi go:suni itiləmegçün dəmirçiyə gitdi.*

**GO:UDAN** (Bakı) – tövlə.

**GO:UX** (Bakı) – qamçı.

**GOVUX** (Çənbərək) – qanqal kökü. – *Boz qanqalın kökünə govux deyillər.*

**GOZAR** (Hamamlı) – döyüldükdən sonra taxılın arasında qalan əzilməmiş sünbül. – *Gozarı bir yerə tofla, tezədən döyəx′.*

**GÖBƏLƏX′** (Zəngilan) – böyrək. – *Həkimlər de:r ki, göbələyində daş var.*

**GÖBƏR** (Oğuz) – b a x **köbər.**

**GÖBƏRƏX′** (Cəbrayıl) – b a x **göbələx′.**

**GÖBƏX′** (Təbriz) – tayfa. – *Qaçabəyli göbəyi indi təxtəqapı olupdi.*

**GÖD** (Şuşa) – b a x **god.**

**GÖDƏ** (Bakı) – 1. qarın; 2. mədə.

**GÖDƏX′ÇƏ** (Basarkeçər, Tovuz, Zəngilan) – b a x **gödəkcə.** – *Elə gödəx′cə də gərix′ kimi olur, arvatdar geyir onu* (Basarkeçər).

**GÖDƏKCƏ** (Kürdəmir) – qolsuz sırıqlı (qadın üçün).

**GÖDƏKDÜLÜS** (Qazax) – çoxbilmiş.

**GÖDƏLBƏ** (Bakı, Salyan, Yardımlı) – 1. çoxyeyən, qarınqulu (Bakı); 2. tamahkar (Salyan). – *Nurılla yaman gödəlbə adamdı* (Salyan); – *Bı uşağ çox gödəllədi* (Yardımlı).

**GÖDƏN** (Ağdam, Bakı, Bolnisi, Mingəçevir, Şəmkir, Tovuz) – b a x **gödə.** – *O boyda yiməyi gödəninə hancarı sığışdırdın* (Tovuz).

**GÖDƏNBAĞIRSAX** (Şəmkir, Tovuz) – düz bağırsaq. – *Gödənbağırsağı itdərə tulla, tişdərni dəyişsinnər.*

**GÖDƏNBAĞIRSIX** (Füzuli) – b a x **gödənbağırsax.** – *Bağırsıx cürbəcürdü: şirin bağırsıx, ajı bağırsıx, gödənbağırsıx.*

**GÖDƏNBIL** (Kürdəmir) – b a x **gödəlbə.**

**GÖDƏNBOĞAZ** (Xanlar) – b a x **göbəlbə.**

**GÖDƏNBUCAX** (Qazax) – b a x **gödəlbə.**

**GÖDMƏK** (Qax) – kiçik kötük.

**GÖDUL** (Quba) – çox işlənməkdən gödəlmiş, kiçilmiş alət.

**GÖDÜL** (Qax) – yağda bişirilən xəmir xörəklərindən birinin adı.

**GÖDÜŞ** (Cəlilabad, Lənkəran) – b a x **qoduş.** – *Gödüşin içində bi az do:ğa var* (Cəlilabad).

**GÖƏBAXAN** (Ağdərə) – körpə quzu saxlanılan yer.

**GÖƏBƏRC** (Cəlilabad) – faizlə, müamilə ilə verilən borc. – *Göəbərc, yanı ki, bi pıta pıt yarım borc vereydün.*

**GÖƏRİ** (Xanlar) – gömgöy.

**GÖƏRTMƏ** (Zəngilan) – göyöskürək.

**GÖƏZƏ** (Başkeçid, Borçalı) – xəsis. – *Göəzə öz malın yiməz* (Başkeçid).

**GÖƏZƏLİX′** (Goranboy) – acgözlük. ◊ **Göəzəlix′ eləməx′** – acgözlük etmək. – *Ay oğul, göəzəlix′ eləmə, az yi, səni incidər.*

**GOĞALA** (Əli Bayramlı, Salyan) – b a x **göyala.** – *Qarpız, yemiş, gündüg goğaladı* (Salyan).

**GÖGƏNDAZ** (Kürdəmir) – göyümtül. – *Nemissərin gögəndaz mahuddan paltarı olurdu.*

**GÖGEYİN** (Kürdəmir) – acgöz, tamahkar. – *Yamanca gögeyin adamsan* (Cəlilabad).

**GÖGƏVAR** (Quba) – göyərti. – *Həyitdə xeylağ gögəvar əkmişəm.*

**GÖGİ** (Qax) – qarğıdalı xingalı. – *Gögi çox şirin oliy.*

**GÖGÖ:ÜN** (Salyan) – b a x **gögeyin.** – *Gögö:ün adam hər nə olsa yiyər.*

**GÖGÜR** (Qazax) – kəfgir.

**GÖHƏRİ** (Qubadlı) – armud növü. – *Göhəri yayda yetişən armutdu.*

**GÖLƏS** (Qax) – əvəlik. – *Elə göləsi aş isdiyam <istəyirəm>.*

**GÖLƏŞ** (Ordubad, Şərur) – göl. – *Bıralar dərya olub, göləş olub* (Şərur).

**GÖLÜXʹ** (Şahbuz) – daxma. – *Gölüxʹdə özümüz yatırıx.*

**GÖMBƏ** (Dərbənd) – 1. məc. kök; 2. kətə.

**GÖMBƏLƏMGÖY** (Ağcabədi) – gömgöy. – *Yorğanın üzünə gömbələmgöy çit çaxʹdim.*

**GÖMĞUL** (Cənubi Azərbaycan) – b a x **gombul.**

**GÖMƏŞİMƏXʹ** (Gədəbəy) – soyuqdan donmaq. – *Ağız, vallah ələ:ğım elə göməşi:f ki, tutduğumu da bilmirəm.*

**GÖMÜ** (Kəlbəcər) – dirək basdırmaq üçün qazılmış çala. – *Gömü qazıf basdıreylər dirəyi.*

**GÖ:N** (Ucar) – b a x **göyö:ün.**

**GÖNCƏ** (Şərur) – cöngə.

**GÖNTÖY-GÖNTÖY** (Gədəbəy) – tərs-tərs. – *Nə: maŋa göntöy-göntöy baxersaŋ; – Göntöy-göntöy danışma:ŋ.*

**GÖNÜG** (Şamaxı) – görməmiş. – *Gönüg adamdı, ona nə deyim.*

**GÖÖD** (Qax) – zibil.

**GÖÖDDUX** (Qax) – zibillik. – *Gööddux qaya başındadı.*

**GÖRBƏXʹ** (Böyük Qarakilsə) – b a x **göbələxʹ.**

**GÖRƏLİ** (Borçalı, Qazax) – nişanlı oğlan və qızın valideynlərinin bir-birilərinə apardıqları sovqat.

**GÖRƏNƏ** (Telavi) – tələ.

**GÖRƏNƏK** (Qazax) – zəif düşüncəli.

**GÖRK** (Füzuli, Mingəçevir, Oğuz, Şəmkir) – nümunə. ◊ **Görk olmax** (Şəmkir) – nümunə olmaq, ibrət olmaq. – *Görk üçün özüm yığacam* (Füzuli); – *Bu saŋa görk olsun, bir də belə iş görmə* (Şəmkir).

**GÖRKƏZMƏ** (İmişli) – görünməmiş, qəribə. – *Görkəzmə işdi sənin işin.*

**GÖRKLÜ** (Ağdam) – görkəmli.

**GÖRSƏTMƏ** (Füzuli) – b a x **görkəzmə.** – *Görsətmə uşaxdı, işə-zade:tmir.*

**GÖRÜKLÜ** (Şamaxı) – təntənəli, dəbdəbəli. – *Əhməd bəy görüklü bir toy elədi.*

**GÖRÜKÜR** (Cəbrayıl, Füzuli, Zəngilan) – görünür. – *Görükür, ollarnan ayrı cür danışmax lazımdı* (Zəngilan); – *Görükür, sizin işdən xabarĩ:z yoxdu* (Cəbrayıl).

**GÖ:ŞƏNİ** I (Bakı) – qarpız növü. – *Gö:şəni qarpuz bizim yerrərdə yaxşı bitir.*

**GÖ:ŞƏNİ** II (Bakı) – suvarılmayan sahə.

**GÖTÜRCƏ** (Tovuz) – kötücə.

**GÖTÜRGƏ** I (Cəbrayıl, Xanlar, İmişli) – çökək yerdən hündür yerə su çıxarmaq üçün düzəldilmiş arx. – *Çökək yerdən götürgə olmasa, su keçməz; – Yaz başı su götürgəni elə dağıtdı kı, üç gündə düzəltməxʹ olmadı* (Xanlar).

**GÖTÜRGƏ** II (Basarkeçər, Gədəbəy, Qazax, Şəmkir, Tovuz) – b a x **götüryə.** – *Götürgədən xancal sallanar* (Gədəbəy); – *Ələmi götürgüyə keçirirsəŋ gedif nəzri tapır* (Basarkeçər).

**GÖTÜRYƏ** (Qazax, Şəmkir) – xəncər keçirmək üçün kəmərə bağlanan ilmək.

**GÖ:ÜL** (Şəmkir) – xırda qarpıza oxşar yeməli yabanı bitki adı. – *Bu sa:t gö:ülün yeməli vaxdıdı.*

**GÖ:ÜMƏK** (Sabirabad) – yavaş-yavaş közərmək.

**GÖ:ÜZ** (Bakı) – qamçı.

**GÖV** (Bakı) – b a x **gev.**

**GÖVEC** (Bakı, Quba) – gil qab. – *A balam, güvecimiz süzdədü?* (Quba).

**GÖVƏH** (Ağdaş) – təkərdə ox keçən hissənin adı, arabanın topu. – *Yaxşı gövəh innafdan <ağac növü> olar.*

**GÖVƏNNİK** (Naxçıvan) – çəmənlik.

**GÖVƏR** (Oğuz) – b a x **köbər.**

**GÖVƏRƏXʹ** (Kəlbəcər) – b a x **göbələxʹ.** – *Ağız, o gövərəyi gədiyə ver, ojağa atıf yisin.*

**GÖVÜR** (Oğuz) – b a x **köbər.**

**GÖY** I (əksər dialekt və şivələrdə) – b a x **gev.** – *Göy də adamın bir oğludu elə* (Gədə-

bəy); – *Mə:m göyüm heş bir işin qulpunnan yapışmır* (Tovuz).

**GÖY** II (Qazax, Şəmkir, Tovuz) – xəsis. – *Göy olma, dur bu toğlunun birni kəs yiəx′* (Şəmkir).

**GÖY** III (Göyçay, Zərdab) – yetişməmiş (meyvə).

**GÖY** IV (Qazax) – göycəqarğa. – *Göy də quşdu.*

**GÖYALA** (Əli Bayramlı) – yetişməmiş, dəyməmiş, kal.

**GÖYALDAZ** (Cəbrayıl) – göyümtül.

**GÖYBUYNUZ** (Tovuz) – üçillik camış düyəsi. – *Göybuynuz yaman anqırır, də:n kalə:lir* (kələ gəlir).

**GÖYCƏ** I (Göyçay, İmişli) – körpə quzularda xəstəlik adı.

**GÖYCƏ** II (Naxçıvan) – alça.

**GÖYCƏQARIX** (İmişli) – b a x **göyjəqarın.**

**GÖYCƏSULTAN** (Borçalı, Qazax) – alça.

**GÖYÇAN** (Şəki) – çərpələng.

**GÖYÇAVIN** (Ağdaş) – göytəhər. – *Bu barama göyçavındı.*

**GÖYÇƏQARIN** (Qarakilsə) – b a x **göyjəqarın.**

**GÖYÇİ** (Şamaxı) – xəsis.

**GÖYƏBAXAN** (Ağdam, İmişli) – b a x **göəbaxan.**

**GÖYƏRƏMTİLİX′** (Naxçıvan) – yaşıllıq. – *Bı yerrər həmişə göyərəmtilix′ olur.*

**GÖYƏRMƏ** (Gəncə, Tovuz) – yeni doğmuş qoyunun quzuluğunda əmələ gələn xəstəlik. – *Kəlin qoyun göyərmədən öldü* (Tovuz).

**GÖYƏRTMƏ** I (Quba) – gözmuncuğu. – *Göyərtməni uşağlar buyunnarına saladu.*

**GÖYƏRTMƏ** II (Şəmkir) – b a x **göyərmə.**

**GÖYƏVURMA** (Ağcabədi) – divardan asılan xalça üzərinə vurulan tikmə. – *Göyəvurma xalçanın üsdünə vurulur.*

**GÖYƏZƏ** (Beyləqan, Gəncə, Goranboy) – xəsis. – *Çox göyəzə adamdı Qulu* (Beyləqan).

**GÖYGƏNƏ** (Qazax) – zəhlətökən, sırtıq, tutduğunu buraxmayan (adam). – *Adam ha döy, göygənədi, yapışdı, buraxmaz.*

**GÖYJƏQARIN** (İmişli) – körpə quzularda əmələ gələn xəstəlik adı. – *Bu quzu göyjəqarındı, əmələ:lməz* <*əmələ gəlməz*>.

**GÖYLÜX′** (İmişli) – xəsislik. – *Göylüx′ elə başında qalıf onun.*

**GÖYNÖ:S** (Şəki) – acgöz. – *Göynö:s örgətmax uşã: yaxşı döyi.*

**GÖYÖ:ÜN** (Gədəbəy, Qazax) – mozalan.

**GÖYÜL** (Ağdam, Füzuli, Xanlar, Xocavənd, Kürdəmir) – yabanı bitki adı. – *Göyülü quzunun altına döşüyəllər* (Füzuli).

**GÖYÜM** (Zaqatala) – kürəkən.

**GÖYÜN** (Tovuz) – b a x **göyö:ün.** – *Heyvanı göyün yaman böələx′ləndirer.*

**GÖZ** I (Qazax, Tovuz) – pay, hissə; şərikli alınıb kəsilmiş heyvanın şəriklər arasında bölünən hissələri. – *Maŋa da bir göz ət bölüŋ* (Tovuz).

**GÖZ** II (Çənbərək) – bataqlıq. – *İnəx′ bə:ndə* <*bu yanda*> *gözə batıf.*

**GÖZDƏX′** (Tovuz) – gözləmə yeri. – *Əli büyün gözdəx′də oturuf.*

**GÖZƏ** (Qazax, Meğri) – çeşmə. – *Gözələrin güllə kimi suyunnan qoyun içer, so:ra yaxşı ot kəser* (Qazax).

**GÖZƏG** (Əli Bayramlı) – b a x **gözək** II.

**GÖZƏX′** (Borçalı, Gədəbəy, Qazax, Zəngilan) – 1. b a x **gözək** II (Borçalı, Gədəbəy, Qazax, Zəngilan); 2. ilməkdən keçirilən ip (Qazax). – *Gözəyi gəti cualın ağzın gözüyüm.*

**GÖZƏK** I (Ağdaş) – iynə. – *Torvaların ağzını gözəknən tik.*

**GÖZƏK** II (Cəbrayıl, Qax, Salyan, Yevlax) – çuvalın ağzında olan ilmək.

**GÖZƏMƏX′** (Gədəbəy, Qazax, Tovuz) – toxumaq, hörmək. – *Bu coravı gözüyüf qışda geyijəm* (Tovuz).

**GÖZƏNDİR** (Meğri) – gözmuncuğu. – *Qatır palanın da itirip, gözəndirin də.*

**GÖZ: GÖZ TÜŞMƏX′** (Ağcabədi, Mingəçevir) – yetişməyə başlamaq. – *Üzümə göz tüşübdü, yə:ni təzə dəyir* (Mingəçevir).

**GÖZYUMMA** (Yevlax) – uşaq oyunu adı. – *Uşaxlar gözyumma oynuyur.*

**GUBI** (Meğri) – divara vurulan birinci suvaq.

**GUD** (Bakı) – muncuq.

**GUDMAN** (Oğuz) – b a x **godman.**

**GUDUL** I (Bakı, Füzuli, Qarakilsə, Quba) – b a x **gödül.**

**GUDUL** II (Bakı) – hörümçək.

**GUDUL** III (Füzuli) – sarımayan barama qurdu. – *Gudul qırılır, sarımır.*

**GUDUL** IV (Xaçmaz) – qısaboylu, gödək (adam). – *Mirzəbala kişi gudul bir adamiydi.*

**GUDULLAMAX** (Zəngilan) – barama sarımaq ərəfəsində xəstələnib qırılmaq (baramaqurduna aiddir). – *Qurdumun çoxu şaxlıyanda gudulladı.*

**GUFLAMAG** (Mingəçevir) – b a x **gupsamağ.**

**GUKGUMAY** (Tabasaran) – bayquş. – *Başi pişigü başi kimig uladu gukgumayu*(*n*).

**GULUF** (Cəbrayıl) – göl suyunun axdığı yer. – *Oğul, gör gulufa nə düşüb.*

**GUMACAR** (Çənbərək) – ehtimal. – *Məxsətdən yavıyı gumacarnan xavar aldım, bizdədi, dedi.*

**GUMANA** (Cəbrayıl) – kəhrizin baş quyusu. – *Rustam kəhrizində iki gumana var.*

**GUMBUL** (Göyçay) – arxın dərin yeri.

**GUMULDAMAX** (Laçın) – zümzümə etmək.

**GUMUR-GUMUR** (Ağcabədi) – asta-asta, yavaş-yavaş. – *Naxırçı görür kün, gumurgumur səs gəlir.*

**GUNA** (Bakı) – yanaq.

**GUNTU** (Qax) – oğru. – *Ne guntu kimik oğurrux eliysin?*

**GUPBUL** (Zəngilan) – toxmaq.

**GUPPUN** (Ordubad) – b a x **gupbul.**

**GUPSAMAĞ** (Bakı) – bərk vurmaq, döymək.

**GURAY** (Tabasaran) – dayça. – *Büzdə Abdüsəlimin yaxşı gurayi var.*

**GURBUĞ** (Xaçmaz) – tumurcuq.

**GURDUM** (Dərbənd) – çinədan. – *Tovuğun gurdumi daşi də əritə var.*

**GURGUR** I (Dərbənd) – hindtoyuğu. – *Nurməhəmmədin haburda üç-dörd gurguru var.*

**GURGUR** II (Quba) – şəlalə.

**GURIMLIX** (Meğri) – sıx və keçilməz (meşə). – *Nüyədidə Gıramcan kimin gurımlıx meşə yuxdı.*

**GURNAŞMAX** (Füzuli) – istidən bir yerə toplaşmaq, sıxlaşmaq (heyvanlara aiddir).

**GURPUŞDAMAX** (Çənbərək) – çalxamaq. – *Arvaddar nehriyi quş kimi gurpuşdadı da, düşüdü də.*

**GURŞAD** (Qazax) – ildırım, şimşək. – *Səni görüm üstüŋə gurşad oynasın.*

**GURULDOV** (Qax) – şəlalə.

**GUS** (Quba) – tikə. – *U çürekdən bir gus kəs, ver mənə.*

**GUŞAD** (Bakı) – iri çəllək. – *Unun qərdeşi heyetdeki guşaddarı sunan doldururdi.*

**GUYM** (Çənbərək) – dərin. – *Guym dərələrdə o ğarda çırpı var kın.*

**GÜCƏPİSDIĞNAN** (Şəki) – güclə, zorla, çətinliklə. – *Gücəpisdığnan qapını açər;* – *Bir gücəpisdığnan gəlif çıxmışam.*

**GÜCÜLLƏMƏK** (Ordubad) – artmaq, çoxalmaq. – *To:us xanım çox işdiyib, axırı noxsannarı gücüllüyüb.*

**GÜCÜRRƏMƏY** (Cəlilabad) – zorlamaq. – *Biz gücürreyib almışüg bılardan.*

**GÜDARA** (Ordubad) – tənək çubuğu. – *Mən bağımızda güdara basdırdım.*

**GÜDƏN** (Dərbənd) – b a x **gödə** (1-ci məna). – *Aldi u almaları də güdəninə saldi.*

**GÜDƏNXUR** (Xaçmaz, Quba) – qarınqulu, acgöz.

**GÜDİL** I (Cəlilabad) – səhəng.

**GÜDİL** II (Lerik) – gödək.

**GÜDMAN** (Oğuz) – b a x **gödman.**

**GÜDMÜL** (Qazax, Tovuz) – b a x **gödül.** – *A bala, bizim yava belə ha döydü, bu nədi güdmül şey, sapı-zadı da sınıx* (Tovuz).

**GÜDÜ** (Qazax) – çoxbilmiş (adam).

**GÜDÜX′** I (Tovuz) – yersiz danışan, sözünün yerini bilməyən. – *Fatma güdüy adamdı, heş sözü:n yerini bilmir.*

**GÜDÜX′** II (Goranboy) – koğuş.

**GÜDÜX′** III (Tovuz) – gödək. – *Güdüx′ quyrux inəx′ öədəyə tüşüf.*

**GÜDÜX′** IV (Gədəbəy, Xanlar) – yarıtmaz. – *Güdüx′ iş tutmağ elə səniŋ peşəŋdi* (Xanlar).

**GÜDÜKÇÜ** (Ağdaş, Göyçay, İmişli, Kürdəmir, Qax) – malotaran, naxırçı, çoban. – *Güdükçü bi baş malı ayda omma:ta güdür* (Kürdəmir).

**GÜDÜL** I (Ağdaş) – dibçək.

**GÜDÜL** II (Çənbərək) – quyruqsuz toyuq.

**GÜDÜL** III (Cəlilabad) – b a x **güdil** I.

**GÜDÜL** IV (Zaqatala) – qulpu sınıq saxsı suqabı.

**GÜLYAN** (Böyük Qarakilsə) – hiyləgər (adam).

**GÜDYANI** I (Qazax) – b a x **güdyan.** – *Gülsara yaman güdyanı adamdı.*

**GÜDYANI** II (Çənbərək) – çovdar. – *Biyilki güzdəx′də yaman güdyanı var.*

**GÜƏLƏX′LİX′** (Qazax) – yaşıllıq.

**GÜƏNİMƏX′** (Çənbərək) – işıqlanmaq. – *Ay çiji, güəniyif, dur gedəx′.*

**GÜƏRMƏ** (Çənbərək, Gəncə) – b a x **göyərmə.** – *Güərmə doğannan so:ra qoyuna so:x su verəndə ölür* (Gəncə).

**GÜƏZƏ** (Çənbərək) – b a x **göyəzə.** – *Güəzə adam həmməşə adamı xəjələt elər.*

**GÜƏZƏLƏMƏX′** (Tovuz) – gəvələmək. – *O nədi ağzıŋda güəzələdiyin?*

**GÜƏZƏMƏX′** (Şəmkir) – b a x **güəzələməx′.** – *Yuan-yuan nə güəzirsəŋ.*

**GÜFLƏMƏX′** (Çənbərək, Tovuz) – *məc.* – çox yemək. – *Əyə, bu ətdən az güfləsəŋə* (Çənbərək).

**GÜGÜM** (Göyçay, Lerik, Sabirabad, Salyan, Şamaxı) – b a x **güyüm.** – *Sona gügümdə su gətirirdi* (Şamaxı).

**GÜJDƏMƏK** (Culfa) – dərmək. – *Meyvəni gəlib-gedən güjdər.*

**GÜJÜLƏMƏX′** (Füzuli) – arğac vermək. – *Gücü ağacı qoyub güjülüyürüx′.*

**GÜJÜRRƏMƏX′** (Cəbrayıl) – cəhd etmək. – *Güjürrə, işi qutar.*

**GÜL** I (Qazax) – düymə.

**GÜL** II (Göyçay) – əncir ağacının ilk, birinci meyvəsi.

**GÜL** III (Gədəbəy) – ildırım.

**GÜLAB** (Ordubad) – taxıla verilən ikinci su. – *Taxıla gülab vırmağın vaxtıdı.*

**GÜLBACI** (Yardımlı) – qardaşarvadı.

**GÜLBA:RƏK** (Dərbənd) – novruzgülü. – *Gülba:rək bənövşiynən bir vaxtda çixədü.*

**GÜLBƏSƏR** (Cəlilabad, Culfa, Qazax, Naxçıvan, Ordubad, Zəngilan) – xiyar. – *Gülbəsərdən xoşum gəlir* (Zəngilan).

**GÜLBIRNI** (Zəngilan) – itburnu.

**GÜLBİ** (Bakı) – heyva çiçəyi. – *Gülbi qutardi, mən heç bi dənə də yiə bilmədim.*

**GÜLBURNU** (Xanlar) – b a x **gülbırnı.**

**GÜLÇİNNİG** (Bakı) – gülməli söhbət.

**GÜLGÜNNÜG** (Salyan) – şənlik.

**GÜLDÜRƏMƏX′** (Daşkəsən) – kasıblaşmaq, yoxsullaşmaq.

**GÜLƏBATIN** I (Bakı) – tərtəmiz.

**GÜLƏBATIN** II (Bakı) – zərli sap.

**GÜLƏBƏSDƏ** (Ağdam, Şəki) – şamama. – *Üş dənə güləbəsdə alıf, hər uşağa birini verdim* (Şəki).

**GÜLƏBZAY** (Ordubad) – mürəbbəqabı. – *Güləbzay saxsıdan olar, şüşədən olar.*

**GÜLƏCƏ** (Ordubad) – keçmişdə qadınların evdə geydikləri qolsuz qofta. – *Güləcəni keşmişdə çox geyərdilər.*

**GÜLƏCƏQARĞA** (Xaçmaz) – göycəqarğa.

**GÜLƏH** (Culfa) – ikinci və üçüncü dəfə biçilən, çalınan yonca.

**GÜLƏMBİR** (Ağdam, Xocavənd, Şəki, Yevlax) – taxıla verilən ikinci su. – *Taxıla güləmbir verdim* (Yevlax); – *Yazda güləmbir vururdux taxıla, yağınnığ olanda vurmurdux* (Şəki).

**GÜLƏNBİR** (Mingəçevir) – b a x **güləmbir.**

**GÜLƏNGƏRİŞ** (Salyan) – eyvan.

**GÜLGAVAZ** (Meğri) – gülünc. – *Belə gülgavaz iş yux idi ki, Eranda dul avradi də gətirip qaçeydilar.*

**GÜLGÜLƏMƏX′** (Füzuli) – gözümçıxdıya salmaq, danlamaq. – *O, getdiyi evdə onu çox gülgülüyürdülər.*

**GÜL: GÜL QOYMAĞ** (İmişli) – *məc.* divan tutmaq, zülm etmək. – *Bıy-bıy, bizə bi gül qoydılar.*

**GÜLQƏND** (Naxçıvan) – qızılgül mürəbbəsi. – *Gülqəndi çaynan yeyəllər.*

**GÜLLAHLAMAX** (Çənbərək) – bir nəfəsə içmək. – *Sudan yaman güllahladım, genə susalığım qaşmadı.*

**GÜLLƏMƏX′** I (Ağdam, Füzuli, Şamaxı) – təndir çörəyinin üzündə yanıq qabarcıqlar əmələ gəlmək. – *Bir təndir çörəyin hamısı güllədi* (Ağdam); – *Çörəyim güllədi* (Füzuli).

**GÜLLƏMƏX′** II (Ağdam, Bərdə, Mingəçevir, Zəngilan) – baramaqurduna veriləcək yarpağın çubuqlarının odun hissəsini kəsib atmaq. – *Yarpaxları güllə, so:ra qəyit dəriz bağla* (Zəngilan).

**GÜLLƏSƏR** (Təbriz) – xiyar. – *Vəxtində yığılman gülləsər saralırı.*

**GÜLMƏRƏNDƏ** (Füzuli) – üzüm növü.

**GÜLMIX** (Ağdam) – mıx. – *Gülmıx balajasına de:illər.*

**GÜLMUX** (Daşkəsən, Gədəbəy, Şəmkir, Tovuz) – b a x **gülmıx.** – *Öyün divarına biriki gülmux çalıf, papağımızı onnan asırdıx* (Tovuz).

**GÜLO:ŞAN** (Bakı) – dəniz sahilində bitən ağyarpaqlı, ətirli bitki adı.

**GÜLPƏNƏG** (Dərbənd) – novruzgülü. – *Muğartililər gülpənəgə hələkkar diyədülər.*

**GÜLSABA:** (Bərdə, Tərtər) – sarımsağa bənzər bitki adı.

**GÜLŞƏFTƏLİ** (Lənkəran) – dördkünc baş yaylığı. – *Qıza, Sima, gülşəftəlin hanı?*

**GÜLŞİNNİG** (Bakı) – b a x **gülçinnig.**

**GÜLÜL** I (Ordubad) – iridamcılı yağış. – *Göydən gülül yağır.*

**GÜLÜL** II (Lənkəran) – buğdanın içində olan qara acı toxum.

**GÜLÜMBƏ** (Bakı) – təndirdə küt getmiş çörək.

**GÜLÜSOR** (Şahbuz) – buğda növü adı. – *Gülüsoru payız əkirik.*

**GÜLVƏNG** (Tovuz) – toyda gəlin gətirilən vaxt verilən yemək. – *Gülvəngdən soŋra cama:t dağıldı.*

**GÜ:M** (Mingəçevir, Naxçıvan, Oğuz) – b a x **güyüm.** – *A:z, u gü:mi doldur mə: ver* (Oğuz); – *Gü:m çox su tutur* (Naxçıvan).

**GÜMBÜL** (Gədəbəy) – iri, ağır çəkic. – *Qağam daş çıxarmağa geder, gümbülünüzü isde:r.*

**GÜMƏŞMƏX′** (Çənbərək) – b a x **göməşiməx′.** – *Əlim-ə:ğim güməşdi, tutəmmədim səni.*

**GÜMMÜLLÜK** (Salyan) – zibillik. – *Bıra şey tökmə, gümmüllük olar.*

**GÜMRƏŞMƏK** (Başkeçid) – titrəmək.

**GÜMÜLDƏMƏX′** (Qazax) – b a x **gumuldamax.**

**GÜMÜLTÜ** (Qazax) – zümzümə.

**GÜNAĞAŞI** (Şəmkir) – gün düşən yer. – *Gəlin bu günağaşıda oturuf bir əz qızınax.*

**GÜNA:RŞI** (Tovuz) – b a x **günağaşı.** – *Yayda güna:rşıda otumazdar, qışda oturallar.*

**GÜNAŞMAX** (Qazax) – məhsulu əməkgününə görə bölmək.

**GÜNDƏXOŞ** (Bakı) – b a x **gündəquş.**

**GÜNDƏQUŞ** (Bakı) – şərq.

**GÜNDOĞUŞ** (Bakı, Lənkəran) – 1. b a x **gündəquş;** 2. şərq küləyi.

**GÜNDÜC** (Zaqatala) – böyük iynə. – *Corablarmı gündüclə yama.*

**GÜNDÜRRÜG** (İmişli) – yaşayış, dolanacaq. – *So:ra gündürrügləri olmadı, dolanışığ pis oldı.*

**GÜNƏBAXAN** (Ağcabədi, Ağdam, Bərdə, Salyan, Zərdab) – körpə quzu saxlanılan yer. – *Quzuları günəbaxana saldım* (Ağdam); – *Quyi kimi yer qazırduğ, ona günəbaxan deyirüg, körpə quzuları salmaxçun* (Salyan).

**GÜNƏLGƏ** (Bərdə) – daldalanacaq. – *Yevlaxdan gələndə yolda məni yağış tutdu, dönüf qarağacın divində özümə günəlgə qayırdım.*

**GÜNGƏNƏ** (Zaqatala) – buğda növü.

**GÜNİ** (Təbriz) – ot tayası. – *Qurumuş otı gətirrux, qapıda güni düzəldirux.*

**GÜNKÜR** (Qusar) – qozbel.

**GÜNNÜX′** (Gədəbəy, Qazax) – bir gündə şumlanmış sahə. – *Qalxozun çox günnüx′ləri var* (Gədəbəy).

**GÜNNÜK** I (Zəngilan) – əməkgünü.

**GÜNNÜK** II (Yardımlı) – papağın günlük hissəsi.

**GÜNÖYSÜ** (Gədəbəy) – gündüşən (yer). – *Günöysü yerin otu tez çalıner.*

**GÜNSÜX′** (Tovuz) – günün təsiri ilə xarab olan, çürüyən (qatığa aiddir). – *Günsüx′ qatığı itə atallar, a bajı.*

**GÜNSÜMƏX′** I (Çənbərək) – boş, bikar gəzmək. – *Usuf günüzü axşamatana aralıxlarda günsüyür.*

**GÜNSÜMƏX′** II (Tovuz) – günün təsiri ilə xarab olmaq, çürümək (qatığa aiddir). – *Qatığımıza gün tüşüf günsüyüf.*

**GÜNÜ** (Gədəbəy) – xalçaçılıqda istifadə olunan alət. – *Günü düzətdiŋizmi xanıya?*

**GÜNÜK** (Borçalı) – bir hektar yer.

**GÜNYƏ** (Tovuz) – sütunların baş tərəfinə vurulan bəzəkli taxta.

**GÜPSƏMAX** (Təbriz) – yıxmaq, arxasını yerə vurmaq. – *Qardəşim onu güpsəmişdi yerə.*

**GÜRDƏX′** I (Cəbrayıl, Zəngilan) – iri üzüm salxımı. – *Bir gürdəx′ yedim qarnımı doydudu, düz bir kilov olardı* (Zəngilan).

**GÜRDƏX′** II (Lerik) – qar topası.

**GÜRDİG** (Yevlax) – çuxur yerlərə dolmuş qar.

**GÜRGƏLƏMƏX′** (Cəbrayıl) – gözümçıxdıya salmaq, bezikdirmək. – *A:z, o da bacı qızıdı dayna, uşağı niyə gürgəliyirsəŋ.*

**GÜRGƏNƏ** (Meğri) – qorxaq. – *Gözüm su işmer Fəxratdan, çox gürgənə uşaxdı.*

**GÜRGƏNİ** (Ağdam, Bərdə, Borçalı) – buğda növü. – *Gürgəni buğdanın çörəyi yaxşı olmur* (Ağdam).

**GÜRGƏVAZ** (Ağbaba) – biabır, rüsvay. – *El içində gürgəvaz olmax çox pis işdi.*

**GÜRNƏC** (Tovuz) – b a x **kürnəc.** – *Heyvannarı isdidə gürnəcə yığırıx.*

**GÜRNƏŞDƏMƏXʹ** (Gədəbəy, Hamamlı) – istidən bir yerə toplaşmaq, sıxlaşmaq (qoyunlara aiddir). – *Qoyunnar issidə gürnəşdənər* (Hamamlı).

**GÜRNƏŞMƏXʹ** (Xanlar) – b a x **gürnəşdəməxʹ.** – *İsdi havada gürnəşər qoyun-quzu.*

**GÜRNİ** (Salyan) – saxsı suqabı. – *Gürnini mə: ver, Əli; – Gürniyə su tököllər.*

**GÜRPƏZDƏMƏXʹ** (Şəmkir) – çalxamaq (nehrəni). – *Nehrə:n ağzın səleynən sələli:rsəŋ, soŋra gürpəzdi:rsəŋ yağ olur.*

**GÜRPÜŞDÜRMƏXʹ** (Qazax) – çalxamaq (nehrəni). – *Gə nəhreyi gürpüşdürəxʹ, görəxʹ kim-kimi yorajax.*

**GÜRŞAD** (Göyçay, Qazax, Sabirabad, Salyan) – b a x **gurşad.** – *Gürşad yazza, payızza çoxalır* (Salyan).

**GÜRŞAT** (Lerik, Yardımlı) – leysan, güclü yağış. – *Çölə çıxmalı döy, gürşat tökey* (Yardımlı).

**GÜRŞƏD** (Gədəbəy) – b a x **gurşad.**

**GÜRULDUX** (Oğuz) – şəlalə.

**GÜRVƏ** (Quba) – 1. külbə (təndirdə); 2. evin havasını dəyişdirmək üçün divarda düzəldilən xüsusi yer, yelçəkər. – *Gürvə təndirdə də ular, piçdə də ular.*

**GÜŞAT** (Salyan) – ağzıaçıq çəllək. – *Güşata su doldur, durulsun.*

**GÜŞDİ** (Ordubad) – şaftalı.

**GÜVƏLƏMAX** (Zaqatala) – tələsik yemək. – *O, çörək güvəliyip gitdi.*

**GÜYÜ** (Quba) – cır alma. – *Uşaxlar meşədən çuxli güyü yığdılar.*

**GÜYÜM** (Balakən, Cəbrayıl, Gəncə, Kürdəmir, Qax, Oğuz, Şəki, Tovuz, Yevlax, Zəngilan, Zərdab) – mis səhəng. – *Güyümü götü suya gidax* (Oğuz); – *A:za, vadanoy diyandi, güyümi al, yügür su gəti* (Kürdəmir); – *Güyümü bulağa söykəmişəm, dolsun götü qoy qırağa* (Şəki).

**GÜZ** I (Əli Bayramlı, Sabirabad, Salyan) – b a x **küz.**

**GÜZ** II (Əli Bayramlı, Xanlar, Sabirabad, Salyan) – 1. payızlıq şum (Əli Bayramlı, Sabirabad, Salyan); 2. taxıl səpilmiş yerlə səpilməmiş yer arasında çəkilən sədd (Xanlar). – *Yerə toxum səpirəxʹ, sonra güz çəkirəxʹ kin, səpilən yernən səpilməyən yer seçilsin.*

**GÜZDEXʹ** (Şəki) – payız otu, payızda göyərən ot. – *Güzdexʹ malı kökəldən şeydi.*

**GÜZDƏG** (Biləsuvar) – payızda qoyun-quzu saxlanılan yer.

**GÜZDƏXʹ** I (Daşkəsən, Füzuli, Gədəbəy, Xanlar, Ordubad, Zəngilan) – 1. b a x **güzdexʹ** (Daşkəsən, Füzuli, Gədəbəy, Ordubad, Zəngilan). – *Güzdəxʹ heyvanı kökəldir, yaxşı otdu* (Zəngilan); 2. yayda çalınmamış biçənək (Gədəbəy, Xanlar); 3. yaz otu, yaz yoncası (Ordubad, Zəngilan). – *Quzular güzdəyi yaxşı yeyir* (Zəngilan); – *Toğli güzdəyi yiəndə qılqur yemir; – Güzdəxʹ yaz yoncasına deyərix* (Ordubad).

**GÜZDƏXʹ** II (Ordubad) – payız yunu.

**GÜZDƏXʹ** III (Qarakilsə) – payızda yetişən xiyar. – *Baxardın, güzdəxʹ varsa, birin qırıp gətirərdin.*

**GÜZDƏXʹ** IV (Qarakilsə) – qoca kişidən törəyən uşaq. – *Bı gədə güzdəxʹdi; – Güzdəxʹ uşağın baxdı olar.*

**GÜZDƏXʹ** V (Tovuz) – b a x **güzdəg.**

**GÜZDÜXʹ** (Basarkeçər, Çənbərək, Xanlar) – payızlıq taxıl. – *Ə:, malları qavala, güzdüyə doluf* (Basarkeçər); – *Malağanın dalındakı güzdüxʹ yatıf deyn beçəliyif* (Çənbərək).

**GÜZƏ** (Masallı) – qısa, gödək.

**GÜZƏM** (əksər dialekt və şivələrdə) – b a x **gizam.** – *Qoyunnarın güzəmini qırxannan sura hazurruğa göndərəduğ* (Quba); – *Quziləri qırxmısənsə, güzəmin göndər ə:mizə* (Bakı).

**GÜZƏMLƏNDİRMƏXʹ** (Kəlbəcər) – yununu çoxaltmaq, artırmaq (qoyuna aiddir). – *Yağışın qoyuna olduxca xeyri var, güzəmləndirir dayna, yunun artırır.*

**GÜZLƏK** (Ordubad) – b a x **güzdüxʹ.** – *Həsən, ay bala, quzuları güzləyə burax, qayıt gəl.*

**GÜZÜ** (Gədəbəy) – b a x **güz.** – *Güzü nəvax düzəltmisiŋiz?*

# Hh

**HAA** (Qax) – kirşə.

**HAAN** (Qax) – bəli.

**HABBA** (Ağcabədi, Yevlax) – xörək <uşaq leksikonunda>. – *Tahirə gə sã: habba verim* (Ağcabədi).

**HABCAƏLİ** (Qax) – bu dəqiqə.

**HABI** (Qax) – b a x **habi.**

**HABIRSİ** (Bakı, Salyan) – hansı? – *Əlimdə iki alma tutmuşam, kim diyər, habırsi böügdü?* (Salyan).

**HABİ** (Dərbənd) – bu. – *Habi kimindü?*

**HABLƏ** (İmişli) – belə. – *Hablə işi heş görmə.*

**HABLEJƏ** (İmişli) – beləcə. – *Hableja söyvət yaxşıdı.*

**HABU** (Dərbənd, Tabasaran) – b a x **habi.** – *Habu adamlar bizə yaxun idi* (Dərbənd); – *Bilənnərin habulardu?* (Tabasaran).

**HACIBƏRİBAX** (Bakı, İsmayıllı) – parça növü. – *Tükana yaxşı hacıbəribax gəlib* (İsmayıllı).

**HACIBUĞDA** (Dərbənd, Quba) – qarğıdalı. – *Bizim yerdə hacıbuğda yaxşı yetişədü* (Quba); – *Çöldə mal ekinə, hacıbuğdaya girməsin, ziyan eləməsin deyni gəzmə qoyadılar* (Dərbənd).

**HACIQOAX** (Cəbrayıl) – yabanı bitki adı.

**HACIQUANX** (Füzuli) – bax **hacıqoax.**

**HACIQUAX** (Kürdəmir) – b a x **hacıqoax.** – *Hacıquaxdan ağ saqqız düzəldirik.*

**HACIMƏNƏBAX** (Bakı) – nazik parça növü.

**HACIMORA** (Cəbrayıl, Zəngilan) – yabanı dərman bitkisi adı. – *Hacımoranı yağnan döyüb qoyullar yara:n üsdə* (Zəngilan); – *Get bir az hacımora yığ* (Cəbrayıl).

**HACIOQQAR** (Oğuz) – hacıleyləyə oxşar quş. – *Hacıoqqar qışda olur, həşarat ye:r.*

**HACİBOĞDA** (Dərbənd, Tabasaran) – b a x **hacıbuğda.** – *Cad bişirədig haciboğdadan* (Tabasaran).

**HACTURAN** (Kürdəmir) – nadürüst. – *Şamil kimisi özü olmaz, yap hacturandı.*

**HAÇABAŞ** (Bakı) – bərabər, əvəz-əvəz. – *Sən də vırdun, u da oldu haçabaş.*

**HAÇAMAYA** (İmişli) – dişi dəvə. – *Haçamaya yaxşıdı yüngül yükə.*

**HAÇAREYZİN** (Borçalı) – sapand. – *Uşaxlar ona de:llər haçareyzin.*

**HADƏR** (Lənkəran) – ucu yonulmuş 40-50 sm. uzunluğunda nazik çubuq <uşaqlar oyun zamanı ondan istifadə edirlər>. – *Yədi, bizim polmızın altınnan hadərrərimi oğırrıyıblar.*

**HADIĞ** (Salyan) – bacarıqlı, zirək. – *Xeyrənsə hadığdı, əlinnən hər iş gəlir.*

**HADIX** (Bərdə, Borçalı, Cəbrayıl, Füzuli, Gədəbəy, Xanlar, Laçın, Mingəçevir, Oğuz, Sabirabad, Tərtər, Tovuz, Zəngilan) – mamaça. – *Kəndimizin hadığı çəhməçi Allahverdinin arvadı Zeynafdı* (Gədəbəy); – *Zeynavın ağrısı başdadı, hadığı çağırdılar* (Laçın); – *Arvat doğur, uşax göndər, hadıx Gülgəzi çağırsın* (Füzuli).

**HADIXÇI** (Bərdə, İmişli, Tərtər) – mamaça. – *Hadıxçı tutar uşağı* (İmişli).

**HADIR: HADIR OLMAX** (Cəlilabad, Çənbərək) – muğayat olmaq. – *Bı qəddə hadır ol, indi gəleyəm;* – *Hadır ol, küçiy tutər* (Cəlilabad).

**HAF** (Bakı) – bəzəkli kəpənək.

**HAĞALA** (Şərur) – haraya.

**HAGİDƏ** (Yardımlı) – cəld, tez. – *Gördigi işi hagidə oley.*

**HAĞYƏT** (Şamaxı) – həqiqətən, doğrusu, doğrudan. – *Hağyət deyirsə:n?*

**HAXÇI** (Salyan) – haqsevən.

**HAXDUS: HAXDUS VIRMAG** (Salyan) – zəhmət çəkmək, çalışmaq. – *Adam üç ay yayı haxdus vırır, yenə issədiyi kimi yaşamır.*

**HAXIŞDA** (Şahbuz) – toylarda əl çala-çala oxunan mahnı. – *Toyda sözdəri deyib haxışda oxuyurux.*

**HAJBƏRİBAX** (Bərdə, Goranboy) – ipək parça növü. – *Hajbəribax qıymatdı parçadı* (Goranboy); – *Hajbəribaxı quvvəsi çatan ge:irdi* (Bərdə).

**HAJIQO:X** (Ağdam, Borçalı) – yabanı bitki adı. – *Qoyun hajıqo:ğa tüşəndə sağaltmağ olur, ağzına ağartı tökürüx', sağalır* (Borçalı).

**HAQDUS** (Salyan) – zəhmət. ◊ **Haqdus eləməg** – çalışmaq, zəhmət çəkmək. – *Uşağ dərsinə çox haqdus eliyir.*

**HAQQADAĞAR** (Qarakilsə) – haqverməz. – *Mən haqqadağar adam döyləm.*

**HAQQARAN** (Şamaxı) – əlaqə. – *Sənin mənimnən nə haqqaranun?*

**HAQQƏNNƏSİ** (Ağsu, Salyan) – düzü, həqiqətən. – *Haqqənnəsi, sədir yaxşı adamdı* (Ağsu). – *Hamı taxsırı Mərdanda gördi, haqqənnəsi, onda taxsır olmadı* (Salyan).

**HAQQINA** (Daşkəsən, Kəlbəcər, Mingəçevir) – buğayagəlmə həddi çatmış <düyə>. – *İnəyin üçillix' balasına de:irix' haqqına, tişi olana* (Daşkəsən).

**HAQQULİ** (Dərbənd) – dəvədabanı. – *Haqquli çüldə çoxdi.*

**HAQUŞTA** (Qarakilsə, Şərur) – mahnı ilə müşayiət olunan rəqs.

**HAQUY** (Zaqatala) – xəşil.

**HAL** (Şamaxı) – bol. – *Gəlib bı hal çörəkdən doyuncan yemədüz.*

**HALA** (Ağdaş, Göyçay, Mingəçevir) – 1. b a x **ala** I (Ağdaş, Göyçay); – *Pambığı hala basıf* (Ağdaş); 2. b a x **ala** II (Ağdaş, Mingəçevir). – *Beş dəsdə hala al* (Ağdaş).

**HALADƏRƏN** (Ağdaş, Mingəçevir) – alaqkeş. – *Haladərəni mənə ver* (Ağdaş).

**HALAĞ** (Salyan) – alaq. – *Qadınnarı halağa aparıllardı.*

**HALAĞADÜZÜ** (Naxçıvan) – dərman bitkisi adı.

**HALAT** (Şəki) – ağacdan meyvə salmaq üçün nazik uzun ağac.

**HALATDAR** (Qax) – pəncərə çərçivəsi.

**HALAVATDIĞ** (Bakı) – dinclik. – *Öydə də bir halavatdığım yoxdu.*

**HALAVAT: HALAVAT ELƏMƏG** I (Salyan) – qızışdırmaq. – *Səni halavat eliyib salıblar mənim canıma.*

**HALAVAT: HALAVAT ELƏMƏG** II (Bakı) – narahat olmaq, nigaran qalmaq. – *Əşi, halavat eləmə, harda olsa gələr.*

☐ **Halavat ulmeg** (Dərbənd) – hücum etmək. – *Gidib bılar halavat uldılar.*

**HALAVİŞ** (Meğri) – istilik, hərarət.

**HALAY** I (İmişli) – çəpər.

**HALAY** II (Oğuz) – key. – *Halayın biridi, axşamatan danışsan, bir şey olan döyül.*

**HALAYGƏLDİ** (Ağdam) – uşaq oyunu adı.

**HALAYPOZAN** I (Qax) – oyunu pozan, oyunu dağıdan.

**HALAYPOZAN** II (Quba) – qüvvətli, güclü. – *Halaypozan adamun işi də üzünə gürədü.*

**HALĞA** (Dərbənd, Qazax, Kürdəmir) – qaşsız üzük. – *O halqeyi kin de:rix', o, qaşsız olor* (Qazax); – *Sözkəsdidə halğa da vərrüg* (Kürdəmir); – *Qaşi olmiyənə halğa diyəduğ* (Dərbənd).

**HALĞALAMAĞ** (Cəlilabad) – mühasirəyə almaq. – *O sa:d bizi halğaladılar.*

**HAL-HƏLAY** (Qax) – sadə.

**HALIX** (Cənubi Azərbaycan) – süst. – *Bu adam çox halıxdı.*

**HALQADAN** (Meğri) – qapını arxadan bağlamaq üçün taxta cəftə.

**HALQADUZU** (Culfa) – b a x **halağadüzü.**

**HALQƏRƏZ** (Meğri, Bakı) – xülasə, nəhayət. – *Halqərəz Gülü babam gəlir, Ernəzirin binəvrəsin qoyur* (Meğri); – *Dedi ki, halqərez bına görə gələ bilməyib* (Bakı).

**HALQARƏZƏ** (Ordubad) – cəftə. – *Halqarəzə qapıda olar.*

**HALQƏRƏCƏ** (Culfa) – b a x **halqarəzə.**

**HALLAÇİ** (Sabirabad) – rahat oturacaq.

**HALLA-QULLA** (Meğri) – köməklə. – *Palıd ağaşdarın üş-dört yannan halla-qulla götürrüx', qoyurux maşının üsdə.*

**HALLAMAX** (Bərdə) – çağırmaq. – *Kərpiş tapsan, məni halla.*

**HALLAŞMAX** (Meğri) – məsləhətləşmək. – *Dayım getdi Mırğıda hallaşdı, biyin genə qeyitdi.*

**HALNAVA** (Laçın) – pambıq qəbulu məntəqəsi.

**HALO** (Salyan) – alov, od. – *Yaman qızzırmışam, ağzımnan halo çıxır.*

**HALOXAR** (Salyan) – hal-əhval. – *Xalamı gördüm, haloxar tutdum.*

**HALO:PLO** (Sabirabad) – tonqal.

**HALO:UŞ** (Şuşa) – iltihab. – *Çivanımın halo:uşu artmışdı, dərman qoydum, deşildi.*

**HALUÇ** (Tərtər) – əzgiləoxşar cır meyvə. – *Haluç əzgilə oxşuyur.*

**HALVAXUDUR** (Dərbənd) – xörək adı. – *Yağda qızardadılar unı.*

**HAMAR** I (Cəlilabad, Masallı) – çöl, düzənlik. – *Qoyunnar hamarda otder* (Masallı); – *Mən kitab dilin nə bileyəm, axı;* – *Cahil olıb gəzmişəm bı hamarda* (Cəlilabad).

**HAMAR** II (Kürdəmir) – yaxşı, səlis. – *Müyəllim çox hamar danışır.*

**HAMAŞ** (Salyan) – dost-aşna. – *Hamaşlar toyda bir yerdə otırmışdılar.*

**HAMBAL** I (Balakən, Culfa, Goranboy) – döşəmənin altından qoyulan tir. – *Evin barısı qurtarıf, hamballar qoyuluf* (Balakən); – *Hambal öydo:lur* (Goranboy).

**HAMBAL** II (Daşkəsən, Əli Bayramlı, Xanlar, Kəlbəcər, Tovuz) – kotana qoşulan öküzlərin birinci cütü.

**HAMBALA** I (Ağcabədi, Bərdə, Qəbələ, Oğuz, Şəki, Tovuz, Zəngilan) – b a x **hambal** I. – *Uşaxlar hambaladan yıxılar* (Bərdə); – *Bınnan hambala olmaz, əyri ağaşdı* (Zəngilan); – *Hambala əsas qoaxdan, qızılağaşdan olur* (Oğuz).

**HAMBALA** II (Daşkəsən) – b a x **hambal** II.

**HAMBIL** (Daşkəsən, Kəlbəcər) – b a x **hambal** II. – *Hambılı əryə sür* (Daşkəsən); – *Qərəqəyiş hambıldan qavaxda durur* (Kəlbəcər).

**HAMBILA** (Gədəbəy) – b a x **hambal** II. – *Hambılayı qoş, soŋra da o birrərini.*

**HAMBILI** (Daşkəsən) – b a x **hambal** II. – *Hambılı öküzün qılçası qırılıf.*

**HAMCACUĞ** (Salyan) – hamısı. – *Şitillərin hamcacuğı tutub.*

**HAMPA** I (Şəki) – ağsaqqal. – *Yayda da kürk giyirdi hampalar.*

**HAMPA** II (Füzuli) – varlı, dövlətli.

**HAMPALA** (Mingəçevir) – b a x **hambal** I.

**HAMPAZOR** (Bakı, Göyçay, Şamaxı) – güclü. – *Keçmişdə hampazorrar yerrəri əlimizdən almışdı* (Şamaxı).

**HAMPAZORRIĞ** (Salyan) – güclülük, zorakılıq. – *Qabağlar işdər hampazorrığnan olardı.*

**HAMPAZORRUX** (Cəbrayıl) – b a x **hampazorrığ.**

**HAŋA** (Balakən, Borçalı, Qazax) – 1. razılıq (Borçalı, Qazax); – *Sonoyu Kərimə isde:llər, axşam haŋa almağa gəlmişdilər, qız özü də haŋasını verif* (Qazax); 2. bəli (Balakən). – *İki beləjə ağsaqqal göndəre:rix', qızın hanasıŋ ale:rıx* (Borçalı); – *Rəşid, sən buzovlara su verdinmi? – Haŋa.*

**HANAK** (Qax) – bacarıqsız.

**HANAY** (Çənbərək, Şuşa) – kömək, arxa. ◊ **Hanay durmax** (Çənbərək) – arxa durmaq, kömək olmaq. – *Qo:m gərəx' bir-birinə hanay dura kın, boyl dolana.*

**HANCARI** (Dərbənd, Quba) – b a x **hanjarı.**

**HANCARU** (Dərbənd) – b a x **hanjarı.** – *Hancaru istəsə üzüv bilərsə <bilərsən>.*

**HANDAĞALA** (Çənbərək, Karvansaray) – heç olmasa. – *Hajını çıxartdılar, handağala gedif özge:rdə işdijəx'* (Çənbərək).

**HANDA: HANDA BİR** (Bakı, Cəlilabad) – çox az, tək-tük. – *Handa bir adamda tüək var* (Cəlilabad).

**HANDASA** (İsmayıllı) – halbuki.

**HANJARI** (Gəncə, Qazax) – 1. necə? nə cür?; 2. hara, hansı tərəfə. – *Sən bilmədin sədr hanjarı getdi?*

**HANQA** (Şəki) – b a x **haŋa.** – *Dayın işə getdimi? – Hanqa.*

**HANQALO** (Zaqatala) – qanmaz, düşüncəsiz. – *Ho:nan adam-zad olmaz, hanqalonun birisidi.*

**HAPAN: HAPAN QALMAX** (Tovuz) – boş qalmaq. – *Dünənnən evimiz hapan qalıfdı, unumuz də:rmənnən hələ:lmiyifdi.*

**HAPI** (Gədəbəy) – b a x **habba.** – *Nuru, gə sã: hapı vereyim.*

**HAPISDIX** (Gədəbəy) – pinti. – *Nə hapısdıx adamdı Qulam!*

**HAPITDI** I (Kürdəmir) – ağzıboş adam. – *Hapıtdı kimi sən də ağzu:n yiəsi döyülsən.*

**HAPITDI** II (Salyan) – tələsik. – *Hapıtdı tukana dəymişəm.*

**HAPLAMAĞ** (Dərbənd) – hürmək. – *İtlər hapliyədi.*

**HAPPA** (Kürdəmir) – b a x **habba.**

**HARAC** (Meğri) – borc. – *Mã: nə haracdı ki, sən gej gəlmisən.*

**HARAD** (Qazax) – bacarıqsız.

**HARAĞAŞ** (Yardımlı) – tezyetişən. – *Bu şivlər harağaşdı.*

**HARAXAŞ** (Cəlilabad) – faraş, vaxtından əvvəl. – *Biz su vermeyüg, özü də bırdə taxıl haraxaş yetişey.*

**HARAQ** (Qax) – b a x **harad.**

**HARAMI** I (Qarakilsə) – 1. oğru; 2. talançı, quldur. – *Haramı başın kəsdi.*

**HARAMI** II (İrəvan) – dərə-təpəli yer.

**HARAMI** III (İmişli) – səhra, düzənlik. – *Mığan haramı yerdi, dağ-dərəsi yoxdu.*

**HARAMI** IV (Ordubad) – təknə içərisində hazır məhsul yeyən arı. – *Arı patəyində hazır məhsulu yeyən arıya haramı deyirix'.*

**HARATZİ** (Qax) – qulplu saxsı qab.

**HARAVAR** (Yardımlı) – tövlənin girişi. – *Biz haravarı boüg eləmişüg.*

**HARBA** (Meğri) – yerdə deşik açmaq üçün ağac alət. – *Əleskar harbeynan dəşiy açeydi, biz də dəşix'lara payə taxeydıx.*

**HARFA** (Ağcabədi, Salyan, Bərdə, Cəbrayıl) – ədəbsiz. – *Harfa adam söyüş sö:ər* (Bərdə); – *Arvat, harfa danışma, qonax var* (Ağcabədi).

**HARFA-HARFA** (Ağcabədi) – ədəbsiz-ədəbsiz. – *Sən harfa-harfa danışırsan.*

**HARIM-CIRIM** (Basarkeçər, Qazax) – qənaətsiz. – *Bunnar yaman harım-cırım tayfadılar* (Basarkeçər); – *Harım-cırım öydə bərəkət olmaz* (Qazax).

**HARIN** (Qazax) – 1. tənbəl; 2. işə yaramayan.

**HARMA** I (Qazax) – taxça. – *Səniö:rüm papağın harmada qalsın.*

**HARMA** II (Karvansaray, Qazax) – evdə dirəklərin üstünə qoyulan ağac. – *Damın harması quruyuf* (Qazax).

**HASALAX** (Şəki) – balacaboy. – *Hasalax kişiydi Nəvi dayı.*

**HASATAYAĞ** (Dərbənd) – əsa, əlağacı.

**HASAVATDIX** (Salyan) – asanlıq. – *Hər çətinnigin bir hasavatdığı da olur.*

**HASIL** I (Meğri, Salyan) – məhsul. – *Bu yil bağ-bağatda yaxşi hasıl var* (Meğri).

**HASIL** II (Cəbrayıl) – ağıllı, qanacaqlı.

**HASOV** (Meğri) – yalançı, gopçu. – *Ə, o, hasovdu, ona inanma.*

**HAŞA** (Borçalı, Goranboy) – iraq, uzaq. – *Haşa üzdən, sürü itsiz olmaz* (Borçalı); – *Haşa sizdən, xəstə döysünüz kü?* (Goranboy).

**HAŞAN-KEŞƏN** (Laçın) – var-dövlət. – *İmranın haşan-keşəni aşıf-daşıf.*

**HAŞANNAMAX** (Culfa) – yerə sərmək. – *Küləşi haşanna, qoy qurusun, döyəx'.*

**HAŞİL** (Ordubad) – xəşil. – *Haşil də olar bişirərıx, tərəx' də bişirərıx.*

**HAŞİYƏ** (Əli Bayramlı) – evin ətrafı. – *Öyün haşiyəsin kəsərüg, hasara alluğ.*

**HATANA** (Gədəbəy, Gəncə, Qazax) – hanı? – *Bə deyirdiŋ dayıŋ gəlif, hatana? – Ana, mə:m paltarım hatana?* (Gədəbəy).

**HAV** (Cəbrayıl) – buğ, buxar. – *Qızım, yara: hav ver, so:ra pis olar.*

**HAVA** (Balakən) – evin üstündə kirəmit düzülən hissə, yer, dam örtüyü. – *Evin havasını qaldırmışıx.*

**HAVACA** (Zəngilan) – iki cüt öküz qoşulmuş xışla (şumlamaq). – *Bı yerrəri havaca əkerdilər.*

**HAVALA** I (Meğri) – dəyirman novu. – *Dəyirman pis işdey unda ki havala alçax uley.*

**HAVALA** II (Füzuli) – qabaq, qarşı tərəf. – *Bura havaladı.*

☐ **Havala gəlmək** (Salyan) – divan tutmaq, döymək. – *Biz şuluğluğ eliyəndə nənəm heyva çubuğuynan havala gələrdi canımıza.* **Havala verməg** (Salyan) – salışdırmaq. – *Bı zırramanı nə havala vermisüz mə:m canıma?*

**HAVALAMMAX** (Çənbərək, Kürdəmir) – acıqlanmaq, özündən çıxmaq. – *Nə havalanırsan, o ki uşaxdı* (Kürdəmir); – *İmirzalı çox havalanıf* (Çənbərək).

**HAVALAT: HAVALAT OLMAX** (Tovuz) – qəflətən peyda olmaq. – *Ə, bu hardan havalat oldu?*

**HAVAR: HAVAR TƏPBƏX'** (Şahbuz, Şərur) – səs salmaq.

**HAVARÇAĞ** (Quba) – yelləncək.

**HAVARMAĞ** (Dərbənd) – yellənmək. – *Qızdar havançağda havaradu.*

**HAVASAT** (Astara, Cəlilabad, Lənkəran, Masallı, Salyan) – iqlim, ab-hava. – *Havasat bı il yaxşi keçdi* (Lənkəran); – *Bıranın havasatı issi oley* (Cəlilabad).

**HAVATÇI** (Biləsuvar) – qarovulçu.

**HAVAZİRİNG** (Cəlilabad) – balaca qurbağa. – *Uzağlarda havaziring ney tutur.*

**HAVAZİRİNGİ** (Cəlilabad) – b a x **havaziring.** – *Havaziringi oley balaca qurbağa, ət kimi oley, səriley, su:n üzində oley.*

**HAVXIRMAX** (Meğri) – mələmək. – *Avınan maral məliyər, əlix' havxırar.*

**HAVILDAMAX** (Şərur) – hürmək.

**HAVIR** (Naxçıvan) – hirs, qəzəb.

**HAVIRMAX** (Meğri) – bağırmaq (cüyürə aiddir).

**HAVISTAN** (Qarakilsə) – çardaq. – *Asıllar havıstan kimi yerə, quru:r, had kimi göndərillər.*

**HAVIŞ** (Şərur) – aş qarası.

**HAVITQIMAX** (Cəbrayıl) – iltihab etmək, şişmək.

**HAVİ** (Tabasaran) – b a x **habi.** – *Büzün yerrərdə havi armut tez dəgədi.*

**HAVLA** (Naxçıvan) – araqçın.

**HAVLAMAX** (Naxçıvan, Şərur) – iltihab etmək.

**HAVLI** (Ağbaba) – dəhliz. – *Hər iki otağın qapısı havlıya çıxır.*

**HAVOTİ** (Şərur) – yaraya qoyulan dərman otu. – *Bir yara ki havladi, ona havoti qoyılar.*

**HAVOTU** (Kəlbəcər) – b a x **havoti.** – *Havotu onnan ötərdi ki, bö:ün bir yerin yaralananda onu yaranın üsdə qoyasan.*

**HAVU** (Tabasaran) – b a x **habi.** – *Didigin havudu dəğin.*

**HAY** (İmişli) – xəbər, səs. – *Özzəri bilirdilər hay gələcəg.*

**HAY ATMAĞ** (Bakı, Salyan) – çağırmaq, səsləmək. – *Elə hə:tdən hay atseydun, eşidəcəgdim* (Salyan); – *Helə bi:dənə hay atson, gələrig* (Bakı).

**HAYDAMAĞ** I (Dərbənd) – sürmək. – *Faytonı haydıyıb gedədi;* – *Arabanı haydadım.*

**HAYDAMAĞ** II (Dərbənd) – əkmək, şumlamaq. – *Biz yeri haydamişığ.*

**HAYDARAX: HAYDARAĞ ELƏMƏXʹ** (Basarkeçər) – biabır etmək. – *İjlasda haydarağ elədilər onu.*

**HAY-HAY** I (Göyçay, Kəlbəcər, Şamaxı) – südlü çörək. – *Xalam maŋa hay-hay pişirdi* (Kəlbəcər).

**HAY-HAY** II (Bakı, Salyan) – güc, taqət. ◊ **Hay-hayı getmək** – köhnəlmək, istifadədən çıxmaq. – *Qassumun <kostyumun> hay-hayı gedib, giyməyə yaramır* (Salyan).

**HAYIXMAX** I (Qarakilsə) – 1. hücum etmək; 2. irəli cummaq, şığımaq. – *Hayıxır ki, öldürə, qoymullar.*

**HAYIXMAX** II (Çənbərək) – özündən çıxmaq. – *Mürtüz hayıxıf, saymır heş kəsdiyi.*

**HAYIL-MAYIL: HAYIL-MAYIL OLMAĞ** (İsmayıllı, Şəki) – meyl etmək, aludə olmaq, sevmək. – *Böyük qızsan, əyibdi, bir oğlan görən kimi hayıl-mayıl olursan* (İsmayıllı).

**HAYIS** (Basarkeçər) – kotanın açdığı şırım. – *Hodax, qoyma öküzü hayısdan çıxsın.*

**HAYKAZA** (Yardımlı) – həmçinin. – *O da haykaza ordeymiş.*

**HAYLAMAX** (Gədəbəy) – sürmək, qabağına qatıb aparmaq. – *Malı yelli hayla apar.*

**HAYLANÇIX** (Salyan) – o cür, elə. – *No:lsun kasıbdılar, haylançıxlar çörəg qədri bilər.*

**HAYLOY** (Basarkeçər) – hürkən <adam>. – *Mürsəl hayloy adamdı.*

**HAYTA** (Borçalı, Çənbərək, Gədəbəy, Qazax, Şəmkir) – hirs, acıq. – *Haytamnan çatde:rdım, yaxşı kın gəlmədiŋ* (Qazax); – *Qız duruf gedif haytasınnan* (Gədəbəy).

**HAYTALI** (Borçalı) – hirsli, acıqlı. – *Hürüsdü adam, haytalı adam birdi, ajıxlı olor.*

**HAZAR** (Biləsuvar) – ata evi. – *Gəlin çıxdı hazardan, qutardığ intizardan.*

**HAZARAN** (Şamaxı) – çoxdanışan. – *Nə hazaran adamsan.*

**HAZAR-HƏLBƏT** (Salyan) – axır ki, nəhayət. – *Hazar – həlbət bı gədə öyə gələcək, ya yox?*

**HAZARXƏLVİR** (Basarkeçər) – çoxyeyən.

**HAZARI** (Ağdam, Tərtər) – üzüm növü. – *Hazarı bazarda müştərigir üzümdü* (Tərtər); – *Üzüm var keçəmcəyi, hazarı, qızılüzüm* (Ağdam).

**HAZARPEŞƏ** (Basarkeçər, Bərdə, Çənbərək, Gədəbəy, İmişli, Kəlbəcər, Kürdəmir, Ordubad, Şuşa, Zəngilan) – qab-qacaq üçün xüsusi qutu, qab. – *İstakannarı hazarpeşiyə qoydum* (Bərdə); – *İstəkan hazarpeşədədi* (Ordubad); – *İsdikanı, bölməyü yığ hazarpeşiyə, qalıf qırılmasın* (Basarkeçər).

**HEBELƏ** (Kürdəmir, Salyan) – b a x **habl**ə 2. – *Hebelə qovun var, yığıp-yığşırmağ olmur* (Kürdəmir).

**HEÇBET** (Balakən) – qətiyyən. – *Onun bu işdən heçbet xəbəri yoxdu.*

**HEÇBETƏR** (Salyan) – nəsil, əcdad. – *Sənin lap heçbetərüə nəhlət.*

**HEFT: HEFT ELƏMƏXʹ** (Şəmkir) – tənəyin artıq budaqlarını kəsmək. – *Tənəyi salxım olan yerdən heft ele:llər.*

**HEJDAN** (Şamaxı) – xəkəndaz. – *Ədə, hejdanı mə: ver.*

**HEKLƏNMƏXʹ** (Goranboy) – yuvarlanmaq. – *Dam təpədən hekləndi.*

**HEL** I (Qazax) – 1. qayadan qopub yuvarlanan daş; 2. uşaqların dağdan üzüaşağı dığırtdıqları daş. – *Gəlin gedəxʹ, hel dığırrıyax.* ◊ **Hel qoymax** – dağdan üzüaşağı daş yuvarlatmaq. – *Ay uşaxlar, gəlin, gedəxʹ hel qoyax.*

**HEL** II (Naxçıvan) – qadınların boyunlarına bağladıqları rombşəkilli qızıl boyunbağı.

**HEL** III (Çənbərək) – böyük, yekə. – *Bir hel cü:yr vurmuşdu Qarasim, amba daŋdı, heş kimə demədi.*

**HELBƏKİ** (Ordubad) – körpü altından keçən su yolu. – *Səlim, qoy su helbəkidən gessin, so:ra əvə gəl.*

□ **HEL GETMƏG** (Salyan, Yardımlı) – yorulmaq, əldən düşmək. – *İşdəməydən hel gedib* (Yardımlı).

**HELLƏMƏ** (Yevlax) – uşaq oyunu adı. – *Hellämə fındıxnan, qoznan, yumurtoynan olur.*

**HELLƏMƏXʹ** I (Qazax, Laçın, Tovuz) – tökmək, əndərmək. – *Suyu birdən hellədi* (Laçın); – *Qazana helliyifsəŋ suyu, ətin dadını aparıf* (Qaxax); – *Ə, çualdakı buğdoyu aŋırı hellə, də:rmanın ağzı boşa işdiyir* (Tovuz).

**HELLƏMƏXʹ** II (Şərur) – yuvarlatmaq (daş və s.)

**HELLƏN** (Çənbərək) – hündür yerdən diyirlənən daş. – *Çıŋqıldan hellən gəldi, Şəmşədin beş qoynun öldürdü.*

**HELLƏŞMƏXʹ** (Mingəçevir) – sözləşmək, bir-birinə kobud cavab vermək.

**HELLİ** (Yevlax) – sulu.

**HER** I (Ordubad) – kiçik suqabı.

**HER** II (Lənkəran) – çəp. – *Hökümənin gözdəri herdi.*

**HERAĞAŞ** (Qarakilsə, Meğri) – b a x **haraxaş.** – *İl bıyıl herağaş gəlif* (Qarakilsə); – *Herağaş quzular sərdanda oynaxlaşır* (Meğri).

**HERAVAT** (Ordubad) – 1. yekə; 2. ucaboy. – *Heravat Ələsgər şə:rə gedib.*

**HER-ÇER** (Lənkəran) – çəp. – *Höküməninin gözləri her-çerdi.*

**HERƏ** (Zəngilan, Meğri) – əkilmiş sahənin arasında qalan şumlanmamış yer. – *Herədən bolluca taxıl yığdıx* (Zəngilan); – *Kəlbeli dayinin əxʹdığı yerdə herə yuxdı* (Meğri).

**HERƏBAŞ** (Ordubad) – b a x **haraxaş.** – *Biz bı il səvizini herəbaş əxʹmişixʹ.*

**HERƏNT** (Gədəbəy) – əkilmiş sahənin arasında qalan şumlanmamış yer. – *Quzu yəlif herəntə çıxmışdı.*

**HER-HEŞ** (Gəncə) – çör-çöp.

**HERİXʹ** (Gədəbəy, Qazax) – b a x **herə.** – *Herixʹdə duruf harva: baxersaŋ* (Gədəbəy).

**HERQILLI** (Mingəçevir) – 1. yekəpər, zorlu; 2. kobud.

**HERQITMAX** (Goranboy) – yemək. – *Əhməd iki qab doğanı bir oturuma herqıtdı.*

**HER-PER** (Meğri) – hövsələ.

**HERPET** (Başkeçid, Şəmkir) – 1. yekə, iri; 2. kobud.

**HERPİTMƏXʹ** (Şəmkir) – oynamaq, rəqs etmək. – *Dur, indi sən herpit.*

**HERT** (Tovuz) – qayanın başı. – *Ay Rəşit, hertə çıx, dədəŋi çağır, gəlsiŋ.*

**HERTİ** (Tovuz) – kobud, qanmaz. – *Nə herti adamsaŋ, dünən o gədiyi niyə basıf döyüfsəŋ?*

**HERTİ-PERTİ** I (Qazax) – heç nə, heç şey. – *Herti-pertini qanmer.*

**HERTİ-PERTİ** II (Çənbərək, Şərur) – yekə, kobud <adam>. – *Herti-pertinin biridi o, zor çatmaz ona;* – *Mortux yaman herti-perti arvatdı* (Çənbərək).

**HESAVI** (Qazax) – qayda-qanunla. – *O, hesavı iş görör.*

**NESƏ** (Meğri) – ərə gedən qıza valideyni tərəfindən verilən torpaq və ya bağ payı. – *Hesə, yani qızdara dədəsinin qoşduğu torpağa diyellər.*

**HEŞ** (Cənubi Azərbaycan, Ordubad, Zəngilan) – xış. – *Heş ağacdan olur* (Ordubad); – *Yeri heşnən əkirdixʹ* (Zəngilan).

**HEŞALAT** (Ordubad) – boyunduruq. – *Heşalat qarağajdan, ərikdən olur.*

**HEŞAN** (Cəbrayıl, Culfa) – döymək üçün xırmana yayılmış, səpələnmiş taxıl dərzləri. – *Heşanı dağıtmayın, hava dolur, yağacax.* ◊ **Heşan eləməxʹ** (Goranboy) – döymək məqsədilə dərzləri xırmana səpələmək.

**HEŞANNAMAX** (Ağdam, Culfa, Şərur) – döymək məqsədilə dərzləri xırmana yaymaq. – *Küləşi heşanna, qoy qurusun, döyəx′; – Xırmana sünbülləri töküf döyüllər, deyillər ki, ora heşannıyıf* (Culfa).

**HEŞDARXAN** (Cəlilabad) – hind toyuğu.

**HEŞƏMRAZ** (Ordubad) – xış <bütün lazımı alətləri ilə birlikdə>. – *Heşəmrazı aparrıx sahiyə, oni biyollim salırıx ora, sürürüx′.*

**HEŞƏN** (Culfa) – b a x **heşan.** – *Biz heşəni döyüb yığırıx, tığ eliyirix′, tığı da savırırıx, bığdası bir yana çıxır, samanı bir yana.*

**HEŞGİVAŞ** (Sabirabad, Salyan) – gəlinin başına səpilən şirniyyat. – *Gəlini gətirillər, başına heşgivaş atıllar* (Sabirabad).

**HEŞİ** (Ağdaş) – ip eşən alət, iy.

**HEŞPEŞƏ** (Cəbrayıl) – adət, vərdiş. – *Məhlim elə heşpeşədi, dayqıya qaçırsan bıra.*

**HEŞŞALAT** (Ordubad) – xış. – *Heşşalat qarağacdan, ərikdən olur.*

**HEVİG** (Yardımlı) – hayıf. – *Hevig sənün səsünnən.*

**HEYDAR** (Gədəbəy) – yel, külək. – *Heydar olmasa xırmandakı taxılı təmizdə:mmə:ji:x′ də:sən.*

**HEYHEYİ** (Mingəçevir) – hərdəmxəyal.

**HEYİRMƏX′** (Gədəbəy) – qışqırmaq. – *Nə heyire:ysiŋ ə, ayıf döymü camahatdan?*

**HEYİS** (Zəngilan) – altıillik erkək qoyun. – *Heyis kəsmişdilər, üş kilov da mən aldım.*

**HEYİZ** (Bərdə, Xocavənd) – 1. dördyaşar erkək keçi (Bərdə); 2. keçi (Xocavənd). – *Heyiz kök olur, yağlı olur* (Bərdə).

**HEYKAL** I (Bərdə, Qazax, Şəmkir) – camışın döşündə sarıya çalan xal. – *Heykal camışın döşündo:lur* (Bərdə); – *Camışın döşündə hərrəmə xal olur, ona heykal de:rix′, ay parası kimi olur* (Şəmkir); – *Heykal döşdo:lur, qaşqa alında* (Qazax).

**HEYKAL** II (Qazax, Şəmkir) – paxlavavari iri muncuq. – *Biz bu muncuğa heykal de:rix′* (Qazax); – *Heykalı arvaddar boyunnarına bağlellar* (Şəmkir).

**HEYKAL** III (Salyan) – dua. – *Qorxan adamın başının altına heykal qoyıllar.*

**HEYNİ** (Şərur) – vaxt, vədə. – *Bı heyni özün yetirdi.*

**HEYRAT** (Mingəçevir) – kəlağayı.

**HEYRİ** (Meğri) – kiçik tut ağacı.

**HEYŞAN** (Qazax) – heyvanın qabağından qalan yararsız iriçöplü ot. – *Apar bu heyşanı damın bö:rünə yığ, No:ruz bayramında tonqal basarıx.*

**HEYVƏRƏ** (Qazax) – iri, kök. – *Bir heyvərə arvad yanımıza gəldi.*

**HEYVƏT** (Çənbərək) – ağrı. – *Dişimin heyvətinnən gözüm dünyü:yü görmür.*

**HEYZ** (Ağdam, Gədəbəy) – 1. iribuynuzlu keçi (Gədəbəy); 2. beşyaşar keçi (Ağdam).

**HEYZƏ** (Lənkəran, Naxçıvan) – mədə pozğunluğu.

□ **Heyzə eləməx′** (Meğri) – 1. varlandırmaq; 2. doydurmaq, tox etmək. – *Getdin işladın, gatırdın, bizi heyzə elədin.*

**HEZAVAN** (Füzuli) – qanmaz. – *Hezavan qammaz çobana deəllər.*

**HEZZİG** (Salyan) – acizlik. – *Tazının hezziginnən do:şan samannığda yuva elər.*

**HƏBƏ** (Qarakilsə, Sabirabad) – uşaqların oyun üçün qazdıqları kiçik çala. – *Mən həbə qazdım* (Sabirabad); – *Oyunda həbə mərkəzdi* (Qarakilsə).

**HƏBƏÇİ** (Zəngilan) – mamaça.

**HƏBƏRSÜR** (Qarakilsə) – itburnu.

**HƏBGƏ** (Qax) – heybə.

**HƏBİFGÜLÜ** (Şuşa) – yabanı bitki adı, sarı rəngli, ətirli otun adı.

**HƏBİRƏG: HƏBİRƏG DANİŞMƏY** (Cəlilabad) – boş-boş danışmaq, yersiz danışmaq. – *Həbirəg danişməyi adət eləmisən. Tay bəsdi, əl çək bizdən.*

**HƏBLƏ** (İmişli, Qax, Şəki, Salyan) – b a x **hablə.** – *Həblə işlər çox olur* (Şəki).

**HƏCƏT** (Göyçay) – ehtiyac.

**HƏCİAŞI** (Bakı) – toydan bir neçə gün sonra oğlan evindən gəlin evinə göndərilən plov.

**HƏCİN ANNAMAĞ** (Salyan) – duyuq düşmək, hiss etmək; – *Həcin annıyanda it az qalır zincirin qıra.*

**HƏDD** (Şəki) – hünər, bacarıq. – *Hindi həddin var, qavağa gə.*

**HƏDDƏ** (Tovuz) – yivaçan alət.

**HƏDRƏCUAB** (Göyçay) – 1. hazırcavab; 2. kobud, cavab qaytaran. – *Filankəs yaman hədrəcuabdı.*

**HƏDRƏCUĞAB** (Cəlilabad, Yardımlı) – b a x **hədrəcuab.** – *Adam hədrəcuğab olmaz;* – *Sadığ hədrəcuğab uşağdı, söz altda qal-*

*maz* (Cəlilabad); – *O yaman hədərəcuğabdı* (Yardımlı).

**HƏFÇİ** (Ağcabədi, Ağdam, Füzuli, Goranboy, Mingəçevir) – 1. kiçik bir şeyi böyüdən (Ağdam, Goranboy); 2. hər şey haqqında yerli-yersiz danışan (Ağdam, Goranboy); 3. qadın xasiyyətli (Füzuli); 4. xəbərçi (Mingəçevir); 5. arvad işlərinə qarışan (Ağcabədi); – *Ə, sən nə həfçi adamsan?* (Goranboy); – *Həfçi adam arvad işinə qarışar* (Ağcabədi).

**HƏFÇOŞ** (Şahbuz) – dolaşıq. – *Kişi yazığın işi də həfçoşdu, heş baş çıxarmağ olmur.*

**HƏFDƏRƏNGİ** (Gədəbəy) – hərdəmxəyal. – *O da kın, həfdərənginin biridi, dediyinin üsdə dura:mmer.*

**HƏFGƏ** (Salyan) – uzunçu, çoxdanışan.

**HƏFGƏLƏMƏXʹ** I (Çənbərək) – tam çeynəmədən yemək. – *Ajıdım deyn bir xamralı həfgələdim.*

**HƏFGƏLƏMƏXʹ** II (Şərur) – ovmaq, ovuşdurmaq.

**HƏFRA: HƏFRA DÜŞMƏXʹ** (Oğuz) – didərgin düşmək. – *Məcnun Leylinin dərdinnən həfra düşmüşdü.*

**HƏFRAYİ** (Şəki) – 1. hərdəmxəyal; 2. boş, avara. – *Huna bənd olma, həfrayi adamdı, havax isdi:r, unda gə:r.*

**HƏFTƏÜÇÜ** (Xudat) – bazar ertəsi.

**HƏGƏ** (Meğri) – əkin sahəsinin ətraf tərəfləri. – *Həgəyə çıxe:m, öküzdəri açım, hova xərəpdi.*

**HƏNİRTİ** (Qazax, Masallı) – istilik. – *Ocağın hənirtisi kəsilif* (Qazax).

**HƏH GƏLMƏG** (Salyan, Bakı) – qorxutmaq, hədə-qorxu gəlmək. – *Müdür həriyə bi həh gəlsə, uzağı bir ayacan bi idarada bi adam qalmaz* (Salyan); – *Bi dənə həh gəlsön, hamı oturıcey yerində* (Bakı).

**HƏHNİ** (Salyan) – güc, taqət. ◊ **Həhni vırmağ** – güc vermək. – *Bi həhni vırsoğ bağun şumun bir həfdiyə qutarruğ.*

**HƏHVƏRRƏMƏXʹ** (Qazax, Tovuz) – 1. çalışmaq (Tovuz). – *Həhvərrə görəxʹ, bü:n gərəxʹ qutarax* (Tovuz); 2. tez-tez yerimək (Qazax, Tovuz). – *Ovaşdan duruf elə həhvərrədim kin, günçıxana yatağa çatdım* (Qazax).

**HƏXʹ** (Tovuz) – güc, qüvvə, taqət. ◊ **Həxʹdən tüşməxʹ** – qüvvədən düşmək, taqətdən düşmək. – *O qədər yüyürdüm həxʹdən tüşdüm.*

**HƏXIX** (Lerik) – gümüşlə işlənmiş boyunbağı. – *Boyunbağı da deyirik, həxıx də.*

**HƏXʹLƏMƏXʹ** (Ağbaba, Çənbərək) – bərkdən vurmaq. – *Fışqar arığ oğluna bir şillə həxʹlədi* (Çənbərək); – *Başına bir ağac həxʹlədi ki, qan göyə dırmandı* (Ağbaba).

**HƏJƏN** (Ucar) – bol. – *Barama bi:l həjən oldu.*

**HƏJƏT** (Cəbrayıl, Laçın) – 1. alət; 2. balta. – *Həjət yaman itidi* (Laçın).

**HƏK** (Salyan) – güc, qüvvə, taqət. ◊ **Həkdən düşmək** – gücdən düşmək.

**HƏKAT** (Meğri) – hadisə, əhvalat. – *Yediyarın başına gələn həkat heş yerdə görünməmişdi.*

**HƏKDUZ** (Lənkəran) – b a x **haqdus.** ◊ **Həkduz çəkmək** – zəhmət çəkmək. – *Oğlum düz on altı il həkduz çəkib oxuyub.*

**HƏKƏ** (Xaçmaz) – yanları hörülmüş ocaq yeri. – *Sac böyük oldığınnan həkəyə sığışmadı.*

**HƏKİ** (Qazax) – nəhayət, axır ki. – *Həki, gəlif çıxdıŋ.*

**HƏKİMXANA** (Qubadlı, Şərur) – xəstəxana. – İrayona *gedəndə həkimxanaya getməliyəm* (Şərur).

**HƏKKƏL** (Daşkəsən) – xışa qoşulan öküzlərin ikinci cütü.

**HƏKK: HƏKK GƏLMƏXʹ** (Daşkəsən, Goranboy) – çalışmaq. – *Çox həkk gəldim, bir şey çıxmadı əmə* (Daşkəsən); – *Çox həkk gəldim, olmadı* (Goranboy).

**HƏL** (Bakı, Salyan) – xub, tamam. – *Ət həl bişib* (Salyan); – *Ət elə həl pişmişdi ki, ağzuva qoyan kimi əriyirdi* (Bakı).

**HƏLDİR** (Goranboy) – tənbəl.

**HƏLDİR-HÜLDÜR** (Zaqatala) – əlaqəsiz. – *Həldir-hüldür danışan adamnan mənim aram yoxdu.*

**HƏLƏBİ** (Astara, Cənubi Azərbaycan, Lənkəran, Masallı, Saatlı, Salyan) – ağ dəmirdən neft qabı. – *Hələbi deşilib* (Cənubi Azərbaycan); – *Qoşunun hələbisi çox bö:ydi* (Salyan).

**HƏLƏ: HƏLƏ BİÇMƏG** (Salyan) – hədə, hədə-qorxu gəlmək. – *Səxavət sə: hələ biçirdi.*

**HƏLƏHÜŞ** (Qazax) – fırıldaqçı.

**HƏLƏKƏ** (Salyan) – arıq <heyvana aiddir>. – *Bı ki, lap hələkədi, adam bına pıl verə:r?*

**HƏLƏKKAR** (Dərbənd) – novruzgülü. – *Uşaxlar mərclərə gidib, hərəsini əlində iki-üç hələkkar dəstəsi götürütdülər.*

**HƏLƏMƏL** (Yardımlı) – gec. – *Gedün, hələməl olsə gəlmö:n.*

**HƏLƏMİZ** (Cənubi Azərbaycan) – qorxaq. – *Nə hələmiz adamsan.*

**HƏLƏS** (Cənubi Azərbaycan) – süzgəc. – *Hələsnən yağ süzəllər.*

**HƏLĞİBAĞ: HƏLĞİBAĞ VIRMƏY** (Cəlilabad) – müxtəlif cür rəng vermək. – *Gördi ki, bı mücri həlğibağ vırey.*

**HƏLİMÇEX′** (Balakən) – yelləncək.

**HƏLİYƏ: HƏLİYƏ QOYMAĞ** (Salyan) – süründürmək, get-gələ salmaq. – *Bacarmırdı day məni nöyşün həliyə qoyurdu?*

**HƏLQƏRƏZƏ** (Ordubad) – b a x **halqarəzə.** – *Biz cəftə deməriх, həlqərəzə deyəriх, ya da хılıccan deyəriх.*

**HƏLLAV** (Ağdam) – yuxarı. – *Həllavdan gəl.*

**HƏLLƏ** (Salyan) – iri kəsək. – *Həllələrə su dəgcəg, özzəri əriyəcəg.*

**HƏLLƏ-HÜLLƏ** (Ağdaş) – kiçik, yararsız qarpız. – *Ay arvad, qarpızı korrama, uşaxlara həllə-hüllədən ver.*

**HƏLLƏHÜŞ** (Gədəbəy, Goranboy, Qazax, Şərur) – b a x **hələhüş.** – *Həlləhüş adam hörmətsiz olar* (Goranboy); – *Həlləhüş oğlu həlləhüş, aхıratan qulaх asammer ha!* (Gədəbəy).

**HƏLLƏHÜŞƏN** (Kəlbəcər) – fırıldaqçı. – *Səni həmişə həlləhüşən gördüm.*

**HƏLLƏMUŞ** (Gədəbəy, Gəncə, İsmayıllı, Mingəçevir) – b a x **hələhüş.** – *Mə:m hlləmuş adamnan aram olmaz* (Gədəbəy).

**HƏLMƏ-CÜLMƏ** (Gədəbəy) – qarmaqarışıqlıq. – *Həlmə-cülmədi idara, it yə:sini tanımer.*

**HƏLSƏ** (Naxçıvan) – ətlə yarmadan bişirilən xörək. – *Həlsə o qədər pişir ki, ətnən yarma seçilmir;* – *Həlsəni qışda yeyirix′.*

**HƏLVƏZƏNG** (Dərbənd) – kərtənkələ. – *Həlvəzəng yayda kullarun içində çux uladu.*

**HƏMAYİ** I (Lənkəran) – ağ kətan.

**HƏMAYİ** II (Lənkəran) – boyunbağı.

**HƏMBİZ** (Cəbrayıl, Oğuz, Zəngilan) – xeyli. – *Bacım bir həmbiz odun yığıb;* – *Bıy, dəsmalda bir həmbiz tüx′ varımış ki!* (Zəngilan).

**HƏMCUR** (Oğuz) – həmkar, yoldaş.

**HƏMƏKARA** (Salyan) – zirək, bacarıqlı. – *Niyar həməkaradı, əlinnən hər iş gəlir.*

**HƏMƏL** (Qax) – ayaqqabı əvəzinə evdə geyilən corab <altına parça və ya dəri yamanır>.

**HƏMƏRİX′** (Cəbrayıl) – yad. – *O inəx′ həmərix′di, örüx′lüyün qaçar.*

**HƏMƏRSİN** (Ağdam, Basarkeçər, Bərdə, Kəlbəcər, Laçın, Şərur, Tərtər) – itburnu. – *Bırda itburnuna həmərsin de:llər* (Bərdə); – *Həmərsinin başında qırmızı meyvəsi olur, payız onu yığırıх, onnan turşu pişiririх′, qaynadırıх, ələx′də süzüf yeyirix′* (Kəlbəcər).

**HƏMƏRSUN** (Culfa) – b a x **həmərsin.** – *Həmərsun meyvəsi yeməli olur.*

**HƏMƏRSÜN** (Basarkeçər, Kəlbəcər, Laçın, Şərur) – b a x **həmərsin.** – *Həmərsün yaxşı şeydi, onu yığıf çay dəmniyillər, xəsdiyə verillər* (Basarkeçər).

**HƏMƏSİL** (Ordubad) – b a x **həmərsin.** – *Həməsildən dərman hazırranır.*

**HƏMƏSÜR** (Cəbrayıl) – b a x **həmərsin.**

**HƏMƏŞARA** (Cəlilabad) – rayon. – *Sən mənə bircə dənə ərzə qayir, göndərim həməşaraya.*

**HƏMƏTDƏMƏX′** (Çənbərək) – kömək etmək. – *Yoldaşa həmətdəməx′ lazımdı.*

**HƏMƏYİL** (Şəki) – işdənqaçan, tənbəl. – *Kim həməyildi az əməx′günü alır, kim yaxşı işli:r çox alır.*

**HƏMGƏL** (Kəlbəcər, Laçın) – b a x **həmkələ.** – *Aşıqlar həmgəl oxuyullar* (Laçın); – *Həsənnən Qasım quzunu həmgəl otarır* (Kəlbəcər). ◊ **Həmgəl olmağ** (Şamaxı) – yaxın olmaq, yanaşı olmaq. – *Həmgəl olmağ yaxşıdı, adam bir-birinə köməy olar.*

**HƏMGƏLƏ** I (Meğri) – b a x **həmkələ.** – *Elə Lij-Teşdin qoyunnarıynan bizimkilər həmgələ otder binəli.*

**HƏMGƏLƏ** II (Xanlar, Qax) – yaylaqda bir-birinə yanaşı olan çoban binələri. – *Keçmişdə dağda həmgələ tikərdilər.*

**HƏMGƏNƏ** (Şəki) – ətraf, yan, tərəf. – *Bu həmgəniyə Yoranə diyillər.*

**HƏMXANA** (Bakı, Meğri, Şərur) – 1. kirayənişin (Bakı, Şərur); 2. müvəqqəti yaşanılan ev (Meğri). – *Biz Nüyədiyə köçənnən so:ra elə üş-dörd il həmxana damlarda otdux* (Meğri).

**HƏMİL** (Naxçıvan) – sakit, yumşaqxasiyyətli.

**HƏMİŞƏCUAN** (Oğuz) – sarmaşıq növü.

**HƏMİYYƏT: HƏMİYYƏT OLMAX** (Qarakilsə) – muğayat olmaq. – *Dedim uşaxlar, bizim heyvanlardan həmiyyət olun, mən gedim.*

**HƏMKƏLƏ** (Çənbərək) – yaxın, yanaşı. – *Ərəyənin qoynunnan Qarsan Əhmədin quzusu dünənnəri həmkələ otduyurdu.*

**HƏMKÜF** (Çənbərək) – qohum. – *Şotu sarı Nurularnan həmküfdü.*

**HƏMLƏLİ** (Salyan) – hamilə. – *Həmləliyə hər yerdə yer verməy hamının borcıdı.*

**HƏMRAH** (Zaqatala) – həvəskar. – *Mən belə həmrah adam görməmişəm.*

**HƏMŞİNƏ** (Bakı) – bacı.

**HƏMŞİRƏ** (Şəki) – bibi.

**HƏMYƏLİ: HƏMYƏLİ ÇÜŞMƏX′** (Qazax) – qonşu olmaq. – *Pənah öylərinnən həmyəli çüşmüşdü.*

**HƏMZATDI** (Cəbrayıl) – doğandan sonra uşağı ölən qadın. – *Məmmədin arvadı həmzatdıdı.*

**HƏN** (Oğuz) – suyun dibində əmələ gələn çöküntü.

**HƏNCƏ** (Xanlar) – xırdaçı. – *Həncə adam arvatdan xavar alar kın, bu şey hanı, o şey hanı, qənd alıf gətimişdim, niyə tez qutardı.*

**HƏNCƏRİ** (Balakən, Gədəbəy, Goranboy, Karvansaray, Qazax, Şəki, Tovuz) – b a x **hancari.** – *Həncəri mə:m uşaxlarımı dö:r-müşşəŋ?* (Karvansaray); – *Sən onnan həncəri danışdın?* (Balakən); – *Bakıdan həncəri gəlif çıxdıŋ?* (Gədəbəy); *Soruşan həncəri adamiydi?* (Şəki).

**HƏNCOVLİ** (Dərbənd) – yelləncək. – *Qizlər həncovli kitədi.*

**HƏND** I (Borçalı, Qazax, Oğuz, Şəki, Tovuz) – sahə, əkin sahəsi. – *Gedəx′ zəmi həndinə su buraxax;* – *Mən hənd qarao:ulçusuyam* (Qazax); – *Çəltiy həndimiz gənə bildirki yerdədi* (Şəki).

**HƏND** II (Daşkəsən, Goranboy) – divar. – *Dühar da deyrəx′, hənd də deyrəx′* (Daşkəsən); – *Öyün dört həndi olur* (Goranboy).

**HƏND** III (Salyan) – yaxın, ətraf. – *İnəg təzə doğub, balasın həndinə qoymur.*

**HƏNDİR-HAMAR** I (Kürdəmir, Salyan) – çala-çuxur. – *Yollar həndir-hamardı, maşınnar çətin işdi:r* (Kürdəmir).

**HƏNDİR-HAMAR** II (Salyan) – inadkar, tərs, sözə baxmayan. – *Həndir-hamar adamnan dolammağ uzun işdi.*

**HƏNDÜR-HÜNDÜR** (Bakı) – çala-çuxur. – *Küçələr həndir-hündürdü, asvalt da döşemillər.*

**HƏNƏ** (Salyan) – alçaqboy. – *Hənə adam uşağ kimi görünər.*

**HƏNƏX′-HƏNƏX′** (Ağstafa, Daşkəsən, Gədəbəy, Goranboy, Xanlar, Mingəçevir) – yavaş-yavaş. – *Xəsdə oluf qalxanda hənəx′-hənəx′ yerey* (Gədəbəy); – *Qoja adam hənəx′-hənəx′ yerey.* – *Qoja adam hənəx′-hənəx′ gəzər* (Daşkəsən).

**HƏNƏQIRNA** (Culfa) – üzüm növü.

**HƏNƏ-MƏNƏ** (Qazax) – elə-belə.

**HƏNG** I (Xanlar, Qax) – 1. musiqi; 2. toylarda rəqs etmək üçün çalğıçılara verilən sifariş (Xanlar, Qax); – *Cəfər əmi, bir həngini deginən, çıx ortaya, şavaş verəy* (Xanlar).

**HƏNG** II (Oğuz) – kimi, təhər.

**HƏNGAMA** (Bərdə, Cəbrayıl, Şərur, Mingəçevir, Oğuz, Tərtər) – həncamə. – *Həngama qapını saxlıyır* (Bərdə); – *Həngama qapıda, pəncərədə olur* (Oğuz); – *Qapıya həngama vırdılar* (Cəbrayıl).

**HƏNGAMATALAF** (Meğri) – hövsələsiz. – *Beçara Qara dayim bir həngamatalaf kişiydi.*

**HƏNGAMDAR** (Salyan) – bağ-bağçanı sulayan, suçu.

**HƏNGƏMƏ** (Ağdam, Qazax) – b a x **həngama.**

**HƏNGƏS** (Kürdəmir) – həmin. – *Həngəs o adamdı Vahid qarpışdığı.*

**HƏNGİ** (Qazax) – b a x **həng** II. – *Sən də mən həngi boşdu tüşüfsəŋ.*

**HƏNİ** I (Salyan) – b a x **hənə.** – *Həni adam bic olar.*

**HƏNİ** II (Füzuli) – danışqan. – *Ay həni, ta bəsdi.*

**HƏNİRSİZ** (Qax) – nəhəng.

**HƏNİR-ÜNÜR** (Tovuz) – çör-çöp. – *A:z, ordan bir az hənir-ünür gəti, qoy ojax gur yansın.*

**HƏNİS** (Ağbaba) – b a x **həniz.** – *Hənis o adamdı ki, heç nə bilmir.*

**HƏNİZ** (Goranboy) – həmin. – *Sənə söylədiyim əhvalat həniz bu şəxsin haqqında idi.*

**HƏNO:** (Gədəbəy) – 1. təndir və ya ocaq söndürüldükdən sonra qalan istilik; 2. hərarət. – *Təndiri söndürmüşəm, gənə həno:i çıxır.*

**HƏNÖ:R** (Salyan) – b a x **həno.** – *Uzağdan adamı hənö:r vırır.*

**HƏNT** (Gədəbəy, Qax) – b a x **hənd.** – *Həntdə çoxmu adam varıydı bü:nnəri?* (Gədəbəy).

**HƏNTƏM** (Qazax) – şikəst.

**HƏNTƏRƏMSİZ** (Şəki) – pis, xoşa gəlməyən. – *Həntərəmsiz bir şey alıtdı.*

**HƏNURTİ** (Lənkəran) – 1. hərarət; 2. istilik.

**HƏNÜR** (Kürdəmir) – b a x **hənö.** – *Ocağın hənürü dəydikcən yuxum gəlirdi.*

**HƏNZƏT** (Kürdəmir) – məhz. – *Hənzət, mən diyən bıdı.*

**HƏNZÜLƏ** (Tabasaran) – kərtənkələ.

**HƏPÇİ** (Xanlar) – gopçu. – *Məsələn, mən öydə çox danışıram, arvat qayıdır ki, ay həpçi oğlu, az danışsana.*

**HƏPÇUŞ** (Lənkəran) – çuğun tava. – *Həpçuşi yu, indi balığ qo:raciyəm.*

**HƏPƏLƏMƏG** (Bakı) – çörəyi ovub tokmək.

**HƏPİRTİMİŞ** (Göyçay) – qocalıb əldən düşmüş.

**HƏPLƏMAĞ** (Tabasaran) – b a x **haplamağ.**

**HƏPPİLİM** (Salyan) – qocaman, pirani. – *Qonşımızza bir həppilim kişi var.*

**HƏPRİX′** (Goranboy) – qocalıb əldən düşmüş. – *İsme:il həprix′ adamdı.*

**HƏPRİM** (Mingəçevir) – qocalıb əldən düşmüş.

**HƏPRİMƏK** (Şərur) – 1. qocalmaq; 2. qocalıb əldən düşmək. – *Ay bala, mən indi çox həprimişəm.*

**HƏPSƏNMƏX′** (Balakən) – hədələmək.

**HƏRASAN** (Lənkəran) – hövlnak. – *Yoxidən hərasan oyandım, heç kəs yox idi.*

**HƏRBƏ-HƏMƏDAN** (Şamaxı) – hədəqorxu. ◊ **Hərbə-həmədan gəlmək** – hədəqorxu gəlmək. – *Nə hərbə-həmədan gəlirsən, sənnən qorxan yoxdı.*

**HƏRBƏLƏMƏX′** (Qarakilsə) – hədəqorxu gəlmək. – *Bıllar məni hərbəliyir, dedim, dəvriş, qaçacıyam.*

**HƏR ÇİKARƏ** (Yardımlı) – hər kimsə. – *Nə çikarədu gecə gəlay, yığıb aparay.*

**HƏRDƏCAĞAB** (Salyan) – b a x **hədrəcuab.** – *Qabağlar belə döğürdi bı uşağ, indi hərdəcağab olub.*

**HƏRDƏMLİ** (İmişli) – sürətli <at>. – *Bu at onnan hərdəmlidi.*

**HƏRƏ** I (Cəlilabad, Əli Bayramlı) – böyük mişar. – *Hərə biz deyüg iri mişar oley ona* (Cəlilabad).

**HƏRƏ** II (Kürdəmir, Salyan) – cərgə, sıra. – *İki hərə bossan əkmişəm.* – *Qalxoz pambığı hərəynən əkib* (Kürdəmir).

**HƏRƏ** III (Salyan) – kotanın açdığı şırım.

**HƏRƏ** IV (Culfa, Qarakilsə) – taxça, rəf. – *Hərəyə samavar, istəkan, nəmnə qoyarıx;* – *Hərə duharda olar, ora qab-qaşıx qoyarıx;* – *Hərə axçadan qəvliyətdi olur* (Culfa).

**HƏRƏBAŞ** (Culfa) – şumlanmış sahələrin arasında qalan xam yer. – *Cüt dönəndə hərəbaş qalır, əkilmir.*

**HƏRƏKAR** (Cəbrayıl) – oraq. – *Hərəkarın dişdəri korşu:b, ot kəsmir.*

**HƏRƏKƏT-HƏRƏKƏT** (Qəbələ) – tez-tez. – *Mən hərəkət-hərəkət işdi:rəm.*

**HƏRƏLƏMƏK** (Salyan) – arx çəkmək. – *Bossan bitkiləri əkilməmişdən qabağ yeri hərələmməlidi.*

**HƏRƏLLAYI** (Salyan, Bakı) – ərköyün. – *Yaman hərallayı uşağ saxlıyırsan* (Salyan).

**HƏRƏM** (Hamamlı, Qazax) – qəbrin, qəbiristanlığın ətrafına çəkilən hasar. – *Hasan dədəsinin qavrının qıra:na hərəm çəx′dirif* (Hamamlı); – *Bu qəvirsannığın hərəmi niyə yoxdu* (Qazax).

**HƏRƏNGƏ** I (Salyan) – sözə baxmayan, özbaşına. – *Mə:m yetimlərim yaman hərəngə olublar.*

**HƏRƏNGƏ** II (Salyan) – əgər, əgər ki. – *Hərəngə yıxılsam bilün ki, günah sizzədi.*

**HƏRƏTSİ** (Qax) – saxsı suqabı.

**HƏRƏVAN** (Ağdam) – axur.

**HƏRƏVAŞ** (Naxçıvan) – b a x **haraxaş.** – *Bu il meyvə hərəvaş yetişir.*

**HƏRƏY** (Ordubad) – buğda növü. – *Hərəy qılçıxsız olar, sümbülləri olar, ağ olar.*

**HƏRF** (Oğuz) – ərp.

**HƏRFLƏMƏX′** (Oğuz) – 1. ərp bağlamaq; 2. kiflənmək. – *Qatıx hərfli:f.*

**HƏRHO:Ş** (Qazax) – ədviyyə. – *Ətə bir əz hərho:ş tök.*

**HƏRİFANƏ: HƏRİFANƏ ELƏMƏXʹ** (Meğri) – şərikli malı (ət, meyvə) bərabər bölmək. – *Saminin düyəsinin ətin hərifanə elədıx.*

**HƏRİLTİ** (Salyan) – səs-küy. – *Səlminazın həriltisinnən qulağ tutulur.*

**HƏRKƏŞDƏ** (Qazax, Tovuz) – hər kəs. – *Hərkəşdə öz qavağındakı yeməyi yisin* (Tovuz).

**HƏRKƏŞDİ** (İmişli, Salyan) – b a x **hərkəşdə.** – *Hərkəşdi getdi öz yerinə yatdı* (İmişli).

**HƏRKİŞDƏ** (Mingəçevir, Şərur) – b a x **hərkəşdə.**

**HƏRQAZDA** (Çənbərək) – hər kəs. – *Hərqazda özünə bir qız tafdı, sən hələ saylıyıf-boyluyursaŋ.*

**HƏRLƏNG** (Quba) – çarx <arabada>. – *Ərəbənün hərləngi sınmışdı.*

**HƏRNƏT** (Hamamlı) – əkilmiş yerlərin arasında qalan əkilməmiş torpaq. – *Əkin yerrərin arasında əkilməyən yerə hərnət de:rixʹ;* – *Hərnətdə ot bitər.*

**HƏRNƏVÜC** (Qax) – soxulcan. – *Yağışdan so:ra çoxlu hərnəvüc çıxdı.*

**HƏRRƏ** I (Bakı, Əli Bayramlı, Quba, Salyan) – b a x **hərə** I. – *Oğlum, get Qurbangilin hərrəsin gəti* (Əli Bayramlı).

**HƏRRƏ** II (Bakı, Salyan) – doğru, düzgün. – *Əvəz hərrə danışandı* (Salyan).

**HƏRRƏ-HÜRRƏ** (Çənbərək) – çək-çevir. – *Qara Vəlinin hərrə-hürrəsi Fatmanisiyi genitməxʹdi.*

**HƏRRƏMƏ** (Balakən, Mingəçevir) – ətraf, dövrə. – *Ayının hərrəməsinə çoxlu adam yığılmışdı* (Balakən).

**HƏRRƏMƏG** I (Bakı, Salyan) – tovlamaq. – *Yaşarı çox hərrədim, allada bilmədim* (Salyan).

**HƏRRƏMƏG** II (Salyan) – saya salmaq. – *Abdulla söyüşçüldi, ağzı qızanda heç kəsi hərrəmir;* – *Mən heç kəsi hərrəmirəm, özüm öz ağamam* (Bakı).

**HƏRRƏMƏXʹ** (Qarakilsə) – güdmək, arxasına düşmək. – *O vədə mənim əmimi də hərri:llər aparalar, baxtı gətdi dayna.*

**HƏRRƏNMƏG** (Bakı, Salyan) – dolanmaq, güzəran keçirmək. – *Yazığ adamdı, qoy bi idarədə hərrənsin də* (Salyan); – *Bir tə:r hərrənirig də* (Bakı).

**HƏRRƏSİFƏT** (Salyan) – doğru danışan. – *Nəsir hərrəsifət adamdu.*

**HƏRRƏŞƏN** (Sabirabad) – bolluq, çoxluq.

**HƏRSİMPƏRS** (Qazax) – məst. ◊ **Hərsimpərs olmax** – məst olmaq. – *Qayğanaxdan oxartana ye:f kin, hərsimpərs oluf.*

**HƏRSİPƏRS** (Şəki) – b a x **hərsimpərs.** ◊ **Hərsipərs olmax** – b a x **hərsimpərs olmax.** – *O qədər yimişəm, lap hərsipərs olmuşam.*

**HƏRTDƏMƏXʹ** (Qarakilsə) – hürmək. – *İt kimi hərtdiyir.*

**HƏRTDƏNMƏXʹ** (Naxçıvan) – qışqırmaq, bağırmaq. – *Hərtdənməxʹ lazım dəyil.*

**HƏRTƏ: HƏRTƏ VERMƏG** (Cəlilabad) – itirmək, bada vermək. – *Otız birinci ildən üzi bərü mənim əzyətimi hərtə verməz.*

**HƏRVƏDƏ** (Qazax) – 1. hərgah; 2. hər vaxt. – *Hərvədə məni görsəŋ, onda də:rsəŋ.*

**HƏS** (Qarakilsə) – kətənin içinə qoyulan ədviyyat.

**HƏSAB** (Cənubi Azərbaycan) – çirkli su. – *Həsabın aparub çölə tökdün?*

**HƏSBƏ** (Ordubad) – xəstəlik adı <insanda>. ◊ **Həsbə tutmağ** – həsbə xəstəliyinə tutulmaq. – *Onu görüm həsbə tutsun.*

**HƏSƏKLƏMƏXʹ** (Gədəbəy) – tövşümək. – *Bir də gördüm, Alı budu həsəkliyif yanıma çıxdı.*

**HƏS-HÜS** I (Lənkəran) – qanmaz. – *Qoy sözimizi deyəy də, sən lap həs-hüssən ki!*

**HƏS-HÜS** II (Lənkəran, Salyan, Yardımlı) – him-cim, işarə. – *Keydi, həs-hüs bilmir* (Lənkəran); – *Məclisdə həmişə çox danışırsan, həs-hüs qammırsan* (Salyan); – *Həs-hüs eləmə görey* (Yardımlı).

**HƏSİ** (Ağdam, Cəbrayıl, Çənbərək, Füzuli, Gədəbəy) – süd və undan bişirilən duru xörək. – *Çovannar yığılıb həsi bişirillər* (Füzuli); – *Nənə, birəz həsi bişi, içəxʹ* (Cəbrayıl); – *Həsiyi qış yi:əllər* (Gədəbəy).

**HƏSİRXANA** (Qarakilsə) – zəyərək <dərman bitkisi> hazırlanan yer. – *Həsirxana zə:rəxʹ döyülən yerdi, ode: yeri qalır.*

**HƏSRAL** (Oğuz) – yabanı bitki adı. – *Həsral əkində olur, heyvan yimiyən şeydi.*

**HƏSRİMƏK** (Göyçay) – 1. hirslənmək; 2. coşmaq.

**HƏSSƏMƏG** I (Salyan) – sıxışdırmaq. – *Mən yeznələrimi həssi:b öydən çıxartmışam.*

**HƏSƏMMƏG** II (Salyan) – böyümək, yekələnmək. – *Maşalla, day Əzizin də uşağları həssənib, nə gəlir gətirillər.*

**HƏŞ** (Qazax, Zaqatala) – zibil, tör-töküntü. – *Ayıbdı, həşi təmizlə* (Zaqatala).

☐ **Həş gəlməg** (Salyan) – həşir qatmaq, qiyamət qopartmaq. – *Hirssənəndə özüə bi həş gəlirsən ki, tanımmalun qalmır.*

**HƏŞAVAR** (Zərdab) – zir-zibil, çör-çöp. – *Ay qız, Sabigə, o həşəvari yığ xaralın arasına, apar tök çəpərdən çölə.*

**HƏŞDARXAN** (Ucar) – hind toyuğu. – *Həşdərxanın əti çox yeməlidi.*

**HƏŞDƏMƏX′** (Gədəbəy) – bərk çalışmaq.

**HƏŞƏ-HEYVƏR** (Ucar) – qətiyyən. – *Mənim bu işdən həşə-heyvər xəbərim yoxdu.*

**HƏŞƏKÜLAH** (Salyan) – şələ-külə. – *Gəlin sözünə baxmasa, həşəkülahun tökərəm çölə.*

**HƏŞƏLAT** (Bakı) – şey-şüy. – *Həşəlatın yığışdırmır, qapıları gezir.*

**HƏŞƏLƏMƏK** (Bakı, Lənkəran, Lerik) – danmaq. – *Sözüvi niyə həşəliyirsən, düz danış* (Lənkəran); – *Sən də day bəsdü da, hər nə oldi həşələmə bizdən* (Bakı).

**HƏŞƏLƏT** (Kürdəmir) – yorğan-döşək.

**HƏŞƏLGƏ** (Tərtər) – gizli yer. – *Oğru da, mallar da həşəlgədə olur.*

**HƏŞƏN** (Bakı, Mingəçevir, Oğuz, Salyan, Şəki) – döymək üçün xırmana tökülən taxıl dərzi. – *Xırmanı çox bafeynən, həşəni az bafeynən döyüllər* (Şəki); – *Həşəni so:rullar, taxıl bir yana çıxır, saman bir yana* (Oğuz).

**HƏŞƏRİ** I (Zəngilan) – forslu.

**HƏŞƏRİ** II (Ağdam, Gəncə) – 1. dalaşqan, davakar (Gəncə); 2. həyasız, çığır-bağır salan (Ağdam). – *A:z, o, həşəridi, gə bəri, ona qoşulma.*

**HƏŞƏVAR** (Göyçay, Kürdəmir, Şəki) – b a x **həşavar.** – *Həşəvarın hamsını tulla;* – *Buğda:n həşəvarı çoxdu* (Şəki); – *Töləddən çıxan həşəvarı çölə atırux* (Kürdəmir).

**HƏŞƏVARI** (Oğuz) – b a x **həşavar.** – *Xırmanda so:rurux, yel həşəvarını aparır, qalır təmiz dən.*

**HƏŞƏVƏR** (Şəki) – b a x **həşavar.** – *Taxılın həşəvərini təmizdiyif, tavaxliyif, yığıllar.*

**HƏŞHÜŞ** (Bakı) – b a x **həşoş.**

**HƏŞİR-HEYMƏ** (Cəbrayıl) – dağınıq.

**HƏŞİR: HƏŞİR GƏLMƏK** (Kürdəmir) – canfəşanlıq etmək. – *Sabahdan axşamacan həşir gəlib, bir şey yoxdu.*

**HƏŞİVA** (Yardımlı) – vəhşi. – *Elə bil həşivadu, hır-mır bilmey.*

**HƏŞİVƏR** (Kürdəmir) – hay-küy. – *Simaya dedim, bir həşivər saldı ki, gəl ki görəsən.*

**HƏŞLƏMƏX′** (Meğri) – aşıb-daşmaq. – *Əvəz həşlənif, elə bil dəli at kimin göyünən gedir.*

**HƏŞOŞ** (Xaçmaz, Oğuz) – xuruş, plovun qarası. – *Plovun həşoşun yaxşı düzəldin* (Oğuz).

**HƏŞTƏRXAN** (Göyçay) – hindtoyuğu.

**HƏŞÜŞ** I (Salyan) – pis. – *Axırıncı reys alma:n həşüşün satmağa aparırdım.*

**HƏŞÜŞ** II (Bakı) – şələ-külə. – *Həşhüşüvi də yığ, rədd ol bırdan.*

**HƏT** I (Dərbənd) – hovuz. – *Gomişləri hətdən suluyadəm.*

**HƏT** II (Qax) – altı yamaqlı corab.

**HƏTBAŞ** (Ordubad) – toyda yığılan pul.

**HƏTƏL** (Qax) – ev ayaqqabısı.

**HƏTƏLƏPİTO** (Salyan) – başdansovdu. – *Dərsi hətələpito örgənmisən.*

**HƏTƏM** (Gədəbəy, Şamaxı) – əliaçıq. – *Həsən hətəm adamdı* (Şamaxı).

**HƏTƏMLİG** (Şamaxı) – əliaçıqlıq. ◊ **Hətəmlig etmək** – əliaçıqlıq etmək. – *Nə hətəmlig elirsən?*

**HƏT-HÜT** (Gədəbəy) – anlaşıqsız və iti danışan. – *Hət-hütün biridi, bir isvatnan danışa bilermi kin, tüşə biləsən başa.*

**HƏTÜYLÜ** (Cəbrayıl) – tələsik, başdansovdu.

**HƏVƏ** I (Ağcabədi, Basarkeçər, Bərdə, Dərbənd, Əli Bayramlı, Xanlar, Laçın, Şamaxı, Şahbuz, Şəmkir, Tərtər, Tovuz, Zəngilan, Zərdab) – hananın iplərini vurub bərkitmək üçün dişli alət. – *Kirkit maral buynuzunnan olur, həvə ağaşdan* (Basarkeçər);

– *Həvə dəmirdən olur, özü də dişdi* (Zəngilan). ◊ **Həvə vurmax** (Laçın, Mərəzə, Şahbuz, Zərdab) – palaz, xalça toxumaq. – *Bu gün həvə vurmaxdan yoruldum* (Zərdab).

**HƏVƏ** II (Qax) – mərcimək. – *Həvəli xinqal pişirəca:x.*

**HƏVƏ-CÜVƏ** (Bakı) – dərman bitkisi adı.

**HƏVƏDİŞ** (Kürdəmir, Saatlı, Salyan) – iridişli <adam>. – *Həvədiş adamın gülüşünnən olmaz* (Kürdəmir).

**HƏVƏN** I (Tovuz) – mal yatan yer.

**HƏVƏN** II (Gəncə) – oyun zamanı uşaqların toplaşdıqları yer. – *Uşaxlar, həvənimiz damın dalı olsun!*

**HƏVƏN** III (Daşkəsən) – çilingağac oyunu zamanı yerdə çəkilmiş xətt. – *Qördüŋmü, mə:m çiliyim həvənnən qəridə duroy həməşə.*

**HƏVƏNG** (Borçalı) – tütün yığımı.

**HƏVGƏ** (Ağdam, Cəbrayıl, Goranboy, Oğuz) – b a x **həbgə.** – *Vəli həvgəni eşşəyin üsdünə aşırdı* (Cəbrayıl).

**HƏVİC** (Qax) – xuruş.

**HƏVİG** (Şahbuz) – hayıf. ◊ **Həvigi gəlməx′** – hayıfı gəlmək. – *Həvigim gəldi, atmadım.*

**HƏVİX′** (Şahbuz, Şərur) – b a x **həvig.** – *Həvix′ sənnən* (Şahbuz).

**HƏVİL** (Goranboy) – sırtıq. – *O çox həvil adamdı.*

**HƏVİR** (Meğri, Salyan) – bir-birinə öyrəşən və eyni şəraitdə böyüyən <itlər>. – *Həvir itdər olur ki, canavara güllə kimi təpilillər* (Meğri). ◊ **Həvir eləməx′** (Qax) – qarışmaq. – *Çeyin qirəğində ərəvuç lap həvir eliy.*

**HƏVİRRƏŞMƏX′** (Qarakilsə, Zəngilan) – dostlaşmaq, yaxınlaşmaq, birləşmək, <heyvanlara aiddir>. – *İki-üş zırpı itdi, həvirrəşib düşmüşdü üsdümə* (Zəngilan).

**HƏVİŞ** (Cəbrayıl, Qax) – nəm, yaş. – *Odun həvişdi, yanmır* (Cəbrayıl).

**HƏVLƏ** (İmişli) – b a x **hablə.**

**HƏVRƏ** (Ordubad) – cır, yabanı <meyvə>. – *Həvrə alça Bələvəndə çox olur;* – *Bizim tərəflərdə həvrə tut da olur.*

**HƏYBƏ** (Cəlilabad) – sarımsağa oxşar bitki.

**HƏYƏ** (Naxçıvan) – əgər. – *Həyə gəlsə, mən də cedərəm.*

**HƏYXIRTI** (Meğri) – bəlğəm.

**HƏYİN** (Şəki) – indi. – *Oturun, Vədut da həyin gələr.*

**HƏYLƏNÇİX′** (Naxçıvan) – elə, o cür. – *Həylənçix′ iş olar?*

**HƏYRAM** (Qax) – qanmaz.

**HƏZAZ** (Ordubad) – dağsoğanı. – *Dağdan yeməyçin çoxluca həzaz yığdım.*

**HƏZƏ-KÜZƏ AÇMAĞ** (Salyan) – yersiz danışmaq. – *Mənə düzün de, həzə-küzə açma.*

**HƏZƏRPAŞA** (Şamaxı) – b a x **hazarpeşə.**

**HƏZƏR VIRMAĞ** (Bakı, Səlyan) – şikayətlənmək, dad eləmək. – *Qonım-qonşular Xavərdən həzər vırır* (Salyan).

**HƏZİ: HƏZİ GƏLMEG** (Dərbənd) – xoşu gəlmək. – *Bu uşağdan həzim gələdi.*

**HIÇA** (Lənkəran) – ağacın nazik, cavan budağı, zoğ.

**HILIĞ** (Salyan) – gözdən axan çirk. – *Sa:lla, gözü:n hılığın axıdıb tökmə üssümüzə.*

**HILIXLI** (Ağbaba) – xəstə. – *Hılıxlı İskəndər rayonda işdiyir.*

**HILMIĞ** (Əli Bayramlı) – 1. boğaz; 2. hülqum. – *Ət yaxşı bişməmişdi, ona görə hılmığımnan çox çətinnix′nən aşırdı.*

**HINDAMIRA** (Lənkəran) – b a x **hındamiro.**

**HINDIL** (Astara, Lənkəran, Masallı) – b a x **hindil.** – *Ürəgim hindil issiyir* (Lənkəran).

**HINQA** (Şəki) – b a x **hənqa.**

**HINRIMAX** (Ağdaş) – astadan kişnəmək. – *At elə kin, yemək görür, başdıyır hınrımağa.*

**HINTIL: HINTIL ELƏMƏX′** (Meğri) – bəxtəvər etmək. – *Bacı: hıntıl eləmisən, qalıf qərdəşiŋ;* – *Əy bala, uxıyıb-uxıyıb bizi hıntıl eleyacaxsaŋ?*

**HINZIR** (Kürdəmir) – çoxyeyən <adam>.

**HIR** I (Kürdəmir) – hünər. – *Tay əvvəlki hırım qalmayıb, qocalmışam.*

**HIR** II (Bolnisi, Çənbərək) – axmaq.

**HIR** III (Lerik) – narın yağış. – *Uşağlar, hır gəlir.*

**HIR** IV (Bakı, Salyan) – acıq, hirs, qəzəb. – *Diyəsən gənə hırın tutub* (Salyan); – *Hırı gəlib, sən alla: dindirmə unı* (Bakı).

**HIRDABI** (Lənkəran) – toyqabağı oğlan evindən qız evinə gedərkən yüngül musiqi ilə müşayiət edilən mərasim.

**HIR DÜŞMƏG** (Bakı, Salyan) – əldən düşmək, yorulmaq.

**HIRIX** I (Tovuz) – cüssəli. – *Əli yaman hırıx adamdı.*

**HIRIX** II (Beyləqan) – qanacaqsız, qanmaz.

**HIRIN-ZIRIN** (Tovuz) – qaşqabaqlı, qaraqabaq. ◊ **Hırın-zırın olmax** – qaşqabaq sallamaq. – *Niyə yenə hırın-zırın olufsan?*

**HIRHIRI** (Bakı, Salyan) – sırtıq. – *Qız uşağı hırhırı olmaz* (Salyan).

**HIRMANNIX** (Zaqatala) – qalın kolluq.

**HIRMIMIŞ** (Saatlı) – harınlaşmış.

**HIRRIŞDIĞ** (Lənkəran) – keçilməz kolluq.

**HIRSIZ** I (Gəncə, Xanlar) – zorlu, güclü. – *Hırsız adam zorru olar* (Xanlar); – *Hırsız adamı birəz tüşümməz heysav eliyillər* (Gəncə).

**HIRSIZ** II (Saatlı) – yerli-yersiz hərəkət edən.

**HIRSIZ** III (Sabirabad) – fərasətsiz, aciz. – *Sənnən hırsız adam görməmişəm.*

**HIR: HIR SÜRMƏG** (Bakı, Salyan) – müəyyən müddət davam etmək. – *Bu qrip elə şöğəribdi ki, hırın sürməmiş əl çəkən döür* (Bakı); – *Xəsdəlig hırın sürmeyincə gedmir* (Salyan).

**HIRZIMANNIX** (Balakən) – meşənin çətin keçilən yeri.

**HIZIRIĞ** (Yardımlı) – yanıq iyi. – *Evdən hızırığ iysi gəley.*

**HİBOB** (Bolnisi, Borçalı) – şanapipik. – *Hibob hiç kimə zərəl verməz* (Borçalı).

**HİBOP** (Başkeçid, Borçalı, Qazax) – b a x **hibob.** – *Hibop başı pompıllı quşdu* (Borçalı).

**HİD** (Qax, Zaqatala) – peyin.

**HİDRƏ** (Ağcabədi, Goranboy) – hərzə. – *Hidrə olma, bəsdi* (Goranboy); – *Soltan bəy hidrə danışırdı* (Ağcabədi).

**HİDRƏCAVAB** (Ağcabədi) – hərzəcavab. – *Arasbar kəndində hidrəcavab adamlar çox oluf.*

**HİDRƏCAVAF** (Gəncə) – b a x **hidrəcavab.**

**HİDRƏLİK** (Ağcabədi) – hərzəlik.

**HİJMLƏ** (Çənbərək) – zərblə, var qüvvəsi ilə. – *Alı məni hijmlə vurdu.*

**HİJMNƏN** (Çənbərək) – b a x **hijmlə.** – *Yüz kiloy duz qaldıdım axşam hijmnən, indi belim ağrıyır.*

**HİL** I (Lənkəran, Şəki) – b a x **hel** II.

**HİL** II (Salyan) – topağac oyununda istifadə olunan kiçik taxta. – *Hili elə at mətiyə düşsün.*

**HİL** III (Şəki) – kələk. ◊ **Hil gəlmax** – kələk gəlmək. – *Olar bir-birinə hil gəlifdi;* – *İstədi maŋa hil gəlsin.*

**HİLBİÇİ** (Salyan) – yalançı, kələkbaz. – *Ərəssun hilbiçi adammış də, mən bilməmişəm.*

**HİLİ-HİLİ** (Lənkəran) – uşaq oyunu adı.

**HİLLAYİ** (Salyan) – avara, sərgərdan. – *Hillayıya qoşılarsan, sən də hillayi olarsan.*

**HİLLƏ** (Gədəbəy, Şamaxı) – 1. xəstəlik, dərd-bəla; 2. ağrı. – *Canımın hilləsinnən yatammamışam be:jə* (Gədəbəy). ◊ **Hillə tapmağ** (Şamaxı) – dərd-bəla tapmaq. – *Bədənim bu ildən hillə tapıb.*

**HİLLƏQABAX** (Mingəçevir) – dik alın.

**HİLLƏMƏG** I (Salyan) – tullamaq. – *Şö:lə, səni götürüb hilliyərəm qanoa.*

**HİLLƏMƏG** II (Lənkəran) – itələmək. – *Bi bax Şaxı necə hillədi, yıxdı.*

**HİLLƏT** (Salyan) – xəstəlik, naxoşluq.

**HİLMƏK** (Biləsuvar) – tezaçılan düyün. ◊ **Hilmək vurmağ** – düyün vurmaq. – *İpi hilmək vır danıya.*

**HİM** I (Başkeçid, Borçalı, Şərur, Culfa, Gədəbəy, Kəlbəcər, Naxçıvan, Ordubad, Şamaxı) – bünövrə, özül, əsas. – *Əvvəl himi atıram, so:ra daşınan himin doldururam* (Ordubad); – *Tufarın himin dərin qoy, möhkəm olsun* (Başkeçid).

**HİM** II (Bakı, Borçalı, Gədəbəy, Masallı, Mingəçevir, Oğuz) – qaş-gözlə edilən işarə. – *Bir himnən başa düşəcəxʹ* (Oğuz); – *Eləjə himnən biz də başa tüşö:yrüxʹ* (Gədəbəy). ◊ **Him eləmək** (Masallı, Beyləqan) – qaş-gözlə işarə etmək. – *Yanıma gəlmək üçün İskəndərə him elədim* (Masallı).

**HİN** (Qazax, Tovuz) – 1. mağara (Qazax); 2. hisli daxma (Tovuz).

**HİNCƏVARA** (Zaqatala) – b a x **incavara.**

**HİNDİL** (Ordubad) – böyürtkən. – *Hindildən yaxşı mürəbba olur.*

**HİNDİRABADI** (Bakı) – təlxək.

**HİNDİRƏNQUŞ** (Ağdam) – uşaq oyunu adı.

**HİNGİLƏĞOJ** (Qazax) – uşaq oyunu adı. – *Qurşanıflar hingiləğoja, mal da qalıf başdıbaşına.*

**HİNGİLİ** (Qax) – xəmir xörəyi.

**HİNGİLİMLƏŞMƏXʹ** (Basarkeçər) – mazaqlaşmaq. – *Uşaxlar qapıda hingilimləşillər.*

**HİNGİLLƏMƏXʹ** (Ağbaba) – şit-şit gülmək. – *Nəyə hingilliyirsən?!*

**HİNGİRRƏMƏXʹ** (Qazax) – əl çəkməmək.

**HİNİ** (Kürdəmir) – ağcaqanad.

**HİNTİL-MİNTİL: HİNTİL-MİNTİL OLMAX** (Qazax) – sərxoş kimi olmaq. – *Gün vuruf, gədə hintil-mintil oluf.*

**HİNT-MİNT** (Qazax) – eynilə, tamamilə. – *Oğlu hint-mint özüdü.*

**HİNTPUT** (Mingəçevir) – eynilə, tamamilə. – *Bu, hintput Nərimandı.*

**HİNZAN** (İrəvan) – koma <üzüm asıb saxlamaq üçün>. – *Hinzanın qapısın bağla;* – *Ay qız, yağış yağır, üzümü hinzana yığ.*

**HİNZAR** (Lənkəran) – yanıq. – *Hinzar ini gəlir, dur di bax.*

**HİPOP** (Şərur) – b a x **hibob.**

**HİPP ELƏMƏK** (Salyan) – susmaq, danışmamaq. – *Mən hipp eliyəndə süzün işüz düzələcəy?*

**HİRİXʹ** (Qazax) – iri gövdəli, sallaq quyruqlu cins qoyun. – *Hirixʹ qoyunun yunu seyrəy olor.*

**HİTDAĞ-MİTDAĞ** (Salyan) – mütləq. – *Xalam deyib hitdağ-mitdağ o qızı mən oğluma alacam.*

**HİVƏ** (Çənbərək, Qazax) – halal. ◊ **Hivə olmax** – halal olmaq. – *Yediyin çörəxʹ hivə olsun* (Çənbərək); – *Çörəyim saŋa hivə olsun* (Qazax).

**HO** (Dərbənd, Tabasaran) – o. – *Ho kəndi görürsənmi?* (Dərbənd)

**HO:** I (İmişli) – şiş. – *Əyağımın ho:i alınıp.*

**HO:** II (Ağdam, Mingəçevir, Salyan) – iməcilik, <kollektiv> kömək. – *Qonum-qonşunu yığırıx kın, mã: ho:a gəlin, taxılı piçəxʹ.* ◊ **Ho:suna çatmax** (Mingəçevir) – köməyinə çatmaq.

**HO:** III (Bakı) – 1. hirs, qəzəb; 2. hay-küy. – *Bir ho:nan gəlmişdi üstümə ki, nətə:r.*

**HOAR** (Tovuz) – pərdinin üzərinə döşənən çırpı. – *Hoarı qalın qoyun kin, damcı dammasın.*

**HOÇ-HOÇİ** (Lənkəran) – sözgəzdirən, aravuran. – *Hoç-hoçi Tuğra zəhləmi aparır.*

**HOÇ-HOÇİLIĞ** (Lənkəran) – sözgəzdirmə, aravurma. ◊ **Hoç-hoçılığ eləməg** – söz gəzdirmək, ara vurmaq.

**HO:ÇU** (Gədəbəy) – köməkçi. – *Ho:çum var, qartofun divini doldurtduraram.*

**HODAX** I (Basarkeçər, Borçalı, Qazax, Tovuz) – kotana və s. qoşulan üç cüt öküzün birinci cütü. – *Birinci cütə hodax, ikinci cütə qaraqayış, üçüncü cütə hörüxʹ de:rixʹ* (Qazax).

**HODAX** II (Basarkeçər, Bərdə, Gədəbəy, Qarakilsə) – kotana qoşulmuş öküzləri sürən cütçü. – *Həsən əmi, hodağın kimdi?* (Basarkeçər); – *Hodax sə:r tezdən tarlaya getdi* (Bərdə).

**HODAXÇI** (Ağdam, Başkeçid, Borçalı, Gədəbəy, Goranboy) – b a x **hodax** II. – *Məjgəl tutana deyiflər, hodaxçı sürənə* (Gədəbəy); – *Hodaxçı öküzdəri sürür* (Goranboy); – *Hodaxçı ulağın boyunduruğu üsdə oturordu* (Borçalı).

**HODUBALA** (Tovuz) – oyuncaq. – *Mən sənə hodubala-zad deyiləm.*

**HOFDURMA** (Goranboy) – xörək adı.

**HO:ĞAT** (Qazax) – taqət, güc. – *Ho:ğatın kəsilmeyif ha.*

**HO: HO ÇƏKMEG** (Bakı) – hücum etmək.

**HOXRAMMAX** (Daşkəsən) – astadan kişnəmək. – *Ata arpa vereydim, indi də aparanda hoxrandı;* – *At ajıf hoxraney, apar ona birəz ot at.*

**HO:XURUX** (Bolnisi) – ağacın qovu.

**HOQQA** I (Culfa, Naxçıvan) – bir kiloqram. – *Hoqqa dövri-qədimdə işlənərdi* (Culfa); – *Yarım hoqqa yarım kilodu* (Naxçıvan).

**HOQQA** II (Tovuz) – mürəkkəbqabı.

**HOQQA** III (Bakı, Salyan) – omba sümüyü. – *Atın lap hoqqası çıxıb.*

**HOQQAR** I (Bakı, Bərdə, Çənbərək, Gədəbəy, Goranboy, Kəlbəcər, Qazax) – uzun <adam>. – *Əhməd hoqqarın biridi* (Kəlbəcər); – *Hoqqar adamın xəsyəti yava olor* (Gədəbəy); – *Boran hoqqar adamdı* (Bərdə).

**HOQQAR** II (Borçalı, Qazax) – dovdağa bənzər quş adı. – *Hoqqar uzunboğaz, hündür bir quşdu, balıx yediyinnən balığudan da de:llər* (Qazax); – *Hoqqar quşdu, dimdiyi, boynu uzun, qışdarı da uzun olur* (Borçalı).

**HOL** (Naxçıvan, Şərur) – fırfıra. – *Hol taxtadan olar, ucunda balaca mismar olur* (Naxçıvan); – *Holu uşaxlar işlədər* (Şərur).

**HO:LAMAĞ** (İmişli) – b a x **hovlamax.** – *Yaranı gözzə, ho:lamasun.*

**HOLAN** (İmişli) – hünər. – *Kişidə gərək holan olsun.*

**HOLANSIZ** (İmişli) – 1. hünərsiz; 2. tənbəl. – *O, holansızın biridi, iş görməz.*

**HO:LAVAR** (Laçın) – əkin vaxtı oxunan mahnı.

**HOLOLO** (Qazax) – əkin vaxtı oxunan mahnı. – *Ə, bura dərəbəylix' ha döy hololo də:səŋ.*

**HOMA** (Ucar) – topa. – *Bü:n bir homa ot yığmışam.*

**HOMALAMAX** (Ucar) – topalamaq. – *Sən çalan otu mən homaladım. – Bığdanı homala, əmbiz elə.*

**HOM DURMAĞ** (Salyan) – dik durmaq (aşıq-aşıq oyununda). – *Aşığı atdım, hom durdu.*

**HOMMA** (Salyan) – iri, yekə. – *Şumda homma kəsəylər çoxdu.*

**HOMPOLOV** (Zaqatala) – 1. yekəqarın. – *Hompolov adam ağır yeriyər;* 2. tamahkar. – *İlyas hompolovdi diyə dükannan çıxardılar.*

**HONAZ** (Qarakilsə) – zəminin biçilməmiş hissəsinə tərəf dayanan birinci adam.

**HONDA** (Oğuz) – orada.

**HONU** (Salyan) – uzunsov. – *Bazardan iki dənə honu qarpız almışdım.*

**HOP** I (Cəbrayıl) – yabanı bitki adı. – *Hopu mallar yaxşı yeyir.*

**HOP** II (Borçalı, Daşkəsən, Gədəbəy, Tovuz) – kotanın torpağı çevirən hissəsi, ucu. – *Hop eləjə düz dəmir oloy, qıraxları əynəx'li oloy, uju da zoddamış oloy* (Daşkəsən); – *Qılıc yarer, hop döndərer* (Borçalı); – *Kotanın hopunu itiləmək lazımdı* (Tovuz).

**HOPBA** (Oğuz) – qoz, lobya və düyüdən hazırlanan xörək adı. – *Hopba bişiriflər, gedəx' yə:x'.*

**HOPBACA** (Sabirabad, Şahbuz) – b a x **hopbaja.** – *Payız hopbaca yeməli olur* (Şahbuz).

☐ **Hopbaca eləməx'** (Gədəbəy) – körpə uşağı atıb-tutmaq. – *Gəl səni hopbaca ele:m, ay cırtdanım.*

**HOPBAJA** (Ağcabədi, Zərdab) – südlü aş. – *Bu gün hopbaja bişirmişdix'* (Ağcabədi).

**HOPHOP** (Goranboy) – b a x **hibob.**

**HOPHOPU** (Göyçay) – b a x **hibob.** – *Öyin dalında hophopular özdəriyçin gəzişillər.*

**HOPITDIM** (Salyan) – hay-küyçü. – *Davudun hopıtdım olmağına baxma, ürəyi təmizdi.*

**HOPURDAMAĞ** (Lənkəran) – çeynəmədən udmaq. – *Əli aşı hopurdur.*

**HOPURTAN** (Lənkəran) – suçəkən, qurulayan.

**HOR** I (Xanlar, Tovuz) – tərkibində yağı az olan və ya yaxşı qaynadılmayan ayrandan əmələ gələn pis keyfiyyətli şor. – *Şoru çürüdüllər, onun üzü hor oloy* (Xanlar); – *Ayranı yaxşı çürütmüyüfsən də:n, hor oldu; – A:z, ayranın özü:n yağı azıydı, ona görə dənəvər yox, hor oluf* (Tovuz).

**HOR** II (Meğri, Şamaxı, Zəngilan) – 1. içərisinə qab-qacaq yığılan iri xurcun (Meğri, Zəngilan). – *Hora qab-qacaq yığallardı dağa gedəndə* (Zəngilan); 2. kisə. – *Bu, hor çüyaldı, munu Mələx' fağır toxuyup* (Meğri).

**HOR** III (Cəlilabad) – balqabaqdan hazırlanan duru xörək.

**HORANDA** (Salyan) – israfçı. – *Horanda adam öy qurammaz.*

**HORANHORT** (Başkeçid) – düyüdən hazırlanan duru xörək.

**HOR-HOR** (Füzuli) – az-az, yavaş-yavaş. – *Hor-hor işdi:rix'.*

**HOR-HORİ** I (Salyan) – üzülmüş <parça>. – *Hor-hori parçanın da:mı <davamı> az olar.*

**HOR-HORİ** II (Salyan) – hərzədanışan. – *Hor-hori adam pisdi.*

**HORHOYUŞ** (Çənbərək, Gədəbəy, Qazax) – dərman bitkisinin qaynadılmasından alınan su. – *Zeynaf qarı horhoyuş qayırdı, Əx'bəri çimizdirdi* (Çənbərək); – *Dünən Əlini horhoyuş suyunan çimizdirdim* (Qazax).

**HORRAVAYİ** (Salyan) – danışığını bilməyən, ədəb-ərkan gözləməyən. – *Mənsurə horravayi arvaddı.*

**HORSƏLİ** (Gədəbəy) – ağırtəbiətli adam.

**HORTDAĞ** (Salyan) – ovurtdaq, yanaq sümükləri. – *Qız oxartə arığdı ki, hortdağları çıxıb.*

**HORTDAMA** (Şahbuz) – süd və çörəkdən hazırlanan duru xörək.

**HO:RUBƏRİ** (Ağdaş) – israfçı. – *Fatmanisə yaman ho:rubəri arvaddı, iki kilo əti bir dəfədə pişirir.*

**HORUX** I (Cəbrayıl, İmişli, Kəlbəcər, Tərtər, Tovuz) – pinti. – *Əhmədin qızı çox horuxdu* (Kəlbəcər).

**HORUX** II (Cəbrayıl) – möhkəm ip.

**HO:SAR** (Salyan) – noxta <dəvədə>. – *Dəvənin ho:sarı uzun olar.*

**HOŞ** (Çənbərək, Gədəbəy, Kəlbəcər, Qarakilsə) – yeri əkən zaman kotanın ilişdiyi daş. – *Kotan hoşa ilişdi* (Gədəbəy).

**HOŞDU** (Laçın) – daşlıq yer. – *Bura çox hoşdu yerdi, kotanın ağzı ilişir.*

**HOŞULUM** (Şəki) – xeyirsiz, xeyirverməz. – *İsbəndiyar hoşulum adamdı, unnan xeyir görən olmaz.*

**HOT: HOT OLMAX** (Qarakilsə) – yeyilib qurtarmaq. – *Çoxdan hot olup, bir dənəsi də qalmıyıp.*

**HOTİ-HOTİ** (Salyan) – tez-tez danışan. – *Həsən çox hoti-hoti adamdı.*

**HOV** (Şəki) – kömək. – *Zavta həmməşə adamın hovuna çatandı.*

**HOVALA** (Meğri) – b a x **havala** I.

**HOVANÇAĞ** (Dərbənd) – yelləncək. – *Qizlər hovançağda hovanadılar.*

**HOVANMAĞ** (Dərbənd) – yellənmək. – *Sona hovanadı hovançağda.*

**HOVARMAĞ** (Dərbənd) – b a x **hovanmağ.** – *Xənco:lidə hovaradu uğlannar.*

**HOVLAMAX** (Ağcabədi) – iltihab etmək. – *Yaram hovluyuf.*

**HOVOTU** (Basarkeçər) – yabanı dərman bitkisinin adı. – *Yara xarav oluf hovluyanda, hovotunun xaşılın qayrıllar, yara:n üsdünə qoyullar.*

**HOVUŞ** (Qax) – daş.

**HO:UGƏ** (İmişli) – fasilə, tənəffüs. – *Ho:ugədə ata arpa verərdük.*

**HO:URĞALANMAX** (Kəlbəcər) – təpinmək. – *Nə üstümə ho:urğalanırsaŋ ə?*

**HOY** I (Başkeçid, Gədəbəy, Qazax) – b a x **ho:** II. – *Hoy lazımdı kın, tez tikəx′ toyluyu* (Gədəbəy); – *Keçmişdə taxılı hoynan piçərdix′;* – *Büyün yığılıf mə:mkin, savah sə:nkin piçərdix′, ona hoy de:rdix′* (Qazax). ◊ **Hoy eləməx′** (Gədəbəy, Qazax, Şəmkir) – <kollektiv> kömək etmək. – *Hoy eli:rdix′, damın üsdün basdırırdıx* (Şəmkir); – *Hoy ele:ın vuraın qardalının alasın* (Gədəbəy).

**HOY** II (Daşkəsən) – şiş. – *Adamın bir yeri kəsiləndə, hoyloyanda sancı çiçəyini qaynadıf, onun quymağını pişirif yaranın üsdünə qoyursan, hoyunu aler.*

**HOYDURSUZ** (Qazax) – tərbiyəsiz. – *Bö:y olmuyanda uşax hoydursuz böyyər.*

**HOYĞAT** (Çənbərək, Qazax) – keyfiyyət. – *Bir ta: ot döyşürmüşüx′, amba hoyğatı yoxdu* (Çənbərək); – *Salonun hoyğatı yoxdu, biyl onçün arığ oldu mal* (Çənbərək).

**HOYXURMAX** (Oğuz) – üşüyən zaman əlləri nəfəslə qızdırmaq. – *Əllərim bərk üşüyürdü, hoyxurdum bir qədər qızındı.*

**HOYLAMAX** I (Daşkəsən, Goranboy, Qazax) – b a x **hovlamax.** – *Adamın bir yeri kəsiləndə, hoylayanda sançı çiçəyini qaynadıf onun quymağını pişirif yaranın üsdünə qoyursaŋ, hoyunu aler* (Daşkəsən); – *Yaram hoyluyuf, gülxətmi xamrı qayır qoyax üsdünə* (Goranboy).

**HOYLAMAX** II (Çənbərək) – kollektiv kömək eləmək. – *Camahata hoylamax yaxşıdı, tütün tez qutarar.*

**HOYLAMMAX** (Qazax) – b a x **hovlamax.** – *Yaram yaman hoylanıf.*

**HOYLU** (Basarkeçər) – 1. dalan. – *Öyün hoylusu elə uzundu ki, uşax qarannıxda keçə bilmir;* 2. səki. – *Heyvannar hoyluya doluf.*

**HOYŞAR** (Karvansaray) – bıçaq. – *Hoyşarnan kəsif əlini gədə.*

**HOYTUĞ** (Xanlar) – koğuş. – *Ağajın hoytuğunda quş yuası tafdım.*

**HOYUXMAX** I (Meğri, Naxçıvan) – 1. təəccüblənmək; 2. qorxmaq. – *Tuneldə top atanda cama:t hoyuxurdu* (Naxçıvan).

**HOYUXMAX** II (Meğri) – xəbərdar olmaq, duyuq düşmək. – *Təkələr havamızı aldıla, hoyuxdula.*

**HOYUL** (Qazax) – həyətyanı sahə. – *Hoyul yerimdə qarpız əx′mişəm.*

**HOYUŞ** (Qazax) – ədviyyə.

**HOZA** I (Bərdə, Füzuli, Mingəçevir) – dəyirman daşını qaldırmaq üçün alət. – *Hozeynan də:rmanın daşın qaldırıv altına dirəg qoyullar* (Bərdə); – *Özgə yerin döyməncini hoza ilə döyəllər* (Mingəçevir).

**HOZA** II (Cəbrayıl) – əlağacı. – *İslam kişi hozeynan iti vurdu.*

**HOZA** III (Salyan) – əleyhdar. – *Oni vəzifəyə qoymazzar, hozası çoxdu.*

**HOZAKİ** (Qəbələ) – qanmaz, kobud. – *Sən lap hozakisən ki!*

**HO:ZEGİ** (Lənkəran) – b a x **hozaki.** – *Adə, ho:zegi, hara soxirsən özüvi.*

**HOZİ** (Culfa, Yardımlı) – qanmaz, kobud. – *Həsən hozi adamdı bı katdə* (Culfa).

**HOZİGİ** (Cəbrayıl, Culfa, Salyan) – b a x **hozaki.**

**HOZİLIX: HOZİLIX ELƏMƏXʹ** (Culfa) – qanmazlıq etmək, kobudluq etmək. – *Kamal hozilıx eliyib qapını sındırdı.*

**HOZU** (Gədəbəy, Qarakilsə, Meğri, Şərur, Sabirabad) – b a x **hozi.** – *Sən yaman hozusan* (Sabirabad); – *Nə: ŋ belə hozudu təzə firqəndə* (Gədəbəy).

**HOZULUĞ ELƏMƏXʹ** (Şərur) – kobudluq etmək.

**HÖ:CƏLƏXʹ** (Oğuz) – hövsələsiz. – *Səbirsizdixʹnən bir iş görürsən, diyir höcələy olma!*

**HÖDDÖVƏ** (Bakı) – kobud, qaba.

**HÖ:Ə** (Gədəbəy, Hamamlı) – b a x **hövə.** – *A Gülbəs, sən alla, sıx hö:ələ, qoy palaz bərk düşsün, hö:ə xananın canıdı* (Gədəbəy); – *Hana hö:əsiz toxummaz* (Hamamlı).

**HÖ:ƏR** I (Gədəbəy) – arı tutmaq üçün qurğu. – *Hö:ər qayırdım dünən arıya.*

**HÖ:ƏR** II (Gədəbəy) – arı pətəyində qışa ehtiyat hissəsini qoruyub saxlamaq üçün dördkünc çərçivə. – *Hö:əri də doldurmadı arılar bi:l.*

**HÖ:GƏ** I (Bakı, Kürdəmir) – b a x **höyə** II. – *Öküznən bir hö:gə yeri bir günə sürərdük* (Kürdəmir).

**HÖGƏPUZAN** (Meğri) – intizamsız. – *Dördimci birqadada högəpuzan adam Canəlidi.*

**HÖGƏR** (Salyan) – suyu bölüşdürmək üçün ayrılmış dəstənin başçısı.

**HÖ:GÜR** I (Lerik) – vərdiş.

**HÖ:GÜR** II (Salyan) – mehr, məhəbbət. – *Gülşən hö:gürün salıb mənə, hara gedirəm, əl çəkmir.*

**HÖGÜRRƏŞMƏG** (İmişli) – buğaya gəlmək. – *Üç gündi inəg almısan, qoş mala högürrəşsün.*

**HÖĞÜŞ** (Gədəbəy) – 1. yaş; 2. nəm. – *Paltar höğüşdü, yığme:iŋ hələ.*

**HÖ:XURUX** (Qazax) – koğuş, ağacın içindəki boşluq.

**HÖ:KƏM** (Əli Bayramlı) – çayın enli və dərin yeri.

**HÖKKƏL** (Daşkəsən, Gədəbəy) – kotana qoşulan öküzlərin üçüncü cütü. – *Hökkəl qoşuŋ, köme:ləsin bir az* (Gədəbəy).

**HÖKÜR** (Bakı) – yoldaş. – *Bir az otur, hökür ol mənə.*

☐ **Hökürə gəlmək** (Kürdəmir, Şamaxı) – buğaya kəlmək. – *İnək hökürə gəlir* (Şamaxı).

**HÖLƏKİ** (Basarkeçər, Gədəbəy, Gəncə) – səbirsiz. – *Höləki adam tez xata: tüşər, atalar demişkən* (Gədəbəy).

**HÖLƏN** (Quba) – yolun çökək yerində yığılan su. – *Əhmədin harabası höləndə qalubdu.*

**HÖLLƏXʹ** (Goranboy) – uzun.

**HÖLLƏNMƏG** I (Əli Bayramlı) – başına hava gəlmək, havalanmaq.

**HÖLLƏNMƏG** II (Salyan) – narahat olmaq, fikir eləmək. – *Axşam pis yuxu görmişəm, onnan bəri höllənmişəm.*

**HÖLLƏŞMƏXʹ** (Qarakilsə) – kəlləşmək. – *Mən onunla hölləşdim.*

**HÖÖC** (Şamaxı) – b a x **höyüş** II.

**HÖ:R** (Qarakilsə) – buğaya gəlmə. ◊ **Hör almaxʹ** (Şəki). **Hö:rə gəlməxʹ** (Cəbrayıl, Culfa, Mingəçevir, Şəki) – buğaya gəlmək. – *Həsən kişi, inək hö:rə gəlir* (Cəbrayıl); – *İnexʹ hö:rə gəlifdimi?* **Hö:rə salmax** (Qarakilsə) – buğaya gətirmək.

**HÖ:R ELEMEG** (Bakı) – şişmək. – *Yarası hö:r eliyib.*

**HÖRƏLƏMƏXʹ** (Xanlar) – yamamaq. – *Axşamatan köhnə paltar hörəliyəjəm.*

**HÖ:RƏŞMƏXʹ** (Tovuz) – isinişmək, alışmaq. – *Uşaxlar asda-asda analıxlarına hö:rəşillər.*

**HÖRQƏLƏNMƏXʹ** (Cəbrayıl) – hürkmək. – *Ə:, inəxʹ hö:rqələndi, onu qaytar.*

**HÖRMÜŞ** (Şəki) – sünbüllü ot adı.

**HÖRTDƏTMƏXʹ** (Ağdaş, Gəncə, Xanlar) – başına çəkib içmək. – *A qızım, ürəyim yanır, o ayrannan ver hörtdədim* (Ağdaş); – *Hörtdətdi işdi, yanı suçulama işdi* (Gəncə).

**HÖRÜMLƏMƏG** (Salyan) – hörmək, toxumaq. – *Gör hörümçəg nə yaxşı tor hörümli:b.*

**HÖRÜXʹ** I (Bərdə, Qarakilsə, Salyan) – heyvanı otlaqda bağlamaq üçün uzun ip, kəndir. – *O hörüyü gəti, atı hörüxʹlə:jəm* (Bərdə).

**HÖRÜXʹ** II (Qarakilsə, Şərur) – b a x **hörük.**

**HÖRÜXʹ** III (Gədəbəy) – hirs, acıq. ◊ **Hörüyü tutmax** – acığı tutmaq. – *Hörüyü tutuf, heş kəsi eşitməxʹ isdəmer ha!*

**HÖRÜXʹ** IV (Borçalı, Qazax) – qoşquya kömək məqsədilə qoşulan əlavə bir cüt öküz. – *Kotanı çəkmellər, bir hörüxʹ qoşmax lazımdı* (Qazax).

**HÖRÜXʹÇÜ** (Qazax) – bənna.

**HÖRÜXʹLƏMƏXʹ** (Bərdə, Şərur, Qarakilsə) – heyvanı otlaqda uzun ip, kəndirlə bağlamaq. – *Dana ajdı, onu apar, otdu yerə hörüxʹlə* (Bərdə).

**HÖRÜYƏYĞİ** (Basarkeçər) – bir il dincə qoyulan yer. – *Yeri payız şumli:rixʹ əkirixʹ, gələn payız biçinnən sonra ora hörüyəyğı olur.*

**HÖ:SİMƏK** (Bakı, Salyan) – deyinmək, şikayətlənmək. – *Hacağa sə:n dalucan hö:si:rdi* (Bakı).

**HÖ:SÜN-HÖ:SÜN** (Bakı) – tələsə-tələsə. – *Hardan gəlirsən belə hö:sün-hö:sün?*

**HÖSÜT** (Qax) – tərs <adam>. – *Ho ne hösüt adamdı?*

**HÖ:Ş** (Oğuz) – b a x **höyüş.** – *Hö:ş yerdə oturma, xəstələnərsən.*

**HÖŞÜL** (Başkeçid, Borçalı) – un horrası. – *Yamannamış inəyə höşül çəkəllər* (Borçalı).

**HÖŞÜLLƏMƏXʹ** (Gədəbəy) – evə şirə çəkmək. – *Bir əz höşül qayır, qoy öyün içini höşüllə:xʹ.*

**HÖ:T** (Qəbələ) – quyu. – *Get, hö:tdən su gətir.*

**HÖTÜLLÜTÜ** (Zaqatala) – boydan uzun, ağıldan kəm. – *Bizim bu Əhməd hötüllütünün biridi.*

**HÖTÜLLÜTÜLÜXʹ** (Zaqatala) – ağılsızlıq. – *Əli cama:t arasında hötüllütülüxʹ eli:rdi.*

**HÖ:ÜL ELƏMƏK** (Salyan) – səksənmək, qorxmaq. – *Arvad qarannığda hö:ül eliyir.*

**HÖ:ÜR: HÖ:ÜR SALMAX** (Biləsuvar, Zaqatala) – məhəbbət salmaq. – *Həsən Əlinin qızına hö:ür salıb* (Biləsuvar).

**HÖ:ÜRALAN** (Gədəbəy) – buğayagəlmə vaxtı çatmış düyə. – *Bir hö:üralanım var.*

**HÖÜRƏ GETMƏXʹ** (Göyçay) – məhəbbət salmaq.

**HÖ:ÜRRƏŞMƏXʹ** (Gədəbəy) – b a x **hö:rəşməxʹ.** – *Hö:ürrəşdimi öküzdər bir-birinə?*

**HÖ:ÜŞ** (Çənbərək, Göyçay, Qazax, Quba, Mingəçevir) – b a x **höğüş.** – *Hö:üş odunnar yanmaz, quy bir az qalsun, qurusun* (Quba).

**HÖVƏ** (Bakı) – b a x **həvə.**

**HÖVGƏLDİ: HÖVGƏLDİ ELƏMƏXʹ** (Şuşa) – kütləvi kömək etmək. – *Gedəxʹ, Hafizəyə hövgəldi eliyəxʹ.*

**HÖYƏ** I (Qarakilsə) – əkin üçün və ya da biçin üçün hər kəsə düşən yer payı. – *Bı yerin höyəsi o yerə görə çox uzundu.*

**HÖYƏ** II (Zəngilan) – əkmək üçün uzununa ayrılmış sahə. – *Öküzün biri həməşə höyeynən gedər.*

**HÖYÜC** (Qazax) – kəklikotu. – *Saŋa soyux dəyifsə, bir əz höyüc çayı iç.*

**HÖYÜRRƏŞMƏXʹ** (Qazax) – isinişmək, alışmaq. – *Uşax yeŋi yedəndə durmordu baxcada, indi höyürrəşif.*

**HÖYÜŞ** I (Ağdam, Gəncə, Kürdəmir, Qazax, Qəbələ, Mingəçevir, Oğuz, Şəki, Şəmkir, Tovuz, Yevlax) – b a x **höğüş.** – *Bala, höyüş yerdə uzanma, azarlarsan* (Mingəçevir); – *Bı odun höyüşdü* (Qazax); – *Odun höyüşdü* (Qəbələ).

**HÖYÜŞ** II (Kürdəmir) – plovun qarası. – *Aşın höyüşü olmaludu.*

**HÖYÜŞDÜXʹ** (Qazax, Ucar) – nəmişlik. – *Torpağ höyüşdüxʹ olduğunnan işdəməxʹ olmur* (Ucar).

**HÖYÜT** (Balakən) – göl.

**HUALAMMAX** (Qazax) – 1. yaxşılaşmaq; 2. istiləşmək <havaya aiddir>. – *Yaman so:ğuydu hava, indi hualandı.*

**HUAR** (Qazax) – b a x **hoar.**

**HUAS** (Qazax) – həvəs. – *Munu ağlatmağa huasıŋ var, eləmi?*

**HUASIMAX** (Qazax, Tovuz) – həvəslənmək. – *At minməyə elə huasıyıram kın!* (Tovuz).

**HUBAB** (Şərur) – şanapipik.

**HUL** (Basarkeçər, Cəbrayıl, Gədəbəy, Qazax, Tovuz) – dik, yuxarı. ◊ **Hul atmax** (Tovuz) – yuxarı atmaq. – *Uşax topu hul atdı.*

**Hul baxmax** (Beyləqan, Gədəbəy, Qazax, Tovuz) – yuxarı baxmaq. – *Hul baxma, ə, görmörsənmi, mal şuma dolor!* (Gədəbəy). **Hul vermərʹ** (Füzuli) – yuxarı vermək.

**HULAY** (Oğuz) – uzundraz.

**HULQUM: HULQUM ELƏMAX** (Şəki) mühasirəyə almaq. – *Bizi hulqum eləmisən, cama:tı qırırsan.*

**HULU** I (Bakı) – şaftalı növü.

**HULU** II (Cəlilabad) – cır armud növü.

**HULUĞ** (Cənubi Azərbaycan) – yabanı bitki <təbabətdə bu bitkinin suyundan baş ağrısını kəsmək üçün istifadə olunur>. – *Əhməd huluği içib bir az yaxşi oldu.*

**HULUMÇAX** (Cəbrayıl) – yelləncək. – *Vəli çinarda hulumçax asdı.*

**HUMAY** I (Kəlbəcər) – qaza oxşar ağ rəngli quş. – *Meşədə humay qərəvışdan az olur.*

**HUMAY** II (Göyçay) – ağ çit, humayın ağı.

**HUR** (Meğri) – bax **hor** II. – *Bu hur çüyaldı, munu Məlexʹ fağır toxuyup.*

**HUŞAHUŞ** (Salyan) – qalmaqal, hay-küy. – *Orda nə huşahuşdu?*

**HUŞDURUM** I (İmişli, Oğuz) – 1. yalan, uydurma; 2. boş, mənasız şey. – *Bu huşdurum sözzi, inanmeyin oa <ona>* (İmişli).

**HUŞDURUM** II (Kürdəmir) – huşsuz.

**HUYDULUM** (Şəmkir) – yelbeyin.

**HUYDUM** (Əzizbəyov) – bax **huydulum.**

**HUYDUMAĞAC** (Gəncə) – uşaq oyunu adı. – *Gəlin huydumağac oynayax.*

**HUYDURUMHUY** (Ağdam) – uşaq oyunu adı.

**HUY: HUY OLMAĞ** (Bakı) – yoxa çıxmaq.

**HUYUXMAX** I (Yardımlı) – səksənmək, qorxmaq. – *İti görey, huyuxey.*

**HUYUXMAX** II (Şərur) – təəccüblənmək.

**HÜƏ** I (Qazax) – bax **hövə.** – *Palaz toxumax üçün hüə tapa bilmerəm.*

**HÜƏ** II (Çənbərək) – bax **höyə.** – *Yerin hüəsi gödəxʹdi deyn kotan quş kimi əxʹdi qutardı.*

**HÜDİ GETMƏK** (Salyan) – sinov getmək, dərdindən ölmək. – *Güneldən ötri lap hüdi gedirəm.*

**HÜDİLƏMƏG** (Bakı, Salyan) – boş-boş danışmaq. – *Sə:rdən hüdiləyib tökir* (Bakı).

**HÜL** I (Ağdaş, Qazax) – bax **hul.** – *Daşı hül atdı* (Qazax).

**HÜL** II (Cəlilabad) – yalan. ◊ **Hül verməy** – yalan satmaq.

**HÜLDÜR-HÜLDÜR** (Qax) – köpüklənə-köpüklənə (axmaq).

**HÜLEYİN** (Ordubad) – saxsı neft qabı. – *Saxsıdan olan neft qabına hüleyin deyirıx.*

**HÜLƏ** I (Salyan) – kiçik arx. – *Hər cərgənün arasına hülə çəkillər. – Bağı yazza hazırraruğ, mart ayında başın kəsirüğ, dibin şumlıyıruğ, hüləsin qazıruğ.*

**HÜLƏ** II (Kürdəmir) – lək. – *Hülələrə tırp əkmişəm; – Qoy bu hülənin alağını vurum.*

**HÜLƏMƏXʹ** (Çənbərək) – axtarmaq. – *Nərman göyçəxʹ qız hülü:yr; – Əhmət dünənnən aralıxda hülü:yr, heş şey tapəmmir.*

**HÜLHÜLÜ** (Qazax) – məsləksiz.

**HÜLQUMLEŞ ELƏMƏG** (Salyan) – 1. hülqumunu üzmək, boğazlamaq; 2. döymək, əzişdirmək. – *Axır əlimə düşəcək ki, onı hülqumleş eliyəcəm.*

**HÜLLƏHBAZ** (Basarkeçər) – fırıldaqçı. – *Bu yaman hülləhbaz adamdı, ona çox inanmax olmaz.*

**HÜLLƏVƏR** (Çənbərək) – çox hündür. – *Haravıyı hüllavər yığma, üçər.*

**HÜLLÜXʹBAZ** (Laçın, Şərur) – yalançı. – *Abbas yaman hüllüxʹbazdı* (Şərur).

**HÜLLÜXʹÇÜ** (Ağdərə, Cəbrayıl, Goranboy, Mingəçevir) – bax **hüllükçü** II. – *Əli hüllüxʹçü adamdı* (Goranboy); – *Burda hüllüxʹçü adam yoxdu* (Cəbrayıl).

**HÜLLÜKÇÜ** I (Cəbrayıl, Goranboy, Salyan, Kəlbəcər, Kürdəmir) – bax **hüllüyçi.** – *Hüllükçü adamnan heç aram yoxdu* (Goranboy).

**HÜLLÜKÇÜ** II (Bərdə, Şuşa) – araqarışdıran. – *Hüllükçünün peşəsi araqarışdırmaxdı.*

**HÜLLÜTMƏXʹ** (Şəmkir) – acgözlüklə yemək. – *Mən onu çağırdım gə: çörəxʹ yə:xʹ, elə hüllütdü kün.*

**HÜLLÜVER** (Füzuli) – bax **hülləvər.** – *Ağacım yaman hüllüverə getdi.*

**HÜLLÜYAN** (Şahbuz) – novça.

**HÜLLÜYÇİ** (Cəlilabad) – yalançı. – *Zöhrab hüllüyçidü, onın sözinə inamməginən.*

**HÜLÖY: HÜLÖY DÖYMƏXʹ** (Qazax) – dad çəkmək, haray salmaq. – *Mən hülöy döydüm, sözümə baxmadılar getdilər.*

**HÜLÜ** (Ordubad, İrəvan) – b a x **hulu** I. – *Bazardan beş kilo hülü aldım* (Ordubad).

**HÜMƏRMAX** (Şəki) – ağız-ağıza tikmək, calamaq (parçanı). – *Gerexʹ kö:neyin burasını hüməreydilər.*

**HÜMÜŞ** (Cəbrayıl) – hünər.

**HÜMÜT** (Borçalı) – un ilə südün qarışığı. – *Höşülü hümütün içinə töküf pişirillər.*

**HÜNGÜL** (Dərbənd, Tabasaran) – yüngül. – *Əgər tanbakuv tüntdusa, qiniğ <ot adı> qat yüngül ussu <olsun>* (Dərbənd); – *Qəqəp <ağac adı> hüngül uladu* (Tabasaran).

**HÜNÇÜNAĞ** (Dərbənd) – b a x **hovançağ.** – *Temirbeg hünçünağda hünçünədi.*

**HÜNÇÜNMAĞ** (Dərbənd) – b a x **havarmağ.** – *Sançağda hünçünədig.*

**HÜNİ** (Cəlilabad, Əli Bayramlı, Göyçay, Sabirabad, Ucar) – ağcaqanad. – *Hüni oley dımba-dımba, adami də yamən ye:y* (Cəlilabad); – *Yayda bırda hüni çox olur* (Ucar).

**HÜNÜ** (İmişli, İsmayıllı, Masallı, Mingəçevir, Salyan, Şamaxı, Ucar) – b a x **hüni.** – *Sizin evdə hünü məni yaman günə qoydu.*

**HÜNÜXʹ** (Gədəbəy) – hirs, acıq.

**HÜNÜXʹLƏMMƏXʹ** (Daşkəsən, Gədəbəy) – hirslənmək, acıqlanmaq. – *Timsalı, birinə ajığın tutanda hünüxʹləneysiŋ* (Daşkəsən); – *Nə:ŋ, hünüxʹləneysiŋ, qovaxmı onu munnan qavax?*

**HÜNÜK** (Gəncə) – ılıq. – *Hünük su gəti.*

**HÜNÜŞ** (Füzuli) – b a x **hümüş.**

**HÜRÖÜN** I (Basarkeçər) – b a x **hüröyün** II. – *Uşağını hüröün bö:tmüsən.*

**HÜRÖÜN** II (Gədəbəy) – tez böyüyən, lakin yaxşı məhsul verməyən. – *Bi:lki qartof çox hüröündü bıldırkınnan.*

**HÜRÖYN** I (Çənbərək) – bol. – *Tütün çox hüröyn gəlir.*

**HÜRÖYN** II (Tovuz) – tez böyüyən, lakin yaxşı məhsul verməyən.

**HÜRÖYÜN** I (Qazax) – sərt, yırtıcı. – *Maşadıların iti hüröyündü, adamı görən kimi basmarrer.*

**HÜRÖYÜN** II (Qazax, Tovuz) – ərköyün. – *Bu uşax çox hüröyün böyüyüf* (Tovuz).

**HÜRRƏMƏXʹ** (Çənbərək) – qışqırmaq. – *Avdılla Malçının üsdə axşam yaman hürrüyrdü, amba heş eyninə də almadı.*

**HÜRÜT-HÜRÜT** (Qarakilsə) – yazıq-yazıq. – *Bı sözdərin hamısın sã: deyirəm, niyə hürüt-hürüt tamaşa eliyirsən?*

**HÜRÜTÜ** (Balakən) – qətiyyən. – *Bu işdə onun hürütü xəbəri yoxdu.*

**HÜSEYNİ** (Culfa) – üzüm növü.

**HÜSRİMƏG** (Salyan) – səy göstərmək, çalışmaq. – *Südabə çalışqan uşağdı, bütün dərssəri öyrənməyə hüsriyir.*

**HÜŞDƏMƏXʹ** (Oğuz) – fıştırıq çalmaq. – *Görürüxʹ it hürür, durub hüşdü:rüxʹ.*

**HÜŞDÜRƏXʹ** (Ordubad) – fit. – *Həsən hüşdürəxʹ ça:r <çalır>.*

**HÜŞDÜRÜM** (Bakı) – ağılsız. – *Əşi, o, hüşdürümün biridü.*

**HÜŞDÜRÜMQÜLİ** (Yardımlı) – səfeh, ağıldankəm. – *Nazim hüşdürümqülidü.*

**HÜŞƏNMƏK** (Yardımlı) – ürpəşmək. – *Tək olandə hüşəney.*

**HÜŞƏ** (Lənkəran) – salxım.

**HÜŞ: HÜŞ ELƏMƏXʹ** (Cəbrayıl) – yada salmaq.

**HÜŞÜL** (Ağdam) – xəşil.

**HÜT** (Qax) – ağılsız.

**HÜTDÜLÜM** (Bakı, Cəbrayıl, Kürdəmir, Qazax, Zaqatala) – ağılsız, yüngülxasiyyət. – *Salam hütdülüm adamdı* (Zaqatala); – *Hütdülüm adam məclisi biyabır eliyər* (Kürdəmir).

**HÜTHÜT** (Ordubad) – şanapipik. – *Hüthüt bəzəkli çöl quşudu.*

**HÜTHÜTÜ** (Mingəçevir) – tezdanışan.

**HÜTÜDDƏMƏY** (Zəngibasar) – tez-tez danışmaq. – *Genə nə hütüddiyirsən?*

**HÜTÜR-HÜTÜR** (Meğri) – diqqətlə. – *Avlar bizə hütür-hütür baxırdı.*

**HÜVƏR** (Dəvəçi) – yeznə.

**HÜY** (Qazax) – qarğış. ◊ **Hüy töxʹməxʹ** – qarğamaq. – *Dünənnən bəri ağlayıf, hüy tökör.*

**HÜZƏR: HÜZƏR TUTMAX** (Çənbərək) – əldə əsas tutmaq. – *Almıyı hüzər tutdum Bayramgile:tdim.*

# Xx

**XABDAN** (Şərur) – qəflətən, birdən.

**XACU** (Zaqatala) – təzə doğmuş inəyin ilk südü, ağız.

**XAÇ** (Cəlilabad, Lənkəran, Masallı, Salyan) – saç, kişi saçı, tel. – *Xaç saxlamışam* (Masallı); – *Yayda xaç qoymazzar* (Salyan).

**XAÇBUŞ** (Kürdəmir) – soyğunçu, oğru. – *Carrılar çox xaçbuşdular, kürdüyə mal buraxmax olmur.*

**XAÇİRDƏĞ** (Kəlbəcər) – təndirin ağzına qoyulan dəmir qapaq. – *Xaçirdəyi təndirin ağzına qoy.*

**XAÇMAR** (Ordubad) – arı səbətinə xaç şəklində qoyulan çubuqlar. – *Xaçmarı səbətə qoyallar.*

**XAÇPUŞ** (Lənkəran) – bax **xaçbuş.**

**XAF** (Zəngilan) – bax **xap** II. – *Xaf ayı çıxır bılların üsdə.*

**XAFDAN** (Naxçıvan, Zəngilan) – bax **xabdan.** – *Elə güçə yuxarı gedirdıx', Soltangilin iti xafdan gəlif qapıb* (Naxçıvan).

**XAFLI** (Qazax) – təzə. – *Niyə, xaflı paltarı var, qoy geyinsin birini.*

**XAFLİYAX** (Culfa) – gizlincə, xəlvətcə.

**XAXANIZ** (Qazax) – zarafat. – *Yığışıflar xaxanıza.*

**XAXARA** (Qax, Şəki, Zaqatala) – taxça. – *Qabları xaxaraya yığ* (Qax); – *Sapı xaxaraya qoymuşam* (Zaqatala); – *Xaxarada ləmpə şüşəsi var, unu bura ver* (Şəki).

**XAXAYEK** (Dərbənd) – ilbiz. – *Girmişdi kələmluğa, xaxayek çux kürrəyeydi, uni çipləyib atdular.*

**XAXAYƏK** (Dərbənd) – bax **xaxayek.**

**XAXRA** (Qax) – bax **xaxara.**

**XAKƏ** (Kürdəmir) – çayın cecəsi, puçalı. – *Çayın xakəsini at bayıra.*

**XAKRİZƏ ELƏMƏG** (Lerik) – seçmək.

**XAQAY** (Dərbənd) – çay pucalı.

**XAQİQ** (Kəlbəcər) – barmağın buğumları arasındakı sümük. – *Xaqiq barmaxda olor.*

**XAQO** (Zaqatala) – pırtlaşmış <saç>.

**XAL** I (Qax) – pencək.

**XAL** II (Qax) – çayın kənarında çimmək üçün düzəldilən gölməçə. – *Seni xal çox kiçi oldu;* – *Qelin qidax xal qurax.*

**XALABAN** (Təbriz) – təyyarəçi. – *Xalaban təyarəni sürər.*

**XALAZAT** (İsmayıllı) – xalanın əri. – *Xalazam bağda işdiyir.*

**XALAZEYNİ** (Meğri) – arxayın. – *Gör nətə:r də xalazeyni oturupla, elə bil tavladakı aj mallar təx'cə mənimdi.*

**XƏLBƏCƏR** (Bakı) – üzüm növü.

**XALDAR** (Salyan) – xallı. – *Xaldar at yaraşıqlı olar;* – *Hilal xaldar adamdı.*

**XALXAL** I (Başkeçid, Borçalı, Gədəbəy, Xanlar, Qazax, Quba, Şəmkir, Tovuz) – açıq hava şəraitində mal-qara saxlamaq üçün ətrafı hasarlanmış yer. – *Qoyunnarı xalxala sal, qaşmasınnar* (Tovuz); – *Xalxalın dört tərəfi örüx'lü olur, üsdü də açığ olur* (Xanlar).

**XALXAL** II (Daşkəsən, Gədəbəy) – haça dirəklərin arasına qoyulan ağac. – *Xalxal da iki haçanıŋ arasına qoyuloy dana, a bala* (Daşkəsən); – *Haçalara hələ də xalxal tapammamışıx* (Gədəbəy).

**XALI** (Xanlar, Şəki) – boş, istifadəsiz <torpaq sahəsi>. – *O vazqal kı xalvar varıdı, altı, üstü xalı yer idi* (Xanlar).

**XALVAR** I (Bakı, Laçın, Ordubad) – keçmiş çəki vahidi, 10 pud. – *Geşmişdə on puta bir xalvar deyərdilər* (Ordubad).

**XALVAR** II (Zəngilan) – 10 dərz.

**XALYAR** (Qax, Zaqatala) – yabanı bitki adı.

**XAMA** I (Astara, Bərdə, Borçalı, Cəbrayıl, Cəlilabad, Daşkəsən, Füzuli, Qazax, Lənkəran, Ordubad, Şərur, Tovuz, Yevlax) – çiy südün üzü. – *Savax-savax bir istikən xama yi, gör neyə kökəlersəŋ* (Qazax); – *Xameyi nəhrədə çalxadıx, yaxşı yağımız oldu* (Daşkəsən); – *Dağa gesseydim, çoxlu xama yə:rdim* (Cəbrayıl).

**XAMA** II (Qazax) – xəmir mayası.

**XAMA** III (Cəlilabad, İmişli, Zəngilan) – xalça toxumaq üçün ip. – *Gəbə toxumağ üçün iki put xama hazırramışam* (Zəngilan); – *Xamadan ilmə vırallar* (İmişli); – *Xalça toxıyəndə xamam çatmadı, borc aldım* (Cəlilabad).

**XAMA** IV (Astara, Lənkəran) – mitillik parça.

**XAMA** V (Xaçmaz) – qoca.

**XAMALAŞMAX** (Xaçmaz) – qocalmaq. – *Camış tamam xamalaşmışdı.*

**XAMA:YL** (Çənbərək) – işsiz, bikar, boş. – *Amanoy Həsif xama:yl gəzir.*

**XAMA:YR** (Çənbərək) – b a x **xama:yl.**

**XAMGÜN** (Qazax) – gəliri müəyyənləşdirilməmiş əməkgünü. – *Hələ yüz doxsan xamgünüm var, çoxlu taxıl alajam ona.*

**XAMXIRT** (Bakı) – şey-şüy.

**XAMIRRAMAX** (Çənbərək) – işdən soyumaq, tənbəlləşmək. – *Fışqar Novruz yaxşı işdiyirdi, dã: xamırrıyıf.*

**XAMIRTİKANI** (Ağbaba) – yabanı bitki adı.

**XAMRA** (Ağdam, Borçalı, Cəbrayıl, Daşkəsən, Füzuli, Gədəbəy, Xanlar, Qazax, Tərtər, Tovuz) – b a x **xama** II. – *Get Nazdıyildən xamranı al gəti, xamır qatajam* (Ağdam); – *Xamreyə xamra vurullar kin, ajısın* (Xanlar).

**XAMRALI** (Ağcabədi, Ağdam, Ağdərə, Bolnisi, Borçalı, Cəbrayıl, Gədəbəy, Goranboy, Göyçay, Qazax, Tərtər, Tovuz) – xəmirinə maya vurulmuş və sacda bişirilən qalın çörək. – *Fətiri tişim yoxdu də:ni əməlli ötürəmmerəm, xamralıyı yaxşı ye:rəm* (Gədəbəy); – *Xamralıyı yəti <gətir>, bozartmıyı ye:əx′* (Borçalı).

**XAMRO:UZ** (Şuşa) – xəmir mayası. – *O xamro:uzu ver maŋa, xamır qatıram.*

**XAMSALYAN** (Zaqatala) – yabanı bitki adı <boyaq maddəsi kimi istifadə olunur>.

**XAMTAV** (Cəbrayıl) – bir az xam, bir az naşı.

**XAMUS** (Dərbənd, Tabasaran) – böyürtkən. – *Xamusdan murabba ələyədülər, yaxşi əngilavasi də uladu* (Dərbənd); – *Uşaxlar xamus dərmağa gitdilər* (Tabasaran).

**XAN** (Qazax) – karvansara. – *Atı xanda saxladım.*

**XANA** I (Kürdəmir) – xörək növü.

**XANA** II (Şəki) – çardağın kənarındakı açıq yer. – *Çardağa den tökəndə xananı berkidiyıx ki, qurt-quş girməsin.*

**XANAXLI** (Gədəbəy) – bağlı, qıfıllı. – *Yazığın bir xızan külfəti var, əyər onu tutsalar qapısı xanaxlı qalajax.*

**XANAYANI** (Xanlar) – hananın yan ağacları. – *Xanayanı iki olur: vələs, ya da fisdıx ağacınnan qayrıllar.*

**XANBACI** (Ordubad) – b a x **xanbajı.**

**XANDA** I (Gəncə) – baldız.

**XANDA** II (Salyan) – toya dəvət edilən adama verilən şirniyyat. – *Xandaçı Bibixanım mə: xanda verdi, evimizi də toya çağırdı.*

**XANDAÇI** (Salyan) – camaatı toya dəvət edən qadın. – *Xandaçı bizi toya çağırdı.*

**XANƏHMƏDİ** (Borçalı) – xörək adı.

**XANGÜL** (Şərur) – tənbəkinin gülü.

**XANIMRƏNG** (Bakı) – açıq-qırmızı.

**XANIMRƏNGİ** (İmişli) – b a x **xanımrəng.**

**XANIMSALLANDI** (Şuşa) – sarmaşığa oxşar bəzək bitkisi. – *Xanımsallandını kəsif basırıllar, pitir.*

**XANNIX** (Borçalı) – xırdagilə şirin üzüm növü.

**XANPİŞİX′** (Ağdam) – çölpişiyi.

**XANTƏPƏL** (Zərdab) – sulu yerlərdə bitən ot.

**XANÜZÜMÜ** (Ağcabədi) – xırdagilə şirin üzüm növü. – *Mərfətdi üzümdü deyni, xanüzümü de:irix′ ona.*

**XAP** I (Qazax) – tam, tamam. – *Gözünü xap aç, üzümə düz bax.*

**XAP** II (Qazax) – qəflətən, birdən. – *Oturmuşdux evdə, Vəli xap girdi içəri.*

**XAP** III (Qazax) – nehrə çalxamaq üçün borc alınan və ya verilən süd.

**XAPAXAP** I (Qazax) – düz, lap düz. – *Gedip dəyirmanın xapaxap üsdə çıxdıx.*

**XAPAXAP** II (Zəngibasar) – qəflətən, gözlənilmədən. – *Xapaxap qaşdı üsdümə, elə qorxdum ki.*

**XAPAN** I (Çənbərək, Hamamlı, Qazax, Şahbuz, Şuşa) – baxımsız, boş. – *Kotan dünənnən xapandı* (Çənbərək). ◊ **Xapan qalmax** – boş qalmaq (Hamamlı, Şahbuz, Şuşa). – *Evin xapan qalsın* (Qazax); – *Yazığın heç kəsi yoxdu, öy də xapan qalıf* (Şuşa).

**XAPAN** II (Zəngibasar) – ac. – *Uşaxlar övdə xapandı.* ◊ **Xapan qalmax** – ac qalmaq. – *Məhərbə <müharibə> illərində yeməyə bir şey tapammırdıx, qalırdıx xapan.*

**XAPASDAN** (Qazax) – qəflətən, birdən. – *Xapasdan üstümü aldı.*

**XAPAY** (Qax, Oğuz) – xörək adı. – *Qış ki girdimi so:ğ olur, xapayı bişirib içirix′; – Axşam südtü xapay bişirmişdix′* (Oğuz).

**XAPXARA** (Ucar) – qorxu. – *Düşməni olan adam həməşə xapxarada olur; – Sə:n gej gəlməyin məni xapxarıya saldı.*

**XAR** I (Culfa, Çənbərək, Füzuli, Qazax, Ordubad) – 1. yaşlı axta keçi. – *Hər sürüdə ikijə xar var* (Çənbərək); 2. qoca öküz (Füzuli); 3. qısır keçi (Qazax). – *Xar keçi kök olar* (Culfa).

**XAR** II (Oğuz) – yoncaya bənzər sarı çiçəkli ot.

**XARA** I (Quba, Kürdəmir, Salyan, Şamaxı) – kiçik dərz tayası (10 dərzdən ibarət). – *Taxılı biçib xaralara yığdığ* (Şamaxı).

**XARA** II (Bərdə) – yara.

**XARAC** (Dərbənd) – b a x **xaray.** – *Quzə kitmişdim, xarac ulmayançu <olmadığı üçün> quz sirkələyə bilmədim, bir çantay götürdüm <gətirdim>.*

**XARAXARA** (Zaqatala) – çıraq qoymaq üçün divarda düzəldilmiş xüsusi yer.

**XARAQALLIX** (Qax) – kol-kosluq. – *Xaraqallıxda ilan olıy.*

**XARAQU** (Qax) – halva. – *Anası xaraqu çaldu.*

**XARALİ** (Quba) – əkin sahəsinə tökülüb qalmış sünbüllərdən öz-özünə bitən taxıl. – *Bənzi vaxtlarda xarali əkdiyimizdən yaxşı mə:sil vərədü.*

**XARASO** (İsmayıllı) – suyu və havası pis olan <yer>. – *Mican xaraso yerdi.*

**XARAY** (Zaqatala) – ağacdan meyvə salmaq üçün nazik uzun ağac.

**XARAZAN** (Borçalı) – kotana, arabaya qoşulan öküzlərin əvvəldən birinci cütü.

**XARBAQ** (Qax) – yonca toxumu. – *Taxıl təmizdə:ndə gargarini, xarbaqi da dənnə.*

**XARÇ** (Bərdə) – vergi. – *Sən xarçıŋı verməmisəŋ?*

**XARÇI** (Kürdəmir, Sabirabad) – evin damında eninə qoyulan tir. – *İsdiyirəm gedib Şıxalının qovağınnan bir xarçılıg kəsib öə xarçı salam* (Sabirabad); – *Öyün xarçıları gərək mökgəm ağacdan olsun* (Kürdəmir).

**XARDALAŞ** (Şəki) – nadinc, şuluq. – *Dədən kimi sən də xardalaşsan.*

**XARDALİ** I (Qax) – duru palçıq.

**XARDALİ** II (Qax) – pendir ovuntusu.

**XAREÇƏ** (Meğri) – divar hörərkən bənnanın ayağının altına qoyduğu taxta qurğu. – *Nəği çıxdı xareçənin üstünə, biz də altdan daş verdıx.*

**XARƏZƏN** (Qazax) – b a x **xarazan.**

**XARXAPAN** (Gədəbəy) – sahibsiz, kimsəsiz, boş. – *Xarxapandı öyləri, bir cannıcinni də tapbassaŋ.*

**XARI** I (Daşkəsən) – çoxyeyən, yekəqarın. – *Xarı adam çox yeyənə deyərəx′.*

**XARI** II (Qazax) – b a x **xar** I, 2.

**XARI** III (Tovuz) – b a x **xar** I, 1.

**XARIM** (Borçalı, Qarakilsə, Meğri) – 1. yağış suyunun axıb getməsi üçün qazılmış kiçik arx (Borçalı, Meğri). – *Bərx′ yağanda xarımlardan su hüşdürüm ater* (Meğri); 2. oyuq (Qarakilsə). – *Tülkü qaşdı girdi bir xarıma* (Qarakilsə).

**XARIŞ** (Salyan) – quş yemi. – *Quşdar çox yiyir xarışı.*

**XARMIT** (Şərur) – darının bir növü.

**XARNOU** (Dərbənd) – kotan və ya xışın tiyəsini təmizləmək üçün ucu haça ağac. – *At baltanı, bir xarnou düzəltüb vər mənə.*

**XARPƏ** (Cəlilabad) – evin damında başbaşa qoyulan tirlər. – *Dədə, evin xarpəsinin biri sinib.*

**XARŞ** (Bərdə) – b a x **xarc.** – *Qavaxlar üzbaşıya xarş verərdix′.*

**XART** (Borçalı, Şəki, Şərur) – kəsici alətləri itiləmək üçün daş. – *Xartı ver pıçağımı itilədim* (Şərur); – *Xart çalğını itiləyən daşdı* (Borçalı).

**XARTDAMAX** (Borçalı, Şəki) – xart daşı ilə itiləmək. – *Baltıyı yaxşı xartdadım* (Borçalı); – *Ot çalanda çalğu:n ağzını xartdi:llər* (Şəki).

**XAS** I (Ağbaba, Gədəbəy, Xanlar, Qax, Qazax, Mingəçevir, Şəki, Tovuz) – çərşənbə axşamı. – *Xas günü bed gündü* (Qax); – *Xasda Usuva nişan aparajayıx* (Tovuz); – *Xas günü bəlyə aparıcux Noxiyə* (Şəki).

**XAS** II (Gədəbəy, Tovuz) – bazar günü. – *Xas günü xasa Qəncə: <Gəncəyə> gedəşsəŋmi, a Qulnaz?* (Gədəbəy); – *Kişi xase: dif, uşaxlara yuannıx almağa* (Tovuz).

**XAS** III (Basarkeçər, Qazax) – yaxşı. – *Cüyür inəx′ harayataŋ istersəŋ xas maldı* (Qazax); – *Məmməd kişi bir xas otax tikif* (Basarkeçər).

**XAS** IV (Zəngilan) – paltar növü.

**XASIM** (Borçalı) – yaşıd, tay. – *Cəlil mə:m xasım döy.*

**XAŞ** (Borçalı, Qazax) – xəmir mayası. – *Xamıra xaş qatallar kın, əpbəx′ yaxşı olsun;* – *Xaş olmasa, pişməz çörəx′* (Qazax).

**XAŞA** (Ağbaba, Borçalı, Cəbrayıl, Gəncə, Goranboy, Göyçay, Kürdəmir, Qax, Şəmkir, Şuşa, Tovuz) – 1. xaral. – *Xaşaları qeti taxıl tökəx′* (Qax); – *Xaşaları tikiŋ pambığı basax qutarax* (Tovuz); 2. kisə. – *Taxıl xaşalarını üsd-üsdə yığ* (Cəbrayıl).

**XAŞAL** I (Bərdə, Borçalı, Daşkəsən, Gədəbəy, Xanlar, Kürdəmir, Qazax, Şəki, Tovuz) – 1. yekəqarın. – *Qarnı yekə olana de:ərix′ xaşal* (Xanlar); 2. çoxyeyən. – *Xaşal Məmməd Ağstafada oler* (Qazax); – *Xaşal qörəndə zəndinən zəhləm gedey* (Daşkəsən); – *Ə, bu nə xaşal adamdı* (Borçalı);

**XAŞAL** II (Şəki) – hamilə. – *Beş uşağı var, xaşaldı gənə bizim qonşunun arvadı.*

**XAŞALQARDAŞ** (Füzuli) – yemək dostu. – *Aydın mənnən xaşalqardaşdı;* – *Mənnən xaşalqardaşsaŋ?*

**XAŞAVLAMAX** (Cəbrayıl) – nəm çəkmək, rütubət çəkmək. – *Su dəyif qəndin hamısı xaşavlıyıf.*

**XAŞI** (Ağdam) – bax **xaş.**

**XAŞILAMAX** (Çənbərək) – əzişdirmək. – *Usuv İsgəndərin ağzın-burnun yaman xaşılıyıf.*

**XAŞI** (Şəki) – bax **xaş.** – *Xamır yo:rasiyəm, xaşı yoxdu, gərəx′ xaşı eliyəm.*

**XAŞQALAM** (Qax, Zaqatala) – yabanı bitki adı. – *Ayı xaşqalam yeyirdi.*

**XAŞMƏR** (Ordubad) – bax **xaçmar.**

**XAŞOYLAMAX** (Qazax) – çox yağıntı nəticəsində dən tutmamaq <taxıla aiddir>. – *Taxıl xaşoyluyuf, dən çıxmıyajax.*

**XATA** I (Ağdaş, İsmayıllı, Mingəçevir, Oğuz) – çay, quru çay (Ağdam, İsmayıllı, Mingəçevir). – *A Şa:nisə bacı, mənə bir atım xata ver* (İsmayıllı); – *A:z, çayniyə xata salmısan?* (Mingəçevir); 2. çayın cecəsi, puçalı. – *İsdəkanın dibində xata qalıf.*

**XATAY** (Dərbənd, Quba) – bax **xata.**

**XATIN** (Borçalı, Dərbənd, Şəki) – arvad, qadın. – *Əvə xatın şirə verəcək* (Dərbənd); – *Ərəvin bi gözəl xatını varıydi* (Şəki).

**XATINBARMAĞI** I (Goranboy, Tərtər) – üzüm növü adı.

**XATINBARMAĞI** II (Basarkeçər, Göyçay, Oğuz) – yeməli yabanı bitki adı. – *Xatınbarmağı körpə vaxdı yeməli olur, irilə:nnən soŋra tikannı olur* (Basarkeçər).

**XATİNİ** (Bakı) – üzüm növü.

**XATINŞI** (Qax) – arvad, qadın. – *Doqqazda xatınşılar durup.*

**XATUNİ** (Bakı) – bax **xatını.**

**XAVALANMAX** (Qax) – iltihab etmək.

**XAVAYARPAX** (Qax) – bağayarpağı.

**XAVSU** (Zaqatala) – mamır.

**XAVSULU** (Zaqatala) – mamırlı. – *Bu, xavsulu ağacdı.*

**XAY** I (Laçın) – gic, ağılsız. – *O, xay uşaxdı.*

**XAY** II (Bakı, Quba) – sakit <havaya aiddir>. – *Bu gün hava xaydı* (Bakı).

**XAY** III (Cəbrayıl) – aciz, bacarıqsız.

**XAYATI** I (Göyçay, Qax) – baramadan əyrilən sap.

**XAYATI** II (Qax) – ipək parça növü.

**XAYXAY** (Kürdəmir) – horra. – *Qışda xayxay yi:ərux kun, qarnımızu isdi saxlasun.*

**XAYMA** I (Çənbərək, Qazax) – daxma. – *Ağına-bozuna baxma, həlalix′ bir xayma qur, soŋradan yaxşısını düzəldərix′* (Qazax); – *Bir xayma qayrıf uşağımı daldaladım* (Çənbərək).

**XAYMA** II (Qax) – böyük palaz.

**XAYMAL** (Çənbərək) – tənbəl. – *Xaymal öküznən çöle:tmərəm, haravıyı gətirəmməz.*

**XAYRA** (Zaqatala) – saxsı qab.

**XAYVAN** (Ucar) – üzüm bağı.

**XAZAL** (Zaqatala) – yarpaq.

**XAZALLAMAX** (Zaqatala) – yarpaqlamaq. – *Baharda ağajdar xazalliyi.*

**XEPİR** (Ağdam) – qısaboy <adam>. – *Boyu gödəy olsa xepir olar.*

**XEYİFLƏNMƏG** (Bakı) – qorxmaq.

**XEYİRRƏŞMƏG** (İmişli) – sövdələşmək. – *Dünən xeyirrəşdilər, inəgi aldı.*

**XEYİRRİG** (Sabirabad) – əkin sahəsinə tökülən sünbüllərdən öz-özünə bitən taxıl.

**XEYRA** (Balakən, Dərbənd) – bax **xayra.** – *Xeyra dengənədən böyüg olur* (Dərbənd).

**XEYRƏ** (Balakən, Xocavənd, Qax, Quba, Lerik, Mingəçevir, Şəki, Zaqatala) – bax **xayra.** – *Xeyrəmiz sınıb, bugünkü süd dağıldı* (Balakən); – *Xeyrədə qatıx çalırdıx, do:ğa qoyurdux* (Xocavənd); – *İki mã:t verif bi dənə xeyrə almışdım* (Şəki).

**XEYRİ** I (Kürdəmir) – b a x **xayra.** – *Nə-ğayrım, sən bunnan çıxmaseydin, inəy süti yerə calamazdı, xeyri də yıxılmazdı.*

**XEYRİ** II (Salyan, Şamaxı) – əkin sahəsinə tökülən sünbüllərdən öz-özünə bitən taxıl. – *Bu il kolxozda beş hekdara qədər xeyri arpa var* (Salyan).

**XƏBİZ** (Şamaxı) – 1. taxıl; 2. çörək.

**XƏCİRGƏT** (Çənbərək) – ocağın və ya təndirin üstünə qoyulan dəmir qapaq. – *Xəcirgəti təndirin ağzına qoyurux, onda ağzı dar olur.*

**XƏCONNİ** (Ordubad) – mətbəx. – *Xəconnida biz xörəx′ bişirarıx.*

**XƏCRİYYƏT** (Hamamlı) – b a x **xəcirgət.** – *Xəcriyyəti gəti, qoy ojağın üssünə.*

**XƏCİRKƏT** (Zəngibasar) – sacayaq. – *Oca:n xəcirkəti yoxdu.*

**XƏFƏ** I (Ağdam, Naxçıvan) – hava çatışmayan və qaranlıq (ev və s.).

**XƏFƏ** II (Zəngibasar) – bürkü. – *Hava çox xəfədi, nəfəs almağ olmur.*

**XƏFƏKİ** (Cəbrayıl) – səssiz-küysüz. – *Elə xəfəki getdim ki, heş kəs xəbər tutmadı.*

**XƏFƏNƏX′** (Oğuz) – evin birinci mərtəbəsindən ikinci mərtəbəsinə və ya çardağa çıxmaq üçün tavandan açılan kiçik qapı.

**XƏFƏNƏY** (Ağdam, Borçalı, Gədəbəy, Qazax, Tovuz) – sinəgir, öskürəkli <at>. – *Xəfənəy at yavaş gedər, bir az yeyin gedəndə öysürər* (Gədəbəy); – *Xəfənəy olan at içini döyər* (Tovuz).

**XƏFƏNG** I (Ordubad) – samovarın odunu söndürmək üçün istifadə olunan qapaq. – *Xəfəng simavərin utunu söndürmək üçündi.*

**XƏFƏNG** II (Şəki) – b a x **xəfənəx′.** – *Çox so:ğ olanda xəfəngi açırux, isdi çıxır ardakı öydən üsdə.*

**XƏFGİR** (Gədəbəy) – hürkək <at>. – *Xəfgir ata mimməx′dəŋsə, piyade:dərəm bu yolu.*

**XƏFKİR** (Xanlar) – b a x **xəfgir.** – *Övün yıxılsın xəfkir at satan, uşağı bu gün beş dəfə yıxıf.*

**XƏH: XƏH DURMAX** (Cəbrayıl) – sakit, dinməz durmaq. – *Əhməd, xəh dur ha!*

**XƏXBİCƏ** (Şərur) – milçəyəoxşar həşərat.

**XƏXƏNİZ** (Qazax) – b a x **xaxanız.** – *Genə yığışıflar xəxənizə, səs-küyləri a:ləmi götürüf.*

**XƏXƏY** I (Dərbənd, Tabasaran) – ilbiz. – *Xəxəy çüldə yağişdən sura çux uladu* (Dərbənd); – *Baxçədə çux xəxəylər vardi* (Tabasaran).

**XƏXƏY** II (Zaqatala) – çınqıllıq. – *Ora xəxəy yerdi.*

**XƏK** (Laçın) – huşsuz. – *Xək adam tez allanar.*

**XƏKAY** (Füzuli) – susuz qalmış əkin yeri.

**XƏKAZ: XƏKAZ QALMAX** (Cəbrayıl) – həsrət qalmaq, istənilən bir şeyə nail ola bilməmək. – *Xəkaz qaldın, götürüb aparıflar.*

**XƏKBEÇƏ** (Şərur) – ağcaqanad. – *Burda xəkbeçə çox olur.*

**XƏKƏ** I (Goranboy, Ucar, Yevlax) – b a x **xakə.** – *Apar bu çayın xəkəsini at* (Goranboy); – *Çay içilənnən so:ra xəkəsin atırıx* (Ucar).

**XƏKƏ** II (Qazax) – kimsəsiz, boş. – *Hamı getdi, xəkə qaldı buralar.*

**XƏKƏ** III (Ağdam, Bakı, Göyçay, Naxçıvan, Şəki) – 1. kömür ovuntusu, qırıntısı (Lerik, Təbriz, Şəki); 2. qənd ovuntusu, qırıntısı (Kürdəmir). – *Şəkərin xəkəyin məyin kimi sahibsizzara verirsən?*

□ **Xəkə qoymax** (Basarkeçər) – son qoymaq, yekun vurmaq. – *Bu söhbətə xəkə qoy, qutarsın gessin.*

**XƏKİRİZDƏNMƏX′** (Kəlbəcər) – yatmaq. – *Axşam olmamış xəkirizdənirsən.*

**XƏKOV** (Culfa, Şərur) – b a x **xəkav.** – *A yoldaş sədir, bizim izvenanın yerrəri xəkovdu, bəs ne:liyəx′* (Culfa).

**XƏKRİZDƏMƏX′** (Ağdam, Füzuli, Şuşa) – oğurlamaq. – *Gördüm şeyləri xəkrizdəməx′ isdi:r, qovdum çıxdı getdi* (Ağdam); – *Onu xəkrizdəməx′ lazımdı* (Füzuli); – *Qorxuram bunnarı bırda qoyam gedəm, gejə:lif xəkrizdiyələr* (Şuşa).

**XƏKRİZDƏMƏK** (Kürdəmir) – yatmaq.

**XƏLBİRƏK** (Salyan) – yabanı yemiş.

**XƏLBİRƏX′** (Ağdam) – b a x **xəlbirək.**

**XƏLƏC: XƏLƏC QATMAG** (Quba) – ara vurmaq, ara qarışdırmaq. – *Unun xələc qatmağ adətidü, unsuz dayanammaz.*

**XƏLƏT** I (Tovuz) – yas yerində yığılan pul. – *Gedim, ölü yerində xələt yazdırıf gəlim.*

**XƏLƏT** II (Goranboy, Xanlar) – üst köynəyi. – *Xələtim kirrənif, gərəx′ yudurdam* (Goranboy); – *Xələti pencahın altdan geyillər* (Xanlar).

**XƏLƏTDƏMƏXʹ** I (Daşkəsən) – yaralamaq, kəsmək. – *Uşağ ə:ğını xələtde:f.*

**XƏLƏTDƏMƏXʹ** II (Cəbrayıl, Zəngilan) – söymək, təhqir etmək. – *Yaxşı-yaxşı xələtdədim, saldım yola* (Zəngilan); – *Yaxşı xələtdədi dədã:, nənã* (Cəbrayıl).

**XƏLFƏ** (Zəngilan) – samovarın üstündə buxar çıxan deşiyin qapağı. – *Samavarın xəlfəsin aş, qəyni:b tökülər.*

**XƏLİ** (Laçın) – bax **xalı.** – *Bu tərəflərdə xəli yer azdı;* – *Yer xəli qaldı.*

**XƏLLABİ** (Meğri) – başlı-başlına. – *Bir müddət atdar xəllabi utdey bu örüşlərdə.*

**XƏLPƏTƏRƏ** (Qazax, Şəmkir) – pis, nalayiq. – *Məcid qanajağlı oğlandı, o, ağzınnan xəlpətərə söz çıxartmaz* (Qazax).

**XƏLPO** (Salyan) – bax **xarpə.**

**XƏLSƏ** I (Salyan) – təbəə, vətəndaş. – *Mən Azərbaycan xəlsəsiyəm.*

**XƏLSƏ** II (Zəngibasar) – dovğa.

**XƏLVƏR** (Cəlilabad) – bax **xalvar** II.

**XƏLVİRƏXʹ** (Qazax, Mingəçevir) – bax **xəlbirəg.**

**XƏLVİRQIRAĞI** (Ağcabədi, Hamamlı, Tovuz) – çarıq növü. – *Xəlvirqırağıyı çovannar geyərdilər* (Tovuz).

**XƏLVİRZƏK** (Qazax) – şamama.

**XƏLYAR** (Qax) – sarımsağabənzər yeməli yabanı bitki. – *Xəlyarı pişirip də yiyillər, silkəyə də tutuylar.*

**XƏLYƏR** I (Hamamlı, Qax) – bax **xəlyar.** – *Xəlyərdən turşu qo:llar, sıxma pişirellər.*

**XƏLYƏR** II (Borçalı, Tovuz) – vəba.

**XƏMBƏR** (Ordubad) – qarğıdalı. – *Bizzər qarğıdalı deməndx, xəmbər deyərıx.*

**XƏMƏRƏXʹ** (Çənbərək) – boğaz. – *Farrığın xəmərəyinə yara çıxıf.*

**XƏMİRDAN** (Dərbənd) – xəmir mayası. – *Həlmə xanumnan xəmirdan alub xəmirə qatmişəm, hindi də xəmirəm turşimeyütdü, uşağlar da çüreg-çüreg diyə başumi çıxartallar.*

**XƏMİRTƏNQURTİ** (Dərbənd) – soxulcan.

**XƏMİŞDİXʹ** (Qarakilsə) – bax **xəmişdiy.** – *Bıra yaman xəmişdixʹdi, bırda birəz oturallar.*

**XƏMİŞDİY** (Zəngibasar, Zəngilan) – sakitlik. – *Bıra çox xəmişdiydi* (Zəngilan).

**XƏMRƏ** (Culfa, İsmayıllı, Naxçıvan, Şahbuz, Şərur) – bax **xamra.** – *Xəmrəni xəmrə qatıllar* (Şahbuz); – *Xəmrəmizi pişiy yeyib, onun dərdinnən xəmir eliyə bilmiriy* (Culfa).

**XƏNAZİR** (İsmayıllı) – boğaz uru. – *Bizim uşağ xənazir olub.*

**XƏNCO:Lİ** (Dərbənd) – yelləncək. – *Xənco:lidə hovaradi uğlannar.*

**XƏNCONNİ** (Ordubad) – mətbəx.

**XƏNƏXʹ** (Ağdam, İmişli, Yevlax) xəstəlik adı. – *Yazıx xənəxʹdi* (Yevlax); – *Munun qoyununun çoxunu xənəxʹ götürüf* (İmişli).

**XƏNƏZƏXʹ** (İsmayıllı) – bax **xənazir.** – *Sə: demədim uşağın xəssəliyi xənəzəxʹdi.*

**XƏPDƏN** (Şərur) – qəflətən, qəfildən. – *Xəpdən hopbıldı deyin dəvixʹdim.*

**XƏPƏNƏXʹ** (Ağdam, Mingəçevir) – zirzəmi qapısı.

**XƏPƏR** (Quba) – bax **xəpir.** – *Xəpər adama diyədülər gündə üç dəfə padşahlığ verilədü.*

**XƏPİZ** (Oğuz) – un, yağ və şəkərdən bişirilən şirniyyat adı. – *Xəpiz halvadan artıx şeydi.*

**XƏRBİLLƏK** (Salyan) – xəlbirək. – *Xərbillək pammığ dərilən vaxdı yetişir.*

**XƏRC** (Culfa) – pis, keyfiyyətsiz toxum.

**XƏRC-XƏCALƏT** (Salyan) – cehiz. – *Qıza xərc-xəcələt aldı.*

**XƏRCİ** (Şərur) – üzüm növü.

**XƏRCİR** (Tabasaran) – siçovul. – *Xərcir mərcəxər teregində bir də: mərcəxər quymayutdu.*

**XƏRDƏCAL** (Xanlar) – bax **xardalaş.** – *Çox xərdəcaliydim.*

**XƏRDƏCƏL** (Borçalı, Gədəbəy, Xanlar, Qazax, Tovuz) – bax **xardalaş.** – *Ə:, sən nə xərdəcəl uşaxsaŋ, bir yerdə otusan* (Qazax); – *Xərdəcəl uşağımış bu Qahraman, heç de:nən duruf dincələrmi* (Gədəbəy).

**XƏRDƏCƏR** (Qazax, Tovuz) – bax **xardalaş.**

**XƏRDƏŞ** (Tovuz) – bax **xardalaş.** – *Usuvun oğlu yaman xərdəşdi, bir yerdə duruf dincələn döyül.*

**XƏRƏ** I (Şahbuz) – 1. şumlanmış sahənin arasında qalan xam yer. – *Xərə qalanda bir də çavirib onu aldıracıyıx;* 2. suvarılan sahənin arasında qalan quru yer.

**XƏRƏ** II (Şərur) – hündür yer.

**XƏRƏCOHRİ** (İsmayıllı) – yovşan. – *Palazın arasına xərəcohri qoyson onu güvə vurmaz.*

**XƏRƏFƏ** (Salyan) – atlara yem vermək üçün qab.

**XƏRƏX′** I (Borçalı, Cəbrayıl, Culfa, Çənbərək, Gədəbəy, Qazax, Mingəçevir, Tovuz) – b a x **xərə** I. – *Yəri yaxşı əx′meyif, hər yer xərəx′di* (Qazax); – *Ə:, kotanı hərrə bu xərəx′ləri də aldır* (Tovuz).

**XƏRƏX′** II (Ağdam, Göyçay, Şəki, Ucar) – topa, qalaq, yığın. – *Xərəx′ taxıl tayasına deyirix′* (Ağdam); – *Otu çalırıx, quriyənnən so:ra xərəyə yığırıx.*

**XƏRƏK** I (Göyçay, Mingəçevir, Ucar) – kotanın sahədə açdığı şırım.

**XƏRƏK** II (Cəbrayıl) – tərəcə hörərkən altına qoyulan 4-5 dənə iri qarğı və ya əl-ağacı böyüklükdə 1, yaxud bir metr yarım uzunluğunda ağac. – *Xərəyi gərəx′ yoğun qarğıdan qoyasan ki, laxta* <*tərəcə*> *möhkəm olsun.*

**XƏRƏKLƏMƏK** I (Ucar) – sahəni əkmək üçün şırımlamaq. – *Traxdırçı yeri xərəklədi.*

**XƏRƏKLƏMƏK** II (Ucar) – toplamaq, qalaqlamaq. – *Sən kərpiji xərəklə, mən də gəlirəm.*

**XƏRƏNCƏ** (Ordubad) – b a x **xərəngə** I. – *Yusif çox xərəncə adamdı.*

**XƏRƏNG** (Qax, Zaqatala) – tir. – *Ramazangil yaxçı xərəng getidilər* (Qax).

**XƏRƏNGBAZAR** (Bakı) – şitini çıxarma.

**XƏRƏNGƏ** I (Cəbrayıl, Göyçay) – kələkbaz, hiyləgər. – *Vay xərəngə uşağın əlinnən* (Göyçay).

**XƏRƏNGƏ** II (Bakı) – qarışıqlıq.

**XƏRƏNGƏ** III (Çənbərək) – tənbəl. – *Keçəl Asdan xərəngənin biridi.*

**XƏRƏY** (Xaçmaz) – çörək bişirilən yer.

**XƏRƏZƏN** I (Culfa) – uzun qamçı. – *Cütçünün gərəx′ yaxşı xərəzəni olsun.*

**XƏRƏZƏN** II (Qazax) – b a x **xarazan.** – *Xərəzən ulağı əldən tüşmüşdü.*

**XƏRƏZƏNG** (Xanlar) – b a x **xarazan.** – *Qızıl öküzü xərəzəngə qoş.*

**XƏRİFLEMEG** (Bakı) – sarsaqlamaq, ağlına gələni danışmaq. – *Kişi lap xərifliyif;* – *Bəsdü, xəriflümə!*

**XƏRNOZİ** (Bakı) – eybəcər, çirkin.

**XƏRPƏ** (Cəlilabad) – b a x **xarpə.**

**XƏRPİŞDƏ** (Naxçıvan, Ordubad) – kərpic ev. – *Kərpicdən tikilən evə xərpişdə deyəllər* (Naxçıvan).

**XƏRPÜŞDƏMƏX′** (Zəngibasar) – gizlətmək. – *Xərpüşdə, gəlif görməsinnər.*

**XƏRT** (Şərur) – b a x **xart.** – *Xərtnən pıçax itilədillər, dəhrə itilədillər, kərənti itilədillər, orax itilədillər.*

**XƏSƏX′** (Qarakilsə) – daxma. – *Əvvəli bir xəsəx′ləri vardı, iti quyruğunnan bağlasaydıŋ durmazdı.*

**XƏŞƏ** I (Culfa, Ordubad) – yoncayabənzər yabanı bitki. – *Xəşəni qo:rincəni heyvana veririk* (Ordubad).

**XƏŞƏ** II (Ordubad, Zəngilan) – b a x **xaşa.** – *Xəşəmiz yırtılıb, un tökülür* (Zəngilan); – *Get qo:şudan xəşəni al gəti, də:rmana gedax* (Ordubad).

**XƏŞƏL** (Zəngilan) – b a x **xaşal** II.

**XƏŞƏLƏNMƏX′** (Qarakilsə) – yayılmaq. – *Xəşələnə-xəşələnə oturur.*

**XƏŞƏNƏX′Lİ** (Basarkeçər) – xain, xəbis.

**XƏŞƏYONCA** (Lənkəran) – yoncayabənzər yabanı bitki.

**XƏŞQƏRƏNNİ** (Şərur) – üstdə bacası olan ev. – *Xəşqərənni damın buxarılı ocağı olur.*

**XƏŞLOVA** (Bakı) – qarışıq.

**XƏŞMƏR** (Şərur) – b a x **xaçmar.** – *Səbətdə bir-iki xəşmər olur.*

**XƏTƏMİ** (Salyan) – gavalının bir növü. – *Fizzə mə:mçün xətəmi gətirəcək.*

**XƏTƏNGƏLİ** (Mingəçevir) – əngəlli.

**XƏTƏRƏ** (Göyçay, Kürdəmir, Ucar, Zərdab) – fikir. ◊ **Xətərə eləmək** (Zərdab) – fikir etmək. – *Ana, sağ-salamatam, mən sarıdan xətərə elləməyin* (Zərdab). **Xətərə çəkmək** (Göyçay, Ucar) – fikir çəkmək. – *Atın sağalmasınnan xətərə çəkmə* (Ucar).

**XƏTİL** (Hamamlı) – evin divarlarının üstünə qoyulan taxta və ya tir. – *Göndlərin başı çürüməsin deyən difarın üsdünə xətil qoyullar, göndlərin başı ona* söykənir.

**XƏTMİ** (Salyan) – b a x **xətəmi.** – *Fizzənin bağında xətmi çoxdu.*

**XƏVƏKİ** (Bakı) – qəflətən, birdən.

**XƏVƏL** (Quba) – qoşulan heyvanın boynunun əzilməməsi üçün boyunduruğun altından qoyulan keçə, yumşaq parça və s. – *Xəvəlin içi keçə ulur, üsdi dəri.*

**XƏY** (Ağdam, Mingəçevir, Zəngilan) – b a x **xay** I. – *Oruc xəy adamdı* (Mingəçevir).

**XƏYATA** (Meğri) – b a x **xayatı** II.

**XƏYATI** (Bərdə) – b a x **xayatı** I. – *Bişidiyiŋ kejidən xəyatı əyir.*

**XƏYƏNTİ** (İrəvan) – b a x **xayatı** I.

**XƏYƏTİ** (Culfa) – b a x **xayatı** I. – *Baramadan xəyəti çəkirəm.*

**XƏZƏL** (Göyçay) – b a x **xazal.**

**XƏZƏLLƏMƏXʹ** (Göyçay) – b a x **xazallamax.**

**XƏZƏZ** (Ağdam, Ağdərə, Füzuli, Xocalı, Xocavənd, Qazax, Zəngilan) – yabanı bitki adı. – *Xəzəz bırda çox olur, onu ye:llər* (Zəngilan); – *Xəzəz meşələrdə əmələ:lir, insançın çox yeməli şeydi* (Ağdərə); – *Uşaxlar meşədə xəzəz yığmışdılar* (Füzuli).

**XƏZNƏ** I (Bakı) – su anbarı.

**XƏZNƏ** II (İmişli) – patrondaş.

**XIBAR** (Gəncə) – çınqıl.

**XIBIZ** (Gəncə) – qaradinməz.

**XIBİS** (Naxçıvan) – çoxbilmiş.

**XICI** (Zaqatala) – yabanı bitki adı.

**XICIR** (Zəngibasar) – çınqıl. – *Xıcırı gəti bura töxʹ.*

**XICIY** (Qax) – b a x **xiciy.** – *Seni xıcıy olasın.*

**XICİN** (Meğri) məhsul toplanışında gözdən yayınıb ağacda qalan meyvə. – *Bağəlardə bu yil çuxlicə xıcin var.*

**XICOV** I (Qax) – kösöv.

**XICOV** II (Qax) – ağac növü.

**XIDEL** (Qazax) – qısaboy <adam>. – *Sən bir bu xıdelə bax, boyu bir qarış, tutduğu iş bir harava.*

**XIDIL** I (Qax) – 1. qardaşoğlu, bacıoğlu, qardaşqızı, bacıqızı; 2. nəvə. – *A xıdıl, hara gedirsən?*

**XIDIL** II (Şəki) – ləzgi uşağına verilən ad. – *Bi sürü qoyini iki dənə xıdıl güdüy.*

**XIDIR** (Cəbrayıl, Zəngilan) – kiçik çillənin son həftəsi. – *Xıdır girdi qış girdi, xıdır çıxdı qış çıxdı* (Zəngilan); – *Böyünnən xıdırın iş günü gedir* (Cəbrayıl).

**XIFYANA** (Çənbərək) – gizlicə.

**XIXI** (İmişli) – xəncər. – *Belimdə bi xıxım vardı, çaldım qıçına.*

**XIXIRDMAĞ** (İmişli) – yatırtmaq <dəvəni>. – *Dəvələri xırxırdun, əyağın bağleyun.*

**XIL** I (Ağcabədi, Ağdam, Cəlilabad, Xanlar, Qazax, Naxçıvan, Sabirabad) – yığın, sürü (çox zaman “bir” sözü ilə işlənir). – *Mənim bir xal uşağım var* (Naxçıvan); – *Söyünün bir xıl malı var* (Xanlar).

**XIL** II (Zəngibasar) – çox, bol. – *Bağda meyvə xıldı.*

**XILAQARIN** (Cəlilabad) – yekəqarın.

**XILX** (Cəlilabad) – xirtdək. – *Söz var gəley ürəydən, söz var gəley xılxdan;* – *Söz var xalx içində, söz var xılx içində.*

**XILXA** I (Kürdəmir) – yunun çıxarı. – *Yunun irisini götürəndə xılxası qalır.*

**XILXA** II (Kürdəmir) – pırtlaşmış <saç>. – *Başı darameyanda xılxa olur.*

**XILXALAMAX** (Çənbərək) – xirtdəkləmək. – *Almühəmmədi yoldaja xılxaladım.*

**XILI** (Borçalı) – b a x **xıl.**

**XILICCAN** (Ordubad) – b a x **xılıtgan.**

**XILITGAN** (Meğri) – cəftə.

**XILITGƏN** (Ordubad) – b a x **xılıtğan.**

**XILLAZ** (Ordubad) – kərtənkələ

**XILLIX** (Ordubad) – yapıncı növü. – *Xıllıx güzəmdən hazırranmış yapıncıdı, çobannar örtüllər.*

**XILTA** (Bakı) – torta. – *Yağın xıltası çox çıxdı.*

**XIM** (Borçalı, Gədəbəy, Qazax, Şərur, Tovuz) – təməl, özül. – *Öy tiqməğ isde:rixʹ, əmbə xımını qazmamışıx hələ* (Gədəbəy); – *Xımı mö:kəm olmuyan öy tez uçar* (Tovuz).

**XIMEL** (Qazax) – b a x **ximel.**

**XIMER** (Gəncə) – b a x **ximel.**

**XIM-HIM** (Qazax) – təməl, özül.

**XIMXIMI** (Oğuz, Zaqatala) – b a x **xımıxımı.** – *Xımxımını uşaxlar ye:r, elə bir şey döylü.*

**XIMI** I (Ağdam, Başkeçid, Borçalı, Çənbərək, Füzuli, Gədəbəy, Qazax, Tovuz) – yeməli yabanı bitki adı. – *Bizim evin yanında çoxlu xımı bitif* (Ağdam); – *Xımıyı soyullar, turşuya qoyullar* (Borçalı); – *Xımı yaman şirin* olur (Tovuz).

**XIMI** II (Cəlilabad) – ikiüzlü. – *Xımı odu ki, üzdə belə de:y, arxada ayrı cur.*

**XIMI** III (Çənbərək) – sirsaxlayan. – *Kişi xımı olsun gərəxʹ, olmadı gərəhməzdi.*

**XIMIXIMI** (Mingəçevir) – yeməli yabanı bitki adı.

**XIMIRÇA** (Ucar) – qısaboy <adam>.

**XIMIRÇÜXʹ** (Qazax) – b a x **ximirçəxʹ.**

**XIMIRXIS** (Şuşa) – paxıl, xəbis.

**XIMIRQURDU** (Qazax) – ağacqurdu. – *Xımırqurdu kimi yemæx'dən doymor.*

**XIMIS** (Bakı) – paxıl, xəbis.

**XIMİX'** I (Şəki) – balaca, yastı <burun>. – *Xımix' burun Sultanı taniyisəmmi?*

**XIMİX'** II (Şəki) – tərəvəz və ya meyvənin çıxarı. – *Xiyərrərin xımiyini satminıx, mal-qaraya veriyıx.*

**XIMPIS** (Bakı) – kök, dolu <adam>.

**XIMS** (Qazax) – nəsil, tayfa. – *Hajılar xımsı çox güjdüdü bu kəntdə.*

**XIMSI** I (Qazax) – sirsaxlayan. – *Yaman xımsıdı, onnan söz almax olmaz.*

**XIMSI** II (Qazax) – xəsis

**XIMSIR** (Qazax) – paxıl, xəbis.

**XINA** (Mingəçevir) – yabanı bitki adı.

**XINABƏNT** (Qax, Şəki) – b a x **xinəbənd.** – *Xınabəndi aş başınnən;* – *Başa xınabənt bağli:llər ki, tühlər üzə tökülməsin* (Şəki).

**XINABƏT** (Oğuz) – b a x **xinəbənd.**

**XINAMI** (Borçalı) – qohum.

**XINCAM-XINCAM** (Tovuz, Zərdab) – əzik-əzik. ◊ **Xıncam-xıncam eləməx'** (Tovuz) – əzik-əzik etmək. – *Ə, qoyma, uşaxlar köynəyi xıncam-xıncam elədilər* (Tovuz).

**XINCAMLAMAX** (Zərdab) – əzişdirmək. – *O, yarpağı xıncamladı.*

**XINCILO:UZ** (Ağcabədi, Şuşa) – göy soğana bənzər yabanı bitki adı. – *Sinə ağrıyanda xıncılo:uzu qaynadırıx, suyun atırıx, özünü ye:irix'* (Şuşa).

**XINCIM: XINCIM VERMƏX'** (Ağdam) – açıq vermək. – *Mənə nə xıncım verirsən.*

**XINDAÇI** (Salyan) – b a x **xandaçı.** – *Xındaçı bizi toya çağırıb.*

**XINDI** (Tovuz) – ağılsız, axmaq <qadına aiddir>. – *A xındı Gülsüm, saŋa demədimmi çılçırpı yığ, əpbəx' pişirəjəm?*

**XINGIZDAMAX** (Ağbaba) – döymək, əzişdirmək. – *Uşağı elə xıngızdadı ki.*

**XINIZ** I (Xanlar) – sirsaxlayan. – *Xınız adam nə desən hesavı içəri verər, axırda da əlinən nə:lsə elər.*

**XINIZ** II (Kəlbəcər) – paxıl, xəbis. – *Həsən çox xınız adamdı.*

**XINK: XINK ULMAX** (Meğri) – pərt olmaq. – *Biz tuyə getmadığımıza Bayram bərh xınk ulıp.*

**XINT** (Balakən) – paxıl, xəbis. – *Mehdi çox xınt adamdı.*

**XINTA** I (Ağdam, Füzuli) – qoduq. – *Xıntanın biri gəlif burda ağzına gələni danışır* (Ağdam).

**XINTA** II (Ağdam) – b a x **xınt.**

**XINTA** III (Cəlilabad) – cındır. – *Xıntaləri göti bırdan.*

**XINTO** (Bərdə) – ağılsız, axmaq.

**XINZIR** I (Füzuli, İmişli, Salyan) – varlı. – *Xınzır adam qırnıs olar* (Salyan); – *O çox xınzır adamdı, onda olan heş kəsdə yoxdu* (Füzuli).

**XINZIR** II (Borçalı, Laçın, Mingəçevir) – kobud. – *Xınzıra nə söz* (Laçın); – *Beyjə bir xınzır adama irasd gəlmişdim, məni laf bezdirdi* (Borçalı).

**XINZIR** III (Qax) – dinsiz.

**XIPA** (Cəbrayıl, Salyan) – qısaboy <adam>. – *Zəkəriyya xıpa adamdı* (Cəbrayıl).

**XIPER** (Ağcabədi) – b a x **xıpa.** – *İsgəndər xıper adamdı.*

**XIPI** (Laçın) – b a x **xıpa.**

**XIPIĞ** (Cəbrayıl) – b a x **xıpa.**

**XIPIR** (Gədəbəy) – b a x **xıpa.** – *Gödəy adama xıpır deyərix'.*

**XIPPALAMAX** (Ağbaba) – xirtdəkləmək. – *O, yoldan keçəndə onu xıppala yajam.*

**XIR** I (Ağdam, İsmayıllı, Quba, Şamaxı) – b a x **xiy** I. – *Xır bizin yerrərdə ulmaz, bizdə çəltik əkmiyədülər* (Quba); – *Gəl xıra su qoşağ, yanmasın* (İsmayıllı).

**XIR** II (Ağdaş, Bakı, Quba, Oğuz) – bostan. – *Gedəgün bizim xıra qarpuz yeməgə;* – *Gecə xıra oğri gəlmişdü* (Bakı).

**XIR** III (Ordubad) – tamam. – *Xörəx' xır duzdu.*

**XIR** IV (Borçalı, Gədəbəy, Goranboy, Qazax, Tovuz, Zəngilan) – çınqıl; cınqıl qarışıqlı qum. – *Orda olan daşın çoxu xırdı* (Qazax); – *Bıra xırdı, bırda yaxşı şey olmır* (Zəngilan); – *Xır harava yolunda çox olor* (Gədəbəy); – *Yola daş döşədix'dən so:ra üstünə xır tökülsə yaxşı olar* (Tovuz).

**XIR** V (Balakən) – paxıl, xəbis.

**XIR** VI (Cəlilabad, Göyçay, Kürdəmir) – vint. – *Maşının xırı açılmışdı* (Cəlilabad).

**XIR** VII (Oğuz) – bostan ləki.

**XIR** VIII (Qazax) – xırda. – *Xırnan xurda bir sözdü.*

**XIRA** I (Kürdəmir) – qovun növü. – *Xıra bozdəlidən xırda olur.*

**XIRA** II (Borçalı, Daşkəsən, Gədəbəy, Goranboy, Xanlar, Qazax, Mingəçevir, Salyan) – qısaboy <adam>. – *Bayram yaman xıra boydu* (Qazax); – *Yekələnmiyif filankəs, çox xıra qalıf* (Gədəbəy); – *Bu kətdə xıra adam azdı* (Xanlar).

**XIRA** III (Biləsuvar, Cəbrayıl, Cəlilabad, Füzuli, Göyçay, İmişli, Kürdəmir, Lənkəran, Salyan, Ucar, Zəngilan) – yetişməmiş xırda qovun və s. – *Qovun hələ xıradı* (Kürdəmir); – *Uşaxlar bossannan xeylax xıra yığdılar* (Ucar); – *Əhməd əmi, tağda xıra çoxdumu?* (Cəbrayıl).

**XIRAM** I (Qazax) – qumlu yer.

**XIRAM** II (Hamamlı, Qazax) – yarğan.

**XIRAZAN** (Gədəbəy) – kotanın bir neçə hissəsinə (iki təkər, yastıq, ox və qoşqu ağacı) verilən ad.

**XIRCƏNƏ** (Lerik) – çörəyin quru hissəsi.

**XIRCIM** (Cəbrayıl) – tamam. – *Xırcım duz eləmişəm.*

**XIRÇA** I (Bolnisi, Çənbərək, Gədəbəy, Qazax, Şəki, Şəmkir, Tovuz) – bax **xıra** II. – *Alosman xırça qaldı, yekələmmədi dayna* (Çənbərək); *Xırça adamın konlunnan gündə üç dəfə allahlıx keçər* (Şəmkir).

**XIRÇA** II (Xanlar) – donuz balası. – *Donuzun balasına xırça deyərəx'.*

**XIRÇA** III (Oğuz, Şamaxı) – içərisində ağartı saxlanan dəri qab. – *Yavər bizə bir xırça üzzü pendir gətimişdi* (Şamaxı).

**XIRÇA-XIRÇA** (Lənkəran) – parça-parça, hissə-hissə, dilim-dilim.

**XIRÇI** (Kürdəmir) – xəsis.

**XIRDADIRNAX** (Gədəbəy, Tovuz) – davar. – *Xırdadırnaxdan nə:iŋ var?* (Gədəbəy).

**XIRDAXANİ** (Kürdəmir) – armud növü. – *Xırdaxani yeməlidi.*

**XIRDAŞOQQUTMA** (Salyan) – çörək qırıqları, parçaları. – *A:z, o xırdaşoqqutmaları gətir, yi:lsin hayıfdı.*

**XIRDAVƏNG** (Tovuz) – xırdavat.

**XIRDƏ:AX** (Gədəbəy) – davar. – *Xırdadırnax da de:rix', xırdə:ax da.*

**XIRDIXOV: XIRDIXOV OLMAX** (Culfa) – qırıq-qırıq olmaq, xırda-xırda olmaq. – *Küləş döyülüb xırdıxov olub, yığmax lazımdı.*

**XIRƏZƏN** (Gədəbəy) – bax **xırazan.** – *Kota:n iki təkəri, o:un yasdığı, oxu, bir də qavaxdan salınan ağajı birrix'də xırəzəndi.*

**XIRXA** I (Gədəbəy) – mişar. – *Kərənnəri xırxıynan kəserix'.*

**XIRXA** II (Cəbrayıl) – xirtdək. – *Qoyunun xırxasınnan tutuf yerə vurdım.*

**XIRXA** III (Zaqatala) – ərinmiş yağın tortası.

**XIRXALAMAX** (Cəbrayıl) – bax **xırxazdamax.** – *Əliynən güləşəndə onu yaman xırxalamışdım.*

**XIRXAZDAMAX** (Ağdam) – xirtdəkləmək.

**XIRXI** I (Borçalı, Daşkəsən, Gədəbəy, İsmayıllı, Karvansaray, Qazax, Tovuz) – bax **xırxa** I. – *Xırxıyı ver, ağajı kəsem* (Borçalı).

**XIRXIN** (İmişli) – təzə əyirilmiş ipin çıxıntılarını sıyırmaq, hamarlamaq üçün alət. – *İpi xırxınnan təmizdiyirix'.*

**XIRXINC** (Tovuz) – əzgin, yorğun. – *İşdəməx'dən laf xırxıncam.*

**XIRXINNAMAĞ** (İmişli) – təzə əyrilmiş ipin çıxıntılarını xırxınla təmizləmək. – *Əriş ipin əgiririğ, gətirib xırxınnıruğ.*

**XIRXIR** I (Culfa) – bax **xırxa** I. – *Xırxırnan taxta çəkəllər.*

**XIRXIR** II (Bakı) – südlüsıyıq.

**XIRXIŞ** (Tovuz) – bax **xırxınc.** – *Elə yorulmuşam kın, xırxışam, heş yerimnən tərpənəmmirəm, ay ciji.*

**XIRIL** (Tovuz) – böyük mişar. – *Xırılını itilə bu kötüyü xırdalıyax.*

**XIRINC: XIRINC ELƏMƏX'** (Meğri) – yemək. – *Məmmət bir şaqqa əti təx'cecənə xırınc eliyir.*

**XIRISDAMMAX** (Qazax) – hirslənmək.

**XIRIŞ** (Lənkəran) – qumla xırda daşın qarışığı.

**XIRIŞDAMAX** (Daşkəsən) – doğramaq, kəsmək <oduna aiddir>. – *Odunu xırışde:f yiğerıx.*

**XIRIT** (Culfa) – baramaqurdunun 1-ci yuxusu.

**XIRIT** (Ordubad) – bax **xırit.**

**XIRİX'** (Şəki) – bax **xirex'.**

**XIRMEL** (Meğri) – b a x **ximel.** – *Mənim qardaşım xırmeldi.*

**XIRNA** (Ordubad) – çınqılqarışıq qum.

☐ **Xırna çəxməx′** (Qazax) – ədavət etmək, düşmənçilik etmək. – *Bu uşağa xırna çəkellər.*

**XIRNA-HIRNA** (Qazax) – ədavət, düşmənçilik.

**XIRNAVA** (Cəbrayıl, Qarakilsə, Meğri) – yarğan. – *Xırnavalardan qucax dolusu su şırılder, töküler Mırğı çayına* (Meğri).

**XIRNƏG** (Sabirabad) – b a x **xirnək.** – *Do:şanın balasına xırnəg diyərüg.*

**XIRNƏX′** (Ağcabədi, Cəbrayıl, Ordubad) – b a x **xirnək.** – *Bir xırnəx′ gördüm* (Ağcabədi); – *Böyün şumnan bir xırnəx′ tutmuşam* (Cəbrayıl).

**XIRNƏK** (Ağcabədi, Ağdam, Cəbrayıl, Kürdəmir, Sabirabad, Tərtər, Ucar) – b a x **xirnək.** – *Qalxozun bağında üş xırnək gördüm* (Ucar).

**XIRNIX** (Goranboy) – çınqıllı, qumlu yer. – *Maşın xırnığın yanında qalıf, bəri gələmmir.*

**XIRNOVA** (Meğri) – b a x **xırnava.**

**XIRPA** (Cəlilabad, İmişli) – b a x **xirpə.** – *Bı xırpa kişi haralıdı?* (İmişli).

**XIRPI** (Lənkəran) – b a x **xirpə.**

**XIRPITMAX** (Borçalı) – kəsmək.

**XIRPİK** (Gəncə) – vələmir.

**XIRRAMAX** (Qazax) – döndərmək, çevirmək. – *Haraveyi geri xırra.*

**XIRRAŞMA** (Qarakilsə) – boğuşma.

**XIRRAŞMAĞ** (İsmayıllı) – sözləşmək, mübahisə etmək. – *Orda nə xırraşırsız, gedüz işüzü görüz.*

**XIRRAŞMAX** I (Cəbrayıl, Laçın, Zəngilan) – b a x **xırraşmağ.** – *Oğlın genə uşaxlarnan xırraşerdı* (Zəngilan).

**XIRRAŞMAX** II (Meğri) – *məc.* güləşmək. – *Pəhlivannar xırraşırdı, bir-birin algeyiy eliyirdi.*

**XIRRAŞMƏY** (Cəlilabad) – b a x **xırraşmağ.** – *Uşağlar xırraşeylar.*

**XIRSƏMBƏ** (Xanlar) – hirsli, əsəbi. – *Xırsəmbə adamın işi yaxşı olmaz.*

**XIRSIZ** (Ağdam, Qarakilsə, Quba, Mingəçevir, Naxçıvan, Oğuz, Şamaxı, Şuşa) – güclü, qüvvətli. – *Şirin elə bil lap anadan xırsız duğulub* (Quba); – *Bu elə uşaxlıxdan çox xırsızdı* (Şuşa).

**XIRSIZ** II (Cəbrayıl, Cəlilabad, Quba, Oğuz, Zəngilan) – kobud. – *Unu heş dindimə:n, çox xırsızdı* (Zəngilan); – *Yaman xırsız adamsan, heç kimi saya salmeysən* (Cəlilabad).

**XIRSIZ** III (Xanlar) – çoxdanışan.

**XIRSIZ** IV (Xanlar) – səbirsiz. – *Hər kəs səvirsizdi, ona xırsız deyərəx′.*

**XIRSIZDAMAX** (Culfa) – güc, zor gəlmək. – *İki xırsız bizi xırsızdadı.*

**XIRŞ** I (Qazax) – narın. – *Xırş duz ağ olar.*

**XIRŞ** II (İsmayıllı) – yeni doğmuş heyvanın ilk südü. – *Buzoya çox xırş verma, ölər.*

**XIRŞ** III (Zəngibasar) – tüstü. – *Soba xırş eli:r.*

**XIRTDAMMAX** (Zəngibasar) – tutulmaq, boğazı gəlmək. – *Boğazım xırtdanıf.*

**XIRTIŞ** I (Ağdam, Füzuli) – oğru.

**XIRTIŞ** II (Cəbrayıl) – paxıl.

**XIRTMEK** (Zaqatala) – qığırdaq.

**XIRZAN** (Gədəbəy) – b a x **xırazan.**

**XISƏKİ** (Cəbrayıl) – əzab-əziyyət. – *Fezi:n uşaxları xısəkiynən böyyüf.*

**XISILDAMAX** (Ucar) – pıçıldamaq.

**XISILLAMAĞ** (Saatlı) – b a x **xısıldamax.** – *Xısıllama, bərkdən de, nə de:sən.*

**XISINNAMAX** (Ağdam) – b a x **xısıldamax.** – *Vəzir xısınnadı kın, şah, həmən uşaxdı, sən tulladığın uşax.*

**XISINNAŞMAX** (Ağdam, Borçalı, Gədəbəy, Laçın, Şəmkir, Tovuz) – pıçıldaşmaq. – *Baş-başa verifnən nə belə xısınnaşeysaŋız orda?* (Gədəbəy); – *Ə:, orda nə xısınnaşersıŋız?* (Borçalı).

**XISINTILIX** (Şəmkir) – sıxıntılıq. – *Yer-yurt daralanda xısıntılığ olur.*

**XISLAT** (Oğuz) – 1. adət; 2. vərdiş.

**XIŞ** I (Borçalı) – ətrafına ucu şiş dəmir və ya mıx bərkidilmiş xalta. – *Xış çovan itində olor ki, canavarı yaralasın.*

**XIŞ** II (Çənbərək) – daş duz qırıntıları. – *Bir dağarcıx xış varıdı, kirkirədə döydü Qaravajı.*

**XIŞDAMAX** (Ağcabədi, Mingəçevir, Tovuz) – əzmək. – *Ay uşax, üzümü xışdama* (Ağcabədi).

**XIŞDAMMIŞ** (Ağcabədi) – əzilmiş. – *Xışdammış alma ucuz olur.*

**XIŞDEXʹ** (Meğri) – bax **xişdəxʹ** I. – *Özünə xışdexʹ ulammey, özgalara köynəxʹ uley.*

**XIŞDIX** (Hamamlı) – çınqıllıq. – *Bu yer xışdıxdı, burda nə bitəjəxʹdi kin, nə olsun.*

**XIŞIM** (Lənkəran) – sürət. – *Quşa bax, gör nə xışımnan gedir.*

**XIŞIMLAMAX** (Oğuz) – əzmək, əzişdirmək. – *Əlindəki kağızı nə üçün xışımlıyırsan?*

**XIŞMA** (Zəngibasar) – ovuc. – *Bir xışma kişmiş yedim.*

**XIŞTƏK** I (Lənkəran) – bax **xişdəxʹ** I. – *Köynəyin xişdəyi yırtılıb.*

**XIŞTƏK** II (Mingəçevir) – bax **xişdəxʹ** II.

**XIT** (Qax) – bax **xit.**

**XITI** (Hamamlı, Laçın, Meğri) – yaltaq. – *U işlərin hammısın u mərtəbəyə xıtı Xudayar mindirey* (Meğri).

**XITMA** (Qazax) – kiçik ot tayası, qotman. – *Büyün iki xotma ot yığmışam.*

**XITZAV** (Qax) – qıxmıq.

**XIVAR** (Borçalı, Hamamlı) – bax **xıbar.** – *Məmmət, bir az xıvar gəti, öyün xımına tökəxʹ* (Hamamlı); – *Xıvarı divarı hörəndə qoyullar daşdarın arsında* (Hamamlı).

**XIVISDIX** (Gədəbəy) – xəbislik. – *İnsanda paxıllıx, xıvısdıx olmasa, heyvan damğeyi neynər.*

**XIVIZ** (Gədəbəy) – bax **xıbız.** – *Xıbız adamnan söz almax çətin peşədi.*

**XIY** (İsmayıllı) – bax **xiy** I.

**XIYATA** (Kürdəmir) – bax **xəyata.**

**XIZ** I (Qarakilsə) – istilik. – *Təndirin xızı məni vırıp, başım arğıyır.*

**XIZ** II (Şərur) – his, tüstü. ◊ **Xız eləməxʹ** – tüstüləmək. – *Ocağa yaş odun atanda həmməşə xız eliyər.*

**XIZAN** I (Astara, Bakı, Borçalı, Cəlilabad, Əli Bayramlı, Gədəbəy, Xanlar, Naxçıvan) – çoxlu. – *Hasan kişinin xızan uşağı var* (Borçalı); – *Öyündə xızan malı var* (Gədəbəy).

**XIZAN** II (Naxçıvan) – uşaq. – *Xızannar hə:tdə oynayır.*

**XIZAN** III (Balakeçər, Gədəbəy, Qazax) – topa. – *Arının xızanı çoxalır* (Balakeçər); – *Arının xızanı az oldumu, bal gözdəmə da:onnan* (Gədəbəy).

**XIZAR** (Borçalı, Hamamlı, Qazax) – bax **xiza.** – *Xızarnan yekə ağajdarı çəkellər* (Qazax); – *Xızarnan taxda da çəkəllər, odun da kəsəllər* (Borçalı).

**XIZOV** (Qax) – odun qırıntısı.

**XİBİS** (Əli Bayramlı, Qarakilsə) – xəsis.

**XİCAV** ( Qax) – odun qırıntısı.

**XİCƏ** (Qax) – bax **qicə.**

**XİCİXʹ** I (Qazax) – körpə uşaq. – *Yazığın bir dam dolusu xiciyi var, özü də naçaxdı.*

**XİCİXʹ** II (Şərur) – sümük qırıntıları.

**XİCİY** (Qax) – cızdaq. – *Seni qavrılıp xiciy olasın.*

**XİDƏF** (Daşkəsən) – qutab.

**XİDVA** (Qax) – mətbəx. – *Xidvada xoraq men pişiriy.*

**XİL** I (Quba) – bax **xiy** I.

**XİL** II (Zaqatala) – meyvə dərmək üçün ucu haça ağac.

**XİLBİR** (Sabirabad) – cındır.

**XİLƏFƏ** (Çənbərək) – fikir, rəy. – *Sadığın xiləfəsiŋ qanə:mmirəm.*

**XİLƏPLİ** (Balakən) – çirkin.

**XİLİ** I (Dərbənd) – yazın ilk 12 günü. – *Qaranqac <qaranquş> xilidə gələdi.*

**XİLİ** II (Zaqatala) – bax **xil** II.

**XİLİXʹ** (Tovuz) – bax **xiliy.** – *Uşaxlar bosdan ura olanda doyunca xilixʹ yi:r* (Tovuz).

**XİLİY** (Ağdam) – xırda və yetişməmiş <yemiş, qarpız və s.>.

**XİLLİXʹ** (Zəngibasar) – qarınqulu. – *Bu xilliyin qarnını mən doydıra bilmərəm.*

**XİLT** (Zəngilan) – cecə, puçal.

**XİLTDUĞ: XİLTDUĞ QATMAĞ** (Xaçmaz, Quba) – narazılıq salmaq.

**XİLTƏ** (Lənkəran) – torta. – *Yağın xiltəsin xəmirə qat.*

**XİMEL** (Gəncə) – qısaboy <adam>.

**XİMİK** (Ağdaş) – xəsis, simic.

**XİMİQ** (Qax) – firtıq. – *Burnunun ximiqini silə bilmiy, mağa əqil örqədir.*

**XİMİRÇƏXʹ** I (Zəngibasar) – hülqum; boğaz. – *Tutdu ximirçəyimnən, az qala boğulmuşdum.*

**XİMİRÇƏXʹ** II (Gədəbəy, Tovuz) – qığırdaq. – *Tişiŋ ola xırtdada-xırtdada yə:səŋ ximirçəyi* (Gədəbəy).

**XİMİS** (Ağdam, Göyçay, İsmayıllı, Qazax, Mingəçevir, Zərdab) – bax **xibis.** – *Kərim olduqca ximis adamdı* (İsmayıllı); – *Öz malın yemir, başqasına qunaxlığ eləmir, oa ximis deyirik* (Göyçay).

**XİNACUR** (Qax) – kök, yer kökü.

**XİNÇİLİ** (Qax) – xəmir xörəyi adı.

**XİNƏBƏND** (Qax) – üçkünc baş yaylığı. – *Dədə mã: xinəbənd alıp.*

**XİNƏRƏŞİQ** (Qax) – yastı aşıq.

**XİNƏVƏND** (Borçalı) – b a x **xinəbənd.**

**XİNGİLİ** (Bakı, Kürdəmir) – yüngülxasiyyət. – *Nizami lap xingilidi* (Kürdəmir).

**XİNİG** (Qax) –hıçqırıq. – *Meni xinig tutiy.*

**XİNİO:** (Salyan) – acıq. ◊ **Xinio: verməğ** – acıq vermək. – *Bilmirəm ki, mə: nə xinio: verirsən.*

**XİPƏR** (Ağdam, Kürdəmir) – b a x **xepir.** – *Xipər adamnan gecədə üç dəfə allahlığ, yeddi dəfə bəylig həvəsi keçir* (Kürdəmir).

**XİPİ** (İmişli) – qısaboy <adam>.

**XİRÇA** (Zaqatala) – səliqəsiz. – *Məktəbə xirça gəlmax olmaz.*

**XİRÇƏX′** (Cəbrayıl, Kəlbəcər) – tövlənin künclərinə basdırılan ucu haça dirək. – *Xirçəx′ onnan ötəridi kin, üsdünnən ağaş qoyurux* (Kəlbəcər); – *Qabaxcan tavlanın xirçəx′lərini əkin, so:ra ayrı işə başdıyın* (Cəbrayıl).

**XİRÇƏK** (Qax) – b a x **xirsək** I.

**XİREX′** (Şəki) – baramaqurdunun dördüncü yuxusu. – *Xirex′ də diyillər, uludan durda da diyillər axırıncı yuxudan duranda qurd;* – *Qurdumuz xirex′dən durutdu.*

**XİRƏ** (Kürdəmir) – b a x **xirex′.**

**XİRİX′** (Ağdam, Cəbrayıl, Goranboy, Xanlar, Şəki, Şəmkir, Tovuz, Zəngilan) – b a x **xirex′.** – *Xirix′də qurda nə qədir yarpax versən ye:r* (Zəngilan); – *Qurda xirix′ vaxdı şah tutun şaxını verillər* (Şəmkir).

**XİRİK** (Cəbrayıl, Goranboy, Göyçay, Mingəçevir, Tovuz) b a x **xirex′.** – *Xirikdə veririk yeyir, şaxlıyırıx* (Göyçay); – *Baramaqurdunu xirik vaxtı yaxşı yemliyə bilsəŋ tez sarıyar* (Tovuz).

**XİRİSTAN** (Dərbənd) – rəf. – *Usda Fatmanisə xələyçin xiristan düzəltdi.*

**XİRXİRƏY** (Dərbənd) – hülqum. – *Xortdum da diyədi, xirxirəy də diyədi.*

**XİRQA** (Zaqatala) – səliqəsiz. – *Məktəbə xirqa gəlmax olmaz.*

**XİRNƏK** (Cəbrayıl, Zəngilan) – dovşan balası. – *Kəfşənnən bir xirnək tutdum, gətdim əvə* (Cəbrayıl).

**XİRNİX′** I (Borçalı, Daşkəsən, Füzuli, Gədəbəy, Xanlar, Qazax, Tovuz) – b a x **xirnək.** – *Do:şan balasına xirnix′ deyərix′* (Daşkəsən); – *Atbatannan gedirdim bi xirnix′ tafdım* (Xanlar).

**XİRNİX′** II (Tovuz) – yapon xurması. – *Xirniyi kal-kal yə:ndə adamın ağzını bürüşdürür.*

**XİRNİX′** III (Şahbuz) – çoxbilmiş, hiyləgər. – *Çox xirnix′ adamdı, onnan başarmax çətin məsələdi.*

**XİRPƏ** (Sabirabad) – qısaboy <adam>.

**XİRSƏK** I (Qax) – kirşə.

**XİRSƏK** II (Qax) – saçaqlı palaz.

**XİRT** (Qax) – nazik daş.

**XİRTDƏX′LİX′** (Xanlar) – b a x **xirtdəklik.** – *Xirtdəx′liyi qıza dədəsi öyü verey;* – *No:ruz kişinin arvadının xirtdəx′liyi indi də duroy.*

**XİRTDƏKLİK** (Salyan) – boyunbağı. – *Xirtdəkliği qızzar taxar;* – *Solmaz xirtdəklik asıb.*

**XİRTDİX′** (Zəngibasar) – yeyə <aləti>.

**XİRTİX′** I (Kəlbəcər, Şərur) – xırdadişli yeyə. – *Bizzərdə böyük yeyəyə qavara, xırda yeyəyə xitrix′ deyərix′* (Şərur).

**XİRTİX′** II (Borçalı, Gədəbəy) – dovşan balası. – *Xirtix′ dovşanın üş-dört günnüx′ balasına de:rix′* (Gədəbəy).

**XİRTTAVUK** (Qax) – xirtdək.

**XİSLƏT** (Zəngibasar) – dar, sıx. – *Əvdə otumağ olmur, yaman xislətdi.*

**XİŞDƏX′** I (Qax, Qarakilsə, Qazax, Şuşa) – köbə. – *Köynəx′də xişdəx′ olanda gej yırtılır* (Şuşa).

**XİŞDƏX′** II (Çənbərək) – şumlanmış sahə arasında qalan kiçik xam yer.

**XİŞDƏMƏX′** (Zəngibasar) – əzişdirmək, tapdalamaq. – *Gədəni o ki var xişdiyif.*

**XİTƏF** (Cəbrayıl, Qazax) – qutab.

**XİTİ** (Laçın) – yaltaq. – *Xiti olma;* – *Xiti adamın hürməti olmaz.*

**XİTİM: XİTİM ELƏMƏX′** (Qazax) – xidmət, qulluq eləmək. – *Qoyuna xitim eləsəŋ i:rmi il yaşıyar.*

**XİTZ** (Qax) – çınqıl.

**XİY** I (Göyçay) – çəltik ləki. – *Bizim xiyin oxi yarılub, suyi axıdır.*

**XİY** II (Qax) – eyvan.

**XİYATA** (Zərdab) – b a x **xayatı** I. – *Xiyatadan ipək tor toxunur.*

**XİYATI** (Cəbrayıl) – b a x **xayatı** I.

**XİYAVAN** (Naxçıvan) – sahənin bərabər bölünüb əkilən hissəsi.

**XİYƏRƏDƏR** (Gəncə) – qıraqları dilikli mis sini. – *Düyünü xiyərədərə töküf ayırtdasana.*

**XİYƏRƏG** (İmişli, Kürdəmir) – bax **xiyarax.** – *Xiyərək çıxarmışam, yeriyəmirəm* (Kürdəmir).

**XİZA** I (Culfa, Şərur) – böyük mişar. – *Xizanı iki adam işdədir* (Şərur).

**XİZA** II (Culfa) – xam yer.

**XİZAN** (Dərbənd) – bax **xızan** I. – *Həsənin bir xizan uşağları var.*

**XİZƏX′** (Daşkəsən) – xış. – *Qavax xizəx′nən əke:ydix′ yeri-yurdu.*

**XİZƏR** (Zəngibasar, Basarkeçər) – bax **xiza** I. – *Xizəri gəti kərəni kəsəx′* (Basarkeçər).

**XLAPORTDUX** (Masis) – nifaq. – *Oların arasına xlaportdux salma.*

**XOCAĞ** (Cəlilabad) – çala. – *Əlli xocağ çiyələg əkmişəm.*

**XOCA-XOCA** (Kürdəmir, Oğuz) – quş adı, zığzığ. – *Vardannılar xoca-xoca, zığzığ diyir* (Oğuz).

**XOCU** (Qax) – donuz balası.

**XOÇA** (Cəlilabad) – budaq. ◊ **Xoça vırməy** – budaqlamaq. – *Kol xoça vırıb.*

**XODAŞ** (Gədəbəy) – hodaq. – *Xodaş olmasa kotan əkmeyrim mən.*

**XODƏK** (Naxçıvan) – bax **xodaş.**

**XOFLANMAĞ** (İsmayıllı) – qorxmaq. – *Bö:ğ oğlansan xoflanma, yol irahdi.*

**XOFLİ** (Quba) – ürkək <at>. – *Xofli ata minmağ çux qurxuludu.*

**XOFLU** (Ordubad) – qorxulu. – *Ayı xoflu heyvandı.*

**XOGƏR** (Şəki) – bax **xoqar.** – *Xogərə murta yigiylər, qoz, lovyə töküylər.*

**XOĞƏRİ** (Zaqatala) – bax **xoqar.**

**XOGI** (Zaqatala) – yunun çıxarı.

**XOXABEL** (Basarkeçər) – qozbel. – *Bir xoxabel kişiydi bu Abbasın dədəsi.*

**XOXUBEL** (Borçalı) – bax **xoxabel.**

**XOJAXOJA** (Bərdə, Tərtər, Ucar) – əti yeyilən çöl quşu adı. – *Xojaxoja heyva ağacında balalıyır* (Bərdə); – *Xojaxoja meşələrdə çox olur* (Tərtər); – *Xoja-xojanın əti yeməlidi* (Ucar).

**XOJAN** (Hamamlı, Şahbuz) – cibgir. – *Bizdərdə cüllük adama xojan deyərix′* (Şahbuz).

**XOQAR** (Zaqatala) – ağac qabığından düzəldilmiş silindr şəkilli qab. – *Punduğu xoqara yığ.*

**XOL** I (Cəlilabad) – budaq.

**XOL** II (Şahbuz) – kədik, aşırım.

**XOLİ** (Salyan) – budaq.

**XOLO** (Laçın) – qoca <adam>. – *Əsədgilə xolo gəldi.*

**XON** I (Zəngibasar) – yuxayayan.

**XON** II (Borçalı, Qazax, Zaqatala) – xonça. – *Xonu yolluyurux oğlan öyünə.*

**XONAV** (Zəngibasar) – nəm. – *Bu öy çox xonavdı.*

**XONÇA** I (Masallı) – məcməyi. – *Xonça gəldi, otur çörək yeyək.*

**XONÇA** II (Tovuz) – içərisində xəmir yoğurulan təknə. – *Xonça qavaxlar olardı, indi yoxdu.*

**XONDEL** (Ağbaba) – bax **xidel.**

**XONSA** (Kəlbəcər) – fərsiz, bacarıqsız. – *O da mənim kimi xonsanın biriymiş, təkə çıxıf qavağına, ata bilmiyif.*

**XONSUMAX** (Naxçıvan) – yuxuya getmək.

**XONU** (Çənbərək) – süfrə. – *Xonuŋuzun başın dağıtməyejam ha.*

**XOP** (Qazax) – qız ərə gedəndən 3-4 ay sonra ailəsinin ona apardığı pay.

**XOR** I (Ordubad) – bax **xol** II. – *Səfər mə:llim sə:r məktəbə gələndə xorda qurt gördi.*

**XOR** II (Ucar) – ərinmiş yağın tortası. – *Sən verən yağın xoru az oldu.*

**XOR** III (Çənbərək, Qax) – çürük. – *Biyilki ot xordu de:yn adı dammır* (Çənbərək).

**XORA** (Ağcabədi, Ağdam, Cəbrayıl, Kürdəmir, Göyçay, Qazax, Mingəçevir, Oğuz, Sabirabad, Şamaxı) – əkin sahəsinə tökülən sünbüllərdən öz-özünə bitən taxıl. – *Bi:l yaman xora əmələ:lmişdi bildirki taxıl yerinnən* (Ağdam); – *Biyilki xoradan on beş put taxıl çıxdı* (Cəbrayıl).

**XORALA** (Şəki) – bax **xarali.**

**XORALI** (Qax) – bax **xarali.** – *İndi xoralı biçmağa gedirıx.*

**XORAN** (Biləsuvar) – yara növü.

**XORASAN** (Şəki) – dərman adı. – *Keşmişdə qurdu olana* (*qurd xəstəliyi olana*) *xorasan verərdilər.*

**XORAZEY: XORAZEY ELƏMƏX′** (Ağdam) – başqasını bəyənməmək, özünü üstün tutmaq. – *A bala, nə xorazey eliyirsəŋ, hamının dədəsi də məhlimdi, babası da.*

**XORXOR** (Zaqatala) – uşaq oyunu adı.

**XORXORU** (Cəbrayıl) – irigiləli üzüm növü.

**XORT** (Zəngibasar) – ögey. – *O, mə:m xort qardaşımdı.*

**XORTDAMA** (İmişli, Salyan) – inaq <camışda>. – *Keçən il Həmidin gomşunı xortdama tutmuşdu* (Salyan).

**XORTDƏK** (Kürdəmir) – inaq <camışda>.

**XORT: XORT DÜŞMƏG** (Cəlilabad) – tez və bərk yuxuya getmək. – *İncığ adam xort düşər.*

**XORTUM** (Goranboy) – dəvədabanı.

**XORUQ** (Qax) – tavan.

**XORUM** I (Basarkeçər, Culfa, Hamamlı, Ordubad, Zəngilan) – dərz şəklində bağlanmış ot. – *Biz otu xorum eliyif qurudarıx* (Zəngilan).

**XORUM** II (Gədəbəy, Qazax) – kiçik ot tayası, qotman. – *Martda mərəx′ yarı gərəx′, Apreldə bir xorum otun gərəx′* (Qazax).

**XORUMÇU** (Naxçıvan) – otu dərz kimi bağlayan <adam>. – *Xorumçu otu yumuruyur çöldə.*

**XORUMLAMAX** (Naxçıvan, Zəngibasar) – otu dərz şəklində bağlamaq. – *Kərəntiynən oti bişdix′ xorumladıx; – Bizim qalxozza otu Mirhəşim xorumlı:r* (Naxçıvan); – *Dünən on bağ ot xorumlamışam* (Zəngibasar).

**XORUZ** I (Kürdəmir) – qozun bütöv ləpəsi.

**XORUZ** II (Göyçay) – nar çiçəyi.

**XORUZ** III (Kürdəmir) – qapı cəftəsinin bərkidildiyi yer.

**XOŞDƏLLIĞ** (Lerik) – zarafat.

**XORUZBAVACURVER** (Ağdam) – uşaq oyunu adı.

**XORUZBİBİQİ** (Qax) – yabanı bitki adı.

**XORUZBOZ** (İmişli) – erkək qırqovul. – *Cü:rdə iki xoruzboz var, vurmadım.*

**XORUZƏX′** (Ordubad) – b a x **xoruzəy.** – *Uşax xoruzəx′ olub.*

**XORUZƏY** (Lənkəran) – inaq <adamda>.

**XORUZPİPİYİ** (Ağbaba, Laçın) – b a x **xoruzbibiqi.**

**XORVİÇƏ** (Zaqatala) – arı beçəsi.

**XORYAT** I (Ağdam) – satqın. – *Ə:, nə xoryat adammış, gedif Qaracadan sədriyə şikə:t eliyif.*

**XORYAT** II (Ağdam, Balakən) – çirkin, kifir. – *Yox ə:, xoryatın biridi, sir-sifətinnən zəhrimar yağır* (Balakən).

**XOS** (Astara, Lənkəran) – qəşəng. – *Sagır Əlinin oğli Murad yaman xosdu* (Lənkəran).

**XOSƏK** (Naxçıvan, Ordubad, Şərur) – daxma. – *Həsən bir dam tikib özünə, o əv də:l, bir xosəkdi, canım* (Naxçıvan); – *Mə:m balaca bir xosəyim var* (Ordubad).

**XOSMA** (Füzuli) – daxma.

**XOSMAT** (Hamamlı) – qısaboy.

**XOSUNNAŞMAX** (Ağdam, Bərdə) – b a x **xısınnaşmax.** – *Güncə çəkilif nə xosunnaşırdıŋız?* (Ağdam).

**XOŞA** (Balakən, Qax) – gəndalaş. – *Çeperi tamam xoşa basıpdı* (Balakən); – *Bizim evin yanında çoxlu xoşa pitib* (Qax).

**XOŞAMADIYNAN** (Qazax) – xoşluqla. – *Xoşamadıynaŋ deyəsəŋ yaxşıdı.*

**XOŞDAFLIX** (Qazax) – zarafat. – *Xoşdaflıx ele:rəm əzzim, ajığın tutmasın.*

**XOŞDƏLLIĞ** (Lerik) – zarafat.

**XOŞƏ** (Qax) – b a x **xoşa.**

**XOŞƏX′** (Bərdə) – xəstəlik nəticəsində saralıb tökülən meyvə.

**XOŞƏX′LƏMƏX′** (Bərdə, Cəbrayıl) – xəstəlik nəticəsində saralıb tökülmək <meyvəyə aiddir>. – *İncil xoşəx′liyif tökülüf* (Bərdə).

**XOŞGƏBƏR** (Quba) – xonça.

**XOŞTABLIX** (Qax) – zarafat.

**XOTAZDAMMAX** (Çənbərək) – lovğalanmaq. – *İfan yaman xotazdanır.*

**XOTEX′** (Şəki) – iki yaşına qədər camış balası. – *Xotex′ iki yeşinə çatana kimi, kəl qəddinə çatana kimi diyirıx.*

**XOTƏX′** (Ağdam, Zərdab) – b a x **xotex′.** – *Bizim xotəx′ ağzını ota vurmur.*

**XOTXOTİ** (Bakı) – üzüm növü.

**XOTMA** I (Ağdam, Çənbərək, Daşkəsən, Gədəbəy, Xanlar, Kəlbəcər, Qazax, Mingəçevir, Şuşa, Tovuz) – b a x **xıtma.** – *Həsən otuz xotma ot piçif;* – *Bir inəyə yeddi xotma ot lazımdı ki, yaza çıxsın* (Daşkəsən); – *Dünən iki xotma ot yığmışam* (Gədəbəy).

**XOTMA** II (Borçalı, Goranboy, Qazax, Tovuz) – daxma. – *Munnan qavax elə xotmada olordux, belə öylər yoxuydu* (Borçalı).

**XOTMALAMAX** (Goranboy, Qazax, Şuşa) – çalınmış otu topa-topa yığmaq, qotmanlamaq. – *Otu kərəntiynən çalerdıx, onnan otu xotmale:rdıx* (Qazax).

**XOTMAN** (Ağdam, Kürdəmir) – b a x **xıtma.** – *Ot quruyannan so:ura xotman vurullar* (Kürdəmir).

**XOTMAR** (Balakən, Zaqatala) – b a x **xıtma.**

**XOTU** (Borçalı) – dəvədabanı. – *Xotu yarpağını çıvanın üsdünə qoyullar.*

**XOTUM-XOTUM** (Goranboy) – topa-topa. – *Otu xotum-xotum yığıf xotmale:rıx.*

**XOTUR** (Qax) – odun topası.

**XOYGİR** (Beyləqan) – bədxasiyyət, dəlisov <at>. – *Kürən at yamanca xoygirdi.*

**XOYUN** I (Ordubad) – suvarılmamış əkin sahəsi. – *Sabah düzəndəki xoyunu suvarmalısĩ:z?*

**XOYUN** II (Culfa) – sovurmaq üçün bir yerə yığılmış, döyülmüş taxıl və ya çəltik. – *Yel əsir, xoyunu sovurmax lazımdı.*

**XOZAN** I (Ordubad) – müvəqqəti dincə qoyulmuş <torpaq yer>. – *Bırda xozan yer yoxdi.*

**XOZAN** II (Basarkeçər, Gədəbəy, Hamamlı, Qarakilsə) – küləş. – *Bəy əlimizdən alardı, bizə xozan qalardı* (Gədəbəy). – *Qırxılmamış yuŋumuz, xırmandakı dənimiz, xozanımız* (Hamamlı).

**XOZAN** III (Mingəçevir) – buğdanın nazik qabığı.

**XOZAN** IV (Zəngibasar) – darağın dişlərində yığılıb qalan yun, tük. – *Başıyın xozanın buralara atma.*

**XOZANNAMAX** (Zəngilan) – baramanı şaxdan yığmaq. – *Böyün baramanı xozannadıx qurtardıx.*

**XOZDUX** (Cəbrayıl) – lovğalıq.

**XOZULANMAĞ** (Sabirabad) – lovğalanmaq. – *Arif, sən heç də xozulanma.*

**XÖDƏX′** (Daşkəsən) – hodaq. – *Xödəğim azarradığına əkəmmədim dünənnəri; – Qonşunun qədəsini xödəx′ götürmüşəm özümə.*

**XÖRƏZƏX′** (Qazax) – b a x **xoruzə.**

**XÖRYƏT** (Şuşa) – b a x **xoryat.** – *Nə xöryət sifətiŋ var, sã: baxanda adamın ürə:qalxır.*

**XÖSƏK** (Ordubad) – b a x **xosək.** – *Mə:m balaca bir xösəyim var.*

**XÖŞƏX′** (Zəngilan) – b a x **xoşəx′.**

**XÖŞƏX′LƏMƏX′** (Zəngilan) – b a x **xoşəx′ləməx′.** – *Alma ağaclarının meyvəsi bu il xöşəxliyib′ töküldü.*

**XÖTƏX′** (Ağdam, Goranboy, Göyçay, Kürdəmir, Qəbələ, Oğuz, Tərtər, Ucar, Zəngilan, Zərdab) – b a x **xotex′.** – *Xötəyi camışdan ayırmax olmuyur* (Ağdaş); – *Xötəyi çox əmizdirün kü, ərsə: gəlsün* (Kürdəmir).

**XRAM** (Bolnisi) – b a x **xıram** II.

**XUBAN** (Culfa) – camaat, rəiyyət.

**XUÇA** (Balakən) – uçuq sökük ev, bina. – *Olar təzə öylərini xuçanın daşıynan tikdilər.*

**XUDIRI** (Ordubad) – nahaq, əbəs.

**XUDİX′** (Meğri) – fikir, dərd, qəm, qüssə. – *Xudix′ elamax adamın ömrünə balta çaley.*

**XUDKEŞ** (Füzuli) – atadan yetim qalmış uşaq.

**XUDRİ** (Şərur) – b a x **xudırı.**

**XUDRU** I (Cəbrayıl, Füzuli, Naxçıvan, Zəngilan) – b a x **xudırı.** – *Xudru yerə İbrahim vaxtını keçirir, oxumur* (Zəngilan).

**XUDRU** II (Ağdam) – ancaq.

**XUDUX** (Ordubad) – b a x **xudix′.** – *Çox xudux eləmə.*

**XUDUR** (Quba) – qaramal üçün düzəldilən yal.

**XUDURU** I (Borçalı, Cəbrayıl, Meğri, Naxçıvan, Zəngilan) – b a x **xudırı.** – *Xuduru yerə getmə:n, tükan bağlıdı* (Zəngilan).

**XUDURU** II (Qazax) – əkin sahəsinə tökülən sünbüllərdən öz-özünə bitən taxıl.

**XUQARI** (Qax) – b a x **xoqar.**

**XUQARİ** (Zaqatala) – b a x **xoqar.** – *Bu gün iki xuqari düzəltmişəm.*

**XUL** (Bakı) – acgöz. – *Xul kimi soxulub çörəgə.*

**XULA** (Borçalı) – taxça.

**XULXA** (Tovuz) – yeməli yabanı bitki adı.

**XUM** I (Zəngibasar, Naxçıvan, Şahbuz) – böyük saxsı küp. – *Xum üçüz <üç yüz> litir su tutur* (Naxçıvan); – *Xuma qabaxlarda yağ doldururdux, doşab doldururdux, indi də çaxır qoyurux* (Şahbuz).

**XUM** II (Qarakilsə) – dəstəbaşçısı. – *O vədə İstepa xum gəlip çıxmışdı bıra.*

**XUMU** (Təbriz) – saxsı qab. – *Xumu uşağın əlinnən düşip sındı.*

**XUMUR** (Balakən) – yemək.

**XUNACİN** (Dərbənd) – düyə. – *Xunacini var, satadam.*

**XUNDUŞ** (Oğuz) – yabanı bitki adı. – *Xunduşu maral yeyəndə buynuzu düşür.*

**XUNKAR** (Lerik) – davakar.

**XUNKƏLDİM** (Mingəçevir) – uşaq oyunu adı.

**XUNQ** (Qax) – bişmiş pendir. – *Adaş, mağa xunq qetmisanmı?*

**XUNTXUMAX** (Zaqatala) – qaşqabağını sallamaq.

**XUNU: XUNU OLMAX** (Gəncə, Goranboy) – südü kəsilmək. – *Şişəx′ doğuf xunu oluf, quzusun ayrı qoyun əmizdirir* (Goranboy).

**XUNÜHLƏMAX** (Şəki) – yadırğamaq. – *Xunühliyifdi də: uşax, ciyisini isdiyi.*

**XURCUNTAYI: XURCUNTAYI DÜŞMƏX′** (Qazax) – eyni vəziyyətdə yıxılmaq (güləşmə zamanı hər iki güləşənə aiddir). – *Heş biri yıxmadı, xurcuntayı çüşdülər.*

**XURDALI** (Xanlar) çala-çuxur. – *Xurdalı yerdə böyüx′ dağ-dərə olmaz.*

**XURDAY** (Qax, Zaqatala) – düyü qırıntısı. – *Xurdaydan süp bişirirəm* (Zaqatala).

**XURİŞ** (Qax, Zaqatala) – zirək.

**XURMUD** (Xanlar) – ağac növü. – *Xurmud bir şə: <şeyə> yara:n <yarayan> ağaş döy, onnan öy də tix′məzdər, heş bir şə: lazım döy.*

**XURNİX′** I (Şəki) – b a x **xirnək.**

**XURNİX′** II (Şəki) – b a x **xirnix′** II. – *Xurniyi so:x kesə, üsdünə qar düşə so:ra yiyəsən.*

**XURSAN** (Tabasaran) – rəf.

**XURTUM** (Qusar) – xirtdək.

**XURTUN** (Zaqatala) – çirkin, kifir.

**XURUNCAX** (Mingəçevir) – yelləncək.

**XURUSTAN** (Dərbənd) – b a x **xiristan.** – *Əvümüzdə təkcə ulmayançün bodyələrimizi həmsin xurustana quymişəm.*

**XURUŞ** I (Bakı, Zəngilan) – açıq, hirs. – *Xuruşunnan heç bilmir nə eləsin* (Zəngilan).

**XURUŞ** II (Quba) – balaca dayaz boşqab.

**XURUŞDU** (Quba) – acıqlı, hirsli.

**XURYAT** (Zaqatala) – b a x **xoryat.** – *Bizim inək xuryat bala doğufdu.*

**XURYET** (Quba) – əhval, vəziyyət. – *Bu uşağın xuryeti pisdü.*

**XUSSAR** (Meğri) – xüsusən. – *Xussar, Fərman xalo:lumu görməx′dən ötərin gəlmişəm Əldəriyə.*

**XUSUNNAŞMAX** (Cəbrayıl) – b a x **xısınnaşmax.**

**XUŞKƏVƏR** (Ağdam) – bayram sovqatı.

**XUŞUR** (Zaqatala) – çör-çöp. – *Uşaxlar, gəlin xusur yığax.*

**XUT** (Qax) – divar şkafı. – *Xuti süpürüp sil, so:ra qab-qacağı hora yığ.*

**XUTMEÇƏ** (Meğri) – tut tingliyi.

**XUY** (Qazax, Şəki, Tovuz) – xasiyyət, xarakter. – *Xuyunu bilmədiyin atın dalına niyə keçirsəŋ?* (Tovuz); – *Atı at yanna bağlasan at xuyu götürər, it yanna bağlasan it* (Şəki).

**XUYAR** (Lənkəran) – xaşxaş qabığından düzəldilən yuxu dərmanı. – *Uşağ yatmır, xuyar ver, qoy yatsın.*

**XUYDAR** (Qazax) – bədxasiyyət, dəlisov <at>. – *At xuydardı yıxar səni.*

**XUYGİR** (Goranboy, Ordubad, Şərur) – b a x **xoygir.** – *Bı kətdə xuygir at yuxdu;* – *Nəği:n atı xuygiriydi, satdı* (Ordubad).

**XUYXARUX** (Xanlar) – qoz çırpmaq üçün nazik uzun ağac.

**XUYLANMAĞ** (Xaçmaz, Quba) – həyəcanlanmaq. – *Nüş xuylanasan, burda bir şey yuxdu ki* (Quba).

**XUYLANMAX** I (Qax, Mingəçevir, Şəki) – b a x **xuylanmağ.** – *Üşax xuylanıtdı biraz, qorxutdu diyəsən* (Şəki).

**XUYLANMAX** II (Tovuz) – şübhələnmək. – *Mənnən naxaxca xuylanırsaŋ, mən səŋ də:n döyləm.*

**XÜDÜX′: XÜDÜX′ TUTMAX** (Zəngibasar) – qıdığı gəlmək. – *Xüdüyü tutur onun.*

**XÜDÜX′LƏMƏX′** (Zəngibasar) – qıdıqlamaq. – *Yapışdı belimnən, başdadı məni xüdüx′ləmə:.*

**XÜ:GƏR** (Cəlilabad) – b a x **xüyər.** – *Xü:gər oni dünyadan xəbərsiz elədi.*

**XÜLƏGƏN** (Quba) – xain, paxıl. – *Güzdərinnən bilmağ uladu ki, u xüləgən adamdu.*

**XÜMÜR-XÜMÜR** (Bakı) – yavaş-yavaş.

**XÜNÜX′** (Qafan, Şərur) – ılıq (su).

**XÜRŞ** (Dərbənd) – yeni doğmuş heyvanın ilk südündən bişirilən yemək. – *Bala, yi bu xurşi, büzə qünşi götürütdü.*

**XÜVƏL** (Xaçmaz) – b a x **xivəl.** – *Heyvanın xüvəli lap yırtılıb.*

**XÜYƏR** (Salyan) – bihuşdarı.

**XÜYYƏR** (Salyan) – b a x **xüyər.** – *Xüyyər uşağı yatırdır, həmi sakit eliyir.*

# İi

**İBARAT** (Meğri) – təşəxxüs, əda, fors. ◊ **İbaratınnan cırılmax** – təşəxxüslənmək. – *Xurşudun qardəşi Səfiyar ibaratınnan cırılır.*

**İBƏRMEG** (Dərbənd) – göndərmək. – *Əvvəl xatun ibəreydi, sora qişi ibəreydi.*

**İBİCƏLƏNMAX** (Qax, Zaqatala) – xarab olmaq.

**İBİNİY** (Qax) – kiflənmiş.

**İCARAÇI** (Basarkeçər) – xidmətçi, kuryer.

**İCƏŞMAX** (Şəki, Zaqatala) – sataşmaq. – *İcəşmağa adam tapbiysammi?* (Şəki).

**İCƏŞMƏXʹ** (Şahbuz, Şərur) – b a x **icəşmax.** – *Sən mã: nə icəşirsən, canım* (Şahbuz).

**İCİ** (Zaqatala) – qardaş. – *İci, mənim kərkimi usduya aparsana.*

**İCİLEY** (Zaqatala) – qardaşarvadı.

**İCNƏVUR** (Balakən, Qax, Zaqatala) – evdə içalatdan hazırlanan kolbasa.

**İCRA:ÇI** (Şəki) – b a x **icaraçı.** – *İcra:çını göndər, Əyyuvu çağırsın bura.*

**İÇÇİ: İÇÇİ ƏL** (İmişli) – işçi. – *Mə:m iççi əlim yoxdı.*

**İÇ ELƏMƏG** (Bakı, Salyan) – dilimləmək. – *Qarpızı iç elə yiyəg* (Salyan).

**İÇXALAMAĞ** (Salyan) – dəfələrlə soruşmaq, həqiqəti öyrənməyə çalışmaq. – *Sabirəni içxalasan da bir şey örgənə bilməssən.*

**İÇƏRMƏXʹ** (Çənbərək) – qalamaq. – *Ojağı içər, yansın.*

**İÇİYARA** (İmişli) – vərəm (qoyunda).

**İÇYARA** (Ağdam, Xocavənd) – b a x **içiyara.** – *İçyara azardı da, qoyunun içi yaro:lur* (Xocavənd).

**İDA** (Qax) – ana.

**İDDƏLƏŞMƏXʹ** (Çənbərək) – mənasız, yersiz mübahisə etmək. – *Ağa:rnan <Ağayarla> Veysəl bildirdən bəri çox iddələşir.*

**İDƏ** (Qax) – b a x **ida.** – *İdələr xoşbax olan dünyədi.*

**İDƏM** (Ağdaş, Göyçay) – yavanlıq. – *Axşama idəm hazırrıyırsammı?* (Ağdaş).

**İDƏŞMƏXʹ** (Borçalı, Salyan) – b a x **iddələşməxʹ.** – *Ə:, nə idəşirsiŋiz, gediŋ uşaxları gətiriŋ* (Borçalı).

**İDİLƏMƏXʹ** (Çənbərək) – qızışdırmaq. – *Qara idilədi, uşağı bir-birinə qırdıdı.*

**İDİM** (Ağbaba, Bərdə, Mingəçevir, Şəki, Ucar) – görkəm, forma, zahiri görünüş. – *Onun idimi düzələn döyül* (Ağbaba); – *Bircə sə:n idiminnən qorxuram* (Ucar).

**İDİMSİZ** (Şəki, Zaqatala) – çirkin (adam).

**İDİŞMAX** (Meğri) – b a x **idəşməxʹ.** – *Gödəxʹ Qara katda hamiynan idişey.*

**İDMAX** (Şəki) – itələmək. – *Duran yerdə gəldi məni iddi;* – *Məni idmə.*

**İFAL** (Yardımlı) – utancaq. – *O, ifal qizə oxşay.*

**İFALLI** (Ağdaş, Göyçay, Kürdəmir, Saatlı, Salyan, Ucar) – xoşxasiyyət; mədəni. – *İfallı adamın hər yerdə hürməti olar* (Ucar); – *Elə ifallı gəlindi ki, nətə:r* (Salyan).

**İFÇİN** I (Borçalı, Xanlar, Qazax, Tovuz) – səliqəli.

**İFÇİN** II (Zaqatala) – möhkəm, yaxşı. – *Büyün atı ifçin nalladacam.*

**İFİDƏNƏ** (Şərur) – lavaşı təndirə yapmaq üçün alət.

**İFİLE** (Tovuz) – balıqdan hazırlanan xörək adı. – *İfileyi balıxdan pişirerixʹ.*

**İFİRDƏ** (Culfa) – b a x **ilfidə.**

**İFİTƏ** (Naxçıvan) – b a x **ilfidə.**

**İFLƏMƏXʹ** (Çənbərək, Karvansaray) – aldatmaq. – *Veysəl yaman iflədi Haxverdiyi büyünnəri* (Karvansaray).

**İFLİDƏ** (Zəngilan) – b a x **ilfidə.**

**İFLİY** (Barana) – bel sütunu. – *İfliyi qırılmış yaxşı qaça bilmədi.*

**İGƏŞGƏNNİG** (Cəlilabad) – mübahisə. – *Nə igəşgənnig başdədün, hə.*

**İGƏŞMƏG** (Cəlilabad, Kürdəmir) – mübahisə etmək. – *Qıza, ginə nə igəşeysən, əl çəksənə* (Cəlilabad).

**İGƏŞÜG** (Yardımlı) – mübahisəli. – *Bu igəşüg şehi nəyə gətireysən.*

**İGNƏQAXAN** (Dərbənd) – üstünə iynə sancılan kiçik yastıqça.

**İGNƏSANCAN** (Dərbənd) – b a x **ignəqaxan.** – *İgnəni ignəsancana sanc.*

**İGNƏŞORAN** (Salyan) – yovşan. – *Geyilməyən paltarın, xalçanın arasına ignəşoran qoyıllar ki, güə dəgməsin.*

**İGNƏTUTMAZ** (İmişli) – bacarıqsız, əlindən iş gəlməyən. – *Bi ignətutmaz gəlnimiz var, salığası da bıdı.*

**İXDİLAT** (Şəki) – söhbət.

**İXDİLƏTİN** (Qax) – söhbətcil. – *Ziba ixdilətin arvatdı.*

**İXDİYAR** I (Şəki) – var-dövlət. – *İxdiyarı aşif-daşiydi, heylə varrılar variydi.*

**İXDİYAR** II (Borçalı) – qoca. – *Qolxozda mala gedirdim, indi də ixdiyaram, işdiyə bilmirəm.*

**İXDİYARRAMAX** (Çənbərək) – qocalmaq. – *Cındır Fərzalı Əhmədə verdi pişqıyı <bıçqını>, ixdiyarrıyıf, işdiyəmmir da:.*

**İXLAS** (Qax) – xörək adı. – *Qoyunun yoğun bağırsağının içinə piynən darı ununu qarışdırıp ixlas pişiriylər.*

**İXSIMAĞ** (Salyan) – avaralanmaq. – *Axşamacan ixsıyırsan qapıları, yıxıl oti öydə də.*

**İXSIYA-İXSIYA** (Salyan) – sıxıla-sıxıla, çəkinə-çəkinə. – *Elə ifallı gələndi ki, sözi adama ixsıya-ixsıya deyir.*

**İXTİLAT** (Tabasaran) – bax **ixdilat.** – *Gəlmacı əsgi ixtilatdar iləyətdü.*

**İJLAH** (Ağdam) – camaat. – *İjlahın içində məni biabır elədi.*

**İJMAN** (Xanlar) – birlikdə.

**İKİBAŞDAN** (Yardımlı) – indi ki. – *İkibaşdan belədü, işüy etibarrı tut.*

**İKİLƏMƏ** (Füzuli, Mingəçevir, Oğuz, Tovuz, Zaqatala) – ikinci şum. – *İkilədən sonra toxumu səpirixʹ, çıxanda görürüxʹ haqıyqatan çıxdı* (Tovuz).

**İKİLƏMƏXʹ** (Qazax, Tovuz, Zaqatala) – ikinci dəfə şumlamaq. – *İkiləməyə gedirəm yeri* (Qazax); – *Oranı ikiliyib qurtardıηmı?* (Zaqatala).

**İKİLİ** (Füzuli) – birə iki, ikiqat. – *İki bayda buğda verrixʹ, bi bayda soğan verillər, soğanı ikili verillərdi.*

**İKİLİ-BİRRİ** (Qazax) – birə iki, ikiqat. – *Arpeynan buğduyu ikili-birri dəyişer.*

**İKİNDİ** (Borçalı, Xaçmaz, Quba) – axşamüstü, günbatan vaxtı.

**İKİSİL** (Ağdərə, Kəlbəcə) – cüt, əkiz. – *Qoyun ikisil doğur* (Kəlbəcər).

**İKİTDİ** (Lənkəran) – bax **ikindi.** – *İkitdi vaxtıdı, dur gör heyvan gəle:y?*

**İQRAQ** (Dəvəçi) – uzaq.

**İLALLOUV** (Zaqatala) – quş adı, sarıköynək.

**İLANDİLİ** (Oğuz) – bitki adı. – *İlandili na:ziy uzun otdu, köhdən küləş olur, so:ra üş-dört qıça ayrılır.*

**İLANGÜLÜ** (Ordubad) – çiçək adı, sarı çiçək.

**İLANQABIĞI** (Salyan) – parça növü. – *İlanqabığınnan qız-gəlinnər tuman tikdirib gi:llər.*

**İLANQARIŞQA** (Şuşa) – nazik, uzun qarışqa. – *İlanqarışqa adamı yaman sancır.*

**İLANYALI** (Qazax, Tovuz) – uzunsov ot tayası. – *Qalxozun ilanyalıları çoxdu* (Qazax).

**İLAZUN** (Bakı) – həmişə. – *Onun anası ilazun qalxozda işdi:r.*

**İLDIR-İLDIR** (Bakı) – gilə-gilə. – *Gözü:n yaşını ildır-ildır tökürdü.*

**İLEY** (Qazax) – qabaq. – *İleyində ölöm, a Qurvan.*

**İLFİDƏ** (Qarakilsə) – təndirə çörək yapmaq üçün işlədilən alət.

**İLFİTƏ** (Zəngilan) – bax **ilfidə.** – *İlfitiynən təndirə çöräxʹ yaperıx.*

**İLGA** (Balakən, Zaqatala) – sıra, ardıcıllıq, növbə. – *Tütünü ilgeynan düz, yorulmazsan* (Balakən); – *İlgeynan düzəltmağa isdi:rəm* (Zaqatala).

**İLGİÇ** (Zaqatala) – ilgək.

**İLĞIM** (Əli Bayramlı, İmişli, Kürdəmir, Qazax, Saatlı, Sabiribad, Salyan) – sərab. – *İlğım adamı allader* (Qazax); – *İlğım yayda issidə olır* (İmişli); – *İlğım küdri yerdə olır* (Sabirabad).

**İLĞIMAX** (Borçalı) – gözdən itmək. – *Alı ilğıdı çöldə.*

**İLĞIMSIZ** (Gədəbəy) – çox, saysız-hesabsız. – *Sa:yıx, qutarmağ olmor ha qoyun-keçi:, ilğımsızdı.*

**İLĞIN** (İmişli) – bax **ilğım.**

**İLİ** (Göyçay) – ana.

**İLİG** (Qax) – çəyirdək. – *Sancaxnan ağ bə:linin iligini çıxarıp murabba pişiriy.*

**İLİMQULĞUNA** (Çənbərək) – fırıldaqçı. – *İlimqulğuna adamı yörəndə hirsdənir Qurvan.*

**İLİŞGƏN** (Füzuli) – asqı. – *Torvanı ilişgənnən as.*

**İLİŞMƏXʹ** (Ordubad) – çatmaq. – *Səni atun mə:m atıma ilişmədi.*

**İLİTMƏ** (Cəbrayıl) – ılıq (yumurta). – *Doxdur dedi ki, çoxlu ilitmə yumurta iç.*

**İLİTMƏX′** (Yevlax) – ılıq etmək, isitmək. – *Ay Nahab bajı, dur südü ilit, mayala.*

**İLKİNDİ** (Ağdam, Borçalı, Göyçay, Hamamlı, Qax, Qazax, Mingəçevir, Oğuz, Şəki, Şəmkir, Zaqatala) – bax **ikindi.** – *Gün batana yaxına de:rix′ ilkindi* (Oğuz); – *Xoruz sə:r də maŋlıyır, günorta da maŋlıyır, ilkindi də* (Şəmkir); – *Öydə olginən, ilkindi vaxdı sizə gələcağam* (Zaqatala).

**İLKİNƏ** (Bakı, Salyan) – ilk dəfə. – *Mərcanın gəlini ilkinə qız doğdu* (Salyan).

**İLQAC** (Ağbaba) – yanını basa-basa. – *Heydarın qızı ilqac yeriyir.*

**İLQAŞDIMAX** (Meğri) – tələsmək, cəld getmək. – *Adam olan Darbəriyə tərəf ilqaşdırır, bilmirəm nə var.*

**İLLAC** I (Şərur) – taqət, güc. – *İllacım olmur kin, bırdan duram, orda oturam.*

**İLLAC** II (Salyan, Zəngilan) – əlac. – *İllac qaldı darı xirməninə* (Salyan).

**İLLAH** (Bakı, Cəlilabad, Salyan, Mingəçevir) – xüsusən. – *Dərman yaxşidi, illah da analgin ola* (Cəlilabad).

**İLLAHIM** (Zəngilan, Şərur) – bax **illah.** – *Bı uşaxlar, illahım da sə:n oğlun yaman nadişdi* (Zəngilan).

**İLLAHTA:LA** (Salyan) – yaxşı. – *İllahta:la, sən diyən olsun.*

**İLLAP** (Şərur, Zəngilan) – lap. – *Davarı illap uzaxlara aparırdıx* (Şərur).

**İLLƏT** I (Quba) – xəstəlik adı.

**İLLƏT** II (Salyan) – məqsəd, fikir. – *Sə:n nəsə başqa illətin var, özün dimirsən.*

**İLMAĞ** (Sabirabad, Salyan) – ılıq.

**İLMAMMAX** (Ağdam) – dırmaşmaq. – *Bir qaydada ilmandım ağaja.*

**İLMANDA** (Cəbrayıl) – yoğun ip.

**İLMANĞI** (İmişli, Sabirabad, Salyan) – bax **ilmanqi.**

**İLMANQI** (Əli Bayramlı, Şərur, Masallı, Salyan) – bax **ilmanqi.**

**İLMANQİ** (Cəlilabad, Kürdəmir) – ılıq. – *Suyi ilmanqi elə, gəti tökginən əlimə* (Cəlilabad).

**İLMANQU** (Lənkəran) – bax **ilmanqi.** – *Su: ilmanqu eləmiəsə:n?*

**İLMARMAĞ** (Dərbənd) – yalvarmaq. – *Mən məniçü ilmarsam da, o mənə ögüd vereydi.*

**İLMƏBASMA** (Salyan) – işlək, zirək. – *İlməbasmadı, bir də:qə bi yerdə diyammır.*

**İLMƏKGÜLMƏK** (Salyan) – ilmək. – *İpi ilməkgülmək elə bağla inəyin ayağına.*

**İLMİDDƏM** (Bakı, Cəbrayıl, Xaçmaz, Kürdəmir, Zəngilan) – həmişə. – *Bı uşaxlar ilmiddəm yolun üsdündə oynuyur* (Cəbrayıl); – *İlmiddəm bı küçələri boş-boş gəzmə, ged işdə* (Xaçmaz).

**İLMİNƏ-QULĞUNA** (Çənbərək) – ara-qarışdıran, sözgəzdirən. – *Sənəm qarı yaman ilminə-qulğuna arvatdı.*

**İLMİZA:LIM** (Füzuli, Zəngilan, Şərur) – həmişə. – *İlmiza:lım avara gəzir* (Füzuli).

**İLPETMƏX′** (Borçalı, Qazax) – qorxmaq. – *Qarannıxda uşax ilpedir* (Qazax).

**İLPEYETMƏX′** (Borçalı) – ürpəşmək. – *Denən o simavarı yavaş sürtsün, ətim ilpeyedir.*

**İLTİ** (Xaçmaz, Quba) – bax **elti.**

**İLVAH: İLVAH OLMAX** (Qazax) – rədd olmaq. – *Başımnan ilvah ol, sən allah.*

**İMAX** (Dərbənd) – yemək. – *Uşağlar imağa getdi;* – *Qomuşlar <camışlar> biçan <ot> iyələr;* – *Hindi xinqal iyədüğ.*

**İMANIKOR** (Şuşa) – uşaq oyunu adı. – *İmanıkorda mətə qazırıx.*

**İMARAT** I (Füzuli) – yumşaq, narın. – *Torpax gərəy imarat ola ki, bi şey bitə.*

**İMARAT** II (Zaqatala) – qadınlar üçün qiymətli metallardan hazırlanan bəzək şeyləri. – *Bizin gəlinin imaratı var.*

**İMARƏT** I (Füzuli) – bax **imarat** I.

**İMARƏT** II (Göyçay) – 1. yaxşı; 2. qiymətli. – *Belənçiyinə imarət iş görürsən.*

**İMƏNNƏ** (Salyan) – ev əşyaları. – *Zərifə gəlin köçəndə düz iki maşın imənnə aparmışdı.*

**İMİNYA** (Zaqatala) – bax **əmənniyə.**

**İMİRƏMMƏX′** (Mingəçevir) – güvənmək. – *O, gücünə imirənir.*

**İMQA** (Füzuli) – dəstə. – *İmqa qayırıllar.*

**İMLIĞ** (Əli Bayramlı, Salyan) – ip qırıntıları. – *Hökümə qarı xalçanın imlığın qaytardı* (Əli Bayramlı).

**İMRƏMMƏG** (Əli Bayramlı) – balasını istəyərək səs çıxarmaq (inəklərdə).

**İMRƏMMƏX′** (Çənbərək, Daşkəsən, Gədəbəy, Hamamlı, Karvansaray, Qazax) – b a x **imrəmməg.** – *İnəx′ gəlif qapıda imrəner, dur get buzoynu altına burax, sağ* (Qazax); – *Buzoyu görüf imrəner inəx′* (Karvansaray).

**İMRƏNCİ** (Qazax) – təmizkar, səliqəli. – *Güllü yaman imrənci qızdı, qoymor öyə bir çöf çüşə, öyü gümüş kimi saxler.*

**İMRİX′** (Gədəbəy, Qazax, Şəmkir) – iri (un). – *Un yaman imriy ü:nüf nəm olduğuna* (Gədəbəy).

**İMSEK** (Balakən, Zaqatala) – obaşdan. – *İmsekdən get, gəti də* (Zaqatala).

**İMSİLƏMƏX′** (Qarakilsə) – iyləmək.

**İN** I (Quba) – qoxu, iy. – *Üzərrigi yandıraduğ, yaxşı in verədü.*

**İN** II (Culfa, Naxçıvan, Ordubad, Şərur, Zəngilan) – hin.

**İN** III (Göyçay) – səs. – *Mənim inim ona çətin çatar.*

**İŋ** (Ağcabədi, Balakən, Bərdə, Tərtər) – b a x **in** I. – *To:ladan pis iŋ gəlir* (Tərtər).

**İNAĞ** (Bakı, Salyan, İmişli, Lənkəran) – xəstəlik adı. – *İnağ öldirir məyi* (İmişli).

**İNAX** (Füzuli, İmişli, Mingəçevir, Zəngilan) – b a x **inağ.** – *İnax olanın başınnan qan almasan ayılmaz* (Zəngilan).

**İNAHAT** (Salyan) – tərslik, inadkarlıq. – *Onsuzza Səlim inahatın yeridəcəg, pissig sə: qalacağ.*

**İNCAFARA** (Gədəbəy, İsmayıllı, Tovuz) – b a x **incavara.** – *Uşax yıxıldı, əmə incafara heş zat olmadı* (Gədəbəy).

**İNCAR** (Lerik, Yardımlı) – hal, taqət. – *İncarım yoxdu işdəməgə* (Yardımlı).

**İNCAVARA** (Cəbrayıl, Çənbərək, Karvansaray, Meğri, Zaqatala) – yaxşı ki, xoşbəxtlikdən. – *İncavara yağış bizi tutmadı* (Karvansaray); – *Açca qalmışdı bassın ayı, incavara itdər yanımda oldu* (Meğri); – *Bərx′ yağdı, incavara bizin taxıllara deymədi* (Zaqatala).

**İNCAVARADAN** (Kəlbəcər, Qazax, Şuşa) – b a x **incavara.**

**İNCAVARINA** (Mingəçevir) – b a x **incavara.**

**İNCƏFARA** (Kürdəmir) – b a x **incavara.** – *İncəfara yağışa düşmədüg.*

**İNCƏFARDAN** (Bərdə) – b a x **incavara.** – *İncəfardan yeznəm gəlif çıxdı.*

**İNCƏVARA** (Ağcabədi, Bərdə, Gəncə, Kəlbəcər, Kürdəmir, Qazax, Naxçıvan, Şəki, Şərur, Ucar, Zəngilan) – b a x **incavara.** – *İncəvara gəldim bura, sənnən görüşdüm* (Ağcabədi); – *İncəvara yağış tez kəsdi, yoxsa cumculuğ olacağdıx* (Zəngilan); – *İncəvara gedif çatdım, yoxsa canavar qırajedi qoyunu* (Gəncə); – *Gedirdim Parağaya Həsənnən ötrü, incəvara yolda qavaxlaşdıx* (Naxçıvan); – *İncəvara gəldiŋ, yoxsa gedirdim* (Ucar).

**İNCƏVARADAN** (Bərdə) – b a x **incavara.** – *İncəvaradan bu yolnan gəldi, səni görmədi.*

**İNCƏVARANA** (Cəbrayıl) – b a x **incavara.** – *İncəvarana tez gəldi.*

**İNCƏVARI** (Qarakilsə) – b a x **incavara.** – *Alının oğlu incəvarı bizi yuvatmadı.*

**İNCƏVARINA** (Zəngilan) – b a x **incavara.** – *İncəvarına heç kim görmədi, yoxsa batmışdıx;* – *İncəvarına tək o gördü.*

**İNCIX** I (Kürdəmir, Qazax) – haçadırnaqlı heyvanların ayaqlarının dalındakı çıxıntı. – *İnəyin incığı qanıyıf.* – *Camışın incığı qırıldı* (Qazax).

**İNCIX** II (Zaqatala) – topuq sümüyü.

**İNCİ** (Borçalı, Qazax) – bəzəkli qadın araqçını.

**İNÇAL** (Şəki) – tut mürəbbəsi, riçal. – *İki bərni inçal bişirmişdim, üş bərni bəhməz.*

**İNÇİXOV** (Şəki) – dağlarda bitən yeməli yabanı bitki. – *Uşaxlar inçixov dənnəməğa gidifdi.*

**İNƏKƏMÇƏYİ** (Naxçıvan) – üzüm növü.

**İNƏYİNƏX′** (Borçalı) – xanımböcəyi. – *İnəyinəy uçor.*

**İNGƏLMƏG** (Ağdam, Göyçay, Kürdəmir, Mingəçevir, Ucar) – zəifləmək, zəif düşmək. – *Görəsən. Tutu nə: ingəlib?* (Göyçay); – *Sizin bu gədə günü-günnən ingəlir* (Ucar).

**İNGİŞDƏ** (Şəki) – üskük. – *İngişdəsiz heş nə tikə bilmirəm.*

**İNİ** (Balakən, Qax, Şəki, Zaqatala) – qayın, arvadın ərinin qardaşı. – *Zəhranın inisinin toyunda Bakidən gəlmişdi oxiyən* (Şəki); – *Qelin di: ki, menin inisi sizə qelipbi?* (Qax).

**İNİMİŞ** (Quba) – zəif. – *Biz zağar da diyəduğ, inimiş də diyəduğ.*

**İŋİRİX′** (Tovuz) – qaranlıq.

**İNQILIX** (Ağdaş) – hadisə. – *İndiyə kimi belə inqılıx görümmüyüb.*

**İNQİRAĞ** (Əli Bayramlı) – sərab.

**İNNAF** (Şəki) – xəstəlik adı, sətəlcəm. – *Çox pis xəsdəlıxdı innaf.*

**İNNƏCUZ** (Zaqatala) – ifritə. – *Bunun supatına baxala, lap innəcuza oxşiyir.*

**İNRİX′** (Ağdam) – b a x **iŋirix′.** – *İnrix′ çöx′mü:f, göz-gözü görmür.*

**İNTİLAH: İNTİLAH OLMAX** (Qax) – doymaq. – *Yaxşı intilah olmadın, bi xivə də yisənə.*

**İNTİVAX** (Qazax) – vaxt, zaman, an. – *Uşaxlar boğuşordu, Söyün elə o intivaxda gəlif çıxdı.*

**İPÇƏ** (Qarakilsə) – parça.

**İPƏGƏZƏR** (Zəngilan) – bitki adı. – *İpəgəzəri heyvan ye:r.*

**İRAGAL** (Xaçmaz) – şumlama zamanı kotanın açdığı şırım. – *İragala su düşib, üsdən aşağa axa var.*

**İRAĞAC** (Cəbrayıl) – faraş.

**İRAĞBƏTTİ** I (Qarakilsə, Salyan) – layiqli; münasib. – *Əşi, irağbətti adam tapbadıŋ qohum olmağa:?!* (Qarakilsə).

**İRAĞBƏTTİ** II (İmişli, Saatlı, Şamaxı) – ehtiyatlı, ehmallı. – *Şüşəni irağbətti gətir, salıb sındırarsan* (Saatlı).

**İRAH** (Salyan) – yaxşı. – *Nolub ona, Avdılla lap irah adamdı.*

**İRAQQAZI** (Kəlbəcər) – 1. rahat; 2. kefi kök. – *İşimi görüb, iraqqazı uzammışam.*

**İRAQQI** (Basarkeçər, Borçalı, Şəki) – əl-üz sabunu. – *İraqqıyı da gəti, qonaxlar əlini yüsün* (Borçalı); – *Həriyə bi cüt nasqı, bi dənə iraqqı pay göndərmişdilər* (Şəki).

**İRASDA** I (Cəlilabad) – küçə. – *Qorxıdan irasdıya çıxa bilmədim;* – *Küçiyə biz irasda derüg.*

**İRASDA** II (Şəki) – səliqəli.

**İRAT** I (Oğuz) – kəlağayı. – *Pul verim, mə: bir irat al gəti.*

**İRAT** II (Bakı) – qıf. – *İratı götür <gətir>, süt tökecegəm.*

**İRAVANƏPBƏYİ** (Basarkeçər) – yeməli yabanı bitki. – *Uşaxlar iravanəpbəyi yığıflar.*

**İRAYİC** (Yardımlı) – arxayın. – *Yetiseydi irayic işüy görərdün.*

**İRBELƏ** (Bakı) – o qədər, bu qədər. – *İrbelə adama necə yer tapacegsən?*

**İRÇAL** (Ağdam, Ağdaş, Ağsu, Bakı, Göyçay, Kürdəmir, Mingəçevir, Oğuz, Saatlı) – 1. üzüm mürəbbəsi (Ağdam, Ağdaş, Ağsu, Bakı, Kürdəmir, Mingəçevir). – *Bizdərdə ən çox irçal, bir də şor yi:llər* (Kürdəmir); 2. tut mürəbbəsi (Ağdam, Ağdaş, Oğuz, Şəki). – *Mən irçalı çox xoşduyram* (Ağdaş); – *İrçal şirin olur* (Oğuz); 3. mürəbbə (Göyçay, Saatlı). – *Bizzərdı mirabba diyən yoxdı, hamı irçal de:r* (Saatlı).

**İRDƏLƏMAX** (Qax, Zaqatala) – irisini seçmək.

**İRDƏLƏMƏX′** (Hamamlı, Qazax) – b a x **irdələmax.** – *Nə var irdəliyiflər, xırdaları qalıf* (Hamamlı).

**İREYKƏ** (Salyan) – kinayə, rişxənd. – *İreykeynən danışıb qəlbin sındırma.*

**İREYŞƏNƏ** (Salyan) – rişə. – *Bı gül yaxşı ireyşənə atıb, əkilməli vaxtıdı.*

**İREZYEZ** (Qazax) – kənd sakinləri dağa köçəndə kənddə qalan gözətçilər.

**İRƏ:BƏTDİ** (Xaçmaz) – b a x **irağbətti** I. – *İrə:bətdi iş gör;* – *İrə:bətdi yirrəşdir.*

**İRƏD** (Biləsuvar, Bakı, Salyan, Culfa, Əli Bayramlı, Füzuli) – ləpir, iz. – *Gedirsən, ayağu:n irədi qalır* (Biləsuvar); – *Yer qardı, hələm irəd düşmüyüfdü* (Füzuli).

**İRƏFƏTƏ** (İmişli, Şərur, Zəngilan) – b a x **irəpətə.** – *Çörəyi irəfəteynən yafıllar təndirə* (İmişli).

**İRƏFTƏ** (Zəngilan) – b a x **irəpətə.**

**İRƏXANSİLƏ** (Ağdaş) – üzüm növlərindən birinin adı.

**İRƏX′BƏRƏ** (Zəngilan) – üzüm çardağı. – *İrəx′bərə meynə atdammaxdan yanadı.*

**İRƏKAL** (Quba) – şumlanmış yerin müəyyən hissələrindən çəkilən kiçik şırım, arx.

**İRƏKƏ** (Culfa) – kinayə, rişxənd. ◊ **İrəkə eləmək** – rişxənd etmək. – *Ma: irəkə eləməyi navaxdan öyrəmmisən?*

**İRƏLLƏRİ** (Cəbrayıl, Füzuli) – əvvəllər, keçmişdə. – *İrəlləri bizdə belə ədət yoxudu* (Cəbrayıl).

**İRƏMƏ** I (Kürdəmir) – rəf. – *İrəmədə qabqaşığ saxleyıllar.*

**İRƏMƏ** II (Xanlar) – xam yer.

**İRƏMƏ** III (Cəbrayıl, Goranboy, Qazax, Tərtər, Tovuz, Yevlax, Zəngilan) – 1. otlaq (Goranboy); 2. su çıxmayan dərə-təpəlik (Qazax, Tərtər, Tovuz, Yevlax). – *Ə:, niyə qırersan heyvanı bu irəmədə, bir az o yannara aparsaŋa otduya* (Qazax); – *Yo:şan irəmədə çox olor, su çıxmıyan yerdə* (Tovuz); – *İlan-əğrəb irəmələrdə çox olur* (Tərtər).

**İRƏMƏLİ** (Qazax, Tovuz) – su çıxmayan yer. – *Bizim irəməli yerrərimiz var* (Qazax).

**İRƏMŞƏMƏXʹ** (Ağcabədi) – qapmaq (it haqqında). – *Dəyməsəŋ, it adamı irəmşəməz.*

**İRƏNG: İRƏNG SUYU** (Qazax) – yetişənə yaxın qarpız tağına verilən su. – *İrəng suyunu verməsəŋ, qarpız qızarmaz.*

**İRƏPƏTƏ** (Hamamlı) – təndirə çörək yapmaq üçün işlədilən alət. – *Çörəyi irəpətənin üsdünə qoyuf təndirə yape:llər.*

**İRƏŞƏNƏ** (Əli Bayramlı, Salyan) – rişə, kök (ağacda). – *Ağacın irəşənəsi dərinə gedib* (Əli Bayramlı); – *Ağacı irəşənədən çıxardıllar* (Salyan).

**İRƏŞ: İRƏŞ TO:X** (Mingəçevir, Şəki) – cins toyuq.

**İRƏŞMƏ** (Gədəbəy, Qazax, Mingəçevir, Salyan, Şahbuz, Tovuz, Yevlax) – 1. keçi qılından hörülmüş ip. – *Atın irəşməsini hələ:rüf <hələ hörüf> qutarmeıfsaŋmı, a Tükazvan?* (Gədəbəy); – *Mənim atıma irəşmə toxu* (Tovuz); – *Keçinin yununnan toxunan ipə irəşmə de:llər* (Şahbuz); 2. paltar sərmək üçün işlədilən ip (Şəki). – *A:z, irəşməni bağla, partalları sər.*

**İRƏT** (Şəki) – b a x **irat** I. – *Bəsdinin nişannıda beş dənə irət variydi.*

**İRƏVZƏ** (Şahbuz) – cəftə. – *Qapının irəvzəsini vır.*

**İRƏZƏ** (Ağdam, Ağdaş, Şərur, Cəbrayıl, Mingəçevir, Şəki, Şuşa) – b a x **irəvzə.** – *Elə hücum elədi ki, qapının irəzəsi çıxdı* (Şəki).

**İRƏZƏLƏMAX** (Şəki) – cəftələmək. – *Qapını irəzələ.*

**İRFİDƏ** (Culfa) – b a x **ilfidə.**

**İRIXDIMI** (Cəbrayıl) – böyük, iri. – *Odunun irıxdımısınnan bir az mã: ver.*

**İRİÇÇA:** (Şamaxı) – ehtiyatlı.

**İRİDRAZ** (Göyçay) – ucaboy. – *Onda iridraz qızdım.*

**İRİLMƏXʹ** (Ağdam) – böyümək.

**İRİMİG** (Salyan) – iri. – *İrimig duzumuz qutarıb.*

**İRİNC** (Füzuli) – bədbəxt. – *İrinc olmuşam ta.*

**İRİN-GİRİN** (Mingəçevir) – yavaş, yavaş-yavaş. – *Də:rman lap irin-girin işdi:r.*

**İRİŞBABA** (Ağdam, Füzuli) – üzüm növlərindən birinin adı.

**İRİŞMAĞ** I (Quba, Meğri) – 1. b a x **idəşmax;** 2. vuruşmaq, dalaşmaq.

**İRİŞMAĞ** II (Xaçmaz, Quba) – yersiz, şit-şit gülmək. – *Adamun üzünə baxıb irişmə* (Xaçmaz).

**İRİŞMAX** (Meğri) – b a x **irişmağ** I.

**İRİŞMƏXʹ** I (Borçalı, Cəbrayıl, Gədəbəy, Goranboy, Hamamlı, İmişli, Qazax, Qarakilsə, Mingəçevir, Zəngilan) – b a x **irişmağ** II. – *Nə: ŋ irişeysiŋ, a bala, qoja-zad görmö:üfsəmmi heş?* (Gədəbəy)

**İRİŞMƏXʹ** II (Culfa, Ordubad, Şahbuz) – b a x **ilişməxʹ.** – *Sə:n atun mə:m atıma irişməz* (Şahbuz).

**İRİZ** (Qarakilsə, Quba, Salyan, Zəngilan) – 1. cığır (Quba). – *Gəl, bu iriznən get;* 2. iz, ləpir (Qarakilsə, Zəngilan); – *Elə gedif, heç irizi də bilimmir* (Qarakilsə).

**İRİZQI** (Şəki) – ruzi. – *Yağınnıxdı biyil, irizqımız çox olcaxdı.*

**İRMEG** (Bakı) – kəpəkdən hazırlanmış mal-qara yemi.

**İRMƏMMƏK** (Əli Bayramlı) – b a x **imrəmməg.**

**İRSƏ** (Quba) – ipə düzülmüş qoz ləpəsi.

**İRSİZ** I (Qax) – qədirbilməz (var-dövlətin).

**İRSİZ** II (Gədəbəy, Qazax, Mingəçevir, Şəki, Ucar) – həyasız, sırtıq. – *Həmzə irsizin biridi, çox üz vermeyiŋ ona, sizi axırda köçəselə:jəxʹ bir gün* (Gədəbəy); – *Nə irsiz uşaxıŋız var* (Ucar); – *Çox irsiz üşaxlardı Şa:vanın üşaxları* (Şəki).

**İRTMƏXʹ** I (Qazax) – həyasız, dikbaş, davakar. – *Abbas yaman irtməxʹ gədədi, heç kimnən yola gedən döyü.*

**İRTMƏXʹ** II (İmişli, Qarakilsə, Qazax, Mingəçevir, Tovuz) – büzdüm. – *Tö:ğun irtməyi yağlı olor* (Qazax); – *Qoyunun irtməyin it dartıp dağıdıp* (Qarakilsə).

**İRTMƏX′LƏMƏX′** (Qazax) – yaxalamaq. – *Səni yaxşı irtməx′ləmişəm, harya buraxeram, gərəx′ mənnən baravar işdiyəsəŋ burda.*

**İRYƏTİ** (Qax) – müvəqqəti.

**İRZA:MÇILIX** (Mingəçevir) – 1. qarışıqlıq; 2. tünlük.

**İRZƏ** (Naxçıvan) – b a x **irəvzə.** – *Qapının irzəsini keçir.*

**İRZƏVAN** (Meğri) – çoban köməkçisi. – *Çovanın irzəvanı ona çox yaxşılığ elədi.*

**İRZİX′DİMƏX′** (Gədəbəy, Çənbərək, Karvansaray) – təngə gətirmək. – *O qədə məni tamam irzix′dirif, xa:şt <xahiş> ele:yrim, ona bir əncam çəkin* (Gədəbəy).

**İRZİX′MƏX′** (Basarkeçər, Gədəbəy, Qazax, Mingəçevir) – təngə gəlmək. – *Hasannan irzix′mişəm* (Qazax); – *Əl çəx′, sən allah, laf irzix′mişəm sənin əlinnən* (Mingəçevir).

**İRZ-İRƏNG** (Zaqatala) – bəniz. – *Yazığın irz-irəngi ağarıptı.*

**İSBATTI** (Qarakilsə) – 1. səliqəli; 2. layiqli. – *İsbattı tıfar qoyursaŋ qoy, qoymursaŋ, bizi avara eləmə.*

**İSBAYİ** (Dərbənd) – gözəl, qəşəng. – *Çux isbayi qizdi, isbayi də paltarı var.*

**İSBİRƏ** (Cəlilabad) – boğaz xəstəliyi adı. – *Guya isbirə xəsdəligi olıb boğazza.*

**İSBİRİN** (Zaqatala) – xəstəlik adı.

**İSDAXLAMAX** (Qazax) – bərk döymək. – *Qurvanı isdaxleyıflar, başı da yarılıf.*

**İSDATMAX** (Şəki) – döymək, əzişdirmək (adam).

**İSDİ** (Basarkeçər, Gədəbəy, Qazax, Tərtər, Tovuz) – duru xörək. – *İsdi pişir, büyün hava söyuxdu* (Qazax); – *Sə:r olanda elə hamı isdi içir* (Basarkeçər).

**İSDİL** I (Masallı) – kiçik göl, su anbarı.

**İSDİL** II (Ağdam, Füzuli, Qax, Qazax) – 1. 100 qramlıq çəki vahidi (Ağdam, Füzuli). – *Bir isdi yüz qramdı dana* (Ağdam); 2. 300 qramlıq çəki vahidi (Qax); 3. 500 qramlıq çəki vahidi (Qazax). – *Ay Navat, bir isdil yun borc ver.*

**İSGƏLƏ** I (Çənbərək, Karvansaray) – nərdivan. – *Hündür isgələ lazımdı kın, usda örgüyü örə* (Karvansaray).

**İSGƏLƏ** II (Kürdəmir) – stansiya. – *Təzə isgələ tix′dix′.*

**İŞGƏNCƏ** (Zaqatala) – arabanın hissəsi.

**İSGİL** (Meğri) – nisgil. – *Şah Abbasın ürəyində bir isgil qaldı ki, niyə o qahığı mən almadım.*

**İSİRMİ** (Zaqatala) – reyhan, keşniş, quru çörək, sarımsaq və albalı suyundan hazırlanmış və sərinlədci vasitə kimi istifadə edilən soyuq yemək növü.

**İSMARIŞ** (Qazax, Salyan, Tovuz) – sifariş, xəbər. – *Sə:n ismarışu: Nəbiyə çatdırdım* (Salyan).

**İSMARRAMAX** (Çənbərək, Gədəbəy, Karvansaray, Qazax, Tovuz) – sifariş, xəbər göndərmək. – *İsmarradım, dağdan koramaz yolleyjax cijim* (Karvansaray).

**İSNAT: İSNAT VERMƏX′** (Qarakilsə, Meğri) – 1. nişan vermək (Qarakilsə). – *Hardan gedəcix′ isnat verdilər;* – *Kim isnat verip bizə gəlmisi:z;* 2. xəbər vermək (Meğri). – *Nəbiyə isnat verdilər ki, bular ordandılar.*

**İSPİRƏ** (Salyan) – hirs, qəzəb. – *Bı gecə ispirədən yatmamışam.*

**İSPİRİ** (Zaqatala) – zöhrəvi xəstəlik.

**İSRİF** (Bərdə, Bolnisi, Gədəbəy, Göyçay, Kürdəmir, Mingəçevir, Şəki, Tovuz, Ucar, Zərdab) – b a x **isrip.** – *İlan ilandı kın, o da israfnən işdəder hər şeyi* (Gədəbəy).

**İSRİFLİ** (Qazax) – qənaətcil. – *Xalam isriflidi, odunu qutarmer heç.*

**İSRİP** (Zaqatala) – qənaət. – *Nöyütü isripnən işlət.*

**İSSA:TDAN: İSSA:TDAN ÇIXMAĞ** (Salyan) – xarab olmaq, istifadəyə yaramamaq. – *Soğan göyərib issa:tdan çıxıb.*

**İSSATMAX** (Mingəçevir) – b a x **isdatmax.**

**İSSİ** (İmişli) – b a x **isdi.** – *Bir issi bişer, qonax da yesin.*

**İSSİCOLAMMAĞ** (Salyan) – narahat olmaq. – *Əlsəfa gəlib çıxmayıb, elə issicolanmışam ki, irağ olsun, başına iş gələr, xəbərim olmaz.*

**İSSİL** (Mingəçevir) – b a x **isdil** II (3-cü məna).

**İSTANCAĞ** (Xaçmaz) – çılpaq, tumançaq. – *Uşax vaxdı istancağ gəzmaguv yaduvnan çixidti?*

**İSTİCO: İSTİCO ELƏMƏG** (Cəlilabad) – yoxlamaq. – *O da istico elədi, gördi ki, bı xəbəri arvatdar yayey.*

**İSTİL** I (Lənkəran, Masallı) – b a x **isdil** I.

**İSTİL** II (Füzuli, Qazax, Şərur, Şuşa, Tovuz) – 1. b a x **isdil** II (2-ci məna) (Şərur); 2. 400 qramlıq çəki vahidi (Füzuli); 3. b a x **isdil** II (3-cü məna) (Qazax, Tovuz); 4. 800 qramlıq çəki vahidi (Şuşa). – *Kişi gediv istil yarım yağ alıf.*

**İSTİL** III (Lənkəran, Masallı) – çəltik əkilən sahə.

**İSTİNCAĞ** (Quba) – b a x **istancağ.** – *Bu uşax lap istincağdu ki, una so:uğ ular.*

**İSVAHA** (Qazax, Zaqatala) – səliqəli. – *Avdılla paltarını isvaha ge:nər* (Qazax); – *Nazlı həmişə isvaha geyinir* (Zaqatala).

**İSVAT** (Gədəbəy) – b a x **isbattı.** – *Pərinin gəlini isvatnan tutoy işi.*

**İSYƏNCƏ** (Qazax) – xışın bir növü.

**İŞAR** (Qazax) – məna. – *Sözünün işarı var.*

**İŞARMAX** I (Qazax) – yaşarmaq, yaş olmaq. – *Bura işarer, su çıxar qassaŋ.*

**İŞARMAX** II (Balakən, Oğuz, Zaqatala) – yersiz, şit-şit gülmək. – *Nə üçün işarırsaŋ?* (Oğuz); – *Nə üzümə işarırsan?* (Balakən).

**İŞARMAX** III (Çənbərək, Salyan) – parıldamaq, işıldamaq. – *İşarır gün, də:ŋ yağmeyjax büyün* (Çənbərək).

**İŞBƏ** (Sabirabad) – küncüd tayası. – *Bılar bizim işbəmizdi.*

**İŞBİTİRƏN** (Çənbərək) – xidmətçi, kuryer. – *İşbitirən əsgərriyə adam çağırır.*

**İŞDƏCƏY** (Yardımlı) – əhvalat, hadisə. – *Çox işdəcəylər gəlib başıma.*

**İŞDƏX′** I (Culfa) – əkin yerinin ortasından düz çəkilən arx.

**İŞDƏX′** II (Meğri, Şuşa, Şəki) – əməl, iş. – *Onun işdəx′ləri yadıma düşəndə az qaler barğım çatdasın* (Meğri).

**İŞDİX′** (Basarkeçər, Gədəbəy, Hamamlı, Qazax, Tovuz) – isti alt paltarı. – *Canım işdix′siz qızmer mə:m heş qışda* (Gədəbəy); – *İşdiyim olmasa, üşüyərəm* (Hamamlı).

**İŞGƏNƏ** (Ordubad) – bozbaş və ya qovurma suyu. – *İsgənə çox ləzzətdiydi.*

**İŞGİL** I (Cəbrayıl, Meğri) – b a x **işkil** I. – *Qapının işgilin yavaççə vurdum, girdim yerimə* (Meğri); – *Fe:ruz içəri girib işgili vurdu* (Cəbrayıl).

**İŞGİL** II (Ağcabədi, Ağdam, Barana, Göyçay, Kürdəmir, Qazax, Oğuz, Şəki) – b a x **işkil** II. – *Kəllər ülküf, arava:n işgili sınıtdı* (Şəki).

**İŞGİL** III (Tərtər) – kotanın hissələrindən birinin adı.

**İŞGİL** IV (Qax) – kəmərin qaşı. – *Habınnan iləri kəmər vurardıx belinə, qizil də oluydu, qumuş da, kəmərin də işgili oluydu.*

**İŞGİLLƏMƏX′** (Xanlar, Şərur) – oğurlamaq. – *Mən nə bilim sənin pıçağını kim işgilliyif* (Xanlar).

**İŞGİLLİ** (Qarakilsə) – şübhəli. – *Bu iş çox işgilli işdi.*

**İŞGİT** (Dərbənd) – meyvə yeyiləndən sonra atılan tumlu hissə, meyvənin cecəsi. – *Armutun işgitdərini apar mallara tük.*

**İŞIĞ GÖZÜ** (Şərur, Bakı) – qaranlıq düşməmiş. – *İşıx gözü yığışın gedin* (Şərur); – *İşığ gözü ged, qeyit* (Bakı).

**İŞIĞLIĞ** (Şamaxı) – pəncərə. – *Bizzərdə pəncəriyə işığlığ diyəllər.*

**İŞILDARQUŞ** (Ağcabədi, Bakı, Salyan) – b a x **işildavuc.** – *İşıldarquş uçanda işıx verir* (Ağcabədi).

**İŞİLDAVUC** (Qax) – gecələr işıq verən cücü.

**İŞİLDO:UZ** (Qax) – b a x **işildavuc.** – *Bizim yerrərdə işildo:uz çox olur.*

**İŞİLLO:UZ** (Qax) – b a x **işildavuc.**

**İŞİMAĞ** (Dərbənd) – sürtmək. – *Çaqqunu işdim daşa, ülgücə döndi.*

**İŞ: İŞ QIZARTMAX** (Qax) – nalayiq hərəkət etmək və ya danışmaq.

**İŞKİL** I (Ordubad, Zəngilan) – cəftə. – *Qapu:zun işkilin keçi get* (Zəngilan).

**İŞKİL** II (Mingəçevir) – boyunduruğu arabanın qollarına bərkidən ağac.

**İŞKİLLƏMƏX′** (Culfa) – cəftələmək. – *Qapının dalın işkillədi, kişi qaldı çöldə.*

**İŞQA** (Şəki) – sınmayan, elastiki. – *Bey işqa çuvuxnan döyərdi nökəri.*

**İŞQALAMAĞ** (İsmayıllı) – silkələmək. – *A Tükəzban, sən cüanəzənsən, gə bu tut ağacını işqala.*

**İŞLAVIRAN** (Bakı) – güclü yağış.

**İŞŞƏX′** (Ağdam, Basarkeçər, Borçalı, Qazax) – qoyunun birillik balası. – *İşşəyin əti yaxşı olor* (Qazax); – *İşşəx′ birillix′ toxludu* (Oğuz).

**İŞVƏMƏX′** (Qazax) – suyun qarşısını kəsmək.

**İŞVƏR** (Qazax) – cərgə.

**İTAĞACI** (Dərbənd) – b a x **ayağüstü.**

**İTDƏ** (Təbriz) – dəstə. – *Camahatın bir itdəsi qeyitdi öylərinə.*

**İTDİRSƏYİ** (İmişli) – tikanlı kol.

**İTDİŞƏYİ** (Kürdəmir) – paxlaya oxşayan yabanı bitki. – *İtdişəyi paxlıya oxşu:r.*

**İTXIRMANI** (Zaqatala) – qarmaqarışıqlıq. – *Öyə baş soxmağ olmir, lap itxırmanıdı.*

**İTXİYARI** (Dərbənd) – xiyara oxşayan zəhərli yabanı bitki. – *İtxiyarını gürməyə basdum, partdayıb güzlərimə siçrədü, güzlərim bərk əcişməğə başladu.*

**İTİQATI** (Salyan) – cəld, zirək. – *Sevil, maşalla, əldən-ayağdan itiqatıdı.*

**İTİX′** (Kürdəmir, Şəki, Şəmkir, Tərtər) – itmiş şey. – *Axdardım, itiyimi tafdım* (Tərtər); – *İtiy axda:ram* (Şəki).

**İTİRMƏX′** (Şəki) – söndürmək. – *Mürsəl, tez ol, ocağı itir.*

**İTİTMƏX′** (Meğri) – qızışdırmaq, yoldan çıxarmaq. – *Arvat vəziri itider ki, gərəx′ özün patişah olasan.*

**İTQUSDU** (Bərdə, Cəbrayıl, Zəngilan) – uşaq oyunlarından birinin adı. – *Uşaxlar itqusdu öynü:r* (Zəngilan).

**İTLƏŞ** (Mingəçevir) – balaca bıçaq.

**İTMAX** (Zaqatala) – b a x **idmax.**

**İTYÖSÜNNÜ** (Kəlbəcər) – nəfsli. – *Möysün ityösünnü adamdı.*

**İV** I (Vedi, Şərur, Gəncə, Qarakilsə, Meğri) – saçın ayrıcı, tağ. – *İvi: düz ayırmıyıfsan* (Qarakilsə).

**İV** II (Qarakilsə) – arx. – *Balaca bir iv qaz, bı su axıp gessin.*

□ **İv ayırmax** (Meğri) – ayrı-seçkilik etmək. – *Mən ki aylada iv ayırme:rəm, sən iv ayırersən.*

**İVHALLI** (Laçın) – b a x **ifallı.** – *Sa:bir ivhallı oğlandı.*

**İVIR-CIVIR** (Balakən) – xırda-xuruş.

**İYAR** (Qax, Zaqatala) – yəhər. – *Təkəltisiz iyar olmaz.*

**İY-CİY** (Biləsuvar) – səs-soraq. ◊ **İy-ciyi kəsilmək** – səsi-sorağı kəsilmək. – *Olların iy-ciyi kəsildi.*

**İYƏ** (Qax) – sahib.

**İYƏŞMƏX′** (Ağdam, Borçalı, Cəbrayıl, Çənbərək, Füzuli, Gədəbəy, Qarakilsə, Mingəçevir, Şəmkir, Tovuz, Zəngilan) – b a x **idəşməx′.** – *Mən sənin üsdündə Törmirnən iyəşdim* (Şəmkir).

**İYİDOĞLAN** (Ağdam, Ağdərə, Balakən, Zaqatala) – quş adı, boz qaratoyuq.

**İYİRTKƏN** (Zaqatala) – gəndalaş.

**İYLİFIS** (Qazax) – 1. natəmiz; 2. səliqəsiz. – *Niyar yaman iylifısdı, öy bir-birinə qarışıf, fikir vermer heç.*

**İYMƏ** (Quba) – süzmə.

**İYMƏG** (Dərbənd) – yemək. – *Narı payizdə iyədülər.*

**İYNƏ** (Zaqatala) – corab milli. – *Corapı örüp iynəni hayana qoydun?*

**İYNƏBATMAZ** (Bakı) – parça adı.

**İYNƏQIYIX** (Zərdab) – çuval, xaral ağzını tikmək üçün böyük iynə (ağacdan da olur). – *Nənəm iynəqıyığı sındırdı;* – *Xaralları tikməy üçün hər kəs özünə iynəqıyıx qayırsın.*

**İYNƏLİX′** (Qazax) – iynə sancılan balaca balış. – *O iynəlix′dən iyneyi çıxart maŋa ver.*

**İYTİKƏN** (Qazax) – bitki adı.

**İZAL: İZAL OLMAĞ** (Bakı) – çıxıb getmək, rədd olmaq. – *İzal ol başımnan.*

**İZAN: İZAN OLMAX** (Bolnisi) – b a x **izal olmağ.**

**İZDİ-RƏĞBƏTDİ** (Oğuz) – ləyaqətli. – *U arvad izdi-rəğbətdi iş görəndi.*

**İZĞAR** (Salyan) – tərslik, inadkarlıq. – *Bi pis xəsyəti var ki, irğarı tutanda heç kəsi eşitmir.*

**İZMAN** (Tərtər) – altıyaşar erkək qoyun.

# Kk

**KABALAK** (Zaqatala) – kəpənək.

**KABAY** (Zaqatala) – kəpənək.

**KA:BƏ** (Bakı) – qarğıdalı. – *Qalxoz bi:l əmeg güninə xeyli ka:bə vərdi.*

**KADU** (İrəvan) – qabaq.

**KAFDARSIYIR** (Ucar) – qoca canavar. – *Kafdarsıyır kəndə girməz.*

**KAF: KAF KEŞMƏX′** (Meğri) – ac qalmaq. – *Heyvannar kaf keşdilə dünənnəri.*

**KAĞ** I (Cəbrayıl, Meğri, Zəngilan) – qışda qoyun və quzuların saxlandığı üstüörtülü yer. – *Fərzalı qoyunu kağa yığdı* (Zəngilan); – *Qoyunu əvvəlimci dəfə payızın qafsında kağa yığılla* (Meğri).

**KAĞ** II (Naxçıvan, Şahbuz, Şərur, İrəvan) – alaq. – *Əkinin kağın çəkirik ki, təmiz olsun* (Şahbuz). ◊ **Kağ eləməx′** – alaq etmək.

**KAĞA** (Şərur) – mağara.

**KAĞAL** (Qarakilsə, Şəmkir, Tovuz) – tənbəl. – *Səni kimi kağal adam olmaz, niyə gedif bircə dəfə o mamaŋnan görüşmürsəŋ?* (Şəmkir)

**KAĞALA** (Ağbaba) – kiçik səbət. – *Qoyunnara bir kağala ot verdim.*

**KAĞALAX** (Oğuz) – cəhrənin iyinə keçirilən dəyirmi taxta.

**KAĞALLIX** (Tovuz) – tənbəllik. – *Qırmızı Meyti kağallıxda təx′di, o:nçun da qojalmır.*

**KAĞAN** (Çənbərək, Gədəbəy, Gəncə, Qazax, Tovuz) – xışın və ya arabanın qolunu boyunduruğa birləşdirən qayış. – *Boyunduruğun kağanı yiyilif, onu düzəlt* (Tovuz); – *Kağan xam ağ gönnən qayrılır* (Gəncə); – *Öküzün ağzı yoxuşa tüşəndə qırılmadımı kağan qəfil* (Gədəbəy); – *Kağan keşmişdə olordu* (Qazax).

**KAĞANQIRAN** (Şəmkir) – *məc.* – qanmaz. – *Ə:, sən nə kağanqıran adamsaŋ, bir sa:tdı çağıreram, niyə cavaf vermersəŋ?*

**KAĞANNAMAX** (Çənbərək) – arabanın qolunu qayışla boyunduruğa birləşdirmək, bağlamaq. – *Durum haravıyı kağannıyım, tezdən qoşax haylıyax.*

**KAĞANNIX** (Şəmkir) – boyunduruğun üst hissəsi üçün yararlı ağac. – *Dağe:dəji:x′, yaxşı kağannıx gətirejəm.*

**KAĞÇI** (Şərur) – alaq edən, kətmənçi. – *Kağçılar da vər başında durmıllar.*

**KAĞLAMAX** (Şərur) – alaq etmək. – *Kərdi-kərdi <lək> kağlaram.*

**KAH** I (Əli Bayramlı, Salyan, Kürdəmir) – tülkü yuvası.

**KAH** II (Bakı, Salyan) – kiçik ev, daxma. – *Kişi axşamacan girib kaha, bağda-bağatda da işdəmir* (Salyan).

**KAHA** (Saatlı) – b a x **kah.**

**KAHAL** I (Mingəçevir, Şəki, Zəngilan) – 1. könülsüz (Mingəçevir, Şəki). – *Çox kahal ca:f verdi* (Mingəçevir); – *Qəhrəmanı gördüm, mã: çox kahal salam verdi* (Şəki); 2. ağır, ləng (Zəngilan). – *Kahal dərbənmə, qutar.*

**KAHAL** II (Bakı, Dərbənd, Göyçay, Hamamlı, Xaçmaz, Kürdəmir, Qazax) – 1. b a x **kağal** (Bakı, Dərbənd, Qazax). – *Kahaldı Əsət, iş görən döy* (Qazax); – *Çox kahal adamdu, iş görəndə hələ bil yeriyir* (Bakı); – *Uşağın çux kahaldu, uxumeydu* (Dərbənd); 2. sözə baxmayan, söz eşitməyən (Göyçay, Hamamlı, Kürdəmir). – *O çox kahal adamdı, heş nə: yaramır* (Hamamlı); – *Neçə dəfə çağırırsan, baxmır, oa <ona> kahal deyirik* (Göyçay).

**KAHAL** III (Balakən, Qax) – 1. qaradinməz (Qax); 2. kütbeyin (Balakən).

**KAHIL** (Göyçay) – çiy.

**KAHİ** (Ordubad) – kaha, mağara. – *O yağışda kahi dadımıza çatdı.*

**KAHLA** (Dərbənd) – hasarın altından keçən su yolu, deşik.

**KAXI** (Bolnisi) – dağda tikilən çoban dəyəsi, alaçığı.

**KAKƏ** (Zaqatala) – xəmir xörəklərindən birinin adı.

**KAKROÇİK** (Kəlbəcər) – hülqum. – *Tütərəm sənin kakroçikinnən, o qədər vurərəm ki, lap ölərsən.*

**KAKUR** (Xaçmaz) – qozbel (adam).

**KAL** I (Kürdəmir, Naxçıvan, Şəki) – kobud. – *Əhməd, sən çox kal adamsan ha!* (Naxçıvan); – *Bi dəfə mən unnan kal söz eşitməmişəm* (Şəki).

**KAL** II (Naxçıvan) – şiv, ağacın zoğu. – *Ağaşdan bir kal kəsdim.*

**KAL** III (Salyan, Bakı) – ağır, zəif. – *Bilmirəm nedəndi, iku-üç gündi kal eşidirəm* (Salyan).

**KA:L** I (Salyan) – 1. zəif, pis. – *Həsən bi az ka:l eşidir, bərkdən di;* 2. könülsüz, həvəssiz. – *Cücələr arpanı çox ka:l yiyir.*

**KA:L** II (Cəlilabad) – soyuq, laqeyd. – *Qıza, ka:l yanaşmə, fikir ver.*

**KALA** I (Culfa, Ordubad, Şərur) – açılmamış pambıq qozası. – *Sahədə çoxlu kala qalsa, yığıb verəco:ux mala* (Ordubad); – *Bir kolda yüz kala olur* (Şərur).

**KALA** II (Dərbənd, Xaçmaz, Quba) – böyük şüşə qab. – *Kalaya biz hər şey tükəduğ* (Quba); – *Bir kala döğül, yağımız qalmiyib* (Dərbənd).

**KALA** III (Təbriz) – yetişməmiş qovun. – *Kala o qahına deyirixʹ ki, o hələ yetişməyip.*

**KALADURAN** (Qazax) – buğaya gəlmə həddinə çatmış. – *Bu camış düyəsi kaladurandı.*

**KALAFA** I (Şərur) – quyu. – *Bırdan arxa kimi kalafalar var.*

**KALAFA** II (Ağcabədi, Basarkeçər, Çənbərək, Füzuli, Xanlar, Kəlbəcər, Qarakilsə, Qazax, Naxçıvan, Oğuz, Ordubad, Şuşa, Tovuz, Zəngilan) – tövlə, ev tikmək üçün və ya başqa məqsədlə qazılmış yer. – *To:lanın da əvvəl kalafasın kəsirəxʹ* (Xanlar); – *Əvvəlcəxʹ yerdən kalafa açırıx* (Kəlbəcər); – *Ə:nnər kalafadı, orda yaxşı pencər olar* (Zəngilan); – *Damın kalafasınə:lif, beyjə su tüşüf* (Tovuz).

**KALAFA** III (Bakı, Böyük Qarakilsə) – xaraba, uçub-dağılmış yer. – *Kəndin qırağında kalafa çoxdu* (Böyük Qarakilsə).

**KALAFA** IV (İmişli, İsmayıllı, Kürdəmir, Mingəçevir, Oğuz, Şəmkir, Zərdab) – çökək, çuxur yer. – *Orda kalafa var, gözdə uçarsan* (İmişli); – *Ge:f görürsən ki, bö:xʹ bir kalafa var* (Oğuz).

**KALAFALIX** (Xanlar, İmişli, Kəlbəcər) – xarabalıq. – *O vaxdı o kalafalıxda da oluflar, buanda düzdə də oluflar* (Xanlar); – *Quzu kalafalıxda otdor* (İmişli).

**KALAFƏTİR** (Salyan) – acımamış xəmirdən bişirilən qalın lavaş. – *Xama acımasa da, apar kalafətir elə ye.*

**KALAFIR** (Gədəbəy) – öz yağında bişirilən ət. – *Kalafırı da yə:ndə sarımsağ ola.*

□ **Kalafır eləməxʹ** (Ağbaba) – oğurlamaq. – *Hər şeydən kalafir eləməy olmaz.*

**KALAH** (Masallı) – güc, qüvvə, taqət. ◊ **Kalahın kəsmək** – əldən salmaq, yormaq. – *Zalım oğlu kalahımı kəsdi.*

**KALAX** (Ordubad) – azca iriləşmiş yemiş (tağda). – *Kalax tağda yemişin irisinə deyərıx.*

**KALAN** I (Lənkəran) – küt. – *Ədə, nə kalan adamsan, bir iş də bacarmırsan.*

**KALAN** II (Bakı, Balakən) – çox, çoxlu. – *Mirinin toyuna kalan adam gəlmişdi* (Bakı); – *Səmədin meyvəsi bu il kalandı* (Balakən).

**KALAPA: KALAPA QOYMAX** (Meğri) – məhv etmək, korlamaq. – *Diyriymi Əşənin əcar comuşu, çər dəymiş, kalapa qoydu.*

**KALAPIR** I (Basarkeçər, Çənbərək) – biçənəyin kənarı, ətrafı. – *Kalapırdan Zeynəf qarı xeyli ot döyşürdü* (Çənbərək); – *Camahat böyün kalapırdan ot biçirdi* (Basarkeçər).

**KALAPIR** II (Basarkeçər) – əlavə gəlir.

**KALAV** (Füzuli) – bünövrə. – *Əvin əzzəl kalavın düzəltməxʹ lazımdı.*

**KALAVA** (Əli Bayramlı) – dərə. – *Dağın ətəklərinnən başlanan kalava dəmir yol xəttinə kimi uzanırdı.*

**KALAVAT** (Meğri) – ağacları qırılıb əkin sahəsinə çevrilmiş tala.

**KALABAYÇI** (İmişli) – Kərbəlaya gedən, zəvvar. – *Kalabayçılar qayıdanda bı da gəldi.*

**KALBƏR** (Bakı) – qanmaz. – *Nə kalbər adamdu.*

**KALÇA** (Gəncə, Qazax, Şəmkir, Tovuz) – camışın bir yaşa qədər olan erkək balası. – *Kalçıyı qoyma, qardalıya girdi* (Şəmkir); – *Yeni olanda kalça deyillər camış balasına körpə vaxdı* (Tovuz).

**KALDİYAR** (Oğuz) – qarışıq. – *Birdən kaldiyar olarsan ha?*

**KALEXLAMAX** (Meğri) – bir yerə yığmaq, toplamaq. – *Bı daşi elə burdecə kalexlarsan.*

**KALIŞ** (Quba) – ayaqqabı. – *Üzi günnən ulardi, alti pataş ulardi unun, kalışun.*

**KALLADAR** I (Culfa, İmişli, Qarakilsə, Ordubad) – 1. maldar, mal-qara saxlayan (Qarakilsə, Culfa). – *Siftə mən kalladar olmuşam* (Qarakilsə); – *Mən kalladar da olmuşam, arıçı da olmuşam* (Culfa); 2. çodar (Culfa, Ordubad). – *Kalladar qoyun alışverişçisinə də de:llər* (Ordubad).

**KALLADAR** II (Borçalı) – binə başçısı. – *Binə baççısına kalladar de:rix'.*

**KALLAH-KALLAH** (Quba) – özbaşına, başlı-başına.

**KALLANMAĞ** (Dərbənd) – qurdlama nəticəsində içəridən çürümək (ağaca aiddir). – *Mənim teregimin biri kallanıtdı.*

**KALMAN** (Tovuz) – çarığın bir növü. – *Bildir lələm maŋa bir çütməçülüx' kalman çarıx tihdirmişdi kin, gəl görəsən.*

**KALMANI** (Çənbərək, Qazax) – bax **kalman.** – *Kalmanıyı mal gönünnən tikellər* (Qazax); – *Kalmanı çarıxdan adamın əyğinə torpax dolmaz kotan əkəndə* (Çənbərək).

**KALYAR** (Qax) – tamam yetişməmiş, dəyməmiş (meyvə).

**KAMAX** (Ordubad) – şadara. – *Biz buğdanı həməşə kamaxnan təmizdi:rıx.*

**KAMAŞ** (Culfa, Ordubad, Şərur) – tənbəki növü. – *Kamaşı qəzetnən çəkirix'* (Culfa).

**KAMBAĞI** (Cəlilabad) – keçi qılından toxunmuş ip, bağ. – *Kambağıni biz əldə toxruğ, ipdi, at belinə, öküz belinə bağloruğ.*

**KAMBAX** (Ağbaba) – xaraba. – *Bu kambaxdan nə vaxt qutaracı:x.*

**KAMBAR** (Dərbənd) – duza qoyulmuş kəvər. – *Kambari qatuğnan da yiyəllər, eyrannan da.*

**KAN** I (Cəlilabad, Yardımlı) – tülkü yuvası.

**KAN** II (Zaqatala) – üstündə xəmir yoğurulan xüsusi taxta. – *Xəmiri kanın üstündə yoğur.*

**KAN** III (Oğuz) – 1. eyvanın sütunları altına üfüqi qoyulan taxta parçası. – *Kan seyvanda olur, sütünnarın altına qoyulur;* 2. suyun dağılmaması üçün arxın yanlarına qoyulmuş ağac. – *Kanı qoyullar ki, arxın suyu kanara dağılmasın.*

**KAN** IV (Qax) – çəlləyin dibi.

**KAN** V (Qax) – ilan qabığı.

**KANALAMAX** (Ağdam) – baramaqurdu üçün yarpaq doğramaq.

**KANAT: KANATINA ÇATMAĞ** (Bakı) – bir işi və ya sözü axıra kimi öyrənmək. – *Mən bu sözün kanatına çatacam, görüm kim deyib;* – *Gereg hər şeyin kanatına çatasan, yoxsa bağrun çatdar.*

**KANCAL** (Xaçmaz) – alçaq, hündür olmayan. ◊ **Kancal qalmağ** – boy atmamaq, inkişaf etməmək. – *Nədənsə ağac kancal qalıb.*

**KANGƏLİŞ** (Meğri) – qaba yem. – *Bir qucax kangəlişnən bu danadan u daneya yimey ulı?*

**KANT** (Qax, Zaqatala) – peysər.

**KANTA** (Xaçmaz) – küt bıçaq.

**KANTAKALI** (Xaçmaz) – kərtənkələ.

**KANZI** (Dərbənd) – pilləkən. – *Mahmud əmə qart olançin kanzılardan qeyin* <*çətin*> *çıxədi.*

**KAP** (Quba) – qarğıdalının dənəsiz qıçası; alma, armud və başqa meyvələrin yeyiləndən sonra qalan (atılan) hissəsi. – *Bizdə udun buldu, biz kapı, qarğıdalı kapını yandurmanuğ.*

**KAPAL** (Göyçay, Salyan, Mingəçevir, Ucar, Zərdab) – dəstə. – *Küçə:n başına bir kapal adam toplanıb* (Göyçay).

**KAPAN** I (Cəbrayıl, Xocavənd) – yəhərin altından qoyulan tərlik.

**KAPAN** II (Kürdəmir) – bax **kalan** II.

**KAR** I (Qax) – bazu sümüyü. – *Bir tarafı yaslam olan sumuqdu kar.*

**KAR** II (Quba) – yoğun oxlov. – *A qiz, u kari urdan kütür, gürmisən düşüb yərə.*

**KARA: KARA ATMAĞ** (Dərbənd) – kiflənmək. – *Çüreg çux qalsa kara atar.*

**KARAĞAN** (Çənbərək) – kiçik oturacağı və ağzıgen qab. – *Karağannan bir pendir ma:ladı Hürü.*

**KARAHAT** (Balakən) – yöndəmsiz, yaraşıqsız, kobud. – *Nəmat, nə karahat alıŋğ varmış?!*

**KARANAY** I (Quba) – peç borusu.

**KARANAY** II (Ağcabədi) – münasib olmayan yerdə ucadan danışan və ya oxuyan adam.

**KARASSA AÇMAĞ** (Salyan) – *məc.* eyib açmaq, nöqsanları demək.

**KARATA** (Bakı) – var-dövlət. – *Qızına oğarta karata qoşub ki...*

**KARAY** (Qax) – qoz çırpmaq üçün uzun ağac.

**KARDA** (Xaçmaz) – küt bıçaq.

**KARDIĞAR** (Cəbrayıl) – arpa ilə buğdanın qarışığı. – *Dəyirmançı bir put kardığar üyütdü.*

**KARDIVAR** (Culfa) – torpaq yığan alət. – *Kardıvar bel kimi bir dənə dəmirdi, onun qabaxda kəndiri olur, ağacı saplayıllar dəmirə, iki adam onu çəkir.*

**KAPEG** (Qax) – kiçik çubuq.

**KARXANA** (Ağcabədi, Cəbrayıl) – üstünə tut çırpmaq üçün böyük parça (palaz və s.). – *Uxaşlar karxananı yaxşı tutmadılar, tut yerə töküldü* (Cəbrayıl); – *Tutu çırpırıx karxanaya* (Ağcabədi).

**KARIŞ** (Salyan) – qulaq. – *Uşağın karışı ağrıyır.*

**KARKAR** (Qax) – dəyirmanın çaxçaxı.

**KARKARASALAY** (Qax) – 1. kar; 2. key.

**KARKAS: KARKAS OLMAX** (Zaqatala) – dəng olmaq, zinhara gəlmək. – *Çox danişip beynimi tökdün, lap karkas oldum.*

**KARNAX** (Salyan) – key, maymaq. – *Elşən hər sözi başa düşən dögür, karnaxdı.*

**KARRI** (Cəbrayıl, Göyçay, Mingəçevir, Şəki) – çoxlu, bol. – *Bildir karrı meyvəmiz varıdı* (Cəbrayıl); – *Lap karrı əhmişdik* (Göyçay).

**KARROY** (Çənbərək) – lovğa. – *Fərzalı yaman karroydı.*

**KARSALA** (Basarkeçər, Laçın) – gic, səfeh. – *Ay karsala, hara gedirsən* (Basarkeçər).

**KARSAN** (Qax) – kiçik ağac təknə.

**KARSI** (Naxçıvan) – üstüörtülü bazar. – *Naxçıvanda da karsı var.*

**KARTI** (Qax) – qoyunun qarnının altındakı yun.

**KARVANQIRAN** I (Ordubad) – soyuq (külək). – *Gənzə çayı tərəfdən yaman karvanqıran küləy əsir.*

**KARVANQIRAN** II (Füzuli, Qarakilsə, Qazax, Tovuz) – Zöhrə ulduzu. – *Karvanqıran da ulduzdu* (Qazax); – *Karvanqıran gecədən doğur* (Qarakilsə).

□ **Karvanqıran ot** (Ordubad, Şahbuz) – zəhərli bitki adı. – *Mal-qara karvanqıran otu yeyəndə qırılır* (Ordubad).

**KARVANYOLU** (Xaçmaz, Qazax, Quba) – kəhkəşan.

**KARZAT** (Salyan) – çoxbilmiş. – *Gülbikə karzatdı, bilmədigi şey yoxdu.*

**KASA** (Balakən) – qarağat.

**KASAFUR** (Ağdam) – xain. – *Yoldaşına kasafur olan adam həməşə pis günə qalar.*

**KASAMAS** (Şamaxı) – kiçik saxsı qabda çalınmış qatıq. – *Qazan qatığınnan kasamas yaxşudu;* – *Kasamasın dadı başqadı.*

**KASARAY** (Meğri) – kiçik baş yaylığı.

**KASAVAD** (Kəlbəcər) – bacarıqsız, yarıtmaz. – *Bir adamı göndə:rix′ heyvan bejərməyə, görürsən getdi qıçın qırdı, canavara verdi, ona kasavad de:rix′.*

**KASİ** (Quba) – təndirin ağzına qoyulan qapaq.

**KASNİ** (Ordubad, Şamaxı) – yabanı dərman bitkilərindən birinin adı. – *Həkim xəsdəyə kasni kököni dərman demişdü* (Ordubad).

**KASRI** (Qax) – taxıl saxlanılan qab.

**KAŞ** (Balakən) – bozbaş. – *Anam bazardan aldığı ətdən kaş bişirir.*

**KAŞAN** I (Basarkeçər, Başkeçid) – qoşqu heyvanlarına qoşub sürüyərək gətirilən böyük ağac, kötük. ◊ **Kaşan çəhməx′** (Basarkeçər) – böyük ağacları qoşqu heyvanlarına qoşub sürüyərək gətirmək. – *Adamlar meşə: kaşan çəx′mə: getdilər.*

**KAŞAN** II (Şərur) – kövşən.

**KAŞGILLAMAX** (Meğri) – xörəyi tez-tez qaşıqlayıb yemək. – *Nəhmət bir seyni şiləni iki-üş dayqıya kaşgıllıyırdı.*

**KAŞKALA** (Qax) – itburnu.

**KATA** (Balakən) – mal aşığı.

**KATAMAZ** (Füzuli) – yeni doğmuş heyvanın ilk südündən bişirilən yemək.

**KATDA** (Qax) – süd ölçmək üçün qab.

**KATIL** (Oğuz) – qapının çərçivəsi altına qoyulan enli taxta. – *Ayağım qapının katılına ilişdi, yıxıldım.*

**KATSA** (Qax) – nəhəng, böyük. – *Habu katsa kəlin sumuqudu.*

**KATTA** (İmişli) – başbilən. – *Nənəm irəhmətdik katta arvadıydı.*

**KATTA-KATTA: KATTA-KATTA DANIŞMAX** (Ağdaş, Salyan, Mingəçevir) – yekə-yekə danışmaq. – *Məhəmməd çox katta-katta danışan adamdı* (Ağdaş).

**KAVAL** (Oğuz) – isti paltar.

**KAVCƏ** (Qax) – dişləri tökülmüş (adam).

**KAVDAN** (Meğri) – qanmaz. – *Masdalı kavdan adam dəyidi, yer-yurt bilən adamdı.*

**KAV: KAV DEYİL** (Cəbrayıl, Şərur, Füzuli, Laçın, Zəngilan) – hesabdan deyil, düz deyil. – *Bı, kav də:l, biz gizdənəndə siz baxırdı̃:z* (Zəngilan); – *Bax, bı kav dəyil* (Laçın); – *Kavdı o.* – *Kav dö:l* (Füzuli); – *Kav dəyi, sən düz oynamırsan* (Cəbrayıl).

**KAVIC** (Zəngilan) – koğuş. – *Ağacın kavıcında ilan var.*

**KAVLA** (Meğri) – tənəyi dik saxlamaq üçün yerə basdırılan ağac.

**KAVRA** I (Cəbrayıl, Zəngilan) – iri giləli ağ üzüm. – *Kavra yaxşı yeməli üzümdü* (Zəngilan).

**KAVRA** II (Meğri) – quş biti.

**KAVRAN** (Naxçıvan) – kotanın dəstəyini tutan adam. – *Kavran kotanı tutur ki, oyanbıyan getməsin.*

**KAYA** (Qazax) – qoyun-quzunun qışda saxlandığı yer.

**KEB** (Qax) – evin bünövrəsi. – *İməçi eli:p keb qoyırıx.*

**KEC** (Salyan) – tərs, inadkar. ◊ **Keç düşmeg** (Bakı) – ləcləşmək, düşmən kəsilmək. – *Heç nedən kec tüşdi məniynən.*

**KECƏ** (Meğri) – meşədəki ağaclarda qurumuş mamırlı budaq. – *Xeyrənsə, çatı gəti bu kecəni sındırım.*

**KECEGƏN** (Qax) – b a x **keseyən.** – *Kecegənnən törən torba deşən oliy?*

**KECƏL** (Tabasaran) – ağac gövdəsində əmələ gələn mamır. – *Havu teregin gevdəsin kecəl basutdu.*

**KECİ** I (Culfa, Göyçay, Oğuz, Ucar, Zaqatala) – 1. b a x **keji** (Göyçay, Ucar, Zaqatala). – *Keci baramadan olur* (Culfa); 2. bişirilmiş baramadan əyrilmiş sap (Culfa, Oğuz).

**KECİ** II (Salyan) – saya. – *Bi keci corab da görməmişəm onnan.*

**KE:Cİ** (Şəki) – b a x **keji.** – *Baramanı bişirisən, sora oluy imişax, una diyillər ke:ci.*

**KEÇƏBÖ:RÜX′** (Hamamlı) – məzhəkəçi, təlxək. – *Kəndirbazın yanında keçəbö:rüx′ olor, cama:tın başını qater.*

**KEÇƏLƏĞAZEG** (Dərbənd) – sağsağana oxşar əti yeyilən quş. – *Səməndər tüfəngnən keçələğazeg vurmağa kitədü.*

**KEÇƏLƏT** (Ağcabədi, Bərdə, Cəlilabad, İmişli, Kürdəmir) – keçid. – *Keçələt oradı, körpi yoxdi* (Cəlilabad); – *Keçələtdən bağa keçirix′* (Bərdə).

**KEÇƏMCEG** (Dərbənd) – üzüm növü, uzun giləli üzüm. – *Şahmarxanın bağında keçəmceg üzümi çux uladı.*

**KEÇƏNƏCƏK** (İmişli) – yaşayış, güzəran. – *Keçənəcəgimiz sağlığıva yap yaxşıdı.*

**KEÇƏPAPAX** (Şəmkir) – təlxək, məzhəkəçi. – *Keçəpapax əlliki <əlli iki> oyun çıxardır, adamı güldürür.*

**KEÇƏPİÇAX** (Meğri) – qəddar, zalım. – *Əlesgar kimin keçəpiçax adam Nüyədidə yux idi.*

**KEÇİƏMCƏYİ** (Ağdam, Bakı, Cəbrayıl, Göyçay, Mingəçevir, Ucar) – uzun giləli üzüm növü. – *Bizim bağda keçiəmcəyi çoxdu* (Cəbrayıl).

**KEÇİQIRAN** I (Bakı, Qazax, Şamaxı, Tovuz) – martın sonu, aprelin əvvəli (vaxt). – *Keçiqıran vaxdı bərk naxoşdamışdım* (Bakı).

**KEÇİQIRAN** II (Culfa, Salyan) – soyuq. – *Dünən keçiqıran küləg əsirdi* (Salyan).

**KEÇİMƏMƏSİ** I (Basarkeçər) – kökü yeyilən bitki. – *Gəlin gedəyin keçiməməsi yığıf yemə:.*

**KEÇİMƏMƏSİ** II (Cəbrayıl) – b a x **keçiəmcəyi.**

**KEÇİPAPAX** (Ucar) – b a x **keçəpapax.** – *Keçipapax camahatı çox güldürdü.*

**KEÇİRDMƏ** (Quba) – paltara düymə əvəzinə tikilən qarmaqcıq. – *Dunun keçirdmələri dəmirdü, bərk uladu.*

**KEÇKEÇİ** (Başkeçid, Borçalı, Hamamlı, Qazax) – kol növü. – *Keçkeçidən çalğı kəsəllər qapı-baceyi süpürməyə* (Hamamlı); – *Bı arada meşədə keçkeçi olor* (Borçalı).

**KEFNƏX′** (Cəbrayıl) – hərdəmxəyal.

**KEJİ** (Bərdə) – bişirilmiş barama. – *Barama pişir, olur keji.*

**KEKİŞMƏX′** (Şərur) – yarışmaq, ötüşmək (qaçışda).

**KEKLİTARAX** (Zaqatala) – şanapipik. – *Səhər tezdən keklitarax bizin məhlədə namaz qılırdı.*

**KER** (Yardımlı) – dağın döşü. – *Uşəğ kerdən yıxılıb.*

**KESEYƏN** (Şəki) – siçan. – *Bö:rdən görür ki, quyu:n ağzınnan keseyən baxiy.*

**KESİX′** (Qax, Şəki) – 1. qohum (Şəki). – *Özü də bizim kesix′di;* 2. övlad (daha çox qıza aiddir) (Qax). – *Menin də bi kesix′ olsaydi dərtmi olardı?*

**KEŞ** I (Quba) – dərə. – *Yağuşda keşdən su axub gələdü.*

**KEŞ** II (Füzuli, Meğri, Zəngilan) – nəm. – *Yeri keş əkəndə yaxşı bığda olur* (Zəngilan); – *Nə çox quru olmasın, nə də zığ, ona biz keş de:rix′* (Füzuli).

**KEŞ** III (Salyan) – səhər vaxtı (səhər saat 8-dən 10-dək). – *Mən onı keşdən günortayacan gözlədim.*

**KEŞ** IV (Yardımlı) – yumşaq. – *Peşkarun yeri keşdü, əkməgə rahatdu.*

**KEŞAN** (Füzuli) – oturacağı yastı mis qab, qablama. – *Keşana sağırıx südü.*

□ **Keş döymək′** (Mingəçevir) – bitkilərin dibini yumşaltmaq.

**KEŞƏLMƏX′** (Ordubad) – yumşalmaq. – *Çörəyi isladırıx, so:ra u keşəlir.*

**KEŞƏVƏND** (Quba) – məhəccər.

**KEŞGAL** I (Qax, Ucar) – bax **keşqal.** – *Qalxozçular keşgal qazır* (Ucar); – *Bayaxdan çəltiy əkəllərdi, suaran su arxlarına keşgal di:llərdi* (Qax).

**KEŞGAL** II (Zaqatala) – bir hektardan artıq olan sahə, yer.

**KEŞGƏ** (Bakı, Cəbrayıl, Salyan, Cəlilabad, Mingəçevir) – kaş, kaş ki. – *Asdan əmi keşgə ölmeydi* (Cəlilabad); – *Keşgə onu aleydım* (Cəbrayıl).

**KEŞGƏL** (Bərdə, Göyçay, Şəki, Ucar) – bax **keşqal.** – *Keşgəldən hayatıma suə:lir* (Bərdə); – *Qajdən ayriliy keşgəllərə su* (Şəki); – *Keşgəli aşdım, bağ sulandı* (Ucar).

**KEŞGİL** (Borçalı) – bax **keşqal.**

**KEŞİR** (Təbriz) – yerkökü. – *Kələmi yığannan so:ra yerində keşir əkirdux.*

**KEŞİX′** (Borçalı, Kəlbəcər) – muzd olaraq çobana verilən (keçmişdə) hər 25 qoyundan biri. – *Keşiyi çovan kəsiv yiyə də bilər, sata da bilər.*

**KEŞKƏL** I (Ağdaş, Göyçay, Mingəçevir) – bax **keşqal.** – *Həyətimizdən keşkəl gedir* (Ağdaş).

**KEŞKƏL** II (Füzuli) – yaylağa gedənin evinə, əkininə baxan, nəzarət edən.

**KEŞQAL** (Bərdə, Göyçay, Mingəçevir, Ucar) – kiçik arx. – *Keşqaldan gələn su yannara dağılır* (Mingəçevir); – *Bı keşqalı təzədən qazajam* (Ucar).

**KEŞQAN** (Göyçay) – gicitkən.

**KEŞNİ** (Füzuli) – naxış. – *Nə qədər çətin keşni desən toxuyur.*

**KETBAX** (Dərbənd) – bel <alət adı>. – *Biz bəl də diyədüg, ketbax da diyədüg.*

**KEVƏ** (Meğri) – bir ili tamam olmamış ayı balası. – *Şükür dayim çuban ulanda iki kevə tutmuşdu.*

**KEY: KEY OLMAX** (Ağdaş, Mingəçevir) – dağ olmaq. – *Yağ key olub* (Ağdaş).

**KEYDAR: KEYDAR OLMAX** (Çənbərək) – əldən düşmək, yorulmaq. – *Gejə savağatan keydar oldum səni yözdəməhdən, oğul!*

**KEYVANİ** (Dərbənd) – aşpaz. – *Aşi pişirən yağ ular, keyvani yüzi ağ ular;* – *Keyvani keyvanidən yəxşi ulanda süttü aşa suğan duğrar.*

**KEYVƏ** (Biləsuvar) – qarı, qoca arvad.

**KEYVƏND** I (Basarkeçər, Yardımlı, Qazax) – içi ot və ya samanla doldurulub çul əvəzinə işlədilən palaz. – *Örkəni bərh çək keyvənd tərpənməsin* (Basarkeçər); – *Keyvəndin içinə saman doldurorux kun, ulağın beli yara olmasın* (Qazax).

**KEYVƏND** II (Gədəbəy, Qazax) – payızda qoyunların belində qırxılmayıb saxlanılan yun.

**KEYVƏND** III (Lerik) – yük daşımaq üçün iş heyvanlarının belinə qoyulan haça ağac. – *Keyvəndsiz dərz daşımağ olmaz.*

**KEYVƏNİ** (Cəlilabad, Masallı) – qarı, qoca arvad. – *Keyvəni, bizə qonağ olursan?* (Masallı).

**KEYVİR** (Çənbərək, Qazax) – soyuq; sərin. – *Daş bulağın suyu keyvirdi* (Çənbərək).

**KƏBƏ** (Bakı) – bax **ka:bə.** – *Bu il biz çoxli kəbə əkmişig.*

**KƏBƏİR** (Qax) – sifəti və bədən quruluşu eybəcər olan (adam).

**KƏCCƏ** (Ordubad) – alaqkeş. – *Alağı kəccəynən ele:llər.*

**KƏCİ** (Meğri) – bax **keji.** – *Lap yəxşi kəci pampan baramadan uley.*

**KƏÇTÜK** (Qax) – keçi qılı.

**KƏDƏK** (Zərdab) – bir yaşa qədər olan camış balası.

**KƏDİ** I (Ağdaş, Yevlax, Zərdab) – bax **kadu.** – *Bu il həyətimizdə çoxlu kədi əkmişəm* (Ağdaş); – *Səfalı kişi kədi satır* (Zərdab).

**KƏDİ** II (Qazax, Tovuz) – hananın hissəsi. – *Kədi quru ağaşdan olor* (Qazax).

**KƏDİ** III (Ağdam, Gədəbəy, Qazax) – faraş doğulmuş buzov. – *Gördü:ŋ dana ha döy, kədidi* (Gədəbəy); – *Kədiyi kəsdix′, pütün yağdı* (Qazax).

**KƏDİ-KƏDİ: KƏDİ-KƏDİ DANIŞMAX** (Qazax, Zərdab) – yekə-yekə, yaşına uyğun olmayan şəkildə danışmaq. – *Səfərin kiçiy oğlu kədi-kədi danışırdı, əl-əyağım yerdən üzüldü* (Zərdab); – *A bala, kədi-kədi danışma, qoy işimizi görəx′* (Qazax).

**KƏDİQAZIYAN** (Ucar) – qabaq qabığını təmizləmək üçün ucu əyri xüsusi dəmir alət. – *Kədiqazıyannan kədini qazıyırıx, so:ra qazanda pişirip yeirik.*

**KƏDO** (Goranboy, Şərur, Naxçıvan) – b a x **kadu.** – *Builki kədolar çox şirindi* (Goranboy).

**KƏDOV** (Şərur) – b a x **kadu.**

**KƏFƏ** I (Culfa, Ordubad, Şərur, Təbriz, Zəngilan) – əlin içi. – *Əlimin kəfəsi yanıf* (Zəngilan); – *Biz əlin içinə kəfə deyərıx* (Ordubad).

**KƏFƏ** II (Şəki) – örkən. – *At yükünün kəfəsini çək.*

**KƏFƏLLƏŞMƏK** (Salyan, Zərdab) – tərkləşmək, ikilikdə bir ata minmək. – *Əhmədnən Məmməd kəfələşdilər* (Zərdab).

**KƏFƏR** (Naxçıvan, Şərur) – su süzmək üçün daş. – *Kəfər odu ki, suyu süzən daşdı.*

**KƏFƏZƏL** (Cənubi Azərbaycan) – işə yaramayan, gərəksiz şey. – *Məmmədhüseyn, bu kəfəzəlləri yığıb at çölə.*

☐ **Kəf gəlmək** (Bakı, Kürdəmir, Saatlı, Salyan) – hiylə, kələk gəlmək, aldatmaq. – *Dos dosda kəf gəlməz;* – *Bına bax, gör mə: necə kəf gəlir* (Bakı).

**KƏFGİR** (Böyük Qarakilsə) – tərs. – *Əli yaman kəfgir adamdı.*

**KƏF: KƏF KEŞMƏX′** (Gədəbəy) – qüvvədən düşmək, zəifləmək. – *Afat bu yaxınnardan bəri kəf keçif.*

**KƏFRƏM** (Ağdam, Başkeçid, Borçalı, Cəbrayıl, Gəncə, Kürdəmir, Mingəçevir, Şərur, Şuşa, Yevlax) – yorğan və ya döşəyin mitili. – *Yorğanın kəfrəmin möhkəm ağdan tikin, tez dağılmasın* (Cəbrayıl); – *Döşəyin kəfrəmi cırılıf* (Ağdam); – *Yorğanın kəfrəmin yudum* (Şuşa).

**KƏFRƏN** (Şəki) – b a x **kəfrəm.** – *Döşəyə təzə kəfrən almışam.*

**KƏHƏ** (Ordubad) – b a x **kəfə.**

**KƏHGİR** (Gədəbəy) – b a x **kəfgir.** – *Kəhgir ata mimməx′dənsə piyade:tməx′ məslahatdı.*

**KƏHLƏ** (Gəncə) – yabanı bitki adı. – *Bizim pambıxda çoxlu kəhlə bitif.*

**KƏKBİR** (Qazax) – kəfgir. – *Xingalı qazannan kəkbirnən çəkəllər.*

**KƏKƏMAZ** (Salyan) – b a x **katamaz.** – *İnəg doğannan so:ra ilk sütün pişirirsən olur kəkəmaz.*

**KƏKƏRDİ** (Zəngilan) – qab-qacaq yığılıb daşınan iri xurcun.

**KƏKƏŞ** (Cəbrayıl) – lovğa.

**KƏKƏŞDƏMMƏX′** (Cəbrayıl, Meğri) – lovğalanmaq. – *Nə kəkəşdənirsən, a Nərman, səni tanımırıx?* (Meğri).

**KƏKƏZZƏMƏG** (Salyan) – çımxırmaq. – *Kimin ussünə kəkəzzənirsən, onı yiyəsiz görmisən nədi?*

**KƏKİL** (Füzuli, Qazax) – cır tut ağacı. – *Kəkil gəri yaxşı yammaz* (Füzuli).

**KƏKİLDARAX** (Dərbənd, Qax, Zaqatala) – b a x **keklitarax.**

**KƏKLİYİ AZMAĞ** (Bakı, Salyan) – *məc.* mədəsi pozulmaq. – *Neçə gündü kəkliyim azıb, heç nə istemirəm* (Bakı).

**KƏKOY** (Qazax, Tovuz) – pəltək.

**KƏKRƏ** (Naxçıvan, Salyan) – acı ot.

**KƏKRİ** (Tovuz) – dəmirçilikdə işlədilən alət adı. – *A Kərim, o kəkriyi gəti baltıyı düzəldəx′.*

**KƏKÜŞDÜ** (Gədəbəy) – gəlmə. – *Bizim kətdə də kəküşdülər var.*

**KƏL** I (Şəki) – keçəl. ◊ **Kəl olmax** – keçəl olmaq. – *Başına yara düşüf kəl o:ltdı.*

**KƏL** II (Ordubad) – üzüm tənəyinin cavan zoğu. – *Buyil mevlərdə yaxşı kəl var;* – *Böyün mevlərdən kəli kəsdim.*

**KƏLBƏZ: KƏLBƏZ VAXTI** (Ucar) – cütləşmə vaxtı. – *Kəlbəz vaxdı donuz adama hücum eliyir.*

**KƏLBUĞA** (Kəlbəcər) – buğaya gəlmə həddinə çatmış camış düyəsi. – *Kələ:lənə kəlbuğa de:rıx.*

**KƏLƏ** (Ağcabədi, Qazax, Tovuz) – buğa. – *Alma kələ, satma pələ, tutam buynuz, tüşməz ələ* (Ağcabədi).

**KƏLƏCİ** (Ordubad) – suda əzilmiş qurut. – *Qurudun suda əzilmişinə kələci deyərıx.*

**KƏLƏCOŞ** I (Basarkeçər, Borçalı, Gəncə, Qazax, Tərtər) – qurut, yağ və kartofdan hazırlanmış xörək. – *Anam daddı kələcoş pişirmişdi, doyuncax yedim* (Basarkeçər); – *Kələcoş ləzzətdi şeydi* (Borçalı).

**KƏLƏCOŞ** II (Çənbərək) – xingal suyu qatılmış yağ. – *Yağ azıdı deyn xəngəlin üsdə kələcoş töx'düm.*

**KƏLƏÇ** (Cənubi Azərbaycan) – dəyirmanda taxıl ölçmək üçün işlədilən qab, ölçü qabı. – *Kələçi yaxşı doldur.*

**KƏLƏÇƏR** (Çənbərək, Gədəbəy) – çoxbilmiş. – *Yamanca kələçər kişidi, alladammasan onu sən* (Gədəbəy).

**KƏLƏÇİ** (Qazax) – kiçik kələf. – *Maŋa bir kələçi if borc ver.*

**KƏLƏBAŞ** (Salyan) – yekəbaş; qanmaz. – *Sən kələbaşsan, səni başa salmağ çətindi.*

**KƏLƏDAYI** (Salyan) – kobud, mərifətsiz. – *Kələdayı olma.*

**KƏLƏDURAN** (Tovuz) – b a x **kaladuran.**

**KƏLƏFƏTİR** (Ağcabədi, Borçalı, Cəbrayıl, Qazax) – fəsəlidən bir qədər böyük və nazik şəkildə yağsız bişirilən çörək. – *Bizə çaynan kələfətir verdilər* (Qazax); – *Tələsiyirix', deyirix' uşax bir az çörəy yesin, kələfətir pişiririx'* (Borçalı).

**KƏLƏFIR** (Gədəbəy) – b a x **kalafır.** – *Kələfırı yağda pişirrəx'.*

**KƏLƏFLƏMƏX'** (Füzuli) – yumaqlamaq. – *Yunu ku əyriv qutardıx, qutarannan ayna mını sarıyırıx, çəvrif kələfliyirix'.*

**KƏLƏG** (Cəlilabad) – əkin sahələri arasında torpaq topasından düzəldilən nişan. ◊ **Kələg vırmağ** – əkin sahələri arasında nişan qoymaq. – *Gedmişdim çölə, ot yerində kələg vırdım.*

**KƏLƏXUVAGİ** (Dərbənd) – gəlinin sağdışı və soldışı. – *Gəlinin kələxuvagiləri övbəöv gezüb tuyə diyədülər.*

**KƏLƏK** I (Qazax, Tovuz) – kiçik, keyfiyyətsiz qovun və ya qarpız. – *Kələyi yeməzdər, adam naçaxlar* (Qazax).

**KƏLƏK** II (Yardımlı) – divar. – *Əvin kələyin qağon götüray.*

**KƏLƏKƏ** (Ağdam, Cəlilabad, Culfa, Göyçay, İmişli, Kəlbəcər, Masallı, Ordubad, Sabirabad, Salyan, Şahbuz, Zəngilan) – b a x **kələkey.** – *Nənəm kələkə pişirdi* (Kəlbəcər); – *Ağuzu qoyurux odun üsdünə, olur kələkə* (Şahbuz); – *Siftə bişən kələkə olur* (Göyçay); – *Kələkəni heyvanın əvvəlimci südünnən pişirillər* (Ordubad).

**KƏLƏKEY** (Culfa, Qarakilsə, Laçın, Ordubad, Zəngilan) – yeni doğmuş heyvanın ilk südündən bişirilən yemək. – *Mən sə:r inəyin kələkeyin yemişəm* (Ordubad).

**KƏLƏ-KÜLƏ** (Ordubad) – çınqıllıq, xırda daşlıq. – *Kələ-külədə əkin olmaz;* – *Bı yerrər qabaxda kələ-küləydi.*

**KƏLƏMAMA** (Dərbənd) – bayquş. – *Şa:pərünün damində kələmama çux uturutdu.*

**KƏLƏMBİR** (Şərur) – istiot. – *Kələmbirəm qalxaram; Qızılgüldən qorxaram.*

**KƏLƏMO** (Zərdab) – balıq növü adı. – *Oğlan bazarda kələmo satırdı.*

**KƏLƏMSUYUĞU** (Ağdaş) – kələm və düyüdən hazırlanmış xörək. – *Bu gün kələmsuyuğu yedim.*

**KƏLƏMÜLƏ** (Kürdəmir) – başbilən, ağsaqqal.

**KƏLƏNBİR** (Naxçıvan) – ağac adı. – *Bırda kələnbir çox bitir.*

**KƏLƏNTƏ** (Cəbrayıl, Culfa, Ordubad, Ucar) – dəryaz. – *Ədil kələnteynən ot vurur* (Cəbrayıl).

**KƏLƏNTƏR** I (Bakı, Bərdə) – kök, sağlam. – *Ziveydə kələntər arvatdı* (Bərdə).

**KƏLƏNTƏR** II (Cəlilabad) – bilikli, çoxbilmiş. – *Oların axılkəsənnərinnən iki kələntər arvad gətireylər.*

**KƏLƏNTƏR** III (Meğri, Bakı) – nəcib, alicənab. – *Tavis kələntər avratdı* (Meğri).

**KƏLƏNTİ** (Culfa, Ordubad, Ucar) – b a x **kələntə.** – *Kələntiynən ot biçəllər.*

**KƏLƏPIR** (Gədəbəy, Xanlar) – b a x **kalafır.** – *Əti dorğoysan, yağda pişireysən, oloy kələpır* (Xanlar).

**KƏLƏPIRT** (Basarkeçər) – b a x **kalafır.** – *Heyvanın ətinnən teccə bir kələpırt qayır yə:x'.*

**KƏLƏSƏR** (Ağcabədi, Ağdam, Füzuli, Göyçay, Ucar, Tərtər) – təzə əkilmiş tənək. – *Bı kətdə kələsər çoxdu* (Ağcabədi); – *O təzə əkilmə tənəx'lərə kələsər de:rix', ağaja çıxmır kələsər* (Ağdam).

**KƏLƏTAN** (Ordubad) – hörümçək. – *Bizdər hörümçəx' deməruxx, kələtan deyərıx.*

**KƏLƏVƏR** (Füzuli) – bitki adı.

**KƏLƏY** (Qarakilsə, İmişli, Şahbuz) – yan tərəfləri daşla hörülmüş ağıl, heyvan salınan yer. – *Yayda malı kələyə salırıx* (Qarakilsə); – *Kələyə ma salıllar* (Şahbuz); – *Daştan ağıl çəkillər, oa <ona> kələy deyillər* (İmişli).

**KƏLƏZ** (Qax, Qazax, Quba, Oğuz, Şəki, Zaqatala) – kərtənkələ. – *İlana ağı verən kələz olar* (Şəki).

**KƏLFİR** (Xanlar) – qoca, qocalmış. – *Bu kəlfir it yediyi yala dəyməz.*

**KƏLİXʹ** I (Borçalı, Qazax) – yastıdaban ev ayaqqabısı. – *Ə:, o kəlixʹləri gətir burya* (Qazax).

**KƏLİXʹ** II (Ağdam, Ağdaş, Cəbrayıl, Gəncə, Oğuz, Zaqatala, Zəngilan) – b a x **kəlik.** – *Kəlixʹ çox da yiməli şey döyü* (Oğuz); – *Bu il Daşkəsən kəndində kəlixʹ çoxdu* (Cəbrayıl).

**KƏLİK** (Bakı, Cəlilabad, Kürdəmir) – yetişməmiş qovun və ya qarpız. – *Uşaxlar bosdannan bir neçə kəlik gətirdilər* (Bakı); – *Mına iki dənə kəlik verir* (Cəlilabad).

**KƏLİMAX** (Zaqatala) – sıyırmaq, – *Xamırı astamnan kəliyırıx.*

**KƏLİMƏXʹ** (Cəbrayıl, Füzuli, Mingəçevir, Şəki) – təmizləmək, xırda otları dibindən kəsib götürmək, kürümək. – *Cümşüd, arxı kəli, su gətirəxʹ* (Cəbrayıl).

**KƏLİM-KƏLİM** (Qazax) – hərdənbir. – *Axlın kəlim-kəlim gəler.*

**KƏLİN: KƏLİN QOYUN** (Ağcabədi, Ağdam, Başkeçid, Borçalı, Culfa, Füzuli, Hamamlı, Xocavənd, Kürdəmir, Qax, Qazax, Şəmkir, Tovuz) – buynuzlu qoyun. – *Anamsan, qoyunun kəlini, səni sağan qız-gəlinin, quceydım incə belini* (Füzuli); – *Bizim sürüdə kəlin qoyun çoxdı* (Culfa); – *Buynuzdu qoyuna kəlin deyillər* (Tovuz).

**KƏLİŞ** (Ordubad) – soğanın bir növü. – *Kəliş daddı soğandı.*

**KƏLKÜN** (Qarakilsə) – xeyirxah, qayğıkeş. – *Əli çox kəlkün adamdı, yəqin tanıyarsĩ:z.*

**KƏLLAH** (Basarkeçər) – camış naxırı.

**KƏLLAYI** (Zəngilan) – "düzbucaqlı" şəklində. – *Əvi kəllayı tixʹdimişəm.*

**KƏLLƏDAR** (Culfa, Ordubad) – b a x **kalladar** I.

**KƏLLƏDARRIX: KƏLLƏDARRIX ELƏMƏXʹ** (Gədəbəy) – dikbaşlıq etmək. – *Kəllədarrıx eləməynən kimə neyləjəxʹsiŋ kin?*

**KƏLLƏ-KƏLLƏ** (Bakı, Quba, Şamaxı) – yekə-yekə, böyük-böyük. – *Kəllə-kəllə danışmağ süzə qalıb* (Şamaxı). – *Sə:n adətündü həməşə kəllə-kəllə danışmağ* (Quba).

**KƏLLƏQITZA** (Qax) – kəlləpaça. – *Habı kəlləqıtzanı qaırsana.*

**KƏLLƏLIX** (Ordubad, Şərur) – qapının yuxarı hissəsində düzəldilən işıqlıq, pəncərə. – *Kəllələxda iki göz olar işıx üçün* (Ordubad).

**KƏLLƏLİG** (İmişli) – cilovun atın başına keçirilən hissəsi.

**KƏLLƏMANQO** (Basarkeçər, Borçalı, Qazax, Mingəçevir, Ucar, Tərtər) – zökəm. – *So:x də:if kəlləmanqo olmuşam* (Ucar); – *At da, adam da kəlləmanqo ola bilər* (Tərtər).

**KƏLLƏPƏSDİXʹ: KƏLLPƏSDİXʹ ELƏMƏXʹ** (Şuşa) – zəhmət çəkmək, çalışmaq, əlləşmək. – *Hərdən axşamacan kəlləpəsdiy eliyirəm, əvə gələndə də arvad zəhləmi tökür.*

**KƏLLƏÇARXA ÇIXMAĞ** (Salyan) – həddini aşmaq, ağ eləmək. – *Yığışdır özüvi, lap kəlləçarxa çıxdın a!*

**KƏLMƏÇİ** (Ordubad) – çərməki, gönü döyüb düzəltmək üçün bürüncdən hazırlanmış alət. – *Kəlməçini dükana apar.*

**KƏLMƏS** (Lerik) – qarımış qız.

**KƏLPİR** (Gəncə) – giləoxşar sarı torpaq. – *Bu kərpişdər kəlpirə oxşuyur;* – *Burda nə çox kəlpir var.*

**KƏLTƏ** (Bakı, Basarkeçər, Gədəbəy, Xaçmaz, Şamaxı, Şəmkir) – 1. iri, qüvvətli (Basarkeçər). – *Qalxozda yaxşı kəltə öküzdər var;* 2. yaşlı, təcrübəli, dünyagörmüş (Bakı, Gədəbəy, Xaçmaz, Şamaxı, Şəmkir). – *Elə danışer ki, maşallah, elə bilersən kəltə kişidi* (Şəmkir); – *Kəltə adamlar köhnə əyamnan çox yanıxlı danışeylar* (Gədəbəy).

**KƏLTƏN** (Basarkeçər, Qazax, Şəmkir, Tərtər) – kəsək. – *Kəltənnən iti vurdum* (Qazax); – *Kəltən daş kimiydi* (Şəmkir).

**KƏLVƏC** (Cəlilabad) – qışın birinci ayı. – *Ataram səni, kəlvəcdə qarnan gələrsən.*

**KƏM** I (Şamaxı, Zaqatala) – heyvanlarda olan xəstəlik. – *Bu il mal-qaraya kəm düşdü*

(Zaqatala); – *Bu atda kəm var, muni alıb satan olmaz* (Şamaxı).

**KƏM** II (Ordubad) – sağanaq. – *Bu ələyin kəmi təzədi.*

**KƏM** III (Culfa, Hamamlı) – vəl. – *Kəmi ver külaşimi döyüm* (Hamamlı).

**KƏM** IV (Qazax) – cilovun atın ağzına keçirilən dəmir hissəsi.

**KƏMBƏRBƏSDƏ** (Ordubad) – barama növü. – *Kəmbərbəsdə barama:n yaxşı ipəyi olur.*

**KƏMÇAT** (Qazax) – ağıldankəm. – *Ağlı yoxdu, kəmçatdı.*

**KƏMÇƏ** (Bakı, Kürdəmir) – mala (alət). – *Kəmçəni vər, öyü suvıyım* (Kürdəmir).

**KƏMÇƏNƏ** (Kürdəmir) – mala.

**KƏMÇƏNƏK** (İsmayıllı) – kiçik sahə. – *Bu kəmçənəyin də otun biz biçəciyik.*

**KƏMÇİX′** (Şəmkir, Tovuz, Zaqatala) – yarımçıq, əskik. – *Yerin başında birəz kəmçix′ qalıf, sərin tüşəndə onu çəkin;* – *Yorğanın dannajıx kəmçiyi qalıf, gəl onu sırı* (Tovuz); – *Bu parçanın kəmçiyin düzəlt* (Şəmkir).

**KƏMƏ** (Quba) – sünbül dəstəsi. – *Kəməni quyun yidi.*

**KƏMƏNƏ: KƏMƏNƏ BAĞLAMAX** (Cəbrayıl) – dağdan daş yumalamaq.

**KƏMƏRBƏSDƏ** (Ordubad) – b a x **kəmbərbəsdə.**

**KƏMƏRƏ** (Meğri) – kəmər şəklində duman. – *Kahanın başı üsdə kəmərə duman durup.*

**KƏMKƏ** I (İmişli) – kətmən. – *Mə:n kəmkəm sınıb, düzəltdirəm gərək;* – *Ay ussa, mə: bi yaxşı kəmkə düzəlt.*

**KƏMKƏ** II (Salyan) – mala, suvaq çəkmək üçün alət. – *Kəmkəni zəmmildən çıxart ver mənə.*

**KƏMKƏLƏMƏG** (İmişli) – kətmənləmək. – *Tağın arasın kəmkələyün.*

**KƏMLƏMƏY** (Şamaxı) – xəlbirləmək. – *Xırmançılar buğdanı kəmləyənnən sora bölüşdülər.*

**KƏMLƏMMƏX′** (Qazax) – öskürüb boğazını arıtmaq, təmizləmək. – *A Mansır, nə çox kəmlənersəŋ, nə qalıf boğazıŋda?*

**KƏMLƏŞMƏX′** (Çənbərək, Qazax) – razılaşmaq. – *Qız öyünnən kəmləşiflər;* – *Toyu kəmləşiflər axşam* (Çənbərək); – *Toya kəmləşməyə gəliflər* (Qazax).

**KƏMÖ:X′** I (Borçalı, Qazax) – dumanlı soyuq hava.

**KƏMÖ:X′** II (Çənbərək) – 1. kövrək, boş. – *Kəmö:x′ qa:dan daş töküflər, onnan örgü olmaz;* 2. az. – *Kəmö:x′ qar yağmışdı.*

**KƏMRƏ** (Bakı) – çirk, kir.

**KƏMRİK** (Əli Bayramlı, Kürdəmir) – qabaq dişləri tökülmüş (adam). – *Dişim düşüb olmuşam kəmrik* (Kürdəmir); – *Kəmrik olduğumnan xörəgin ləzzətin də bilmirəm* (Əli Bayramlı).

**KƏMSİG** (Xaçmaz) – 1. əskik; 2. qısa.

**KƏMSİX′** (Cəbrayıl, Xocavənd, Qazax, Mingəçevir) – b a x **kəmsiy.** – *Kəmsix′nən iti bağlıyıllar* (Xocavənd); – *Bunnansa get boğazıŋa kəmsix′ sal* (Qazax).

**KƏMSİX′LƏMƏX′** (Çənbərək, Qazax) – boğazına ip bağlamaq. – *Xurda cijim buzoyu kəmsix′liyir* (Çənbərək); – *Ax, bu Kazım nə kəmsix′lənəsidi, bir çöp gətirmir öyə* (Qazax).

**KƏMSİY** (Xocavənd, Kürdəmir, Qazax, Mingəçevir, Şamaxı, Şuşa) – bağ, ip. – *Səfiy iti həməşə kəmsiydə saxlallar* (Şamaxı); – *O, itin başına kəmsiy bağlıyıf sürüyür* (Şuşa).

**KƏN** I (Qax) – b a x **kan** V.

**KƏN** II (Zaqatala) – döşəmənin altına qoyulan tir. – *Evin kəni sınıb, polu sökmüşük.*

**KƏNARƏ** (Qax, Ordubad) – kiçik xalça. – *Kənarələri yuduzdur* (Ordubad).

**KƏNDİ** I (Ağdam, Təbriz, Ağdərə, Dərbənd, Xaçmaz, İsmayıllı, Kəlbəcər, Kürdəmir, Quba, Laçın, Salyan) – taxıl və ya un saxlamaq üçün taxtadan düzəldilmiş və ya çubuqdan hörülüb suvanmış qab. – *Kəndiyə un yığırıx* (Kəlbəcər); – *Bizzərdə kəndini palçıxdan tikəllər* (Kürdəmir); – *Onun kəndisi doludu* (Laçın); – *Kəndini taxdadan düzəldif taxıl yığırdıx* (Ağdam); – *Bala, kəndidəki unumuz da qutaldı* (Xaçmaz); – *Kəndi var i:rmi çual tutur, kəndi var on çual* (Ağdərə).

**KƏNDİ** II (Basarkeçər, Şəki, Qazax) – öz.

**KƏNDÜ** (Dərbənd) – b a x **kəndi** I. – *Qalxuzda günümüzə u qədər buğda düşeydi ki, kəndülərimüzdə yər yux, əvü bir küncində tükeydüg.*

**KƏNƏFD: KƏNƏFD ELƏMƏX′** (Cəbrayıl) – gözümçıxdıya salmaq.

**KƏNƏK** I (Göyçay, Kürdəmir, Salyan) – tərs. – *Kənək inəyin süti az olar* (Göyçay).

**KƏNƏK** II (Göyçay, Salyan, Kürdəmir) – qabığı bərk və ləpəsi çətin çıxan qoz.

**KƏNƏK** III (Bakı, Salyan) – az. – *Heyva:n süti kənəkdi.*

**KƏNGƏR** (Gədəbəy) – yerkökünə oxşar yeyilən bitki. – *Çox kəngər yiməy adamı öysürdər yaman.*

**KƏNİ** (Meğri) – gənc, cavan. – *Nanaxanımın kəni qızı ölmüşdi, yüreyi dərtdiydi.*

**KƏNKİRRƏMƏG** (Cəlilabad) – yorulmaq. – *Kənkirrəmişəm, danışmağ isdəmeyəm.*

**KƏNKİRRİ** (Cəlilabad) – yorğun. – *Mən də bu gün bir az işdəmişəm, kənkirriyəm.*

**KƏNK: KƏNK OLMAX** (Gədəbəy) – kefsizləmək, özünü pis hiss eləmək. – *Kənk olmuşam çimənnən soŋra.*

**KƏNTO** (Şəki) – kobud. – *Çox kənto cavaf verdi; – Məmmədəli kənto adamdı.*

**KƏP** I (Lerik) – ayağın altı.

**KƏP** II (Göyçay) – daşlaşmış qum.

**KƏPƏNƏX′** (Basarkeçər, Qazax) – qoyun xəstəliyi. – *Bizim üş qoyun kəpənəx′dən öldü* (Basarkeçər); – *Kəpənəx′ azardı, qoyunda olor* (Qazax).

**KƏPƏŞO:LUĞ** (Salyan) – qarışıqlıq. – *Ay uşağ, heyvanların arasına kəpəşo:luğ salma.*

**KƏPƏTO: KƏPƏTO ELƏMƏG** (Salyan) – girinc eləmək, təngə gətirmək. – *Habil məni lap kəpəto eliyib.*

**KƏPİR** (Cəbrayıl, Naxçıvan, Şərur, Zaqatala) – məsaməli, tez ovulan. – *Əv tix′dimәyə kəpir daş yaxşıdı* (Cəbrayıl); – *Kəpir daşın üsdünnən gedəndə təpziyir* (Naxçıvan).

**KƏPİRRİ** (Zəngilan) – daşlı. – *Bartaz kəndi çox kəpirri yerdədi.*

**KƏR** (Qazax) – dəfə, kərə. – *Pammığa dörd kər, beş kər su veriler; – Elə olor gündə beş kər vererix′, elə olor kin, üş kər vererix′.*

**KƏRDİ** (Borçalı, Cəbrayıl, Culfa, Qazax, Ordubad, Şərur, Tərtər, İrəvan, Yevlax, Zəngilan) – lək. – *Kərdidə soğan, loyva əkerix′* (Borçalı); – *Biz soğanı kərdidə əkərıx* (Ordubad); – *Hər kərdidən üş put soğan çıxar* (Şərur).

**KƏRDİKÜLƏ** (Culfa, Şərur) – göyərti əkilən yer.

**KƏRDİN** (Təbriz) – yolların kələ-kötür yerini düzəldən alət. – *Yolmızı özümüz düzəltmişux kərdinnən.*

**KƏRDİVAR** (Culfa, Qazax) – b a x **kardıvar.** – *Kərdivarnan su gedən qajın içini təmizdellər* (Qazax).

**KƏRDİYAR** (Bərdə, Cəbrayıl, Çənbərək, Gədəbəy, Qarakilsə, Mingəçevir, Yevlax, Zəngilan) – b a x **kardığar.** – *Də:rmana kərdiyar apardım üyütdüm* (Bərdə); – *Kərdiyarın çörəyi xoşuma:lir* (Zəngilan).

**KƏRDİYƏR** (Başkeçid, Gədəbəy, Qazax) – b a x **kardığar.** – *Bizdə iki putatan kərdiyər olar* (Qazax).

**KƏRƏ** I (Cəbrayıl, Kəlbəcər, Salyan, Kürdəmir, Qazax, Mingəçevir, Oğuz, Tovuz) – qısaqulaq (qoyun). – *Qulaxsız qoyuna kərə de:rix′* (Tovuz); – *Qara kərə qoyun ekiz doğuf* (Kəlbəcər); – *Sarı kərə qoyun çox sütdüdü* (Kürdəmir).

**KƏRƏ** II (Təbriz) – daxma. – *Yayda yığışarux bağdakı kərəmizə.*

**KƏRƏCAN** I (Ağdərə) – dərin saxsı qab. – *Qız əre:dəndə ona bir dəs, yanı on dənə kərəcan verirdilər.*

**KƏRƏCAN** II (Şahbuz) – qurut əzmək üçün alət. – *Qurudu kərəcannan əzirix′.*

**KƏRƏHƏT** (Qax) – kifir, çirkin. – *Men hona gələndə qazaray çobandı kərəhət.*

**KƏRƏLAY** (Salyan) – çovğun, boran. – *Qış gəldi, kərəlay başlıyacağ.*

**KƏRƏLİG** (Cəlilabad) – kürt toyuğun yatması üçün palçıqdan düzəldilmiş yer.

**KƏRƏLMƏK** (Ucar, Salyan) – qorxub dayanmaq. – *At birdən kərəldi, mən özüm də qortdum.*

**KƏRƏM** (Bakı, Cəlilabad, Salyan) – dəfə. – *Bi kərəm meşiyə gedəndə qabağıma bi ayi çıxdi* (Cəlilabad).

**KƏRƏN** I (Basarkeçər, Borçalı, Çənbərək, Daşkəsən, Gəncə, Goranboy, Xanlar, Qazax, Tovuz) – evin üstə qoyulan tir. – *Palıtdan yaxşı kərən olar* (Borçalı); – *Kömәy eli:n öyün üsdünə kərən salax* (Basarkeçər); – *Meşədən iri kərən kəserdix′* (Tovuz); – *Kömәy elə kərəni dama qaldırax* (Daşkəsən).

**KƏRƏN** II (Füzuli) – cərgə, sıra. – *Kərənnən yığırıx, yanı cərgeynən, sıreynən.*

**KƏRƏN** III (Cəlilabad, Şərur, Yevlax) – b a x **kərəm.**

**KƏRƏNAY** (Xaçmaz, Quba) – b a x **karanay** I. – *Piççün üş dənə kərənay almışam* (Quba).

**KƏRƏNG** (İmişli) – karvandakı dəvələrdən birinin boynundan asılı zınqırov, zəng topası (bir-birinin içərisinə keçirilmiş 5-dən 10-a qədər zəng).

**KƏRƏN-KƏRƏN** (Cəbrayıl, Şamaxı) – 1. dəfələrlə, bir neçə dəfə (Cəbrayıl). – *Bı sözü sə: kərən-kərən demişəm, genə öz bildiyi: eliyisən;* 2. hərdənbir (Şamaxı). – *Başımın ağrısı kərən-kərən tutur.*

**KƏRƏNTİ** (Culfa, Çənbərək, Gədəbəy, Gəncə, Goranboy, Qazax, Naxçıvan, Ordubad, Salyan, Şəmkir, Şərur, Tovuz) – b a x **kələntə.** – *Mənim kərəntim kəsmir, al munu itilə* (Tovuz); – *Kərəntiynən ot biçərıx* (Ordubad).

**KƏRƏSKƏ** I (Çənbərək, İmişli, Qazax, Tovuz) – tövlədə və ya damda quzular üçün düzəldilmiş yer. ◊ **Kərəskə kəsməx′** (Çənbərək) – tövlədə və ya damda quzu üçün yer düzəltmək. – *Əsgər damda qoyuna da kərəskə kəsdi, quzuya da.*

**KƏRƏSKƏ** II (Qazax) – xingal.

**KƏRƏVƏNGİ** (Füzuli, Mingəçevir, Oğuz, Şamaxı, Zəngilan) – 1. hərdəmxəyal (Mingəçevir, Şamaxı). – *Başı batmış Namaz kərəvəngidi, ona etibar eləməy olmaz* (Şamaxı); 2. avara (Füzuli, Oğuz, Zəngilan). – *Nə kərəvəngi adamsan, heş de:ləni eşitmirsən* (Oğuz); – *Onnan adam olmaz, kərəvənginin biridi* (Füzuli).

□ **Kərəvəngi qalmax** (Cəbrayıl, Culfa) – çaşbaş qalmaq, məəttəl qalmaq, tərəddüddə qalmaq. – *Vəli kərəvəngi qaldı, bilmədi neyləsin* (Cəbrayıl); – *Ay Məhəmməd, lap kərəvəngi qalmışam, bilmirəm böyün şə:rə gedim, ya yox* (Culfa). ◊ **Kərəvəngi qoymax** (Qarakilsə) – çaşbaş qoymaq, tərəddüddə qoymaq. – *Məni kərəvəngi qoymusan, heş bilmirəm neyniyim.*

**KƏRƏZDƏNMƏK** (Yardımlı) – əl-qol atmaq. – *Kərəzdənmə, sözinən danış.*

**KƏRGƏ: KƏRGƏ BAĞLAMAX** (Basarkeçər) – dövrələmə oturmaq.

**KƏRGİLƏ** (Dərbənd) – gəbə, kilim və s. toxumaq üçün buynuzdan və ya dəmirdən düzəldilən dişli alət. – *Gülxanüm baci, kərgiləvüzi bügünnügə mənə vər.*

**KƏRİX′** (Basarkeçər) – gödəkqol, qısa qadın geyimi. – *Ağız, kəriyi maŋa gəti.*

□ **Kərix′ qalmax** (Şəmkir) – çaşmaq, karıxmaq, özünü itirmək. – *Kərix′ qaldım bu işdən.*

**KƏRİSKƏ** I (Ağdam, Gədəbəy, Kürdəmir, Tərtər) – b a x **kərəskə** I. – *Hələlik bir kəriskə düzəldin, görəx′ soŋrası nijo:lajax* (Gədəbəy).

**KƏRİSKƏ** II (Şəmkir) – arxac. – *Sən kəriskə yerində ol, mən də pu sa:t gəlləm.*

**KƏRİSKƏ** III (Füzuli) – rezin xizək. – *Kəriskə qarın üsdünnən sürünən olur, sürütmə kimi, qonqa kimi.*

**KƏRKİ** I (Ağsu, Bakı, Cəbrayıl, Kürdəmir, Qusar, Ordubad, Şamaxı, Şərur, Salyan, Zaqatala) – kətmən. – *Kərkini mağa versənə, bir az ala çehmax isdiyirəm* (Zaqatala).

**KƏRKİ** II (Yardımlı) – qənd doğrayan çəkic.

**KƏRKİNCƏX′** (Borçalı, Cəbrayıl, Füzuli, Hamamlı, Mingəçevir, Tovuz, Zəngilan) – quş adı. – *Bizim otaxda kərkincəx′ yuası var* (Cəbrayıl); – *Kərkincəx′ payız aylarında olur* (Hamamlı).

**KƏRKİT** (Dərbənd) – b a x **qırqıt.** – *Kərkit ikibaşlu uladu, unnan xana da tuxuyəllər, gəbə də.*

**KƏRMƏ** I (Basarkeçər, Cəbrayıl, Cəlilabad, Füzuli, Hamamlı, Kəlbəcər, Şərur, Kürdəmir, Qazax, Ordubad, Sabirabad, Salyan, Şərur) – təzək. – *Malın tullantısın ayaxlı:b bərkidillər olur basma, soŋra doğruyullar olur kərmə* (Hamamlı); – *Qışda kərməni yandırırıx* (Kəlbəcər); – *Gəti pıça kərmə qala yansın* (Sabirabad); – *Ora kərmə yığıb yanacağ üçün* (Cəlilabad).

**KƏRMƏ** II (Salyan) – kir, çirk. – *Kirin, kərmə:n içindəyəm.*

**KƏRNİYƏT** (Qax) – 1. pisniyyətli; 2. eybəcər.

**KƏRÖ:Ş** (Kürdəmir) – üzüm şirəsi çıxarmaq üçün qarğıdan düzəldilmiş alət. – *Üzüm balı düzəldirük, kərö:ş də gərəyimizdi.*

**KƏRRƏM-MƏRRƏM** (İmişli) – dəfələrlə, dönə-dönə. – *Munu maŋa kərrəm-mərrəm tafşırıflar, gərəx′ özünə verəm.*

**KƏRRƏN-KƏRRƏN** (Cəbrayıl) – b a x **kərən-kərən.** – *O:n ağlı başına kərrən-kərrən gəlir.*

**KƏRSƏN** (Qax, Şəki) – b a x **karsan.** – *Kərsəndə xamır var* (Şəki).

**KƏRTDƏX′** (Laçın) – əlin üstündə olan çirk.

**KƏRTDƏMƏZ** (Basarkeçər, Çənbərək, Karvansaray) – b a x **katamaz.** – *Çijim bir tava kərtdəməz bişirif* (Çənbərək); – *Bir litir ağız sağmışdım, apardım kərtdəməz pişirdim* (Basarkeçər).

**KƏRTDƏŞ-KƏRTDƏŞ** (Gədəbəy) – boş-boş, mənasız. – *Kərtdəş-kərtdəş danışmə:n kimə neylə:jəx′, neysə vərciş ele:fsiŋ.*

**KƏRTİ** (Basarkeçər) – boyat, köhnə. – *Çörə:miz kərtidi, yeməy olmur.*

**KƏRYAH** (Çənbərək) – dost-aşna. – *Cəfərin kəryahı çoxdu.*

**KƏRYƏ** (Qazax) – b a x **kəryah.** – *Mühüdün başınnan kəryəsi əysilməz.*

**KƏSDİ** (Zaqatala) – gil sac. – *Axşam lavaş bişirmağa isdiyirəm, sizin kəsdini versənə.*

**KƏSƏX′** (Şahbuz) – bıçaq. – *Cibinnən kəsəyi çıxardıb kəsirdi.*

**KƏSƏLGƏ** (Kəlbəcər) – keçid, bərə. – *Canavar kəsəlgəyə gələndə avcı onu vurdu.*

**KƏSƏRİ** (Qazax) – cib yaylığı.

**KƏSİK** (Ucar) – b a x **kesix′** (2-ci məna). – *Mənim kəsiyim var: biri Ucarda, biri Alpo:utda, biri də Bəkidə.*

**KƏSİM** (Hamamlı) – başlıq (qız köçərkən onun valideyninin oğlan evindən aldığı pul). – *Qıza iyirmi tümən kəsim alardıx.*

☐ **Kəsim satmax** (Şərur) – hədələmək, hədə-qorxu gəlmək. – *Gündə gə:r <gəlir> bizə kəsim satır.*

**KƏSİRGƏ** (Gədəbəy) – mal-qaranı açıq hava şəraitində saxlamaq üçün düzəldilmiş yer. – *Kəsirgiyə salın malı, geje:tməsin qoruğa gənə.*

**KƏSKİŞ** (Tovuz) – dəmirkəsən alət. – *Kəskişnən dəmir kəsiler.*

**KƏSMƏ** I (Göyçay, Xaçmaz, Quba, Laçın, Lənkəran, Mingəçevir, Salyan) – 1. düyü və ya buğda yarması (Göyçay, Xaçmaz, Quba, Lənkəran, Mingəçevir). – *Əyax düyiyə kəsmə de:llər* (Göyçay); 2. yarma xırdası (Salyan). – *Əl daşında çəkəndə kəsməsi də olar, yarması da;* – *Yarma iri olar, kəsmə xırda.*

**KƏSMƏ** II (Kəlbəcər) – bişmiş südlə qatığın qarışığından düzəldilən ağartı növü. – *Gamışın südünnən yaxşı kəsmə olur.*

**KƏSMƏX′** (Borçalı) – çürümək (südə aiddir). – *Südü pişirerdim, kəsdi.*

**KƏSMƏT** (İmişli, Göyçay, Qarakilsə, Salyan, Qazax, Mingəçevir, Yardımlı, Ucar) – 1. pensiya (Qazax). – *Biz qoja qalxoççulara kəsmət vererix′;* 2. şərt (İmişli, Qarakilsə, Ucar). – *Onnan mənim kəsmətim vardı* (Qarakilsə); – *Sənnən kəsmət kəsmişəm* (Ucar); 3. qiymət (Göyçay, Mingəçevir, Ucar). – *Mən inəyi satmağ isdiyirdim, cama:t kəsmətin kəsib, da mən nə diyə bilərəm* (Göyçay).

**KƏŞİVAN** (Quba) – eyvanın kənarları. – *Kəşivani çirk iləmə.*

**KƏTDA** (Yevlax) – lovğa. – *Niyaz mə:llim kətda adamdı.*

**KƏTƏ** (Basarkeçər, Biləsuvar, Cəbrayıl, Cəlilabad, Culfa, Füzuli, Gəncə, Göyçay, Xanlar, Kürdəmir, Qazax, Mingəçevir, Naxçıvan, Ordubad, Tərtər) – qutab. – *Yazda pencər çıxanda kətə pişirrix′* (Tərtər); – *Uşağlar kətə bişirməyçün cıncılım yığdılar* (Cəlilabad); – *Tamara yaxşı kətə bişirdi* (Cəbrayıl); – *Bizzər kətəni ətdən, göyərtidən bişirrük* (Kürdəmir).

**KƏTƏMƏZ** (Ağdam, Ağcabədi, Beyləqan, Bərdə, Cəbrayıl, Füzuli, Gədəbəy, Göyçay, Xocalı, Xocavənd, İmişli, Kürdəmir, Qazax, Şuşa, Tovuz, Ucar, Yevlax, Zəngilan, Zərdab) – b a x **katamaz.** – *Camışım doğdu, bir qavlama ağız sağdım, kətəməz pişirdim* (Yevlax); – *İnəyin kətəməzin yedix′* (Tovuz); – *İnəx′ doğanda uşaxlara kətəməz pişirdim* (Gədəbəy); – *Mən bu gün kətəməz yedim* (Beyləqan).

**KƏTƏN** (Basarkeçər) – ləpəsi yaxşı çıxan qoz.

**KƏTƏNKÖYNƏX′** (Qubadlı) – nazikqabıq (qoz). – *Kətənköynəx′ cəviz tez sınar.*

**KƏTƏYƏN** (Ağdam, Bakı, Gəncə, Xocavənd, İmişli, Şəmkir) – yabanı bitki adı. – *Bir harava kətəyən gətirdim* (Gəncə); – *Bir qədər kətəyən yığ heyvanın altına tökməgə* (Bakı).

**KƏTİBƏ** (Balakən, Qax, Zaqatala) – qadın geyimi.

**KƏTİL** I (Xocavənd, İmişli) – yeni doğmuş heyvanın ilk südündən bişirilən yemək.

**KƏTİL** II (Dərbənd, Quba, Mingəçevir) – ev tikərkən tirlərin altına qoyulan ağac. – *Bizdə əvlər daşdan tikilədü, kətili tirlərün artinə quyaduğ ki, ular düz utursun* (Dərbənd).

**KƏVƏX′** (Hamamlı) – kövrək daş. – *Bu öyü kəvəx′dən tix′dimişəm.*

**KƏVƏL** (Gədəbəy, Xanlar) – 1. bədəncə zəif, arıq (Gədəbəy). – *Çox kəvəldi, yağızadı olmaz sən də:n;* 2. qarnı yekə (Xanlar). – *Kəvəl quzu dala qalıf.*

**KƏVƏLƏ** (Lənkəran) – dimdiyi uzun quş. – *Bəyağ mənim cələmə kəvələ ilişmişdi.*

**KƏVİZ** (Laçın, Ordubad, Zəngilan) – 32 kq. taxıl tutan ölçü qabı. – *Bi kəviz 32 kilovdu* (Zəngilan); – *Həsən mã: iki kəviz taxıl borc verdi* (Laçın); – *Kəviz üçün bir təhnə qayrallardı* (Ordubad).

**KƏVLƏ** (Meğri, Ordubad) – 1. üzüm dərmək üçün ağac (Ordubad); 2. b a x **kavla** (Meğri). – *Ardışdan 75 kəvlə qırqınan, al bir əməx′.*

**KƏYƏ** (Qazax) – b a x **kaya.**

**KƏZ** (Salyan) – suotu. – *Balığlar kəz yiyillər.*

**KƏZƏ-KÜZƏ** (Ucar) – mənasız, boş-boş. – *Lətif, kəzə-küzə danışma, yaxşı danış.*

**KƏZZAB** (Naxçıvan) – yalançı.

**KIĞ** (Basarkeçər, Hamamlı, Xanlar, Qazax, Tovuz) – baldırğana bənzər yeməli bitki adı. – *Uşaxlar kığ yığmağa getdilər* (Hamamlı); – *Kığ yaman qartalıf* (Basarkeçər); – *Kığ meşədə piter* (Qazax).

**KIĞLAMAX** (Ağbaba) – ört-basdır etmək. – *İşin üsdünü elə kığladı ki, heş bilən olmadı.*

**KIXMIX** (Barana, Gədəbəy, Gəncə, Qazax) – ağac kəsərkən və ya odun doğrayarkən yerə tökülən qırıntılar, yaxud kiçik odun parçaları. – *Zaman çoxlu kıxmıx doğradı* (Barana); – *Ojağa kıxmıx qoy* (Qazax).

**KILAR** (Basarkeçər) – b a x **kilar.** – *Qatığı, yağı, çörəyi yığmışam kılara.*

**KILIĞ** (Yardımlı) – sacayağı. – *Kılığı qaza:n altinə qoyeylər.*

**KILIF** (Cəbrayıl, Qarakilsə, Ordubad, Şahbuz) – hasar altından keçən su yolu. – *Otdar kılıfın gözün tutub, su keşmir* (Şahbuz).

**KIR** (Qax) – bazu sümüyü.

**KIRILDAMAX** (Kəlbəcər) – yemlənərkən müəyyən səs çıxarmaq (ata aiddir). – *Ata ot verəndə kırıldıyır.*

**KIRINNANMAX** (Çənbərək) – dolmaq, yığılmaq. – *Parça maşının ağzına kırınnandı.*

**KIRKIRA** (Ağdam, Balakən, Borçalı, Qax, Zaqatala) – b a x **kilkilə.**

**KIRNAS** (Borçalı, Əli Bayramlı, Ordubad) – b a x **kirnas.** – *Nəği yaman kırnas adamdi* (Ordubad).

**KIRNIS** (Cəlilabad, İmişli, Ordubad, Saatlı) – b a x **kirnas.** – *Kırnıs olma* (İmişli).

**KIRS** (Qarakilsə, Meğri, Zəngilan) – 1. buz, buz parçaları (Meğri, Zəngilan); – *Ərəz bu yil elə hey kırs aparey* (Meğri); – *Qarnankırsnan gederdim* (Zəngilan); 2. qar ucqunu (Qarakilsə). – *Neçələri kırsa düşdü.*

**KIRTIZ** (Ağdam, Çənbərək, Füzuli, Xocavənd, Oğuz) – b a x **kirtiş.** – *Ay bala, ipi kırtıznan kırtızda, qoy bir əz nəzilsin* (Çənbərək).

**KIRTIZDAMAX** (Ağdam, Cəbrayıl, Çənbərək, Füzuli, Xocavənd, Oğuz) – b a x **kirtişdəməx′.** – *Nənəm if kırtızdıyır* (Cəbrayıl); – *O ipi kırtızda qutar* (Füzuli).

**KIRZA** (Meğri) – tut ağacının yarpaqlı budaqlarından qırılıb bağlanmış bağlama. – *Sanın qurda qalxuz düz atmiş kırza yarpax verip.*

**KIT** (Zaqatala) – yundan toxunan əşya.

**KITIL** I (Cəbrayıl, Meğri, Zəngilan) – baramaqurduna vermək üçün qırılmış tut çubuqlarının kəsilib atılan yoğun və yarpaqsız hissəsi. – *Biz bağımızdan üç araba kıtıl yığdıx* (Cəbrayıl).

**KITIL** II (Ağcabədi, Füzuli) – təzə doğmuş heyvanın ilk südündən bişirilən yemək. – *Kətəməznən kıtıl bir sözdü* (Ağcabədi); – *Dünən Aydıngildə kıtıl yedix′* (Füzuli).

**KITIL-KITIL** (Qazax) – xırda-xırda. – *Qəndi kıtıl-kıtıl doğroyrux.*

**KITIRA** (Meğri) – boğaz heyvanın əmcəyindən çıxan maye. – *İneyin əmceyinnən hala kıtıra da çıxmey.*

**KİCİ** (Zaqatala) – ilmək.

**KİCO: KİCO VIRMAX** (Kürdəmir) – vurnuxmaq, o yan-bu yana hərlənmək. – *To:ğun murtdası var, kico vırır.*

**KİÇİ** (Cəbrayıl, Kürdəmir, Mingəçevir, Zəngilan) – baramaqurdunun üçüncü yuxusu. – *Bizim qurdumuz kiçini indi yatır* (Cəbrayıl); – *Qurdum indi-indi kiçiyə yatır* (Zəngilan).

**KİF** (Salyan) – kəfrəm, mitil. – *Yorğa:n kifi köhnəlib.*

**KİFKİMƏX′** (Şərur) – b a x **kifsiməx′.**

**KİFLƏ** (Ordubad, Culfa) – külbə, təndirin havaçəkən yeri. – *Təndirin havaçəkən yerinə kiflə deyərıx* (Culfa).

**KİFSİMƏX′** (Mingəçevir, Naxçıvan) – kiflənmək, xarab olmaq. – *Meyvə çox qalsa kifsiyər* (Mingəçevir).

**KİKOY** (Hamamlı) – b a x **kəkoy.** – *Uşax kikoydu de:nə sözün çətin başa düşürəm.*

**KİL** (Yardımlı, Salyan) – küt. – *Kil balta odun kəsmey.*

**KİLAĞORD** (Cəlilabad) – iri bıçaq. – *Quşın başın kilağordnan kəsdüg.*

**KİLAN** (Quba) – qapını bağlamaq üçün daldan keçirilən və ya ona söykədilən taxta. – *Gid kilanı qapının dalna quy gəl.*

**KİLAR** (Basarkeçər) – yemək şeyləri saxlanılan sərin yer. – *Tez xaraf olan yeməx′ şeylərini kilara yığırıx;* – *Həm kilar de:rix′, həm də sərinnix′.*

**KİLD** (Cəbrayıl) – kürt. ◊ **Kild düşməx′** – kürt düşmək. – *Toyuğumuz iki gündü kild düşüb.*

**KİLƏ** I (Quba) – ölçü qabı. – *U vaxtda tarazi ulmazdi, şeyi kileynən bölərdüğ yuldaş arasında.*

**KİLƏ** II (Salyan) – qoç aşığı, iri aşıq. – *Bir kileynən hamısını uddım;* – *Kilə aşığdan bö:g olır.*

**KİLƏFƏRƏ** (Salyan) – bir aylıq cücə. – *Bı cücə kiləfərədi, hələ yimәg olmaz;* – *Hindiki kiləfərələr payızda to:uğ olmaz.*

**KİLƏĞURT** (Biləsuvar) – b a x **kilağord.** – *Kiləğurtnan çörəg doğra.*

**KİLƏVORD** (Yardımlı) – b a x **kilağord.**

**KİLH** (Meğri) – b a x **kild.** – *Qalxuzun uxarta kilh toyığı var ki, sanamağinan qutarmaz.*

**KİLİNCAN** (Ordubad) – yoncayabənzər ot. – *Kilincan yonca kimin otdi, onun da toxumun səpillər gövərir.*

**KİLİT** (Qax, Quba, Kürdəmir, Şərur, Ordubad) – 1. açar (Kürdəmir, Ordubad). – *Kilitnən qıfılı açıllar* (Ordubad); 2. qapıya daldan keçirilən uzun dəmir (Qax, Quba). – *Qapının kilidin vur* (Quba).

**KİLİTKAN** (Qarakilsə) – qapını bağlamaq üçün daldan keçirilən ağac. – *Tavlanın kilitkanın tapdım.*

**KİLİTKƏ** (Qarakilsə, Şərur) – kitrə, ağacda olan yapışqan.

**KİLKƏ** I (Ağcabədi, Ağdam, Cəbrayıl, Göyçay, Kürdəmir, Ucar, Şuşa, Zəngilan) – 1. yun daranarkən yerə tökülən və darağın dişləri dibinə yığılan hissə, keyfiyyətsiz hissəsi (Ağcabədi). – *Kilkə döşəx′cəyə qoyulur;* 2. daranmamış yun (Göyçay). – *Yorğanın kilkəsin çox eliyin* (Cəbrayıl); 3. *məc.* daranmamış saç (Bakı, Şuşa). – *Kilkələriŋi bir darasaŋa, ay adama oxşamaz* (Şuşa).

**KİLKƏ** II (Bakı, Basarkeçər, Bərdə, Borçalı, Hamamlı, Xanlar, Oğuz, Tovuz) – çay puçalı. – *Ay qız, o kilkəni at, çayniki yaxala, təzədən dəmlə* (Hamamlı); – *Çayı içerix′, sora kilkeyi aterıx* (Borçalı); – *A:z, o kilkeyi tulla çölə* (Tovuz); – *Çayni:n divindəki kilkəni apar töx′ ağacın divinə* (Basarkeçər).

**KİLKƏ** III (Borçalı, Qazax, Mingəçevir) – çöküntü (suda, neftdə, ərinmiş yağda). – *Daşa tökülör su, süzülor təmiz olor, kilkə qaler daşın içində* (Borçalı).

**KİLKƏ** IV (Ağdərə, Qazax) – 1. otun yumşaq hissəsi (Qazax). – *Mal otun kilkəsini otdoyuf, elə çöfləri qalıf;* 2. yabanı ot (Ağdərə). – *Kilkə qiyağ otu kimi olur.*

**KİLKƏLƏNMƏX′** (Çənbərək) – şübhələnmək. – *Abbasəli Löymannan kilkələnir, deyir kin, mənnən o qandırıf.*

**KİLKƏLƏŞMƏY** (Şamaxı) – bir-birinin saçından tutub dalaşmaq. – *Sən hər şeydən ötrü kilkələşməyə adət eləmisən.*

**KİLKƏŞİY** (Cəbrayıl, Şamaxı) – dolaşıq. – *Bu ipi niyə kilkəşiy saldın* (Şamaxı).

**KİLKİLƏ** (Qazax, Şamaxı) – əl dəyirmanı.

**KİLLƏMƏK** (Salyan) – kütləşmək. – *Pıçağ killəşib, kəsmir.*

**KİLPİK** (Zaqatala) – kirpi.

**KİM** (Salyan) – kif, rütubət. – *Öə girəndə kim iyi adamı vırır.*

**KİMEK** (Qax, Zəngilan) – kimi, qədər, dək. – *Axşama kimek gidax* (Qax); – *Bi neçə günə kimek manğa vax ver* (Zaqatala).

**KİMİG** (Dərbənd) – cür. – *Hamı bir kimig danışmıyadi.*

**KİMİK** (Balakən) – b a x **kimek.**

**KİMİKİ** (Dərbənd) – kimi. – *Anası diyən kimiki iliyədü.*

**KİNAV** (Cəbrayıl) – su dəyirmanını işlədən pərin altından keçən su yolu, arx. – *Dəyirmanın kinavı suyu nəysə yaxşı çəx'mir.*

**KİNDAR** (Quba) – kin saxlayan, kinli. – *O, çux kindar adamdu.*

**KİNO:NA GETMƏG** (Salyan) – yerinə çatmaq, axıradək bilmək. – *Adam hər deyilən sözün kino:na gessə, tez qocalar.*

**KİNTİRİX'Lİ** (Hamamlı) – səliqəsiz, pinti. – *Yaman kintirix'li adamsaŋ, özüŋə fikir vermirsəŋ.*

**KİRAL** (Çənbərək) – anbar. – *Taxılı kirala doldudux.*

**KİRDAR** (Bakı, Ordubad) – səbir, hövsələ. – *Mənim kirdarım gəlmir* (Bakı); – *Sizin kirdarĩ:z yoxdi* (Ordubad).

**KİRDƏ** (Oğuz, Zaqatala) – iki il dalbadal düyü əkilməmiş sahə, yer. – *Şumlammıyıncax kirdə yerində yaxşı məsil olmaz* (Oğuz).

**KİRDƏYLƏMƏY** (Cəlilabad) – atmaq, tullamaq. – *Valla, indi bu ağaci qolım getdikcən kirdəyliyəcəm.*

**KİRDİKİ** (Quba, Şamaxı) – bərk. – *Kirdiki armudu yiəndə bərkliginnən dişlərim ağrıdı* (Şamaxı).

**KİRƏ** (Meğri) – zoğ. – *Ot kirələrin də şoravaya qoymax təzə dəb düşüp bu kətdə.*

**KİRGİT** (Ağcabədi, Ağdam, Basarkeçər, Bərdə, Gədəbəy, Gəncə, Hamamlı, Xaçmaz, Qazax, Quba, Laçın, Şahbuz, Şəmkir, Tabasaran, Tərtər, Tovuz, Zəngilan, Zərdab) – b a x **qırqıt.** – *Xalçada ilməyi vurannan sonra kirgitnən vuruf bərkidillər* (Basarkeçər); – *Kirgidin dişi qırılıf* (Qazax); – *Üş kirgidimiz var xana toxumağa* (Gədəbəy); – *Kirgidi burya gəti* (Hamamlı); – *Keyik buynizinnə qeyrilən kirgit mühkəm uladu* (Tabasaran).

**KİRGİTDƏMƏX'** (Gəncə, Tovuz) – hanadakı ilmələri kirgitlə döyüb bərkitmək. – *Xananı yaxşı kirgitdə* (Gəncə); – *Sən də kirgitdirsən xanıyı* (Tovuz).

**KİRGİTDƏMƏG** (Salyan) – *məc.* susmaq. – *Sən kirgitdə, sə: dindirən yoxdı.*

**KİRİX'MİŞ: KİRİX'MİŞ OLMAX** (Tovuz) – sakitləşmək, sakit olmaq. – *Usuf gəldi yördü yiməx' var, kirix'miş oldu.*

**KİRİK** (Gəncə, Xanlar) – sakit. – *Kirik olsaŋ nə başıŋ ağrar, nə dişin tökülər* (Xanlar).

**KİRİMƏX'** (Ağdam, Borçalı, Cəbrayıl, Hamamlı, Laçın, Mingəçevir, Şəki, Salyan, Şəmkir, Tərtər, Tovuz, Ucar, Yevlax) – 1. susmaq, sakit olmaq (Ağdam, Hamamlı, Şəki). – *Bir sa:t kiri, başımı ağrıtma* (Ağdam); – *Di kiri görax, ağlama* (Şəki); – *Ə:, bir kiri göröm, kim nə de:r* (Hamamlı); 2. kəsmək, dayanmaq (Şəki). – *Yağış da heş kirimədi.*

**KİRİMİŞCƏ** (Borçalı, Salyan, Qazax, Ucar) – sakitcə, dinməzcə. – *Sə: deyirəm dur kirimişcə get* (Ucar); – *Əli iclasda kirimişcə oturmuşdu* (Borçalı).

**KİRİMİŞƏRƏX'** (Qazax) – sakit. – *Kirimişərəx' adam yaxşı olar.*

**KİRİNKAN** (Ordubad) – b a x **kilincan.**

**KİRİN-KİRİN** (Füzuli, Qazax) – yavaş-yavaş. – *Bu də:rman kirin-kirin işdi:r* (Füzuli).

**KİRİŞ** I (Cəbrayıl, Cənubi Azərbaycan, Gədəbəy, Gəncə, Kürdəmir, Qax, Qarakilsə, Salyan, Tovuz) – 1. cəhrəni işlədən ip (Cəbrayıl, Tovuz). – *Kiriş qırıldı, cəhrə dayandı* (Cəbrayıl); – *Kiriş olmasa cəhrə işdəməz* (Tovuz); 2. qoyun bağırsağından hazırlanmış bağ (Gəncə). – *Kirişdən cələ qayrıllar.*

**KİRİŞ** II (Cəbrayıl) – yağ saxlanan qab. – *Kirişləri yağnan doldudular.*

**KİRİŞ** III (Cəbrayıl, Şərur) – yeməli bitki adı. – *Uşaxlar kiriş yığmağa getdilər* (Cəbrayıl).

**KİRİŞ** IV (Gədəbəy) – yeni doğmuş heyvanın ilk südü. – *Kirişi buzoya qoymarıx kın, əmsin.*

**KİRİŞKƏNMƏK** (Kürdəmir) – fikirləşmək, götür-qoy etmək. – *Kirişkənirəm ki, görəsən bı işi başdasam nə tə:r olar.*

**KİRKƏ** (Qax) – b a x **kilkə** III.

**KİRKİ** (Şəmkir) – b a x **qırqıt.** – *Ala bu kirkiyi, o hüyələri vur.*

**KİRKİNƏ** (Ordubad) – b a x **kilkilə.** – *Bığdanı kirkinədə yarma eliyırıx.*

**KİRKİRƏ** (Bərdə, Bolnisi, Borçalı, Cəbrayıl, Culfa, Çənbərək, Gəncə, Salyan, Goranboy, Göyçay, Qazax, Laçın, Mingəçevir, Şəmkir, Ucar) – b a x **kilkilə.** – *Kirkirədə yarma çəkillər* (Cəbrayıl); – *Yeri kirkirəŋizi maŋa gəti, yarma çəkəjəm* (Şəmkir); – *Kirkirədə buğda çəkellər* (Borçalı).

**KİRMƏGİYO** (Quba) – mədədəki qurdları tökmək üçün qaynadılıb suyu içilən ot. – *Kirməgiyonun suyi aci uladu.*

**KİRNAS** (Basarkeçər, Borçalı) – xəsis. – *Kirnas adam malın yeməz* (Borçalı); – *Munun nənəsi elə kirnas arvatdı kı, onnan heş zad almağ olmaz* (Basarkeçər).

**KİRNİMƏX′** (Şərur) – sakitləşmək. – *Yazıx uşax gücünən kirniyib, səsivi çıxatma.*

**KİRNİS** (Əli Bayramlı, Şamaxı, Salyan, Zərdab) – b a x **kirnas.** – *Əhməd çox kirnis adamdı* (Əli Bayramlı).

**KİRNİTMƏX′** (Şərur) – sakitləşdirmək.

**KİRO** I (Kürdəmir) – xalçada olan əyrilik. – *Xala, xalçada bir az kiro var.*

**KİRO** II (Salyan) – acı. – *Alma hələ yetişimi:b, kirodı.*

**KİRO** III (Salyan) – b a x **kiroy.**

**KİROY** (Qazax) – saçda əmələ gələn çirk. ◊ **Kiroy olmax** – çirklənmək, çirk olmaq. – *Qızın başı kiroy oluf.*

**KİRS** I (Daşkəsən) – küləyin çökək yerə topladığı qar.

**KİRS** II (Zaqatala) – xörək adı. – *Bizə gəl, kirs bişirmişix′.*

**KİRŞƏN** (Zaqatala) – kükürdlə yağın qarşığından hazırlanmış dərman. – *Osman barmağına kirşən sürtmüşdü.*

**KİRT** (Cəlilabad, Füzuli, Mingəçevir) – 1. tən (Füzuli). – *Əvi kirt iki yerə bölüllər;* 2. tamam (Cəlilabad). – *Sənün sözün kirt yadımnan çıxıb.*

**KİRTDƏY** (Cəlilabad) – səlbə, ağacdan meyvə salmaq üçün ağac. – *Bala, kirtdəynən bi:ki alma sal.*

**KİRTƏKLƏMƏK** (Salyan) – tullamaq, atmaq. – *Ay bala, günahdı, adam çörəgi kirtəkləməz.*

**KİRTIŞ** (Oğuz) – bir neçə il əkilməmiş sahə.

**KİRTİK** I (Ağcabədi, Bərdə, Borçalı, Çənbərək, Göyçay, Hamamlı, Qazax, Mingəçevir, Oğuz, Sabirabad, Salyan, Ucar, Yevlax) – işlədilmiş sabunun qalığı. – *Sabının kirtikin atdım* (Salyan); – *O kirtdiyi ver əlimi yü:m* (Yevlax); – *U kirtiyi götdüm* (Ucar); – *Ay qız, kirtiyi gəti* (Hamamlı); – *Paltarı bir kirtiynən yudum* (Çənbərək).

**KİRTİK** II (Ağcabədi, Bərdə) – atın ayağında olan yara. – *Kirtiy atın əağındo:lur* (Ağcabədi).

**KİRTİNİ KƏSMƏK** (Salyan) – yormaq. – *Sən lap mə:m kirtimi kəsmisən.*

**KİRTİNƏ VIRMAĞ** (Salyan) – axırına çıxmaq. – *Səfər malların kirtinə vırıb, indi cərmiyə düşmüşəm.*

**KİRTİŞ** (Cəbrayıl) – yun ipin çıxıntılarını sürtüb hamarlamaq üçün işlədilən alət. – *Nabat xala kirtişi apardı.*

**KİRTİŞDƏMƏX′** (Cəbrayıl) – yun ipin çıxıntılarını sürtüb hamarlamaq. – *Nabat xala, kirtişi ver, biraz ip kirtişdiyim.*

**KİRT-KİRT** (Göyçay) – yekə-yekə. – *Kirt-kirt qırmızı gül açır.*

**KİRTMİX′** (Cəbrayıl, Zəngilan) – b a x **kirtik** I. – *Bı kirtmiynən paltar yumağ olmaz* (Zəngilan).

**KİSİF** I (Bakı) – nəm, rütubət. – *Aç qapıları, öydən kisif iyi gəlir.*

**KİSİF** II (Gədəbəy, Salyan, Tovuz) – 1. gəlir, qazanc (Gədəbəy). – *Maŋa de:r kin, kisifi mə:m, yeri sə:n* (Tovuz); – *Əlifağa mə:m aparatımı işdədir, özününkün saxlıyır, nədi kisif bilir* (Salyan); 2. müharibədə və ya başqa döyüşdə əldə edilən qənimət (Tovuz). – *Əli bəylər qırılanda bir at, bir gəvə kisif gətirif.*

**KİSİP** (Meğri, Yardımlı) – dəfinə, xəzinə, var-dövlət. – *Böyüx′ Südədix′də kisip tapbısan ki, gündə mızıxırsan ora* (Meğri); – *Yaxşı kisib yığıb* (Yardımlı).

**KİSİV: KİSİV ELƏMƏX′** (Füzuli) – zülm etmək, əziyyət vermək. – *Döşdüyüf mənim malımı aparırdı, mã: kisiv eliyirdi.*

**KİŞDİ** (Təbriz) – gəmi. – *Biriminci dəhvə iydi ki, kişdiyə minmişdi.*

**KİŞE** (Kəlbəcər) – qız uşağı. – *Kişeni ağlətmə.*

**KİŞGİT** (Gədəbəy) – yeri eşmək və ya qazmaq üçün hər iki ucu şiş yonulmuş ağac. – *Kişgidin hanı, yaman kəngərrər var, gəl qazgınan.*

**KİT** (Qax) – qığırdaq sümüyü. – *Senin burnun kiti avulsun.*

**KİTƏ** (Lerik) – 1. tumurcuq; 2. pişik balası.

**KİTİXʹ** (Oğuz) – cır əzgil. – *Quş da yi:r kitiyi, heyvan da.*

**KİTİL** I (Şəki) – tut ağacının xırda zoğu. – *Qurda kitil qırmağa gidəsiyəm.*

**KİTİL** II (Qax) – xəmir məmulatı.

**KİTİRƏ** (Meğri) – boğaz heyvanın əmcəyindən çıxan yapışqanlı sarı maye. – *İneyin əmceyinnən hala kitirə də çıxmey.*

**KİTİRGƏ** (Salyan) – kitrə, ağacda olan yapışqan. – *Kitirgə ağajda olar.*

**KİTNƏXORRUĞ** (Salyan) – qənaətçilik. – *Kitnəxorruğnan dolanacam, ancağ düzəltdirəcəm.*

**KİTRƏ** (Salyan) – damcı, qətrə. – *Qoyun təzə doğıb, bi kitrə də süti yoxdu.*

**KİTPAN** (Balakən) – böyük sandıq.

**KİVAR** (Qax) – birillik keçi.

**KİVRƏCANI** (Ordubad) – kirvə arvadı. – *Biz kirvə arvadına kivrəcanı deyərıx.*

**KİYAR** (Ordubad, Şərur) – 1. əkilməmiş yer, xam torpaq. – *Bizim qalxoççular bı il kiyarı sürüllər;* 2. bir il dincə qoyulmuş yer, torpaq.

**KİYƏR** (Şahbuz, Şərur) – bax **kiyar.** – *Yer kiyərdi, heç əkilməyib* (Şahbuz).

**KİZƏ** (Dərbənd) – 1. keçə; 2. tərlik (yəhərdə).

**KİYİZ** (Dərbənd) – 1. keçə; 2. yapıncı.

**KOBAR** (Qazax) – yüksək, hündür yer.

**KOCOR** (Zaqatala) – kəkil.

**KOÇ** (Dərbənd) – dişi it, qancıq. – *Koçun hələsi var ki, duğutdu alti bala.*

**KOÇEREY** (Zaqatala) – kiçik saxsı qab.

**KODƏF** (Ordubad) – mozalan. – *Keçidə olan mozalan xəsdəliyinə biz kodəf deyirıx.*

**KOĞA** I (Ağdam, Bərdə, Borçalı, Daşkəsən, Gədəbəy, Göyçay, Xanlar, Xocavənd, İmişli, Qazax, Qax, Tərtər, Tovuz, Yevlax) – bax **kovğa.** – *Qoyunun qaçağanın köğeynan tuturux* (Xocavənd); – *Koğa gəti, quzuyu tutax* (Qazax); – *Koğanı gət mə:, çörək qızardım* (Göyçay); – *Koğoyu ma: veriğnən göröm ordan* (Gədəbəy).

**KOĞA** II (Gədəbəy) – yabaya oxşar ikihaçalı ağac. – *Koğoyu ma: veriŋnən ot çıxardem ta:dan.*

**KO:ĞA** (Oğuz, Şəki, Ucar, Zaqatala) – bax **kovğa.** – *Ağaşdan ko:ğaynan nar dənniyirök;* – *Ko:ğanı bəri ver əpbəi qızardım* (Ucar); – *Çöreyi kö:ğıyə taxıf təndirdə qızardıllar* (Şəki); – *Ko:ğa sal yavaşnan əy, bi qırıx armut yığım* (Zaqatala).

**KOĞAR** (Qəbələ, Oğuz) – ağac qabığından düzəldilmiş kiçik səbət. – *Yumurtaları koğara yığ* (Oğuz); – *Koğarı ver, armud yığax* (Qəbələ).

**KO:X** (Basarkeçər) – tikanlı bitkilərdən birinin adı. – *Ko:ğun tikanını təmizdə yiəxʹ.*

**KOXA** (Borçalı, Kürdəmir, Qazax) – bax **kovğa.** – *Koxaynan yarpax əndirerixʹ.* – *Balaja ağaş var başı əyri. ona koxa de:rixʹ* (Qazax).

**KOXU** (Zaqatala) – iri daş. – *Dağdan koxu düşdü.*

**KOXULUX** (Zaqatala) – iri daşlıq. – *Ora koxuluxdu.*

**KOL** (Zaqatala) – meşə.

**KOLA** (Qazax, Cəbrayıl, Culfa, Şuşa) – buynuzsuz (keçi). – *Kola keçi çox süd verir* (Şuşa).

**KOLAT** (Yardımlı) – bax **kolavat.** – *Kolat eleyiblər burəni.*

**KOLAVAT** (Ağdam, Füzuli, Xanlar, Xocalı, Kəlbəcər, Meğri, Zəngilan) – kolu və ya ağacları qırılıb əkin sahəsinə çevrilmiş yer. – *Dədo: kolavatınnan çürəxʹli yer yoxdu Əldərə kəfşənində* (Meğri). – *Kolu qırılmış yerə kolavat de:lir* (Füzuli).

**KOLAVAXDI** (Dərbənd) – kolluq. – *Kolavaxdı elə kolluğ demağdi.*

**KOLAZ** I (Füzuli, Kürdəmir, Lənkəran, Sabirabad, Salyan) – qayıq. – *İstildə öbilə <o qədər> qəmiş vardi, kolaz sürməy olmırdı* (Lənkəran); – *Bitöv ağac olur, için çıxarıllar olur kolaz* (Füzuli).

**KOLAZ** II (Cəlilabad) – heyvan suvarmaq üçün daşdan düzəldilmiş yer, nov.

**KOLÇAN** (Zaqatala) – ucu qarmaq şəkilli uzun ağac. – *Ho ağacın budaxları pisdi, almanı kolçansız yığmağa olmuyacaxdı.*

**KOLXANA** (Borçalı, Gədəbəy, Şəmkir, Tovuz) – kəlağayı. – *Ana, saŋa bircə kolxana almışam* (Şəmkir); – *Bizim arvat üş-dört*

*kolxana ge:f cırıf gəlinniyinnən indiyətənəm* (Gədəbəy).

**KOLXORUZU** (Qazax) – qırqovul. – *Kolxoruzu göyçəx′ quşdu.*

**KOLIŞDIĞ** (Cəlilabad) – kolluq. – *Ora kolışdığdi.*

**KOLPAN** I (Ağcabədi) – kəsilmiş ağacın kötüyündə əmələ gələn zoğlar. – *Ağaş kəsilif, divinnən kolpan çıxıf.*

**KOLPAN** II (Tovuz) – saç. – *Kolpanıŋı yoluf əliŋə verərəm.*

**KOLPANNAMAX** (Ağcabədi) – kəsilmiş ağacın kötüyündə zoğ əmələ gəlmək, zoğ göyərmək. – *Qarağac kolpannıyıf.*

**KOLTOR** (Salyan) – üçbucaq formalı balıq toru. – *Koltorun uzun keşi olur.*

**KOM** I (Çənbərək, Şərur) – qoyun-quzu salınan yer. – *Günöydə dört komu var qalxozun* (Çənbərək).

**KOM** II (Meğri) – topa. – *Kom qərəmala ömründə canavar batammaz.*

**KONALĞA-KONALĞA** (Xanlar, Kəlbəcər) – topa-topa, dəstə-dəstə. – *Bizim bu ayrımlar konalğa-konalğa oluflar* (Xanlar).

**KONAZ** (Cəlilabad) – 1. kobud; 2. tərs. – *Şamır yamancə konazdu.*

**KONTAYİ** (Bakı, Şamaxı) – b a x **kənto.** – *Helə kontayi danışmağ sənə qalıb* (Bakı); – *Çox kontayi danışırsan* (Şamaxı).

**KONTAYLIĞ** (Zəngəzur) – sözə baxmama. – *Onun elə kontaylığ peşəsidi.*

**KOŊULLANMAX** (Şəmkir) – həvəslənmək. – *İki put buğda maŋa artıx verdi, mən də koŋullandım.*

**KOPALA** (Qax) – səlbə.

**KOPALANMAX** (Kürdəmir) – toplanmaq. – *Adamlar kopalanmışdi bir yerə.*

**KOPAN** (Əli Bayramlı, Salyan, Kürdəmir, Sabirabad) – tüklü. – *Kopan papağı quzi dərisinnən tikəllər* (Sabirabad).

**KOPARA** (Cəbrayıl, Zəngilan) – torpaq sahələri arasında qoyulan nişan. – *Bı koparadan ə:nə mə:m yerimdi* (Zəngilan); – *Yeri: tanımırsan, ode: kopara ordadı dana* (Cəbrayıl).

**KOPBAN** (Culfa) – böyük çəkic, gürz. – *Kopban çox böyük və ağır olur.*

**KOR** I (Naxçıvan) – üzümdə və pambıqda olan xəstəlik adı. – *Qozaları kor basıb.*

**KOR** II (Ağdam, Şərur, Zəngilan) – küt, kəsməyən. – *Ə:, pıçax kordu, bülöyü gəti, munu itiliyəx′* (Ağdam).

**KORA** I (Ağdam, Başkeçid, Bolnisi, Borçalı, Böyük Qarakilsə, Daşkəsən, Gədəbəy, Gəncə, Xanlar, Kəlbəcər, Qazax, Şəmkir, Tərtər, Tovuz) – mıx. – *Duhara çalmağa bir-iki kora verginən yazarpeşədən* (Gədəbəy); – *Bı kora yoğundu, ağacı dağıder* (Qazax); – *Koroyu kəlpətinnən çıxardellar* (Borçalı); – *Koroyu atın əyağına nala çalerıx* (Daşkəsən); – *Dəmirçilər ki qayrer, ona biz kora deyerix′* (Qazax).

**KORA** II (Quba) – topa. – *Alma korası ular da, alma korası.*

**KORA** III (Cəbrayıl) – təzə doğulmuş quzular saxlanılan yer. – *Apar o quzunu da at korıya, qoy orda qalsın.*

**KORA** IV (Böyük Qarakilsə, Füzuli, Meğri) – kin, ədavət. – *Biz nə biləx′ ki, Cəbrayıl yüzbaşının ürəyində kora var* (Meğri); – *Korası varmış, dayna* (Füzuli). ◊ **Kora saxlamax** – kin saxlamaq. – *Əli yaman kora saxlıyan adamdı* (Böyük Qarakilsə).

**KORABUXDA: KORABUXDA ELƏMƏG** (Əli Bayramlı) – gözdən salmaq. – *Yazığı korabuxda eliyib qoyublar.*

**KORAQIPIX: KORAQIPIX ELƏMƏX′** (Füzuli, Cəbrayıl) – gözüqıpıq eləmək. – *Qaynənəm gədəni koraqıpıx eliyif* (Füzuli).

**KORALMAX** (Basarkeçər) – yeyilib xarab olmaq, korlanmaq. – *Atın nalı koralıf.*

**KORAMAZ** (Ağdam, Beyləqan, Bərdə, Xocavənd, Xocalı) – b a x **qaramaz.** – *Əhməd bir kasa koramaz işdi* (Beyləqan).

**KORATAN** (Lənkəran) – hörümçək.

**KORAZA** (Zəngilan) – tündməcaz, pisxasiyyətli (adam). – *Onu dindirməsən yaxşıdı, çox koraza adamdı.*

**KORÇU** (Cəbrayıl, Salyan) – ziyankar; israfçı. – *Çox korçu adamdı Əli* (Cəbrayıl); – *Elə mən özüm də korçuyam* (Salyan).

**KORÇULUX** (Salyan) – israfçılıq. – *Qəndi az-az işdədün, korçuluğ eləmö:n.*

**KORXANA** (Tovuz) – b a x **kolxana.**

**KORXUŞUMAX** I (Çənbərək) – darıxmaq. – *Balajanın uşağı dağda çox korxuşuyuf.*

**KORXUŞUMAX** II (Çənbərək) – bax **koruxşumax** II. – *İrəmbə oğarda işdədi kin, axırda korxuşudu.*

**KORIN-KORIN** (Cəlilabad) – azacıq, zəif. – *Yoxlıyannan so:ra görillər şəhərdən xeylağ kanara korın-korın işığ gəlir.*

**KORİK** (Kəlbəcər) – keçi balası. – *Novriz, koriklər hanı?*

**KORKÖ:NG** (Oğuz) – mozalan. – *Korkö:ng kimi yandırma adamı.*

**KORQAY** (Qax) – kölgə.

**KORMİLÇƏG** (Dərbənd) – ağcaqanad.

**KOROVA** (Zaqatala) – üzüm bəkməzi. – *Bazarda korova satılırdı.*

**KOROYLAMA** (Qazax) – kor-koranə. – *Koroylama iş görmöyün.*

**KORŞUMAX** (Meğri) – doymaq. – *Apar gilasdan-zaddan yesinnə korşusunna.*

**KORT** I (Cəlilabad, Masallı) – iri bıçaq. – *A gədə, kortu mənə ver* (Cəlilabad).

**KORT** II (Qarakilsə, Şahbuz, Şərur) – bax **kor** II. – *De:rix' ki, kort baltadı, kəsmir ağacı* (Şahbuz).

**KOKÇI** (Salyan) – israfçı. – *Elə mən özüm də korçuyam.*

**KORTALMAX** (Şərur) – kütləşmək, kəsərdən düşmək. – *Kortalıpdısa ver çəkim daşa.*

**KORTUM** (Ağdam, Ağdərə, Kəlbəcər) – dəvədabanı. – *Kortumu at, bir də əlix' yaxşı ye:r* (Kəlbəcər).

**KORTUN** (Xocavənd) – bax **kortum**. – *Kortunun divi köx'lümü olur?*

**KORU** (Ağdam) – baramaqurdunun birinci yuxusu. – *Mənim bir qutu qurdum var, koruya yatıf.*

**KORUXŞUMAX** I (Qazax) – kütləşmək, kəsərdən düşmək.

**KORUXŞUMAX** II (Qazax) – yorulmaq, yorulub əldən düşmək. – *Da: koruxşumuşam, işdiyəmmerəm.*

**KORUŞ** (Bolnisi, Qazax, Tərtər) – küt, kəsməyən. – *Pıçax koruşdu, kəsmir* (Tərtər); – *Bu balteyi oxarradın, koruşdu kəsmer* (Qazax).

**KORUŞDAŞMAX** (Ağdərə) – kütləşmək, korşalmaq. – *Uşağ aparıf daşa döəndə koruşdaşır baltanın ağzı.*

**KOS** I (Qax, Oğuz, Zaqatala) – böyük nağara.

**KOS** II (Astara, Bakı) – top. – *Kos ata bilmirsən?* (Bakı).

**KOS** III (Şəki) – qısaboy, kök (adam).

**KOSARA** (Lənkəran) – çəltik topası.

**KOSASAQQALI** (İrəvan) – yemlik.

**KOSAVAY** (Bakı, Salyan) – yelkənli gəmi. – *Kosavay lötgədən böüg olır* (Bakı).

**KOSPALAN** (Qax) – uşaq oyunu adı.

**KOSUT** (Çənbərək) – məhsul verməyən (arı). – *Kosut beçə heç özün saxlıyəmmir, maŋa balmı verəjəx?*

**KOŞLAMAX** (Naxçıvan) – kişləmək, qovmaq (toyuğu, qazı). – *Qazları koşla gessin.*

**KOTALA** (Salyan) – halva bişirmək üçün ağac dəstəli ərsinə oxşar alət. ◊ **Kotala vırmağ** – halva bişirərkən kotala ilə onu qarışdırmaq. – *Axşam kotala vırmağçın bizə gəlginən.*

**KOTALLI** (Qazax) – varlı, dövlətli. – *Zəyəmdə bir kotallı kişi varıydı.*

**KOTANLƏ:Nİ** (Basarkeçər) – böyük ləyən. – *Kotanlə:ni on adamın xörəyini tuturdu.*

**KOTDALAMAX** (Yevlax) – başdan eləmək.

**KO:TƏPPƏ** (Salyan) – hay-küy. – *Ədə, qulangərişdə ko:təppə salmo:un, düşün aşağa.*

**KOTİ** (Salyan) – kobud, inadkar, tərs. – *Səyyad koti adamdı, onı başa salmağ çətindi.*

**KOTQALAMAX** I (Çənbərək) – bir yerə yığmaq, toplamaq. – *Otu bir yerə kotqala isdammasın.*

**KOTQALAMAX** II (Çənbərək) – tikmək. – *Bir də: <dəyə> kotqaladım.*

**KOTMUL** (Ağcabədi) – qısaboy və yaraşıqsız. – *Tafdax kotmul adamdı.*

**KOTUĞU: KOTUĞU ÇARIX** (Borçalı, Çənbərək, Hamamlı, Qazax) – bağsız çarıq. – *Bir var deyillər kotuğu, bir var bağlı çarıx* (Borçalı); – *Kotuğu çarıx tək köşeynən tikilir* (Hamamlı).

**KOTUL** (Şuşa) – kök, dolu (adam). – *Kotul adam çox ye:ir.*

**KOUDAN** (Bakı) – tövlə.

**KOV** (Qax) – böyük çəllək.

**KOVDAN** (Ordubad) – küt, aciz, bacarıqsız. – *Keşmişdə kovdan adamlar çoxidi.*

**KOVĞA** (Zaqatala) – ucu qarmaq şəkilli uzun ağac və ya dəmir. – *Budağı kovğaynan əysənə.*

**KOZAR** (Qazax, Ordubad, Şahbuz) – b a x **qozar.** – *Xırmanda kozar çoxdı* (Ordubad); – *Kozarnan başkozar bir şeydi* (Qazax).

**KÖ** (Qəbələ) – bir qulplu qab (həm suqabı kimi, həm də qatıq çalmaq üçün işlədilir). – *Mahmud babası üçün kö:də qatıx gətirdi.*

**KÖBƏK** (Biləsuvar) – nəsil. – *Bizim köbəkdəndi Əli.*

**KÖBƏR** (Ağcabədi, Bərdə, Qax, Yevlax) – dik yer. – *Köbər yerə su çıxmaz* (Ağcabədi).

**KÖÇƏ** (Cəlilabad, Yardımlı, Masallı) – qoyun salmaq üçün düzəldilmiş üstüaçıq yer. – *İsdidü, qoyinnəri köçiyə sal;* – *Elə bildim qoyinnər köçədədi* (Cəlilabad).

**KÖÇƏL** I (Cəbrayıl, Cəlilabad, İmişli, Kürdəmir, Mingəçevir, Salyan, Zəngəzur, Zəngilan) – xırmanda tamam döyülməyib əzilmiş halda qalan sünbül. – *A:z, o köçəli qırağa tögginən ki, taxıla qarışmasın* (Cəbrayıl); – *Bığdanı dö:rdüg, so:rırduğ, bığdasın yığırsan, qalan köçəli olır* (Cəlilabad).

**KÖÇƏL** II (Salyan) – qarğıdalının dənləri çıxarıldıqdan sonra qalan hissəsi, qıçası. – *Köçəlin heyvana xeyri var, dəninin insana.*

**KÖÇƏRGİN** (Şahbuz) – köçəri. – *Köçərgin yaylağa gedib-gələn adama deyirixʹ.*

**KÖÇKÖÇÜ** (Borçalı) – uşaq oyunu adı. – *Uşaxlar köçköçü oynuyur.*

**KÖDƏXʹ** (Culfa) – qıt. – *Çörəxʹ gödəy oldu əkin gəlmədi:nə.*

**KÖDİYƏ: KÖDİYƏ VERMƏXʹ** (Meğri) – qışlağı müvəqqəti olaraq qoyun sahiblərinə kirayəyə vermək. – *Balecə həmmişə örişin ködiyə vereydi.*

**KÖƏR** (Gədəbəy, Xanlar, Tovuz) – iki və ya üçillik dişi keçi. – *Ay uşax, o köəri qaytarın* (Xanlar).

**KÖF** (Cəlilabad) – güc, qüvvə. ◊ **Köfdən düşməg** – gücdən düşmək. – *Xəssələnib mən də köfdən düşmişəm.*

**KÖĞÜŞ** (Xanlar) – əyri. –*Bel sapına köğüş ağaş yaramaz.*

**KÖHLƏMAX** (Şəki) – ağacı kökündən çıxarmaq. – *Qoruxdaki ağaşdəri divinnən köhliyif taxıl ehmax isdiyrıx.*

**KÖHLÜ-KÖMƏLƏXʹLİ** (Şəki) – yerli-dibli, tamam, bütövlüklə.

**KÖHLÜ-KÖMƏŞDİ** (Ağdam, Mingəçevir) – b a x **köhlü-köməlæxʹli.** – *Abas ağacı köhlü-köməşdi dartıf çıxartdı;* – *Onnar köhlü-köməşdi köçüf gedəjəxʹlər* (Ağdam).

**KÖHÜL** (Salyan) – nohur. – *Su bəndi oyub, ortasında köhül açıb.*

**KÖ:Xʹ** (Basarkeçər) – yeməli bitki adı. – *Kö:ğun yuxarısı da yi:lir, kökü də.*

**KÖXʹLƏMƏXʹ** (Gədəbəy) – b a x **köhləmax.** – *Köxʹləməxʹ lazımdı ağacı.*

**KÖ:JƏ** (Yevlax) – mis kasa, mis piyalə. – *Kö:jədə qatıx yi:llər.*

**KÖK** (Bakı, Xanlar, Qazax, Salyan) – nəsil. – *Olar bizim kökdəndi* (Qazax). ◊ **Kökünü qazmax** (Gəncə) – nəslini kəsmək. – *Elə pis adamların kökünü qazmax lazımdı.* **Kökünə çıxmax** (Gəncə) – qurtarmaq, axırına çıxmaq. – *Axırı ki, pulların kökünə çıxdıŋ.* **Kök atmağ** (Salyan) – kökləmək, seyrək tikişlə tikmək. – *Dərzi əvvəl parçıya kök atır, so:ra tikir.*

**KÖKƏLƏNMƏXʹ** (Gəncə) – böyümək, dairəvi şəkildə böyümək (yaraya aiddir). – *Üzündəki yara kökələnif.*

**KÖKƏNƏG** (Salyan) – qırğı cinsindən quş. – *Kökənəg ət yiyən quşdı.*

**KÖKƏNƏM** (Cəbrayıl) – az, azacıq. – *Dünən kökənəm yağış yağdı.*

**KÖKÜR** (Bolnisi, Cəbrayıl, Gədəbəy, Qazax, Mingəçevir, Şəmkir, Yevlax) – kəfgir. – *Kişi, bir kökür al gətir* (Qazax).

**KÖKÜR: KÖKÜR OLMAX** (Balakən, Borçalı, Hamamlı, Qazax) – b a x **köykür olmax.** – *Uşax çöldə aj-susuz kökür oldu* (Qazax); – *Ho qadır qovuplar ki, kökür olup* (Balakən).

**KÖLBƏND** (Oğuz) – beşiyə qoyulan ortası deşik döşək. – *Kölbəndi uşağın beşiyinə qoyullar.*

**KÖLƏ** (İmişli, Kəlbəcər) – b a x **kola.** – *Keçinin bıynızsızına kölə deyillər* (İmişli).

**KÖLGƏLƏNƏCƏG** (Bakı, Salyan) – kölgəlik. – *Kölgələnəcəg də yoxdu ki, oturub dincələsən* (Bakı).

**KÖMBƏLƏNKÖZ** (Gəncə, Mingəçevir) – çox odlu, çox közlü. – *Təndir kömbələnközdü* (Gəncə).

**KÖMBƏSURƏT** (Qazax) – sifəti kök və qırmızı. – *Dadaş kömbəsurət kişidi.*

**KÖMƏNC** (Gədəbəy) – dilin arxası. – *Dilimin köməncinnən yara çıxıf.*

**KÖMƏÇ** (Qax) – köhnə ayaqqabı.

**KÖMƏRƏ** (Basarkeçər) – baca. – *Tüsdü kömərədən çıxır.*

**KÖMƏŞİMƏXʹ** (Şəmkir) – həvəsdən salmaq, soyutmaq. – *Əlimi-ə:ğımı köməşidifsəŋ, qoyarsaŋmı işdiyəm.*

**KÖMÜRDANNIĞ** (Şamaxı) – kömür saxlanılan yer. – *Kömürdannığdan kömür qurtarıb.*

**KÖND** (Kürdəmir, Salyan) – 1. meyil, həvəs (Kürdəmir). – *Bırda oturmağa köndim yoxdu;* 2. yön, istiqamət (Salyan). – *Mə:m köndim sağadı.*

**KÖNDALAN** (Şamaxı) – kobud. – *Həsən yaman köndalandi.*

**KÖNDƏLƏN** I (Tovuz) – tərs, tərsinə. – *Səni göröm köçün köndələn sürülsün, a bala.*

**KÖNDƏLƏN** II (Füzuli, Masallı, Şəmkir, Şuşa, Tovuz) – 1. yanakı, yanı üstə. – *Yeşixʹləri köndələn yığ ki, yer çox qalsın* (Şuşa); 2. maili (Şəmkir). – *Arxı köndələn çəkifsəŋ.*

**KÖNDƏR** (Zaqatala) – bitki adı.

**KÖ:NƏXİRİ** (Quba) – bir il dincə qoyulmuş yer. – *Xır yerini bir il dincə quyaduğ, sura əkəduğ, bu yərə kö:nəxiri diyəduğ.*

**KÖNƏLGƏ** I (İmişli, Tərtər) – daldalanacaq. – *Orda könəlgə düzəldillər ki, so:ğ olmasın* (Tərtər); – *Yağış yağer, bir könəlgə tapax* (İmişli).

**KÖNƏLGƏ** II (Bərdə, Şuşa, Tərtər) – arxa, dayaq. – *Mənim könəlgəm sənsəŋ* (Şuşa).

**KÖNƏLGƏ** III (Meğri) – yardım, kömək. – *İndi qalxuzın bizə könəlgəsi çoxdu.*

**KÖNƏLGƏ** IV (Salyan) – meyil, mehr. – *Cavanşir dedi ki, könəlgəmi İsmayılgilə salmışam.*

**KÖNƏZ** (Saatlı) – b a x **konaz.** – *O çox könəz adamdı.*

**KÖNTƏK** (Balakən) – b a x **kənto.** – *Nə köntək adamsan.*

**KÖNTÖ:-KÖNTÖ:** (Bakı, Quba, Salyan) – kobud-kobud. – *Ziyafət hərdən bir köntö:-köntö: danışadu* (Quba).

**KÖNTÖY** (Tovuz, Salyan, Hamamlı) – b a x **kənto.** – *Maŋa nə köntöy baxırsaŋ, nə köntöy sözdər vurursaŋ* (Tovuz); – *Ə:, nə köntöy adamsan* (Hamamlı).

**KÖNTÖY-KÖNTÖY** (Bakı, Qazax, Tovuz) – b a x **köntö:-köntö:.** – *A səni göröm köntölöy çıxasaŋ, bə maŋa niyə elə köntöy-köntöy baxırsaŋ* (Tovuz); – *Bösdü köntöy-köntöy danışdun* (Bakı).

**KÖPBƏCƏ** (Basarkeçər, Qazax, Tovuz, Zaqatala) – yumurta və ya südlə unun qarışığından bişirilmiş çörək. – *Unnan murtdoyu yağda pişirerixʹ, olur köpbəcə* (Tovuz); – *İnəyimiz dünən doğdu, cijim köpbəcə pişirdi* (Qazax).

**KÖPBƏCƏLİ** (Qazax, Mingəçevir, Tovuz) – üzünə yumurta yaxılmış çörək. – *Büvüm yaxşı pişirer köpbəcəli əpbəyi* (Qazax).

**KÖPDƏN DÜŞMƏK** (Bakı, Salyan) – sakitləşmək, susmaq. – *Onı dingillədən pıldı, pılı əlinnən çıxannan so:ra köpdən düşəcəg* (Salyan).

**KÖPƏLMƏK** (Ağsu, Ucar) – qocalmaq. – *Kərim kişi, doğrudan da, köpəlip* (Ucar).

**KÖPƏŞİMAX** (Meğri) – köpmək. – *Heyvan bicə sa:tda yedi köpəşidi.*

**KÖPƏŞİMƏK** (Göyçay, Qarakilsə, Ucar) – 1. b a x **kövəşiməxʹ;** 2. göyərib qalxmaq (Qarakilsə, Ucar). – *Ditdili əlimi dişdədi, əlim köpəşidi* (Ucar); – *Həmişə yaz gələndə köpəşiyip qalxır, bıraları alır ağzına* (Qarakilsə).

**KÖPGƏR** (Qax, Oğuz) – dağ keçisi. – *Köpgərin əti şirin olur* (Oğuz).

**KÖPPƏ** (Salyan) – çörək növü. – *Köppə çörəg fətirdən qalın olur.*

**KÖPSƏK** (Salyan) – kök, dolu. – *Kamran köpsək bir kişiydi.*

**KÖPÜRDƏN** (Salyan) – şar. – *Ata, mənə köpürdən alarsan.*

**KÖPÜRTMƏXʹ** (Meğri) – *məc.* öldürmək. – *İti daşnan vırıp köpürtdüm.*

**KÖR** I (Gədəbəy, Zaqatala) – küt, bacarıqsız.

**KÖR** II (Zaqatala) – çarhovuzun qabağında su yığılmaq üçün düzəldilən kiçik yer. – *Ağiz, abgərdəni götür körin üstünnən.*

**KÖR** III (Zaqatala) – təmiz. – *Bu su kördü.*

**KÖRƏMƏZ** I (Bərdə, Borçalı, Gədəbəy, Qarakilsə, Qazax, Mingəçevir, Tovuz, Yevlax) – b a x **qaramaz.** – *Cıyarın yananda körəməzə dəm veriŋnən* (Gədəbəy); – *A qızım, bir az körəməz elə gəti, ürəyim sərinisin* (Tovuz); – *Çımxır süd işsəŋ yuxuŋ gələr, əmbə körəməz yuxu verməz* (Yevlax).

**KÖRƏMƏZ** II (Qax, Zaqatala) – anlamaz, qanmaz.

**KÖRİG** (Dərbənd) – təndir. – *Körigdə əppeg bişirədig.*

**KÖRSƏLƏMƏXʹ** (Çənbərək) – közü bir yerə yığmaq, ocağı qızışdırmaq. – *Ojağı körsəliyim qardalı ütüm.*

**KÖRSÜT ELƏMƏG** (Yardımlı) – sakitləşdirmək. – *Üşəgi körsüt elə ağlamasun.*

**KÖRTMƏK** (Sabirabad) – kiçik kötük.

**KÖSSƏFTİ** (Quba) – kösöv. – *Kössəftiləri gütür.*

**KÖSSƏMƏG** (İmişli) – çidarlamaq. – *Atı kössə, burax buralarda otdasın.*

**KÖŞƏ** (Ağdam, Culfa, Füzuli, Kürdəmir, Qazax, Qarakilsə, Mingəçevir, Şəki, Tərtər, Tovuz, Yevlax, Zəngilan) – çarıq tikmək üçün göndən nazik şəkildə kəsilmiş hissə, bağ. – *Köşəsiz çarıx tixʹməy olmaz* (Ağdam); – *Gön isdatmışam, köşə çəkəcəm* (Zəngilan); – *Çarığın köşələri qırılıtdı* (Şəki).

**KÖŞƏQILIŞ** (Meğri) – insafsız. – *Abdun kimin köşəqılış adam olmaz.*

**KÖŞƏN** (Cəlilabad, Gədəbəy, Qazax, Oğuz, Şəki, Tovuz) – küləş. – *Taxılı biçirixʹ, yerdə qalır köşən* (Şəki); – *Bir harava köşən gətirdim* (Qazax).

**KÖŞGƏ** (Meğri) – b a x **keşgə.** – *Köşgə cahıllığım oleydi.*

**KÖŞK** (Cəlilabad) – meşə. – *Meşiyə diyərüg biz köşk.*

**KÖŞKƏ** (Salyan) – toxumun cücərən hissəsi, rişə. – *Tumı əkəndə çalış köşkəsin sındırma.*

**KÖŞKÖRƏMƏZ** (Borçalı, Qazax) – süd ilə qatığın qarışığı. – *Yaylağe:dəndə südnən qatığı qat bir-birinə, çalxalansın olsun köşkörəməz* (Borçalı).

**KÖŞKÜ** (Təbriz) – alaçığın ortasına basdırılan ağac. – *İki nəfər adam köşkünü çalar yerə.*

**KÖŞKÜLLƏMƏXʹ** (Cəbrayıl) – b a x **kaşgıllamax.** – *Bir qab xörəyi bir dəyqədə köşküllüyüf qutardı.*

☐ **Köşkül olmağ** (Salyan) – məyus olmaq. – *Elə sa:tı vermədiyinə köşkül oldun?*

**KÖŞMƏLƏMƏXʹ** (Gədəbəy, Kəlbəcər) – bağlamaq. – *Palazı farmaşın içinə qoyuf ağzını köşmələrdilər* (Gədəbəy).

**KÖŞMƏRRƏMƏXʹ** (Gədəbəy, Kəlbəcər) – yolmaq. – *Gəlif də təmiccə köşmərreif soğan-sarımsağı* (Gədəbəy).

**KÖŞŞƏG** I (Salyan) – qarğıdalının dənləri çıxarıldıqdan sonra qalan hissəsi, qıçası. – *Köşşəgi gomış yiyər.*

**KÖŞŞƏG** II (Salyan) – toxum. – *Bı yıl çoxlu xiyar köşşəgi götürmüşəm.*

**KÖŞŞƏG** III (Salyan) – gözcük. – *Köşşəgi az olan kartof az məhsul verir.*

**KÖTƏLLİ** (Kürdəmir) – canlı, sağlam. – *Vəli kötəlli oğlandı.*

**KÖTMƏCƏ** I (Salyan) – kötük. – *Söyüdün qol-budağın kəsərduğ, kötməcə:n üssündə doğrıyarduğ.*

**KÖTMƏCƏ** II (Salyan) – b a x **kötmərəxʹ.**

**KÖTMƏXʹ** (Mingəçevir, Oğuz) – b a x **kötmərək.**

**KÖTMƏRƏXʹ** (Mingəçevir) – gödək.

**KÖTMƏRƏK** (Göyçay) – ağacın kötüyü. – *Qarağacın kötmərəklərini yığ gəti, ocağa qoyax.*

**KÖTÖY** (Ağdam, Tovuz) – acı. – *Ərixʹ kal vaxdı kötöy dader* (Tovuz).

**KÖTÜGLİ** (Bakı) – əsilli-nəcabətli, qohum-əqrəbalı. – *Kötügli adamdular ular kətdə.*

**KÖTÜRGƏ** (Qazax) – xəncərin qını. – *Ə:, xançalı kötürgəyə keçirdiŋmi?*

**KÖ:ÜL** (Xanlar) – mozalan. – *Kö:ül milçəxʹdən bö:xʹdü.*

**KÖ:ÜZ** (Cəlilabad, Yardımlı) – 12 kq.

**KÖVƏR** I (Ağcabədi, Bərdə, Borçalı, Xanlar, Kəlbəcər, Qazax, Mingəçevir, Şəki, Şəmkir, Tərtər) – b a x **köbər.** – *Kövərdi yerimiz, su çıxmır* (Şəki); – *Apar danıyı kövərin üsdə otdasın* (Qazax).

**KÖVƏR** II (Çənbərək, Qazax, Tovuz) – təzə tikilmiş evin üstünə tökülmüş torpaq. – *Öyün kövərin camahat təmizdədi ikijə gündə* (Çənbərək); – *Kövər damın ortasına qoyular* (Qazax).

**KÖVƏŞİMƏX′** (Qazax) – şişmək, şişib qalxmaq. – *Əlim kövəşiyif.*

**KÖVRƏX′** (Füzuli) – böyrək. – *Kövrəx′ kövrəx′lixdə olur.*

**KÖVRİ** (Qax, Zaqatala) – ağzı enli saxsı qab, sərnic.

**KÖYKÜR: KÖYKÜR ELƏMƏX′** (Tovuz) – haldan salmaq, əldən salmaq, yormaq. – *Bu uşax səni köykür elədi.* ◊ **Köykür olmax** – yorulub əldən düşmək, yorulmaq. – *Uşax köykür oldu.*

**KÖYNƏX′** (Ağdaş, Mingəçevir, Şəki) – 1. baramaqurdunun üstündəki nazik pərdə (Şəki). – *Qurdun üsdündə ciğara kimi qalır, una diyillər köynəx′;* 2. buğdanın nazik qabığı (Ağdaş); – *Bu buğdanın köynəyi var.*

**KÖYNƏK** (Biləsuvar) – arabanın dəmir oxunun yerləşdiyi ağac hissə.

**KÖYRÜMƏX′** (Çənbərək) – qurumaq. – *Odun kövrümüşdü də:nə yaxşı yandı.*

**KÖYSƏR** (Zaqatala) – peysər.

**KÖYÜX′** (Basarkeçər) – yeməli bitki adı.

**KÖZDƏMƏ** (Çənbərək, Xanlar) – köz üzərində bişirilən ət. – *Ojaxda közdəmə də pişirillər, kavaf da eliyillər* (Xanlar).

**KÖZƏNƏX′** (Şahbuz) – sucuq, sulu yer. – *Biz közənəx′dən yarpız yığdıx.*

**KÖZƏR** (Zəngilan) – b a x **qozar.** – *Şadaralıyın bığda:n közəri təmizdənsin.*

**KÖZMƏX′** I (Gədəbəy, Qazax, Tovuz) – baca. – *Damın pajasına közməx′ de:rix′* (Tovuz); – *Peyini niyə közməx′dən atmırsaŋ* (Qazax); – *Toyla tikəndə közməx′ də qoyduruŋ, bir əz iriləx′* (Gədəbəy).

**KÖZMƏX′** II (Tovuz) – burun deşiyi. – *Burnunun közməyi nə yekədi.*

**KÖZMƏX′** III (Təbriz) – qabar. – *Annıları <alın> nəmaz qılmaxdan közməx′ bağlıyıb.*

**KÖZMƏR** (Şəmkir) – iri deşikli burun. – *Bu nə közmər burun uşaxdı.*

**KUANÇI** I (Salyan) – qoruqçu, qarovulçu. – *Ağakişi qalxozın kuançısıdı.*

**KUANÇI** II (Salyan) – qulluqçu, nökər. – *Mən sizin kuançu:z olaram.*

**KUANÇILIĞ** (Salyan) – 1. qarovulçuluq. – *Mən qalxozda kuançılığ eli:rəm;* 2. nökərçilik. – *Bəyin öyündə kuançılığ eliyərmiş.*

**KUÇUR** (Salyan) – mehtər. – *Aydın yanımda kuçur işdi:b.*

**KUD** (Quba) – arı saxlanılan səbət, pətək. – *Qabağ arı kudda ulardi.*

**KUDU** (Bakı) – qabaq.

**KUDUR** (Quba) – qarışqa yuvası.

**KUF** (Qarakilsə, Şərur, Ordubad) – yelləncək. – *Bizim uşaxlar çox vaxt kufla yellənillər* (Ordubad). ◊ **Kuf getməx′** (Şərur) – yellənmək. – *Görüm kim qəşəx′ kuf ge:r.*

**KUFLAN** (Naxçıvan, Şərur) – yelləncək. ◊ **Kuflan getməx′** – ağacdan asılmış iplə yellənmək. – *Xızannar kuflan gedillər* (Şərur).

**KUFUL** I (Cəbrayıl, Daşkəsən) – b a x **kuvul.**

**KUFUL** II (Zəngilan) – boş. – *Bı ağacın içi kufuldu.*

**KUGA** (Quba) – ağacdan qayırılmış təknəyə oxşar qab. – *Gidib aşağıdan bir kuga un gətir.*

**KUKUT** (Quba) – yapalaq. – *Kukut həmişə biçin zəmani uxuyar.*

**KULA** I (Quba) – səbət. – *Kula dulu saman gətirüb atlara tük.*

**KULA** II (Bakı) – avam, key. – *Əli elə kula uşağdı ki, gəl göresən.*

**KULAVAT** I (Meğri) – b a x **kolavat.**

**KULAVAT** II (Meğri) – tonqal. – *Çuban payız gecəsində uturey kulavatın qırağında, canı homaş <umac> kimi uley.*

**KULBA** (Zaqatala) – dəmirçixana.

**KULBASAN** (Quba, Tabasaran) – kirşə taylarının uc hissələrini birləşdirən ağac. – *Kulbasan mühkəm ulanda udun çux gətirməg ulur* (Tabasaran); – *Kulbasan qarağacdan, palut ağaciınnən uladı ki, sinməsün* (Quba).

**KULİ** (Dərbənd) – b a x **kula.** – *Bir balaca kuli üzümüm var, havuni maşinüvə quy, can balam, şəhərə aparum.*

**KULUF** (Bərdə) – mənbə.
**KUM** (Meğri) – b a x **kom** II.
**KUMAC** (Meğri) – qıvrılıb yatan ilan. – *Birdən bilmeyib ayağımı bir ilan kumacına basdım, az qaldım dəli ulam.*
**KUMKURSİ** (Dərbənd) – qız üçün cehiz olaraq hazırlanmış və üzərinə corab, cib dəsmalı və s. bənd edilmiş kiçik balış. – *Gəlin kumkursilərdən giyova, unun miraslarinə vərdi.*
**KUMPUL** (Cəbrayıl) – ağır çəkic, gürz. – *Kumpulnan daş sındırıllar.*
**KUMUC** (Qax) – büzdüm. – *Yerə yıxıldım, kumucum ağırdı.*
**KUNA** I (Dərbənd) – gavahının arxa tərəfi. – *Kuna yiyilər, tazasin qəyrəllər.*
**KUNA** II (Quba) – tənbəl. – *Kuna adamı düzəltmağ çux çətindü.*
**KUNAL** (Ağdam, Cəbrayıl, Zəngilan) – tut ağacı zoğlarının yarpaqlarını baramaqurdu yedikdən sonra qalan ağac hissə. – *Qurd kunalda da barama sarıyıb* (Cəbrayıl); – *Qurdun çoxu özün vırıf kunalda sarıyıf* (Zəngilan).
**KUNARI** (Cəbrayıl, Zəngilan) – bir-birinin üstünə salınıb bişirilən lavaş. – *Kunarı çox yiməli olur* (Zəngilan).
**KUNEY** (Zaqatala) – b a x **kunal.**
**KUNƏ** (Zaqatala, Göyçay) – b a x **kunal.** – *Kunəni təzələ* (Zaqatala).
**KUNT** (Qax) – saçaqlı palaz. – *Bizin laxanın kuntı niyə terəmə-teşiq olup?*
**KURA** (Qax, Zaqatala) – moruq. – *Mən dünən kura dərmağa getmişdim* (Zaqatala).
**KURALIX** (Zaqatala) – moruqluq, çox moruq olan yer.
**KURİXʹ** (Kəlbəcər, Oğuz) – at balası. – *Atın kuriyi öydə qalıfdı* (Oğuz).
**KURTA** (Zaqatala) – ağır çəkic, gürz.
**KURU** (Kəlbəcər) – b a x **kurixʹ.** – *Kurumuzun gəmirçəyin kəsdim.*
**KURUX** (Zəngilan) – b a x **kurixʹ.** – *Pirçivane:dəndə atın kuruğu yoruldu.*
**KURUL** (Şuşa) – çox, həddindən artıq. – *Bu əvi tixʹdirməyə kurul pul xəşdəmişəm.*
**KURUL-KURUL** (Bakı, Şamaxı) – çox-çox. – *Bu yaradan qurtarmağ için kurul-kurul xərc qoymax lazımdı* (Şamaxı).
**KUSBƏND** (Dərbənd) – yerli qoyun cinsi. – *Büzü aralarda ulan quyunə kusbənd diyədüg.*
**KUŞTUKUR** (Qax, Zaqatala) – kəndirbaz.
**KUT** (Zaqatala) – mal-qara üçün unlu kəpəkdən bişirilmiş çörək. – *İtə kut ver yesin.*
**KUTXA** (Qax) – sənək. – *Kutxanı doldurub qeti.*
**KUTUN** (Qax) – böyrək.
**KUVA** I (Qax) – daş, daş parçası. – *Başına bir kuva ilişdirdi, qəleydin qoraydın.*
**KUVA** II (Qax) – kif.
**KUVALANMAX** (Qax) – kiflənmək. – *Çoraq <çörək> kuvalanıptı.*
**KUVUL** (Balakən, Qax, Zaqatala) – mağara.
**KUZAR** (Xaçmaz) – b a x **qozar.**
**KUZMAX** (Zaqatala) – b a x **közməxʹ** I.
**KÜANÇILIĞ** (Masallı) – b a x **kuançılığ.**
**KÜBSİMƏXʹ** (Təbriz) – sancmaq. – *Arı kübsiyənnən so:ra bı əlim şişdi.*
**KÜCİ** I (Xaçmaz, Quba) – balıqqulağına oxşar muncuq. – *Kücinü uşağlar sapa düzib buynuna asadı* (Quba).
**KÜCİ** II (Yardımlı) – 1. hananın ipi. – *Küci rıxdım olub;* 2. hananın orta ağacı. – *Küci çox ağırdı, iki tərəfdən qaldırrux.*
**KÜCİ** III (Təbriz, Bakı) – tövlədə quzular üçün ayrılmış yer: – *Küci balaca oluri, ora quzuları sallux.*
**KÜCMACI** (Zaqatala) – çör-çöp. – *Bir az kücmacı yığ gəti ocax qalıyax.*
**KÜÇƏ** (Basarkeçər) – qazmanın girəcəyi. – *Kərmeyi küçüyə yığmışam, get onu gəti.*
**KÜÇƏĞACİ** (Tabasaran) – arabanı, kirşəni və s. boyunduruğa calayan ağac. – *Buyunduruğda bir küçəğaci də ulur.*
**KÜÇƏL** (Zəngilan) – b a x **köçəl** I.
**KÜÇƏMANADARGƏLİR** (Şuşa) – güllü ipək parça növü. – *Ədəbaz qızdar küçəmanadargəlir ge:rdi.*
**KÜÇ-KÜNAR** (Şamaxı) – künc-bucaq. – *Arvad itirdiyi qeyçidən ötəri öyün elliy küç-künarın axtardi, tapa bilmədi.*
**KÜÇÜK** (Ağdaş, Kürdəmir, Mingəçevir) – ağacın dibindən qalxan, ətrafında göyərən xırda zoğ. – *Bir dənə alça küçüyü aldım* (Ağdaş); – *Albalı küçüklüyüp* (Kürdəmir).

**KÜÇÜKATAN** (Salyan) – qatıq çalınan saxsı qab. – *Küçükatanda qatığ çalırığ; – Küçükatan talış tərəfdə çox olır qatığçın.*

**KÜÇÜKLƏMƏK** (Cəbrayıl, Salyan, Göyçay) – pöhrələmək, zoğ atmaq. – *Alça ağacı çox küçüklüyəndi* (Göyçay).

**KÜÇÜRÜG** (Quba) – uçurum. – *Qabağda küçürüg var.*

**KÜDİ** (Sabirabad) – b a x **kudu.** – *Bu il bostanda küdi çoxdu.*

**KÜDRİ** (Göyçay, İmişli, Salyan, Kürdəmir, Sabirabad, Şamaxı) – 1. su çıxmayan yer (Göyçay, Sabirabad, Şamaxı). – *Bizim yerrər küdridi* (Sabirabad); – *Mal-qaranı küdriyə apardığ* (Şamaxı); – *Qarğı-qamış küdri yerrərdə olır* (Göyçay); 2. düzənlik (İmişli, Kürdəmir).

**KÜDRÜ** I (Qazax, Mingəçevir, Ucar, Zərdab) – b a x **küdri.**

**KÜDRÜ** II (Gədəbəy) – buxarının qabaq hissəsi. – *Qış vaxdı otroydux küdrüdə irəlləri.*

**KÜDÜL** (Cəbrayıl) – quyruqsuz. – *Bu öküz küdüldü.*

**KÜDÜRÜ** I (Göyçay, Kürdəmir, Ucar) – b a x **küdri.** – *Əli malları küdürüyə buraxmışdı* (Göyçay).

**KÜDÜRÜ** II (Ağdaş) – təpəcik. – *Küdürünün yanındakı sahə hansı birqadanındı?*

**KÜƏN** (Borçalı, Cəbrayıl) – b a x **küvən.** – *Dəvənin küəni tamam yağdı* (Cəbrayıl); – *Küən buğurda olar, mayada olmaz* (Borçalı).

**KÜƏNSAL** (Təbriz) – qüvvətli, güclü. – *Cütə həmişə küənsal öküş qoşalla.*

**KÜƏR** I (Ağdam, Basarkeçər, Füzuli, Gəncə, Qazax, Tovuz, Zəngilan, Zərdab) – b a x **küvər** I. – *Atam səhər küərimizi kəsəcəhdi* (Zərdab); – *Küərim azarrıyıb, sağalmasa kəsəcəm* (Zəngilan).

**KÜƏR** II (Şəki) – yeməli yabanı bitki. – *Bu gün küər zoğu aldım.*

**KÜF** (Cəbrayıl, Füzuli, Lənkəran, Masallı, Ordubad, Zəngilan) – b a x **kuf.** – *Qızdar küf asıb üçüllər* (Zəngilan); – *Ağacdan bir küf asmışam, uşaxlar yellənillər* (Ordubad).

**KÜFƏ** (Axalsxi) – sırğa. – *Küfənin bahalısı pirliyantdan olur.*

**KÜFƏN** I (Naxçıvan) – fəqərə sütunu. – *Kərəmin küfəni çıxıb.*

**KÜFƏN** II (Cənubi Azərbaycan) – b a x **küvən.**

**KÜFƏYƏ** (Qax) – xeyir. – *Honnan adam olası doqul, heç kəsə küfəyə verən doqul.*

**KÜFLEYLAN** (Qarakilsə) – yelləncək.

**KÜFLƏ** (Culfa, Laçın, Şərur, Naxçıvan, Ordubad, Şahbuz, İrəvan) – b a x **kiflə.** – *Küflə olmasa təndir yaxşı yammaz* (Şahbuz).

**KÜFRÜMƏXʹ** I (Çənbərək) – kökəlmək. – *Seydalı küfrüyüf, boynu dömmür; – Zalı yaman küfrüyüf, bildirrəri burnun tussan canı çıxardı.*

**KÜFRÜMƏXʹ** II (Çənbərək) – suyu çoxalmaq, aşıb-daşmaq. – *Bu axşam çay küfrüyüf, uşağı yaxın qoyma:n.*

**KÜFRÜMƏXʹ** III (Çənbərək) – üstələmək, üstün gəlmək. – *İxdiyar Yedyarı yaman küfrüyürdü.*

**KÜFÜL** I (Cəbrayıl, Füzuli) – qazma. – *Odunu küfülə yığdım* (Füzuli); – *Əhməd, samanı küfülə yığ ki, üsdünə yağış yağmasın* (Cəbrayıl).

**KÜFÜL** II (Cənubi Azərbaycan) – suyun axması üçün barının altından açılmış deşik. – *Küfül tutuldiği üçün bayra su axmır.*

**KÜFYERİDƏN** (Qazax) – b a x **küpyeridən.** – *Küfyeridən qarı həməşə ara qarışdırar, qo:şunan yola getməz.*

**KÜHÜL** (Xocavənd, Ordubad, Şamaxı) – b a x **küfül** I. – *Kühülə quzi salallar* (Şamaxı).

**KÜJƏ** (Zəngəzur) – zibillik. – *Bizim küjədə bir buranı bitib.*

**KÜJƏLİXʹ** (Cəbrayıl, Zəngəzur) – zibillik. – *Sənin küjəlixʹdə nə işin var?*

**KÜK** (İmişli) – b a x **küy.** ◊ **Kük yatmağ** – b a x **küy yatmax.** – *Kük yatanda to:uğ cücə çıxardar.* **Kük tüşməxʹ** – b a x **küy tüşməxʹ.**

**KÜKƏNƏXʹ** (Qazax) – mənasız, məqsədsiz yığıncaq. – *Kəsmer kükənəyiŋiz, gərəxʹ bu avaraları yığasıŋız başımıza.*

**KÜKÜ** (Oğuz) – gicitkənə oxşar xoş ətirli bitki adı.

**KÜKÜNMƏXʹ** (Çənbərək) – 1. sığınmaq; 2. arxalanmaq. – *Yavər Usuvaja kükünüf dolanır.*

**KÜLATAN** (Ağcabədi, Ağdərə) – xəkəndaz. – *Külatannan zivil atırıx* (Ağcabədi); – *Zivili yığ külatana, apar at* (Ağdərə).

**KÜLBƏ** (Salyan) – nehrənin deşiyi. – *Nehrənin külbəsinnən ayran axır.*

**KÜLBƏLƏMƏG** (Şamaxı) – təndirin külbəsini bağlamaq. – *Bu külbələməg təndiri soyudacağ.*

**KÜLÇƏ** (Ağdaş, Bakı, Gədəbəy, Salyan, Göyçay, Kürdəmir, Qax, Oğuz, Şamaxı, Şəki) – 1. qəbir üstə paylanılan halva-çörək (Bakı); 2. təndirdə bişirilən yağlı çörək (Qax, Şamaxı, Şəki). – *Bir təndir külçədən dənə də qalmıtdı, yiyilitdi hamsı* (Şəki); – *Şamaxıya getdün külçə yiməmiş olma* (Şamaxı); – *Qız qormağa külçə pişirip gediylər* (Qax).

**KÜLÇƏBASAN** (Ağdaş, Mingəçevir, Şəki) – külçəyə naxışlar vurmaq üçün saxsı alət. – *Bü:n bir külçəbasan aldım* (Ağdaş).

**KÜLÇƏKƏN** (Şəmkir) – xəkəndaz. – *Odu külçəkənnən götürüllər.*

**KÜLDƏMƏ** (Füzuli) – ətin sümüksüz, yumşaq hissəsi. – *Küldəmə ət kəs gətir.*

**KÜLƏ** (Zəngəzur) – quyruqsuz. – *Bizim it külədi.*

**KÜLƏBASDIM** (Füzuli) – uşaq oyunu adı.

**KÜLƏCƏ** (Culfa, Meğri, Ordubad, Tovuz) – b a x **küləçə.** – *Küləcəni ahıl arvatdar geyər* (Culfa); – *Nənəmin küləcəsi qalır* (Ordubad); – *Küləceyi qavaxlar çox geyərdilər* (Tovuz).

**KÜLƏÇƏ** (Şəki) – qolunun ağzına və ya yaxasına xəz dəri qoyulmuş paltar, ləbbadə. – *Gelinnıx dö:rünnən qalan var-yox bir dənə küləçəm var, vəssalam.*

**KÜLƏFRƏNGİ** (Cəlilabad, Masallı) – külək tutan yer. – *İki qapının arasında otıranda deylər ki, küləfrəngidə otıma, so:uğ olar* (Cəlilabad).

**KÜLƏH** (Dərbənd) – bacarıqsız, aciz. – *Küləh unə diyellə ki, əvdə də işinü təhərün bilməyədü.*

**KÜLƏQUYLAMA** (Cənubi Azərbaycan) – oyun adı. – *Küləquylama ən sövgili oyundu.*

**KÜLƏM** (Cənubi Azərbaycan) – bitki adı. – *Küləmnən bir adam zəhərrəndi.*

**KÜLƏN** (Cəlilabad) – uşaq yelləncəyi.

**KÜLƏNÇƏG** (Yardımlı) – yelləncək. – *Bi küləncəg qa:r uşağ yellənsün.*

**KÜLƏŞƏNƏ** (Cəlilabad) – çayırlı yerdən kərpic şəklində kəsilmiş torpaq. – *Qarım qazeydılar, küləşənə düzəldeydilər.*

**KÜLƏVƏN** (Cənubi Azərbaycan) – dəyirman təknəsi. – *Küləvən artıx doldi.*

**KÜLƏYAĞ** (Qazax) – bərk əzilmiş.

**KÜLFƏ** I (Laçın) – tövlədə pəncərə əvəzinə qoyulmuş deşik.

**KÜLFƏ** II (Gədəbəy, Qazax, Tovuz) – təndir. – *Külföyü kərpişdən öröllər, içində çörəx′ pişirellər* (Gədəbəy).

**KÜLXAN** (Bakı) – hamamın ocaqxanası.

**KÜLXANÇI** (Şərur) – ocaqçı. – *Həsən hamamda külxançıdı.*

**KÜLXIRŞAN: KÜLXIRŞAN OLMAX** (Qazax) – b a x **külkirşan olmax.**

**KÜLK** (Cəbrayıl, Zəngəzur) – yunun darana bilməyən keyfiyyətsiz hissəsi. – *Yazda qırxılmış qoyun yununun külkü çox olur* (Zəngəzur); – *Ay lə:, külkü apar sat* (Cəbrayıl).

**KÜLKƏ** (Bakı, Quba) – b a x **külk.** – *Mənim yurğanımın yuni külkədü* (Quba).

**KÜLKİRŞAN: KÜLKİRŞAN OLMAX** (Qazax) – möhkəm əzilmək. – *Dana qayadan uçuf külkirşan oluf.*

**KÜLLƏQƏN** (Zaqatala) – külqabı.

**KÜLLƏMƏ** I (Quba, Şamaxı) – qorlu küldə bişirilmiş yumurta, meyvə və s. – *Atamçün külləmə bişirdim* (Quba).

**KÜLLƏMƏ** II (Cəbrayıl) – b a x **küldəmə.**

**KÜLLƏMƏX′** (Gəncə) – kül ilə sürtüb təmizləmək. – *Yağlı qavı külləməx′ yaxşıdı.*

**KÜLMƏ** I (Lənkəran, Masallı) – balıq növü. – *Bıyil çoxli külmə tutdığ* (Lənkəran).

**KÜLMƏ** II (Təbriz) – yaş baramanı qurutmaq üçün qab. – *Külmədə barama qurudulla.*

**KÜLÖVSƏN** (Naxçıvan) – aşsüzən.

**KÜLÖVÜŞ** (Dərbənd) – küləş. – *Taxılı biçədüg, yerində külövüş qaladı.*

**KÜLTƏ** (Qazax) – cındır, köhnə paltar. – *Əhmədin əynində bir kültə vardı.*

**KÜLTÜKƏN** (Quba) – külqabı. – *U kültükəni quy bıra, sə:nçün urda biri var.*

**KÜLÜNCƏ** (Meğri) – qısabudaqlı tut ağacı. – *Külüncədən yaxşi yarpax çıxmey.*

**KÜM** I (Astara, Lənkəran, Masallı) – evin üstü. ◊ **Küm bağlamağ** – evin üstünü düzəltmək. – *Ev tikmişəm, qalıb küm bağlamağı* (Lənkəran).

**KÜM** II (Cəlilabad) – baramaqurdu bəsləmək üçün qarğıdan hörülmüş üstüörtülü yer. – *Biz kümdə qurd saxlayırıx.* ◊ **Küm götürmax** (Şəki) – baramaqurdu bəsləmək. – *Arvatdar küm götürür, kişilər handdə işli:r.*

**KÜM** III (Təbriz) – tövlədə qoyunlar üçün ayrılmış yer. – *Qoyınnarı sal kümə.*

**KÜM** IV (Salyan) – maya. – *Həsənnilərin kümi doğurruğnan qoyulub.*

**KÜMAC** (Ordubad) – kömbə. – *Dəyirmanda iki kümac saldıx.*

**KÜMBƏLƏMƏXʹ** (Şərur) – yığmaq, toplamaq. – *Bizdər deyərixʹ, saçın kümbələyib.*

**KÜMDAR** (Füzuli, Şəki) – baramaçı, baramaqurdu bəsləyən. – *Yaxşı kümdar çoxdu bizdə* (Şəki).

**KÜMEYİL** (Şəki) – ağacların kökünü kəsib qurudan qurd. – *Kümeyil ağacı qurudar.*

**KÜMƏ** (Axalsxi) – üzüm şirəsi və qoz ləpəsindən hazırlanmış halva. – *Bu il çox kümə qayırdıx.*

**KÜMƏLƏMƏK** (Kürdəmir) – toplamaq. – *Məhsulu kümələ, yağış yağır.*

**KÜMÖYÜL** (Ağdaş, Göyçay, Kürdəmir, Mingəçevir) – b a x **kümeyil.** – *Kümöyül yaşıl olar* (Ağdaş); – *Kümöyül ağacı kəsir, yerin altında olur* (Göyçay).

**KÜMÖYÜLLƏNMƏXʹ** (Ağdaş, Mingəçevir) – qurdlamaq, kümöyül qurdu düşmək. – *Bizim ağaclar kümöyüllənib* (Ağdaş).

**KÜMÜLDƏNMƏXʹ** (Tovuz) – öz-özünə deyinmək.

**KÜMMÜLLÜĞ** (Salyan) – təpəlik. – *Qabağ bı yerrər kümmüllüg olub.*

**KÜNAL** (Cəbrayıl, Kürdəmir) – b a x **kunal.** – *Künaldan bir qış ocaxlığı çıxır* (Kürdəmir); – *Bizim qurdun altında künal çoxdu* (Cəbrayıl). ◊ **Künal eləməg** (Quba) – bağda ağacın şax-budağını təmizləmək. – *Bağı künal elədim.*

**KÜNC** (Borçalı) – dəvənin hörgücü. – *Dəvənin küncü dəvənin belində olar.*

**KÜNÇAYİŞ** (Şamaxı) – oxşayış. – *Mən ölüm, heç bu işin o işə künçayişi var?*

**KÜNDAR** (Meğri) – b a x **kümdar.** – *Diyellə sə:r Mırğıda kündarrarın ijlasın çəğrellər.*

**KÜNDƏGİR** (Naxçıvan) – xəmirkündələyən. – *Səkinə köhnə küdəgirdi.*

**KÜNDƏLƏNMƏXʹ** (Qarakilsə) – şişib yumrulanmaq. – *Dizinin gözü bax elə kündələnip yumurta boyda.*

**KÜNDÜRGƏ** (Salyan) – təpə. – *Babazaman dağının ətəklərində kündürgə çoxdı.*

**KÜNƏ** I (Qazax, Naxçıvan, Şəmkir, Tovuz) – 1. arıq, zəif (Qazax, Tovuz). – *Bu qoyun o qoyunnan künədi* (Qazax); – *Bax bu, cücələrin ən künəsidi* (Tovuz); 2. kiçik (Şəmkir). – *Çox künədi, bu uşağın nəyini öylən-dirifsiŋiz.*

**KÜNƏ** II (Göyçay, Qax, Meğri, Mingəçevir, Ordubad, Şəki) – b a x **kunal.** – *Baramã: denniyənnən sora künə: yandı:rıx* (Şəki); – *Bir az künə aldım* (Ordubad).

**KÜNƏ** III (Kürdəmir, Qazax, Lerik, Mingəçevir, Şəki, Şərur, Şuşa, Zəngilan) – yumurtanın yastı tərəfi. – *Murtanın künə tərəfini çö:r dö:şax* (Şəki); – *Bu yumurta:n künəsi yaman bərkdi* (Zəngilan); – *Bu yumurtanın künəsi sınıxdı* (Şuşa).

**KÜNƏ** IV (Ağsu, Kürdəmir) – əclaf. – *Day adamın yap əcnafına künə deyrik* (Ağsu).

**KÜNƏ** V (Oğuz, Şamaxı) – xışın gavahın taxılan yeri. – *Xış dəmirini xış künəsinə keçirillər* (Oğuz); – *Xışın künəsi xarab olub, gəvahini saxlamır* (Şamaxı).

**KÜNƏ** VI (Meğri) – b a x **kunal.**

**KÜNƏCƏ** (Mingəçevir, Şəki) – qoz və tut çırpmaq üçün uzun ağac. – *Çıx ağaca, künəcəni verim bir az tut töxʹdür* (Şəki).

**KÜNƏGİR** (Bakı) – tənbəl.

**KÜNƏGİRLİG** (Bakı) – tənbəllik. – *Künəgirliyinnən otırdığı yeri də yığışdırmır.*

**KÜNƏTAX** (Cəbrayıl, Zəngilan) – baramaqurduna verilmək üçün qırılmış tut ağacı çubuğunun kəsilib atılan yarpaqsız hissəsi. – *Künətax sajın altında yaxşı yanır* (Zəngilan); – *Səlim bağdan bir şələ künətax yığdı* (Cəbrayıl).

**KÜNG** (Şamaxı) – saxsı boru. – *Bu bulağın suvi küngnən gəldiyinnən təmizdi.*

**KÜNGÜL** (Cənubi Azərbaycan) – b a x **nacax** (enliağızlı, qısasaplı balta). – *Küngül çox ağır olur.*

**KÜNGÜN** (Ağbaba) – qozbel.

**KÜNGÜR** I (Qazax) – yoxsul, kasıb. – *Kərim yaman küngüriydi, sonradan düzəliflər.*

**KÜNGÜR** II (Bakı) – tənbəl.

**KÜNGÜRƏ** (Bakı) – baca.

**KÜNGÜRRƏMƏXʹ** I (Qazax) – qocalıb əldən düşmək. – *Avdılla kişi laf küngürrüyüf, yeriyə də bilmer.*

**KÜNGÜRRƏMƏXʹ** II (Tovuz) – kasıblamaq, əli aşağı düşmək. – *Yazıx Məmmədəli yaman küngürrüyüf.*

**KÜNİYƏ** (Şamaxı) – taraz. – *Küniyəsiz divar hörməg olmaz.*

**KÜNT** (Zaqatala) – tüklü palaz. – *Künti laxanın üstnə sal.*

**KÜNÜK** (Şəki) – xırda tənəyin kötüyü.

**KÜP** (Masallı, Salyan) – b a x **küf.** – *Fatma küpdə o qədər yelləndi ki, axırda başı gicəlləndi* (Salyan).

**KÜPÇÜ** (Tovuz) – boyaqçı. – *Küpçü ip boyyur.*

**KÜPƏGİLƏ** (Lənkəran) – kiçik küp.

**KÜPƏPARTDADAN** (Sabirabad) – lalə. – *Bir dəssə küpəpartdadan yığmışam.*

**KÜPİ** (Şamaxı) – qamışdan qayrılıb üzərinə ip sarınmış alət (toxuculuqda işlənir). – *Küpini ayağ altda qoyma.*

**KÜPLƏMƏK** I (Gəncə) – döymək, vurmaq. – *Əlindəki ağacınan o ki var onu küplədi.*

**KÜPLƏMƏK** II (Şamaxı) – çox yemək. – *Həsən kişi xeyratda aşdan o ki var küplədi.*

**KÜPYERİDƏN** (Borçalı) – araqarışdıran. – *Küpyeridən adam həməşə ara vurar.*

**KÜR** (Salyan, Şamaxı) – 1. aciz (Şamaxı); 2. tənbəl (Salyan). – *Kürün biri kür; – Həsə:n oğlu kürdü.*

**KÜRDƏŞ** (Culfa, Şərur, Naxçıvan) – üzüm növü adı. – *Bazara kürdəş üzümi gəlib* (Naxçıvan).

**KÜRDKÜLƏŞ** (Ordubad) – sürtgəc. – *Kürdküləşi atama ver.*

**KÜRDÜ** (Ağdam, Beyləqan, Bərdə, Cəbrayıl, Laçın, Şuşa, Tərtər, Yevlax) – qolsuz qadın geyimi. – *Anam özünə bir kürdü aldı* (Beyləqan); – *Kürdünü dərzilər tikillər qolsuz, xaz qoyullar boynuna* (Ağdam); – *Nənəmin bir yaxşı kürdüsü var* (Şuşa).

**KÜRDÜL** (Bakı) – hörümçək.

**KÜRƏ** I (Kürdəmir, Mingəçevir, Oğuz) – manqal.

**KÜRƏ** II (Ağbaba, Cəbrayıl, Füzuli, Kürdəmir, Qax, Salyan, Oğuz) – 1. qulaqlı (Cəbrayıl, Füzuli, Kürdəmir). – *Qara kürə şişəyimiz dünən qoça:lifdi* (Cəbrayıl); – *O sarı kürə qoynu sa: verrəm* (Kürdəmir); 2. b a x **kərə** (Ağbaba, Qax, Oğuz). – *Kürə qoyunun qulağı lap balaca olur* (Oğuz).

**KÜRƏ** III (Kəlbəcər) – kiçik xiyar. – *Ə:, get bir-iki kürə gəti.*

**KÜRƏ** IV (Lənkəran) – ləpəsi çətin çıxan qoz. – *Bıranın qozi kürə olır.*

**KÜRƏ** V (Qax) – quzey yerlərdə bitən çiyələk.

**KÜRƏFƏRİM** (Quba) – aciz, bacarıqsız. – *Nə kürəfərim adamsan, əlünnən hiç nə gəlmədi.*

**KÜRƏLƏMƏXʹ** (Qazax) – başdan eləmək. – *Hüseynqulu yanına gələn adamı kürələməyə çalışer.*

**KÜRĞƏ** (Bakı, Salyan) – qotman. – *Bilal kürğəni yan-yana yığadu* (Bakı).

**KÜRİŞNƏ** (Cəlilabad) – paxlalı bitki adı. – *Üç göz kürişnə alıb əkmişdim;* – *Kürişnə mərci kimi şeydü.*

**KÜRİTDƏMƏ** (Meğri) – tamamilə, bütünlüklə. – *Qalxuz subay sürüləri küritdəmə satdi pul elədi.*

**KÜRMƏXʹ** (Basarkeçər, Cəbrayıl, Gəncə, Meğri, Mingəçevir, Tovuz) – asan açılan düyün. – *Atın başına sijimi kürməxʹ bağla, boşda otdasın* (Gəncə); – *Kürməxʹləri aş, malları burax gessin* (Cəbrayıl).

**KÜRMƏXʹLƏŞMƏXʹ** (Gəncə) – tutaşmaq. – *Əliynən Həsən genə kürməxʹləşiflər.*

**KÜRNƏC** (Ağdərə, Qarakilsə) – isti vaxtlarda qoyunların kölgələndiyi yer. – *İsdidən qoyun kürnəcə yığılır, kölgələnir* (Ağdərə).

**KÜRNƏŞMƏXʹ** (Cəbrayıl, Bakı, İmişli, Qazax, Şəmkir, Tovuz) – istinin təsirindən və ya müəyyən qorxu nəticəsində həddindən artıq sıxlaşmaq, bir yerə toplaşmaq (qoyunlara aiddir). – *Canavar gələndə qoyunnar kürnəşdi* (Qazax); – *Qoyunnar isdidən kürnəşif* (Cəbrayıl); – *Qoyun gənə kürnəşdi* (Şəmkir).

**KÜRPÜŞDƏMƏX′** (Basarkeçər, Cəbrayıl) – çalxamaq. – *Nəhriyi tez-tez kürpüşdüyün kü, tez olsun* (Basarkeçər).

**KÜRSÜ** I (Daşkəsən, Gədəbəy) – çörək bişirmək üçün qazılıb düzəldilmiş və içərisi kərpiclə hörülmüş yer, təndir. – *Kürsü hörülör, çörəy ora kürəx′nən qoylor* (Daşkəsən); – *Kürsünü qala, çörəx′ yaperam* (Gədəbəy).

**KÜRSÜ** II (Şamaxı) – qışda qızışmaq üçün evin ortasında xüsusi düzəldilmiş ocaq. – *Biz payızın orta ayında kürsü qururuğ.*

**KÜRSÜLÜ** (Mingəçevir, Şamaxı, Şəki) – mərtəbəyarım. – *Bizim öy kürsülüdü diyə altına odun yığırıx* (Şəki).

**KÜRTÜX′** (Borçalı) – qış fəslində dərələrdə yığılıb qalan qar topaları. – *Bahar olanda kürtüx′lərin altınnan su geder.*

**KÜRTYARMASI** (Basarkeçər) – kiçik dolu. – *Axşam bir kürtyarması yağdı kı, gəl görəsən.*

**KÜRÜX′** (Ağdam, Basarkeçər, Hamamlı, Xanlar) – b a x **kurix′.** – *Boz atın yorğa bir kürüyü var* (Basarkeçər); – *Bu atın kürüyü nə göyçəx′di* (Hamamlı).

**KÜRÜŞ** (Borçalı, Qazax) – 1. kürü (Qazax). – *Kürüş yeməli olor;* 2. toyuğun yumurtalığındakı qabıqlanmamış yumurtacıqlar (Borçalı).

**KÜRÜŞDƏ** (Qazax) – b a x **kürüş** (2-ci məna). – *Kürüşdə to:uxda olor, balıxda olor, yeməli olor.*

**KÜRÜŞGƏ** (Ağcabədi, Bərdə, Tərtər) – b a x **kürüş** (2-ci məna).

**KÜRÜŞGƏNƏ** (Ağcabədi, Bərdə, Tərtər) – b a x **kürüş** (2-ci məna). – *Tö:üğu kəsdix′, qarınnan çoxlu kürüşgənə çıxdı;* – *Tö:üğun yumurtalığında çox olur kürüşgənə* (Ağcabədi).

**KÜRÜŞNƏ** I (Ağcabədi, Bərdə, Cəbrayıl, Xocavənd, Kəlbəcər, Qarakilsə, Zəngilan) – b a x **kürüş.** – *Mən uşağ olmuşam, hər savax qızıl balığın kürüşnəsinnən ma: yediriflər* (Xocavənd); – *Toyuğu nahax kəsdix′, içi teyxa kürüşnədi, iki-üş günə yumurtduyaceymış* (Cəbrayıl).

**KÜRÜŞNƏ** II (Lerik) – b a x **kirişnə.** – *Bu gün kürüşnə əkdim.*

**KÜSƏMMƏX′** (Ağdərə, Şəmkir) – arxalanmaq. – *Yazığın kimi var, o da saŋa küsənir* (Şəmkir).

**KÜSƏNMAX** (Xaçmaz, Şəki) – həsəd aparmaq. – *Ağıllı, bacarıxlı adama küsənəllər* (Şəki).

**KÜSMƏ** (Oğuz) – qovrulmuş şabalıdla döyülmüş qozdan hazırlanmış çərəz. – *Çərəzdi də küsmə, qonax gələndə qoyallar surfaya.*

**KÜSNƏT** (Ağdaş) – ağırxasiyyətli, qaraqabaq (adam). – *Nuru küsnətdi.*

**KÜSTÜM** (Dərbənd) – bitki adı. – *Küstümə dəymə, küsər.*

**KÜSÜL** (Quba) – tütək. – *Bu gün çubandan bir küsül alacegəm.*

**KÜŞAT** I (Füzuli, Salyan) – su çəlləyi. – *Apar küşatı bulaxdan doldu gəti* (Füzuli); – *Küşatdan su qurtardı* (Salyan).

**KÜŞAT** II (Oğuz) – 1. gəlir; 2. var-dövlət.

**KÜŞD** (Quba) – bel. – *Kəməri küşdivə keçir.*

**KÜŞDƏNƏ** (Salyan) – ağ rəngli və xoş ətirli yabanı çiçək adı. – *Bir dəs küşdənə aldım.*

**KÜŞDƏRƏ** (Borçalı, Tovuz, Zaqatala) – 1. rəndə (Tovuz, Zaqatala); 2. ağacın içini yonub çıxarmaq üçün işlədilən alət (Borçalı). – *Küşdəreyi qapıda, isdolda işdəderix′.*

**KÜŞDƏRƏLƏMƏK** (Zaqatala) – küşdərə ilə ağacın içini yonub çıxartmaq. – *Ağacı küşdərələdim;* – *Küşdərəni ver bu ağacı küşdərəliyim.*

**KÜŞDİG** (Cəlilabad) – 1. az, azacıq; 2. yaxın. – *Əliynən cibinin arası bi küşdig yerdi.*

**KÜŞD: KÜŞDİYƏ GİRMƏG** (Şamaxı) – güləşmək, qurşaq tutmaq. – *Həmidnən Həsən küşdiyə girdi.*

**KÜŞƏ** (Xaçmaz, Quba) – b a x **köşə.**

**KÜŞƏMAL** (Meğri) – kötək. – *Vəzir durer bir mahna saler, arvada beş-altı küşəmal çəker.*

**KÜŞƏRƏ** (Quba) – balıqqulağı. – *Dənizdən çuxli küşərə yığdım.*

**KÜŞGÜRMƏX′** (Gəncə, Qazax) – qovmaq. – *Toyuxları buğdanın üsdünnən küşgür* (Qazax); – *Qoyunu küşgür yoldan çıxsın* (Gəncə).

**KÜŞTƏLƏMƏK** (Zaqatala) – rəndələmək. – *Bu taxtanı küştələmək lazımdı.*

**KÜŞTƏRƏ** (Axalsxi, Şəki, Zaqatala) – bax **küşdərə** (1-ci məna). – *Taxtaların hamısı küştərədən çıxıtdı* (Şəki).

**KÜŞÜ** (Quba) – saxsı suqabı. – *Səhər durub küşüni su ilə doldur.*

**KÜŞÜLDƏMƏK** (Qax) – pıçıldamaq.

**KÜŞÜMLƏMMƏX′** (Borçalı) – darıxmaq. – *Əhməd niyə belə küşümləner, fikirrəner.*

**KÜŞVARA** (Naxçıvan) – düşbərə. – *Küşvaraya turşu tökəllər.*

**KÜT** I (Bakı, Cəbrayıl, Çənbərək, Əli Bayramlı, Gədəbəy, Qax, Qusar, Mingəçevir, Salyan, Tovuz) – 1. bax **kut** (Cəbrayıl, Qusar). – *İtə küt verdinmi?* (Cəbrayıl); 2. təndirin divarından qopub odun içinə düşən çörək (Əli Bayramlı, Gədəbəy, Tovuz). – *Çörəyi:z teyxa kütdü ki* (Tovuz); – *Ojax yaxşı yanmadı, çörəx′lərin çoxu küt oldu* (Tovuz). ◊ **Kütə getmək** (Əli Bayramlı, Salyan) – təndirin divarından qopub düşmək. – *Bilmirəm əlimin üssünə kim gəldi ki, çörəylərimin hamısı kütə getdi.*

**KÜT** II (Şəki) – çolaq, axsaq. – *Küt Balının oğlı qutalıf gəlifdi;* – *Yeldən əyağım küt olufdu;* – *Qafur yıxılannan sora küt oldu.*

□ **Küt getmey** (Bakı) – *məc.* yorulmaq, əldən düşmək.

**KÜTDƏMƏK** (Bakı, Gəncə) – qalaqlamaq, toplamaq, topa halında yığmaq. – *Daşın hamısın bir yerə kütdəmə* (Gəncə).

**KÜTƏLMƏG** (Salyan, Bakı) – korşalmaq, kütləşmək. – *Balta:n ağzı kütəlib* (Salyan).

**KÜTGUN** (Quba) – toyuqların yumurtlaması üçün düzəldilmiş səbət. – *Kütgundan bir yumurta gəti.*

**KÜTKƏSMƏZ** (Şamaxı, Salyan) – küt, iti olmayan. – *Bu balta nə kütkəsməz şeydi* (Şamaxı).

**KÜTKÜRÜŞ** (Ağdaş) – bax **kütküt.** – *Kütkürüş yaxşı oyundu.*

**KÜTKÜT** (Ağdaş) – qoz-qoz oyunu. – *Kütkütdə mən uddum.*

**KÜTLƏ** (Bərdə) – quduzluq əleyhinə dərman. – *Ə:də, bazara gedən olsa, bir əz kütlə aldı, quduz dalıyan mallara verəx′.*

**KÜTLƏŞMƏK** (Şamaxı) – ciftləşmək (itə aiddir). – *İtlər kütləşib.*

**KÜTMÜX′** (Ağdaş, Çənbərək, Mingəçevir) – 1. çox işlənmə nəticəsində işə yaramayan kötük süpürgə. – *O kütmüx′ süpürgəni mənə* ver (Ağdaş); 2. qısa (Çənbərək). – *Sa: verdiyim kütmüx′ buynuz inəx′di.*

**KÜTMÜL** (Gədəbəy, Kəlbəcər) – gödək və yoğun. – *Nəvlim, kütmül adam bizim kətdə yoxdu* (Gədəbəy).

**KÜTÜL** (Oğuz) – 1. şikəst; 2. çolaq. – *Barmaxsız əl, ayax da kütüldü.*

**KÜTÜN** (Cəlilabad) – qozbel. – *Gəh deylər ki, qozbeli qəbir düzəldər, gəh də deylər ki, kütüni qəbir düzəldər.*

**KÜTÜNBEL** (Masallı) – qozbel.

**KÜTVALLAŞMAX** (Daşkəsən, Kəlbəcər) – qocalmaq (heyvana aiddir). – *Tişi tökülüf, kütvallaşıf* (Kəlbəcər).

**KÜVƏN** (Cənubi Azərbaycan) – hörgüc. – *Dəvənin küvəni çox balacadı.*

**KÜVƏR** I (Culfa, Naxçıvan, Ordubad, Tovuz) – iki və ya üçillik dişi keçi. – *Küvərin əti dübürün ətinnən pis olar* (Culfa).

**KÜVƏR** II (Borçalı) – bax **küvən.** – *Küvər dəvənin belində olar, bir dənə də olar, iki dənə də olar.*

**KÜVƏR** III (Ağdaş) – avara. – *Səməd çox küvər adamdı.*

**KÜVƏRLƏNMƏK** (Ağdaş, Göyçay) – avaralanmaq. – *Əli küvərlənir axşamacan* (Ağdaş).

**KÜVÜL** (Qax, Şəki) – bax **kuvul.** – *Dağda ayı küvülü gördüm* (Şəki).

**KÜYƏR** (Qazax, Tovuz) – bax **küvər** I.

**KÜY: KÜY YATMAX** (Ağdam) – kürt yatmaq. ◊ **Küy tüşməx′** (Ağcabədi, Bərdə) – kürt düşmək. – *Tö:üx küy tüşüf* (Ağcabədi).

**KÜYQARA: KÜYQARA TÖX′MƏX′** (Çənbərək) – hay-küy salmaq. – *Nə küyqara töx′müsəŋ ə:, cama:tı yığmısaŋ başıŋa.*

**KÜYNƏX′** (Təbriz) – qapının üstündə hərəkət edən dəmir. – *Bizim də qapının üssündə dəmirdən küynəx′ vardı.*

**KÜYÜKMƏG** (Cəlilabad) – hürkmək. – *At nə gördisə küyükdi.*

**KÜYÜKMƏX′** (Ağcabədi) – kökəlib harınlaşmaq. – *Mal çox ye:ir küyükür.*

**KÜYÜL** I (Ağdam, Mingəçevir, Ucar) – 1. deşik (Ağdam); 2. koğuş (Ucar). – *Küyüldə quş da yaşıyır, ilan da olur.*

**KÜYÜL** II (Qax, Şəki) – b a x **kuvul.** – *Ayı küyülünün yanına getmə* (Şəki).

**KÜYÜL** III (Qazax) – dəstə. – *Arı küyülü başıma üyüşdü, yedi əlimi, üzümü.*

**KÜZ** I (Borçalı, İmişli, Qax, Ordubad) – payız. – *Qoyunu yaz otar, yaz otarmadın duz otar, duz otarmadın küz otar* (İmişli); – *Taxıl səfdiŋ küzdə sula, küzdə sulamadıŋ buzda sula* (Borçalı).

**KÜZ** II (Ağcabədi, Ağdam, Bakı, Basarkeçər, Bərdə, Biləsuvar, Cəbrayıl, Cəlilabad, İmişli, Kürdəmir, Qarakilsə, Şərur, Yardımlı, Laçın, Meğri, Ordubad, Saatlı, Salyan, Şəmkir, Tovuz, Zəngilan, Zərdab) – quzu saxlanılan üstüörtülü yer. – *Dört tərəfin qarquynan örüllər, üsdün də örtüllər olur küz* (Ağdam); – *Bizim küzdə yüz quzu var* (Ağcabədi); – *Quzuları yığın küzə, soyuxdu* (Zəngilan); – *Quzunu küzə qatırıx* (Ordubad).

**KÜZ** III (Meğri, Ordubad) – əkin sahəsində kiçik arx. – *Küzi hmməşə yer malalanannan sura açallar* (Meğri).

**KÜZ** IV (Cəlilabad, Füzuli, Göyçay, Xocavənd, Quba) – 1. xışın və ya kotanın açdığı şırımla müəyyən hissələrə bölünmüş əkin sahəsi (Füzuli, Quba). – *İki cız arasına küz deyəllər* (Füzuli); – *Beş küz tuxum əkmişəm;* – *Üzim də işdeyəm, küzdərin halağin təmizdeyəm* (Quba); 2. əkin sahələrini bir-birindən ayıran şırım, cızıq (Cəlilabad); – *Küz çəkeydüz kö:şənniglərdə.*

**KÜZ** V (Yardımlı) – dilim, qıça. – *Boraninin dilimlərinə küz deylər bizdə.*

**KÜZDƏX′** (Qazax) – payız otlağı. – *Ə:, İmranın sürüsü gedif küzdəyi basdı.*

**KÜZDÜX′** (Füzuli) – payızlıq. – *Küzdüy arpasıdı.*

**KÜZƏ** (Qazax, Ordubad) – kiçik saxsı sənək. – *Dünən bizim küzə düşdü sındı* (Qazax).

**KÜZƏM** (Bakı, Füzuli, Kürdəmir, Sabirabad) – payızda qırxılan yun.

**KÜZGƏL** (Cənubi Azərbaycan) – kərpic qəlibi. – *Küzgəl çox balacadu.*

**KÜZLƏMƏK** (Şamaxı) – əkin sahəsini müəyyən hissələrə bölmək. – *Yeri qabaxca küzlə, sonra toxum səp.*

**KÜZLİĞ** (Lerik) – quzular saxlanan yer.

**KÜZMƏK** I (Qəbələ, Mingəçevir) – peyin tullamaq üçün tövlənin divarından açılmış deşik. – *Firidun kürüdüyü peyini tez-tez küzməkdən bayıra atırdı* (Qəbələ).

**KÜZMƏK** II (Oğuz) – körpə quzu və ya buzov üçün tövlədə düzəldilmiş xüsusi yer. – *To:lada buzoydan ötəri küzmək kəsillər.*

**KÜZRÜ** (Quba) – xırda balıq. – *Əhməd çuxli küzrü gətirdi.*

**KÜZÜ** (Əli Bayramlı, Gədəbəy, Qazax) – quzu saxlanılan yer. – *Payız öynü quzuları küzüyə salerıx* (Gədəbəy).

# Qq

**QAB** (Salyan) – *məc.* baş, beyin. – *Sə:n də qabunda söz qalmır.*

**QABAG** (Dərbənd) – alın. – *Qabagıma dəgdi daş.*

**QABAĞARDAN** (Bakı) – qalayçı. – *Qabağardan qazannarı yaxçı ağardıb; – Qabağardannarın sesi küçəni basıb.*

**QABAX** (Zaqatala) – bax **qabağ.**

**QABAXLIX** (Zaqatala) – alınlıq, qadınların alınlarına bağladıqları bəzək əşyası.

**QABALAX** (Füzuli) – cücərti.

**QABALAXLAMAX** (Füzuli) – cücərmək. – *Toxum qabalaxlıyır, onnan so:ra yığılır qola, bir qarış qol sürür çiçəx'liyir.*

**QABAR** (Balakən) – yoğun qarğı, qamış. – *Birqadir cama:tı qabar qırmağa apardı.*

**QABARİMƏG** (Yardımlı) – bax **qabarmax.** – *Nə qabareysən üsdümə.*

**QABARMAX** (Zəngibasar, Şərur) – cavab qaytarmaq, üzə ağ olmaq. – *Uşax mə: elə qabardı ki, nə:tə:r* (Şərur).

**QABÇAĞ** I (Kürdəmir, Salyan, Yardımlı) – suqabı, su içilən qab. – *Get bir qabçağ su gəti, içim* (Salyan).

**QABÇAĞ** II (Salyan) – pambığı dərilmiş qoza.

**QABÇAĞ** III (Salyan) – qutu. – *İbişgənin dənələrini qabçağa yığ.*

**QABƏLƏ** (Dərbənd) – alma növü adı. – *Qabələ istikana uxşar almadu də.*

**QABĞARMAX** (Oğuz) – qablaşdırmaq, yerləşdirmək.

**QABIRĞA** (Cəbrayıl, Qax, Ucar) – 1. cağ (arabada) (Cəbrayıl). – *Qabırğaları sındırma;* 2. kirəmit düzmək üçün evin üstünə üfüqi qoyulan taxta, ağac (Qax, Ucar). – *Oturacax evin qabırğası vurulup bugün* (Qax); – *Qabırğa şam ağacınnan da olur* (Ucar).

**QABIRĞALAMAX** (Göyçay, Ucar) – evin üstünə qabırğa (bax **qabırğa** 2-ci məna) düzmək, vurmaq. – *Ussalar damı qabırğaladı* (Ucar).

**QABQIRAN** (Quba, İrəvan) – lalə. – *Qabqıranı dəriv əvə gətirməzdər* (İrəvan).

**QABLA** (Bakı) – kal əncir. – *Xəzri ağacın qablalarını səlt tökdi yerə.*

**QABLAMA** (Zəngibasar) – qəlp, saxta. – *Bı əsil qızıl döylü, qablamadı.*

**QABLAMAĞ** I (Salyan) – yığmaq. – *Pammığı qablo:un xarala.*

**QABLAMAĞ** II (Salyan) – çox yemək, acgözlük etmək. – *Ədə, az qabla, partlıyarsan ki.*

**QABLAMAQAZAN** (Bakı, İrəvan) – qapaqlı böyük qazan. – *Qablamaqazan çox böüg olur, özi də mö:kəm olur* (Bakı); – *Qablamaqazanda puloy pişirəllər* (İrəvan).

**QABLANMAĞ** (Bakı) – bərk yıxılmaq, üzü üstə yıxılmaq.

**QABLI** (Füzuli) – xörək adı. – *Əti doğruyursan, noxut tökürsən, öz vamına pişirirsən, bıa <buna> qablı deyilir.*

**QABLIX** (Culfa, İrəvan) – 1. qın (İrəvan). – *Atam öz ülgücünə qablıx tix'di;* 2. iynə sancılan yastıqça (Culfa). – *Qablığın üsdünə iynə sancırıx.*

**QABSINDIRAN** (Bakı) – lalə.

**QABUÇ** (Zaqatala) – bağlama. – *Ay bala, dur qabuçu bura gəti görüm, içində sap varmı?*

**QAC** (Göyçay, İmişli, Qax, Sabirabad, Şəki, Zaqatala) – bax **qaj** I. – *Qajın suyunu kes* (Zaqatala).

**QACAX** (Naxçıvan, Zəngilan) – 1. qarğıdalı qıçası (Naxçıvan); 2. qurumuş pambıq qozasının qırıntıları (Zəngilan). – *Yaveynan pambı: sirkəliyin, qacağı tökülsün yerə.*

**QACA-QUCA** (Bakı) – çala-çuxur. – *Bu şo:fir afdo:mili lap qaca-quca yolnan sürür; – Mən bilirəm qaca-quceynan gedmeg şo:firçün çetindü.*

**QACAL** (Meğri) – yaylaq, meşə ətrafında otlaq yer. – *Heyvandarrar diyərdi: "Xırdabaş heyvanın canı yayda qacal, payızda meşədi".*

**QACAR** I (Bərdə) – bax **qajir.** – *Qacar uçub gəldi.*

**QACAR** II (Qax, Zaqatala) – tərs, inadkar. – *Əşi, sen nə yaman qacar adamiymişsən?!* (Qax)

**QACAR** III (Zaqatala) – özül. – *Həsən büyün öyün qacarını qoyuf, hora gedirəm.*

□ **Qac gəlmeg** (Bakı) – düşmən olmaq, zidd olmaq. – *Bir fikirrəş gör, u məniynən nöşün qac gəlir.* **Qac çıxmağ** (Xaçmaz) – zidd çıxmaq. – *Kişi o qədər özünü itirmişdi ki, una lap qac çıxmışdı.* **Qac ulmağ** (Xaçmaz, Quba) – düşmən olmaq. – *Tapdığ məniynən yaman qac ulub* (Xaçmaz).

**QACIMAĞ** (Biləsuvar, Yardımlı) – qıc olmaq.

**QA:CIMAX** (Şəki, Zəngilan) – bax **qacımağ.** – *Əyağım qa:cımışdı, ovdum, düzəldi* (Şəki); – *Sağ qıçım qa:cıyıb* (Zəngilan).

**QACIN** (Şəki) – çardağın kənarlarındakı açıq yer. – *Öyün qacınına quru ot tıxıyırıx;* – *Bizim öylərin hamısında olar qacın.*

**QACİR** (Qax, Zaqatala) – bax **qacar** I. – *Cəmdəyi qacir yedi* (Zaqatala).

**QACQAC** (Zaqatala) – sağsağan.

**QAÇAĞADURMA** (Çənbərək) – uşaq oyunu adı.

**QAÇAQ-QAÇAQ** (Şuşa) – uşaq oyunu adı.

**QAÇARABUXUR** (Qax) – hərəkətdə, fəaliyyətdə, çalışmaqda olan. – *Axşamacan o yan-bu yana qaçarabuxurdu.*

**QAÇARĞA: QAÇARĞA SALMAX** (Şahbuz) – didərgin salmaq. – *Söynin qardaşı mə:m atamı bı kətdən qaçarğa saldı.*

**QAÇI** (Cəbrayıl) – arabanın hissələrindən birinin adı. – *Gözdə ki, arabanın qaçısı sınmasın!*

**QAÇIRĞA** (Zaqatala) – ling.

**QAÇIRTMAX** (Şəki) – söndürmək (işığı, ocağı).

**QAÇQAYARA** (İmişli) – heyvanlarda yara adı.

**QAÇ-YORT** (Cəlilabad) – qaçaraq, qaça-qaça. – *Tələsirdim, qaç-yort gəldim.*

**QADA** I (Şəki, Şərur, Zaqatala) – qardaş.

**QADA** II (Qax) – aşıq <sümük>.

**QADAĞ** (Əli Bayramlı, Kürdəmir, Sabirabad, Salyan, Cəlilabad) – mıx. – *Qadağı taxdıya vırdım* (Salyan).

**QADAĞA** (Salyan) – öyüd, nəsihət. – *Uşağa gərəg vaxdında qadağa verəsən.*

**QADAĞLAMAĞ** (Biləsuvar, Cəlilabad) – mıxlamaq. – *Taxdanı qadağladılar* (Biləsuvar); – *Usdıl sıney, onı qadağla* (Cəlilabad).

**QADAX** I (Balakən, Gədəbəy, Mingəçevir, Oğuz, Zaqatala) – bax **qadağ.** – *İri qadax yaxşıdı yerə vurmağa* (Gədəbəy).

**QADAX** II (Şəki) – dəmir yamaq (təknə və ya tabağın çatlamış yerinə vurmaq üçün). – *Soruş gör, tabağa qadax sala bilər?*

**QADAX** III (Zəngibasar) – zarafat. – *Genə qadağınnan əl çəx'mirsən.*

**QADAXLAMAX** (Oğuz) – bax **qadağlamağ.**

**QADAMA** (Kürdəmir) – muncuq. – *Qızın boynundakı qadama gennən göründü.*

**QADAMAĞ** (Kürdəmir) – sıxışdırmaq.

**QADAMAX** (Qax) – bax **qadamağ.**

**QADARAZU** (Zəngibasar) – xidmətçi.

**QADASARI** (Zaqatala) – saxsı qab (süd sağmaq üçün).

**QADAY** (Dərbənd) – körpə keçi. – *Büz taza doğulan keçi baləsinə qaday diyədüg.*

**QADAYBALA** (Dərbənd) – bax **qaday.**

**QADI** (Borçalı, Qazax, Şəmkir, Tovuz) – lovğa.

**QADI-QADI: QADI-QADI DANIŞMAX** (Ağbaba, Gədəbəy, Şəmkir) – lovğa-lovğa, böyük-böyük danışmaq. – *Qadı-qadı danışmax sə:ŋ peşən döymü?!* (Gədəbəy); – *Elə qadı-qadı danışır ki, elə bilirsən əkə kişidi* (Şəmkir); – *Ə:, nə qadı-qadı danışırsaŋ?!* (Ağbaba).

**QADIZ: QADIZ OLMAX** (Meğri) – gözləməkdən yorulmaq. – *Qapının ağzında qadız oldux, haçannan-haçana apardılar xanın yanına.*

**QAF** I (Dərbənd) – mağara. – *Qafda yazda da qar qaladu.*

**QAF** II (Oğuz) – alaq otu. – *Qara mal qafi yaxşı yiyir.*

**QAFÇAĞ** (Göyçay, Zərdab) – bax **qabçağ.** – *Mənə bir qafçağ su ver* (Zərdab).

**QAFÇAĞA** (Şəmkir) – qayalıq. – *Görən, hası qafçağadadı?!*

**QAFÇAX** (Mingəçevir) – bax **qabçağ.**

**QAFÇARDAĞI** (Cəbrayıl) – qab-qacaq qoyulan yer. – *Mən taxtadan bir qafçardağı bağlatmağ isdiyirəm.*

**QAFÇIĞA** (Tovuz) – bax **qafçağa.**

**QAFDIRMA** (Şəmkir) – meyvə ağacının budaqları altına vurulan dirək. – *Qafdırma vurullar kı, çox meyvə gətimiş ağac sınmasın.*

**QAFXANA** (Ordubad) – mətbəx. – *Qafxananın işığı otağa yaxşı tüşür.*

**QAFIN** (Dərbənd, Xaçmaz, Quba) – yavanlıq. – *Çörək yeməyə qafın varmı?* (Xaçmaz).

**QAFQAN** (Ağbaba) – saç. – *Niyə qafqanıŋı daramırsaŋ?!*

**QAFLAM** (Oğuz) – bel ilə götürülmüş otlu torpaq, çim.

**QAFSAMAX** I (Mingəçevir, Şəki, Şəmkir) – zəbt etmək. – *Yerrərin hamısını qafsamışdılar* (Şəmkir); – *Bö:x′ qolçomaxlar hər şeyi qafsi:llərdi ki, bu mə:mdi* (Şəki).

**QAFSAMAX** II (Ağbaba) – örtmək.

**QAFUN** (Xaçmaz, Xudat, Quba) – b a x **qafın.** ◊ **Qafun eləmağ** (Xaçmaz, Quba) – yavanlıq hazırlamaq. – *Hindi qafun boldu, hər gün çüregimizi qafunla yiyəduğ* (Quba).

**QAFUN-QARA** (Xaçmaz, İsmayıllı, Quba) – duru xörək. – *A:rif, anaŋ qafun-qara pişirib, səni gözdiyir* (İsmayıllı).

**QAĞ** I (Zaqatala) – yarpaq (qarğıdalı qıçasında).

**QAĞ** II (Qarakilsə) – qığılcım.

**QAĞALA** (Şəki) – balaca saxsı qab. – *Qağala:n içində duz var.*

□ **Qağala çalmax** (Tərtər) – qaqqıldamaq. – *Töüx əzzəl qağala çalır, soŋra yumurtduyur.*

**QAĞAN** (Lənkəran, Meğri) – 1. igid (Meğri); 2. qüvvətli (Lənkəran). – *Qardaş, o day qağandı, adam-madam saymır.*

**QAĞANAX: QAĞANAX ÇALMAX** (Bərdə) – qaqqıldamaq. – *Tö:üx yumurta gətirəndə qağanax çalır.*

**QAĞAZDAMMAX** (Qarakilsə, Mingəçevir) – lovğalanmaq. – *Nə qağazdanırsaŋ, a bala, Şıxı:n oğlusan da!* (Qarakilsə).

**QAĞAZ-QAĞAZ: QAĞAZ-QAĞAZ YERİMƏK** (Mingəçevir) – forslu-forslu yerimək.

**QAĞDAN** (Bakı, Kürdəmir, Salyan) – çox qurumuş ot. – *Mığanda payız vaxdı qağdan çox olır* (Salyan).

**QAĞLA** (Xaçmaz, Xudat, Quba, Qusar) – b a x **qağala.** – *Gid qağlaya bax, gür unda su var, ya yux* (Quba).

**QAĞMƏNİ** (Salyan) – aciz, əfəl. – *Vəli qağməni adamdı.*

**QAHAL** (Zəngilan) – b a x **qaxal.** – *Heyvannarı gəti, sal qahala;* – *Yaqub inəyi qahalda bağladı.*

**QAHMADAR** (Böyük Qarakilsə) – tərəfdar.

**QAHMAR: QAHMAR ÇIXMAX** (Qazax, Salyan, Şəmkir, Tovuz) – tərəfdar çıxmaq. – *Sən kimə qahmar çıxersaŋ?* (Qazax); – *Bu dəfə də ona qahmar çıxdılar* (Tovuz).

**QAXAL** (Zəngilan) – qaramalı saxlamaq üçün çubuqdan hörülmüş yer.

**QAXAR-QUXARRIX** (Çənbərək) – qıtlıq. – *Həmişə yaz qaxar-quxarrığ olur, təzə çıxmamış.*

**QAXDAĞAN** (Başkeçid) – b a x **qartdağan.**

**QAXMA** (Biləsuvar) – odun qəlpəsi. – *Ay üşağlar, gedin o qaxmaları yığın.*

**QAXNA** (Zəngilan) – kiçik ot tayası. – *Üç-dört qaxna otum var.*

**QAX: QAX OLMAĞ** (Salyan) – təəccüblənmək, məəttəl qalmaq.

**QAJ** I (Bərdə, Borçalı, Gədəbəy, İmişli, Qazax, Mingəçevir, Şəki, Şəmkir, Şuşa, Tovuz) – kiçik arx. – *Get gör, a:z, qajdan suələrmi?* (Borçalı); – *Bizim qaj çoxdandır ki, burdan axır* (Qazax); – *O qajdan bir ledara su doldurun* (Gədəbəy); – *Bosdana qaj çəx′mişəm* (Bərdə).

**QAJ** II (Oğuz) – əkilmiş sahədə şırımlar arasında qalmış xam yer, şumlanmamış yer.

**QAJAL** (Oğuz) – yabanı bitki adı. – *Qajal nəziy olur, qırmızı olur.*

**QAJDAMA** (Kəlbəcər) – yabanı bitki adı.

**QAJDAMAX** I (Beyləqan, İmişli) – belləmək. – *Sabir sahəni qajdadı* (Beyləqan); – *Bı bağı qajda vaxdun olanda* (İmişli).

**QAJDAMAX** II (Şuşa, Zəngilan) – dilimləmək. – *A:z, yemişi qajda, ver bura* (Şuşa); – *Xiyarı qajda, yığ qaba* (Zəngilan).

**QAJƏYRİ** (Qazax) – yeyilən yabanı bitki adı.

**QAJIMAX** I (Qazax) – əyilmək. – *Öyün orta kərəni qajıyıf.*

**QAJIMAX** II (Tovuz) – höcətləşmək. – *Ə:, nə qajıyırsaŋ, gərəx′ sən deyən ola?*

**QAJIR** (Gədəbəy) – arıq. – *Qajır uşaxdı Dursunun oğlu.*

**QAJIRĞA: QAJIRĞA ELƏMƏX′** (Çənbərək, Karvansaray) – adət etmək, vərdiş etmək. – *Oruc qajırğa eliyif deyin, hər gün tezdən durur* (Karvansaray).

**QAJİR** (Oğuz) – quzğun. – *Qajir ət yi:r.*

**QAJ-QAJ** (Şuşa) – dilim-dilim. – *Yemişi, çörəi, almanı qaj-qaj kəsirix′.*

**QAJMILLAMMAX** (Gədəbəy) – höcətləşmək. – *Qajmıllanıf kimə nelə:jəx'siŋ?*

**QAJMİR** (Şəmkir) – b a x **qajır.** – *Mən qajmir adamam.*

**QAKU** (Quba) – boynu tüksüz toyuq. – *Bizim qaku cinsinnən to:ğlarımız var.*

**QAQA** I (Oğuz, Zaqatala) – qoza. – *Ağacdan düşən qaqanı donuz yidi* (Zaqatala); – *Palıdın iri-iri qaqaları olur* (Oğuz).

**QAQA** II (Zəngibasar) – b a x **qaqqa** I.

**QAQAC** (Zaqatala) – ağacdələn.

**QAQAL** (Qax) – b a x **qaqa** I.

**QAQALEY** (Zaqatala) – sacda bişirilmiş qarğıdalı çörəyi. – *Anam qaqaley bişirdi.*

**QAQQA** I (Ağcabədi, Kəlbəcər, Ucar) – hər növ şirniyyat (və ya meyvə) (uşaq leksikonunda). – *Ay qız, gə sã: qaqqa vereyim* (Kəlbəcər); – *Gə sənə qaqqa verim* (Ucar).

**QAQQA** II (Salyan) – ata. – *Əzizağa uşağlığdan atasına qaqqa de:r.*

**QAQQA-BİLLƏ** (Ucar) – b a x **qaqqa** I. – *Gə sənə qaqqa-billə verim.*

**QAQQILIMGÖZƏLPENDİR** (İmişli) – uşaq oyunu adı.

**QAQQO:** (Lənkəran) – qağayı. – *Də:zin üsdünnən qaqqo:lar uçur.*

**QAQUŞXARƏK** (Dərbənd) – quş adı. – *Qaquşxarək payiz uldi, buralarda ular.*

**QAL** (Salyan) – savaş, dava. – *Adam hər şeydən ötrü qal salmaz.*

**QALA** (Salyan) – böyük səhəng. – *Qalanı su:nan doldırıb quyya salıruğ ki, sui sərin olsın.*

**QALABA** (Salyan) – böyük. – *Sən də mə:m kimi qalaba külfət döğürsən ki, dolana bilmiyəsən.*

**QALABAŞMAĞI** (Culfa, Şahbuz) – qadın ayaqqabısı. – *Həməşə arvatdar qalabaşmağı ge:rdilər* (Şahbuz).

**QALABƏYİ** (Borçalı) – dağa köçən camaatın kənddə qalan şeylərinin gözətçisi. – *Qalabəyi cama:t yalağa köçərkən kətdə qaro:ul çəkerdi, kətdə qalerdi.*

**QALAÇA** (Füzuli) – kaha. – *Bını qovdı saldı bir qalaçıya.*

**QALAĞ** (Dərbənd, Göyçay, Xaçmaz, Quba, Qusar, Ucar) – 1. belin ağac hissəsi (Göyçay, Ucar); 2. bişirilərkən çörək çevirmək üçün taxta alət (Dərbənd, Xaçmaz, Quba, Qusar). – *Kürədə çüreg pişirəndə uni qalağnan çevirəllər* (Dərbənd).

**QALAĞAN** I (Bakı, Dərbənd, Yardımlı, Xaçmaz, Xudat) – qanqal. – *Heyvannar qalağanı yi:rdilər* (Bakı); – *O təpədə qalağan çoxdu* (Dərbənd).

**QALAĞAN** II (Balakən, Şəki) – tənbəl. – *Nə qalağan adamsan?!* (Balakən); – *Qalağan adam olmaz bizdərdə* (Şəki).

**QALAX** (Bərdə, Qax, Mingəçevir, Oğuz, Şəki) – 1. belin ağac hissəsi (Şəki). – *Belin qalağı sınıtdı;* 2. topqalaq oyununda top vurmaq üçün ağac (Qax, Oğuz).

**QALAXLAMAX** (Zəngilan) – qabı ağzınadək doldurmaq. – *Qavlamanı bığdeynan qalaxla, götü gə, qavırqa qavırax.*

**QALAKEŞ** (İmişli) – uşaq oyunu adı.

**QALAQURMA** (Quba, Şəki) – uşaq oyunu adı (qozla oynayırlar).

**QALAMMAX** (Hamamlı) – sevinmək.

**QALAŞ** (Qax) – qoyun qığı. – *Sizin sütdən qalaş çıxiy.*

**QALAŞƏK** (Salyan) – b a x **qalakeş.**

**QALA:ŞMAX** (Oğuz) – uşaq oyunu adı.

**QALAVAZDAMAX** (Tovuz) – atmaq, tullamaq. – *Götü qalavazda getsin o:ana.*

**QALAVEYLAMAX** (Qazax) – b a x **qalavazdamax.**

**QALDAL** (Qax) – sərnic. – *Qaldala süt sağırıx.*

**QALĞA** (Bərdə, Dərbənd, Göyçay, Kürdəmir, Oğuz, Şamaxı, Ucar) – b a x **qağala.** *Qalğaya bəhməz yığırıx, şor yığırıx, tutma yığırıx, sarı yağ yığırıx* (Ucar); – *Pitini qalğada bişirillər* (Şamaxı). ◊ **Qalğa qoymağ** – küpə qoymaq (soyuqdəymədə). – *So:ux də:ndə qalğa qoyarıx* (Bərdə).

**QALXANNAMAX** (Cəbrayıl) – yiyələnmək. – *Bıların hamısın qalxannamısan, bəs bizə nə qalıf?!*

**QALIB** (Ordubad) – arı səbəti. – *Arı qalıbda yaxşı bəslənir.*

**QALIN** (Cəbrayıl, Qarakilsə, Naxçıvan, İrəvan, Zəngilan, Zərdab) – sacda bişirilən çörək. – *Nənə, çörək pişirəndə mə: qalın sal* (Cəbrayıl).

**QALINÇA** (Füzuli, Tovuz) – sırıqlı.

**QALINNIX** (Ağcabədi) – sıx kolluq, qamışlıq. – *Mən o qalınnığa girəmmərəm.*

**QALIYA** (Mingəçevir) – yumurta ilə göyərtidən bişirilmiş yemək.

**QALLAC** (Salyan) – səxavətli, əliaçıq. – *Qallac adamın ruzusun Allah həmişə yetirər.*

**QALLAXBAZ** (Şərur) – hamıya lağ edən.

**QALLAX** (Zəngibasar) – badımcan.

**QALLIĞ** (Yardımlı) – səs-küy. – *Burdə qallığ yaratmaginən.* ◊ **Qallığa düşmək** – səs-küyə düşmək. – *Uşəğ qallığa düşüb, yuxusu qaçıb.*

**QALMIX** (Meğri) – sırtıq. – *Bu Xə:l kimi qalmıx gədə heş yerdə yoxdu.*

**QALOT** (Şərur, Yardımlı) – qoyun-quzunu yemləmək üçün taxtadan düzəldilmiş yer, axur.

**QALT** (Qax) – kələf. – *Bir qalt ip vər.*

**QALTAN** (Qazax, Qax, Tovuz, Zaqatala) – qurumuş palçıq. – *Sizə:ləndə qaltan ayağımı qırdı, töx'dü* (Qazax); – *Habura qaltandı, bura çəltiy əkmey olmaz* (Qax).

**QALTANQAZ** (Qazax, Ucar) – bərk yer.

**QALYANGÜLÜ** (Basarkeçər) – yabanı bitki adı. – *Qalyangülünün üsdə qanqırmızı güllər olur.*

**QAM** (Qax) – 1. daxma; 2. hin.

**QAMAC** (Qax) – köhnəlmiş şey. – *Habı qamacdarı tullasana.* ◊ **Qamaca qalmax** (Zaqatala) – sovxaya qalmax. – *Sənin paltarların qamaca qalsın.*

**QAMALTI** (Əli Bayramlı, Yardımlı) – böyük bıçaq. – *Qamaltı biz di:rig böyük pıçağa* (Əli Bayramlı).

**QAMAŞMAX** I (Cəbrayıl, Şamaxı) – ünsiyyət saxlamaq. – *Qız adamnan qamaşmır da* (Cəbrayıl); – *Heç qo:umlarunnan qamaşırsa:n?* (Şamaxı).

**QAMAŞMAX** II (Qarakilsə, Salyan) – qorxmaq. – *Koroğlu heş vax qamaşmazmış* (Qarakilsə).

**QAMBUR** (Bolnisi) – buğda növü adı.

**QAMBUT** (Dərbənd, Tabasaran) – xamut.

**QAMQAX** (Naxçıvan, Şərur) – b a x **qamqalax** II.

**QAMQALAX** I (Kürdəmir) – *məc.* əhval. – *Qamqalağım yaman qarışıb.*

**QAMQALAX** II (Basarkeçər, Cəbrayıl, Gədəbəy, Hamamlı, İmişli, Karvansaray, Kəlbəcər, Qarakilsə, Qazax, Ordubad, Şəmkir, Tovuz, Zəngilan) – odun qırıntısı. – *Qamqalağ az qaldı gözümü töx'sün* (Qazax); – *Ağacın qamqalaxlarını burya yığğınan göröm* (Gədəbəy).

**QAMQALAXLAMAĞ** (İmişli) – qəlpələmək, qamqalax (b a x II) hazırlamaq. – *Ağajı niyə qamqalaxlıyıf tökürsən bura?*

**QAMQALDAĞ** (Xaçmaz) – boş (yükləmək). – *Arabıya ləmbəni* (b a x II) *qamqaldağ yükləmişdi.*

**QAMQAMLAŞMAĞ** (Xaçmaz) – qocalmaq. – *At tamam qamqamlaşıb.*

**QAMPALAY** (Xaçmaz) – sırtıq. – *Qunşunun uğlu çux qampalay uşağdu.*

**QAMUTPAÇA** (Bakı) – əyriayaq.

**QA:N** (Qax) – yuxayayan. – *Qa:n xamırı yayan taxdadı;* – *Qa:nı ver, xamır yayım.*

**QANAB** (Zaqatala) – səbət. – *Qanabı mənə ver, qoz yığacam.*

**QANAD** (Balakən, Cəlilabad) – tərəf. – *Yolin bi qanadı kollığdi* (Cəlilabad).

**QAŋAX** (Borçalı, Gədəbəy, Qazax, Şəmkir) – qozun, fındığın yaşıl qabığı, narın qabığı, qarğıdalının büründüyü qabıq. – *Cö:üz hələ qaŋaxdan çıxmıyıf* (Borçalı); – *Nar qaŋağınnan, cö:üz qaŋağınnan ip boyuyurux* (Şəmkir); – *Qarğıdalının qaŋağını mal ye:ir, yeməli olur* (Gədəbəy).

**QAŋAXLAMAX** (Kəlbəcər) – qozu, fındığı yaşıl qabığından çıxartmaq. – *Qozu qaŋaxlı:rıx, soralıxdan qurudurux.*

**QANAR-QANAR** (Salyan) – dəfələrlə. – *Mən bı sözü ona qanar-qanar demişəm.*

**QANARA** (Salyan) – asqı; qarmaq. – *Heyvanı kəsib qanaradan asanda soymağ hasand olur.*

**QAŋARILMAX** (İmişli) – çevrilmək, dönmək. – *Bu qaŋarıldı, əyildi aşa:.*

**QANATMA** (Naxçıvan) – b a x **qaynatma.** – *Qanatma qara irəngində saqqızdı.*

**QANBAĞIR: QANBAĞIR ELƏMƏX'** (Salyan) – qorxutmaq. – *Yolnan gələndə uşağı qanbağır eliyif.*

**QANCALAĞ: QANCALAĞI QARIŞMAĞ** (Kürdəmir) – halı xarablaşmaq. – *Gülsümün qancalağı qarışıb.*

**QANCALMAX** (Ağbaba, Çənbərək, Karvansaray, Tovuz, Zəngilan) – arıqlayıb taqətdən düşmək. – *İnək qancalıb ölürdü, nənəm*

*ona baxdı, qulluğ elədi, indi maral kimin olub* (Ağbaba).

**QANCIBAĞI** (Qazax) – yəhərin qaşındakı nazik qayışlar. – *Yəhərin dalında qancıbağı olır, ona həybədən-zaddan bağlallar.*

**QANCIĞA** (Borçalı, İmişli, Kürdəmir, Qazax, Şəmkir, Tovuz) – yəhərin qaşındakı nazik qayışlar. – *Kəhər atın cığası, qırıldı qancığası* (Qazax); – *Xurcunu qancığıynan atın belinə bağla;* – *Yəhərin qancığasını kəsiflər* (Tovuz).

**QANCIXMAX** (Tovuz) – qabarmaq. – *İlanın quyruğunu basanda üsdümə elə qancıxdı ki, ətim çimildəşdi.*

**QANCIRĞA** (Gədəbəy) – b a x **qancığa.** – *Qancırğasız yə:r olmaz.*

**QANCOĞA** (Zaqatala) – b a x **qancığa.**

**QANÇAĞ** (Şərur) – talaşa.

**QANÇIR: QANÇIR OLMAX** (Mingəçevir, Şəmkir) – sətəlcəm olmaq. – *Atımız qançır oluf* (Şəmkir).

**QANÇURA** (Oğuz) – qoyunlarda olan xəstəlik adı.

**QANÇURLAMAĞ** (Dərbənd, Xaçmaz) – sətəlcəm olmaq. – *Məhəmməd kişi soyuğdan qançurliyib* (Dərbənd); – *Qiş güni suvuğda qalub qançurliyarsən!* (Xaçmaz).

**QANDA** I (Quba, Dərbənd, Xaçmaz) – qoca camış. – *Qanda dai <daha> xəyir vermiyədü, satacağam* (Dərbənd).

**QANDA** II (Balakən, Qax) – qısaboylu. – *Mən qanda Əlinin naxırının arxasıncan kəndə çatdım.*

**QANDA** III (Dəvəçi) – harada. – *Qaşların qandadır, qanda? Kipriklərin durub sanda; Mən harada, saray handa?; Dinmə, gözəl xanım, dinmə!*

**QANDAT** (Meğri) – carçı. – *Qandat gəldi ki, başã: çara qıl.*

**QANDİMƏ** (Lerik) – it dirsəyi (yara adı). – *Gözümə qandimə çıxıb.*

**QANĞUR** (Qax) – böyük öküz.

**QANIX** (Basarkeçər, İmişli, Kürdəmir, Qazax, Mingəçevir, Şəmkir, Tovuz, Ucar) – qana həris, qana susamış. – *Onların bir qanıx iti var, özüŋü yözdə ha!* (Şəmkir); – *Bu qanıx iti niyə saxleyırsaŋ qapıŋda?!* (İmişli); – *Qanıx adam hər cür pis işdər görər* (Ucar).

**QANIXMAX** (Basarkeçər, Gədəbəy, Qazax) – qana susamaq. – *Məmmədin iti qanıxıf* (Basarkeçər); – *Bu, de:llər gənə yaman qanıxıf* (Qazax); – *Ət çox yidiyinə yaman qanıxıf firmənin itdəri* (Gədəbəy).

**QAŊIRMA** (Qazax, Şəmkir, Tovuz) – ana arxdan ayrılan qol, kiçik arx. – *Qaŋırmadan qaj ayrıler* (Qazax); – *Ana arxdan ayrılanda balaja arxa qaŋırma de:ərix'* (Şəmkir).

**QAŊIRMAX** (Çənbərək, Gədəbəy, Qazax, Tovuz) – burmaq. – *Meytixan qoyunun arsalasını qaŋırdı qırdı* (Qazax); – *Qolumu qaŋırma, ağre:y* (Gədəbəy).

**QAŊIRTAXLAMAX** (Çənbərək) – burmaq. – *İsmeyil onun qolun qaŋırtaxladı.*

**QANQA** I (Dərbənd) – yuxayayan. – *Hey qiz, qanqanı gəti.*

**QANQA** II (Culfa) – kələf. – *Bir yumaxda uniki-umbeş qanq⁀o:lur.*

**QAN: QANA TÜŞMƏX'** (Qazax) – sətəlcəm olmaq. – *Qoyun qana tüşüf, gərək onnan qan alasaŋ, o heyvan qultara.*

**QANQAZ** (Dərbənd) – palçıqda gəzmək üçün xüsusi ayaq ağacı. – *Qanqazsız palçığdan gitmağa çetindi.*

**QAŊQAZ** (Gədəbəy) – otsuz (yer). – *Qaŋqaz yerdi, olarda otmu var?!*

**QANQIXDIRMAĞ** (Şamaxı) – hövsələdən çıxarmaq. – *Bu:şağ <bu uşaq> məyi qanqıxdırıb.*

**QAŊQIMAX** (Xanlar) – tərslik etmək. – *Ə:, qardaşoğlu, adam başqasını da eşidər, elə qaŋqıyıf durufsaŋ.*

**QANQIRMAX** (İrəvan) – b a x **qaŋarılmax.**

**QANQ: QANQ OLMAQ** (Salyan) – çaşıb qalmaq. – *Oqqədər işim var ki, yap qanq olmışam.*

**QANQURT** (Meğri) – əmək iqtidarı olmayan. – *Əhmədəli bir bölix' qanqurdın öfdəsinnən həmin ki galey.*

**QAŊRILMAX** (Qazax, Tovuz) – b a x **qaŋarılmax.** – *Çiyninnən qaŋrıldı baxdı* (Qazax).

**QANŞAR** (Qazax) – qapan, böyük tərəzi.

**QANTARMAX** (Şəki) – burmaq. – *Qolumu elə qantardı, az qala sınmışdı.*

**QANZA** (Zaqatala) – turş qatıq.

**QAŋZAX** (Gədəbəy) – b a x **qaŋax.** – *Camışın arası qaŋzaxdan sazdı yaman.*

**QANNIBAŞDI** (Salyan) – əmanət. – *Xalxın qannıbaşdı malına xor baxmazdar.*

**QAPAX** I (Şamaxı) – b a x **qapay.**

**QAPAX** II (Tovuz) – b a x **qapalax.**

**QAPAXLI** I (Qazax, Şəmkir) – qapaqlı qazan. – *Çovan de:r ki, bir yekə qapaxlı gəti* (Qazax); – *Qapaxlıda süd var, isdi:rsəŋ, onnan iç* (Şəmkir).

**QAPAXLI** II (Borçalı) – tüfəng növü. – *Qapaxlıynan adam da vurmağ olardı, quş da vurmağ olardı.*

**QAPALAX** (Ucar, Zəngilan) – qarğı və ya qamışdan hörülmüş qapı. – *To:lanın qapalağın qoy, tez gəl* (Ucar); – *Qapalağı bağla, qoyunnar qahaldan çıxmasın* (Zəngilan).

**QAPANA** (Zaqatala) – körpəni beşiyə bağlamaq üçün bağ.

**QAPAY** (Mingəçevir) – buynuzsuz (keçi, qoç).

**QAPBA** (Kürdəmir, Quba) – dibdən (biçmək). – *Buğdanı lap qapba biçib bu* (Quba).

**QAPBAX** (Qax) – qoltuq cibi. – *Qapbağınnan pul çıxdı.*

**QAPBA-QAPBA** (Mingəçevir) – uşaq oyunu adı.

**QAPÇAĞ** I (Cəlilabad, Göyçay, Saatlı, Sabirabad, Salyan) – b a x **qabçağ.** – *Apar ona bir qapçağ su ver* (Göyçay); – *Leyla, mənə bi qapçağ su gəti* (Cəlilabad).

**QAPÇAĞ** II (Salyan) – pambıq qozası. – *Pammığ qapçağın içindo:lur.*

**QAPÇAX** (Ucar) – iynə-sap qabı. – *İynəni qapçağa qoy, itməsin.*

**QAPI** I (Ucar, Yevlax) – həyət. – *Uşaxlar qapıda oynu:llar* (Yevlax); – *Bizim qapıda yaxşı heyva ağajdarı var* (Ucar).

**QAPI** II (Ordubad) – üstüaçıq eyvan. – *Nərgiz, qapıya palas sal oturax.*

**QAPIBASMASI** (Basarkeçər, Qazax) – gəlin aparılarkən qapını bağlayıb alınan pul. – *Yengə dedi kin, qapıbasmasını verməsəŋ, gəlini qoymuyajam aparasaŋ* (Basarkeçər); – *Qapıbasması ver, gəlini verəx'* (Qazax).

**QAPIBAŞI** (Ağcabədi) – qapının üstünə qoyulan ağac. – *Qapıbaşı barını saxlamaxdan ötəridi.*

**QAPIDALI** (Ucar) – açılmamaq üçün qapının dalına (içəridən) keçirilən ağac və ya dəmir. – *Qapıdalı çox vaxdı ağaşdan olur.*

**QAPIDAN** (Meğri) – sırtıq. – *Onun qızi bir qapıdan qızdı.*

**QAPIGƏLMƏSİ** (Mingəçevir) – gəlin aparılarkən qapını bağlayıb alınan pul.

**QAPILIX** (İmişli, Qazax, Tovuz) – keçə və ya ipdən toxunma qapı (alaçıqda). – *Qapılıx dəyənin ağzını örtməy üçündü* (Qazax); – *Alaçığda qapı olmazzı, qapılıx olardı yunnan* (İmişli).

**QAPIŞMA** (Göyçay) – deyişmə (aşıqlarda).

**QAPIŞMAĞ** (Ağsu, Göyçay, Kürdəmir, Quba, Lənkəran, Masallı, Sabirabad, Yardımlı, Salyan) – gülləşmək. – *Uşaxlar birbirinən qapışıllar* (Göyçay); – *Dur gür, ay Murad, uşağlar urda nüş qapışıllar* (Quba); – *Gör, nə qapışıllar!* (Lənkəran); – *Uşağlar qırağda qapışır* (Salyan).

**QAPIŞMAX** (Şərur) – savaşmaq. – *Uşaxlar genə qapışıllar.*

**QAPIŞMƏG** (Cəlilabad) – b a x **qapışmağ.** – *Uşağlar qapışey.*

**QAPQARAQAZAN** (Bərdə) – uşaq oyunu adı.

**QAPLA** (Meğri) – güclü. – *Qapımda qapla qatırım var.*

**QAPSAĞ** (Quba) – çubuqdan hörülmüş qapı. – *Bağın qapsağı açığdu, gid uni bağla.*

**QAPSAMAX** (Göyçay) – bağlamaq; örtmək. – *Qabın ağzını qapsa.*

**QAPUC** (Zaqatala) – bağlama, düyünçə. – *Qapucu yolda qoyup gəlmişəm.*

**QAPUT** (İrəvan) – çöl quşu adı.

**QARA** I (Bakı, İsmayıllı, Kürdəmir, Mingəçevir, Salyan, Şamaxı) – xuruş (plovda). – *Aşın qarasınnan da qoy özünçün, utanma, öz öyündü* (Bakı).

**QARA** II (Mingəçevir) – adambaşına bölünmüş torpaq sahəsi.

**QARA** III (Zəngilan) – 12 dərz (taxıl). – *İrəcəb bugün iki qara biçmişdi.*

**QARA** IV (İsmayıllı, Ucar) – mürəkkəb. – *Qaram qutarıf, pul ver, uşağ alsın* (Ucar).

**QARAB** (Balakən) – kəndin kənarında qoyunlar üçün tikilmiş daş bina. – *Getdim qaraba, çopan qoyunnarı aparmışdı çölə.*

**QARABAĞIR** (Cəbrayıl, Salyan) – qaraciyər. – *Qarabağrı doğra, sajda pişirəg* (Salyan).

**QARABATDAĞ** I (Bakı) – qaraqabaq. – *Qarabatdağ adamın üzi gülməz.*

**QARABATDAĞ** II (Şərur) – boyunbağı.

**QARABİLLƏ** (Mingəçevir) – yabanı bitki adı.

**QARABURUN** (Qazax) – ucdantutma. – *Camahatı qaraburun isyahıya alajaxlar.*

**QARACA** (Basarkeçər) – xəstəlik adı (malın dilində). – *Qaraca malın dilindo:lur, dil xəstəliyidi.*

**QARACADİL** (Basarkeçər) – xəstəlik adı (malın dilində). ◊ **Qaracadil olmax** – xəstələnmək, malın dilində olan xəstəliyə tutulmaq. – *Vəli kişinin inəyi qaracadil olmuşdu.*

**QARACALARI** (Sabirabad) – məsələn. – *Qaracaları, bu kəndi sən yaxşı tanıyırsan.*

**QARACALI** (Cəbrayıl, Salyan) – sünbülü qaralmış, qaraca xəstəliyinə tutulmuş. – *Qaracalı taxılın çörəyi yaxşı olmaz* (Cəbrayıl).

**QARACARUF** (Gədəbəy) – çaxmaq daşı.

**QARAÇI** (Bakı, Basarkeçər, Gədəbəy, Qazax) – xəsis. – *Güli yaman qaraçı adamdu* (Bakı); – *Qaraçı adammış Məsdan kişi, eləjənə quru tə:rifi varmış arada* (Gədəbəy); – *O çox qaraçı adamdı, bir adam onnan xeyir görmüyüf* (Basarkeçər).

**QARAÇIXAR** (Ucar) – aşağı keyfiyyətli barama. – *Qaraçıxarı barama məntəqəsində çox ucuz alıllar.*

**QARAÇİŞ** (Gəncə, Qazax) – b a x **qaradiş.** – *Qaraçiş beş yaşında olur erkək qoyun* (Qazax).

**QARAÇOLU** (Culfa) – kol.

**QARAÇÖF** (Cəbrayıl, Füzuli) – dincə qoyulmuş əkin yeri. – *Qaraçöf dincə qoylan yerə de:llər* (Cəbrayıl); – *Qaraçiş beş yaşında olur erkək qoyun* (Qazax).

**QARAÇÖLGƏT** (Kürdəmir) – yabanı bitki adı.

**QARAÇÖP** (Basarkeçər, Cəbrayıl, Cəlilabad, Gədəbəy, Göyçay, Xanlar, Qubadlı, Zəngilan) – dincə qoyulmuş əkin yeri. – *Löhran da de:yük, qaraçöp də de:yük biz o yerə ki, ora boş qaley, əkilmey* (Cəlilabad). ◊ **Qaraçöp qalmax** (Basarkeçər) – dincə qalmaq. – *Mənim Əyriarxın altındakı yerim bu il qaraçöp qalıb.*

**QARAÇÖRƏK** (Ordubad, Şəki) – qara xaşxaş. – *Qaraçörəyi əpbəyin üzünə vurallar* (Şəki).

**QARAÇUXA** (Ağcabədi, Bərdə, Borçalı, Kürdəmir, Cəbrayıl, Salyan, Yardımlı, Tərtər) – bəxt, tale. ◊ **Qaraçuxası yatmax** – bəxti gətirməmək. **Qaraçuxası oyanmax** – bəxti gətirmək. – *Abbasəlinin qaraçuxası oyanıf* (Tərtər); – *Adamın qaraçuxası yatanda işi düz gətirmir* (Ucar).

**QARADABAN** (Cəbrayıl, Kürdəmir) – uğursuz, xeyir gətirməyən.

**QARADAM** (Şəmkir, Tovuz) – daxma. – *Da: kətdə qaradam qalmıyıf* (Şəmkir).

**QARADAVAN** (Qazax, Mingəçevir, Şəmkir) – b a x **qaradaban.** – *Qaradavan adam uğursuz adama də:rix′* (Şəmkir).

**QARADƏNƏ** (Zəngilan) – yemişan. – *Qaradənə meşədə çoxdu.*

**QARADİRİNA** (Zəngilan) – həşərat adı. – *Qaradirina pambu:n düşmanıdı.*

**QARADİŞ** (Ağbaba, Basarkeçər, Beyləqan, Biləsuvar, Culfa, Füzuli, Kürdəmir, Qarakilsə, Ordubad, Şərur, Tərtər) – 3-dən yuxarı yaşı olan erkək qoyun. – *Qaradişin əti yağlı olur* (Tərtər); – *Erkək qısmı dördə addıyanda olur qaradiş* (Füzuli); – *Qalxozda xeyli qaradiş var* (Ağbaba); – *Bizim sürüdəki qaradiş yaman adam vurandı* (Biləsuvar).

**QARADUVAĞ: QARADUVAĞ OLMAĞ** (Bakı) – üzüqara çıxmaq (qızın bəkarəti pozulmuş olduqda).

**QARADUZ** (Kürdəmir) – çox duzlu, şor. – *Əppəği qaraduz eləmisən, yiməy olmur.*

**QARAFATMA** (Borçalı) – b a x **qarapatma.** – *Qarafatma gejə cır-cır ötör.*

**QARAGÖYNÜY** (Cəlilabad) – azacıq yanmış, ütülmüş başaq.

**QARAGÖZ** (Şərur) – reyhan. – *Mən qaragöz də səpbişəm.*

**QARAGÜNDAĞARCIĞI** (Qazax) – bədbəxt. – *Öldü atası, anası da naxoşdu, qaragündağarcığı oldu elə yazıx.*

**QARAGÜNNÜG** (Bakı) – çox pis, keyfiyyətsiz. – *Əşi, bu ki lap qaragünnügdü!*

**QARAGÜNNÜX′** (Qazax) – dar gün üçün saxlanmış hər nöy şey.

**QARAĞAYDI** (Qazax) – nigarançılıq, narahatlıq. – *Qarağaydı canımı alıf, uşaxlar gəlif çıxmadı çöldən.*

**QARAĞULUS** (Şərur) – buğda növü adı. – *Qarağulus buğda düz qalxır.*

**QARAHƏSİ** (Füzuli) – horra.

**QARAXAN** (Şəmkir) – qaramtıl. – *Qaraxan kürə qoyunu kökəldifsəŋ.*

**QARAKEÇƏ** (Ağcabədi) – köhnə keçə. – *Qarakeçə ev üsdündo:lardı.*

**QARAKƏRƏ** (Kürdəmir) – milçək növü.

**QARAKOLAVAD** (Füzuli) – kolu qırılıb yandırılmış (yer). – *Kolu qırılıb yandırılmış yerə qarakolavad yer de:ilir.*

**QARAKÜLƏX′** (Oğuz) – şərq küləyi.

**QARAQAXÇA** (Mingəçevir) – keyfiyyətsiz qoz.

**QARAQANDIR** (Cənubi Azərbaycan) – qara (adam).

**QARAQAQQA** (Zaqatala) – xarab qoz.

**QARAQAŞIX** (Kürdəmir) – dələmə. – *Qoyunun qaraqaşığı da çox yiməlidü.*

**QARAQATMA** (Mingəçevir) – mayasız xəmir.

**QARAQAYIŞ** I (Başkeçid, Borçalı, Qazax, Şəmkir, Tovuz) – kotana qoşulan üç cüt öküzün ikinci cütü. – *Qaraqayışa çantırağ öküz qoşallar* (Qazax); – *Qaraqayış yaxşı çəkir* (Şəmkir).

**QARAQAYIŞ** II (Borçalı, Yardımlı, Qazax) – dözümlü, ağır işə tabgətirən. – *Urusdam çox qaraqayış adamdı* (Borçalı); – *Qaraqayış Hasan yorulmur heç* (Qazax).

**QARAQAYIT** (Mingəçevir, Yardımlı) – tənbəllik.

**QARAQAYTAN** (Qazax) – qarabəniz və incə (qadın). – *Yaxşı qaraqaytan gəlindi Sineyvər.*

**QARAQAYTARMA** (Göyçay, Qax) – dərman bitkisi adı.

**QARAQAZAN** (Bərdə) – uşaq oyunu adı. – *Qaraqazanı gejələr oynuyullar.*

**QARAQICA** (Qax) – gəndalaş.

**QARAQINCIXMA: QARAQINCIXMO:LMAX** (Cəbrayıl, Zəngilan) – qancır olmaq, göyərmək, qaralmaq. – *Ağaca nə tə:r dəydimsə, alnım qaraqıncıxmo:ldu* (Zəngilan); – *Odun doğruyanda əlim qaraqıncıxmo:ldu* (Cəbrayıl).

**QARAQULAĞ** I (Xaçmaz, Salyan) – bayquş. – *Qaraqulağ xiyirə ulamaz* (Xaçmaz).

**QARAQULAĞ** II (Salyan) – etinasız, saygısız. – *Çox qaraqulağ adamdı, heş kimi saya salmır.*

**QARALAMAX** I (Kürdəmir, Şamaxı) – fikirləşmək. – *Mən çox qaraladım, bir şey çıxmadı* (Şamaxı).

**QARALAMAX** II (Kürdəmir, Şamaxı) – gözlərini zilləmək. – *Uşağ sə:i qarali:b* (Şamaxı).

**QARALAMAX** III (Bərdə) – qaralmaq. – *Üzüm qaralıyıf.*

**QARALAMAX** IV (Bərdə) – tikandan çəpər çəkmək. – *Məhləni qaralıyıram ki, heyvan keşməsin.*

**QARALAMAX** V (Daşkəsən, Kürdəmir, Şamaxı) – adını haqq-nahaq pisliyə çəkmək, haqqında pis fikir yaratmaq. – *Hamısı məni qaraleyif* (Daşkəsən).

**QARALAMMAX** I (Çənbərək) – b a x **qaralamax** I. – *Əryən axşamnan yaman qaralanır.*

**QARALDAN** (Kürdəmir) – samovarın odluğunun ağzına qoyulan qapaq. – *Simavərin qaraldanını qoy.*

**QARALMAX** (Tərtər) – şübhələnmək. – *Mən sənnən qaralıram.*

**QARALTI** (Şəki) – xuruş (plovda). – *Aşın qaraltısı birəz az oldu.*

**QARAM** (Qazax) – işə davamlı, dözümlü.

**QARAMA** I (Cəbrayıl, Gəncə, Kürdəmir, Qazax, Qarakilsə, Şəmkir, Zəngilan) – palçıq, lehmə. – *Yağış yağanda qarama dizə çıxer* (Qazax); – *Üsdüm qaramadı, belə heça:na gedəmmərəm* (Şəmkir).

**QARAMA** II (Zəngibasar) – əl ilə başa vurulan zərbə.

**QARAMAC** (Oğuz) – ağacdan tökülən şabalıd. – *Uşaxlar çoxlu qaramac topladılar.*

**QARAMALIX** (Gəncə, Zəngilan) – bataqlıq. – *Bu qaramalıxdan keçmək mümkün dəyil* (Zəngilan).

**QARAMANQAL** (Şahbuz) – yabanı bitki adı.

**QARAMAŞIN** (Gəncə, Salyan) – yük vaqonu. – *Biz qaramaşınnan gəldix′ şeylərin üsdündə* (Gəncə).

**QARAMAT** (Borçalı, Gədəbəy, Göyçay, Kürdəmir, Qazax, Qax, Salyan, Yardımlı, Ucar) – 1. dərd, qəm, qüssə (Qax). – *Genə*

*onun qaramatını çəkirəm*; 2. dərdli, qəmli, qüssəli (Qazax, Salyan, Ucar). – *Əli lap qaramat adammış* (Qazax); – *Qaramat adam həməşə fikirri olar* (Salyan); – *Qaramat adamın işi düz gəlməz* (Ucar). ◊ **Qaramat basmax** (Gədəbəy) – dərd, qəm basmaq. – *Elə bil yazığı qapamat basıf.*

**QARAMAZ** (Bolnisi) – südlə qatığın qarışığından hazırlanmış sərinlədici içki.

**QARAMƏT: QARAMƏT BASMAX** (Qarakilsə) – qara basmaq. – *Uşağı qaramət basıf.*

**QARAMÖJƏX′** (Şəmkir, Tovuz) – dozanqurdu. – *Qaramöjəx′ peyinin içindo:lur, onu da yumuruluyur* (Tovuz).

**QARANAL** (Kürdəmir, Şamaxı) – nalsız. – *Qaranal heyvan uzax yola minilsə, dırnağları dağılar* (Şamaxı).

**QARANAZ** (İmişli) – su quşlarından birinin adı.

**QARANQAC** (Dərbənd) – qaranquş. – *Qaranqac xilidə gələdi.*

**QARAPAÇA** (Əli Bayramlı) – içi qırmızı qovun. – *Bizim yerrərdə qarapaça çox yetişir.*

**QARAPALAN** (Ucar) – odluq (çıraqda). – *Çırağın qarapalanı xarab oldu.*

**QARAPAPAX** (Bərdə, Gədəbəy, Gəncə, Tovuz) – xəstəlik adı (heyvanlarda və toyuqlarda). – *Qarapapax to:xların pipiyini qaraldır, so:ra öldürür* (Gədəbəy); – *Bizim kəndin mallarında qarapapax yoxdu* (Gəncə).

**QARAPATMA** (Qax) – cırcırama.

**QARAPİRƏN** (Ucar) – yabanı bitki adı.

**QARAPÜSƏX′** (Qazax) – narın yağış. – *Dağda bir qarapüsəx′ var, heç alaçıxdan çıxmağ olmor.*

**QARA:RXAC** (Culfa) – qoyun yatağı.

**QARASAĞRI** (Qazax) – xəncərin qınına çəkilən dəri. – *Bu xəncərin qarasağrısı çox gözəldi.*

**QARASƏRMƏ** (Naxçıvan, Şərur) – üzüm növü adı. – *Bu il qarasərmə çoxdu* (Naxçıvan).

**QARASIÇAX** (Qazax) – b a x **qarasızax.**

**QARASIZAX** (Qazax) – xəstəlik adı (qoyunlarda). – *Qoyuna qarasızax tüşüf.*

**QARASO:** (Oğuz, Şəki, Ucar) – 1. suvarılan yer (Oğuz, Ucar). – *Qaraso: yerdə pambuğ əkilir* (Ucar); 2. əkin yeri adı (Şəki); – *Keşmişdə irəşbərdıx, qaraso:da taxıl ekərdıx;* 3. aran, düzəngah (Oğuz). – *Bayandı, Bardannıdı, Padardı, Qumlaxdı – bular qaraso:du.*

**QARASORAN** I (Tərtər) – acgöz, tamahkar. – *Ay Həşim, qarasoran olma, bəsdi yedin.*

**QARASORAN** II (Ağcabədi, Bərdə, Şuşa, Tərtər) – uzunçu, müxtəlif sualları ilə adamı bezikdirən. – *Qarasoran adamnan çox soruşar, adamı dilxor eliyər* (Ağcabədi); – *Qarasoran çox söz soruşur, adamı incidir* (Tərtər).

**QARASOY** (Qazax) – qaratorpaq. – *Buralar qarasoydu, yaxşı piter taxıl orda.*

**QARASU** (İmişli) – uşaq oyunu adı.

☐ **Qarasu enməx′** (Qazax) – yorulmaq. – *Büyün oxartan gəzmişəm kin daneyi, qarasu ənif baldırra:ma.*

**QARASUAĞ: QARASUAĞ OLMAĞ** (Salyan) – dəfn edilmək, basdırılmaq. – *Səni görüm ato:un yanında qarasuağ olasan.*

**QARASULUX** (Qazax) – suluq.

**QARASURAN** (Meğri) – b a x **qarasoran** II. – *Manım bu qarasuran adamnan zahlam gedey.*

**QARAŞAX: QARAŞAX OLMAX** (Qazax) – yağışın çox yağması nəticəsində dən tutmamaq (taxıl haqqında).

**QARATƏPBƏCƏ** (Şəmkir) – hədə, hədəqorxu. – *Maŋa qaratəpbəcəmi gəlirsəŋ, ə:?*

**QARATİSƏX′** (Qazax, Tovuz) – b a x **qarapüsəx′.** – *Qaratisəx′ gənə başdadı* (Qazax).

**QARATORAN** (Zaqatala) – sübh.

**QARATULUX** (Füzuli, Salyan, Zəngilan) – xəstəlik adı (baramaqurdunda). – *Qurtdar qaratulux olsa, qırılar* (Zəngilan); – *Gərək qurda tutdu yarpax vermiyəsən, yoxsa qaratuluğ olar* (Füzuli).

**QARAVATQAVAĞI** (Ağcabədi) – qırağı krujevalı döşəkağı. – *Mən qaravatqavağı tikirəm.*

**QARAVƏLLİDİLİ** (Salyan) – lətifə, məzhəkə. – *Qeybalı kişi qaravallidili biləndi;* – *Əsədbala yaxşı qaravəllidili danışır.*

**QARAYAĞINNIX** (Kəlbəcər) – uzun müddət yağan narın yağış. – *Qarayağınnıx başdıyanda kəsməx′ bilmir.*

**QARAYANDI** (Kürdəmir) – qarabəniz. – *Əhmədin bir qarayandı qızı var.*

**QARAYANIX** I (İrəvan) – *məc.* zəhmətkeş. – *Əyşi, sən ki qarayanıxsan, nədən qorxursan?*

**QARAYANIX** II (Şamaxı, Şəmkir) – yanıb qaralmış. – *Odun yananda qalıb qarayanıx olub* (Şamaxı).

**QARAYARPAX** (Daşkəsən) – iri damcılı yağış. – *Qarayarpax yaznan yayda yağey.*

**QARAYAVA** (Oğuz) – həşərat adı. – *Qarayavadı, gözdə, vurar uşağı.*

**QARAYAVAN** (Salyan) – şorba, duru yemək.

**QARAYAZ** (Qax) – yazın ilk ayı. – *Qarayaz havalar genə betər oluy.*

**QARAYELİN** (Basarkeçər) – xəstəlik adı (heyvanların yelinində). – *Qoyunun qarayelində yelini çürüyür, soŋra deşilif tüşür.*

**QARAYOLA** (Biləsuvar) – əbəs yerə. – *Qarayola bazara gedeydim.*

**QARAYOSINNI** (Cəlilabad) – qaratəhər, qaramtıl. – *O:n inəyi qarayosınnıydı.*

**QARAYUXU** (Kürdəmir) – baramaqurdunun beşinci yuxusu. – *Qarayuxudan so:ra barama:n zəhməti azalır.*

**QARAZIRTIX** (Zəngibasar) – eybəcər, kifir. – *O:n qızı qarazırtığın biridi.*

**QARBULAX** (Füzuli) – təzə qoyun südü ilə qarın qarışığından hazırlanan sərinlədici içki. – *Yaylağe:tdin qarbulağ işmədin, nə ləzzəti.*

**QARC** (Qax) – ədəd, baş (soğana aiddir). – *Qaşuğluğa bax, gör horda bi qarç soğan varmı?*

**QARCI** (Salyan) – saxsı parçası, qırığı. – *Yeri qazanda qarcı cıxdı.*

**QARÇAŞMAX** (Qazax) – 1. bulanmaq (ürəyə aiddir). – *Ürəyim qarçaşer;* 2. çaxnaşmaq, qarışmaq (havaya, buluda aiddir).

**QARÇALAX** (Xanlar) – quş adı. – *Qarçalax yaxşı oxuyur, quşbazdar onu qəfəsdə saxlıyır.*

**QARÇAR** (Zaqatala) – kökə.

**QARÇIN** (Ordubad) – çarpayının yanındakı divara vurmaq üçün ipək və ya iplikdən toxunmuş parça. – *Qarçını çarpayi ya:na vurallar.*

**QARDAX** (Şuşa) – qozun, fındığın yaşıl qabığı, narın qabığı; qarğıdalının büründüyü örtük. – *Qoz qardağınnan boağ qayrıllar.*

**QARDAMMAX** (Çənbərək, Gədəbəy) – çətinliklə otlamaq (otu az olan yerdə). – *Mal daŋ üzünnən axşamatan qardansa, azca kökələr* (Gədəbəy).

**QARDAŞAĞA** (Tərtər) – siğə qardaş. – *Həsən maŋa qardaşağadı.*

**QARDAŞDIX** (Basarkeçər, Qazax, Şəmkir, Tovuz) – 1. sağdış-soldış. – *Qardaşdıx biri bəyin sağında, biri solundo:turar* (Tovuz); 2. dost.

**QARELLƏ** (Cəbrayıl, Şuşa) – b a x **qareyla.** – *Qarellə nuxud yekəlix'də olur, meyxoş olur* (Şuşa).

**QAREYLA** (Gəncə, Şuşa) – yemişan. – *Uşaxlar getdilər qareyla yeməyə* (Gəncə).

**QAREYLƏ** (Ağdam, Cəbrayıl, Şəmkir, Zəngilan, Zərdab) – b a x **qareyla.** – *Həbil meşədən çoxlu qareylə yığmışdı* (Ağdam).

**QARĞABURNU** (Qazax, Tərtər, Tovuz) – cəftə. – *Qarğaburnuyu dəmirçi qayrer* (Qazax).

**QARĞABURUN** (Bakı) – kürək növü.

**QARĞAÇAYIR** (Ucar) – çayır növlərindən birinin adı. – *Qarğaçayır sucax yerrərdə pitir;* – *Qarğaçayırı gamış yaxşı ye:ir.*

**QARĞADİLİ** I (Mingəçevir) – b a x **qarqadili.**

**QARĞADİLİ** II (Borçalı) – cəftə. – *Qarğadili qapını bağlamaxçın aynado:lar.*

**QARĞADUZU** (Qazax) – b a x **qarqaduzu.**

**QARĞASABUNU** (Xanlar) – paltar yuyanda istifadə edilən yabanı bitki. – *Ay ciji, mən çoxlu qarğasabunu yeri billəm.*

**QARĞASORAN** (Kəlbəcər) – b a x **qarasoran** II. – *Sən nə qarğasoransaŋ, ə:?*

**QARĞULOŞ** (Şəki) – b a x **qarquloş.** – *Qarğuloş yazda gəlir, so:x düşəndə ge:r.*

**QARĞUŞA** (Zaqatala) – qarışqa.

**QARX** (Quba) – qozun, fındığın yaşıl qabığı; narın qabığı, qarğıdalının büründüyü örtük.

**QARXALI** (Kəlbəcər) – tələsik. – *Qarxalı olduğunö:rə oğlan qızdan xavar tutammadı.*

**QARI** (Bərdə, Borçalı, Kürdəmir, Qazax, Ucar) – b a x **qari.** – *Doxdur qan götürəndə adamın qarısın boğur* (Kürdəmir); – *Toyda iki qarı əti yedim* (Ucar).

**QARIDABANI** (Ordubad) – yeyilən yabanı bitki adı.

**QARIM** (Ağcabədi, Bərdə, Borçalı, Gədəbəy, Hamamlı, İmişli, Kürdəmir, Qazax, Salyan, Şəmkir) – 1. ocaq qalamaq üçün qazılmış yer; ocaq yeri (İmişli, Kürdəmir,

Qazax, Şəmkir). – *Tez olun, qarım qazın, qazannarı asax* (Qazax); 2. dəyənin, alaçığın içinə su dolmaması üçün onların ətrafında qazılmış kiçik arx (Ağcabədi, Borçalı, Cəbrayıl, Gəncə, Hamamlı, Kürdəmir, Qazax, Salyan). – *Qarım qoymur kun, su girsin dəyyə* (Ağcabədi); – *Qarım olmaseydı, sel alaçığa girərdi* (Gəncə); – *Sən qarım qaz, mən qamış daşıyım* (Salyan).

**QARIMAĞ** (Kürdəmir) – keyləşmək, qıc olmaq (ayaq haqqında). – *Çox oturmağdan ayağım qarıdı.*

**QARIMAX** I (Cəbrayıl) – büzüşmək. – *Qarımax büzüşüf bir yerə yığışmaxdı, nejə paltar yuando:lur.*

**QARIMAX** II (Gəncə) – ciftləşmək (itə aiddir). – *Bizim qancıx qonşunun iti:nən qarıdı.*

**QARINAÇMADAN** (Qazax) – doyunca. – *Oturuf savağatan qarınaçmadan yedi ətini erkəyin.*

**QARIN AJRITMAĞ** (Yardımlı) – bəhanə gətirmək, tənbəllik etmək. – *Nə qarın ajrıdeysən, dur işüy gör.*

**QARINDIRMAX** (Gəncə, Qazax, Şəmkir) – ciftləşdirmək.

**QARINƏNƏ: QARINƏNƏ CECİMİ** (Şərur) – qövsi-qüzeh, göy qurşağı. – *Qarınənə cecimi uzandı.*

**QARINƏNƏSİ** (Cəlilabad) – çəyirtkə növü.

**QARINXUR** (Quba) – çoxyeyən, qarınqulu. – *Mən bu:şağ kimi qarınxur uşağ görməmişəm!*

**QARIN: QARIN GƏTİRMƏMƏXʹ** (Şuşa) – gözü götürməmək. – *Kişinin qarnı gətirmədi, evi satdı getdi.*

**QARINQARIŞAN** (Qax) – anabir, ata ayrı (uşaq).

**QARIN-QARTA** (Gəncə, Xaçmaz, Salyan) – içalat. – *Qarın-qartanı çox pişirəllər* (Salyan); – *Qəssəfdə çoxlu qarın-qarta var* (Gəncə); – *Qasab qarın-qarta sata vardi* (Xaçmaz).

**QARINPA** (Cəlilabad, Lənkəran, Yardımlı) – çoxyeyən, qarınqulu. – *Mən Bayram təki qarınpa uşağ görməmişəm, indi yiyib, ginə yimək isdiyir* (Lənkəran).

**QARINPALIĞ** (Cəlilabad) – qarınquluq. – *Qarınpalığ eləmə, az ye, eyibdi!*

**QARIYAYO:ŞMAZ** (Şamaxı) – adamayovuşmaz, adamdanqaçan. – *Mırad qarıyayo:şmaz adamdı.*

**QARİ** (Şəki, Tabasaran) – 1. qolun dirsəkdən yuxarı hissəsi; 2. qoyunun qabaq ayaqlarının dizdən yuxarı hissəsi.

**QARKÖRƏMƏZİ** (Qazax) – təzə qoyun südü ilə qarın qarışığından hazırlanan sərinlədici içki.

**QARQADİLİ** (Füzuli) – arqo. – *Mən qarqadili bilmirəm.*

**QARQADUZU** (Qarakilsə) – yarımşəffaf kristal maddə. – *Qarqaduzu ağ, duza oxşar daşdı.*

**QARQAQAF** (Oğuz) – yabanı bitki adı. – *Qarqaqaf No:ruz vaxdı açılır, bənö:şə vaxdında.*

**QARQARA** I (Çənbərək, Karvansaray, Ordubad, Salyan, Şərur) – axar suyun üzərində nazik buz təqəbəsi. – *Qarqara qışda olar Kürdə* (Salyan); – *Qarqara qışda olar* (Ordubad); – *Qarqaradı, çayı keçəmmərixʹ* (Karvansaray).

**QARQARA** II (Basarkeçər) – şərbət. – *Soyux suya dört-beş yumru qənd atırsan, olur qarqara;* – *Ürəyi döyünən adama qarqara verillər.*

**QARQARA** III (Mingəçevir) – türkəçara dərmanı adı.

**QARQARA** IV (Çənbərək, Şəmkir, Tovuz) – hər ucu bir ağaca və ya divara bağlanmış məftil. – *Məfdili qarqara qayırırıx* (Tovuz); – *İti gəti, qarqarıya bağla* (Şəmkir); – *İti qarqarıya bağlıyırıx* (Çənbərək).

**QARQASUYU** (Qarakilsə) – yağışdan sonra iri daşların çökək yerlərində qalmış su.

**QARQAŞA** (Zəngilan) – səs-küy.

**QARQULOŞ** (Şəki) – qaranquş.

**QARLOV** (Dərbənd) – kotanın ağzını təmizləmək üçün ucu haçalı ağac.

**QARMAĞ** (İmişli, Lerik) – qadınların başlarına bağladıqları qızıl və ya gümüş pul (bəzək). – *Arvadın başında qarmağ var* (Lerik).

**QARMAX** (Zaqatala) – b a x **qarmağ.**

**QARMUĞ** (Quba) – tükləri buruq, qıvrım (papaq). – *Qarmuğ papağ quzi dərisinnən uladı, üzi də tükləri burma uladı.*

**QARNAX** (Cəbrayıl, Füzuli) – yaylaqda qar yığılıb qalan yer, kiçik dərə. – *Qoyun*

*deyər: Ay məni, Baş qarnağa yay məni* (Füzuli); – *Quzu qarnaxda yaxşı otdar* (Cəbrayıl).

**QARNAZ** I (Lənkəran) – müftəxor.

**QARNAZ** II (Lənkəran) – böyük-böyük danışan.

**QARNEL** (Şərur, Şuşa) – çoxyeyən, qarınqulu. – *Qarnel adamdı, daşdan yumşax nə versəŋ, ötürəjəx′ içəri* (Şuşa).

**QARNET** (Qazax) – b a x **qarnel.** – *Onu qarnel İrvahım bilər, mən bilərəm.*

**QARO:T** (Xanlar) – yabanı bitki adı.

**QARÖ:ÜNNÜX′** (Qazax, Tovuz) – b a x **qaragünnüx′.** – *Bu mə:m qarö:ünnüyümdü* (Qazax).

**QARPIMMAX** (Çənbərək, Karvansaray) – çətinliklə otlamaq. – *İnex′ naçaxlamışdı, indi az-az qarpınur* (Karvansaray).

**QARPIŞMAX** (Cəbrayıl, Kürdəmir, Tovuz) – b a x **qapışmağ.** – *Qoyma, uşaxlar qarpışır* (Kürdəmir).

**QARPIZ** (Masallı) – çıraqda neft tökülən hissə.

**QARPIZDAMMAX** (Xanlar) – lovğalanmaq. – *Nə yaman qarpızdanırsaŋ, no:luf?*

**QARPİŞMAX** (Şəki) – b a x **qapışmağ.**

**QARPPA** (Xanlar) – binada iki tirin altına qoyulan yoğun ağac. – *Kərən cansız olsa da, qarppa onun canıdı.*

**QARS** (Qarakilsə) – ciyə.

**QARSAX** I (Gədəbəy) – seyrək otlu uçurum. – *Keçi laf qarsaxda otduyor.*

**QARSAX** II (Qax) – qozun yaşıl qabığı. – *Qarsağı xinəyə qatırıx, saç gö:çək boyanır.*

**QARSAXLAMMAX** (Çənbərək) – b a x **qarsalammağ.** – *Saj çox isdi oldu deyin, əppəyin üzü qarsaxlandı, içi yaxşı pişmədi.*

**QARSALAMMAĞ** (Bakı) – içi yaxşı bişmədən (üzü) yanmaq (çörəyə aiddir). – *Bu ki yaxşı pişmiyib, qarsalanıb.*

**QARSAMMA** (Qazax) – fəlakət.

**QARSMAX** I (Qarakilsə, Mingəçevir, Şərur, Şuşa) – 1. gödəltmək (Şuşa). – *Götü çuxanın qolunu bir az qars;* 2. daraltmaq (Qarakilsə). – *Gərəx′ qarsasan, qarsmasan, gen olajax.*

**QARSMAX** II (Kürdəmir) – sıxışdırmaq. – *Anam məni bir az qarsdı.*

**QARSMAX** III (Şərur, Zəngilan) – ütmək. – *Yalav üz-gözümü qarsdı* (Zəngilan).

**QARSOV** (Qax, Zaqatala) – dəlisov.

**QARŞUX: QARŞUX QURMAX** (Qax) – haşiyə düzəltmək. – *Xanıya qarşux qurmuşam.*

**QART** I (Göyçay, Qazax, Qax, Mingəçevir, Ordubad, Salyan) – lovğa. – *Əli yaman qart adamdı* (Ordubad). ◊ **Qart danışmax** (Salyan) – lovğa-lovğa danışmaq. – *Adə, sən nə qart danışırsan?*

**QART** II (Dərbənd, Xaçmaz, Quba) – bülöv. – *Qarti heybəyə sal* (Dərbənd).

**QART** III (Bakı) – bərk, sərt. – *Burda qart daş çoxdu.*

**QART** IV (Qazax, Salyan, Şəki, Yardımlı) – çoxbilmiş. – *Yaman qart uşaxdı o* (Qazax).

**QARTA** (Salyan) – mədənin iç hissəsi. – *Qarta təmizdəmməsə, qarın-qartanı yiməg olmaz.*

**QARTANQAZ** (İmişli) – qaba parça növü. – *Geymişəm qartanqazı, Mimmişəm fərəməzi.*

**QARTDAĞAN** (Borçalı) – yad. – *Ə:, sən qartdağan a: döysən.*

**QARTDAMAX** (Kürdəmir, Şəmkir, Tovuz) – qazımaq, qaşımaq. – *Yağın qazan divi qartdıyıfsaŋ, o:nçun toyunda yağış yağdı* (Şəmkir).

**QARTDAMMAX** (Başkeçid, Borçalı, Cəbrayıl, Hamamlı, Mingəçevir, Zəngilan) – qaşınmaq. – *Qotur tüşüf nədi, nə çox qartdanersaŋ?* (Başkeçid); – *Adama qotur tüşəndə adam qartdanar* (Borçalı).

**QARTI** I (Kürdəmir) – b a x **qart** II. – *O qartını bəri gət, dəryazı itileyəcəm.*

**QARTI** II (Borçalı, Qazax, Şəmkir, Tovuz) – yapıncı. – *Qartıyı çiyinnərinə çovannar saler* (Tovuz); – *Qartı yaxşı şeydi, so:xdan, yağışdan adamı saxlıyır* (Şəmkir).

**QARTIMIŞ** (Yardımlı) – ərə getməmiş, evdə qalıb qarımış. – *Qartımış qızi kim alar?*

**QARTİ: QARTİYƏ DÖNMƏK** (Zaqatala) – əsgiyə dönmək. – *Honun partalı qartiyə dönüpdü.*

**QARTQART** (Tovuz) – mədənin iç hissəsi. – *Heyvanın qarnında qartqart var.*

**QART-QART: QART-QART DANIŞMAĞ** (Lənkəran, Yardımlı, Salyan, Şamaxı, Şəki) – böyük-böyük, lovğa-lovğa danışmaq. – *Nə*

*qart-qart danışırsan?* (Lənkəran); – *Qəfər çox qart-qart danışır* (Salyan); – *O:un qaydasıdı, otıra, qart-qart danışa, amma əlinnən bir iş gəlməz* (Şamaxı); – *Qart-qart danışma, otur yerində* (Şəki).

**QARTZAX** (Zaqatala) – yetişməmiş qoz.

**QARUNAĞAC** (Dərbənd) – b a x **qaranqac.**

**QARUNPA** (Lənkəran) – b a x **qarınpa.** – *Nə qarunpa uşağdu bu?*

**QARÜ:NNÜX′** (Qazax) – dincə qoyulmuş torpaq.

**QASAĞ** (Bakı, Qusar, Salyan) – çənbər. – *Qasağ araba təkərində olur* (Salyan).

**QASAX** (Gəncə, Qazax, Şəmkir, Tovuz) – b a x **qasağ.** – *Arabanın qasağın təzələdim* (Gəncə); – *Bular yaman mö:kəm qasaxlardı* (Şəmkir).

**QASAXLAMAX** (Gəncə) – araba təkərinə qasağ vurmaq. – *Gör təkəri usda qasaxlıyıpbı?*

**QASDIRMAX** (Şəmkir) – gödəltmək. – *Çuxanın ətəyini qasdırıv, indijə saŋa verəjəm.*

**QASƏ** (Dərbənd) – təkə. – *Salmiyin bağə qasəni, bağı kurriyədü.*

**QASI** (Kəlbəcər) – balıq növü adı. – *Ay İmran, get bir-iki qası tut.*

**QAS: QAS SALMAX** (Qax) – kəsmək (parçanı).

**QASLƏŞDİRMAX** (Zaqatala) – hər hansı bir sahəni otlağa çevirmək. – *Da:vud öz əkin yerini qasləşdirmax isdiyir;* – *Qalxoz bu yeri qasləşdirəcək.*

**QASMAX** (Qazax) – qırçın (qadın paltarında).

**QASNAX** I (Naxçıvan, Şərur) – sağanaq.

**QASNAX** II (Borçalı) – b a x **qasmax.** – *Qasnax arvat paltarındo:lar yaraşıxçın.*

**QASNAXLAMAX** (Gəncə) – tələsik tikmək. – *Bu köynəyin cırığını qasnaxla, maŋa ver.*

**QASNI** (Şəki) – otlardan hazırlanmış dərman adı. – *Qasnı ələfiyət dermanıdı.*

**QASRI** (Zaqatala) – ağacdan hazırlanmış bəzəkli qutu. – *Keçmişdə corab sapları qoyardılar qasriyə.*

**QAŞ** I (Basarkeçər, Daşkəsən, Gədəbəy, Hamamlı, Qarakilsə, Qazax) – 1. dağın, təpənin hündür yeri (Basarkeçər, Daşkəsən, Hamamlı). – *Təpənin hündür yerinə deyrix′ qaş* (Daşkəsən); – *Sürünü qaşdan endir* (Basarkeçər); – *Çayın qaşında duruf gözde:r səni* (Hamamlı); 2. yəhərin dalında və qabağında olan dik, çıxıq (Qarakilsə).

**QAŞ** II (Zərdab) – evin çardağında maili düzülmüş ağaclar (şifer, kirəmit və s. vurmaq üçün). – *Ay arvad, deyirəm ki, sabahdan usdanı gətirim, bu qaşları yonub düzəltsin.*

**QAŞAR** (Naxçıvan) – qoyun saxlanılan yer.

**QAŞBƏND** (Naxçıvan) – çütqabağı, alınlıq. – *Qaşbəndi annımıza bağlıyırdıx.*

**QAŞEYVƏ** (Zaqatala) – yəhərin qaşına keçirilən ikigözlü ipək heybə.

**QAŞXƏNGƏLİ** (Goranboy) – b a x **qaşıxəngəli.**

**QAŞIĞAŞI** (Zəngibasar) – sulu xörək.

**QAŞIĞLIĞ** (Salyan) – qaşıq torbası.

**QAŞIXƏNGƏLİ** (Basarkeçər) – sulu xingal. – *Xəngəli süzüllər, əmə qaşıxəngəlini süzmüllər, sulu yi:llər.*

**QAŞIXLIX** (Basarkeçər, Bərdə, Hamamlı, Qazax) – b a x **qaşığlığ.** – *Qaşıxlıx nəmidə saxlanır* (Bərdə); – *Qaşıxlıx ipdən örülür* (Qazax); – *Qaşıxları yu, apar yığ qaşıxlığa* (Basarkeçər); – *Ə, get qaşıxlıxdan üş qaşıx gəti* (Hamamlı).

**QAŞIXSALAN** (Dərbənd) – qaşıq qoyulan torba, qab. – *Qaşıxlar qaşıxsalandadu.*

**QAŞQA** I (Balakən, Basarkeçər, Borçalı, Hamamlı, Xaçmaz, Qazax, Mingəçevir, Şəmkir, Şəki, Tovuz, Zaqatala) – alın. – *Qaşqağa nə yazılıptısa, honu görcaxsan* (Zaqatala); – *Qaşqamnan yara çıxıf* (Borçalı); – *Güllə canavarın qaşqasınnan dəymişdi* (Balakən); – *Daşnan vuruf, qaşqasını yarale:f gədənin* (Hamamlı); – *Güllə yazuğun qaşqasinə dəgdi* (Xaçmaz).

**QAŞQA** II (Başkeçid, Borçalı, Qazax, Laçın, Şəmkir) – sırtıq. – *Bəsdi, qaşğa uşağ olma* (Borçalı); – *Ə:, nə qaşqasan, sözə də baxmersan heç* (Qazax); – *Bu nə qaşqa uşaxdı, heç adamın sözünə baxmer* (Şəmkir); – *Adam qaşqa olmaz, böyüyün sözünə baxar* (Laçın).

**QAŞQAL** I (Cəbrayıl) – b a x **qaşqa** I.

**QAŞQAL** II (Ucar) – kiçik arx.

**QAŞQAL** III (Cəbrayıl) – müxtəlif şeylər qoymaq üçün evin yanında düzəldilmiş yardımçı yerin arxa və ya ön hissəsi.

**QAŞQALA** (Qax) – itburnu. – *Qaşqala yetişib çoxdan.*

**QAŞQALAMAX** (Şəki) – başdansovdu etmək. – *İş görəndə əməlli-başlı gör, qaşqalama.*

**QAŞQALAŞMAX** (Çənbərək) – dalaşmaq. – *Dəvəçi İxdiyarnan yaman qaşqalaşdı.*

**QAŞQALAVAN** (Ucar) – cuvar. – *Qaşqalavan suyu çəltik zəmilərinə düz bölür.*

**QAŞQATO:Ğ** (İmişli) – qaşqaldaq. – *Çoxlı qaşqato:ğ var çalada; – Qaşqato:ğun vırmağı ördəgdən hasaddı.*

**QAŞMAX** (Şəki) – sönmək. – *Ocaq qaşdı, işıq qaşdı.*

**QAŞUĞLUĞ** (Qax) – b a x **qaşığlığ.**

**QAT** I (Qax) – dəst. – *Adamın bi qat paltarı olar, honun da qədrini bilər.*

**QAT** II (Ordubad, Salyan) – tərəf. – *Qızım o qatda yaşıyır* (Ordubad).

**QAT** III (Qax) – evin sütunu üstünə kiplik üçün qoyulan balaca taxta.

**QA:T** (Qax) – yumurta qabığı. – *Qa:tdarı yığın, fal eliyək.*

**QATA** (Qax) – azı dişi. – *Sən qatani çəhdirəndə çox əcişdimi?*

**QATANQAZ** (Əli Bayramlı, Kürdəmir) – b a x **qartanqaz.** – *Bı parça yap qatanqazdı* (Kürdəmir).

**QATARDÜZƏXʹ** (Şuşa) – uşaq oyunu adı. – *Qatardüzəxʹdə qoz olur, ya da fındığ olur, yumurto:lur.*

**QATAVCIMAX** (Cəbrayıl) – ağrıdan qıvrılmaq, haldan-hala düşmək. – *Niyə qatavcıyırsaŋ, haran ağrıyır?*

**QATDA** (Borçalı) – yağda bişirələrək üzərinə şəkər tozu səpilmiş qoğal. – *Qatda yağda pişiriler.*

**QATDALAX** (Borçalı, Qazax) – dalaq xəstəliyi (şişmə). – *Uşaxda görörsən kin, qatdalağ olor* (Qazax).

**QATDAMA** (Borçalı, Gədəbəy, Qazax, Naxçıvan, Şəmkir, Tovuz) – yağda bişirilərək üzərinə şəkər tozu səpilmiş qoğal. – *Qatdama yağnan qo:rulufdu tuada* (Qazax); – *Anam qatdama yollamışdı* (Şəmkir).

**QATIĞ** (Lənkəran) – düyü xörəyinin xuruşu.

**QATIĞAŞI** (Basarkeçər, Naxçıvan) – dovğa. – *Ayrannan pişirəndə əvəl ayranı qızdırıf buluya-buluya dənin tökürsəŋ, əmə qatığaşında əvəl dəni pişirif-düşürürsəŋ, sonra qatığı tökürsəŋ* (Basarkeçər).

**QATIX** (Ordubad) – uzun müddət saxlanmaq üçün qovrulmuş ət (qovurma). – *Ağız, xörəyin qatığın sal.*

**QATIRRAMAX** (Çənbərək, Meğri) – tez-tez getmək, hərəkət etmək. – *Bir ildi Basarkeçərə qatırrıyıram* (Çənbərək); – *Dəyirman qatırre:r, dən qutarer, so:ra daş daşı sındırer* (Meğri).

**QAT-QAR: QAT-QAR ELƏMƏXʹ** (Cəbrayıl, Daşkəsən, Zəngilan) – qatışdırmaq. – *Ağ unnan qara unu qat-qar eliyəndə yaxşı çörəyi çıxır* (Zəngilan).

**QATQAT** (Cəbrayıl, Kürdəmir, Qarakilsə, Şəmkir, Tovuz) – gövşəyən heyvanın qarnı ilə qursağı arasındakı həzm orqanı. – *Qatqat malın qarnındo:lur* (Kürdəmir); – *Heyvanın qarnında qat-qat olur, qara bağır olur, əfgədi, nəvlim, o qədərdi ki* (Tovuz); – *Qatqat yeməli şeydi* (Şəmkir).

**QATLAX** (Qax) – qatışıq. – *Bizim dil hələdi, qatlaxdı.*

**QATMA** (Cəbrayıl, Salyan, Yardımlı) – nazik ip. – *Qatmeynan hər şey bağlıyıllar* (Cəbrayıl). ◊ **Qatma bağlamağ** (Salyan) – ələ salmaq, lağa qoymaq. – *Utammırsan, dədön yaşında kişiyə qatma bağlıyırsan?*

**QATMAX** (Tərtər) – yoğurmaq. – *Xamır qatırıx, xamralı pişiririxʹ.*

**QATMAŞÜYƏR** (Çənbərək) – qarışıq. – *Qoyunnan quzu qatmaşüyərdi.*

**QATO:CUMAX** (Ucar) – müəyyən məqsədlə müvəqqəti gediş-gəliş etmək, əlaqə saxlamaq. – *Qız öyünnən cavab almaq üçün bir həfdədi ora qato:ucuyuram.*

**QATUĞARDI** (Dərbənd) – qaymağı yığılmış qatıq.

**QAV** I (Qax) – otlardan hazırlanmış revmatizm dərmanı. ◊ **Qav salmax** – dərman sürtmək. – *Qav yaxşı dərmandı; – Honun qiçlərində yel var, qav salsa, qedəcax.*

**QAV** II (Qax) – içi ovulmuş ağac.

**QAVAĞALA** (Başkeçid) – qabaqca, əvvəlcə. – *Qavağala Kamıl gəldi, sonra Əx'bər gəlif çıxdı.*

**QAVAĞALTI** (Borçalı) – gicgah.

**QAVAX** I (Borçalı, Tovuz) – b a x **qabağ.**

**QAVAX** II (Gəncə, Qazax) – buynuzsuz (keçi, qoç). – *Qavax qoç kök olar* (Qazax); – *Qavax keçi mənimdi* (Gəncə).

**QAVAXCIL** (Qazax) – sürünü öz ardınca aparan, çəkən heyvan. – *Bənöyüş inəx' qavaxcıldı, malın qavağınde:dir həməşə.*

**QAVALAX** (Gədəbəy, Qazax, Şəmkir) – b a x **qabalax.** – *Qavalağı mal-qara ye:ir* (Gədəbəy).

**QAVAR** (Balakən, Şəki) – b a x **qabar.** – *İpəx'çilər qavardan tərəcə düzəltdilər* (Balakən); – *Qavardan nəhrə düdüyü qəyrillər, sümsü qəyrillər;* – *Üş tərəcəlix' qavar gətirmişəm* (Şəki).

**QAVARA** I (Bakı, Bərdə, Şamaxı) – bədən, boy-buxun, görkəm. – *Munun qavarasına baxma, bir batman əncağ gələr* (Bakı).

**QAVARA** II (Culfa, Şərur, Kürdəmir, Ordubad) – bülöv (dəhrə, balta və s. itiləmək üçün daş). – *Qavareynan balta da itildirıx, dəhrə də itildirıx* (Ordubad).

**QAVARAXLAMAX** (Zəngilan) – qovmaq. – *Uşaxları it qavaraxladı.*

**QAVARALI: QAVARALI OLMAĞ** (Bakı) – iri bədənli, gövdəli olmaq. – *Ursiyet atı qavaralı olar.*

**QAVASAX** (Füzuli) – qaysaq.

**QAVASAXLAMAX** (Füzuli) – qaysaqlamaq (yerə aiddir).

**QAVAŞA** (Zaqatala) – saxsı qab. – *Tamatı qavaşaya doldur.*

**QAVAZAX** (Meğri) – yüngül (yük). – *Qavazax yüx'dü, ağır dəyi bu yüx'.*

**QAVAZAXLAMMAX** (Yevlax) – qabarmaq, köpmək, şişmək. – *Xamır ajıyanda qavazaxlanır.*

☐ **Qavazax olmax** (Yevlax) – qabarıb qalxmaq. – *Yarpax dolmasının üsdünə boşqaf qoymasan, qavazağ olar pişəndə.*

**QAVIRDAX** (Şəmkir) – qabıq (qozda, fındıqda). – *Qozun iki qavırdağı olur – biri göy, biri də öz qavırdağı.*

**QAVIRĞA** (Şəki) – b a x **qabırğa** (2-ci məna). – *Öyün üsdünə iki yüz qavırğa lazımdı.*

**QAVIRĞƏLİN** (Kəlbəcər) – enlikürək. – *Qavırğəlindi qərdəşim oğlu.*

**QAVIRQURDU** (Borçalı) – həşərat adı.

**QAVIRTMAC** (Cənubi Azərbaycan) – içinə çörək doğranmış süd. – *Çobannar çoxlı qavırtmac yeyillər.*

**QAVIZ** (Cəbrayıl, Zəngilan) – qabıq (dənli bitkilərdə). – *Bı düyü:n içi təmiz qavızdı* (Zəngilan).

**QAVIZDAMAX** (Cəbrayıl, Zəngilan) – qabıqdan çıxarmaq (arpanı, buğdanı, çəltiyi və s.). – *Siçan əvdəki buğdanı tamam qavızdıyıf* (Cəbrayıl).

**QAVQARIX** (Gəncə) – qablaşdırılmış şeylər. – *Qavqarıxdan gətirin, haravıya yığax.*

**QAVQARMAX** I (Ağcabədi) – tökmək. – *Qazandakı suyu vedrəyə qavqar.*

**QAVQARMAX** II (Borçalı, Cəbrayıl, Çənbərək, Gədəbəy, Karvansaray, Qarakilsə, Şəki, Şəmkir) – b a x **qabğarmax.** – *Tez olun, barxaneyi qavqarın!* (Borçalı); – *Mırtdeyi qavqarıfsanmı?* (Gədəbəy); – *Gəldim qəpidən baxdım ki, əlinə nə keçir qavqarır çuvallara* (Qarakilsə); – *Şeyləri qavqarın, səhərisi yola tüşəx'* (Cəbrayıl).

**QAVQULU** (Qax) – yabanı bitki adı.

**QAVLAMAX** I (Şəki) – üz çəkmək (yorğan-döşəyə). – *Yorğannarımızı təzə qavlamişəm.*

**QAVLAMAX** II (Cəbrayıl) – b a x **qabğarmax.** – *Hər şeyi öz yerinə qavlamışam.*

**QAVLI** (Cəbrayıl) – b a x **qablı.** – *Axşama yaxşı qavlı pişirmişix'.*

**QAVLIX** (Qarakilsə) – b a x **qablıx** (2-ci məna).

**QAVLUX** (Zaqatala) – b a x **qablıx** (2-ci məna). – *Şatdu <qadın adı> əlində qavlux tikirdi.*

**QAVSARA** (Zəngibasar) – ağac qabığından və ya çubuqdan toxunmuş səbət. – *Dünən meşədə beş qavsara qayırdım.*

**QAVSIMAX** (Cəbrayıl) – əziyyət çəkmək (acından). – *Ajınnan qavsıyıllar, özü də fason ve:r.*

**QAVSINDIRAN** (Ağdaş) – b a x **qabsındıran.** – *Bajım mə: bir dəssə qavsındıran yığıf gətirdi.*

**QAVUZ** (Şərur) – b a x **qavız.**

**QAVZAMAX** (Naxçıvan, Şahbuz, Şərur) – qaldırmaq. – *Niyar başın qavzadı* (Şahbuz).

**QAY** (Zaqatala) – əyri (burun). – *Honun burni qaydı.*

**QAYA** (Ucar) – daş, kəsək. – *Sərçəyə bir qaya atdım, dəymədi.*

**QAYABALIĞI** (Ağdaş) – balıq növü adı. – *Dədəmin torunda altı qayabalığı çıxdı.*

**QAYAÇÖPÜ** (Xanlar) – yabanı bitki adı. – *Qayaçöpünün çayı yaxşıdı.*

**QAYAQARPAN** (Şuşa) – kələz. – *Qayaqarpan qayaların üsdündə çox olur, üsdü də xal-xal olur.*

**QAYALAMAX** (Zaqatala) – daşlamaq, daşa basmaq. – *Uşaxlar ilanı qayaladılar.*

**QAYAPOTASI** (Kürdəmir) – balıq növü adı. – *Qəşərrər qayapotası da tutardux, əti heş yeməli dö:ül.*

**QAYBURUN** (Zaqatala) – əyriburun. – *Qayburun Sa:biri taniyirsənmi?*

**QAYÇI** (Şəki) – evin çardağında bir-birinə çarpaz bərkidilmiş haça ağaclar. – *Öyün qayçısı sınmışdı, havı yaxında təzələmişıx.*

**QAYÇIKƏSDİ** (Gədəbəy) – nişanlı qıza ərəgetmə ərəfəsində yaxın adamları tərəfindən verilən pul və ya hər hansı hədiyyə. – *Başbəzəyinən qayçıkəsdi birədi oley.*

**QAYDA** (Basarkeçər) – araba oxunu ban ilə birləşdirən hissə. – *Usda, haravanın qaydası qırılıfdı, maŋa bir qayda qayır.*

**QAYIX** (Hamamlı) – məfrəşin ağzına vurulan naxış.

**QAYIS** (Bərdə) – b a x **qayız.** – *Bir qayıs çuvalın beşdən biridi.*

**QAYIŞAGİRMƏ** (Şərur) – oyun adı.

**QAYIŞGÖTDİ** (Yardımlı) – b a x **qayişgötürdü.**

**QAYIŞGÖTÜRDÜ** (Salyan) – oyun adı.

**QAYIT: QAYIT ÇƏKMƏY** (Cəlilabad) – fikir eləmək; dərd, qəm çəkmək. – *Ata, nöş narahat oleysan? Mənim kimi oğli olan dünyadə qayıt çəkə:r?*

**QAYIZ** (Bərdə, Mingəçevir, Oğuz, Şəki) – ölçü vahidi. – *Deyirdim mã: iki qayız buğda ver* (Oğuz).

**QAYLATDAX** (Tovuz) – inam. – *Sənin maŋa qaylatdığın yoxdu:?*

**QAYMA** (Cəlilabad) – qaya. – *Qayma üçib.*

**QAYMAQGÜLÜ** (Ordubad) – çiçək adı.

**QAYMAQQATAR** (Xanlar) – çiçək adı (sarı rəngli olur). – *Qaymaqqatarı yara üsdə qoyallar.*

**QAYMƏ** (Yardımlı) – dirək; sütun. – *İpi qaymiyə bağleydı.*

**QAYNAX** I (Qax) – bulaq, çeşmə.

**QAYNAX** II (Qax, Zaqatala) – bıçaqitiləyən daş.

**QAYNAXLI** (Cəbrayıl) – tez mənimsəyən. – *Güllü qaynaxlı arvatdı.*

**QAYNALI** (Ağdaş) – bərk torpaqlı. – *Bu yer çox qaynalıdı.*

**QAYNAMA** I (Kürdəmir) – mığmığa.

**QAYNAMA** II (Zəngibasar) – bulaq. – *Bizim yerrərdə qaynama çoxdu.*

**QAYNAR** (Borçalı, Qazax, Tovuz) – paltar yumaq üçün qızdırılmış su. ◊ **Qaynar asmax // qoymax** (Qazax) – paltar yumaq üçün su qızdırmaq. – *Bajım qaynar asmağe:dif.*

**QAYNARRAMAX** (Qax, Şərur, Yardımlı) – paltarı və ya qab-qacağı qaynar su ilə yumaq.

**QAYNAŞDIX** (Füzuli) – qumlu təpə. – *Biz qaynaşdığa getmişdix*ʹ.

**QAYNAŞMA** (Qazax) – ağızda əmələ gələn səpki (xəstəlik).

**QAYNATMA** (Naxçıvan) – saqqız.

**QAYPIMMAĞ** (İmişli, Yardımlı) – utanmaq. – *Mənnən heç qaypımmadı; – A:z, adam gərək bi yad görəndə qaypına* (İmişli).

**QAYIRMO:L** (Cəbrayıl, Zəngilan) – dəmir yol. – *İnək qayırmo:lun üsdə dayandı* (Zəngilan).

**QAYSAFA** (Qazax) – b a x **qaysava.** – *Ərixʹdən qaysafa pişirellər.*

**QAYSAR: QAYSAR OLMAX** (Beyləqan, Qazax) – tərləyəndən sonra soyuq dəymək. – *Sizin atınız qaysar olmuşdu* (Beyləqan).

**QAYSARRAMAX** (Zərdab) – tərləyəndən sonra soyuq dəymək.

**QAYSAVA** (Ağcabədi, Bərdə, Biləsuvar, Cəbrayıl, Füzuli, Qazax, Naxçıvan, Sabirabad, Salyan) – xörək adı (yağda bişirilmiş qaysı və ya kişmiş). – *Mən qaysavanı çox issiyirəm* (Salyan).

**QAYSƏFƏ** (Laçın) – b a x **qaysava.**

**QAYSƏR: QAYSƏR OLMAĞ** (Salyan) – b a x **qaysar olmax.** – *Adə, tərüvi qurıt, yoxsa qaysər olarsan.*

**QAYSI** (Bakı) – ərik. ◊ **Qaysı ərik** (Ağcabədi, Bərdə, Tərtər) – şirintumlu ərik. – *Qaysı ərik saxlamağa yaxşıdı* (Bərdə). **Qaysı mişmişi** (Dərbənd) – ərik növü adı. – *Qaysı mişmişinü tumu yiyilədi.*

**QAYTARAN** (Kəlbəcər) – yabanı bitki adı. – *Qaytaranı heyvan yaxşı ye:r.*

**QAYTARMA: QAYTARMA DAVASI** (Salyan) – dərman adı. – *Dügini, mərcini, loblanı, bığdanı əzərüg həvəgdə, doşabda qaynadaruğ, boğazgəlmə, qara yaranı bu qaytarır, mına qaytarma davası diyəllər.*

**QAZA** (Dərbənd) – külüng. – *Büz una qaza diyədig.*

**QAZALAĞ** (Bakı) – təkatlı, ikiçarxlı minik arabası. – *Mənimçün qazalağ gəlməsə, ayağımı ayağımın üstünnən tərpədən dögürəm.*

**QAZANQAPAN** (Salyan) – tutqac. – *Qazanqapan isdi qazanı ocağdan götürməkçündü.*

**QAZANQARASI** (Cəbrayıl) – yabanı bitki adı.

**QAZANQARPAN** (Bərdə) – b a x **qazanqapan.** – *İsdidi, qazanı qazanqarpannan yerə qoy.*

**QAZANQULPU** (Basarkeçər) – yeyilən yabanı bitki adı.

**QAZANŞAMBA** (Zaqatala) – şamama növü adı.

**QAZARAXLAMAX** (Cəbrayıl) – qovmaq.

**QAZAYLAMMAX** (Balakən, Qax, Zaqatala) – gileylənmək.

**QAZDANMƏG** (Yardımlı) – lovğalanmaq, özünü üstün tutmaq. – *Nə qazdaneysən, yanındəkiləri nə sayeysən.*

**QAZI** (Biləsuvar, Kürdəmir, Meğri) – b a x **qadı.** – *Yaman qazı adamdı bizim bu Qasım* (Meğri); – *Əhməd çox qazı adamdı, heş kimi bəyəmmir* (Biləsuvar).

**QAZIĞ** (Dərbənd) – yerə basdırılan dirək və ya paya. – *Qazığ bərk ağacdan taxılıtdı.*

**QAZIX** I (Qax, Qəbələ, Şəki) – b a x **qazığ.** – *Qazığın başını haçə eliyrıx, bağ sürünçüf çıxmasın;* – *Dananı hələ ki qazığa bağla, so:ra mən yerinə bağlaram* (Şəki); – *Qazığı bərk basdır ki, taya mö:kəm olsun* (Qəbələ).

**QAZIX** II (Basarkeçər, Çənbərək, Hamamlı) – arabanın laydırını saxlamaq üçün qollara üfüqi birləşdirilmiş taxta. – *Xorumu qazığa sanc, harava möhkəm olsun* (Hamamlı).

**QAZI-QAZI: QAZI-QAZI DANIŞMAĞ** (Biləsuvar) – b a x **qadı-qadı.** – *Çox qazı-qazı danışır.*

**QAZIQURDALI** (Ağdam) – lovğa-lovğa, böyük-böyük. – *Nə qazıqurdalı buyurursaŋ?*

**QAZILAMMAX** (Şəki) – lovğalanmaq. – *Ama o yaman qazılanırdı.*

**QAZQAL: QAZQAL BEL** (Quba) – böyük bel. – *Qazqal belnən turpağı çü:rədülər.*

**QAZQAZ** (Bakı) – ipək parça adı.

**QAZQIRT** (Salyan) – bel; kürək. – *Qazqırtnan kotanın ağzın təmizdi:llər.*

**QAZQURT** (Cəlilabad) – b a x **qazqırt.** – *Qazqurti gəti, bıranı qazəy.*

**QAZMA** (Qazax, Ordubad, Şərur) – külüng. – *Ə, o qazmeyi ordan mã: ver* (Qazax).

**QAZNAX** (Xanlar, Qazax) – yarğan. – *Qaznax dağlarda çox olor* (Qazax); – *Mən gələndə sizin mallar qaznağın yanında otduyurdu* (Xanlar).

**QAZO:C** (Cəlilabad) – bel; kürək. – *Qazo:cnan yer qazeylər.*

**QAZOVUC** (Biləsuvar) – ərsin.

**QAZU** (Dərbənd) – b a x **qaza.**

**QAZUX** (Qax) – b a x **qazığ.** – *O ağaca biz qazux de:rik;* – *Tərrikləri qazuxa keçir, süvi soğulsun;* – *Paltarı qazuxdan asdım.*

**QAZUL** (Zaqatala) – arıq.

**QELQİNTİ** (Qax) – gəlmə adam.

**QEYÇİKESMƏZ** (Bakı) – parça adı.

**QEYİN** (Dərbənd, Tabasaran) – çətin. – *Yaman qeyin işə düşdig* (Dərbənd). ◊ **Qeyin gəlməg** (Dərbənd, Tabasaran) – çətin gəlmək. – *Bu iş bizə qeyin gələdi* (Dərbənd).

**QEYİNLUĞ** (Dərbənd, Tabasaran) – çətinlik. – *Mənüm zamanumda qeyinluğlar uldi* (Dərbənd).

**QEYMƏ** (Ordubad) – tunel. – *Qeymənin altınnan adam gedən yer var.*

**QEYMƏZ** (Quba) – xəsis. – *Qeyməz adamın malın üzgəsi yiyər.*

**QEYNAĞLAMAĞ** (Bakı) – caynaqlamaq. – *Çalağan gögərçini qeynağlıyıb apardı.*

**QEYNAMA** (Salyan) – b a x **qaynama.**

**QEYRAN** (İsmayıllı) – daşlı-qayalı. – *Oğul, o qeyran yeri görürsən, Girdiman çayı indiyəcən ona güc gələ bilmi:b.*

**QEYRAZ** (Qazax) – başqa. – *Ona binəm qeyraz bəylər paxıllığ elədilər.*

**QEYŞƏR** (Bakı) – qabaq.

**QEYŞƏRRƏMƏG** (Bakı) – qabaqlamaq. – *Məni qeyşərdən qeyşərrəmə!*

**QƏAXLAMAX** (Gədəbəy) – xurcunun və ya xalçanın qırağını tikmək. – *Qəaxladıŋızmı gəviyi, a qızdar?*

**QƏBƏLƏ** (Dərbənd) – b a x **qabələ.**

**QƏBJİN** (Dərbənd) – gavalı növü adı. – *Bizim bağlarda qəbjin az uladı.*

**QƏBLİ** (Cəbrayıl) – b a x **qablı.**

**QƏCAR** (Meğri) – b a x **qacal.**

**QƏCƏL** (Qarakilsə) – b a x **qajal.**

**QƏCƏLƏ** (Zəngibasar) – b a x **qəcələk.** – *Qəcələ ağaşda yua qurub.*

**QƏCƏLƏK** (Kürdəmir) – sağsağan. – *Qəcələk yayda balalıyır.*

**QƏCƏMƏDAŞ** (Ordubad, Şərur) – beşdaş oyunu. – *Mükayıl yaman qəcəmədaş oynıyandı* (Ordubad).

**QƏCƏR** (Qarakilsə, Ordubad) – b a x **qajir.** – *Qəcər bizdə cücə-zad qoymur, daşıyıb aparır* (Ordubad).

**QƏCİMƏG** (Yardımlı) – qıc olmaq, büzüşmək. – *Tö:ğlər sö:ğdən qəci:b.*

**QƏCİR** (Qarakilsə, Ordubad) – b a x **qajir.** – *Qəcir bizdən bir toyuğ aparıb* (Ordubad).

**QƏÇƏLƏ** (Dərbənd) – b a x **qəcələk.** – *Qəçələ meşədə çoxdi.*

**QƏÇƏR** (Salyan) – b a x **qajır.** – *Qəçər yaman quşdu yırtıcı; – İkisini də di:rig: qəçər də, qəçil də.*

**QƏÇİL** (Salyan) – b a x **qajır.**

**QƏDAĞA: QƏDAĞA ELƏMƏG** (Cəlilabad) – xəbər göndərmək. – *Qardaşım qədağa eliyib ki, bacımı tez göndərin.*

**QƏDDƏMƏXʹ** I (Zəngilan) – doğramaq. – *Ağaşdarı pış <peç> boyu qəddiyirıx.*

**QƏDDƏMƏXʹ** II (Qazax, Yevlax) – çərtmək (karandaşı).

**QƏDDƏRƏ** (Naxçıvan) – balaca xəncər. – *Qəddərə balaca xəncələ diyirik.*

**QƏDƏĞƏ** (Yardımlı) – sifariş, xəbər. – *Əliyə qədəğə eləmüşüg, sabah gələcək.*

**QƏDƏXʹ** (Dərbənd) – saxsı küpə. – *Qədəxʹdə büz xəmir də saxlıyədüg.*

**QƏDƏ-QƏDƏ** I (Cəlilabad) – gizli. – *Taxılı qədə-qədə apardı öyünə.*

**QƏDƏ-QƏDƏ** II (Yardımlı) – yavaş-yavaş. – *Şükür Allaha, işdərim qədə-qədə gedey.*

**QƏDƏMLİ** (Naxçıvan) – xoşqədəm. – *Məhəmməd çox qədəmli adamdı, o gələndə mənim işim düzəlir.*

**QƏDƏR** (Zaqatala) – qadın çalması.

**QƏDİRRİ** (Naxçıvan) – hörmətli. – *Sənin atan qədirri kişiydi.*

**QƏDİRTUMI** (Biləsuvar, Salyan) – qovun növü adı. – *Qədirtumı yemiş boz olur, şirin olur* (Biləsuvar); – *Mığanda qədirtumı yemiş çox olır* (Salyan).

**QƏDİR-QURUB** (Yardımlı) – hörmət, nüfuz. – *Hamının yanında qədir-qurubi var.*

**QƏDİRRİ-QURUBLU** (Yardımlı) – hörmətli, nüfuzlu.

**QƏDRƏHİM** (Füzuli) – rəhmsiz. – *Belə qədrəhim adam olu:r?*

**QƏF** (Şəki) – tənbəl. – *Qurban çox qəf adamdı.*

**QƏFƏ** (Qarakilsə, Naxçıvan, Şahbuz, Şərur) – çayxana. – *Mən qəfədə heş oturmaram* (Şərur); – *Keşmişdə qəfə deyərdixʹ, indi çayxanadı* (Şahbuz).

**QƏFƏÇİ** (Şərur) – çayçı.

**QƏFƏSƏ** (Qazax) – qadınların alınlarına bağladıqları baftalı bəzək şeyi. – *Qəfəseyi gəlinnər bağlardılar annarına.*

**QƏFXANA** (Ordubad) – b a x **qafxana.** – *Qəfxanada xörəy bişirərıx.*

**QƏFİLCİL** (Salyan, Tərtər) – qəfildən tutan, qapan (it). – *Qəfilcil it adamı birdən tutur* (Tərtər).

**QƏFİLLƏMƏ** (Şamaxı) – qəfildən. – *Dağdan daş qəfilləmə düşdi.*

**QƏFLƏTİN** (Salyan, Yardımlı) – mağaza (kooperativ). – *Atam qəflətinə gedib* (Yardımlı).

**QƏFLƏTUN** (Yardımlı) – b a x **qəflətin.**

**QƏFLİK** (Mingəçevir) – tənbəllik. – *Qəflikdə bizim kişinin tayı olmaz.*

**QƏĞLƏ** (Bakı) – b a x **qağala.** – *Bir qəğlə su vər mənə.*

**QƏH** (Balakən) – başda əmələ gələn şiş.

**QƏHƏL** I (Biləsuvar, Cəbrayıl, Kürdəmir, Sabirabad, Zərdab) – b a x **qaxal.** – *Malları qəhələ sal, çərbəndi də bağla* (Kürdəmir); – *Öküzdəri gəti yığ qəhələ, so:ra get* (Cəbrayıl); – *Gözəççi kəlləri qəhələ salıf* (Zərdab).

**QƏHƏL** II (Zaqatala) – qəribə, təəccüblü (iş). – *Habu qəhəl işdi.*

☐ **Qəhələ salmax** (Kəlbəcər) – *məc.* çətinliyə salmaq. – *Məni yaman qəhələ saldın.*

**QƏHMƏDAR** (Meğri) – b a x **qahmadar.** – *Sən də Mahmıdın qəhmədarısan?*

**QƏHMƏR** (Cənubi Azərbaycan, Füzuli, Qarakilsə, Mingəçevir, Ucar) – b a x **qahmar.** – *Qasımnan höcətdəşdim, qəhmərim çox oldu* (Ucar). ◊ **Qəhmər çıxmax** (Cənubi Azərbaycan) – tərəfdar çıxmaq. **Qəhmər durmax** (Füzuli, Qarakilsə) – tərəfdar durmaq. – *Kim mənə qəhmər çıxar?* (Cənubi Azərbaycan); – *Sən niyə ona qəhmər durursan?* (Füzuli); – *Qəhmər durmax yaxşı şeydi, əmə gərəx′ insaflı olasan* (Qarakilsə).

**QƏXƏLƏ** (Balakən) – uşaq oyunu adı.

**QƏJ** (Bərdə) – dilim. – *Əhmət kişi maŋa bir qəj partaqal verdi.*

**QƏJBİ** (Kürdəmir) – kürülü ağ balıq. – *Qəjbini o:lamırıx kın, qoy bıralarda artsın.*

**QƏJDƏMƏG** (Şamaxı) – b a x **qajdamax** I. – *Yeri dünən qəjdədig.*

**QƏJƏL** (Qubadlı) – b a x **qajal.** – *Qoyunnar qəjəldə otduyur.*

**QƏJƏLAV** (Ağdam, Cəbrayıl) – tərs (adam). – *Kətdə onnan da qəjəlav adam yoxdu* (Ağdam).

**QƏJƏLAVLAMAX** (Cəbrayıl) – tərslik etmək. – *Qəjəlavlama göray, əşi!*

**QƏJƏLAVLIX** (Ağdam) – tərslik. – *Ə:, bu qəjəlavlığınnan niyə əl çəx′mirsən?*

**QƏJƏLO:** (Bərdə, Şuşa) – b a x **qəjəlav.** – *Qəjəlo: adam tərs danışır* (Bərdə); – *Qəjəlo: adamnan özünü gözdə!* (Şuşa).

**QƏJƏR** (Bərdə) – yəhərin üstünə qoyulan xüsusi yastıqça. – *Qəjəri qoy atın belinə.*

**QƏJİR** (Füzuli) – araqarışdıran.

**QƏJMİRRƏMMƏX′** (Şəmkir) – üstünə qıcanmaq, xoruzlanmaq. – *Qəjmirrəniv eləmə, sənnən qorxan yoxdu.*

**QƏJVİ** (Zərdab) – b a x **qəjbi.** – *Muxdar dünən bir qəjvi tutmuşdu, yalançılar sözü olmasın, qarnınnan üç kilo kürü çıxdı.*

**QƏQƏP** (Tabasaran) – ağac adı. – *Qəqəp hüngül uladı, yəxşi yanadı.*

**QƏLBİ** (Ağdam, Bərdə, Bolnisi, Borçalı, Daşkəsən, Füzuli, Gədəbəy, İmişli, Kəlbəcər, Kürdəmir, Qarakilsə, Naxçıvan, Ordubad, Şuşa, Tərtər, Zəngilan) – hündür, uca. – *Qəlbi dağlarda ala-tala qar görünürdü* (Şuşa); – *Qəlbi yerə su çıxmaz* (Tərtər); – *Öyün barısı qəlbi olsa yaxşıdı* (Bərdə); – *Bu ağaş onnan qəlbidi xeylax* (Gədəbəy); – *Kitaflar qəlbidədi, əlim çatmır* (Füzuli); – *Bı qəlbi yerdə əv tikdilər* (İmişli); – *Atdan qəlbi, itdən alçax* (Qarakilsə).

**QƏLBİLİX′** (Bərdə) – yüksəklik, hündürlük, ucalıq. – *Qara damın qəlbili: üç arşindi.*

**QƏLƏ** (Meğri, Ordubad) – dəfə. – *Bu qələ İsirafilgil geder, gələn qələ də siz gedecisiz* (Meğri).

☐ **Qələ güni** (Yardımlı) – çərşənbə axşamı. – *Qələ güni ikinci günə diyög.*

**QƏLƏQƏZƏN** (Meğri) – yellənçəyin bir növü. – *Bir dirəx′ basıre:x yerə, bir uzun tiri də dəle:x′ <dəlirik>, keçire:x′ homan dirəyə, una de:x′ <deyirik> qələqəzən.*

**QƏLƏM** I (Kürdəmir, Naxçıvan) – növ, cür. – *Bir qələm şey deyim, al gət* (Naxçıvan); – *Bir neçə qələm şey isdədi qızın başdığına* (Kürdəmir).

**QƏLƏM** II (Culfa) – daşyonan alət.

**QƏLƏM** III (Salyan) – dəst. – *Bayrama qədər gərəg uşağlara bir-iki qələm pal-paltar alam.*

**QƏLƏMDƏR** (Dərbənd) – ipə düzülmüş qax. – *Şəki armutunnan beş qələmdər qurutdum.*

**QƏLƏMƏ** I (Cəbrayıl, Hamamlı) – tikan. – *Höşəndə əyaxyalın gəzmə, əyağına qələmə batar* (Hamamlı); – *İydiyə çıxanda özü: qələmədən gözdə* (Cəbrayıl).

**QƏLƏMƏ** II (Zəngibasar) – qovaq ağacı. – *Qələmə ən udza ağaşdı.*

**QƏLƏMQIRTAN** (Ordubad) – karandaşyonan bıçaq.

**QƏLƏMLƏMƏK** (Şamaxı) – ağacın qurumuş qol-budağını kəsmək. – *Bu ağacı qələmliyəg gərək.*

**QƏLƏNDƏR** (Bakı, Dərbənd) – sirkə, abqora və s. tökmək üçün dördkünc şüşə qab. – *Qələndərdə Həsəngilə sirkə göndərdim* (Dərbənd).

**QƏLƏZİM** (Qax, Zaqatala) – motal pendirinin suyu. – *Bu qələzim çox durudu* (Zaqatala).

**QƏLİB** (Cəbrayıl, Füzuli, Göyçay, Kürdəmir, Laçın, Sabirabad, Zəngilan) – keçə. – *Alaçığın üsdünə yaxşı qəlib çəkmişdilər* (Zəngilan); – *Qəlib olmasa, tərəkəmə dolammaz* (Cəbrayıl).

**QƏLİF** (Ağcabədi, Çənbərək, Gəncə, Qazax, Mingəçevir, Şəmkir, Tovuz) – bax **qəlib.** – *Dəyənin üsdə salırdıx qəlif* (Tovuz); – *Qəlifləri güyə deşif;* – *Dəyəni qəlifnən düzəldirix′* (Şəmkir); – *Qəlif laf yaxşı yunnan olur* (Ağcabədi); – *Qəlifi yunnan atıllar* (Çənbərək).

**QƏLİN** I (Ucar, Zərdab) – bax **qalın.** – *Anam axşam qəlin pişirdi* (Zərdab); – *Qəlin nazik olur yuxa kimi* (Ucar).

**QƏLİN** II (Yardımlı) – kobud, qanmaz. – *Nə qəlin adamdu, heç hır-mır qammey.*

**QƏLİNNIXA** (Yardımlı) – çox qalın. – *Gör nə qəlinnıxa partal geyib bu isdidə.*

**QƏLİP** (Qarakilsə) – bax **qəlib.** – *Dədəm böyük bir qəlip saldımışdı, həməşə o qəlipi obuya aparırdıx.*

**QƏLİT** (Ağdam, Şuşa) – girdə şəkildə bişirilmiş və şirin olmayan peçenye. – *Uşaxlar qəliti çox xoşduyur* (Şuşa).

**QƏLLƏLƏMƏG** (İmişli) – taya vurmaq (taxılı). – *Taxılı gətirib qəlləleyirdilər.*

**QƏLT** (Qax) – bax **qalt.**

**QƏLTƏN** (Qazax, Tovuz, Zaqatala) – bax **qaltan.** – *Heş getməy olmor, qəltən ayağımı əzer* (Qazax).

**QƏLYABADYA** (Qax) – mis kasa. – *Xoraqı mağa qəlyabadyaya tök.*

**QƏLYAŞİRNİSİ** (Ordubad) – qızın razılığı alındıqdan sonra qız evinin oğlan adamlarından aldığı hədiyyə.

**QƏMALTI** (Biləsuvar, Əli Bayramlı) – bax **qamaltı.** – *Qəmaltını bura gəti* (Biləsuvar).

**QƏMBƏR** (Bakı) – çaylaq daşı. – *Küçələrə qabağlar qəmbər döşüyərdilər.*

**QƏMBƏRRİG** (Bakı) – çay daşı döşənmiş yer, küçə.

**QƏMƏ** I (Quba) – qurudulmuş zoğal. – *Qəməni bizdə boş yiməzlər.*

**QƏMƏ** II (Cəlilabad, Yardımlı, Gədəbəy, Qazax, Salyan) – balaca xəncər. – *Qəmə birdən əlimnən yerə düşdü* (Gədəbəy); – *Çoban qəməsin çıxartdı* (Salyan); – *Qəmeynən qoyun kəseylər* (Cəlilabad).

**QƏMƏLTİ** (Ağbaba, Ağsu, Bərdə, Biləsuvar, Cəbrayıl, Culfa, Əli Bayramlı, Füzuli, Gədəbəy, Göyçay, Hamamlı, İmişli, Kəlbəcər, Qarakilsə, Naxçıvan, Ordubad, Salyan, Şərur, Ucar, Yardımlı, Zəngilan, Zərdab) – bax **qamaltı.** – *Qəməltini ver, çörəyi kəsim* (Ağbaba); – *Fatma qartofu qəməltiynən soydu* (Cəbrayıl); – *Qəməltini ver uşağa, pencər yığsın* (İmişli); – *Qəməltiynən çörək kəsillər, ət doğruyullar* (Kəlbəcər); – *Qəməltiyi ver, çolpanın başın kəsim* (Bərdə); – *Qəməltini gət bıra çolpanı kəsim* (Ağsu); – *Qəməlti kütdəşib* (Salyan).

**QƏMƏR** (Füzuli, İmişli) – sarımtıl (ata aiddir). – *O qəmər maydan yaxşı qaçır* (Füzuli).

**QƏMƏRAL** (Qazax) – bax **qəməran** I.

**QƏMƏRAN** I (Biləsuvar, Salyan) – inqilabdan əvvəl ailə üzvlərinin qeydə alındığı xüsusi dəftər. – *Biz hələ qəməran işdədirig binədən* (Biləsuvar).

**QƏMƏRAN** II (Biləsuvar, Salyan) – əkin sahəsi. – *Hər qəməranda bir adamın onki <12> batmanı olardı* (Salyan).

**QƏMƏRAN** III (Salyan) – bax **qəmərən.** – *Keşmiş vaxdı qəməranı yüzbaşılar verərdi.*

**QƏMƏRƏN** (Biləsuvar, Salyan) – vəkalətnamə, inanış. – *Qəmərən kö:nə sözdü* (Salyan).

**QƏMƏT** (Şamaxı) – cavan qoz ağacı. – *Çayın qırağındakı qəməti çırpdım.*

**QƏMƏTİ** (Zərdab) – bax **qamaltı.**

**QƏMİJƏ** (Lənkəran) – səpki. – *Yaz vaxdı isdidən bədənimdə həməşə qəmijə olardı.*

**QƏMİRCƏX′** (Gədəbəy) – qığırdaq. – *Ətin qəmircəğini xoşdo:y bizim kiççiq qız.*

**QƏMREL** (Ağbaba) – bax **qəmərən.** – *İkisinin arasında qəmrel düzəldiflər.*

**QƏMZƏ** (Başkeçid, Gədəbəy, Şəmkir) – qadınlara aid baş bəzəyi. – *Qəmzeyi cahıllar bağle:rdi* (Gədəbəy).

**QƏNCƏLMƏX′** (Meğri) – bax **qənjəlməx′.** – *Buzav elə pis qəncəlip ki, bicə sümüyü qalıp.*

**QƏNDAF** (Daşkəsən, Gədəbəy) – qəndqabı. – *Qət qoyduğumuza qəndaf de:rix′* (Daşkəsən); – *Qəndava birki qənd qoy, gəti buryə* (Gədəbəy).

**QƏNDƏHƏRİ** (Tərtər) – üzüm növü adı. – *Qəndəhəri üzümlərin hamısınnan baş üzümdü.*

**QƏNDİKÜKƏ** (Lənkəran) – şəkərçörəyi.

**QƏNDİL** (Basarkeçər) – baca. – *Tüsdü qəndildən çıxar.* – *Qəndilin üsdü örtülüdü, tüsdü evdən çıxmır.*

**QƏNDİRİZ** (Lerik, Yardımlı) – qəndqabı. – *Qəndirizi gəti qoy bıra* (Lerik).

**QƏNDİŞGƏ** (Bakı) – qəndsındıran (alət).

**QƏNƏD** (Şəki) – vərəq. – *Kitavın üş-dört qənədi cırılmışdı.*

**QƏNƏR** (Çənbərək) – qayda.

**QƏNİRSİZ** (Gədəbəy, Mingəçevir, Tovuz) – misilsiz, eyibsiz. – *Qənirsiz qızıdı bajım qızı* (Gədəbəy); – *Xasməddin basalağınnan qənirsiz gözəllər peydah oluf* (Tovuz).

**QƏNİYRƏ** (Qazax) – dəfə. – *Elə göyçəx'di qız, üzünə baxmağ olmor bir qəniyrə.*

**QƏNJƏLMƏX'** (Qarakilsə) – arıqlamaq. – *Qənjəlirsən, bə axırı no:lajax?*

**QƏNQIRTAX** (Meğri) – quru (çörək). – *Sulanmamış bu qənqırtax çörəx'ləri diş kəsər?*

**QƏNŞƏR** (Ağsu, Ucar) – əvvəl. – *Qənşər bö:ük danışar, so:ra kiçik;* – *Sən qalxozda mənnən qənşər işdiyirsən;* – *Qənşərdə bı kənt Göyçaya baxırdı* (Ucar); – *Qənşərrər adam pis yaşayırdı* (Ağsu).

**QƏNZİL** (Gədəbəy) – nazik. – *Çox qənzildi bu if.*

**QƏPSİMAX** (Qax) – b a x **qafsamax** I. – *Menin evi qəpsimağa men razı olmacam.*

**QƏRBİÇ** (İmişli) – qarın əti. – *Pişirmisən qərbici?*

**QƏRCİMƏQƏYƏ** (Zəngilan) – xırda daşla oynanılan oyun adı. – *Uşaxlar qərciməqəyə öynü:llər.*

**QƏRƏB** (Şamaxı) – divar. – *Ö:n qərəbini suvağlallar.*

**QƏRƏBAĞIR** (Yardımlı) – qaraciyər.

**QƏRƏBALIĞ** (Yardımlı) – canavar sürüsü. – *Qərəbalığ kimi gurnəş verey.*

**QƏRƏBİL** (Yardımlı) – saman yığan alət.

**QƏRƏC** (Şahbuz) – meyvə puçalı.

**QƏRƏÇƏ** (Dərbənd) – çöl ördəyi.

**QƏRƏQAYIT** (Yardımlı) – bəduğur, bədbəxt. – *Səni qərəqayıt olasən.*

**QƏRƏQULAĞ** (Yardımlı) – vaxt keçirən, baş qatan. ◊ **Qərəqulağ olməğ** – vaxt keçirmək, başını söhbətə qarışdırmaq. – *Yanımdə bir adam olanda genə qaraqulağ oliyəm.*

**QƏRƏL** (Yardımlı) – hövsələ, səbir. – *Əvdə otumağa qərəlim gəlmir.* ◊ **Qərəl tapmamağ** – darıxmaq, hövsələsi çatmamaq. – *Qərəl tapbiyəndə qonşiyə gedeydim.*

**QƏRƏLMƏĞ** (Yardımlı) – bərk susamaq, susuzluqdan əziyyət çəkmək. – *Neçə sahatdu susumnən qərəliyəm.*

**QƏRƏM** I (Culfa, Qarakilsə, Naxçıvan, Ordubad, Şahbuz, Şərur) – həmişə, daim. – *Mənim oğlum qərəm qulluxdadı* (Şərur); – *Ordan qərəm su gedəcəx'* (Ordubad); – *Boyəhməddilər qərəm bırdadı* (Culfa); – *Mən qərəm avçılığnan məşğul oluram* (Şahbuz).

**QƏRƏM** II (Meğri) – xanənişin, evdə oturmağı sevən. – *Nənəm qərəm adamdı, gəzməyinən işi yoxdu.*

**QƏRƏM** III (Gəncə) – b a x **qaram.**

**QƏRƏMƏ** I (Meğri) – b a x **qarama.** – *Ərxın qərəməsin təmizlə:n ki, su qoşax.*

**QƏRƏMƏ** II (Meğri) – qapaz. – *Qərəməni niyə unın başınə saleysan?*

**QƏRƏMƏT** I (Meğri) – fikir; qayğı. – *Dədə-nənə həməvax öz əyalının qərəmətin çəkər.*

**QƏRƏMƏT** II (Cəbrayıl) – bəxtiqara. – *Sən çox qərəmət adamsan, heş baxdın gətimir.*

**QƏRƏTOLUĞ** (Yardımlı) – yetişmiş, dəymiş. – *Bağdə qərətoluğ meyvə çoxdu.*

**QƏRƏVEZİ** (Bakı) – nəhayətsiz, uzun, sonsuz (yol). – *Bu yol nə qərəvezidür, gedmegnən qutarmır ki, qutarmır.* ◊ **Qərəveziyə gedmeg** – uzun, nəhayətsiz yola getmək. – *Suçun qərəveziyə gedmişdün begəm, belə gec gəldün?*

**QƏRƏVƏNƏ** (Ağbaba) – xəmir tabağı.

**QƏRİBƏ** (Ağsu, Gəncə) – qərib. – *Bizzərdə qəribə adama çox hörmət eliyərik* (Ağsu).

**QƏRİBPƏRVƏR** (Şuşa) – qəribə hörmət edən. – *Həsən çox qəribpərvər adamdı.*

**QƏRİM** (Salyan) – tənək basdırmaq üçün qazılan yer. – *Bağda təhəg basdırmağ üçün yüzə qədər qərim qazmışam.*

**QƏRQƏŞƏ** (Meğri) – qayğı. – *Dadaşnan Mürsəlin qərqəşəsin mən çəkem?*

**QƏRRAHLANMAX** (Qarakilsə, Meğri) – arxalanmaq. – *Mən sənə qərrahlaneram* (Meğri); – *Sən kimə qərrahlanırsan?* (Qarakilsə).

**QƏRS: QƏRS ELƏMƏXʹ** (Şuşa) – əkmək. – *Həyətdə bir alma:ğacı qərs elədim.*

**QƏSDƏMMƏXʹ** (Qazax, Tovuz) – istəmək; qəsdlənmək. – *Qəsdəndim kin, sizə:ləm gələmmədim* (Qazax).

**QƏSƏ** (Dərbənd) – b a x **qasə.**

**QƏSƏVƏ** (Tovuz) – b a x **qaysava.** – *Qəsəvə ərixʹdən, yağdan olor.*

**QƏSİ** (Laçın) – b a x **qası.** – *Çayda qəsi çoxdu.*

**QƏŞBƏND** (Şahbuz) – b a x **qaşbənd.** – *Qəşbəndi başımıza bağlıyırdıx.*

**QƏŞMƏR** (Meğri) – həyasız, abırsız. – *Almurat çox qəşmər adam idi.*

**QƏŞMƏRRƏMƏXʹ** (Şərur) – bəzənmək. – *Bayramda qızdar qəşmərrənillər.*

**QƏTƏCƏR** (Əli Bayramlı) – təzə, qatı açılmamış (paltar). – *Bu lap qətəcər parçadı.*

**QƏTLƏ** (Ordubad) – qapının yan tərəflərində olan ağacları möhkəm saxlamaq üçün onların üstündən vurulan taxta. – *Qətlə qapı:n başın möhkəm saxli:r.*

**QƏTPƏ** (Qarakilsə) – ətlə dırnağın bitişdiyi yerdə ətdən aralanmış incə dəri hissəciyi.

**QƏTRƏHİM** (Kürdəmir, Oğuz) – b a x **qədrəhim.**

**QƏTRƏM** (Şəki) – xəsis. – *Qətrəm adamnan pul çıxmaz.*

**QƏTRƏMƏ** (Ucar) – sərab. – *Qətrəmə yayın isdisində:lur.*

**QƏTRƏMƏK** I (Ucar) – b a x **qatırramax.** – *A kişi, gündə üş-dört kərəm öydən vağzala qətriyirsən, yorulmursa:n?*

**QƏTRƏMƏK** II (Ucar) – qaynayıb daşmaq. – *Sinəvar qətrədi, qaraqapağ elə.*

**QƏTRƏMƏK** III (Ucar) – sürtünmə nəticəsində qızmaq. – *Təhnəyə dən tökməsən, daşdar qətriyər.*

**QƏVƏÇƏ** (Zaqatala) – sırıqlı.

**QƏVƏL** (Zəngilan) – əyri.

**QƏVƏRƏ** (Qarakilsə, Ordubad, Şahbuz, Şərur) – b a x **qavara** II. – *Qəvərəynən puşqu itilə:llər* (Şərur); – *Qəvərəynən balta itildirixʹ* (Şahbuz).

**QƏYƏÇAYI** (Kəlbəcər) – yabanı bitki adı.

**QƏYİL** (Zəngibasar) – razı. – *Mən qəyil də:ləm muna.*

**QƏYİM** (Yardımlı) – möhkəm, tarım. – *İpi qəyim çək, daram dursun.*

**QƏYİR** (Şəki) – çox xırda daş. – *Buğdanın içinin qəyirini denniyif göndərillər de:rmana.*

**QƏYPİMMƏG** (Yardımlı) – utanmaq, çəkinmək. – *Gör heç bö:ydən qəypiney?*

**QƏYSƏFƏ** (Qazax, Şərur) – b a x **qaysava.** – *Qəysiyə qaterıx şəkər, yağ, murtda olor qəysəfə* (Qazax).

**QƏYSƏR** I (Meğri) – şaxta. – *Qəysər adamı göyə çəkerdi Qərçivan düzündə.*

**QƏYSƏR II: QƏYSƏR OLMAX** (Çənbərək, Ordubad) – soyuqdəymə nəticəsində xəstələnmək.

**QƏYSƏVƏ** (Ağcabədi, Bərdə, Qazax, Şəmkir, Şuşa) – b a x **qaysava.** – *Qəysəvə adamı tox saxlar* (Şuşa).

**QƏYSİ** (Ağcabədi) – qurudulmuş ərik. – *Qəysidən qəysəvə pişiririxʹ.*

**QƏZƏNƏ** (Lənkəran) – gicitkən.

**QƏZİLLƏMƏXʹ** (Borçalı, Cəbrayıl, Əzizbəyov, Gədəbəy, Qarakilsə, Naxçıvan, Ordubad, Şərur, Zəngilan) – aldatmaq. – *Məni sən qəzilləmə, mən belə şeylərə inanmaram* (Borçalı); – *Başĩ: qəzillədim getdi* (Cəbrayıl); – *Uşağı qəzilliyip, əlinnən topun alıplar* (Qarakilsə); – *Mikayıl bizi yaman qəzilli:r* (Ordubad); – *Sən gə məni qəzilləmə, mən hər şeyi billəm* (Zəngilan).

**QƏZMƏ** I (Ordubad) – b a x **qazma** I.

**QƏZMƏ** II (Qazax) – papaq.

**QƏZO:C** (Lənkəran, Yardımlı) – ərsin. – *Qızə, qəzo:ci gətdü:n?* (Lənkəran).

**QƏZZƏK** (Mingəçevir) – hasarın, çəpərin tapdanmış yeri. – *Ma:hir qəzzəyi kolladı.*

**QIBIR** (Meğri) – hirs. ◊ **Qıbırı tutmax** – hirslənmək. – *Unın ki qıbırı tutey, siz dimmə:n.*

**QIBİT** (Qax) – çəpgöz.

**QICA** I (Qax) – b a x **qicə.**

**QICA** II (Şəki) – b a x **qırca.** – *Fındığın qıcalarını tulli:n gessin.*

**QICA** III (İsmayıllı) – paltarasan. – *Sırıxlını qıcadan as.*

**QICA** IV (Salyan) – dəni çıxardılmış qarğıdalı ağacı.

**QICƏ** (Şəki) – b a x **qicə.** – *Qıcə qırıf suyun qavağına basannan so:ra bizim arxa su çıxdı.*

**QICI** (Cəbrayıl, Xanlar) – vəzəri. – *Biz üç lək qıcı əkmişik* (Cəbrayıl).

**QICIR-QUCUR** (Mingəçevir) – başa düşülməyən söhbət.

**QIÇ** (Yardımlı) – diş. – *İt qıç atıb uşəği tutub.*

**QIDIX** (Naxçıvan, Ordubad) – b a x **qidix′.** – *Çoban qıdıxları çöldə otarır* (Ordubad).

**QIDIMCIL** (Şəki) – xəsis.

**QIDIR-MIDIR** (Qubadlı) – anlaşılmayan, başa düşülməyən danışıq. – *Dərədən keçəndə bir qıdır-mıdır eşitdim.*

**QIDQIDA** (Lənkəran) – qıdıq. – *Qıza, eləmə, qıdqıdam tutur.*

**QIF** (Əli Bayramlı, Salyan) – maye üçün dəmir qab, bidon. – *Qıfa su töküb saxlarux* (Əli Bayramlı); – *Məkdəbçin iki dənə qıf aldım* (Salyan).

**QIFCIX** (Qazax) – cəld.

**QIFCIMMAX** (Hamamlı, Qazax) – tullanmaq. – *Elə qıfcındım kın, çayın bu toyunnan o toyuna* (Qazax); – *Çaydan yaxşı qıfcındım* (Hamamlı).

**QIFCIN** (Gədəbəy) – səliqəli. – *Çox qıfcın yığersın odunu, xoşumə:ldi çox.*

**QIFÇAX** (İmişli) – b a x **qıpçağ.**

**QIFÇIL** (Füzuli) – böyük-böyük danışan. – *Qıfçıl adam özünnən qavağı danışar.*

**QIFÇILAMMAX** (Çənbərək) – nazlanmaq. – *Pəri çox qıfçılanır.*

**QIFXIRIX** (Cəbrayıl, Zəngilan) – səs-küy. ◊ **Qıfxırıx qopbax** (Cəbrayıl, Zəngilan) – hay-küy qopmaq. – *Birdən elə qıfxırıx qofdu ki, dedıx no:luf* (Zəngilan).

**QIFŞAMAX** I (Çənbərək, Meğri) – turşumaq. – *Yayın günündə qatıq qıfşıyıf* (Çənbərək); – *Üzüm qalır küpədə qıfşıyır, so:ra ərəx çəkillə* (Meğri).

**QIFŞAMAX** II (Cəbrayıl) – üfunət iyi vermək, iylənmək. – *Uşağın əysiləri üş-dört gündü yuyulmamış qalıf deyin qıfşıyıf.*

**QIĞIQIĞI** (Borçalı) – uşaq oyunu adı.

**QIĞIMƏT** (Qazax) – uşaq oyunu adı.

**QIĞIRCIM** (Kürdəmir) – xırda, inkişaf etməmiş. – *Qığırcım alçaları yığıb turşi qayırırıx.*

**QIĞIRMAX** (Gədəbəy, Qazax) – qorxmaq. – *Üş gündü irəmənin düzündə qığırmışıx* (Qazax); – *Gördüm dosdum qığırdı* (Gədəbəy).

**QIĞIRTDAX** (Tovuz) – inkişaf etməmiş, xırda. – *Bu il ərix′lər qığırtdaxdı.*

**QIĞMƏRƏ** (Cəbrayıl, Göyçay, Kürdəmir, Salyan, Ucar, Yevlax) – uşaq oyunu adı. – *Uşağlar hə:tdə qığmərə oynıyır* (Salyan); – *Üşaxlar çöldə qığmərə oynuyur* (Ucar); – *Qığmərədə altı mərə olur* (Yevlax); – *Uşaxlar quzu otaranda qığmərə oynuyurlar* (Cəbrayıl).

**QIĞMƏTƏ** (Qubadlı) – b a x **qığmərə.**

**QIĞPULA** (Bakı) – uşaq oyunu adı.

**QIXIX** (Qazax) – tikə. – *Maŋa bir qıxıx qant ver.*

**QIXIM** (Ağdaş) – azacıq. – *Xörəyə bir qıxım duz sal.*

**QIXIM-QIXIM** (Bərdə) – xırda-xırda. – *Məfdili qıxım-qıxım doğradılar.*

**QIXMIX** (Füzuli, Gədəbəy, Kürdəmir, Qazax, Qax, Mingəçevir, Oğuz, Şəki, Tovuz, Yevlax) – odun qırıntısı. – *Ocağı yandırmağa bir az qıxmıx gəti* (Oğuz); – *Qıxmığı yığıf tökürux ocağa yanır* (Şəki); – *A bala, dur, bir az qıxmıq qayır sammarı (samovarı) qaynatsınnar* (Qazax); – *Quru qıxmıx yaxşı yanar* (Gədəbəy).

**QIXMIXLAMAX** (Gədəbəy, Gəncə) – odunu xırda-xırda doğramaq. – *Bu kötüyü çox zəhmətnən qıxmıxladım* (Gəncə).

**QIJ** (Mingəçevir) – çayın sürətlə axan yeri.

**QIJATAYI** (Balakən) – qıyqacı. – *Parçanı ho hele qıjatayı kes.*

**QIJAV** (Kəlbəcər) – çayın sürətlə axan yeri. – *Su ku bərk gedir çayda, ona qıjav deyrıx.*

**QIJILIĞIPBA** (Cəbrayıl) – sürətlə. – *Pəri qıjılığıpba böyrümnən keşdi.*

**QIJIPBADAN** (Cəbrayıl) – sürətlə. – *Sel qıjıpbadan gəldi.*

**QIJIT: QIJIT VERMƏX′** (Basarkeçər, Başkeçid, Borçalı, Qazax, Şəmkir, Tərtər, Tovuz) – acıq vermək. – *Dos dosda qıjıt verməz* (Tərtər); – *Adama bir belə qıjıt verməy olmaz;* – *Mansır təzə paltar ge:if ma: qıjıt verer* (Qazax); – *Ə;, ayıf döyülmü, nə qıjıt verersəŋ?* (Şəmkir).

**QIJQIRILMAX** (Bolnisi, Qazax) – kəkələmək. – *Qıjqırıler adamın üsdünə, elə bil dö:əjəx′ məni* (Qazax).

**QIJQIRMAX** (Qazax, Mingəçevir) – b a x **qıjqırılmax.**

**QIJQOYLU** (Barana) – sürətli (axar suya aiddir). – *Comuş çayın qıjqoylu yerinə çüşüv axırdı.*

**QIJMIRRAMAX** (Çənbərək) – vurmaq məqsədilə əl qaldırmaq. – *İjdiyar Bərxudarın üsdə yaman qıjmırrandı, amba heş şey eliyəmmədi.*

**QIJOY** (Barana, Xanlar, Qazax, Tovuz) – bax **qıjav.** – *Qıjoya düşmə, axarsan!* (Qazax); – *Dar yer ki axır suda, ona qıjoy derixʹ, orya girməy olmaz;* – *Girmə, bura yaman qıjoydu* (Tovuz); – *Bizim Quşqara çayında qıjoy çoxdu* (Xanlar). ◊ **Qıjov getməxʹ** (Tovuz) – sürətlə axmaq. – *Kür lal axır, əmbə Araz yaman qıjoy geder.*

**QIJOYLU** (Barana) – bax **qıjqoylu.**

**QIQQAX** (Füzuli) – azacıq. – *Qıqqax sındırdı, verdi maŋa.*

**QIQQILI** (Zərdab) – kiçik, balaca. – *Çaydan bu gün bir neçə qıqqılı kütüm tutdum.*

**QILAN** (Qarakilsə) – cod yun.

**QILANNI** (Qarakilsə) – cod yunlu.

**QILAVLAMAX** (Zəngilan) – *məc.* itiləmək. – *Dişdərimi indidən qılavlamışam, toyunda möykəmcə yə:cəm.*

**QILBAŞ** (Göyçay, İmişli, Lənkəran) – yara (dırnağın altında).

**QILBIZDIĞ: QILBIZDIĞ ELƏMEĞ** (Bakı) – xəbərçilik etmək. – *Nöş belə qılbızdığ eli:rsən?*

**QILÇADIRRI** (Sabirabad) – qaraçı. – *Biz olara qılçadırrı diyərüg.*

**QILDIX** (Qazax) – etiqad, inam.

**QILDIXSIZ** (Borçalı, Qazax, Şəmkir, Tovuz) – dinsiz, məzhəbsiz. – *Ayə, sən lap qıldıxsızsanmış!* (Qazax); – *Ay qıldıxsız, niyə xavar vermədin ki, mə:llimnən mən də görüşeydim* (Borçalı); – *Ayə, a qıldıxsız, sən nağayrıfsan* (Tovuz).

**QILDIR** (Lerik, Yardımlı) – kök adam.

**QILDIRQAŞ** (Balakən) – fırıldaqçı.

**QILDIRQIJ** (Basarkeçər) – bax **qıldırqaş.**

**QILDIZ** (Ucar) – təmizkar. – *Müsüslüdə Bəbir kişinin qızı Kübra qıldız adamdı, o, özgənin pişirdiyi xörəyi də, çörəyi də yeməz.*

**QILĞINA** I (Qazax) – yabanı bitki adı. – *Dur, bir qujax qılğınə:ti inəy yesin.*

**QILĞINA** II (Şəmkir) – boğaz yarası. – *Qılğına olanda gərəxʹ kəsilə, sümüyə tüşsə, adam ölər.*

**QILICDÜM** (Bakı) – bax **qılıncdüm.** – *Qılıcdüm quyruğuynan sancır.*

**QILIÇ** (Gəncə, Şəmkir, Tovuz) – bax **qılınc** III. – *Haravanın qılıçını gəti, qoşajam* (Gəncə); – *Öküzdərin ipini qılıça keçir* (Şəmkir).

**QILIF** (Şəki) – bax **qilif** II. – *Yorğanın ikisinin qılıfını söküf yümüşəm.*

**QILIJ** (İmişli) – xalçaçılıqda işlədilən alət adı.

**QILIJDAMA** (İmişli) – xalçaçılıqda işlədilən qılıj alətilə toxunma. – *Qabağ vaxlar qılıjdama çuxa geyəllərdi.*

**QILIJDAMAĞ** (İmişli) – xalçaçılıqda işlənən qılıj adlı alətlə toxumaq. – *Adam vardı bi gündə qılıjdeyırdı çuxalığ şalı.*

**QILIMLAMMAX** (Qazax) – həvəslənmək. – *Qılımlandı ki gəlsin, sonra no:ldusa gəlmədi.*

**QILINC** I (Çənbərək, Göyçay, Hamamlı) – bax **qiliç.** – *Uşaxlar dağın qılıncına çıxmışdı* (Çənbərək).

**QILINC** II (Ucar) – bax **qılıj.** – *Qılıncnan sap toxuyullar xanada.*

**QILINC** III (Kürdəmir) – boyunduruq ilə dişləni birləşdirən ağac.

**QILINCDÜM** (Bakı) – əqrəb. – *Qılıncdüm bərk sancır adamı.*

**QILINDOV** (Quba) – boyunbağı. – *A xala, qılındov qirildi.*

**QILIS-QILIS** (Zaqatala) – səfeh-səfeh. – *Qılıs-qılıs danışma!*

**QILIŞ** I (Daşkəsən, Göyçay) – bax **qiliç.** – *Ay dədə, qoyunnar qılışdan o üzə aşdı* (Daşkəsən).

**QILIŞ** II (Xanlar) – bax **qılıj.** – *Qılışnan ölkən toxuyurux.*

**QILIŞ** III (Daşkəsən) – bax **qılınc** III. – *Qılışı dişdiyə keçire:rixʹ.*

**QILQA** (Əli Bayramlı) – əvvəllər əkilmiş yerdə sonralardan üçüncü dəfə bitən taxıl. – *Gedək, qılqanı yığağ.*

**QILQILANI** (Gədəbəy) – sıra, sıra ilə düzülmüş (dağ). – *Gəzə:n qılqılanı dağları yayın orta:yı <orta ayı>.*

**QILQISDI** (Gədəbəy) – zəif, cansız. – *Qılqısdı adam nə bajarar daş daşımağı?*

**QILQURT** (Şəmkir) – ziyanverən qurd adı. – *Qılqurt nəzixʹ qurtdu, qoyunun içindo:lur, öldürür.*

**QILLAMMAX** (Zəngilan) – sallanmaq. – *İlan ağaşda qıllaner.*

**QILLI** I (Qubadlı) – *məc.* – anlamaz, qanmaz. – *Ay qıllı, heş bilirsən nə danışırsan?*

**QILLI** II (Qazax) – *məc.* varlı, dövlətli. – *Qıllı şıxlılardan biri bizə:lib.*

**QILLICA** (Çənbərək, Kürdəmir) – yabanı bitki adı. – *Qıllıcanı uşaxlar yi:r* (Kürdəmir); – *Qıllıcadan düdüx′ qayırır uşax* (Çənbərək).

**QILLORU** (Kəlbəcər) – xırda dolu. – *Böyün genə qılloru yağır.*

**QILO:ŞA** (Oğuz) – b a x **qılovşa.** – *Qılo:şa axlına gələni danışar.*

**QILOVŞA** (Tovuz) – xəbərçi. – *Qılovşa adamnan zəhləm geder.*

**QILOY: QILOYUNU ALMAX** (Basarkeçər, Tovuz) – kəsər alətlərinin ağzını qayışa və ya daşa çəkməklə itiləmək. – *Oruc, baltanın qıloyunu al* (Tovuz).

**QILOYLAMAX** (Basarkeçər) – kəsər alətlərinin ağızını qayışa və ya daşa çəkməklə itiləmək.

**QILOYLU** (Göyçay) – *məc.* acıqlı. – *Kişi qıloylu gəlmişdi.*

**QILOYŞA** (Şəmkir) – b a x **qılovşa.** – *Qıloyşa adam ara vurar.*

**QILOYŞALIX** (Şəmkir) – xəbərçilik. – *Qıloyşalıx çox pis şeydi, adamı hörmətdən saler.*

**QILOZ** (Xanlar) – dəyirmanda şahad vermək üçün ölçü qabı. – *Dədə-bavadan bir put üç qıloz şahaddı.*

**QILPIN** I (Cəbrayıl, Yardımlı, Zəngilan) – otun toxumlu hissəsi. – *Qılpın yapışıf corabıma, qopbur* (Cəbrayıl).

**QILPIN** II (Basarkeçər) – xəstəlik (malın dilində). – *O qədər inək görmüşəm ki, qılpınnan belə:lif gennənif.*

**QILVIZ** (Gədəbəy, Gəncə, Qazax, Tovuz) – b a x **qıvız.** – *Qılvız adama xoşum gəlmir* (Tovuz); – *O, qılvız adamdı* (Gədəbəy).

**QILVIZDIX** (Tovuz) – b a x **qılbızdığ.** ◊ **Qılvızdığ eləməx′** – xəbərçilik etmək. – *Qılvızdığ eləmə, oğul, düzdüx′ hər şeyi axırda yenir.*

**QILYAZDI** (Cəbrayıl) – xəbərçi. – *Qılyazdı xəbərnən çıxıf gəlif atıla-atıla.*

**QIMBALAX** (Çənbərək) – b a x **qamqalax** II. – *Odunun qımbalağını bir yerə yığın.*

**QIMCANMAX** (Cəbrayıl, Şərur) – tərpənmək, hərəkət etmək. – *Heç bi qımcanır ki, sözümü de:m* (Şərur).

**QIMCIRRAMAX** (Gədəbəy, Hamamlı, Qazax, Şəmkir, Tovuz) – atmaq. – *Ağajı harya qımcırradın?* (Qazax); – *Hara qımcırradın o çuvuğu?* (Gədəbəy); – *Qolunnan tutuv elə qımcırrıyaram ki, ordə:ğın yerə dəyməz* (Tovuz); – *Əysiyi ha:na qımcırradın?* (Şəmkir).

**QIMÇIMMAX** (Meğri) – b a x **qımcanmax.** – *Dövrüşün qatırı əvəl ifdirada hələ qımçımmer.*

**QIMĞIMAX** (Qazax) – atmaq.

**QIMI** (Çənbərək) – yabanı bitki adı. – *Bir qucaq qımı yığmışdı Alı.*

**QIMIĞI** (Xanlar) – 1. qıvraq. – *Gör Nuru nejə də qımığı oğlandı!;* 2. səliqəli, xoşagələn. – *Bajoğlu, bu qımığı ayaqqabını sa: kim tikif?*

**QIMIX** (Ağcabədi) – b a x **qımığı.** – *İsə mə:llim qımıx geyinif.*

**QIMILDAMMAX** I (Cəbrayıl) – tərpənmək, hərəkət etmək. – *Heş yerinnən qımıldammır, elə bil onu çağırmıllar.*

**QIMILDAMMAX** II (Qazax) – parıldamaq. – *Əhmədin gözü qımıl-qımıl qımıldaner.*

**QIMILMAX** I (Cəbrayıl) – tərpənmək, hərəkət etmək. – *Qımıl görəx′ neyniyəssən.*

**QIMILMAX** II (Borçalı, Cəbrayıl, Çənbərək, Meğri, Zəngilan) – qaçmaq. – *Mən elə qımıldım kin, heç kəs dalımnan tutammadı* (Borçalı); – *Burdan qımıl, heç kim görməsin səni* (Çənbərək); – *Gümüş, başã: dönim, qımıl, bir patıl su gəti* (Meğri); – *Qımıl, əvdən kərəntiyi gəti mã:* (Zəngilan); – *İsrafil dükana qımıldı* (Cəbrayıl).

**QIMIR** (Cəbrayıl) – hirs, hikkə.

**QIMITMAX** (Füzuli) – b a x **qımılmax.** – *Dünən Həsən gördü ki, onu əzişdirəjəm, əlüsdü qımıtdı.*

**QIMIY** (Qax) – b a x **qimil.**

**QIMIZ** I (Şərur) – mürəkkəb. – *Qaba qımız tök.*

**QIMIZ** II (Ağdam) – turş. – *Bu çörəx′ laf qımızdı.*

**QIMIZDAMMAĞ** (Sabirabad) – b a x **qımqımmax.** – *Sən nə çox qımızdanırsan?*

**QIMIZMAX** (Şuşa, Tovuz) – uyuşmaq. – *Südə yenijə çalası töx′müşəm, hələ heç qımızmıyıf da* (Tovuz).

**QIMQAL** (Tabasaran) – b a x **qimqar.** – *Qımqal çux xırdədü.*

**QIMQIMA** (Şəmkir) – zümzümə. – *Ağız, genə nə qımqımıya qurşanıfsan, duruf işini tutsana!*

**QIMQIMI** (Basarkeçər, Qazax, Şəmkir) – b a x **qımqıma.** – *Yolnan qımqımı çala-çala gedirdi* (Basarkeçər); – *Məşədi dodağının altında qımqımı çaler* (Qazax).

**QIMQIMMAX** (Meğri) – tərpənmək.

**QIMMAX** (Qazax) – qıymaq. – *Ə:, gözüŋü maŋa sarı niyə qımersaŋ?; – Günü-zadı nə başa tüşər, a munun canı ölsün, gözünü qımmağına bax!*

**QIMLAMAX** (Zəngibasar) – nişan almaq.

**QIMPALAX** (Gədəbəy) – b a x **qımbalax.** – *Qımpalaxları yəti piçi qızdır görəxʹ.*

**QIMZAMAX** (Zəngəzur) – qaldırmaq. – *Mən dolı çovalı qımzıya billəm.*

**QIMZAMMAX** I (Cəbrayıl) – b a x **qımqımmax.** – *Qımzamdım, durə:lmədim.*

**QIMZAMMAX** II (Çənbərək) – utanmaq, çəkinmək. – *Gəlin heş kəsdən qımzammır.*

**QIMZIMMAX** (Tovuz) – uyuşmaq (südə aiddir). – *Südü yenicə çalmışam, hələ heç qımzımmıyıf da.*

**QIN** I (Qax, Şəki, Zaqatala) – lobyanın, fındığın yaşıl üst qabığı. – *Sən lovyanın qının təmizdə, mən də hindi gəlirəm* (Zaqatala); – *Lövyəni dənəliyif qınını mala verillər, mal yiyir; – Fındıx kal olanda qınınnan çıxmaz* (Şəki).

**QIN** II (Salyan) – çevrə, dairə. – *Gəl qın çək, maqqulı oynıyağ.*

**QINAĞ: QINAĞ ELƏMAX** (Şəki, Yardımlı) – danlamaq, məzəmmət etmək. – *Qınağ eli:llərdi ki, baramanı yaxşı işdəməmisən* (Şəki).

**QINAMISIX** (Borçalı) – istehzalı. – *Qınamısıx de:rdilər, yə:ni əysixʹ söz de:rdilər.*

**QINC** (Şamaxı) – naz, qəmzə. – *Kiprigin ox kimidi, qaşın qılınc. Bu nə işvədir edirsən, bu nə qınc?* ◊ **Qınc atmax** (Hamamlı). – *A:z, niye qınc atersan?*

**QINCA-QINCA** (Çənbərək) – xırda-xırda. – *Əti çox qınca-qınca doğrama, bir az iri doğra.*

**QINCAMMAĞ** I (Bakı) – gərnəşmək. – *Adam adam olan yerdə qıncammaz; – Nə qıncanırsan belə?*

**QINCAMMAĞ** II (Bakı, Şamaxı) – *məc.* naz etmək. – *Yaman qıncanırsan a:, genə no:lub belə?* (Bakı); – *Qolunda var mərcanı, Əl vurmamış qıncanı* (Şamaxı).

**QINCAMMAĞ** III (Yardımlı) – güc sərf etmək, gücə salmaq. – *Çox qıncamma, ürəggöbəgün düşər.*

**QINCAMMAX** I (Şuşa) – b a x **qıncammağ** I.

**QINCAMMAX** II (Basarkeçər) – b a x **qıncammağ** II.

**QINCIQ-QINCIQ** (Tovuz) – b a x **qıncaqınca.** – *O əti elə eliyərsən ki, qıncıq-qıncıq, duruf dolma pükəjəm.*

**QINCITMAX** (Hamamlı) – azacıq kəsmək.

**QINDAB** (İrəvan) – nazik ip.

**QINDAX** (Basarkeçər) – azca, bir az.

**QINDI** (Ağcabədi, Ağsu, Cəbrayıl, Əli Bayramlı, Füzuli, İmişli, Kəlbəcər, Kürdəmir, Şamaxı, Şuşa, Tovuz, Ucar) – südlə undan bişirilən yemək, horra. – *Nənə, bir qındı bişir* (Kəlbəcər); – *Axşam de:irdi:* – "*Qındı pişirmişəm*" (Ağcabədi); – *Öydə qındı ye:b gəlmişəm* (Ağsu); – *Sə:r qındı yemək xoşuma gəlir* (Füzuli); – *Qındını qocalar da ye:ir, uşaxlar da ye:ir* (Ucar).

**QINDIR** I (Qazax) – keçəl.

**QINDIR** II (Tovuz) – sınıq.

**QINDIRĞA** I (Ağdaş, Kürdəmir, Mingəçevir, Oğuz, Salyan, Tovuz) – yabanı bitki adı. – *Qındırğa havardı, damların üsdə-zada yapıllar* (Oğuz); – *Bax, buna da qındırğa de:illər* (Tovuz).

**QINDIRĞA** II (Bakı) – kilkə. – *Ay balam, belə yuvallar yuni, qındırğa eliyib qoymusan ki?*

**QINDIRĞA** III (Cəlilabad, Culfa) – möhkəm kəndir.

**QINDIRĞA** IV (Salyan) – çox arıq. – *Qındırğa qoyunun nə əti olacağ.*

**QINIF** (Biləsuvar) – b a x **qilif** II. – *Döşəyin qınıfı lap köhnəymiş.*

**QINILĞAMAX** (Çənbərək) – 1. saxlamaq; 2. gizləmək. – *Saŋa bir qırıx qaymax qınılğamışam.*

**QINİY** (Qax) – qarğıdalı çörəyi. – *Qıniyi yedim.*

**QINQA** (Cəlilabad) – turşəng. – *Qınqa çox turş olur.*

**QINQILI** (Ağbaba) – xırdaca, balaca. – *Sənin qınqılı boyun var.*

**QINQILIX: QINQILIX SALMAX** (Böyük Qarakilsə, Çənbərək) – hay-küy salmaq. – *Qonşudan ayıfdı, öydə qınqılıx salma!* (Çənbərək).

**QINQITMAX** (Tərtər) – çömbəlib oturmaq. – *Armudan bəyi kimin nə qınqıdıfsan orda?*

**QINNA** (Ağbaba) – tıntın. – *Qınna Mahmud bizə gəlifdi.*

**QINNAX** (Çənbərək, Karvansaray, Tovuz) – b a x **qındax.** – *Sajda qınnax qardalı qortdatdım <qovurdum>, yedi uşax* (Çənbərək).

**QINNAJIX** (Tovuz) – azca, azacıq. – *O yağdan qınnajıx ma: ver, lazımdı.*

**QINNAMAX** (Ağcabədi) – b a x **qınılğamax.** – *Sözü qınnama, düzün de!*

**QINT** (Qarakilsə, Ordubad) – künc. – *Bu əvin qıntı çökübdü* (Ordubad); – *Qıntdan o tərəfə dön, elə mağazin ordadı* (Qarakilsə).

**QINTIR** (Salyan) – arıq, zəif. – *Qıntır qoyın süt verməz.*

**QINTIRĞI** (Lənkəran, Salyan) – b a x **qındırğa** I.

**QINTZAL** (Zaqatala) – kiçik zoğ. – *Ağacdan bi qıntzal ver.*

**QIP** (Zaqatala) – dərhal, tez. – *Seslerin qıp kesdiler.*

**QIPÇAĞ** I (Astara, Cəlilabad, Kürdəmir) – kip (geyim haqqında). – *Əli qıpçağ geyindi* (Cəlilabad); – *Qoca arvada bıqqədir qıpçağ geymək ayıbdı* (Kürdəmir).

**QIPÇAĞ** II (Yardımlı) – bərk, möhkəm. – *İpi qıpçağ çək, yük sallanmasun.*

**QIPIĞ** (Kürdəmir) – qorxaq. ◊ **Qıpığ eləməxʹ** (Ağdam, İmişli) – qorxaq eləmək. – *Sən yazığı lap qıpığ eləmisən!* (Ağdam); – *Sən yap qıpığ eləmisən bı uşağı* (İmişli).

**QIPIX** (Cəbrayıl, Qazax, Ordubad) – b a x **qıpığ.**

**QIPILMAX** (Cəbrayıl, Şəki) – qaçmaq. – *İt yola sarı qıpıldı* (Cəbrayıl); – *İsa, tez qıpıl gör dayın gəlifdimi?* (Şəki).

**QIPIMMAĞ** (İmişli) – b a x **qıpılmax.** – *Gədə qıpındı, tüşdü quşun üssünə.*

**QIR** I (Basarkeçər, Şərur) – dəmyə. – *Qır demi yerrərə de:rixʹ* (Basarkeçər).

**QIR** II (İmişli, Kürdəmir, Ucar) – əyri. – *Qır həvə ərişi qırıb tökür* (İmişli); – *Qır ağac tikintidə yaramaz* (Ucar).

**QIR** III (Gəncə, Oğuz, Ucar) – arabada təkəri saxlamaq üçün oxa keçirilən dəmir hissə. – *Qır olmasa, teleqi təkər oxda durmaz* (Oğuz); – *Vəli aravıya qır saldı* (Gəncə); – *Arabanın oxu qırın arasında fırranır* (Ucar).

**QIR** IV (Balakən, Qax, Zaqatala) – sümük.

**QIR** V (Salyan) – xəsis.

**QIR** VI (Salyan) – tamam, büsbütün. – *Ət qır yağdu.*

**QIRA** I (Qazax, Naxçıvan, Ordubad, Şərur, İrəvan, Zəngilan) – kiçik qovun. – *O ağ yemiş, bir də qıra çox şirin olor* (Qazax); – *Bu il bir küpə qıra turşuya qoymuşam* (İrəvan); – *Bossanda qıra çoxdi* (Naxçıvan); – *Mən sirkə qırasın yığıram* (Ordubad).

**QIRA** II (Ağdam, Kürdəmir, Sabirabad, Salyan, Ucar, Zərdab) – tilov. – *Balığı qıreynan tuturux* (Kürdəmir); – *Qıra suya tüşdi* (Salyan).

**QIRA** III (Sabirabad, Salyan) – paltarasan. – *Al bu pencəyi qıradan as* (Sabirabad).

**QIRABLI** (Quba) – b a x **qirabli.**

**QIRACAX** (Qazax, Qubadlı) – qoşqu heyvanın dırnağını kəsmək üçün alət. – *Qıracağı gətir, atı nallıyım* (Qazax); – *Sən hələ qıracax tutmağı öyrənməmisən* (Qubadlı).

**QIRAÇ** (Çənbərək) – b a x **qıraz.** – *Nar ağacında qıraç boldu.*

**QIRADİLLİ** (Şəmkir) – ikiüzlü. – *Burda qıradilli adam yoxdu.*

**QIRAXLAMAX** I (Ağdam, Çənbərək, Gəncə, Karvansaray, Qazax) – bu və ya digər bir şeyin qırağını kəsmək, təmizləmək. – *Bı taxdanı qıraxla görüm* (Ağdam); – *Bu vaxdacan bir parça gönü qıraxlamamısan?* (Gəncə)

**QIRAXLAMAX** II (Karvansaray, Qazax) – sacda bişirilən çörəyin qıraqlarını yenidən bişirmək. – *Xamralını qıraxla, ver bəri* (Qazax); – *İsdi kərpicin üsdə qıraxladım xamralını* (Karvansaray).

**QIRAXLIX** (Borçalı) – çələngə (taca) tikilmiş pullar. – *Qıraxlıx gümüş puldan da olar dingədə.*

**QIRAN** (Göyçay) – tağda saxlanılan yemiş. – *Tağda iki-üç yemiş olur, ikisin kəsəllər, biri qalar, ona qıran deyəllər.*

**QIRAŞ** (Basarkeçər, Çənbərək, Gədəbəy, Xanlar) – daşlı, susuz yer. – *Qıraş yerdi bura əxʹmə, məhsulu olmaz;* – *Mənim yerim qıraşdı*

*deyin ot bitmir* (Çənbərək); – *Qıraş yerdi bura, qartov əmələ:lmer heş* (Gədəbəy); – *Qijax qıraş yerrərdə pitər* (Xanlar).

**QIRAŞDIX** (Çənbərək) – əkin üçün yararsız, daşlı, susuz (yer). – *Bura qıraşdıxdı, burda heş zad bitməz.*

**QIRAZ** (Ordubad) – kitrə. – *Ağajdan qırazı qopart.*

**QIRB** (Meğri) – qiymət, dəyər. – *Nüyədidə daşın, turpağın qırbi var.*

**QIRBAQIR** (Bakı, Salyan) – ağzına qədər. – *Bu vedrəni nöşün belə qırbaqır doldurmısan, aparmağ olmur* (Bakı); – *İnəyin gündə bi vedrə qırbaqır südü olur* (Salyan).

**QIRBORA: QIRBORA OLMAX** (Basarkeçər, Çənbərək, Gədəbəy, Goranboy, Qazax, Tovuz) – həddindən artıq duzlu, şor olmaq. – *Xörəx′ qırbora olmuşdu, yeməy olmadı* (Basarkeçər); – *Xörə: oxartan duz töküfsən ki, qırbora oluf* (Qazax); – *Xörəx′ qırbora oluf, heş dilə vurmağ olmur* (Gədəbəy).

**QIRC** (Gədəbəy) – b a x **qırç.** – *Heyvanın qavağınnan çıxan qırcı gətirin, tonqal qala:n burda.*

**QIRCA** (Zaqatala) – qərzək.

**QIRCANAX** (Meğri) – qığılcım. – *Ocaxdan bir qırcanax tüşür tayya.*

**QIRCAP** (Zaqatala) – b a x **qırca.**

**QIRCAVA: QIRCAVA ELƏMƏX′** (Cəbrayıl, Zəngilan) – həddindən artıq duzlu, şor etmək. – *Xörəyi qırcava eləmisən, heş yeməy olmur* (Zəngilan).

**QIRCILLIX** (Gədəbəy) – xırda daşlı (yer). – *Qırcıllıx yerdə yaxşı şey əmələ:lmer.*

**QIRCIN** I (Culfa, Şərur, Zəngilan) – b a x **qırçın.** – *Qırçını yandırrıx qışda* (Culfa).

**QIRCIN** II (Cəbrayıl) – həddindən artıq duzlu, şor.

**QIRÇ** (Gədəbəy) – mal-qara yeyəndən sonra otun qalan qırıntıları. – *Mal alaflananda axırda qaler qırçı.*

**QIRÇI** I (Əli Bayramlı, Ucar) – çoxdanışan, zəhlətökən. – *Biz çoxdanışana qırçı diyirik* (Əli Bayramlı); – *İbad çox qırçı adamdı* (Ucar).

**QIRÇI** II (Ağsu, Basarkeçər, Böyük Qarakilsə, Daşkəsən, Əli Bayramlı, Gədəbəy, Goranboy, Hamamlı, Xanlar, Kürdəmir, Qubadlı, Oğuz, Salyan, Tərtər, Zərdab) – b a x **qırtçı.** – *Hacı Qara olduxca qırçı adamdı* (Oğuz); – *Qırçı adamın öz malı özünə qismət döy* (Daşkəsən); – *Qırçı pul xaşdamır* (Tərtər); – *Sən nə yaman qırçı adamsan!* (Qubadlı); – *Qo:şumuz Səməd çox qırçı adamdı* (Əli Bayramlı); – *Dö:lətdilər qırçı olullar* (Kürdəmir).

**QIRÇIL** (Qarakilsə) – xəsis.

**QIRÇILIĞ: QIRÇILIĞ ELƏMƏK** (Ağsu, Ucar) – 1. zəhlətökənlik etmək (Ucar). – *İbad qırçılığ elədi, şifir aldı;* 2. xəsislik etmək (Ağsu). – *Mal alanda qırçılığ eləməzzər.*

**QIRÇIN** (Cəbrayıl, Qarakilsə) – mal-qara yeyəndən sonra otun qalan qırıntıları. – *Heyvan yaxçı yemir qırçınnarı* (Qarakilsə).

**QIRD** (Lənkəran, Yardımlı) – tamam. – *Buy, dədəm qırd aradan çıxıb* (Lənkəran).

**QIRDAN** (Zaqatala) – əsgi, siləcək.

**QIRDIQIS: QIRDIQIS ELƏMƏK** (Salyan) – 1. qənaət etmək. – *Biraz qırdıqıs elə, axıracan çassın;* 2. xəsislik etmək.

**QIRDIQISSIĞ** (Salyan) – 1. xəsislik. – *Əli əsə-əsə qırdıqıssığnan ortaya yiməg qoydı;* 2. qənaətcillik.

**QIRDIMA** I (Meğri) – yeyin, sürətlə. – *Xavar qırdıma gəldi, genə qeyitdi getdi.*

**QIRDIMA** II (Füzuli) – üçüncü şum. – *Pərşumu kəsmə: qırdıma de:lir.*

**QIRDIRMA** I (Qarakilsə) – b a x **qırdıma** I. – *Durdum ordan qırdırma endim Qarakilsə:.*

**QIRDIRMA** II (Füzuli) – b a x **qırdıma** II.

**QIRDIRMA** III (Cəbrayıl) – gödək. – *Simizar bir qırdırma don tikif.*

**QIRDIRNAĞ** (Salyan) – xəsis. – *Qırdırnağ adamın pılı çox olar.*

**QIRDIRNAX** (Çənbərək) – b a x **qırdırnağ.** – *Namazın gəlini kimi qırdırnax adam tapılmaz.*

**QIRD-QIRDƏ: QIRD-QIRDƏ OTURMAĞ** (Lənkəran) – diz-dizə oturmaq. – *Bö:g nənəmnən oturmuşduğ qırd-qırdə.*

**QIRDUZ** (Tovuz) – həddindən artıq duzlu, şor. – *Xörəx′ laf qırduzdu.*

**QIRHQIZYÜMƏZ** (Gədəbəy) – gövşəyən heyvanların qarnı ilə qursağı arasındakı həzm üzvü. – *Qırhqızyüməzi hər arvat təmiz yüəmməz.*

**QIRXDAMAR** (Şamaxı) – *məc.* dözümlü. – *Fərhad yaman qırxdamar adamdı.*

**QIRXDİLLİ** (Qubadlı) – *məc.* ikiüzlü. – *Qırxdilli adamnan xeyir görməy olmaz;* – *Qırxdilli adamın ömrü az olar.*

**QIRXDÜYMƏ** (Salyan) – sırğa. – *Uşağın qırxdüyməsi qulağınnan düşib itib.*

**QIRXILIĞ** (İmişli, Saatlı, Sabirabad) – qayçı (qoyun qırxmaq üçün).

**QIRXILIX** (Culfa, Füzuli, Gədəbəy, Qazax, Qarakilsə, Mingəçevir, Şəmkir, Zəngəzur) – b a x **qırxılığ.** – *Qırxılığı burya gəti, qoyunu qırxıram* (Zəngilan); – *Qırxılığı itilə:ŋ* (Gədəbəy); – *Qoçağ adam qırxını, əllisini qırxar qırxılıxnan bir gündə* (Şəmkir).

**QIRXIN** (Qubadlı) – qayçı (qoyun qırxmaq üçün). – *Qırxını itilət.*

**QIRXINÇI** I (Qazax) – qoyunqırxan adam. – *Mən də qırxınçıya bir qoyun verdim.*

**QIRXINÇI** II (Çənbərək) – xəsis. – *Həsən çox qırxınçı adamdı.*

**QIRXINTI** (Qazax) – ilmədən kəsilən ip (hanada).

**QIRXLAMAX** (Ucar) – 1. yuyundurmaq – yeni doğulmuş uşağın qırxı çıxanda onu və anasını çimdirmək. – *Su qoy, uşağı qırxlıyax;* – *Anam uşağı qırxladı;* 2. it toxunan qabı qırx dəfə su ilə yuyub təmizləmək. – *İt boşqaba toxunsa, biz onu qırxlıyırıx.*

**QIRXLIX** (Ordubad) – b a x **qırxılığ.** – *Əli gətirən qırxlıx yaxşı kəsir.*

**QIRIC** (Gədəbəy, Zaqatala) – b a x **qıraş.**

**QIRIM** I (Qax, Şəki, Şuşa, Zaqatala) – görkəm. – *Uşaxların qırımını yaxçı görmədim* (Qax); – *Büyün qırımın çox pisdi* (Şuşa).

**QIRIM** II (Ağcabədi, Cəbrayıl, Füzuli, Göyçay, İmişli, Kürdəmir, Qazax, Quba, Mingəçevir, Oğuz, Ordubad, Salyan, Şamaxı, Şəki) – meyl, həvəs, fikir, məqsəd. – *Əlsəfərin qırımı oxımağdı* (Salyan); – *Mənim bu işə hiç qırımım yoxdu* (Quba); – *Sənin qırımınnan mən heç nə alme:ram* (Qazax); – *Arvadın qırımı vardı ki, iş düzəlsin, Atdıxan qoymadı* (Ağcabədi); – *Qırımı var alarsan, olmaz gələrsən* (İmişli).

**QIRIMLAMMAX** (Qazax) – həvəslənmək. – *Qırımlandı kı, gəlsin, sonra no:ldusa gəlmədi.*

**QIRIMYAYİ** (Quba, Şamaxı) – qövsiqüzeh. – *Yağuşdan su:ra güydə qırımyayi uladu* (Quba); – *Qırımyayini mən çox görmüşəm* (Şamaxı).

**QIRINC: QIRINC TÜŞMƏK** (Qax) – dolaşmaq, pırtlaşıq düşmək. – *Anam ip açırdı, ipi qırınc tüşdüyüçün çox əyləndi.*

**QIRIP** (Zaqatala) – basmadüymə. – *Qırıpı köynəyə tik.*

**QIRİ VERMƏG** (Yardımlı) – acıq vermək, uzaq gəzmək, yaxın gəlməmək. – *Nə qıri vereysən mə:?*

**QIRJA: QIRJA OLMAX** (Gədəbəy, Xanlar) – çallaşmaq. – *Oğlu da atası kimi tez qırja oldu* (Xanlar).

**QIRQƏYİŞ** (Yardımlı) – dözümlü, səbirli. – *Yaman qırqəyiş adammış.*

**QIRQIMIZ** (Oğuz) – böyürtkən koluna oxşar yabanı bitki adı. – *Qırqımız ye:lmir, bö:rtkana oxşuyur, amma yarpaxları tüt göy olur.*

**QIRQIR** (Hamamlı) – uşaq oyunu adı. – *Qırqır oynuyanda biri deyirdi: "Bir quşum var bir belə, qanadları bir belə".*

**QIRQIRA** I (Qazax) – otsuz, susuz yer. – *Atı qırqırada səyirdif yormuşam.*

**QIRQIRA** II (Şəki) – sarı barama. – *On girvəngə qırqıra alajam.*

**QIRQIRAMA** (Ağdam) – həddindən artıq duzlu, şor. – *A bala, bu qırqıramadı, munu yeməy olmaz.*

**QIRQIRAY** (Qax, Zaqatala) – qarğıdalı unundan bişirilən xörək.

**QIRQIT** (Zaqatala) – toxuculuq aləti (xalçaçılıqda).

**QIRQITƏ** (Meğri) – qarmaq. – *Əminə qırqıtəni itirdi.*

**QIRQQAT** (İmişli) – gövşəyən heyvanların qarnı ilə qursağı arasındakı həzm üzvü. – *Əvvəl qarındı, so:ra qırqqatdı.*

**QIRMA** (Göyçay, Zəngilan) – 1. pöhrə (Göyçay). – *Qurda qırma veririk;* 2. oduncaq (Zəngilan). – *Meşədə bir az qırmam var, eşşəyi apar, onu gəti.*

**QIRMABADAM** (Şəki) – halva növü adı. – *Qırmabadamı bişirillər düyü ununnan, qozdan, findıxdan.*

**QIRMALIX** (Basarkeçər, Göyçay, Qubadlı) – xırda palıd ağacları olan yer. – *Biz qırmalıxdan keçə bilmədix′* (Basarkeçər); – *Dəhrə qırmalıxda qalıb* (Qubadlı).

**QIRMƏMƏKÖY** (Tovuz) – həddindən artıq duzlu, şor. – *Bu nədi pişirifsən, qırməməköydü, yiməx′ də olmur.*

**QIRMIZIBALDIR** (Cəbrayıl, Qazax) – yeməli yabanı bitki adı. – *Do:ğıya tökməyə bir dəsdə qırmızıbaldır gəti* (Qazax).

**QIRMIZIDON** (Sabirabad) – ağacdələn. – *Bura iki dənə qırmızıdon düşübdü.*

**QIRMIZI: QIRMIZI BADIMCAN** (Çənbərək, Naxçıvan, Ordubad, Şərur) – pomidor. – *Mən qırmızı badımcanı çiy-çiy yi:rəm* (Naxçıvan).

□ **Qırmızı qurşax** (Çənbərək) – qövsi qüzeh. – *Qırmızı qurşax yağışdan sonra olur.* **Qırmızı mal** (Ağcabədi) – inək. – *Biz qırmızı mal inəx′ cinsinə de:rix′.* **Qırmızı cücə** (Füzuli) – çəyirtkə. – *Bəhmənnidə qırmızı cücə laf çox olur.* **Qırmızı şəlil** (Kürdəmir) – çəltik növü adı. – *Burda qırmızı şəlil də olur.*

**QIRNA** I (Ağbaba) – səki. – *Üç qırna gedənnən so:ra evə çatarsan.*

**QIRNA** II (Cəbrayıl, Daşkəsən) – su kranı. – *Qırneyi bağla* (Daşkəsən); – *Uşaxlar qırnadan su doldurullar* (Cəbrayıl).

**QIRNAZ** (Füzuli) – b a x **qirnis.** – *Şahlar çox qırnaz adamdı.*

**QIRNES** (Zəngilan) – b a x **qirnis.** – *Elə qırnes adamdı, pıl xaşdama: da qiymir.*

**QIRNIX** I (Gədəbəy, Yevlax) – azacıq. – *Əlində bir qırnıx alma vardı* (Yevlax). – *Get bir qırnıx duz gəti* (Gədəbəy).

**QIRNIX** II (Gədəbəy, Gəncə) – sınıb və ya kəsilib yerə tökülmüş ağac budaqları, qırıntıları. – *Maşını düz qırnıx olan yerətən sür* (Gədəbəy).

**QIRNIS** (Salyan, Zəngilan) – b a x **qirnis.**

**QIRNİS** (Əli Bayramlı, Salyan, Yardımlı) – b a x **qirnis.**

**QIROY** (Qazax) – lorudanışan.

**QIRP** (Salyan) – qılçıq. – *Əlimə qırp batdı, çıxardammədim.*

**QIRPA** (Zaqatala) – başaq.

**QIRPBA** (Çənbərək) – b a x **qırpa.** – *Bajım büyün bir dağarcıq qırpbə:timişdi.*

**QIRPIM** (Şuşa, Yevlax) – başaq. – *Mən bir kisə qırpım yığmışam* (Yevlax); – *Bir torva qırpım yığmışam* (Şuşa).

**QIRPIMMAX** (Şəki) – b a x **qaypımmağ.** – *Mən mə:llimnən qırpınıram.*

**QIRRA: QIRRA VERMƏX′** (Basarkeçər) – lovğalanmaq. – *Məmmədqulu yaman qırra verir bizə.*

**QIRRAMAĞ** (İmişli) – əymək. – *Boynuvı ginə nə qırramısan?;* – *Gördüm şitil boynın qırrıyıb.*

**QIRRAMAX** I (Qarakilsə) – qeyri-adi (qır kimi) ifraz etmək. – *Quzuların hammısı qırrıyır.*

**QIRRAMAX** II (Ucar) – udmaq, oyunda qalib gəlmək. – *Bizim dəsdə Kərimgilin dəsdəsini qırradı.*

**QIRRAŞMAĞ** (Lənkəran) – səsi tutulmaq.

**QIRRAŞMAX** (Zəngilan) – təkid etmək. – *Hamısı qırraşdı kin, bizi apar at Ağalıya, qeyid.*

**QIRRAVAZ** (Qazax, Tovuz) – lovğa. – *Zalxa yaman qırravaz adamdı* (Qazax); – *Qırravaz olma Əli kimi* (Tovuz).

**QIRRAVERƏN** (Basarkeçər) – lovğa. – *Məmmədqulu yaman qırraverən oğlandı.*

**QIRS** (Şəki) – xəmir xörəyi adı. – *Biz qırs çox bişirrıx.*

**QIRS-QIRS: QIRS-QIRS OLMAX** (Balakən) – yumru-yumru olmaq (torpağa aiddir). – *Torpax qırs-qırs oldu.*

**QIRT** (Qazax) – b a x **qart** I. – *Veyis oğlu Qəfər çox qırt adamdı, o:nçun da adına qırt Qəfər de:llər.*

**QIRT** II (Oğuz) – b a x **qırd.** – *Ədə, sən əti qırt yemisən ki.*

**QIRTÇI** (Zaqatala) – xəsis. – *Yaman qırtçıdı, onnan şey çıxmaz.*

**QIRTDAMAĞ** I (İmişli) – xırda-xırda yemək. – *Qoyunu buraxdı dağa, koldan-kosdan qırtdadı.*

**QIRTDAMAĞ** II (İmişli) – qənaət etmək. – *O çitdən biraz qırtdıyıb saxlamışam.*

**QIRTDAMAX** (Şəki, Zəngilan) – oğurlamaq, xəlvəti götürmək. – *Usda parçadan qırtdiyif* (Şəki).

**QIRTDATMAĞ** I (Sabirabad) – b a x **qırtdamağ** I.

**QIRTDATMAĞ** II (Sabirabad) – b a x **qırtdamağ** II.

**QIRTDATMAX** I (Böyük Qarakilsə) tərifləmək. – *Sən özünü qırtdatma.*

**QIRTDATMAX** II (Ağdam, Çənbərək, Gəncə, Mingəçevir, Zəngilan) – b a x **qırtdatmağ** II. – *Ana oğluna qırtdadıf qoz ehtiyatı da saxlamışdı* (Ağdam); – *Bu şəkərdən bir az qırtdat, sabaha saxla* (Gəncə).

**QIRTDATMAX** III (Gəncə) – b a x **qırtdamağ** I. – *Be:jə siçan savağatan nədisə qırtdadırdı.*

**QIRTDATMAX** IV (Çənbərək, Gəncə, Şəki, Zəngilan) – b a x **qırtdamax.** – *Kim ona partar tix'dirsə, höx'mən parçasınnan qırtdadacax* (Zəngilan); – *Hərədən bir qəpix' qırtdatmasa olmaz* (Çənbərək).

**QIRTDİŞ** (Bakı) – yabanı bitki adı.

**QIRTI** (Balakən) – keçə parçası.

**QIRTIM** I (Ucar) – qısaboylu.

**QIRTIM** II (Ağdaş) – büzülmüş, yığılmış. ◊ **Qırtım olmax** – büzülmək, yığılmaq. – *Bu dəri qırtımdı; – Gün dəymiş dəri kimi nə qırtım olmusan?*

**QIRTIM** III (Qax) – xəsis. – *Qırtım adamın pulu çox olar.*

**QIRTIŞ** (İmişli) – ot, yaz otu. – *Qırtış de:rix' yazda pitən ota.*

**QIRTIVOZ** (Hamamlı) – b a x **qırravaz.** – *Qırtıvoz Əli bö:ün yaxşı ge:nif gəzir.*

**QIRTIZ** (Laçın) – əyrilmiş ipi hamarlayan alət. – *Qırtız dəmirdən olur.*

**QIRTİN: QIRTİN VURMAĞ** (Yardımlı) – sakit olmaq, sakitləşmək. – *Uşağ ağladı-ağladı, qırtin vurdi, yatdi.*

**QIRTQIRT** (Kürdəmir) – qabarıq səthli (parça). – *Mənim qırtqırt parçadan donum var.*

**QIRTMAX** I (Meğri) – olduğu kimi qalmaq, inkişaf etməmək. – *Arpa zəmilərinin hamısı qırtıp.*

**QIRTMAX** II (Cəbrayıl) – oturmaq.

**QIRTMAX** III (Qazax) – udmaq. – *Aşığ-aşığ oynadıx, Əli hamımızı qırtdı.*

**QIRTMAX** IV (Ordubad) – b a x **qırtdamax.** – *Dərzi həmin parçadan ginə qırtdı.*

**QIRTMIX** (Cəbrayıl) – odun qırıntısı. – *Ojağı əzəl qırtmıxnan yandırırıx.*

**QIRTO** (Ağcabədi) – ayran.

☐ **Qırt vurmax** (Tərtər) – çəkidə aldatmaq, əskik çəkmək. – *Bü:nnəri o mənnən üş kilo buğda qırt vurdu.*

**QIRVAĞ** (Cəlilabad, Yardımlı) – yeyin, sürətlə. – *Məni məcvur eley ki, qırvağ yereyim* (Cəlilabad).

☐ **Qır vermək** (Yevlax, Gəncə, Şamaxı) – naz etmək. – *Sən qır verma* (Yevlax); – *Nə deyirəm qulağ as, qır verma* (Şamaxı).

**QISDIRMAX** (Gəncə) – qənaət etmək. – *Beşçə manıt qısdırıf saxlamışam, onu da saŋa verdim.*

**QISIRRAMAX** (Mingəçevir) – qənaət etmək.

**QISQAMMAX** (Başkeçid, Borçalı, Xanlar, Qazax, Şəmkir, Tovuz) – qorxmaq. – *Bir yerə gedirdim, elə qısqandım ki* (Başkeçid); – *Elə şeylərdən mən qısqane:ram* (Qazax); – *Yolnan gedəndə qısqandım* (Borçalı); – *Ə:, nədən qısqane:rsan, bəri yəl* (Şəmkir).

**QISQI** (Bakı, Kürdəmir, Salyan) – hədə-qorxu, qorxu. – *Mən qısqıdan qorxan adam döğürəm* (Bakı). ◊ **Qısqı basmağ** (Bakı) – hədələmək. – *Adə, mənə nə qısqı basırsan.*

**QISQOY** (Xanlar, Şəmkir) – quraqlıq. – *Qısqoy olanda əkinimiz yanırdı* (Şəmkir).

**QISMIRIX** (Naxçıvan, Şərur) – qısaboylu.

**QISNAX** (Culfa) – ovucun içi.

**QIŞDAX** (Mingəçevir) – tezyetişən qovun növü adı.

**QIŞDƏMƏĞ** (Yardımlı) – dişləmək. – *Almadan bi az qışdə uşəğə də ver.*

**QIŞQA** (Şəki) – zoğ. – *Ağaşdan qışqa qopardıf, atı çafdı getdi.*

**QIŞQIRMAĞ** (Dərbənd, Tabasaran) – banlamaq. – *Xuruz qışqırədü* (Tabasaran); – *Xoriz qışqırandə kitədü* (Dərbənd).

**QITICI** (Çənbərək) – xəsis. – *Ayvaz qıtıcı adamdı.*

**QITMAX** (Meğri) – b a x **qırtdamağ** II. – *Qəndi də qıteyəm, çayı da qıteyəm.*

**QITMIX** (Ağdam, Gədəbəy) – tikə, qırıq. – *Birjə qıtmıx da verrmədi uşağa əlindəkinnən* (Gədəbəy).

**QITMIR** (Şəki) – b a x **qitmir.** – *Seyid qıtmır adamdı, qəpəyi çıxsa, canı çıxar.*

**QITNƏSİBLİK: QƏTNƏSİBLİY ELƏMƏX'** (Şəki) – qənaət etmək. – *Rasim qıtnəsibliy eli:r.*

**QIVIRTMAX** (Çənbərək) – təkrar soruşmaq. – *Qoja qarılar həmməşə bir söz eşiccəyinə qıvırdıllar.*

**QIVIZ** (Əzizbəyov) – xəbərçi.

**QIVRAX** I (Qusar) – zirək.

**QIVRAX** II (Bərdə) – xırda, balaca kiçik. – *Qıvrax qənd adamın ağzında yaxşı hərrənir; – Qəndi qıvrax doğra.*

**QIVRIXMAX** (Çənbərək) – qurcalanmaq. – *Yerində nə çox qıvrıxırsan, yuxuye:tmirsən.*

**QIVRIM** I (Basarkeçər) – gəlin gedən qıza verilən hədiyyə. – *Toyda qıza qıvrım yığıllar.*

**QIVRIM** II (Çənbərək) – naxış. – *Kömbənin üzünə qıvrım cəx'dim.*

**QIVRIMLAMAX** (Çənbərək) – naxışlamaq. – *Çörəyi qıvrımlıyıf qutardım.*

**QIVRIMLI** (Çənbərək) – naxışlı. – *Qıvrımlı gərdəx'.*

**QIY** I (Çənbərək, Qarakilsə, Zəngilan) – zirvə. – *Dağın qıyınnan aşan dağkeçisini görən kimi Hüseynəlinin tüfəngi açıldı* (Zəngilan); – *Dünən Qızıl qayanın qıyına çıxmışdım* (Çənbərək); – *Telli qotazdı arvatdı, ilap qıyın belinə çıxıf* (Qarakilsə).

**QIY** II (Culfa, Quba, Ucar, Zəngilan) – b a x **qiy.** – *Ayaqqabının qıyını axtarıf tapdım* (Ucar); – *Torbanın qıyını bərk çək* (Zəngilan); – *Qıy tumanda olar* (Culfa).

**QIYA** (Göyçay) – b a x **qiy.**

□ **Qıya çəkməx'** (Göyçay) – qışqırmaq, bərkdən çağırmaq.

**QIYXIRMAX** (Ağdaş, Kürdəmir) – qışqırmaq. – *Uşax birdən qıyxırdı* (Ağdaş).

**QIYI** I (Ağdam, Ağdaş, Ağstafa, Xanlar, Mingəçevir) – b a x **qıy** I.

**QIYI** II (Zaqatala) – düz. – *A bala, həbələ qıyı gitsənə!*

**QIYIMLI** (Böyük Qarakilsə, Yardımlı) – əliaçıq.

**QIYIMSIZ** (İmişli, Şərur, Yardımlı) – xəsis. – *O, qıyımsız adamdı* (İmişli).

**QIYQAC** (Qax, Zaqatala) – xəmir xörəyi adı.

**QIYQILI** (Tovuz) – alın. – *Sapanı elə tuşduyuv atdım ki, düz gediv atın qıyqılısınnan alışdı.*

**QIYLI** (Ağdam) – ətəyi qaytan ilə tikilmiş (paltar). – *Mənim köynəyim qıylıdı.*

**QIYMAÇA** (Başkeçid, Borçalı, Qazax) – üçkünc və ya dördkünc baş yaylığı. – *Qıymaçeyi ver, başımı bağle:m* (Borçalı).

**QIYMATSIZ** (Tərtər) – çox qiymətli. – *Burda elə gəvələr var kin, qıymatsız gəvələrdi.*

**QIYMAZ** (Daşkəsən, Gəncə, İsmayıllı, Qazax, Qarakilsə, Mingəçevir, Şuşa) – b a x **qeyməz.** – *Qıymazın malını özgə yeyər* (Daşkəsən); – *Sən qıymaz adamsan!* (İsmayıllı).

**QIYNAĞ** (Cəlilabad, Göyçay, Sabirabad, Salyan) – dırnaq (mal-qarada). – *Biz malqaranınkına qıynağ diyərig* (Sabirabad).

**QIYPAMMAX** (Çənbərək, Salyan) – b a x **qaypımmağ.** – *Təzə gəlin heş qaynanasınnan qıypammadı* (Çənbərək).

**QIYPILMAX** (Qazax) – b a x **qaypımmağ.** – *Gəlin qıypıler bizdən.*

**QIYPIMMAX** (Gəncə) – diksinmək. – *Bu atın yanında tüəng atanda heş qıypımmadı.*

**QIZARTDAX** (Qazax, Kəlbəcər) – qırmızımtıl.

**QIZBA:N** (Cəbrayıl, Zəngilan) – kərtənkələ. – *Qızba:n daşdıxda, qayalıxdo:lur* (Zəngilan); – *Mən üç qızba:n ölüdüdüm* (Cəbrayıl).

**QIZBİLƏRİ** (Zəngilan) – balıq növü adı.

**QIZBOĞAN** (Ağdaş, Yardımlı, Füzuli, Göyçay, İmişli) – b a x **qızba:n.** – *Qızboğan var duharın arasında* (İmişli); – *Daşın arasında qızboğan var* (Füzuli).

**QIZDARBUXÇASI** (Laçın) – cır ağac adı.

**QIZDARŞAĞI** (Zəngilan) – yabanı bitki adı.

**QIZDIRBAS** (Çənbərək) – təcili. – *Hajı Yumruyu <Yumru adlı qızı> isdiyir, qızdırbas elçi yedillər.*

**QIZILBOĞAZ** (İmişli) – su quşu adı.

**QIZILCA** (Ağsu, Kürdəmir, Tovuz) – yabanı bitki adı.

**QIZILCIĞ** I (Salyan) – b a x **qızılca.** – *Qızılcığ yazza çıxır, onı adam da yiyir, heyvan da yiyir.*

**QIZILCIĞ** II (Borçalı, Qazax, Mingəçevir, Tovuz) – b a x **qızılçıx** II. – *Qızılcığın üş gün qızdırması olor* (Borçalı); – *Qızılcığ uşağı laf əldən salıf* (Qazax).

**QIZILÇIX** I (Şəki) – itburnu kolu.

**QIZILÇIX** II (Şəki) – qızılca (xəstəlik adı).

**QIZILGÖZ** (Yardımlı) – fıstıq. – *Meşədə qızılgöz çoxdu.*

**QIZILKƏNDİR** (Oğuz) – yabanı bitki adı.

**QIZILLAXLI** (Xanlar) – uzun, kobud və qırmızımtraq yunlu (qoyun).

**QIZILMƏRƏNDİ** (Şamaxı) – üzüm növü adı. – *Qızılmərəndi çox yeməli üzümdü.*

**QIZILÖZƏN** (Füzuli, Gədəbəy, İmişli, Hamamlı, Şəmkir, İrəvan) – qida borusu. – *Qızılözənimi bibar yandırdı* (İrəvan); – *Quyunun qızılözənin dartıf çıxardıfdı* (Hamamlı); – *Qızılözən boğazın yoludu* (İmişli).

**QIZILPAÇƏ** (Lerik) – bitki adı.

**QIZILPENCƏR** (Mingəçevir, Oğuz) – yeyilən yabanı bitki adı.

**QIZILTƏLƏ** (Cənubi Azərbaycan) – çöl quşu adı. – *Qızıltələni tutmağ olmaz.*

**QIZILÜFÜRÜX'** (Oğuz) – qida borusu. – *Bizdər qızılüfürüx' di:rix' malın, qoyunun yimək borusuna.*

**QIZIRĞAMMAĞ** I (Yardımlı) – etibar etmək, inanmaq. – *Əlimnən nə gəley eliyəm, genə qızırğammey.*

**QIZIRĞAMMAĞ** II (Yardımlı) – xəsislik etmək. – *O qədə vari-döyləti var, onnan belə qızırğaney.*

**QIZIRQALAMMAX** (Şərur) – b a x **qızırğammağ** II.

**QIZIŞMAQURDU** (Gəncə) – qurd (iylənmiş və ya xarab olmuş ətdə). – *Bu ətə qızışmaqurdu tüşüf.*

**QIZQALA** (Qax) – darı unundan bişirilmiş xörək adı.

**QIZQİZİX'** (Kəlbəcər) – kol adı. – *Qızqizix'dən çətən yığarıx, dama carcu qoyarıx.*

**QIZMA** (Salyan) – qızdırma, hərarət. – *Uşağ qızma:n içində yanır.*

**QIZMAĞ** (Bakı, Kürdəmir) – etibar etmək. – *O, mə: hər şeyini qızır* (Kürdəmir).

**QIZMIX** (Zaqatala) – dırmıq.

**QIZYIĞDI** (Ağdaş) – qız toyu.

**QİC** (Qax) – halqa.

**QİCƏ** (Qax) – gəndalaş. – *Qicə burda çoxdi.*

**QİCİLƏ** (Lənkəran) – tamam, xalis. – *Ət qicilə yağdu.*

**QİD** (Qax) – çubuq. – *Qidi mağa ver.*

**QİDİX'** (Basarkeçər, Gəncə, Goranboy, Hamamlı, Mingəçevir, Şərur) – yeni doğulmuş keçi balası. – *Bir-iki qidiyimiz var, otaran yoxdu* (Goranboy).

**QİDİX'LƏNMƏX'** (Basarkeçər) – keçi balası kimi atılıb-düşmək. – *Ə:, qidix'lənmə, sakit otur.*

**QİLAN** (Qax) – taxta boşqab.

**QİLƏTZƏ** (Qax, Zaqatala) – saxsı suqabı.

**QİLİÇ** (Ağsu) – aşırım, dağ aşırımı. – *Quzular qiliçdən aşdi.*

**QİLİF** I (İmişli) – barının, çəpərin altından keçən su yolu. – *Hasarın altında qilif var.*

**QİLİF** II (Oğuz) – yorğan-döşək astarı. – *Gedirəm yorğana qilif alım.*

**QİLİNDƏ** (İsmayıllı) – heyvanın boynuna keçirilən dairəvi ağac. – *Çatını öküzün qilindəsinə elə bağla ki, açılmasın.*

**QİLİNDƏNƏ** (Bakı) – boyunbağı. – *Qızım, qilindənə almışam sə:nçün.*

**QİM** (Bakı) – qamışa oxşar bitki.

**QİMİL** (Qax) – bulanıq. – *Yağış yağıp, su ho:nçün qimil geliy.*

**QİMQAR** (Tabasaran) – gavalı növü adı.

**QİR** (Quba, Tabasaran) – ucu əyri ağac (quyudan vedrə ilə su çəkmək, ağacların uca budaqlarını aşağı əyib meyvə dərmək üçün). – *Qirnən qulladan <quyu> su çəkədülər* (Quba).

**QİRABLİ** (Xaçmaz, Quba) – üzlü qaloş. – *Maqazinnən bir cüt qirabli aldum* (Xaçmaz).

**QİRİMCAY** (Qax) – döl vaxtından tez doğulmuş qoyun və ya keçi. – *Qirimicaylar çoxdan ota qoyulup.*

**QİRMİZ** (Qax) – utanmaz.

**QİRMİZTUMİ** (Dərbənd) – armud növü adı. – *Qirmiztumi necəsi uladu?*

**QİRNİS** (Salyan) – xəsis.

**QİRVAÇ** (Xudat) – zirək, cəld (adam).

**QİSİRƏMƏN** (Tabasaran) – inəyin bir yaşdan yuxarı balası. – *Heyif ki, u qisirəmən axsağdu.*

**QİT** (Qax, Zaqatala) – b a x **qid.**

**QİTAL** (Qax) – yağlı lavaş.

**QİTDİX** (Qax) – quşqun (yəhərdə).

**QİTIX** (Qax) – tıxac. – *Tağarın əğzinə qitıx vur, yoxsa, dağılacax.*

**QİTİLƏNMAX** (Qax) – xoruzlanmaq. – *Qitilənmə, ne qitiləniysin?*

**QİTMİR** (Qax, Naxçıvan) – xəsis. – *Sen ne qitmir adamsın?* (Qax); – *Qitmir adamnan qaç!* (Naxçıvan).

**QİY** (Quba) – qaytan. – *Başuva dünüm, gid tükannan bir cüt qiy al gəl.*

**QİYİN** (Dərbənd, Tabasaran) – b a x **qeyin.**

**QİYMƏDƏRƏN** (Qax) – boymadərən (bitki adı).

**QİZİLQAŞ** (Tabasaran) – yabanı bitki adı (sarıkökə oxşayır). – *Sinən <sınan> yəri sağaltmağçün qizilqaşün kükinnən qəynətüb havu sinən yerə tükəllər.*

**QOARRAMMAX** (Qazax) – lovğalanmaq. – *Adam çox qoarrammaz.*

**QOBACA** (Zaqatala) – qısaboylu. – *Əli qobaca qaldı, böyümədi.*

**QOBAL** (Qax) – xörək adı (piyə bükülüb qızardılmış qara ciyər). – *Anası, kök bağır getmişam, honnan qobal bişür.*

**QOBUX** (Zəngibasar) – qoyunun sidik kisəsi.

**QOC** (Oğuz, Şəki) – bax **qoj.** – *Mã: güya diyitdi ki, qocı qırıf xəvər eliycam* (Şəki).

**QOCA** (Biləsuvar) – bax **qoja.** – *Dünən qocamgilə getmişdim.* ◊ **Qoca baba** (Balakən) – nənə. – *Qoca babam bizə gəlmişdi.* **Qoca dədə** (Balakən) – baba. – *Qoca dədəm bağda gəzir.*

**QOCANA** (Zaqatala) – diz. – *Qocanadan yuxarı buddu.*

**QOCANƏNƏ: QOCANƏNƏ QURŞAĞI** (Lənkəran) – qövsi-qüzeh. – *Dünən yağışdan so:ra qocanənə qurşağı görükdü.*

**QOCƏK** (Zaqatala) – düymə.

**QOCİ** (Zaqatala) – kiçik donuz balası. – *Donuzun qocisi burdadı.*

**QO:CİMƏG** (Cəlilabad) – bax **qavzamax.** – *Əlin qo:cey yuxari.*

**QOÇADURAN** (Borçalı, Qazax) – ikiyaşar toğlu. – *Mə:m toğlum qoçadurandı* (Qazax).

**QOÇAN** (Balakən) – ucu qarmaqlı uzun ağac.

**QOÇER** (Balakən) – kəkil.

**QOÇİPƏS** (Salyan) – bax **qoçipəz.** – *Hindi qoçipəs adam çoxdu.*

**QOÇİPƏZ** (Sabirabad) – qoçusayaq. – *Mahmıd bəg qoçipəz adam olub.*

**QOÇ-QUZU** (Basarkeçər) – dombalan. – *Qoç-quzu qır yerdə bitməz.*

**QOÇUR** (Qarakilsə) – vədəxilaf. – *Əli qoçurun biridi.*

**QOÇÜX'** I (Basarkeçər) – oynaq. – *Qıçım qöçüx'dən çıxmışdı ağaşdan yıxılanda.*

**QOÇÜX'** II (Basarkeçər) – evin üstündə tirlər arasına üfüqi qoyulan ağaclar. – *Karanın qoçüyünün biri qırılıf.*

**QOD** I (Zaqatala) – qarğıdalı qıçası.

**QOD** II (Balakən) – zibillik. – *Həşhüşü qoda tulla.*

**QODEM** (Şərur) – vəzəri. – *Qodem çox acıdı.*

**QODQOD** (Balakən) – xəsis.

**QODU** (Şəki) – çəpər çəkmək üçün yerə basdırılan ağac. – *Qoduları basdırıf qutalmışıx.*

**QODUĞƏYAĞI** (Naxçıvan) – çox güclü suyun qarşısını kəsmək üçün ağacdan düzəldilmiş maneə. – *Suyun qabağına qoduğəyağı qoyardıx.*

**QODUR: QODUR OLMAX** (Qazax) – kasıblaşmaq.

**QODUŞ** (Şəki, Zaqatala) – balaca saxsı qab. – *Bir qoduş doşab varimizdi* (Zaqatala); – *Qoduşdə qatıx çaliylər* (Şəki).

**QOĞ** I (Balakən, Zaqatala) – saman ovuntusu.

**QOĞ** II (Çənbərək, Qazax) – sacın dibində əmələ gələn nazik qabıq, kəpək.

**QOĞ** III (Salyan) – var-dövlət. – *O:n da bi yaz <az> qoğu var, odı dingilliyir, adam saymır.*

**QOĞA** (Salyan) – ucu qarmaqlı ağac (quyudan vedrə ilə su çıxarmaq, uca ağacların budaqlarını aşağı əyib meyvə dərmək və ya qoyunları tutmaq məqsədilə onların ayaqlarına ilişdirmək üçün). – *Qoğaynan meyvə dərəllər ağajdan, qoyın tutallar;* – *Qoğaynan quyıdan su çəkillər.*

**QOĞAÇA** (Lənkəran) – bax **qoğa.** – *Bizim qoğaça əyridi, quyumuzdan suyu gücnən çəkməy olur.*

**QOĞALAMMAX** (Basarkeçər) – xoruzlanmaq. – *Ə, mənim üsdümə nə qoğalanırsan?*

**QOĞLAMMAX** (Çənbərək) – kəpək əmələ gəlmək (saçın dibində). – *Onun başı yaman qoğlanır.*

**QOĞAR** (Dərbənd, Tabasaran) – şum, əkin.

**QOĞUMAX** (Cəbrayıl) – zəif külək əsmək.

**QOĞUŞ** I (Salyan) – çalov. – *Ekskıvatorun qoğuşi çox yekədi.*

**QOĞUŞ** II (Salyan) – aralı. – *Qapını bi yaz qoğuş qoy, sərin gəlsin.*

**QO:X** I (Oğuz) – camaxatan (yorğan-döşək yığılan yer). – *Qo:xa yatacax yığırıx.*

**QO:X** II (Oğuz) – taxta kəpəyi.

**QOXAL** (Quba) – çəpərin dirəklərini birləşdirən üfüqi ağaclar. – *Çaparun buş yerinə iki-üş dənə qoxal vur.*

**QOXAN** (Kürdəmir) – balıq saxlanılan göl-məçə. – *Balığı qoxannan gətirir.*

**QOXANAX: QOXANAĞI ÇIXMAX** (Zaqatala) – susuzluqdan yanmaq, məhv olmaq. – *Lap qoxangı çıxıptı ağaşdarın.*

**QOXİ** (Zaqatala) – böyük daş.

**QOXLUX** (Qazax, Tovuz) – heyvanın ətənəsindəki nazik pərdə. – *Qoxluğun içində qo:ux pişirerix′* (Qazax).

**QOXTA** (Borçalı) – səliqəli. – *Səməd mə:llimin paltarı qoxta tikilif.*

**QOXURLULUX** (Cəbrayıl) – qıtlıq, qəhətlik. – *Qoxurluluğ olmasa, adam qonax-qonşu ya:nda utammaz.*

**QOXURRUX** (Meğri) – rütubətli. – *Qoxurrux yerdə binə olmaz.*

**QOXURTDUX** (İmişli) – b a x **qoxurlulux.** – *Oyli <o il> ot sarıdan bizim heyvannar qorxurtdux çəx′mədi.*

**QOJ** (Çənbərək, Gədəbəy, Göyçay, Xanlar, Mingəçevir, Şəki, Tovuz) – 1. evin divarları üstünə qoyulan ağac (Çənbərək, Şəmkir, Tovuz). – *Kərənin qojunu uxarı qoy* (Çənbərək); – *Tövlənin qojdarın düzdüm* (Tovuz); – *Pərdi qojdarın üsdünnən olur* (Şəmkir); 2. kirəmitli (və ya şiferli) evlərin üstünə şaquli düzülmüş ağac (Mingəçevir, Şəki). – *Bizim öyün üsdünə seysannan artıx qoj getdi* (Şəki).

**QOJA** (Ağcabədi, Basarkeçər, Bərdə, Qazax, Tərtər) – nənə. – *Qoja nənəmizin nənəsinə <anasına> de:rix′* (Ağcabədi); – *Qojam maŋa yaxşı öyrədif o sözdəri* (Basarkeçər).

**QOJABAĞRIÇATDADAN** (Şuşa) – ipək parça adı. – *Qojabağrıçatdadannan Zeynəf don geyifdi.*

**QOJARAX** (İmişli) – qocatəhər. – *Qojarax əri vardı kiçix′ xalamın.*

**QOJARRAMMAX** (Cəbrayıl) – ürəklənmək. – *Məni gördü, qojarrandı.*

**QOJƏ** (Kəlbəcər) – b a x **qoja.** – *Qojəm məni döydü.*

**QOQAX** (Zaqatala) – cilov.

**QOQAZDAMMAX** (Ağbaba, Şəki) – b a x **qaqazdammax.** – *Adam çox qoqazdammaz, oğlum!* (Ağbaba); – *Sə:n, oğlun yaman qoqazdanır* (Şəki).

**QOQAZDANA-QOQAZDANA** (Ağbaba) – lovğalana-lovğalana. – *Səlvər, qoqazdana-qoqazdana hara gedirsən?*

**QOQQİLİX′** (Tərtər) – dombalan. – *Qoqqiliyi çiy də ye:illər, pişirif də ye:illər.*

**QOQU** (Qax) – qarğıdalı qoğalı.

**QOL** (Başkeçid, Borçalı) – divar. – *Bir öyüm var, bö:rünnən üç qol da çəhdirəjəm, olajey iki öy* (Borçalı).

**QOLA** (Zəngilan) – bardaq. – *Qola suyu sərin saxlıyır.*

**QOLAXÇASI** (Borçalı) – qadınların qollarına bəzək üçün bağladıqları gümüş pullar. – *Qolaxçasın qola bağle:rıx.*

**QOLALTI** (Zaqatala) – qadın geyimi adı.

**QOLAN** (Qax, Oğuz) – gödək örkən.

**QOLAVAN** (Cəbrayıl) – dişlə, arabanı boyunduruqla birləşdirən uzun ağac hissə. – *Qolavanı möhkəm ağajdan qayırıllar.*

**QOLAVEYLAMAX** (Qazax) – tullamaq.

**QOLAY** I (Biləsuvar, Kəlbəcər, Naxçıvan, Ordubad, Salyan, Yardımlı, Zaqatala, Zəngilan) – pis. – *Bu yeri qolay suvarmısan* (Naxçıvan); – *Qəhrəman qolay adam olub* (Biləsuvar); – *Donumu illaf qolay tikiflər* (Kəlbəcər).

**QOLAY** II (Əli Bayramlı, Şahbuz, Şəmkir, Zaqatala) – yön, səmt. – *Qolayım olmadığıyçın yaxın tüşə bilmədim* (Əli Bayramlı); – *Sağ tərəf mənə qolay döyi* (Şahbuz); – *Qolayıma tüşdü, o:nuçun yaxşı atdım* (Şəmkir).

**QOLAY** III (Başkeçid, Qax, Qazax, Zəngibasar, Şərur, Zəngilan) – asan, rahat; yaxşı. – *Bu laf qolay şeydi kin!* (Qazax); – *Ma:licə bir az qolay eliyir* (Şərur); – *Qoluma qolaydı* (Zəngilan).

**QOLBAX** (Şahbuz) – muncuqlu bilərzik. – *Qolbax mıncıxdan olardı, qolumuza bağlıyardıx.*

**QOLBƏYİ** (Borçalı, Qazax) – cur, həmtay. – *Abbasnan Şahəli qolbəyidi* (Borçalı); – *Abasnan Hasan qolbəyi oluf* (Qazax).

**QOL-BUD: QOL-BUD ELƏMƏX′** (Cəbrayıl) – 1. yıxıb döymək (adam); 2. parçalamaq (kəsilmiş heyvanı); 3. sındırmaq, yarmaq, kəsmək.

**QOLÇA** (İmişli, Kürdəmir, Salyan) – kanalın kiçik qolu. – *Uşağlar hindi qolçada çimir* (İmişli); – *Qolça qanaldan kiçik olar* (Salyan).

**QOLÇAĞ** (Ağsu, Bakı) – taxıl biçəndə və ya təndirə çörək yapanda qola dolanan parça və ya dəri sarğı. – *Adamlar taxıl biçəndə qolçağ bağlıyır* (Ağsu); – *Qabağ çörəg yapanda qolımıza qolçağ dolarduğ* (Bakı).

**QOLÇAĞLI** (Bakı) – büzməli. – *Qədimdə arvaddar qolçağlı don giyərdi.*

**QOLÇAX** I (Füzuli, Qarakilsə, Qazax, Oğuz, Şahbuz, Zəngilan) – b a x **qolçağ.** – *Qolçağı bağlıyıllar ki, qılçığ adamın qolun yeməsin* (Zəngilan); – *Qolçağı əppəx′ pişirəndə qolumuza dolıyırıx* (Şahbuz).

**QOLÇAX** II (Şəki) – gəlincik. – *İqlimə qolçağına don tikir;* – *Qolçağı balaca uşaxlar öynədir.*

**QOLÇƏ** (Ordubad) – odun parçası. – *Ay bala, get o qolçədən yığ gəti, ocəğə qoyax.*

**QOLÇÜX′** (Şəki) – taxça. – *Qolçüyə ləmpə də qoyüllər, ayrı şey də qoyüllər.*

**QOLDANTUTMA** (Ağcabədi) – çalğısız (toy haqqında). – *Aşıxlı toy da olurdu, qoldantutma toy da olurdu.*

**QOLDIRAĞAC** (Salyan) – qolçaq. – *Qoldırağac olmasa, qolua qılçığ girər.*

**QOLEY** (Ağbaba) – quyruğu kəsilmiş heyvan.

**QOLĞA** (Kürdəmir) – başqa yerdə əkilmək üçün kökündən çıxarılmış ağac.

**QOLQANOYİ** (Əli Bayramlı) – arxın kiçik qolu. – *Qolqanoyi balaca olur, arxdan ayrılır.*

**QOLQAYI** (Qarakilsə, Meğri) – qohuməqrəba. – *Hüseynnilərin qolqayısı Gülülərdən çox idi* (Meğri); – *Xeyləx′ çörəx′, duz bizim qolqayımızdan gətdim bıra* (Qarakilsə).

**QOLQIRMA** (Qazax, Tovuz) – qolburma (güləşmədə). – *Güləşəy, əmbə qolqırma yoxdu* (Tovuz).

**QOLPUN** (Gədəbəy, Qazax, Şəmkir) – güclü sel nəticəsində yaranmış yarğan, dərə. – *Sel ki gəler, o yeri o:r, o yerə qolpun de:rix′ biz* (Qazax); – *Elə ki gördük göydən yağış gəler, özü də qırrama, özümüzü verrix′ qolpuna* (Gədəbəy); – *Qoyma, heyvannar qolpuna doldu* (Şəmkir).

**QOLSAPALAX** (Basarkeçər) – dərman bitkisi adı. – *Qolsapalax enniyarpaxlı, uzun otdu, yaranın üsdünə qoyullar;* – *Qolsapalax əvəlix′ kimi bir otdu, ye:llər onu.*

**QOLSUZ** (Ucar) – canlıq. – *Cicim mənə bir qolsuz tikdi.*

**QOLTAŞA** (Şəki, Tovuz) – yaltaq. – *Cahangir kimi qoltaşa adam ağlınə:lməsin* (Tovuz).

**QOLTUXDANÇIXMA** (Cəbrayıl) – uşaq oyunu adı. – *Gəlin, qoltuxdançıxma oynuyax.*

**QOLTURMAC** (Əli Bayramlı, Kürdəmir) – çal-çarpaz. – *Qolturmac bağlanan iplər açılmadı* (Əli Bayramlı).

**QOLVƏND: QOLVƏND ELƏMƏX′** (İmişli) – heyvanın başını qabaq ayaqlarının birinə bağlamaq (qaçmaması üçün). – *Qolvənd elədim, buraxdım atı.*

**QOM** (İmişli, Tərtər) – qoşqu heyvanlarının belinə çulun altından qoyulan (içinə saman tökülüb tikilir) xurcun şəkilli örtük. – *Atın belinə qom qo:ullar, so:ra da çul qo:ullar* (Tərtər).

**QOMA** I (Şəki) – 1. tütün yarpağı düzülmüş 4-5 ip bağlaması, dəst. – *Tütün qoması bağli:llər doğanağa;* 2. bir saplaqda və ya kiçik zoğda olan topa meyvələr.

**QOMA** II (Basarkeçər) – b a x **qom.** – *Qoma olmasa, ük vurar atın belini.*

**QOMARĞA: QOMARĞA ELƏMƏX′** (Gədəbəy, Qazax) – mühasirə etmək, mühasirəyə almaq. – *Orda qomarğa ele:llər, dörd yanı kəsellər* (Qazax).

**QOMARĞALAMAX** (Daşkəsən, Gədəbəy) – mühasirə etmək, mühasirəyə almaq. – *Bir də ö:rdük qomarğale:flar* (Daşkəsən); – *Qoruğa girən malları qomarğaladıx tutdux* (Gədəbəy).

**QOMARMAX** (Gədəbəy, Qazax, Şəki, Şəmkir, Tovuz) – 1. b a x **qomarğalamax** (Gədəbəy, Qazax, Şəmkir, Tovuz). – *Qomardıx, tutdux birtə:r camışı* (Gədəbəy); – *Şa:bbasın adamları gəvəsatan adamı qomardılar;* – *Camahat bəyləri üzüy qaşı kimi qomardılar* (Tovuz); – *Kəndə bir canavar girmişdi, qomardıx tutdux* (Şəmkir); 2. qovmaq (Şəki). – *Gəlmişdi bizə, qomardım getdi.*

**QOMARRAMAX** (Çənbərək, Kürdəmir, Zəngilan) – b a x **qomarğalamax.** – *Qaçaxlar bizi yaman qomarramışdı, incəvara yaxşı qutardıx* (Zəngilan); – *Uşaxlar qoyunu qomarrıyıf tutdu* (Çənbərək).

**QOMARRIMAĞ** (Cəlilabad) – b a x **qomarğalamax.** – *Bizi qomarrıdılar tutdılar.*

**QOMAZI** (Kürdəmir) – armud növü adı.

**QOMİŞ** (Dərbənd, Tabasaran) – arabaya və s. qoşulan kəl. – *Qotani <kotanı> qoşeydig qomişə* (Dərbənd).

**QOMQARA: QOMQARA QOYMAX** (Tərtər) – əkin sahələri arasına sərhəd nişanı qoymaq. – *Murad, getginən Sarı Kövərdə qomqara qoy gəl.*

**QONAC** (Qax) – çoxlu quş qonan yer.

**QONALĞA** (İmişli) – qonaqlıq. – *Beycə bizzə yaxşı qonalğa vardı.*

**QONAMAĞ** (Əli Bayramlı) – yetişmək.

**QONC** I (Qax) – qönçə.

**QONC** II (Borçalı, Oğuz) – b a x **qoj** (1-ci məna). – *Qoncu baş tirinə vururux* (Oğuz); – *Qoncun üsdən də pərdi döşe:rdilər* (Borçalı).

**QONÇUL** (Başkeçid) – kartof dilimi.

**QONDARA** (Basarkeçər, Başkeçid, Borçalı, Cəbrayıl, Füzuli, Göyçay, Xocavənd, İmişli, Qazax, Oğuz, Ordubad, Şərur, Tovuz) – dikdaban ayaqqabı. – *Qondarıyı arvad da ge:ər, kişi də ge:ər* (Borçalı); – *Qişdə qadınnar qondara geyməzdər* (Ordubad).

**QONQALLAX** (Oğuz) – uşaq oyunu adı.

**QONQALTMƏY** (Cəlilabad) – *məc.* dikəltmək.

**QONQƏ** (Lerik) – quyudan vedrə çıxartmaq üçün istifadə edilən ucu əyri ağac, koğa.

**QONQREY** (Böyük Qarakilsə) – zınqırov.

**QONQUMAX** (Çənbərək) – çömbəlib oturmaq. – *Hər axşam gedif qızıgildə qonquyur.*

**QONQUTMAX** (Tərtər) – b a x **qonqumax.**

**QONŞUBAĞRIÇATDADAN** (Lerik, Şuşa) – ipək parça adı. – *Qonşubağrıçatdadanı Mərziyə geyif toye:tdi* (Şuşa).

**QONŞUÇATDADAN** (Borçalı, Tərtər) – ipək parça adı. – *Qonşuçatdadan çox adamda var* (Borçalı); – *Qonşuçatdadanı cahıllar ge:ərdi* (Tərtər).

**QONURSU: QONURSU İYİ** (Qazax) – yanmış yun parça iyi. – *Qonursu iyi gəler.*

**QOPAX** (Qax) – hin.

**QOPA: QOPA QOYMAX** (Kürdəmir) – əkin sahələri arasına sərhəd nişanı qoymaq. – *Əkinlərin arasına qopu qoyurux.*

**QOPALAX** (Qax, Mingəçevir, Oğuz, Zaqatala) – qəlpə, qırıntı. – *Daşın qopalaxlarını bir tərəfə topla* (Oğuz); – *Ordakı qopalaxları yığışdır, yandır* (Zaqatala).

**QOPALAXLANMAX** (Mingəçevir) – qəlpələnmək, xırdalanmaq. – *Odunnar qopalaxlanıb töküldü.*

**QOPALAĞ** (Salyan) – hörmət, etibar. – *Gəl aramızza olan qopalağı itirmiyəg.*

**QOPAR** (Qax) – ləkə. – *Usdula düşən qoparı tez sil.*

**QOPARA** (Ağdam, Ağcabədi, Əli Bayramlı, Füzuli, Kürdəmir, Mingəçevir, Ordubad, Sabirabad, Tərtər, Ucar) – əkin sahələri arasına qoyulan nişan. – *O əkin arasındakı qoparanı görürsən?* (Füzuli). ◊ **Qopara qoymax** (Ağcabədi, Əli Bayramlı, Ordubad, Tərtər) – sərhəd nişanı qoymaq. – *Qalxozun otlağına qopara qoyuf pirqadalara böldüx'* (Ağcabədi); – *Yerrərə qopara qoyurux, kömür tökürük, torpax təpə qaldırrıx, məhlim eli:r kin, bu yer kimindi* (Tərtər); – *Qabağ yerrərimiz arasında qopara qoyardux* (Əli Bayramlı).

**QOPARAX** (Zaqatala) – b a x **qopalax.**

**QOPBA** (Çənbərək, Karvansaray) – quru kötük. – *Meşədən eşşəyimi yüklüyüf, çoxlu qopba gətirmişəm* (Karvansaray); – *Büyün çoxlu qopba yığdım* (Çənbərək).

**QOPBAX** (Qax) – bel il götürülmüş otlu torpaq, çim.

**QOPBAZ** (Zəngilan) – toyuq-cücənin ayağına yapışıb qurumuş palçıq. – *O cücələrin əyağınnan qopbazı təmizdiyin, gəzəyilmir.*

**QOPQAR** (Oğuz) – əkin sahələri arasına qoyulan sərhəd nişanı. – *Qopqardan o tərəf Əhədin yeridi.*

**QOPLAX** (Qax) – b a x **qopalax.**

**QOPNA** (Cəlilabad) – kiçik taya. – *Ordə iki qopna ot qaley.*

**QOR** (Ağbaba) – zınqırov.

**QORA** (Böyük Qarakilsə) – yeyə <alət>.

**QORADALAMAX** (Borçalı) – fiziki cəhətdən inkişaf etməmək. – *Məhərrəmin oğlu qoradalıyıf.*

**QO:RAĞLANMEG** (Bakı) – hazırlaşmaq. – *Qo:rağlan gedeg.*

**QORAPALAN** I (Biləsuvar, Cəlilabad, Əli Bayramlı, Kürdəmir, Masallı, Sabirabad,

Salyan) – aşsüzən. – *Qorapalan misdən olır* (Əli Bayramlı); – *Qorapalanımız lap kö:nəlib* (Biləsuvar); – *Qorapalan deşikli olır* (Salyan); – *Qorapalanda pılo süzeylər* (Cəlilabad).

**QORAPALAN** II (Əli Bayramlı, Masallı, Sabirabad, Salyan) – b a x **qarapalan.** – *Qorapalanı aç, lampıya nö:üt tök* (Əli Bayramlı).

**QORAVA** I (Borçalı) – həddindən artıq duzlu, şor. – *Ay Xalıl, bu nə qorava xörəx'di?*

**QORAVA** II (Qazax) – heyva mürəbbəsi. – *Bəhməzi qaynaderıx, içinə heyva dilimi tökörüx', olor qorava.*

**QORAZ** (Zəngibasar) – lovğa, ədabaz.

**QORBOQ** (Zaqatala) – böyük daş.

**QORCİMMƏG** (Yardımlı) – qurdalanmaq, çevrilmək. – *O yən-bu yənə qorcimmə, yerində düz otuginən.*

**QORCUMMAX** (Lerik) – əzilib-büzülmək. – *Niyə qorcunursan?*

**QORDƏŞƏ** (Şəki) – ağacdeşən alət. – *Dağdan qoci qırıf, başini qordəşeynən deşif burmeynən bağliyırıx, so:ra tutuf dartiyıx, özü gəliy.*

**QORĞAX** (Balakən) – qəfildən tutan, qapan (it).

**QORĞALAMAX** (Qazax, Mingəçevir) – qorumaq, mühafizə etmək.

**QORXAX** (Kürdəmir, Qarakilsə, Mingəçevir, Şəki) – 1. kiçik (Şəki). – *Bu unnan bir az qorxağ olar;* 2. az (Kürdəmir, Qarakilsə). – *İki putdan bir qədər qorxağ olar* (Kürdəmir); – *Yaşım həşdaddan qorxağ olar* (Qarakilsə).

**QORXMAZI** (Kürdəmir) – b a x **qomazı.**

**QORQOD** (Zaqatala) – keyfiyyətsiz qoz.

**QO:RSAĞLAMMAĞ** (Salyan) – susuzluqdan yanıb tələf olmaq. – *Bossan susuzzuğdan qo:rsağlandı.*

**QORTDATMAX** (Çənbərək) – qovurmaq. – *Sajda qınnax qardalı qortdatdım, yedi uşax.*

**QOSA** (Qax) – zökəm. – *Mağa qosa degip.*

**QOSAR** (Göyçay) – yüngül.

**QO:SARA** I (Göyçay) – b a x **qavsara.** – *O qo:saranı mənə, çıxım bir az üzüm yığım.*

**QO:SARA** II (Qazax, Şəmkir, Tovuz) – b a x **qoysara** I. – *O qo:saradan bizə də gəti* (Şəmkir).

**QO:SARA** III (Kürdəmir, Şəmkir, Tovuz) – b a x **qavsara.** – *Qo:sareynan ona pay aparmışam* (Kürdəmir); – *Gühər sizə qo:sarada moruğ göndərif, görün əzilipdi?* (Tovuz)

**QO:SARA** IV (Bakı) – anbar. – *Bizim şeylərimiz qavağlar qo:sarada saxlanardı.*

**QO:SƏRƏ** (Ordubad) – b a x **qavsara.** – *Mən qo:sərə dolusi üzüm dərdim.*

**QOSTELAY** (Balakən) – əmi və ya dayıarvadı.

**QOŞALA** (Zaqatala) – çömçə.

**QOŞALAR** (Tovuz) – yeddiqardaş yığınındakı ulduzlardan birinin adı. – *Əvəl birinə de:rik Ülkər, birinə də de:rik Qoşalar, birinə də de:rik Tərəzilər, birinə də de:rik Dan ıldızı.*

**QOŞALI** (İmişli) – alnında bir cüt ət çıxıntısı və ya tük buruğu olan (at) (Belə at uğursuz hesab olunur). – *Qoşalı atı minsən də uğuru xeyir döyül.*

**QOŞAM** (Daşkəsən, Gədəbəy) – qoşa ovucun tutumu. – *Uşağa bir qoşam gilas verdim* (Daşkəsən).

**QOŞAR** (Şərur) – qoşqu camışı. – *Mən onnara qoşar vermişəm.*

**QO:ŞAR** (Kürdəmir) – təxərrüş (sağılan heyvanın əmcəyinə aiddir). – *Qo:şar olanda heyvan südün yaxşı verir.*

**QO:ŞİBAĞRİÇATDADAN** (Bakı, Salyan) – b a x **qonşubağrıçatdadan.** – *Qabağ cürbəcür parçalar vardı, nə bilim, qo:şibağriçatdadan, həcimənəbax...* (Bakı); – *Qo:şibağriçatdadanı toyda, bayramda giyəllər* (Salyan).

**QOŞ-QUZU** (Basarkeçər, Çənbərək) – b a x **qoç-quzu.** – *Yeri kotannan şumluyanda çoxlu qoş-quzu çıxdı* (Basarkeçər); – *Ələs dünən qoş-quzu yığdı, yedix'* (Çənbərək).

**QOŞURULMAX** (Mingəçevir) – əzilib-büzülmək.

**QOT** (Zaqatala) – b a x **qod** I.

**QOTA** I (Zaqatala) – iy. – *Qotada ip əyirirəm.*

**QOTA** II (Zaqatala) – sütun.

**QOTAZ** I (Borçalı) – qoyunun və ya keçinin boğazından sallanan bir cüt vəzi.

**QOTAZ** II (Basarkeçər) – *məc.* rövnəq. – *Hər sözün bir qotazı olur, havacatın da qotazı olur.*

**QOTMAC** (Zəngilan) – qoyunun son südündən bişirilən sıyıq. – *Qotmac yaman ləzətdi olur.*

**QOTOXLU** (Zaqatala) – ağacdələn.

**QOUZAX** (Gədəbəy) – boş. – *Yığının yekəliyinə baxmaynan, qo:uzax yığılıf çox.*

**QOV** (Qax) – taxıl tökmək üçün içi ovulmuş taxta qutu.

**QOVARA** (Göyçay) – abqora.

**QOVAŞMAX** (Çənbərək, Qazax) – imkan vermək. – *Qovaş göröm, yaxşı yığammersaŋ ükü, qoy özüm yığem* (Qazax); – *Sən qovaş, mən haravıya minim* (Çənbərək).

**QOVAZAX** (Meğri) – b a x **qavazax.**

**QOVÇİ** (Zaqatala) – səlbə.

**QOVDA** (Zaqatala) – kitab çantası.

**QOVR** (Qax) – əməl. – *Sənin qovrun itsin.*

**QOVRA** (İrəvan) – b a x **qavara** II.

**QOVSARA** (Qazax) – b a x **qavsara.**

**QOVULUX** (Basarkeçər) – pul kisəsi. – *Sövgülü qarı maŋa bir yaxşı qovulux tikifdi.*

**QOVUN: QOVUNA GETMƏMƏXʹ** (Zəngibasar) – çətinliyə salmamaq, çətinliyə düçar etməmək. – *Əşi, çox da qovuna getmə, axırı pis olar.*

**QOVURMA: QOVURMA HÖRRƏSİ** (Basarkeçər, Hamamlı) – xörək adı. – *Unu sajın üsdə qovurullar, so:nra da suya salıf pişirillər, üsdünnən yağ töküllər, olur qovurma hörrəsi* (Basarkeçər).

**QOYDA** (Çənbərək, Qazax) – ağacdan qayırılmış tütək.

**QOYQAN** (Tərtər) – əkin sahələri arasında sərhəd nişanı. – *Qoyqannan anarı arx gedir.*

**QOYLAMMƏY** (Cəlilabad) – köhnəlmək. – *Şalvərim qoylanib.*

**QOYLUX** (Basarkeçər) – b a x **qovulux.** – *Pulumu qoyluğa qoymuşam.*

**QOYMA** (Biləsuvar, Cəlilabad, Masallı, Yardımlı) – tir. – *Bizim eyvanda dörd qoyma var* (Yardımlı).

**QOYNAX** (Kəlbəcər) – əyriqol. – *Deyillər Köçəri qoynaxdı.*

**QOYRA** (Basarkeçər, Gəncə, Hamamlı) – b a x **qavara** II. – *Qoyruyu ver, gərkiyi itili:m* (Basarkeçər); – *Qoyroynan bıçağı itili:llər, batanı itili:llər* (Hamamlı).

**QOYSARA** I (Qazax) – ağac qabığına doldurub közdə bişirilmiş göy alça. – *Gəlin gedəxʹ, qoysara pişirəxʹ.*

**QOYSARA** II (Çənbərək, Gədəbəy, Qazax, Tovuz) – b a x **qavsara.** – *Qoysareyi çuvuxdan örellər* (Qazax); – *Qoysarada moruğ var* (Çənbərək); – *Qoysarıya gilas yığmışam* (Gədəbəy).

**QOYŞURULA-QOYŞURULA** (Çənbərək) – qıvrıla-qıvrıla.

**QOYŞURULMAX** (Çənbərək, Şəmkir) – qıvrılmaq. – *Nə bərk qoyşurulduŋ, yoxsa üşü:rsəŋ?* (Çənbərək); – *Ayə, niyə qoyşurulursaŋ, azarrısaŋmı?* (Şəmkir).

**QOYU** (Kürdəmir, Mingəçevir) – qatı. – *Həlim qoyu olup* (Kürdəmir).

**QOYUX** (Qazax) – ağuz, malın doğandan sonra ilk südündən bişirilmiş yemək. – *İnəyimiz doğmuşdu, bir az qoyux bişirdim.*

**QOYULQA** (Cəbrayıl) – ting. – *Atam iyirmi ərik qoyulqası əkip.*

**QOYUNBURNU** (Basarkeçər) – itburnu. – *Uşaxlar çoxlu qoyunburnu yığmışdı.*

**QOYUNGÖZÜ** (Qazax, Şuşa) – dombalan. – *Qoyungözünü soutma eliyif ye:llər* (Şuşa).

**QOYUNHƏNGİ** (Culfa) – qoyun sürüsü üçün tütəkdə çalınan hava. – *Qoyunhəngini çalanda sürü yavaşıyır.*

**QOYUNQIŞQIRTMASI** (Şəmkir) – qoyun sürüsü üçün tütəkdə çalınan hava. – *Qoyunqışqırtması sürünün qavağında çalınır, çovan çalır düdüxʹnən.*

**QOYUN-QUZU** (Zəngilan) – uşaq oyunu adı.

**QO:Z** (Göyçay, Mingəçevir) – b a x **qavız.**

**QOZA** (Culfa, Daşkəsən, Ordubad, Şərur) – neft lampasının odluğu. – *Ləmpənin qozası xarav oluf* (Daşkəsən); – *Qoza yumru olur, ortası da dəlik* (Ordubad); – *O ləmpənin qozasın sil təmizdə* (Culfa).

**QOZALMAX** (Daşkəsən) – lovğalanmaq. – *Basmaçı özünnən basey qozaley.*

**QOZAMAĞ** (İsmayıllı, Təbriz) – b a x **qavzamax.** – *Gə bu tayı qoza götürüm* (İsmayıllı).

**QOZAMAX** (Şuşa) – b a x **qavzamax.** – *Bu çuvalı qoza, qoy çiynimə.*

**QOZAMƏY** (Cəlilabad) – b a x **qavzamax.** – *Bu siyəzini qoza, dalıma atım.*

**QO:ZAN** (Mingəçevir) – beşik döşəyi.

**QO:ZAR** (Qazax) – vəlin altında döyülməyib qalmış sünbüllər. – *Qo:zarı əzməxʹ lazımdı.*

**QOZARINC: QOZARINCDAN ÇIXARMAX** (Cəbrayıl) – baramanı zir-zibildən tə-

mizləmək. – *Baramanı qozarıncdan çıxarsax, tə:fil verərdik.*

**QOZATDI** (Qazax, Salyan) – keçmişdə qutuya qoz atmaqla keçirilən səsvermə üsulu. – *Qozatdı qədimdə olardı; – Qozatdı qoznan olardı* (Salyan).

**QOZAZIĞZIĞ** (Dərbənd) – sağsağan.

**QOZDAMMAX** (Çənbərək) – şişib yumrulanmaq (bədəndə). – *Başın niyə qozdanıf, Abbas?*

**QOZEY** (Qax) – qoz ləpəsi döymək üçün qab. – *Qozeyi geti mağa.*

**QO:ZƏMƏG** (Yardımlı) – qaldırmaq. – *Gə əlüy ver bu daşi qo:ziyəg.*

**QOZƏMƏG** (Lənkəran) – b a x **qavzamax.**

**QOZİ** (Salyan) – qozbel. – *Bizdə qozi adam heç yoxdu.*

**QOZQARA** (Gədəbəy, Xanlar, Kəlbəcər, Zəngilan) – yabanı ağac adı. – *Qozqara sərt ağaşdı* (Gədəbəy).

**QOZQIRMAĞ** (Bakı) – lovğalanmaq.

**QOZMAN** (Füzuli) – yeddiillik qoyun. – *Dızmannan sonra olur qozman.*

**QUALAMAX** (Çənbərək) – yoxlamaq. – *Əhmədin bu sözünü axıratana qualeyjam.*

**QUALAMMAX** (Qax) – güvənmək. – *Oğluna qualaner.*

**QUARRAMMAX** (Şəmkir) – güvənmək. – *O, saŋa quarranır.*

**QUAŞMAĞ** (Salyan) – qorxmaq, çəkinmək. – *Uşağ də:nə sənnən bi yaz quaşır.*

**QUBA** I (Şahbuz) – çölördəyi. – *Qanlı göldə quba çox olur.*

**QUBA** II (Balakən, Qax, Zaqatala) – uşaq oyunu adı.

**QUBBA** (Ağdaş) – düymə.

**QUC** (Zaqatala) – böyrək.

**QUCEL** (Dərbənd) – cəhrənin hissələrindən birinin adı.

**QUCİLEY** (Zaqatala) – saxsı qab.

**QUCU** (Zaqatala) – çinədan.

**QUCUR** I (Zaqatala) – künc. – *Bir qucurda durma, qavağa gəl.*

**QUCUR** II (Qax) – budaq.

**QUCUR** III (Dəvəçi) – kirpi. – *İt qucura hürədü.*

**QUCUR** IV (İmişli) – qəyyum. – *Qucur deyərüg bi uşağı bi kişi saxlasa, o kişiyə.*

**QUÇ** (Oğuz) – daşdan tikilmiş çoban dəyəsi. – *Usdalar qayırıp quçu, kim düzəldicix′di?*

**QUÇAL** (Tabasaran) – iyi cəhrəyə bərkidən gön parçası və ya haça ağac. – *Quçal həm ağacdan uladu, həm də günnən uladu, igi tutsun.*

**QUÇİX′** (Şəki) – ting. – *Ehdığımız alma quçix′lərinin hamsı yaxşı göyəritdi.*

**QUÇÜX′LƏMƏX′** (Cəbrayıl, Şəki) – *məc.* ağacın dibində və ya kənarda pöhrələr göyərmək, əmələ gəlmək.

**QUDDA** (Kürdəmir) – lovğa.

**QUDDA-QUDDA: QUDDA-QUDDA DANIŞMAĞ** (Kürdəmir, Şamaxı) – lovğa-lovğa (böyük-böyük) danışmaq. – *O uşağ çox qudda-qudda danışır* (Şamaxı).

**QUDDAZ** (Meğri) – b a x **qudda.** – *Ərəz <Araz> yıxasındakı Eran xannarınnan Heydərqulu xan kimi quddaz xan yox idi.*

**QUDET** (Qazax) – lovğa. – *Maşdalıların bir qudet gədəsi var.*

**QUDƏBBƏR** (Qazax) – lovğa.

**QUDXA** (Qax) – səhəng.

**QUDQUDU** (Şəmkir) – dedi-qodu. – *Heş sə:n qudqudun kəsmer.*

**QUDNƏ** (Cəlilabad) – lovğa. – *Qudnə adam hər şeyə əyilməz.*

**QUDNƏLƏMMƏG** (Cəlilabad) – lovğalanmaq.

**QUDUQUDU** I (Tovuz) – b a x **qudqudu.**

**QUDUQUDU** II (Qazax, Tovuz) – deyingən. – *Mansır yaman quduqudu adamdı* (Qazax).

**QUDUQUDULUX** (Tovuz) – deyingənlik. ◊ **Quduqudulux eləməx′** – deyinmək, deyingənlik etmək. – *Ayə, niyə quduquduluğ eli:rsən?*

**QUDUL** I (Zaqatala) – hörümçək.

**QUDUL** II (Quba) – qısaboylu. – *Qudul adam diyədülər çux bilədü.*

**QUDUN** (Qax) – böyrək. – *Onun qudunu xəsdədi; – Babası qoyun kesiy, qudunnarı mağa veracax.*

**QUDVƏSƏR** (Karvansaray, Qazax) – məzəli, gülməli <söz>. – *Məməd elə qudvəsər sözdər danışer ki, adam qulağ asanda gülməx′dən keçner* (Karvansaray).

**QUFLU** (Tovuz) – b a x **qulplu.**

**QUFLUCƏ** (Şəki) – qulplu mis və ya gil qab. – *Bi quflucə əyrəni heyləcə işdi, durdu.*

**QUFTA** (Qax) – səhəng.

**QUĞAR** (Dərbənd, Tabasaran) – b a x **qoğar.** – *Quğari ulmiyənin quğalı ulmaz* (Tabasaran.)

**QUHAQU** I (Bakı) – b a x **quyxa:ğı.**

**QUHAQU** II (Salyan) – gölləmə. – *Ağajdar quhaqu su:n içindədi, belə bağ suarallar.*

**QUQAN** (Quba) – balta və ya dəhrə ilə odun doğrayarkən qopan qırıntı, qəlpə.

**QUQQULİQU** (Şərur, Yardımlı) – əliboş. – *Bir də gördüx′ quqquliqu atıla-atıla gəlir* (Şərur); – *Gedey şə:rə, qələndə də quqquliqu gəley* (Yardımlı).

**QULA** I (İmişli) – yalı və quyruğu ağ (at). – *Dayımın bir qula atı vardı.*

**QULA** II (Göyçay) – sarı barama.

**QULABAN** (Biləsuvar, Əli Bayramlı, Kürdəmir, Masallı, Sabirabad, Salyan) – evin yanında yardımçı yer, tikinti. – *Usda öyün qulabanın düzəltdi* (Kürdəmir); – *Yayda qulaban sərin olır* (Salyan); – *Qulabana lazım olmayan şeylər yığılır* (Biləsuvar).

**QULABƏYİ** (Borçalı) – sancaq.

**QULAÇA** (Zaqatala) – çardaq.

**QULAĞ** (Dərbənd, Quba) – *məc.* araba oxunun ucu. – *Museyib dayinün də ərəbəsinün qulağı sinüb yatmüşdü* (Quba).

**QULAĞAGİRƏN** I (Ağdam, Bakı, Gəncə, Kürdəmir, Şamaxı) – qırxayaq. – *Qualağagirən hələ qırxayağdu də!* (Bakı); – *Ağajın altında yatma, qulağına qulağagirən girər* (Gəncə). – *Qulağagirən zərərri qurtdi, adamın qulağına girir* (Şamaxı).

**QULAĞAGİRƏN** II (Cəbrayıl, Yardımlı) – həşərat adı. – *Qulağagirən sarı, əyağları da çox olur* (Cəbrayıl).

**QULAĞALTI** I (Basarkeçər, Kəlbəcər) – ləçək. – *Qulağaltımı yumuşam* (Kəlbəcər); – *A bala, başım üşüyür, o qulağaltımı maŋa ver* (Basarkeçər).

**QULAĞALTI** II (Şamaxı) – balaca balış. – *Qulağaltının üzünü tikdim.*

**QULAX** I (Ağcabədi, Goranboy, Qazax) – istiqamət. – *Get suyun qulağın dəyiş* (Ağcabədi). ◊ **Qulax qırmax** (Göyçay, Mingəçevir, Tovuz) – istiqamətləndirmək. – *Məhəmməd, su gəldi, ləx′lərin üsdünə qulax qır* (Tovuz). **Qulağ eləməx′** (Mingəçevir) – istiqamətləndirmək. – *Suyu bosdana qulağ elədim.*

**QULAX** II (Tovuz) – cəftə. – *Qapının qulağın vur, gəl.*

**QULAX** III (Göyçay, Tovuz) – b a x **qulağ.** – *Bizim arabanın qulağı sınıb* (Göyçay).

**QULAX** IV (Cəbrayıl, Gəncə, Şəki) – cəhrənin bir hissəsi. – *Anam cəhrənin qulağını çıxartdı* (Gəncə); – *Ci:m di:r: "Cəhrənin qulağı xarav olutdu"* (Şəki).

**QULAXA:NI** (Çənbərək, Karvansaray) – həmsöhbət. – *Qulaxa:nım yoxuyudu beyjə* (Karvansaray).

**QULAXÇA** (Gəncə) – cəhrənin bir hissəsi. – *Qoyunun qıçının damarını ver, cəhriyə qulaxça qayrım.*

**QULAXLI** (Şəmkir) – arabada laydırın aşağı hissəsinin keçdiyi dəmir.

**QULAXLIX** (Şamaxı) – cəhrədə iyin ucu keçirilən yer. – *Gəti, qulaxlığa bir az yağ sürt.*

**QULAXYASDIĞI** (Şuşa) – balaca balış. – *Gejə qulaxyasdığım tüşüf, onö:rə boynum ağrıyır.*

**QULAMPA** (Göyçay, İsmayıllı) – yabanı bitki adı. – *Qulampa çox yeməlidi* (İsmayıllı).

**QULAMPARA** (Çənbərək) – fırıldaqçı. – *Balajanın arvadı Mənzər qulampara adamdı.*

**QULANÇAR** (Bolnisi, Borçalı, Gəncə, Qazax, Mingəçevir, Ordubad, Şəmkir) – yeməli yabanı bitki adı. – *Qulançarı gederix′ dərerix′, soŋra gətirerix′, tuada pişirerix′* (Qazax); – *Qulançarı yağnan qo:randa ləzətdi olur* (Gəncə); – *Oğlum bağdan yığdığı qulançar dəsdəsini nənəsinə verdi* (Ordubad); – *Qulançar da otdu, taxılda-zadda piter* (Şəmkir).

**QULANGƏRİŞ** (Cəlilabad, Əli Bayramlı, Salyan) – eyvan. – *Qulangəriş öyin qabağındo:lar* (Salyan); – *Qulangərişdə otırıb çay içeydüg* (Cəlilabad).

**QULANGÜL** (Quba) – gül adı. – *Bacım bizə çux qulangül gətirmişdi.*

**QULAPAN** (İmişli) – b a x **qulaban.** – *Axşam bizim evin qulapanına bax, orda olacağam.*

**QULAPARAN** (Lənkəran) – b a x **qorapalan** I.

**QULAŞDAMAX** (Qazax) – qaçmaq. – *Çinarın divində iki canavar varıydı, elə qulaşdadım kı görəndə.*

**QULAVLƏMAX** (Meğri) – taqətdən düşmək, yorulmaq. – *Urdıbatdan piyada galdım, yulda qışlərim qulavlədi.*

**QULAZDAMAX** (Cəbrayıl) – tullamaq.

**QULBAQQA** (Dərbənd) – qurbağa.

**QULEYŞA** (Karvansaray) – b a x **qılovşa.**

**QULEYŞALIX** (Karvansaray) – b a x **qıloyşalıx.** – *İsrahayın Narıngül xala Qulu kişiyə sənnən quleyşalığ elermiş.*

**QULƏNÇƏR** (Oğuz) – b a x **qulançar.** – *Qulənçər çox yiməli şeydi.*

**QULĞUNA** I (Qazax) – b a x **qılğına** I.

**QULĞUNA** II (Borçalı, İmişli, Qazax) – b a x **qılğına** II. – *Qulğuna çox vaxdı qulağın divinnən çıxer, yırtıler, soŋra adamı öldürer* (Borçalı).

**QULĞUNA** III (Borçalı, Yevlax) – araqarışdıran. – *Fatma qulğuna:rvatdı* (Yevlax); – *Hüseyn yaman qulğuna:damdı* (Borçalı).

**QULİX′** (Şəki) – qulun.

**QULİX′Lİ** (Şəki) – balası olan (at). – *Dalı qulix′li atı satıf, təzə at almışıx.*

**QULİYC** (Zaqatala) – çiban.

**QULLA** I (Əli Bayramlı) – dərin. – *Mən çayın lap qulla yerində çimirdim.*

**QULLA** II (Ağsu, Göyçay, Xaçmaz, İsmayıllı, Kürdəmir, Qax, Quba, Şamaxı) – su saxlamaq üçün qazılıb düzəldilmiş xüsusi yer. – *Hər öyün qabağında qulla uladu* (Quba); – *Qullaya su quy* (Xaçmaz); – *Uşağı qoyma, qullıya tüşər* (İsmayıllı); – *Gözdə, uşağ qullıya tüşər* (Kürdəmir).

**QULLA** III (Ucar) – su içilən qab. – *Qullanı ver, su içim.*

**QULLABA** I (Kürdəmir) – mehtərə, suqabı. – *Qullabanı suynan doldurub yola tüşdük.*

**QULLABA** II (Şahbuz) – palanduz. – *Qullaba palanı sırıyır, tikir.*

**QULLABA** III (Bakı) – qapının dalına vurulan dəmir ling. – *Qapının qullabasın vurmısan?*

**QULLƏ** (Quba) – b a x **qulla** II. – *Qullədə su çuxdu.*

**QULLUQÇU** (İsmayıllı) – qaraçıraq. – *Ağız, qulluqçuni gəti, pəyədə inəgə baxım.*

**QULOYŞA** (Hamamlı) – b a x **qılovşa.** – *O çox qıloyşa adamdı.*

**QULOYŞALAMMAX** (Borçalı) – xəbərçilik etmək. – *Ə:, qalxos sədrinə nə quloyşalanersan?*

**QULOYŞALIX** (Başkeçid, Borçalı, Daşkəsən, Hamamlı) – b a x **qıloyşalıx.** – *O, quloyşalığınnan əl çəkməz* (Hamamlı).

**QULPLICA** (İmişli, Lerik) – dəstəli tava. – *Qulplıcada pişer qayğanağ, çığırtma* (İmişli).

**QULPLU** (Ucar) – su içilən qab. – *Qulplunu gəti mənə.*

**QULPU: QULPU ÇIXARTMAX** (Balakən) – yas mərasimi təşkil etmək. – *Hasan bovasına çox layıxlı qulpu çıxartdı.*

**QULTAŞA** (Tovuz) – b a x **qoltaşa.** – *O, çox qultaşa:damdı <qultaşa adamdır>.*

**QULUC** (İsmayıllı, Qarakilsə) – uc, qıraq. – *Palazın qulucunnan tutdum, atdım bayıra* (Qarakilsə).

**QULUNC** (Borçalı) – hörgüc. – *Qulunc iki dənə olor dəvədə.*

**QULUNƏ:ĞI** (Gədəbəy) – yabanı bitki adı. – *Bizdə qulunə:ğı da de:ilir, yolotu da de:ilir.*

**QULUNKİŞNİŞİ** (Xanlar) – yabanı bitki adı. – *Min dəfə demişəm, qulunkışnişi yimiyin.*

**QULUNOTU** (Kəlbəcər) – yabanı bitki adı. – *Qulunotu bö:ün yarar şeydi heyvan yemə:.*

**QUM** (Bakı) – mehtərə, suqabı.

**QUMACEX′** (Şəki) – meyvənin (alma, armud və s.) yeyiləndən sonra qalan tullantı hissəsi, cecəsi. – *Almanı yiyif qumaceyni bu yanə atma.*

**QUMALAT** (Dərbənd) – qohum-əqrəba. – *Qızçi <qız üçün> nişan aparanda çağıradug qumalatımızı.*

**QUMANNI** (Balakən, Qax, Zaqatala) – hamilə.

**QUMBARA** (Bakı, Şəki) – isladılmış kömür xəkəsindən yumru şəkildə düzəldilmiş yanacaq növü. – *Bu gün iki yüz dənə qumbara qayırmışam* (Şəki).

**QUMBUC** (Cəbrayıl, Kürdəmir) – omba. – *İnəgin qumbucu batıp, doğmağa az qalır* (Kürdəmir).

**QUMQUMA** I (Dərbənd, Şamaxı) – ziyanverici həşərat adı. – *Bağımızın almalarına qumquma daraşıb puç elədi* (Şamaxı); – *Qumquma alma teregin xarab eliyədü* (Dərbənd).

**QUMQUMA** II (Ordubad) – azacıq açılmış tumurcuq.

**QUMQUMALAMAX** (Ordubad) – tumurcuqlamaq. – *Ağaşdar qumqumalıyıb.*

**QUMLƏLƏ** (Bakı) – qamışdan toxunmuş iynə-sap qutusu. – *Qumlələdən qara çərxi götür bura.*

**QUMPARA** (Xaçmaz) – b a x **qopara.** – *Ut çalmağçün qumpara quymişəm.*

**QUMPİL** (Tabasaran) – kətmən. – *Qumpilin sapıyçin ağac kəsdüm.*

**QUNAQUNA** (Gədəbəy) – uşaq oyunu adı.

**QUNC** (İsmayıllı) – dəvədabanı. – *Diyəsən, qunc yarpağ açıb.*

**QUNCA: QUNCA GÖBƏLƏK** (Kürdəmir) – göbələk növü adı. – *Qunca göbəbələk yeməlidü.*

**QUNCAR** (Tabasaran) – ət qutabı. – *Etdən bişənə quncar diyədig.*

**QUNCEK** (Zaqatala) – b a x **qumacex′.**

**QUNÇABACI** (Salyan) – qardaş arvadının baldızına verdiyi ad.

**QUNDAĞ** (Yardımlı) – çağa, körpə uşaq. – *Eylə* (*o qədər*) *yolu ə:ğnan gəlib, qundaği də əlində.*

**QUNDAX** (Tovuz) – araba oxunun keçirildiyi hissə.

**QUNDARA** (Oğuz) – b a x **qondara.** – *Biz qundaranı gönnən tix′dirirdix′.*

**QUNDİLİ** (İsmayıllı) – dəlisov. – *O ata mimməy olmaz, qundilidi.*

**QUNDUC: QUNDUC İYNƏ** (Qax) – böyük iynə. – *Qunduc iynə böyük olur.*

**QUNDUR** I (Kəlbəcər, Şərur) – qabaq, balqabaq. – *Bazardan iki qundur aldım* (Kəlbəcər).

**QUNDUR** II (Hamamlı) – lovğa. – *Qundur özünnən başqa heş kəsi bə:nməz.*

**QUNDUR** III (Qazax) – çoxbilmiş.

**QUNDURSUZ** (Naxçıvan) – ağılsız.

**QUNDUZ** (Ağcabədi) – qozbel. – *Qunduz Əli hare:tdi?*

**QUNİŞMAX** (Meğri) – həmfikir olmaq, mehribanlaşmaq. – *Mizayeynan Mabəyim qunişip.*

**QUNQƏ** (Yardımlı) – koğa.

**QUNQƏLƏMƏG** (Yardımlı) – əymək. – *Budağa boyimiz çatmiyəndə qunqəleydüg, dəreydüg.*

**QUNQREX′** (Oğuz) – çöl quşu adı.

**QUNT** (Qax) – çoxbilmiş. – *Ho yaman quntdu.*

**QUNUT** (Şəki) – tumurcuq.

**QUNUTDAMAX** (Şəki) – tumurcuqlamaq. – *Ağaşdar qunutdi:tdi, büyün-savax açıcaxdı.*

**QUPBA** (Şamaxı) – b a x **qubba.** – *Qupbam qırılıb düşüb.*

**QUPBALAMAĞ** (Şamaxı) – düymələmək. – *Arxalığı yaxşı qupbala.*

**QUPBAZ** (Cəbrayıl) – lovğa.

**QUPPA** (Ağsu, Kürdəmir, Salyan) – b a x **qubba.** – *Paltükün quppası düşüb* (Ağsu); – *Pencəkdə beş quppa var* (Salyan).

**QUPU** (Dərbənd) – alaqkeş. – *Qupiynə ekin qupuliyədilər.*

**QUPULAMAĞ** (Dərbənd) – alaq etmək. – *Şitil əkədig, sora qupuluyadig.*

**QURA** (Zaqatala) – moruq.

**QURAĞAZDAMMAX** (Qazax) – qurumaq, suyu çəkilmək. – *Qoy yol qurağazdansın, sizə:ləjəm.*

**QURAĞSİMAĞ** (Xaçmaz) – darıxmaq, könlü istəmək. – *Uşax qurağsimişdi, gündərdim anasinin yaninə.*

**QURAX** (Cəbrayıl, Zəngilan) – müxtəlif əlvan parçalardan tikilmiş üçbucaq formalı bəzək şeyi. – *Qurax qabaxlar olurdu* (Zəngilan).

**QURAXSAMAX** (Şəki) – b a x **qurağsimağ.**

**QURAXSIMAX** (Bərdə, Hamamlı, Mingəçevir, Zaqatala) – b a x **qurağsimağ.** – *Məni danlama, onunçün yaman quraxsımışam* (Bərdə); – *Sənnən ötəri yaman quraxsımışam* (Hamamlı).

**QURAMA** I (Cəbrayıl, Salyan, Yardımlı, Oğuz) – uydurma, yalan. – *Qurama sözə inanma* (Oğuz).

**QURAMA** II (Bakı, Cəbrayıl, Gədəbəy, Hamamlı, Şamaxı, Şuşa) – müxtəlif parça kəsiklərindən tikilmiş yorğan, döşək. – *Qurama yorğan bəzegli olur* (Bakı); – *Yorğan üzünüz quramadı, də:sin* (Gədəbəy); – *Xalam maŋa bir qurama bağışlıyıf* (Şuşa).

**QURAMA** III (Mingəçevir, Oğuz, Şəki) – quraşdırılmış (pəncərə, qapı). – *Şəkidən gedif qurama qapı almışam* (Oğuz).

**QURAMAÇI** (Şuşa) – uydurmaçı.

**QURAMAX** (Cəbrayıl, Zəngilan) – uydurmaq. – *Həylə iş olmuyuf, hamısın özünnən quruyur* (Zəngilan).

**QURAMALI** (Hamamlı) – naxışlı, bəzəkli.

**QURAMALIĞ** (Bakı, Şamaxı) – qurama (b a x **qurama** II) üçün işlədilən parça. – *Bir xeylağ quramalığım var* (Bakı).

**QURAMİT** (Xaçmaz, Quba) – quru, susuz (yer).

**QURANQAZ** (Oğuz) – dik. – *Quranqaz yerə su çıxmaz.*

**QURAYÇA** (Dərbənd, Tabasaran) – dayça. – *Qurayça bağdə biçan iyədi* (Dərbənd).

**QURBAĞAGÖZİ** (Lənkəran) – yabanı bitki adı.

**QURBAĞA KƏCİ** (Lerik) – yosun. – *Qurbağa kəci ağacda oley.*

**QURC** (Kürdəmir, Salyan) – balığın kəsilmiş kiçik parçası. – *Balığdan iki qurc bacımgilə göndərdim* (Salyan).

**QURCAVA: QURCAVA GEYİNMƏXʹ** (Çənbərək) – üst-üstdən geyinmək. – *Ay qızım, bu nədi, qurcava geyinifsən?*

**QURCƏLƏMMƏG** (Yardımlı) – o yan-bu yana çevrilmək, sakit oturmamaq. – *Nə qurcələneysən, yerində otuginən.*

**QURC-QURC: QURC-QURC DOĞRAMAĞ** (Salyan) – parça-parça, hissə-hissə doğramaq. – *Balığı Kazım qurc-qurc doğradı.*

**QURCUĞ** (Quba) – tumurcuq. – *Ağajdarda biyil qurcuğ çuxdi.*

**QURCUTMA: QURCUTMA SALMAX** (Oğuz) – şuluqluq salmaq. – *Sizdən çəkinir, yoxsa bura bir qurcutma salmışdı ki!*

**QURÇ** (Tabasaran) – ağacın kəsiləndən sonra yer səthində qalan hissəsi, kötüyü. – *Bu təhər kəsülütdü, una qurç diyədülər.*

**QURDAĞZI** I (Şəki) – otaq gülü adı.

**QURDAĞZI** II (Bərdə, Xaçmaz, Qazax, Quba, Tovuz) – qaramalda xəstəlik adı. – *Canavar camışı tişdiyəndə qurdağzı azarı tüşür, heyvan da tez ölür* (Bərdə).

**QURDAĞZI** III (Cəlilabad) – yarımboğaz, xəzli ayaqqabı.

**QURDAXÇI** (Qazax) – qoyunun ayağına ilişdirib tutmaq üçün ucu əyri ağac. – *Qurdaxçının başı əyri olor kin, qoyunu tutmağ olsun.*

**QURDEŞƏNƏXʹ** (Başkeçid, Borçalı, Hamamlı) – dəridə əmələ gələn səpki. – *Tofiqin bədəni bütö: qurdeşənəxʹdi* (Borçalı).

**QURDOTU** (Kəlbəcər) – dərman bitkisi adı. – *Heyvanın bədəninə yara düşəndə qurdotunu yığırıx, qurudurux, avırıx, sonra onu tökürüxʹ, yarada qurdu öldürür.*

**QUREYİŞ: QUREYİŞ OLMAX** (Ağdam) – hər işə qarışmaq, hər şeylə maraqlanmaq. – *A bala, az qureyiş olsana, nə dərdinə qalıfdı, iki adamdı, özdəri bilər.*

**QURĞAZ** (Balakən) – b a x **qurqur.**

**QURĞAZDAMMAX** (Qazax) – b a x **qurağazdammax.** – *Yol bir az qurğazdansın, soŋra gələrsiniz orya.*

**QURĞUZDAMMAX** (Tovuz) – b a x **qurağazdammax.** – *Bir az qurğuzdanannan sonra de:rixʹ yerin aratı çıxdı.*

**QURİK** (Zaqatala) – b a x **qulixʹ.**

**QURQA** I (Zaqatala) – qoza (palıd ağacında). – *Palıtda qurqa çoxdu.*

**QURQA** II (Zaqatala) – çəyirdək.

**QURQU** (Şəki) – b a x **qurqa** II. – *Zoğal qurqusunu döyüf, tənzifdən keçirif, verillər qarnı ağrıyana.*

**QURQUR** I (Qax) – su içilən qab.

**QURQUR** II (Şərur) – oval formalı dəmir qutu.

**QURQURA** (Naxçıvan) – çöl quşu adı.

**QURQURRƏK** (Şamaxı) – b a x **qurqura.**

**QURQUZ** (İmişli) – arıq.

**QURONTA** (Dərbənd, Tabasaran) – günorta. – *U da quronta gələdi* (Tabasaran).

**QURRA** (Qazax) – ədabaz, lovğa. – *Namaz yaman qurra adamdı.*

**QURRAVAZ** (Basarkeçər) – b a x **qırravaz.** – *Ə, qurravaz olma!*

**QURRES** (Kəlbəcər) – ağılsız. – *Qənirə illaf qurresdi.*

**QURREY** (Qarakilsə, Laçın, Oğuz) – sadəlövh. – *Əliş kimi qurrey adam olmaz* (Laçın); – *Məmmədəli qurrey adamdı* (Qarakilsə).

**QURSAX** (Şəki) – çinədan. – *Qursağı boşdu to:ğun, den tökün yisin.* ◊ **Qursax mayası** (Göyçay) – pendir mayası.

**QURSANA** (Qax) – fırfıra. – *Uşaxlar oynıyan şeydi qursana.*

**QURŞAX** I (Goranboy, Qazax) – kiçik arx.

**QURŞAX** II (Qazax) – qövsi-quzeh. – *Yağış yağannan sonra qurşax sallanar.*

**QURŞAX** III (Cəbrayıl) – *məc.* çəpərin belinə (ortasına) çəkilən qarğı, çubuq. – *Ə:, qurşağın qalın qoyun ki, çəpər möhkəm olsun.*

**QURT** (Yardımlı) – zirək, diribaş. – *Qurt adamdı, əlinnən nə desön galay.*

**QURTBAĞRI** (Oğuz ) – yabanı ağac adı. – *Qurtbağrının yarpağı mürdəşiyə oxşuyur.*

**QURTDANQUŞ** I (Hamamlı, Mingəçevir, Yevlax) – hər şeylə maraqlanan, hər şeyi bilmək istəyən. – *Bəhrəm kişi çox qurtdanquş adamdı* (Yevlax); – *Vəli qurtdanquş adamdı* (Hamamlı).

**QURTDANQUŞ** II (Qazax) – araqarışdıran.

**QURTDU** (Yardımlı) – paxıl, xəbis. – *Qurtdu üşağdu, heç kəsi gözi götürmey.*

**QURTDUĞAN** (Balakən) – xəstəlik adı (dırnağın dibində olur).

**QURTULU** (Ordubad) – yabanı bitki adı.

**QURTYEMƏZ** (Basarkeçər, Kəlbəcər, Qax, Şəmkir) – qida borusu (heyvanlarda). – *Heyvanı kəsəndə qurtyeməzin kəs tulla* (Basarkeçər); – *Qoyunda da olur, malda da qurtyeməz* (Şəmkir).

**QURUÇANAX** (Çənbərək, Tovuz) – avara, işsiz. – *Quruçanağ adam özünə öy quram-maz* (Çənbərək).

**QURUX** (Dərbənd) – qoz çırpmaq üçün uzun çubuq.

**QURU: QURU DOLMA** (Şəki) – evdə hazırlanmış kolbasa. – *Quru dolma qə:rif qış uzunu yiyirix'; – Biyil quru dolmamız çoxdu.*

**QURUQAZ** (Kürdəmir) – yaxşı qızardılmış (çörək, kartof və s.).

**QURULDAVUX** (Qax) – şəlalə.

**QURUM** (Balakən) – xəsis. – *Səkinə qarını çox yaxşı tanıyıram, o, çox qurum arvaddı.*

**QURUMÇƏX'** (Oğuz) – alma, armud və s. meyvənin yeyiləndən sonra qalan tullantı hissəsi, cecəsi. – *Almanın, armudun üzeyi də diyirix', qurumçəx' də.*

**QURUMSU** (Qarakilsə, Qazax) – qanı kəsmək üçün qurumdan hazırlanmış maddə. – *Qurumsu qanı tez kəsir* (Qarakilsə).

**QURUN** (Axalsxi, Borçalı) – nov. – *Qurunda su olur, mal içir* (Borçalı).

**QURUNTA** (Dərbənd) – b a x **quronta.** – *Mən yerimnə qurunta duradam.*

**QURVAĞA** (Qazax) – dəyirmanın üst daşını fırlatmaq üçün oxun ucuna keçirilən dəmir hissə. – *Də:rman daşının ağırrığı qurvağıya tüşer.*

**QUSUL** (Balakən) – xəmir xörəyi adı.

**QUSUNTI** (Salyan) – körpə uşağın qusmaması üçün bələyinə bağlanan ağ muncuq. – *Qusuntını uşağın bələginə bağlaqınan, gəlirəm.*

**QUSQUTA** I (Salyan) – ziyankar, yaramaz. – *Şakir qusquta adamdı, işi-peşəsi adama ziyan vurmağdı.*

**QUSQUTA** II (Salyan) – yabanı bitki adı.

**QUSUR** (Qax) – dağar. – *Degirmanda bir qusur buğda üğütdüm.*

**QUŞBURNU** (Daşkəsən, Gədəbəy, Xanlar) – itburnu. – *Quşburnu yaxşı çiçəx'di, cürə-cürədi, etir iyisi oloy* (Daşkəsən); – *Quşburnu çayı da xeyırdı sö:ox'dəymə:* (Gədəbəy).

**QUŞDAVAN** (Ağcabədi, Qazax) – hündürdaban ayaqqabı. – *Quşdavanı mə:llimlər ge:ner, qızdar ge:ner* (Qazax).

**QUŞDƏDƏ** (Qax) – çöl quşu adı.

**QUŞKEÇƏN** (Ağbaba, Bərdə, Qazax) – hündürdaban ayaqqabı. – *Gəlinə bir qəşəng quşkeçən almışam, dabanı çox hündürdü, geyəmmir* (Bərdə); – *Əyağında quşkeçən varıydı* (Qazax).

**QUŞKEÇƏR** (Ordubad) – b a x **quşkeçən.**

**QUŞQOMMAZ** I (Basarkeçər) – qaramalın omba sümüyünün baş tərəfi. – *Döyüf öküzün quşqommazın yara eli:fsən.*

**QUŞQOMMAZ** II (Salyan) – sarıtikan.

**QUŞQUL** (Yevlax) – sərrast nişançı.

**QUŞQUNTƏKLİFİ** (Quba) – könülsüz təklif, dəvət.

**QUŞQUŞU** (Çənbərək, Gədəbəy, Qazax) – yüngülxasiyyətli. – *Dedim: Ə, quşquşu Bayram, hardan belə?* (Qazax); – *Quşquşu adam xatadan ötməz* (Çənbərək); – *Sənin kimi quşquşudan bunnan artıx nə qanajax gözdəməy olar?* (Gədəbəy)

**QUŞQUYRUĞU** (Şahbuz) – yabanı bitki adı.

**QUŞQUZULAMAX** (Qazax) – günəşli gündə seyrək yağış yağmaq.

**QUŞLƏXƏRİ** (Bakı) – un ilə doşabdan bişirilən paxlava. – *Quşləxəriləri apar, dam üsdə sər.*

**QUŞMURRU** (Böyük Qarakilsə) – bax **quşburnu.**

**QUŞTUQUR** (Qax) – pəhləvan.

**QUT** I (Salyan) – tumurcuq. ◊ **Qut bağlamağ** – tumurcuqlamaq. – *Ağajdar yavaş-yavaş qut bağlıyır.*

**QUT** II (Cəbrayıl, Qazax, Qarakilsə, Meğri) – qüvvət, güc. – *Bir tikə əppəx ye, ürəyinə qut olsun* (Qazax); – *Bir loxma çörəy al, ürəyində qut olsun, dayna!* (Qarakilsə); – *Üş gündü qutdan düşüp; – Bir loxma çörəxʹ ye, ürəyində qut olsun* (Cəbrayıl). ◊ **Qutdan düşməxʹ** (Meğri) – gücdən, taqətdən düşmək, halsızlaşmaq. – *Uşax naxoşduyup, lap qutdan düşüp.*

**QUT** III (Şərur) – yemək. – *Sə:rdən ağzıma qut dəymiyip.*

**QUTA** (Qax) – nərdivanın pilləsi.

**QUTAN** (Oğuz) – quzu salınan qazma. – *Yataxda quzu salıllar qutana.*

**QUTƏBBƏR** (Çənbərək) – ədalı, lovğa. – *Əli elə qutəbbər yeriyir ki!; – Əmin məclisdə qutəbbər oturmuşdu.*

**QUTƏPPƏRİ** (Kürdəmir, Laçın) – səliqəli. – *Əli həmişə qutəppəri geyinir* (Laçın).

**QUTĞA** (Dərbənd, Qax) – bax **qutqay.** – *Bizə bir qutğa su doldur* (Qax); – *Gütür qutgani apar qoy azbara* (Dərbənd).

**QUTXA** (Qax) – bax **qutqay.**

**QUTQAY** (Dərbənd) – güyüm.

**QUTQU** (Şərur) – böyrək.

**QUTQUT** (Zaqatala) – deyingən.

**QUTMAN** (Salyan) – ot topası. – *Tezzən durub qutmannarı daşımalıyam.*

**QUTU: QUTU QURUMAX** (Qazax) – mat qalmaq. – *Elə söz de:r ki, adamın qutu quruyor.*

**QUVARRAMMAX** (Çənbərək) – bax **quarrammax.** – *Ona nə var, oğlannarının qazancına baxır, quvarranır.*

**QUVƏRRƏMƏXʹ** (Çənbərək) – sevinmək, fəxr etmək. – *Dağıstan oğlannarına baxır quvərrənir, çünkün oxuyullar.*

**QUYXA:ĞI** (Bakı) – yelləncək.

**QUYİLDƏMƏG** (Yardımlı) – qışqırmaq. – *Quyildəmə, qulağım batdı.*

**QUYLAMAÇ** (Basarkeçər) – uşaq oyunu adı. – *Gəlin gedəxʹ quylamaç oynuyax.*

**QUYLAMAX** I (Füzuli, Qazax) – gizlətmək, ört-basdır etmək.

**QUYLAMAX** II (Şəki) – basdırmaq.

**QUYLƏMAX** (Şəki) – bax **quylamax** II. – *Leşi verdıx itdərə, qalannı da quy qazıf quylədıx.*

**QUYLƏMƏ** (Şəki) – basdırılmış dirək. – *Özü eşixʹdə quyləmə yeri qaziydi.*

**QUYRAX** (Mingəçevir, Şəki) – bax **qıvrax** II. – *Bu unnan biraz quyraxdı* (Şəki).

**QUYRALTMAX** (Qax, Tovuz) – uydurmaq. – *Özünnən yalan quyraltma* (Tovuz).

**QUYRATMAX** (Hamamlı) – bax **quyraltmax.** – *Ə:, sən də özünnən bir şey quyratma!*

**QUYRUĞASDARI** (Cəbrayıl, Xanlar, Zəngilan) – qoyun quyruğunun tüksüz hissəsi. – *Bu quyruğasdarın bişi ver mã: yə:jəm* (Zəngilan); – *Çovannar quyruğasdarına dadamal oloy* (Xanlar).

**QUYRUĞUSÜZGÜN** (İmişli) – nazik quyruqlu. – *Bi quyruğusüzgün atım varıdı onda.*

**QUYRUX** (Şuşa) – quyruqlu ulduz. – *Üş dənə ulduz olur yanaşı, ona de:ərixʹ Tərəzi, altındakinə də de:irixʹ Quyrux.*

**QUYRUXBASMA** (Şəmkir) – evin tirləri üstünə qoyulan ağac. – *Quyruxbasma evin başnan ayax tərəfini saxlıyır.*

**QUYRUXLAMAX** (Basarkeçər, Hamamlı) – *məc.* ad eləmək. – *Onun qızın oğluma quyruxladım* (Hamamlı).

**QUYRUXLU** (Ucar) – su içilən qab. – *Quyruxlunu suynan doldur, ver içim.*

**QUYRUXYARAN** (Xanlar) – dərman bitkisi adı.

**QUYRULMAX** (Mingəçevir, Oğuz, Şəki) – qıvrılmaq. – *İlan kimi quyruluf yatır* (Oğuz).

**QUYRUM** (İmişli) – bax **qıvrım** II.

**QUYRUMLAMAX** (Gəncə, Hamamlı) – bax **qıvrımlamax.** – *Çörəyi quyrumla* (Gəncə); – *Nənəm yapbanın üsdünü yaxşı quyrumlor* (Hamamlı).

**QUYRUMLU** (Basarkeçər) – bax **qıvrımlı.** – *Uşaxlara quyrumlu çörəxʹ pişirdixʹ.*

**QUYTUN** (Qazax) – burulğan. – *Üzüf çox uzağe:tmə, quytuna tüşərsən.*

**QUYULAMAX** (Füzuli, Qazax, Şərur) – bax **quylamax** I. – *Onu elə quyuluyajam ki, izi, tozu tapılmasın* (Füzuli).

**QUYULATMAX** (Basarkeçər) – *məc.* gizlətmək. – *Elə quyulatdı kişinin qoyunun ki, heş kəs tapammaz.*

**QUYURCUXMAX** (Gədəbəy, Qazax, Şəmkir, Tovuz) – qurculanmaq. – *Nə quyurcuxur yerində?* (Qazax); – *Nə quyurcuxorsan, a bala, oturgunan!* (Gədəbəy); – *Quyurcuxma, heç yana getmiyəşsən* (Şəmkir).

**QUZAQUZA** (Xaçmaz) – uşaq oyunu adı. – *Yazda quzaquza uyniyərduğ.*

**QUZDABAN** (Xaçmaz, Quba) – hündürdaban (ayaqqabı). – *Hindinün qizdəri quzdaban giyəllər* (Xaçmaz).

**QUZĞALAMAX** (Dərbənd) – qurdalamaq. – *Doşabi quzğalamasa, dib tutar.*

**QUZUÇU** (Qazax, Tovuz, Yevlax) – quzu çobanı, quzuotaran. – *Qulu bizdə quzuçudu* (Qazax); – *Fermamızda iki quzuçu var* (Yevlax).

**QUZUDİLİ** (Bakı) – bitki adı. – *Qoyun quzudilini yaxçı yi:r.*

**QUZUGÖRƏN** (Oğuz) – alma növü adı.

**QUZUQARNI** (Oğuz, Şəki, Tərtər) – 1. yeməli göbələk növü (Oğuz, Şəki). – *Quzuqarnı göbələyin bir növüdü, bişirəndə ət dadır* (Oğuz); 2. yabanı bitki adı (Tərtər). – *Quzuqarnı dağlarda pitir, daddı olur.*

**QUZUQULAĞI** (Şəki) – yeməli göbələk növü.

**QUZULAMAĞ** I (Salyan, Yardımlı) – b a x **quzulamax** I.

**QUZULAMAĞ** II (Salyan) – arzulamaq.

**QUZULAMAX** I (Basarkeçər, Borçalı, Cəbrayıl, Çənbərək, Karvansaray, Kürdəmir, Qazax, Mingəçevir, Zəngilan) – rütubətdən ovulub tökülmək, parçalanmaq. – *Tufarın suağı nəmlixʹdən quzuluyuf* (Basarkeçər); – *Tavla:n bir tərəfi quzuluyuf töküldü* (Zəngilan); – *Torpax quzuluyuf* (Karvansaray).

**QUZULAMAX** II (Çənbərək, Oğuz) – *məc.* narahat olmaq. – *Bu, savaxdan quzuluyur qaqaşım gəlmədi diyə* (Oğuz); – *Qarağız qarı bir həfdədi quzuluyur, nədi-nədi, bir qoyununu sağıflar* (Çənbərək).

**QÜÇƏN** I (Mingəçevir, Yevlax) – küçük. – *A bala, qüçəni qov ordan* (Yevlax).

**QÜÇƏN** II (Quba) – dəyirman daşının ətrafına yığılan un. – *Hacının dəgirmannan gətirdiyi qüçəni apardılar.*

**QÜÇÜQ** (Ucar) – b a x **qüçixʹ.** – *Bu qüçüqləri tez əkməy lazımdı.*

**QÜDDƏ** (Oğuz, Şamaxı) – b a x **qudda.** – *Sədrəddin qüddə adamdı* (Oğuz); – *Ay Qubat, sənin oğlun yaman qüddə uşağdı* (Şamaxı).

**QÜDRƏTİ: QÜDRƏTİ ŞAL** (Biləsuvar) – yun ilə ipəyin qarışığından toxunmuş şal.

**QÜL** (Qax) – uçurum.

**QÜLLƏ** (Naxçıvan) – pay. – *Gə qülləni apar.*

**QÜLÜNGƏN** (Masallı) – zirzəmi. – *Qülüngənə odun yığmışuğ.*

**QÜRREY** (Laçın) – b a x **qurrey.** – *Əliş kimi qürrey olmaz.*

**QÜRRƏLƏNMƏXʹ** (Zəngibasar) – güvənmək. – *Sən kimə belə qürrələnirsən?*

# Ll

**LABADA** (Qax, Quba, Şəki, Şuşa, Zaqatala) – 1. qısaqollu, üzəri qaytan və bafta ilə işlənilmiş qadın paltarı (Zaqatala, Şəki). – *Hətəm öz nənəsinin labadasını puzdurub qadınına don tikdirdi* (Zaqatala); – *Anam özünə labada tikir* (Şəki); 2. sırınmış pencək, sırıqlı (Quba). – *Labadanı gavar bu yoxunnarda almısan.*

**LABBA** (Şəki) – qabaq hissə.

**LABİ** (Cənubi Azərbaycan) – huşsuz. – *Kamran çox labi adamdu.*

**LA:BUKƏ** (Salyan) – nöqsan, eyib. – *Məndə nə la:bukə bilib, məni qo:lamağ issiyirsən?* – *Uşağda heç la:bukə yoxdu.*

**LAC** (Quba) – damın üstünə döşənən ağac. – *Damın lacları tükülmüşdü.*

**LAÇINQUYRUĞU** (Cənubi Azərbaycan) – yeyilən yabanı bitki adı. – *Bir dəsdə laçınquyruğu yığdım.*

**LADARA** I (Oğuz) – yalançı.

**LADARA** II (Gədəbəy) – bölgü. – *Taxıl ladarasında gələjəm.*

**LADIRA** (Oğuz) – məsxərəçi.

**LAFÇIN** (Ağsu, Gəncə, Qazax, Lənkəran, Sabirabad, Şəki) – b a x **lapçın.** – *Lafçını öydə geyirük* (Ağsu); – *Uşaxlara lafçın almışam* (Gəncə); – *Mə:m lafçınımın bir tayın it aparıb* (Lənkəran).

**LAFÇİN** (Şəki) – b a x **lapçın.**

**LAFDAN** (Oğuz) – b a x **lapbadan.** – *A gidə, uşağı zarafata salıf lafdan vurma.*

**LAF-LAF** (Qazax) – mənasız. – *Məmməd laf-laf danışer.*

**LAF: LAF VURMAX** (Qazax, Şəki) – mənasız danışmaq. – *Əziz yaman laf vuror* (Qazax).

**LAĞ** (Quba) – kürək. – *Camış lağı sındırdı.*

**LAĞABBA** (Xanlar, Kəlbəcər) – ləqəb. – *Birdən birinə bir lağabba yapışdırellar* (Xanlar).

**LAĞALAĞ** (Tovuz) – səliqəsiz. – *Öydə qav-qajax lağalağdı.*

**LAĞAN** (Qax) – b a x **laqan.** – *İt qabağına lağan tulla:n kimi honu da menin qabağına qoyıp nara gedipsin?*

**LAĞANDA** (Salyan) – kökündən ayırmadan yerə basdırılan tənək budaqlarından göyərən zoğ. – *Bizim bağda çoxlu lağanda var.* ◊ **Lağanda basmağ** – tənək basdırmaq. – *Atam lağanda basır;* – *Müseyib yaxşı lağanda basandı.*

**LAĞAR** I (Gəncə) – gen. – *Bu tüyəngin lüləsi çox lağardı.*

**LAĞAR** II (Çənbərək, Gədəbəy, Gəncə, Karvansaray, Şəmkir, Zaqatala) – çox palçıq olan yer. – *Atı lağardan sürmə* (Gəncə); – *Harava lağara tüşən kimi təkər sındı* (Şəmkir).

**LAĞAR** III (Çənbərək, Gədəbəy, Karvansaray) – kotanın açdığı şırım. – *Lağara yıxılmışdı qaçanda hodağım dünənnəri* (Gədəbəy).

**LAĞARD** (İmişli) – b a x **lağar** I. – *Lağard paltar adamı işdəməgə qoymaz.*

**LAĞARRAMMAX** I (Gədəbəy, Gəncə) – genəlmək. – *Təkərin dulquları laf lağarranıfdı.*

**LAĞARRAMMAX** II (Ağdam, Gəncə) – çuxur olmaq, çuxurlaşmaq. – *Bizim yol lap lağarranıf* (Ağdam).

**LAĞART** I (Ağcabədi, Kürdəmir, Salyan, Meğri) – b a x **lağar** I. – *Qardaşım maŋa bir lağart pencəy alıf* (Ağcabədi); – *Öy lağartdı, kif deyil* (Kürdəmir).

**LAĞART** II (Meğri) – iri, böyük. – *İki lağart çüyalı beçara doldudu ləbələb buğduynan.*

**LAĞAVA** (Bərdə) – b a x **lağabba.** – *Uzun Qulu dediŋ, uzun onun lağavasıdı.*

**LAĞAVLAMAX** (Ağdam) – əzmək (meyvəni). – *Almadı, armıtdı, lağavlıyırsan suyu çıxır.*

**LAĞBALAĞ** (Bakı) – ağzınadək dolu. – *Vedrə lağbalağ dolub.*

**LAĞCIL** (Gəncə) – b a x **lağvaçıl.** – *Sən yaman lağcılsaŋ.*

**LAĞILBAZ** (Füzuli) – başqasına lağ edən. – *Keşmişdə lağılbaz vardı, hərəyə bir ad qoyurdular.*

**LAĞILLAMAĞ** (Salyan) – cırıldamaq. – *Qapı lağıllıyır.*

**LAĞLAĞ** (Tovuz) – b a x **lağalağ.**

**LAĞMA** (Oğuz) – tapmaca və lətifə söyləyən adam.

**LAĞŞƏK** (Salyan) – çolaq, şikəst. – *O uşağ elə anadangəlmə lağşəkdi.*

**LAĞŞƏX′** (Gəncə) – lağa qoyulan, lağ edilən (adam). – *Mən lağşəx′ döyləm, get tayıŋı tap.*

**LAĞVA** (Borçalı, Gədəbəy) – lağlağı. – *Həsən sənnən lağva eleır* (Borçalı).

**LAĞVAÇIL** (Borçalı, Qazax) – lağlağıçı, lağlağı edən. – *Lağvaçıl adam lağ eliyənə de:rix′* (Borçalı).

**LAHAN** (Cənubi Azərbaycan) – boyunduruğun ortasında xışı qoşmaq üçün yer. – *Lahan olmasa xış boyunduruğda durmaz.*

**LAHAR** (Dərbənd) – məcməyi.

**LAX** I (Gədəbəy, Naxçıvan, Ordubad) – *məc.* mənasız. – *Min dənə belə lax iş görsən bir şey çıxmaz* (Naxçıvan).

**LAX** II (Bakı, Salyan) – yalançı. – *Adam ki, sözünə əməl eləmədi, sözündə lax çıxdı, onnan qaç qutar* (Salyan).

**LAXA** I (Qax, Zaqatala) – qışda evin ortasında düzəldilən ocaq, kürsü. – *Qişdə laxada yatmağın əyri ləzəti var* (Qax); – *Laxada od azdı* (Zaqatala).

**LAXA** II (Tovuz) – *məc.* çoxyeyən (adam).

**LAXA** III (Qazax) – naqqa (balıq).

**LAXAQARIN** (Qazax) – yekəqarın. – *Laxaqarın adam çox ye:r.*

**LAXAN** (Şamaxı) – əlindən iş gəlməyən, bacarıqsız. – *Eyvaz çox laxan adamdı.*

**LAXANA** (Axalsxi) – kələm. – *Bağdan laxana gəti; – Turşu:n yaxşısı laxanadan olur.*

**LAXDA** (Ağdaş, Cəbrayıl, Ucar) – tərəcə. – *Laxdanı hör; – Laxdanı qapının ağzına qoy* (Ağdaş); – *Mən laxda toxudum* (Cəbrayıl).

**LAXDALAMAX** (Ağdaş) – tərəcə ilə müəyyən yeri örtmək. – *Buranı laxdalamax lazımdı.*

**LAXI** (Qax) – taxça. – *Laxıda to:x murtdüyüfdü, al geti.*

**LAX-LAX** (Bakı, Salyan) – boş-boş, mənasız-mənasız. – *Sən alla: lax-lax danışma* (Bakı).

**LAXLAMA** (Ağbaba) – qayğanaq. – *Qonağa laxlama pişirdilər.*

**LAXŞAN** (Cəbrayıl) – xarab.

**LAXŞƏX′** (Gədəbəy) – b a x **laxşəng.**

**LAXŞƏK** (Kürdəmir, Qarakilsə) – *məc.* xəstə, zəif. – *Bədənim yaman laxşəkdi* (Kürdəmir).

**LAXŞƏNG** (Gədəbəy) – lağlağı.

**LAXTA** I (Cəbrayıl, Kürdəmir, Mingəçevir, Şamaxı, Zərdab) – b a x **laxda.** – *Barama üçün laxta çatışmır* (Zərdab); – *Kümdə beş laxta var; – Barama qurdunu laxta üsdündə saxli:llər* (Cəbrayıl).

**LAXTA** II (Şamaxı) – *məc.* bacarıqsız (adam). – *Nə laxta adamsən sən.*

**LAQAMALAMMAX** (Zaqatala) – sulanmaq (yaraya aiddir).

**LAQAN** (Qax) – ləyən.

**LAQQACAR** (Salyan) – səhlənkar. – *Sən biyaz <bir az> laqqacarsan.*

**LAQQACARRIĞ** (Salyan) – səhlənkarlıq. – *Sən də az laqqacarrığ elə.*

**LAQQAY** (Dərbənd, Tabasaran) – b a x **daqqay.**

**LAQQAYBALA** (Dərbənd) – küçük. – *Qujalar da laqqaybala diyədü una.*

**LAQQILDATMAX** (Gəncə) – su və ya yal içmək (itə aiddir). – *Yalağa su tök, it laqqıldatsın.*

**LAQQITAX** (Çənbərək) – boş. – *Öy laqqıtaxdı, heş şey gətimiyiflər; – Bu laqqıtax damda həncəri durum?*

**LALA** (Ağdaş, Culfa, Qazax, Ordubad, Şərur) – lampanın odluğu. – *Ləmpənin lalası qırılıf* (Qazax); – *Lala ləmpənin maşinində olar* (Ordubad).

**LALADİBİ** (Cənubi Azərbaycan, Ordubad) – yeməli yabanı bitki adı. – *Qo:rma bozbaşı üçün bir az laladibi yığmışam* (Cənubi Azərbaycan); – *Laladibi dərirəm qaduv alım* (Ordubad).

**LALADİVİ** (Ağdam, Ağdərə) – b a x **laladibi.**

**LALAFƏFİX′** (Daşkəsən) – aciz, bacarıqsız. – *Kərim lalafəfix′di.*

**LALAĞIRT** (Kürdəmir) – səliqəsiz. – *Yaqut lap lalağırtın biridi.*

**LALAGİLLƏ** (Salyan) – çərəz. – *Xonçıya lalagillə də qoyallar.*

**LALALAMAX** I (Şahbuz) – çiçəkləmək, gül açmaq. – *Ağajdar lalalanıb.*

**LALALAMAX** II (Çənbərək, Karvansaray) – təmizləmək. – *Buğduyu lalaladım yığdım* (Çənbərək).

**LALAMƏLİX′** I (Gəncə, Qazax, Yevlax) – qorxaq. – *Həsən çox lalaməlix′di* (Qazax).

**LALAMƏLİXʹ** II (Oğuz) – danışıq qabiliyyəti olmayan.

**LALAMƏLİXʹ** III (Tovuz) – avam. – *Lalaməlixʹ adam heş nəyə yaramaz.*

**LALAPƏTO** (Kürdəmir) – pəltək.

**LAPAPİTİ** (Bakı) – b a x **lalapəto.**

**LALAPİTİXʹ** (Kürdəmir, Şəmkir) – b a x **lalapəto.** – *Uşağ dilini əzir, lalapitixʹ qalacağ* (Kürdəmir); – *Dünən lalapitixʹ Söyün bizdeydi* (Şəmkir).

**LALATƏRƏ** (Cəbrayıl) – lalə. – *Gə gedəxʹ lalatərə yığmağa.*

**LALATƏRƏSİ** (Ağdam, Borçalı) – b a x **lalatərə.**

**LALATOPIĞ** (Cəlilabad) – lalə.

**LALEMEG** (Bakı) – yalvarmaq. – *Nağada laledim sənə ki, gedmə, qulağ asmadun ki, asmadun.*

**LALƏ** (Gəncə, Qazax, Ucar) – dairəvi stol.

**LALƏLƏM** (Salyan) – uşaq oyunu adı.

**LALƏM** (Salyan) – b a x **lalələm.**

**LALIX** I (Ağdam, Cəbrayıl, Gədəbəy, Gəncə, Oğuz) – həddindən artıq yetişmiş. – *Zoğalın lalığını gətirib verillərdi isitməsi olan adama, o sa:t sağalırdı* (Oğuz); – *Lalıx zoğal yeməlidi* (Gəncə). ◊ **Lalığ olmax** (Naxçıvan) – 1. təngə gəlmək; 2. yorulmaq. – *Deməxʹdən lalığ oldum, başa düşmədi.*

**LALIX** II (Kürdəmir, Qazax, Şəmkir, Tovuz) – huşsuz. – *Yunus lalıxdı, onun yadında söz qalmır* (Qazax).

**LALIX** III (Gədəbəy, Qazax, Şəmkir) – key. – *Lalıx adam yaxşı iş görmür* (Şəmkir).

**LALIXLAMAX** I (Ağdaş, Gəncə, Xanlar, Qarakilsə, Mingəçevir, Şamaxı, Şəki, Ucar) – həddindən artıq yetişmək. – *Armıt lalıxlıyıf* (Gəncə); – *Ağaşdarda armıddar lalıxlıyıb* (Şamaxı); – *Zoğalın çoxusu lalıxlıyıf* (Şəki).

**LALIXLAMAX** II (Naxçıvan) – yalvarmaq. – *Nə qədər lalıxlasan, bir şey çıxmaz.*

**LALIXMAX** (Çənbərək) – b a x **lalıxlamax** I.

**LALIX-MALIX** (Gəncə) – dilsiz-ağızsız. – *Çox lalıx-malıx uşaxdı.*

**LALIMAX** I (Cəbrayıl, Salyan, Göyçay, Qarakilsə, Meğri, Şamaxı, Zaqatala, Zəngilan) – b a x **lalemeg.** – *Sə:rdən bir həylə lalıyıram, hardasan, gəlif çıxmırsan* (Meğri); – *Yazığ sə:rdən lalıyır* (Şamaxı).

**LALIMAX** II (Bakı, Şərur) – zarımaq, ağlamaq. – *Uşağ sə:rdən lalıyır, baxan yoxdur* (Bakı).

**LALU** (Quba) – toyuq cinsi. – *Bizim beş dənə lalu toyuğumuz var.*

**LAM** (Bakı, Naxçıvan, Zəngilan) – sakit. – *Də:z lamdu, gəlun gedegün çimmegə* (Bakı); – *Araz ordan lap lam axır* (Zəngilan).

**LAMA** (Masallı) – təpitmə. – *Yarama lama qoydurmuşam.*

**LAMAHLAMA** (Cəlilabad) – heç olmazsa. – *Lamahlama, sən gəlib çıxeydun, heç kim yox idi.*

**LAMATAN** (Təbriz) – arabanın təkərindəki şini təkər ağacına bərkidən dəmir halqa. – *Ərəbənin lamatanın dəmirdən düzəldəsən gərax.*

**LAM-CİM** (Mingəçevir, Naxçıvan) – sakit, səssiz. – *Sən ağzını yum, lam-cim otu* (Naxçıvan).

**LAMPA** (Borçalı, Oğuz, Zaqatala) – tavan. – *Mən pənəri lampadan asdım* (Zaqatala).

**LAMPAR** (Kürdəmir, Zərdab) – b a x **lampa.** – *İdarə binasının lamparı çox xoşuma gəldi, əhsən onun usdasına* (Zərdab).

**LAMPIR** (Əzizbəyov) – tənbəl.

**LANA** (Qax) – çardağın girəcəyi.

**LANÇİ** (Salyan) – sakit. – *Lançi it adam tutmaz;* – *Bizim it lançi itdi, onnan qorxma.*

**LANDA** (Qax) – yekəqarın.

**LANDAHUR** (Meğri) – müvazinətini çətinliklə saxlayan.

**LANĞILIĞ** (Salyan) – yaltaqlıq. – *Acınnan ölərəm, lanğılığnan baş saxlamaram.*

**LANQI** I (Salyan) – adama hürməyən. – *Balacalığınnan açığ gəzən it lanqı olar.*

**LANQI** II (Salyan) – yaltaq. – *Sən də lap lanqısan a!*

□ **Lanqı danışmağ** (Salyan) – boş-boş, mənasız-mənasız danışmaq. – *Lanqı-lanqı danışma, fərri sö:bət elə.*

**LANQUT** (Axalsxi, Gəncə, Şəmkir, Yevlax) – arabanın dal və qabaq təkərlərinin oxlarını birləşdirən ağac hissə. – *Lanqut qırılsa furğun pozular* (Axalsxi); – *Harava dönən kimi lanqut qırıldı* (Şəmkir).

**LANTARAN** (Mingəçevir, Şamaxı) – söyüş. – *Sə:rdən başdıyıb lantaranı* (Şamaxı).

**LANTIR** (Şəki) – b a x **lampır** II. – *Lantır uşax bərx' qaça bilməz.*

**LANTİ** (Bakı) – kobud, yaraşıqsız. – *Səlimin qərdeşi Kərim lap lantidür.*

**LAP** (Meğri) – sıyrım, ağac sıyrımı. – *Tut ağəcinin lapi hammı laplardan yaxşidi.*

**LAPAÇİLİ** (Yardımlı) – iri naxışlı, bəzəkli. – *Xəlçə lapaçiliydi.*

**LAPAX** (Meğri) – içi boş <qoz>. – *Bu lapax cavızların nəyin gatımısan büzə?*

**LAPAN** (Oğuz, Zaqatala) – çinara oxşayan kövrək ağac. – *Atam lapan ağacın kəsdi* (Oğuz); – *Lapannan çömçə, qaşıx-zad qayrıllar* (Zaqatala).

**LAPAR** (Salyan) – bir hissə. – *Taxıllığı sulamışam, bir lapar yerə su çıxmadı.*

**LAPAR-LAPAR** (Lənkəran) – parça-parça (palçıq).

**LAPAŞDAMAĞ** (Quba) – şillə vurmaq, şilləməmək. – *Atası Əlini lapaşdamağ isdiyəndə mən quymadım.*

**LAPAŞMAĞ** (Quba) – b a x **lapaşdamağ.**

**LAPBA** (Şəki) – lobyadan bişirilən yemək növü adı. – *Ciyim lapba bişirmişdi; – Yaxşı lapbamız var, gidax bizə.*

**LAPBADAN** (Cəlilabad) – birdən, qəfildən.

**LAPBAN** I (Şəki) – ləkə.

**LAPBAN** II (Meğri) – uzun və enli (ayaq). – *Şeydanın lapban əyaxləri var, val taxdəsi kimin.*

**LAPÇIN** (Ağsu, Qafan, Lənkəran, Sabirabad, Şahbuz, Şamaxı) – ev ayaqqabısı. – *Lapçını öydə ayağa geyirük* (Ağsu); – *Lapçını gəti* (Qafan); – *Xeyrənsə lapçının itirib* (Sabirabad); – *Başmağçiyə üç cüt lapçın tapşırdım* (Şamaxı).

**LAPDAN** (Bakı, Biləsuvar, Cəlilabad, Kürdəmir, Salyan, Şamaxı, Şəmkir, Yardımlı) – b a x **lapbadan.** – *Səlim lapdan məni qorxızdı* (Salyan).

**LAPDAN-LAPA** (İmişli) – 1. hərdənbir. – *O kişi lapdan-lapa dəli kimi danışır;* 2. birdən-birə.

**LAPIR** (Əzizbəyov) – kök.

**LAPPA** (Gəncə) – b a x **lapa.** – *Bajım lappa pişirif.*

**LAPPACA** (Mingəçevir) – b a x **lapba.**

**LAPPADAN** (Salyan, Bakı) – b a x **lapdan.**

**LAPPAN** (Kürdəmir) – böyük. – *Ayağı lappan adama çəkmə də az tapılır.*

**LAPPIŞ** (Göyçay) – tənbəl.

**LARI** I (Ağdam, Bərdə, Gədəbəy, Salyan, Gəncə, Lənkəran, Şahbuz, Salyan, Şamaxı) – 1. toyuq cinsi (Gədəbəy). – *Toyuğumuzun iksi larıdı, qalannarı yox;* 2. döyüşkən toyuq və ya xoruz (Ağdam, Şahbuz). – *Bizim bir ları xoruzumuz var; – Bı xoruz larıdı* (Ağdam).

**LARI** II (Şəmkir) – ətli-canlı (adam).

**LARIŞ** (Böyük Qarakilsə) – başqalarından iyrənən.

**LARTAN** (Kürdəmir) – gen. – *Şalvar o qədər lartandı ki, əynində durmeyr.*

**LARTAVA** (Kürdəmir) – əriştə, lobya və sarımsaqlı qatıqdan hazırlanan xörək.

**LARTI** (Gəncə, Tovuz) – tənbəl. – *Lartı adam çox boş olar* (Gəncə); – *Lartının biridi, iş-güjə yarıyan olmaz* (Tovuz).

**LAS** I (Cəbrayıl, Kürdəmir, Zəngilan) – boş sarınmış keyfiyyətsiz barama. – *Baramanın lasın ayrı yığın, yaxşıya qarışdırmıyın* (Zəngilan); – *Baramanın on kilovu las oldu* (Cəbrayıl).

**LAS** II (Bakı, Kürdəmir, Qax, Naxçıvan, Oğuz) – tənbəl. – *Özi kimi las adam olmaz* (Bakı).

**LAS** III (Hamamlı, Quba) – təzə biçilmiş ot topası. – *Lasi aparıblar; – Lasi yığıb lükütə quyaduğ* (Quba); – *Las hələ yığılmaz, nəmdi* (Hamamlı).

**LAS** IV (Ucar, Salyan) – əzilmiş, xarab olmuş (meyvə). – *Las hayvanı yeməy olmaz; – Alça çox qalsa, las olar* (Ucar).

**LASDAMAX** (Şəki) – otu topa-topa yığmaq. – *Mürsəl otı lasdıyır.*

**LASDANMAĞ** (Bakı) – tənbəlləşmək. – *Bala, işdə, lasdanma.*

**LASI** I (Ucar) – tənbəl (toyuğa aiddir). – *Lası to:ux kök olur, qaçammır.* ◊ **Las qalmağ** (Sabirabad, Şamaxı) – yerə yatmaq (toyuğa aiddir). – *Mən ağ to:uğı qoanda las qaldı; – Aciz to:uğı qoanda həməşə las qaldı.* ◊ **Las eləməy** (Sabirabad) – yerə oturtmaq (toyuğu tutarkən). – *Get touğu las elə tut.*

**LASI** II (Cəbrayıl) – b a x **las** I. – *Lasıdan pilə pişirillər.*

☐ **Las qalmağ** (Bakı) – cavab verə bilməmək, aciz qalmaq. – *Elə gəldim ununçun ki, qabağımda las qaldı.*

**LAS-LAS** (Gəncə, Qazax) – qat-qat.

**LASTI** (Loqodexi) – çubuq çəpər.

**LAŞ** I (Bakı, Əli Bayramlı, Quba, Salyan) – arabanın banında olan barmaq şəkilli ağaclar. – *Usda bizim banın laşdarını palut ağacınnan salmışdu* (Quba); – *Laşsız araba qorxılı olar* (Salyan).

**LAŞ** II (Quba, Salyan) – hind toyuğu.

**LAŞ** III (Ağdaş) – dadsız (xörək). – *Büyün xörəx′ lap laşdı.*

**LAŞA** (Mingəçevir) – tor toxumaq üçün alət.

**LAT** (Qax, Zaqatala) – bulağın gözündə suyun yığıldığı yer. – *Oyniyəndə Məmmədin papağı lata düşdü* (Zaqatala).

**LATA** (Yardımlı) – hissə, parça. – *Bi lata yeri var.*

**LATARƏNGİ** (Bakı) – b a x **latayir.**

**LATAYIR** (Cəbrayıl, Göyçay, Salyan, Bakı, Kürdəmir, Qarakilsə, Laçın, Mingəçevir, Ucar) – b a x **latayir.** – *Latayır danışma* (Ucar); – *O çox latayır danışır* (Laçın).

**LATAYIR-LATAYIR** (Bakı, Göyçay, Salyan, Ucar) – ədəbsiz-ədəbsiz. – *Sən latayır-latayır danışırsan* (Göyçay).

**LATAYIRRAMAX** (Gəncə) – söymək, biabır etmək. – *Az latayırra, ayıfdı; – Həsəni latayırrıyıf yola saldım.*

**LATAYİR** (Gəncə, Şamaxı) – ədəbsiz söz. – *Arvaddar dava eliyəndə olmıyan latayiri bir-birinə diyillər* (Şamaxı); – *Məclisdə latayir danışmax yaxşı döy* (Gəncə).

**LATDIX** (Zaqatala) – su yığılıb qalan çuxur. – *Bizim yolun kənarı latdıxdı.*

**LATER** (Gədəbəy) – b a x **latayir.** – *Qımır Nadirin işi, peşəsi axşamatan later deməx′di.*

**LATEYIR** (Gədəbəy) – b a x **latayir.**

**LATEYİR** (Qazax) – b a x **latayir.**

**LATİRİNGİ** I (Salyan) – xarab, köhnə. – *Latiringi maşın işə yaramaz.*

**LATİRİNGİ** II (Salyan) – məzəli, gülməli. – *Hüzür yerində latiringi söz danışmazzar.*

**LAVA** (Lənkəran) – nazik və uzun çubuq. ☐ **Lava qalməy** (Cəlilabad) – bəlaya düşmək. – *Lava qalasan, setrəni gey, gə gedəy.*

**LAVADA** (Gəncə, Şəki, Şəmkir, Tovuz) – b a x **labada.** – *Ay ata, mənim lavadam dağılıfdı* (Şəmkir); – *Lavadasız qız köşməzdi qavaxlar* (Şəki).

**LAVAR** (Gəncə) – qaşqabaq. – *Sənin lavarıŋ heş yığılmır; – Lavarıŋı gənə nə sallıyıfsaŋ?*

**LAVASA** (Salyan) – iri kəsək. – *Yer dəmir kimidi, traxtır şumladığçan lavasa çıxır.*

**LAVASA-LAVASA** (Lənkəran) – qat-qat. – *O cürə lavasa-lavasa dəmirdən bu puçi qəyirmisə:n?*

**LAVAŞ** (Cəbrayıl, Gəncə, Göyçay, Ordubad, Şəki) – alça, zoğal və s. meyvədən bişirilib qurudulmuş turşu. – *Bazardan lavaş al gəti* (Gəncə); – *Alça lavaşı turş olur* (Göyçay); – *Bajım dünən lavaş pişirmişdi* (Cəbrayıl); – *Umaxanım, lavaşın duzu çox olutdu* (Şəki).

**LAVAŞA** I (Ağdam, Gəncə, Qubadlı, Salyan, Zəngilan) – b a x **lavaş.** – *Alınça lavaşası çox turş olur* (Gəncə); – *Bir az lavaşa ver, atın yarasına çəkim* (Qubadlı); – *Nənəm lavaşa çıxardır* (Zəngilan).

**LAVAŞA** II (Gəncə, Qubadlı, Ordubad) – 1. nallanarkən atın üst dodağını və burnunu burmaq üçün ucuna ip keçirilmiş buynuz (Gəncə, Qubadlı). – *Lavaşanı bura gəti, atın burnuna vur; – Lavaşanı gəti ata vur, nallamağa durmur* (Qubadlı); – *Bu atın burnuna lavaşa vurmasan, nallamağ olmaz* (Gəncə); 2. zəncirin ucunda olan qarmaq (Ordubad). – *Lavaşanı aparın verin dəmirçiyə düzəltsin;* 3. ipək çəkərkən baramanı tiyanda islatmaq üçün əyri ağac (Ordubad). – *Lavaşa qırılıb.*

**LAVAŞALAMAX** (Gəncə, Naxçıvan) – lavaşa hazırlamaq. – *Anam iki put alça lavaşalayıb* (Naxçıvan).

**LAVAŞANA** (Quba, Şamaxı) – b a x **lavaş.** – *Lavaşanani qutaba qatallar, xüregə tükəllər* (Quba); – *Bağman bir yayda on put naziyi, iyirmi put tumi lavaşana qeyirdi* (Şamaxı).

**LAVLAMAX** (Meğri) – yeyib qurtarmaq. – *İramazanın ləm-yesiri bir təx′nə çörəyi əlbəhəlimcə lavladıla.*

**LAY** I (Bakı) – yastı daş. – *İki ərəbə lay almışam.*

**LAY** II (İmişli, Kürdəmir) – pambıqdan toxunmuş palaz. – *Layı həyətə sal, oturağ* (İmişli); – *Döşəmədəki layı dəyişdir, çirklənip* (Kürdəmir). ◊ **Lay olmax** (Füzuli) – üzə ağ olmaq. – *Mən ona lay olmaram.*

**LAYAM: LAYAM VERMƏX′** (Cəbrayıl) – əl-qol hərəkətlərinin müşayiəti ilə başqasına təhqiramiz sözlər demək, töhmətləndirmək. – *Gülarə Pəriyə möykəm layam verdi yolda.*

**LAYÇA** (Salyan) – pambıqdan toxunmuş ensiz, uzun nazik palaz. – *Gəti o layçanı kilimin üssünnən sal.*

**LAYÇİVƏRDİ** (Ağdaş) – başdansovma. – *Məcid layçivərdi iş tutan adamdu.*

**LAYDIR** (Gədəbəy, Qazax, Tovuz) – nərdivan. – *Laydırı gəti, almeyi yığax* (Gədəbəy).

**LAYDIRRAMAX** (Gədəbəy, Gəncə, Tovuz) – arabaya laydır (b a x 2-ci məna) düzəltmək. – *Haravanı laydırra* (Gəncə).

**LAYDİVAR** (Salyan, Bakı) – *məc.* enlikürək, boy-buxunlu. – *Sən bilən olseydun laydivar oğulun qədrin bilərdün* (Salyan).

**LAYGÜŞƏ** (Şuşa) – tikintidə istifadə edilən qara daş.

**LAYXORUMÇU** (Naxçıvan, Şərur) – otu bir yerə toplayan (adam). – *Qaybalıgil bizdə layxorumçu işdiyirdilər* (Şərur); – *Mən layxorumçu işdiyirdim* (Naxçıvan).

**LAYIĞ: LAYIĞINA SALMAX** (Qax) – *məc.* – biabır etmək. – *Hələ menin gelin layığına salıp göndərdim.*

**LAYIN** (Tovuz) – aciz. – *Həsən yaman layın adamdı.*

**LAYIŞ** (Başkeçid, Borçalı, Qazax, Tovuz) – böyük mis qazan. – *Dayan, qaçem layışı gətirem* (Qazax).

**LAYQAPI** (Göyçay) – birtaylı qapı.

**LAYLAMAĞ** (Salyan) – *məc.* cırmaq. – *Ay arvad, yaman yaralı kimi üzü: nöşün laylamısan?*

**LAYLAMAX** I (Naxçıvan) – çevirmək. – *Otu layla, tez qurusun.*

**LAYLAMAX** II (İmişli) – *məc.* – sökmək. – *Çulu layle:f qoydu yerə.*

**LAYLAYA QOYMAĞ** (Salyan) – arxayınlaşdırmaq. – *Məi laylaya qoydı, bi də gördüm, iş işdən keçib.*

**LAYLİMƏS** (Çənbərək) – süst. – *Zağar Sa:dın qızı Lala mənşərdəncən layliməsdi.*

**LAYMƏRDAN** (Salyan) – igid, qoçaq. – *Elə laymərdan oğullarımız var ki, hər biri bi dünyaya dəgər.*

**LAYMƏST** (Qazax) – məst, xumar. – *Ətdən oxartana ye:f kin, layməst oluf.*

☐ **Lay olmax** (Şərur) – sevinmək, şadlanmaq. – *Yazıxdı, ge:m de:m lay ossun.*

**LAZİ** (Quba) – yumurtanın ağı. – *Lazi yiməli ulur.*

**LAZUT** (Axalsxi) – qarğıdalı. – *Lazut baharda əkilib küzə qədər yetişir.*

**LEBBELEB** (Bakı) – ağzına qədər dolu. – *Torbani ağzıneycən doldırmişəm, lebbelebdü.*

**LECAN** (İmişli, Qarakilsə, Şuşa, Salyan) – b a x **lejan.** – *Bu il tut lecan oldı töküldü* (İmişli).

**LECMAN** (Cəlilabad, Salyan) – tavan. – *Quşdar lecmanda yuva qoyıb* (Salyan); – *Taxda tapa bilmeyəm ki, lecmani vırdırəm* (Cəlilabad).

**LEÇAN** (Kürdəmir) – yığışdırılmamış, sərili.

**LEÇƏN** (Göyçay) – kiçik yaylıq.

**LEFTİRİM** (Ordubad) – gic, səfeh. – *Ə:, o leftirimə qoşulma.*

**LEĞMAN** (Lənkəran) – damdan axan yağış suyunun töküldüyü yer. – *Əyaqqabılarım qalıb leğmanın qırağında isdanıb.*

**LEHƏ** (Salyan) – duru palçıq, lehmə. – *Yağışda üssü:-başu: lehiyə bulama.*

**LEHİM** (Bakı) – düyü həlimi. – *Aş gecdi, o lehimnən vər iceg.*

**LEJ** I (Qazax) – emallı (qab). – *Dünən dədəm bazardan üş dənə lej qav alıf gətdi.*

**LEJ** II (Salyan) – bol, çox. – *Bossanda yemiş lejdi.*

**LEJALI** (Qafan) – yığışdırılmamış, sərili. – *Yağış yağdı, xirmənimiz lejalı qaldı.*

**LEJAN** (Cəbrayıl, Çənbərək, Gədəbəy, Qafan, Tovuz, Zaqatala) – bol, çox. – *Bu il bizim armudumuz lejandı* (Qafan); – *Qartof Cıfıxlıda lejandı* (Çənbərək); – *Yiməh-işməx′ lejanıdı qonaxlıxda dünənnəri* (Gədəbəy); – *Qavaxlar buralarda qarağat lejan olardı* (Cəbrayıl).

☐ **Lejan eləməx′** (Xanlar) – talan etmək, talamaq. – *Hasanın malını lejan elədilər.* **Lejan çəx′məx** (Gəncə) – paylamaq. – *Bir tağar buğduyu xalxa lejan çəx′dix′.*

**LEJƏN** (Qazax, Tovuz) – b a x **lejan.** – *Bizim bağda alma-armıt lejəndi* (Qazax); – *Yayda tut-gilas lejən olur* (Tovuz).

**LEJ-LAVAŞ** (Salyan) – bol, çox. – *Sırfa açıldı, hər şey lej-lavaşdı.*

**LEJ: LEJ TÜŞMƏX′** (Oğuz) – düşmən olmaq. – *Aralarında nə olufsa, İskəndərnən Yunus lej tüşüflər.*

**LEKƏR** (Bakı) – yaraşıq. – *Una bax a, bir lekəri də yoxdi.*

**LELƏX′** (Cəbrayıl, Zəngilan) – ağacın ən hündür və əlçatmayan yeri. – *Ağaşda bir əz armıt var, o da illaf leləx′lərindədi, yığəlmirəm, çıx yığ* (Zəngilan).

**LEMƏ** (Bakı) – rəf.

**LENGƏR** (Axalsxi) – 1. mis sini. – *Xəngəli lengərə tök;* 2. nəlbəki.

**LENTİ** (Culfa) – qayınarvadı. – *Bı mənim lentimdi.*

**LEPƏR-LEPƏR** (Bakı) – lopa-lopa. – *Bayırda gör nə lepər-lepər qar yağır.*

**LER-LEJAN** (Şəmkir) – bol, çox. – *Hər şey kin çox olur, onda de:llər ler-lejandı.*

**LES** (Salyan) – kəsək. – *Torpağ yaşdı, şumlıyırsan les verir.*

**LEŞ** I (Gədəbəy, Bakı) – *məc.* tənbəl. – *Nə belə leş öyrədifsiŋ, bala, qədi:?*

**LEŞ** II (Bakı, Salyan) – çox, həddindən artıq. – *Kürdə balıg leşdi* (Salyan).

**LEŞGİ** (Şəki) – yağsız, arıq. – *Bu ət çox leşgi ətdi.*

**LEŞ-LAVAŞ** (Kürdəmir) – b a x **lej-lavaş.**

**LEŞ-LEŞ** (Tovuz) – boş-boş, işsiz. – *Bu aralarda leş-leş nə:zirsəŋ, işiŋ-güjüŋ yoxdu?*

**LEY** (Şərur) – düzənlik. – *Ley də sə:ndi, dağ da.*

**LEĞIR** (Qazax) – b a x **leyqır.**

**LEYİĞ** (Lerik) – saçaq.

**LEYQAÇI** (Şərur) – istixanada çalışan şəxs, parnikçi.

**LEYQALA** (Ağdaş, Oğuz) – uşaq oyunu adı. – *Nə dizimin divində oturubsan, get uşaxlarnan leyqala oyna* (Ağdaş).

**LEYQIR** (Qazax) – yabı.

**LEYLAC** (Quba) – uzun. – *Una leylac Səməd diyədülər, hiç acığı gəlmiyədü.*

**LEYLACI** (Şəki) – kefcil. – *Bağır leylacının biridi, öy dərdi çəx′mir, eşix′ dərdi çəx′mir.*

**LEYLAŞ** (İrəvan) – mahir, bacarıqlı. – *Qumarda sən onnan bacara bilməzsən, o, leylaşdı.*

**LEYN** (Başkeçid) – xörək adı.

**LƏBƏDƏ** (Şəki) – yarpağı xörəyə tökülən göyərti növü. – *Bosdannan bir dəsdə ləbədə dərif gətirdim.*

**LƏBGƏRDƏN** (Şamaxı) – abgərdən. – *Süti ləbgərdənnən bö:ük qazannan kiçiy qazannara payla.*

**LƏC** I (Kürdəmir, Qazax) – b a x **ləj.** – *Kamil ləc adamdı* (Qazax).

**LƏC** II (Cəlilabad) – bataqlıq. – *Su axey bılağdan ləc oley.*

**LƏCAN** (Meğri) – b a x **lejan.** – *Dağlarda biyil ləcan ut var.*

**LƏCƏ** (Şamaxı) – b a x **ləçə.** – *Bizim inəy bir ləcə ləbləb süt verir.*

**LƏCƏRƏ** (Culfa) – dəyirman çarxı.

**LƏCO:** (Şamaxı) – zarafatcıl, məzhəkəçi. – *Əhməd çox ləco: adamdı, adamı güldürməkdən öldürür; – Sən yap ləco:sanmış ki.*

**LƏCO:LIĞ** (Şamaxı) – zarafatçılıq, məzhəkəçilik. – *Neyləsin, bir no: ləco:lığnan arada başını doldandırır; – Bu qədər ləco:lığ olmaz!*

**LƏÇƏ** (Quba) – sərnic. – *Ləçəyi su:nan duldur.*

**LƏÇƏR** I (Astara, Füzuli, Gədəbəy, Qazax, Lənkəran, Şəki, Tovuz) – həyasız. – *Onun bir ləçər arvadı var, nə dağda, nə də aranda onnan qonşu olmağ xatabaladı* (Qazax); – *Sitarə yaman ləçər arvatdı* (Şəki).

**LƏÇƏR** II (Astara, Lənkəran) – acgöz. – *Ləçər adamdı bizim bu Dada yaman* (Lənkəran).

**LƏÇƏRRİX′** (Gədəbəy, Qazax, Şəmkir) – həyasızlıq. – *Ləçərrix′ pis şeydi, adamı hörmətdən salar* (Gədəbəy).

**LƏÇƏRRİY** (Lənkəran) – acgözlülük. – *Adil ləçərriyinnən əl çəkmir, xörəy yiyəndə nimçəni yalıyır.*

**LƏDƏN** (Şəki) – üzüm tənəklərinin dibinə basdırılan paya. – *Biyil bağa üş yüz lədən almışux.*

**LƏDİM** I (Çənbərək) – axmaq. – *Usuf lədimin biridi.*

**LƏDİM** II (Gədəbəy) – ləqəb. – *Hər adamın bir lədimi olar dana, a bajoğlu.*

**LƏDİM** III (Basarkeçər) – dilli. – *Həsən lədim adamdı.*

**LƏDİM-LƏDİM** (Şəki) – boş-boş. – *Nə çox lədim-lədim danışırsan.*

**LƏDİMNƏMMAX** (Şəki) – yersiz, boş-boş danışmaq. – *Sən lədimnəmmə, otu yerində.*

**LƏFLƏMMƏX′** (Bolnisi, Mingəçevir) – tərpənmək, yerindən oynamaq, laxlamaq.

**LƏFLƏNMAX** (Şəki) – b a x **ləfləmməx′.** – *Dişim ləflənirdi, gidif çıxartdırdım.*

**LƏFLƏTMAX** (Şəki) – tərpətmək, yerindən oynatmaq, laxlatmaq. – *Sütünü ləflətdim.*

**LƏFŞƏR** (Meğri) – danışanda ağzı sulanan.

**LƏGƏR** (Xaçmaz, Quba) – kotanın bir dəfə açdığı şırım. – *On beş ləgər əkməmiş kotanı açırsan* (Xaçmaz).

**LƏ:ĞA** (Qazax, Şəmkir) – ləqəb.

**LƏĞƏMBƏ** (Daşkəsən) – zarafat. – *Mən sənin ləğəmbənnən cırnamarım.*

**LƏĞVƏ** (Lənkəran) – iflic. – *Lağvə olmusan, əlin niyə əsir?; – Fərəculla ləğvə olub.*

**LƏHDİLUKUN** (Zaqatala) – rahatluqum. – *Atam bir qutı ləhdilukun aldı.*

**LƏHLƏMƏX′** (Qazax) – yerimək üçün atı həvəsləndirmək. – *Ləhliyirəm at getmir, yorulufdu.*

**LƏHLƏTMƏX′** (Qazax) – *məc.* yormaq, təngnəfəs etmək. – *Sən öl, olları dünən piçində elə ləhlətmişəm ki, qıyamatatan unudammazdar.*

**LƏHMƏ** (Xaçmaz, Quba, Qusar) – 1. duru palçıq (Xaçmaz). – *Torpağ ləhmədü, axırdı;* 2. palçıqlıq (Quba). – *Bizi ləhmələrdən qışda hiç kiçmağ ulmiyədi, adam batub qaladu.*

**LƏX′CƏ** (Füzuli) – biryaşar erkək dəvə.

**LƏXŞƏG** I (Lənkəran) – sınıq. – *Bu çarx ləxşəgdi ki, oxa niyə salmısan?*

**LƏXŞƏG** II (Lerik) – xəstə.

**LƏXŞƏX′** (Tovuz, İrəvan) – b a x **laxşəng.** – *Özün danışırsan, özün gülürsən, belə də ləxşəy adam olarmı?* (İrəvan).

**LƏXŞƏX′LİX′** (İrəvan) – laglagçılıq. – *Sən gəl bu ləxşəx′liyi burax.*

**LƏXŞƏNG** (Tovuz) – b a x **laxşəng.** – *Ə:, nə ləxşəng adamsaŋ.*

**LƏJ** (Bolnisi, Gəncə, Qazax) – davakar, höcət, adamla yola getməyən, pisxasiyyətli. – *Ləj olma, qonum-qonşuynan yaxşı dolan* (Gəncə). ◊ **Ləj tüşməx′** (Gəncə, Qazax) – b a x **lej tüşməx′.** – *Ollar köhnədən ləj tüşüflər, daha barışdırmax çətindi* (Qazax); – *O mənnən ləj tüşüf* (Gəncə).

**LƏJDİX′** (Gəncə, Qazax, Oğuz) – düşmənçilik. – *Özüm ləjdix′cən dedim* (Oğuz); – *Ləjdix′dən xe:r gəlməz* (Qazax). ◊ **Ləjdix′ salmax** (Gəncə) – düşmənçilik salmaq. – *Ramiz olların arasında ləjdix′ salıf* (Gəncə).

**LƏKƏNTƏ** I (Çənbərək, Qazax) – şikəst. – *Atamın qolunu-qılçasını yel tutuf, kişiyi ləkəntə eliyif* (Qazax).

**LƏKƏNTƏ** II (Meğri) – xəstəlik adı. – *Bu Xə:lin bilmerəm nə ləkəntəsi var ki, heç əmələ gəlmer.*

**LƏKƏNTİ** (Salyan) – b a x **ləkəntə** I. – *Zakir atdan yıxıldı, qolı sındı, ləkənti oldı.*

**LƏKƏOTU** (Başkeçid) – üzün ləkəsini aparmaq üçün istifadə olunan bitki.

**LƏKƏR** (Bakı) – b a x **lekər.**

**LƏKÜTƏ: LƏKÜTƏ ELƏMƏG** (Lənkəran) – söyüş söymək. – *Ləkütə eləmə, Zeynəb.*

**LƏQQAR** (Füzuli) – hündür, ucaboylu. – *Ləqqar Zilfiqarı dindir.*

**LƏ:L** (Biləsuvar) – məxmər pencək. – *O özünə lə:l tikdirdi.*

**LƏLEİN** (Salyan) – başmaq. – *Ləleini götü gəl, giyim.*

**LƏLEYİN** (Əli Bayramlı) – b a x **lələin.**

**LƏLƏ** I (Ağdaş, Bolnisi, Salyan, Borçalı, Çənbərək, Gədəbəy, Göyçay, İsmayıllı, Kürdəmir, Lənkəran, Masallı, Mingəçevir, Saatlı, Salyan, Tovuz, Yevlax) – ata. – *Bilmirəm bu lələm də hara getdi* (İsmayıllı); – *Ay lələ, navax gedəjəŋ qışdağa* (Gədəbəy).

**LƏLƏ** II (Ağdaş, Balakən, Gədəbəy, Gəncə, Kürdəmir, Qazax, Quba, Zərdab) – böyük qardaş. – *Mən ləlәmi çox isde:rim* (Gədəbəy); – *Lələm bizi çox isdiyir* (Zərdab).

**LƏLƏ** III (Quba, Salyan) – nökər.

**LƏLƏ** IV (Tovuz, Zərdab, Salyan) – baba. – *Lələm savah to:uza gedəjəx′* (Tovuz).

**LƏLƏ** V (Təbriz) – uşaq saxlayan. – *Varrılar lələ tutardıla.*

**LƏLƏBƏTİN** (Cənubi Azərbaycan) – yemlik südündən hazırlanmış saqqız. – *Yemlik südünnən lələbətin qayırıb arvatdara satdım.*

**LƏLƏDAĞ: LƏLƏDAĞ VERMƏX′** (Çənbərək) – dağ çəkmək. – *No:ruz maŋa bir lələdağ verdi ki.*

**LƏLƏGİLİ** (Salyan) – çərəz. – *Məzahim zol lələgili yiyir.*

**LƏLƏGİLLƏ** (Şamaxı, Salyan) – b a x **lələgili.** – *Yeməydən so:ra lələgillə gətirdilər* (Şamaxı).

**LƏLƏGLƏMƏG** (Salyan) – *məc.* yolmaq, hər şeyi əlindən almaq. – *Mən elə adamı lələgliyərəm də.*

**LƏLƏKİTTAN** (Salyan) – qoz, fındıq ləpəsi və kişmişdən ibarət çərəz. – *Lələkittanı cibə tökub yi:llər.*

**LƏLƏGÜLLƏ** (Kürdəmir) – b a x **lələgili.** – *Nizam elə ki bazara getdi, pulu verər lələgülləyə.*

**LƏLƏG VƏRMEG** (Bakı) – qızışdırmaq. – *U özünnən çıxıb, sən də bir yannan lələg vərirsən.*

**LƏLƏX'** (Gəncə) – qarğı yarpağı. – *Qarğının lələyini ayırtda.*

**LƏLƏLİX'** (Daşkəsən, Gədəbəy, Xanlar) – sağdış, soldış. – *Lələlix' bəyin sağında-solunda oturor* (Gədəbəy).

**LƏLƏMƏX'** (Mingəçevir) – b a x **lalameg.**

**LƏLƏM: LƏLƏM SAQQASI** (Ağdaş) – qoz növü. – *Lələm saqqasının gəzəli hələ çatdamıyıb.*

**LƏLƏPƏTO** (Salyan) – pəltək. – *Dilim pəltəg dö:ür ki, lələpəto danışım.*

**LƏLƏŞ** (Oğuz) – b a x **lələ** I.

**LƏLƏÜN** (Şərur) – b a x **lələvin.**

**LƏLƏVİN** (Cəbrayıl, Meğri) – acgöz. – *Qərəçi lələvinnəri kimin gözü çörəx'dən duymey* (Meğri).

**LƏLƏVÜN** (Lənkəran) – avara, sərgərdan.

**LƏ:LĞA** (Başkeçid, Bərdə, Qazax) – b a x **ləyliğa.** – *Lə:lğa belədi dana, birinin adı Əlidi, bir şey qoşuflar adına, bılara lə:lğa de:llər* (Başkeçid).

**LƏLİ** (Bakı, Dərbənd) – beşik. – *Uşağı ləliyə qoy, yırğala yatsın* (*Bakı*).

**LƏLİX'** I (Ordubad) – yabanı kəvər. – *Ləlix' dəğdə bitəy.*

**LƏLİX'** II (Borçalı, Gədəbəy, Qazax, Tovuz) – nəfsli, acgöz. – *Sən nə ləliy adamsaŋ, nə verillər razı ol* (Qazax); – *Mə:sim yaman ləliy adamdı* (Borçalı); – *Bu uşax çox ləlix'di, nə görür isdiyir* (Tovuz).

**LƏLİX'** III (Ağdam, Başkeçid, Şərur) – yorğun. ◊ **Lelix' olmax** (Başkeçid) – əldən düşmək. – *Uşax ağlamaxdan laf ləliy oldu.*

**LƏ:LİMƏX'** (Ağdaş, Gəncə, Qazax, Şəmkir) – 1. b a x **lalemeg** (Gəncə, Qazax, Şəmkir) – *Çox lə:lidim, gənə insafa gəlmədi* (Qazax); – *İki sa:t qapıda lə:limişəm* (Gəncə); – *Sənin lə:liməyin özüŋə qaldı, onnan heş zad almağ olmaz* (Şəmkir); 2. həsrətini çəkmək, həsrətində olmaq (Ağdaş). – *Mən aşdan ötəri lə:li:rəm.*

**LƏLƏG VƏRMEG** (Bakı) – qızışdırmaq. – *U özünnən çıxıb, sən də bir yannan lələg vərirsən.*

**LƏLƏX'** (Gəncə) – qarğı yarpağı. – *Qarğının lələyini ayırtda.*

**LƏLƏLİX'** (Daşkəsən, Gədəbəy, Xanlar) – sağdış, soldış. – *Lələlix' bəyin sağında-solunda oturor.*

**LƏLƏMƏX'** (Mingəçevir) – b a x **lalemeg.**

**LƏLƏM: LƏLƏM SAQQASI** (Ağdaş) – qoz növü. – *Lələm saqqasının gəzəti hələ çatdamıyıb.*

**LƏLƏPƏTO** (Salyan) – qoz, fındıq ləpəsi və kişmişdən ibarət çərəz. – *Lələpətonı cibə tökub yi:llər.*

**LƏLƏŞ** (Oğuz) – b a x **lələ** I.

**LƏLƏÜN** (Şərur) – b a x **lələvin.**

**LƏLƏVİN** (Cəbrayıl, Meğri) – acgöz. – *Qərəçi lələvinnəri kimin gözü çörəx'dən duymey* (Meğri).

**LƏLƏVÜN** (Lənkəran) – avara, sərgərdan.

**LƏ:LĞA** (Başkeçid, Bərdə, Qazax) – b a x **ləyliğa.** – *Lə:lğa belədi dana, birinin adı Əlidi, bir şey qoşuflar adına, bılara lə:lğa de:llər* (Başkeçid).

**LƏLİ** (Bakı, Dərbənd) – beşik. – *Uşağı ləliyə qoy, yırğala yatsın* (Bakı).

**LƏLİX'** I (Ordubad) – yabanı kəvər. – *Ləlix' dəğdə bitəy.*

**LƏLİX'** II (Borçalı, Gədəbəy, Qazax, Tovuz) – nəfsli, acgöz. – *Sən nə ləliy adamsaŋ, nə verillər razı ol* (Qazax); – *Mə:sim yaman ləliy adamdı* (Borçalı); – *Bu uşax çox ləlix'di, nə görür isdiyir* (Tovuz).

**LƏLİX'** III (Ağdam, Başkeçid, Şərur) – yorğun. ◊ **Ləlix' olmax** (Başkeçid) – əldən düşmək. – *Uşax ağlamaxdan laf ləliy oldu.*

**LƏ:LİMƏX'** (Ağdaş, Gəncə, Qazax, Şəmkir). – 1. b a x **lalemeg** (Gəncə, Qazax, Şəmkir). – *Çox lə:lidim, gənə insafa gəlmədi* (Qazax); – *İki sa:t qapıda lə:limişəm* (Gəncə);

*– Sənin lə:liməyin özüŋə qaldı, onnan heş zad almağ olmaz* (Şəmkir); 2. həsrətini çəkmək, həsrətində olmaq (Ağdaş). – *Mən aşdan ötəri lə:li:rəm.*

**LƏLİY: LƏLİY OLMAX** (Şərur) – səbri tükənmək, gözləməkdən yorulmaq. – *Əlini gözdəməx′dən ləliy oldux.*

**LƏLO: LƏLO GETMAX** (Şəki) – bir şeyin həddindən artıq arzusunda olmaq. – *Aşdan ötrü ləlo gedirəm.*

**LƏLOYN** I (Gəncə, Qazax, Şəmkir) – kasıb, yoxsul. – *Ləloyn ləloyinnən nə fayda görə bilər* (Qazax).

**LƏLOYN** II (Qazax, Şəmkir) – b a x **lələvin.** – *Ləloyn olma, özüŋü tox gösdər* (Qazax).

**LƏLÖ:N** (Ağdam, Lənkəran, Şəki) – b a x **lələvin.** – *Fatma:n oğlu çox lälö:n uşaxdı, hər nə görsə isdiyir* (Şəki).

**LƏLÖ:NÇÜ** (Tovuz) – nəfsli, acgöz. – *Bizim uşaxlar elə lälö:nçüdülər ki, adam ağzını marçıldatmağa peşmandı, bilmirəm hardan örgəniflər.*

**LƏLÖ:ÜN** (İsmayıllı, Salyan, Yardımlı, Quba, Lənkəran, Oğuz, Şamaxı) – b a x **lələvin.** – *Süz nə lälö:ün adamsuz* (Lənkəran).

**LƏLÖ:ÜNNÜG** (Salyan) – acgözlük, tamahkarlıq. – *İmran lälö:ünnügdə dayısına çəkib.*

**LƏLÖYİN** (İsmayıllı) – b a x **ləloyn** I. ◊ **Lələöyinniyə qoymağ** – dilənmək. – *Mürsəl kişi də özünü lap lələöyinniyə qomuşdu, hər kəs olur, ağız açır.*

**LƏLÖYÜN** (Başkeçid, Borçalı) – b a x **lələvin.** – *Ə:, lələöyün kimi nə soxulursaŋ yeməyə* (Borçalı). ◊ **Lələöyün döymək** (Mingəçevir) – yalvarmaq.

**LƏLÜ** (Dərbənd) – b a x **ləli.** – *Ləlüni bərk tərpətmə, sırbınc dağılar.*

**LƏM** I (Cəlilabad, Lənkəran, Masallı, Salyan) – talvar. – *Yayda ləmdə yatmağ gözəldi; – Ləmə gün düşdüyünnən oturmağ olmey* (Lənkəran); – *Ləm yayda yaxşı olar yatmağa* (Salyan).

**LƏM** II (Qarakilsə, Meğri) – mağara. – *Ardışdı bərədə elə ləmlər var ki, üş sürü qoyun tussun* (Meğri).

**LƏM** III (Qubadlı, Laçın) – b a x **lam.** – *Suyun ləm axan yeri dərin olar* (Qubadlı).

**LƏMBƏ** I (Ağcabədi, Göyçay) – qabığı bərkiməmiş yumurta. – *Bizim toyuğ ləmbə yumurtdamışdı* (Göyçay); – *Tö:x dəni az yeəndə ləmbə salır* (Ağcabədi).

**LƏMBƏ** II (Ağdaş, Oğuz) – kiçik ot topası. – *Hər mala gündə bir ləmbə ot versəm bəsdi* (Ağdaş).

**LƏMBƏ** III (Gəncə, Mingəçevir, Şəki, Zaqatala) – keçilməz kolluq, cəngəllik. – *Qarabulaxda hindi qızılcıx ləmbəsinnən keşmağ olmur* (Şəki).

**LƏMBƏ** IV (Cəbrayıl, Beyləqan) – bacarıqsız, küt. – *Muradın oğlu çox ləmbə adamdı* (Beyləqan).

**LƏMBƏ** V (Ağdam, Xaçmaz, Quba, Qusar) – küləş.

**LƏMBƏ** VI (Çənbərək, Karvansaray, Kürdəmir) – nəm. – *Barama ləmbə olsa çürüyər* (Kürdəmir).

**LƏMBƏKİ** (Cəbrayıl, Salyan) – nəlbəki.

**LƏMBƏLƏM** (Bakı) – b a x **ləmələm.**

**LƏMBƏ-LƏMBƏ** (Gəncə) – topa-topa. – *Sən ləmbə-ləmbə ver, mən yığım.*

**LƏMBƏLƏMƏX′** (Gəncə, Mingəçevir) – toplamaq, bir yerə yığmaq. – *Tikəni ləmbələmişəm, haravıya yığmax hasatdı* (Gəncə).

**LƏMBƏLİX′** (Qax, Şəki, Zaqatala) – keçilməz kolluq, cəngəllik. – *Ləmbəlix′di ora, heç donuz da keçməz* (Zaqatala); – *Ləmbəlix′də do:şan gördüm* (Şəki).

**LƏMƏ** I (Ağdam, Bakı, Quba, Lənkəran, Ordubad, Salyan, Şamaxı) – rəf. – *Kasaları, çiniləri yudurt ləmə yığdırt* (Ağdam); – *Ləmədə kasa var* (Bakı); – *Yuyulmuş qabları ləməyə düz* (Salyan); – *Get ləmədən qatığı gəti* (Ordubad); – *Tabağı ləmədən çıxart* (Şamaxı).

**LƏMƏ** II (Quba) – yaxşı döyülməmiş çəltik. – *Dügini yaxşı dügməmisən, ləmədi.*

**LƏMƏ** III (Ordubad, Şamaxı, Meğri) – yaylaqda keçədən düzəldilən dəyənin bir tərəfində süd, yağ, qatıq saxlanılan yer. – *Get ləmədən qatığı gəti* (Ordubad); – *Tabağı ləmədən çıxart* (Şamaxı).

**LƏMƏ** IV (Lənkəran) – eyvan. – *Bayağ ləmədə yatmışdım, ari əlimi sancdı.*

**LƏMƏ** V (Quba) – evin tavanına vurulan nazik taxta.

**LƏMƏLƏM** (Gədəbəy, Şərur) – ağızba-ağız. – *Əti qazana ləmələm dolduruf, ona görə də yeri dar oluf, yaxşı pişmef; – İsdəkanı ləmələm dolduruf başına çəx′di* (Gədəbəy).

**LƏMİ** I (İsmayıllı, Qazax, Meğri, Zəngilan) – b a x **ləmə** III. – *Ləmidə on tejən var, daha artıx tejənə yer yoxdu, qatığı çalxalamax lazımdı* (Qazax).

**LƏMİ** II (İsmayıllı, Zəngilan) – b a x **ləmə** IV. – *Qızım, tavadakı pendiri ləminin altına qoyarsan* (İsmayıllı).

**LƏMİ** III (Salyan) – b a x **ləmə** III.

**LƏMİŞ** (Salyan) – çiy, bişməmiş: – *İndi insafsızzar çörəyi ləmiş bişirillər.*

**LƏMKƏ** (Çənbərək, Karvansaray) – dənizdən toru çəkmək üçün kəndir. – *Ləmkəni çiynimizə salıf toru dənizdən çəkirix′ qırağa* (Karvansaray).

**LƏMLAS: LƏMLAS DÜŞMƏG** (Bakı) – sakitləşmək. – *Ağlıyıb-ağlıyıb, so:ra ləmlas tüşdi üşağ.*

**LƏMMƏ** (Kürdəmir) – b a x **ləmbə** I. – *To:ğ ləmmə murtdu:r.*

**LƏMMƏLİG** (Salyan) – tənbəllik. – *Uşağlar ləmməlig eli:r işləmegə.*

**LƏMPƏ** I (Gəncə) – böyük ağac yaba. – *Sənin on şana samanını mən bir ləmpədə götürürəm.*

**LƏMPƏ** II (Ağdaş Gəncə, Qazax, Şamaxı, Şəki) – b a x **lampa.** – *Otağın döşəməsi vurulufdu, əmə hələ ləmpəsi duror* (Qazax); – *Damun ləmpəsi tökülüb* (Şamaxı); – *Öyə ləmpə vurdurasıyıx, heylə qa:ltdı taxta dərdinnən* (Şəki).

**LƏMPƏ** III (Cəbrayıl) – b a x **ləmbə** IV. – *Ləmpə Kamil axşama kimi yatır, işdəmir.*

**LƏMPƏDAN** (Quba) – lampa altlığı. – *Ləmpəni ləmpədana qoy.*

**LƏMPƏLƏMƏG** (Ağdaş, Quba, Şərur) – tavana taxta vurmaq. – *Öymizi ləmpələməy isdiyirəm* (Ağdaş); – *Usta üymizi təzədən ləmpələdü* (Quba).

**LƏMPƏLƏMƏX′** (Qazax) – b a x **ləmpələməg.** – *Məytəvi mən ləmpələmişəm.*

**LƏMPƏR** (Şərur) – b a x **ləmpə** I. – *Ləmpər saman atmaxçundu.*

**LƏMPİ** (Şamaxı) – qısaayaqlı. – *Əhməd ki ləmpidi, bir qarış qıçı var; – Bizim toyuğlarımızın cinsi ləmpidü.*

**LƏMPİŞ** (Salyan) – b a x **ləmpi.**

**LƏMS** (Gədəbəy, Tovuz) – avaz. – *Əmə şayır Cavadın da pis döyü ləmsi.*

**LƏMYESİR** (Meğri) – kasıb, yoxsul. – *İndi hökümət özü ləmyesirə sa:p durer.*

**LƏNBƏ** I (Gəncə, Göyçay, Quba) – b a x **ləmbə** V.

**LƏNBƏ** II (Gəncə, Göyçay, Quba) – b a x **ləmbə** III. – *Do:şan qaçıf lənbəyə girdi* (Gəncə).

**LƏNBƏR** (Culfa) – b a x **ləmpə** I.

**LƏNDƏHƏR** (Lənkəran) – bacarıqsız.

**LƏNDƏHOR** (Ordubad, Şamaxı) – b a x **ləndəhər.** – *Ramiz ləndəhorun biridi, əlinnən nə gələr?; – Rəhim ləndəhor adamdı* (Ordubad).

**LƏNGƏHO:R** (Qazax) – həddindən artıq iri və səliqəsiz, biçimsiz. – *Bu harava çox ləngəho:rdu; – Bu boyda ləngəho:r çualı götümməx′mi olar.*

**LƏNGƏR** I (Qax) – b a x **lengər.** – *Muxtar kişi bir ləngər xingalı bir dəfədə yiyir.*

**LƏNGƏR** II (Ağdaş, Qazax, Mingəçevir, Zaqatala) – kəndirbazların öz müvazinətini saxlamaq üçün istifadə etdikləri uzun ağac. – *Kəndirvaz ləngərsiz kəndirdə yeriyə bilməz* (Qazax). ◊ **Ləngər verməx′** – yırğalanmaq. – *Ağac dalbadal ləngər verdi.*

**LƏNGƏR** III (Göyçay) – uzundəstəli dəhrə.

**LƏNGƏR** IV(Quba) – müvazinət.

**LƏNGƏR** V (Qazax) – yeriş növü. – *Bu ləngər yerişi kimnən örgənifsən?*

**LƏNGƏRİ** (Balakən, Qubadlı, Zaqatala, Zəngəzur) – b a x **lengər.**

**LƏNGOV** (Culfa, Şərur) – taxıla verilən ikinci su. – *Bir də onnan so:ra suvarardıx ləngov, yəni orta su* (Culfa).

**LƏNKƏ** (Ağbaba, Bakı) – qırmızı rəngə boyanmış parça. – *Ciyim şə:rdən çoxlu lənkə alajax* (Ağbaba).

**LƏNPƏ** (Göyçay, Qax) – b a x **lampa.** – *Öyün üsdünə lənpə vurdux.*

**LƏNPƏR** I (Culfa, Naxçıvan) – b a x **lənpə** I. – *Lənpəri gəti samanı yığax* (Naxçıvan).

**LƏNPƏR** II (Şərur) – saman yığmaq üçün ağac yaba.

**LƏP** I (Meğri, Ordubad, Zəngilan) – b a x **lap.** – *Ləpnən tənəkə toxe:rıx* (Zəngilan); – *Ağacın ləpi soyulur* (Ordubad).

**LƏP** II (Lənkəran) – top. – *Dədəm mənçin ləp alıb, gedəy ləp-ləp oynıyağ.*

**LƏPBƏ** I (Quba) – b a x **ləmbə** II.

**LƏPBƏ** II (Gəncə) – b a x **ləmbə** III. – *Do:şan qaçıf ləpbəyə girdi.*

**LƏPBƏLO** (Lənkəran) – səliqəsiz, pinti. – *Ləpbəlonun sir-sifətinə bax ey;* – *O lap ləpbəlo uşağdı.*

**LƏPBƏRRƏNMAX** (Qax) – titrəmək. – *Ləpbərrəneysin, ged qalın paltar gey.*

**LƏPƏ** (Gədəbəy) – yastı və dəyirmi daş. – *Bu ləpələri hası çaydan tapıfsıŋ sən?*

**LƏPƏDÖYƏN** (Oğuz) – dibək. – *Ləpədöyən də onun adıdı, dibəx' də.*

**LƏPƏŞ** (Şamaxı) – *məc.* köklükdən yeriyə bilməyən (adam). – *Ləpəş adam yavaş-yavaş yeriyər.*

**LƏPİ** (Ağdaş, Əli Bayramlı, Göyçay, Kürdəmir, Salyan) – b a x **ləmpi.** – *Ləpi to:ğu tut kəsək* (Ağdaş); – *Ləpi to:ğ yırğalana-yırğalana gedir* (Salyan).

**LƏPİX'** I (Gədəbəy, Gəncə, Hamamlı) – yastı və dəyirmi daş. – *Çaydan bir ətəx' ləpix' gətimişəm, gəlin ləpiyatma oynuyax* (Gəncə).

**LƏPİX'** II (Qax, Ordubad, Şəki) – köhnə ayaqqabı. – *Ləpiyi ayağã: keçir, ayaxyalın gəzmə* (Şəki).

**LƏPİX'DAŞ** (Gəncə) – uşaq oyunu adı. – *Uşaxlar ləpix'daş oynuyullar.*

**LƏPİMƏG** (Kürdəmir) – axsamaq. – *Ləpiməg qız üçün pisdi.*

**LƏPİR** (Salyan) – kök və balaca (toyuq). – *Ləpir to:ğu qırğı çalıb apardı.*

**LƏPİRAĞACI** (Qubadlı, Laçın) – ağac növü. – *Ləpirağacına çıxmax çətindi, tikənnəri adama batır* (Qubadlı).

**LƏPİŞ** I (Lənkəran) – çəkibalığı. – *Bu gün bollu ləpiş tutmuşam.*

**LƏPİŞ** II (Kürdəmir) – b a x **ləpəş.** – *Ləpiş adam yeriyə bilməz, dala qalar.*

**LƏPİYATMA** (Gəncə) – uşaq oyunu adı. – *Balaja vaxdı bizim küçədə o qədər ləpiyatma oynamışıx kı.*

**LƏP-LƏP** (Lənkəran) – top-top oyunu. – *Ləp-ləp oyna, amma quzunu da gözdən qoyma;* – *Gəlün, uşağlar, ləp-ləp oynıyağ.*

**LƏPÜX'** (Qarakilsə) – b a x **ləpix'** I.

**LƏR** (Ordubad) – beçə arı. – *Lər pərvazlanıb uçur.*

**LƏRGƏ: LƏRGƏ GETMƏG** (Salyan) – yırğalanmaq, ləngərlənmək. – *Zəlzələdə öylər lərgə getdi.*

**LƏR-LƏVİN** (Çənbərək) – sir-sifət. – *Qızyetərin lər-ləvini na:sarıdı?*

**LƏRTVAN** (Salyan) – nərdivan. – *Lərtvanı gəti söykə duhara, bana çıxacam.*

**LƏS** I (Lənkəran) – boş. – *Zəmbilin ağzını ləs tik.*

**LƏS** II (Yardımlı) – sulu yer. – *Burə ləs yerdi.*

**LƏSƏLTMƏY** (Lənkəran) – boşaltmaq. – *Qəyiş belivi sıxır, bir əz ləsəlt.*

**LƏŞLƏMƏX'** (Zaqatala) – kəsilmiş heyvanın dərisini soymaq. – *Qədir inəyi ləşlədi.*

**LƏT** I (İmişli, Qazax, Meğri) – xəstəlik. – *Lət ürəx'də ossa, öhvədə ossa öldürər, bağırda ossa öldürməz* (Qazax); – *Bı qoyında lət var, kökəlmir* (İmişli).

**LƏT** II (Salyan) – özək. – *Mən qarpızın lətin yiməyi xoşdıyıram.* ◊ **Lət götürmək** (Yardımlı) – kökəlmək. – *Oğlən gələni lət götürüb.*

**LƏTDƏMAX** (Şəki) – heyvanın dərisində qalmış əti təmizləmək. – *Davax dərini lətdiyir.*

**LƏTDƏMMƏX'** (Qazax) – xəstələnmək. – *Bu yazığın qarnı yekədi, nədən lətdənif.*

**LƏTDİ** I (Culfa, Göyçay, Hamamlı, İmişli, Kürdəmir, Saatlı, Şamaxı, Zəngilan) – xəstə. – *Bir quzi almışdım, lətdi çıxdı, heç böyümür* (Şamaxı).

**LƏTDİ** II ( Sabirabad) – *məc.* paxıl.

**LƏTDİLİX'** (Gəncə) – paxıllıq. – *Gərəx' lətdiliyiŋi bildirəsəŋ?*

**LƏTƏG** (Bakı) – kiçik at arabası.

**LƏTƏNZ** (Cənubi Azərbaycan, Kürdəmir, Şamaxı, Şəki) – armud növü. – *Lətənz armudu balacadı, çox şirindi* (Cənubi Azərbaycan); – *Armuddarın ən başı lətənzdi* (Şamaxı).

**LƏTƏNZİRİ** (Ordubad) – armud növü. – *Lətənziri armıd dəgibdi.*

**LƏVƏ** (Gəncə) – qoyunun boyun əti. – *Ləvədən də qoy.*

**LƏVƏND** I (Cəbrayıl, Cəlilabad, Salyan, Göyçay, Qazax, Lənkəran) – 1. avara, yaramaz (Qazax). – *Ləvənd oğlu ləvənd gəlif çıxmadı;* 2. bacarıqsız (Cəbrayıl). – *Məmməd işdə çox ləvənddi.*

**LƏVƏND** II (Lənkəran) – çox yeyən (adam). – *Bu ləvənd İsanın qarnı doymaz.*

**LƏVƏND** III (Qax) – iriayaqlı (adam).

**LƏVƏNGİ** (Lənkəran) – xörək adı. – *Ləvəngi çox daddı xörəkdi.*

**LƏVƏNGİ-LƏVƏNGİ** (Salyan) – mənasız-mənasız, boş-boş. – *Get bossanda işdə, bırda ləvəngi-ləvəngi danışma.*

**LƏVƏR** (Laçın) – zəif. – *Qoyun ləvər quzu doğdu.*

**LƏVƏRƏ** I (Cəbrayıl, Cəlilabad, İsmayıllı, Qazax, Quba, Naxçıvan, Salyan, Şamaxı) – səfeh, gic, şüursuz, qanmaz. – *Ləvərə adamı ülsən də, başa sala bilməssən* (Quba); – *Mınnan so:ra Mahmıda inanma, ləvərə:n biridi* (İsmayıllı); – *Gədə lap ləvərədi ha, danışığına-zadına bax* (Cəbrayıl).

**LƏVƏRƏ** II (Cəbrayıl, İmişli, Kürdəmir, Quba, Oğuz, Salyan, Şuşa, Ucar, Zəngilan) – 1. gücsüz, zəif (Cəbrayıl, Kürdəmir, Quba); 2. tənbəl (Cəbrayıl, Quba, Şuşa, Ucar, Zəngilan). – *Ləvərə Həsən həftədə bir addım atır* (Ucar); – *Elman ləvərə uşaxdı* (Cəbrayıl).

**LƏVƏRƏ** III (Beyləqan, Füzuli, Salyan, İmişli, Kürdəmir, Qarakilsə, Quba, Meğri) – 1. yarımçıq, vaxtından qabaq (doğulmuş) (Beyləqan, Füzuli, İmişli, Kürdəmir, Qarakilsə, Quba). – *Asəfin inəyi ləvərə doğmuşdu, qalmadı, öldü* (Füzuli); 2. qabığı bərkiməmiş yumurta (Meğri, Şamaxı). – *Toyuğ ləvərə yumurta salıb* (Şamaxı).

**LƏVƏRƏ** IV (Zərdab) – böyük daş parçası. – *O ləvərəni başua salaram.*

**LƏVƏRƏ** V (Qax, Oğuz, Şəki) – qaydasından iri, böyük. – *Başmağ çox ləvərədi* (Şəki).

**LƏVƏRƏ** VI (Oğuz) – boş, bikar.

**LƏVƏRÜVƏ** (Lənkəran) – içalat. – *Balığı təmizdə, ləvərüvəsin at pişiyə.*

**LƏVƏRZƏ** I (Şamaxı) – b a x **ləvərə** III (2-ci məna). – *Toyuğ ləvərzə saldı.*

**LƏVƏRZƏ** II (Şəki) – b a x **ləvərə** V. – *Bu başmağ çox ləvərzədi.*

**LƏVİDƏMƏXʹ** (Çənbərək) – palçıq olmaq. – *Yağıf deyn pə:dən damıf, genəjə ləvildiyir.*

**LƏVİN** I (Ağbaba, Cəbrayıl) – növ, cür. – *Hər ləvin xörək yaxşıdı* (Ağbaba); – *Hər ləvin xörək pişirmişdilər* (Cəbrayıl).

**LƏVİN** II (Çənbərək, Laçın) – xasiyyət. – *Nuruya naxartana kömәy eləsəŋ də ləvini düzəlməz* (Çənbərək).

**LƏVİN** III (Meğri) – sifət, üz. – *Qədimi kişilərin ləvininnən nur yağe:r.*

**LƏVİNBƏLƏVİN** (Ordubad, Tərtər, Zəngilan) – cürbəcür, növbənöv. – *İsdolun üsdündə ləvinbələvin xörəxʹlər düzülmüşdü* (Zəngilan); – *Bizim hayatda ləvinbələvin yemişdər var* (Ordubad).

**LƏVİN-LƏVİN** (Culfa) – b a x **ləvinbələvin.** – *Burda ləvin-ləvin yemiş var.*

**LƏVİNSİZ** (Laçın) – bədxasiyyət. – *Onu mã: tanıtma, ləvinsiz adamdı.*

**LƏVİS** (Füzuli) – tamah.

**LƏVUN** (Cənubi Azərbaycan) – b a x **ləvin** II. ◊ **Ləvunu dönməxʹ** – xasiyyəti dəyişmək. – *Bu il qonşuların ləvunu dönübdü.*

**LƏVUNBƏLƏVUN** (Ordubad) – b a x **ləvinbələvin.**

**LƏYİRD** (Çənbərək) – çirkin. – *Mənim ləyird adamnan zəhləm-zivərim gedir.*

**LƏYİRT** (Qazax) – çoxyeyən (adam). – *Ləyirt adam doymax bilməz.*

**LƏYLİĞA** (Çənbərək, Qazax) – ləqəb. – *Bu kətdə məzəli ləyliğalı adamlar var.*

**LƏZGİOXİ** (Cənubi Azərbaycan) – üzəri qızıl və gümüşlə işlənmiş əsa. – *Mənim bir ləzgioxim var.*

**LIF** (Meğri) – içərisinə üskük və s. tikiş şeyləri yığılan kiçik torba.

**LIĞ** I (Bakı, Cəbrayıl, Şərur, Füzuli, Gəncə, Xaçmaz, Qazax, Meğri) – palçıq. – *Ayaqqavım lığa batıf* (Gəncə); – *Haravanı lığa salma;* – *Yağış yağanda həməşə bizim qapı lığ olur* (Füzuli).

**LIĞ** II (Füzuli, Göyçay, Qazax, Qusar, Lənkəran, Kürdəmir, Oğuz, Şamaxı, Ucar) – b a x **liğ.** – *Lığdan zəmbil toxuyullar* (Oğuz); – *Lığ olsaydı həsiri toxuyub qurtarardım* (Lənkəran); – *Lığ Arazbasan yerrərdə olur.* ◊ **Lığ verməxʹ** (Cəlilabad, Şəki) – həddindən çox olmaq. – *Maşın doludu adamnan, lığ verey* (Cəlilabad); – *Çeydə su lığ verir* (Şəki).

**LIĞAB** (Füzuli, Kürdəmir) – palçıqlı su.

**LIĞALIĞ** (Bakı, Salyan) – həddindən çox sulu. – *Yeməyə az su tökeydüz də, lığalığdı ki* (Salyan).

**LIĞANDA** (Meğri) – əyilib torpağa basdırılan budaqdan göyərən ting. – *Həsənov de:r ki, lığandaları gəti.*

**LIĞAV** (Füzuli) – lağ. – *Ma: lığav eliyir.*

**LIĞƏNDƏ** (Lənkəran) – yaxşı bişməmiş, alaçiy.

**LIĞIDA: LIĞIDA ELƏMƏY** (Cəlilabad) – tənəyin zoğunu torpağa basdırmaq. – *Biz üzimin şelin <qolun> lığıda eleyüg, bitey, sora kəseyüg, ayıreyüg ana üzimnən ki, özi əmələ gəlsin, yani ki, alahi üzim bitə bilsin.*

**LIĞIRS** (Naxçıvan, Şamaxı) – yaxşı bişməmiş, alaçiy. – *Bö:ün uşax bazardan lığırs çörək alıb* (Naxçıvan); – *Bu çörəy lığırsdı, yeməli döyü* (Şamaxı).

**LIĞIRSAĞ** (Kürdəmir) – çirkli, bulaşıq. – *Təmizzənmiyən yer həməşə lığırsağ olur.*

**LIĞLAMA** I (Cəbrayıl, Salyan, Zəngilan) – dolu. – *Arazda bir yer vardı, balığ orda lığlameydı, tutma:nan qurtarmırdı* (Zəngilan).

**LIĞLAMA** II (Bakı) – düyünü süzmədən bişirmə. – *Lığlama pişir vər yesün.*

**LIĞLAMAX** I (Göyçay) – b a x **liğləməy.** – *Lamı lığlamaseydim, bu yağış bizi isdadacaxdı.*

**LIĞLAMAX** II (Kürdəmir, Şərur, Laçın, Tovuz) – b a x **lix'ləməx'.** – *O, taxılı çuala lığladı* (Laçın).

**LIĞLI** (Lənkəran) – damı lığ ilə örtülmüş (ev). – *Lığlı övlərin sayı getdikcə azalır.*

**LIĞLIX** (Gəncə) – uşaq oyunu adı. – *Ay uşaxlar, gəlin lığlığ oynuyax.*

**LIXCAMAX** (Çənbərək) – ağzına kimi doldurmaq. – *Haravıya Məci oğartana ot lıxcadı kın, sallamada ox qırıldı.*

**LIXCIM** (Ağbaba) – ağzına kimi. – *Qabı suynan lıxcım doldur.*

**LIXCIMAX** (Qazax) – b a x **lıxcamax.** – *Çu:alı oxartana lıxcıyıf kı, böyrü cırılıf.*

**LIXLAMAX** (Çənbərək, Xanlar, Şəmkir) – b a x **lix'ləməx'.** – *Torveyi buğdoynan lıxlamışam* (Xanlar); – *Çualı lıxla, apar* (Şəmkir).

**LIQQA** I (Ağdam, Bakı, Beyləqan, Cəbrayıl, Əli Bayramlı, Kürdəmir, Salyan, Lənkəran, Mingəçevir, Şamaxı) – palçıq. – *Bizim küçə lıqqadı, keçməy olmur* (Lənkəran); – *O, üstünü lıqqıya bulıyıf* (Cəbrayıl); – *Arabamız lıqqıya batdı* (Şamaxı).

**LIQQA** II (Kürdəmir, Salyan) – bulanıq, lilli. – *Bu su lap lıqqadı* (Kürdəmir).

**LIQQALANMAX** (Salyan) – bulanmaq, lillənmək. – *Kürün suyi lıqqalanıb.*

**LIQQALIX** (Şəki) – çox palçıq olan yer. – *Gejə vaxdı gözüm görmədi, lıqqalığa girdim.*

**LILIĞ** I (Kürdəmir, Lənkəran) – fırtıq. – *Balabacı, sənün Oxtayuvun helə bırnının lılığı axır, silir pencəyinin qoluna* (Lənkəran).

**LILIĞ** II (Astara) – *məc.* göz yaşı. – *Gözünün lılığını tökürsən.*

**LILIX** I (Borçalı, Daşkəsən, Gəncə, Qazax) – b a x **lalıx** I. – *Ərix' yaman lılıxlanıf* (Qazax); – *Alma çox yetişəndə de:rix' lılıxdı* (Borçalı).

**LILIX** II (Hamamlı, Şəmkir) – b a x **lalıx** II. – *Nə lılığ adamsaŋ* (Hamamlı).

**LILIX** III (Hamamlı, Şəmkir) – b a x **lalıx** III. – *Lılıx adam yaxşı iş görmür* (Şəmkir).

**LILIXLAMAX** (Başkeçid, Borçalı, Gədəbəy, Qazax) – b a x **lalix'ləməx'.** – *Bizim bir ağac gu:alımız lılıxlıyıfdı* (Qazax); – *Zoğal laf lılıxlıyıf* (Borçalı).

**LILIMIR** (Meğri) – keyfiyyətsiz. – *Beşdəunda yeyləxdən bikkə <bir tikə> lılımır qatıx göndərey.*

**LINC** (Lənkəran) – b a x **linc.** – *A Şirin bacı, plo <plov> lıncdı ki.*

**LINDIR** (Meğri) – sümüksüz ət parçası. – *Buddardan çıxan lındırrarı da böləcəm payların üsdə.*

**LINQIT** (Çənbərək) – çiy, bişməmiş. – *Sajın altı yammadı, əpbəx' lınqıt oldu.*

**LINTIR** (Masallı) – kobud.

**LIPIRÇILIX** (Culfa, Şahbuz, Şərur) – köpüklənmə.

**LIR** (Şəki) – turş ayran. – *Xalamgildə bir kasa lır işdim, qarnıma sancı düşüf.*

**LIRD** (Lənkəran) – sirkə və yağ çöküntüsü. – *Sirkə qutarıb, lırdı qalıb.*

**LIRDA** (İmişli) – palçıq. – *Vedrəni geti <götür> bırdan, axıb lırda eliyib.*

**LIRDANA** (Kürdəmir, Salyan) – palçıqlı. – *Lırdana yerdə gəzməy olmaz* (Salyan).

**LIRT** (Bakı, Başkeçid, Qazax, Lənkəran) – tənbəl. ◊ **Lırt düşməg** (Bakı, Lənkəran) – yorulmaq. – *Yorulub lırt düşmüşəm* (Lənkəran). **Lırt tüşməx′** (Başkeçid, Qazax) – b a x **lırt düşməg.**

**LIRTA** (Kürdəmir) – duru. – *Palçığı lırta eləmisən.*

**LIRTMAÇ** (Şamaxı) – palçıq. – *Bayır yaman lırtmaçdı.*

**LIS: LIS QALMAĞ** (Salyan) – çürümək. – *Keçən il hə:tə o qədər su veriblər ki, üzüm tə:kdə lıs qalıb;* – *Bossanda yemiş çox oldı, yiən olmadı, yemişdər lıs qaldı.*

**LIZBA** (Meğri) – zərrə, əşyanın ən kiçik hissəsi. – *Olar yetim-yesirə eysannan bir lızba da verməzdər.*

**LİCİM** I (Ordubad, Şamaxı, Şərur) – biçim, xarici görünüş, görkəm. – *Qurbanın licimi yoxdu* (Şamaxı).

**LİCİM** II (Meğri) – bacarıq, qabiliyyət. – *Licimi çatmır bir qatırı yükləsin, ama ağzının yeli adam aparer.*

**LİCİMSİZ** (Şamaxı, Zəngilan, Şərur) – biçimsiz, səliqəsiz, görkəmsiz. – *O lap licimsiz adamdı* (Zəngilan); – *Qurban çox licimsiz adamdu* (Şamaxı).

**LİÇMAN** (Lənkəran) – navalça.

**LİFƏ** (Cəbrayıl) – burun deşiyi. – *Yediyin burnunun lifəsinnən gəlsin.*

**LİFİRTİN** (Salyan) – ipək parça növü. – *Lifirtini xonça:n üssünə qoy.*

**LİĞ** (Göyçay, Quba, Lənkəran) – bataqlıqda bitən bitki növü. – *Samanluğumuzun üsdi üçün bir araba liğ gətirdim* (Quba); – *Dayım bir araba liğ gətirdi* (Göyçay).

**LİĞAV** (Gəncə) – heyvan toxumunun üzündə olan yumşaq ağ maddə. – *Ağız, bu uşax ki belə öysürür, niyə muna hayva liğavı vermirsən?*

**LİX′LƏMƏX′** (Gəncə, Qarakilsə, Şəmkir) – ağzına qədər doldurmaq. – *Çualı lix′liyəndə çox tutar* (Qarakilsə); – *Xərələ o qədər pambıx lix′lədin ki, darmadağın dağıldı* (Gəncə).

**LİX′LƏŞMƏX′** (Ağbaba) – qarşılaşmaq. – *Qonşunun uşağıynan lix′ləşdim.*

**LİJ** (Qazax) – b a x **lej** I. – *Dünən dədəm bazardan üş dənə lij vedrə alıf gətirdi.*

**LİJİM** (Laçın) – səliqə.

**LİL** (Daşkəsən, Gədəbəy) – tamamilə, tamam, bütünlüklə. – *Ət lil yağdı* (Daşkəsən).

**LİLEY** (Balakən) – bayatı.

**LİLƏMAR** I (Ağdam, Culfa, Füzuli, Şahbuz) – ılıq. – *Çay liləmardı* (Ağdam); – *Liləmar su:nan əlüz yumağ olar* (Şahbuz).

**LİLƏMAR** II (Ucar) – lilli. – *Gamış liləmar suda yatıb.*

**LİLƏMAR** III (Bərdə) – *məc.* babat. – *İşdərim liləmar gedir.*

**LİLƏMAYA** (Şamaxı) – duru. – *Xəmir çox liləmaya oldi.*

**LİLƏPƏR** (Lənkəran) – barama kəpənəyi.

**LİLIX** (Başkeçid, Borçalı, Qazax) – b a x **lalıx.**

**LİLİ** (Ağdaş) – anaya müraciət məqsədilə deyilən ad. – *Lili, bu il neçə əmək günü almısan?*

**LİLİMAR** (Zəngilan) – b a x **liləmar** I. – *Bı çay illaf lilimardı ki, bını işməy olmaz.*

**LİLİPAR** (Ağbaba) – nilufər.

**LİLİVAN** I (Naxçıvan, Şərur) – ılıq. – *Yayda bizim çayın suyu lilivan olur* (Şərur).

**LİLİVAN** II (Naxçıvan, Şərur) – bulanıq.

**LİLLƏNDİRMƏX′** (Gəncə) – *məc.* bazarda malı çox yığıb saxlamaq. – *Min dəfə saŋa dedim, buları sat getsin, genə lilləndirif saxladın.*

**LİLLƏTMƏX′** I (Ağbaba, Basarkeçər) – *məc.* gizlətmək. – *Kağızdarı elə lillətdim ki, heş bilən də olmadı* (Ağbaba).

**LİLLƏTMƏX′** II (Qazax) – bir şeyi suya salmaq, suda batırmaq. – *Bu qazanı kim belə suyun divinə lillədif?*

**LİLMAN** I (Gəncə) – ağzına kimi dolu. – *Bizim ho:uz lilmandı, gedəx′çiməx′!*

**LİLMAN** II (Borçalı, Yevlax) – xalis, tamamilə. – *Ət lilman yağdı,* – *Dolma lilman yağdı* (Yevlax).

☐ **Lilman olmax** (Borçalı) – çox bişmək, bişib yumşalmaq. – *Ət lap yaxşı pişif, lilman oluf.*

**LİLMAR** I (Şərur, Zərdab) – b a x **liləmar** I. – *Qışda bu çayın suyu lilmar olur* (Zərdab); – *Yayda bulağın suyu lilmar olur* (Şərur).

**LİLMAR** II (Zərdab) – b a x **liləmar** II.

**LİLPAR** (Daşkəsən, Gədəbəy, Gəncə, Qazax, Qubadlı) – b a x **lilipar.** – *Lilpar kimi*

*sulu yer axtarırsan?* (Qazax); *– Bizim baxçada lilpar cürbəcür çiçəklər açır* (Gəncə).

**LİM** I (Cəbrayıl) – suyun yığıb gətirdiyi torpaq, lil. *– Arxı lim yaman basıf, gərəx′ genə işdiyəx′.*

**LİM** II (Gəncə) – üsul, qayda. *– Çox işləməgnən döy, işin limini tappax lazımdı.*

**LİM** III (Salyan) – eyham, atmaca. ◊ **Lim atmağ** – eyham etmək. *– Həsən məclissə mə:lim <mənə lim> atdı.*

**LİM** IV (Salyan) – bəhanə, səbəb. ◊ **Lim qoymağ** – bəhanə etmək. *– Həsən hər işə bir lim qoyır.*

**LİM** V (Qazax, Tovuz) – b a x **lil.** *– Bir toğlu kəsdix′, lim yağ çıxdı, heş qara tikəsi yoxuydu* (Tovuz).

**LİMÇAVA** (Dərbənd, Tabasaran) – yoğun oxlov.

**LİMDAŞ** (Cəlilabad) – geyilib köhnəlmiş, çox köhnə, nimdaş. *– Əli həmməşə limdaş pencəydə gəzey.*

**LİMƏ** I (Şəki) – aşılanıb doğranmış gön. *– Mən çarığı həmişə limədən tikirəm.*

**LİMƏ** II (Göyçay) – qısaquyruqlu quş və ya heyvan. *– Mə:m bir limə to:ğum var; – Limə to:ğ qaq elədi.*

**LİMƏ** III (Çənbərək) – döyülmüş taxılın zibili. *– Xırmandakı limiyi soyurdum, iki bağlama güzdüx′ çıxdı.*

**LİMHƏLİM** (Gəncə, Mingəçevir) – ağzına kimi dolu. *– Bizim inəx′ sərnişnən limhəlim süd verir* (Gəncə).

**LİMLƏMMEY** (Cəlilabad) – gözü tutulmaq (bulağa aiddir). *– Kükürd bılağ limlənibdi, batıbdı.*

**LİNC** I (Cəbrayıl, Gədəbəy, Şamaxı) – nəm, yaş. *– Barama yaman lincdi, deyəsən bir yerdə çox qalıb* (Cəbrayıl).

**LİNC** II (Bakı, Hamamlı, Salyan) – çiy, bişməmiş. *– Bu çörəg lincdü* (Bakı); *– Xörəg yaman lincdi* (Salyan).

**LİNƏT** (Təbriz) – suyun gətirdiyi torpaq. *– Hər il arxlərin linəttərin təmizli:rıx.*

**LİNG** I (Bərdə, Qubadlı) – omba sümüyü.

**LİNG** II (Bərdə, Gəncə) – ding, çəltik döyülən qurğu. *– Çəltiyi dünən lingə göndərdim* (Bərdə).

**LİNGİ-LİNGİ** (Lənkəran) – uşaq oyunu adı. *– Ay uşağlar, gəlün lingi-lingi oynıyağ.*

□ **Lingi yerə salmax** (Şərur) – *məc.* oturmaq. *– Lingiyi yerə salmısan, durmax bilmirsən.*

**LİPİRTİN** (Bakı, Kürdəmir) – ipək parça növü. *– Mənim lipirtin donum olub* (Kürdəmir); *– Anamın lipirtin çarşobı vardı* (Bakı).

**LİS** (Lənkəran) – acgöz. *– Əli çox lis adamdu.*

**LİŞ** (Gədəbəy) – yumşaq, əzilmiş. *– Oxartana qaynadıf kın arvat düyüyü, əzilif tamam lişdi.*

**LİTVƏ** (Şəmkir) – nəsil. *– Heç olmasa burda ombeş litvə var.*

**LİVƏ** I (Ağdam, Göyçay, Kürdəmir, Laçın, Yevlax) – 1. şit; 2. yaltaq (Laçın, Yevlax). *– Hasan livə adamdı* (Yevlax); *– Adam livə olmaz* (Laçın).

**LİVƏ** II (Lerik) – çoxbilmiş.

**LİVƏLƏMMƏX′** (Yevlax) – yaltaqlanmaq. *– Hasan, Məmmədə niyə livələnersən?*

**LİVƏ-LİVƏ** (Laçın, Lənkəran) – şit-şit. ◊ **Livə-livə danışmağ** (Lənkəran) – şit-şit danışmaq. *– Nə livə-livə danışırsan?*

**LO:** I (Bakı, Salyan) – bəla. *– Nə lo: olub düşmisən canımıza* (Bakı).

**LO:** II (Bakı) – hay-küy. *– Öylərində bir lo: var ki, gəl görəsən.*

**LOBBAZ** (Borçalı, Qazax, Mingəçevir, Tovuz) – lovğa, özünü öyən. *– Lobbaz adam şeşəxorluğ eler* (Borçalı); *– Dünyada lobbaz adamnan zəhləm gedən kimi heş nədən getmer* (Tovuz).

**LOBBAZDAMMAĞ** (Qazax, Tovuz) – lovğalanmaq, özünü öymək. *– Elə lobbazdammağı bilersəŋ, əmbə əlinnən bir iş gəlmer* (Qazax).

**LOBBAZDIX** (Borçalı) – lovğalıq. *– Şeşəxor adam lobbazdığ ele:r.*

**LOBBAZ-LOBBAZ** (Tovuz) – lovğa-lovğa. *– O, lobbaz-lobbaz danışer.*

**LOBGƏÇİLO:** (Bakı) – xörək adı. *– Diyəsən, lobgəçilo:ni çox yimişəm qarnım köpüb.*

**LOBOZ** (Zaqatala) – maymaq. *– Əli loboz adamdı.*

**LODA** I (Ağdam, Ağdaş, Cəbrayıl, Füzuli, Göyçay, Sabirabad, Salyan, Şuşa) – ot topası. *– Loda bö:y olur, xotman balaja* (Ağdam); *– Bü:n iyirmi beş loda ot çaldım* (Göyçay).

**LODA** II (Bakı) – lək. *– Hər lodaya seggiz şitil batırdım; – Bu lodada altı tağ var.*

**LODALAMAX** (Ağdam, Ağdaş, Cəbrayıl, Xocavənd, Şamaxı, Şuşa) – topa-topa yığmaq. – *Samanı lodalamax asandu* (Ağdam); – *Çöldə oti lodalıyıb gəldim* (Şamaxı); – *Otu lodaladım* (Cəbrayıl).

**LODUX** (Çənbərək) – yaraşıqsız. – *Sırtoy Məxsətə lodux durur.*

**LODURA** (Ordubad) – sap tağalağı.

**LOF** (Tovuz, Zərdab) – 1. boş (Tovuz); 2. tənbəl (Zərdab). – *Tahir çox lof adamdı.*

**LOFGÖDƏN** (Xanlar, Mingəçevir) – b a x **lomgödən.** – *Lofgödən adam öz qarnın doydurur dana* (Xanlar).

**LOFLAMAX** (Şəki) – başdansovdu tikmək. – *Köynəyi bir tə:r lofliyif keçirdim əynimə;* – *Köynəyi lofladım.*

**LOĞAB** (Zəngilan) – tuluğu asmaq üçün düzəldilən ağac qarmaq. – *Loğab tuluğu çatmadan asmaxdan yanadı.*

**LOĞAL** (Qazax) – yumru.

**LOĞALAX** I (Gəncə) – arpa ununun xəmirindən düzəldilmiş kündə. – *Dəviyə bu savağ üç loğalax vermişəm.*

**LOĞALAX** II (Gədəbəy, Tovuz) – büküm, dəstə, paçka. – *Civimdə bir loğalax pul var* (Tovuz).

**LOĞALAX** III (Başkeçid) – dəyirman daşını düşürüb-qoymaq üçün yumru ağac.

**LOĞALAXLAMAX** I (Qazax, Gəncə) – bükmək. – *Paltarı loğalaxlama, xarav olar* (Qazax); – *Paltarı nə yaxşı loğalaxlıyıflar* (Gəncə).

**LOĞALAXLAMAX** II (Borçalı) – səhv tələffüz etmək. – *Hasan danışanda loğalaxle:r.*

**LOĞALAXLAMMAX** (Gədəbəy) – kəllə-mayallaq olmaq. – *Bizim inəx′ dağın döşünnən yıxılıf, loğalaxlanıf.*

**LOĞALLAMAX** (Qazax) – b a x **loğalaxlamax** I. – *Paltarı loğallıyıf tullama, qatda.*

**LOĞALLAX** (Gədəbəy, Tovuz) – b a x **loğalax** II. – *Bir də görörəm, gədə bir loğallax sapı ağzına dolduruf çiyner* (Gədəbəy).

**LOĞANCAX** (Basarkeçər) – eşşək. – *Bura bir aşıx gəlmişdi, sazın bir loğancax götürərdi.*

**LOĞAZ** (Cəbrayıl) – lağ. ◊ **Loğaz qoşmax** (Ağcabədi, Qubadlı, Gəncə, Naxçıvan, Şərur) – ələ salmaq, lağa qoymaq. – *Əliyə loğaz qoşma* (Ağcabədi); **Loğaz döşəməx′** (Naxçıvan) – ələ salmaq, lağa qoymaq. – *Sən loğaz döşəmə.* **Loğaz eləməx′** (Şahbuz) – ələ salmaq, lağa qoymaq. – *No:ldu balam, onabuna loğaz eləməkdən yorulmadın?* **Loğaz oxumax** (Gəncə) – boş-boş danışmaq. – *Ta: loğaz oxuma, pulu bəri ver.*

**LOH** (Salyan) – yazı lövhəsi. – *Xumar, çıx lohun qabağına.*

**LOX** I (Lənkəran) – lax. – *On iki yumurtadan çil to:ğ doqquz cücə çıxartdı, qalan yumurtalar lox oldu.*

**LOX** II (Cəbrayıl, Zəngilan) – yazı lövhəsi. – *Gə loxu sil, təmizdə* (Zəngilan).

**LOXÇA** (Zərdab) – köhnə qab. – *Qızım, toyuğa suyu həmişə loxçada qoy.*

**LOXMALAMAX** (Gədəbəy, Gəncə, Mingəçevir) – tikə-tikə etmək, parça-parça etmək. – *Muna bax, çörəyi görməmiş kimi loxmalıyır* (Gəncə).

**LOXMALAMMAX** (Oğuz) – parçalanmaq. – *Qəndi çanağa qoyurux, üsdünnən çəkişnən vurrux, loxmalanır.*

**LOK** (Füzuli) – yük.

**LOKUT** (Quba) – kiçik ot tayası. – *Əvvəl lokut yığaduğ, sura taya eliyəduğ.*

**LOQQALOX** (Çənbərək, Karvansaray) – boş, boş-boşuna. – *Havva qatıxdan-zaddan gətimiyif, ma: doğru loqqalox gəlif;* – *Hardan gələrsəŋ belə loqqalox* (Karvansaray).

**LOQQİ** (Salyan) – yalqabı. – *İt üçün loqqiya su tök.*

**LOQQU** I (Qazax) – çox uzun (adam). – *Loqqu adam ye:n gedər.*

**LOQQU** II (Əli Bayramlı) – yeriş növü. – *Sənin loqqu yerişinnən mənim heç xoşum gəlmir.*

**LOQQUR** (Lənkəran) – arıq.

**LOL** (Yardımlı) – hin. – *Toyüx hələ loldədi.*

**LOLAM** (Əzizbəyov) – uzun (adam).

**LOLAP** (Cəbrayıl) – ağac növü.

**LOLASIRĞA** (Salyan) – iki kürəcikli sırğa. – *Zəkiyə bi dənə lolasırğa alıb.*

**LOLAV** (Cəbrayıl) – tuluqda olan ilmək. – *Nabat xala tuluğ ağacını lolavlara keçirib, tuluğu çatmadan asdı.*

**LOLAVLAMAX** (Cəbrayıl) – anlaşılmaz danışmaq. – *Heş nə başa tüşmürəm, elə lolavlıyır.*

**LO:LƏŞKAR** (Salyan) – hay-küy. – *Həsən bıra lo: ləşkarnan gəldi.*

**LOLUSIRĞA** (Borçalı) – b a x **lolasırğa.** – *Lolusırğa qızıl olor, gümüş olor.*

**LOMBALAMAX** (Xaçmaz, Oğuz) – çox-çox və tələsik yemək. – *A bala, lombalama, bacına da saxla* (Oğuz).

**LOMBILDATMAĞ** (Bakı) – tələsik yemək. – *Hələ bil ajdığdan gəlib, əlinə tüşəni lombıldadır.*

**LOMGÖDƏN** (Kürdəmir) – çoxyeyən, acgöz.

**LO:NA: LO:NA QALMAĞ** (Bakı) – qeydinə qalmaq. – *Sən də heç neyün lo:na qalmırsan.*

**LONÇOR** (Balakən) – su götürmək üçün arxda dərinləşdirilmiş yer. – *Qazanı lonçorun yanında qoymuşam.*

**LONĞOR** (Balakən) – burulğan. – *Çayda az qaldım lonğora düşəm.*

**LOPA** I ( Göyçay, Qazax, Şəki, Şəmkir) – 1. məşəl (Göyçay, Qazax, Şəmkir). – *Gəlin aparanda lopa aterıx;* – *At kişniyer, lopuyu yandır, görəx' toylada nə var* (Qazax); 2. alov (Şəki). – *Lampanın lopası qırmızıdı.*

**LOPA** II (Cəbrayıl, Xocavənd, Zəngilan) – evin üstünə döşəmək üçün yonulmuş ağac. – *Lopa palıt və qoz ağaşdarınnan daha yaxşı olur* (Cəbrayıl).

**LOPA** III (İrəvan) – sabun bişirilərkən çıxan qalıq, çöküntü, tullantı. – *Bir para adamlar lopanı sabun əvəzinə işdədillər.*

**LOPA** IV (Kürdəmir) – hissə, topa, parça. – *Bir lopa qar gəti.*

**LOPA** V (Şuşa) – ot topası.

**LOPA** VI (Ağdam) – manqalda yandırmaq üçün yumrulanmış kömür xəkəsi. – *Bir kisə xəkə alıf lopa qayıtdırdım.*

**LOPAĞVIRDI** (Salyan) – uşaq oyunu adı. – *Lopağvırdıda uduzan oyınçı ovurdların köpürdür, udan lopağ vırır.*

**LOPAX** (Ağdaş, Cəbrayıl, Kürdəmir) – 1. oyun zamanı şişirdilmiş ovurda vurulan zərbə və yaxud ələ vurulan şillə (Cəbrayıl). – *Gəti iki lopax da vırım, sora oynuyax;* 2. b a x **lopa** I.

**LOPAL** (Cənubi Azərbaycan) – b a x **lopa** VI. – *Lopal çox tez yanır.*

**LOPALAMAX** (Şuşa) – topa yığmaq (ota aiddir). – *Əhməd otu lopaladı.*

**LOPALANDIRMAX** (Şəki) – alovlandırmaq. – *Onun işi məni lap lopalandırıf.*

**LOPA-LOPA** (Göyçay) – iri-iri. – *Qar lopa-lopa yağır, onnan da hava açılır.*

**LOPBAZ** (Ağcabədi) – b a x **lobbaz.** – *Əli yaman lopbaz adamdı.*

**LOPBAZDAMMAX** (Qazax) – b a x **lobbazdammax.** – *Elə yaxşı lopbazdammağı bilersən, əmbə əlinnən bir iş gəlmer.*

**LOPÇİ** (Kürdəmir, Şamaxı) – yalandan basıb-kəsən, gopçu. – *Sən çox lopçi adamsan* (Şamaxı).

**LOPGÖDƏN** (Göyçay, Şamaxı, Salyan) – b a x **lomgödən.** – *Sən yaman lopgödən adamsan, mən səni doydura bilmənəm* (Göyçay); – *Sən nə lopgödən uşağ olmısan* (Şamaxı).

**LOPGÖDƏNNİG** (Salyan) – acgözlük, tamahkarlıq. – *Adə, lopgödənniy eləmə, adam ol.*

**LOPQARAQAZAN** (Bərdə) – uşaq oyunu adı. – *Gəlin gedək, lopqaraqazan oynuyağ.*

**LOPLAMAĞ** (Bakı) – vurmaq. – *Gördim çox uyan-bıyan eliyir, lopladım qulağının dibinə.*

**LOR** (Gəncə, Şərur, Lerik, Naxçıvan, Ordubad) – pendir suyunun çürüntüsü. – *Bajı, bir az lordan ver, çörəx'nən yeyim* (Gəncə); – *Şorun yox, lorun yox, bə nəyin var sə:n?* (Naxçıvan); – *Lorun təmi ləzətdi olur* (Ordubad).

**LORDƏ** (Bakı) – bağırsaq.

**LOR-LOR** (Oğuz) – kiçik şəlalə.

**LORON** (Cəlilabad) – quş adı.

**LORT** I (Qarakilsə) – b a x **lırt.**

**LORT** II (Xanlar) – boş, bişəndə ovulan. – *Ağ qartof lort qartofdu.* ◊ **Lort olmax** (Yevlax) – sıradan çıxmaq. – *Arxı su uçurdu, so:ra arx lort oldu.*

**LORTABA** (Kürdəmir) – kobud. – *Gülli çox lortabadı.*

**LORTANA** (Kürdəmir) – xörək adı. – *Mə:də üçün lortana çox xeyirridü.*

**LORTGÖDƏN** (Ağcabədi, Cəbrayıl, Qarakilsə, Zəngəzur) – b a x **lomgödən.**

**LORU** (Ağdaş, Cəbrayıl, Füzuli, Qubadlı) – atın belinə qoymaq üçün düzəldilmiş qalın keçə. – *Ə:də, ged o atın lorusun qoy belinə, ölkənnən bağla* (Füzuli).

**LORUĞ** (Cəlilabad) – gözün altında əmələ gələn şiş.

**LORUX** (Xanlar) – tənbəl.

**LORUMBUL** (Şəki) – taxıl bitkilərinin içində göyərən alağ otu.

**LORUNBUR** (Şəki) – b a x **lorumbul.** – *Buğda:n, çəltiyin içində bitir lorunbur.*

**LOŞ** I (Bakı, Dəvəçi, Quba, Şamaxı) – hindtoyuğu. – *Loş to:ğdan çux iri uladu* (Quba).

**LOŞ** II (Ağbaba, Ağdam, Salyan, Gədəbəy, Kürdəmir, Şamaxı, Şəmkir, Şuşa, Tovuz) – tənbəl. – *Bayram o qədər loşdu kun, yarım sahat işdiyə bilmir* (Ağbaba); – *Loş, yanı təmbəl, boş dəməx'di* (Tovuz).

**LOŞ** III (Qazax) – kök. – *Loş adam yaxşı işdiyəmməz.*

**LOŞALOŞ** (Salyan) – ağzına qədər, ağızbaağız. – *Bardanı pammığnan loşaloş doldırmışam.*

**LOŞBƏBƏR** (Bakı) – üstündə xəmir yaymaq üçün taxta, yuxayayan.

**LOŞQARIN** (Lənkəran) – çoxyeyən.

**LOŞUMAX** (Cəbrayıl) – yorulmaq.

**LOTUĞ** I (Şamaxı) – zarafat. – *Lotuğ eliyirəm.*

**LOTUĞ** II (Yardımlı) – yabanı çiçək. – *Uşağ gedib lotuğ yığmağa.*

**LOTUĞLAŞMAĞ** (Şamaxı) – zarafatlaşmaq. – *Bir-birimizlə lotuğlaşırığ.*

**LOVAX** (Çənbərək) – südlü xörəyin üzü. – *Südlü isdinin üzündə soyyanan sonra qalın lovax varıdı.*

**LOVUDU: LOVUDU VURMAX** (Gədəbəy) – avaralanmaq, boş-boş gəzmək. – *Dosdum lovudu vuroy buralarda daŋ üzünnən.*

**LÖDƏLƏMƏX'** (Ucar) – kündələmək. – *Cijim xamır lödəliyir.*

**LÖDƏ-LÖDƏ** (Ucar) – iri-iri. – *Əli halvanı lödə-lödə udur.*

**LÖƏ** (Qazax) – nəvə. – *Ağrın alem, ay həkim, bir löəm oluf.*

**LÖƏLƏX'LƏMƏX'** (Gəncə, Qazax) – oxlovla yaymaq. – *Kündöyü löələx'lə qutar, ajımnan öldüm* (Qazax).

**LÖƏN** (Tovuz) – məhsulun yetişdiyi vaxt.

**LÖH** (Tovuz) – yemək. – *Büyün İrvahamgildə löh var, oryə:lərsəŋ.*

**LÖHLƏMƏX'** (Karvansaray) – təngnəfəs olmaq.

**LÖHRAN** (Biləsuvar, Salyan, Şamaxı) – 1. xam yer (Biləsuvar, Salyan, Şamaxı). – *Löhran yerdə payızda yaxşı yağış olsa, taxıl yaxşı pitər* (Salyan); – *Löhran yeri bu il çöyürüblər* (Biləsuvar); – *Alı dayının yeri löhrandı* (Şamaxı); 2. şumlanmış yerdə şumlanmamış qalan kiçik hissə (Cəlilabad); – *Löhran deyüg biz güz çəkülən yerdə qalan yerə.*

**LÖHRƏM** (Şəmkir) – b a x **löhran.** – *Löhrəm yerdə əkin yaxşı pitir.*

**LÖHRƏN** (Kürdəmir, Şamaxı) – b a x **löhran.** – *Bıra löhrəndi, kotan batmeyir* (Şamaxı).

**LÖK** (Lənkəran, Zaqatala) – ağacda əlçatmaz yerlərdən meyvə dərmək üçün düzəldilmiş uzun ağac. – *Armudları dərəndə lök sındı* (Zaqatala).

**LÖKƏ** (Cəlilabad) – taxta-şalban. – *Fəzil durdi, gördi lökəsi yanib.*

**LÖKİ** (Cəlilabad, Lənkəran) – qarğıdalı, düyü unundan bişirilən çörək.

**LÖKLƏMƏG** (Bakı, Şamaxı, Salyan) – dəvə kimi yerimək. – *Lökləmə, tez yorularsan* (Şamaxı).

**LÖKÜ** (Ağdaş, Lənkəran, Sabirabad) – b a x **löki.** – *Bayram süfrəmizdə bu il lökü olmadı* (Ağdaş); – *Nanəli lökü yaman ləzətdiydi, sən pişirmişdün?* (Lənkəran).

**LÖKÜD** (Göyçay, Qax, Oğuz, Ordubad, Şəki) – yaxşı bişməmiş (düyü). – *Löküd aşı yiməy olmur* (Göyçay).

**LÖKÜRD** (Dərbənd, Quba, Şamaxı) – b a x **loqut.** – *On beş lökürd ot çaldım* (Şamaxı).

**LÖKÜT** I (Göyçay, Şəki, Ordubad) – b a x **löküd.** – *Lökıt aş yağ götümaz* (Şəki).

**LÖKÜT** II (Ağdaş) – qovurğa ilə süddən bişirilmiş xörək (bəkməz ilə yeyilir). – *Löküt şirin olur.*

**LÖKÜT** III (Quba) – b a x **lokut.**

**LÖL** (Cəlilabad, Yardımlı) – hin. – *Mən toyuğu iri lölə saldım* (Cəlilabad).

**LÖLÜX'** (Ağbaba, Gədəbəy) – bacarıqsız. – *Ə:, ona ümid olma, lölüyün biridi;* – *Lölüx' Hümbət iş bacarar?* (Gədəbəy).

**LÖMBƏ** (Şamaxı) – qabığı bərkiməmiş yumurta. – *Toyuğımız lömbə salıb, azarrıyana oxşiyir.*

**LÖ:N** I (Borçalı, Qazax, Tovuz) – b a x **löyün** I.

**LÖ:N** II (Cəbrayıl, Şamaxı) – b a x **löyün** II. – *Munun bir lö:ününə tamaşa elə.*

**LÖ:N-LÖ:N** (Qazax) – b a x **löyünbəlöyün.** – *Qarpız lö:ün-lö:ündü, kimisinə hazarı de:llər, kimisinə qaxet de:llər.*

**LÖPİX′** (Meğri) – işlənib qurtarmış sabun qalığı. – *Sabun yoxdı, əncax bir xırdecə löpix′ var mahrabanın altində.*

**LÖPLƏMƏG** (Salyan) – arxası üstə mayallaq aşmaq. – *Elə göyərçin var ki, bir dəfə löpliyir.*

**LÖRAN: LÖRAN ELƏMƏG** (Bakı) – torpağı dərin qazmaq. – *Bu belin təfkeşi yaxşı olmədiginnən löran eləməg olmur.*

**LÖYÜN** I (Gədəbəy, Kürdəmir, Qazax) – növ, cür. – *Axşama iki löyün xörəyimiz var* (Kürdəmir).

**LÖYÜN** II (Gəncə, Qazax, Şamaxı, Şəki) – görkəm, görünüş. – *Sənin löyünüŋ çox pisdi* (Qazax); – *Dağların löyünü dəgişib* (Şamaxı).

**LÖYÜN** III (Göyçay, Qazax) – bəxt. – *Onun löyünü dönüb, bədbaxlıx basıf.*

**LÖYÜN** IV (Oğuz) – adət. – *Yerin löyününə pişmişi hərə bir cür pişirir.*

**LÖYÜNBƏLÖYÜN** (Göyçay, Mingəçevir) – növbənöv, cürbəcür. – *Daşdı qayada löyünbəlöyün otdar var.*

**LÖYÜN-LÖYÜN** (Qazax) – b a x **löyünbəlöyün.** – *Sayalı büvüm löyün-löyün xörəx′lər pişirer.*

**LÖYÜNSÜZ** (Gəncə, Göyçay, Şəki) – eybəcər, çirkin. – *Muna bax, nə löyünsüz adamdı* (Gəncə); – *Rəhimin oğlu çox löyünsüzdü* (Göyçay).

**LUĞAB** I (Zəngəzur) – həlim. – *Luğab çox yeməlidi.*

**LUĞAB** II (Salyan) – helik. – *Kamal tay qocalıb, danışanda ağzının luğabı axır.*

**LUQUT** (Dərbənd) – b a x **lokut.** – *Yığıban dırnovucnan luqut düzəldeydig.*

**LULAN** (Kürdəmir) – avara. – *Lulan kimi nə gəzirsən?*

**LUMBULLATMAĞ** (Kürdəmir) – udmaq. – *Əlinə düşəni lumbulladır.*

**LUMBUTMAX** (Gədəbəy, Tovuz, Şərur) – b a x **lumbullatmağ.** – *Nə tez lumbutduŋ, hələ mən də sənnən yi:jeydim, oğul* (Tovuz).

**LUMEYİ** (Bakı) – limon rəngli. – *Beş arşin lumeyi parça aldım;* – *İki cüt lumeyi corab göndərmişəm.*

**LUMUD** (Bakı) – naümid. – *Sənunçün bu heç lumud eləməz.*

**LUPPADAN** (Zərdab) – birdən, qəflətən.

**LURS** (Quba) – böcək adı. – *Camışı lurslər bürümüşdü.*

**LURU** (Quba) – b a x **loru.** – *Atam atımız üçün bir təzə luru tikdi.*

**LÜBÜ** (Borçalı) – kimsəsiz, yetim. – *İdris lübünün biridi, yazığ uşaxdı.*

**LÜCİ** (Ağsu) – hin. – *To:x lücidə yumurtdıyır.*

**LÜƏLƏX′LƏMƏX′** (Xanlar, Kəlbəcər) – b a x **löələx′ləməx′.** – *Ərişdeyi pişirəndə xamırı oxlovnan lüələx′li:llər* (Xanlar).

**LÜƏN** I (Qazax) – fəsil. – *Hər lüən üç aydi.*

**LÜƏN** II (Yevlax) – b a x **löən.** – *Darıxma, lüənin vaxdına az qalıfdı.*

**LÜƏN-LÜƏN** (Qazax) – fəsil-fəsil.

**LÜƏNNİX′** (Xanlar) – dincə qoyulmuş yer.

**LÜGƏNDƏ** (Dərbənd) – xəndək. – *Bu gün un-un beş lügəndə atdum.*

**LÜK** (Ordubad) – koramal. – *Lük adama dəyməz, vıran ilandı.*

**LÜKÜRD** (Quba) – b a x **lokut.** – *Sabah lükürdləri daşımağ lazımdı.*

**LÜKÜT** (Xanlar, Quba) – b a x **lokut.** – *Bu gün un lüküt ot çalmışam* (Quba).

**LÜKÜTLAMAĞ** (Quba) – kiçik ot tayalarını böyük tayaya yığmaq. – *Lükütdəri sabbah lükütdamağ lazımdı.*

**LÜL** I (Bakı, Gəncə, Quba, Salyan, Şərur) – b a x **lil.** – *Alı o qədər içif ki, lül kefli oluf* (Gəncə); – *Pilo lül yağdı* (Salyan).

**LÜL** II (Bakı, Salyan) – dar. – *Paltar əynində çox lül görünür* (Salyan).

**LÜL** III (Bakı) – boru şəklində. – *İki put lül qəley aldım.*

**LÜLEYİN** (Culfa, İsmayıllı) – aftafa.

**LÜLƏ** (Şəki) – boru. – *Beş dənə arşınnıx lülə aldım;* – *Dağdan suyu lüləynən gətirdilər.*

**LÜLƏMAYA** (Bakı) – b a x **liləmaya.**

**LÜLƏPƏR** I (Kəlbəcər) – b a x **lilipar.**

**LÜLƏPƏR** II (Cəlilabad, Yardımlı, Lənkəran) – kəpənək. – *Lüləpər yerə qondi* (Lənkəran).

**LÜLƏPƏRƏ** (Cəlilabad, Lənkəran) – b a x **lüləpər.** – *Kolun üstündə bir dəstə lüləpərə uçur* (Cəlilabad).

**LÜLÜFƏ** (Meğri) – dar və uzun. – *İndiki cahıllar lülüfə dizdix′ geyillə.*

**LÜM** (Saatlı) – sərxoş. – *Ağagül lümdü.* ◊ **Lüm olmağ** – sərxoş olmaq.

**LÜMBÜRT** I (Kürdəmir) – b a x **lümbüz.**

**LÜMBÜRT** II (Kürdəmir) – 1. tamamilə. – *Sinavar yıxılıp uşağı lümbürt yandırıp;* 2. lüt, çılpaq.

**LÜMBÜRÜMLÜT** (Ucar) – b a x **lümbürt** II (2-ci məna).

**LÜMBÜZ** (Lənkəran) – tükü tökülmüş, tüksüz. – *Qırmızı xoruz lümbüzdü.*

**LÜMEG** (Bakı) – qısaquyruqlu (quş, it).

**LÜMƏ** I (Ağsu, Bakı, Gəncə, Naxçıvan, Salyan, İrəvan) – qısaquyruqlu (quş, it). – *Lümə to:uğ bizzərdə çox olar* (Ağsu); – *Bizim to:ğların hamsı lümədi* (Bakı); – *Lümə to:ğ çox yiyər* (Salyan).

**LÜMƏ** II (Ağcabədi, Qubadlı) – 1. çəltiyin ikinci dəfə döyülüşü (Ağcabədi). – *Büyün çəltiyin lüməsinnən qutardıx;* 2. ikinci dəfə döyülmüş çəltik (Qubadlı). – *Lüməni yığ çuvala gəti.*

**LÜMƏG** (Bakı, Şamaxı) – b a x **lümeg.** – *Pəri, lüməg toyuğu tut* (Şamaxı).

**LÜMƏKLƏMƏG** (Bakı, Şamaxı) – toyuq və ya xoruzun quyruğunu yolmaq. – *Bu toyuğu tanımağ üçün lüməkləməg lazımdır* (Şamaxı).

**LÜMƏLƏMEG** (Bakı, Şamaxı) – b a x **lüməkləməg.** – *Toyuğları bu gün lümələdim* (Bakı).

**LÜMƏLƏMƏK** (Ağcabədi) – çəltiyi ikinci dəfə döymək. – *Büyün bir çuval çəltiyi lümələmişəm.*

**LÜMƏ-LÜMƏ** (Şamaxı) – gödək-gödək. – *Hindiki qızzar lümə-lümə geyillər, baldırrari qalır bayırda.*

**LÜMİK** (Kürdəmir) – b a x **lümeg.** – *Bi lümik itim var, adama hürmür də.*

**LÜMQAÇ** (Ordubad) – uşaq oyunu adı. – *Uşaxlar lümqaç oynuyur.*

**LÜMÜK** (Göyçay) – tüksüz, tükü tökülmüş.

**LÜMÜRDAN** I (Salyan) – su basmış əkin yeri. – *Vaxdilə əkərah yer olıb, so:radan bı əkərah yer göllәşir, bı yerə lümürdan di:lir.*

**LÜMÜRDAN** II (Salyan) – tamamilə, büsbütün. – *Ay bala, üssün-başın lümürdan palçığdı ki...*

**LÜMÜRT** (Tovuz) – südlə undan hazırlanan xörək adı. – *Bir çovan lümürtü ola, elə ötürrəm ki, bəridən aŋarı.*

**LÜMÜRTDAN** (Masallı) – qısa.

**LÜPBİZ** (Cəlilabad) – 1. kasıb, yoxsul; 2. çılpaq. – *Bi dənə adamı qoymerdılar, soyındırırdılar, elerdilər lüpbiz.*

**LÜPBÜRT** (Tovuz, Zərdab) – b a x **lümbürt** II. – *Getdim gördüm uşağlar lüpbürt soyuflar;* – *O dələduz gədə ağacı lüpbürt soyuf* (Zərdab).

**LÜPÜRT** (Tovuz, Zərdab) – b a x **lümbürt** II. – *Bu ət lüpürt yağdı.* – *Bir toğlu kəsdix′ lüpürt yağ çıxdı* (Tovuz).

**LÜS** (Lənkəran) – çölpişiyi.

**LÜTBOĞAZ** (Yevlax) – boğazı tüksüz (toyuq, xoruz).

**LÜVƏ** I (Ağbaba) – yuva. – *Üç-dört yerdə quş lüvəsi tapbışam.*

**LÜVƏ** II (Meğri) – qurumuş içi boş ağac. – *İndi bu lüvəni yaxşı yarecam, üş-dört yüx′ odunu çıxecex′.*

# Mm

**MA** (Balakən) – al. – *Ma, bu kitabı qardaşına ver.*

**MAA** (Qax) – b a x **ma.** – *Maa, habı da sağa çatacax.*

**MAAL** (Zərdab) – yaxşı ki, heç olmazsa. – *Maal, özünü sən də adam yerinə qoyursan.*

**MABAĞ** (Əli Bayramlı) – qiymət. – *Sən də day munun mabağın artırma.*

**MAC** I (Culfa, Ordubad) – b a x **maj** I. – *Mən macı tutdum* (Culfa).

**MAC** II (Oğuz) – b a x **maj** II. – *Macı qoyullar ki, lobya çıxsın o ağaca.*

**MACDAMAX** (Oğuz) – lobya və ya xiyar tağının sarınması üçün onun dibinə ağac basdırmaq. – *Paxlanı macdıycam sabah.*

**MACAR** I (Daşkəsən) – girintili-çıxıntılı. – *Gərəməşöy özü macar oloy.*

**MACAR** II (Bolnisi) – tünd çaxır.

**MACGAL** (Culfa) – şumlanma zamanı xışın, kotanın dəstəyindən tutan adam. – *Macgal kotannan yer sürür.*

**MAÇ** (İsmayıllı) – b a x **maj** II. – *A Şa:sənəm, bir-ki dənə maç ver mənə, maçım çatmadı, lobyadan bir əzi maçsız qaldı.*

**MAÇA** I (Salyan) – qatır. – *Maça çox yük götürər.*

**MAÇA** II (Salyan) – qoyunun qol əti. – *Taskəbabı maça ətinnən olar.*

**MAÇA** III (Zəngilan) – qoyunun (və ya keçinin) boğazından sallanan bir cüt vəzi. – *Maça qoyunnarın boğazında olur.*

**MAÇA** IV (Naxçıvan, Ordubad) – aşıq.

**MAÇA-MAÇA** (Bakı) – aşıqla oynanılan uşaq oyunu adı.

**MAÇAN** (Cəbrayıl) – b a x **maça** III. – *Qoyunumuzun maçanı var.*

**MAÇANNI** (Cəbrayıl) – boğazında bir cüt vəzi olan (qoyun, keçi). – *Qoyunumuz bir maçannı quzu doğdu.*

**MAÇI** (Ordubad) – nənə, ananın anası. – *Get şə:rdən maçını gəti.*

**MAÇIMAX** (Çənbərək) – yorulmaq. – *Oğarda işdədim ki, indi də maçıdım qaldım.*

**MADAR** I (Qarakilsə, Zəngilan) – tək, bircə, yeganə. – *Dədəsinin-nənəsinin madar oğludu, ərkö:n bö:düflər* (Zəngilan); – *Onun madarı bircə bıdı dayna* (Qarakilsə).

**MADAR** II (Kürdəmir) – qənaət. ◊ **Madar eləmək** (Kürdəmir) – qənaət etmək. – *Əppəgə madar elə, ay İnşallah;* – *Yığdığın ota madar elə ki, qışı çıxara biləsən.*

**MADAR** III (Çənbərək) – azuqə. – *Uşaxların büyün madarı çoxdu.*

**MADAR-GÜZAR** I (Gədəbəy) – tək, bircə, yeganə. – *Madar-güzar bir uşağımız var, o da oxuyor şə:rdə.*

**MADAR-GÜZAR** II (Qazax) – dolanacaq, güzəran. – *Məmmədin madar-güzarı yaxşıdı.*

**MAFAR** (Bakı, Cəbrayıl, Qazax, Mingəçevir) – imkan.

**MAFARSIZ** (Oğuz) – cansız, zəif.

**MAFRAX** (Ağdam, Gədəbəy, Qazax, Tovuz) – kövrək; davamsız. – *Yaman mafrax çişmiş, diyən çürü:pbüş, çəkəndə qırıldı, yarısı qaldı ağzımda* (Qazax); – *Bu usdollar mafrağımış, bir-ki dəfə oan-boan çəkildiyinə dağıldı* (Gədəbəy); – *Mafrax şey bərkə-boşa çüşəndə tez əməldən çıxar* (Tovuz).

**MAFRAXLIX** (Gəncə) – kövrəklik. – *Mafraxlığına baxma, pula gedəndi.*

**MAĞ** I (Kəlbəcər, Xanlar) – damın iki tir arasındakı hissəsi. – *Bir evdə üç mağ pərdi döşənir* (Xanlar).

**MAĞ** II (Biləsuvar) – bacarıqsız. – *O, yaman mağ uşağdı.*

**MAĞAL** (Cəbrayıl, Qarakilsə, Meğri, Zəngilan) – günün isti vaxtında mal-qaranın axşam sərini düşənə qədər saxlandığı kölgəlik. – *Mallar mağaldeydi* (Zəngilan); – *Əli günorta olmamış malları mağalə:tdi* (Cəbrayıl).

□ **Mağal vırıb oturmax** (Kürdəmir) – dövrə vurub oturmaq. – *Hamı mağal vırıb oturmışdı* (Kürdəmir).

**MAĞALAN** (Ağdaş, Salyan) – 1. kiçik arx. – *Məhlədə mağalan qazırdım* (Ağdaş); 2. ləklər arasındakı tirə. – *Mağalanın hərəsinə on mamadur şitili vurmuşam* (Ağdaş).

**MAĞALAX** (Qax) – balaca saxsı qab.

**MAĞALLAX** I (Qəbələ) – suyu çəltik zəmisindən kənara axıtmaq üçün arx. – *Nəcməddin baba öz zəmisinnən Feyzulla babanın zəmisinə mağallaxnan su verir.*

**MAĞALLAX** II (Ağdaş, Gəncə, Qazax) – dəyirman daşını bir yerdən başqa yerə aparmaq üçün girdə ağac parçası. – *Mağallağı daşın altda qoy* (Ağdaş); – *Mağallağı ağacdan qayırallar* (Qazax); – *Daş mağallağ üssündə durar* (Gəncə).

**MAĞAR** I (Ağdaş, Bərdə, Bolnisi, Borçalı, İmişli, Qazax, Mingəçevir, Oğuz) – 1. toy məclisi. – *Qız evində o gecə sübhə tək mağar qurub, küy-kələy elədilər* (Ağdaş); 2. toy məclisi keçirmək üçün qurulmuş alaçıq. – *Toyçun mağar tikirüg* (İmişli); – *Mağarın dört böyrünə gəvə, palaz vurrux, yüz-ikü:z adam oturur* (Bərdə); – *Bizim kətdə mağar qurulub, toy olacax* (Qazax); 3. oğlan toyu. – *Əlinin mağarına gedəysən?* (Ağdaş); 4. evlənən oğlana qohumlarının verdiyi hədiyyə.

**MAĞAR** II (Zaqatala) – şırım (əkində).

**MAĞARA** (Ağdaş, Qax, Şəki, Zaqatala) – sap çarxı. – *Mağaradan sap qutarıf* (Ağdaş); – *Nərgiz, sağa diminəm mağaranı sökmə?* (Zaqatala).

**MAĞDIR** (Meğri) – imkan. – *Mağdıri çatdığı qədir paltar-maltar da alıp.*

**MAĞIL** I (Bakı, Borçalı, Cəbrayıl, Cənubi Azərbaycan, Dəvəçi, Gədəbəy, Goranboy, İsmayıllı, Kürdəmir, Şərur, Zəngilan) – b a x **maal.** – *Dünən mağıl gün çıxmışdı* (İsmayıllı); – *Mağıl hərdən bizə gəlirdin, daha gəlmirsən* (Goranboy); – *Mağıl qapıda dirrix' var* (Tovuz); – *Mağıl sən cavab verdin* (Şərur); – *Mağıl sən gəlib özũ:yetdin, yoxsa bı itdər bizi diricə yə:rdi* (Zəngilan).

**MAĞIL** II (Tovuz) – layiqli. – *Səltənət kimi mağıl adamı sən tapmassan.*

**MA:ĞUL** (Bakı, Cəlilabad, Quba) – b a x **maal.** – *Ma:ğul bu kitabı gətirdim, yuxsa uxumağa bir şeyin ulmıyacağdı* (Quba); – *Ma:ğul sən gəldün çıxdun* (Cəlilabad).

**MAHARA** (Cənubi Azərbaycan) – xışı boyunduruğa bərkitmək üçün ağac parçası. – *Mahara olmasa, xış boyunduruxda durmaz.*

**MAHI** (Ordubad) – dəryaz. – *Biz otı mahıynan çalarıx.*

**MAHLIM** (Zəngəzur) – məgər. – *Mahlım man burcimi daneyram, san u cür danışeysan?*

**MAHMUDU** (Ağdaş) – alça növü. – *Mahmudu alça yeməli deyil.*

**MAXAR** (Ağdərə) – taxta mıx. – *Maxar ağaşdan olur, qadağ dəmirdən, həm də qadağa maxar da de:llər.*

**MAXARA** I (Balakən, Zaqatala) – 1. b a x **maqarə;** 2. qutab. – *Anam bu gün maxara bişirəcək.*

**MAXARA** II (Cəbrayıl) – xarab.

**MAXDA** (Zaqatala) – yığın, topa. – *Doşan İrvaham gedif bir moş maxdasına ıras gəlif, iki vedrə yığıf.*

**MAXLAYI** (Çənbərək, Qazax, Şəki) – fərsiz. – *Oğul ha deyil, maxlayıdı* (Qazax); – *Oğlum çox maxlayı uşaxdı* (Şəki); – *Quru Vəli maxlayı şeydi, ona eytivar eləməy olmaz* (Çənbərək).

**MAXLƏTƏ** (Laçın) – mərdiməzar. – *Cəfər kimi maxlətə yer üzündə tapılmaz.*

**MAXOX** (Bolnisi) – xörək adı.

**MAXRABEL** (Zaqatala) – qozbel.

**MAXTA** (Şəmkir) – vergi. – *Yığılıf məsləhat eli:llərdi ki, maxta gəlif filan qədir, indi onu yaymax lazımdı.*

**MAXTAMMAĞ** (Dərbənd) – lovğalanmaq, özünü öymək.

**MAJ** I (Ağdam, Gəncə, Qazax) – xışın, kotanın dəstəyi. – *Üç adam kotanı sürördü: ikisi boyunduruğun üsdə, biri də maj tutordu* (Qazax); – *Sən öküzzəri sür, mən kotanın majın tutum* (Gəncə).

**MAJ** II (Oğuz) – lobya və ya xiyar tağının sarınması üçün onun dibinə basdırılan uzun ağac.

**MAJAR** (Gədəbəy) – çoxkünclü. – *Mağazində majar istəkan çoxdu.*

**MAJARA** (Çənbərək) – 1. macal, imkan. – *Majara tapə:mmirəm ki, sizə:lim;* 2. vaxt.

**MAJGAL** (Ağdam, Qazax) – kotanın dəstəyindən tutan adam, kotançı. – *Majgal majdan tutuv əkir* (Ağdam); – *Maj tutana majgal deyirix'* (Qazax).

**MAJGƏL** (Ağdərə, Borçalı) – b a x **majgal.** – *Majgəl kotanın majınnan tutor* (Borçalı).

**MAKUK** (Quba) – şal toxumaq üçün dəzgah.

**MAQARƏ** (Zaqatala) – südlə undan bişirilmiş yemək.

**MAQQAL** (Çənbərək) – tonqal. – *Novruz bayramında bir yekə maqqal yaxajam.*

**MAQQAN** (Meğri) – dinamit. – *Əzəllər maqqan tapılmerdi, indi təzə mə:dəndə hey patdadellər.*

**MAQQAF** (Oğuz) – burğu. – *Maqqafnan ağac da deşillər.*

**MAQQI** (Kürdəmir) – maymaq. – *Nə maqqı adamsan.*

**MAQQILIĞ** (Kürdəmir) – maymaqlıq. – *Maqqılığınnan ağzı aralı qalıb.*

**MAQQULİ** (Salyan) – uşaq oyunu adı.

**MALAVAN** (Cəbrayıl, Cəlilabad, Füzuli, Kürdəmir, Lənkəran, Salyan) – maldar; maldarlığı bacaran (adam). – *Təriş kişi malavan adamdı* (Salyan); – *Mən əvvəldən hələ malavanam* (Lənkəran).

**MALAQARIŞAN** (Qazax) – biryaşar dana.

**MALAĞA** (İrəvan) – çömçə.

**MALAĞAN** (Şərur) – dəryaz. – *Malağannan ot piçillər.*

**MALAX** (Kəlbəcər) – böyük; gen. – *Sə:ŋ paltarın uşağa malax durar.*

**MALARA** I (Böyük Qarakilsə) – tövlədə hər bir mal üçün ayrılmış yer.

**MALARA** II (Hamamlı) – damın uzununa qoyulmuş tir. – *Əvvəl damın üsdə malaraları düzüllər, onun üsdən gond düzüllər.*

**MALATA** (Ağsu, Kürdəmir) – xəmir mayası.

**MALAYAĞI** (Lənkəran) – axşamçağı.

**MALAZA** I (Borçalı, Böyük Qarakilsə, Goranboy, Qarakilsə, Şəmkir, Tovuz, Yevlax) – hülqum. – *Malazam ağre:ir* (Yevlax); – *Boğazıma söüx dəyəndə malazam da ağrıyer* (Böyük Qarakilsə); – *Malaza adamda da olor, heyvanda da* (Borçalı).

**MALAZA** II (Cəbrayıl) – angina.

**MALAZA** III (Oğuz) – zəhər. – *Səni malaza yə:sən.*

**MALAZAY** (Çənbərək) – 1. bacarıqsız. – *Şıxalı malazay adamdı;* 2. xarab. – *Malazay toxumu yerə səfsəŋ nəf olmaz.*

**MALBUĞA** (Kəlbəcər, Qazax) – üçyaşar camış balası.

**MALCANNI** I (Kəlbəcər) – maldar; maldarlığı yaxşı bacaran. – *Malcannı adam burda çoxdu.*

**MALCANNI** II (Şərur) – xəsis.

**MALCƏ:T** (Şəki) – icarə. – *Hax unnan bir, doqquzdan bir yer götürüf ekirdilər, huna diyirdilər malcə:t.*

**MALCİYƏT** (Oğuz) – b a x **malcə:t.** – *Torpağı malciyatinə əkirdix′, yerdən asıldı, yarılığına.*

**MALĞATI** (Salyan) – tənbəl, əfəl. – *Gədə lap malğatıdı, əlinnən bir iş də gəlmir.*

**MALXOR** (Ağbaba) – yastıburun. – *Malxor Qəhrəman çox qoçağ oluf.*

**MALQATA** (Salyan) – şuluqluq. – *Lala gəldi, öyə malqata saldı, getdi.*

**MALINYEMƏZ** (Ağdam, Ağdərə, Bərdə, Mingəçevir, Tərtər) – xəsis. – *Malınyeməz adam pul xaşdamaz* (Bərdə).

**MALIX** (Basarkeçər) – xışın qayışının ucunu ilgəkdə saxlayan ağac hissə. – *Çütü açanda gözdə malığı yerə salıf itirərsən, qayışın üsdünə keçir.*

**MALMADIĞ** (Borçalı) – aciz. – *Hasan malmadığ adamdı.*

**MALPAS** (Bakı, Şahbuz, Şərur) – tənbəl. – *Adamın təmbəlinə malpas diyərix′.* – *O yaman malpas uşaxdı* (Şahbuz).

**MALVAN** (Şahbuz) – b a x **malavan.** – *Malvan malın dilin bilən adamdı, ö:r işləri yaxşı bilir, otarmağın yerin bilir;* – *Mən malvan adamam.*

**MALYEMƏZ** (Ağdam, Ağdərə, Xocavənd, Quba) – b a x **malınyeməz.** – *U, malyeməz adamdu, bilmidəm nöş belə olub* (Quba).

**MALYEMƏZDİG** (Quba) – xəsislik. – *Unun malyeməzdiğini hamı bizin kətdə bilədü.*

**MAM** (Culfa) – dəb. – *Bırda mam də:l.*

**MAMA** (Ağcabədi, Ağdam, Ağdərə, Balakən, Başkeçid, Borçalı, Böyük Qarakilsə, Cəbrayıl, Füzuli, Göyçay, İmişli, Qax, Qarakilsə, Qazax, Laçın, Mingəçevir, Şəki, Şəmkir, Tərtər, Ucar, Yevlax, Zaqatala, Zəngilan) – bibi. – *Mamam oğlu əsgərdi, bir ildi gidən* (Şəki); – *Mamamın üç oğlu var* (Ucar); – *Atamızın bajısına mama deyirix′* (Qazax); – *Mən mamamgilə getmişdim* (Borçalı); – *Mamama deyərsən ki, bizə gəlsin* (Balakən); – *Dədəmin bayıssı mamam olur* (Yevlax); – *Bizim uşaxlar mənim bajıma mama de:ir* (Ağdam); – *Mamamgil dünənnəri bizə:lmişdi* (Zəngilan).

**MAMAÇA** (Daşkəsən, Gədəbəy, Xanlar, Zəngilan) – mama (uşaq tutan qadın). – *Mamaça uşax tutan arvada de:rıx* (Zəngilan); – *Mamaça uşağı tutur* (Xanlar).

**MAMAÇI** (Bərdə, Qazax, Tərtər, Tovuz, Yevlax) – b a x **mamaça.** – *İndi mamaçı yoxdu, doxdur var* (Tovuz); – *Mamaçı uşax tutur* (Bərdə).

**MAMAN** (Cəlilabad) – narın, yumşaq. – *Beş girvəngə, dörd girvəngə əti döydirib qatdırırsan maman duzi.*

**MAMAZA** (İsmayıllı) – bibioğlu. – *Mamazam məni çağrır.*

**MAMIRRAMAX** (Meğri) – qocalmaq. – *Yetmişi ki bizim Vərtənəzirdə keçərsən, yavaş-yavaş mamırranersən.*

**MAMMA** (Gədəbəy, Şəmkir) – meyvə (uşaq leksikonunda). – *Uşağa mamma ver, səs salmasın* (Gədəbəy); – *Ala, qadan alım, mamma verim saŋa* (Şəmkir).

**MAMPAX** (Qazax) – küt, maymaq. – *Məmmət yaman mampağ adamdı.*

**MAN** (Ağcabədi, Ağsu, Bakı, Bərdə, Cəbrayıl, Füzuli, İmişli, Kürdəmir, Qarakilsə, Lənkəran, Salyan) – 1. eyib. – *Qoja adama kö:nə geymək man döyi* (İmişli); – *Rübeydə heç man-zad bilmir, kişilərin yanında söyüş söyür* (Lənkəran); – *Oi özüə man bilmə, nə var ki* (Ağsu); – *Ay oğul, bizim kətdə arvadın başıaçıq gəzməyi man dəyil* (Ağcabədi); – *Ağdamda xoruz dö:üşdürmək man də:il, Sarıcalıda mandı* (Bərdə); 2. nöqsan.

**MA:NA** (Bakı) – bəhanə. – *Gedməgə kirdarun yoxdu, day ma:na eləməginən ki, azarramışam.*

**MANCALAX** I (Zaqatala) – armud növü.

**MANCALAX** II (Başkeçid) – yeyilən yabanı bitki.

**MANCANAX** (Qazax) – kotanın dəstəyi.

**MANCILIX** I (Zaqatala) – b a x **mancalax** I.

**MANCILIX** II (Göyçay, Kürdəmir, Şəki) – baramanı döyüb sap açan dəzgah. – *Mancılığını ver, bi az sap əgrim* (Kürdəmir); – *Mancılıx baramanı döyüf, açıf çarxa ve:rirdi, ipey eli:rdi* (Şəki).

**MANCILIXÇI** (Şəki) – baramanı döyüb sap açan dəzgahda işləyən adam. – *Keşmiş, mən bilmiyən vaxda mancılıxçılar olardı;* – *Mən özüm mancılıxçıyam, yaxşı usdayam.*

**MANCIRIX** (Ordubad) – dişli mala. – *Əli bizim qalxozda həmişə səhər mancırıx çəkər.*

**MANDA** (Çənbərək, Şahbuz) – xımı (yeməli yabanı ot). – *Manda qəşəxʹ otdu yeməyə* (Şahbuz); – *Mandadan turşu qoyrux, yazatana yeyrexʹ;* – *Gedəxʹ manda yığmağa* (Çənbərək).

**MANDAĞ** (Sabirabad) – meyvə.

**MANDAX** (Kürdəmir, Mingəçevir) – b a x **bandax.** – *Mandax larradan qırılıp düşüp yerə* (Kürdəmir).

**MANDAL** (Basarkeçər, Goranboy, Ordubad) – cəftə. – *Mandal qapıda olar* (Ordubad); – *Qapının mandalını vur* (Basarkeçər).

**MANDALLAMAX** (Basarkeçər) – cəftələmək. – *Axşamdı, ta qapıyı mandalla.*

**MANDAN** (Qazax) – tənbəl.

**MANDIX** (Qazax) – 1. tənbəl; 2. ərköyün.

**MANDIXLAMAX** (Ucar) – yetişmək, dəymək. – *Gavalı mandıxlıyıp.*

**MANDIXMAX** (Çənbərək, Daşkəsən, Gədəbəy, Kəlbəcər, Mingəçevir, Şəki) – 1. istidən təngnəfəs olmaq. – *Yaman mandıxerım, isdidi də:nə hava* (Daşkəsən); – *Ə:, gənə isdi tüşüf de:in mandıxersıŋ* (Gədəbəy); – *Elə isdiydi ki, tamam mandıxmışdım* (Şəki); 2. yorulmaq. – *Bü:n su tapbadım deyn yaman mandıxdım, özümü ö:ə güjün yetidim* (Çənbərək).

**MANDILA** (Hamamlı) – yun parça adı (drap). – *Mandıladan yaxşı çuxa olurdu.*

**MANDULA** (Hamamlı, Şəmkir) – yun parça adı (drap). – *Mandula ziyəh qaro:lar* (Şəmkir); – *Manduladan kişilərçün arxalıx tikərdilər* (Hamamlı).

**MANQAL** I (Lənkəran) – dibçək. – *Bu manqalın güli yaxşıdı.*

**MANQAL** II (Bərdə) – od, köz. – *Elə tonqal qala ki, manqalı çox olsun.*

**MANQAL** III (Cəlilabad) – tənbəl. – *Ə, manqal olmə, işə-gücə yarı.*

**MANQALLIĞ** (Cəlilabad) – tənbəllik. – *Ə, manqallığdan əl çək.*

**MANQIMAX** (Zəngilan) – zəifləmək, taqətdən düşmək.

**MANQO** (Ağdam, Bərdə) – zökəm (əsasən heyvanlarda). – *At manqo:landa burnunnan su gəlir, gözdəri bulaşır, öysürür, töyşüyür* (Bərdə).

**MANQOY** I (Bakı) – baş.

**MANQOY** II (Qazax) – b a x **manqo.** – *Atımız manqoy oluf.*

**MANQOY** III (Çənbərək) – burnunda danışan, tın-tın. – *Manqoy Həsən sözü elə deyir, mən də başa düşmürəm.*

**MANQUR** I (Bakı, Şamaxı, Şuşa) – pul.

**MANQUR** II (Qazax) – puç qoz.

**MAŋSIR: MAŋSIR ƏTİ BAĞLAMAX** (Gədəbəy) – fır əmələ gəlmək. – *Ökuzün hər yeri döyülməx'dən maŋsır əti bağle:f.*

**MANSIRA** (Şərur) – mühasirə. – *Onda mınnarı mansıraya salmışdılar.*

**MANŞIR** (Ağbaba, Başkeçid, Borçalı, Cəbrayıl, Hamamlı, Qazax, Sabirabad, Tovuz) – 1. nişan. – *Hare:tsən bu Qazağın dili manşırdı* (Qazax); – *Apar bu ağacla yerin ortasına manşır qoy, qarışmasın* (Tovuz); 2. məşhur. – *Nədir manşır adamdı* (Borçalı); – *O bizim kətdə manşır adamdı* (Tovuz); – *O qoyun ki itif, manşır qoyundu* (Ağbaba).

**MANŞIRRAMAX** (Bərdə, Cəbrayıl, Gədəbəy, Kürdəmir, Qazax, Tovuz) – nişanlamaq. – *Manşırradığım mişoxları aravıya yığ* (Bərdə); – *Gedəndə yolu manşırradıx ki, gələndə azmıyax* (Qazax); – *Manşırrıyıfsanmı ağaşdarı, ə:, oğul?* (Gədəbəy); – *Al, bu kitabları manşırra* (Tovuz).

**MANŞIRRI** (Tovuz) – nişanlı. – *Qolxozun inəx'ləri manşırrıdı.*

**MANTAX** (Qax) – budaq.

**MANTARA** (Oğuz) – şana. – *Mantara çox dındıxlı (barmaqlı) olur.*

**MANTOR** (Gədəbəy) – tənbəl. – *Qulunun oğlu mantor qədədi, bir işin quyruğunnan tutanda qutarmax bilməz.*

**MAR** I (Ağdam, Cəbrayıl) – əkinçilik aləti.

**MAR** II (Çənbərək) – ip boyamaq üçün xüsusi hazırlanmış maye. – *Marnan ip bo:yurux dayna.* ◊ **Mara qalmağ** (Lənkəran) – adı qalmaq. – *Səni görüm mara qalasan.*

**MARALAMAX** (Təbriz) – bağlamaq, örtmək. – *Biz qapını marala di:rux.*

**MARAV** (Cəbrayıl) – zəmilərdə olan kiçik arx.

**MARAVLAMAX** (Cəbrayıl) – zəmilərə kiçik arx çəkmək. – *Zəmini maravlıyın suarax.*

**MARALA** (Hamamlı) – b a x **malara** II.

**MARFAC** (Salyan) – məfrəş. – *Marfaca paltar-palaz yığallar.*

**MARFAX** (Cəbrayıl) – möhkəm olmayan, etibarsız.

**MARFAXLAMAX** (Meğri) – köhnəlmək. – *Əli:n əvi lap marfaxleyıp.*

**MARĞ** (Quba) – dəryazla çalınıb sıra ilə yerə tökülmüş ot. – *Marğları yığıb bir yerə quyaduğ.*

**MARĞIZ** I (Bərdə, Xanlar, Yevlax) – arx. – *Sahəyə dört marğız çəkilib* (Bərdə); – *Marğız çəkdim bosdanı sulamağa* (Yevlax); – *Marğızı çəkellər kin, su basıf, oan-buan e:tməsin* (Xanlar).

**MARĞIZ** II (Şəki) – qamış. – *Harda bir marğız göyərər, uşax kəsif dütdəx' qayrar.*

**MARĞIZDAMAX** (Xanlar) – arx çəkmək. – *Yeri maşın əker, sonra səper, sonra dırmıxler, sonra da marğızder.*

**MARXAL** (Qax, Oğuz, Şəki, Zaqatala) – qar uçqunu. – *İnəx' marxal uçuv altda qalıf* (Oğuz); – *Dərədən marxal tökülür* (Zaqatala).

**MARIĞ** (Bakı, Cəbrayıl, Cəlilabad, Culfa, Ordubad, Salyan, Şərur) – 1. pusqu; 2. səngər. – *Bıra marığ kimi yerdi* (Salyan); – *Elə bil pişigdi, marığda durıb* (Cəlilabad). ◊ **Marığ vermək** (İmişli) – ovu göstərmək (tulaya aiddir). – *Tula getdi kola sarı, marığ verdi* (İmişli).

**MARIZ: MARIZ TÜŞMƏK** (Qax) – düşmən olmaq. – *Men bilmiy niyə mennən marız tüşüp.*

**MARIN: MARIN GÖTÜRMƏX'** (Cəbrayıl) – doymaq.

**MARIT** (Qazax, Tovuz) – b a x **marığ** (1-ci məna). – *Pişix' marıtda duruf* (Tovuz).

**MARITDAMAX** (Çənbərək, Füzuli, Qarakilsə, Qazax) – pusmaq; güdmək. – *Pişix' siçanı marıtdıyır;* – *Sə:rdən oturuf buranı marıtdıyır* (Çənbərək).

**MARIX** I (Daşkəsən, Kəlbəcər, Xanlar, Masallı, Oğuz, Şərur) – b a x **marığ** (1-ci məna). – *Tülkü marıxdan keşdi* (Kəlbəcər); – *Neçə gündü kü, marıxda durmuşam* (Xanlar); – *Tula qırqo:lun marığında duruf* (Oğuz).

**MARIX** II (Qəbələ) – dəryaz bir dəfə hərləndikə tutduğu sahə. – *Nəsif bu gün beş marıx çö:rütdü.*

**MARIXÇI** (Daşkəsən) – pusquda duran ovçu. – *Marıxçı keşdi qavaxda durdu.*

**MARİNƏ** (Quba) – quşüzümü.

**MARRAMMAX** (Zəngilan) – yetişməyə başlamaq. – *Almuxarılar indi-indi marranır.*

**MARTI** (Cəbrayıl) – qoca.

**MARVI** (Naxçıvan, Zəngilan) – b a x **mavrı.** – *Uşaxlar marvıyı tutuflar* (Zəngilan).

**MAS** (Salyan) – işin keyfiyyətsizliyini bildirmək üçün "heç nə" mənasında işlənən söz. – *Rasım heş mas da bilmir;* – *Həsən, sənün bı işüvə heç mas da verməzdər* (Salyan);

☐ **Mas vırmağ** (Əli Bayramlı, Kürdəmir, Sabirabad, Ucar) – lağa qoymaq. – *Mən yaxşı danışammıram, ona görə mənə mas vırma* (Əli Bayramlı); – *Filan adama mas vırarığ, uzundraz diyərüg* (Sabirabad).

**MASAN** (Ordubad) – xışın qolu. ◊ **Masan yeri** (Ordubad) – boyunduruğun ortasındakı dəlik. – *Sədir, heşin masanı qırılıb, düzəltdirmax lazımdı;* – *Boyunduruğun ortasındakı deşiyə biz masan yeri deyərıx.*

**MASAT** (Borçalı) – bülöv. – *Masatnan pıçax, xançal bülöylüyüllər.*

**MASATDAMAX** (Ağdam) – müəyyənləşdirmək. – *Yerin masatdadım, burdan belə getməy olar.*

**MASQORÇU** (Qarakilsə) – alverçi. – *Nəbinin işi masqorçularınandı.*

**MASQURA** (Ağdam, Bakı, İsmayıllı, Kürdəmir, Quba, Qusar, Lənkəran, Masallı, Salyan, Yevlax, Zərdab) – balaca saxsı kasa. – *Bir masqura yağ daşıb yerə töküldü* (Masallı); – *Anam qaymağları masquralara yığdı* (Salyan); – *Ağəz, dur bu masquranı qoy yerinə* (Bakı); – *Gid kaladan bir masqura nuxud getir gəl* (Quba); – *Bibim bizə bir masqura qatığ gətdi* (Zərdab); – *Kasənin balacəsi oley ha, ona deylər masqura* (Cəlilabad).

**MASMAX** (Şəki) – çirk. – *Donun yaman masmağı axır.*

**MASRA** (Başkeçid, Qax) – yumaq.

**MAŞ** (Borçalı, Cəbrayıl, Culfa, Xocavənd, Qazax, Ordubad, Salyan, Şahbuz, Şəki, Şərur, Şuşa, Yardımlı, Zəngilan) – 1. iri ala lobya. – *Maş lobyadan iri olır* (Salyan); – *Maşı xörəyə tökəllər yiyəllər* (Şərur); – *Nərgiz maş gətdi* (Ordubad); – *Maşı salırıx ətə* (Culfa); 2. xırda və qırmızı lobya (Cəbrayıl, Şahbuz, Zəngilan). – *Bi:l bir əz maş əhmişdim, onu da dolu korradı getdi* (Şahbuz); – *Aşınkı maşdı, elə ləzətdi olur ki* (Zəngilan).

**MAŞAQQAT** (Qazax, Mingəçevir) – şaxta. – *Hava maşaqqatdı.*

**MAŞARA** (Şəki) – qızıl yel (xəstəlik adı). – *Maşara xəsdəlığı olana turşu yimax yaramaz, pəhriz gerex′ gözləsin olar.*

**MAŞAX** (Gədəbəy) – vaşaq. – *Nə de:m, porsux var, dələ var, tülkü var, çöl pişiyi var, təx′-təx′ maşağ olor dana.*

**MAŞDAQ** (Qax) – quzu. – *Xıdıla maşdaq saxlıy men.*

**MAŞDALIX** (Ordubad) – qıf. – *Maşdalıxnan lampıya nəft tökürux.*

**MAŞDARIZ** (Ordubad) – qıf.

**MAŞINÇI** (İmişli) – sürücü. – *Maşınçını tanımadım.*

**MAŞ-MAŞ** (Balakən) – lobya. – *Bu il maş-maş da əkdix′.*

**MAŞU** (Balakən) – gözəl. – *Xədicə maşu qızdı.*

**MAŞTƏKLƏŞDİRMAX** (Zaqatala) – qoyun dərisinin tükünü qıvrım etmək. – *Şəfi dərini maştəkləşdirir.*

**MAT** (Əli Bayramlı, Kürdəmir) – sakit, lal. – *Kür bırda yap mat axır* (Kürdəmir); – *Su mat axan yerdə iri balığ olur* (Əli Bayramlı).

**MATAĞAM** (Salyan) – nadir tapılan qiymətli şey. – *Bı matağam şeydi, hər adamda olmaz;* – *Bı çox matağam şey dögür, nöhün tə:rifli:rsən?*

**MATAN** (Göyçay) – qəşəng. – *Əyə mına bax, nə matan uşaxdı.*

**MATAR** (Salyan) – iştaha. – *Diyəsən, matarın yoxdu.*

**MAT-QUT** (Çənbərək) – fərsiz. – *Şıxalı mat-qut adamdı* (Çənbərək). ◊ **Matı-qutu qurumax** (Ağcabədi). **Matı-qutu çekilmək** (Bakı) – 1. təəccüb qalmaq; 2. donub qalmaq (qorxudan). – *Day nə de:im, matım-qutum quruyuf* (Ağcabədi); – *Yazığın qorxudan matı-quti çekilib* (Bakı).

**MATIR** (Salyan) – b a x **matar.** – *Matırın olmasa, yiyəmməssən.*

**MATRAX** (Başkeçid, Bolnisi, Borçalı, Qazax) – qamçı. – *At minəndə matrağ olor vurmağa* (Qazax); – *Matrağı mana ver* (Borçalı).

**MATRAXLAMAX** (Qazax) – döymək, vurmaq. – *Söyün kişi Abbası cuvuğnan elə matraxladı ki.*

**MAVAL: MAVALA QALMAX** (Cəbrayıl) – acından haldan düşmək, zəifləmək.

**MAVALMAX** (Cəbrayıl, Qarakilsə, Zəngilan) – acından haldan düşmək, zəifləmək. – *İt mavalıb öldü* (Zəngilan); – *Toyuxların dəni qutarıb, lap acınnan mavalıllar* (Cəbrayıl); – *Pişix′ acınnan mavalır* (Qarakilsə).

**MAVALA-MAVALA** (Qarakilsə) – ac-acına. – *Sə:rdən mavala-mavala duruf orda.*

**MAVRI** (Qarakilsə, Şahbuz, Şərur, Zəngilan) – pişik balası. – *Mavrı əvdə siçan tutur* (Şahbuz); – *Quduz dəymiş it mavrıların ikisini də boğub öldürüb* (Şərur).

**MAVRU** (Kəlbəcər) – b a x **mavrı.** – *Əvimizə bir mavru gətirdim.*

**MAYA** (Cəbrayıl, Şamaxı, Şuşa) – dırnağın dibi. – *Dırnağımı tutanda qayçıynan mayasın da kəsmişəm, elə pis ağrıdır ki* (Şamaxı).

**MAYALANDIRMAX** (Başkeçid, Borçalı) – təzə doğulmuş heyvanı ilk dəfə əmizdirmək. – *Mən buzoyu mayalandırmışam.*

**MAYANA** (Cəlilabad) – çayıraoxşar bitki. – *Mayanadan qol kimi eleyib qarım qazeydilər, bassıreydilər.*

**MAYAR** (Bakı) – xəbərçi.

**MAYAXOŞ** (Şərur) – turşaşirin, meyxoş. – *Mayaxoş narı mən çox xoşdi:ram.*

**MAYIL: MAYIL DURMAX** (Qax) – tərəf saxlamaq. – *Sen seninkinə mayıl durmı:p mağa durma:casın.*

**MAYIF** (Ağdaş, Cəbrayıl, Cəlilabad, Culfa, Dəvəçi, Füzuli, Gədəbəy, Qax, Qarakilsə, Qazax, Laçın, Lənkəran, Masallı, Salyan, Şəki, Şəmkir, Tovuz, Yardımlı, Zəngilan) – şikəst. – *Qızın bi gözi mayıfdu* (Lənkəran); – *Balaxanımın gözinin biri mayıfdı* (Salyan); – *Mayıf adamam, işə yaramıram* (Şəki); – *Hasanın gözi mayıfdı* (Laçın); – *Qolum da mayıfdı, gözüm də* (Füzuli); – *Müharibə çox adamı mayıf elədi* (Cəbrayıl); – *Məhəmmədin bir oğlu mayıfdı, işdiyəmmer* (Qazax); – *Yıxılmışam, əlim mayıf oluf* (Tovuz); – *Elə elə ürəyinə dəyməsin, axı onun bi gözi mayıfdi* (Cəlilabad); – *Mayıf adamam, təh gedəmmənəm, gərəx′ bir adam məni ötürə* (Salyan).

**MAYIFLIX** (Mingəçevir) – şikəstlik.

**MAYMALAMAX** (Çənbərək) – axsamaq. – *Əyri Bənöyşə gənəjə dalda qalıf maymalı:r.*

**MAYMAMAX** (Çənbərək) – b a x **maymalamax.** – *Nə maymırsan?*

**MAYTAX** (Başkeçid, Borçalı, Qarakilsə) – axsaq. – *Maytağ Əli dünən bizə:lmişdi* (Borçalı).

**MAYTAXLAMAX** (Başkeçid) – b a x **maytamax.**

**MAYTAMAX** (Qarakilsə) – axsamaq. – *Bir də gördüm bıdı maytıya-maytıya gəlir.*

**MAYTARAX** (Şəki) – axsaq. – *Maytarağ adamsan, didim, heş sã: əziyət verrəmmi?*

**MAYTIMAX** (Tovuz) – b a x **maytamax.** – *Saŋa no:luf, niyə maytıyırsaŋ?*

**MAYZƏR** (Zaqatala) – döşlük, önlük.

**MAZAX** (Ağbaba, Qazax) – 1. zarafat; 2. kef.

**MAZALA** (Gədəbəy) – xirtdək. – *Canavar qoyunun mazalasınnan yapışer, öldürör.*

**MAZAMAT: MAZAMAT SATMAX** (Ağdam) – qəti fikir söyləməmək. – *Ə, day niyə mazamat satırsan, malının qıymatın de, xalq alsın dayna.*

**MAZANDƏRƏN** (Ağdam) – gavalı növü.

**MAZARAT** (Naxçıvan) – dələduz.

**MAZARXATA** (Gədəbəy) – 1. mərdiməzar; 2. paxıl. – *Çox mazarxata adamdı o.*

**MAZAT** (Bakı, Cəbrayıl, Cəlilabad, Füzuli, Kürdəmir, Masallı, Salyan) – 1. naz, şivə. – *Şö:ket, özüvi mazata qoyma* (Salyan); 2. hörmət. – *Əlinin mazatı artıb* (Bakı).

**MAZATDI** (Bakı, Cəbrayıl, Füzuli) – hörmətli, layiqli. – *Bozdəli mazatdı olufdu* (Füzuli).

**MAZAY** (Göyçay) – sadəlövh.

**MAZILAMAX** (Başkeçid, Borçalı) – yastılamaq (kündəni). – *Kündəni mazıla, ver ma:* (Borçalı).

**MAZIT** (Borçalı) – kal. – *Mazıt neyveyi <meyvəni> yeməy olmaz.*

**MAZMƏZƏ: MAZMƏZƏ ELƏMƏX′** (Naxçıvan) – ağızı yaxalamaq. – *Dərmannan qarqara eli:llər, sunan mazməzə.*

**MEDDƏ** (Mingəçevir) – 1. zirək; 2. xeyrini güdən.

**MECƏHƏT** (Dərbənd) – güman ki, ola bilər ki, ehtimal ki. – *Mecəhət bu iş düzələr.*

**MEÇAN** (Füzuli, Gədəbəy) – saç, hörük. – *Tutaram meçannarınnan buralarnan bir elərəm səni* (Gədəbəy).

**MEÇƏN** I (Gədəbəy) – b a x **meçan.**

**MEÇƏN** II (Oğuz) – saf, yaxşı (qoz). – *Qoy o meçən qozadır seçim ordan.*

**MEÇİ** (Füzuli) – saç, hörük. – *Ay qız, sözümə baxmasan meçilərini yolaram.*

**MEH** (Ordubad) – yavaş.

**MEHDODAĞ** (Salyan) – güldən cövhər çəkən alət. – *Mehdodağnan gülab çəkəllər.*

**MEHİR** (Mingəçevir, Oğuz, Şəki) – evlənərkən oğlan evinin qızın atasına, qız evinə verdiyi pul, qızıl və s. – *Nə alasısan mənnən mehir* (Qğuz); – *Mənnən iyirmi impiryal mehir a:ltdılar oğlum öylənəndə* (Şəki).

☐ **Mehir salmax** (İsmayıllı, Şəki) – öyrəşmək, isinişmək, meyil salmaq. – *Körpiyə mehrimi salmışam* (İsmayıllı); – *Uşax nənəsinə yaman mehir salıtdı* (Şəki).

**MEHİRRƏNMƏX′** (Çənbərək, Qazax, Kürdəmir) – alışmaq, isinişmək, öyrəşmək. – *Düyə xamdı deyin əmizdirmerdi buzoyu, indi yu:aş-yu:aş mehirrəner* (Qazax); – *Dəvəçi mehirrənif, də:n, qızı alajax* (Çənbərək).

**MEHİRRİ** (Qazax) – mehriban. – *Fatmanisə adama yaman mehirridi.*

**MEHLƏNMƏK** (Kürdəmir) – hirslənmək. – *Mehlənib düşdi yola.*

**MEGƏC** (Dərbənd, Tabasaran) – pendir suyundan və ya ayrandan alınan şor. – *Megəc ayrannan da uladu* (Dərbənd).

**MEJDİN** (Çənbərək, Karvansaray) – fərsiz. – *Murğuz mejdin şeydi, görəx′ həncəri dolaner* (Çənbərək).

**MEMƏ** (Bakı) – ana. – *Ay memə, dəsməli mənə vər.*

**MENCƏR** (Dərbənd) – b a x **ağıl** (2-ci məna). – *Mencər düzəlt quyunnari salmağa.*

**MERET** (Gəncə) – miras.

**MERƏTAJ** (Culfa) – qeyri-məhsuldar torpaq.

**MEŞ** (Hamamlı) – oyunu başlayan, oyunda birinci gediş edən oyunçu. ◊ **Meş durmax** – oyunu başlamaq üçün birinci olmaq.

**MEŞARDI** (Gədəbəy) – oyunda ikinci gediş edən oyunçu.

**MEŞƏ** (Şəki) – gön qurudulan yer. – *Gönnəri meşəyə sərmişəm.*

**MEŞGƏ** (Goranboy) – kimi. – *Mən yola çıxan meşgə maşın gəldi.*

**MEŞXANA** (Dərbənd) – dəmirçixana. – *Osman meşxanada işliyədü.*

**MEŞMEŞİ** (Dəvəçi, Quba, Ordubad, Sabirabad) – qaysı, qurudulmuş ərik. – *Meşmeşi yaxşı yiməli meyvədü, üzü də çux uladı* (Quba); – *Ə: bı ərix′ lap meşmeşidi* (Ordubad).

**METƏ** (Laçın) – nənə.

**MEV** (Culfa, Ordubad, Zəngilan) – tənək. – *Qapıda saldığım mev dırmanıb eyvana çıxıb* (Zəngilan); – *Biz bağda mev əkmişıx* (Ordubad).

**MEVBƏND** (Ordubad) – tənək zoğlarını ağaca bağlamaq üçün şiv. – *Mevbənd söyüt şivinnən olar, qarağaş şivinnən olar.*

**MEVİÇ** (Ordubad) – b a x **meviz.**

**MEVİZ** (Culfa, Ordubad) – qurudulmuş üzüm. – *Meviz quru üzümdü* (Culfa).

**MEVLIX** (Culfa, Ordubad) – üzümlük. – *Bizdər üzüm olan yerə mevlıx de:rıx* (Ordubad).

**MEVRƏ** (Culfa, Ordubad) – tənəyin qurumuş zoğları. – *Təneyin mevrəsin qır, yarpaxları xarab eləməsin* (Culfa).

**MEY** (Kürdəmir) – tənək zoğu.

**MEYƏL** (Şəki) – kəl, camış yatan gölməçə. – *Camışdar meyəldə yatıfdı.*

**MEYRƏMNOXUDU** (Daşkəsən, Gədəbəy, Füzuli) – dərman bitkisi adı. – *Meyrəmnoxudunun çaycığazını qayrıv içellər* (Gədəbəy).

**MEYRƏNNİSƏ** (Bakı) – məryəmqurdu.

**MEYRULİ** (Bakı) – xırdagiləli üzüm salxımı. – *U məynə hələ hər il meyruli gətirir, bilmirəm nəyniyim u:nçün.*

**MEYZƏR** I (Goranboy, Qax, Mingəçevir, Naxçıvan, Şəki, Zaqatala) – b a x **mayzər.** – *Qavaxlar qızdar, arvaddar – hammı meyzər taxardı* (Şəki).

**MEYZƏR** II (Şamaxı) – üstünə tut çırpmaq üçün parça.

**MEZƏR** I (Cəbrayıl, Kəlbəcər, Qax, Qarakilsə, Ordubad, Şuşa) – b a x **mayzər.** – *Pitəv mezər də olıy, yarım mezər də* (Qax); – *Mezər mö:kəm parçadan tikilir* (Ordubad); – *Hərəsi bir mezər geyinir inəx′ sağanda* (Qarakilsə).

**MEZƏR** II (Laçın, Tərtər) – yapıncını əvəz edən toxunma bürüncək. – *Mezərə bürün, elnən sürün* (Tərtər).

**MEZZƏR** (Qax, Zaqatala) – b a x **mayzər.** – *Gülara mezzər tikməkçün parça aldı* (Qax).

**MƏCƏL** (Əli Bayramlı) – yay vaxtı.

**MƏ:CƏR** (Bakı) – pəncərəaltı.
**MƏCGƏL** (Başkeçid, Borçalı) – b a x **majgal.** – *Məcgəl məjdən tutana deyirix′* (Borçalı).
**MƏG** (Lerik) – saç kəpəyi, qovuq. – *Başım tey məgdi.*
**MƏĞƏL** (Meğri) – b a x **mağal.** – *Şamda qoyun-zad gəlip durerdi məğələ.*
**MƏĞLƏTƏ** (Meğri) – dava-dalaş, vuruş. – *Bı kət mən yaşda iki dəfə məğəltiyə düşüp.*
**MƏDBƏR** I (İsmayıllı) – qapıdan qıfıl asmaq üçün dəmir halqa. – *Mədbər laxlıyır, çəkiş ver vurub bərkizim.*
**MƏDBƏR** II (İsmayıllı) – dəmir halqa, heyvan boynuna salınan xüsusi halqa.
**MƏDD** (Astara, Lerik, Lənkəran) – meyvə şirəsi. – *Anam bir bankə mədd aldı* (Lerik).
**MƏDDƏ** (Qazax) – b a x **meddə.** – *Nəsir çox məddə adamdı* (Qazax).
□ **Məddə dağarcığı** (Hamamlı) – acıdil. – *Vəli başdanə:ğa məddə dağarcığıdı.*
**MƏDƏD** (Bakı) – kömək. ◊ **Mədəd verməg** – kömək etmək. – *İş görənə mədəd vərməg yaxçı işdü.*
**MƏDƏDÇİ** (Naxçıvan) – köməkçi, köməyə gələn adam. – *Adam gərək elə iş görə ki, dara düşəndə bir mədədçisi olsun.*
**MƏDƏX′** (Bolnisi, Şəki) – camış balası. – *Camışın balasına diyərıx mədəx′* (Şəki).
**MƏDƏXİL** (Meğri) – naxış adı. – *Əyri-əyri qoş buynuzu kimin olur mədəxil.*
**MƏDƏŞ** (Şəki) – qərzəkdən çıxarılmış (qoz). – *Mə:n çoxlu mədəş qozum var.*
**MƏDİX′** (Ağbaba, Qarakilsə) – yeməli yabanı bitki adı. – *Gedəyiŋ, mədix′ çıxardağıŋ yə:n* (Qarakilsə).
**MƏDRƏVAZ** (Qazax) – məzhəkəçi.
**MƏƏX** (Qax) – kirşə. – *Dağda məəxi qoyıp cuuv elə gediy.*
**MƏƏQİ** (Qax) – kisə.
**MƏƏL** (Ağdam, Qəbələ, Zərdab) – b a x **mağal.** – *İsdi düşməmiş naxırçı malı məələ gətirdi* (Zərdab); – *Mallar məəldə otduyur* (Qəbələ), – *Heyvanı yığ məələ* (Ağdam).
**MƏƏLİ** (Qax) – nəğmə, bayatı. ◊ **Məəli çağırmax** (Qax) – nəğmə, bayatı oxumaq. – *Axşam bizə gəlsənə, məəli çağırasıyıx.*
**MƏƏT** (Qax) – şirə, mət. – *Murabbadan örti məət eləmişəm.*
**MƏFƏR** (Bakı) – imkan.
**MƏFƏRƏ** (Cəbrayıl) – kiçik camadan.
**MƏFRAĞ** I (Quba) – çuğun suqabı. – *Məfrağı urdan gütür üz yerinə qoy.*
**MƏFRAĞ** II (Bakı) – bacarıqsız. – *Bu şağ <uşaq> lap məfrağımış ki, mən heç bilməmişəm.*
**MƏFRƏC** (Bakı, Ordubad) – b a x **mərfəş.** – *Bir məfrəc də tapılmır ki, bu yorğan-döşəgi yığım içinə* (Bakı).
**MƏFSƏDƏLİX′** (Cəbrayıl) – mərdimazarlıq, ziyankarlıq.
**MƏGƏL** (Balakən, Dərbənd, Qax, Quba, Qusar) – 1. ağıl (heyvan saxlamaq üçün çəpərlənmiş yer). – *Məgəl biz diyəruğ dörd bir tərəfi hasarranub heyvannarı saxla:n yərə;* 2. b a x **mağal.** – *Heyvannarı yazda məgələ salardular ki, urda gəzişsinnər, yatışsunnar* (Quba); – *Şixi dayinün mallara yazuği gəlməyədü, sabadan heyvannari məgəldə saxləyədü* (Dərbənd).
**MƏGƏC** (Dərbənd) – pendir suyundan hazırlanan yemək. – *Mahi məgəc eləmağ istəsög, tüküb qazana uni asta-asta qurdalarsan ular məgəc.*
**MƏH** (Dərbənd) – pendir suyu. – *Megəc məhdən çıxadi.*
**MƏHƏ** (Cəlilabad, Cənubi Azərbaycan, Masallı) – burğu. – *Şalbannarı məheynən deşillər* (Cənubi Azərbaycan).
**MƏHLƏB** (Dərbənd) – cır gilas. – *Məhləb ağu kimidi.*
**MƏHRAVA** (Ağdam, Basarkeçər, Xocavənd, Xocalı, Tovuz) – üz dəsmalı.
**MƏHRƏBA** (Ağcabədi, Bərdə, Cəbrayıl, İsmayıllı, Qazax, Naxçıvan, Tovuz, Zəngilan) – b a x **məhrava.** – *Məhrabıyı ver, əlüzümü silim* (Bərdə); – *Məhrəbanı gəti* (Zəngilan).
**MƏXDƏS** (Sabirabad) – b a x **məlxəs.**
**MƏXƏRƏ** (Qazax) – boş.
**MƏXLƏS** (Bakı, Bərdə, Göyçay, Meğri, Şamaxı, Şərur) – b a x **məlxəs.** – *Məxləs, nə demək isdi:rsən?* (Şamaxı); – *Məxləs, çatdıx kəndə* (Şərur); – *Məxləs, Nəbi bu kətdən çıxdı getdi oyana* (Meğri); – *Səfərimiz çox uzun çəkdi, məxləs geri qayıtdıx* (Bərdə).
**MƏJ** (Başkeçid, Borçalı) – b a x **maj** I. – *Ə:, keç kotanın məjinnən tut* (Borçalı).

**MƏJDİYƏ** (Salyan) – bəzək üçün işlənən dairəvi qızıl lövhəcik. – *Məjdiyə arvaddarın boynında olar; – Məjdiyənin qulpın qayıtdırdım.*

**MƏJYƏL** (Borçalı) – b a x **majgal.**

**MƏJGƏL** (Başkeçid, Borçalı) – b a x **majgal.** – *Məjgəl məjdən tutmasa, kotan yaxşı çö:rməz torpağı* (Başkeçid).

**MƏKƏ** I (Astara, Culfa, Qax, Qazax, Naxçıvan, Ordubad, Şərur, İrəvan, Zəngilan) – qarğıdalı. – *Məkədən silos basdırerıx* (Zəngilan); – *Məkə payızda yetişer* (Şərur); – *Qarğıdalını biz demirıx, bizdər məkə deyrıx* (Ordubad); – *Məkəni yaz əkərıx, payız piçərıx* (Culfa).

**MƏKƏ** II (Ordubad) – erkək keçi.

**MƏKƏBOĞDA** (Lənkəran) – qarğıdalı. – *Bu il həytimizdə məkəboğda əkmişiy.*

**MƏKƏBUĞDA** (Masallı) – b a x **məkəboğda.**

**MƏKƏNƏ** (Ucar) – ağacdan meyvə salmaq üçün ağac parçası. – *Məkənəynən ağajdan heyva tökdüm.*

**MƏKƏRƏ** (Zaqatala) – 1. b a x **maqarə;** 2. qutab.

**MƏKƏRÇİN** (Ağdaş, Dərbənd, İsmayıllı, Ucar) – dişi çöldonuzu. – *Bir məkərçin gördüm, yanında on iki balası vardı* (Ağdaş); – *Məkərçin qəmişdikdo:lar* (Ucar).

**MƏKƏŞ** (Qax) – kəsmik.

**MƏKİ** (Ağcabədi) – lovğa. – *Kamran məki adamdı.*

**MƏKİR** (Ağdam, Füzuli) – höcət, sözündən dönməyən.

**MƏKİK** (Çənbərək) – təsirli. – *Albava kişinin sözü yaman məkix'di, heş kim qavağınnan dinəmmir.*

**MƏQİY** (Qax) – camış balası.

**MƏLƏ** (Ağdam, Ağdaş, Lənkəran) – 1. taxtabiti. – *Bu gecə sə:rə kimi şirin canımı mələ yi:b;* – *Bizim evdə mələ yoxdu* (Lənkəran); 2. əqrəb cinsindən olan zəhərli həşərat. – *Mələ vuran adam hər sa:t əmələ:lmir* (Ağdam); – *Mələ bizim inəyi öldürdü* (Ağdaş).

**MƏLƏÇƏ** (Ağdam, Qubadlı) – armudun tezyetişən növü. – *Armıd deyəndə mələçədi, yeyəsən, ləzzət aparasan* (Ağdam); – *Mələçə qutardı, qalmadı* (Qubadlı).

**MƏLƏÇİ** (Lənkəran) – b a x **mələçə.** – *Mələçi armıd zərif olar.*

**MƏLƏQAŞ** (Cənubi Azərbaycan) – sarı iplik. – *Bir çuval mələqaşımız var.*

**MƏLƏDAĞ: MƏLƏDAĞ ELƏMƏX'** (Cəbrayıl) – yormaq.

**MƏLƏFƏ** I (Ağdam, Borçalı, Cənubi Azərbaycan, Culfa, Əli Bayramlı, Gəncə, Qazax, Lənkəran, Masallı, Naxçıvan, Ordubad, Şahbuz, Şərur, Tərtər) – 1. döşəkağı. – *Dur ordan bir təmiz mələfə gəti* (Lənkəran); – *Mələfəni salırıx döşəyin üsdünnən* (Şahbuz); – *Mələfə bezdən olar* (Borçalı); 2. yeni doğulmuş uşağın büküldüyü parça.

**MƏLƏFƏ** II (Culfa) – yastıq.

**MƏLƏH** (Cənubi Azərbaycan) – sarı rəngli quş. – *Mələh ağajda oturmuşdu.*

**MƏLƏLƏMƏX'** (Qazax, Qarakilsə) – doğuşqabağı yelininə süd dolmaq. – *Ala inəx' mələleyifdi, büyün-savax doğajaxdı* (Qazax); – *İnəx' mələliyif, də:n doğajax* (Qarakilsə).

**MƏ:LƏM** (Zərdab) – 1. deyəsən; 2. məgər. – *Mə:ləm munun adı sə:n xoşuna gəlmir?*

**MƏLƏMƏZ** (Çənbərək) – 6-7 yaşlı erkək qoyun. – *Hasan kirvəliyə iki mələməz apardı.*

**MƏLƏMƏX'** (Qazax, Tovuz) – sürətlə getmək. – *Xoruz ağzını açanda duruf elə mələdim ki, günorta Sırxanıya çatdım* (Tovuz).

**MƏ:LƏN** (Ağdaş) – b a x **mə:ləm.** – *Mə:lən mənim dəfdərim yoxdu?*

**MƏLƏNC** (İsmayıllı) – hörümçək. – *Mələnc tor qurur, milçəyi tutur.*

**MƏLƏNGƏ: MƏLƏNGƏ ELƏMƏY** (Şamaxı) – lağ eləmək, lağa qoymaq. – *Məyi mələngə eləməyə çağırmısuz?*

**MƏLƏNGİ** (Lənkəran) – eybəcər.

**MƏLXƏS** (Lənkəran) – xülasə, əlqərəz.

**MƏLİKBALLI** (Kürdəmir) – çəltik növü.

**MƏLİÇ** (Lənkəran) – b a x **mələçə.** – *Məliç ağacda sarardi.*

**MƏLLƏQÇƏ** (Bakı) – çəyirtkə. – *Gö:ürsən ki, bi:l ağranom diən kimi əlVdüg, day təxilmizi mələqçə yimədi.*

**MƏLMƏLƏK** (Ağcabədi) – uşaq oyunu adı.

**MƏLYƏT** (Qazax) – fərsiz. – *Əhmədin oğlu lap məlyətdi, heç bir iş görən döy.*

**MƏMƏ** I (Bakı, Salyan, Şamaxı) – b a x **memə.** – *Məməm inəyimizi sağır* (Bakı); – *Məməm öydə yoxdi* (Şamaxı).

**MƏMƏ** II (Bərdə, Qubadlı) – köhnə sistemli ov tüfənginin çaxmaq iynəsi. – *Çaxmağı bərx′ yendimə, tüfəngin məməsi xarab olur* (Bərdə).

**MƏMƏCUR** (Ordubad) – bax **məməsil.**

**MƏMƏCÜR** (Ordubad) – bax **məməsil.**

**MƏMƏÇİ** (Borçalı, Qazax) – 1. bax **mamaça.** – *Pəri arvat məməçidi* (Qazax); 2. dayə, özgə uşağını əmizdirib saxlayan qadın.

**MƏMƏÇİLİX′** (Qazax) – dayəlik. – *Onun sənəti məməçilix′di.*

**MƏMƏKAZ** (Cəbrayıl) – duzsuz çörək.

**MƏMƏSİL** (Culfa, Ordubad, Zəngilan) – itburnu. – *Məməsili yiyəllər* (Culfa).

**MƏMƏSİR** (Meğri) – bax **məməsil.** – *Mənim bəxdim məməsir kolunun dibindədi, mən gedirəm ora.*

**MƏMƏSÜR** (Ordubad, Zəngilan) – bax **məməsil.** – *Bı məməsür çiçəyidi* (Zəngilan).

**MƏNCƏLƏ** (Ordubad) – bax **məngələ.** – *Məncələni yaxşı ititmişəm.*

**MƏNCƏR** I (Quba) – asqı.

**MƏNCƏR** II (Salyan) – boş, istifadəsiz. – *Keçən il yeri əkəmmədim, məncər qaldı.*

**MƏNCƏRƏ** (Lerik) – siçan.

**MƏNDƏ** (Naxçıvan) – hədiyyə. – *Qonax məndəynən bizə gəlmişdi.*

**MƏNDƏCAR** (Bakı) – xam, əkilməmiş. – *İki ildü ki, yer məndəcardu; – Bağin içi məndəcar qalub.*

**MƏNDƏĞAR** (Bakı) – toy, şənlik.

**MƏNDİL** I (Quba) – ləçək. – *Ağız, məndilüvi bərk bağla, sürüşüb düşər.*

**MƏNDİL** II (Quba) – taya vurarkən otun çürüməməsi üçün altdan qoyulan köhnə ot. – *Məndilsiz taya ulmaz.*

**MƏNDO** (Zərdab) – burulğan. – *Kür çayında çoxlu məndo var; – Gəmi məndoya düşmüşdü, az qaldı qırılıf ölək.*

**MƏNƏSƏX′** (Çənbərək) – iri süpürgə bağlamaq üçün istifadə olunan tikanlı bitki. – *Mənəsəx′dən bağlanan çalğı dağılmır a:dı.*

**MƏNƏFƏ** (Basarkeçər, Qazax, Ordubad, Tovuz) – bax **mələfə** I.

**MƏNƏX′** (Qazax) – 1. samanlıq; 2. qışda heyvan saxlanan yer.

**MƏNGƏL** (Bərdə, Göyçay, Xudat, İsmayıllı, Qusar, Oğuz, Şəki, Ucar) – kol, tikan qırmaq üçün orağa oxşar xüsusi alət. – *Məngəlimiz yoxdu diyanə kol qırmağa sabeyinnəri gedəcik* (İsmayıllı); – *Dəryaznan oççalırıx, <ot çalırıx>, məngəlnən kol* (Ucar); – *Qaratikan-zad qırırux məngəlnən* (Şəki); – *Məngəlin bir metr yarım ağac sapı olur; – Məngəli gəti kol qırmağa gedirəm* (Oğuz).

**MƏNGƏLƏ** (Ordubad) – kiçik oraq. – *Bizzərdə məngələynən ot çalallar.*

**MƏNGİRRƏMƏK** (Kürdəmir) – mənimsəmək, yiyələnmək. – *Yalannan Vahab qoyunu məngirrədi.*

**MƏNİMSİMMƏX′** (Gədəbəy) – yalvarmaq. – *Arvat maŋa mənimsinerdi kin, uşağı Bakiyə aparım.*

**MƏNŞƏR** (Çənbərək) – qədim, keçmiş. – *Mənşərdən ayrılmışıx biz.*

**MƏNTƏR** (Quba, Ucar) – çirkin, kifir. – *Bir una bax, lap məntərə uxşi:di* (Quba); – *Məntərə uxşuyur, heç adama da oxşamır* (Ucar).

**MƏRCANQULİ** (Bakı) – balıqqulağı. – *Dənizin qirəğində u qədər mərcanquli var ki, gəl görəsən.*

**MƏRCƏXƏR** (Tabasaran) – armudun tezyetişən növü. – *Büzün yerlərdə ən tez dəgən mərcəxərdü.*

**MƏRÇƏK** (Əli Bayramlı) – qulağın aşağı, yumşaq hissəsi.

**MƏRDAĞA** (Zəngilan) – çobanların gecələdiyi koma. – *Mərdağanı qoyuna yavıx tikəllər ki, yaxşı gözdəsinnər.*

**MƏRDƏNƏ** (Mingəçevir, Şəki) – yuxayayan, üstündə xəmir yaymaq üçün xüsusi düzəldilmiş taxta. – *Xamır yayıllar mərdənədə* (Şəki).

**MƏRDİ-MƏRDİ** (Oğuz) – uşaq oyunu adı. – *Mərdi-mərdi uşaq oynudu.*

**MƏRƏ** I (Yevlax) – pusqu. – *Sən mərədə dur, biz gedəy ovu ülküdəy gəlsin.*

**MƏRƏ** II (Qusar) – arx.

**MƏRƏ** III (Cəbrayıl, İsmayıllı, Kürdəmir, Laçın, Oğuz, Sabirabad, Salyan, Şamaxı, Yevlax) – qığmərə oyunu üçün qazılmış çala. – *Molla diyandı mərədə* (Salyan); – *Diyanın, ko de:l, qozdarı bir də mərəyə atağ, kim cüt salsa o:ndı* (İsmayıllı); – *Mərədən qabağadala keşmə* (Oğuz); – *Mərə qazın, qığmərə oynuyax* (Yevlax). ◊ **Mərə qazma** (Füzuli) – uşaq oyunu adı.

**MƏRƏÇÖTÜN** (Ağdərə) – yeyilən yabanı bitki adı.

**MƏRƏÇÖ:ÜZ** (Naxçıvan) – yeyilən yabanı bitki adı. – *Mərəçö:üzü tökürsən yağa, üsdünə də yumurta vurursan.*

**MƏRƏÇÖ:ÜT** (Ağdam, Bərdə) – bax **mərəçö:üz.** – *Mərəçö:ütü yağnan pişirif ye:irik* (Bərdə).

**MƏRƏD** (Qazax) – sahibsiz. – *Adam mərəd qalmış şeyi dibinnən çıxarmaz ha.*

**MƏRƏX′** (Başkeçid, Borçalı, Cəbrayıl, Çənbərək, Hamamlı, Qazax, Zəngilan, Zərdab) – bax **mənəx′** (1-ci məna). – *Mərəyin içi çox isdidi* (Zərdab); – *Samanı mərəyə yığıram* (Hamamlı); – *Mən mərəx′dən iki səvət saman gətdim inəyə* (Borçalı); – *Mərəyə yazda qurd qoyurux* (Zəngilan); – *Samanı mərə: yığırıx kın, xarav olmasın;* – *Qamışdan mərəx′ tix′di Noyruz, boyl samanı içinə yığdı* (Çənbərək); – *Samanı, ələfi yığmışam mərəyə* (Hamamlı).

**MƏRƏKƏ** I (Dəvəçi) – varis.

**MƏRƏKƏ** II (Bakı, Bərdə, Borçalı, Cəlilabad, Qazax, Laçın, Şəmkir, Tərtər, Tovuz) – 1. yığıncaq. – *Getdix′ gördüx′ orda adam yığılıf, mərəkədi, kap ele:llər* (Borçalı); 2. məclis. – *Qoy mərəkeyi yola salax* (Qazax); 3. dava-dalaş, qalmağal. – *Uğada adam yığışıb ki, mərəkədü.* ◊ **Mərəkə çıxarmağ** (Bakı) – dava-dalaş qoparmaq, qarışıqlıq salmaq. – *Bekarrar genə mərəkə çıxarıf* (Laçın); – *Hələ gəlsin bir mərəkə çıxarsın, onda diyərəm* (Bakı); **Mərəkə salmağ** (Bakı) – dava-dalaş salmaq, qarışıqlıq salmaq. – *Dünən Sima bir mərəkə saldı ki, hərəmiz bir tərəfə qaşduğ* (Bakı).

**MƏRƏMAQQUŞ** (Salyan) – uşaq oyunu adı.

**MƏRƏ-MƏRƏ** (İsmayıllı, Salyan, Şamaxı) – uşaq oyunu adı. – *Ay uşaxlar, gəlin mərə-mərə oynıyax* (Şamaxı).

**MƏRƏ-MƏRƏ** (Ağdaş) – uşaq oyunu adi.

**MƏRƏN** (Qax) – dərd. – *Habı mərənnən men öləcam.*

**MƏRƏNDƏ** (Ağdam, Füzuli) – üzüm növü.

**MƏRƏNDİ** I (Ağdam, Ağcabədi, Bərdə, Füzuli, Tərtər) – bax **mərəndə.**

**MƏRƏNDİ** II (Naxçıvan, Salyan, Şərur) – oraq. – *Mərəndi oraxcadan böyük olur* (Naxçıvan); – *Mərəndiynən taxıl piçirük* (Salyan).

**MƏRƏT** (Tovuz) – miras.

**MƏRƏZ** (Bakı, Qax) – paltar sərilən ip. – *Yaş paltarrari sər mərəzə.*

**MƏRGİ** (Ağdam, Gədəbəy, İmişli) – keçi xəstəliyi adı. – *Bı dıvıra mərgi dəyib* (Ağdam); – *Mərgi keçiləri bir dala saldı kin, da: nə de:im* (Gədəbəy).

**MƏRGİZ** (Goranboy, Şərur, İrəvan) – bax **mərkiz.**

**MƏRGİZZƏMƏX′** (Goranboy, Şərur) – əkin sahəsini mərkizlə şırımlamaq, kiçik arx çəkmək. – *Mərgizzəməmiş yeri sulamağ olar?* (Goranboy).

**MƏRFƏŞ** (Bakı, Ordubad) – içərisinə yorğan-döşək yığmaq üçün xüsusi toxunmuş əşya. – *Mərfəşi gəti şeyləri yığım içinə* (Ordubad).

**MƏRFƏŞLİK** (Meğri) – yük taylarını bağlamaq üçün ip. – *İbiş dayı, mərfəşlik buş ulıp.*

**MƏRHƏLƏ** (Cənubi Azərbaycan) – kəklikotu ilə əməköməci qarışığından hazırlanmış dərman. – *Mərhələ almağ lazımdı.*

**MƏRİZƏ** (Başkeçid, Borçalı, Gədəbəy, Tovuz, Zəngilan) – dağnanəsi. – *Mərizə ireyhan kimi iyli olor* (Borçalı); – *Mərizəni ətə tökəllər* (Gədəbəy); – *Məriziyi dolmıya da atıllar* (Zəngilan).

**MƏRKİZ** (Naxçıvan, Ordubad) – əkin sahəsində, bostanda şırım açmaq, kiçik arx qazmaq üçün dəmir alət. – *Biz bossan yerin mərkiznən qazarıx* (Ordubad).

**MƏRKÜZ** (Naxçıvan, Ordubad) – bax **mərkiz.** – *Mərküznən arx çəkillər* (Naxçıvan); – *Yer var heş mərküz isdəməz* (Ordubad).

**MƏRMƏRİX′** (Culfa, Laçın) – ağac adı, qaragiləli meyvəsi olan ağac. – *Mərmərix′ ağacı zoğal ağacına oxşayır* (Culfa).

**MƏRMƏRŞƏ** (Salyan) – parça adı. – *Humay ağı nazik olır mərmərşədən.*

**MƏRO** (Beyləqan) – şum edilmiş yerdə çəkilən kiçik arx. – *Əli şumdan məro çəkdi.*

**MƏRÖ:CƏ** (Ağdam, Qarakilsə) – yabanı yeməli bitki adı. – *Qurdu basıranda üsdünə mərö:cə çöpü qoyurux* (Ağdam).

**MƏRÖ:ÜL** (Qazax) – böyük ot tayası. – *Bava:n bir mərö:ülü var.*

**MƏRRƏ** I (Şəki) – kələfçə. – *Mərrədən çıxan ipək ən yaxşı ipəkdi.*

**MƏRRƏ** II (Gədəbəy, Meğri) – vaxt; müddət. – *Bir mərrə qəlməssin da: buralara, eləmi?* (Gədəbəy); – *Mərrəni avara-avara vuracen əlã: da heş nə gəlmecex′* (Meğri).

**MƏRS** I (Culfa) – kiçik arx.

**MƏRS** II (Təbriz) – arxın kənarındakı otlu yer, çəmənlik. – *Quzula mərsdə otlı:rdı.*

**MƏRTƏK** (Çənbərək) – odun qırığı. – *Bir mərtək yoxdu ocağın gözünə qoyam.*

**MƏRÜCƏ** (Ağdam) – b a x **mərö:cə.**

**MƏRZ** I (Astara, Bakı, Karvansaray, Lənkəran, Zəngilan) – sərhəd. – *U meynələrin yanınnan mərz çəkilib* (Bakı); – *Arpa zəmisiynən buğda zəmisinin mərzində qəşəng ot vardı* (Zəngilan).

**MƏRZ** II (Dərbənd) – biçənək. – *Biçani (otu) mərzdən çaladig.*

**MƏS** (Qardabani, Qazax, Quba, Şəki) – xromdan tikilmiş yumşaq ayaqqabı. – *Məs qabağlar ulardı, üzü də düğməli ulardı* (Quba); – *Hindi də məs giyən var kəntdə* (Şəki); – *Ayağımda məs var* (Qazax).

**MƏSƏD** (Bakı) – tabaq.

**MƏSƏLƏQUTİ** (Quba) – cavan gicitkan.

**MƏSXOR** (Ordubad) – kiçik mürəkkəbqabı. – *Məsxoru gəti bıra.*

**MƏSİMƏK** (Bakı, Quba, Şamaxı) – fikir vermək, diqqət etmək. – *Mən də u sübət vaxti urdaydım, amma hiç məsimədim* (Quba).

**MƏSİT** (Salyan) – azacıq isladılmış arpa unu (xəstə, zəif heyvanlara verilir). – *İnəgə məsit verməseydim ölərdi.*

**MƏSNƏ** (Kürdəmir, Sabirabad) – bənd. – *Məsnə:n üstə çıx, gör Sabirabada gedən lötkə görünürmü?* (Kürdəmir).

**MƏSNƏD** (Beyləqan, Xocavənd, Ordubad) – keçə. – *Atam iki məsnəd aldı* (Beyləqan); – *Məsnəd qışda çox issi olur* (Ordubad).

**MƏSSƏ** (Sabirabad) – b a x **məsnə.** – *Bu məssəni su yıxammaz.*

**MƏST** (Biləsuvar, Şəmkir) – b a x **məs.** – *Məstin üstün düymələ* (Biləsuvar).

**MƏŞQ** (Salyan) – su tuluğu. – *Məşq ilə su gətirillər.*

**MƏŞQUŞDUX** (Göyçay) – şuluqluq. – *Məşquşdux salma.*

**MƏŞİYƏT** (Ağdam) – məişət, bağ-bağça, dirrik. – *O, yaman məşiyət düzəltmişdi, bir su dərdinnən yanıb əldən gedifdi.*

**MƏŞMƏŞİ** (Quba, Ordubad) – b a x **meşmeşi.** – *Ərix′ ağaşda qalıb məşməşi olub* (Ordubad).

**MƏŞRƏF** (Ağdaş, Qax, Qəbələ, Mingəçevir, Oğuz, Tovuz, Ucar) – su içmək üçün mis qab. – *O məşrəfi suyla doldur ver içim* (Ucar); – *Məşrəf qalan yerrər var hələ də* (Oğuz); – *Bajı, bizim məşrəf hardadı?* (Qəbələ); – *Məşrəfdə su içəllər* (Ağdaş).

**MƏŞRƏFƏ** (Ağdam) – b a x **məşrəf.** – *Məşrəfə dolçadan balajadı, su içmək qabıdı.*

**MƏŞRƏFİ** (Qax) – b a x **məşrəf.**

**MƏT** (Ağdam, Kürdəmir, Qubadlı, Mingəçevir, Şəki, Zaqatala) – mürəbbə kəfi. – *Mürəbbə məti yidim* (Şəki); – *Mətə barmax vuranda zincir kimi uzanır* (Qubadlı); – *Mətdən halva bişirmək olarmı?* (Zaqatala).

**MƏTƏ** I (Bərdə, İsmayıllı, Kürdəmir, Laçın, Meğri, Mingəçevir, Şamaxı, Şuşa, Zəngilan) – 1. yerdə oyun üçün çəkilmiş dairə. – *Sən mətədən çıxıb vırmısan, o, ko: dö:r* (İsmayıllı); – *Gərəy əyğın mətədə olsun oyunda* (Bərdə); – *Hamıdan qabax mətiyə mən çatdım* (Zəngilan); – *Əhməd, mətã: düz çək* (Laçın); 2. b a x **mərə** III. – *Beşdaşda mərə-mərədə mətə qazırıx* (Şuşa).

**MƏTƏ** II (Goranboy) – hərəkətin qurtaracağı yer, son mənzil. – *Hələ mətə: çat, sonra danış.*

**MƏTƏ** III (Kürdəmir) – tənbəl. – *Çox mətə to:xdu, dəni yeyəmmir.*

**MƏTƏ** IV (İmişli) – camaatın toplaşdığı yer.

**MƏTƏX′-MƏTƏX′** (Ağdam) – uşaq oyunu adı.

**MƏTƏGƏF** (Mingəçevir) – çömçə.

**MƏTƏ-MƏTƏ** (Ağdaş, Gəncə, Göyçay) – uşaq oyunu adı. – *Bü:n Məhəmmədnən mətə-mətə oynadım* (Göyçay).

**MƏTƏRƏ** (Meğri, Ordubad) – saxsı pendir qabı. – *Mətərədə pendir yoxdi* (Ordubad).

**MƏTƏRİS** (Çənbərək, Gəncə, Qazax) – 1. hami, kömək. – *Əli yetim qaldı, mətərisi olmadı, vaxdında oxumadı; – Atam öldi, yetim qaldıx, dayım bizə mətəris oldu, bizi saxladı* (Qazax); 2. daldalanacaq; külək və soyuqdan qorunmaq üçün işlədilən şey. – *Bir mətəris qoy, yel gəlməsin* (Gəncə); – *Selləmə yağış*

*yağdı, boyl camahat mətəris tafdı daldalandı, yoxsa ısdanajıydı* (Çənbərək).

**MƏTİ** (Cəbrayıl) – quş balası.

**MƏT-MƏT** (Ağdaş) – b a x **mətə-mətə.** – *Ay uşax, gəlün mət-mət oynuyax.*

**MƏTÜRKƏT** (Tovuz) – var-yox, var-dövlət.

**MƏYƏL** (Qazax) – b a x **mağal.** – *Axşam sərini malı məyəldən yellədim* (Qazax).

□ **Məyələ gəlməx′** (Balakən) – ciftləşmək. – *Madyan məyələ gəldi* (Balakən).

**MƏYƏC** (Qax, Zaqatala) – qurudulmuş süd.

**MƏYƏŞ** (Göyçay) – b a x **məyəc.**

**MƏYİL** (Qəbələ) – b a x **mağal.** – *Pənah malları aşa: məyildə saxlıyıf.*

**MƏYRO** (Culfa) – çar üsuli-idarəsində rütbə, vəzifə.

**MƏZARRAT** (Laçın) – mərdimazar. – *O, məzarrat adamdı.*

**MƏZDƏMƏX′** I (Şəmkir) – xəmiri yaymazdan əvvəl yoğurub yumşaltmaq. – *Xamırı əvvəl məzdi:llər, so:ra olxoynan yayıllar.*

**MƏZDƏMƏX′** II (Tərtər) – mənimsəmək. – *Qavaxda bəylər mənsilimizin çoxun məzdi:rdi.*

**MƏZƏGAVALISI** (Gəncə) – turş gavalı. – *Uşaxlara bir əz məzəgavalısı göndərdim.*

**MƏZƏKÜN** (Culfa) – zarafatcıl. – *Məmməd kişi məzəkün adamdı, ba:məzə sözdər danışır, adamı güldü:r.*

**MƏZƏLEX′LƏMƏX′** (Meğri) – mozalanın sancması nəticəsində qaçmaq. – *Bir ala öküz Kahlan təpəsinnən məzəlex′lədi nava tərəf.*

**MƏZƏLƏMƏX′** (Şəki, Zaqatala) – kef çəkmək. – *Dünən toyda yaman məzələdix′* (Şəki).

**MƏZƏND** (Cənubi Azərbaycan) – kömürçü baltası. – *Məzənd sındı.*

**MƏZƏR** I (Sabirabad) – ələk. – *Balaca məzər, qapılar gəzər.*

**MƏZƏR** II (Zərdab) – çörək saxlanan yer. – *Get, əppək məzərdədi, kəs, üsdünə şor qoy, gət yiyim.*

**MƏZƏR** III (Qax, Oğuz, Şəki, Şəmkir, Zaqatala) – b a x **mayzər.** – *Məzəri uşaxlılar, yaşdı arvatdar giyər* (Oğuz); – *Gelin məzər taxardı* (Şəki).

**MƏZƏR** IV (Qazax) – biryaşar. – *İt məzərindədi.*

**MƏZƏRƏ** (Quba, Lənkəran) – 1. sərhəd; 2. çəpər. – *Hindi məzərəni niyniyəduğ, yerrər ki hamımızundu* (Quba).

**MƏZGƏLDƏY** (Əli Bayramlı, Lənkəran) – əti yeyilən ağ çil-çil quş. – *Su kənarında məzgəldəy çoxdu* (Əli Bayramlı); – *Bı il so:ğ oldığınnan məzgəldəy lap şə:rə dolup* (Lənkəran).

**MƏZMƏZEX′** (Meğri) – zəhərli milçək.

**MƏZMƏZƏ** (Naxçıvan) – ağızı su ilə yaxalama. – *Dərmannan qarqaradı, su:nan məzməzədi;* – *Məzməzə ağzı təmizdəməx′dən ötrüdü.*

**MƏZMƏZƏX′** (Gədəbəy, Qazax, Ordubad) – 1. günvurma. – *Başımı açıb ot pişdim, indi məzməzəy olmuşam* (Gədəbəy); 2. mozalanın heyvanlarda törətdiyi xəstəlik. – *Məzməzəx′ qoyundo:lar* (Qazax).

**MƏZMƏK** (Kürdəmir, Sabirabad) – bəzgək (quş).

**MƏZRƏ** I (Culfa, Qazax) – nanəyəbənzər bitki.

**MƏZRƏ** II (Göyçay, Quba) – 1. əkin sahəsi və ya ot çalınan sahə. – *Bizdə əkinə, ot çalınan yerə məzrə de:llər* (Göyçay); 2. iki sahə arasındakı mərz, sərhəd.

**MƏZRƏHƏ** (Quba) – xəlbir. – *Məzrəhəmiz çox pisdi.*

**MƏZZƏMƏY** (Şamaxı) – yemək.

**MICILAMMƏY** (Cəlilabad) – qurdalanmaq, işi yavaş görmək. – *Mıcılammə, tez qutar, sən alla, bi görəy.*

**MICI-MICI** (Meğri) – yavaş-yavaş. – *Mıcımıcı sürəcəm malları, niyaran olmaginən.*

**MICIR** (Kürdəmir, Şamaxı) – tumurcuq.

**MICIRRAMMAĞ** (Kürdəmir, Şamaxı) – tumurcuqlanmaq. – *No:ruzdan so:ra ağajdar mıcırranır* (Şamaxı).

**MICIXLAMAĞ** (Qazax) – əzmək. – *Əmim üzümü mıcıxlıyıf, hamısını qava doldurdu.*

**MICMINMAQ** (Böyük Qarakilsə) – zəif yemək, asta işləmək.

**MIÇIR** (Şərur) – ağacın xırda kökü.

**MIÇUR** (Zərdab) – söyüdün nazik çubuqları. – *A bala, axşamlar söyüdün mıçurundan qır, heyvannarın qabağına tök.*

**MIDIX** (Zəngilan) – hər işə qarışan.

**MIĞDISI** (Cəbrayıl) – yekəqarın, çoxyeyən.

**MIĞƏT: MIĞƏT VERMƏY** (Cəlilabad) – fikir vermək, göz qoymaq. – *Tezdənnən mığət vereyəm, heç nə elemeysən, göreyəm ki.*

**MIĞI** (Barana, Borçalı, Qazax) – ağcaqanad. – *İyun ayında burda mığı çox oler* (Borçalı); – *Heyvan mığının əlinnən bilmir ki, özün hansı qalınnığa soxsun* (Barana).

**MIĞIR** (Salyan) – qarışıqlıq. – *Sən bı öyə mığır salma;* – *Toya mığır salsalar, toy tez dağılar.*

**MIĞIR-MIĞIR** (Salyan) – yavaşca, gizlicə. – *Bibixanımnan Gülüssan toyda mığır-mığır danışırdı.*

**MIĞMIĞ** (Naxçıvan) – ağcaqanad.

**MIĞMIĞA** (Ağcabədi, Tovuz, Zəngilan) – b a x **mığmığ.** – *Mığmığa bərk sancır* (Ağcabədi).

**MIĞMIĞI** (Borçalı, İsmayıllı) – b a x **mığmığ.** – *Mığmığı qara cücüdü ağılı.*

**MIĞRO** (Culfa, Oğuz) – keçmişdə çar üsuli-idarəsində rütbə. – *Lap mığro:n dö:rünnən dəm vurur* (Oğuz).

**MIXAŞƏR** (Zəngilan) – tumu çıxarılmış zoğal qurusu. – *Mıxaşər bişmişi dadde:lər;* – *Güllü xala bu il iki put mıxaşər çıxartmışdı.*

**MIXÇA** (Balakən, Qazax, Mingəçevir) – paya, şax. – *Pamidora mıxça vurmuşam* (Balakən).

**MIXDANBURMA** (Şəmkir) – qarımış (qız). – *Öylə bir mıxdanburma qızı var.*

**MIXIL** (Bakı) – tövlə, pəyə. – *Görürsən ki, hava so:uğdu, həyvannəri niyə doldurmursan mıxılə?*

**MIXIR** (İmişli) – süni təpə. – *Mıxırın yanında bi at var.*

**MIXLAMA** (Dəvəçi) – b a x **mixləmə.**

**MIXOY** (Naxçıvan) – gic, səfeh.

**MIQQI** (Şəki) – xəsis. – *Mıqqı adam qıyımsız olur.*

**MIQQIMMAX** (Meğri) – tərpənmək. – *Doxdur iynə vuranda Tamara yerinnən bicəkkə də mıqqımmadı.*

**MILAX** (Meğri) – budaqlı yığılmış meyvə (nar, heyva və s.). – *Durun mılaxlarımızı asın.*

**MINCIXLAMAX** (Qazax) – tapdalamaq, tapdayıb əzmək. – *Bir az anrıda dur, mamadoru əyağıyın altında mıncıxlama.*

**MINDAĞ** (Sabirabad) – budaq.

**MINDARRIX** (Cəbrayıl) – dəyirman daşlarını fırladan oxun alt tərəfdən pərə keçirildiyi yer. – *Dəyirmanın mındarrığı köhnəlib, gərəx′ onu dəyişəm.*

**MINDARÇA** (Göyçay) – pis iyli yabanı bitki.

**MINDIRCA** (Ağdam) – yabanı zoğal ağacı.

**MINIL** (Qax) – saç.

**MINTAĞ** (Göyçay) – b a x **mındağ.**

**MIR** (Ucar) – deyingən. – *Mır adam çox danışan olur.*

**MIRAÇAÇO** (Lənkəran) – kərtənkələ.

**MIRAZ** (Böyük Qarakilsə) – istək, arzu.

**MIRDAĞA** (Meğri) – pəncərəsiz ev, daxma. – *Şükürün Ernəzirdə bir mırdağası vardı.*

**MIRDARÇA** (Kəlbəcər) – yumşaq qabıqlı ağac adı. – *Mırdarçadan çovannar çomaq qayırır.*

**MIRDAŞA** (Mingəçevir) – b a x **mırdarça.**

**MIRĞA** (Cənubi Azərbaycan) – dərman bitkisi adı. – *Nə qədər axdardımsa, mırğa tapa bilmədim.*

**MIRĞIZ** (İmişli, Kürdəmir, Zəngilan) – qamışabənzər bataqlıq bitkisi. – *Mırğız sulu yerdə olar* (Zəngilan); – *Qışda bəzən mallara mırğız verərduğ* (Kürdəmir); – *Mırğız qamışa oxşuyur* (İmişli).

**MIRQIZ** (Şamaxı) – cavan öküz. – *İki mırqızzar durub yan-yana.*

**MIRIZ** (Zəngilan) – 1. kinli. – *Mırız adamnan aram yoxdu;* 2. tənbəl. – *Mırız kəl kimi nə gözű: döyürsən?*

**MIRIZ-MIRIZ** (Zəngilan) – qaş-qabaqlı, hirsli, acıqlı. – *Mürsəl kişi oğluna mırız-mırız baxırdı.*

**MIRIT** I (Lənkəran) – 1. paxıl; 2. çoxbilmiş.

**MIRIT** II (Lerik) – güvə. – *Xəlçiyə mırıt düşib.*

**MIRITDAMAĞ** (Lənkəran) – paxıllıq etmək.

**MIRMIRI** (Zərdab) – ağ balıq. – *Balığ köylümə düşmüşdü, tornan bir mırmırı tutdum.*

**MIRT** (Gədəbəy, Qazax, Qarakilsə) – kif, çirk. – *Tejən mırt bağlıyıfdı* (Qazax); – *Mırt basıf eğme:i təmiccə* (Gədəbəy); – *Bağışdayın, eymənin mırtı buraları batırıf* (Qarakilsə).

☐ **Mırt vurmax** (Gəncə) – boş-boş danışmaq.

**MIRTAĞAN** (Mingəçevir) – çoxdanışan.

**MIRTDAMAX** I (Şərur) – çirklənmək.

**MIRTDAMAX** II (Cəbrayıl) – deyinmək. – *Ə:, orda nə mırtdıyırsan?*

**MIRTIĞA** (Qarakilsə) – quymaq. – *A bala, bir əz mırtığa pişir, yaman koŋluma tüşüf.*

**MIRTIX** (Gəncə, Qazax, Tovuz, Şəmkir) – 1. çapıq (Qazax, Tovuz, Şəmkir); 2. dişsiz, dişi tökülmüş (Gəncə). – *Yazığın dodağı bərk yaralınıf, mırtığ olajax* (Qazax).

**MIRTIXLIX** (Şəmkir) – dodağı çapıqlıq. – *Mırtıxlıx da bir ayıflıxdımı?*

**MIRTIQ** (Qazax) – yara.

**MIRTIQA** (Kəlbəcər) – tərhalva. – *Mırtıqa şirin olur.*

**MISAĞAN** (Qarakilsə) – çoxbilmiş. – *Qonşu:n oğlu çox mısağan olacax.*

**MISDIR** (Gədəbəy) – yerəbaxan, qaraqabaq. – *Mısdır adamnan bir şey çıxmaz; – Mısdır kişidi elə ocağaz da.*

**MISQI** I (Ordubad) – pusqu.

**MISQI** II (Quba) – xəsis.

**MISMAĞ** I (Gəncə, Qazax, Tovuz) – susmaq.

**MISMAĞ** II (Gəncə, Qazax, Şəmkir) – qısılmaq (bir küncə). – *Gör nijə divə mısıf qalıf* (Gəncə).

**MISMAX** I (Culfa, Tərtər) – b a x **mısmağ** I. – *Ə:, nə mısıf durmusan, danış dana* (Tərtər); – *Avçı kəççiyə de:r ki, sən mısmaxdansa, çığırıb avı qaçırdırsan* (Culfa).

**MISMAX** II (Zəngilan) – küsmək. – *Genə nə mısmısan?*

**MISMAX** III (Ordubad, Şahbuz, Şərur, Zəngilan) – pusmaq, güdmək. – *Mısır, mısır, cücüyü aparır, həylə pişiy olar* (Zəngilan); – *Bir oğlan da unı mısır* (Şərur); – *Dev çəkildi, bucaxda mısdı* (Şahbuz).

**MISMAX** IV (Cəbrayıl) – həddindən artıq yemək.

**MISMƏY** (Cəlilabad) – b a x **mısmax** II. – *Mısardüg, ancağ biyazdən so:ra barişərdüg.*

**MISMIRIX** (Cəbrayıl, Füzuli, İsmayıllı, Qarakilsə, Mingəçevir, Ordubad, Saatlı, Ucar) – qaşqabaq. ◊ **Mısmırığını sallamax** (İsmayıllı, Qarakilsə, Mingəçevir, Saatlı, Şəki, Ucar) – qaşqabaq tökmək. – *Nə mısmırığı sallıyıb durmusan* (İsmayıllı); – *Ay qız, mısmırğu: nə sallamısan?* (Ucar); – *No:ltdı genə mısmırığũ: sallamısan* (Şəki).

**MISMIRIXLI** (Beyləqan, Cəbrayıl) – qaşqabaqlı. – *Mısmırıxlı olmaq nə üçündü?* (Beyləqan); – *Oğul, sənə nə olub, mısmırıxlısan* (Cəbrayıl).

**MIYTIX** (Qazax) – b a x **maytax.**

**MIYTIMAX** (Qazax) – axsamaq. – *Allahyar mıytıyır, no:luf ona?*

**MIZ** (Bakı, Şahbuz) – b a x **miz** II. – *Ətə milçəx′ mız salıb* (Şahbuz).

**MIZANQUL** (Lənkəran) – b a x **mizanqul.**

**MIZDAMMAX** (Basarkeçər) – yavaş-yavaş, ləng iş görmək. – *Bir az tez olsana, nə mızdanırsan.*

**MIZI** (Bakı, Quba, Xaçmaz, Lənkəran) – 1. yola getməyən (Bakı); 2. qaraqabaq (Quba, Xaçmaz, Lənkəran) – *Ay qız, mızı olma* (Lənkəran).

**MIZIX** (Gədəbəy) – süründürməçi. – *Sən mızıxsaŋ, sözünə inanmeram.* ◊ **Mızıx verməx′** (Gədəbəy) – dilxor etmək, incitmək. – *Sən canıŋ mızıx verməyini özünə saxla.* **Mızıx qoymax** (Mingəçevir) – işə mane olmaq.

**MIZIXLI** (Beyləqan) – hirsli, hikkəli. – *Tofiq çox mızıxlı uşağdı.*

**MIZIXMAX** (Meğri) – getmək, qaçmaq. – *Orda kisip tapıbsan ki, gündə mızıxırsan ora.*

**MIZILIĞ** (Lənkəran) – qaraqabaqlıq. – *Mızılığunnan əl çək.*

**MIZIRAX: MIZIRAX QOYMAQ** (Qarakilsə) – mane olmaq.

**MIZQAN** (Ağdam, Naxçıvan) – b a x **mizqan** I.

**MIZMIZ** (Bərdə) – burnunda danışan, tıntın. – *Məhəmməd mızmız danışır; – Mızmız adam yavaşdan danışar.*

**MIZMIZI** I (Borçalı) – b a x **mızmız.**

**MIZMIZI** II (İsmayıllı, Yevlax) – 1. süründürməçi (İsmayıllı). – *O, yaman mızmızıdı* (İsmayıllı); 2. tərəddüd edən, qəti qərara gələ bilməyən (Yevlax). – *O, yaman mızmızı adamdı* (Yevlax).

**MIZVARA** (Meğri) – yeyinti şeyləri. – *Aslana mızvara daşımaxdan yurılmişdim.*

**MİC** (Lənkəran, Salyan) – quş (toyuq) biti. – *Hində to:uğları mic basıb* (Salyan).

**MİCAVAY** (Cəlilabad) – mühəndis. – *Micavay deyrüg incinara; – Bi sə:r bi adam gedey micavaylara urcah oloy.*

**MİCƏ** I (İmişli) – b a x **mijə.**
**MİCƏ** II (Bakı) – kirpik.
**MİCƏ** III (Lənkəran) – ovuc. – *Beş-altı micə plov yedim.*
**MİCƏ** IV (Salyan) – titrətmə. – *Bədənimə micə tüşüb, heş tərpənəmmirəm.*
**MİCƏLƏMƏK** (Lənkəran) – ovuclamaq. – *Bax, poloni micəli:ruğ, onnan ye:ruğ.*
**MİCİ** (Qarakilsə) – ətdə əmələ gələn qurd.
**MİCİLƏMƏX′** (Qarakilsə, Naxçıvan, Şərur) – b a x **midiləmax.** – *Yekə oğlansan, miciləmə, tez ye göray* (Naxçıvan); – *Yemir ki, elə miciliyir* (Qarakilsə).
**MİCİLLƏŞMƏG** (Kürdəmir) – gizildəmək. – *Əlim micilləşir.*
**MİCİR** (Qax, Mingəçevir, Şəki, Zaqatala) – 1. keçi balası. – *A bala, micirrəri gözdən qoyma, itər* (Şəki); 2. zəif, arıq, cansız. – *Bi micir uşağım var, heç əmələ gəlmiyi* (Şəki).
**MİCİŞ** (Gədəbəy) – iştaha. – *Micişim yoxdu kun, yə:m bir bamba çörəx′.*
**MİÇƏTDƏMƏX′** (Şəki) – meşədəki ağaclara nişan vurmaq. – *Meşədə ağacı miçətdiyirdi meşəbəyi.*
**MİDANMAX** (Tovuz) – qurdalanmaq. – *Ə:, nə midanırsan, tez ol yi;* – *Ə:, heyvannar bələni aşdı, sən hələ midanırsan.*
**MİDARƏ** (Salyan) – 1. kömək; 2. arxa; 3. qohum-əqrəba.
**MİDDƏ** (Lənkəran) – iştaha. – *Heş bilmirəm neynim, middəm aparmır.*
**MİDİX′** (Şəki) – astagəl, astabasar, çox ləng iş görən. – *Yavaş iş görənə diyillər midix′.*
**MİDQAR** (Cəbrayıl) – layiq. ◊ **Midqar görməx′** – layiq görmək. – *Mını saŋa midqar görmürəm.*
**MİDİLAMAX** (Qax) – yavaş-yavaş, ləng iş görmək və ya yemək.
**MİDİLƏMƏG** (Şamaxı) – b a x **midilamax.**
**MİDİ-MİDİ** (Mingəçevir) – astagəl, astabasar.
**MİDMAR** (Kürdəmir) – b a x **mədbər.**
**MİDVAR** (Göyçay, İsmayıllı) – b a x **mədbər.** – *Midvar heyvançundu;* – *Midvarı atdara vurallar.*
**MİXƏŞƏR** (Cəbrayıl) – çəyirdəyi çıxarılmış zoğal qurusu.
**MİXLƏMƏ** (Quba) – yumurtanı çalmadan bişirilən qayğanaq. – *Yumurtanı çalmıyibəni tükəllər toveyə, yağda pişədü, uladu mixləmə, so:ra tükəllər buşqaba.*
**MİJƏ** (İmişli) – palazda naxışsız, ensiz zolaq. – *Bü:n bir mijə toxumuşam.*
**MİKİN** (Zəngilan) – cür. – *Əlli mikin işimmar <işim var>, hənkisi:n qulpunnan yapışım, bilmirəm.*
**MİQAL** (Zaqatala) – böyürtkən.
**MİQQİ** (Ağdaş) – döyülmüş qoz ləpəsi ilə bəkməzin qarışığı. – *Miqqi ilə çoxlu çay içirəm.*
**MİL** (İmişli) – biz (tüfəngdə).
□ **Mil getməx′** (İsmayıllı) – düz getmək. – *Kişiyə söz lap kar elədi, mil getdi.*
**MİLAX** (Culfa, Naxçıvan, Şərur) – üzüm asmaq üçün xüsusi ağac. – *Üzüm milaxdan asılır, qalır* (Şərur); – *Milax bir put birdən üzüm saxlı:r* (Naxçıvan).
**MİLÇƏX′: MİLÇƏY′ ƏX′MƏX′** (Gəncə) – (sahəni) – ikitərəfli əkmək. – *Bu yeri milçəy′ əx′məx′ yaxşı olar.*
**MİLÇƏM** (Ağdam, Xocavənd) – qoyunun boğazından sallanan bir cüt vəz.
**MİLÇƏYÇIXAN: MİLÇƏYÇIXAN VAXDI** (Salyan) – yazın ortaları. *Milçəyçıxan vaxdı Şirvana gedirük.*
**MİLEYİM** (Çənbərək) – arzu, istək. – *Ziyrətdin höjətdi, gərəy onun mileyminnən gedəsən.*
**MİLƏ** (İsmayıllı) – hiyləgər, bic. – *O:n yazığ görünməyinə baxma, yaman milə adamdı.*
**MİLİL** (İsmayıllı) – çübuq, nazik ağac. – *Meşədən odun gətirən çağı bir az də milil gətrüz.*
**MİLLƏMMƏG** (İmişli) – bir yerdə durmaq, tərpənməmək. – *Qaşqato:uğ gəldi, çala:n ortasında milləndi.*
**MİMAR** (Cəbrayıl) – şikəst, əlil.
**MİMDƏR** (Ağcabədi) – döşəkçə.
**MİMİG** (Quba) – gödək, qısaboy (adam). – *U mimig adamdu, buyi çıxmiyədü ki, çıxmiyədü.*
**MİNAXAFA** (Salyan) – üzüm növü. – *Bir put minaxafa aldım.*
**MİNCƏR** (Quba) – paltar sərilən ip. – *Git mincərdən paltalları yığ.*
**MİNÇAĞ** (Dərbənd) – muncuq.

**MİNÇAVA** (Tabasaran) – oxlov. – *Minçava sinitdü, çüreg yaymağ ulmayutdu.*

**MİNDAŞ** (Quba) – geyilmiş, nimdaş. – *Üzi mindaşdu, amma uzağdan təzəyə uxşiyadu.*

**MİNDOV** (Zaqatala) – 1. çiyin; 2. boyun. – *Yaxşı atı mindovunnan bilməx′ olar.*

**MİNDOY** (Çənbərək, Qazax, Naxçıvan) – b a x **mindov**. – *Elə hündür oğlandı mindoyuna əl çatmır* (Qazax); – *Gəlip mindoyu yaralanıf* (Naxçıvan).

**MİNƏDAYAMI** (Qəbələ) – ot tayasının ortasına sancılmış ağac.

**MİNƏY** (Qazax, Tovuz) – üçyaşar at.

**MİNGİRRƏMƏX′** (Çənbərək, Gəncə, Qarakilsə, Qazax, Mingəçevir, Şəmkir) – əl çəkməmək, qarayaxalıq etmək. – *Məni nə mingirreyifsən?* (Qazax); – *Əli gənə Həsəni mingirriyif puldan ötəri* (Gəncə); – *Məni mingirrəmə, gedəsi döyləm* (Şəmkir); – *Hürzat Anaxanımı mingirrifdi* (Çənbərək).

**MİNKEŞMƏ** (Salyan) – çox, həddindən artıq. – *Bı yıl* (*il*) *üzüm minkeşmə olub.*

**MİNTƏNƏ** (Culfa) – geyim, paltar adı. – *Əynində mintənəsi var.*

**MİR** (Cəbrayıl) – paxır. – *Sərnici mir yeyib deşilib.*

**MİRAHAF** (Basarkeçər) – südlü horra. – *Mirahaf isinib ha.*

**MİRCƏ** (Göyçay) – toxumdan yenicə çıxmış baramaqurdu. – *Körpə mircə verillər.*

**MİRÇALIĞ** (Cənubi Azərbaycan) – yeməli yabanı bitki adı. – *Mirçalığ, çayda çalıx, Ay nənə, mənə çit arxalıx.*

**MİRDO** (Lənkəran) – axmaz, gölməçə. – *Mirdoda su çox var.*

**MİRƏSƏ** (Kürdəmir, Quba) – əriştə. – *Anam pilo bişirəndə dügiyə mirəsə də qarışdıradu* (Quba).

**MİRƏSFA** (Qarakilsə) – rütbəli şəxs. – *Mirəsfa deyir, göndərillər gəlir mını.*

**MİRGƏ** I (Salyan) – pas. – *Turbaları mirgə basıb.*

**MİRGƏ** II (Lerik) – güvə. – *Yuyilmiş yünə mirgə tez dəyər.*

**MİRQUTUŞ** (Lənkəran) – xörək adı (ətdən hazırlanmış turşməzə xörək). – *Arvad, axşama mirqutuş pişir.*

**MİRMOR** (Sabirabad) – mehribanlıq.

**MİRZƏ** I (Gəncə) – qayın.

**MİRZƏ** II (Qazax) – balıq adı.

**MİRZƏCANI** (Şahbuz) – elti.

**Mİ:S** (Salyan) – iştah. – *Mi:sim çəkmədi ki, əlimi sıfrıya uzadam.*

**MİSKAN** (Quba) – b a x **mizqan** I. – *Miskan bir az balaca uladu, kim bilsə çaladu.*

**MİSQALI** (İrəvan) – üzüm növü. – *Misqalının qabığı qalındı.*

**MİSQİ** (Dəvəçi, Xaçmaz, Quba) – xəsis, simic. – *Misqi adam canına hiç yiməz, hamısını yığar saxlar* (Quba); – *Əhməd yaman misqi adamdı* (Xaçmaz).

**MİSMİL** (Basarkeçər, Naxçıvan) – təmizkar. – *Güllücə mismil qızdı* (Basarkeçər).

**MİSTİ** (Dərbənd) – xışın dəstəsi. – *Misti xişdə takdu.*

**MİŞALAĞLAMAĞ** (Quba) – gicişmək. – *Hiç bilmidəm nə ulub, bədənim elə mişalağlandu ki.*

**MİŞDOVLUX** (Ordubad) – suvarma zamanı artıq suyun toplandığı yer. – *Mişdovluxda bir ilan gördüm.*

**MİŞƏXƏT** (Quba) – 1. soyuqqanlı; 2. laqeyd. – *Mən unun kimi mişəxət adam gürməmişəm.*

**MİŞƏXƏTDUĞ** (Quba) – 1. soyuqqanlıq; 2. laqeydlik. – *Nə ulsa, u üz mişəxətduğunnan əl çəkmiyədü.*

**MİŞGİT** (Tərtər) – üzüm növü. – *Mişgit yeməli üzüm dö:il.*

**MİŞXORD** (Cəlilabad) – otu yeyəndən sonra malın qabağında qalan çör-çöp.

**MİŞ-MİŞ** (Balakən) – b a x **maş.** – *Bu il miş-miş da əkdix′.*

**MİŞMİŞİ** (Dərbənd, Xudat, Quba) – ərik, qaysı. – *Bağa gideg mişmişi sirkələməgə* (Dərbənd).

**MİŞO:L** (Şəki) – siçovul. – *Zirzəmidə mişo:l variydi.*

**MİTİH** (Dərbənd, Tabasaran) – tir. – *Qumşinün əvinün iki mitihi yər tərpənəndə sinitdi, yəxşi ulutdu uşağları əvdə ulmayutdu* (Dərbənd); – *Palut mitihləri ulsa yaxşiydi* (Tabasaran).

**MİTMANXƏRCİ** (Bakı) – evlənən oğlanın qızın valideyninə verdiyi xərc (pul). – *Mən deyən mitmanxərci olmasa qızı verməərəm.*

**MİYAMPUR** (Ordubad) – içərisinə əzilmiş badam, qoz doldurulmuş ərik və ya şaftalı qurusu.

**MİYANÇI** (Oğuz) – su çıxmayan çəltik zəmilərinə suyu qaldırmaq üçün çəkilmiş barı. – *Zəmi yeri ənni olanda o başdan bu başa su çıxartmaq mümkün olmıyanda ortadan miyançı çəkillər.*

**MİYANDA** (Şəki) – xidmətçi. – *Həyindi icraçı diyillər, hunda miyanda diyirdilər.*

**MİYƏNDƏ** (Şəki) – b a x **miyanda.**

**MİYƏNTƏXʹ** (Goranboy) – yağsız, arıq (ət). – *Onun aldığı ət miyəntəxʹ idi.*

**MİYİM** (Oğuz) – otu külək dağıtmasın deyə tayaya sancılmış ağac. – *Miyim tayanı saxlıyır küləxʹdən.*

**MİYOPİŞİGİ** (Salyan) – çölpişiyi, yazıpişiyi. – *Miyopişigi öylərdə qalmaz, çöllərdə olar, yaxşı tüki olur.*

**MİZ** I (Ağdam, Cəbrayıl, Kürdəmir, Qazax, Mingəçevir, Şəki, Tovuz, Zəngilan) – 1. torpaq, saman, peyin və sidik qarışığı (Qazax) – *Tovlanın mizini təmizdə;* 2. baramaqurdunun nəcisi (Ağdam, Şəki). – *Qurdu yayanda mizi atırıx ə:nə ki, yeri yaxşı olsun* (Ağdam); – *Yeri qurdun mizi bürüyüb, mizi daşıyıb kümnən çıxart* (Zəngilan); – *Dirniyə töküllər mizi peyin yerinə* (Şəki); 3. sidik; 4. iylənmiş su.

**MİZ** II (Cəbrayıl, Şahbuz, İrəvan) – milçək sürfəsi. – *Ətin üsdün ört, milçək miz salmasın* (Cəbrayıl).

**MİZANQUL** (Lənkəran) – milçəkyeyən böcək. – *Mizanqullar isdi yerrəri çox sevillər;* – *Tünzalə bir mizanqul tutdu.*

**MİZANTƏRƏZİ** (Füzuli) – yeddiqardaş ulduzlardan birinin adı. – *Ildızlardan Ülkar de:rixʹ, Çütçü, Çərgavçı, Mizantərəzi, dan ıldızı, Sabıta ıldızı, Karvanqıran de:rixʹ.*

**MİZQAN** I (Cəbrayıl, Şəki, Şuşa) – qarmon. – *Mizqan çalan Kambılbəyimin yaxşı səsi də var* (Şuşa).

**MİZQAN** II (Qax) – büzməli. – *Qarmon kimi sağa anası mizqan don tikəcax.*

**MİZQON** (Qazax, Tovuz) – b a x **mizqan** I.

**MİZRAB** (Naxçıvan) – ox. – *Mizrab adama dəysə öldürər.*

**MOC** (Başkeçid, Borçalı, Culfa, Gəncə, Ordubad) – b a x **maj** I. – *Mən mocı tutdum* (Culfa).

**MOÇ** (Dəvəçi, Quba) – b a x **maş.** – *Bu il yaxşı moç yığduğ* (Quba).

**MOÇA** (Bakı) – aşıq. – *Moçan var, gəl moça-moça oynıyağ.*

**MOÇA-MOÇA** (Bakı) – aşıq-aşıq oyunu. – *Gəlin moça-moça oynıyağ.*

**MOÇAM** (Qarakilsə) – b a x **maça** III. – *Bir cüt moçamnı qoyunmuz vardı, moçamnarı barmax kimi sallanırdı.*

**MOÇAN** (İmişli, Sabirabad) – b a x **maça** III.

**MOÇAR** (Şərur) – ağacın xırda kökləri.

**MODA** I (Cəbrayıl, Zəngilan) – ot topası. – *Beş-altı modadan bir taya əmələ gəlir* (Cəbrayıl).

**MODA** II (Oğuz) – iri qoz. – *Saqqa qoz oyununda moda qoznan, çətənə qoznan oynuyullar.*

**MODA** III (Çənbərək) – boyunduruğun orta hissəsində zənciri saxlayan çıxıntı. – *Boyunduruğun modası qırılıf, zəncir oana-buana sürçür.*

**MODA** IV (Qax) – çoxyeyən.

**MODAŞA** (Çənbərək) – mədə. – *Oğul, savaxdannan tıxırsan, modaşana bir şey olmadımı?*

**MODYAM** I (Ağbaba, Basarkeçər, Borçalı, Hamamlı, Qazax) – ortaq, şərik. – *Mürsəl Murtuznan modyamdı* (Ağbaba); – *Əli, gə modyam olax* (Basarkeçər); – *Şərikli yer əkənnərə modyam deyilir* (Qazax); – *Bir öküz sən qoy, bir öküz də mən, modyam olax* (Hamamlı); – *Qavaxlar taxılı modyam əkərdixʹ* (Borçalı).

**MODYAM** II (Hamamlı) – kömək. – *Bu gün ma: modyam gəl.*

**MODUX** I (Şəki) – 800 qr-lıq ipək sarğı. – *Moduxları maşınnara dolduruf göndərillər böxʹ şə:rrərə.*

**MODUX** II (Çənbərək, Hamamlı) – yeralmasına oxşar bitki adı. – *Modux günöydə bitir* (Çənbərək); – *Modux yerin altında olar, şumlanmış yerdə çıxır* (Hamamlı).

**MODUX** III (Qax) – arabada oxu saxlayan hissə. – *Modux oxu, təkərləri dala getməyə qoymur.*

**MODULAMAX** (Çənbərək) – haylamaq. – *Eşşəyi modula yeyin gessin.*

**MOĞRUĞ** (Əli Bayramlı) – b a x **mığro.**

**MOJ** I (Ordubad) – b a x **maj** I. – *Xışın əltutan yerinə moj deyərıx* (Ordubad).

**MOJ** II (Salyan) – silə, ağızbaağız. – *İskanı nöhün moj doldordın?; – Kür moj qalxıb.*

**MOQU** (Gədəbəy) – kartof. – *Ə:rvat, bir beş-on moqu asıŋnan so:utma.*

**MOQUF: MOQUF ELƏMƏXʹ** (Qazax) – tərk etmək, başlı-başına buraxmaq. – *Bosdanı moquf elədixʹ, ta soylufdu* (Qazax).

□ **Moquf olmağ** (Bakı) – yox olmaq.

**MODUFLANMAX** (Çənbərək) – xarab olmaq, sıradan çıxmaq. – *Kəndin qırağındakı yol moquflanıf.*

**MOLLABAŞ** (Gədəbəy) – yeyilən yabanı bitki adı.

**MOLLABAŞI** (Barana, Borçalı, Laçın, Şuşa) – 1. b a x **mollabaş** (Barana, Borçalı, Şuşa); – *Mollabaşı div tutor* (Borçalı); – *Mollabaşının çiçəyi göy olur, özü də yeməlidi* (Barana); 2. gül növü (Laçın).

**MOLLABOŞA** (Füzuli) – payızda əkin yerində bitən və yanacaq kimi istifadə olunan bitki. – *Gedəxʹ zəmiyə mollaboşa yığax.*

**MOLLAHARAY** (Şuşa, Zəngilan) – uşaq oyunu adı.

**MOLLAQUŞ** (Zaqatala) – quş adı. – *Mollaquşlar gəliblər.*

**MOLLAQUŞU** (Oğuz) – b a x **molaquş.** – *Mollaquşu cür-cücü, dən-dün ağzına nə gəlsə yi:r; – Mollaquşu su qıraxlarında olur.*

**MOLLA-MOLLA** (Ağdam) – uşaq oyunu adı.

**MOLLAPAŞA** (Şəmkir) – yeyilən yabanı bitki adı. – *Mollapaşa saf yaxıcca ye:lir.*

**MOLLATÜTƏK** (Salyan) – yayda su üzərində uçan cücü. – *Mollatütək yayda olar; – Mollatütəgi naqqa balığ, su bağası yiyir.*

**MONÇAĞ** (İmişli) – qoyunun (və ya keçinin) boğazından sallanan bir cüt vəzi.

**MONÇAM** (Qazax, Sabirabad) – b a x **monçağ.**

**MOR** I (Cəbrayıl, Culfa) – zəncir taxmaq üçün boyunduruğun ortasına keçirilmiş dəmir. – *Öküz güc verdi, mor qırıldı* (Cəbrayıl).

**MOR** II (Qarakilsə, Naxçıvan) – yetişməmiş, kal (meyvə).

□ **Mor tut** (Bərdə, Cəbrayıl, Xocavənd) – qonur tut. – *Mor tut şirin olur* (Bərdə); – *Mor tut çəkuld⌒o:lor* (Xocavənd). ◊ **Mor keçi** (Cəbrayıl) – boz keçi. – *Mor keçi sürünün qabağınca gedir* (Cəbrayıl).

**MORA** (Ağdam, Culfa, Naxçıvan, Ordubad, Şahbuz) – kiçik arx. – *Biz, məsəl üçün, əkin əkir, cız çəkəndə ona mora de:rixʹ* (Ağdam); – *Zəmidə mora çəkillər* (Naxçıvan); – *Moranı suçular qazar* (Ordubad); – *On putun yerinə salırıx on mora ki, zəmi yaxşı su işsin* (Culfa); – *Moraynan su gedir buğduya* (Şahbuz).

**MORANNAMAX** (Şərur) – yenicə yetişmək. – *Bı il ağust ayında üzüm morannamışdı, qalxozçular yeyirdi.*

**MORAT** (Təbriz) – qıfıl keçirmək üçün qapıya vurulan halqa.

**MORÇALAX** (Çənbərək) – ot kökü. – *Ot kökünə morcalax deyrixʹ.*

**MORÇAM** (Ağdam) – b a x **monçağ.**

**MORÇİ** (Balakən) – araba çarxının topu.

**MORD** (Kürdəmir) – zərli qalın parça.

**MORDOV** (Lənkəran) – gölməçə.

**MORQULUNC** (İsmayıllı) – kərtənkələ. – *Koldan morqulunc qaçtı.*

**MORI** (Culfa) – 1. b a x **mor** I; 2. b a x **mori.** – *Mürsəl qapı:n morısın sındırıb.*

**MORİ** (Ordubad) – qapıya qıfıl vurmaq üçün halqa. – *Qıfılı vırıyux moriya.*

**MORMOR** (Ağcabədi) – sübh. – *Oxtay dünən mormordan gəlmişdi kin, dur gedəxʹ Ağcabədiyə.*

**MORRAMAĞ** (İmişli) – ağlamaq (dəvəyə aiddir). – *Balası öləndə yazığ dəvə morreyır.*

**MORTDAX** (Bərdə) – qonur, çal (rəng). – *Mortdax tut elə mor tutdu.*

**MORU** I (Ordubad) – damdakı küləş və qamışın üstünə yayılan palçıq. – *Əvin morusu tökülüb.*

**MORU** II (Salyan) – b a x **mora.**

**MORZA** (Şəki) – toxumdan təzəcə çıxmış baramaqurdu. – *Morziyə tökülən yarpağı xırda döyüllər dəhreynən, imişax döyüf töküllər.*

**MOSİK** (Laçın) – laləyə bənzər bitki.

**MOSMOTU** (Ağbaba, Borçalı, Çənbərək) – qalmaqal. – *Hər işin içinnən bir motmotu çıxardırsan* (Ağbaba); – *O, aralığa elə bir motmotu salıf kın, gəl görəsən* (Çənbərək); – *Həməşə mən danışanda sən bir motmotu çıxardırsan* (Borçalı).

**MOSU: MOSU QOZ** (Ucar) – iri qoz növü. – *Mosu qozun ləpəsi bö:ük olur.*

**MOŞ** (Başkeçid, Borçalı) – moruq. – *Moş çox yeməli olor.*

**MOŞTAN** (Karvansaray) – kök (adam). – *Nəa:man moştandı bizim bəzi arvaddar.*

**MOTALAMOTAL** (Bərdə) – uşaq oyunu adı. – *Motalamotalda dörd-beş uşağ oynuyur.*

**MOTALÇİÇƏYİ** (Oğuz) – sarı rəngli çiçəyi olan bitki. – *Motalçiçəyi motala qatılır.*

**MOTMOTU** (Qazax, Şəmkir) – turşaşirin meyvəsi olan kollu ağac. – *Çımxır qaraxat döy, içində motmotu da var* (Qazax); – *Çətin dərədə yaman motmotu var* (Şəmkir).

**MOTUR** (Qax) – erkək keçi.

**MOU** (Bakı) – 1. yas; 2. bəla.

**MOV** (Cəbrayıl) – zoğ. – *Almanın dibinnən bir yaxşı mov qalxıb.*

**MOYANƏ** (Laçın) – boyana (şüyüdə oxşar bitki).

**MOYÇİÇƏ:İ** (Tərtər) – ətirli çiçək növü. – *Moyçiçə:i dağda pitir, çaya saldın, çayı ətirri eli:r.*

**MOYDA** (Çənbərək) – əxlaqsız. – *Moyda adamı yörəndə başım ağrıyır.*

**MOYDƏ** (Əzizbəyov) – b a x **moyda.**

**MOYUXMAX** (Ucar) – ciftləşmək həvəsinə düşmək; ciftləşmək həvəsində olmaq (pişiyə aiddir). – *Pişik moyuxub.*

**MOZA: MOZA TUTMAX** (Cənubi Azərbaycan) – hürküb qaçmaq. – *Sarı inək moza tutdi.*

**MOZADAŞ** (Goranboy, Yevlax) – uşaq oyunu adı. – *Mozadaşı xırda uşaxlar oynuyur.*

**MOZALAN** (Salyan) – üzüm qurudulan yer.

**MOZAMOZA** (Bərdə, Yevlax) – uşaq oyunu adı. – *Mozamozanı ancax yazda oynallar* (Bərdə).

**MOZƏLLƏ** (Şərur) – uşaq oyunu adı.

**MOZMOZ** (Bərdə) – uşaq oyunu adı. – *Mozmozda on nəfər oynuyar.*

**MOZU** I (Borçalı) – xəsis. – *Mozu adam pulunu xaşdamaz, malın yeməz.*

**MOZU** II (Borçalı) – kal, yetişməmiş. – *Mozu meyvə yeməli olmaz, adam yesə, naçağ eliyər.*

**MOZU** III (Cəbrayıl, Füzuli) – 1. çox böyük, nəhəng. – *Sən mozu Cəlalı tanırsan?;* 2. böyük, yumru (daş).

**MOZUX** I (Xanlar) – b a x **mozu** II. – *Ay uşax, mozux alıncanı ye:yirsiniz, bir gün ajı qusajaxsıŋız.*

**MOZUX** II (Cəbrayıl) – keçəl.

**MÖCALAN** (Bakı) – meyvə qurutmaq üçün xüsusi yer.

**MÖCÜK** (Cənubi Azərbaycan, İrəvan) – büzdüm.

**MÖÇ** (Lənkəran) – qıf.

**MÖDƏRƏ** (Qazax) – gödək.

**MÖDÜX'** (Oğuz) – yerkökünə oxşar bitki. – *Mödüyü yerdən çıxarıf elə kök kimi yi:llər.*

**MÖDYƏM** (Qazax) – b a x **modyam** II. ◊ **Mödyəm getməx'** – kömək etmək. – *Gəvə toxuyanda arvatdar bir-birinə mödyəm gedir.*

**MÖHRƏ** I (Ağdaş, Biləsuvar, Culfa, Əli Bayramlı, Gəncə, Goranboy, Göyçay, Masallı, Mingəçevir, Kürdəmir, Şamaxı, Şərur, Ucar) – 1. palçıq divar (Ağdaş, Biləsuvar, Goranboy, Gəncə); – *Möhrə palçıxdan olur* (Ucar); – *Palçığı yetişdir ki, möhrə axmasın* (Culfa); – *Odey, möhrə:n yanında durublar* (Şamaxı); – *Bizim möhrə təzə çəkilib* (Ağdaş); – *Tamam torpaxdan örülmüş barıya möhrə deyirix'* (Gəncə); 2. çəpər (Göyçay, Kürdəmir); – *Həyətin yanına möhrə çəkirdük* (Göyçay); – *Bağun dört bir tərəfinnən möhrə çəkirsən ki, heyvan-zad girməsin* (Əli Bayramlı).

**MÖHRƏ** II (Ağdaş, İrəvan) – qayka. – *Bir yaxşı möhrə qayır* (İrəvan); – *Möhrəni bu dəmirin altına qoy* (Ağdaş).

**MÖHRƏLƏMƏX'** (Ağdam) – çəpərləmək.

**MÖHRÜQA** (Culfa) – xəstəlik adı. – *Möhrüqa başınnan tutar öldürər.*

**MÖHÜB: MÖHÜB DÜZMƏG** (Cəlilabad, Mingəçevir, Şamaxı, Şəki) – əl tutmaq, kömək etmək. – *Elə olmaz ki, onın möhübin düzmiyəsən, işi də düzəlmiyə* (Cəlilabad); – *Möhüb düzməg yaxşı şeydi, sən də bir adamın möhübün düz da* (Şamaxı).

**MÖMƏ** (Bakı) – b a x **memə.**

**MÖR** (Kürdəmir) – zəif (gözə aiddir). – *Qocaldığına gözü mördi.*

**MÖRƏ** (Qubadlı) – tənəyin kəsilmiş qolu. – *Ocağa bir az mörə at.*

**MÖRGƏ** (Kürdəmir) – 1. pas. – *Qəmələtini mörgə tutup, heş kəsmir;* 2. çirk.

**MÖRGƏNƏ** (Kürdəmir) – b a x **mörgə.** – *Yağlanmadığına mörgənə kəsib baltanı tərk*

*eliyəcək; – Qav-qacağı mörgənə tutup, yümürəm deyin.*

**MÖRGÜ** (Zaqatala) – arabada oxu saxlayan hissə. – *Ədə, arabanı saxla, ox mörgüdən çıxdı.*

**MÖ:ÜZ** (Cəbrayıl, Culfa, Kürdəmir) – b a x **meviz.**

**MÖV** (Cənubi Azərbaycan, Culfa, Meğri, Naxçıvan, Ordubad) – b a x **mev.** – *Həyətdə beş-on möv var* (Naxçıvan); – *Üzümü mövdən dərdıx* (Ordubad); – *Bizlərin mövü çox böyük olur* (Cənubi Azərbaycan); – *Mövdə üzüm olur* (Culfa).

**MÖVƏ** (Şahbuz) – meyvə. – *Ərix' özü mövədi.*

**MÖVƏŞƏ** (Cənubi Azərbaycan) – cavan tənək. – *Mövəşəni soyuğdan saxlamağ lazımdur.*

**MÖVLÜX'** (Culfa, Ordubad) – b a x **mövlıx.** – *Mövlüx'dən bıyıl çox üzüm götürdüm* (Ordubad); – *Ta yazəcən mövlüx'ləri işdədi* (Culfa).

**MÖVÜZ** (Cəbrayıl, Culfa, Naxçıvan, Ordubad). – *Mövüz quru üzümdü* (Culfa); 2. üzüm növü (Cəbrayıl).

**MÖY** (Naxçıvan) – b a x **möv.**

**MÖYDƏRƏMƏT** (Goranboy) – həddindən çox. – *Alma ağacı möydərəmət gətirib.*

**MÖYLƏŞ** (Kəlbəcər) – yalançı. – *İsə yalan danışıf, ona möyləş İsə deyiflər.*

**MÖYLİK** (Naxçıvan) – b a x **mövlıx.** – *Möyliyi kor basıb.*

**MÖYÜZ** (Gəncə, Naxçıvan) – b a x **meviz.** – *İki girvənkə möyüz al gəti.*

**MÖ:Z** (Kürdəmir) – b a x **meviz.** – *Sər qurut üzümü, olsun mö:z.*

**MÖZƏLƏNNƏNMƏG** (İmişli) – mozalanın dişləməsi nəticəsində ora-bura qaçmaq (qaramal haqqında). – *Mal mözələnnəndi, getdi o taya.*

**MUBAH** (Meğri) – mülayim (hava). – *Mırğıda il həməvax mubah keçer.*

**MUCUXLAMAX** (Mingəçevir) – dümsükləmək.

**MUCUR** (Qax, Zaqatala) – 1. biryaşar erkək keçi balası; 2. sürünün qabağında gedən keçi (Zaqatala). – *Mucur hara getsə, sürü dalınca gediy* (Zaqatala).

□ **Mucur baş** (Qax) – qıvrımsaç.

**MUCURRANMAĞ** (Kürdəmir) – ütülmək. – *İncavara saçımın hamsı yammadı, elə ucdarı mucurrandı.*

**MUÇİX'** (Şəki) – ağac şitili. – *Biyil çoxlu alma muçiyi basdırmışux.*

**MUÇUX** (Borçalı, Gəncə, Gədəbəy, Qazax, Şəmkir) – 1. uçuq, səpki. – *Dodağıma muçux tüşüf* (Qazax); 2. sızaq. – *Çənəmin altınnan çıxan muçux öldüröy məni* (Gədəbəy); – *Dəlləy üzümü qırxannan so:ra üzümnən muçux çıxdı* (Borçalı).

□ **Muçux qoymax** (Gədəbəy) – maneçilik etmək. – *Nə:ŋ muçux qoyorsuŋ işimə mə:m.*

**MUÇUXLAMAX** I (Başkeçid, Borçalı, Gəncə, Qazax, Şəmkir) – 1. uçuqlamaq. – *Ə:, dodağın niyə muçuxli:f* (Borçalı); – *Beyjə qorxdum, dodağım muçuxleyif* (Şəmkir); 2. sızaq çıxmaq. – *Üzüm muçuxloyuf* (Qazax).

**MUÇUXLAMAX** II (Şəmkir) – qıdıqlamaq. – *Muçuxlama, at uşağı yıxar.*

**MUÇUL** (Qax) – 1. qoyun yunu; 2. *məc.* saç.

**MUDUR** (Dərbənd, Tabasaran) – keçi balası. – *Büz taza doğulan keçi balasınə mudur də diyədüg, qaday da diyədüg;* – *Mudurlar anasını əmməgə başladı* (Dərbənd); – *Məynəluği kur quydi mudurlar* (Tabasaran).

**MUĞ** (Bərdə) – zoğun ucu. – *İncil ağacının muğu çivana dərmandı.*

**MUĞAN** (Qarakilsə, Şahbuz) – 1. qar təmizləmək üçün üzərinə dəri çəkilmiş üçbucaq şəkilli kürək (Qarakilsə, Şahbuz); 2. xırmanda işlədilən kürək (Qarakilsə). – *Müşex kirvə, muğanı:zı ver ma: bu damnarın qarını töküm* (Şahbuz).

**MUĞANƏZƏX'** (Qarakilsə) – saman tökmək üçün samanlığın divarında düzəldilmiş deşik.

**MUĞARA** (Qax) – b a x **mağara.**

**MUĞAŞAR** (Meğri) – b a x **mıxaşər.**

**MUĞDAR** (Bakı) – hörmət.

**MUĞDUSA** (Şəki) – çirkin, xoşagəlməz.

**MUĞƏLLİTDIX** (Meğri) – dələduzluq. – *Muğəllitdıx Calalın gözdərinnan uxiney.*

**MUĞLAQ** (Balakən) – xirtdək. – *İt heyvanın muğlağınnan tutub boğurdu;* – *Muğlağım ağrıyır.*

**MUĞROY** (Tovuz) – b a x **məyro.** – *Naltökəndə muğroy oluf.*

**MUĞRUĞ** (Əli Bayramlı) – b a x **məyro.**

**MUĞUR: MUĞUR GƏLMEG** (Bakı) – əhəmiyyət vermək, saymaq. – *Neynim, nə qədər deyrəm, heç muğur gəlmir.*

**MUĞURRAMAĞ** (Bakı) – yoxlamaq.

**MUX** (Cəbrayıl) – ucu şiş ağac.

**MUXAŞƏR** (Laçın) – b a x **mıxaşər.**

**MUXRU** (Şahbuz) – iri keçə alaçıq. – *Muxru yazdan sonra yaylaxda olardı;* – *Muxruları Qarabağın adamı tikər.*

**MUXUL** (Gədəbəy, Şəmkir) – 1. paxıl (Gədəbəy). – *Muxul adam-zad döy Söyün, kim de:rsə, saf yalan de:r;* 2. səhlənkar, işə can yandırmayan (Şəmkir). – *Muxul adamı qapıya qoymasaŋ yaxşıdı* (Şəmkir).

**MUXULLUĞ** (Gədəbəy, Gəncə, Tovuz, Şəmkir) – 1. paxıllıq (Gədəbəy, Gəncə) – *Muxulluğ elə:n adama çörəx′ haramdı* (Gəncə); – *Mən muxulluğ-zad bilmənəm, var isdərəm hamıyı* (Gədəbəy); 2. səhlənkarlıq (Şəmkir, Tovuz). – *Bu muxulluğunnan əl çəx′, xain öküzdər kimi hey yana çəkirsən* (Tovuz); – *Bizdən salam olsun Həmzə qardaşa, Mənim dayım itif, dayı axtarsın, "Görmədim", "bilmədim" deməsin haşa, Muxulluğ etməsin, dayı axtarsın* (Şəmkir).

**MUXUR** (İmişli) – b a x **mıxır.**

**MUXURİ** (Qarakilsə, Meğri) – b a x **muxru.** – *Dağda həmişə muxuri qurarux* (Qarakilsə); – *Özümə bir muxuri tikecəm* (Meğri).

**MUKAK** (Dərbənd) – yabanı bitki adı. – *Biz uturan yərdə çuxlu mükak vardi.*

**MULA** (Meğri) – mülayim xasiyyətli (adam). – *Əsgər mula adamdı.*

**MULXUD** (Cəlilabad) – yumruq. ◊ **Mulxud çəkməy** (Cəlilabad) – ağacla vurmaq, kötəkləmək. – *Durar, ona bi beş-altı dənə mulxud çəkər.* **Mulxud verməy** (Cəlilabad) – yumruq vurmaq.

**MULQAŞIX** (Meğri) – qarışıq, dolaşıq. – *Mulqaşıx işdərin hamısın o özü düzəldəcəx′.*

**MUM** (Ordubad) – böyürtkən.

**MUNDARÇA** (Zərdab, İmişli) – b a x **mırdarça.**

**MUR** (Quba) – yaradan çıxan suyabənzər maye. – *Səfərin əli yaralanmışdı, mur axırdı.*

**MURADQUŞI** (İmişli) – ala sığırçın.

**MURAZ** (Gədəbəy, Tovuz) – istək, arzu, murad. – *Hamı murazına çassın içində də biz* (Gədəbəy).

**MURÇALAX** (Basarkeçər) – yabanı bitki adı. – *İti ujlu ağaş götürünə gedəx′ murçalax yığmağa.*

**MURÇAM** (Qazax) – tumurcuq.

**MURDAÇA** (Şamaxı) – b a x **mırdarça.** – *Qamçı qayırmağçun ən yaxşı ağac murdaçadı.*

**MURDAR** (Borçalı, Qazax) – canavar. – *Murdar qoyunu apardı* (Qazax).

☐ **Murdar üşüyən ay** (Zərdab) – mart ayı.

**MURDOV** (Lənkəran) – gölməçə. – *Murdova gedək quş vurmağa;* – *Ovdan ötrü murdova getmişdik.*

**MURĞUS** (Naxçıvan) – b a x **murğuz** III. – *Murğus keçini görmədin?*

**MURĞUTURŞ** (Şamaxı) – xörək adı. – *Apar çolpanı kəssir, murğuturş bişirəciyəm.*

**MURĞUZ** I (Kürdəmir, Mingəçevir, Ucar, Zərdab) – 1. b a x **murquz** (Mingəçevir, Ucar, Zərdab) – *Uşağlar iyirmi top murğuz bağladılar* (Zərdab); – *Murğuz qarğıdan uzun olur;* – *No:lar, u murğuzları gəti bir yerə yığ* (Ucar); 2. murğuzdan düzəldilib balıq toruna bağlanan qarovul (Kürdəmir, Zərdab).

**MURĞUZ** II (Şamaxı) – dağkeçisinin dərisi. – *Murğuzi altıma sal.*

**MURĞUZ** III (Füzuli, Laçın) – sarı. – *Murğuz keçinin balası ekizdi* (Laçın).

**MURĞUZANNIX** (Bərdə, Cəbrayıl, Gədəbəy, Tovuz) – 1. sakitlik, dinclik (Gədəbəy, Cəbrayıl, Tovuz). – *Görüŋnən nə murğuzannıxdı, bir quşun da xətrinə də:n yoxdu indi* (Gədəbəy); 2. hərcmərclik (Bərdə). – *Niqalay vaxdı murğuzannıx idi.*

**MURQUZ** (Ağdaş, Cəbrayıl) – qarğıyabənzər bitki. – *Mən bir dəstə murquz yığdım* (Ağdaş); – *Murquzdan gəti mizqan düzəldim çalax* (Cəbrayıl).

**MURQUZLUX** (Ağdaş) – murquz (qarğıyabənzər bitki) çox olan yer. – *Murquzluxda gamuş var.*

**MURTAZƏNƏG** (Dərbənd) – xırda milçək. – *Murtazənəg qarağac quzasində əmələ gəlǝdü.*

**MURTDİ** (Quba) – qaşqabaqlı. – *Nuhbala dayı, neyçün belə murtdi adama uxşiyasan?*

**MUSAGƏDƏ** (Ağdaş) – oyun adı. – *Musagədə yaxşı oyundu, burda şah da olur, vəzir də olur.*

**MUSAXAR: MUSAXAR OLMAQ** (Qax) – asılı olmaq, möhtac olmaq. – *Heş kəs musaxar olmasın.*

**MUSDAFAÇİÇƏYİ** (Hamamlı) – dərman bitkisi adı. – *Musdafaçiçəyin yaranın üsdünə qoyullar; – Musdafaçiçəyin döyüf sağ yerə qoysan adamın dərisin çıxardar.*

**MUŞ** (Dərbənd) – böyürtkən. – *Muş teregi yaman tikanlu uladu, uninə <onunla> baği də çəpərləmağ uladu.*

**MUŞABAĞ** (Qax) – deşik-deşik. – *Seni <sənin> xarbıl muşabağ olsın.*

**MUŞAX** (Qazax) – döyülmüş taxıl.

**MUŞQURD** (Cəbrayıl, Zəngilan) – malın qabağından qalmış çör-çöp. – *Muşqurdu təmizdə, axura təzə ot tök* (Cəbrayıl).

**MUŞƏ** (Başkeçid, Borçalı) – fəhlə. – *Öy tikdirəjəm, muşə tutmuşam* (Borçalı).

**MUŞKİYET** (Dərbənd) – üzüm növü. – *Tükanda yaxşı müşkiyet üzüm satuladu.*

**MUŞTUT** (Bakı) – qara tutun bir növü. – *Muştut yimegə gedirsən?*

**MUŞUŞDUĞ** (İsmayıllı) – şuluqluq, qarışıqlıq. – *Gözdüyün toyda cayıl-cuyıl muşuşduğ salmasınnar.*

**MUTUR** (Qax) – b a x **motur.**

**MUVAX** I (Xanlar, Qax) – b a x **mubah.** – *Bu qun hava muvaxdı, səfərə çıxmax olar* (Qax); – *Keçən il muvax keşdi* (Xanlar).

**MUVAX** II (Şəki) – bol. – *Biyil muvax taxılımız var.*

**MUVAXLIX** (Şəki) – bolluq.

**MUZAĞ** (Qazax) – müzayiqə. – *Sənnən canımı da muzağ eləmərəm.*

**MUZQAN** (Şərur) – b a x **mizqan** I.

**MUZİLƏ** (Dərbənd) – diş ağrısı, dişlərin hamısının birdən ağrıması. – *Səni gürüm dişlərünə muzilə düşsün.*

**MUZI** (Xaçmaz, Quba) – b a x **mızı** II.

**MUZLA** (Xaçmaz) – b a x **muzilə.**

**MUZU** I (Daşkəsən, Çənbərək, Gəncə, Gədəbəy, Goranboy, Xanlar, Qazax, Tovuz, Şəmkir) – b a x **mozu** I. – *Sirəfil muzudu, bir qəpiyə qıymaz; – Muzu adam o adama de:rik ki, bərk ola, malını qıymıya* (Qazax); – *Bizdə malyeməz adama muzu de:əllər, göy də de:əllər dana* (Daşkəsən); – *Tırp Bəsdidən muzu adam heç olumu?* (Çənbərək); – *Rasım çox muzu adamdı* (Gəncə); – *Muzunun biridi Oruş, onnan şeymi qoparmağ olar; – Muzu adamın ya:nda duran da muz olar dana* (Gədəbəy); – *O qədər muzusan ki, beş manat borc da verməx' isdəmirsən* (Goranboy); – *Ələx'bər elə muzu adamdı ki, əppəyi qavın çölünnən batırır ki, içinnən yağ qutarar* (Tovuz).

**MUZU** II (Başkeçid, Borçalı) – b a x **mozu** II. – *Bı armıd muzudu, yemə.*

**MUZU** III (Bakı, Füzuli, Mingəçevir) – 1. heç kəsi bəyənməyən (Bakı); 2. aravuran (Füzuli, Mingəçevir). – *Şəfiqə çox muzu adamdı* (Bakı); – *Adam muzu olmaz* (Füzuli).

**MUZULA** (Dərbənd, Qax, Şəki) – 1. b a x **muzilə.** – *Meni muzuladan baş necə ola, tişlər də ağrıy* (Qax); – *Bi gecə muzuladan sabahaca yata bilməmişəm* (Dərbənd); – *Dişdərin hamısı ağriyi, una diyillər muzula;* – *Muzuladan dişdərimin hamısı töküldü* (Şəki).

**MUZURI** (Qax) – səliqə ilə yığılmış odun.

**MÜBAH** (Zəngilan) – bol.

**MÜBAHLIĞ** (Lənkəran) – ucuzluq.

**MÜBAHLIX** (Kürdəmir, Laçın, Zəngilan) – b a x **muvaxlıx.** – *Bu il çox mübahlıxdı* (Laçın).

**MÜC: MÜC OLMAĞ** (Şamaxı) – aciz qalmaq, dili qısa olmaq. – *O:n da əlində müc olmusan.*

**MÜCƏ** (Oğuz) – b a x **mircə.**

**MÜCƏGİNDƏ: MÜCƏGİNDƏ DOĞMAQ** (Qax) – yaşı çatmamış doğmaq. – *Bu dana mücəgində doğup.*

**MÜCƏLMƏK** (Qəbələ) – bürüşmək; büzüşmək. – *Alma mücəlipdi.*

**MÜCİ** (Ordubad) – gənə. – *Qoyunlara müci daraşmışdı.*

**MÜCÜKMƏK** (Ağsu, Şamaxı) – b a x **mücəlmək.** – *Nə mücüküb durmusan, qedib oynasanam* (Ağsu).

**MÜCÜR** (Qax) – erkək keçi. – *Mücür sürünün qabağında gedir.*

**MÜCÜŞMƏY** (Şəki) – b a x **mücəlmək.** – *Qış gəldi, uşağların mücüşməy vaxdı gəldi.*

**MÜÇÜK** (Tovuz) – qoyunun və ya keçinin boğazından sallanan bir cüt vəzi.

**MÜDBEYN** (Cəbrayıl, Karvansaray) – mehriban.

**MÜĞƏRRƏM** (Çənbərək, Qazax) – daim, həmişə. – *Bulax müğərrəm axar* (Qazax); – *Biyıl müğərrəm ot çalmışam* (Çənbərək).

**MÜXƏŞƏR** (Füzuli, Şuşa, Zəngilan) – b a x **mıxaşər.** – *Nənə, pilav aş bişirəndə müxəşərin çoxlu tök* (Zəngilan); – *Müxəşərsiz bişmişin dadı olmaz* (Füzuli).

**MÜXÜL** (Şəmkir) – b a x **muxul** II. – *Müxül adama iş tapşırmasan yaxşıdı.*

**MÜXÜLLÜXʹ** (Gəncə, Şəmkir) – b a x **muxulluğ** II. – *Müxüllüxʹ elə:n adama çörəxʹ haramdı* (Gəncə).

**MÜJ** (Oğuz) – qul.

**MÜJVƏLLİ** (Xanlar) – naməlum, gizli. – *Mən nə bilim ki, sən bu işi müjvəlli qoyajaxsan.*

**MÜJDÜ** (Əli Bayramlı) – xışın dəstəyi.

**MÜJMƏR** (Bərdə) – şiş, sivri, iti. – *Fırıldağın üjü müjmər olur, i:nə kimi.*

**MÜJÜRÜM: MÜJÜRÜM ELƏMƏXʹ** (Kəlbəcər) – şikəst eləmək, xarab eləmək.

**MÜJÜMDƏR** (Cəbrayıl) – falçı. – *Hajılarda iki müjümdər var, biri kişi, biri arvat.*

**MÜKÜN** (Zəngilan) – b a x **mikin.**

**MÜLƏFƏ** (Borçalı) – döşəkağı. – *Müləfə çirxʹlənif.*

**MÜLƏLİ** (Ağbaba, Çənbərək, Tovuz) – şübhəli, naməlum. – *Oğlanın şəhərdən böyün qayıtması müləlidi* (Ağbaba); – *Gənə tamam boyun olmadın, müləli qoydun* (Qazax); – *Müləli işdən zəhləm-zivərim gedir dayna həmməşə* (Çənbərək); – *Sirəflin də işi müləli qaldı, bilmədixʹ irazıdılar, ya yox* (Tovuz).

**MÜLÇƏKLİK** (Zəngəzur) – yüyəndə atın gözünün üstündəki gön. – *Atın mülçəkliyi hardadı?*

**MÜLÇİ** (Ordubad) – milçə (qaşa qara çəkmək üçün alət) – *Qaşa rəng çəkmək üçün mülçi lazımdu.*

**MÜLHAQ: MÜLHAQ OLMAX** (Qazax) – razı olmaq, razılaşmaq.

**MÜLXʹ** (Ordubad) – bağça. – *Yandırmaxçın odunu mülxʹdən gətirirıx.*

**MÜLK** (Gəncə) – vergi adı (toplanmış məhsulun $^1/_{10}$ qədəri). – *Hər il on pencə mülk verərdim.*

**MÜRCƏ** (Bərdə, Cəbrayıl, Mingəçevir) – b a x **mircə.** – *Mürcə qarışqa kimi olur balaja* (Bərdə); – *Mürcəni yarpağlıyın* (Cəbrayıl).

**MÜRCÜM** I (Hamamlı) – b a x **milçəm.** – *Mürcüm keçidə də olar, qoyunda da olar.*

**MÜRCÜM** II (Qazax) – ət xal.

**MÜRCÜMLÜ** (Qazax) – ət xallı.

**MÜRÇƏM** (Ağdam, Xocavənd, İmişli) – b a x **milçəm.** – *Mürçəm qoyunun boynunda olor, hər qoyunda olmor* (İmişli).

**MÜRÇƏMLİ** (Kürdəmir) – qıvrım. – *Onun başı mürçəmlidi, yap alahı cür sufayıdı.*

**MÜRÇÜM** (Borçalı, Gəncə, Qazax, Şəmkir) – b a x **milçəm.** – *Bu qoyunun mürçümü yoxdu* (Qazax); – *Mürçüm qoyundo:lar bir çüt* (Borçalı).

**MÜRÇÜMLÜ** (Gəncə, Qazax, Şəmkir) – mürçümü olan. – *Bu nə gözəl mürçümlü qoyundu* (Qazax); – *Mürçümlü qoyunnar gözəl olur* (Gəncə); – *Mürçümlü qoyunu tut, qırx* (Şəmkir).

**MÜRDƏŞƏ** (Ağdaş, Gəncə, Karvansaray, Qazax, Şəmkir) – b a x **mırdarça.** – *Mürdəşə çuvuxları düz olor, onnan də: tikirixʹ* (Qazax); – *Molla uşaxları mürdəşə çuvuğuyla döyürdü* (Ağdaş); – *Bizim kətdə mürdəşədən çovannar əl ağajı qayrellar* (Karvansaray); – *Sənin kəsdiyin ağac mürdəşədi, mənim kəsdiyim zoğal* (Gəncə); – *Mürdəşə çox sağlam ağajdı* (Şamaxı).

**MÜRƏ** (Ordubad) – b a x **mora.** – *Mürədən su gəlmir;* – *Əkin yerin ortasınnan heşnən açılan arxa mürə deyərıx.*

**MÜRƏKGƏF** (Şəki) – böyürtkən. – *Bizim meşələrdə mürəkgəf çoxdu.*

**MÜRGƏ** (Lənkəran) – güvə.

**MÜRGƏNƏ** (Ağdaş, Lənkəran, Mingəçevir) – 1. b a x **mürgə.** – *Paltonumu mürgənə vurub* (Lənkəran); 2. ağacqurdu (Ağdaş). – *Alçaya mürgənə düşüb.*

**MÜRGİNƏ** (Şamaxı) – pas. – *Dəmirdə mürginə var.*

**MÜRİ** (Quba) – çiyələk. – *Həsən müri dərədü.*

**MÜRT** (Cəbrayıl, Şəmkir) – 1. b a x **mırt** (Şəmkir). – *Eymə mürt bağleyif qazı;* 2. pas (Cəbrayıl). – *Dəmiri mürt yeyif.*

**MÜSDAHAX** (Çənbərək) – b a x **müsdahaq.** – *Əmirullah bir ildi kin, müsdahax qalıf;* – *Heş şey umma müsdahax adamnan.*

**MÜDAHAQ** (Cəbrayıl) – şikəst, əlil.

**MÜSDAHAT** (Cəbrayıl) – b a x **müsdahaq.**

**MÜSDƏR** (Cəbrayıl, Meğri, Zəngilan) – 1. şikəst, əlil. – *Gədə müsdər oldu getdi, əncam olmadı* (Zəngilan); 2. tənbəl (Meğri). – *Niyə müsdər olerəm, müsdər olsam, üş günüm olar* (Meğri).

**MÜSƏMBƏ** (Ağdaş, Şəki) – kök. – *Müsəmbə to:ğun əti çox yeməlidi* (Ağdaş); – *Müsəmbə toyuğdan pilo pişirəllər* (Şəki).

**MÜSƏMMƏ** (Mingəçevir) – b a x **müsəmbə.** – *Bu to:uxlar müsəmmədi.*

**MÜSƏMMƏR** (Şəki) – b a x **müsəmbə.** – *Yenə müsəmmər kişiydi irəhmətdıx Usuf.*

**MÜSƏNDƏRƏ** (Borçalı) – böyük taxt. – *Müsəndərədə səkkiz-doqquz adam yata bilər.*

**MÜSLƏT** (Şəki) – vaxt, vədə, möhlət. – *Ma: üş gün müslət ver, örgənim diyim.*

**MÜSTƏR** (Qarakilsə, Laçın) – 1. bacarıqsız, aciz. – *Onu kimi müstər adam heş yerdə tapılmaz* (Laçın); 2. kimsəsiz (Qarakilsə).

**MÜŞDƏ** (Meğri) – xərək. – *Kişini qoydux müşdeyə, uşaxlar çiyinnərində apardılar Mırğıya.*

**MÜŞƏ** (Başkeçid, Borçalı, Qazax) – b a x **müşə.**

**MÜŞƏBAĞI** (Şəki) – 1. gözəmə; 2. hörmə. – *Coraf müşəbağı yerinnən deşilitdi.* ◊ **Müşəbağı eləmax** (Şəki) – 1. gözəmək; 2. hörmək. – *Coravı müşəbağı eləmağı hər adam başarmır.*

**MÜŞƏBƏXʹ** (Cənubi Azərbaycan) – b a x **müşəbağı.** – *Pərdələrin ətrafı müşəbəxʹ toxunmuşdu.*

**MÜŞGÜR** (Quba) – qışlaq. – *Mal-qaranı, qoyunnarı qış düşəndə yeylağdan müşgürə aparaduğ.*

**MÜŞKÜR** (Quba) – ölçü vahidi (24 kq). – *Bir müşkür buğda aldım.*

**MÜŞNƏ** (Başkeçid) – arabanın yanlarını saxlayan hissə.

**MÜŞRÜFÜ** (Şamaxı) – düyü unundan bişirilən xörək.

**MÜTƏCCƏM** (Bakı) – b a x **mütəncəm.** – *Mütəccəm şirin olur.*

**MÜTƏFİN** (Meğri) – eybəcər, çirkin. – *Xəbəri Fərrığın u mütəfin qızı gətirip.*

**MÜVƏRƏXʹ** (Gəncə, Qazax) – dəri xəstəliyi adı. – *Bəz insannarda müvərəxʹ tez-tez çıxır* (Qazax); – *Həsən müvərəxʹ çıxarıf* (Gəncə).

**MÜYƏL** I (Çənbərək, Karvansaray) – 1. hündür təpə, yeltutan yer; 2. b a x **mağal.** – *Mal müyələ yığılıf* (Çənbərək).

**MÜYƏL** II (Mingəçevir) – aciz.

**MÜYƏLLƏNMƏK** (Karvansaray) – özünü günə vermək.

**MÜZƏBZƏBİ** (Lənkəran) – aravuran, araqarışdıran.

**MÜZÖ** (Cəlilabad) – mozalan. – *Müzö heyvana yapışər, onı sancər, qaçırdər.*

# Nn

**NACAĞ** (Bakı, Xaçmaz, İsmayıllı, Kürdəmir, Quba, Qusar, Salyan, Şamaxı) – bax **najax.** – *A balam, dur nacağı götür, bu eti çapeg* (Bakı); – *Naçaği vər, odun xırdali:m* (Kürdəmir).

**NACAX** (Culfa, Kürdəmir, Mingəçevir, Ordubad, Şahbuz) – bax **najax.** – *Nacax iti olsaydı, bu odunnarı əlbəhal yarardım* (Şahbuz).

**NAÇAX** I (Qazax) – köhnə. – *Biz bir naçax maşına minmişdix′.*

**NAÇAX** II (Culfa, Qazax, Oğuz, Zəngilan) – xəstə. – *Naçax getdix′cə xarablaşırdı* (Oğuz); – *Uşax naçaxdı* (Zəngilan).

**NAÇAXLAMAX** (Borçalı, Culfa, Gədəbəy, Qazax, Tovuz, Zaqatala, Zəngilan) – xəstələnmək. – *İman kişi böyün bərk naçaxlıyıb* (Zəngilan); – *Kazımı çağırmıyın, o naçaxlıyıf* (Tovuz); – *Dünənnən bərk naçaxlamışam* (Culfa).

**NAÇAXLIX** (Borçalı, Culfa) – xəstəlik. – *Onu həməşə soyux tutor, naçaxlıx taper* (Borçalı).

**NAÇURANI** (Füzuli) – ateist. – *Nanəzar, sən naçuranı adamsan.*

**NADARATMA** (Meğri) – böyük <ilan>. – *Quzeydə nadaratma ilannar çuxdı, hamma adama dəymiy.*

**NAFAXA** (Çənbərək) – yemək. – *Nafaxasız qaldı Miskarın uşağı dünənnəri.*

**NAFCIL** (Borçalı) – ayaqqabı. – *Nafcılın ipini bağla.*

**NAGAH-NAGAH** (Daşkəsən) – tək-tək, az-az. – *Mən görən adamlar nagah-nagah qalıf.*

**NAĞ** (Tovuz) – dişi dəvə. – *İftidada xəlq oldu külli kayınat, İnsan nağa mindi, nağ nə: mindi?*

**NAĞALA** (Culfa) – bax **navala.**

**NAĞAR** I (Qazax) – yekəqarın <adam>. – *Bu adam çox nağardı.*

**NAĞAR** II (Oğuz) – dəf.

**NAĞAŞ** (Qafan) – ala-bula. – *Nağaş inəyin qıçı sınıf.*

**NAĞILAY** (Bakı) – bax **naqolay** (3-cü məna).

**NAĞILÇI** (İmişli) – aşıq. – *Tək-tük adam nağılçı, çalğıçı gətirərdi toya.*

**NAĞILÇILIX: NAĞILÇILIX ELƏMAX** (Şəki) – boş, mənasız danışmaq. – *Nağılçılığ eləmax yaxşı döyli.*

**NAĞILITUL** (Meğri) – nəhayət. – *Nağılıtul, oğlan açer o sandığı.*

**NAĞILLAMAX** (Şərur) – nağıl etmək. – *Uni anamgil nağılladı.*

**NAĞIM: NAĞIM ATMAĞ** (Bakı) – göz qoymaq. – *Bı nə xəsyetdü səndə, hər şeyə nağım atırsan.*

**NAĞIZ** I (Qax, Zaqatala) – ana tərəfdən olan qohum.

**NAĞIZ** II (Kürdəmir, Sabirabad) – səfeh, düşüncəsiz, yersiz danışan. – *O, çox nağız adamdı* (Sabirabad).

**NAĞIZ-NAĞIZ** (Sabirabad) – düşüncəsiz, yersiz. – *Nağız-nağız danışma.*

**NAHAR** (Xaçmaz, Quba) – məcməyi. – *Xörəyi gətirəndə buşqabları nahara quyub gətirillər* (Quba); – *Ana, bizim naharı Gülsüm xala apardı* (Xaçmaz).

**NAXIROTARAN** (Salyan) – çöl quşu adı. – *Malın içində naxırotaran vardı, uşağ qo:dı.*

**NAXIS** (Ağdaş, Gədəbəy, Qazax, Laçın) – bax **nağız** II. – *Məcid naxısdu* (Ağdaş); – *Yaman naxıs adamsan* (Laçın); – *Naxıs danışmax peşan oluf* (Laçın).

**NAXISDAMAX** (Ağdam, Qazax) – səfehləmək. – *Məmməd lap naxısdıyıb* (Ağdaş).

**NAXISDIX** (Ağdaş, Qazax) – səfehlik. – *Əli naxısdığ eli:r* (Ağdaş).

**NAXIŞ** (Gədəbəy, İmişli, Mingəçevir, Oğuz, Saatlı, Şəki, Zaqatala) – bəxt. ◊ **Naxışı gətiməx′** (Gədəbəy, Oğuz, Şəki) – bəxti gətirmək. – *Mə:n naxışım gətdi* (Oğuz).

**NAXIŞDI** (Biləsuvar) – işi düz gətirən, bəxtli.

**NAXIŞKƏR** (Cəlilabad) – çəngəl. – *Nadir xörəyi naxışkərnən ye:rdi.*

**NAXMİRƏ** (Qarakilsə, Saatlı) – minnət. – *Naxmirə vırma, düzəlməz* (Saatlı).

**NAXNA** (Qax) – heyvanın gözünün kənarında əmələ gələn yumru ət.

**NAXUNA** (Qafan) – bax **naxna.** – *Atın naxunasın kəs.* – *Bizim qatırın gözündə naxuna var.*

**NAJAX** (Göyçay, Qubadlı, Mingəçevir) – kiçik balta. – *Dərviş deyir, iyirmi ildi bu najax məndədi* (Qubadlı).

**NAKÖKLƏMƏK** (İsmayıllı) – zökəm olmaq.

**NAQALMAĞAL** (Başkeçid) – səs-küy, qalmaqal.

**NAQQADAN** (Qarakilsə) – inadla. – *Mən dedim yoxdu, naqqadan dirəndi ki, verəssən.*

**NAQQAL** I (Qazax, Quba, Naxçıvan, Salyan, Şərur) – çoxdanışan, uzunçu. – *Hasan çox naqqal adamdı* (Qazax).

**NAQQAL** II (Cəlilabad, Saatlı, Sabirabad, Yardımlı) – lovğa, özünü öyən. – *Mənim naqqal adamnan xoşum gəlmir* (Yardımlı).

**NAQQAL** III (Gədəbəy, Tovuz) – tərs, höcət. – *Məhəmmət yaman naqqaldı, onnan danışmağ olmor* (Gədəbəy).

**NAQQAL** IV (Ucar) – həddindən artıq xəsis. – *Səfər kişi çox naqqal adamdı.*

**NAQQALÇƏ** (Zaqatala) – baldan bişirilən şirniyyat. – *Bacım naqqalçə pişirmişdi.*

**NAQQALLAŞMAĞ** (Saatlı) – özünü öymək, lovğalanmaq. – *Çox naqqallaşma, bı sən girən kol döyi.*

**NAQQALLIX** I (Qazax, Naxçıvan) – uzunçuluq. – *Naqqallıx yaxşı döyül, a bajoğlu* (Qazax).

**NAQQALLIX** II (Gədəbəy, Qazax, Tovuz) – tərslik. – *Naqqallıx yaxşı şey döyül, a bala* (Qazax); – *Naqqallığınan əl çək, işiŋi gör* (Gədəbəy).

**NAQQALLIX** III – həddindən artıq xəsislik.

**NAQQALLUĞ** (Quba) – b a x **naqqallıx** I. – *Sən hər gün gəlib naqqalluğ ileyib gedirsən.*

**NAQQAS** (Bolnisi) – b a x **naqqal** III. – *Məmməd o qədər naqqas adamdı kın, tavaqqa da eli:rsən, eşitmir.*

**NAQQAT** (İsmayıllı) – ipəksarıyan <adam>.

**NAQQULİ** (Bakı, Sabirabad) – uşaq oyunu adı. – *Bəloğlan, sən ato:n cani, gedəg naqquli uynuyağ də* (Bakı).

**NAQOLAY** (Bakı) – 1. nadinc; 2. tərs; 3. yöndəmsiz.

**NAQULAY** I (Bakı) – b a x **naqolay** (1-ci məna).

**NAQULAY** II (Bakı) – b a x **naqolay** (2-ci məna).

**NAL** I (Bərdə, Cəlilabad, Kürdəmir, Qarakilsə, Ordubad, Şəmkir, Zəngilan) – 1. eyvan sütunlarının başına qoyulan taxta; 2. hörgü tamamlanarkən divarın üstünə qoyulan ağac (Gədəbəy, Tovuz). – *Nalları palıd ağacınnan eləsəniz yaxşıdı* (Gədəbəy).

**NAL** II (Masallı, Salyan, Yardımlı) – artırmanın döşəməsi. – *Bizim eyvanın nalı qızılgöz ağacınnandı* (Yardımlı).

**NAL** III (Şəmkir) – pilləkən. – *Nal köhnəlif, asda tüş, yıxılarsaŋ; – Uşax naldan yıxıldı.*

**NAL** IV (Borçalı, Tovuz) – vəlin altına vurulan dəmir parçaları.

**NALALTI** (Cəbrayıl) – ev sütunlarının altına qoyulan taxta parçası.

**NALÇA** I (Astara, Bakı, Beyləqan, Biləsuvar, Borçalı, Cəlilabad, Dəvəçi, Füzuli, Hamamlı, Kürdəmir, Quba, Lənkəran, Salyan, Şamaxı, Şərur, Yardımlı) – döşəkçə. – *Bir nalça götir, at yerə mə:mçün* (Quba); – *Nalçovu çək altuva* (Masallı); – *Adə, nalçanı at, qoy kişi otsun* (Salyan); – *Nalçanın üssündə otur* (Şamaxı).

**NALÇA** II (Borçalı, Hamamlı) – iri dəmir <pul-pul oyununda>. – *Nalçeyi atıf pulu döndərəndə, o dönmüş pulu udursan* (Hamamlı).

**NALÇA** III (Şərur) – fırfıranın ucuna vurulan xırda mıx.

**NALÇƏ** (Cəlilabad) – b a x **nalça.** – *Gördi ocağın qırağında iki nalçə qoyılib.*

**NALÇİN** (Şamaxı) – dəmirçi kəlbətini. – *Nalçini ver, bı nalı dişiyim.*

**NALÜSDÜ** (Cəbrayıl) – ev sütunlarının üstünə qoyulan taxta parçası.

**NAM** (Füzuli) – buğ, buxar. – *Əti də doğruyursan, noxut, lobya tökürsən, öz namınnan bişirirsən.*

**NAMAĞA** (Zaqatala) – niyə? nə üçün? – *Namağa bizə galmırsan?*

**NAMALA** (Bakı, Kürdəmir) – heç olmasa. – *Namala, adam mayasın götüreydi* (Kürdəmir).

**NAMALƏ** (Bakı) – b a x **namala.**

**NAMAZ QILMAX** (Zaqatala) – *məc.* oxumaq (quşa aid). – *Səhər tezdən keklitarax <şanapipik> bizin məhlədə namaz qılırdı.*

**NAMBAN** (Təbriz) – yorğan-döşək yığılan yer, camaxatan. – *Namban öyün küncündə olurı.*

**NAMƏNNƏHRƏ** (Qazax) – kök, dolu <adam>. – *Qız bıldırdan bəri böyüyüf, namənnəhrə arvad oluf.*

**NAMƏNŞİR** (Cəbrayıl) – naməlum.

**NAMXUDƏ** (Bakı) – maşallah.

**NAMQIMMAX** (Çənbərək) – istəmək, çalışmaq. – *Namqındım kın, yeri lapatqalıyam, bajarmadım;* – *Namqındım kın, dinəm dimmədim.*

**NAMLI** I (Cəlilabad, Kürdəmir) – 1. qüvvətli, güclü (Cəlilabad). – *Özinnən diyən namlı pəhlivannardan götirərsən* (Cəlilabad); 2. kök, gövdəli (Kürdəmir). – *Həsənin bı namlı gomuşu var* (Kürdəmir).

**NAMLI** II (Cəbrayıl) – tüfəng lüləsi. – *Tüfəngin namlısı sınıbdı.*

**NAMÜJMƏL** (Gəncə) – naməlum. – *Pul almağım hələ namüjməldi.*

**NANAY** (Ordubad) – ağızla çalınan oyun havası. – *İndi mən nanay çalım, siz oynəyin.*

**NANCAN** (Şəki) – nə qədər. – *Soruşdum yolun uzunu nancandı, didilər əlli vers.*

**NANCƏN** (Şəki) – b a x **nancan.** – *Nancən toxumun vardı, xavar aldı.*

**NANDAN** (Cənubi Azərbaycan) – yorğan-döşək yığılan yer. – *Nandanı daşdan tikəllər.*

**NANƏYİ** (Şamaxı) – nanəyəbənzər yabanı bitki. – *Bu gün çoxlu nanəyi yığdım.*

**NANIĞ** (Bakı, İsmayıllı, Salyan) – aciz, bacarıqsız. – *Yaman nanığ adamdu* (Bakı); – *Çox nanığ uşaxdı* (İsmayıllı); – *Nanığ adam ac qalar* (Salyan).

**NANIX** (Şəmkir, Tovuz) – b a x **nanığ.** – *Məni kimi fağır olanda ona nanıx de:ir cama:t* (Şəmkir).

**NAPA** (Qax) – xəbis.

**NAPBƏND** (Ordubad) – ağac növlərindən birinin adı.

**NARDANÇA** (Ağdaş, Göyçay, Ucar) – nar mürəbbəsi. – *Anam çoxlu nardança pişirdi* (Ağdaş); – *Nardançanı çaynan içirik* (Ucar).

**NARDANQUŞ** (Qax) – yeməli bitki növlərindən birinin adı.

**NARDAŞA** (Gəncə, Mingəçevir, Şəmkir) – 1. narşərab (Gəncə, Şəmkir); 2. b a x **nardança** (Mingəçevir). – *Nardaşa kol narınnan yaxşı olur* (Gəncə).

**NARGİLƏ** (Qazax) – albalı.

**NARXAL** (Kürdəmir) – böyük kisə, bardan.

**NARMA** (Dərbənd) – üzüm növlərindən birinin adı.

**NARRAT** (Lənkəran) – şamağacı taxtası. – *Bizim övün döşəməsi narratdandı.*

**NAS** (Dərbənd) – bazar ertəsi. – *Nas da diyədig, hacilər də.*

**NASAĞ** (Bakı, Salyan) – tövbə. – *Nasağ olsun mə:, bı işi bir də görmərəm* (Salyan).

**NASAY** (Bakı) – xəstə.

**NASIR** (Gəncə) – qabar.

**NASIRRI** (Gəncə) – qabarlı. – *Nasırrı əl adamın baş ucalığıdı.*

**NASRANDI** (Xanlar) – tərs, höcət.

**NASRANDILIX** (Xanlar) – tərslik. – *Bu da nasrandılıxda rəhmətlik dayısına çəkif.*

**NASRANI** (Gədəbəy, Mingəçevir) – b a x **nasrandı.** – *Həsən yaman nasranıdı, adamın sözünə baxmer* (Gədəbəy).

**NASSAĞ** (Bakı) – 1. b a x **nasağ;** 2. qadağan. – *Ona bir nassağ elə ki, dai bir də hələ dimısün.*

**NAT** (Ağbaba) – kərəntinin sapı.

**NATARAŞ** (Naxçıvan) – tərs.

**NATAYİR** (Laçın) – pis söz, söyüş. – *Onnar bir-birinə natayir de:ir.*

**NATIĞ** (Əli Bayramlı, Kürdəmir, Saatlı, Salyan, Şamaxı) – yastıburun. – *Natığ Məhəmmədi hamı tanıyır* (Şamaxı).

**NAŞAR** I (Qafan, Laçın) – qəribə, təəccüblü. – *Dünyada naşar adamlar varmış* (Qafan).

**NAŞAR** II (Cənubi Azərbaycan, Şamaxı, Şəki) – yalançı. – *Əhməd naşar adamdı* (Şamaxı).

**NAŞAR** III (Meğri) – xeyli, çox. – *İdara eşiginə naşar adam yığılmışdı.*

**NAŞAR** IV (Qazax) – nadinc. – *Uşax ha döyü, heç kirimer, naşardı.*

**NAŞARI** (Qazax) – həyasız. – *Naşarı adamı heş kəs isdəməz.*

**NAŞDOYLAMMAX** (Çənbərək, Gədəbəy, Qazax, Şəmkir, Tovuz) – qəlyanaltı etmək. – *Oruc, gə birəz naşdoylanax* (Qazax).

**NAŞDOYLUX** (Çənbərək, Gədəbəy, Qazax, Şəmkir, Tovuz) – qəlyanaltı. – *Ət pişənətən naşdoyluğ elə* (Qazax); – *Qoy birəz*

*naşdoyluğ eliyəx′ ki, işə başdıyanda ajmıyax* (Tovuz).

**NAŞƏR** I (Qafan, Laçın) – b a x **naşar** I. – *Naşər işə tüşmüşəm, özüm də bilmirəm* (Laçın).

**NAŞƏR** II (Ağdaş) – b a x **naşar** II. – *Kərim çox naşər adammış.*

**NAŞIR** (Qax) – bez.

**NAŞRA** (Balakən) – b a x **naşır.**

**NAŞUR** (Zaqatala) – b a x **naşır.** – *Əhməd naşur aldı.*

**NAV** (Axalsxi) – bərə. – *Malı, qoyunu Kürdən navnan keçirillər.*

**NAVA** I (Kürdəmir) – tala. – *Qabağlar navada lobya, küncüt əkərdüg.*

**NAVA** II (Kürdəmir) – gölməçə. – *Get navadan su gəti.*

**NAVAHIL** (Ordubad) – kiçik arx.

**NAVAXDAN** (Ordubad) – qəflətən, birdən. – *Qaplan navaxdan atılır adamın boynuna.*

**NAVAQQIL** (Naxçıvan, Ordubad) – körpünün altından keçən su yolu. – *Bizim kətdə navaqqılsız körpü tix′məzdər* (Ordubad).

**NAVALA** (Culfa, Mingəçevir, Oğuz) – mala vermək üçün arpa unundan hazırlanan yem. – *Arpanı paralıyıb mal üçün yem düzəldillər, buna navala deyillər* (Mingəçevir); – *Qışda mal-qaraya navala verməy üçün arpa əkirix′* (Oğuz).

**NAVALÇA** (Bakı) – yağış suyunun axıb getməsi üçün evin üstündə dəmirdən düzəldilən nov.

**NAVAR** I (Bakı, Cəbrayıl, Göyçay, İsmayıllı, Quba, Şamaxı) – 1. yəhər və palanın altından qoyulan keçə və ya otla doldurulmuş döşəkçə (Cəbrayıl, Göyçay, İsmayıllı, Quba, Şamaxı); 2. çul (Bakı) – *Palanın altına navar qoyallar* (İsmayıllı); – *Əli bir navar aldı* (Göyçay); – *Atın navarın qoy belinə* (Cəbrayıl); – *Navarsız heyvana yük çatmağ olmaz, dalını yara elər* (Şamaxı).

**NAVAR** II (Qubadlı) – palazın dörd tərəfinə tikilən köbə. – *Cejimin navarı qaradı.*

**NAVARPALAN** (İsmayıllı) – palan və çul. – *Palanın alt tərəfinə navarpalan deyilir.*

**NAVAT** (Oğuz) – növbə.

**NAVATI** (Gəncə) – ərik növü adı. – *Hayıf ki, bağımızdakı navatı əriyimiz biyil qurudu.*

**NAVID** (Qazax) – əlacsız, naümid.

**NAVIR** (Qax) – gölməçə, nohur.

**NAVİR** (Oğuz) – b a x **navar** II. – *Bir navar toxu, cecimin qırağına çəkəx′.*

**NAVUR** I (Quba, Tabasaran) – kərpic kəsilən yer. – *Navura saman səp* (Quba).

**NAVUR** II (Tabasaran) – b a x **navır.**

**NAY** I (Bərdə, Gəncə, Göyçay, Qazax, Şəmkir) – məzəli, zarafatcıl. – *O, nay adamdı* (Bərdə); – *Nay yoldaşın yanında adam qojalmaz* (Gəncə); – *Dəli İrvaham çox nay adamdı* (Şəmkir).

**NAY** II (Qazax) – uzun <adam>. – *Nay çox uzun adama de:rix′.*

**NAY** III (Cəlilabad, Göyçay, Şamaxı) – qarmon. – *Əlləri xınalı nay çalan balam* (Şamaxı).

**NAY** IV (Cəlilabad, Şamaxı) – qaval.

**NAY** V (Gədəbəy) – key, gec başa düşən. – *Yaf nay adamdı, deməx′nən tüşmöy ha başa.*

**NAYQARA** (Barana, Borçalı) – zarafatcıl. – *Çovan o qədər nayqaradı ki, öldürör adamı gülməx′dən* (Borçalı).

**NAYLIX** (Şəmkir, Tərtər) – hoqqabazlıq, oyunbazlıq. – *Naylığın da öz yeri var* (Şəmkir); – *Əmir naylığ eli:r, bizi güldürür* (Tərtər).

**NAY-NAY** (Göyçay) – boş-boş.

**NAZ** (Şəki) – süpürgə düzəltmək üçün istifadə olunan yabanı bitki. – *Bi şələ naz qırdım.*

**NAZBALINC** (Culfa, Şərur) – qu tükündən düzəldilmiş iri balış.

**NAZBALIŞ** (Şamaxı, Şəki, İrəvan) – b a x **nazbalınc.** – *Nazbalış qu tükünnən olar* (Şamaxı); – *İki dənə nazbalışımız var* (Şəki).

**NAZİG: NAZİG GİRMEG** (Bakı) – *məc.* özünü işə verməmək.

**NAZIL: NAZIL OLMAX** (Daşkəsən, Gədəbəy) – nəsib, qismət olmaq. – *Bu dünya mülkü kimə nazıl olajax.*

**NAZLI** (Ordubad) – şaftalı növlərindən birinin adı. – *Bir put nazlı aldım.*

**NAZNAZ** (Bakı) – ipək baş yaylığı.

**NAZNAZI** (Zəngilan) – uşaq oyunu adı.

**NAZNAZİ** (Quba) – b a x **naznaz.** – *Bakudan gələndə mənimçün naznazi gəti.*

**NEHRƏGÜLÜ** (Masallı, Salyan) – lalə. – *Nehrəgülü açıbdu.*

**NEHRƏPARTDADAN** (İmişli, Kürdəmir, Saatlı) – lalə. – *Küdrüdə nehrəpartdadan çoxdu* (Kürdəmir).

**NEHRƏSINDIRAN** (Şamaxı, Ucar) – lalə. – *Yazda bırda nehrəsındıran çox olur* (Ucar); – *Nehrəsındıranı dərmə, nehrən sınar;* – *Nehrəsındıran meşədə dolıdı* (Şamaxı).

**NELÇİ** (Quba) – nalbənd. – *Şə:r yerində nelbənd diyədülər, bizdə nelçi:* – *Nelçi Quba şə:rində uladu.*

**NERQARAN** (Ordubad) – göyərçin.

**NESTƏ** (Bakı) – nahaq. – *Nestə didim sənə ki, imtahan olaceg.*

**NEŞDAV** (Cəbrayıl) – acgöz.

**NEŞDƏRXAN** (Salyan) – hindtoyuğu.

**NEŞQURD** (Zəngilan) – b a x **muşqurd.**

**NETAĞ** (Quba) – qurşaq. – *Quca kişilər həmişə belinə netağ bağlallar.*

**NEYBƏT** I (İsmayıllı) – bədniyyət. – *Neybətün öz başunda çatdasun.*

**NEYBƏT** II (Şərur) – kifir, eybəcər.

**NEYVƏNT** (Balakən) – çirkin, yaraşıqsız. – *Lalə neyvənt qızdı.*

**NEYVƏT** (Cənubi Azərbaycan, Gədəbəy, Gəncə, Qazax, Naxçıvan, Oğuz, Ordubad, Şəki) – b a x **neyvənt.** – *Bu neyvət adamdı, görəndə lap qorxoram* (Qazax); – *Bu nə neyvət uşaxdı* (Gəncə); – *Adə, sən neyvət adamsan* (Naxçıvan); – *Cəfər çox neyvət adamdı* (Cənubi Azərbaycan).

**NƏBƏRBUD** (Bakı) – kobud adam.

**NƏBİT** (Salyan) – balıq toru.

**NƏBİTÇİ** (Salyan) – balıq toru düzəldən. – *Bankədə nəbitçilər var, balığ tutullar.*

**NƏBLƏ** (Salyan) – nə qədər. – *Nəblə səni çağırdım, eşitmədün.*

**NƏDALƏT** (Cəlilabad) – ədalətsiz. – *Adamlarda eləsi var ədalətdidi, eləsi var nədalətdi.*

**NƏDƏHİM** (Cəbrayıl, Cəlilabad, Füzüli, Zəngilan) – tərs. – *Çox nədəhim uşaxsan, dedi:nnən dömmürsən* (Zəngilan); – *Xaccanın qızı yaman nədəhim uşaxdı* (Cəbrayıl); – *Yaman nədəhim adamsan* (Cəlilabad).

**NƏDƏRƏS** (Çənbərək) – b a x **nədərət** I (1-ci məna). – *Nədərəs adamnan uzax gəz.*

**NƏDƏRƏT** I (Gəncə, Qazax) – 1. xatakar (Qazax); – *Nə nədərət adamsan* (Qazax); 2. tutağan (itə aiddir) (Gəncə). – *Bir nədərət itim var* (Gəncə).

**NƏDƏRƏT** II (Qazax) – həddindən çox. – *Biyil bizim yerdə nədərət taxıl pitif.*

**NƏDYƏDƏN** (Qazax, Şəmkir) – heçdən, yoxdan, olmaya-olmaya. – *Nədyədən gəlif mənnən pul isde:r* (Qazax); – *Nədyədən sana nə verim?* (Şəmkir).

**NƏF** I (Culfa, Qarakilsə) – xeyir, gəlir. – *Sa: nəf gətirirdi, əlinnən tuturdu.*

**NƏF** II (Yardımlı) – tab, davam. ◊ **Nəfin gətirməg** – tab gətirmək, dözmək. – *O, çətin işə nəfin gətirəmmey.*

**NƏFDƏZ** (Kürdəmir) – pis. – *Sə:n həməşə nəfdəz danışmağ adətündi.*

**NƏFDƏZİN** (Şamaxı) – çirkin. – *Sən nə nəfdəzin adamsan.*

**NƏFƏX'** (Gəncə) – bəxşiş. – *Söyün beş manat nəfəx' verdi.*

**NƏFİDARRIX** (Meğri) – xeyir, gəlir. – *Əxı bunnan gərəx' nəfidarrıx da götürəx'.*

**NƏFİLƏ** (Hamamlı) – nahaq.

**NƏFİR** (Qazax) – əldən düşmüş, yaşlı. – *Hasan bizim kətdə ən nəfir kişidi.*

**NƏFTAZ** (Yardımlı) – bəduğur. – *Yaman nəftaz adamdı.*

**NƏGAH-NƏGAH** (Qazax) – tək-tük. – *Miçəkdən nəgah-nəgah adamlarda olar.*

**NƏĞIM** (Qəbələ) – lağım. ◊ **Nəğım qazmax** – yuva düzəltmək. – *İlan özüyçün nəğım qazır* (Qəbələ).

**NƏĞM** (Ordubad) – b a x **nəğım.** – *İki evin hasarı arasınnan nəğm keçir.*

**NƏH** (Dərbənd) – torbaya tökülmüş üzsüz süddən süzülən su. – *Cigi torbiyə tökmüşdüm, şordan nəhi çox çixdi.*

**NƏHNİ** (Zaqatala) – keçəl. – *Camal nəhninin biridi.*

**NƏHRƏGÜLİ** (Xaçmaz) – zəncirotu.

**NƏHRƏQIRAN** (Xaçmaz) – lalə.

**NƏXİS-NƏXİS** (Kəlbəcər) – pis-pis. – *Ay qız, nəxis-nəxis danışma.*

**NƏX'NƏX'** I (Çənbərək, Qazax, Tovuz) – ziyan. – *Qazammer elənmer, öyə nəx'nəx' verməx'dən başqa əlinnən nə:lir* (Qazax).

**NƏX'NƏX'** II (Tovuz) – göz xəstəliyi <atda>. – *Aparıf meytərə atin nəx'nəyini kəsdirəjəm.*

**NƏX'NƏX'Çİ** (Qazax, Tovuz) – ziyankar. – *Nəx'nəx'çi adam heş kimə xeyir verməz* (Tovuz).

**NƏX'NÜK** (Zaqatala) – axsaq <adam>.

**NƏKƏZ** (Qazax) – tərs. – *Nəkəz adam sözə baxmaz.*

**NƏKGƏLƏ** (Ağcabədi, Bərdə, Gədəbəy, Yevlax) – uşaq oyunu adı. – *Nəkgələdə iki uşağ oynuyar* (Ağcabədi); – *Telmannan nəkgələ oynamışam, dənələrinin hamsını uduzuf* (Gədəbəy).

**NƏKİ** (Quba) – çiyələk. – *Gəl biz nəki dərməgə gidax.*

**NƏKNƏK** (Ağcabədi, Bərdə, Şuşa, Yevlax) – uşaq oyunu adı. – *Nəknəki fındıxnan oynuyullar* (Bərdə).

**NƏKSÖ:N** (Şamaxı) – acgöz. – *Bı uşağlar nə qədər yiyif, genə nəksö:n olur.*

**NƏK-TƏK** (Ağcabədi, Bərdə, Kəlbəcər, Şuşa, Tərtər, Yevlax) – b a x **nəknək.** – *Gəlin nək-tək oynuyax* (Yevlax).

**NƏQƏLİS** (Meğri) – nankor. – *Sən də nənəm kimi nəqəlis çıxdın.*

**NƏQIBIL** (Füzuli) – nə cür, necə. – *Nəqıbıl elədimsə, genə getdi.*

**NƏQILIX** (Zəngilan) – necə? nə cür? – *Hüseyngil nə qılıxdılar?*

**NƏQOLEY** (Böyük Qarakilsə) – babat.

**NƏLEYİN** (Bakı) – başmaq.

**NƏ:LƏM** (Zəngilan) – çoxdan. – *Nə:ləmdi uşax orda ağlıyır, ged onu gəti.*

**NƏ:LİN** (Bakı, Ordubad) – b a x **nəleyin.** – *Məliyin nə:lini itm*işdi (Ordubad).

**NƏM** (Qazax) – nişan.

☐ **Nəm çekmeg** (Bakı) – tez-tez küsmək.

**NƏMALƏ** (Bakı) – b a x **namala.**

**NƏMAV** (Qafan) – nəm. – *Bura nəmavdı;* – *Kiflənmiş şeydən nəmav iyi gələr.*

**NƏMÇİXʹ** (Şəki) – şeh.

**NƏMƏD** (Cəbrayıl, Füzuli, Şamaxı) – keçə. – *Əyağaltına yaxşı nəməd salıblar* (Şamaxı).

**NƏMƏKİ** I (Xaçmaz, Quba) – zarafatcıl. – *Biz diyəduğ də hələ nəməki adamdu* (Quba); – *Usman çux nəməki adamdu* (Xaçmaz).

**NƏMƏKİ** II (Naxçıvan) – boyanmış tumac, gön. – *Nəməki hazırlanıfdı.*

**NƏMƏKO** (Şəki) – duzlu.

**NƏMƏL** (Cənibu Azərbaycan) – bitki adı. – *Bir səbət nəməl yığ.*

**NƏMƏND** (Cəbrayıl, Füzuli, Şamaxı) – b a x **nəməd.** – *Ojağın qırağına yekə nəmənd salmışdılar* (Cəbrayıl).

**NƏMƏNƏ** (Gədəbəy, Mingəçevir, Tovuz) – nə. – *Hasan nəmənə adamdı ki, mən onnan danışam.* – *O nəmənə dedi, mən başa düşmədim* (Gədəbəy).

**NƏMƏNİYƏ** (Tovuz) – niyə, nə üçün, nəyə. – *Nəməniyə gülürsəŋ, a:z.*

**NƏMƏR** I (Quba) – bəzəkli keçə.

**NƏMƏR** II (Ağdərə, Cəbrayıl, Gəncə, Hamamlı, İmişli, Qazax, Laçın, Mingəçevir, Sabirabad, Tərtər) – 1. toyda ev sahibinə və aşığa verilən pul (Gəncə, Gədəbəy, Qazax, Laçın); – *Xörəyi yeyif üş manat nəmər verdim* (Qazax); – *Bir manat maŋa ver, nəmər verəjəm pulum yoxdu* (Laçın); 2. toyda paylanan şirniyyat (Ağdərə, Cəbrayıl, Laçın, Sabirabad). – *Aşığın nəməri bir manatdı* (Gəncə); – *Bizə yaxşı nəmər payladılar* (Cəbrayıl); 3. oğlan evlənəndə və qız ərə gedəndə onlara verilən hədiyyə (Qazax, Borçalı).

**NƏMƏT** (Ağdaş, Cəbrayıl, İmişli, Zəngilan) – b a x **nəmər** I. – *Bir nəmət almışam, gə bax* (Ağdaş).

**NƏMƏTDƏMƏG** (İmişli) – keçə döşəmək. – *Əvi nəmətdədilər, otduğ.*

**NƏMƏTGAN** (Salyan) – duzqabı.

**NƏMƏŞQƏ** (Zaqatala) – evdə qab-qacaq saxlanan yer.

**NƏMGƏL** (Qax) – oraq.

**NƏMİ** I (Ağcabədi, Ağdam, Çənbərək, Füzuli, Gədəbəy, Qazax, Qubadlı, Laçın, Salyan, Şamaxı, Şuşa, Tərtər, Tovuz) – 1. dəyədə ağartı yığılan xüsusi yer (Ağdam, Füzuli, Qazax, Laçın, Şamaxı, Tovuz). – *Nəmimizi it dağıdıf, eymeyi aparıf* (Qazax); – *Pişixʹ girdi nəmiyə* (Tovuz); – *Apar bu qatığı nəmiyə qoy* (Füzuli); – *Nəmidə beş motal var* (Şamaxı); 2. üstünə yatacaq paltarı, alt hissəsinə isə qab-qacaq yığılan şkaf (Ağcabədi, Tərtər, Zəngilan). – *Nəmimizin üsdə balaca döşəxʹçə var, onu bırə:ti;* 3. divar şkafı (Ağcabədi, Tərtər). – *Nəmi dufardo:lardı, başda iki dənə* (Ağcabədi); 4. qab-qacaq yığılan yerin qabağına tutulan pərdə (Tovuz). – *Ay qız, o nəmini düzəlt, to:x-cücə oruyu dağıtmasın.*

**NƏMİ** II (Gədəbəy, Hamamlı) – motal və ya ağartı torbasının altına qoyulan yastı daş. – *Ə: Vəli, Qızxanıma deynən nəmiyi qoysun motalın altına* (Gədəbəy).

**NƏMİYƏ** (Balakən) – b a x **nəməniyə.** – *Nəmiyə bizə gəlmirsən?*

**NƏMİYİN** (Cəlilabad) – b a x **nəleyin.**

**NƏMRÜT** (Gədəbəy) – eymənin üzünə yığılan çirk. – *Pıçaxnan, ya da qaşıxnan təmizdə nəmrütü eymədən.*

**NƏMÜJMƏL** (Cəbrayıl) – naməlum. – *Mə:m getməyim nəmüjməldi.*

**NƏNƏ** I (Ağdam, Ağcabədi, Ağdərə, Bərdə, Biləsuvar, Cəbrayıl, Cəlilabad, Goranboy, Göyçay, Kəlbəcər, Qazax, Laçın, Lənkəran, Ordubad, Şərur, Tərtər, Tovuz) – ana. – *Uşağı kim doğdu, uşağ ona nənə deməlidi* (Bərdə); – *Nənə, ma: çörəx' ver* (Kəlbəcər); – *Nənəmnən toya getmişdim* (Lənkəran).

**NƏNƏ** II (Balakən) – bacı. – *Nənəm onuncu sinifdə oxuyur.*

**NƏNƏBİZİ** (Quba) – uzunsov. – *Mən bağda nənəbizi alça yeməgə gidirəm.*

**NƏNƏCİY** (Gədəbəy) – quş adı.

**NƏNƏDİVİ** (Qazax) – qazanın dibində qalan plov. – *Maŋa nənədivi ver.*

**NƏNƏGƏZALI** (Kürdəmir) – dovğaya tökülən yabanı bitki adı.

**NƏNƏHER** I (Naxçıvan) – kobud.

**NƏNƏHER** II (Meğri) – kök və zorba. – *Qapan tərəfdə nənəher arvatdar çoxdu.*

**NƏNƏİG** (Bakı) – gec başa düşən, key.

**NƏNƏK** (Zaqatala) – dərman bitkisi adı. – *Anam məni nənək çayınnan tərrətdi.*

**NƏNƏQAZAR** (Oğuz) – yerkökü.

**NƏNƏLİK** (Bərdə, Lənkəran, Tərtər) – ögey ana. – *Zəhrənin nənəliyi ona yaxşı baxır* (Bərdə).

**NƏNƏMNƏHRƏ** (Gədəbəy, Qazax, Tovuz) – b a x **namənnəhrə.** – *Qulamın bir nənəmnəhrə qızı var kı, balaja qapıdan keşməz* (Qazax).

**NƏNƏMÜZÜMÜ** (Cəbrayıl) – üzüm növü adı.

**NƏNƏQIÇİ: NƏNƏQIÇİ VERMƏG** (Yardımlı) – açıq vermək, hirsləndirmək. – *Sənə nənəqıçi verey, fikir verma.*

**NƏNİX'** (Mingəçevir, Ucar) – b a x **nanığ.** – *Nənix' adam adamı yarıtmaz* (Ucar).

**NƏNİY** (Bakı, Şamaxı) – b a x **nanığ.** – *Özüvi xəlqə nəniy tanıtma* (Bakı).

**NƏPİK** (Qax) – pis nəfsli.

**NƏPSİCAR** (Zaqatala) – acgöz.

**NƏR** (Lənkəran) – sükanı keçirmək üçün gəminin arxasına vurulan dəmir halqa. – *Əmir, sükanı nərə sal, yola düşəg.*

**NƏRDİVAN** (Borçalı, Dərbənd, Füzuli, Hamamlı, Qazax) – pilləkan. – *Abdul əvçin yəxşi nərdivan düzəltdü* (Dərbənd); – *Nərdivannan oxarı çıxer, aşağı tüşöllər* (Borçalı).

**NƏRDİYAN** (Ağdaş, Mingəçevir) – laydır. – *Arabıya nərdiyan qayırdım* (Ağdaş).

**NƏRDİYANNAMAX** (Ağdaş) – laydırlamaq. – *Arabamı nərdiyannamağ isdiyirəm.*

**NƏRƏ** I (Ordubad) – evin üstünə qoyulan böyük tir. – *Nərəmiz sınıb.*

**NƏRƏ** II (Salyan) – erkək dəvə.

*Yetimin yekə dərdi,*
*Yüklənib lökə dərdi.*
*Nərə çəkməz, maya çəkməz,*
*Fil gərək çəkə dərdi.*

**NƏRƏDÖŞ** (İmişli) – qamətli, cüssəli. – *Savağ açıldı, bir nərədöş oğlan gəldi.*

**NƏRƏX'** (Şəmkir) – çoxdanışan, uzunçu. – *Bir nərəx' qarıdı kı, dindirənnən so:ra kiriyəsi döy.*

**NƏRƏXƏR** (Bakı) – çox böyük, nəhəng.

**NƏRƏVİS** (Gəncə) – tərs <at>. – *Nərəvis atı satdım.*

**NƏRƏTAZ** (Kürdəmir) – yöndəmsiz.

**NƏRGƏ** (Şamaxı) – lərgə. – *Nərgə yiyilir.*

**NƏRGİ** I (Qax, Mingəçevir, Şəki) – toxumluq soğan. – *Beş ləh nərgi ehmişux biyilləri* (Şəki).

**NƏRGİ** II (Mingəçevir) – keçi xəstəliyi.

**NƏRGİLİX'** (Şəki) – toxumluq soğan əkilən yer. – *Nərgilix'də toxum yetişifdi.*

**NƏRGİZAVA** (Quba) – sarı buğda, buğda növü. – *Biyil nərgizava əkmədux.*

**NƏRİ** (Şəki) – dəmirçi çəkici. – *Nərinnən vur.*

**NƏRMADA** (Salyan) – qapı və ya pəncərə çərçivəsi. – *Nərmada olmasa qapı diyammaz;* – *Nərmada mö:kəm olsa, qapı yaxşı durar.*

**NƏRMAYI** (Göyçay, Mingəçevir) – qapı cəftəsi.

**NƏRMƏ** (Dərbənd) – üzüm növü adı. – *Nərməni lügəndəyə çəküb çubuğ quyar tikinə.*

**NƏRNƏX'** (Cəbrayıl) – şərik. – *Birinin on qoyunu var, onun mən gətirif qatıram, onun da başqası, olurux nərnəx'.*

**NƏS** I (Cəlilabad, Tovuz) – tərs. – *Çox nəs adamsaŋ, söz eşitmirsən* (Tovuz).

**NƏS** II (Dərbənd) – çərşənbə axşamı.

**NƏSDİXʹ** (Tovuz) – tərslik. – *Az nəsdiy elə, a bala, adam höjət olmaz.*

**NƏSSƏ** (Culfa) – ləqəb, ayama. – *Adam çağıranda qabaxca o:un nəssəsini çağrıllar.*

**NƏSLƏ** (Gədəbəy) – tamahkar. – *Naman belə nəslə adammış o kişi.*

**NƏSSİG** (Cəlilabad) – b a x **nəsdixʹ.** – *Məni nəssig tutdi, getmədim.*

**NƏŞDO: NƏŞDO ELƏMƏXʹ** (Ağdam, Xocavənd) – qəlyanaltı etmək. – *Nəşdo eləmişəm, yanı bir az yemişəm* (Ağdam).

**NƏT** (Zərdab) – bıy, oy. – *Nət, şalvarımın dizi cırılıf.*

**NƏTƏVİ** (Böyük Qarakilsə) – necə? nə cür?

**NƏVET** (Lənkəran) – b a x **nəbit.** – *Nəvet dənizdə balığ cəmləyür.*

**NƏVƏ** (Naxçıvan) – toya adam çağıran. ◊ **Nəvə çıxarmax** – toya adam çağırmaq üçün müəyyən adam seçmək. – *Qızxanımın toyunda Xuruşdu nəvə çıxartmışdılar, gəldi bizi də toya çağırdı.*

**NƏVƏRD** (Şamaxı) – toxuculuq dəzgahında parçanın sarındığı hissə. – *Qoz ağacının nəvərdi daha yaxşı olur.* – *Toxıdığım yaylığ nəvərdün üsdə qaldı.*

**NƏVƏS** (Daşkəsən) – necə, nə cür. – *Sənin nəvəs adam olduğuu bilmerəm.*

**NƏVİD** (Lənkəran) – b a x **nəbit.**

**NƏYNƏQUHU** (Bakı) – yelləncək.

**NƏYNİLƏMƏXʹ** (Ağdaş) – uşağı beşiyə qoyub bələmək. – *Uşağı nəynilməxʹ vaxtıdu.*

**NƏYO:Z** (Cəlilabad, İmişli) – nə əcəb? – *Bibi, nəyo:z bizə gəlibsən?* – *Nəyo:z səni söyme:b* (Cəlilabad).

**NƏYVƏND** (Goranboy, Tovuz) – b a x **neyvənt.** – *Çimnaz çox nəyvənd qızdı* (Goranboy).

**NƏYVƏNT** (Gədəbəy, Qazax) – b a x **neyvənt.** – *Kazım kimi nəyvənd heş yerdə tapılmaz* (Gədəbəy).

**NƏYVƏT** (Gədəbəy, Şəmkir) – b a x **neyvət.** – *Nijə də nəyvətdi, gürşət təpəsinnən şaqqımış* (Gədəbəy).

**NƏZİLMƏXʹ** (Barana) – qaçıb aradan çıxmaq. – *Baba kişi işi sulux görüf nəzildi.*

**NƏZİXʹ** (Ağdam, Başkeçid, Borçalı, Culfa, Gəncə, Kəlbəcər, Qazax) – yağ və südlə bişirilmiş çörək. – *Nəzixʹ şirin olor* (Qazax); – *Savah çaynan nəzixʹ yidim* (Gəncə); – *Anam ma: nəzixʹ pişirif* (Borçalı).

**NIFIS** I (Cəbrayıl, Zəngilan) – çirkin və bədxasiyyət adam. – *O:n üzün gor görsün, elə nıfısdı ki* (Cəbrayıl).

**NİĞNİ** (Zaqatala) – tərəcə.

**NİĞƏ** (Dərbənd) – ördək tutmaq üçün düzəldilmiş göl. – *Niğələri kövlü açan dikabirdə açadı.*

**NİĞNİĞLAMAX** (Quba) – sözü uzada-uzada danışmaq. – *Danışanda niğniğlama.*

**NIĞIR-NIĞIR** (Mingəçevir) – gizli-gizli.

**NIXLAMAX** (Cəbrayıl) – doldurmaq. – *Çu:alı ağzına kimi nıxladı buğdoynan.*

**NIXÇAMAX** I (Basarkeçər, Gəncə, Qarakilsə, Zəngilan) – b a x **nıxlamax.** – *Pambı:n hamısın nıxçamısan bıra, heş yerdən qaldırmağ olmur* (Zəngilan); – *Bərk nıxça çualı* (Gəncə).

**NIXÇAMAX** II (Basarkeçər, Qarakilsə) – vurmaq. – *Ağzının üsdə elə nıxçadım kı, yerində qaldı* (Basarkeçər).

**NIXÇIMAX** (Tovuz) – b a x **nıxlamax.** – *Nərman maşına yaman çox odun nıxçıyıf.*

**NIXDİN: NIXDİN VURMAĞ** (Yardımlı) – son qoymaq, sona çatdırmaq. – *Sən bı işun nıxdin vur.*

**NIQIMAX** (Qazax, Meğri) – vurmaq. – *Əli belimə elə nıqıdı ki, nəfəsim batdı* (Qazax).

**NIQQIZ** (Ağbaba, Cəbrayıl) – xəsis. – *Söyün yaman nıqqız adamdı* (Ağbaba).

**NINIĞ** (Kürdəmir) – burnunda danışan. – *Ağaveysin oğlu nınığdı.*

**NIRDOS** (Lənkəran) – qaraqabaq. – *Bi bax, gör nə nırdos adamdı.*

**NIRĞIZ** (Ağdaş, Mingəçevir, Zəngilan) – b a x **nıqqız.** – *Kərim çox nırğızdı* (Ağdaş).

**NIRI** (Qazax) – böyük, iri. – *Dədəm bir gilas əkif, meyvaları elə nırıdı kı.*

**NIRILDATMAX** (Qafan) – silkələmək. – *Çıx bı armıdı nırıldat töxʹ divinə.*

**NIRQIZ** (Füzuli, Qarakilsə, Meğri, Ordubad, Ucar) – b a x **nıqqız.** – *Mö:lan yaman nırqız adamdı* (Ordubad); – *O, yaman nırqız adamdı, onnan bir qəpixʹ çıxmaz* (Füzuli).

**NIRQIZDIX** (Füzuli, Qarakilsə, Meğri, Ordubad, Şahbuz, Ucar) – xəsislik. – *Nırqızdığ eləmə, pulun çoxdu özã: postal al* (Ordubad).

**NIRNIÇ** (Qazax) – tikanlı ağac növü. – *Nırnıcın meyvəsin dərməx′ mümkün dö:l.*

**NIRNIS** (Masallı) – b a x **nıqqız.**

**NIRRAMAX** (İmişli) – ara vermədən ağlamaq. – *Bəsdi nırradın, baş-beynimiz getdi.*

**NIŞIRIĞ** (Yardımlı) – nəsil. – *Səni görüm nışırığın kəsilsin.*

**NIŞQAR** (Meğri) – ot yeyiləndən sonra qalan çör-çöp.

**NITIĞ** (Salyan) – b a x **nınığ.** – *Nıtığ Fərşil Salyana getdi.*

**NIZĞALI** (Meğri) – üzəri naxışlı <çörək>. – *Nizğalı fətirdən bişirip tollamısan ura, bir tə:lif də eləmeysan.*

**NIZNIZ** (Mingəçevir) – burnunda danışan, tın-tın.

**NIZQALAMAX** (Meğri) – yayılan xəmirin üzərində naxış çəkmək. – *Man nızqaleyram, san yap.*

**NİCAR** (Salyan) – duzlanıb qurudulmuş <balıq>. – *Nicar balığ plo:nan yiməli olir.*

**NİÇƏX′** (Borçalı) – qulağın sırğa taxılan hissəsi. – *Təniyi niçəyə taxdım.*

**NİF** (Çənbərək) – qarğış. – *Nif töx′mə uşağa, az:.*

**NİFƏ** (Şəki) – tumanın bağ keçirilən yeri (hissəsi). – *Nifəyə bağ keçirərdux belə bağlamaxdan ötərin.*

**NİFLƏMƏX′** (Çənbərək) – qarğamaq. – *Arvatdar Usuva niflədilər.*

**NİFRİN** I (Cəbrayıl) – nəhəng. – *Əhməd dayı, bırda bir nifrin gürzə yatıf.*

**NİFRİN** II (Füzuli) – çox, çoxlu. – *İclasda nifrin adam vardı.*

**NİFRİN** III (Qax) – soyuq.

**NİFRİN** IV (Gədəbəy) – eybəcər. – *Nifrinin biridi, baxmağ olmoy üzünə.*

**NİFUSƏT** (Şamaxı) – bədbəxtlik. – *Səni nifusət basıb.*

**NİX** (Ordubad) – məzənnə, nırx. – *Bazara təzə nix qoyulub.*

**NİHRƏBAŞİ** (Tabasaran) – nehrə tıxacı.

**NİJDEN** (Qarakilsə) – onbaşı. – *Həsən bılların birin götürür, gedir nijdeh dalınca.* – *Nijdehin vaxtında mən onun borcunu verdim.*

**NİL** (Astara, Quba, Lənkəran) – ağac növlərindən birinin adı. – *Nil ağacı quruyub* (Quba).

**NİMÇAVA** (Tabasaran) – b a x **minçava.**

**NİMDAR** (Astara, Bakı, İsmayıllı, Lənkəran, Salyan, Şamaxı) – döşəkçə. – *Oturmo:un, qoyın nimdar gətirim* (Şamaxı); – *A:z, Səknə xanım, nimdarı at ora, aton ossun* (Salyan).

**NİMDƏR** (İsmayıllı, Salyan, Şamaxı) – b a x **nimdar.** – *Nimdəri gəti altıma qoyım* (İsmayıllı).

**NİMDƏRÇƏ** (Quba) – b a x **nimdar.** – *Qərdeşim uşağlarçun usdulların üsdünə nimdərçə quydi.*

**NİMEHRİ** (Lənkəran) – iri duz.

**NİMİCMAR** (Bakı) – yarımçıq. – *Sənə min kərəm dimişəm ki, nimicmar iş görmə.*

**NİMKƏT** (Təbriz) – b a x **nimdar.** – *Təxtin üssində nimkət vardı.*

**NİMLİ** (Meğri) – naməlum. – *Əş, at almağın nimlidi, ya alecan?*

**NİMMƏ** (Kəlbəcər) – quyruqsuz <toyuq, xoruz>. – *Nimmə to:ux quyruxsuz olar.*

**NİMRİ** (Meğri) – qayğanaq. – *Popağı vurem yerə, gündə üş dəfə nimri ye:m.*

**NİMS** (Çənbərək) – iştaha. – *Yə:mmədim büyünkü ploydan, nəysə nimsim çəx′mədi dayna.*

**NİMSAĞ** (Cəlilabad) – qadın şalvarı. – *Bırda arvatdar da nimsağ geyir.*

**NİMŞARAN** (Mingəçevir) – tamamilə, tamam. – *Bu aşın nimşaran yağı yoxdu.*

**NİN** (Naxçıvan, Ordubad, Şərur) – hin. – *Toyuxları ninə qat* (Naxçıvan).

**NİR** (Cəlilabad) – yəhər.

**NİRİ** (Cəlilabad) – b a x **nir.** – *Niri qoyginən atın belinə, minginən, getginən.*

**NİSİ** (Quba) – pendir növü adı. – *Gidüb Qafardan bir girvənkə nisi gətirün.*

**NİSLAMAĞ** (Quba) – çox yemək nəticəsində ağırlaşmaq, ağır-ağır nəfəs almaq. – *Çox yemə, nislarsan.*

**NİST** (Gədəbəy, Tovuz) – şikəst. – *Görüm səni nist olasan* (Tovuz).

**NİŞXORD** (Yardımlı) – b a x **neşqurd.** – *Axurun içindəki nişxordi at.*

**NİŞ: NİŞ VURMAX** (Gəncə) – tənə vurmaq. – *Niyə belə niş vurmağ isdədiyiŋi mən yaxşı annıyıram.*

**NİŞDOV** (Ordubad) – bağı suvardıqdan sonra artıq qalan su. – *Bu dəfə bağdan çoxlu nişdov çıxmışdı.*

**NİŞDOVLUX** (Ordubad) – bağı suvararkən artıq suyun yığılıb qaldığı yer. – *Nişdovlıxda bir ilan gördüm.*

**NİYABET** (Bakı) – ah, zar. – *Sənün niyabetün öz təpəvə degsün.*

**NO:AR** (Gədəbəy, Qazax) – cecimin kənarlarında toxunan haşiyə. – *Cejimin no:arını tix'dinizmi, oğul?* (Gədəbəy).

**NOBAT** (Cəlilabad) – bax **navat.** – *Dəgirmanda dən çoxdu, bu gün nobat olmaz bizə.*

**NOBATİ** (Bakı) – açıq çəhrayı. – *A balam, nabati rəngdədü də, hələ qızçun yaxçıdu.*

**NO:ÇƏ** (Şəki) – pəhləvanınköməkçisi. – *Pehlivannarın eli:n altında işdiyənnərə deyillər no:çə.*

**NODƏRƏMƏT** (Gəncə) – həddindən artıq, çox. – *Nodərəmət gözəldi Pəri.*

**NOĞAR** I (Culfa) – gəlin.

**NOĞAR** II (Culfa) – öküz qoşularkən yara olmamaq üçün onun boynuna qoyulan yastıq.

**NOĞUDAĞACI** (Ağdaş) – ağac növlərindən birinin adı. – *Bizim bağlarda noğudağacı yoxdu.*

**NOĞULDAN** (Şəki) – taxça. – *Noğuldana pərdə tik.*

**NOHƏN** (Cənubi Azərbaycan) – bulağın qabağında düzəldilmiş nov.

**NO:XARIŞ** (Bakı) – yavanlıq.

**NO:XƏRİŞ** (Bakı, Tabasaran, Zaqatala) – bax **no:xarış.**

**NOXSANT** (Gəncə) – xatakar. – *Qulu noxsant adamdı.*

**NOXSAT** (Gədəbəy) – bax **noxsant.** – *Çox noxsat adamdı Hətəm, heş xeyir işnən arası olmaz.*

**NOKEŞ** (Şəki) – arabanın təkərlərini birləşdirən ağac, ox. – *Nokeş çüriyifdi.*

**NOQARA** (İrəvan) – dəvəyə vermək üçün arpa unundan və ya kəpəkdən hazırlanmış çörək.

**NOLƏ** (Quba) – arpadan hazırlanmış yem. – *Üküzlərə nolə götür.*

**NOM: NOM ELƏMƏX'** (Meğri) – utanmaq. – *İki kişiyə bir qobda xurəx' quymağa nom eli:yix.*

**NONA** I (Biləsuvar, Salyan) – hin. – *Toyuğ nonada yoxdu* (Biləsuvar).

**NONA** II (Biləsuvar) – toxum əkmək üçün düzəldilən yuva, yer. – *Bu gün igirmi beş dənə nona qazmışam.*

**NOR** (Ağdam, Ağcabədi, Başkeçid, Borçalı, Çənbərək, Hamamlı, Xocavənd, Qazax, Ordubad, Zəngilan) – 1. pendir suyunu qaynadaraq alınan şor (Ağdam, Borçalı, Hamamlı, Qazax, Ordubad, Təbriz, Zəngilan). – *Noru pendirə qatanda illaf ləzətdi olur* (Zəngilan); – *Norun dadı şirin olor* (Borçalı); 2. pendir suyu (Cəbrayıl, Çənbərək). – *Norun özü nədi ki, dadı nə ola* (Qazax).

**NO:RÇA** (Oğuz) – gölməçə. – *No:rçanı təmizdiyin.*

**NO:RƏST** (Ordubad, İrəvan) – tezyetişən <meyvə>. – *Bu il mən no:rəst tutu bir manata satdım* (İrəvan); – *No:rəst üzim tez yetişir* (Ordubad).

**NO:RRAŞMAX** (Şəki) – göllənmək. – *Yolu su basıf, heylə no:rraşıf durur.*

**NORU** (Zəngilan) – palan.

**NORUX** (Tovuz) – səliqəsiz.

**NORUŞUD** (Astara, Lənkəran) – Novruz bayramının gəlişini bildirmək üçün oxunan mahnı.

**NO:RUZA** (Şəki) – novruzgülü. – *No:ruza çiçəyi noruzda açar.*

**NO:RUZBULAĞI** (Şamaxı) – *məc.* qaraqabaq. – *Sən də lap no:ruzbulağı kimi orda bir kəlmə danışırsan.*

**NO:RUZİ** (Cənibu Azərbaycan) – bax **no:ruza.**

**NO:RUZNİSƏ** (Salyan) – Novruz bayramında uşaqların qapı-qapı gəzib şirniyyat yığması. – *No:ruznisə mart ayında olar.*

**NOŞA** (Gədəbəy) – camış balası.

**NO:VA** (Şəki) – cığır. – *Yusif no:vaynan dağın başına çıxdı.*

**NOVAR** (Göyçay) – çul.

**NOVAT** (Gədəbəy, Hamamlı, Şəki) – bax **navat.** – *Mã: novat çatıcaxdı hindi* (Şəki).

**NOVÇA** (Qax) – ağac oyuğu.

**NOY** (Qazax) – nov.

**NOYDƏRƏMƏT** (Gəncə, Qazax) – 1. sözə baxmayan (Qazax). – *Bu Əhməd nə noydərəmət adamdı.* – *Noydərəmət adamnan xoşun gəlmir* (Gəncə); 2. nadinc (Gəncə).

**NOZAR** (Şəki) – taxtaya naxış vurmaq üçün rəndə. – *Nozarı mã: ver.*

**NÖ:ƏX′** (Gədəbəy) – çökək yer. – *Nö:əx′də öycüx′ quruf də:n oğluŋ.*

**NÖGÜD** (Zəngilan) – qaynadılmış buğda ilə kişmiş, küncüd və s. qarışığından hazırlanan yemək adı. – *Nögüdü qışda pişirif ye:llər.*

**NÖHÜ** (Qax) – meşəlik.

**NÖKİSƏ** (Quba, Şamaxı) – acgöz, çoxyeyən. – *Nökisə uşağ adami biyabır elər* (Quba).

**NÖKSƏ** (Qəbələ, Quba, Şəki) – b a x **nökisə.** – *Nöksə adamın gözi həmməşə oyandabuyanda olar* (Şəki).

**NÖQTƏLƏMƏX′** (Axalsxi) – danlamaq. – *Kərim gədiyi gündə nöqtəliyir, heş vejinə də döyül.*

**NÖSLƏ** (Gədəbəy) – tamahkar. – *Həşəm Ədil də birəz nöslədi.*

**NÖŞÜN** (Bakı, Şamaxı) – nə üçün? – *Nöşün mını mənə dimədün?* (Bakı).

**NÖ:ÜS** (Bakı) – b a x **nöyüs.**

**NÖ:ÜSPƏR** (Bakı) – tamahkar.

**NÖ:ÜZ** (Gədəbəy, Qazax, Tovuz, Şuşa) – nə əcəb, nə yaxşı. – *Nö:üz bizə:lmişdin?* (Qazax); – *Nö:üz cavannar səni yatağa buraxdı?* (Gədəbəy).

**NÖYDƏRƏMƏT** I (Çənbərək, Kürdəmir, Qazax) – b a x **noydərəmət** 1. – *Hasan nöydərəmətin biridi, ona heş nə demə* (Qazax).

**NÖYDƏRƏMƏT** II (Çənbərək, Gədəbəy, Qazax, Tovuz) – b a x **nodərəmət.** – *Beyjə nöydərəmət yağış yağdı* (Qazax); – *Nöydərəmət qartof çıxdı qapıdan* (Çənbərək); – *Nöydərəmət üzüm var indi bağda* (Gəncə).

**NÖYÜÇCƏ** (Ucar) – quş adı. – *Nöyüççənin əti yeməlidi, ama biz yemirik′.*

**NÖYÜS** (Gədəbəy, Şuşa) – nəfs. – *O, çox pis nöyüsdü uşaxdı* (Gədəbəy).

**NU:AR** I (Gədəbəy) – b a x **no:ar.** – *Məsmənin cejiminin nu:arı lap xoşuma gəldi.*

**NU:AR** II (Ağdam) – suyun əmələ gətirdiyi kiçik xəndək.

**NUBAH** (Sabirabad, Salyan, Zəngilan) – bol. – *Bıyıl il nubah gəlif* (Zəngilan).

**NUBAHLIX** (Sabirabad, Salyan, Zəngilan) – bolluq.

**NUĞ-NUĞ** (Quba) – burnunda danışan. – *Sən də nuğ-nuğ olma.*

**NUĞAL** (Quba, Tabasaran) – iribuynuzlu <heyvan>. – *Bizim kəndə dört dənə nuğay inəg gətirdilər* (Quba).

**NUĞALA** (Bakı) – b a x **noğala.**

**NUXUS** (Qazax) – adət, dəb. – *Toyda qapı basmax nuxusdu.*

**NUMDAR** (Mingəçevir) – b a x **nimdar.**

**NUMUD: NUMUD VERMEG** (Bakı) – öyünmək, lovğalanmaq.

**NURQUZ** (Cəbrayıl) – kobud adam.

**NURUNBURUN** (Quba) – armud növü adı. – *Həsən nurunburun armudu dərib gətirdi.*

**NUSQ** (Quba) – qanun, qayda. – *Hər yerdə bir nusq var.*

**NUSQA** (Ağcabədi) – xəlvəti iş görən. – *O, nusqanın biridi.*

**NUSQABƏNT** (Gəncə) – ara həkimlərinin göstərişi ilə dərmanlar hazırlayıb satan. – *Nusqabənt Kərimin tükənində nə desən var.*

**NUŞQULLAMAX** (Çənbərək) – nişan almaq. – *Bürəbütdəni elə nuşqulladım kın, əlimnən daş açılanda dombalağ aşdı.*

**NUVAR** (Cəlilabad) – b a x **navar** I (2-ci mənа).

**NUVUR** (Xaçmaz) – b a x **navur** I.

**NUY** (Mingəçevir) – kolluq.

**NUZUL** I (Cəbrayıl, Ordubad, Zəngilan) – tənbəl. – *Həsən çox nuzuldu* (Ordubad).

**NUZUL** II (Ordubad) – inadkar.

**NUZULA** (Şamaxı) – b a x **muzula.** – *Anamın nuzulası tutıb, başın götürə bilmir.*

**NUZULƏ** (Lənkəran) – tər iyi.

**NÜBARƏK** (Quba) – səpki. ◊ **Nübarək olmağ** – səpmək. – *Keçən gecə sifətim nübarəy oldu.*

**NÜDRƏTƏN** (Naxçıvan, Şərur) – təsadüfən.

**NÜ:Ə** (Göyçay, Ucar) – şitil.

**NÜƏX′** (Çənbərək, Qazax) – b a x **nö:əx′.** – *Ə:ğım nü:əyə tüşdü* (Qazax); – *Nü:əx′də ot sıxdı, amba çox daşdıxdı* (Çənbərək).

**NÜ:ƏN** (Yevlax) – mövsüm. – *Payız nü:əni şalampur yiməli olur.*

**NÜƏR** (Borçalı) – ikiyaşar keçi.

**NÜFRÜN** (Şəki) – tufan, çovğun. – *Axşama yaxın bəh nüfrün qofdu.*

**NÜGAH** (Sabirabad) – bol.

**NÜKTƏLİ** (Şəki) – eyhamlı. – *Nə çox nüktəli danışırsan.*

**NÜKÜRDƏ** (Dəvəçi) – nişanlı oğlan və ya qıza verilən ad.

**NÜMRİ** (Bakı) – yağda bişirilmiş, lakin qarışdırılmamış yumurta. – *Nümri yari ağ, yari sari rəngdə olur.*

**NÜMÜŞ** (Qazax) – nümunə. – *Toxumnan nümüş gətirin görəx′ nətə:rdi?*

**NÜN** (Biləsuvar, Göyçay) – b a x **in** II. – *Toyux nünə girmişdi* (Göyçay).

**NÜNNÜNÜ** (Bakı) – avara.

**NÜNÜ** (Borçalı, Qazax, Zəngilan) – ağcaqanad. – *Bizim yerdə çox nünü var* (Qazax); – *Nünü ağaca çoxlu yığılır* (Borçalı).

**NÜNÜK** (Ağdam, Ağcabədi, Naxçıvan) – b a x **nanığ.** – *O, nünüyün biridi* (Ağcabədi); – *Mürsəl çox nünüy uşaxdı* (Naxçıvan).

**NÜRSƏ** (Ordubad) – kotana qoşulmuş öküzlərin boyunduruğu üstündə oturub onları sürən adam. – *Nürsə yoxdu, cüt işdəmir.*

**NÜŞQURD** (Zəngilan) – b a x **neşqurd.**

**NÜTƏRƏLİK** (Sabirabad) – səbirsizlik. – *Nütərəliyinnən bu gün özün az qala həyatını puç eləmişdin.*

**NÜTRƏ** (Sabirabad) – səbirsiz.

**NÜTVƏ** (Ordubad) – nəsil. – *Həsənin nütvəsi kəsildi.*

**NÜY** I (Daşkəsən, Qazax) – dərə. – *Qoyunnarı nüyə apar otdasın* (Qazax).

**NÜY** II (Xanlar) – üskük. – *Nüyü barmağa keçirillər paltar tikəndə.*

**NÜYƏ** (Göyçay) – b a x **nü:ə.** – *Mə:m əkdiyim nüyələr gələn il məhsul verər.*

**NÜYƏN** (Ağdaş, Xocavənd, Qubadlı, Naxçıvan, Oğuz, Şəki) – b a x **nü:ən.** – *Hacı, əlli manat mənə əl tut, barama nüyənində verərəm* (Naxçıvan); – *Arpa nüyəni yetişdi* (Şəki); – *Ordan getdim Qaryagində üş nüyən işdədim* (Xocavənd).

☐ **Nüyəndə eləməg** (Şamaxı) – ağacın qol-budaqlarını təmizləmək, budamaq. – *Biyil ağacları nüyəndə eləmişəm.*

# Oo

**OANIŞMAX** (İmişli) – dirçəlmək. – *Qoyunu yaxşı otararsaŋ oanışar.*

**OAR** I (Gədəbəy) – məğz, əsas. – *Uzun danışma, sözüŋün oarnı de!*

**OAR** II (Gədəbəy) – uyğunluq, münasiblik. – *Heş oarı varmı sən dediyiŋin oyşə?* ◊ **Oarı olmax** – layiq olmaq. – *Elə iş tut kun, adına oarı olsun bir.*

**OAZIMAĞ** (Bakı) – b a x **avazımağ.** – *Qərdəşim cani, uşağ yaman oazımışdı.*

**OAZIMAX** (Hamamlı, Qazax) – b a x **avazımağ.** – *Kişi durduğu yerdə birdən oazıdı* (Hamamlı).

**OBAÇILIĞ** (Biləsuvar) – köçərilik. – *Günimiz obaçılığda keçərdi qədimdə.*

**OBAŞ** (Cəbrayıl, Gədəbəy, Gəncə, Şamaxı, Şəki, Zaqatala) – tezdən, sübhdən. – *Naxxartana obaş dursaŋ, oxxartana da yunul oloy canın* (Gədəbəy).

**OBUR** (Lənkəran) – parça, tikə. – *Səkinə, bi obur balığ verərsə:n?*

**OCAX** I (Meğri) – ovsunçu. – *Siz tayfanın avratdarı da ocaxdımı?*

**OCAX** II (Kürdəmir) – yuva (xiyar və s. əkmək üçün çala). – *Otuz ocax yerpənəgim var.*

**OCAXLAMA** (Qarakilsə, Meğri) – 1. tamamilə, büsbütün; 2. hamısı. – *Ollar ocaxlama elədilər* (Qarakilsə); – *Mir Mahmıt uşağı ocaxlama Erannan gəlipdi* (Meğri).

**OCİSFİRİ** (Tovuz) – b a x **ocisviri.**

**OCİSVİRİ** (Tovuz) – onun kimi. – *Ocisviri bizim də başımıza oyun aşdılar.*

**OCU** (Zaqatala) – nənə. – *Ocu, mağa nağıl danış.*

**OÇ ELƏMƏK** (Salyan, Bakı) – oturmaq (uşaq leksikonunda). – *Get xala:n qucağında oç elə.*

**O:DAĞ** (Zərdab) – sızma. ◊ **O:dağ eləməxʹ** – sızmaq. – *Bu tərəfə axan suyun qabağını nəqqədər bərk bağladığsa da, yenə altdan o:dağ elədi.*

**O:DAM** (Kürdəmir) – suyun açdığı yarğan. ◊ **O:dam açmağ** – yarğan açmaq. – *Su o:dam açar, ordan da axar.*

**ODDAMI** (Oğuz) – tütün qurutmaq üçün tikilmiş xüsusi bina.

**ODDAX** I (Ağcabədi, Qazax) – yanğın. – *İt oddaxdan çıxıf qaçıf;* – *Oddağ olanda hay-haray eliyirixʹ, camahat gəlif kömәy eliyir, oddağı söndürür* (Ağcabədi); – *De:llər Qaraçalada oddax var* (Qazax).

**ODDAX** II (Zəngilan) – ütülmüş sünbüldən çıxan taxıl.

**ODTALA** (Qax) – odur (çox uzaqda olan əşyanı göstərmək üçün işlənir).

**ODULMAYI** (Şamaxı) – xörək adı. – *Əməköməci odulmayısı başqalarınnan daddıdı.*

**ODUNQUŞU** (Zaqatala) – birəbitdən (quş adı).

**OFDU** (Zaqatala) – əla, gözəl, çox yaxşı.

**OFGƏ** (İsmayıllı) – ağciyər. – *Axırı gördüm lap öfgəm yanır.*

**O:GARRIĞ** (Bakı) – əziyyət, çətinlik. – *Bı Kərimi mən o:garrığnan oxıdmışam.*

**OGƏ** (Salyan) – qayığa dolmuş suyu atmaq üçün işlədilən taxta qab, çömçə. – *Bı lotgənin ögəsi yoxdı.*

**O:GƏR: OGƏR ELƏMƏG** (Bakı) – avara eləmək, dəngəsər eləmək. – *Məni yuxıdan o:gər elədü.*

**OĞ** (Zaqatala) – ov. – *Oğa-zada gidən olmazdı bizin dö:rümüzdə;* – *Gidəllərdi oğ oğlamağa.*

**OĞAL** (Ağbaba, Bakı, Zəngibasar, Cənubi Azərbaycan, Goranboy, Şamaxı, Şərur) – o yan, o tərəf. – *Ədə, əl-ayağa dolaşma, ged oğala* (Bakı); – *Oğala gedirsəŋsə, gəl gedəxʹ* (Goranboy); – *Həsən oğaldan gəlir* (Cənubi Azərbaycan); – *Əli oğala getdi* (Şamaxı); – *Mən oğaldan gəlirəm* (Şərur).

**OĞALA** (Şərur) – o yana, o tərəfə.

**O:ĞALAMAX** (Ucar, Zaqatala) – ovmaq. – *Unun üsdünə su çiliyirixʹ, so:ra o:ğalıyırıx olur umaç* (Ucar).

**OĞAL-BUĞAL** (Ağbaba, Goranboy, Şərur) – o tərəf-bu tərəf. – *Pərigilin toyuğu itmişdi, arvad oğal-buğala qaça-qaça qalmışdı* (Ağbaba).

**O:ĞANI** (Şəmkir) – yüyən.

**OĞIRTDAĞ** (Sabirabad) – çox arıq (heyvan). – *Sə:n bı inəgün oğırtdağdı, heç inamme:ram ki, yaza çıxa.*

**OĞLAXQIRAN** (Şərur, Zəngibasar) – b a x **oğlaqqıran.**

**OĞLAQQIRAN** (Borçalı, Qazax) – baharın ilk ayı. – *No:ruzdan soŋra – mart ayında oğlaqqıran girer* (Qazax).

**OĞLAMAN** (Cənubi Azərbaycan) – bir bala doğmuş (keçi). – *Oğlaman keçini qurd yedi.*

**OĞLAN-QIZ** (Şamaxı) – xonsa. – *Bizim kəntdə bir oğlan-qız var.*

**OĞLUĞ** (Zaqatala) – oxlov.

**OĞLUX** (Gəncə) – b a x **oqılıx.**

**OĞMAX** (Qax, Zaqatala) – 1. oymaq. – *Horanı su oğufdu* (Qax); 2. ovmaq. – *Belimi gərək oğaydınğ* (Zaqatala).

**OĞUL** (Balakən, Qax, Yevlax, Zaqatala) – övlad (həm oğlana, həm də qıza bu sözlə müraciət edilir).

**OĞULBƏGİ** (Cənubi Azərbaycan) – qara üzümün bir növü. – *Anam oğulbəgi üzümün çox sevir.*

**OĞURSAX** I (Ağdam, Basarkeçər, Cəbrayıl, Gədəbəy, İmişli, Qarakilsə, Qazax, Qubadlı, Tovuz, Şəmkir, Zəngilan) – b a x **ovursax.** – *Bizim yerdə balası ölmüş, ancax sağılan heyvana de:riy oğursax* (Basarkeçər); – *İnəyin buzoyu ölüf, oğursaxdı, sağırıx* (Qazax); – *Oğursax qoyunun südü yaxşıdı* (İmişli); – *Oğursax heyvan ürəx'nən sağdırmaz heş vaxdı* (Gədəbəy); – *Bu keçi oğursaxdı* (Zəngilan); – *Bir inəyimiz, bir də keçimiz oğursaxdı* (Qubadlı); – *Oğursax heyvannan nə süd çıxajax* (Tovuz).

**OĞURSAX** II (Gəncə, Qazax, Şəmkir) – çox arıq (heyvan).

**OĞURTDAĞ** (Kürdəmir) – çox arıq (heyvan).

**OĞURTDAX** (Basarkeçər) – heyvan xəstəliyi adı. – *Oğurtdax malın dilinin əti tikan kimi uzanır, ot yə:mmir.*

**OĞUZ** (İmişli, Sabirabad) – 1. kobud, hərzəcavab; 2. lovğa, təkəbbürlü, ədabaz. – *Bizim Heydar çox oğuz adamdı* (Sabirabad); – *Oğuzun biridi, heş bilmer, nə oyun çıxarsın* (İmişli).

**OX** I (Göyçay, Qazax) – 1. əkin sahələrini bir-birindən ayıran sərhəd nişanı (Göyçay); 2. ləklərin arasına çəkilən tirə. – *Bizim xiyin oxi yarılub suyi axıdır* (Göyçay).

**OX** II (Qazax) – kiçik arx. – *Oxda su varmı?*

**O:X** (Zaqatala) – b a x **ox** I. – *A kişi, orda o:ğu görmədinq?*

**OXAX** (Gəncə) – ovuntu. – *Qənd oxağı al.*

**OXALAMAŞ** (Gədəbəy) – duzla ovuşdurulmuş göyərti. – *Oxalamaşdan bir az də hazırra:ŋ bavaŋız eysanına.*

**OXALANC** (Gədəbəy) – duzla ovuşdurulmuş göyərti.

**OXANA** I (Zaqatala) – üzsüz süd.

**OXANA** II (Ordubad) – beşikdə uşağın sidik və ifrazatı üçün qoyulan qab. – *Uşağun oxanasın təmizdə.*

**OXANDIRMAX** (Balakən, Qax, Zaqatala) – 1. vurub dağıtmaq; 2. əzmək; 3. xırdalamaq.

**O:XAR** (Ağdaş, İmişli, Qazax) – itilik. ◊ **O:xarı gedməg** (İmişli) – itiliyi getmək, kütləşmək. – *Bı çinin o:xarı gedib* (İmişli).

**OXARRAMAX** (Ağdaş, Borçalı, Çənbərək, Gədəbəy, Karvansaray, Qazax) – itiləmək. – *Baltanı tez-tez oxarramax yaxşıdı* (Ağdaş); – *Baltıyı oxarramışam, yaman kəser* (Qazax); – *Baltıyı oxarra odun e:ydəx'* (Çənbərək); – *Qəmbər kişi baltıyı oxarradı deyn, yaxşı kəsir indi* (Karvansaray); – *Baltıyı oxarramışım, əmə hələ yaxşitiləməmişim;* – *Baltıyı oxarrada bidinmi Əli kişiyə?* (Gədəbəy).

**O:XARRAMAĞ** (İmişli, Şamaxı) – b a x **oxarramax.** – *Baltanı verdim ussa o:xarrasın* (İmişli).

**O:XARRATMAX** (Göyçay, Mingəçevir, Şamaxı) – itilətdirmək. – *Pıçağı o:xarradırux, sohra da kəsirüg* (Göyçay).

**OXARRI** (Qazax, Kürdəmir) – itilənmiş, iti. – *Gözdə, dəhrə oxarrıdı, əliŋi kəsər* (Qazax).

**OXATMAX** (Çənbərək) – yemək. – *Büyün iki bütün fətir oxatdım.*

**OXCUR** (Axalsxi) – tumanbağı. – *Oxcur qırıldı.*

**OXDURU** (Balakən) – xingalın üstünə qoymaq üçün hazırlanan qiymə.

**O:XIR** (Cəlilabad) – suqabı. – *Eldar, dur gör o:xır öydə:, başua dönim, mənə su gəti.*

**OXLAMMAX** (Cəbrayıl) – narahat olmaq, təşvişə düşmək.

**OXLAV** I (Qax) – sivri.

**OXLAV** II (Qax) – mozalan.

**OXLUĞ** (Lənkəran) – oxlov.
**OXLUX** (Qax, Zaqatala) – b a x **oxluğ.** – *Durdana oxluxnan yuxa yayırdı* (Zaqatala).
**OXNA** (Lənkəran) – b a x **oxana.**
**OXRAXI** (Qax, Zaqatala) – heç bir şeyə yaramayan.
**OXRAMMAX** I (Ağdam, Ağdərə, Başkeçid, Borçalı, Gədəbəy, Qazax) – astadan kişnəmək. – *Ə:, atıŋ oxraner* (Borçalı); – *Qarınnarı arpadan do:yuf də:nə yaman oxraney atdar* (Gədəbəy).
**OXRAMMAX** II (Cəbrayıl, Çənbərək) – ağlamaq. – *Sitara:n qızı ölüf, yazıx yaman oxranırdı* (Cəbrayıl); – *Ə:, no:xranırsaŋ, zəhləmi töx'mə* (Çənbərək).
**OXRAMMAX** III (Başkeçid, Borçalı) – *məc.* boş-boşuna gülmək. – *Hasan yaman oxraner* (Borçalı).
**OXRANNAMAX** (Başkeçid, Borçalı, İsmayıllı, Qazax) – astadan kişnəmək. – *Allah biler nə var kı, bu at belə oxranner* (Qazax); – *Nə varsa, at yaman oxrannıyır* (İsmayıllı).
**OXŞALMAĞ** (Şamaxı) – ölən üçün ağlamaq, yas saxlamaq. – *Belə də oxşalmağ ola:r?*
**OXŞAMA** (Oğuz) – yaxın dost.
**OXŞATMA** (Zəngəzur) – inək sağarkən oxunan mahnı. – *Mənim nənəmin inəyi sağanda yaxşı oxşatma deməyi var.*
**OXŞATMAĞ** (Şamaxı) – ağlatmaq, ağlamağa məcbur etmək. – *Qocaları oxşatmağ heç də yaxşı olmur.*
**OXŞIYIR** (Salyan) – deyəsən, görünür. – *Bı mağaza:n yiyəsi oxşıyır icaza alıb ki, açıb.*
**OXŞEY** (Yardımlı) – görünür, deyəsən.
**O:XUR** (Lənkəran, Masallı) – b a x **o:xır.** – *Bacı, bi o:xur su ver, içim* (Lənkəran); – *Bircə o:xur su versən, içərəm, cığarımın yanğısı kəsər* (Masallı).
**OXURRAMMAX** (Ağdərə) – b a x **oxrammax** I. – *Oxurranır at.*
**OJ** (Qazax) – tərs. – *Əhməd oj adamdı.*
**OJAX** (Balakən, Borçalı, Gəncə, Göyçay, Zaqatala) – nəsil, tayfa. – *Muğannının yarısı bir ojaxdandı* (Borçalı); – *Bir ojaxda yüz, iki yüz öy olardı* (Balakən).
**OJAXLAMA** I (Qazax) – tamamilə, büsbütün. – *Yerin ortası ojaxlama daşdıxdı, batme:r kotan.*
**OJAXLAMA** II (Basarkeçər) – səfeh. – *Ə:, sən laf ojaxlamasaŋmış kı;* – *Gədə elə bil ojaxlamadı.*
**OJAXLIX** (Gəncə, Mingəçevir) – nəsillik. – *Olar ojaxlıxnan düz danışan adamdılar* (Gəncə).
**OJAQQIRAĞI** (Ağdam, Tərtər) – ocaq qırağında əyləşmək üçün döşəkçə. – *A:z, ojaqqırağını sal bura, oturax* (Tərtər).
**OQƏRTƏN** (Karvansaray) – o qədər. – *Uşax vaxtı oqərtən comuş minerdix' ki.*
**OQILIX** (Gədəbəy) – elə, o cür. – *Biz də oqılıxmı işdə:ji:x' meşədö:rən?*
**OLADAN** (Təbriz) – ucu yumru ağac. – *Bı həmmişə əlində oladan gəzdirərdi.*
**OLAJAX** (Çənbərək, İmişli, Karvansaray, Tovuz) – mənzil, yaşayış yeri; 2. çobanların yaşadıqları yer, koma. – *Gecə olajaxda yaterım* (Karvansaray); – *Olajaxda həncəri tax qoyuv Ədil?* (Çənbərək).
**O:LAQQIRAN** (Borçalı) – b a x **oğlaqqıran.**
**OLÇA: OLÇA ÇALMAX** (Şəki) – əl çalmaq.
**OLXAĞ** (Laçın) – oğlaq.
**OLXAY** (Zərdab) – oxlov.
**OLXOVDAŞI** (Naxçıvan) – üstündə xəmir yaymaq üçün gildən düzəldilmiş yuxayayan. – *Olxovdaşında xəmir açıllar.*
**OLUM** (İmişli) – çayın dayaz yeri. – *Arazda olum vardı, ordan keçəllərdi.*
**O:MA** I (Ağdaş, Göyçay, Mingəçevir, Oğuz, Şəki) – xəmiri südlə yoğrulan və şəkər, zəfəran və müxtəlif ədviyyatla bişirilən çörək. – *Bi təndir o:madan bi dənə qalmi:tdi, hamsi yiyi:ltdi;* – *O:manı bayramda yapallar* (Şəki); – *Anam o:ma göndərmişdi* (Ağdaş); – *O:manı bayramnan – bayrama pişirillər* (Oğuz).
**O:MA** II (Cəlilabad) – aşılanmış. – *Yadimdədi o:ma gönin çarığı.*
**O:MACA** (İmişli) – vəba. – *O:maca bırda az olar, ye də heç olmaz, ancağ eşidmişüg ki, alahı yerrərdə çox adam ölib o:macadan.*
**OMAXŞIMAX** (Gəncə, Xanlar, Qazax) – kövrəlmək. – *Çağa omaxşıyıf ağlıyır* (Gəncə); – *Omaxşıyıf ağler ki, balaja döyləm, mən də gederəm meytəvə* (Qazax).

**OMALAX-ÇOMALAX** (Şəki) – birlikdə, ucdantutma. – *Omalax-çomalax hamı yığışıf getdi.*

**OMBUZ** (Zəngibasar) – çənə. – *Gədə:n ombuzuna bir dürtmə vurdu.*

**OMRIĞ** (Əli Bayramlı, Salyan) – yarğan.

**OMRUX** (Kürdəmir) – b a x **omrığ.** – *İnəy omruğa düşüp.*

**OŋALMAX** (Çənbərək, Qax, Zaqatala) – sağalmaq. – *Niyə öydə oturursaŋ, sən ki oŋalıfsan* (Çənbərək).

**OŋAND** (Balakən) – avand. – *İşin oŋandı xoş gələr.*

**OŋANT** (Başkeçid, Borçalı) – parçanın üzü. – *Paltarı oŋant üzünə tihdirdim* (Borçalı).

**OŋAT** (Çənbərək) – b a x **oŋand.**

**ONATDİ** (Gəncə) – 1. tutarlı; 2. güclü. – *Ona bir onatdi şillə vurdu.*

**ONBA** (Lənkəran) – üzü üstə. ◊ **Onba qalmağ** – üzü üstə düşmək. – *Əhməd onba qalub.*

**ONBALAMAĞ** (Lənkəran) – bir şeyi ağzı aşağı qoymaq.

**ONÇİKİ** (Yardımlı) – o ki var. – *Uşağı tutdu, onçiki döydü.*

**ONDAKƏRƏM** (Ucar) – o vaxt. – *Ondakərəm sən balacaydın.*

**ONƏXʹ** (Ağdam) – o. – *Onəyi ma: ver görüm.*

**ONQA** (Culfa) – dik. ◊ **Onqa durmax** – dik durmaq (aşıq haqqında). – *Aşığım onqa durub.*

**ONQUZ** (Naxçıvan) – donqar.

**O:NTAX** (Şəki) – qırıntı, ovuntu. – *Çörəy o:ntağını yerə töhmə.*

**ONTAV** (Qax) – danışığını bilməyən, yersiz danışan; kobud.

**OPU** (Qax) – kəf. – *Qız, etin opunu götür.*

**ORABAŞ: ORABAŞ ELƏMAX** (Balakən, Qax, Zaqatala) – tütünün ucda qalmış son yarpaqlarını dərmək.

**ORAFƏHİM** (Qax) – kor.

**ORALAMAX** (Şəki) – bostanda və ya bağda qalmış məhsulu axırıncı dəfə tamam yığmaq. – *Bosdanı oralamışdılar, heş nə tapbadıx.*

**ORAŞIN** (Ordubad) – gümüş pullu qadın baş bəzəyi, çələng. – *Oraşın indi qoyulmaz, qəbaxda olardı.*

**ORAZ** (Şamaxı) – kömək. ◊ **Oraz eləmək** – kömək etmək. – *Bu gün sənə oraz eliyəcəm.*

**ORFA** (Göyçay) – urva.

**ORGƏŞ** (Oğuz) – xəbərdar. – *U yi:ntiyə orgəş döyl u adam.*

**ORXİYAL** (Qax) – yaddaşsız.

**ORNAC** (Salyan) – çoxdanışan. – *Vəli yaman ornac adamdı.*

**ORNAC-ORNAC** (Şamaxı) – böyük-böyük. – *Nə ornac-ornac danışırsan?*

**ORNAÇ** (Qax) – ucaboy, ucaboylu.

**ORNİ** (Dərbənd) – döşəkçə. – *Gətir ornini uturmağa.*

**ORRIX** (Qax) – çətinlik.

**O:RSAĞ** (Salyan) – b a x **ovursax.** – *O:rsağ süti daddı olar.*

**O:RSAX** (Xocavənd) – b a x **ovursax.**

**ORTALAMAX** (Gəncə, Zəngibasar, Tovuz) – belindən tutmaq (güləşmədə). – *Ortalıyıf yerə vurdum* (Gəncə).

**ORTO** (Zaqatala) – saxsı qab.

**O:RUX** (Gəncə, İmişli) – b a x **oyrux.** – *O:rux de:rixʹ ağajın içindəki boş yerə* (İmişli); – *Çinarın o:ruğunda quş yua tikifdi* (Gəncə).

**ORUX** (Təbriz) – yaylağa köçərkən çobanların yaxın kəndlərdə qoyduqları zəif qoyunlar.

**ORUNNUĞ** (Dərbənd) – döşəkçə.

**ORUŞBABA** (Dərbənd) – üzüm növü, qalın qabıqlı (üzüm).

**OS** (Qazax) – motal. – *Bu il yaylaxda iki os pendir qayırmışdıx.*

**OSAL** (Bərdə, Cəbrayıl, Kürdəmir, Şamaxı, Ucar) – 1. tənbəl. – *Osal arvadun öyi həməşə tör-tökünti olar* (Şamaxı); – *Su:ra osaldı, yap elə bil qızın döyranı dönüp* (Kürdəmir); 2. səhlənkar. – *Kərim kişi çox osal adamdı* (Ucar).

**O:SALLIX** (Oğuz, Tovuz) – 1. səhlənkarlıq; 2. tənbəllik. ◊ **O:sallığ eləməxʹ** (Oğuz) – 1. səhlənkarlıq etmək; 2. tənbəllik etmək. – *Mən bü:n bazara gidəsiydim, o:sallığ iliyib getmədim.*

**O:SANASIZ** (Kürdəmir, Şamaxı) – qabiliyyətsiz, bacarıqsız. – *Əhməd o:sanasız adamdı.*

**OSANIMAX** (Cəbrayıl) – unutmağa başlamaq.

**O:SAR** (Cəlilabad, Göyçay, İmişli, Oğuz) – b a x **avsar.** – *Uşax dəvə:n o:sarın tutıb* (Göyçay).

**O:SARRAMAĞ** (Şamaxı) – b a x **avsarramax.** – *Mən ağ nəri o:sarradım.*

**OSAV** (Qax) – 1. ütülmüş odun; 2. kösöv.

**OSMAXLATMAX** (Gəncə, Şərur, Göyçay, Qazax, Şəmkir) – aldadıb söz almaq, sirr açdırmaq. – *Osmaxlatdım, nə olmuşduysa hamısını söylədi* (Gəncə).

**OSMNAN** (Mingəçevir) – təxminən.

**OSSAL** I (Dərbənd) – 1. qorxaq; 2. aciz.

**OSSAL** II (Dərbənd) – namussuz.

**O:ŞALA** (Quba, Salyan, Şamaxı) – b a x **ovşala.** ◊ **O:şala tutmağ** (Quba) – gülablı şərbət hazırlamaq. – *O:şalanı çığırtmaplo:n üssünnən içməg tayca da ləzzətti olır* (Şamaxı); – *Gərəy o:şala tutam* (Quba).

**O:ŞARA** (Ağdam, Ağdaş, Göyçay, Salyan, Şəki) – b a x **ovşala.** ◊ **O:şara qayırmax** (Ağdam) – gülablı şərbət düzəltmək. – *Anam o:şara qayırdı* (Ağdaş); – *Xörək gəlsün, so:ra o:şarını iç* (Salyan).

**O:ŞARRAMAĞ** (Bakı) – seyrəltmək (ağacı). – *Ağajdari o:şarra.*

**O:ŞULƏ** (Lənkəran) – b a x **ovşala.**

**OTARĞI** (Tovuz) – otlaq.

**OTARMAĞ** (Bakı) – *məc.* ələ salmaq. – *Mən aləmi otarıram, u da məni.*

**OTARMAX** (Gəncə, Mingəçevir) – *məc.* aldatmaq. – *O səni otarır, saŋa pul-zat vermiyəjəx'* (Gəncə).

**OTAŞXANA** (Lənkəran) – odluq (samovarda). – *Samavarın otaşxanası xarab olub.*

**OTDA:CAĞ** (Kürdəmir, Salyan, Şamaxı) – otlaq. – *Naxırçı malqaranı otda:cağa apardı* (Şamaxı).

**OTDAĞ** (Kürdəmir) – b a x **oddax** I.

**OTDANACAĞ** (Bakı, Cəbrayıl, Zəngibasar) – otlaq. – *Kətdə bir otdanacax yeri qalıf kin* (Zəngibasar).

**OTUCU** (Şəki) – 1. çoxbilən, bilici; 2. bic. – *Cəfər çox otucu adamdı.*

**OTUXMA** (İmişli) – ot yeməyə başlamış (quzu, buzov və s.). – *Beş-altı otuxma quzumuz var.*

**OTUXMAĞ** (Kürdəmir, Yardımlı, Şamaxı) – ot yeməyə başlamaq (quzu, buzov və s.). – *Bizim quzı təzə otuxıb* (Şamaxı).

**OTUXMAX** (Cəbrayıl, Çənbərək, Şərur, Gədəbəy, İmişli, Karvansaray, Qarakilsə, Bakı, Qazax, Şəki, Tərtər, Tovuz, Zəngilan) – b a x **otuxmağ.** – *Quzum otuxub, tay ona ölüm yoxdu* (Zəngilan); – *Quzu neçə gün anasının yanında gəzər otuxar* (İmişli); – *Buzoy da otuxuf, aj qalımı* (Karvansaray); – *Oxardan ot çalerım, yumuşax olor, otuxufdu, quzuya vererım* (Çənbərək); – *Otuxor da: buzoy da, kalça da;* – *Quzular, buzoylar otuxollar da:* (Gədəbəy); – *Quzu yenicə otuxur* (Tərtər); – *Quzu otuxsa, kökələr* (Tovuz).

**OTUMAXLIX** (Qax) – məclis, yığıncaq. – *Qadiminnan neçə-neçə otumaxlıxlar olupdu.*

**OTURACAR** (İmişli) – ev. – *Oturacarımız, sənin sağlığıŋa laf yaxşıdı.*

**OTURAJAX** (Bərdə, İmişli) – stul, skamya. – *Oturajağın üsdündə otur* (Bərdə); – *Gördü, burda üç oturajax var, otdu birində* (İmişli).

**OTURĞA** (Tovuz) – oturaq. – *Olar hara, oturğa yaşamax hara, onların yeri bəlli olmaz.*

**OTURXAN** (Füzuli) – ot yeməyə başlayan (quzu, buzov və s.).

**OTURMAĞ** (Dərbənd) – kürt düşmək. – *Darağanda to:ğ oturadu.*

**OTURUM** (Cəbrayıl, Salyan) – dəfə. – *Bayram dayım bir oturuma beş-altı fətir ye:r* (Salyan).

**O:UĞUR** (Kürdəmir) – b a x **oyğur.** – *O:uğur gəlseydün, indi belə olmazdı.*

**OUX** (Gəncə) – b a x **ovux.** – *Gəl burdan bir oux qoy;* – *Yerin arasına oux qoy.*

**O:URSAX** (Füzuli) – b a x **ovursax.**

**OVAÇILIX** (İmişli) – b a x **obaçılığ.** – *Ovaçılıx vaxdı Şuşu qalasında dədəmin iki dossu vardı.*

**OVADAN ELƏMAĞ** (Tabasaran) – şumlamaq. – *Büz yeri ovadan eləmağa bilmərdüg.*

**OVCAR** (Cənubi Azərbaycan) – xışın dəstəsi. – *Ovcarsız heş* (*xış*) *olmaz.*

**OVKANEY** (Zaqatala) – üzsüz süd.

**OVLAD** (Kəlbəcər) – qohum. – *Mirzagil bizə ovladdılar.*

**OVMA** (Beyləqan) – kərə yağla təzə şorun qatışığından hazırlanan yavanlıq. – *Yolda yeməgə ovma götür.*

**OVRU** (Dərbənd, Tabasaran) – ayrı, başqa. – *Ərüg ovrudu, mişmişi ovrudu* (Dərbənd).

**OVSAR** (Beyləqan) – b a x **avsar.** – *Ovsarı dəvənin başına keçirtdim.*

**OVŞALA** (Quba) – gülablı şərbət.

**OVŞAR** (Qarakilsə) – bax **avşar** III.

**OVŞARRAMAX** (Basarkeçər, Biləsuvar) – malın yelinini ovucların arasında sıxaraq sağmaq. – *A bala, inə: ovşarra, sən də öyrən* (Basarkeçər).

**OVUX** (Tovuz) – əkin sahələrini bir-birindən ayıran sərhəd nişanı. – *Ovux düzəlt ki, yerin arasını biləx'; – Yerrərin arasına ovux qaldırıŋ.*

**OVURSAX** (Meğri) – balası ölmüş, lakin sağılan heyvan. – *Sədiri diyer, ovsurax geçiləri bir sürüyə yığdınan.*

**OVURTDAX** I (İrəvan) – sünbüllənmiş (buğda). – *Pütün qır yer buğdaları ovutdaxdı.*

**OVURTDAX** II (Meğri) – bax **avırtdax.** – *Sayara uşax vaxda da avırtdax idi, elə indi də avırtdaxdı.*

**OVUZ** (Zəngibasar) – çəltiyin qabığı. – *Düyünü övsüyüllər, ovuzunu çixardıllar.*

**OVZAR** (Ordubad) – rəndələnən taxtanın tərpənməməsi üçün dəzgaha vurulan taxta parçası.

**OYALAMAX** I (Göyçay) – qazmaq. – *Yeri oyalama, çıx get.*

**OYALAMAX** II (Şəmkir) – yada salmaq. – *Sən Allah, dərdimi oyalama.*

**OYĞUR** (Qazax) – o dəfə. – *Oyğur gedif yaxşı odun gətirdix'.*

**OYLAMAX** (Çənbərək) – biçmək. – *Harda ot varsa, oyla, bir xotma yığ.*

**OYMA** I (Qazax) – xörək adı. – *Bu gün oyma pişir.*

**OYMA** II (Borçalı, Şərur, Zəngibasar, Naxçıvan, Ordubad, Şərur) – paltar, don. – *Ayna oymasını geyib məktəbə getdi* (Ordubad).

**OYMA** III (Oğuz) – qadın paltarına, donuna salınan naxış, bəzək.

**OYMA** IV (Gədəbəy) – tütün və ya tənbəki ovuntusu. – *Oymaŋnan bir az maŋa ver, doldurem qaylanı.*

**OYMACA** (Gədəbəy, Tovuz) – bax **oymaça.** – *Beyjə gənə oymacam qalxmışdı, beləjə ölüf ölümnən qayıtmışam* (Tovuz); – *Oymaca tutmuş pişix' gəlif qarını cırıf, murdarre:f yağı; – Oymaca axşamnan tutuf kişiyi* (Gədəbəy).

**OYMAÇA** (Şəmkir) – qəflətən tutan sancı, mədə ağrısı. – *Onun oymaçası var, hərdən tutor.*

**OYMAĞ** I (Bakı, Dərbənd) – üskük. – *Anam oymağnan paltar tikədü* (Dərbənd).

**OYMAĞ** II (Göyçay, Sabirabad, Zərdab) – nəsil, tayfa.

**OYMAX** I (Kürdəmir) – bax **oymağ** I. – *Oymaxsız cannığı təfçiməy olmaz.*

**OYMAX** II (Qazax, Mingəçevir, Oğuz, Tovuz, Şəki, Təbriz, Ucar) – 1. bax **oymağ** II. – *Bizim oymağa diyillər Oruşdar* (Şəki); – *Oymaxnan dəngə bir işdənir* (Ucar); – *İrvahım Hajılı oymağınnandı bu kətdə* (Tovuz); 2. oba, kənd (Tovuz). – *Burda oymağ ayrı-ayrı kətdərə deyilir.*

**OYMAX** III (Culfa) – bax **oyma** II.

**OYMƏ** (Ordubad) – bax **oyma** II. – *Oyməni cahillər ge:r.*

**OYNAMAĞ** (Dərbənd) – yellənmək. – *Qızlar sürünçağda <yelləncək> oynuyadi.*

**OYNAMAX** (Qazax) – aşnabazlıq etmək. – *De:llər Süleymənin qızı oyno:r.*

**OYRUX** (Bolnisi, Gədəbəy, Qazax) – oyuq, koğuş. – *Bura çox oyruxdu* (Qazax); – *Yağış başdəanda özümü verdim ağacın oyruğuna* (Gədəbəy).

**OYSANIMAX** (Çənbərək) – işdən soyumaq. – *Oysanıdı Alosman, əkəmmədi yeri, qartovu səpəx'.*

**OYŞARRAMAX** (Çənbərək) – bax **ovşarramağ.** – *Çovan keçiləri oyşarradı; – Oyşarrasaŋa keçiyi quş kimi.*

**O:YTMAX** (Çənbərək) – başını qatmaq, əyləndirmək. – *Anası uşağı o:ytdu, mən də işimi gördüm.*

**OYU** (Cənubi Azərbaycan) – naxış (xalçada). – *Arvatdar xəlçələrin oyusunu fikrən düzəldillər.*

**OYUX** I (Çənbərək, Gədəbəy, Gəncə, Kürdəmir, Mingəçevir, Şəki) – bax **ovux.** – *Oyux yeri ayırmaxdan yanadı* (Gəncə); – *Qo:ruğa oyux qoymışam* (Şəki).

**OYUX** II (Cəbrayıl, Zəngibasar, Kürdəmir, Mingəçevir, Şəki) – taxılı, bostanı, meyvəni və s. quşlardan və ya hər hansı zərərvericidən qorumaq məqsədi ilə ağaca paltar geydirilərək düzəldilən müqəvva. – *Oyuğun birini taxıl yerinin lap başında qoymax lazımdı; – Oyux qoyannan sora quşdar də: o qədər ziyan vermir* (Şəki).

**OYUX** III (Cəbrayıl) – 1. bağ və ya bostanda qarovulçuların özləri üçün ağac budaqlarından, qamışdan düzəltdikləri koma, kölgəlik. – *Oyuxdan baxanda bağın hər yeri görünür;* 2. koma, daxma. – *İrəlidə adamlar oyuxda yaşıyırdı.*

**OYUX** IV (Zaqatala) – nəsil. – *Ellər ilham alır durlu oyuğunqnan, Günəş ışıx salır səhər söyğunqnan, Tarıxlar şahıdı Eldər oyuğuŋnan, Qalxarmı qasırğa, yelləriŋq Qavru?*

**OYUX** V (Zəngibasar) – şitil basdırmaq üçün yerdə qazılan balaca çala, oyuq.

**OYUXLAMAX** (Gəncə, Şəki) – sahələri bir-birindən ayırmaq üçün nişan qoymaq. – *Yerrəri oyuxladıx* (Gəncə).

**OYUNÇU** (Bərdə) – rəqqas, rəqqasə. – *Toyda oyunçu oynuyurdu.*

**OYUŞDAMAX** (Qazax) – ovmaq, ovuşdurmaq. – *Oyuşdamax lazımdı ayağımı.*

**OZALAMMAX** (Mingəçevir) – heyifsilənmək, təəssüflənmək.

**OZAN** I (Şamaxı) – aşıq. – *İrəlidə ozannar oxıyardılar.*

**OZAN** II (Ağdam, Borçalı, İmişli, Kürdəmir, Quba, Lənkəran, Salyan, Şamaxı) – çoxdanışan. – *Teybə ozan arvatdı* (İmişli); – *Ozanun biri ozan, başımızı ağrıtdun, çux danışma* (Quba); – *Əli ozandı* (Lənkəran); – *Məmmədhəsən ozandı, çox danışır* (Salyan). ◊ **Ozan olmağ** (İmişli, Salyan, Şamaxı) – uzunçuluq etmək. – *Ozan olma, az danış* (Salyan).

**OZANA-OZANA** (Quba) – boş-boş, bikar, avara-avara, işsiz-gücsüz. – *Git üzünə iş tap, nişün belə ozana-ozana gəzəsən?*

**OZAN-QAZAN: OZAN-QAZAN OLMAX** (Ağcabədi) – başını itirmək. – *Danışmaxdan ozan-qazan olmuşam.* ◊ **Ozan-qazana dönməg** (Salyan) – nigaran qalmaq, narahat olmaq. – *Fərhad üş gündi öyə gəlib çıxmıyıb, dayım ozan-qazana dönüb.*

**OZANNAMAĞ** (İmişli, İsmayıllı, Şamaxı) – uzunçuluq etmək, çox danışmaq. – *Ozannama, qutar görim nə diyirsən* (İsmayıllı); – *Çox danışma, ozannama* (Şamaxı); – *Arvat, bu ozannamaxdan əl götü, başım getdi* (İmişli).

**OZAN-OZAN** (Şamaxı) – uzun-uzadı.

**OZAR: OZARA DÜŞMƏG** (Şamaxı) – sabit qalmamaq, dəyişmək.

# Öö

**Ö:BƏC** (Zaqatala) – çəpgöz (adam).

**ÖC: ÖC DÜŞMƏK** (Kürdəmir, Qax, Şəki) – b a x **ö:üc düşməx′.**

☐ **Öc eləməg** (Salyan) – artmaq, yayılmaq, yenidən baş qaldırmaq, açılmaq (yarada) və s. – *Yaram öc elədi üzümi basdu;* – *Onın yarası öc elədi.*

**ÖCƏŞMAX** (Qax, Şəki) – sataşmaq, incitmək. – *Yoldan gedən uşağa niyə öcəşiysiz* (Qax); – *Sən də öcəşmağa adam tapbırsan?* (Şəki).

**ÖCƏŞMƏK** (İmişli, Zəngilan) – mübahisə etmək.

**ÖDDƏHLİX′** (Ağbaba) – qorxaqlıq. – *Hər işdə öddəhliy eləmə.*

**ÖDDƏMƏX′** (Gəncə) – acılamaq, acı etmək. – *Yaman ajıymış, ağzımı öddədi.*

**ÖDDƏX′** (Ağbaba, Ağdam, Laçın, Naxçıvan, Şərur, Zəngilan) – qorxaq. – *Qorxağ adama öddəx′ də de:llər* (Zəngilan); – *Böyüx′ qardaşları öddəx′di* (Naxçıvan).

**ÖD DÜŞMƏX′** (Şərur) – incimək, arası dəymək. – *Bı mənnən niyə öd duşup bilmirəm.*

**ÖDƏX′** (Qazax, Şəmkir, Tovuz) – ölübitən heyvanın əvəzinə verilən heyvan, əvəz. – *Qoyun otaran ha döyü, itirer hamsını, ödəx′ verməx′dən yorulufdu* (Qazax); – *Bir qoyun itirmişdim, ödəx′ verdim* (Şəmkir).

**ÖDƏLƏX′** (Şərur) – tələsik, təngnəfəs. – *Özün ödələx′ saldı üsdümə.*

**ÖDƏMƏ** (Ağcabədi, Goranboy) – pambıq kolunun kökü.

**ÖƏC** (Cəbrayıl, Xocavənd, Ordubad) – b a x **öəç.** – *Əmirin öəcinin əlli kilo əti çıxdı* (Cəbrayıl); – *Qalxozda 15 dənə öəc var* (Ordubad).

**ÖƏÇ** (Basarkeçər, Qazax, Ordubad) – iki-üçillik erkək qoyun. – *Qoyunun üçilliy erkək balasına öəç de:rix′, dördilliy balasına qaradiş* (Basarkeçər).

**ÖƏDƏX′: ÖƏDƏX′DƏ QALMAX** (Qazax) – arxası üstə yıxılıb qalmaq. – *Dana öədəx′də qalmışdı, güjnən qaldırdıx.*

**ÖƏDİMƏX′** (Hamamlı) – büdrəyərək yıxılmaq. – *İnəx′ öədədi tüşdü suyun içinə.*

**ÖƏŞ** (Cəbrayıl, Çənbərək) – b a x **öəç.** – *Avdıləzimin üş dənə öəşi var* (Çənbərək).

**ÖƏŞDƏMƏX′** (Çənbərək) – qoyun-quzunu dal ayaqlarından tutaraq yuxarı qaldırıb irəli aparmaq. – *Ay Məhəmmət, qoynu öəşdə qırxlığın yanna.*

**ÖFGƏ** I (Basarkeçər, Bərdə, Çənbərək, Gədəbəy, Gəncə, Goranboy, Qazax, Mingəçevir, Ordubad, Tərtər, Tovuz, Yevlax, Zaqatala, Zəngilan) – b a x **ofgə.** – *O öfgədən kavaf çəx′dix′* (Çənbərək); – *Quzuyu yayda qışdaxda saxlasan, öfgəsi tamam yanajax* (Gədəbəy). ◊ **Öfgəsi atmax** (Qazax) – qorxmaq.

**ÖFGƏ** II (Çənbərək, Karvansaray) – ağciyər xəstəliyi (heyvanda). – *Öküz öfgədən öldü.*

**ÖFGƏLƏMƏX′** (Cəbrayıl) – ovuşdurmaq. – *Gə kürəyimi öfgələ, yaman ayrıyır.*

**ÖFGƏLƏMMƏX′** (Gəncə) – şişmək. – *Azardan üz-gözü öfgələnif;* – *Uşax gör nejə öfgələnif.*

**ÖFT: ÖFT ELƏMƏX′** (Ordubad) – kifayət etmək, bəs eləmək. – *Ordubadın suyi öft eləmir.*

**ÖG** (Dərbənd) – qabaq, ön, qarşı. – *Ögdə durubanları diyədilər.*

**ÖGƏ** (Dərbənd) – əvvəlcə. – *Ögə sən de, sora mən diyədəm.*

**ÖGƏC** (Bakı, Salyan) – b a x **öəç.**

**ÖGƏC-ÖGƏC** (Şamaxı) – böyük-böyük, yaşına uyğun olmadan (danışmaq) – *Ögəc-ögəc danışmağ sə:n adətindi.*

**ÖGƏN** (Salyan) – nəsil-nəcabət. – *Adamın gərəg ögəni ola.*

**ÖGƏNGƏNƏ** (Salyan) – zəhərli cücü adı. – *Mığanda ögəngənə çox olar;* – *Ögəngənə yayda olar.*

**ÖGLÜG** (Dərbənd) – önlük. – *Öglügi mənə vər.*

**ÖGÜL** (Ordubad) – vəhşi qoyunların keşiyini çəkən qoç.

**ÖHBƏ** (Kürdəmir) – b a x **öfgə.** – *Öhbəm ağzımnan gəldi.*

**ÖHD: ÖHD ELƏMƏG** (Cəlilabad, Salyan) – çatdırmaq, yetirmək. – *Də:rman yaxşı atey (üyüdür), öhd eləməg olmey ki, dəni tökəsən* (Cəlilabad).

**ÖHGÜN** (Qax) – b a x **ötgün.**

**ÖHRƏM** I (Göyçay) – yorğa. – *Nə öhrəm atdı!*

**ÖHRƏM** II (Cəbrayıl) – qaçaraq, çaparaq, tez, cəld. – *Öhrəm qayıtdı.*

**ÖHŞƏLƏ** (Bakı) – b a x **ovşala.** – *Öhşələ içmiyincə xöreg təhləyə gedməz.*

**ÖHÜR** (Cəlilabad) – məxmərək.

**ÖHVƏ** I (Borçalı, Qazax) – b a x **ofgə.** – *Axtüx'lünün öhvəsi yeməli olor* (Qazax).

**ÖHVƏ** II (Qazax) – b a x **öfgə** II. – *Bu comuş öhvədi, öləjəx'. – Bu heyvanı öhvə tutuf.*

**Ö:X** (Qazax, Tovuz) – b a x **ovux.** – *Bizim əkəjəyimiz yer o ö:xdən başşağadı* (Tovuz).

**ÖX'BƏ** (Şəki) – b a x **ofgə.** – *Öx'bə kavavı yaxşı yiməli olur.*

**ÖX'BƏQARA** (Şəki) – b a x **öpgəqara.** – *Keçilərə öx'bəqara deyif, qırıldı hamsı.*

**ÖJ** (Ağbaba, Oğuz) – 1. zidd; 2. düşmən. – *O mənnən yaman öjdü;* 3. tərs.

**ÖJƏŞMƏX'** (Gədəbəy) – 1. höcətləşmək; 2. savaşmaq. – *Öjəşiflər uşaxlar dünənnəri talada.*

**ÖKBƏ** (Cəlilabad, Əli Bayramlı, Kürdəmir, Zaqatala) – b a x **öfgə.** – *Əlinin ökbələri tamam xəsdədi* (Əli Bayramlı).

**ÖKBƏLİ** (Kürdəmir, Salyan) – qorxmaz, cəsarətli, ürəkli.

**ÖKƏNƏ** (Zaqatala) – mayasız qatıq, yaxud mayası az olduğu üçün yaxşı bərkiməmiş qatıq.

**ÖKƏŞDİRMƏX'** (Gəncə) – əzik-əzik etmək. – *Paltarı ökəşdirmə.*

**ÖKƏŞİX'** (Gəncə) – əzik, əzilmiş. – *Bu parça ökəşiy olmasa yaxşı görünər.*

**ÖKƏŞİKLİ** (Gəncə) – əzik-əzik olmuş, əzilmiş. – *Ökəşikli paltarı gətirif maŋa verir.*

**ÖKƏŞMƏX'** (Gəncə) – əzilmək. – *Paltarım sandıxda ökəşif.*

**ÖKLUX** (Qax) – önlük. – *Bizin xatınnar həmi öklux tutuy.*

**ÖLDÜRMƏCƏ** (Yevlax) – ölümcül. – *Çayan zəhərriyir, öldürmür, əmə öldürməcə eliyir.*

**ÖLƏD** (Bərdə) – xəstəlik adı.

**ÖLƏNTƏ** (Cəbrayıl) – zəif, arıq, ölüvay.

**ÖLƏT** I (Ağcabədi, Cəbrayıl, Əzizbəyov, İmişli, Laçın) – b a x **öləd.** – *İki-üş gündü mə: ölət dəifdi* (Ağcabədi); – *Uşax yaman ölət tutufdu* (Cəbrayıl).

**ÖLƏT** II (Cəbrayıl, Culfa, Şahbuz, Şərur) – 1. zəif, gücsüz; 2. aciz. – *Adam var biri qoçax olar, biri ölət olar; – Ölət adam işdiyə bilmir* (Culfa).

**ÖLƏTƏ** (Yardımlı) – b a x **ölət** II.

**ÖLƏTİ** (Qazax) – b a x **öləntə.** – *Öləti şeydi, onun əti yaxşı olmaz.*

**ÖLƏZİMƏX'** I (Qarakilsə, Salyan, Tovuz) – 1. zəifləmək; 2. sönmək. – *İşıx öləzidi* (Tovuz); – *Təndir öləziyif, çörəyi pişirmiyəcəx'* (Qarakilsə).

**ÖLƏZİMƏX'** II (Zəngilan) – solmaq, qurumaq. – *Tağlara gəvgəz dəyif, öləzi:r.*

**ÖLƏZİMƏX'** III (Gədəbəy, Qarakilsə) – döymək, vurmaq. – *Getdim gördüm ki, almeyi yolor, bir çıvıx qırıf öləzidim, nə öləzidim* (Gədəbəy).

**ÖLƏZİMƏX'** IV (Füzuli) – ləngimək, gecikmək. – *Bılar öləzidi, gəlif çıxmadı.*

**ÖLƏZİMƏX'** V (Mingəçevir) – ara vermək. – *Yağış öləzidi.*

**ÖLƏZİMƏX'** VI (Qarakilsə) – yaxşılaşmaq, sağalmaq, yüngülləşmək. – *Üzümnən qan aldırram, onnan sonra birəz öləziyir.*

**ÖLƏZİT: ÖLƏZİT ELƏMƏX'** (Qazax) – söndürmək.

**ÖLLƏŞ** (Qazax) – aciz, əfəl. – *Mahmud yamanölləş adamdı.*

**ÖLÜKSƏMƏG** (Salyan) – solmaq, büruşmək. – *Göyərtini bir günnən artığ saxlıyanda ölüksi:r.*

**ÖLÜQURŞAĞI** (Qazax) – qövsi-quzeh. – *Yağış bekara yağdı, ölüqurşağı tüşdü, indi yağış kəsər.*

**ÖLÜMƏZULUM** (Salyan) – güclə, çətinliklə. – *Ay bala, öydən sizəcən ölüməzulum gəlmişəm.*

**ÖLÜNTÜ** (Ağcabədi) – aciz. – *Ə, ölüntü olmaynan!*

**ÖLÜŞGƏMƏY** (Cəlilabad) – susuzluqdan solmaq, ölgünləşmək (bitkiyə aiddir). – *Susuzdi, tağlar ölüşgey.*

**ÖLÜŞGƏN** (Ağdaş) – saralıb solmuş (gül).

**ÖLÜŞÜMƏX'** (Şəmkir) – qurumaq, xarab olmaq. – *Ağaş əx'mişdim bir-iki dənə, indi ölüşüfdü, də:sən bitimyəjəx'.*

**ÖLÜYÖZÜ** (Gədəbəy) – yağda bişən çörək. – *Ölüyözü pişirmişim axşamnan, ye:rsiŋsə gətirem.*

**ÖLYÜNTÜ** (Qazax) – b a x **öləntə.** – *Qoyunun ölyüntüsünü seçif ayrı otarıllar.*

**ÖMRƏSÜRƏ** (Culfa, Salyan) – heç vaxt, heç zaman. – *Bizzərdə ömrəsürə dəvə olmı:b, eşşəg olmı:b* (Salyan).

**ÖNƏLMAX** (Zaqatala) – yaxşılaşmaq, sağalmaq (xəstə və xəstəlik haqqında).

**ÖNƏND** (Gəncə) – avand, avand üzü (paltar və s.). – *Önəndi xarafsa da, dalı yaxşıdı.*

**ÖŊÜR** (Basarkeçər, Çənbərək, Gədəbəy) – yaxa. – *Köynə:ŋin öŋürnü bağla* (Basarkeçər); – *Öŋürdən aşdıŋmı düymüyü?* (Gədəbəy).

**ÖŊÜRRÜ** (Gəncə) – qabağı iki sıra düyməli (paltar). – *Öŋürrü arxalıx dəvdən tüşüfdü.*

**ÖPGƏ** (Gəncə, Göyçay, Füzuli, Qax, Ordubad) – b a x **öfgə.** – *Öpgədən kabab bişirdıx* (Qax); – *Həsən bir dənə öpgə aldı* (Ordubad).

**ÖPGƏQARA** (Zaqatala) – keçi xəstəliyi adı. – *Kəçilərə öpgəqara düşüp.*

**ÖPGƏLİ** (Qarakilsə) – b a x **ökbəli.** – *Nəbi yaman öpgəli adamdı.*

**ÖPKƏ** (Ordubad) – b a x **ofgə.**

**ÖRƏLƏMAX** (Meğri) – başdansovdu iş görmək. – *İl uzunu oturmacex' ki, götü örələ at o yana.*

**ÖRƏLƏMƏX'** (Gədəbəy) – qabı ağzına qədər, ağızbaağız doldurmaq (maye ilə). – *Örələmə südü, indijə dağıdajaxsıŋ buralara;* – *Südü oxxarta örəliyifsəŋ kin, az qaler dağıla yerə.*

**ÖRƏMƏ** (Borçalı, İmişli, Qazax) – yundan hörülmüş bağ. – *Alaçığın çuvuxlarını örəmeynən çiyəliyin* (Qazax); – *A Haşkərim, örəmə çatmadı, bir az kəndir gəti* (Qazax); – *Örəməni gəti, atı çatax* (İmişli).

**ÖRƏN** I (Göyçay, İsmayıllı, Ucar) – zəif, xəstə. – *Yanına getmişdim, çox örəndi* (İsmayıllı).

**ÖRƏN** II (Cəbrayıl, İmişli, Qarakilsə, Zəngilan) – çox otarılmaq nəticəsində otu qurtarmış, otsuzlaşmış "yer". – *Yer örəndi, heyvannarın işi çətindi* (İmişli). ◊ **Örən olmax** (İmişli) – otsuzlaşmaq, otu qurtarmaq. – *Oxarta otardılar, yer örən oldu.*

**ÖRƏN** III (Qafan) – əkilməmiş (yer, sahə). – *Bizim iki örən yerimiz var.*

**ÖRƏND** (Qazax) – mal-qaranın gündəlik otladığı yer, sahə. – *Malı hələ xama buraxma, qoy örənddə otdasın.*

**ÖRƏNƏ** I (Şəki, Zaqatala) – xaraba, viranəlik. – *Qozun alt tərəfi örənədi* (Şəki).

**ÖRƏNƏ** II (Qazax) – otu biçilmiş otlaq. – *Malı örənədən xama aparacaxlar.*

**ÖRƏNİMƏX'** (Cəbrayıl, Çənbərək, Karvansaray) – otu qurtarmaq, otsuzlaşmaq. – *Örüş örəniyif da:, mal aj qalır* (Karvansaray); – *Yer-yurt yaman örəniyif, heyvan ajınnan qırılır* (Cəbrayıl).

**ÖRƏNNƏMƏX'** (Culfa, İmişli) – b a x **örənimәx'.** – *Yer örənniyif, qoyunu bırda saxlamağ olmaz* (Culfa). – *Bizim yeri çox otardılar, örənnədi* (İmişli).

**ÖRƏNNİX'** (Zəngilan) – çox otarılmaq nəticəsində otsuzlaşmış yer. – *Malları genə aparıflar örənniyə, orda heyvan doyar?*

**ÖRƏNSİZ** (Çənbərək) – qənaət etməyən, israfcıl. – *Örənsiz adamnan zəhləm gedir.*

**ÖRƏTMƏK** (Mingəçevir) – 1. artırmaq (nəsil); 2. bəsləmək.

**ÖRİ** (Cəlilabad) – xüsusi otlaq, tək-tək adamların öz heyvanının otardığı yer. – *Öri odı ki, orda hər kəsən öz heyvanın otarey, tay ora heç kim heyvan gətirmey.*

**ÖRKƏRİ** (Ucar) – ötrü. – *Sənnən örkəri bıra gəldim;* – *Nədən örkəri gəlmisən?*

**ÖRKƏRİN** (Ucar) – b a x **örkəri.** – *Bizzən örkərin xoşdu.*

**ÖRKİ** (Salyan) – ötrü. – *Sənnən örki darıxmışdım, yaxşı ki gəldin.*

**ÖRMƏ** I (Gədəbəy, Gəncə, Qax, Qazax) – yundan toxunmuş paltar (köynək, jaket və s.). – *Örmə geymə:ndə əmәlli qızmer canım* (Gədəbəy).

**ÖRMƏ** II (Zaqatala) – səbət.

**ÖRNƏC** (Ağdam) – lovğa.

**ÖRNƏC-ÖRNƏC** (Ağdam) – lovğa-lovğa. – *Sənə deyirəm örnəc-örnəc danışma.*

**ÖRNƏX'** (Xocavənd) – qabiliyyət, bacarıq. – *Onun əlinin örnəyi yaxşıdı.*

**ÖRNƏŞDİMƏX'** (Çənbərək) – 1. rahatlamaq. – *Uşağı axşam örnəşdidim;* 2. yerləşdirmək. – *Harda örnəşdi camahat?*

**ÖRNƏŞMƏX'** (Cəbrayıl) – rahatlanmaq.

**ÖRSÜZ** (Cəbrayıl) – qorxusuz.

**ÖRTDƏNDİRMƏXʹ** (Qafan) – yandırmaq. – *Qoyma uşağı yayın isdisində aparıf örtdəndirsin.*

**ÖRTDƏNMƏXʹ** (Qafan) – günəşin istisindən yanmaq. – *Bu yazıx günün isdisində lap örtdənif.*

**ÖRTƏN** (Qax) – yanğın. – *Ne örtənnən çıxan kesaqan kimik qaçiysın?; – Örtənə düşüp hunun züryəti.*

**ÖRTÜ** I (Gədəbəy, Yevlax, Zəngilan) – yorğan-döşək. – *Qabaxcan mə:m örtümü sal, sora neynirsən elə* (Zəngilan); – *Gejə örtüyə girənnən arşa çəkildi yuxum* (Gədəbəy).

**ÖRTÜ** II (Ucar) – ötrü. – *Mən uxara sənnən örtü getmişidim.*

**ÖRÜ** (İmişli) – sürünün arxasınca aparılan yatacaq və azuqə. – *Örü uzaxda gedermiş, qoyun çatermış obıya.*

**Ö:RÜB-ÇÖ:RMƏG** (Salyan, Yardımlı) – dəfələrlə demək. – *Bi dəfə dedün bildüg, day nə:şə ö:rüb-cö:rürsən?* (Salyan).

**ÖRÜXʹ** (Şəmkir) – kotana qoşulan 1-ci və 2-ci cüt heyvan. – *Ged, örüyü aş, gəti birəz otdasın.*

**ÖRÜXʹÇÜ** (Tovuz) – bənna. – *Örüxʹçü başder öyü örmə:*

**ÖRÜMƏXʹ** (Oğuz) – doğub-törəmək, artmaq.

**ÖRÜŞDƏ** (Oğuz) – yağda qovrulmuş soğan və toyuq ətindən hazırlanmış yemək adı. – *Mə:limin yoldaşı örüşdə bişirmişdi.*

**ÖRÜŞTƏ** (Oğuz) – həvəs, istək.

**ÖRÜYÜV-ARTMAX** (Mingəçevir, Şəki) – çoxalmaq, artmaq, doğub-törəmək.

**ÖTƏŞMƏXʹ** (Çənbərək) – yarışmaq. – *Ot çalannar ötəşillər.*

**ÖTGÜN** (Balakən, Gəncə, Mingəçevir, Şəki) – xəstəlik adı; bel ağrısı. – *Əlinin ötgünü var, tez-tez xəsdələnir* (Gəncə).

**ÖTMƏCƏ** (Qazax) – xəstəlik adı, qaramalda əmələ gələn şiş.

**ÖTƏ** (Salyan) – betər. – *O:n uşağı özünnən də ötədi.*

**ÖTÜRMƏ** (Oğuz) – uşaq oyunu adı.

**ÖTÜŞMƏXʹ** (Şəki) – b a x **ötəşməxʹ.**

**Ö:ÜC: Ö:ÜC DÜŞMƏK** (Kürdəmir) – bir-biri ilə düz gəlməmək, bir-birinin ziddinə olmaq. – *Xötəklər ö:üc düşüplər, hey vırışıllar.*

**Ö:ÜNƏ** (Bakı) – tərbiyə. – *Ağəz, ö:ünə görməmisən?*

**ÖVCƏ** (Meğri) – əvvəl, qabaq. – *Mınnan övcə darı çöreyi olurdu.*

**ÖVCÜL** (Meğri) – ev işlərinə can yandıran, fəal. – *Şərəbanı övcül qızdı, yaxşı işdey.*

**ÖVEXʹ** (Zaqatala) – çöl göyərçini.

**ÖVƏNDƏ** (Dərbənd) – boyunduruq.

**ÖVƏNDƏNƏ** (Şamaxı) – boyunduruğa bağlanan qayış. – *Övəndənə qırılıb.*

**ÖVLAD** (Cəlilabad) – nəsil, tayfa, əqrəba. – *Mının övladınnan orda – İranda qalan çox var.*

**ÖVNƏ** (Zəngilan) – dəfə.

**ÖVRƏZ** (Dərbənd, Quba) – iməcilik. – *Öonşilər övrəzə gəlitdilər* (Dərbənd).

**ÖVSƏTDİRMƏK** (İrəvan) – tabaqlamaq, taxılı tabaqlayaraq təmizləmək. – *Get arpanı övsətdir.*

**ÖY** (Əzizbəyov) – arabanın oxu.

**ÖYCİ-ÖYCİ** (Göyçay) – uşaq oyunu adı.

**ÖYCÜ** (Gədəbəy) – fikir, məsləhət, tədbir. – *Öycün nədi mən barədə?*

**ÖYCÜL** (Qarakilsə) – öncül, qabaqda gedən (öküz, kəl). – *Eçe deyən kimi öycül qabağı çəkir.*

**ÖYDAMI** (Qazax) – evin yanında və ya qabağında tikilən mətbəx.

**ÖYDƏ** (Gəncə) – qabaq, əvvəl, tez. – *Mən Əlidən öydə evə çatdım.*

**ÖYƏC** (Ordubad, Şərur, Şəki) – b a x **öəç.** – *Qalxozun yüzdən artığ öyəci var.*

**ÖYƏÇ** (Culfa, Ordubad) – b a x **öəç.**

**ÖYƏŞ** (Ağdam) – b a x **öəç.**

**ÖYƏŞDƏMƏXʹ** (Xocavənd) – b a x **öəşdəməxʹ.** – *Mən qoyunu öyəşdədim gətirdim.*

**ÖYƏYANA** (Naxçıvan) – həşərat adı.

**ÖYGÖ:K** (Cəbrayıl) – göyərçinə oxşar quş adı. – *Biz öygö:k yeri billixʹ.*

**ÖYGÜNƏMƏXʹ** (Hamamlı) – yamsılamaq. – *Bu mənim ağzımı öygünö:ür.*

**ÖYHAL** (Salyan) – əhval. – *Onun öyhalı yaxşı döy.*

**ÖYKƏLƏMƏXʹ** (Qazax) – könülsüz, iştahasız yemək. – *İşdahı yoxdu, əppəyi ağzına alıf öykəle:r.*

**ÖYKÖŞDÜ** (Çənbərək) – oyun adı. – *Gəlin ökyöşdü oynuyax.*

**ÖYLAD** (Göyçay) – b a x **övlad.**

**ÖYNƏ** I (Beyləqan, Borçalı, Cəbrayıl, Göyçay, Hamamlı, Qazax, Şərur) – b a x **övnə.** – *İnəyimiz bir öynə sağılır* (Qazax); – *Qoyun gündə bir öynə sağına gələr* (Şərur); – *Süddü inəyi üç öynə sağallar* (Hamamlı); – *Mən gündə üç öynə çörəx′ yeyirəm* (Cəbrayıl); – *İnəx′ hər öynədə 10 litir süd verir* (Beyləqan).

**ÖYNƏ** II (Borçalı, Gədəbəy, Gəncə, Qazax, Lənkəran, Oğuz, Salyan, Tovuz, Ucar, Zərdab) – 1. günorta yeməyi vaxtı. – *Qalxoççılar hindi öyniyə çıxaceglər* (Lənkəran); – *Bir də öynə vaxtı gə* (Ucar); 2. b a x **vaxt** (Tovuz). – *Büyün öynəmizi belə keçirdix′* (Tovuz); – *Qış öynəsi çox şaqqa olur* (Tovuz).

**ÖYNƏMAĞ** (Dərbənd) – yellənmək (yelləncəkdə).

**ÖYÖY** (Ağdam, Borçalı, Qazax) – qumru. – *Ona öyö də de:llər, qumru da de:llər* (Borçalı).

**ÖYRALI** (Şəki) – bir neçə gün bundan qabaq. – *Öyralı didilər ki, Bahar gəlir;* – *Öyralı bizə Məmmədalı gəlmişdi.*

**ÖYRƏLİ** (Cəbrayıl, Mingəçevir) – b a x **öyralı.** – *Öyrəli Müslimə xalam bizə gəlmişdi* (Mingəçevir).

**ÖYSUMAT** (Şahbuz) – qara çörək.

**ÖYSÜRÜG** (İmişli) – səliqə, qayda. – *Öy öysürügdən düşüb, arvad yox, gəlin də uzağda.*

**ÖYŞƏX′** (Gəncə) – qonurrəngli quş. – *Öyşəx′ çöplər üstündə yumurtdar.*

**ÖYÜX** (Cəbrayıl) – b a x **oyux** III, 1.

**ÖYÜANA** (Gəncə) – b a x **öyəyana.**

**ÖYÜCCƏ** (Ucar) – b a x **nöyüccə.** – *Öyüccə gər ağacında yuva tikip.*

**ÖYÜX′** (Tovuz) – b a x **ovux.**

**ÖYÜL** (Naxçıvan) – dərə.

**ÖYÜN** (Karvansaray, Qazax, Şəki) – o gün. – *Öyün sizə:lmişdim, öydə yoxdun* (Qazax).

**ÖYÜR** (Meğri) – mehriban, səmimi.

**ÖYÜRRƏŞMƏX′** (Meğri) – 1. isinişmək; 2. mehriban, səmimi olmaq, birlikdə gəzib-dolanmaq. – *Bu uşaxlar elə indidən öyürrəşsələ yaxşı olu.*

**ÖYÜŞMƏK** (Zaqatala) – tərslik etmək, əsassız mübahisəyə girişmək.

**ÖZƏLƏMMƏX′** (Çənbərək) – təəssüflənmək. – *Oruc axşam özələnirdi kin, büvümün yannəlalmədim.*

**ÖZƏLLƏMƏX′** (Cəbrayıl) – deyinmək, öz-özünə danışmaq.

**ÖZƏLLƏMMƏX′** (Karvansaray, Çənbərək) – təəssüflənmək. – *Səmət özəllənif büvümün yanına getmədiyinə ö:rə.*

**ÖZGƏ: ÖZGƏ VIRMAĞ** (Dərbənd) – çayda üzmək. – *Uşağ çayda özgə vıradi.*

**ÖZGƏNDƏ** (İsmayıllı, Salyan, Şəki) – guya. – *Özgəndə biz büyün kəndə getməliydüg* (İsmayıllı).

**ÖZGƏNDİNƏ** (Qazax) – öz-özünə. – *Özgəndinə nə fikirrəşirsən?*

**ÖZİQAÇDİ** (Cənubi Azərbaycan) – quş adı.

**ÖZMƏC** (Qax) – ipək sap.

**ÖZMƏX′** (Çənbərək) – xəmiri yayıb kəsmək, doğramaq (əriştə üçün). – *Ayna yaxşı özür ərişdiyi.*

**ÖZMƏNCDİ** (İsmayıllı) – nişastalı. – *Əcəb özmənedi undu.*

**ÖZÜNƏBƏY** (Gədəbəy) – evlənən oğlan, bəy oğlan. – *Özünəbəy kin ortuya çıxdı oynamağa, şavaş töküləjəx′ hər yerdən.*

**ÖZÜNƏBƏYLƏR** (Tovuz) – toy günü oğlan evindən gəlin gətirməyə gedən adamlar, oğlanın tay-tuşları.

**ÖZÜNNƏNBƏY** (Ağcabədi, Bərdə, Yevlax) – b a x **özünəbəy.** – *Toyda özünnənbəy oynadı, ucuzduğ olar.*

**ÖZÜNNƏNBİTMƏ** (İmişli) – əkilmədən, toxum səpilmədən öz-özünə bitmə (taxıl və ya bəzi mədəni bitkilərdə). – *Bı zəmi özünnənbitmə taxıldı, əkməmişig onu.*

**ÖZÜNÜ BOZARTMAX** (Qazax) – həddi-büluğa çatmaq. – *Gədənin səsi gərrənif, özünü bozardıf diyəsən.*

**ÖZÜNÜ QIZARTMAX** (Qazax) – həddi-büluğa çatmaq. – *Onun nə yaşı var, hələ heç özünü qızartmıyıf.*

**ÖZVADINA** (Qazax) – öz gücünə, öz ümidinə. – *Özvadına qalsa, başaramaz o bu işi.*

**ÖZYANNAN** (Cəbrayıl) – guya, guya ki. – *Özyannan indi kişi xeylağıdı, gör nə deyir.*

**ÖZƏLLƏMƏG** (Lənkəran) – yoğurmaq.

# Pp

**PABBABACI** (Ucar) – şanapipik. – *Pabbabacı çəmənniyə qommuşdu.*

**PABEDA** (Salyan) – kəlağayı növü adı. – *Pabeda kəlağayısı hava rəngundə olur, künclərində də quş şəkli.*

**PAÇABƏND** (Lənkəran, Şamaxı) – alıcı quşların ayağına geydirmək üçün dəri ayaqlıq. – *Quşuma gözəl paçabənd almışam* (Lənkəran); – *Qırğı paçabəndi qırıb qaçıb.*

**PAÇAX** (Çənbərək, Gədəbəy) – mal-qara ayaqlarının dərisi.

**PAÇAL** I (Xanlar) – çatlamış meyvə. – *Bu paçal meyvələri bir yerə topluyun, maŋa lazımdı.*

**PAÇAL** II (Borçalı, Dərbənd, Qazax) – qoyun yatağı yanında (körpə quzular üçün) çubuqdan hörülmüş yer. – *Paçaldan quzu qaçmaz* (Qazax); – *Paçala təzə anadan ulan quziləri saladılar* (Dərbənd).

**PAÇALLAMAX** (Ağdam) – çatlamaq. – *Çox yağış yağdığınnan narrar paçalladı.*

**PAÇA:ŞIRMA: PAÇA:ŞIRMA OTURMAX** (Zaqatala) – qıçını qıçının üstünə aşıraraq oturmaq.

**PADALA** (Qax) – qoğalın bir növü.

**PADAM** (Qax) – astana. – *Padamda niyə oturıysın, içəri gəl.*

**PADIŞ** I (Ağdam, Naxçıvan) – 1. dırnaq (heyvanlarda) (Ağdam); – *Dəvənin padışı olmaz* (Naxçıvan); 2. mahmız (xoruzda). – *Xoruzun padışı itidi* (Ağdam).

**PADIŞ** II (Ağdaş) – fərqləndirmək üçün quş və toyuqların ayaqlarına bağlanan çit parça. – *Dolaşanın ayağı padışnan bağlıdu.*

**PADŞAH** (Bərdə) – toy məclisini idarə edən. – *Bizim kətdə Hümbət adında bir kişi olur, o, toyda padşah olardı.*

**PAF** (Şəmkir) – fiziki cəhətdən zəif (adam).

**PAĞACA** (Axalsxi) – mayasız xəmirdən bişirilən çörək. – *Pağacaya çox bişmək lazımdı.*

**PAĞIZ** (Göyçay) – ağılı bağlamaq üçün düzəldilmiş ağac.

**PAĞIZLAMAX** (Göyçay) – pağız ilə bağlamaq. – *Qardaşım ağılı pağızladı.*

**PAXAÇ** (Borçalı) – xörək adı. – *Paxaç südnən, yağnan, şəkərnən, murtoynan pişər.*

**PAXAL** (Qax) – saman qırıntısı.

**PAXALAY** (Qax, Zaqatala) – xörək adı. – *Dayım məni paxalay yimağa çağırdı* (Zaqatala).

**PAXXAY** (Ucar) – təəccüb bildirən nida. – *Paxxay, on yaşında uşağ iyirmi kilo buğdanı öyə apardı!*

**PAXIMAX** (Çənbərək) – qovub salmaq, doldurmaq. – *Qoruxçu malı dama paxıdı.*

**PAXIR** (Salyan) – nöqsan, eyib. ◊ **Paxırın açmağ** – eybini söyləmək, başqasının yanında qüsurlarını açıb demək. – *O:n paxırın açmağdansa, özünnən danış.*

**PAXLALAMMƏY** (Cəlilabad) – xırdalanmaq. – *Bı daş nə tez paxlalandı.*

**PAXRAC** (Qazax) – uzunqulplu tava. – *Paxracda bişmiş lovya hər yeməx′dən ləzətdidi.*

**PAJ** (Ucar) – anbar.

**PAKI** (Meğri) – lay. – *Adama iki pakı biçip çevirecesiz mən gəlincən.*

**PAQQALA** (Qax) – xörək adı.

**PAQQOŞ** (Qazax) – igid.

**PALAX** I (Laçın) – yabanı bitki adı.

**PALAX** II (Gədəbəy) – gödəkboylu. – *Palağ uşaxdı Əlinin gədəsi.*

**PALAMA** (Kürdəmir) – dirək, paya. – *Palamaları yerə yaxşı bərkit, tərəcələr sınmasın.*

**PALAMAN** (Cəbrayıl) – b a x **palama.** – *Qurdun laxdalarını qurmağ üçün palaman qırmax lazımdı.*

**PALAMPAS** (Qarakilsə) – tənbəl.

**PALAN** (Bakı, Salyan) – küçə. – *Suraxanı palanının tinindəki öyləri uçurdub tıramvay çəkillər* (Bakı).

**PALANBİZ** (Xaçmaz) – palanduz. – *Palanbizi gətir, çüvəlin yırtığın tikim.*

**PALANKAŞ** (Qax, Zaqatala) – aşsüzən. – *Düyünü palankaşda süzdüm* (Zaqatala).

**PALANKEŞ** (Qax, Zaqatala) – b a x **palankaş.** – *Düyüdən bir palankeş aş çıxdı* (Qax).

**PALANKƏŞ** (Qax, Zaqatala) – b a x **palankaş.** – *Palankəşi gəti, aşı süzüm* (Qax); – *Bazardan palankəş aldım* (Zaqatala).

**PALANNAMAX** (Qazax) – qoyunun qarnının altını və baldırlarını qırxmaq. – *Qoçu palanna.*

**PALANTÖKƏN** I (Ağdam) – qoz növü. – *Bizdə palantökən var.*

**PALANTÖKƏN** II (Xanlar) – dağ yolunda yük heyvanlarının çətin keçdiyi yer, yolun narahat yeri. – *Özün apar uşaxları palantökənnən keçirt.*

**PALAVAR** (Basarkeçər) – künc daşı (binada). – *Öyü tix'məx'çin iki yüz dənə palavar lazımdı.*

**PALAZPARÇA** (Dərbənd) – kiçik palaz.

**PALDA** (Şamaxı) – nişastadan bişirilmiş yemək. – *Ay qız, paldanı doğra.*

**PALDAVA** (Şamaxı) – b a x **palda.** – *İş tərs tüşəndə paldava tiş çıxardar.*

**PALDIM** (Şamaxı) – minik heyvanlarında palanın irəli gəlməməsi üçün quşğuna köməkçi qayış. – *Paldım ənni qeyişdən olur ki, atın qıçını kəsməsün.*

**PALƏNƏ** (Bakı) – avarçəkənlərin oturması üçün qayığın içində eninə bərkidilmiş taxta. – *Diyəsən, palanə yerinnən çıxıb, uni yaxçi-yaxçi vur ki, mö:kəm olsun.*

**PALIMPAS** (Bakı) – aciz.

**PALPAS** (Xaçmaz) – şındır. – *Aldığım ət tamam palpasdı.*

**PALTA** (Əli Bayramlı) – b a x **palda.** – *Bu palta çox şirindü.*

**PALTARKESDİ** (Bakı) – ərə gedəcək qız üçün toy paltarı tikilmək münasibətilə keçirilən mərasim, yığıncaq.

**PALTARKƏSDİ** (Şamaxı) – b a x **paltarkesdi.** – *Məni paltarkəsdiyə çağırmışdılar, ordan gəlirəm.*

**PALTAVA** (Bakı, Kürdəmir) – b a x **palda.** – *İş tərsə tüşəndə paltava tiş çıxardar* (Bakı); – *İş dara düşəndə de:llər paltava diş çıxarar* (Kürdəmir).

**PAMBIXLI** (Böyük Qarakilsə, Cəbrayıl, Oğuz, Zəngilan) – sırıqlı. – *Pambıxlı soyuxda giyən şeydi* (Oğuz).

**PAMIŞ** (Qax) – qoyunun dırnağı.

**PAMPAX** (Ağdaş, Borçalı, Çənbərək, Gədəbəy, Gəncə, İsmayıllı, Qazax, Mingəçevir, Şəki, Şəmkir, Tovuz, Zəngilan) – b a x **pampaz.** – *Pampağ adam gördüyü işi yaxşı görməz* (Borçalı); – *Pampağ adam yaranıf kın, layaqassız iş tussun* (Gədəbəy); – *Pampağ uşağ elə olor ku, başını qapazda, əpbəyini əlinnən al* (Şəmkir).

**PAMPAXLIX** (Gəncə) – acizlik. – *Həsəndə də bir əz pampaxlıx var.*

**PAMPAL** (Cəbrayıl) – ortadan boğması olmayan barama. – *İmarat xalagilin pampalı çox çıxdı.*

**PAMPALAX** (Zaqatala) – bacarıqsız.

**PAMPAZ** (Sabirabad) – bacarıqsız. – *Sən nə yaman pampaz adamsan!*

**PAMPIÇLAMAX** (Zəngəzur) – barmaqlamaq. – *Məsmə qatığı pampıçlıyıb yedi.*

**PAMPILAMPIZ** (Zaqatala) – göbələk növü.

**PANCARA** (Cənubi Azərbaycan) – yabanı bitki adı. – *Pancaradan yaxşı tərə olmaz.*

**PANG** (Quba) – alma növü. – *Pang qırmızı alma oldığı içün uşağların həvəsi unda çoxdı.*

**PANGGÜL** (Quba) – qızılgül növü. – *Bağımızda u qədər panggül var ki, yığub qutarmağ olmır.*

**PANXURMAX** (Axalsxi) – fınxırmaq. – *Yorğun at çox panxurur.*

**PAPA** (Axalsxi) – qarğıdalıdan bişirilmiş xörək. – *Südsüz papa xoş olmaz.*

**PAPAĞ** (Salyan) – şifer. – *Qış düşməmiş öyün papağın vırdırmalıyam.*

**PAPAĞAN** (Cəbrayıl) – quş adı. – *Papağan sığırçın kimi quşdu;* – *Ağajda papağan yuvası var.*

**PAPAĞGÖTDİQAÇ** (Lənkəran, Salyan) – uşaq oyunu adı. – *Papağgötdiqaç oynıyağ, ama papağı cırmıyağ* (Lənkəran).

**PAPAX** I (Ordubad) – dirək ilə pərdinin arasına qoyulan taxta parça.

**PAPAX** II (Cəbrayıl, Çənbərək) – neft lampasında şüşənin geydirildiyi hissə, qoza. – *Lampa:n papağı xarav oluf, üşşəni saxlamır* (Çənbərək); – *Çırağın papağı xarab olub, onu dəyişdir* (Cəbrayıl).

**PAPAXLAMMAX** (Çənbərək) – irilənmək. – *Qartop yaxıcca papaxlanıf.*

**PAPAQQABAĞI** (Ağdam, Bərdə) – qadınların başlarına qoyduqları qızıl və ya gümüş pullu bəzək. – *Papaqqabağını cahıl gəlinnər qo:ardı* (Bərdə).

**PAPA:LDIQAÇ** (Ağdam, Ağcabədi, Ağdərə, Cəbrayıl) – uşaq oyunu adı. – *Papa:ldıqaçda çox uşağ oynuyur* (Ağcabədi); – *Gəlin, papa:ldıqaç oynuyax* (Cəbrayıl).

**PAPBABAJI** (Ucar) – b a x **pabbabacı.** –*Papbabajı özüyçün yuva düzəldirdi ağaj güyülündə; – Papbabajı xeyirri quşdu, cücüləri yi:r.*

**PAPEY: PAPEY KEÇMƏG** (Yardımlı) – fikir, əhəmiyyət vermək. – *Papey keçmiyəm, yoxsa sənçün pis olər.*

**PAPIL** (Lənkəran) – kəkil.

**PAPILLAX** (Mingəçevir) – quşun çinədanı.

**PAPIRTI: PAPIRTI SALMAX** (Göyçay) – qovub uzaqlaşdırmaq. – *Əyə, niyə to:uğları papırtı salırsan?*

**PAPIRTIM: PAPIRTIM SALMAX** (Ucar) – nəzərdən salmaq, yersiz təhqir etmək. – *Əhməd arvadını papırtım salıp.*

**PAPIRTMA** (Gəncə, Zərdab) – doğramac. – *Yayda papırtma yaxşıdı* (Zərdab).

**PAPOY: PAPOY OLMAĞ** (Salyan) – b a x **papey keçməg.** – *Papoy olmasan uşağ sua duşər.*

**PAPUŞ** (Quba) – köhnəlmiş corab. – *Suna qarının ayağında iki papuş vardı.*

**PARABÖ:ÜR** (Ağdaş) – yarısı xarab olmuş (meyvə). – *Parabö:ür güalı yeməli olmaz.*

**PARAĞ** I (Şamaxı) – itin iri cinsi. – *Baba o qədər xəsisdi ki, parağdan yun qırxır.*

**PARAĞ** II (Salyan) – kərpicdən tikilmiş bir neçə otaqlı ev.

**PARAĞ** III (Salyan) – *məc.* sayılmaz, şəxsiyyətsiz. – *İndi parağ adamların da altında maşını var.*

**PARAĞA** (Ordubad) – dağın ətəyi. – *Bizdərdə dağın ətəyinə, dağın döşünə parağa deyəllər.*

**PARAX** (Dərbənd) – heyvan saxlanılan yer.

**PARAXAN** (Zaqatala) – b a x **paraxay.** – *Abbas paraxanı çatdatdı.*

**PARAXAY** (Qax) – heyvanın sidikliyi.

**PARAXLIX** (Qarakilsə, Şahbuz) – arı saxlanan yer.

**PARAKAL** (Zaqatala) – üçüncü yuxudan durandan sonra baramaqurdunun qoyulduğu yer. – *Parakal böyükdü.*

**PARAMAN** (Şamaxı) – palçıq divar. – *Həyətin paramanı tökülüb.*

**PARAPIRTIĞ: PARAPIRTIĞ ELƏMƏK** (Gəncə, Yardımlı) – hissə-hissə ödəmək. – *Sən mənim pulumu parapırtığ eləmə, pütöy ver* (Gəncə).

**PARÇ** (Zəngilan, Zəncan) – suqabı. – *Parçnan su içirıx* (Zəngilan).

**PARÇA** (Zərdab) – gəlinin cehizini nümayiş etdirmək üçün oğlan evində təşkil edilmiş şadlıq məclisi. – *Dünən bizim kənddə parça vardi.*

**PARÇAÇI** (İmişli) – arşınmalçı. – *Parçaçı gələndə çit aldıx, ağ aldıx.*

**PARÇADÖŞƏMƏ** (Bakı) – plov adı (qazanda düyünün altına yağlı ət qoyub bişirilir). – *Parçadöşəmə çox daddi xoregdü.*

**PARÇİ** (Şəki) – balqabağın yeyilməyən növü (içərisi çıxarılıb suqabı kimi istifadə edilir). – *Parçi sındı.*

**PARE** (Şəki) – siçan balası. – *Bizim çardaxda pare var.*

**PARXAL** I (Kürdəmir) – çox böyük kisə. – *Parxal meşoydan çox tutur.*

**PARXAL** II (Tabasaran) – kəndirdən toxunmuş palaz. – *Aybikə bazardan yəxşi parxal gətürdi.*

**PARXALAX** (Qax) – qovuq.

**PARPI** (Hamamlı) – gözmuncuğunu əvəz edən əşya.

**PARPILAMAX** I (Qazax) – çapalamaq. – *Balığın başın kəsəndə parpılıyırdı.*

**PARPILAMAX** II (Borçalı) – ibtidai üsullarla müalicə etmək. – *Əvvəllər xəsdeyi parpılıyırdılar, indi doxdur sağaldır.*

**PARSALAX** (Şəki) – içalat. – *Cıdıroğlu mal kesifdi, parsalağını mən almışam.*

**PART** I (Oğuz) – ciyər. – *Qara part olur malda, ağ part olur.*

**PART** II (Çənbərək, Hamamlı) – 20-30 çəngədən ibarət taxıl. – *Bir partda iyirmi-otuz xorum olur* (Hamamlı).

**PART** III (Salyan) – barıt. – *Adamnan söz soruşallar dənə, part dağarı dö:rsən ki.*

**PARTAXLAMAX** (Çənbərək) – doğramaq. – *Novruz toğluyu partaxladı.*

**PARTAL** (Şəki) – yorğan-döşək. – *Partalı sal yatax.* ◊ **Partala düşmax** – xəstələnmək, yorğan-döşəyə düşmək. – *Əli partala düşütdü.*

**PARTAMA** (Qazax) – dırnaq yarası (qoyunda). – *Partama qoyunu otdamağa getməyə qoymur.*

**PARTAN** (Mingəçevir) – acıq. – *Bu sa:tdarım partanı tüteşdi.*

**PARTATAN** (Salyan) – oyuncaq adı. – *Partatan qarğudan olar.*

**PARTDAĞAN** (Oğuz) – içi qamış kimi boş olan ağac. – *Partdağan elə oduna yarıyır.*

**PARTDAMA: PARTDAMIYA DÜŞMƏX′** (Şuşa) – qəfildən xəstələnib ölümcül vəziyyətə düşmək. – *Uşax beyjə partdamıya düşdü.*

**PARTDANQUŞ** (Dərbənd) – yabanı bitki adı. – *Əlimə alduğumnan partdanquşi partdamasi bir uldi.*

**PARTĞANQÖÇ** (Dərbənd) – şingilə. – *Saqqızıma qatmağ üçün partğanqöç aldım.*

**PARTILLAX** (Ağdaş) – yabanı bitki adı (toxumuna əl vurduqda partlayır). – *Partıllax qırmızı olur.*

**PARTO:UX** (Qazax) – səbirsiz. – *Güllü qarı yaman parto:uğ arvaddı.*

**PART-PART** (Dərbənd) – qovrulmuş qarğıdalı dənləri. – *Atası Əhmədə part-part aldı.*

**PASAX** (Barana, Borçalı, Cəbrayıl, Qazax, Qusar, Naxçıvan, Oğuz, Salyan, Yardımlı, Şuşa, Zəngəzur, Zəngilan) – kir, çirk. – *Biz hamamda pasağımızı təmizdəyirik* (Zəngəzur); – *Üstü:n pasağını təmizdə* (Borçalı).

**PASAXLAMMAX** (Şuşa) – çirklənmək, kirlənmək. – *Üsd-başım pasaxlandı, təmizdədim.*

**PASAXLI** (Başkeçid, Borçalı, Qazax) – çirkli, kirli. – *Bu oğlan çox pasaxlı oğlandı* (Borçalı).

**PASALAX** I (Basarkeçər, Oğuz) – gödəkboylu. – *Pasalağ Abbas bizim şoferdi* (Basarkeçər).

**PASALAX** II (Qax) – bacarıqsız.

**PAS: PASIN AÇMAĞ** (Salyan, Yardımlı) – b a x **paxırın açmağ.** – *Day bir-birü:zün pasın açmoun* (Salyan).

**PASAVAN** (Salyan) – arxa, kömək, himayəçi. – *Kimin pasavanı var, ona zaval yoxdu.*

**PASKƏLLƏMEG** (Bakı) – qayığın dal tərəfində bir avar ilə avar çəkmək.

**PASNA** (Ağcabədi, Bərdə, Cəbrayıl, Göyçay, Kürdəmir, Ucar) – paya. – *Dünənnən mən bu pasnaları basdırmışam, arasın hörmə: qarğı çatmadı* (Ağcabədi); – *Tut pasnası yerdə gec çürüyür* (Cəbrayıl); – *Zinyət, apar buzoyu pasnaya bağla, tez gəl bura* (Ucar).

**PASNALDALI** (Cəbrayıl) – kobud. – *Sənnən yaman pasnaldalı sözdər çıxır.*

**PAŞABOYU** (Qazax, Tovuz) – yabanı bitki adı. – *Paşaboyunnan çay qoyorux* (Qazax).

**PAT** (Qax, Zaqatala) – ipə düzülmüş tütün yarpağı.

□ **Pat getməx′** (Ağcabədi) – küt getmək. – *Təndirdə əpbək pat getdi.*

**PATAX** I (Ucar) – tərəcə. – *Pataxda meyvə, soğan saxlıyırıx.*

**PATAX** II (Ağdam) – barama sarımaq üçün qurdun üstünə qoyulan şax.

**PATANƏY** (Qax) – qısaayaqlı (adam).

**PATATUR** (Zaqatala) – isti şeyləri tutub götürmək üçün xüsusi dəsmal.

**PATAVA** I (Zaqatala) – gön yamaq.

**PATAVA** II (Zaqatala) – iş əlcəyi.

**PATAVA** III (Salyan) – uzunboğaz çəkmə.

**PATDAX** (Şamaxı) – arabada dal ox ilə qabaq oxu birləşdirən ağac. – *Bizim arabanın patdağı vələsdəndi.*

**PATQANA** (Balakən) – böyük dəyənək.

**PATILLAMAX** (Füzuli, Gəncə) – kiçik taya düzəltmək. – *Həsən sərgidəki* <*laydakı*> *otu patılladı* (Gəncə); – *Mən otu patıllamışam, qalıf daşımax* (Füzuli).

**PATRATI** (Gəncə) – yabanı bitki adı. – *Get, bağdan patratı dənələrinnən yığ gəti, dişimə qoyajam.*

**PATRIC** (İrəvan) – yabanı bitki adı.

**PATSALAY** (Qax) – pəncə.

**PAZA** (Zəngəzur) – yoğun dəyənək. – *Sənə bir paza vırram, ölərsən.*

**PAZAHLI** (Meğri) – *məc.* azar. – *Mənim pazahlım var, gərəx′ bu meydanda duram.*

**PAZAX** (Ağdam, Füzuli, Gədəbəy, Gəncə, Hamamlı, Qarakilsə, Qazax, Tovuz, Zəngilan) – arıq və yağsız ət. –*Yaxşı ət al, pazağ olmasın* (Gəncə).

**PAZANA** (Salyan) – dəriqaşıyan dəmir alət. – *Pazana küt oldığınnan dərini yaxşı qazıya bilmədi.*

**PAZANAX** (Qarakilsə) – dürmək. – *Sə:rsə:r nə pazanax tutmusaŋ?*

**PAZAVERTİ** (Qazax) – iribədənli. – *Güjüŋmü çatar ona, pazavertinin biridi.*

**PAZGƏ** (Lənkəran) – tilişgə.

**PAZI** (Basarkeçər, Bolnisi, Borçalı, Böyük Qarakilsə, Gədəbəy, Gəncə, İsmayıllı, Qarakilsə, Qazax, Naxçıvan, Ordubad, Şərur) – çuğundur. – *Bi:lki pazı bıldırkınnan yaxşı oluf*

*xeylax* (Gədəbəy); – *Pazı da de:rix′, çuğundur da* (Şəmkir).

**PAZIBAŞI** (İrəvan) – çuğundurun yarpağı. – *Ay qız, bir az məyə pazıbaşı ver, aş bişerəcəm.*

**PAZIPENCƏRİ** (Ağbaba) – yabanı bitki adı.

**PAZLAMAX** (Şəki) – gopa basmaq. – *Çox da pazlama, hamısını bilirux.*

**PAYALAMAX** I (Gəncə) – ağacla (paya ilə) vurmaq. – *Bir də bura gəlsə, onu payalayajam.*

**PAYALAMAX** II (Gəncə) – çəpərə paya basdırmaq. – *Çəpəri payala.*

**PAYALIX** (Şəki) – paya üçün yararlı (ağac). – *Meşədən payalığ gətir.*

**PAYAN** (Lənkəran) – avar (alət).

**PAYIZDAX** (Ağcabədi) – mal-qaranın payız fəslində saxlandığı yer. – *İndi payızdaxdayıx, bir həfdiyəcən köçərik qışdağa.*

**PAY-RUŞ** (Bakı) – pay. – *Dünənnəri emimgilə pay-ruş göndərdim.*

**PAYTAXDA** (Şamaxı) – toxucu dəzgahının lingi. – *Bu corab paytaxdəyə necə davam eliyəcək.*

**PAY-TÜŞ** (Bakı) – b a x **pay-ruş.** – *Ularun heç pay-tuşi olmaz.*

**PAY-ÜLÜŞ** (Gəncə) – b a x **pay-ruş.** – *Bu pay-ülüşü sana aldım.* ◊ **Pay-ülüş eləmək** – paylamaq. – *Qoyunu aramızda pay-ülüş elədik.*

**PAY-ÜRÜŞ** (Qax, Şəki) – b a x **pay-ruş.** – *Bı pay-ürüşü gəlinə almışam* (Şəki).

**PEÇDAMAL** (Ağbaba) – önlük.

**PEDƏ** (Gədəbəy, Tovuz) – əl ağacı. – *O pedeyi maŋa ver* (Gədəbəy).

**PEKLİK** (Zaqatala) – ağılsız.

**PEL** (Dərbənd) – kəvər. – *Pel meşələrdə çox oladı.*

**PENCƏ** (Ağdam, Cəbrayıl, Füzüli, Xocalı, Qazax, Mingəçevir, Oğuz, Şəki, Tovuz, Yevlax, Zəngilan) – 1. on dərzdən ibarət taxıl (Ağdam, Borçalı, Cəbrayıl, Füzuli, Xocalı, Zəngilan); 2. iyirmi dərzdən ibarət taxıl (Borçalı, Qazax, Şəki, Yevlax); 3. otuz dərzdən ibarət taxıl (Ağdam, Borçalı, Zəngilan). – *On dərzi bir yerə yığırdıx, olurdu bir pencə* (Ağdam); – *On dərz bir pencədi* (Zəngilan); – *On dərzə bir pencə deyirdix′* (Borçalı).

**PENCƏKEŞ** (Biləsuvar, Əli Bayramlı, Kürdəmir, Sabirabad) – 1. təndir çörəyi (Biləsuvar, Kürdəmir, Sabirabad). – *Burda səkgiz pencəkeş var* (Biləsuvar); – *Şornan isdi pencəkeşin dürməgi ləzzət verir* (Kürdəmir); 2. lavaş (Əli Bayramlı). – *Mə, bi az pencəkeş bişir.*

**PENCƏR** (Basarkeçər, Ordubad, Şəmkir, Şərur, Tovuz) – yeyilən göyərti. – *Qoyunqulağı, quşəpbəyi, qazə:ğı pencərdi* (Basarkeçər).

**PENCƏRİYƏ GİTMAĞ** (Dərbənd) – nişanlısının görüşünə getmək. – *Oğlan pencəriyə gitmişdi.*

**PENCƏRƏ GÖRMAĞ** (Dərbənd) – b a x **pencəriyə gitmağ.** – *Pencərə görmağa gitmiyədi.*

**PEPEŞ** (Bakı) – çörək (uşaq leksikonunda).

**PER** (Yardımlı) – əyri. – *Per ağaşdan balta sapı olmaz.*

**PEREKAL** (Şəki) – kiçik sahədə taxıl. – *Bi put perekal ehmişdıx, unnan düz un sekkiz put taxıl oldu.*

**PERİX′DİRMƏX′** (Ağdam) – didərgin salmaq. – *İt töyüx-cücəni perix′dirif.*

**PERİX′MƏX′** (Ağdam, Cəbrayıl, Çənbərək, Meğri) – didərgin düşmək. – *Töyüx perikif* (Ağdam); – *Töyüx′ perikif deyin yumurtası tapılmır* (Çənbərək); *Qərqə <qarğa> perikip, dəy yuvasına gəlmey* (Meğri).

**PERİNC** (Dərbənd) – buğdaya oxşar taxıl. – *Dasdarda boğda da çəkərdig, perinc də çəkərdig.*

**PERTO:** (Qazax, Tovuz) – qanmaz. – *O, perto:nun biridi* (Tovuz).

**PESDEYİ: PESDEYİ ELEMEG** (Bakı) – ehtiyat üçün saxlamaq. – *Muni də dar günümçün pesdeyi elemişdim.*

**PESƏ** (Tovuz) – boynuyoğun.

**PESƏLƏ** (Meğri) – tükünün bir hissəsi tökülmüş (papaq). – *İbi yaxşi yadıma gəley, bir də bir pesələ papax qoyeydi.*

**PEŞ: PEŞ GƏLMƏK** (Cəbrayıl, Naxçıvan) – hədiyyə vermək.

**PEŞAR: PEŞAR ELƏMƏK** (Zəngilan) – yığımdan sonra ağacda qalan meyvəni dərmək. – *Əli meyvə ağaclarınnan peşar elədi.*

**PEŞARI** (Cəbrayıl) – yığımdan sonra ağacda qalan meyvə. – *Uşaxlar peşarı yığmağe:dif.*

**PEŞARRAMAX** (Qarakilsə) – yığımdan sonra ağacda qalan meyvələri dərmək. – *Meyvəni peşarradım.*

**PEŞDƏREŞD** (Cəlilabad) – ardıkəsilməyən. – *Maşınnar peşdəreşd işdey.*

**PEŞEKƏR** (Başkeçid) – yük atı.

**PEŞƏKƏR** (Qax) – balaca çoban.

**PEŞƏMƏNGÜLÜ** (Xocalı) – yabanı bitki adı.

**PEŞƏR** (Meğri) – qoyundan axşam sağılan süd. – *Dədəm diyərdi: "Peşər haram oler, peşəri sütə qatmazlar".*

**PEŞƏRƏMƏK** (Şərur) – axtarmaq. – *Ged ordan peşərə, özüvə üzüm tap.*

**PEŞƏRİ** (Füzuli) – b a x **peşər.**

**PEŞXON** (Çənbərək) – b a x **peşqon.** – *Hajı peşxonu Səlviyə verdi.*

**PEŞXOTDUĞ: PEŞXOTDUĞ KEÇMƏK** (Salyan) – müvəqqəti iqtisadi çətinlik keçirmək (yazda köhnə taxılın qurtaran, yeni taxılın biçilən vaxtında). – *Yazza peşxotduğ keçir; – Qurı qutarıb, yaş da yetişm:b, indi peşxotduğ keçir.*

**PEŞİN: PEŞİN VERMƏXʹ** (Ağdam) – avans vermək. – *Qulluxçulara peşin verillər.*

**PEŞKAN** (Lənkəran) – buxarının qabağına qoyulan dəmir təbəqə.

**PEŞKAR** (Biləsuvar, Cəlilabad, Yardımlı) – həyətyanı sahə. – *Peşkarda bir az soğan əkmişəm* (Biləsuvar); – *Peşkarda ağac əkəcəm* (Cəlilabad).

**PEŞKİR** (Ağbaba, Basarkeçər, Gədəbəy) – əl-üz dəsmalı. – *Peşkiri ver qonağa, əlin silsin.*

**PEŞQON** (Basarkeçər, Başkeçid, Borçalı) – yuxayayan. – *Peşqonun üssündə yuxa ya:rıx* (Basarkeçər); – *Peşqonu maŋa ver* (Başkeçid); – *Peşqon də:rmi olor, taxdadan qayrıler* (Borçalı).

**PEŞQUN** (Başkeçid, Borçalı, Hamamlı) – b a x **peşqon.** – *Peşqunu gəti, çörəxʹ ya:x* (Hamamlı).

**PEŞQURT** (Ağdam, Borçalı, Füzuli, Gədəbəy, Qazax, Şəki, Şuşa, Yevlax) – taxılın novbarı. – *Peşqurt vaxdınatan çox var hələmləri, nə:n* (*nə üçün*) *darıxeysın?* (Gədəbəy); – *Xırmanı döyüf qutarannan so:ra peşqurt geder* (*başlanır*) (Borçalı); – *Peşqurt çıxana kimi yiyəsi taxılımız var* (Şəki). ◊ **Peşqurt eləməxʹ** (Şəki, Şuşa, Yevlax) – taxılın novbarından azacıq üyütmək. – *Dörd dənə dərzi aparıram kin, uşaxlara peşqurd eliyim* (Şuşa). **Peşqurta getmək** (Cəbrayıl) – taxılın novbarını biçməyə getmək.

**PEŞMEG** (Bakı) – b a x **peşveng.**

**PEŞVENG** (Şəki) – düyü unundan bişirilmiş halva növü. – *Üş kilo peşveng bəsimdi.*

**PET** (Salyan) – kef. – *Uşağ öz petindədi.*

**PETİ** (Qazax, Meğri) – yaraşıqsız. – *Bu peti inəyi niyə saxle:rsən?* (Meğri).

**PEYDAR** (İsmayıllı, Zərdab) – həmişə, aravermədən. – *Mən peydar bu birqa:dada işdəmişəm;* – *Sənin işin peydar belə olur* (Zərdab).

**PEYDƏMƏ** (Cəlilabad) – həmişə, aravermədən. – *Peydəmə mının bırnınnan qan gedey.*

**PEYDƏR** (Borçalı, Cəbrayıl, Çənbərək, Qazax, Şəmkir, Tovuz) – b a x **peydar.** – *Bizim bulaxdan peydər su axer* (Borçalı); – *Dayım peydər bir mahnı oxuyur* (Şəmkir); – *Peydər ma: iynə vıruflar* (Cəbrayıl).

**PEYDƏRİ** (Gəncə, Salyan) – b a x **peydar.** – *Peydəri su axıdır, gənə deyir taxılım yanır* (Gəncə); – *Özi peydəri çay içir, mə: vermir* (Salyan).

**PEYĞAMBIĞDA** (Salyan) – qarğıdalı. – *Peyğambığda yayda çıxır.* – *Peyğambığda xeyirri şeydü.*

**PEYĞƏMBƏR** I (Quba, Laçın) – qarğıdalı. – *Qaraqışlax kəndində qardalıya peyğəmbər deyillər* (Laçın).

**PEYĞƏMBƏR** II (Göyçay) – bazar ertəsi. ☐ **Peyğəmbər armud** (Quba) – armud növü. **Peyğəmbər qurşağı** (Şəki, Zaqatala) – göy qurşağı. **Peyğəmbər şamama** (Zaqatala) – şamama növü.

**PEYĞƏMBƏRBUĞDA** (Əli Bayramlı) – b a x **peyğambığda.**

**PEYĞƏMBƏRİ** (Bakı, Cəbrayıl, Dəvəçi, Zəngilan) – b a x **peyğəmbər** I. – *Bırda üş loda peyğəmbəri var* (Bakı); – *Peyğəmbəridən mala silos düzəldillər* (Zəngilan).

☐ **Peyğəmbəri toy** (Ağcabədi) – çalğısız toy. – *Zakir özünə peyğəmbəri toy elədi.*

**PEYĞƏMBUĞDA** (Biləsuvar) – b a x **peyğambığda.** – *Bosdanda peyğambuğda çoxdu.*

**PEYİ** (Laçın) – yekəburun (adam).

**PEYİK: PEYİK OLMAX** (Barana, Tərtər) – gəzməkdən yorulmaq. – *Qoyunum itmişdi, çox axdardım, peyik oldum* (Tərtər).

**PEYİKMƏK** (Qazax) – uzaqlaşmaq, tərk etmək. – *Quşun yuvasını uçurtdum deyə peyikdi.*

**PEYİNSƏX′** (Zaqatala) – az peyinli (yer).

**PEYKAM: PEYKAM GÖNDƏRMEG** (Bakı) – xəbər göndərmək. – *Bu da Dadaş, gündə üsdümə bir peykam göndərir.*

**PEYKAR** (Salyan) – qorxu. – *Uşağın atadan peykarı olsun gərəg.*

**PEYLƏMƏK** (Şamaxı) – daramaq (yunu). – *Yunu peyləyib qundağa vurullardı.*

**PEYLƏŞMƏK** (Lənkəran) – şişmək (gəmiyə aiddir). – *Gəmini suya sal, peyləşsin.*

**PEYPEYVAX** (Qazax) – həmişə, ardıkəsilmədən. – *Məhəmməd peypeyvax sənin daleynan danışer.*

**PEYSİMƏX′** (Cəbrayıl) – təsirlənmək. – *Həsən buz kimi suyu işdi, heş peysimədi də.*

**PEYVAND** (Oğuz) – təmkinli.

**PEYVAS** (Meğri, Şərur, Zəngilan) – peyvənd, calaqlanmış. – *Bırda peyvas ərix′ləri verillər zavoda* (Meğri); – *Əriy ağacını alçıya peyvas eləməy olar* (Şərur). ◊ **Peyvas vırmax** (Şərur, Zəngilan) – peyvənd eləmək. – *Bu tut peyvasdı, özüm peyvas vırmışam;* – *Həyatimizdə çoxlu peyvas vırmışam* (Zəngilan).

**PEZİ** I (Əli Bayramlı, Gədəbəy, Xocavənd, İmişli, İsmayıllı, Kürdəmir, Sabirabad, Salyan) – 1. kobud; 2. qanmaz. – *Pezi Məhəmmət gəldi* (Xocavənd); – *Bu öyü yıxılmış gədə lap peziymiş* (Gədəbəy); – *Yolçu pezinin biridi, sən onnan başarmassan* (Şəmkir).

**PEZİ** II (Ağdam, İsmayıllı, Sabirabad, Salyan) – güclü. – *Həsən pezi adamdı, iki tayları birdən götürür* (Salyan).

**PEZİQULU** (Şərur) – güclü.

**PEZİKMƏK** (İmişli) – qorxub qaçmaq. – *Güci çatmadı, pezikdi.*

**PEZİLƏMƏG** (Saatlı) – özünü güclə arabaya soxmaq.

**PEZİKLİK** (Əli Bayramlı) – kobudluq. – *Sən peziliyini birdəfəliy at!*

**PƏ:Çİ** (Tərtər) – pəyəçi, pəyə işçisi. – *Köhnə dilnən biz de:irik kin, pə:çi pə:də işdiyir.*

**PƏDƏRAVA** (Şəki) – ədəbsiz, söyüşkən. – *Musdafa çox pədəravadı.*

**PƏDƏRVAYİ** (Oğuz, Şamaxı) – b a x **pədərava.** – *Ağa o qədər pədərvayidi ki, oni danışdırmamax yaxşıdı* (Şamaxı); – *A kişi, sən nə pədərvayi adamsan* (Oğuz).

**PƏG** (Axalsxi) – viran olmuş evin yeri. – *Bu pəglərin sahibi kimlər idi?*

**PƏĞƏMBƏRBUĞDA** (Quba) – b a x **peyğəmbərbuğda.** – *Bu il üş put pəğəmbərbuğdamız ulubdu.*

**PƏĞLƏTMƏK** (Axalsxi) – viran qoymaq. – *Duşman əvələrimizi pəğlətdi.*

**PƏĞLƏŞDİRMƏK** (Axalsxi) – viran qoymaq. – *Qovğa zamanı kəndimizi yandırıb pəğləşdirdilər.*

**PƏKƏHKƏN** (Şahbuz) – arı. – *Biz arıya pətəx′ də deyərix′, pəkəhkən də deyərix′.*

**PƏL** I (Dərbənd, İsmayıllı, Quba, Şamaxı) – kəvər, göy soğana oxşayan yabanı bitki adı. – *Bu yil meşədə pəl çux ulub* (Quba); – *Pəldən uladu yəxşi çüdü* (Dərbənd); – *Nənəm bu yün pəl qutabı bişirib* (İsmayıllı); – *Bazarda pəlün dəsdəsi iki şahıyadı* (Şamaxı).

**PƏL** II (Şamaxı) – çilink (çilingağac oyununda). – *O, pəli bir bıra at!*

□ **Pəl vurmax** (Ağdam, Borçalı, Cəbrayıl, İsmayıllı, Qazax) – mane olmaq. – *Sən həməşə bizim işimizə pəl vurursaŋ* (Ağdam). **Pəl qatmax** (Gəncə) – b a x **pəl vurmax.** – *Niyə işə pəl qatırsan?* **Pəl qurmax** (Borçalı) – b a x **pəl vurmax.** – *Əli mə:m işimə pəl qurdu.* **Pəl çəkmək** (Şamaxı) – dəzgahın oxuna parça sarımaq. – *Pəlini çək, sonra işlə.*

**PƏLAĞIZ** (Qax) – yekəağız.

**PƏLƏ** (Ağcabədi, Cəbrayıl, Gəncə, İsmayıllı, Kürdəmir, Qazax, Mingəçevir, Şəki, Şəmkir, Tovuz) – buynuzları yanlara əyilmiş qulaqları sallaq (heyvan). – *Pələ öküz qoçağ olur, yaxşı işdiyir* (Ağcabədi); – *Pələ heyvanın buynuzu bərk olar* (Qazax); – *Bizim inəx′ pələdi* (Tovuz); – *Pələ öküz yaxşı olar* (Şəki).

**PƏLƏBAŞ** (Ordubad, Şərur) – yekəbaş, qanmaz. – *O, çox pələbaş adamdı* (Ordubad).

**PƏLƏBUYNUZ** (Gəncə) – yoğunbuynuz. – *Pələbuynuz kəl açılıf.*

**PƏLƏD** (Əli Bayramlı, Qarakilsə, Lənkəran, Salyan) – həyət qapısı. – *Pələdi bağladı:n?* (Əli Bayramlı); – *Get pelədi ört!* (Lənkəran); – *Pələdin ağzında dayanağ* (Salyan).

**PƏLƏĞAC** (Ağdam, Şamaxı) – uşaq oyunu adı. – *Gəlin gedəyin pəlağac oynuyax* (Ağdam); – *Gəlin pəlağac oynıyax* (Şamaxı).

**PƏLƏQULAĞ** (Qax) – qoca çaqqal. – *Pələqulağ kimik <kimi> ulama, sesuvu kes.*

**PƏLƏQULAX** (Gəncə, Kürdəmir, Şəki) – yekəqulaq. – *Pələqulağ atı satdım* (Gəncə); – *Pələqulax qoyun sütdüdü* (Kürdəmir).

**PƏLƏMƏ** I (Kürdəmir) – südlü pəhriz xörəyi.

**PƏLƏMƏ** II (Cəlilabad, Lənkəran, Masallı, Yardımlı) – bağda, bostanda düzəldilən çardaq. – *Bağban pələmədə qarpuz ye:ir* (Lənkəran); – *Pələməsiz bağ olmaz* (Masallı); – *Pələmə oley bosdandə, bağdə, belə-belə yerrərdə* (Cəlilabad).

**PƏLƏMƏPÖTÜR** (Şərur) – çirkin.

**PƏLƏMİRD** (Xaçmaz, Quba) – çox zəif.

**PƏLƏMÜRD** (Bakı, Xaçmaz, Quba) – b a x **pələmird.**

**PƏLƏMÜRDƏ** (Culfa, Qax, Mingəçevir, Şəki) – iri bədənli, kök (adam). – *Pələmürdə adam işi yarıtmır* (Culfa).

◻ **Pələmürdi ulmax** (Quba) – taqətdən düşmək. – *O qədər məni yügürtdün ki, pələmürdi uldum.*

**PƏLƏND** (Əli Bayramlı) – b a x **pələd.** – *Hasangilin pələndi hündürdü.*

**PƏLƏNPÖRT** (Cəbrayıl) – kobud (adam). – *Bu çox pələnpört adamdı.*

**PƏLƏPÜSÜR** (Qazax) – yöndəmsiz.

**PƏLƏSƏNG** (Şamaxı) – dağınıq. ◊ **Pələsəng eləməxʹ** (Gədəbəy) – dağıtmaq. – *Buğduyu kim pələsəng ele:f buralara?* **Pələsəng olmağ** (Şamaxı) – dağılmaq. – *Onun evi pələsəng olub.*

◻ **Pələsəng vırmax** (Cəbrayıl, Qarakilsə) – gəzmək, gəzib dolanmaq. – *Axşama kimi onnan-mınnan pələsəng vırır* (Qarakilsə); – *Sizin evdə siçannar pələsəng vırır ki?* (Cəbrayıl).

**PƏLƏŞ** I (Zaqatala) – əyriburun. – *Muxdar əmi pələşdi.*

**PƏLƏŞ** II (Xanlar) – kök (davar). – *Bu pələş buzoydan yaxşı öküz olajax.*

**PƏLƏŞ** III (Lənkəran, Yardımlı, Salyan) – səliqəsiz.

**PƏLƏŞKƏ** (Quba) – yabanı bitki adı. – *Bağda pələşkə bitübdü.*

**PƏLƏŞO** (Salyan) – bulanıq, lilli su.

◻ **Pələşo gəlməg** (Kürdəmir, Salyan) – kələk gəlmək. – *Mə: pələşo gəlmə!* (Salyan). **Pələşo salmax** (Oğuz) – şuluqluq salmaq. – *Toyda uşaxlar pələşo salır.*

**PƏLƏT** (Əli Bayramlı, Qazax, Lənkəran, Masallı) – b a x **pələd.** – *Əliyə bizim pələtin yanında irasd gəldim* (Lənkəran).

**PƏLƏVAR** (Naxçıvan) – talvar. – *Pələvarın altı kölgə olur.*

**PƏLİSKAR** (Cəbrayıl) – suvanmış. – *Hüseyin ağanın pəliskar quyusu varmış.*

**PƏLİŞ: PƏLİŞ OMAĞ** (Lənkəran) – 1. salmaq; 2. bürüşmək (göyərtiyə aiddir). – *Göyərtiyə gün dəyib pəliş olub.*

**PƏLLİK** (Lənkəran) – vəzəriyə oxşar yeyilən bitki adı. – *Pəllik çox daddı olur.*

**PƏLMƏ** I (Ağcabədi, Cəbrayıl, Füzuli, Qarakilsə, Meğri, Ordubad, Şahbuz, Ucar, Tərtər, Zəngilan) – duman, çən. – *Havada pəlmə var* (Tərtər); – *Pəlmədə adam adamı seçə bilmir* (Ağcabədi); – *Böyün hava pəlmədi* (Zəngilan); – *Pəlmədə yol getməy olar?* (Ucar).

**PƏLMƏ** II (Ağdam, Ağcabədi, Tərtər) – gözdə əmələ gələn tor. – *Gözümdə pəlmə var* (Tərtər).

**PƏLMƏLƏNMƏXʹ** (Tərtər) – gözdə tor əmələ gəlmək, gözə tor çəkilmək. – *Gözüm axşamlarım pəlmələnir.*

**PƏLMƏLİ** (Tərtər) – dumanlı, çənli. – *Hava pəlmədidi.*

**PƏLMƏTURŞ** (Quba) – göy soğana oxşar meşə bitkisindən hazırlanan sirkə. – *Mən pəlmətürşi xoreknən yeyirəm.*

**PƏLPƏTÖYÜN** (Şəki) – yabanı bitki adı. – *Ciyim pəlpətöyünnən qo:rma bişirdi.*

**PƏLTƏ** (Lənkəran) – isti şeyləri ocağın üstündən götürmək üçün xüsusi dəsmal. – *Pəlteynən qabı ocağdan əndir.*

**PƏLVƏND** (Lənkəran, Salyan) – gəmidə dor ağacını saxlayan iplər. – *Pəlvənd olmasa, dor əyilər* (Lənkəran).

**PƏLVƏNDƏR** (Lənkəran) – gəmidə yelkəni çəkən iplər. – *Ağa, pəlvəndəri vur yerinə, vurannan sora belinin qurtlarını bərkit.*

**PƏMBƏGİLO** (Bakı) – sürvə, adaçayı.

**PƏMBƏXʹ** (Qarakilsə) – daranıb eşilmiş yun.

**PƏMBƏLƏMPÜŞ** (Gədəbəy) – yabanı ağac adı.

**PƏMPƏLİK** (Zaqatala) – kəpənək.

**PƏMBƏ: PƏMBƏ VIRMAĞ** (Salyan) – ovuclayıb yemək. – *Elə adam var ki, pıloa <plova> pəmpə vırıb ye:r.*

**PƏNABAD** (Biləsuvar, Cənubi Azərbaycan) – 15 qəpiklik gümüş pul (keçmişdə). – *Bizdə pənabad vardı* (Biləsuvar); – *Qarğıları satdım, bir pənabad aldım* (Cənubi Azərbaycan).

**PƏNBƏDUZ** (Şamaxı) – quş adı. – *Göy guruldiyəndə pənbəduz əyağlarını yuxarı qalxızar ki, göy düşəndə saxlasın.*

**PƏNCƏKƏŞ** (Ərdəbil) – b a x **pencəkeş** (2-ci məna).

**PƏNCƏPƏNCƏ** (Bakı) – parça növü adı.

**PƏNDƏM** (Borçalı, Gədəbəy, Şəmkir, Tovuz) – bacarıqsız. – *Pəndəm uşax bir qarpızı ordan biryə:tirəmmədi* (Şəmkir); – *O, yaman pəndəm uşaxdı* (Tovuz).

☐ **Pəndəm olmax** (Göyçay, İsmayıllı, Qazax, Ucar, Zəngəzur) – qəbz olmaq. – *O qədər yedi ki, lap pəndəm oldu* (İsmayıllı); – *Axşam qozu yedim, pəndəm oldum* (Ucar); – *Pəndəm olanda adamın qarnı ağrıyır* (Zəngilan). **Pəndəm doğmax** (Qazax) – ölü doğmaq. – *İnəx′ pəndəm doğdu.* **Pəndəm töxməx′** (Qazax) – b a x **pəndəm doğmax.** – *Bu il malın çoxu pəndəm töküf, salamat doğan azdı.*

**PƏNDƏMƏ** (Cəbrayıl) – yarma xörəyi. – *Bu gün Seyidgildə pəndəmə pişmişdi.*

**PƏNDOY** (Gədəbəy) – b a x **pəndəm.** – *Qoŋşumun bir pəndoy gədəsi var.*

**PƏNDUM: PƏNDUM OLMAĞ** (Bakı) – şişmək. – *Dügüni u qədər qeynetdim ki, pəndum oldi;* – *Uşağı uxarta dögüblər ki, bədəni səlt pəndum olıb.*

**PƏNGƏL** (Gəncə) – əyirilmiş yundan hazırlanmış ∞ şəkilli yumaq.

**PƏNGƏLLƏMƏK** (Gəncə) – əyirilmiş yunu ∞ şəklində yumaqlamaq.

**PƏNİTDİ** (Ordubad) – sarılıq xəstəliyi. – *Biz sarılıx xəstəliyinə pənitdi deyirıx.*

**PƏNQ** (Zaqatala) – iribuynuzlu heyvan aşığı. – *Ahədin pənqi pisdi.*

**PƏNSƏMAX** (Zaqatala) – bəyənmək.

**PƏNSİMMƏX′** (Çənbərək) – qorxmaq. – *Əhmət bizdən pənsimmir.*

**PƏPƏ** (Bakı, Xaçmaz) – çörək (uşaq leksikonunda). – *Qızım, anan sənə pəpə versinmi?* (Xaçmaz).

**PƏPƏXORUZ** (Ordubad) – dərman bitkisi adı.

**PƏPƏL** (Qax, Zaqatala) – qozun və ya fındığın qabığı. – *Qozun pəpəli bərkdi;* – *Anam findığın pəpəlin təmizdi:r* (Zaqatala).

**PƏPƏLƏ** (Cəlilabad) – b a x **pəpəl.** – *Uşağın ağzına pəpələ vereylər.*

**PƏPƏLƏMƏ** (Salyan) – süddən kəsilmiş körpə uşaqlar üçün bişirilən xörək adı. – *Uşağa pəpələmə ver;* – *Pəpələmə uşağçındı.*

**PƏPƏLƏMEG** (Bakı) – xırdalamaq (çörəyi). – *Ağız, çörəgi pəpələyib tökmə, qoy bıra!*

**PƏPƏLƏMƏK** (Zaqatala) – qozu, fındığı qabıqdan çıxarmaq. – *Fındığı pəpələmək lazımdı.*

**PƏPƏLLİK** (Zaqatala) – qoz, fındıq qabığının tullandığı yer. – *Həsənin məhləsi tamam pəpəlliy idi.*

**PƏR** I (Quba) – soğan dadı verən yabanı bitki adı. – *Pərlər çux güzəl uladu;* – *Utlağımızın çuxi pərdi;* – *Həsən bu gün meşədən bir çanta pər gətirdi.*

**PƏR** II (Şəki) – dəndənə (araba təkərində). – *Təkərin pərrəri də tökülür.*

**PƏR** III (Tovuz) – evin damında istifadə olunan tir. – *Damımızın pərinin biri qırılıf.*

**PƏRDƏ: PƏRDƏ SALMAX** (Gəncə) – qabığı bərkiməmiş yumurtlamaq. – *Töyux pərdə salıf.*

**PƏRDƏNƏG** (Kürdəmir) – toyuğun yumurtalığı. – *Çolpanın pərdənəgi ye:ilmir.*

**PƏRDİ** (Şəki, Şərur) – tavan. – *Keşmiş öylərin pərdisi halçağ olardı* (Şəki).

**PƏRƏ** (Lənkəran) – b a x **pər** II. – *Usda bizim çərx üçün pərələri qayırdı.*

☐ **Pərə gəlməy** (Cəlilabad) – kələk gəlmək. – *Qabağlar tükannərdə adama yaman pərə gəleydilər.*

**PƏRƏXAY** (Zaqatala) – b a x **paraxay.** – *Pərəxay qoyunda da, keçidə də olur.*

**PƏRƏQULAĞ** (Quba, Salyan) – b a x **pələqulax.** – *Əhməd çox pərəqulağdı* (Salyan).

**PƏRƏK** (Ağdam, Xocavənd, Qazax, Şamaxı) – qadın paltarlarına bəzək üçün tikilən qızıl və ya gümüş pul. – *Sitarə pərəyini itirdi* (Şamaxı).

**PƏRƏKAR** (Ağdam, Gəncə, Xocavənd, Qubadlı, Mingəçevir, Oğuz, Şəmkir) – həyətyanı əkin sahəsi. – *Mənim pərəkarım yaxşıdı* (Gəncə); – *Bura mə:m pərəkarımdı* (Şəmkir); – *Pərəkarınnan bir şey oldumu* (Oğuz).

**PƏRƏKƏ** (Borçalı, Qazax) – b a x **pərəkar.** – *Pərəkərimə soğan əx'dim* (Borçalı).

**PƏRƏN** (Gəncə) – qayda-qanun. – *Pərəni pozmayın!*

**PƏRƏNDƏLİK: PƏRƏNDƏLİK SALMAX** (Ağdam) – qarmaqarışıqlıq salmaq. – *Cama:t sakit oturmuşdu, Həsən onların arasına pərəndəlik saldı.*

**PƏRƏVAN** (Cəbrayıl, Kəlbəcər, Şahbuz) – b a x **pərvan** I. – *Pərəvan olmasa, küm tikməy olmaz* (Cəbrayıl).

**PƏRGAL** (Şəki) – gümrah. – *Pərgaldı hələ İdris dayı, işdiyə biliy.*

**PƏRGALLAŞMAX** (Şəki) – gümrahlaşmaq. – *Hindi sağalıfdı, pərgallaşifdi, gezə biliy.*

**PƏRGÜLLƏMƏG** (Cəlilabad) – sürətini azaltmaq, yavaşıtmaq (arabaya aiddir). – *Bıra bərk yenişdü, arabani pərgüllə.*

**PƏRXUNQAY: PƏRXUNQAY OLMAX** (Qax, Zaqatala) – qabar olmaq. – *Eli pərxunqay oldi* (Qax); – *Nurməhəmmədin qolu pərxunqay olub* (Zaqatala).

**PƏRQU: PƏRQU BALIŞ** (Bakı, Şamaxı) – qu tükündən hazırlanmış balış. – *Mən pərqu balışda yatıram* (Bakı); – *Bizim öydə üç pərqu balış var* (Şamaxı),

**PƏRİSKAR** (Qubadlı) – taxıl quyusunun ətrafını örtmək üçün küləş. – *Quyunun pəriskarını qayırdım, taxıl tökməy olar.*

**PƏRPƏ** (Ağdam, Bakı, Cəbrayıl) – yabanı bitki adı. – *Pərpə tum töküb* (Bakı).

**PƏRPƏLƏMMAX** (Zaqatala) – kökəlmək. – *Biyil Hasan kişi bir az pərpələnipti.*

**PƏRPƏNƏG** (Dərbənd) – kəpənək. – *Uturdi pərpənəg bir gülün üsdünə.*

**PƏRPƏR** (Ordubad, Şərur) – kəpənək. – *Bizim baxçada çoxlu pərpər var.*

**PƏRPƏRƏ** (Salyan) – cəhrənin bir hissəsi. – *Pərpərə cəhrədə olır.*

**PƏRPƏRƏN** (Ordubad) – b a x **pərpər.**

**PƏRPƏRƏNG** (Bakı) – yabanı bitki adı. – *Pərpərəng yiməli şeydü.*

**PƏRŞUM** (Cəbrayıl, Qarakilsə, Ordubad, Şahbuz) – ikinci şum. – *Bı yer pərşumdi* (Ordubad). ◊ **Pərşum eləmək** (Cəbrayıl) – ikinci dəfə şumlamaq. – *Bərk torpağı pərşum eliyillər.*

**PƏRTDƏGÖZ** (Zəngilan) – dombalangöz. – *Mənim pərtdəgöz adamlardan açığım gəlir.*

**PƏRTDƏŞMƏK** (Göyçay, Salyan) – sözü çəp gəlmək.

**PƏRTİM-PƏRTİM: PƏRTİM-PƏRTİM DOĞRAMAX** (Qazax) – iri-iri doğramaq. – *Əti pərtim-pərtim doğrayıbsan.*

**PƏRTO:** (Ucar) – b a x **perto:.** – *Noruz pərto: adamdı;* – *Pərto: adam yaxşı iş görəmməz.*

**PƏRTO:LUX** (Ucar) – qanmazlıq. – *Həsən pərto:luğ elədi.*

**PƏRVAN** I (Ağcabədi, Bərdə) – evin çardağında dirəyin üstünə qoyulan uzun tir. – *Pərvanı qaldır, haçanın ağzına qoy* (Bərdə).

**PƏRVAN** II (Şəki) – evin çardağının kənarlarındakı açıq yer.

**PƏRVARAX: PƏRVARAX OLMAX** (Gəncə, Tovuz) – sınıb dağılmaq. – *Sandıx haravadan tüşüf pərvarağ oldu* (Gəncə); – *Maşını hardasa vurduruf, pütün qavağı pərvarağ oluf* (Tovuz).

**PƏRVƏRİ** (Ordubad, Şahbuz, Şərur) – bəslənmiş qoyun. – *Dədəm bir pərvəri saxlıyıb, böyüyəndə kəsəcək* (Şahbuz).

**PƏRYAN** (Zərdab) – pərdinin altına qoyulan tir. – *Usda pəryanı yondu.*

**PƏRYƏR** (Borçalı, Qazax) – arabanın qollarını birləşdirən ağac. – *Bu pəryər sınıfdı.*

**PƏRZANA** (Şamaxı) – pəhriz xörəyi. – *Mənim pərzanamı as;* – *Uşağçın pərzana pişirmişəm.*

**PƏRZÜVAL** (Şəki) – çust tikərkən bir ucu ayağa, digər ucu isə dizə keçirilən qayış. – *Pərzüval qırılıtdı.*

**PƏS: PƏS OLMAX** (İsmayıllı) – əhəmiyyətsiz olmaq. – *İşim bu gün pəs oldu.* ◊ **Pəs eləmək** (Gəncə) – pərt etmək. – *Onu pəs eləmişəm, dinməyə halı yoxdu.*

**PƏSAB** (Ordubad, Sabirabad, Şamaxı) – çay puçalı. – *Çaynik pəsabnan doludu* (Sabirabad); – *Çaynikdən pəsabı boşalt* (Şamaxı).

**PƏSƏ** (Qazax) – çust.

☐ **Pəsə qalmax** (Ucar) – təxirə salınmaq. – *Mənim Bakıya getməyim pəsə qaldı;* – *Yazı işimiz hələlik pəsə qaldı.*

**PƏSƏDDƏMƏK** (Zəngəzur) – belləmək. – *Get yeri pəsəddə;* – *Almanın yerini pəsəddəmişəm.*

**PƏSƏLƏNG: PƏSƏLƏNG ELƏMƏXʹ** (Gədəbəy, Şəmkir) – dağıtmaq. ◊ **Pəsələng olmaxʹ** (Daşkəsən) – dağılmaq. – *Bir ton taxılı pəsələng eləməy olmaz* (Şəmkir); – *O nəsil çoxdan pəsələng oluf* (Daşkəsən).

**PƏSƏNDƏ** (Çənbərək, Şəmkir, Tovuz) – 1. böyük (Çənbərək, Şəmkir). – *Bir pəsəndə harava ot gətdim* (Çənbərək); 2. hörmətli (Tovuz). – *Məmmət bir pəsəndə kişiydi* (Şəmkir); – *Məmmədin bir pəsəndə oğlu var* (Tovuz).

**PƏSƏNƏK** (Mingəçevir) – mıx.

**PƏSƏ-PÜSƏ** (Gəncə) – şey-şüy. – *Pəsəpüsəni burdan yığ, çıx get.*

**PƏSƏR: PƏSƏR QALMAX** (Bərdə) – boy atmamaq, gödək qalmaq, böyüməmək. – *Sən pəsər qalajaxsan.*

**PƏSƏRƏK** I (Şamaxı) – bir hörgüclü dəvə. – *Mənim bir pəsərəyim var;* – *Pəsərək çox yük götürər.*

**PƏSƏRƏK** II (Salyan) – görkəmli, boybuxunlu. – *Onun pəsərək oğlannarı var.*

**PƏSƏSLƏMƏK** (Axalsxi) – çox geyindirmək, qalın geyindirmək. – *Ana uşaxlarını soyuxdan saxlamaq üçün pəsəsləyir.*

**PƏSƏTƏMƏK** (Cəbrayıl) – b a x **pəsəddəmək.** – *Həsən ağacın yerini pəsətəmişdi.*

**PƏSGƏL** (Lənkəran) – avar (qayıqda). – *Dadaş, pəsgəli losmana ver, kərəcini itiləsin.*

**PƏSGƏRDƏN** (Gəncə) – qoyunun boynu. – *Bir kilo pəsgərdənnən kəs ver.*

**PƏSİMMƏK** I (Borçalı, Gədəbəy, Hamamlı, Qazax) – çəkinmək. – *Hürü nə həyasız adamdı, heç adamnan pəsimmək bilme:r* (Borçalı).

**PƏSİMMƏK** II (Quba) – gizlənmək. – *Hüseyn üz yuldaşınnan pəsinmişdi.*

**PƏSMƏ** (Cənubi Azərbaycan) – firni. – *Bu pəsməni ver uşağa.*

**PƏSMƏK** (Qazax) – aradan çıxmaq. – *Gördüm iş xarafdı, yu:acca pəsdim.*

**PƏSMƏNDƏ** I (Gəncə) – bərkdən-boşdan çıxmış. – *Əli çox pəsməndə adamdı.*

**PƏSMƏNDƏ** II (Balakən, Oğuz, Şəmkir) – yararsız. – *Pəsməndə şeydi, neynirsən alıb unu?* (Oğuz); – *Bu pəsməndəni oana apar* (Şəmkir).

**PƏSMƏTDƏMƏXʹ** (Cəbrayıl, Zəngilan) – məzəmmət etmək. – *Mən də pəsmətdəmişəm, tay dalaşmazdar* (Zəngilan); – *Hərə bir yannan pəsmətdədi, Nubar ağladı* (Cəbrayıl).

**PƏSNİK** (Ordubad) – corabın dabanına yamamaq üçün gön parça. – *Pəsniki bərk tik!*

**PƏSOY** (Şamaxı, Şuşa) – b a x **pəsab.**

**PƏSSUAR: PƏSSUAR ELƏMƏK** (Xanlar) – əkin sahəsini dincə qoymaq. – *Bu yeri pəssu:ar eləmişdim, yaxşı buğda oldu.*

**PƏSTƏK** (Cənubi Azərbaycan) – iplikdən toxunmuş qalın geyim. – *Pəstəgi qışda geyəllər.*

**PƏSTİL** (Hamamlı) – natəmiz.

**PƏ:SUXDA** (Salyan) – borc. – *Dö:lətə pə:suxdam yoxdu.*

**PƏŞDƏQAB** (Cənubi Azərbaycan) – qadın ayaqqabısı növü. – *Qardaşım pəşdəqabı adaxlısıyçın aldı.*

**PƏŞƏLO: PƏŞƏLO: GƏLMƏK** (Şamaxı) – hədə-qorxu gəlmək. – *O qədər qudurub ki, həriyə bir pəşəlo: gəlir.*

**PƏŞƏRİ** (Ucar) – b a x **peşarı.** – *Bü:n üzümlükdə pəşəri yığmışam.*

**PƏŞRO:** I (Zərdab) – arxda qalan su. – *Abbas arxdakı pəşroynan iki lək soğan suladı.*

**PƏŞRO:** II (Xocavənd) – çayın puçalı. – *Bay, çayın pəşro:sunu at da!* ◊ **Pəşro: eləməxʹ** (Borçalı) – b a x **peşar eləmək.**

**PƏŞTİR** (Cənubi Azərbaycan) – beşatılan tüfəng. – *Atam pəştirnən igirmi dənə ceyran vurub.*

**PƏTAX: PƏTAX QOYMAX** (Qax) – badalaq gəlmək. – *Sa: bi pətax qoyup əşirrəm* (Qax). ◊ **Pətax çalmax** (Zaqatala) – b a x **pətax qoymax.** – *Məhəmmədə Vəli pətax çaldı* (Zaqatala).

**PƏTAZ** (Qax) – pəncə.

**PƏTƏ** (Qax) – xala.

**PƏTƏ: PƏTƏ QURMAX** (Xanlar) – kələk gəlmək. – *Yüz dəfə demişəm: "Mənə pətə qurma!"*

**PƏTƏGƏNƏ** I (Bakı, Şamaxı) – pətənək (quşlarda). – *Toyuğun pətəgənəsini çıxart ver mənə* (Şamaxı).

**PƏTƏGƏNƏ** II (Lənkəran) – qovuq (balıqda). – *Anam balığın qarnınnan pətəgənəni çıxartdı.*

**PƏTRİS** (Çənbərək) – b a x **pətriz.** – *Pətrisi keçiririx′, sonra həvəleyrix′.*

**PƏTRİZ** (Qazax) – cəhrədə yoğun ip.

**PƏVANİ** (Culfa) – tavan.

**PƏYƏNDAZ** (Lənkəran) – ayaqaltı. – *Gəlin gəlir, pəyəndazi gətirün.*

**PƏZƏNDƏ** (Meğri) – aşpaz. – *Toy vuruler yeddi gün-yeddi gecə, pəzəndələr aş bişirer, yiyellər, içellər, mətdi-muradına yetişellər.*

**PƏZGƏ** (Cəlilabad) – b a x **pazgə.** – *Bırdan barmağimə bi cıqqan pəzgə soxılmişdi.*

**PIÇ** I (İmişli) – yiv. – *Pıç dəmirdən olır.*

**PIÇ** II (Kürdəmir, Şamaxı) – lülək. – *Bala, ey, o sinavarın pıçın bərk bır axmasın* (Kürdəmir); – *Simavarın pıçı düşüb* (Şamaxı).

**PIÇALAXLAMAX** (Ağcabədi) – sulanmaq (gözə aiddir). – *Quzunun gözü pıçalaxlıyıf.*

**PIÇAL-PIÇAL: PIÇAL-PIÇAL OLMAX** (Qazax) – qabarcıq bağlamaq (qatığa aiddir). – *Qatığ qıjqırıf pıçal-pıçal oluf.*

**PIÇIX** (Ağdaş) – b a x **pıtıx** II. – *Pıçığımız balaca-balaca yeriyir.*

**PIÇILĞAN: PIÇILĞAN OLMAX** (Ağdam, Cəbrayıl, Goranboy, Xocalı, Şamaxı) – yara olmaq. – *Atın ayağı pıçılğan oluf, axsıyır* (Ağdam); – *Yağınnıxda qoyunun barmaxlarının arası pıçılğan olur* (Goranboy); – *Barmağımın arası pıçılğan olub, yeriyə bilmirəm* (Cəbrayıl); – *Atım pıçılğan olub, heç yerə gedə bilmirəm* (Şamaxı).

**PIÇIR: PIÇIRINI AÇMAX** (Ucar) – sirrini açmaq. – *Diyan bir, sənin pıçıruu açajam.*

**PIFA** I (Lənkəran) – puç. – *Cəvahirdən aldığun qozdarın hamısı pıfa çıxdı.*

**PIFA** II (Başkeçid, Borçalı, Lənkəran) – taxta kəpəyi. – *Xızarın ağzınnan çıxana pıfa de:rik* (Borçalı).

**PIĞDAX** (Böyük Qarakilsə) – oyunda və ya növbədə sonuncu adam.

**PIĞI** (Naxçıvan) – ətyeyən çöl quşu. – *Pığıdan tərlan olmaz.*

**PI:XA** (Lənkəran) – eybəcər. – *Pı:xa Bəhmənə mən heç qız verrəm?*

**PIXIMMAX** (Basarkeçər) – çox yeyib məst olmaq. – *Qoyun o qədər arpa ye:f ki, pıxınıf.*

**PIXMAX** (Çənbərək) – küsmək. – *İsmeyil bizdən pıxıf; – Sən də pıxdın axırda bizdən?*

**PIXİ** (Ordubad) – qorxaq.

**PILAKİ** (Zəngilan) – pulgir.

**PILAN** (Cəlilabad) – həyətyanı əkin sahəsi. – *Pılanımı isde:yəm şumliyəm.*

**PILÇIX** (Cəbrayıl, Zəngilan) – gözdə olan çirk. – *Keş gözü: pılçı:n yu, so:ra gə çay iç* (Zəngilan); – *Gözü: pılçığın təmizdə* (Cəbrayıl).

**PINDAVAR** (Cəbrayıl) – uzaq. – *Əli mənnən pındavar gəzir.*

**PINQ** (İsmayıllı) – kökü yeyilən yabanı bitki adı. – *Burda pınq çoxdu.*

**PINT: PINT SALMAX** (Zaqatala) – ara qarışdırmaq.

**PIR** I (İmişli) – xırda yarpaq (kolun ucunda). – *Qoyunu yaxşı kökəldər kolun pırı.*

**PIR** II (Ağdam, Kürdəmir) – barama kəpənəyi. – *Pır baramadan çıxır* (Kürdəmir).

**PIRAM** (Kürdəmir) – b a x **piran.** – *Pıram yulğunnuxda pitir.*

**PIRAN** (Xocalı, Tərtər) – b a x **piran.**

**PIRÇIX** (Tovuz) – bol.

**PIRÇIM** (Yardımlı) – bəhanə, səbəb. – *Bir parçım axtarey mənnən savaşməgə.*

**PIRIŞ** (Tovuz) – qoyun cinsi adı. – *Pırış qoyunun yunu yaxşı olor.*

**PIRNEX′** (Meğri) – köməkçi. – *Baləcə galladardı, biz də unın pırneyiydıx.*

**PIRNIX** (Ağdam, Əli Bayramlı, Mingəçevir) – yapon xurması.

**PIRPAZ** (Salyan) – şərait. – *Neçə ildi işdiyir, hələ öziyçin bir pırpaz düzəldə bilmiyib indiyənəcən.*

**PIRPIT** (Cəbrayıl) – xörək adı. – *Bacımgildə yaxşı pırpıt yedim.*

**PIRPIZ** (Ucar) – yabanı bitki adı. – *Pırpız quru yerrərdə pitir;* – *Rəna, qoyunun pırpızdarın təmizdə.*

**PIRPIZAX** I (Zəngilan) – yabanı bitki adı. – *Pırpızax olan yerdə yemlix′ də olar.*

**PIRPIZAX** II (Zəngilan) – çox xırda budaq. – *Odunun pırpızağın kəs töxʹ yerə.*

**PIRPIZAXLI** (Cəbrayıl, Zəngilan) – xırda budaqlı. – *Pırpızaxlı odunu dürtmə qaza:n altda* (Zəngilan); – *Pırpızaxlı odunu pıça qoymağ olmaz* (Cəbrayıl).

**PIRPIZDI** I (Qafan, Zəngilan) – xırda budaqlı. – *Pırpızaxlı odunu dürtmə qaza:n altda* (Zəngilan); – *Pırpızaxlı odunu pıça qoymağ olmur* (Cəbrayıl).

**PIRPIZIDI** II (Şuşa) – saçı pırtlaşıq. – *Bir pırpızdı qız gəlif səni soruşur.*

**PIRPIZLAMMIŞ** (Əli Bayramlı) – pərvazlanmış (quşa aiddir). – *Uşağlar yuvadan pırpızlammış quş balalarını götürdülər.*

**PIRRAMAX** (Bərdə, Cəbrayıl, Mingəçevir, Şamaxı) – kəpənəkləmək, kəpənək çıxarmaq (baramaya aiddir). – *Baramanı gej dərdixʹ deyin çoxu pırradı* (Cəbrayıl).

**PIRRIYAN** (Göyçay) – uçan.

**PIRSIXMAX** (Çənbərək) – qızarmaq, pörtmək (üzə aiddir). – *Urusdamın rəngi yaman pırsıxıf.*

**PIRSIMAX** (Bərdə, Cəbrayıl, Füzuli, Zəngilan) – yetişəndən sonra boşalıb kiflənmək (meyvəyə aiddir). – *Armıt pırsıdı, yeməy olmaz;* – *Yemiş pırsıyıf, yeməy olmaz* (Bərdə).

**PIRTDAMA** I (Şamaxı) – qovun növü. – *Pırtdama ucuz olur.*

**PIRTDAMA** II (Ağdaş, Göyçay, Kürdəmir, Mingəçevir, Oğuz, Şamaxı, Ucar) – xörək adı (qabaq, yağ, qoz və ya fındıqdan hazırlanır). – *Pırtdama adamın sinəsini yumşaldır* (Oğuz); – *Pırtdamanı payızda, qışda pişirərik* (Ucar); – *Pırtdamanı gəti yiyim* (Şamaxı).

**PIRTDANAX: PIRTDANAĞI ÇIXMAX** (Meğri, Şəki) – daxili orqanları bayıra çıxmaq. – *Bu toyuğun pırtdanağı çıxdı* (Şəki).

**PIRTI** (İrəvan) – arşınmalı. – *Kəndə pırtı satan gəlib.*

**PIRTIĞ** (Cəbrayıl) – araba hissələrindən birinin adı. – *Muxdar, pırtığı arabanın üstə sal.*

**PIRTIX-PIRTIX: PIRTIX-PIRTIX OLMAX** (Gəncə) – b a x **pırtım-pırtım olmax.** – *Aldığım şal pırtıx-pırtıx oldu.*

**PIRTIM-PIRTIM: PIRTIM-PIRTIM OLMAX** (Mingəçevir) – didik-didik olmaq.

**PIRTINHAY: PIRTINHAY DÜŞMƏXʹ** (Qazax) – köçə-köç düşmək. – *Arxeyin oturdux dağda, qar yağdı, pırtınhay düşdü.*

**PIRTMAX** I (Basarkeçər, Çənbərək, Hamamlı) – sürüşmək. – *Ə:ğım pırtdı, yıxıldım* (Basarkeçər); – *Əzvər, gənə niyə pırtırsaŋ?* (Çənbərək).

**PIRTMAX** II (Gədəbəy) – süzülmək, işlənib nazilmək (paltara aiddir). – *Pırtıv əldən çıxıf şalvarın dizi.*

**PIS** (Oğuz) – çiling – *Sən pısu düz atmadın!*

**PISDIX** (Ordubad) – kök. – *Pısdıx Məhərrəm sağdi.*

**PISDIM: PISDIM AÇILMAX** (Oğuz) – donu açılmaq. – *Pısdımı açılar, yumşalar.*

**PISIX** (Zəngəzur) – kök. – *Bu nə yaman pısığ adamdı.*

**PISIXMAX** (Zəngəzur) – kökəlmək. – *Sona dağda o ki var yeyib pısıxıb.*

**PISIM-PISIM: PISIM-PISIM DANIŞMAX** (Ağdaş) – pıçıltı ilə danışmaq, xısın-xısın danışmaq. – *Həmid Səfərnən pısım-pısım danışırdı.*

**PISIN-PISIN: PISIN-PISIN DANIŞMAX** (İsmayıllı) – b a x **pısım-pısım.** – *A qızdar, nə var ki, belə pısın-pısın danışırsuz?*

**PISPIS** (Ordubad) – dozanqurdu. – *Pıspıs çox vaxd işığa gəlir.*

**PISPISA** I (Zəngilan) – yabanı bitki adı. – *Pıspısa yanığa dərmandı.*

**PISPISA** II (Bakı. Cəlilabad) – b a x **pıspıs.** – *Pıspısa pısıldey* (Cəlilabad).

**PISPISA** III (Ucar) – pıç-pıç. – *Pıs-pısa öy yıxar.*

**PIŞDIRIM** (Balakən) – yüngülağıl.

**PIŞDIX** I (Zəngilan) – körpə buzov. – *Pışdıx bızavın illaf <lap> balacasına de:llər.*

**PIŞDIX** II (Cəbrayıl) – bişmiş dələmə. – *Dələməni qoyub ojağa pişirillər, olur pışdıx.*

**PIŞĞIRMAX** (Zaqatala) – qıcqırmaq (ağartıya aiddir).

**PIT** I (Ağdaş, Cəbrayıl, Kürdəmir) – çürük. – *Bı ağac pıtdı, tikintiyə yaramaz* (Cəbrayıl).

**PIT** II (Kürdəmir) – qov. – *Pıtı da, çaxmağın da vər, paprısımı yandırım.*

**PITAR** (Cəbrayıl) – yamac. – *Həsən, qoyunu yığ pıtara.*

**PITDAMƏY** (Cəlilabad) – çürümək. – *Qaley, qaley, göreysən, ağəc pıtdadi.*

**PITDIXLAŞMAX** (Zaqatala) – varlanmaq. – *Əli bir əz vəxtdə pıtdıxlaşıb.*

**PITQAMA** (Meğri) – ağızbaağız dolu. – *Hümbətəli pıtqama qazan süd sağdı, gətdi bizə.*

**PITIX** I (Xaçmaz, Meğri) – b a x **pısıx.** – *Mıxdar xaloğlunun bir pıtığ oğlu var* (Meğri). ◊ **Pıtığ eləməg** (Xaçmaz) – kökəltmək. – *Göy ot qoyunu pıtığ eliyib* (Xaçmaz).

**PITIX** II (Kəlbəcər) – körpə buzov. – *İnəyimizin bir ala pıtığı var.*

**PITIL** (Cəlilabad, Kürdəmir, Yardımlı) – çürük. – *Pıtıl ağəc tez yaney* (Cəlilabad).

**PITILQA** (Salyan) – ağacın qurd yemiş yerində olan kəpək. – *Bu ağacda pıtılqa çoxdu.*

**PITILLAMAX** (Kürdəmir) – b a x **pıtdaməy.** – *Bırız pıtıllıyıp, öyə qoymağ olmaz.*

**PITIN** (Masallı) – b a x **pıtıl.**

**PITIRAĞ** (Cənubi Azərbaycan, Culfa, Quba, Lənkəran, Meğri, Ordubad, Şamaxı, Şərur) – b a x **pitirağ.** – *Pıtırağ zərəlli otdu* (Şərur); – *Pıtırağ paltara suvaşan tikənni otdu* (Culfa); – *Qoyunun quyruğunda gör naqqada <nə qədər> pıtırağ var!* (Lənkəran).

**PITIRQA** (Cənubi Azərbaycan) – b a x **pıtılqa.** – *Pıtırqaya əl vurmamış ağac uçdi.*

**PITIRQAX** (Balakən, Qax, Zaqatala) – b a x **pitirağ.**

**PITIRQAN** (Gəncə, Qazax, Şəmkir, Tərtər) – b a x **pitirağ.** – *Atın quyruğu pıtırqannan doluf* (Qazax).

**PITIRQANNIX** (Gəncə, Şəmkir) – pıtırqan çox bitən yer. – *Bura nə:man pıtırqannıxdı* (Şəmkir).

**PIYXIRMAX** (Göyçay) – hürkmək.

**PİÇAN** (Dərbənd, Tabasaran) – ot. ◊ **Piçan çalmağ** (Dərbənd) – ot çalmaq. – *Piçani yiğillər yabeynan* (Tabasaran); – *Saba: piçan çalmağa çixədüg* (Dərbənd).

**PİÇCƏ** (Bakı, İmişli) – yara. – *Piçcə çıxdı gözünə yazığın, onnan şikasd oldı* (İmişli).

**PİÇƏ** (Ucar) – əmiarvadı. – *Biz əmimizin arvadına piçə de:irik.*

**PİÇƏNƏ** (Lənkəran) – başda yük aparmaq üçün burulmuş dairəvi parça.

**PİXAL** (Qax) – paltar sərilən ip üçün dirək.

**PİXƏ** (Qax) – azca. – *Pixə üvənə otu, mağa issi oluy.*

**PİLEY** (Qax) – yabanı soğan.

**PİLƏ** I (Salyan, Yardımlı) – nazik. – *Qış günü də pilə şalvarda gəzir* (Salyan).

**PİLƏ** II (Yardımlı) – yumşaq. – *Nənəm həmişə pilə çörəy bişirey.*

**PİLƏK** I (Ağdam, Ağdaş, Ağdərə, Cəbrayıl, Cəlilabad, Gəncə, Xocalı, Quba, Masallı, Şuşa, Yardımlı) – düymə. – *Pilək də de:rik, düymə də* (Ağdam); – *Sə:ŋ pencəyinin üş piləyi var* (Ağdərə); – *Balınca beş pilək lazımdı* (Gəncə); – *Pencəyin piləgi qırılıb* (Yardımlı).

**PİLƏK** II (Qazax) – qadın paltarında bəzək kimi istifadə olunan pul. – *Piləyi varrılar düzürdülər donnarına.*

**PİLƏKƏN** (Əli Bayramlı, Salyan, Ucar, Zərdab) – narın süpürgə. – *Pıləkəni mə: ver* (Əli Bayramlı); – *Səknə, piləkəni gəti, qulangərişi süpür* (Salyan); – *Anam piləkənnən palazı süpürdü* (Zərdab).

**PİLƏLƏMƏK** (Lənkəran) – mürgüləmək.

**PİLLƏKAN** I (Kürdəmir) – qarğıdalı saçağı. – *Qarğıdalının başına pilləkan de:rük.*

**PİLLƏKAN** II (Zərdab) – nərdivan. – *Əvin üsdə pilləkannan çıxırıx.*

**PİLLƏKƏN** (Salyan) – b a x **piləkən.**

**PİLLƏLƏMƏG** (Salyan, Yardımlı) – ara qatmaq, qızışdırmaq. – *Sən oları pilləlməseydün, olar savaşmazdı.*

**PİLLƏŞMƏK** (Göyçay) – böyümək (meyvə haqqında).

**PİLPİLƏ** I (Göyçay) – əməköməci. – *O pilpiləni yığsana!*

**PİLPİLƏ** II (Ucar) – narın süpürgə. – *Pilpiləni götü, seyvanı süpür;* – *Pilpileynən öyü süpürrük.*

**PİLPİLƏ** III (Kürdəmir) – nazik kağız. – *Pilpilə çox naziy olur.*

**PİLPİNƏG** (Dərbənd) – b a x **pərpənək.** – *Pilpinəg diyədüg büz una.*

**PİLPİREG** (Quba) – kəpənək.

**PİLTƏ** (Basarkeçər, Xocavənd, Qazax, Şəki, Tovuz) – bir ovucun içi böyüklükdə daranmış yun. – *Piltəni ver ə:rim cəhrədə* (Basarkeçər). ◊ **Piltə tutmax** (Şəki) – yundan piltə düzəltmək. – *Yünü tariyif piltə tutüylər, so:ra eyriylər* (Şəki).

**PİLTƏLƏMƏX′** I (Basarkeçər) – yunu darayaraq ovuc içi böyüklükdə düzəltmək.

**PİLTƏLƏMƏX′** II (Basarkeçər) – acıqlandırmaq. – *Ə, məni piltələmə!*

**PİLTİX′-PİLTİX′: PİLTİX′-PİLTİX′ OLMAX** (Xanlar, Şəmkir) – parça-parça olmaq. – *Çıranın üşşəsi əlimnən tüşdü, piltix′-piltiy oldu* (Şəmkir).

**PİN** I (Cəlilabad, Əli Bayramlı, İmişli, Salyan, Yardımlı) – saman qırıntısı. – *Xırmanda pin çox qalıb* (Əli Bayramlı); – *Pini heyvan yeməz* (Salyan); – *Pini qat palçığa, so:ra kəs kərpici* (İmişli).

**PİN** II (Lənkəran) – çəltik qabığı.

**Pİ:NƏ** (Lənkəran) – düyünün içində olan zir-zibil. – *Həsən, sən alan düyidə pi:nə çox vardı.*

**PİNƏDAN** (Basarkeçər) – öküzləri kotana qoşmaq üçün zəncir. – *Pinədan yoğun zəncirdi on-ombeş metirrix′; – Pinədannan yeddi boyun öküz qoşmağ olur.*

**PİNTİMƏNİGEYMƏSİN** (Şuşa) – ipək parça adı (keçmişdə). – *Solmaz pintiməni-geyməsinnən don tix′dirif.*

**PİPİG** (Göyçay) – narın çiçək olan tərəfi.

**PİRAN** (Ağdam, Cəbrayıl) – yabanı bitki adı. – *Mən qurdu pirannan şaxladım* (Cəbrayıl).

**PİRDAX: PİRDAX DURMAĞ** (Şamaxı) – yapıxmamaq. – *Qıyığı gənnən vır ki, yorğança pirdax dursun.*

**PİRƏC** (Zərdab) – paltar sərmək üçün ip. – *Yuyulmuş paltarları pirəcdən as.*

**PİRƏM** (Bakı, Əli Bayramlı) – yonqar. – *Pirəm ocağda yaxçı yanar; – O pirəmləri yığ, bas piçə* (Bakı).

**PİRƏN** (Tərtər) – b a x **piran.** – *Pirən qışdax yerrərində çox olur.*

**PİRKAR** (Salyan) – doyunca. – *Lap pirkar yidim, çox sağ ol!*

**PİRPİNƏG** (Dərbənd) – b a x **pilpireg.** – *Papağində pirpinəg uturmuşdu, hiç xəbəri də yuxdu.*

**PİSDƏQARIN** (Bakı, Salyan, Şamaxı, Şuşa) – azyeyən. – *Çimnaz pisdəqarın uşağdı* (Salyan); – *Əli yaman pisdəqarın adamdı* (Şamaxı).

**PİSDİKLİK** (Şərur) – cüzam xəstəliyi.

**PİSGƏ** (Tabasaran) – b a x **piskə.**

**PİSGƏNDƏ** (Bakı) – qabığı soyulub qurudulmuş əncir.

**PİSİX′MƏX′** (Gəncə, Şəmkir, Tovuz) – dilxor olmaq. – *Həsən toyda yaman pisix′di* (Gəncə); – *Pisix′mə, qardaş adamı daŋlıyar da:!* (Şəmkir).

**PİSKƏ** (Dərbənd) – daban, dəyirman daşlarının işini nizamlayan hissə. – *Dəgirman lap iri çəkmağa başlayutdu, piskəni bir az aşağa elə.*

**PİSSİCƏ** (İmişli) – yeyilmə (yara adı).

**PİŞGİL** (Meğri) – qoyun peyini.

**PİT** (Cəlilabad) – çərçivə. – *Ağuşgənin piti diyəsən əyridi.*

☐ **Pit qoyməy** (Cəlilabad) – çiy kərpic qoymaq. – *Evin uxarısinə pit qoyəndə pit ev de:yük.*

**PİTBALA** (Cəlilabad, Masallı) – qaz balası.

**PİTƏ** I (Balakən, Zaqatala) – 1. tənzif. – *Bazara gedirsavsa, mağa beş metir pitə al* (Zaqatala); 2. tənzifdən baş yaylığı. – *Pitəm yırtılıb, təzəsi üçün cuna alacağam* (Balakən).

**PİTƏ** II (Yardımlı) – corabın burnu. – *Corabın pitəsin tikeyəm.*

☐ **Pitəsini tutmağ** (Lerik, Yardımlı) – toxumağa başlamaq (coraba aiddir). – *Corabın pitəsini tutdım* (Lerik).

**PİTİX′** (Tovuz) – qadın paltarlarında naxış, bəzək. – *Pitiyi cavannar düzəldərdi paltarın üsdünə.*

**PİTİRAĞ** (Dərbənd) – yabanı bitki adı. – *Yaninnən keçeydim, pitirağ şalvaruma yapuşdi.*

**PTİRİCİ** (Çənbərək) – kuryer.

**PİTNƏ** (Zaqatala) – yarpız.

**PİTPİTİ** (Qazax) – kol adı.

**PİŞGİL** (Meğri) – qoyun qığı.

**PİŞİ** (Bakı, Gəncə) – üzərinə şəkər tozu səpilmiş yağlı qoğal.

**PİŞİB** (Quba) – cır meyvə.

**PİŞİGƏYAĞI** (Dərbənd) – yabanı bitki adı. – *Çüdilərün ən daddusi pişigəyağıdən uladu.*

**PİŞİGÜZÜMÜ** (Culfa) – üzüm növü adı.

**PİŞİKCİYNAĞI** (İmişli, Qazax, Şəmkir) – yabanı bitki adı. – *Pişikciynağını do:ğaya tökəllər* (Şəmkir).

**PİŞİKDIRNAĞI** (Laçın) – yabanı bitki adı.

**PİŞİKSÜPÜRGƏSİ** (Ucar) – narın süpürgə. – *Pişiksüpürgəsiynən eyvan süpürrük.*

**PİŞİNTİ** (Qğuz) – xörək. – *Pişintini bulamağ üçün çömçə olur.*

**PİŞKAN** (Lənkəran) – b a x **peşkan.**

**PİŞMƏ** (Qazax) – xörək.

**PİŞMƏCƏ: PİŞMƏCƏ OLMAX** (Qazax) – istidən səpmək. – *Qoltuğuun altı pişməcə oluf.*

**PİŞMİŞ** (Qazax) – xörək. – *Bir az pişmiş var, gəlin yə:x!*

**PİŞPİŞƏ** (İmişli, Ucar) – yabanı bitki adı. – *Pişpişə paltara yapışsa, qopbaz* (Ucar).

**PİŞPİŞİ** I (Bakı, Qazax, Laçın, Mingəçevir, Zəngilan) – b a x **pişpişə.** – *Pişpişi lazımsız otdu* (Qazax); – *Yunda o qədər pişpişi var ki, artdamağ olmur* (Zəngilan); – *Pişpişi adamın paltarına yapışır* (Laçın).

**PİŞPİŞİ** II (Lənkəran) – narın süpürgə.

**PİŞRAZ** (Bakı) – tezyetişən üzüm növü adı.

**PİŞRO: PİŞRO GƏLMEG** (Bakı) – qarşı-qarşıya gəlmək.

**PİVAS** (Quba) – xoşxasiyyət. – *Asıl adama bizdərdə pivas adam diyədülər.*

**PİYA** (Qazax) – paho (ədat). – *Piya, nə yaxşı oxuyur!*

**PİYAZ** (Oğuz) – alaq otu.

**PİYƏ** (Mingəçevir) – ağac şirəsi.

**PİYPALAN** (Çənbərək) – yağlı ət. – *Piypalan cəmdəyi neçiyə satdıŋız?*

**PİZƏ** (Lənkəran) – həsir toxumaq üçün bitki növü. – *Həsiri pizədən toxuyullar.*

**POCƏ** (Yardımlı) – yamac.

**POĞA** (Sabirabad) – evin üst tirlərini saxlamaq üçün dirək.

**POXRUT** (Zaqatala) – qaralmış qoz (ağacda).

**POLUŞ** (Zaqatala) – qaba.

**POMPAL** (Zəngilan) – b a x **pampal.** – *Pompalı aşa: <aşağı> sort götürüllər.*

**POMPALAMPAS: POMPALAMPAS OLMAX** (Qazax) – tənbəl olmaq. – *Aya, pompalampas olma, bir adam kimi yeri.*

**POMPALAN** (Zəngilan) – b a x **pampal.**

**POMPUL** I (Borçalı) – kəkil. – *Pompul tö:üxda olur.*

**POMPUL** II (Laçın) – kobud.

**POMPUR** (Balakən) – qıvrım. – *Bı qızın nə pompur saçı var!*

**PONÇAX** (Basarkeçər, Şərur) – qotaz. – *Ponçağı qoçun boğazına bağli:rıx* (Basarkeçər).

**PONPULLAMMAX** (Axalsxi) – iriləşmək, böyümək. – *Baxçamızda yaşil ot ponpullanıbdı.*

**PONSARMAĞ** (Salyan) – incimək. – *Bilseydim ponsaracağsan, heç zarafat eləməzdim.*

**PONTARMAX** (Ucar) – ciddiləşmək.

**PONTULAŞ** (Qax) – daxilən razı, zahirən narazı olan.

**POPUR** I (Zaqatala) – kəkil.

**POPUR** II (Qax) – b a x **pompur.**

**POPUR** III (Balakən, Qax, Oğuz, Şəki) – qırçın. – *Qofdamda popur var* (Balakən); – *Tumanın popurunu neşin söküfsən*? (Şəki).

**POPURRAMAX** (Qax) – təzə yarpaqlamağa başlamaq.

**POPURRAMMAX** (Çənbərək) – b a x **popurramax.** – *Qartopumuz yağdı deyin popurranıf; – Lovya popurranıf.*

**POPURRU** (Çənbərək) – pırpız. – *Məleykənin həmməşə saçı popurrudu.*

**POR** (Qax, Şəki, Zaqatala) – kif. – *Por basıfdı çöreyi* (Şəki).

**PORALAMAX** (Qazax, Gəncə, Xanlar) – qorxutmaq. – *İndidən poralor kin, qarpızı çox yemiyəx'* (Qazax); – *Yazığı elə poraladılar ki, dindiyinə peşman oldu* (Gəncə); – *Kişiyi elə poraladılar ki, elə bil onların uşağıdı* (Xanlar).

**PORALAMMAX** (Çənbərək) – dalbadal çıxmaq. – *Camahat iclasdan poralandı; – Cüjə yumurtadan poralandı; – Xıyar səpilənnən üş gün sonra poralandı.*

**PORALMAX** (Şəki) – 1. halı dəyişmək. – *Sə:ŋ sözünnən o bir az poraldı;* 2. pisləşmək (havaya aid). – *Hava poraldı, maşın işdəmir.*

**PORAN** I (Quba) – ağacın dibindən çıxan pöhrə. – *Bu porannarı kəsmağ lazımdu, ağaca məfiyəti yuxdu.*

**PORAN** II (Oğuz, Şamaxı) – pis (əhvala, vəziyyətə və s. aid). – *Əhməd kişi porandı* (Oğuz); – *Halım porandı* (Şamaxı).

**PORANNAMAX** (Meğri) – əhvalı pisləşmək. – *İssidən uşaxlar porannıyıp.*

**PORİ** (Əli Bayramlı) – balıq növü adı. – *Pori tora tez düşür.*

**PORNAX** I (Xanlar) – qoyunlarını çobana otartdıran şəxs. – *Mənim pornaxlarım yaxşıdı.*

**PORNAX** II (Tovuz) – avara, boş-bikar adam. – *Eldarın başına bir pornax yığılıf, ağız de:əni qulağ eşitmir.*

**PORPA** (Şəki) – böyük, iri. – *Porpadı də: uşaxları Xəccənin.*

**PORPALAŞMAX** (Şəki) – böyümək. – *Uşaxlar porpalaşənnən so:ra də işdəminəm.*

**PORPORU** (Qazax) – tikanlı kollardan birinin adı.

**PORRAMAX** (Şəki) – kif atmaq. – *Çox qalanda çörəx' porri:r.*

**PORRAMMAX** (Qax) – kiflənmək. – *Çora* <*çörək*> *yeydə porrıyıy.*

**PORSALMAX** (Oğuz) – tüklərini qabartmaq (quşa aiddir). – *İndişqa xoruzu porsalır.*

**PORSUMAX** I (Qax, Şəmkir, Zaqatala) – qızarmaq.

**PORSUMAX** II (Qazax, Hamamlı, Laçın, Tovuz, Zaqatala) – qıcqırmaq. – *Xamır porsuyuf, tez ol qala təndiri* (Qazax); – *Qatığ o qədər porsuyuf ki, yiyiləsi döy* (Tovuz).

**PORSUTMAĞ** (Lənkəran) – b a x **porsalmaq.**

**PORT** (Ucar) – kövrək qabıqlı (qoz). – *Port qozun ləpəsi irahat çıxır.*

**PORTDAMA** (Qarakilsə, Ordubad) – yemək adı (süd ilə doğranmış çörəyin qaynadılmasından hazırlanır). – *Portdama payız lap yaxşı olur* (Ordubad).

**PORU** (Ağcabədi, Borçalı) – körpə quzular salınan yer. – *Poruda anadan təzə olan quzular olur* (Ağcabədi); – *Poru otuxmuyan quzularçündü* (Borçalı).

**PORUĞ** (İmişli) – b a x **poru.** – *Bir az so:ra poruğa yığılar quzı.*

**PORUMAX** I (Oğuz) – b a x **porramax.** – *Çürək porruyuf.*

**PORUMAX** II (Gəncə) – xarab olmaq. – *Yumurta yaydan qalıf poruyuf.*

**PORUMUŞ** (Gəncə) – çürümüş. – *Porumuş almanı uşax yeyirdi, əlinnən aldım.*

**PORUNNAMAĞ** (Lənkəran) – süst olmaq.

**POSALAX** (Qarakilsə, Oğuz) – b a x **pasalax** I. – *Posalağ adam çox hilləkər olan şeydi* (Oğuz).

**POSDAL** (Barana, Basarkeçər, Borçalı, Culfa, Hamamlı, Qazax, Şəki, Şərur, Tovuz) – çust. – *Posdalın altı gön olor, üzü də dəri olor, özü də davansız olor* (Borçalı); – *Posdalı yay günü geyillər* (Şərur); – *Posdalı qavaxlar da giyirdilər, hindi də giyillər* (Şəki).

**POSXURTMAX** (Çənbərək) – udmaq (oyunda). – *Ay İrva:m, də:n top oyununda Vəliyi posxurtdun.*

**POSPƏLƏD** (Əli Bayramlı) – darvaza. – *Sırxayın pospələdi xarab olıb.*

**POSTAL** (Ağdam, Başkeçid, Bolnisi, Borçalı, Cəbrayıl, Culfa, Hamamlı, Qazax, Şəmkir, Şərur, Yevlax) – b a x **posdal.** – *Qağa, maŋa postal alıfsaŋmı?* (Borçalı).

**POSTALÇI** (Borçalı) – çusttikən. – *Postalını apar postalçıya tikdir.*

**POŞABOYU** (Qazax) – yabanı bitki adı.

**POŞALIX: POŞALIX ELƏMƏK** (İrəvan) – çığır-bağır salmaq. – *Çox da posalığ eləmə, sənnən qorxan yoxdu.*

**POT** (Borçalı, Qazax, Şəmkir) – suda, süddə həll olunmamış un yumrucuqları (xəşildə, umacda və s.). – *Pot xaşılın içindo:lur* (Borçalı); – *Hörrüyü qarışdırmadıx de:in, potu çox oldu* (Şəmkir).

**POTA** (Ağdam, Başkeçid, Bolnisi, Borçalı, Qazax, Şəmkir, Tovuz) – 1. biryaşar camış balası (Başkeçid, Bolnisi, Borçalı, Qazax, Şəmkir, Tovuz). – *Arvad, Qurvan potoyu neylədi?* (Qazax); – *Pota ot ye:ir* (Borçalı); 2. donuz balası (Ağdaş, Zərdab) – *Bir məgərçin (donuz) gördüm, yanında on iki potası vardı* (Ağdaş); 3. ayı balası (Kəlbəcər). – *Potanı itirmişik.*

**POTAXIRÇ** (Salyan) – ağzınacan, ağızbaağız (doldurmaq). – *Siyəzini bığdeynan potaxırç doldırdım.*

☐ **Potaxırç olmağ** – sıxışdırılmaq (darısqal yerdə). – *Maşında potaxırç olıb qalmışdım.*

**POTAQ** (Zaqatala) – kök (adam).

**POTAL** (İmişli) – bol.

**POTALAY** (Zaqatala) – yabanı bitki adı.

**POTAMAY** (Qax) – kök və yekəqarın adam.

**POTQA** (Ağdam, Xocavənd, Qazax, Tovuz) – vəlin altında döyülməyib qalan sünbül. – *Taxılı döyüf şaneynan so:ururux, potqası bir yana tüşür, duru taxılı bir yana* (Ağdam).

**POTQALAMAX** (Ağdam) – vəlin altında yaxşı döyülməmiş taxılı bir yerə yığmaq, toplamaq. – *Taxılı so:urannan soŋra onu potqalıyırdıx.*

**POTPOTU** I (Ağdam, Xocavənd) – pətənək (quşlarda).

**POTPOTU** II (Borçalı) – yabanı bitki adı. – *Potpotu baldırğanın arasınnan çıxır.*

☐ **Potpotu çıxarmax** (Xanlar) – əngəl çıxarmaq. – *Hər işdən potpotu çıxarmağın nə mənası var?*

**POTUĞ** (Biləsuvar, Lənkəran, Masallı) – b a x **pota** (1-ci məna). – *Gomuş potuğa süt verir* (Lənkəran); – *Ay gədə, potuğu qovla bəri* (Masallı).

**POTUŞ** (Basarkeçər, Qazax) – kök.

**POTUŞDAMMAĞ** (Çənbərək) – kökəlmək. – *Tutduğum küçüx′ potuşdanıf.*

**POZMAX** (Ordubad) – dərib qurtarmaq. – *Gedax, mevlığı (üzümlüyü) pozax.*

**PÖHRƏ** (Cəlilabad, Meğri) – b a x **pörə** II. – *Arinin balasinə deyük pöhrə* (Cəlilabad).

**PÖJDƏLƏMMƏG** (Lənkəran) – qarsalanmaq, yaxşı bişmədən üzü yanmaq, qızarmaq.

**PÖJDƏMƏK** (İmişli) – yolmaq (quş tükünə aiddir). – *Pöjdeyün to:uğı, bişirün.*

**PÖKƏ** (Cəlilabad) – qorxu. – *Heç kəssən pökəm yoxdi.*

**PÖLDÜ** (Qax) – sümüksüz ət.

**PÖLİŞGƏMƏG** (Cəlilabad) – solğunlaşmaq (susuzluqdan). – *Çiçəklər pölişgeyib.*

**PÖRƏ** I (Göyçay) – pöhrə.

**PÖRƏ** II (Sabirabad) – beçə arı. – *Pörələr çoxalmağdadu.*

**PÖRNƏK** (Qarakilsə, Zəngilan) – b a x **pornax** I. – *Pörnəklər çobanın haqqını hər ayın axırında verillər* (Zəngilan).

**PÖRPÖTƏ** (Borçalı) – pətənək (quşlarda). – *Dən dəndəx′dən gedər töyüğün pötpötəsinə.*

**PÖRŞƏLƏMƏK** (Ağcabədi, Çənbərək, Kürdəmir) – pörtmək, pörtələmək (ət haqqında). – *Bir az ət vardı, pörşələdik, yedik* (Ağcabədi); – *Toyuğı kəsib qaynar suda pörşəliyənnən so:ura tükün yoldux* (Kürdəmir).

**PÖRT** (Zaqatala) – ağciyər (iri buynuzlu heyvana aiddir).

**PÖRTDƏMƏ** (Cəbrayıl, Qazax, Mingəçevir, Şəki, Zəngilan) – 1. buğda, lobya və noxudu pörtlədərək hazırlanmış yemək. – *Nənəm pörtdəmə qoyuf, gə gedəx′, sən də ye* (Zəngilan); 2. alça, zoğal, gavalı, ərik və s. meyvələri pörtlədərək hazırlanan yemək (Mingəçevir); 3. əti pörtlədərək hazırlanan yemək, sulu qovurma (Qazax). – *Pörtdəmə pişifmi?*

**PÖRTDƏX′** (Zəngilan) – pörtülüb qurudulmuş zoğal. – *Pörtdəx′ bişmişdə işdənir.*

**PÖSGÜRMƏK** (İrəvan) – udma (oyunda). – *Rəşidin aşıxlarını pösgürüf əlinnən aldım.*

**PÖŞDƏMƏX′** (Qarakilsə, Zəngilan) – isti suda pörtmək. – *Sən cücüyü pöşdə, mən də ayrı iş görüm* (Zəngilan); – *Az, toyuxları pöşdə* (Qarakilsə).

**PÖŞƏLƏMƏK** (Oğuz) – *məc.* yemək, yaxşı çeynəmədən tez-tez yemək. – *Hümbət üç çörəyi pöşələdi.*

**PÖTPÖTÜ** (Gəncə, Qazax) – b a x **pötpötə.** – *Pötpötü yemәlidi* (Qazax).

**PÖTÜYƏ** (Şəmkir) – böyrək. – *Anam pötüyü mə:m daralqama qoydu.*

**PUÇGİNƏNDƏ** (Bakı) – vecsiz. – *Əlinin oğli lap puçginəndədü.*

**PUÇUR** (Gəncə, Qazax, Şəmkir, Şuşa, Tovuz, Zaqatala) – tumurcuq. – *Puçur xırdadı* (Qazax); – *A bala, ağajın puçurun niyə qırıf tökürsən!* (Tovuz); – *Ağacın puçurunu tökmə!* (Gəncə).

☐ **Puçurunu açmax** (Gəncə) – b a x **pıçırını açmax.** – *Puçurunu açaram, utanarsan!*

**PUÇURRAMAX** (Borçalı, Gəncə, Şəki, Şəmkir, Tovuz) – tumurcuqlamaq. – *Ağaşdar mart ayında puçurruyur, soŋra ordan yarpağ açır* (Borçalı); – *Söyüt puçurruyuf* (Gəncə); – *Ağaşdar ta: <daha> puçurruyuf* (Tovuz); – *Alınçamız puçurruyuf* (Şəmkir); – *Ağacdar no:ruzda puçurri:lər* (Şəki).

**PUF** I (Ağdaş, Oğuz) – b a x **pıfa** I. – *Bu qoz pufdı* (Ağdaş); – *Biri qoz yığıf gətirir, ho biri də diyir: "Bu, cılğı pufdu"* (Oğuz).

**PUF** II (Gədəbəy) – gödək. – *Abbas kişi də pufdu bir az boydan.*

☐ **Puf vurmax** (Zaqatala) – yel vurmaq (bitkiyə aiddir). – *Lap payızdakı kimi puf vurur.*

**PUFA** (Ağdam, Lənkəran, Mingəçevir, Oğuz) – b a x **pıfa** I. – *Aldığın findığın hamısı pufadı* (Ağdaş).

**PUĞUN** (Gədəbəy) – yumşaq (alma). – *Üş-dörd almamız var, ikisi puğundu.*

**PUXAL** (Balakən, Qax) – b a x **pixal.**

**PUXAN** (Qax) – qadın alt paltarı.

**PUXOY** (Xanlar) – kilim növü. – *Puxoy qiymətli olduğu üçün bahadır.*

**PUXUNT** (Gədəbəy) – yaxşı (bişirmək). – *Puxunt pişif qartof, də:siŋ.*

**PULA** (Bakı) – yumruq yerləşəcək boyda çala (pulapula oyunu üçün).

**PULAPULA** (Bakı) – uşaq oyunu adı.

**PULQU** (Quba) – yabanı bitki adı. – *Burda pulqu çox var.*

**PULOYLAMAX** (Çənbərək) – topalamaq. – *Taxılı xırmanda üş yerə puloyladım.*

**PULPUL** (Borçalı) – uşaq oyunu adı.

**PULUXLAMMAX** (Mingəçevir) – sınıb parça-parça olmaq.

**PULUN** (Borçalı) – kiçik ot tayası.

**PUNCUL-PUNCUL** (Zaqatala) – damcı-damcı.

**PURX** (Dərbənd) – tövlənin qabağında üstüörtülü yer. – *Ay balam, purxdan çıxar bu malları, bağa burax.*

**PURNA** (Dərbənd) – yarpız. – *Purna iki cürə uladu: peyvəz purna, unə <ona> hələ purna da diyədüg, o biri də cir purna.*

**PURNƏ** (Ordubad) – b a x **purna.** – *Həsən purnəni dərdi.*

**PURNİ** (Quba) – b a x **purna.** – *Purni do:-ğada çux güzəl uladu.*

**PURSUXMAX** (Şəmkir) – b a x **pursulmax.** – *Məhəmmət yaman pursuxmuşdu, də:-sən nəsə bir iş var.*

**PURSULMAX** (Tovuz) – hirslənmək. – *Hamayılın bəyaxkı sözdən yaman ajığı gəlif deyni pursuxuf.*

**PURSUMAĞ** (Quba) – b a x **pursulmax.** – *Nədən acuğuva gəlüb pursudun?*

**PURTƏZƏLİ** (Qax) – od, köz qarışdırmaq üçün ucu əyri uzun dəmir.

**PURTSİY** (Zaqatala) – yalançı. – *İnsanın ən pis sıfatlarınnan biri də purtsiy olmaxdı.*

**PURUX** (Zəngəzur) – həmişəyaşıl yabanı bitki adı.

**PURUXLIX** (Zəngəzur) – çoxlu purux bitən yer.

**PUS** (Axalsxi) – duman.

**PUSDAL** (Qazax) – b a x **posdal.** – *Pusdalı arvatdar geyir.*

**PUSDUMARI** (Gəncə) – zərif (tənzif). – *Üç arşın pusdumarı cuna aldım.*

**PUSQURMAĞ** (Tabasaran) – asqırmaq. – *Uşağ pusquradı.*

**PUSLAMMAX** (Axalsxi) – dumanlanmaq. – *Yenə bahar olub puslandı dağlar.*

**PUSLU** (Axalsxi) – dumanlı. – *Çox puslu gündə yağmur yağar.*

**PUSTAL** (Başkeçid, Qazax) – b a x **posdal.**

**PUSTAN** (Ordubad) – yetişib tağdan özü qopan yemiş. – *Pustan qavın şirin olur.*

**PUSUS** (Naxçıvan, Ordubad) – gildən hazırlanmış çıraq. – *Qabaxda pususu palçıxdan qayırardılar* (Naxçıvan); – *Bizzər qəbaxda pusus yandırardıx* (Ordubad).

**PUŞ** (Gədəbəy, Tovuz) – təzək. – *Puşun torpağa xeyri var, torpağ o sa:t canə:lir <cana gəlir>* (Tovuz).

**PUŞDAMAX** I (Gəncə) – dağıtmaq. – *Əkinnərin arasındakı xəndəx'ləri puşdamıyın!*

**PUŞDAMAX** II (Cəbrayıl) – sınıq şüşə qabları (çaynik, boşqab və s.) – xüsusi maddə ilə yenidən calamaq, birləşdirmək. – *Çaynı:n lüləyi sınmışdı, puşdadım.*

**PUŞDAMMAX** (Qazax) – dağılmaq. – *Sahənin içində olan böyük qajdar traxdornan puşdammışdı.*

**PUŞDİ** (Şəki) – böyük yastıq. – *Gəlin gələndə iki dənə puşdi gətirmişəm.*

**PUŞGƏ** (Şamaxı) – təzək. – *Puşgəni ocağda yandırallar.*

**PUŞĞURMAĞ** (Dərbənd) – fınxırmaq. – *At puşğuradı.*

**PUŞQAX** I (Basarkeçər, Çənbərək, Culfa, Naxçıvan, Tovuz, Şuşa). – künc. – *Əvin puşqağın toz basıf* (Basarkeçər); – *Lapatqa damın puşqağındadı* (Çənbərək); – *İşi yox, gücü yox, oturuf evin puşqağında* (Şuşa).

**PUŞQAX** II (Tovuz) – çoxlu təzək olan yer. – *O puşqaxda nə axdarırsaŋ?*

**PUŞQU** (Naxçıvan, Şərur, Şuşa) – mişar, bıçqı. – *Balaca ağaşdar puşquynan kəsilir* (Şərur); – *Puşqunu gəti, odunu puşquluyax* (Şuşa).

**PUŞQULAMAX** (Şuşa) – mişarlamaq, bıçqılamaq. – *Bu taxdanı ortadan puşqulamax lazımdı.*

**PUT** I (Qubadlı, Tərtər) – b a x **pıt** I. – *Ağacın putunda qurt var* (Qubadlı).

**PUT** II (Balakən) – künc. – *Öyün yuxarı putunda oturmuşdu.*

☐ **Put daşı** (Ağcabədi, Bərdə) – yonulub hamarlanmamış daş. – *Put daşını yonsaŋ, qubik olar* (Ağcabədi); – *Bu put daşı Ağdam tərəfdən gətirilif* (Bərdə).

**PUTDAMAX** (Ağdam, Ağdaş) – çürümək (ağaca aiddir). – *Ağaja çipo:ul tüşür, ağac putduyur* (Ağdam); – *Bu şalman putdayıb* (Ağdaş).

**PUTDIX** (Zaqatala) – varlı, dövlətli.

**PUTUL** (Lənkəran) – çürük (ağaca aiddir).

**PUYXURMAX** (Çənbərək) – *məc.* yemək. – *Alxan bir quzuyu bir dəfiyə puyxurdu.*

**PÜÇÜX′MƏX′** (Qarakilsə, Meğri) – fikrə dalmaq. – *Ə, Səməd dayı, niyə həylə püçüx′müsən?*

**PÜFƏ** I (Əli Bayramlı, Salyan, Tovuz) – 1. yonqar (Əli Bayramlı, Salyan). – *İrəndənin ağzınnan çıxır püfə* (Əli Bayramlı); – *Püfə taxdadan tez yanar* (Salyan); – *O püfədən bir teş* <*teşt*> *gəti, gərmənin altda tökəx′* (Çənbərək); – *O odunun püfəsin ocağa ver* (Kürdəmir); 2. taxta kəpəyi (Tovuz). – *Taxdadan çıxan xurdaja kəpə: püfə de:lir;* 3. çəltik qabığı, kəpəyi (Cəbrayıl, Çənbərək, Füzuli, Gədəbəy, Xanlar, İmişli, Kürdəmir, Qarakilsə, Masallı, Ordubad); – *Püfəni küləy aparır, saman qalır* (Kürdəmir); – *Püfüyü yığ da, mala:par* <*mala apar*> *verginən* (Gədəbəy); – *Taxılın püfəsin təmizləməx′ lazımdı* (Xanlar).

**PÜFƏ** II (Oğuz) – uşaq üçün hazırlanmış xörək adı. – *Uşağ ağlıyır, püfəsini ver ona.*

**PÜFƏ** III (Culfa) – yem. – *Püfəni mala verəllər.*

**PÜFƏRƏX′** (Cəbrayıl) – tez, cəld.

**PÜFÜRÜK** (Zaqatala) – puç (qoza, fındığa aiddir).

**PÜX′DƏRMƏX′** (Qazax, Şəmkir, Tovuz) – eşmək. – *Nəziy ifləri püx′dərerik kin, sonra işdə:ndə qırılmasın* (Tovuz).

**PÜK** (Oğuz) – mamır.

**PÜKÜRƏM** (Şəmkir) – otluq (yer). – *Burya girmə, pükürəmdi, ilan-çiyan olar.*

**PÜKCƏ: PÜKCƏ ÇİÇƏYİ** (Qazax) – yabanı bitki adı. – *Pükcə çiçəyini toplamağ asandı.*

**PÜLƏMİD** (Bakı) – b a x **pələmird.** – *Uşağ çox püləmiddi.*

**PÜLK** (Gəncə) – lax (yumurta).

**PÜLÜCÜK** (Şərur) – qarğıdalı dənələrinin yerləşdiyi hissə.

**PÜLÜX′** (Gədəbəy) – kök (heyvan). – *Bu çox pülüx′ heyvandı.*

**PÜLÜŞ** (Salyan) – puçal (çaya aiddir). – *Zəkiyə, çaynikdən çayın pülüşün at gessin.*

☐ **Pülüşdən çıxmax** (Cəbrayıl) – yanıb qabarmaq, suluqlamaq. – *Əlim pülüşdən çıxıb, heş tərpədəmmirəm.*

**PÜLÜŞÜX′: PÜLÜŞÜX′ ÇIXMAX** (Qarakilsə) – yanıb suluqlamaq. – *Dərisi pülüşüx′ çıxıp.*

**PÜNƏ** I (Lənkəran) – b a x **purna.**

**PÜNƏ** II (Balakən) – çəltik kəpəyi.

**PÜRÇÜKLÜ** (Ağbaba) – kök, yerkökü.

**PÜRÇÜM** (Salyan) – nöqsan. – *Nə qədər çalışsan da, işdə pürçüm olur.*

**PÜRƏN** (Ağdam, İmişli, Qax, Mingəçevir, Zəngilan, Zaqatala) – b a x **piran.** – *Beşimci yuxunu yatıf duranda başdıyıram pürənnən, şaxdan yığıf tofluyuv, onu basdırmağı* (Ağdam); – *Pirənnən qurdu şaxlıyırıx, o:n baraması yaxşı olur* (Zəngilan).

**PÜRİX′** (Şəki) – təzəcə açmış tut yarpağı.

**PÜRNƏ** (Ordubad) – b a x **purna.** – *Soyux dəyən adama pürnə çayı mənfəyətdidi.*

**PÜRSƏX′** (Hamamlı) – şaxta. – *Bü:n yaman pürsəx′di, malı buraxma çölə.*

**PÜRTİM-PÜRTİM: PÜRTİM-PÜRTİM GETMƏX′** (Qafan) – b a x **pırtım-pırtım olmax.** – *Yorğan çürüyüb pürtim-pürtim gedir.*

**PÜRTÜ** (Şəki) – ağciyər. – *İnex′ kesmişdıx, pürtüsüni çıxardıv atdıx, heyləcə xarav olmuşdi.*

**PÜRTÜK** (Oğuz) – toz. – *Kepqamın üsdündəki pürtükləri çötkə ilə təmizlə.*

**PÜRÜX′** (Şəki) – b a x **pürix′.** – *Hordan pürüx′ denniyə billıxmı?*

**PÜSDMAHİ** (Ordubad) – torlu (çarqat). – *Atam mənə püsdmahi çərqət aldı.*

**PÜSƏ** (Balakən) – zibil.

**PÜSƏX′** (Qazax, Mingəçevir) – narın yağış. – *Dört gündü püsəx′ başdıyıf.*

**PÜSƏMƏRG: PÜSƏMƏRG ELƏMƏG** (Salyan) – 1. hirsləndirmək; 2. dilxor eləmək. – *Uşağlar səs salıb mə:i püsəmərg elədi.*

**PÜSƏNGİLƏMƏK** (Kürdəmir) – narın yağmaq (yağışa aiddir). – *Gənə yağış püsəngiləyir, hava çətin açılar.*

**PÜSG** (Zəngilan) – b a x **piskə.** – *Də:rmanın püsgünə; Çaxçaqqına, püsgünə, Sən köşdün getdün, oğul; Məni qoydun pis günə.*

**PÜSGÜNTÜ** (Biləsuvar) – narın yağış.

**PÜSİNGİ** (Cəlilabad) – çətinlik. – *Əli pü-singinən gedey.*

**PÜSÜK** (Cəbrayıl) – yan-yörəsi qopmuş aşıq. – *Püsük yüngüldü deyin, ona saqqa de-yəndə ilim-ilim itir.*

**PÜSÜNGÜ** (Qazax) – b a x **püsgüntü.**

☐ **Püsüngü tökmək** (Meğri) – narın yağış yağmaq. – *Bəyəxdən püsüngü tökey.*

**PÜSÜNGÜLƏMƏK** (Cəbrayıl) – narın yağ-maq (yağışa aiddir). – *Yağış yavaş-yavaş pü-süngülüyür.*

**PÜSÜNTÜ** (Balakən) – zir-zibil.

**PÜSÜR** (Qazax) – zibil.

**PÜSÜRÜNTÜ** (Qazax) – b a x **püsüntü.** – *Püsürüntüynən zibil bir sözdü.*

**PÜSÜRÜNTÜGÖTÜRƏN** (Qazax) – xə-kəndaz. – *Püsürüntügötürənnən zibil atallar.*

**PÜSÜS** (Culfa) – b a x **pusus.**

**PÜSYƏR: PÜSYƏR OLMAX** (Gəncə, Qazax) – səpələnmək. – *Taxıl püsyər oluf* (Qazax); – *Bayramda arvad-uşax hamısı düzdərə püsyər olur* (Gəncə).

**PÜŞ** I (Oğuz) – yabanı bitki adı. – *Püşün diş ağrısına xeyri var.*

**PÜŞ** II (Bolnisi, Borçalı, Gədəbəy, Gəncə, Qax, Qazax, Meğri, Şəmkir, Tovuz) – b a x **puş.** – *Püşün torpağa çox xeyri var* (Tovuz); – *Püşü torpağa töx'sən, yaxşı olar* (Gədə-bəy); – *Yeri quvvalamaxdan ötri püşü yerə səperix'* (Borçalı).

**PÜŞDƏ** (Ağdam, Ağdaş, Balakən, Min-gəçevir, Oğuz, Tovuz) – şlüz (çayda, arxda, dəyirman novunun başında və s. lazım ol-duqca su buraxmaq üçün qapı). – *Də:rmanın püşdəsi yaxşı olmuyanda su çətin qalxır* (Balakən); – *Ay dayı, də:rmanın püşdəsi xa-rav oluf, su qalxmır* (Tovuz); – *Püşdələri dü-zəldiflər, su yaxşı gəlir.*

**PÜŞDƏX'LƏMƏX'** (Hamamlı) – qoyunu qayçı ilə qırxarkən zolaq əmələ gətirmək. – *İsa qoynu yaxşı püşdəx'le:f.*

**PÜŞDƏX'Lİ** (Hamamlı) – zolaqlı qırxılmış (qoyun). – *Ə, püşdəx'li qoyun gözümə dəy-mir axı, görən, harya gedif!*

**PÜŞDƏLƏ** (Qazax) – qoyun qırxılarkən belində düzəldilən yun zolağı.

**PÜŞDƏMƏ** (Qazax) – xörək adı. – *Püş-dəmə mal ətinnən pişir.*

**PÜŞDƏMƏX'** (Şəmkir, Tovuz) – peyinlə-mək. – *Yeri əkerix', sonra da püşderix'* (To-vuz); – *Bi:l yeri püşdədim, qartof yaxşı yəldi* (Şəmkir).

**PÜŞGÜ: PÜŞGÜ TUTMAX** (Basarkeçər) – güləşmək. – *No:rıznan İsa püşgü tutuflar, No:ruz basıv onu.*

**PÜŞQƏX'** (Başkeçid, Qazax) – b a x **pus-qax** II.

**PÜŞÜ** (Ağbaba, Hamamlı) – 1. ipək parça növü adı. – *Püşü bəzəx'li parça olurdu: yaşıl, qırmızı, göy irəngdə olurdu;* 2. püşü adlı ipək parçadan tikilmiş baş yaylığı. – *Püşüyü ar-vatdar bağlıyırdı, onu arvatdar bağlıyanda şoyğu (şövqü) yaxşı tüşürdü* (Hamamlı).

**PÜŞÜL** (Salyan) – lobyanın göy qabığı. – *A:z Lətifə, lobyanın püşülün tök inəgə.*

**PÜTƏ** (Balakən) – b a x **pitə** (2-ci məna). – *Şəhərdən qoca anam üçün isdədiyi pütəni aldım.*

**PÜTƏLİK** (Balakən) – bir baş yaylığı üçün lazım olan qədər material. – *Şəhərdən qoca anam üçün bir pütəlik tənzif aldım.*

**PÜTRƏM** (Qazax Şəmkir) – bütünlüklə, bütöv. – *Mən çörə:i pütrəm yedim;* – *Otu püt-rəm yığdıx haravıya* (Qazax); – *Pütrəm gəti, üsdünnən alma!* (Şəmkir).

**PÜTRÜM** (Salyan) – b a x **pütrəm.** – *Mənə bi dənə pütrüm kağaz verüz.*

**PÜTÜZ: PÜTÜZ ELƏMƏX'** (Cəbrayıl) – yormaq, əldən salmaq.

**PÜVLƏMƏX'** (Qazax) – toplamaq.

**PÜZƏ** (Lənkəran, Masallı) – zənbil toxu-maq üçün istifadə edilən yabanı bitki adı. – *Miri zəmbil püzəsi qırmağa gedib.*

**PÜZGƏ** (Cəbrayıl, Kürdəmir) – barama təmizlənərkən quru yarpaq qarışıqlı çıxan zibil. – *Püzgə heş nəyə gərək döyül, barama zibilidi* (Kürdəmir); – *Bu püzgəni bırdan tə-mizdə* (Cəbrayıl).

# Rr

**RAHATI** (Meğri) – qif. – *Nəft tökəndə ləmpiyə rahatını qoyeylər ləmpənin ağzına.*

**RAXBƏRƏ** (Meğri) – üzərinə tənək budaqları atlanmaq üçün 2-3 metr hündürlükdə düzəldilən talvar.

**RAQQI** (Başkeçid, Bolnisi, Borçalı, Hamamlı, Qazax) – b a x **iraqqı.** – *Gülnaz öydən raqqını gəti, əlimi yüəjəm* (Qazax); – *Raqqıyı ver, əlimi yu:m* (Hamamlı).

**RAMRAMAY** (Qax) – şəlalə.

**RANA** (Meğri) – xış və ya kotanın torpaqda açdığı şırım.

**RASA** (Quba) – sapa düzülmüş qax.

**RASGƏLƏ: RASGƏLƏ OLMAX** (Meğri) – qarşılaşmaq, rastlaşmaq. – *Tərbiznən bazarda rasgələ oldum.*

**RASQU** (Qax) – nazik bağırsaq.

**RAYBARAY** (Bakı, Ordubad) – hərdəmxəyal, sözünün üstündə durmayan, fikrini tez-tez dəyişən. – *Bircə onu dindirmə, raybaray adamdı o;* – *Ada, sən nə raybaray adamsan* (Bakı).

**RAZDAR** (Lənkəran) – qarağac. – *Meşədə razdar ağacdarı doludu.*

**RƏCİ** (Lənkəran) – quru balıq.

**RƏD** (Kürdəmir, Qafan, Yardımlı, Tərtər) – b a x **irəd.** – *Bu rəd ceyran rəddidi, bu rədnən gedək* (Qafan).

**RƏDCİL** (Qafan) – itmiş heyvanı izi ilə axtarıb tapan adam, izçi. – *Əhməd yaxşı rədcildi.*

**RƏDDƏMAX** (Meğri) – izləmək, izə düşmək, izlə getmək. – *İnəx'ləri dərə boğazına kimin rəddədıx.*

**RƏDƏ VERMƏK** (Yardımlı) – soyuq münasibət bəsləmək, yan gəzmək. – *Neşin mənnən rədə vereysən?*

**RƏDİF** (Lənkəran) – sıra.

**RƏDQOVAN** (Meğri) – itmiş heyvanı izi ilə axtarıb tapan adam, izçi. – *Qabaxlar heyvan itəndə rədqovannar tapeydi.*

**RƏFCƏR** (Barana) – işgüzar. – *Babam çox rəfcər adamıydı.*

**RƏFƏTƏ** (Ağbaba, Basarkeçər, Beyləqan, Şərur, Ordubad) – b a x **rəhatə.** – *Rəfətəni qonşu apardı* (Beyləqan).

**RƏFİDƏNƏ** (Ordubad) – təndirə çörək yapmaq üçün işlədilən alət. – *Biz əli çörəx' yandırmasun deyə parçadan rəfidənə tikərix'.*

**RƏFTƏ** (Lerik) – təndirə çörək yapmaq üçün işlədilən alət. – *Rəftə olmasa, lavaş bişirmək olmaz.*

**RƏHƏTƏ** (Çənbərək) – təndirə çörək yapmaq üçün işlədilən alət. – *Təndirə çörəyi rəhətiynən yapırıx.*

**RƏX'DƏN** (Ordubad) – qənd torbası. – *Bizdər rəx'dəni parçadan tikərıx.*

**RƏKİ** I (Qax) – daranmış əl boyda yun.

**RƏKİ** II (Qax) – tütün qurudulan yer.

**RƏKİK** (Qazax) – pəltək.

**RƏMƏ** I (Tovuz) – b a x **irəmə** III.

**RƏMƏ** II (Salyan) – qayada ayaq qoymaq üçün düzəldilmiş yer.

**RƏSƏT** (Salyan) – pay, hissə. – *Nənəm hamımızın rəsətin vermişdi.*

**RƏŞBABA** (Bərdə, Göyçay) – üzüm növü adı.

**RƏŞİDDƏMMƏK** (Salyan) – zirəkləşmək, qoçaqlaşmaq. – *Bu gün deyəsən yaman rəşiddəmmisən.*

**RƏŞMƏ** (Çənbərək, Gədəbəy, Tovuz) – b a x **irəşmə.**

**RƏVƏ-RÜVƏ** (Lənkəran) – içalat. – *Balığın rəvə-rüvəsini ləvəngiyə qatıb pişir.*

**RƏZƏ** (Gədəbəy) – b a x **irəvzə.**

**RIĞƏ** (Yardımlı) – ədəd, dənə. – *Torbada bi rığə qət <qənd> qalıb.*

**RIMIZ: RIMIZ ELƏMƏX'** (Meğri) – işarə etmək, göz eləmək. – *Sən elə bizə rımız elə, soralıynan işin olmasın.*

**RIXDIM** (Yardımlı) – möhkəm, davamlı. – *Cəhrənin kirişi rıxdım olsun gərəg.*

**RISA** (Bakı, Lənkəran) – sıra, cərgə. – *Xirdən cəmi səggiz rısa soğan olardi ki, çağərtdim* (Bakı).

**RIŞBABA** (Dərbənd) – b a x **irişbaba.**

**RIZAVAN** (Meğri) – köməkçi, çoban köməkçisi. – *Bizim çobanın bir rızavanı vardı.*

**RİFİDƏNƏ** (Ordubad) – b a x **rəfidənə.**

**RİVAYİ** (Meğri) – yalan, saxta. – *Səmi, rivayi danışeysan axi.*

**RİZAGİLASI** (Xanlar) – güney yerdə bitən bozyarpaqlı və xırda yeməli meyvəsi olan kol. – *Bizim güneylərdə rizagilasi çox olur.*

**RİZƏ-RİZƏ** (Lənkəran) – zolaq-zolaq, cızıq-cızıq.

**RİŞBABA** (Dərbənd) – b a x **irişbaba.** – *Mənü bağda rişbaba çoxdu.*

**ROD** (Ordubad) – yod.

**RONA** (Meğri) – b a x **rana.** – *Üş-dört yol demişəm ki, alt öküzdərin ronada saxla.*

**RUBA** (Dəvəçi) – 10 puda bərabər çəki vahidi.

**RU: RU ELEMEG** (Bakı) – bostanda və ya dağda olan məhsulu axırıncı dəfə tamamilə yığmaq. – *Olar bosdannarını ru elədilər.*

**RUCAH: RUCAH ELƏMAX** (Qax, Yardımlı) – rast gəlmək, calamaq. – *Seni mağa rucah elənin öyü yıxılsın* (Qax).

**RUF** I (Salyan, Yardımlı) – ruh. – *Yağın onun rufu tutub səi.* (Salyan).

**RUF** II (Cəbrayıl, Salyan, Yardımlı) – sir-sifət. – *Rəngin, rufun no:ş qaralıb?* (Salyan).

**RUİTƏN** (Bakı) – həyasız, davakar (adam).

**RUM** (Salyan) – çoxbilmiş. – *Ağazər çox rum adamdı.*

**RUMA** (Bakı) – 1. təzə; 2. körpə; 3. yumşaq. – *Bir bax, çox ruma ətdü; – Uşağın sümigi rumadu.*

**RUMU** (Cənubi Azərbaycan, Göyçay) – çil toyuq.

**RUTƏN** (Bakı) – b a x **ruitən.**

**RU:YƏT** (Bakı) – gözəllik.

**RUYİTƏN** (Bakı) – b a x **ruitən.**

**RÜJGİ** (Lənkəran) – quş ovlamaq üçün qurulmuş tor.

**RÜKƏM** (Ordubad) – zökəm. – *Mən yaman rükəm olmuşam.*

**RÜKƏŞ** (Lənkəran) – balış üzü.

**RÜŞ** (Meğri) – 1. ağıl; 2. huş. – *Mısdafada rüş yoxdu.*

# Ss

**SABAHİ** (Gəncə) – üzüm növü adı.

**SABI** (Dərbənd, Tabasaran) – ölçü qabı (təxminən 20 kq buğda tutur). – *Bir sabı səkkiz səh buğda tutadı* (Tabasaran).

**SABINNIX** (Ağcabədi) – arabanın oxunu sabunlamaq üçün mal buynuzundan hazırlanan sabunqabı. – *Sabınnıx aravanın cağınnan sallanır.*

**SABIRĞA** (Cəbrayıl, Şamaxı, Ucar, Zəngilan) – qabırqa. – *Elə vırıf ki, sabırğalarım indi də ağre:r* (Zəngilan); – *Bü:n sabırğamın ağrısı azalıf* (Ucar) – *Onun sabırğası batmışdı* (Şamaxı).

**SABİNBUYNUZ** (Dərbənd, Tabasaran) – b a x **sabınnıx.** – *Sabinbuynuz ərəbəyə sabin vurmağçun uladu* (Tabasaran).

**SABU** (Dərbənd, Quba) – b a x **sabı.** – *U illəri yaxşı bitirməmişdi mənim teregim, üç sabu, iki səh quz çıxdı* (Dərbənd).

**SABUNİ** (Göyçay) – üzüm növü adı. – *Bu yıl sabuni üzim çoxdı.*

**SABUNOTI** (Qafan) – yabanı bitki adı. – *Sabunotı güney yerdə bitər.*

**SACALANMAX** (Mingəçevir) – səpələnmək.

**SACARASI** (Qafan) – b a x **sajarası.** – *Şəhərə gedəciyik, nənəm sacarası bişirir.*

**SACPARA** (Şamaxı) – qırma əvəzinə işlədilən cuğun qırıntıları. – *Övçi tüfəyinə bir yekə o:uc sacpara doldırdi.*

**SACÜSDÜ** (Qazax) – tələsik bişirilən çörək. – *Sacüsdü unu tez qutarar.*

**SAÇAX** (Qazax) – balkonun qabaq tiri.

**SAÇIPUÇUX** (Başkeçid) – fahişə.

**SADA** (Zəngibasar) – tamamilə, büsbütün. – *Dedix'lərin hamısı sada yalandı.*

**SADAL** (Qazax, Mingəçevir) – evin damını örtmək üçün qamışdan hörülmüş tərecə. – *Ho:çular damın sadalını yaxşı örtüflər* (Qazax).

**SADAMA** (Meğri) – zərər, ziyan.

**SA:DATDAMA** (Salyan) – ürəkgetmə, ürəkkeçmə. – *Sabirin qızın tez-tez sa:datdama tutur.*

**SADDAMAX** (Qax) – demək, söyləmək. – *Mağa bax, hələ sən nə saddıysan?*

**SADI** (Qax, Zaqatala) – qəmli mahnı.

**SADIR** (Biləsuvar, Çənbərək, Göyçay, Qazax, Meğri) – şaqqıldaq. – *Qoyunun sadırı çobana ətir kimi ilənir* (Qazax); – *Çovannarın üstü yazda sadır olur* (Göyçay). ◊ **Sadır bağlamax** (Çənbərək) – qoyunun yununa şaqqıldaq yapışmaq. – *Qoyunun yunu sadır bağlıyıf.*

**SADIRRI** (Biləsuvar, Qazax) – şaqqıldaqlı. – *Sadırrı olor qoyunun quyruğunun altı* (Qazax); – *Qoyunu yudum, yaman sadırrıymış* (Biləsuvar).

**SAF** (Bərdə, Qazax, Tərtər, Yevlax) – b a x **sap.** – *Sən saf yaxşı adamsaŋ* (Bərdə); – *Söynün oğlu saf özünə oxşo:r* (Qazax).

**SAFA: SAFA OLMAX** (Ağdam) – gecikmək (mövsümə aiddir). – *Bitgi safa olan ili gec yetişir.*

**SAFBƏDİR** (Cəbrayıl) – sağlam, salamat. – *Bəbir safbədirdi.*

**SAFÇİLLƏ** (Salyan) – sağlam. – *Xalxın safçillə uşağın apararsan, xəsdələnər.*

**SAFDADURMAZ** (Gəncə, Tərtər) – üzüm növü adı. – *Safdadurmaz sap şirin üzümdü* (Tərtər).

**SAF DÜŞMƏX'** (Yardımlı) – arxayın olmaq. – *Görənnən so:rə saf düşdüm.*

**SAFQARILMAX** (Ağdam) – qaçmaq. *Safqarıldı, ya:nı hamısı qaşdı.*

**SAFLI** (Başkeçid, Bolnisi) – 1. çömçə; 2. abgərdən.

**SAFSAF** (Ordubad) – tülküyə oxşar vəhşi heyvan adı.

**SAF-SAF: SAF-SAF OLMAĞ** (Quba) – deşik-deşik olmaq. – *Əleg lap saf-saf olub gidib.*

**SAFSAFI** (Salyan) – vasvası. – *Sabir kişi safsafıydı.*

**SAFSİLƏLƏMƏ** (Qazax) – lap dolu, ağzına qədər dolu. – *Qavı safsiləlama dolduruf apardı.*

**SAFUT** I (Quba) – içərisinə iynə, sap və s. qoymaq üçün küləşdən hörülmüş sandıqça. – *Fatimə xalanün safudi itib, uni axtaradəm.*

**SAFUT** II (Quba) – küləşdən toxunmuş papaq. – *Mən bu gün bir safut tuxumişəm.*

**SAĞABİLƏ** (Meğri) – daşın üzərində təbii yaranan çuxur.

**SAĞAL** (Yardımlı) – alaquyruq. – *Bi sağal tülkü girib lölə <hinə>.*

**SAĞALU** (Bakı) – saxsı. – *Tükanda yəxşi sağalu qablar var.*

**SAĞAN** (Gəncə, Tovuz) – iri dərin boşqab.

**SAĞANA** (Oğuz) – bax **saqan.** – *Sağanada boğda da saxlıya bilərix', qarğıdalı da.*

**SAĞANAĞ** I (Şamaxı) – yeməli yabanı bitki adı. – *Sağanağı ətə tökəllər.*

**SAĞANAĞ** II (Salyan) – dəhrənin sapına taxılmış halqa. – *Sağanağ dəhrənin sapının ucuna keçirilir.*

**SAĞANAX** (Şuşa) – toxmaq.

**SAĞANAY** (Mingəçevir) – solaxay olmayan, qeyri-solaxay.

**SAĞÇİLLƏ** (Bakı) – sağlam. – *Mərziyyə çux sağçillə adamdü.*

**SAĞMAL** (Borçalı, Qazax) – ulduz adı.

**SAĞIN** (Qafan, Şəki) – sağılan heyvan.

**SAĞINNIX** (Şəki) – sağmağa yarayan (heyvan). – *Sağınnıx inəy aldım.*

**SAĞIR** (Yardımlı) – yetim. – *Olar uşağlığdan sağır bö:giblər.*

**SAĞİ** (Quba) – quş adı. – *Sağİ gecələr uxuyədü də həmişə.*

**SAĞQUATDI** (Qazax) – çox qüvvətli, çox güclü. – *Mə:sim sağquatdı oğlandı.*

**SAĞRI** (Qazax) – xəncərin qınına çəkilən dəri.

**SAĞSƏRNİC** (Göyçay) – sərnic növlərindən birinin adı. – *Anam sağsərnicə inəgi sağdı.*

**SAĞSÖKƏL** (Əli Bayramlı, Gəncə, Qazax, Kürdəmir, Mingəçevir, Sabirabad, Ucar) – yarıxəstə, yarımsağlam. – *Sağsökəl gəzirəm* (Ucar); – *Hələ də sağsökəl yatıram* (Gəncə).

**SAĞSÖYKƏM** (Qazax) – bax **sağsökəl.** – *Mehrivan sağsöykəm yate:r.*

**SAĞUL** (Quba) – cəftə. – *Qapunin sağuli xarabdu, düzəltdədəm.*

**SAHABİ** (Naxçıvan) – üzüm növü adı. – *Sahabi qızarıbdı.*

**SAHAN** (Başkeçid, İmişli, Qazax) – bax **saxan.** – *Sahanda qatıx var* (Qazax).

**SAHMAN** I (Cəlilabad) – yan. – *Gedə elə pətşahın evinin sahmanına çatanda, pətşahın qızı görir ki, bi dənə oğlan əlində kağız gətirir.*

**SAHMAN** II (Cəlilabad) – qohum. – *Sən demə, dədəmə sahmanimiş.* ◊ **Sahman olmağ** – qohumlaşmaq. – *Onnan qız alıb sahman oldi.*

**SAXA** (Şəki) – 1. görkəm, forma, görünüş; 2. boy-buxun, qamət. – *Bu:n saxasına bax, özünə bax!*

**SAXALI** (Göyçay, Oğuz) – boy-buxunlu, qamətli. – *Yaxşı saxalı bir gamışımız varıydı* (Oğuz).

**SAXALİ** (Şamaxı) – səxavətli. – *Xəlil çox saxali adamdi.*

**SAXAN** (Borçalı) – dərin mis qab.

**SAXAŞ: SAXAŞ ELƏMƏG** (Bakı) – sakitləşdirmək, sakit etmək.

**SAXƏŞMƏG** (Şamaxı) – sakitləşmək, sakit olmaq. – *Bir az keçdi, ara saxəşdi.*

**SAXLANC** (Gəncə) – ehtiyat üçün saxlanılan şey. – *Nə saxlancı varsa, hamısını sandığa qoyur.*

**SAXLAŞ** (Gəncə) – bax **saxlanc.** – *Bu sandığı saxlaşdan ötəri almışam.*

**SAXLAŞDI** (Gəncə) – ehtiyatlı. – *O, çox saxlaşdı arvatdı.*

**SAXNAX** (Qax) qısa paltara əlavə edilən hissə.

**SAXPENCƏ** (Ağdam) – 20 dərz taxıl.

**SAXSI** (Hamamlı, Tovuz) – qıyıq, iynə. – *Saxsıyı ver döşə: sırıyım* (Hamamlı).

**SAXSIÇƏP** (Şəki) – səhəng. – *Saxsıçəp süyü serin saxliyi.*

**SAXSIMAĞ** (Salyan) – çətinlik çəkmək. – *Pıl olannan so:ra heç nedən örti saxsımır.*

**SAXSIZDIX** (Qax) – bayılma.

**SAXSÖKƏR** (Şəki) – 1. bax **sağsökəl;** 2. narahat. – *Saxsökər canım var, o sa:t xasdələnnəm;* – *Be:caz yaman saxsökər yatmışam.*

**SAXT** (Salyan, Yardımlı) – münasibət. – *Onnən saxtım yoxdi* (Yardımlı); – *Mə:m Səlimnən heç vaxt saxtım olmıyıb* (Salyan).

**SAXTƏRƏ** (Cəbrayıl) – yabanı bitki adı. – *Saxtərə acı olur.*

**SAJ** (Qazax, Tovuz) – kotanın torpaqçevirən hissəsi.

**SAJARASI** (Qafan, Zəngilan) – iki sacın arasına qoyub közdə bişirilən yağlı çörək. – *Kirvəsi bir yaxşı sajarası gətirmişdi* (Qafan); – *Sajarasın Navrız bayramında bişirillər* (Zəngilan).

**SAJƏYAĞI** (Yevlax) – uşaq oyunu adı. *Uşaxlar sajəyağı oynuyur.*

**SAJTUTAN** (Gəncə) – isti sac, qazan və sairəni tutmaq və ya ocaqdan götürmək üçün qalın parça. – *Sajtutanı mana ver, sajı tüşürüm.*

**SAQALAV** (Qax) – yemək üçün çobanların növbə ilə kəsdikləri heyvan.

**SAQALOV** (Qax) – bax **saqalav.**

**SAQAN** (Qax, Zaqatala) – ərzaq saxlamaq üçün iri qab. – *Saqanda buğda varmı?; – Bizim saqanimiz yüz put buğda tutur; – Anam saqandan çörəy aldı* (Zaqatala).

**SAQAT** (Qax, Zaqatala) – şikəst.

**SAQIRTQA** (Ağbaba) – xırda bit (qoyunda).

**SAQQA** I (Cəbrayıl, Cəlilabad, Əli Bayramlı, Göyçay, Hamamlı, Qusar, Lənkəran, Mingəçevir, Oğuz, Salyan, Zaqatala, Zəngilan) – 1. aşıq-aşıq oyununda istifadə edilən iri, seçmə aşıq (Cəbrayıl, Cəlilabad, Əli Bayramlı, Göyçay, Hamamlı, Qusar, Lənkəran, Mingəçevir, Salyan, Zəngilan). – *Saqqani tuşdeyeydüg vireydüg* (Cəlilabad); – *Saqqa başqa aşığlardan ağır olur* (Salyan); – *İdris qoyunun qıçınnan bir saqqa çıxardı* (Əli Bayramlı); – *Mənim üç yaxşı saqqam var* (Cəbrayıl); – *Bı saqqa məndə olsa, hamını aparram* (Zəngilan); 2. qalaqurma oyununda istifadə edilən iki seçmə qoz (Mingəçevir, Oğuz, Şəki).

**SAQQA** II (Füzuli) – tərs, höcət. – *Vəli yaman saqqa adamdı.*

**SAQQABA** (Ordubad, Sabirabad) – yay fəslində suyu sərin saxlamaq üçün qazılmış quyu. – *Bizim hayatdakı saqqaba çox dərindi* (Sabirabad).

**SAQQADAYAM** (Qax) – oyun adı.

**SAQQAQOZ** (Göyçay, Oğuz) – qozla oynanılan oyun adı. – *Ay uşaxlar, gəlin saqqaqoz oynuyax* (Oğuz); – *Mən saqqaqoz oynıya bilmirəm* (Göyçay).

**SAQQAL** (Kürdəmir) – qarğıdalı saçağı. – *Qardığalı:n saqqalın heyvan yap yaxşı ye:r.*

**SAQQALDAŞ** (Bərdə, Ucar) – həmyaş, yaşıd. – *Mən Avdılla mə:llimnən saqqaldaşam* (Ucar); – *Biz ikimiz saqqaldaşıx* (Bərdə).

**SAQQAR** I (Ağbaba, Basarkeçər, Borçalı, Hamamlı, Qazax) – qaşqa, təpəl. – *Başı qaşqa qoyuna saqqar deyirixʹ* (Hamamlı); – *Saqqar atı gəti, furğona qoşax* (Basarkeçər); – *Saqqar qoçu bəri gəti* (Qazax); – *Saqqar qoyunun başı burdan belə ağ olur* (Borçalı).

**SAQQAR** II (Qazax) – uzunsaqqallı keçi.

**SAQQA-SAQQA** (Bərdə) – uşaq oyunu adı. – *Saqqa-saqqa daşnan oynanır.*

**SAQQAT** I (Qazax, Salyan) – sərt (hava). – *Buranın qışı çox saqqat olor* (Qazax); – *Saqqat havada quş o:lamağ yaxşı olar* (Salyan).

**SAQQAT** II (Qazax) – xəsis. – *Saqqatın malını özgələr yə:r.*

**SAQQAT** III (Zəngilan) – sözə baxmayan, söz eşitməyən. – *Sən də söz tafşıma: adam tafdın, o, saqqatın biridi.*

**SAQQAT** IV (İmişli) – qoçaq. – *Buların bavası həm dö:lətdi oluf, həm saqqat adam.*

**SAQQAT** V (Qafan, Qarakilsə) – qorxulu. – *Bu ağaca çıxma, saqqatdı* (Qafan); – *Solaxayın daşı çox saqqat olar* (Qarakilsə); – *Qatır mimmə, çox saqqatdı* (Qafan).

**SAQQAT** VI (Salyan) – pərt, dilxor. – *Adam borca, xərcə düşsə də, saqqat gəzməməlidi.*

☐ **Saqqat olmax** (Qax, Şəki) – yorulmaq, yorulub əldən düşmək, təngə gəlmək. – *Saqqat olmuşam malların elinnən, mən qovuyəm, olar gəliy* (Şəki); – *Qolları işdəmaxdan saqqat olıp* (Qax).

**SAQQIZZIĞ** (Salyan) – gicgah. – *Başımın ağrısı saqqızzığıma vırıb.*

**SAQLAM** (Qax) – yas mərasimi ilə əlaqədar adətlərdən birinin adı.

**SAL** I (Quba) – tez-tez xəstələnən (adam). – *Sal adamun işi çətin uladı.* ◊ **Sal ulmağ** – tez-tez xəstələnmək. – *Məsələn, diyədü ki, filankəs həmişə sal uladu.*

**SAL** II (Ordubad) – başdaşı. – *Atamun qəbrinə sal qoymamişəm.*

**SAL** III (Salyan) – yüksək (temperatur). – *Anam sal qızmanın içindədi.*

**SAL** IV (Qazax) – boy. – *Bu heyvanın salı uzundu.*

**SAL** V (Tovuz) – hamar, düz. – *Sal yer yaxşı məhsul verər.*

**SALAB** (Şamaxı) – selin açdığı dərə, yarğan. – *Salabdan su axırmış.*

**SALACA** (Ağdam, Gədəbəy) – tabut. – *Me:jit salaca usdasıdöy* (Gədəbəy).

**SALAĞA: SALAĞA ELƏMƏK** (Salyan) – nişan vermək. – *Gülverdini mə: sən salağa elədün.*

**SALAĞANTA** (Qazax) – işsiz, boş-bikar. – *Niyə salağanta gəzirsəŋ, gedif bir işin ujunnan yapışsaŋa!*

**SALAĞAT: SALAĞAT VERMƏX′** (Gəncə) – nişan vermək, göstərmək. – *Oranı maŋa salağat versəŋ özüm gedərəm.*

**SALAHLI** I (Qəbələ) – əlverişli. – *Kolxozda işləmək salahlıdı.*

**SALAHLI** II (Salyan) – səliqəli. – *Gördüyü işlərə baxdım, salahlı bənnıya oxşıyır.*

**SALAXANTA** (Çənbərək) – laqeyd. – *Qanı Mühəmmət salaxanta şeydi, ona a:dı umutdo:lamaz adam.*

**SALAMLUĞ** (Quba) – dəhliz. – *Salamluğda salam veribəni, gürüşübəni içəri girəduğ.*

**SALAT** (Qax) – səməni.

**SALAVAT** (Meğri) – çaylarda üzərindən keçmək üçün yarayan buz örtüsü. – *Mırğıdan yenişə hər il Ərəzin üsdə salavat düşer.*

**SALAVAYTOP** (Bərdə) – uşaq oyunu adı.

**SALAVEY** (Bərdə, Gədəbəy, Qazax, Tovuz) – səlbə. – *Salavey atarsan, tut tökülər yerə* (Bərdə); – *Bir salavey atdım, amma dəymədi* (Qazax); – *Yetənə yetir, yetmiyənə bir salavey ate:r* (Qazax).

**SALBAY** (Zaqatala) – b a x **salavey.** – *Salbayı bərk at, çoxlu qoz tökülsün;* – *Əhmədin salbayı büyüx′dü.*

**SALBEX′** (Şəki) – b a x **salavey.** – *Salbeynən töhdürüf yığırıx el çatmiyən yerdən meyvəni.*

**SALBEY** (Balakən, Bərdə, Qax, Zaqatala) – b a x **salavey.** – *Salbeynan ağaşdan qos saldırram* (Bərdə).

**SALBƏND** (Ordubad) – daş döşənmiş (küçə). – *Bu küçə salbənddi.*

**SALBIL** (Hamamlı) – uşaq oyunu adı.

**SALBILBIL** (Hamamlı) – b a x **salbıl.** – *Salbılbılı toylarda çox oyno:rux.*

**SALÇƏX′MƏ** (Qazax) – qanlı ishal.

**SALDAN** (Dərbənd, Tabasaran) – arabanın qollarını boyunduruğa calayan uzunhacalı ağac. – *Hele yarani – saldani bəbin ağacinnən düzəltillər* (Tabasaran).

**SALĞAMAX** (Gəncə, Gədəbəy, Qazax) – 1. nişan vermək, göstərmək. – *Azmışdılar yolu, salğadım getdilər* (Qazax); – *Dünənnəri salğadım dağıŋ yolunu Quluya* (Gədəbəy); 2. göndərmək (Gəncə). – *Pulu özü vermiyif mənə, Əlinin üsdə salğadı* (Gəncə).

**SALĞAR** I (Balakən, Qax, Kürdəmir, Salyan, Zaqatala) 1. tərəcə, qamışdan hörülmüş dam örtüyü (Kürdəmir, Salyan). – *Salğarı qəlin toxuyurux ku, yağış dammasın;* – *Salğari hörüb öyün üssünə sərrüg* (Kürdəmir); 2. binanın ən yüksək hissəsi (Balakən, Qax, Zaqatala).

**SALĞAR** II (Şamaxı) – qayda, qənaət. – *Salğarnan dolan.*

**SALĞAR** III (Salyan) – əltutan. – *Əhməd salğar kişidi.*

**SALĞARI** (Oğuz) – sümsük (it). – *Salğarı gəzəyən bir it vardı, adam tutan döyüldü.*

**SALĞARRI** I (Kürdəmir) – ağırtəbiətli. – *Salğarrı adamın hürməti çox olar.*

**SALĞARRI** II (Salyan) – səliqəli. – *Gülxa:m salğarrı iş görür.*

**SALĞINTI** (Laçın) – saymazyana. – *Binnət çox salğıntı gəzir.*

**SALXAQ** (Yardımlı) – bərabər. – *Tayı salxaq elə, düşməsin.*

**SALXMAĞ** (Salyan) – sallanmaq. – *Pencəg əgnimə çox bö:gdi, qolları salxır.*

**SALIC** (Culfa) – b a x **salıx.** – *Salıcu: Qarabaşdan almışam.*

**SALIX** (Borçalı, Gədəbəy, Gəncə, Xanlar, Qazax, Şəmkir, Tərtər) – 1. xəbər; 2. soraq. ◊ **Salığını almax** (Gəncə) – 1. xəbərini almaq; 2. sorağını almaq. – *Salığını almışam, gedif alajam.* **Salıx vermax** (Meğri) – tanışlıq vermək. – *Salıx verdim ki, man Nüyədi adamıyam.* **Salıx verməx′** (Borçalı, Gədəbəy, Xanlar, Qazax, Şəmkir, Tərtər) – 1. xəbər vermək; 2. soraq vermək. – *Uşaxdan bir salıx verən yoxdu* (Qazax); – *Bir ildi ki, yavının itməsini salıx vermişəm, yenə bir şey çıxmır* (Xanlar); 3. nişan vermək (Borçalı, Şəmkir). – *Bir adam gəlmişdi, Məmmədin öyünü soruşdu, mən də salıx verdim getdi* (Şəmkir); – *Salıx verən olsa, gedif taparam* (Borçalı).

**SALIXLAMAX** (Xanlar) – 1. yol göstərmək; 2. başa salmaq. – *Sən dediyin adamı göndər, mənim borcum onu salıxlamaxdı.*

**SALIMÇAX** (Göyçay, Qazax, Laçın) – yelləncək. – *Salımçağı kim asıf?* (Qazax); – *İrza salımçaxda üçünür* (Göyçay).

**SALIZ** (Şəki) – yavaş hərəkət edən, tələsməyən, ehmal. – *Salız adam elə hər yerdə salız olar.*

**SALLAX** I (Şəmkir) – qayıq dayanan yer. – *Camışdarı sallaxdan öyzə sığıdım.*

**SALLAX** II (Qazax) – eniş. – *Göyəzəndə bir sallax var, həməşə ordan tüşörüx'.* ◊ **Sallax salmax** (Qazax, Laçın) – 1. saya salmaq, saymaq. – *Deyəsən, yekəlmisən, adama ta: sallax salmırsan;* 2. tamah salmaq (Qazax). – *Elə pis adamdı kın, hər şeyə sallax saler.*

**SALLAXANIM** (Qax) – ev bitkisi adı.

**SALLAMA** I (Gəncə) – yanlarından qızıl, gümüş və s. bəzək şeyləri sallanan toqqa. – *Belində sallama toqqası var.*

**SALLAMA** II (Balakən, Cəbrayıl, Füzuli, Göyçay, Xocavənd, Kürdəmir, Laçın, Şamaxı, Zaqatala, Zəngilan) – 1. asanlıqla qoşmaq üçün arabanın qolları altına qoyulan dayaq, dəstək (Zaqatala). – *Sallama arabanın qolunnan düşüfdü;* 2. evin çardağında üzərinə qabırğa vurulmaq üçün maili düzülən ağac (Cəbrayıl, Füzuli, Göyçay, Xocavənd, Kürdəmir, Laçın, Şamaxı, Zəngilan). – *Evin damı üçün yüz dənə sallama lazımdı* (Zəngilan); – *Öyün sallamasının biri qırılıp* (Kürdəmir); – *Bizim öydə otuz dənə sallama var* (Göyçay); – *Səkkizdiy taxtadan gözəl sallamalar olur* (Şamaxı).

**SALLAMAX** (Hamamlı) – döşəmək. – *İnəyin altın iri daşdarnan sallı:rıx.*

**SALLAŞMAĞ** (Şamaxı) – arası dəymək, düz gəlməmək. – *Olar biziynən çoxdan sallaşıblar.*

**SALLAYI** (Cəbrayıl) – işsiz, avara, bikar.

**SALMA: SALMA ÇAY** (Basarkeçər, Cəbrayıl, Culfa, Göyçay, Qax, Şəki, Şərur, Zəngilan) – şirin çay. – *Salma çaynan bir tikə çörəx' yemişəm* (Zəngilan); – *Sə:rdən bir salma çay işmişəm, elə o:n üsdündüyəm* (Basarkeçər); – *Çayın biri acı, biri salmadı* (Culfa); – *Mə: salma çay eləmə, içəmmirəm* (Cəbrayıl).

**SALMAĞ** (Şamaxı) – sallanmaq. – *Gecə qalxar, günüz salxar* (cəftə).

**SALMANCA** (Ağdam, Cəbrayıl, Kürdəmir, İrəvan) – 1. b a x **salmanja** (Ağdam, Cəbrayıl, Kürdəmir). – *Salmancadan do:ğa bişirrüg* (Kürdəmir); – *Qızdar salmanca yığdılar* (Cəbrayıl); 2. dərman bitkisi adı (İrəvan). – *Ay qız, Xəccə, Badamı isdi vurubdı, bir az salmanca qaynat suyuna qızı çimdirim* (İrəvan).

**SALMANCADUAĞ** (Şamaxı) – güzgünün üzərinə salınan bəzəkli pərdə. – *Güzgünün salmancaduağın sal.*

**SALMANJA** (Zəngilan) – yeməli yabanı bitki adı. – *Salmanja, saldımi saja, sən bişincə mən aja.*

**SALMANTƏRƏ** (Ucar) – yeməli yabanı bitki adı. – *Salmantərənin yaxşı do:ğası olur.*

**SALPANA** (Hamamlı) – xırda daş, daş qırıntısı. – *Divarı örəndə daşdarın arasına salpana qoyurux kun, boş yer qalmasın.*

**SALSAL** (Basarkeçər) – qanmaz. – *Sən nə salsal adamsaŋ? Bu qədər de:rəm başa düşmürsən.*

**SALT** (Başkeçid) – tək, tənha.

**SALTAB** (Balakən, Zaqatala) – çardaq növü. – *Yaxşı saltabdı, su buraxmır* (Zaqatala); – *Bu gün bir araba bə:lim qoyub, inəyə saltap qayırdım* (Balakən).

**SALTUK** (Balakən) – gənc qadınların toy paltarı.

**SALVA** (Ağdam, Cəbrayıl, Qazax) – b a x **salavey.**

**SALVALAMAX** (Ağdam) – səlbələmək, səlbə ilə vurmaq. – *Salvalıyıf qırıflar onu.*

**SALVASAL** (Çənbərək) – başdan-başa, tamamilə. – *Haştağıyı çaldı salvasal camahat.*

**SALVAY** (İmişli) – b a x **salavey.** – *Salvayı atıf, dəyif muna.*

**SALVEY** (Gədəbəy, Qazax, Şəki) – b a x **salavey.** – *Hərif olana işarat, köpəyə salveynan ha döşə, ha döşə* (zərbi-məsəl) (Qazax).

**SALVEYLAMAX** (Gədəbəy, Gəncə) – 1. b a x **salvalamax.** – *Qozdan salveyla tökülsün* (Gəncə); 2. *məc.* tullamaq (Gədəbəy); – *Qoymaŋ, uşax maşeyi hə:tə salveylasıŋ, palçıxdı yer pütüncə* (Gədəbəy).

**SALVI** (Bərdə, Şəki) – b a x **salavey.** – *Salvım ağaşda ilişif qaldı* (Şəki).

**SA:MAN** (Bakı) – qohum; yaxın. – *O, bizzərə sa:man dögür.*

**SAMBAMAX** I (Gədəbəy) – hər hansı bir fikri baş ilə təsdiq etmək. – *Nəŋ sambeysıŋ başıŋı, dilinnən dəmməssinmi?*

**SAMBAMAX** II (Gədəbəy, Qazax) – bir şeyin çəkisini əl ilə təxmin etmək. – *İsrəfil qoyunu sambıyan kimi çəkisini bilir* (Qazax); – *Sambö:rəx′ naxxarto:lar ağırrığı çualın* (Gədəbəy).

**SAMBIR** (Qafan) – yemək növü, darı yarmasından hazırlanan südlü aş. – *Sambır çox ləzətdi olur.*

**SAMIR** (Meğri) – qabığı çıxarılmış darı.

**SAMLAMAX** (Cəbrayıl) – 1. bələd olmaq; 2. yoxlamaq, sınaqdan keçirmək. – *Biz bı yolları samlamışıx.*

**SAMSAF** (Ağdam) – çöl siçanı cinslərindən birinin adı. – *Samsaf tö:ğun qənimidi.*

**SAMSUM** (Şamaxı) – qaradinməz. – *Səməd yaman samsumdi.*

**SAN** I (Bakı) – meh. – *San xəzridəndü; – Xərmən so:urmağ olar, hava sandu.*

**SAN** II (Cəbrayıl, Qax) – say, miqdar. ◊ **Sanın tutməy** (Cəlilabad) – saymaq. – *Girdəkanın <qoz> zəgalını* (*qərzək*) *söyərdüg, sanın tutıb heybəmizə qoyərdüg.*

**SANAY: SANAY OLMAĞ** (Salyan) – dadını-tamını itirmək. – *Çayı dəmləyəndə qaynatmısuz, sanay olub.*

**SANBUD** (Qax) – qoyunun bir şaqqası.

**SANCAĞ** (Salyan) – çiçəkləyəndən sonra salxımda əmələ gələn xırda gilələr. – *Sancağ hələ bərkimiyib, əl vırırsan tökülür.*

**SANCAX** (Zaqatala) – çəngəl. – *Ət xörəyini biz sancaxdan yimərig.*

**SANCIÇİÇƏYİ** (Tovuz) – çiçək növü. – *Sancıçiçəyi sö:uxdəymiyə xeyirdi.*

**SANCIPUÇAX** (Zaqatala) – uşaq oyunu adı.

**SANÇAĞ** (Dərbənd) – yelləncək. – *Sançağda hüçünədig.*

**SANDIĞTULASI** (Salyan) – ov iti. – *Eldar hara gedir, sandığtulasın da öziynən aparır.*

**SANDIX** (Cəbrayıl, Zəngilan) – arabanın oxlarını bana birləşdirən yastı ağac. – *Arabanın sandığı xarab olub* (Cəbrayıl); – *Ərəbənin sandığı sinib* (Zəngilan).

**SANRI** (Sabirabad) – ola bilsin ki, bəlkə, çox güman ki. – *Sanrı, bu iş yaxın vaxta kimi düzələ.*

**SANŞDIMAĞAŞ** (Ağcabədi) – uşaq oyunu adı. – *Sanşdımağaşda çox uşax oynuyur.*

**SANTUR** (Lənkəran) – qırmaq. – *Bir santur almişəm.*

**SAP** (Qazax, Tərtər, Tovuz) – lap. – *Mürsəl sap yaxşı adamdı; – Onunla qonşu olmaq sap ürəyimnəndi* (Tovuz); – *Bir azdan so:ra çayın su: sap azalajax* (Qazax).

**SAPAX** I (Hamamlı) – yeməli yabanı bitki adı. – *Sapağın enni yarpaxları var, barmax yoğunnuxda özəyi var, özəyin soyuf duznan ye:llər, bə:zi yerrərdə turşu da qo:llar onnan.*

**SAPAX** II (Culfa, Qazax, Şərur) – saplaq (alma, armud, üzüm və sairədə). – *Sapağ almada olur, üzümdə olur, armıtda olur.*

**SAPAKEL** (Çənbərək) – kotanın və ya xışın ağzına yığılmış torpağı, zibili təmizləmək üçün ağac. – *Sapakel kotanın boğazın təmizdəmədi, çox yağıf, palçıxdı; – Hər hodax bir sapakel götürür, kotanı təmizdiyir.*

**SAPALAX** (Meğri) – boyun. – *Xan atdısı sapalağıma bir ağac gəldi, quşgeşdi oldum.*

**SAPATAN** (Gəncə) – sapand. – *Sapatanın qolu uzun olanda daş bərk deyər, uzax gedər.*

**SAPAYMƏKİ** (Lənkəran) – bitki adı.

**SAPBA: SAPBA VERMƏX′** (Cəbrayıl) – sapdırmaq. – *Qaçanda sapba verdim ki, məni tutəmməsin.*

**SAPDADURMAZ** (Zaqatala) – sözündən qaçan, sözünün üstündə durmayan.

**SAPXA** (İmişli) – b a x **sapqa.** – *Bə:m sapxasız alağa gedəllə:r?*

**SAPXALAMAĞ** (İmişli) – kətmənləmək. – *Bu:n ağajdarın dibini sapxaleyun.*

**SAPILCA** (Tovuz) – arabanın bir hissəsinin adı.

**SAPITQA: SAPITQA VERMƏG** (İmişli) – azdırmaq (ov zamanı).

**SAPITMA** (İmişli) – kələk, hiylə. – *Sapıtmeynan tülki başın qorıyırdı.*

**SAPITMAX** (İmişli, Zəngilan) – 1. aldatmaq; 2. sözündən qaçmaq. – *Söz verdi ki, səni göndərəcəm, indi sapıdır* (Zəngilan).

**SAPIŞQULU: SAPIŞQULU VERMƏX′** (Qazax) – aradan çıxmaq.

**SAPQA** (Sabirabad, Salyan) – kətmən.

**SAPQINNAMAX** (Şərur) – oğurlamaq. – *Bir gecə sapqınnıyıb camışını götürüb qaçdılar.*

**SAPPA** I (Qazax) – əyri-üyrü (yol). – *Biz sappa yoldan dağa çıxdıx.*

**SAPPA** II (Qazax, Mingəçevir) – qəbrin meyit qoyulan hissəsi.

**SAPPACADAN** (Füzuli) – qəflətən, qəfildən.

**SAPSEYRƏXʹ** (Ağdam) – üzüm növü adı.

**SAPSITMAX** (Balakən) – incitmək.

**SAR** (Ordubad) – ağac adı. – *Həsən bir sar kəsmişdü.*

**SARAĞ** (Bakı) – 1. bir-birinə yapışaraq bərkimiş balıqqulağı; 2. yerin alt qatında tam daşlaşmış təbəqə, qat. – *Pişik düşib quyya, gedib sarağa görmeg olmır.*

**SARAĞAN** (Balakən) – bitki adı.

**SARAY** I (Quba) – eyvan.

**SARAY** II (Cəlilabad, Dərbənd) – tövlə. – *Sarayda mallar da uladu* (Dərbənd); – *Bizdə pəyə demeylər, hamı saray dey. Saraya heyvannarı saleylar* (Cəlilabad).

**SARAY: SARAY OLMAĞ** (Salyan) – baş-beyni getmək, dəng olmaq. – *Sizi saray olasuz, sə:rdən baş-qulağımı aparduz.*

**SARALTMA** (Tovuz) – xəstəlik adı. – *Saraltma qoyunnarda da olor.*

**SARF** (Hamamlı) – uçurum.

**SARĞAL** (Şəki) – evin çardağında ən uca yer. – *Öyün sarğalında quş yuva tikifdi.*

**SARĞIZ** (Qazax) –sarı.

**SARFAYI** (Əli Bayramlı) – toyu və ya şadlıq məclisini idarə edən şəxs.

**SARHA** (Ordubad) – sahə. – *Hər kişdənin öz sarhası var də.*

**SARXEYİR** (Əli Bayramlı) – toyu və ya şadlıq məclisini idarə edən şəxs.

**SARI** (Tovuz) – uçurum.

**SARIBIĞIN** (Kürdəmir) – baramaqurdu xəstəliyi. – *Sarıbığın olmasa pilanı ödüyəcəm.*

**SARIBUĞUM** (Cəbrayıl) – b a x **sarıbığın.** ◊ **Sarıbuğum olmax** (Cəbrayıl) – saralıb ölmək (baramaqurduna aiddir).

**SARICA** (İmişli) – sarı sarmaşıq. – *Sarıca düşən əkin dirilməz.*

**SARIF** (Qazax) – dağlıq. – *Sarıf yeri əlimiznən piçerixʹ.*

**SARIĞ** (Salyan) – boğça. – *Sarığı yükün dalına qoymışam.* – *Könnəgün sarığdadı.*

**SARIKÖYNƏXʹ** I (Ağdam) – yemiş növü adı.

**SARIKÖYNƏXʹ** II (Çənbərək) – turşu hazırlamaq üçün bişirilmiş meyvədən alınan şirə. – *Bir qazan sarıköynəxʹ süzdüxʹ.*

**SARILIX** (Ağdaş, Qazax) – kəhrəba. – *Mən sarılıxdan olan təspehimi itirmişəm* (Ağdaş).

**SARIMA** I (Basarkeçər) – kərmə. – *Sarıma yaxşı yanacağdı.*

**SARIMA** II (Salyan) – qadın paltarına bəzək üçün tikilən pulcuq.

**SARIMÇAX** (Cəbrayıl, Zəngilan) – b a x **salımçax.** – *Gözdüyün sarımçağın ipi qırılmasın* (Cəbrayıl).

**SARIMEÇƏN** (Çənbərək) – sarıbəniz, sarışın. – *Sarımeçən qızdan ötrü niyə özüŋelme:yrsəŋ?*

**SARIMURĞUZ** (Basarkeçər) – sarıbəniz, sarışın. – *Hilal mə:llim sarımurğuzdu.*

**SARISAÇAX** (Borçalı) – ağ, irigilə üzüm növü adı. – *Sarısaçağ ağ olar.*

**SARISƏRÇƏ** (Göyçay) – sarıköynək.

**SARKAR** (Dərbənd) – baş çoban. – *Bu yaxinnərdə Elipxani quyinə sarkar gündərütdülər.*

**SARMA** I (Çənbərək) – b a x **sarıma** I. – *Qoynun altdan xeylax sarma kəsdixʹ.*

**SARMA** II (Cəbrayıl, İmişli, Kürdəmir, Qafan, Qax, Şamaxı, Zəngilan) – b a x **sarma** II. – *Sarmani qola taxallar* (Şamaxı); – *Səkinə anasına dedi ki, sarma satan gəlib, mənə sarma al* (Qafan); – *Ay gəlin, köynəyin sarmasın sök, helə geyəmmirəm* (Cəbrayıl); – *Keşmişdə köynə: sarma düzərdilər, indi tərginif* (Zəngilan); – *Arxalığa sarma düzəllərdi-ətəginə, yaxasına* (İmişli); – *Menin qənəüzün tüliyə tutası sarma dostunğa versənə!* (Qax).

**SARMAQİY** (Quba) – keçmişdə qadınların alınlarına bağladıqları qızıl, gümüş və sairədən ibarət bəzək, qabaqlıq. – *Bizdə hindi sarmaqiy bağlıyan yuxdu.*

**SARMAYI** (Tərtər) – üzüm növü adı. – *Sarmayını ye:əndə adamın ağzın bekara büzüşdürür.*

**SARSARI** (Cəlilabad, Əli Bayramlı, Xaçmaz) – ərik.

**SASMAĞI** (Füzuli) – keçəl.

**SASMAĞLI** (Kürdəmir, Şamaxı) – kirli, çirkli. – *Zalım qızının hər vaxt üstbaşı sasmağlı olur* (Kürdəmir); – *Nə sasmağlısan?* (Şamaxı).

**SASU** (Zaqatala) – iri qıyıq.

**SAŞMAQ** (Şəki) – səpmək. – *Biyil un put çəltik saşmişəm.*

**SATGİN** (Balakən) – cüyürəoxşar dağ keçisi. – *Sipatı cü:rə oxşuyur, buynuzu geriyə yatıxda olur satginin.*

**SATIL** I (Ağcabədi, Ağdam, Ağdərə, Basarkeçər, Bərdə, Cəbrayıl, Gəncə, Xocavənd, Qafan, Qazax, Laçın, Şəki, Zəngilan) – 1. kəsərti alətlərini itiləmək üçün polad alət. – *Satılnan kərənti, pıçağ itiliyirdilər* (Ağdərə); – *Satılım harda qaldı, isde:rəm bıçağı çəkəm* (Qazax); – *Satılını ver, karantini itili:m* (Basarkeçər); – *Ə, satılı ver mə:, orağımı itiliyim* (Cəbrayıl); – *Mə:llim, Həbif satılımı aldı* (Gəncə); 2. çaxmaq daşından od almaq üçün polad alət. – *A bala, satılı civinən al, ma: ver* (Şəki).

**SATIL** II (Zaqatala) – cəftə.

**SATIL** III (Salyan, Tabasaran) – qulplu mis suqabı. – *Qabağ bizim də satılımız vardı* (Salyan).

**SATILÇA** (Dərbənd) – b a x **satıl** III. – *Satılça su içən qabdı.*

**SATSİL** (Qax) – b a x **satıl** I (2-ci məna).

**SATUL** (Quba, Zaqatala) – 1. b a x **satıl** I (2-ci məna); 2. alət adı. – *Çoban Yüsüfün satuli yəkdü* (Zaqatala); – *Mənim satulum çux güzəldü* (Quba).

**SAULAMAX** (Ağdam) – b a x **savlamax.** – *Mən ülgüş saulamağı bilmirəm;* – *Kərəntini təzəcə saulamışam, sən öl, tük götürür.*

**SAV** (Zəngilan) – dəryaz, oraq, dəhrə və s. itiləmək üçün polad alət. – *Orax kəsmiyəndə savnan ağzın sürütürüx, so:ra yaxşı kəsir.*

**SAVA** (Cəbrayıl, Qafan, Qarakilsə, Meğri, Ordubad, Zəngilan) – 1. gec (Qafan, Qarakilsə, Ordubad). – *Sava əkilən taxıl bizim dağlarda gəlip yetimir* (Qarakilsə); – *Bizim bağda bir armıd var, həmişə o, sava yetişir* (Qafan); – *Bir yağış yağsa, sava zəmilər yaxşı olar* (Qafan); 2. gec əkilmiş (Cəbrayıl, Zəngilan). – *Bizim bosdan savadı* (Cəbrayıl); – *Un hexdar pabı:m savadı, i:rmisi heraĝaşdı* (Zəngilan). ◊ **Sava olmax** (Şahbuz) – gec əkilmək. – *Bıyıl əkinimiz sava olub.* **Savıya qalmax** (Qarakilsə) – gecikmək (mövsümə aiddir). – *İl savıya qalıp.*

**SAVACAX** (Cəbrayıl, Füzuli, Zəngilan) – b a x **savajax.** – *Suyu savacaxdan sav, gessin ə:nə* (Zəngilan).

**SAVAX** I (İrəvan) – sahə suvarıldıqdan sonra suyun kəsilib axıdıldığı yer. – *Əyə Həsən, suyu bir savax yoxdu ki, savasan gedə.*

**SAVAX** II (Meğri) – suyu sovrulmuş dəyirman. – *Nə savax dəyirmannar kimin boynõ: qoymusan çiynõ: üsdünə?*

**SAVAX** III (Cəbrayıl) – dən olmadığı üçün işləməyən, boş dayanan. – *Kimin dəni var aparsın yüyütsün, də:rman savaxdı.* ◊ **Savax qalmax** (Cəbrayıl) – b a x **suax qalmax.** – *Də:rman dünənnən savax qalıf, kimin dəni varsa aparsın.*

**SAVAJAX** (Cəbrayıl, Laçın) – dəyirmana və sairəyə su buraxılan yer. – *Dəyirmanın savacağında ilişif qalıf* (Laçın).

**SAVAL** (Biləsuvar) – kirəmit.

**SAVALLI** (Biləsuvar) – kirəmitli. – *Bizim kolxozun idarəsi savallıdı.*

**SAVAT** (Gəncə, Şuşa) – qızıl və gümüş şeylərinin üzərindəki naxış. ◊ **Savat vurmax** (Şuşa) – qızıl və gümüş şeylərinin üzərinə naxış vurmaq. – *Toqqanı verdim zərgar savat vursun.*

**SAVATDAMAX** (Gəncə) – qızıl və gümüş şeyləri naxışlamaq. – *Qaşıxlar savatdanıf.*

**SAVATDİ** (Gəncə) – naxışlı (qızıl və gümüş şeylərinə aiddir). – *Savatdi gümüş qaşıxlardı.*

**SAVATİL** (Quba) – armud növü adı. – *Savatildən anamız qax qurutdi.*

**SAVI: SAVIYA QALMAX** (Şahbuz) – qısır qalmaq. – *Bıyıl bizim inəh savıya qalıb, doğmayıb.*

**SAVIX** (Goranboy) – boş, işsiz. – *Nə vaxt istəsən dənini gətir, dəyirman savıxdı.*

**SAVINI** (Mingəçevir) – b a x **sabuni.**

**SAVINNIX** (Şəki) – b a x **sabınnıx.** – *Savınnığa birəz savın doğra.*

**SAVIRĞA** (Qazax, Mingəçevir) – b a x **sabırğa.** – *Ağaşdan yıxılmışam, savırğam batıf* (Qazax).

**SAVITQAMAX** (Cəbrayıl, Zəngilan) – inildəmək, zarımaq (ağrıdan). – *Gədə bayaxdan yaman savıtqıyırdı, indicə sakitdəşib* (Zəngilan).

**SAVIYI** (Culfa) – yetişməmiş, kal (ərik).

**SAVQIN** (Cəbrayıl) – həvəskar.

**SAVLAMAX** (Cəbrayıl, Şahbuz) – kəsici alətləri itiləyəndən sonra qılovunu almaq.

– *Ülgücü, ya da pıçağı itilədirsən, ağzın iraslamax üçün savlıyırsan; – Piçağı savlıyıram* (Şahbuz).

**SAVO** (Oğuz) – pendir mayası. – *Savonu vurullar sütə, olur dələmə.*

**SAVRIX** (Cəbrayıl, Füzuli) – döşəkağı. – *Ziba yatağa savrıx çəkdi* (Cəbrayıl).

**SAVUL** (Qax) – çaxmaq daşından od almaq üçün polad alət.

**SAVUTQAMAX** (Şərur) – arzulamaq. – *Elə dünənnən sə: savutquyuram.*

**SAVZAVAR** (Meğri) – bozumtul. – *Töyıx ferməsində bir iri savzavar xurız var.*

**SAVZI** (Basarkeçər) – yabanı soğan. – *Birəz çörəx′ götü, gedəx′ savzı ye:əx′.*

**SAY** (Bakı, Quba, Salyan) – hamar, düz. – *Bıra say yerdü; – Mığanda say yer çoxdu* (Salyan); – *Findiğdə yaxşı say ağac uladu* (Quba).

☐ **Say qoymax** (Karvansaray, Qarakilsə) – saymaq, saya salmaq. – *O kişi yaxşı say qoyur* (Qarakilsə). **Say eləməx′** (Şərur) – görmək. – *Gözüm səni say eləyir.*

**SAYA** I (Quba) – yüngül, səthi. – *Güllə ayıya saya dəgdi, üldürmədi.*

**SAYA** II (Ağdam, Bakı) – b a x **say.** – *Saya təxtədə tilişgə ulməz* (Bakı).

**SAYA** III (Bakı) – suda dayaz yer.

**SAYA** IV (Quba) – çalğısız. – *Gəlini saya apardılar.*

**SAYAĞAC** (Füzuli) – yazılı məlumat.

**SAYALANMAX** (Şəmkir) – yaxşılaşmaq, sağalmaq. – *Əlimdəki yara sayalanıf.*

**SAYANA** (Ucar) – b a x **saya** IV. – *Sayana toyda aşığ olmaz, çalğı olmaz; – Sayana toyda adam az olar.*

**SAYĞI** (İmişli) – sayma, yoxlama. – *Hər ay qoyunda sayğı olor; – Sayğıda yüz quzumuz olmuşdu.*

**SAYXAŞMAX** (Şəki) – sakitləşmək, seyrəlmək. – *Məclis dağıldı, ara sayxaşdı.*

**SAYXIMMAX** (Cəbrayıl) – aralanmaq.

**SAYXIN** (Qazax) – gizlin.

**SAYILÇI** (Salyan) – dilənçi. – *Sə:n sayılçıdan neyün artığdı, sayılçı sənnən yaxşıdı.*

**SAYQAL** (Qax) – ağacın budağı altına vurulan dayaq.

**SAYQULU** (Cəbrayıl, Qafan, Qarakilsə) – 1. sayıq; 2. ehtiyatlı. – *Sayqulu baş salamat olar* (Qarakilsə); – *Sayqulu gözə çöp düşməz* (Qafan).

**SAYQUŞ** (Biləsuvar, Əli Bayramlı, Sabirabad, Salyan, Tovuz) – bayquş. – *Sayquş meşələrdə çox olar.*

**SAYIL** (Qazax) – xəstə.

**SAYIL-BAYIL: SAYIL-BAYIL DANIŞMAĞ** (Quba) – sayıqlamaq. – *U lap hindi sayıl-bayıl danışadı.*

**SAYIR** (Qazax) – b a x **sayıl.** ◊ **Sayır olmax** – xəstələnmək. – *Səni görüm sayır olasan.*

**SAYIR-BAYIR** (Şahbuz) – b a x **sayıl-bayıl danışmax.** – *Sərxan çox naxoşdı, sayır-bayır danışır.*

**SAYLAMAX** (Oğuz) – qaqqıldamaq. – *Çil toyux saylıyır, yumurtası var.*

**SAYNAX** (Goranboy) – səfeh.

**SAYNIZ: SAYNIZ OLMAX** (Qarakilsə) – qeydinə qalmaq, qorumaq. – *Bir-birimizə saynız olmuşux.*

**SAYRI** I (Basarkeçər, Borçalı, Hamamlı, İmişli) – xəstə. – *Nə sağdı, nə sayrı* (Borçalı); – *Bir gün sağ olur, beş gün sayrı* (Hamamlı).

**SAYRI** II (Şamaxı) – başqa, qeyri, savayı. – *Onnan sayrı adammız yoxdı.*

**SAY-SAY** (Salyan) – üst-üstə. – *Paltarrarı ütilə, say-say yığ şifanerə.*

**SAYSEŞMƏ** (Gəncə) – seçmə. – *Yemişin sayseşmələrinnən bir harava apar sat.*

**SAYSU** (Bakı) – dayaz (yer <suda>). – *Dayı qabağə gedmiyün, diyəsən saysudu.*

**SAYTAL** I (Cəbrayıl) – seçmə.

**SAYTAL** II (Qarakilsə, Salyan) – ağıllı, düşüncəli. – *Saytal adamı hər yerdə sayallar* (Salyan); – *Vəlməmiş saytal adamdı, hamı onnan məsləhət alardı, gə:şərdilər* (Qarakilsə).

**SAYTAL** III (Qarakilsə) – 1. igid, qorxmaz. – *Nəbyin dəsdəsi saytal oğlannar idi;* 2. güclü (Kürdəmir). – *Əlsa:b saytal oğlandı, onu qarpışmada heç kim yıxmaz.*

**SAYTAL** IV (Salyan) – hamar, düz. – *Saytal taxdada tilişgə olmaz.*

**SAZ** (Oğuz, Şəki) – 1. qamış; 2. qamışlıq. – *Donquzun meyli sazaydı, it də qo:dı saldı saza* (Şəki).

**SAZAN** (Cənubi Azərbaycan) – soxulcan. – *Sazannan baluğ tutmağ olar.*

**SAZANDA** (Cəbrayıl) – avara, sərgərdan. ◊ **Sazanda qalmax** – avara qalmax. – *Axşamacan sazanda qalmışam.*

**SAZDIX** (Zəngibasar) – qamışlıq.

**SAZGİL** (Çənbərək) – kotana qoşulan heyvanların üçüncü cütü. – *Kotana qoşulan dört boyn öküzün hörüx'dən sonkuna sazgil deyrix'.*

**SAZAĞAN** (Şahbuz) – sızanaq. – *Üzümə sazağan çıxıb.*

**SAZILAMAĞ** (Salyan) – gəzmək. – *Gülpəri axşamacan yüz qapı sazılıyır, onnan öy tikən olar?*

**SEÇKİN** (Tovuz) – çubuqdan hörülmüş quzu damı. – *Çobannar quzuları seçkinnən çıxartdılar.*

**SEÇMƏ** (Cəlilabad) – qırma. – *Barıtım var, ancağ seçməni baha vereylər.*

**SEĞMAĞ** (Dərbənd) – sıxmaq. – *Honun <üzümün> suvun seğib aladig.*

**SEHİN** I (Qazax) – b a x **seyin.**

**SEHİN** II (Ordubad) – saxsı qab. – *Sehini ver mənə aparım.*

**SEFQAN** (Qazax) – işsiz, avara.

**SEFTİRİM** (Ordubad) – gic, səfeh.

**SEKİ** I (Tovuz) – tala, açıq yer (meşədə). – *Mal ferması bu il yayı sekidə keçirəcəx'.*

**SEKİ** II (Şəki) – balkon. – *Usdulu sekiyə çıxart qoy.*

**SEL** I (Hamamlı) – dərz, küləş, ot və s. daşımaq üçün iri araba. – *Otu, küləşi selə yığıf aparırıx.*

**SEL** II (Balakən) – paltar qurutmaq üçün kəndir.

**SEL** III (Balakən) – tələnin bərkidildiyi ağac. – *Cələnin seli qırılıp.*

**SELAF** (Zəngibasar) – sel yuyan yer. – *O selaf yerrəri indi əkinəcə: döndəriflər.*

**SELAVAD** (Füzuli) – sel axan dərə.

**SELBESEL: SELBESEL QOYMAĞ** (Bakı) – səliqəyə salınmamış, yığışdırılmamış qoymaq. – *Öyi-eşigi selbesel qoyub gəlmişəm, gərəg gidənnən sora yığışdırım.*

**SELİX'** (Füzuli) – ehtiyatsız davranan.

**SELİM** (Şərur) – çox dik dağ.

**SELİNTİ** (Balakən, Borçalı, Cəbrayıl, Gəncə, Hamamlı, Qafan, Qarakilsə, Qazax, Masallı, Meğri, Mingəçevir, Şəmkir, Ucar, Zəngilan, Zərdab) – selin və ya suyun yığıb gətirdiyi şeylər (ağac, kötük, kol-kos, zibil və s.). – *Selinti ojaxda yanmaz* (Qazax); – *Çaydan bir az selinti yığ* (Qafan); – *Get bir əz selinti yığ gəti* (Zəngilan); – *Kür daşanda çoxlu selinti axır* (Zərdab); – *Çay daşıf, gedəx' selinti yığax* (Hamamlı); – *Qardaşım bir harava selinti yətrif* (Şəmkir).

**SELİNTİR** (Basarkeçər) – səliqəsiz, pinti. – *Bu yaman selintir adamdı.*

**SELİT: SELİT GƏZDİRMƏX'** (Basarkeçər) – söz gəzdirmək. – *Anaxanım çox selit gəzdirən arvatdı.*

**SELLAF** (Gədəbəy, Tovuz) – selin açdığı dərə, yarğan. – *Sellafdan uzaxda otarın bılığı* (Gədəbəy).

**SELLİX'** (Zaqatala) – selin əmələ gətirdiyi sucuq, bataqlıq. – *Əli selliyə batmışdı.*

**SELLOYİ** (İmişli) – daşqın zamanı su basmış yer. – *Selloyi bossan əkərdüg Arazboyu.*

**SELNİ** (Salyan) – həmişə. – *Bağın gərək selni içində olasan.*

**SELO:X** (Tovuz) – b a x **selov.**

**SELOV** (Ordubad) – sel suyu.

**SELOY** (Borçalı, Çənbərək, Karvansaray, Tovuz) – b a x **selov.** – *Şiddətli yağış zamanı sel sürüdən iki qoyunu sürüyüb seloya saldı* (Tovuz); – *Seloyda bir kərən qalıf, həlvəd aparəmmiyf* (Çənbərək).

**SELYAN** I (Ağdərə) – selin əmələ gətirdiyi dərə, yarğan. – *Sel gəliv ovur əmələ:lir selyan.*

**SELYAN** II (Qazax) – xırda muncuq.

**SELYAN** III (Bolnisi, Şəmkir) – dərz, küləş, ot və s. daşımaq üçün iri araba.

**SELYƏTƏLİ** (Qazax) – səliqəsiz, pinti. – *Selyətəli arvatdan arvad olmaz.*

**SEMQİ** (Qazax) – sahibsiz (it).

**SENMAX** (Balakən) – sakitləşmək, yavaşımaq (yağışa aiddir).

**SENMƏX'** (Tərtər) – b a x **senmax.** – *Kür çayı qalxır da, senir də.*

**SERDABƏ** (Quba) – zirzəmi. – *Bizim serdabədə çux udun var.*

**SERİZƏ** (Meğri) – b a x **serzic.** – *Sən elə serizə oxuyecen?*

**SERPİŞ** (Şəki) – konusşəkilli mis qab.

**SERTMƏC** (Şəki) – biçilib (və ya çalınıb) səliqə ilə sərilmiş ot və ya taxıl. – *Çalırığ otu, sertməcə yığırığ, so:ra qotmana yığırıx.*

**SESƏ** (Ordubad) – kiçik mişar. – *Sesəynən taxdaları kəsmağ olur.*

**SESİ** (Lerik) – qıyıq.

**SESON** (Ordubad) – b a x **sesə.** – *Buşqi bir əlli olur, sesonu da bir əlli işlədillər, ama unun üssən ipi olur.*

**SERTOV** (Füzuli) – pencək. – *Soyuxdu, sertovunu gey!*

**SERTOY** (Qazax) – b a x **sertov.**

**SERZİC** (Cəbrayıl) – daima, həmişə.

**SEŞMƏ** I (Qarakilsə, Şərur) – b a x **seçmə.**

**SEŞMƏ** II (Qarakilsə) – quru təzək parçaları.

**SETRƏ** (Cəlilabad) – astarsız pencək. – *İstidi, setrəni gey, gə gedəy.*

**SEVDA** (Cəbrayıl, Cülfa) – ekzema.

**SEVƏRMƏK** (Göyçay) – arxası üstə uzanmaq. – *Yazda adam günün altda sevərir.*

**SEVİNC** (Basarkeçər) – kotanın qolunu boyunduruğa calayan ağac hissə.

**SEVİNDİRMƏX'** (Basarkeçər) – yandırmaq (lampanı). – *Ay oğul, axşam düşüf, ışığı sevindir.*

**SEYEREK** (Balakən) – gəzəyən. – *Axşama kimi seyerek kimi gəzirsən, heç bir iş görmürsən.*

**SEYXAŞ: SEYXAŞ İLƏMAĞ** (Quba) – 1. sakitləşdirmək; 2. yerləşdirmək, yerbəyer etmək; 3. dağılışmağa məcbur etmək.

**SEYXAŞMAX** (Şəki) – 1. sakitləşmək; 2. seyrəlmək.

☐ **Seyxaş olmeg** (Bakı) – sakitləşmək. – *Diyan, ara seyxaş olsun, sora gedərsən.* ◊ **Seyxaş ulmağ** (Quba) – 1. dağılışmaq. – *Cama:t tuydan seyxaş ulub gitdi;* 2. yerləşmək.

**SEYİN** (Culfa, Naxçıvan Şahbuz, Şərur) – sini. – *Seyində süd olar, su olar;* – *Seyində xorəx' yiyillər* (Culfa).

**SEYİRMƏ: SEYİRMƏ BİÇMƏ** (Quba) – taxılı yuxarıdan, sünbülün altından biçmə. – *Buğdanı seyirmə biçibəni kurrama, hələnçik dərzdə diyanməyədi.*

**SEYNƏ** (Cəlilabad) – qulplu saxsı qab. – *Ay qız, o seyniyə biyaz qatığ tök, bira gəti.*

**SEYNƏK** (Salyan) – b a x **seynə.** – *Seynəkdə qatığ çalıllar.*

**SEYNİ** (Bərdə) – b a x **seyin.** – *Seyni misdən olur.*

**SEYRƏQUB** (Şəmkir) – 1. xəbərçi; 2. araqarışdıran. – *Seyrəqub adam namərd olur, xavarçılıx eliyir, ara qarışdırır.*

**SEYTƏL** (Meğri) – daima, tez-tez. – *Bu yaz hova seytəl yağey, heş kəsmey.*

**SƏBB: SƏBB ELƏMƏX'** (Qazax) – şəkk eləmək. – *Ona səbb eler.*

**SƏBƏRMAX** (Qax, Zaqatala) – özündən getmək, huşunu itirmək. – *Əliyə ələ vurdılar, yazıx səbərdi* (Qax).

**SƏBƏRRƏNƏ-SƏBƏRRƏNƏ** (Zəngibasar) – səndirləyə-səndirləyə. – *Səbərrənə-səbərrənə gəlirdi.*

**SƏBƏRRƏNMƏX'** (Zəngibasar) – səndələmək. – *Vuranda səbərrəndi, əmə yıxılmadı.*

**SƏBİ** I (Qax) – çağa.

**SƏBİ** II (Qax) – 1. yetim; 2. fağır.

**SƏBİ** III (Oğuz) – 1. ağıldankəm; 2. key. – *Bu uşax səbidi, partanın qıraığını çeyniyib yi:r.*

**SƏBİL** (Dərbənd) – 1. həyasız; 2. b a x **saçıpuçux.** – *Neynəysən, u səbilnən danışeysən.* ◊ **Səbil olmax** (Meğri) – doymaq. – *Şahın anbarında bu yetim qızdar yedilə-yedilə səbil oldula.*

**SƏBİR** (Lənkəran) – tamam, xalis. – *Ət səbir yağdu.*

**SƏBLƏMAX** (Qax) – öymək. – *Honı biləsincə səblip yola saldı.*

**SƏBZİBARİ** (Lənkəran) – ev quşu adı, toyuğun bir növü. – *Səbzibarinin yumurtası bərk olur.*

**SƏBZİKAR** (İrəvan) – göyərti əkilən yer, sahə. – *Səbzikardan pencər qutulub.*

**SƏBZİKÜKİ** (Lənkəran) – döyülmüş ət, göyərti və yumurtadan hazırlanan xörək. – *Anam yaxşı səbziküki bişirdi.*

**SƏBZİVARİ** (Lənkəran) – b a x **səbzibari.** – *Səbzivarinin başın kəsdilər.*

**SƏCƏLƏ** (Ordubad) – cavan yaşlarında ölmüş adamın qəbri üzərinə sancılan söyud budağı. – *Həsənin səcələsini yel yıxub.*

**SƏCƏN** (Yardımlı) – topa, qalaq. – *Yaydə beş səcən odın yığey.*

**SƏCƏRƏ** (Cəlilabad) – sənəd, vəsiqə. – *Oxıyarduğ səcərə alarduğ.*

**SƏCİN** (Cəbrayıl, Qax) – doğranıb səliqə ilə yığılan odun qalağı, topası.

**SƏÇMƏ** (Ordubad) – quru təzək parçaları. – *Təndirə saçmə tök.*

**SƏDBARI: SƏDBARI YUMURTA** (Şərur) – xırda yumurta. – *Sədbarı yumurta xırda olur.*

**SƏDƏ: SƏDƏ ÇÜŞMƏX′** (Qazax) – işıqlaşmaq. – *Dan yerində sədə çüşəndə yola çüşdüx′.*

**SƏDƏF** I (Borçalı, Meğri, Naxçıvan) – 1. dırnaq (Borçalı, Meğri); 2. dırnağın dibi (Naxçıvan). – *Sədəf sohra dırnağ olur* (Naxçıvan). – *Barmağımın sədəfi tüşüfdü* (Borçalı).

**SƏDƏF** II (Cəbrayıl, Yardımlı) – kiçik ağ düymə. – *Köynəyin sədəfi düşüb* (Yardımlı).

**SƏDƏMƏ** I (Cəbrayıl) – xörək adı. – *Fatma, sədəmə bişir!*

**SƏDƏMƏ** II (Qax, Meğri, Naxçıvan) – b a x **sadama.** ◊ **Sədəmə vurmax** (Naxçıvan) – ziyan, zərər vurmaq. – *Qorxuram, mənə sədəmə vurar;* – *Bizə sədəmə vuran olmaz.*

**SƏDƏS: SƏDƏS OLMAĞ** (Şamaxı) – əsməcəyə tutulmaq. – *Qarabaş it sədəs olıb.*

**SƏFƏLLAYI** (Oğuz) – boş-bikar, avara. – *Səfəllayı adamdı.*

**SƏFLƏŞDİRMAX** (Qax) – sakitləşdirmək.

**SƏFSƏLƏX′LƏMƏX′** (Füzuli) – yersiz, mənasız danışmaq. – *De:r qoja adam səfsələx′liyir.*

**SƏFSƏLƏK** (Ağdaş) – axmaq, ağılsız, düşüncəsiz.

**SƏFSƏRƏK** (Qazax) – gic, gicbəsər. – *Sən nə səfsərək adamsan?*

**SƏFSUAR** (Qazax) – sahəni səpindən sonra suvarma. – *Toxumu səpənnən so:ra üsdünnən sulo:rux, ona da de:rix′ səfsuar.*

**SƏĞƏBİLƏ** (Meğri) – b a x **sağabilə.** – *Avlar səğəbilələrdən su içillər serizə.*

**SƏĞVƏT** (Gədəbəy) – axmaq, gic. – *Səğvət adamdı molla: qulağ asan mə:m vadımo:rə <fikrimə görə>.*

**SƏH** (Dərbənd, Tabasaran) – ağacdan hazırlanmış ölçü qabı (təxminən 2,5 kq. buğda tutur). – *Əmim üç səh buğda vərdi mənə* (Dərbənd); – *Səh buğdadan arpa az tutadı* (Tabasaran).

**SƏHDƏLİ** (Bakı, Şamaxı) – az istifadə olunan və ya istifadəsiz qalan şeylərin evin müəyyən hissəsində yığıldığı yer.

**SƏHGANNIX** (Göyçay) – arxayınçılıq.

**SƏHLƏM** I (İsmayıllı) – b a x **səkləm.** – *Bir səhləm şeydi, onnan ötrü araba qoşmağa dəyməz.*

**SƏHLƏM** II (Culfa, Quba) – yabanı bitki adı (bundan zökəm xəstəliyini müalicə etmək üçün istifadə olunur).

**SƏHLƏMƏK** (Lənkəran) – arası kəsilmək, dayanmaq.

**SƏHÖY** (Qazax) – qamışlı, bataqlıq yer. – *Səhöydə zəli var.*

**SƏHTİ** (Kürdəmir) – 1. zəhlətökən; 2. mənasız. – *Adamın səhtisinnən səhti də söz çıxır.*

**SƏXİ** (Göyçay) – əliaçıq.

**SƏ:K** (Salyan) – qatıq çalmaq üçün gil qazan. – *Sə:kdən qatığı nehriyə tök, gəlirəm.*

**SƏKCƏ** (Sabirabad) – b a x **səkçə.**

**SƏKÇƏ** (Salyan) – bardaq. – *Səkçə:n sui sərin olır.*

**SƏKÇƏT** (Cəbrayıl) – qəribə, qeyri-adi (adam).

**SƏKDƏ** (Salyan) – ağıldankəm, səfeh. – *Səkdə adama qoşulma.*

**SƏKDİ-SƏKDİ** (Salyan) – gic-gic, axmaq-axmaq. – *Nərgizi dindirəcəksən, başdıyacağ səkdi-səkdi danışmağa.*

**SƏKƏ** (Şamaxı) – ayıq. – *Bu gecə bir qədər səkə yatmağ lazımdı.*

**SƏKƏL** (Salyan) – daş parçası, daş qırıntısı. – *Səkəl ver, daşdarın arasın doldırım.*

**SƏKGİZDAŞ** (Ağdam, Zəngilan) – uşaq oyunu adı.

**SƏKİ** (Bərdə, Cəbrayıl, Gədəbəy, Şərur) – guya. – *Səki mən də:si, o da onnan sonra küsəsi mənnən* (Gədəbəy); – *Gəldilər şəklimi çəkdilər, səki kinoya verjəx′lər* (Bərdə).

**SƏKİL** (Gəncə) – ən yaxşı. – *Səkil tikəni özüm yimədim, ona verdim.*

**SƏKLƏM** (Cəlilabad, Quba, Şamaxı) – köhnə ölçü vahidi. – *Gəlinbacı mənnən bir səkləm un istəyibəni apardı* (Quba); – *Nə vardı, bir səkləm arpa unuydı qutardı, getdi* (Şamaxı); – *Dügi az qalıb cəmi iki səkləm* (Cəlilabad).

**SƏKMƏX′** I (Gəncə) – axsamaq. – *Niyə səkirsən?*

**SƏKMƏX′** II (Gəncə) – yellənmək (dizləri qatlaya-qatlaya ayaq üstə). – *Həsən yellən-cəx′də o qədər səkdi ki, başı hərləndi.*

**SƏKNİMƏX′** (Qazax) – sakitləşmək. – *İndi yağış bir az səkniyif.*

**SƏKSƏKİ** (Qazax) – ağılsız.

**SƏKTİ** (Kürdəmir) – ağılsız. – *Nə səkti bacın var.*

**SƏQAN** (Şəki) – b a x **saqan.** – *Səqanın içinə buğda tökərdilər, düyü tökərdilər, çəlitix′ tökərdilər, hər şey tökərdilər.*

**SƏQƏRXANA** (Ordubad) – üstü örtülü çeşmə. – *Səqərxanadan su gəlir.*

**SƏQQƏT** I (Şamaxı) – b a x **saqqat** II. – *Əzim çox səqqət adamdu.*

**SƏQQƏT** II (Naxçıvan, Şərur, İrəvan) – şikəst, əlil. – *İndi mən səqqətəm* (Şərur). ◊ **Səqqət olmax** (Şərur) – şikəst olmaq. – *Qıçım qışda buzda züvdü, qıçım ikildi <iki ildi> yoxdu, səqqət olmuşam.*

**SƏQQƏT** III (Culfa) – uçurum. – *Ora çox səqqət dərədi.*

**SƏL** (Lənkəran) – quş ovlamaq üçün tor.

**SƏ:L** (Mingəçevir) – az. – *Sə:l adam olar ki, bunu bilməyə.*

**SƏLAMİ** (Ordubad) – meyvə adı. – *Mən səlamini çox yiyirəm.*

**SƏLƏ** I (Lənkəran, Salyan) – balıq tutmaq (ovlamaq) üçün alət. – *Bazardan balığ vurmağa sələ aldım* (Lənkəran); – *Sələynən balığ tutallar* (Salyan).

**SƏLƏ** II (Kürdəmir, Vedi, İrəvan) – nazik çubuqdan hazırlanan aşsüzən. – *Dünən bir batman şor verib, bir sələ almışam* (Vedi); – *Sələ: gətir üzüm qoyum* (İrəvan).

**SƏLƏ** III (Qazax, Şəki) – 1. yağ saxlamaq üçün dəri qab (Qazax). – *Sələnin divində yağ var, gəti soğança qayrax;* 2. nehrənin ağzını bağlamaq üçün nazik dəri (Şəki).

**SƏLƏ** IV (Qax) – çox arıq (ət).

**SƏLƏ** V (Bakı) –yaba.

**SƏ:LƏB** (Bakı) – şərbət.

**SƏLƏBAĞI** (Ucar) – nehrənin ağzını bağlamaq üçün ip. – *Nənəm sələbağını nehrənin ağzına bağladı.*

**SƏLƏX′** (Karvansaray) – yersiz danışan. – *Xalsa arvadın qardaşı qızı sələx′di.*

**SƏ:LƏX′LƏMMƏX′** (Gədəbəy, Tovuz) – gicəlmək. – *Oqqədər çalışmışam ki, əyğa qalxanda sə:ləx′lənirəm* (Tovuz).

**SƏLƏK** (Naxçıvan) – b a x **sələ** III (2-ci məna).

**SƏLƏLƏMƏG** (Lənkəran) – sələ ilə ovlamaq. – *O, balığ sələləmək istədi, əmma balığ qaşdı.*

**SƏLƏMƏ** (Quba) – buğdadan hazırlanan yemək adı. – *Anam çux sələmə qayirmişdi.*

**SƏ:LƏMMƏX′** (Qarakilsə) – b a x **səyəlləmax.**

**SƏLƏNDAR** (Lənkəran) – pinti.

**SƏLƏNDƏR** (Lənkəran) – b a x **sələndar.** – *Dadaş sələndər uşaxdı.*

**SƏLƏSOVLAMAX** (Naxçıvan) – hamarlamaq. – *Buğdanın şərti odu kin, yeri sələsovlayasan.*

**SƏLƏY** (Tovuz) – avara, işsiz, boş-bikar.

**SƏLƏYƏNTƏ** (Gədəbəy) – pinti. – *Nə sələyəntə adammış Qurvan, heş fikir verməmişdim ona.*

**SƏLƏYƏNTİ** (Tovuz) – avara, işsiz, boş-bikar.

**SƏLHƏB** (Lənkəran) – dərman bitkisi adı.

**SƏLKƏM** (Cəlilabad) – b a x **səkləm.** – *İki səlkəm dügi gətdim.*

**SƏLLƏ** (Qax) – diqqət.

**SƏLLƏMİNƏ** (Qazax) – sahibsiz. – *Buralar səlləmineydi, hər yetən bağdan keçirdi.*

**SƏLLƏT** (Qax) – b a x **səllə.**

**SƏLLİM** (Qax, Zaqatala) – boş-bikar, işsiz.

**SƏLLİMƏ** (Meğri) – özbaşına, başlı-başına. – *Teşdinin elxısı mal gədiyinin dalları güneydə səllimə otdər.*

**SƏLMƏ** I (Ağdaş, Bərdə) – yeməli yabanı bitki adı. – *Səlmə do:ğası xoşuma gəlir* (Ağdaş); – *Səlmə yaz aylarındao:lor, onun yarpağın do:ğıya tökürüx′* (Bərdə).

**SƏLMƏ** II (Qax) – lay. – *Beş səlmə ot çaldım.*

**SƏLSƏBİL: SƏLSƏBİL OLMAĞ** (Şamaxı) – səpələnib dağılmaq. – *Bığda torbasınun qəfildən ağzı açıldı, bığda səlsəbil oldı.*

**SƏLT** I (Quba) – palçıq. – *Paltuvun üsdünə səlt tükülüb.*

**SƏLT** II (Bakı, Salyan, Şamaxı) – tamam, tamamilə. – *Bosdanun qırağı səlt qağdannığdu;* – *Didüglərü:n hamsı səlt yalandu* (Bakı); – *Yağışda isdandım, səlt su oldım* (Salyan).

**SƏLTƏ** I (Zəngilan) – işsiz, boş-bikar. – *Nə var, genə səltə:zirsən?*

**SƏLTƏ** II (Basarkeçər, Qazax, Qax) – 1. bədxasiyyət; 2. həyasız. – *Sənəm elə səltədi ki, onnan hamı qorxur* (Qazax).

**SƏLVƏR** I (Çənbərək) – xəstə. – *Süleyman yazıx iki ildi kin, səlvərdi; – Səlvər arvat öy tikərmi saŋa?*

**SƏLVƏR** II (İsmayıllı, Qazax, Zaqatala) – avara, işsiz, boş-bikar. – *Səlvər gəzməx′dən nə çıxajax* (Qazax); – *Əcəb səlvər adamdı* (İsmayıllı).

**SƏLVƏR** III (Gədəbəy, Tovuz) – sahibsiz, yiyəsiz. – *Səlvər mala tamah salmağın özü heş haxşı iş döy* (Gədəbəy).

**SƏLVƏR** IV (Gəncə) – bostandan arabaçıya zəhmətхaqqı kimi verilən qovun-qarpız.

**SƏLVƏRRƏŞMƏG** (İsmayıllı) – qocalmaq, qocalıb əldən düşmək. – *Vaxtında gümrahiydi, hindi səlvərrəşib.*

**SƏLYAN** (Qazax) – b a x **seylan** II.

**SƏMƏ** (Bakı, Gədəbəy, Gəncə, Goranboy, Göyçay, Xaçmaz, Kürdəmir, Qazax, Qax, Quba, Qusar, Sabirabad, Salyan, Zərdab) – 1. key, ağılsız, axmaq, gic. – *Vahıdın uşaxları səmədü* (Kürdəmir); – *Ununla işün ulmasun, səmənün biridü, quy gidsün* (Quba); – *Adə, bu uşağ lap səmədü a:, nə di:rsən boşa düşmir* (Bakı); – *A:rif çox səmə uşaxdı* (Zərdab); 2. *məc.* avara, boş-bikar gəzən. – *Səmə gəzməx′ səniŋ xasiyətiŋdi* (Tovuz); – *Sən çox səməsəŋ* (Qazax).

**SƏMƏLƏK** (Laçın) – ağılsız.

**SƏMƏLƏMMƏX′** (Gəncə, Tovuz) – avaralanmaq, işsiz gəzmək. – *Gənə buralarda niyə səmələnirsən?* (Gəncə); – *İşiŋ, güjüŋ yoxdumu, bu yollarda nə səmələnirsəŋ?* (Tovuz).

**SƏMƏLƏŞMƏG** (Şamaxı) – xəriflәmək, ağlını itirmək. – *Səmələşməg elə Əhmədə qalmışdı?*

**SƏMƏLIX** (Şəki) – acizlik. – *Sən niyə səməlıx eliyirsən?*

**SƏMƏNDƏR** (Qafan) – səməni. – *Səməndər çox yeməli olur.*

**SƏMƏNİ** (Lənkəran) – arpa, buğda və qoyun kəlləsindən hazırlanan xörək. – *Nənəm sabah səməni bişirəcək.*

**SƏMƏROV** (Qax) – quzuların əmizdirildiyi yer.

**SƏMİM** (Salyan) – təsir. – *Sə:n nəsihətü:n səmimi hələ də qulağlarımdadı.*

**SƏMİRSAĞDÖGƏN** (Dərbənd) – həvəngdəstə.

**SƏMİZ** (Dərbənd) – kök (ən çox mala aid edilir). – *Gəncəli həmişə mala yaxşi baxadu, həmi malları səmizdü.*

**SƏMRƏ** (Qax, Zaqatala) – 1. duman; 2. sis.

**SƏMRİ** (Salyan) – kök. – *Mırad səmri adamdı.*

**SƏMRİMƏG** (Lənkəran, Salyan) – 1. kökəlmək; 2. yaxşılaşmaq. – *Hindi hava səmriyər; – Məza:him mə:llim səmriyib* (Salyan).

**SƏMRİMƏX′** (Qazax, Meğri, Mingəçevir) – b a x **səmriməg.** – *Dağda yeyif səmriyer* (Qazax); – *Yemisən, səmrimisən, əxi mən sənnən gələ billəm?* (Meğri).

**SƏNDİRRƏMƏX′** (Meğri) – büdrəmək. – *Balacə dəyirmanın qabağında qatır səndirrədi, iras düşdü, özün genə yığışdırdı.*

**SƏŊƏHLİ** (Qazax) – ombanın başı. – *Belimiŋ səŋəhlisi ağrıyer.*

**SƏŊƏX′LİX′** (Çənbərək) – b a x **səŋəhli.** – *Büyn çox işdədim deyn səŋəx′liyim qırılır.*

**SƏ:NƏX′** (Qarakilsə) – b a x **səyənəx′.**

**SƏNƏKDAN** (Gəncə) – ombanın başı. – *Ağaşdan yıxılan günnən sənəkdanım yaman ağrıyır.*

**SƏNƏMƏKİ** (Şəki) – bitki adı. – *Sənəməki:n toxumu, çiçəyi olur.*

**SƏ:NƏY** (Ağcabədi) – b a x **səyənəx′.** – *Sə:nəy iti tutan kimin ölür.*

**SƏNGƏG** (Ərdəbil, Naxçıvan, Təbriz, Zəncan) – lavaşaoxşar çörək. – *Ma:şalla, səngəgpəz Həsən qəribə səngəg pişirir* (Naxçıvan).

**SƏNGƏH** (Gəncə, Ordubad) – b a x **səngəg.** – *Bu gün nahara səngəhnən pendir yidim* (Ordubad).

**SƏNGİMƏX′** (Çənbərək, Gədəbəy, Şəmkir) – sakitləşmək, yavaşımaq, ara vermək. – *Yağış səngiyənətən oturğunan gap elə:x′ bir az* (Gədəbəy); – *Qızı çox yerdən isdiyillər, heş kimə irazı döy, qoy ara səngisin, götürüf qaçarıx′* (Şəmkir); – *Dalaş səngidi, hərə bir yane:ytdi* (Çənbərək).

**SƏNGİSİTARƏ** (Lerik) – boyunbağıya keçirilən qiymətli qaş-daşın bir növü. – *Boyunbağıda səngisitarə vardı.*

**SƏPBƏ** I (Göyçay) – məxmərək. – *Qızı səpbə tutub.*

**SƏPBƏ** II (Salyan) – əkin. – *Səpbə yerində arpa-bığda əkillər.*

**SƏPBƏ** III (Tərtər) – boranıplov. – *Səpbə çox yeməli xörəx′idi.*

**SƏPƏL** (Qax) – murdar.

**SƏPƏRTDƏK** (Salyan) – boyun damarı. – *Elə vırdi ki, boynımın səpərtdəki qırıldı.*

**SƏPGƏK** (Lənkəran) – lavaşın bir növü.

**SƏPGİ** (Meğri) – qayda, adət. – *Bizim səpgimiz belədi.*

**SƏPÖ:R** (Göyçay) – səpindən sonra sahənin şumlanması.

**SƏPPƏ** (İsmayıllı) – gildən hazırlanmış dayaq (saç, qazan və s. üçün) – *Səppə qoy, sacı as.*

**SƏPPƏCUVAR: SƏPPƏCUVAR ELƏMAX** (Balakən) – biabır eləmək, rüsvay etmək. – *Əlinin oğlu Umar yetimi səppəsuvar elədi.*

**SƏRAB** I (Ordubad) – əkinə üçüncü dəfə verilən su.

**SƏRAB** II (Lənkəran) – abqora, qora suyu.

**SƏRBİRAH: SƏRBİRAH ELƏMƏG** (Şamaxı) – sahmana salmaq, qaydaya salmaq. – *Sən ged, mən də bu işdəri sərbirah eliyib gəlirəm.*

**SƏRCAM** (Şamaxı) – dairəvi dərin mis qapaq. – *Sərcamun bö:rinnən deşiyi var.*

**SƏRÇƏBUDI** (Xaçmaz, Quba) – armud növü adı. – *Sərçəbudı yaxşi armud dəgil* (Quba).

**SƏRÇƏLƏ** (Xanlar) – çeçələ barmaq. – *Balaca barmağa sərçələ deyrəx′.*

**SƏRÇİ** (Şərur) – b a x **sərəçi.** – *Əkin suvaranda su başqasının yerinə keşməsin deyə bir sərçi qazarux.*

**SƏRDABA** (Salyan) – əhvalat. – *O:n sərdabası çox deyiləcəgdi.*

**SƏRDAXIL** (Lənkəran) – qəbiristan.

**SƏRDAN** (Culfa, Qafan, Zəngilan) – malqaranın yığıldığı və ya sağıldığı yer. – *Bizim cöngə sərdanda yoxdı, yə:qin ki, qurd yedi* (Qafan); – *Fərzəli qoyunu sərdana gətirdi* (Zəngilan); – *Keçən il mən sərdanda beş yüz sağmal qoyun sağdırdım* (Culfa).

**SƏRDƏHNƏ** (Gəncə, Qazax) – 1. istifadəsiz axan su (Qazax); 2. suçıxan, sututan sahə (Gəncə). – *Bizim arx elə sərdəhnə axer* (Qazax); – *Sənin yerin sərdəhnədədi* (Gəncə).

**SƏRDƏN** (Culfa, Füzuli, Gəncə, Xanlar, Qazax, Oğuz, Şəmkir, Tovuz, Zəngilan) – 1. b a x **sərdan.** – *Sərdən belə açıx yerdi, orda mal da saxlanar, qoyun da* (Xanlar); – *Uşaxlar qoyunnarı sərdənə:tirif* (Zəngilan); – *Quzunu götürdüm sərdənə çıxdım* (Şəmkir); – 2. həyət (Culfa, Şəmkir, Tovuz). – *Bir belə sərdəndə toy qurulmuşdu* (Şəmkir); – *Qarğıdalını sərdənə sərmişəm ki, quruyub dəyirmanlığ olsun* (Tovuz).

**SƏRDƏNNƏMƏX′** (Çənbərək) – seyrəltmək, səpələmək (qoyun-quzuya aiddir). – *Çovannar quzuyu əmişdirəndə sərdənniyir deyin qoyun balasın tez tapır.*

**SƏRDƏSİ** (Bakı) – başdansovdu, birtəhər, başdan eləmə.

**SƏRDƏST** (Zəngibasar) heyvanın bel əti. – *Mu:n sərdəstini də ma: verərsən, yaxcımı?*

**SƏRDİG** (Quba) – taxtadan qayırılmış qazan qapağı. – *Qazanun ağzini sərdignən ürt.*

**SƏRDUVAĞ** (Salyan) – qabların ağzına qoyulan qapaq. – *Qazanın sərduvağı yoxdı.*

**SƏREX′** (Meğri) – həqiqi, düzgün. – *İramazan sərex′ sözün mõ: deyip, o bir də bu vilayətə qeyitmecex′.*

**SƏRƏ** I (Zaqatala) – qurum. – *Turbadan sərəni təmizdə!*

**SƏRƏ** II (Meğri, Ordubad) – suluf. – *Tökecəm mejmeyinə düyünü, sərəsin bicə-bicə təmizdə:n* (Meğri); – *Düyünün sərəsin arıd* (Ordubad).

**SƏRƏ** III (İmişli, Ucar) – b a x **sələ** I. – *Ə; yaxşı balığ var, ged sərəni gəti mə:* (İmişli); – *Rasim sərəni götürüb balıx vurmağa getdi* (Ucar).

**SƏRƏCƏ** (Zəngibasar) – bostan-tərəvəz sahələrinin baş tərəfi. – *Xiyarrarı yığıf tığlamışıx sərəcələrə.*

**SƏRƏÇİ** (Şərur) – əkin yerinin qutaracağında suyun başqa sahələrə keçməməsi üçün qazılmış kiçik arx.

**SƏRƏG** (Göyçay, Kürdəmir, Şamaxı, Ucar) – yüngül, ağıldankəm, gic, axmaq. – *Sərəg adamdı, o:n neyinnən danışırsan;* – *Adam sərəg olmaz* (Kürdəmir); – *Sərəg adam danışığın bilməz* (Ucar); – *Əhməd çox sərəg adamdı* (Şamaxı).

**SƏRƏGLƏMƏG** (Şamaxı) – ağlına gələni danışmaq, yersiz danışmaq. – *İclaslarda sərəgləməg ayıbdı.*

**SƏRƏF** (Bakı) – b a x **sarağ** I (2-ci məna). – *Adə, bu ağacdəri əkirsən birbaşdi, sərəfi sındırginən, sal şirəyə ağacün kötügini, undə lap əntiqə olar.*

**SƏRƏK** (Zaqatala) – qorxaq.

**SƏRƏQƏT** (Quba) – evin bayır tərəfindən damla divarın və tirlərin (pərdilərin) arasında qalan boşluq. – *Sərəqətdə quş yuva tikib üzüyçün.*

**SƏRƏLƏMƏG** (İmişli) – balıq tutmaq üçün xüsusi alət. – *Balığı elə sərələmisən, tikə-tikə olub.*

**SƏRƏLİ** (Cəlilabad) – tavada yağla bişirilən fətirəoxşar çörək növü.

**SƏRƏNDAZ** (Mingəçevir) – pərdə.

**SƏRƏSAVLAMAX** (Şahbuz) – səpindən sonra sahəyə mala çəkmək. – *Taxılı səpənnən sonra sərəsavlıyırıx.*

**SƏRƏSO:** (Culfa, Şahbuz) – ağac mala.

**SƏRƏSOR** (Şahbuz) – b a x **sərəso:.**

**SƏRƏVƏZ** (Oğuz, Zərdab) – yayda qoyun, keçi saxlamaq üçün hər tərəfdən çubuqla hörülmüş üstüaçıq yer. – *Sərəvəzi çöpdən, çubuqdan, payadan-zaddan düzəldillər* (Oğuz); – *Oğul, axşamdı, qoyun-keçini sərəvəzə sal* (Zərdab).

**SƏRƏVƏZLƏMMAĞ** (Quba) – özünü oda vermək, qızınmaq. – *Sərəvəzləmmə, işüvə gid.*

**SƏRF** I (Quba, Şamaxı) – tutağan, sərt (it). – *Qonşimizün iti çox sərfdi, hamını tutır* (Şamaxı).

**SƏRF** II (Cəlilabad) – 1. yaxşı; 2. keyfiyyətli. – *Çitin sərfi Orısseydi.*

**SƏRFƏ** (Ordubad) – qabağa, irəliyə.

**SƏRFƏKAR** (Cəbrayıl) – etinasız.

**SƏRFİNAZ** (Qafan, Şamaxı) – ərköyün. – *Sərfinaz bəsdənən uşağ yaramaz olır.*

**SƏRGƏNDAR** (Göyçay, Qarakilsə) – b a x **səryəndar.**

**SƏRGİSAVAŞ ELƏMƏG** (Salyan) – töküb dağıtmaq, islahatdan salmaq. – *Sizzən gedənnən so:ra gördüm uşağlar öyi sərgisavaş eliyiblər.*

**SƏRGÜL** (Bakı) – novbar.

**SƏRHAYİ** (Şamaxı) – işsiz, boş-bikar gəzən, avara. ◊ **Sərhayi olmağ** – işsiz, boş-bikar gəzmək, avaralanmaq. – *İbad lap sərhayi olıb, heç bir iş dalı:cən getmir.*

**SƏRHEY** (Füzuli) – inciklik.

**SƏRXEYİR** (Salyan) – b a x **sarxeyir.** – *Məmməssəli toylarda zol sərxeyir olır.*

**SƏRXOŞ** (Qafan) – sarımtıl. – *Sərxoş öküz öldi.*

**SƏRİK** (Zərdab) – doğru, düz. – *Mənə sərik söz de.*

**SƏRİŞDƏ** I (Sabirabad) – kef. – *Səriştəyə gedirsənmi?* ◊ **Sərişdə çəkmək** – kef çəkmək. – *Əli bü:n yaman sərişdə çəkib.*

**SƏRKAR** (Gəncə, Quba, Şamaxı) – b a x **sarkar.** – *Bö:üy sürilərdə çobannarun, başqa şeylərün ixdiyari sərkardadi* (Şamaxı); – *Sərkar qoyuna yaxşı baxar* (Gəncə).

**SƏRKƏR** I (Qazax, Quba) – b a x **sarkar.** – *Sərkər gərəx′ sərvağ olsun ki, qoyunu qurda verməsin* (Qazax); – *Sərkər, gəl çüreg yi* (Quba).

**SƏRKƏR** II (Şəmkir) – saxlamaq üçün başqasına verilən mal. – *Məsəl, mən otuz inəx′ sənə sərkər verirəm, sən də əvəzin maŋa süd verirsən, yağ verirsəŋ, hələ özüŋə saxlırsan.*

**SƏRKƏR** III (Şəki) – azərbaycanlıların ləzgi kişilərinə verdikləri ad.

**SƏRKİ** (Bakı, Quba, Şamaxı) – tənə, qaxınc. ◊ **Sərki vurmağ** (Quba) – tənə vurmaq, qaxınc etmək. – *Balaca bir iş gürdi, axşamsəhər başıma sərki vurdı.* **Sərki eləməg** (Quba, Şamaxı) – tənə vurmaq, qaxınc eləmək. – *Ömründə bizim üçün bir iş gördün, daha oni başimizə sərki elədün* (Şamaxı). **Sərki olmağ** (Bakı) – tənə olmaq, qaxınc olmaq. – *Bilmidəm mə: nə yaxçılığ eləmisən ki, hər da:ğada başıma sərki olıb* (Bakı).

**SƏRKİŞ** (Tovuz) – süd sağılan qab.

**SƏRQAFAN** (Füzuli) – b a x **sərqapan** II. – *Başdadı toy unun üyütməyi, qoyunun almağı, düzəldi hamısı sərqafan.*

**SƏRQAPAN** I (Qazax) – həmişə. – *Bu arxdan su elə sərqapan axer.*

**SƏRQAPAN** II (Füzuli) – hazır. – *Özdəri də səngərdə sərqapan oturuflar.*

**SƏRLİ** (Ordubad) – kobud, qaba. – *Sən nə sərli adamsan.*

**SƏRMAYİ** (Cəbrayıl) – haşiyəli arxalıq.

**SƏRMEHİR** (Çənbərək) – narazı. – *Qaqaş arvadınnan sərmehirdi.*

**SƏRMƏ** I (Şuşa) – qızıl-gümüşdən çəkilmiş (eşilmiş) nazik qaytan, güləbətin. ◊ **Sərmə çəkməx′** – qızıl-gümüşdən nazik qaytan,

güləbətin çəkmək (eşmək). – *Bir az gümüş verdim, sərmə çəksin.*

**SƏRMƏ** II (Ordubad) – uzunsov şəkilli fiqurlardan ibarət qızıl boyunbağı.

**SƏRMƏ** III (Laçın) – qurudulmuş pendir.

**SƏRMƏÇİ** (Şuşa) – sərmə, güləbətin sarıyan sənətkar. – *Həmid sərməçidi.*

**SƏRMƏLİ** (Şuşa) – qızıl-gümüşdən çəkilmiş (eşilmiş) nazik qaytanlı, güləbətinli. – *Bir sərməli çuxa tikdirdim.*

**SƏRNƏ** I (Tovuz) – əkin sahəsinin ayrı-ayrılıqda suvarılan hissələrindən hər birinin adı. – *Əkini sərnələrə bölməsəŋ suvarmağ olmaz.*

**SƏRNƏ** II (Mingəçevir) – çalınmış otun əmələ gətirdiyi cərgə.

**SƏRNƏ** III (Qazax) – əsas arxdan ayrılan qol. – *Sərnənin eni bir metir olor.*

**SƏRNİGÜN: SƏRNİGÜN OLMAĞ** (Bakı) – başı batmaq, itmək, ölmək. – *Səni görüm sərnigün olasan.*

**SƏRNİMƏX′** (Karvansaray) – sakitləşmək. – *Camahat dalaşe:rdi, indi sərniyif.*

**SƏRP** (Meğri) – çıxılmaz dik, sıldırım (qaya). – *Mõ: baxma, Binədəli Ardışdı bə-rə:nin sərplərin otarammaz.*

**SƏRPAY** (Dərbənd, Quba) – toy və ya şadlıq məclisini idarə edən şəxs. – *Sərpay tuydə diyən süzə kəçədü* (Dərbənd).

**SƏRPAYİ** (Bakı, Kürdəmir, Quba, Şamaxı) – b a x **sərpay.** – *Sərpayi tuydə, qunağluğda qunağlara, gələnnərə qulluğ iləyən adamdü* (Quba); – *Həsən toyun sərpayısıdı, bizə yaxşı yiməg verər* (Kürdəmir).

**SƏRPƏR** (Cəbrayıl) – çirkin, yaraşıqsız. – *Köçün dalıncan sərpər bir qız gedir.*

**SƏRPİLƏNMƏX′** (Qazax) – səpələnmək.

**SƏRPİLMƏX′** (Qazax) – dayanmaq, ara vermək (yağışa aiddir). – *Yağış kin yağer, yağış sərpilənnən soŋra alaqurşax doğajax.*

**SƏRPİŞ** (Şəki) – b a x **serpiş.** – *Elə vax olur, inex′dən bir sərpiş süt sağıram.*

**SƏRRİ** (İmişli) – bədəndə zəif, incə (yer). – *Sərri yerinə vırma uşağın.*

**SƏRUNƏ** (Şamaxı) – eyni. – *Məniçün hamı sərunədi, tərəf saxlamaram.*

**SƏRVARAXLAMAX** (Cəbrayıl) – hazırlamaq.

**SƏRYAN** (Şamaxı) – mətbəx. – *Qazani səryannan götür.*

**SƏRYANDAR** (Şəki) – boş-bikar, işsiz, avara. – *Səryandar adamam, hara isdi:sən gidax.*

**SƏRYƏNDƏR** (Şəki) – b a x **səryandar.** – *Sadığın oğlu səryəndər gəzir, heş yerdə işdəmir.*

**SƏSƏDÜŞMƏ** (İmişli) – yenicə doğmuş qadının halsızlaşması.

**SƏSİYMƏX′** (Xanlar) – şübhələnmək. – *Camışın oğurlanmasını sənnən səsiyillər.*

**SƏSMƏKÜN** (Cəbrayıl, Şamaxı) – səssiz, sakit, dinməz-söyləməz. – *Evimizdə qonağ var, səsməkün otır* (Şamaxı).

**SƏSMƏKÜNNÜX′** (Cəbrayıl, Zəngilan) – sakitlik, səssizlik. – *Ma:l indi səsməkünnüx′dü* (Zəngilan).

**SƏT** (Bakı) – b a x **səlt** II. – *Xöreg sət yağdu.*

**SƏTIRĞA** (Şəki) – qaltaq. – *Sətırğa əyildi.*

**SƏTİL** (Zəncan) – b a x **satıl** III.

**SƏTNİMƏX′** (Çənbərək) – xoşuna gəlmək. – *Lapazan Əhmədiŋ uşağına sətniyrəm.*

**SƏVƏDƏ** (Basarkeçər, Gəncə) – sklet. – *Kalafada bir at səvədəsi var* (Gəncə); – *Malın hər yerini canavar ye:f, bircə səvədəsi qalıf* (Basarkeçər).

**SƏVƏDƏT** (Cəbrayıl) – sovqat. – *Cəfər bizə səvədət gətirmişdi.*

**SƏVƏN** (Şərur) – taxta mıx.

**SƏVƏR** (Quba) – nazik çubuq və ya qarğıdan hörülmüş səbət. – *Bir səvər məşməşi gətiribəni qurutmişam qişə.*

**SƏVƏRƏ** (Culfa, Çənbərək, Naxçıvan, Ordubad, Şahbuz, Şərur) – 1. b a x **səvər;** 2. küləş və sairədən toxunmuş çörəkqabı. – *Səvərəni ağaşdan da qayrallar, küləşdən də qayrallar* (Naxçıvan); – *Bir səvərə morcalax yığıf qız* (Çənbərək); – *Cildən səvərə qayrıllar* (Şərur); – *Çörəyləri yığ səvərənin içinə, apar qoy unnuğun üstə* (Şahbuz); – *Səvəriyə üzüm yığıllar* (Culfa); – *Dünən dayoğlum Vənənnən bir səvərə ərik gətirmişdi* (Ordubad).

**SƏVƏRƏN** (Zəngilan) – b a x **səvər.**

**SƏVƏRMƏX′** (Qazax, Mingəçevir, Tovuz) – arxası üstə uzanmaq. – *Səvəriv özünü günə verer* (Qazax).

**SƏVİ** I (Başkeçid, Borçalı, Kəlbəcər, Qazax, Mingəçevir, Şəki, Zaqatala) – b a x **səbi** I. – *Səvi bir-iki aylığ uşağa de:rix'* (Borçalı); – *O səvinin üzünü ört* (Kəlbəcər); – *Bes u:n səvisinə kim baxasıdı?* (Şəki); – *Sən hələ səvisən, heylə şeyləri qammazsan* (Zaqatala).

**SƏVİ** II (Başkeçid, Qazax) – b a x **səbi** II (2-ci məna).

**SƏVİRGAR** (Gəncə) – qəbiristan.

**SƏVİSKAR** (Gəncə) – b a x **səvirgar.**

**SƏVSƏX'** (Qazax) – gic. – *Səvsəx' olma!*

**SƏVZƏ** (Bolnisi) – işsiz.

**SƏY** (Ağcabədi, Gəncə, Qazax, Şərur, Tərtər, Tovuz, İrəvan) – 1. axmaq, dəli, ağılsız. – *Səy uşax beş manat pul itirib* (İrəvan); – *Bizdərdə çoxdanışan adama deyəllər: "heç axlı yoxdu, səy kimi danışer"* (Tovuz); 2. mənasız, məzmunsuz (Ağcabədi, Tərtər). – *Səy adam dəli kimin olur;* – *Adam səy danışmaz* (Tərtər).

**SƏYAVAN** (Göyçay) – avara, işsiz, boşbikar. – *Əyə, nə səyavan gəzirsən?*

**SƏYÇƏ** (Lerik) – bardaq.

**SƏYDƏŞ** I (Ağcabədi, Göyçay, İmişli, Kürdəmir, Tərtər, Yevlax) – yersiz danışan, yersiz hərəkət edən. – *Xəlil səydəş adamdı* (Ağcabədi); – *O, çox səydəş arvaddı* (Yevlax); – *Əl çək mənnən, səydəşin biri səydəş;* – *O:n səydəş sözünnən nə ləzzət anne:rsuz?* (İmişli).

**SƏYDƏŞ** II (Çənbərək) – əyri. – *Gəvəniŋ ağzı səydəşdi; Hardan gətirifsəŋ bu səydəş çuvuğu?*

**SƏYƏLƏX'** (Qarakilsə) – ağılsız.

**SƏYƏLƏMMƏX'** (Qubadlı, Şəki, İrəvan) – gicəlmək. – *Yeriyə bilmədim, o qədə zəifləmişdim, səyələnif oturdum birəz* (Şəki); – *Niyə səyələnirsən?* (Qubadlı); – *Uşağı tut, səyələndi* (İrəvan).

**SƏYƏN** I (Bərdə) – b a x **saqan** I. – *Pirəmməd kişi yaxşı səyənnər qayrır.*

**SƏYƏN** II (Naxçıvan, Ordubad) – çini qab. – *Səyənə bozbaş tö:k* (Naxçıvan).

**SƏYƏNƏX'** (Füzuli) – xəstəlik adı (itdə). – *Aydıngilin köpəyi səyənəy oluf.*

**SƏYĞAL** (Zaqatala) – dirək. – *Qulinin əvi səyğalnan durur.*

**SƏYİLLƏMMƏX'** (Ağbaba) – b a x **səyələmməx'.** – *Əziz Vəliyə elə bir ağac çəkdi ki, o səyillənib qaldı, yerinnən qalxa bilmədi.*

**SƏYRİ** (Qazax) – paltar qurutmaq üçün ip.

**SƏYRİMƏG** (Lənkəran) – sıxılmaq. – *Buy, ürəgim yaman səyridi.*

**SƏYRİMƏX'** (Qazax, Şəmkir) – vurnuxmaq. – *Töyux səyriyir, apar fal qoy, yoxsa yazıxar* (Şəmkir); – *Bu toyuğun peşəsi səyriməx'di* (Qazax).

**SƏYRİŞMƏG** (Salyan) – təlxəklik etmək. – *Gəlim biyaz səyrişim?*

**SƏYSƏN** (Qazax) – şeytan.

**SƏYVƏND** (Gəncə, Kəlbəcər, Tovuz) – b a x **səğvət.** – *Sən nə səyvənd adamsan?* (Kəlbəcər); – *Əyə, sən nə səyvənd adamsan?* (Gəncə); – *Bu səyvənd adam imiş* (Tovuz).

**SƏYVƏNT** (Gədəbəy) – b a x **səğvət.** – *Səyvənt adamnan havax axıllı söz eşidifsiŋ?*

**SƏYVƏT** (Gədəbəy) – b a x **səğvət.**

**SƏZBARAN** (Şərur) – bərk yumurta. – *Səzbaran yumurta hələm-hələm olmur.*

**SƏZƏRMƏX'** (Çənbərək) – yorulmaq. – *Qara Musdafa bir əyax dərz gətirdi, boyl səzərdi.*

**SƏZGİL** (Basarkeçər) – kotana qoşulan ikinci cüt heyvan. – *Xoruz öküznən turaş öküzü səzgilə qoş, hambıla olmaz;* – *Səzgil yaxşı çəx'mir.*

**SIBIZ** (Ağcabədi) – budanmış, qolbudağı kəsilmiş (ağac).

**SIÇANBASAN** (Dərbənd) – qayalar arasındakı dəliklərdə yaşayan quş adı.

**SIÇANCIX** (Culfa, İmişli) – qoyunun dırnaqları arasında yara. – *Sıçancıx qoyunun əağında olor* (İmişli).

**SIÇAX** (Xocavənd) – mal xəstəliyi adı. – *Bir də qoyun sıçax götürür, bu da quraxlığ ildo:lur.*

**SIÇAXLAMAX** (Ağdam) – sıçaq xəstəliyinə tutulmaq.

**SIÇIRATMA** (Tovuz) – b a x **siçratma.** – *Sıçratma zəhərri otdan əmələ:lir.*

**SIÇRATMA** (Kürdəmir, Mingəçevir) – b a x **siçrətmə.** – *Şora sıçratma düşüb* (Kürdəmir).

**SIF** (Salyan) – ağbalığın bir növü. – *Ağ balığ, sıf balığ tafouti yoxdı.*

**SIFAHI** (Qəbələ) – b a x **sifayi.** – *Özümə sıfahı bir cüt ayaqqabı tikdirmişəm.*

**SIFAYI** (Ağdaş, Kürdəmir) – b a x **sifayi.** – *Bizim dil sifayı dildi* (Ağdaş); – *Aynaxanım sıfayı paltar tikib* (Kürdəmir).

**SIFIRT** (Gəncə) – b a x **sivirt.** – *Üş girvənkə ət aldım, sıfırt yağdı.*

**SIFQARABET: SIFQARABET ELƏMƏX′** (Gəncə) – axırıncı qəpiyinə kimi udmaq. – *Onu sıfqarabet eləmişəm, bir qəpeyi də yoxdu.*

**SIFQARMAX** (Çənbərək, Gəncə, Qazax, Şəmkir, Tovuz) – 1. b a x **sıvxarmax;** 2. süzmək. – *Yağ küpəsinin lap divini sıfqarmışam* (Qazax); – *Elə sıfqarıf ki, heş damcı da qalmıyıf* (Gəncə); – *Suyun hamısın niyə sıfqardıŋ, birəz də ma: saxlıyeydin;* – *Çümrü: torvuya töhmüşəm, qoy suyunu tamam sıfqarsın, təzə şor yə:k* (Tovuz); – *Hamısını sıfqar, tuada bir damcı da qalmasın* (Çənbərək).

**SIFQARRAMAX** (Gəncə) – axırıncı qəpiyinə kimi udmaq. – *Həsən sıfqarrıyıf yola saldı məni.*

**SIFQIN** (Şamaxı) – b a x **sıpqın.** – *Uşaxlar beş sıfqın kəsib gətirdilər.*

**SIFCIMMAX** (Şəki) – dartınıb çıxmaq. – *Camış əlimnən sıfcındı qaşdı.*

**SIĞƏC** (Lerik) – dəmir paz. – *Ağacı sığəcnən yardım.*

**SIĞILCIM: SIĞILCIM ÇƏX′DİRMƏX′** (Qazax) – əzab, əziyyət vermək. – *Sən maŋa çox sığılcım çəxdirdiŋ.*

**SIĞIR** I (Ağdam, Cəbrayıl, Göyçay, İsmayıllı, Qafan, Qax, Qarakilsə, Şuşa) – inək. – *Sığırrar eyriği batırdılar* (Göyçay); – *Həmid kişinün malı çoxsa da, hamısı sığırdi* (İsmayıllı).

**SIĞIR** II (Qax, Qarakilsə, Şəki) – naxır. – *Doğasıdı deyin, ineyi sürməmişix sığıra* (Şəki); – *Sığır gələn vədədə ona iras gəldim* (Qarakilsə); – *Sığır gedəndə duranam, hələ utumamışam* (Qax).

**SIĞIRBOĞAN** (Borçalı, Qazax) – üçyaşar camış. – *Təzə hesafda de:rix′: "Buguyə:lən", köhnə hesafda de:rdilər: "Sığırboğan"* (Borçalı).

**SIĞIRBUĞA** (Qazax) – ikiyaşar kəl.

**SIĞIRDİLİ** (Şamaxı, Zəngilan) – b a x **siğirdili.** – *Uşaxlar sığırdilin çox səvillər* (Zəngilan).

**SIĞIRİKİ** (Ağcabədi) – uşaq oyunu adı. – *Sığırikidə çilig, ağac olur, oynuyanda çili: vuran uşax de:ır: "Sığıriki, qırxiki, qırxüş, qırxdört, ... qırxdoqquz haq otuz, ver əlli".*

**SIĞIRSİDİYİ** (Qazax) – enliyarpaqlı, yeməli bitki adı. – *Sığırsidiyi heyvan üçün də yaxşıdı.*

**SIĞIRÇI** (Ağstafa, Barana, Kəlbəcər, Qax, Qazax, Şəki, Şəmkir) – naxırçı. – *Bizim kətdə bir yaxşı sığırcı var, malları vaxdında aparer, vaxdında da gətirer* (Qazax); – *Sığırçının nobata gələsi gün çatıy* (Qax); – *Sığırçının vəziyyəti çovanınkınnan yunuludu* (Şəmkir).

**SIĞIRXANA** (Borçalı, Daşkəsən, Qax, Qazax, Şəmkir, Zaqatala) – b a x **sigirxana.** – *Sığırxana kənddən qırax yerdə, ot olan yerdo:loy* (Daşkəsən); – *Sığırxanada yayqış mal saxlıyırıx* (Şəmkir).

**SIĞLADAR** (Meğri) – tərcüməçi. – *O vədələr sığladar tapbırdıx urusicə danışmaxdan ötü <ötrü>.*

**SIXALTMAX** (Gəncə) – daraltmaq. – *Mənim papağım çox gendi, bir azca sıxalt.*

**SIXGİL** (Culfa) – şadara.

**SIXMA** I (Cəbrayıl) – əl boyda qurudulmuş təzək. – *Sıxmeynan yaxşı çörəx′ salmağ olur.*

**SIXMA** II (Borçalı) – isti qadın koftası. – *Qışın savuğunda arvaddarı saxlayan ancax sıxmadı.*

**SIXMA** III (Qazax, Zaqatala) – 1. pencərdən hazırlanan xörək (Qazax). – *Pencəri sıxıf qızarderıx, ona sıxma de:rix′;* 2. qarğıdalı unundan hazırlanan xörək (Zaqatala). – *Sıxma dağıldı.*

**SIXRIX** (Balakən) – sıyrıx.

**SIXTAMAX** (Balakən, Qax, Zaqatala) – ağlamaq.

**SIXVARMAX** (Qazax) – b a x **sıvxarmax.** – *Sənəyi lap sıxvarıf.*

**SIQI** (Balakən) – vəhşi heyvan adı.

**SILDIR** I (Ordubad) – b a x **sildir.** – *Sıldırdan üçərsən.*

**SILDIR** II (Salyan) – tamamilə, büsbütün. – *İsmayılın bədəni sıldır yara töküb.*

**SILDIRIM** I (Salyan) – b a x **sıldır** II.

**SILDIRIM** II (Meğri) – böyük daş. – *Qələ daşınnan hər il üş-dört sıldırım qoper düşer dəriyə.*

**SILFANT** (Lənkəran) – balıq torunda olan qurğuşun halqa.

**SILIFLAMAX** (Çənbərək) – sulufunu təmizləmək (düyü, buğda və s.). – *Sona ğarı buğduyu sılıfladı, hədix′ bişirəjəx′.*

**SILLIC** (Lənkəran) – quş adı. – *Kolun yanınnan keçəndə birdən sıllıc pırr eliyib uşdi.*

**SIMARRAMAX** (Qazax) – b a x **ismarramax.** – *Cijimə sımarrladım kin, dağdan yağ yollasın.*

**SIMXIRMAX** (Qazax) – ağlaya-ağlaya burnunu çəkmək. – *Əy Rəsul, dədəŋ səni döyüfdümü sımxırırsaŋ?*

**SIMILMAX** (Meğri) – qısılıb gizlənmək. – *Sımıldıx daş dibinə, yağış savıldı.*

**SIMSAR** (Gədəbəy, Şəmkir) – b a x **simsar.** – *O bizdərə sımsardımı yörəsin?* (Gədəbəy); – *Qızı aparıf qoyurdu bir simsarın yanna, onnan soŋra barışırdı* (Şəmkir).

**SINAMANC: SINAMANC ELƏMƏXʹ** (Cəbrayıl) – sınamaq, yoxlamaq.

**SINÇOY** (Başkeçid) – vəhşi heyvan adı.

**SINDAL** (Çənbərək) – qabiliyyət. – *Nərimanın sındalı yoxdu, qarışıyı qayrammeyjəxʹ.*

**SINQIŋ** (Şəmkir) – qəlbi yaralı, sınıq. – *Yetimi gərəxʹ dannamıyasaŋ, çünki ürəyi sınqıŋdı.*

**SINQMAX** (Kəlbəcər) – gizlənmək.

**SIŋIR** (Ağdərə, Qafan) – 1. b a x **sıyır** (Ağdərə). – *Sıŋırım əyilif, yerimnəŋ qalxammıram* (Ağdərə); 2. b a x **sıŋır** (Qafan). – *Mənim sıŋırım ağrıyır;* – *Sıŋırıma bir yekə daş dəyif* (Qafan).

**SIŋIRMAX** (Zaqatala) – b a x **siŋirməxʹ** 1.

**SIŋIRMƏXʹ** (Gədəbəy) – 1. b a x **siŋirməxʹ** 1; 2. b a x **siŋirməxʹ** 2.

**SIŋIRSIMAX** (Şəmkir) – dayanmaq, durmaq (otladıqda). – *Keçi sıŋırsıyıf otduyurdu.*

**SINSITMAX** (Zaqatala) – b a x **sinsitməxʹ.** – *Uşağı sınsıtma!*

**SINTIRAŞ** (Meğri) – təkdırnaqlı heyvanların dırnaqlarını yonmaq üçün dəmir alət.

**SIP** (Meğri) – axar çayın qışda gətirdiyi buz parçaları. – *Ərəz bu qış elə hey sır gətirer.*

**SIPA** (Quba, Zərdab) – donuz balası.

**SIPASİDİYİ** (Ağcabədi, Şuşa) – quyruq yağında qovrulmuş ət. – *Sıpasidiyi qoyurma kimin şeydi* (Şuşa).

**SIPAYA** (Sabirabad) – sacayağı. – *Sıpayanı otın <odun> üssə qoy.*

**SIPÇIMMAĞ** (Salyan) – dartınmaq. – *Balığ sıpçındı, əlimnən çıxdı.*

**SIPIX** I (Qafan) – kök. – *Bu nə sıpıx adamdı.*

**SIPIX** II (Laçın) – gödəkboy.

**SIPIX** III (Zərdab) – arıq.

**SIPIXMAX** I (Qafan) – kökəlmək. – *Bu nə yaman sıpıxıb?*

**SIPIXMAX** II (Basarkeçər, Gəncə, Şəmkir) – b a x **sıpırıxmax.** – *Söz bura çatanda aşnam xəlvətcənə duruf sıpıxdı* (Gəncə); – *Na:mard adamın xəsi:yətidi söz verər, işə:ləndə sıpıxar* (Şəmkir).

**SIPIXMAX** III (Zərdab) – arıqlamaq.

**SIPIRIXMAX** (Ağcabədi, Cəbrayıl, Çənbərək) – aradan çıxmaq, gizlincə qaçmaq. – *Məmməd mə:rəkədən sıpırıxdı* (Ağcabədi); – *Qələndər malatıŋqada işdəməxʹ çoxdu deyn sıpırıxdı* (Çənbərək); – *Əli atasının gəldiyini eşitdi, evə sıpırıxdı* (Cəbrayıl).

**SIPIRT** (Kürdəmir, Qazax, Şəmkir) – b a x **sivirt.** – *Məhərrəmiŋ bir qoyununu kəsdik, sıpırt yağıdı* (Qazax); – *Bir kilo ət almışam, sıpırt yağdı* (Şəmkir).

**SIPIZ** (Cəbrayıl) – həyasız, abırsız, utanmaz.

**SIPQIN** (Dərbənd) – meyvə çırpmaq üçün nazik uzun ağac. – *Lap teregin təpəsində sıpqın sindi qarı.*

**SIPPIZ** I (Salyan) – lüt, çılpaq. ◊ **Sıppız qoymağ** – soymaq, talan etmək (ağac və onun meyvəsini). – *Alma ağacını uşaxlar sıppız qoydılar.* **Sıppız eləməg** – soymaq. – *Qolçomağlar kasıbları sıppız eliyirdi.*

**SIPPIZ** II (Salyan) – tamam. – *Ağajdar sıppız güldi.*

**SIPPIZZAMAĞ** (Salyan) – yoluşdurmaq, talan eləmək. – *Uşağlar ağacı elə sıppızzıyıblar ki, bi də: də fındığ qalmıyıb.*

**SIR** (Meğri) – qışda Araz çayında axan buz parçaları. – *Ərəz bu qış elə hey sır gətirer.*

**SIRA** I (Borçalı, Gədəbəy) – dəfə. – *Mən Tiflisə iki sıra getmişəm, Bəkiyə bir sıra getmişəm* (Borçalı); – *Bü:n iki sıra qonağımız oluf* (Gədəbəy).

**SIRA** II (Hamamlı) – növbə. – *Mala sırıynan gedirixʹ* (Hamamlı).

**SIRA** III (Gədəbəy, Şəki, Tovuz) – skamya. – *Uşaxlar sırado:troy* (Gədəbəy).

**SIRAÇI** (Basarkeçər) – növbə ilə camaat malını otaran. – *Bö:ün sıraçı Həsəndi, malı o otarajax.*

**SIRÇAĞ** (Qafan) – sürüşkən. – *Yağış yağanda körpinin qırağı həmişə sırçağ olur.*

**SIRDAĞ** (Dəvəçi, Lənkəran) – 1. xörək adı (Lənkəran). – *Sırdağın suyu çox olıb.* – *Sırdağın ləzəti yoxdı;* 2. yağda qovrulan soğan (Dəvəçi).

**SIRĞAGÜLİ** (Xaçmaz, Quba) – gül növü.

**SIRĞALAĞAC** (Karvansaray) – uşaq oyunu adı.

**SIRĞI** (Borçalı) – yun çubuğu. – *Sırğıynan yun çırpırıx.*

**SIRQEYİ** (Lənkəran) – gül növü.

**SIRQMİT** (Zaqatala) – kotanın təkəri.

**SIRXANA** (Qazax) – b a x **siğirxana.** – *Sırxanada inəx′, dana, comuş saxle:rıx.*

**SIRXAV** (Laçın) – 1. heç bir şeyi bəyənməyən; 2. hər şeydən iyrənən. – *Ə:, adam sırxav olmaz.*

**SIRXO:** (Göyçay, İsmayıllı) – b a x **sirxo:.** – *Riza xeyli sırxo: gəzəndi.*

**SIRXOY** (Gədəbəy) – b a x **sirxo:.** – *Sırxoy geyer paltarı çox bizim gədə.*

**SIRIĞ** (Şamaxı) – qoz çırpmaq üçün nazik, uzun ağac. – *Sırıği gət, qozi çırpağ.*

**SIRIX** (Bolnisi, Qazax) – b a x **sırığ.** ◊ **Sırıx çəhməx′** (Qarakilsə) – divan tutmaq, dağ çəkmək. – *Sən ma: bir sırıx çəhmisən ki, öləm gedəm yadımnan çıxmaz.*

**SIRILDAMAX** (Qax) – titrəmək.

**SIRIMSAX** (Qazax, Tovuz) – 1. heç bir şeyi bəyənməyən, 2. hər şeydən iyrənən.

**SIRIMSIX** (Balakən, Çənbərək, Xanlar, Qazax) – b a x **sırımsax.** – *İrvaham çox sırımsığ adamdı* (Çənbərək); – *Oğul, sənin sırımsıxlığın elə uşaxlıxdan var kı* (Xanlar).

**SIRINC: SIRINC OLMAX** (Qazax) – daraşmaq. – *Qarınça taxıla sırınc oluf.*

**SIRIŞ** (Sabirabad) – 1. südlüsıyıq. – *Səhər sırış yediyimə görə yaman susamışam;* 2. süd üzü. – *Sabah-sabah sırışnan çörəg yemişəm.*

**SIRIŞDIRMAX** (Gəncə) – salışdırmaq, birini qızışdırıb o birinin üzərinə göndərmək. – *Bu uşaxları mənim canıma nəyə sırışdırıfsan?*

**SIRIŞQIM ELƏMƏX′** (Zəngibasar) – dərmanlamaq, dərman vurmaq – *Bamadurun çiçə:ni sırışqım eli:rix′, tez qızarır.*

**SIRIŞMAX** (Gəncə) – dırmaşmaq. – *Bir də gördüm birə qılçama sırışır.*

**SIRIŞT: SIRIŞT İLƏMƏX′** (Oğuz) – zorla qəbul etdirmək. – *Sırışt iləməyə çalışır öz didiyini.*

**SI:RMAX** (Qarakilsə) – b a x **siŋirməx′** 1.

**SIRMAŞMAĞ** (Kürdəmir, Şamaxı) – bir şeydən bərk yapışmaq, qucaqlamaq. – *Nə sırmaşmısan mənə?* (Şamaxı).

**SIRNI** (Hamamlı) – ox (arabada). – *Haravanın sırnısı qırıldı, qaldım yolda;* – *Sırnıyı mazıtda haraba çırıldamasın.*

**SIRPI** (Basarkeçər) – b a x **sırnı.** – *Gəl köməx′ elə sırpıyi salax.*

**SIRPIX** (Qafan) – b a x **sıpıx.** – *Bu nə sırpıx adamdır.*

**SIR-SIŋIR** (Cəbrayıl) – topuq.

**SIRT** (Hamamlı, Qazax) – 1. ombanın başı (Qazax). – *Bə:z adamlar oturanda sırtı ağre:r* (Qazax); 2. çiyin (Hamamlı). – *Bu moşəyi götü sırtına* (Hamamlı). ◊ **Sırt atmax** (Qazax) – güləşmə zamanı rəqibi qaldırıb yerə vurmaq.

**SIRTAY** (Tovuz) – b a x **sertov.**

**SIRTARMAX** (Cəbrayıl) – həyasızlaşmaq, abırsızlaşmaq, sırtıqlaşmaq.

**SIRTMA** (Qazax) – kəmənd.

**SIRTMAX** (Basarkeçər) – sürüşmək. – *Uşağın ə:ği sırtdı, yıxıldı.*

**SIRTMALAMAX** (Qazax) – kəməndlə tutmaq. – *Bu heyvanı sırtmala.*

**SIRTOY** (Basarkeçər) – b a x **sertov.** – *Sırtoymun yaxası cırılıf, onu bir tıx′.*

**SIRTTAMAX** (Hamamlı) – dalına almaq, belinə almaq.

**SISĞAMƏTƏN** (Gəncə) – yumurtadan yenicə çıxmış (quş balası). – *Sığırçın balaları hələ sısğamətəndi.*

**SISQALAMAĞ** (İsmayıllı) – azalmaq (suya aiddir).

**SITAL** (Böyük Qarakilsə, Qazax, Tərtər, Zəngilan) – b a x **sital** 2. – *Sıtal uşaxdan zəhləm gedir* (Zəngilan); – *Sıtal adam sözə baxmaz* (Tərtər).

**SITALLAŞMAX** (Zəngilan) – tərslik etmək, sözə qulaq asmamaq. – *Yamanca sıtallaşmısan, sözə də qulağ asmırsan.*

**SITQAMAX** (Zərdab) – taleyindən şikayətlənmək.

**SIVADAX: SIVADAX OLMAX** (Bərdə) – yayılmaq. – *Sarı yara üzə çıxır, sıvadax olur.*

**SIVXARMAX** (Cəbrayıl) – tamamilə tökmək və ya boşaltmaq. – *Suyu sıvxardım.*

**SIVIR** (Basarkeçər) – iki yaşdan yuxarı erkək keçi. – *Keçinin birillixʹ balası dıvırdı, ikinci ilə keçəndə sıvır olur; – Axşam bir sıvır kəsmişdixʹ, düz qırxbeş kilo əti vardı.*

**SIYAPIR** (Əli Bayramlı) – b a x **siyapır** I.

**SIYAPIRRIĞ** (Əli Bayramlı) – utanmazlıq, həyasızlıq, sırtıqlıq. – *Axır ki, sən sıyapırrığunnan əl çəkmədün.*

**SIYATOY** (Gədəbəy) – b a x **siyatoy** II. – *Sıyatoy oğlandı, nə vejinədi düynə.*

**SIYIĞ** (Şuşa) – dayaz. – *Çayın sıyığ yerinnən keşdim.*

**SIYIR** (Ucar) – qılça. – *Sizin at bir də bizim bağa keşsə sıyırınnan vırajam.*

**SIYIRĞA** I (Qazax) – əyirilmiş ipdəki artıq tüklər. – *Qoja qarılar sıyırğa sıyırıllar.*

**SIYIRĞA** II (İmişli) – əyirilmiş ipdəki artıq tükləri təmizləmək üçün alət. – *Sıyırğeynan ərişi təmizzef hamarre:rıx.*

**SIYIRMABİÇMƏ** (Oğuz) – taxılbiçmə üsulu.

**SIYIRTMAŞ: SIYIRTMAŞ SALMA** (Basarkeçər, Gəncə) – düyünatma, düyünsalma üsulu. – *Heyvanı gürməxʹ bağla, sıyırtmaş salma; – Çatını sıyırtmaş sal açılmasın* (Gəncə); – *Malın ipini sıyırtmaş salma, boğular* (Basarkeçər).

**SIYMAĞ** (İmişli) – gizlənmək məqsədilə əyilmək. – *Kolun dalında sıyıb gözləyirdim; – Gərək quşun dalıycan gedəndə sıyasan.*

**SIYRIX** I (Hamamlı, Tovuz) – əyirilmiş ipdəki artıq tükləri təmizləmək üçün alət. – *Sıyrığnan ipin üsdünü təmizderixʹ, ipin üsdündəki artıx tüxʹləri sıyrıf tökör, ipi nazilder* (Hamamlı).

**SIYRIX** II (Balakən) – dırmıq. – *Soğan ləkini sıyrıxnan qayirmişəm; – Tükənnən bir dənə sıyrığ almışam.*

**SIYRIŋQA** (Şəmkir) – rəndə. – *Sıyrınqıynan sığallıyıllar ağacı; – Sıyrıŋqa hamıda olmaz, dülgərrərdə olar.*

**SIZANQI** (Qafan) – azacıq (yağış). – *Bu gün sızanqı bir yağış yağdı.*

**SIZDIRMAX** (Gəncə) – *məc.* – işarə etmək, eyham vurmaq. – *Sən orada bir tə:rinən sızdırsaydıŋ, mən bilərdim; – Mən bir balaca sızdırdım, o özü başa düşdü.*

**SIZĞIN** (Salyan) – narın (yağış). – *Sızğın yağışın xeyri bitkiyə çox olur.*

**SIZIXLI** (Gəncə) – naxışlı, güllü (parça). – *O sızıxlı çitdən beş arşın maŋa ver.*

**SIZQI** (Çənbərək) – yeni cücərən ot. – *Mal sızqı yeyir; – Sızqı çıxdımı, mal otdeyəjax.*

**SIZQINTI** (Mingəçevir) – azca.

**SIZQONTU** (Gəncə, Tovuz) – b a x **sızqıntı.** – *Çaya sızqontu su gəlir* (Gəncə).

**SIZMAQ** (Qazax) – qorxmaq, çəkinmək. – *Deyəsən, Həsən sənnən sızır.*

**SİB** (Dərbənd) – qarzaq. – *Quzun sibin aladig.*

**SİBƏ** I (Balakən) – çay daşqınının qarşısını almaq məqsədilə qurulan bənd. – *Briqadir cama:tı sibəyə işdəməyə apardı.*

**SİBƏ** II (Qax) – porsuq yuvası.

**SİBİL** (Balakən, Zaqatala) – 1. künc daşı; 2. künc. – *Evimizin sibili uçur* (Balakən); – *Sibilləri hamar daşnan düzəlt* (Zaqatala).

**SİBİLLƏTMƏXʹ** (Zaqatala) – evin künclərinə sibil (b a x 1-ci məna) qoydurmaq. – *Usdalara sibili sibillətdirdim.*

**SİBİNC** (Qax, Zaqatala) – sidik və ifrazat yığılmaq üçün uşaq beşiyinin altından asılmış qab. – *Sibinci təmizdə.*

**SİBİR** (Culfa, Ordubad) – üçillik erkək keçi. – *Sibirin də südü olmaz, erkəkdi* (Culfa).

**SİBİRYANNIĞ** (Salyan) – sahibsiz, boş yer. – *Qabağları bu kəndin yeri sibiryannığ olub.*

**SİBİTCƏ** (Lənkəran) – b a x **sibinc.** – *Beşigin sibitcəsi vardi.*

**SİBYƏG** (Lənkəran) – hərdənbir, arabir. – *Sibyək qızdırırdım, bı dərmanı içənnən so:ra yaxşı oldim.*

**SİCAĞ** (Salyan) – yaxşı. – *Ziyafətnən mə:m münasibətim sicağdı.*

**SİCƏR** (İmişli, Sabirabad, Salyan) – cərgə, sıra. – *İki sicər adam düzüldi yolun qırağına* (İmişli); – *Bırda pambığ sicərnən əkilib* (Salyan).

**SİCƏRRƏMƏ** (Salyan) – 1. birdən; 2. sürətlə. – *Balaş sicərrəmə getdi.*

**SİCİLLƏMƏ** (Zəngibasar) – hərbə-zorba, ultimatum. – *Ma: yekə bir sicilləmə göndərif ki, nədi-nədi mən o diyanə baxmamışam.*

**SİÇANALAN** (Quba) – qırğı. – *Siçanalan yaxşı quşdu, siçannarın kükünü kəsədü.*

**SİÇANTİŞİ** (Borçalı) – bəzək üçün taxtanın üzərində müxtəlif naxış açan alət. – *Siçantişinnən həmən o naxışdarı açerıx, hası ki, lampə üçündü.*

**SİÇRATMA** (Qazax) – heyvan xəstəliyi adı. – *Siçratma dəyən heyvan dirilməz.*

**SİÇRƏTMƏ** (Lənkəran) – xırda qurd.

**SİÇOVUL** (Dərbənd) – kərtənkələ. – *Büzdə çux uladı siçovul, adamın bəğrin çattatadu.*

**SİƏZİ** (Bakı, Quba) – kisə.

**SİF** (Lənkəran) – sıx. – *Bı parça sif toxınıb.*

**SİFAHİ** (Mingəçevir) – b a x **sifayi.**

**SİFAYİ** (Kürdəmir, Şamaxı) – gözəl, qəşəng. – *Əşrəfin bir sifayi qızı var; – Az özüvə təhto ver, onsuz da sifayisən* (Şamaxı).

**SİFAYİLƏŞDİRMƏG** (Şamaxı) – gözəlləşdirmək, qəşəngləşdirmək. – *Özüvə nə təhto verirsən, özü: sifayiləşdirirsən.*

**SİFAYİLƏŞMƏG** (Şamaxı) – gözəlləşmək, qəşəngləşmək. – *Fatmanı yolda gördüm, elə sifayiləşib ki!*

**SİFCİMMƏXʹ** (Çənbərək, Gəncə, Şəmkir) – 1. sıx oturmaq, sıxlaşmaq (Çənbərək, Şəmkir). – *A:sar, ə:nə sifcin, məndoturum* (Çənbərək); 2. *məc.* sıxılmaq, utanmaq (Gəncə). – *O qarı gənə nə sifcinir?* (Gəncə).

**SİFDƏMƏXʹ** (Şərur) – əti sümükdən ayırmaq.

**SİFİRT** (Bakı, Naxçıvan, Salyan) – b a x **sivirt.** – *Su:n üzi sifirt nö:utdi* (Bakı); – *Bazarda bi ət vardı, sifirt yağdı* (Salyan).

**SİFİT** (Şəki) – b a x **sivirt.** – *Mə:n u işdən sifit xəbərim yoxdu.*

**SİFT** (Ordubad) – zirzəmi. – *Həsən siftdədü.*

**SİGEZİ** (Bakı, Quba) – b a x **siəzi.** – *Sigezi getirmisən?* (Bakı).

**SİGƏZİ** I (Dərbənd, Tabasaran) – kəndirdən toxunmuş parça. – *Niğalay devrində canumuz sigəzi tumannan çixeydi* (Dərbənd); – *Sigəzi kəndirdən tuxunuladı* (Tabasaran).

**SİGƏZİ** II (Dərbənd) – kisə. – *Taxıli sigəziyə tükədig.*

**SİĞİRDİLİ** (Şamaxı) – arpa və ya qarğıdalı unundan bişirilən uzunsov, qalın sac çörəyi. – *Siğirdili qalindu.*

**SİĞİRXANA** (Qazax) – qaramal tövləsi. – *Mali siğirxanadan çıxar.*

**SİĞMƏĞ** (Dərbənd) – b a x **seğmağ.** – *Üzimi tükəllər çeşələ, başdiyəllər sigməğə;* – *Üzüm siğədəm.*

**SİQBİR** (Cənubi Azərbaycan) – xəlbir. – *Siqbirnən buğdanı ələyəllər.*

**SİL** I (Quba) – yulaf. – *Un put sil atim üçün almişəm.*

**SİL** II (Salyan) – balıq tutmaq üçün alət. – *Silnən balığ tutullar.*

**SİL** III (Cəbrayıl, Zərdab) – vərəm. – *Sil xəstəliyini sağaltmaq olar* (Zərdab).

**SİL** IV (Lənkəran, Salyan) – həsir toxumaq üçün ağac alət. – *Silnən həsir toxıyıllar* (Salyan).

**SİLAV** (Qax) – dik yol, yoxuş.

□ **Silav eləmәg** (Şamaxı) qarışdırmaq. – *Arpeyi, buğdeyi silav ele:r.*

**SİLBİNC** (Qax, Quba, Zaqatala) – b a x **sibinc.** – *Beşigə silbinc quyadular ki, uşağ bulaşmasun.*

**SİLBİŞ** (Füzuli) – 1. küpə; 2. külbə.

**SİLDİR** (Ordubad) – sıldırım. – *Həsən dağda sildirə düşmüşdü.*

**SİLƏ** I (Şəki) – ağac təknə (dabbağlar bunun içərisində dəri aşılayırlar). – *Dərilərin hamısını siləyə basmışam.*

**SİLƏ** II (Balakən, Cəbrayıl) – ağzına qədər dolu. – *Bir silə qab un verdim* (Cəbrayıl).

**SİLƏC** (Göyçay) – ikiüzlü, yaltaq.

**SİLƏCƏ** (Oğuz) – lobya, düyü, qoz və sairədən hazırlanan çörək adı. – *Yə:n vaxdı pusux tökürüxʹ, yağ da siləciyə.*

**SİLƏFCƏ** (Gədəbəy) – yaltaq. – *Nə siləfcə adamsıŋ, əmbə heç tayıŋ tapılmaz.*

**SİLƏFCƏLƏMƏXʹ** I (Gədəbəy) – b a x **silə:fcələməxʹ.** – *Sən nə siləfcələnersən.*

**SİLƏFCƏLƏMƏXʹ** II (Çənbərək) – təkrarlamaq. – *Dünənki məsələyi Mühəmmət hər gündə siləfcəliyir.*

**SİLƏFCƏLƏMƏXʹ** III (Çənbərək) – seçmək. – *Tamam savaxdannan qartopu silifcəliyr.*

**SİLƏ:FÇƏLƏMƏXʹ** (Qazax) – yaltaqlanmaq. – *Niyə silə:fçələrsəŋ, günahı varıydı da.*

**SİLƏMPİLƏ** (Çənbərək) – siləbəsilə. – *Tavıyı ağıznan siləmpilə doldudular.*

**SİLƏNC** (Gədəbəy) – silgi. – *Müəllim, Məmməd özi növətçidi, siləc də gətirməyif.*

**SİLƏ:Ş** (Şəmkir) – əl dəsmalı, salfet. – *Silə:şi ver, əlimin yağın silim.*

**SİLƏVAR** (Bakı) – silə, ağızbaabız doldurma.

**SİLƏVƏR** (Bakı) – b a x **siləvar.** – *Qazan siləvər dolmişdi.*

**SİLƏVSUN** (Qax) – həyasız, sırtıq.

**SİLGİ** (Ağbaba) – əl-üz dəsmalı.

**SİLGİR** (Meğri) – xırdagözlü şadara. – *Silgirnən arpa-buğda ələyıx.*

**SİLHAN** (Füzuli, Qafan) – tufan, çovğun. – *Qoyunlarımız silhana düşüb hamısı qırıldı* (Qafan); – *Axşam dəmləri silhan-zad əsirdi* (Füzuli).

**SİLHMƏ** I (Qafan, Qarakilsə, Naxçıvan, Şərur, İrəvan) – qayğanaq. – *Silhmiyə bəhməz tökəndə lap daddı olar* (Qafan); – *Silhməni pişix′ yedi* (İrəvan); – *Silhmə yumurtaynan yağdı* (Şərur).

**SİLHMƏ** II (Qarakilsə) – səlbə. – *Silhməni atdın, qaldı cəvizin başında, gəl get yendi.*

**SİLİX′MƏX′** (Qazax, Gəncə) – çırpmaq. – *Burada toz silix′məy olmaz.*

**SİLİK** (Cənubi Azərbaycan) – müəyyən şeylər asmaq üçün yəhər qayışı. – *Silik qırıldı, həyba düşdi.*

**SİLİM** (İsmayıllı) – nərdivan. – *Silimi gətir, dama çıxacam.*

**SİLİMMİŞ** (Şəki) – həyasız, utanmaz, sırtıq. – *Silimmiş adam utanmax bilməz.*

**SİLİMSƏMƏK** (Bakı, Zəngilan) – od az olduğu üçün bişməyərək quruyub qalmaq, bərkimək (qovurğa, çörək, günəbaxana aiddir). – *Qavırğa silimsiyif, mını yeməy olmur;* – *Qavırğanı yeməmisiz qalıb silimsiyib* (Zəngilan).

**SİLİMSİMƏX′** (Ordubad) – çətinliyə dözmək. – *Əli yaman silimsiyən adamdu.*

**SİLİMSOĞANI** (Ağbaba) – bitki növü.

**SİLİNSİMƏX′** (Şəki) – b a x **silimsəmək.**

**SİLİNSİMƏK** (Qəbələ, Mingəçevir, Ucar) – b a x **silimsəmək.** – *Qorğa silinsiyib, yeməli döyür* (Ucar).

**SİLİNTİ** (Qazax) – əsgi. – *Silinti çirix parçadan olar.*

**SİLİPÇƏLƏKƏN** (Salyan) – əlüzyuyan.

**SİLKƏM** (Şəmkir) – tam doldurulmayan (çuval, kisə və s.). – *Ə:, çualı niyə silkəm doldurufsaŋ?*

**SİLKİMMƏX′** (Çənbərək) – tükənmək. – *Döl yazıŋ bir a:y yedəndə silkindi;* – *Unumuz sabah silkindi, uşax ajdıx çəker.*

**SİLLO:Ş** (Şəki) – gecələr işıqverən cücü. – *Sillo:ş parilliyən cücüdü balaca.*

**SİLMƏ** (Daşkəsən) – əlağacı. – *Silməlimdə getdim inə:ı hayladım gəldim.*

**SİLMƏX′** (Şəki) – qorxmaq.

**SİLOV** (Şəki) – b a x **salab.** – *Əli qırdığı odunu daşıyıf silova yığdı.*

**SİLSİL** (Quba) – buğda növü. – *Silsil bizi yərlərdə az uladu.*

**SİLSİLƏ** I (Bakı, Quba, Naxçıvan, Salyan, Şərur) – 1. qızıl və ya gümüşdən qadın bəzəyi. – *Silsiləni vər taxım* (Bakı); – *Fatmanın başında silsilə vardı* (Naxçıvan); – *Silsilə arvaddarda olar* (Salyan); 2. bayramda ipə düzülən üçbucaqşəkilli rəngli kağızlar (Salyan). – *Uşağlar məktəbdə silsilə düzəldir* (Salyan).

**SİLSİLƏ** II (Zaqatala) – qaraçıraq.

**SİLTƏMƏX′** (Qazax) – silkələmək.

**SİLVİ** (Çənbərək, Gədəbəy, Qazax, Tovuz) – təpə, təpəlik. – *Heyvannar o silvidə otdo:rdu* (Qazax); – *Naxır silvidən ə:nə aşdı* (Çənbərək); – *Bizim yaylax o silvidədi;* – *O silviyi enənnən soŋra Ermənisdannıxdı* (Gədəbəy); – *Qavax silvidən Ceyran çölü görünür* (Tovuz).

**SİLVİJ** (İmişli) – xəsis.

**SİLVİNÇ** (Oğuz) – b a x **silbinc.** – *Keşmişdə uşağa silvinc qoyardılar.*

**SİLVİŞ** (Mingəçevir) – b a x **silbinc.**

**SİLYAN** (Meğri) – qışda əsən güclü quru yel. – *Bi silyan qazıllının damazdığın kəsəcex′.*

**SİM** I (Lənkəran) – pulcuq (balıqda). – *Balığın simin almamış pişirmisən?*

**SİM** II (Salyan) – kif, üfunət. – *Zibilxana:n simi adamı kanardan vırır.*

**SİMƏBƏND** (İsmayıllı, Quba) – samıbağı. – *Öküzün sinəbəndini vur* (İsmayıllı).

**SİMƏLƏK** (Naxçıvan) – az, azca.

**SİMGİRRƏMƏG** (Kürdəmir) – suvağın üstündən nazik suvaq çəkmək. – *Suvağın üstən simgirrə sufayı düşsün.*

**SİMİTAN** I (Gəncə, Goranboy, Lənkəran, Meğri, Təbriz) – utanmaz, həyasız, sırtıq. – *Dadaş çox simitandı* (Lənkəran); – *Nə simitan uşaxdı* (Təbriz). ◊ **Simitannığ eləməg**

(Lənkəran) – həyasızlıq, sırtıqlıq eləmək. – *Dadaş hələ də simitannığ eləyir.*

**SİMİTAN** II (Zəngilan) – xəsis.

**SİMİTANNIX** (Zəngilan) – xəsislik.

**SİMİTƏN** (Ağdam, Meğri) – b a x **simitan** I.

**SİMLƏMƏK** (Salyan) – irinləmək. – *Əlimi pıçaq kəssi, yeri su çəkdi, so:ra simlədi.*

**SİMSAR** (Cəlilabad, Gəncə, Goranboy, Göyçay, Kəlbəcər, Kürdəmir, Qazax, Qəbələ, Mingəçevir, Salyan, Şəki, Zaqatala) – qohum. – *Elə bir simsarım yoxdu ku, bərkə düşəndə əlimnən tussun* (Qazax); – *Bir simsarım yoxdu ma: köməy eləsin* (Goranboy); – *Əhmədlə Məmməd simsardılar* (Qəbələ); – *Ho bizə simsar adam döyü* (Zaqatala); – *O bizim simsardı* (Gəncə); – *Abdıl bizə simsar adamdı* (Göyçay); – *Bı məhlənin adamları hamı bir-birilə simsardı* (Kürdəmir); – *Simsar ha döy olar muna* (Gədəbəy); – *Qədir bizə simsardı* (Şəki).

**SİNAV: SİNAV GETMƏXʹ** (Cəbrayıl) – hər hansı bir şey əldə etmək və ya ona nail olmaq üçün həvəs, cəhd göstərmək, hər hansı bir şeyin dərdindən ölmək. – *O belə şeydən ötürün sinav gedir.*

**SİNC** (Şəki) – sifət. – *Habı sinçinən hara ge:rsən?* ◊ **Sinci salmağ** (Kürdəmir) – diqqət yetirmək, fikir vermək. – *Nə sinci salırsan?* **Sinci saxlamax** (Culfa) – diqqət yetirmək, fikir vermək. – *Qız uşağına kanardan sinci saxlallar, diqqət yetirəllər.*

**SİNCAV** (Şuşa) – arıq. – *Mənim də bir sincav qızım var.*

**SİNCİLƏMƏXʹ** (Qazax) – b a x **sinçələməxʹ.** – *Saf sincileyif, baxdım heş şey görmədim.*

**SİNCO** (Salyan) – iflic. – *Leyla sinco olıb.*

**SİNCO:** (Kürdəmir) – b a x **sincav.** – *Bu sinco: kimin uşağıdı?*

**SİNCOY** (Xanlar) – b a x **sincav.** – *Mərdan elə sincoydu ki, elə bil ki, ağaca paltar geyindiriflər.*

**SİNÇƏLƏMƏXʹ** (Mingəçevir) – diqqət yetirmək, fikir vermək.

**SİNÇİLƏMƏXʹ** (Çənbərək, Tovuz) – b a x **sinçələməxʹ.** – *Mişgarı sinçilədim, güjnən tanıdım* (Çənbərək); – *Nə sinçile:rsəŋ, kitabdı da* (Tovuz).

**SİND** (Zəngibasar) – yaş. – *Məhərbə <müharibə> qutaranda sindim əlli olardı.*

**SİNEG** (Quba) – hananın hissələrindən birinin adı. – *Sineg hanada işdənədü, lazım uladu.*

**SİNEYVAZ** (Ağdam, Göyçay, Kürdəmir, Mingəçevir) – qovun növü adı. – *Sineyvaz birəz sulu olur, şirnisi azdı* (Kürdəmir); – *Sineyvaz yemiş yaxşı yemişdi, irəngi göy olur* (Göyçay).

**SİNƏBAĞI** (Ordubad) – samıbağı. – *Cüt qoşanda öküzün boynuna qoyulan sinəçini bağlayan ipə sinəbağı deyərıx.*

**SİNƏCULA** (Kürdəmir) – b a x **sinəçula.** – *Sinəculalaru götür, kəlləri qoşağ.*

**SİNƏCÜ** (İsmayıllı) – b a x **sinəçi.** – *Boyunduruğa sinəcünü keçirt.*

**SİNƏÇİ** (Cəlilabad, Ordubad) – samı. – *Bizim kətdə sinəçini ağajdan qayrallar* (Ordubad).

**SİNƏÇULA** (Saatlı, Sabirabad, Salyan) – samı.

**SİNƏÇÜLƏ** (Masallı) – b a x **sinəçula.**

**SİŋƏXʹ** I (Qazax) – zəhərli (həşərat və ya bitki).

**SİŋƏXʹ** II (Qazax) – xırda bit.

**SİNƏLİK** (Ağcabədi) – kişi və ya qadın alt köynəyinin sinəsinə əlavə edilən parça.

**SİNGİL** (Qax, Zaqatala) – bacanaq.

**SİNGİR** I (Şəki) – üçüncü suvaq – *Çox möhkəm şeydi singir, nə unnan şir, naqqaş başərər, nə heç nə.*

**SİNGİR** II (Qax) – bud əti.

**SİNGSİMƏG** (Salyan) – əsmək, üşümək, titrəmək.

**SİŋİR** (Ağdam, Qazax, Şəmkir) – 1. diz; 2. qılça. – *Quşdardan hansı quşdu, siŋiri beldən uca* (Ağdam); – *Heyvanı tutuf siŋirin dəhreynən vuruf qırıflar* (Şəmkir).

**SİŋİRMƏXʹ** (Daşkəsən, Gədəbəy, Şəmkir) – 1. həzm etmək. – *Yidi:ŋi siŋiriŋnən, onnan* (soŋra) *isdə bozartma* (Gədəbəy); 2. dözmək, qəbul etmək. – *Bu qız nə de:rsə sən siŋirrisəŋ, mən dözəmmərəm* (Şəmkir).

**SİŋİRRƏMƏXʹ** (Qazax, Şəmkir) – boynundan tutub basmaq, yatırtmaq. – *Daneyi siŋirreyif basmarradı* (Qazax); – *Onda Alı uşağı tutuf siŋirrəmişdi Kürün qırağında* (Qazax).

**SİNİSAF: SİNİSAF OLMAX** (Ağdam) – sakit olmaq. – *Sinisaf olsun!*

**SİNİSAP: SİNİSAP ELƏMAX** (Zaqatala) – sakitləşdirmək. – *Uşaxları sinisap elə.*

**SİNİSAPLIX** (Zaqatala) – sakitlik. – *Burda oturax, sinisaplıxdı.*

**SİNKƏ** (Salyan) – ağ, ən keyfiyyətli (una aiddir). – *Sinkə unun çörəgi ağappağ olır.*

**SİNMƏXʹ** (Ağdam, Gədəbəy, Şəmkir, Tərtər, Tovuz) – 1. gizlənmək məqsədilə aşağı əyilmək; 2. qısılmaq. – *Dədəm gəlir, aşağı siŋ;* – *Canavar kirimiş gələr, siŋər sürünün qava:na* (Şəmkir); – *Oye:dəndə qavaxcan bərələrə siŋerixʹ, elə kin qavağımıza çıxer cü:r, əlvəsa:t çəkerıxʹ çaxmağı* (Gədəbəy); – *Ə:, aşağı siŋ, Mirzəli gəldi* (Tərtər); – *Bu, barının divinə siŋer* (Tovuz).

**SİNO:U: SİNO:U GETMƏG** (Bakı, Quba) – b a x **sinav getməxʹ.** – *Filan şeydən ötri sino:u gedir* (Bakı). ◊ **Sino:u döyməxʹ** (Ağcabədi) – yalvarmaq. – *O işləmək üçün sino:u döyür.*

**SİNSAF: SİNSAF OLMAX** (Göyçay, Mingəçevir) – sakitləşmək. – *Sinsaf oluf oturdu orda* (Göyçay).

**SİNSAR** (Cəbrayıl) – b a x **simsar.**

**SİNSİLƏ** (Göyçay, Şəki) – sünbüllü yabanı bitki. – *Sinsilə nazik, balacana buğda kimidi* (Göyçay); – *Sinsilə buğdanın içində çox bitir* (Şəki).

**SİNSİMƏG** I (Salyan) – b a x **singsiməg.** – *Nə sinsiyirsən, əgnüvə paltar giy də.*

**SİNSİMƏG** II (Cəlilabad, İmişli) – 1. zarımaq; 2. zingildəmək. – *Vırıdı iti, it sinsidi* (İmişli).

**SİNSİMƏXʹ** (Zəngibasar) – inamını itirmək.

**SİNSİTMƏXʹ** (Gədəbəy) – qorxutmaq. – *Uşağı elə sinsidif kin, yazıx göz aşmağa da qorxor.*

**SİNTAR** (Xaçmaz) – utanmaz, həyasız, sırtıq.

**SİNTARMAX** (Şəki) – sırtılmaq, sırtıqlaşmaq. – *Gö:rsən, gedə laf sintarıtdı.*

**SİNTƏLMƏK** (Göyçay, Qəbələ, Salyan, Ucar) – b a x **sintarmax.** – *Qonşu:n uşağı:n üzi lap sintərib* (Göyçay); – *Uşağ elə sintərib ki, nəqqədər disön qulağ asmır* (Salyan); – *Uşax sintərib, heç sözə baxmır* (Ucar).

**SİP** (İmişli) – sıx, qalın. – *Sip tağda nə yemiş olar?*

**SİPBƏLƏMSİLƏ** (Qazax) – siləbəsilə, ağzına kimi dolu. – *Cəm suynan sipbələmsilədi;* – *Bayda sipbələmsilədi.*

**SİPBƏSİLƏ** (Şəki) – b a x **sipbələmsilə.** – *Boşqaf sipbəsilə doludu.*

**SİPÇİMMAX** (Zaqatala) – gizlənmək. – *Havayı sipçimmə, görmişəm.*

**SİPƏ** (Lerik) – qar təpəsi.

**SİPĞİN** (Dərbənd, Tabasaran) – b a x **sıpqın.**

**SİR** (İsmayıllı) – yabanı sarımsaq. – *Sirdən yaxşı qitab bişirillər.*

☐ **Sir qalmax** (Gəncə, Mingəçevir) – məəttəl qalmaq, təəccüb qalmaq. – *Mən sir qalmışam ki, bu gədə axşamlar harda qalır* (Gəncə).

**SİRAB ETMƏK** (Yardımlı) – dağıtmaq. – *Buğdəni sirab ele:b həyətnən.*

**SİRBİNC** (Dərbənd, Quba) – b a x **sibinc.** – *Sirbinci quyadular beşigün altına, uşağın sidigi töküləddü una* (Quba); – *Ləlüni bərk tərpətmə, sirbinc dağılar.*

**SİRDAQ** (Lənkəran) – xörək adı.

**SİRƏQO:UC** (Kürdəmir) – sulu yerlərdə bitən ot növü. – *Sirəqo:uci biçib qurudurux, dam üstünü avarreyrıx.*

**SİRƏM** (Cəlilabad) – 1. sıra; 2. növbə. – *Sirəmnən gəlirdüg.*

**SİRƏN** (Laçın) – b a x **sirəm** (2-ci məna).

**SİRƏFİL** (Borçalı, Tovuz) – çardağın çatmaları.

**SİRƏCƏ** (Bakı) – xəsis.

**SİRƏCƏLİG** (Bakı) – xəsislik. – *Sən də nöşün belə Hacqara kimi sirəcəlik eliyəsən?*

**SİRGİLƏ** (Yardımlı) – yemişanın bir növü. – *Sirgilə qırmızı dey.*

**SİRHAPAPAĞ** (Tabasaran) – uzuntüklü, saçaqlı papaq. – *Şə:bənü papağı hiç, unun sulpapağı sirhapapağa uxşayadu.*

**SİRXİŞ** (Ordubad) – dərman bitkilərindən birinin toxumunun adı. – *Xəstəyə sirxiş ver.*

**SİRXO:** (Şəki) – təmiz və səliqəli geyinən. – *Abidə həmişə sirxo: gəzir.*

**SİRXOV** (Ağdam) – hər şeydən iyrənən.

**SİRXOY** (Kəlbəcər) – b a x **sirxov.** – *O, yaman sirxoydu.*

**SİRİ** (Naxçıvan) – çarıqda bağ keçirilən dəlik.

**SİRİF** (Çənbərək) – qənaət. – *Xedi hər şeyi sirifnən işdədir.*

**Sİ:RİM** (Culfa, Meğri, Ordubad) – 1. çarıq tikmək və ya onu təmir etmək üçün göndən kəsilən nazik, uzun hissə; 2. çarıq bağı keçirilən deşiklər. – *Si:rim gönnən olar* (Ordubad); – *Çarığı si:rimnən tikdim* (Culfa).

**SİRİMLİ** (Qarakilsə) – köhnə.

**SİRİNSƏMƏG** I (Salyan) – üzə salıb dayanmaq, gözləmək. – *Qapının ağzında sirinsəyib, əl çəkməz ki?;* – *Nə sirinsəyib durmısan bırda?*

**SİRİNSƏMƏG** II (Salyan) – b a x **silimsəmək.** – *Qorğa sirinsiyib.*

**SİRİNSİMAĞ** (Xaçmaz) – b a x **silimsəmək.**

**SİRİNSİMEG** I (Bakı) – b a x **sirinsiməg.** – *Ada, qouram getmir, lap sirinsiyib bu uşağ.*

**SİRİNSİMEG** II (Bakı) – iyrənmək. – *Naxoşun yarası elə pisdü ki, adam baxanda sirinsi:r.*

**SİRİNSİMƏG** (Cəlilabad) – b a x **silimsəmək.**

**SİRİNSİMƏK** (Kürdəmir) – *məc.* sırtılmaq, üzü bərkimək. – *Qıza söz batmır, elə bil sirinsiyib.*

**SİRKAN** (Cəbrayıl, Dərbənd, Göyçay, Kürdəmir, Oğuz, Zəngilan) – 1. alaq otu (Göyçay, Kürdəmir, Oğuz). – *Sirkanı bir uzunqulax ye:ır* (Oğuz); – *Ajı alax, sirkan muna deyirik* (Göyçay); – *Sirkan mə:sulu aparır, birdan ta: mə:sul olmaz* (Kürdəmir); 2. tikanlı ot növü (Dərbənd). – *Sirkanın tikanları uzun uladu, adamun əlinə batadu;* 3. xırda yarpaqlı duzlutəhər yeməli bitki adı (Cəbrayıl, Zəngilan). – *Sirkannan yaman yaxşı xitəb olur* (Zəngilan); – *Akif sirkannan xitəb pişirtdi* (Cəbrayıl).

**SİRKANNIX** (Göyçay) – çoxlu sirkan bitən yer.

**SİRKANTƏRƏ** (Ağsu) – yeməli yabanı bitki adı. – *Bossanımızza çoxlı sirkantərə bitip.*

**SİRKEYİ** (Bakı) – üzüm növü adı.

**SİRKƏ** (Qazax) – ayaqda əmələ gələn gicişən sulu yara.

**SİRKƏN** (Çənbərək, Qazax, Mingəçevir) – b a x **sirkan** (1-ci məna). – *Şalvarımı sirkən dutdu;* – *Ot olmuyanda mal sirkəni də yiyər* (Qazax).

**SİRKƏNÇƏK** (Göyçay) – üstünə tut silkələmək üçün hazırlanan böyük, qalın parça.

**SİRKƏŞİRƏ** (Salyan) – sirkə, qənd və sudan hazırlanan şərbət.

**SİRKOY** (Dərbənd) – zökəm. – *İki-üç gündü ho: sirkoy ulub, bayra çixmiyədi.*

**SİRSİR** (Dərbənd) – arıq (ən çox heyvana aid edilir). – *Qurban quyin saxlayadu, yazbaşı uni malları həmi sirsir uladu.*

**SİRT** (Ağdam, Xaçmaz, Qax, Quba, Oğuz, Şəki, Zaqatala) – 1. zirvə (Qax, Oğuz). – *Dağın sirtində bir dənə qoyun otdıyır* (Şəki); 2. təpə (Xaçmaz, Qax, Quba, Şəki, Zaqatala); 3. yoxuş (Ağdam, Xaçmaz, Quba, Zaqatala); 4. hər hansı bir şeyin baş və ya hündür uca hissəsi (Oğuz, Şəki). – *Öyün sirt qocu sınıfdı* (Şəki); – *Qazmaların sirtiynən sən qalx, mən də suzqa suyu kəsiciyəm* (Oğuz).

**SİRTİGAN** (Salyan) – b a x **sirkan** 2. – *Sirtiğannarı palteynən qırmağ lazımdı.*

**SİRTİKAN** (Ağdam) – b a x **sirkan** 2.

**SİRTOF** (Goranboy) – b a x **sertov.**

**SİRTOV** (Ağdam, Laçın, Mingəçevir) – b a x **sertov.** – *Bu gün özümə sirtov aldım* (Ağdam).

**SİRTO:U** (Tərtər) – b a x **sertov.**

**SİRTOY** (Tovuz) – b a x **sertov.**

**SİRVAN** (Quba) – eyvan. – *Bizim sirvanda iki adam durmışdı.*

**SİRZƏ** (Cəbrayıl) – bitki adı. – *Qoyun sirzəni yaxşı yeyir.*

**SİSAR** (İsmayıllı) – toyuq cinsi. – *Bu yumurta sisar yumırtasidi, başqa yumırtalar buni sındıra bilməz.*

**SİSƏG** (Lənkəran) – pis iyli həşərat növü. – *Sisəgi öldürmə, iy verər.*

**SİSİY** (Zaqatala) – əsgidən düzəldilən kukla.

**SİTAL** (Ağdam, Ağdaş, Borçalı, Cəlilabad, Əli Bayramlı, İsmayıllı, Kürdəmir, Qafan, Qax, Quba, Masallı, Mingəçevir, Şəmkir, Şuşa, Tovuz) – 1. nadinc, dəcəl (İsmayıllı, Şəki). – *Çox sital uşaxdı, təx' qoysan a:ləmi bir-birinə qatar* (Şəki); – *Do:rusı, mən belə*

*sital adam görməmişəm* (Şuşa); 2. höcət, tərs, sözə baxmayan (Ağdam, Ağdaş, İsmayıllı, Qafan, Quba, Şəmkir, Şuşa, Tovuz). – *Bu uşağ elə sitaldu ki, hiç ulmiyən kimi* (Quba); – *Atasının, qardaşının sözünə baxmıyan adam sital adamdı* (Borçalı); – *Elə sital adama söz deməyin faydası yoxdu* (Kürdəmir); 3. həyasız, utanmaz, sırtıq (Cəlilabad, Əli Bayramlı, Qax, Masallı); 4. paxıl (Mingəçevir); 5. tənbəl (Borçalı).

**SİTALLIX** (Qəbələ, Şuşa, Tovuz) – 1. tərslik. – *Oqtayın sitallıxda tayı yoxdu, nə dedi gərəx′ o ola* (Tovuz); 2. nadinclik; 3. həyasızlıq, sırtıqlıq. – *Əhməd sitallıxnan iş görür* (Qəbələ). ◊ **Sitallıx eləməx′** (Əli Bayramlı, Şuşa) – 1. tərslik etmək; 2. sırtıqlıq etmək. – *Amma çox sitallığ eyliyirsən ha!* (Şuşa); – *Sitallıq etmək əsl adama yaraşan şey deyil* (Əli Bayramlı).

**SİTAR** I (Çənbərək) – qüvvə, güc. – *Büyün Aşır Özvər oğarda işdədi kin, qolunda sitar qalmadı.*

**SİTAR** II (Şərur) – paltar.

**SİTƏNCƏX′** (Qax) – zarafatçı, zarafatcıl.

**SİTƏZƏ** (Tərtər) – həyasız, utanmaz, sırtıq. – *Sitəzə adam hayasız danışar.*

**SİTİLCƏMLİX′** (Göyçay) – həyasızlıq, sırtıqlıq. – *Diyən sitilcəmlix′dən əl çəkmiyəssən.*

**SİTİLDƏMƏK** (Şamaxı, Şuşa, Yevlax) – soyuqdan əsmək. – *Nə yaman sitildəyirsən* (Yevlax).

**SİTİLLƏMƏX′** (Şəki) – b a x **sitildəməg.** – *Laf sitillirsən, puça yaxın otur.*

**SİTİLTİ** (Gəncə) – 1. inilti. – *Gejə gördüm bir sitilti gəlir, gedif, baxanda gö:rəm gədə azarranıf, otun üsdə yıxılıf;* 2. titrəmə.

**SİTİ:ZƏ** (Şamaxı) – b a x **sitəzə.**

**SİTİ:ZƏLƏŞMƏG** (Şamaxı) – həyasızlaşmaq, sırtıqlaşmaq.

**SİTMƏX′** (Qafan, Qazax) – soyuqdan əsmək, titrəmək. – *Genə qış gəlməmiş nə tez sitirsən?* (Qafan).

**SİV** I (Cəlilabad) – balta sapının əyri hissəsində çıxıntı. – *Baltanın dik yerü oley, özi də əgri olan yerü, biz ona deyüg siv.*

**SİV** II (Masallı) – künc.

**SİVƏ** I (Şuşa) – qığırdaq.

**SİVƏ** II (Borçalı, Bolnisi) – astana.

**SİVƏX′** (Gədəbəy) – qapı tayını çərçivənin alt və üst tərəflərinə bənd edən çıxıntı. – *Sivəx′ qapının çərçivəsinə vuruloy.*

**SİVİNC** (Balakən, Gəncə, Qax, Şəki, Zaqatala) – b a x **sibinc.** – *Uşağın sivinci dağıldı* (Zaqatala); – *Sivinci təmizlə* (Gəncə)

**SİVİRİX′** (Naxçıvan) – sırtıq.

**SİVİRQUYRUĞU** (Ağbaba) – yabanı bitki adı.

**SİVİRSAL** (Cəbrayıl, Zəngilan) – körpə göy lobya. – *Nənəm mənə sivirsal bişirib* (Zəngilan).

**SİVİRT** (Bərdə, Cəbrayıl, Zəngilan) – büsbütün, tamam, xalis. – *Ət sivirt yağdı* (Bərdə); – *Ət almışdım, svirt yağdı* (Zəngilan); – *Qoyun kəsmişdix′, sivirt yağ oldu* (Cəbrayıl).

**SİVİRTDƏMƏX′** (Qarakilsə) – təmizləmək, ayırmaq. – *Ətin tamam sivirtdiyip sümüyün ma: verirsən.*

**SİVİŞ** (Gəncə) – b a x **sibinc.** – *Bazardan bir siviş al.*

**SİVİŞMƏX′** (Qafan) – bir bəhanə ilə aradan çıxmaq, əkilmək. – *Həsən övdən sivişib qaçdı.*

**SİVRİLMİŞ** (Laçın) – sırtıq, həyasız, abırsız. – *Sivrilmişin biridi, onnan danışma.*

**SİY: SİYDƏN DÜŞMƏG** (Salyan) – hörmətdən düşmək. – *Hafis yap siydən düşüp, heç kim sözünə baxmır.*

**SİYAFIR** (Bakı) – üzüm növü.

**SİYAFUR** (Bakı, Quba) – b a x **siyapır** (1-ci məna). – *O nə siyafur adamdu* (Bakı).

**SİYAL** (Şamaxı) – xırda daş parçası.

**SİYALA: SİYALA VURMAĞ** (Quba, Tabasaran) – yel vurmaq (taxıl, meyvə, tərəvəz və sairəni). – *Bustanun tağları siyala vurutdu, yanub kititdü* (Tabasaran).

**SİYAN** (Kürdəmir) – genişağızlı mis qab. – *İndi siyan az işdənir.*

**SİYAPIR** (Cəlilabad, Göyçay, Salyan, Şamaxı) – 1. həyasız; 2. *məc.* qorxulu (Cəlilabad). – *Nə siyapır uşağdı bı, adə?* (Salyan); – *Mösi siyapır adamdı, it kimi sülənəy;* – *Çərtgə çox siyapır cücidi, arpa-bığdanın dədəsin yandırey* (Cəlilabad).

**SİYAPUR** (Bakı, Xaçmaz, Quba, Qusar) – b a x **siyapır** 1. – *Bu uşağ çox siyapur işağdu a:* (Bakı); – *Çux siyapur uşağdu* (Quba).

**SİYATAY** (Tovuz) – tək, yalqız. – *O, siyatay idi, özündən başqa heç kimi yox idi.*

**SİYATO:** (Mingəçevir, Oğuz) – 1. birrəng, saya (parça və s.) (Mingəçevir, Oğuz). – *Qabaxlar düzəldirdilər siyato:, bü:n de:r huna bir bəzəx′ də vur* (Oğuz); 2. düz (Mingəçevir).

**SİYATOY** I (Qazax, Şəmkir) – əliboş, yaraqsız. – *Yola siyatoy getməy yaxşı döyü* (Qazax); – *Dalaşanda siyatoyudu əlim, yoxsa vuruf başın yarardım onun* (Şəmkir); – *Orda iki adam gördüm, biri yüx′lü, o biri siyatoy gəlirdi.*

**SİYATOY** II (Gədəbəy, Şəmkir) – subay. – *Siyatoy oğlandı, nə vejinədi düynə* (Gədəbəy); – *Siyatoy oğlandı, onun nə dərdi var* (Şəmkir).

**SİYAV** (Füzuli) – ikitəkərli araba.

**SİYƏG** (Cəlilabad) – 4 kq.

**SİYƏZƏN** (Şahbuz) – b a x **siəzi.** – *Dünən tükannan bir siyəzən un aldım.*

**SİYƏZİ** (Cəlilabad, İmişli, Kürdəmir, Lənkəran, Masallı, Sabirabad, Salyan, Şamaxı) – b a x **siəzi.** – *Siyəzilərə taxıl doldurduğ* (İmişli); – *O siyəzini buryə:tir;* – *Siyəzi yırtılub* (Şamaxı); – *Siyəzini taxılnan doldır* (Sabirabad).

**SİYİDİX′: SİYİDİX′ VURMAX** (Qarakilsə) – soyuqdan titrəmək.

**SİYİLCİM** (Qazax) – 1. arıq; 2. zəif. ◊ **Siyilcimə dömməx′** – çöpə dönmək. – *Uşax elə xaraf oluf ki, illaf siyilcimə dönüf.*

**SİYİNSƏMƏG** (Bakı) – sırtıqlaşmaq. – *Lap siyinsiyib a:, nə di:rsən qulağna girmir.*

**SİYİRQUYRUĞU** (Basarkeçər) – b a x **sivirquyruğu.** – *Bö:ün birəz siyirquyruğu yığ, gedəx′ balıx tutmağa.*

**SİYİRMA** (Göyçay) – göy lobyadan hazırlanan xörək. – *Bu gün biz siyirma bişirmişdig.*

**SİYİRTMƏ** (Mingəçevir) – taxılbiçmə üsulu.

**SİYİTMƏX′** (Çənbərək, Meğri) – üşümək. – *Qış gələndə siyideyix′, yay da gələndə qızeyix′* (Meğri); – *İsmeil sırahaynnarı Qırasnınıŋ arasında siyidirdi, görən nejoldu?* (Çənbərək).

**SİZQƏ** (Xaçmaz) – az (suya aiddir).

**SO:** I (Bakı, İsmayıllı, Quba, Şamaxı) – nəsil, övlad. – *Cəmaləddinün iki uşağı vardı, ikisi də üldi, hindi so: dərdi çəkədü* (Quba).

**SO:** II (Kürdəmir) – çalınmış ot cərgələri, layları. – *So:ların on-onbeşini yığın qotman eliyürük.*

**SOADAX** (Gədəbəy) – büsbütün, tamam, tamamilə. – *Bu məhlə soadax daşdı.*

**SO:ÇA** (Ağsu, Bakı, Göyçay, Kürdəmir, Qazıməmməd, Quba, Zərdab) – bardaq. – *So:çadan sərin su gət içim* (Ağsu); – *Ay qız, bir so:ça su gəti* (Zərdab); – *Keçmişdə daş olmayanda suyu so:çada saxleyırduğ* (Kürdəmir).

**SODU** (Əli Bayramlı, Salyan) – yumruq. – *Böyrünnən elə bir sodu vurdum ki, ağzını bir dəfə aşdı.*

**SOFİ** (Saatlı, Salyan) – *məc.* vasvası. – *Mə:m yoldaşım sofi adamdı* (Salyan).

**SOFQA** (Cəlilabad) – səngər. – *Davada bizi sofqada yuxi apareydi.*

**SOFSOFİ** (Salyan) – vasvası. – *Qoşımız yaman sofsofidi.*

**SOFU** (Ağcabədi, Borçalı) – b a x **sofi.** – *Sofu adamnan yaşamax çox çətindi.*

**SOĞACAX** (Basarkeçər, Tovuz) – b a x **savajax.** – *Get soğacağı bağla də:rmanı işdədəx′* (Basarkeçər); – *Də:rmani işlətməy üçün, yatırmağ üçün olan su qapısına soğacax de:rix′* (Tovuz).

**SOĞAX** (Qazax) – dəyirmana su buraxılan yer. – *Taxtanı soğağıŋ ağzına qoy.*

**SOĞANÇA** (Bərdə, Borçalı, Çənbərək, Daşkəsən, Xanlar, Qazax, Tərtər, Tovuz) – 1. xörək adı (soğan, yağ, su, kartof və quru çörəkdən hazırlanır) (Bərdə, Borçalı, Daşkəsən, Qazax, Tərtər, Tovuz). – *Soğança soğannan yağdan olor* (Borçalı); – *Soğançanı əkinçilər sövir* (Qazax); – *Soğançeyi yedim usdadım* (Daşkəsən); 2. yağda qovrulmuş soğan (Çənbərək, Xanlar). – *İsdidə soğança ver uşax yesiŋ, yola çıxsın* (Çənbərək); – *Soğançanı ərişdədə də işdədirix′, qaşıx xingəlində də işdədirix′* (Xanlar).

**SOĞANSU** (Cəlilabad, Füzuli, Şamaxı) – xörək adı.

**SOĞANSUYİ** (Cəbrayıl, Gəncə) – b a x **soğansu.** – *Soğansuyini mən çox sevirəm* (Cəbrayıl).

**SOĞMAX** I (Basarkeçər, Başkeçid, Borçalı, Qazax, Şəmkir) – suyun qabağını kəsmək. – *Də:rmanın suyunu taxtaynan soğdux*

(Basarkeçər); – *Suyu soğdum* (Borçalı); – *Dəyirmançı, suyu soğut* (Qazax); – *Də:rmənin suyu soğuluf* (Şəmkir).

**SOĞMAX** II (Basarkeçər, Hamamlı, Qazax) – hamısını içmək, içib qurtarmaq. – *Gədə iskanın suyun içif soğdu* (Basarkeçər).

**SOĞMAX** III (Başkeçid, Borçalı) – udmaq, qalib gəlmək. – *Nərddə mən Əhmədi soğdum* (Borçalı).

**SOĞULMAX** (Basarkeçər, Borçalı) – 1. kəsilmək. – *Də:rmanın suyu soğuldu* (Basarkeçər); 2. qurumaq (suya aiddir). – *Mən səni bir el bilerəm, soğulmamış göl bilerəm* (Borçalı).

**SOĞULTMAX** (Basarkeçər) – qorxutmaq, gözünün odunu almaq. – *Nərddə onun gözünü soğultdum.*

**SOQA** I (Bakı) – dalğa.

**SOQA** II (Zaqatala) – çürüməkdə olan palıd ağacının üstündə bitən göbələk adı. – *Soqanı alışdırıb gətir.*

**SOQQA** (Şamaxı) – meşədə öz-özünə yıxılmış yoğun ağac. – *Qasım bir araba soqqa odun gətirdi.*

**SOQQAR** (Naxçıvan) – şimal-qərb. – *Soqqardan yel gəlir.*

**SOQQULUTMA** (Şamaxı) – çırçırpı. – *Soqqulutmani ocağa qoy.*

**SOQQUR** (Zaqatala) – arıq (at). – *Nə soqqur atın var?* ◊ **Soqquri çıxmağ** (Bakı) – çox arıqlamaq, sümükləri görünmək.

**SOQO** (Qax) – göbələk.

**SOL** (Lənkəran) – xırda, körpə balıq. – *Çayda çox sol var.*

**SOLBALASI** (Salyan) – xırda, körpə balıq. – *Bizim arx solbalasıynan dolıdı.*

**SOLÇA** (Bakı) – mis vedrə.

**SOLĞA** (Borçalı) – dəfə. – *Bir solğada əlli qoyun qırxırdı.*

**SOLĞUC** (Kürdəmir) – dəhrənin sapa keçirilən şiş hissəsi. – *Solğuc güdək dəhrə sapında durmur.*

**SOLĞUNC** (Cəbrayıl) – dəhrənin sapda möhkəm qalması üçün ona keçirilən dəmir halqa. – *Dəhrənin solğuncu laxlıyır.*

**SOLĞUŞDAMAX** (Zəngilan) – bir azca qurumaq, suyu çəkilmək. – *Qoy burmalar birəz solğuşdasın, so:ra süpürgələri bağla, yoxsa qırılar.*

**SOLƏKAFTİ** (Lənkəran) – quş adı. – *Soləkafti bırda çox oley.*

**SOLİ** I (Zaqatala) – araba təkərlərinin hissələrindən birinin adı.

**SOLİ** II (Salyan) – b a x **sol.** – *Soli bö:giyir, so:ra balığ olır.*

**SOLXUNNAMAX** (Cəbrayıl) – məsləhətləşmək.

**SOLXUNCU** I (Naxçıvan) – araqarışdıran.

**SOLXUNCU** II (Naxçıvan) – oğru.

**SOLUX** (Qazax) – nəfəs; birbaşa. – *Bu dağın başına bir soluğa çıxerdım, indi da qojalmışam.* ◊ **Soluğ almax** (Ağbaba) – nəfəs almaq, dincəlmək. – *Qardaşım, qoy bir az soluğ alım.* **Solux dərməxʹ** (Goranboy, Qazax) – nəfəs dərmək, dincəlmək. – *Dayan bir soluğumu dərim* (Goranboy); – *Yorulmuşam, qoy bir soluğumu dərem* (Qazax).

**SOMAXI** (Gədəbəy) – kobud, danışığını bilməyən. – *Somaxı adamnan uzax gəz kin, dili səni çalmasın;* – *Çox somaxı gədədi, dindirəni peşman ele:r.*

**SOMARA** (Qazax) – çubuqdan toxunmuş xərək.

**SO:MƏCƏ** (Şamaxı) – daxma.

**SOMİYƏ** (Sabirabad) – daxma.

**SOMMAĞ** (Şamaxı) – hücum etmək, üzərinə cummaq. – *Birdən it üssünə somdi.*

**SOMRUX** (Qazax) – şirəli çiçək növü. – *Somruğ ətirri çiçəxʹdi.*

**SOMU** I (Başkeçid, Bolnisi, Borçalı, Qazax) – kömbə. – *Anam somu alıf;* – *Hökümət satana somu deyirixʹ* (Borçalı).

**SOMU** II (Zəngibasar) – peç, soba. – *Qış gəlir, somuyuz varmı?*

**SOMUTMAX** (Çənbərək, Qazax, Şəmkir, Tovuz) – büzüşüb dayanmaq, boynunu büküb durmaq. – *Yolun qırağında niyə somudorsaŋ?* (Qazax); – *Amanoy Nəsif yamanca somudurdu* (Çənbərək); – *Gənə hasarın divində nə somudursaŋ, saŋa dedilər qız razı döy dana?* (Tovuz); – *Bu sö:ğun ağzında nə somudursaŋ?* (Şəmkir).

**SOMYA** (Ağcabədi, Ağdaş, Ağdərə, Füzuli, Qarakilsə) – b a x **somiyə.** – *Bu kətdə somya yoxdu* (Ağcabədi); – *Somyada bir kişi oturuf* (Ağdərə); – *Gördü şəhərə girən yerdə bir somya var, girdi somyanın içinə* (Qarakilsə); – *Gəlir hərrənir, görür bir somya var* (Füzuli).

**SONALAMAX** (Bakı, Barana, Bərdə, Kəlbəcər, Mingəçevir, Şəmkir, Şəki) – seçmək, yaxşısını axtarmaq. – *Adam hər şeyi sonalamaz* (Bərdə); – *Bizim Pəri heç sonalamır ki, görəsən gələni kimdir* (Barana); – *Çox sonaliyən nə <ya> kora ras gələr, nə <ya> keçala* (Şəki).

**SONQULAMAX** (Meğri) – diqqət yetirmək, fikir vermək. – *Adam olan gərəx′ tutduğu işin dal-qabağın heç olmasa sonqulasın* (Meğri).

**SONULAMAX** (Qazax) – b a x **sonalamax.** – *Burda sonulmax olmaz.*

**SORAFEYİŞ** (Goranboy) – zənbil.

**SORAN** (Gədəbəy) – meşə cığırı. – *Soran olmadan düynəsində bu kolluxdan ağaş çıxartmağ olmaz.*

**SORAŞIX: SORAŞIX ELƏMƏX′** (Ağdaş, Kəlbəcər) – soraqlaşmaq, soraq eləmək. – *İnəyimiz itəndə soraşıx elədim tappadım* (Ağdam); – *Dur get, orda soraşıx elə* (Kəlbəcər).

**SORĞUNNAŞMAX** (Füzuli) – soraqlaşmaq, soraq eləmək. – *Biz də bir-birimizə sorğunnaşdıx ki, bu nə işdi?*

**SORMUX** (Qazax) – yabanı bitki adı. – *Sormux dağda pitər, çiçəyi şirin olar, uşaxlar onu soror, onçu sormux de:llər.*

**SORSOR** I (Ucar) – b a x **soysur.** – *İmran çox sorsor uşaxdı, adama youşmur.*

**SORSOR** II (Göyçay) – uzunçu, uzun-uzadı danışan.

**SORSÖK** (Ağdam) – tikanlı bitki adı.

**SORTAV** (Cəbrayıl) – b a x **sertov.**

**SORTUX** (Cəbrayıl, Qubadlı, Şahbuz, Şərur, Zərdab) – b a x **sertov.** – *Bizim yerrərdə yayda sortux geyilməz* (Qubadlı); – *Böyün də xatalı kimi sortuğumu geymədim, üşüyürəm* (Şahbuz).

**SORTUXLAMAX** (Cəbrayıl, Qazax, Qarakilsə) – əmmək. ◊ **Sortux vurmax** (Yevlax) – əmmək.

**SORTUXLUX** (Culfa) – pencəklik, paltarlıq (parça). – *Ge:rəm tükannan sortuxlux parça alam.*

**SOS** (Astara, Lənkəran) – çil.

**SOSUR** (Ağcabədi, Basarkeçər, Cəbrayıl, Naxçıvan, Ucar) – b a x **sosur** (Cəbrayıl, Ucar); 2. qaşqabaqlı, qaraqabaq (Basarkeçər, Qarakilsə, Naxçıvan); 3. tərs, sözə baxmayan (Naxçıvan); 4. paxıl (Naxçıvan); 5. saman altdan su yeridən (Ağcabədi). – *Nə sosur adamsaŋ ə:, sən heş bir üzüŋ gülmür* (Basarkeçər); – *Sosur adamın dili qarnında olur* (Qarakilsə); – *Sosur adam mənim xoşuma gəlmir* (Ucar).

**SOSURT** (Şamaxı) – b a x **soysur.** – *Əmioğli sosurtdi.*

**SO:UDMƏY** (Cəlilabad) – söndürmək. – *Mantor işığı so:udey.*

**SO:ULMAX** (Bərdə, Cəlilabad) – qurtarmaq. – *Pambux so:uluf qutarannan so:ra yeri şumluyurux* (Bərdə); – *Hər ağajdə bi:-ki dənə şey qaley, o da hündürdədi, əl çatan döy, axi, hindi gejdi, meyva so:ulib* (Cəlilabad).

**SO:UMAX** (Bərdə) – b a x **so:ulmax.** – *Əli bağdan gilası so:udu.*

**SO:UMU** (Gədəbəy) – b a x **somu.** – *Əarvad, so:umu pişir, fətir çiynəməx′dən çiş də qalmadı da: bizdə.*

**SO:URĞA** (Boçalı) – yağış suyunun yığıldığı yer. – *So:urğadan apardım malı suladım.*

**SOURUX** I (Ağcabədi, Ağdam, Bərdə, Borçalı, Cəbrayıl, Füzuli, Goranboy, İmişli, Şuşa, Yevlax) – 1. b a x **savrıx.** – *Döşəyin souruğu laf əldən düşüb, gərəx′ onu təzələyim* (Cəbrayıl); – *Souruğu ağdan qayrıf, döşəyin üzünə verillər* (Ağdam); 2. balışüzü (Borçalı, Cəbrayıl); 3. yorğanüzü (Cəbrayıl).

**SOURUX** II (Qazax) – sovurma. – *İndi sourux vaxdıdı, soŋra yel kəsiləjəx′.*

**SO:URUX: SO:URUX ATMAX** (Mingəçevir) – taxılı sovurmaq.

**SOUTĞAMAĞ** (Salyan) – narahat olmaq. – *Ö:ladın bi şeyi əksik olanda atadan çox ana soutğıyır.*

**SO:UTQAMAX** (Daşkəsən, Cəlilabad) – 1. həvəsdən düşmək; 2. incimək. – *Siz bizi tənqid eliyəndə heç biz so:utğameydüy* (Cəlilabad).

**SOV** I (Şamaxı) – b a x **so:.** II. – *Uşağ ot sovlarının arasınnan çiyələy dərdi.*

**SOV** II (Şərur) – bülöv.

**SOVA** (Meğri) – b a x **sava.**

**SOVACAX** (Basarkeçər) – b a x **savajax.** – *Sal sovacağı uçuruf.*

**SOVITĞƏMƏĞ** (Lerik) – təəssüflənmək.

**SOVLAMAX** (Ağdərə, Bərdə, Tərtər) – b a x **savlamax.** – *Ülgücü sovla, yaxşı olsun* (Tərtər).

**SOVRU** (Cəbrayıl) – b a x **savrıx.**

**SOVRUX** (Cəbrayıl, Şərur) – b a x **savrıx.**

**SOVULĞAR** (Şamaxı) – tənbəl (adam). – *Nə sovulğarsan!*

**SOV VERMƏĞ** (Lerik) – itiləmək.

**SOYĞAR** (Çənbərək) – tənbəl. – *Qaqaş soyğar adamdı.*

**SOYĞUNTU** (Qazax) – aravuran. – *Sən çox soyuğuntu adamsaŋ.*

**SOYLAMAX** I (Gədəbəy) – b a x **savlamax.** – *Soylo:fsuŋmu gərki:, ay dayı.*

**SOYLAMAX** II (Meğri) – gizlincə baxmaq. – *Əzzəl soyladıla, so:ra girdilə içəri.*

**SOYSUR** (Gədəbəy) – soyuqqanlı. – *Saf soysur adammış İrəsil, qılıxnan-zadnan yoxdu işi;* – *Soysurun biridi, nə de:səŋ ona.*

**SOYUXAZAR** (Naxçıvan) – xəstəlik adı. – *O soyuxazar həylə ordan da öldürərdi.*

**SOYULMAX** (Tovuz) – qurtarmaq. – *Tut-tar ta: soylor, başdarında bir-iki kişmişdən savayı heç şey yoxdu.*

**SOZALMAX** (Gəncə, Lənkəran, Mingəçevir, Şəmkir) – zəifləmək, bihal olmaq, halsızlaşmaq, xəstələnmək. – *Xoruz gənə sozalır, azarranıf* (Gəncə); – *Niyə sozalırsaŋ?* (Şəmkir).

**SOZANIMƏY** (Cəlilabad) – 1. kefi pozulmaq; 2. xəstələnmək. – *Yayda sozanıdı.*

**SOZU** (Ağdam, Qazax) – yabanı bitki adı. – *Sozu ormanda olur* (Qazax).

**SÖX'MƏX'** (İmişli) – *əymək.*

**SÖLPÜMƏX'** (Gədəbəy) – solmaq, saralmaq (yarpağa aiddir). – *Cənnət almasının yarpaxları sörpüyüf.*

**SÖSƏLƏY** (Şamaxı) – tələskən. – *Sösələy adamı mən hələ belə gördüm.*

**SÖT** (Çənbərək) – əyri, düz olmayan. – *Adamın əyği sürçür söt yerdən ot çalanda;* – *Taxdıyı torpağıŋ üsdən sötünə ğoy, su yələjəy onda üsdən.*

**SÖYÇƏ** (Kürdəmir) – b a x **so:ça.** – *Yayın istisində söyçə suvu sərin saxliyir.*

**SÖYSÜN** (Zəngibasar) – peysər. – *Söysüni qırmızı adam beynamıs olar həmməşə.*

**SÖYTƏRYİ** (Qazax) – əyri. – *Bura çox söytəryidi.*

**SÖZBELƏ** (Qazax) – məsələn. – *Sözbelə, mən sənin pis işiŋi görüf örtmüşəm üstünü.*

**SÖZƏYAZINMAZ** (Qazax) – hazırcavab.

**SÖZKƏSSİ** (Salyan) – elçilik. – *Nişana eləməmişəm, bi də: sözkəssi eləmişəm.*

**SÖZZÜ** (Qazax) – yabanı soğan.

**SPIXMAX** (Tovuz) – sakit dayanmaq.

**SRİŞD: SRİŞD OLMAX** (Şəki) – əl çəkməmək, yapışmaq. – *Nə isdi:sən mənnən, nəyə srişd omusan?*

**STAN** (Qazax) – xəsis, simic.

**STİL** (Lerik) – 400 qramlıq çəki vahidi. – *İki stil çay aldım.*

**SUA:BI** (Cəbrayıl) – üzüm növü adı.

**SUACAX** (Göyçay, Mingəçevir) – b a x **savajax.**

**SUAD** (Tovuz) – göl, çay və su götürmək, mal-qara suvarmaq üçün düzəldilən yer. – *Anam suadda paltar yuyur.*

**SUAX: SUAX QALMAX** (Mingəçevir) – dən olmadığı üçün işləməmək, boş qalmaq (dəyirmana aiddir).

**SUAL** (Biləsuvar, Lənkəran, Masallı) – b a x **saval.**

**SUAMA** (Salyan) – tamamilə, başdan-başa. – *Bizim yerimiz suama çayırdı.*

**SUAN** (Salyan) – iri yeyə. – *Balta:n ağzın suannan itilə.*

**SUAR** (Mingəçevir, Oğuz, Ucar) – gec. – *Keçən il armud suar yetişdi* (Ucar). ◊ **Suara qalmağ** (Göyçay) – gecikmək. – *Mən bazara gedəcəydim, yatıb suara qalmışam.*

**SUARA** (Ağdam) – palan.

**SUARAPALAN** (Cəlilabad) – palan. – *Eşşəgin suarapalanı itib.*

**SUAT** (Borçalı, İmişli, Kürdəmir, Qazax, Zərdab) – b a x **suad.** – *Anam suatda paltar yü:r* (Şəmkir); – *Malları suata aparmamış olma ha!* (Zərdab); – *Oxarda suat var, ordan keş* (Tovuz); – *Bərə işdəmeyir, suatı uçub bü:n* (İmişli); – *Bu suat dardı, heyvan yaxşı içemmer suyu* (Qazax); – *Səkinə, ged suatdan bi qab su gəti* (Salyan).

**SUATDAX** (Qazax) – b a x **soadax.** – *Uşağın üzünü yara suatdax götürüf.*

**SUBIDMAĞ** (İmişli) – qəsdən ləngitmək. – *Bu işi düzəltməyə başı:z ağrı:r, subıdmasaz olmaz.*

**SUCUĞ** (Bakı, Kürdəmir, Şamaxı) – 1. nişastadan hazırlanmış yemək adı (Bakı, Şamaxı); 2. halvanın bir növünün adı (Kürdəmir). – *Rəhimin sucuğdan çox xoşu gəlir.*

**SUCUX** I (Bolnisi, Ordubad) – xörək adı (qoz, xəmir və s.-dən hazırlanır).

**SUCUX** II (Borçalı) – sırsıra. – *Qışda damnan sucux sallaner.*

**SUCUX** III (Qax, Zaqatala) – sulu yer.

**SUÇ** I (Hamamlı) – növbə.

**SUÇ** II (Cəbrayıl, Çənbərək, Gədəbəy, Qax, Tovuz, Zaqatala) – təqsir, günah. – *Başıŋa dönöm, suçum varsa, mən saŋa tabı* (Gədəbəy); – *Suç özündədir, özü yıxılan ağlamaz* (Tovuz).

**SUÇUXMAX** (Ağcabədi, Çənbərək, Qazax) – 1. duruxmaq (Ağcabədi). – *Sən niyə suçuxdun?;* 2. utanmaq (Qazax). 3. günahkarlığı büruzə vermək (Çənbərək). – *Taxsır İsmeyldiydi deyn dəsvəsahat suçuxdu.*

**SUÇULAMAX** (Çənbərək) – içmək. – *O:ğul, südü əbbəx'siz suçula.*

**SUÇUM** (Qazax) – bir nəfəsə içmə.

**SUDƏFİ: SUDƏFİ TOY** (İmişli) – çalğısız, aşıqsız toy. – *Sudəfi toy eliyərdi kasıb-kusub.*

**SUDUR** (Gədəbəy) – 1. xarab, çürük. – *Sudur qartovu suda asma;* 2. irin, çirk (Ağcabədi, Gədəbəy). – *Sudura çörülüf malın iliyi azar-bezardan* (Gədəbəy); – *Tişimin divi sudur eliyif* (Ağcabədi).

□ **Sudur annamax** (Cəbrayıl) – 1. şübhələnmək; 2. duymaq, hiss etmək.

**SUFAYI** (Göyçay, İmişli, İsmayıllı, Kürdəmir) – b a x **sifayi.** – *O, çox sufayı qızdır* (İmişli); – *Hafiz əcəb sufayı uşağdı* (İsmayıllı); – *Ağır otu, qoy sa: sufayı desinnər* (Kürdəmir); – *Qız nə sufayıdı* (Göyçay).

**SUĞANSUYİ** (Quba) – b a x **soğansu.** – *Anama dimişəm, axşama bir suğansuyi bişirsün.*

**SUĞMAX** (Gədəbəy) – güdmək, pusmaq. – *Səni vadar edən nədi ki, adamı suğursaŋ?*

**SUĞUŞTƏ** (Bakı) – sınıq yumurta.

**SUXANÇI** (Basarkeçər) – aravuran, xəbərçi.

**SUXTUM** (Bakı) – xəsis.

**SUXURA** (Lənkəran) – çini qab adı.

**SUİRƏNGİ** (Culfa) – açıq-qırmızı. – *Suirəngi açıx-qırmızıdı.*

**SUQARIŞAN** (Borçalı, Qazax) – iki çayın birləşdiyi yer. – *Təvədöy çayıynan Kür çayı qarışır, bu yerə suqarışan de:rix'* (Qazax).

**SUQİ** (Quba) – göbələk. – *Meşədən bu gün çuxli suqi yığduğ.*

**SUQQULİ** (Lənkəran) – çox arıq (adam). – *Bizim Beydulla lap suqqulidi.*

**SUQQUR** (Bakı) – xəsis. – *Nə suqqur adamdu a!*

**SULACAX** (Şəki) – b a x **savajax.** – *Sulacağı qoyif suyu yana axıdıllar.*

**SULAKAN** (Dərbənd) – 1. badya; 2. gildən qab düzəldən adam.

**SULANĞAC** (Şəki) – yelləncək. – *Uşaxlar sulanğaşda sulanır.*

**SULANÇAX** (Şəki) – b a x **sulanğac.** – *Sicimi bağliyrıx ağacə, sulançax düzəldif sulaniyıx.*

**SULANÇIX** (Şəki) – b a x **sulanğac.** – *Gidax sulançıxda sulanax.*

**SULANMAX** (Şəki) – yellənmək (yelləncəkdə). – *Uşaxlar sulanğaşda sulanır.*

**SULASƏN** (Bakı) – tövlədə heyvan bağlamaq üçün düzəldilmiş halqa.

**SULĞAR** (Ağstafa, Balakən, Qazax, Şəmkir) – uzun, uzundraz. – *Öydəki qardaşım sulğar uşaxdı* (Ağstafa), – *Sulğar adam uzun oler* (Şəmkir).

**SULĞARRAMAX** (Şəmkir) – hündürləşmək, boyca uzanmaq (adama aiddir). – *Tapba kimi sulğarranıf.*

**SULĞUC** (Bərdə, Yevlax) – b a x **solğunc.**

**SULĞUN** (Borçalı, Qazax, Yevlax) – yulğun. – *Sulğun o yerdə olar kin, o yeri su basıb çəkilmiş ola* (Yevlax).

**SULĞUNC** I (Oğuz) – b a x **solğunc.** – *Sulğunc dəhrədə, mangəldə, qıymakeşdə olur.*

**SULĞUNC** II (Qax, Şəki, Zaqatala) – b a x **solğunc.** – *Dəhrənin sulğuncu sınıfdı* (Şəki).

**SULĞUNC** III (Qazax) – pisxasiyyətli, arıq, uzun adam. – *Sulğunc adamı görəndə zəhləm gedir.*

**SULĞUNNUX** (Borçalı) – yulğunluq, çoxlu yulğun olan yer. – *Kür çayının yaxası sulğunnuxdu.*

**SULĞUNSÖYÜDÜ** (Ucar) – söyüd ağacının bir növü. – *Sulğunsöyüdü yaraşıxlı ağaşdı;* – *Sulğunsöyüdü sucax yerrərdə pitir.*

**SULİYA** (Culfa) – suvarılan əkin sahəsi. – *Çılpax arpa suliyada da olar, demiyədə də.*

**SULQUNC** (Oğuz) – b a x **solğunc.** – *Dəhrənin sulquncu boşdu.*

**SULLAF** (Şəki) – 1. sakit, yerəbaxan; 2. hər işi gizlin görən. – *Sullaf adam bic olar.*

**SULLAH: SULLAH SALMAX** (Cəbrayıl) – fikir vermək, diqqət yetirmək. – *Tay bizdərə sullah salmırsan.*

**SULLANÇAX** (Qax) – b a x **sulanğac.**

**SULLANMAX** (Qax) – yelləncəkdə yellənmək.

**SULTAN** (Hamamlı, İrəvan) – uşaq oyunu adı ("aşıq-aşıq" oyunu). – *Sultan oynuyan gəlsin.*

**SULU** (Cəbrayıl, Zəngilan) – nəfsini saxlaya bilməyən, hər şeyə tamah salan. – *Sulusan, sululuğu: hər yerdə bildirib özü: biyabır eləmə* (Zəngilan).

**SULUÇƏNTƏZ: SULUÇƏNTƏZ ELƏMƏXʹ** (Qazax) – mübahisə eləmək. – *Oturuf mənnən suluçəntəz ele:r.*

**SULUĞ** (Tabasaran) – bataqlıq. – *Suluğlarda yelbə çux uladu.*

□ **Suluğu genimәxʹ** (Qazax) – eyni açılmaq. – *Onun suluğu geŋidi.*

**SULUĞUDAN** (Ucar) – çox yeməkdən məst olan (adam). – *Addımua haram qat, suluğudan olma.*

**SULUMÇAX** (Ağdərə) – b a x **sulanğac.** – *Sulumçax ifdən olur, uşaxlar ona miniv uçunur.*

**SULUF** (Oğuz) – tavanda taxtalar arasına vurulan nazik taxta.

**SULUX** I (Quba) – meşənin ən qalın, keçilməz yeri. – *Suluxlarda heyvan çux uladu.*

**SULUX** II (Qazax) – b a x **sırığ.**

**SULUX** III (Ağdam, Ağdərə, Cəbrayıl, Çənbərək, Gədəbəy, Xocavənd, Kəlbəcər, Qarakilsə, Sabirabad, Tovuz, Ucar, Yevlax, Zəngilan) – qoyunun ilk südündən hazırlanan yemək növü. – *Suluğu çobannar bişirirlər* (Zəngilan); – *Suluğa duz tökülməz* (Yevlax); – *Sulux oddu küldə pişir* (Kəlbəcər); – *İnəyimiz doğmuşdu, beyjə sulux pişirdim* (Çənbərək); – *İnci suluğu siniyə qoyuf, çovannarın yanına gətdi* (Tovuz); – *Dədəm mə: bir sulux gətimişdi* (Cəbrayıl).

**SULUX** IV (Gədəbəy) – b a x **sulu.** – *Yamanca sulux kişidi, harda yiməxʹ gördü ütələnsin gərəxʹ.*

**SULUX** V (Zaqatala) – qoz çırpmaq üçün uzun çubuq.

**SULUMULU** (Dərbənd) – əriştə. – *Abam sulumulu bişirədi.*

**SULUYA** (Qazax) – b a x **suliya.** – *Daşsalahlılar suluya yeni köçüflər.*

**SUM** (Borçalı, Qazax) – xalis, tamamilə. – *Ət sum yağdı* (Borçalı).

**SUMAĞ** (Bakı, Xaçmaz, Quba) – iri xalça. – *İkisi də ucunnan tutıb sumağı döşədilər* (Bakı).

**SUMAĞPALAN** (Ordubad) – aşsüzən. – *Anam pılavi həmməşə sumağpalannan süzər.*

**SUMBATDAMMAX** (Çənbərək) – kökəlmək, yaxşılaşmaq. – *Hamar biyil yaman sumbatdanıy.*

**SUMMAT** (Zəngibasar) – boy-buxun, qədd-qamət. – *Telman summatda babasına oxşuyur.*

**SUMMATDI** (Zəngibasar) – boy-buxunlu, qədd-qamətli.

**SUMUTQAN** (Zəngilan) – qəfildən tutan (it). – *Sumutqan it sumudur, so:ra adamın üsdünə:lir.*

**SUNQULAMAX** (Cəbrayıl) – fikir vermək, fərqinə varmaq.

**SUNUR** (Çənbərək) – tamah. – *Sunur hörmətdən salır adamı camahat içində.*

**SUODAX** (Tovuz) – sucuq yer, bataqlıq. – *Buralar suodaxdı, haravayı o:nnan sür.*

**SUPQUN** (Quba) – b a x **sıpqın.** – *Zeynəb xala quz ağacını supqunnan dügürdi.*

**SUR** I (Borçalı, Salyan) – hökm. – *Bir işdən çıxıf, əmə suru gənə yeriyer.*

**SUR** II (Salyan) – kef, əhval. – *Həsənə no:lub, gənə surı yoxdu?.*

**SURAYLAMAX** (Meğri) – qabağa soxulmaq, irəliyə keçmək. – *İndi mən də surayleyəm.*

**SURATGƏLMƏ** (İmişli) – xəstəlik nəticəsində sifətin, üzün dəyişilməsi, şişmə.

**SURÇAX** (Qarakilsə) – sürüşkən; gəzəyən. – *Ayağı surçaxdı.*

**SURFALAMAX** (Zəngibasar) – parçalamaq. – *Canavar qoynu surfaladı.*

**SURĞUŞ** (Mingəçevir) – b a x **solğunc.**

**SURX** (Qarakilsə, Ordubad) – günəşin qırmızımtıl şüaları. – *Günün surxu qoymur baxam* (Qarakilsə).

□ **Suxuru düşməx′** (Cəbrayıl) – qanı qaralmaq, bikefləmək.

**SURXOY** (Salyan) – b a x **sirxo:.** – *Mə:limlər surxoy gəzillər.*

**SURQUBAT: SURQUBAT OLMAX** (Böyük Qarakilsə) – birdən yoxa çıxmaq, qəflətən yox olmaq.

**SURQUC** (Balakən) – şitil basdırmaq üçün torpaqda deşik açan alət.

**SURPA** (Balakən) – əl-üz dəsmalı.

**SURRAB** (Balakən) – işsiz, boş-bikar, avara. – *Surrab gəzirsanğ.*

**SURSUPBUZ** (Bakı) – çox arıq. – *Oğada arığlayıb ki, sursupbuz olıb.*

**SURSUYUM** (Çənbərək) – sir-sifət. – *Sursuyumu nəyvət olan adam qaraçı olar.*

**SURŞUDU** (Cəbrayıl) – günahkar.

**SURTOY** (Kəlbəcər) – b a x **sertov.** – *Surtoy tikdirdim.*

**SURUĞVAT** (Borçalı, Gədəbəy) – iflic. – *Sən laf suruğvat kimi işdiyersən* (Borçalı); – *Adamı suruğvat tutanda əl-qol işdəmir* (Gədəbəy).

**SURUX** (Balakən, Bolnisi, Borçalı, Gədəbəy, Zaqatala) – b a x **sırığ.** – *Bir oğlan çıxer ağaja, suruxnan çırper* (Borçalı); – *Suruğu maŋa ver, alma salem ağaşdan* (Gədəbəy).

**SURUN: SURUNU SALLAMAX** (Tovuz) – qaşqabağını sallamaq. – *Gülə nə oluf, gənə surunu sallıyıf.*

**SUS** (Bərdə, Göyçay, Yevlax, Zaqatala) – güvə. – *Sus yun paltarı ye:r* (Bərdə); – *Dərman qoyurux, sus paltarı yemir* (Yevlax).

**SUSALAMMAX** (Şəki) – bir şeyi ürəyindən keçirtmək və ya bir şey haqqında fikirləşmək. – *Ha susalandım, bir yerə çıxarda bilmədim.*

**SUSAR** (Oğuz) – qırqovulaoxşar toyuq cinsi. – *Susar bir dəyqə sakit durmur, səhərə qədər çapbıldıyır.*

**SUSDƏLMƏĞ** (Lerik) – ürəyi getmək.

**SUŞ** (Quba) – göbələk.

**SUŞDU** (Laçın) – təqsirli, günahkar. – *O, suşdu adama oxşayır.*

**SUTİKİŞİ** (Ağcabədi) – nazik, zərif naxışlı tikmə. – *Mən sutikişi tikmə tikdim.*

**SUTUN** (Xaçmaz) – meyvə çırpmaq üçün nazik uzun ağac, çubuq.

**SUVACAX** (Cəbrayıl, Qafan, Oğuz) – b a x **savajax.**

**SUVADAX** (Zəngibasar) – çox, bol. – *Bu yıl bamador suvadaxdı.*

**SUVAL** (Biləsuvar, Lənkəran, Masallı) – b a x **saval.** – *Bizim ev qırmızı suvallıdı* (Lənkəran); – *Üstü suvallı ev onun evidi* (Masallı).

**SUVAN** (Salyan) – yeyə. – *Suvan dəmirçidə olır.*

**SUVAR** (Ağdaş, Goranboy) – gec.

**SUVARA** (Ordubad) – düz, doğru. – *Yoldaş Məmmədov yaman suvara danışan adamdi.*

**SUVA TUTMAĞ** (Dərbənd) – duza qoymaq (tərəvəz bitkilərinə aid). – *Samırsağı suva tutadig.*

**SUVAT** (Basarkeçər, Cəbrayıl, Qarakilsə, Salyan) – b a x **suad.** – *Bala, get buzu qır, suvatı aç* (Basarkeçər); – *Suvat var, böyürtkannıxdı, oturmuşam, deyirəm görüm mə:m də nişannım gələrmi* (Qarakilsə).

**SUVƏŞMAX** (Meğri) – cücə çıxartmaq üçün yumurta üstündə yatmaq. – *Töyıx düz un səkkiz gündi suvəşip yumurtaların üsdinə.*

**SUVOYLAMAX** (Çənbərək) – sağmal qoyunu sağılmayanlardan seçmək, ayırmaq. – *Hasanalı qoyunu suvoyluyf də:n.*

**SUYADAX** (Tovuz) – sucuq yer. – *Buralara kimsə sudan o qədə helliyif kin, pütün suadax oluf.*

**SUYRUX** (Oğuz) – b a x **sırığ.** – *Suyruxnan qoz çırpırıx.*

**SUYSUN** (Göyçay) – peysər.

**SUYU: SUYU QAÇMAX** (Qazax) – xoşu gəlmək. – *Buyşağa yaman suyum qaçe:r, qəşəng uşaxdı.*

**SUYUX** (Basarkeçər, Borçalı, Qazax) – 1. acgöz, tamahkar, qarınqulu. – *Suyuğ adam ona de:rik ki, mu:n qapısına geder, çayın içer, onun qapısına gedif çörəyin ye:r* (Borçalı); – *Musdafa yaman suyuxdu, tüsdü gələn yerə burnunu soxo:r* (Qazax); 2. tez yoldan çıxan. – *Bu qız çox suyuxdu, heç xoşuma gəlmir* (Basarkeçər).

**SUYULMAX** (Tovuz) – meyil etmək, meyil göstərmək. – *Yox, də:n razısaŋ, o də:ndö:rdüm suyulursan.*

**SUYUM** (Ordubad) – abır, həya. – *Adamın gərəx′ suyumu olsun.*

**SUYUMSUZ** (Çənbərək, Goranboy) – yaraşıqsız, çirkin. – *Ovalar yaman suyumsuz adamdı* (Çənbərək).

**SÜBİR** (Laçın) – 3-4 illik axta keçi.

**SÜBÜNGƏ** (İsmayıllı) – qatıq çalmaq üçün qab.

**SÜBÜR** (Laçın, Zəngilan) – b a x **sibir.** – *Sübür ətidi, gedin siz də alın* (Zəngilan); – *Sübür çox kökəlib* (Laçın).

**SÜDAVI** (Borçalı) – açıq göy (rəng). – *Açıx göy rəngə südavı deyirlər.*

**SÜDBAŞI** (Ordubad) – qaymaq. – *Bu gün südbaşı yedim.*

**SÜDDİYAN** (Ağdaş, Cəbrayıl) – yabanı boyaq bitkisi adı. – *Mansır, bu gün bir qədər süddiyan yığ gətir, ip bo:yajam* (Cəbrayıl).

**SÜDDÖYƏN** (Gəncə) – b a x **süddiyan.**

**SÜDDÜ** (Qazax) – varlı, dövlətli, gəlirli. – *Ə, süddü Qasımın nəyi əskikdi?*

**SÜDDÜQO:T** (Ağcabədi) – qovurub əzəndən sonra süddə bişirilmiş buğda qovutu. – *Qojayçun süddüqo:t yaxşıdı.*

**SÜDDÜRYƏN** (Gədəbəy) – b a x **süddiyan.**

**SÜDDÜSIYIĞ** (Bakı, Kürdəmir, Ucar) – saçaqlı yun şal, baş örtüyü.

**SÜDDÜSÜMƏN** (Gədəbəy, Goranboy, Qazax) – uyuşmamış qatıq. – *Qatıx süddüsümən oluf* (Qazax); – *Qatıx yaxşı üyüşmüyəndə süddüsümən deyillər* (Goranboy).

**SÜDDÜSÜMÜX′** (Cəbrayıl, Füzuli, Quba, Tərtər, Zəngilan) – uşaq oyunu adı. – *Gəlin gedəx′ süddüsümüx′ oynamağa* (Füzuli); – *Süddüsümüyü ancağ gejələr oynuyurux* (Tərtər).

**SÜDUTİ** (Quba) – yemlik. – *Südutdarin quyunnar yaxşı yiyəllər.*

**SÜĞMƏ** (Gədəbəy) – iki haçanın üzərinə qoyulan uzun düz ağac, tir. – *Süğmələri haçalara düzüŋ.*

**SÜX′SUN** (Hamamlı) – b a x **süysün.** – *Ə, səniŋ süx′sunuŋ sınsın.*

**SÜX′SÜN** (Borçalı, Daşkəsən, Gədəbəy, Xanlar, İmişli, Qazax) – b a x **süysün.** – *Gejə başım yasdıxdan tüşüf, süx′sünüm burxuluf* (Borçalı); – *Süx′sününə bir yara çıxıf* (İmişli); – *Süx′sününnən tutuf nağayrersan gədiyi?* (Gədəbəy).

**SÜX′SÜNNƏMƏX′** (Gədəbəy) – b a x **süysünnəməx′.** – *Süx′sünnəmə, sə:ŋ tayınzad ha döyü o.*

**SÜLEYSİN** I (Göyçay, Sabirabad) – kaftar.

**SÜLEYSİN** II (Salyan, Zaqatala) – 1. acgöz; 2. qarınqulu; 3. tamahkar.

**SÜLEYSİN** III (İsmayıllı) – b a x **siləvsun.** – *Süleysin kimi axşamacan orani-burani gəzməkdən yorılmırsan?*

**SÜLEYSİN** IV (Balakən) – arıq (adam).

**SÜLƏ** I (Gədəbəy, Qazax, Qafan) – 1. sırtıq; 2. şıltaq. – *Sülə adam, sülə it, sülə inək* (Qafan); – *Sən demə, çox sülə adammış o* (Gədəbəy); – *Əldə örgənən quzu sülə olor* (Qazax).

**SÜLƏ** II (Cəbrayıl, Zəngilan) – qanqal və s.-nin körpə qol-qanadı və ya toxumluq hissəsi. – *Gəlin gedəx′ qanqal süləsi yemə:* (Cəbrayıl).

**SÜLƏ** III (Qax, Zaqatala) – çöltoyuğu. – *Əhməd sülə vurmuşdi* (Zaqatala).

**SÜLƏ** IV (Qazax, Meğri) – 1. acgöz; 2. qarınqulu. – *Adam sülə qız olmaz* (Meğri).

**SÜLƏÇƏ** (Balakən, Qax, Zaqatala) – 1. uzun; 2. hündür.

**SÜLƏX′** I (Füzuli) – qanqal özəyi.

**SÜLƏX′** II (Qarakilsə, Ordubad) – sülənən, qapı-qapı gəzən, avaralanan, birtəhər baş saxlayan.

**SÜLƏNGƏC** (Cəlilabad, Masallı) – sülənən, qapı-qapı gəzən, avaralanan, birtəhər baş saxlayan.

**SÜLƏNGİ** (Cəbrayıl, Quba) – b a x **süləngəc.** – *Axlı qarı yaman süləngi arvaddı* (Cəbrayıl); – *Çux süləngi uşağsan, elə bil hiç nə gürməmisən* (Quba).

**SÜLF** (Ağcabədi) – qənaət. – *Bu aldığım düyünü, arvad, sülfnən işdət.*

**SÜLFÜYƏN** (Mingəçevir) – tamam, tamamilə. – *Unu tanımırsan, sülfüyən yalan diyir.*

**SÜLFÜLLÜ** (Gəncə, Oğuz, Şəki) – xəmir xörəyi adı. – *Sülfüllü həblə yumru-yumru xamırdı, gəh yağnan, gəh də eləcə sulu;* – *Sülfüllü xamır xörəx′di, içinə ət də qoyan olur* (Oğuz); – *Kür qıraxlılar çoxlu sülfüllü pişirillər* (Gəncə).

**SÜLKƏT** (Salyan) – hövsələ. – *Fikrətin sülkəti yoxdı, heç kəsnən yola getmir.*

**SÜLLEY** (Ağbaba) – uzun, uzunsov. – *Sülley Xosrov bizə gələcək.*

**SÜLMƏŞDƏMƏX′** (Çənbərək) – təmizləmək. – *Bir qavlama doğramıyı sülməşdədi yedi Murtuz.*

**SÜLÖ:ÜSÜN** (Quba, Mərəzə) – b a x **süleysin** II. – *Nə sülö:üsün uşağdı* (Mərəzə).

**SÜLÖY** (Qazax) – su kənarında bitən söyüd.

☐ **Sülöy getməx′** (Şəmkir) – b a x **sinav getməx′.** – *Zafda qarpızdan ötəri sülöy gedir.*

**SÜLÖYSÜN** I (Qazax) – b a x **siləvsun.**

**SÜLÖYSÜN** II (Ağdam, Borçalı, Ucar, Şamaxı) – b a x **süleysin** II. – *Sülöysün adamın gözü həməşə yeməkdə qalar* (Ucar).

**SÜLSÜL** (Quba) – çovdar. – *Sülsül so:uğ yerdə bitədü.*

**SÜLÜ** (Naxçıvan, Tovuz) – corab mili. – *Sülü paslanıb* (Naxçıvan); – *Sülüynən corav örüllər* (Tovuz).

**SÜLÜX′** I (Cəbrayıl, Göyçay, Kürdəmir, Laçın) – təzə göyərmiş, sütül qamış. – *Vəli bir dəstə sülüx′ dərdi* (Göyçay).

**SÜLÜX′** II (Başkeçid, Borçalı) – zəli. – *Bizim sularda sülüx′ olmaz.*

**SÜLÜX′** III (Gədəbəy) – quru odun.

**SÜLÜX′** IV (Qazax) – bir şeyə dadandırılmış, acgöz. – *Söylünün qızı xarav öyrənif, sülüx′ quzu kimi elə adamın əlnə baxer;* – *Sülüx′ quzu həməşə özgə qoyunun altına cumor.*

**SÜLÜX′** V (Borçalı) – tamah. – *O, sülühün saxlıya bilmir.*

**SÜLÜG** I (Salyan) – sütül. – *Qarğudəli hələ yetişmiyib, sülügdi.*

**SÜLÜG** II (Salyan) – həya, ismət. – *Adamın gərək sülügi, qılığı ola.*

**SÜLÜG** III (Salyan) – 1. xasiyyət; 2. münasibət. – *Sə:n sülüğün çox yaxşıdı.*

**SÜM** (Yevlax) – tamam, tamamilə, xalis. – *Ət süm yağdı.*

**SÜMBEKİ** (Bakı) – pəltək.

**SÜMBƏ** (Şərur) – sobanın külünü qurdalamaq üçün ucu əyri şiş.

**SÜMBƏSÜMÜK** (Bərdə) – uşaq oyunu adı. – *Sümbəsümükdə sümüy atıllar, so:ra tapıllar.*

**SÜMƏX′** (Ağcabədi, Basarkeçər, Borçalı, Xanlar, Xocavənd, Qafan, Qax, Qazax, Naxçıvan) – 1. daranmış yun (Ağcabədi, Basarkeçər, Borçalı, Xanlar, Xocavənd, Qax); 2. yuyulub təmizlənməmiş çirkli yun (Qazax, Qafan, Naxçıvan). – *Biz sümax′dən ip ə:ririx′* (Borçalı); – *Süməyi yığışdır* (Qazax); – *Bir batman süməyim var, bu bazar aparıf satajam* (Basarkeçər). ◊ **Süməy eləməx′** (Xanlar, Xocavənd) – daramaq. – *Yunu əvvəl süməy eli:rəm, so:ra pilitə eli:rəm, onnan da qayıdıf əyrirəm* (Xocavənd); – *Yunu birinci dəfə süməy eliyəllər* (Xanlar).

**SÜMƏX′LƏMƏX′** (Basarkeçər, Şahbuz, Zəngilan) – yundan əyirilmiş ipin çıxıntılarını kırtızla sürtüb təmizləmək. – *Nənəm if süməx′li:r* (Zəngilan); – *Otu bu yunnan birəz süməx′lə* (Basarkeçər).

**SÜMƏLLƏMƏX′** (Çənbərək) – işsiz, boşbikar gəzmək, avaralanmaq. – *Furu aralıxlardaja süməllənir axşamatana.*

**SÜMƏŞƏX′** (Karvansaray) – qapı-qapı gəzən, avaralanan.

**SÜMMƏX′** (Gədəbəy) – yeməyə girişmək, cummaq. – *Dostum, nə sümüfsüŋ gənə pıloya?*

**SÜMMÜN-BÜHMÜN** (Şəki) – səssiz-səmirsiz; gizlincə. – *Sümmün-bühmün gəliv apardılar.*

**SÜMSİBURUN** (Cəbrayıl) – hər yerə burnunu soxan.

**SÜMSÜ** (Qax) – tütək.

**SÜMSÜBURUN** (Ucar) – uzunburun (adam). – *Qo:şumuza bir sümsüburun arvad gəlmişdi.*

**SÜMURKAN** (Cəbrayıl) – taxılı tələf edən həşərat adı. – *Sümurkan taxılı yedi.*

**SÜMÜD: SÜMÜDÜNÜ SALLAMAX** (Gədəbəy) – sımsırığını sallamaq, qaşqabaq tökmək. – *Ağız, sümsüdünü sallama, adamın əri hər şey deyər.*

**SÜMÜRCAN** (Şamaxı) – b a x **sümurkan.**

**SÜMÜRGAN** (Mingəçevir) – b a x **sümurkan.**

**SÜMÜRYAN** (Sabirabad, Şamaxı) – b a x **sümurkan.**

**SÜMÜŞ** (Ordubad) – qamış növü. – *Sümüş ayrıdı, gəyən ayrıdı.*

**SÜMÜYOTU** (Tovuz) – dərman bitkisi adı. – *Sümüyotu yarıya dərmandı.*

**SÜNBÜLOTU** (Şuşa) – yabanı ot adı.

**SÜNDÜRMƏC** (Biləsuvar) – yağda qaynadılmış duzsuz pendir. – *Sündürməci çörəksiz də yeyəllər.*

**SÜNDÜRÜX′** (Qazax) – gövdəsinin içərisi boş olan yabanı bitki adı. – *Sündürüx′ dağda çox olur.*

**SÜNEX′LİX′** (Şəki) – acgözlük, tamahkarlıq. ◊ **Sünexlix′ eləməx′** – acgözlük eləmək, qarınquluuq eləmək, tamahkarlıq eləmək. *– Az sünex′lix′ elə, bəsdi.*

**SÜNƏÇƏ** (Daşkəsən, Gəncə, Qazax, Tovuz, Şəmkir) – 1. alaçıq qurmaq üçün ağac (Gəncə, Qazax, Tovuz, Şəmkir). *– Odunun içindən bir sünəçə gətir* (Gəncə); *– Bu sünəçəni götürüf başıŋa vuraram* (Şəmkir); 2. əl-ağacı (Daşkəsən). *– Sünəçeyi ora qoy da, gəl otur.*

**SÜNƏX′** I (Mingəçevir, Şəki) – b a x **sulu.** *– Sünəy adamın gözü həmməşə orda-burda olar* (Şəki).

**SÜNƏX′** II (Oğuz) – iradəsiz.

**SÜNƏK** (İsmayıllı, Qax, Oğuz) – b a x **sulu.** *– Eldar çox sünək uşaxdır* (Oğuz); *– O da çox sünəkdi* (İsmayıllı).

**SÜNG: SÜNG ELƏMƏX′** (Qarakilsə, Ordubad) – müflisləşdirmək, iflasa uğratmaq, yoxsullaşdırmaq. *– Bılar lap məni süng elədi* (Ordubad). ◊ **Süngə çıxartmaq** (Salyan) – müflisləşdirmək, iflasa uğratmaq, yoxsullaşdırmaq. *– Qolçomağları süngə çıxartdılar.* **Süng iləmağ** (Quba) – b a x **süng eləməx′.** *– Bu uşağlar məni süng iləyibəni quydular.* **Süng olmağ** (Bakı, Gədəbəy, İsmayıllı, Qazax, Ucar) – müflisləşmək, iflasa uğramaq, yoxsullaşmaq. **Süng ulmağ** (Quba) – b a x **süng olmağ.** *– U, işdən çıxannan so:ra lap süng ulubəni qalıb.*

**SÜNGÜLAN: SÜNGÜLAN ÇƏX′MƏX′** (Meğri) – qudurğanlıq etmək. *– Bı Mırat çox süngülan çəkir ha.*

**SÜNGÜRÜX′** (Qazax) – dərman bitkisi adı. *– Süngürüx′ həkimə lazım olur.*

**SÜNGÜSAR** (Bərdə, Goranboy) – bərbad, darmadağın, dağıdılmış. ◊ **Süngüsar etməx′** (Şəmkir) – dağıtmaq, bərbad etmək, sıradan çıxarmaq, darmadağın etmək.

**SÜNGÜTMƏX′** (Şəmkir) – dağıtmaq, bərbad etmək, sıradan çıxartmaq. *– Qoyma, inəx′ buraları süngütdü.*

**SÜNGÜVAT: SÜNGÜVAT QALMAX** (Qazax) – xaraba qalmaq. *– Səni görüm yurdun süngüvat qalsın.*

**SÜNNƏ** (Tovuz) – dəyənin belini möhkəm saxlamaq üçün qoyulan ağac.

**SÜNTÜRÜX′** (Çənbərək) – yeməli yabanı bitki adı.

**SÜPÜRGƏ** (Zəngibasar) – kötücədən sonrakı övlad. *– Kötücəyi görüfsən, inşallah, süpürgəyi də görəcəx′sən.*

**SÜRÇƏK** (Qazax) – sürüşkən. *– Sürçək yerdən getsən yıxılarsan.*

**SÜRDƏN** (Göyçay) – xörək adı, sıyıq. *– Nənəm sürdən bişirdi.*

**SÜRDÜRMƏX′** (Gəncə) – malı ciftləşməyə buraxmaq, ciftləşdirmək. *– İnəyi büyün sürdürmüşəm.*

**SÜRƏ** (Zəngibasar) – tərəf. *– Onnan keşdi, başdadı indi də ma: sürə qaşma:.*

**SÜRƏG** (Zaqatala) – ovu qovub bərəyə gətirmə. ◊ **Sürəx′ eləməx′** – ovu qovub bərəyə gətirmək. *– Bu gün sürəy elədin, üç donuz ovladıq.*

**SÜRƏX′** I (Borçalı, Qazax, Yevlax) – cıdır. *– Atı sürəyə qo:rdular* (Borçalı); *– Atdarımız sürəkdə qaçırdı* (Yevlax).

**SÜRƏX′** II (Daşkəsən, Qazax) – b a x **sürəg** (Qazax). ◊ **Sürəx′ salmax′** (Qazax) – ovu qovub bərəyə gətirmək. *– Bu meşəyə sürəx′ salın.*

**SÜRƏX′Çİ** (Daşkəsən) – ovu qovub bərəyə gətirən. *– Sürəx′çi sürəyi marıxda durmuş oyçunun üsdünə qovey.*

**SÜRFÜLLÜ** (Qax, Mingəçevir, Şəki) – b a x **sülfüllü.** *– Bi qazan sürfüllü bişitdirif ça:rıcam sizi* (Şəki).

**SÜRGÜ** (Qax, Zaqatala) – rəndə.

**SÜRĞÜVƏT** (Çənbərək) – anormal. *– Sürğüvət adama eytivar olumu?*

**SÜRHAY** (Qazax) – icazəsiz, birbaşa içəri daxil olma, bir yerə soxulma.

**SÜRHAYLAMA** (Qazax) – icazəsiz, bir başa içəri daxil olma, bir yerə soxulma. *– Sürhaylama soxulur içəri.*

**SÜRHÜ** (Qax) – xörək adı.

**SÜRHÜLLÜ** (Qax) – b a x **sülfüllü.**

**SÜRİŞ** I (Lənkəran) – ləpə, dalğa. *– Də:zdə süriş olanda çimə bilmiruğ.*

**SÜRİŞ** II (Lənkəran) – sum. ◊ **Süriş etmək** (Lənkəran) – şumlamaq. *– Mart ayında bı qış sürüşi eli:rüğ.*

**SÜRMƏ** I (Gəncə) – quş dəstəsi. *– Sığırçının sürməsinə bir bax.*

**SÜRMƏ** II (Ağdaş, Ordubad) – cəftə. – *Qapının sürməsin vur* (Ordubad).

**SÜRMƏ** III (Basarkeçər, Cəbrayıl) – damın üstünə uzununa qoyulan tir. – *Sürməni damın üsdə belə uzununa qoyurux* (Basarkeçər); – *Çasvıstanın sürməsi uzun qarqudan olur* (Cəbrayıl).

**SÜRMƏX′** I (Borçalı, İmişli, Qazax, Zəngilan) – sürgün etmək. – *Şah munu sürdü* (Borçalı).

**SÜRMƏX′** II (Gəncə, Mingəçevir, Zəngilan) – dibindən düşmək (dırnağa aiddir). – *Dırnağım hələ sürüf qutarmıyıf* (Zəngilan); – *Dırnağım sürüf* (Gəncə).

**SÜRMƏX′** III (Gəncə, Zəngilan) – ciftləşmək (heyvanlara aiddir). – *İnəyi zavod kələsi sürüf deyin balası da yaxşıdı* (Zəngilan).

**SÜR-SİNC** (Qazax) – sir-sifət. – *Öyüŋü-eşiyiŋi yağı aparıf, suruna-sincinə no:luf?*

**SÜRSÜRÜ** (Qax) – sırsıra.

**SÜRTMƏKƏMƏNÇƏ** (Salyan) – keyfiyyətsiz, başdansovdu. ◊ **Sürtməkəmənçə eləmək** – başdansovdu eləmək. – *Usda duharı sürtməkəmənçə eliyib getdi.*

**SÜRTMƏSÜLÜX′** (Ağdam) – uşaq oyunu adı.

**SÜRTOY** (Gədəbəy) – b a x **sertov.**

**SÜRU:SƏN** (Mingəçevir) – daima, hər vaxt.

**SÜRUZƏ** (İsmayıllı, Şamaxı) – b a x **siruzə.** – *Bizim süruzə gün qonağımız olur, bir gün boş qalmır* (İsmayıllı).

**SÜRÜX′** (Gədəbəy) – b a x **sırığ.** – *Sürüğü ma: saŋa alma salem ağaşdan.*

**SÜRÜLLÜ** (Qax) – b a x **sülfüllü.**

**SÜRÜN** (Laçın) – yemək adı (yağ, qatıq və doğranmış çörək qarışığından hazırlanır). – *Mən çox sürün yiyənəm.*

**SÜRÜNÇAĞ** (Dərbənd) – yelləncək. – *Qızlar sürünçağda oynuyadi <yellənir>.*

**SÜRÜNGƏL** I (Çənbərək) – kotanın hissəsi. – *Məmmədin kotanı:ŋ sürüngəli qırılıf, eşşəyi xarav olur.*

**SÜRÜNGƏL** II (Borçalı) – ağırtərpənən. – *Hasanalı çox sürüngəldi.*

**SÜRÜŞDÜ** (Salyan) – xəcalətli. – *Sə:n ya:nda sürüşdidi.*

**SÜRÜTDƏK** (Lənkəran) – evdə geyilən ayaqqabı.

**SÜRÜTDƏMƏ** (Şahbuz, Şərur) – evdə geyilən ayaqqabı. – *Evdə kişinin bir sürütdəməsi var, mənim də biri, alırıx əğı:mıza* (Şahbuz).

**SÜRÜTMƏ** I (Cəbrayıl, Zəngilan) – evdə geyilən ayaqqabı. – *Sürütmələrĩ: gey, əv soyuxdu* (Zəngilan).

**SÜRÜTMƏ** II (Qafan, Qazax, Mingəçevir, Şəki) – qoşqu heyvanları vasitəsilə sürüyüb gətirilmiş iri yoğun ağac (odun). – *Ulağı qoşuf meşədən böyüx′-böyüx′ kərənnəri sürütdürə-sürütdürə gətirerix′, o kərənə sürütmə deyrix′*(Qazax); – *Surütməni üç böyük öküznən gətdik* (Qafan); – *Dağdan sürütmə getirdim;* – *Eşdə hələ iki dənə sürütmə var, unbeş gün yandırmağa yetər* (Şəki).

**SÜRÜTMƏ** III (İsmayıllı) – qızı güclə qaçırma.

**SÜSƏ** (Quba) – qoz, fındıq və ya tutun erkən tökülən çiçəkləri. – *Ağacün süsələri töküldi.*

**SÜSGÜN** (Gəncə) – b a x **süysün.**

**SÜSMƏX′** (Şərur) – gözümçıxdıya salmaq. – *Məsələm, ögəy ana uşağı süsər.*

**SÜSÜK** (Qax) – acgöz.

**SÜT** (Salyan) bazar günü. – *Süt güni gedərüg bazara.*

**SÜTDİYƏN** (Qafan) – xırda yarpaqlı, südlü, şirəli yabanı yem bitkisi adı. – *Sütdiyənin üstə çoxlu qurt olur.*

**SÜTDÜYAN** (Mingəçevir) – b a x **sütdiyən.**

**SÜTHOPBACA** (Salyan) – südlü aş. – *Dügini sütə tökürsən, bişir, bərk olur, ona süthopbaca de:rüg.*

**SÜTMƏSÜLÜX′** (Göyçay, Qazax) – oyun adı.

**SÜTTƏNSÜLÜK** (Əli Bayramlı) – b a x **sütməsülüx′.**

**SÜTTİKAN** (Kürdəmir) – b a x **sütdiyən.**

**SÜTTKAN** (Şamaxı) – b a x **sütdiyən.** – *Quzumçun süttkan gətdim.*

**SÜUX** (Gədəbəy) – b a x **sulux.** – *Mərəkə nədi, süux adam oldu nədi.*

**SÜVAL** (Lənkəran) – b a x **saval.** – *Süval sindi.*

**SÜVÜLDİMAX** (Ordubad) – bir bəhanə ilə aradan çıxmaq, əkilmək. – *Süvüldiyib ortadan çıxdım.*

**SÜYƏN** (Qazax) – bağlamaq üçün qapının arxasından keçirilən ağac. – *Palıt ağacınnan qapı süyəni qayrıllar.*

**SÜYMƏ** (Gədəbəy) – bax **süğmə.** – *Süymə iki haçanın arasına qoyulan ağaşdı.*

**SÜYSÜN** (Ağdərə, Başkeçid, Borçalı, Daşkəsən, Füzuli, Gəncə, Qazax, Oğuz, Şəmkir, Tovuz, Zaqatala, Zərdab) – 1. peysər (Daşkəsən, Gəncə, Qazax, Tovuz). – *Süysünümə bir yumruğ ilişdirdi, gözümə qarannıx çöx'dü* (Daşkəsən); – *Süysün göydənin üsüdündə olar* (Borçalı); 2. boyun (Ağdərə, Başkeçid, Borçalı, Füzuli, Gəncə, Qazax, Şəmkir). – *Səni görüm süysünüŋ altında qalsın* (Qazax); – *Həsənin süysünü həmməşə əyridi* (Gəncə); – *Süysünü yoğun adamdı* (Ağdərə); 3. onurğa sümüyünün boyunla birləşdiyi yer (Oğuz). – *Həmit dayının süysününnən yel tututdu* (Oğuz); – *Süysünümnən ağrı tutub* (Zərdab).

**SÜYSÜNMƏK** (Qax, Zaqatala) – 1. sülənmək; 2. yaltaqlanmaq.

**SÜYSÜNNƏMƏX'** (Gəncə) – boynundan, peysərindən tutmaq. – *At atı süysünnüyüf;* – *Gənə süysünnəməx'mi isdiyirsən?*

**SÜYULCAĞ** (Ordubad) – sürüşkən (yer). – *Ordan getmə, ora süyulcağdı.*

**SÜYÜLLƏNMƏX'** (Zəngibasar) – veyllənmək. – *Ə:, harda süyüllənirdin?*

**SÜYÜMLÜ** (Gəncə) – qaməti düz, görkəmli, boy-buxunlu. – *Süyümlü adama paltar da yaraşar.*

**SÜYÜMSÜZ** (Gəncə) – qaməti düz olmayan, görkəmsiz. – *Süyümsüz adamın paltar əyninnən düşür.*

**SÜYÜNDÜRÜX'** (Şəmkir) – yabanı dərman bitkisi adı. – *Süyündürüx'dən dərman qayırellar.*

**SÜYÜŞMƏX'** (Gəncə, Qazax, Mingəçevir, Oğuz, Şəki) – xəlvətcə qaçmaq, əkilmək, aradan çıxmaq. – *Dalaşan uşağ süyüşüb aradan çıxdı* (Oğuz); – *Qaçmağ ayıfdı, süyüşdüm* (Gəncə); – *Gördüm üzbaşılar vurhavur xarc yığırlar, ordan kirimiş süyüşdüm* (Şəki).

**SÜYÜŞÜX'LÜ** (Qazax) – üstün. – *Ağıl ağıldan süyüşüx'lü olor, sə nə de:rsən buna, a Fatma?*

**SÜZEG** I (Quba) – aşsüzən, süzgəc. – *Dügi quy bir az süzegdə dursun, suyi tükülsün.*

**SÜZEG** II (Quba) – çıraq və ya lampada işığı artırıb-əskildən hissə. – *Ağız, ləmpə his eliyədü, süzegi bir az aşağa sal.*

**SÜZƏX'** (Şəki) – bax **süzeg** I. – *Süzəx'nən süzərux aşı.*

**SÜZƏNİ** (Bakı, İrəvan) – örtük.

**SÜZMAT** (Zaqatala) – şüyüd.

# Şş

**ŞABAT** (Xudat) – köhnə ayaqqabı.

**ŞABBADANXEYİR** (Ağdam, Şuşa) – qəflətən, gözlənilmədən. – *Elə otumuşdux, şabbadanxeyir qapı açıldı* (Ağdam); – *Şabbadanxeyir budu ha, bir də gördüm gəlif çıxır kəndə* (Şuşa).

**ŞABBAXEYİR** (Cəbrayıl) – b a x **şabbadanxeyir.**

**ŞA:D** (Ağdam, Cəlilabad, İsmayıllı, Şəki, Tovuz) – üyüdülən dəndən dəyirmançıya verilən muzd. – *Bığdanın şa:dını çıxıblar* (İsmayıllı); – *Bi put dənə bi girvənkə şa:d alırdılar* (Şəki).

**ŞA:DAQQİ** (Salyan) – üyüdülən dəndən dəyirmançıya verilən muzd. – *Qabağlar şa:daqqiynan üydərdilər dəni.*

**ŞADARA** (Balakən) – süsəpən.

**ŞADARAŞAVAŞ: ŞADARAŞAVAŞ ELƏMƏXʹ** (Qazax) – hər hansı bir xəbəri yaymaq, xəbərçilik etmək. – *Bircə sa:tda şadaraşavaş eleyflər kin, Abbas o toydan gəlef.*

**ŞADARAY** (Qax) – işsiz, boş-boşuna, avara.

**ŞADDAX** (Zaqatala) – şad, dərdsiz, qəmsiz. – *Dostum, həmişə şaddaxsan, niyə?*

**ŞADRA** (Ucar) – çolaq.

**ŞAD-ŞADƏMƏR** (Xaçmaz) – şad, kefi kök. ◊ **Şad-şadəmər olmax** – şad olmaq, kefi kök olmaq. – *Arzu edirəm ki, həmişə şad-şadərəm olasız.*

**ŞAHAD** (Ağcabədi, Ağdam, Ağdərə, Bərdə, Borçalı, Naxçıvan, Zəngilan) – b a x **şa:d.** – *Dəyirmanın yə:si puta bir girvənkə şahad alırdı* (Ağdam); – *Dəyirmanda şahad verirıx* (Naxçıvan).

**ŞAHANDAZ** (Salyan) – məğrur, təkəbbürlü. – *Mə:m bibim şahandaz arvadıydı.*

**ŞAHATDIX** (Oğuz) – dəyirmanda üyüdülən dən üçün verilən haqq.

**ŞAHBACI** (Naxçıvan, Ordubad) – böyük baldız.

**ŞAHDAMAĞ** (Salyan) – lovğa. – *Sən də aton kimi şahdamağsan.*

**ŞAHDİ** (Tabasaran) – gavalı növü. – *Şahdi şirin uladu.*

**ŞAHĞARDAŞDIX** (Qazax) – evlənən oğlanın sağdış və soldışı.

**ŞAHI** (Mingəçevir) – ikiyaşar kəlçə.

**ŞAHİ** (Bakı) – dəyirmanda üyüdülən dən üçün verilən haqq. – *Dəyirmaçı u qədər tələsirdi ki, şahi almэgi də yadınnan çıxartdi.*

**ŞAHMƏHLƏMİ** (Cəbrayıl) – yabanı dərman bitkisi adı. – *Əlimin yarasını şahməhləmi tez sağaltdı.*

**ŞAHMƏNƏBAX** (Bakı) – parça adı.

**ŞAHNAMA** (Borçalı, Daşkəsən, Gədəbəy, Tovuz) – 1. lağ; 2. təhqir; 3. zarafat. ◊ **Şahnama eləməxʹ** (Borçalı, Daşkəsən, Gədəbəy, Tovuz) – 1. lağ etmək. – *Sən ma: şahnama elyirsəŋ.* – *Də:n uşaxlar maŋa şahnama eli:llər* (Tovuz); 2. zarafat etmək. – *Şahnama elər, a kişi, saŋa;* – *Nəŋ inceyisiŋ onnan, şahnama eley o həməşə* (Gədəbəy).

**ŞAHRAZ** (Qazax) – üzügülər, xoşsifət. – *Çox şahraz oğlanıydı.*

**ŞAHTƏRƏ** (Gədəbəy, İrəvan) – yabanı dərman bitkisi adı. – *Bizim tərəflərdə şahtərə çoxdu.*

**ŞAHVAR** (Xaçmaz, Quba) – dağ küləyi, Şah dağı tərəfdən əsən külək.

**ŞAH-VƏZİR** (Şuşa) – uşaq oyunu adı.

**ŞAX** I (Kəlbəcər) – qədim asma tərəzinin qolu, tərəzinin gözləri asılan ağac. – *Tərəzinin şaxı ağaşdandı.*

**ŞAX** II (Borçalı, Daşkəsən, Tərtər) – 1. təzəbəy və ya gəlin üçün yaxın dostları tərəfindən hədiyyə olaraq gətirilən üzəri şirniyyat və meyvə ilə bəzədilmiş budaq. – *Züleyxa İreyhanın sağdışıdı, öz şaxını gəlinin otağına gətirdi* (Borçalı); – *Qızı bajılıx öyünnən çıxardanda şax bəziyillər* (Daşkəsən); – *Şaxı özünbə: verəllər* (Tərtər); 2. xonça.

**ŞAX** III (Gədəbəy, Zəngilan) – silos basdırmaq üçün istifadə olunan qarğıdalı gövdəsi, yaşıl kütlə. – *Maşınnar yazıdan şax daşıyır* (Zəngilan); – *Şaxnan saxladıx bu qış malı* (Gədəbəy).

**ŞAX** IV (Ağcabədi) – ağaclıq. – *Məktəv o şaxın yanındadı.*

**ŞAX** V (Şəki) – lobya bitkisinin sarmaşıb qalxması üçün onun dibinə basdırılan ağaclar.

**ŞAXDA-ŞEYİD OLMAX** (Şərur) – yorulmaq, əldən-dildən düşmək. – *Bı gün işdəməxʹdən şaxda-şeyid oldum.*

**ŞAXLAMAX** I (Ağdam, Bərdə, Göyçay, Mingəçevir, Şəki, Zəngilan) – qurdun barama

sarıması üçün üzərinə şax düzmək. – *Qurdu də:də şaxlamışıx* (Bərdə); – *Qurd qaro:ul göstərib, ikü:nnən so:ra şaxlıyacam* (Zəngilan); – *Qurd səggiz gün şirin ye:ir, so:ra şaxlıyırsan* (Göyçay); – *Üş gündü şaxlamışıx qurdu* (Şəki).

**ŞAXLAMAX** II (Şəki) – lobya bitkisinin sarmaşıb qalxması üçün onun dibinə ağaclar, çubuqlar basdırmaq. – *Lovyalıxda lovyə şaxlı:r dədəŋ, yeri unun ya:na.*

**ŞAXLAMAX** III (Cəbrayıl) – 1. həvəslənmək; 2. fəxr etmək.

**ŞAXŞAX** (İmişli) – xam atı öyrədərkən istifadə olunan enli ağac parçası. – *Şaxşaxnan dögəllərdi boynına atın, boynı nə:zilərdi.*

**ŞAXŞAQQI** (Ağdam, Ağcabədi, Tərtər) üzüm növü. – *Şaxşaqqı ağızda səsdənir yə:ndə, şirin olur* (Tərtər).

**ŞAXTİKAN** (Ağcabədi) – dəvətikanı, tikanlı yabanı bitki. – *Bu düzdərdə o qədər şaxtikanı bitir ki.*

**ŞAJ** (Qazax) – sac. – *Şajı qoy yerə.*

**ŞAJAYAX** (Qazax) – sacayaq.

**ŞAQAN** (Qax) – içərisinə taxıl tökmək üçün böyük yeşik.

**ŞAQAV** (Qax) – yetişməmiş, kal.

**ŞAQĞAMLAMAX** (Mingəçevir) – kiçik budaqları meyvə ilə birlikdə qırmaq.

**ŞAQIRDAX** (Şəki) – tamam islanmış. – *Ətəyim heyləcə şaqırdaxdı.*

**ŞAQQA** I (Ağdam, Quba, Mingəçevir, Şamaxı, Şəki, Tovuz) – 1. kəsilmiş qoyun və ya malın ortasından yarıya bölünmüş hissəsi. – *U, quyunun bir şaqqasun üzünə saxladı* (Quba); – *Bi şaqqa ətinən bizi bojdı elə:r* (Şamaxı); 2. hissə, tərəf (Şəki). – *Kəndin uxarı şaqqasında öy azdı;* – *Havı şaqqa meşə olufdu keşmişdə* (Şəki).

**ŞAQQA** II (Tovuz) – nəsil, tirə. – *Bizim bu kət iki şaqqadı.*

**ŞAQQA** III (Bakı) – köhnə palaz parçası.

**ŞAQQA** IV (Salyan) – yetişməmiş əncir.

**ŞAQQA** V (Daşkəsən, Gədəbəy, Goranboy, Xanlar, Qazax) – şaxta, soyuq. – *Bu qış yaman şaqqa oldu, mal-qaranı güjnən saxlamışıx* (Goranboy); – *Burada qış şaqqo:loy* (Daşkəsən); – *Bi:l yaman şaqqa oldu* (Xanlar). ◊ **Şaqqa vurmax** (Daşkəsən, Gədəbəy, Qazax) – şaxta vurmaq, şaxtadan donub xarab olmaq. – *Ərix′ çox olardı, ənbə şaqqa vurdu* (Qazax).

**ŞAQQA** VI (Dərbənd) – mürəkkəb. – *Şaqqa çernilə deyilədi.*

**ŞAQQALI** (Ağdam, Şuşa) – boy-buxunlu, qamətli. – *Şaqqalı oğlandı, özü də xasiyəti qəşəx′di* (Ağdam).

**ŞAQQAMA** (Zaqatala) – isti, od kimi.

**ŞAQQANAX** (Füzuli) – açılmamış, qalıb qurumuş pambıq qozası.

**ŞAQQARAKƏHƏR** (Salyan) – utanmadan, çəkinmədən; həyasızcasına. – *Uşağ şaqqarakəhər üzümə dirənir ki, bu sözi demisən.*

**ŞAQQARRAMAX** I (Hamamlı) – bərk döymək. – *Allahverdi Vəlini o kun var şaqqarradı.*

**ŞAQQARRAMAX** II (Kürdəmir) – qırmaq, sındırmaq, qoparmaq. – *Ağajdarı şaqqarrayıb tökdülər yerə.*

**ŞAQQATÜKƏN** (Dərbənd) – mürəkkəbqabı. – *Hindi şaqqatükən işdənmiyədi.*

**ŞAQQAVATDI** (Meğri) – boy-buxunlu, iri qamətli. – *Heydər şaqqavatdı iyididi.*

**ŞAQQILDAĞ** I (Xaçmaz, Kürdəmir, Quba) – qoyunun quyruğu ətrafındakı tüklərə yapışaraq qalıb qurumuş qığlar.

**ŞAQQILDAĞ** II (Lənkəran) – yetişməmiş əncir. – *Bu incil yetişmi:b ki, hələ şaqqıldağdı.*

**ŞAQQILDAX** (Ağdam, Göyçay, Qarakilsə, Qazax, Mingəçevir, Zəngilan) – b a x **şaqqıldağ** I. – *Ə:, bu qoyunun şaqqıldağını təmizdə, yazıxdı heyvan* (Ağdam).

**ŞAQQULAĞ** (Salyan) – dəniz çınqılı. – *Də:zin qıra:nda şaqqulağ çoxdı.*

**ŞAQOV** (Qax) – müxtəlif növ meyvə. – *Bazardan bir zənbil şaqov aldım.*

**ŞAL** (Şəki) – üstünə tut çırpmaq üçün xüsusi tikilib hazırlanmış iri parça. – *Tutu şala sirkələyrıx, bəhməz qayrırıx.*

**ŞALAX** I (Ağdam, Daşkəsən, Gədəbəy, Xanlar, Kəlbəcər) – gen, boş, lax <iri geyim haqqında>. – *Əynində bir şalax pencəyi var, elə bil ki, torbuya salıflar gədəni* (Ağdam); – *Şalax paltar yaxşı durmoyu adamda* (Daşkəsən); – *Paltar, timsalı əyninə yekə olanda deyillər şalaxdı* (Kəlbəcər); – *Yox, bu saŋa çox şalax duror, bir ayrısını seçəsəŋ gərəx′* (Gədəbəy); – *Bu paltar səniŋ əyniŋə şalaxdı* (Xanlar).

**ŞALAX** II (Kəlbəcər, Oğuz, Şuşa) – pinti, səliqəsiz. – *Paltarı pis giyər şalax adam* (Oğuz); – *Nə şalaxsaŋ, üstüŋü, başıŋı nə patdağa bıleyasaŋ* (Kəlbəcər).

**ŞALAX** III (Xanlar) – gönülsüz, həvəssiz. – *Niyə şalax yere:ysən? – Xırmana qoşulan heyvanı sürən boş dursa, o da şalax yeriyər.*

**ŞALAX** IV (Borçalı) – aciz, əfəl. – *Pampağ o adama de:irix′ kin, şalağ adam olor.*

**ŞALAX** V (Borçalı, Culfa, Xanlar, Qax, Qazax, Ordubad) – çox yetişdiyi üçün yumşalmış qovun. – *Şalax iri olor, əmmə dassız olor* (Borçalı); – *Şalax dassız olor* (Xanlar).

**ŞALAX** VI (Qax) – əxlaqsız <qadın>.

**ŞALAX** VII (Qax) – əldən düşmüş, zəifləmiş.

**ŞALAXLAMAX** (Yevlax) – qocalmaq, əldən düşmək, zəifləmək. – *Mahmud çox şalaxlıyıf.*

**ŞALAXLANMAX** (Çənbərək) – doymaq. – *Buzoy açılıv, əmif şalaxlanıf.*

**ŞALAQQI** I (Borçalı, Gədəbəy) – işsiz, avara, boş-boşuna gəzən. – *Şalaqqı o adama deyillər ki, işini buraxıv avaralıx eli:r* (Borçalı); – *Oqtay şalaqqının biridi, duruf bir yerdə işdiyəmməz xeylax* (Gədəbəy).

**ŞALAQQI** II (Borçalı, Qazax) – nadinc, şuluq. – *Kənddə Nəsrəddinnən şalaqqı uşax yoxdu* (Borçalı).

**ŞALAMPIR** (Ağdam, Ağcabədi, Bərdə, Tərtər, Yevlax) – qoyun əti və içalatından hazırlanan xörək növü. – *Ətin hər yerinnən töküllər qazana, ala-çiy eli:llər, tez yeməx′çün de:illər şalampır* (Ağdam); – *Şalampırın qartofu, soğanı olmur* (Yevlax).

**ŞALAMPUR** (Ağcabədi, Bərdə, Tərtər, Yevlax) – b a x **şalampır.** – *Şalampuru payız ye:illər* (Bərdə).

**ŞALAT** (Ordubad, Şahbuz) – xış.

**ŞALATDI** (Bakı) – səliqəsiz, pinti. – *Qız da bu qədər şalatdı olar?*

**ŞALAŞ** I ((Başkeçid) – nadinc.

**ŞALAŞ** II (Salyan) – çardaq. – *Arvaddarın biri şalaşda uşaxlara baxır.*

**ŞALAYIN** (Mərəzə) – lovğa. – *Az şalayın ol.*

**ŞALDIRĞAN** (Gəncə) – kiçik şəlalə.

**ŞALEYİN** (Göyçay) – pinti.

**ŞALĞAM** (Bolnisi, Borçalı) – qırmızı turp. – *Şalğam turpdan balaja olar, özü də qırmızı oloy yemə:* (Borçalı).

**ŞALTAX** (Ağdam) – köhnəlmiş ayaqqabı. – *Şaltaxları gəti geyim.*

**ŞALVARÇAĞ** (Cəlilabad) – şalvarsız, tumançaq. – *Şalvarçağ gəzmə, qıçun tey toz oley axi.*

**ŞAM** (Cəlilabad) – çay. – *Şam derüg çaya, məsələn, mal gedibdi şama su içməyə.*

**ŞAMADAT: ŞAMADAT VERMƏG** (Salyan) – acıq vermək. – *Uşaxlar savaşanda bir-birinə şamadat verir, onu hirsləndirir.*

**ŞAMARTI** (Borçalı, Qazax) – yığıncaq. – *Bir adam oğluna xeyir iş tutor, cahalları başına yığer, sonra şamartı eler* (Borçalı).

**ŞAMAT** (Lənkəran) – balıq torunu saxlayan dirək.

**ŞAMATOL** I (Cəbrayıl) – dikbaş.

**ŞAMATOL** II (Cəbrayıl) – üzügülər, xoşxasiyyət.

**ŞAMAXI** I (Ucar) – ölçü vahidi. – *Bu il on şamaxı barama oldu.*

**ŞAMAXI** II (Cəbrayıl, Füzuli, Kəlbəcər, Laçın, Meğri, Zəngilan) – kəlağayı. – *Akif Bakıdan gələndə nənəsinə bir şamaxı almışdı* (Zəngilan); – *Şamaxıdan yun şal baha olur* (Kəlbəcər); – *Ma: bir Gəncə şamaxısı al* (Laçın); – *Hasana deyarsaŋ, anan deyirdi ki, bir qara şamaxı alıb yullasın* (Meğri); – *Dövlətdilər şamaxı örtürdü* (Füzuli); – *Nənəm mã; bir şamaxı alıb* (Cəbrayıl).

**ŞAMBA** (Goranboy) – şamama. – *Şambanın toxumu oler, əkillər, yaxşı iyisi oler.*

**ŞA:MİRZƏ** (Şamaxı) – böyük qayın.

**ŞAMI** (Lənkəran) – tavakababı.

**ŞAMKABABI** (Yevlax) – döyülmüş ətdən tavada bişirilən kotletə oxşar xörək adı.

**ŞAMKABAF** (Şuşa) – b a x **şamkababı.** – *Gəlsəŋə, bü:n sa: bir yaxşı şamkabaf pişirim.*

**ŞAMLIX** (Cəbrayıl, Zəngilan) – qamışlıq. – *Şamlıxlar indi əkin yerinə çəvrilif* (Zəngilan).

**ŞAMOY** (Ağbaba) – qoyun sürüsünün qabağında gedən erkək keçi. – *Şamoyu qabağa sürmək lazımdı.*

**ŞAMPIR** I (Goranboy) – qoyun əti və içalatdan öz yağında bişirilən xörək adı. – *Kələ-*

*pırnan şampır ikisi bir şeydi.* ◊ **Şampır eləməx′** (Mingəçevir) – yüngülvarı yemək, qəlyanaltı eləmək.

**ŞAMPIR** II (Çənbərək) – yaş, nəm. – *Yağışdan paltarımız şampırdı.* ◊ **Şampır eləməx′** (Qazax) – islatmaq. – *Yağış bizi şampır elədi.*

**ŞAMPIRRAMAX** (Gədəbəy) – möhkəm döymək. – *Nə:ŋ qədyi şampırreysıŋ, a qıvlasız?*

**ŞAMUR** (Culfa) – böyük şana.

**ŞAN** I (Xanlar) – əlamət, nişan. – *Biz qoyunu şanıynan də:rix′, axı.*

**ŞAN** II (Daşkəsən, Xanlar, Qazax) – nişan, oğlanın qız evinə göndərdiyi üzük, geyim və s. – *Xaccanın qızına şan gəlif* (Qazax); – *Qızı versə, bəlyə apareriх, şan apareriх* (Daşkəsən). ◊ **Şan qoymax** (Qazax) – nişanlamaq. – *Bir-ikijə ağ tüx′lü aparıf, şan qoyorux gəlinə.*

**ŞAN** III (Dərbənd) – dördçarxlı arabanın yan taxtalarının möhkəm dayanması üçün banın kənarlarına bərkidilən şaquli ağaclar.

**ŞANA** I (Şəki) – papaqçıların papağın tükünü hamarlamaq üçün istifadə etdikləri alət. – *Papağın tükünü şana ilə hamarra.*

**ŞANA** II (Çənbərək) – xörək yemək üçün çəngəl.

**ŞANAYİLLƏ** (Sabirabad) – nilufər.

**ŞANAPƏPƏ** (Lerik) – şanapipik.

**ŞANQARRAMAĞ** (Salyan) – alma, heyva və s. tək-tək deyil, siyirməklə yığmaq. – *A bala, almaları nöşün şanqarrıyırsan, mərifətdi yığsana.*

**ŞANQAŞA** (Cəbrayıl) – təmtəraq, dəbdəbə.

**ŞA:NİŞİN** (Bakı) – arabada arabaçının oturduğu yer. – *Otur şa:nəşinün üstünə, sür getsin.*

**ŞANNAMAX** (Xanlar, Qazax) – nişanlamaq, adaxlamaq. – *Qo:mnan-zaddan yığıf getdix′ qızı şannadıx.*

**ŞANNI** (Qazax) – nişanlı, adaxlı.

**ŞANNILI** (Qazax) – nişanlı, adaxlı.

**ŞAN-ÇAYAN** – (Kəlbəcər) – ilan-əqrəb. – *Söz var deillər: Səni şan-çayan vırsın.*

**ŞAPBA** (Başkeçid) – sadəlövh.

**ŞAPBADAN** (Ağdam) – birdən, qəflətən. – *Bir dəö:ürdüm şapbadan girdi içəri.* ◊ **Şapbadanqulu** (Şəmkir) – birdən-birə, qəflətən, gözlənilmədən. – *Axşam oturuf söhvət elerdix′, şapbadanqulu öyə bir navələt adam girdi.*

**ŞAPBIR** (Meğri) – sahəcə böyük, iri. – *Ombara motallıx bir keçi dərisi verdim, bir yunlu şapbır qoyun dərisi aldım.*

**ŞAPALAX** (Çənbərək) – hananın oxu altına qoyulan ağac parçası. – *Oxu qaldır, şapalağı altına qoy.*

**ŞAPALAXLAMAX** (Ucar) – ovuclayıb yemək. – *Kərim kişi aşı şapalaxladı.*

**ŞAPATDAMAĞ** (İmişli) – bərk döymək. – *Öküzü niyə şapatdıyırsan?*

**ŞA:PƏLƏNG** (Dərbənd) – yarasa. – *Uşağı ulməyən xatunnar şa:pələngi başlərinnən keçürədülər ki, uşağı ulsun.*

**ŞAPBIR** (Sabirabad) – ev ayaqqabısı, evdə geyilən dabanı əzik köhnə ayaqqabı.

**ŞAPI** (Zərdab) – ev ayaqqabısı, evdə geyilən dabanı əzik köhnə ayaqqabı.

**ŞAPIR** (Ağdam) – yabanı bitki adı.

**ŞAPPA** (Kürdəmir) – yüngül ayaqqabı, çust. – *Usta Yusif yaxçı şappa tikərdi.*

**ŞAPPANNAMAX** (Qarakilsə) – səliqəsiz şəkildə yığmaq. – *Əşi, kimdi yığan, bıradan-oradan şapannıyıplar.*

**ŞAPPAXEYİR** (Bakı) – uşağa ad qoyulan gün. – *Bu axşam Bikənün qızınun şappaxeyridü.*

**ŞAPPIR** (Qazax) – kabab.

**ŞAP-ŞAP** (Bakı, Cəlilabad, Lənkəran) – ev ayaqqabısı, evdə geyilən dabanı əzik köhnə ayaqqabı. – *Əğiz, u şap-şapları vər geyim, görüm bayir-bucağda nə var, nə yox* (Bakı); – *Mənim şap-şapımın bir tayın it aparıb* (Lənkəran).

**ŞAPŞAPI** (Kürdəmir, Zərdab) – ev ayaqqabısı, evdə geyilən dabanı əzik köhnə ayaqqabı. – *Ay kişi, ayaqqabını hər də:ğə geyinib soyunmağ olmur, mana bir şapşapı alsana.* – *Sənin ayağın sınsın, ay bala, təzə ayaqqabını şapşapıya döndərmisən* (Zərdab).

**ŞAP-ŞUP** (Bakı) – b a x **şap-şap.** – *Mənim şap-şuplarım hardadı?*

**ŞAR** (Culfa) – vaxt. – *Biz Qarağan ağlında yatmışdıx, gecənin bir şarında baxdım gördüm itdər basır.*

**ŞAR-ŞAR** (Mingəçevir) – şəlalə.

**ŞARAKƏT** (Salyan) – pambıq qəbulu məntəqəsi. – *Hamı pammığı şarakətə tə:fil verərdi.*

**ŞARAKƏTDƏMƏG** (Salyan) – mülayimləşmək. – *Hava şarakətdənsin, so:ra gedərsuz.*

**ŞARAL** (Tabasaran) – soxulcan. – *Ğazüdüm-ğazüdüm, şaral çixmədi ki, baluğ tutmağa.*

**ŞARATMA** (Qazax) – inqilabdan əvvəl seçkidə səsvermə üsulu, qutuya müxtəlif rəngli şar salmaq yolu ilə səsvermə. – *Şaratma qavaxlar olurdu.*

**ŞARAF** (Yevlax, Zaqatala) – 1. alçadan hazırlanan turşu; 2. narşərab. – *Şaraf turş olur, kavafan yi:llər* (Yevlax).

**ŞARBAD** (Tabasaran) – evin bünövrəsi üçün qazılan xəndək. – *Baba evlərün şarbadin atub qurtalutdu.*

**ŞARPANNAMAX** (Çənbərək) – döymək, vurmaq. – *Şarpannadı qırdı qoruxçular çovannarı.*

**ŞARTÖX'DÜ** (Tovuz) – inqilabdan əvvəl səsvermə üsülü; qutuya müxtəlif rəngli şar salmaq yolu ilə səsvermə.

**ŞARTULLADI** (Tovuz) – inqilabdan əvvəl səsvermə üsülü; qutuya müxtəlif rəngli şar salmaq yolu ilə səsvermə.

**ŞAŞANDAZ** (Bakı) – xörək adı.

**ŞA:T** I (Daşkəsən, Gədəbəy, Mingəçevir) – b a x **şa:d.** – *Qolxozda qərar çıxdı kın, dəyirmənçiyə şa:t əvəzinə pul versinlər* (Gədəbəy).

**ŞA:T** II (Mingəçevir) – şahid. – *Gedək sən də şa:t dur maŋa.*

**ŞATA** (Lənkəran) – çolaq, axsaq. – *Şata Zümrüdə di, zəmbilimizi vərsün.*

**ŞATAL** I (Qax, Oğuz, Şəki, Zaqatala) – xüsusi toxunmuş corab növü (ayaqqabı əvəzinə geyilir). – *A qız, mənim şatalımı ver giyim* (Şəki).

**ŞATAL** II (Qax) – əsgidən düzəldilmiş top.

**ŞATANAXLI** (Karvansaray) – pinti, səliqəsiz. – *Əpbəx' vermiyəsəŋ şatanaxlı arvada.*

**ŞA:TƏRƏ** (Şərur) – yabanı dərman bitkisi. – *Şa:tərə arayı qaşınma üçündü.*

**ŞATIMAĞ** (Salyan) – piyada getmək. – *Qoca kişidi, hər yerə şatıyır.*

**ŞATIR** (Bakı, İrəvan) – çörəkyapan. – *Şatırı dur çağır bıra* (Bakı).

**ŞATIRI** (Ağsu, Cəlilabad, Kürdəmir, Lənkəran, Tərtər) – aşılanmış göndən hazırlanan çarıq. – *Qocalar şatırı geyməyi xoşdiyillər* (Ağsu); – *Şatırı çarıx möhkəm olur* (Kürdəmir); – *Bağır şatırı çarıx geymişdi* (Lənkəran); – *O və:də şatırı çarığı varrılar geyərdi* (Tərtər).

☐ **Şatırı çıxmağ** (Salyan) – yorulmaq, əldən düşmək.

**ŞATIRRIX** (Bakı, İrəvan) – çörəkyapma, çörəkbişirmə sənəti. – *Onun işi burda şatırrıx olub* (İrəvan).

**ŞAVA:T** (Qarakilsə) – hörmət. ◊ **Şava:tı artığ olmax** – hörməti artıq olmaq. – *Şava:tın artıx olsun.*

**ŞAVAX** I (Qarakilsə) – dağ aşırımı. – *Nəbiyi mən ancax bircə yol şavaxdan aşanda gördüm.*

**ŞAVAX** II (Qarakilsə) – şüa, işıq. – *Şavax gözümə düşür.*

**ŞAVRU** (Qax) – avara.

**ŞAY** (Ağcabədi, Cəbrayıl, Füzuli, Qazax, Mingəçevir, Oğuz, Şərur, Şuşa) – şad, sevincli, şən. – *Şay adamın ürəyində paxıllığ olmaz* (Şuşa). ◊ **Şay bilməx'** (Ağcabədi, Füzuli, Şuşa) – fəxr etmək. – *Qona:m bizdə yeyib-işsə, mən şay billəm* (Ağcabədi); – *Onun bizə gəlməsini mən özümə şay billəm* (Füzuli); – *Siznən olma:ı şay billəm* (Şuşa). **Şay olmax** (Qazax, Mingəçevir, Şərur) – şad olmaq, sevinmək. – *Bir-birimizin əhvalını xavar alırıx, şay olurux* (Qazax); – *Pambıx pılanı dolsa, biz şay ollux* (Şərur).

**ŞAYAN** (Gəncə, Xanlar) – əqrəb. – *Şayan uzun quyruxlu olur, köylün tüşmanıdı* (Xanlar).

**ŞAYO** (Oğuz) – yabanı bitki adı. – *Şayonu heyvan kişmiş kimi yi:r.*

**ŞAYRIX** (Gəncə, Goranboy, Xanlar) – balığudan, balıqla qidalanan quş adı. – *Şayrıx yekə quşdu, qışdarı saf olur* (Goranboy); – *Şayrıx ən çox şoran yerrərdə, Kürün qıra:ında olur* (Xanlar).

**ŞEBBƏ** (Telavi) – şikəst.

**ŞEBƏDƏ** (Bakı) – rişxənd, lağ. ◊ **Şebədiyə qoymağ** – lağa qoymaq, rişxənd etmək, ələ salmaq.

**ŞEHDƏRƏN** (Xanlar) – yabanı dərman bitkisi. – *Şehdərənin balaja-balaja sarı çiçəyi oley; – Şehdərənin çayın da içellər.*

**ŞEHTÖKƏN** (Tovuz) – yabanı dərman bitkisi. – *Ürəyi tutuluf so:x dəyanə xeyirdi şehtökən.*

**ŞEKƏRPARA** (Dəvəçi) – çox şirin qovun növü.

**ŞEKKİ** (Dərbənd) – armud növü. – *Şekkidən yaxşi qax uladu.*

**ŞEL** I (Cəlilabad, Əli Bayramlı, Kürdəmir, Lənkəran) – 1. qol-budaq. ◊ **Şel atmax** (Cəlilabad, Lənkəran) – qol-budaq atmaq. – *Həyatimizdə boranı tağları şel atıb* (Lənkəran); – *Çiyələg tez şel atey* (Cəlilabad); 2. kol-kos. – *Kürün qırağına getmişdim, suyun üzü tey şeldi* (Əli Bayramlı).

**ŞEL** II (Salyan) – tənəkdən düzəldilən talvar. – *Bağda bı il şel düzəldəcəm.*

**ŞELƏ** (Meğri) – çəyirtkə növü.

**ŞELİNTİ** (Salyan) – çayın gətirdiyi kol-kos qırıntıları.

**ŞELLƏNMƏX′** (Zaqatala, Zəngilan) – lovğalanmaq, özünü çəkmək, qürrələnmək. – *Anası didikçə, oğlu da şellənirdi* (Zaqatala); – *Heç şellənmə, cücəni payızda sayallar* (Zəngilan).

**ŞELLİ** I (İmişli) – yüngülxasiyyət. – *Ə:, nə şelli uşağsan, ağır otı, dur dənə.*

**ŞELLİ** II (Salyan) – lovğa, özünü çəkən.

**ŞELPİX′** (İrəvan) – yağsız ət.

**ŞELPİK** (İrəvan) – yavan, yağsız (ət).

**ŞEN** (Gəncə, İrəvan) – abad. – *Çox sağ ol, evün şen olsun.*

**ŞENNƏTMƏY** (İrəvan) – abad etmək, abadlaşdırmaq. – *Bu şə:ri təzə-təzə şennədilər.*

**ŞENNİX′** (Ağdərə, Bolnisi, Borçalı, Böyük Qarakilsə, Gəncə, Goranboy, Hamamlı, Xanlar, Qazax, Oğuz, Tovuz, Yevlax) – b a x **şenniy.** – *Mən aşaxkı şennix′dənəm* (Qazax); – *Buranın mə:limnəri də elə bu şennix′dəndilər* (Gəncə); – *Elə şenniyin kötüyü bizix′* (Ağdərə); – *Mən çoxdan, lap əzəldən bu şennix′də yaşe:ram* (Borçalı); – *Ə:, bir dur şenniyin arasına çıxax, görəx′ nə var* (Hamamlı); – *Hansı şennix′dənsən?* (Tovuz); – *Şenniymizdə oxumuş çoxdu* (Xanlar).

**ŞENNİY** I (İrəvan) – 1. kənd, oba, yaşayış məntəqəsi. – *Odu, deyəsən orda şenniy var;* 2. kəndin bir hissəsi, məhəllə.

**ŞENNİY** II (İrəvan) – abad. – *Buralar şenniydi.*

**ŞENNİYLİ** (İrəvan) – abad olan. – *Bura yaxçı şenniyli yerdi.*

**ŞENNİYSİZ** (İrəvan) – abad olmayan. – *Orda nə var, şenniysiz yerdi.*

**ŞERAMAT** (Ordubad) – cəld, tez. – *Mən də şeramat gəldim ki, görəsən nə var!*

**ŞETƏ** (Meğri) – tənək kəsmək üçün xüsusi mişar. – *İndi Əldərədə şetə nə:zer.*

**ŞETİXANI** (Cəbrayıl) – qəşəng, yaraşıqlı, gözəl. – *Çox şetixanı uşaxdı.*

**ŞEŞ** (Xocavənd) – dik. – *Anan qomral əvrəşdi, qoyun; – Ay qarannıx gejədə çovana yoldaşdı qoyun. Ay məmələrin şeşdi, qoyun.*

**ŞEŞAL** (Dərbənd, Tabasaran) – kisə. – *Dügi tükədig şeşala* (Tabasaran).

**ŞEŞALQA** (Ordubad) – 1. boyunduruqla xışın qolunu birləşdirən dəmir qarmaq. – *Şeşalqa boyunduruxnan bazını birrəşdirir;* 2. zəncirin son həlqəsinə bağlanan dəmir qarmaq.

**ŞEŞAMADİ** (Başkeçid) – xörək adı. – *Ya:sın bir qav şeşamadi yedi.*

**ŞEŞAN** (Füzuli) – qablama. – *Şeşana şağırdıx südü.*

**ŞEŞDƏNƏX′** (Oğuz) – xörək adı; qızardılmış soğan və yumurtadan hazırlanan yemək adı. – *Şeşdənəx′ göy soğannan olmur, baş soğannan olur.*

**ŞEŞDƏNƏX′Lİ** (Oğuz) – qızardılmış soğan və yumurtadan hazırlanan qara növü. – *Şeşdənəx′li aşı çox pişirrix bu tərəflərdə.*

**ŞEŞDƏNG** (Bakı) – arıq.

**ŞEŞDİ** (İrəvan) – lüləsinin içərisində yiv olan tüfəng, yivli tüfəng. – *Şeşdi tüfəylər yaxçı atıllar.*

**ŞEŞƏ** I (Kürdəmir, Mingəçevir, Oğuz, Şəmkir) – dik. – *Şeşə buynuz cöngədən yaxşı öküz çıxajax* (Şəmkir).

**ŞEŞƏ** II (Şəmkir) – xüdpəsənd. – *Şeşə adamnan mənim heç aram yoxdu.*

**ŞEŞƏ-QOZA** (Salyan) – havayı, hədər yerə. – *Pulları şeşə-qoza xəjdədü qutardı.*

**ŞEŞƏL** (Dərbənd) – kisə. – *Üç şeşəl un aldüm, gətürdüm.*

**ŞEŞƏLƏNMƏX′** (Gəncə, Qazax) – b a x **şeşələnməy.**

**ŞEŞƏLƏNMƏY** (Cəlilabad, İrəvan) – 1. qürurlanmaq; 2. özünü yüksək tutmaq, özünü çəkmək. – *Nə belə şeşələnirsən?* (İrəvan).

**ŞEŞƏLQƏ** (Ordubad) – b a x **şeşalqa.** – *Biz keçən il yer sürürdüx′, birdən xışın şeşəlqəsi qırıldı; – Şeşəlqə zəncirdə olar ki, arabıya lazımdı.*

**ŞEŞƏMADI** I (Borçalı) – lobya və soğandan hazırlanan xörək adı.

**ŞEŞƏMADI** II (Qazax) – ədalı, əda ilə. – *Yaman uşaxdı, gör ağajı əlində nejə şeşəmadı tutor.*

**ŞEŞƏMODU** (Gəncə) – b a x **şeşəmadı** I. – *Bizim uşaxlar şeşəmodunu çox yi:llər.*

**ŞEŞƏN** (Tovuz) – dik buynuzlu, şiş buynuzlu. – *Şeşən inəx′ davakar olar.*

**ŞEŞİD** (Şəmkir) – dik, şiş buynuz. – *Se:izin buynuzu şeşid olur.*

**ŞEŞİTDƏŞMƏX′** (Cəbrayıl) – yaxşılaşmaq.

**ŞEŞSİZ** (İrəvan) – lüləsində yiv olmayan (tüfəng). – *Şeşsiz tüfəngnən nişan vurmax olmaz.*

**ŞEŞTİRƏNGİ** (Şuşa) – aş qarası.

**ŞEYDALI** (Meğri) – forslu, qürurlu. – *Heydərqulu Ernəzər çahıllarının hamısınnan şeydalıdı.*

**ŞEYHƏ** (İrəvan) – qışqırıq, çığır-bağır, hay-küy. ◊ **Şeyhə salmax** (İrəvan) – qışqırmaq, çığır-bağır salmaq. – *Bir şeyhə salmışdı ki, gəl görəsən.* **Şeyhə çəkmək** (İrəvan) – qışqırmaq, hay-küy salmaq. – *Nə şeyhə çəkirsən?*

**ŞEYNƏM** (Quba) – şeh. – *Yazda sə:rrər həmişə şeynəm düşədi.*

**ŞEYRANNANMAX** (Çənbərək) – razılaşmaq. – *Şıxalı şeyrannanır; – Də:ŋ da şeyrannanırsaŋ.*

**ŞEYTAN** I (Ağcabədi, Astara, İmişli, Qazax, Şəmkir) – tüfəngin tətiyi. – *Şeytana toxunma, tühəg açılar* (Ağcabədi).

**ŞEYTAN** II (Quba, Ordubad) – xəbərçi. – *Şeytan adamun süzünə gərək hiç qulağ asmiyəsən* (Ordubad).

**ŞEYTAN** III (Ağcabədi, Borçalı, Goranboy) – ilbiz. – *Şeytan nəm yerdə çox olur* (Goranboy).

**ŞEYTANXINASI** (Kürdəmir) – göbələk növü adı. – *Şeytanxınasınnan əllərə xına qoyuruğ.*

**ŞEYTANPAPAX** (Qax) – göbələk növü adı. – *Lala bi taqa kura, bi taqa şeytanpapax qetirdi.*

**ŞEYTANTƏNBƏKİSİ** (İrəvan) – göbələk növü adı. – *O, şeytantənbəkisidi, yeməli deyil.*

**ŞƏBBƏDƏNXEYİR** (Ağdam, Şuşa, Tovuz, Zəngilan) – b a x **şabbadanxeyir.** – *Bir dəö:ürdüm budu, şəbbədənxeyir içəri girdi* (Ağdam).

**ŞƏBBƏXEYİR** (Bakı) – b a x **şappaxeyir.** – *Bu gün Tünzalənün şəbbəxeyridü.*

**ŞƏBBƏLƏNMƏX′** (Gəncə) – bərk əsəbiləşmək, hirslənmək.

**ŞƏBBƏLİ** (Xanlar, Şəmkir) – çox əsəbi, tez hirslənən. – *Şəbbəli adamnan nə uşağ olar?* (Şəmkir); – *Belə şəbbəli atı minənin özü də şəbbəlidi ki, bərk sürür* (Xanlar).

**ŞƏBEY** (Salyan) – görkəm; hal, vəziyyət. – *Kişinin baş-gözi ağarıb, adam şəbeyinnən çıxıb.*

**ŞƏBƏDƏ** (Bakı, Goranboy, Qazax, Lənkəran, Şuşa) – b a x **şebədə.** ◊ **Şəbədə eləməg** (Goranboy, Lənkəran) – rişxənd etmək, lağ etmək. – *Sənin yerişinə şəbədə eliyillər* (Lənkəran). **Şəbədiyə qoymax** (Ağdam, Lənkəran) Şuşa) – rişxənd etmək, lağ etmək. – *De:llər məni şəbədiyə qoyursaŋ uşaxların arasında* (Ağdam).

**ŞƏBƏLİ** (Qax) – ağıldankəm, dəli xasiyyət.

**ŞƏBƏR** (Salyan) – kir, çirk. – *Uşağın üstbaşınnan şəbər yağır.*

**ŞƏBƏLİN** (İsmayıllı) – yeməli bitki adı. – *Əhməd, şəbəlin yeməyə getmirsən?*

**ŞƏBKULA** (Bakı) – gecəpapağı. – *U şəbkula:mi vər qoyum, yatmağ isdirəm.*

**ŞƏDDƏ** I (Qazax, Lənkəran) – qadın baş örtüyü.

**ŞƏDDƏ** II (Goranboy, Hamamlı, Laçın, Yevlax, Zərdab) – pambıqdan toxunmuş bəzəkli palaz, kilim. – *Dünən bazardan bir şəddə aldım* (Zərdab); – *Şəddə tufara vurulur* (Yevlax); – *Cəlil oğlunun toyunda bir şəddə verdi* (Hamamlı); – *Ay qız, şəddənin tozunu çırp* (Laçın).

**ŞƏDDƏ** III (Hamamlı) – gərdək. – *Təzə:lən gəlin utanırdı, bir həfdə şəddənin dalında oturdu.*

**ŞƏDDƏT** (Böyük Qarakilsə, Meğri) – adət və ənənəyə qarşı çıxan, dinə qarşı çıxan. – *Kim ki Allaha inanmır, ona şəddət deyillər Leyfazda* (Böyük Qarakilsə).

**ŞƏDƏBƏ** (Ağcabədi) – b a x **şebədə.** ◊ **Şədəbə qoşmax** (Ağcabədi) – lağ etmək. – *Peşəsi ona-buna şədəbə qoşmaxdı.*

**ŞƏDƏNƏXʹ** (Cəbrayıl) – boş, tarım çəkilməmiş.

**ŞƏF** (Zəngilan) – ağac növü. – *Şəfin qaqqası* (meyvəsi) *olmur.*

**ŞƏFEYİ** (Culfa) – üzüm növü.

**ŞƏFŞİRƏ** (Meğri) – şam yeməyindən sonra yeyilən meyvə. – *Axşam sizdə şəfşirə yiyip dağılannan su:ra getdıx Əhmədgilə.*

**ŞƏFTƏ** (Dərbənd, Tabasaran) – cəftə. – *Qapunu şəftəsi yoxdu* (Dərbənd).

**ŞƏĞƏLEBƏ** (Bakı) – qarın. – *Qoynin şəğəlebəsin yu.*

**ŞƏHDİ** (Dərbənd) – gavalı növü. – *Şəhdi kiçik uladı.*

**ŞƏHRƏ** I (Balakən, Borçalı, Qax, Zaqatala) – küçə, yol. – *Şəhrədə toz göyə qalxır* (Balakən); – *Şəhrə-şəhrə gəzərəm, şəhrə gülə bəzərəm, ürək qara olmasa, gülə-gülə gəzərəm* (Zaqatala).

**ŞƏHRƏ** II (Şahbuz, Şərur) – qoyunun qabırğası üzərindəki yağ təbəqəsi. – *Şəhrə ətin qabırğasında olur* (Şərur).

**ŞƏHRƏLİ** (Naxçıvan, İrəvan) – yağlı ət, heyvan. – *Çox şəhrəli heyvandı* (İrəvan); – *Şəhrəli ət yeməli olur; – Kök qoyunda şəhrəli ət olar* (Naxçıvan).

**ŞƏHRƏSİZ** (İrəvan) – yağsız ət, heyvan. – *Lap şəhrəsiz ətdi.*

**ŞƏHRİ** (Şuşa) – əzazil, amansız. – *Şəhri arvadın öhdəsinnən ər də gələmmir, ajdaha da gələmmir.*

**ŞƏHLƏMƏK** (Ordubad) – yükləmək. – *Atı şəhləyin, çıxax gedax.*

**ŞƏ:Xʹ** (Meğri) – b a x **şəng.**

**ŞƏQQƏ** (Qax) – 1. tərəf; 2. nəsil.

**ŞƏKAŞIX** (Gədəbəy) – gülərüzlü, xoşsifət. – *Şəkaşıx oğlandı, görmö:rsəŋmi sufatınnan.*

**ŞƏKƏRBAĞI** (Lənkəran) – eşmə ip. – *Ədə, şəkərbağını bərk bağla.*

**ŞƏKƏRDAN** (Quba) – qənddan, qəndqabı.

**ŞƏKƏRDOSTU** (Ağsu) – dayıarvadı.

**ŞƏKƏRİ** (Ucar) – üzüm növü. – *Şəkəri üzüm yiyəndə xırtıldıyır.*

**ŞƏKƏRTÜKƏN** (Dərbənd) – qəndqabı, qənddan. – *Bunıyə şəkərtükən diyədüg.*

**ŞƏKKƏ** I (Qax) – b a x **şaqqa** I, 2.

**ŞƏKKƏ** II (Qax) – b a x **şaqqa** II.

**ŞƏKƏŞƏ** (Qardabani) – kasa.

**ŞƏKO:** (Göyçay) – xam otlaq.

**ŞƏL** I (Cəbrayıl, Qazax, Mingəçevir) – kiçik və nazik budaq. – *Yel bərk əsdiyinəö:rə ağacın şəlləri qırıx-qırıx oldu* (Qazax).

**ŞƏL** II (Oğuz) – yarpaq. – *Ağaşdan şəllər töküldü; – Payız şəli töküldü.*

**ŞƏL** III (Ağcabədi, Zəngilan) – üzərinə tənək dırmaşdırılmış ağac. – *Şəlin altında çay içirdixʹ, birdən Zeyniş gəldi* (Ağcabədi); – *Bı şəldə iki səbət üzüm var* (Zəngilan).

**ŞƏL** IV (Oğuz, Şəki) – lobya bitkisinin yanına basdırılan uzun ağac. – *Doxsan bağ şəl qırmışam* (Oğuz); – *Şəli dağdan qırıf gətiriyıx* (Şəki).

**ŞƏLƏFƏ** (Lənkəran) – yorğanın kənarlarına tikilən haşiyə.

**ŞƏLƏKƏT** (Lənkəran) – sakit (hava, dəniz). – *Dəniz şələkətdi.*

**ŞƏLƏLİ** (Ağcabədi) – gavalı növü. – *Şələli gavalıların başıdı.*

**ŞƏLƏMZAR** I (Cəbrayıl) – qız evinə göndərilən hədiyyə. – *Bu gün Gülgəz üçün şələmzar gedibdi.*

**ŞƏLƏMZAR** II (İrəvan) – müxtəlif əşya, şey, şələ-külə. – *Şələmzarın atın eşiyə.*

**ŞƏLƏTDƏNMƏK** (Lənkəran) – çoxlu geyinmək, altdan-üstdən möhkəm geyinmək.

**ŞƏLĞƏM** (Lənkəran) – iri ağ turp.

**ŞƏLİT** I (Ağdam, Şuşa) – paltar qurutmaq üçün ip. – *Paltarrarı şəlitdən yığ, də:səŋ, yağış yağajax* (Ağdam); – *Apar bu so:ruğu sər şəlitə, qurusun* (Şuşa). ◊ **Şəlit qurmax** (Ağdam) – paltar qurutmaq üçün ip çəkmək. – *Şəlit qur, paltarı qurudax.*

**ŞƏLİT** II (Xanlar) – köç zamanı ev əşyalarından düzəldilən bağlama. – *Sadıx qatırrarı gətirənəcən şəlitdəri hazırrıyax kı, tez yola düşəxʹ.*

**ŞƏLİTDƏMƏXʹ** (Çənbərək) – iplə bağlamaq, sarımaq. – *Barxanamı şəlitdədim.*

**ŞƏLLƏXʹ** (Gədəbəy) – uşağı dalına şələləmək üçün ip, parça. – *Uşağı şəlləxʹnən bağler bizdər.*

**ŞƏLLƏMAX** (Şəki) – lobyanın sarmaşması üçün onun dibinə uzun çubuq basdırmaq. – *Şəl də yoxdu ki, lovyəni şəlliyəsən.*

**ŞƏLLƏNMAX** (Şəki) – doymaq. – *Yiyif şəlləndin diyəsən.*

**ŞƏLNƏXʹ** (İmişli) – axmaq, yelbeyin. – *Ona ehtibar eləmə, o, şəlnəxʹ adamdı.*

**ŞƏLO:** (Ağcabədi) – qalın, sıx. – *Pambıx seyrəlməsə şəlo: olar.*

**ŞƏLPEXʹ** (Meğri) – böyük və sallaq quyruqlu qoyun.

**ŞƏLPƏ** (Bakı, Cəbrayıl, Gədəbəy, Goranboy, Kürdəmir, Quba, Mingəçevir, Salyan, Ucar) – 1. köhnə palaz; köhnə palaz parçası (Bakı, Cəbrayıl, Kürdəmir, Quba, Salyan, Ucar) – *Altuna şəlpə at, irah olsun* (Kürdəmir); – *Qapı ağzına şəlpə saldım* (Salyan); – *O şəlpəni gəti sər ocağın qırağına* (Cəbrayıl); 2. cır-cındır, köhnə parça, əsgi (Bakı, Goranboy, Gədəbəy, Quba, Mingəçevir). ◊ **Şəlpəsi işləməmək** (Kürdəmir) – işi düzəlməmək, kələyi baş tutmamaq. – *Onun şəlpəsi işləmədi burda.*

**ŞƏLPƏDODAX** (Zəngilan) – yekədodaq, sallaqdodaq.

**ŞƏLPƏXʹ** (Meğri) – b a x **şəlpexʹ.** – *Şəlpəxʹ qoyunnar kimi özõ: niyə çəkəmmirsəŋ?*

**ŞƏLPİY** (İrəvan) – keyfiyyətsiz, yağsız ət. – *Bu şəlpiyi niyə alıbsan?*

**ŞƏLPÜTƏ** (Biləsuvar) – xalça növü.

**ŞƏLTƏ** I (Ağdam, Böyük Qarakilsə, Goranboy, Xocalı, Kürdəmir, Qazax, Şuşa) – kişi alt tumanı. – *Əyləndə gədənin şəltəsi partdıyıf, cırılıf* (Ağdam); – *Şəltəni şalvarın altınnan giyillər* (Goranboy); – *Şalvarın altınnan geyillər, ona şəltə deyirdixʹ, indi tuman deyillər* (Xocalı); – *Altımnan şəltəm tüşürdü, güjnən gəlif çıxmışam* (Şuşa). ◊ **Şəltəsi işləməməxʹ** (Ağdam, Kürdəmir, Şuşa) – kələyi baş tutmamaq, hiyləsi baş tutmamaq. – *Də:-səŋ, onun burda şəltəsi işdəmədi, çıxıf getdi* (Ağdam); – *Səniŋ kimisinin şəltəsi buralarda işdəməz, a bala* (Şuşa).

**ŞƏLTƏ** II (Böyük Qarakilsə, Gədəbəy, Gəncə, Qazax, Qusar) – 1. cır-cındır; 2. köhnə palaz; 3. köhnə yorğan-döşək. – *Öyündə ikiş <iki-üç> şəltədən savayı nə var kın?* (Gədəbəy); – *Bu ku lap şəltədi* (Böyük Qarakilsə). ◊ **Şəltəsi üzgənməxʹ** (Gədəbəy) – vəziyyəti yaxşılaşmaq, pullanmaq. – *Qasımın da şəltəsi üzgəndi.*

**ŞƏLTƏ** III (Şəki) – qız evinə nişan aparılan gün. – *Şəltə qız öyünə parça aparan günə diyillər.*

**ŞƏLTƏK** (Goranboy) – köhnə ayaqqabı.

**ŞƏL-ŞÜL** (Meğri) – meyvə, mer-meyvə. – *Telli Fərəş, get bikkə şəl-şül gəti yəyəxʹ, genə hara dönsə sən bizdən çahılsan.*

**ŞƏMBƏLLƏ** (Culfa, Naxçıvan, Ordubad) – əkilən yem otu. – *Şəmbəlləni bir dəfə əkərıx, bir dəfə biçərıx* (Ordubad); – *Şəmbəllə yoncuya oxşar otdu, özü də yazda əkillər* (Culfa).

**ŞƏMÇIRAX** (Ordubad) – gecələr işıldayan cücü.

**ŞƏMƏXİ** (Qax) – qıfıl. – *Qəpuvuza şəməxi vurulsun.*

**ŞƏMƏGÜLİ** (Salyan) – dəmdəməki. – *Şəməgüli adamı başa salmağ çətindi.*

**ŞƏMƏLƏT** (İrəvan) – lağ, rişxənd. ◊ **Şəmələt eləməxʹ** (İrəvan) – lağ etmək, rişxənd etmək, ələ salmaq. – *Şəmələt eləmə.*

**ŞƏMSİ-QƏMƏR** (Bakı) – parça növü.

**ŞƏMŞINDIR** (Bakı) – cır-cındır, köhnə şey.

**ŞƏNBƏLƏ** (Cəbrayıl) – heyvanı hürküdüb qaçırmaq üçün onun quyruğuna bağlanan ağac budağı. – *Eşşəyin quyruğuna şənbələ bağladılar.*

**ŞƏNBƏRƏ** (Bakı) – yarasa, gecəquşu.

**ŞƏNBÜDÜM** (Şəki) – yüngülxasiyyətli. – *Şənbüdüm olma, ağır dur otur.*

**ŞƏNG** (Culfa, Meğri) – yüngülvarı yük. – *Bizzər atın üstünə qoyulan yüngül yükə şəng deyərıx* (Culfa).

**ŞƏNGLAMAX** (Meğri) – yükləmək (atı və s.). – *Qatiri şəngladım, şəngin üsdindan da mindim.*

**ŞƏNXLAMAX** (Meğri) – b a x **şənglamax.**

**ŞƏPƏ** I (Ağbaba, Meğri) – küləyin bir yerə topladığı qar yığını. – *Lij-teştinin başı üstə duran şəpə Mırğı çayında olan kətdərin dö:-lətidi* (Meğri).

**ŞƏPƏ** II (Ordubad) – ləpə, dalğa. – *Şəpə az qala məni basmışdı.*

**ŞƏPGÜLƏ** (Cəlilabad) – b a x **şəpkülah.** – *Köhnə şəpgülə qoydi başinə.*

**ŞƏPİK** I (İrəvan) – yavan, yağsız ət. – *Bu şəpik əti nəyə alıp gətiripsən, onnan heş zad çıxmaz.*

**ŞƏPİK** II (Kürdəmir, Şamaxı) – ev ayaqqabısı.

**ŞƏPİXʹ** (Basarkeçər) – b a x **şəpik** II. – *Şəpiyi əyağına alsana, yer soyuxdu.*

**ŞƏPKİ** (Qazax) – kotanın ağzı, kotanın torpağı kəsən hissəsi.

**ŞƏPKÜLAH** (Masallı) – gecəpapağı.

**ŞƏPPƏ** (Qazax) – eybəcər.

**ŞƏPPİLTİ** (Salyan) – ev başmağı. – *Hərənin bir cüt şəppiltisi var.*

**ŞƏRAB** (Zaqatala) – gavalı və ya zoğal turşusu.

**ŞƏRÇİL** (Böyük Qarakilsə, Şərur) – böhtançı. – *Bağır çox şərçil adamdı* (Böyük Qarakilsə); – *Gözü qırmızı adam şərçil olar* (Şərur).

**ŞƏRƏMƏT** I (Ağdam) – xoşsifət, xoşxasiyyət. – *Əhməd şərəmət adamdı.*

**ŞƏRƏMƏT** II (Cəbrayıl, Mingəçevir) – 1. ürəkdən, həvəslə; 2. ərklə.

**ŞƏRƏNG** (Quba) – kiçik səhəng.

**ŞƏRGÖZ** (Borçalı) – höcət, tərs. – *Şərgöz adam xoşuma gəlmir mənim.*

**ŞƏRXATA** (Gədəbəy) – yabanı dərman bitkisi. – *Şərxatanın uzun mal dili kimi yarpağı oloy.*

**ŞƏ:Rİ** (Basarkeçər) – çarıq növü. – *Malın dizin bütöy çıxardıf çarığın davanı eli:llər, üzünü tikillər, olur şə:ri çarıx.*

**ŞƏRİL** (Mingəçevir) – qırmızı qılçıqlı çəltik növü. – *Şəril qırmızı qılçıx olur, özü də altı aya yetişir.*

**ŞƏRİT** (Ağdam, Füzuli, Gədəbəy, Qarakilsə, Ordubad, İrəvan) – b a x **şəlit** I. – *Paltarrar hələdəmi şəritdədi, a:z?* (Gədəbəy); – *Nargilə paltarı şəritə sərmişdi* (Ordubad); – *Apar paltarı şəritə sər* (Füzuli).

**ŞƏRİTDƏMƏY** (İrəvan) – b a x **şəlitdəməxʹ**. – *Düşməz, bərk şəritdəmişəm.*

**ŞƏRKƏMLİ** (Zaqatala) – həvəskar. – *Ho at sürmağa yaman şərkəmlidi.*

**ŞƏRMƏ-ŞƏRMƏ** (Şəki) – yerli-yersiz. – *Şərmə-şərmə çırmanıf ortiyə düşmə.*

**ŞƏROV** (Ordubad) – şoraba. – *Keçən il çoxli şərovumuz variydi.*

**ŞƏROVLU** (İrəvan) – duzlu, duzlanmış. – *Şərovlu pənir niyə dadıxır?*

**ŞƏROVSUZ** (İrəvan) – düzsuz, duzlanmamış. – *Şərovsuz qalanda pənir qaxar da:.*

**ŞƏRPƏ** (Şəki) – döşəmə silmək üçün əsgi. – *A:z, Sona, şərpəni gəti, öyü sil.*

**ŞƏRŞƏMƏTƏ** (Meğri) – aravuran, böhtançı. – *Şərşəmətə Mohmıt gedey altda-üsdə dişinin dibinnən qurtaranı dey.*

**ŞƏRVAN: ŞƏRVAN OLMAX** (Şəki) – biabır olmaq, rüsvay olmaq. – *Qonşular içində şərvan oldux.*

**ŞƏRVƏTİ** (Başkeçid, Beyləqan, Borçalı, Daşkəsən, Gədəbəy, Qazax, Şəmkir, Tovuz, Zaqatala) – kiçik kasa, piyalə. – *Şərvətiyi ma: ver ordan* (Daşkəsən); – *Uşağın xörəyini şərvətiyə töxʹdüm* (Beyləqan); – *A:z, çalasıyı paxır şərvətidə saxlamıynan, xarav olar* (Gədəbəy); – *Bir şərvəti camış qaymağı var, yiyərsəŋmi* (Tovuz); – *O şərvətiyi apar, qaleylat* (Şəmkir).

**ŞƏSDİ** (İrəvan) – bədəncə iri. – *O, çox şəsdi oğlandı.*

**ŞƏŞƏLƏMƏK** (Lənkəran) – hədə-qorxu gəlmək, qorxutmaq.

**ŞƏŞGÜLLƏMƏXʹ** (Zəngilan) – yavanlığa qənaət etməmək, iri tikələrlə götürüb yemək. – *Bir kasa qatığı bir dayğada şəşgüllədilər qutardılar.*

**ŞƏŞİD** (İsmayıllı) – kələz, iri kərtənkələ. – *Çaylaxda çoxlu şəşid gördüm.*

**ŞƏT** (Gəncə) – mət. – *Biyanı qaynadırdılar, şəti çıxırdı, onnan dərman qayırırdılar.*

**ŞƏTƏ** (Qardabani, Qazax) – alaq təmizləmək üçün alət, alakeş.

**ŞƏTƏL** I (Qax, Quba, Oğuz, Şamaxı) – b a x **şatal** I. – *Şətəli ləzgilər giyir* (Qax).

**ŞƏTƏL** II (Ağdam, Astara, Bakı, Böyük Qarakilsə, Cəlilabad, Əli Bayramlı, Lənkəran, Oğuz, Salyan, Tovuz) – nadinc, dəcəl <uşaq>. – *Bu şətəl beş gün bizdə qalsa evi xaraba qoyar* (Lənkəran); – *Murad çox şətəl uşaxdı* (Salyan); – *Yaman şətəl uşağsən, heş sözə baxmeysən* (Cəlilabad).

**ŞƏTƏL** III (Bakı, Xanlar, Qazax, Laqodexi, Tovuz) – əngəl, ziyan, maneçilik. ◊ **Şətəl qatmax** (Ağdam, Bərdə) – mane olmaq, maneçilik etmək. – *Sən mənim işimə şətəl qatmasaŋ bağrıŋ çatdar* (Ağdam); – *Sən na:x yerə bu işə şətəl qatırsaŋ* (Bərdə). **Şətəli dəyməxʹ** (Xanlar, Qazax) – ziyanı dəymək, xətası dəymək. – *Buradan get, şətəliŋ bizə dəyər* (Qazax); – *Əlinin şətəli bizə dəydi*

(Xanlar). **Şətəli keşməx′** (Xanlar, Tovuz) – ziyanı dəymək, xatası dəymək. – *Şətəli sənnən keşdi, yoxsa razılaşmışdıx* (Tovuz); – *Mənnən nəyrazı olmaynan, şətəl ya sənnən keçir, ya da qardaşınnan* (Xanlar).

**ŞƏTƏLƏMƏY** (İrəvan) – alağını təmizləmək, alağını vurmaq. – *Bu yeri təzə şətələmişəm.*

**ŞƏTƏLLİK** (Əli Bayramlı) – nadinclik. ◊ **Şətəllik etmək** (Əli Bayramlı) – nadinclik etmək. – *Qulu çox şətəllik eli:r.*

**ŞƏTİ** I (Göyçay, İsmayıllı) – yaltaq.

**ŞƏTİ** II (Oğuz) – pinti, səliqəsiz. – *Mənim şəti adamnan xoşum gəlməz.*

**ŞƏVƏDƏ** (Gədəbəy, Qazax, Şəki, Tovuz) – bax **şebədə.** – *Didıxlarnın hamısı şəvədədi* (Şəki). ◊ **Şəvədə düzməx′** (Qazax) – lağ etmək, rişxənd etmək. – *Şəvədə düzmə!* **Şəvədə eləməx′** (Gədəbəy, Tovuz) – lağ etmək, rişxənd etmək – *Qəzənfər uşaxlara şəvədə eliyir* (Tovuz); – *Nə şəvədə ele:ysiŋ, cücöyü payızda sanə:allar* (Gədəbəy).

**ŞƏVƏL** (Cəbrayıl) – kol-kos.

**ŞƏVGƏ** (Cəbrayıl) – düşərgə. – *Gərəx′ şəvgəni ağacın divində saleydıx.*

**ŞƏVİD** (Cəbrayıl) – ağac növü adı. – *Şəvid möhkəm ağaşdı, yaxşı ələğacı isdiyirsənsə şəviddən qayır.*

**ŞƏVİNİX′** (Cəbrayıl, Zəngilan) – axşam qaranlığı, axşamçağı. ◊ **Şəvinix′ düşəndə** (Zəngilan) – axşam qaranlığı düşəndə. – *Şəvinix′ düşəndə kəndə çatdıx.* **Şəvinix′ çalan vaxtı** (Zəngilan) – axşam qaranlığı düşəndə, axşamçağı. – *Şəvinix′ çalan vaxtı bizə iki adam qonax gəldi.*

**ŞƏYO** (Ağdam) – yabanı bitki adı.

**ŞIDIR** (Laçın) – əsgi.

**ŞIDIRĞA** (Tovuz) – 1. tez, sürətlə; 2. fasiləsiz, ara vermədən.

**ŞIDIRĞI** (Bakı, Borçalı, Cəbrayıl, Çənbərək, Daşkəsən, Füzuli, Gəncə, Goranboy, Xanlar, İmişli, Kəlbəcər, Lənkəran, Meğri, Mingəçevir, Oğuz, Sabirabad, Salyan, Şamaxı) – bax **şıdırğa.** – *Şıdırğı danışan yerdə sesim tutuldi* (Bakı); – *Bö:ün bizim birqada şıdırğı işdiyif* (Borçalı); – *Dünən gecə şıdırğı yağdı* (Oğuz); – *Uşax qojadan şıdırğıe:dər* (Goranboy); – *Yorğa at şıdırğı yerey* (Daşkəsən); – *Kərpici şıdırğı daşıdı, yığdı əlimin altına* (İmişli); – *Uşax şıdırğı gedif gəlir* (Kəlbəcər); – *Telli aralıxdan şıdırğı keşdi* (Çənbərək); – *İşdər şıdırğı gedir* (Füzuli).

**ŞIDIRĞILAMA** (İmişli) – bax **şıdırqama.** – *Daşı şıdırğılama daşıdı tökdi qapıya.*

**ŞIDIRĞİ** (Cəlilabad) – bax **şıdırğa.** – *Ginə nə şirin canə qəss eleysən, şıdırği işdeysən, Hüseynağə mə:lim.*

**ŞIDIRQAMA** (Saatlı) – 1. tez-tez; 2. ara vermədən.

**ŞIFLAMAX** (Basarkeçər) – vurmaq. – *Yetirən kimi Həsən Əlini şıfladı.*

**ŞIĞA** (Bakı) – qapı ağzına salınan palaz parçası. – *Şığanı kandardan nöş götürdün?*

**ŞIĞALA: ŞIĞALA VERMƏK** (İmişli) – böyük dəstə ilə şığamaq, cummaq, hücum etmək. – *Cəyirtgə şığala verərdi taxıla, bossana yeərdi.*

**ŞIXGİL** (Culfa) – xəlbir.

**ŞIQQ** (Meğri) – nişanə, əlamət. – *Bı Mıratda bir tikə adamlıx şıqqı yoxdu.*

**ŞIQQIRA** (Ucar) – çırtıq. ◊ **Şıqqıra vurmağ** – çırtıq çalmaq. – *Oxuyan oxuyur, qalannar şıqqıra vırır.*

**ŞIQO:UL** (Bakı) – tez, tələsik. – *Qardaşım öydən sıqo:ul çıxdı.*

**ŞILDIR** I (Qazax) – qərzəkdən çıxmış qoz.

**ŞILDIR** II (Qazax) – çayın dayaz yeri.

**ŞILDIR** III (Zaqatala) – işə yaramayan at.

**ŞILXOR** (Basarkeçər, Füzuli, Meğri, Ordubad) – 1. ikiyaşar at (Basarkeçər). – *Şılxoru canavar parçaladı* (Basarkeçər); 2. arıq, sümükləri çıxmış at (Meğri). – *Bir şılxor yabı qaler, o da soxuler alaçığa.*

**ŞILIX-ŞILIX** (Qazax) – 1. qırıq-qırıq; 2. əzik-əzik; 3. şilküt.

**ŞILIN** (Meğri) – sıx kolluq. – *Şılını yarıp aynın dalıncan yeriyəmmerdix′.*

**ŞILIŞ** (Lənkəran) – köçəri quş adı.

**ŞILPIĞ** (Cəlilabad) – gözdən axan çirkli su. ◊ **Şılpığ bağlamağ** – gözdən çirkli su axmaq. – *Keçmişdə cama:tın gözi şılpığ bağlamışdı, qızmadan öleydi.*

**ŞIMPIR** (Bərdə) – yabanı bitki adı.

**ŞINAXLAMMAĞ** (Salyan) – öyünmək, sevinmək. – *Bı çağacan nə iş görmüşəm ki, şınaxlanım da.*

**ŞINAXT** (Qazax) – qəlb. ◊ **Şınaxtını qırmax** (Qazax) – qəlbinə toxunmaq, xatirinə dəymək. – *Şınaxtımı qırdın.*

**ŞINAXTIM** (Ağbaba) – deyəsən. – *Şınaxtım, Əzizə şə:rə gedir.*

**ŞINDAN** (Ağdam, Qazax) – b a x **şindan.**

**ŞINDIRIX** (Meğri) – çır-cındır. – *Ə:, na şındırğın tullana-tullana galeysan?*

**ŞINDIRIXLAMAX** (Meğri) – cırmaq, parça-parça etmək. – *İt unı ela şındırıxlamışdı, gəl görasan.*

**ŞINDIRRAŞMAĞ** (Lənkəran) – 1. köhnəlib cındıra dönmək; 2. cırıq-sökük olmaq. – *Xanağanın paltarları tamam şındırlaşıb.*

**ŞINQARXANA** (Meğri) – xarabalıq. – *Məjmeyi bir tərəfdə, saj bir tərəfdə, bojqa bir yanda, elə bil şınqırxanadı.*

**ŞINQIL** (Kürdəmir) – kiçik kələf, kiçik yumaq. – *O şınqıl ağıŋa dolaşır, əgil götür.*

**ŞINQILIM** (Salyan) – saqqız. – *Uşağlar şınqılım çeyniyir.*

**ŞIP** (Lənkəran) – uzunsov səbət.

**ŞIPBILDAH** (Meğri) – dava-dalaş, hay-küy. – *Gənə bu nə şıpıldahdı, ay Mənsüm?*

**ŞIPBIR** (Zəngilan) – bataqlıqda bitən yabanı yeməli bitki. – *Şıpbır bıralarda çoxdu.*

**ŞIPILDAĞ** (Salyan) – gödək, alçaqboy. – *Nadir şıpıldağ adamdı.*

**ŞIPPIR** (Çənbərək) – b a x **şıpbır.**

**ŞIRBIT** (Kürdəmir) – kiçik balıq növü. – *Çayda bı sa:t şırbıtdan başqa heş nə tapbassan;* – *Şırbıt yazda yağlı olur.*

**ŞIRDAN** I (Şəmkir) – b a x **şindan.** – *Şırdannan dən tükəndi, yü:r suyu kəs.*

**ŞIRDAN** II (Zəngilan) – nov, novalça. – *Şırdannan o xərtənə su gəlif ki, sel təki.*

**ŞIRDAN** III (Oğuz) – mal-qaranın mədəsi ilə bağırsağı arasındakı hissə. – *Bağırsaq şırdana calanır.*

**ŞIRF** I (Gədəbəy, Qazax, Şuşa, Tovuz) – 1. birdən, qəfildən. – *Oturmuşdux, Hasan şırf girdi içəri, gədəni vurdu qoltuğuna, getdi* (Şuşa).

**ŞIRF** II (Gədəbəy) – b a x **şırp** II. – *Şırf yaxcı adamdı Meyti, kim nə de:ir desiŋ.*

**ŞIRFIL** (Qax, Şəki) – yağ-soğanda əzilmiş lobyadan bişirilən xörək. – *Ciyim şırfıl bişiriy* (Şəki).

**ŞIRFILTI** (Qax) – b a x **şırfıl.**

**ŞIRĞA** I (Şəmkir) – bəzək-düzək. ◊ **Şırğa vurmax** (Şəmkir) – bəzək-düzək vurmaq. – *Bir gör arvad özünə nə sırğa vuruf?* **Şırğa vermək** (Basarkeçər) – bəzənmək, bəzək-düzək vurmaq. – *Sə:rdən axşamatan şırğa verir özünə.*

**ŞIRĞA** II (Kürdəmir) – qapı, pəncərə, döşəmə və sairəyə vurulan taxta haşiyə. – *Öyün şırğaların vırıb qurtardılar.*

**ŞIRĞALI** (Gəncə, Qazax, Şəmkir) – bəzək-düzəkli, bəzəkli, yaraşıqlı. – *Nə yaxşı şırğalı yəhərdi.*

**ŞIRIQQA** (Göyçay, İmişli) – çırtıq. ◊ **Şırıqqa vurmağ** (İmişli) – musiqinin ritminə uyğun olaraq çırtıq çalmaq. – *Toyda hamı şırıqqa vururdu.* **Şırıqqa tutmağ** (Göyçay) – musiqinin ritminə uyğun çırtıq çalmaq. – *Qızdar şırıqqa tutublar.*

**ŞIRIQQALI** (Laçın) – 1. kefcil; 2. təmtəraqlı. – *O, şırıqqalı adamdı.*

**ŞIRLANQUŞ** (Culfa) – nov, novalça.

**ŞIRNA** I (Meğri) – kiçik şəlalə. – *İndicə baləcə dəyirmanın yanındakı şırnadə çimirdıx.*

**ŞIRNA** II (Zəngilan) – damda yığılan suyun axması üçün düzəldilən nov, novça.

**ŞIRNOV** (Ağdərə) – kiçik şəlalə. – *Şırnov çoxdu yeylaxlarda.*

**ŞIRNOYLU** (Başkeçid, Borçalı) – şəlaləli. – *Səlyimdə şırnoylu bulax var* (Borçalı).

**ŞIRNO:UX** (Daşkəsən, Goranboy, Xanlar) – b a x **şırnov.** – *Elə sap bu oxarılarda da var şırno:ux* (Daşkəsən); – *Bir qəlvi yerdən su töküləndə de:irix' şırno:uxdu* (Xanlar).

**ŞIRNÖ:UX** (Gədəbəy, Xanlar) – b a x **şırnov.** – *Gedinnən vedireyi şırnö:uğun alta qoy dossun <dolsun>* (Gədəbəy); – *Uşaxlar şırno:uxda çimillər* (Xanlar).

**ŞIRP** I (Gədəbəy, Tovuz) – 1. birdən, qəfildən; 2. tez, cəld.

**ŞIRP** II (Gədəbəy) – lap, çox.

**ŞIRPADAN** (Ağdam, Bakı, Bərdə) – birdən, qəfildən. – *O, şırpadan üsdimə cumdu* (Bakı); – *At şırpadan yıxıldı* (Bərdə).

**ŞIRPDAN** (Bakı) – b a x **şırpadan.** – *Şırpdan məni itələdü.*

**ŞIRRAĞAN** (Şəmkir) – şəlalə. – *Şırrağan dağda olur.*

**ŞIRRAMA** (Daşkəsən, Gədəbəy, Xanlar) – güclü, şiddətli, gur <yağış>. – *Şırrama elə hər vaxd yağar* (Daşkəsən); – *Bir var çisgin yağış, bir də var şırrama yağış* (Gədəbəy);

*– Şırrama vaxdına baxır, quraxlıxda məŋsilə xeyir eli:r, yağannıxda ziyan eli:r* (Xanlar).

**ŞIRRAN** I (Ağdərə, Şəmkir) – şəlalə. *– Palan dağında bö:üx′ bir şırran var* (Ağdərə); *– Aran yerində şırran olmur* (Şəmkir).

**ŞİRRAN** II (Culfa, Şərur) – damda yığılan suyu axıtmaq üçün nov, novça. *– Yağış suyu şırrannan axır* (Şərur); *– Əvin şırranına bax, hava dolub, bəlkə yağış yağar* (Culfa).

**ŞIRŞIR** I (Gədəbəy, Şuşa) – şəlalə. *– Ge:if doldurufnan gələrsəŋ çüyürdəyi şırşırdan* (Gədəbəy).

**ŞIRŞIR** II (Salyan) – dava-dalaş, xoşa gəlməyən söz-söhbət. *– Bı öydə hər gün şırşırdı.*

**ŞIRŞIRA** (İsmayıllı) – b a x **şırşır.**

**ŞIRT** (Mingəçevir) – b a x **şırp** I.

**ŞIRTAPIRT** (Salyan) – lehmə, palçıq. *– Yağış yağanda yollar tamam şırtapırt olur.*

**ŞIRTDAĞAN** (Goranboy) – yabanı bitki adı.

**ŞIRTI** (Ağdam, Şuşa) – 1. abırsız. *– Çox şırtı arvatdı a* (Ağdam); 2. sırtıq. *– Mənim şırtı uşaxdan zəhləm gedər* (Şuşa).

**ŞIRTIX** I (Oğuz) – b a x **şırtılıx** II. *– Uşaxlar şırtığı yi:f.*

**ŞIRTIX** II (Qazax, Şəmkir) – şux, şən, zarafatcıl. *– Gühar şırtıx qızdı* (Şəmkir).

**ŞIRTILIX** I (Ağdam, Şuşa) – 1. abırsızlıq. *– Elə şırtılıx onun peşəsidi* (Ağdam); 2. şırtıqlıq. ◊ **Şırtılıx eləməx′** (Ağdam, Şuşa) – 1. abırsızlıq etmək. *– Şırtılıx eləmə, ayıfdı* (Ağdam); 2. sırtıqlıq etmək. *– Şırtılıx eləməx′dənsə get bir iş gör* (Şuşa).

**ŞIRTILIX** II (Qəbələ, Oğuz) – əzilmiş lobya, yağ və soğandan hazırlanan xörək adı.

**ŞIVIRIX** (Başkeçid) – arıq, uzun adam.

**ŞIVIRTI** I (Gədəbəy, Qazax, Tovuz) – nazik çubuq. *– Canın haqqı, öküzdər çəx′mə:ndə şıvırtıynan o xarta döyöyrüm kün* (Gədəbəy).

**ŞIVIRTI** II (Qazax) – sızaq. *– Üzümə şıvırtı çıxıf.*

**ŞIVQIN** (Gədəbəy, Qazax) – nazik, uzun zoğ.

**ŞIYTILI** (Qəbələ) – lobya, kələm və soğandan hazırlanan xörək. *– Ana, kefim yoxdur, mənə bir şıytılı bişir.*

**ŞİBBİK** (Cəbrayıl) – qanqal, yemlik və s. qazıb çıxarmaq üçün ucu şiş ağac, qarğı. *– Şibbiyim olseydı, yemlik yığardım.*

**ŞİBƏR** (Zaqatala) – meşə.

**ŞİBİT** (Dərbənd) – şüyüd. *– Şibit uladu büzdə.*

**ŞİBİTDAN** (Salyan) – liliput. *– Şibitdan boyda boyu var, mə: kələk gəlir.*

**ŞİBRİ: ŞİBRİ CAM** (Qax) – ağzı enli balaca cam.

**ŞİDAN** (Qax) – talvar.

**ŞİDANAY** (Qax) – ağıldan yüngül, yüngülxasiyyətli, qeyri-sabit xasiyyətli.

**ŞİKİLBASAN** (Ucar) – fotoqraf. *– Məktəbə Ujardan şikilbasan gəlib.*

**ŞİL** I (Ağdam, Barana, Gədəbəy, Salyan, Şəmkir, Tovuz, Zəngilan) – şikəst, əlil. *– Əliŋ şil döyül ki, bərk yapış dayna* (Ağdam).

**ŞİL** II (Kürdəmir) – çayda, arxda suyun qarşısını kəsmək üçün şax, şəl, kol-kos, xırda budaqlar. *– Suyun qabağına şil at, yoxsa kəsəmmərsən.*

**ŞİLAN** I (Oğuz, Təbriz) – böyük qonaqlıq.

**ŞİLAN** II (Göyçay) – bol, artıqlaması ilə. *– Məclisdə hər şey şilandı.*

**ŞİLAN** III (Zəngilan) – itburnu.

**ŞİLAŞI** (İrəvan) – xörək növü.

**ŞİLBƏND** (Goranboy) – qoyun xəstəliyi adı. *– Şilbənd azarı tüşən sürüdən bir dənə də quzu alamme:rıx.*

**ŞİLBİT** (Lənkəran) – balıq növü.

**ŞİLEYLİM** I (Lənkəran) – fasiləsiz, arası kəsilmədən, birbaşa. *– Yağış şileylim tökür.*

**ŞİLEYLİM** II (Salyan) – arıq, cılız. *– Şileylim olmağına baxma, zirəy uşaxdı.*

**ŞİLƏ** I (Culfa, Goranboy, Şəki, Zaqatala) – qırmızı rəngli çit parça adı. *– Qabaxlar şilədən tuman geyirdix′* (Goranboy); *– Baydax qırmızı şilədən olar* (Culfa); *– Usdulun üstünə salan ho qırmızı parçadı şilə* (Şəki).

**ŞİLƏ** II (Ağbaba, Ağdam, Borçalı, Cəbrayıl, Gədəbəy, Goranboy, Xanlar) – xörək adı. *– Düyüynən əti qarışdırıf pişiririx′ olor şilə* (Gədəbəy); *– Axşam çoxlu şilə yedim* (Cəbrayıl); *– Şilə çəx′mədən yaxşıdı yemə:* (Borçalı).

**ŞİLƏXOR** (Şahbuz) – ikiyaşar at.

**ŞİLƏKANNIĞ** (Dərbənd) – kos-kosluq. *– Meşədə şiləkannığ çoxdi.*

**ŞİLƏSƏR** I (Ağdam, Cəbrayıl, Zəngilan) – evin üstünə düzülən millər. *– Şiləsəri evin üstünə qoyullar, bir ujun atmıya bağlıyıllar,*

*bir ujun da tufara* (Ağdam); – *Şiləsər aldım, gətidim* (Zəngilan); – *Ardıc ağacınnan yaxşı şiləsər olar* (Cəbrayıl).

**ŞİLƏSƏR** II (Xaçmaz, Quba) – eyvan.

**ŞİLƏKEŞ** (Ağdam) – xəndək.

**ŞİLƏVARAN** (Bakı) – güclü yağış.

**ŞİLGİL** (Dərbənd, Göyçay, Oğuz) – yabanı bitki adı.

**ŞİLGİRRİX′** (Mingəçevir) – şilgir adlı yabanı bitkinin çox bitdiyi yer.

**ŞİLĞAM: ŞİLĞAM ELƏMƏX′** (Zaqatala) – dağıtmaq, korlamaq, qırıb tökmək. – *Beyjə comuşdar dirriyi şilğam elədi.*

**ŞİLXOR** (Culfa, Daşkəsən, Gədəbəy, Ordubad, Zəngilan) – dayça. – *Şilxoru canavar ye:if* (Daşkəsən); – *Şilxoru:z ə:ndə dərədeydi* (Zəngilan); – *Ə:, qörəŋ hanı şilxor, görünmoy burda?* (Gədəbəy).

**ŞİLİGƏ** (Bakı) – şadlıq.

**ŞİLİNMƏX′** (Çənbərək) – müəyyən bir şeyi əldə etmək üçün çalışmaq, vurnuxmaq. – *Xedi çox şilinir, də:n ət almağ isdiyirdi.*

**ŞİLKƏ** (Salyan) – cırıq. – *İndi şilkə döşəgdə yatan yoxdu.*

**ŞİLKƏLƏMƏK** (Cəbrayıl, Salyan) – cırmaq, parça-parça eləmək. – *Kitabı verdin uşağa, şilkələdi atdı yerə* (Cəbrayıl). ◊ **Şilkə-şilkə eləmək** (Cəbrayıl) – parça-parça eləmək.

**ŞİLOXOX** (Tovuz) – şil-küt, əzik. ◊ **Şiloxox eləməx′** (Tovuz) – şil-küt etmək, əzik-əzik etmək. – *Pəhlivanın hamısını şiloxox eli:r, qayıdır gəlir mənzilə.*

**ŞİLOVLİ** (Dərbənd) – çalağan, yırtıcı quş adı. – *Ha bu şilovli toyuğlari gəlib həmin aparadu.*

**ŞİLTAĞLUĞ** (Quba) – maneçilik. ◊ **Şiltağluğ qatmağ** (Quba) – 1. mane olmaq; 2. oyunu pozmaq. – *Mə:n oynıma nüş şiltağluğ qatasan?*

**ŞİLTƏ-ŞİLTƏ** (Lənkəran) – parça-parça, cırıq-cırıq.

**ŞİLTİX′** (Şuşa) – köhnə, cırıq. ◊ **Şiltiyi çıxmış** (Şuşa) – köhnəlmiş, cırıq-cırıq olmuş. – *Corabın şiltiyi çıxıb geyəmmərəm.* – *Bu şiltiyi çıxmış ayaqqabını bir də yamamağa dəyməz.*

**ŞİLTİX′LƏMƏX′** (Çənbərək) – cırmaq, cırıq-cırıq etmək. – *Surtoyu gədə şiltix′liyif.*

**ŞİLTİX′-ŞİLTİX′** (Gədəbəy) – b a x **şiltim-şiltim.** ◊ **Şiltix′-şiltix′ eləməx′** – cırıq-cırıq etmək, parça-parça etmək. – *Şiltix′-şiltix′ elədi it gədənin paltarını.*

**ŞİLTİM-ŞİLTİM** (Mingəçevir) – cırıq-cırıq, parça-parça.

**ŞİLVƏR** I (Cəbrayıl) – çəpərin möhkəm olması üçün ona köndələninə vurulan qurşaq.

**ŞİLVƏR** II (Mingəçevir, Şəki) – evin divarlarını yağmurdan qorumaq üçün dam örtüyünün divarlardan kənara çıxan hissəsi. – *Məsəl, diyillər şilvəri uzun elə, yağış barıya dəyməsin* (Şəki).

**ŞİLVƏRLƏMƏK** (Cəbrayıl) – çəpərə, hasara möhkəmlik üçün eninə qurşaq vurmaq.

**ŞİMA:RA** (Qazax) – daim, həmişə. – *Su burdan şima:ra axerdi, biyil kəsilif.*

**ŞİMİŞ** (Ordubad) – söyüd ağacının cavan zoğu. – *Şimişnən narın süpürgəni bağlayırıx.*

**ŞİMŞƏD** (Qax) – hamar.

**ŞİMŞƏT** (Qax) – b a x **şimşəd.**

**ŞİMŞİRMƏG** (Salyan) – həvəs göstərmək, meyil etmək. – *Uşax həmişə yasağ olunmuş işə şimşirər.*

**ŞİN** I (İmişli) – sovrulmamış taxıl topası. – *Şində iki xırman taxıl vardı.*

**ŞİN** II (Qax) – taxtabiti.

**ŞİNAX: ŞİNAX SALMAX** (Şəki) – diqqətlə baxmaq. – *Yaxşı şinax salsan görərsən.*

**ŞİNDAN** (Cəbrayıl, İmişli, Tovuz, Zəngilan) – dəyirmanda taxılın daşların arasına tökülməsin nizamlayan qab. – *Şindanı qaldı, də:rmanı dən basdı* (Zəngilan); – *Şindan olmasa taxıl tökülməz* (Tovuz).

**ŞİNE:R** (Kəlbəcər) – gilas növü. – *Şine:r qırmızı olur.*

**ŞİNƏBUB** (Bakı) – şanapipik.

**ŞİNƏMAX** (Şəki) – 1. dayanıb durmaq; 2. üzə durmaq; 3. vecinə almamaq, qulaq ardına vurmaq, əhəmiyyət verməmək. – *Niyə şinəmisən, danışsana.*

**ŞİNƏMƏG** (İmişli, Sabirabad, Ucar) – b a x **şinəmax** (1, 2-ci məna). – *Uşağı oxartənə işdətmisən, şinəyib tay* (İmişli); – *Ə:, nə şinəmisən, dimirəm ged öyə* (Ucar).

**ŞİNAPIL** (Lənkəran) – çəltiyin qabığı.

**ŞİNĞAN** (Quba) – gödək, qısaboylu. – *İşə diyən bir kişi bizdə şinğandu.*

**ŞİNG** (Dərbənd, İsmayıllı) – yabanı bitki adı, yemlik. – *Şing qartiyəndə saru gül açadu* (Dərbənd); – *Şing süd salıb* (İsmayıllı).

**ŞİNGANLI** (Mingəçevir, Şəki) – şən, təntənəli. – *Toyi şinganlı eliyən əyaxçı olar* (Şəki).

**ŞİNGİLİB** (Cəlilabad) – dinclik bilməyən, bir yerdə dayanıb durmayan. ◊ **Şingilib atməy** (Cəlilabad) – atılıb-düşmək, oynamaq.

**ŞİNGİLİM** I (Kəlbəcər) – 1. uzunqıç; 2. tez-tez yeriyən. – *Fərhad kimi şingilim adam olmaz.* ◊ **Şingilim atmax** (Ağdam, Şuşa, Ucar) – atılıb-düşmək, oynamaq. – *A bala, bu şingilim atmaxdan yorulmadıŋ?* (Ağdam); – *Uşaxlar qapıda şingilim atıllar* (Ucar). **Şingilim təpbəx′** (Şuşa) – atılıb-düşmək, oynamaq. – *Sə:rdən axşamatan şingilim təpir küçədə.*

**ŞİNGİLİM** II (Kəlbəcər) – b a x **şingilib.** – *Fərhad şingilim uşaxdı.* ◊ **Şingilim atmax** (Ağdam, Şuşa, Ucar) – atılıb-düşmək, oynamaq. – *Axşamatan şingilim atıllar küçədə* (Ağdam); – *Ə:, şingilim atmaxdan yorulmadıŋ* (Şuşa); – *Uşaxlar qapıda şingilim atıllar* (Ucar).

**ŞİNGİLİMAĞAC** (Qazax) – uşaq oyunu adı. – *Ay uşaxlar, gəlin şingilimağac oynuyax.*

**ŞİNGİLİY** (Ağdam) – b a x **şingilib.** ◊ **Şingiliy atmax** (Ağdaş) – atılıb-düşmək, oynamaq. – *Dayça anasının yanında şingiliy atırdı.*

**ŞİNHER** I (Kəlbəcər) – b a x **şiner.** – *Şinher gec yetişər.*

**ŞİNHER** II (Ağcabədi, Kəlbəcər, Şuşa) – 1. xalat; 2. qadın paltarı. – *Qıza bir şinher tik da:.* (Kəlbəcər).

**ŞİNQIRIĞ** (Ordubad) – səs, cınqırıq. ◊ **Şinqırığ çıxartmağ** (Ordubad) – səs çıxarmaq. – *Şinqırığ çıxmadı onnan so:ra;* – *Şinqırığını çıxarma.*

**ŞİNİMƏX′** (Gədəbəy, Kəlbəcər, Qazax) – b a x **şinəmax.** – *Söz deyəndə nə şiniyirsəŋ* (Qazax); – *Nə şiniyersəŋ, a bala, düz de:rəm dana* (Qazax).

**ŞİNNƏMƏG** (İmişli) – döyüldükdən sonra sovrulmamış taxılı xırmanda topa şəklində yığmaq. – *Taxılı dögənnən sora şinnerdüg.*

**ŞİNNİG** (İmişli) – bolluq. – *Oyil <o il> çox şinnigdi orda.*

**ŞİP** (Salyan) – balıq növü. – *Bazarda yaxşı şip satılır.*

**ŞİPƏ** (Salyan) – topa, qalaq. – *Odunu hə:tdə şipə yığmışuğ.*

**ŞİPƏLƏMƏG** (Salyan) – yerləşdirmək, sığışdırmaq.

**ŞİR** I (Biləsuvar) – samovarın kranı. – *Şiri ac, stəkana çay tökülsün.*

**ŞİR** II (Göyçay, Qax, Ordubad) – rəng. – *Şiri dulaba çəkillər* (Ordubad).

**ŞİR** III (Dərbənd, Tabasaran) – qırov. – *Şir tutadi biçannari* (Tabasaran).

**ŞİRABBIZ** (Salyan) – evi ağartmaq üçün istifadə edilən dəri parçası. – *Keçmişdə öyeşigi şirabbıznan şirəliyirdilər.*

**ŞİRAFQA** (Şəki) – evin damında kirəmidin arasına düzülən xüsusi taxta. – *Ay Usuf dayi, şirafqa satan yer bilmirsən?*

**ŞİRANQUC** (Bakı) – novalça, yağış suyunun axması üçün nov. – *Şiranqucdan yaman su gəlir.*

**ŞİRAVAN** (Zaqatala) – güclü yağış.

**ŞİRAZ** (Xanlar) – çuvalın kənarlarındakı xüsusi tikiş. ◊ **Şiraz vurmax** (Xanlar) – çuvalın kənarlarını xüsusi tikişlə tikmək. – *Telli xala çuvala yaxşı şiraz vurur.*

**ŞİRAZƏ** (İrəvan) – kitabın vərəqlərini saxlamaq üçün onun arxa tərəfinə vurulan tikiş. – *Kitabın yaxşı şirazəsi var.*

**ŞİRAZƏÇİ** (İrəvan) – kitabın vərəqlərini tikən adam. – *Əli yaxşı şirazəçidi.*

**ŞİRAZƏLƏMƏY** (İrəvan) – kitabın vərəqlərinin düşməməsi üçün onu arxa tərəfdən tikmək. – *Bu kitabı sabah şirazələrəm.*

**ŞİRAZI** (Cəbrayıl, Zəngilan) – sacda bişirilən çörək növü. – *Tavad xala şirazı bişirir* (Cəbrayıl).

**ŞİRAZLAMAX** (Çənbərək, Gədəbəy) – cecim, xürcun, çuval və sairənin kənarlarını rəngli iplə, xüsusi sıx tikişlə tikmək. – *Əsli, xuncurun qıra:nı şirazda* (Çənbərək); – *Şirazdamaxnan yaman sazdı aran, ha!* (Gədəbəy).

**ŞİRBƏDÜŞƏNDƏ** (Bakı) – qaynadıldıqdan sonra qurudulmuş əncir. – *Bi:l şirbədüşəndə çox getirmişdim.*

**ŞİRBƏZ** (Təbriz) – yaltaq. – *Şirbəzzər gələn kimin başlı:rdıla ona pay, mına pay.*

**ŞİRÇİ** (Şahbuz, Şərur) – rəngsaz. – *Hər adamnan şirçi olmaz* (Şərur); – *Şirçi bı əvi şirrədi* (Şahbuz).

**ŞİRDA** (Qax) – 1. qoyunun mədəsi; 2. yoğun bağırsaq.

**ŞİRDAN** I (Qax) – içi ətlə doldurulmuş qoyun bağırsağı.

**ŞİRDAN** II (Tabasaran) – qursaq. – *Mayya atadüg malun şirdanni.*

**ŞİREYİ** (Bakı) – üzüm növü.

**ŞİRƏ** I (Kürdəmir, Mingəçevir, Şamaxı, Şəki) – evin divarlarını və torpaq döşəməsini ağartmaq üçün xüsusi gildən hazırlanmış məhlul. – *Şirə qə:rmişəm, öyü şirəliycam* (Şəki).

**ŞİRƏ** II (Zəngilan) – çay kənarlarında qumluqdan süzülüb axan duru su. – *Söyüddükdən çıxan şirə çox soyuxdu.*

**ŞİRƏXANA** (Culfa) – üzüm əzmək üçün xüsusi yer. – *Şirəxanada üzüm əzirix', indi doşab bişiririx'.*

**ŞİRƏXƏG** (Bakı) – doşab bişirilərkən üzüm şirəsinə qatılan xüsusi torpaq. – *Ay ışağlar, birəz şirəxəg götürün mə:mçün, üzüm baseçegəm.*

**ŞİRƏK** (Zaqatala) – şum, şumlanmış yer.

**ŞİRƏKİ** (Culfa) – yundan toxunmuş nazik cecim. – *Paltarrarı yığ mərfəcə, şirəkini çək üstünə.*

**ŞİRƏQUL** (Tovuz) – arabanın qabaq tərəfində arabaçının oturduğu taxta.

**ŞİRƏQUN** (Goranboy) – b a x **şirəqul.** – *Şirəqun iki olur, qavax şirəqunun üsdə oturullar, dal şirəqunu da bağlıyıllar ki, yük tökülməsin arabadan;* – *Şirəqun dörttəkərri arabada olur.*

**ŞİRƏLƏMAX** (Şəki) – evin divarlarını və torpaq döşəməsini xüsusi gildən hazırlanmış məhlulla ağartmaq. – *Savax heş yana gidəmənəm, öy şirəliycam.*

**ŞİRƏLİ** (Goranboy) – emallı, üzərinə emal təbəqəsi çəkilmiş. – *Şirəli laydarayı bura ver.*

**ŞİRƏ-MALA** (Bakı) – dar. – *İndi cavannar paltarı lap şirə-mala geyillər.*

**ŞİRƏPUS** (Lənkəran, Şamaxı) – b a x **şirəpuz.**

**ŞİRƏPUZ** (Bakı) – xüsusi gildən hazırlanmış məhlulla (şirə) divarı ağartmaq üçün istifadə edilən bir parça qoyun dərisi. – *Mənə bir parça şirəpuz ver, öy ağardıram.*

**ŞİRƏŞƏR** (Quba) – eyvan.

**ŞİRƏŞUM** (Şahbuz) – yaz şumu. – *Yazın şumuna şirəşum deyirix'.*

**ŞİRƏYƏ ÇƏHMƏX'** (Şərur) – aldatmaq.

**ŞİRİNQIZ** (Masallı) – 1. əmiarvadı; 2. dayıarvadı. – *Şirinqız, kefin necədir?*

**ŞİRNƏK** (Qazax) – pambıq bitkisində olan xəstəlik adı.

**ŞİRO:** (İmişli) – kökəlməyən (heyvan). – *Şiro: heyvan kökəlməz.*

**ŞİRRAMA** (Qazax) – güclü, bərk (yağış). – *Bir şirrama yağış yağır kın, gəl görəsəŋ.*

**ŞİRRAN** (Füzuli, Şuşa) – şəlalə. – *Uşaxlar şirranın altında çimir* (Füzuli); – *Fındıxlı göldən yuxarı bir qəşəx' şirran var* (Şuşa).

**ŞİRRƏMƏX'** (Ordubad) – rəngləmək. – *Gə mə:m otağımı şirrə.*

**ŞİRTİ** (Meğri) – 1. abırsız; 2. sırtıq. – *Adam şirti olmaz, dey <daha> yekəlip yekə qız olmusaŋ.*

**ŞİRTODURU** (Lənkəran) – xörək adı.

**ŞİRVANMAX** (Ağbaba) – yaltaqlanmaq.

**ŞİŞ** I (Basarkeçər, Kəlbəcər) – su dəyirmanının bir hissəsi. – *Şişin bir üjü topda olor, bir üjü də təvərədə.*

**ŞİŞ** II (Dərbənd, Tabasaran) – çəngəl. – *Büz şiş işdətmiyəduğ* (Dərbənd).

**ŞİŞ** III (Dərbənd, Tabasaran) – corab mili.

**ŞİŞ** IV (Tabasaran) – iynə, qıyıq.

**ŞİŞƏX'** (Ağdam, Ağdərə, Biləsuvar, Cəbrayıl, Culfa, Füzuli, Goranboy, Xocavənd, Kəlbəcər, Qax, Mingəçevir, Oğuz, Ordubad, Tərtər, Tovuz, Zəngilan) – ilk dəfə qoça və ya kələyə gələn, ilk dəfə doğum ərəfəsində olan <heyvan>. – *Qomralkərə şişəx'di, yetişif bö:nə-sə:rə doğar* (Zəngilan); – *Camış üş yaşına çatanda şişəx'di* (Tovuz); – *Həsənqulunun dörət şişəyi var* (Füzuli).

**ŞİŞKİN** (Basarkeçər) – təkəbbürlü, lovğa. – *Əli yaman şişkin adamdı.*

**ŞİŞQOY** (Çənbərək) – şiş təhər, bir az şiş. – *Yara acca şişqoydu.*

**ŞİŞMEX'** (Şəki) – torpağa toxum basdırmaq üçün ucu şiş gödək ağac. – *Şişmex'nən quy eliyif lovya saçiyıx.*

**ŞİŞMƏ** (Göyçay) – keyfiyyətsiz barama. – *Keşmişdə şişməyi atırdığ.*

**ŞİT** (Qax) – naxış. – *Axçamaydın <axşamadək> şitdəri qurtardım.*

**ŞİTƏK** I (Zərdab) – tərəcə hörərkən qamışların arasına qoyulan nazik ağac. – *Kamal, tərəcə üçün yüz iyirmi şitək hazırra.*

**ŞİTƏK** II (Kürdəmir) – tumu şirin kəlik; yetişməmiş qovun. – *Bizdərdə şitəki yerpənək əvəzinə yeyillər.*

**ŞİTƏMMƏY** (Cəlilabad) – 1. sataşmaq; 2. əsəbiləşdirmək. – *Mən dedikcən, bı şitəndi.*

**ŞİTƏNGİ** (Cəlilabad, Gəncə, Qarakilsə, Mingəçevir, Şəki, Şuşa) – nadinc, dəcəl <uşaq>. – *Əziz çox şitəngi uşaxdı* (Gəncə); – *Şitəngi uşaxnan heç aram yoxdu* (Şəki).

**ŞİTƏNMƏX′** (Ağdam, Bərdə, Laçın, Mingəçevir, Şuşa) – b a x **şitəmməy.** – *Ə:, ma: az şitəŋ, xeyir tapbazsan* (Ağdam); – *Az şitənsəŋə, çıx get, yekə oğlansaŋ* (Bərdə); – *Hər keçənə şitənmə, keş tayıŋı tap* (Laçın).

**ŞİTQUR** (Lənkəran) – südqabı.

**ŞİTRİK** (Zaqatala) – şit, yersiz danışıb gülən, yüngülxasiyyət.

**ŞİV** (Cəbrayıl) – duru xörəyə qatılan az miqdarda un. ◊ **Şiv çəkmə** (Cəbrayıl) – duru xörəyə az miqdarda un qatma. – *Umaca şiv çəkdinmi?*

**ŞİVƏ** (Başkeçid) – suyun qabağına çəkilən sədd. ◊ **Şivə qaj** (Qazax) – əkin sahəsinə çəkilən kiçik arx.

**ŞİVƏLƏMƏX′** (Qazax) – əkin sahəsinə kiçik arx çəkmək, su üçün şırım açmaq. – *Suyu sağa tərəf şivələ apar, quru qaler, qoy su bassın.*

**ŞİVƏR** I (Balakən) – şaxdan və ya iri çubuqlardan hörülmüş çəpər, hasar. – *Qalxozçular bağın ətrafına şivər çəkib qurtardılar.*

**ŞİVƏR** II (Qəbələ) – evin damında divarla taxtapuş arasındakı yer. – *Mən tövlə tikdirmişəm, şivəri də var.*

**ŞİVƏR** III (Tovuz) – dağın, təpənin ətəyi. – *Söyünə deynən şivərdə bir əz ot var, otarsın.*

**ŞİVƏR** IV (Tovuz) – suyun qarşısını kəsmək üçün sədd. – *Çayın qabağına şivər qoyurux, su bostana axer.*

**ŞİVƏR** V (Şəmkir) – malın döşündə öz rəngindən fərqlənən başqa rəngli xal. – *Mə:m camışımın döşündə şivəri var. – Şivər az-az heyvannardo:lur.*

**ŞİVƏR** VI (Şəmkir) – çayın, arxın və s. qırağında müxtəlif yabanı bitkilərdən əmələ gələn təbii çəpər. – *Şivər arxın oyuzunda-buyuzunda olo:r.*

**ŞİVƏRƏX′** (Ağcabədi) – uzunboylu arıq adam. – *Şivərəy adam qojalmaz.*

**ŞİVƏRRƏMƏX′** (Tovuz) – çayın, arxın qarşısına bənd çəkmək. – *Hasangil çayın qavağını şivərreyiflər, su gəlmer.*

**ŞİVİLLİX′** (Tovuz) – nazik və sıx ağaclıq, pöhrəlik. – *Bizim bağ yaman şivillix′di.*

**ŞİVLİ** (Karvansaray) – təpəsi şiş, hündür <papaq>. – *Şivli papax tikirəm mən.*

**ŞİVRAN** (Zəngilan) – yabanı bitki adı. – *Bağda şivran çoxdu.*

**ŞİYİDİX′LİX′** (Xanlar) – sidiklik, sidik kisəsi.

**ŞOBA** (Şahbuz, Şərur) – zökəm. – *Şoba başa soyux dəyir, bırnınnan su gəlir* (Şərur); – *Şoba xəstəliyi qışda olur* (Şahbuz).

**ŞODA** (Qazax) – parça adı. – *Şodanı görəcək sətini atma.*

**ŞOFƏRƏ** (Şamaxı) – gönün qırışığını açmaq üçün alət. – *Şofərəni gətir, gönün qırışığını açağ.*

**ŞO:Ğ** (Bakı) – işıq, şəfəq. – *Günün şo:ği düşüb divara.*

**ŞOĞARRAMA** I (Gəncə, Şəmkir) – fasiləsiz, arası kəsilməyən, birbaşa <yağış>. – *Bir həfdədi şoğarrama yağış yağır.*

**ŞOĞARRAMA** II (Şəmkir) – bütünlüklə, tamamilə, hamısını birdən. – *Qoyun sürüsünü şoğarrama satdım. – Malı şoğarrama dama doldurdum.*

**ŞOĞOLİ** (Quba) – xırda turş armud. – *Bu gün çoxli şoğoli yığdım.*

**ŞOQQA** (İmişli, Kürdəmir) – kələfin bir istiqamətində olan sarğısı, yumağın bir sarğısı. – *Şoqqanı dolaşdırma çözdəyip. – İpdən bir-iki şoqqa aç, mənə ver* (Kürdəmir).

**ŞOQQAX** (Gəncə) – 1. laxlayan; 2. köhnəlib xarab olmuş, yararsız. – *Bu araba şoqqax arabadı.*

**ŞOQQAR** (Kəlbəcər) – arıq. – *Şoqqar inəyin əti yaxşı olmaz.*

**ŞOQQARRAMAX** (Kəlbəcər) – arıqlamaq. – *Məmmədin inəyi illaf şoqqarrıyıf.*

**ŞOQQI** (Şamaxı) – 1. söz verib sonra sözündən qaçan; 2. cığallıq edən. – *Sən nə şoqqı adamsaŋ.*

**ŞOQQILIĞ** (Şamaxı) – 1. verdiyi sözdən qaçma, dönüklük; 2. cığallıq. – *Belə şoqqılığ olar, ay Əli?*

**ŞOQQIMAĞ** (Şamaxı) – 1. verdiyi sözdən qaçmaq, sözünün üstündə durmamaq; 2. cığallıq etmək, oyundan qaçmaq. – *Şoqqımağ pis şeydi.*

**ŞOQQU** (Qazax) – b a x **şaqqı.** ◊ **Şoqqu çalmax** (Qazax) – oyundan qaçan, cığallıq edən uşağı utandırmaq üçün yerə ağac çalmaq. – *Uşaxlar oyunnan qaçana şoqqu çaler.*

**ŞOQQUMAĞ** (Bakı) – b a x **şoqqımağ.** – *Gör nə şoqqudu? – Pəri lap tez şoqqudi.*

**ŞOLATQA** (Gədəbəy, Goranboy) – xörək adı.

**ŞOLDUMAN** (Balakən) – saçı dağınıq, saçı səliqəsiz.

**ŞOLQU** (Lənkəran) – balıq tutmaq üçün yer. – *Axşam şolquya balığ tutmağa gedəcəm.*

**ŞOLTAX** (Zəngəzur) – köhnə, cındır. – *Bu şoltax çuxadan niyə əl çəkmirsəŋ.* ◊ **Şoltağı çıxmax** (Zəngəzur) – köhnəlmək, cındırı çıxmaq. – *Bu çuxanın şoltağı çıxıf.*

**ŞOLUMAX** (Zəngilan) – boş yerə pul xərcləmək, israfçılıq etmək. – *Tələfxarçın biridi, əlinə pıl düşən kimi hara gəldi şoluyur.*

**ŞOMBA** (Bakı, Mingəçevir, Şamaxı) – b a x **şamba.** – *Mənim şombanın iyinnən xoşım gəlir* (Bakı)

**ŞOMIN** (Cəbrayıl) – ispanaq. – *Ay qız, get bir az şomın yığ gəti.*

**ŞOMPUR** (Qarakilsə) – bal kəsmək üçün istifadə olunan alət.

**ŞOMUN** (Cəbrayıl, Şərur, Zəngilan) – b a x **şomın.** – *Şomunu aş altına qoyullar, kətə salıllar* (Zəngilan).

**ŞONQIMAĞ** (İsmayıllı) – çömbəlib oturmaq. – *Qabağımda nə sonqımısan?*

**ŞONQUBƏBƏ** (Salyan) – gəlincik. – *Uşağa bir şonqubəbə aldım.*

**ŞONQUMAX** (Qarakilsə, Oğuz, Şəki, Şəmkir, Zəngilan) – b a x **şonqımağ.** – *Yenə nə şonqumusan, dur işinə get* (Oğuz); – *Elə bil götürüm düşüf, hara gəldi şonquyur* (Zəngilan); – *Kərim qabağımda şonquyub* (Şəki).

**ŞONQURUX** (Zaqatala) – lağ. ◊ **Şonquruğa qoymax** (Zaqatala) – lağa qoymaq.

**ŞONU-ŞONU** (Ağdam) – uşaq oyunu adı.

**ŞOPARƏG** (Dərbənd) – gecəquşu, yarasa. – *Kitdüm gürədəm bir ağacə yapuşub şoparəg.*

**ŞOPƏRƏY** (Şamaxı) – b a x **şoparəg.** – *Şopərəy gecə gəzər, elə bilər özi gəzər.*

**ŞOPUT** (Mingəçevir, Yevlax) – ətsiz əriştə.

**ŞOR** I (Lənkəran) – sığırçın. – *Bu gün nə yaxşı şor tutmağ olar.*

**ŞOR** II (Göyçay, Şamaxı) – içinə yağ, yumurta, şor və s. doldurulmuş yağlı qoğal. – *Anam təzə təndirimizzə şor bişirdi biziyçün* (Şamaxı).

**ŞORA** (Quba) – b a x **şor** II.

**ŞORABA** (Qax) – əzgil şirəsi.

**ŞORAQ** (Ağsu) – duzlu. – *Şoraq su içdim, qarnım ağrıdı.*

**ŞORAQƏCƏLƏ** (Ordubad) – sağsağan. – *Bizim evdə şoraqəcələ yuvası var.*

**ŞORAKƏT** (Kürdəmir, Qazax, Mingəçevir) – şoran, şoranlaşmış <torpaq>. – *Yaxşı taxıl olmaz şorakət yerdə* (Qazax); – *Şorakət yerdə heş nə bitmir* (Kürdəmir).

**ŞORALANMAX** (Qazax) – axmaq, tökülmək. – *Əsədin baldırın it çişdeyif, qan elə şoralaner kin.*

**ŞORAN** (Kürdəmir, Zəngilan) – yeməli, yabanı bitki adı.

**ŞORANQUŞU** (Bərdə) – quş adı. – *Şoranquşu uzun şeydi, dazıyıf qaçır.*

**ŞORAYI** (Şəmkir) – duzlanmış gön. – *Şorayı hazırdımı?*

**ŞORBA:LI** (Şəki) – albalı. – *Bizim eşix′də çoxlu şorba:lı var.*

**ŞORÇÖRƏGİ** (Lənkəran, Salyan) – b a x **şorçörəyi.**

**ŞORÇÖRƏK** (Kürdəmir) – b a x **şorçörəyi** – *Şorçörək texya yağ olur.*

**ŞORÇÖRƏYİ** (Göyçay, Oğuz, Şəki, Zərdab) – xəmrinə yağ, süd, yumurta və s. qatılan çörək. – *Şorçörəyi bişirmişəm, bir dənə uşağ üçün də apar* (Oğuz); – *Şorçörəyi yaxşı yiməli olur* (Şəki).

**ŞORĞA** (Culfa) – ət suyu, ət bulyonu. – *Şorğaya çörək doğruyub yeyirix′.*

**ŞORKÖKƏ** (Ucar) – təndirdə bişirilən yağlı qoğal. – *Yağlı yuxaları çürümlüyürük,*

*içinə qohut qoyurux, təndirdə pişiririk, olur şorkökə.*

**ŞORLAMA** (Göyçay) – suda bişirilmiş lobya. – *Bacım bir yaxşı şorlama bişirdi.*

**ŞORİSTİLİ** (Qazax) – 500 qramlıq çəki daşı.

**ŞORMACABIĞDA** (Bakı, Şamaxı) – qarğıdalı.

**ŞORMƏZƏ** (Salyan) – qaynadılıb duzlanmış noxud. – *Uşağ şormǝzǝ yimǝgi çox xoşdıyır.*

**ŞORMƏZƏBUĞDA** (Quba) – b a x **şormacabığda.**

**ŞORNAX** (Şəmkir) – şəlalə. – *Şornağın altında çimillər. – Apar, şornaxda qoyunnarı çimizdir.*

**ŞORNU** (Gəncə, Goranboy, Şəmkir) – dörd çarxlı arabanın qabaq və dal oxları ilə lanqutu birləşdirən dəmir hissə. – *Arabanın dal şornusu da olur, qavax şornusu da* (Goranboy); – *Şornu olmasa harabanın qabağı ayrılar* (Şəmkir).

**ŞORRAN** (Şəmkir) – b a x **şırran** I.

**ŞORRATAN** (Naxçıvan) – novça, nov. – *Bı damın şorratanı yoxdu.*

**ŞORŞOR** (Qax, Oğuz, Şəmkir) – b a x **şırşır.** – *Bir az hündürdən tökülənə şorşor di:llər* (Oğuz); – *Şorşorda çimməx′ olar, əmbə so:ğ olur* (Qax); – *Hündür yerdən su tökülür, ona şorşor da de:rix′, şorran da* (Şəmkir).

**ŞORTAĞAN** (Goranboy) – yabanı bitki adı.

**ŞORTAX** (Goranboy) – narahat yerişli, qaçarkən sağrısı atılıb düşən <at>. – *Şortax at adamı atıf-tutur, yorur.*

**ŞORTAN** (Ordubad) – b a x **şorratan.** – *Əvimizin şortanı xarab olub.*

**ŞORTARAXLAMAX** (Ağdaş) – narahat yerişlə getmək, qaçarkən sağrısı atılıb düşmək <ata aiddir>. – *At şortaraxlamax isdiyir.*

**ŞORTDAMAX** I (Zaqatala) – 1. *məc.* boş-boşuna gedib-gəlmək; 2. at kimi tullana-tullana yerimək. – *Əhməd yaman şortdıyıf.*

**ŞORTDAMAX** II (Ağdam, Bərdə, Mingəçevir, Şuşa, Zaqatala) – narahat yerişlə getmək, qaçarkən sağrısı atılıb düşmək <ata aiddir>. – *Düzə çıxan kimi at başdadı şortdamağa, laf nəfəsimi kəsdi* (Ağdam).

**ŞORTDAĞAN** (Qubadlı) – narahat yerişli, qaçarkən sağrısı atılıb düşən <at>. – *Bu gün mindiyim şortdağan atıdı, belim ağrıyır.*

**ŞORTMAX** (Şəki) – b a x **şortdamax** I. – *Ho qədir şortdum heş nə çıxmadı.*

**ŞORTTAX** (İmişli) – narahat yerişli, qaçarkən sağrısı atılıb düşən <at>. – *Bu şorttax atnan harıya gedirsən?*

**ŞORTU** (Bakı, Gəncə, Qax) – b a x **şırtı.** – *A şortu, mən sənün tayınam?* (Bakı); – *Arvaddar bir-birinə layam verəndə şortu deyillər* (Gəncə).

**ŞORUMAX** (Basarkeçər) – atmaq <aşığı>. – *Aşığı şorudum, alçı durdu*

**ŞORYARPAX** (Şəki) – yabanı bitki adı. – *Şoryarpax bağlarda bitər.*

**ŞOSİ** (İsmayıllı) – gecəpapağı. – *Yatıram, şosimi ver.*

**ŞOŞ: ŞOŞ ATMAX** (Kürdəmir) – cücərmək. – *Soğan şoş atıp.*

**ŞOŞAX** (Zaqatala) – selik, ağızdan axan su. – *Qaya, şoşağını sil.*

**ŞOŞDAMAX** (Bakı) – dağıtmaq.

**ŞOŞYA** (Axalsxi) – qaranquş. – *Şoşya quşların elçisidi.*

**ŞOT** (Kürdəmir) – əkin sahəsində kiçik arx. ◊ **Şot-kök** (Şamaxı) – iri, qaba tikiş. **Şot-kök eləmək** (Şamaxı) – iri, qaba tikişlə tikmək. – *Arvad bir sa:tda şot-kök eliyib uşağına ge:dirdi.*

**ŞOTORQUŞ** (Şamaxı) – başdansovma. – *Dərzi bu çuxanı şotorquş tikib, gündə bir yeri sökülür.*

**ŞOTUR** (Ağdam, Bərdə, Şərur, Şuşa) – dırnaqda əmələ gələn xəstəlik adı. – *Mənim ə:ax barmaxlarım şoturdu* (Ağdam); – *Baş barma:ım şotur oluf* (Bərdə).

**ŞOVUL-ŞOVUL: ŞOVUL-ŞOVUL BAXMAX** (Culfa) – maddım-maddım baxmaq.

**ŞOY** (Goranboy) – şiv, zoğ, pöhrə. – *Şoy ağacın divinnən çıxar*

**ŞOYĞUN** (Qazax) – basqın, hücum. ◊ **Şoyğun eləməx′** (Qazax) – basqın etmək, hücum etmək. – *De:illər, canavar sürüyə şoyğun eliyir.*

**ŞOYRA** (Gədəbəy) – şorba. – *Şoyroyu qış yi:əllər, soyux vaxda.*

**ŞOYTAC** (Zəngəzur) – axsaq. – *Şoytac adamnan yol getmək çətindi.*

**ŞOYTIMAĞ** (İmişli) – 1. yorulmaq; 2. həvəsdən düşmək. – *Kömək eliyəni o xərtənə işdədir, axırda şoytıyır.*

**ŞOYTIYA-ŞOYTIYA** (Salyan) – axsaya-axsaya. – *Ayağım ağrıyır, şoytıya-şoytıya bir tə:r gəzirəm.*

**ŞÖDDƏ** (Bakı) – uzun, dik. – *Ged gör o əmüngilə gələn şöddə papağ kimdü?*

**ŞÖ:GƏ** (Ağcabədi, Bərdə, Göyçay, Kürdəmir, Sabirabad, Şuşa, Tərtər) – 1. kölgə. – *Əvin şö:gəsində gördüm ki, bir adam duruf, tanıyammədim* (Ağcabədi); 2. gün düşməyən yer. – *Ağacın şö:gəsində adam duruf* (Bərdə); – *Şö:gədə heş nə bitmir* (Kürdəmir).

**ŞÖFDƏ** (Oğuz) – cəftə.

**ŞÖX′LƏMƏX′** I (Çənbərək) – kəsmək, qırmaq. – *Taladan bir afdoy odun şöx′lədim gətdim.*

**ŞÖX′LƏMƏX′** II (Ağdam, Şuşa) – şəstlə vermək, təqdim etmək. – *Onnuğu şöx′lədim o:ucuna* (Ağdam).

**ŞÖJƏLƏNMƏX′** (Çənbərək) – süzülmək. – *Oynaqanıŋ suyu söjələnirdi, yağış əfritmişdi deyin.*

**ŞÖKNÜK** (İmişli) – axşam qaranlığı. – *Şöknük düşəndə obıya yaxınnaşdığ.*

**ŞÖKNÜKMƏK** (İmişli) – qaranlıqlaşmaq, axşam qaranlığı düşmək.

**ŞÖLÜK** (Kürdəmir) – pinti, səliqəsiz.

**ŞÖNQİMAX** (Qax) – pərt olmaq.

**ŞÖNÜ** (Qax) – avara.

**ŞÖRÜMƏX′** (Naxçıvan) – vermək.

**ŞÖŞDƏMƏX′** (Cəbrayıl) – bax **şöx′ləməx′** II.

**ŞÖŞGÜLLƏMƏX′** (Cəbrayıl) – yavanlıq etmədən yemək. – *Sən qatığı şögüllüyüb qutardın ki.*

**ŞÖT** (Gədəbəy, Gəncə, Tovuz) – maili, əyri. – *Laydıra çaldığım mıx şöt getdi* (Gəncə).

**ŞÖTDƏMƏX′** (Meğri) – hər hansı bir işi başdansovdu görmək. – *Mõ: bir ərzə yaz, ama şötdəmə, dərin yaz.*

**ŞÖTÜX′** I (Cəbrayıl) – dəvəni cahazlamaq üçün istifadə olunan örkən, enli ip. – *Şötüyü dəvənin belinə çək.*

**ŞÖTÜX′** II (Basarkeçər, Xanlar) – göz dəyməmək üçün uşağın çiyindən asılan bəzəkli duaqabı. – *Sövgülü yaxşı şötüx′ toxuyur.* – *Mə:m şötüyüm indi də durur* (Basarkeçər); – *Körpə uşaxlara göz dəyməsin deyə üstünə şötüx′ tikillər* (Xanlar).

**ŞÖTÜNƏ** (Tovuz) – çəpinə, əyri, maili. – *Şötünə bir ağac atdım, dəyseydi, onnan fayda yoxuydu.*

**ŞÖV** I (Şəki) – lobyanın sarmaşması üçün onun dibinə basdırılan çubuq. – *Bir arava şöv olsa, lovyəmizə yetər.*

**ŞÖV** II (Şəki) – lobya bitkisinin çubuğa və s. sarmaşması üçün onun üstə olan nazik tellər, lobya sarmaşığı. – *Lövyənin şövləri heyləcə yerə sarışıf gidiy, şəl yoxdu ki, şəlliyəsən.*

**ŞÖY** I (Çənbərək, Daşkəsən, Gədəbəy, Qazax) – ağacın dibindən çıxan cavan pöhrə, zoğ. – *Şöy ağacın divinnən çıxer* (Qazax); – *Ağacın divinən çıxan şöylərə dəymən ha!* (Gədəbəy).

**ŞÖY** II (Qazax) – düz, dik. – *Bu ağac şöy qalxer.*

**ŞU** (Qax) – görkəm, görünüş.

**ŞUARÇI** (Qax) – şair.

**ŞUBƏND** (Quba) – çarıqbağı. – *Çarığlara şubənd keçir.*

**ŞUD** (Quba) – taxtabiti. ◊ **Şud eləməy** (İrəvan) – ağ etmək, həddini aşmaq. – *Bu günnər oğrular lap şud eliyif.*

**ŞUDƏFTİN** (Şamaxı) – toxuculuq dəzgahının bir hissəsi. – *Şudəftini bərk vur, az qumaş olsun.*

**ŞUĞDA** (Qarakilsə) – ensiz, uzun torpaq sahəsi.

**ŞUĞUL** (Bərdə, Gəncə, Tərtər) – xəbərçi, araqarışdıran. – *Şuğul adam ara qarışdırar, ara vurar* (Bərdə).

**ŞUĞULLAMAX** (Qazax) – xəbərçilik etmək, şeytanlamaq. – *Məhəmməd İsmeyili şuğullamax xıyalına düşdü, əmbə soŋradan fikrinnən əl çəx′di.*

**ŞUĞULLUX** (Qazax) – xəbərçilik. – *Yalannan şuğullux pis adamın işidi.*

**ŞUĞURTMA** (Zaqatala) – öküz və s. sürmək üçün nazik çubuq.

**ŞUXUM** (Salyan) – niyyət. – *Nazilənin şuxumu çox ağırdı.*

**ŞUQUM** I (Şəki) – görkəm, görünüş. – *U:n şuqumu mə:m xoşuma gəlmədi.*

**ŞUQUM** II (Qax) – eybəcər, çirkin.

**ŞULAHIN** (Balakən, Zaqatala) – şaxdan hörülmüş çəpər. – *Şaban bağa şulahın çəkdi* (Zaqatala).

**ŞULAHINNAMAX** (Zaqatala) – şaxdan çəpər çəkmək. – *Bağı şulahınnamax lazımdı.*

**ŞULAYIN** (Kürdəmir) – pinti, səliqəsiz. – *Uşağı şulayın saxlasən canı saf olmaz.*

**ŞULDİ** (Şamaxı) – yaltaq. – *Mustafa yaman şuldi adamdı.*

**ŞULDUM** I (Ordubad) – fərasətsiz, fərsiz.

**ŞULDUM** II (Ordubad) – 1. səliqəsiz; 2. pinti.

**ŞULDUM** III (Salyan) – yüngülxasiyyət. – *Şuldum adam hər şeyə burnun soxur.*

**ŞULFƏ** (Ordubad) – dəri qaşımaq üçün alət. – *Şulfəni axtar tap.*

**ŞULĞUTDUĞ** (Quba) – uzunçuluq. ◊ **Şulğutduğ eləməg** (Quba) – uzunçuluq etmək. – *Bəsdür, məylisdə şulğutduğ eləmə.*

**ŞULQUDUZ** (Şamaxı) – nadinc, başqalarını narahat edən. – *Heydər çox şulquduz uşaxdu.*

**ŞULQUDUZLIĞ** (Şamaxı) – nadinclik. – *Şulquduzlığ yaxşı iş deyil.*

**ŞULLAMAX** (Cəbrayıl) – yağı azca əritmək.

**ŞULLAY** (Şamaxı) – kəsik konus şəkilli papaq. – *Abzər başına şullay qoyıb isdiyir özin qoçuyə oxşatsun.*

**ŞULLAYİ** (Kürdəmir) – şiş, uzunsov. – *Qabax əsgərrərə şullayi papağ verirdilər;* – *Bədənimnən şullayi yara çıxıb.*

**ŞULLİ** (Salyan) – süddə bişirilmiş duru xəşil.

**ŞULUKU** (Kəlbəcər) – çarıq növü, burunsuz çarıq. – *Bir cüt şuluku çarığım var.*

**ŞULUL** (Cəbrayıl) – meyvə. – *Bu il bizim bağda şulul çoxdu.*

**ŞULUM** I (Ağdam, Cəbrayıl, Çənbərək, Gədəbəy, Laçın, Şahbuz, Şuşa, Zəngilan) – b a x **şuldum** II. – *Qulu şulum şeydi, onnan heş şey umma* (Çənbərək); – *Yekə oğlansaŋ, niyə belə şulum uşax olmusaŋ?* (Laçın); – *Şulum adam yeyib-içməsini düzgün bilməz, başmağın şürüyər, huşsuz olar* (Şahbuz).

**ŞULUM** II (Şəmkir) – boş. – *Gəveyi toxuyanda hüvüyü bərx′ vurmayanda gəvə şulum oler.*

**ŞULUM** III (Cəbrayıl) – israfçı.

**ŞULUM** IV (İmişli) – yüngülxasiyyətli.

**ŞULUM** V (Çənbərək, Gədəbəy, Xanlar) – 1. avara, işsiz; 2. boş-boşuna gəzən. – *İxdiyar gündüzü axşamatan aralıxlarda şulum gəzir* (Çənbərək); – *Bu it çox şulum gəzir* (Xanlar).

**ŞULUM-BULUM** (Ağdam, Şuşa) – 1. səliqəsiz; 2. pinti. – *Yaman şulum-bulum uşaxdı, bilmirəm munun axırı nolajəx′* (Şuşa).

**ŞULUM-ŞULUM** (Qazax, Zaqatala) – boş-boşuna, avara-avara. – *Şulum-şulum gəzer, bi iş görmer* (Qazax).

**ŞUM** (Bakı) – zərər. – *Yayda isdot yimeg şumdu.*

**ŞUMAQƏDƏR** (Bakı) – uşaq oyunu adı.

**ŞUMAL** I (Başkeçid, Cəlilabad, Çənbərək, Qazax, Şamaxı, Ucar, Zəngəzur) – düz, hamar. – *Şumal ağac düz olor* (Qazax); – *Şumal taxtadan nə isdəsəŋ qayıra bilərsəŋ* (Başkeçid); – *Bizim bağda şumal ağac çoxdu* (Zəngəzur); – *Yanıx pə:də elə şumal ağaşdar var kin, hərəsinnən üş gırdın çıxar* (Çənbərək); – *Şumal ağajdı, əyri döy bı* (Cəlilabad).

**ŞUMAL** II (Ağdaş, Bərdə, Göyçay, Xudat, Zəngilan) – üzərində yarpağı olan cavan tut və ya çəkil çubuğu. – *Uş günnən sora, üçüncü yuxudan durannan sonra qurda veririx′ şumal* (Ağdaş); – *Çəkilin şumalları uzun olur* (Bərdə).

**ŞUMARRAMAĞ** (Salyan) – hamarlamaq, düzləmək. – *Buldozer yolu şumarrıyır.*

**ŞUMARA** (Bakı) – nərmə-nazik, incə.

**ŞUMARRAMAX** (Oğuz) – başdan-başa suvarmaq.

**ŞUMBAŞ** (Bakı) – bayquş.

**ŞUMPOLU** (Xaçmaz) – balaca, kiçik uşaq.

**ŞUMŞAT** (Kəlbəcər) – şimşək. – *Yağış yağanda şumşat çaxır.*

**ŞUMURAN** (Ordubad) – şəlalə. – *Parağa çayda bir yerdə şumuran var.*

**ŞUNDUL** I (Mingəçevir, Şəki) – yüngülxasiyyət, qeyri-ciddi. – *Çox şundulddu İsmayıl, danışığını, oturuşunu, duruşunu bilmir heç* (Şəki).

**ŞUNDUL** II (Şəki) – avara, işsiz gəzən, boş-bikar. – *Əhməd şundul uşax olmasa yaxşıdı.*

**ŞUNDULAMAX** (Çənbərək) – 1. vurmaq; 2. qamçılamaq. – *Haravıyı qoş, Alı, öküzü şundula, teççə tütünü daşı.*

**ŞUNDULLUX** (Şəki) – yüngüllük, yüngülxasiyyətlilik. – *Şundullux pis şeydi.*

**ŞUNDUL-ŞUNDUL** (Şəki) – avara-avara, boş-boşuna. – *Əhmədiyə şundul-şundul gəzir.*

**ŞUNQUL** (Zaqatala) – qərzəkdən çıxmış fındıq.

**ŞUNQURAX** (Cəbrayıl) – 1. lağ; 2. birisi haqqında uydurulan söz.

**ŞUNQURUX** (Gəncə, Mingəçevir, Oğuz, Tovuz) – bax **şunqurax.** – *Nizaminin adına böyük şunqurux düzəldiblər* (Oğuz). ◊ **Şunqurux qoşmax** (Gəncə, Mingəçevir, Tovuz) – 1. lağa qoymaq; 2. haqqında uydurma söz düzəltmək. – *Yazığa bir şunqurux qoşdular* (Gəncə); – *Gəliŋ olara bir şunqurux qoşax, aləmdə biəvır olsunnar* (Tovuz).

**ŞUPİ-ŞUPİ** (Salyan) – uşaq oyunu adı.

**ŞUPUR** (Şəki) – ting, ağac şitili. – *Ehdığımız şupurrarın hamısı göyərifdi*

**ŞUR** (Ordubad, Şərur) – 1. səs; 2. gurultu. ◊ **Şur çıxartmaq.** – *Ay uşax, şur çıxarma!..*

**ŞURA** (Dərbənd) – qoğal. – *Bizdə şura diyədilər.*

**ŞURAQƏCƏRƏ** (Ordubad) – sağsağan. – *Bir şuraqəcərə tutmuşam;* – *Bizim əvdə şuraqəcərə yuvası var.*

**ŞURALA: ŞURALA KƏSMƏK** (Şamaxı) – möhkəm döymək, ağacla döymək. – *Məni qardaşım şurala kəsdi.*

**ŞURBUL** (Quba) – sulu xörək adı. – *Şurbul çüreg duğruyub yimağçün yaxşı şeydü.*

**ŞURQAN** (Təbriz) – şəlalə.

**ŞURNAY** (Bolnisi) – şəlalə.

**ŞURUB** (Şamaxı) – qaynadılaraq qatılaşdırılmış meyvə şirəsi. – *Heyva şurubu yaxşı şeydü.*

**ŞURULLAYI** (Oğuz) – 1. boş-boşuna. – *Şurullayı çıxıb özün gəldin;* 2. avara, bikar. – *O, şurullayının biridi.*

**ŞURŞANA** (Zəngilan) – novça.

**ŞUTDƏMƏY** (Salyan) – oyun zamanı topu ağacla yerdə sürütləmək. – *Səfər yaxşı şutdədir.*

**ŞUVURTU** (Tovuz) – bax **şıvırtı** I.

**ŞÜDƏY** (Şamaxı) – ensiz uzun zolaq. – *Keçmişdə hərənin bir şüləy yeri olardı.*

**ŞÜ:Ə** (Ucar) – şəvə. – *Şü:ə tüt qaradı, təsvey olur, gözmuncuğu olur.*

**ŞÜƏRƏG** (Cəlilabad) – nazik, uzun. – *Onın bi şüərəg oğli var, heç sağ can görmey.*

**ŞÜK: ŞÜKƏ DÜŞMƏK** (Cəlilabad) – qorxmaq, qorxuya düşmək.

**ŞÜLAN** (Oğuz) – bax **şilan** I.

**ŞÜLƏ** (Göyçay) – 1. ip və ya sap dəstəsi; 2. 50-60 sm. uzunluğunda sap.

**ŞÜLƏXʹ** (Cəbrayıl, Göyçay, Zəngilan) – bax **şülə.** – *Bir şüləxʹ sap ver ma:, sora verərəm* (Zəngilan).

**ŞÜLƏK** (Cəbrayıl, Ucar) – bax **şülə.** – *Əli, mə: iki şülək göy, üş şülək qırmızı sap ver* (Cəbrayıl); – *Ay qız, bir şülək sap ver, pencə:in düyməsin tikim;* – *Mən beş-altı şülək sapnan tikməni tikdim* (Ucar).

**ŞÜLƏMƏXʹ** I (Cəbrayıl) – bol-bol paylamaq. – *Ə: nədi xalxın malını şülörsən?*

**ŞÜLƏMƏXʹ** II (Ağdam, Şuşa) – döymək, vurmaq. – *Ağına-bozuna baxmır, elə şülü:r* (Ağdam); – *Tutdum, möhkəm şülədim onu* (Şuşa).

**ŞÜLƏN** (Qazax) – talan. ◊ **Şülən olmax** (Qazax) – talan olmaq, dağıtmaq. – *Bosdan şülən oluf.*

**ŞÜLƏNNİXʹ** (İmişli) – bolluq. ◊ **Şülənniyə düşməxʹ** (İmişli) – bolluğa düşmək. – *Bü:n bir şülənniyə düşmüşdüm.*

**ŞÜLƏY-ŞÜLƏY** (Şamaxı) – kəsik-kəsik, parça-parça. – *Ussa dö:rmüş <deyilmiş>, parçanı şüləy-şüləy elədi.*

**ŞÜLİL** (Meğri) – kal meyvə. – *Yayda arançi naşdovqarına şülil yesə qızdırı.*

**ŞÜLLƏ** (Goranboy) – uzun. – *Şüllə adamın ağlı topuğunda olar;* – *Şüllə Həsən kətdə hamıdan uzundu.*

**ŞÜLLƏXʹ** (Cəbrayıl) – bax **şüllə.**

**ŞÜLLÜ** I (Kürdəmir, Qazıməmməd) – duru xəmir xörəyi adı. – *Anam şüllü bişirmişdi* (Qazıməmməd); – *Bi şüllü pişir yiə:xʹ* (Kürdəmir).

**ŞÜLLÜ** II (Ağcabədi) – şiş, prizmaşəkilli. – *Taxtapuşun üşdü şüllüdü.*

**ŞÜLÜ** (Naxçıvan) – oğru.

**ŞÜLÜF** (Şəki) – qərzəkdən çıxmış qoz. – *Mənki:n çoxu şülüfdü.*

**ŞÜLÜM** (Ağcabədi) – pinti, səliqəsiz. – *Şülüm uşaxda qanajax olmaz.*

**ŞÜLÜMƏXʹ** (Gədəbəy) – bax **şüləməxʹ** II. – *Gördüm əl-ə:ax eler, başdadım onu şülümə:.*

**ŞÜMBÜLTULA** (Cəbrayıl) – hər işə qarışan, hər yerə burnunu soxan.

**ŞÜMŞAT** (Daşkəsən, Kəlbəcər) – ildırım. – *Göy gürüldə:ndə şümşat tüşöy* (Daşkəsən); – *Şümşat bulutdar arasında oynur* (Kəlbəcər).

**ŞÜMŞƏT** I (Ağdam, Borçalı, Qazax, Şəmkir, Tovuz) – b a x **şümşat.** – *Göy gürüldə:ndə şümşət tüşöy;* – *Şümşət oynor, yağajax* (Borçalı); – *Yağış yağer, şümşət çaxer* (Daşkəsən).

**ŞÜMŞƏT** II (Goranboy, Qazax) – tütək. – *Şümşədi ağaşdan-zaddan qayrellər* (Qazax); – *Çovan şümşətnən qoyunqaytaran çalanda qoyunnar çovanın başına yığıler* (Goranboy).

**ŞÜMŞÜLƏ** (Kürdəmir) – boyunduruqla arabanı birləşdirən hissə. – *Arabanın şümşüləsi çıxıb.*

**ŞÜMŞÜLÜT** (İmişli) – şimşək. – *Göy guruldadı, şümşülüt şaxdı.*

**ŞÜMŞÜRÜXʹ** (Ağcabədi, Bərdə, Culfa, Tərtər) – b a x **şümşülüt.** – *Göydə şümşürüy oynuyur* (Ağcabədi); – *Şümşürüxʹ yazda yağış yağanda olar* (Culfa).

**ŞÜMŞÜRÜT** (Ağcabədi) – b a x **şümşülüt.** – *Şümşürüt yağış yağanda olur.*

**ŞÜNKÜRÜXʹ** (Qazax) – lağ. ◊ **Şünkürüyə qoymax** (Qazax) – lağa qoymaq. – *Yazığı şünkürüyə qo:llar.*

**ŞÜRFƏ** (Şəki) – gönü təmizləmək üçün dəmir alət. – *Bizim şürfəmiz ititdi.*

**ŞÜRÜM** (Ucar) – şırım, uzun ensiz <parça, torpaq sahəsi>.

**ŞÜŞ** I (Zaqatala) – 1. təmizlənmiş; 2. hamar.

**ŞÜŞ** II (Çənbərək) – saf, təmiz. – *Şüş qızıl pullar vardı onda.*

**ŞÜŞDƏMƏXʹ** (Ağdam, Basarkeçər, Gəncə, Xanlar) – xırmanda döyülmüş taxılı topa şəklində bir yerə yığmaq, toplamaq, təpə şəklində yığmaq. – *Şüşdəməxʹ, yəni kopalamax.* – *Taxılı şüşdü:f qutarmışam* (Basarkeçər); – *Taxılı şadareynan duruluyullar, sonra şüşdüyüllər* (Gəncə).

**ŞÜŞDÜ** (Əzizbəyov) – günahkar, təqsiri olan. – *Bı işdə o da şüşdüdü.*

**ŞÜŞƏ** I (Culfa) – xırmanda topa şəklində bir yerə yığılmış, bir yerə toplanmış taxıl. – *Şüşəni şadaraynan əliyirixʹ, so:ra da xəlbirnən qəyrib torpağın çıxardırıx.*

**ŞÜŞƏ** II (Şəki) – ağacın cavan zoğu, xırda budaq. – *Çəkilin şüşəsini qırıf veririxʹ xırda vaxdı qurda;* – *Yuxudan durannan so:ra şüşə qırıf tököllər qurda.*

**ŞÜŞƏ** III (Qəbələ, Quba) – meyvə saxlamaq üçün xüsusi çuxur, quyu. – *Bizim briqadanın igirmi şüşə alması var.*

**ŞÜŞƏK** (Qarakilsə) – lağ. ◊ **Şüşək eləmək** (Qarakilsə) – lağ etmək, ələ salmaq. – *Padşah bına şüşək elədi;* – *Mən şüşək eləməli adam döyləm, get tayı: tap.*

**ŞÜŞƏKİ** (Tovuz) – b a x **şüşək.** ◊ **Şüşəki eləməxʹ** (Tovuz) – b a x **şüşək eləmək.** – *Sən mənə şüşəki eləmə.*

**ŞÜŞƏLƏMƏXʹ** (Ağdam, Culfa, Füzuli, Ordubad, Zəngilan) – b a x **şüşdəməxʹ.** – *Potqanı yığırdıx yerə, bir də döyürdüxʹ, sonra şüşəli:rdixʹ* (Ağdam); – *Tez olun taxılı şüşəli:n, axşamdı* (Zəngilan).

**ŞÜŞKƏR** (Zaqatala) – günahkar, təqsirli. ◊ **Şüşkər olmax** (Zaqatala) – günahkar olmaq, təqsirli olmaq. – *Yazıq lap şüşkər oldu.*

**ŞÜTRÜ** (İsmayıllı) – başdansovdu, səthi, keyfiyyətsiz. – *Sən işi şütrü görübsən.*

**ŞÜTÜMƏXʹ** (Gədəbəy, Xanlar, Kəlbəcər) – avaralanmaq, veyllənmək, boş-boş gəzmək. – *Ə, niyə şütüyöysüŋ, öyə simitdiy vermeysiŋ* (Gədəbəy); – *Pis itdər gedey qapılarda gəzey, de:llər şütüyöy* (Kəlbəcər); – *Ə, buralarda nə şütüyöysəŋ?* (Xanlar).

**ŞÜV** (Xudat) – ensiz meşə zolağı. – *Şüvün iki tərəfin də şumla.*

**ŞÜVCƏ** (İrəvan) – ağacın cavan zoğu. – *Şüvcəni elə çəkəcəm ki, yandırar yaxar.*

**ŞÜVÇİRAĞI** (Xaçmaz, Quba) – gecə işıqsaçan cücü.

**ŞÜVƏLİN** (Şahbuz) – yabanı dərman bitkisi.

**ŞÜVƏR** I (Oğuz) – evin tiri. – *Damın şüvərləri xarab olufdu.*

**ŞÜVƏR** II (Balakən) – şax və ya kolkosdan düzəldilmiş çəpər. – *Məhlənin ətrafına şüvər çəkmişəm.*

**ŞÜVƏRƏ** (Göyçay) – əkin sahəsində çəkilmiş arx.

**ŞÜYRƏ** (Gəncə) – dərini yumşaltmaq və təmizləmək üçün alət. – *A bala, o şüyrəni ver bura.*

**ŞÜYRƏLƏMƏXʹ** (Gəncə) – dərini yumşaltmaq, təmizləmək. – *Şüyrəni ver, bir-iki dəri var, onları şüyrəliyim.*

**ŞÜYRÜMALI** (Kürdəmir) – uzunsov.

**ŞVEYNAZ** (Naxçıvan) – yemiş növü.

# Tt

**TA** (Ağdam, Bərdə, Gədəbəy, Şəmkir, Şuşa) – daha. – *Ə, ta bəsdi yatdıŋ, bir yeriŋnən qalxsaŋa* (Ağdam); – *Ta mənim saŋa sözüm yozdu innən belə* (Bərdə); – *Ta niyə durufsaŋ, ged işiŋi yör* (Gədəbəy); – *Ta səni heş yana buraxmaram gedəsəŋ* (Şuşa).

**TABAĞCA** (Masallı) – içərisində qənd doğramaq üçün ağacdan hazırlanan xüsusi çanaq.

**TABAX** (Naxçıvan, Ordubad) – xonça.

**TABIN** (Zaqatala, Qax, Balakə) – 1. tayfa, nəsil; 2. məhəllə.

**TABIR** (Zəngibasar) – dəfə. – *Bir tabır aparmışıx, bu ikinci tabırdı.*

**TABIRĞA** (Xanlar) – gəlmə. – *Özgə kətdən gəlif burda olana tabırğa deyrəx'.*

**TABLELƏ** (Bakı) – əncir qurusu.

**TABUN** I (Balakən) – kənd. – *Mən Talalar tabununda oluram.*

**TABUN** II (Qax) – at ilxısı.

**TABURĞA** (Salyan) – b a x **tabırğa.**

**TAÇAX** (Qazax) – qaramalın ayağının dərisi.

**TADDIM** (Gədəbəy) – ta ki, o vaxta qədər ki. – *Taddım özü gəlməsə, mən xalxın amanatını heş kimə vermərəm.*

**TA:DIM** (Bərdə, Füzuli, Qazax, Yevlax) – b a x **taddım.** – *Təleyi qurollar ta:dım oy çüşənətən* (Qazax).

**TAF** I (Füzuli, Xanlar, Şəmkir) – b a x **tap** III. – *O tafdan ağzı aşağı gələndə gördüyün yerrərin hamısı bizim kolxozundu* (Füzuli); – *O taflarda mal örüşü var* (Şəmkir).

**TAF** II (Zəngilan) – suvarılmayan əkin sahəsi.

**TAFDAX** I (Gədəbəy) – kərəntinin tiyəsinin kəsən tərəfi.

**TAFDAX** II (Daşkəsən) – kərəntinin ağzını itiləmək üçün alət. – *Tafdaxınan kərəntiyi tafdıyırıx.* ◊ **Tafdaxdan tüşməx'** (Gədəbəy) – kütləşmək, kəsərdən düşmək. – *Kərəntim tafdaxdan tüşüf bə:axdannan.*

**TAFDALAMAX** (Şəmkir) – əkin sahəsini şırımlara ayırmaq. – *Darıyı əkerıx' payızda, onnan sonra tafdaleyıf onu sulerıx.*

**TAFDIMAX** (Daşkəsən) – itiləmək. – *O tafdağı ma:yəti bu kərəntiyi tafdıyım.*

**TAFI** (Culfa) – üzüm növü.

**TAFIR** (Cəbrayıl, Çənbərək) – fərq. ◊ **Tafırın tutmax** (Cəbrayıl, Çənbərək) – 1. fərqini müəyyənləşdirmək (Çənbərək); 2. sınamaq (Cəbrayıl). – *Tafırın tutmuşam, təx' savır ma: düşür* (Cəbrayıl); – *Tafırın Xidir tutuf, həfdədə xiyarı suluyur bir dəfə*; – *Köhçəli Nədir hər şeyin tafırın tutuf* (Çənbərək).

**TAFIRQA** I (Ağdərə) – köçəri. – *Əvvəl tafırqaydıx biz.*

**TAFIRQA** II (Meğri, Ucar) – gəlmə, yerli olmayan, yurdsuz. – *Dedim: "Əmir xan, tafırqa adamıx, deyna bizim davarrarı versin"* (Meğri).

**TAFQINTI** (Qazax) – tapılmış şey. – *Bu tafqıntıların yə:si çıxdımı?*

**TAFQIR** (Zəngibasar) – dəfə. – *Bir tafqır da yusan ə:r, təmmiz olar.*

**TAFRIX** (Şəki) – qarışıqlıq. ◊ **Tafrığa düşməx'** (Şəki) – dolaşıqlığa düşmək, qarışıqlığa düşmək. – *Bizim qonşunun işi tafrığa düşütdü.*

**TAFTAPI** (Karvansaray) – qarğıdalı və ya darı çörəyi. – *Qardalı ununnan yaman taftapı bişirillər.*

**TAĞ** (Ordubad) – taxça.

**TAĞALAĞ** I (Cəbrayıl, İmişli, Salyan, Şamaxı) – cəhrədə iyə keçirilən dairəvi taxta. – *Tağalağ iynən bir yerdə fırranır* (Cəbrayıl).

**TAĞALAĞ** II (Şamaxı) – *məc.* quru, bərk. ◊ **Tağalağa dönməy** (Şamaxı) – *məc.* qurumaq, bərkimək.

**TAĞALAĞ** III (Quba) – 1. dairəvi, girdə; 2. dairəvi dəmir və ya taxta. – *U tağalağı urdan kütür, əl-ayağa dulaşadu.*

**TAĞALAĞ** IV (Qazax, Şəmkir, Tovuz) – sap çarxı. – *Gələndə iki dənə ağ, bir də qara tağalağ al gəti* (Qazax).

**TAĞALAX** I (Ağdam, Bərdə, Culfa, Şuşa, Tərtər) – b a x **tağalağ** I. – *Cəhrənin tağalağı uşağın əyağı altında qalıf sınıfdı* (Ağdam); – *Tağalax iyin dibində olur* (Culfa); – *Tağalax olmasa cəhrə əyirməx' olmaz* (Şuşa).

**TAĞALAX** II (Ağdam, Bərdə, Qax, Mingəçevir, Şuşa) – b a x **tağalağ** II.

**TAĞALAX** III (Şəki) – b a x **tağalağ** III. – *Ağ alma var de:irmi, huna tağalax alma*

*diyəllər. – De:irmi taxdaya demir olanda huna tağalax diyərux.*

**TAĞALAX** IV (Başkeçid) – b a x **tağalax** IV.

**TAĞALAX** V (Qax) – mismarın başı.

**TAĞALAX** VI (Borçalı) – yumaq. – *Get qalxozdan bir tağalax kəndir al gəti.*

**TAĞALANDIRMAX** (Qazax) – bükmək, burmaq. – *Camış quyruğunu tağalandırer.*

**TAĞAN** (İmişli) – dolaşa. – *Tağan dolub şuma, səpdiycən götürür tumi.*

**TAĞAR** (Gədəbəy, Qafan, Qax, Qazax, Mingəçevir, Oğuz, Ordubad, Salyan, Şəki, Şəmkir, Zaqatala) – ölçü vahidi adı. – *On tağar ağa götürürdü, iki tağar da atama irəncbər payı verirdi* (Qazax); – *Mə:m əməx' günümə ildə dört-beş tağar dən düşür* (Ordubad); – *Bıldırrarı qalxozdan beş tağar qartov aldım əməx' gününə* (Gədəbəy); – *Qabax taxılı tağarnan ölçəllərdi, indi tonnan ölçüllər* (Salyan); – *Otuz çanağın bir tağardı* (Şəmkir); – *Tağarı un manıta taxıl satılıf* (Şəki).

**TAĞARBAŞI** (Qazax) – satılan hər tağar taxıl üçün pulsuz olaraq əlavə edilən taxıl. – *Hər tağara tağarbaşı verirdix' bir çanax.*

**TAĞARRAMAX** (Borçalı) – tağarla ölçmək. – *Ay uşaxlar, ay bala, durmuyun gəlin, tığdan taxılı tağarrıyax.*

**TAĞƏLİ: TAĞƏLİYƏ QOYMAX** (Cəbrayıl) – lağa qoymaq.

**TAĞIRSAĞ** (Lənkəran) – dolu. – *İki gündü sə:rrər tağırsağ yağır.*

**TAĞRIL** (Cəbrayıl) – izahat. ◊ **Tağrıl almax** (Cəbrayıl) – izahat almaq. **Tağrıl verməx'** (Cəbrayıl) – izahat vermək.

**TAX** (Qax, Şamaxı) – 1. üzərinə ot yığıb sürümək üçün istifadə edilən ağac budağı (Qax); 2. kəsilmiş və qol-budağı budanmış kiçik ağac (Şamaxı). – *Çiynimdə meşədən bir uzun tax gətdim.*

**TAXDA** (Balakən, Cəbrayıl, Göyçay, Qarakilsə, Qazax, Laçın, Ordubad, Şəki, Şuşa) – 1. əkin sahəsində zolaq, əkin sahəsinin bərabər hissələri (Balakən, Göyçay, Qarakilsə, Ordubad, Şəki, Şuşa). – *Bizim briqada bu gün iki taxda tütün şitili basdırdı* (Balakən); – *Taxdalarda əkin əx'mişəm* (Qarakilsə); – *Bi taxda yer belləmişux soğan ehmağa.* – *Əlli taxda çəltix yerimiz olardı o vaxda* (Şəki); – *Həşim öz taxtasını şumnuyur* (Şuşa); 2. dağavar yerdə düzənlik hissə, otlaq sahəsi (Cəbrayıl, Qazax, Laçın). – *Biyil dəlləx' taxdasında çoxlu ot var* (Qazax); – *Bizim qoyun bu sa:t taxdada otduyur* (Laçın); – *Mal-qara taxdıya yayılıb* (Cəbrayıl); 3. qadın tumanının, yorğanın üzünün bərabər hissələri. – *Yorğanın üzünə üş taxda çit işlənir* (Ağdam); – *Mənim tumanım beş taxdadı* (Şamaxı); – *Qabaxlar on iki taxdadan tuman geyərdix'* (Şuşa); – *Bu taxdadan sonra hananı kəsəjiyix'* (Cəbrayıl).

**TAXDALAMAX** (Gəncə, Mirgəçevir) – əkin sahəsini zolaqlara ayırmaq, hissələrə bölmək. – *Sabah arpanı taxdalamağa gedəjəm* (Gəncə).

**TAXINMAX** (Qax) – bəzənmək.

**TAXQILLAX** (Mingəçevir) – qupquru.

**TAXSIM** (Qax) – sahibsiz, yiyəsiz. – *Habı taxsım toyuxları qov ketsin məhlədən.*

**TAXŞALAMAX** (Beyləqan) – köhnəlmək. – *Bu yaylıx çox taxşalıf.*

**TAXTABASAN** (Dərbənd) – arabanın banını yan tərəfdən saxlayan ağac. – *Taxtabasan dəndədən uladu.*

**TAXTABƏND** (Bakı, Quba, Sabirabad, Şamaxı) – eyvan. – *Bizim taxdabənd çox kiçikdi* (Şamaxı).

**TAXTABUZ** (Kürdəmir) – şkaf. – *Öyünnəri irayonun mağazennə taxtabuz gəlipmiş, Qardaşxan almıyıp.*

**TAXTACAL** (Quba, Şamaxı) – quş tutmaq üçün taxtadan hazırlanan tələ. – *Taxtacalda bir kəkliy var* (Quba); – *Bu gün nə qədər çalışdım taxtacala quş düşmədi* (Şamaxı).

**TAXTAX** (Şamaxı) – xəmrinə süd və ya yağ qarışdırılmış nazik, quru çörək. – *Taxtaxın xırıltısınnan xoşum gəlir.*

**TAXTAMİCƏ** (Əli Bayramlı) – palaz növü.

**TAXTAMÜJƏ** (Ağdam) – b a x **taxtamicə.**

**TAXTAPERDİ** (Zaqatala) – tavan.

**TAXTASUAT** (Salyan) – su götürmək və malları suvarmaq üçün çay sahilində düzəldilmiş kiçik körpücük. – *Anam taxtasuatda paltar yuyur;* – *Taxtasuat suatdan irahatdı.*

**TAXTAVEND** (Zaqatala) – üstünə qabqacaq yığılan rəf.

**TAQQA** I (Dərbənd) – ağac qabığından düzəldilmiş qab. – *Cingələg <çiyələk> dərmağa alub bir daqqa da gitdüm.*

**TAQQA** II (Dərbənd) – dəyirmanın su novu. – *Dəgirmanın taqqası dəşülüb, bir gün bir gecə dəgirmanda qalmişəm.*

**TAQQA** III (Göyçay) – su içmək üçün qab.

**TAQQA** IV (Göyçay) – tamamilə.

**TAQQILBAB OLMAX** (Şərur) – döyülmək. – *Qapı taqqılbab oldu, gör kimdi.*

**TALA** I (Zəngilan) – böyürtkən. – *Uşaxlar meşiyə tala yığma: getdilər.*

**TALA** II (Şərur) – topa. – *Qarpızı tərpətmə, tala dağılar.*

**TALAXA** (Zaqatala) – bişərkən çatlamış <yumurta>.

**TALAŞ** (Qəbələ, Quba) – odun doğranılan zaman yerə tökülən xırda qırıntılar. – *Ocağa qoymağa talaş gəti.*

**TALAŞA** I (Ağdam, Ağdaş, Bakı, Cəlilabad, Göyçay, Kürdəmir, Mingəçevir, Oğuz, Salyan, Şamaxı, Şəki, Şuşa, Zərdab) – b a x **talaş.** – *Bu tökülən talaşadan birəz apar evə* (Ağdam); – *Odun olmadığına peçdə talaşa yandırırıx* (Ağdaş); – *Bir az talaşa gəti ocağa at* (Oğuz); – *Bir-iki talaşa qopar, ocax qalıyacağam* (Kürdəmir); – *O talaşadan at sımavara, qaynasın* (Salyan); – *A bala, biraz talaşa yığ gəti, ocağı qızışdır* (Şəki).

**TALAŞA** II (Cəbrayıl, Goranboy, Zəngilan) – divar hörərkən daşların arasına tökülən xırda daş qırıntıları. – *İndi də talaşaə:ti tökəx' daşların arasına* (Goranboy).

**TALAŞKA** (İmişli) – b a x **talaş.** – *O talaşkadan gət, at ocağın altına.*

**TALĞA** (Qazax) – medal. – *Talğeyi hökümət verirdi bəylərə keşmişdə.*

**TALX** (Salyan) – yarımşor <su>. – *Talx suyı içməy olmaz.* – *Bizim quyının suyu talxdı.*

**TALXA** (Füzuli) – tənbəl, işdən boyun qaçıran. – *Talxaları aramıza qoymarıx.*

**TALXIMAX** (Çənbərək, Oğuz) – şişmək. – *Günbəgün irəngi çöürülür, talxıyır* (Oğuz); – *Əlimin üsdü talxıyıf.* – *Əli, niyə talxıyıf gözünün altı onun?* (Çənbərək).

**TALIX** (Oğuz) – qılıq; münasibət. – *Unun talığı yoxdu.*

**TA:LIT: TA:LIT ELƏMƏX'** (Mingəçevir, Şəki) – rişxənd eləmək. – *Özã: ta:lıt elə, mənnən işin olmasın.* – *Eşşəyə minəndə uşaxlar ta:lıt eliyir* (Şəki).

**TAM** (Dərbənd) – mağara. – *Tam diyədig muğaraya, muğara kimig yerə.*

**TAMAL** (Qax, Mingəçevir, Şəki) – maçalka.

**TAMASA** I (Lənkəran, Masallı) – b a x **tamaza.** – *Merzağa evin tamasasın da vurub* (Lənkəran).

**TAMASA** II (Balakən, Qazax, Ordubad) – taxta haşiyə. – *Dufarnan bolun <polun> arasına vurollar tamasıyı* (Qazax).

**TAMASA** III (Quba) – boyunduruğun alt ağacı. – *Tamasanı tez ul üryə <ora> gütür.*

**TAMASQA** (Dərbənd, Tabasaran) – b a x **tamasa** III. – *Buynisənin altındakı ağaca tamasqa diyədik* (Dərbənd); – *Malın başı çixməsü diyə, buyunduruğun aşağı tərəfinə tamasqa keçirəllər* (Tabasaran).

**TAMAŞAQABAĞ** (Kürdəmir) – boranı. – *Tamaşaqabağı alaçolpada paxla ilə yi:llər.*

**TAMATA** I (Şəki) – b a x **tamasa** II. – *Tamata vurullor ki, taxdaların arasınnan so:x keşməsin.*

**TAMATA** II (Oğuz, Zaqatala) – evin üstündə kirəmiti saxlayan uzun taxta. – *Tamata sınıb, kirəmit yerə tökülüb.*

**TAMATA** III (Göyçay, Mingəçevir) – tərəcə.

**TAMAZA** (Lənkəran) – tavan.

**TAMIR** (Çənbərək, Kürdəmir, Qarakilsə, Qazax, Mingəçevir) – tamah. – *Mənim heş nəyə tamırım yoxdu* (Qazax); – *Mənim dünya malında tamırım yoxdu* (Qarakilsə).

☐ **Tamırı olmax** (İmişli) – meyli böyük olmaq, istəmək, arzu etmək. – *Tamırı olsa, verəçək qızı, olmasa heç.* ◊ **Tamırında olmax** (İmişli) – arzusunda olmaq, istəmək. – *Tamırında olsa almağ çətin dögü.* **Tamırınnan geçmək** (İmişli) – meylindən keçmək, ürəyindən keçmək, arzu etmək. – *Tamırımnan keşdi, oturum mən də ye:im.*

**TAMIRA** (Ordubad) – vəzəri.

**TAMLAMAĞ** (Salyan) – ölçmək. – *Bı citi tamla ver mə:.*

**TAN** (Qazax, Mingəçevir, Şəmkir) – arxın içindən çıxarılaraq kənarına tökülmüş torpaq. – *Tan olmasa, su arxdan daşar* (Qazax); – *Arxın tanına kimi əkiflər* (Mingəçevir); – *Tan suyu qoymur qırağa dağılmağa* (Şəmkir).

**TANA** I (Bakı) – qıfıl. – *Qapıda tananı görüb qeyitdim.*

**TANA** II (Ağdam, Bərdə, Gədəbəy, Gəncə, Goranboy, Qax, Mingəçevir, Tərtər, Tovuz) – sırğa. – *Mə:m qızdarımın hamısı tana taxır* (Gəncə).

**TANA** III (Göyçay, Xanlar, Mingəçevir) – qulağın yumşaq hissəsi, sırğa taxılan yeri. – *Tanadan qızıl asallar* (Xanlar).

**TANA** IV (Göyçay, Mingəçevir) – atın burnunda əmələ gələn xəstəlik adı.

**TANA** V (Qarakilsə) – qoyun saxlamaq üçün üstüörtülü yer.

**TANAX: TANAX BURUN** (Kürdəmir) – yastıburun.

**TANALIX** (Goranboy) – qulağın yumşaq hissəsi, sırğa taxılan yeri.

**TANXALI** (Bakı) – varlı, dövlətli. – *O, çox tanxalı olub əvvəllər.*

**TANXARMAĞ** (Yardımlı) – tapşırmaq. – *Tanxariəm də xeyri yoxdu.*

**TANK** I (Balakən) – qəti. – *Köhnə hökümət işə, onu qayran adama tank qıymat verməzdi.*

**TANK** II (Zaqatala) – dazbaş.

**TANQ** (Quba) – səs. – *Əxşamlar həmişə meşə tərəfinnən cürbəcür tanq gələdü.*

**TANQAH** I (Cəbrayıl, Cəlilabad, Füzuli, İmişli, Qarakilsə) – b a x **tanqax.** – *Oa min manatlığ tanqah vermişük* (İmişli); – *Kişinin əlində bir elə tanqahı yoxdu* (Qarakilsə); – *Kolxoz aldığı dəvənin tanqahını verdi* (Cəbrayıl); – *Bir belə tanqahı qoyduŋ, elə bir qoyun apardıŋ burdan?* (Füzuli).

**TANQAH** II (Çənbərək) – qüvvə, güc. ◊ **Tanqahdan kəsilməx'** (Çənbərək) – gücdən düşmək, qüvvəsini itirmək. – *Seyfəddin qərəm işdədiyinə tanqahdan kəsilif.*

**TANQAX** (Salyan) – pul, sərmayə, var-dövlət. – *Kişinin əlində tanqaxı var.*

**TANQILIX** (Qax) – əkilməyən boş sahə.

**TAP** I (Qax, Mingəçevir, Şəki) – ağacdan düşüb əzilmiş <meyvə>. ◊ **Tap atmax** (Kürdəmir) – küt getmək. – *Xəmir yaxşı acımayıb deyin çörəx' tap atır.* **Tap getmək** (Ucar) – küt getmək. **Tap olmax** (Oğuz) – ağacdan düşüb əzilmək, zədələnmək <meyvə haqqında>. – *Alma yerə tüşəndə tap olur.*

**TAP** II (Oğuz) – alçaq, yastı. – *Pusa:tkı damlar hamısı tapdı.*

**TAP** III (Füzuli, Goranboy, Qarakilsə, Qax, Şəmkir, Tərtər) – dağlıq yerdə kiçik düzənlik. – *Tapda cıdıra çıxıllar* (Goranboy); – *Tap yerə su çıxmaz* (Tərtər); – *Tapda koma tikirix', orda heyvannarımızı otarırıx* (Füzuli); – *Naxırı tapda otararsan* (Cəbrayıl).

**TAPAN** I (Ağdam, Cəbrayıl) – qoyunları salmaq üçün qamışdan tikilmiş ağıl. – *Çoban qoyunu tapana yığdı* (Cəbrayıl).

**TAPAN** II (Bakı, Cəbrayıl, Kürdəmir, Mingəçevir, Salyan, Zəngilan) – qamış çəpər. – *Gərəx' qəmiş qırax ki, tapan çəkəx'* (Zəngilan); – *Tapdım, tapana saçdım* (Salyan); – *Qamış tapan yaman yaxşı olur* (Cəbrayıl).

**TAPAN** III (Əli Bayramlı, Füzuli, Kürdəmir) – qamışdan hörülmüş çəpəri möhkəm saxlamaq üçün vurulan dayaq. – *Çəpərin tapanını elə bərkit ki, so:radan tərpənməsin* (Əli Bayramlı); – *Çəpərə tapan vur* (Füzuli).

**TAPAN** IV (Borçalı, Gədəbəy, Qazax, Ordubad, Şahbuz, Tərtər) – əkin sahəsini hamarlamaq üçün ağac mala. – *Tapan kəsəx'li yerrəri düzəldir* (Borçalı); – *Tapan göyrüş ağajınnan oley* (Gədəbəy); – *Tapan yeri ütülüyür* (Tərtər); – *Yer keşələndə tapannan tapannıyırıx, olur yumuşax* (Ordubad).

**TAPAN** V (Tovuz) – cəhrənin oturacağı. – *Cəhrə tapanın üsdündə durur.*

**TAPANÇI** (İrəvan) – əkin sahəsini malalayan adam. – *Tapançı göndərdin?*

**TAPANNAMAX** (Ağdam, Borçalı, Gədəbəy, Ordubad, Şəmkir, İrəvan) – əkin yerini malalamaq. – *Yeri tapannan tapannadıx* (Borçalı); – *Tapannamamış səpbəx' olurmu heş toxumu?* – *Biz yeri əke:rix', onnan sonra buğdayı səpe:rix', sonra onu tapanne:rıx* (Gədəbəy). – *Yeri tapannıyırıx olur yumşax* (Ordubad). – *Əvvəl yeri şumnuyullardı, sonra da gedif üsdən tapannıyırlardı. Elə dədə-baba belə əx'mişix'* (Şəmkir).

**TAPANTI** (Qax) – seyrək yağış.

**TAPAR** (Balakən, Qax, Şəki) – deyəsən. – *Məmmədin evə gəlməsinnən Əlinin xəbəri yaxdu, tapar;* – *Ana, uşağ yuxudan durub, tapar* (Balakən); – *Yoldaşım məni çox gözlədi, tapar* (Qax); – *Tapar, öydə yoxdu* (Şəki).

**TAPARAN** (Şahbuz) – gildən düzəldilmiş zibil qabı. – *Zibili yığ taparana, apar at.*

**TAPBA** (Borçalı, Qazax) – tapmaca. – *Tapbıyı uşaxlar de:ir* (Qazax).

**TAPE** (Ordubad) – balaca təndir çörəyi, kökə. – *İssi tapeni üzlü pənirinən yiyəsən; – Tape yassı olur.*

**TAPI** (Naxçıvan, Zəngilan) – b a x **tape.** ◊ **Tapı salmax** (Zəngilan) – balaca təndir çörəyi, kökə bişirmək. – *Bir yumşax tapı sal göndər ma:.*

**TAPIX** (Ağdam) – şahid.

**TAPIL** (Ağdam, Borçalı, Gədəbəy, Hamamlı, Qazax, Tovuz) – kiçik ot topası. – *Otun qalınlığınnan baxıf görürsən, bir tapı iki-üş vərdən olur* (Ağdam); – *Yaveynan yığeyrıx, tapıl qayrerıx* (Borçalı); – *Olar tapılları xotdara yığdılar* (Tovuz).

**TAPILLAMAĞ** (Ağdam, Şərur, Tovuz) – biçilmiş otu bir az quruyandan sonra qotmanlamaq. – *Yaveynan otu tapıllıyırıx* (Ağdam); – *Mən otu tapılladım* (Şərur); – *Uşaxlar qurumuş otu tapılladılar* (Tovuz).

**TAPIMAL** (Borçalı) – maldarlıq işini yaxşı bilən. – *Əhməd kişi yaxşı tapımal adamdı.*

**TAPKİ** (Zaqatala) – üzüm yığmaq üçün xüsusi səbət. – *Üzümü tapkiya yığallar.*

**TAPTAPTAY** (Qax) – siçovul.

**TAR** I (Ağdam, Ağdərə, Basarkeçər, Borçalı, Çənbərək, Gədəbəy, Qarakilsə, Qazax, Şuşa, Tovuz) – toyuqların axşamlar üstündə yatdığı ağac. – *Töüxlar gejə tarda yatışır* (Ağdam); – *Çücələr tara çıxa bilmir* (Basarkeçər); – *Tö:ygə tar qoy üsdə çıxsın* (Çənbərək); – *Tö:üxlər tarda yater* (Gədəbəy); – *Tar hində qoyulur ki, tö:üxlər çıxıf orda yatsınnar* (Ağdərə); – *Töyuxların hamısı tarda yatıf* (Tovuz); – *Toyuğun tarı ağajdan qayrılar* (Borçalı); – *Toyux yatan ağaca tar deyirixʹ* (Şahbuz); – *Tö:üxlər tara çıxıf* (Şuşa).

**TAR** II (Basarkeçər, Başkeçid, Borçalı, Çənbərək, Hamamlı, Qazax, Şəmkir, Tovuz) – arabanın yan tərəflərindəki paralel üfüqi ağaclar. – *Haravanın tarı qırılıf* (Qazax); – *Haravanın dört tarı olor* (Borçalı); – *Haravanın qazıxların birləşdirən ağaca deirixʹ tar* (Hamamlı).

**TAR** III (Ağcabədi, Ağdərə, Basarkeçər, Başkeçid, Borçalı, Cəbrayıl, Çənbərək, Daşkəsən, Gədəbəy, Qazax, Şəmkir, Şuşa) – küləyin bir yerə topladığı qar yığını. – *Tarın altınnan yap adam gedir* (Ağcabədi); – *Tar dağlardo:lur, hara küləxʹ dəydi ordo:lur* (Ağdərə); – *Meşə: gedəndə tara patmışdım, güjnən çıxdım* (Gədəbəy); – *Tar yolları basıf* (Çənbərək); – *Arıx keçi tara batdı* (Cəbrayıl).

**TARABUDUX** (Ordubad) – xörək adı. – *Mən bu gün tarabudux yedim.*

**TARAX** I (Qax, Şəki) – kürək (insanda). – *Taraxlar elə zoqqıldıy* (Qax); – *So:ğ oltdı, taraxlarım ağrir* (Şəki).

**TARAX** II (Oğuz) – dırmıq. – *Soğanı, tarax diyirixʹ unnan taraxlıyıf, toxumu səpirixʹ.*

**TARAXÇIN** (Oğuz) – hop-hop, şanapipik.

**TARAXLAMAX** (Oğuz) – dırmıqlamaq. – *Taraxlamasan toxum üzdə qalar.*

**TARAXOT** (Zaqatala) – şüyüd.

**TARAX-TARAX** (Oğuz) – hop-hop, şanapipik.

**TARAQBAŞ** (Dərbənd, Tabasaran) – hop-hop, şanapipik. – *Taraqbaş qeyənün deşikləründə yuva salutdu* (Dərbənd).

**TARAQQA** (Ordubad, Şuşa) – fişəng. – *Bayramda taraqqa atardıx* (Şuşa).

**TARAL** (Çənbərək) – tənbəl. – *Taral adamnan yoldaş olma.*

**TARAŞA-TARAŞA** (Şəki) – parça-parça, hissə-hissə. – *Taraşa-taraşa doğradı töxʹdü odunnarı.*

**TARAT** (Zaqatala) – dəstə.

**TARÇIĞ** (Bakı) – alaçıq. – *Una bax a:, öyeşgi sökdi, hindi qalıb tarçığda.* ◊ **Tarçığın almax** (Cəbrayıl, Qarakilsə) – həddən artıq yeyib doymaq. – *İnəxʹlər tarçığın aldılar* (Qarakilsə); – *Tarçığnı aldınmı barı?* (Cəbrayıl). **Tarçığın götürməxʹ** (Cəbrayıl, İmişli) – həddən artıq yeyib doymaq. – *Yaxşı otardım, qoyun tarçığın götdü* (İmişli); – *Sa: nə var ki, ye:if tarçığnı götürmüsən* (Cəbrayıl).

**TARÇIXMAX** (Qarakilsə) – 1. həddən artıq yeyib doymaq; 2. kökəlmək.

**TARXAM** (Bakı, Salyan) – 1. tərbiyəsiz. – *Mən tarxam adam olseydım, atam məi dögərdi;* 2. ərköyün. – *Tarxam adam oxıyaməz* (Salyan). ◊ **Tarxam olmağ** (Salyan) – 1. ərköyün olmaq; 2. tərbiyəsiz olmaq, korlanmaq.

**TARXAMLAŞMAĞ** (Salyan) – 1. ərköyünləşmək; 2. tərbiyəsiz olmaq. – *Bı uşağ yaman tarxamlaşıb, heç sözə baxmır.*

**TARXAN** (Salyan) – kök. – *Bi tarxan qoyınım vardı, dünən kəsdim.*

**TARIM** (Salyan) – bəzək. ◊ **Tarım vermək** (Salyan) – bəzəmək. – *Özinə belə tarım verib ki, gəl görəsən.*

**TARIN** (Xaçmaz) – qurum. – *Bacada tarın çox olduğunnan ona od düşmüşdü.*

□ **Tarın olmax** (Cəbrayıl) – vərdiş etmək.

**TARQATIĞI** (Kürdəmir) – dələmə. – *Qoyunun tarqatığını yimisənmi?*

**TARP: TARPINI ÇƏXʹMƏXʹ** (Mingəçevir) – 1. zərərini çəkmək; 2. əziyyətini çəkmək.

**TARPALAMAX** I (Çənbərək) – döymək, vurmaq. – *Ajığım tutmuşdu deyin, Furuyu yaman tarpaladım.*

**TARPALAMAX** II (Çənbərək) – çalmaq <otu>. – *Oğul, burajığı tarpala, bir xotma yığ.*

**TARPAŞDAMAX** (Başkeçid, Borçalı) – çırpmaq, döyəcləmək. – *O, tozdu palazdarı tarpaşdıyır* (Başkeçid); – *Apar bunu tarpaşda gəti* (Borçalı).

**TARRANMAX** (Qazax) – *məc.* dırmanmaq. – *Ağaja tarranef dərer almeyi.*

**TARRAŞDIMAX** (Çənbərək) – bərabərləşdirmək, tarazlaşdırmaq. – *Eşşəy xuncuru əyirdi, onun gözdərini tarraşdıdım, boyl əyilmədi;* – *Barxanıyı tarraşdı, atın belində əyilməsin.*

**TARTA** I (Meğri) – dikbaş, həyasız. – *Nəcinin u tarta qızı Şalıx bir yamandı, özi kimini yoxdı.*

**TARTA** II (Qazax) – sahibsiz <it>.

**TARTA** III (Çənbərək) – mədə. – *Tartana bir şey oldumu, doymadınmı?* ◊ **Tartasını yollamax** (Çənbərək) – yemək, mədəsini doldurmaq. – *Tartanı yolladınmı, ay bala?*

**TAS** (Qax) – su içmək üçün qulplu qab.

**TASALANMAX** (Ağcabədi, Beyləqan, Borçalı, Cəbrayıl, Gədəbəy, Hamamlı, İmişli, Şəki, Şuşa) – 1. ürəyi sıxılmaq, darıxmaq (Ağcabədi, Beyləqan, Cəbrayıl, Gədəbəy, Hamamlı, İmişli, Şəki). – *Yaman ürəyim tasalanır* (Şəki); – *Hə:, də:sən tasalanmısan* (Ağcabədi); – *Yamanca tasalanmısan, ha:* (Beyləqan); – *Ejirinnən yatammeyrim, tasalaneyrım zavahdannan* (Gədəbəy); 2. əsəbiləşmək (Borçalı, Şuşa); – *Yəni biri ajıxlanır, hövsələdən çıxer, de:irsən ki, niyə tasalanersan* (Borçalı); – *Bura bax ey, mə:m üsdümə niyə tasalanırsan* (Şuşa).

**TASAMAS** (Qax) – tələsik. – *Bir tasamasnan yığışdırdı ki.*

**TASAR** (Qax, Zaqatala) – b a x **tavasar.**

**TASKABABI** I (Şuşa) – yemək adı, tavakababı. – *Axşama yaxşı taskababı pişirmişəm, gəlif ye:ərsən.*

**TASKABABI** II (Bakı, Biləsuvar) – tavakababı bişirmək üçün xüsusi mis qab. – *Bizim taskababı dört kilo yağ tutur.*

**TASKƏVAF** (Tovuz) – qazan.

**TASKOBİ** (Bakı) – b a x **taskababı** II. – *Taskobiyə su tök xörəg pişireg.*

**TASKÜLA** (Bakı) – araqçın.

**TASMA** I (Xanlar, Şəki) – çarığa keçirilən bağ. – *Çarığa tasma taxılasıdı, o da yoxdu* (Şəki).

**TASMA** II (Bakı) – bərk, tarım. – *Şali gör necə tasma bağli:b.*

**TASMALAMAX** (Xanlar) – çarığa qayış bağ keçirmək. – *Oğul, apar çarığını, qoy bavan bir yaxşı tasmalasın.*

**TAŞAH** (Kürdəmir) – lovğa.

**TAŞAQQA** (Qazax) – lovğa. – *Bizim Məmməd çox taşaqqa adamdı.*

**TAŞDANMAĞ** (Dərbənd) – kəsilib atılmaq. – *Qoyində öd taşdanar.*

**TAŞIRĞAMAX** (Qazax) – uzun yol getmək nəticəsində ayaqları şişmək. – *Camış dağdan gələndə taşırğeyif, iındi yeryəmmer.*

**TAŞQALAX** (Qax) – uşaq oyunu adı.

**TAŞRIMAĞ** (Salyan) – piyada gedib-gəlmək. – *Bu gün o yolı iki dəfə taşrımışam.*

**TAT** (Şamaxı) – küt getmiş çörək. ◊ **Tat düşməg** (Şamaxı) – küt getmək. – *Tat düşmüş çörəg yeməli olmur.* **Tata getmək** (Salyan) – küt getmək. – *Üç kündəm tat getdi.*

**TATALA** (Biləsuvar, Salyan) – yabanı bitki adı. – *Tatala çiban üssə qoyılır* (Salyan).

**TATALAMAĞ** (Yardımlı) – küt getmək. – *Xəmir surğ <sıyıq> olanda tataley.*

**TATARXAMA** (Böyük Qarakilsə) – məxmərək.

**TATARI** (Ağdam, Əli Bayramlı, Qazax, Mingəçevir) – qamçının bir növü.

**TATAVAZDIĞ** (Bakı) – yaltaqlıq. ◊ **Tatavazdığ əlemeg** (Bakı) – yaltaqlanmaq, yaltaqlıq etmək. – *Üzüvüzə görə tatavazdığ əlemirəm.*

**TATAZ** (Bakı) – yara. – *Qo:şumuzun uşağına tataz düşmüşdü, üzi beleydi ki, külebedid.*

**TATIRQAMAĞ** (Şamaxı) – büdrəmək. – *At elə tatırqadı ki, az qaldım su:a yıxılam.*

**TATİ** (Yardımlı) – çardaqsız. – *Dağda kümənün üsdin tati eleylər.*

**TATO:UZ** (Bakı) – xəmirin kifayət qədər acımaması nəticəsində çörəyin üzərində əmələ gələn qabarcıqlar.

☐ **Tatouz atmağ** (Bakı, Füzuli) – küt getmək. **Tatouz eləməx'** (Mingəçevir) – küt getmək.

**TATOR** (Cəlilabad) – quş adı.

**TATOY** (Çənbərək) – Novruz bayramında uşaqların bir yerə yığışıb hazırladığı xörək. – *Uşax tatoy bişimə:yetdi.*

**TAV** (Tabasaran) – baca. – *Tav qurum tututdu.*

**TAVA** I (Beyləqan, Gədəbəy, Goranboy, Mingəçevir, Şuşa, Tərtər). – kiçik qazan. – *Südü tavıya töx'düm* (Beyləqan); – *Tavada qatıx çaldım* (Şuşa).

**TAVA** II (Şəki) – xörək növü. – *Yayda biz tava çox bişirrux.*

**TAVA** III (Bakı) – sal daş. – *Torpağı qazıyannan sora tavıya çatdım.*

**TAVAĞIM: TAVAĞIM ELƏMƏX'** (Çənbərək) – gözləmək. – *Əndiryaz adı tavağım eləmir kin, quyrux doğa.*

**TAVAX** (Kəlbəcər) – dəyirmanda dənin boğaz adlanan yerə tökülməsini tənzim edən çalova oxşar taxta hissə. – *Daşın üsdə tavax var, dən oruya tökülər, ordan da də:rmanın boğazına.*

**TAVAXIL: TAVAXIL ELƏMƏG** (Yardımlı) – səbr eləmək. – *Tavaxıl elə, görüm nə dey.*

**TAVALIĞ** (Bakı) – sal daş olan yer.

**TAVALÖKÜSİ** (Lənkəran) – düyü unundan tavada bişirilən çörək. – *Anam tavalökusi bişirib.*

**TAVANA** I (Şamaxı) – yaxın adam, köməkçi, arxa. – *Mə:m köməy eliyən bir tavanam yoxdı.*

**TAVANA** II (Gədəbəy) – dözüm, taqət, güc. – *Heş tavanası yoxumuş gədənin işə.*

**TAVANALI** (Şəmkir) – dözümlü, davamlı. – *Bozax qoyun tavanılıdı isdiyə, so:ğa.* – *Bez tavanalıdı, amma cuna yox.*

**TAVAR** I (Qazax, Şamaxı, Şuşa) – cavan şahin. – *Tavar bir qırqavul tutuf* (Qazax); – *Bir tavar almışam, heç əvəzi yoxdu* (Şuşa).

**TAVAR** II (Quba) – cavan camış. – *Tavar utlarda utduyadu.*

**TAVAR** III (Cənubi Azərbaycan) – 1. çalışqan; 2. bacarıqlı. – *Tavar oğul ata malinə göz tikməz.*

**TAVARRAŞMAĞ** (Salyan) – böyümək. – *Cücələr tavarraşıb.*

**TAVARRIXLANMAX** (Tovuz) – böyümək, ərsəyə çatmaq.

**TAVASAR** (Göyçay, Qax, Şamaxı, Şəki, Zaqatala) – uzun qulplu tava. – *Ay qız, tavasarı gəti yumurta bişirəcəm* (Şamaxı). – *Tavasarda qayğanax bişir* (Şəki).

**TAVAT** (Borçalı, Qazax) – gürcü zadəganı, knyaz. – *Tavatdar varıydı, çürbəçür ağalar ona baxerdı* (Borçalı).

**TAVATDAMAX** (Karvansaray) – tovlamaq. – *Ə:, məni nə tavatdersıŋ?*

**TAVAZA** (Naxçıvan) – quruluş, forma. – *Hər şeyin özünün bir tavazası var.*

☐ **Tavaziya tutmax** (Cəbrayıl) – 1. dilə tutmaq; 2. aldatmağa çalışmaq.

**TA:VƏD** (Kəlbəcər) – ta ki. – *Ta:vəd axşamatan gözdədi.*

**TA:VƏND** (Gədəbəy) – b a x **ta:vəd.** – *Ta:vənd anası gələnətən saxladım onu.*

**TAVIN** (Qazax, Çənbərək, Mingəçevir) – güləşmə zamanı münsiflik edən adam. – *Bazardan aldım savını, mən kimin olom tavını* (Qazax); – *İsvahan mənim tavınım olanda hamını yıxdım* (Çənbərək).

**TAVIRĞA** (Borçalı, Balakən) – köçəri. – *Tavırğa, yanı köçəri.* – *Biz tavırğıyıx* (Borçalı); – *Tavırğa kimi şeyix', nəyimiz düzdü kü* (Balakən).

**TAVIRĞI** (Borçalı) – b a x **tavırğa.**

**TAVLAMAX** (Cəbrayıl, Şərur) – yüngülvari qovurmaq. – *Bu əti apar tavla* (Şərur).

**TAVLAMIX** (Laçın, Şərur) – atın ayağındakı kəndirin ucunu bağlamaq üçün iri ağac mıx. – *Tavlamıxı ciyədən açımmi?* (Laçın).

**TAVLANMAX** (Cəbraylı, Şərur) – dolanmaq. – *Ordan bir də tavlandı gəldi, bir də keşdi Arazın o tayına* (Şərur); – *Qoyun əvin başına tavlanır* (Cəbrayıl).

**TAVLI** (Axalsixi) – kök, yağlı, piyli. – *Çox tavlı bir qoç aldım.*

**TAVLİ** (Dərbənd) – pinti, səliqəsiz. – *Üstbaşinnən tavliyə uxşuyandü.*

**TAVSIMAX** (Cəbrayıl) – vurnuxmaq.

**TAVUL** (Lənkəran) – qayalıq.

**TAVUN** (Quba) – baca. – *Tavunimiz alçaxdı.* – *Bu gün günurtadan sunra dağılmış tavuni quymax gərəkdü.*

**TAVVƏT** (Bərdə, Gədəbəy) – bax **ta:vəd.** – *Tavvət sən gələnəjən gözdüyəjəm* (Bərdə); – *Tavvət gün çıxanacan çox üşüdüm* (Bərdə).

**TAY** I (Cəlilabad, Şahbuz) – daha. – *Tay nə deyim?* (Şahbuz); – *Tay vədəxilaf olmiyəg* (Cəlilabad).

**TAY** II (Dərbənd, Tabasaran) – iki-üç yaşar erkək at. – *Tayı üç yaşinnən yuxari minüb üğretmağa ulur* (Tabasaran); – *Atın babasına tay deyədig* (Dərbənd).

**TAYAÇÜY** (Qəbələ) – otun dağılmaması üçün tayanın üstündən və tərəflərindən uzadılan uzun ağac. – *Əşrəf meşədən on tayaçüy gətirib.*

**TAYAĞ** (Dərbənd) – 1. səlbə; 2. əlağacı. – *Qoza tayağ atdım;* – *Atıb əlinnən tayağı gidər;* – *Məni var, una tayağ diyədəm.*

**TAYAX** I (Zaqatala) – qoz çırpmaq üçün uzun ağac. – *Tayaxı atam çölə apardı.*

**TAYAX** II (Qax) – süst, əzgin. ◊ **Tayax olmax** (Qax) – süstləşmək, əzginləşmək. – *Niyə tayax olupsan?*

**TAYALIX** (Kürdəmir) – tayanın ortasına dikinə qoyulan ağac. – *Meşədən bi-iki tayalıx kəs, tayya qoyacam.*

**TAYBAĞIRSAĞ** (Qazax) – zəif, arıq. – *O, taybağırsağın biridi, onnan saŋa nə kömək'.*

**TAYBƏT** (İsmayıllı) – toqqa. – *Taybəti belə bağlallar.*

**TAYDIRMAĞ** I (Dərbənd) – soyunmaq, çıxarmaq. – *Gədə yatan so:ra üzü <özü> qurbağa paltarını taydırıb bir göyçəg qıza dönütdü.*

**TAYDIRMAĞ** II (Dərbənd) – ayırmaq. – *Mən istiyədəm süzü bir-bir öyləndirib taydırım.*

**TAYDIRMAĞ** III (Dərbənd) – aradan götürmək, başını əkmək. – *Gəlin biz munı aradan taydirəg.*

**TAYDIRMAĞ** IV (Dərbənd) – yığışdırmaq, götürmək. – *Taydır bu qabları;* – *Taydır buları.*

**TAYDIRMAĞ** V (Dərbənd) – atmaq, tullamaq. – *Tez ol taydır onu.*

**TAYDIRMAĞ** VI (Dərbənd) – aparmaq, kənara çəkmək. – *Atı burdan taydır.*

**TAYDIRMAĞ** VII (Dərbənd) – arıtlamaq, təmizləmək. – *Tikannarı budağdan taydıradam.*

**TAYƏLQULF** (İmişli) – bax **tayqulp.** – *Tayəlqulfda mana su verdi.*

**TAYƏLLİ** (Biləsuvar, Cəlilabad, Göyçay) – su içmək üçün qulplu mis qab. – *Ay qız, bir tayəlli su gəti.* – *Tayəllimiz köhnədi* (Biləsuvar). – *Tayəllidə, oxurda su içeylər* (Cəlilabad).

**TAYÇA** (Ağdam) – iri səbət. – *İki tayça üzüm aparmışdım Qalıya satma:.*

**TAYFA-TABIN** (Culfa) qohum-əqrəba. – *Bunun başında çox tayfa-tabın olur.*

**TAYICA** (Cəlilabad) – daha. – *Küley tayıca da güjdəney.*

**TAYITMAĞ** (Dərbənd) – qadağan olmaq. – *Habu şəylər bizə tayıtdı.*

**TAYQA** (Zaqatala) – araqçın.

**TAYQANAT** (Qarakilsə, Qazax) – zəif, arıq. – *Tayqanat adamda nə güj olajax* (Qazax).

**TAYQUF** (Qəbələ) – bax **tayqulp.** – *Ana, tayqufu ayrannan doldu, ver içim.*

**TAYQULF** (Ağdam, Xanlar) – bax **tayqulp.** – *Sə:ngin yanındadı tayqulf* (Ağdam); – *Bu tayqulf irəhmətdix' anamındı* (Xanlar).

**TAYQULP** (Ağdam, Cəbrayıl, Xanlar, Xocavənd, Kəlbəcər, Kürdəmir, Oğuz, Şamaxı) – su içmək üçün qulplu mis qab. – *A bala, o tayqulpu suynan doldu gəti bura* (Ağdam); – *Bizdə vardı Şamılın uşaxlarında tayqulp, işə keşmir indi daha* (Oğuz); – *Tayqulpu qoyullar sənəyin yanna, su içillər* (Xanlar); – *Tayqulpnan su içərik* (Şamaxı).

**TAYQURSAX** (Basarkeçər) – bacarıqsız.

**TAYMAĞ** I (Dərbənd) – qayıtmaq, gəlmək. – *Üçərdən taymaz bu kişi.*

**TAYMAĞ** II (Dərbənd) – aralanmaq, uzaqlaşmaq. – *Mən istədim urdan tayım.*

**TAYMAĞ** III (Dərbənd) – atmaq. – *Qabağ hərfi taysov, sənü aduv düzələr.*

**TAYMAĞ** IV (Dərbənd) – çəkilmək, keçib getmək. – *Tay urdan.*

**TAYMAĞ** V (Dərbənd) – düşmək, sürüşmək. – *Düzəlt üsdəki daş taymasın.*

**TAYTAX** (Ağcabədi, Ağdam, Bərdə, Kürdəmir, Qax, Qazax, Şəki, Şuşa, Zəngilan) – axsaq. – *Dəmirçi Mahmudun oğlu taytaxdı* (Ağdam); – *Taytax adam yolu ağır gedər* (Ağcabədi); – *O, taytax adamdı, hava: gedif çıxacax kəndə* (Bərdə); – *Taytax Meytinin qızı əre:der* (Qazax); – *Taytax axsıyan adama de:illər* (Zəngilan); – *Onun iki uşağının ikisi də taytaxdı* (Şəki); – *Bir taytax yabısı var, axşamatan belinnən tüşmür* (Şuşa).

□ **Taytax danışmağ** (Salyan) – yersiz, məzmunsuz danışmaq. – *Ədə, taytax danışma, yum ağzuvı.*

**TAYTIX** (Cəbrayıl) – b a x **taytax.**

**TAYTIMAX** (Ağdam, Şəki, Şuşa, Tovuz) – axsamaq. – *Nouluf saŋa, niyə taytıyırsan?* (Ağdam); – *Hara gidisən heylə, taytıysən əmәlli-başdı* (Şuşa); – *Qara Məhərrəmin ə:ğına daş tüşüf, iki gündü taytıyır* (Şuşa).

**TAZ** (Quba) – nazik, uzun tir. – *Meşədən üç taz getirdim.*

**TECAN** I Ağcabədi, Bolnisi, Gəncə, Kürdəmir, Salyan, Zəngilan) – b a x **tejan** I. – *Tecanda pendir olur* (Ağcabədi); – *Pendiri qabaxcan duzduyuf tecana yığırıx, so:ra motala basırıx* (Zəngilan); – *Pendiri tecan saxlar, arvadı əri* (Salyan).

**TECAN** II (Qazax) – çox yeyən, yekəqarın. – *Tecan Əsgər kirvəliyi pozdu.*

**TECAV** (Zəngilan) – b a x **tejab.** – *Pilə tecavnan yaxşı bişir.*

**TECƏN** (Borçalı) – b a x **tejan** I.

**TECƏRƏ** (Şərur) – 5 pud tutan qab. – *Tecərə həşdad kilodu.*

**TEHNİMƏY** (Göyçay, Şamaxı) – tövşümək. – *Bir də gördüm elə tehniyir, az qalır nəfəsi gessin gəlməsin.*

**TEHNİYƏ-TEHNİYƏ** (Şamaxı) – tövşüyə-tövşüyə. – *Gördüm tehniyə-tehniyə mə:m üstümə gəlir.*

**TEHRANİ** (Cənubi Azərbaycan, Ordubad) – tut növü adı. – *Tehrani tut yeməli olur, çox daddıdı* (Ordubad).

**TEHRELƏMƏĞ** (Biləsuvar) – küsmək.

**TE:XA** (Əli Bayramlı, Gəncə) – b a x **teyxa.** – *Bırda te:xa pambığ əkmişik* (Gəncə).

**TEJAB** (Qubadlı) – ipək sap hazırlamaq üçün kül ilə suyun qarışığından düzələn məhlul. – *Bir az tejab qayır, pilə bişirəjiyəm.*

**TEJAN** I (Cəbrayıl) – qatıq və ya süd saxlamaq üçün dəri, tuluq.

**TEJAN** II (Cəbrayıl) – şor.

**TEJAN** III (Gədəbəy) – qoca qadın döşü. – *Nənəmin tejannarı da yaxşı oluf irəli ə:amlar.*

**TEJAN** IV (Qazax) – çoxlu.

**TEJANNAMAX** I (Çənbərək) – böyümək, enlənmək; boşalmaq. – *Əygımdəki çüşdal üççə gündə tejannadı.*

**TEJANNAMAX** II (Qazax) – qoyun dərisindən tejan, tuluq hazırlamaq. – *Dəriyi tejannerıx, sora da içinə şor baserıx.*

**TEJDƏMƏXʹ** (Hamamlı) – xırmanda təmizlənmiş taxılı topa şəklində bir yerə yığmaq. – *Taxılı so:urdum, tejdi:f gəldim.*

**TEJƏN** (Bolnisi, Borçalı, Daşkəsən, Hamamlı, Qazax, Naxçıvan) – b a x **tejan** I. – *Tejəndə süd var* (Bolnisi); – *Tejən qoyun dərisinnən olor, içinə qatıx tökö:llər* (Qazax); – *Bı gejə tejən deşilif, qatıx tökülüf* (Daşkəsən); – *Qoyun dərisinnən tuluxlarımız vardı, ona tejən deirdixʹ* (Borçalı); – *Bizim üş tejən qatığımız varıydı, israhayın anam nəhrədə çalxadı* (Naxçıvan); – *Qatığı apar tejənə töxʹ* (Hamamlı).

**TEKİŞLƏMƏK** (Dərbənd) – hamarlamaq. – *Bu evin cabarını dünən tekişlədi usta.*

**TEL** I (Cəlilabad, Hamamlı, Kürdəmir, Ordubad) – 1. sap (Ordubad). – *Natik tükannan tel aldı;* 2. sim; sazın, tarın simi (Hamamlı); – *Sazın teli qırıldı, aşıx şirin çalıb oxuduğu yerdə;* 3. məftil (Cəlilabad, Kürdəmir); – *İt eyvanda telə bağlanıb* (Kürdəmir); 4. tütün düzülmüş 3-4 metr uzunluğunda *ip* (Hamamlı); – *Bö:yün Gülnaz qırx tel düzüf.*

**TEL** II (Zəngilan) – qovun növü. – *Teli körpə və:dəsində də ye:llər.*

**TELBƏ** (Cəbrayıl) – mal ətində olan iri damarlar. – *Bu ətin telbəsini yemək olmaz, qopart at.*

**TELBƏ-TELBƏ** (Salyan) – dalbadal. – *Uşaxlar telbə-telbə qaçırdılar.*

**TELƏÇİ** (Kəlbəcər) – heyvanın yeni doğulmuş balası öldükdə anası ölmüş başqa bir balanı ona isnişdirən adam. – *Qəni kişi yaxşı teləçidi. Bizim gamuşın balası öldü, bir quzu telədi, elə isdiyidi kin, öz balası kimi.*

**TELƏMƏX′** (Kəlbəcər) – 1. isinişdirmək, alışdırmaq; 2. ilişdirmək. – *Yetim quzunu kürə qoyuna telədim. – Fatmanı Cəfərə telədilər.*

**TELFİRƏNGİ** (Salyan) – nazik, ensiz. – *Validə gəlininə bi də: telfirəngi üzük aparmışdı.*

**TELİX′Çİ** (Ağdam) – bax **teləçi.** – *Hər adam telix′çi ola bilməz. – Telix′çi bizim inəyə bir quzu telidi.*

**TELİMƏX′** (Ağdam, Xocavənd) – bax **teləməx′.** – *Qoyun oursağ olanda yetim quzunu ona telirix′* (Xocavənd).

**TELİTMƏX′** (Zəngilan) – bax **teləməx′.** – *İnəyin bızavı öldü, quzunu ona telitdim.*

**TELLƏMƏX′** (Zəngilan) – aldatmaq, kələk gəlmək. – *Sən məni teliyəlməzsən, mən uşax dəyləm.*

**TELMƏX′** (Şərur) – saçaq, qarğıdalı saçağı. – *Məkə:n də telməyi o:r.*

**TELPƏX′** (Ordubad) – uzuntüklü dəridən tikilmiş papaq. – *Mənim telpəyimi burya gətir.*

**TELTƏ** (Zəngilan) – pambıq yığıldıqdan sonra qozanın arasında ilişib qalan pambıq qalığı; saçaq. – *Pambı: yaxşı yığıŋ, üsdündə teltəsi qalmasın.*

**TE:M** (Şəki) – bax **teyim.** – *Birəz te:m gə, gidax çatax.*

**TENNİ** (Çənbərək) – rütubətli. – *Bizim ev yaman tennidi.*

**TENÇE** (Zaqatala) – kiçik mis qazan. – *Yağı tençedəmi əridirsən?*

**TEP** (Çənbərək) – rütubətli. – *Bu otax tepdi.* ◊ **Tep damı** (Çənbərək) – tütün yarpaqlarını nəmləndirmək üçün xüsusi tikili. – *Tütünü tep damına daşı qoy, bağlıyax.*

**TEPNƏNMƏX** (Gədəbəy) – nəm çəkmək, rütubət çəkmək. – *Duhar so:ux olduğuna gəvə tennənif, əldən çıxıf.*

**TEPŞİ** (Bolnisi) – boşqab.

**TEPŞİMAX** (Qax) – kökləmək, seyrək tikişlə tikmək. – *Habı oynağın <paltar> etəgini tepşi hələ.*

**TER** I (Bərdə, Culfa, Gəncə, Hamamlı, Şərur) – böyük xurcun. – *Terin içinə ağır şeylər qoymaq olar. – Teri atın belinə aşır* (Bərdə); – *Xurcunu adam çiyninə salır, teri heyvanın belinə salıf içinə şey doldurullar* (Hamamlı); – *Teri sal ulağın üstünə, doğulan quzuları daşı dölçəyə* (Culfa).

**TER** II (Çənbərək) – kilim, palaz.

**TERAN** (Quba) – cır meyvə. – *Teranı bizdə hiç kimsənə yimiyədü, tükülüb qaladu ağacın altında.*

**TEREG** (Dərbənd) – ağac. – *Tereg yıxılanda biz ona ağac diyədiğ; – Yemişi <meyvəni> teregdən çöpliyəduğ <dərmək>. – Qovali tereglər bizi bağda çox var.*

**TEREGDEŞƏN** (Tabasaran) – ağacdələn. – *Teregdeşənün balaların Qaflan alub üldürütdü.*

**TERLAN** (Oğuz) – kiçik, xırda balıq. – *Böyyü balıxdı, kiçiyi terlan.*

**TES** (Füzuli, Zəngəzur) – hünər, bacarıq. – *Vağon sürmək hər adamın tesi döyül* (Zəngəzur); – *Hər kəsdə tes olmas ki, şeyri yazsın* (Füzuli).

**TESİ** (Meğri) – qısaboylu, gödək.

**TESTO** (Şamaxı, Ucar) – 1. tələsən; 2. səbirsiz. – *Testo adam qab sındırar* (Ucar); – *Həsən yaman testodi* (Şamaxı).

**TEŞƏ** (Tovuz) –ləklərin alağını təmizləmək üçün alət.

**TEŞİ** (Zəngilan) – ip əyirmək üçün alət. – *Nənəm öydədi, əmə teşi öydə döy.*

**TEŞVİ** (Borçalı) – dərin boşqab. – *Teşvi cəmnən az tuturdu.*

**TETER** (Balakən) – xarab olmuş, yararsız yun.

**TETİX′** (Qazax) – tel, saç.

**TETİR** I (Çənbərək, Qazax) – 1. pul (Çənbərək). – *Ə, maŋa tetir sayıfsan?;* 2. gümüş pullardan düzəldilmiş bəzək (Qazax); – *Keşmişdə dingə geyərdix′, qavağı tetir olardı.*

**TETİR** II (Zaqatala) – bax **teter.** – *Tetiri yığma, niyə lazımdı?*

**TETİRRƏMƏX′** (Qazax) – nağd etmək, hazır etmək. – *Get pulu tetirrə, soŋra gələrsəŋ.*

**TETİRRİ** (Qazax) – ətrafı gümüş pullarla bəzədilmiş; bəzəkli. – *Əvvəllər qız-gəlin qavağı tetirri dingə geyərdi.*

**TEVİN** (Bolnisi) – boşqab.

**TEY** I (Ağdam, Bakı, Cəlilabad, Culfa, Göyçay, Kürdəmir, Meğri, Sabirabad, Salyan, Şamaxı, Şahbuz) – tamam, tamamilə, büsbütün. – *Bir ət alıf tey yağdı* (Ağdam); – *Anam bir süzmə bişirmişdi ki, tey yağdı* (Bakı); – *Ancağ tey yunnan edərük* (Kürdəmir); – *Bu ət tey ələngədi, sümüx′dü* (Meğri); – *Tey, daşdan ev tikib* (Cəlilabad); – *Bu il bizim əkdiyimiz tey xırda buğdadı* (Şamaxı); – *Bostan tey güldü* (Şahbuz).

**TEY** II (Qax, Quba) – arıq. – *Hər gün nə qədər yiyədü, gənə də teydü.*

**TEYJƏ** (Laçın) – tamam, tamamilə, büsbütün.

**TEYXA** I (Ağdam, Bərdə, Cəbrayıl, Culfa, Kəlbəcər, Kürdəmir, Laçın, Tovuz, Zəngilan) – b a x **teyjə.** – *Bu qənd teyxa nö:ütdü, munnan çay işməx′ olmaz* (Ağdam); – *Ət teyxa yağdı* (Bərdə); – *Bu yer teyxa əkilifdi* (Kəlbəcər); – *Hər yer teyxa qardı* (Laçın); – *Kolxozun ferması teyxa ağ quşdu* (Cəbrayıl).

**TEYXA** II (Tovuz) – yalnız, təkcə. – *Mən teyxa onu görməx′dən ötrün gəlmişdim.*

**TEYXA** III (Zəngilan) – yavan. – *Çörəyi teyxa yemə, yağnan ye.*

**TEYXƏ** (Meğri) – b a x **teyjə.** – *Bu ət teyxə əlengədi, sümüx′dü.*

**TEYİM** (Şəki) – tez, cəld. – *Teyim get, anan səni ça:rır.*

**TEYİN** I (Şəki) – b a x **tejim.** – *Teyin gəl bir yerdə gidax.*

**TEYİN** II (Naxçıvan) – qədər. – *Bırdan Nəzərəbata teyin qaşdım.*

**TEYLƏMƏĞ** (Hamamlı, Salyan, Şamaxı) – 1. neştərləmək, deşmək; 2. yaralamaq. – *Bı yara gərəg teylənə* (Salyan); – *Dünən bazarda Məməd Həsənin qolunu teylədi* (Şamaxı).

**TEYLƏMƏX′** I (Gəncə, Qazax, Tovuz) – b a x **teyləməğ.** – *İrrini yareyi teyliyellər* (Qazax); – *Əzizinəm neynərəm, xancal alıf qarabağrım teylərəm, bir canım var sana qurvan eylərəm* (Tovuz).

**TEYLƏMƏX′** II (Gəncə, Hamamlı, Qazax, Tovuz) – qovmaq. – *Sürünü teylə dağa tərəf* (Gəncə); – *O heyvannarı o:ana teylə, gəlif bosdana girər* (Tovuz).

**TEYLƏNDİRMƏX′** (Gəncə) – qovmaq. – *Dursam səni teyləndirəjəm.*

**TEYLƏNMƏX′** (Gəncə, Hamamlı, Qazax) – qaçmaq. – *Dana teyləndi yetdi, itəjəx′ gedif* (Qazax); – *Həsən gedən kimi Kərim də dalınca teyləndi* (Gəncə); – *Dana damnan çıxıf teyləndi* (Hamamlı).

**TEYLƏNMİŞ** (Daşkəsən) – yaralanmış. – *Ovçu Əhməd o yanaedəndə gördü bir çeyran teylənmiş gəldi, bir daşın qolduğunda çöx′dü.*

**TEZDƏGƏN** (Şamaxı) – yaylıq armud, armudun tezyetişən növü. – *Gəlin gedəg bağlara, tezdəgən indi dəgmiş olar.*

**TEZDƏMƏX′** (Borçalı, Qazax) – tez olmaq, tələsmək. – *Əhməd əmi, tezdə gedəx′* (Borçalı).

**TEZDƏTMƏX′** (Hamamlı) – sürətləndirmək. – *Sən ərzəni yaz ver, tezdətməx′ mənim boynuma.*

**TEZİP** (Qax) – qədim. – *Ho qalalar tezip işdi.*

**TEZKƏM** (Salyan) – *Sizzə nə danışmışam, tezkəm gedib Ələsgərə xəbər veriblər.*

**TEZMƏG** (Biləsuvar) – 1. qaçmaq; 2. hürküb qaçmaq.

**TEZTO** (Kürdəmir) – tələsən.

**TEZTOÇI** (İmişli) – tələskən.

**TƏBƏXÜL** (Zərdab) – səbir. ◊ **Təbəxül eləmək** (Zərdab) – səbir etmək. – *Təbəxül elə yaz yağışı gətirəcək, otlar pitəcək.*

**TƏBƏH** (Şamaxı) – nəsil, əqrəba. – *Bizim təbəhdəndi.*

**TƏBƏNƏ** (Ordubad, Şərur) – qıyıq.

**TƏBƏRZƏ** (Zəngibasar) – ərik növlərindən biri. – *Ərix′ ağşdarımızın beşi təbərzədi.*

**TƏBÇƏH** (Culfa) – belin tiyəsinin üst tərəfində ayaq qoymaq üçün çıxıntı.

**TƏCƏN** (Meğri) – b a x **tejan.** – *Bala, get təcəni gatı bura.*

**TƏCƏNQARIN** (Meğri) – yekəqarın, çoxyeyən. – *Ə, təcənqarın ulma, quy bir az da qalsın.*

**TƏCİX′** (Qazax) – xoşa gəlməyən, ikrah hissi oyadan. – *Təcix′ adam təcix′ iş tutar*

**TƏCİX′-TƏCİX′** (Qazax) – yersiz, boşboşuna. – *Təcix′-təcix′ danışma.*

**TƏD** (Meğri) – vaxt. – *İndi bu sa:t ut bişməx′ tədi dəyi.*

**TƏFƏRRİNC** (Barana, Cəbrayıl, Qazax, Tovuz) – diqqət. ◊ **Təfərrinc eləməx′** (Barana, Qazax, Tovuz) – diqqət etmək, diqqət vermək, diqqətlə baxmaq. – *Naxarta təfərrinc elədisə də tanıyammadı gədəni* (Qazax); – *Təfərrinc eliyif gördü kü, gələn oğludu* (Barana); – *Xuraman maŋa yaman təfərrinc elədi, bilmirəm mənnən nə eşidif* (Tovuz). **Təfərrinc olmax** (Qarakilsə) – diqqət etmək, fikir vermək, diqqətlə baxmaq.

**TƏFCƏX′** (Tərtər, Zəngilan) – b a x **təbcəx′.** – *Təfcəx′ əyağı əzmir, yeri də qazmağ olur* (Zəngilan).

**TƏFİLDAR** (Şəki) – vergiyığan. – *Təfildar vergi yığardı.*

**TƏFİLLƏR** (Şəki) – b a x **təfildar.** – *Təfillər töyci yığana diyirdilər.*

**TƏFRİX′Lİ** (Ordubad) – gülməli. – *Həsən çox təfrix′li adamdı.*

**TƏH** (Ordubad) – b a x **təng** I. – *Bı təhdə üç əv var.*

**TƏHBƏND** (Göyçay, Kürdəmir) – toqqa, bel qayışı. – *Təhbəndimi ver, bağlıyım belimə* (Kürdəmir); – *Diyəsən, təhbəndüvi bağlıya bilmirsən* (Göyçay).

**TƏHBOYUN** (Qazax) – bir tay ulaq. – *Kalım təhboyundu, gərəx′ bir tay alam.*

**TƏHDİLƏMƏK** (Cəbrayıl) – tələsdirmək.

**TƏHTİLƏMƏK** (Yardımlı) – baş alıb getmək. – *Oğlan hariə təhtileyib?*

**TƏHDİLİ** (Zəngilan) – tələsik, tez, təcili.

**TƏHDİYƏ** (Lənkəran) – ehtiyatla. – *Mən o evdə təhdiyə dolanıram.*

**TƏHƏRRƏNMƏX′** (Qazax) – başı gicəllənmək. – *Durduğum yerdə birdən təhərrəndim, elə bil dağ-daş başıma dolandı.*

**TƏHLƏ** (Cəlilabad) – liman, körpü. – *Bərgahda təhlə vareydi, gəmiynən ordan oların taxılın daşıydılar.*

**TƏHLİM** (Qazax) – təklif. ◊ **Təhlim eləməx′** (Qazax) – təklif etmək. – *Çox təhlim elədim, getmədi.*

**TƏHNƏBEL** (Ucar) – qozbel. – *Təhnəbel adam yeriyəndə çəp yeriyir.*

**TƏHNİZ** (Çənbərək, Laçın) – məzəmmət, töhmət. – *Qızı Quluya versəm çamahatın təhnizinnən çıxammərəm.* – *El təhnizi bə harda qalsın* (Çənbərək).

**TƏHNİZDİ** (Laçın) – məzəmmətli, töhmətli. ◊ **Təhnizdi olmax** (Laçın) – məzəmmət olunmaq, töhmət altda qalmaq. – *Sənin kimi adam həməşə təhnizdi olajəy.*

**TƏHRİNƏN** (Şahbuz) – vaxtilə. – *Təhrinən ora boş yerimiş.*

**TƏHDİLƏMƏĞ** (Lerik) – üstünə hücum çəkmək.

**TƏHTİLİ** (Zəngilan) – tələsik, tez, təcili.

**TƏHVƏNC** (Qazax) – b a x **təbçəy.** – *Təhvənc olmasa, bel adamın əyağını kəsər.* – *Belin təhvənci qırılıf, adamın əyağını kəser, qazmağ olmor yeri.*

**TƏX′DİRƏ** (Ağdam, Qazax) – uşaq oyunu adı (dirədöymə oyununun bir növü). – *Uşaxlar hə:tdə təx′dirə oynuyur* (Qazax); – *Ay uşax, gəlin təx′dirə oynuyax* (Qazax).

**TƏX′LİFÇİ** (Bərdə) – b a x **tə:lifçi.** – *Təx′lifçi toya adam çağırır.*

**TƏXLİYANA** (Cəlilabad) – təxminən. – *Sa:d təxliyana olardı dörd.*

**TƏK** (Kürdəmir, Ucar, Zərdab) – taxça. – *Boşqabı təkə qoydum* (Ucar).

**TƏKAJAX** (Qax) – uşaq oyunu adı.

**TƏKALTI** (Ağdam, Xocavənd, İmişli, Quba, Şəki) – atın belinə yəhərin altından qoyulan keçə. – *Atın təkaltısın ma:yəti, atı yəhərriyəjəm* (Ağdam); – *Urdan təkaltını gütür at atun üsdünə* (Quba); – *Atın təkaltısı yırtıldı* (Şəki).

**TƏKBƏND** (Sabirabad, Şamaxı, Tovuz) – kəmər, bel qayışı. – *Bınnan qabağ cayıllar təkbənd vırırdılar* (Sabirabad); – *Təkbəndi cahıllar bağlar* (Tovuz).

**TƏKBƏÇ** (Salyan) – b a x **təbçəy.** – *Belin təkbəçi sındı.*

**TƏKBİR** (Cəlilabad) – atın belinə bağlanan qayış. – *Gəldi atun yanunə, bütün təkbirrərin bağladı.*

**TƏKƏGÖZ** (Gədəbəy) – lovğa.

**TƏKƏXOZ** (Gədəbəy, Tovuz) – b a x **təkəgöz.** – *Camalı axıllı-başdı adam bile:rdim, sən demə, təkəxozun biriymiş o da.*

**TƏKƏLLİ** (Kürdəmir) – parç, misdən düzəldilmiş qulplu suqabı. – *Təkəllidə su içərik.*

**TƏKƏLMƏNDƏ** (Füzuli) – qaçdı-tutdu (uşaq oyunu adı). – *Uşaxlarnan təkəlməndə oynuyurdux meytəvin həyətində.*

**TƏKƏLTİ** (Bərdə, Borçalı, Gədəbəy) – b a x **təkaltı.** – *Qaltağın altındakı təkəltidi, üstündəki yasdıx* (Bərdə); – *Yap altdan tərrix′ qoyullar, onun üsdünnən təkəlti qoyullar* (Borçalı); – *Məcid kişidən bir təkəlti aldım* (Gədəbəy).

**TƏKƏMBİR** (Tərtər) – tək-tük. – *Burda təkəmbir adam qavaxlar savaddı olardı.*

**TƏKƏMSEYRƏX′** (Ağdam, Bərdə, Qazax) – tək-tük, çox seyrək. – *Bu çiçəx′lər bizim tərəflərdə təkəmseyrəx′ pitir* (Ağdam); – *Xiyar əx′mişdim, təkəmseyrəx′ pitif* (Bərdə); – *Taxıl təkəmseyrəx′ bitif* (Qazax).

**TƏKƏŞ** (Bərdə, Kürdəmir, Laçın, Şuşa) – lovğa, özünü çəkən, forslu. – *Təkəş adam özün çəkər* (Bərdə); – *Bizim Məmməd yaman təkəşdi* (Laçın); – *O, çox təkəş gədədi, onnan bir şey çıxmıyajax* (Şuşa).

**TƏKİMLƏMƏX′** (Tovuz) – mahmızlamaq. – *Atı təkimlə görəx′, gün günortadı.*

**TƏKİN** (Lənkəran) – dayaq, dirək. ◊ **Təkin eləməğ** (Cəlilabad) – tikmək, inşa etmək. – *Olar bi dənə imarat təkin elədilər.*

**TƏKLİ** (Lənkəran) – çox yaxşı.

**TƏQQƏ** (Dərbənd) – b a x **taqqa** I.

**TƏL** (Daşkəsən) – kələk, hiylə. ◊ **Təl aşmax** (Daşkəsən, Şuşa) – kələk gəlmək, hiylə işlətmək. – *Gəlin görəx′ kim kişinin başına nə təl aça bilər* (Daşkəsən); – *Başıŋa bir təl açaram özüŋ də mə:tdəl qalarsaŋ* (Şuşa). **Təl qurmax** (Mingəçevir) – hiylə işlətmək, aldatmaq.

**TƏ:ELƏ** (Zaqatala) – xəmir xörəyinin adı.

**TƏLBƏ** (Zəngibasar) – tərəzi. – *Təlbəni gəti, taxıl çəkəcəm.*

**TƏLƏB** (Şamaxı) – heyvanlarda cinsi əlaqəyə olan həvəs. ◊ **Tələbə gəlmək** (Şamaxı) – ciftləşmək. – *At tələbə gəlir.*

**TƏLƏFƏ** (Yardımlı) – qisas. – *Sənnən geci-tezi tələfə alay.*

**TƏLƏFLƏNMƏX′** (Daşkəsən) – ölmək, tələf olmaq. – *Qavaxdan aldığım arvad tələflənib;* – *Şıxlıdan Əfgər addı biriyəlmişdi, burda öyləndi, soŋra tələfləndi, hindi oğul-uşağı qalıf.*

**TƏLƏKƏ** (Kürdəmir) – köhnə.

**TƏLƏMƏK** (Yardımlı) – b a x **tələməx′.** – *Tələmək heyvana aitdu.*

**TƏLƏMƏSƏNDƏ** (Lənkəran) – uşaq oyunu adı, səndə-məndə.

**TƏLƏMMƏKİ** (Qazax) – tələsik. – *Tayeyi tələmməki yığdıŋ, uçajax.*

**TƏLƏMTƏHDİLİ** (Ağdam, Qəbələ, Şuşa) – tələsik. – *Tələmtəhdili yığışıf getdix′ Qalıya* (Ağdam); – *O, tələmtəhdili özün yetirdi* (Qəbələ); – *Tələmtəhdili gəldi ki, busa:t durun gedəx′* (Şuşa).

**TƏLƏBƏDİM** (Quba) – tələsik. – *Sən hər işivü tələtədim eliyəsən.*

**TƏLƏTƏHDİ** (Kürdəmir) – b a x **tələmtəhdili.** – *Əşrəf evə girməmiş tələtəhdi çıxıb getdi.*

**TƏLƏTƏHDİLİ** (Cəlilabad, Quba) – b a x **tələmtəhdili.**

**TƏLƏTİTİLİ** (Bakı) – b a x **tələmtəhdili.**

**TƏLƏTO** (Salyan) – tələsik. – *Uşaq tələto gəldi ki, atam səni çağrır.*

**TƏ:L** (Zəngəzur) – mədə. – *Yedi:mi tə:lim əritmir.*

**TƏ:LĞA** (Gədəbəy, Qazax) – b a x **ayalğa.** – *Onun da qavaxlar tə:lğası vardı, amma demirəm* (Qazax); – *Bizdə tə:lğa çox az qoylor;* – *Bir adamın iki adı olor, ona tə:lğa de:rix′* (Gədəbəy).

**TƏLX** (Bakı) – acı.

**TƏLİ** (Qarakilsə) – təpə. – *Yusupu bir təlinin başında qoydular.*

**TƏLİD** (Ordubad) – kömək. – *Çar hökümətinin türməsinən ollar özgəsinin təlidiynən türməni qazıb çıxıblar.*

**TƏ:LİFÇİ** (Şahbuz) – toya adam dəvət edən şəxs. – *Tə:lifçi gəlmişdi, bizi toya çağırdı.*

**TƏLİMƏX′** (Gədəbəy, Gəncə, İmişli, Qarakilsə, Qazax) – b a x **teləməx′.** – *İnə:n balası olmıyanda oi təli:llər qarannığ yerdə* (İmişli); – *Balası ölən inəyə bir quzu təliynən zavax* (Gədəbəy).

**TƏLİS** I (Culfa, Ordubad, Zəngilan) – kisə. – *Ağ təlisinən bir sümbül yığmışdıx* (Zəngilan); – *Bizdər mişoğa təlis diyarıx* (Ordubad); – *Təlisə un yığırıx, dən yığırıx* (Culfa).

**TƏLİS** II (Astara[1], Cəlilabad, Gədəbəy, Qazax, Lənkəran, Masallı) – əl-üz dəsmalı. – *Təlis qoymuyufsan əlimizi siləx′* (Qazax); – *Təlisi bəri elə:ŋnən silem üzümü* (Gədəbəy); – *Təlisi ver üzümü silim* (Lənkəran);

– *Qıza, qıza! Təlisi ver, Hüseynağa üzün silsin* (Cəlilabad).

**TƏLİS** III (Cəlilabad) – əlüzyuyan. – *Qıza, təlisə su tökginən.*

**TƏLİS** IV (Gəncə) – üzərinə tut çırpmaq üçün bir-birinə tikilmiş böyük parça.

**TƏLİSBƏND** (Ağbaba) – 1. müvəqqəti. – *Evin üstünü təlisbənd basırax;* 2. başdansovdu, tələsik.

**TƏLİSVƏND** (Çənbərək, Tovuz) – bax **təlisbənd.** – *İşiŋi təlisvənd tutma, soŋra peşman olarsan* (Çənbərək); – *Sən nə təlisvənd iş görürsəŋ* (Tovuz).

**TƏ:LQƏ** (Qazax) – bax **ayalğa.**

**TƏLL** (Cəlilabad) – dağ. – *Bir təllün üsdünnən keçəndə gördi bir qalaçə var.*

**TƏLLƏMƏX′** I (Qazax) – aldatmaq. – *Təlliyif boynuma toğluyu üş yüz qırx manıta sırıdı.*

**TƏLLƏMƏX′** II (Meğri) – qalamaq, bir-birinin üstünə yığıb toplamaq. – *Ya maşın verin daşıyım narı, ya da yığıp təlle:cəm narrığın ortasına.*

**TƏLLƏM-TƏLLƏM** (Qazax) – boş-boşuna, işsiz. – *Niyə oxumursaŋ, təlləm-təlləm gəzersəŋ?*

**TƏLLİVƏL** (Meğri) – güc-bəla ilə, bir təhər, çətinliklə. – *O vədə mən yaşerdim təllivəl.*

**TƏMBƏLİT** I (Çənbərək) – dolu, dopdolu. – *Şümşüt yunnan çualı təmbəlit doldurdu, apardı yetdi.*

**TƏMBƏLİT** II (Bakı) – məfrəş. – *Təmbəlitdəri ərəbələrə yüklədik, göndərdik bağa.*

**TƏMƏLLUĞ** (Quba) – uzunçuluq. – *Təməlluğ adamda çux pis adətdü.*

**TƏMƏNƏ** (Bərdə) – düzuçlu qıyıq. – *Təmənəni ver çualı tikim.*

**TƏMƏNNAŞMAX** (Qarakilsə) – hal-əhval tutmaq, əhvallaşmaq; görüşmək. – *Bircə binan təmənnaşdıx, suvayı kim deyir, yalan deyir.*

**TƏMƏSİX** (Zəngilan) – bax **təməsiy.** – *Yedimsə də bı xörəx′dən bir təməsix′ annamadım* (Zəngilan).

**TƏMƏSİY** (Cəbrayıl) – ləzzət. – *Onnan nə təməsiy annadıŋ.*

**TƏMƏSSÜG** (Şamaxı) – bax **təməsiy.** – *Mənnən nə təməssüğ alacaxsınız.*

**TƏMƏ-TƏMƏ** (Gəncə) – qaçdı-tutdu <uşaq oyunu adı>. – *A bajı, mən təmə-təmə oynuyanda həməşə yıxılıram.*

**TƏMƏZƏ** (Lənkəran) – bax **tamaza** I.

**TƏN** (Qazax) – inəyin tənasül orqanı. – *Bizim boz inəyin təni yaman suyulufdu, dəsəŋ büyün doğajax.*

**TƏNAF** (Daşkəsən) – qulağın yumuşaq hissəsi. – *Qula:n bu yumşax yerinə tənaf de:llər.*

**TƏ:NÇƏ** (Qax, Zaqatala) – qazança, balaca qazan. – *Tə:nçədə uşağa yemək pişirdim* (Qax); – *Get tə:nçəni gəti* (Zaqatala).

**TƏNDİRƏPUT** (Zəngəzur) – uçub-dağılmış təndir yeri. – *Tərdirəputda gizdənmişdi, tapıf yətirdim.*

**TƏNDİRƏSƏR** (Ordubad, Şahbuz) – təndirxana. – *Təndirəsərimizdə çörəx′ bişirillər* (Ordubad); – *Təndirəsər çörəx′ yapbaxdan ötəri olar* (Şahbuz).

**TƏNDİRYIĞAN** (Oğuz) – təndirin közünü bir yerə toplamaq üçün istifadə olunan uzun ağac. – *Bə:xdan ağac olurdu təndiryığan, hindi dəmirdən olur yığan yeri.*

**TƏNƏ** I (Şəmkir, Şuşa) – qulağın yumşaq hissəsi. – *Nənəm qulağımın tənəsini deşif, mən də sırğa taxajam* (Şuşa); – *Sırğeyi tənədən asallar* (Şəmkir).

**TƏNƏ** II (Cəlilabad) – burun deşikləri.

**TƏNƏ** III (Daşkəsən, Gədəbəy, Qax, Qazax, Şəki, Şəmkir, Tovuz) – bax **tana** II. – *Qulağımı tənə incider* (Qazax); – *Qızdar qulağına tənə aser* (Daşkəsən); – *Qızın tənəsi itifdi, dünənnən ha çalışey tafsın, tapılmeyəmə* (Gədəbəy); – *Qıza nişan gətirəndə üzüx′ də, tənə də qoyillər* (Şəki).

**TƏNƏBİ** (Lənkəran, Masallı, Naxçıvan) – böyük otaq, qonaq otağı. – *Tənəbimiz əlli nəfərriy məclisi tutar.*

**TƏNƏF** (Ucar) – əngəl. ◊ **Tənəf olmağ** (Ucar) – əngəl törətmək, mane olmaq. – *Sən gəl, mənə tənəf olma.*

**TƏNƏK** (Kürdəmir) – bax **tana** II.

**TƏNƏKAR** (Füzuli, Şəmkir) – mis qaynaq etmək üçün dəmirçilərin istifadə etdikləri kimyəvi maddə. – *Misqaynağı qoyurux kürüyə, birəz də üstünə tənəkar tökürüx′* (Füzuli); – *Dəmir var tənəkarnan qaynağ olur, dəmir də var qumnan* (Şəmkir).

**TƏNƏKƏ** (Meğri, Zəngilan) – qamışdan toxunmuş tərəcə. – *Pambığı tənəkənin üsdünə töküf qurudurux* (Zəngilan); – *Hərix′ yuxusinnən durincə qurdi tənəkə üsdə saxleyrıx* (Meğri).

**TƏNƏKİ** (Qarakilsə) – nazik. – *Bir tənəki kəndirinən çəpişi bağlamışam.*

**TƏNƏVİ** (Naxçıvan) – b a x **tənəbi.**

**TƏNƏZİR** (Çənbərək) – zəif, cansız. – *Tənəzir adam firhal Göllüyə gedif gələmməz.*

**TƏNƏZZİRRİMƏX′** (Çənbərək) – zəifləmək. – *Mühəmmət yaman tənəzzirriyif.*

**TƏNG** I (Ordubad) – 1. döngə; 2. dalan. – *Hüseyngil bı təngdə olur.*

**TƏNG** II (Bakı) – dar.

**TƏNG** III (Ordubad) – bərəçinin bərəni sürdüyü zaman durduğu yer. – *Təng gəminin lap qutaracağında olur.*

**TƏNG** IV (Ordubad) – qoşqu heyvanlarının qarnının altından keçirilən qayış və ya kəndir. – *Eşşəyin təngini çək.*

**TƏNGAV** (Cəbrayıl) – qovurma suyu, ət suyu.

**TƏNGİ** (Zaqatala) – b a x **dengi.** – *İki təngi üzüm yığıb satdım.*

**TƏNGOV** (Qarakilsə) – b a x **təngav.** – *Qavırmalıx eliyəndə təngov verərəm sa:.*

**TƏNİKAR** (Culfa) – xörək duzu. – *Tənikarı bişmişə tökərıx.*

**TƏNİKƏ** I (Ordubad) – alaçığın yan tərəflərini örtmək üçün qamışdan toxunmuş hasar. – *Tənikəmiz də xarab olub.*

**TƏNİKƏ** II (Meğri) – b a x **tənəkə.** – *Tənikəni gəti, qurdi qoyax üsdünə.*

**TƏNTƏLƏX′** (Çənbərək) – tələsik. – *Təntələx′ işdədim deyin, orağ əlimi kəsdi.*

**TƏNTƏNƏ** (Xaçmaz) – yüngülxasiyyət.

**TƏNTİX′** I (Ağcabədi, Zəngilan) – tələsik. – *Əhməd çox təntix′ danışır* (Ağcabədi); – *Təntiy iş görəndə həylə olar də* (Zəngilan).

**TƏNTİX′** II (Şəki, Şəmkir) – tələskən, kəmhövsələ. – *Usuf yaman təntix′ adamdı* (Şəmkir); – *Çox təntixdi′ Nuriyə, aləmi qatıf qarışdırır bir iş görəndə* (Şəki).

**TƏNTİMAX** I (Şəki) – tələsmək. – *Təntimə, yavaş-yavaş töx′.*

**TƏNTİMAX** II (Beyləqan, Qax, Şəki, Zəngilan) – çaşmaq, özünü itirmək, nə edəcəyini bilməmək. – *Nə tənti:rsəŋ, dalıncan atdı-zad gəlmir ki* (Beyləqan); – *Mən yaman təntimişdim* (Zəngilan).

**TƏNTİMƏX′** I (Ağcabədi, Gədəbəy, Qazax, Tərtər, Şəmkir) – b a x **təntimax** II. – *Mənnən o qədər söz soruşduŋuz ki, axırda təntidim* (Ağcabədi); – *Bu sa:t mə:m özüm təntimişəm* (Gədəbəy); – *Ayna xanım təntidi, tərsinə tutdu* (Şəmkir).

**TƏNTİMƏX′** II (Qazax) – darıxmaq. – *Dəyirmanda azca ağnağız elə, öydə uşaxlar təntiməsin.*

**TƏNZİL** (Culfa) – sələm. – *Qalan buğdanı sa: verirəm tənzilə.*

**TƏPBƏ** (Zaqatala) – hörmə çəpər.

**TƏPBƏCƏ** (Gədəbəy, Şuşa, Tovuz) – hədə-qorxu. ◊ **Təpbəcə gəlməx′** (Gədəbəy, Şuşa, Tovuz) – hədə-qorxu gəlmək, hədələmək, qorxutmaq. – *Nə:ŋ təpbəcəleysin maŋa, qorxoyrmmu sənnəŋ?* (Gədəbəy); – *Sən kimə təpbəcə:lirsəŋ, mən o yolları çoxdan keşmişəm* (Tovuz); – *Maŋa təpbəcə gəlmə, sənnən qorxan yoxdu* (Şuşa).

**TƏPBƏK** I (Ucar) – südünü qurutmaq. – *Bir həfdədi inəyimiz təpip.*

**TƏPBƏK** II (Kürdəmir) – bellə şumlamaq, qazmaq. – *Məhləni təpbişəm iki gündü.*

**TƏPBƏK** III (Ağdam, Şuşa) – *məc.* tez-tez yemək, acgözlüklə yemək. – *Axşamatan orda-burda təpbəx′dən kökəlif doŋuza dönüf* (Ağdam).

**TƏPCƏX′** I (Bərdə) – b a x **təbcəh.**

**TƏPCƏX′** II (Qarakilsə) – tövlənin bacasını örtmək üçün bacaya tıxanan ot bağlaması.

**TƏPÇƏK** (Lənkəran) – bel.

**TƏPƏ** (Cəlilabad) – *məc.* 1. nişanə; 2. sərhəd. ◊ **Təpə qoymağ** (Cəlilabad) – *məc.* nişanə qoymaq, mərz çəkmək, sərhəd qoymaq. – *Gəldi təpə qoydi ki, bıra mənimdü.*

**TƏPƏCƏX′** (Şahbuz) – b a x **təbçəy.** – *Təpəcəx′ lapatqanı yerə vurmaq üçündü.*

**TƏPƏRAN** (Qarakilsə) – gildən düzəldilmiş zibil qabı.

**TƏPƏRƏ** (Şahbuz, Şərur) – b a x **təpəran.** – *Hə:ti süpür, yığ təpəriyə, apar at küllüyə, gə.*

**TƏPƏTİPBƏ** (Meğri) – qəfildən, gözlənilmədən. – *Təpətipbə gedip çıxdım arxaşda üsdərinə.*

**TƏPƏYƏN** (Ucar) – təpikatan. – *Atı atın yanına bağlıyarsan, yə qapağan olar, yə təpəyən.*

**TƏPGƏCLƏMƏK** (Kürdəmir) – belləmək, bellə şumlamaq. – *Traxdır məhləni xarab eliyir deyin, özüm təpgəcliyirəm.*

**TƏPİLİ-TIXILI** (Kürdəmir) – ağzına kimi dolu. – *Bi parxal təpili-tıxılı pambuq vərdim.*

**TƏPİLMƏX'** (Culfa) – soxulmaq, hücum etmək. – *Qorxdum kin, canavar təpilsin qoyuna.*

**TƏPİMƏX'** (Ağdam, Bərdə, Cəbrayıl, Gədəbəy, Kürdəmir, Yevlax, Zəngilan) – bir qədər qurumaq. – *Bir-iki gün qal, yol-iriz təpiyənnən so:ra get* (Ağdam); – *Yer təpiməsə, tərpənməx' olmaz, çöldə batdax dizə çıxır* (Bərdə); – *Yer təpisin, gediŋ vəri:zı döyün* (Zəngilan); – *Gözdə paltar təpisin. Sora yığarsaŋ* (Yevlax); – *Yağışdan sonra yol təpiməsə, getməx' olmaz* (Gədəbəy).

**TƏPİR** (Basarkeçər, Hamamlı) – tabaq. – *Təpiri gəti, taxılı həvsəliyim* (Basarkeçər); – *Təpiri qonşudan al gəti, taxılı daşdıyax.* – *Təpirdə xəngəl yiərdix', qurut əzərdix', qazan ağzına qoyardıx* (Hamamlı).

**TƏPİŞDİRMƏX'** (Ağdam, Bərdə, Şuşa) – tez-tez yemək, acgözlüklə yemək. – *Gənə nə təpişdirirsən orda* (Ağdam); – *Otdu möhkəm təpişdirdi, üsdünnən də beş istikan çay işdi* (*Şuşa*).

**TƏPİTMƏ** I (Ağdam, Bərdə, Göyçay, İmişli, Mingəçevir, Şuşa) – xingal bişirmək üçün hazırlanan yarıçiy yuxa. – *O təpitmələri doğra, su asmışam xəngəl pişirəx'* (Ağdam); – *Beşaltı təpitmə var, gəti onları xıngal bişirim* (İmişli). ◊ **Təpitmə salmax** (Ağdam, Bərdə, Kürdəmir) – xingal bişirmək üçün yarıçiy yuxa hazırlamaq. – *Birəz təpitmə salmışam xəngəl pişirəjəm* (Bərdə); – *Axşama üç-dört təpitmə sal, xəngəl bişir* (Kürdəmir).

**TƏPİTMƏ** II (Ağcabədi, Cəbrayıl, Şuşa, Ucar) – yağlı xəmirdən hazırlanmış məlhəm. – *Üş gündü topuğuma təpitmə qoydurram, indi bir əz babatdı* (Ağcabədi); – *Uşağın qılçasına təpitmə qoydux, şişi çəkildi* (Ucar); – *Təpitmə qoyannan bəri əlimin şişi yatıb* (Cəbrayıl).

**TƏPKƏ** (Qusar) – kətmən.

**TƏPMƏX'** I (Kürdəmir, Tərtər, Zəngilan) – b a x **təpbək** II. – *Böyün bağ təpeyssī:z?* (Zəngilan); – *Məktəbin bağında xeyli yer təpdim* (Kürdəmir); – *Cijim baxçada yer təpir* (Tərtər).

**TƏPMƏX'** II (Bərdə, Xanlar) – 1. b a x **təpbək** II; 2. südünü qurutmaqla əlaqədar olaraq balasını əmməyə qoymamaq. – *Gamışımız təpif* (Bərdə); – *Bizim inəx' də bu il çox tez təpdi.*

**TƏPMƏX'** III (Xanlar) – hücum etmək, soxulmaq. – *Altı çanavariydi, biri təpdi qoyuna.*

**TƏPPƏKO** (Şəki) – təpikləşmə. – *Ədə, bu nə təppəkodu?*

**TƏPPƏTOX** (Xaçmaz) – həddindən artıq dolu, ağzına qədər dolu. – *O, çuvalı samannan təppətox doldumuşdu.*

**TƏPSİ** (Dərbənd) – xonça. – *Hamı partalı təpsilərə düzədig;* – *Hamı başına bir təpsi qoyub partal aparadig.*

**TƏR** I (Sabirabad) – 1. pis; 2. dolaşıq. ◊ **Tər gətirmək** (Sabirabad) – 1. düz gəlməmək; 2. dolaşığa düşmək. – *İşin deyəsən tər gətirib.*

**TƏR** II (Ağdam) – b a x **ter.**

**TƏRALA** (Oğuz) – halva növü.

**TƏRDANA** (Qax) – ılıq su.

**TƏ:R: TƏ:R ELƏMƏK** (Bakı, Salyan, Şəki) – 1. küsmək; 2. incimək. – *Söz didıx, tə:r elədi getdi* (Şəki); – *Mən tə:r elədim, qonaxlığa getmədim* (Salyan); – *Gənə nöş tə:r elədün?* (Bakı).

**TƏRƏ** (Lənkəran) – göyərti, yumurta, yağ və sairədən hazırlanan xörək.

**TƏRƏCƏ** (Quba) – şkaf.

**TƏRƏGDEŞƏN** (Dərbənd) – b a x **teregdeşən.** – *Tərəgdeşən ala-bəzəg uladu.*

**TƏRƏHİM** (Cəlilabad) – rəhm.

**TƏRƏX'** I (Ağbaba, Başkeçid, Bolnisi, Hamamlı) – rəf. – *Qab-qacağu tərəyə düz* (Ağbaba); – *Tərəx' qab-qacax yığmaxdan ötürüdü* (Bolnisi); – *Boşqabları tərəyə yığırıx* (Başkeçid); – *A bala, qabları tərəyə qoy, ortalıxda qalıf sınar* (Hamamlı).

**TƏRƏX'** II (Ağdam, Culfa, Laçın, Şuşa) – yağ, un və doşabdan hazırlanan halva növü. – *Dünən nənəm tərəx' pişirmişdi* (Ağdam); – *Sə:rdən bir tərəx' dürməyi yemişəm, onun*

*üsdündəyəm* (Laçın); – *Dünən tərəx′ bişirmişdim* (Culfa); – *Mənim tərəx′dən o qədər də xoşum gəlmir* (Şuşa).

**TƏRƏXUT** (Zaqatala) – şüyüd.

**TƏRƏKƏ** (Ağdaş) – ölmüş adamın malını bölüşdürmə. – *Əhmədin atası ölənnən iki gün so:ra tərəkə oldu* (Ağdaş). ◊ **Tərəkə qalmağ** (Bakı) – yiyəsiz qalmaq. **Tərəkə ilamax** (Oğuz) – varisi olmayan adamın malını bölüşdürmək. – *Özünnən dala öylat qalmıyanda adamın malını tərəkə iliyillər.*

**TƏRƏLİ** (Ordubad) – şaftalının bir növü. – *Bu il çox tərəli mirabbası qayırdıx.*

**TƏRƏTƏDİLİ** (Xaçmaz, Quba) – tələsik, təcili.

**TƏRƏZİ** (Başkeçid) – arabanın hissəsi.

**TƏRƏZİLƏR** (Qazax, Şəmkir, Tovuz) – böyük ayı bürcü, yeddiqardaş ulduz. – *Tərəzilər yeddi dənə olor, üçü bir tərəfdə, üçü də bir tərəfdə, biri də ortada.*

**TƏRGƏNƏ** (Qax) – 1. ılıq; 2. mülayim.

**TƏRGİTMƏX** (Kəlbəcər) – unutmaq, yaddan çıxarmaq. – *Mən yekəlix′də adamı tərgidifsən?*

**TƏRHALVA** (Biləsuvar, Mingəçevir, Naxçıvan, Şəki) – halvanın bir növü. – *Dünən dayımgilə gedəndə ollarda tərhalva bişirirdilər* (Naxçıvan); – *Tərhalvanı qocalar çox yeyir* (Biləsuvar).

**TƏRXAN** I (Bakı, Kürdəmir, Şərur) – ərköyün.

**TƏRXAN** II (İmişli, Kürdəmir) – 1. zərif; 2. gözəl, təravətli. – *Tərxan mahudu koldakosda geymək olmaz* (Kürdəmir); – *Bi yaxşı tərxan arvadı var* (İmişli).

**TƏRKİMLƏMƏX′** (Qazax, Tovuz) – mahmızlamaq, atın qabırğalarına ayaqla vuraraq onun yerişini sürətləndirmək. – *Atıŋı tərkimlə hava sərinkən öyə çatax* (Tovuz).

**TƏRKİSALAT** (Şəki) – natəmiz, murdarçı. – *Çox tərkisalat arvatdı Əsməd arvad.*

**TƏRLƏ ELƏMƏX′** (Şərur) – həzm etmək. – *Tikə: yaxcı çeynə, tərlə eliyəmməssən.*

**TƏRPƏDÖYÜN** (Gəncə) – xırda yarpaqlı, zoğlu, yeməli yabanı bitki adı.

**TƏRPƏTÖYÜN** (Ağcabədi, Basarkeçər, Mingəçevir) – b a x **tərpədöyün.** – *Tənbəllix′ eləmə, bir tərpətöyün aşı bişi* (Ağcabədi).

**TƏRPƏTYAN** (İrəvan) – b a x **tərpədöyün.**

**TƏRRİG** (Bakı, İmişli, Salyan, Şamaxı, Şərur) – yəhərin altından atın belinə qoyulan keçə parçası. – *Tərrigi yəhərin altdan qoyuruğ atın belinə* (İmişli). ◊ **Tərriğ verməğ** (Cəlilabad) – ata minənə kömək etmək. – *Tərrig ver, minim ata.*

**TƏRRİX′** (Ağdam, Bərdə, Qazax) – b a x **tərriğ.** – *Ə, bəs tərrix′ hanı, belə də at yə:rrərrər?* (Ağdam); – *O keçədən bir tərrix′ kəs düzəlt, bizim atın tərriyi xarab oluf* (Bərdə).

**TƏRSANİ** (Dərbənd) – armud növü. – *Tərsani turş ulduğuçin adami buğadu.*

**TƏRSƏ** (Borçalı) – mürəkkəbqabı. – *Tərsədə mürəkkəb olar yazmağa, başıaşağa tutanda tökülmer o.*

**TƏRSƏVƏT** (Qazax) – balıq tutmaq üçün tor vəzifəsini görən xüsusi səbət. – *Biz balığı tərəsəvətnən tutorux.*

**TƏRSİX′MƏX′** (Ağdam, Şuşa, Zəngilan) – təkrar xəstələnmək. – *İki ay bir üzümün üstə yatdım sətəlcəmnən, təzə-təzə yaxşılaşırdım genə azarım tərsix′di* (Ağdam); – *Gədə yaxşıydı, indi xəsdəliyi təzədən tərsix′di* (Zəngilan); – *Yaram tərsikif təzədənnən* (Şuşa).

**TƏRSİŞMƏK** (Zaqatala) – 1. düşməncəsinə münasibət bəsləmək; 2. əksinə çıxmaq.

**TƏS** (Mingəçevir, Naxçıvan, Zəngilan) – at peyini. – *Bir az təs qurutmuşux* (Naxçıvan).

**TƏSDƏMƏX** (Mingəçevir, Naxçıvan, Zəngəzur) – ifraz etmək (atlarda). – *Minmişdim ata, gedirdim, birdən at təsdədi* (Zəngəzur).

**TƏSƏX′QAVAĞI** (Basarkeçər, Xanlar) – qadın baş bəzəyi, fata. – *Təsəx′qavağın arvaddar alınnarına bağlardı* (Basarkeçər); – *Oğlan adamnarı qız öynə təsəx′qavağı apareydi;* – *Təsəx′qavağın toyu olan qız başına qoyuy* (Xanlar).

**TƏSƏKİ** (Basarkeçər) – qadın baş bəzəyi. – *Təsəkidə pərəx′ qızıl olardı.*

**TƏSKULLAH** (Ordubad) – araqçın, baş örtüsü. – *Təskullahı bizdər qoymarıx.*

**TƏSLƏMƏX′** (Qarakilsə) – b a x **təsdəməx′.**

**TƏSMƏT** (Zəngibasar) – xəcalət. – *Hələm də səni yörəndə o:şin <o işin> təsmətinnən ölürəm.*

**TƏSNƏMƏXʹ** (Ağdaş) – b a x **təsdəməxʹ.** – *At təsniyif pəyəni buluyufdu, get pəyəni kürü.*

**TƏSSEXʹ** (Meğri) – at peyini. – *Lumi dibinə təssex tökallar.*

**TƏŞƏXOR** (Borçalı, Qazax) – lovğa, ədəbaz.

**TƏŞƏXORRUX** (Qazax) – lovğalıq, ədəbazlıq. – *Təşəxorrux eler şafqeyi geymer, de:r gərəxʹ şikara papax olsun.*

**TƏŞƏR** I (Ağdam, Cəlilabad, Quba, İmişli, Kürdəmir, Goranboy, Salyan) – nadinc, dəcəl. – *Bizin bu uşağ çux təşər uşağdu* (Quba); – *Bu uşağ təşər uşaxdı, gündə da:va salır* (İmişli); – *Əli çox təşər uşaxdu* (Salyan).

**TƏŞƏR** II (Biləsuvar, Cəbrayıl, İsmayıllı, Meğri, Mərəzə, Zəngilan) – lovğa, ədəbaz. – *Hacı xanın bir təşər uğlu var idi, ketdi əmir ərşət dovasına* (Meğri); – *Bı kətdə Həsən kimi təşər yoxdu* (Cəbrayıl).

**TƏŞƏR-TƏŞƏR** (Şamaxı) – lovğa-lovğa, ədəbazcasına. – *Gör bir nə təşər-təşər danışır?*

**TƏŞƏRRƏMMƏXʹ** (Qarakilsə, Zəngilan) – lovğalanmaq, ədəbazlıq etmək. – *Elə təşərrənir kin, elə bil yeri-göyü bu yaradıf* (Zəngilan); – *Təşərrəmməxʹlə bir şey çıxmaz, gərəxʹ iş görəsən* (Qarakilsə).

**TƏŞGİLAH** (Culfa) – araqçın.

**TƏŞNƏBUĞUN** (Bakı) – qırxayaq.

**TƏTƏLƏVAZ** (Çənbərək) – fırıldaqçı. – *Qaravəli tətələvaz adamdı.*

**TƏTƏVAZƏ ELƏMƏĞ** (Lerik) – tələsmək.

**TƏTİ** (Şamaxı) – aciz, bacarıqsız. – *Sən təti şeysən.*

◻ **Təti verməy** (Yardımlı) – əmr etmək. – *Xoşduğınan olmay, təti veray.*

**TƏTİMƏK** (Şamaxı) – kəkələmək. – *Adamda tətimək böyük nuqsandı.*

**TƏTİMƏT** (Meğri) – hərarət, isti. – *Yayin tətiməti inciri ikicə günə yetişdirey.*

**TƏTİR** (İmişli, Şamaxı) – atlarda xəstəlik adı, atın böyründə əmələ gələn şiş. ◊ **Tətir olmağ** (Şamaxı) – tətir xəstəliyinə tutulmaq, böyründə şiş əmələ gəlmək. – *Atımız tətir olmuşdu, bərk qaşınırdı, alça turşusu sürtdüy yaxşı oldı.*

**TƏTO: TƏTO GƏLMƏG** (Salyan) – hədə-qorxu gəlmək, hərbə-zorba gəlmək. – *Uşağa elə təto gəldi ki, yazığ uşağ özin itirdi.*

**TƏVƏ** (Kəlbəcər) – b a x **tava.** – *Ağız, o təvəni mənə ver.*

**TƏVƏKƏLİ** (Zəngibasar) – başdansovdu. – *Təvəkəli qa:rıfsan, möhkəm də:l qapı.*

**TƏVƏL** (Şəki) – qanmaz, anlamaz. – *Təvəl adamı qandırmax çətindi.*

**TƏVƏLLƏ** (Oğuz) – az-az. – *Nuru təvəllə yığıb xeyli mum düzəltdi.*

**TƏVƏNƏ** I (Salyan) – səliqə, səliqə-sahman. – *Ay bala, evi-eşiyi təvənədən salmo:un.* – *Öyə-eşigə baxmassan, təvənədən düşər.*

**TƏVƏNƏ** II (Salyan) – minnət. – *Mən niyə oları dolandırmalıyam, təvəniyə qalıblar?*

**TƏVƏRƏ** I (Basarkeçər, Culfa, Kəlbəcər, Qarakilsə, Mingəçevir, Oğuz, Şərur) – dəyirmanın üst daşındakı girintiyə keçirilən romb-şəkilli dəmir hissə. – *Təvərə olmasa daş hərrənməz; üs daşı təvəriyə keçirillər, o da onu hərriyir* (Basarkeçər); – *Təvərə də:rman daşının arasında olur* (Oğuz); – *Təvərə olmasa də:rmanın üst daşı hərrənməz* (Kəlbəcər); – *Təvərə də:rman daşının içinə keçir* (Culfa).

**TƏVƏRƏ** II (Şahbuz) – sağanaq. – *Bizim ələyin təvərəsi sınıb işdən çıxıb.*

**TƏVƏRƏ** III (Cəbrayıl, Qarakilsə) – *məc.* dairəvi, yumru.

◻ **Təvərədən düşmək** (Kürdəmir) – dəbdən düşmək. – *Kilim təvərədən düşüp.*

**TƏVƏRZƏ** (Meğri) – vəziyyət, şərait. – *Bu yerin təvərzəsi həylədi ki, at-qatırın tərkin qılmax olmaz.*

**TƏVKİR** (Tovuz) – tədbir. ◊ **Təvkir qılmax** (Tovuz) – tədbir görmək. – *Yığılın mənim işimə bir təvkir qılın.* – *O məsələ:n bir təvkirini qılmax lazımdı.*

**TƏVLƏ** I (Şəki) – külqabı. – *A:z, təvləni habıra gəti.*

**TƏVLƏ** II (Şəki) – mürəbbəqabı. – *Mürəbbə də gəti, ho zərri təvlədən də.* – *Təvlə o biri öydə usdulun üsdündədi.*

**TƏVRƏXʹ** (Zəngibasar) – dəyirmanın daşını oxla birləşdirən dəmir hissə. – *Təvrəxʹ qırılıf, daş hərrənmir.*

**TƏYƏLĞA** (Qazax) – b a x **ayalğa.** – *Törə onun təyəlğasıdı.*

**TƏYƏNÇƏ** (Qax) – kiçik qazan, qazança.

**TƏYTİN: TƏYTİN OLMAĞ** (Salyan) – sakit olmaq, sakitləşmək. – *Sa:lla biy az təytin ol.*

**TƏZDƏNMƏXʹ** (Çənbərək) – çıxıb getmək. ◊ **Təzdənif getməxʹ** (Çənbərək) – qaçıb getmək. – *Ələddin alatorannan təzdənif yetdi kəndə.*

**TƏZƏKİ** (Mingəçevir) – 1. araqçın; 2. gecəpapağı.

**TƏZƏNƏ** (Qazax, Oğuz) – mizrab. – *O təzəneyi ver, saŋa bir Kərəm gözəlləməsi çale:m, gör nejədi* (Qazax).

**TƏZİXʹMƏXʹ** (Basarkeçər, Kürdəmir) – hürkmək, hürküb qaçmaq. – *Öydən çolpalar küdriyə təzikip* (Kürdəmir). ◊ **Təzikif getməxʹ** (Basarkeçər) – çıxıb getmək, qoyub getmək. – *İnəyin balası təzikif gedif.*

**TƏZKİRMƏK** (İsmayıllı) – məsləhət görmək, məsləhət bilmək. – *Əbdül dayı təzkirib ki, oğlunu oxutsun.*

**TƏZMƏXʹ** (Cəbrayıl, Hamamlı, Kəlbəcər, Meğri, Ordubad) – b a x **təzixʹməxʹ.** – *Qalxozun qoyunnarı bı gecə təzib yataxdan çıxmışdılar* (Ordubad); – *İnəyim səniŋ nobatıŋda təzib* (Cəbrayıl). ◊ **Təzif getməxʹ** (Çənbərək, İmişli, Zəngilan). – *Gördü gəlillər, təzdi Otuzikiyə* (İmişli).

**TƏZOV** (Şərur) – ikinci suvarma.

**TIBILĞI** (Ağbaba) – kiçik budaqlı ağac.

**TIĞ** I (Ağcabədi, Ağdam, Borçalı, Culfa, Gədəbəy, Xanlar, Qazax, Laçın, Meğri, Ordubad, Şəmkir, Şuşa, Tovuz, Zəngilan) – böyük topa. – *Bıra bir tığ odun yığmışam* (Zəngilan); – *Həsəngil tığ peyin daşıdılar bostana* (Cəbrayıl); – *Ordakı qartof tığları ha:sı priqədənindi* (Gədəbəy); – *Saba üş karrı tığ üzüm yığecıx ki, hərəsi bir maşın ulsun* (Meğri). ◊ **Tığ vurmax** (Ağdam, Bərdə, Şuşa) – müəyyən bir şeyi təpə şəklində bir yerə yığmaq, topa düzəltmək. – *Odunu tığ vurmuşam, qış çıxınca yandırajam* (Ağdam); – *Taxılı tığ vur, sə:r so:urarıx* (Bərdə).

**TIĞ** II (Salyan) – səliqə, səliqə-sahman. – *Qoymaram öyi-eşigi tığdan düşə.*

**TIĞILLAMAX** (Şahbuz) – bir şeyi təpə şəklində bir yerə yığmaq, qalaq vurmaq, bir-birinin üstə yığmaq. – *Taxıl savrılıb sora yerə tığıllanır.*

**TIĞLAMAX** (Ağdam, Bərdə, Şuşa) – b a x **tığıllamax.** – *Taxılı tığla qutar, gedəxʹ evə* (Şuşa); – *Ə:, bu qartofu kim tığlıyıf bura?* (Bərdə).

**TIĞRIĞ** (Dərbənd) – 1. döngə; 2. dalan. – *Şix tığrığı mastovoylanmayıb.*

**TIXCAMAX** (Qarakilsə) – basa-basa doldurmaq, möhkəm doldurmaq.

**TIXƏY** (İmişli) – tıxac. – *Şüşə:n tıxəyin boş qoyubsan, su axıb.*

**TIXLAMA** (Şərur) – qatıq-çörək doğraması.

**TIXMA** (Oğuz) – dolu, ağızbaağız. – *Çuvalı tıxma doldur.*

**TIXMATIX** (Zaqatal) – dopdolu, tamamilə dolu. – *Otax ağzına kimi tıxmatıxdı.*

**TIXMER** (Naxçıvan) – qısaboylu, gödək.

**TIXMEREL** (Naxçıvan) – gödərək.

**TIXNAŞ** (Meğri) – sıx, bir-birinə yaxın. – *Quzay arxaşdarda sürü tıxnaş yatır.*

**TIQQIC** (Kürdəmir) – ağzına kimi, tamamilə. – *Töylə tıqqıc doludi malqareynan.*

**TILAKEŞNİŞ** (Lənkəran) – yabanı bitki adı. – *Evin dalınnan bikgə tılakeşniş dər, həyət süpürgəsi düzəldəğ.*

**TILIF** (Naxçıvan, Ordubad) – b a x **tilif.** – *Çayın tılıfın töküllər lumunun dibinə* (Naxçıvan); – *Çayın tılıfın boşaldarıx eşiyə* (Ordubad).

**TIMBALAMAĞ** (Yardımlı) – itələmək. – *Nə tımbaleysən məni*?

**TIMBATIM** (Lənkəran) – dopdolu, lap dolu.

**TIMEREX** (Naxçıvan) – qısaboylu.

**TIMIĞ** (Şamaxı) – tın-tın, burnunda danışan. – *Sə:r-sə:r tımığ Həsən bizə gəlmişdi.*

**TIMIR** (Ucar) – qısaboylu.

**TIMXIR** (Başkeçid, Borçalı) – vasvası. – *Tımır adam hər şeyə diqqət elər* (Başkeçid).

**TIMXIRIX: TIMXIRIĞINI SALLAMAX** (Tovuz) – qaşqabağını tökmək, küsmək. – *Ə:, tımxırığıŋı niyə sallamısaŋ, qorxma, əmin burda döymü, işdəriŋi düzəldəjəm.*

**TIMXIRLIĞ** (Borçalı) – vasvasılıq. ◊ **Tımxırlığ eləməxʹ** – vasvasılıq etmək. – *Nə tımxırlığ eliyirsəŋ?*

**TIN** (Zəngibasar) – kin. – *Hər dınqılı işdən ötrüm adam qardaşıynan tın saxlamaz.*

**TINAZ** (Zəngibasar) – tənə, qınaq. – *Elləmə, a:z, elin tınazınnan qorx. – Elin tınazınnan ayb eli:rəm, on⁀ö:rə də dillənmirəm.*

**TINCIXMAX** I (Ağbaba, Ağcabədi, Xaçmaz, Qax, Oğuz, Zəngilan) – ürəyi darıxmaq, hava çatmamaq, təngnəfəs olmaq, boğulmaq. – *Əlinin başını suya basdım, o da suda tıncıxdı* (Ağcabədi); – *Kök adam həməşə tıncıxar* (Ağbaba); – *İsdidən adam tıncıxır* (Zəngilan); – *A bala, qapını aç, mən lap tıncıxdım* (Qax).

**TINCIXMAX** II (Şəki) – *məc.* bezmək, təngə gəlmək. – *O qədər tıncıxdı ki, axırda heylə qoyuf getdi.*

**TINC OLMAĞ** (Yardımlı) – doldurmaq. – *Bu bərdon pinnən tınc olub.*

**TINILLAMAX** (Şəmkir) – burunda danışmaq. – *A bala, nə tınıllırsaŋ?*

**TINIĞ** (Əli Bayramlı, Kürdəmir, Salyan) – b a x **tımığ.** – *Tınığ Raufun qardaşı Hidayəti bərk döydi* (Əli Bayramlı); – *Əlyusif tınığ olmasa, nıtqı pis olmaz* (Kürdəmir).

**TINIX** (Ağdərə, Culfa, Gədəbəy) – b a x **tımığ.** – *Tınıx adam burunda danışey* (Gədəbəy); – *Elə burnunda danışırdı deyə, tınıx Nuru de:ərdix′* (Ağdərə).

**TINQILIĞ: TINQILIĞI DURMAX** (Hamamlı) – kefi durmaq. – *Az:, tınqılığın durmuyuf ha, bir yerdə otursaŋa.*

**TINSIXMAĞ** (Yardımlı) – darıxmaq. – *Çoxdandı görmey, tınsıxıb.*

**TIRIM** (Salyan) – sığal. – *Gəlin özünə tırım verir.*

**TIRIMTIZ** (Zaqatala) – arıq, arıqlayıb əldən düşmüş.

**TIRÇIL** (Cəbrayıl, Gədəbəy, Qax, Tovuz) – bol, çox. – *Yağ tırçılıydı bazarda* (Gədəbəy); – *Bağda alça tırçıldı* (Tovuz); – *Ojax tırçıl közdü* (Cəbrayıl).

**TIRÇIMAX** (Çənbərək) – doymaq. – *Quzu qoyunu oğarda əmdi, tırçıdı, bə:ndə durdu.*

**TIRXAŞDAMAX** (Gədəbəy) – içərisində maye olan qabın ağzını tıxacla bağlamaq. – *Sənəyin ağzını tırxaşda, al çiyniŋə.*

**TIRXƏŞ** (Naxçıvan) – zəif, bədəncə sağlam olmayan, yaxşı inkişaf etməyən uşaq. – *Tırxəş qoca kişidən olar.*

**TIRXIL** (Qax) – adaş.

**TIRXIN** (Tovuz) – qapını arxadan bağlamaq üçün istifadə olunan ağac. – *O tırxını da qapının dalına qoy, gejə mal çıxıf gedər.*

**TIRINQI** (Ağdam, Şuşa) – diringi, oyun havası. – *Bir tırınqı çal, qoy uşaxlar oynasın* (Ağdam). ◊ **Tırınqı tutmax** (Şuşa) – oyun havası çalmaq. – *Sən tırınqı tut, mən oynuyum.* **Tırınqı vurmax** (Qarakilsə) – kefi kök olmaq. – *Yenə xeyir ola, yaman tırınqı vurursan.*

**TIRIŞ** (Oğuz, Xaçmaz) – natəmiz, pinti. – *Bizim tırış Əziz də ağronomluğ oxuyur.*

**TIRIŞ-FIRIŞ** (Salyan) – pis, xoşagəlməz. – *Hava çox tırış-firışdı.*

**TIRIŞDAMMAX** (Füzuli) – lovğalanmaq. – *Ə:, nə tırışdanırsaŋ, qayıt bəri.*

**TIRMAŞDAMAX** (Qarakilsə) – şələni iplə, kəndirlə bağlamaq. – *Şələni tırmaşdıyırıx kin, uşmasın <dağılmasın>.*

**TIRMIŞ** (Qarakilsə) – şələni bağlamaq üçün ip, kəndir.

**TIRNA** (Bərdə, Kəlbəcər) – ləçək, qadın baş örtüyü. – *Tırnanı qojalar başına salardı* (Bərdə).

**TIRNOY** (Qazax) – köçhaköç. – *Dağda ırahatca oturmuşdux, qar yağanda tırnoy başdadı.*

**TIRPAN GƏLMƏK** (Zəngibasar) – talamaq, qarət eləmək.

**TIR-TIR** (Oğuz) – yabanı bitki adı.

**TIR TÖX′MƏX′** (Şərur) – dodağının altında deyinmək. – *Tır töxməyinə baxma, gəti mə:*

**TIRYEL** (Qazax) – taxıl təmizləyən maşın.

**TIS** I (Ordubad) – tənbəl.

**TIS** II (Zəngibasar) – kin. – *Ə:, qo:muyun tısını saxlıyırsan mənnən, deyəsən.*

**TISAĞAN** (Kürdəmir, Şuşa) – küsəyən, tez-tez küsən. – *Bizim bu İbiş kişi yaman tısağandı* (Şuşa).

**TISDIXMA** (Çənbərək) – kök. – *Pəri tısdıxma Söyünnən də bərk kökəlif.*

**TISĞA** (Karvansaray) – qarın. – *Tısğaŋı a:na tut.*

**TISI** (Qarakilsə) – küsü. ◊ **Tısı bağlamax** (Şuşa) – küsmək. – *Biznən tısı bağlıyıf dədəŋ, göründə üzün oyana tutur.*

**TISIX** I (Zəngilan) – kök, yekəqarın. – *Kazım yaman tısıx kişidi.*

**TISIX** II (Tovuz) – qısaboy, gödək.

**TISQA** (Gədəbəy) – gödək, qısaboy. – *Bizdə o cür adama tısqa adam deyrix'.*

**TISQAX** (Zəngibasar) – qorxaq. – *Nə tısqax gədə:mişsən sən?*

**TISMAX** (Ağdam, Əli Bayramlı, Şuşa, Zəngilan) – küsmək. – *Üş gündü tısıf mənnən, danışmırıx* (Ağdam); – *Tısırsaŋ dünənnən tıs* (Zəngilan); – *Uşağı elə pis öyrətmisiz ki, hər də:qə tısır* (Əli Bayramlı); – *Nouluf genə, də:səŋ tısmısaŋ bizdən* (Şuşa).

**TISMAR** (Tovuz) – qısaboy, gödək.

**TISMIX** (Bərdə, Zərdab) – qısaboy, gödək. – *Tısmıx adam çoxdu, axdarsaŋ kətdə bir beş-altısı olar* (Bərdə); – *Bizim qonşuluxda bir tısmıx kişi var, çox məzəli söhbətdər eli:r* (Zərdab).

**TISMIXMA** (Oğuz) – dopdolu, ağızbaağız. – *Çuvalı otnan tısmıxma doldurub.*

**TISMIRIX** (Cəlilabad, Culfa, Çənbərək, Füzuli, Goranboy, Xanlar, Naxçıvan, Zərdab) – qısaboy, gödək. – *Tısmırıx de:irix' gödəx' adama bizim kətdə* (Xanlar); – *Tısmırıx Əli kətdə olubdu* (Culfa).

**TIŞĞƏRMƏĞ** (Lerik) – cücərmək.

**TIVILCA** (Gədəbəy) – ağac budaqlarından düzəldilən iri süpürgə. – *Tıvılcıyı yəti süpirginən xırmanı.*

**TİBİLİTMƏ** (Ağdam) – uşaq oyunu adı.

**TİC** (Salyan) – dik. – *Öyin üssi tic olsa dammaz.*

**TİCO** (Salyan) – qızmar. – *Günorta:n tico:unda da bağda işdi:llər.*

**TİCVAN** (Salyan) – ortası dik, qabarıq daş.

**TİFCƏX'** (Gəncə) – parça, qəlib. – *Bazardan bir tifcəx' savın aldım.*

**TİX'DİR** (Qazax, Şəki) – b a x **tikdir.** – *Danalar o tix'dirdə otdollar* (Qazax).

**TİX'MƏ** (Cəbrayıl) – *məc.* ağır. – *Bı uşax illəf tix'mədi, güjüm çatmır.*

**TİK** (Çənbərək) – davakar. – *Həsən çox tik adamdı.*

**TİKAN** (Lənkəran) – tıx, balığın xırda sümükləri. – *Bala, moğa:t ol, balığı yiyəndə tikanı boğazında qalar a!*

**TİKDİR** (Zaqatala) – dik yer.

**TİKƏ** (Salyan) – divan, danlaq. – *Mənə tutulan tikə sənə tutulsa, başu: qoymağa yer axtara:san.* ◊ **Tikə tutmağ** – divan tutmaq. – *Hirssənəndə özüə bi tikə tutursan ki, tanınmalun qalmır.*

**TİKƏLƏMƏX'** (Zəngilan) – yemək. – *Gə gedəx' birəz çörəx' tikəliyəx'.*

**TİKƏLMƏK** (Kürdəmir) – yönəlmək, istiqamət almaq. – *Vahid öyə tikəldi.*

**TİKƏNƏX'LƏMƏX'** (İmişli) – tikənək xəstəliyinə tutulmaq. – *Əvraş qoç tikənəx'lef, gör no:luf ona.*

**TİKGAN** (Qax) – höcət, tərs.

**TİKLƏNDİRMƏK** (Gəncə) – göndərmək, yollamaq. – *Gündə bir uşağı niyə üsdümə tikləndirirsən?*

**TİKLİK** (Balakən) – araba oxunu qollarla birləşdirən hissə.

**TİKSİNMAX** (Qaz, Şəki) – iyrənmək.

**TİQƏ** (Ordubad) – arakəsmə. – *Tiqə evi aradan kəsir.* ◊ **Tiqə eləməx'** (Ordubad) – aradan kəsmək. – *Mən evi tiqə elədim.*

**TİL** I (Hamamlı, Xanlar, Kəlbəcər, Tovuz) – 1. uc, zirvə; 2. hündür (tərəf). – *Dərə:n o tərəfi döş oloy, bu tərəfi til oloy.* – *Ağacın başına ağacın tili deillər də* (Xanlar).

**TİL** II (Meğri) – ələ öyrənmiş. – *Xə:l til quzu kimin hara gedirəm düşer dalımcan.*

**TİL** III (Zaqatala) – çıxıntı.

**TİL** IV (Yardımlı) – diribaş, dəcəl. – *Bi qiz yaman tildi.*

**TİLAN** (Lənkəran, Salyan) – 1. sürtülmüş, sürtülüb hamarlanmış, cilalanmış (Lənkəran). – *Tilan çarx kimi nə axıb gedirsən;* 2. sürtülmüş aşıq. – *Çingizdə üş dənə tilan var* (Salyan).

**TİLANBAR** (Bakı, Salyan, Şamaxı) – 1. çoxlu, xeyli; 2. dolu. – *Heyetdə qar tilanbardu* (Bakı); – *Hindi pambuğ tilanbardı* (Salyan); – *Tikanda vərmeşil u ğada var ki, lap tilanbardu*; – *Həyət un taylarınnan tilanbardı* (Şamaxı).

**TİLƏ** I (Quba) – qisas, acıq. – *Bu tiləyi mən səndə quymaram.*

**TİLƏ** II (Zəngilan) – pambıq bitkisində olan xəstəlik adı. ◊ **Tilə düşməx'** (Zəngilan) – tilə xəstəliyinə tutulmaq. – *Pambığa tilə düşüf, sə:rdən dərmannama aparırıx.*

**TİLƏ** III (Lənkəran) – ting. – *Bir nar tiləsi gətirib həyətdə əkdi.*

**TİLƏBORAN: TİLƏBORAN ELƏMƏK** (Şamaxı) – bərk döymək, əzişdirmək. – *Sən lap Vəlini tiləboran elədin.*

**TİLƏKEŞNİŞ** (Lənkəran) – süpürgə hazırlamaq üçün işlənən yabanı bitki.

**TİLƏMVAR** (Cəlilabad) – b a x **tilanbar.** – *Baxduğ gördüg bi dənə isdansiya var, pirəduxdı tiləmvardu bırda.*

**TİLƏNMİŞ** I (Lənkəran) – sırtıq, abırsız, həyasız, utanmaz. – *Həsən lap çox tilənmiş adamdı, ona qoşulma.*

**TİLƏNMİŞ** II (Lənkəran) – 1. arıq; 2. əldən düşmüş, zəifləmiş.

**TİLƏT** I (Biləsuvar, Kürdəmir, Salyan, Şamaxı) – tiyə; bıçaq, dəhrə və s. kəsən hissəsi. – *Dəhrənin tiləti qırılıp* (Kürdəmir); – *Bı tilətnən əyaqqabının palçığın təmizzə* (Salyan); – *O tiləti ver, çikməmi təmizziyim* (Şamaxı).

**TİLƏT** II (Salyan, Ucar) – işlənmə nəticəsində sürtülüb nazilmiş sabun, süpürgə və s. – *O tilət süpürgəni tap, heç olmasa öyi süpür.* – *Biyəz tilət sabın qalmışdı, bilmədim necoldi* (Salyan).

**TİLF** (Zəngilan) – b a x **tilif.**

**TİLFƏ** (Ucar) – ağacın gövdəsində əmələ gələn göbələk.

**TİLİF** (Cəlilabad, Sabirabad) – çayın puçalı. – *Çayniyi yaxala, tilifi at* (Cəlilabad).

**TİLİFLƏNMƏK** (Kürdəmir) – tel-tel olmaq. – *Ət çox bişdiyinnən tilifl ənmişdi.*

**TİLİLƏMƏK** (Zaqatala) – 1. döymək, əzişdirmək; 2. daşa basmaq. – *Əhmad Səlimi tililədi.*

**TİLİM** (Xanlar) – b a x **tilət** I. – *Muna iki dəfədi ki, dəstə düzəldirəm, özü kəsərsiz tilimdi.*

**TİLİSBƏT** (Qarakilsə) – keyfiyyətsiz. – *İsdol dəyillər ki, tilisbətdi hamısı.*

**TİLİŞBƏLƏMƏX′** (Ağdam) – odunu, taxtanı və s. uzununa xırda-xırda parçalara bölmək. – *Bu odunu tilişbələməx′ isdiyirəm.*

**TİLİT** (Bakı) – heyvanlar üçün islanmış jmıx və samanın qarışığından hazırlanan yem. – *A kişi, gün batıb, tilit düzəld ki, hindi heyvannar gələr.*

**TİLİZ-PİLİZ** (Zaqatala) – lazımsız paltar-palaz.

**TİM** (Qax) – çınqıl.

**TİMİG** (Şamaxı) – b a x **tilət** II.

**TİMİGLƏŞMƏG** (Şamaxı) – işlənmək nəticəsində sürtülüb nazilmək. – *Aş qazanı timigləşir.*

**TİMİL** (Meğri) – iki hündür təpə arasındakı keçid. – *Üsdən yenişə hər timildə bir atdı çıxərdi qəbağımə.*

**TİMİLLO:** (Salyan) – quzu aşığı. – *Sə: üş timillo: verim, bir zilan ver mə:.*

**TİMO** (Ağdam, Bakı, Cəlilabad) – zökəm. – *Uş gündü timo olmuşam, burnum-başım axır* (Ağdam).

**TİMRİ** (Əli Bayramlı) – utanmadan, həyasızcasına. – *Cəbrayıl məni timri biabır elədi.*

**TİN** I (Ordubad) – kömürün dəmi. ◊ **Tin vurmax** (Ordubad) – kömürün dəmi ilə zəhərlənmək. – *Dünən məni tin vurmuşdu, başım yaman ağrıyırdı.*

**TİN** II (Quba) – böyük bardaq. – *Gid hovuzdan bir tin su getir.*

**TİNƏ** (Zaqatala) – 4-5 baş qoyun və ya buzov tutan yer. – *Tinəni təmizdə.*

**TİNGİLİMBİLİ** (Zaqatala) – uşaq oyunu adı. – *Əliynən Vəli tingilimbili oynuyur.*

**TİNİ** (Şamaxı) – nüfuzlu, sözükeçən. – *Oa heç kəs batammaz, çox tini adamdı.*

**TİNİG** (Əli Bayramlı, Sabirabad) – qısaboylu. – *Görmüşəm Əlisafanı, tinig kişidi.*

**TİNQƏ** (Qax, Zaqatala) – zirvə.

**TİNNƏBAXAN** (Bakı) – parça növü.

**TİNYƏT** (Ordubad) – xasiyyət. – *Həsə:n tinyəti yaxşıdı.*

**TİPİ** (Bolnisi) – qarla qarışıq əsən külək. – *Dağ başında tipi əsər.*

**TİR** I (Oğuz, Şəki, Zaqatala) – ləklər arasındakı torpaq arakəsmələr. ◊ **Tir vurmax** (Oğuz) – suyun kənara axmaması üçün ləklər arasında arakəsmə düzəltmək. – *Tir vururux ki, su yana çıxmasın.* **Tir çəkmək** (Oğuz) – b a x **tir vurmax.** – *Tiri çəkif so:ra suvaxlıyıf, so:ra bazılarını çəkirix′.*

**TİR** II (Salyan) – böyük, iri. – *Sabaynarı siziyçin tir qazan do:ğa bişirəcəm.*

**TİRBƏND** (Ağdam) – hasar.

**TİRCAN** (Lənkəran) – qamışlı bataqlıq.

**TİRƏ** I (Ağdam, Gədəbəy, İmişli, Qarakilsə, Qazax, Qubadlı, Laçın, Sabirabad, Şəmkir, Tovuz) – 1. nəsil; 2. tayfa; 3. qohum-əqrəba. – *Bizim kəntdə tirə çoxdu, hansını deyim saŋa* (Ağdam); – *Hər tirənin öz ağsaqqalı olor bizdə* (İmişli); – *Bizim kənt bir neçə tirədi* (Qarakilsə); – *Neçə tirə işdey o biri piriqədədə?* (Gədəbəy); – *Bu kətdə çox tirə-*

*lər var: maf tirəsi, niyazdı tirəsi, taramatdı tirəsi* (Şəmkir).

**TİRƏ** II (Qubadlı) – 1. tərəfdar; 2. həmfikir. – *Qaflan bizim tirədəndi, onun sizə qarışajağı yoxdu.*

**TİRƏ** III (Şəki) – lək. – *İki tirə soğan ehmişdıx, hunnan un puta kimi soğan qazdıx.*

**TİRƏ** IV (Cəbrayıl, Culfa, Kürdəmir, Mingəçevir, Salyan) – b a x **tir.** – *Tirənin üssündə durub alağ elyirik* (Kürdəmir); – *Su çox olduğu üçün tirəni yuyur* (Salyan); – *Su arxın tirəsini uçurdub* (Cəbrayıl).

**TİRƏ** V (Şahbuz) – arı səbətinin içində olan bölmələr, arakəsmələr. – *Tirə səbətdə olur arıçın.*

**TİRƏ** VI (Kürdəmir) – bel, fəqərə sütunu. – *Suda balığın tirəsi göründü.*

**TİRƏ** VII (Sabirabad) – dirək.

**TİRƏBORAN** (İrəvan) – arasıkəsilmədən yağan yağış. – *O tirəboranda mən yoldaydım.*

**TİRƏLİX′** (Zəngibasar) – nifaq. – *Elə eləmə:nən kin, aramızda tirəlix′ tüşsün heş nədən sarı.*

**TİRƏLİTƏ** (Biləsuvar, Cəlilabad) – kətmən. – *Tirəlitənin ağzı kütəlib* (Biləsuvar). ◊ **Tirəlitəsini vırmax** (Biləsuvar) – kətmənlə alağını vurmaq; dibini boşaltmaq. – *Tirəlitəsini vırıb qutarannan so:ra üzüm yaxşı bitir.* **Tirəliyə çəkmək** (Biləsuvar) – kətmənlə alağını vurmaq. – *Alağı tirəlitiyə çək.*

**TİRƏ-TİRƏ** (Şuşa) – tərəf-tərəf, dəstədəstə. – *Uşaxlar tirə-tirə oluf dalaşıllar.*

**TİRFƏNG** (Cəbrayıl) – yabanı bitki növü.

**TİRQAT** (Qax, Zaqatala) – mətbəx.

**TİRİY** (Zaqatala) – iriquyruq Dağıstan qoyunu cinsi. – *Aldığımız tiriyları qat sürüyə, qoy otdasunnar.*

**TİRRƏMƏX′** (Meğri) – vurub yıxmaq. – *Ayını tirre:p Tervənti quzayında, sifariş eler ki, mal gətirin.*

**TİR-TİP** (Qarakilsə) – 1. forma; 2. xarici görkəm. – *Tip-tipi nəyə oxşuyur?*

**TİSBİRRİX′** (Naxçıvan, Ordubad) – 1. çətinlik; 2. əziyyət. – *Qardaş oğlı, biz tisbirrix′ çətinniyə, əziyətə deyərix′* (Naxçıvan). ◊ **Tisbirriyə düşməx′** (Ordubad); 3. çətinliyə düşmək; 4. əziyyətə düşmək. – *İşimiz çox tisbirriyə düşüb, heç baş aça bilmirıx.*

**TİSƏX′** (Borçalı, Qazax) – dumanlı havada yağan narın yağış. – *Genə bu tisəx′ başdadı, gün üzünə həsrət qaldıx* (Qazax).

**TİSƏX′LƏMƏX′** (Ağdam, Borçalı, Şuşa) – narın yağış yağmaq. – *Genə başdıyıfdı tisəx′ləməyə* (Ağdam); – *Neçə gündü tisəx′liyir, gün üzünə həsrət qalmışıx* (Şuşa).

**TİSKİNMAX** (Şəki) – iyrənmək. – *Aşdan da laf tiskinmişəm.*

**TİŞ** (Xanlar) – təkərdə topla şini birləşdirən hissə, təkərin dəndənəsi. – *Tiş börkünən topun arasında oloy.*

**TİŞARI** (Şuşa) – bayır, çöl. – *Həsən tişarıda qaldı, mən içəri girdim;* – *Tişarıda niyə durursaŋ, içəri gəl.*

**TİŞBÖRK** (Xanlar) – araba təkərində dəndənə ilə şinin arasında olan qövsşəkilli taxta. – *Tişbörk şinnən tiştərin arasında olur.*

**TİŞDƏMƏ** (Ağdam, Şuşa) – b a x **dişdəmə.** – *Şirin işmirəm ma: bir istikan tişdəmə ver* (Ağdam); – *Şirin çayı işməx′ olmur, bir tişdəmə versəŋ içərəm* (Şuşa).

**TİŞƏ** (Ucar) – körpə qamış. – *Tişədən hasar çəkirik qapıya;* – *Tişə böyüyəndə qamış olur.*

**TİŞƏX′** (Qazax) – vəlin taxtasında alt tərəfdən açılmış oyuqlara keçirilən daş parçaları.

**TİŞƏMƏX′** (Zəngibasar) – bıçqını, mişarı itiləmək. – *Apar xizəri əmin tişəsin, gət gə.*

**TİŞƏRMƏX′** I (Gəncə) – görünmək, bir qədər nəzərə çarpmaq. – *Papağı elə tikif ki, tüxlərin arasınnan tikişi tişərir.*

**TİŞƏRMƏX′** II (Ağdam, Bərdə, Mingəçevir) – b a x **dişərməx′.** – *Taxıl hindi tişərir* (Ağdam); – *Baş soğan çoxdan tişərif* (Bərdə).

**TİTDİLİ** (Qazax, Mingəçevir) – b a x **ditdili.** – *Beyjə yaman titdili vardı* (Qazax); –*Titdilinin əlinnən yatmamışam* (Mingəçevir).

**TİTƏ** (Borçalı, Gədəbəy, Meğri, Şəmkir, Şuşa) – gözün qarasına düşən ağ ləkə. – *Gözündə titə var onun* (Borçalı). ◊ **Titə tüşməx′** (Ağdam, Gədəbəy, Tərtər, Şəmkir, Şuşa) – gözün qarasına ağ ləkə düşmək. – *Gözümə titə tüşüf* (Gədəbəy); – *Gözümüzə titə tüşəndə qədimdə molla yannae:dərdix′* (Şəmkir); – *Uşağın gözünə titə tüşüf* (Şuşa).

**TİTMƏĞ** (Quba) – tətik. – *Tüfəngün titməği sınıtdu.*

**TİYANÇA** (Lənkəran, Masallı) – kiçik qazan.

**TİYENG** (Balakən) – tənək, meynə.

**TİYƏ** I (Qarakilsə, Laçın) – nazik (paltar). – *Söyuxdan ölürəm, əynim tiyədi, arxalığımın altınnan heş zad yoxdu* (Laçın); – *Əynimdə bir tiyə pencəxʹ var* (Qarakilsə).

**TİYƏ** II (Şərur) – tikili (paltar). – *İndi qəprətində tiyə paltar çoxdu.*

**TİYƏN** (Culfa, Çənbərək, Şərur) – böyük qazan. – *Tiyənnən bir aş bişirdixʹ Novruz bayramında* (Çənbərək); – *Mevizi tiyəndə bişiririxʹ* (Şərur).

**TİYƏNÇƏ** (Culfa) – tava. – *Tiyənçəni ver, qayqanax bişirim.*

**TİYƏNGİ** (Çənbərək) – beldə əmələ gələn ağrı, bel ağrısı. ◊ **Tiyəngi qalxmax** (Çənbərək) – ağrı tutmaq. – *Belimnən tiyəngi qalxıf.*

**TİYNƏT** (Meğri) – düşüncə. – *Ramazan əvəzsiz oğlandı, heyif ki, tiynəti bikgə dardı.*

**TO:** (Salyan) – kələk, hiylə. – *Gülşə:n to:unnan hələm-hələm adam çıxəmməz.* ◊ **Toa düşmək** – aldanmaq. – *Ürəyitəmiz adam tez toa düşər.*

☐ **To: vermək** (Cəlilabad, Ordubad) – 1. hədələmək; 2. məcbur etmək. – *Həsənə to: vereylər ki, tifəngi ver* (Cəlilabad).

**TO:A** (Qazax) – b a x **tava.** – *To:ada süd, xörəxʹ qayrellar.*

**TO:ASAR** (Ağdaş, Gədəbəy, Qax, Qəbələ, Oğuz, Şəki, Tərtər, Zaqatala) – b a x **tavasar.** – *To:asarı götü, qoyma yağı yammağa* (Oğuz); – *Atam bazardan to:asar almışdı* (Qəbələ); – *Qayqanağı to:asarda yox, to:ada pişir* (Gədəbəy); – *To:asarda yağ dağ eliyrıx* (Şəki).

**TODAR** (Naxçıvan) – hamar olmayan, kələ-kötür.

**TOFQALLAX** (Mingəçevir, Oğuz, Tərtər) – uşaq oyunu adı. – *Getdilər tofqallax oynamağa* (Oğuz); – *Tofqallax yaxşı oyundu* (Tərtər).

**TOFLAŞMA** (Füzuli) – uşaq oyunu adı.

**TOFLU** (Şəki) – toğlu, altıaylıq quzu. – *Altı ay olanda toflu diyillər, altı ay keçəndə qoyın diyirıx.*

**TOĞAY** I (Əli Bayramlı, Sabirabad, Salyan) – çay kənarında qalın ağaclıq, meşə. – *Sə:r gəl toğaydan odın gətirməğə gedək* (Salyan).

**TOĞAY** II (Bərdə) – sahil. – *Kürün toğayında meşə var.*

**TO:GİR** (Salyan) – fırıldaqçı, kələkbaz. – *Sə: qınamazdım, to:gir əlinə düşmüsən.*

**TOĞLUCU** (Borçalı, Qazax) – süpürgə düzəltmək üçün istifadə olunan yabanı bitki adı.

**TOĞLULUĞ** (Astara) – 20-25 qoyundan ibarət sürü. – *Həsən kişinin on toğluluğ qoyunu variydi.*

**TOĞULLUX** (Böyük Qarakilsə, Xocavənd, Şəmkir) – b a x **toğluluğ.** – *İ:rmi qoyuna də:llər bir toğullux, yüz qoyuna də:llər beş toğullux* (Xocavənd); – *Çobannıx elyəndə bir toğulluğa bir motal alırdım, bir batman da yağ* (Şəmkir).

**TOĞUNTİ** (Salyan) – ağımtıl.

**TOXA** (Barana, Basarkeçər, Bolnisi, Daşkəsən, Qazax, Şəmkir, Tovuz, Zaqatala) – kətmənin bir növü. – *Toxanı gəti gedəxʹ tütünün alağını vurax* (Oğuz); – *Toxaynan qartop divi boşaldarıx; ala vurarıx, arx təmizdərixʹ* (Daşkəsən). ◊ **Toxa vurmax** (Başkeçid) – kətmənləmək. – *Sə:r tezdənnən burda toxa vururam.* **Toxa döyməxʹ** (Başkeçid) – kətmənləmək. – *Peşəm toxa döyməxʹdi elə.*

**TOXAC** (Ordubad) – yun çubuğu.

**TOXALAMAX** (Barana) – kətmənləmək. – *Get, kolun divini toxala.*

**TOXANMAX** (Şəmkir) – sataşmaq. – *İrva:m maŋa yaman toxanır.*

**TOXAY** (Sabirabad) – b a x **toğay** I. – *Toxayda mal qalıb.*

**TOXDAĞ** (Bakı, Cəlilabad) – təskinlik, ürək-dirək. ◊ **Toxdağ verməy** (Cəlilabad) – təskinlik vermək, ürək-dirək vermək. – *Valla, qorxeysən, ancağ ginə də özüə: toxdağ vereysən.* **Toxdağ tapmağ** (Bakı) – təskinlik tapmaq. – *Birez toxdağ tap, sən lap əldən düşdün.*

**TOXDAMAX** I (Çənbərək, Şəki, Zəngilan) – sakitləşmək, özünə gəlmək, özünü ələ almaq. – *Urəyim heş toxdamır, elə bil indijə ağzımnan çıxajax* (Zəngilan); – *Savaxdannan ürə:m bulanırdı, yenijə toxduyuf* (Çənbərək).

**TOXDAMAX** II (Ağdam, Bərdə, Çənbərək, Kürdəmir, Qarakilsə) – 1. dayanmaq, durmaq, bir yerə çatıb durmaq. – *Sən birəz toxda burda, indi uşaxlar gələjəxʹ* (Ağdam); – *Dandılı dedi kin, Nənixʹ noyunda toxduyajam, uşağı yözdüyəjəm* (Çənbərək); 2. çat-

maq. – *Maşın gəlip Yeblağa toxdadı* (Qarakilsə); – *Gejə gedif Yıvlağa toxdadıx* (Bərdə).

**TOXDƏMƏY** (Cəlilabad) – b a x **toxdamax** I. – *Dayan bi, toxda, tər səni yuyib aparey.*

**TOXQƏRƏZƏ** (Lerik) – darvaza.

**TOXMAYA** (Ağdam, Şamaxı) – pendir mayasının tərkibinə qatılan quzu qursağı.

**TOXMƏRƏXʹ** (Naxçıvan) – gödərək. – *Əsgər toxmərəxʹ adamdı.*

**TOXMİŞƏMS** (Ordubad) – qaysının bir növü. – *Toxmişəms qaysı al.*

**TOXNA** (Balakən) – b a x **toxa.** – *Toxnamız itib, tütün alağına gedə bilmədim.*

**TOQQAC** I (Cəbrayıl, Zəngilan) – paltar yumaq üçün taxdadan düzəldilmiş alət. – *Keçmişdə sabun olmadığınaö:rə paltarı toqqacnan yuyurdular* (Cəbrayıl).

**TOQQAC** II (Cəbrayıl, Zəngilan) – keçmişdə torpaq damın üstünü möhkəmləndirmək, bərkitmək üçün istifadə olunan taxtadan hazırlanmış alət. – *Əhməd, bərk yağır, toqqacı götü, tavlanın üstünü döy, bızavların üstünə dammasın* (Cəbrayıl).

**TOQQADANÇIXMA** (Füzuli) – uşaq oyunu adı (dirədöymə).

**TOQQADÖYDÜ** (İmişli) – uşaq oyunu adı (dirədöymə). – *Toyda toqqadöydü, qayışqoydı oynallar.*

**TOQQALAX** (Oğuz) – uşaq oyunu adı (topqalaq). – *Uşaxlar səhərdən toqqalağ oynuyullar.*

**TOQQAŞAĞACI** (Qarakilsə) – palaz çırpmaq üçün ağac.

**TOQQAŞDAMAX** I (Ağdam, Kürdəmir, Mingəçevir, Şuşa) – paltarı və sairəni sabunsuz yumaq. – *Ala bu köynəyi toqqaşda, sər, qoy qurusun* (Ağdam); – *Tənbəllixʹ eləmə, dur mənim o coraflarımi əliŋdə toqqaşda* (Şuşa).

**TOQQAŞDAMAX** II (Mingəçevir) – *məc.* bir şeyi və ya işi çətinliklə düzəltmək. – *Bir tə:r toqqaşdadım, birəz pul düzəltdim ki, bir at alam.*

**TOQLUBAŞ** (Çənbərək) – xırda daş qırıntıları, çınqıl. – *Örgüyə əzəl toqlubaş tököllər, sonra da palçıx, boyl düzənniyillər.*

**TOQU** (Qarakilsə) – çəlləyə keçirilən dəmir qurşaq.

**TOLAĞAYİ** (Şahbuz) – topal, axsaq. – *Tolağayi adam tez yeriməz.*

**TOLAQQAYİ** (Ordubad) – quş adı. – *Tolaqqayi çıqqılca serçə kimi quşdu.*

**TO:LAMAX** I (Şamaxı) – b a x **toylamax** I. – *İpi to:lamamış gətirib.*

**TO:LAMAX** II (Ağdam, Bərdə, Şuşa) – b a x **toylamax** II. – *O əti at qazana to:la, qoy qalsın sabaha* (Ağdam).

**TOLAMAZ** (Mingəçevir, Oğuz, Tovuz) – səlbə. – *Tolamazı meyviyə atıllar* (Oğuz); – *Əlində bir tolamaz var* (Tovuz).

**TOLAMAZDA** (Bərdə, Qazax) – səlbə. – *Bir tolamazda at çö:uz tökülsün.*

**TOLAMAZDAMAX** (Bərdə, Qazax) – b a x **tolazdamax.** – *Çomağı elə tolamazdadım ki, düz inəyin buynuzuna dəydi* (Bərdə).

**TOLAMAZDI** (Ağdam, Bərdə, Borçalı, Cəbrayıl, Çənbərək, Goranboy, Qazax, Şuşa, Zəngilan) – b a x **tolamazda.** – *Tolamazdı atdım ağaca üş-dört armud düşdü* (Ağdam); – *Tolamazdıyı atıram ağaca, çöüz tököler yerə* (Borçalı); – *Tolamazdıyı atıf, o da gediv uşağa dəyif* (Qazax); – *İsvahan tolamazdıynan töygə elə vurdu ki, çıra kimi söndü* (Çənbərək); – *Tolamazdıynan vuruf gədənin başına yarıflar* (Şuşa); – *Qara kişi tolamazdıynan yüz qoz salıf* (Cəbrayıl).

**TOLAZATMA** (Meğri) – səlbə. – *Qurban bir tolazatmeyə qırx çəviz saldi.*

**TOLAZDAMAX** (Ağdam, Bərdə, Şuşa) – tullamaq, atmaq. – *Hirsdənif dədəm, əlinə nə keçir hamısın tolazdıyır çölə* (Ağdam); – *Götü tolazda getsin oyana, kimə lazımdı bullar* (Bərdə); – *Ə:, hamısını tolazdamışam gedif, hardan tapajaxsaŋ* (Şuşa).

**TOLAZZAMAX** (Mingəçevir) – b a x **tolazdamax.**

**TOMA** (Qax) – təpə, hündür yer.

**TO:MACARAX** (Gədəbəy) – kök və qısaboylu. – *O da tomacaraxdı elə bir az.*

**TOMALĞA** I (Şəmkir) – nəsil, tayfa. – *Bu kətdə dört tomalğa var.*

**TOMALĞA** II (Şəmkir) – kəkil. – *Tomalğa tüxʹdən olur to:uxda.*

**TOMAR** I (Qax) – kitab. – *Tomarı qoyı qoltuğuna gediy.*

**TOMAR** II (Şəmkir) – ucları yuxarı tərəfdən bir-birinə qarışmış şivlər; kol-kos. – *Ujdarı birrəşsə şivlərin tomar olar.*

**TOMAR** III (Zaqatala) – meşədə kollardan təmizlənib açılmış sahə.

**TOMBA** (Gədəbəy, Kəlbəcər) – topa. – *Otu çalıf bir yerə yığırıx, olur tomba;* – *Tomba da, xotma da bir şeydi; bəzi adam tomba deir, bəzisi xotma* (Kəlbəcər); – *Qartofları tomba yığ;* – *Samanı tomba yığ bir yerə* (Gədəbəy).

**TOMBALAMAX** (Gədəbəy, Kəlbəcər) – bir yerə topalamaq, topa şəklində bir yerə yığmaq. – *Otu tombalıyırıx, so:ra da tayya yığırıx* (Kəlbəcər).

**TOMLUX** (Şəmkir) – kol bitkilərindən əmələ gələn təbii çəpər.

**TOMPA** (Şəmkir) – yumru. – *Sancıçiçəyi hündür olur, başı da belə tompa.*

**TOMPAL** I (Ağdam, Cəbrayıl, Göyçay, Mingəçevir, Şəki) – iki qurdun birlikdə sarıdığı çıxar barama. – *Tompal baramanın içində iki qurd olur* (Ağdam); – *Tompal baramanı piliyə qatıllar* (Göyçay); – *Baramamızın təktükü tompaldı* (Cəbrayıl); – *Bir barama:n içində iki qurd olur, una diyillər tompal* (Şəki).

**TOMPAL** II (Mingəçevir) – b a x **tomba.**

**TOMPUS** (Xaçmaz) – qısaboylu və kök. – *Küçədə tompus bir qız gəzirdi.*

**TOMPUZ** (Şəki) – döyənək. – *Əyağımda tompuz var, incidir yaman məni.*

**TOMSALMAĞ** (Salyan) – sakitləşmək. – *İgnə vırılannan tomsalıb.*

**TOMSU** (Karvansaray) – kiçik tala. – *Tomsuyamı gedirsəŋiz?*

**TONQAL** (Salyan) – adam çox olan yer, tünlük. – *Adamların tonqalında yolu yarıb keçməg olmırdı.*

**TONQAR** (Çənbərək) – böyük topa, yığın. – *Bü:n malatınqadan iki tonqar taxıl yığdıx.*

**TONPUZ** (Xaçmaz) – b a x **tompus.** – *Tonpuz Əli kolxozda yaxşı işdiyədü.*

**TONTAR: TONTARINI TÖKMƏK** (Oğuz) – qaş-qabağını tökmək. – *Niyə tonqaru: töküb oturmusan?*

**TONTOL** (Ağbaba) – axsaq.

**TOP** (Balakən, Kəlbəcər, Tovuz, Şəki, Zaqatala, Zəngilan) – 1. araba təkərində dəndənələrin uclarının birləşdiyi ağac hissə. – *Arabanın topu sınıb* (Balakən); – *Araba havaxdı qalıf günün altında, onaö:rə top çatdax-çatdax oluf* (Şəmkir); – *Arabanın topu dağılıf qalıflar yolda* (Tovuz); 2. su dəyirmanında pərlərin uclarının birləşdiyi yer (Kəlbəcər, Zəngilan); – *Novdan su gəlif vurur pərə, pərin də uju keçir topa, top hərrənir, də:rmanı işdədir;* – *Şiş topun üjündədi, onun altda davan ağacı var* (Kəlbəcər).

**TOPALAĞ** (Salyan) – dərman bitkisi adı. – *Topalağın sui uşaxları yatırmağçın davadı;* – *Topalağın köki fındığ boyda olır* (Salyan).

**TOPALAX** I (Cəbrayıl, Kürdəmir, Qazax, Zaqatala) – b a x **topalağ.** – *Çaya topalax salmısanmı?* (Zaqatala); – *Topalax çəltigin inkişafın alır* (Kürdəmir).

**TOPALAX** II (Tovuz) – yumru. – *Sənəmin balaja qızı elə yaxcanadı ki, topalax kimi.*

**TOPAN** (Culfa) – b a x **tapan** IV.

**TOPARA** (Ağdam) – makara <sap>. – *Tükannan iki ağ topara aldım.*

**TOPARRAMAX** (Borçalı, Çənbərək, Meğri) – bir yerə yığmaq, toplamaq, cəmləmək. – *Öküzdəri toparra, Haştağıya çıxart* (Çənbərək); – *Quzuları o yannan bəri toparra* (Borçalı).

**TOPBAŞ** (Ordubad) – əla növ buğda.

**TOPBUZ** (Bərdə) – tikanlı yabanı bitki adı. – *Topbuzu çamış ye:ir.*

**TOPCAX** (Qarakilsə) – boyca gödək, kök adam.

**TOPDU** (Qax) – tənbəl. – *Ho topdunin birisidi.*

**TOPLELƏ** (Bakı) – 1. aciz; 2. qapazaltı. – *Toplelə dögül ki, sa:tda vurursuz.*

**TOPPANA** (Lənkəran) – balıq qursağı, balıq qovuğu.

**TOPPULLAX** (Ağdaş) – uşaq oyunu adı.

**TOP-TOP** (Zərdab) – mədəcik (gövşəyən heyvanlarda).

**TOP-TOPİK** (Kəlbəcər) – tikanlı yabanı bitki adı.

**TOPU** (Qazax) – kiçik qazan.

**TOPUR** (Ordubad) – alaq etmək üçün istifadə edilən alət. – *Topurnan alax dərəllər.*

**TOPURCA** (Bakı) – kök (uşaq).

**TOPUXLI** (Ordubad) – qadın geyimi adı. – *Bibim yaşıl topuxlısın geydi.*

**TOPUXLUX** (Ordubad) – pencəsiz uzun yun corab, boğazlıq. – *Vələvirdə topuxlux yunnan toxunur.*

**TOR** (Salyan) – avam. – *Tor adamı başa salmağ çətindi.*

**TORABELÇƏ** (Qazax) – torağay.

**TORACALQA** (Borçalı, Tovuz) – torağay.

**TORAQQAYI** (Ordubad) – b a x **tolağayi.** – *Bizim to:uxlar toraqqayıdı.*

**TORALMAXʹ** I (Salyan) – yaxşılaşmaq. – *Axşam qızma:n içində yanırdım, indi biyaz toralmışam.*

**TORALMAX** II (İmişli) – kökəlmək. – *Bekara ara verdi, görəjəxʹsən bir çər quzu toralıf.*

**TORATAX** (Göyçay, Kürdəmir) – yarpaqları baramaqurdu üçün istifadə edilmiş tut ağacının nisbətən iri budaqları. – *Toratağı təndirə tökdüm* (Kürdəmir); – *Əli toratax yığırdı* (Göyçay).

**TORAN** (Ağcabədi, Ağdam, Ağdərə, Gədəbəy, Şəmkir, Tərtər, Tovuz) – axşam qaranlıq düşən vaxt. ◊ **Toran vurmax** (Ağdərə) – qaranlıq düşmək. – *Yolda məni toran vurdu.* **Toran qarışmax** (Ağdam, Ağcabədi) – qaranlıq düşmək. – *Birəzdən toran qarışajax, vaxtkən dur, yığış gedəxʹ* (Ağdam); – *Toran qarışır, öküzdəri sal pəyyə* (Ağcabədi). **Toran tüşməxʹ** (Ağcabədi, Ağdam, Ağdərə, Gədəbəy, Tovuz, Şəmkir) – qaranlıq düşmək. – *Toran tüşməmiş yola çıxın kin, gejixʹmə:siŋiz idarıya* (Gədəbəy); – *Toran tüşməmiş işıx gözünə malları pəyyə sal* (Tovuz). **Toran çalmax** (Bərdə, Tərtər) – qaranlıq düşmək. – *Toran çalmışdı Həsən bizə:ləndə* (Tərtər).

**TORATAN** (Culfa, Ordubad) – hörümçək. – *Atalar misalıdı: hansı il toratan çox olsa, bollux olar.*

**TORAVELÇƏ** (Tovuz) – b a x **torabelçə.**

**TORÇƏKƏN** (Yardımlı) – hörümçək. – *Torçəkən evin çüncində çox oley.*

**TORPAXBASDI** I (Xanlar) – keçmişdə mal-qaranı yaylağa və qışlağa aparanda alınan vergi adı. – *Qavaxlarda torpaxbasdını miravay yığırdı;* – *Gərəxʹ torpaxbasdı vereydin ki, dağa köçöydün.*

**TORPAXBASDI** II (Füzuli, Tovuz) – gəlin köçürülərkən qız tərəfin adamlarının oğlan evinin adamlarından tələb etdiyi hədiyyə. – *Torpaxbasdı isdədi bizdən qız öyü* (Tovuz); – *On manat torpaxbasdı verdim Abbasın toyunda* (Füzuli).

**TORPAXLIX** (Qazax) – evin üsdə torpaq töküldükdən sonra divarın üstündən həmin torpaq bərabəri tikilən əlavə hörgü. – *Öyün üsdünü torpaxlamışıx, indi torpaxlığını örörlər.*

**TORTA** (Ağdam, Bakı, Cəbrayıl, Qax, Laçın, Şuşa) – kərə yağını dağ etdikdən sonra qabın dibində qalan çöküntü. – *Yağın tortasını qatdım xəmirə, elə yaxşı fətiri çıxmışdı kin* (Ağdam); – *Yağdan torta az çıxdı* (Laçın); – *Yağı dağ eliyənnən so:ra süz ki, tortası qarışmasın* (Şuşa).

**TORTAGÖZ: TORTAGÖZ ELƏMƏĞ** (Salyan) – gözümçıxdıya salmaq. – *Siz bı gədə: lap tortagöz eləmisüz.*

**TORUMCA** (Böyük Qarakilsə) – hörümçək. – *Ev torumçaynan doludu.*

**TORUN** (Lənkəran) – b a x **toran.**

**TORVALAMAX** (Yevlax) – hər hansı bir şeyi torbaya doldurmaq, yığmaq. – *Dələməni torvalasax, süzülər pendir olar.*

**TORVASALLAMA** (Ağcabədi) – Novruz bayramı axşamı bacadan torba sallayaraq hədiyyə alma mərasimi. – *Torvasallama ilin axır günü olur, Nouruz bayramında.*

**TOSI** (Ordubad) – qısaboylu, gödək.

**TOSQIRMAX** (Daşkəsən) – ayağını yerə döymək, caynaqları ilə yeri eşmək. – *Canavar o:annan gələndə tısqırdı.*

**TOSQUN** (Ağdam, İsmayıllı) – qısaboylu kök (adam). – *Tosqun adam çox yol yeriyə bilməz* (Ağdam).

**TOSMAL** (Şəki) – qısaboylu, kök adam.

**TOSMALAMAX** (Oğuz, Şəki) – büzüşmək. – *Uşaq tosmalıb, yerin sal yatdır* (Oğuz); – *Qız yanımda tosmalanıf yatır* (Şəki).

**TOSMALTMA** (Qarakilsə) – əyri, aşağı əyilmiş halda. – *Tosmaltma durma, düz dur.*

**TOSMAR** (Şərur) – b a x **tosmal.** – *Tosmar Kamal qalxozda işdiyir.*

**TOSMARA** (Borçalı) – b a x **tosmal.** – *O, balaca tosmara adamdı.*

**TOSMARAX** (Cəbrayıl, Qarakilsə, Loqodexi, Şəmkir) – gödərək, kök.

**TOSOY** (Ağbaba) – b a x **tosı.**

**TOSUN** (Zəngibasar) – ərköyün. – *Uşaxlıxdan səni tosun bö:tmüşəm deynə indi sözəzada baxmırsan.*

**TO:SUN** (Tovuz) – kök, qısaboy. – *O, çox to:sundu.*

**TO:SUNMAX** (Qazax) – təngnəfəs olmaq. – *Öküz çox to:sunor, diyəsən naçaxlıyıf.*

**TOŞ** (Cəlilabad) – yonqar. – *Toşi süpirmeysüz, taxdə irəndənələnnən so:ra, küləy dağıdey.*

**TOŞAX** (Bolnisi) – qarğıdalı cecəsi.

**TOŞİ** (Salyan) – bafa bağlamaq üçün kökündən çıxarılmış sünbüllü zəmidən düzəldilən bağ.

**TOŞMİNTÜŞ** (Şuşa) – uşaq oyunu adı.

**TOŞT** (Sabirabad) – cərgə, sıra.

**TO:UXTÖKÜLƏN** (Oğuz) – səhər alaqaranlığı, sübh tezdən. – *U adama baxır, to:uxtökülənnən bir sa:t qabax da qalxır, bir sa:t sora da.*

**TO:ULAMIX** (Ucar) – at və ya başqa heyvanları bağlamaq üçün itiuclu, mıxa oxşar dəmir. – *U to:ulamıxı mə: ver.*

**TO:ULAMUX** (Bərdə) – b a x **toylamıx.** – *Atı to:ulamuxa bağladım.*

**TOUŞ** (Ağdam, Kürdəmir, Qazax, Zərdab) – görmə qabiliyyəti, gözün işığı. ◊ **To:uşunu aparmax** (Ağdam, Zərdab) – görmə qabiliyyətini itirmək, gözü zəifləmək. – *Kitaf gözümün to:uşun aparıf, o qədər oxumuşam kı* (Ağdam). **Touşu kəsilməx′** (Qazax) – 1. qamaşmaq; 2. gözü qaralmaq. – *Gör nə gözəl buğdadı! Kəhrava kimi gözün to:uşun kəser baxanda* (Qazax). **To:uşu getməx′** (Ağdam, İmişli, Zərdab) – 1. qamaşmaq; 2. gözü qaralmaq; 3. gözü zəifləmək. – *Atam üç arşın parça almışdı, baxanda adamın gözünün to:uşu gedirdi* (Zərdab); – *Day qocalmışam, gözümün to:uşı gedib* (İmişli).

**TOV** I (Bakı, Dərbənd) – 1. divarda əl çırağı qoymaq üçün bacası olan taxta (Bakı); – *Çırağı tova qoy;* – *Çırağı tovdan gəti;* 2. baca (Dərbənd). – *Tovun içi qurum tututdu.*

**TOV** II (Dərbənd) – dağ. – *Tov yerinnən gələdi.*

**TOVLU** (Dərbənd) – dağlı. – *Tovdan gələnə tovlu diyədig.*

**TOVSAR** (Balakən, Qax, Qəbələ, Quba) – b a x **tavasar.** – *Tovsari öyə qoy* (Qəbələ).

**TOVUT: TOVUT ƏLƏMƏK** (Dərbənd) – səsləmək, çağırmaq. – *Habu kişini tovut ələməsən gəlməz.*

**TOY** I (Borçalı, Qazax) – aşıq, çalğıçı; toyda musiqi çalan üçlük. – *Gederdim o kətdən toy gətirerdim.*

**TOY** II (Borçalı) – dümbək. – *Ağaşnan vurulana toy deyrix′, əlnən vurulana qaval.*

**TOYANA** (Göyçay) – toyda verilən pul.

**TOYBABASI** (Şahbuz) – toy məclisini idarə edən.

**TOYBAŞI** (Bərdə) – toy məclisini idarə edən.

**TOYBAVASI** (Bərdə, Borçalı, Qazax, Şəmkir, Yevlax) – b a x **toybabası.** – *Toybavası toyun ağsaqqalıdı* (Bərdə); – *Toybavası toy məclisinin sədrisi odardı* (Borçalı); – *Qəhrəman kişi yaxşı toybavası olurdu* (Şəmkir).

**TOYBƏYİ** (Ağcabədi, Bərdə, Tərtər, Yevlax) – toy məclisini idarə edən. – *Toybəyi aşıx məclisinə baxır* (Ağcabədi).

**TOYÇU** (Ağdam, Qazax, Şərur) – toyda musiqi çalan, çalğıçı. – *Toyçuları apar oturt, çalsınnar, cama:t da toflaşsın* (Ağdam); – *Toyçular gəldi* (Qazax); – *Get toyçu:çağır gəlsin* (Şərur).

**TOYDAMI** (İmişli) – toyxana, toy məclisi keçirilən yer. – *Toyı toydamında eliyərüğ.*

**TOYXANI** (Tərtər) – toy məclisini idarə edən. – *Burda Əmrah yaxşı toyxanı oluf.*

**TOYLAMAX** I (Qazax, Şəmkir, Tovuz) – eşmək, burmaq. – *Bir bu ipi tut, toyluyax* (Qazax).

**TOYLAMAX** II (Qazax, Şəmkir, Tovuz) – azacıq qovurmaq; yüngülvarı qovurmaq. – *Əti biraz toyla, yoxsa qalıf xarav olar* (Qazax).

**TOYLAMIX** (Çənbərək) – atı və sairəni bağlamaq üçün yerə vurulan mıx şəkilli dəmir. – *Atın yəhərini at, toylamıxı yerə çal, qoy otdasın.*

**TOYMAR** (Zəngilan) – bir metr uzunluğunda kəsilmiş nazik ağac.

**TOYSUMAX** (Çənbərək) – təngnəfəs olmaq. – *Hajalı beyjədən bəri toysuyur.*

**TOYSUNMAX** (Hamamlı) – b a x **toysumax.** – *İnəy bü:n yaman toysunurdu, deən canavar qova-qova gətirif.*

**TOZAĞAN** (Oğuz, Tovuz) – çinara bənzər ağac adı, tozağacı. – *Tozağan çox uzax yerrərdə, bərx′ yerrərdə olur* (Oğuz).

**TOZANQI** (Qarakilsə, Zəngəzur) – toz şəklində yağan; narın (qar). – *Bu axşam bir tozanqı qar yağıb, gəl görəsən* (Zəngəzur). ◊ **Tozanqı düşmək** (Zəngəzur) – toz şəklində narın qar yağmaq.

**TOZQADAX** (Salyan) – xırda mıx. – *Tozqadağı duhara vurulan kağızdara vurullar.*

**TOZUTMAX** (Çənbərək) – toz qaldırmaq. – *Dağarcığı çırpıf tozutma.*

**TÖKÜLÜNTÜLÜ** (Qazax) – səliqəsiz. – *Arvad ki tökülüntülü oldu, heş nə.*

**TÖLƏMƏX′** (Ordubad) – tükünü tökmək. – *Bizim toyux tölənibdi.*

**TÖLƏŞ** (Qazax) – yöndəmsiz, yaraşıqsız.

**TÖLLƏX′** (Çənbərək) – dərənin başlanğıcı. – *Odunu qayrıllar, tölləx′dən buraxıllar, boyl düz cə:liyə:lir.*

**TÖMƏL** (Ağcabədi, Ağdərə, Bərdə, Tərtər) – qısaboylu.

**TÖRƏ** (Ağcabədi, Ağdam, Ağdərə, Bakı, Bərdə, Çənbərək, Gəncə, İmişli, İsmayıllı, Qazax, Quba, Ordubad, Saatlı, Şuşa, Tərtər, Yevlax, Zəngilan) – qısaboylu, gödək. – *Var idi belə bir adam törə Məmməd* (Qazax); – *Törə adam deyillər firkat olar, hiləli olar* (Ordubad); – *Törə Zahid tut ağacınan yıxılıf* (Şuşa).

**TÖRƏLÇƏ** I (Borçalı) – b a x **torabelçə.** – *Törəlçənin başında pompula var, əti yeməlidi.*

**TÖRƏLÇƏ** II (Zəngibasar) – həyasız. – *Törəlçiyə bax:a.*

**TÖRƏLİ** (Zəngibasar) – yaxşı, layiqli. – *Yaman törəli şeydi.*

**TÖRƏLİK** (Göyçay) – qısaboyluluq. – *Tayı törəliyüvə salma, az danış.*

**TÖRƏMEDİX′** (Qazax) – quş adı.

**TÖRƏMƏ** I (Qazax) – azmüddətli xırda yağış. – *Törəmə xırdajana yağışdı.*

**TÖRƏMƏ** II (Oğuz) – nəsil. – *Bu üç yüz öyün hamısı məni törəməmdi.*

**TÖRƏMƏZ** (Oğuz) – b a x **körəməz.**

**TÖRƏVƏLÇƏ** (Qazax) – quş adı.

**TÖRƏVİLÇƏ** (Qazax) – b a x **törəvəlçə.**

**TÖRPİ** (Göyçay, Şamaxı) – iri və seyrək dişli yeyə. – *Törpinin dişi tik-tik olur, ağacı hamarrıyır* (Göyçay); – *Törpini ver, baltanın sapın hamarrıyım* (Şamaxı).

**TÖRPÜ** (Ağdam, Bərdə, Qarakilsə, Şuşa) – b a x **törpi.** – *Törpü olmadı deyə, dəhrənin sapı kələ-kötür qaldı* (Ağdam); – *Törpünü ma: ver, bu taxtanın üsdün hamarrıyım* (Bərdə); – *Ə:, ged evdən törpünü gəti ver Məhərrəmə* (Şuşa). ◊ **Törpü dəyməmiş** (Ağdam, Şuşa) – 1. *məc.* yonulmamış, kobud; 2. qanacaqsız, mədəniyyətsiz. – *Də:sən, sa: heş törpü dəymiyif* (Ağdam); *Törpü dəyməmiş adamda mərfət olmaz* (Şuşa). **Törpü görməmiş** (Ağdam, Qarakilsə, Şuşa) – 1. *məc.* kobud, yonulmamış; 2. qanacaqsız, mərifətsiz. – *Yəqin törpü görməmisə′ŋ ki, belə danışırsan* (Ağdam).

**TÖRPÜLƏMƏX′** (Ağdam, Tərtər) – iridişli yeyə ilə yonmaq, hamarlamaq. – *Baltanın sapın törpüləməsək tilişgəsi ələ batar* (Ağdam); – *Ala munu birəz törpülə, çox kələkötürdü* (Tərtər).

**TÖRRƏX′** (Şərur) – qorxaq.

**TÖS** (Qazax) – kiçik eniş.

**TÖSƏ** (Qazax, Meğri) – b a x **tosı.** – *Tösə adam qua:tdı olar* (Qazax).

**TÖSƏRƏNGİ** (Qazax) – gödərək.

**TÖSİ** (Saatlı) – b a x **tosı.**

**TÖSMƏX′** (İmişli) – b a x **tosmarax.**

**TÖSMƏR** (Qazax) – b a x **tosmal.** – *Məlix′ tösmərdi.*

**TÖSMƏRƏ** (Borçalı) – b a x **tosmal.** – *Tösmərə adamın boyu balaja olar.*

**TÖSMƏRƏG** (Saatlı, Şamaxı) – b a x **tosmarax.**

**TÖSMƏRƏX′** (Ağdam, Bərdə, Cəbrayıl, İmişli, Qarakilsə, Qazax, Naxçıvan, Şəki, Şuşa, Tərtər) – b a x **tosmarax.** – *Qulu tösmərəx′di* (Ağdam); – *Yaxşı tanıram, tösmərəx′ bir kişiydi o* (Bərdə); – *Tösmərəx′ de:rix′ balaja adama* (İmişli); – *Telli kimi tösmərəx′ arvad az-az tapılar* (Cəbrayıl).

**TÖSMƏRƏY** (Kürdəmir) – b a x **tosmarax.**

**TÖSÜ** (Ağdam, Ağdərə, Bərdə, Mingəçevir, Şamaxı, Şuşa, Tərtər) – b a x **tosı.** – *Bir tösü adamdı* (Şamaxı).

**TÖVSƏR** (Çənbərək, Qazax) – b a x **tosmal.** – *Sən bir bu tövsər İsmayıla bax!* (Qazax); – *Hasanalı tövsər kişidi* (Çənbərək).

**TÖTƏGİMƏX′** (Kəlbəcər) – büdrəmək. – *At qayada tötəgidi, amma yıxılmadı.*

**TÖ:UXAPARAN** (Karvansaray) – yırtıcı quş adı.

**TÖYCÜ** (Bərdə, Gədəbəy) – tədbir, məsləhət. – *Sə:ŋ töycün nədi maŋa?* (Gədəbəy). ◊ **Töycü eləməx′** (Gədəbəy) – məsləhət etmək, tədbir görmək. – *Töycü elə:ŋ, bir görəx′ hə:anedey buyişdər?* **Töycü töx′məx′** (Bərdə) – məsləhət vermək, məsləhətləşmək, tədbir görmək. – *Qolxozçular töycü töx′dülər, kəndə su gətirdilər.*

**TÖYRƏ** (Qazax) – beli yastı təpə.

**TÖZƏRƏX′LƏNMƏX′** (Qarakilsə) – qoyub qaçmaq, götürülmək. – *Məni görən kimi tözərəx′ləndi.*

**TU:A** (Borçalı, Hamamlı, Qazax, Tovuz) – kiçik qazan. – *Tuyyu ojağa as* (Hamamlı); – *Bizim ikijə tu:amız var* (Tovuz).

**TUBULQU** (Cəbrayıl) – 1. qırmızımtıl qabığı olan yabanı ağac növü; 2. tubulqudan düzəldilmiş əlağacı, çubuq, çomaq. – *Tubulqu adamı çox pis ağrıdır.*

**TUBURĞI** (Kürdəmir) – b a x **tubulqu.**

**TUBURĞİ** (Şamaxı) – b a x **tubulqu.** – *Mənim əsam tuburğidandı.*

**TUC** (Ağbaba, Qax, Oğuz) – b a x **tuj.** – *Al o tucu, tök xörəyi, vər* (Oğuz).

**TUFULQU** (Qarakilsə) – gəlmə (adam). – *Tufluqu gəlmə adama de:rix′.*

**TUĞ** I (Ağsu, İmişli, Şuşa, Zərdab) – bayraq. – *Qoşın gəldi ölkəsinə qabağında tuğ* (İmişli); – *Meydana hər dəsdə öz tuğuynan gəlmişdi* (Şuşa).

**TUĞ** II (Ağcabədi, Yevlax) – dik, hündür. – *Tuğ dağa çıxmağ olmaz* (Ağcabədi).

**TUĞ** III (Ağdam, Ağdaş, Bərdə, Gəncə, Xanlar, Qax, Mingəçevir, Oğuz, Şəki, Şuşa, Ucar, Zaqatala) – narın süpürgə. – *Büyün üç tuğ bağlamışam* (Ağdam); – *Tuğ yumuşaxdı, tozu süpürür* (Oğuz); – *Anam evi tuğnan süpürdü* (Gəncə); – *Kənddən bizə tuğ göndəriblər* (Ucar); – *Tuğnan öyün küşdərinnən toz tökəllər* (Xanlar); – *Bizdər öyi tuğnan süpürürux* (Şəki).

**TUĞALLAMAX** (Ağdam) – böyümək, qol-budaq atmaq (ağaca aid). – *Ağaş yaxşı tuğallıyıf.*

**TUĞAY** I (Yevlax) – hündür, uzun. – *Kür qıra:ında tuğay yulğun çoxdu.*

**TUĞAY** II (Kürdəmir, Salyan) – b a x **toğay.**

**TUĞOY** I (Daşkəsən, Gədəbəy) – b a x **tuğay** I. – *Bu ağaş tuğoydu o birisinnən* (Daşkəsən); – *Bu onnan tuğoy döğmü dınnınjıx?* (Daşkəsən).

**TUĞOY** II (Daşkəsən) – düz və hündür ağac. – *Düz ağaca tuğoy de′irix′;* – *Tuğoy ağaş öydən ötəri oloy.*

**TUĞOY** III (Gədəbəy) – əlağacı, əsa. – *A:ğül, tuğoyu ma: gətirqinən çardaxdan.*

**TUĞRUL** (Şuşa) – quş adı. – *Bi:l tuğrul çox gəlmişdi.*

**TUĞULCA** (Bərdə) – narın süpürgə. – *Tuğulca qamış başınnan olur.*

**TUX** (Daşkəsən) – mürgü, yuxu. ◊ **Tux tutmax** (Daşkəsən) – mürgüləmək, yuxu tutmaq. – *Məni tux tutdu.*

**TUXMƏMƏ** (Meğri) – tamahsız, gözütox. – *Babaşuğli Rahman tuxməmə igit bir uğlan idi.*

**TUJ** (Ağdam, Ağcabədi, Bərdə, Şuşa) – şirəli, emallı. – *Tuj çaydanı bəri ver* (Ağcabədi); – *Tuj çaydan yaxşıdı çay qaynatmağa* (Bərdə).

**TUQQAZ** (Quba) – b a x **doqqaz.** – *Tuqqazımızı kəl sındırdı.*

**TUQQUY** (Qax) – quş adı.

**TUL** I (Sabirabad) – qum.

**TUL** II (Sabirabad) – bataqlıq.

**TULAMAZ** (Şəmkir) – b a x **tolamazda.**

**TULAMAZDI** (Gədəbəy, Qazax) – b a x **tolamazda.** – *Tulamazdı əlimnən açılan, xoruz parpılef ordaja qaldı* (Gədəbəy).

**TULAMAZDILAMAX** (Basarkeçər) – atmaq, tullamaq. – *Salveyi götürüf, tulamazdadı uşa:n dalıncax* (Basarkeçər).

**TULANBAR** (Ordubad, Şuşa) – hamamın ocaqxanası. – *Qulu tulanbarı yandırmır* (Ordubad); – *Odunu yığın tulanbarın qaba:na* (Şuşa).

**TULANBARÇI** (Naxçıvan, Ordubad, Şuşa) – hamamın ocaqçısı. – *Tulanbarçı gəlməmişdi* (Ordubad); – *A bala, ged o tulanbarçını ça:r gəlsin* (Şuşa).

**TULANBARÇILIX** (Şuşa) – ocaqçılıq (hamamda). – *Məhi indi də tulanbarçılıx eli:r.*

**TULATUTAN** (Ağdam, Gəncə, Qazax, Tovuz) – yabanı ot adı. – *Tulatutan adamın*

*paltarına, qoyunun yununa ilişdimi, qopan döyü, çətin təmizdənir* (Ağdam); – *Paltarıma tulatutan ilişif* (Qazax); – *Tulatutanın əlinnən adam da can qutara bilmir* (Gəncə); – *Paltarınnan tulatutanı təmizdə* (Tovuz).

**TULAZDAMAX** (Kürdəmir, Qarakilsə) – b a x **tolazdamax.** – *Hamısını tulazdadı, nəyə lazım?*

**TULAZDIRMA** (Basarkeçər, Ordubad) – səlbə. – *Tulazdırma bərk ağaşdan olar.*

**TULLAMNAC** (İmişli) – arxın dar, tullanmaq mümkün olan yeri.

**TULUCA** (Çənbərək) – taxılın içində bitən alaq otu adı.

**TULUN** (Şuşa) – gicgah. – *Daş Həsənin tulununa dəydi.*

**TULUNQ** (Qax) – üskük.

**TUM** (Qax) – b a x **tim.**

**TUMAL** (Quba) – cəm, məcmu. – *Aydabalanun dukanundakı şeylərün tumali dürt min manat ilədü.*

**TUMANAGİRƏN** (Gəncə, Ordubad, Şuşa) – bayram şənliklərində atılan fişəngin bir növü. – *Tumanagirən atmışam, düz getdi Səltənətin civinə girdi* (Gəncə); – *Uşaxlar bayramda çoxlu tumanagirən almışdılar* (Ordubad); – *Qabaxlarda No:uruz bayramında tumanagirən alardıx, yandırıf buraxırdıx, belə burula-burula gedirdi* (Şuşa).

**TUMAR** (Şuşa) – yazılıb lülələnmiş kağız və ya dəri. – *Ceyran dərisinnən yazılmış bir tumar gördüm.*

**TUMBUR: TUMBUR OLMAĞ** (Bakı) – yoxa çıxmaq, qurtarmaq, tükənmək. – *Bir gileydi, u da tumbur olub getdi.*

**TUMCAR** (Lənkəran) – çəltik şitili. – *Əli tumcarı daşıyır.*

**TUMCARBAN** (Lənkəran) – çəltik şitili əkilən sahənin qarovulçusu. – *Tumcarban gərəy ayığ ola.*

**TUMCARLIĞ** (Lənkəran) – çəltik şitili əkilən sahə, lək. – *Bu yer tumcarrığ üçün yaxşıdı.*

**TUMIĞ** (Salyan) – zökəm.

**TUMLİ** (Quba) – qurudulmuş tumlu ərik. – *Tumlimiz yoxdu.*

**TUMOSALIM** (Sabirabad) – zökəm.

**TUMRU** (Salyan) – doğru, düzgün. – *Bı sözü sənə tumru di:rəm;* – *Ələfsər tumru danışır.*

**TUMRUZ** (Quba) – cır gilas. – *Tumruz acıdu.*

**TUMSUS** (Quba) – atası və ya anası başqa millətdən olan. – *Bizim kəndin bəizi adamlari tumsusdu.*

**TUMTA** (Bakı) – kobud.

**TUMTAX** (Bakı) – b a x **tumta.**

**TUN** (Quba) – dəyirmanda buğda tökülən yer, teknə. – *Dəgirmanın tunində ancağ un kilo qədər buğda qalıbdu.*

**TUNQAL** (Quba) – girəvə, fürsət. – *Tunqalə düşəndə üz işini görərdi.*

**TUNQALMƏLİK** (Zaqatala) – uşaq oyunu adı. – *Bacım tunqalməlik oynuyur.*

**TUNŞİ** (Lerik) – bozbaş.

**TUPAĞ** (Quba) – b a x **tumal.** – *Əhmədin pulları elə mənim pullarım tupağ un manatdu.*

**TUPARAN** (Şahbuz) – arı səbətinin arxa tərəfinə qoyulan taxta. – *Tuparan aralıxdadı.*

**TUPCU** (Borçalı, Çənbərək, Qazax, Şəmkir, Tovuz) – cavan və kök qaramal. – *Tupcu cöngənin əti qoynunkunnan da yaxşıdı* (Qazax); – *Bu düyə tupcudu, əti yeməli olar* (Çənbərək); – *Mənim bir tupcu düyəm var* (Tovuz); – *Qolxozun malları arasında əlli-altmış tupcu cöngə var.* ◊ **Tupcu olmax** (Qazax) – biabır olmaq. – *Ölkə içində tupcu oldux.*

**TUPOY** (Gədəbəy) – uzun. – *Ağacın tupoy tayını verginən maŋa.*

**TUPUZ** (Quba) – balaca və kök (uşaq).

**TUPULQU** (Ordubad) – b a x **tuvulğu.**

**TUPULU** (Şəmkir) – küləkli (hava). – *Bir tupulu havada gəldix'.*

**TUPPURCA** (Bakı) – kök, dolu, ətli.

**TUR** I (Zaqatala) – sızaq. – *Məhəmmədin üzü tur səpib.*

**TUR** II (Zaqatala) – ağacın gövdəsində əmələ gələn şiş, fır. – *Ağacdakı turu kəs.*

**TURAC** (Ordubad) – yemişin bir növü. – *Həsən bir turac aldı.*

**TURACİ** (Kürdəmir) – b a x **turac.** – *Turaci yumru olur, ama daddı olur.*

**TURADÖYDİ** (Göyçay) – dirədöymə, uşaq oyunu adı. – *Əhmədin turadöydi oynıyanda barmağı sındı.*

**TURAŞ** (Qazax, Mingəçevir) – b a x **turac.** – *Turaş yemişdi* (Qazax); – *Turaş yaxşı ye-*

*məli yemişdi* (Mingəçevir). ◊ **Turaş çiçəyi** (Hamamlı) – ağ çiçəkli yabanı bitki adı. – *Turaş çiçəyi ağ çiçəxli olur, heş nə: yaramır, dağlarda pitir.*

**TURATAX** (Ağdaş, Cəbrayıl, Ucar, Zərdab) – xırda odun qırıntıları. – *Turatağı təndirdə yandırırıx* (Cəbrayıl).

**TURATAN** (Ordubad) – b a x **toratan.** – *Baxçada turatan tur atıb.*

**TURĞU** (Şuşa) – quş adı, çobanaldadan. – *Bir turğu tutdum.*

**TURLİ** (Quba) – qadın baş örtüyü. – *Bacımın iki turlisi var.*

**TURMANC** (Zəngilan) – ağacdan meyvə qoparmaq üçün ucu haça uzun ağac və ya qarğı.

**TURNA** (Bakı) – turna-turna oyunu zamanı oyun iştirakçılarının biri-birini vurması üçün burulub hazırlanmış qurşaq və ya yaylıq.

**TURNAVİDƏ** (Şuşa) – mismarın ucunu qatlamaq üçün alət. – *Dəmirçidən bir turnavidə aldım.*

**TURNA-TURNA** (Sabirabad) – uşaq oyunu adı. – *Uşaxlar, gəlin turna-turna oynıyax.*

**TURNAVURDU** (Ucar) – uşaq oyunu adı. – *Turnavurduda yə altı, yə səkkiz, yə on, yə oniki uşaq oynuyur.*

**TURNU** (Şuşa) – ağac əşyaların səthini hamarlamaq üçün yonucu alət. – *Bu hasanı turnuynan yonajam.*

**TURPƏX′** (Ağdam, Gəncə, Qazax, Şuşa) – yabanı bitki adı. – *Taxılı turpəx′ basıf* (Qazax); – *Turpəx′o qədər qorxulu olan alax döylü* (Gəncə); – *Çox pitir turpəx′ taxılın-zadın arasında* (Şuşa).

**TURŞAX** (Naxçıvan) – b a x **turşalax.** – *Bir qara tut var turşax olur;* – *Bı tutun özü hayla turşaxdı.*

**TURŞALAX** (Borçalı, Qazax) – turş təhər. – *Alça turşalax olor* (Borçalı).

**TURŞƏ** (Ordubad) – nar. – *Turşə yeməli meyvədi.*

**TURŞƏPBƏGİ** (Kürdəmir) – b a x **turşəpbəyi.**

**TURŞƏPBƏYİ** (Kürdəmir) – göyərti və alçadan hazırlanan xörək adı. – *Muharıba illəri ən çox yedigümüz turşəpbəyi idi.*

**TURŞİ** (Göyçay) – göy lobyadan hazırlanan xörək adı. – *Xalam turşi bişirib.*

**TURŞİDUĞAN** (Dərbənd, Tabasaran) – avqust ayı. – *Turşiduğan ovğustda uladi* (Dərbənd). ◊ **Turşi doğmağ // Turşi duğmağ** – yayın 45-ci günü olmaq. – *Turşi duğadu payızda, o:ğus ayində, u vaxt qarpuz dəyədü, yemiş dəyədü <yetişir>* (Dərbənd).

**TURŞİNİY** (Ordubad) – quzuqulağı. – *Qardaşım dağdan çoxlu turşiniy yığmışdı.*

**TURŞİYARPAĞI** (Quba) – quzuqulağı. – *Gidax turşiyarpağı gətirağ.*

**TURŞPALAN** (Əli Bayramlı, Kürdəmir) – b a x **duşbalan.**

**TURŞU** (Cəbrayıl) – şoraba, duza və ya sirkəyə qoyulmuş kələm, pomidor, xiyar.

**TURŞULU** (Ordubad) – dağlarda bitən yabanı, turş bitki adı. ◊ **Turşulu burcah** (Zaqatala) – xəmir, yumurta və turşudan hazırlanan xörək adı. – *Anam mənə turşulu burcah bişirib.*

**TURŞULUX** (Şəki) – lobya, yağ və soğandan hazırlanan xörək adı.

**TURŞUNNİ** (Ordubad) – b a x **turşiniy.** – *Vəli bizə turşinni gətirmişdi;* – *Biz turşunni dərdük.*

**TURTUT** (Şuşa) – itaət.

**TURUĞ** (Zaqatala) – sürü, dəstə. – *Bir turuğ maral keçdi.*

**TURUX** (Zaqatala) – b a x **turuğ.** – *Orda bir turux mal var.*

**TURUQQAY** (Qax) – pendirin bir növü. – *Dağdan mağa turuqqay getirmişdilər.*

**TURUN I** (Şuşa) – ikiyaşar dəvə balası. – *Dəvələrimizin içində beş turun var.*

**TURUN II** (Şuşa) – nəsil. – *Bu kətdəkilər hamısı Abbas kişinin turunudu.*

**TUŞ I** (Borçalı, Gədəbəy, İmişli, Qazax, Tovuz) – yuxu, röya. – *Tuşun düzdüyü yozmağındadı* (Qazax); – *Be:yjə bir tuş gördüm, əmimi gördüm* (İmişli).

**TUŞ II** (Bərdə, Gədəbəy) – qarşı, qabaq. – *Bizim öyümüz məhdəvin tuşundadı* (Bərdə); – *Öyümüzün tuşunda bir alma ağajı var* (Gədəbəy).

**TUŞ III** (Qazax) – Gürcüstan (ölkə). – *Bu atı Tuşdan almışıx.*

**TUŞ** IV (Salyan) – işıq. – *Ay oğul, qoca kişiyəm, day gözümün tuşı qalmıyıb.*

**TUŞAĞ** (İmişli) – çidar. – *A:z, atın tuşağın hara qoyubsan?*

**TUŞAX** (Ağcabədi, Ağdam, Ağdərə, Bərdə, Cəbrayıl, Xocalı, Kürdəmir, Mingəçevir, Şamaxı) – b a x **tuşağ.** – *Qəzildən yaxşı tuşağ olar* (Ağdam); – *Tuşax qoymur atı qaça* (Ağdərə); – *Tuşax gəti, atı tuşaxla* (Şamaxı). ◊ **Tuşax vurmax** (Bərdə) – çidarlamaq. – *Atın əyağına tuşax vur ki, uzax getməsin.*

**TUŞAXLAMAĞ** (Kürdəmir, Şamaxı) – çidarlamaq. – *Atı tuşaxla* (Kürdəmir); – *Atı göy çəməndə tuşaxla* (Şamaxı).

**TUŞALTMAX** (Şəki) – nişan almaq, tuşlamaq. – *Mən tüfəngi quşa tuşaldanda quş qaşdı.*

**TUŞAMAĞ** (İmişli, Salyan) – çidarlamaq. – *Atı apar tuşa, bir az otdasın* (İmişli).

**TUŞBALA** (Qəbələ) – b a x **duşbalan.** – *Əmim tuşbaladakı arpanı təmizləyib atın qabağına töydü.*

**TUŞBALAN** (Gədəbəy, Gəncə, Goranboy, Xanlar, Mingəçevir, Şəmkir) – b a x **duşbalan.** – *Leyla, tuşbalanı maŋa gəti aşı süzüm* (Gəncə); – *Tuşbalan hardasaə:ti, xamır oldu düyü* (Gədəbəy); – *Düyüyü tuşbalannan süzeylər* (Xanlar); – *Aşı, xəngəli tuşbalannan süzəllər* (Şəmkir).

**TUŞBALI** (Balakən, Zaqatala) – albalı. – *Tuşbalımız boldu, mürəbə bişirə bilərik* (Balakən); – *Anam tuşbalıdan mürəbbə bişirdi* (Zaqatala).

**TUŞQUL** I (Gəncə) – sərrast, düz. – *O, yaman tuşqul atır.*

**TUŞQUL** II (Başkeçid, Qazax) – hədəf, nişan. – *Gəlin bu daşı tuşqul qoyax, görəx′ yalameynan kim vura biləjəx′.*

**TUSQULLAMAX** (Başkeçid, Borçalı, Gəncə, Qazax) – tuşlamaq, nişan almaq. – *Əli yaxşı tuşqullamax bilir* (Başkeçid); – *Tuşqulladım, tuşqulladım tüəg açılanda tülkü yıxıldı* (Qazax); – *Sən tuşqullamax bilmirsəŋ* (Gəncə).

**TUŞPALAN** (Xanlar) – b a x **duşbalan.** – *Tuşpalannan pilov süzöylər.*

**TUŞUTMAX** (Bərdə, Cəbrayıl, Gəncə, Qarakilsə, Tərtər, Zəngilan) – göstərmək, istiqamət vermək. – *Qəzənfəri tuşutdum, getdi Bayandura* (Bərdə); – *Mə: tuşutma, apar nənəsi:n yanına* (Zəngilan); – *Navələd adam vardı, onu tuşutdum* (Tərtər); – *Səni kim tuşutdu bura* (Kürdəmir); – *Apar tuşut onu* (Qarakilsə).

**TUTAC** (Cənubi Azərbaycan) – xışın dəstəyi. – *Heşin tutacı sındı.*

**TUTACAĞ** I (Kürdəmir) – b a x **tutalğac** II. – *Tək yetimdi, bir tutacağı yoxdı.*

**TUTACAĞ** II (Cəbrayıl, Göyçay, Quba, Zəngəzur) – b a x **tutağac** I. – *Ucağdakı sütü tutacağla gütür* (Quba); – *Nənəm qazan götürəndə tutacağı yandırdı* (Zəngəzur); – *Nənəm tutacağla qazanı ocaxdan düşürdü* (Göyçay); – *Tutacağı ma: verin, süd daşdı* (Cəbrayıl).

**TUTAÇIXAR** (Quba) – ocaqdan isti qazan və s. şeyləri götürmək üçün xüsusi dəsmal. – *Fatimə tutaçıxarnan qazanı ucağdan çıxartdı;* – *Tutaçıxarnan tutub ucaxdan cəmi götür.*

**TUTAĞAC** I (Bakı, Basarkeçər, Borçalı, Daşkəsən, Göyçay, Qazax, Mingəçevir, Tərtər) – ocaqdan isti qab və s. götürmək üçün xüsusi dəsmal, tutqac. – *Tutağacnan isdi qazanı götürüllər ojaxdan* (Borçalı); – *Tutağacı ver, qazanı götürüm* (Basarkeçər).

**TUTAĞAC** II (Hamamlı) – iki vedrəni birdən götürmək üçün çiyin ağacı. – *Bajım tutağacı götürüf bula: getdi suyətirmə:.*

**TUTAĞAŞ** (Daşkəsən, Mingəçevir) – b a x **tutağac** I. – *Ojaxdan qazanı, baydeyi tutağaşnan götröylər.*

**TUTALĞA** I (Ağcabədi, Bərdə, Şuşa, Tərtər) – əsas, dəlil, sənəd. – *Zəhranın əlində tutalğası var, işə çıxmır* (Bərdə); – *Yunus kişi, sənin əlində bir tutalğa varmı bu sözü maŋa deyirsən* (Ağcabədi).

**TUTALĞA** II (Meğri) – nişanlı. – *Qız irilənip, ama tutalğası yoxdu.*

**TUTALĞAC** I (Qazax) – b a x **tutağac** I.

**TUTALĞAC** II (Qazax) – *məc.* kömək, arxa; qohum.

**TUTALQAŞ** (Şəmkir) – b a x **tutalğac** I. – *Qazanı ojaxdan tüşürəndə tutalqaşnan tüşür kün, əlin yammasın.*

**TUTAMAX** (Şuşa) – məslək. – *O adamın tutamağı yoxdu.*

**TUTAMAXSIZ** (Şuşa) – məsləksiz. – *Həsən tutamaxsız adamdı.*

**TUTAMBUYNUZ** (Ağcabədi) – gödəkbuynuzlu, qısabuynuzlu. – *Tutambuynuz öküz işdəx′ olar, həm də qəşəng olar.*

**TUTAMLAMAX** (Şuşa) – əl tutumu ilə ölçmək. – *Bu Hasanın boyu tutamlama:nan bilinər.*

**TUTAŞ** (Tovuz) – güləş. ◊ **Tutaş basmax** (Tovuz) – yıxmaq, məğlub etmək. – *Bizim uşaxları tutaş basmax olmaz.*

**TUTAŞDIRMAX** (Ağdam, Bərdə, Şuşa) – 1. güləşdirmək. – *Uşaxları tutaşdırdıx, Məmişin oğlu səninkini yıxdı* (Ağdam); 2. dalaşdırmaq, vuruşdurmaq, döyüşdürmək. – *Qabaxlar qoş tutaşdırardılar* (Bərdə); – *Uşaxları tutaşdırmaxdan ləzət alırsaŋ, də:sən* (Şuşa).

**TUTAŞIX** (Şuşa) – 1. sıx; 2. yanaşı, qoşa; 3. biri-birinə bağlı, əlaqədar.

**TUTAŞMAX** I (Mingəçevir) – 1. güləşmək; 2. dalaşmaq.

**TUTAŞMAX** II (Ağdam, Şuşa) – yanmaq, alovlanmaq. – *Ojax indijə tutaşır* (Ağdam).

**TUTBİT** (Ağdam) – şanapipik. – *Tutbitin başında darağ olur.*

**TUTĞUY** (Cəbrayıl) – qısqanc. – *Ərim mənim yaman tutğuydı.*

**TUTQAL** I (Borçalı, Gəncə, Şuşa) – yapışqan. – *Tutqal ağajı ağaja yapışdırır* (Borçalı); – *Balıx tutqalı şeyləri yapışdırır* (Şuşa).

**TUTQAL** II (Naxçıvan, Şərur, Tovuz) – b a x **tutağac** I. – *Tutqal olmasa, qazan əlimi yandırar* (Naxçıvan).

**TUTQALLAMAX** (Şuşa) – yapışdırmaq. – *Bu kasanı tutqallama:nan bitişdirməx′ olmaz.*

**TUTQALLI** (Şuşa) – 1. yapışqanlı; 2. yapışdırılmış. – *Tutqallı küzə su saxlamaz.*

**TUTMA** I (Göyçay, Kürdəmir, Mingəçevir, Ucar, Yevlax) – şoraba, duza və ya sirkəyə qoyulmuş xiyar, kələm, badımcan və s. – *Çox ləzətdi tutmadı, yeməynən doymax olmur* (Yevlax); – *Aşnan tutma çox ləzzətdi olur* (Ucar). ◊ **Tutma qoymax** (Yevlax) – şoraba qoymax. – *Bi:l çox qəşəng tutma qoymuşam.* **Tutma tutmax** (Kürdəmir, Ucar) – şoraba qoymaq. – *Badımcan tutmasını kürdəmirrilər kimi tutma tutan tappazsan* (Kürdəmir).

**TUTMA** II (Ağdam, Ağdaş, Meğri, Şəki, Şuşa) – xəstəlik adı. – *Aydının tutması var, tutanda yazıx özün bilmir* (Ağdam); – *Əhməd tutma olub* (Ağdaş); – *Tutması var Mavıt dayinin* (Şəki). ◊ **Tutması durmax** (Şuşa) – ürəkkeçməsi tutmaq. – *Genə Ürbabənin tutması duruf.* **Tutması tutmax** (Meğri) – ürəyi keçmək. – *Tutması tutanda özün bilmir o.*

**TUTMA** III (Şuşa) – 1. inad; 2. acıq. – *Tutmaŋı qoy yerə insafınnan danış.* ◊ **Tutması tutmax** (Şuşa) – 1. inad etmək; 2. acığı tutmaq. – *Həsənin tutması tutuf;* – *Onun tutması tutuf, onnan danışma:n xeyri yoxdu.*

**TUTMA** IV (Laçın) – seçmə, yaxşı. – *Bir tutma qoyun qoyunnarın içinnən tutum, neçə verim?* (Laçın).

**TUTMA** V (Borçalı, Gəncə, Qazax, Ordubad, Şərur, İrəvan) – 1. qovunun bir növü. – *Tutma gej yetişəndi* (Borçalı); – *Tutma şirin olur* (Qazax); – *Axjam gələndə tutma yemiş al* (Gəncə); – *Tutma qovun çox şirin olur* (Ordubad); 2. qışa saxlanılmış qovun.

**TUTMAC** (Ağcabədi, Göyçay, İmişli, Quba, Oğuz, Şamaxı, Ucar) – xörək adı. – *Tutmac qatıxnan ye:ilir, işdah açır* (Ağcabədi); – *Tutmacı günorta, ya axşam yiyəllər* (Oğuz); – *Anam tutmac bişirmişdi* (Quba); – *Mamam yaxşı tutmac bişirmişdi* (İmişli); – *Tutmac so:uxlu havada qarınqızdıran olur* (Ucar).

**TUTMAŞ** (Ağdam, Basarkeçər, Mingəçevir, Şuşa) – b a x **tutmac.** – *Dünən də tutmaş yemişəm, bü:n də* (Ağdam); – *Yoldaşımgilə getmişdim, ollarda tutmaş yedim, çox xoşuma gəldi* (Basarkeçər).

**TUTMİŞ** (Dərbənd) – böyürtkən. – *Uşağlar tutmiş götürüb, kamput ələdüğ.*

**TUTU** (Şuşa) – girov. – *Bir xəli tutu verif pul aldı.*

**TUTUCU** (Şuşa) – çaxmaq daşı ilə od əldə etmək üçün xüsusi pambıq piltə. – *Bir az panbıx qaynadıf tutucu qayırdım.*

**TUTUXLUX** I (Şuşa) – xəstəlik, ağrı. – *Qol qılçımda tutuxlux var.*

**TUTUXLUX** II (Şuşa) – utancaqlıq. – *Uşaxda o qədər tutuxlux var ki, adam isdəmir dindirsin.*

**TUTULXARƏK** (Dərbənd) – yeməli, yabanı bitki adı. – *Baxçadə tutulxarək vardı, tikanların təmizlədüm yedim.*

**TUTULMUŞ** (İsmayıllı) – duza qoyulmuş. – *Bizdə bir yekə küp tutulmuş yelpənəy var.*

**TUTUM** I (Şuşa) – təhər. – *Bu tutumda adam görməmişəm.*

**TUTUM** II (Şuşa) – qurudulmuş gavalı, alça və s. – *Bir torba tutum gətirmişdilər.*

**TUTUMCUL** (Cəbrayıl) – qənaətcil.

**TUTUŞDURMAX** I (Şuşa) – alovlandırmaq. – *Odunnar ağır yanır, tutuşdurmax lazımdı.*

**TUTUŞDURMAX** II (Şuşa) – b a x **tutaşdırmaq** I. – *Onun işi adamnarı bir-biriynən tutuşdurmaxdı.*

**TUTUŞMAX** I (Kürdəmir, Şuşa) – b a x **tutaşmax** II. – *Ojax hələ yaxşı tutuşmuyuf* (Şuşa); – *Ocağa quru odun qoyanda tez tutuşur* (Kürdəmir).

**TUTUŞMAX** II (Başkeçid) – çürümək (süd haqqında). – *Südü baydıya qoymuşdum, durdum gördüm tutuşufdu.*

**TUV** (Xanlar) – meşədən odun, çırpı və s. gətirmək üçün ip. – *Tuv gətirseydix′ indi meşədə əziyət çəx′məzdix′.*

**TUVA** (Qax, Zaqatala) – kəsilmiş yoğun uzun ağac. – *Bu gün bir tuva gətirmişəm.*

**TUVULĞU** (İmişli, Qazax) – b a x **tubulqu.** – *Tuvulğuyu heyvana vurmax olmaz* (Qazax); – *Uşa:n tuvulğusun niyə sındırdın sən?*

**TUYLAMAX** (Qazax) – yüyürmək, qaçmaq. – *Tuyla, danamızı qaytar.*

**TÜB** (Zaqatala) – künc, bucaq. – *Əlinin barısının tübi təzədi;* – *Evin tübi uçub.*

**TÜ:ƏCƏX′LƏMƏX′** (Xocavənd) – gicəllənmək. – *Tü:əcəx′ləndim, yıxıldım.*

**TÜƏGÇİ** (Cəlilabad) – ovçu. – *Tüəgçilər qıreylər bı quşdarı.*

**TÜ:ƏX′Cİ** (Şəmkir) – b a x **tü:əğçi.** – *Mansır çox yaman tü:əx′çidi.*

**TÜ:ƏNGOTU** (Qazax) – dabaq xəstəliyini müalicə etmək üçün istifadə olunan yabanı dərman bitkisi adı.

**TÜ:ƏRƏX′** (Gəncə) – uşaq beşiyində döşəklə silvincin arasına qoyulan halqa şəkilli balınc. – *Silvincin üstünə tü:ərəx′ qoymuyanda döşəx′ çökəlir.*

**TÜX′ÇƏ** (Gəncə) – yumaq. – *Tüx′çələri böyüx′ tut.*

**TÜX′ÇƏLƏMƏX′** (Gəncə) – yumaqlamaq. – *İpi tüx′çələmək yaxşıdı.*

**TÜKANÇA** (Ucar) – qədim evlərdə qabqacaq yığmaq üçün kiçik rəf. – *Tükançıya boşqab qoyurux, ishan-ləlbəyi qoyurux.*

**TÜKƏN** (Balakən, Qax, Zaqatala) – b a x **tükança.**

**TÜKLİCƏ** (Şamaxı) – dərman bitkisi adı. – *Bının sancısını tüklicə sağaltdı.*

**TÜKLÜCAN** (Qax) – b a x **tüklicə.**

**TÜKSÜR** (Şamaxı) – həyasız, utanmaz. – *Yaman tüksür adamdı, bir kərə geri düşmür.*

**TÜKÜSDANNIX** (Culfa) – nadanlıq. – *Camahət getmirdi dərsə, tüküsdannıx eliyirdilər.*

**TÜLANBAR** (Naxçıvan, Şuşa) – b a x **tulanbar.** – *Əhmədin üzü-gözü elə qaralmışdı ki, elə bil tülanbardan çıxıb* (Naxçıvan); – *Ev laf tülanbar kimidi, qapını bir əz aç* (Şuşa).

**TÜLƏ** (Qazax) – kal yemiş.

**TÜLƏG** (Quba) – b a x **tüləy** II. – *Aslan çux tüləg adamdu.*

**TÜLƏX′** I (Gəncə, Şəmkir, Şuşa) – bic, hiyləgər. – *Qulu çox tüləx′di* (Gəncə); – *Murad yaman tüləx′di* (Şəmkir); – *Döylətdilər çox tüləx′ olur* (Şuşa).

**TÜLƏX′** II (Ağdam, Gəncə, Şəmkir, Şuşa) – zirək, diribaş. – *Çox tüləx′ uşaxdı bizim bu Məmişin oğlu* (Ağdam).

**TÜLƏMƏX′** (Ağdam, Cəbrayıl, Kəlbəcər, Mingəçevir, Şəki, Şəmkir, Zəngilan) – b a x **tüləməy.** – *Heyvan tükünü tülədi* (Kəlbəcər); – *Yaz fəslində heyvannar tükün tüləyər* (Zəngilan); – *İnəx′ tükünü tülüyür* (Şəmkir).

**TÜLƏMƏY** (Şamaxı) – tükünü dəyişdirmək, tükünü tökmək. – *Toyuğumuz tüləyənnən so:ra başqa rəy tüy gətirdi* (Şamaxı).

**TÜLƏN** (Şamaxı) – həyasız. – *Əhməd çox tülən adamdı.*

**TÜLƏNG** (Gədəbəy) – uc, zirvə, ən hündür yer. – *Ona bax, Əziz lap armıdın tüləngine çıxıf.*

**TÜLƏNGƏ** (Ağdaş) – həyasız. – *Sən nə tüləngə olmusan?*

**TÜLƏNGİ** (İmişli, Mingəçevir, Oğuz) – hiyləgər, bic. – *Rəcəp çox tüləngi adamdı* (Oğuz).

**TÜLƏNMAĞ** (Xaçmaz, Quba) – tükünü dəyişdirmək, tükünü tökmək.

**TÜLƏNMƏX′** (Ağdaş, Xanlar) – vurnuxmaq; özünü ora-bura vurmaq. – *Biyçara çox acdı, indi burda tülənirdi* (Ağdam); – *A:naba:na gəzey, ona de:llər kin, nə tüləneysiŋ, nə:zeysiŋ?* (Xanlar).

**TÜLƏNMƏY** (Şamaxı) – həyasızlıq etmək. – *Tülənməy həməşə sənün peşəndi.*

**TÜLƏY** I (Şamaxı) – tükü tökülmüş. – *Bu tüley it kimindi?*

**TÜLƏY** II (Xudat, Şamaxı) – hiyləgər, bic. – *Nəmət tüləy adamdı* (Şamaxı).

**TÜLİ** (Meğri) – hiyləgər, bic, fırıldaqçı. – *Firidun tülidi, hamma yaxşı xasiyəti də var.*

**TÜLİK** (Ağsu) – gödək, qısa. – *Görürsən elə to:ux var ki, quyruğu tülikdi.*

**TÜLKÜÇAXÇAĞI** (Basarkeçər) – uşaq oyunu adı. – *Gedəx′ tülküçaxçağı oynuyax.*

**TÜLKÜDURMAZDAN** (Ağdam, Qafan, Şuşa) – səhər tezdən, işıqlanmamışdan. – *Tülküdurmazdan gəlif kəsdirif qapının ağzını* (Ağdam); – *Mən həməşə tülküdurmazdan durub malı aparıram otarmağa* (Qafan); – *Tülküdurmazdan duruf gedif meşiyə* (Şuşa).

**TÜLKÜQUYRUĞU** I (Ağdam, Ağdaş, Ağcabədi, Tərtər, İrəvan) – üzüm növü. – *Tülküquyruğu ürüşübabadan balaca olur* (Ağdam); – *Tülküquyruğu yeməli üzümdü* (Ağdaş).

**TÜLKÜQUYRUĞU** II (Kürdəmir) – çəltik növü.

**TÜLKÜQUYRUĞU** III (Gəncə, Göyçay, Qazax, Şəmkir) – alaq otu adı. – *Bu darıda tülküquyruğu yoxdu* (Qazax); – *Bizim darıda tülküquyruğu yoxdu* (Göyçay); – *Mənim darım bi:l bütün tülküquyruğudu* (Şəmkir).

**TÜLKÜYOSUNNU** (Ağdam, Bərdə, Qazax, Şuşa) – tülküsifət, hiyləgər. – *Ə:, tülküyosunnu, nə vaxtajan bizi alladajaxsan?* (Ağdam). – *O, tülküyosunnu adamdı, əlinnən hər fırıldax gələr* (Qazax); – *Onun dədəsi də özü kimi tülküyosununun biridi* (Şuşa).

**TÜLLƏX′** (Gədəbəy) – b a x **tülləng.** – *Bu savax bağe:dəndə gördüm ağacın tülləyində bir quş oturuf.*

**TÜLLƏNG** (Gədəbəy) – ağacın başı, ağacın ən hündür yeri. – *Bax, ağacın tülləngində çıxma, yıxılarsaŋ ha!*

**TÜLÜ** I (Ağbaba, Çənbərək, Qarakilsə, Qax, Naxçıvan, Oğuz, Ordubad, Şəki, Şərur) – oğru. – *Oğru olufdu, ona görə tülü di:llər* (Oğuz); – *Kəndə tülü ha tökülmüyüf, niyeymənirsəŋ?* (Çənbərək); – *Həsən lap tülüdü* (Ordubad).

**TÜLÜ** II (Borçalı, İrəvan) – b a x **tüli.** – *Tülü adamın hörməti olmaz* (Borçalı).

**TÜLÜ** III (Borçalı) – ting, ağac şitili. – *Biz sovxozdan iku:z tülü aldıx.*

**TÜLÜ** IV (Qax, Oğuz, Şəki, Zaqatala) – qadın baş örtüsü, qadınların saçlarını içinə yığdığı torbaya bənzər örtük. – *Bacım tülü geyirdi* (Qax); – *Balakişi arvadın tülüsünü başına bağlayıf, adına de:flər tülü Balakişi* (Oğuz); – *Tülünü ağdan da tikirix′, çitdən də* (Şəki). ◊ **Tülüqabağı** (Şəki) – tülünün qabağına tikilən bəzək. – *Yarım arşin tülüqabağı aldım.*

**TÜLÜBAŞI** (Çənbərək) – oğrubaşı. – *Tülübaşı ha döysən sənnən qorxum.*

**TÜLÜNGİ** (Şamaxı) – hiyləgər. – *Abbas lap tülüngidi.*

**TÜLÜNGÜ** I (Gəncə, Qazax, Tovuz) – b a x **tülüngi.** – *O, tülüngünün biridi, nə desən başarar* (Qazax); – *Məhluqa kimi tülüngü hələ anasınnan olmuyuf* (Tovuz).

**TÜLÜNGÜ** II (Böyük Qarakilsə, Gəncə, Qazax) – oğru. – *Tülüngü – yanı kin oğru, yanı kin civkəsən* (Qazax); – *Tülüngü qoynu apardı;* – *O Sadığı buralara qoyma, tülüngünün biridi* (Gəncə); – *Tülüngünün biridi, onnan gəzmə* (Goranboy).

**TÜLÜNMƏX′** (Qazax) – sırtılmaq.

**TÜLÜNTÜ** (Gədəbəy) – b a x **tülüngü** II.

**TÜMBÜL** I (İmişli) – qısaboylu.

**TÜMBÜL** II (Şamaxı) – tükü tökülmüş (quş haqqında). – *Bizim ağ töyuğumuz tümbüldü.*

**TÜMBÜLLƏŞMƏY** (Şamaxı) – tədriclə tükü tökülmək (quş haqqında). – *Bizim toyuğ tümbülləşir.*

**TÜMƏ** (Qax) – saplaq, meyvənin saplağı. – *Əhmədin əlindəki almada tümə yoxdu.*

**TÜMƏL** (Kürdəmir) – qısabuynuzlu (inək). – *Bu tüməl inəğ çox vırağandu.*

**TÜMİĞ** (Ağsu) – gödəkquyruqlu (toyuq). – *Görürsən elə to:ux var ki, tümiğdi.*

**TÜMMƏX′** (Qazax) – gəzib dolanmaq. – *Biz bir qədər oralarda tümdüx′.*

**TÜMTÜXʹ** I (Göyçay, Kürdəmir, Mingəçevir, Ucar) – gödək, qısaboylu. – *Tümtüxʹ adam bij olar* (Ucar).

**TÜMTÜXʹ** II (Kürdəmir) – papiros kötüyü, çəkildikdən sonra papirosun atılan qalığı. – *Sa:bsız uşax heylə tümtüxʹ sümürər.*

**TÜMTÜXʹ** III (Mingəçevir) – işlənib gödəlmiş süpürgə.

**TÜN** I (Qax) – səkkiz litrlik neft qabı. – *Tündə nəvit saxlıyırıx.*

**TÜN** II (Gəncə) – hər iki tərəfində müxtəlif dükanlar olan üstüörtülü pasaj. – *Gəncədəki tünnəri uçuruf küçə açıflar; – Başmaxçı Əli kişi tündə olur.*

**TÜNC** (Cəbrayıl) – ətin yağsız, qaratikə hissəsi. – *Cöngə kəsmişdilər, mən də aldım tüncünnən.*

**TÜNCAR: TÜNCAR ELƏMƏXʹ** (Ağdam) – biabır etmək, utandırmaq. – *Boynun sınsın, a belo:ğul, gör bizi el içində nətə:r tüncar elədi; – Sən öl, səni el içində tüncar eliyərəm.*

**TÜNCİ** (Meğri) – ərə getmə vaxtı çatmış qız.

**TÜNCÜ** I (Goranboy, Şuşa, Zəngilan) – cavan qaramal, cöngə. – *Tüncü ətinnən yaxşı kabab olur* (Zəngilan); – *Həsən kişi oğlunun toyu üçün bir tüncü saxlıyır* (Goranboy); – *Arvat, mal əti almışam, özü də tüncüdü* (Şuşa).

**TÜNCÜ** II (Meğri) – b a x **tünci.** – *Üş tüncü qızı vardı xanın.*

**TÜNƏG** (Xudat) – zəif, arıq (heyvan).

**TÜNƏKƏ** I (Çənbərək, Qazax, Mingəçevir, Ucar) – 1. avam. 2. anlamaz. – *Bizdə indi tünəkə adam tapılmaz* (Qazax); – *Tünəkə adama iş tapşırmazlar* (Ucar).

**TÜNƏKƏ** II (Hamamlı) – yabanı ağac növü. – *Tünəkədən bel sapı, dırmıx sapı düzəldirik.*

**TÜNƏKƏ** III (Qazax) – yaddaşsız. – *Sən nə tünəkəsən?*

**TÜNƏKİ** I (Borçalı) – b a x **tünəkə** I. – *Tünəki adam danışığını bilməz.*

**TÜNƏKİ** II (Qarakilsə) – nazik. – *Əynində bir tünəki pancəyi var.*

**TÜNG** I (Hamamlı, Qarakilsə, Şuşa) – saxsı su borusu. – *Tüngün üstü açılıp, tay su isinmir* (Qarakilsə); – *Xan qızının suyu tüngünən gəlir şəhərə* (Şuşa).

**TÜNG** II (İrəvan) – suqabı, qrafin. – *Tüngü suynan doldur.*

**TÜNGƏ** I (Şərur) – b a x **tün** I.

**TÜNGƏ** II (Kürdəmir) – qısaboylu.

**TÜNGİ** (Kürdəmir, Quba) – cavan. – *Mən qucalmışam, süzün hindi tüngi vaxduzdu.*

**TÜNGÜRRƏMƏXʹ** (Şəmkir) – pis vəziyyətə düşmək. – *Sən yaman tüngürrüyüfsən, gedəxʹ toğlunu satax, sana paltar alax.*

**TÜNİG** (Bakı) – b a x **tünəki** II. – *Xəmiri tünig yay; – So:uğdan qorxmırsan, belə tünig geyinmisən?*

**TÜNİK** (Bakı) – b a x **tünəki.**

**TÜ:NMƏXʹ** (Barana) – vurnuxmaq. – *Yaralı canavar tü:nürdü, soxulmağa yer axtarırdı.*

**TÜNNƏMƏXʹ** (Qarakilsə) – b a x **tüləməy.** – *Tülkü tükün tünnüyür.*

**TÜNÜ** I (Qazax) – b a x **tüng** I. – *Bu dəreyi qazanda su tünüsü tapıblar.*

**TÜNÜ** II (Borçalı, Çənbərək, Goranboy, Qazax) – boran, tufan. – *Tünü olanda adam eşiyə çıxmağ istəmer* (Borçalı); – *Tünü başdıyıf* (Goranboy); – *Yel qalxanda tünüdən eşiyə çıxmağ olmur* (Çənbərək).

**TÜNÜXʹLÜ** (Gədəbəy) – hiyləgər.

**TÜNÜKƏ** I (Ağdam, Şəki) – yoxsul, kasıb. – *Bəkir çox tünükədi* (Ağdam).

**TÜNÜKƏ** II (Şəki) – nəzəri cəlb etməyən, babat. – *Qırmızısaqqal tünükə kişiydi Nəsif dayı; – Bi tünükə atım var, ho olmasa naçarraram.*

**TÜRƏ** I (Çənbərək, Zaqatala) – 1. çətinlik; 2. təhlükə. – *Çox türələrdən çıxdım qutardım* (Zaqatala); – *Şəmkir yamanca ötüşdü türədən bü:ynnəri* (Çənbərək).

**TÜRƏ** II (Şahbuz) – buğda ölçmək üçün səkkiz kiloqram tutan ölçü qabı. – *Türə səkkiz kiloluq boğda ölçənə deyərux.*

**TÜRƏ** III (Şəki) – içərisində taxıl saxlamaq üçün ağac kötüyündən və ya taxtadan düzəldilmiş qab. – *Türənin içi buğdeynən doludu.*

**TÜRƏMƏ** (Göyçay) – qısaboylu.

**TÜRƏTƏN** (Şəmkir) – həddindən çox isti.

**TÜRƏZ** (Quba) – xış. – *Keşmişdə yeri türəznən əkərdüğ, hindi kutannan əkərüğ.*

**TÜRƏZLƏMEĞ** (Quba) – xışla şumlamaq. – *Gidüb yerimizi türəzliyeğ.*

**TÜRX′MAN** I (Qax, Oğuz, Yevlax) – həyasız.

**TÜRX′MAN** II (Qax, Oğuz, Yevlax) – qaraçı.

**TÜRKİMUN** (Quba) – qövsi-qüzeh. – *Havada türkimun var.*

**TÜRMƏNDİX′** (Qax) – çalma.

**TÜRYAN** I (Bərdə, Mingəçevir) – 1. günün ən isti vaxtı; 2. yayın ən isti günləri. – *Bu türyanda işdəməy olmaz* (Bərdə).

**TÜRYAN** II (Qazax) – çayın sürətlə axan yeri. – *Türyannan keçməx′ çətindi.*

**TÜRYƏN** (Tovuz) – b a x **türyan.** – *Bu türyəndə getmə, gözdə sərin tüşsün.*

**TÜŞƏR** (Zəngibasar) – maaş, əməkhaqqı. – *Mə:m tüşərimi ver, mən gedim.*

**TÜTDƏMMƏĞ** (Salyan) – hirslənmək, əsəbiləşmək. – *Əlikram elə ki tütdənir, başdıyır ağır sözzər deməyə.*

**TÜTMƏLƏMƏĞ** (Salyan) – şiddətlə yağmaq, şiddətlənmək. – *Keçən həfdə qar yamanca tütməli:rdi.*

**TÜTÜZDÜRMƏX′** (Şərur) – yandırmaq. – *Gala, tükümnən də verim sə:, dara düşəndə tütüzdür.*

**TÜVƏLƏMƏX′** (Qazax) – yığmaq, toplamaq. – *Onnan sonra buğdoyu ilanyalı bir yeri tüvəlerix′.*

**TÜYKƏ** (Biləsuvar, İmişli) – dəstəksiz bıçaq; bıçaq tiyəsi. – *Tüykə uşa:n əlin kəssi* (İmişli); – *Uşağlığda tüykəmiz olardı* (Biləsuvar).

**TÜYNEX′** (Meğri) – cəld, zirək.

**TÜYNƏX′** (Meğri) – b a x **tüynex′.** – *Bı iyitdi, tüynəx′ kessə tez çatı.*

**TÜYÜNMƏX′** (Qazax, Şəmkir) – vurnuxmaq. – *Bazarda tüyünməx′ olmaz* (Qazax); – *Tüyünməx′dən yoruldu, əlinə bir şey keçmədi* (Şəmkir).

# Uu

**UAXDAN** (Gəncə) – sandıq.

**UARDA: UARDA QALMAĞ** (Bakı) – açıqda qalmaq.

**UBAŞ** (Dərbənd) – obaşdan, səhər tezdən. – *Ubaş gələcəm.*

**UBUR** (Salyan) – imkan; fürsət. – *Sənin əlində ubur olsa, hamını qırıb-batırarsan.*

**UBUR-SUBUR** (Qax) – get-gəl. ◊ **Ubur-subura salmax** – get-gələ salmaq. – *Mən bilmiy, habı işi niye ubur-subura salıpsın.*

**UCA** (Zaqatala) – heyvanın fəqərə sütununun yanlarında olan ət.

**UCADAĞLAR** (Zəngilan) – uşaq oyunu adı.

**UCALAMAĞ** (İmişli) – b a x **ujulamax.** – *Sözi çox ucalamağ yaxşı dögi.*

**UCALAMMAX** (Ordubad) – 1. *məc.* ujalmaq, vəzifəcə böyümək; 2. inkişaf etmək. – *Bacarığı var, bu ucalanacax.*

**UCARRAMAĞ** (Kürdəmir) – b a x **ujulamax.** – *Sözü: kütahın de, ucarrama mö:lüm* <*mən ölüm*>.

**UCBAT** (Bakı, İmişli) – görə. – *Sənün ucbatunnan mən də gedə bilmedim ulara* (Bakı); – *Sə:n ucbatınnan işdən qaldım* (İmişli).

**UCBET** (Bakı) – b a x **ucbat.** – *Mən sənün ucbetünnən bu günə qalmışam.*

**UCO:RRAMAĞ** (Şamaxı) – b a x **ujulamax.** – *Nə uco:rriyirsan, əl çak də:.*

**UCRAH: UCRAH OLMAX** (Zaqatala) – b a x **uyurcah olmax.** – *Yekə düynədə gidip una ucrah oldum.*

**UCUBURUĞ** (Salyan) – ucaboy. – *Bizim kətdə Əlidən ucuburuğ adam yoxdu.*

**UCULAMAX** (Zaqatala, Zəngilan) – b a x **ujulamax.** – *Elə uculuyur ki, məni də apar* (Zəngilan).

**UÇAĞAN** (Oğuz) – qara xalı olan balaca qırmızı böcək.

**UÇAR** (Dərbənd) – kənddə camaatın söhbət üçün yığışdığı yer. – *Əxşəm uçarda çuxlu kişi vardı.*

**UÇARRAMAĞ** (Kürdəmir) – b a x **ujulamax.** – *Uçarrama, əl çək.*

**UÇBABA** (Borçalı) – xanımböcəyi. – *Uçbaba şirnəx′ saler.*

**UÇĞUMMAX** (Borçalı) – 1. titrədib-qızdırmaq; 2. həyəcan və ya qorxu nəticəsində titrəmək. – *Alı yaman uçğunufdu.*

**UÇQUL** (Qazax) – balıq tutmaq üçün suyun dibində düzəldilmiş üstüörtülü çuxur.

**UÇQUMMƏY** (Cəlilabad) – həvəslənmək, meyil etmək. – *Diyəsən, yamancə uçquneysən, apərrəm səni də toyə.*

**UÇQUNNAMMƏY** (Cəlilabad) – b a x **uçqumməy.** – *Uçqunnanib, diyəsən qalmiyəcəy, gedəcəy.*

**UÇMAĞ** I (Şamaxı) – cənnət.

**UÇMAĞ** II (Yardımlı) – yıxılmaq. – *Kişi ağacdan uçub əzilib.*

**UÇMAX** (Zaqatala) – düşmək <ağacdan>.

**UÇUXLAMAX** (Cəbrayıl) – suluqlamaq, şaxtadan burunun qabağında, dodaqlarda suluq əmələ gəlmək. – *Soyuxdan dodağım uçuxluyuf.*

**UÇUMMAX** I (Cəbrayıl, Daşkəsən, Qazax, Tovuz, Şəki) – titrəmək, tir-tir əsmək (qorxudan və ya soyuqdan). – *Kişi uçunoy, ağacı da tuta bilmey* (Daşkəsən).

**UÇUMMAX** II (Ağdərə, Cəbrayıl, Oğuz, Şuşa) – yellənmək. – *Gəl bir uçunax* (Oğuz); – *Sulumçaxda ipnən uçunullar* (Ağdərə); – *Qızdar, gəlin gedəx′ uçummağa, uzun ip götümüşəm* (Cəbrayıl); – *Uşax uçuncaxda uçunanda yıxılıf, qolu çıxıf* (Şuşa).

**UÇUNCAX** (Ağdam, Gədəbəy, Füzuli, Oğuz, Şuşa, Zaqatala) – yelləncək. – *Gəti bir uçuncax sal uçunax* (Oğuz); – *Ağaşdan uçuncax as kın, yellənsin uşaxlar* (Gədəbəy); – *Uşaxlar artırmada uçuncax quruf uçunullar* (Şuşa).

**UDLAĞ** (Quba) – odluq (samovarda). – *Sumavarımızın udlağı xarab olub.*

**UFA** I (Gədəbəy) – qonşu. – *Ay ufa, nə:ŋ bizə də xavar eləme:fsəŋ bazare:dəndə?*

**UFA** II (Qax, Zaqatala) – b a x **upa.**

**UFAX** (Borçalı, Şəki) – 1. narın (Borçalı). – *Ufax duz yumşağ olar;* 2. düyü və ya buğdanı tabaqlayarkən yığılan xırda, narın çıxar (Şəki). – *Buğdanın çoxusu ufağa çıxdı.*

**UFALLI** (Hamamlı) – b a x **ivhallı.** – *Çox ufallı adamdı, hamı ona hörmət ele:r.*

**UFARRIĞ** (Dərbənd) – xəcalət. ◊ **Ufarrığ eləmağ** – xəcalət çəkmək. – *Ufarrığ eliyədəm mən unnan.*

**UFDAN** I (Qax) – lovğa.

**UFDAN** II (Zaqatala) – qəşəng, gözəl. – *Bizim dükanda ufdan çitdər satılır.*

**UDİ-BUDİ** (Lerik) – sözbaz.

**UDUM** I (Salyan) – bacarıq, qabiliyyət. – *Arifənin yaxşı udumu var.*

**UDUM** II (Lerik) – bəxt, tale, qismət.

**UFTAN** (Balakən, Qax, Zaqatala) – b a x **ufdan** II.

**UFUCU** (Zaqatala) – dözümsüz.

**UFUD: UFUD ELEMEĞ** (Bakı) – sakitləşdirmək, sakit etmək. – *Ufud eleginən uşağı, sən allah, qoymaginan ağlamegə.*

**UGEG** (Kürdəmir) – quş adı. – *Ugegin əti yeməli dögül.*

**UGÜNƏ** (Oğuz) – o qədər. – *Kişilər, ugünə alça var, da: bilmirəm necə.*

**UĞAN** (Oğuz) – uğultu.

**UĞAT** (Qax) – avand.

**UĞATDI** (Qax) – avand. ◊ **Uğatdı olmax** – avand olmaq. – *İşingız uğatdı olsun.*

**UĞIRSAX** (Meğri) – b a x **ovursax.**

**UĞUFCA** (Daşkəsən) – ehtiyatla. – *Qoy o, uğufca işdəsin.*

**UĞUNA-UĞUNA** (Qax) – yana-yana; boğula-boğula. ◊ **Uğuna-uğuna qalmax** – yana-yana, boğula-boğula qalmaq, yanıb tökülmək. – *Söz dima: isdi:rdim, uğuna-uğuna qaldım.*

**UĞUNDUMAX** (Ağdam) – ilxını iki hissəyə ayırmaq.

**UĞUNMAX** I (Qax) – təəssüflənmək, təəssüf etmək.

**UĞUNMAX** II (Qax) – həyəcandan boğulmaq.

**UĞUR** I (İmişli) – dəfə. – *Bu uğur gəl bizə gedəxʹ.*

**UĞUR** II (İmişli) – bəxt, tale. – *Onun uğuru yaxşı dəyil.*

**UĞURSAX** (Meğri) – b a x **ovursax.**

**UĞUT** (Hamamlı) – sıyıq. – *Xamır uğutdu, axır.*

**UĞUZ** (Sabirabad) – çoxbilən. – *Biləndiyə uğuz diyəllər.*

**UXA** (Qazax) – nazik. – *Qara qarpızın qavığı lap uxa olur.*

**UXACA** (Qazax) – nazik. – *Biz tərəflərdə qavığı uxaca olan qarpız çoxdu.*

**UXAX** (Gəncə) – b a x **oxax.** – *Cücələrə əpbəy uxağı tök.*

**UXLO:** (Oğuz) – mozalan.

**UXRA** (Balakən) – dələ cinsindən kiçik heyvan.

**UJDAMAX** (Tovuz) – uzatmaq. – *İpi ujda göröm nə qədərdi.*

**UJDANMAX** (Basarkeçər) – getmək. – *Əyə, qoyma, qoyun ujdandı.*

**UJDUX** (Qazax) – xəncər qınının ucuna zinət üçün taxılan metal. – *Bu xançalın ujduğu gümüşdəndi.*

**UJRUM** (Qazax) – uzaq. – *At qaçıf ujruma gedif.*

**UJULAMAX** (Basarkeçər, Cəbrayıl, İmişli, Qazax) – uzunçuluq etmək; bir sözü, fikri dəfələrlə təkrar etmək. – *Ə:, sən bu ot məsələsini nə çox ujuluyursan* (Basarkeçər); – *Heş səsin kəsmer, elə ujule:r* (Qazax); – *Hey ujule:rsaŋ, bəsdi dana* (İmişli); – *Nə ujulamısaŋ yaxşıdı, heş bir çürüxʹ qoza da dəyməz* (Cəbrayıl).

**UJURUM** (Qazax) – b a x **ujrum.** – *Ujuruma getmə.*

**UKNA** (Zaqatala) – mağara. – *Bu gecə uknada yatarıx, sabah yola düşərixʹ.*

**ULAX** (Ağdam, Başkeçid, Borçalı, Füzuli, Gədəbəy, Qazax, Laçın, Ordubad, Şəki, Şəmkir, Şərur, Tovuz, Yevlax) – qoşqu heyvanı. – *Yeri şumlurdux ulaxnan;* – *Ulağ olseydi, aravanı qoşub oduna gedərdim* (Ağdam); – *Qoşulan mala ulax deyillər;* – *Ulağ öküzə, kala de:rixʹ;* – *Ulaxları gətirif xalxala töxʹdüm* (Qazax); – *Aravıya ulax qoşurdux;* – *Ulağın dalına alıx qoyardıx* (Yevlax); – *Ulaxlar çöldə otduyur;* – *Ulaxları kotana qoş* (Borçalı); – *Bi çüt ulağımız olutdu, başqa şeymiz olmıtdı* (Şəki); – *Yeri ulaxnan şumnuyurux;* – *Kotana dörd dənə ulax qoşardıx* (Şəmkir).

**ULAXÇI** (Şəmkir) – qoşqu heyvanını sürən adam. – *Majqal kotanın majqalınnan tutor, ulaxçı ulaxları hayler.*

**ULAXŞIMAX** (Gəncə, Qazax) – kövrəlmək; ağlamaq.

**ULAM** I (Çənbərək, Karvansaray) – izini itirmək məqsədi ilə uzağa aparılmış oğurluq

mal. – *Ləçənnix′ tutan inəy ulamdı* (Çənbərək). ◊ **Ulama aparmax** (Başkeçid, Borçalı) – izini itirmək məqsədi ilə oğurluq malı uzağa qaçırmaq. **Ulama verməx′** (Qazax) – b a x **ulama aparmax.** – *Atı, deyəsən, ulama verdilər, heş gördüm deyən yoxdu, tapılmer.*

**ULAM** II (Borçalı, Xaçmaz, Quba) – 1. çəpərin tapdanmış və keçid əmələ gəlmiş yeri (Quba, Xaçmaz); 2. iz, cığır (Borçalı).

**ULAMA** I (İmişli) – calaq. – *Ucunda ulama vardı, da:m vermədi.* ◊ **Ulama qoymağ** – calaq vermək. – *Başına ulama qoyginan, çassın.*

**ULAMA** II (Ağdam, Basarkeçər, Bərdə, Göyçay, Xanlar, Kürdəmir, Qazax, Oğuz, Şəki, Zaqatala) – xışın və ya kotanın bir hissəsinin adı. – *Ulamanı salırdıx əvəndiyə* (Ağdam); – *Ulamanı boyunduruğa bağla, öküzdəri sür* (Bərdə); – *Ulama xışın qoluna birrəşir, boyundurux qoşulur* (Oğuz) – *Cütün ulaması yoxdu* (Qazax); – *Ulama boyunduruğa sarıney kin, öküz çəx′sin* (Xanlar); – *Kötüyə keçirən o eyri şeyə qol diyirdilər, qolun da qavağına caliyillər ulama;* – *Ulamanı keçirillər çəmbəriyə* (Şəki).

**ULAMAÇI** (Borçalı, Qazax) – oğurlanmış mal-qaranın izini itirmək məqsədi ilə onu əldən-ələ ötürən adam. – *Oğrular malı aparıf ulamaçıya vererdilər* (Qazax); – *Süleyman kişi ulamaçıdı* (Borçalı).

**ULAMAĞ** (Göyçay, İmişli) – birləşdirmək, calamaq, əlavə etmək. – *Mı:n başına ağac ulamason, çatmaz* (İmişli); – *Həbələ bazı olurdu, ucuna da ağac uluyurduğ* (Göyçay).

**ULAMAX** (Kürdəmir, Tovuz) – çürümək. – *Yazığın yarası uleyib tökülür* (*Kürdəmir*); – *Bu qarpızıdarın çoxsu uluyufdu* (Tovuz);

**ULAMÇI** (Borçalı, Gədəbəy, Qazax, Şəmkir) – b a x **ulamaçı.** – *Oğrular malı aparıf ulamçıya vererdilər, o da saterdı, uzağa keçirerdi* (Qazax); – *On doqquzuncu ildə oğurdan çox ulamçılar ziyan vereydi mahluğa* (Gədəbəy); – *Keçəl Alı ulamçı adamdı* (Borçalı); – *Qavax mə:m bir qonşum vardı, yaman ulamçıydı, malları oğurruyuf verirdilər ona, o da aparıf izin itirirdi* (Şəmkir).

**ULAMIŞ** (Tovuz) – çürük, çürümüş. – *Bu ulamış qarpızdarı niyə gətirifsəŋ?*

**ULAMLAMAX** (Şəmkir) – oğurlanmış malın izini itirmək məqsədi ilə onu əldən-ələ ötürmək. – *Mənim bir inəyim vardı, ulamladılar, tapa bilmədim.*

**ULAMLATMAX** (Basarkeçər, Başkeçid, Borçalı) – oğurlanmış mal-qaranı əldən-ələ ötürtdürərək izini itirtdirmək. – *Hasanın ulağını ulamlatdılar* (Borçalı).

**ULAS** (Ağdam, Xocalı, Kəlbəcər, Lənkəran, Şuşa, Zəngilan) – ağac adı, vələs. – *Ulas yaman bərk ağaşdı, onnan nə desən olur* (Kəlbəcər); – *Ulası doğruyub yandırrıx* (Zəngilan); – *Birimci onu de, sonra ulasa keş* (Xocalı); – *İsə bulağının meşəsində ulas çox olur* (Şuşa).

**ULAŞMAX** (İmişli, Kürdəmir, Mingəçevir) – qarışmaq, qoşulmaq. – *Başım işə elə ulaşıf kin, laf adımı unutmuşam* (Mingəçevir); – *Bizin inəy ulaşıb o biri kəndin malına* (Kürdəmir); – *Uşağı qoyma ulaşsın pis adama* (İmişli).

**ULĞAN** (Hamamlı) – kəndir.

**ULĞAŞMAX** (Laçın, Zaqatala) – 1. b a x **ulaşmax** (Zaqatala); 2. birləşmək (Laçın). – *Siznən ulğaşdığım gün dağıleydı.*

**ULĞUN** I (İmişli) – b a x **ilğım.** – *Ulğun yayda issidə olır.*

**ULĞUN** II (Oğuz) – hülqum. – *Bə:zi kişilərin ulğunu yoxdu, söz saxlamır.*

**ULIM** (Meğri) – çayın dayaz yeri.

**ULIMLAMAX** (Meğri) – çayın dayaz yerindən keçmək. – *Əmirxucə palani rasleyincə man de bəyaxdan ulımladım u tayə.*

**ULQİZDƏR** (Dərbənd) – gəlinin sağdış və soldışı. – *Gəlinin ulqizdəri övbəöv gezüb tuyə diyərdülər.*

**ULU** (Bərdə, Cəbrayıl, Göyçay, Kürdəmir, Mingəçevir, Şəki, Zəngilan) – baramaqurdunun son yuxusu. – *Bizim qurd uludan durmadı, hamıjığı qırıldı* (Bərdə); – *Uludan so:ra xirix′ başdıyır* (Zəngilan); – *Kərimin qurdu ulunu yatıb durub* (Cəbrayıl); – *Uludan durutdu qurdumuz, birki günə şaxlanasıdı* (Şəki).

**ULUQİZDƏR** (Tabasaran) – b a x **ulqizdər.** – *Uluqizdəri beşləri <odun> duğriyib təndür saladular.*

**ULUM** I (Meğri, Zəngilan) – b a x **ulım.** – *Hova qərələn kimi Norrıx şamının ulumunnan keçeyəm* (Meğri). ◊ **Ulum düşməx′** (Zəngilan) – dayaz yer əmələ gəlmək. – *İlğınnıxdan yuxarı, çayda yaxşı bir ulum düşüb.*

**ULUM** II (Cəlilabad) – 1. çayın dərin yeri; 2. burulğan. – *Çimməyə şama tək gedməginən, uluma düşərsən, axarsan.*

**UMA** (Zaqatala) – omba. – *Umam ağrıyır.*

**UMACAĞ** (Kürdəmir) – qız ərə gedərkən onun valideyninin oğlan evindən istədiyi xərc, başlıq. – *Qabağ umacağ almaseyduğ, qız verməzzuğ.*

**UMAÇHALVASI** (Ucar) – halvanın bir növü. – *No:ruz bayramında umaçhalvası pişiririk.*

**UMAXŞIMAX** (Xanlar) – bax **omaxşımax.** – *Arvad elə umaxşıyır ki, elə bil oğul toyu görmüyüf.*

**UMAŞIMAX** (Gəncə, Qazax) – bax **omaxşımax.**

**UMAŞMAX** (Gəncə, Goranboy, Qazax) – bax **omaxşımax.**

**UMDAR** (Qax) – kümçü, baramaçı.

**UMMAN** (Əli Bayramlı, Kürdəmir, Salyan) – çox, lap çox. – *Mən kimi bırda qoca ummandı ki* (Əli Bayramlı); – *Qalxoz bu il umman taxıl götirdi* (Kürdəmir); – *Bırda yayda pammığ umman olur* (Salyan).

**UMUR** (Ağdam, Cəbrayıl, Qax, Meğri, Mingəçevir, Şəki, Zəngilan) – ixtiyar. – *Əlimdə umur olsa, səniŋ işiŋi bu sa:t düzəldərəm* (Ağdam); – *Əlində umur olsa, çox işdərdən başlıyar* (Zəngilan); – *Umurum qa:f kişi:n əlində da*: (Mingəçevir); – *Çobannarın umuru fermə müdiri Avdıllanın əlindədi* (Meğri); – *Heyləsinə Allah umur verməsin, yoxsa çoxu:n əvin yıxar* (Cəbrayıl); – *U:n umuru keçə mə:n elimə, billəm nağarram* (Şəki).

**UMURRU** (Ağdam) – ixtiyarı olan, ixtiyarlı. – *Sən umurru adam olsaŋ, çoxlarının evini yıxarsaŋ.*

**UMURSUX** (Oğuz) – yanılma, səhv salma. ◊ **Umursuğ olmax** – səhv salmaq, yanılmaq. – *Sizi görüb umursuğ oldum, elə bildim əsgərdən gələn qardaşımdı.*

**UNAMAĞ** (İmişli, Salyan) – inanmaq, təsəvvür etmək, ağlına gətirmək. – *Unamırdım məni yaddan çıxardarsan* (İmişli); – *Mən unamazdım səni bir də görərəm* (Salyan).

**UNAMAX** (Ağcabədi, Gədəbəy, Karvansaray, Kürdəmir, Qazax, Mingəçevir, Tovuz) – başa düşmək, anlamaq. – *Doğrusu, söylədiyini eşitdim, əmbə nə dediyini unamadım* (Qazax); – *O, sən gəldiyini çoxdan unamışdı* (Karvansaray), – *Heş unamazdım kın, səni taparam burda* (Gədəbəy).

**UNÇƏKƏN** (Dərbənd) – dəyirman. – *Mən unçəkənə kitədəm.*

**UNDUC** (Zaqatala) – dülgər dəzgahı. – *Usda unduca yaxınnaşdı.*

**UNDUCA** (Zaqatala) – yabanı bitki adı.

**UNNUCA** (Ağbaba, Ağdam, Ağdaş, Borçalı, Cəbrayıl, Çənbərək, Qazax, Mingəçevir, Oğuz, Tovuz, Zəngilan) – yeməli bitki adı. – *Bizim yerdə unnuca çox olar* (Ağdam); – *Qızdar gedif unnuca yığmağa* (Qazax); – *Unnuca yaxşı pencər dəyil* (Cəbrayıl).

**UNNUX** (Culfa, Naxçıvan) – un və ya taxıl yığmaq üçün taxtadan düzəldilmiş böyük qab, yeşik. – *Taxılı unnuğa yığırıx* (Naxçıvan); – *Unnux çoxdu əvlərdə* (Culfa).

**UNTSU** (Qax) – balaca kətil.

**UNUNMAX** (Füzuli) – yellənmək.

**UNYEMİŞİ** (Gədəbəy) – dərman bitkisi adı.

**UPA** (Zaqatala) – 1. gözəl; 2. əla, çox yaxşı.

**UPTANNIX** (Qax, Zaqatala) – lovğalıq. ◊ **Uptannıx eləmax** – lovğalanmaq.

**UR** (Qax) – dəli.

**URA** (Ağcabəd, Başkeçid, Borçalı, Gədəbəy, İmişli, Qax, Qazax, Xocavənd) – bağ və bostanda son yığım. – *De:llər bosdan uradı, biz də gedəxʹ qarpız gətirəxʹ* (Qazax); – *Qurtuluy menin də, uradı* (Qax); – *Bu döələxʹləri urada yığmışam* (Borçalı).

**URALAMAX** (Ağdam, Başkeçid, Borçalı, Cəbrayıl, Gədəbəy, Göyçay, Mingəçevir, Tovuz, Zəngilan) – bax **oralamax.** – *Bosdanı uralıyıf, ya:nı ki tay qutarıf;* – *İki günnən so:ra bosdanı uralıyajıyıx, onda gələrsəŋ* (Ağdam); – *Bosdan uralıyıllar, gedin siz də qıradan-zaddan yığın gətirin* (Zəngilan); – *Qartof qazınınnan soŋra uraləax gedəxʹ yerini* (Gədəbəy); – *Ay uşax, gedin döələxʹləri uralıyın* (Borçalı); – *Böyün qalxozun bosdanını uralayacaxlar* (Cəbrayıl).

**URAYETƏN** (Bakı) – həyasız.

**URBA** (Kürdəmir) – tez, bir anda. – *Sabı bazardan çox urba gəldi.*

**URBANA** (Salyan) – əkilmək üçün çıxardılmış ağac. – *Urbananı yerə bassırdım.*

**URBUĞ** (Xaçmaz) – tumurcuq.

**URCAH: URCAH OLMAX** (Ağbaba, Ağdam, Cəlilabad, Gədəbəy, Hamamlı, İsmayıllı, Şahbuz, Şərur, Tovuz) bax **uyurcah olmax.** – *Səhər-səhər bilmirəm, sən mənə hardan urcah oldun; – Bu mənə hardan urcah oldu?* (Ağdam); – *Blimerəm, hardan urcah oldum muna özüm də* (Gədəbəy); – *Bi sə:rki bi adam gedey urcah oley olara* (Cəlilabad); – *Bı yannan o da mənə urcah oldu* (Şahbuz).

**URCAN** (Basarkeçər) – bax **urğan.** – *Haravanın urcanı qırıldı, ot düşdü töküldü.*

**URCAŞMAX** (Çənbərək) – rastlaşmaq, rast gəlmək. – *Mən sa: hardan urcaşdım, heç özüm də bilmirəm.*

**URÇAH: URÇAH GƏLMƏX′** (Şahbuz) – rast gəlmək, rastlaşmaq. – *Bı yannan da bı bına urçah gəldi.*

**URF** I (Göyçay) – urva.

**URF** II (Gədəbəy) – 100 qram. – *İki mırtdaŋ, bir urf olu:r?; – Dörd urfun bir girvəngə:ler.*

**URFALIĞ** (Lənkəran, Saatlı, Şamaxı) – urva saxlanan süfrə, qab, tabaq. – *Öydə urfalığda un yoxdı* (Şamaxı); – *Urfalığa baxginan, gör heç urfiya un qalı:b?* (Saatlı).

**URĞAN** (Hamamlı) – uzun ip. – *Haravanın otu dağılmasın deyə bağlanmış ipə urğan de:rix′.*

**URĞANNAMAX** (Hamamlı) – iplə bağlamaq.

**URIX** (Meğri) – nəsil.

**URIM** (Meğri) – meşə. – *Payizin qafsində quyinin yeri quzay urımləridi.*

**URİ** (Əli Bayramlı) – bax **ura.** – *Uridi, ged sən də yığ.* ◊ **Uri olmağ** – son dəfə yığılıb qurtarmaq. – *Bossandakı qarpızzar uri oldı.*

**URJANOTU** (Balakən) – yabanı bitki adı.

**URXANA** (Kürdəmir, Salyan) – balıq ovlanan yer. – *Dünən urxanada tor atmışdım, iki xəşəm tutmışam* (Kürdəmir).

**URLUĞ** (Dərbənd) – nəsil, tayfa. – *Səlmi Yağub urluğunnandı.*

**URMU** (Oğuz) – 1. zolaqlı; 2. xallı. – *Urmu, məsəl, pişiyə diyilir.*

**URNAC-URNAC** (Meğri) – bax **ornac-ornac.** – *Sunabəyim elə həmməşə urnac-urnac danişey.*

**URNAŞ** (Meğri) – çoxdanışan. – *Nağinin qızı Şalıx bir urnaş qızdı.*

**URRAMAX** (Şəmkir) – suvarmaq (heyvanlar haqqında). – *Gördü çovan qoyunu çayın qıra:nda urruyur.*

**URRAMAĞ** (Salyan) – rütubət nəticəsində qabarmaq (divara aiddir). – *Nəm oldığına görə duhar urrıyıb.*

**URŞU** (Dərbənd) – bünövrə, özül. – *Övləri tikəndə urşulara çox cafa çəkdim.*

**URU** (Cəbrayıl, Sabirabad, Ucar) – bax **ura.** – *Urudan so:ra bossana mal-qara bıraxılar* (Ucar).

**URUB** I (Cəlilabad, Kürdəmir, Oğuz) – 1. 25 qramlıq çəki vahidi (Oğuz); 2. 100 qramlıq çəki vahidi (Cəlilabad, Kürdəmir). – *Urubu qoy, az alacam* (Kürdəmir).

**URUB** II (Quba, Xaçmaz) – cem (turşu). – *Urubi ərigdən, cirdən bişirəllər* (Quba).

**URUB** III (Zaqatala) – 0,06 hektar.

**URUF** I (Şəki) – ruh. – *Elə iynə vurur, heç urufun da incimir.*

**URUF** II (Şəki) – 1. an, az vaxt. – *Bi urufdacə qutardı işini;* 2. on beş dəqiqə. – *Un ikiyə bi uruf var.*

**URUF** III (Xanlar) – 1. hörmət; 2. təmtəraq. – *İrəhmətdix′ Qasım əmini bir urufnan basdırdılar ki.*

**URUF** IV (Biləsuvar, Salyan) – yaxşı, xoşagələn. – *Gedirsən, görürsən mağazeyində bi şey satıllar, di:rsən ki, lap urufdı* (Biləsuvar).

**URUF** V (Bərdə, Hamamlı) – 1. 100 qram (Bərdə). – *Gəvənin bir gülü əysix′di, maŋa bir uruf narın if ver;* 2. 4 kiloqramlıq ölçü qabı (Hamamlı). – *İki uruf taxıl ölç gəti, ver aparsın.*

**URUĞ** I (Ağcabədi) – çoxdoğan. – *Uruğ arvat tez qojalar.*

**URUĞ** II (Biləsuvar, Sabirabad) – qarşı, qabaq. – *Saba-saba uruğma yava adam çıxdı* (Sabirabad).

**URUĞ** III (Biləsuvar, Göyçay, Qax, Sabirabad) – nəsil.

**URUĞCUL** (Gədəbəy) – doğar, qısır qalmayan. – *Uruğcul heyvan damazdıx saxlamağa yaxşıdı.*

**URUĞLU** (Bakı) – qohum. – *Adə, o Memedgil yaman uruğludılar a.*

**URUĞLU-TURUĞLU** (Bakı, Qax, Şamaxı) – qohum-əqrəbalı.

**URUĞ-TURUĞ** (Ağdam, Bakı, Şamaxı, Şuşa) – tayfa, nəsil. – *Heş bütöy uruğ-turuğuŋuzda belə ağıllı uşağ olmuyuf;* – *Ay arvad, səniŋ yaf o uruğ-turuğuŋa ləhnət olsun* (Şuşa).

**URUX** I (Ağcabədi) – b a x **uruğ** I.

**URUX** II (Meğri, Oğuz) – b a x **uruğ** III. – *Bu at Meşətüsen dayımgilin uruğunnandı* (Meğri).

**URUXCUL** (Daşkəsən) – b a x **uruğcul.** – *Bizim inə:miz uruxculdu, hər il doğor.*

**URUXLU** (Ağdam, Qax) – 1. cins; 2. qısır qalmayan, nəsil verən, doğar. – *Bu at uruxlu atdı* (Ağdam); – *Uruxlu inəx'di bu* (Qax).

**URUXLU-TURUXLU** (Qax, Zaqatala) – artıb-törəyən, nəsil verən.

**URUX-TURUX** (Ağsu, Kürdəmir, Oğuz, Ucar) – b a x **uruğ-turuğ.** – *Diyirəm ki, Söyün filan urux-turuxdandı* (Oğuz); – *O:n urux-turuğunu tanıyıram* (Kürdəmir).

**URULAMAX** (Cəbrayıl, Ucar) – b a x **oralamax.**

**URUNNUĞ** (Dərbənd) – döşəkçə.

**URUSQAT** (Ağdam, Qazax, Şuşa) – icazə. – *Adam içəri girəndə urusqat alar* (Ağdam); – *Urusqat almamış xalxın şeyini mən sa: verəmmərəm* (Şuşa).

**URUSUM** (Basarkeçər) – norma, pay. – *Bu mənim urusmumdu.*

**URUŞT** (Əli Bayramlı) – bacarıq.

**URVAT** (Gədəbəy, Şəki) – hörmət, nüfuz. ◊ **Urvatdan salmax** (Şəki) – hörmətsiz eləmək, hörmətdən salmaq. – *Kişini lap urvatdan salıllar.* **Urvatını saxlamax** (Gədəbəy) – nüfuzunu qorumaq, hörmətini saxlamaq. – *Heç urvatını saxlamadı bu sədir.*

**URVATDI** (Laçın, Şuşa) – hörmətli. – *Əli hamının yanında urvatdıdı* (Laçın); – *O, çox urvatdı kişidi* (Şuşa).

**URVAY** (Şəki) – pəhləvanların güləşmədən qabaq oxuduqları mahnı. ◊ **Urvay dimax** – güləşmədən qabaq mahnı oxumaq. – *Pəhlivan Nəsir bir urvay diyif gidər meydana.*

**URYƏ** (Qazax) – üçyaşar erkək at.

**USAL** (Xaçmaz) – 1. zəif; 2. tənbəl.

**USANA GƏLMƏX'** (Şərur) – usanmaq.

**USBUF** (Laçın) – yavaş, ehtiyatlı.

**USBURD: USBURD ELEMEĞ** (Bakı) – etibar etmək. – *Bı işi uşağa usburd elemeğ olmaz.* ◊ **Usburd olmağ** (İmişli, Kürdəmir, Salyan, Şamaxı) – b a x **usburd elemeğ.** – *Beblə pammığı sə: usburd ollam* (İmişli); – *O, düz adamdı, hər şeyi usburd olmağ olar* (Kürdəmir); – *Mən şə:rə gedəndə oyı Zərxanıma usburd oluram* (Salyan); – *Dö:ləti süzə usburd olıb gedirəm* (Şamaxı).

**USDALMAX** I (Qazax) – bərk yorulmaq. – *Uşax lap usdaldı.*

**USDALMAX** II (Başkeçid, Borçalı) – bayılmaq, ürəyi getmək. – *Bir də gördüx' kü, qız usdalıf* (Başkeçid).

**USDAMAX** (Qazax) – susamaq. – *Yaman usdamışdım, bir az qarpız yedim usduğum kəsdi.*

**USDUB** (Cəbrayıl) – səliqə. – *Sənin usdubun yaxşıdı, gə bizim övün üsdün cə:nnə.*

**USDUF** (Şuşa) – b a x **usbuf.** – *Usduf gə, yıxılarsaŋ.*

**USDUFCA** (Ağdam, Çənbərək, Tovuz, Şuşa) – ehtiyatla, yavaşca. – *Dağarcığı gəti usdufca qoy haravıya, cırılı* (Çənbərək); – *Səŋəyi usdufca yerə qoy, soŋra qırarsaŋ* (Tovuz).

**USDUFLU** (Qazax, Şəki, Zəngilan) – yavaş, ehtiyatlı. – *İstəkəni usduflu tut, a qızım, qırarsaŋ* (Qazax).

**USDUFLUCƏ** (Şəki) – sakitcə, ehtiyatlı, yavaşca. – *Usduflucə duruf gecə çıxdıx öydən.*

**USDUX** (Qazax) – susuzluq. – *Usdux çətin şeydi;* – *Usduğumnan yaneram, bir içim su ver ma:.*

**USDULUP** (Cəbrayıl) – ehtiyatlı, yavaş. – *Usdulup tərpən, taxt xarabdı.*

**USMAXLAMAX** (Meğri) – güdmək. – *Tomaraynan Şomayıl başdadı munu usmaxlamağa.*

**USSAL** I (Dərbənd) – b a x **ossal** I. – *Ussal uğli ussal, qurxudan səsin çıxarmıdı;* – *Ay ussalın biri ussal, nəyçün səni u vursun?*

**USSAL** II (Dərbənd) – b a x **ossal** II.

**USSU** (Salyan) – su. – *Uşağa bir az ussu ver.*

**USSUFCA** (Zərdab) – b a x **usdufca.** – *Lampanı ussufca götür, tökülüf evi oddu-yar.*

**USTUFCA** (Ağdam, Şuşa, Tovuz) – b a x **usdufca.** – *Ustufca qapını açıf qaşdım* (Ağ-

dam); – *Ustufca gedif qulağınnan tutajam, gör nə tə:r çığırajax* (Şuşa).

**USTUP** (Cəbrayıl) – b a x **usbuf.** – *Səlimə xala ustup tərpənirdi ki, nəvəsi oyammasın.*

**USTUPLU** (Naxçıvan, Ordubad) – b a x **usduflu.** – *Ustuplu yeri, mən də gəlləm* (Naxçıvan); – *Ustuplu danış, eşidən olar* (Ordubad).

**UŞAXYERİDƏN** (Balakən) – yeni gəzməyə başlayan uşaqlar üçün paralel ağaclardan ibarət xüsusi qurğu.

**UŞDOP** (Oğuz) – üç litr yarımlıq şüşə qab. – *Uşdopa işgi töküllər.*

**UŞDUX** (Cəbrayıl, Göyçay) – şayiə. – *Bu uşdux çıxar, məsəltün, bizim Həsənnən* (Cəbrayıl).

**UŞDUUR** (Qax) – güləşmə üsullarından birinin adı.

**UŞĞUN** (Bakı) – ikidorlu yelkənli böyük gəmi.

**UŞKU** (Zaqatala) – deşikaçan burğu.

**UŞQU** (Çənbərək, Karvansaray) – balıqların toplaşdığı yer. – *Daşın altdakı uşqudan iki ledərə balıx tutdum* (Karvansaray).

**UŞQUMMA** (Şəki) – üşütmə, titrətmə, əsmə. – *Bədə:mi uşqumma tutdı.*

**UŞQUMMAX** I (Cəbrayıl, Şərur) – hürküb qaçmaq. – *At uşqundu* (Cəbrayıl).

**UŞQUMMAX** II (Şəki) – b a x **uçqumməy.** – *Çox uşqundı ki, aparım unu da, aparmadım.*

**UŞQUMMAX** III (Şəki) – b a x **uçğummax.** – *Qorxudan başdadım uşqummağa.*

**UŞQUMMAX** IV (Cəbrayıl) – fışqırmaq, axmaq. – *Burnumnan qan uşqundu.*

**UŞQUMMAX** V (Oğuz) – güc vermək.

**UŞQUN** (Naxçıvan) – bitki adı.

**UTUN** (Oğuz) – fəqərə sütunu. – *Utun ha bel sümüyünə diyir.*

**UTURAĞ** (Quba) – ayaq <mebeldə>. – *Şikafımızın uturağı xarabdu.*

**UTUZDURMAX** (Çənbərək) – özündən çıxmaq. – *Bıldıx biyilləri çox utuzduruf.*

**UUFA: UUFA ENMAX** (Qax) – sınmaq. – *Senin qiçəlləriŋ uufa ensin.*

**UVA** (Qax) – kif.

**UVDUXCA** (Tovuz) – yavaşca. – *Çırağı yerə uvduxca qoy, salıf sındırarsaŋ.*

**UVUXCA** (Tovuz) – b a x **uvduxça.** – *Şüşəni yerə uvuxca qoy, salıf sındırarsaŋ.*

**UVUXNAN** (Gədəbəy, Tovuz) – ehtiyatla. – *Uvuxnan götü uşağı, səx'sənər ha!;* – *Bir dö:rdüm qapaçıldı <qapı açıldı>, uvuxnan içəri bir uşax girdi, əlində qavalax;* – *İşi uvuxnan görəllər, da: səni təki dəli-tərsinə yox* (Gədəbəy); – *Xəsdəni uvuxnan tərpətməx' lazımdı* (Tovuz).

**UVUR-SUVUR** (Zaqatala) – b a x **ubur-subur.** ◊ **Uvur-suvura salmax** – b a x **ubur-subura salmax.**

**UYALAMMAX** (Meğri) – b a x **oyalammax.**

**UYAR** I (Çənbərək) – uyğunluq, oxşayış, bənzəyiş. – *Bunun ona uyarı yoxdu.*

**UYAR** II (Zaqatala) – fərziyyə. – *Ho heş şey bilmir, uyarnan danışır.*

**UYDUR** (Şəki) – baramanın ipəyi alınandan sonra yerdə qalan çıxar hissə. – *İpəyin alılar baramanın, qalır uydur.*

**UYDURUM** I (İmişli) – səfeh, ağılsız. – *Bu gedə uydurumdu, ona baş qoşma.*

**UYDURUM** II (İmişli) – 1. çayın dərin yeri; 2. burulğan. – *Əyə, uşağ uyduruma düşər.*

**UYMA** (Oğuz) – ürək bulanması.

**UYMAĞ** (Dərbənd) – b a x **oymağ** 1. – *Anam uymağnan paltar tikədü.*

**UYMAX** I (Çənbərək) – yuxuya getmək, uyumaq. – *Çağa beyjə ağladı yatəmmədi, indi də savaxdannan u:yuf.*

**UYMAX** II (Qax) – b a x **oymax** III, 1.

**UYMANNIX** (Qax) – selin ovduğu yer.

**UYMIŞ** (Lənkəran) – qıcqırmış. – *Uymış südi, tolla getsün.*

**UYNUMAX** (Çənbərək) – uyuşmaq, bərkimək. – *Qatığ uynupbu ola?*

**UYRA** (Balakən) – ikiyaşar erkək at.

**UYUF** (Masallı) – ağılsız. – *Nə uyuf adamsan sən?*

**UYUĞ** (Xaçmaz, Quba) – b a x **ovux.** – *Uyuğı u düzəldədü bırda* (Quba).

**UYUX** I (Cəbrayıl, Qax) – b a x **oyux** II. – *Bosdandaqı uyuğa bet oxşıy* (Qax).

**UYUX** II (Qax) – 1. diqqətsiz; 2. başısoyuq.

**UYUX** III (Zaqatala) – uyğun. – *Ho da hona uyux sözdü.*

**UYULMAX** (Qax) – inanmaq, etibar etmək. – *Honun deydeylərinə uyulup hona getdi.*

**UYURCAH: UYURCAH OLMAX** (Barana) – rastlaşmaq, rast gəlmək. – *Gedif əfəlin birinə uyurcah oldum.*

**UYUŞMAX** I (Ağdam, Bərdə, Cəbrayıl, Daşkəsən, İmişli, Şamaxı, Şuşa, Zəngilan) – bərkimək <südün qatığa çevrilməsi zamanı>. – *Süd hələ uyuşmuyuf* (Ağdam); – *Qatığı kəsmə, hələ uyuşmaz* (Daşkəsən); – *Qatığ heç uyuşmuyuf, nə tə:r kəsim verim sã:* (Zəngilan); – *Südün üsdün açma, indi-indi uyuşur* (Cəbrayıl); – *Qatığı indi çalmışam, bir əzdən uyuşar* (Şuşa).

**UYUŞMAX** II (Cəbrayıl, Şuşa, Zəngilan) – öyrəşmək, alışmaq; isinişmək. – *Bir həfdədi bı quzunu alıp gətimişəm, ama heş bizim quzulara uyuşmur* (Zəngilan); – *Çox soyux uşaxdı, heş kəsə uyuşmur* (Şuşa).

**UYUŞMAX** III (Cəbrayıl) – keyimək. – *İndi uyuşur i:nənin yeri.*

**UZAMAX** (Kəlbəcər) – uzanmaq. – *O hası adamın boğazı uzundu de:llər: "Ə:, bunun anğut kimi boğazı uzoyuf"*.

**UZAN** (Quba) – bax **ozan** II.

**UZANAJAX** (Tovuz) – arabanın qolu. – *Uzanajax fisdığ ağajınnan olor.*

**UZATMAX** I (Dərbənd, Tabasaran) – göndərmək. – *Sora uniyə <oraya> adam uzatadam* (Dərbənd); – *Uğluma mektup uzatmışam* (Tabasaran).

**UZATMAX** II (Çənbərək, Dərbənd, Tovuz) – yola salmaq, ötürmək. – *Apardım, uşağı Əyridən uzatdım, bilmirəm gedif çıxə:ləjəxʹlərmi* (Çənbərək); – *Apar onu vazqalacan uzat, soŋra qayıdarsaŋ* (Tovuz); – *Mən qunağlari uzatmağa gitdim.* – *Qunaği uzatıb gələdəm* (Dərbənd).

**UZATMAX** III (Çənbərək) – toxumaq. – *Çatı uzadıram.*

**UZDAMAX** (Çənbərək, İrəvan) – əvvəlcədən müəyyənləşdirmək. – *Əhməd, yer uzdeyjam;* – *Noyruz Sarıdəriyi uzduyuf* (İrəvan); – *Sudu Avdası büyünnəri yer uzduyurdu ku, otunu çala* (Çənbərək).

**UZDAN** (Zaqatala) – təmiz, səliqəli.

**UZDANNIX** (Zaqatala) – təmizlik. ◊ **Uzdannığa çıxmax** – təmizliyə çıxmaq. – *Uzdannığa çıxdım, canım dincaldı.*

**UZUNARAX** (Ağcabədi) – ucaboy, uzun. – *Həsən uzunarax bir adamdı.*

**UZUNBILLA** I (Biləsuvar, Cəlilabad, Kürdəmir, Salyan) – uzunsov. – *Şamı qarpız uzunbılladı* (Biləsuvar).

**UZUNBILLA** II (Kürdəmir) – sapılca. – *Uzunbıllada qayğanağ bişirrüg.*

**UZUNBULLAMA** (Cəlilabad) – bax **uzunbulla** I. – *Qarpızın uzunbullamasi də oley, biz deyüğ ona uzunbullama qarpız.*

**UZUNBURUN** (Dərbənd, Xaçmaz, Quba) – ağcaqanad. – *Bu suluğda u qədər uzunburun var ki, durmağ ulmur* (Xaçmaz).

**UZUNÇAX** (Gədəbəy) – yelləncək. – *Uşaxlar daŋ üzünnən uzunçaxda yelləneylər;* – *Ağaşdan uzunçax as kın, yellənsin uşaxlar.*

**UZUNHO:ĞAR** (Quba) – bax **uzuno:xar.**

**UZUNHO:XAR** (Salyan) – bax **uzuno:xar.** – *Bırda uzunho:xar adam çoxdı.*

**UZUNHOQQA** (Şərur) – bax **uzuno:xar.** – *Burda uzunhoqqa adamnar çox olub.*

**UZUNHOQQAR** (Bərdə, Cəbrayıl, Çənbərək, Göyçay, Karvansaray, Qazax, Sabirabad, Şamaxı, Tərtər, Yevlax) – bax **uzuno:xar.** – *Süleyman uzunhoqqar adamdı, maşına sığışme:ır;* – *Qədir uzunhoqqarın biridi* (Bərdə); – *Saf <lap> uzun adama uzunhoqqar adam diyərixʹ* (Qazax); – *Haravıyı Yaqor oğlu uzunhoqqar yığdı deyn domarrandı* (Karvansaray); – *Gənə uzunhoqqar gəldi* (Şamaxı).

**UZUNQURQUD: UZUNQURQUD ELƏMƏXʹ** (Beyləqan) – uzunçuluq etmək. – *Çox uzunqurqud eləmə, yaxamızdan əl çək, sən allah.*

**UZUNNUĞ** (Biləsuvar, İmişli, Kürdəmir, Lənkəran, Sabirabad, Salyan) – qadın alt köynəyi, kombinasiya. – *Uzunnuğı zərif parçadan tikillər* (Kürdəmir); – *Uzunnuğı arvaddar giyər* (Salyan); – *Zivər özünə uzunnuğ tikdirdi* (İmişli).

**UZUNO:XAR** (Quba) – çox uzun, ucaboylu. – *Hindi uzuno:xar adamlar az uladu.*

**UZUNSAL** (Qazax) – uzunbədənli, uzun. – *Uzunsaldı bu cöngə, əti çox olar.*

**UZUNSULĞAR** (Qazax) – ucaboylu. – *Uzunsulğar bir kişi səni soruşurdu.*

**UZUNSALLAX** (Basarkeçər) – çox uzun, ucaboylu. – *Gədə oxəntənə uzunsallaxdı ki, öyə girəndə ikiqat əyilir.*

**UZUNŞÜLLƏ** (Ağcabədi, Bərdə, Tərtər, Yevlax) – uzunsov. – *Uzunşüllə qarpızın qabığı qalın olur* (Tərtər).

**UZUNŞÜLLƏXʹ** (Cəbrayıl) – bax **uzunşüllə.**

# Üü

**ÜCƏ** (Cəlilabad) – toyuğun beli. – *Bişəndə mənə ücə ver.*

**ÜCGÜR** (Salyan) – ağıldanyüngül, kəmağıl. – *Həsən ücgür adamdı.*

**ÜCÖÜRRƏMƏG** (Yardımlı) – təkrar etmək. – *Bi sözi nə çox ücöürreysən, bəsdi daynə.*

**ÜCÜLƏMAX** I (Şəki) – b a x **ujulamax.** – *Sən də bi şeyi az ücülə.*

**ÜCÜLƏMAX** II (Şəki) – arzu etmək. – *Heylə yerrəri ücüləmə.*

**ÜCÜZ** (Gədəbəy) – uzun.

**ÜÇDÜ** (Füzuli) – üçqat, birə-üç. – *Buğdanı qartofunan üçdü dəyişillər.*

**ÜÇƏM** I (Culfa) – aşıqla oynanılan qumar. – *Üçəm oynallardı qabaxlar.*

**ÜÇƏM** II (Kəlbəcər) – qumrov. – *Üçəm qoyunun boğazında olar.*

**ÜÇƏM** III (Ağdam, Əli Bayramlı, Gədəbəy, Kürdəmir, Qazax, Naxçıvan, Ordubad) – 1. bir dəfəyə üç bala doğmuş qoyun, keçi (Ağdam, Əli Bayramlı, Kürdəmir, Ordubad). – *Bizim qalxozun qoyunnarının çoxu üçəm qoyunnardı* (Ordubad); 2. üçqat (Gədəbəy, Kürdəmir, Qazax) – *İpi üçəm əyir* (Qazax); 3. üç cərgə (Naxçıvan) – *Qatırı üçəm yüklə.*

**ÜÇƏM-ÜÇƏM** (Ordubad) – üç-üç. – *Üçəm-üçəm yığ.*

**ÜÇƏNƏ** (Cəlilabad, Yardımlı) – böcək adı. – *Üçənə bırda çox oley, cüci kimi bi şeydü;* – *Üçənə pambığın sofqasın yey.*

**ÜÇƏR** (Dərbənd) – b a x **uçar.** – *Ha bu kişinin toyun ələməsən, üçərdən taymaz, vallah;* – *Üçərdə çuxlu adam yığılıtdı axşamlar.*

**ÜÇƏYAX** (Naxçıvan) – üstündə xəmir yayılan taxta. – *Üçəyax çörəx′ bişirməyə gərəx′di.*

**ÜÇGÜL** (Qazax) – üçkünc, üçbucaq şəkilli.

**ÜÇİLLİK** (Ucar) – uşaq oyunu adı. – *Üçillikdə iki dəssə olur, hər dəssənin baççısı olur.*

**ÜÇMƏĞ** (Yardımlı) – yıxılmaq. – *Kişi üçüb əzildi.*

**ÜÇÜÇ** (Qax) – parabizən, kiçik xallı böcək. – *Ho otdarın içində çox üçüç olıy.*

**ÜÇÜMMƏX′** I (Göyçay) – b a x **uçummax** II. – *O, salımçaxda üçünür.*

**ÜÇÜMMƏX′** II (Çənbərək) – titrəmək, üşümək. – *Beyjə soyuğudu deyn yorğanın altda üçündüm.*

**ÜÇÜMMƏX′** III (Çənbərək) – qorxmaq, səksənmək. – *Çağa beyqafil bağırdı deyn üçündüm.*

**ÜDƏLƏMƏG** I (Kürdəmir) – tez-tez yemək. – *Üdələ qutar, dərsə gecikdüg.*

**ÜDƏLƏMƏX′** (Kürdəmir, İrəvan) – fasiləsiz olaraq boş-boşuna danışmaq. – *Nə üdəliyirsəŋ, yaxşı danış* (İrəvan).

**ÜDÜLƏMƏX′** (Ağdam, Bərdə, Şuşa) – b a x **üdələməx′.** – *Bəxdəvər üdüləməx′dən yorulmur, hey danışır ha:* (Ağdam); – *Ona nə qulağ asırsan, üdüləməx′ onun peşəsidi dana* (Bərdə); – *Sə:rdən üdülüyür, heş bilmirəm nə de:r* (Şuşa).

**ÜFLÜYƏ-ÜFLÜYƏ** I (Salyan) – *məc.* əzizləyə-əzizləyə. – *Badam xala nəvələrin üflüyə-üflüyə saxlıyır.*

**ÜFLÜYƏ-ÜFLÜYƏ** II (Salyan) – üfürə-üfürə. – *Uşax çayı üflüyə-üflüyə içir.*

**ÜFÜRCƏX′** (Şuşa) – qoyunun və ya keçinin sidik kisəsi. – *Qəssəfdən aldığım ətin üsdündə üfürcə′x də varıdı.*

**ÜFÜRDEX′** (Şəki) – çinədan, quşun dənliyi. – *To:ğun üfürdeyinə qan dolduruf qoyubbuş.*

**ÜFÜRDƏ** (Culfa) – təndirə çörək yapmaq üçün işlədilən alət.

**ÜFÜRDƏX′** (Gəncə) – qovuq. – *Üfürdəx′nən suda üzdüm.*

**ÜFÜRDƏNƏ** (Ordubad) – b a x **üfürdə.** – *Üfürdəneynən çörəx′ yapanda adamın əli yammaz.*

**ÜFÜRUX** (Şəki) – qoz və şabalıd çırpmaq üçün istifadə edilən uzun ağac. – *Bizdərdə qozu üfüruxnan çırpallar.*

**ÜG** (Dərbənd) – b a x **ög.** – *Ügdə büzü bağdu.*

**ÜGÜNMƏX′** (Beyləqan Çənbərək) – sığınmaq. – *Mən sənə ügünmüşəm* (Beyləqan); – *Əyri Zavaş Usuvaja üğünüf dolanır* (Çənbərək).

**ÜGÜR** (Quba, Xaçmaz) – ciftləşmə. ◊ **Ügürə gitmağ** – ciftləşmək.

**ÜJDƏMMƏX′** (Çənbərək) – gizlin qaçmaq. – *Əfqan axşam toydan üjdəndi.*

**ÜJƏLƏMMƏX** (Cəbrayıl) – arxalanmaq, güvənmək. – *Kimə üjələnirsəŋ, vırram ölüsəŋ.*

**ÜJÜLƏMƏX′** (Çənbərək) – b a x **ujulamax.** – *Fatı eləjə savaxdannan üjülü:r;* – *Ağzına bir söz düşəndə eləjə üjülüyürsəŋ dayna.*

**ÜQDƏ** (Şuşa) – arzu. – *Bu üqdə mənim ürə:mdə qaldı.*

**ÜQUBƏT** (Şuşa) – əzab, əziyyət. ◊ **Üqubət verməx′** – əzab vermək, əziyyət vermək. – *Bilsəŋ kin, o maŋa üqubət verif, heş belə danışmassaŋ.*

**ÜQUBƏTDİ** (Şuşa) – əzablı, əziyyətli. – *Bu iş çox üqubətdi işdi.*

**ÜLƏŞƏMƏX′** (Tovuz) – çox yemək, qarınqululuq etmək.

**ÜLƏŞİX′** (Gəncə, Qazax, Tovuz) – dəhnə, kiçik su ayrıcı. – *Gedem bağa üləşix′dən bir əz su açem* (Qazax); – *Su üləşix′dən azalıf* (Gəncə).

**ÜLGÜ** (Salyan) – ölçü, standart. – *Bılar ülgüyə uyğun gəlir.*

**ÜLGÜC** (Şamaxı) – hürgüc. – *Bı dəvənin ülgüci bi dənədi.*

**ÜLGÜRD** (Şamaxı) – boğça. – *Ülgürdi gət, hamama gedirəm.*

**ÜLK** (Oğuz) – qoz və şabalıd çırpmaq üçün istifadə edilən uzun ağac. – *Biz ülk diyirix′, Daşağıllılar suyrux diyir.*

**ÜLKƏRBATAN** (Oğuz) – payızın axırı. – *Ülkərbatanda heç nə əx′məy olmaz.*

**ÜLKƏRDOĞAN** (Oğuz) – payızın əvvəli. – *Ülkərdoğanda taxıl əkirix′.*

**ÜLÜÇ** (Ağcabədi) – arasına halva qoyulmuş yuxa, lavaş. – *Mənə bir ülüç halva ver.*

**ÜLÜŞ** (Ağdam, Kürdəmir, Sabirabad, Salyan) – b a x **ülüç.** – *Qonşumuz bizə bir ülüş halva verdi* (Sabirabad); – *Qəbirsandığda ülüş verdilər cama:ta* (Salyan).

**ÜLÜŞMƏX′** (Ordubad) – solmaq.

**ÜLÜTMƏX′** I (Basarkeçər, Cəbrayıl, Zəngilan) – acgözlüklə yemək. – *Otdu sürfanın qıra:nda nə var, hamısın ülütdü* (Basarkeçər); – *Bir kasa qatıx verdim, bir dəyğada ültüdü* (Zəngilan); – *Nə verdin, bir dəyqada ülüdür* (Cəbrayıl).

**ÜLÜTMƏX′** II (Çənbərək) – islatmaq. – *A:qa, Hajıya deynən ki, başıŋı ülüssün, burda qırtdısıŋ;* – *Başıŋı savınnan ülüssəŋ, ülgüş yaxşı kəsi.*

**ÜN** (Bakı, Cəbrayıl, Cəlilabad, Culfa, Gədəbəy, Göyçay, Xanlar, İmişli, İsmayıllı, Laçın, Oğuz, Saatlı, Salyan, Şahbuz, Şamaxı, Şəmkir, Şuşa, Tovuz) – b a x **in** III. – *Hər yana ün saldım* (İmişli); – *Bir ün sallam ki, a:ləm yığılar* (İsmayıllı); – *Mədət kişi dağadaşa ün salıf* (Gədəbəy); – *Gejə-gündüz ünüm göyə qalxır* (Laçın); – *Uzağdan ün gəldi, baxdım gördim odı* (Salyan); – *Ünüm tutduxcan bağırdım, əmbə eşitmədi* (Tovuz); – *Be:jə dişimin ağrısınnan o qədə ağlamışam, ünüm dağlara düşüf* (Şuşa).

**Ü:N-Ü:N** (Salyan) – soraqlaya-soraqlaya. – *Dünənnəri bazarda süti ü:n-ü:n axtarıllardı.*

**ÜNNƏX′** (Qazax) – adı pisliyə çıxan. ◊ **Ünnəy olmax** – adı pisliyə çıxmaq. – *Adın ünnəx′ki oldu, gərəx′ kəntdən çıxasan.*

**ÜNNƏMƏX′** (Gədəbəy, Gəncə, Qazax) – səsləmək, çağırmaq. – *Səməd dayı səni ünne:r* (Qazax); – *Gör nə cürə ünnüyür arvad yazıx* (Gəncə); – *O məni ünnədi;* – *Çox ünnədim, gəlif çıxmadı* (Gədəbəy).

**ÜNNƏMMƏK** (Salyan) – çoxalmaq, artmaq. – *İş ki ünnəndi, vaxtında yerinə yetirmək çətindi.*

**ÜNÜG** (Quba) – dəstək. – *Bazara gidəndə dürd danə ünüg al götür, pəncərəyə vurağ.*

**ÜPBƏCİK** (Cənubi Azərbaycan, Göyçay) – qabarcıq.

**ÜPGƏ** (Zaqatala) – b a x **ofkə.** – *Bazardan üpgə aldım.*

**ÜRCAH: ÜRCAH OLMAX** (Cəbrayıl, İmişli, Ordubad, Tovuz) – b a x **uyurcah olmax.** – *Yerimiz çox gənəşdiydi, sən də bizə ürcah oldun* (Tovuz).

**ÜRƏX′QAZI** (Mingəçevir) – ürəkdən.

**ÜRƏX′LƏM: ÜRƏX′LƏM OLMAX** (Borçalı) – qorxmaq, səksənmək. – *Ə, öyüŋ yıxılmasın, nə beqafil girdiŋ içəri, lap ürəx′ləm oldum.*

**ÜRƏMƏG** (Salyan) – artmaq, çoxalmaq. – *Ged-gedə bı heyvannar üreyir* (Şamaxı).

**ÜRƏMƏK** (Göyçay) – b a x **ürəməğ.** – *To:xlar üriyib.*

**ÜRƏŞDİRMƏX′** (Ağdaş) – artırmaq, çoxaltmaq. – *Bu il mən toyux-cücəni bir az ürəşdirməy isdiyirəm.*

**ÜRƏŞMƏX′** (Ağdaş) – artmaq, çoxalmaq. – *Qazdarımız, toyuxlarımız, göz dəyməsin, yaxşı ürəşir.*

**ÜRƏTMEG** (Quba) – artırmaq, çoxaltmaq. – *Anam cücələri ürətmegə həmməşə çalışadu;* – *Biz hər il to:uğ-cücəni ürəteduğ.*

**ÜRƏYƏN** (Şamaxı) – tez artan, çoxalan. – *Ürəyən heyvan yaxçıdı;* – *Qoyun ürəyən heyvandı.*

**ÜRF** (Şuşa) – adət, qayda. – *Bizim ürfümüzdü, bö:ix′ gələndə kiçix′lər ayağa durar.*

**ÜRGƏNÇƏX′** (Xanlar) – beşik.

**ÜRK** (Oğuz) – b a x **ülk.** – *Qozu ürknən çırpıb yerə töx′düm.*

**ÜRMƏG** (Dərbənd) – örpək. – *Alı da ürməg vərdi.*

**ÜRSÜZ** (Kürdəmir) – həyasız, sırtıq. – *Ürsüz adamnan dosd olma.*

**ÜRÜMƏX′** (Ağdam) – b a x **ürəməğ.** – *Adamların çoxu Şirvannan köçüf gəlif bu kəndə, sonra ürü:f.*

**ÜRÜŞ** (Ağdam, Şuşa) – b a x **ülüç.** – *Yanı oxərtənə ölü oldux kun, bir ürüş halvanı da yeə bilmədi:x′?* (Ağdam); – *Yas yerində həriyə bir ürüş halva verdilər* (Şuşa).

**ÜRÜŞBABA** (Ağcabədi, Tərtər) – üzüm növü adı. – *Ürüşbaba yeməli üzümdü* (Tərtər).

**ÜRÜŞT: ÜRÜŞT ELƏMƏG** (Salyan) – özbaşınalıq etmək. – *Mən ölüb gedəcəm, gəlin hə:tdə ürüşt eliyəcəg.*

**ÜRZÜX′MƏX′** (Cəbrayıl) – b a x **üzüx′məx′.**

**ÜSDƏLİX′** (Şərur, Yardımlı) – yük, dəvəyə yüklənən yük.

**ÜS** (Salyan) – üstün. – *Gəl qapışağ, görəg kim kimə üs gələcəg.*

☐ **Üs eləməx′** (Oğuz) – oxşamaq, sığallamaq.

**ÜSƏRƏYİN** (Şamaxı) – srağagün. – *Üsərəyin bizə qonağ gəlmişdi.*

**ÜSGÜG** (İmişli) – cəyirtkə sürfəsi. – *Çə:urğə yeri deşərdi, üsgügi qoyardı ora.*

**ÜSKƏNCƏBİ** (Bakı) – əncir qurusu.

**ÜSRƏTNƏN** (Şərur) – çətinliklə. – *Onnar bizə çox üsrətnən gəlib çatdılar.*

**ÜSSƏ: ÜSSƏ DURMAĞ** (Salyan) – müdafiə etmək, tərəfini saxlamaq. – *Sən bilmirsən ki, o, qardaşının üssə duracağ?*

**ÜSTEL** (Lənkəran) – yabanı bitki adı. – *Üstel heyvanı kökəldən yemdi.*

**ÜSTƏLƏX′** (Şərur) – b a x **üsdəlix′.** – *Üstələx′ dəvənin üsdünə qoyulan yükə deyilir.*

**ÜŞDƏMƏLƏX′** (Şuşa) – uşaq oyunu adı.

**ÜŞDƏR** (Borçalı) – ulduz adı.

**ÜŞDƏSƏR** (Lənkəran) – üçlüləli tüfəng. – *Balası üşdəsər atar.*

**ÜŞƏLƏMƏĞ** I (Salyan) – yemək. – *Toyda başda otırıb üşəleyirdi.*

**ÜŞƏLƏMƏĞ** II (Əli Bayramlı, İmişli) – iki sapı birlikdə burmaq <cəhrədə>. – *Əvvəl əyirirsən, dönüb üşəli:rsən* (İmişli).

**ÜŞƏLƏMƏX′** I (Şəmkir) – b a x **üşələməg** I. – *Nə üşəliyirsən, qoysana yuannıx gətirim.*

**ÜŞƏLƏMƏX′** II (Cəbrayıl, Çənbərək) – b a x **üşələməg** II. – *Ciyim xananın ərişini üşəliyif* (Çənbərək.)

**ÜŞƏLƏMMƏX′** I (Qazax, Tovuz) – b a x **ütələmməğ.** – *Canavarrar üşələnellər yeməx′dən ötrü* (Qazax); – *Ə:, nə üşələnirsəŋ, varıf işinə-gücüŋe:tsəŋ* (Tovuz).

**ÜŞƏLƏMMƏX′** II (Tovuz) – tökülmək. – *Damın torpağı içəri üşələner.*

**ÜŞƏLƏMMƏX′** III (Borçalı) – sarınmaq. – *Yumax yaxşı üşələnerdi.*

**ÜŞƏMMƏG** (Bakı, Cəlilabad, Əli Bayramlı, Kürdəmir, Sabirabad, Salyan) – qorxmaq. – *Ağəz, nöş üşənirsən, danış da:* (Bakı); – *Mən qarannığ öydə üşənirəm* (Əli Bayramlı); – *Mən meşədən keçəndə elə üşəneydim, elə üşəneydim, çoxdan da çox* (Cəlilabad).

**ÜŞƏMMƏX′** I (Cəbrayıl, Meğri, Tərtər, Zəngilan) – b a x **üşəmməğ.** – *Tavlıya təx′ getmə, üşənərsən* (Zəngilan); – *Qabaxlarda Ərəz yenişə-yoxuşa get-gel eliyəndə üşənirdix′* (Meğri); – *Ağacın şö:gəsində qaraltı gördüm, üşəndim* (Tərtər).

**ÜŞƏMMƏX′** II (Gəncə) – şübhələnmək. – *Onun danışığınnan bir əz üşəndim.*

**ÜŞƏMMƏX′** III (Çənbərək, Xanlar) – getmək. – *Camahat ijma:yn üşəndi;* – *Bu arvat-*

*dar harya üşənir?* (Çənbərək); – *Qoyun yatışey, birdən bir yannan üşəney* (Xanlar).

**ÜŞƏNC** (Çənbərək, Hamamlı, Qazax, Qax, Şəmkir) – ehtiyat üçün yığılıb saxlanan xırda-xuruş şeylər <iynə, sap, müxtəlif parça kəsikləri və s.>. – *Üşənci sandığa yığıram* (Çənbərək); – *Səniŋ üşənciŋ hardadı, yaqin içində iynə-sap olar* (Hamamlı).

**ÜŞƏNCİL** (Qazax) – ehtiyatlı, qənaətcil. – *Qazancıl kişinin üşəncil arvadı olar.*

**ÜŞƏTMƏX′** (Xanlar, Tovuz) – b a x **üşələməg** I. – *Üşətməx′də bəd döyüsəŋ* (Tovuz); – *Birisi ye:r, de:r kin, üşədir; – Çörəy üşədirsə:ŋ?; – Dur bərə:l* (Xanlar).

**ÜŞGÜ** (Qax, Oğuz, Şəki, Zaqatala) – burğu. – *Üşgü ağacı həblə bura-bura deşir* (Oğuz); – *Həsən üşgüynən taxta deşirdi* (Zaqatala); – *Üşgü ititdi; – Ağaşdəri üşgüynən deşif biz yığdıx bi tərəfə, sora gəliv apardılar* (Şəki).

**ÜŞGÜL** (Qax) – kəmərin qaşı. ◊ **Üşgül iynə** (Şəki) – yorğan-döşək sırımsaq üçün uzun, yoğun iynə. – *Üşgül iynəni gəti, yorğan sırıyax; – Ciya: dinə, bir dənə üşgül iynə versin, yorğanı sırımağ isdi:rəm.*

**ÜŞGÜLÜX′** (Oğuz) – b a x **üşkürək.** – *Muna bax ey, qanacaxsız, öydə üşgülüx′ çalır.*

**ÜŞİMMAX** (Meğri) – b a x **üşəmməg.**

**ÜŞKÜRƏK** (Culfa) – fit.

**ÜŞQIMMAX** (Meğri) – tərpənmək. – *Dünyamalı üşqıney.*

**ÜŞÜLƏMMƏX′** (Cəbrayıl) – ərimək. – *Qar üşülənir.*

**ÜŞÜRGƏLƏMMƏX′** I (Çənbərək) – şübhələnmək. – *Dünənnən bəri Qılqıldan üşürgələmmişəm.*

**ÜŞÜRGƏLƏMMƏX′** II (Xanlar, Şəmkir) – qorxmaq, vahiməyə düşmək. – *Rəhmətdig atam deyərdi ki, mən bu yerdən keçərkən çox üşürgələnərdim* (Xanlar); – *Tıqqıltı səsiyəldi, osa:d üşürgələndim, bildim ki, qapıya canavar gəlif* (Şəmkir).

**ÜTDÜLÜM** I (Salyan) – zirək, qoçaq. – *Nənəm ütdülüm arvatdı, heş yerdən qalan dögür.*

**ÜTDÜLÜM** II (Salyan) – cılız, arıq. – *Bı uşax çox ütdülümdü.*

**ÜTƏLƏX′** (Basarkeçər) – tələskən. – *O, yaman ütələx′ kişidi.*

**ÜTƏLƏX′-ÜTƏLƏX′** (Basarkeçər) – tələsə-tələsə. – *Ütələx′-ütələx′ yedi, çıxıf getdi.*

**ÜTƏLƏMƏG** (Kürdəmir) – 1. sıxışdırmaq; 2. tənqid etmək. – *İclassa sədrini mökgəm ütələdilər.*

**ÜTƏLƏMƏX′** (Gədəbəy, Şəmkir, Tovuz) – 1. ala-çiy, tələsik bişirmək. – *Kavavı eləjənə ütəle:flər, də:siŋ* (Gədəbəy); – *O əti ojaxda ütələ uşaxlara ver, qoy alağızdansınnar* (Tovuz); 2. ütmək. – *Apar bu başə:ğı ütələ* (Şəmkir).

**ÜTƏLƏMMƏG** (Şamaxı) – vurnuxmaq, ora-bura soxulmaq. – *Zeynalabdı kişi genə, görəsən, nə ütələnir?*

**ÜTƏLƏMMƏX′** (Çənbərək, Gədəbəy, Mingəçevir, Tovuz) – b a x **ütələmməg.** – *Nə:ŋ ütələneysiŋ, ə qişi, qənə buralarda?* (Gədəbəy); – *Ə:, nə ütələnersəŋ, varıf işiŋəgüjüŋe:tsəŋ* (Tovuz).

**ÜTƏLGİ** I (Ağdam, Bərdə, Kürdəmir, Qazax, Oğuz) – ley. – *Deyəsən, quşdarın içinə ütəlgi tüşüf* (Qazax); – *Ütəlgi hası quş oldu, tutuf yeir* (Bərdə).

**ÜTƏLGİ** II (Ağdaş, Cəbrayıl, Şuşa) – 1. başqasına can yandıran (Ağdaş). – *Mə:sut çox ütəlgidi;* 2. cəld, qoçaq (Cəbrayıl). – *Nüsrət ütəlgi uşaxdı;* 3. bacarıqlı (Şuşa). – *Nadir çox ütəlgi adamdı, əlinnən hər şey gəlir.*

**ÜTƏLGİ** III (Zaqatala) – kələkbaz.

**ÜTMƏ** I (Ağdam, Mingəçevir) – əlağacı. – *Sənə bir ütmə vuraram ölərsən* (Ağdaş).

**ÜTMƏ** II (Salyan) – əfəl, bacarıqsız. – *Bı uşax ütmənin biridi.*

**ÜTMƏCƏ** (Ağdam, Qazax) – heyvan xəstəliyi adı. – *Başıŋ-gözüŋ nə yaman şişif ə:, ütməcə ha olmuyufsaŋ* (Qazax).

**ÜTMƏX′** (Hamamlı) – oğurlamaq. – *Qoyunu elə ütdülər ki, heş kəsin xavarı olmadı.*

**ÜTÜ** (Çənbərək, Füzuli, Mingəçevir) – 1. bəla; 2. təhlükə; 3. qəza. – *Şəhri yüz yaşeyjax savaxkı ütüdən ötüşsə* (Çənbərək); – *Bu ütüdən savışsaŋ, min yaşaram* (Füzuli).

**ÜTÜG** I (Şamaxı) – sırtıq. – *Ütüg adamnan mə:m xoşum gəlməz.*

**ÜTÜG** II (İsmayıllı) – xəsis. – *Çox ütüg adamdı, bir gün qalduğ, şordan başqa bir şey yemədüg.*

**ÜTÜX′** I (Ağdaş, Kürdəmir, Mingəçevir, Şəki) – tez üşüyən, soyuğa davamsız. – *Sən lap ütüx′sən ki, heç həvlə havada da adam üşüyə:r?* (Şəki). ◊ **Ütüy olmax** (Ağdaş) – tez üşümək, soyuğa davamsız olmaq. – *Sən çox ütüy olmusan.*

**ÜTÜX′** II (Ağdam, Cəbrayıl, Kürdəmir, Laçın, Ordubad, Şuşa, Zəngilan) – bacarıqlı, zirək. – *O, çox ütüx′ kişidi, heş vaxt neynim-nejeli:m demiyif;* – *Maşallah, Osman çox ütüx′ gədədi* (Ağdam); – *Ütüy adamdı, nə tafşırsaŋ, alıf gətirəcəx′* (Laçın); – *Pıl verin, toxuma Həsən gessin, o, çox ütüx′dü, harda olsa tapıf gətirəcəx′* (Cəbrayıl); – *Əhmət ütüy uşaxdı* (Şuşa).

**ÜTÜX′** III (Kürdəmir, Ordubad) – kələkbaz, hiyləgər.

**ÜTÜLƏMƏX′** (Bərdə, Tərtər) – hamarlamaq. – *Tapan şumlammış yeri ütülüyür* (Bərdə).

**ÜTÜLMƏX′** (Çənbərək) – vurnuxmaq, ora-bura soxulmaq. – *İllazalı büyün buralarda yaman ütülürdü.*

**ÜTÜMƏX′** (Şəmkir) – sürətlə keçmək.

**ÜVNƏ** (Xaçmaz, Quba) – b a x **öynə** II.

**ÜY** I (Goranboy) – b a x **iv** I.

**ÜY** II (Balakən, Gədəbəy, Xanlar, Qazax, Yevlax) – oynaq, buğum. – *Barmaxda üç üy olur* (Yevlax); – *Baramağımın üyləri yaman sızılde:ir* (Gədəbəy); – *Habulara baramaxların üyləri də:llər* (Balakən). ◊ **Üy vərmax** (Zaqatala) – həddindən artıq çox olmaq.

**ÜYEY** (Şamaxı) – quş adı. – *Osman tüfəngiynən iki üyey vırdı.*

**ÜYİ** (Qazax, Şəmkir) – b a x **üy** II. – *Üyilərim ağrer, bilmerəm nədəndi* (Şəmkir).

**ÜYİDMƏG** (Saatlı) – aramsız olaraq tez-tez danışmaq. – *Ginə nə üyidirsən, elə danışginən ki, biz zə bi şey başa düşə biləg dənə.*

**ÜYSÜX′** (Basarkeçər) – şanda olan deliklər. – *Şanın üsüyündə bal var.*

**ÜYÜRMƏX′** (Qax, Şəki) – hürmək.

**ÜYÜŞMƏX′** I (Qazax) – toplaşmaq, yığılmaq. – *Arı başıma elə üyüşdü ki, güjnən qaçıp qurtardım.*

**ÜYÜŞMƏX′** II (Bərdə, Gədəbəy, Yevlax) – keyləşmək. – *Əağım üyüşüf, durammıram* (Yevlax); – *Oxxarta otudum kun, bir dö:rdüm <də gördüm>, üyüşüf əağım, da tərpədəmmədim xeylax* (Gədəbəy).

**ÜYÜTMƏX′** (Balakən) – tez-tez yemək.

**ÜZ** (Ağdam, Bərdə, Biləsuvar, Borçalı, Cəlilabad, Salyan, Şəki) – qaymaq. – *Südün üzün alıflar, altının kəndo:u qalıf* (Ağdam); – *Qavaxdan da üz çox olurdu* (Borçalı); – *Südün üzün yığıf satajam* (Bərdə); – *Sütün üzünü yığıf heyləcə töhmüşəm nəhriyə* (Şəki).

**ÜZBƏSİFƏT** (Salyan) – üzbəsurət, üzbəüz.

**ÜZƏÇIXDI** (Salyan, Yardımlı) – toydan sonrakı gün təzə bəyin öz dostları ilə görüşü.

**ÜZDƏMƏX′** I (Ağdam, Çənbərək, Gəncə, Şəmkir, Şəki) – seçmək, seçib götürmək. – *Üzdüyüf yaxşıların, pisdəri qalıf* (Ağdam); – *A Ceyran, üzdəmə, gə bir tərəfdən yığ* (Şəmkir); – *O, armıdı üzdəməy isdədi, mən qoymadım* (Şəki); – *Çovannar üzdüyür gətdiyini də* (Çənbərək).

**ÜZDƏMƏX′** II (Şəki) – qaymağını yığmaq. – *Sütü üzdiyəndə qatığı yağsız olar.*

**ÜZDƏMMƏX′** (Gəncə) – həyasızlaşmaq, sırtıqlaşmaq. – *Səməd axır vaxdar yaman üzdənif.*

**ÜZDÜX′** (Gəncə) – çörəyin üzünə vurulan yumurta, ayran və s. – *Çörəyimiz üzdüx′süzdü;* – *Yumurta olmadı, çörəyə üzdüx′ vurmadım.*

**ÜZDÜX′LƏMƏX′** (Gəncə) – çörək bişirərkən üzünə yumurta sarısı və ya ayran çiləmək. – *Çörəyi üzdüx′ləməx′ lazımdı.*

**ÜZƏX′** I (Ordubad) – çarıqda bağ keçirilən ilgək.

**ÜZƏX′** II (Oğuz) – alma, armud cecəsi. – *Almanı yi:f, üzəyini ə:ğ altda tullama.*

**ÜZƏMMƏX′** (Ağdaş) – oğurlanmaq. – *Taxıl üzənib üş gündü.*

**ÜZƏMMİŞ** (Ağdaş) – oğurlanmış. – *Bu, üzəmmiş buğdadı.*

**ÜZƏNGİ** I (Borçalı) – çarıqda bağ keçirilən ilgək. – *Üzəngi çarıxda yandolor, davandadolor.*

**ÜZƏNGİ** II (Qazax) – astana.

**ÜZGÖRÜMÇEYİ** (Şəki) – toyun səhəri günü gəlini görmək münasibətilə oğlan

evində düzəldilən şənlik, yığıncaq. – *Savax Telligildə üzgörümçeyi olcaxdı.*

**ÜZQARİ** (Zaqatala) – üstü, üzəri.

**ÜZM** (Meğri) – abır, həya. ◊ **Üzmünü töx′məx′** – zəhləsini tökmək. – *Mahmıdın u səfex′ gədəsi üzmümüzü töküp süfdənnən.*

**ÜZMƏG** (Salyan) – daşmaq. – *Araz üzib, bıranı su basıb.*

**ÜZNÜX′** (Çənbərək) – yorğun. – *Oğardana işdəmişəm, indi yaman üznüyəm.*

**ÜZSÜZ** (Şuşa) – utancaq. – *To:fiq çox üzsüz oğlandı, bir söz də:ndə pul kimi qızarır.*

**ÜZSÜZDÜX′** (Şəki) – utancaqlıq. – *Çox da üzsüzdüx′ yaxşı döyül.*

**ÜZÜX′MƏX′** (Cəbrayıl, Zəngilan) – 1. görünmək; 2. gəlmək. – *Nə yavız bıralara üzüx′dün, sənnən çıxmıyan iş* (Zəngilan); – *Qorxusunnan pişix′ tay bıra üzüx′mür* (Cəbrayıl).

**ÜZÜSİLİMMİŞ** (Ağdaş) – həyasız, sırtıq. ◊ **Üzüsilimmiş olmax** – həyasızlaşmaq, sırtıqlaşmaq. – *Sən lap üzüsilimmiş olmusan.*

**ÜZZƏMƏG** I (Kürdəmir, Mingəçevir) – b a x **üzdəməx′** I.

**ÜZZƏMƏG** II (Kürdəmir) – b a x **üzdəməx′** II.

**ÜZZİG** I (Salyan) – b a x **üzdüx′**. – *Çörəgə üzzigi ayrannan çəkillər ki, yaxşı qızarsun.*

**ÜZZİG** II (Salyan) – qapı, pəncərə və döşəməyə vurulan haşiyə. – *Usdalar qapının üzzigin vırdılar; – Gərəg pola üzzığ vırdırım.*

**ÜZZÜG** I (İmişli) – pərdə. – *Pencərənin üzzügün qalxız.*

**ÜZZÜG** II (Kürdəmir) – b a x **üzzig** II.

# Vv

**VAD** I (Qazax) – güc. – *Öz vadıma mən heş şey eliyəmmərəm.*

**VAD** II (Qazax) – ümid.

**VAD** III (Gədəbəy, Qazax) – fikir, rəy. – *Mə:m vadımö:rə bu onnan min pay yaxşıdı.*

**VADA** (Qax) – əkin sahələri arasındakı sərhəd, mərz.

**VAĞ** I (Meğri) – kömür yandırmaq üçün qazılan yer, çala. – *Ə, na yeka vağ qazeysan.* ◊ **Vağ basmax** – kömür yandırmaq. – *Eranda kasıp-küsibin peşəsi vağ basmaxdı.*

**VAĞ** II (Sabirabad) – arıq.

**VAĞ** III (Şəki) – kobud ipək. – *Vağ çıxar baramadan olur.*

**VAĞ** IV (Ağcabədi) – avara, boş-boşuna gəzən.

**VAĞ** V (Ağdam) – b a x **vaq.**

**VAĞAM** (İmişli, Kürdəmir, Saatlı, Salyan, Ucar) – həddindən artıq yetişmiş, biçilmək vaxtı keçmiş (taxıl) – *Vağam taxılı biçə:lmirsən, tökülür yerə* (İmişli). ◊ **Vağam olmağ** (Salyan) – həddindən artıq yetişmək, yetişib ötmək, biçilmək vaxtı keçmək. – *Taxıl vağam oldı.*

**VAĞAMNAMAX** (Şəki) – yetişib ötmək, biçilmə vaxtı keçmək (taxıla aiddir).

**VAĞAN** (Füzuli, Oğuz) – b a x **vağam.** – *Piçilmə vaxtınnan bir az keçənə vağan de:ilir* (Füzuli).

**VAĞANIMAX** (Bərdə, Cəbrayıl, Daşkəsən, Gədəbəy, Kürdəmir, Mingəçevir, Şəmkir, Zəngilan) – b a x **vağamnamax.** – *Taxıl vağanısa, alağ otdarı onu üstələyir* (Bərdə); – *Taxılın vaxtı keçəndə de:irixʹ vağanıdı, yanı kı, ötdü* (Daşkəsən); – *Taxılı vaxdında bişdirəmmədixʹ, vağanıyıf tökülüf* (Zəngilan); – *Taxıl yaman vağanıyıf, əl dəymamiş oxalaney tökülöy* (Gədəbəy); – *Qambayın gəlməsə, taxıl vağanıyıf gedəjəxʹ* (Şəmkir).

**VAĞANNATMAX** (Füzuli) – biçilmə vaxtını ötürmək, gecikdirmək, vaxtında biçməmək (taxılı). – *Bı zəmini vağannatma:n, tez biçin;* – *Taxılı niyə vağannadırsız.*

**VAĞƏN** (Qarakilsə) – b a x **vağam.**

**VAĞNAMAX** (Oğuz) – b a x **vağamnamax.**

**VAĞYA** (Hamamlı, Mingəçevir) – yuxu. – *Vağyasında görüfdü kü, dədəsi gəlif* (Mingəçevir); – *Yaxşı vağya görürdüm, oyatdın məni* (Hamamlı).

**VAĞYƏ** (Şəki) – b a x **vağya.**

**VAXIM** I (Şəki) – halal. – *Meçidə keçən mal vaxımdı.* ◊ **Vaxım eləmax** (Şəki) – halal etmək, ehsan etmək. – *Kimi diyər: gəl havını qavırrığa vaxım eliyax.*

**VAXIM** II (Çənbərək) – yazıq, fağır. – *Vaxım adama köməy elər hamı.*

**VAXIM** III (Şərur) – qarmaqarışıq, törtöküntülük. – *Bı əv vaxımdı.*

**VAQ** (Mingəçevir) – avam, sadəlövh.

**VAQAM** (Çənbərək) – fürsət, imkan. ◊ **Vaqamı düşməxʹ** (Çənbərək) – fürsət düşmək, imkan düşmək.

**VAQQAZ** (Qazax) – quş adı.

**VAQQILDAMAĞ** (Bakı) – qışqırmaq, çığırmaq. – *Bayquş kimi nə vaqqıldirsən bırda, itil get də.*

**VAQUN** (Şəki) – tütün yarpaqlarını qurutmaq üçün ağacdan hazırlanan çərçivə. – *Tütüni dənni:r, gətirif gəlif saraya, başdi:llər düzmağa; düzənnən so:ra götürüf bağli:llər vaquna.*

**VAL** I (Cəlilabad) – dəyirman. – *Dən atmağa vala gedmişdim.*

**VAL** II (Cəbrayıl, Salyan) – bənd. – *Arabanız valdan keşdi* (Salyan). ◊ **Val atmax** (Cəbrayıl) – bənd düzəltmək (daşqının, selin qarşısını kəsmək üçün hündür torpaq yığını düzəltmək). – *Yaxşı val atın, yoxsa su onu basar.*

**VAL** III (Füzuli, Şəki) – kələk. ◊ **Val gəlmax** (Şəki) – kələk gəlmək. – *Mã: val gəlmağ isdədi, baş tutmadı.*

**VALA** (Bakı, Borçalı, Cəbrayıl, Kürdəmir, Masallı, Salyan, Şuşa) – narın duz barədə. – *Biz narın duza vala deyərük* (Salyan); – *Dasdarda bir az vala duz elə* (Cəbrayıl).

**VALATA** (Füzuli, Kürdəmir, Ucar) – b a x **balata** II. – *Xəmir qatacağdım, pişig valatanı ye:ip* (Kürdəmir); – *Valata tutgunan, so:ra gəlim* (Füzuli).

**VALAVARTDAMAĞ** (Salyan) – fikrən götür-qoy etmək, ölçüb-biçmək, yoxlamaq. – *Tez ol də:, mını nə valavartdıyırsan?*

**VALLAMAX** I (Cəbrayıl, Zəngilan) – arxda suyun uçurduğu yeri torpaq tökərək möhkəmlətmək, suyun qarşısını kəsmək. – *Arxın tirələrini yaxşı vallıyın ki, su uçurmasın* (Cəbrayıl); – *Ərxın bir tərəfin su diricə uçurtmuşdu, möhkəmcə valladıx* (Zəngilan).

**VALLAMAX** II (Oğuz) – aldatmaq, kələk gəlmək. – *Mə:i vallama.*

**VANA** (Ağdam, Bərdə, Biləsuvar, Füzuli, Qarakilsə, Zəngilan) – qoyun, quzu saxlanılan yer. – *Qoyunu vanıya doldu, hava sö:uxdu* (Bərdə); – *Qoyunnarı vanıya sal, ağzın qəyir kin, çıxmasınlar* (Zəngilan); – *Ferma yatağında bi böyüx′ vana tikirix′* (Füzuli); – *Quzuları anasınnan ayrıb vanıya sal* (Biləsuvar).

**VA:NƏFSA** (Bakı) – b a x **vaynəfsə** I. – *Getdim gördim ki, bir va:nəfsa var ki, gəl görəsən.*

**VAR** (Başkeçid, Qazax, Tovuz) – mal-qara. – *O vaxdı var saxlerdıx* (Qazax).

**VARA** (Bakı) – bir tikişlik sap. – *Bir vara sap vər, tikiş tikirəm.*

**VARAX** (Qazax) – güzgü düzəltmək üçün şüşənin arxasına çəkilən xüsusi təbəqə. – *Güzgü çüşdü əlimnən, varağı töküldü.*

**VARALLAYI** (Bakı) – istiqamətini tez-tez dəyişən şimal-qərb küləyi. – *Buna varallayı diyərig, bu yaman əsir.*

**VARANGƏLƏN** I (Gədəbəy) – hanada iplərin arasına keçirilən ağac alət. – *Varangələn də nəzix′di də:nə, əyler dayğa başı, gərəx′ bir ayrısını salax.*

**VARANGƏLƏN** II (Tovuz) – sözgəzdirən, xəbərçi.

**VARANGƏLƏNNİX′: VARANGƏLƏNNİX′ ELƏMƏX′** (Tovuz) – söz gəzdirmək, xəbərçilik etmək. – *Ayə, orda diyən varangələnnix′ eli:rsən?*

**VARANTIL** (Kürdəmir) – evin qabağında tikilən şüşəbənd. – *Öyün qabağına varantıl çəkdirəcəm.*

**VARANTUR** (Kürdəmir) – b a x **varantıl.** – *İssi:rəm öyün qabağına bir varantur salam.*

**VARAV** (Füzuli) – ölçü.

**VARAVAR: VARAVAR TUTMEG** (Bakı) – bir yerdə qərar tutmaq.

**VARAVURD** (Ağdam, Bərdə, Hamamlı, Xaçmaz, Oğuz, Şuşa) – fikrən ölçüb-biçmə, fikirləşmə, götür-qoy etmə. – *Birəz varavurddan sora razı oldu qızı verməyə* (Ağdam). ◊ **Varavurd eləməx′** (Ağdam, Bərdə, Hamamlı, Oğuz, Şuşa) – fikrən ölçüb-biçmək, götür-qoy etmək, fikirləşmək. – *Öz-özümə varavurd elədim, gördüm kü, bu işə mənim güjüm tüşmüyəjəx′* (Ağdam); – *Varavurd elədim, yenə oxumalı oldum* (Oğuz); – *Çox varavurd elədim, bir şey çıxmadı* (Hamamlı); – *Ha varavurd eli:rəm, görürəm bir şey çıxmır bu işdən* (Şuşa).

**VARAVURTDAMAX** (Çənbərək, Meğri, Mingəçevir, Şəki) – 1. b a x **valavartdamağ.** – *Damın kalafasın varavurtdadım* (Çənbərək); 2. yoxlamaq (Meğri). – *Bir handavari varavurtda gör gələn yuxdı.*

**VARILTI** (Şəki) – səs-küy. – *Uşaxlar varıltı salırdı.*

**VARO:UT** (Naxçıvan) – b a x **varavurd.** ◊ **Varo:ut eləmax** – b a x **varavurd eləməx′.**

**VARTA** (Başkeçid) – çəkic.

**VARTAVAR: VARTAVAR AYI** (Qazax, Şəmkir, Tovuz) – ən isti ay. – *Yayın vartavar ayında çox bərk bürkü olor* (Qazax); – *Yayın o vartavar ayında mən burda işdi:rdim* (Şəmkir).

**VARUNƏ** (Bakı) – avara.

**VARVAR** (Oğuz) – heyvanları sancan qanadlı həşərat. – *Varvar gamışı sancır, qan çıxardır, heyvana təpilir, qanı sorur.*

**VARVARA** (İmişli, Şəmkir, Tovuz) – çoxdanışan, deyingən. – *Nə varvara arvatdı bu, sə:rətən danışer* (İmişli); – *Arvad kı varvara oldu heş nə* (Tovuz).

**VARVARÇI** (Şamaxı) – çoxdanışan, deyingən. – *Yaman varvarçı adamsan sən.*

**VASILAMAX** (Çənbərək) – həqiqəti gizlətmək, ört-basdır etmək. – *Ayna, genə nə vasılıyırsan?* – *Meyram çomuşsağanın işdəx′lərini genə vasılıyır.*

**VASQIÇI** (Qazax) – çəkməsilən (adam).

**VASQILANMAX** (Çənbərək) – özünə tumar vermək, bəzənib-düzənmək. – *Ağa:r tez-tez də vasqılanır.*

**VASVASI** (Çənbərək, Sabirabad) – çoxdanışan. – *Hürü qarı vasvasıdı, axşamacan danışır* (Sabirabad).

**VAY** (Ağdam, Bərdə, Kürdəmir) – yas, hüzr. ◊ **Vayına oturmax** (Ağdam, Bərdə,

Şuşa) – yas saxlamaq, yasında oturub ağlamaq. – *Vayına oturum sənin kimin beyşü:r uşağın* (Şuşa).

□ **Vay verməx′** (Ağdam, Bərdə, Kürdəmir, Şuşa) – dağıtmaq. – *İnək çapərə vay verdi* (Kürdəmir); – *Uşaxlar bağa bir vay veriflər ki, heş zad qoymuyuflar* (Ağdam). **Vaya qılmax** (Meğri) – xeyir vermək. – *U dam-daş yə:sinə nə vaya qıldı ki, mə: də qılsın.* **Vaya-lilə çöx′məx′** (Meğri) – bədbəxt olmaq, pis günə qalmaq. – *Vaya-lilə çöx′sün na:diş əhəl-əyal əkip doğan arvatdar.* **Vay tutmax** (Ağdam) – dağıtmaq. – *Uşaxlar bosdana bir vay tutuflar kın, heş zad qalmıyıf.*

**VAYAQULU** (Kürdəmir) – 1. ağılsız, səfeh; 2. bacarıqsız. – *Çox vayaqulu adamdı.*

**VAYALI** (İmişli) – 1. uğurlu; 2. münasib. – *Bura vayalı yerdi, yaxşı bağ olar burda.*

**VAYDAQƏHƏR** (Şəki) – hər şey haqqında çox fikirləşən, düşünən, hər şey üçün narahat olan. – *Çox vaydaqəhər adam olma, sa:lla;* – *Sə:n büvün nətə:ri vaydaqəhərdi.*

**VAYĞA** (Ağdam, Qazax, Tərtər, Tovuz) – b a x **vağya.** – *Be:jə səni vayğamda ö:rmüşəm* (Tərtər).

**VAYHİ** (Sabirabad) – nə üçün, niyə. – *Oyi axtardım isrə:n, görə bilmədim* – *Vayhi?*

**VAYXIR** I (Şəki) – işsiz gəzən, avara. – *Vayxırın biridi, heş yerdə işdəmiyi.*

**VAYXIR** II (Oğuz) – qocalıb haldan düşmüş, çox qocalmış. – *Bir vayxır gamışım var, südü-zadı olmur.*

**VAYXUD** (Kürdəmir) – b a x **vayxır** I.

**VAYXUR** (Ucar) – huşsuz. – *Vayxur Ələsgər danasın kəsib satıb, pulun almıyıb, indi bilmir ki, kimə satıb.*

**VAYIS** (Kürdəmir, Qazax, Mingəçevir, Şəki) – araqarışdıran, sözgəzdirən, pislik edən – *Vayıs adamnan heş kəsin xoşu gəlməz* (Şəki).

**VAYISDIX** (Şəki) – araqarışdırma, sözgəzdirmə, pislik etmə – *Vayısdıxnan işim yoxdu.*

**VAYQARA** (Şəmkir) – küyçü, hay-küyçü. – *Ə:, nə vayqara adamsan, bir şey olan kimi özünnən çıxırsan.*

**VAYQULU** (Kürdəmir) – b a x **vayaqulu** 1.

**VAYMAX** (Göyçay) – maymaq, iş bacarmayan.

**VAYNAÇAR** (Şəmkir) – çarəsiz. ◊ **Vaynaçar qalmax** (Şəmkir) – çarəsiz qalmaq. – *Niyə vaynaçar qalıfsan, doxdur putana döymü bö:üründə.*

**VAYNAÇARA** (Mingəçevir) – heç olmasa. – *Vaynaçara, biri gəleydi, dərdi u qədər olmazdı.*

**VAYNƏÇƏRİ** (Kürdəmir, Kəlbəcər, Qarakilsə, Zəngilan) – b a x **vaynaçara.** – *Pambıx suyuna getmirsən, vaynəçəri, ayrı işe:tginən* (Zəngilan); – *Vaynəçəri, sən orda olsaydın, dalaşmağa qoymazdın* (Kəlbəcər); – *Vaynəçəri, birəz alışqan yığıp gətirərdin* (Qarakilsə).

**VAYNƏFSƏ** I (Cəbrayıl, Gədəbəy, Kəlbəcər, Kürdəmir, Meğri) – qalmaqal, hay-küy, dava-dalaş. – *Qəflətən yolda vaynəfsiyə irast gəldim* (Gədəbəy).

**VAYNƏFSƏ** II (Meğri) – canlı. – *Qışda qoyun elə qırılır ki, bir vaynəfsə qalmer.*

**VAYSIZ** I (Kürdəmir) – vecsiz, kara gəlməyən, bir şeyə yaramayan. – *Çox vaysız adammış bı Məmməd.*

**VAYSIZ** II (İmişli, Kürdəmir) – boş, uğursuz, xeyirsiz. – *Vaysız yerə əlləşməyinə dəyməz* (Kürdəmir).

**VAYVƏTÜN** (Yardımlı) – vay odur ki. – *Vayvətün gələ mənə bi söz diyə.*

**VAZ** (Culfa, Şəki) – 1. keyfiyyətsiz sapdan toxunmuş kobud ipək (Şəki). – *Vaz çıxar baramadan olur;* 2. keyfiyyətli ipək (Culfa). – *Bı ipəx′ vazdı.*

□ **Vazı azmax** (Mingəçevir, Oğuz) – həddini aşmaq, azğınlaşmaq. – *Ay bala, vazı azma, dinc otu* (Oğuz). **Vazını itirmeg** (Bakı) – həddini aşmaq, azğınlaşmaq. **Vaz çəx′məx′** (Meğri) – paxıllıq etmək. – *U adəm ki, vaz çəkey, heç artıp ağarmaz.*

**VECALA** (Ağdam, Kürdəmir) – işsiz, avara.

**VEC-VECƏ** (Bakı) – səliqəsiz, başdansovdu tikiş. ◊ **Vec-vecə eləmeg** (Bakı) – səliqəsiz, başdansovdu tikmək. – *Əğəz, tut buni, vec-vecə elə, vər işağə, geysün.*

**VEC-VECİ** (Bakı) – b a x **vec-vecə.** ◊ **Vec-veci eləmeg** (Bakı) – b a x **vec-vecə eləmeg.** – *Köynegi vec-veci eliyib getdim başə.*

**VEÇƏ** I (Quba) – beçə, körpə arı. – *Veçə hələ bal verməz.*

**VEÇƏ** II (Meğri) – ana arxdan ayrılan kiçik qol; ana arxdan ayrılan su şırımı. – *Veçələrin heş birinə yadızdan çıxıb su quşmamısız.*

**VEÇƏ** III (Meğri) – tütün yarpaqlarının gövdəyə birləşdiyi yerdən çıxan kiçik zoğ. – *O təmbekini ki veçə basdı, onnan təmbeki olmaz.*

**VEJAN** (Cəbrayıl) – iri lək. ◊ **Vejan doğramax** (Cəbrayıl) – iri lək düzəltmək. – *Gedim bağda bir-iki vejan doğrıyım.*

**VEJƏLƏ-VEJƏLƏ** (Füzuli) – boş-boşuna, avara-avara, işsiz-gücsüz. – *Nə vejələ-vejələ gəzirsən?*

**VELƏ** (Meğri) – tezyetişən əncir növü. – *Hüsi dayim bir dəsgirə arannan velə gətdi.*

**VERAZAN** (Meğri) – üzüm və ya əncir qurutmaq üçün yer.

**VERƏZƏN** (Meğri) – b a x **verazan.** – *İncir-üzüm vərəzənnərdə qıfqırmızı qızarey.*

**VESİL** I (Tovuz) – b a x **veysəl** I. – *Vesilin biridi, doqqazdarda gəzməx'dən savayı əlinnən heş şey gəlmir.*

**VESİL** II (Tovuz) – uzun, ucaboylu. – *Alla:n vesili, uzana-uzana ha:na e:dirsən?*

**VESİNƏ** (Meğri) – qurut ovuntusu. – *Yarrıyaraşıxlı qurutumuz yoxdu, ama bikgə vesinəmiz var.*

**VEYRAN** (Ordubad) – kiçik su arxının ana arxdan ayrıldığı yer. ◊ **Veyran kəsmax** (Ordubad) – ana arxdan kiçik arx ayırmaq. – *Veyran kəsirıx ərxa.*

**VEYSƏL** I (Füzuli, Salyan) – axmaq, gic. – *O, veysəl adamdu* (Salyan); – *Belə veysəl adam görmüsən? – Elə bi veysəlimiz əsgiydi, o da gəldi çıxdı* (Füzuli).

**VEYSƏL** II (Kürdəmir) – avara, boş.

**VEYSƏLLAYI** (Salyan) – avara, işsiz-gücsüz. – *Veysəllayı adamın sənəti olmaz.*

**VEYSƏLLAYI-VEYSƏLLAYI** (Salyan) – avara-avara, işsiz-gücsüz. – *Ada, veysəllayı-veysəllayı gəzməginən, ged işdə, adam oğlısan.*

**VEYSƏL-VEYSƏL** (Salyan) – avara-avara, boş-boş. – *Mırad veysəl adamdu, özü də veysəl-veysəl gəzir.*

**VƏC** (Meğri) – aşqarası. – *Mən aş yeyəmmeyrəm, əncax vəcinnən bikgə <bir tikə> dindəlecam.*

☐ **Vəc yeməg** (Cəlilabad) – fayda vermək, lazım olmaq. – *Mə:n danışığım vəc yeməz.*

**VƏCƏ** (İsmayıllı) – keçi balası. – *Bu gün vəcələr yaxşı otdadı.*

**VƏCƏLƏ** (Cəlilabad) – soğanaoxşar bitki adı.

**VƏÇ** I (Meğri) – əvəz. – *Yağ cədvelinə sənin vəcinnən mã: irazılıx verirsən qol çəkim?*

**VƏÇ** II (Yardımlı) – son, nəticə. – *Sözün vəçinə çat, danış.*

**VƏÇƏ** (Yardımlı) – budaq. – *Şivun vəçəsi sınıb.*

**VƏGAH** (Quba) – b a x **vəqah.** – *Bizin kətdə vəgah uşağlar çuxdu.*

**VƏGƏSİRƏ** (Bakı) – yarımçıq doğulmuş. – *Sonanın uşağı lap vəgəsirə uşağa oxşi:r.*

**VƏĞ** (Meğri) – b a x **vağ** I.

**VƏ:ĞA** (Barana, Cəbrayıl, Hamamlı, Qazax, Şəmkir, Tovuz) – b a x **vağya.** – *Və:ğamda görmüşəm səni be:jə* (Qazax); – *Be:jə və:ğamı qarışdımışam; – Bu gecə pis bir və:ğa görmüşəm* (Hamamlı); – *Gejə bir yaxşı və:ğa görmüşəm* (Tovuz).

**VƏĞƏM** (Culfa) – b a x **vağam.**

**VƏĞƏNNƏMƏX'** (Şərur) – vaxtı keçmək, biçilmək vaxtı ötmək. – *Taxıl vəğənniyip.*

**VƏHLAM** (Gədəbəy) – məlhəm, dərman.

**VƏHLƏ** (Füzuli, Zəngilan) – tam yetişməmiş (taxıl). – *Taxıl hələm vəhlədi, onu pişməy olmaz* (Zəngilan).

**VƏJ** (Meğri) – plov qarası.

**VƏQAH** (Quba) – 1. igid, qorxmaz; 2. cəld, zirək. – *Biz hindi qucalmuşuğ, vəqah cuvan adamlardu, hələ kimi adamlardu.*

**VƏLAXUMAX** (Qazax) – əlini üzmək, ümidini kəsmək. – *Bu il üzüm bağınnan vəlaxu.*

**VƏLAYAĞ** (Salyan) – iriayaqlı. – *Ərəssun yeznəm vəlayağ iydi.*

**VƏLƏ** I (Cəbrayıl, Cəlilabad, Füzuli, Meğri, Zəngilan) – qaratikan topası, ot topası. – *Bir vələ də verin, bırani düzəldim, tay bəsdi* (Zəngilan); – *Bir vələ qoyecisən Cəbrayıl xalo:ğliğilin cəvizinin yanna, bir vələ də bəriyə* (Meğri); – *Mən böyün on vələ kol qırmışam* (Cəbrayıl); – *Vələ odı ki, göy otı biçeysən, topaleysən, oley vələ* (Cəlilabad).

**VƏLƏ** II (Cəlilabad) – otbiçən (maşın).

**VƏLƏD** (Ordubad) – ağacın cavan zoğu.

**VƏLƏDƏNXATA** (Meğri) – yaramaz, xətakar. – *Bizim Ayyubun o vələdənxata gədəsi Bəhlil gündə bir dona girir.*

**VƏLƏDİ DÖNMƏY** (Yardımlı) – üzü dönmək, yolunu azmaq. – *Vələdi dönüb onun.*

**VƏLƏKƏ** (Oğuz) – boyaq maddəsi kimi istifadə olunan yabanı bitki adı. – *Vələkə çay qırağında olur.*

**VƏLƏLƏMƏX'** (Cəbrayıl, Zəngilan) – toplayıb bir yerə yığmaq, topalamaq. – *Nə vələliyif basırsan ora, salqıynan qoymursan* (Zəngilan); – *Qaratikanı vələləməsən, şalədə durmaz* (Cəbrayıl).

**VƏLƏLLAYİ** (Salyan) – işsiz-gücsüz, avara.

**VƏLƏM-VƏLƏM** (Salyan) – pırtlaşıq, dağınıq <saç>. – *Başu:n tükü vələm-vələmdi.*

**VƏLƏMBƏ** (Bakı) – göz qapağı.

**VƏLƏNCULAN** (Goranboy) – qarışıq, dolaşıq. – *Sənin işdərin laf vələnculandı.*

**VƏLƏNÇİK** (Qax) – b a x **vələntik.**

**VƏLƏNGƏLƏN** (Xaçmaz, Oğuz) – uzun əlağacı. – *O vələngələni bir mənə ver* (Oğuz).

**VƏLƏNGƏZ** (Laçın) – boşboğaz, çoxdanışan.

**VƏLƏNTİK** (Qax) – oxlov.

**VƏLHƏC: VƏLHƏC OLMAX** (Goranboy) – varlanmaq. – *Yaman vəlhəc oluf dosdum axır vaxlar.*

**VƏLİVƏS** (Naxçıvan) – vəsiyyət. – *Padşah oğlannarını yanına çağırtdırıb, onnara vəlivəs eləyib canını tapşırdı.*

**VƏLK** (Çənbərək) – boyaq maddəsi kimi istifadə edilən yabanı bitki. – *Keşmişdərdə bu vəlk gön-dəri boyağı üçün işdənirdi.*

**VƏLLEYLİ: VƏLLEYLİDƏ QALMAĞ** (Salyan) – çətinlik çəkmək. – *Odun yox, ocağ yox, qalmışığ vəlleylidə.* – *Hamı başının çarəsin qılacağ, vəlleylidə biz qalaco:uğ.*

**VƏLOX** (Kürdəmir, Salyan) – kotanla boyunduruğu birləşdirən ağac hissə. – *Vəlox kotannan boyunduruğun arasına bərkidilir* (Kürdəmir).

**VƏN** (Cəbrayıl, Kəlbəcər, Zəngilan) – ağac adı, göyrüş. – *Vən yanən odundu* (Kəlbəcər); – *Vən ağacınnan yaxşı otax mili olur* (Cəbrayıl).

**VƏNƏ** (Kəlbəcər) – o tərəfə, o yana. – *A bala, vənə dur.*

**VƏNİZ** (Meğri) – tənəyi bağlamaq üçün ağac dirək. – *Yop yaxşı vəniz ardışdan uley.*

**VƏR** I (Bərdə, Əli Bayramlı, Xanlar, İmişli, Kürdəmir, Qarakilsə, Qazax, Meğri) – cərgə, sıra. – *Bu gün on səkkiz vərin alağını eləmişəm* (Əli Bayramlı); – *Hər iki vərin arasın becərir* (Kürdəmir); – *Hərə öz vərin başa çıxsa iyitdi* (Meğri); – *Bi vər taxılı bişdim başatan* (İmişli); – *Hərə bir vər götürür piçir* (Qarakilsə).

**VƏR** II (Meğri) – əvəz. – *Nənəmin vərinnən mən gedecem soğan alağına.*

**VƏR** III (Cəlilabad) – hesab. – *Pılı verdün, inəg qaldı sənün vəründə.*

☐ **Vərandaz eləməx'** (Meğri) – tərəzidə çəkiləcək hər hansı bir şeyi ələ alıb yavaşca atıb-tutmaqla çəkisini təxmini müəyyən etmək. – *Bu əti vərandaz elə gör dünənkicə var?*

**VƏRBƏVƏR** (Şahbuz, Şərur) – yavaş-yavaş, tədriclə. – *Arı vərbəvər mumu yiyir* (Şahbuz).

**VƏRDƏNƏ** (Ağbaba, Ağdam, Astara[1], Lerik, Naxçıvan, Ordubad, Şuşa, İrəvan, Zəncan) – yoğun oxlov. – *Xəmri kündəlirıx, vərdəneynən vərdənəli:rıx, oxlovnan açırıx* (Ordubad); – *Kündəi əvvəlcə vərdənəynən yayıllar, oxleynən də yuxa:çıllar* <*yuxa açırlar*> (Şuşa).

**VƏRDƏNƏLƏMƏX'** (Ordubad) – vərdənə ilə xəmir yaymaq. – *Vərdənəynən xəmiri vərdənəli:lər, so:ra oxlavnan açıf yuxa eli:lər.*

**VƏRDƏYESİRİ** (Şərur) – əsir-yesir. – *Tezdənnən vərdəyesiriyəm, bir işin ucunnan tutmamışam.*

**VƏRDİ** (İsmayıllı) – bildirçin. – *Ot biçəndə bir vərdi yuvası tapdım.*

**VƏRDİC** (Ordubad) – evin damına qoyulan tir. – *Vərdic dam üsdə olur.*

**VƏRDİŞ** (Ordubad) – b a x **vərdic.**

**VƏRƏQƏ** (Füzuli) – yaxşı. – *Vərəqə bazar yaxşı bazar deməx'di.*

**VƏRƏLLAYİ** (Bakı) – b a x **varallayı.**

**VƏRƏNDAZ: VƏRƏNDAZ ELƏMƏX'** (Kürdəmir, Meğri) – ölçüb-biçmək, götür-qoy etmək, fikirləşmək. – *Vərəndaz eliyib gördü ki, bı dəridən papağ çıxmaz* (Kürdəmir).

**VƏRƏNƏ** I (Şamaxı) – qohum. – *Bir vərənən yoxdu ki?*

**VƏRƏNƏ** II (Kürdəmir, Salyan) – qayığı çəkmək üçün yoğun ip. – *Surranın quru bəgləri gecələr vərənə çəkə-çəkə Salyana gedirdilər, sə:r aldığları pılı faytona verib kəndə gəlirdilər* (Salyan).

**VƏRƏNGALAN** (Çənbərək, Gədəbəy, Xanlar, Zəngilan) – b a x **varangələn** I. – *Vərəngalan hani, küjülüyrəm xanıyı* (Çənbərək); – *Vərəngalan yer hanasında işdənir, göy hanasında işdəmməz* (Zəngilan); – *Ağız, bir gə vərəngalanı aşağı bas* (Gədəbəy); – *Xananı vərəngalansız toxumax olmaz* (Xanlar).

**VƏRƏNGƏLƏN** (Xocavənd) – b a x **varangələn** I.

**VƏRƏVIRTDAMAX** (Qarakilsə) – b a x **varavurtdamax.** – *Ha vərəvırtdıyıram, bir şey çıxmır.*

**VƏRƏVURD** (Cəbrayıl, Kürdəmir, Tərtər, Şəki) – b a x **varavurd.** ◊ **Vərəvurd eləməx′** (Tərtər, Şəki) – b a x **varavurd eləməx′.** – *Vərəvurd elə, gör nə tə:r adamdı o* (Tərtər); – *Vərəvurd eləsax bilərux düzdi, yoxsa yox* (Şəki).

**VƏRƏZADA** (Quba) – yalançı. – *Vərəzada adamın süzünə inanmağ ulmiyədi.*

**VƏRƏZAL: VƏRƏZALDAN ÇIXMAX** (Mingəçevir) – həddini aşmaq.

**VƏRƏZALLA: VƏRƏZALLA OXUMAX** (Tovuz) – boş-boşuna danışmaq, boşboğazlıq etmək. – *Sözünün dalısın de, mana vərəzalla oxuma.*

**VƏRƏZAN: VƏRƏZAN GÜNƏ ÇIXMAX** (Quba, Mingəçevir) – yaxşı günə çıxmaq, xoşbəxt olmaq. – *Hindi hami vərəzan günə çıxadu* (Quba).

**VƏRƏZƏN** (Culfa, Ordubad, Şərur) – b a x **verazan.** – *Mevin sərildiyi yerə vərəzən deyirıx* (Ordubad).

☐ **Vərəzən günə çıxmax** (Bakı, Cəbrayıl) – b a x **vərəzan günə çıxmax.** – *Bəxtəvər vərəzən günə çıxdı a* (Bakı); – *Səni heş vərəzən günə çıxmıyasan!* (Cəbrayıl).

**VƏRGƏN** (Füzuli) – b a x **vəryan.** – *Su çıxmıyan yerrərə vərgən çəkilir.*

**VƏRX** (Oğuz) – çinara bənzər ağac adı. – *Vərxi dama-daşa qoyullar, çalğı da qayrıllar putaxlarınnan.*

**VƏRKAND: VƏRKAND ULMAX** (Meğri) – əldən düşmək, yorulmaq. – *Bu yaylağa gedip-galmaxdan vərkand ulmişıx.*

**VƏRQƏRƏL** (Qazax) – həmişə, daima, aramsız. – *Su elə vərqərəl axer.*

**VƏRNEŞMEG** (Bakı) – səs-səsə vermək. – *Nöş hamuvuz vərneşib ağlıyırsuz?*

**VƏRNƏŞMƏK** (Qəbələ) – qaynaşmaq. – *Qarışqa kimi vərnəşir.*

**VƏRNİ** (Basarkeçər, Füzuli) – 1. toxunma pərdə (Basarkeçər); 2. naxışlı kilim (Füzuli). – *O vərnini yükün üsdə çəx′;* – *Gülö:şə yaxşı vərni toxuyur.*

**VƏRRƏMƏX′** (Zəngilan) – biçiləcək müəyyən bir sahəni əvvəlcədən nişanlamaq. – *Mən də çə:n vərrəmişəm, gedif biçəjəm.*

**VƏRVƏVƏR** (Kəlbəcər) – b a x **vərbəvər.** – *Naxoşdux vərvəvər qayıdır.*

**VƏRYAN** (Culfa, Meğri, Ordubad, Zəngilan) – ana arxdan ayrılan kiçik arx, qol. – *Bi balaca vəryannan nə su gələcək* (Zəngilan); – *Təzə bağ salanda əvəl unun vəryanın qəyirallar* (Meğri).

**VƏRYANPƏNCƏ** (Meğri) – b a x **vəryan.** – *Səlman, vəryanpəncələrin qeyirilməsinə diqqətdi oldunan.*

**VƏSİLLƏŞMƏX′** (Çənbərək) – rahatlanmaq. – *Ot çalannar öylərdə vəsilləşdi.*

**VƏSKO** (Kürdəmir) – kotanla boyunduruğu birləşdirən ağac. – *Vəsko köhnəlip, qorxuram qırıla.*

**VƏSSƏLAYİ-VƏSSƏLAYİ** (Bakı) – boş-boş. – *Vəssəlayi-vəssəlayi gəzədü.*

**VƏYĞA** (Gədəbəy, Qazax, Tərtər, Tovuz, Şəmkir) – b a x **vağya.**

**VƏYRAN** (Ordubad) – b a x **veyran.**

**VƏZ** (Qazax) – birsayaq, birtəhər. – *Qavax hərə bir vəznən başını dolandırerdı.*

**VƏZDƏMƏX′** (Çənbərək) – əzişdirmək, yumşaltmaq. – *Mumu əlimdə vəzlədim, yumşaldı.*

**VƏZƏRƏK** (Kürdəmir) – yeyilən yabanı bitki adı. – *Vəzərəkdən doğa bişirsən yaxşudu.*

**VƏZİRALI** (Ordubad) – gavalı.

**VƏZİRTULUX** (Şəki) – dan yeri ağaran vaxt. – *Sə:rin işıxlanmasına diyərux vəzirtulux.*

**VƏZM** (Füzuli, Şahbuz) – nəbz. – *Doxdur gəldi, vəzmin yoxladı onun, dedi bir elə xəsdəliyi yoxdu* (Füzuli).

**VƏZMƏ** (Əli Bayramlı) – b a x **vəzm.**

**VƏZO:URD** (Bakı) – oğlan evindən qız evinə göndərilən bayramlıq. – *Qudamgildən bizə vəzo:urd getiriblər.*

**VƏZZƏMƏG** (Salyan) – kündələmək. – *Xəmiri gərək yaxşı-yaxşı vəzziyəsən.*

**VICIRRANMAX** (Meğri) – hərəkət etmək, səyrimək. – *Gözüm vıcırrandı, dedim iş düzələr.*

**VICIR-VICIR: VICIR-VICIR ELƏMEG** (Bakı) – qaynaşmaq. – *Bırda tarakannar vıcır-vıcır eliyir.*

**VIJ** (Kəlbəcər) – qanqal toxumu, çətənə. – *Vıja qo:urğa qateylar, sora yi:llər.*

**VIRÇILIXLAMAX** (Ağbaba) – əzişdirmək, əzmək. – *Uşaxlar almanı vırçılıxladılar.*

**VIRDIGİRİŞ: VIRDIGİRİŞ ELƏMƏG** (Salyan) – fikirləşmək, götür-qoy etmək. – *Biyağdan vırdıgiriş eli:rəm ki, uşağa nə alım.*

**VIRDIX** (Basarkeçər) – dəlisov, yüngülxasiyyət. – *Mənim dayıma vırdıx de:irdilər;* – *Vırdıx yüngülxasiyyət adamdı, yar-yaşax bilən döyül.*

**VIRDIVIŞIL** (Meğri, Ordubad) – səliqəsiz geyinən. – *Yaman vırdıvışıl uşaxdı;* – *Ə:, vırdıvışıl, özi: niya bu kökə salmısan?* (Meğri); – *Səkinəni diyirsən, yaman vırdıvışıldı* (Ordubad).

**VIRDIVIZAN** (Qarakilsə) – qarışıqlıq. ◊ **Vırdıvızan salmax** (Qarakilsə) – qarışıqlıq salmaq. – *Gedip gəzip gəlir əvlərinə, hər gün bir vırdıvızan salır.*

**VIRIŞ** (Cəlilabad) – üst-üstə. – *Çağırdilər bı kəndin adamlərini, tü:əgi vırdış tökdilər bıralara.*

**VIRİYİD** (Cəbrayıl, Qarakilsə) – qoçaq.

**VIRİYİTDİX'** (Qarakilsə) – qoçaqlıq. – *Məhəmmədin vıriyitdiyin bı kətdə hamı bilir.*

**VIRQIN** (Qarakilsə) – qəfildən tutan ürəkkeçmə. – *Səni görüm vırqın vırsın!*

**VIRMAÇALMA** (Salyan) – gözdəymə, nəzərəgəlmə. – *Uşağ vırmaçalma olanda baxıcıya aparıllar.*

**VIŞIL** (Meğri) – səliqəsiz. – *Yaman vışıl adamsan ha!* – *Vışıl yük mənzilə çatınca adamı can-buğaz eley.*

**VITVIDIT** (Oğuz) – quş adı.

**VIYIT** (Ağdaş) – torağay. – *Qar yağanda vıyıtdar kəndə doluşullar.*

**VIZBAŞ** (Bakı) – saçları səliqəsiz olan, kilkəbaş.

**VIZDIŞ** (Ucar) – sarımtıl rəngli, uzun dimdikli, əti yeyilən su quşu. – *Vızdış əyri-üyrü qaçır, onu tüfəx'nən atmax çətin olur;* – *Vızdış çox uçammaz.*

**VIZILLIX** (Çənbərək, Kürdəmir) – sıx kolkosluq. – *Bağ vızıllıxdı* (Kürdəmir); – *Bir vızıllığa girmişdim, çıxəlmirdim* (Çənbərək).

**VIZQANÇALAN** (Şuşa) – qarmonçalan. – *Vızqançalan Kamılabəyimin yaxşı səsi də var.*

**VIZQA:X** (Oğuz) – qorxaq. – *Unnan gecə meşiyə gidən ulmaz, vızqa:xdı.*

**VIZVIZ** (Oğuz) – uşaq oyuncağı adı. – *Gət sə: bir vızvız qayrım, səsu: kəs.*

**VİCƏLƏMMƏG** (Salyan) – üşümək, titrətmək. – *Axşamçağınnan bəri vicələnnəm.*

**VİDAR** (Zaqatala) – kiçik dağ çığırı.

**VİDİR** (Qax) – b a x **vidar.** – *Vidirdən keçəndə qabağına bax.*

**VİRİ** (Kürdəmir) – əyri. – *Çaşıb viri kəsdim ağacı.*

**VİZQAN** (Şuşa) – qarmon. – *Yaxşı vizqan çalırdı o, cavannıxda.*

**VOC** (Bakı) – yarıq. – *Bu duharrarda çoxli vocdər var.*

**VUCUDU** (Qax) – qətiyyən. – *Elə danğadı, vucudu xəbarı yoxdu.*

**VURDU** (Quba) – təpə. – *Uşağlar vurduda gür nə uynıyadular.*

**VURDUVAXT** (Mingəçevir) – darmadağın. ◊ **Vurduvaxt eləməx'** (Mingəçevir) – darmadağın etmək.

**VURĞUN** (Gədəbəy, İmişli, Kürdəmir, Mingəçevir, Şamaxı) – b a x **vırqın.** – *Vurğunun güjdü yəlsin, a pis adam* (Gədəbəy); – *Uşağı vurğun vuruf* (Mingəçevir).

**VURİYİD** (Kəlbəcər) – b a x **vıriyid.** – *Yaman vuriyidsən ha!*

**VURMABİZƏN** (Bakı) – vurhavur, küykülək, dava-dalaş. – *Getdim gördim ki, bir vurmabizən var ki, gəl görəsən;* – *Süzün bu vurmabizənvüz lap hələ hindiyə qalıb?*

**VURUX** (Masallı) – bağlı. – *Sizin qapıvuz vuruxdu.*

**VUT I** (Qax) – döngə. – *Habı vutu dönəndə əmim uşağıdı.*

**VUT II** (Zaqatala) – daş hasarın üstü. – *Barının vutu sökülüb.*

**VUTS** (Qax) – yeməli, yabanı bitki adı. – *Vuts dağda pitir, özü də yemə: yaxşı oluy.*

# Yy

**YABAGÜL** (Oğuz) – evin damındakı baş tiri saxlayan ağac. – *Bu ağaşdan yabagül çıxmaz, əyridi.*

**YABBAN** (Çənbərək) – yastı. – *Otu yabban yığdım, xarab olajax yağış yağsa.*

**YADBUD: YADBUD ELƏMƏXʹ** (Şərur) – xatırlamaq. – *Kitablara baxıram, o şe:rrəri yadbud eli:rəm.*

**YADICA** (Ağcabədi, Ordubad, Zəngilan) – kötükcədən sonrakı nəsil. – *Yadıca nəvəmizin oğlunun oğlunnan olan uşağa də:rixʹ* (Zəngilan); – *Yadıca kötücədən sora olan uşağa deyərıx* (Ordubad).

**YADYEMƏZ** (Tərtər) – üzüm növlərindən birinin adı. – *Yadyeməz çox yaxşı üzümdü yemə:.*

**YAĞAL** (Ordubad) – açıq-qara. – *Bizdər açıx qara irəngə yağal diyərıx.*

**YAĞANNIX** (Qazax) – yağmur. – *Keçən il yağannığ az oldu.*

**YAĞAR** I (Başkeçid, Borçalı) – yağışlı. – *Bu ay çox yağar keşdi* (Borçalı).

**YAĞAR** II (Şəmkir) – yara.

**YAĞARRIX** (Gəncə, Qazax, Şərur) – bax **yağannıx.** – *Yağarrığ olsa, buranın taxılı bol olar* (Şərur); – *Bıldır yağarrığ az oluf, bi:l çox oluf* (Qazax); – *Yağarrıxdan havanın üzü açılmır* (Gəncə).

**YAĞDAN** I (Bakı, Qazax, Naxçıvan, Ordubad) – lampanın neft tökülən hissəsi. – *Yağdanın tozunu sil* (Bakı); – *Lampanın yağdanını düzəltdim* (Naxçıvan); – *Yağdana nəfit tökürüxʹ* (Ordubad).

**YAĞDAN** II (Cəbrayıl) – tikiş maşınına yağ tökmək üçün işlədilən yağqabı. – *Yağdanı ma: gəti.*

**YAĞDAŞ** (Şamaxı) – bıçaq itiləyən daş, bülöv. – *Yağdaşı gətir, əsgənəni itiliyim.*

**YAĞIR** I (Gəncə, Gədəbəy) – süründürməçi, borc alıb qaytarmaq istəməyən. – *Nə yağır adamsıŋ, niyə üzmöysüŋ borcuŋu?* (Gədəbəy)

**YAĞIR** II (Cəbrayıl, Tovuz) – bax **yağar** II. – *Atın beli yağır oluf* (Cəbrayıl).

**YAĞIRBEL** (Cəbrayıl) – beli yaralı (at). – *Səni görüm yeddi yağırbel ata ürcah çıxasan.*

**YAĞIRRIX** (Gəncə) – süründürməçilik. – *Heş bu qədər yağırrıx görməmişəm.*

**YAĞLAMAĞ** (Tabasaran) – ağlamaq. – *Uşağ yağlayədi.*

**YAĞLAŞO:** (Gəncə) – yağı yuyulmamış çirkli qab-qacaq və ya əski. – *Yağlaşo: qabı it yaladı.*

**YAĞLƏÇƏ** (Dərbənd) – bax **yağlovçə.** – *Yağləçiyə tökərig yaği, yimağ bişirədig.*

**YAĞLI: YAĞLI GÜN** (Gəncə) – *məc.* isti gün. – *Bu yağlı gündə çuxa niyə geyirsən?*

**YAĞLICA** (Füzuli, Qax, Laçın, Oğuz, Salyan) – yeməli dərman bitkisinin adı. – *Yağlıcanı çiban üsdünə qoyallar* (Salyan); – *Yağlıcadan kətə pişirəcux* (Qax); – *Yağlıca topa bitən aladı* (Oğuz); – *Yağlıcanın qutabı daddı olur* (Laçın).

**YAĞLICAN** (Ucar) – bax **yağlıca.** – *Yağlıcanı təndirə sürtürük ki, çörək təndirə yapışıb torpaq qopartmasın.*

**YAĞLICAXOR** (Şəki) – tava. – *Yağlıcaxoru qoy bura.*

**YAĞLIKEŞ** (Lerik, Lənkəran) – ağartı tökmək üçün mis qab. – *Yağlıkeşə süd tökəcəğəm* (Lerik).

**YAĞLIQARA** I (Bakı) – yağı, hisi yuyulmamış çirkli qab-qacaq və ya əski. – *Toyda yağlıqara qazan çox olur, uları yağlıqara əsgiynən yumağ olmaz.*

**YAĞLIQARA** II (Qazax, Mingəçevir, Şuşa) – qanaxmanı kəsmək üçün parça yanığı ilə yağın qarışığından hazırlanmış dərman. – *Yağlıqara türkəçarə dərmanıdı* (Şuşa).

**YAĞLITƏRƏ** (Bakı, Lənkəran) – yeməli yabanı otlardan birinin adı. – *Yağlıtərə qutabını qatığınan yiyəllər* (Lənkəran).

**YAĞLO:ÇA** (Bakı, Dəvəçi) – bax **yağlovçə.**

**YAĞLOVÇƏ** (Dərbənd) – sapılca.

**YAĞLUĞ** (Dərbənd) – yaylıq. – *Bu yağluğa baxıb görədü özünü yağluğudu.*

**YAĞLUĞAPARAN** (Dərbənd) – ilk nişan. ◊ **Yağluğaparan ələməg.** – *Əvvəla yağluğ aparan ələrig.*

**YAĞMA** (Şəki) – fındıq ağacı yarpaqları üzərində olan maye, şirə. – *Yağma olan yerdə bal da yaxşı olur.*

**YAĞO:** (İmişli, Ucar) – tam inkişaf etməmiş, qurumuş (taxıl, pambıq). – *Mən yağo: pambığı yığmıram* (Ucar).

**YAĞSOY** (Çənbərək) – xörək yeyiləndən sonra qab-qacaqda donub qalmış yağ. – *Cəmin yağsoyunu yuajam.*

**YAĞTİKANI** (Cəbrayıl, Gəncə) – tikanlı bitkilərdən birinin adı. – *Əlimə yağtikanı batıf* (Gəncə).

**YAĞTİKƏNİ** (Xanlar) – b a x **yağtikanı.** – *Yağtikəni tikənni otdu.*

**YAHAL** (Biləsuvar) – qarnının altı ağ keçi. – *Yahalın qarnının altı ağ olar.*

**YAHOLUĞ** (Ucar) – pambıq sahəsində seyrək yer.

**YAXA** (Biləsuvar) – tərəf.

**YAXAÇAR** (Ordubad) – zeh açan xüsusi rəndə. – *Qapı:n gözzəri:n yerin yaxaçarnan açallar.*

**YAXAL** (Zaqatala) – bülöv.

**YAXALIX** (Kəlbəcər) – köynəyin döşünə tikilən əlavə parça. – *Kö:nə: <köynəyə> yaxalıx salsan, kö:nəy mö:kəm olar.*

**YAXANTI** (Başkeçid) – çirkab.

**YAXARMAX** (Füzuli, Göyçay, Oğuz, Şamaxı) – yalvarmaq. – *Gülməmməd Əhmədə çox yaxardı* (Şamaxı); – *Çox yaxardım, o da razılıx verdi* (Füzuli).

**YAXDAN** (Basarkeçər, Cəlilabad, Gədəbəy, Goranboy, Kəlbəcər, Qazax, Ordubad, Tərtər) – sandıq. – *Yaxdana paltar qoyurux* (Tərtər); – *Nəyim var, hamısı bu yaxdandadı* (Goranboy); – *Yaxdana xırda pul qoyurdum o vaxdarı* (Göyçay); – *Yaxdan taxtadan qayrıler* (Qazax); – *Arvad yaxdanın ağzın kilitdədi* (Cəlilabad).

**YAXINKEŞ** (Bakı, Gəncə, Göyçay, Quba, Naxçıvan, Ordubad) – boşqab. – *Anam dünən üş dənə yaxınkeş aldı* (Naxçıvan); – *Yaxınkeş gətirin, pitini yiyəx'* (Gəncə); – *Yaxınkeşdə qatıx var* (Göyçay).

**YAXINTI** (Şamaxı) – qabın dibində qalan yemək qalığı. – *Boşqabın yaxıntısını pişiy yaladı.*

**YAXMA** (Başkeçid, Borçalı) – üzərinə yağ, şor və ya süzmə yaxılmış çörək parçası. – *Ana, maŋa yaxma ver* (Başkeçid).

**YAXMAC** (Bərdə, Biləsuvar) – b a x **yaxma.** – *Nənəsi uşağa yaxmac verdi* (Bərdə).

**YAXMAC-BILAMAC** (Kürdəmir) – başdansovdu. – *İşi görəndə səliqəynən görəllər, yaxmac-bılamac eləməzdər.*

**YAXMAX** I (Çənbərək, Karvansaray) – batmaq (günəşə aiddir). – *Gün yaxdı, bir iş görəmmədim* (Karvansaray).

**YAXMAX** II (Çənbərək, Dərbənd, Karvansaray) – yandırmaq. – *Hər axşam manqal yaxıllar* (Karvansaray); – *Piçi yax* (Dərbənd).

**YAXMAX** III (Şəki) – salmaq, döşəmək. – *Yerlərimizi yaxax, yatax.*

**YAXMAX** IV (Ağdaş) – lovğalanmaq.

**YAXMAX** V (Cəbrayıl) – uydurmaq, goplamaq. – *Genə özünnən nə yaxırsan?*

**YAXMANC** (Laçın) – b a x **yaxma.** – *Çörəyi al, yaxmanc elə, ye.*

**YAXMAŞ** (Qarakilsə) – b a x **yaxma.**

**YAXNIKEŞ** (Zəngibasar) – ət və s. qızartmaq üçün qab. – *Yaxınkeşi yəti qartof qızardım.*

**YAXŞIXAY** (Tovuz) – yaxşı xasiyyətli. – *Salman mə:llim yaxşıxay adamdı.*

**YAXTİKAN** (Füzuli) – tikanlı ot adı.

**YAIL** (Meğri) – b a x **yağal.** – *O xarta yaıl keçi var, mən nə bilim hankı yaıl keçini deyirsən!*

**YAQQA** (Ucar) – az qala.

**YALAF-YALAF: YALAF-YALAF YAMMAX** (Qazax) – od kimi qızarmaq. – *Elə gözəl qızdı kı, yanaxları yalaf-yalaf yaner.*

**YALAĞAGİRMƏ** (Zaqatala) – uşaq oyunu adı.

**YALAĞASALMA** (Hamamlı) – b a x **yalağagirmə.** – *Uşaxlar yalağasalma oynuyurdular.*

**YAĞALATOLLAMA** (Hamamlı) – b a x **yalağasalma.** – *Ə:, gedəy yalağatollama oynuyax.*

**YALAĞATÜŞƏN** (Çənbərək, Gəncə, Karvansaray) – mal-qaranın boğazı, xirtdəyi. – *Yalağatüşən haramdı, onu yeməzdər* (Gəncə); – *Qoyunun yalagatüşənini itə tulla* (Karvansaray).

**YALAĞEŞMƏ** (Qazax) – uşaq oyunu adı. – *Uşaxlar yalağeşmə oynuyanda top arxa tüşdü.*

**YALAĞÇI** (Lənkəran) – 1. acgöz; 2. qab dibi yalayan (adam).

**YALAX** I (Zaqatala) – toyuğun yumurtladığı çuxur yer.

**YALAX** II (Zaqatala) – dəyirman çarxının gözləri.

**YALAX** III (Qax, Şəki) – ayaq dingində çəltik töküb döyülən çuxur yer. – *Dingin yalağını təmizdə, çəltiyi so:ra tök* (Şəki).

**YALAXYALAX** (Borçalı) – uşaq oyunu adı. – *Uşaxlar yalaxyalax oyner.*

**YALAMA** I (Çənbərək, Gədəbəy, Gəncə, Hamamlı, Qazax, Laçın, Zaqatala) – heyvana verilən daş duz. – *İnəx'lərə yalama ver, yoxsa dalağ olallar* (Gəncə); – *Yalamanı qoy atın qavağına* (Laçın).

**YALAMA** II (Daşkəsən, Gədəbəy, Qazax, Tovuz) – xırda daş, kəsək. – *Uşax yalameyi atdı, itin baldırı qırıldı* (Qazax); – *Get, dalıncan da yalama getsin* (Daşkəsən); – *Ay uşax, qoyma:ŋ yalama atsınnar ağaşdara* (Gədəbəy).

**YALAMAX** (Ağdam) – sürtünüb keçmək. – *Güllə İdrisin çiynini yalıyıf keçif.*

**YALAMALAMAX** (Qazax) – daşa basmaq. – *Qoyunnarı yalamalıyıf dərəyə töxdüm.*

**YALAMALIX** (Gəncə) – mal-qaraya vermək üçün daş duz. – *Bir put yalamalığ aldım.*

**YALAMMAX** (Gəncə, Şuşa) – yaltaqlanmaq. – *Genə Dursuna nə yalanırsan?* (Gəncə); – *Ona yalammaxdan bir şey çıxmeyjax, ged özünə peşə tap* (Şuşa).

**YALANQI** (İmişli) – azca. – *Ağajdara yalanqı su veriblər.*

**YALANQU** I (Bakı) – acgöz.

**YALANQU** II (Zaqatala) – çör-çöpdən qalanmış ocaq. – *Bu ki yalanqudu.*

**YALANSITMAĞ** (Bakı) – yalan saymaq. – *Mən unun sözüni zarafatcan yalansıtdım.*

**YALAV** (Qarakilsə) – qapı çərçivəsi ilə divar arasında boşluq. – *Qapının yalavınnan baxıllar, içəridə heç nə görmüllər.*

**YALAVIMAX** (Böyük Qarakilsə, Daşkəsən, Xanlar) – çaxmaq (şimşək). – *Göy gürüldədi, şümşət yalavıdı* (Daşkəsən).

**YALAVUX** I (Qax) – acgöz.

**YALAVUX** II (Qax) – malların duz yaladığı yer.

**YALAYÜRƏN** (Qazax) – yaltaq.

**YA:LBAŞDAN** (Zəngilan) – yenidən. – *Ya:lbaşdan getdim soğan aldım.*

**YALFIRDAX** (Çənbərək) – çılpaq. – *Yalfirdax minilən at həmməşə yağır olu.*

**YALĞAÇƏ** (Dərbənd) – b a x **yağlovçə.** – *U zaman buniyə yalğaçə diyeydig.*

**YALĞIZAX** (Qazax) – b a x **yalqızax.** – *Yalğızax meşədə xəlvət yerrərdə olur.*

**YALĞUZAX** (Bərdə, Oğuz, Qax) – b a x **yalğızax.** – *Yalğuzax ziyanxor heyvandı* (Bərdə); – *Yalğızax tək gəzər çöldə* (Qax).

**YALXAYI** (Çənbərək) – tək, təkcə. – *İnəx' çölə yalxayı qaşdı.*

**YALXI** (Ağbaba, Bərdə, Böyük Qarakilsə, Füzuli, Xocavənd, İmişli, İsmayıllı, Kürdəmir, Qubadlı, Laçın, Zaqatala) – tək. – *Keçilər hamısı yalxı doğur* (Qubadlı); – *Qoyun tək doğanda de:rix' yalxı doğuf* (Xocavənd); – *Əlinin qoyunu yalxı doğuf* (Böyük Qarakilsə); – *Qoyın var ekiz doğar, qoyın var yalxı* (İmişli); – *Yalxı düyüdən pılov olmaz* (Kürdəmir).

**YALXOY** (Gədəbəy) – nazik, yüngül. –*Usuf yalxoy geyindiyinə üşüyördü yaman.*

**YALXU** (Ağcabədi, Bakı, Qarakilsə, Laçın) – b a x **yalxı.** – *Qoyunumuz yalxu doğur* (Ağcabədi); – *Davarlarımızın hamısı yalxu doğdu* (Qarakilsə).

**YA:LIDAN** (Cəbrayıl) – yenidən.

**YALINTARAX** (Zəngilan) – corabsız. – *Əhməd əyaqqabını yalıntarax geyib, həyətə çıxdı.*

**YALINTƏYX** (Çənbərək, Karvansaray) – b a x **yalıntarax.** – *Qaloşu əyəğimə yalıntəyx aldım* (Karvansaray).

**YALKIN** (Dərbənd) – b a x **yalqın.** – *Kirşəni yalkını sinsə, odun yükləmə ulmadım.*

**YALQIN** (Dərbənd) – kirşənin yan hissələrini birləşdirən ağaclar.

**YALQIZAX** (Bərdə) – təkgəzən canavar. – *Qışda buralarda yalqızax çox olardı.*

**YALQIZDAX** (Tovuz) – b a x **yalqızax.** – *Qoyunnarı yaxşı gözdə, buralarda yalqızdax yaman çoxalıf.*

**YALQUZAX** (Bərdə, Ucar, Cəbrayıl) – b a x **yalqızax.** – *Yalquzax qışda kənddə çox olur* (Bərdə); – *Eşidirsən, yalquzax uluyur* (Cəbrayıl).

**YALLI-YAPALLI** (Qazax) – ətli-canlı, kök. – *Kərimin bir yallı-yapallı arvadı var.*

**YALMAN** (Bərdə, Borçalı, Hamamlı) – atın yalı. – *Yalman atın boynundo:lur* (Bərdə); – *Atın yalmanı örülör* (Borçalı); – *Dayça:n yalmanın qırxıfsaŋmı?* (Hamamlı).

**YALMANNAMAX** (Çənbərək) – atın yalından tutmaq. – *Atı yalmanna, min get dağa.*

**YALONQI** (Bərdə, Qazax) – zəif alov. – *Yalonqı əlimi qızdıdı* (Bərdə); – *Yalonqı eləyin, bir az isinəx′* (Qazax).

**YALOTU** (Kəlbəcər) – rəybərəy, fikrini tez-tez dəyişən. – *Əmirassan çox yalotu adamdı.*

**YALO:UNTU** (Mingəçevir) – bax **yalonqı.**

**YALÖYX** (Karvansaray) – şoran (torpaq). – *Sarıtəpə, Balaxaç, Pirğalam bizim kəndin ətrafındayı yalöyx yerlərdi.*

**YALTAŞA** (Qazax) – yaltaq.

**YALTAY** (Ağdam) – talvar.

**YALVIRDAX** (Gədəbəy, Qazax) – ayaqyalın. – *Bir də yalvırdax bir oğlan çıxdı qavağıma* (Qazax); – *Yalvırdax nə tüşüfsüŋ buralara?* (Gədəbəy).

**YAM** (Gədəbəy) – kömür quyusu.

**YAMALIX** (Qazax) – yamaq. – *Paltara yamalıx saleram.*

**YAMALLAMAX** (Zaqatala) – yamaqlamaq.

**YAMALLIX** (Zaqatala) – bax **yamalıx.**

**YAMAN** (Borçalı, Cəbrayıl, Füzuli, Göyçay, Qax, Qazax, Mingəçevir, Tərtər, Tovuz) – xəstəlik adı. – *Yaman adamı öldürör* (Tovuz); – *Kəhər at yamannan öldü* (Cəbrayıl).

**YAMANÇÖPÜ** (Basarkeçər, Gəncə) – yaman xəstəliyi üçün dərman bitkisi. – *Heyvanın yarasını yamançöpü sağaltdı* (Gəncə); – *At, inəx′ yamannıyanda yamançöpün qaynadıllar, heyvanın qarnının altınnan bağlıyıllar, o da yaxşı olur* (Basarkeçər).

**YAMANNAMAX** (Gəncə, İmişli, Şəmkir) – yaman xəstəliyinə tutulmaq. – *Bi yaxşı atım vardı, yamanneyıb öldü* (İmişli); – *Bizim atımız heç yamannamax bilməz* (Gəncə); – *At yamannıyıf* (Şəmkir).

☐ **Yamin çəkmək** (Yardımlı) – təəssübkeşlilik etmək. – *Qohimidü, yamin çəkey.*

**YAMŞAX** I (Xanlar) – dəyirmanda un tökülən yer, unluq. – *Yamşağı dar olan də:rman unu çox tozduyar.*

**YAMŞAX** II (Qax, Zaqatala) – çoxdanışan.

**YAN** I (Cəlilabad, Oğuz) – başqa. – *Maha icazə ver, yan yerə gedəsiyəm* (Oğuz); – *Mən onnan danişdim, gəldim, o, yan yerə getdi;* – *Miyəllim diyən bı qağa yan yerdən gəlib, heləmi?* (Cəlilabad).

**YAN** II (Cəlilabad) – hissə. – *Bı cücəni üç yana böləcəkdüg.*

**YAN** III (Cəbrayıl) – hananın dayaq ağacı.

**YANA** (Qubadlı, Naxçıvan, Ordubad, Şərur, Zəngilan) – ötrü. – *Mən pasportdan yana burda qalmışam* (Ordubad).

**YAŊAL** (Gədəbəy) – qırmızımtraq. – *Nə yaŋal yanaxları var qızın, elə bilinnən qızıl güldən irəy alıf.*

**YANALMAĞ** (Şamaxı) – yaxınlaşmaq. – *Göydə gedən sonalar bir-birinə yanalar.*

**YANASI** (Şərur) – yanacaq (odun, çörçöp). – *Təndirə yanası at, çıx.*

**YANAV** (Culfa, Laçın, Ordubad) – bax **yalav.** – *Yanava haçar qoymuşam, ver maŋa* (Laçın); – *Qapı:n yanavın çox vaxd daşdan hörəllər* (Culfa).

**YANBƏYİ** (Zaqatala) – sağdış, soldış.

**YANBOY** (Lənkəran) – yelkəni kiçik qayıq. – *Qurbanın yanboyi bu gün Səlyannan gəldi.*

**YANÇAX** (Gədəbəy) – yan hissə (arabada). – *Yançağını düzəldin də, haraveyi ota aparın.*

**YANÇI** I (Bərdə, Borçalı, Xocavənd, Kürdəmir, Qazax, Qarakilsə, Quba, Tovuz) – köməkçi. – *Yançı olmasa, çovan, sığırçı işdiyəmməz* (Borçalı); – *Xanatoxuyanın ya:nda yançı olor* (Qazax); – *Bu xalçanı yançı olmasa, toxumax çətin olar* (Bərdə); – *Axıracan oturuf hanıya köməy eliyənə yançı deyrix′* (Xocavənd); – *Xalı toxumağ üçün yançı tuturuğ* (Kürdəmir).

**YANÇI** II (Qazax) – çoxdanışan. – *Çoxdanışan arvada biz yançı arvat, çəngi arvat deərix′.*

**YANÇI** III (Quba, Oğuz) – kənar adam. – *İkisi qapışır, yançı gəlir ayırtdaşdırır* (Oğuz); – *Mən sənə yançıyam ki, mənim üsdümə gələsən!* (Quba).

**YANÇI** IV (Qax, Zaqatala) – sağdış, soldış.

**YANDAMI** (Naxçıvan) – anbar əvəzinə istifadə edilən tikinti, daxma. – *Uşağlar, yandamınnan çıxın, bağlıyıram.*

**YANDƏS** (Salyan) – kanalın kiçik qolu. – *Yandəs kanaldan kiçik olır.*

**YANDIX** (Cəbrayıl) – acıq. ◊ **Yandıx vermək** – acıq vermək. – *Sonuya yandıx verməsəm, ürəyim soyumaz.*

**YANIX** II (Borçalı) – b a x **yandıx.**

**YANIX** III (Zəngibasar) – *məc.* intiqam, qisas. – *Sənnən gərəx′ yanığımı alam.*

**YANIQARA** (Ağdam, Basarkeçər, Bərdə, Gədəbəy) – mal xəstəliyi. – *Yanıqara bir gün tutsa, heyvan savağ ölər* (Bərdə); – *Yanıqara oluf, də:sin cöngə* (Gədəbəy); – *İnəx′ yanıqara olanda onun əti ye:lmir* (Basarkeçər).

**YANIMAX** (Gəncə, Qazax, Tovuz, Zaqatala) – qorxutmaq, hədələmək. – *Atam səni yanıyırdı* (Qazax); – *Niyə məni yanıyırsan, sənnən qorxan-eliyən yoxdur ha!* (Gəncə).

**YANITDIRMAX** (Gəncə) – hədələtdirmək, qorxutmaq. – *Onu elə yanıtdırım ki, illərnən mənim həndəvərimə gəlməsin.*

**YANİ** (Sabirabad) – çilingağaca oxşar oyun adı. – *Uşaxlar, gəlin yani oyniyağ.*

**YANQILICI** (Qarakilsə, Meğri) – 1. yanakı (Meğri) – *Seyfulla bəy həmmişə papaği yanqılıci quyərdi, bığlərin də əşərdi;* 2. biryanlı minmək (Qarakilsə). – *Mən eşşəyi yanqılıcı mimmişdim.*

**YANQIR** I (Borçalı, Qazax) – çoxdanışan. – *Yanqır adam ağzınnan çıxan sözü bilməz* (Borçalı); – *Yanqır adamın qaydasıdı çox danışmax;* – *Yanqır adam hamını diysindirer* (Qazax).

**YANQIR** II (Şamaxı) – haqverməyən, haqq-hesabda düz olmayan. – *Məmiş çox yanqır adamdı.*

**YANQIRIX** (Şəki) – çardağın kənarındakı açıq yer.

**YANQOYLAMAX** (Qazax) – sudan korluq çəkmək. – *Taxıl yanqoyluyuf, yaxşı döyü dəni.*

**YANQUR-YANQUR: YANQUR-YANQUR DANIŞMAX** (Basarkeçər) – hədərən-pədərən danışmaq. – *Ə:, yanqur-yanqur danışma.*

**YANNAMA** (Ağdaş, Biləsuvar, Göyçay, Kürdəmir, Mingəçevir, Ucar) – sacda bişirilən çörək növü. – *Pendirnən yannama ləzətdi olur* (Ağdaş); – *Bibimgildə yannama yedim* (Biləsuvar).

**YANNIX** I (Şamaxı) – içinə ağartı tökülən kiçik tuluq. – *Çəpişin dərisinnən çoban bir yannıx qayırdı.*

**YANNIX** II (İmişli, Qazax) – yəhərin hər iki tərəfinə birləşdirilən gön parçası. – *Yəhərin yannığı qırılıf yolda düşüf* (Qazax).

**YANNIX** III (Ağcabədi) – dəyənin qamışdan hörülmüş yan divarları.

**YANNIX** IV (Gəncə) – arabanın yan taxtaları. – *Araba çöyrüləndə sol yannığı sındı.*

**YANOV** (Salyan) – arabaya qoşulan heyvanların üçüncü cütü.

**YANOY** (Basarkeçər, Çənbərək) – qapıda yaşmaq, haşiyə. – *Qapının yanoyu qırıldı, gərəy onu düzəldəx′* (Basarkeçər); – *Bizdə yanoyun hündürrüyü iki metirdən artığ olmaz* (Çənbərək).

**YANPERTİ** (Meğri) – yanakı, çəpəki. – *Qırxəyəx niyə yanperti yerer?*

**YANPÖRTÜ** (Ağbaba, Ağdam, Qazax, Mingəçevir) – b a x **yanperti.** – *Haraya belə yanpörtü gedirsən?* (Ağbaba); – *Ala bu yemişi yanpörtü qoy orya* (Ağdam); – *Atın belində yanpörtü otuma, düz otu* (Qazax); – *Mıxdar qapıdan yanpörtü keşdi* (Mingəçevir).

**YANŞAĞ** (Dərbənd, Quba, Şamaxı) – b a x **yamşax** II. – *Uni mən çux yaxşı tanıyadam, çux yanşağ adamdu* (Quba); – *Yanşağ adamnan hamının zəhləsi gedər* (Şamaxı); – *Yanşağ adamnan əmimün zəhləsi kitədü* (Dərbənd).

**YANŞAĞLAMAĞ** (Quba) – çox danışmaq. – *Uni üz başına buraxsan, axşamacan yanşağlar.*

**YANŞAĞLIĞ** (Şamaxı) – çərənçilik, zəvzəklik. – *Ay bala, yanşağlığ pis şeydi, yanşağdan hamı qaçar.*

**YANŞAMAĞ** (İsmayıllı) – boş-boşuna çox danışmaq. – *Genə nə yanşı:rsan?*

**YANŞAMƏY** (Cəlilabald) – b a x **yanşamağ.** – *Bircə bı Vaqif yanşaməyinnən əl çəksə, quləğimiz dincələrdi.*

**YANŞAX** I (Ağcabədi, Ağdam, Cəbrayıl, Qarakilsə, Qax, Meğri, Ordubad, Şəki, Zaqatala) – b a x **yamşax** II. – *Yanşax boş-boş danışar* (Ağcabədi); – *Yanşağ adamnan hamının zəhləsi gedir* (Şəki); – *Aşiğlərin də hamısına yanşax deyərıx;* – *Nüyədidə Xanəli kimin yanşax adam yuxdı* (Meğri); – *Adam da ha vuğartax <bu qədər> yanşağ olarmı?* (Zaqatala).

**YANŞAX** II (Ağcabədi) – züytutan, züyçü. – *Zurnaçı çalır, yanşağ da ona dəm tutur, barmaxların işdətmir.*

**YANŞƏY** (Cəlilabad) – b a x **yamşax** II.

**YANTAY** I (Göyçay, Oğuz, Şəki, Ucar) – qış fəslində araba, kotan, bəzən də mal-qara saxlanılan tikinti. – *Yantayda tıraxdır-zad saxlıyıllar* (Oğuz); – *İnək yantayda yatdı* (Ucar); – *Aravanı yantayın altına çək* (Şəki).

**YANTAY** II (İrəvan) – səbət. – *Yantayı boşalt, tez gəti.*

**YANTEY** (Mingəçevir) – b a x **yantay** I.

**YAPACAX** (Zəngilan) – çörəkyapan alət.

**YAPAĞ** (Quba) – yazda qırxılan qoyun yunu. – *Qara yazda quyni qırxadular, una diyədilər yapağ.*

**YAPAĞI** (Ağdam, Balakən, Bolnisi, Borçalı, Füzuli, Gədəbəy, Xocavənd, Karvansaray, Qax, Qarakilsə, Qazax, Quba, Şəki, Zaqatala) – b a x **yapağ.** – *Yapağı yaxşıdı, nəqqərtənə yaxşı parça var, yapağıdan çıxır* (Xocavənd); – *Yapağı yaz yununa de:rix', yapağı keçə kimin olur* (Füzuli); – *Bir put yapağı aldım* (Şəki); – *Yapağıdan hər şey əmələ gəlẹdü* (Quba).

**YAPALAĞ** (Ağsu) – *məc.* qısaboylu.

**YAPAMAĞ** (Kəlbəcər) – hədələmək.

**YAPANTARAX** (Oğuz) – tələsik.

**YAPBA** I (Cəbrayıl, Hamamlı, Kəlbəcər, Kürdəmir, Qarakilsə, Qazax) – təzək. – *Dünən xeyli yapba yapbışam* (Qazax); – *Yayda yapba sərməsən, qışda yandırmağa tapbazsan* (Cəbrayıl); – *Yapba da yanacax kimi işlənir* (Hamamlı).

**YAPBA** II (Kəlbəcər) – yastı. – *Bunun papağı hancarı yapba döyül?*

**YAPBACA** (Qazax) – b a x **yapba.**

**YAPBAX** (Zəngibasar) – yaraşmaq. – *Bu şafqa heş səni yapbır.*

**YAPBAMMAX** (Cəbrayıl) – oturub qalmaq. – *Orda niyə yapbammısan?*

**YAPI** I (Ağcabədi) – baş örtüyü.

**YAPI** II (İmişli) – üst paltarı. – *İncavar, yapısı qalın olur, qılçın bölmür.*

**YAPI** III (Beyləqan, Cəbrayıl) – ayaqqabı. – *Ayağımın yapısı yoxdu* (Beyləqan).

**YAPIXMAX** (Qazax) – sığınmaq. – *O da gedif yeznəsinə yapıxıf, yaxşıca dolanellər.*

**YAPIMAX** (Qazax) – qorxutmaq.

**YAPIRTMAX** (Göyçay) – yastılamaq, hamarlamaq.

**YAPIŞMƏG** I (Cəlilabad) – xoşa gəlmək. – *Yumırtda mənə yapışmey.*

**YAPIŞMƏG** II (Dərbənd) – savaşmaq, dalaşmaq. – *Onun yerinə mən süzüynə yapışacağam.*

**YAPMA** (İrəvan) – b a x **yapba** I. – *Qış üçün iki yüz dana yapmamız var.*

**YAPMAĞ** (Göyçay) – hazırlamaq, qayırmaq. – *Möhrə palçığdan yapılır.*

**YAPMAX** (Zaqatala) – örtmək. – *Yapmağa öyün üsdünə qamış gətirəllər.*

**YAPUMMAX** (Qax) – yalvarmaq. – *Xeyri yoxdu, ona-buna yapunma.*

**YAPUŞMEG** (Dərbənd) – savaşmaq, dalaşmaq. – *Sənnən ötrü mən dostumnan heç yerə yapuşdum.*

**YAR** I (İrəvan) – suyun yuyub apardığı yer, sahil.

**YAR** II (Quba) – ağac içi. – *Palut ağacinin yarini çıxart gətir.*

**YARAX** (Ağdərə, Gəncə, Qazax) – yaraşıq, bəzək. – *Bu evin yarağı çoxdu* (Gəncə).

**YARAXSAN** (Oğuz) – yarasa.

**YARAMMAX** I (Daşkəsən, Gədəbəy, Göyçay, Qazax) – b a x **yalammax.** – *İrvaham İsrəfil kişiyə yaranıy* (Daşkəsən); – *Meyi Məmmədə yaraney* (Qazax); – *Özün Süleymana yaranırsan* (Göyçay).

**YARAMMAX** II (Balakən) – görünmək. – *Gün kü açıldı, sən gəl, mən də mex'təvin qavağında yaranajıyam.*

**YARANTI** (Ağdam) – kiçik yara; cırmaq yeri.

**YARCƏMİ** (Oğuz) – dəyirmi, dərin mis qab. – *O:n aşını yarcəmiyə qoy.*

**YARDARRIX: YARDARRIĞA VERMƏG** (Qazax, Salyan) – torpağı yarılığa icarəyə vermək. – *Yardarrığa torpağ verdim sənə* (Salyan); – *Tək təsərfat vaxdında kimin ulağı olordu əkerdi, kimin də yoxuydu yardarrığa vererdi* (Qazax).

**YARDUQEN** (Zaqatala) – nərdivan.

**YARIMQA** (Basarkeçər, Naxçıvan) – alçaqdaban qadın ayaqqabısı. – *Yarımqanı arvaddar giyər* (Naxçıvan); – *A:z, nə qəşəx' yarımqan var, hardan alıfsan, mən də alım onnan* (Basarkeçər).

**YARQANAT** (Göyçay) – yarasa.

**YARQƏNƏT** (Bakı) – b a x **yarqanat.**

**YARMA** (Gədəbəy, Göyçay, Şəki) – iri doğranmış odun. – *Ocağa iki dənə yarma qoy yansın* (Şəki). ◊ **Yarma eləməx′** (Gədəbəy) – (odunu) iri doğramaq. – *Oğlum odunu yarıf yarma elədi.*

**YARMAÇA** (Gədəbəy, Gəncə, Göyçay, Qazax, Lənkəran, Mingəçevir, Salyan, Zəngilan) – odun parçası. – *Yarmaçalardan ojağa qoy* (Gəncə); – *O yarmaçeyi ojağa qoy, qazan tez qaynasın* (Qazax); – *Ələkbər meşədən bir yük yarmaça gətdi* (Zəngilan).

**YARMAÇƏKƏN** (Dərbənd) – əldəyirmanı.

**YARMADAŞI** (Quba) – əldəyirmanı.

**YARMANÇ** (Bərdə) – ovalşəkilli dəlik. – *Yəhərqaş həvgənin ortasında yarmanç olur.*

**YARMƏNNƏNKÜSÜBDÜ** (Ucar) – evdə geyilən qadın ayaqqabısı. – *Sirac arvadına yarmənnənküsübdü aldı Ucardan.*

**YARNAX** (Gədəbəy) – yarğan. – *Dünən Zeynalın camışı yarnaxdan tüşüf murdar oldu.*

**YARPAX** (Qazax, Şəki) – vərəq. – *Bu gün kitafdan on yarpağ oxumuşam.*

**YARPAXLAMAX** I (Ağdam, Bərdə) – baramaqurduna yarpaq vermək, yemləmək. – *Qurdu yarpaxlamax vaxdıdı* (Ağdam); – *Onnan so:rasına qurdu yarpaxladım* (Bərdə).

**YARPAXLAMAX** II (Qazax) – vərəqləmək. – *Kitabı o qədər yarpaxlıyıfsan ki, cırılıf.*

**YARPIZQURDU** (Borçalı) – işıldaquş. – *Yarpızqurdu gejələr işıx verer.*

**YARPIZYARPAĞI** (Zaqatala) – bağayarpağı.

**YARRIĞAN** (Cəbrayıl, Gədəbəy, Qazax, Şəmkir) – çayın hündür sahili, uçurum. – *Yarrığannan saldı bö:ələx′ danıyı* (Gədəbəy); – *Heyvannarı qoyma yarrığana dolor, ilan-çiyan olar* (Şəmkir); – *Çayın bir tərəfi düz olor, bir tərəfi də yarrığan* (Qazax).

**YARTİKAN** (Kürdəmir) – tikanlı otlardan birinin adı.

**YASALAMMAX** (Ağdam) – maraqlanmaq.

**YASAMAL** (Ağcabədi, Bakı, Göyçay, Qazax, Ucar) – dağın döşü, yamac. – *Qoyunnarı apar yasamala* (Bakı); – *Yasamalda su dayammaz* (Ucar); – *Bu gün qoyunu yasamalda otarmışam* (Qazax); – *Yasamalda qoyun otduyur* (Ağcabədi).

**YASAMAL-YASAMAL** (Ucar) – alçaq-alçaq. – *Məktəbin yanında yasamal-yasamal öylər vardı.*

**YASAR** (Ağdam, Borçalı, Daşkəsən, Gəncə, Xanlar, Kəlbəcər, Qazax, Şəmkir, Zaqatala) – aciz, ağırtərpənən, tənbəl. – *Sən yaman yasar adamsan* (Ağdam); – *Yasar ona de:llər ki, bir şey başarmır* (Xanlar); – *Əşi, sən nə ölü adamsan, adam da habuğartax yasar olarmı?* (Zaqatala).

**YASARRAMAX** (Gəncə) – acizləşmək, tənbəlləşmək. – *Bu laf yasarranıf, bir şeyə yaramaz.*

**YASDAMMAX** (Cəbrayıl) – oturub qalmaq.

**YASDAN** (Dəvəçi, Qarakilsə) – dağda düzənlik.

**YASDANA** (Ağcabədi, Cəbrayıl, Daşkəsən, Füzuli, Gədəbəy, Hamamlı, Xanlar, Qazax) – b a x **yasdan.** – *Yaylağe:dəndə yasdanıya tüşürük* (Ağcabədi); – *Heyvannar yasdanada yatışıp* (Cəbrayıl); – *Mallar yuxarı yasdanada otduyur* (Daşkəsən); – *Qoyunnar yasdanada yatışıf* (Hamamlı).

**YASDAR** (Oğuz) – b a x **yasar.** – *O, yasdarın biridi.*

**YASDARRIX** (Oğuz) – acizlik, tənbəllik. – *Onun yasdarrığı üzünnən bilinir.*

**YASDI** (Kəlbəcər) – dayaz dərə, çökək yer. – *O dağın başında bir yasdı var.*

**YASDIĞ** (Kürdəmir, Şamaxı) – boyunduruqda və ya arabanın oxunda hissə. – *Boyunduruğun yasdığı yoxdu, arabanı qoşammaram* (Şamaxı).

**YASDIX** (Ağdam, Daşkəsən, Füzuli, Şəki) – b a x **yasdığ.** – *Yasdığ ağaşdan olur* (Füzuli); – *Haravanın yasdığı olmasa, laydırrarı bərkitməy olmaz* (Daşkəsən); – *Arabanın yasdığı təzədi* (Şəki).

**YASDIXLAMAX** (Ağdaş) – boyunduruğa və ya arabanın oxuna yastıq qoymaq. – *Büyün aravanı yasdıxlamağ isdiyirəm.*

**YASDILIX** (Borçalı, Qazax, Yevlax) – obaşdanlıq, oruc tutanların gün çıxmamış yedikləri yemək. – *Yasdılığı yeə:ndə ulduz varıydı göydə* (Qazax); – *Yasdılıx vaxdı xoruz manler* (Yevlax).

**YASDUĞ** (Quba) – bax **yasdığ.** – *Yasduğ quymasoğ, üküzdərin buyni tez yara ular;* – *Buyunduruğun altınnan yasduğ quyadular ki, buyunduruğ üküzün buynun əzməsin.*

**YASƏMƏN** (Qazax) – çörəyin bir növü.

**YASLAM** (Qax) – yastı.

**YASSAR** (Qax, Mingəçevir, Salyan, Şəmkir, Şuşa, Tərtər, Zaqatala) – bax **yasar.** – *Yassar adam iş bajarmaz* (Tərtər); – *İsrəfil yassar adamdı* (Salyan).

**YAŞ** (Cəbrayıl) – təzə, tər.

**YAŞAR** I (Qazax) – birillik at. – *Çöldə qurt yaşarı parçalıyıf.*

**YAŞAR** II (Şuşa) – balaca boşqab.

**YAŞDAŞ** (Bərdə, Culfa, Füzuli, İmişli, Qazax, Ordubad) – həmyaş. – *Mənim bir əmim vardı, onnan yaşdaşdı* (Füzuli); – *Oruşnan Həsən yaşdaşdı* (Bərdə); – *O uşax mənim oğlumnan yaşdaşdı* (İmişli).

**YAŞIRMAĞ** (Bakı) – gizlətmək. – *Yaşır muni bir mö:kəm yerdə.*

**YAŞIRMAX** (Ağdam, Bərdə, Şəki) – bax **yaşırmağ.** – *Papağıŋı yaşırmışam, get tap* (Şəki).

**YAŞMAX** (Cəbrayıl) – qarğıdan tikilən evin çardağının baş tərəflərini örtmək üçün qamışdan hörülmüş hissə. – *Mən yaşmax toxumağı billəm.*

**YATAĞAN** (Qazax, Tovuz) – zəhərli ilan növü. – *Yatağanı Dursun dəyənəynən öldürdü* (Qazax); – *Yatağan da ilandı* (Tovuz).

**YATALĞA** I (Bərdə, Şuşa, Tovuz) – heyvanların gecələdiyi yer. – *Bizim heyvanlar çinarın divin yatalğa eliyif* (Şuşa); – *Ce:ran yatalğada yatıfdı* (Bərdə).

**YATALĞA** II (Tovuz) – yatalaq. – *Yatalğa, yatıxlıx bir şeydi.*

**YATAR** (Salyan) – var-dövlət, qızıl-gümüş. – *Keşmişdə bəglərdə yatar çox olırdı.*

**YATIF-DURAJAX** (Füzuli) – yorğan-döşək. – *Nənəsi cehiz verdi; yaxşı gəvə, kilim, bir dast yatıf-durajax.*

**YATIX** (Qazax) – xəstəlik. – *Səni görüm, yatığın olmasın.*

**YATIXLIX** (Tovuz) – yatalaq.

**YATIXMAX** (İmişli) – azalmaq (su haqqında). – *Arazın sui yatıxıb.*

**YATIR** I (Zaqatala) – tənbəl. – *Murtuz lap yatırın biridi.*

**YATIR** II (Qax) – odunluq ağac. – *Biliysin ne yatırrar kesmişam?*

**YATIR** III (Bakı, Qazax, Mingəçevir) – bax **yatar.** – *Hac İsrafilin yaxçi yatırı vardı* (Bakı); – *Onun yaman yatırı var* (Qazax).

**YATIR-GÖTÜR** (Qazax) – xəzinə. – *Camahat elə biler yatır-götürüm var.*

**YAVAŞCA** (Qarakilsə) – ehtiyatlı. – *Onun atası yavaşca kişiydi.*

**YAVIMAX** (Cəbrayıl, Çənbərək, Karvansaray) – alışmaq, uyğunlaşmaq. – *Yazabuğa naxıra yavımır* (Karvansaray).

**YAVINCI** (Goranboy) – möhtac. – *Heç kəsə yavıncı olmamaxçın işləməx′ lazımdı.*

**YAVINCIMAX** (Cəbrayıl, Füzuli) – yalvarmaq. – *Yavıncıdı kin, məni də özünnən apar* (Cəbrayıl).

**YAVUMAX** (Qax) – bax **yavımax.**

**YAVŞAX** (Qarakilsə) – xırda bitki biti. – *Toxumları yavşax basanda biz onları qırırıx.*

**YAY** (Dərbənd) – qövsi-qüzeh. – *Qarı nənə yayın uzatadi.*

**YAYACAX** (Zəngilan) – təndirə çörək yapan alətin adı.

**YAYAĞ** (Dərbənd) – piyada. – *Maşin düşmiyəndə kəntdən asvəltəceg yayağ gəlmişig.*

**YAYAX** (Borçalı, Qazax, Ordubad) – piyada. – *Yayax getsək yorularıx, gəlin maşına minək* (Borçalı); – *Adam yayax gedəndə yorulur* (Ordubad).

**YAYALMASI** (Ordubad) – yayda yetişən alma növü.

**YAYALUĞ** (Quba) – kasıb. – *Şıxbabanın qardaşı yayaluğ olub.*

**YAYDAMI** (İmişli) – çardaq. – *Mən yaydamıda yatıram.*

**YAYXAMMAX** (Oğuz) – lovğalanmaq. – *Adam çox yayxanmaz.*

**YAYXANA-YAYXANA** (Hamamlı) – naz ilə, nazlana-nazlana. – *Nə yayxana-yayxana gələrsən belə.*

**YAYXIN** (Qazax) – gizli. – *Maşın qoyunu basdı, əmə şofur divannan yayxın gəzmədi.*

**YAYICI** (Borçalı) – qoyun cinslərindən birinin adı.

**YAYKÖYNƏX′** (Oğuz) – kofta.

**YAYQARA: YAYQARA ELƏMƏX′** (Qazax) – bölmək. – *Cöngənin ətin altı yerə yayqara elədix′.*

**YAYQI** (Tovuz) – yuxayayan. – *Yayqıda yuxa yayellər.*

**YAYMA** I (Bakı) – yuxa, çörək növü. – *Yaymanın boyatı qeyiş kimi olar.*

**YAYMA** II (Bərdə, Daşkəsən, Gədəbəy, Göyçay, Xanlar, Mingəçevir, Oğuz, Şəki, Zərdab) – südlüsıyıq. – *Yaymanın qazmağı olmaz* (Bərdə); – *Süt də tökür, su da, düyü də, orda pişir, olur yayma* (Oğuz); – *Savağ ertə bir boşqaf yayma yimişəm, acmamışam hələ* (Şəki).

**YAYMA** III (Füzuli, Xocalı) – yeni tənək bitirmək üçün onun budaqlarını kökündən ayırmadan yerə basdırma. – *Mə:m özümün tə:ngim azıdı, elə o yaymeynan çoxaldı* (Füzuli).

**YAYMAX** (Basarkeçər, Çənbərək) – çalxamaq. – *Əlimdə işim var, nehrə yayıram, sonra gələrsəŋ, gedərix'* (Basarkeçər); – *İki nehrə yaydı büyün Xacca* (Çənbərək).

**YAYÖNÜ** (Qazax) – yay vaxtı. – *Kəlvəcər yayönü gözəl olur.*

**YAYPAN** (Qazax, Yevlax, Mingəçevir, Gədəbəy) – 1. yastı (Yevlax). – *Qoyunun beli yaypandı, keçininki dik;* 2. yatmış taxıl (Gədəbəy, Qazax, Mingəçevir). – *Yaypan piçənəx'dən bir şey kəsmer axlım heş* (Gədəbəy).

**YAY-UX** (Dərbənd) – qövsi-qüzeh. – *Yay-ux yağişdən sura çəkülədü.*

**YAZ: YAZ ADAM** (Tovuz) – işsiz adam.

**YAZABUĞA** (Qazax, Tovuz) – yaz vaxtı buğa həddinə çatacaq ikiyaşar qaramal. – *Bir yazabuğa alajam* (Qazax).

**YAZAXLAMAX** (Beyləqan) – doğum ərəfəsində ağrı çəkmək. – *Bizim inəyimiz yazaxlıyır.*

**YAZAM** (Zəngilan) – yazda qırxılan qoyun yunu. – *Yazam yazda qırxılan yuna de:rıx.*

**YAZAN** (İmişli) – uşaq oyunu adı.

**YAZANCIL** (İmişli) – yaxşı yazan. – *O, yazancıl uşağdı.*

**YAZANQURU** (Ağdam) – yazın əvvəlləri, köhnə məhsulun qurtardığı, yeni məhsulun hələ yetişmədiyi vaxt. – *Yazanquruda yeyinti çox az olur.*

**YAZBUĞA** (Qazax, Tovuz) – b a x **yazabuğa.** – *İkiilliy olanda yazbuğadı* (Tovuz).

**YAZĞI** (İmişli) – siyahıyaalma. – *Yazğıda bu uşağ balaceydi.*

**YAZDAX** I (İmişli) – yaz yurdu, yaz otlağı. – *Yazı yazdaxda olordux.*

**YAZDAX** II (Zaqatala) – yazlıq taxıl.

**YAZDAXDABİŞMƏ** (İmişli) – həddindən artıq istilik nəticəsində əmələ gələn qoyun xəstəliyi adı.

**YAZDAMAX** (İmişli) – yaz fəslini keçirmək. – *Yazde:f qalxerdıx dağa.*

**YAZI** I (Ağdam, Cəbrayıl, Füzuli, Qazax, Laçın, Oğuz, Ordubad, Şahbuz, Tərtər, Zəngilan) – çöl, səhra, düzənlik. – *Quvatdıya <Qubadlıya> gedəndə yazı getdix'cə qutarmır* (Laçın); – *Yazıdan çayacan yağış məni döydü* (Zəngilan); – *Qavaxlar susuz yazılar çoxudu* (Füzuli); – *Yazıda qoyun da otduyur, mal da otduyur* (Şahbuz).

**YAZI** II (Kəlbəcər, Kürdəmir) – təzək. – *Təzəgül, get yazı yığ* (Kəlbəcər).

**YAZIXMAX** (Çənbərək, Cəbrayıl, Gədəbəy, Qazax, Şəmkir, Tovuz) – bələd olduğu yeri itirmək, səhv salmaq. – *Vəli yazıxıf* (Qazax); – *To:x yazıxıf, də:nə <deyə> bilmey hara mırtdasın <yumurtlasın>* (Gədəbəy); – *Çil to:uğ üç gündü yazıxıf, bilmirəm harda yumurtduyur* (Cəbrayıl).

**YAZIMMAX** (Gəncə, Qazax) – yayınmaq. – *Yaxşı görör Güllü qarı, heş şey yazınmer gözünnən* (Qazax); – *Məni görən kimi yazındı* (Gəncə).

**YAZINDIRMAX** (Gəncə) – yayındırmaq. – *Onu gözümnən yazındır ki, görmüyüm.*

**YAZIPİŞİYİ** (Daşkəsən, Gədəbəy, Göyçay, Qazax, Şamaxı, Tərtər, Ucar) – çölpişiyi. – *Yazıpişiyi çöl heyvanıdı* (Tərtər); – *Bizim yerdə yazıpişiyi çox olur* (Şamaxı).

**YAZI-PUZU** (Oğuz) – toyqabağı nikah məclisi.

**YAZIYAZZI** (Salyan) – toyu keçirmək üçün məsləhətləşmə yığıncağı. – *İskəndər məni yazıyazzıya çağırmışdı, mən də gedəmmədim.*

**YAZMA** (Tərtər) – kartofdan hazırlanmış xörək adı.

**YAZMAX** (Gədəbəy, Kəlbəcər) – yaymaq. – *Xamırı oxloynan yazıllar* (Gədəbəy).

**YAZYÖNÜ** (Qazax) – yaz vaxtı. – *Buralar yazyönü yaxşı olur.*

**YEBƏRMAĞ** (Dərbənd, Tabasaran) – göndərmək. – *Uşağı Qorbannan yebərdim* (Tabasaran).

**YEDDİARXADÖNƏN** (Meğri, Ucar) – özündən yeddi nəsil əvvəl olanlar. – *Mən onun yeddiarxadönəninə bələdəm; – Oğlum, sənin yeddiarxadönənin də yaxşı adamlar olublar* (Ucar); – *Burşliyam yeddiarxadönəniŋ təsibin çəkim* (Meğri).

**YEDDİGƏLİN** (Qax, Oğuz) – mədəcik. – *Baş tapbağ olan şey döylü, bilmirəm niyə yeddigəlin diyillər* (Oğuz).

**YEDDİLƏR** (Borçalı, Qazax, Tovuz) – bir yerdə olan yeddi ulduz.

**YEDDİLİK** I (İmişli, Masallı) – qızlarquşu. – *Orda yeddilik bala çıxardıb, yuvası var* (İmişli).

**YEDDİLİK** II (Qazax) – yeddi canavardan ibarət sürü. – *Qoyuna yeddilik çüşsə, qırar qoyunnarın hamısını.*

**YEDDİLÖ:ÜN** (Bərdə, Ucar) – b a x **yeddilövün.** – *No:ruz bayramında yeddilö:ün düzəldirix'* (Bərdə); – *Bayram axşamına biz yeddilö:ün hazırrıyırıx* (Ucar).

**YEDDİLÖVÜN** (Qax, Ordubad) – qarışıq, müxtəlif şirniyyat və s. – *Qız, dur ayağa, xalangilə yeddilövün qoyum, apar* (Ordubad).

**YEDDİRƏNG** (Lənkəran) – quş adı. – *Ağacımızdakı yeddirəng çox gözəldür.*

**YEDƏX'** I (Çənbərək, Tovuz) – ikitəkərli araba növü. – *Yedəx'də iki şalman gətdi Əli* (Çənbərək); – *Bir yedəx' tapın, o dəni də:rmana tulla:ŋ* (Tovuz).

**YEDƏX'** II (Oğuz) – möhkəmlik üçün iki tirə çəpinə vurulan ağac. – *Palıtdan, qaraǧaşdan yedəy olar.*

**YEDƏX'** III (Şamaxı, İrəvan) – aşağısı gen, ağzı dar mis qab. – *Yedəyi götürün, hamamda lazım olar* (Şamaxı).

**YEDİCİ** (İsmayıllı) – yas məclislərində avazla oxşayan qadın, ağıçı.

☐ **Yedmə qalmağ** (Meğri) – dul qalmaq. – *Bılqeyisi görim yedmə qalsın.*

**YEƏ** (Gədəbəy) – həyasız. – *Çox yeə adamdı Mansır.*

**YEG** (Quba, Ordubad) – b a x **yey.** – *Sənnən yeg olmasun, yaxşıdı* (Ordubad); – *Mənim bir dusdum vardı, sənnən yeg olmasun, Bakı şə:rində* (Quba).

**YEGƏL** (Ordubad) – oğlan evində olan toy. – *Yegəl oğlan əvindo:lar.*

**YEGƏN** I (Cəlilabad) – bacıoğlu. – *Yegənnərim gəldilər.*

**YEGƏN** II (Cəlilabad) – ardınca gedən. – *Həsənin də yegəni olər.*

**YEHRƏ** (Qazax) – biçilib zolaq şəklində tökülmüş ot. – *Qızım otu yehrədən yığdı.*

**YEX'BURNU** (Laçın) – bütünlüklə, hamısı.

**YEK** (Dərbənd) – rüşvət. – *Habu nə cür adamdu, yek almamış işi düzəltmədü.*

**YEKBECƏ: YEKBECƏ GƏLMEG** (Bakı) – höcətləşmək. – *Məniynən nə yekbecə gəlirsən?*

**YEKƏXANA** (Gədəbəy, Gəncə, Laçın, Şamaxı, Şəki) – lovğa. – *Yaman yekəxana adamsan* (Laçın); – *Hajı yaman yekəxana adamdı* (Gəncə); – *Yekəxana adamnan zəhləm ge:r mənim* (Şəki).

**YEKƏXANALIX** (Gədəbəy, Gəncə, Laçın, Şamaxı, Şəki) – lovğalıq. – *Çox da yekəxanalıx eləməynən ha!* (Gədəbəy); – *Yekəxanalıx pis şeydi* (Gəncə).

**YEKİNMƏX'** (Başkeçid) – tutmaq, yapışmaq.

**YELAN** (Naxçıvan, Ordubad) – üstünə tut çırpmaq üçün ağac altına salınan və ya tutulan böyük parça. – *Biz tuti yelana silkirix'*: – *A bala, yelanı o yana tut* (Naxçıvan).

**YELAPARDI** I (Qazax, Tovuz) – nazik və ya yağlı çörək növü. – *Yelapardını sajda pişirəllər*; – *A:z, bir az yelapardı pişir, ye:əx'* (Qazax).

**YELAPARDI** II (Bakı) – zəif küləkdən çiçəyi tökülən zərif bitki növlərindən birinin adı.

**YELAPARDI** III (İrəvan) – çox yüngül, çox nazik. – *Bu çit lap yelapardı çitdi.*

**YELBAŞDAN** (Ağdaş) – yenidən. – *Gəl oyuna yelbaşdan başdıyax.*

**YELBƏ** I (Cənubi Azərbaycan, Kürdəmir, Lənkəran, Şamaxı) – quş adı. – *Yelbə bicardan uşdi* (Lənkəran); – *O:çi tornan on yelbə tutdi* (Şamaxı); – *Bir dənə yelbə tutdum* (Cənubi Azərbaycan).

**YELBƏ** II (Laçın, Zəngilan) – saç. – *Arvatdar döyüşəndə bir-birinin yelbəsinnən tutur* (Laçın).

**YELBƏ** III (Kürdəmir) – səlbə. – *Quşu yelbəynən vurdum.*

**YELBİZ** (Laçın) – saç. – *Yelbizinnən tutuf sürüyərəm.*

**YELBİZƏK** (Füzuli) – b a x **yelbiz.** – *Yelbizəyini bir yerə yığsana!*

**YELBİZLƏMƏK** (Laçın) – saçlamaq. – *Saçı olmuyan arvadı yelbizləmək olmaz.*

**YELBOĞAZ: YELBOĞAZ OLMAX** (Göyçay) – boş, dənsiz sünbül açmaq.

**YELÇÖ:Zİ** (Şamaxı) – cövüz növü. – *Yelcö:zi çətin tapılır.*

**YELÇƏK** (Kürdəmir, Masallı) – ləçək. – *Yelçəgimi yumuşam* (Kürdəmir).

**YELÇƏKƏN** (Gəncə) – havatəmizləyən, havadəyişdirən aparat. – *Yelçəkən xarab oluf, işdəmir.*

**YELÇIXAN** (Ağcabədi) – nehrədə hava çıxan xüsusi yer. – *Yelçıxan olmasa qatıx köpər nehrədə.*

**YELDÖGƏN** (Bakı) – küləkdöyən.

**YELEG** (Quba) – lələk. – *Bu yelegləri saxla çüreg naxışdamağa;* – *Uşağ to:ğun yeleglərin bir-bir yuldi.*

**YELƏK** I (Xaçmaz, Qax, Quba, Şəki, Zaqatala) – b a x **yeleg.** – *Otun içindəki yeləkləri yığın* (Qax); – *Yeləkdən qələm qayrıllar;* – *Bu qaz yeləy*idi (Şəki).

**YELƏK** II (Axalsxi, İrəvan) – qolsuz gödək paltar. – *Yeləyini gey, yoxsa üşüyərsən* (İrəvan).

**YELƏ:LMƏK** (Qazax) – ciftləşmək (itlərdə).

**YELƏN** I (Kürdəmir, Naxçıvan, Şamaxı) – kiçik palaz, örtük. – *Yelən qapıya salınar* (Şamaxı).

**YELƏN** II (Füzuli, Gədəbəy, Gəncə, İmişli, Kürdəmir, Qax, Qazax, Mingəçevir, Tovuz) – haşiyə (kəlağayıda, yorğanda, palazda). – *Yelən kalağayını yaraşıxlı görkəzir* (Gəncə); – *Palazın yelənin nəyşə ənni eləmisüz?* (İmişli).

**YELƏNƏ** (İrəvan) – balaca su quşu adı.

**YELƏNZ** (Ucar) – atın yalı.

**YELƏSƏN** (Zaqatala) – yarasa. – *Yeləsəni biziŋ çardaxdan tutmişəm.*

**YELƏVİMİŞ** (Qazax) – yeyin, tez, cəld. – *Kişi yeləvimiş gəler.*

**YELXAYI** (Qazax) – astarsız, nazik (paltar). – *Meyti üşüyor, əynində bircə yelxayı geymə var.*

**YE:İLMƏ** (İmişli) – b a x **yeyilmə.**

**YELİX'SƏMƏX'** I (Basarkeçər, Hamamlı) – şişmək. – *Yuxusuz qalıf deyə gözdərinin altı yelix'siyif* (Basarkeçər); – *Mənim inəyimin yelini yelix'siyifdi* (Hamamlı).

**YELİX'SƏMƏX'** II (Çənbərək) – b a x **yelinsəməx'.** – *Ət üş gündü durur deyin, indi yelix'siyif.*

**YELİM-YELİM: YELİM-YELİM OLMAX** (Xanlar) – çürümək, tələf olmaq. – *Eymənin duzu az olduğuna görə yelim-yelim oluf.*

**YELİMSƏMƏX'** (Basarkeçər, Qazax) – azca axsamaq. – *At yelimsəyir, nalı düşüfdü, nədi?* (Qazax); – *Məmməd yeriyəndə yelimsiyir* (Basarkeçər).

**YELİMÇƏX'** (Hamamlı, Qazax) – yelləncək. – *Ay uşaxlar, gəlin gedəx' yelimçəx'də yellənəx'* (Hamamlı).

**YELİN: YELİN SALMAĞ** (Şamaxı) – doğum ərəfəsində yelini südlənmək, böyümək. – *Boz inək yelin salıb.*

**YELİNCİLİ** (Salyan) – tezyetişən əncir. – *Bı il yelincili çoxdu.*

**YELİNQAT** (Quba) – qozbel. – *Səfər lap yelinqata uxşıyadi.*

**YELİNNƏMƏX'** (Culfa, Gəncə, Xanlar, İmişli, İrəvan) – doğum ərəfəsində yelini südlənmək, böyümək. – *İnəx'lər yelinnədi* (Gəncə); – *Dügə yelinniyib deyini, qarnı şişib* (İmişli); – *İnəyimiz yelinniyib, doğajax* (İrəvan).

**YELİNSƏMƏX'** (Qazax, Mingəçevir) – xarab olmaq. – *Bu yemişə neçə gündü kün, nişan vurulub, indiyə yelinsəmiş olar* (Qazax).

**YELİNSO:** (Ucar) – 1. yelin xəstəliyi; 2. yelin xəstəliyinə tutulmuş (heyvan). – *Yelinso: heyvanı mən qapımda saxlamaram.*

**YELİNSOY** (Çənbərək, Kürdəmir, Qazax, Şamaxı) – b a x **yelinso:.** – *Yelinsoy qoyun yarıtmır quzuyu* (Çənbərək); – *Yelinsoy qoyunu öldürə də bilər* (Qazax). ◊ **Yelinsoy olmax** (Qazax) – yelinsoy xəstəliyinə tutulmaq. – *Bu qoyun yelinsoy oluf* (Qazax).

**YELİYESİMƏX'** (Qazax) – yelini böyümək. – *Comuş yeliyesiyif xeyli, ombeş-i:rmi günə doğar.*

**YELKƏ** (Cəbrayıl, Cəlilabad, Cənubi Azərbaycan, İmişli, Kürdəmir, Salyan) – 1. yal (Cəlilabad, Cənubi Azərbaycan, Salyan). – *Atda yelkə olar* (Salyan); – *Atı tutub, yapışdım yelkəsinnən* (Cəlilabad); – *Ağ atın yelkəsini qırxdım* (Cənubi Azərbaycan); 2. saç (Cəbrayıl). – *Fatmanın yelkəsini yolma!*

**YELKƏLİ** (Salyan) – yallı (at). – *Yelkəli at yaraşığlı olar.*

**YELKƏN** I (Daşkəsən) – yeltutan təpəlik. – *Mallar bö:ələx'liyəndə yelkənə çıxallar.*

**YELKƏN** II (Daşkəsən) – lampada şüşə taxılan tor hissə. – *Yelkən haveyi çəkey.*

**YELKƏN** III (Oğuz) – yelpik.

**YELQOVAN** (Basarkeçər, Cəbrayıl) – susuz yerlərdə bitən kol-bitki adı. – *Küləy əsəndə yelqovan dağın başınnan dığırranıf gedir* (Basarkeçər); – *Yolun qırağında yelqovan çoxiydi* (Cəbrayıl).

**YELQUZ** (Oğuz) – yel xəstəliyi. – *Habı nəm yerdə oturanda adamın bədənində yelquz olan şeydi.*

**YELLƏMƏX'** (Füzuli, Cəbrayıl, Qazax, Tovuz) – otlamaq. – *Qoyunnarı yelləməyə qoyma, doldur arxaca* (Tovuz).

**YELLƏMMƏK** (Naxçıvan) – *məc.* – acıqlanmaq, hirslənmək. – *Üssümüzə nə belə çox yellənirsən?*

**YELLƏNBIÇI** (Salyan) – kiçik yelləncək. – *Uşağ yellənbıçıdan yıxıldı, qıçı əzildi.*

**YELLİ** I (Naxçıvan, Şərur, Tovuz) – *məc.* – acıqlı, hirsli. – *Sə:knə gənə çox yellidi* (Naxçıvan).

**YELLİ** II (Şəki) – yel xəstəliyinə tutulmuş adam. – *Qara çoxdan yellidi.*

**YELLİ** III (Bakı, Cəbrayıl, Füzuli, Gədəbəy, Kürdəmir, Laçın, Sabirabad, Salyan, Şəki) – cəld, tez. – *İşə yelli başda;* – *Öyə yelli get, Bayram* (Salyan); – *Adə, no:lub, nə yelli gedirsən?* (Bakı); – *Yelli gessən çatarsan* (Şəki); – *Maşın çox yelli getdi* (Cəbrayıl).

**YELMƏ** (Zəngilan) – sac. – *Yelmələru: yoluf yelə verrəm.*

**YELMƏŞİX'** (Ağdam) – qoyun xəstəliyi adı. – *Yelməşix' xəsdəliyi pis şeydi, tüşürdü qoyun tayfasın qırırdı.*

**YELMİQARA** (Xocalı) – yabanı bitki adı. – *Yelmiqara da çiçəx'di, yaxşı çiçəx'di.*

**YELÖYÜ** (Basarkeçər) – çıxar, zibil. – *Taxılı so:randa çoxu yelöyünə çıxdı.*

**YELPƏ** I (Meğri) – ətək. – *Vəzir arvadın yelpəsinnən tutey, atey eşiyə.*

**YELPƏ** II (Hamamlı) – b a x **yelbə** I.

**YELPİX'** (Qubadlı) – xəstəlik adı, xroniki bronxit.

**YELPİNCİ** (Bakı) – çarşab növü.

**YELPİTMƏX'** (Çənbərək) – yelləmək. – *Oğul, yorğanı yelpitmə, üşüyürəm.*

**YELPİZƏK** I (Xanlar) – b a x **yelbizək.** – *Səlmi cijinin yelpizəyi həmişə üzünə tökülür.*

**YELPİZƏK** II (Mingəçevir) – yelpik.

**YELTƏLƏMƏX'** I (Qazax) – bərk tullamaq.

**YELTƏLƏMƏX'** II (Çənbərək) – yaxasından tutmaq. – *İşbitirən genə Şıxalıyı yeltələdi apardı.*

**YELTƏLƏMƏX'** III (Cəbrayıl) – tez-tez getmək.

**YELTƏMƏ** (Qax) – yüngülxasiyyətli.

**YELTƏMƏ-YELTƏMƏ** (Qax) – tələsik. – *Sən yeltəmə-yeltəmə qedəndə bildim ki, bir iş çıxaracaxsın.*

**YELVƏ** (Şəki) – ildırım. – *Yelvə çaxıf bərh yağış yağdı.*

**YELYELPƏNƏK** (Qax) – sürətlə. – *Helə yelyelpənək qetdi.*

**YEMƏCƏ** (Cəbrayıl) – rüşvət.

**YEMİLĞAN** (Dərbənd) – yemlik, yeməli südlü bitki.

**YEMİŞ** (Dərbənd, Tabasaran) – meyvə. – *Alma teregin kəsdim, yemiş vermiyədi* (Dərbənd).

**YEMİŞBALASI** (Zaqatala) – balaca yemiş.

**YEMLƏMƏ** (Füzuli) – gübrə. – *Biz pambığa üş kərən yemləmə verdix'.*

**YEMSİMƏX'** (Cəbrayıl, Meğri) – azca axsamaq. – *Qarakərə qoyun iki gündü yemsiyir* (Meğri).

**YEMŞƏX'** (Qazax) – yaşmaq. – *Yemşəyi qavaxlar tutardılar arvaddar.*

**YENCİX'-YENCİX': YENCİX'-YENCİX' DANIŞMAX** (Ağcabədi) – başa düşülməz tərzdə danışmaq. – *Yencix' – yencix' danışma, aydın danış, başa düşüm.*

**YENCİMƏX'** (Gəncə) – sıxmaq. – *Uşağı yencimə, isdidi.*

**YENDİRMƏX′** (Axalsxi) – yerə yıxmaq. – *Əliynən İbiş güləşəndə Əliyə kömәy eliyif, İbişi yendirdim.*

**YENG** (Tabasaran, Zaqatala) – paltarın qolunun ağzı. – *Əhmət öz köynəginə yeng tikdirdi* (Zaqatala); – *Məşəyə udun eləma: kitəndə qastumun yengi cirilütdü* (Tabasaran). ◊ **Yeng olmax** (Meğri) – təzələnmək. – *Ay üş günə kimin yeng olecex′.*

**YENGA** (Balakən) – əmiarvadı. – *Əminğın arvadı olur yenganğ.*

**YENGALA** (Oğuz) – uşaq oyunu adı.

**YENGƏ** (Basarkeçər, Başkeçid, Böyük Qarakilsə, Goranboy, Qazax, Qax, Tovuz, Zaqatala) – qardaşarvadı. – *Yengəm bö:ün bizə:lmişdi* (Basarkeçər); – *Mənim yengəm beş yaş mənnən böyükdü* (Böyük Qarakilsə); – *Qardaşımızın arvadına yengə dəyərix′* (Qazax).

**YENGƏYOLU** (Gəncə) – toyda yengəyə verilən bəxşiş. – *Yengəyolu qıymatdı şeylərdən verilir.*

**YENGİ** I (Bakı, Kürdəmir, Meğri, Şamaxı) – təzə, yeni. – *Yengi yetişən oğlandu u;* – *Yengi il, sağlığ olsun, gedər oxumağa* (Bakı); – Ö*:ə yengi getmişdim, çağırdılar* (Şamaxı); – *Yengi il bu vaxt gənə gəlin* (Şamaxı); – *Yengi mövlix′lər hər gün suvarın ki, qurımasın* (Meğri).

**YENGİ** II (Göyçay, Qazax, Qax, Şəki) – növbəti il. – *Yengidə çox olajax pambığımız* (Qazax); – *Yengidə kiçiy oğluma toy eləyəcəyəm* (Qax); – *Mə:m əkdiyim ağaşdar yengidə bəhər verəcəg* (Göyçay); – *Əmim bizə bir də yengidə gəlcax* (Şəki).

**YENGİLİ: YENGİLİ BAŞDAN** (Ağdam, Füzuli) – yenidən. – *Durağ indi yengili başdan arx çəkəx′?* (Ağdam); – *O suyu yengili başdan təmiz bədirəyə <vedrəyə> yığıram* (Füzuli).

**YENGİLMƏX′** (Axalsxi) – məğlub olmaq. – *Düşmannar bizimnən davada yengildi.*

**YENGİYANI** (Oğuz) – toydan sonra təşkil edilən şadlıq məclisi, yığıncaq.

**YENİ** (Gəncə) – növbəti il. – *Sənin pulun yeniyə qaldı.*

**YENİLMƏX′** (Çənbərək) – sözə baxmaq. – *Əli həmişə yenilir.*

**YEŋMƏX′** I (İmişli) – *məc.* qudurmaq. – *Ə, niyə yeŋifsən?*

**YEŋMƏX′** II (Başkeçid, Borçalı, Çənbərək) – yarışda, oyunda udmaq, qalib gəlmək. – *Mən yarışda Məmmədi yeŋdim* (Borçalı).

**YENŞAX** (Şəki) – b a x **yamşax** II. – *Yenşax adamnan mənim aram olmaz.*

**YEPƏLEX′** (Meğri) – sözəbaxan, üzüyola. – *Babam muna dedi ki, yepəlex′ adamsan.*

**YERALMA** (Biləsuvar, Cəlilabad, Quba, Masallı, Şamaxı, Zaqatala, Zəngəzur) – kartof. – *Bazarda yeralma çoxdu* (Biləsuvar); – *Dünən xeyli yeralma yığdım* (Şamaxı).

**YERALMASI** (Ağsu, Biləsuvar, Borçalı, Cəlilabad, Quba, Lənkəran, Masallı, Şamaxı, Zaqatala, Zəngəzur) – b a x **yeralma.** – *Çoxsı bırda yeralması dey, qartop demey* (Cəlilabad); – *Yeralması bizdə çux əkilmiyədü* (Quba); – *Bir hekdar yeralması əkmişəm* (Şamaxı); – *Böyün yeralması çıxardajam* (Zəngəzur).

**YERDIZITMASI: YARDIZITMASI VERMƏX′** (Ağcabədi) – çilingağac oyununda çilingi yer ilə geri qaytarmaq. – *Əyə, əliŋnən atma, yerdızıtması ver.*

**YERDOMBALDAN** (Bolnisi, Borçalı, Qazax) – köstəbək. – *Yerdombaldan torpağı eşiv altında gizdəner* (Qazax).

**YERGÜLMƏŞƏKƏRİ** (Şərur) – dombalan. – *Yergülməşəkəri olur yazda.*

**YERQULACI** (Cəbrayıl) – yabanı bitki adı. – *Bizim örüşdə yerqulacı çoxdu.*

**YEROTAĞI** (Qazax) – yerin altında daşdan tikilmiş otaq.

**YERPUSALAĞI** (Quba) – gödəkboylu. – *Bu uğlan lap yerpusalağıdu, buyi hiç çıxmiyədü.*

**YERRİSDAN** (Ağdam, Xocavənd) – yerli. – *O, yerrisdandı, yanı bizim kimi oturaxdı* (Xocavənd).

**YERŞALI** (Oğuz) – yer dəzgahında yundan toxunmuş şal, parça növü.

**YERTƏLƏMƏG** (Quba) – itələmək.

**YERTOPU** (Cənubi Azərbaycan) – bitki adı. – *Yertopunu uşaxlar oynatmaxdan ötəri dərəllər.*

**YERYAPALAĞI** (Salyan, İrəvan) – gödəkboylu. – *Yeryapalağı adam çox bərk qaçammaz* (İrəvan).

**YER-YERDƏN** (Zaqatala) – hər yerdən. – *Bu yerə yer-yerdən gəlif yığılıfdılar.*

**YERYIĞDI** (İmişli) – toy adəti. – *Üş günnən so:ra yeryığdı eliyəllər.*

**YESTOY** (Hamamlı) – pinti.

**YEŞİRMAX** (Şəki, Zaqatala) – b a x **yaşırmağ.** – *Bir-iki dənə həyvə yeşirmişdim sandıxda* (Şəki); – *Mən Üzeyrin köynəyini yeşirdim* (Zaqatala).

**YEŞMƏBACA** (Şəki) – uşaq oyunu adı.

**YETBƏYET** (Salyan) – nəhayət, axırda. – *Yetbəyetdə irasdıma Məmməd çıxdı.*

**YETDIX** (Şəki) – lazımi qədər. – *Savağa yetdıx çörəyimiz olar.*

**YETİX′** (Şəki, Şəmkir) – bələd. – *Hasana yetix′sənmi?* (Şəmkir); – *Mən xəsyətinə yetix′ döyləm* (Şəki).

**YETİM: YETİM DÜGİ** (Salyan) – düyünün bir növü. – *Bir girvənkə yetim dügi al.* ◊ **Yetimi çırax** (Mingəçevir, Şəki, Zaqatala, Zərdab) – çıraq, şüşəsiz çıraq.

**YEY** (Cəbrayıl, Gədəbəy, Göyçay, Xanlar, İmişli, Meğri, Ordubad, Şamaxı, Tərtər) – yaxşı. – *O, sənnən yey danışır* (İmişli); – *Sənnən yey olmasın, həkim yaxşı adamdı* (Tərtər); – *Munun ölməgi qalmağınnan yeydi* (Meğri).

**YEYAĞ** (Dərbənd) – piyada. – *Qabağda bizdə avdobız olmıyeydi, qündə beş kərən yeyağ gedeydüg.*

**YEYİLMƏ** (Qazax) – xəstəlik adı.

**YEYKİ** (Cəbrayıl) – rüşvət.

**YEYMƏ** (Balakən) – b a x **yayma** II.

**YEZ** I (Meğri) – iri dənəli (nar). – *Yaxşi yez nar uley Nüyədi kəfşənində.*

**YEZ** II (Balakən, Qax, Zaqatala) – mis. – *Yez qab əgildi* (Qax); – *Zaman yeddi parça yez aldı* (Zaqatala).

**YEZDANQI** (Balakən, Qax, Zaqatala) – misgər.

**YEZDƏN** (Balakən) – aşsüzən.

**YEZİDİ** (Ağdaş, Gəncə, Göyçay) – sarı-qırmızı. – *Bizim yezidi ürgə azarrıyıb* (Ağdaş).

**YƏBƏ** (Dərbənd) – astayeriş (at). – *Asda kitən ata yəbə at diyədig.*

**YƏBƏRMƏG** (Dərbənd) – 1. göndərmək. – *Bu mənü xalam uğli, məni munda əvə yəbərdi;* 2. yola salmaq, ötürmək. – *Qunağı yəbərüb gələdəm.*

**YƏHƏLƏMAX** (Zaqatala) – tələsmək. – *Yəhəli:llər tütün tez doldurmağa.*

**YƏHƏRCAMI** (Bərdə, Kürdəmir) – uzaq səfərə gedərkən atdan yerə düşməmək şərtilə bulaqdan su götürüb içmək üçün üç tərəfdən uzun qaytan ilə bağlanmış dərin nəlbəki formalı mis qab. – *Yəhərcamı atnan səfəre:-dəndə yəhərin qabaq qaşının yanına qoyulur.*

**YƏHƏRQAŞ: YƏHƏRQAŞ XURCUN** (Kürdəmir) – yəhərin qaşına keçirilən ikigözlü balaca xurcun. – *Yəhərqaş xurcuna əppəg də qoy, yolda acarux.* ◊ **Yəhərqaş həvgə** (Bərdə) – yəhərin qaşına keçirilən balaca xurcun. – *Yəhərqaş həvgənin içinə zərif və qiymətli şeylər qoyallar.*

**YƏLLAMAĞ** (Dərbənd) – əyirmək. – *Yuni taraduğ, unnan sura cəhrəynə* <cəhrə ilə> *yəllədüg uni.*

**YƏLPİG** (Dərbənd) – b a x **yelpix′.** – *Cacunun (kirpinin) əti yəlpig azari ulan adama dərmandu.*

**YƏMRİLMAX** (Qax) – dağılmaq, yerlə yeksan olmaq. – *Evuv yıxılıp yəmrilsin.*

**YƏNŞAX** (Qax) – taxta qırıntısı. – *Taxda qetimağa qetmişdim, olmadi, yənşax qetidim.*

**YƏRTƏRPƏMMƏ** (Dərbənd, Tabasaran) – zəlzələ. – *Keçən yil yərtərpəmmədən çuxlu əvlər yixildi* (Dərbənd).

**YIĞAMAT** I (Qazax) – gəlmə, yığma, ordan-burdan yığma. – *Əzizbəyli kəndi yığamat adamlardı.*

**YIĞAMAT** II (Basarkeçər) – paltarbiçmə mərasimi. – *Böyün Gülcanın yığamatıdı, gərəy orya gedəm, əmə bilmirəm nə aparım, pul, ya parça.*

**YIĞAN** I (Gəncə, Xanlar) – tuluq. – *Bir yığan qatıxdan bir girvənkə yağ çalxadım* (Gəncə).

**YIĞAN** II (Ağdam, Bərdə, Hamamlı, Qazax) – samanyığan alət. – *Dərzi döyüf samanını yığannan yığerdıx bir yerə* (Qazax); – *Samanı yığannan yığanna, tofla təpəyə* (Hamamlı).

**YIĞANAX** (Oğuz) – nişanlanandan sonra qız evində düzəldilən toyqabağı məclis.

**YIĞANNAMAX** (Borçalı, Hamamlı) – samanyığan alət vasitəsilə yığmaq, toplamaq. – *Samanı bir yerə yığannan yığanne:rdıx*

(Borçalı); – *Samanı yığannan yığınan, tofla təpəyə* (Hamamlı).

**YIĞAR** (Qubadlı) – b a x **yığan** I. – *Yığarı yudum qatıx tökəm.*

**YIĞDI** (Zəngilan) – vergi. – *Yüzbaşı yığdı yığmağa:lərdi.*

**YIĞI** (Şəki) – ağı. – *Yasda yığı diyəllər; – Fatma xala yaxşı yığı diyəndi.*

**YIĞIN** (Gədəbəy) – taya. – *Otu yığına vurdum dünənnəri.*

**YIĞINAX** (İsmayıllı) – vəhşi heyvanların toplandığı yer.

**YIĞINÇI** I (Çənbərək) – israfçı, tələfxərc. – *İrvaham əlinə keçəni xarşdıyır, yaman yığınçı adamdı.*

**YIĞINÇI** II (Çənbərək) – oğru. – *Yığınçı qapı-bajada şey qoymaz.*

**YIĞINTAMA** (Qazax) – dəstə ilə. – *Vəzir atdıları çölə yığıntama yollor.*

**YIĞINTI** I (Gədəbəy, Gəncə, Xanlar, Kürdəmir, Mingəçevir, Şəki, Zəngəzur) – nehrə çalxamaq üçün bir neçə gün yığılıb saxlanılan qatıq. – *Bizim bu gün yığıntımız çoxdu* (Zəngəzur); – *Yığıntı i:lənifdi* (Gəncə).

**YIĞINTI** II (İmişli) – *məc.* – hirs, acıq. – *Gəldi yığıntısın tökdi mə:m üssümə.*

**YIĞIŞMAX** (Balakən, Zaqatala) – sığışmaq. – *Habu tax balacədi, bura yığışmanıx* (Zaqatala).

**YIĞLAMAĞ** (Dərbənd) – ağlamaq. – *Yasda xatınlar yığlıyədi.*

**YIĞLAMAX** (Qax, Şəki, Zaqatala) – ağlamaq. – *O qız nə yaman yığlıyır?* (Şəki).

**YIĞMA** (Bərdə) – 1. müəyyən adamlara maddi yardım etmək məqsədilə toplanmış pul və ya hər hansı şey. – *Gəlin, yığma yığax, Əliyə göməy eliyəx'*; 2. şənlik məclisi keçirmək məqsədilə iştirakçılardan toplanmış pul və ya hər hansı ərzaq. – *Mə:llimlər yığma qoyuf məclis düzəltdilər.*

**YIXILMƏĞ** (Lerik) – xəstələnmək.

**YIĞVA** (Kürdəmir, Quba) – şənlik məclisi. – *Ay Sədəf, sabah bir bizə gəl, uşağın yığvasidi* (Quba).

**YİBƏRMƏG** (Dərbənd) – b a x **yəbərməg.** – *Bir balığ yibərdi; – Büzi işə-üzümə yibərdilər. – Uşağları kəndə yibərədəm; – Apar dayını yibər.*

**YİĞLƏMAĞ** (Dərbənd, Tabasaran) – b a x **yığlamağ.**

**YİXƏGÜLİ** (Quba) – qızıl bəzək şeyi. – *Yixəgülini qabağlar salardılar arvatdar, hindi salmiyədülər.*

**YİYOVLAMAX** (Zaqatala) – yeyələmək. – *Baltanın ağzı sağ tütüptü, onu yiyovla.*

**YOĞALAMAX** (Meğri) – hərləmək. – *Dilõ: az yoğala.*

**YOĞMAĞAL** (Sabirabad) – yaxın. – *Qalxoz dirrigi otduğumuz yerdən yoğmağaldı.*

**YOĞURT** (Dərbənd, Tabasaran) – qatıq. – *Sütə çalası vuradig yoğurt olmağa* (Dərbənd); – *Bir yoğurt satan kişi var* (Tabasaran).

**YOL** (Cəlilabad, Qax, Ordubad, Şərur) – dəfə. – *Kino verməyə ayda dört yol gəlillər* (Şərur); – *On yol gəlmişəm* (Cəlilabad).

**YOLAĞ** (Cəlilabad, Salyan) – cığır, yol. – *Uşağ yolağnan gedirdi* (Salyan); – *So:ra dedilər: "Dörd adam gedməlisüz bı yolağnan qabağa"* (Cəlilabad). ◊ **Yolağ qoyun** (Salyan) – hər hansı quzunu əmizdirən qoyun.

**YOLAĞA** (Sabirabad, Zəngilan) – b a x **yolağ.** – *Cahanın qapısınnan yolağa var, ordan gəlin* (Zəngilan).

**YOLAX** (Cəbrayıl, Kəlbəcər) – b a x **yolağ.** – *Təkə görür ki, ovçu yolaxda duruf* (Kəlbəcər).

**YOLANTAX** (Karvansaray) – sürüdən geridə qalan arıq qoyun. – *Mə:m bir qoyunum yolantaxdı.*

**YOLAŞMA** (Bərdə) – yol açma, valideynin ərə getmiş qızının evinə ilk gedişi. – *Qızı ərə verənnən so:ra yolaşmıye:dirix'.*

**YOLBASAR** (Bərdə, İrəvan) – yoldüzəldən, asfaltbasan maşın. – *Bərdədə yolbasar çoxdan var* (Bərdə); – *Bu yolbasar çox qıymatdı şeydi* (İrəvan).

**YOLÇIRASI** (Qazax) – əl fənəri.

**YOLDAŞSƏNİKİMAPARDI** (Ağdam, Bakı, Füzuli, Şuşa, Tərtər) – uşaq oyunu adı. – *Ay uşaxlar, gəlin yoldaşsənikimapardı oynuyax* (Tərtər).

**YOLİZ** (Şuşa) – cehiz düzəltmək üçün nişanlı qızın ailəsinin oğlan evindən aldığı pul. – *Yolizə mis qazan, simavar, teşd, qaravat, mis abigərdən, mis sapılca, mis qavlama, mis xəkəndazate:in alardılar.*

**YOLKƏSSİ** (İmişli) – toy üçün şərtləşmə, qız evi ilə razılaşma. – *Gedəllərdi qız evinə yolkəssiyə deyəllərdi: "Bizzən na alacağsan?"*

**YOLLAŞMAX** (Gədəbəy, Zəngilan) – razılaşmaq, razılığa gəlmək. – *Yollaşın, ver gəssin, indi heyvan çoxdu* (Zəngilan); – *Necə yollaşdıŋ?* (Gədəbəy).

**YOLMA** I (Çənbərək) – dəridən əl ilə yolunmuş yun. – *İki dəridən bir kilo yolma çıxdı.*

**YOLMA** II (Bakı) – biçin. – *Gülxa:m, bayır günörtadu, orağu vər mənə gedim yolmıya.*

**YOLOĞLU** (Tovuz) – ağıllı.

**YOLOTU** (Gədəbəy, Xanlar, Kəlbəcər, Qazax, Tovuz) – yabanı bitki adı. – *Yolotu daddı otdu, tişin dərmənidi* (Gədəbəy).

**YOLPA** (Qarakilsə) – b a x **yolma** II.

**YOLPULU** (Bərdə) – cehiz düzəltmək üçün nişanlı qızın ailəsinin oğlan evindən aldığı pul. – *Qızın dədəsi oğlanın dədəsinnən yolpulu alır toydan qavax.*

**YOL-TƏRƏCƏ** (Lənkəran) – 1. yol, səmt, istiqamət; 2. qayda. – *Bizim gəlin yol-tərəcə bilən dögü.*

**YOLUM** (Kəlbəcər) – çayın dayaz yeri. – *Çayın dayaz yerinə yolum deyəllər.*

**YOLUZ** (Şuşa) – b a x **yoliz.** – *Qızın atası oğlanın atasınnan yoluz alardı keşmişdə.*

**YOL-YOLAĞA** (İmişli) – 1. yol, səmt, istiqamət; 2. qayda. – *Saŋa yol-yolağasın öyrədərəm.*

**YOL-YOLAX** (Tərtər) – b a x **yol-yolağa.** – *Yol-yolağın bilsəm, gedərəm.*

**YO:MAX** (Qazax) – uyuşmaq. – *Elə çətin sözdü, demə, mənim dilimə yo:maz.*

**YOMİYƏ** (Lənkəran) – susuz əkin.

**YOMRULMAX** (Qazax) – əzilmək. – *Qazanın böyrü yomruluf.*

**YOMSA** (Borçalı, Çənbərək, Gədəbəy, Qazax, Tovuz, Zaqatala) – gödəkboylu. – *Yomsa adam çox yol gedəmməz, tez yorular* (Borçalı).

**YOMSARA** (Qazax) – b a x **yomsa.** – *O, yomsara qızdı.*

**YONAJAX** (Xanlar, Qazax) – atın dırnağını yonmaq üçün işlədilən alət, kəsər. – *Atın dırnağın yonajaxnan kəsəllər* (Qazax).

**YONCIMAĞ** (Salyan) – yalvarmaq. – *Mının ma:liyeti bir şey dögür axı, gedim o:a yoncıyım.*

**YONCUMAX** (Ağdam, Borçalı, Çənbərək, Füzuli, Gədəbəy, Qax, Oğuz) – b a x **yoncımağ.** – *Çox yoncudu ma:, bir şey çıxmadı* (Ağdam); – *Qardaşdığı muna çox yoncudu* (Füzuli); – *Mən heş kimə yoncumamışam* (Borçalı); – *Ədil kişi mənə yoncuyur* (Çənbərək).

**YONĞA** (Quba) – kəpək, mişar kəpəyi. – *İsdiyən yonğanı yığadu, su:ra lazım ulanda yandıradu.*

**YONQARRAMAX** (Gəncə) – yonmaq. – *Götü bu ağaşdarı yonqarra.*

**YONQU** (Qazax, Ordubad) – yonqar, rəndə ağzından çıxan qırıntılar.

**YONTAMAĞ** (Ağsu) – yonmaq. – *Get ağacı yonta, talaşasın gət qala ocağa.*

**YORĞATOYUX** (Naxçıvan) – çöl quşu adı. – *Yorğatoyux yeməli olur.*

**YORDIMLAMAX** (Tovuz) – yonmaq, yonub düzəltmək. – *Usda, bu ağajı yordımla ver, çərçivə qayırax.*

**YORPAX** (Qax) – beşik döşəyi.

**YORTAVLAMAX** (Zəngilan) – yavaş-yavaş qaçmaq. – *Biz bərk yeriyəndə olar dalımızcan yortavlıyırdı.*

**YORTU** I (Qax) – əxlaqsız (qadın).

**YORTU** II (Şəmkir) – qayda. – *A bala, köhnə yortuynan getmə, da: o sən görən zamana döy.*

**YORTUŞ: YORTUŞ AT** (Kürdəmir) – löhrəm at. – *Yortuş at mimməkdən piyada getməy yaxşıdı.*

**YOSMA** (Biləsuvar, Cəlilabad, İmişli, Kürdəmir) – alçaq (daxma). – *Qabağ bu yerrərdə yosma daxmalar çox olub* (Biləsuvar); – *Bu yosma kümədə bir oğlan var* (Cəlilabad).

**YOSMALAX** (Füzuli, Ucar) – gödəkboylu. – *Yosmalax Kərimin sənəti-subutu yoxdu* (Ucar).

**YOSUN** (Gədəbəy) – görkəm. – *Yosunu da elə bil, dəli Aloysardır.*

**YOSUNNU** (Qarakilsə) – oxşar, bənzər. – *Qoyun yosunnu bir şeydi.*

**YO:UĞMACAL** (Kürdəmir) – yaxın vaxt. – *Qardaşım bı yo:uğmacalda gələcək.*

**YO:UZDAX** (Ucar) – b a x **yozzağ.** – *Yo:uzdax heyvanı naxıra, sürüyə buraxmarıx, qapıda saxlarıx.*

**YOVŞAX** (İrəvan) – bit. – *İndi heş kimdə yovşax yoxdu.*

**YOZALAMAX** (Çənbərək, Karvansaray, Kürdəmir, Qazax) – ağrı çəkmək (doğum ərəfəsində). – *İnəyimiz yozalıyır, beyjə doğajax* (Karvansaray); – *İnəx′, deyəsən, doğajax, yozaler* (Qazax); – *Qoyun üç gündü yozalıyır* (Kürdəmir).

**YOZDAĞLAMAĞ** (Yardımlı) – o yan bu yana qaçmaq, bir yerdə qərar tutmamaq. – *Bi yerdə qalammey, yozdağley.*

**YOZDAMAX** (Cəbrayıl, Qarakilsə) – b a x **yozalamax.** – *İnəx′ yozduyur* (Qarakilsə).

**YOZUTMAX** (Kəlbəcər, Zəngilan) – başından rədd etmək. – *Adamı yozutmax yaxşı iş döy* (Kəlbəcər); – *Siz məni yozutmuyun* (Zəngilan).

**YOZZAĞ** (İmişli) – sancıçəkən (doğum ərəfəsində). – *Orda yozzağ qoyun var, doğur.*

**YOZZAMAĞ** (İmişli) – b a x **yozalamax.** – *Biziŋ dügə yozzeyır, göz-qulağ olun, çöldə doğmasın.*

**YÖƏT** (Gədəbəy) – ölü yuyulan yer. – *Yöətdən götdülərmi meyidi?*

**YÖ:N** (Ucar) – mozalan.

**YÖNƏQOLAY** (Ucar) – babat. – *Doxsan yaşım var, yönəqolay dolanıram;* – *Öytikən usdalarım yönəqolay işdiyillər;* – *İşdərim yönəqolay olan kimi Bakıya gedəjəm.*

**YÖNƏLGƏ** (İmişli) – daimi gediş-gəliş yeri. – *Ora mənim yönəlgəmdi.*

**YÖ:NG** (Oğuz) – quş adı. – *Yö:ng buğda ye:r, iki ağ yumurtası olur.*

**YÖNNƏŞDİMƏX′** (Cəbrayıl, Meğri) – qaydaya salmaq. – *Çıxağ eşiyə, nənəm bir bıranı yönnəşdisin* (Meğri).

**YÖNNÜ** (Cəbrayıl, Füzuli, İmişli, Mingəçevir, Şəki) – yaxşı. – *Sən heç yönnü şey ye:rsən ki əmələ:lısən?* (Cəbrayıl); – *Yönnünü qoyuf, yönsüzü axtarır!* (Füzuli).

**YÖNSÜZ** (Cənibu Azərbaycan, Füzuli, İmişli, Qəbələ) – pis. – *Böyün hava yönsüzdü* (Qəbələ).

**YÖNÜBELƏSİNƏ** (Füzuli) – başdan-başa. – *Yönübeləsinə hamısın söylədim.*

**YÖNÜBƏRİ** (Borçalı) – üzübəri, sağalmağa doğru. – *Bu xəsdə yönübəridi.*

**YÖNÜBƏRİMƏX′** (Qazax) – sağalmaq üzrə olmaq. – *Uşax naçaxdı, indi yönübəriyif.*

**YÖRGƏK** (Qəbələ) – beşiyə qoyulan ortası deşik xüsusi döşək. – *Maral bajı uşağın yatdığını görüb yörgəyi beşiyə qoydu.*

**YÖRTMƏC** (Şəki) – yelləncək. – *Uşaxlar sulaniy yörtməşdə.*

**YÖŞÜRMAX** (Qax) – b a x **yaşırmağ.** – *Me:n anası mennən heş nə yöşürmür;* – *Əslisini yöşürən bedəsildi.*

**YÖVGÜRMAĞ** (Dərbənd) – yüyürmək, qaçmaq. – *Mən də yövgürədəm.*

**YU:AT** (Ağdam, Cəbrayıl, Daşkəsən, Mingəçevir) – b a x **yö:ət.** – *Ölü öləndə qoyoydular, yu:atda yuyoydular* (Daşkəsən).

**YUĞURT** (Dərbənd) – qatıq. – *Bazara gissəm yuğurt alaram.*

**YUXALTMAX** (Qarakilsə) – naziklətmək. – *Kərəntinin ağzını yuxaltmax lazımdı.*

**YULUTMAX** (Qax) – qırxmaq. – *Yüzünü yulutup geliy.*

**YUMAŞEG** (Quba) – əlverişli. – *Sənin dedigün kimi yumaşegdü.*

**YUMBALAMMAĞ** (Bakı) – diyirlənmək.

**YUMRU** (Xanlar) – suda pörtülüb qurudulmuş çəyirdəkli zoğal. – *Qışda ərişdəyə yumru da tökəllər.*

**YUMSUX** (Şəmkir, Tovuz) – umsuq. – *Adam əlini civinnən çıxardanda yumsux elə bilər ona şey verirsən* (Tovuz); – *Bu nə yumsux uşaxdı, heç gözü doymur* (Şəmkir).

**YURDAQAYIDAN** (Füzuli) – dəvə.

**YURDİTİRƏN** (Qazax) – fərsiz. – *Adam yurditirən olmaz.*

**YURMAĞ** I (Dərbənd) – 1. vurmaq; 2. döymək. – *Qardaşim meşədə dovuz yuradu;* – *Ağacnən yuraduğ iti.*

**YURMAĞ** II (Dərbənd) – yumurta döyüşdürmək. – *Novruz bayramində yumurta yuradılar.*

**YURTDAQALMIŞ** (Cəbrayıl, Qarakilsə) – 1. kimsəsiz; 2. qarımış.

**YUVADİBİ** (Ağdaş) – sonbeşik. – *Bu qız yuvadibidi.*

**YUVAKOR** (Zaqatala) – bacarıqsız.

**YUYUCU** (Ağdam) – ölüyuyan. – *Bizdərdə ölənin paltarın yuyucuya verəllər.*

**YÜGÜRƏPPƏK** (Sabirabad) – tez, cəld. – *Yügürəppək gedib Əlini çağır.*

**YÜGÜRMEÇƏ** (Bakı) – tez, cəld.

**YÜGÜRÜBBƏ** (Kürdəmir, Salyan) – b a x **yügürəppək.** – *Bayram, yügürübbə ged, İman mə:llimi çağır bıra* (Salyan); – *Uşağ yügürübbə yanıma gəldi* (Kürdəmir).

**YÜKALTI** (Ağcabədi, Bərdə, Qubadlı, Tərtər, Zəngilan) – üstünə yorğan-döşək, palaz yığılan taxt. – *Yükü yükaltıya yığırıx* (Ağcabədi).

**YÜKÜZÜ** (Qubadlı) – yükün üzünə çəkilən pərdə. – *Yüküzünü gəti, yükün üzün ört.*

**YÜRƏBBƏ** (Ağdam, Qubadlı) – b a x **yügürəppək.** – *Həsən yürəbbə gedib onu çağırdı* (Ağdam); – *Ə, bir yürəbbə qaş, dədəŋi bura çağır* (Qubadlı).

**YÜRGƏX′** (Şəmkir) – b a x **yü:rgən.** – *Çağıyı yürgəyə qoy, bir tez eşiyə çıx.*

**YÜ:RGƏN** (Goranboy) – beşik, nənni.

**YÜ:RMƏŞ** (Mingəçevir, Ucar) – beşik, nənni. – *Uşax yü:rməşdə irahat yatır* (Ucar).

**YİRTMƏŞ** (Qax) – b a x **yü:rgən.**

**YÜ:RÜK** (Ağdam, Cəbrayıl, Cəlilabad, Əli Bayramlı, Füzuli, Qazax, Saatlı, Salyan, Tərtər, Zəngilan) – b a x **yüyrəx′.** – *Yü:rükdə uşax yatıfdı* (Tərtər); – *Uşağı yü:rügə sal, qoy yassın* (Salyan); – *Uşəğlər yü:rüg asey, yelləney* (Cəlilabad).

**YÜ:RÜMMƏX′** (Tərtər) – yellənmək (beşikdə). – *Uşağ yü:rükdə yü:rünür.*

**YÜYƏNƏK** (Gəncə) – çayın iti axan yeri. – *Yüyənəkdə çimməy olmaz.*

**YÜYRƏX′** (Gədəbəy) – beşik, nənni. – *Yüyrəx′siz uşax çətinnix′nən yatar.*

**YÜYRÜK** (Başkeçid, Cəbrayıl, Füzuli, Göyçay, Kürdəmir, Tərtər, Zəngilan) – b a x **yüyrəx′.** – *Uşax yüyrükdə yatıb* (Zəngilan); – *İçi boş yüyrüyü dəbərtsən, yaxşı olmaz* (Kürdəmir).

**YÜZƏM** (Lənkəran) – payızda qırxılan qoyun yunu.

# Zz

**ZABAĞ** (Xaçmaz, Quba, Qusar) – pərdilərin üstünə düzülən taxta. – *Öyə əlli zabağ çatmudi* <*çatmayır*> (Xaçmaz).

**ZABIN** (Cəbrayıl) – pis. – *O sənnən zabın oğlandı:?*

**ZABIR** (Balakən) – qıf.

**ZABRA** I (Borçalı, Qazax) – b a x **zabır.** – *Zabreynan nö:üt də töx', su da töx', isdəsəŋ, yağ da töx'* (Borçalı).

**ZABRA** II (Bolnisi) – acizlik.

**ZABRI** (Borçalı, Qax, Qazax, Zaqatala) – b a x **zabır.** – *Oğul, İsə, get qonşumuzun zabrısını gətir* (Qazax).

**ZABRU** (Borçalı, Qax, Zaqatala) – b a x **zabır.** – *Zabruni qeti, üşşeyə nöyüt toqum* (Qax); – *Zabruni tez qeti, çırağa növüt tökəsiyam* (Zaqatala).

**ZABUNMIĞ** (Zəngibasar) – pislik, yamanlıq. – *Zabunnuğ eley, özinə oley.*

**ZABUR** (Borçalı) – b a x **zabır.** – *Zaburnan nöüt töküllər, su töküllər.*

**ZADIR** (Meğri) – səfeh, ağılsız. – *Hümbət əyal dəyi ki, zadırdı.*

**ZAFT: ZAFT ELƏMAX** (Şəki) – becərmək, qulluq etmək. – *Yeri özüm zaft eli:rəm.*

□ **Zaftında olmax** (Qax) – öhdəsində, ixtiyarında olmaq.

**ZAĞA** I (Zəngilan) – zəif. – *Kamıl yaman zağadı.*

**ZAĞA** II (Ağbaba, Çənbərək, Hamamlı, Qax, Naxçıvan, Şərur) – 1. mağara (Ağbaba, Çənbərək, Hamamlı, Naxçıvan, Şərur). – *Qapılı zağa çox pis yerdədi* (Ağbaba); 2. vəhşi heyvan yuvası (Qax).

**ZAĞAB** (Lənkəran) – qızıl suyu. – *Üzigimi zağaba saldırdım.*

**ZAĞALAMMAX** (Çənbərək) – özünü öymək, lovğalanmaq. – *Zağalanan adamnan zəhləm-zivərim gedir.*

**ZAĞAN** (Kəlbəcər, Zəngilan) – qaraqarğa. – *Zağa:n əti yeməlidi* (Zəngilan).

**ZAĞAR** I (Quba) – b a x **zağa** I. – *Bu uşağ hələ əvvəldən zağardu.*

**ZAĞAR** II (Cəlilabad, Lənkəran, Masallı, Salyan). – *Əli yaman zağar adamdu, xoşuma gəlmey* (Lənkəran); 2. dikbaş, sözə qulaq asmayan (Salyan); – *Bı kətdə zağar uşağ azzı.*

**ZAĞAR** III (Ağcabədi, Borçalı, Cəbrayıl, Gədəbəy, Hamamlı, Qazax, Masallı, Mingəçevir, Tovuz, İrəvan) – 1. qısaboy, həm də kök (adam) (Borçalı, Gədəbəy, Hamamlı, Mingəçevir, İrəvan). – *Bizim kəntdə bir zağar kişi vardı, əniynən uzunu biriydi* (İrəvan); – *Zağar adam gödəx'di* (Gədəbəy); – *Zağar adam hirisdi olar* (Borçalı); 2. yekəqarın (Ağcabədi, Cəbrayıl, Gədəbəy, Qazax, Masallı, Tovuz). – *Zağar kişi çox işdiyəmməz* (Qazax); – *O, zağarın biridi* (Ağcabədi); 3. qarınqulu (Cəbrayıl). – *Sən çoxda:n zağarısan.*

**ZAĞARA** (Bakı) – xəz papağın qıraqları. – *U qədər düz söz danışmısan ki, börkü:n zağarası gedib.*

**ZAĞARÇA** (İrəvan) – qısaboy. – *O, zağarçanın biridi.*

**ZAĞARQARIN** (Qazax, Kürdəmir, Mingəçevir) – yekəqarın. – *Yoldan bir zağarqarın adam keşdi* (Kürdəmir).

**ZAĞARRAMMAĞ** (Saatlı) – b a x **zağalammax.** – *Çox zağarramma, sə:n işün döyi bı.*

**ZAĞARRAMMAX** (Qarakilsə) – b a x **zağalammax.** – *Zağarrammax peşəsidi onun.*

**ZAĞARRIĞ** (Salyan) – dikbaşlıq.

**ZAĞLI** I (Qax) – it.

**ZAĞLI** II (Cəbrayıl) – yağlı (süd). – *Ölən inəyimizin südü yaman zağlıydı.*

**ZAĞNABIT** I (Meğri) – zəhər. – *Eran xannərinə heş zağnabıt da vermeydıx.*

**ZAĞNABIT** II (Meğri) – zəy.

**ZAHA** (Gədəbəy, Tovuz) – təzə doğmuş (qırxı çıxanadək) qadın. – *Arvat zahadı, hələ bilmərrə işdə:məz* (Gədəbəy); – *Suqra zahadı* (Tovuz).

**ZAHI** (Oğuz, Şəki) – b a x **zaha.** – *Zahı mala soyux su verməzdər.*

**ZAHİ** (Lənkəran, Şəki) – b a x **zaha.**

**ZAHMAN** I (Füzuli, Kəlbəcər, Qarakilsə, Laçın, Oğuz) – iki əkin sahəsi arasında sərhədi müəyyənləşdirmək üçün saxlanılan əkilməmiş yer. – *Yerin arasın ayırana zahman de:lir* (Füzuli).

**ZAHMAN** II (Cəbrayıl) – yaxın. – *Qorxusunnan ə:nə zahman gedə:lmir.*

**ZAHRAN** (Ağsu) – b a x **za:ra.** – *Zahran Məmmət mə: sögüb.*

**ZAXMA** I (Tovuz) – daxma. – *Nisa bir zaxmada olur, laf köhnə.*

**ZAXMA** II (Gəncə) – dirək.

**ZAXOR** (Dərbənd) – taxıl saxlamaq üçün taxta və s. düzəldilən anbar. – *Zaxorun üş-dörd təxdəsi ağəcdən ular.*

**ZAXUR** (Dərbənd) – taxıl saxlamaq üçün taxtadan düzəldilmiş iri qab. – *Zaxur təxdədən qeyrilədi, unə hacbuğda da tükəllər.*

**ZAQQATO** (Bakı) – acı.

**ZAQQI-ZAQQI** (Cəbrayıl) – lovğa-lovğa.

**ZAQQUN** (Saatlı) – zəhər. – *Zaqqun kimidi, yeməg olmaz mıyı.*

**ZALA** (Zaqatala) – 1. əmiarvadı; 2. dayıarvadı.

**ZALAV: ZALAV ÇEKMAĞ** (Qax) – dad çəkmək. – *Mən zalav çekə qaldı, honun vəsiləri yidirmədilər.*

**ZALXUM** (Dərbənd) – salxım. – *Ağadayının zalxumi çox iri uladi.*

**ZAMANAZU** (Cəbrayıl) – birdəfəlik. – *A:dil zamanazu getdi.*

**ZAMBARA** (Ağbaba) – zarafatcıl.

**ZAMBILDAĞ** (Salyan) – heyvanın qarnının altındakı və quyruğundakı tüklərə yapışıb qurumuş qığlar, şaqqıldaq. – *Zambıldağ qoyında olır;* – *Zambıldağ qışda da olar, yazda da olar heyvanda.*

**ZAMBIR** (Qazax) – ağırtərpənən, tənbəl.

**ZAMBURAQ** (Tabasaran) – xərək. – *Zamburaqnan daş daşıtdülər.*

**ZANQU** (Dərbənd) – üzəngi.

**ZA:RA** (Bakı) – guya. – *Özin elə aparır ki, za:ra bı işdərdən heç xəbəri yoxdu.*

**ZA:RAM** (Bakı) – b a x **za:ra.**

**ZARAPBA-ZORRUX** (İrəvan) – səs-küy. – *Evlərində zarapba-zorruxdan qulax tutulur.*

**ZA:RƏM** (Bakı) – b a x **za:ra.** – *Za:rəm ki, mən onnan ötrü mə:təlmişdim.*

**ZARILBATIL** (Şəki) – birdən, qəflətən. – *Zarılbatıl daldan bir şillə ilişdirdim una, yerindəcə qaldı.*

**ZARINC** (Şamaxı) – 1. yalvaran; 2. bədəncə zəif. ◊ **Zarınc olmağ** – zəifləmək, bədəncə zəif olmaq. – *Lap dayi zarınc olmusan.*

**ZARNAĞLIĞ** (Cəlilabad) – zarafat. ◊ **Zarnağlığ eləməy** – zarafatlaşmaq. – *Onda o, baləcə uşəğ idi, onnan zarnağlığ oxatan eləmişəm ki.*

**ZA:RU** (Dərbənd) – yemişan. – *Za:runu yiyəllər də;* – *Yazuğ uşağ za:runi yiyib, ütgün ulub, qusa-qusa qalutdu.*

**ZARUL** (Tabasaran) – b a x **za:ru.**

**ZAVAX** (Gədəbəy, Tovuz) – sabah. – *Zavax sən bizə gələrsən* (Tovuz).

**ZAYVAĞLAMAX** (Zəngibasar) – sarsaqlamaq. – *Qala-qala zayvağlıyır.*

**ZARZALI** (Oğuz) – sarı rəngli bahar çiçəyi adı. – *Zarzalı da yaz girəndə açılır.*

**ZAVQ: ZAVQ ELƏMƏXʹ** (Cəbrayıl) – avaralanmaq, boş-boşuna gəzmək.

**ZAY** (Bakı) – avara, işsiz.

**ZAYFA** (Borçalı, Qazax, Salyan) – zəif, cansız. – *Zayfa yol yeriyəmməz, yük götürəmməz* (Salyan).

**ZAYIL** (Cəbrayıl, Cəlilabad, Çənbərək, Goranboy, Tovuz) – 1. səfeh, axmaq (Cəbrayıl, Cəlilabad, Çənbərək, Goranboy, Tovuz); 2. avara (Cəbrayıl). – *Səməd zayıl uşağdı;* 3. bacarıqsız (Cəbrayıl); 4. şikəst (Cəlilabad). – *Bir dənə axsağ atım var, üş dənə qıçı zayıldı.*

□ **Zayıl olmax** (Mingəçevir, İrəvan) – rədd olmaq (İrəvan). – *Çəkil, bircə gözümnən zayıl ol;* 2. xarab olmaq (Mingəçevir).

**ZAYILLAMAX** (Gəncə) – axmaqlamaq, ağlını itirmək. – *Sən laf zayıllıyıfsan.*

**ZAYINZAX** (Qax) – keçə hazırlanarkən işlədilən alət.

**ZAZAKA** (Balakən) – erkək arı.

**ZAZAN** (Şamaxı) – çoxdanışan, uzunçu. ◊ **Zazan eləməg** – uzunçuluq etmək. – *Nə zazan eliyirsən?*

**ZEH** I (Gəncə, Goranboy, Tovuz) – rəf. – *Nənəm deyir ki, biz zehə qav-qajax yığardıx, indiki öylərdə zeh yoxdu* (Goranboy); – *Dayımgillərdə indi də var zeh* (Tovuz).

**ZEH** II (Kürdəmir) – haşiyə. – *Pəncərənin qırağına zeh çəkdilər.*

**ZEH** III (Cəbrayıl) – taxtaları bir-birinə geydirmək üçün açılan yarıq.

□ **Zeh düşməxʹ** (Cəbrayıl) – dən düşmək, ağarmaq. – *Saşdarına zeh düşüf.* **Zeh yerə qoymağ** (Saatlı, Salyan) – əldən düşmək, yorulmaq. – *Əli bı işi görüncə zeh yerə qoydı* (Salyan).

**ZEHNİMUT** (Bakı) – zəhər. – *Gözzə, Nizami sözümə baxmır, heç ona zehnimut da verməræm.*

**ZEL** (Meğri) – 1. quş yuvasının çör-çöpü. – *Oduna getmişdim deyincə, deynədinnən getmişdim qərqə zelinə,* 2. quş peyini. – *Lumi ağəcinnan öti zel candı.*

**ZELAF** I (Ordubad) – həyasız, sırtıq. – *Dursun çox zelaf adamdı.*

**ZELAF** II (Ordubad) – hər tərəfi sürtülmüş (aşıq).

**ZELAFLAŞMAX** (Şərur) – qoçaqlaşmaq. – *O gördüyün yava uşaxlar dəyillər, elə zelaflaşıplar kin.*

**ZEP** (İrəvan) – çatlamış saxsı qabları yapışdırmaq üçün əhəng, yumurta və pambıqdan hazırlanmış yapışqan. – *Küpün çatdağını tutmağ üçün zep qayıracağam.*

**ZEPLƏMƏXʹ** (Zəngibasar) – vurmaq. – *Bir dənə boynu:n ardına zeplədim.*

**ZEPLƏMƏY** (İrəvan) – əhəng, yumurta və pambıqdan hazırlanmış yapışqanla yapışdırmaq. – *O bardağı zeplə, yoxsa axar.*

**ZEPLİ** (İrəvan) – əhəng, yumurta və pambıqdan hazırlanmış qarışıqla yapışdırılmış. – *Zepli bardağı bura gətir.*

**ZERİNDAZ** (Meğri) – parçanın kənar tərəfləri. – *Zerindazdarın ikisin də qeyçiynən kəs, so:ra təfci.*

**ZERMƏMİ** (Culfa) – quyu.

**ZEŞT** (İrəvan) – tənəkə, nazik dəmir. ◊ **Zeşt kavavı** – nazik dəmirdən olan manqalda hazırlanmış kabab. – *Bizi bir zeşt kavavına qonağ elə.*

**ZEY** (Tabasaran) – zolaqlı. – *Ho qulağları zey ulan keçidü.*

**ZEYNAVI** (Ağdam, Xocalı) – üzüm növü adı.

**ZEYRƏN** (Bakı) – guya. – *Navar, dosdum, yə:ni deməg isdi:rsən ki, zeyrən mən səni tanımıram?*

**ZƏBƏRDƏLUĞ** (Xaçmaz) – iri bədənli. – *Zəbərdəluğuna baxma, güci yuxdi.*

**ZƏBƏRDƏST** (Cəlilabad) – güclü, qüvvətli. – *Yanındaki də bi zəbərdəst adameydi.*

**ZƏBRƏ** (Borçalı) – b a x **zabır.**

**ZƏBRİ** (Oğuz) – b a x **zabır.**

**ZƏBRU** (Balakən) – b a x **zabır.** – *Ay bala, zəbrunu gətir, lampıya nö:üt tökəcəyəm.*

**ZƏDİR** (Meğri) – b a x **zadır.**

**ZƏFD: ZƏFDİNİ ALMAX** (Zəngibasar) – qarşısını almaq. – *O qə:r şirə verdi ki, indi zəfdini alammır.*

**ZƏGAL** (Cəlilabad, Yardımlı) – qozun yaşıl qabığı. – *Girdəkanın zəgalını soyardüg;* – *Sanın tutıb heybəmizə qoyardüg* (Cəlilabad).

**ZƏGƏL** (Qax) – nar qabığı.

**ZƏGƏN** (Qax) – otlaq.

**ZƏGLUĞ** (Xaçmaz, Quba) – b a x **zəylixʹ.**

**ZƏĞƏRƏ** (Lerik) – b a x **zağara.** – *Papağın zəğərəsi hələ gedmeyib.*

**ZƏHƏNDƏ** I (Bakı, Masallı) – çoxdanışan, zəhlətökən. – *Nə zəhəndə adamdu bu* (Masallı).

**ZƏHƏNDƏ** II (Lənkəran) – acıdil. – *O, zəhəndə adamdu.*

**ZƏHLƏ** I (Füzuli, İsmayıllı) – hananın ayağı. – *Hananı qoyannan soğra qəşəy oxu var, o oxu qoyursaŋ, onun zəhləsinə – ayağına* (Füzuli).

**ZƏHLƏ** II (İsmayıllı) – öd. – *Qorxudan zəhlən suya döndü.*

**ZƏHLƏ** III (Dərbənd) – tağalaq, cəhrədə iyə keçirilən dairəvi gön parçası və ya taxta. – *Bir parça gün gətirün, zəhlə düzəltüm.*

**ZƏHLƏ** IV (Zəngibasar) – hövsələ, həvəs. – *Zəhləm yoxdu, sənnən danışam.*

**ZƏHMAN** (Şuşa) – b a x **zahman** I.

**ZƏHMƏT** (Ağbaba, Culfa, Şərur) – əməkgünü. – *Mənim zəhmətimi kitabçıya yazıbsaŋmı?* (Ağbaba); – *İnişil hər zəhmətə beş kilo üzüm böldük* (Culfa).

**ZƏQQƏTO** (Ağdam) – b a x **zaqqato.** – *Yelpənəxʹ zəqqətodu, yeməli döyü.*

**ZƏQQƏTOV** (Şərur) – acı, tumturş. – *Qopatdım, qoydum ağzıma, zəqqətovdu, heş yeməli dəyir.*

**ZƏQQO** (Bakı, Lənkəran) – b a x **zaqqun.**

**ZƏQQOY** (Tovuz) – b a x **zaqqun.** – *Ağzım zəqqoy dadır.*

**ZƏQQUƏ** (Bakı, Oğuz) – b a x **zaqqun.**

**ZƏQQUN** (Saatlı, Ucar) – b a x **zaqqun.** – *Büvər zəqqun kimidi, boğazımı kəsdi* (Ucar).

**ZƏQQUTUN** (Culfa, Gədəbəy, Gəncə, Laçın, Mingəçevir, Naxçıvan, Oğuz, Saatlı, Ucar) – 1. acı; 2. zəhər (Oğuz). – *Niyə mənim almamı yeyirsən, zəqqutun yesəŋə.*

**ZƏQƏDO:** (Şəki) – 1. b a x **zaqqato;** 2. zəhər. – *Ağız, Fatma, bacı:n co:su zəqədo: kimidi.*

**ZƏQO:** (Şəki) – çox duzlu.

**ZƏLƏMƏ** (Biləsuvar) – kasıb adama vermək üçün nəzərdə tutulan şey. – *Onu yeməy olmaz, o, zələmədi.*

**ZƏLHƏB** (Tabasaran) – öd kisəsi.

**ZƏLİL-ZİRDAŞ** (Zəngibasar) – tənha, tək. – *Heş kəsim yoxdu, qalmışam zəlil-zirdaş.*

**ZƏLLƏ** I (Ağdam, Ağdərə, Borçalı, Cəbrayıl, Lerik, Şuşa) – xəsis. – *Bizim qonşumuz zəllə adamdı* (Borçalı); – *Zəllə adamın pulu çox olur* (Şuşa).

**ZƏLLƏ** II (Qazax) – inadkar. ◊ **Zəllə olmax** (Goranboy) – inadkarlıq etmək, əl çəkməmək. – *Ə, nə zəllə oluf yapışmısaŋ yaxamnan?*

**ZƏLLƏ** III (Cəbrayıl) – vəzəri.

**ZƏLLƏ** IV (Kürdəmir, Zəngilan) – bərk. – *Zəllə qəndi doğramağ olmur* (Zəngilan).

**ZƏLO** (Lənkəran) – yandırıcı, isti. – *Günin lap zəlo vaxdıdu.*

**ZƏMƏKO** (Sabirabad) – çox duzlu.

**ZƏNCİRƏ** (Culfa, Ordubad) – arxalığın ətəyinə tikilən bəzəkli gümüşü haşiyə. – *Qəbaxlarda zəncirə olan ərxalıx geyərdilər* (Ordubad).

**ZƏNƏHLİY** (İrəvan) – biclik. – *Zənəhliy eləmə.*

**ZƏNƏKİ-ZƏNƏKİ** (Kəlbəcər) – uşaq kimi, uşaqcasına. – *Zənəki-zənəki danışma.*

**ZƏNƏX′** I (Qarakilsə) – çoxdanışan.

**ZƏNƏX′** II (Oğuz) – yaltaq. – *Bu, yaman zənəy adamdı.*

**ZƏNG** (Bakı) – sırğanın bir növü.

**ZƏNGAN** (Quba) – ayağı isti saxlamaq üçün xüsusi meşin boğazlıq.

**ZƏNGET** (Lerik) – bitki adı, həmişəbahar. – *Bırda zənget çox olır.*

**ZƏNGƏL** (Qax, Şəki, İrəvan) – 1. b a x **zəngan** (Qax, İrəvan). – *Arvad, mənim zəngəllərim hanı?* (İrəvan); 2. keçə ayaqqabı (Şəki). – *Zəngəl giyən təx′-tüx′ adam olar, hamı duflu, qaluş giyir.*

**ZƏNGƏLƏY** (İrəvan) – b a x **zənkələy.**

**ZƏNGİ** (Zaqatala) – çarıqda bağ keçirilən deşiklər. – *Çarığın zəngisi qopupdu.*

**ZƏNKƏLƏY** (İrəvan) – kələkbaz. – *Sən nə yaman zənkələysən.*

**ZƏRD** (Bakı) – quş adı.

**ZƏRDAP** (Qax) – irin. – *Yazığın yarasınnan zərdap tökülürdü.*

**ZƏRDƏ** I (Başkeçid, Bolnisi, Borçalı, Böyük Qarakilsə, Qazax, Qarakilsə, Naxçıvan, Ordubad) – yerkökü. – *Bizim yerin adamı çoxlu-çoxlu zərdə yeyəndi* (Ordubad); – *Bi:l çoxlu zərdə əx′mişəm* (Qarakilsə).

**ZƏRDƏ** II (Balakən) – təmiz buğda.

**ZƏRDƏLƏMƏX′** (Xanlar) – yaxşılarını seçmək. – *Ə, bajı oğlu, adam zərdələməz, alırsan, bir ujdan götür.*

**ZƏRDO** (Kürdəmir) – b a x **zərdap.**

**ZƏ:RƏX′** (Gədəbəy, Kəlbəcər) – bitki adı. – *Zə:rəx′ kilimin arasında çox varıydı, eşiyə aparıŋ, sərin gün çıxanda* (Gədəbəy).

**ZƏRƏNDAZ** (Lənkəran) – zərli baş örtüyü.

**ZƏRGEND** (Cəlilabad) – b a x **zənget.** – *Zərgend meşədə bitey.*

**ZƏRİLXANA** (Qazax) – ayaqyolu.

**ZƏRİS** (Ordubad) – zirinc.

**ZƏRQOV** (Zəngilan) – xörək adı. – *Arvat yaxşı zərqov bişimişdi, yeyib gəlmişıx.*

**ZƏRMƏNDİX′** (Basarkeçər) – əməköməci. – *Uşağlar gedif zərməndix′ yığmağa.*

**ZƏRNİŞ** (Oğuz) – zirinc.

**ZƏRVAF** (Tovuz) – zərli parça.

**ZƏRZƏR** (Quba) – duzlanmış yabanı kəvər.

**ZƏVƏRQARIN** (Çənbərək, Karvansaray, Qazax) – b a x **zağarqarın.** – *Zəvərqarın adam yoxuş yeri çıxə:limi?* (Çənbərək).

**ZƏVƏRMƏX′** (Gədəbəy) – uzanmaq. – *Görüŋnən bir nə zəvərif, heş xəvəri varmı kın düynədən.*

**ZƏVİLLƏMƏG** (Cəlilabad) – zarımaq. – *Az zəvillə sən də, baş-beynimi aparmaginan.*

**ZƏVRƏ** (Borçalı) – qıf.

**ZƏVZƏX′** (Ağdam, Cəbrayıl, Füzuli, Gədəbəy, Qarakilsə, Qazax, Zəngilan) – b a x **zəvzəy.** – *Bı qəri həylə zəvzəx′ qəridi, axşamacan zəvze:r* (Zəngilan); – *Zəvzəy adam zəhlə tökər;* – *Sən öz canıŋ, zəvzəy adamnan yoldaş olma* (Gədəbəy).

**ZƏVZƏX′LƏMƏX′** (Qazax) – yersiz və boş-boş danışmaq. – *Əli dünən mərəkədə yaman zəvzəx′lədi.*

**ZƏVZƏK** (Beyləqan, Cəbrayıl, Kəlbəcər, Kürdəmir) – b a x **zəvzəy.** – *Zəvzək gedə*

*olma, bı çox pis şeydi* (Beyləqan); – *Zəvzək kişi gəldi, gənə baş-beynimiz gedər* (Cəbrayıl).

**ZƏVZƏMƏX′** (Cəbrayıl, Füzuli, Qarakilsə, Mingəçevir) – həddindən artıq boş-boş danışmaq. – *Ay arvad, az zəvzə dana, tay yorulmadı:ŋ?* (Cəbrayıl); – *Bu da ay zəvzədi ha* (Qarakilsə).

**ZƏVZƏY** (Laçın) – çoxdanışan. – *Ay sən də zəvzəy adamsan ha.*

**ZƏVZİMƏG** (İmişli) – yalvarmaq. – *Yıxıldı ayağına, başdadı zəvziməyə.*

**ZƏY** (Cəbrayıl) – tikə, hissə. – *Mınnan sənə bir zəy də verməərəm.*

**ZƏYDUZ** (İrəvan) – zəylə duzun qarışığından hazırlanmış aşı maddəsi. – *Bir az zəyduz qayır.*

**ZƏYDUZLAMAX** (İrəvan) – dərini aşılamaq üçün ona zəyduz sürtmək. – *Dərini zəyduzlamışam.*

**ZƏYƏRƏK** (İrəvan) – kətan yağı. – *Bir az zəyərək gəti, xəmirə qatax.*

**ZƏYİN** (Qazax) – biyar.

**ZƏYLİX′** (Ağdam, Mingəçevir, Şəki) – lampanın boğazı, şüşə keçirilən yeri. – *Lampanın zəyliyi qopuf, saxlamır* (Ağdam).

**ZƏYVƏK** (Füzuli) – tənbəl. – *Bı öküz zəyvəkdi.*

**ZƏYVƏYK** (Füzuli) – zəif, arıq. – *Dünən Behbidin inəyi bir zəyvəyk bızav doğuf.*

**ZIBI** (Cəbrayıl) – böyük, yekə.

**ZIBIĞ** I (Bakı) – zəhlətökən, sırtıq. – *Mının kimi heç zıbığ adam görməmişəm.*

**ZIBIĞ** II (Bakı) – b a x **zıbı.** – *O, zıbığın biridü.*

**ZIBIX** (Meğri) – b a x **zıbı.** – *Gülünün Hüsən addı bir zıbıx gədəsi var, özü də dəmir yolda işde:r.*

**ZIBIN** (Kürdəmir, Qəbələ, Oğuz) – sırıqlı. – *Hava soyuyuf, gərəx′ zıbın alam* (Qəbələ); – *Zıbın olmasa, so:xdan doaram* (Oğuz).

**ZIBIRTIN** (Kürdəmir) – böyük və həm də yaraşıqsız. – *Əhmədin oğlı elə zıbırtındı ki.*

**ZIFİ** (Meğri) – azacıq, lap az. – *Ətdən bizə Fərəş zıfi də vermədi dadax.*

**ZIFLAMAX** I (Basarkeçər, Mingəçevir) – b a x **zırflamax.** – *Çualı ağzınatan zıfla taxılnan* (Basarkeçər).

**ZIFLAMAX** II (Basarkeçər, Şuşa) – b a x **zıplamağ.** – *Yumruğu sufatına elə zıflıyıf ki, sufatı göyərif* (Şuşa).

**ZIĞ** I (Bakı, Culfa, Gədəbəy, Qarakilsə, Naxçıvan, Ordubad, Şərur) – palçıq. – *Zığdan indi dərbəşmək olmaz* (Şərur); – *Zığ bulaşıf şalvarın balağına, təmizdəŋnən* (Gədəbəy).

**ZIĞ** II (Qazax) – qalın tüstü.

**ZIĞ** III (Qazax) – gözün qırağına yığılan çirk.

**ZIĞ** IV (Qazax) – qarğaya oxşayan quş.

□ **Zığ verməg** (İsmayıllı) – dolu olmaq. – *Dəyirman adamnan zığ verir.* ◊ **Zığ vırmağ** (Bakı) – b a x **zığ vermək.**

**ZIĞAB** I (Qubadlı, Salyan) – bir yerdə qalıb iylənən su. – *Bizim yerrərdə zığab ulmaz* (Qubadlı); – *Zığabı içməg olmaz* (Salyan).

**ZIĞAB** II (Salyan) – b a x **zağab.** – *Bı qaşığı zığaba salacam.*

**ZIĞEL** (Xanlar) – qısaboylu və yekəqarın (adam). – *Zığel adam da var.*

**ZIĞI** (Bakı) – b a x **zıqqi.**

**ZIĞIMAX** (Tovuz) – sürüşmək. – *Ayağım yaman zığıyır qar olanda.*

**ZIĞIRQUŞ** (Şuşa) – zəhlətökən. – *Mürsəl zığırquş adamdı.*

**ZIĞIT** (Xanlar) – ölüvay. – *Bu da zığıt oğlu zığıt, bizə yoldaş olub.*

**ZIĞMAX** (Şərur) – b a x **zığımax.** – *Avto:nun təkəri zığdı, avto o sa:t yoldan çıxır.*

**ZIĞLA** (Qazax) – yumurtadan yenicə çıxmış, hələ tüklənməmiş quş balası.

**ZIĞLI** (Tərtər) – b a x **zağlı** II. – *Bu inəyin südü zığlı süddü.*

**ZIĞLIX** (Bərdə) – palçıqlıq. – *Hər yan zığlıxdı.*

**ZIĞO** (Kürdəmir) – b a x **zığ** I.

**ZIĞZIĞ** I (Kürdəmir) – uşaq oyunu adı. – *Uşağlar, gəlin zığzığ oyniyağ.*

**ZIĞZIĞ** II (Qax, Oğuz, Tovuz, Zaqatala) – alabaxta, quş adı. – *Uzaxdan zığ-zığ çığırır* (Zaqatala); – *Zığzığ bağto:ğuna oxşuyur* (Oğuz).

**ZIX** (Culfa) – b a x **zılx.**

**ZIXCALI** (Meğri) – dolu, basa-basa doldurulmuş. – *Üş zıxcalı çüyal ma: verdi, ikisin də Qurbanın dədəsi Məşə Zeynala.*

**ZIXMA** (Gədəbəy, Tovuz) – yumruq, dürtmə. – *Saŋa bir zıxma vurram, bir il*

*özüŋə:lməssəŋ* (Tovuz); – *Bir zıxma vurram, böyrəyiŋ içiŋə tüşər* (Gədəbəy).

**ZIXMALAMAX** (Gədəbəy) – yumruqla vurmaq. – *Elə zıxmaladım, heç məni vurmağa əl aça bildi ki?*

**ZIXZIX** (Qax, Zaqatala) – sağsağan.

**ZIQI** (Balakən) – dələ cinsindən olan meşə heyvanı.

**ZIQQI** I (Ağdam, Bakı, Kürdəmir, Şəki) – b a x **zıqqi.** – *Zıqqı adamın malı çıxınca canı çıxsa yaxşıdı* (Şəki).

**ZIQQI** II (Bakı, Kürdəmir, Salyan) – çoxdanışan. – *Zıqqı adam çox danışar, adamın baş-qulağın aparar* (Salyan).

**ZIQQIÇILIĞ** (Salyan) – uzunçuluq. ◊ **Zıqqıçılığ eləməg** – uzunçuluq etmək. – *Paşa, nə zıqqıçılığ eliyirsən?*

**ZIQQILDAMAX** (Beyləqan, Bərdə, Qarakilsə) – zarımaq. – *Bu uşax səhərdən zıqqıldıyır* (Beyləqan).

**ZIQQILIĞ: ZIQQILIĞ ELƏMƏK** (Əli Bayramlı) – 1. zəhlə tökmək. – *Az zıqqılığ elə;* 2. dilənmək. – *Abırun olsın, utan, zıqqılığ eləmə.*

**ZIQQİ** (Lənkəran) – xəsis.

**ZILAN** (Qarakilsə) – axırıncı (oyunda). – *Beşüyür oğlu beşüyür, oyunda həmişə zılan olur.*

**ZILAVLAMAX** (Qarakilsə) – b a x **zilaflaşmax.** – *Aşıx zılavlanıf, müşqurmamış alçı durur.*

**ZILDAN** (Gədəbəy) – yaş, rütubətli. – *Zıldan ağaşdı, qo:ŋ qurusun.*

**ZILDIRAMAX** (Çənbərək, Karvansaray) – yetişmək. – *Alma zıldırıyıf tökülür* (Karvansaray).

**ZILDIRRAMAX** (Zaqatala) – sızıldamaq.

**ZILĞA** I (Cəbrayıl, Zəngilan) – 1. b a x **zığla** (Zəngilan). – *Quşun balası hələ zılğadı, uçə:lmir; – Divardakı ilan zılğaları uddu; – Düləçənin balalarının hamısı hələ zılğadı;* 2. anadan təzəcə doğulmuş uşaq (Cəbrayıl).

**ZILĞA** II (Füzuli, Sabirabad, Şamaxı) – balacaboy (adam).

**ZILĞA** III (Daşkəsən, Şəki) – arıq, zəif. – *Uşax əmələ gəlmir, heylə zılğa durur* (Şəki).

**ZILX** (Ağdam, Ağdərə, Cəbrayıl, Əzizbəyov, Füzuli, Gədəbəy, Gəncə, Kürdəmir, Salyan, Şəki, Ucar) – çuğundur. – *Zılx da əkirix'* (Ağdam); – *Həməvvax zılx vereyrim qışda mala samannan bir yerdə* (Gədəbəy); – *Qalxoz bu il zılx normasını doldudu* (Cəbrayıl).

**ZILXI** (Füzuli) – tamamilə.

**ZILIĞ** (Cəlilabad) – gözdə əmələ gələn çirk.

**ZILIF** I (Qarakilsə) – həyasız. – *Zılıf qadındı, heş kim üzünə baxmır.*

**ZILIF** II (Şərur) – darının bir növü.

**ZILIX** (Cəbrayıl, Zəngilan) – b a x **zılığ.** – *Genə no:luf, gözü:ŋ zılığın tökürsəŋ?* (Zəngilan)

**ZILIN** (Meğri) – pinti. – *Əldərədə zılın arvat yoxdu.*

**ZIMBIL** (Gədəbəy) – ağır. – *Zımbıldı, tərpətmək olmor.*

**ZIMIR** I (Basarkeçər, Gədəbəy, Tovuz) – palçıq. – *Camış özünü zımıra saldı; – Arxa su zımır kimi yəlir, də:ŋ, bağlara yağıf* (Tovuz); – *Buralar pütüncə zımırdı, yerimәx' ha olmor* (Gədəbəy).

**ZIMIR** II (Tovuz) – yetişməmiş, kal (meyvə). – *Ə:, o alma zımırdı, onu niyə yi:rsəŋ?*

**ZIMIRD** (Qazax) – tamamilə, büsbütün. – *Bu qarpız zımırd kaldı; – Həsən zımırd qammer.*

**ZIMIRRAMAX** (Basarkeçər, Borçalı) – çirkləndirmək. – *Mal buroyu zımırrı:f, gə təmizdə* (Borçalı).

**ZIMIRT** (Qazax) – b a x **zımır** II. – *Hələ zımırtdı zoğal, ye:ləsi döyü.*

**ZINC: ZINCI DÜŞMƏX'** (Xanlar) – kefsizləmək. – *Kəhər atın zıncı elə düşüf ki, elə bil arpa yemiyif.*

**ZINDIĞ** (Bakı) – davakar.

**ZINDIX** I (Füzuli, İsmayıllı, Qazax) – sırtıq, həyasız. – *Yamanca zındıxsaŋ, səniŋ kimi zındığ adam görməmişəm* (Qazax).

**ZINDIX** II (Naxçıvan) – balaca boylu, qısaboy (adam).

**ZINĞ** (Salyan) – bir şeyin az hissəsi.

**ZINĞIR-ZINĞIR** (Qax) – boş-boş, avara. – *Əşi, bütün günü zınğır-zınğır qəziy.*

**ZINQ** (Salyan) – b a x **zing** II. – *Bi zınq üzim adamı doydırmaz.*

**ZINQAX** (Cəbrayıl) – şuluq, nadinc, sözəbaxmayan.

**ZINQI** (Bakı) – tərbiyəsiz.

**ZINQIMAX** (Füzuli) – ağlamsınaraq yalvarmaq. – *Əli zınqıyıf, üzüm alıf yeyif.*

**ZINQIN** (Şamaxı) – tut çırpmaq üçün ağac.

**ZINTIŞ** (Mingəçevir, Oğuz) – inadkar, tərs. – *Ə, sən nə zıntış adamsan* (Oğuz).

**ZIPI** I (Salyan) – kobud.

**ZIPI** II (Cəlilabad, Salyan) – yumruq. – *Ona bi zıpı vırdım ki, biyağ aşdı* (Salyan).

**ZIPIF** (Çənbərək) – dolu. – *Qəşədər İsmeyl bir zıpıf harava ot gətdi.*

**ZIPLAMA** (Lənkəran) – ağızbaağız, basa-basa. – *Kisəni zıplama doldurdım.*

**ZIPLAMAĞ** (Kürdəmir) – var qüvvə ilə, möhkəm vurmaq. – *Safa dünən böyrümə elə zıpladı, yeri hələ də ağrıdır.*

**ZIPPIZ** (Əli Bayramlı) – çılpaq. – *Payız olan kimi ağajdar zıppız olur.*

**ZIR** I (Basarkeçər) – tamamilə. – *Qarpız zır kaldı, heş yeməx' də olmur; – O, zır qammazın biridi, heş zad başa düşmür.*

**ZIR** II (Barana) – kobud. – *Tahir çox zır oğlandı.*

**ZIRAN** (Basarkeçər, Naxçıvan, İrəvan) – b a x **zılan.** – *Bu dəfə Seyid zırandı* (Naxçıvan); – *Ay uşaxlar, zıran kimdi?* (İrəvan).

**ZIRANA** (Ağbaba) – b a x **zılan.** – *Oyunda mən zırana qaldım.*

**ZIRBIX** (Böyük Qarakilsə) – palçıq.

**ZIRDANNAŞMAX** (Borçalı, Qazax) – kobudcasına zarafatlaşmaq. – *Əli, gedirsiŋiz gediŋ, nə zırdannaşırsıŋız?* (Borçalı).

**ZIRDƏNƏ** (Lənkəran) – yumurta sarısı.

**ZIR DÜDÜYÜNƏ QOYUB ÇALMAX** (Şərur) – rüsvay etmək. – *De:rsən yanı kətdə bizi zır düdüyünə qoyub çalsınnar.*

**ZIRFLAMAX** (Hamamlı) – ağızbaağız, basa-basa doldurmaq.

**ZIRĞIN** (Bakı) – zərbə. – *Qapıya bir zırğın dəydi, gördüg ki, bö:g qərdeşim qapını açıb girdi içəri.*

**ZIRI** I (Ağdam, Cəbrayıl, Mingəçevir, Şəki, Ucar, Zəngilan) – yekə, böyük. – *U nə zırıdı, ə* (Ucar); – *Yaman zırı şeydi* (Ağdam).

**ZIRI** II (Ağdam, Cəbrayıd, Cəlilabad, Mingəçevir, Şuşa, Zəngilan) – b a x **zır** II. – *Heç belə zırı adam görməmişəm* (Ağdam); – *Zırı adam zırılığın hər yerdə bildirər* (Zəngilan).

**ZIRI** III (Başkeçid, Qazax) – erkək eşşək.

**ZIRIX** I (Gəncə, Qazax, Şamaxı, Şəki) – yekə, böyük. – *Paho, nə zırığ adamdı* (Qazax); – *O at zırığ atdı, uzunu burdan ora olar* (Şəki).

**ZIRIX** II (Şəki) – bol, çox. – *Biyil zırıx baramamız olcaxdı.*

**ZIRIX** III (Basarkeçər) – axta. – *Ala qoç zırıxdı.*

**ZIRILIX** (Cəbrayıl, Zəngilan) – kobudluq. – *Zırılığ onda çoxdan var* (Zəngilan). ◊ **Zırılığına salmax** (Cəbrayıl) – kobudluq etmək. – *Ə, zırılığına salma.*

**ZIRINDAZ** (Meğri) – b a x **zerindaz.**

**ZIRNATAN** (Daşkəsən) – ağzına kimi, ağızbaağız. – *Çayı istkanın zırnatan süz.*

**ZIRNIŞ** (Mingəçevir) – zirinc.

**ZIRPƏLLƏZİNƏ** (Meğri) – nəhəng, yekə. – *İldırım bir zırpəlləzinə palıt yıxıp.*

**ZIRPI** (Qazax, Şəmkir) – qanacaqsız.

**ZIRPIÇÇI** (Ağdərə) – əkin zamanı kotanın ağzını təmizləyən adam. – *Zırpıççı kotanın ağzın təmizdiyir.*

**ZIRPIZOĞAL** (Zəngibasar) – böyük, yekə, nəhəng, qüvvətli. – *Bı zırpızoğalnan bacarmağ olar bə:m?*

**ZIRRAMAX** (Çənbərək) – yağmaq. – *Beyjə gənəjix' bir metrə qar zırrıyıf.*

**ZIRRANQUŞ** (Karvansaray) – ling. – *Göyrüşdən zırranquş qayrerıx.*

**ZIRTEPƏN** (Qax) – nəhəng, böyük <adam>.

**ZIRZAX** (Başkeçid) – dırmıq.

**ZIRZIR** (Kəlbəcər) – ağlağan. – *Mirzə elə uşaxlıxdan zırzırdı.*

**ZIVANI** (Şəmkir) – sırıqlı. – *Zıvanı yavaş-yavaş dəvdən tüşör.*

**ZIVIX** (Borçalı) – uzun. – *Zıvığ adamın axılı olmor.*

**ZIVILLIX** (Qazax) – qalın pöhrəlik, qalın kolluq.

**ZIVIN** (Gəncə, Mingəçevir, Tovuz) – 1. qalın üst geyimi (Gəncə); 2. b a x **zıbın** (Mingəçevir, Tovuz). – *Zıvını hamı geər* (Tovuz).

**ZIVINI** (Ağcabədi, Basarkeçər, Çənbərək, Kürdəmir, Tovuz, Şəki) – 1. b a x **zıbın** (Şəki). – *Altdan zıvını giydim, üsdən paltun,*

*canım elə oldu od kimi;* 2. b a x **zıvın** (Ağcabədi, Basarkeçər) – *Zıvınını qoja arvatdar ge:ir* (Ağcabədi); – *Dərzi Məsmənin zıvınısını sırıyırdı* (Basarkeçər).

**ZIVIRDIŞ** (Qazax) – qanacaqsız. – *Çox zıvırdış adamsaŋ.*

**ZIVIRDIŞI** (Qazax) – icazəsiz, özbaşına. – *Zıvırdışı girif bosdanın içinə, elə bil yə:sizdi.*

**ZIVIRIX** (Basarkeçər) – tamamilə, büsbütün, bütünlüklə. – *Heyvan elə kökəlif, zıvırıx tüx′dən çıxıf.*

**ZIVLAX** (Gədəbəy) – düz. – *Zıvlağ ağacı qo:yufsuŋ orda, qəlifsiŋ qin, munu qəsəcəm.*

**ZIZILDAMAX** (Zaqatala) – sızıldamaq. – *Bütün qıçdarım zızıldadı səhərə kimi.*

**ZİB** I (Dərbənd) – qozun yaşıl qabığı. – *Quzun zibinnən xəlçə tuxmağçun yun ipini buyatullar, yəxşi qara irəngi uladu.*

**ZİB** II (Qax) – qıf.

**ZİBAN** (Ordubad) – qaracıq, taxılın içərisində bitən xırda qara toxumlu bitki. – *Bu gün buğda almışam, içinnən ziban çıxıb.*

**ZİBAR** (Goranboy) – abır. ◊ **Zibarın töx′məx′** – abırını tökmək. – *Əşi, sən də üzümüzün zibarın töx′dün laf.*

**ZİBƏL** (Lənkəran) – b a x **zibar.** ◊ **Zibəlin tökməg** – b a x **zibarın töx′məx′.** – *Zibəlimi tökmə, çıx get burdan.*

**ZİBƏR** (Bakı, Lənkəran) – b a x **zibar.** ◊ **Zibərin tökməg** (Bakı) // **Zibərin dağıtmağ** (Lənkəran) – b a x **zibarın töx′məx′.** – *Sən allah, Mədinə, zibərimi tökmə.*

**ZİBİDİ** (Ağdaş) – tamamilə. – *Sənin qulağın zibidi kardı.*

**ZİBİRİX′: ZİBİRİX′ GETMƏX′** (Meğri) – iztirab keçirmək. – *Əmir Ərşat davasində ki uğli öldi, yazıx kişi hey zibirix′ gedeydi.*

**ZİBTƏR** (Qarakilsə) – həyasız. – *Zibtərin biri zibtər, mənnən nə istiyirsəŋ?*

**ZİBTƏRMƏX′** (Qarakilsə) – qızışmaq. – *Niyə zibtərirsəŋ, sənnən qorxub eliyən yoxdu.*

**ZİDİN-ZİDİN** (Füzuli) – çətinliklə. – *Bir tə:r zidin-zidin dolandıx.*

**ZİFDİNƏ** (Füzuli) – keçəl.

**ZİFİR** (Basarkeçər) – qəlyanın çubuğunun içində əmələ gələn qır. – *Qəlyanın içi zifirnən doludu.*

**ZİGAR: ZİGAR İLƏMƏG** (Dərbənd) – 1. inildəmək, zarıldamaq. – *Xəstə adam da zigar iliyədi, başqasınnan acığlı ulan da;* 2. qeybət etmək.

**ZİL** (Ordubad) – baramaqurdunun peyini.

**ZİLAN** (Naxçıvan, Salyan) – b a x **zelaf** II. – *Aşığın sürtülmüşünə bizdərdə zilan aşıx deyilir* (Naxçıvan); – *Sənün zilanun bizi uddı* (Salyan).

**ZİLAF** I (Culfa) – b a x **zelaf** II. – *Aşığı sürtəllər, olar zilaf.*

**ZİLAF** II (Borçalı, Zaqatala) – ayaqyolu.

**ZİLAF** III (Oğuz) – b a x **zilav.** – *Zilaf adam hər şeyin yerin bilən adam olur.*

**ZİLAFLAMAX** (İrəvan) – sürtüb hamarlamaq. – *Aşığıma bax, gör necə zilaflamışam.*

**ZİLAFLAŞMAX** (Oğuz) – sürtülmək, sürtülüb hamarlanmaq. – *Bu aşıx çox oynanıf zilaflaşıf.*

**ZİLAV** (Kürdəmir) – zirək. – *Elçin zilav oğlandı.*

**ZİLBƏ-ZİLBƏ** (Lənkəran) – tikə-tikə. – *Səni zilbə-zilbə doğriyəcəm.*

**ZİLVİX′** (Çənbərək) – b a x **zilviy.** – *Tükana gətdix′ləri parçadan aləmmədim zilvix′ də.*

**ZİLVİY** (Kürdəmir, Laçın) – bir parça, bir tikə. – *Parçədən zilviy də qalmadı* (Laçın).

**ZİLƏF** I (Qazax, Yevlax) – b a x **zelaf** I. – *Yaman ziləf uşaxdı, a:dı sözə baxmer* (Qazax).

**ZİLƏF** II (Hamamlı) – b a x **zelaf** II. – *Ziləf aşığı mat oyunda işdəderdilər.*

**ZİLİ** (Ağdam, Borçalı, Qazax) – 1. palaz (Ağdam); 2. xalı (Ağdam, Borçalı, Qazax). – *Zili yekədi, gəvə balajadı* (Borçalı).

**ZİLLƏ** (Barana) – zirvə. – *Cəhəngir dağın laf zilləsinə çıxmışdı.*

**ZİLLƏMƏ** (Barana) – başıaşağı. – *Elman körpüdən çaya zilləmə çüşdü.*

**ZİLLƏMMƏX′** (Başkeçid) – bağlanmaq.

**ZİLONA** (Salyan) – həyasız. – *Zilona adam utammaz;* – *Gülbahar elə zilona adamdı ki, heç üzün görmə.*

**ZİMİR** I (Başkeçid, Borçalı) – mal-qaranın altında olan palçıq. – *Get, damın zimirini kürü* (Borçalı).

**ZİMİR** II (Kürdəmir) – bərk, yetişməmiş. – *Armıd hələ zimirdi.*

**ZİNC** (Zəngilan) – yarpağından boyaq üçün istifadə edilən ağac. – *Zinc ağacının yarpağınnan ip bo:yullar.*

**ZİNCİ** (Kürdəmir, Salyan) – b a x **zing** III. – *Suyı az olan çayda zinci olar* (Salyan).

**ZİNCİLFƏRƏC** (Bakı) – əncir şirəsi ilə bişirilmiş halva.

**ZİNDİQANNIĞ** (Şamaxı) – çətinlik, əziyyət. – *Zeynəbin nəvəsi çox zindiqannığnan böyüyüb.*

**ZİNƏ** I (Qarakilsə, Naxçıvan) – sızılan, süzülən. – *Sarab <sirab> zinə sudu.* ◊ **Zinə gəlmək′** (Ordubad) – sızılmaq. – *Bulağın suyu zinə gəlir.*

**ZİNƏ** II (Zəngibasar) – bataqlıq.

☐ **Zinə çəkmək** (Göyçay) – oğurlamaq.

**ZİNG** I (Bakı, Kürdəmir, Qazax, Qusar, Mingəçevir, Sabirabad) – qılça sümüyü.

**ZİNG** II (Bakı, Salyan) – üzüm salxımının bir hissəsi, balaca salxım. – *Hər zingdə on-on iki gilə üzim olar* (Salyan).

**ZİNG** III (Salyan) – çayda suyun azalması nəticəsində əmələ gəlmiş adacıq.

**ZİNGARLANMAX** (Balakən) – b a x **ziyarlanmax.**

**ZİNGƏ** (Tovuz) – qədir, qiymət. – *Canının zingəsini bil, a bala, çox işdəmə.*

**ZİNGƏVARA** (Bakı) – üzüm salxımının bir hissəsi, balaca salxım.

**ZİNGİLƏ** (Gəncə, Göyçay, Masallı, Mingəçevir, Ucar) – üzüm salxımının bir hissəsi, üzərində bir neçə gilə olan hissə. – *Salxımda bir neçə zingilə var* (Göyçay); – *No:lar ə:, u zingilədən uşaxlara da ver* (Ucar).

**ZİNGİRƏ** I (Ağdam, Cəbrayıl, Kürdəmir, Meğri) – b a x **zingilə.**

**ZİNGİRƏ** II (Xanlar) – dəstə. – *Səlmi bajımnan bir zingirə ip almışam.*

**ZİNGİRTƏ** (Meğri) – b a x **zingilə.** – *Tami ikicə zingirtə üzim darıp* (dərib).

**ZİNHƏRİL** (Şuşa) – çox isti.

**ZİŊRİX′** (Bolnisi, Gədəbəy, Qazax, Tovuz, Şəmkir) – qaranlıq. – *Gejə ziŋrix′də yol getməx′ çətin olor* (Qazax); – *Eşiy elə zıŋriyidi kin, gormordü göz-gözü* (Gədəbəy).

**ZİNZİLƏ** I (Oğuz) – çətinlik, ağır şərait.

**ZİNZİLƏ** II (Qax, Şəki, Zaqatala) – zəlzələ. – *Bi dəfə elə zinzilə oldu ki, irəfdən qavqacax töküldü* (Şəki).

**ZİNZİLƏ** III (Qax, Mingəçevir, Zaqatala) – 1. ildırım (Qax, Zaqatala). – *Habı yıl durupı bi zinzilələr vurup;* – *Evuva zinzilə vursun* (Qax); 2. səs-küy, dava-dalaş (Mingəçevir). – *Bö:üx′ dava oldu, yaman zinzilə qofdu.*

**ZİNZİLƏ** IV (Gədəbəy, Qax, Zaqatala) – dəridə əmələ gələn xəstəlik, ekzema. – *Zinzilədi uşax də:sən* (Gədəbəy).

**ZİNZİLƏ** V (Qax, Zaqatala) – uçurum.

**ZİR** I (Ağcabədi, Ərdəbil, Naxçıvan, Ordubad, Tovuz, Şərur, Yardımlı) – nəlbəki. – *Zir istəkan altında olar* (Şərur); – *Çayı zirə tök soyusun* (Naxçıvan); – *İstəkanı qoyrux zirin içinə, çay içirıx* (Ordubad).

**ZİR** II (Kəlbəcər) – şum zamanı kotanın açdığı iz, şırım.

**ZİRAB** (Dərbənd) – ayaqyolu. – *Öyün arxasında zirab tix′.*

**ZİRCAMA** (Oğuz) – qədim qadın paltarı.

**ZİRCAMI** (Oğuz) – b a x **zırcama.** – *Zircamı uzun olur, enni olur, arvatdar giyəndi.*

**ZİRCƏLƏMƏX′** (Bolnisi) – b a x **zirzələməx′.**

**ZİRCİX′** (Ağdaş, Basarkeçər, Cəbrayıl, Gədəbəy, Qazax, Tovuz, Zəngilan) – b a x **zirçix′.** – *Həsən yaman zirciy uşaxdı* (Qazax); – *Mə:m zirciy uşaxdan zəhləm gedir* (Zəngilan).

**ZİRCİX′LİX′** (Qazax) – b a x **zirçix′lix′.**

**ZİRÇİX′** (Qazax) – şuluq, nadinc, sözəbaxmayan, zəhlətökən.

**ZİRÇİX′LİX′** (Tovuz) – şuluqluq, nadinclik. – *Səniŋ uşaxlarıŋ yaman zirçix′lix′ eliyir.*

**ZİRDƏSS: ZİRDƏSS ELƏMƏG** (Cəlilabad) – həbs etmək. –*Allahyarı zirdəss elədilər.*

**ZİRƏ** (Gəncə) – b a x **zir** I.

**ZİRƏTO** (Bərdə, Naxçıvan) – düyü unundan hazırlanmış quymaq.

**ZİRƏZƏ** (Qazax, Tovuz) – çəftə.

**ZİRƏZƏLƏMƏX′** (Qazax) – çəftələmək. – *Gejə toyluya salerıx, ağzını zirəzələrix′.*

**ZİRİ** I (Qazax, Ordubad, Tovuz, Zəngilan) – b a x **zir** I. – *Mən çayı ziriyə töküv içərəm* (Qazax); – *Gedə zirini sindidi* (Zəngilan).

**ZİRİ** II (Cəbrayıl) – mis duzqabı. – *Ziriyə duz qoy, gəti.*

**ZİRZƏ** (Bolnisi, Borçalı, Gədəbəy, Qazax) – b a x **zirəzə.**

**ZİRZƏLƏMƏX'** (Başkeçid, Bolnisi, Borçalı) – b a x **zirəzələməx'.** – *Qapıyı zirzələ* (Borçalı).

**ZİV** (Şərur) – buz üzərində sürüşmək üçün düzəldilən yer. – *Bı dix'dirdə bir ziv qayırıplar kin.*

**ZİYAX** (Mingəçevir) – zəif.

**ZİVDİ** (Mingəçevir) – oyunda axırıncı.

**ZİVƏ** (Bakı, Lənkəran, Ordubad) – paltar sərilən ip. – *Bizim yerdə paltarı yuyub ziviyə sərəllər* (Ordubab).

**ZİVİRD** (Zəngibasar) – tamamilə, büsbütün. – *Ət zivird yağdı.*

**ZİVİŞGƏX'** (Şərur) – sürüşkən.

**ZİVİŞMƏX'** (Şərur) – b a x **zivməx'.**

**ZİVMƏX'** (Qarakilsə, Naxçıvan, Şahbuz) – sürüşmək. – *Maşın bı yağışdıxda gedə bilməz, zivəcəx'* (Şahbuz).

**ZİY** (Ağbaba) – görkəm. – *Onun ziyi düzələn döyü.*

**ZİYANXAB** (Masallı) – 1. bədxərc; 2. ziyankar; 3. şərçi, başqasına şər atan. – *Sən ziyanxab adamsan.*

**ZİYARALANMAX** (Zaqatala) – şikayətlənmək, gileylənmək. – *Çox ziyaralanma.*

**ZİYƏX'** (Tovuz) – çox, həddən artıq, zil. – *Bu parça ziyəx' qaradı.*

**ZİYƏLƏ** (Lənkəran) – vəzəri.

**ZİYRİX'** I (Tovuz) – iyrənc, çirkin. – *O, ziyriyin biridi.*

**ZİYRİX'** II (Qazax) – zirək. – *Fatmanın uşaxları ziyrix'di, yaxşı oxuyollar.*

□ **Ziyrix' döyməg** (Kürdəmir) – titrəmək. – *Şaxtada saba:can ziyrix' döymüşüg.*

**ZİYRİX'** (Bolnisi) – əl arabası.

**ZİYRİY** (Borçalı) – kotanın hissəsi. – *Xarazan ziyriynən ulağın arasında olor.*

**ZİYVAX** (Yevlax) – zəif.

**ZİZAMAT** (Zaqatala) – vəzəri.

**ZOBALAĞ** (Lənkəran) – boyca kiçik, həm də hökmlü <adam>.

**ZOBALAX** (Cəbrayıl) – toyuq və ya cücənin ayağına bulaşıb yumrulanan palçıq. – *O cücənin ayağındakı zobalaxları qopart.*

**ZOBBAN** (Salyan) – böyük, iri. – *Qəfər, sə:nçün zobban alma alacağam.*

**ZOBIRIN** (Kürdəmir) – yetişməmiş (meyvə). – *Armıt hələ zobırındı.*

**ZOBRUXLAMAX** (Füzuli) – dərmək. – *Zobruxluyuf töx'mə yerə.*

**ZOD** I (Borçalı, Culfa, Gədəbəy, Qazax, Qarakilsə, Şəmkir, Tərtər, Tovuz) – gavahın. – *Zod olmasa, kotan yerə batmaz* (Borçalı); – *Apar, hopa zod saldır* (Şəmkir).

**ZOD** II (Zəngibasar) – tamamilə, büsbütün.

**ZODDAMA** (İrəvan) – başdansovdu. ◊ **Zoddama eləməx'** – başdansovdu eləmək. – *Lap zoddama eləmisən ha:.*

**ZODDAMAX** (Borçalı, Daşkəsən, Gədəbəy, Qazax, Şəmkir, Tərtər, Tovuz) – itiləmək. – *Kotan yerə getmer, aparem, zoddadem ağzını* (Qazax); – *Zoddadıŋmı bizim baltıyı?* (Gədəbəy).

**ZODDAMMAX** (Zəngilan) – acıqlanmaq, hirslənmək. – *Mə:m üsdümə nə zoddanırsaŋ, sözüŋ var, get özüynən danış.*

**ZODDİ** (Naxçıvan) – güclü, qüvvətli. – *Bizim Navrız çox zoddidi.*

**ZODDU** I (Gədəbəy, Qazax, Şuşa) – hirsli, acıqlı. – *Nə zoddu adamsıŋ, heş yaraşmer boy-puxunuŋa* (Gədəbəy); – *A bala, nə yaman zoddu danışırsaŋ, yoxsa elə bilirsəŋ sənnən qorxuram* (Şuşa).

**ZODDU** II (Qarakilsə) – diribaş. – *O, zoddu adamdı.*

**ZODDU-ZODDU** (Tovuz) – hirsli-hirsli. – *Zoddu-zoddu danışıf eləmə, sənnən qorxuf-eliyən yoxdu.*

**ZOĞ** (Borçalı, Hamamlı) – zolaq (kərəntinin biçdiyi otun əmələ gətirdiyi zolaq). – *Kərənti piçer, zoğ qayrer* (Borçalı).

**ZOĞALI** (Şəmkir) – müxtəsər; düzünə. – *Biz zoğalı danışırıx;* – *Sözün zoğalısın de.*

**ZOĞALLAMAX** (Hamamlı, Şuşa) – uzunçuluq etmək, boş-boş danışmaq. – *Ə:, sən dədəŋin goru, az zoğalla, baş-beynim getdi* (Şuşa).

**ZOĞAT** (Meğri) – bünövrə, özül. – *Binədəli fağır bu damın zoğatın açanda çox əlləşdi.*

**ZOĞLAMAX** (Hamamlı) – dırmıqla topalamaq.

**ZOXMA** (Gədəbəy, Tovuz) – b a x **zıxma.** – *Boş böyrümə bir zoxma vurdu, az qaldım öləm* (Tovuz).

**ZOXMALAMAX** (Zəngibasar) – yumruqlamaq. – *Böyrümü zoxmalama, bəsdi.*

**ZOQQA** I (Salyan) – böyük, iri. – *Biz iri adama zoqqa adam di:rüg.*

**ZOQQA** II (Kürdəmir) – seçmə. – *Ağacın zoqqasın özün əkdün, pisin mənə verdün.*

**ZOL** I (Bakı, Cənubi Azərbaycan, Gədəbəy, İmişli, Kürdəmir, Qax, Salyan, Şamaxı, Tovuz) – həmişə, daima. – *İşə zol məyi yolleyırsan* (İmişli); – *O, zol köntö-köntö danışır* (Bakı); – *Zol sən gileylənersəŋ mənnən* (Gədəbəy); – *Sənə zol dimişəm, küçədə oynama* (Salyan).

**ZOL** II (Bərdə, Daşkəsən, Dəvəçi, Füzuli, Gədəbəy, Kürdəmir, Meğri, Salyan, Tovuz) – göndən uzununa kəsilmiş müəyyən hissə. – *Bir zol gönnən üş cüt çarıx çıxır* (Bərdə); – *Bu gönnən neçə zol çıxartmağ olu?* (Gədəbəy); – *O gönnən bi zol mə: kəs* (Salyan).

**ZOL** III (Şəki) – baramaqurdunun üzərinə yarpaq döşəyərək düzəldilmiş sıra. – *Qurt* (*baramaqurdu*) *bir az bö:yənnən sora yeyif* <*yayıb*> *zol düzəldiylər.*

**ZOL** IV (Cənubi Azərbaycan, Göyçay, Kəlbəcər, Quba, Mingəçevir) – düz, birbaşa. – *Qulaməli zol getdi, heç qayıtmadi* (Cənubi Azərbaycan).

**ZOLA** (Basarkeçər, Çənbərək, Gədəbəy, Karvansaray, Qazax, Meğri, Ordubad, Şəmkir, Tovuz, Zəngilan) – 1. qoz çırpmaq üçün uzun ağac (Gədəbəy, Qazax, Meğri, Ordubad, Şəmkir, Tovuz). – *Barmaxları elə bil zoladı* (Gədəbəy); – *Mən çıxım cəvizə, sən də zolanı ver mã:* (Meğri); 2. evin üstünə vurulan ağac, pərdi (Basarkeçər, Çənbərək, Karvansaray, Zəngilan). – *Zolıyı gətirin, vurax evin üsdə* (Zəngilan); – *Kəlvəcərdən bir zola gətirdim damın üsdün basırmağ üçün* (Basarkeçər).

**ZOLABƏNT** (Ordubad) – tənəkləri bağlamaq üçün işlədilən şiv. – *Biz tənəx'ləri zolabəntnən bağlarıx, külək' yıxmasın.*

**ZOLAX** (Şəki) – rəndənin bir növü. – *Bizdə zolax rəndə yoxdu.*

**ZOLATA** (Meğri) – qoz çırpmaq üçün ağac. – *Mən çıxım cəvizə, sən də altdan zolatanı ver mã:.*

**ZOLATAY** (Balakən, Qax) – iri, nəhəng.

**ZOLHAY** I (Balakən, Qax) – iri, nəhəng.

**ZOLHAY** II (Zaqatala) – tez-tez. – *Niyə zolhay o yana baxısan?*

**ZOLLAMAX** (Çənbərək, Kürdəmir, Qazax, Şamaxı, Tovuz, Zəngilan) – gönü uzununa kəsmək, zolaq-zolaq kəsmək. – *Gönü qurudub zollamağ lazımdı* (Şamaxı); – *Gönü qabaxcadan duzduyurux, so:ra quruyana yavıx zolluyurux* (Zəngilan); – *O gönü zolluyuf qamçı düzəldəjəm* (Tovuz).

**ZOLUBEŞDƏN** (Cəbrayıl) – saymazyana, ağayana. – *Zolubeşdən uzanıfdı ojağın başında.*

**ZOL-ZOL** (İrəvan) – zolaq-zolaq. – *Yaxşı zol-zol parça vardı.*

**ZOM** (Ağcabədi, Cəbrayıl, Kürdəmir, Zəngilan) – ləklərin arasında düzəldilən kiçik tirə. – *Kələmi ləkin zomuna şitillə* (Zəngilan); – *Ləkin zomun yaxşı qayırın ki, dağılmasın* (Cəbrayıl).

**ZOMAR** (Füzuli) – qış azuqəsi.

**ZOMBURD** (İrəvan) – üzdə olan şiş.

**ZOMBUT** (Zəngibasar) – yumruq. – *Orduna bir zombut vurdu.*

**ZOMLAMAX** (Tərtər) – bənd düzəltmək, bəndləmək. – *Bəşir, arxın qabağın zomla, tez gə bura.*

**ZOMURT** (Xanlar) – yetişməmiş, kal (meyvə). – *Ay uşax, yemə, dəymiyif, hələ zomurtdu.*

**ZOMUT** (Xanlar) – b a x **zomurt.** – *Almanı yemə, laf zomurtdu.*

**ZONQUR VURMAX** (Zəngibasar) – zoqquldamaq. – *Ətim a:rıdan zonqur vu:r.*

**ZOP** (Qazax) – 1. çox iri; 2. güclü. – *Abbas zop adamdı.*

**ZOPA** (Kürdəmir, Qazax) – iri, yoğun ağac.

**ZOPALAMAX** (Qazax) – zopa ilə döymək. – *Eşşəyi zopaladım, getmədi.*

**ZOPANAX** (Meğri) – qoz çırpmaq üçün ağac. – *Mən çıxım cəvizə, sən də altdan zopanağı ver mã:.*

**ZOPIBAŞI** (Ucar) – zopıya oyununda başçı. – *Zopıbaşı dəsdənin qabağında gedər.*

**ZOPIYA** (Ucar) – milli oyun adı, yallı. – *Zopıya oyunu ancax toylarda olur.* ◊ **Zopıya getməxʹ** – yallı getmək. – *Oyunda on iki adam zopıya gedir.* **Zopuya getməxʹ** (Şuşa) – b a x **zopıya getməxʹ.** – *Az zopuya gedin, oturun, bir az da dincəlin.*

**ZOPU: ZOPU TƏPBƏXʹ** (Gədəbəy, Gəncə, Qazax, İrəvan) – b a x **zopuya getməxʹ.** – *Nə zoru təpirsiŋiz?* (İrəvan); – *Kişi öydən çıxıf deyin, gənə öydə zopu təpillər* (Qazax).

**ZOR** I (Ağcabədi) – ağır, çətin. – *Bu, çox zor işdi, öhdəsinnən gəlmiyəjəxʹsəŋ.*

**ZOR** II (Şəki) – 1. çox; 2. yaxşı. – *Biyil zor baramamız olcaxdı;* – *Köçüf gəlmaxda laf zor iş görüfsəŋ.*

**ZORAPA** (Cəbrayıl, Füzuli, Şəki, Zəngilan) – zoğ, pöhrə. – *Qurdu yayanda zorapeynan yayırıx* (Zəngilan); – *Bir çəngə zorapa olseydi, qurdu yayardıx* (Cəbrayıl); – *Pöhran calğalar dennəndıxcə zorapa sürüf gidən şeydi* (Şəki).

**ZORAPALAMAX** (Goranboy) – zoğlamaq, pöhrələmək, zoğ atmaq. – *Ağacın başını qırmışdım, indi elə zoralıyıf ki.*

**ZORNAXLAMAX** (Çənbərək) – cırmaq. – *Piri üzümü yaman zornaxladı.*

**ZORRAMA** (İmişli) – güclü. – *Üş-dört zorrama çahal gəldi haravanı çıxatdı.*

**ZORRU** (İrəvan) – güclü. – *O, yaman zorru adamdı.*

**ZORT** (Gədəbəy) – qaba, kobud (adam). – *Zort adamı dindirməsəŋ hamısınnan yaxşıdı.*

**ZORTDAMMAX** (Cəbrayıl, Mingəçevir) – acıqlanmaq, üstünə qışqırmaq . – *Sən nə zortdanısaŋ mə:m üsdümə?* (Cəbrayıl).

**ZORUX** (Çənbərək, Qazax) – tənbəl. – *Zorux Hümbət axşamatan cöyüzün kölgöyündə yaterdı* (Çənbərək).

**ZORVA** (Şəki, Tovuz) – zorba, böyük, iri. – *O mənnən çox zorvadı* (Şəki).

**ZORVALAMMAX** (Şəki) – zorbalanmaq, böyümək. – *Zorvalanıf dana boydə olmuşdu qoyin.*

**ZORZANAX** (Gədəbəy) – uzun. – *Çox zorzanaxdı Bayram.*

**ZOTİ** (Sabirabad) – yumruq, dürtmə. – *O vaxtdarı gəlif vergini isdiyirdi, vermiyəndə boynunnan bir zoti də vırardı.*

**ZOT VERMƏXʹ** (Şərur) – acıqlandırmaq, acıq vermək. – *Oturub əvdə, axşamacan ma: zot ve:r.*

**ZOZAN** I (Göyçay) – çoxdanışan. – *Deyillər zozandı, danışğandı.*

**ZOZAN** II (Zəngibasar) – uzun. – *Bu zozan arvat kim idi bellə?*

**ZÖVZÜMƏXʹ** (İrəvan) – hürmək. – *Bu it axşamacan zövzüyür, adamın zəhləsin tökür.*

**ZUBDA** (Meğri) – kök. – *Xanəlinin quyini zubda quyindi.*

**ZUĞ** (Çənbərək) – paya. – *Çəpərdən zuğları çəkif çıxarıf, uşaxlar yandırıflar.*

**ZUĞA** (Qazax) – naxışlı qadın başmağı.

**ZUĞAT** (Meğri) – b a x **zoğat.**

**ZUL** I (Xaçmaz) – b a x **zol** IV.

**ZUL** II (Xaçmaz, Meğri) – b a x **zol** II. – *Ağaquli mã: altı zul gamış göni göndərmişdi* (Meğri); – *İnegin derisinnən bir neçə çaruğluğ zul mənə çatdi* (Xaçmaz).

**ZULA** (Qazax) – b a x **zola.**

**ZULATA** (Meğri) – b a x **zolata.** – *Zulatanı tez gətir, cəvizi çırpax.*

**ZULLAMAĞ** I (Xaçmaz, Quba) – b a x **zollamağ.** – *Güni zulla* (Xaçmaz).

**ZULLAMAĞ** II (Quba) – atmaq, tullamaq. – *Al bunu, zulla bayıra gidsün.*

**ZUPANAX** (Meğri) – b a x **zopanax.** – *Zupanaxnan cəviz çırpallar.*

**ZUPLAMAĞ** (Xaçmaz) – döymək. – *Tutıb uni bir-iki dənə zupladum.*

**ZURUĞ** (Zəngibasar) – tikanlı bitki növü. – *Zuruğ heyvani kökəldey.*

**ZURUP** (Oğuz) – cır armud. – *Zurup gəlir yetişir, qalır, onda yiməli olur.*

□ **Zuza çəkmağ** (Tabasaran) – ulamaq. – *Cənəvər zuza çəkədü.*

**ZÜBAH** (Culfa) – b a x **ziban.**

**ZÜBBƏ** (Şəki) – seçmə, seçilmiş. – *Ən zübbələrini mişo:l yiyitdi.*

**ZÜBÜDƏ** (Kürdəmir, Oğuz) – tamamilə, büsbütün. – *Hu didixʹləri söz zübüdə yalandı* (Oğuz).

**ZÜGLƏ** (Bakı) – çox balaca.

**ZÜGOYLU** (Basarkeçər) – üzüaşağı. – *Maşın zügoylu gedir, qavağına daş qoy.*

**ZÜLƏ GETMƏXʹ** (Zəngibasar) – həsrətini çəkmək, ürəyi istəmək. – *Gədədən ötün züleydirəm.*

**ZÜLHƏC** (Qax) – uca, hündür (boy). – *Honun boyu lap zülhəcdi.*

**ZÜLLƏ** (Barana, Borçalı) – 1. zirvə (Borçalı) – *Bizdə deyəllər kin, dağın zülləsi;* 2. şiş, dik (Barana). – *Dağın başı çox zilləydi.*

**ZÜLÜ: ZÜLÜ GETMƏX′** (Şahbuz) – yorulmaq, əldən düşmək. – *Bı gecə itdər hürməx′dən zülü gediblər.*

**ZÜLZÜLƏ** (Salyan) – ağlaşma. – *Yoldan keçəndə gördim ki, Hacının öyünnən bi zülzülə başdadı.*

**ZÜMZÜMƏ** (Bakı) – çeşmə.

**ZÜNGƏ** (Lənkəran) – balıq toru üçün dənizdə qurulan dayaq.

**ZÜPBÜZ** (Meğri) – həvəngdəstə. – *Xıcca qız getdi züpbüzzə duz döyməğə.*

**ZÜRCƏX′** (Naxçıvan) – sürüşkən. – *Ora su gəlib zürcəy olub.*

**ZÜRRİ** (Xaçmaz) – b a x **zorru.** – *Çux zürri adamdı.*

**ZÜRZÜQ** (Zaqatala) – dərd, qəm, qüssə, kədər. ◊ **Zürzüqə gitmax** – dərdə-qəmə batmaq, qüssələnmək, kədərlənmək. – *Oğlan zürzüqə gidipti.*

**ZÜVƏ** (Bakı) – b a x **zivə.**

**ZÜVMƏX′** (Naxçıvan, Ordubad, Şərur) – b a x **zivməx′.** – *Qıçım qışda buzda züvdü, yıxıldım* (Şərur).

**ZÜVÜLDƏMƏX′** (Naxçıvan, Ordubad) – sürüşmək. – *Mən züvüldədim, əmə yıxılmadım* (Naxçıvan).

**ZÜVÜRÇƏX′** (Zəngibasar) – sürüşkən yer.

**ZÜYMƏX′** (Naxçıvan, Ordubad) – b a x **zivməx′.**

**ZÜYRÜŞMƏX′** (Naxçıvan, Ordubad) – sürüşmək. – *Mənim əyağım züyrüşdü* (Naxçıvan).

**ZÜYÜLDƏMƏX′** I (Naxçıvan, Ordubad) – sürüşmək. – *Mükayıl, yol xarabdı, maşını züyüldəmə: qoyma ha* (Ordubad).

**ZÜYÜLDƏMƏX′** II (Zəngibasar) – ağlamaq. – *Dilə tut uşəği, züyüldəməsin.*

**ZÜZƏ: ZÜZƏ GETMƏG** (Bakı) – göynəmək.

# MÜNDƏRİCAT


*Redaktorlardan* . . . . . 5
*Lüğətin quruluşu və tərtib üsulu* . . . . . 6
*Fonetik transkripsiya* . . . . . 9
*Azərbaycan əlifbası* . . . . . 10

**Aa** . . . . . 11
**Bb** . . . . . 33
**Cc** . . . . . 70
**Çç** . . . . . 85
**Dd** . . . . . 109
**Ee** . . . . . 150
**Əə** . . . . . 154
**Ff** . . . . . 169
**Gg** . . . . . 174
**Hh** . . . . . 192
**Xx** . . . . . 214
**İi** . . . . . 231
**Kk** . . . . . 240
**Qq** . . . . . 272
**Ll** . . . . . 320
**Mm** . . . . . 341
**Nn** . . . . . 367
**Oo** . . . . . 379
**Öö** . . . . . 386
**Pp** . . . . . 391
**Rr** . . . . . 412
**Ss** . . . . . 414
**Şş** . . . . . 454
**Tt** . . . . . 477
**Uu** . . . . . 515
**Üü** . . . . . 523
**Vv** . . . . . 529
**Yy** . . . . . 536
**Zz** . . . . . 554

Buraxılışa məsul: *Əziz Güləliyev*

Texniki redaktor: *Rövşən Ağayev*

Tərtibatçı-rəssam: *Nərgiz Əliyeva*

Kompyuter səhifələyicisi: *Ələkbər Kərimov*

Yığılmağa verilmişdir 07.09.2006. Çapa imzalanmışdır 02.02.2007.
Formatı 60x90 $^{1}/_{16}$. Fiziki çap vərəqi 35,5. Ofset çap üsulu.
Tirajı 10000. Sifariş 17.

DÜST 5773-90, DÜST 4.482-87

CBS POLYGRAPHIC PRODUCTION
Tel/Fax: 447 75 04, Tel.: 447 75 05

Kitab "CBS-PP" MMC mətbəəsində çap olunmuşdur.
Bakı, Şərifzadə küçəsi, 3.